Azərbaycan dilində Müqəddəs Kitab

Azerbaijani Bible

Contents

Yaradiliş Kitabi	1
Çixiş Kitabi	60
Levililər Kitabi	110
Saylar Kitabi	145
Qanunun Təkrari Kitabi	194
Yeşua Peyğəmbərin Kitabi	238
Hakimlər Kitabi	268
Rut Kitabi	298
Birinci Şamuel Kitabi	303
Ikinci Şamuel Kitabi	340
Birinci Padşahlar Kitabi	373
Ikinci Padşahlar Kitabi	411
Birinci Salnamələr Kitabi	447
Ikinci Salnamələr Kitabi	481
Ezra Kitabi	522
Nehemya Kitabi	535
Ester Kitabi	553
Əyyub Kitabi	563
Zəbur	599
Süleymanin Məsəlləri	694
VaizKitabi	723
Nəğmələr Nəğməsi Kitabi	734
Yeşaya PeyğəmbərinKitabi	741
Yeremya Peyğəmbərin Kitabi	817
Mərsiyələr Kitabi	891
Yezekel Peyğəmbərin Kitabi	899
Daniel Peyğəmbərin Kitabi	961
Huşə Peyğəmbərin Kitabi	979
Yoel Peyğəmbərin Kitabi	991
Amos Peyğəmbərin Kitabi	996
Avdiya Peyğəmbərin Kitabi	1005
Yunus Peyğəmbərin Kitabi	1007
Mikeya Peyğəmbərin Kitabi	1010
Nahum Peyğəmbərin Kitabi	1018
Habaqquq Peyğəmbərin Kitabi	1021
Sefanya Peyğəmbərin Kitabi	1025
Haqqay Peyğəmbərin Kitabi	1029
Zəkəriyyə Peyğəmbərin Kitabi	1032
Malaki Peyğəmbərin Kitabi	1044
Mattanin Nəql Etdiyi Müjdə	1048
Markin Nəql Etdiyi Müjdə	1094
Lukanin Nəql Etdiyi Müjdə	1124
Yəhyanin Nəql Etdiyi Müjdə	1172

Həvarilərin Işləri 1206
Paulun Romalilara Məktubu 1250
Paulun Korinflilərə Birinci Məktubu 1269
Paulun Korinflilərə Ikinci Məktubu 1287
Paulun Qalatiyalilara Məktubu 1299
Paulun Efeslilərə Məktubu 1306
Paulun Filipililərə Məktubu 1313
Paulun Kolosselilərə Məktubu 1318
Paulun Saloniklilərə Birinci Məktubu 1323
Paulun Saloniklilərə Ikinci Məktubu 1327
Paulun Timoteyə Birinci Məktubu 1330
Paulun Timoteyə Ikinci Məktubu 1335
Paulun Titə Məktubu 1339
Paulun Filimona Məktubu 1342
Ibranilərə Məktubu 1344
Yaqubun Məktubu 1359
Peterin Birinci Məktubu 1364
Peterin Ikinci Məktubu 1370
Yəhyanin Birinci Məktubu 1374
Yəhyanin Ikinci Məktubu 1379
Yəhyanin Üçüncü Məktubu 1380
Yəhudanin Məktubu 1381
Yəhyaya Nazil Olan Vəhy 1383

Azərbaycan dilində Müqəddəs Kitab

The Holy Bible in the Azerbaijani language, also known as the Azeri language, of Azerbaijan, Iran, Iraq, Syria, and Turkey

Language: Azeri (Azerbaijani, South)
Provided by: Institute for Bible Translation
Contributor: Bible Society of Azerbaijan

This print-on-demand edition of Scripture is produced and provided at cost by the Digital Bible Society in partnership with the Bible League of Canada, Open Doors International, and other missions and translation agencies. To order additional copies of this or other Bibles, please visit www.dbs.org (USA), www.bibleleague.ca (Canada), and www.opendoors.org (Europe).

Copyright and Permission to Copy

This translation is made available to you under the terms of the Creative Commons Attribution-No Derivatives license 4.0. You may share and redistribute this Bible translation or excerpts from it in any format, provided that:

You include the above copyright information.

You do not make any derivative works that change any of the actual words or punctuation of the Scriptures.

Pictures included with Scriptures and other documents are licensed just for use with those Scriptures and documents. For other uses, please contact the respective copyright owners.

PDF, ePub, and MOBI Bible covers and design are copyrighted 2017 by the Digital Bible Society (www.dbs.org).

PDF generated on 2019-03-18 from source files dated 2019-03-18.
fed4535f-cceb-53e5-8c79-9862910a66b4
ISBN: 978-1-5313-0067-8

YARADILIŞ

KİTABI

GİRİŞ

«Yaradılış» Kitabı Tövratın birinci kitabıdır. Bu kitab həm də bəşər tarixində ən qədim kitablardan biridir. *«Yaradılış»* Kitabının ilk fəsillərində göy və yerin yaranması, dünyada canlı aləmin meydana gəlməsi barədə danışılır və bu fəsillərin mövzusu əsasında da kitab belə adlanır. Burada Allahın dünya və insanı yaratmasından, ideal mühitdə yaşayan insanın günaha batması və günahın get-gedə artıb çoxalmasından bəhs olunur. Kitabda təsvir olunan mövzular bəşər tarixinin təşəkkülünü, sivilizasiyanın meydana gəlməsini, qədim dünyanın ayrı-ayrı tarixi simalarının və xalqlarının fəaliyyətini əhatə edir.

«Yaradılış» Kitabı şərti olaraq iki əsas hissəyə bölünə bilər: birinci hissə (1:1–11:9) dünyanın yaranması və bəşərin qədim tarixi, ikinci hissə (11:10–50:26) isə İsrail xalqının əcdadları barədə hekayətlərdən ibarətdir.

«Yaradılış» Kitabının əsas ideyasını kamil yaranmış, lakin günaha bataraq maddi və mənəvi problemlərə düçar olmuş insanın Allah fəaliyyəti nəticəsində ruhani məqsədlərə istiqamətləndirilməsi fikri təşkil edir. Bu kitabda Allahın bütün varlıq üzərində hakimiyyətə malik olması və bəşər tarixini Öz məqsədinə – seçilmiş ruhani xalqın xilasına doğru yönəltməsi ideyaları xüsusi vurğulanır.

Kitabın məzmunu:

1:1–2:25 Kainatın və insanın yaranmas
3:1-24 İnsanın günaha batması
4:1–5:32 Adəmdən Nuha qədər
6:1–10:32 Nuh və daşqın
11:1-9 Babil qülləsi
11:10-32 Samdan İbrahimə qədər
12:1–35:29 Əcdadlar: İbrahim, İshaq, Yaqub
36:1-43 Esavın nəsli
37:1–45:28 Yusif və onun qardaşları
46:1–50:26 İsraillilər Misirdə

Dünyanın yaranması

1 [a]Başlanğıcda Allah göyləri və yeri
yaratdı. [2] Yer quruluşsuz və boş idi.
Dərin sular üzərində qaranlıq var idi.
Allahın Ruhu suların üzərində dolaşırdı.
[3] [b]Allah dedi: «Qoy işıq olsun». İşıq
oldu. [4] Allah gördü ki, işıq yaxşıdır.
Sonra O, işığı qaranlıqdan ayırdı. [5] Allah
işığı «gündüz», qaranlığı isə «gecə»
adlandırdı. Axşam oldu, səhər açıldı;
bu, birinci gün idi.
[6] [c]Sonra Allah dedi: «Qoy suların
arasında bir qübbə olsun və suları
bir-birindən ayırsın». [7] Allah qübbəni
düzəltdi və qübbənin altındakı suları
onun üstündəki sulardan ayırdı. Belə də
oldu. [8] Allah qübbəni «göy» adlandırdı.
Axşam oldu, səhər açıldı; bu, ikinci gün
idi.
[9] Sonra Allah dedi: «Qoy göyün
altındakı sular bir yerə yığılsın ki,
quru görünsün». Belə də oldu. [10] Allah
qurunu «yer», su yığınlarını isə
«dənizlər» adlandırdı. Allah gördü ki,
bu, yaxşıdır.
[11] Sonra Allah dedi: «Qoy yer üzü
bitkilər yetirsin: toxumlar bitirən ot-ələf
və torpaqda hər növ bəhərli ağaclar
yetişsin. Ağaclar meyvə gətirsin və
toxumları meyvələrinin içində olsun».
Belə də oldu. [12] Yer üzü bitkilər yetirdi:
hər növ toxum bitirən ot-ələf və hər növ
ağac yetişdi. Ağaclar meyvə gətirirdi və

---

[a] **1:1** Yəh. 1:1-3; İbr. 11:3 [b] **1:3** 2Kor. 4:6 [c] **1:6** 2Pet. 3:5

toxumları meyvələrinin içində idi. Allah
gördü ki, bu, yaxşıdır. 13 Axşam oldu,
səhər açıldı; bu, üçüncü gün idi.
14 Sonra Allah dedi: «Qoy göy
qübbəsində gecəni gündüzdən ayıran
çıraqlar olsun. Onlar işarələri, fəsilləri
və günlərlə illəri göstərsin. 15 Qoy onlar
göy qübbəsində çıraq olub, yer üzünə
işıq saçsın». Belə də oldu. 16 Allah iki
böyük çıraq düzəltdi: gündüzü idarə
etmək üçün böyük çıraq, gecəni idarə
etmək üçün kiçik çıraq. O həmçinin
ulduzları düzəltdi. 17 Allah onları göy
qübbəsinə qoydu ki, yer üzünə işıq
saçsın, 18 gündüzü və gecəni idarə etsin,
işığı qaranlıqdan ayırsın. Allah gördü
ki, bu, yaxşıdır. 19 Axşam oldu, səhər
açıldı; bu, dördüncü gün idi.
20 Sonra Allah dedi: «Qoy sular
çoxlu canlı məxluqlarla qaynaşsın,
yer üstündəki göy qübbəsində quşlar
uçsun». 21 Allah nəhəng su əjdahalarını
və suda qaynaşan hər növ bütün
sürünən canlı məxluqları, həmçinin hər
növ bütün qanadlı quşları yaratdı. Allah
gördü ki, bu, yaxşıdır. 22 Allah onlara
bərəkət verərək dedi: «Törəyib çoxalın
və dənizlərdəki suları doldurun, quşlar
da yer üzündə çoxalsın». 23 Axşam oldu,
səhər açıldı; bu, beşinci gün idi.
24 Sonra Allah dedi: «Qoy yer üzü
hər növ canlı məxluqlar – hər növ ev
heyvanları, sürünən canlılar və çöl
heyvanları əmələ gətirsin». Belə də oldu.
25 Allah hər növ çöl heyvanlarını, hər
növ ev heyvanlarını və yerdə sürünən
bütün canlıları yaratdı. Allah gördü ki,
bu, yaxşıdır.
26 [d]Sonra Allah dedi: «Öz surətimizə
və bənzərimizə görə insanı yaradaq.
Qoy o, dənizdəki heyvanlara, göydəki
quşlara, yerdəki heyvanlara, bütün
yer üzünə və yerdə sürünən canlıların
hamısına hökmranlıq etsin». 27 [e]Allah
insanı Öz surətində yaratdı, Allahın
surətində yaratdı, onları kişi və qadın
olaraq yaratdı. 28 Allah onlara xeyir-dua
verərək dedi: «Törəyib çoxalın və
yer üzünü bürüyüb ona sahib olun:
dənizdəki heyvanlar, göydəki quşlar,
yerdə sürünən bütün canlılar üzərində
hökmranlıq edin». 29 Allah dedi: «Budur,
yer üzündə toxum verən bütün ot-ələfi
və meyvələrində toxumu olan bütün
ağacların bəhərini sizə verirəm ki,
qidalanasınız. 30 Yerdəki heyvanların,
göydəki quşların və yerdə sürünən
canlıların hamısına – nəfəsi olan bütün
canlılara isə yem olmaq üçün bütün
yaşıl otları verirəm». Belə də oldu.
31 Allah gördü ki, yaratdığı hər şey çox
yaxşıdır. Axşam oldu, səhər açıldı; bu,
altıncı gün idi.
2 Göylər və yer, oradakı hər şey beləcə
tamamlandı. 2 [f]Allah yeddinci günə
qədər gördüyü işləri qurtardı və
yeddinci gün gördüyü işlərdən ayrılıb
istirahət etdi. 3 Allah yeddinci günə
bərəkət verdi və onu təqdis etdi, çünki
gördüyü bütün yaratma işini qurtarıb
həmin gün istirahət etdi.

Adəm və Həvva Eden bağında

4 Rəbb Allahın göyləri və yeri
yaratmasının hekayəti belədir: Rəbb
Allah göyləri və yeri yaradanda 5 yer
üzündə heç bir bitki yox idi, heç bir
çöl otu da bitmirdi, çünki Rəbb Allah
yer üzünə hələ yağış göndərməmişdi və
torpağı becərən insan da yaranmamışdı.
6 Amma yerdən su çıxırdı və bütün
torpağı sulayırdı. 7 [g]Rəbb Allah yerin

---

[d]**1:26** 1Kor. 11:7 [e]**1:27** Yar. 5:2; Mat. 19:4-5; Mark 10:6; Yar. 5:1-2
[f]**2:2** İbr. 4:4,10; Çıx. 20:11 [g]**2:7** 1Kor. 15:45

torpağından insanı* düzəltdi və onun
burnuna həyat nəfəsi üfürdü. Beləcə
insan canlı varlıq oldu.
8 Sonra Rəbb Allah şərqdə yerləşən
Edendə bir bağ saldı və düzəltdiyi
insanı orada yerləşdirdi. 9 [h]Rəbb Allah
torpaqda gözəl görünüşlü və yemək
üçün şirin meyvəli cürbəcür ağaclar
yetirdi. O həmçinin bağın ortasında
həyat ağacını və xeyirlə şəri bilmə
ağacını bitirdi.
10 Bağı suvarmaq üçün Edendən
bir çay çıxırdı, oradan isə dörd qola
bölünürdü. 11 Onlardan birinin adı
Pişondur. O bütün Xavila ölkəsini
dolanaraq axır. Orada qızıl çıxır. 12 Bu
ölkənin qızılı yaxşıdır. Burada həm
də ətirli qatran və damarlı əqiq var.
13 İkinci çayın adı Gixondur. O, Kuş
ölkəsini dolanaraq axır. 14 Üçüncü
çayın adı Dəclədir. O, Aşşur ölkəsinin
şərqindən axır. Dördüncü çay Fəratdır.
15 Rəbb Allah insanı götürüb Eden
bağına qoydu ki, oranı becərsin və
saxlasın. 16 Rəbb Allah insana əmr
edib dedi: «Bağdakı bütün ağacların
bəhrəsindən istəyəndə yeyə bilərsən.
17 Ancaq xeyirlə şəri bilmə ağacının
meyvəsindən yemə, çünki ondan yeyən
gün hökmən öləcəksən».
18 Rəbb Allah yenə dedi: «İnsanın tək
olması yaxşı deyil, Mən ona münasib
olan bir köməkçi yaradacağam». 19 Rəbb
Allah bütün çöl heyvanlarını və göydəki
bütün quşları torpaqdan düzəltdi. Sonra
onları insanın yanına gətirdi ki, onun
bunları necə adlandıracağını görsün.
İnsan hər heyvana hansı adı qoydusa,
o cür də adlandı. 20 İnsan bütün ev
heyvanlarına, göydəki quşlara və bütün
çöl heyvanlarına ad verdi, amma insana
münasib olan bir köməkçi tapılmadı.
21 O zaman Rəbb Allah insana dərin
yuxu göndərdi və o yuxuya getdi. Onda
Rəbb Allah onun qabırğasının birini
götürdü və yerini ətlə örtdü. 22 Rəbb
Allah insandan götürdüyü qabırğadan
qadını düzəltdi və onu insanın yanına
gətirdi. 23 İnsan dedi:

«Bax, nəhayət, bunun
Sümüyü mənim sümüyümdən,
Bədəni mənim bədənimdəndir.
Adına "qadın" deyiləcək,
Çünki o, kişidən† götürülüb».

24 [i]Buna görə də kişi öz ata-anasını
tərk edib arvadına qovuşacaq və onlar
bir bədən olacaq. 25 Adəm və arvadı
– ikisi də çılpaq idi, ancaq bundan
utanmırdılar.

Adəm və Həvvanın günaha batması

3 [j]Rəbb Allahın yaratdığı bütün çöl
heyvanlarının ən hiyləgəri ilan
idi. İlan qadına dedi: «Doğrudanmı,
Allah sizə "bağda olan heç bir ağacın
bəhrələrindən yeməyin" deyib?»
2 Qadın ilana dedi: «Bağdakı ağacların
bəhrələrindən yeyə bilərik. 3 Amma
bağın ortasındakı ağacın meyvələri
barədə Allah deyib: "Ondan yeməyin və
ona toxunmayın, yoxsa öləcəksiniz!"»
4 İlan qadına dedi: «Yox, əsla ölməzsiniz.
5 Əksinə, Allah bilir ki, o meyvələrdən
yediyiniz gün gözləriniz açılacaq
və xeyirlə şəri bilərək Allah kimi
olacaqsınız». 6 [k]Qadın gördü ki, ağacın
meyvəsi yemək üçün yaxşıdır, gözə
xoş görünür və bu ağac insana dərrakə
verməyi vəd edir. Buna görə də o həmin
meyvədən dərib yedi. Sonra yanında

*2:7 *İnsan* – ibrani mətnində *adam* sözü olub ilk insana verilən adı ifadə edir. Bu söz həm də *torpaq* – *adama* sözünə bənzəyir.
†2:23 *Kişi* – ibrani mətnində *iş*, *qadın* – *işşa*.

[h]2:9 Yar. 3:22; Vəhy 2:7; 22:2,14 [i]2:24 Mat. 19:4-5; Mark 10:7-8; 1Kor. 6:16; Ef. 5:31 [j]3:1 Vəhy 12:9; 20:2 [k]3:6 Rom. 5:12

olan ərinə də verdi, o da yedi. 7 O
vaxt ikisinin də gözləri açıldı və çılpaq
olduqlarını bildilər. Buna görə də əncir
yarpaqlarını bir-birinə hörüb özlərinə
fitə düzəltdilər.
8 Onlar günün sərinliyində bağda
gəzişən Rəbb Allahın səsini eşitdilər.
Adəm və onun arvadı Rəbb Allahın
hüzurundan qaçıb bağdakı ağacların
arasında gizləndilər. 9 Rəbb Allah
Adəmi səsləyib dedi: «Haradasan?» 10 O
cavab verdi: «Bağda səsini eşitdim və
çılpaq olduğum üçün qorxdum, ona
görə də gizlənmişəm». 11 Rəbb Allah
dedi: «Kim sənə bildirdi ki, çılpaqsan?
Sənə yeməyi qadağan etdiyim ağacın
meyvəsindən yeməmisən ki?» 12 Adəm
dedi: «Mənimlə birgə olmaq üçün
verdiyin qadın o ağacın meyvəsindən
verdi, mən də yedim». 13 [l]Rəbb Allah
qadına dedi: «Sən niyə belə etdin?»
Qadın dedi: «İlan məni yoldan çıxartdı,
mən də yedim».
14 Rəbb Allah ilana dedi:
«Sən bunu etdiyin üçün
Bütün ev heyvanları və çöl heyvanları
arasında
Lənət qazanırsan.
Qarnın üstündə sürünəcəksən,
Bütün ömrün boyu torpaq yeyəcəksən.
15 [m]Mən sənlə qadın arasına,
Sənin balanla onun övladı arasına
Düşmənçilik salıram.
Bu övlad sənin başından vuracaq,
Sən də onu dabanından sancacaqsan».
16 Sonra Rəbb Allah qadına dedi:
«Hamilə olanda sənə
Çox əziyyət verəcəyəm,
Uşaqlarını ağrı içində doğacaqsan.
Ərinə meylli olacaqsan,
O sənə ağalıq edəcək».
17 [n]Sonra Rəbb Allah Adəmə dedi:
«Arvadının sözünə qulaq asdığın
üçün,
Qadağan etdiyim, “meyvəsini yemə”
dediyim
Ağacdan yediyin üçün
Sənə görə torpaq lənətlənir.
Ömrün boyu zəhmətlə
Torpaqdan yemək əldə edəcəksən.
18 O sənə tikan və qanqal bitirəcək,
Sən də çöldəki ot-ələfi yeyəcəksən.
19 Alın tərinlə çörək yeyəcəksən.
Axırda torpağa qayıdacaqsan,
Çünki oradan götürülmüsən,
Ona görə ki yerin torpağısan,
Torpağa da qayıdacaqsan».
20 Adəm arvadının adını Həvva*
qoydu, çünki o, yer üzündə yaşayanların
hamısının anası oldu. 21 Onda Rəbb
Allah Adəmlə arvadı üçün dəridən
paltar düzəltdi və onlara geyindirdi.
22 [o]Sonra Rəbb Allah dedi: «Budur,
insan xeyirlə şərin nə olduğunu bilərək
bizlərdən biri kimi oldu. Qoy indi əlini
uzadaraq həyat ağacının meyvəsindən
dərib yeməsin və əbədi yaşamasın!»
23 Rəbb Allah insanı Eden bağından
çıxartdı ki, o özünün də bir qismindən
götürüldüyü torpağı becərsin. 24 Rəbb
Allah insanı qovdu. O, Eden bağının
şərqinə keruvlarını və hər tərəfə fırlanan
odlu qılıncını qoydu ki, həyat ağacına
gedən yolu qorusunlar.

Qabil və Habil

4 Adəm arvadı Həvva ilə yaxınlıq
etdi və Həvva hamilə olub Qabili†
doğdu. Həvva dedi: «Rəbbin köməyi ilə
bir insan qazandım». 2 Sonra o, Qabilin
qardaşı Habili doğdu. Habil çoban oldu,
Qabil isə əkinçi.

---

*3:20 *Həvva* – ibrani dilində *yaşamaq* mənası verən bir sözdən götürülmüşdür.
†4:1 *Qabil* – ibrani mətnində *qayin* sözü olub *qazanma* deməkdir.

[l]3:13 Rom. 7:11; 2Kor. 11:3; 1Tim. 2:14 [m]3:15 Vəhy 12:17
[n]3:17 İbr. 6:8 [o]3:22 Yar. 2:9; Vəhy 2:7; 22:2,14

3 Bir müddət keçəndən sonra Qabil
torpağın bəhrəsindən Rəbb Allaha
təqdim gətirdi. 4 [p]Habil də sürüsündə ilk
doğulan heyvanlardan bir neçəsini və
onların piyini təqdim etdi. Rəbb Habili
və onun təqdimini qəbul etdi, 5 ancaq
Qabili və onun təqdimini qəbul etmədi.
Buna görə də Qabil bərk qəzəblənib
qaşqabağını salladı. 6 Rəbb Qabilə dedi:
«Niyə qəzəblənmisən? Niyə qaşqabağını
sallamısan? 7 Əgər yaxşı iş görürsənsə,
Mən qəbul etmərəmmi? Əgər yaxşı iş
görmürsənsə, günah qapının ağzında
durub. Onun meyli sənədir, ancaq sən
ona üstün gəlməlisən».
8 [q]Sonra Qabil qardaşı Habilə bir söz
dedi və onlar çölə getdilər. Orada Qabil
qardaşı Habilin üstünə hücum çəkib
onu öldürdü. 9 Sonra Rəbb Qabildən
soruşdu: «Qardaşın Habil haradadır?» O
dedi: «Bilmirəm, məgər mən qardaşımın
keşikçisiyəm?» 10 [r]Rəbb dedi: «Sən
nə etdin? Qardaşının qanının səsi
torpaqdan Mənə fəryad edir. 11 İndi
sən torpaqdan lənət aldın; o torpaq
ki sənin əlinlə tökülən qardaş qanını
udmaq üçün ağzını açdı. 12 Torpağı
becərdiyin zaman o daha gücünü sənə
verməyəcək. Yer üzündə qaçaq və
sərgərdan olacaqsan». 13 Qabil Rəbbə
dedi: «Cəzam çəkə biləcəyimdən daha
artıqdır. 14 Bax bu gün Sən məni
torpaqdan qovursan. Mən də Sənin
hüzurundan gizlənib yer üzündə qaçaq
və sərgərdan olacağam. Ancaq kim
mənə rast gəlsə, məni öldürəcək».
15 Rəbb ona dedi: «Xeyr! Kim Qabili
öldürsə, ondan yeddi qat intiqam
alınacaq». Rəbb Qabilə bir əlamət
qoydu ki, ona rast gələn kəs onu
öldürməsin. 16 Beləcə Qabil Rəbbin
hüzurunu tərk etdi və Eden bağından
şərqdə – Nod torpağında yaşamağa
başladı.

Qabilin nəsli

17 Qabil arvadı ilə yaxınlıq etdi və
arvadı hamilə olub Xanoku doğdu. O
zaman o, bir şəhər tikdi, şəhərə oğlu
Xanokun adını verdi. 18 Xanokdan
İrad törədi. İraddan Mehuyael
törədi. Mehuyaeldən Metuşael törədi.
Metuşaeldən Lemek törədi. 19 Lemek iki
arvad aldı: birinin adı Ada, o birinin
adı Silla idi. 20 Ada Yavalı doğdu. Yaval
çadırda yaşamağın və sürü saxlamağın
əsasını qoydu. 21 Onun qardaşının
adı Yuval idi. O hər cür lira və tütək
çalmağın əsasını qoydu. 22 Silla isə
Tuval-Qayini doğdu. Tuval-Qayin
tuncdan və dəmirdən hər cür kəsici
alətlər düzəldərdi. Onun Naama adlı
bacısı var idi.
23 Bir dəfə Lemek arvadlarına dedi:
«Ey Ada və Silla, səsimi eşidin,
Ey Lemekin arvadları, sözümə qulaq
asın:
Məni yaraladığı üçün
Bir adam öldürdüm,
Məni zədələdiyi üçün
Bir cavan öldürdüm.
24 Qabil üçün yeddi qat qisas
alınacaqsa,
Lemek üçün yetmiş yeddi qat
alınacaq».

Şet və Enoş

25 Adəm yenə arvadı ilə yaxınlıq
etdi və Həvva bir oğlan doğub adını
Şet *qoyaraq dedi: «Qabilin öldürdüyü
Habilin yerinə Allah mənə başqa bir
oğul bəxş etdi». 26 Şetin də bir oğlu oldu
və adını Enoş qoydu. O zaman insanlar
Rəbbin adını çağırmağa başladı.

---

*4:25 *Şet* – ibrani dilində *bəxş etmək*.

[p]**4:4** İbr. 11:4 [q]**4:8** Mat. 23:35; Luka 11:51; 1Yəh. 3:12 [r]**4:10** İbr. 12:22-24

Adəmdən Nuha qədər olan nəsillər

(1Saln. 1:1-4)

5 [s]Adəmin nəsil tarixçəsi belədir.
Allah insanı yaradanda onu Öz
bənzərinə görə yaratdı. [2] [t]Allah onları
kişi və qadın olaraq yaratdı, onlara
xeyir-dua verdi və yaratdığı gün onları
«insan» adlandırdı.
[3] Adəmin yüz otuz yaşı olanda özünə
bənzər, öz surətində bir oğlu oldu və
adını Şet qoydu. [4] Şet doğulandan sonra
Adəm səkkiz yüz il yaşadı. Onun başqa
oğulları və qızları oldu. [5] Adəm doqquz
yüz otuz il ömür sürüb öldü.
[6] Şet yüz beş yaşında olanda oğlu
Enoş doğuldu. [7] Enoş doğulandan sonra
Şet səkkiz yüz yeddi il yaşadı. Onun
başqa oğulları və qızları oldu. [8] Şet
doqquz yüz on iki il ömür sürüb öldü.
[9] Enoş doxsan yaşında olanda oğlu
Qenan doğuldu. [10] Qenan doğulandan
sonra Enoş səkkiz yüz on beş il yaşadı.
Onun başqa oğulları və qızları oldu.
[11] Enoş doqquz yüz beş il ömür sürüb
öldü.
[12] Qenan yetmiş yaşında olanda
oğlu Mahalalel doğuldu. [13] Mahalalel
doğulandan sonra Qenan səkkiz yüz
qırx il yaşadı. Onun başqa oğulları və
qızları oldu. [14] Qenan doqquz yüz on il
ömür sürüb öldü.
[15] Mahalalel altmış beş yaşında
olanda oğlu Yered doğuldu. [16] Yered
doğulandan sonra Mahalalel səkkiz yüz
otuz il yaşadı. Onun başqa oğulları və
qızları oldu. [17] Mahalalel səkkiz yüz
doxsan beş il ömür sürüb öldü.
[18] Yered yüz altmış iki yaşında
olanda oğlu Xanok doğuldu. [19] Xanok
doğulandan sonra Yered səkkiz yüz il
yaşadı. Onun başqa oğulları və qızları
oldu. [20] Yered doqquz yüz altmış iki il
ömür sürüb öldü.
[21] [u]Xanok altmış beş yaşında olanda
oğlu Metuşelah doğuldu. [22] Metuşelah
doğulandan sonra Xanok üç yüz il
Allahla bir yol getdi. Onun başqa
oğulları və qızları oldu. [23] Xanok üç yüz
altmış beş il yaşadı. [24] O, Allahla bir yol
getdi. Sonra qeyb oldu, çünki Allah onu
Öz yanına götürdü.
[25] Metuşelah yüz səksən yeddi yaşında
olanda oğlu Lemek doğuldu. [26] Lemek
doğulandan sonra Metuşelah yeddi yüz
səksən iki il yaşadı. Onun başqa oğulları
və qızları oldu. [27] Metuşelah doqquz
yüz altmış doqquz il ömür sürüb öldü.
[28] Lemek yüz səksən iki yaşında
olanda bir oğlu doğuldu. [29] O dedi:
«Bu oğul Rəbbin lənətlədiyi torpağı
becərəndə çəkdiyimiz əziyyətlərdə,
əlimizin zəhmətində bizə təsəlli
verəcək». Buna görə də onun adını
Nuh [*]qoydu. [30] Nuh doğulandan sonra
Lemek beş yüz doxsan beş il yaşadı.
Onun başqa oğulları və qızları oldu.
[31] Lemek yeddi yüz yetmiş yeddi il ömür
sürüb öldü.
[32] Nuh beş yüz yaşında olanda Sam,
Ham və Yafəs adında oğulları oldu.

İnsanların pozğunlaşması və daşqın

6 İnsanlar yer üzündə çoxalmağa
başladı və onların qızları doğuldu.
[2] O zaman Allah oğulları gördülər
ki, insan qızları çox gözəldir və
bəyəndikləri hər qızı özlərinə arvad
etdilər. [3] Rəbb dedi: «Mənim Ruhum
insanda əbədi qalmayacaq, çünki onlar
ancaq bədəndir. Onların ömrü yüz
iyirmi il olacaq».
[4] Həmin dövrdə və Allah oğulları
insan qızlarını arvad alıb övladları

[*]**5:29** *Nuh* – ibrani dilində *təsəlli.*

[s]**5:1** Yar. 1:27-28 [t]**5:2** Yar. 1:27; Mat. 19:4-5; Mark 10:6
[u]**5:21** İbr. 11:5; Yəhd. 14-15

doğulan dövrdə də yer üzündə böyük
adamlar* yaşayırdı. Bunlar qədim
dövrün qəhrəman və adlı-sanlı adamları
idi.
5 [v]Rəbb gördü ki, yer üzündəki
insanların şər əməlləri çoxdur və hər
zaman onların ürəyindəki fikirlər
və niyyətlər pisliyə doğru yönəlir.
6 O, yer üzündə insanları yaratdığına
peşman oldu və ürəyində kədərləndi.
7 Rəbb dedi: «Yaratdığım insanları yer
üzündən siləcəyəm, bunu insanlarla
birgə heyvanların, sürünənlərin və
quşların da başına gətirəcəyəm, çünki
onları yaratmağıma peşman olmuşam».
8 Ancaq Nuh Rəbbin gözündə lütf tapdı.
9 [w]Nuhun tarixçəsi belədir: Nuh
saleh və öz nəsli arasında qüsursuz bir
adam idi. O, Allahla bir yol gedirdi.
10 Nuhun üç oğlu oldu: Sam, Ham və
Yafəs. 11 Ancaq Allahın önündə yer
üzündəki insanlar pozğunlaşmışdı və
dünya zorakılıqla dolmuşdu. 12 Allah
yer üzündəki insanların daha da
pozğunlaşdığını gördü, çünki dünyadakı
bütün bəşər yolunu azmışdı.
13 Allah Nuha dedi: «Önümdə olan
bütün bəşərin sonu çatıb, çünki yer üzü
onların zorakılığı ilə dolub. Buna görə
də Mən onları yer üzü ilə birgə məhv
edəcəyəm. 14 Özünə qofer† ağacından
bir gəmi düzəlt, onun içində otaqlar
düzəlt, üstünə içəridən və bayırdan
qatran vur. 15 Gəmini belə düzəlt:
onun uzunluğu üç yüz qulac, eni əlli
qulac, hündürlüyü isə otuz qulac olsun.
16 Gəminin üstündən bir qulac aşağı
pəncərə açarsan və qapısını yan tərəfdən
qoyarsan. Gəminin üç mərtəbəsi olsun:
biri altda, biri ortada, biri də üstdə.
17 Bax Mən yer üzünü suya qərq
edəcəyəm ki, göylər altında həyat nəfəsi
olan bütün canlılar məhv olsun və
yer üzündə olanların hamısı öləcək.
18 Ancaq əhdimi sənlə bağlayıram.
Sən oğulların, arvadın və gəlinlərinlə
birgə gəmiyə minərsən. 19 Bütün
heyvanlardan, canlı məxluqlardan
bir cütünü – erkək və dişisini gəmiyə
götürərsən ki, sənlə birgə sağ qalsın.
20 Növlərinə görə quşların, heyvanların
və yerdə sürünənlərin hər birindən bir
cütü sənin yanına gələcək ki, sağ qalsın.
21 Həmçinin özünlə birlikdə hər cür
azuqə götürüb yanına yığ ki, sənin və
onların yeməyi olsun».
22 [x]Nuh hər şeyi etdi: Allah ona necə
əmr etmişdisə, o da hər şeyi eləcə yerinə
yetirdi.
7 Rəbb Nuha dedi: «Sən bütün ailənlə
birgə gəmiyə gir, çünki bu bəşər
nəsli içində yalnız səni önümdə saleh
gördüm. 2 Hər pak heyvanın erkək
və dişisindən yeddi cüt, hər murdar
heyvanın erkək və dişisindən bir cüt
götür, 3 həmçinin göydəki hər quşun
erkək və dişisindən yeddi cüt götür;
qoy bütün yer üzündə onların nəsli
kəsilməsin. 4 Çünki yeddi gün sonra
yer üzünə qırx gün-qırx gecə yağış
yağdıracağam və yaratdığım bütün
canlıları yer üzündə məhv edəcəyəm».
5 Rəbb Nuha necə əmr etmişdisə, o da
hər şeyi eləcə yerinə yetirdi.
6 Yer üzündə daşqın olanda Nuhun
altı yüz yaşı var idi. 7 [y]Nuh, onun
arvadı, oğulları və gəlinləri daşqından
qurtarmaq üçün birlikdə gəmiyə
mindilər. 8 Allahın Nuha əmr etdiyi kimi
pak və murdar heyvanların, quşların,
bütün yerdə sürünənlərin 9 erkək və

*6:4 *Böyük adamlar* – ibrani mətnində *nefilim* sözü olub mənası tam aydın deyil.
†6:14 *Qofer* – naməlum bir ağac növü.

[v]**6:5** Mat. 24:37; Luka 17:26; 1Pet. 3:20 [w]**6:9** 2Pet. 2:5 [x]**6:22** İbr. 11:7
[y]**7:7** Mat. 24:38-39; Luka 17:27

dişisi cüt-cüt Nuhun yanına gəlib
gəmiyə mindi.
10 Yeddi gün sonra yer üzündə daşqın
oldu. 11 [z]Həmin gün – Nuhun ömrünün
altı yüzüncü ilində, ikinci ayın on
yeddinci günü dərinlikdə olan bütün
gur su qaynaqları püskürdü və göylərin
pəncərələri açıldı. 12 Yer üzünə qırx
gün-qırx gecə yağış yağdı.
13 Elə həmin gün Nuh, onun arvadı,
oğulları Sam, Ham, Yafəs və üç gəlini
gəmiyə mindilər. 14 Onlarla birgə hər
növ çöl heyvanı, hər növ ev heyvanı,
hər növ yerdə sürünən, hər növ göydə
uçan canlı və hər cür quş gəmiyə girdi:
15 həyat nəfəsi olan bütün canlılardan
cüt-cüt Nuhun yanına gəlib gəmiyə
mindi. 16 Allahın Nuha əmr etdiyi
kimi bütün canlılardan erkək və dişi
heyvanlar gəmiyə girdilər. Onların
dalınca Rəbb gəminin qapısını örtdü.
17 Yer üzündə qırx gün daşqın oldu
və su çoxalıb gəmini yerdən yuxarı
qaldırdı. 18 Su çox yuxarı qalxıb yer
üzünü aldı və gəmi suyun üzündə
üzməyə başladı. 19 Su yer üzünü elə
tutdu ki, göylər altında olan bütün uca
dağlar suya qərq oldu. 20 Su dağların
zirvəsindən on beş qulac qalxdı və
onları örtdü. 21 Yer üzündə hərəkət edən
canlıların hamısı – quşlar, ev heyvanları,
çöl heyvanları, yerdə sürünənlər və
bütün insanlar məhv oldu. 22 Quruda
yaşayan, burnunda həyat nəfəsi olan
canlı varlıqların hamısı öldü. 23 Rəbb
yer üzündə olan bütün canlıları məhv
etdi: insanlardan tutmuş heyvanlara,
sürünənlərə və göydəki quşlara qədər
hər şey yer üzündə məhv oldu. Yalnız
Nuh və onunla birgə gəmidə olanlar
sağ qaldı. 24 Yüz əlli gün ərzində su yer
üzündə çoxaldı.

Daşqının sonu

8 Allah Nuhu və onunla birgə gəmidə
olan bütün çöl heyvanlarını və
ev heyvanlarını yada saldı. Allah yer
üzünə külək göndərdi və su azalmağa
başladı. 2 Dərinlikdə olan su qaynaqları
və göylərin pəncərələri bağlandı, yağış
dayandı. 3 Su yer üzündən tədricən
çəkildi, yüz əlli gün keçdikdən sonra
su azaldı. 4 Yeddinci ayın on yeddinci
günü gəmi Ararat dağlarında dayandı.
5 Onuncu aya qədər su yavaş-yavaş
çəkildi, onuncu ayın birinci günü
dağların zirvələri göründü.
6 Qırx gün sonra Nuh düzəltdiyi
gəminin pəncərəsini açıb 7 bir qarğa
buraxdı; qarğa uçub getdi və yer üzündə
su quruyana qədər hər tərəfi dolaşdı.
8 Nuh bu dəfə bir göyərçin buraxdı ki,
suyun yer üzündən çəkilib-çəkilmədiyini
bilsin. 9 Amma göyərçin qonmaq üçün
rahat bir yer tapmadığına görə onun
yanına – gəmiyə qayıtdı, çünki hələ
bütün yer üzündə su var idi. Nuh əlini
uzadıb göyərçini tutdu və gəmiyə – öz
yanına apardı. 10 O daha yeddi gün
gözlədi və göyərçini yenə gəmidən
buraxdı. 11 Axşamüstü göyərçin onun
yanına qayıtdı. Göyərçinin ağzında təzə
zeytun yarpağı var idi. Nuh suyun yer
üzündən çəkildiyini bildi. 12 O daha
yeddi gün gözlədi və göyərçini yenə
buraxdı, artıq göyərçin onun yanına
qayıtmadı.
13 Nuhun ömrünün altı yüz birinci
ilində, birinci ayın birinci günü yer
üzündə su qurudu. Nuh gəminin
qapağını qaldırdı və torpağın üzərindəki
suyun quruduğunu gördü. 14 İkinci ayın
iyirmi yeddinci günü yer üzündəki su
tamamilə qurudu.
15 Allah Nuha dedi: 16 «Sən öz
arvadın, oğulların və gəlinlərinlə birgə

---

[z] **7:11** 2Pet. 3:6

gəmidən çıx. 17 Sənlə birgə olan
bütün canlıları – quşları, heyvanları və
yerdə sürünənləri bayıra çıxart. Qoy
yer üzünə yayılsınlar və yer üzündə
törəyib çoxalsınlar». 18 Nuh öz arvadı,
oğulları və gəlinləri ilə birgə gəmidən
çıxdı. 19 Bütün heyvanlar, sürünənlər,
quşlar və yerdə sürünən bütün canlılar
dəstə-dəstə gəmini tərk etdilər.
20 Nuh Rəbbə bir qurbangah düzəltdi.
O hər cür pak heyvandan və pak quşdan
götürüb orada yandırma qurbanı
təqdim etdi. 21 Bundan Rəbbə xoş
ətir qalxdı və Rəbb ürəyində dedi:
«Cavanlığından bəri insan ürəyinin
fikirlərinin həmişə pis olmasına
baxmayaraq, insanlara görə bir daha
yer üzünü lənətləməyəcəyəm. İndi
elədiyim kimi bütün canlıları bir daha
məhv etməyəcəyəm.
22 Dünya durduqca
Əkin-biçin, isti-soyuq,
Yay-qış və gecə-gündüz
Sona yetməyəcək».

Allahın Nuha vədi

9 [a]Allah Nuha və onun oğullarına
xeyir-dua verib dedi: «Törəyib
çoxalın və yer üzünü bürüyün.
2 Qurudakı bütün heyvanlar, göydəki
bütün quşlar, yerdə sürünən bütün
canlılar və dənizdə olan bütün balıqlar
sizdən qorxub dəhşətə gələcək. Onlar
sizin ixtiyarınıza verilib. 3 Bütün
canlılar da sizə qida olsun, onların
hamısını bütün göy otlar kimi sizə
verirəm. 4 [b]Ancaq əti onun canı olan
qanla birgə yeməyin. 5 Sizin isə qanınız
tökülərsə, əvəzini hökmən alacağam.
Hər heyvandan hesabınızı alacağam.
Həmçinin insandan – qardaşının canını
alan hər kəsdən əvəzini alacağam.
6 [c]Kim insan qanı töksə,
Onun da qanı
İnsan əli ilə tökülləcək.
Çünki Allah insanı
Öz surətinə görə yaradıb.
7 [d]Siz törəyib çoxalın,
Yer üzünə yayılın,
Orada çoxalın».
8 Allah Nuha və yanında olan
oğullarına dedi: 9 «Mən sizinlə,
sizdən sonrakı nəslinizlə Öz əhdimi
bağlayıram, 10 gəmidən çıxan yer
üzündəki bütün canlı məxluqlarla –
quşlar, ev heyvanları və bütün çöl
heyvanları ilə əhdimi bağlayıram.
11 Sizinlə Öz əhdimi qoyuram ki,
bütün canlılar bir daha daşqınla məhv
olmayacaq və heç vaxt yer üzünü viran
edən daşqın baş verməyəcək». 12 Allah
yenə dedi: «Mənim sizinlə və sizinlə
olan bütün canlılarla nəsillər boyu
əbədi olaraq bağladığım əhdin əlaməti
budur: 13 buludda Öz göy qurşağımı
qoyuram ki, Mənimlə yer üzü arasında
olan əhdin əlaməti olsun. 14 Mən yer
üzünə bulud gətirdiyim zaman buludda
göy qurşağı görünəcək. 15 Onda Mən
sizinlə və bütün canlı məxluqlarla
bağladığım əhdi yada salacağam.
Sular bir daha daşqına çevrilib bütün
canlıları məhv etməyəcək. 16 Buludda
göy qurşağı olacaq. Mən Allah onu
görüb yer üzündə yaşayan bütün canlı
məxluqlarla bağladığım əbədi əhdi yada
salacağam». 17 Allah yenə Nuha dedi:
«Mənim yer üzündə yaşayan bütün
canlılarla bağladığım əhdin əlaməti
budur».

Nuhun oğulları

18 Gəmidən çıxan Nuhun oğulları
bunlardır: Sam, Ham və Yafəs. Hamdan
Kənan törədi. 19 Nuhun üç oğlu

---

[a]**9:1** Yar. 1:28 [b]**9:4** Lev. 7:26-27; 17:10-14; 19:26; Qanun. 12:16,23-25; 15:23
[c]**9:6** Çıx. 20:13; Yar. 1:26 [d]**9:7** Yar. 1:28

bunlardır və yer üzündə yayılan bütün
insanlar onlardan törədi.
20 Nuh torpağı becərməyə başladı
və bir üzüm bağı saldı. 21 O, şərab
içib sərxoş oldu və öz çadırında çılpaq
uzandı. 22 Kənanın atası Ham atasının
çılpaq olduğunu gördü və bunu bayırda
iki qardaşına söylədi. 23 Sam və Yafəs
bir paltar götürüb öz çiyinlərinə saldılar
və dal-dalı içəri girib, atalarının çılpaq
bədənini örtdülər. Onlar üzlərini əks
tərəfə çevirmişdilər ki, atalarının
çılpaqlığını görməsinlər. 24 Nuh öz
sərxoşluğundan ayıldı və kiçik oğlunun
əməlini bilib dedi:
25 «Kənana lənət olsun,
Öz qardaşlarının qullarına qul olsun».
26 Yenə dedi:
«Samın Allahı Rəbbə alqış olsun,
Kənan ona qul olsun.
27 Allah Yafəsə genişlik versin,
Samın çadırlarında yaşasın.
Kənan ona qul olsun».

Nuhun ölümü

28 Nuh daşqından sonra üç yüz əlli il
yaşadı. 29 O, doqquz yüz əlli il ömür
sürüb öldü.

Nuhun nəsli

(1Saln. 1:5-23)

10 Nuhun oğulları Sam, Ham və
Yafəsin nəsil tarixçəsi belədir.
Daşqından sonra onların oğulları oldu.
2 Yafəsin oğulları: Qomer, Maqoq,
Maday, Yavan, Tuval, Meşek və Tiras.
3 Qomerin oğulları: Aşkenaz, Rifat və
Toqarma. 4 Yavanın oğulları: Elişa,
Tarşiş, Kittim və Dodanim. 5 Onların
nəsilləri adalara, öz torpaqlarına
yayıldı. Öz millətlərinin arasında dillərə
və qəbilələrə ayrıldı.
6 Hamın oğulları: Kuş, Misrayim,
Put və Kənan. 7 Kuşun oğulları: Seva,
Xavila, Savta, Raama və Savteka.
Raamanın oğulları: Səba və Dedan.
8 Kuşun Nəmrud adlı bir oğlu da oldu.
O, yer üzündə ilk qüdrətli adam oldu.
9 Nəmrud Rəbbin önündə mahir bir
ovçu idi, buna görə də xalqın arasında
«Rəbbin önündə Nəmrud kimi mahir
ovçu» sözü deyilir. 10 Əvvəlcə onun
padşahlığına Şinar ölkəsində olan Babil,
Erek, Akkad və Kalne daxil idi. 11 O
bu torpaqdan Aşşur torpağına köçüb,
Ninevanı, Rexovot-İri, Kelahı, 12 Nineva
ilə böyük şəhər olan Kelahın arasındakı
Reseni tikdi.
13 Misrayimin nəsilləri bunlardır:
Ludlular, Anamlılar, Lehavlılar,
Naftuhlular, 14 Patroslular, Filiştlilərin
əcdadı olan Kasluhlular, həmçinin
Kaftorlular.
15 Kənanın nəsilləri bunlardır: ilk
oğlu Sidon, Xet, 16 həmçinin Yevuslular,
Emorlular, Qirqaşlılar, 17 Xivlilər,
Arqlılar, Sinlilər, 18 Ervadlılar,
Semarlılar və Xamatlılar. Sonralar
Kənan qəbilələri ətraf yerlərə yayıldı.
19 Kənanlıların ərazisi Sidondan
Gerara tərəf Qəzzəyə qədər, Sodoma,
Homorraya, Admaya, Sevoyimə tərəf
Leşaya qədər uzanırdı. 20 Bunlar öz
ölkələrində və millətlərinin arasında
qəbilələrinə və dillərinə görə ayrılan
Ham oğulları idi.
21 Everin bütün oğullarının əcdadı
və böyük olan Yafəsin qardaşı Samın
da oğulları oldu. 22 Samın oğulları:
Elam, Aşşur, Arpakşad, Lud və Aram.
23 Aramın oğulları: Us, Xul, Geter və
Maş. 24 Arpakşaddan Şelah törədi,
Şelahdan Ever törədi. 25 Everin iki oğlu
oldu: birinin adı Peleq* idi, çünki onun
dövründə yer üzü bölündü. Qardaşının
adı Yoqtan idi. 26 Yoqtandan Almodad,
Şelef, Xasarmavet, Yerah, 27 Hadoram,
Uzal, Diqla, 28 Oval, Avimael, Səba,

---

*10:25 *Peleq* – ibrani dilində *bölünmə*.

29 Ofir, Xavila və Yovav törədi; bunların
hamısı Yoqtanın oğulları idi. 30 Onlar
şərqdə – Meşadan Sefara tərəf yerləşən
dağlıq bölgədə məskən salmışdı.
31 Bunlar öz ölkələrində və millətləri
arasında qəbilələrinə və dillərinə görə
ayrılan Sam oğulları idi.
32 Öz millətləri arasında nəsillərinə
görə Nuh oğullarının qəbilələri
bunlardır. Daşqından sonra onların
nəsillərindən yer üzünə millətlər
yayıldı.

Babil qülləsi

11 Bütün dünyada bir dil və
bir danışıq var idi. 2 İnsanlar
şərqdən köçüb gəldikləri zaman Şinar
torpağında bir düzənliyə rast gəldilər
və orada məskən saldılar. 3 Sonra
bir-birlərinə dedilər: «Gəlin kərpic
düzəldək və onu yaxşı bişirək». Onlar
daş əvəzinə kərpic və palçıq əvəzinə
qatran götürdülər. 4 Yenə dedilər: «Gəlin
özümüzə bir şəhər və başı göylərə çatan
bir qüllə tikib ad çıxaraq, daha bütün
yer üzünə yayılmayaq».
5 Rəbb bəşər övladlarının tikdiyi
şəhəri və qülləni görmək üçün aşağı
endi. 6 Rəbb dedi: «Budur, onların
hamısı bir xalqdır və bir dilləri var.
Buna görə də bu işi görməyə başlamışlar
və indi etmək istədikləri işə heç kəs
mane olmayacaq. 7 Gəlin aşağı enib
orada onların dilini qarışdıraq ki,
bir-birlərinin dilini başa düşməsinlər».
8 Rəbb onları oradan bütün yer üzünə
yaydı. Onlar şəhəri tikməyi dayandırdı.
9 Buna görə də o yerin adına Babil
*dedilər, çünki orada Rəbb bütün
dünyadakı adamların dilini qarışdırdı
və onları bütün yer üzünə yaydı.

Samdan İbrama qədər olan nəsillər

(1Saln. 1:24-27)

10 Samın nəsil tarixçəsi belədir:
daşqından iki il sonra Sam yüz yaşında
olanda oğlu Arpakşad doğuldu.
11 Arpakşad doğulandan sonra Sam beş
yüz il yaşadı. Onun çoxlu oğlu və qızı
oldu.
12 Arpakşad otuz beş yaşında olanda
oğlu Şelah doğuldu. 13 Şelah doğulandan
sonra Arpakşad dörd yüz üç il yaşadı.
Onun çoxlu oğlu və qızı oldu.
14 Şelah otuz yaşında olanda oğlu
Ever doğuldu. 15 Ever doğulandan sonra
Şelah dörd yüz üç il yaşadı. Onun çoxlu
oğlu və qızı oldu.
16 Ever otuz dörd yaşında olanda oğlu
Peleq doğuldu. 17 Peleq doğulandan
sonra Ever dörd yüz otuz il yaşadı.
Onun çoxlu oğlu və qızı oldu.
18 Peleq otuz yaşında olanda oğlu Reu
doğuldu. 19 Reu doğulandan sonra Peleq
iki yüz doqquz il yaşadı. Onun çoxlu
oğlu və qızı oldu.
20 Reu otuz iki yaşında olanda oğlu
Seruq doğuldu. 21 Seruq doğulandan
sonra Reu iki yüz yeddi il yaşadı. Onun
çoxlu oğlu və qızı oldu.
22 Seruq otuz yaşında olanda oğlu
Naxor doğuldu. 23 Naxor doğulandan
sonra Seruq iki yüz il yaşadı. Onun
çoxlu oğlu və qızı oldu.
24 Naxor iyirmi doqquz yaşında
olanda oğlu Terah doğuldu. 25 Terah
doğulandan sonra Naxor yüz on doqquz
il yaşadı. Onun çoxlu oğlu və qızı oldu.
26 Terah yetmiş yaşında olanda oğulları
İbram, Naxor və Haran doğuldu.
27 Terahın nəsil tarixçəsi belədir:
Terahdan İbram, Naxor və Haran
törədi. Harandan Lut törədi. 28 Haran
atası Terahın sağlığında doğulduğu
ölkədə – Xaldeylilərin Ur şəhərində

---

*11:9 *Babil* – bu söz ibrani dilində *qarışdırmaq* mənasını verən *balal* sözünə bənzəyir.

öldü. 29 İbram və Naxor özlərinə arvad
aldılar. İbramın arvadının adı Saray,
Naxorun arvadının adı isə Milka idi.
Milka və İska Haranın qızları idi.
30 Saray sonsuz idi, onun uşağı olmurdu.
31 Terah oğlu İbramı, Haranın oğlu
olan nəvəsi Lutu, oğlu İbramın arvadı
olan gəlini Sarayı özü ilə götürdü
və Kənan torpağına getmək üçün
Xaldeylilərin Ur şəhərindən çıxdı. Onlar
Xarana gəlib, orada məskən saldılar.
32 Terah iki yüz beş il ömür sürüb
Xaranda öldü.

Allahın İbrama çağırışı

12 [e]Rəbb İbrama dedi: «Öz
torpağından, qohumlarının
arasından, ata evindən çıx, sənə
göstərəcəyim torpağa get. 2 Səndən
böyük bir millət törədəcəyəm,
sənə xeyir-dua verəcəyəm, adını
ucaldacağam və bərəkət qaynağı
olacaqsan. 3 [f]Sənə xeyir-dua verənlərə
xeyir-dua verəcəyəm, sənə lənət
edənləri lənətləyəcəyəm. Yer üzünün
bütün tayfaları sənin vasitənlə xeyir-dua
alacaq».
4 İbram Rəbbin ona söylədiyi kimi
oradan çıxdı. Lut da onunla birgə
getdi. Xarandan çıxdığı vaxt İbram
yetmiş beş yaşında idi. 5 İbram arvadı
Sarayı, qardaşı oğlu Lutu, Xaranda əldə
etdikləri bütün əmlakı və özünün bütün
nökərlərini götürüb Kənan torpağına
tərəf yola düşdü. Onlar Kənan torpağına
gəldilər. 6 İbram oranı dolaşıb, Şekem
deyilən yerdəki More palıdının yanına
çatdı. O vaxt bu torpaqda Kənanlılar
yaşayırdı. 7 [g]Rəbb İbrama görünüb
dedi: «Bu torpağı sənin nəslindən olana
verəcəyəm». İbram ona görünən Rəbbə
orada bir qurbangah düzəltdi. 8 Buradan
Bet-Elin şərqində yerləşən dağlıq yerə
tərəf yola düşdü və burada çadır qurdu.
Çadırdan qərbdə Bet-El, şərqdə isə
Ay şəhəri idi. İbram orada da Rəbbə
bir qurbangah qurdu və Rəbbin adını
çağırdı. 9 İbram tədricən cənuba doğru
hərəkət edirdi.

İbram Misirdə

10 Bu torpaqda aclıq başlandı. İbram
müvəqqəti qalmaq üçün Misirə getdi,
çünki ölkədə böyük aclıq hökm sürürdü.
11 O, Misirə yaxınlaşanda arvadı Saraya
dedi: «Bax mən bilirəm ki, sən gözəl
qadınsan. 12 Misirlilər səni görüb
deyəcəklər: “Bu onun arvadıdır”.
Onda məni öldürəcəklər, səni isə sağ
buraxacaqlar. 13 [h]Bəlkə sən deyəsən ki,
mənim bacımsan, onda sənin xatirinə
mənimlə yaxşı rəftar edərlər və mən də
sağ qalaram».
14 İbram Misirə gəlib çatanda
Misirlilər onun arvadının çox gözəl
olduğunu gördülər. 15 Fironun əyanları
da qadını gördülər və onu firona
tərifladilər. Qadın fironun sarayına
aparıldı. 16 Onun xatirinə firon İbramla
da yaxşı rəftar etdi: İbram qoyun-keçi,
mal-qara, erkək və dişi eşşəklər, qullar,
qarabaşlar və dəvələr sahibi oldu.
17 Ancaq Rəbb İbramın arvadı
Saraydan ötrü fironun və onun ev
adamlarının başına böyük fəlakətlər
gətirdi. 18 Firon İbramı çağırıb dedi:
«Bu nə işdir, mənim başıma gətirdin?
Bu qadının sənin arvadın olduğunu
niyə mənə bildirmədin? 19 Nə üçün “bu
mənim bacımdır” dedin ki, mən də
onu özümə arvad olmaq üçün aldım?
İndi isə arvadını da götür get». 20 Firon
adamlara onlar barədə əmr verdi və
İbramla arvadını sahib olduğu bütün
şeylərlə birgə yola saldılar.

---

[e]**12:1** Həv. 7:2-3; İbr. 11:8 [f]**12:3** Yar. 22:18; 26:4; 28:14; Həv. 3:25; Qal. 3:8
[g]**12:7** Həv. 7:5; Qal. 3:16 [h]**12:13** Yar. 20:2; 26:7

Lutun İbramdan ayrılması

13 İbram arvadı və sahib olduğu
bütün şeylərlə birgə Misirdən
çıxıb Negev torpağına getdi. Lut da
onunla idi. 2 İbram çox varlandı: onun
çoxlu sürüsü və qızıl-gümüşü oldu.
3 Negevdən çıxıb bir yerdən o biri yerə
keçərək Bet-Elə qədər – Bet-Ellə Ay
şəhəri arasında əvvəllər çadır qurduğu
yerə getdi. 4 İbram ilk vaxt düzəltdiyi
qurbangahın yanına çatdı və orada
Rəbbin adını çağırdı.
5 İbramla birlikdə olan Lutun da
qoyun-keçisi, mal-qarası və çadırları
var idi. 6 Birlikdə yaşamaq üçün yer
onlara darlıq edirdi, çünki onların
malı çox idi və birgə qala bilməzdilər.
7 İbramın sürülərinin çobanları ilə Lutun
sürülərinin çobanları arasında mübahisə
düşdü. O vaxt bu torpaqda Kənanlılar
və Perizlilər yaşayırdı.
8 İbram Luta dedi: «Qoy mənimlə
sənin və çobanlarımla çobanların
arasında mübahisə olmasın, çünki biz
qohumuq. 9 Bütün torpaqlar gözünün
önündə deyilmi? Gəl ayrılaq. Əgər sən
sola getsən, mən sağa gedəcəyəm, sən
sağa getsən, mən sola gedəcəyəm».
10 [i]Lut başını qaldırıb İordan çayının
kənarındakı düzənliyi gördü. O vaxt bu
yer Misir torpağı kimi bütünlüklə Soara
qədər suvarılırdı və Rəbbin bağı kimi
idi. Rəbb hələ Sodom və Homorranı
məhv etməmişdi. 11 Lut özünə İordan
çayının kənarındakı düzənliyi seçdi. O,
şərqə tərəf hərəkət etdi. Beləcə onlar
bir-birindən ayrıldı. 12 İbram Kənan
torpağında qaldı, Lut isə düzənlikdəki
şəhərlərdə yaşamağa başladı və Sodoma
qədər öz çadırlarını qurdu. 13 Sodomun
əhalisi çox pozğun idi və Rəbbə qarşı
çoxlu günah edirdi.
14 Lut İbramdan ayrıldıqdan sonra
Rəbb İbrama dedi: «Başını qaldırıb
dayandığın yerdən şimala, cənuba,
şərqə və qərbə tərəf bax. 15 [j]Gördüyün
bütün torpaqları əbədi olaraq sənə və
nəslinə verəcəyəm. 16 Nəslini yerin
tozu qədər çoxaldacağam. Əgər bir
nəfər yerin tozunu saya bilərsə, sənin
nəslini də saya bilər. 17 Qalx bu torpağı
uzununa və eninə dolaş, çünki Mən onu
sənə verirəm». 18 İbram çadırını götürdü
və gəlib Xevronda olan Mamre palıdının
yanında məskən saldı. O burada Rəbbə
bir qurbangah düzəltdi.

İbramın Lutu xilas etməsi

14 Bu zaman Şinar padşahı Amrafel,
Ellasar padşahı Aryok, Elam
padşahı Kedorlaomer və Qoyim padşahı
Tidal 2 Sodom padşahı Beraya, Homorra
padşahı Birşaya, Adma padşahı Şinava,
Sevoyim padşahı Şemeverə, Bela,
yəni Soar padşahına qarşı müharibəyə
başladı. 3 Bu son beş padşah indi Duz
dənizi adlanan Siddim vadisində öz
qoşunlarını birləşdirdi. 4 Onlar on iki il
Kedorlaomerin əsarəti altında qalmış,
on üçüncü il isə üsyan etmişdilər.
5 On dördüncü il Kedorlaomer və
onunla birgə olan padşahlar gəlib
Aşterot-Qarnayimdə Rafalıları,
Hamda Zuzluları, Şave-Qiryatayimdə
Emliləri, 6 çöl kənarındakı El-Parana
qədər uzanan Seir dağlarında
Xorluları qırdılar. 7 Sonra geri qayıdıb
En-Mişpata, yəni Qadeşə getdilər.
Bütün Amaleq torpağının əhalisini və
Xaseson-Tamarda yaşayan Emorluları
qırdılar. 8 Sodom padşahı, Homorra
padşahı, Adma padşahı, Sevoyim
padşahı, Bela, yəni Soar padşahı
Siddim vadisinə gəlib, 9 Elam padşahı
Kedorlaomerlə, Qoyim padşahı Tidalla,
Şinar padşahı Amrafellə, Ellasar

---

[i] **13:10** Yar. 2:10 [j] **13:15** Həv. 7:5

padşahı Aryokla döyüşə girdilər: dörd
padşah beş padşaha qarşı idi. 10 Siddim
vadisində qatranla dolu çoxlu çuxur
var idi. Sodom və Homorra padşahları
döyüşdən qaçanda oraya yıxıldılar,
sağ qalanlar isə dağlara qaçdılar.
11 Qaliblər Sodom və Homorranın bütün
əmlakını və azuqəsini götürüb getdilər.
12 İbramın qardaşı oğlu Lutu və onun
əmlakını özləri ilə apardılar, çünki o da
Sodomda yaşayırdı.
13 Döyüşdən sağ qurtaran bir nəfər
gəlib İbrani İbrama bunu xəbər verdi.
O, Eşkolun və Anerin qardaşı Emorlu
Mamrenin palıdının yanında yaşayırdı.
Onlar İbramın müttəfiqləri idi. 14 İbram
qohumu Lutun əsir alındığını eşidəndə
evində doğulmuş, döyüş təlimi keçmiş
üç yüz on səkkiz nökərini götürüb
düşmənləri Dana qədər təqib etdi.
15 Özü və nökərləri gecə vaxtı dəstələrə
bölünüb, onları qırdılar və sağ qalanları
Dəməşqin şimal tərəfində olan Xovaya
qədər təqib etdilər. 16 İbram qarət
olunmuş bütün əmlakı, qardaşı oğlu
Lutu və onun əmlakını, həmçinin
qadınları və xalqı geri qaytardı.

Melkisedeqin İbrama xeyir-dua verməsi

17 [k]İbram Kedorlaomer və onunla
olan padşahları məğlub edib qayıdanda
Sodom padşahı «Padşah vadisi» adlanan
Şave vadisində onun pişvazına çıxdı.
18 Onda Salem padşahı Melkisedeq
çörək və şərab gətirdi. O, Allah-Taalanın
kahini idi. 19 Melkisedeq İbrama
xeyir-dua verib dedi:

«Göy və yeri yaradan Allah-Taala
İbrama xeyir-dua versin.
20 Düşmənlərini sənə təslim edən
Allah-Taalaya alqış olsun».

İbram bütün qənimətin onda birini
Melkisedeqə verdi.
21 Sodom padşahı İbrama dedi:
«Adamlarımı mənə ver, əmlak isə
sənə qalsın». 22 Ancaq İbram Sodom
padşahına dedi: «Göy və yeri yaradan
Allah-Taala Rəbbin dərgahına and
üçün əlimi qaldırıram ki, 23 sənin
nə bir ipini, nə də bir çarıq bağını
götürürəm, ta deməyəsən ki, mən
İbramı varlandırdım. 24 Nökərlərin
yediklərindən başqa, hər şey sənin
olsun. Üstəlik mənimlə gedən adamlar
– Aner, Eşkol və Mamre öz paylarını
götürsün».

Allahın İbramla əhdi

15 Bir müddət sonra İbrama
görüntüdə Rəbbin bu sözü
nazil oldu: «Ey İbram, qorxma. Sənin
qalxanın Mənəm. Mükafatın çox böyük
olacaq». 2 İbram dedi: «Ey Xudavənd
Rəbb, mənə nə verəcəksən? Mənim
övladım yoxdur, evimin sahibi bu
Dəməşqli Eliezer olacaq». 3 İbram
sözünə davam etdi: «Sən mənə övlad
vermədiyin üçün evimin nökəri mənim
varisim olacaq». 4 Ona Rəbbin bu sözü
nazil oldu: «O sənin varisin olmayacaq,
öz belindən gələn övladın sənin varisin
olacaq». 5 [l]Rəbb onu bayıra çıxarıb
dedi: «Göyə bax, oradakı ulduzları saya
bilərsənsə, say». Yenə dedi: «Nəslin o
qədər olacaq». 6 [m]İbram Rəbbə iman
etdi və Rəbb bunu ona salehlik saydı.
7 Rəbb İbrama dedi: «Bu torpağı
sənə irs olaraq vermək üçün səni
Xaldeylilərin Ur şəhərindən çıxaran
Mən Rəbbəm». 8 İbram soruşdu:
«Ya Xudavənd Rəbb, onu irs olaraq
alacağımı necə bilim?» 9 Rəbb ona dedi:
«Mənim üçün bir üçyaşlı düyə, bir
üçyaşlı keçi, bir üçyaşlı qoç, həmçinin

---

[k] **14:17** İbr. 7:1-10 [l] **15:5** Rom. 4:18; İbr. 11:12
[m] **15:6** Rom. 4:3,9,22; Qal. 3:6; Yaq. 2:23

bir qumru və bir göyərçin balası gətir».
10 İbram bunların hamısını götürüb
kəsdi və iki hissəyə ayırdı, hər hissəni o
birinin qarşısına qoydu, ancaq quşları
iki hissəyə ayırmadı. 11 Yırtıcı quşlar
cəmdəklərin üzərinə uçub gəldilər,
ancaq İbram onları qovdu.
12 Günəş batan vaxt İbrama dərin
yuxu gəldi. Birdən onun üzərinə
dəhşət və qatı qaranlıq çökdü. 13 [n]Rəbb
İbrama dedi: «Yəqin bil ki, nəslin
yad ölkədə qərib olacaq, orada olan
millətə köləlik edəcək və onlara
dörd yüz il zülm ediləcək. 14 [o]Ancaq
onların köləlik edəcəkləri xalqı Özüm
cəzalandıracağam. Bundan sonra onlar
böyük əmlakla oradan çıxacaqlar.
15 Sən isə atalarının yanına gedəcəksən,
uzun ömür sürəndən sonra sülh içində
öləcəksən. 16 Sənin dördüncü nəslin
buraya qayıdacaq, çünki Emorluların
günah kasası hələ dolmayıb».
17 Günəş batıb qaranlıq düşəndə tüstü
çıxan bir təndir və alovlanan məşəl
görünərək parçalanmış heyvanların
arasından keçdi. 18 [p]O gün Rəbb İbramla
əhd bağlayıb dedi: «Misir çayından
böyük Fərat çayına qədər uzanan bu
torpaqları – 19 Qenlilərin, Qenizlilərin,
Qadmonluların, 20 Xetlilərin,
Perizlilərin, Rafalıların, 21 Emorluların,
Kənanlıların, Qirqaşlıların və
Yevusluların torpağını Mən sənin
nəslinə verirəm».

Həcər və İsmail

16 İbramın arvadı Sarayın uşağı
olmurdu. Onun Həcər adında
Misirli bir qarabaşı var idi. 2 Saray
İbrama dedi: «Bax Rəbb mənim bətnimi
bağladı ki, uşağım olmasın. Qarabaşımla
yaxınlıq et, qoy o mənim üçün uşaq
doğsun». İbram Sarayın sözünə qulaq
asdı. 3 İbramın arvadı Saray qarabaşı
Misirli Həcəri götürüb əri İbrama arvad
olmaq üçün verdi; bu əhvalat İbram
Kənan torpağında on il yaşadıqdan
sonra baş verdi. 4 İbram Həcərlə yaxınlıq
etdi və Həcər hamilə oldu. Həcər hamilə
olduğunu görəndə xanımına həqarətlə
baxmağa başladı. 5 Saray İbrama dedi:
«Mənim təhqir olunmağıma sən səbəb
oldun. Mən qarabaşımı sənin qoynuna
verdim, o da hamilə olduğunu görəndə
mənə həqarətlə baxmağa başladı. Qoy
səninlə mənim aramda Rəbb hökm
etsin». 6 İbram Saraya dedi: «Qarabaşını
sənin ixtiyarına verirəm, ona nə
istəyirsən, elə». Saray qarabaşı ilə sərt
rəftar etməyə başladı və qarabaşı onun
yanından qaçdı.
7 Rəbbin mələyi Şur yolundakı çöldə
olan bulağın yanında onu tapdı. 8 Mələk
ondan soruşdu: «Ey Sarayın qarabaşı
Həcər, haradan gəlib, haraya gedirsən?»
Həcər dedi: «Mən xanımım Sarayın
yanından qaçıram». 9 Rəbbin mələyi
ona dedi: «Xanımının yanına qayıt
və ona tabe ol». 10 Rəbbin mələyi
sözünə davam etdi: «Sənin nəslini
lap çoxaldacağam, çoxluğuna görə
sayı-hesabı bilinməyəcək». 11 Sonra
Rəbbin mələyi ona dedi:

«Bax sən hamiləsən,
Bir oğul doğacaqsan.
Onun adını İsmail *qoyarsan,
Çünki Rəbb əziyyət içində fəryadını
eşitdi.
12 O, insanlar arasında
Vəhşi eşşək kimi olacaq:
O hamıya,
Hamı isə ona qarşı çıxacaq,
Bütün qardaşları ilə yola getməyərək
yaşayacaq».

---

*16:11 *İsmail* – ibrani dilində *Allah eşidir*.

[n]**15:13** Çıx. 1:1-14; Həv. 7:6 [o]**15:14** Çıx. 12:40-41; Həv. 7:7 [p]**15:18** Həv. 7:5

13 Həcər onunla danışan Rəbbi
«Sən El-Roisən» *adlandırdı, çünki o
söyləmişdi: «Doğrudan da, burada məni
görən Allahı gördüm». 14 Buna görə də
həmin bulaq Beer-Laxay-Roi †adlanır.
O, Qadeşlə Beredin arasında yerləşir.
15 [q]Həcər İbrama bir oğul doğdu və
İbram Həcərdən olan oğlunun adını
İsmail qoydu. 16 Həcər ona İsmaili
doğanda İbramın səksən altı yaşı var
idi.

Əhdin rəmzi olan sünnət

17 İbram doxsan doqquz yaşında
olanda Rəbb ona görünərək dedi:
«Külli-İxtiyar Allah Mənəm. Mənim
yolumla get və kamil ol. 2 Əhdimi
Özümlə sənin aranda qoyacağam və
nəslini lap çoxaldacağam». 3 İbram
üzüstə düşdü. Allah onunla danışıb
dedi: 4 «Mən sənlə əhd bağlamışam,
sən çoxlu millətin atası olacaqsan.
5 [r]Daha sənə İbram deyilməyəcək, bu
gündən adın İbrahim ‡olacaq, çünki
səni çoxlu millətin atası etdim. 6 Nəslini
lap çoxaldacağam, səndən millətlər
törədəcəyəm və nəslindən padşahlar
çıxacaq. 7 [s]Özümlə sənin və səndən
sonrakı nəslinin arasında əbədi əhd
qoyuram ki, Mən sənin və səndən
sonrakı nəslinin Allahı olacağam.
8 [t]Sənə və səndən sonrakı nəslinə qərib
kimi yaşadığın bu torpağı – bütün
Kənan torpağını əbədi mülk olaraq
verəcəyəm və onların Allahı olacağam».
9 Sonra Allah İbrahimə dedi: «Sən
və səndən sonrakı övladların nəsillər
boyu əhdimə əməl edin. 10 [u]Mənim
sənlə və səndən sonrakı nəslinlə
bağladığım, sizin əməl edəcəyiniz
əhdin əlaməti budur: qoy aranızda
olan bütün kişilər sünnət olunsun.
11 Sünnət ətinizi kəsin; bu Mənimlə
sizin aranızda olan əhdin əlaməti
olacaq. 12 Evinizdə doğulmuş yaxud
nəslinizdən olmayıb bir yadellidən satın
alınmış kişi cinsindən olan hər uşaq
səkkizinci gün sünnət olunsun; bu,
nəsildən-nəslə davam etsin. 13 Evinizdə
doğulmuş yaxud satın alınmış hər uşaq
mütləq sünnət olunmalıdır. Beləcə
Mənim əhdimin əlaməti əbədi olaraq
bədəninizdə olacaq. 14 Sünnət əti
kəsilməmiş kişi cinsindən olan hər kəs
xalqının arasından qovulacaq, çünki
əhdimi pozmuş olacaq».
15 Allah yenə İbrahimə dedi: «Arvadın
Saraya isə artıq Saray demə. Bundan
sonra onun adı Sara §olacaq. 16 Ona
xeyir-dua verəcəyəm, ondan sənə bir
oğul verəcəyəm. Saraya xeyir-dua
verəcəyəm: o, millətlərin anası
olacaq və xalqların padşahları ondan
doğulacaq». 17 İbrahim üzüstə düşdü və
gülüb ürəyində dedi: «Yüz yaşlı adamın
oğlu ola bilərmi? Doxsan yaşında olan
Sara doğacaqmı?» 18 Sonra İbrahim
Allaha dedi: «Kaş ki İsmail Sənin
önündə xeyir-dua alaydı!» 19 Allah
isə dedi: «Xeyr, arvadın Sara sənə
bir oğul doğacaq və adını İshaq**
qoyacaqsan. Onunla və ondan sonrakı
nəsli ilə əhdimi əbədi olaraq davam
etdirəcəyəm. 20 İsmail barədə dediyin
sözləri də eşitdim. Ona xeyir-dua
verəcəyəm, onu bəhərli edəcəyəm,

*16:13 *El-Roi* – ibrani dilində *Məni görən Allah.*
†16:14 *Beer-Laxay-Roi* – ibrani dilində *məni görən Var Olanın bulağı.*
‡17:5 *İbram* – ibrani dilində *ali ata; İbrahim – çoxlarının atası.*
§17:15 *Sara* – ibrani dilində *mələkə.*
**17:19 *İshaq* – ibrani dilində *gülür.*

[q]16:15 Qal. 4:22 [r]17:5 Rom. 4:16-17 [s]17:7 Luka 1:54-55
[t]17:8 Həv. 7:5 [u]17:10 Həv. 7:8; Rom. 4:11

nəslini lap çoxaldacağam. O, on iki
başçının atası olacaq. Ondan böyük bir
millət törədəcəyəm. 21 Əhdimi isə gələn
il bu vaxt Saranın sənə doğacağı İshaqla
saxlayacağam». 22 Allah İbrahimlə
söhbətini bitirərək ondan ayrılıb yuxarı
çəkildi.
23 İbrahim oğlu İsmaili, evində
doğulan bütün nökərləri, satın aldığı
hər kəsi – öz evində kişi cinsindən
olan bütün adamları götürüb həmin
gün Allahın ona dediyi kimi sünnət
etdi. 24 Sünnət əti kəsilən vaxt İbrahim
doxsan doqquz yaşında idi. 25 Oğlu
İsmail isə sünnət əti kəsilən vaxt on üç
yaşında idi. 26 İbrahim oğlu İsmaillə
birgə həmin gün sünnət olundu.
27 Onunla birgə evdəki bütün kişilər –
evində doğulan və yadellilərdən satın
alınmış hər kəs sünnət olundu.

İbrahimə oğlu olacağı barədə vəd verilməsi

18 Mamre palıdının yanında
Rəbb İbrahimə göründü; bu
zaman o, günün istisində çadırın
girəcəyində oturmuşdu. 2 [v]O, başını
qaldırıb baxanda qarşısında üç adamın
dayandığını gördü. Onları görən kimi
çadırın girəcəyindən onları qarşılamağa
qaçdı və yerə qədər əyilib dedi: 3 «Ey
ağam, əgər indi gözündə lütf tapdımsa,
qulunun yurdundan yan keçmə.
4 İndi bir az su gətirərlər, ayaqlarınızı
yuyub, ağac altında dincələrsiniz.
5 Mən isə bir parça çörək gətirərəm
ki, canınıza qüvvət gəlsin. Ondan
sonra gedərsiniz, çünki siz qulunuzun
yanından keçirdiniz». Onlar dedilər:
«Dediyin kimi elə».
6 İbrahim çadıra – Saranın yanına
qaçıb dedi: «Tez ol, üç sea narın un
götürüb xəmir yoğur və kökə bişir».
7 İbrahim mal-qaraya tərəf qaçdı.
Oradan körpə və yaxşı bir buzov
götürüb nökərinə verdi. Nökər də onu
hazırlamaq üçün tələsdi. 8 İbrahim
kəsmiyi, südü və hazırladığı buzovu
götürüb onların qabağına qoydu, özü isə
ağacın altında, onların yanında durdu.
Onlar da yedilər.
9 Sonra İbrahimə dedilər: «Arvadın
Sara haradadır?» O dedi: «Burada
çadırdadır». 10 [w]Onlardan biri dedi:
«Gələn il bu vaxt yenə də sənin yanına
gələcəyəm. Onda arvadın Saranın bir
oğlu olacaq». Sara onun arxasında,
çadırın girəcəyində durub qulaq
asırdı. 11 İbrahim və Sara qocalıb yaşa
dolmuşdular. Sara aybaşıdan kəsilmişdi.
12 [x]O, ürəyində gülüb dedi: «Qocaldığım
halda mənə belə şadlıq üz verə bilərmi?
Ağam da qocadır». 13 Rəbb İbrahimə
dedi: «Sara nə üçün "Qocaldıqdan
sonra mən uşaq doğa bilərəmmi?"
deyib güldü? 14 [y]Rəbb üçün çətin bir
şey varmı? Gələn il bu vaxt Mən yenə
sənin yanında olacağam və Saranın bir
oğlu olacaq». 15 Sara qorxduğu üçün
«gülmədim» deyib inkar etdi. Ancaq
Rəbb dedi: «Xeyr, güldün». 16 O adamlar
qalxıb oradan Sodoma tərəf baxdılar.
İbrahim onları yola salmaq üçün onlarla
birgə getdi.

İbrahimin Sodom üçün yalvarması

17 O vaxt Rəbb dedi: «Mən edəcəyim
şeyi İbrahimdən gizlədəcəyəmmi?
18 Həqiqətən, İbrahimdən böyük və
güclü bir millət törəyəcək, onun
vasitəsilə yer üzünün bütün millətləri
xeyir-dua alacaq. 19 Çünki Mən onu
seçdim ki, oğullarına və özündən
sonrakı nəslinə saleh və ədalətli işlər
görmək üçün Rəbbin yolu ilə getməyi
tapşırsın. Rəbb də İbrahim barədə
dediyi sözü yerinə yetirsin». 20 Rəbb
yenə dedi: «Sodom və Homorraya

---

[v] **18:2** İbr. 13:2 [w] **18:10** Rom. 9:9 [x] **18:12** 1Pet. 3:6 [y] **18:14** Luka 1:37

qarşı qalxan fəryad böyük, oranın
adamlarının günahı çox ağırdır. 21 Buna
görə də aşağı enib baxacağam ki, Mənə
çatan fəryadın doğru olub-olmadığını
bilim».
22 O adamlar oradan dönüb Sodoma
getdilər, ancaq İbrahim hələ də Rəbbin
önündə dururdu. 23 İbrahim yaxın
gəlib dedi: «Doğrudanmı, Sən salehi
də günahkarla birgə məhv edəcəksən?
24 Əgər bu şəhərdə əlli nəfər saleh
adam olsa, Sən yenə də oranı məhv
edəcəksən? Əlli nəfər saleh adamın
xatirinə bu yerə rəhm etməyəcəksən?
25 Axı Sən bunu eləməzsən, saleh adamı
günahkarla birgə öldürməzsən. Saleh
adamın aqibətini günahkarınkı kimi
etməzsən, Sən bunu eləməzsən. Bütün
dünyanın Hakimi belə ədalətsizlik
etməz». 26 Rəbb dedi: «Əgər Sodom
şəhərində əlli nəfər saleh adam tapsam,
onların xatirinə bütün bu yerə rəhm
edəcəyəm».
27 İbrahim cavab verdi: «Mən önündə
toz və kül kimi bir şey olsam da, indi
bunu Rəbbə söyləməyə cəsarət edirəm:
28 əlli nəfərdən beş nəfər az saleh adam
tapılsa, beş nəfər əskik olduğu üçün
bütün şəhəri məhv edərsənmi?» Rəbb
dedi: «Əgər orada qırx beş nəfər tapsam,
şəhəri dağıtmayacağam».
29 İbrahim yenə Onu dilə tutub dedi:
«Əgər orada qırx nəfər tapılsa, necə?»
Rəbb dedi: «Qırx nəfərin də xatirinə
bunu etmərəm».
30 İbrahim dedi: «Mən çox danışdığım
üçün Rəbb qəzəblənməsin: əgər orada
otuz nəfər tapılsa, necə?» Rəbb dedi:
«Əgər orada otuz nəfər də tapılsa, bunu
etmərəm».
31 İbrahim dedi: «Mən yenə də Rəbbə
bunu söyləməyi cəsarət edirəm: orada
iyirmi nəfər tapılsa, necə?» Rəbb dedi:
«İyirmi nəfərin də xatirinə oranı məhv
etmərəm».
32 İbrahim dedi: «Qoy Rəbb
qəzəblənməsin ki, mən son dəfə
danışacağam: orada on nəfər tapılsa,
necə?» Rəbb dedi: «On nəfərin də
xatirinə oranı məhv etmərəm».
33 Rəbb İbrahimlə söhbətini bitirib
getdi. İbrahim də öz yerinə qayıtdı.

Sodom və Homorranın məhv olması

19 Axşam iki mələk Sodoma gəldi.
Lut şəhərin darvazası yanında
oturmuşdu. O, mələkləri gördü, qalxıb
onları qarşıladı və yerə qədər əyilib
dedi: 2 «Ağalarım, qulunuzun evinə girib
gecələyin və ayaqlarınızı yuyun. Səhər
qalxıb yolunuza davam edərsiniz».
Onlar dedilər: «Yox, biz gecəni şəhər
meydanında keçirəcəyik». 3 Lut onları
çox dilə tutdu, axırda onlar Lutla birgə
onun evinə getdilər. Lut onları qonaq
edib mayasız çörəklər bişirdi və onlar
yedilər. 4 Ancaq onlar yatmazdan əvvəl
cavandan tutmuş qocaya qədər Sodom
şəhərinin hər məhəlləsindən olan
kişilər evi əhatəyə aldılar. 5 Adamlar
Lutu çağırıb ona dedilər: «Bu gecə
sənin yanına gələn adamlar haradadır?
Onları bizim yanımıza gətir ki, onlarla
yaxınlıq edək». 6 Lut bayıra – onların
yanına çıxıb arxasınca qapını örtdü.
7 O dedi: «Qardaşlarım, pislik etməyin.
8 Mənim ərə getməmiş iki qızım var.
Qızlarımı sizin yanınıza gətirim,
onlara nə istəyirsiniz, edin. Ancaq bu
adamlara toxunmayın, çünki onlar
mənim evimin qonaqlarıdır». 9 Kişilər
qışqırıb dedilər: «Geri çəkil! Bu adam
burada qəribdir, ancaq ağalıq edir. İndi
sənlə onlardan da pis rəftar edəcəyik».
Onlar Luta hücum edib qapını qırmaq
üçün yaxınlaşdılar. 10 Onda içəridəki
mələklər əllərini uzadıb Lutu evin
içinə – öz yanlarına saldılar və qapını
bağladılar. 11 Evin qapısı arxasında
duran adamları kiçikdən tutmuş böyüyə

qədər kor etdilər. Bu səbəbdən adamlar
qapını tapa bilmədilər.
12 Mələklər Luta dedilər: «Burada daha
kimin var? Bu şəhərdə kürəkənlərin,
oğulların, qızların – nəslindən olan hər
kəs varsa, hamısını bu yerdən çıxart,
13 çünki biz bu yeri məhv edəcəyik. Bu
xalqın əleyhinə qalxan fəryad Rəbbə
gəlib çatmışdır, buna görə də Rəbb
bizi göndərib ki, onu məhv edək».
14 Lut gedib qızlarını almaq istəyən
kürəkənlərinə dedi: «Qalxıb bu yerdən
çıxın, çünki Rəbb şəhəri məhv edəcək».
Ancaq kürəkənləri güman etdilər ki, o
zarafat edir.
15 Səhər açılanda mələklər Lutu
tələsdirərək dedilər: «Qalx yanındakı
arvadını və iki qızını götür get, yoxsa
şəhərdəkilərin günahlarına görə məhv
olacaqsan». 16 [z]Lut yavaş tərpəndi.
Rəbb ona mərhəmət etdiyinə görə
həmin şəxslər onun, arvadının və iki
qızının əlindən tutub şəhərdən kənara
çıxartdılar. 17 Onları çıxaran zaman
mələklərdən biri dedi: «Öz canını
qurtar, arxana baxma. Bu düzənliyin
heç yerində qalma, dağa qalx, yoxsa
həlak olarsan». 18 Lut onlara dedi:
«Aman, ağam! 19 İndi bu qulun sənin
gözündə lütf tapdı və canımı xilas
etməklə mənə göstərdiyin xeyirxahlığını
çoxaltdın. Ancaq dağa çata bilmərəm,
çünki bəla mənə də yetişə bilər və həlak
olaram. 20 Yaxınlıqda qaça biləcəyim
kiçik bir şəhər var. Qoy oraya qaçıb
canımı qurtarım. Axı o şəhər kiçikdir».
21 Mələklərdən biri Luta dedi: «Sənin
xatirinə bunu da edərəm: dediyin
şəhəri dağıtmaram. 22 Tez ol, oraya
qaç! Sən oraya çatmamış Mən bir şey
etməyəcəyəm». Buna görə də o şəhər
Soar [*]adlandı. 23 Günəş doğanda Lut
Soara gəldi.
24 [a]Rəbb Sodom və Homorranın
üzərinə göydən odlu kükürd yağdırdı,
25 bu şəhərləri, bütün düzənliyi, oranın
bütün sakinlərini və torpaqda bitən hər
şeyi məhv etdi. 26 [b]Ancaq Lutun arvadı
dönüb geriyə baxdı və duz sütununa
çevrildi.
27 İbrahim səhər erkən qalxıb Rəbbin
önündə durduğu yerə getdi. 28 Oradan
Sodom və Homorraya, bütün düzənliyə
baxdı. O, yerdən kürə tüstüsü kimi bir
tüstü qalxdığını gördü.
29 Allah düzənlikdəki şəhərləri məhv
etdiyi zaman İbrahimi xatırladı, buna
görə də Lutun yaşadığı şəhərləri
dağıdarkən onu fəlakət içindən çıxartdı.

Lut və onun qızları

30 Lut iki qızı ilə birgə Soardan çıxıb
dağda yaşadı, çünki Soarda yaşamaqdan
qorxurdu. O, iki qızı ilə bir mağarada
qaldı. 31 Onun böyük qızı kiçiyinə dedi:
«Atamız qocalıb və bu dünyada insan
adətinə görə yanımıza girməyə bir kişi
yoxdur. 32 Gəl atamıza şərab içirək və
onunla yataq ki, öz atamızdan nəslimiz
olsun». 33 Onlar o gecə atalarına
şərab içirdilər. Böyük qız içəri girib
atası ilə yatdı, atası isə onun nə vaxt
yatıb-durduğunu bilmədi. 34 O biri gün
böyük qız kiçiyinə dedi: «Mən dünən
gecə atamla yatdım. Gəl bu gecə də ona
şərab içirək və sən də onunla yat ki, öz
atamızdan nəslimiz olsun». 35 O gecə
yenə atalarına şərab içirdilər. Kiçik qız
qalxıb onunla yatdı, atası isə onun nə
vaxt yatıb-durduğunu bilmədi.
36 Lutun iki qızı beləcə atalarından
hamilə oldu. 37 Böyük qız bir oğul

[*]**19:22** *Soar* – ibrani dilində *kiçik*.

[z]**19:16** 2Pet. 2:7
[a]**19:24** Mat. 10:15; 11:23-24; Luka 10:12; 17:29; 2Pet. 2:6; Yəhd. 7
[b]**19:26** Luka 17:32

doğdu və onun adını Moav qoydu.
O, indiki Moavlıların əcdadıdır.
38 Kiçik qız da bir oğul doğdu və onun
adını Ben-Ammi qoydu. O, indiki
Ammonluların əcdadıdır.

İbrahim və Avimelek

20 İbrahim Mamredən Negev
torpağına köçdü və Qadeşlə
Şur arasında məskən saldı. Sonra bir
müddət Gerarda qaldı. 2 [c]İbrahim orada
arvadı Sara barəsində «bu mənim
bacımdır» söylədi. Gerar padşahı
Avimelek adam göndərib Saranı
apardı. 3 Ancaq gecə yuxuda Allah
Avimelekə görünüb dedi: «Apardığın
qadına görə sən öləcəksən, çünki o,
bir nəfərin arvadıdır». 4 Avimelek
qadına toxunmamışdı. O dedi: «Ya
Rəbb, məgər sən günahsız xalqı öldürə
bilərsən? 5 O adam mənə "bu mənim
bacımdır" demədimi? Qadın özü də "o
mənim qardaşımdır" dedi. Mən bunu
sadədillik və təmiz niyyətlə etdim».
6 Allah yuxuda dedi: «Mən də bilirəm ki,
sən bunu sadədilliklə etdin. Buna görə
də səni ona toxunmağa qoymayaraq
Mənə qarşı günah etməkdən saxladım.
7 İndi isə qadını ərinə qaytar, çünki
o, peyğəmbərdir. Sənin üçün dua
edər, salamat qalarsan. Ancaq qadını
qaytarmasan, özün və bütün nəslin
hökmən öləcək».
8 Avimelek səhər tezdən qalxıb
bütün adamlarını çağırdı və bu sözləri
onların qarşısında söylədi. Adamlar
çox qorxdular. 9 Avimelek İbrahimi
çağırıb ona dedi: «Bizə nə etdin? Sənə
qarşı nə günah etdim ki, özümün
və padşahlığımın üzərinə bu böyük
təqsiri gətirdin? Mənə qarşı nalayiq
işlər etdin». 10 Avimelek yenə İbrahimə
dedi: «Bu işi görəndə nə düşünürdün?»
11 İbrahim dedi: «Düşünürdüm ki,
burada Allah qorxusu yoxdur və
arvadıma görə məni öldürəcəklər. 12 O,
doğrudan da, mənim bacımdır: atamız
birdir, ancaq anamız ayrıdır. Mən onu
arvad aldım. 13 Allah məni ata evimdən
qürbətə apardığı vaxt ona dedim:
"Mənə bu cür yaxşılıq elə: gedəcəyimiz
hər yerdə mənim barəmdə ‹bu mənim
qardaşımdır› söylə"».
14 Avimelek İbrahimə qoyun-keçi,
mal-qara, qullar və qarabaşlar verdi.
Arvadı Saranı da ona qaytardı.
15 Avimelek dedi: «Mənim ölkəm sənin
önündədir: istədiyin yerdə yaşaya
bilərsən». 16 Sonra Saraya dedi: «Bax
qardaşına min parça gümüş verdim.
Qoy bu gümüş sənin yanındakılara
günahsızlığını göstərən bir sübut olsun
və hər kəs sənin günahsız olduğunu
bilsin». 17 İbrahim Allaha dua etdi,
Allah da Avimelekə, onun arvadına və
cariyələrinə şəfa verdi: onların uşaqları
oldu. 18 Çünki Rəbb İbrahimin arvadı
Saradan ötrü Avimelekin evində olan
bütün qadınların bətnini bağlamışdı.

İshaqın doğulması

21 Rəbb dediyi kimi Saraya nəzər
saldı və ona söylədiyi sözü
yerinə yetirdi: 2 [d]Sara hamilə oldu və
İbrahimin qocalıq çağında – Allahın ona
söylədiyi vaxt bir oğul doğdu. 3 İbrahim
Saradan doğulan oğluna İshaq [*]adını
qoydu. 4 [e]Allahın İbrahimə əmr etdiyi
kimi o, oğlu İshaqı doğulandan səkkiz
gün sonra sünnət etdi. 5 İshaq doğulanda
İbrahimin yüz yaşı var idi. 6 Sara dedi:
«Allah mənim üzümü güldürdü. Bunu
eşidən hər kəs mənimlə birgə güləcək».
7 O yenə dedi: «Kim İbrahimə deyərdi ki,
Sara uşaq əmizdirəcək? Amma qocalıq
çağında mən ona bir oğul doğmuşam».

---

[*]**21:3** *İshaq* – ibrani dilində *gülür*.

[c]**20:2** Yar. 12:13; 26:7 [d]**21:2** İbr. 11:11 [e]**21:4** Yar. 17:12; Həv. 7:8

Həcər və İsmailin evdən qovulması

8 Uşaq böyüyüb süddən kəsildi.
İshaqın süddən kəsildiyi gün İbrahim
böyük bir ziyafət verdi. 9 [f]Sara gördü
ki, Misirli Həcərin İbrahimə doğduğu
oğlu ona gülür. 10 Sara İbrahimə
dedi: «Bu cariyəni və onun oğlunu
qov. Bu cariyənin oğlu mənim oğlum
İshaqla birgə varis olmayacaq». 11 Bu iş
İbrahimi çox narahat etdi, çünki İsmail
də onun oğlu idi. 12 [g]Allah İbrahimə
dedi: «Uşaqdan və cariyəndən ötrü
narahat olma. Saranın sənə söylədiyi
bütün sözlərə qulaq as, çünki İshaqdan
törəyənlər sənin nəslin adlanacaq.
13 Amma cariyənin oğlundan da bir
millət törədəcəyəm, çünki o da sənin
nəslindir».
14 İbrahim səhər tezdən qalxdı, çörək
və bir tuluq su götürüb çiyninə qoyaraq
Həcərə verdi. Uşağı da ona verib onu
yola saldı. Həcər gedib Beer-Şeva
çölündə dolaşdı. 15 Tuluqda su qurtardı.
O, oğlunu bir kolun altına qoydu.
16 Sonra oradan bir ox məsafəsi qədər
aralanıb uzaqda oturdu. «Oğlumun
ölümünü görməyim» dedi və uşağın
qarşısında oturub hönkür-hönkür
ağladı.
17 Allah uşağın səsini eşitdi. Allahın
mələyi göylərdən Həcəri çağırıb dedi:
«Sənə nə olub, Həcər? Qorxma, çünki
uşağın oturduğu yerdən Allah onun
səsini eşitdi. 18 Qalx uşağı qaldır, onu
qucağına götür. Mən ondan böyük bir
millət törədəcəyəm». 19 Allah Həcərin
gözlərini açdı və o, bir su quyusu
gördü. Gedib tuluğu su ilə doldurarаq
uşağa içirtdi. 20 Allah bu uşaqla idi.
O böyüyüb, çöldə yaşamağa başladı
və mahir oxatan oldu. 21 O, Paran
çölündə məskən saldı. Anası ona Misir
torpağından bir arvad aldı.

İbrahimin Avimeleklə əhdi

22 [h]O zaman Avimelek və onun ordu
başçısı Pikol İbrahimə dedilər: «Sən nə
etsən, Allah səninlədir. 23 İndi burada
Allahın haqqına mənə and iç ki, nə
mənə, nə oğluma, nə də nəvəmə xəyanət
edəcəksən: mən sənə sadiq olduğum
kimi sən də mənə və qaldığın torpağın
adamlarına sadiq ol». 24 İbrahim «mən
and içirəm» dedi.
25 Avimelekin adamlarının qəsb
etdiyi su quyusundan ötrü İbrahim
Avimeleki məzəmmət etdi. 26 Avimelek
dedi: «Bilmirəm, bu işi kim etdi. Sən
də mənə bildirmədin, mən ancaq
indi eşidirəm». 27 İbrahim qoyun-keçi
və mal-qara alıb Avimelekə verdi.
Beləcə ikisi bir əhd bağladı. 28 İbrahim
sürüsündən yeddi dişi quzunu ayırıb
qoydu. 29 Avimelek İbrahimə dedi:
«Ayırıb qoyduğun bu yeddi dişi quzu
nə üçündür?» 30 O dedi: «Bu yeddi dişi
quzunu məndən götür ki, bu quyunu
qazdığıma şəhadət olsun». 31 Buna görə
də o buranı Beer-Şeva* adlandırdı, çünki
onların ikisi də orada and içdi. 32 Beləcə
Beer-Şevada əhd bağladılar. Sonra
Avimelek və onun ordu başçısı Pikol
qalxıb Filiştlilərin ölkəsinə qayıtdılar.
33 İbrahim Beer-Şevada bir yulğun ağacı
əkdi və orada əbədi Allah olan Rəbbin
adını çağırdı. 34 İbrahim Filiştlilərin
ölkəsində uzun müddət qaldı.

İbrahimin sınağa çəkilməsi

22 [i]Bir müddət sonra Allah İbrahimi
sınağa çəkdi. O «Ey İbrahim!»
deyə çağırdı. İbrahim «Buradayam!»
dedi. 2 Allah dedi: «Sevdiyin yeganə

*__21:31__ *Beer-Şeva* – ibrani dilində *and quyusu* yaxud *yeddi quyu.*

[f]**21:9** Qal. 4:29-30 [g]**21:12** Rom. 9:7; İbr. 11:18 [h]**21:22** Yar. 26:26
[i]**22:1** İbr. 11:17-19

oğlunu – İshaqı götürüb Moriya
torpağına get. Orada sənə göstərəcəyim
bir dağda oğlunu yandırma qurbanı
olaraq təqdim et». 3 İbrahim səhər
tezdən qalxdı və eşşəyini palanladı. Özü
ilə iki nökərini və oğlu İshaqı götürdü.
O, yandırma qurbanı üçün odun yardı
və qalxıb Allahın dediyi yerə yollandı.
4 İbrahim üçüncü gün başını qaldırıb
uzaqdan o yeri gördü. 5 O, nökərlərinə
dedi: «Siz eşşəklə birlikdə burada qalın,
mən uşaqla oraya gedəcəyəm. Səcdə
edib, yanınıza qayıdarıq».
6 İbrahim yandırma qurbanı üçün
odun götürüb oğlu İshaqın kürəyinə
qoydu, odu və bıçağı isə özü götürdü.
İkisi birlikdə getdilər. 7 İshaq atası
İbrahimi çağırdı: «Ay ata!» O cavab
verdi: «Buradayam, oğlum». İshaq dedi:
«Od və odun var, bəs yandırma qurbanı
olacaq quzu haradadır?» 8 İbrahim
dedi: «Oğlum, yandırma qurbanı olacaq
quzunu Allah Özü hazırlayacaq». İkisi
birlikdə getdilər.
9 [j]Sonra Allahın İbrahimə göstərdiyi
yerə gəldilər. İbrahim orada bir
qurbangah düzəldib odunları düzdü
və oğlu İshaqın əl-qolunu bağlayıb
qurbangaha, odunların üstünə qoydu.
10 İbrahim əlini uzadıb oğlunu kəsmək
üçün bıçağı götürdü. 11 Rəbbin mələyi
göylərdən onu çağırdı: «İbrahim,
İbrahim!» O «Mən buradayam!» dedi.
12 Mələk dedi: «Uşağa əl qaldırma və
ona bir şey etmə. İndi bildim ki, sən
Allahdan qorxursan; öz yeganə oğlunu
Məndən əsirgəmədin». 13 İbrahim başını
qaldırıb baxdı və arxasında buynuzları
kolluğa ilişmiş bir qoç gördü. İbrahim
gedib qoçu götürdü və oğlunun əvəzinə
yandırma qurbanı olaraq təqdim etdi.
14 İbrahim o yeri Yahve-İre *adlandırdı;
buna görə də indiyə qədər belə deyilir:
«Rəbbin dağında hazırlanacaq».
15 Rəbbin mələyi yenə göylərdən
İbrahimi çağırıb dedi: 16 [k]«Rəbb bəyan
edir: “Öz varlığıma and içirəm ki,
sən bu işi etdiyinə və yeganə oğlunu
əsirgəmədiyinə görə 17 [l]Mən sənə böyük
xeyir-dua verəcəyəm, nəslini göydəki
ulduzlar və dəniz kənarındakı qum
qədər artırıb çoxaldacağam. Sənin
nəslin öz düşmənlərinin şəhərlərinə
sahib olacaq. 18 [m]Dünyanın bütün
millətləri sənin nəslinin vasitəsilə
xeyir-dua alacaq, çünki sən Mənim
sözümə qulaq asdın”». 19 Sonra İbrahim
öz nökərlərinin yanına qayıtdı və onlar
qalxıb Beer-Şevaya getdilər. İbrahim
Beer-Şevada sakin oldu.

Naxorun nəsli

20 Bir müddət sonra İbrahimə xəbər
verib söylədilər: «Budur, Milka qardaşın
Naxora oğullar doğdu: 21 ilk oğlu Us,
onun qardaşı Buz, Aramın atası olan
Qemuel, 22 Kesed, Xazo, Pildaş, İdlaf və
Betuel». 23 Betueldən Rivqa törədi. Bu
səkkiz övladı Milka İbrahimin qardaşı
Naxora doğdu. 24 Onun adı Reuma olan
cariyəsi də Tebahı, Qahamı, Taxaşı və
Maakanı doğdu.

Saranın ölümü

23 Sara yüz iyirmi yeddi il yaşadı;
o bu qədər ömür sürdü. 2 Sara
Kənan torpağında olan Qiryat-Arbada,
yəni Xevronda öldü. İbrahim yas tutub
ağlamaqdan ötrü Saranın cəsədinin
yanına getdi. 3 İbrahim cəsədin
yanından gedib Xetlilərə dedi: 4 [n]«Mən
sizin aranızda qərib və qonağam.
Yanınızda qəbir düzəltmək üçün
mənə torpaq sahəsi satın ki, öz ölümü

*__22:14__ *Yahve-İre* – ibrani dilində *Rəbb hazırlayar.*

[j]__22:9__ Yaq. 2:21 [k]__22:16__ İbr. 6:13-14 [l]__22:17__ İbr. 11:12
[m]__22:18__ Həv. 3:25 [n]__23:4__ İbr. 11:9,13; Həv. 7:16

götürüb orada basdırım». 5 Xetlilər
İbrahimə cavab verdilər: 6 «Ey ağamız,
bizə qulaq as: sən aramızda Allahın
qoyduğu bir başçısan, öz ölünü də
qəbirlərimizin ən yaxşısında basdır;
ölünü basdırmaq üçün bizdən heç kəs
qəbrini səndən əsirgəməz». 7 İbrahim
qalxıb o ölkənin xalqı olan Xetlilərə
təzim etdi. 8 Sonra onlarla danışıb dedi:
«Əgər siz mənim ölümü basdırmağa
razısınızsa, mənə qulaq asın: mənim
üçün Sohar oğlu Efrondan xahiş edin ki,
9 tarlasının qurtaracağında ona məxsus
olan Maxpela mağarasını mənə satsın,
yanınızda qəbir düzəltmək üçün onu
tam dəyəri ilə mənə versin».
10 Efron Xetlilərin arasında
oturmuşdu. Xetli Efron şəhər
darvazasının yanına yığılan bütün
Xetlilərin önündə İbrahimə belə cavab
verdi: 11 «Yox, ağam, mənə qulaq as:
mən tarlanı və orada olan mağaranı
sənə verirəm, öz xalqımın adamları
önündə onu sənə verirəm; get ölünü
basdır».
12 İbrahim o ölkənin xalqına təzim
etdi. 13 Sonra o ölkənin xalqının yanında
Efrona belə dedi: «Xahiş edirəm, mənə
qulaq as: tarlanın dəyərini verirəm, onu
məndən götür, qoy mən də öz ölümü
orada basdırım». 14 Efron İbrahimə
cavab verdi: 15 «Ay ağam, mənə qulaq
as: torpağın qiyməti dörd yüz şekel
gümüşdür; mənimlə sənin aranda
bu nədir? Ölünü basdır». 16 İbrahim
Efronun sözünü qəbul edib Xetlilərin
yanında Efronun dediyi kimi tacirlərin
tərəzi daşları ilə dörd yüz şekel gümüş
çəkdi.
17 Beləcə Mamre qarşısındakı
Maxpelada olan Efronun tarlası, oradakı
mağara, tarlada və onun ərazisində olan
bütün ağaclar 18 Xetlilərin gözü önündə
– şəhər darvazasında yığılanların
qarşısında İbrahimin mülkü oldu.
19 Bundan sonra İbrahim arvadı Saranı
Kənan torpağında olan Mamre, yəni
Xevron qarşısındakı Maxpela tarlasının
mağarasında basdırdı. 20 Beləcə Xetlilər
tarlanı və orada olan mağaranı qəbir
düzəltmək üçün İbrahimə mülk verdilər.

İshaq və Rivqa

24 İbrahim qocalıb yaşa dolmuşdu.
Rəbb hər şeydə ona xeyir-dua
vermişdi. 2 Bir gün İbrahim evində
bütün işləri idarə edən qulbaşıya
dedi: «Əlini budumun altına qoyub
3 göyün və yerin Allahı Rəbbin adına
mənə and iç ki, oğluma aralarında
yaşadığım Kənanlıların qızlarından
arvad almayacaqsan, 4 ancaq mənim
ölkəmə, qohumlarımın yanına gedib
oğlum İshaq üçün arvad alacaqsan».
5 Nökər ona dedi: «Bəlkə qız mənimlə
birgə bu ölkəyə gəlməyə razı olmadı?
Onda oğlunu sənin çıxdığın ölkəyə
aparımmı?» 6 İbrahim ona dedi: «Bax
oğlumu oraya aparma. 7 Məni atamın
evindən və doğulduğum torpaqdan
çıxaran, mənimlə danışan və and içərək
“bu torpağı sənin nəslinə verəcəyəm”
deyən göylərin Allahı Rəbb Öz mələyini
sənin önündə göndərəcək və sən oradan
oğluma arvad alıb gətirəcəksən. 8 Əgər
o qadın sənінlə gəlmək istəməsə, sən
bu anddan azad olursan. Ancaq mənim
oğlumu oraya aparma». 9 Nökər əlini
ağası İbrahimin budu altına qoyub bu
işə görə ona and içdi.
10 Nökər ağasından on dəvə və ən
yaxşı hədiyyələr götürüb getdi və
Aram-Naharayimə,* Naxor şəhərinə
gəldi. 11 Axşam qadınlar su çəkmək
üçün çıxdıqları zaman onun dəvələri
şəhərin kənarında olan su quyusunun
yanında dayandı. 12 Sonra dua etdi:

*24:10 *Aram-Naharayim* – Mesopotamiya.

«Ya Rəbb, ağam İbrahimin Allahı,
yalvarıram, bu gün işimi avand elə
və ağam İbrahimə xeyirxahlıq göstər.
13 Mən bu bulağın yanında dururam;
şəhər sakinlərinin qızları su çəkmək
üçün buraya gəlirlər. 14 Qoy elə olsun
ki, mənim "xahiş edirəm, səhəngini
endir, su içim" deyəcəyim və mənə
"özün də iç və dəvələrinə də verim"
söyləyəcək qız qulun İshaq üçün təyin
etdiyin arvad olsun; bundan bilərəm ki,
ağama xeyirxahlıq edirsən».
15 O, duasını bitirməmişdi ki,
İbrahimin qardaşı Naxorun arvadı
Milkadan doğulan oğlu Betuelin qızı
Rivqa çiynində səhəng gəldi. 16 Qız
görünüşcə çox gözəl idi və hələ bakirə
idi. O, bulağa endi və səhəngini
doldurub yuxarı qalxdı. 17 Nökər onun
qabağına qaçıb dedi: «Xahiş edirəm,
səhəngindən mənə bir az su ver, içim».
18 Qız dedi: «Ağam, buyur iç». Qız tez
səhəngini əli üstünə endirdi və ona
su verdi. 19 Ona su verəndən sonra
dedi: «Dəvələrin üçün də su çəkim, içib
doysunlar». 20 Qız tez səhəngini təknəyə
boşaltdı, su çəkmək üçün cəld quyunun
yanına qaçdı və nökərin bütün dəvələri
üçün su çəkdi. 21 O adam sakit duraraq
diqqətlə qıza baxırdı ki, Rəbbin onun
yoluna xeyir-dua verib-vermədiyini
bilsin.
22 Dəvələr su içib qurtaranda o
adam çəkisi bir beqa olan qızıl burun
sırğası, qızın qolları üçün çəkisi on
şekel olan iki bilərzik götürüb dedi:
23 «Mənə de görüm, sən kimin qızısan?
Atanın evində bizə gecə qalmaq üçün
yer tapılarmı?» 24 Qız ona dedi: «Mən
Milkanın Naxora doğduğu Betuelin
qızıyam». 25 Yenə dedi: «Bizdə saman
da, yem də çoxdur və gecələməyə yer də
var». 26 O adam əyilib Rəbbə səcdə etdi.
27 Sonra dedi: «Ağam İbrahimin Allahı
Rəbbə alqış olsun ki, xeyirxahlığını və
sədaqətini ağamdan əsirgəmədi: Rəbb
məni birbaş ağamın qardaşının evinə
gətirdi».
28 Qız qaçıb anasının evində bu
barədə danışdı. 29 Rivqanın bir qardaşı
var idi, adı Lavan idi. Lavan çıxıb
o adamın yanına – bulağa qaçdı.
30 O, bacısının burun halqasını və
qollarındakı bilərziyi görəndə, bacısı
Rivqanın «bu adam mənimlə belə
danışdı» sözlərini eşidəndə o adamın
yanına gəldi. O, bulaq başında dəvələrin
yanında dayanmışdı. 31 Lavan dedi: «Ey
Rəbbin xeyir-dua verdiyi adam, içəri gir.
Nə üçün bayırda dururs an? Mən sənə
otaq və dəvələrinə yer hazırlamışam».
32 O adam evə girdi. Lavan dəvələrin
yükünü boşaltdı, onlara saman və yem
verdi, o adama və onunla birgə olanlara
ayaqlarını yumaq üçün su verdi.
33 Onların qabağına yemək gətirildi,
ancaq həmin adam dedi: «Məqsədimi
söyləməyincə yeməyəcəyəm». Lavan
dedi: «Söylə».
34 O dedi: «Mən İbrahimin nökəriyəm.
35 Rəbb ağama çoxlu xeyir-dua verdi:
onu varlandırdı, ona qoyun-keçi,
mal-qara, qızıl-gümüş, qullar,
qarabaşlar, dəvələr və eşşəklər verdi.
36 Ağamın arvadı Sara da qoca ikən
ağama bir oğul doğdu. Ağam özünə
məxsus olan hər şeyi ona verdi. 37 Sonra
da məni and içdirərək dedi: "Ölkələrində
yaşadığım Kənanlıların qızlarından
oğluma arvad alma, 38 ancaq atamın
evinə – qohumlarımın yanına gedib
oradan oğluma bir arvad al". 39 Mən
ağama dedim: "Bəlkə o qadın mənimlə
gəlmədi". 40 O mənə dedi: "Önündə
davrandığım Rəbb sənin lə Öz mələyini
göndərəcək, yolun uğurlu olacaq və
qohumlarımın arasından – atamın
evindən oğluma bir arvad alacaqsan.
41 Qohumlarımın yanına getdiyin zaman
içdiyin anddan azad olacaqsan: əgər o
qızı sənə verməsələr, içdiyin anddan
azad olacaqsan".

42 Mən də bu gün bulağın yanına gəlib
dua etdim: “Ey ağam İbrahimin Allahı
Rəbb, yalvarıram, getdiyim yolu aç.
43 İndi mən bulağın yanında dururam;
su çəkməyə gələn və mənim ona ‹xahiş
edirəm, mənə səhəngindən bir az su
ver, içim› deyəcəyim, 44 onun da mənə
‹sən də iç, dəvələrinə də gedib su
çəkim› söyləyəcək qız ağamın oğlu üçün
Rəbbin təyin etdiyi arvad olsun”. 45 Mən
ürəyimdə dua etməyi qurtarmamışdım
ki, Rivqa səhəngi çiynində gəldi və
bulağa enib su çəkdi. Ona dedim:
“Xahiş edirəm, mənə su ver”. 46 O tez
səhəngini çiynindən endirib dedi: “Sən
iç, gedim dəvələrinə də su verim”. Mən
içdim, o isə dəvələrə su verdi. 47 Ondan
soruşdum: “Sən kimin qızısan?” O dedi:
“Milkanın Naxora doğduğu Betuelin
qızıyam”. Mən də onun burnuna halqa
və qollarına bilərziklər taxdım. 48 Sonra
əyilib Rəbbə səcdə etdim. Ağamın
qardaşı qızını oğluna almaq üçün məni
birbaş buraya gətirən ağam İbrahimin
Allahı Rəbbə şükür etdim. 49 İndi mənə
deyin görüm, siz ağama xeyirxahlıq
və sədaqət göstərmək istəyirsiniz ya
yox? Bunu mənə bildirin ki, mən də nə
edəcəyimi bilim».
50 Lavan və Betuel ona belə cavab
verdilər: «Bu iş Rəbdən oldu; sənə nə
yaxşı, nə də pis söz deyə bilərik. 51 Bax
Rivqa qarşındadır: onu götürüb get və
qoy o, Rəbbin söylədiyi kimi ağanın
oğluna arvad olsun». 52 İbrahimin nökəri
onların sözlərini eşidəndə yerə qapanıb
Rəbbə səcdə etdi. 53 Nökər qızıl-gümüş
şeylər və paltarlar çıxarıb Rivqaya
verdi. Onun qardaşına və anasına da
qiymətli şeylər bağışladı. 54 Özü və
onunla birgə olan adamlar yeyib-içdilər
və orada gecələdilər. Səhər qalxanda
nökər dedi: «Məni ağamın yanına
göndərin». 55 Qızın qardaşı ilə anası
dedilər: «Qoy qız bizimlə heç olmasa
on gün qalsın, sonra gedər». 56 Nökər
onlara dedi: «İndi ki Rəbb mənə yol
açdı, məni gecikdirməyin, buraxın
ağamın yanına gedim». 57 Onlar dedilər:
«Qoy qızı çağırıb öz dilindən eşidək».
58 Rivqanı çağırıb ona dedilər: «Bu
adamla gedirsənmi?» O da «gedirəm»
dedi. 59 Onlar bacıları Rivqanı, onun
dayəsini, İbrahimin nökərini və onunla
olan adamları yola saldılar. 60 Rivqaya
xeyir-dua verib dedilər:

«Ey bacımız,
Minlərlə, on minlərlə övlada ana
olasan!
Qoy nəslin yağıların yurduna sahib
olsun!»

61 Rivqa və qulluqçuları qalxıb
dəvələrə mindilər və o adamla birgə
getdilər. Beləliklə, nökər Rivqanı
götürüb getdi.
62 İshaq Beer-Laxay-Roi yolu ilə
gəldi, çünki o, Negev torpağında
yaşayırdı. 63 Axşam düşəndə İshaq bir
qədər düşünmək üçün çöllüyə getdi.
O, başını qaldırıb baxanda gördü ki,
dəvələr gəlir. 64 Rivqa da başını qaldırıb
İshaqı görəndə dəvədən düşdü. 65 O,
nökərdən soruşdu: «Bizi qarşılamaq
üçün çöllüyə gələn bu adam kimdir?»
Nökər «ağamdır» dedi. Rivqa rübəndini
üzünə çəkib örtündü.
66 Nökər baş vermiş bütün işlər
barədə İshaqa danışdı. 67 İshaq Rivqanı
anası Saranın yaşadığı çadıra apardı və
Rivqa onun arvadı oldu. İshaq onu sevdi
və anasının ölümündən sonra onunla
təsəlli tapdı.

İbrahimin ölümü

(1Saln. 1:32-33)

25 İbrahim başqa bir arvad aldı.
Onun adı Qetura idi. 2 Qetura
ona bunları doğdu: Zimran, Yoqşan,
Medan, Midyan, İşbaq və Şuah.
3 Yoqşandan Səba və Dedan törədi.
Dedanın nəsilləri: Aşşurlular, Letuşlular,
Leumlular. 4 Midyanın oğulları: Efa,

Efer, Xanok, Avida və Eldaa. Bunların
hamısı Qeturanın övladlarıdır. 5 İbrahim
özünə məxsus olan hər şeyi İshaqa
verdi. 6 Cariyələrinin oğullarına isə
hədiyyələr verdi. Sağlığında onları oğlu
İshaqın yanından şərq torpağına tərəf
göndərdi.
7 İbrahim yüz yetmiş beş il ömür
sürdü. 8 O, uzun ömür sürdü, qoca
vaxtında son nəfəsini verərək ölüb
əcdadlarına qoşuldu. 9 Oğulları İshaq
və İsmail onu Mamre qarşısında olan
Maxpela mağarasında, Xetli Sohar
oğlu Efronun tarlasında basdırdılar.
10 [o]O tarlanı İbrahim Xetlilərdən
satın almışdı. İbrahim və arvadı Sara
orada basdırıldı. 11 Allah İbrahimin
ölümündən sonra oğlu İshaqa xeyir-dua
verdi. İshaq Beer-Laxay-Roidə yaşayırdı.

İsmailin oğulları

(1Saln. 1:28-31)

12 Saranın qarabaşı Misirli Həcərin
İbrahimə doğduğu İsmailin nəsil
tarixçəsi belədir. 13 Doğulma sırasına
görə İsmailin oğullarının adları belədir:
İsmailin ilk oğlu Nevayot, Qedar,
Adbeel, Mivsam, 14 Mişma, Duma,
Massa, 15 Xadad, Tema, Yetur, Nafiş və
Qedma; 16 İsmailin oğulları bunlardır,
kəndləri və obaları ilə birgə onların
adları belədir. Onlar öz tayfalarının
on iki başçısı idi. 17 İsmail yüz otuz
yeddi il ömür sürdü. O, ömrünü başa
vurdu və ölüb əcdadlarına qoşuldu.
18 İsmailin nəsilləri Xaviladan Şura
qədər olan ərazidə məskən saldı. Şur
Aşşura gedərkən Misirin qarşısındadır.
Onlar qardaşlarının yaşadığı yerin
qarşısında yerləşmişdi.

Yaqub və Esav

19 İbrahimin oğlu İshaqın tarixçəsi
belədir: İbrahimdən İshaq törədi.
20 İshaq Paddan-Aramdan Aramlı
Lavanın bacısı, Aramlı Betuelin qızı
Rivqanı arvad alanda qırx yaşında idi.
21 İshaq arvadı üçün Rəbbə yalvardı,
çünki o, sonsuz idi. Rəbb İshaqın
yalvarışını eşitdi, onun arvadı Rivqa
hamilə oldu. 22 Rivqanın bətnindəki
uşaqlar çarpışmağa başladı. O da «Niyə
bu iş başıma gəldi?» deyib bu barədə
Rəbdən soruşmağa getdi. 23 [p]Rəbb ona
dedi:

«Sənin bətnində iki millət var,
Sənin qarnından iki xalq çıxacaq.
Bir xalq o biri xalqdan güclü olacaq,
Böyüyü kiçiyinə qulluq edəcək».

24 Rivqanın doğmaq vaxtı çatanda
məlum oldu ki, onun bətnində əkizlər
var. 25 İlk doğulan uşağın bütün dərisi
qırmızı və tüklü cübbə kimi idi. Onda
onun adını Esav [*]qoydular. 26 Ondan
sonra qardaşı doğuldu. O, əli ilə Esavın
topuğundan tutmuşdu. Onun adını
Yaqub [†]qoydular. Onların doğulduğu
vaxt İshaq altmış yaşında idi.
27 Uşaqlar böyüdü. Esav mahir
ovçu və çöl adamı oldu. Yaqub isə
çadırlarda yaşayan mülayim bir adam
oldu. 28 İshaq Esavı sevirdi, çünki onun
ovladığı heyvanlar İshaqın xoşuna
gəlirdi. Rivqa isə Yaqubu sevirdi.
29 Bir gün Yaqub şorba bişirirdi. Esav
isə çöldən yorğun gəldi. 30 Esav Yaquba
dedi: «Bu qırmızı şorbadan bir az ver,
yeyim, çünki acmışam». Buna görə də
ona Edom [‡]adı verildi. 31 Yaqub dedi:
«Əvvəlcə ilk oğulluq haqqını mənə sat».
32 Esav dedi: «Bir halda ki mən acından

---

[*]**25:25** *Esav* – ibrani dilində *tüklü.*
[†]**25:26** *Yaqub* – ibrani dilində *topuq tutan.*
[‡]**25:30** *Edom* – ibrani dilində *qırmızı.*

[o]**25:10** Yar. 23:3-16 [p]**25:23** Rom. 9:11-12

ölürəm, ilk oğulluq haqqı nəyimə
lazımdır?» 33 [q]Yaqub dedi: «Əvvəlcə
mənə and iç». Esav ona and içdi və ilk
oğulluq haqqını Yaquba satdı. 34 Yaqub
Esava çörək və mərci şorbası verdi. Esav
yeyib-içdi, sonra qalxıb getdi. Beləcə
Esav ilk oğulluq haqqına etinasızlıq
etdi.

İshaq və Avimelek

26 İbrahimin yaşadığı dövrdə olan
aclıqdan başqa, ölkədə daha bir
aclıq oldu. İshaq Gerara, Filiştlilərin
padşahı Avimelekin yanına getdi.
2 Rəbb ona görünüb dedi: «Misirə
getmə, sənə söylədiyim ölkədə məskən
sal, 3 [r]bu torpaqda qal. Mən sənlə
olacağam və sənə xeyir-dua verib bütün
bu ölkələri sənə və nəslinə verəcəyəm;
atan İbrahimə içdiyim andı yerinə
yetirəcəyəm. 4 Nəslini göydəki ulduzlar
qədər çoxaldacağam və bütün bu
ölkələri nəslinə verəcəyəm. Yer üzünün
bütün millətləri sənin nəslinin vasitəsilə
xeyir-dua alacaq. 5 Çünki İbrahim
sözümə qulaq asıb Mənim buyruğuma,
əmrlərimə, qaydalarıma və qanunlarıma
əməl etdi».
6 İshaq da Gerarda yaşadı. 7 [s]O
ölkənin sakinləri İshaqın arvadı barədə
soruşanda «bu mənim bacımdır»
dedi, çünki «mənim arvadımdır»
deməyə qorxdu. Öz-özünə dedi: «Yoxsa
Rivqadan ötrü bu yerin adamları məni
öldürərlər». Rivqa görünüşcə çox gözəl
idi. 8 İshaq orada uzun müddət qaldı.
Bir gün Filiştlilərin padşahı Avimelek
pəncərədən baxıb gördü ki, İshaq arvadı
Rivqanı əzizləyir. 9 Avimelek İshaqı
çağırıb dedi: «O ki sənin arvadındır.
Bəs niyə onun barəsində “bu mənim
bacımdır” dedin?» İshaq ona dedi:
«Çünki istəmədim ki, ondan ötrü ölüm».
10 Avimelek dedi: «Bu nə işdir başımıza
gətirdin? Az qalmışdı ki, xalqdan
biri sənin arvadınla yatsın. Beləcə
bizi günaha batıracaqdın». 11 Sonra
Avimelek «bu adama və onun arvadına
toxunan mütləq öldürüləcək» deyə
bütün xalqa elan etdi.
12 İshaq o torpaqda toxum əkdi və
o il yüz qat məhsul aldı. Beləcə Rəbb
ona xeyir-dua verdi. 13 Bu şəxs böyük
adam oldu. Çox böyük adam olana
qədər get-gedə yüksəldi. 14 Onun çoxlu
qoyun-keçisi, mal-qarası və xidmətçiləri
olduğuna görə Filiştlilər ona paxıllıq
etməyə başladı. 15 Atası İbrahimin
dövründə atasının qullarının qazdığı
bütün quyuları Filiştlilər qapayıb
torpaqla doldurmuşdular. 16 Avimelek
İshaqa dedi: «Yanımızdan get, çünki
bizdən çox güclü oldun». 17 İshaq
oradan getdi, Gerar vadisində məskən
saldı və orada qaldı.
18 İshaq atası İbrahimin dövründə
qazılmış su quyularını yenə qazdı,
çünki Filiştlilər İbrahimin ölümündən
sonra onları qapamışdılar. O, atasının
qoyduğu adları yenə onlara verdi.
19 İshaqın qulları vadidə torpağı
qazdılar və bir içməli su quyusu
tapdılar. 20 Gerar çobanları «su
bizimdir» deyib İshaqın çobanları ilə
mübahisə etdilər. O, quyunun adını
Eseq [*]qoydu, çünki onun üstündə
mübahisə etmişdilər. 21 Onlar başqa bir
quyu qazdılar. Onun üçün də mübahisə
etdilər. İshaq bu quyunun adını Sitna
[†]qoydu. 22 İshaq oradan köçüb başqa bir
quyu qazdı. Ancaq onun üçün mübahisə
etmədilər, buna görə də İshaq onun

---

[*]**26:20** *Eseq* – ibrani dilində *mübahisə.*
[†]**26:21** *Sitna* – ibrani dilində *düşmənçilik.*

[q]**25:33** İbr. 12:16 [r]**26:3** Yar. 22:16-18; Həv. 3:25 [s]**26:7** Yar. 12:13; 20:2

adını Rexovot* qoyub dedi: «İndi Rəbb
bizə genişlik verdi və biz bu torpaqda
çoxalacağıq».
23 İshaq oradan Beer-Şevaya getdi.
24 O gecə Rəbb ona görünüb dedi: «Mən
atan İbrahimin Allahıyam. Qorxma,
çünki Mən sənin ləyəm. Qulum İbrahimə
görə sənə xeyir-dua verəcəyəm və
nəslini çoxaldacağam». 25 İshaq orada
bir qurbangah düzəltdi və Rəbbin adını
çağırdı. O özünə çadır qurdu. İshaqın
qulları orada bir quyu qazdılar.
26 tO zaman Avimelek məsləhətçisi
Axuzzat, ordu başçısı Pikol ilə birgə
Gerardan İshaqın yaşadığı torpağa gəldi.
27 İshaq onlara dedi: «Nə üçün yanıma
gəlmisiniz? Sizin ki məndən acığınız
gəlirdi və məni yanınızdan qovdunuz».
28 Onlar dedilər: «Biz aydın gördük ki,
Rəbb, doğrudan da, sənin lədir. İndi
istəyirik ki, sənin lə bizim aramızda and
olsun. Gəl sənin lə əhd bağlayaq ki, 29 biz
sənə toxunmadığımız və yalnız yaxşılıq
edib sağ-salamat yola saldığımız kimi
sən də bizə heç bir pislik etməyəcəksən.
İndi sən Rəbbin xeyir-dua verdiyi
adamsan». 30 İshaq onlara ziyafət verdi
və onlar yeyib-içdilər. 31 Səhər tezdən
qalxıb bir-birlərinə and içdilər. İshaq
onları yola saldı və onlar sağ-salamat
onun yanından getdilər. 32 O gün
İshaqın qulları gəldilər və qazdıqları
quyu barədə ona bildirərək «su tapdıq»
dedilər. 33 İshaq bu quyunun adını Şiva
†qoydu, buna görə də şəhərin adı bu
günə qədər Beer-Şevadır.

Esavın arvadları

34 Esav qırx yaşında olanda Xetli
Beerinin qızı Yehuditi və Xetli Elonun
qızı Basmatı arvad aldı. 35 Onlar İshaqın
və Rivqanın ürəklərinə dərd oldu.

İshaqın Yaquba xeyir-dua verməsi

27 İshaq qocalıb gözləri
görməyəndə böyük oğlu
Esavı yanına çağırıb dedi: «Ay oğlum».
Esav ona «mən buradayam» dedi.
2 İshaq dedi: «Mən artıq qocalmışam,
bu gün-sabah öləcəyəm. 3 İndi silahını,
yayını və oxdanını götür, çöllüyə get və
mənim üçün heyvan ovla. 4 Sonra da
mənə xoşladığım ləzzətli yeməyi hazırla
və gətir ki, yeyim. Onda ölməmişdən
qabaq mən sənə xeyir-dua verərəm».
5 İshaq oğlu Esavla danışarkən
Rivqa eşidirdi. Esav heyvan ovlayıb
gətirmək üçün çöllüyə getdi. 6 Rivqa
oğlu Yaquba belə dedi: «Bax mən
eşitdim ki, atan qardaşın Esava bu
sözləri dedi: 7 “Mənim üçün ov əti
gətir, mənə ləzzətli yemək hazırla ki,
yeyim. Sonra sənə ölümümdən qabaq
Rəbbin hüzurunda xeyir-dua verərəm”.
8 Oğlum, indi sənə əmr edəcəyim sözlərə
qulaq as: 9 bu saat sürüyə gedib oradan
mənə iki yaxşı oğlaq gətir. Onlardan
atanın xoşladığı kimi ləzzətli yemək
hazırlayacağam. 10 Sən də onu yeməsi
üçün atana aparacaqsan ki, ölümündən
qabaq sənə xeyir-dua versin». 11 Yaqub
anası Rivqaya dedi: «Qardaşım Esav
tüklü bir adamdır, mən isə tüksüzəm.
12 Birdən atam mənə əlini sürtər və
mən onun nəzərində yalançı olaram.
Onda üzərimə xeyir-dua yox, lənət
gətirərəm».
13 Anası ona dedi: «Sənə olunacaq
lənət mənə gəlsin, oğlum. Ancaq
sözümə qulaq as: get, dediyim şeyi
mənə gətir». 14 Yaqub gedib oğlaqları
götürdü və anasına gətirdi, anası da
onun atasının xoşladığı kimi ləzzətli
yemək hazırladı. 15 Rivqa böyük oğlu

---

*26:22 *Rexovot* – ibrani dilində *genişlik.*
†26:33 *Şiva* – ibrani dilində *and.*

t26:26 Yar. 21:22

Esavın evdə saxladığı ən gözəl paltarını
götürüb kiçik oğlu Yaquba geyindirdi.
16 Onun əllərinə və boynunun tüksüz
yerinə oğlaq dəriləri bağladı. 17 Sonra
hazırladığı ləzzətli yeməyi və çörəyi
oğlu Yaqubun əlinə verdi.
18 Yaqub atasının yanına gəlib dedi:
«Ay ata». Atası dedi: «Mən buradayam.
Sən kimsən, oğlum?» 19 Yaqub atasına
dedi: «Sənin ilk oğlun Esavam. Dediyin
kimi elədim. Qalx otur və gətirdiyim ov
ətindən ye ki, mənə xeyir-dua verəsən».
20 İshaq oğluna dedi: «Necə oldu ki, belə
tez ov tapdın, oğlum?» O dedi: «Sənin
Allahın Rəbb mənə uğur verdi». 21 İshaq
Yaquba dedi: «Yaxın gəl, oğlum, əlimi
sənə sürtüb bilim ki, doğrudanmı,
oğlum Esavsan ya yox?» 22 Yaqub atası
İshaqa yaxınlaşdı. İshaq əlini ona sürtüb
dedi: «Səs Yaqubun səsidir, ancaq əllər
Esavın əlləridir». 23 İshaq onu tanımadı,
çünki onun əlləri qardaşı Esavın əlləri
kimi tüklü idi. İshaq Yaquba xeyir-dua
verdi. 24 O soruşdu: «Doğrudanmı, sən
oğlum Esavsan?» Yaqub dedi: «Bəli».
25 İshaq dedi: «Oğlum, gətirdiyin ov
ətini qabağıma qoy, yeyim, sonra da
sənə xeyir-dua verərəm». Yaqub yeməyi
onun qabağına qoydu və o yedi, Yaqub
ona şərab gətirdi və o içdi. 26 Atası İshaq
Yaquba dedi: «Oğlum, indi yaxınlaş,
atanı öp». 27 [u]O yaxınlaşıb atasını öpdü.
İshaq onun paltarının qoxusunu hiss
etdi və ona xeyir-dua verib dedi:

«Bax oğlumun qoxusu
Rəbbin xeyir-dua verdiyi
Çölün qoxusu kimidir.
28 Allah sənə göylərin şehini,
Torpağın şirəsini,
Bol buğda və çoxlu təzə şərab versin.
29 [v]Xalqlar sənə qulluq etsin,
Ümmətlər sənə baş əysin.
Öz qardaşlarına ağa ol,
Ananın oğulları sənə baş əysin.
Sənə lənət edənlərə lənət gəlsin,
Sənə xeyir-dua verənlər xeyir-dua
alsın».

İshaqın Esava xeyir-dua verməsi

30 İshaq Yaquba xeyir-dua verib
qurtarandan sonra Yaqub atası İshaqın
yanından çıxar-çıxmaz qardaşı Esav
ovdan qayıtdı. 31 Esav da ləzzətli
yemək hazırlayıb atasına gətirdi və ona
dedi: «Atam qalxıb oğlunun gətirdiyi ov
ətindən yesin və mənə xeyir-dua versin».
32 Atası İshaq ondan soruşdu: «Sən
kimsən?» O cavab verdi: «Mən ilk oğlun
Esavam». 33 İshaqın canına bərk titrətmə
düşdü və o dedi: «Bəs onda heyvan
ovlayıb mənə gətirən kim idi? Sən
gəlməmişdən qabaq hər şeydən yedim
və ona xeyir-dua verdim. Xeyir-dua da
onunku oldu». 34 Esav atasının sözlərini
eşidəndə ucadan və acı səslə fəryad edib
dedi: «Ay ata, mənə də xeyir-dua ver».
35 İshaq dedi: «Qardaşın hiylə ilə gəlib
sənin xeyir-duanı aldı». 36 [w]Esav dedi:
«Onu nahaq yerə Yaqub çağırmırlar
ki? Bununla ikinci dəfədir ki, məni
aldadır: əvvəl ilk oğulluq haqqımı, indi
də xeyir-duamı aldı». Sonra soruşdu:
«Bəs mənə xeyir-dua saxlamamısan?»
37 İshaq Esava cavab verdi: «Onu sənə
ağa etdim, bütün qardaşlarını ona qul
olaraq verdim, buğda və təzə şərabla
onu təmin etdim. Bəs sənə nə edim,
oğlum?» 38 [x]Esav atasına dedi: «Səndə
yalnız bir xeyir-dua varmı, ata? Mənə
də xeyir-dua ver, ata». Esav hönkürüb
ağladı. 39 [y]Atası İshaq ona belə cavab
verdi:

«Yaşadığın yer torpağın şirəsindən,
Yuxarıda göylərin şehindən uzaq
olacaq.
40 [z]Qılıncınla yaşayıb

---

[u]**27:27** İbr. 11:20 [v]**27:29** Yar. 12:3 [w]**27:36** Yar. 25:29-34
[x]**27:38** İbr. 12:17 [y]**27:39** İbr. 11:20 [z]**27:40** Yar. 36:8; 2Pad. 8:20

Qardaşına qulluq edəcəksən.
Amma azad olmaq istəyəndə
Onun boyunduruğunu
Boynundan qırıb atacaqsan».
41 Atası Yaquba xeyir-dua verdiyinə görə
Esav qardaşına nifrət etdi. O öz-özünə
dedi: «Atamın matəm günləri yaxınlaşır.
O zaman qardaşım Yaqubu öldürərəm».
42 Böyük oğlu Esavın dediyi sözlər
Rivqanın qulağına çatdı. Buna görə
də xəbər göndərib kiçik oğlu Yaqubu
çağırdı və ona dedi: «Bax qardaşın Esav
səni öldürməklə qisas almaq istəyir.
43 Oğlum, indi sözümə qulaq as: qalxıb
Xarana, qardaşım Lavanın yanına qaç.
44 Qardaşının hirsi soyuyana qədər bir
müddət Lavanın yanında qal. 45 Sənə
qarşı qəzəbi sönəndə, ona elədiyini
unudanda xəbər göndərib səni oradan
çağıraram. Nə üçün bir gündə ikinizdən
də məhrum olum?»
46 Sonra Rivqa İshaqa dedi: «Xetli
qızların əlindən həyatımdan bezdim.
Əgər Yaqub da beləcə bu ölkənin
qızlarından – Xetli qızlardan özünə
arvad alsa, daha mən niyə yaşayıram?»

İshaqın Yaqubu Lavanın yanına göndərməsi

28 İshaq Yaqubu çağırıb ona
xeyir-dua verdi və xəbərdarlıq
edərək dedi: «Kənan qızlarından arvad
alma. 2 Qalxıb Paddan-Arama, ana
baban Betuelin evinə get. Oradan
dayın Lavanın qızlarından özünə
arvad al. 3 Külli-İxtiyar Allah sənə
xeyir-dua versin, səni bəhərli edib
nəslini çoxaltsın, səndən çoxlu xalq
törəsin; 4 [a]İbrahimin xeyir-duasını
sənə və səninlə birgə nəslinə versin
ki, Allahın İbrahimə verdiyi torpağı –
qərib kimi yaşadığın torpağı irs olaraq
alasan». 5 İshaq Yaqubu yola saldı. O,
Paddan-Arama, Yaqubla Esavın anası
Rivqanın qardaşı Aramlı Betuel oğlu
Lavanın yanına getdi.

Esavın üçüncü arvadı

6 Esav gördü ki, İshaq Yaquba
xeyir-dua verdi və özünə arvad almaq
üçün onu Paddan-Arama göndərdi;
həm də ona xeyir-dua verən zaman
«Kənan qızlarından arvad alma» deyib
xəbərdarlıq etdi. 7 Yaqub da ata-anasına
qulaq asıb Paddan-Arama getdi. 8 Esav
gördü ki, Kənan qızları atası İshaqın
xoşuna gəlmir. 9 Esav İsmailin yanına
getdi. O, İbrahim oğlu İsmailin qızı
Maxalatı arvadlarının üstünə arvad aldı.
Maxalat Nevayotun bacısı idi.

Yaqubun Bet-Eldə yuxu görməsi

10 Yaqub Beer-Şevadan çıxıb Xarana
tərəf getdi. 11 Bir yerə çatıb orada
gecələdi, çünki günəş batmışdı. O
torpaqdan bir daş götürüb başının
altına qoydu və orada yatdı. 12 [b]O,
yuxuda gördü ki, yerin üzərində bir
nərdivan durmuş və onun başı göylərə
çatmışdır. Allahın mələkləri onunla
çıxıb-düşürdülər. 13 [c]Rəbb nərdivanın
üstündə durub deyirdi: «Mən baban
İbrahimin və İshaqın Allahı Rəbbəm.
Üstündə yatdığın torpağı sənə və
nəslinə verəcəyəm. 14 [d]Sənin nəslin
yerin tozu kimi çox olacaq, qərbə,
şərqə, şimala və cənuba yayılacaq.
Yer üzünün bütün tayfaları sənin və
nəslinin vasitəsilə xeyir-dua alacaq.
15 Mən həmişə səninləyəm, gedəcəyin
hər yerdə səni qoruyacağam və bu
torpağa qaytaracağam. Dediyimi edənə
qədər səni tərk etməyəcəyəm».
16 Yaqub yuxusundan oyanıb dedi:
«Doğrudan da, Rəbb buradadır. Mən isə
bunu bilmirdim». 17 Sonra qorxub dedi:

---

[a]**28:4** Yar. 17:4-8 [b]**28:12** Yəh. 1:51 [c]**28:13** Yar. 13:14-15
[d]**28:14** Yar. 12:3; 22:18; 26:4

«Bu yer necə də qorxuludur. Bu, Allahın
evindən başqa bir şey ola bilməz, bura
göylərin qapısıdır».
18 Yaqub səhər tezdən qalxdı. O,
başının altına qoyduğu daşı götürüb
sütun kimi qoydu və üstünə zeytun
yağı tökdü. 19 O yerin adını Bet-El
*qoydu, ancaq əvvəlcə şəhərin adı
Luz idi. 20 Yaqub əhd edib dedi: «Əgər
Allah mənimlə olsa, getdiyim bu
yolda məni qorusa, mənə yemək üçün
çörək və geymək üçün paltar versə,
21 sağ-salamat atamın evinə dönsəm,
o zaman Rəbb mənə Allah olacaq.
22 Sütun kimi qoyduğum bu daş da
Allahın evi olacaq. Ay Allah, mənə
verəcəyin hər şeyin onda birini Sənə
verəcəyəm».

Yaqubun Paddan-Arama gəlişi

29 Yaqub yoluna davam edərək
şərq xalqlarının torpağına getdi.
2 O gördü ki, çöllükdə bir quyu var və
onun yanında üç qoyun sürüsü yatıb,
çünki quyudan o sürülərə su verirdilər.
Quyunun ağzında böyük bir daş var idi.
3 Bütün sürülər oraya yığılırdı. Adamlar
daşı quyunun ağzından yuvarlayıb
qoyunlara su verir və yenə daşı yerinə –
quyunun üstünə qoyurdular.
4 Yaqub onlardan soruşdu: «Ey
qardaşlar, haradansınız?» Onlar
dedilər: «Biz Xarandanıq». 5 Yaqub
onlara dedi: «Naxorun nəvəsi Lavanı
tanıyırsınızmı?» Onlar dedilər:
«Tanıyırıq». 6 Yaqub onlardan soruşdu:
«O, sağ-salamatdırmı?» Onlar dedilər:
«Bəli, sağ-salamatdır. Odur, qızı Rəhilə
də qoyunlarla gəlir». 7 Yaqub dedi: «Hələ
axşama çox vaxt var, sürülərin yığılma
vaxtı deyil. Qoyunlara su verin, sonra
aparıb otarın». 8 Onlar dedilər: «Bütün
sürülər yığılmayınca və daş quyunun
ağzından yuvarlanmayınca bunu edə
bilmərik, yalnız onda qoyunlara su verə
bilərik».
9 Yaqub onlarla danışarkən Rəhilə
atasının qoyunları ilə gəldi, çünki o,
çoban idi. 10 Yaqub dayısı Lavanın qızı
Rəhiləni və dayısı Lavanın qoyunlarını
görəndə yaxınlaşıb daşı quyunun
ağzından yuvarladı və dayısı Lavanın
qoyunlarına su verdi. 11 Yaqub Rəhiləni
öpdü və hönkürtü ilə ağladı. 12 Yaqub
atasının qohumlarından və Rivqanın
oğlu olduğunu Rəhiləyə bildirdi. Rəhilə
də qaçıb atasına danışdı.
13 Lavan bacısı oğlu Yaqubun
gəldiyini eşidəndə onu qarşılamağa
qaçdı. Onu qucaqlayıb öpdü və evinə
gətirdi. Yaqub hər şeyi Lavana danışdı.
14 Lavan ona dedi: «Sən, doğrudan
da, mənim sümüyümdən, mənim
ətimdənsən». Yaqub onun yanında bir
ay qaldı.

Yaqubun Leanı və Rəhiləni arvad alması

15 Lavan Yaquba dedi: «Məgər qohum
olduğun üçün mənə havayı xidmət
edəcəksən? Mənə söylə, haqqın nə
olsun?» 16 Lavanın iki qızı var idi:
böyüyünün adı Lea, kiçiyininki Rəhilə
idi. 17 Leanın gözləri zəif görürdü,
Rəhilə isə çox gözəl və qamətli idi.
18 Yaqub Rəhiləyə vuruldu və dedi:
«Kiçik qızın Rəhilə üçün sənə yeddi il
xidmət edərəm». 19 Lavan dedi: «Onu
sənə vermək başqa adama verməkdən
daha yaxşıdır. Yanımda qal». 20 Yaqub
Rəhiləyə görə yeddi il xidmət etdi. Onu
sevdiyi üçün bu müddət gözünə bir
neçə gün kimi göründü.
21 Yaqub Lavana dedi: «Vaxtım çatdı;
indi arvadımı mənə ver ki, onun yanına
girim». 22 Lavan o torpağın bütün
adamlarını topladı və bir ziyafət verdi.
23 Gecə qızı Leanı götürüb Yaqubun

*28:19 *Bet-El* – ibrani dilində *Allahın evi.*

yanına apardı. Yaqub onun yanına
girdi. 24 Lavan öz qarabaşı Zilpanı Leaya
qulluqçu olmaq üçün verdi. 25 Səhər
məlum oldu ki, bu, Leadır. Yaqub
Lavana dedi: «Nə üçün mənimlə belə
rəftar etdin? Sənin yanında Rəhilə üçün
xidmət etmədimmi? Bəs məni niyə
aldatdın?» 26 Lavan dedi: «Bizim yerdə
kiçik qızı böyüyündən əvvəl ərə vermək
olmaz. 27 Bu həftəni bitir, onu da sənə
verərik. Onun üçün də yanımda daha
yeddi il xidmət etməlisən». 28 Yaqub
belə də etdi: o həftəni bitirdi. Lavan
da qızı Rəhiləni ona arvad olmaq
üçün verdi. 29 Öz qarabaşı Bilhanı da
qızı Rəhiləyə qulluqçu olmaq üçün
verdi. 30 Yaqub Rəhilənin də yanına
girdi. Rəhiləni Leadan da çox sevdi. O,
Lavanın yanında daha yeddi il xidmət
etdi.

Yaqubun övladları

31 Rəbb Leanın sevilmədiyini görüb
onun bətnini açdı. Rəhilə isə sonsuz
idi. 32 Lea hamilə olub bir oğul doğdu
və onun adını Ruven *qoyaraq dedi:
«Yəqin Rəbb mənim fağırlığımı gördü.
İndi ərim məni sevəcək». 33 O yenə
hamilə olub bir oğul doğdu və dedi:
«Rəbb sevilmədiyimi eşidib mənə bunu
da verdi». Onun da adını Şimeon†
qoydu. 34 Lea yenə hamilə olub bir
oğul doğdu və dedi: «İndi bu dəfə ərim
mənə bağlanacaq, çünki ona üç oğul
doğdum». Buna görə də adını Levi
‡qoydu. 35 O yenə hamilə olub bir oğul
doğdu və dedi: «Bu dəfə Rəbbi mədh
edəcəyəm». Buna görə də onun adını
Yəhuda §qoydu. Sonra o, bir müddət
doğmadı.

30 Rəhilə Yaquba uşaq doğmadığını
görəndə bacısına həsəd apardı
və ərinə dedi: «Mənə uşaq ver, yoxsa
ölərəm». 2 Yaqubun Rəhiləyə qəzəbi
alovlandı və o dedi: «Məgər mən sənin
bətninə bəhər verməyən Allaham?»
3 Rəhilə dedi: «Qarabaşım Bilhanı götür
və yanına gir. Qoy o, dizlərimin üstünə
bir uşaq doğsun və ondan uşaqlarım
olsun». 4 Rəhilə qarabaşı Bilhanı ona
arvad olmaq üçün verdi və Yaqub
onun yanına girdi. 5 Bilha hamilə
olub Yaquba bir oğul doğdu. 6 Rəhilə
dedi: «Allah məni haqlı çıxartdı və
səsimi eşidib mənə bir oğul verdi».
Buna görə də onun adını Dan **qoydu.
7 Rəhilənin qarabaşı Bilha yenə hamilə
olub Yaquba ikinci oğul doğdu. 8 Rəhilə
dedi: «Bacımla güclü mübarizəyə girişib
ona üstün gəldim». O, uşağın adını
Naftali ††qoydu.

9 Lea daha doğmadığına görə qarabaşı
Zilpanı götürüb Yaquba arvad olmaq
üçün verdi. 10 Leanın qarabaşı Zilpa
Yaquba bir oğul doğdu. 11 Lea «uğur
qazandım» deyib onun adını Qad‡‡
qoydu. 12 Leanın qarabaşı Zilpa
Yaquba ikinci oğul doğdu. 13 Lea dedi:
«Xoşbəxtəm, çünki qadınlar məni
bəxtiyar sayacaqlar». O, uşağın adını
Aşer §§qoydu.

14 Ruven buğda biçini vaxtı gedib
tarlada məhəbbət otları tapdı və onları
anası Leaya gətirdi. Rəhilə Leaya dedi:

---

*29:32 *Ruven* – ibrani dilində *baxın, bir oğul.*
†29:33 *Şimeon* – ibrani dilində *eşitmək.*
‡29:34 *Levi* – ibrani dilində *bağlanma.*
§29:35 *Yəhuda* – ibrani dilində *mədh edilmiş.*
**30:6 *Dan* – ibrani dilində *hökm etdi.*
††30:8 *Naftali* – ibrani dilində *mənim mübarizəm.*
‡‡30:11 *Qad* – ibrani dilində *uğur.*
§§30:13 *Aşer* – ibrani dilində *xoşbəxt.*

«Oğlunun məhəbbət otlarından mənə
də ver». 15 Lea ona dedi: «Ərimi əlimdən
aldığın bəs deyilmi? İndi də oğlumun
məhəbbət otlarını almaq istəyirsən?»
Rəhilə dedi: «Elə isə qoy ərim oğlunun
məhəbbət otlarının əvəzində bu gecə
sənlə yatsın». 16 Yaqub axşam çöldən
gələndə Lea onu qarşılamağa çıxıb dedi:
«Mənim yanıma gir, çünki səni oğlumun
məhəbbət otları ilə satın almışam».
Yaqub o gecə onunla yatdı. 17 Allah
Leanı eşitdi və o hamilə olub Yaquba
beşinci oğlunu doğdu. 18 Lea dedi:
«Allah haqqımı verdi, çünki qulluqçumu
ərimə verdim». O, uşağın adını İssakar
*qoydu. 19 Lea yenə hamilə olub Yaquba
altıncı oğlunu doğdu. 20 O dedi: «Allah
mənə yaxşı bir hədiyyə verdi, bu dəfə
ərim mənə hörmət edəcək, çünki ona
altı oğul doğdum». O, uşağın adını
Zevulun †qoydu. 21 Sonra bir qız doğub,
adını Dina qoydu.
22 Allah Rəhiləni yada salıb onu
da eşitdi və bətnini açdı. 23 O hamilə
olub bir oğul doğdu və dedi: «Allah
xəcalətimi götürdü». 24 O «Rəbb mənə
bir oğul da artırsın» deyib uşağın adını
Yusif‡ qoydu.

Yaqubun sürülərə sahib olması

25 Rəhilə Yusifi doğandan sonra
Yaqub Lavana dedi: «Məni göndər, öz
torpağıma və ölkəmə gedim. 26 Əvəzində
sənə xidmət etdiyim arvadlarımı və
uşaqlarımı da ver, gedim, çünki sənə
necə xidmət etdiyimi yaxşı bilirsən».
27 Lavan ona dedi: «Əgər indi sənin
gözündə lütf tapdımsa, yanımda qal,
çünki baxıcılıq edib sənə görə Rəbbin
mənə xeyir-dua verdiyini gördüm».
28 Sonra dedi: «Haqqını mənə təyin
et, verim». 29 Yaqub ona dedi: «Sənə
necə xidmət etdiyimi və mənimlə olan
sürülərini necə saxladığımı bilirsən.
30 Çünki mən gəlməmişdən əvvəl sənin
malın az idi, sonra isə xeyli çoxaldı;
Rəbb mənim gəlişimlə sənə xeyir-dua
verdi. Bəs mən öz ailəm üçün nə vaxt
çalışacağam?» 31 Lavan dedi: «Sənə nə
verim?» Yaqub dedi: «Mənə heç nə
vermə. Əgər bunu etsən, yenə sənin
sürünü qoruyub ona baxaram: 32 qoy
bu gün sənin bütün sürülərinin içindən
keçib qoyunlar arasından hər xallı,
zolaqlı qoyunu və qara quzunu, keçilər
arasından hər zolaqlı və xallı keçini
ayırım; haqqım da bu olsun. 33 Bundan
sonra qarşında olan haqqım üçün
gəldikdə düzlüyüm mənim barəmdə
şəhadət edəcək. Qoy keçilərdən xallı və
zolaqlı olmayanı, quzulardan da qara
olmayanı oğurlanmış sayılsın». 34 Lavan
dedi: «Yaxşı, qoy dediyin kimi olsun».
35 Amma o həmin gün alabəzək və xallı
təkələri, bütün zolaqlı və xallı keçiləri,
ağ keçiləri və bütün qara quzuları ayırıb
oğullarının ixtiyarına verdi. 36 Sonra
özü Yaqubdan üç günlük yol qədər
uzaqlaşdı. Yaqub isə Lavanın qalan
sürüsünü otarırdı.
37 Yaqub ağcaqovaq, badam və
çinar ağacından düzəldilmiş təzə
çubuqlar götürdü və çubuqların
qabığını soyub ağ rəngli içi üzə çıxana
qədər zolaqlar açdı. 38 Sonra qabığını
soyduğu çubuqları sürülərin su içmək
üçün gəldikləri təknələrə, heyvanların
qabağına qoydu. Onlar gəlib su
içəndə döllənirdi. 39 Beləcə heyvanlar
çubuqların qabağında döllənirdi və
sürülərdə alabəzək, xallı və zolaqlı
heyvanlar doğulurdu. 40 Yaqub quzuları
ayırırdı və sürünün üzünü Lavanın
sürüsündə olan bütün alabəzək və qara

*30:18 *İssakar* – ibrani dilində *haqq verilsin.*
†30:20 *Zevulun* – ibrani dilində *hörmət.*
‡30:24 *Yusif* – ibrani dilində *artırsın.*

heyvanlara tərəf tuturdu. O öz sürüsünü
ayrıca qoydu və onları Lavanın sürüsünə
qatmadı. 41 Hər dəfə sürünün qüvvətli
heyvanları dölləndikləri zaman Yaqub
təknələrə, sürünün gözləri önünə
çubuqlar qoyurdu ki, çubuqlar arasında
döllənsinlər. 42 Ancaq heyvanlar zəif
olanda onları qoymazdı. Beləcə zəif
heyvanlar Lavanın, qüvvətli heyvanlar
isə Yaqubun oldu. 43 Bu adam çox
varlandı: onun çoxlu sürüsü, qarabaşı,
qulu, dəvəsi və eşşəyi oldu.

Yaqubun Lavandan qaçması

31 Yaqub Lavanın oğullarının bu
sözləri dediklərini eşitdi: «Yaqub
atamıza məxsus olan hər şeyə sahib
oldu, bütün bu var-dövləti atamıza
məxsus olan əmlakdan əldə etdi».
2 Yaqub Lavanın ona münasibətini
gördü, o da Yaqubla əvvəlki kimi
rəftar etmirdi. 3 Rəbb Yaquba dedi:
«Atalarının ölkəsinə, öz qohumlarının
yanına qayıt. Mən sənlə olacağam».
4 Yaqub xəbər göndərib Rəhiləni və
Leanı çöllərə – sürüsünü otardığı yerə
çağırdı. 5 Yaqub onlara dedi: «Mən
atanızın münasibətini görürəm ki,
mənimlə əvvəlki kimi rəftar etmir.
Ancaq atamın Allahı mənimlədir. 6 Siz
bilirsiniz ki, var gücümlə atanıza xidmət
etmişəm. 7 Atanız məni aldatdı və
haqqımı on dəfə dəyişdirdi, amma Allah
onu mənə pislik etməyə qoymadı. 8 O,
“xallı heyvanlar sənin haqqın olacaq”
deyəndə bütün sürüdə xallı heyvanlar
doğuldu. “Sənin haqqın alabəzək
heyvanlar olacaq” deyəndə isə bütün
sürüdə alabəzək heyvanlar doğuldu.
9 Beləcə Allah atanızın sürüsünü alıb
mənə verdi. 10 Sürünün dölləndiyi vaxt
yuxuda başımı qaldırıb gördüm ki,
sürüdəki heyvanlarla cütləşən təkələr
alabəzək, xallı və ləkəlidir. 11 Yuxuda
Allahın mələyi mənə dedi: “Yaqub!”
“Mən buradayam!” deyə cavab verdim.
12 O dedi: “İndi başını qaldır, gör ki,
sürüdəki heyvanlarla cütləşən bütün
təkələr alabəzək, xallı və ləkəlidir,
çünki Lavanın sənə etdiyi hər şeyi
gördüm. 13 [e]Mən Bet-Eldə sənə görünən
Allaham. Orada bir sütun qoyub məsh
etdin və Mənim önümdə əhd etdin. İndi
qalxıb bu torpaqdan get və doğulduğun
torpağa qayıt”».
14 Rəhilə və Lea ona cavab verdilər:
«Məgər atamızın mülkündə bir payımız
ya mirasımız var? 15 Məgər o bizi özgə
hesab etmir? Axı o bizi satıb bizim üçün
ödənmiş pulu da xərclədi. 16 Buna görə
də Allahın atamızdan aldığı bütün o
var-dövlət bizim və uşaqlarımızındır.
İndi sən də Allahın söylədiyi şeylərin
hamısına əməl et».
17 Onda Yaqub qalxıb uşaqlarını
və arvadlarını dəvələrə mindirdi.
18 Bütün sürüsünü, qazandığı bütün
var-dövlətini, Paddan-Aramda əldə
etdiyi öz sürüsünü sürdü ki, Kənan
torpağına, atası İshaqın yanına
getsin. 19 Lavan qoyunlarını qırxmağa
gedəndə Rəhilə atasına məxsus olan ev
bütlərini oğurladı. 20 Yaqub qaçdığını
bildirməməklə Aramlı Lavanı aldatdı.
21 Beləcə özünə məxsus olan hər şeyi
götürüb qaçdı. O, Fərat çayını keçib
Gilead dağlıq bölgəsinə yönəldi.

Lavanın Yaqubu təqib etməsi

22 Yaqubun qaçdığı Lavana üçüncü
gün bildirildi. 23 O, qohumlarını özü ilə
götürüb yeddi gün onu təqib etdi və
Gilead dağlıq bölgəsində Yaquba çatdı.
24 Allah gecə yuxusunda Aramlı Lavana
görünüb dedi: «Özünü gözlə, Yaquba nə
yaxşı, nə də pis söz de».
25 Lavan Yaquba çatdı. Yaqub dağda
çadır qurmuşdu. Lavan qohumları

---

[e]**31:13** Yar. 28:18-22

ilə birgə Gilead dağında çadır qurdu.
26 Lavan Yaquba dedi: «Niyə belə etdin?
Məndən gizlicə qaçdın və qızlarımı
müharibə əsirləri kimi apardın. 27 Nə
üçün gizlicə qaçıb məni aldatdın? Mənə
bunu bildirmədin ki, səni sevinclə,
mahnı oxumaqla, dəf və lira çalmaqla
yola salım. 28 Məni nəvələrimlə qızlarımı
öpməyə qoymadın; ağılsızcasına rəftar
etmisən. 29 Sizə pislik edə bilərdim,
ancaq atanızın Allahı dünən gecə mənə
belə söylədi: "Özünü gözlə, Yaquba
nə yaxşı, nə də pis söz de". 30 İndi
atanın evi üçün bərk darıxdığına görə
çıxıb gedirsən. Bəs büt allahlarımı niyə
oğurlayıb aparırsan?» 31 Yaqub Lavana
cavab verdi: «Qorxub düşündüm ki,
qızlarını zorla məndən alarsan. 32 Büt
allahlarını isə kimin yanında tapsan,
o sağ qalmayacaq. Qohumlarımızın
önündə yoxlayıb məndə nəyini tapsan,
özünə götür». Ancaq Yaqub Rəhilənin
onları oğurladığını bilmirdi.
33 Lavan Yaqubun, Leanın və iki
qarabaşın çadırına girdi, ancaq büt
allahları tapmadı. O, Leanın çadırından
çıxıb Rəhilənin çadırına girdi. 34 Rəhilə
ev bütlərini götürərək dəvənin yəhərinə
qoyub onların üstündə oturmuşdu.
Lavan bütün çadırı yoxladı, ancaq
onları tapmadı. 35 Rəhilə atasına dedi:
«Hüzurunda qalxa bilmədiyim üçün
ağam qəzəblənməsin, çünki qadın
adətinə mübtəlayam». Lavan axtardı,
ancaq ev bütlərini tapmadı.
36 Yaqub qəzəblənib Lavanla
mübahisə etdi. O, Lavana söylədi:
«Günahım və təqsirim nədir ki, məni
belə təqib edirsən? 37 Bütün şeylərimi
yoxladın, bütün ev şeylərindən
nə tapdın? Tapdığın şeyi mənim
qohumlarımın və öz qohumlarının
qabağına qoy ki, ikimizin arasında
şəhadət olsun. 38 Ötən iyirmi il
sənin yanında işlədim, qoyunların
və keçilərin balalarını salmadı,
sürülərindəki qoçlarını yemədim.
39 Vəhşi heyvanların parçaladığı
heyvanı sənin yanına gətirməzdim,
zərərini özüm çəkərdim. İstər gündüz,
istərsə də gecə oğurlanan hər heyvanı
məndən tələb edərdin. 40 Gündüzün
istisi, gecənin soyuğu məni əldən
salardı, yuxum gözümdən tökülərdi.
41 İyirmi il sənin evində qaldım: iki
qızın üçün on dörd il və sürün üçün
altı il sənə xidmət etdim. Sən isə on
dəfə haqqımı dəyişdirdin. 42 Atamın və
İbrahimin Allahı, İshaqın sitayiş etdiyi
Allah mənimlə olmasaydı, indi yəqin
məni əliboş yola salardın. Allah əzabımı
və əlimin zəhmətini gördü, dünən gecə
sənə xəbərdarlıq etdi».
43 Lavan Yaquba belə cavab verdi:
«Qızlar mənim qızlarım, uşaqlar mənim
uşaqlarım, sürülər mənim sürülərim və
sənin gördüyün hər şey mənimdir. Bu
gün qızlarıma yaxud onların doğduqları
uşaqlara nə edə bilərəm? 44 İndi gəl
bir-birimizə əhd edək ki, sənlə mənim
aramda şahid olsun». 45 Yaqub bir daş
götürüb sütun kimi qoydu. 46 O öz
qohumlarına dedi: «Daş yığın». Onlar
daşları götürüb bir qalaq düzəltdilər
və o qalağın yanında yeyib-içdilər.
47 Lavan onun adını Yeqar-Sahaduta*
qoydu, Yaqub isə onun adını Qaled
†qoydu. 48 Lavan dedi: «Bu qalaq bu gün
mənimlə sənin aranda şahiddir». Buna
görə də onun adı Qaleddir. 49 Ona həm
də Mispa‡ deyildi, çünki Lavan demişdi:
«Bir-birimizdən ayrılan zaman qoy Rəbb
sənlə mənim aramda gözətçi olsun.
50 Söz ver ki, qızlarımı incitməyəcəksən

*31:47 *Yeqar-Sahaduta* – arami dilində *şəhadət daş qalağı.*
†31:47 *Qaled* – ibrani dilində *şəhadət daş qalağı.*
‡31:49 *Mispa* – ibrani dilində *gözətçi qülləsi.*

və onların üstünə arvad almayacaqsan.
Bil ki, bizim aramızda bir nəfər şahid
olmasa da, Allah aramızda şahiddir».
51 Lavan yenə Yaquba dedi: «Bax
bu da öz aramızda düzəltdiyim qalaq
və sütun! 52 Bu qalaq və sütun şahid
olsunlar ki, nə mən sənin tərəfinə
– qalağın o tayına gedəcəyəm, nə
də sən pislik etmək üçün mənim
tərəfimə – qalağın və sütunun bu tayına
gələcəksən. 53 Qoy İbrahimin, Naxorun
və onların atalarının Allahı aramızda
hökm etsin!» Yaqub atası İshaqın sitayiş
etdiyi Allaha and içdi. 54 Sonra Yaqub
o dağda qurban kəsdi və qohumlarını
çörək yeməyə çağırdı. Onlar çörək
yedilər və dağda gecələdilər. 55 Lavan
səhər tezdən qalxıb nəvələrini və
qızlarını öpdü, onlara xeyir-dua verdi.
Sonra öz yerinə qayıtdı.

Yaqubun Esavla görüşə hazırlaşması

32 Yaqub yoluna davam etdi.
Allahın mələkləri ona rast gəldi.
2 Yaqub onları görəndə dedi: «Bu,
Allahın ordugahıdır». O yerin adını
Maxanayim *qoydu.
3 Yaqub özündən qabaq Edom çölünə,
Seir torpağına, qardaşı Esavın yanına
qasidlər göndərdi. 4 Onlara bu əmri
verdi: «Ağam Esava söyləyin ki, qulun
Yaqub belə deyir: “Mən Lavanın
yanında qalıb indiyə qədər yaşadım”.
5 Mal-qaram, eşşəklərim, qoyun-keçim,
qullarım və qarabaşlarım oldu. Mən
ağama xəbər vermək üçün yanına
qasidlər göndərdim ki, sənin gözündə
lütf tapım».
6 Qasidlər Yaqubun yanına qayıdıb
dedilər: «Qardaşın Esavın yanına getdik.
Özü də səni qarşılamaq üçün gəlir və
yanında dörd yüz nəfər var». 7 Yaqub
çox qorxub həyəcanlandı. Yanında olan
adamları, qoyun-keçini, mal-qaranı və
dəvələri iki dəstəyə ayırıb dedi: 8 «Əgər
Esav bir dəstəyə hücum edib onları
qırsa, arxada qalan dəstə qaça bilsin».
9 Sonra Yaqub dedi: «Ey babam
İbrahimin Allahı, atam İshaqın Allahı
Rəbb, Sən mənə demişdin: “Öz ölkənə
və qohumlarının yanına qayıt. Mən
sənə yaxşılıq edəcəyəm”. 10 Quluna
göstərdiyin bütün xeyirxahlığa və
sədaqətə layiq deyiləm; bu İordan
çayını təkcə dəyənəyimlə keçdim, indi
isə iki dəstə köçüm var. 11 Yalvarıram,
məni qardaşım Esavın əlindən qurtar.
Çünki onun gəlib məni, uşaqlarımla
analarını öldürməsindən qorxuram.
12 [f]Sən dedin: “Hökmən sənə yaxşılıq
edəcəyəm, nəslini saysız-hesabsız dəniz
qumu qədər çoxaldacağam”».
13 Yaqub o gecəni orada keçirtdi.
Özündə olan hər şeydən qardaşı
Esava hədiyyə olaraq 14 iki yüz keçi,
iyirmi təkə, iki yüz qoyun, iyirmi
qoç, 15 balaları ilə birgə otuz sağmal
dəvə, qırx inək, on buğa, iyirmi dişi
və on erkək eşşək götürdü. 16 Sürüləri
ayrı-ayrı qullarına tapşırdı və onlara
dedi: «Mənim qabağımda gedin və bir
sürü ilə o biri sürü arasında məsafə
saxlayın». 17 Yaqub birinci qula əmr
edib dedi: «Qardaşım Esav sənə rast
gəlib “Kimin adamısan, hara gedirsən,
qabağındakı bu heyvanlar kimindir?”
deyə soruşanda 18 ona söylə: “Bunlar
qulun Yaqubundur, bu da ağam Esava
göndərilmiş hədiyyələrdir. Özü də bizim
dalımızca gəlir”». 19 Sonra o, ikinci,
üçüncü quluna və sürülərin dalınca
gedən hər kəsə əmr edib dedi: 20 «Esava
rast gələndə ona eyni sözləri söyləyin:
“Qulun Yaqub da dalımızca gəlir”».
Çünki o öz-özünə deyirdi: «Əvvəlcə
qabağımda göndərdiyim hədiyyələrlə

*32:2 *Maxanayim* – ibrani dilində *iki ordugah.*

[f]32:12 Yar. 22:17

onu rəhmə gətirərəm, sonra onunla
görüşərəm. Bəlkə onda məni qəbul
edər». 21 Hədiyyələr Yaqubun qabağında
getdi, o isə gecəni düşərgədə yatdı.

Yaqubun Allahla rastlaşması

22 Yaqub gecə qalxıb iki arvadını, iki
cariyəsini və on bir uşağını götürərək
Yabboq çayının keçidindən keçdi.
23 Onları götürüb çayı keçirtdi və özünə
məxsus şeyləri də keçirtdi. 24 Sonra
Yaqub tək qaldı. Dan yeri sökülənə
qədər bir Şəxs onunla güləşdi. 25 Yaquba
üstün gələ bilmədiyini görüb onun
budunun oynağına zərbə vurdu. O
Şəxslə güləşərkən Yaqubun budunda
oynağı zədələndi. 26 O Şəxs dedi:
«Burax, gedim, çünki səhər açılır».
Yaqub dedi: «Mənə xeyir-dua verməsən,
Səni buraxmaram». 27 O Şəxs soruşdu:
«Adın nədir?» O dedi: «Yaqub». 28 [g]O
Şəxs dedi: «Artıq sənə Yaqub deyil,
İsrail [*]deyiləcək, çünki sən Allahla və
insanlarla güləşib üstün gəlmisən».
29 Yaqub soruşdu: «Xahiş edirəm, adını
söylə». O dedi: «Adımı niyə soruşursan?»
O Şəxs orada Yaquba xeyir-dua verdi.
30 Yaqub o yerin adını Peniel [†]qoydu,
çünki demişdi: «Allahı üz-üzə gördüm
və salamat qaldım». 31 Yaqub Penieldən
keçəndə günəş doğdu. O, bir budundan
axsayırdı. 32 Ona görə bu günə qədər
də İsraillilər bud oynağının üzərindəki
vətərləri yeməzlər. Çünki güləşən
Şəxs Yaqubun bud oynağının vətərinə
toxunmuşdu.

Yaqubun Esavla görüşü

33 Yaqub başını qaldırıb gördü
ki, Esav dörd yüz adamla
birlikdə gəlir. O, Leanın, Rəhilənin
və iki cariyəsinin uşaqlarını ayırdı:
2 cariyələrlə onların uşaqlarını qabağa,
Lea ilə onun uşaqlarını ortaya, Rəhilə
ilə Yusifi isə arxaya qoydu. 3 Özü isə
onların qabağına keçdi və qardaşına
yaxınlaşanda yeddi dəfə yerə əyildi.
4 Esav Yaqubu qarşılamaq üçün qaçıb
onu qucaqladı və boynuna sarılıb
öpdü. Onlar ağlaşdılar. 5 Esav başını
qaldırıb qadınları və uşaqları görəndə
dedi: «Bunlar sənin nəyindir?» Yaqub
dedi: «Allahın sənin quluna lütf etdiyi
uşaqlardır». 6 Əvvəl cariyələrlə uşaqları
yaxınlaşıb təzim etdilər, 7 sonra Lea ilə
uşaqları yaxınlaşıb təzim etdilər, axırda
isə Yusiflə Rəhilə yaxınlaşıb təzim
etdilər. 8 Esav soruşdu: «Rast gəldiyim
o biri dəstəni nə üçün göndərmişdin?»
Yaqub dedi: «Ağamın gözündə lütf
tapmaq üçün». 9 Esav dedi: «Mənim
sürüm çoxdur, qardaşım, səndə olan
sənin olsun». 10 Yaqub dedi: «Yox, xahiş
edirəm, indi gözündə lütf tapdımsa,
məndən bu hədiyyələri götür. Çünki
sənin üzünü görəndə Allahın üzünü
görmüş sandım, mənə qarşı çox
xeyirxah oldun. 11 Xahiş edirəm, sənə
gətirilən hədiyyələri götür. Çünki Allah
mənə lütf etdi və indi mənim hər şeyim
var». Yaqub təkid etdikdən sonra Esav
hədiyyələri götürdü.
12 Esav dedi: «Köç edib gedək. Mən
sizin qabağınızda gedəcəyəm». 13 Yaqub
ona dedi: «Ağam bilir ki, uşaqlar zəifdir,
yanımda olan qoyun-keçi və mal-qara
da sağmaldır. Sürüləri bir gün bərk
sürsələr, hamısı tələf olar. 14 Xahiş
edirəm, ağam qulundan qabaqda
getsin, mən isə ağamın yanına, Seirə
çatana qədər qabağımda olan sürülərin
və uşaqların yerişinə görə yavaş
sürəcəyəm». 15 Esav dedi: «Mənimlə
olan adamların bəzisini sənlə qalmaq

[*]**32:28** *İsrail* – ibrani dilində *Allahla güləşən.*
[†]**32:30** *Peniel* – ibrani dilində *Allahın üzü.*

[g]**32:28** Yar. 35:10; Huşə 12:4

üçün qoyum». Yaqub dedi: «Bu nəyə
lazımdır? Mən ancaq ağamın gözündə
lütf tapmaq istəyirəm». 16 Esav o gün
yola düşüb Seirə qayıtdı. 17 Yaqub
Sukkota köçüb özünə ev tikdi və
sürüsünə ağıllar düzəltdi. Ona görə də
bu yerin adını Sukkot* qoydular.
18 Yaqub Paddan-Aramdan
qayıtdıqdan sonra sağ-salamat
Kənan torpağında olan Şekem şəhərinə
gəldi və şəhərin qarşısında məskən saldı.
19 hO, çadırını qurduğu tarla sahəsini
Şekemin atası Xamorun oğullarından
yüz parça gümüşlə satın aldı. 20 Yaqub
orada bir qurbangah qurub adını
El-Elohe-İsrail† qoydu.

Dinanın rüsvayçılığı

34 Leanın Yaquba doğduğu qızı
Dina o ölkənin qızlarını görməyə
çıxdı. 2 O ölkənin ağası Xivli Xamorun
oğlu Şekem onu gördü. Qızı aparıb
onunla yatdı və onu zorladı. 3 Onun
ürəyi Yaqubun qızı Dinaya bağlandı.
Şekem qızı sevdi və onunla xoş rəftar
etdi. 4 Şekem atası Xamora dedi: «Bu
qızı mənə arvad al».
5 Yaqub qızı Dinanın zorlandığını
eşitdi, ancaq oğulları çöldə sürülərinin
yanında olduqları üçün onlar gələnə
qədər susdu. 6 Şekemin atası Xamor
Yaqubla danışmaq üçün onun yanına
getdi. 7 Yaqubun oğulları bunu eşidib
çöllükdən gəldilər. Onlar məyus oldular
və bərk qəzəbləndilər. Çünki Şekem
Yaqubun qızı ilə yatmaqla İsraili rüsvay
etmişdi, belə iş etmək olmazdı.
8 Xamor onlara belə dedi: «Oğlum
Şekemin ürəyi qızınıza bağlanıb. Xahiş
edirəm, qızı ona arvad olmaq üçün
verəsiniz. 9 Bizimlə qohum olun: öz
qızlarınızı bizə arvad verin, bizim
qızlarımızı özünüzə alın. 10 Bizimlə
qalın, ölkə də sizin ixtiyarınızdadır:
burada yaşayın, ticarət edin və mülk
sahibi olun». 11 Şekem qızın atasına və
qardaşlarına dedi: «Sizin gözünüzdə
lütf tapmaq üçün məndən nə istəsəniz,
verərəm. 12 Məndən çoxlu başlıq və
hədiyyələr istəyin, söylədiyiniz hər şeyi
verərəm. Ancaq qızı arvad olmaq üçün
mənə verin».
13 Yaqubun oğulları Şekemə və
onun atası Xamora hiylə ilə cavab
verdilər, çünki Şekem bacıları Dinanı
zorlamışdı. 14 Onlara dedilər: «Biz bunu
edə bilmərik, bacımızı sünnətsiz bir
adama ərə verə bilmərik. Bu bizim üçün
rüsvayçılıq olar. 15 Ancaq bir şərtlə
sizinlə razı oluruq: bütün kişiləriniz
sünnət edilib bizim kimi olsalar, 16 öz
qızlarımızı sizə ərə verərik, sizin
qızlarınızı özümüzə alarıq və sizinlə
yaşayıb bir xalq olarıq. 17 Əgər bizə
qulaq asmasanız və sünnət olunmasanız,
qızımızı götürüb gedəcəyik».
18 Onların sözləri Xamorun və oğlu
Şekemin xoşuna gəldi. 19 Cavan oğlan
bu işi dərhal etdi, çünki Yaqubun
qızı çox xoşuna gəlmişdi. Şekem
atasının evində ən hörmətli adam
idi. 20 Xamor və oğlu Şekem öz
şəhərlərinin darvazasına gəldilər və
şəhərin adamlarına belə dedilər: 21 «Bu
adamlar bizimlə səmimidir. Qoy bu
ölkədə yaşasınlar və ticarət etsinlər. Bu
ölkə onlar üçün kifayət qədər genişdir.
Onların qızlarını özümüzə arvad alarıq,
öz qızlarımızı da onlara ərə verərik.
22 Bu adamlar yalnız bir şərtlə bizimlə
yaşamağa və bir xalq olmağa razı
olurlar ki, bizim də bütün kişilərimiz
onlar kimi sünnət olunsun. 23 Onların
sürüləri, mülkləri və heyvanları bizim

*33:17 *Sukkot* – ibrani dilində *ağıllar* yaxud *çardaqlar.*
†33:20 *El-Elohe-İsrail* – ibrani dilində *Allah, İsrailin Allahı.*

h33:19 Yeşua 24:32; Yəh. 4:5; Həv. 7:16

olmayacaqmı? Gəlin onlarla razılaşaq
və onlar bizimlə yaşasın». 24 Şəhərin
bütün sakinləri Xamora və oğlu Şekemə
qulaq asdılar: şəhər əhalisindən olan
bütün kişilər sünnət olundu.
25 Üçüncü gün onlar hələ də ağrı çəkən
zaman Dinanın qardaşları – Yaqubun iki
oğlu Şimeon və Levi qılınclarını götürüb
maneəsiz şəhərə girdilər və bütün
kişiləri qılıncdan keçirtdilər. 26 Xamoru
və oğlu Şekemi də öldürdülər. Dinanı
Şekemin evindən götürüb getdilər.
27 Yaqubun oğulları ölənlərin yanına
gəldilər və şəhəri qarət etdilər, çünki
bacılarını zorlamışdılar. 28 Onların
qoyun-keçilərini, mal-qaralarını,
eşşəklərini, şəhərdə və çöldə olan hər
şeyi götürdülər. 29 Bütün mallarını,
uşaqlarını və qadınlarını əsir apardılar,
onların evlərində olan hər şeyi qarət
etdilər. 30 Yaqub Şimeona və Leviyə
dedi: «Ölkədə yaşayan Kənanlılarda və
Perizlilərdə mənə qarşı nifrət oyadıb
məni bəlaya saldınız. Biz sayca azıq,
əgər birləşib bizi qırsalar, özüm də
ailəmlə birgə həlak olacağam». 31 Amma
onlar dedilər: «Bəs bizim bacımızla bir
fahişə kimi rəftar etmək olarmı?»

Yaqubun Bet-Elə qayıtması

35 [i]Allah Yaquba dedi: «Qalxıb
Bet-Elə get və orada qal.
Qardaşın Esavın əlindən qaçanda sənə
görünən Allaha orada bir qurbangah
düzəlt». 2 Yaqub ailəsinə və onunla
olanların hamısına dedi: «Yanınızda
olan özgə büt allahlarını atın və
özünüzü pak edib paltarlarınızı
dəyişin. 3 Qalxıb Bet-Elə gedək. Dərdli
günümdə mənə cavab verən və getdiyim
yolda mənimlə olan Allaha orada bir
qurbangah düzəldəcəyəm». 4 Onlar
yanlarında olan bütün özgə büt
allahlarını və qulaqlarındakı sırğaları
Yaquba verdilər. Yaqub bunları Şekem
yaxınlığında olan palıdın altında
basdırdı. 5 Onlar yola düşdülər. Allah
ətraf şəhərlərin sakinlərini dəhşətə
salmışdı və buna görə də onlar Yaqubun
oğullarını təqib etmədilər.
6 Yaqub yanındakı bütün adamlarla
birgə Kənan torpağında olan Luza, yəni
Bet-Elə gəldi. 7 Burada bir qurbangah
düzəldib o yerin adını El-Bet-El *qoydu,
çünki qardaşının əlindən qaçanda Allah
Özünü orada Yaquba zahir etmişdi.
8 Rivqanın dayəsi Devora öldü. Onu
Bet-Elin aşağısında olan palıdın altında
basdırdılar. Oranın adını Allon-Bakut
†qoydular.
9 Yaqub Paddan-Aramdan qayıdanda
Allah yenə Yaquba göründü və
ona xeyir-dua verdi. 10 [j]Allah ona
dedi: «Sənin adın Yaqubdur. Artıq
adın Yaqub çağırılmayacaq, bundan
sonra adın İsrail olacaq». Allah onun
adını İsrail qoydu 11 [k]və ona dedi:
«Külli-İxtiyar Allah Mənəm. Qoy nəslin
artıb çoxalsın. Səndən bir millət və
çoxlu millət törəyəcək, sənin nəslindən
çoxlu padşahlar çıxacaq. 12 İbrahimə
və İshaqa verdiyim torpağı sənə
verəcəyəm. Səndən sonra da onu sənin
nəslinə verəcəyəm». 13 Allah Yaqubla
danışdığı yerdə onun yanından yuxarı
çəkildi. 14 [l]Yaqub Allahın onunla
danışdığı yerdə bir sütun qoydu, üstünə
içmə təqdimi səpdi və sonra üzərinə
zeytun yağı tökdü. 15 Yaqub Allahın
onunla danışdığı yerin adını Bet-El
qoydu.

---

*35:7 *El-Bet-El* – ibrani dilində *Bet-Elin Allahı.*
†35:8 *Allon-Bakut* – ibrani dilində *ağlaşma palıdı.*

[i]**35:1** Yar. 28:11-17 [j]**35:10** Yar. 32:28 [k]**35:11** Yar. 17:4-8
[l]**35:14** Yar. 28:18-19

Rəhilənin və İshaqın ölümü

16 Onlar Bet-Eldən yola düşdülər.
Efrata çatana yaxın Rəhilə doğdu. Onun
doğuşu ağır oldu. 17 Doğuş zamanı ağrı
çəkəndə mamaça ona dedi: «Qorxma,
yenə də bir oğlun oldu». 18 O, ölüm
ayağında can verərkən oğlunun adını
Ben-Oni* qoydu, ancaq atası onun
adını Binyamin† qoydu. 19 Rəhilə öldü
və Efrata, yəni Bet-Lexemə gedən
yolda basdırıldı. 20 Yaqub onun qəbri
üstünə bir daş qoydu. O bu günə qədər
Rəhilənin başdaşıdır.
21 İsrail yola düşdü və Eder qülləsinin
o biri tərəfində çadır qurdu. 22 İsrail bu
ölkədə yaşayanda Ruven gedib atasının
cariyəsi Bilha ilə yatdı. İsrail bunu
eşitdi.
23 Yaqubun on iki oğlu var idi. Leanın
oğulları: Yaqubun ilk oğlu Ruven,
Şimeon, Levi, Yəhuda, İssakar və
Zevulun. 24 Rəhilənin oğulları: Yusif
və Binyamin. 25 Rəhilənin qulluqçusu
Bilhanın oğulları: Dan və Naftali.
26 Leanın qulluqçusu Zilpanın oğulları:
Qad və Aşer. Yaqubun Paddan-Aramda
doğulan oğulları bunlardır.
27 [m]Yaqub Qiryat-Arbada, yəni
Xevronda olan Mamreyə, atası İshaqın
yanına gəldi. İbrahim və İshaq Mamredə
qərib idilər. 28 İshaq yüz səksən il ömür
sürdü. 29 O qocalıb yaşa dolaraq canını
tapşırdı və ölüb əcdadlarına qoşuldu.
Oğulları Esav və Yaqub onu basdırdılar.

Esavın nəsli

(1Saln. 1:34-37)

36 Esavın, yəni Edomun
tarixçəsi belədir. 2 [n]Esav
Kənan qızlarından Xetli Elonun qızı
Adanı, Xivli Siveonun qızı Ananın qızı
Oholivamanı, 3 [o]həmçinin İsmailin
qızı, Nevayotun bacısı Basmatı arvad
aldı. 4 Ada Esava Elifazı doğdu, Basmat
isə Reueli doğdu. 5 Oholivama Yeuşu,
Yalamı və Qorahı doğdu; Esavın Kənan
torpağında doğulan oğulları bunlardır.
6 Esav arvadlarını, oğullarını,
qızlarını, evindəki adamların hamısını,
sürülərini, bütün heyvanlarını və Kənan
torpağında qazandığı bütün var-dövləti
götürüb qardaşı Yaqubun yanından
başqa bir torpağa getdi. 7 Çünki
əmlakları çox olduğuna görə bir yerdə
yaşaya bilmədilər; sürüləri çox olduğu
üçün qaldıqları torpağa sığmırdılar.
8 Esav, yəni Edom Seir dağlıq diyarında
məskən saldı.
9 Edomluların əcdadı Esavın Seir
dağlıq diyarındakı tarixçəsi belədir.
10 Esavın oğullarının adları belədir:
Esavın arvadı Adanın oğlu Elifaz,
Esavın arvadı Basmatın oğlu Reuel.
11 Elifazın oğulları: Teman, Omar, Sefo,
Qatam və Qenaz. 12 Timna Esavın oğlu
Elifazın cariyəsi idi. O, Elifaza Amaleqi
doğdu. Esavın arvadı Adanın nəvələri
bunlardır. 13 Reuelin oğulları bunlardır:
Naxat, Zerah, Şamma və Mizza; bunlar
Esavın arvadı Basmatın nəvələridir.
14 Esavın arvadı Siveon qızı Ana qızı
Oholivamanın oğulları bunlardır: o,
Esava Yeuşu, Yalamı və Qorahı doğdu.
15 Esav oğullarının başçıları bunlardır:
Esavın ilk oğlu Elifazın oğulları: başçı
Teman, başçı Omar, başçı Sefo, başçı
Qenaz, 16 başçı Qorah, başçı Qatam,
başçı Amaleq. Edom torpağında
Elifazdan olan başçılar bunlardır;
onlar Adanın nəvələridir. 17 Esavın
oğlu Reuelin oğulları bunlardır: başçı
Naxat, başçı Zerah, başçı Şamma, başçı
Mizza. Edom torpağında Reueldən olan

*35:18 *Ben-Oni* – ibrani dilində *kədərimin oğlu.*
†35:18 *Binyamin* – ibrani dilində *sağ əlimin oğlu.*

[m]**35:27** Yar. 13:18 [n]**36:2** Yar. 26:34 [o]**36:3** Yar. 28:9

başçılar bunlardır; onlar Esavın arvadı
Basmatın nəvələridir. 18 Esavın arvadı
Oholivamanın oğulları bunlardır: başçı
Yeuş, başçı Yalam, başçı Qorah; onlar
Esavın arvadı Ana qızı Oholivamanın
nəslindən olan başçılardır. 19 Bunlar
Esavın, yəni Edomun oğullarıdır, bunlar
da onların başçılarıdır.

Seirin nəsli

(1Saln. 1:38-41)

20 Ölkədə yaşayan Xorlu Seirin
oğulları bunlardır: Lotan, Şoval, Siveon,
Ana, 21 Dişon, Eser və Dişan. Edom
torpağında başçılıq edən Xorlu Seirin
oğulları bunlardır.
22 Lotanın oğulları Xori və Hemam,
Lotanın bacısı Timna. 23 Şovalın oğulları
bunlardır: Alvan, Manaxat, Eval, Şefo və
Onam. 24 Siveonun oğulları bunlardır:
Ayya və Ana; atası Siveonun eşşəklərini
otararkən çöldə isti bulaqlar tapan Ana
budur. 25 Ananın övladları bunlardır:
Dişon və Ananın qızı Oholivama.
26 Dişonun oğulları bunlardır: Xemdan,
Eşban, İtran və Keran. 27 Eserin oğulları
bunlardır: Bilhan, Zaavan və Aqan.
28 Dişanın oğulları bunlardır: Us və
Aran.
29 Xorlulardan olan başçılar bunlardır:
başçı Lotan, başçı Şoval, başçı Siveon,
başçı Ana, 30 başçı Dişon, başçı Eser,
başçı Dişan; Seir torpağında qəbilələrinə
görə Xorlu başçılar bunlardır.

Edomun padşahları və başçıları

(1Saln. 1:43-54)

31 İsraillilərə bir kəs padşahlıq
etməzdən əvvəl Edom ölkəsində
padşahlıq edən adamlar bunlardır:
32 Edomda Beorun oğlu Bela padşah
oldu. Onun şəhəri Dinhava idi. 33 Bela
öldü və onun yerinə Bosradan olan
Zerah oğlu Yovav padşah oldu. 34 Yovav
öldü və onun yerinə Temanlıların
torpağından olan Xuşam padşah
oldu. 35 Xuşam öldü və onun yerinə
Moav çölündə Midyanlıları qıran
Bedad oğlu Hadad padşah oldu. Onun
şəhəri Avit idi. 36 Hadad öldü və onun
yerinə Masreqadan olan Samla padşah
oldu. 37 Samla öldü və onun yerinə
Rexovot-Hannahardan olan Şaul padşah
oldu. 38 Şaul öldü və onun yerinə Akbor
oğlu Baal-Xanan padşah oldu. 39 Akbor
oğlu Baal-Xanan öldü və onun yerinə
Hadar padşah oldu. Onun şəhəri Pau
idi. Onun arvadının adı Me-Zahav qızı
Matred qızı Mehetavel idi.
40 Esavın nəslindən olan başçıların
qəbilələrinə və yerlərinə görə adları
belədir: başçı Timna, başçı Alva,
başçı Yetet, 41 başçı Oholivama, başçı
Ela, başçı Pinon, 42 başçı Qenaz,
başçı Teman, başçı Mivsar, 43 başçı
Maqdiel, başçı İram; sahib olduqları
ölkədə yaşadıqları yerlərə görə Edom
başçıları bunlardır. Esav da Edomluların
əcdadıdır.

Yusifin yuxuları

37 Yaqub atasının qərib olduğu
Kənan torpağında yaşadı.
2 Yaqubun tarixçəsi belədir.
Yusif on yeddi yaşında bir gənc idi.
O öz qardaşları – atasının arvadları
Bilhanın və Zilpanın oğulları ilə birlikdə
sürü otarırdı. Yusif onların pis işləri
barədə xəbərləri atasına çatdırırdı.
3 İsrail Yusifi bütün oğullarından çox
sevirdi, çünki Yusif onun qocalıq
çağının oğlu idi. O, Yusifə əlvan paltar
tikdirdi. 4 Qardaşları gördülər ki, ataları
onlardan çox Yusifi sevir. Buna görə də
ona nifrət etdilər və onunla yaxşı rəftar
etmədilər.
5 Bir dəfə Yusif yuxu gördü və onu
qardaşlarına danışdı. Bundan sonra
ona daha çox nifrət etməyə başladılar.
6 Yusif onlara dedi: «Gördüyüm bu
yuxuya qulaq asın: 7 biz zəminin
ortasında dərz bağlayırdıq; mənim

dərzim qalxıb dik durdu, sizin
dərzləriniz isə mənim dərzimi əhatəyə
alıb ona təzim etdilər». 8 Qardaşları ona
dedilər: «Doğrudanmı, sən bizə padşah
olacaqsan, hökmranlıq edəcəksən?»
Onlar yuxularına və sözlərinə görə
Yusifə daha çox nifrət etdilər.
9 Yusif başqa bir yuxu gördü və onu
qardaşlarına danışıb dedi: «Yenə bir
yuxu gördüm; gördüm ki, günəş, ay
və on bir ulduz mənə təzim edir».
10 O, yuxusunu atasına və qardaşlarına
danışanda atası onu danlayıb dedi:
«Bu gördüyün yuxu nə deməkdir?
Doğrudanmı, mən, anan və qardaşların
yerə əyilib sənə təzim etmək üçün
gələcəyik?» 11 [p]Qardaşları ona paxıllıq
etdilər, atası isə bu sözü yadda saxladı.

Qardaşlarının Yusifi satması

12 Bir gün Yusifin qardaşları
atalarının sürüsünü otarmaq üçün
Şekemə getdilər. 13 İsrail Yusifə
dedi: «Qardaşların Şekemdə sürü
otarırlar. Gəl səni də onların yanına
göndərim». O, atasına dedi: «Getməyə
hazıram». 14 İsrail yenə ona dedi:
«Get bax, qardaşların yaxşıdırmı, sürü
salamatdırmı? Sonra mənə xəbər gətir».
Beləcə onu Xevron vadisindən yola
saldı.
Yusif gəlib Şekemə çatdı. 15 Çöldə
dolaşarkən bir nəfər ona rast gəldi.
Bu adam «Nə axtarırsan?» deyə ondan
soruşdu. 16 O dedi: «Mən qardaşlarımı
axtarıram. Mənə de görüm, onlar sürünü
harada otarırlar?» 17 Bu adam dedi:
«Buradan getdilər, çünki mən onların
“Dotana gedək” sözlərini eşitdim». Yusif
qardaşlarının dalınca düşdü və onları
Dotanda tapdı.
18 Qardaşları onu uzaqdan gördülər.
Yusif onların yanına çatmamış onu
öldürmək qərarına gəldilər. 19 Qardaşlar
bir-birlərinə dedilər: «Baxın, bu yuxular
görən gəlir. 20 İndi gəlin onu öldürüb bir
quyuya ataq, sonra da deyək ki, vəhşi
heyvan onu parçaladı. Onda görərik,
yuxuları necə çin çıxır». 21 Ruven bunu
eşidib Yusifi onların əlindən qurtarmaq
üçün dedi: «Gəlin ona toxunmayaq».
22 Ruven onlara «qan tökməyin, onu
çöldə olan bu quyuya atın, ancaq ona
toxunmayın» dedi. Bunu ona görə
deyirdi ki, Yusifi qardaşlarının əlindən
qurtarıb atasının yanına qaytarsın.
23 Yusif qardaşlarının yanına çatanda
onlar Yusifin əyninə geydiyi alabəzək
paltarı dartıb çıxartdılar. 24 Özünü də
götürüb quyuya atdılar. Quyu boş idi,
orada su yox idi.
25 Qardaşlar çörək yemək üçün
oturdular. Onlar başlarını qaldıranda
gördülər ki, Gileaddan İsmaillilərin bir
karvanı gəlir. Onların dəvələri ədviyyat,
balzam və ətriyyatla yüklənmişdi və
bunları Misirə aparırdılar. 26 Yəhuda
qardaşlarına dedi: «Əgər qardaşımızı
öldürüb qətli ört-basdır etsək, bunun
nə xeyri olar? 27 Gəlin onu İsmaillilərə
sataq və ona toxunmayaq, çünki
qardaşımızdır, biz eyni qandanıq».
Qardaşları onun sözü ilə razılaşdılar.
28 [q]Oradan Midyan tacirləri keçəndə
Yusifi quyudan çıxarıb İsmaillilərə
iyirmi gümüşə satdılar. Onlar da Yusifi
Misirə apardılar.
29 Ruven quyuya tərəf qayıdıb gördü
ki, Yusif orada yoxdur. O, paltarını
cırdı. 30 Sonra qardaşlarının yanına
qayıdıb dedi: «Uşaq yoxdur, bəs mən
nə edim?» 31 Onlar Yusifin paltarını
götürdülər və bir keçi kəsib paltarı qana
batırdılar. 32 Sonra qardaşlar bu əlvan
paltarı götürüb atalarına gətirdilər və
dedilər: «Biz bunu tapdıq: gör, oğlunun
paltarıdır ya yox?» 33 O, paltarı tanıyıb
dedi: «Bu, oğlumun paltarıdır; yəqin

---

[p] **37:11** Həv. 7:9-10 [q] **37:28** Həv. 7:9-10

onu vəhşi bir heyvan yeyib. Həqiqətən,
Yusif parçalanıb». 34 Yaqub öz paltarını
cırdı və belinə çul bağladı; o uzun
müddət oğlu üçün yas tutdu. 35 Bütün
oğulları və qızları ona təsəlli vermək
üçün yığışdı, ancaq o təsəlli tapmaq
istəməyib dedi: «Kədərlə oğlumun
yanına – ölülər diyarına enəcəyəm».
Beləcə atası onun üçün ağladı.
36 Midyanlılar isə Yusifi Misirdə
fironun bir əyanı olan mühafizəçilər
rəisi Potifara satdılar.

Yəhuda və Tamar

38 O zaman Yəhuda qardaşlarından
ayrılaraq Xira adlı Adullamlı
bir adamın yanına gedib məskən saldı.
2 Yəhuda orada Şua adlı Kənanlı bir
adamın qızını gördü. Yəhuda qızı arvad
alıb yanına girdi. 3 Qadın hamilə olub
bir oğlan doğdu və Yəhuda onun adını
Er qoydu. 4 Qadın yenə hamilə olub
bir oğlan doğdu və adını Onan qoydu.
5 Sonra yenə də bir oğlan doğub, adını
Şela qoydu. Qadın onu doğduğu zaman
Yəhuda Kezivdə idi.
6 Yəhuda ilk oğlu Er üçün bir arvad
aldı, onun adı Tamar idi. 7 Yəhudanın
ilk oğlu Er Rəbbin gözündə pis idi və
Rəbb onu öldürdü. 8 [r]Yəhuda Onana
dedi: «Qardaşın arvadının yanına gir, öz
qayınlıq vəzifəni yerinə yetirib qardaşın
üçün nəsil yetişdir». 9 Onan bilirdi ki, bu
nəsil ona məxsus olmayacaq. Buna görə
də qardaşı arvadının yanına girəndə
toxumunu yerə tökərdi ki, qardaşı üçün
nəsil yetişdirməsin. 10 Onun etdiyi bu iş
Rəbbin gözündə pis oldu və Rəbb onu
da öldürdü. 11 Yəhuda gəlini Tamara
dedi: «Atanın evinə qayıt, oğlum Şela
böyüyənə qədər dul olaraq qal». Yəhuda
fikirləşdi ki, Şela da qardaşları kimi
ölə bilər. Tamar gedib atasının evində
qaldı.
12 Uzun müddətdən sonra Şuanın
qızı olan Yəhudanın arvadı öldü.
Yəhuda matəm qurtarandan sonra dostu
Adullamlı Xira ilə birlikdə Timnata
sürüsünü qırxanların yanına getdi.
13 Tamara bildirdilər: «Bax qayınatan
sürüsünü qırxmaq üçün Timnata gəlir».
14 Tamar dulluq paltarını əynindən
çıxarıb rübənd örtdü və bürünüb
Timnata gedən yolda olan Enayim
darvazasının yanında oturdu. Çünki o
görürdü ki, Şela böyüyüb, o isə hələ də
Şelaya ərə verilməyib.
15 Yəhuda onu görəndə elə bildi ki, bir
fahişə qadındır, çünki üzünü örtmüşdü.
16 Yəhuda yolunu ona tərəf salıb dedi:
«İcazə ver, sənin yanına girim». Ancaq
onun öz gəlini olduğunu bilmədi. Qadın
dedi: «Yanıma girmək üçün mənə nə
verirsən?» 17 Yəhuda dedi: «Sürüdən
bir oğlaq göndərərəm». O dedi: «Onu
göndərənə qədər mənə girov olaraq bir
şey verərsənmi?» 18 Yəhuda soruşdu:
«Girov olaraq sənə nə verim?» Qadın
dedi: «Öz möhürünü, qaytanını və
əlində olan əsanı». Yəhuda bunları
qadına verib yanına girdi. Qadın ondan
hamilə qaldı. 19 Sonra Tamar qalxıb
getdi və rübəndini çıxarıb dulluq
paltarını geydi.
20 Yəhuda qadından girovunu almaq
üçün Adullamlı dostunun vasitəsilə
oğlağı göndərdi. Ancaq o, qadını
tapmadı. 21 Qadının olduğu yerin
adamlarından soruşdu: «Enayimdə yol
kənarında olan fahişə [*]haradadır?»
Onlar dedilər: «Burada fahişə yoxdur».
22 O, Yəhudanın yanına qayıdıb dedi:
«Onu tapa bilmədim. O yerin adamları
da “burada fahişə yoxdur” dedilər».
23 Yəhuda dedi: «Qoy bu şeylər onunku

[*]**38:21** *fahişə* – yaxud *məbəd fahişəsi.*

[r]**38:8** Qanun. 25:5-7

olsun, ancaq biz bu işdən rüsvay
olmayaq. Bax mən bu oğlağı ona
göndərdim, amma sən onu tapmadın».
24 Bundan təxminən üç ay sonra
Yəhudaya bildirdilər: «Gəlinin Tamar
zina edib, həm də bu zinadan hamilə
qalıb». Yəhuda dedi: «Onu çıxarıb
yandırın». 25 O bayıra çıxarıldığı zaman
qayınatasına xəbər göndərib dedi:
«Mən bu şeylərin sahibi olan adamdan
hamilə qaldım». Sonra dedi: «Bax gör,
bu möhür, qaytan və əsa kimindir?»
26 Yəhuda bunları tanıyıb dedi: «O
məndən haqlıdır, çünki onu oğlum
Şelaya vermədim». Yəhuda onunla bir
daha yaxınlıq etmədi.
27 Tamar doğanda məlum oldu ki,
bətnində əkiz var. 28 Doğuş vaxtı bir
uşaq əlini çıxartdı. Mamaça götürüb
onun əlinə qırmızı ip bağladı və dedi:
«Əvvəlcə bu doğuldu». 29 Ancaq o
uşaq əlini geri çəkdi və qardaşı birinci
doğuldu. Mamaça dedi: «Özünə necə
deşik açdın?» Buna görə də onun adını
Peres *qoydular. 30 Ondan sonra əlində
qırmızı ip olan qardaşı doğuldu. Onun
adını Zerah †qoydular.

Yusif və Potifarın arvadı

39 Yusif Misirə aparıldı. Fironun
bir əyanı – mühafizəçilər rəisi
Misirli Potifar onu oraya gətirmiş
İsmaillilərdən satın aldı. 2 [s]Rəbb Yusiflə
idi və o, işlərində uğur qazanırdı. Yusif
Misirli ağasının evində qalırdı. 3 Ağası
gördü ki, Rəbb onunladır və etdiyi hər
işdə ona uğur verir.
4 Yusif ağasının gözündə lütf tapdı və
onun şəxsi xidmətçisi oldu. Ağası Yusifi
evinə nəzarətçi təyin etdi və özünə
məxsus olan hər şeyi onun ixtiyarına
verdi. 5 Evinin və özünə məxsus olan
hər şeyin ixtiyarını ona verən vaxtdan
bəri Rəbb Yusifə görə Misirlinin evinə
bərəkət verdi, evində, tarlasında və
özünə məxsus olan hər şeydə Rəbbin
bərəkəti göründü. 6 Ağası özünə məxsus
olan hər şeyi Yusifin ixtiyarına vermişdi,
yediyi yeməkdən başqa, evində olan
heç nədən xəbəri yox idi. Yusif gözəl və
yaraşıqlı idi.
7 Bir müddət sonra ağasının arvadının
Yusifə gözü düşüb dedi: «Gəl mənimlə
yat». 8 Ancaq Yusif bundan imtina edib
ağasının arvadına dedi: «Mən burada
olarkən ağam evində nə olduğunu
bilmir və özünə məxsus olan hər şeyi
mənim ixtiyarıma verib. 9 Bu evdə isə
hətta o məndən böyük deyil və səndən
başqa heç bir şeyi məndən əsirgəmədi,
çünki sən onun arvadısan. Bəs mən
necə bu böyük pisliyi edib Allahın
önündə günaha bata bilərəm?» 10 Qadın
hər gün bunu Yusifə deyirdi, Yusif isə
onunla yatmağa, hətta birgə olmağa
razı olmurdu.
11 Bir gün Yusif öz işini görmək üçün
evə girdi. İçəridə ev adamlarından heç
kəs yox idi. 12 Qadın «Mənimlə yat!»
deyib onun paltarından tutdu. Yusif
paltarını onun əlində qoyub qaçdı və
bayıra çıxdı. 13 Qadın onun paltarını
əlində qoyub qaçdığını görəndə 14 ev
adamlarını çağırıb dedi: «Baxın,
ağanız bu İbranini bizi təhqir etmək
üçün yanımıza gətirib. O mənimlə
yatmaq üçün yanıma gəldi, mən isə
ucadan qışqırdım. 15 O, səsimi ucaldıb
qışqırdığımı görəndə paltarını yanımda
qoyub qaçdı və bayıra çıxdı». 16 Yusifin
ağası evə gələnə qədər qadın onun
paltarını özündə saxladı. 17 Sonra ərinə
də bu sözləri söyləyib dedi: «Bizə
gətirdiyin bu İbrani qul məni təhqir

*38:29 *Peres* – ibrani dilində *deşik açmaq.*
†38:30 *Zerah* – ibrani dilində *qırmızı.*

[s]39:2 Həv. 7:9-10

etmək üçün yanıma gəldi. 18 Səsimi
ucaldıb qışqırdığım zaman paltarını
yanımda qoyub bayıra qaçdı».
19 Yusifin ağası arvadının «sənin
qulun mənimlə belə rəftar etdi»
sözlərini eşidəndə bərk qəzəbləndi.
20 Ağası Yusifi götürüb padşahın
məhbuslarının saxlanıldığı zindana
təhvil verdi. Yusif zindanda qaldı.
21 Ancaq Rəbb Yusiflə idi və ona
xeyirxahlıq göstərdi. O, zindanın baş
nəzarətçisinin gözündə lütf tapdı.
22 Zindanın baş nəzarətçisi zindanda
olan bütün məhbusları Yusifin ixtiyarına
verdi. Orada görülən hər işə o başçılıq
edirdi. 23 Zindanın baş nəzarətçisi
Yusifin ixtiyarında olan heç nəyə
nəzarət etmirdi, çünki Rəbb Yusiflə idi
və etdiyi hər işdə ona uğur verirdi.

Yusif məhbusların yuxusunu yozur

40 Bir müddət sonra Misir
padşahının saqisi və çörəkçisi
ağaları Misir padşahına qarşı günah
etdilər. 2 Firon bu iki əyanına – baş
saqiyə və baş çörəkçiyə bərk qəzəbləndi
3 və onları mühafizəçilər rəisinin evində
– Yusifin məhbus olduğu zindanda
saxladı. 4 Mühafizəçilər rəisi Yusifi
onlara xidmətçi təyin etdi və Yusif də
onlara xidmət etdi. Onlar bir müddət
zindanda qaldılar.
5 Bir gün Misir padşahının zindanda
məhbus olan saqisi və çörəkçisi
yuxu gördülər. Hər ikisi bir gecədə
müxtəlif mənalı yuxular gördü. 6 Səhər
Yusif onların yanına gəldi və kədərli
olduqlarını gördü. 7 Yusif onunla birgə
ağasının evində, zindanda olan firon
əyanlarından soruşdu: «Niyə bu gün
üzünüz kədərlidir?» 8 Onlar Yusifə
dedilər: «Yuxu görmüşük, ancaq onu
yozan yoxdur». Yusif onlara dedi: «Yuxu
yozmaq Allahın işi deyilmi? Onu mənə
danışın».
9 Baş saqi yuxusunu Yusifə danışıb
dedi: «Yuxumda gördüm ki, önümdə
bir üzüm tənəyi var. 10 Tənəkdə üç
budaq var idi. Onlarda tumurcuqlar
görünüb çiçək açdı və salxımlar yetişdi.
11 Fironun piyaləsi mənim əlimdə idi.
Üzümləri götürüb fironun piyaləsinə
sıxdım və piyaləni firona verdim».
12 Yusif ona dedi: «Onun yozması
belədir: üç budaq üç gündür. 13 Üç gün
ərzində firon səni yüksəldəcək. Səni öz
işinə qaytaracaq, sən də onun saqisi
olduğun vaxtdakı kimi əvvəlki qaydaya
görə fironun piyaləsini əlinə verəcəksən.
14 Ancaq sənin vəziyyətin yaxşılaşanda
məni yadına sal və xeyirxahlıq göstər.
Haqqımda firona danışıb məni bu
yerdən çıxart. 15 Doğrudan da, mən
İbranilərin torpağından oğurlanmışam
və burada da zindana salınmağa layiq
bir iş görməmişəm».
16 Baş çörəkçi Yusifin yuxunu
yaxşılığa yozduğunu görüb ona dedi:
«Mən isə yuxuda gördüm ki, başımın
üstündə üç səbət ağ çörək var. 17 Ən
üstdəki səbətdə çörəkçinin firon üçün
bişirdiyi hər cür çörək var. Quşlar
başımın üstündəki səbətdən onları
yeyirdi». 18 Yusif belə cavab verdi:
«Onun yozması belədir: üç səbət üç
gündür. 19 Üç gün ərzində firon sənin
başını bədənindən ayıracaq, özünü də
ağacdan asacaq və quşlar sənin ətini
didəcək».
20 Üçüncü gün – fironun ad günü
o bütün əyanlarına ziyafət verdi. Baş
saqini və baş çörəkçini əyanlarının
önünə çıxartdı. 21 Baş saqini saqiliyinə
qaytardı və o, piyaləni fironun əlinə
verdi, 22 baş çörəkçini isə asdırdı; hər
şey Yusifin yozduğu kimi oldu. 23 Ancaq
baş saqi Yusifi yada salmadı və onu
unutdu.

Fironun yuxuları

41 İki il keçəndən sonra firon belə
bir yuxu gördü: o, Nil çayının
sahilində dayanmışdı. 2 Çaydan yeddi
bəslənmiş və kök inək çıxdı. Onlar
qamışlıq içində otlamağa başladı.
3 Onlardan sonra haldan düşmüş və arıq
olan başqa yeddi inək Nil çayından
çıxdı. Onlar çayın sahilindəki inəklərin
yanında dayandılar. 4 Haldan düşmüş
və arıq inəklər bəslənmiş və kök olan
yeddi inəyi yedilər. Onda firon yuxudan
oyandı.
5 Sonra yatıb ikinci dəfə bu yuxunu
gördü: bir saplaqdan yeddi dolu və
yaxşı sünbül çıxdı. 6 Onlardan sonra isə
cılız və şərq küləyindən yanmış yeddi
sünbül bitdi. 7 Cılız sünbüllər yeddi
böyük və dolu sünbülü uddular. Onda
firon oyandı; bu bir yuxu idi.
8 Səhəri gün onun ürəyi narahat
oldu. O xəbər göndərib Misirin bütün
sehrbazlarını və müdriklərini çağırdı.
Firon onlara öz yuxusunu danışdı, ancaq
onların arasında fironun yuxusunu
yozan bir adam tapılmadı.
9 Baş saqi firona belə söylədi: «Mən
bu gün öz günahımı yadıma saldım:
10 bir dəfə firon qullarına qəzəbləndi
və mənimlə baş çörəkçini zindana,
mühafizəçilər rəisinin evinə saldı. 11 Biz
bir gecə yuxu gördük, hər birimiz
müxtəlif mənalı yuxular gördük.
12 Orada bizimlə birgə mühafizəçilər
rəisinin qulu olan bir İbrani gənc var
idi. Biz ona danışdıq, o da yuxularımızı
yozdu, hər birimizə yuxusunun
mənasını izah etdi. 13 O bizə necə
yozmuşdusa, elə də oldu: mən öz
vəzifəmə qaytarıldım, baş çörəkçi isə
asıldı».
14 Firon xəbər göndərib Yusifi çağırdı.
Onu tez zindandan çıxartdılar. O,
başını qırxıb paltarlarını dəyişdi və
fironun hüzuruna gəldi. 15 Firon Yusifə
dedi: «Bir yuxu görmüşəm, ancaq onu
yozan yoxdur. Mən sənin barəndə
eşitmişəm ki, yuxuları eşidib yoza
bilirsən». 16 Yusif firona cavab verdi:
«Bu məndən deyil, Allah fironun xeyrinə
cavab verəcək». 17 Firon Yusifə dedi:
«Yuxumda gördüm ki, Nil çayının
sahilində durmuşam. 18 Çaydan kök
və bəslənmiş yeddi inək çıxdı. Onlar
qamışlıq içində otlamağa başladı.
19 Onlardan sonra halsız, çox cılız və
arıq olan başqa yeddi inək çıxdı. Bütün
Misir ölkəsində bunlar kimi cılız inək
görməmişəm. 20 Arıq və cılız inəklər
əvvəlki yeddi kök inəyi yedilər. 21 Kök
inəklər onların qarınlarına girdiklərinə
baxmayaraq, bu bilinmirdi, onlar
əvvəlki kimi arıq idi. Onda oyandım.
22 Yenə yuxumda gördüm ki, bir
saplaqdan yeddi dolu və böyük sünbül
çıxdı. 23 Onlardan sonra solğun, cılız və
şərq küləyindən yanmış yeddi sünbül
bitdi. 24 Cılız sünbüllər yeddi dolu
sünbülü uddular; bunları sehrbazlara
danışdım, ancaq izah edən olmadı».
25 Yusif firona dedi: «Fironun
yuxularının mənası eynidir. Allah etmək
istədiyi işi firona bildirdi. 26 Yeddi
bəslənmiş inək yeddi ildir, yeddi dolu
sünbül də yeddi ildir; yuxuların mənası
eynidir. 27 Onlardan sonra çıxan yeddi
arıq, cılız inək və şərq küləyindən
yanmış boş yeddi sünbül də yeddi
ildir; yeddi il aclıq olacaq. 28 Firona
demək istədiyim sözlər bunlardır.
Allah etmək istədiyi işi firona göstərdi.
29 Bütün Misir torpağında yeddi il
böyük bolluq olacaq. 30 Bundan sonra
yeddi il aclıq olacaq. Misir ölkəsində
olan bütün bolluq yaddan çıxacaq və
aclıq ölkəni əldən salacaq. 31 Ölkədəki
bolluq ondan sonra gələn aclıq üzündən
görünməyəcək, çünki aclıq çox ağır
olacaq. 32 Firon yuxunu iki dəfə görüb,
çünki Allah belə qərara gəlmişdir və
tezliklə bu işi görəcək. 33 Buna görə

də firon ağıllı və müdrik bir adam
axtarsın, onu Misir ölkəsinə başçı
təyin etsin. 34 Firon ölkədə məmurlar
qoymağı əmr etsin və yeddi il bolluq
zamanı Misir torpağının məhsullarının
beşdə birini yığsın. 35 Qoy onlar uğurlu
olan bu illərin bütün məhsullarını
toplasınlar. Taxılı isə azuqə olaraq
şəhərlərdə fironun nəzarəti altında
yığıb saxlasınlar. 36 Bu azuqə Misir
torpağına gələn yeddi il aclıq dövrü
üçün ehtiyat olacaq, ta ki ölkə əhalisi
aclıqdan qırılmasın».

Yusifin Misirdə başçı olması

37 Bu sözlər fironun və onun
əyanlarının xoşuna gəldi. 38 Firon
əyanlarına dedi: «Bu adam kimi
Allahın Ruhuna malik olan bir kəs tapa
biləcəyikmi?» 39 Sonra firon Yusifə dedi:
«İndi ki Allah sənə bütün bu şeyləri
bildirdi, deməli, sənin kimi ağıllı və
müdrik adam yoxdur. 40 [t]Sən mənim
saray adamlarıma başçılıq edəcəksən
və bütün xalqım sənin əmrinlə idarə
olunacaq. Mən yalnız taxtda səndən
böyük olacağam». 41 Firon yenə Yusifə
dedi: «Səni bütün Misir ölkəsinə başçı
təyin edirəm». 42 Firon öz möhürünü
barmağından çıxarıb Yusifin barmağına
taxdı, ona incə kətan paltar geyindirdi
və boynuna qızıl zəncir asdı. 43 Firon
əmr etdi ki, onu özünün ikinci arabasına
mindirsinlər və qarşısında «Diz çökün!»
deyib bağırsınlar. Beləcə o, Yusifi bütün
Misir ölkəsinə başçı qoydu. 44 Firon
Yusifə dedi: «Mən fironam. Bütün
Misir ölkəsində heç kəs sənsiz əlini
yaxud ayağını tərpətməyəcək». 45 Firon
Yusifin adını Safnat-Paneah qoydu və
On şəhərinin kahini Poti-Feranın qızı
Asnatı ona arvad olmaq üçün verdi.
Yusif bütün Misir ölkəsini gəzməyə
çıxdı.

46 Misir padşahı fironun hüzurunda
olarkən Yusif otuz yaşında idi. Yusif
fironun hüzurundan çıxıb bütün Misir
ölkəsini dolaşdı. 47 Yeddi bolluq ilində
torpaq qucaq-qucaq məhsul verdi.
48 Yusif yeddi ildə Misir torpağında
yığılmış bütün məhsulu topladı. O,
məhsulu şəhərlərə qoydu. Hər şəhərin
ətrafında olan tarlada yetişən məhsulu
o şəhərdə saxladı. 49 Yusif dəniz qumu
qədər çox taxıl yığdı və daha onu
hesablamadı, çünki sayı-hesabı yox idi.

50 Aclıq illərindən qabaq Yusifin
iki oğlu oldu; onları Yusifə On kahini
Poti-Feranın qızı Asnat doğdu. 51 Yusif
ilk oğlunun adını Menaşşe [*]qoydu,
çünki demişdi: «Allah bütün zəhmətimi
və atamın evindəkilərin hamısını mənə
unutdurdu». 52 İkinci oğlunun adını
Efrayim [†]qoydu, çünki demişdi: «Allah
əziyyət çəkdiyim torpaqda məni bəhərli
etdi».

53 Misir torpağında yeddi il bolluq
qurtardı. 54 [u]Yusifin söylədiyi kimi
yeddi il aclıq başladı. Bütün ölkələrdə
aclıq oldu, lakin Misir torpağının hər
yerində ərzaq var idi. 55 [v]Bütün Misir
əhalisi aclıq çəkəndə çörək üçün firona
fəryad etdi. Firon bütün Misirlilərə dedi:
«Yusifin yanına gedin, onun dediyini
edin». 56 Bütün yer üzündə aclıq oldu.
Yusif məhsul olan bütün anbarları
açıb Misirlilərə taxıl satırdı. Misir
torpağında aclıq gücləndi. 57 Bütün
ölkələrin adamları taxıl almaq üçün
Misirə, Yusifin yanına gəlirdilər, çünki
bütün yer üzündə şiddətli aclıq idi.

---

[*]**41:51** *Menaşşe* – ibrani dilində *unutduran.*
[†]**41:52** *Efrayim* – ibrani dilində *bəhərli.*

[t]**41:40** Həv. 7:9-10 [u]**41:54** Həv. 7:11 [v]**41:55** Yəh. 2:5

Yusifin qardaşları Misirə gedir

42 Yaqub öyrəndi ki, Misirdə taxıl
var. O öz oğullarına dedi: «Nə
üçün bir-birinizə baxırsınız?» 2 [w]Yenə
dedi: «Mən eşitdim ki, Misirdə taxıl var,
gedib oradan bizim üçün taxıl alın ki,
ölməyib yaşayaq». 3 Yusifin on qardaşı
taxıl almaq üçün Misirə getdi. 4 Ancaq
Yaqub Yusifin qardaşı Binyamini
qardaşları ilə birgə göndərmədi, çünki
fikirləşirdi ki, onun başına bir fəlakət
gələ bilər. 5 Taxıl almağa gələnlər
arasında İsrailin oğulları da var idi,
çünki Kənan torpağında da aclıq hökm
sürürdü.
6 Yusif ölkənin başçısı idi və ölkənin
bütün əhalisinə də taxılı özü satırdı.
Yusifin qardaşları gəlib onun önündə
üzlərini yerə qoyub səcdə etdilər.
7 Yusif qardaşlarını görüb tanıdı, ancaq
onlarla yad adam kimi rəftar edərək
sərt danışdı. Yusif onlardan soruşdu:
«Haradan gəlirsiniz?» Onlar dedilər:
«Ərzaq almaq üçün Kənan torpağından
gəlirik».
8 Yusif qardaşlarını tanıdı, amma
onlar Yusifi tanımadılar. 9 [x]Yusif
qardaşları barədə gördüyü yuxuları
xatırlayıb onlara dedi: «Siz casussunuz,
ölkənin zəif yerlərini öyrənmək üçün
gəlmisiniz». 10 Qardaşları ona dedilər:
«Xeyr, ey ağamız, qulların yalnız
ərzaq almaq üçün gəliblər. 11 Biz
hamımız bir adamın oğullarıyıq. Biz
təmiz adamlarıq, qulların casus deyil».
12 Ancaq Yusif onlara dedi: «Xeyr,
siz ölkənin zəif yerlərini öyrənmək
üçün gəlmisiniz». 13 Onlar dedilər:
«Biz qulların on iki qardaşıq və Kənan
torpağında bir adamın oğullarıyıq. Kiçik
qardaşımız indi atamızın yanındadır,
bir qardaşımız isə yoxa çıxıb». 14 Yusif
onlara dedi: «Hər şey mən dediyim
kimidir: siz casussunuz, 15 ancaq
mən sizi belə yoxlayacağam: fironun
canına and olsun ki, kiçik qardaşınız
buraya gəlməsə, siz buradan gedə
bilməyəcəksiniz. 16 Aranızdan bir nəfəri
göndərin ki, qardaşınızı gətirsin, siz
isə burada saxlanacaqsınız. Onda
sizin düz deyib-demədiyiniz bilinəcək.
Yoxsa fironun canına and olsun ki,
siz casussunuz». 17 Yusif üç gün onları
zindanda saxladı.
18 Üçüncü gün Yusif onlara dedi:
«Dediyimə əməl edib canınızı qurtarın,
çünki mən Allahdan qorxuram.
19 Əgər siz təmiz adamsınızsa, qoy
qardaşlarınızdan biri həbs olunduğunuz
yerdə qalsın, siz isə gedib ailələrinizi
aclıqdan qurtarmaq üçün taxıl aparın.
20 Sonra kiçik qardaşınızı mənim
yanıma gətirin. Beləcə düz dediyinizi
biləcəyəm və canınızı qurtaracaqsınız».
Qardaşlar belə də etdilər. 21 Onlar
bir-birlərinə dedilər: «Doğrudan da, biz
qardaşımızın qarşısında təqsirkarıq. O
bizə yalvardığı vaxt çəkdiyi əziyyəti
gördük, ancaq ona qulaq asmadıq.
Buna görə də başımıza bu bəla gəldi».
22 [y]Ruven onlara belə cavab verdi:
«Mən demədimmi uşağa pislik etməyin,
lakin siz mənə qulaq asmadınız. İndi
isə onun qanına görə cəza çəkirik».
23 Qardaşları Yusifin onları başa
düşdüyünü bilmirdilər, çünki onlar
tərcüməçi vasitəsilə danışırdılar.
24 Yusif onların yanından kənara çəkilib
ağladı. Sonra qardaşlarının yanına
qayıdıb onlarla söhbət etdi. Aralarından
Şimeonu götürüb qardaşlarının gözü
qabağında onun əl-qolunu bağladı.
25 Yusif əmr etdi ki, onların çuvalları
taxılla doldurulsun, hər birinin verdiyi
pul da öz çuvalına qoyulsun və onlara
yol üçün azuqə verilsin. Belə də edildi.

---

[w]**42:2** Həv. 7:12 [x]**42:9** Yar. 37:5-10 [y]**42:22** Yar. 37:21-22

26 Qardaşlar taxıllarını eşşəklərinin
belinə yükləyib oradan getdilər.
27 Onlardan biri gecələdiyi yerdə
eşşəyinə yem vermək üçün çuvalını
açanda öz pulunu gördü: pul çuvalın
ağzında idi. 28 O, qardaşlarına dedi:
«Pulum özümə qaytarılıb, budur, o,
çuvalımın içindədir». Qardaşların ürəyi
həyəcana düşdü və onlar qorxa-qorxa
bir-birlərinə dedilər: «Allah bizim
başımıza nə iş gətirdi?»
29 Onlar Kənan torpağına, ataları
Yaqubun yanına gəldilər və başlarına
gələn bütün hadisələri ona danışıb
dedilər: 30 «O ölkənin başçısı olan adam
bizimlə sərt danışdı, bizi ölkəyə gələn
casuslar hesab etdi. 31 Ona dedik: “Biz
təmiz adamlarıq, casus deyilik. 32 Biz
bir atanın oğulları, on iki qardaşıq.
Bir qardaşımız yoxa çıxıb, biri də indi
Kənan torpağında atamızın yanındadır”.
33 O ölkənin başçısı olan adam bizə dedi:
“Sizin təmiz adam olduğunuzu bundan
biləcəyəm: qardaşlarınızdan birini
yanımda qoyub, ailələrinizi aclıqdan
qurtarmaq üçün taxıl götürərək gedin.
34 Sonra kiçik qardaşınızı yanıma
gətirin. O zaman sizin casus deyil, təmiz
adam olduğunuzu biləcəyəm. Onda
qardaşınızı sizə təhvil verəcəyəm və
ölkədə alver edə bilərsiniz”».
35 Qardaşlar çuvallarını boşaldarkən
gördülər ki, hər kəsin çuvalında pul
kisəsi var. Özləri və onların atası pul
kisələrini görəndə qorxdular. 36 Ataları
Yaqub onlara dedi: «Siz məni övladsız
qoydunuz. Yusif yox, Şimeon yox,
Binyamini də aparacaqsınız. Bütün
bunları mənim başıma gətirmək
istəyirsiniz». 37 Ruven atasına belə dedi:
«Əgər onu sənin yanına gətirməsəm,
iki oğlumu öldürərsən. Onu mənim
ixtiyarıma ver, mən də onu qaytarıb
yanına gətirəcəyəm».
38 Yaqub dedi: «Oğlum sizinlə
getməyəcək, çünki onun qardaşı ölüb
və tək qalıb. Əgər getdiyiniz yolda
onun başına bir iş gəlsə, mənim ağ saçlı
başımı kədər içində ölülər diyarına
endirəcəksiniz».

Misirə ikinci səfər

43 Kənan torpağında aclıq
güclənmişdi. 2 Qardaşların
Misirdən gətirdiyi buğda yeyilib
tükənəndə ataları onlara dedi: «Yenə
gedib bizə bir az ərzaq alın».
3 Yəhuda ona belə söylədi: «O adam
bizə ciddi xəbərdarlıq edib dedi ki,
əgər qardaşınız sizinlə gəlməsə, gözümə
görünməyin. 4 Əgər sən qardaşımızı
bizimlə göndərsən, gedib ərzaq
alarıq. 5 Ancaq onu göndərməsən,
getməyəcəyik, çünki o adam bizə dedi
ki, qardaşınız sizinlə gəlməsə, gözümə
görünməyin». 6 İsrail dedi: «Niyə o
adama daha bir qardaşınız olduğunu
bildirib mənə pislik etdiniz?» 7 Onlar
dedilər: «O adam özümüz və ailəmiz
barədə dəfələrlə bizə belə suallar
verdi: “İndi atanız sağdırmı? Başqa
qardaşlarınız varmı?” Biz də onun
bu suallarına cavab verdik. Ağlımıza
gələrdi ki, o bizə “qardaşınızı gətirin”
deyəcək?» 8 Sonra Yəhuda atası İsrailə
dedi: «Uşağı mənimlə göndər ki, qalxıb
gedək. Sən də, biz də, uşaqlarımız
da ölməyib sağ qalarıq. 9 Mən ona
zamin dururam, onu məndən tələb
edərsən. Əgər onu sənin yanına gətirib
qarşında dayandırmasam, ömrüm
boyu önündə təqsirkar olacağam.
10 Çünki biz gecikməsəydik, indi iki dəfə
gedib-qayıdardıq».
11 Ataları İsrail onlara dedi: «Əgər
belədirsə, bunu edin: torbalarınızda
bu torpağın ən yaxşı məhsullarından
o adama hədiyyə olaraq bir qədər
balzam, bal, ədviyyat, ətriyyat, püstə
və badam götürün. 12 Özünüzlə iki qat
artıq pul götürün. Çuvallarınızın içində
geri qaytarılmış pulu öz əllərinizlə

aparıb verin, bəlkə bir səhv olub.
13 Qardaşlarınızı götürüb gedin və o
adamın yanına qayıdın. 14 Külli-İxtiyar
Allah o adamda sizə qarşı mərhəmət
oyandırsın, o da digər qardaşınızı
və Binyamini sizə təhvil versin. Mən
uşaqlarımdan məhrum olacağamsa, qoy
olum».
15 Qardaşlar özləri ilə hədiyyə və iki
qat artıq pul götürdülər. Binyamini
də götürüb qalxdılar və Misirə gəlib
Yusifin önündə durdular. 16 Yusif
Binyamini onlarla bərabər görəndə öz
ev nəzarətçisinə dedi: «Bu adamları evə
apar və heyvan kəsib hazırla, çünki
onlar mənimlə nahar edəcəklər». 17 O
adam Yusifin dediyinə əməl etdi: bu
adamları Yusifin evinə apardı. 18 Bu
adamlar Yusifin evinə aparıldıqları
üçün qorxub dedilər: «Keçən dəfə
çuvallarımızda geri qaytarılmış pul
üstündə bizi aparırlar. O istəyir ki, bizə
qarşı bəhanə tapıb üstümüzə düşsün,
bizi özünə qul etsin və eşşəklərimizi
alsın». 19 Onlar Yusifin ev nəzarətçisinə
yaxınlaşdılar və evin astanasında ona
belə söylədilər: 20 «Ey ağamız, keçən
dəfə biz ərzaq almaq üçün gəlmişdik.
21 Ancaq gecələdiyimiz yerə çatdığımız
zaman çuvallarımızı açıb gördük ki, hər
birimizin pulu çəkisi əskik olmayaraq
çuvalımızın içindədir. İndi onu öz
əllərimizlə geri qaytarırıq. 22 Ərzaq
almaq üçün özümüzlə başqa pul da
gətirmişik. O pulu isə çuvallarımıza
kimin qoyduğunu bilmirik». 23 Ev
nəzarətçisi dedi: «Narahat olmayın,
qorxmayın. Özünüzün və atanızın
Allahı sizə çuvallarınızda xəzinə verdi.
Pulunuz mənə gəlib çatdı». Sonra
Şimeonu onların yanına gətirdi. 24 O
adam qardaşları Yusifin evinə gətirdi.
Ayaqlarını yumaq üçün onlara su verdi
və eşşəklərinə yem verdi. 25 Qardaşlar
Yusif nahara gələnə qədər hədiyyəni
hazırladılar, çünki orada yemək
yeyəcəklərini eşitdilər.
26 Yusif evə gələndə onlar hədiyyəni
otağa gətirib təqdim etdilər, onun
önündə yerə qədər əyilib səcdə etdilər.
27 Yusif onların kefini soruşub dedi: «O
dediyiniz qoca atanız salamatdırmı?
Hələ də yaşayırmı?» 28 Onlar dedilər:
«Sənin qulun atamız salamatdır, hələ
də yaşayır». Onlar Yusifə əyilib təzim
etdilər.
29 Yusif başını qaldıranda öz anasının
oğlu olan qardaşı Binyamini görüb dedi:
«Mənə söylədiyiniz kiçik qardaşınız
budurmu?» Sonra Binyaminə dedi:
«Ey oğlum, Allah sənə lütf etsin».
30 Yusif tələsik oradan çıxdı, çünki
qardaşını görəndə ürəyi sızıldadı, onu
ağlamaq tutdu və otağa girib orada
ağladı. 31 Sonra üzünü yuyub çıxdı,
özünə gəlib dedi: «Yemək gətirin».
32 Yeməyi ona ayrıca, qardaşlarına
ayrıca, onunla birgə yeyən Misirlilərə
isə ayrıca qoydular, çünki Misirlilər
İbranilərlə birgə yemək yeməzdilər;
bu, Misirlilər üçün iyrənc bir şey idi.
33 Qardaşlar böyük-kiçikliyinə görə
Yusifin hüzurunda oturdular. Onlar
bir-birlərinə baxıb çaşdılar. 34 Yusifin
önündəki yeməklərdən onlara pay
ayrıldı. Ancaq Binyaminin payı onların
hər birinin payından beş qat artıq idi.
Onlar yeyib-içdilər və onunla bərabər
xoş vaxt keçirdilər.

Yusifin itmiş kasası

44 Yusif öz ev nəzarətçisinə əmr
edib dedi: «Bu adamların
çuvallarını gücləri çatana qədər ərzaqla
doldur və hər kəsin pulunu öz çuvalının
ağzına qoy. 2 Kiçiyinin çuvalının ağzına
isə mənim kasamı – gümüş kasanı
və taxıl əvəzinə verilən pulu qoy».
O, Yusifin dediyi sözə əməl etdi.
3 Səhər açılanda bu adamları eşşəkləri
ilə birgə yola saldılar. 4 Onlar hələ

şəhərdən uzaqlaşmamışdı ki, Yusif öz ev
nəzarətçisinə dedi: «Qalx o adamların
dalınca get və onlara çatdığın zaman
belə söylə: “Nə üçün yaxşılığa pisliklə
cavab verdiniz? 5 Bu kasa ağamın içdiyi
və onunla baxıcılıq etdiyi kasa deyilmi?
Siz çox pis iş tutdunuz”».
6 Ev nəzarətçisi onlara çatdı və
bu sözləri söylədi. 7 Qardaşlar ona
dedilər: «Nə üçün ağam belə sözlər
söyləyir? Bu iş qullarından uzaq olsun.
8 Biz çuvalımızın içində tapdığımız
pulu Kənan torpağından sənə geri
qaytardıq. Ağanın evindən necə qızıl
yaxud gümüş oğurlaya bilərik? 9 Qoy
bu şey qullarından kimdə tapılsa, o
adam öldürülsün və biz də ağamıza qul
olaq». 10 O dedi: «Yaxşı, qoy siz deyən
kimi olsun: bu kimin yanında tapılsa,
o mənə qul olsun, qalanlarınız isə
təqsirkar olmayacaqsınız». 11 Onların
hər biri tələsik çuvalını yerə endirdi və
çuvalının ağzını açdı. 12 Ev nəzarətçisi
böyükdən başlayıb kiçiyə qədər onları
axtardı və kasa Binyaminin çuvalından
tapıldı. 13 Qardaşlar paltarlarını cırdılar
və hər biri eşşəyini yükləyib şəhərə
qayıtdı.
14 Yəhuda qardaşları ilə birgə Yusifin
evinə gəldi. O hələ də orada idi. Onlar
Yusifin önündə yerə qapandılar. 15 Yusif
onlara dedi: «Bu nə işdir, görmüsünüz?
Güman etmədiniz ki, mənim kimi bir
adam baxıcılıq edə bilər?» 16 Yəhuda
dedi: «Ağama nə deyim, nə söyləyim?
Özümüzü necə təmizə çıxara bilərik?
Allah öz qullarında təqsir gördü. İndi
biz də, yanında kasa tapılan adam da
ağamızın quluyuq». 17 O dedi: «Yox,
mən belə etməyəcəyəm. Yalnız yanında
kasa tapılan adam mənə qul olacaq, siz
isə sağ-salamat atanızın yanına gedin».
18 Yəhuda ona yaxınlaşıb dedi:
«Ey ağam, xahiş edirəm ki, qulunun
dediyi sözlərə qulaq as və quluna
qarşı qəzəbin alovlanmasın, çünki sən
firon kimi bir adamsan. 19 O zaman
ağam qullarından “Sizin atanız yaxud
qardaşınız varmı?” deyə soruşanda
20 biz ağamıza söyləmişdik: “Bizim
bir qoca atamız və onun da ixtiyar
çağında doğulan bir kiçik uşağı var.
Onun bir qardaşı öldü, anasından
doğulan yalnız o qaldı. Atası onu çox
sevir”. 21 Sən qullarına demişdin: “Onu
mənim yanıma gətirin ki, öz gözümlə
görüm”. 22 Biz də ağamıza demişdik:
“Uşaq atasından ayrıla bilməz, çünki
atasından ayrılsa, atası ölər”. 23 Amma
sən qullarına demişdin: “Əgər kiçik
qardaşınız sizinlə gəlməsə, bir daha
gözümə görünməyin”. 24 Sənin qulun
atamın yanına gəldiyimiz zaman
ağamızın sözlərini ona çatdırdıq.
25 Atamız dedi: “Yenə gedin, bizə bir az
ərzaq alıb gətirin”. 26 Biz dedik: “Gedə
bilmərik. Kiçik qardaşımız bizimlə
getsə, gedərik, kiçik qardaşımız bizimlə
getməsə, o adamın gözünə görünə
bilmərik”. 27 Sənin qulun atam bizə
dedi: “Bilirsiniz ki, arvadım mənə iki
oğul doğdu. 28 Bir oğlum yanımdan
getdi və dedim ki, onu yəqin vəhşi
bir heyvan parçalayıb; indiyə qədər o
oğlumu görməmişəm. 29 Bu oğlumu da
yanımdan aparsanız və onun başına bir
iş gəlsə, ağ saçlı başımı kədər içində
ölülər diyarına endirəcəksiniz”. 30 İndi
sənin qulun atamın yanına qayıtdığım
zaman uşaq bizimlə olmasa və ürəyi
bütün sevgisi ilə uşağa bağlanan
atamız 31 onu görməsə, ölər. Onda biz
qulların qulun atamızın ağ saçlı başını
kədər içində ölülər diyarına endirərik.
32 Mən qulun, atama uşaq üçün zamin
durub dedim: “Əgər onu sənin yanına
gətirməsəm, atamın önündə ömrüm
boyu təqsirkar olacağam”. 33 İndi
xahiş edirəm, qoy uşağın əvəzinə mən
ağama qul olmaq üçün qalım, uşaq isə
qardaşlarımla birgə getsin. 34 Çünki o
mənimlə olmasa, necə atamın yanına

gedə bilərəm? Onda mən atamın başına
fəlakət gəldiyini görərəm».

Yusifin özünü tanıtması

45 [z]Yusif yanında duranların
hamısının önündə özünü saxlaya
bilməyib qışqırdı: «Hamını yanımdan
çıxarın». Yusif özünü qardaşlarına
tanıtdığı zaman yanında heç kəs yox
idi. [2] O hönkürüb ağladı. Misirlilər və
fironun saray adamları eşitdilər.
[3] Yusif qardaşlarına dedi: «Mən
Yusifəm. Atam hələ sağdırmı?»
Qardaşları ona cavab vermədilər, çünki
çaşıb qalmışdılar. [4] Yusif qardaşlarına
dedi: «Mənə yaxın gəlin». Onlar
yaxın gəldilər. Yusif dedi: «Misirə
satdığınız qardaşınız Yusif mənəm.
[5] İndi məni buraya satdığınız üçün
kədərlənməyin və təəssüflənməyin,
çünki Allah həyatınızı qorumaq üçün
məni sizdən qabaq buraya göndərdi.
[6] Artıq iki ildir ki, ölkədə aclıqdır, hələ
beş il də əkin-biçin olmayacaq. [7] Allah
məni sizdən qabaq buraya göndərdi
ki, sizi yer üzündə saxlasın və böyük
bir qurtuluşla həyatınızı qorusun.
[8] Ona görə də məni buraya göndərən
siz deyilsiniz, Allahdır. O məni firona
ata*, onun bütün saray adamlarına ağa,
bütün Misir ölkəsinə isə başçı etdi.
[9] [a]Tez atamın yanına gedib ona söyləyin
ki, oğlun Yusif belə deyir: “Allah məni
bütün Misir ölkəsinə ağa etdi. Daha
durma, yanıma gəl. [10] Qoşen vilayətində
yaşayarsan. Özün, oğulların, nəvələrin,
qoyun-keçin, mal-qaran – sənin hər
şeyin mənə yaxın olar. [11] Orada sənin
qayğına qalaram, çünki daha beş il
aclıq olacaq. Yoxsa özün, ailən və bütün
yaxın adamların yoxsulluq çəkəcək”.
[12] İndi sizin və qardaşım Binyaminin
gözləri görür ki, bu sözləri dilimlə sizə
deyirəm. [13] Misirdə sahib olduğum
böyük izzəti və bütün gördüklərinizi
atama bildirin və tezliklə atamı buraya
gətirin». [14] Yusif qardaşı Binyaminin
boynuna sarılıb ağladı, Binyamin də
onun boynuna sarılıb ağladı. [15] Yusif
bütün qardaşlarını öpdü və onların
boynuna sarılıb ağladı. Bundan sonra
qardaşları onunla söhbət etdilər.
[16] Yusifin qardaşlarının gəlməsi
barədə fironun sarayına xəbər
çatdı. Bu xəbər fironun və onun
əyanlarının xoşuna gəldi. [17] Firon
Yusifə dedi: «Qardaşlarına söylə ki,
belə etsinlər: heyvanlarınızı yükləyin
və yola düşüb Kənan torpağına gedin.
[18] Atanızı və ev adamlarınızı götürüb
yanıma gəlin. Sizə Misir ölkəsində
ən yaxşı torpağı verəcəyəm, torpağın
şirəsini yeyəcəksiniz. [19] Sənə isə
əmr olunur ki, onlara söyləyəsən:
“Belə edin: arvad-uşağınız üçün Misir
ölkəsində özünüzə arabalar götürün və
atanızı gətirib gəlin”. [20] Orada qalan
şeylərinizdə gözünüz qalmasın, çünki
bütün Misir torpağının ən yaxşı şeyləri
sizindir».
[21] İsrailin oğulları belə də etdilər.
Yusif fironun əmri ilə onlara arabalar
və yol üçün azuqə verdi. [22] Onların hər
birinə bir dəst paltar verdi, Binyaminə
isə üç yüz parça gümüş və beş dəst
paltar verdi. [23] Yusif atası üçün Misirin
ən yaxşı şeyləri ilə yüklənmiş on eşşək,
yol üçün taxıl, çörək və azuqə yüklənmiş
on dişi eşşək göndərdi. [24] O, qardaşlarını
yola saldı və onlar getdilər. Yusif onlara
dedi: «Yolda dava etməyin». [25] Onlar
Misirdən çıxıb Kənan torpağına, ataları
Yaqubun yanına gəldilər. [26] Ona hər şeyi
danışıb dedilər: «Yusif sağ-salamatdır,
özü də bütün Misir ölkəsinə başçılıq
edir». Yaqub heyrətlənib qaldı və onlara

---

*45:8 *Ata* – yaxud *məsləhətçi*

[z]**45:1** Həv. 7:13 [a]**45:9** Həv. 7:14

inanmadı. 27 Qardaşlar Yusifin onlara
dediyi bütün sözləri ona söylədilər.
Onu aparmaq üçün Yusifin göndərdiyi
arabaları görəndə ataları Yaqubun ürəyi
ruhlandı. 28 İsrail dedi: «İndi inandım
ki, oğlum Yusif sağ-salamatdır. Qoy
ölməmişdən qabaq gedib onu görüm».

Yaqubun Misirə getməsi

46 İsrail özünə məxsus hər şeyi ilə
birgə yola çıxdı. Beer-Şevaya
gəlib atası İshaqın Allahına qurbanlar
kəsdi. 2 Gecə görüntülərində Allah İsraili
çağırdı: «Yaqub! Yaqub!» Yaqub cavab
verdi: «Mən buradayam». 3 Allah dedi:
«Mən Allaham, atanın Allahıyam. Misirə
getməkdən qorxma, çünki orada səndən
böyük bir millət törədəcəyəm. 4 Mən də
sənin lə birgə Misirə gedəcəyəm. Səni
yenə oradan çıxaracağam. Yusif öz əli
ilə sənin gözlərini bağlayacaq».
5 Yaqub Beer-Şevadan çıxdı.
İsrailin oğulları ataları Yaqubu və
arvad-uşaqlarını fironun Yaqubu
aparmaq üçün göndərdiyi arabalara
mindirdilər. 6 [b]Yaqub və onun bütün
övladları heyvanlarını və Kənan
torpağında əldə etdikləri hər şeyi
götürüb Misirə gəldilər. 7 O özü ilə birgə
oğullarını və qızlarını, oğul nəvələrini
və qız nəvələrini – bütün övladlarını
Misirə gətirdi.
8 İsrailin Misirə gələn oğullarının –
Yaqubla oğullarının adları belədir:
Yaqubun ilk oğlu Ruven. 9 Ruvenin
oğulları: Xanok, Pallu, Xesron və Karmi.
10 Şimeonun oğulları: Yemuel, Yamin,
Ohad, Yakin, Sohar və bir Kənanlı
qadından doğulan Şaul. 11 Levinin
oğulları: Gerşon, Qohat və Merari.
12 Yəhudanın oğulları: Er, Onan, Şela,
Peres və Zerah. Ancaq Er və Onan
Kənan ölkəsində öldülər. Peresin
oğulları: Xesron və Xamul. 13 İssakarın
oğulları: Tola, Puvva, Yov və Şimron.
14 Zevulunun oğulları: Sered, Elon və
Yaxleel. 15 Bunlar Yaqubun Leadan
doğulan övladlarıdır. Lea onları və
qızı Dinanı Paddan-Aramda doğdu.
Yaqubun oğul və qız övladları cəmi otuz
üç nəfər idi.
16 Qadın oğulları: Sifyon, Haqqi, Şuni,
Esbon, Eri, Arodi və Areli. 17 Aşerin
oğulları: İmna, İşva, İşvi, Beria və
onların bacısı Serah. Berianın oğulları:
Xever və Malkiel. 18 Bunlar Lavanın qızı
Leaya verdiyi Zilpadan doğulan Yaqub
övladlarıdır. Onlar on altı nəfər idi.
19 Yaqubun arvadı Rəhilənin oğulları:
Yusif və Binyamin. 20 [c]Yusifin Misirdə
On şəhərinin kahini Poti-Feranın qızı
Asnatdan Menaşşe və Efrayim adlı
iki oğlu oldu. 21 Binyaminin oğulları:
Bela, Beker, Aşbel, Gera, Naaman,
Exi, Roş, Muppim, Xuppim və Ard.
22 Bunlar Yaqubun Rəhilədən doğulan
övladlarıdır. Onlar on dörd nəfər idi.
23 Danın oğlu Xuşim. 24 Naftalinin
oğulları: Yaxseel, Quni, Yeser, Şillem.
25 Bunlar Lavanın qızı Rəhiləyə verdiyi
Bilhadan doğulan Yaqub övladlarıdır.
Onlar cəmi yeddi nəfər idi.
26 Yaqubun oğullarının arvadlarından
başqa, Yaqubun nəslindən olan və
onunla Misirə gələn övladları altmış altı
nəfər idi. 27 [d]Yusifin Misirdə doğulan iki
oğlu ilə birlikdə Misirə köçən Yaqubun
ailəsində yetmiş nəfər var idi.

Yaqub oğullarının Qoşendə sakin olması

28 Yaqub Qoşen yoluna bələdçilik
etmək üçün özündən əvvəl Yəhudanı
Yusifin yanına göndərdi. Onlar
Qoşen torpağına girəndə 29 Yusif
arabasını hazırlayıb Qoşenə atası İsraili
qarşılamağa getdi. Özünü atasına
tanıtdırıb onun boynuna sarıldı və uzun

---

[b] **46:6** Həv. 7:15 [c] **46:20** Yar. 41:50-52 [d] **46:27** Həv. 7:14

müddət onu qucaqlayıb ağladı. 30 İsrail
Yusifə dedi: «İndi ölə bilərəm, çünki
üzünü gördüm. Sən sağ-salamatsanmış».
31 Yusif qardaşlarına və atasının
ailəsinə dedi: «Qoy gedim firona
xəbər verim ki, Kənan torpağında
yaşayan qardaşlarımla atamın ailəsi
yanıma gəliblər. 32 Onlar sürü sahibi
olan çobanlardır. Ona görə də
qoyun-keçiləri, mal-qaraları və bütün
şeyləri ilə birlikdə gəliblər. 33 Firon
sizi çağırıb "Nə işin sahibisiniz?" deyə
soruşsa, 34 deyin: "Atalarımız kimi
biz də uşaqlıqdan bəri heyvandarlıqla
məşğuluq". Belə deyin ki, qoy sizi Qoşen
vilayətində yerləşdirsin, çünki Misirlilər
çobanlardan iyrənirlər».

47 Yusif fironun yanına daxil
olub dedi: «Kənan torpağından
atam və qardaşlarım qoyun-keçiləri,
mal-qaraları və özlərinə məxsus hər
şeyləri ilə birgə buraya gəliblər və
indi Qoşen vilayətindədirlər». 2 Sonra
qardaşları arasından beşini götürüb
fironun hüzuruna gətirdi. 3 Firon Yusifin
qardaşlarına dedi: «Nə işin sahibisiniz?»
Onlar firona dedilər: «Biz qulların,
atalarımız kimi çobanıq. 4 Bu ölkəyə
müvəqqəti yaşamaq üçün gəlmişik,
çünki Kənan torpağında dəhşətli aclıq
hökm sürür. Sürülərimiz üçün otlaq
yox idi. İndi xahiş edirik ki, Qoşen
vilayətində yaşamağa izin verəsiniz».
5 Firon Yusifə dedi: «Atanla qardaşların
yanına gəliblər. 6 Misir torpağı sənin
önündədir: atanla qardaşlarını bu
torpağın ən yaxşı yerlərində yerləşdir.
Qoy Qoşen vilayətində yaşasınlar.
Aralarında hansı bacarıqlıdırsa, onu
mənim sürülərimə çoban qoy».
7 Yusif atası Yaqubu götürüb fironun
hüzuruna gətirdi. Yaqub firona
xeyir-dua verdi. 8 Firon Yaqubdan
soruşdu: «Neçə yaşın var?» 9 Yaqub
firona cavab verdi: «Ömrümün yüz otuz
ilini qürbətdə keçirdim, amma ömrüm
az və ağır oldu, atalarımın qürbətdəki
ömrü qədər uzun olmadı». 10 Sonra
firona xeyir-dua verib onun hüzurundan
çıxdı.
11 Yusif atası ilə qardaşlarını Misirdə
yerləşdirdi və fironun əmrinə əsasən
onlara ölkənin ən yaxşı yerində
– Ramses bölgəsində mülk verdi.
12 Bundan əlavə, Yusif atasına,
qardaşlarına və atasının ailəsinə malik
olduqları uşaqların sayına görə çörək
saxladı.

Aclıq güclənir

13 Aclıq getdikcə o qədər gücləndi ki,
heç bir ölkədə çörək tapılmadı. Misir
və Kənan ölkələrinin əhalisini aclıq
taqətdən salmışdı. 14 Yusif satdığı taxılın
əvəzində Misir və Kənan ölkələrində
yığılan bütün pulları toplayıb fironun
sarayına apardı. 15 Misir və Kənan
ölkələrində pul qurtaranda bütün
Misirlilər Yusifin yanına gəlib dedilər:
«Bizə çörək ver. Gərək qarşında ölək?
Axı pulumuz qurtarıb». 16 Yusif dedi:
«Onda heyvanlarınızı verin. Əgər
pulunuz qurtarıbsa, heyvanlarınızı
verin, onların əvəzinə sizə çörək
verərəm». 17 Onlar heyvanlarını Yusif
üçün gətirdilər. Yusif də atların,
qoyun-keçi və mal-qara sürülərinin,
eşşəklərin əvəzinə onlara çörək verdi.
Həmin il onları heyvanları əvəzinə
verdiyi çörəklə saxladı.
18 İl başa çatanda ikinci il yenə onun
yanına gəlib dedilər: «Ağamızdan gizli
deyil ki, pulumuz qurtarıb, heyvan
sürülərimiz də ağamızındır. Ağamızın
hüzurunda canımız və torpaqlarımızdan
başqa bir şeyimiz qalmadı. 19 Nə üçün
gözünün önündə torpağımızla bərabər
məhv olaq? Bizi və torpaqlarımızı çörək
əvəzinə satın al. Qoy firon bizim də,
torpaqlarımızın da sahibi olsun. Toxum
ver ki, ölməyib yaşaya bilək, həm də
torpağımız səhraya çevrilməsin».

20 Beləliklə, Yusif Misirin bütün
torpaqlarını firon üçün satın aldı.
Bütün Misirlilər öz zəmilərini satdılar,
çünki aclıqdan əzab çəkirdilər. Bütün
torpaqlar fironun oldu. 21 Yusif Misir
ərazisinin bir ucundan o biri ucuna
qədər bütün əhalisini şəhərlərə köçürdü.
22 Yalnız kahinlərin torpağını satın
almadı, çünki onlar firondan məvacib
alır və fironun verdiyi məvaciblə
dolanırdılar. Buna görə də torpaqlarını
satmadılar.
23 Yusif xalqa dedi: «Sizi də,
torpaqlarınızı da firon üçün satın
almışam. Alın, bu sizin toxumunuz,
torpağı əkin. 24 Məhsul yığılanda onun
beşdə birini firona verin. Beşdə dördünü
isə toxumluq olaraq istifadə edin.
Həm özünüz, həm külfətiniz, həm də
övladlarınız yesin».
25 Xalq isə dedi: «Sən bizim canımızı
qurtardın. Qoy ağamızın gözündə
lütf tapaq, biz fironun köləsi oluruq».
26 Yusif məhsulun beşdə birinin firona
verilməsi barədə Misirdə bir torpaq
qanunu qoydu. Bu qanun bu günə qədər
qüvvədədir. Yalnız kahinlərin torpaqları
firona verilmədi.

İsrailin son sözü

27 İsrailin nəsli Misirdəki Qoşen
vilayətində yaşayaraq orada mülk
sahibi oldu. Onlar artaraq çoxaldılar.
28 Yaqub Misir torpağında on yeddi il
yaşadı. O, yüz qırx yeddi il ömür sürdü.
29 [e]İsrailin öləcəyi gün yaxınlaşanda
oğlu Yusifi çağırıb dedi: «Əgər gözündə
lütf tapmışamsa, əlini budumun
altına qoy və and iç ki, xeyirxahlıq
və sədaqət göstərib məni Misirdə
basdırmayacaqsan, 30 ancaq atalarımla
birgə uyumaq üçün öləndə məni
Misirdən aparıb onların məqbərəsində
basdıracaqsan». Yusif dedi: «Dediyin
kimi edərəm». 31 [f]Atası dedi: «Mənə
and iç». O da and içdi. İsrail yatağının
başına* söykənib Allaha səcdə etdi.

Yaqubun Efrayimə və Menaşşeyə xeyir-dua verməsi

48 Bir müddət sonra Yusifə dedilər:
«Atan xəstədir». O, iki oğlunu –
Menaşşe və Efrayimi özü ilə götürdü.
2 Yaquba xəbər verib dedilər: «Budur,
oğlun Yusif yanına gəlir». İsrail
gücünü toplayıb yatağı üstündə oturdu.
3 [g]Yaqub Yusifə dedi: «Külli-İxtiyar Allah
Kənan torpağında olan Luzda mənə
göründü və xeyir-dua verdi. 4 O mənə
belə dedi: “Bax Mən səni bəhərli edib
nəslini çoxaldacağam, səndən çoxlu
xalq törədəcəyəm. Səndən sonra bu
torpağı övladlarına əbədi mülk olaraq
verəcəyəm”. 5 İndi sənin yanına, Misirə
gəlməzdən əvvəl Misir torpağında
doğulan iki oğlun da mənimdir: Efrayim
və Menaşşe Ruvenlə Şimeon kimi
mənimki olacaq. 6 Onlardan sonra sənin
üçün doğulan uşaqlar isə sənindi olacaq,
öz miras torpaqlarında qardaşlarının
adları ilə qeyd olunacaq. 7 [h]Mən
Paddandan gələndə Kənan torpağında
Efrata yaxın yerdə Rəhilə yanımdaca
öldü. Onu elə orada – Efrat yolunda,
yəni Bet-Lexemdə basdırdım».
8 İsrail Yusifin oğullarını görüb
dedi: «Bunlar kimdir?» 9 Yusif atasına
dedi: «Allahın burada mənə verdiyi
oğullarımdır». İsrail dedi: «Onları
yanıma gətir, xeyir-dua verim». 10 İsrail
artıq qocalmış, gözləri zəifləmişdi
və görə bilmirdi. Yusif oğullarını
atasının yanına apardı və atası onları
öpüb qucaqladı. 11 Sonra İsrail Yusifə

*47:31 *Yatağının başına* – yaxud *dəyənəyinin başına.*

[e]**47:29** Yar. 49:29-32; 50:6 [f]**47:31** İbr. 11:21 [g]**48:3** Yar. 28:13-14
[h]**48:7** Yar. 35:16-19

dedi: «Düşünmürdüm ki, üzünü bir
də görərəm, amma Allah mənə sənin
övladlarını da göstərdi». 12 Yusif
övladlarını atasının dizləri yanından
kənara çəkib onun qarşısında üzünü
yerə qoyaraq səcdə etdi. 13 Sonra
oğullarını götürüb Efrayimi sağ əli ilə
İsrailin sol tərəfinə, Menaşşeni isə sol
əli ilə İsrailin sağ tərəfinə çəkərək ona
yaxınlaşdırdı. 14 İsrail əllərini çarpaz
uzatdı: sağ əlini kiçik olan Efrayimin,
sol əlini isə Menaşşenin başına qoydu.
Menaşşe ilk oğul olduğuna baxmayaraq,
İsrail əllərini qəsdən dəyişdi. 15 İsrail
Yusifə xeyir-dua verərək belə dedi:

«Atalarım İbrahimin, İshaqın xidmət
etdiyi Allah,
Bu günə qədər mənim qayğıma qalan
Allah,
16 Məni bütün pisliklərdən xilas edən
Mələk
Qoy bu uşaqlara da xeyir-dua versin!
Onlar mənim adımla,
Atalarım İbrahim və İshaqın
Adı ilə çağırılsın,
Yer üzündə çoxaldıqca çoxalsın!»

17 Yusif atasının sağ əlini Efrayimin
başına qoyduğunu gördü və bu onun
xoşuna gəlmədi. O, atasının əlini
Efrayimin başından götürüb Menaşşenin
başına qoymaq istədi. 18 Buna görə də
atasına dedi: «Ata, ilk oğul Menaşşedir,
sağ əlini onun başına qoy. Belə düz
deyil». 19 Lakin atası istəməyib dedi:
«Bilirəm, oğlum, bilirəm. Menaşşenin
nəslindən də böyük bir xalq olacaq.
Amma kiçik qardaşından daha böyük
bir xalq törəyəcək, onun nəslindən
çoxlu millətlər yaranacaq». 20 [i]O gün
İsrail nəvələrinə xeyir-dua verərək dedi:

«İsrail nəsli
"Qoy Allah səni
Efrayim və Menaşşe kimi etsin"
Deyərək sizin adınızla
Xeyir-dua verəcək».

Yaqub beləcə Efrayimi Menaşşedən
üstün tutdu. 21 İsrail Yusifə dedi: «Artıq
mən ölürəm, amma Allah sizinlə olacaq,
sizi atalarınızın torpağına qaytaracaq.
22 Sənə qardaşlarından bir pay da
artıq olaraq Şekemi verirəm. Onu
mən Emorluların əlindən qılıncım və
kamanımla almışam».

Yaqubun oğullarına xeyir-duası

49 Yaqub oğullarını çağırıb dedi:
«Yanıma toplaşın, gələcəkdə
başınıza gələnləri sizə söyləyim:
2 Ey Yaqub oğulları, yığılıb eşidin,
Atanız İsrailə qulaq asın:
3 Ey Ruven, ilk oğlum,
Sən mənim gücümsən, qüdrətimin
başlanğıcısan.
Ləyaqətin hamıdan üstündür,
Qüvvətin hamıdan çoxdur.
4 Amma sən su kimi oynaqsan,
Artıq üstün olmayacaqsan.
Çünki atanın yatağına girib
Onu murdar etdin –
Bax o, döşəyimə çıxdı.
5 Şimeonla Levi qardaşdır,
Qəddarlıq qılıncları ilə silahlanıblar.
6 Ey qəlbim, onların məclisinə getmə,
Ey şərəfim, onların toplantısında
olma.
Çünki onlar qəzəblənəndə qətl etdilər,
Əylənəndə öküzlərin ayaq vətərini
kəsdilər.
7 Lənət olsun vəhşi qəzəblərinə,
Lənət olsun qəddar hiddətlərinə.
Onları Yaqubda böləcəyəm,
İsraildə səpələyəcəyəm.
8 Yəhuda, qardaşların səni mədh
edəcək,
Düşmənlərin boynu əlində olacaq,
Atanın oğulları önündə səcdə edəcək.
9 [j]Yəhuda bir aslan balasıdır,
Ey oğlum, sən şikara çıxanda

---

[i]**48:20** İbr. 11:21 [j]**49:9** Say. 24:9; Vəhy 5:5

Bir şir kimi yerə əyilirsən,
Dişi aslan kimi torpağa yatırsan.
Kim səni yerindən qaldıra bilər?
10 Padşahlıq əsası
Yəhudanın əlindən getməyəcək,
Hökmdarlıq əsası onun nəslindən itməyəcək;
O vaxta qədər ki əsanın Sahibi *gələcək.
Onda xalqlar Ona itaət edəcək.
11 Eşşəyini tənəyə,
Ulağını ən seçmə bir tənəyə bağlayacaq.
Paltarını şərabda,
Köynəyini üzümün qanında yuyacaq.
12 Gözləri şərabdan da parlaq olacaq,
Dişləri süddən də ağ olacaq.
13 Zevulun isə dəniz kənarında yaşayacaq,
Ora gəmilərin limanı olacaq,
Ərazisi Sidonun yanınadək uzanacaq.
14 Qoyun ağılları arasında uzanan İssakar
Bir qüvvətli ulağa oxşar.
15 O, yaxşı və rahat olan yer,
Bir səfalı ölkə görsə,
Çiynini yük daşımaq üçün əyər,
Mükəlləfiyyətçi qul olar.
16 Dan İsrail qəbilələrindən biri olub
Öz xalqına hökm edəcək.
17 Dan yol üstündə bir ilan,
Cığırda bir gürzə olacaq;
Elə bir gürzə ki atın topuğundan sancır,
Süvarisi arxası üstə yıxılır.
18 Ya Rəbb! Mən Sənin xilasını gözləyirəm.
19 Qad talançı basqınına düçar olacaq,
Lakin onları topuğundan vuracaq.
20 Aşerdən zəngin nemətlər gələcək,
O, şahanə ləzzətli yeməklər yetirəcək.
21 Naftali azad edilmiş bir maraldır,
Ondan gözəl balalar doğulacaq.
22 Yusif barlı bir ağac,
Çeşmə kənarında meyvəli bir ağacdır,
Budaqları divarın üstündən aşar.
23 Oxçular ona güclü hücum etdilər,
Düşmənçilik edib üstünə ox yağdırdılar.
24 Amma Yaqubun qüdrətli Allahı –
İsrailin Daşı və Çobanı olan
Allahın sayəsində
Onun kamanı möhkəm,
Qolları qüvvətli oldu.
25 Sənə kömək edən
Atanın Allahıdır,
Sənə xeyir-dua verən
Külli-İxtiyardır.
Yuxarıda göylərin bərəkəti ilə,
Dərinlikdə olan
Su mənbələrinin bərəkəti ilə,
Döşlərin və bətnlərin bərəkəti ilə
Sənə xeyir-dua verəcək.
26 Atanın xeyir-duası
Atalarımın xeyir-duasından daha ucadır;
Əbədi qalan təpələrin
Zirvəsinə çatar.
Qoy xeyir-dualarım
Yusifin – qardaşlar arasında
Başçı olanın üstündə olsun.
27 Binyamin acgöz bir qurddur,
Səhər ovunu yeyər,
Axşam qənimət paylar».
28 Bunların hamısı İsrailin on iki qəbiləsidir. Ataları onlara xeyir-dua verərkən bu sözləri söylədi və hər birinə xeyir-dua verdi.

Yaqubun ölümü

29 [k]Sonra Yaqub oğullarına vəsiyyət edib dedi: «Mən ölüb əcdadlarıma qoşulacağam. Məni atalarımın yanında – Xetli Efronun tarlasında olan mağarada basdırın. 30 O mağara Kənan torpağında olan Mamre qarşısındakı

*49:10 *Əsanın Sahibi* – ibrani mətnində *Şilo* sözü olub mənası tam aydın deyil.

[k]**49:29** Yar. 23:3-20

Maxpela tarlasındadır. İbrahim o
mağaranı qəbir düzəltmək üçün
Xetli Efrondan tarlası ilə birlikdə
satın almışdı. 31 [l]İbrahimlə arvadı
Sara və İshaqla arvadı Rivqa orada
basdırılmışdı. Mən Leanı da orada
basdırdım. 32 Həmin tarla ilə oradakı
mağara Xetlilərdən satın alınıb».
33 [m]Yaqub oğullarına vəsiyyət edib
qurtaranda ayaqlarını yatağına yığaraq
son dəfə nəfəs aldı və ölüb əcdadlarına
qoşuldu.

Yaqubun dəfni

50 Yusif özünü atasının üstünə atdı
və ağlayaraq onu öpdü. 2 Sonra
həkim xidmətçilərinə atasının meyitini
mumiyalamağı əmr etdi. Həkimlər
İsraili mumiyaladılar. 3 Bu iş qırx günə
görüldü, çünki mumiyalamaq üçün qırx
gün lazım idi. Misirlilər yetmiş gün
İsrail üçün yas tutdular.
4 Yas günləri qurtarandan sonra Yusif
fironun saray adamlarına müraciət edib
dedi: «Əgər gözünüzdə lütf tapmışamsa,
firona söyləyin ki, 5 [n]atam məni and
içdirib demişdi: “Mən can üstəyəm.
Kənan torpağında özüm üçün qəbir
qazmışam, məni orada basdır”. İndi
qoy o mənə izin versin ki, gedib atamı
basdırım və qayıdım». 6 Firon dedi:
«Get, atanın sənə and içdirdiyi kimi onu
basdır».
7 Beləliklə, Yusif atasını basdırmağa
getdi. Fironun bütün əyanları, sarayın
və Misirin bütün ağsaqqalları, 8 Yusifin
bütün ev adamları, qardaşları və
atasının ev adamları onu müşayiət
etdilər. Qoşen vilayətində yalnız
uşaqlarını, qoyun-keçilərini və
mal-qaralarını qoydular. 9 Onlarla birgə
atlılar və arabalar da yola çıxmışdı, ona
görə də dəstə çox böyük idi. 10 Onlar
İordan çayının yaxınlığındakı Atad
xırmanına çatanda böyük ağlaşma ilə
matəm qurdular. Yusif atası üçün yeddi
gün yas tutdu. 11 O ölkənin əhalisi
olan Kənanlılar Atad xırmanındakı yası
görəndə dedilər: «Gör Misirlilər necə
böyük matəmlə yas tuturlar». Ona görə
də İordan çayının yaxınlığındakı bu
yerə Avel-Misrayim *adı verildi.
12 Yaqubun oğulları atalarının
vəsiyyətini əmr etdiyi kimi yerinə
yetirdilər. 13 [o]Onu Kənan ölkəsinə
gətirib Mamre qarşısındakı Maxpela
tarlasında olan mağarada basdırdılar.
İbrahim bir vaxt həmin mağaranı qəbir
düzəltmək üçün tarla ilə birlikdə Xetli
Efrondan satın almışdı. 14 Yusif atasını
dəfn etdikdən sonra həm özü, həm
qardaşları, həm də onunla birlikdə
atasının dəfninə gələnlərin hamısı
Misirə qayıtdı.

Yusifin qardaşları ilə mehriban rəftarı

15 Ataları öləndən sonra Yusifin
qardaşları öz aralarında dedilər: «Bəlkə
Yusif bizə qarşı kin saxlayır. Əgər
ona etdiyimiz pisliyə görə bizdən
qisas alarsa, nə edərik?» 16 Buna görə
də Yusifə xəbər göndərdilər: «Atan
ölümündən qabaq bizə vəsiyyət etdi
ki, gedib Yusifə belə deyin: 17 “Bax
səndən xahişim budur ki, qardaşlarının
günahını və təqsirini bağışlayasan. Axı
onlar sənə pislik ediblər”. Xahiş edirik,
sən atanın Allahının qulları olan biz
qardaşlarının günahını bağışla». Bu
sözlər Yusifə çatanda o ağladı. 18 Sonra
qardaşları özləri Yusifin yanına gedib
önündə yerə qapandılar və dedilər:
«Biz sənin qullarınıq». 19 Yusif onlara

*50:11 *Avel-Misrayim* – ibrani dilində *Misirlilərin yası.*

[l]**49:31** Yar. 25:9-10; Yar. 35:29 [m]**49:33** Həv. 7:15 [n]**50:5** Yar. 47:29-31
[o]**50:13** Həv. 7:16

dedi: «Məgər mən Allaham ki, məndən
qorxursunuz? 20 Baxın siz mənə qarşı pis
fikrə düşdünüz, lakin Allah onu yaxşı işə
çevirdi ki, bu gün gördüyünüzü etsin və
çoxlu adamın həyatını qorusun. 21 Ona
görə də qorxmayın, mən həm sizi, həm
də övladlarınızı saxlayacağam». Yusif
onlara ürəklərincə olan sözlərlə təsəlli
verdi.

Yusifin ölümü

22 Yusifin və atasının nəsli Misirdə
sakin oldu. Yusif yüz on il ömür sürdü.
23 O, Efrayimin üç nəsil övladlarını
gördü. Menaşşenin oğlu Makirin
övladları da Yusifin yanında doğuldu.
24 Bir gün Yusif qardaşlarına dedi:
«Mən ölürəm, amma Allah mütləq
sizə nəzər salacaq. O sizi bu ölkədən
İbrahimə, İshaqa və Yaquba and içdiyi
torpağa aparacaq». 25 [p]Sonra Yusif
İsrailin övladlarını and içdirib dedi:
«Allah mütləq sizə nəzər salacaq. Gedən
zaman mənim sümüklərimi də buradan
çıxarın».
26 Yusif yüz on yaşında öldü. Onu
Misirdə mumiyalayıb bir tabuta
qoydular.

---

[p]**50:25** Çıx. 13:19; Yeşua 24:32; İbr. 11:22

ÇIXIŞ
KİTABI
GİRİŞ

«Çıxış» Kitabının adı İsrail tarixində olan ən mühüm hadisə ilə bağlıdır. Bu, İsrail xalqının Allahın köməyi ilə Misir köləliyindən çıxmasıdır. Allah Öz möhtəşəmliyini, sədaqətini, mərhəmətini seçdiyi xalqına belə aşkar etdi.

Bu kitab dörd əsas hissədən ibarətdir: (1) İsraillilərin köləlikdən azad olması; (2) Onların Sina dağına getməsi; (3) Allahın Öz xalqı ilə bağladığı əhdi və onunla bağlı İsrailə yaşamaq üçün əxlaqi, mülki və dini qanunların verilməsi; (4) İsrail üçün ibadətgahın – müqəddəs məskənin və onun avadanlığının qurulması, həmçinin kahinlər üçün Allaha ibadət qayda-qanunların verilməsi.

Bu kitab hər şeydən əvvəl köləlikdən qurtarıb gələcəyə ümidlə baxan Allah xalqının formalaşmasından danışır. Kitabın əsas qəhrəmanı olan Musa peyğəmbər İsrail xalqını Misirdən çıxarmaq üçün Allah tərəfindən rəhbər seçilmişdir.

Kitabın məzmunu:

1:1–15:21 İsraillilərin Misir köləliyindən azad olması
1:1-22 Misirdə köləlik
2:1–4:31 Musanın doğulması və həyatının ilk dövrü
5:11–11:10 Musanın və Harunun Misir fironuna qarşı çıxması
12:1–15:21 Pasxa və Misirdən çıxış
15:22–18:27 Qırmızı dənizdən Sina dağına köçmə
19:1–24:18 Sina dağında bağlanmış əhd və qanunlar
19:1-25 İsraillilər Sina dağında
20:1-26 Allahın On Əmri
21:1–24:18 Digər hökmlər
25:1–40:38 Müqəddəs məskən və ibadət üçün qaydalar

İsrail övladlarının Misirdəki vəziyyəti

1 [q]Yaqubla birlikdə ailələri ilə Misirə gələn İsrail övladlarının adları
bunlar idi: [2] Ruven, Şimeon, Levi,
Yəhuda, [3] İssakar, Zevulun, Binyamin,
[4] Dan, Naftali, Qad, Aşer, [5] Yaqubun
nəslindən törənən yetmiş nəfər idi.
Yaqubun oğlu Yusif artıq Misirdə idi.
[6] Vaxt yetişdi, Yusif, qardaşları və o
nəslin hamısı öldü. [7] [r]Amma İsrail
övladları çoxalıb böyüdülər, sayları
artdı və onlar çox qüvvətləndi; ölkə
onlarla doldu.
[8] [s]Misirdə Yusifi tanımayan yeni bir
padşah taxta çıxdı. [9] O, xalqına dedi:
«Baxın İsrail övladları sayca bizdən
çox və daha qüvvətlidir. [10] [t]Gəlin
onlarla ağılla rəftar edək, yoxsa çoxalar
və müharibə vaxtı düşmənlərimizlə
birləşib bizə qarşı vuruşar, sonra isə
ölkəni tərk edərlər».
[11] Misirlilər İsrail övladlarına
əziyyət vermək üçün onların üzərinə
zülmkar iş nəzarətçiləri qoydular.
İsrail övladları firon üçün Pitom və
Ramses adlanan şəhərlər tikdilər.
Orada anbarlar yerləşdirdilər. [12] Ancaq
İsrail övladlarına əziyyət vermələrinə
baxmayaraq, onlar çoxalıb artırdı. Onda
Misirlilər İsrail övladlarından qorxub,
[13] onları sıxıntılı əsarətdə saxladılar.
[14] Misirlilər İsrail övladlarını ağır işlərlə
– palçıq tapdalamaqla, kərpic kəsməklə
və hər cür tarla işləri ilə amansızcasına
işlədib onların həyatını acı etdilər.
[15] Misir padşahı birinin adı Şifra,
o birinin adı Pua olan İbrani
mamaçalarına dedi: [16] «İbrani

[q] **1:1** Yar. 46:8-27 [r] **1:7** Həv. 7:17 [s] **1:8** Həv. 7:18 [t] **1:10** Həv. 7:19

qadınlarını doğuzduranda baxın: əgər
uşaq oğlan olarsa, onu öldürün, yox,
əgər qız olsa, qoy yaşasın». 17 Ancaq
mamaçalar Allahdan qorxurdular və
buna görə Misir padşahının onlara
əmr etdiyi kimi etmədilər və oğlan
uşaqlarını sağ buraxdılar. 18 Misir
padşahı mamaçaları çağırtdırıb
onlara dedi: «Niyə belə etdiniz? Niyə
oğlan uşaqlarını sağ buraxdınız?»
19 Mamaçalar firona dedilər: «Çünki
İbrani qadınları Misirli qadınlar kimi
deyil, onlar daha sağlamdırlar və
mamaçalar onların yanına gəlməzdən
əvvəl doğurlar». 20 Buna görə Allahın
xalqı çoxalıb artdı. Allah mamaçalara
da xeyirxahlıq göstərdi. 21 Ondan
qorxduqlarına görə bu qadınlara da ailə
nəsib etdi.
22 [u]Firon bütün xalqına əmr edib dedi:
«İbranilərdən hər doğulan oğlan uşağını
Nil çayına atın! Hər qız uşağını isə sağ
qoyun».

Musanın doğulması

2 O zaman Levi qəbiləsindən bir
kişi öz nəslindən bir arvad aldı.
2 [v]O hamilə olub oğul doğdu və uşağın
gözəl olduğunu görüb üç ay gizlətdi.
3 Bundan artıq onu gizlədə bilməyərək
qamışdan bir səbət götürüb ona qır və
qatran sürtdü, körpəni səbətin içinə
salıb Nil çayının kənarındakı qamışlığın
arasına qoydu. 4 Körpənin bacısı isə
onun başına nə gələcəyini bilmək üçün
uzaqda durub baxırdı.
5 Fironun qızı çimmək üçün çaya
girdi. Onun qarabaşları isə çayın
kənarında gəzişirdilər. Fironun qızı
qarğıların arasında səbəti görüb onu
gətirmək üçün kənizini göndərdi.
6 Sonra səbəti açıb bir oğlan gördü.
Körpə ağlayırdı. Fironun qızı ona
rəhmi gəldiyindən dedi: «Bu, İbrani
oğlanlarındandır». 7 Körpənin bacısı
fironun qızına dedi: «Bəlkə gedib
sənin üçün İbrani qadınlarından bir
dayə çağırım ki, körpəni əmizdirsin?»
8 Fironun qızı ona «get» dedi. Qız gedib
körpənin anasını çağırdı. 9 Fironun qızı
ona dedi: «Bu körpəni götürüb mənim
üçün əmizdir, sənə bunun haqqını
verərəm». Qadın körpəni götürüb
əmizdirdi. 10 [w]Uşaq böyüdü və qadın
onu firon qızının yanına apardı. Fironun
qızı uşağı oğulluğa götürdü. O, uşağın
adını Musa* qoyub dedi: «Oğlanı sudan
çıxartdığım üçün ona bu adı qoydum».

Musa Misirlini öldürür

11 [x]Çox illər keçdi, Musa böyüdü.
Bir dəfə o öz xalqının yanına getdi
və onların ağır zəhmətini gördü. Bir
Misirlinin onun xalqından olan İbranini
döydüyünü gördü. 12 Musa ətrafına
baxıb heç kəsin olmadığını görəndə
Misirlini öldürüb qumda gizlətdi.
13 Ertəsi gün o yenə gedəndə gördü
ki, iki İbrani bir-biri ilə dalaşır. Musa
haqsız olana dedi: «Yoldaşını niyə
vurursan?» 14 O adam dedi: «Səni
bizim üstümüzə kim başçı və hakim
qoyub? Yoxsa Misirlini öldürdüyün kimi
məni də öldürmək fikrindəsən?» Musa
qorxaraq ürəyində dedi: «Deyəsən, bu
iş barədə bilirlər». 15 [y]Firon bu işdən
xəbərdar olanda Musanı öldürtdürmək
istədi. Ancaq Musa fironun əlindən
qaçıb Midyan torpağına çataraq bir
quyunun yanında oturdu.

Musa Midyanda yaşayır

16 Midyan kahininin yeddi qızı var
idi. Onlar gəlib quyudan su çəkərək

*2:10 *Musa* – ibrani dilində *çıxaran.*

[u]**1:22** Həv. 7:19 [v]**2:2** Həv. 7:20-21; İbr. 11:23 [w]**2:10** Həv. 7:20-21
[x]**2:11** İbr. 11:24; Həv. 7:23-28,35 [y]**2:15** Həv. 7:29; İbr. 11:27

atalarının qoyun-keçilərinə su vermək
üçün təknələri doldurdular. 17 O vaxt
çobanlar gəlib onları qovdular; onda
Musa qalxıb qızlara kömək etdi və
qoyun-keçilərinə su verdi. 18 Qızlar
ataları Reuelin yanına gələndə o dedi:
«Necə oldu ki, bu gün tez gəldiniz?»
19 Onlar dedilər: «Bir Misirli bizi
çobanların əlindən qurtardı və bizim
üçün quyudan su çəkib qoyun-keçiyə
su verdi». 20 O, qızlarına dedi: «O
adam haradadır? Onu niyə buraxdınız?
Çağırın, gəlib çörək yesin».
21 Musa o adamın evində qalmağa
razı oldu. O da qızı Sipporanı Musaya
arvad olaraq verdi. 22 Sippora bir oğlan
doğdu. Musa onun adını Gerşom* qoyub
dedi: «Mən yad bir ölkədə qərib oldum».

Allah İsraillilərin fəryadını eşidir

23 Xeyli vaxt keçəndən sonra Misir
padşahı öldü. İsrail övladları ağır
zəhmət çəkdikləri üçün fəryad edib
inlədilər. Ağır zəhmətlərinə görə
etdikləri nalələri Allaha çatdı. 24 [z]Allah
onların iniltisini eşitdi; İbrahimlə,
İshaqla və Yaqubla olan əhdini
xatırladı. 25 Allah İsrail övladlarının qul
olduqlarını gördü və onlara nəzər saldı.

Rəbb Musanı çağırır

3 [a]Musa qayınatası Midyan kahini
Yetronun sürüsünü otarırdı. Bir
dəfə o, sürünü səhranın o biri tərəfinə
aparıb Allahın dağı Xorevə gəldi.
2 Birdən Rəbbin mələyi ona bir kol
arasından od-alov içərisində göründü;
od içində kolun sönmədən yanmasını
görüb 3 Musa öz-özünə dedi: «Gedim,
bu qəribə mənzərəyə baxım, görüm
nə üçün bu kol yanıb qurtarmır».
4 Rəbb Musanın baxmağa gəldiyini
görəndə Allah kolun ortasından onu
çağırıb dedi: «Musa, Musa!» O da «mən
buradayam» dedi. 5 [b]Allah dedi: «Buraya
yaxınlaşma. Ayaqlarından çarıqlarını
çıxart, çünki durduğun yer müqəddəs
torpaqdır». 6 [c]Sonra dedi: «Mən atanın
Allahı, İbrahimin Allahı, İshaqın Allahı
və Yaqubun Allahıyam». Musa üzünü
örtdü, çünki Allaha baxmağa qorxurdu.
7 Rəbb dedi: «Həqiqətən, Mən
Misirdə olan xalqımın əziyyətini
gördüm, nəzarətçilərin əlindən etdikləri
fəryadlarını eşitdim və dərdlərinə nəzər
saldım. 8 Mən ona görə gəldim ki, onları
Misirlilərin əlindən qurtarıb bu ölkədən
çıxarım və geniş, nemətli bir diyara,
süd və bal axan torpağa – Kənanlıların,
Xetlilərin, Emorluların, Perizlilərin,
Xivlilərin və Yevuslların ölkəsinə
aparım. 9 İndi isə İsrail övladlarının
fəryadı Mənə çatdı, Misirlilərin onlara
etdikləri zülmü görürəm. 10 Buna görə
də get. Səni fironun yanına göndərirəm
ki, xalqım İsrail övladlarını Misirdən
çıxarasan».
11 Musa Allaha dedi: «Axı mən
kiməm ki, fironun yanına gedib İsrail
övladlarını Misirdən çıxarım?» 12 Allah
dedi: «Mən səninləyəm. Mənim səni
göndərdiyimə əlamət bu olacaq: sən
xalqı Misirdən çıxaranda bu dağda
Mənə ibadət edəcəksiniz». 13 [d]Musa
Allaha dedi: «İsrail övladlarının yanına
gedib "məni sizin yanınıza atalarınızın
Allahı göndərib" deyəndə onlar məndən
soruşa bilərlər: "Bəs Onun adı nədir?"
Onda mən nə deyim?» 14 [e]Allah Musaya
dedi: «Var Olan Mənəm». Sonra
dedi: «İsrail övladlarına belə söylə:
"‹Mənəm› deyən sizin yanınıza məni

*2:22 *Gerşom* – ibrani dilində *orada qərib.*

[z]**2:24** Yar. 15:13-14 [a]**3:1** Həv. 7:30-34 [b]**3:5** Yeşua 5:15
[c]**3:6** Çıx. 3:15; Mat. 22:32; Mark 12:26; Luka 20:37; Həv. 3:13; 7:32
[d]**3:13** Çıx. 6:2-3 [e]**3:14** Yəh. 8:24,28,58; Vəhy 1:4,8

göndərdi”». 15 [f]O yenə Musaya dedi:
«İsrail övladlarına söylə: “Atalarınızın
Allahı, İbrahimin Allahı, İshaqın Allahı
və Yaqubun Allahı Rəbb* məni sizin
yanınıza göndərdi”. Əbədi olaraq adım
budur. Nəsildən-nəslə anılan ismim
budur.
16 Get, İsrail ağsaqqallarını topla və
onlara belə söylə: “Atalarınızın Allahı,
İbrahimin, İshaqın və Yaqubun Allahı
Rəbb mənə görünərək bunları dedi:
‹Siz və Misirdə başınıza gətirilənlərin
hamısı nəzərimdədir. 17 Söz verdim
ki, sizi Misirdəki əziyyətdən qurtarıb
Kənanlıların, Xetlilərin, Emorluların,
Perizlilərin, Xivlilərin və Yevusluların
ölkəsinə – süd və bal axan torpağa
aparacağam›”.
18 İsrail ağsaqqalları sənin sözünə
qulaq asacaqlar. Sən onlarla birgə Misir
padşahının yanına gedib de: “İbranilərin
Allahı Rəbb bizə göründü. İndi bizə
izin ver ki, çöldə birlikdə üç günlük
yol gedək və orada Allahımız Rəbbə
qurban gətirək”. 19 Amma bilirəm ki,
Misir padşahı qüdrətli əl vasitəsilə
məcbur olmasa, sizin getməyinizə izin
verməyəcək. 20 Mən də əlimi uzadıb
orada hər cür xariqələrimi göstərərək
Misiri vuracağam; bundan sonra
Misir padşahı sizi buraxacaq. 21 [g]Bu
xalqa qarşı Misirlilərin gözündə lütf
qazandıracağam ki, yola düşdüyünüz
zaman əliboş getməyəsiniz. 22 Hər
qadın öz qonşusundan, yaxınlıqda qalan
qadından qızıl-gümüş əşya və paltar
istəsin. Bunlarla oğul və qızlarınızı
bəzəyəcəksiniz, beləcə Misirliləri
soyacaqsınız».

Allahın Musaya verdiyi əlamətlər

4 Musa belə cavab verdi: «Bəlkə
onlar mənə inanmayaraq sözümə
qulaq asmayıb “Rəbb sənə görünməyib”
deyəcəklər?»
2 Rəbb Musaya dedi: «Sənin əlindəki
nədir?» O dedi: «Əsa». 3 Rəbb dedi: «Onu
yerə at». Musa onu yerə atdı və əsa ilan
oldu. Musa onun qabağından qaçdı.
4 Rəbb Musaya dedi: «Əlini uzadıb onun
quyruğundan tut». Musa əlini uzadıb
tutanda o yenə əlində əsa oldu. 5 Sonra
Rəbb dedi: «Bu əlamət ona görədir ki,
İsraillilər atalarının Allahı, İbrahimin
Allahı, İshaqın Allahı və Yaqubun Allahı
Rəbbin sənə göründüyünə inansınlar».
6 Rəbb yenə dedi: «İndi əlini qoynuna
qoy». Musa əlini qoynuna qoydu. Onu
qoynundan çıxaranda, əli cüzama†
tutulub qar kimi ağappaq oldu. 7 Sonra
Rəbb dedi: «Əlini yenə qoynuna qoy».
Musa yenə əlini qoynuna qoydu. Əlini
qoynundan götürəndə əli yenə də
bədəni kimi oldu. 8 Rəbb davam etdi:
«Əgər sənə inanmasalar və əvvəlki
əlaməti qəbul etməsələr, sonrakı əlaməti
qəbul edəcəklər. 9 Bu iki əlamətə də
inanmayıb sözünə qulaq asmasalar, Nil
çayının suyundan götürüb quruya tök.
Çaydan götürdüyün su quruda qana
çevriləcək».
10 Musa Rəbbə dedi: «Ya Xudavənd,
mən nə keçmişdə, nə də qulunla
danışdığın vaxt natiq olmamışam, çünki
dili ağır, səlis danışmayan bir adamam».
11 Rəbb ona dedi: «Ağzı insana kim
verib? İnsanı lal, kar, kor yaxud gözlü
edən kimdir? Bunu edən Mən Rəbb
deyiləmmi? 12 İndi get, Mən ağzınla

---

*3:15 *Rəbb* – ibrani mətnində *Yahve* olan bu sözü *Odur* kimi də demək olar. Bu söz səs və məna cəhətindən 3:14-də *Mənəm* – ibrani mətnində *Ehye* sözü ilə əlaqəlidir.
†4:6 *Cüzam* – yaxud *iyrənc dəri xəstəliyi.*

[f]3:15 Mat. 22:32; Mark 12:26; Luka 20:37; Həv. 3:13 [g]3:21 Çıx. 12:35-36

danışacağam və deyəcəyin sözü sənə
öyrədəcəyəm».
13 Musa dedi: «Ya Xudavənd,
yalvarıram, başqa adamı göndər».
14 Rəbb Musaya qəzəblənib dedi:
«Qardaşın Levili Harun yoxdurmu?
Bilirəm ki, onun yaxşı nitqi var. İndi
o səni qarşılamağa gəlir. Səni görəndə
ürəkdən sevinəcək. 15 Qardaşınla danış,
nə demək lazımdırsa, ona başa sal. Mən
isə sənin və onun ağzı ilə danışacağam.
Sizə nə etməyi öyrədəcəyəm. 16 Sənin
əvəzinə xalqla Harun danışacaq. O sənin
üçün ağız kimi, sən isə onun üçün Allah
kimi olacaqsan. 17 Bu əsanı əlinə götür;
onunla əlamətlər göstərəcəksən».

Musanın Misirə qayıtması

18 Musa oradan getdi və qayınatası
Yetronun yanına qayıdıb dedi: «İzin
ver qayıdıb Misirdəki xalqımın yanına
gedim, görüm onlar sağ-salamatdırlar
ya yox?» Yetro Musaya dedi: «Salamat
get». 19 Midyan torpağında Rəbb
Musaya dedi: «Misirə qayıt, çünki sənin
canını almaq istəyən adamların hamısı
ölüb». 20 Musa arvadını və oğullarını
götürüb eşşəyə mindirdi və Allahın
buyurduğu əsanı əlinə götürüb Misirə
yollandı.
21 Rəbb Musaya dedi: «Misirə
qayıdanda sənə buyurduğum bütün
möcüzələrə fikir ver və fironun
hüzurunda onları göstər; ancaq Mən
onun ürəyini inadkarlaşdıracağam
və o, xalqı buraxmayacaq. 22 Firona
söyləyəcəksən: “Rəbb belə deyir:
İsrail Mənim oğlum, Mənim ilkimdir.
23 [h]Sənə dedim ki, Mənə ibadət etmək
üçün oğlumu burax! Sən isə onu
buraxmaqdan boyun qaçırdın. Onda
Mən sənin ilk oğlunu öldürəcəyəm”».
24 Yolda gecələyərkən Rəbb Musaya
rast gəldi və onu öldürmək istədi.
25 O zaman Sippora çaxmaq daşı
götürüb oğlunu sünnət etdi və sünnət
ətini Musanın ayaqlarına toxundurub
dedi: «Sən mənim qan adaxlımsan».
26 Beləliklə, Rəbb ondan əl çəkdi.
Sippora Musaya sünnətə görə «qan
adaxlımsan» demişdi.

Musa və Harun İsrail ağsaqqallarının yanında

27 Rəbb Haruna dedi: «Musanı
qarşılamaq üçün səhraya get». Harun
gedib Allahın dağında qardaşına rast
gəldi və onunla öpüşdü. 28 Musa Haruna
Rəbb onu necə göndərdiyini bildirdi.
Rəbbin bütün sözlərini və ona göstərmək
üçün əmr etdiyi bütün əlamətləri barədə
Haruna danışdı. 29 Musa və Harun gedib
İsrail övladlarının bütün ağsaqqallarını
topladılar. 30 Harun Rəbbin Musaya
söylədiyi sözlərin hamısını onlara dedi
və xalqın qarşısında əlamətlər göstərdi.
31 Xalq bunlara inandı. Onlar Rəbbin
İsrail övladlarının əziyyətini görüb
nəzər saldığını eşidəndə əyilib Ona
səcdə etdilər.

Musa və Harun fironun sarayında

5 Musa və Harun gəlib firona dedilər:
«İsrailin Allahı Rəbb belə deyir:
“Xalqımı burax ki, səhrada Mənim
üçün bayram keçirsinlər!”» 2 Firon
dedi: «Rəbb kimdir ki, Onun səsinə
qulaq asıb İsrail övladlarını buraxım?
Rəbbi tanımıram, İsrail övladlarını
da buraxmıram». 3 Onlar dedilər:
«İbranilərin Allahı bizə göründü. Qoy
səhrada üç gün yol gedək və Allahımız
Rəbbə qurban gətirək ki, bizə vəba
göndərməsin yaxud da qılıncla məhv
etməsin». 4 Misir padşahı onlara dedi:
«Ey Musa və Harun, nə üçün xalqı
işindən ayırırsınız? Gedin, işinizi
görün». 5 Sonra firon dedi: «Artıq ölkədə

[h]**4:23** Çıx. 12:29

xalq çoxdur, siz isə onları işindən ayırıb
istirahət verirsiniz».

Fironun İsrail xalqına qarşı qəddarlığı

6 Həmin gün firon xalqın
nəzarətçilərinə və gözətçilərinə əmr
edib dedi: 7 «İndiyə kimi etdiyinizdən
fərqli olaraq, bir daha xalqa kərpic
düzəltmək üçün saman verməyin.
Qoy özləri gedib saman yığsınlar.
8 Ancaq indiyə qədər onların üzərlərinə
qoyduğunuz gündəlik kərpic sayını
azaltmayın. Çünki onlar tənbəldirlər
və buna görə də "gedək Allahımıza
qurban gətirək" deyib fəryad edirlər.
9 Bu adamlara daha ağır iş verilsin
ki, çox çalışsınlar və yalanlara fikir
verməsinlər».
10 Xalqın nəzarətçi və gözətçiləri
adamların yanına gəlib onlara dedilər:
«Firon belə deyir: "Mən sizə saman
verməyəcəyəm. 11 Gedin, özünüz
haradan istəyirsiniz, saman götürün,
ancaq işiniz azalmayacaq"». 12 Xalq
bütün Misir torpağına səpələnib
saman əvəzinə küləş yığmağa başladı.
13 Nəzarətçilər onları məcbur edərək
deyirdilər: «Sizə saman verilən vaxt
gördüyünüz gündəlik işi yerinə yetirin».
14 Firon nəzarətçiləri İsrail övladlarının
üzərinə qoyduqları İsrailli gözətçiləri
döyüb dedilər: «Niyə dünən və bu gün
indiyə qədər olan gündəlik kərpic sayını
yerinə yetirməmisiniz?»
15 İsrail övladlarından olan gözətçilər
fironun yanına gəlib ona fəryad edərək
dedilər: «Qullarınla niyə belə rəftar
edirsən? 16 Qullarına saman vermirlər,
ancaq bizə "kərpiclər düzəldin"
deyirlər. Budur, qulların döyülür. Bu
sənin xalqının günahıdır». 17 O isə
dedi: «Tənbəlsiniz, tənbəl, buna görə
də "gedək, Rəbbə qurban gətirək"
deyirsiniz. 18 İndi gedin işləyin. Sizə
saman verilməyəcək, ancaq gündəlik
kərpic sayını düzəltməlisiniz». 19 İsrailli
gözətçilər «sizin üçün müəyyən olunmuş
gündəlik kərpic sayı azalmayacaq»
sözlərini eşidəndə pis vəziyyətə
düşdüklərini anladılar. 20 İsrailli
gözətçilər fironun yanından çıxanda
yolda durub onları gözləyən Musa
və Harunla rastlaşıb 21 dedilər: «Qoy
Rəbb sizin nə etdiyinizi görsün və
sizi məhkum etsin! Siz bizi fironla
əyanlarının gözündə iyrənc etdiniz
və bizi öldürmək üçün əllərinə qılınc
verdiniz».
22 Musa Rəbbə müraciət edib dedi:
«Ey Xudavənd, nə üçün xalqı belə
bəlaya saldın? Məni niyə göndərdin?
23 Sənin adınla fironla danışmaq üçün
gələndən bəri o bu xalqı bəlaya salır,
Sən isə onları heç azad etmirsən».
6 Rəbb Musaya dedi: «İndi Mənim
firona nə edəcəyimi görəcəksən:
qüdrətli əllə məcbur olanda İsrail
xalqını buraxacaq, qüdrətli əllə məcbur
olub onları ölkəsindən qovacaq».

Allahın Musaya vədləri

2 [i]Sonra Allah Musaya dedi: «Mən
Rəbbəm. 3 Mən İbrahimə, İshaqa və
Yaquba Külli-İxtiyar Allah adı ilə
göründüm, ancaq Rəbb adı ilə Özümü
onlara tanıtdırmadım. 4 Onlarla da
Mən əhd bağladım ki, qərib yaşadıqları
ölkəni – Kənan torpağını onlara verim.
5 İndi də Misirlilərin əsarətdə saxladığı
İsrail övladlarının iniltisini eşidib Öz
əhdimi xatırladım. 6 Buna görə də İsrail
övladlarına söylə: "Mən Rəbbəm. Sizi
Misirlilərin zülmündən qurtaracağam,
onların əsarətindən çıxaracağam və
qolumu uzadıb böyük cəzalar bahasına
sizi satın alacağam. 7 Sizi Özümə xalq
edəcəyəm və sizin Allahınız olacağam.

---

[i] **6:2** Çıx. 3:13-15

Onda biləcəksiniz ki, sizi Misirlilərin
zülmündən qurtaran Allahınız Rəbb
Mənəm. 8 Mən İbrahimə, İshaqa və
Yaquba and içərək verəcəyimi vəd
etdiyim torpağa sizi aparıb, oranı sizə
mülk olaraq verəcəyəm. Mən Rəbbəm”».
9 Musa İsrail övladlarına elə söylədi.
Ancaq onlar ruhdan düşdüklərinə və
ağır əsarət çəkdiklərinə görə Musaya
qulaq asmadılar.
10 Rəbb Musaya dedi: 11 «Misir
padşahı fironun yanına gedib söylə ki,
İsrail övladlarını ölkəsindən buraxsın!»
12 Musa Rəbbin önündə dedi: «İsrail
övladları mənə qulaq asmadı, firon
mənə necə qulaq asacaq? Mən yaxşı
danışa bilmirəm». 13 Rəbb Musa və
Harunla danışıb onlara İsrail övladları
və Misir padşahı firon üçün əmrlər verdi
ki, İsrail övladlarını Misir torpağından
çıxartsınlar.

Musanın və Harunun nəsil şəcərəsi

14 İsrail övladlarının nəsil başçıları
bunlardır: İsrailin ilk oğlu Ruvenin
oğulları: Xanok, Pallu, Xesron və Karmi;
Ruvenin nəsli bunlardan ibarətdir.
15 Şimeonun oğulları: Yemuel, Yamin,
Ohad, Yakin, Sohar və Kənanlı bir
qadının oğlu Şaul; Şimeonun nəsli
bunlardan ibarətdir. 16 [j]Nəsillərinə görə
Levinin oğulları bunlardır: Gerşon,
Qohat və Merari. Levi yüz otuz yeddi
il ömür sürdü. 17 Nəsillərinə görə
Gerşonun oğulları: Livni və Şimey.
18 Qohatın oğulları: Amram, İshar,
Xevron və Uzziel; Qohat yüz otuz üç il
ömür sürdü. 19 Merarinin oğulları: Maxli
və Muşi; nəsillərinə görə Levinin ailəsi
bunlardan ibarətdir. 20 Amram bibisi
Yokevedi arvad olaraq aldı; arvadı ona
Harunu və Musanı doğdu. Amram yüz
otuz yeddi il ömür sürdü. 21 İsharın
oğulları: Qorah, Nefeq və Zikri.
22 Uzzielin oğulları: Mişael, Elsafan
və Sitri. 23 Harun Naxşonun bacısı
Amminadavın qızı Elişevanı arvad aldı;
arvadı ona Nadavı, Avihunu, Eleazarı
və İtamarı doğdu. 24 Qorahın oğulları:
Assir, Elqana və Aviasaf; Qorahın ailəsi
bunlardan ibarətdir. 25 Harunun oğlu
Eleazar Putielin qızlarından birini
arvad aldı; arvadı ona Pinxası doğdu.
Ailələrinə görə Levililərin nəsil başçıları
bunlardır.
26 Adları çəkilən Harun və Musa
o adamlardır ki, Rəbb onlara «İsrail
övladlarını dəstələrlə Misir torpağından
çıxarın» demişdi. 27 Onlar həmin Musa
və Harun idi ki, İsrail övladlarını
Misir torpağından çıxarmaq üçün Misir
padşahı fironla danışmışdılar.

Allahın Musaya və Haruna buyurduğu əmrlər

28 Misir torpağında Rəbbin Musa ilə
danışdığı gün 29 Rəbb Musaya dedi:
«Mən Rəbbəm! Sənə dediyim bütün
sözləri Misir padşahı firona söylə».
30 Musa Rəbbin önündə dedi: «Mən
yaxşı danışa bilmirəm, firon mənə necə
qulaq asacaq?»
7 Rəbb Musaya dedi: «Səni firon
üçün Allah kimi qoydum, qardaşın
Harun isə sənin peyğəmbərin olacaq.
2 Mənim sənə verdiyim əmri qardaşın
Haruna söylə. Qoy o da firona söyləsin
ki, İsrail övladlarını ölkəsindən
buraxsın! 3 [k]Lakin Mən fironun ürəyini
inadkar edəcəyəm ki, Misir torpağında
göstərəcəyim çoxlu əlamətlər və
möcüzələrə baxmayaraq, 4 firon sizə
qulaq asmasın. Onda Mən əlimi
Misir torpağına uzadıb böyük cəzalar
göndərərək ordularımı – xalqım İsrail
övladlarını onların arasından dəstələrlə
çıxaracağam. 5 Əlimi Misir torpağına
uzadaraq İsrail övladlarını onların

---

[j] **6:16** Say. 3:17-20; 26:57-58; 1Saln. 6:16-19 [k] **7:3** Həv. 7:36

arasından çıxardığım vaxt Misirlilər
biləcəklər ki, Rəbb Mənəm!»
6 Rəbb Musa və Haruna necə əmr
etmişdisə, onlar da elə etdilər. 7 Fironla
danışdıqları vaxt Musanın səksən,
Harunun isə səksən üç yaşı var idi.

Harunun əsası

8 Rəbb Musaya və Haruna dedi:
9 «Firon sizə “məni inandırmaq üçün
bir möcüzə göstərin” deyəndə Musa
Haruna desin: “Öz əsanı götürüb fironun
önündə yerə at ki, ilana dönsün”».
10 Musa və Harun fironun yanına
gəlib Rəbb necə əmr etmişdisə, elə
də etdilər. Harun öz əsasını fironun
və onun əyanlarının qarşısında yerə
atdı və əsa ilana döndü. 11 [l]Firon isə
müdrik adamları və cadugərləri çağırdı.
Misir sehrbazları da öz sehrləri ilə belə
etdilər. 12 Hər biri öz əsasını yerə atıb
ilana döndərdi, ancaq Harunun əsası
onların əsalarını uddu. 13 Lakin Rəbbin
söylədiyi kimi fironun ürəyi inadkar
oldu və onlara qulaq asmadı.

Birinci cəza: suyun qana dönməsi

14 Rəbb Musaya dedi: «Fironun
inadkar ürəyi var, xalqı buraxmaqdan
boyun qaçırır. 15 Sən sabah səhər
firon suya tərəf gedəndə qarşısına çıx.
İlana dönən əsanı əlinə götürüb, onu
Nil çayının sahilində gözlə. 16 Sonra
firona de: “İbranilərin Allahı Rəbb
məni yanına göndərdi ki, sənə deyim:
‹Xalqımı burax ki, səhrada Mənə ibadət
etsin!› Ancaq sən indiyə qədər qulaq
asmadın, 17 [m]buna görə də Rəbb belə
deyir: ‹Bundan biləcəksən ki, Rəbb
Mənəm. Bax mən əlimdəki əsanı Nil
çayının suyuna vuracağam, onda su
qana dönəcək. 18 Çayda olan balıqlar
öləcək və çay iylənəcək, Misirlilər
çaydan su içməyə iyrənəcəklər›”».
19 Rəbb Musaya dedi: «Haruna belə
söylə: “Əsanı götür və əlini bütün
Misir çayları, arxları, gölləri, hovuzları
üzərinə uzat”. Onlar qana dönsün,
bundan başqa bütün Misir torpağında
həm taxta, həm də daş qablarda qan
olacaq».
20 Rəbb Musa və Haruna necə əmr
etmişdisə, onlar da elə etdilər: fironun
və onun əyanlarının qarşısında Harun
əsasını qaldırdı və çaydakı suya vurdu.
Nil çayındakı bütün su qana döndü;
21 çaydakı balıqlar öldü və çay iyləndi.
Misirlilər buradan su içə bilmədilər.
Misir torpağı qan içində idi. 22 Amma
Misir sehrbazları da öz sehrləri ilə belə
etdilər. Rəbbin söylədiyi kimi fironun
ürəyi inadkar oldu və onlara qulaq
asmadı. 23 Firon qayıdıb öz sarayına
gəldi; bu işi də ürəyinə salmadı. 24 Bütün
Misirlilər Nil çayı sahilində yer qazmağa
başladılar ki, içməli su tapsınlar. Çünki
çayın suyundan içə bilmirdilər. 25 Rəbb
çaya bəla göndərəndən sonra yeddi gün
keçdi.

İkinci cəza: qurbağalar

8 Rəbb Musaya dedi: «Fironun
yanına gedib ona söylə: “Rəbb
belə deyir: xalqımı burax ki, Mənə
ibadət etsin! 2 Əgər sən xalqımı
buraxmaq istəməsən, mən sənin bütün
torpağını qurbağalarla doldurub
bəlaya salacağam. 3 Çay qurbağalarla
qaynaşacaq və oradan çıxıb sənin
sarayında, yataq otağında, yatağının
üstündə gəzəcəklər, əyanlarının,
xalqının evlərinə, təndirlərinə və xəmir
tabaqlarına girəcəklər. 4 Sənin, xalqının
və bütün əyanlarının üstünə qurbağalar
çıxacaq”».
5 Rəbb Musaya dedi: «Haruna belə
söylə: əsanı götür və əlini çayların,
arxların və göllərin üzərinə uzat. Qoy

[l] **7:11** 2Tim. 3:8 [m] **7:17** Zəb. 78:44; Vəhy 11:6; 16:4

Misir torpağı qurbağalarla dolsun».
6 Harun əlini Misir suları üzərinə
uzatdı və oradan qurbağalar çıxıb
Misir torpağını bürüdü. 7 Sehrbazlar
da öz sehrləri ilə belə etdilər və Misir
torpağına qurbağalar yetirdilər.
8 Firon Musanı və Harunu çağırıb
dedi: «Rəbbə yalvarın ki, məndən və
xalqımdan qurbağaları rədd etsin, onda
Rəbbə qurban gətirmək üçün xalqı
buraxaram». 9 Musa firona dedi: «Söylə,
nə vaxt sənin, əyanların və xalqın üçün
dua edim ki, qurbağalar səndən və
evlərindən yox olsun və yalnız çayda
qalsınlar?» 10 Firon dedi: «Sabah».
Musa dedi: «Sən dediyin kimi olacaq.
Bundan biləcəksən ki, Allahımız Rəbbə
bənzəri yoxdur! 11 Qurbağalar səndən,
evlərindən, əyanlarından və xalqından
rədd olacaq, yalnız çayda qalacaqlar».
12 Musa və Harun fironun yanından
çıxdılar.
Musa Rəbbin fironun üzərinə
göndərdiyi qurbağalara görə Ona
yalvardı. 13 Rəbb də Musanın sözünə
əməl etdi. Evlərdə, həyətlərdə,
tarlalarda olan qurbağalar öldü.
14 Onları qalaq-qalaq yığdılar və torpaq
iylənməyə başladı. 15 Ancaq firon
vəziyyətin yüngülləşdiyini görəndə
Rəbbin söylədiyi kimi ürəyində inad
etdi və onlara qulaq asmadı.

Üçüncü cəza: mığmığalar

16 Rəbb Musaya dedi: «Haruna belə
söylə: "Əsanı uzadıb yerin tozuna
vur ki, o bütün Misir ölkəsində
mığmığalara dönsün"». 17 Onlar belə
də etdilər. Harun əlindəki əsanı uzadıb
yerin tozuna vurdu və insanların da,
heyvanların da üstünə mığmığalar
qondu. Bütün Misir torpağında yerin
tozu mığmığaya döndü. 18 Sehrbazlar
da öz sehrləri ilə mığmığalar gətirmək
istədilər, ancaq bunu bacarmadılar.
İnsanların da, heyvanların da üstünə
mığmığalar qondu. 19 [n]Sehrbazlar firona
dedilər: «Bunda Allahın əli var». Ancaq
Rəbbin söylədiyi kimi fironun ürəyi
inadkar oldu və o qulaq asmadı.

Dördüncü cəza: mozalanlar

20 Rəbb Musaya dedi: «Səhər tezdən
qalx. Firon suya tərəf gedəndə onun
qarşısına gedib belə söylə: "Rəbb belə
deyir: xalqımı burax ki, Mənə ibadət
etsin! 21 Əgər sən onları azad etmək
istəməsən, sənin, əyanlarının, xalqının
üzərinə və evlərinin içinə mozalan
yığınları göndərəcəyəm. Misirlilərin
evləri, yaşadıqları torpaq mozalanlarla
dolacaq. 22 Ancaq o gün xalqımın
yaşadığı Qoşen torpağını ayıracağam
ki, orada mozalanlar olmasın. Bundan
biləcəksən ki, bu ölkədə Rəbb Mənəm.
23 Sənin xalqınla Öz xalqım arasında
fərq qoyacağam. Bu əlamət sabah
olacaq"». 24 Rəbb belə də etdi. Fironun
sarayını, əyanlarının evlərini, bütün
Misir torpağını ağır mozalan yığını
basdı. Mozalanların əlindən ölkə viran
oldu.
25 Firon Musanı və Harunu çağırıb
dedi: «Gedin, bu ölkədə öz Allahınıza
qurban gətirin». 26 Ancaq Musa dedi:
«Belə etmək olmaz, çünki bizim
Allahımız Rəbbə qurban kəsməyimiz
Misirlilərdə ikrah hissi oyadacaq.
Misirlilərin qabağında ikrah oyadan
qurbanlar kəssək, onlar bizi daşqalaq
etməzlərmi? 27 Biz istəyirik ki, səhrada
üç gün yol gedək və Allahımız Rəbbin
bizə əmr etdiyi kimi qurban gətirək».
28 Firon dedi: «Mən sizi buraxıram
ki, səhrada Allahınız Rəbbə qurban
gətirəsiniz, ancaq çox uzağa getməyin.
Mənim üçün də yalvarın». 29 Musa
dedi: «Mən sənin yanından gedirəm.

---

[n]**8:19** Luka 11:20

Rəbbə dua edəcəyəm ki, sabah fironu,
əyanlarını və xalqını mozalanlardan
qurtarsın. Ancaq qoy firon xalqı Rəbbə
qurban gətirməyə buraxmamaqla yenə
də bizi aldatmasın». 30 Musa fironun
yanından gedib Rəbbə yalvardı. 31 Rəbb
Musanın sözünə əməl etdi. Fironu,
əyanlarını və xalqını mozalanlardan
qurtardı. Daha mozalan qalmadı.
32 Ancaq bu dəfə də firon ürəyində
inadkarlıq etdi və xalqı buraxmadı.

Beşinci cəza: qırğın

9 Rəbb Musaya dedi: «Fironun yanına
gedib ona söylə: "İbranilərin Allahı
Rəbb belə deyir: xalqımı burax ki,
Mənə ibadət etsin! 2 Əgər sən onları
buraxmaqdan boyun qaçırıb saxlamağı
davam etsən, 3 budur, Rəbb tarlanda
olan heyvanların – at, eşşək, dəvə,
mal-qara və qoyun-keçinin üzərinə
əlini qaldıracaq; çox ağır qırğın olacaq.
4 Ancaq Rəbb İsrail övladlarının
heyvanları ilə Misirlilərin heyvanları
arasında fərq qoyacaq. İsrail övladlarına
məxsus olan heyvanlardan heç biri
ölməyəcək"».
5 Rəbb vaxt təyin edib dedi: «Rəbb
bunu ölkədə sabah edəcək».
6 Məhz bunu da Rəbb səhəri gün
etdi. Misirlilərin bütün heyvanları
öldü. Ancaq İsrail övladlarının
heyvanlarından heç biri ölmədi. 7 Firon
vəziyyəti soruşdu və İsrail övladlarının
heyvanlarından heç birinin ölmədiyi
barədə xəbər aldı. Ancaq fironun ürəyi
inadkar oldu və o, xalqı buraxmadı.

Altıncı cəza: irinli çibanlar

8 Rəbb Musaya və Haruna dedi:
«Kürədən əlinizə ovuc-ovuc qurum
götürün. Qoy Musa onu fironun gözü
önündə göyə səpsin. 9 Bütün Misir
torpağında toz qalxacaq, insanların və
heyvanların bədənində irinli çibanlar
əmələ gətirəcək».
10 [o]Onlar kürə qurumunu götürüb
fironun hüzurunda dayandılar. Musa
onu göyə qədər səpdi, insanların və
heyvanların bədəninə irinli çibanlar
çıxdı. 11 Sehrbazlar da bu cəzaya görə
Musanın qabağında dayana bilmədilər,
çünki sehrbazların və bütün Misirlilərin
bədənlərinə çibanlar çıxmışdı. 12 Rəbbin
Musaya söylədiyi kimi oldu: Rəbb
fironun ürəyini inadkar etdi və firon
onlara qulaq asmadı.

Yeddinci cəza: dolu

13 Rəbb Musaya dedi: «Sabah səhər
tezdən qalx və fironun qarşısına gedib
ona belə söylə: "İbranilərin Allahı
Rəbb belə deyir: xalqımı burax ki,
Mənə ibadət etsin! 14 Çünki Mən bu
dəfə sənin ürəyinə, əyanlarının və
xalqının da üzərinə bütün bəlalarımı
göndərəcəyəm. Bundan biləcəksən ki,
bütün dünyada Mənə bənzər yoxdur.
15 Əgər indi əlimi uzadıb səni və xalqını
qırğınla cəzalandırmış olsaydım, yer
üzündən silinib atılardın. 16 [p]Amma
ona görə səni qoruyub saxladım ki, Öz
gücümü sənə göstərim və adım bütün
dünyaya elan edilsin. 17 Sən hələ də
Mənim xalqıma qarşı durmusan və onu
buraxmırsan. 18 Budur, Mən sabah bu
vaxt çox güclü bir dolu göndərəcəyəm:
elə bir dolu ki Misir qurulandan
indiyə qədər orada olmayıb. 19 İndi
heyvanlarını və çöldə olan hər şeyini
apar, çünki tarlada qalan bütün insanlar
və heyvanlar evə gətirilməsə, onların
üzərinə dolu yağacaq və öləcəklər"».
20 Fironun əyanlarından bəzisi Rəbbin
sözündən qorxub öz qul və heyvanlarını
tələsik evlərinə gətirdi. 21 Rəbbin
sözünə etinasızlıq edənlər isə öz qul və
heyvanlarını tarlada qoydular.

---

[o]**9:10** Vəhy 16:2 [p]**9:16** Rom. 9:17

22 Rəbb Musaya dedi: «Əlini göyə
uzat. Qoy bütün Misir torpağına və
orada olan insanların, heyvanların və
bütün tarla bitkilərinin üzərinə dolu
yağsın». 23 Musa əsasını göyə qaldırdı.
Rəbb ildırımla dolu göndərdi və yerə od
düşdü; Rəbb Misir torpağı üzərinə dolu
yağdırdı. 24 [q]Beləliklə, çox güclü bir
dolu yağdı. Dolu içində od alışırdı; Misir
milləti mövcud olduğu vaxtdan bəri
burada belə dolu olmamışdı. 25 Dolu
bütün Misir torpağında insandan tutmuş
heyvana və tarla bitkilərinə qədər hər
şeyi məhv etdi. Çöldə bitən bütün otlar
və ağaclar tələf oldu. 26 Ancaq İsrail
övladlarının yaşadığı Qoşen torpağına
dolu yağmadı.
27 Firon Musanı və Harunu çağırtdırıb
onlara dedi: «Bu dəfə günah etdim. Rəbb
ədalətlidir, mən və xalqım isə haqsızıq.
28 Kifayətdir! Rəbbə yalvarın ki, bu
dəhşətli ildırım və dolu dayansın. Sizi
azad edərəm, daha burada qalmayın».
29 Musa ona dedi: «Şəhərdən çıxanda
əlimi Rəbbə tərəf qaldıracağam, ildırım
dayanacaq və daha dolu yağmayacaq.
Bundan biləcəksən ki, dünya Rəbbə
məxsusdur. 30 Ancaq mən bilirəm ki,
sən və əyanların yenə də Rəbb Allahdan
qorxmursunuz».
31 Bu vaxt kətan və arpa məhsulu
məhv oldu, çünki arpa dən gətirmiş,
kətan isə qozalanmışdı. 32 Ancaq buğda
və pərinc məhsulu məhv olmadı, çünki
onlar gec yetişir.
33 Musa fironun yanından ayrılıb
şəhərdən çıxdı və əlini Rəbbə tərəf
qaldırdı; ildırım və dolu dayandı və
yerə yağış yağmadı. 34 Firon yağışın,
dolunun və ildırımın dayandığını görüb
yenə də günah etməyə başladı, özü
və əyanları ürəklərini inadkar etdilər.
35 Rəbbin Musa vasitəsilə söylədiyi kimi
fironun ürəyi inadkarlaşdı və o, İsrail
övladlarını buraxmadı.

Səkkizinci cəza: çəyirtkə

10 Rəbb Musaya dedi: «Fironun
yanına get. Mən fironun və
əyanlarının ürəyini ona görə inadkar
etmişəm ki, onların arasında Öz
əlamətlərimi göstərim. 2 Sən isə
Misirdə nə cür işlər etdiyimi və onlara
göstərdiyim əlamətləri oğluna və
nəvənə nəql edərsən. Onda biləcəksiniz
ki, Rəbb Mənəm».
3 Musa və Harun yenə fironun yanına
gəlib ona söylədilər: «İbranilərin Allahı
Rəbb belə deyir: “Nə vaxta qədər
qarşımda özünü aşağı tutmaqdan
imtina edəcəksən? Xalqımı burax ki,
Mənə ibadət etsin! 4 Əgər sən Mənim
xalqımı azad etməsən, Mən sabah
ölkənə çəyirtkələr göndərəcəyəm.
5 Çəyirtkələr yer üzünü elə örtəcək
ki, torpağı görmək olmayacaq. Dolu
yağandan sonra sizə qalan şeyləri də
onlar yeyəcəklər; tarladakı ağaclarınızın
verdiyi zoğları da yeyəcəklər. 6 Onlar
sənin, əyanlarının və bütün Misirlilərin
evlərini dolduracaqlar. Belə şeyi nə
ataların, nə də babaların bu torpaqda
məskən saldıqları gündən indiyə qədər
görməmişdilər”». Musa dönüb fironun
yanından çıxdı.
7 Fironun əyanları ona dedilər: «Nə
vaxta qədər bu adam bizə tələ quracaq?
Bu adamları burax, qoy onlar özlərinin
Allahı Rəbbə ibadət etsinlər. Məgər sən
hələ bilmirsən ki, Misir məhv olur?»
8 Musanı və Harunu yenə fironun
yanına çağırdılar. Firon onlara dedi:
«Gedin, Allahınız Rəbbə ibadət edin.
Ancaq deyin görək kimlər gedəcək?»
9 Musa dedi: «Uşaq, qoca, oğul,
qızlarımız, qoyun-keçi və mal-qaramızla
birgə gedəcəyik, çünki Rəbbə bayram

---

[q] **9:24** Vəhy 8:7; 16:21

etməliyik». 10 Firon onlara dedi:
«Əgər mən sizi arvad-uşağınızla birgə
buraxsam, qoy Rəbb sizə kömək olsun!
Yəqin sizin pis niyyətiniz var. 11 Belə
olmaz! Siz kişilər gedin və Rəbbə ibadət
edin. Məgər bunu istəmirsiniz?» Sonra
firon onları öz hüzurundan qovdu.
12 Onda Rəbb Musaya dedi: «Əlini
Misir torpağının üzərinə uzat. Qoy Misir
torpağına çəyirtkələr hücum etsin və
bütün ölkənin bitkilərini, dolu yağandan
sonra qalan hər şeyi yesinlər». 13 Musa
əsasını Misir torpağının üzərinə uzatdı.
Rəbb ölkəyə bütün o günü və gecəni
davam edən şərq küləyi göndərdi. Səhər
açılanda şərq küləyi özü ilə çəyirtkələr
gətirdi. 14 [r]Çəyirtkələr Misir ölkəsinə
hücum edərək bütün Misir torpağına
yayıldılar. Onlar o qədər çox idi ki,
bu qədəri heç vaxt olmayıb və bundan
sonra da olmayacaq. 15 Çəyirtkələr
bütün yer üzünü elə bürüdü ki, torpaq
görünmürdü. Onlar ölkənin bütün
bitkilərini və dolu yağandan sonra
qalan bütün meyvələrini yedilər; bütün
Misir torpağında nə ağaclarda, nə də
çöllüklərdə heç bir yaşıllıq qalmadı.
16 Firon tələsik Musanı və Harunu
çağırıb onlara dedi: «Allahınız Rəbbə və
sizə qarşı günah etdim, 17 xahiş edirəm,
təkcə bu dəfə günahımı bağışlayın
və Allahınız Rəbbə yalvarın ki, bu
ölümcül bəla məni tərk etsin». 18 Musa
fironun yanından çıxıb Rəbbə yalvardı.
19 Rəbb küləyi döndərib çox güclü qərb
küləyi göndərdi və külək çəyirtkələri
aparıb Qırmızı dənizə atdı və bütün
Misir ölkəsində bir çəyirtkə belə,
qalmadı. 20 Ancaq Rəbb fironun ürəyini
inadkarlaşdırdı və o, İsrail övladlarını
buraxmadı.

Doqquzuncu cəza: zülmət

21 [s]Sonra Rəbb Musaya dedi: «Əlini
göyə tərəf uzat ki, Misir torpağında
zülmət, qatı qaranlıq olsun». 22 Musa
əlini göyə tərəf uzatdı və Misir
torpağında üç gün qatı zülmət oldu.
23 Üç gün heç kəs bir-birini görmədi və
heç kəs yerindən tərpənə bilmədi. Bütün
İsrail övladlarının yaşadıqları yerlər isə
işıqlıq idi.
24 Firon Musanı çağırıb dedi: «Gedin,
Rəbbə ibadət edin. Qoy uşaqlarınız da
sizinlə getsin, ancaq qoyun-keçiniz və
mal-qaranız burada qalsın». 25 Musa
isə dedi: «Sən bizə ünsiyyət qurbanları
və yandırma qurbanları da verməlisən
ki, Allahımız Rəbbə qurban gətirək.
26 Heyvanlarımız da bizimlə getməlidir:
bir dırnaqlı da qalmamalıdır, çünki
Allahımız Rəbbə qurban gətirmək
üçün onları götürməliyik. Ancaq biz
oraya gedib çatmamış Rəbbə nəyi
qurban gətirəcəyimizi bilmirik». 27 Rəbb
fironun ürəyini inadkar etdi və o, İsrail
övladlarını buraxmaq istəmədi.

Musa fironun yanından çıxır

28 Sonra firon Musaya dedi: «Rədd ol,
özünü gözlə və bir də mənim gözümə
görünmə. Yenə də gözümə görünsən,
öləcəksən». 29 Musa dedi: «Düz deyirsən,
bir daha gözünə görünmərəm».
11 Sonra Rəbb Musaya dedi:
«Fironun və Misirlilərin üzərinə
daha bir cəza göndərəcəyəm. Bundan
sonra o sizi buradan buraxacaq.
Hətta nəinki buraxacaq, buradan
tamam qovacaq. 2 Xalqa çatdır ki,
hər kişi öz qonşusundan və hər qadın
öz rəfiqəsindən qızıl-gümüş əşyalar
istəsin». 3 Rəbb Öz xalqına Misirlilərin
gözündə lütf qazandırdı. Musa özü də

---

[r]**10:14** Yoel 2:2; Vəhy 9:2-3 [s]**10:21** Zəb. 105:28; Vəhy 16:10

Misir ölkəsində fironun əyanlarının və
xalqın gözündə çox böyük adam idi.
4 Musa dedi: «Rəbb belə deyir:
“Gecə yarısı Mən Misirin ortasından
keçəcəyəm; 5 Misir torpağında taxtda
oturan fironun oğlundan tutmuş
dəyirman arxasında olan kəniz
oğluna qədər hamının ilk oğlu
öləcək. Hətta bütün heyvanların da
ilk balaları öləcək. 6 Bütün Misir
torpağında elə böyük fəryad qopacaq ki,
indiyədək beləsi olmamışdır və bundan
sonra da olmayacaq. 7 Lakin bütün
İsraillilərin arasında nə insanların,
nə də heyvanların üstünə heç it də
hürməyəcək. Bundan biləcəksiniz ki,
Rəbb İsrail övladları ilə Misirlilər
arasında fərq qoymuşdur”. 8 Sonra
bütün bu qulların yanıma gələcək və
mənə təzim edib deyəcəklər: “Sən
və ardınca gələn bütün xalq buradan
çıxın!” Bundan sonra mən çıxacağam».
Sonra Musa qızğın qəzəblə fironun
yanından çıxdı.
9 Rəbb Musaya demişdi: «Misir
torpağında möcüzələrim çoxalsın deyə
firon sizə qulaq asmayacaq». 10 Musa
və Harun bütün bu möcüzələri fironun
hüzurunda göstərdilər. Ancaq Rəbb
fironun ürəyini inadkarlaşdırdı və
o, İsrail övladlarını öz torpağından
buraxmırdı.

Pasxa bayramı üçün təlimat

12 [t]Misir torpağında Rəbb Musaya
və Haruna dedi: 2 «Bu ay sizin
üçün ilin ilk ayı olacaq. 3 Bütün İsrail
icmasına söyləyin: qoy bu ayın onuncu
günündə hər kəs öz ailəsi üçün bir
quzu, hər ev üçün bir quzu götürsün.
4 Əgər bir adamın ailəsi bir quzu üçün
sayca azdırsa, qoy o adam evinə yaxın
qonşusu ilə birgə bir quzu götürüb
insanların sayına, hər kəsin yeyəcəyinə
görə bölsün. 5 Özünüzə birillik qüsursuz
erkək heyvan götürün: ya qoyunlardan
bir toğlu yaxud keçilərdən bir çəpiş
olsun. 6 Onu ayın on dördüncü gününə
qədər saxlayın. Qoy axşamçağı bütün
İsrail icmasının camaatı onu kəssin.
7 Qurbanın qanından götürüb onu
yeyəcəkləri evin qapısının hər iki yan
taxtasına və üst dirəyinə sürtsünlər.
8 Qoy həmin gecə onun ətini yesinlər;
əti odda bişirib mayasız çörək və acı
göyərti ilə yesinlər. 9 Onu çiy yaxud suda
qaynadılmış halda yox, başı, ayaqları
və içalatı ilə birgə odda bişirilmiş halda
yeyin. 10 Ondan səhərə qədər bir şey
saxlamayın və səhər qalanını yandırın.
11 Onu belə yeyin: beliniz qurşanmış,
çarıqlarınız ayağınızda və dəyənəyiniz
əlinizdə olsun, onu tələsik yeyin. Bu,
Rəbbin Pasxasıdır.
12 Mən isə o gecə Misir torpağından
keçəcəyəm. Misir torpağında olan həm
insanların bütün ilk oğullarını, həm
də heyvanların bütün ilk balalarını
öldürəcəyəm. Bütün Misir allahlarına
da cəza verəcəyəm. Rəbb Mənəm.
13 Sizin olduğunuz evlər üzərindəki qan
sizin üçün əlamət olacaq. Qanı görəndə
yan keçəcəyəm və Misir ölkəsini
cəzalandırdığım zaman sizə məhvedici
bəla gəlməyəcək. 14 Bu gün sizin üçün
xatirə günü olacaq və onu Rəbb üçün
bayram edəcəksiniz. Nəsildən-nəslə
əbədi qayda olaraq onu bayram edin.

Mayasız Çörək bayramı

15 Yeddi gün mayasız çörək yeyin.
Hətta birinci gün evlərinizdən mayanı
yığışdırın. Çünki birinci gündən
yeddinci günə qədər mayalı çörək
yeyən hər kəsin ayağı İsrail övladlarının
arasından kəsilməlidir. 16 Sizin üçün
birinci və yeddinci günlərdə müqəddəs
toplantı olsun. Bu günlər hər kəs

---

[t]**12:1** Lev. 23:5; Say. 9:1-5; 28:16; Qanun. 16:1-2

özünə yemək hazırlamaqdan başqa
heç bir iş görməsin. 17 Bu Mayasız
Çörək bayramına ona görə riayət edin
ki, məhz həmin gün sizi dəstələrlə
Misir torpağından çıxartdım. Qoy
nəsildən-nəslə bu sizin üçün əbədi
qayda olsun və bu günə riayət edin.
18 Birinci ayın on dördüncü gününün
axşamından ayın iyirmi birinci gününün
axşamına qədər mayasız çörək yeyin.
19 Yeddi gün evinizdə maya olmasın,
çünki mayalı bir şey yeyən hər kəs
istər ölkədə qərib, istərsə də yerli
olsun, ayağı İsrail icmasının arasından
kəsilməlidir. 20 Heç bir mayalı şey
yeməyin, yaşadığınız hər bir yerdə
mayasız çörək yeyin».

İlk Pasxa bayramı

21 Musa İsrailin bütün ağsaqqallarını
çağırıb dedi: «Ailələrinizə görə özünüz
üçün toğlu ya çəpiş seçib götürün və
Pasxa qurbanını kəsin.
22 Bir çəngə züfa otu götürüb
ləyəndə olan qana batırın və oradakı
qandan qapının üst dirəyinə və yan
taxtalarına sürtün. Səhərə qədər heç kəs
evinin qapısından çıxmasın. 23 [u]Rəbb
Misirliləri bəlaya salmaq üçün gələndə
qapının üst dirəyinin və hər iki yan
taxtasının üzərində qan görüb o qapıdan
yan keçəcək. Məhvedicini evinizə
girməyə qoymayacaq. 24 Buna özünüz
və övladlarınız üçün əbədi qayda kimi
həmişə riayət edin. 25 Rəbbin söylədiyi
kimi sizə verdiyi torpağa çatanda bu
ibadətə riayət edərsiniz. 26 Övladlarınız
sizdən “Bu ibadətin mənası sizin üçün
nədir?” deyə soruşduqları zaman
27 onlara söyləyin: “Bu, Misirliləri
bəlaya saldığı zaman Misirdə İsrail
övladlarının evləri yanından keçib xilas
edən Rəbb üçün Pasxa* qurbanıdır”».
Xalq əyilib səcdə etdi. 28 Rəbb Musaya
və Haruna necə əmr etmişdisə, İsrail
övladları gedib elə də etdilər.

Onuncu cəza: ilk övladların ölümü

29 [v]Gecəyarısı Rəbb Misir torpağında
olan bütün ilk oğulları öldürdü; taxtda
oturan fironun ilk oğlundan tutmuş
zindanda olan əsirin ilk oğluna qədər
hər ilk oğul, heyvanların hər ilk balası
da öldü. 30 O gecə firon, onun əyanları
və bütün Misirlilər qalxdılar. Misirdən
böyük bir fəryad qopdu, çünki elə bir ev
yox idi ki, orada ölən olmasın. 31 Firon
gecə Musanı və Harunu çağırıb dedi:
«Çıxın gedin! Həm özünüz, həm də
bütün İsraillilər xalqımın arasından
çıxın gedin, istədiyiniz kimi Rəbbə
ibadət edin. 32 Necə ki deyirdiniz,
qoyun-keçinizi və mal-qaranızı da
götürüb gedin, mənə də xeyir-dua
verin».
33 Misirlilər xalqı ölkədən tələsik
qovdular. Onlar deyirdilər: «Yoxsa
hamımız öləcəyik». 34 Xalq maya qata
bilmədiyi xəmiri götürdü, paltarlarına
bürünmüş xəmir tabaqlarını çiyinlərində
apardı. 35 [w]İsrail övladları Musanın
sözünə əməl etdilər. Misirlilərdən
qızıl-gümüş əşyalar və paltar istədilər.
36 Rəbb xalqa Misirlilərin gözündə
lütf qazandırdı və onlara istədiklərini
verdilər. Beləcə onlar Misirliləri
soydular.

İsrail övladlarının Misirdən çıxışı

37 İsrail övladları Ramsesdən Sukkota
yola düşdülər. Arvad-uşaqdan əlavə,
altı yüz minə qədər piyada gedən kişi
var idi. 38 Qarışıq bir izdiham, çoxlu
qoyun-keçi, mal-qara sürüləri də onlarla
birgə yollandı. 39 Misirdən çıxardıqları
maya qatılmayan xəmirdən mayasız

---

*12:27 *Pasxa* – ibrani mətnində *pesah* sözü olub, *yanından keçmək* deməkdir.

[u]12:23 İbr. 11:28 [v]12:29 Çıx. 4:22-31 [w]12:35 Çıx. 3:21-22

kökələr bişirdilər. Çünki Misirdən
qovulmuşdular və orada qalıb özlərinə
yol üçün azuqə hazırlaya bilməmişdilər.
40 [x]İsrail övladlarının Misirdə yaşadığı
müddət dörd yüz otuz il olmuşdu.
41 Məhz bu dörd yüz otuz il tamam
olan gün Rəbbin bütün dəstələri Misir
torpağından çıxdı. 42 Rəbb o gecə onları
Misirdən qurtarmaq üçün ayıq saxladı.
İsrail xalqı bütün nəsillər boyu o gecə
Misirlilərin əlindən qurtarmağın xatirəsi
kimi Rəbb üçün ayıq qalmalı idilər.

Pasxa yeməyinin qaydaları

43 Rəbb Musaya və Haruna dedi:
«Pasxa bayramının qaydaları belədir:
heç bir qərib ondan yeməsin; 44 ancaq
hər kəsin pulla satın alınmış qulu
sünnət olunduqdan sonra onu yeyə
bilər. 45 Qonaq və muzdlu işçi ondan
yeməməlidir. 46 [y]Qoy bu yemək
bir evdə yeyilsin, əti evdən bayıra
çıxarılmasın və onun bir sümüyü də
qırılmasın. 47 Bütün İsrail icması bu
yeməyi yesin. 48 Sənin yanında qonaq
olan qərib Rəbbin Pasxa bayramını
keçirmək istəsə, ailəsində olan bütün
kişilərlə birgə sünnət olunsun. Yalnız
bu zaman onu keçirə bilər və o da
sizin həmtayfanız kimi sayılar. Sünnət
olunmayan heç bir kişi ondan yeməsin.
49 Yerli üçün də, yanınızda yaşayan
yadelli üçün də qanun eynidir».
50 İsrail övladları Rəbbin Musaya
və Haruna əmr etdiyi kimi də etdilər.
51 Rəbb o gün İsrail övladlarını Misir
torpağından dəstələrlə çıxartdı.

Çıxış xatirəsi

13 [z]Rəbb Musaya dedi: 2 «İsrail
övladları arasında hər bətndən
ilk doğulan bütün oğlanları və bütün
heyvanların balalarını Mənim üçün
təqdis et; onlar Mənimdir».
3 Musa xalqa dedi: «Misirdən,
köləlik diyarından çıxdığınız bu günü
xatırlayın. Çünki Rəbb sizi qüdrətli əli
ilə oradan çıxartdı və buna görə də
mayalı çörək yeməyin. 4 Çıxdığınız bu
gün Aviv ayındadır. 5 Rəbb atalarınıza
and etmişdi ki, Kənanlıların, Xetlilərin,
Emorluların, Xivlilərin, Yevusluların
ölkəsini sizə verəcək. Sizi süd və
bal axan torpağa gətirəcəyi vaxt bu
ibadəti həmin ayda icra edin. 6 Yeddi
gün mayasız çörək yeyin, yeddinci
gün Rəbbə bayram olsun. 7 O yeddi
gün ərzində yalnız mayasız çörək
yeyilməlidir. Aranızda bütün ölkədə nə
mayalı çörək, nə də maya görünməsin.
8 O günü övladlarınıza bildirib deyin:
“Misirdən çıxdığım vaxt Rəbb mənim
üçün nələr etdiyinə görə belə edirəm”.
9 Qoy bu əlinizdə nişanə və gözlərinizin
önündə xatirə olsun ki, Rəbbin qanunu
dilinizdən düşməsin. Çünki Rəbb
sizi qüdrətli əli ilə Misirdən çıxartdı.
10 İldən-ilə təyin olunan vaxt bu qanuna
riayət edin.
11 Rəbb sizə və atalarınıza and
içdiyi kimi Kənanlıların ölkəsinə
gətirib, oranı sizə verən vaxtdan bəri
12 [a]ana bətnindən hər ilk doğulan
oğlanlarınızı Rəbbə təqdim etməlisiniz:
ilk doğulan bütün heyvan balaları
da Rəbbin olsun. 13 Hər ilk doğulan
eşşək balası əvəzinə bir qoyun-keçi
balası verin. Əgər əvəzini verməsəniz,
boynunu sındırın. Övladlarınızın
arasında hər ilk oğulun əvəzini ödəyin.
14 Gələcəkdə övladlarınız sizdən “Bu
nədir?” soruşanda deyin: “Rəbb bizi
Misirdən, köləlik diyarından qüdrətli əli
ilə çıxartdı. 15 Firon bizi buraxmamağa
inadkarlıq edəndə Rəbb Misir

---

[x]**12:40** Yar. 15:13; Qal. 3:17 [y]**12:46** Say. 9:12; Zəb. 34:20; Yəh. 19:36
[z]**13:1** Say. 3:13; Luka 2:23 [a]**13:12** Luka 2:23

torpağında olan həm insanların bütün
ilk oğlanlarını, həm də heyvanların
bütün ilk balalarını öldürdü. Buna
görə mən bütün ilk doğulan heyvan
balalarını Rəbbə qurban verirəm, bütün
ilk oğullarımın isə əvəzini ödəyirəm”.
16 Qoy bu əlinizdə nişanə və gözünüz
önündə xatirə olsun, çünki Rəbb bizi
qüdrətli əli ilə Misirdən çıxartdı».

Allah İsrail övladlarına yol göstərir

17 Firon xalqı buraxdığı zaman
Allah onları Filiştlilərin ölkəsindən yol
qısa olduğuna baxmayaraq, o yolla
gətirmədi. Çünki O dedi: «Yoxsa xalq
müharibə görəndə bəlkə peşman olub
Misirə qayıdar». 18 Allah xalqı Qırmızı
dənizə tərəf səhra yolu ilə dolayı apardı.
İsrail övladları Misir torpağından
silahlanıb çıxdılar. 19 [b]Musa Yusifin
sümüklərini özü ilə apardı, çünki Yusif
İsrail övladlarına «Allah mütləq sizə
nəzər salacaq. Gedən zaman özünüzlə
sümüklərimi də buradan çıxarın»
deyərək and içdirmişdi.
20 İsrail övladları Sukkotdan yola
düşüb səhranın kənarında olan Etamda
düşərgə saldılar. 21 Rəbb onların qabağı
ilə gündüz onlara yol göstərmək üçün
bulud dirəyində, gecə isə onlara işıq
vermək üçün od dirəyində gedirdi
ki, gündüz də, gecə də gedə bilsinlər.
22 Gündüzlər bulud dirəyi, gecələr isə
od dirəyi xalqın önündən ayrılmadı.

14 Rəbb Musaya dedi: 2 «İsrail
övladlarına belə söylə: “Dönüb
Pi-Haxirot qabağında düşərgə salın.
Miqdol ilə dənizin arasında, Baal-Sefon
qarşısında dənizin sahilində düşərgəniz
olsun”. 3 Firon düşünəcək ki, İsrail
övladları torpaqda dolaşır, səhra onların
yolunu kəsmişdir. 4 Mən isə fironu
inadkar edəcəyəm ki, o sizi təqib etsin.
Sonra firon və onun ordusunu məğlub
edib izzətimi göstərəcəyəm. Bütün
Misirlilər biləcəklər ki, Rəbb Mənəm».
İsraillilər belə də elədilər.

Misirlilər İsrail övladlarını təqib edirlər

5 Misir padşahına İsrail xalqının
qaçdığını xəbər verəndə firon və
məmurlarının fikri dəyişdi. Onlar
dedilər: «Biz nə üçün belə etdik? İsrail
övladları bizim qullarımız idi. Axı
niyə onları buraxdıq?» 6 Firon döyüş
arabalarını hazırlayıb adamlarını özü
ilə götürdü. 7 O, altı yüz seçmə döyüş
arabasını və Misirin bütün arabalarını
götürdü. Hər arabanın öz zabiti var
idi. 8 Rəbb Misir padşahı fironun
ürəyini yenə də inadkar etdi və o, İsrail
övladlarını təqib etdi. İsrail övladları isə
cürətlə gedirdilər. 9 Misirlilər, fironun
bütün araba atları, süvariləri və ordusu
onları təqib edib Pi-Haxirot yanında,
Baal-Sefon qarşısında dənizin sahilində
qurduqları düşərgəyə çatdılar.
10 Firon yaxınlaşanda İsrail övladları
baxıb gördülər ki, Misirlilər onlara
doğru gəlirlər. Buna görə də İsrail
övladları çox qorxdu və Rəbbə fəryad
etdilər. 11 Onlar Musaya dedilər: «Məgər
Misirdə qəbiristanlıq yoxdur ki, sən bizi
səhrada ölməyə apardın? Bizi Misirdən
çıxarıb başımıza nə gətirdin? 12 Misirdə
sənə “Bizdən əl çək, Misirlilərə qulluq
edək!” demirdikmi? Səhrada ölməkdən
Misirlilərə qulluq etmək bizim üçün
yaxşıdır».
13 Musa isə xalqa belə dedi:
«Qorxmayın! Durun, Rəbbin bu gün
sizi necə xilas edəcəyinə baxın. İndi
gördüyünüz Misirliləri daha heç vaxt
görməyəcəksiniz. 14 Sakit olun, Rəbb
sizin üçün döyüşəcək!»

---

[b] **13:19** Yar. 50:25; Yeşua 24:32; İbr. 11:22

Qırmızı dənizdən keçid

15 Rəbb Musaya dedi: «Nə üçün Mənə
fəryad edirsən? İsrail övladlarına de ki,
yola düşsünlər. 16 Sən isə əsanı qaldırıb,
əlini dənizin üzərinə uzat, sularını yar
ki, İsrail övladları dənizin ortasında
quru yerdən keçsinlər.
17 Mən Misirlilərin ürəklərini inadkar
edəcəyəm ki, sizi təqib etsinlər. Sonra
fironu, onun bütün ordusunu, döyüş
arabalarını və süvarilərini məğlub edib
izzətimi göstərəcəyəm. 18 Fironu, döyüş
arabalarını və süvarilərini məğlub edib
izzətimi göstərdiyim zaman Misirlilər
biləcəklər ki, Rəbb Mənəm».
19 İsrail düşərgəsinin önündə gedən
Allahın mələyi onların arxasına keçdi.
Bulud dirəyi önlərindən arxalarına
keçib, 20 Misir ordusunun və İsrail
düşərgəsinin arasında durdu. Bulud
bir tərəfə zülmət verdi, o birisinə isə
gecə işığı verdi. Bütün gecə bu xalqlar
bir-birinə yaxınlaşmadılar.
21 Musa əlini dəniz üzərinə uzatdı.
Rəbb bütün gecə əsən qüvvətli şərq
küləyi ilə dənizin suyunu qovub yerini
quruya çevirdi. Sular yarıldı və 22 [c]İsrail
övladları dənizin ortasında quru yerdən
keçdilər. Sular onlar üçün sağ və
sol tərəfdən divar oldu. 23 Misirlilər
onları təqib etdilər; fironun atları,
döyüş arabaları və süvariləri İsrail
övladlarının ardınca dənizin ortasına
girdilər. 24 Dan yeri söküləndə Rəbb od
və bulud dirəyindən Misir ordusuna
baxıb onların arasına qarışıqlıq saldı.
25 O, arabaların çarxlarını elə ləngitdi
ki, arabalar güclə hərəkət etdi. Misirlilər
dedilər: «Gəlin İsrail övladlarından
qaçaq, çünki Rəbb onların tərəfində
bizə qarşı döyüşür».
26 Rəbb Musaya belə dedi: «Əlini
dənizin üzərinə uzat ki, sular
Misirlilərin, döyüş arabalarının və
süvarilərin üzərinə qayıtsın». 27 Musa
əlini dənizin üzərinə uzatdı. Səhərə
yaxın dəniz adi hala qayıtdı. Misirlilər
sulardan qaçmaq istəyəndə Rəbb onları
itələyib dənizin ortasına atdı. 28 Yerinə
qayıdan sular döyüş arabalarını,
süvariləri, İsrail övladlarının ardınca
dənizə gedən fironun bütün ordusunu
örtüb uddu. Onlardan bir nəfər də olsun
sağ qalmadı.
29 İsrail övladları isə dənizin ortasında
quru yerdən keçib getmişdilər. Sular
onlar üçün sağ və sol tərəfdə divar
olmuşdu.
30 Məhz o gün Rəbb İsraili Misirlilərin
əlindən xilas etdi. İsrail xalqı Misirliləri
dənizin sahilində ölü gördü. 31 İsrail
xalqı Rəbbin Misirlilərə böyük qüvvətlə
nə etdiyini görəndə Rəbdən qorxdu,
Ona və qulu Musaya güvəndi.

Musanın qurtuluş ilahisi

15 [d]O vaxt Musa ilə İsrail övladları
Rəbbə bu ilahini oxudular:
«Rəbbə ilahi oxuyacağam,
Çox böyük zəfər çaldı.
Atı və süvarini dənizə tulladı.
2 [e]Rəbb qüvvətim, məzmurumdur, O
məni xilas etdi.
Rəbb mənim Allahımdır, Ona həmd
edəcəyəm.
Atamın Allahıdır, Rəbbi
yüksəldəcəyəm.
3 Rəbb döyüşçüdür, Rəbdir Onun adı.
4 Fironun döyüş arabalarını,
Ordusunu da dənizə atdı.
Döyüş arabalarının başçıları
Qırmızı dənizdə boğuldu.
5 Əngin sulara bürünüb
Daş tək dərinliklərə

---

[c] **14:22** 1Kor. 10:1-2; İbr. 11:29 [d] **15:1** Vəhy 15:3-4
[e] **15:2** Zəb. 118:14; Yeş. 12:2

Necə də qərq oldular.
6 Ya Rəbb! Sənin sağ əlin qüdrətdən
izzətləndi.
Ya Rəbb! Sənin sağ əlin düşməni
əzəndir.
7 Sənə qarşı çıxanları möhtəşəm
əzəmətin yıxar,
Sənin göndərdiyin qəzəb onları saman
çöpü tək yandırar.
8 Burnunun nəfəsi ilə sular toplanar,
Yığılar bir yerə, axınlar dayanar,
Dəniz qoynunda coşan sular qatılaşar.
9 Düşmən dedi:
“İzləyim, çatıb qənimət paylayım:
Bundan canım doyacaq,
Qılıncımla onları məhv edəcəyəm”.
10 Nəfəsinlə üfürdün, dənizlə onları
bürüdün.
Qurğuşun tək onlar nəhəng sularda
batdılar.
11 Ya Rəbb, allahlar arasında Sənin
kimisi varmı?
Müqəddəslikdə əzəmətli, zəhmli və
alqışlara layiq,
Möcüzələr yaradan Sənin kimisi
varmı?
12 Sağ əlini uzadanda torpaq onları
uddu.
13 Məhəbbətinlə qurtardığın xalqa Sən
yol göstərdin.
Müqəddəs məskəninə Öz gücünlə
apardın.
14 Xalqlar eşidib əsdi,
Filişt sakinlərini qorxu kəsdi.
15 Edom başçılarını o an dəhşət
bürüdü.
Moav igidlərini vahimələrə saldı.
Kənan sakinləri isə üzülüb qaldı.
16 Onların üzərini qorxu, vəlvələ aldı.
Güclü qoluna görə daş tək lal-kar
oldular,
O vaxtadək ki xalqın keçəcək,
Ya Rəbb, qurtardığın xalq keçəcək!
17 Ya Rəbb, xalqını gətirib salacaqsan
mülkün olan dağına,
Yaşamaq üçün Özünə yaratdığın yerə,
Ey Xudavənd! Əlinlə qurduğun
Müqəddəs məkanına.
18 Rəbb əbədi, daima padşahlıq
edəcəkdir».
19 Fironun atları, döyüş arabaları və
süvariləri ilə birgə dənizə girəndə Rəbb
dənizin sularını onların üzərinə geri
qaytarmışdı. İsrail övladları isə dənizin
ortasında quru yerdən keçmişdilər.
20 Harunun bacısı peyğəmbər Məryəm
əlinə dəf aldı; bütün qadınlar əllərinə
dəf alıb oynayaraq onun ardınca
çıxdılar. 21 Məryəm onların qarşısında
bu ilahini oxudu:
Rəbbə ilahi oxuyun,
Çox böyük zəfər çaldı.
Atı və süvariləri dənizə tulladı!

Acı su

22 Musa İsrail xalqını Qırmızı dənizin
sahilindən gedən yola gətirdi. Onlar
Şur səhrasına çıxıb orada üç gün
yol getdilər, amma su tapmadılar.
23 Maraya çatdılar, lakin oranın suyunu
içə bilmədilər, çünki çox acı idi. Buna
görə də o yer Mara* adlanır. 24 Xalq
«Nə içək?» deyə Musadan giley-güzar
etdi. 25 Musa Rəbbə fəryad etdi və
Rəbb ona bir ağac göstərdi. Musa
onu suya atdı və su şirin oldu. Orada
İsrail övladlarını sınağa çəkdiyi yerdə
Rəbb onlar üçün qayda-qanun qoyaraq
dedi: 26 «Əgər siz Allahınız Rəbbin
səsinə qulaq asıb Onun gözündə doğru
olsanız, Onun əmrlərini dinləyib bütün
qanunlarına riayət etsəniz, Misirlilərə
verdiyim xəstəliklərin heç birini sizə
verməyəcəyəm. Çünki sizə şəfa verən
Rəbb Mənəm».

---

*15:23 *Mara* – ibrani dilində *acı*.

27 [f]Sonra İsrail övladları Elimə
gəldilər. Orada on iki su qaynağı və
yetmiş xurma ağacı var idi. İsrail xalqı
orada sular ətrafında düşərgə qurdu.

Allah manna və bildirçinləri göndərir

16 Bütün İsrail övladlarının icması
Elimdən yola düşdü. Onlar
Misir ölkəsindən çıxdıqdan sonra ikinci
ayın on beşinci günü Elim və Sina
dağı arasındakı Sin səhrasına çatdılar.
2 Səhrada bütün İsrail övladlarının
icması Musa ilə Harunun əlindən
giley-güzar etdi. 3 İsraillilər onlara
dedilər: «Kaş ki Misir ölkəsində ət
qazanlarının yanında oturanda doyunca
çörək yediyimiz vaxt Rəbbin əlində
öləydik! Siz bizi bu səhraya ona görə
gətirdiniz ki, bütün bu camaatı aclıqdan
öldürəsiniz».
4 [g]Rəbb Musaya dedi: «Budur, Mən
sizin üçün göydən çörək yağdıracağam.
Qoy xalq hər gün çıxıb lazımi
miqdarda o çörəyi yığsın. Mənsə
onları sınayacağam ki, qanunuma
görə yaşayırlar ya yox. 5 Altıncı gün
yığdıqları digər günlər yığdıqlarından
ikiqat artıq olsun, o gün də onu
hazırlasınlar».
6 Musa və Harun bütün İsrail
övladlarına dedilər: «Axşam biləcəksiniz
ki, sizi Misir ölkəsindən çıxaran
Rəbdir. 7 Səhər isə Rəbbin izzətini
görəcəksiniz. Çünki Rəbb Onun əlindən
giley-güzarınızı eşitdi. Axı biz kimik ki,
siz əlimizdən giley-güzar edirsiniz?»
8 Musa dedi: «Sizə axşam yeməyə
ət, səhər isə doyunca çörək verən
Rəbdir; çünki sizin Ona qarşı olan
deyinməyinizi eşidən Odur. Axı biz
kimik ki? Deyinməyiniz bizə qarşı
deyil, Rəbbə qarşıdır». 9 Musa Haruna
dedi: «Bütün İsrail icmasına belə söylə:
“Rəbbin hüzuruna yaxınlaşın, çünki O
sizin deyinməyinizi eşitmişdir”».
10 Harun bütün İsrail övladlarının
icması ilə danışdığı vaxt onlar səhraya
baxıb Rəbbin əzəmətinin buludda
göründüyünü gördülər. 11 Rəbb Musaya
dedi: 12 «Mən İsrail övladlarının
deyinməklərini eşitdim. Onlara de:
axşamçağı ət yeyəcək, səhər isə çörəklə
doyacaqsınız. Onda biləcəksiniz ki,
Allahınız Rəbb Mənəm».
13 Axşam bildirçinlər uçub bütün
düşərgəni bürüdülər. Səhər düşərgənin
ətrafına şeh düşdü. 14 Şeh buxarlananda
səhrada, torpaq üzərində qırova bənzər
nazik lopalar göründü. 15 [h]İsraillilər
bunu gördükdə bir-birinə «Bu nədir?»
dedilər, çünki onun nə olduğunu
bilmirdilər. Musa onlara dedi: «Bu
Rəbbin sizə yeməyə verdiyi çörəkdir.
16 Rəbbin əmri budur: hər adam yemək
üçün özünə lazımi miqdarda ondan
yığsın. Öz çadırında olan adamların
sayına görə adambaşı bir omer
götürsün».
17 İsrail övladları belə də etdilər. Kimi
çox, kimi də az yığdı. 18 [i]Onlar omer ilə
ölçdükləri zaman çox yığanın artığı, az
yığanın əskiyi olmadı. Hər kəs özünə
lazımi miqdarda yemək yığdı.
19 Musa İsrail övladlarına dedi: «Qoy
səhərə qədər heç kimdə bu yeməkdən
qalmasın». 20 Lakin bəziləri Musanın
sözünə baxmayıb bundan səhərə qədər
saxladılar. Saxladıqları yemək qurdlanıb
iyləndi. Musa onlara qəzəbləndi. 21 İsrail
övladlarından hər kəs özünə lazımi
miqdarda hər səhər ondan yığırdı.
Günəş qızanda isə o əriyirdi.
22 İsrail övladları altıncı gün bu
yeməkdən ikiqat artıq, adambaşı iki
omer yığdılar. İcma başçıları gəlib bunu
Musaya bildirdilər. 23 [j]Musa onlara

---

[f] **15:27** Say. 33:9 [g] **16:4** Yəh. 6:31 [h] **16:15** 1Kor. 10:3
[i] **16:18** 2Kor. 8:13-15 [j] **16:23** Çıx. 20:8-11

dedi: «Rəbb belə deyir: “Sabah istirahət
günü – Rəbb üçün təqdis olunan Şənbə
günüdür. Bu gün bişirdiyiniz hər şeyi
bişirin, qaynatdığınız hər şeyi qaynadın,
artığı da özünüz üçün səhərə qoyub
saxlayın”». 24 İsrail övladları Musa
onlara əmr etdiyi kimi yeməyi səhərə
saxladılar. Onun içində nə qurd oldu,
nə də iyləndi. 25 Musa dedi: «Bu gün
o yeməyi yeyin, çünki Rəbb üçün
Şənbə günüdür. Bu gün çöldə yemək
tapmayacaqsınız. 26 Siz onu altı gün
ərzində yığın; yeddinci gün – Şənbə
günü o yemək yox olacaq».
27 Xalqın bəziləri yeddinci gün yemək
yığmağa çıxdılar, amma tapmadılar.
28 Rəbb Musaya dedi: «Nə vaxta
qədər əmrlərimə və qanunlarıma
itaət etməkdən boyun qaçıracaqsınız?
29 Baxın Rəbb sizə Şənbə günü verdi.
Buna görə də O sizə hər altıncı gün iki
günlük yemək verir. Qoy hər kəs öz
evində qalsın və yeddinci gün heç yerə
çıxmasın». 30 Beləcə xalq yeddinci gün
istirahət etdi.
31 [k]İsrail xalqı bu yeməyin adını
«manna»* qoydu. O, görünüşcə keşniş
toxumu kimi idi, rəngi ağ, dadı isə
ballı yuxaya bənzəyirdi. 32 Musa dedi:
«Rəbbin əmri budur: “Mannadan
bir omer doldurun; Misir ölkəsindən
sizi çıxardığım zaman səhrada sizə
yedirtdiyim yeməyi görmək üçün qoy
bu nəsildən-nəslə qorunsun”». 33 [l]Musa
Haruna dedi: «Bir qab götür, ona omer
dolu manna qoy. Bu Rəbbin hüzurunda
nəsildən-nəslə qorunub saxlanmalıdır».
34 Rəbbin Musaya əmr etdiyi kimi
Harun onu şəhadət lövhələrinin önündə
qoruyub saxladı. 35 [m]İsrail övladları
qırx il ərzində əhalisi olduqları Kənan
ölkəsinin sərhədinə gələnə qədər manna
yedilər. 36 Bir omer efanın onda bir
hissəsidir.

Qayadan çıxan su

17 [n]Bütün İsrail övladlarının
icması Sin səhrasından yola
düşüb Rəbbin buyurduğuna görə
dayana-dayana köç edirdilər. Onlar
Refidimdə düşərgə saldılar. Orada
xalqın içməyə suyu yox idi. 2 Ona görə
də xalq Musa ilə münaqişə edib belə
dedi: «Bizə içməyə su verin». Musa
onlara dedi: «Niyə mənimlə münaqişə
edirsiniz? Nə üçün Rəbbi sınayırsınız?»
3 Xalq orada olanda susamışdı. Ona
görə də Musanın əlindən deyinib dedi:
«Axı niyə bizi Misirdən çıxartdın? Bu
bizi, oğullarımızı və heyvanlarımızı
susuzluqdan öldürmək üçündürmü?»
4 Musa Rəbbə fəryad edib dedi:
«Axı mən bu xalq ilə nə edim? Bir az
da keçsə, məni daşqalaq edəcəklər».
5 Rəbb Musaya dedi: «Xalqın qarşısına
çıx. Özünlə bərabər bir neçə İsrail
ağsaqqalı götür. Nil çayına vurduğun
əsanı əlinə alıb irəli get. 6 Orada
– Xorevdəki qayanın üstündə Mən
sənin önündə dayanacağam. Zərbə
ilə qayaya vur və oradan xalq üçün
içməli su çıxacaq». Musa da İsrail
ağsaqqallarının gözü qarşısında bunu
etdi. 7 Musa o yeri Massa† və Meriva‡
adlandırdı, çünki orada İsrail övladları
münaqişə etmişdilər və «görəsən
Rəbb aramızdadır ya yox» deyə Rəbbi
sınamışdılar.

---

*16:31 *Manna* – ibrani dilində *nədir*. Bax: Çıx. 16:15.
†17:7 *Massa* – ibrani dilində *sınamaq*.
‡17:7 *Meriva* – ibrani dilində *münaqişə*.

[k]16:31 Say. 11:7-8 [l]16:33 İbr. 9:4 [m]16:35 Yeşua 5:12; 1Kor. 10:3
[n]17:1 Say. 20:2-13; 1Kor. 10:4

Amaleqlilərlə döyüş

8 Bundan sonra Amaleqlilər
gəlib Refidimdə İsrail övladları ilə
döyüşdülər. 9 Musa Yeşuaya dedi:
«Bizim üçün bir neçə adam seç, get
Amaleqlilərlə döyüş. Sabah mən əlimdə
Allahın əsası ilə təpənin başında
dayanacağam». 10 Yeşua da Musa
deyən kimi etdi və gedib Amaleqlilərlə
döyüşdü. Musa, Harun və Xur isə
təpənin başına çıxdılar. 11 Musa əlini
qaldıranda İsrail övladları üstün
gəlirdi, əlini endirəndə isə Amaleqlilər
üstün gəlirdi. 12 Lakin Musanın əlləri
yorulurdu. Ona görə də bir daş götürüb
onun altına qoydular. Musa daşın
üstündə oturdu. Əlinin birindən Harun,
o birisindən isə Xur yapışdı. Beləcə
Musanın gün batanacan əlləri möhkəm
qaldı. 13 Yeşua Amaleq padşahını və
xalqını qılıncdan keçirib qırdı.
14 [o]Rəbb Musaya dedi: «Bunu xatirə
olaraq kitaba yaz, Yeşuanın qulağına
çatdır ki, Mən Amaleqin adını büsbütün
yer üzərindən siləcəyəm».
15 Musa bir qurbangah düzəldərək
adını Yahve-Nissi* qoyub 16 dedi:
«Rəbbin taxtına doğru əl uzadılırdı.
O, nəsildən-nəslə Amaleqlilərə qarşı
döyüşəcək».

Yetronun Musaya baş çəkməsi

18 Midyanlıların kahini olan
Musanın qayınatası Yetro
Allahın Musa və xalqı İsrail üçün
gördüyü bütün işləri, Rəbbin İsraili
Misirdən çıxartdığını eşitdi. 2 [p]Musanın
qayınatası Yetro Musanın arvadı
Sipporanı iki oğlu ilə birgə geri gətirdi.
Musa əvvəlcədən arvadını onun yanına
göndərmişdi. 3 Musa «mən yad bir
ölkədə qərib oldum» deyib oğlanlarının
birinin adı Gerşom† qoymuşdu.
4 «Atamın Allahı köməyim oldu və məni
fironun qılıncından qurtardı» deyib o
birisinin adını Eliezer‡ qoymuşdu.
5 Musanın qayınatası Yetro, oğulları
və arvadı Musanın düşərgə saldığı
Allahın dağı yerləşən səhraya gəlib,
6 bu xəbəri Musaya göndərdi: «Mən
– sənin qayınatan Yetro, arvadın
və iki oğlunla yanına gəlirəm».
7 Musa qayınatasının qarşısına çıxdı,
təzim edib onunla öpüşdü; onlar
bir-birlərindən hal-əhval tutub çadıra
girdilər. 8 Musa qayınatasına Rəbbin
İsrail övladlarının xatirinə firona
və Misirlilərə etdiyi bütün şeylər,
yolda çəkdikləri bütün əziyyəti və
Rəbbin onları necə qurtardığını nəql
etdi. 9 Yetro Rəbbin İsrail övladlarına
etdiyi bütün yaxşılıqlara və Misirlilərin
əlindən onları qurtardığına görə sevindi.
10 Yetro dedi: «Sizi Misirlilərin və
fironun əlindən qurtaran Rəbbə alqış
olsun! Xalqı Misirlilərin əlinin altından
qurtaran Odur. 11 İndi bildim ki, Rəbb
bütün allahlardan böyükdür, çünki
onların öyündüklərindən də üstün
oldu». 12 Sonra Musanın qayınatası
Yetro Allaha yandırma və ünsiyyət
qurbanları gətirdi. Harun ilə İsrail
övladlarının bütün ağsaqqalları
Musanın qayınatası ilə Allahın
hüzurunda yemək yeməyə gəldilər.

Yetronun nəsihəti

(Qanun. 1:9-18)

13 Ertəsi gün Musa oturub xalqa
hakimlik edirdi. Xalq da səhərdən
axşamadək Musanın ətrafında

---

*17:15 *Yahve-Nissi* – ibrani dilində *Rəbb bayrağımdır.*
†18:3 *Gerşom* – ibrani dilində *orada qərib.*
‡18:4 *Eliezer* – ibrani dilində *Allahım köməkdir.*

[o]17:14 Qanun. 25:17-19; 1Şam. 15:2-9 [p]18:2 Çıx. 2:21-22; Həv. 7:29

dayanmışdı. 14 Qayınatası Musanın
xalq üçün nə etdiyinə baxıb dedi: «Nə
üçün bu xalqa belə edirsən? Niyə sən
tək oturursan və bütün xalq səhərdən
axşamadək ətrafında dayanıb gözləyir?»
15 Musa qayınatasına dedi: «Ona görə
ki xalq Allahdan soruşmaq üçün
mənim yanıma gəlir. 16 Həll olunmalı
məsələləri olan adamlar yanıma
gələndə aralarında qərar çıxarıram.
Allahın qayda-qanunlarını da onlara
bildirirəm».
17 Musanın qayınatası ona dedi:
«Gördüyün iş yaxşı deyil. 18 Əlbəttə,
həm sən, həm də sənin lə olan xalq
üzülərsiniz. Axı bu iş sənin üçün ağırdır,
onu təkbaşına edə bilməzsən. 19 İndi
sözümə qulaq as, sənə bir məsləhət
verim. Qoy Allah sənə yar olsun! Sən
bu xalqa görə Allahın hüzurunda dayan
və işlərini də Ona çatdır. 20 Onları
qayda-qanunlar barəsində xəbərdar
et, gedəcəkləri yolu və görəcəkləri
işi göstər. 21 Bütün xalq arasından
bacarıqlı, Allahdan qorxan, etibarlı,
haram qazanca nifrət edən adamları
seç. Onları minbaşı, yüzbaşı, əllibaşı,
onbaşı təyin et ki, 22 xalqı hər zaman
mühakimə etsinlər. Qoy hər böyük işi
sənin yanına gətirsinlər, hər kiçik işə
isə özləri hakimlik etsinlər. Beləcə öz
yükünü yüngülləşdir. Qoy o adamlar
bu yükü sənin lə daşısınlar. 23 Əgər belə
etsən, Allah da sənə belə əmr etsə, dözə
bilərsən. Bütün xalq da razı olub öz
yerinə gedər».
24 Musa qayınatası deyən sözlərə
qulaq asıb əməl etdi. 25 Bundan sonra
Musa İsrail övladları arasından bacarıqlı
adamlar seçdi və onlardan xalqa başçı
– minbaşılar, yüzbaşılar, əllibaşılar,
onbaşılar təyin etdi. 26 Onlar hər vaxt
xalqı mühakimə edirdilər. Çətin işləri
isə Musanın yanına gətirir, hər kiçik işi
isə özləri mühakimə edirdilər. 27 Sonra
Musa qayınatasını yola saldı, o da öz
ölkəsinə getdi.

İsrail övladları Sina dağında

19 İsrail övladları Misir torpağından
çıxdıqdan sonra üçüncü ayda –
yeni ay günü Sina səhrasına gəldilər.
2 Onlar Refidimdən köçüb Sina
səhrasına gəldilər. O səhrada İsrail
övladları dağın qarşısında düşərgə
saldılar.
3 Musa isə dağa – Allahın hüzuruna
çıxdı. Rəbb onu dağdan çağırıb dedi:
«Yaqub nəslinə, İsrail övladlarına belə
söylə: 4 “Misirlilərə nələr etdiyimi,
sizi qartal qanadlarında daşıdığım
kimi yanıma gətirdiyimi siz özünüz
gördünüz. 5 [q]İndi isə əgər sözümə
diqqətlə qulaq asıb əhdimə riayət
etsəniz, siz bütün xalqlar arasından
Mənə məxsus xalq olacaqsınız. Bütün
yer üzü Mənimdir; 6 siz isə Mənə xidmət
edən kahinlər padşahlığı, müqəddəs
millət olacaqsınız”. Bu sözləri İsrail
övladlarına söylə».
7 Musa gəlib xalqın ağsaqqallarını
çağırdı və Rəbbin ona əmr etdiyi
hər kəlməni onların qarşısına qoydu.
8 Bütün xalq bir nəfər kimi belə cavab
verdi: «Rəbbin bütün söylədiklərinə
əməl edəcəyik». Musa xalqın cavabını
Rəbbə çatdırdı.
9 Rəbb Musaya dedi: «Budur, Mən
sənin yanına qatı buludda gəlirəm, qoy
xalq sənin lə danışdığımı eşidib sənə
daim inansın». Musa xalqın sözlərini
Rəbbə çatdırdı. 10 Rəbb Musaya dedi:
«Xalqın yanına get. Bu gün və sabah
onları təqdis et. Qoy paltarlarını da
yusunlar. 11 Üçüncü günə hazır olsunlar,
çünki üçüncü gün bütün xalqın gözü
qarşısında Rəbb Sina dağı üzərinə

---

[q] **19:5** Qanun. 4:20; 7:6; 14:2; 26:18; Titə 2:14; 1Pet. 2:9; Vəhy 1:4-6; 5:9-10

enəcək. 12 [r]Xalqın ətrafına sərhəd
çəkib de: “Özünüzü dağa çıxmaqdan,
onun ətəyinə toxunmaqdan gözləyin.
Dağa toxunan hər kəs öldürülməlidir.
13 Eləsinə əl vurulmasın, ancaq daşqalaq
edilsin ya da oxla vurulsun. İstər
heyvan, istərsə də insan, bunların
yaşamaq üçün izni yoxdur. Qoç
buynuzundan olan şeypur uzun-uzadı
çalınanda onlar dağa çıxa bilərlər”».
14 Musa dağdan xalqın yanına endi.
O, xalqı təqdis etdi. Onlar paltarlarını
yudular. 15 Sonra Musa xalqa dedi:
«Üçüncü günə hazır olun, qadınlarla
yaxınlıq etməyin».
16 [s]Üçüncü günün səhəri açılanda
göy gurultusu, şimşəklər, dağ üzərində
qatı bir bulud və çox uca şeypur səsi
oldu. Düşərgədə olan bütün xalq titrədi.
17 Allahı qarşılamaq üçün Musa xalqı
ordugahdan apardı və onlar dağın
ətəyində durdular.
18 Bütün Sina dağı tüstü içində idi,
çünki Rəbb onun üzərinə alov içərisində
enmişdi. Bütün dağ kürənin verdiyi
tüstü kimi tüstülənirdi, bərk titrəyirdi.
19 Şeypur səsi get-gedə ucalırdı. Musa
danışırdı və Allah ona səslə cavab
verirdi. 20 Rəbb Sina dağı üzərinə, dağın
başına endi və Musanı dağın başına
çağırdı. Musa oraya qalxdı. 21 Rəbb
Musaya dedi: «Düş, xalqa tapşır ki,
məbada Rəbbi görmək üçün Onun
tərəfində olan sərhədi keçsin, yoxsa
çoxları məhv olar. 22 Rəbbə yaxınlaşan
kahinlər də özlərini təqdis etsin ki, Rəbb
onlara qarşı çıxmasın». 23 Musa Rəbbə
dedi: «Xalq Sina dağına çıxmaz, çünki
Sən “dağa sərhəd çək və oranı təqdis et”
deyə bizə tapşırıq verdin». 24 Rəbb ona
dedi: «Düş get. Sən və sənin lə bərabər
Harun bura çıxın. Qoy kahinlərlə xalq
Rəbbin yanına çıxmaq üçün sərhədi
keçməsinlər, yoxsa Rəbb xalqa qarşı
çıxar». 25 Musa xalqın yanına enib bunu
onlara söylədi.

Allahın On Əmri

(Qanun. 5:1-21)

20 Allah bütün bu sözləri
belə söylədi: 2 «Səni Misir
torpağından, kölelik diyarından çıxaran
Allahın Rəbb Mənəm.
3 Məndən başqa allahların olmasın.
4 [t]Özün üçün heç bir oyma büt, nə
yuxarıda – səmada və ya aşağıda –
yerdə, nə də yerdən aşağıya yığılan
sulardakı şeylərin heç birinin surətini
düzəltmə. 5 [u]Belə şeylərə səcdə qılaraq
ibadət etmə. Çünki Mən, sənin Allahın
Rəbb, qısqanc Allaham. Mənə nifrət
edən ataların cəzasını üç-dörd nəslə
qədər övladlarına çəkdirərəm. 6 Məni
sevib əmrlərimə əməl edənlərin isə
minlərlə nəslinə məhəbbət göstərərəm.
7 [v]Allahın Rəbbin adını boş yerə dilinə
gətirmə, çünki Rəbb Öz adını boş yerə
dilinə gətirəni cəzasız qoymaz.
8 [w]Şənbə gününü yadda saxlayıb
təqdis et. 9 [x]Altı gün çalışıb bütün
işlərini gör. 10 Lakin yeddinci gün
Allahın Rəbbin Şənbə günüdür. Bu gün
sən, oğlun, qızın, qulun, qarabaşın,
heyvanların, yanında qalan yadelli də
heç bir iş görməsin. 11 [y]Çünki altı gün
ərzində Rəbb göyləri və yeri, dənizi və
kainatdakı hər şeyi yaratdı, yeddinci
gün isə istirahət etdi. Bunun üçün
Rəbb Şənbə gününə bərəkət verib onu
müqəddəs saydı.

---

[r]**19:12** İbr. 12:20 [s]**19:16** Vəhy 4:5; Qanun. 4:11-12; İbr. 12:18-19
[t]**20:4** Çıx. 34:17; Lev. 19:4; 26:1; Qanun. 4:15-18; 27:15 [u]**20:5** Çıx. 34:6-7; Say. 14:18; Qanun. 7:9-10 [v]**20:7** Lev. 19:12 [w]**20:8** Çıx. 16:23-30; 31:12-14
[x]**20:9** Çıx. 23:12; 31:15; 34:21; 35:2; Lev. 23:3 [y]**20:11** Yar. 2:1-3; Çıx. 31:17

12 [z]Ata-anana hörmət et ki, Allahın
Rəbbin sənə verdiyi torpaqda ömrün
uzun olsun.
13 [a]Qətl etmə.
14 [b]Zina etmə.
15 [c]Oğurluq etmə.
16 [d]Heç kimə qarşı yalandan şahidlik
etmə.
17 [e]Heç kimin evinə tamah salma. Heç
kimin arvadına, quluna, qarabaşına,
öküzünə, eşşəyinə – heç bir şeyinə
tamah salma».

Xalqın qorxusu

(Qanun. 5:22-33)

18 [f]Bütün xalq göy gurultusunu,
şimşəkləri, şeypur səsini, dağın
tüstülənməsini eşidib görəndə qorxub
sarsıldı və uzaqda durdu. 19 Musaya
dedilər: «Sən bizimlə danış, biz də
eşidək. Qoy Allah bizimlə danışmasın,
yoxsa ölərik». 20 Musa xalqa dedi:
«Qorxmayın, Allah ona görə gəlib
ki, sizi sınağa çəksin və siz günah
etməmək üçün Onun qorxusu qarşınızda
olsun». 21 Xalq uzaqda duranda Musa
orada Allahın olduğu qatı qaranlığa
yaxınlaşdı.

Qurbangah haqqında

22 [g]Rəbb Musaya dedi: «İsrail
övladlarına belə de: “Siz gördünüz
ki, Mən sizinlə göylərdən danışdım.
23 Mənimlə yanaşı olan başqa allahlar
düzəltməyin, özünüz üçün qızıldan
və gümüşdən allahlar düzəltməyin.
24 Mənim üçün torpaqdan qurbangah
düzəldib yandırma və ünsiyyət
qurbanları olaraq öz qoyun-keçi və
mal-qaranı onun üstündə qurban gətir.
Adım çəkilən hər yerdə yanına gəlib
sənə bərəkət verəcəyəm. 25 [h]Əgər
Mənim üçün daşdan qurbangah
düzəltsən, yonma daşdan tikmə, çünki
onun üzərində alətlə işləsən, onu
murdar edərsən. 26 Ayıbın açılmamaq
üçün Mənim qurbangahıma pilləkənlə
çıxma”.

21 Sən onların qarşısına bu
hökmləri qoymalısan:

İbrani qullar

(Qanun. 15:12-18)

2 [i]Sizdən biri İbrani qul alarsa, o
qul altı il qulluq edib yeddinci il pulu
ödəmədən azad olunsun. 3 Əgər qulun
tək gəlib, qoy tək də getsin; yox,
əgər arvadı vardısa, qoy arvadı ilə
getsin. 4 Əgər qul sahibi quluna arvad
veribsə və qulun arvadı oğlan yaxud qız
doğubsa, arvadla uşaqları ağası üçün
qalsın. Qul isə tək getsin. 5 Lakin qul
təkidlə: “Ağamı, arvadımla uşaqlarımı
sevirəm və azad olmaq istəmirəm” desə,
6 onda qoy qulun ağası onu məbədə
– Allahın hüzuruna gətirsin. Qulunu
qapıya yaxud qapının yan taxtasına
söykəyib qulağını bizlə deşsin. Bu qul
ağasına ömürlük qulluq etsin.
7 Bir adam qızını qarabaş olaraq
satarsa, qız kişi qullar kimi azad
olmasın. 8 Əgər o qız onu özü üçün təyin
edən ağasının gözündə pis görünərsə,
ağası qızın ödənmə pulunu qəbul
edib onu azad etsin; o ağanın qızı
yadellilərə satmağa ixtiyarı yoxdur,

---

[z]**20:12** Qanun. 27:16; Mat. 15:4; 19:19; Mark 7:10; 10:19; Luka 18:20; Ef. 6:2; Ef. 6:3 [a]**20:13** Yar. 9:6; Lev. 24:17; Mat. 5:21; 19:18; Mark 10:19; Luka 18:20; Rom. 13:9; Yaq. 2:11 [b]**20:14** Lev. 20:10; Mat. 5:27; 19:18; Mark 10:19; Luka 18:20; Rom. 13:9; Yaq. 2:11 [c]**20:15** Lev. 19:11; Mat. 19:18; Mark 10:19; Luka 18:20; Rom. 13:9 [d]**20:16** Çıx. 23:1; Mat. 19:18; Mark 10:19; Luka 18:20
[e]**20:17** Rom. 7:7; 13:9 [f]**20:18** İbr. 12:18-19 [g]**20:22** İbr. 12:25
[h]**20:25** Qanun. 27:5-7; Yeşua 8:31 [i]**21:2** Qanun. 15:12; Lev. 25:39-46

çünki o qızla xaincəsinə rəftar etdi.
9 Əgər ağa onu oğlu üçün təyin edibsə,
onunla adətə görə öz qızı kimi rəftar
etməlidir. 10 Əgər o adam ikinci arvad
alırsa, birinci arvadını yemək və paltar
təminatından və arvadlıq hüququndan
məhrum etməsin. 11 Əgər əri bu üç
haqqı qadına vermirsə, qoy bu qadın
heç nə ödəmədən azad edilsin.

Ölüm cəzasına məhkum olunanlar

12 [j]Adam vurub öldürən şəxs
öldürülməlidir. 13 [k]Lakin o şəxs
öldürmək qəsdində olmasa və ölüm
Mənim iznimlə olsa, o zaman onun
üçün bir yer təyin edərəm ki, oraya
pənah gətirsin. 14 Bir adam başqa adamı
qəsdən hiylə ilə öldürsə, o adamı hətta
Mənim qurbangahımdan götür ki,
öldürülsün.
15 Atasını yaxud anasını döyən adam
öldürülməlidir.
16 [l]İnsan oğurlayıb satan yaxud
saxlayan adam öldürülməlidir.
17 [m]Atasını yaxud anasını söyən adam
öldürülməlidir.

Bədən xəsarəti

18 Adamlar münaqişə edəndə başqa
adamın daşla yaxud yumruqla vurduğu
bir adam ölməyib yatağa düşərsə və
19 sonra yataqdan qalxıb əl ağacı ilə
bayırda gəzərsə, onu vuran adam
cəzasız qalsın və yatdığı müddətin
əvəzini ödəsin, sağalana qədər ona
qayğı göstərsin.
20 Bir adamın dəyənəklə vurduğu qulu
yaxud qarabaşı zərbədən ölərsə, o adam
cəzalandırılmalıdır. 21 Əgər qul yaxud
qarabaş bir-iki gün ərzində ölməsə,
ağa cəzalandırılmasın; çünki qul yaxud
qarabaş ağanın əmlakıdır.
22 Adamlar dalaşanda bir hamilə
qadın ona dəyən zərbədən uşaq
salarsa və başqa ziyan ona dəyməsə,
o qadının ərinin tələbi ilə təqsirkar
adam hakimlərin təyin etdiyi məbləğdə
cərimə ödəməlidir. 23 [n]Əgər qadına
ziyan dəyibsə, təqsirkar adam can
əvəzinə can, 24 göz əvəzinə göz, diş
əvəzinə diş, əl əvəzinə əl, ayaq əvəzinə
ayaq, 25 yanıq əvəzinə yanıq, yara
əvəzinə yara, zədə əvəzinə zədə ödəsin.
26 Ağa qulunun yaxud kənizinin
gözünə vurub onu kor edərsə, gözün
əvəzinə onu azad etsin. 27 Əgər ağa
qulunun yaxud kənizinin dişini sındırsa,
dişin əvəzinə qulunu azad etsin.

Heyvan sahibinin məsuliyyəti

28 Mal-qaradan olan heyvan kişini
yaxud qadını buynuzla vurub öldürərsə,
heyvan daşqalaq edilsin; onun əti
yeyilməsin, heyvan sahibi isə günahsız
sayılsın. 29 Lakin əgər heyvan o vaxta
qədər vurağan olub, sahibi isə bundan
xəbərdar edilsə də, onun qarşısını
almasa və nəticədə heyvan kişini yaxud
qadını öldürərsə, heyvan daşqalaq
edilsin, sahibi isə öldürülsün. 30 Əgər
heyvanın sahibindən ödənmə pulu
istənilirsə, o istənilən pulun məbləğini
ödəyib canının əvəzini ödəyə bilər.
31 Oğlanı ya qızı buynuzlayan heyvana
qarşı eyni hökm işlənsin. 32 Əgər heyvan
qulu ya kənizi buynuzu ilə vursa,
ağasına otuz şekel gümüş verilsin,
heyvan isə daşqalaq olsun.
33 Bir adam quyunu açıb ya da
qazdığı quyunun üstünü örtməsə və ora
mal-qara yaxud eşşək düşsə, 34 quyunun
sahibi zərəri ödəsin; heyvanın dəyərini
sahibinə versin, ölən heyvan isə o
adama qalsın.

---

[j] **21:12** Lev. 24:17 [k] **21:13** Say. 35:10-34; Qanun. 19:1-13; Yeşua 20:1-9
[l] **21:16** Qanun. 24:7 [m] **21:17** Lev. 20:9; Mat. 15:4; Mark 7:10
[n] **21:23** Lev. 24:20; Qanun. 19:21; Mat. 5:38

35 Bir adamın mal-qarası başqasının
mal-qarasını vurub öldürsə, sahiblər
həm sağ qalan heyvanı satıb dəyərini
yarı bölməli, həm də ölü heyvanı yarı
bölməlidirlər. 36 Amma heyvanın o
vaxta qədər vurağan olduğu məlum
olanda onun qarşısını almayan sahibi
heyvanın əvəzinə heyvan verib zərəri
ödəsin; ölən heyvan isə ona qalmalıdır.

Əmlak haqqında hökmlər

22 Bir adam mal-qara yaxud
qoyun-keçidən oğurlayıb kəsər
yaxud satarsa, qoy o adam mal-qara
əvəzinə beş heyvan, qoyun-keçi əvəzinə
dörd heyvan verib zərəri ödəsin.
2 Əgər gecə oğru birinin evinə girərkən
yaxalanıb öldürülsə, qoy qanı batsın.
3 Əgər hadisə gün doğandan sonra baş
versə, qan tökən müqəssir sayılsın. Oğru
zərəri ev yiyəsinə ödəməlidir. Əgər
oğrunun zərəri ödəməyə gücü çatmırsa,
qoy oğurluğuna görə özü satılsın.
4 Əgər oğurlanan mal-qara, eşşəklər ya
qoyun-keçi oğrunun əlində diri tapılsa,
qoy oğru zərəri ikiqat ödəsin.
5 Bir adam öz tarlasında yaxud üzüm
bağında otardığı heyvanları başqa
adamın tarlasına otlamağa buraxarsa, o
adam öz tarlasının yaxud üzüm bağının
ən yaxşı barından zərəri ödəsin.
6 Alışan od kollara düşüb dərz, əkin
yaxud tarlanı məhv edərsə, yanğını
yandıran adam zərəri ödəməlidir.
7 Bir adama saxlamağa verilən gümüş
yaxud əşya onun evindən oğurlanarsa
və oğru tapılarsa, zərəri ikiqat ödəsin.
8 Əgər oğru tapılmasa, evin sahibi
Allahın hüzuruna yaxınlaşıb and içsin
ki, başqa adamın əmanətinə xəyanət
etməyib.
9 Hər hansı itmiş bir əşya – mal-qara,
eşşək, qoyun-keçi, paltar barədə "bu
mənimdir" deyən iki tərəfin mübahisəli
işi Allahın hüzuruna gətirilməlidir;
Allahın haqsız çıxardığı adam o birisinə
zərəri ikiqat ödəməlidir.
10 Bir adama saxlamağa verilən
başqa adamın eşşəyi, mal-qarası,
qoyun-keçisi yaxud başqa bir heyvanı
heç kəs görmədən ölər, yaralanar
yaxud aparılarsa 11 bu adamlar arasında
Rəbbin adına içilən and olsun ki, biri
o birisinin əmanətinə xəyanət etməyib.
Qoy heyvanın sahibi bunu qəbul
etsin, ona zərəri ödəməsin. 12 Əgər
heyvan həmin adamdan oğurlanıbsa,
onu saxlayan adam zərəri sahibinə
ödəsin. 13 Əgər heyvanı vəhşi heyvan
parçalayıbsa, onu saxlayan adam
parçalanan heyvanı sübut kimi sahibinə
gətirsin, zərərini isə ödəməsin.
14 Bir adamın borc aldığı heyvan
sahibinin yanında olmayanda yaralanar
yaxud ölərsə, o adam zərəri ödəməlidir.
15 Əgər heyvanın sahibi yanındadırsa,
zərər ödənməməlidir. Əgər heyvan
muzdla tutulubsa, zərər muzd haqqına
daxil edilir.

Əxlaqi və dini hökmlər

16 [o]Bir adam nişanlı olmayan bakirə
qızı tovlayıb onunla yaxınlıq edərsə,
qıza görə başlıq verib onu özünə arvad
etməlidir. 17 Əgər qızın atası onu o
adama ərə verməyə qəti razı deyilsə, o
adam bakirə qızların başlığına müvafiq
məbləğdə pul ödəsin.
18 [p]Cadugər qadın sağ qalmasın.
19 [q]Heyvanlarla cinsi əlaqəyə girən
hər kəs öldürülməlidir.
20 [r]Rəbdən başqa digər allahlara
qurban gətirən adam tamamilə məhv
olunsun.

---

[o]**22:16** Qanun. 22:28-29 [p]**22:18** Qanun. 18:10-11
[q]**22:19** Lev. 18:23; 20:15-16; Qanun. 27:21 [r]**22:20** Qanun. 17:2-7

21 [s]Qərib adama nə haqsızlıq, nə
də zülm edin, çünki siz özünüz
də Misir ölkəsində qərib idiniz.
22 Heç bir dul qadına və yetimə
əziyyət verməyin. 23 Əgər bunlardan
birinə əziyyət versəniz və o Mənə
fəryad etsə, Mən hökmən fəryadını
eşidəcəyəm. 24 Qəzəblənib sizi qılıncdan
keçirəcəyəm. Arvadlarınız dul,
uşaqlarınız isə yetim qalacaq.
25 [t]Xalqıma, yanında yaşayan kasıba
pul borc versəniz, onunla sələmçi kimi
rəftar etməyin, üstünə sələm qoymayın.
26 [u]Əgər başqasının paltarını girov
alırsınızsa, gün batandan əvvəl ona
girovu qaytarın. 27 Çünki bu paltar onun
yeganə örtüyü və əyninin geyimidir. Bəs
o adam yatanda nə ilə üstünü örtsün? O
Mənə fəryad edəndə səsini eşidəcəyəm,
çünki Mən lütfkaram.
28 [v]Allaha küfr etmə və xalqın
başçısına lənət etmə.
29 Öz məhsulunu və şirə təqdimlərini
Mənə gətirməyini gecikdirmə. İlk
oğullarını Mənə həsr et. 30 Mal-qaranın
və qoyun-keçinin ilk balaları ilə də belə
et: yeddi gün onları anaları ilə qoyub,
səkkizinci gün Mənə həsr et.
31 [w]Mənim üçün müqəddəs xalq olun.
Məhz buna görə də vəhşi heyvanın çöldə
parçaladığı heyvanın ətini yeməyin,
onu itlərə atın.

Ədalət və vicdan

23 [x]Boş xəbər gəzdirməyin. Yalançı
şahid olmaq üçün haqsız adamla
əlbir olmayın. 2 Şər iş görən izdihama
qoşulmayın. Məhkəmədə çoxları ilə
birləşərək ədaləti təhrif edib yalançı
şahid olmayın. 3 [y]Kasıba da məhkəmədə
meylini salma.
4 [z]Sən düşməninin azmış buğasına,
inəyinə yaxud eşşəyinə rast gəlsən,
sahibinə qaytarmalısan. 5 Sənə nifrət
edən adamın eşşəyini yükü altında
yıxılmış halda görəndə onu tərk etmə;
ona kömək et ki, bu yükdən azad olsun.
6 [a]Möhtac olan adamın məhkəmə
işində ona qarşı ədaləti təhrif etmə.
7 Yalan işdən uzaq ol. Günahsıza və
salehə ölüm hökmü vermə. Çünki Mən
haqsıza bəraət qazandırmayacağam.
8 Rüşvət alma, çünki rüşvət gözüaçıqları
kor edər, salehlərin sözlərini isə təhrif
edər.
9 [b]Qəribə zülm etmə. Siz də qəribliyi
hiss etmisiniz, çünki özünüz də Misir
ölkəsində qərib idiniz.

İstirahət vaxtları və bayramlar

(Çıx. 34:18-26; Qanun. 16:1-17)

10 [c]Altı il torpağınızı əkin və
məhsulunu yığın. 11 Yeddinci il ona
əl dəyməyin ki, xalqınızdan olan
möhtaclar oradan yesin. Onlardan artıq
qalanı isə çöl heyvanları yesin. Üzüm
və zeytun bağlarınızda da belə hərəkət
edin.
12 [d]Altı gün işlərinizi görün, yeddinci
gün isə istirahət edin ki, mal-qaranız
və eşşəyiniz rahatlansın, evinizdə
doğulan qullar və qəriblər də dincəlsin.
13 Mənim sizə söylədiyim hər şeyə riayət
edin. Başqa allahların adını çəkməyin,
qoy o adlar sizin ağzınızdan heç vaxt
çıxmasın.

---

[s]**22:21** Çıx. 23:9; Lev. 19:33-34; Qanun. 24:17-18; 27:19 [t]**22:25** Lev. 25:35-38; Qanun. 15:7-11; 23:19-20 [u]**22:26** Qanun. 24:10-13 [v]**22:28** Həv. 23:5
[w]**22:31** Lev. 17:15 [x]**23:1** Çıx. 20:16; Lev. 19:11-12; Qanun. 5:20
[y]**23:3** Lev. 19:15 [z]**23:4** Qanun. 22:1-4 [a]**23:6** Lev. 19:15; Qanun. 16:19
[b]**23:9** Çıx. 22:21; Lev. 19:33-34; Qanun. 24:17-18; 27:19 [c]**23:10** Lev. 25:1-7
[d]**23:12** Çıx. 20:9-11; 31:15; 34:21; 35:2; Lev. 23:3; Qanun. 5:13-14

14 Mənə ildə üç dəfə bayram edin:
15 [e]Mayasız Çörək bayramını qeyd
edin. Mən sizə əmr etdiyim kimi Aviv
ayında təyin olunmuş vaxt yeddi gün
mayasız çörək yeyin. Çünki Misirdən
o ayda çıxdınız. Heç kəs önümə əliboş
gəlməsin. 16 [f]Tarladakı əkinin nübarı ilə
Biçin bayramını qeyd edin. İlin sonunda
işinin bütün məhsulunu tarladan yığıb
Yığım bayramını qeyd edin. 17 İldə üç
dəfə sizin bütün kişiləriniz Sahibləri
Rəbbin hüzuruna gəlsinlər.
18 Mənə gətirilən qurbanın qanını
mayalı çörəklə təqdim etməyin. Bayram
qurbanımın piyi səhərə qədər qalmasın.
19 [g]Torpağın nübarının ilk hissəsini
Allahınız Rəbbin məbədinə gətirin.
Oğlağı anasının südündə bişirməyin.

Vəd və nəsihətlər

20 Budur, Mən yolda sizi qorumaq
və hazırladığım yerə gətirmək üçün
qarşınızda bir Mələk göndərirəm.
21 Onun hüzurunda ehtiyatlı olun
və səsinə qulaq asın. Ona qarşı
üsyan qaldırmayın, O, itaətsizliyinizi
bağışlamaz, çünki Mənim adım onun
üzərindədir.
22 Əgər Onun səsinə qulaq asıb
dediyimə əməl etsəniz, onda Mən sizin
düşmənlərinizə düşmən, yağılarınıza isə
yağı olacağam.
23 Mələyim qarşınızda gedəcək və
sizi Emorluların, Xetlilərin, Perizlilərin,
Kənanlıların, Xivlilərin və Yevusluların
yanına gətirəcək; Mən onları silib
atacağam. 24 Onların allahlarına
səcdə etməyin, onlara ibadət etməyin
və qaydalarına əməl etməyin. O
allahları dağıdıb yox edin, onların daş
sütunlarını parça-parça etməlisiniz.
25 Siz isə Allahınız Rəbbə xidmət edin,
O da çörəyinizə və suyunuza bərəkət
verəcək; sizin daxilinizdən xəstəliyi yox
edəcəyəm. 26 Ölkənizdə nə uşaq salan,
nə də sonsuz qadın olacaq. Ömrünüzü
də uzun edəcəyəm.
27 Öz dəhşətimi qarşınızca
göndərirəm. Sizin aralarına getdiyiniz
bütün xalqlara qarışıqlıq salacağam və
bütün düşmənlərinizin dönüb sizdən
qaçmasına bais olacağam. 28 Eşşəkarısını
da qarşınızca göndərəcəyəm, o da
Xivliləri, Kənanlıları və Xetliləri
önünüzdən qovacaq. 29 Lakin
bir il ərzində onları önünüzdən
qovmayacağam ki, ölkə viranə qalmasın
və çöl heyvanları çoxalıb sizin üstünüzə
daraşmasın. 30 Yavaş-yavaş onları
önünüzdən o vaxtacan qovacağam ki,
siz törəyib çoxalaraq ölkənin sahibi
olacaqsınız. 31 Qırmızı dənizdən Filişt
dənizinə* qədər, səhradan Fərat çayına
qədər sərhədlərinizi çəkəcəyəm. Ölkənin
sakinlərini sizə təslim edəcəyəm, siz
isə onları yanınızdan qovarsınız.
32 Nə onlarla, nə də allahları ilə əhd
kəsin. 33 Qoymayın ki, onlar ölkənizdə
yaşasınlar və sizin Mənə qarşı günah
edərək onların allahlarına ibadət
etməyinizə bais olsunlar. Bu sizə tələ
olacaq».

Allahla İsrail arasında əhdin bağlanması

24 Rəbb Musaya dedi: «Sən,
Harun, Nadav, Avihu və
İsrail ağsaqqallarından yetmiş nəfər
Rəbbin yanına çıxın. Uzaqdan səcdə
edin. 2 Sonra yalnız sən, ey Musa,
Rəbbin hüzuruna yaxınlaş, o biriləri

*23:31 *Filişt dənizi* – Aralıq dənizi.

[e]**23:15** Çıx. 12:14-20; Lev. 23:6-8; Say. 28:17-25
[f]**23:16** Lev. 23:15-21; Say. 28:26-31; Lev. 23:39-43
[g]**23:19** Qanun. 26:2; Çıx. 34:26; Qanun. 14:21

yaxınlaşmasınlar. Xalq isə sənlə
buraya çıxmasın».
3 Musa gəlib Rəbbin bütün sözlərini
və hökmlərini xalqa nəql etdi. Bütün
xalq bir səslə cavab verib dedi:
«Rəbbin söylədiyi sözlərin hamısına
əməl edəcəyik». 4 Musa Rəbbin bütün
sözlərini yazdı. O, səhər erkən durub
dağın ətəyində qurbangah və İsrailin
on iki qəbiləsinə görə on iki sütun
qurdu. 5 Sonra Musa İsrailin cavanlarına
Rəbbin önündə yandırma qurbanları
və ünsiyyət qurbanları olaraq buğalar
kəsdirdi. 6 Musa heyvanların qanının
yarısını götürüb ləyənlərə tökdü. Qanın
o biri yarısını isə qurbangahın üstünə
səpdi. 7 O, əhd kitabını əlinə alıb xalqa
ucadan oxudu və onlar dedilər: «Rəbbin
söylədiyi bütün sözlərə əməl edib qulaq
asacağıq!» 8 [h]Sonra Musa qanı götürüb
xalqın üstünə səpərək dedi: «Budur
bütün bu sözlərə görə Rəbbin sizinlə
kəsdiyi əhdin qanı».
9 Bunu edib Musa Harun, Nadav,
Avihu və İsrail ağsaqqallarından yetmiş
nəfərlə birgə çıxıb, 10 İsrailin Allahını
gördülər. Onun ayaqları altında göy
yaqutdan döşəməyə bənzər, səmanın
özü kimi aydın bir şey var idi. 11 Allah
İsrailin başçılarına əl qaldırmadı; onlar
Allahı gördülər və yeyib-içdilər.
12 Rəbb Musaya dedi: «Mənim yanıma
dağa çıx və orada dur; xalqı öyrətmək
üçün qanunu və əmrləri yazdığım
daş lövhələri sənə verim». 13 Musa
köməkçisi Yeşua ilə Allahın dağına
çıxmaq üçün qalxdı. 14 Ağsaqqallara
isə dedi: «Biz geri qayıdanadək
burada gözləyin. Budur, Harun və Xur
yanınızdadır; kimin nə çətin işi varsa,
onların yanına gedə bilər».
15 Musa bunu deyəndən sonra dağa
çıxdı. Bulud dağı bürüdü. 16 Rəbbin
izzəti Sina dağının üstündə məskən
saldı. Bulud onu altı gün bürüdü.
Yeddinci gün Rəbb Musanı buludun
içindən çağırdı. 17 Rəbbin izzəti İsrail
övladlarının gözündə dağın başında
yandırıb-yaxan alov kimi görünürdü.
18 [i]Musa buludun içinə girib dağa çıxdı
və qırx gün-qırx gecə dağda qaldı.

Müqəddəs məskən üçün ianələr

(Çıx. 35:4-9)

25 Rəbb Musaya dedi: 2 «Mənə
ianələr gətirmək barədə İsrail
övladlarına belə söylə: könlü istəyən
hər bir adamdan ianəni qəbul edin.
3 Onlardan qəbul edəcəyiniz ianələr
budur: qızıl, gümüş, tunc, 4 bənövşəyi,
tünd qırmızı və al rəngli iplik, incə
kətan, keçi yunu, 5 qırmızı boyanmış
qoç dəriləri, suiti dəriləri, əbrişim ağacı,
6 çıraq üçün zeytun yağı, məsh yağı və
ətirli buxur üçün ətriyyatlar, 7 efodla
döşlüyün üstünə taxılan damarlı əqiq və
sağanaq daşları.
8 Mənim üçün Müqəddəs məkan
düzəltsinlər ki, aralarında məskunlaşım.
9 Mənim məskənimi və onun bütün
avadanlığını göstərdiyim nümunələrə
görə düzəldin.

Əhd sandığı

(Çıx. 37:1-9)

10 Qoy əbrişim ağacından sandıq
düzəltsinlər: uzunluğu iki qulac
yarım, eni qulac yarım, hündürlüyü
qulac yarım olsun. 11 Onu içəridən
və bayırdan xalis qızılla ört, ətrafına
qızıl zolaq qoy. 12 Sandıq üçün dörd
tökmə qızıl halqa düzəlt və onları onun
dörd ayağına, iki halqanı bir yanına,
iki halqanı isə o biri yanına bərkit.
13 Əbrişim ağacından şüvüllər düzəlt və
üzərini qızılla ört. 14 Sandığı daşımaq

---

[h]**24:8** İbr. 9:19-20; Mat. 26:28; Mark 14:24; Luka 22:20; 1Kor. 11:25; İbr. 9:20; 10:29 [i]**24:18** Qanun. 9:9

üçün şüvülləri sandığın yanlarındakı
halqalara keçir. 15 Şüvüllər sandığın
halqalarında qalıb oradan ayrılmasın.
16 Sənə verəcəyim şəhadət lövhələrini
sandığın içinə qoy.
17 Xalis qızıldan kəffarə qapağını
düzəlt. Qoy uzunluğu iki qulac yarım,
eni isə qulac yarım olsun. 18 Kəffarə
qapağının hər iki ucu üçün yastılanmış
qızıldan iki keruv düzəlt. 19 Bir keruv
qapağın bir ucunda, o birisi isə o biri
ucunda olaraq qapağın iki ucunda olan
keruvlar düzəlt ki, onunla bir hissədən
olsun. 20 Keruvlar yuxarıya açılmış
qanadları ilə kəffarə qapağını örtsünlər.
Keruvların üzləri bir-birinə qarşı
qapağa doğru olsun. 21 Kəffarə qapağını
sandığın üstünə qoy; sənə verəcəyim
şəhadət lövhələrini isə sandığın
içinə qoy. 22 Orada kəffarə qapağının
üzərində, Şəhadət sandığının üstündəki
iki keruv arasında sənlə görüşəcəyəm
və İsrail övladları üçün sənə əmr
edəcəyim hər şeyi söyləyəcəyəm.

Təqdis çörəkləri üçün masanın quruluşu

(Çıx. 37:10-16)

23 Əbrişim ağacından bir masa düzəlt:
uzunluğu iki qulac, eni bir qulac,
hündürlüyü isə qulac yarım olsun.
24 Onu xalis qızılla ört. Ətrafına qızıl
zolaq qoy. 25 Ətrafında eni bir ovuc olan
yan lövhələri düzəlt. Yan lövhələrin
ətrafına da qızıl zolaq qoy. 26 Masa üçün
dörd qızıl halqa düzəlt, halqaları onun
dörd küncünə, dörd ayağına bərkit.
27 Halqalar yan lövhələrə yaxın olaraq
masanı aparan şüvüllərin keçdiyi yerlər
olsun. 28 Şüvülləri əbrişim ağacından
düzəlt və onları qızılla ört; masa onların
vasitəsi ilə aparılsın. 29 Masa üçün
xalis qızıldan sinilər və nimçələr, içmə
təqdimlərini tökmək üçün dolçalar
və piyalələr düzəlt. 30 [j]Daima Mənim
hüzurumda masanın üstünə təqdis
çörəkləri qoy.

Qızıl çıraqdan

(Çıx. 37:17-24)

31 Xalis qızıldan bir çıraqdan düzəlt.
Bu çıraqdan yastılanmış qızıldan
olmalıdır. Altlığı, gövdəsi, kasacıqları,
qönçələri və gülləri onunla bir hissədən
olsun. 32 Çıraqdanın yanlarından altı
budaq – onun bir yanından üç budaq,
o biri yanından da üç budaq çıxsın.
33 Hər bir budağında badam çiçəyinə
bənzər üç kasacıq, qönçə və gül olsun.
34 Çıraqdanın gövdəsində isə badam
çiçəyinə bənzər dörd kasacıq, qönçə və
gül olsun. 35 Çıraqdanın gövdəsindən
çıxan altı budağın bir cütünün altında
bir qönçə, o biri cütünün altında bir
qönçə, o birinin də altında bir qönçə
olsun. 36 Qönçələr və budaqlar onunla
bir hissədən ibarət olsun; hamısı eyni
hissədən, yastılanmış xalis qızıldan
olsun. 37 Onun üçün yeddi çıraq düzəlt
və çıraqları onun üstünə qoy ki, qabaq
tərəfinə işıq salsın. 38 Maşaları və
xəkəndazları da xalis qızıldan olsun.
39 Çıraqdan və onun bütün avadanlığı
bir talant xalis qızıldan düzəldilsin.
40 [k]Dağda sənə göstərilən nümunəyə
görə bunların hamısını ehtiyatla düzəlt.

Müqəddəs məskən

(Çıx. 36:8-38)

26 Müqəddəs məskəni on pərdədən
düzəlt. Pərdələri nəfis toxunmuş
incə kətandan, bənövşəyi, tünd qırmızı
və al rəngli iplikdən, üstünü isə
keruvlar şəklində naxışla düzəlt. 2 Hər
pərdənin uzunluğu iyirmi səkkiz qulac,
eni isə dörd qulac olsun. Qoy bütün
pərdələr bir ölçüdə olsun. 3 Pərdələrdən
beşi bir-birinə birləşdirilsin, digər

---

[j]**25:30** Lev. 24:5-8 [k]**25:40** Həv. 7:44; İbr. 8:5

beşi də bir-birinə birləşdirilsin. 4 Bir
birləşmənin ucunda olan pərdənin
kənarında bənövşəyi ilgəklər düzəlt, o
biri birləşmənin ucunda olan pərdənin
kənarında da eyni şəkildə ilgəklər
düzəlt. 5 Bir pərdəyə əlli ilgək, o biri
birləşmədəki pərdənin kənarında onlara
uyğun gələn əlli ilgək düzəlt. 6 Qızıldan
əlli bənd düzəlt. Bəndlərlə pərdələri
bərkit və çadırı birləşdir ki, məskən
bütöv olsun.
7 Məskəni örtən çadır üçün keçi
yunundan on bir ədəd pərdə düzəlt.
8 Hər pərdənin uzunluğu otuz qulac, eni
isə dörd qulac olsun. On bir pərdə bir
ölçüdə olsun. 9 Beş pərdəni ayrıca və altı
pərdəni ayrıca birləşdir. Altıncı pərdəni
isə çadırın qabaq tərəfindən qatla.
10 Bir birləşmənin qıraq pərdəsinin
kənarında əlli ilgək, o biri birləşmənin
qıraq pərdəsinin kənarında da əlli ilgək
düzəlt.
11 Tuncdan əlli bənd düzəlt; bəndləri
ilgəklərə tax və çadırı birləşdir ki, o
bütöv olsun. 12 Çadırın pərdələrindən
artıq qalan pərdənin yarısını məskənin
arxa tərəfindən salla. 13 Çadırın
pərdələrinin uzunluğunun hər iki
ucunda artıq qalan bir qulac parça
məskəni örtmək üçün onun hər iki
tərəfindən sallansın. 14 Çadır üçün
qırmızı boyanmış qoç dərilərindən bir
pərdə və onun üstündə suiti dərilərindən
bir pərdə düzəlt.
15 Müqəddəs məskən üçün əbrişim
ağacından dik duran çərçivələr düzəlt.
16 Hər çərçivənin uzunluğu on qulac, eni
isə qulac yarım olsun. 17 Hər çərçivənin
üstündə iki bir-birinə bağlanan zivana*
olsun; məskənin bütün çərçivələrini
belə düzəlt. 18 Məskənin cənub tərəfi
üçün iyirmi çərçivə 19 və onların altına
qoyulacaq qırx gümüş altlıq düzəlt; hər
çərçivənin altında iki zivanası üçün iki
altlıq olsun. 20 Məskənin şimal tərəfi
üçün də iyirmi çərçivə 21 və qırx gümüş
altlıq, hər çərçivənin altında iki altlıq
olsun. 22 Məskənin qərbə doğru arxası
üçün altı çərçivə düzəlt. 23 Məskənin
arxa küncləri üçün isə iki çərçivə düzəlt
ki, 24 bunlar aşağıda birləşib yuxarıda
bir halqaya taxılsın; hər iki künc üçün
elə iki çərçivə olsun. 25 Bu səkkiz çərçivə
üçün on altı gümüş altlıq, hər çərçivənin
altında iki altlıq olsun.
26 Əbrişim ağacından şüvüllər düzəlt:
məskənin hər iki tərəfindəki çərçivələri
üçün beş şüvül, 27 məskənin qərbə
doğru arxa tərəfdəki çərçivələri üçün
də beş şüvül olsun. 28 Orta şüvül
çərçivələrin ortasından bir ucdan o biri
uca qədər uzansın. 29 Çərçivələri qızılla
ört; şüvüllərin keçdiyi halqaları qızıldan
düzəlt; şüvülləri də qızılla ört. 30 Dağda
sənə göstərilən layihəyə görə müqəddəs
məskəni qur.
31 Pərdəni bənövşəyi, tünd qırmızı, al
rəngli iplikdən və nəfis toxunmuş incə
kətandan, üstünü isə keruvlar şəklində
naxışla düzəlt. 32 Onu dörd dirək
üstündə as; hər dirək qızılla örtülmüş
əbrişim ağacından olsun. Üstündə qızıl
qarmaqları olsun və dörd gümüş altlıq
üstündə dursun. 33 [l]Pərdəni bəndlərdən
as və Şəhadət sandığını oraya, pərdənin
arxasına gətir. Bu pərdə Müqəddəs
yerlə Ən Müqəddəs yeri ayırsın. 34 Ən
Müqəddəs yerdə Şəhadət sandığının
üstünə kəffarə qapağını tax. 35 Masanı
pərdənin bayır tərəfinə, çıraqdanı
masanın qarşısına – məskənin cənub
tərəfinə, masanı isə şimal tərəfinə qoy.
36 Hüzur çadırının girişi üçün
arakəsməni bənövşəyi, tünd qırmızı, al
rəngli iplikdən və nəfis toxunmuş incə
kətandan, naxış tikməsi ilə düzəlt. 37 Bu

*26:17 *Zivana* – bir şeyin iki parçasını bir-birinə bənd edən içiboş mil.

[l]26:33 İbr. 6:19; 9:3-5

arakəsmə üçün də əbrişim ağacından
beş dirək düzəlt və üstünü qızılla ört;
üstündə qızıl qarmaqlar olsun və onlar
üçün tuncdan beş altlıq tök.

Yandırma qurbanı üçün qurbangah

(Çıx. 38:1-7)

27 Qurbangahı əbrişim ağacından
düzəlt. Qoy dördbucaq şəklində
olub uzunluğu beş qulac, eni də
beş qulac, hündürlüyü isə üç qulac
olsun. 2 Qurbangahın dörd küncündən
onunla bir hissədən olan dörd buynuz
düzəlt. Qurbangahın üstünü tuncla
ört. 3 Oranın kül qablarını, kürəklərini,
ləyənlərini, çəngəllərini, xəkəndazlarını
– bütün avadanlığını tuncdan düzəlt.
4 Qurbangah üçün tuncdan torlu şəbəkə
düzəlt. Torun dörd bucağında tuncdan
dörd halqa düzəlt. 5 Onu qurbangahın
kənarından aşağıya qoy ki, şəbəkə onun
yarısına qədər yetişsin. 6 Qurbangah
üçün əbrişim ağacından şüvüllər
düzəlt və üstünü tuncla ört. 7 Şüvülləri
halqalara tax ki, onlar qurbangahı
aparan zaman onun hər iki yanında
olsun. 8 Qurbangahın içi boş və taxtadan
olsun. Dağda sənə göstərdiyim kimi onu
düzəlt.

Müqəddəs məskənin həyəti

(Çıx. 38:9-20)

9 Müqəddəs məskənin həyətini düzəlt.
Həyətin cənub tərəfində bir tərəf üçün
uzunluğu yüz qulac olan pərdələr
nəfis toxunmuş incə kətandan olsun.
10 Onların iyirmi dirəyi və iyirmi altlığı
tuncdan, dirəklərin qarmaqları və
bəndləri isə gümüşdən olsun. 11 Şimal
tərəfi üçün də uzunluğu yüz qulac pərdə
olsun; onların iyirmi dirəyi və iyirmi
altlığı tuncdan, dirəklərin qarmaqları
və bəndləri isə gümüşdən olsun. 12 Qərb
tərəfində uzunluğu həyətin eni qədər
əlli qulac pərdələr olsun. Onlar üçün
on dirək və on altlıq düzəlt. 13 Şərq
tərəfində də həyətin eni əlli qulac olsun.
14 Darvazanın bir tərəfi üçün üç dirəyi
və üç altlığı olan uzunluğu on beş qulac
pərdələr olsun. 15 O biri tərəf üçün də
üç dirəyi və üç altlığı olan uzunluğu
on beş qulac pərdələr olsun. 16 Həyətin
darvazası üçün uzunluğu iyirmi qulac
olan bənövşəyi, tünd qırmızı, al
rəngli iplikdən və nəfis toxunmuş incə
kətandan naxış tikməli arakəsmə, onun
dörd dirəyi və dörd altlığı olsun.
17 Həyətin bütün ətraf dirəkləri
gümüşlə bəndlənsin; onların gümüş
qarmaqları və tunc altlıqları olsun.
18 Həyətin uzunluğu yüz qulac və
eni hər yerdə əlli qulac olsun; nəfis
toxunmuş incə kətandan olan pərdənin
hündürlüyü isə beş qulac, altlıqları da
tuncdan olsun. 19 Müqəddəs məskənin
ibadəti üçün işlənən bütün avadanlığı,
onun bütün payaları kimi həyətin bütün
payaları da tuncdan olsun.

Kahinliyin təyin olunması

(Lev. 24:1-4)

20 Sən İsrail övladlarına əmr et ki,
işıq yandırmaq üçün sənə zeytundan
çəkilmiş xalis yağ gətirsinlər. Bu yağdan
çıraqlar daima 21 Hüzur çadırında,
Şəhadət sandığının qarşısındakı
pərdənin bayır tərəfində yansın.
Harunla oğulları onu hər axşam Rəbbin
hüzurunda yandırıb səhərə qədər
nəzarət etsinlər. Qoy bu, nəsildən-nəslə
İsrail övladları üçün əbədi qayda olsun.

Kahinlərin geyimləri

(Çıx. 39:1-7)

28 Sən isə qardaşın Harunu və
onun oğulları Nadavı, Avihunu,
Eleazarı və İtamarı İsrail övladlarının
arasından yanına gətir ki, onlar Mənə
kahinlik etsin. 2 Qardaşın Haruna
izzət və gözəllik üçün müqəddəs
geyimlər hazırla. 3 Sən də hikmət ruhu
ilə doldurduğum bütün məharətli

ustalara Harunun təqdis olunması üçün
ona geyimlərin hazırlamasını tapşır
ki, o Mənə kahinlik etsin. 4 Onların
hazırlayacağı geyimlər bunlardır:
döşlük, efod,* üst cübbə,† dama-dama
xirqə,‡ çalma və qurşaq. Bu müqəddəs
geyimləri qardaşın Haruna və oğullarına
hazırlasınlar ki, Mənə kahinlik etsinlər.
5 Qoy geyimləri hazırlayanlar qızıl,
bənövşəyi, tünd qırmızı, al rəngli iplik
və incə kətan götürsünlər.
6 Efodu qızıldan, bənövşəyi, tünd
qırmızı, al rəngli iplikdən və nəfis
toxunmuş incə kətandan naxışla
düzəltsinlər. 7 Hər iki ucunu bir-birinə
bağlayan iki çiyinlik olsun ki, o
bərkidilsin. 8 Efodun üstündəki kəmər
eyni hissədən olsun. O da qızıldan,
bənövşəyi, tünd qırmızı və al rəngli
iplik və nəfis toxunmuş incə kətandan
olsun. 9 İki ədəd damarlı əqiq daşı götür
və üstündə İsrailin oğullarının adlarını
həkk et. 10 Onların doğulma sırası ilə
bir daşın üstündə altı ad, o birisinin
üstündə qalan altı adı, 11 həkkakın işi
olan möhür oyması kimi iki daş üstündə
İsrailin oğullarının adlarını həkk et.
Bunları hörmə qızıl sağanaqlara salıb,
12 bu iki daşı efodun çiyinliklərinə
tax. Bunlar İsrailin oğullarının xatirə
daşlarıdır; Harun onların adlarını
Rəbbin önündə iki çiynində xatirə
kimi gəzdirəcək. 13 Hörmə qızıldan
sağanaqlar düzəlt, 14 xalis qızıldan iki
ipə bənzər burma zəncir düzəlt; burma
zəncirləri sağanaqlara tax.

Döşlük

(Çıx. 39:8-21)

15 Hökm döşlüyünü efod kimi naxışlı
düzəlt. Onu qızıldan, bənövşəyi,
tünd qırmızı, al rəngli iplikdən və
nəfis toxunmuş incə kətandan düzəlt.
16 Döşlük ikiqat, dördbucaq şəklində
olub uzunluğu bir qarış, eni də bir qarış
olsun. 17 Üstündəki bir çərçivəyə dörd
sıra daş tax. Birinci sıra yaqut, topaz,
zümrüd 18 ikinci sıra firuzə, göy yaqut
və almaz, 19 üçüncü sıra sirkon, əqiq
və ametist, 20 dördüncü sıra sarı yaqut,
damarlı əqiq və yəşəm daşı olsun. Bu
daşlar hörmə qızıl sağanaqlara taxılsın.
21 Daşlar İsrailin oğullarının adlarına
görə on iki dənə olsun; hər daş on iki
qəbilədən birinin adının oyma möhürü
olsun. 22 Döşlük üçün xalis qızıldan
ipəbənzər burma zəncirlər qayır.
23 Döşlük üçün iki qızıl halqa düzəlt və
onları döşlüyün iki ucuna tax. 24 İki qızıl
ipi döşlüyün uclarındakı iki halqaya
tax. 25 İplərin o biri uclarını iki hörmə
sağanağa taxıb efodun çiyinliklərinin
qabaq tərəfinə bağla. 26 Yenə də iki
qızıl halqa düzəlt və onları döşlüyün
iki ucuna, efodla yanaşı iç qatına tax.
27 Digər iki qızıl halqa düzəlt və onu
efodun çiyinliklərinin qabaq tərəfinə,
aşağıya, efodun kəməri ilə birləşmə
üzərinə bərkit. 28 Döşlük halqaları
ilə efodun halqalarına bənövşəyi
qaytanla bağlanıb efodun kəmərinin
üzərinə bərkidilsin ki, döşlük efoddan
sallanmasın.
29 Harun Müqəddəs yerə daxil olduğu
zaman Rəbbin önündə daima xatirə
olaraq İsrailin oğullarının adlarını
hökm döşlüyündə, ürəyinin üstündə
daşıyacaq. 30 Urim və Tummimi də
hökm döşlüyünə qoy ki, Rəbbin
hüzuruna daxil olduğu zaman onlar da
ürəyinin üstündə olsun. Beləcə Harun
İsrail övladlarının hökmünü Rəbbin
hüzurunda daima ürəyinin üstündə
daşıyacaq.

---

*28:4 *Efod* – kahin xalatı.
†28:4 *Cübbə* – qədim uzun xalat.
‡28:4 *Xirqə* – cübbənin altından geyilən içi pambıqlı qısa geyim.

Kahinlərin digər geyimləri

(Çıx. 39:22-31)

31 Efodun cübbəsini büsbütün
bənövşəyi iplikdən tik. 32 Ortasında
baş keçirmək üçün yer olsun. Onun
kənarında cırılmamaq üçün yaxa
toxunsun. 33 Cübbənin ətəyinin ətrafına
bənövşəyi, tünd qırmızı və al rəngli
iplikdən narlar və zınqırovlar düz:
34 cübbənin ətəyi boyunca ətrafında
qızıl zınqırov və nar sıra ilə düzülsün.
35 Qoy cübbə Harun xidmət etdiyi
zaman əynində olsun. Verdiyi səs də
onun Müqəddəs yerə – Rəbbin hüzuruna
girib-çıxdığı zaman eşidilsin ki, o
ölməsin.
36 Xalis qızıldan bir lövhəcik düzəlt
və onun üzərində möhür oyması olaraq
"Rəbbə həsr edilmiş" yazısını həkk et.
37 Onu bənövşəyi qaytanla çalmanın
üstünə – qabaq tərəfinə tik. 38 Beləcə
lövhəcik Harunun alnının üstündə
olsun. İsrail övladlarının təqdis etdikləri
bütün müqəddəs hədiyyələrin Rəbbin
qarşısında məqbul olub-olmamasının
məsuliyyətini Harun daşıyacaq. Buna
görə də qoy lövhəcik həmişə Harunun
alnında olsun.
39 Xirqəni incə kətandan dama-dama
hör. Çalmanı da incə kətandan düzəlt.
Qurşağın üzərinə naxış tikib düzəlt.
40 Harunun oğullarına izzət və
gözəllik üçün xirqələr, qurşaqlar və
papaqlar düzəlt. 41 Bunları qardaşın
Harunla oğullarına geyindirib onları
məsh et, vəzifəyə qoy və Mənə kahinlik
etmək üçün təqdis et. 42 Beldən buda
qədər lüt bədənlərini örtən kətan
alt paltarları tik. 43 Bunları Harunla
oğulları Müqəddəs yerdə xidmət etmək
üçün Hüzur çadırına daxil olanda yaxud
qurbangaha yaxınlaşanda cəza çəkib
ölməmək üçün geyəcəklər. Bu, Harunla
övladlarına əbədi qayda olsun.

Kahinliyin təqdis olunması

(Lev. 8:1-36)

29 Mənə kahinlik etmək üçün onları
bu qaydada təqdis et. Qüsursuz
bir buğa və iki qoç götür. 2 Mayasız
çörəkləri, zeytun yağı ilə yoğrulmuş
mayasız kökələri və üstünə zeytun
yağı sürtülmüş mayasız qoğalları narın
buğda unundan hazırla. 3 Onları bir
səbətin içinə qoy, buğa və iki qoçla birgə
təqdim et. 4 Sonra Harunla oğullarını
Hüzur çadırının girişinə gətir və onları
su ilə yuyundur. 5 Geyimlərini götürüb
Harunun əyninə xirqəni, efod cübbəsini,
efodu və döşlüyü geyindir və efodun
kəmərini belinə bağla. 6 Onun başına
çalmanı, çalmaya da müqəddəslik tacını
qoy. 7 Məsh yağını götürüb Harunun
başına tök və onu məsh et. 8 Sonra
oğullarını gətir və onlara xirqələr
geyindir. 9 Haruna və onun oğullarının
belinə qurşaq bağla və başlarına papaq
qoy. Əbədi qaydaya görə kahinlik
onların olsun. Beləcə Harunla oğullarını
vəzifəyə qoy.
10 Sonra Hüzur çadırının önünə
buğanı gətir. Qoy Harunla oğulları
əllərini buğanın başına qoysunlar.
11 Buğanı Rəbbin önündə, Hüzur
çadırının girişində kəs. 12 Buğanın
qanından götür və barmağınla
qurbangahın buynuzlarına çək. Qanın
qalan hissəsini isə qurbangahın altlığına
tök. 13 Heyvanın içalatını örtən bütün
piyi, qaraciyərin quyruğa bənzər
hissəsini, hər iki böyrəyini və üstündəki
piyi qurbangahda tüstülədib yandır.
14 Buğanın ətini, dərisini və bağırsağını
düşərgənin kənarında yandır. Bu, günah
qurbanıdır.
15 Bir qoç da götür; qoy Harunla
oğulları əllərini qoçun başına qoysunlar.
16 Sonra qoçu kəs, qanını götür və onu
qurbangahın hər tərəfinə səp. 17 Qoçu
parça-parça doğra, içalatını və budlarını

yuyub, tikələrinin və başının üstünə
qoy. 18 [m]Bütün qoçu qurbangahda
tüstülədib yandır. Bu, Rəbb üçün
yandırma qurbanı, Onun xoşuna gələn
ətir – yandırma təqdimidir.
19 Sən o biri qoçu da götür, Harunla
oğulları əllərini onun başına qoysunlar.
20 Sonra qoçu kəs; qanından bir
az götürüb Harunun sağ qulağının
mərcəyinə, oğullarının sağ qulaq
mərcəklərinə, onların sağ əllərinin
və sağ ayaqlarının baş barmaqlarına
çək. Qoçun qanını qurbangahın hər
tərəfinə səp. 21 Qurbangahdakı qandan
və məsh yağından götürüb Haruna və
onun geyimlərinə, oğullarına və onların
geyimlərinə çilə. Beləcə Harun və onun
geyimləri, oğulları və onların geyimləri
təqdis olunsun.
22 Sonra qoçun piyini, quyruğunu,
içalatını örtən piyi, qaraciyərinin
quyruğa bənzər hissəsini, hər iki
böyrəyini, üstündəki piyi və sağ
budunu götür. Çünki bu təqdis qoçudur.
23 Rəbbin önündə olan mayasız çörəklər
səbətindən bir yastı çörək kökəsi,
bir zeytun yağı ilə yoğrulmuş çörək
kökəsi və bir qoğal götür. 24 Bunların
hamısını Rəbbin hüzurunda yellədərək
təqdim etmək üçün Harunun və onun
oğullarının əllərinə qoy. 25 Sonra bu
şeyləri əllərindən alıb qurbangahda
yandırma qurbanı ilə tüstülədib yandır.
Bu, Rəbbin hüzurunda Onun xoşuna
gələn ətir – yandırma təqdimidir.
26 Harunun təqdis qurbanı olan qoçdan
döş ətini götürüb Rəbbin hüzurunda
yellədərək təqdim et. Bu sənin payındır.
27 Harunla oğullarının təqdis qurbanı
olan qoçdan yellədilən döş ətini
və qaldırılan budu təqdis et. 28 Bu
qaldırılan pay Harunla övladlarının
İsraillilərdən gələn əbədi pay olsun.
Bu da İsrail övladlarının ünsiyyət
qurbanlarından Rəbbə qaldırılan pay
olsun.
29 Harunun müqəddəs geyimləri
özündən sonra oğullarına qalsın ki,
onları geyərək məsh olunub vəzifəyə
qoyulsunlar. 30 Onun yerinə kahin olub
Müqəddəs yerdə xidmət etmək üçün
Hüzur çadırına daxil olan oğlu yeddi
gün o geyimləri geysin.
31 Təqdis qurbanı olan qoçun ətini
götür və müqəddəs bir yerdə qaynat.
32 Harunla oğulları o qoçun ətini və
səbətdə olan çörəyi Hüzur çadırının
girişində yesinlər. 33 Özlərini vəzifəyə
qoyub təqdis edəndə günahlarının
kəffarə olması üçün istifadə edilən
bu şeyləri onlar yesin; amma yad
adamlar bunları yeməsin, çünki bu
şeylər müqəddəsdir. 34 Əgər təqdis
qurbanının ətindən və çörəkdən səhərə
qədər qalarsa, qalığını yandır; bu şeylər
yeyilməz, çünki müqəddəsdir. 35 Mən
sənə necə əmr etmişəmsə, o cür də
Harunla oğulları üçün et.
Onların vəzifəyə keçmə vaxtını yeddi
gün davam etdir. 36 Hər gün kəffarə
üçün günah qurbanı olaraq bir buğa
gətir. Qurbangah üçün kəffarə edərək
onu pak et və təqdis etmək üçün məsh
et.
37 Yeddi gün ərzində qurbangah üçün
kəffarə edərək onu təqdis et. Sonra
qurbangah ən müqəddəs sayılacaq və
ona toxunan hər şey müqəddəs olacaq.

Gündəlik təqdimlər

(Say. 28:1-8)

38 Daimi olaraq hər gün qurbangah
üzərində birillik iki toğlu gətir.
39 Toğlunun birini səhər, digərini isə
axşamçagı təqdim et. 40 Birinci toğlu ilə
birlikdə dörddə bir hin zeytun yağı ilə
yoğrulmuş onda bir efa narın un və içmə
təqdimi olaraq dörddə bir hin şərab

---

[m]**29:18** Ef. 5:2; Fil. 4:18

gətir. 41 Axşamçağı təqdim etdiyin o biri
toğlu ilə səhərki kimi taxıl təqdimi və
içmə təqdimi gətir. Bu, Rəbbin xoşuna
gələn ətirli təqdimdir. 42 Bu sizin üçün
nəsildən-nəslə Hüzur çadırının girişində,
Rəbbin önündə daimi yandırma qurbanı
olacaq. Mən orada sizinlə görüşüb,
sənlə danışacağam. 43 Orada Mən
İsrail övladları ilə görüşəcəyəm; Hüzur
çadırı Mənim izzətimlə təqdis olunacaq.
44 Mən Hüzur çadırını və qurbangahı
təqdis edəcəyəm; Harunla oğullarını
da təqdis edəcəyəm ki, Mənə kahinlik
etsinlər. 45 İsrail övladları arasında
məskunlaşacağam və onların Allahı
olacağam. 46 Onlar da biləcəklər ki,
aralarında məskunlaşmaq üçün onları
Misir torpağından çıxaran Allahı Rəbb
Mənəm, onların Allahı Rəbb Mənəm.

Buxur yandırmaq üçün qurbangah

(Çıx. 37:25-28)

30 Əbrişim ağacından buxur
yandırmaq üçün qurbangah
düzəlt. 2 Qoy uzunluğu bir qulac eni
də bir qulac, hündürlüyü isə iki qulac
olsun, buynuzları onunla bir hissədən
olsun. 3 Onun üzərini, hər yanını və
buynuzlarını xalis qızılla ört və ətrafına
qızıl zolaq qoy. 4 Onun üçün iki qızıl
halqa düzəlt; qarşı-qarşıya olan iki
yanda, zolağın altında düzəlt. Bu onu
aparan şüvüllərin keçdiyi yerlər olsun.
5 Şüvülləri əbrişim ağacından düzəlt
və qızılla ört. 6 Bu qurbangahı Şəhadət
sandığının qarşısında olan pərdənin
önünə – Mənim sənlə görüşəcəyim
yerə, kəffarə qapağının önünə qoy.
7 Harun qurbangahda ətirli buxur
yandırsın. Həm səhər çıraqları
hazırladığı zaman, 8 həm də axşamçağı
çıraqları yandırdığı zaman onu
yandırsın. Bu sizin üçün nəsildən-nəslə
Rəbbin önündə daimi buxur təqdimidir.
9 Onun üstündə nə yad buxur, nə
yandırma qurbanı, nə də taxıl təqdimi
gətirin; içmə təqdimi də tökməyin.
10 İldə bir dəfə Harun günah üçün
kəffarə qurbanının qanını qurbangahın
buynuzlarına çəkərək qurbangah üçün
kəffarə etsin. Nəsildən-nəslə, ildən-ilə
bir dəfə belə etsin. Qurbangah Rəbb
üçün ən müqəddəsdir».

Siyahıyaalma pulu

11 Rəbb Musaya belə dedi: 12 «İsrail
övladlarını siyahıya aldığın zaman
sayılan hər bir adam öz həyatının
əvəzini Rəbbə versin ki, sayıldıqlarına
görə aralarında bəla olmasın.
13 [n]Sayılmış adamlara daxil olan hər
kəs yarım şekel gümüş versin. Bu,
iyirmi geradan ibarət olan Müqəddəs
yerdəki şekelə görə sayılsın. Bu yarım
şekel Rəbbin payıdır. 14 İyirmi və
ondan yuxarı yaşda sayılmış adamlar
arasından hər bir kişi bu payı Rəbbə
versin. 15 Həyatlarınızı kəffarə etmək
üçün Rəbbin payını verəndə varlı yarım
şekeldən çox, kasıb yarım şekeldən
əskik verməsin. 16 Bu kəffarə pulunu
İsrail övladlarından götürüb Hüzur
çadırının ibadəti üçün təyin et. Bu,
həyatlarınızı kəffarə etmək üçün Rəbbin
önündə İsrail övladlarının xatirəsi
olacaq».

Tunc ləyən

17 Rəbb Musaya belə dedi:
18 «Yuyunmaq üçün bir tunc ləyən
düzəlt. Qoy altlığı da tuncdan olsun.
Onu Hüzur çadırı ilə qurbangahın
arasına qoy, içini də su ilə doldur ki,
19 Harunla oğulları əl-ayaqlarını o su ilə
yusunlar. 20 Onlar Hüzur çadırına daxil
olduğu zaman su ilə yuyunsunlar, yoxsa
öləcəklər. Xidmət etmək və Rəbb üçün
yandırma təqdimi tüstülədib yandırmaq

---

[n]**30:13** Çıx. 38:25-26; Mat. 17:24

üçün qurbangaha yaxınlaşanda
da 21 əl-ayaqlarını yusunlar, yoxsa
öləcəklər. Bu, Harunla övladları üçün
nəsildən-nəslə əbədi qayda olsun».

Məsh üçün yağ

22 [o]Rəbb Musaya dedi: 23 «Bu gözəl
ətriyyatlardan götür: beş yüz şekel duru
mirra, onun yarısı qədər iki yüz əlli
şekel ətirli darçın, iki yüz əlli şekel ətirli
qamış 24 və beş yüz şekel Çin darçını,
hər şey Müqəddəs yerdəki şekelə görə
sayılsın; həm də bir hin zeytun yağı.
25 Bunların hamısından müqəddəs məsh
yağı hazırla; bu ətriyyatçının tərtib
etdiyi ətriyyat, müqəddəs məsh yağı
olacaq. 26 Həmin yağla bunları məsh
et: Hüzur çadırını, Şəhadət sandığını,
27 masanı və onun bütün ləvazimatını,
çıraqdanı və onun əşyalarını, buxur
qurbangahını, 28 yandırma qurbanları
üçün qurulan qurbangahı və onun
bütün avadanlığını, tunc ləyəni və onun
altlığını. 29 Beləcə bu şeyləri təqdis et ki,
ən müqəddəs olsunlar; onlara toxunan
hər şey müqəddəs olacaq. 30 Harunla
oğullarını da məsh edərək təqdis et ki,
Mənə kahinlik etsinlər.
31 İsrail övladlarına belə de: “Bu sizin
üçün nəsildən-nəslə Mənə müqəddəs
məsh yağı olacaq. 32 Bu yağ insan
bədənlərinə tökülməsin. Tərkibinə görə
ona bənzər heç nə hazırlamayın. Bu
yağ müqəddəsdir, onu müqəddəs sayın.
33 Ona bənzərini düzəldən yaxud onu
kənar şəxsin üzərinə tökən hər kəs xalqı
arasından qovulsun”».

Buxur

34 Sonra Rəbb Musaya dedi: «Bu
ətirli maddələrdən götür: balzam,
onika, ilan kölgəsi, xalis kündür; hər
şey eyni miqdarda olsun. 35 Bunların
hamısından buxur hazırla; ətriyyatçının
düzəltdiyi bu qatışıq duzlanmış, təmiz
və müqəddəs olsun. 36 Ondan bir
qədərini narın döy və Mənim səninlə
görüşəcəyim yer olan Hüzur çadırında
Şəhadət sandığının önünə qoy. Bu sizin
üçün ən müqəddəs olsun. 37 Hazırladığın
buxurun tərkibinə görə özünüz üçün
buxur hazırlamayın; bunu Rəbb üçün
müqəddəs sayın. 38 Ona bənzər olan ətir
vurmaq üçün hazırlayan hər kəs xalqın
arasından qovulsun».

Hüzur çadırı üçün ustalar

(Çıx. 35:30–36:1)

31 Rəbb Musaya dedi: 2 «Bax
Yəhuda qəbiləsindən Xur oğlu
Uri oğlu Besaleli adı ilə çağırıb, 3 onu
Allahın Ruhu ilə hikmət, dərrakə, bilik
və hər cür məharətlə doldurmuşam
ki, 4 qızıl, gümüş və tuncla işləməyi
bacarsın, 5 daş-qaş yonsun, ağac oysun,
hər cür məharət göstərə bilsin. 6 Mən
də Dan qəbiləsində olan Axisamak
oğlu Oholiavı ona köməkçi təyin
etmişəm. Hər müdrik adamın ürəyinə
hikmət qoymuşam ki, Mən sənə
necə əmr etmişəm, belə də etsinlər:
7 Hüzur çadırını, Şəhadət sandığını və
üstündəki kəffarə qapağını, çadırın
bütün avadanlığını, 8 masanı və onun
ləvazimatını, xalis qızıldan çıraqdanı
və onun bütün əşyalarını, buxur
qurbangahını, 9 yandırma qurbanları
üçün qurulan qurbangahı və onun bütün
avadanlığını, ləyəni və onun altlığını,
10 toxunmuş geyimləri – kahin Harunun
müqəddəs geyimlərini və oğullarının
kahinlik etmək üçün geyimlərini,
11 məsh yağını, Müqəddəs yer üçün
ətirli buxuru Mən sənə necə əmr
etmişəmsə, qoy o cür də düzəltsinlər».

---

[o]**30:22** Çıx. 37:29

Şənbə istirahət günü

12 Rəbb Musaya dedi: 13 «Sən İsrail
övladlarına belə söylə: “Mənim Şənbə
günlərimə riayət edin. Çünki bu
Mənimlə sizin aranızda nəsildən-nəslə
onu bilmək üçün bir əlamətdir ki, sizi
təqdis edən Rəbb Mənəm. 14 Beləliklə,
Şənbə gününə riayət edin, çünki o
sizin üçün müqəddəsdir. Onu ləkələyən
öldürülməlidir. O gün iş görən hər
kəs xalqı arasından qovulsun. 15 [p]Altı
gün iş görülsün, yeddinci gün isə Rəbb
üçün təqdis olunan Şənbə istirahət
günü olsun. O gün iş görən hər kəs
öldürülməlidir. 16 İsrail övladları
nəsildən-nəslə əbədi əhd kimi Şənbə
gününə riayət və əməl etsinlər.
17 [q]Mənimlə İsrail övladları arasında
əbədi bir əlamətdir ki, altı gün ərzində
Rəbb göyləri və yeri yaratdı, yeddinci
gün isə istirahət etdi və dincəldi”».
18 Sina dağında Allahın Musa ilə
söhbəti qurtarandan sonra Allah Öz
barmağı ilə yazılmış iki şəhadət daş
lövhəsini Musaya verdi.

Qızıl dana

(Qanun. 9:6-29)

32 [r]Xalq Musanın dağdan
enmədiyini, gecikdiyini görəndə
Harunun ətrafına toplaşıb ona dedi:
«Qalx və bizim üçün allahlar düzəlt
ki, qabağımızca getsinlər. Çünki bizi
Misir torpağından çıxaran adamın
– bu Musanın başına nə iş gəldiyini
bilmirik!» 2 Harun onlara cavab
verdi: «Arvadlarınızın, oğullarınızın,
qızlarınızın qulaqlarından qızıl sırğaları
çıxarıb mənim yanıma gətirin». 3 Bütün
xalq qulaqlarında olan qızıl sırğaları
çıxarıb Haruna gətirdi. 4 [s]Harun
onlardan qızıl götürdü, oyma aləti
ilə surət verib dana şəklində tökmə
büt düzəltdi. Xalq «Ey İsrail övladları,
budur sizi Misir torpağından çıxaran
allahlarınız!» dedi. 5 Harun bunu
gördükdə dananın qabağında bir
qurbangah düzəltdi və elan etdi: «Sabah
Rəbb naminə bayram olacaq». 6 [t]Ertəsi
gün xalq səhər tezdən qalxıb yandırma
qurbanları ilə ünsiyyət qurbanları kəsdi.
Xalq oturub yeyib-içdi, sonra isə qalxıb
oynaşdı.
7 Rəbb Musaya dedi: «Tez ol, düş
aşağı, çünki Misirdən gətirdiyin xalqın
öz əxlaqını pozdu və 8 Mən onlara əmr
etdiyim yoldan yaman tez döndü. Özləri
üçün tökmə dana düzəldib ona səcdə
qıldılar, qurban kəsdilər və dedilər:
“Ey İsrail övladları, budur sizi Misir
torpağından çıxaran allahlarınız!”»
9 Rəbb Musaya sözünü davam etdi:
«Görürəm ki, bu xalq dikbaş xalqdır.
10 Qoy Mən xalqa qarşı qəzəblənib
onu yox edim, səndən isə böyük millət
əmələ gətirim».
11 [u]Musa Allahı Rəbbə yalvarıb
dedi: «Ya Rəbb, nə üçün Öz xalqına
qarşı qəzəbin alovlansın? Sən onları
Misirdən böyük qüvvətinlə və qüdrətli
əlinlə qurtarmadınmı? 12 Axı nə üçün
Misirlilər “Onları pis niyyətlə, dağlarda
öldürüb yer üzündən yox etmək üçün
çıxartdı” desinlər? Yalvarıram, qəzəbini
yatır və Öz xalqına bəla gətirmək
niyyətindən dön. 13 [v]Qulların İbrahimi,
İshaqı, və İsraili xatırla və Özün naminə
onlara and edərək “nəslinizi göydəki
ulduzlar qədər çoxaldacağam, vəd
etdiyim bu ölkənin hamısını nəslinizə
verəcəyəm və onlar əbədilik oraya sahib
olacaqlar” dedin». 14 Beləliklə, Rəbb

---

[p] **31:15** Çıx. 20:8-11; 23:12; 34:21; 35:2; Lev. 23:3; Qanun. 5:12-14
[q] **31:17** Çıx. 20:11 [r] **32:1** Həv. 7:40 [s] **32:4** Neh. 9:18; Həv. 7:41
[t] **32:6** 1Kor. 10:7 [u] **32:11** Say. 14:13-19 [v] **32:13** Yar. 22:16-17; Yar. 17:8

Öz xalqına bəla gətirmək niyyətindən
döndü.
15 Musa əlində iki şəhadət lövhəsi
ilə dönüb dağdan endi. Lövhələrin
iki tərəfi – bu üzü də, o üzü də yazılı
idi. 16 Onlar Allahın işi idi; üzərindəki
oyma yazılar Onun yazısı idi. 17 Yeşua
xalqın səs-küyünü eşidərək Musaya
dedi: «Düşərgədən müharibə səsi gəlir».
18 Musa cavab verdi:
«Bu qələbə çalanların nidası deyil,
Məğlubiyyətə uğrayanların da səsi
deyil.
Mən nəğmə səsi eşidirəm».
19 Musa düşərgəyə yaxınlaşıb dananı
və onun ətrafındakı rəqsləri gördü.
O qəzəbləndi və lövhələri əlindən
atıb dağın ətəyində parça-parça etdi.
20 Xalqın düzəltdiyi dananı götürüb
yandırdı, toza dönənə qədər əzdi və
suyun üzünə səpələyib İsrail övladlarına
içirtdi.
21 Musa Harundan soruşdu: «Bu xalq
sənə nə etdi ki, onları belə böyük
günaha batırdın?» 22 Harun cavab
verdi: «Qoy ağam qəzəblənməsin.
Sən bu xalqı tanıyırsan. Onun niyyəti
pisdir. 23 [w]Onlar mənə dedilər: “Bizim
üçün allahlar düzəlt ki, qabağımızda
getsinlər. Çünki bizi Misir torpağından
çıxaran adamın – bu Musanın başına nə
iş gəldiyini bilmirik!” 24 Mən isə onlara
dedim: “Kimdə qızıl varsa, onu çıxarın”.
Xalq da qızılı mənə verdi. Mən onu oda
atdım və bu dana alındı».
25 Musa bildi ki, xalq nəzarətdən çıxıb.
Harun nəzarəti o qədər zəiflətmişdi
ki, düşmənlər onları lağa qoyurdular.
26 Musa düşərgənin girişində durub
çağırdı: «Rəbbin tərəfində olanlar,
mənim yanıma gəlin!» Bütün Levi
övladları onun yanına toplaşdı. 27 Musa
onlara dedi: «İsrailin Allahı Rəbb belə
deyir: “Qoy hər biriniz qılıncını belinə
qurşasın. Hər kəs düşərgədə qapı-qapı
gəzərək öz qardaşını, dostunu və
qonşusunu öldürsün”». 28 Levililər də
Musa onlara etdiyi əmrə əməl etdilər.
O gün üç minə yaxın adam həlak oldu.
29 Musa Levililərə dedi: «Bu gün sizin
hər biriniz oğlunun və qardaşının canı
bahasına xeyir-dua alıb Rəbb üçün
vəzifəyə təyin olundunuz».
30 Ertəsi gün Musa xalqa dedi: «Siz
böyük günaha batdınız. İndi isə Mən
Rəbbin hüzuruna qalxacağam ki, bəlkə
günahınızı kəffarə edə bilim». 31 Musa
Rəbbin hüzuruna qayıdıb dedi: «Ah, bu
xalq böyük günaha batıb, özünə qızıldan
allahlar düzəltdi; 32 [x]İndi yalvarıram,
onların günahlarını bağışla. Əgər belə
etməsən, adımı yazdığın kitabdan sil».
33 Rəbb Musaya dedi: «Mənə qarşı kim
günah işlədibsə, onun adını kitabımdan
siləcəyəm. 34 Lakin indi get, xalqı sənə
dediyim yerə apar. Budur, Mələyim
sənin qarşında gedəcək. Ancaq cəza
günü gələndə onlara günahlarına görə
cəza verəcəyəm».
35 Rəbb Harunun düzəltdiyi danaya
və gördükləri işə görə İsrail xalqını
bəlaya saldı.

Sinadan ayrılmağa hazırlıq

33 [y]Rəbb Musaya dedi: «Sən və
Misir torpağından çıxardığın
xalq bu yeri tərk edin; İbrahimə,
İshaqa və Yaquba and edərək “Sənin
nəslinə onu verəcəyəm” dediyim
torpağa, 2 qarşında bir mələk göndərib
Kənanlıları, Emorluları, Xetliləri,
Perizliləri, Xivliləri və Yevusluları
oradan qovacağım 3 süd və bal axan
torpağa gedin. Siz dikbaş xalqsınız,
buna görə Mən aranızda getməyəcəyəm,
yoxsa yolda sizi məhv edərəm». 4 Xalq
bu bəd xəbəri eşidəndə yas tutdu. Heç
kəs bəzək taxmadı.

---

[w] **32:23** Həv. 7:40 [x] **32:32** Zəb. 69:28; Vəhy 3:5 [y] **33:1** Yar. 12:7; 26:3; 28:13

5 Rəbb Musaya demişdi: «İsrail
övladlarına belə söylə: “Siz dikbaş
xalqsınız, Mən aranızdan bir anlıq
getsəydim, sizi məhv edərdim. İndi
isə bəzəklərinizi çıxarın, Mən də bilim
ki, sizinlə nə edəcəyəm”». 6 Beləcə
Xorev dağının ətəyində İsrail övladları
bəzəklərini soyundular.

Musanın Hüzur çadırı

7 Musa çadırı götürüb onu düşərgədən
kənarda – uzaqda qurardı. Onu Hüzur
çadırı adlandırdı. Rəblə məsləhətləşən
hər kəs düşərgədən kənardakı Hüzur
çadırına gedərdi. 8 Musa çadıra tərəf
çıxdığı vaxt bütün xalq durardı. Hər
kəs çadırının girişində gözləyib, Musa
çadıra girənə qədər ardınca baxardı.
9 Musa Hüzur çadırına girəndə bulud
dirəyi düşüb çadırın girişində durardı;
Rəbb Musa ilə danışardı. 10 Bütün
xalq Hüzur çadırının girişində duran
bulud dirəyini görər, hamı qalxıb öz
çadırının girişində səcdə qılardı. 11 Rəbb
Musa ilə üz-üzə, dostu ilə söhbət etdiyi
kimi danışardı. Sonra Musa düşərgəyə
qayıdardı. Lakin onun gənc köməkçisi
Nun oğlu Yeşua çadırı tərk etməzdi.
12 Musa Rəbbə dedi: «Bax Sən mənə
“bu xalqı çıxart” deyirsən, amma
mənimlə birgə kimi göndərəcəyini
mənə bildirmirsən. Halbuki Sən dedin:
“Səni adınla tanıyıram və gözümdə
lütf tapmısan”. 13 Əgər mən, doğrudan
da, Sənin gözündə lütf tapmışamsa,
yalvarıram, Öz yolunu mənə agah elə
ki, Səni tanıyım və gözündə lütf tapım.
Bax bu camaat Sənin xalqındır». 14 O isə
Musaya cavab verdi: «Mənim hüzurum
sənin lə gedəcək. Özüm sənə rahatlıq
verəcəyəm». 15 Musa Rəbbə cavab verdi:
«Əgər Sənin hüzurun bizimlə getməsə,
bizi buradan göndərmə. 16 Xalqımın
mənimlə birlikdə Sənin gözündə lütf
tapması indi nə ilə bilinəcək? Sənin
bizimlə getməyindən deyilmi? Biz yer
üzündə olan digər xalqlardan nə ilə
fərqlənək?»
17 Rəbb Musaya cavab verdi: «Sən
Məndən dilədiyin bu şeyi edəcəyəm.
Çünki gözümdə lütf tapdın və səni
adınla tanıyıram». 18 Musa dedi:
«İzzətini mənə göstər». 19 [z]Rəbb dedi:
«Mən bütün xeyirxahlığımı Sənin
qarşından keçirəcəyəm və Rəbb olan
adımı qarşında bəyan edəcəyəm. Kimə
istəsəm, lütf göstərərəm, kimə istəsəm,
rəhm edərəm». 20 Sonra O davam etdi:
«Üzümü isə görə bilməzsən, çünki Məni
görən adam sağ qalmaz». 21 Sonra Rəbb
dedi: «Budur, Mənim yanımda yer var,
elə burada, bu qayanın üstündə dur.
22 İzzətim keçəndə səni qayadakı bir
yarığa qoyacağam; Mən keçənə qədər
səni əlimlə örtəcəyəm. 23 Sonra əlimi
səndən çəkəcəyəm və sən Məni arxadan
görəcəksən, üzüm isə görünməyəcək».

Yeni daş lövhələri

(Qanun. 10:1-5)

34 Rəbb Musaya dedi: «Əvvəlki
kimi özün üçün iki daş lövhə
yon; qırdığın əvvəlki lövhələrdə
yazılan sözləri yeni lövhələrin üstündə
yazacağam. 2 Səhərə hazır ol və Sina
dağına çıx. Dağın zirvəsi üstündə
önümdə dur. 3 Qoy heç kəs sənin lə
çıxmasın və dağda heç bir adam
görünməsin. Dağın ətəyində nə
qoyun-keçi, nə də mal-qara otlasın».
4 Rəbb ona buyurduğu kimi Musa
əvvəlkilərə bənzər iki daş lövhə yondu
və səhər erkən durub, əlində iki daş
lövhə tutaraq Sina dağına çıxdı. 5 Rəbb
buludun içindən enib orada Musa ilə
durdu və Rəbb olan Öz adını bəyan

---

[z] **33:19** Rom. 9:15

edib 6 [a]Musanın qarşısından keçərək
dedi: «Rəbb Mənəm, rəhmli və lütfkar
Rəbb Allaham. Mən hədsiz səbirli, bol
məhəbbətli və sədaqətliyəm, 7 minlərlə
nəslinə məhəbbətimi göstərərəm,
cəzanı, qanunsuzluğu və günahı
bağışlayaram; lakin cəzasız qoymaram,
ataların cəzasını üçüncü-dördüncü nəslə
qədər nəvə-nəticələrinə verərəm».
8 Musa dərhal yerə sərilib Rəbbə
səcdə qıldı. 9 Sonra Musa dedi:
«Ey Xudavənd, əgər gözündə lütf
tapmışamsa, yalvarıram, Sən, ey
Xudavənd, aramızda ol. Biz dikbaş bir
xalq olsaq da, təqsirimizlə günahımızı
bağışla və bizə sahib ol».

Əhdin təzələnməsi

(Çıx. 23:14-19; Qanun. 7:1-5; 16:1-7)

10 Rəbb Musaya dedi: «Budur, Mən
sənin bütün xalqınla əhd kəsirəm.
Hamının qarşısında elə möcüzələr
edəcəyəm ki, beləsi dünyada heç yerdə,
heç bir millət arasında yaranmamışdı.
Sizin ətrafınızdakı bütün xalqlar
görəcəklər ki, Rəbbin işi, Mənim
sənin üçün etdiyim şeylər qorxuncdur.
11 Mənim sizə bu gün verdiyim əmrə
riayət edin. Budur, Mən önünüzdən
Emorluları, Kənanlıları, Xetliləri,
Perizliləri, Xivliləri və Yevusluları
qovuram. 12 Özünüzü girdiyiniz
torpağın sakinləri ilə əhd kəsməkdən
gözləyin ki, o sizə bir tələ olmasın.
13 [b]Onların qurbangahlarını dağıdın,
daş sütunlarını sındırın, ilahə Aşera
bütlərini kəsin. 14 Başqa allahlara səcdə
etməyin, çünki Rəbbin adı qısqancdır,
O, həqiqətən, qısqanc Allahdır. 15 Ona
görə də nə o torpağın sakinləri ilə əhd
kəsin, nə də öz allahları ilə xəyanət
edib, onlara qurban kəsən vaxt sizi də
dəvət edəndə qurbanlarından dadın.
16 Onların qızlarını öz oğullarınıza arvad
olaraq almayın ki, onlar öz allahları
ilə xəyanət edib sizin oğullarınıza da o
allahlara xəyanət etdirməsinlər.
17 [c]Özünüz üçün tökmə allahlar
düzəltməyin.
18 [d]Mayasız Çörək bayramını qeyd
edin. Mən sizə əmr etdiyim kimi Aviv
ayında təyin olunan vaxtı yeddi gün
mayasız çörək yeyin, çünki Aviv ayında
Misirdən çıxdınız.
19 [e]Bütün ilk doğulan oğlanlar
və bütün heyvanlarınızın,
istər mal-qaranızın, istərsə də
qoyun-keçinizin ilk doğulan balaları
Mənimdir. 20 [f]İlk doğulan eşşək balası
əvəzinə bir qoyun-keçi balası verin.
Əgər əvəzini verməsəniz, boynunu
sındırın. Aranızda hər adamın ilk
oğlunun əvəzini ödəyin. Heç kəs önümə
əliboş gəlməsin.
21 [g]Altı gün işlərinizi görün, yeddinci
gün isə istirahət edin. Şum və biçin
vaxtı da belə istirahət edin.
22 [h]Buğda biçinin nübarı ilə Həftələr
bayramını qeyd edin. İlin sonunda isə
Yığım bayramını qeyd edin.
23 İldə üç dəfə sizin bütün kişiləriniz
Sahibləri İsrailin Allahı Rəbbin
hüzuruna gəlsinlər. 24 Çünki Mən
sizin qarşınızdan millətləri qovub
sərhədlərinizi elə genişləndirəcəyəm
ki, siz ildə üç dəfə öz Allahınız Rəbbin
hüzurunda görünmək üçün gələndə heç
kəs sizin torpağınıza tamah salmasın.

---

[a]**34:6** Say. 14:18; Neh. 9:17; Zəb. 86:15; 103:8; 145:8; Yoel 2:13; Yun. 4:2; Çıx. 20:5-6; Say. 14:18; Qanun. 5:9-10; 7:9-10 [b]**34:13** Qanun. 16:21
[c]**34:17** Çıx. 20:4; Lev. 19:4; Qanun. 5:8; 27:15
[d]**34:18** Çıx. 12:14-20; Lev. 23:6-8; Say. 28:16-25
[e]**34:19** Çıx. 13:2 [f]**34:20** Çıx. 13:13 [g]**34:21** Çıx. 20:9-10; 23:12; 31:15; 35:2; Lev. 23:3; Qanun. 5:13-14 [h]**34:22** Lev. 23:15-21; Say. 28:26-31; Lev. 23:39-43

25 [i]Mənə gətirilən qurbanın qanını
mayalı çörəklə təqdim etməyin. Pasxa
bayramının qurban əti səhərə qədər
qalmasın.
26 [j]Torpağın nübarının ilk hissəsini
Allahınız Rəbbin məbədinə gətirin.
Oğlağı anasının südündə bişirməyin».
27 Rəbb Musaya dedi: «Bu sözləri yaz,
çünki bu sözlərə görə Mən sənlə və
bütün İsraillə əhd kəsirəm». 28 Beləliklə,
Musa Rəblə qırx gün-qırx gecə qaldı. Bu
müddət ərzində Musa heç nə yemədi,
heç nə içmədi. O, lövhələrin üstündə
əhdin sözlərini, On Əmri yazdı.

Musanın üzü nur saçır

29 [k]Musa əlində iki şəhadət lövhəsi
tutub Sina dağından enəndə bilmirdi
ki, Rəblə danışdığına görə üzü nur
saçır. 30 Harun və bütün İsrail övladları
Musanın üzünü nur saçan gördülər
və ona yaxınlaşmaqdan qorxdular.
31 Musa onları çağıranda Harunla
bütün icma başçıları ona yaxınlaşdı
və Musa onlarla söhbət etdi. 32 Sonra
bütün İsrail övladları ona yaxınlaşdı.
Musa Rəbbin Sina dağında ona nəql
etdiyi bütün işləri onlara əmr etdi.
33 Musa söhbəti bitirəndə üzünə bir
niqab çəkdi. 34 Musa Rəbbin hüzuruna
Onunla danışmaq üçün gedəndə niqabı
çıxarar və çıxanadək niqabsız olardı.
Çıxanda ona nə əmr olunduğunu
İsrail övladlarına nəql edirdi. 35 İsrail
övladları isə Musanın üzünün nur
saçdığını görərdilər. Sonra Musa içəri
girib Rəblə danışana qədər yenə də
niqabı üzünə çəkərdi.

Şənbə günü üçün qanun

35 Musa İsrail övladlarının bütün
icmasını toplayıb onlara dedi:
«Rəbb sizə bu şeylərə əməl etməyi əmr
etdi. 2 [l]Altı gün işlərinizi görün, yeddinci
gün isə sizin Rəbb üçün müqəddəs
Şənbəniz, istirahət gününüzdür. O gün
iş görən hər kəs öldürülsün. 3 Şənbə
günü yaşadığınız heç bir yerdə od
yandırmayın».

Müqəddəs məskən üçün ianələr

(Çıx. 25:1-9)

4 Musa bütün İsrail övladlarının
icmasına dedi: «Rəbbin əmr etdiyi iş
budur: 5 öz aranızdan Rəbbə bir ianə
toplayın. Qoy könlü istəyən hər kəs
Rəbbə belə ianə gətirsin: qızıl, gümüş,
tunc, 6 bənövşəyi, tünd qırmızı və al
rəngli iplik, incə kətan, keçi yunu,
7 qırmızı boyanmış qoç dəriləri, suiti
dəriləri, əbrişim ağacı, 8 çıraq üçün
zeytun yağı, məsh yağı və ətirli buxur
üçün ətriyyatlar, 9 efodla döşlüyün
üstünə taxılan damarlı əqiq və sağanaq
daşları.
10 Aranızdakı ürəyi hikmətlə dolu
hər adam gəlib Rəbbin əmr etdiyi
hər şeyi düzəltsin: 11 müqəddəs
məskəni, onun çadırını, örtüyünü,
bəndlərini, çərçivələrini, şüvüllərini,
dirəklərini və altlıqlarını; 12 sandığı
və onun şüvüllərini; kəffarə qapağını,
arakəsmə pərdəsini; 13 masanı, onun
şüvüllərini və bütün ləvazimatını; təqdis
çörəklərini; 14 işıq verən çıraqdanı, onun
ləvazimatını, çıraqlarını və işıq yağını;
15 buxur qurbangahını və şüvüllərini;
məsh yağını, ətirli buxuru; məskənin
girişi üçün arakəsməni; 16 yandırma
qurbanları üçün qurulan qurbangahı,
onun üçün tunc şəbəkəni, şüvüllərini
və bütün avadanlığını; ləyəni və
onun altlığını; 17 həyətin pərdələrini,
dirəklərini və altlıqlarını; həyətin

---

[i]**34:25** Çıx. 12:10 [j]**34:26** Qanun. 26:2; Qanun. 24:21
[k]**34:29** 2Kor. 3:7-16
[l]**35:2** Çıx. 20:8-11; 23:12; 31:15; 34:21; Lev. 23:3; Qanun. 5:12-14

darvazası üçün arakəsməni; 18 məskənin
payalarını; həyətin payalarını; onların
iplərini; 19 müqəddəs yerdə xidmət üçün
toxunmuş geyimləri: kahin Harunun
müqəddəs geyimlərini və oğullarının
kahinlik etmək üçün geyimlərini».
20 İsrail övladlarının bütün icması
Musanın yanından çıxdı. 21 Ürəyinə
toxunan və könlü istəyən hər adam
gəlib Hüzur çadırı, onun inşası və
müqəddəs geyimlər üçün Rəbbə ianə
gətirdi. 22 Kişilər və qadınlar – könlü
istəyənlərin hamısı bəzəkli sancaqlar,
sırğalar, üzüklər, bilərziklər kimi bütün
qızıl əşyalarını gətirdilər. Hər kəs qızılı
yellətmə təqdimi kimi Rəbbə təqdim
etdi. 23 Kimdə bənövşəyi, tünd qırmızı
və al rəngli iplik, incə kətan, keçi yunu,
qırmızı boyanmış qoç dəriləri və suiti
dəriləri var idisə, bunları təqdim etdi.
24 Gümüş və tunc gətirən hər kəs də onu
Rəbbə ianə olaraq təqdim etdi. Kimdə
əbrişim ağacı var idisə, onu bütün inşa
işi üçün təqdim etdi. 25 Ürəyi hikmətlə
dolu bütün qadınlar öz əlləri ilə əyirdiyi
bənövşəyi, tünd qırmızı və al rəngli iplik
və incə kətan ipliyi təqdim etdilər; 26 bu
işi ürəkdən görmək istəyən bacarıqlı
qadınlar keçi yunu əyirdilər. 27 Xalqın
başçıları bunları təqdim etdilər: efodla
döşlüyün üstünə taxılan damarlı əqiq və
sağanaq daşlarını, 28 çıraq, məsh yağı,
ətirli buxur üçün ətriyyatı və zeytun
yağını. 29 İsrail övladlarından hər kişi,
hər qadın Rəbbin Musa vasitəsilə yerinə
yetirmək üçün verdiyi əmrə əsasən
Rəbbə könüllü təqdimlər gətirdilər.

Müqəddəs məskən üçün ustalar

(Çıx. 31:1-11)

30 Musa İsrail övladlarına dedi: «Baxın
Rəbb Yəhuda qəbiləsindən Xur oğlu Uri
oğlu Besaleli adı ilə çağırıb 31 Allahın
Ruhu ilə hikmət, dərrakə, bilik və
hər cür məharətlə doldurmuşdur ki,
32 o, qızılla, gümüşlə, tuncla işləməyi
bacarsın, 33 daş-qaş yonsun, ağac oysun,
hər cür məharətlə bacarıq göstərə bilsin.
34 Rəbb onun və Dan qəbiləsindən olan
Axisamak oğlu Oholiavın ürəklərinə
başqalarını öyrətmək bacarığını
qoymuş, 35 ürəklərini hikmətlə
doldurmuşdur ki, oymaçılıq, naxışçılıq,
bənövşəyi, tünd qırmızı və al rəngli
iplikdə və incə kətanda naxış tikməsi,
toxuculuq – hər cür sənəti bacara
bilsinlər.

36 Besalel, Oholiav və bütün
ürəkləri hikmətlə dolu, Rəbbin
onlara bu işi bacarmaq üçün hikmət və
dərrakə verdiyi adamlar Rəbbin etdiyi
hər şeyə görə müqəddəs yerin inşa işini
görsünlər».
2 Musa Besaleli, Oholiavı və bütün
ürəkləri hikmətlə dolu – Rəbbin onların
ürəklərinə hikmət qoyduğu adamları,
bu işi ürəkdən görmək istəyənlərin
hamısını çağırdı. 3 Onlar müqəddəs
yerin inşa işini görmək üçün İsrail
övladlarının gətirdiyi bütün ianələri
Musanın yanından götürdülər. İsrail
övladları hər səhər könüllü təqdimlər
gətirməyə davam edirdilər. 4 Onda
müqəddəs yerin inşası ilə məşğul olan
hikmətli sənətkarlar hər işlərindən
ayrılaraq 5 Musanın yanına gəlib
dedilər: «Xalq Rəbbin əmr etdiyi inşa
işi üçün lazım olandan çox şey gətirir».
6 Musa əmr verdi və düşərgədə elan
etdirdi ki, nə kişi, nə də qadın müqəddəs
yer üçün daha ianə gətirməsin. Beləcə
xalq bir daha ianə gətirmədi. 7 Çünki
bütün işi görmək üçün xammal lazımi
miqdardan artıq idi.

Müqəddəs məskənin düzəldilməsi

(Çıx. 26:1-37)

8 İşi görmək üçün ürəkləri hikmətlə
dolu bütün adamlar müqəddəs məskəni
on pərdədən düzəltdilər. Pərdələri nəfis
toxunmuş incə kətandan bənövşəyi,
tünd qırmızı və al rəngli iplikdən,

üstünü isə keruvlar şəklində naxışla
düzəltdilər. 9 Hər pərdənin uzunluğu
iyirmi səkkiz qulac, eni isə dörd
qulac idi. Bütün pərdələr eyni ölçüdə
idi. 10 Pərdənin beşini də bir-birinə
birləşdirdilər. Digər beşini də bir-birinə
birləşdirdilər. 11 Bir birləşmənin qıraq
pərdəsinin kənarında bənövşəyi ilgəklər
düzəltdilər; o biri birləşmənin qıraq
pərdəsinin kənarında da eyni şəkildə
ilgəklər düzəltdilər. 12 Bir pərdəyə əlli
ilgək, o biri birləşmədəki pərdənin
kənarında da onlara uyğun gələn
əlli ilgək düzəltdilər. 13 Qızıldan əlli
bənd düzəltdilər. Bəndlərlə pərdələri
bərkitdilər və çadırı birləşdirdilər.
Beləliklə, müqəddəs məskən bütöv oldu.
14 Məskəni örtən çadır üçün keçi
yunundan on bir ədəd pərdə düzəltdilər.
15 Hər pərdənin uzunluğu otuz qulac,
eni isə dörd qulac idi. On bir pərdə
bir ölçüdə idi. 16 Beş pərdəni ayrıca,
altı pərdəni də ayrıca bitişdirdilər.
17 Bir birləşmənin qıraq pərdəsinin
kənarındakı kimi o biri birləşmənin
qıraq pərdəsinin kənarında da əlli
ilgək düzəltdilər. 18 Çadırı birləşdirib
bütöv etmək üçün tuncdan əlli bənd
düzəltdilər. 19 Çadır üçün qırmızı
boyanmış qoç dərilərindən bir pərdə
və onun üstündə suiti dərilərindən bir
pərdə düzəltdilər.
20 Müqəddəs məskən üçün əbrişim
ağacından dik duran çərçivələr
düzəltdilər. 21 Hər çərçivənin uzunluğu
on qulac, eni isə qulac yarım idi.
22 Hər çərçivənin üstündə iki bir-birinə
bağlanan zivana var idi; məskənin
bütün çərçivələrini belə düzəltdilər.
23 Məskənin cənub tərəfi üçün iyirmi
çərçivə düzəltdilər. 24 Onların altına
qoyulmaq üçün hər çərçivənin altındakı
iki zivana üçün iki altlıq düzəltdilər;
beləcə qırx gümüş altlıq düzəldildi.
25 Məskənin şimal tərəfi üçün də
iyirmi çərçivə düzəltdilər. 26 Hər
çərçivənin altında iki altlıq olmaqla qırx
gümüş altlıq düzəltdilər. 27 Məskənin
qərbə doğru arxası üçün altı çərçivə
düzəltdilər. 28 Məskənin arxa küncləri
üçün isə iki çərçivə düzəltdilər; 29 bunlar
aşağıda birləşib yuxarıda bir halqaya
taxıldı; hər iki künc üçün o cür iki
çərçivə düzəltdilər. 30 Bu səkkiz çərçivə
üçün on altı gümüş altlıq, hər çərçivənin
altında iki altlıq düzəldildi.
31 Əbrişim ağacından şüvüllər
düzəltdilər: məskənin hər iki tərəfdəki
çərçivələri üçün beş şüvül, 32 məskənin
qərbə doğru arxa çərçivələri üçün də
beş şüvül düzəldildi. 33 Çərçivələrin
ortasında bir ucdan o biri uca
qədər uzanan orta şüvül düzəltdilər.
34 Çərçivələri qızılla örtdülər; şüvüllərin
keçdiyi halqaları qızıldan düzəltdilər;
şüvülləri də qızılla örtdülər.
35 Pərdəni bənövşəyi, tünd qırmızı,
al rəngli iplikdən və nəfis toxunmuş
incə kətandan, üstünü isə keruvlar
şəklində naxışla düzəltdilər. 36 Onun
üçün əbrişim ağacından dörd dirək
düzəltdilər və onları qızılla örtdülər,
üstündə qızıl qarmaqları qoydular;
onlar üçün dörd gümüş altlıq tökdülər.
37 Çadırın girişi üçün arakəsməni
bənövşəyi, tünd qırmızı və al rəngli
iplikdən və nəfis toxunmuş incə
kətandan naxış tikməsi ilə düzəltdilər.
38 Onun beş dirək və qarmaqlarını da
düzəltdilər. Yuxarılarını və bəndlərini
qızılla örtdülər; beş altlığı isə tuncdan
düzəltdilər.

Əhd sandığının düzəldilməsi

(Çıx. 25:10-22)

37 Besalel əbrişim ağacından sandıq
düzəltdi. Sandığın uzunluğu
iki qulac yarım, eni qulac yarım və
hündürlüyü qulac yarım idi. 2 Onu
içəridən və bayırdan xalis qızılla örtdü,
ətrafına isə qızıl zolaq qoydu. 3 Onun
dörd ayağı üçün dörd tökmə qızıl

halqa, iki halqanı bir yanı, qalan iki
halqanı isə o biri yanı üçün düzəltdi.
4 Əbrişim ağacından şüvüllər düzəldib
üzərini qızılla örtdü. 5 Sandığı daşımaq
üçün şüvülləri sandığın yanlarındakı
halqalara keçirtdi.
6 Xalis qızıldan kəffarə qapağını
düzəltdi. Uzunluğu iki qulac yarım, eni
isə qulac yarım idi. 7 Kəffarə qapağının
hər iki ucu üçün yastılanmış qızıldan
iki keruv düzəltdi. 8 Bir keruv qapağın
bir ucunda, o birisi isə o biri ucunda
olaraq qapağın iki ucunda olan keruvlar
onunla bir hissədən idi. 9 Keruvlar
yuxarıya açılmış qanadları ilə kəffarə
qapağını örtdülər. Keruvların üzləri
bir-birinə qarşı qapağa doğru idi.

Təqdis çörəkləri üçün masanın düzəldilməsi

(Çıx. 25:23-30)

10 Əbrişim ağacından masa düzəltdi;
uzunluğu iki qulac, eni bir qulac,
hündürlüyü isə qulac yarım idi. 11 Onu
xalis qızılla örtdü. Ətrafına qızıl zolaq
qoydu. 12 Ətrafında eni bir ovuc olan
yan lövhələr düzəltdi. Yan lövhələrin
ətrafına da qızıl zolaq qoydu. 13 Masa
üçün dörd qızıl halqa tökdü, halqaları
onun dörd küncünə, dörd ayağına
bərkitdi. 14 Halqalar yan lövhələrə yaxın
olaraq masanı aparan şüvüllərin keçdiyi
yerlər idi. 15 Masanı aparmaq üçün
şüvülləri əbrişim ağacından düzəltdi
və onları qızılla örtdü. 16 Masanın
ləvazimatını – xalis qızıldan siniləri
və nimçələri, piyalələri və içmə
təqdimlərini tökmək üçün dolçaları
düzəltdi.

Qızıl çıraqdanın düzəldilməsi

(Çıx. 25:31-40)

17 Xalis qızıldan bir çıraqdan düzəltdi.
Bu çıraqdan yastılanmış qızıldan idi;
altlığı, gövdəsi, kasacıqları, qönçələri və
gülləri onunla bir hissədən ibarət idi.
18 Çıraqdanın yanlarından altı budaq –
bir yanından üç budaq, o biri yanından
da üç budaq çıxdı. 19 Hər bir budağında
badam çiçəyinə bənzər üç kasacıq,
qönçə və gül var idi. 20 Çıraqdanın
gövdəsində isə badam çiçəyinə bənzər
dörd kasacıq, qönçə və gül var idi.
21 Çıraqdanın gövdəsindən çıxan altı
budağın bir cütünün altında bir qönçə, o
biri cütünün altında bir qönçə, o birinin
də altında bir qönçə var idi. 22 Qönçələr
və budaqlar onunla bir hissədən idi;
hamısı eyni hissədən, yastılanmış xalis
qızıldan idi. 23 Onun üçün yeddi çıraq
düzəltdi. Maşaları və xəkəndazları da
xalis qızıldan idi. 24 Çıraqdanı və onun
bütün avadanlığını bir talant xalis
qızıldan düzəltdi.

Buxur yandırmaq üçün qurbangahın düzəldilməsi

(Çıx. 30:1-5; 30:22-38)

25 Əbrişim ağacından buxur
yandırmaq üçün qurbangah düzəltdi;
uzunluğu bir qulac, eni də bir qulac,
hündürlüyü isə iki qulac idi. Buynuzları
onunla bir hissədən idi. 26 Onun
üzərini, hər yanını və buynuzlarını
xalis qızılla örtdü, ətrafına qızıl zolaq
qoydu. 27 Onun üçün iki qızıl halqa
düzəltdi; qarşı-qarşıya olan iki yanda,
zolağın altında düzəltdi. Bu onu aparan
şüvüllərin keçdiyi yerlər idi. 28 Şüvülləri
əbrişim ağacından düzəltdi və onları
qızılla örtdü.
29 [m]Ətriyyatçının işi olan Müqəddəs
məsh yağını və təmiz ətirli buxuru da
hazırladı.

---

[m]**37:29** Çıx. 30:22-38

Yandırma qurbanı üçün qurbangahın qurulması

(Çıx. 27:1-8)

38 Yandırma qurbanı üçün qurulan
qurbangahı əbrişim ağacından
düzəltdi. Dördbucaq şəklində olub
uzunluğu beş qulac, eni də beş
qulac, hündürlüyü isə üç qulac idi.
2 Qurbangahın dörd küncündə onunla
bir hissədən olan dörd buynuz düzəltdi.
Qurbangahın üstünü tuncla örtdü.
3 Qurbangahın bütün avadanlığını – kül
qablarını, kürəkləri, ləyənləri, çəngəlləri
və xəkəndazları – hər şeyi tuncdan
düzəltdi. 4 Qurbangah üçün kənarından
aşağıya onun yarısına qədər yetişəcək
torlu şəbəkəni tuncdan düzəltdi. 5 Tunc
şəbəkənin dörd bucağında şüvüllərin
keçdiyi dörd halqanı tökdü. 6 Əbrişim
ağacından şüvüllər düzəldib üstünü
tuncla örtdü. 7 Qurbangahı aparmaq
üçün şüvülləri onun hər iki yanındakı
halqalara taxdı. Qurbangahın içi boş və
taxtadan idi.

Tunc ləyənin düzəldilməsi

(Çıx. 30:18)

8 Tunc ləyəni və onun tunc altlığını
Hüzur çadırının girişində xidmət edən
qadınların güzgülərindən düzəltdi.

Müqəddəs məskənin həyətinin düzəldilməsi

(Çıx. 27:9-19)

9 Müqəddəs məskənin həyətini
düzəltdi. Həyətin cənub tərəfində
uzunluğu yüz qulac olan pərdələr
nəfis toxunmuş incə kətandan idi.
10 Onların iyirmi dirəyi və iyirmi altlığı
tuncdan, dirəklərin qarmaqları və
bəndləri isə gümüşdən idi. 11 Şimal
tərəfində də uzunluğu yüz qulac pərdə
idi; onların iyirmi dirəyi və iyirmi
altlığı tuncdan, dirəklərin qarmaqları
və bəndləri isə gümüşdən idi. 12 Qərb
tərəfində uzunluğu əlli qulac pərdələr
idi. Onların on dirəyi və on altlığı var
idi. Dirəklərin qarmaqları və bəndləri
isə gümüşdən idi. 13 Şərq tərəfində də
həyətin eni əlli qulac idi. 14 Darvazanın
bir tərəfində üç dirəyi və üç altlığı
olan uzunluğu on beş qulac pərdələr
var idi. 15 Həyətin darvazasının o biri
tərəfində də üç dirəyi və üç altlığı olan
uzunluğu on beş qulac pərdələr var idi.
16 Həyətin bütün ətraf pərdələri nəfis
toxunmuş incə kətandan, 17 dirəklərin
altlıqları tuncdan, dirəklərin qarmaqları
və bəndləri gümüşdən, başlıqların
örtüyü də gümüşdən idi; həyətin
bütün dirəkləri gümüşlə bəndləndi.
18 Həyətin darvazasının naxış tikməli
arakəsməsi bənövşəyi, tünd qırmızı, al
rəngli iplikdən və nəfis toxunmuş incə
kətandan idi; uzunluğu iyirmi qulac,
hündürlüyü isə həyətin pərdələri kimi
beş qulac idi. 19 Onun dörd dirəyi,
dörd tunc altlığı, gümüş qarmaqları,
başlıqlarının gümüş örtüyü və bəndləri
var idi. 20 Məskənin və həyətin bütün
ətraf payaları tuncdan idi.

Hüzur çadırı üçün işlənən xammal

21 Musanın əmri ilə kahin Harunun
oğlu İtamarın başçılığı ilə Levililərin
xidmət göstərib apardığı məkanın –
Şəhadət məskəninin hesabatı budur.
22 Yəhuda qəbiləsindən Xur oğlu Uri
oğlu Besalel Rəbbin Musaya əmr etdiyi
hər şeyi düzəltdi. 23 Onunla çalışan
Dan qəbiləsindən olan Axisamak
oğlu Oholiav oymaçılıq, naxışçılıq,
bənövşəyi, tünd qırmızı və al rəngli
iplikdə və incə kətanda naxış tikməsi
işini bacarırdı.
24 Müqəddəs yerin bütün inşası üçün
işlənən qızılın, ianə verilən qızılın
ümumi çəkisi Müqəddəs yerdəki şekelə
görə iyirmi doqquz talant yeddi yüz otuz

şekel idi. 25 [n]Siyahıya alınan icmanın
verdiyi gümüşün çəkisi Müqəddəs
yerdəki şekelə görə yüz talant və min
yeddi yüz yetmiş beş şekel idi. 26 [o]Bu,
sayılmış adamlara daxil olan hər kəs,
iyirmi yaşında və ondan yuxarı olan
altı yüz üç min beş yüz əlli kişi üçün
adambaşı bir beqa, yəni Müqəddəs
yerdəki şekelə görə yarım şekel idi.
27 Müqəddəs yerin altlıqlarını və
pərdələrin altlıqlarını tökmək işinə yüz
talant gümüş yüz altlıq üçün yüz talant,
yəni hər altlıq üçün bir talant gümüş
işləndi. 28 Min yeddi yüz yetmiş beş
şekel gümüş isə dirəklər üçün qarmaqlar
düzəltmək, başlıqlarını örtmək və
onları bəndləmək üçün işləndi. 29 İanə
verilən tuncun çəkisi yetmiş talant və
iki min dörd yüz şekel idi. 30 Ondan
Hüzur çadırı girişinin altlıqları, tunc
qurbangah, oradakı tunc şəbəkəni,
qurbangahın bütün avadanlığı,
31 həyətin ətraf altlıqları, həyətin
darvazasının altlıqları, məskənin bütün
payaları və həyətin bütün ətraf payaları
düzəldildi.

Kahinlərin geyimlərinin düzəldilməsi

(Çıx. 28:1-14)

39 Rəbb Musaya əmr etdiyi kimi
bənövşəyi, tünd qırmızı və al
rəngli iplikdən Müqəddəs yerdə xidmət
üçün toxunmuş geyimlərini və Harunun
müqəddəs geyimlərini hazırladılar.
2 Efodu qızıldan, bənövşəyi, tünd
qırmızı, al rəngli iplikdən və nəfis
toxunmuş incə kətandan hazırladılar.
3 Qızıl lövhələri döyüb onlardan saplar
kəsdilər və onlarla bənövşəyi, tünd
qırmızı və al rəngli iplik və nəfis
toxunmuş kətanın arasına naxışlar
tikdilər. 4 Hər iki ucunu bir-birinə
bağlayan çiyinlik düzəltdilər ki, o
bərkidilsin. 5 Efodun üstündəki kəmər
eyni hissədən idi. O da qızıldan,
bənövşəyi, tünd qırmızı və al rəngli
iplik və nəfis toxunmuş incə kətandan
idi. Rəbbin Musaya əmr etdiyi kimi
oldu.
6 Hörmə qızıl sağanaqlara salınıb
üstündə möhür oyması kimi İsrailin
oğullarının adları həkk olunmuş damarlı
əqiq daşlarını 7 efodun çiyinliklərinə
taxdılar. Bunlar İsrailin oğullarının
xatirə daşlarıdır. Rəbbin Musaya əmr
etdiyi kimi oldu.

Döşlüyün düzəldilməsi

(Çıx. 28:15-30)

8 Döşlüyü də efod kimi naxışlı
qızıldan, bənövşəyi, tünd qırmızı, al
rəngli iplikdən və nəfis toxunmuş incə
kətandan düzəltdilər. 9 Döşlük ikiqat,
dördbucaq şəklində olub uzunluğu
bir qarış, eni də bir qarış düzəldildi.
10 Üstünə dörd sıra daş taxdılar. Birinci
sıra yaqut, topaz, zümrüd; 11 ikinci sıra
firuzə, göy yaqut və almaz; 12 üçüncü
sıra sirkon, əqiq və ametist; 13 dördüncü
sıra sarı yaqut, damarlı əqiq və
yəşəm daşı idi. Bu daşlar hörmə qızıl
sağanaqlara salındı. 14 Daşlar İsrailin
oğullarının adlarına görə on iki dənə
idi; hər daş on iki qəbilədən birinin
adının oyma möhürü idi.
15 Döşlük üçün xalis qızıldan
ipəbənzər burma zəncirlər qayırdılar.
16 İki hörmə qızıl sağanaq və iki qızıl
halqa düzəltdilər. Halqaları döşlüyün iki
ucuna taxdılar. 17 İki qızıl ipi döşlüyün
uclarındakı iki halqaya taxdılar.
18 İplərin o biri uclarını iki hörmə
sağanağa taxıb efodun çiyinliklərinin
qabaq tərəfinə bağladılar. 19 Yenə
də iki qızıl halqa düzəldib onları
döşlüyün iki ucuna, onun efodla
yanaşı iç qatına taxdılar. 20 Digər
iki qızıl halqa düzəltdilər və onu

---

[n]**38:25** Çıx. 30:11-16 [o]**38:26** Mat. 17:24

efodun çiyinliklərinin qabaq tərəfinə,
aşağıya, efodun kəməri ilə birləşmələrin
üzərinə bərkitdilər. 21 Döşlüyü halqaları
ilə efodun halqalarına bənövşəyi
qaytanla bağlayıb efodun kəmərinin
üzərinə bərkitdilər ki, döşlük efoddan
sallanmasın. Rəbbin Musaya əmr etdiyi
kimi oldu.

Kahinlərin digər geyimlərinin düzəldilməsi

(Çıx. 28:31-43)

22 Efodun cübbəsini büsbütün
toxunma bənövşəyi iplikdən tikdilər.
23 Onun ortasında baş keçirmək üçün
yer tikdilər. Onun kənarında cırılmamaq
üçün yaxa toxudular.
24 Cübbənin ətəyinin ətrafına nəfis
toxunmuş bənövşəyi, tünd qırmızı və al
rəngli iplikdən narlar düzdülər. 25 Xalis
qızıl zınqırovlar düzəldib, cübbənin
ətəyi boyunca narların arasına tikdilər.
26 Beləcə xidmət cübbəsinin ətəyi
boyunca ətrafında zınqırov və nar sıra
ilə düzüldü. Rəbbin Musaya əmr etdiyi
kimi oldu.
27 Harun və oğulları üçün toxunma
incə kətan xirqələri, 28 nəfis toxunmuş
incə kətandan çalma, incə kətan
papaqları, əyirmə incə kətan alt
paltarı, 29 nəfis toxunmuş incə kətan
və bənövşəyi, tünd qırmızı və al rəngli
iplikdən naxış tikməli qurşağı tikdilər.
Rəbbin Musaya əmr etdiyi kimi oldu.
30 Xalis qızıldan müqəddəslik tacı
olan lövhəciyi düzəltdilər və onun
üzərinə möhür oyması olaraq «Rəbbə
həsr edilmiş» yazısını yazdılar.
31 Onu çalmanın üstünə qoymaq üçün
bənövşəyi qaytan tikdilər. Rəbbin
Musaya əmr etdiyi kimi oldu.

İşin tamamlanması

(Çıx. 35:10-19)

32 Beləliklə, müqəddəs məskən,
yəni Hüzur çadırı üçün bütün işlər
tamamlandı. Rəbb Musaya necə əmr
etmişdisə, İsrail övladları da bu işi eləcə
tamamladılar. 33 Müqəddəs məskəni
Musanın qarşısına gətirdilər. Çadırını
və onun avadanlığını, bəndlərini,
çərçivələrini, şüvüllərini, dirəklərini,
altlıqlarını, 34 qırmızı boyanmış qoç
dərilərindən örtüyü, suiti dərilərdən
düzəldilmiş örtüyü, arakəsmə pərdəsini,
35 Şəhadət sandığını və onun şüvüllərini,
kəffarə qapağını, 36 masanı və onun
ləvazimatını; təqdis çörəklərini, 37 xalis
qızıldan çıraqdanı, onun düzülmüş
çıraqlarını və işıq yağını, 38 qızıl
qurbangahını, məsh yağını, ətirli
buxuru, çadırın giriş arakəsməsini,
39 tunc qurbangahını, onun üçün tunc
şəbəkəni, onun şüvüllərini və bütün
avadanlığını, ləyəni və onun altlığını,
40 həyətin pərdələrini, dirəklərini və
altlıqlarını, həyətin darvazası üçün
arakəsməni, onun iplərini və payalarını
– Hüzur çadırı və məskənin ibadəti
üçün bütün əşyaları, 41 müqəddəs yerdə
xidmət üçün toxunmuş geyimləri –
kahin Harunun müqəddəs geyimlərini
və oğullarının kahinlik etmək üçün
geyimlərini – hər şeyi ona gətirdilər.
42 Rəbb Musaya necə əmr etmişdisə,
İsrail övladları da bu işi eləcə
tamamladılar. 43 Musa bütün işləri
nəzərdən keçirib gördü ki, onlar bu işə
Rəbbin əmr etdiyi kimi əməl ediblər.
Musa onlara xeyir-dua verdi.

Hüzur çadırının qurulması və təqdis olunması

40 Rəbb Musaya dedi: 2 «Birinci
ayın birinci günü müqəddəs
məskəni, yəni Hüzur çadırını qur.
3 Şəhadət sandığını oraya qoy və
pərdə ilə qabağını kəs. 4 Sonra masanı
gətir, üstünə əşyaları düz. Çıraqdanı
gətir, çıraqları da quraşdır. 5 Buxur
üçün qızıl qurbangahı Şəhadət

sandığının qabağına qoy. Məskənin giriş
arakəsməsini də qur.
6 Yandırma qurbanları üçün qurulan
qurbangahı məskənin – Hüzur çadırının
girişinin qarşısında yerləşdir. 7 Ləyəni
Hüzur çadırı ilə qurbangahın arasına
qoy, içinə su tök. 8 Ətrafında həyət qur
və həyətin darvazasının arakəsməsini
as.
9 Sonra məsh yağını götürüb məskəni
və içindəki hər şeyi məsh et. Beləliklə,
onu və bütün avadanlığını təqdis et ki,
müqəddəs olsun. 10 Yandırma qurbanlar
üçün qurulan qurbangahı, onun
avadanlığını məsh edib qurbangahı
təqdis et ki, o ən müqəddəs olsun.
11 Ləyənlə altlığını məsh edib təqdis et.
12 Harunla oğullarını Hüzur çadırının
girişinə gətirib onları su ilə yuyundur.
13 Haruna müqəddəs geyimlər geyindir.
Onu məsh edib təqdis et ki, Mənə
kahinlik etsin. 14 Sonra Harunun
oğullarını təqdim et və onlara xirqələr
geyindir. 15 Atalarını məsh etdiyin kimi
onları da məsh et ki, Mənə kahinlik
etsinlər. Onlar nəsildən-nəslə əbədi
kahinlik üçün məsh olunacaqlar».
16 Rəbb Musaya necə əmr etmişdisə, o
da bu cür etdi.
17 İsrail övladlarının Misirdən çıxdığı
vaxtın ikinci ilində, birinci ayın birinci
günündə məskən quruldu. 18 Musa
çadırı qurdu: altlıqlarını qoydu,
taxtalarını bərkitdi, şüvüllərini qurdu və
dirəklərini dikəltdi. 19 Məskənin üzərinə
çadır saldı, onun üstünə də çadırın
örtüyünü qoydu. Rəbbin Musaya əmr
etdiyi kimi oldu. 20 Bundan sonra o,
şəhadət lövhələrini götürüb sandığın
içinə qoydu. Şüvülləri sandığa taxdı,
kəffarə qapağını da sandığın üstünə
qoydu. 21 Sandığı məskənin içinə gətirdi
və arakəsmə pərdəsini qurub Şəhadət
sandığının qabağını kəsdi. Rəbbin
Musaya əmr etdiyi kimi oldu.
22 Masanı Hüzur çadırının içində,
şimal tərəfində, pərdənin bayır
tərəfindən yerləşdirdi. 23 Onun üstünə
Rəbbin hüzurunda çörək düzdü. Rəbbin
Musaya əmr etdiyi kimi oldu.
24 Çıraqdanı isə Hüzur çadırının
içində, masanın qarşısında,
məskənin cənub tərəfində yerləşdirdi.
25 Çıraqlarını da Rəbbin hüzurunda
quraşdırdı. Rəbbin Musaya əmr etdiyi
kimi oldu.
26 Qızıl qurbangahı da Hüzur
çadırının içində, pərdənin önündə
yerləşdirdi; 27 onun üstündə ətirli buxur
yandırdı. Rəbbin Musaya əmr etdiyi
kimi oldu.
28 Məskənin girişində arakəsməni
qurdu. 29 Yandırma qurbanları üçün
qurulan qurbangahı məskənin, Hüzur
çadırının girişində yerləşdirdi; onun
üstündə yandırma qurbanını və taxıl
təqdimini gətirdi. Rəbbin Musaya əmr
etdiyi kimi oldu.
30 Ləyəni Hüzur çadırı ilə qurbangah
arasında yerləşdirib içinə yuyunmaq
üçün su tökdü. 31 Musa, Harun və
oğulları orada əl-ayaqlarını yuyardılar.
32 Onlar Hüzur çadırına girdikləri və
qurbangaha yaxınlaşdıqları zaman
yuyunardılar. Rəbbin Musaya əmr
etdiyi kimi oldu.
33 Məskənlə qurbangahın ətrafında
həyəti qurdu və həyət darvazasının
arakəsməsini asdı. Beləliklə, Musa işləri
bitirdi.

Rəbbin izzəti

(Say. 9:15-23)

34 [p]O vaxt bulud Hüzur çadırını
bürüdü və Rəbbin izzəti məskəni
doldurdu. 35 Musa Hüzur çadırına girə
bilmədi, çünki bulud onun üstündə

---

[p]**40:34** 1Pad. 8:10-11; 2Saln. 5:13-14; Yeş. 6:4; Yez. 43:4-5; Vəhy 15:8

yerləşmişdi və Rəbbin izzəti məskəni
doldurmuşdu.
36 [q]İsrail övladlarının bütün səfəri
boyu bulud məskənin üstündən
qalxanda yola düşərdilər; 37 bulud
qalxmayanda isə, qalxdığı günə qədər
yola düşməzdilər. 38 Səfərləri boyu
bütün İsrail xalqının gözləri önündə
gündüz Rəbbin buludu məskənin
üzərində, gecələr isə od buludun içində
idi.

[q]**40:36** Say. 9:17

LEVİLİLƏR

KİTABI

GİRİŞ

«Levililər» Kitabı İsraillilərin hələ də Sina dağında qalmasını təsvir edir. Bu kitab qədim İsrailin ibadət və dini mərasimlərindən bəhs edir.

Burada həmçinin bu ibadət üçün məsuliyyət daşıyan Levi tayfasından olan Harun və onun oğullarının kahinlik vəzifəsinə təyin olunmasından danışılır.

Allahın müqəddəsliyi və insanların Onunla daima ünsiyyətdə olmaq üçün ibadət etməsinin yolları kitabın əsas mövzusudur. İsa Məsihin ikinci böyük əmr adlandırdığı məşhur sözləri: «Qonşunu özün kimi sev» bu kitabdandır (19:18).

Kitabın məzmunu:

1:1–7:38 Təqdim və qurbanlar haqqında qanunlar

8:1–10:20 Harunun və onun oğullarının kahinliyə təyin olunması

11:1–15:33 Paklıq və murdarlıq haqqında qanunlar

16:1-34 Kəffarə günü

17:1–27:34 Təqdisolunma və ibadət haqqında qanunlar

Yandırma qurbanı

1 Rəbb Musanı Hüzur çadırından
çağırıb belə dedi: 2 «İsrail
övladlarına bəyan et və de: “Sizdən bir
nəfər öz heyvanlarından Rəbbə qurban
gətirəndə qoy qurbanlığı mal-qara
yaxud qoyun-keçi olsun.
3 Əgər qurbanı bir baş mal-qaradan
ibarət yandırma qurbanıdırsa, bu
qüsursuz erkək heyvan olsun. Bu
qurbanın Rəbbin hüzurunda məqbul
olması üçün onu gətirən adam onu
Hüzur çadırının girişinə gətirsin. 4 O
adam əlini yandırma qurbanının başına
qoysun ki, qurban özü üçün kəffarə
kimi qəbul olunsun. 5 O, buğanı Rəbbin
önündə kəssin. Harun nəslindən olan
kahinlər qanı təqdim edərək Hüzur
çadırının girişi yanındakı qurbangahın
hər tərəfinə səpsinlər. 6 Sonra o adam
yandırma qurbanının dərisini soyub
qurbanı parça-parça doğrasın. 7 Kahin
Harunun övladları qurbangahda od
qalayıb üstünə odun düzsünlər. 8 Harun
nəslindən olan kahinlər buğanın
başını və piyini parça-parça doğranmış
hissələrlə birlikdə qurbangahın odunları
ilə qalanan od üstünə düzsünlər.
9 Qurbanın içalatı və budlarını isə o
adam su ilə yusun. Kahin bunların
hamısını qurbangahda tüstülədib
yandırsın. Bu, yandırma qurbanı,
Rəbbin xoşuna gələn ətir – yandırma
təqdimidir.
10 Əgər kiminsə yandırma qurbanı
qoyun-keçidən ibarətdirsə, qoy bu
qüsursuz erkək heyvan olsun. 11 Onu
qurbangahın şimal tərəfində, Rəbbin
önündə kəssin; Harun nəslindən
olan kahinlər isə heyvanın qanını
qurbangahın hər tərəfinə səpsinlər.
12 Sonra o adam heyvanı parça-parça
doğrasın, başını və piyini kəssin; xidmət
edən kahin də qurbanı qurbangahın
odunları ilə qalanan od üstünə düzsün.
13 İçalatı və budları isə o adam su ilə
yusun. Kahin bunların hamısını təqdim
edib qurbangahda tüstülədib yandırsın.
Bu, yandırma qurbanı, Rəbbin xoşuna
gələn ətirli təqdimdir.
14 Əgər kiminsə Rəbbə yandırma
qurbanı quşdan ibarətdirsə, qoy qumru
quşlarından yaxud göyərçinlərdən
qurban gətirsin. 15 Kahin onu
qurbangaha gətirsin, boynunu üzüb
başını qurbangahda tüstülədib
yandırsın; qanı isə qurbangahın
yan tərəfindən axıdılsın. 16 Kahin
quşun çinədanını lələkləri ilə çıxarıb
qurbangahın şərq tərəfinə, küllüyə

atsın. 17 Sonra o, qanadlarını tutaraq
quşu yırtsın, amma iki yerə bölməsin.
Bundan sonra kahin quşu qurbangahda
odunla qalanan od üstündə tüstülədib
yandırsın. Bu, yandırma qurbanı,
Rəbbin xoşuna gələn ətir – yandırma
təqdimidir.

Taxıl təqdimi

2 Kimsə Rəbbə taxıl təqdimi gətirərsə,
təqdimi narın un olsun, üstünə də
zeytun yağı töküb kündür *qoysun.
2 Onu Harun nəslindən olan kahinlərə
gətirsin. Sonra isə kahin bir ovuc unla
yağ və kündürün hamısını götürərək
qurbangahda xatirə təqdimi kimi
tüstülədib yandırsın. Bu, Rəbbin xoşuna
gələn ətir – yandırma təqdimidir. 3 Taxıl
təqdiminin qalan hissəsi isə Harunla
övladlarına məxsus olsun. Bu, Rəbb
üçün verilən yandırma təqdimindən
götürüldüyünə görə ən müqəddəsdir.
4 Təndirdə bişirilmiş taxıl təqdimi
gətirəndə zeytun yağı ilə narın undan
yoğrulmuş mayasız kökələr və üstünə
zeytun yağı sürtülmüş mayasız qoğallar
təqdim et.
5 Əgər təqdimin sacda bişmiş taxıl
təqdimidirsə, onu narın undan, zeytun
yağı ilə yoğrulmuş mayasız kökə kimi
bişir. 6 Onu ov və üstünə zeytun yağı
tök. Bu, taxıl təqdimidir.
7 Əgər təqdimin tavada bişən taxıl
təqdimidirsə, onu narın undan zeytun
yağı ilə hazırla.
8 Bu üsullarla hazırlanan taxıl
təqdimini Rəbbin yanına gətir və
kahinə təqdim et. O da təqdimini
qurbangaha aparsın. 9 Kahin bu
təqdimdən xatirə təqdimi kimi pay
götürərək qurbangahda tüstülədib
yandırsın. Bu, Rəbbin xoşuna gələn
ətir – yandırma təqdimidir. 10 Taxıl
təqdiminin qalan hissəsi isə Harunla
övladlarına məxsus olsun. Bu, Rəbb
üçün verilən yandırma təqdimindən
götürüldüyü üçün ən müqəddəsdir.
11 Rəbbə gətirilən heç bir taxıl təqdimi
mayalı xəmirdən hazırlanmasın.
Tərkibində ya maya ya da bal olan
təqdim Rəbb üçün yandırma təqdimi
kimi tüstülədilib yandırılmasın.
12 Bunları ilk məhsul təqdimləri kimi
Rəbbin yanına gətirin. Amma xoşa
gələn ətir kimi qurbangahda təqdim
olunmasın. 13 Taxıl təqdimlərinin hər
birini duzla, onlardan Allahınla əhdinin
duzunu əsirgəmə. Bütün təqdimlərini
duzla.
14 Əgər sən Rəbbə nübarından taxıl
təqdimini gətirsən, onda təzə taxılı
odda qovurub yarmasını təqdim et.
15 Onun üstünə zeytun yağı və kündür
qoy. Bu, taxıl təqdimidir. 16 Kahin bir
az yarma və zeytun yağı götürərək
bütün kündürlə xatirə təqdimi kimi
tüstülədib yandırsın. Bu, Rəbb üçün
verilən yandırma təqdimidir.

Ünsiyyət qurbanı

3 Əgər kimsə ünsiyyət qurbanı
gətirsə və qurbanlıq heyvan
mal-qaradandırsa, qoy o, Rəbbin
hüzuruna qüsursuz erkək və ya
dişi heyvan gətirsin. 2 Qoy adam
əlini qurbanlığın başına qoyub
Hüzur çadırının girişində kəssin və
Harun nəslindən olan kahinlər qanı
qurbangahın hər tərəfinə səpsinlər.
3 Qoy o adam ünsiyyət qurbanından
bunları Rəbb üçün yandırma təqdimi
kimi gətirsin: içalatı örtən piyi və
üstündəki piyi, 4 belindəki hər iki
böyrəyi, üstündəki piyi və qaraciyərin
quyruğa bənzər hissəsini – bunları
böyrəkləri ilə birgə çıxartsın. 5 Bunları
Harun övladları qurbangahda odunlarla
qalanan od üstündəki yandırma

---

*2:1 *Kündür* – saqqız ağacının qabığından hazırlanan xoşiyli sarımtıl maddə.

qurbanı ilə tüstülədib yandırsınlar. Bu,
Rəbbin xoşuna gələn ətir – yandırma
təqdimidir.
6 Əgər Rəbbə təqdim olunan ünsiyyət
qurbanı qoyun-keçidəndirsə, qoy o,
qüsursuz erkək və yaxud dişi heyvan
gətirsin. 7 Əgər gətirdiyi qurban bir
qoyundursa, qoy onu Rəbbin önündə
belə təqdim etsin: 8 əlini qurbanın
başına qoyub onu Hüzur çadırının
qabağında kəssin, Harun övladları qanı
qurbangahın hər tərəfinə səpsinlər.
9 Qoy o adam ünsiyyət qurbanından
bunları Rəbb üçün yandırma təqdimi
kimi gətirsin: onurğayadək kəsdiyi
quyruğunu, içalatı örtən piyi və
üstündəki bütün piyi 10 belindəki
hər iki böyrəyini, üstündəki piyi və
qaraciyərin quyruğa bənzər hissəsini –
bunları böyrəkləri ilə birgə çıxartsın.
11 Bunları kahin qurbangahda tüstülədib
yandırsın. Bu, Rəbb üçün yandırma
təqdimi olaraq verilən paydır.
12 Əgər adamın qurbanlığı bir
keçidirsə, qoy onu Rəbbin önündə
belə təqdim etsin: 13 əlini heyvanın
başına qoyub onu Hüzur çadırının
qabağında kəssin. Harun övladları
onun qanını qurbangahın hər tərəfinə
səpsinlər. 14 Qoy o adam qurbandan
bunları Rəbb üçün yandırma təqdimi
kimi gətirsin: içalatı örtən piyi və
üstündəki bütün piyi, 15 belindəki
hər iki böyrəyini və üstündəki piyi,
qaraciyərin quyruğa bənzər hissəsini –
bunları böyrəkləri ilə birgə çıxartsın.
16 Kahin bunları qurbangah üstündə
tüstülədib yandırsın. Bu, yemək –
yandırma təqdimi, xoşa gələn ətirdir.
Bütün piy Rəbbə məxsusdur.
17 Bu bütün yaşadığınız yerlərdə
nəsildən-nəslə sizin üçün əbədi qayda
olsun: piyi də, qanı da yeməyin”».

Günah qurbanı

4 Rəbb Musaya dedi: 2 «İsrail
övladlarına belə de: “Əgər kimsə
etməməli olduğu halda Rəbbin bütün
əmrlərindən birini bilmədən pozarsa,
qoy bunlara əməl etsin.
3 Əgər məsh edilmiş baş kahin
günah işlədib xalqı da borclu etsə, o
günaha görə Rəbbə günah qurbanı
olaraq qüsursuz bir buğa təqdim etsin.
4 Buğanı Hüzur çadırının girişinə,
Rəbbin hüzuruna gətirsin və əllərini
heyvanın başına qoyub onu Rəbbin
hüzurunda kəssin. 5 Sonra məsh edilmiş
kahin buğanın qanından götürüb Hüzur
çadırına gətirsin. 6 Kahin barmağını
qana batıraraq Rəbbin hüzurunda
Müqəddəs yerin pərdəsi qabağında
yeddi dəfə çiləsin. 7 [r]Sonra kahin Hüzur
çadırında, Rəbbin önündə olan ətirli
buxur qurbangahının buynuzlarına
o qandan çəksin, buğanın qanının
qalan hissəsini isə Hüzur çadırının
girişindəki yandırma qurbanları üçün
qurulan qurbangahın altlığına töksün.
8 Qoy sonra kahin günah qurbanı olan
buğanın piyini bütövlükdə götürsün.
İçalatı örtən piyi və üstündəki bütün
piyi, 9 belindəki hər iki böyrəyi və
üstündəki piyi, qaraciyərin quyruğa
bənzər hissəsini – bunları böyrəkləri
ilə birgə çıxartsın. 10 Bunların hamısı
ünsiyyət qurbanı olan mal-qaradan
götürüldüyü kimi götürülsün və həmin
kahin onları yandırma qurbanları
üçün qurulan qurbangahda tüstülədib
yandırsın. 11 Buğanın dərisini, başından
budlarına qədər bütün ətini – içalatını,
bağırsaqlarını, 12 hər qalan hissəsini
düşərgədən kənara çıxarıb kül tökülən
pak bir yerə atsın və orada odunla
yandırsın.

---

[r]**4:7** Say. 15:27-28

13 Əgər bütün İsrail icması bilmədən
günah işlətsə, bu onların nəzərindən
qaçsa və etməməli olduqları halda
Rəbbin bütün əmrlərindən birini
pozub təqsirkar olsalar, 14 işlədikləri
günah aşkara çıxanda camaat günah
qurbanı olaraq bir buğa götürüb Hüzur
çadırının qabağına gətirsin. 15 İcmanın
ağsaqqalları Rəbbin hüzurunda əllərini
buğanın başına qoyub onu kəssinlər.
16 Sonra məsh edilmiş kahin buğanın
qanından götürüb Hüzur çadırına
gətirsin. 17 Kahin barmağını qana
batırıb Rəbbin hüzurunda pərdənin
qabağına yeddi dəfə çiləsin. 18 Sonra
kahin Hüzur çadırında Rəbbin önündəki
qurbangahın buynuzlarına o qanı çəksin
və buğanın qanının qalan hissəsini isə
Hüzur çadırının girişindəki yandırma
qurbanları üçün qurulan qurbangahın
altlığına töksün. 19 Sonra o heyvanın
bütün piyini götürərək qurbangahda
tüstülədib yandırsın; 20 günah qurbanı
olan buğaya nə cür etsə, bu buğaya
da eyni cür etsin. Bununla kahin xalq
üçün kəffarə etsin ki, xalq bağışlansın.
21 Sonra kahin buğanı düşərgədən
kənara çıxarıb əvvəlki buğanı yandıran
kimi yandırsın. Bu, camaat üçün verilən
günah qurbanıdır.
22 Başçılardan biri günah işlədərək
etməməli olduğu halda Allahı Rəbbin
bütün əmrlərindən birini bilmədən
pozub təqsirkar olsa, 23 işlətdiyi günah
özünə aşkar olanda qoy qurban olaraq
qüsursuz təkə gətirsin; 24 əlini təkənin
başına qoyub onu Rəbbin hüzurunda –
yandırma qurbanlar kəsilən yerdə onu
kəssin. Bu, günah qurbanıdır. 25 Sonra
kahin barmağı ilə günah qurbanının
qanından bir az götürüb yandırma
qurbanları üçün qurulan qurbangahın
buynuzlarına çəksin. Qanın qalan
hissəsini isə həmin qurbangahın
altlığına töksün. 26 Sonra o heyvanın
bütün piyini ünsiyyət qurbanının piyi
kimi qurbangahda tüstülədib yandırsın.
Bununla kahin o adam üçün günahını
kəffarə etsin ki, o bağışlansın.
27 Əgər ölkə xalqından bir nəfər
etməməli olduğu halda Rəbbin
əmrlərindən birini pozaraq bilmədən
günah işlədib bu günahda təqsirkar
olsa, 28 işlətdiyi günah özünə aşkar
olanda qoy o, günahına görə özü üçün
qurban – qüsursuz dişi keçi gətirsin 29 və
əlini günah qurbanının başına qoyub
bu qurbanı yandırma qurbanları kəsilən
yerdə kəssin. 30 Sonra kahin barmağı
ilə qurbanın qanından bir az götürüb
yandırma qurbanları üçün qurulan
qurbangahın buynuzlarına çəksin; qanın
qalan hissəsini isə qurbangahın altlığına
töksün. 31 Sonra heyvanın bütün piyini
ünsiyyət qurbanının piyini çıxardığı
kimi çıxarıb onu Rəbbin xoşuna gələn
ətir kimi qurbangahda tüstülədib
yandırın. Bununla kahin o adam üçün
kəffarə etsin ki, o bağışlansın.
32 Əgər adam günah qurbanı olaraq
qoyun gətirsə, qoy o, qüsursuz dişi
heyvan gətirsin 33 və əlini günah
qurbanının başına qoysun və onu
yandırma qurbanları kəsilən yerdə
kəssin. 34 Sonra kahin öz barmağı ilə
günah qurbanının qanından bir az
götürüb yandırma qurbanları üçün
qurulan qurbangahın buynuzlarına
çəksin; qanın qalan hissəsini isə
qurbangahın altlığına töksün. 35 Sonra
o adam heyvanın bütün piyini ünsiyyət
qurbanı olan qoyunun piyi kimi çıxarsın
və kahin onu qurbangahda Rəbb üçün
verilən yandırma təqdimi üzərində
tüstülədib yandırsın. Bununla kahin o
adam üçün işlətdiyi günahı kəffarə etsin
ki, o bağışlansın.
5 Günahın işləndiyini görərək yaxud
bilərək şahidi olan adam and
içdiriləndə bu barədə şəhadət etməsə,
cəzasını çəkər. 2 Bilmədən hər hansı
murdar bir əşyaya, çöl, ev ya da

qaynaşan heyvanın leşinə toxunan hər
kəs murdar və təqsirkar sayılır. 3 Birini
murdarlayan ifrazata, insandan ifraz
olan murdarlığa bilmədən toxunan
kəs – nə cür murdarlıq olursa olsun
– onu dərk edəndə təqsirkar sayılır.
4 Düşünmədən və bilmədən hər hansı
bir ehtiyatsız andla pislik yaxud yaxşılıq
etmək üçün and içən hər kəs bunu
biləndə təqsirkar sayılır. 5 Bu adam
bunlardan birinə görə təqsirini biləndə
qoy günahını etiraf etsin 6 və o, günaha
görə Rəbbin qarşısında təqsirini yumaq
üçün sürüdən dişi qoyun ya da dişi keçi
götürüb günah qurbanı olaraq gətirsin.
Bununla kahin o adam üçün günahını
kəffarə etsin.

7 Lakin əgər o adamın qoyun-keçi
qurbanı kəsməyə gücü çatmırsa,
günahına görə təqsirini yumaq üçün
Rəbbə iki qumru quşu yaxud da iki
göyərçin – biri günah qurbanı, digərini
yandırma qurbanı olaraq gətirsin 8 və
kahinə versin. Kahin əvvəl günah
qurbanı olan quşu təqdim etsin: başını
bədəndən ayırmadan boynunu üzsün
9 və günah qurbanının qanından
qurbangahın bir tərəfinə çiləsin, qanın
digər hissəsini isə qurbangahın altlığına
töksün. Bu, günah qurbanıdır. 10 İkinci
quş da qayda-qanuna uyğun olaraq
yandırma qurbanı kimi təqdim olunsun.
Bununla kahin o adam üçün işlətdiyi
günahı kəffarə etsin ki, o bağışlansın.

11 Əgər o adamın hətta iki qumru
quşuna və yaxud iki göyərçinə gücü
çatmırsa, qoy işlətdiyi günah üçün narın
undan efanın onda birini günah qurbanı
kimi təqdim etsin. Lakin qoy onun
üstünə nə zeytun yağı, nə də kündür
qoymasın, çünki bu günah qurbanıdır.
12 Qoy bu adam onu kahinin yanına
gətirsin. Kahin ondan xatirə təqdimi
kimi bir ovuc götürüb qurbangahda
Rəbb üçün verilən yandırma təqdimi
üzərində tüstülətsin. Bu, günah
qurbanıdır. 13 Bununla kahin o adam
üçün işlətdiyi hər hansı bir günahı
kəffarə etsin ki, o adam bağışlansın.
Qalan hissə taxıl təqdimi kimi kahinə
məxsus olsun”».

Təqsir qurbanı

14 Rəbb Musaya dedi: 15 «Rəbbin
müqəddəs şeylərinə etinasız yanaşıb
bilmədən günah edən hər kəs təqsir
qurbanı olaraq sürüdən qüsursuz bir qoç
gətirsin. Bu təqsir qurbanı Müqəddəs
yerdəki şekelə münasib gümüş şekellə
qiymətləndirilməlidir. 16 Müqəddəs
şeylərə vurduğu ziyanı da qoy o adam
ödəsin və üstünə beşdə birini əlavə
edərək kahinə versin; kahin onun üçün
təqsir qurbanı olan qoçla kəffarə etsin
ki, o bağışlansın.

17 Əgər bir nəfər günah işlədib
etməməli olduğu halda Rəbbin bütün
əmrlərindən birini pozarsa və bunu
bilmədən edərsə, təqsirkar sayılıb
cəzasını çəkməlidir. 18 Qoy o, kahinin
yanına təqsir qurbanı olaraq sürüdən
qüsursuz və dəyərli bir qoç gətirsin.
Bununla kahin onun bilmədən törətdiyi
günahı kəffarə etsin ki, o bağışlansın.
19 Bu, təqsir qurbanıdır. Həmin adam
Rəbbin qarşısında təqsirkar olmuşdur».

6 [s]Rəbb Musaya dedi: 2 «Əgər bir şəxs
günah edib Rəbbə xəyanət edərsə,
özünə əmanət edilən, girov qoyulan
yaxud oğurluq bir şey barəsində başqa
bir adamı aldadarsa ya da ona haqsızlıq
edərsə, 3 itmiş bir əşyanı tapıb yalan
söylərsə, yalandan and içərsə, yəni
insanların edə biləcəyi bu günahlardan
birini edərsə, 4 o şəxs günah etmiş olur
və təqsirkar sayılır. Oğurladığı ya da
haqsızlıqla ələ keçirdiyi şeyi, özünə
əmanət edilən ya da tapdığı itmiş

---

[s]**6:1** Say. 5:5-8

əşyanı 5 yaxud barəsində yalandan and
içdiyi şeyin üzərinə beşdə birini də
əlavə edərək təqsir qurbanını gətirdiyi
gün sahibinə geri qaytarsın. 6 Bu adam
Rəbbin qarşısında təqsirini yumaq üçün
kahinin yanına təqsir qurbanı olaraq
sürüdən qüsursuz və dəyərli bir qoç
gətirsin. 7 Bununla kahin günah edən
adam üçün təqsirinə səbəb olduğu hər
şeyi Rəbbin önündə kəffarə etsin ki, o
bağışlansın».

Kahinlər üçün təlimat: yandırma qurbanı

8 Rəbb Musaya dedi: 9 «Harunla
oğullarına əmr verib de: “Yandırma
qurbanına aid olan təlimat budur.
Yandırma qurbanı bütün gecə səhərə
qədər qurbangahdakı odda qalsın, bu
od isə qoy sönmədən yansın. 10 Qoy
kahin kətan paltarını, kətan alt geyimini
əyninə geyib qurbangahda yandırma
qurbanını məhv edən oddan çıxan külü
götürüb qurbangahın yanına qoysun.
11 Sonra kahin geyimini çıxarıb başqa
paltar geyinsin və külü düşərgədən
kənara çıxararaq pak bir yerə töksün.
12 Qoy od qurbangahda yansın və
sönməsin. Hər səhər kahin odunla od
qalayıb üstünə yandırma qurbanını
düzsün və ünsiyyət qurbanlarının
piyini tüstülədib yandırsın. 13 Qoy
bu od qurbangahda daima yansın və
sönməsin.

Taxıl təqdimi

14 Taxıl təqdiminə aid olan təlimat
budur. Harun övladları bunu Rəbbin
hüzurunda qurbangahın qabağında
təqdim etsinlər. 15 Qoy kahin bir ovuc
taxıl təqdimini, narın un ilə zeytun
yağını və üstündəki kündürün hamısını
götürüb qurbangahda tüstülətsin.
Bu, Rəbbin xoşuna gələn ətir –
xatirə təqdimidir. 16 Təqdimin qalan
hissəsini Harunla övladları yesin;
onu müqəddəs bir yerdə – Hüzur
çadırının həyətində mayasız çörək
kimi yesinlər. 17 Bu, taxıldan maya
ilə bişirilməsin. Bunu Mənə gətirilən
yandırma təqdimlərindən kahinlərə
düşən pay kimi verirəm. O, günah
qurbanı və təqsir qurbanı kimi ən
müqəddəsdir. 18 Harunun hər kişi övladı
nəsildən-nəslə bunu yesin. Bu, Rəbbə
gətirilən yandırma təqdimlərindən
onlara verilən əbədi paydır. Bunlara
toxunan hər şey müqəddəs sayılar”».

Təqdis təqdimi

19 Rəbb Musaya dedi: 20 «Harunun
məsh olunacağı gün Harunla oğullarının
Rəbbə edəcəkləri təqdim budur: daimi
taxıl təqdimi olaraq narın undan efanın
onda birini – yarısı səhər, yarısı isə
axşam, 21 zeytun yağı ilə qarışdırılmış,
sacda bişmiş halda gətirsin və bu taxıl
təqdimini parça-parça qırıb təqdim
etsin. Bu, Rəbbin xoşuna gələn ətirdir.
22 Harun nəslindən yerinə keçən məsh
edilmiş kahin onu belə də hazırlasın;
bunu Rəbbə əbədi pay olaraq bütünlüklə
tüstülədib yandırsın. 23 Kahinin gətirdiyi
hər taxıl təqdimi bütünlüklə yandırılsın,
o yeyilməməlidir».

Günah qurbanı

24 Rəbb Musaya dedi: 25 «Harunla
oğullarına belə de: “Günah qurbanına
aid olan təlimat budur. Günah qurbanı
yandırma qurbanı kəsilən yerdə –
Rəbbin önündə kəsilsin. Bu qurban
ən müqəddəsdir. 26 Günah qurbanını
təqdim edən kahin onu müqəddəs bir
yerdə – Hüzur çadırının həyətində
yesin. 27 Onun ətinə toxunan hər bir
şey müqəddəs sayılar; o qurbandan bir
damla qan geyimlərə sıçrasa, o geyim
müqəddəs bir yerdə yuyulsun. 28 Ətin
bişirildiyi saxsı qab sındırılsın; əgər
o, tunc qabda bişirilibsə, həmin qab
təmizlənib su ilə yaxalansın. 29 Kahin

nəslindən hər kişi onu yesin; o ən
müqəddəsdir. 30 Lakin Müqəddəs yerdə
günahı kəffarə etmək üçün qanından
Hüzur çadırına gətirilən günah
qurbanının hamısı yeyilməməlidir, qoy
yandırılsın.

Təqsir qurbanı

7 Təqsir qurbanına aid olan təlimat
budur. O ən müqəddəsdir. 2 Təqsir
qurbanı yandırma qurbanları kəsilən
yerdə kəsilsin. Kahin onun qanını
qurbangahın hər tərəfinə səpsin. 3 Onun
bütün piyini təqdim etsin: quyruğunu,
içalatı örtən piyi, 4 belindəki hər iki
böyrəyini və üstündəki piyi, qaraciyərin
quyruğa bənzər hissəsini – bunları
böyrəkləri ilə birgə çıxartsın. 5 Qoy
kahin bunu Rəbb üçün yandırma
təqdimi olaraq qurbangahda tüstülədib
yandırsın. Bu, təqsir qurbanıdır. 6 Ətini
kahin nəslindən olan hər kişi yesin; bu
ət müqəddəs bir yerdə yeyilsin, çünki o
ən müqəddəsdir.
7 Günah qurbanına da, təqsir
qurbanına da aid olan təlimat eynidir:
qurbanın əti həmin qurbanla kəffarə
edən kahinə məxsus olsun. 8 Bir adamın
gətirdiyi yandırma qurbanının dərisi
də həmin qurbanı təqdim edən kahinə
məxsus olsun. 9 Təndirdə bişirilmiş hər
taxıl təqdimi, tavada, sacda hazırlanan
hər bir şey onu götürüb təqdim edən
kahinə məxsus olsun. 10 Zeytun yağı ilə
yoğrulmuş yaxud hər quru taxıl təqdimi
isə bütün Harun övladları arasında
bərabər paylara bölünsün.

Ünsiyyət qurbanı

11 Rəbbə təqdim olunan ünsiyyət
qurbanına aid olan təlimat budur.
12 Əgər kimsə onu təşəkkür etmək
üçün qurban gətirsə, onda o, zeytun
yağı ilə yoğrulmuş mayasız kökələr,
üstünə zeytun yağı sürtülmüş mayasız
qoğallar və zeytun yağı ilə narın undan
yoğrulmuş kökələr gətirsin. 13 Bundan
əlavə, o, mayalı çörək kökələrini
təşəkkür ifadə edən ünsiyyət qurbanı
ilə təqdim olaraq gətirsin. 14 Bunların
hər növündən birini Rəbbə qaldırılan
pay kimi təqdim etsin. O, ünsiyyət
qurbanının qanını səpən kahinə məxsus
olsun. 15 Təşəkkür ifadə edən ünsiyyət
qurbanının əti qurban kəsilən gün
yeyilsin. O, səhərə qədər qalmamalıdır.
16 Əgər kimsə verdiyi əhdə görə
yaxud könüllü təqdim olaraq qurban
gətirərsə, qurbanın əti kəsildiyi gün
yeyilsin, qalan hissəsi isə sabahkı
gün yeyilə bilər, 17 lakin üçüncü günə
qalan qurbanlıq əti yandırılsın. 18 Əgər
ünsiyyət qurbanlarının ətindən üçüncü
gün yeyilsə, o qurbanı gətirən adam
qəbul olunmaz və qurban onun xeyrinə
sayılmaz, bu ət iyrənc sayılar və onu
yeyən adam cəzasını çəkər.
19 Murdar sayılan hər hansı bir
şeyə toxunan ət yeyilməməli və
yandırılmalıdır. Hər pak adam murdar
ətdən başqa hər cür ət yeyə bilər;
20 murdar halda isə Rəbbə kəsilən
ünsiyyət qurbanının ətini yeyən hər kəs
xalqı arasından qovulsun. 21 Bir nəfər
hər hansı murdar əşyaya, insandan
ifraz olan murdarlığa yaxud murdar bir
heyvana yaxud hər hansı iyrəndirici bir
murdar şeyə toxunub sonra da Rəbbin
ünsiyyət qurbanının ətindən yeyərsə,
xalqı arasından qovulsun”».

Xalq üçün qurbanlara aid olan təlimat

22 Rəbb Musaya dedi: 23 «İsrail
övladlarına belə de: “Mal-qara, qoyun
və keçi piyini yeməyin. 24 Təbii yolla
ölən yaxud parçalanıb ölən heyvanın
piyini hər bir başqa iş üçün işlədə
bilərsiniz, lakin onu qətiyyən yemək
olmaz. 25 Rəbb üçün yandırma təqdimi
olaraq verilən heyvanın piyindən yeyən
hər kəs xalqı arasından qovulsun.

26 [t]Bütün yaşadığınız yerlərdə heç vaxt
quşların və heyvanların qanını yeməyin;
27 qan yeyən hər kəs xalqı arasından
qovulsun”».
28 Rəbb Musaya dedi: 29 «İsrail
övladlarına belə de: “Rəbbə ünsiyyət
qurbanı təqdim edən şəxs onun bir
hissəsini Rəbbin hüzuruna qurban
gətirsin. 30 Onu öz əli ilə Rəbb üçün
yandırma təqdimi olaraq gətirsin;
heyvanın piyi ilə döş ətini gətirib
Rəbbin hüzurunda yellətmə təqdimi
versin. 31 Kahin piyi qurbangahda
tüstülədib yandırsın; döş əti isə Harunla
övladlarına məxsus olsun. 32 Ünsiyyət
qurbanları olan heyvanlarınızın sağ
budunu qaldırma təqdimi kimi kahinə
verin; 33 həmin sağ bud ünsiyyət
qurbanının qanını və piyini təqdim
edən Harun övladlarının payı olsun”.
34 Çünki Mən yellədilən döş ətini və
qaldırılan budu İsrail övladlarından,
onların ünsiyyət qurbanlarından
götürüb kahin Harunla övladlarına
İsraillilərdən gələn əbədi pay kimi
vermişəm. 35 Bu, Rəbbə kahinlik etmək
üçün bunları təqdim etdiyi gün Rəbb
üçün verilən yandırma təqdimlərindən
Harunun və övladlarının payıdır;
36 Harunla övladları məsh olunduğu gün
Rəbb əmr etmişdir ki, nəsildən-nəslə
İsrail övladları bu əbədi payı onlara
versinlər».
37 Bu, yandırma qurbanına, taxıl
təqdiminə, günah qurbanına, təqsir
qurbanına, təqdis təqdiminə və ünsiyyət
qurbanına aid olan 38 Rəbbin Sina
dağında Musaya əmr etdiyi təlimatdır.
Rəbb bu təlimatı İsrail övladlarına Sina
səhrasında qurbanlarını Ona təqdim
etməklə əlaqədar əmr etdiyi gündə
vermişdi.

Harunla oğullarının kahinliyə təqdis olunması

(Çıx. 29:1-37)

8 Rəbb Musaya dedi: 2 «Harunla
oğullarını, geyimlərini, məsh yağını
və günah qurbanı kəsmək üçün bir
buğa, iki qoç, bir səbət mayasız çörək
götür. 3 Sonra bütün icmanı Hüzur
çadırının girişinə topla».
4 Musa Rəbbin əmrinə əməl etdi.
İcma Hüzur çadırının girişinə yığılanda
5 Musa onlara dedi: «Rəbbin əmr etdiyi
budur».
6 Sonra Musa Harunla oğullarını
irəli gətirib onları su ilə yuyundurdu.
7 Harunun əyninə xirqəsini geyindirib
belinə qurşağını bağladı, üstündən
cübbəsini geyindirdi və üstünə efodu
qoydu. Efodun kəmərini belinə bağlayıb
efodu özünə bərkitdi. 8 Efodun üstündən
döşlüyünü, döşlüyündə isə Urim və
Tummimi yerləşdirdi. 9 Onun başına
çalmanı, çalmanın qabaq hissəsinə
qızıl lövhəciyi olan müqəddəslik tacını
qoydu. Rəbbin Musaya əmr etdiyi kimi
oldu.
10 Musa məsh yağını götürüb məskəni
və içindəki hər şeyi məsh edərək təqdis
etdi. 11 Sonra məsh yağını qurbangaha
yeddi dəfə çiləyib onunla bütün
avadanlığını, ləyənlə altlığını da təqdis
etmək üçün məsh etdi. 12 Musa bir az
məsh yağı götürüb Harunun başına
tökərək onu təqdis etmək üçün məsh
etdi. 13 Sonra Musa Harunun oğullarını
irəli gətirdi, onlara xirqə geyindirdi,
bellərinə qurşaq bağladı və başlarına
papaq qoydu. Rəbbin Musaya əmr etdiyi
kimi oldu.
14 Bundan sonra Musa günah qurbanı
üçün nəzərdə tutulmuş buğanı gətirdi.
Harunla oğulları həmin buğanın başına
əllərini qoydular. 15 Musa buğanı

---

[t]**7:26** Yar. 9:4; Lev. 17:10-14; 19:26; Qanun. 12:16,23-25; 15:23

kəsdi, qanını götürüb barmağı ilə
qurbangahın buynuzlarının ətrafına
çəkərək qurbangahı pak etdi. Sonra
qanın qalan hissəsini qurbangahın
altlığına tökdü və murdarlığını kəffarə
etmək üçün onu təqdis etdi. 16 Musa
heyvanın içalatının üstündəki bütün
piyi, qaraciyərin quyruğa bənzər
hissəsini, hər iki böyrəklə piyini
götürərək qurbangahda tüstülədib
yandırdı. 17 Buğanı – dərisini, ətini və
bağırsaqlarını düşərgənin kənarında
yandırdı. Rəbbin Musaya əmr etdiyi
kimi oldu.
18 Musa yandırma qurbanı üçün
nəzərdə tutulmuş qoçu gətirdi.
Harunla oğulları əllərini qoçun başına
qoydular. 19 Musa qoçu kəsdi və qanını
qurbangahın hər tərəfinə səpdi. 20 Qoçu
parça-parça doğradı; Musa qoçun
başını, parçalarını və piyini tüstülədib
yandırdı. 21 Sonra içalatını və budlarını
su ilə yudu və bütün qoçu qurbangahda
tüstülədib yandırdı. Bu, yandırma
qurbanı, Rəbbin xoşuna gələn ətir –
yandırma təqdimi idi. Rəbbin Musaya
əmr etdiyi kimi oldu.
22 Musa o biri qoçu – təqdis qoçunu
gətirdi; Harun və oğulları əllərini
qoçun başına qoydular. 23 Musa
onu kəsdi; qanından bir az götürüb
Harunun sağ qulağının mərcəyinə, sağ
əlinin və sağ ayağının baş barmağına
çəkdi. 24 Bundan sonra Musa Harunun
oğullarını gətirib onların sağ qulaq
mərcəklərinə, sağ əllərinin baş
barmaqlarına və sağ ayaqlarının baş
barmaqlarına qan çəkdi. Musa heyvanın
qanını qurbangahın hər tərəfinə
səpdi. 25 Sonra piyini, quyruğunu,
içalatının üstündəki piyi, qaraciyərinin
quyruğa bənzər hissəsini, hər iki
böyrəklə piyini və sağ budunu götürdü.
26 Rəbbin önündə olan mayasız çörəklər
səbətindən bir mayasız kökə, bir zeytun
yağı ilə yoğrulmuş çörək kökəsi və bir
qoğal götürüb piylə sağ budun üstünə
qoydu. 27 O bunların hamısını Rəbbin
hüzurunda yellətmə təqdimi üçün
Harunun və oğullarının əllərinə verdi.
28 Sonra Musa həmin şeyləri onların
əllərindən alıb qurbangahda yandırma
qurbanı ilə birlikdə tüstülədib yandırdı.
Bu, təqdis qurbanı, Rəbbin xoşuna gələn
ətir – yandırma təqdimidir. 29 Musa döş
ətini götürdü və onu Rəbbin hüzurunda
yellədərək təqdim etdi. Bu, təqdis
qurbanı olan qoçdan Musanın payı idi.
Rəbbin Musaya əmr etdiyi kimi oldu.
30 Musa məsh yağını və
qurbangahdakı qanı götürüb Haruna,
onun geyimlərinə, oğullarına və
geyimlərinə çiləd i. Beləliklə, Harunu və
onun geyimlərini, oğullarını və onların
geyimlərini təqdis etdi.
31 Sonra Musa Harunla oğullarına
dedi: «Əti Hüzur çadırının girişində
qaynadın və “Harunla oğulları onu
yesin” deyib əmr etdiyimə görə onu
orada təqdis təqdimi üçün səbətdəki
çörəklə yeyin. 32 Çörəyin və ətin qalan
hissələrini yandırın. 33 Təqdis günləri
başa çatana qədər yeddi gün Hüzur
çadırının girişindən kənara çıxmayın;
çünki vəzifəyə keçmə vaxtınız yeddi
gün davam edəcək. 34 Bu gün edilən
hər şeyi Rəbb kəffarəniz üçün əmr etdi.
35 Yeddi gün ərzində gecə-gündüz Hüzur
çadırının girişində qalın və Rəbbin
buyruğuna riayət edin ki, ölməyəsiniz.
Mənə belə əmr verilib».
36 Harunla oğulları Rəbbin Musa
vasitəsilə əmr etdiyi hər şeyə əməl
etdilər.

Harun qurban gətirir

9 Bundan səkkiz gün sonra Musa
Harunla oğullarını və İsrail
ağsaqqallarını yanına çağırıb 2 Haruna
dedi: «Özün üçün günah qurbanı kimi
qüsursuz bir erkək dana və yandırma
qurbanı kimi qüsursuz bir qoç götür və

Rəbbin hüzurunda təqdim et. 3 Sonra
İsrail övladlarına de: “Günah qurbanı
kimi bir təkə, yandırma qurbanı kimi
birillik qüsursuz bir dana və birillik
qüsursuz bir toğlu, 4 Rəbbin hüzurunda
kəsilən ünsiyyət qurbanları kimi
bir buğa, bir qoç və zeytun yağı ilə
yoğrulmuş taxıl təqdimləri götürün.
Çünki bu gün Rəbb sizə görünəcək”».
5 Musanın əmr etdiyi hər şey Hüzur
çadırının önünə gətirildi. Sonra bütün
icma yaxınlaşıb Rəbbin hüzurunda
durdu. 6 Musa dedi: «Rəbb bu işi əmr
etdi ki, siz əməl edəsiniz, onda Rəbbin
izzəti sizə görünəcək». 7 [u]Musa Haruna
dedi: «Qurbangaha yaxınlaş və özün
üçün günah qurbanı ilə yandırma
qurbanını gətir. Həm özünün, həm də
xalqının günahlarını bunlarla kəffarə
et. Xalqın qurbanını da təqdim edərək
onların günahını bununla kəffarə et.
Rəbb əmr etdiyi kimi olsun».
8 Harun qurbangaha yaxınlaşıb özü
üçün günah qurbanı olan dananı
kəsdi. 9 Onun qanını Harunun oğulları
atalarına təqdim etdilər. Harun
barmağını qana batırıb qurbangahın
buynuzlarına çəkdi; qanın qalan
hissəsini isə qurbangahın altlığına
tökdü. 10 Sonra günah qurbanının
piyini, böyrəklərini, qaraciyərini,
quyruğa bənzər hissəsini qurbangahda
tüstülədib yandırdı. Rəbbin Musaya
əmr etdiyi kimi oldu. 11 Qurbanın əti ilə
dərisini düşərgənin kənarında yandırdı.
12 Bundan sonra Harun yandırma
qurbanını kəsdi. Onun qanını Harunun
oğulları atalarına gətirdilər; o da
qanı qurbangahın hər tərəfinə səpdi.
13 Parça-parça kəsilən qurbanı və
başını Haruna gətirdilər; o da onları
qurbangahda tüstülədib yandırdı.
14 Qurbanın içalatı ilə budlarını yuyaraq
qurbangahda yandırma qurbanı ilə
birgə tüstülədib yandırdı.
15 Bundan sonra Harun xalqın
qurbanını təqdim etdi. Xalq üçün günah
qurbanı olan təkəni götürüb kəsdi; onu
birinci günah qurbanı kimi gətirdi.
16 Yandırma qurbanı üçün heyvan
gətirdi və onu qayda-qanuna uyğun
olaraq təqdim etdi. 17 Sonra Harun
taxıl təqdimini gətirdi. Səhər təqdim
olunan yandırma qurbanından savayı
ovuclarını taxıl təqdimi ilə doldurub
qurbangahda tüstülədərək yandırdı.
18 [v]Harun xalq üçün ünsiyyət qurbanı
olan buğanı və qoçu kəsdi. Harunun
oğulları bunların qanını atalarına
gətirdilər; o da qanı qurbangahın hər
tərəfinə səpdi. 19 Buğanın və qoçun
piyini, quyruğunu, içalatı örtən piyini,
böyrəklərini, qaraciyərinin quyruğa
bənzər hissəsini götürüb 20 döş ətlərini
üstünə qoydular. Harun da bu piyi
qurbangahda tüstülədib yandırdı, 21 döş
ətlərini isə sağ budları ilə birlikdə
Rəbbin önündə yellədərək təqdim etdi.
Rəbbin Musaya əmr etdiyi kimi oldu.
22 [w]Harun günah qurbanını, yandırma
qurbanını və ünsiyyət qurbanını
gətirdikdən sonra əllərini xalqa doğru
uzadıb onlara xeyir-dua verdi. Sonra o
aşağı düşdü.
23 Musa ilə Harun Hüzur çadırına
girdilər. Sonra onlar çıxıb birlikdə
xalqa xeyir-dua verdilər. O vaxt Rəbbin
izzəti bütün xalqa göründü 24 və Rəbbin
hüzurundan od çıxıb qurbangahdakı
yandırma qurbanı ilə piyi yandıraraq
yox etdi. Bütün xalq bunu görərək
sevincdən qışqırıb üzüstə yerə döşəndi.

Nadavla Avihunun məhv olması

10 Harun oğulları Nadav və Avihu
buxurdanlarını götürüb içinə
közərmiş kömürlə buxur qoydular və

---

[u] **9:7** İbr. 7:27 [v] **9:18** Lev. 3:1-11 [w] **9:22** Say. 6:22-26

Rəbbin önünə haram od gətirdilər. Belə
təqdimi Rəbb əmr etməmişdi. 2 Rəbb
hüzurundan od göndərib onları məhv
etdi. Onlar Rəbbin hüzurunda öldülər.
3 Musa Haruna dedi: «Budur, Rəbb belə
demişdir:
"Mənə yaxınlaşanlar Məni müqəddəs
saysınlar;
Bütün xalq Məni izzətləndirsin"».
Harun isə susurdu.
4 Musa Harunun əmisi Uzzielin
oğulları Mişaellə Elsafanı çağırıb
dedi: «Yaxın gəlin və qardaşlarınızın
cəsədlərini Müqəddəs yerin önündən
düşərgənin kənarına aparıb qoyun».
5 Musa bu sözü deyən kimi onlar
yaxınlaşdılar və cəsədləri xirqələri
əynindəcə düşərgənin kənarına aparıb
qoydular. 6 Musa Haruna və onun sağ
qalan oğulları Eleazar və İtamara dedi:
«Siz yas tutaraq saçlarınızı dağıtmayın,
geyimlərinizi cırmayın. Yoxsa ölərsiniz
və Rəbb bütün icmaya qəzəblənər.
Ancaq bütün İsrailli soydaşlarınız
Rəbbin yandırdığı adamların yasını
tutsun. 7 Hüzur çadırının girişindən
kənara çıxmayın, yoxsa ölərsiniz, çünki
Rəbbin məsh yağı sizin üstünüzdədir».
Onlar da Musanın dediyi kimi etdilər.

Kahinlər üçün təlimat

8 Rəbb Haruna dedi: 9 «Sən və
övladların Hüzur çadırına nə şərab,
nə də başqa kefləndirici içki içib
girməyin, yoxsa ölərsiniz. Qoy bu,
nəsildən-nəslə sizin üçün əbədi qayda
olsun. 10 [x]Müqəddəslə adi şeyləri
ayırd edin, həm də pak və murdar
şeylər arasında fərq qoyun. 11 Mənim
Musa vasitəsilə bəyan etdiyim bütün
qaydaları İsrail övladlarına öyrədin».
12 [y]Musa Haruna və sağ qalan oğulları
Eleazarla İtamara dedi: «Rəbb üçün
verilən yandırma təqdimlərindən qalan
taxıl təqdimini götürün və mayasız
çörək bişirib qurbangahın yanında
yeyin, çünki bu ən müqəddəsdir.
13 Onu müqəddəs bir yerdə yeyin,
mənə verilmiş əmrə görə bu, Rəbb
üçün verilən yandırma təqdimlərindən
sənin və övladlarının payına düşür.
14 [z]Yellədilən döş ətini və qaldırılan
bud ətini isə sən, oğulların və qızların
pak bir yerdə yeyin; çünki bunlar İsrail
övladlarının ünsiyyət qurbanlarından
sənin və övladlarının payı kimi ayrılıb.
15 Qaldırılan bud ətini və yellədilən döş
ətini Rəbbin önündə yellətmək üçün
yandırma təqdimi olan piylə birlikdə
gətirin. Bu sizin və övladlarınızın əbədi
payı olacaq. Rəbb belə əmr etmişdir».
16 [a]Musa günah qurbanı olan təkəni
axtardı. O isə yandırılmışdı. Musa
Harunun sağ qalan oğullarına –
Eleazara və İtamara qəzəblənib dedi:
17 «Siz nə üçün günah qurbanını
müqəddəs sayılan yerdə yemədiniz?
Çünki bu qurban ən müqəddəsdir və sizə
verilib ki, onunla icmanın günahlarının
cəzasını üzərindən götürüb onlar
üçün Rəbbin önündə kəffarə edəsiniz.
18 Təkənin qanı içəri, Müqəddəs yerə
gətirilmədi. Mən sizə əmr etdiyim
kimi siz onun ətini mütləq Müqəddəs
yerdə yeməli idiniz». 19 Harun Musaya
dedi: «Bu gün günah qurbanı və
yandırma qurbanı Rəbbin önündə
təqdim olunmuşdur. Ancaq başıma
belə iş gəldi. Əgər mən bu gün günah
qurbanını yemiş olsaydım, o, Rəbbə
məqbul olardımı?» 20 Musa bunu eşidib
razılaşdı.

---

[x]**10:10** Yez. 22:26; 44:23 [y]**10:12** Lev. 6:14-18 [z]**10:14** Lev. 7:30-34
[a]**10:16** Lev. 6:24-26

Əti yeyilən və yeyilməyən heyvanlar

(Qanun. 14:3-21)

11 Rəbb Musa ilə Haruna belə
dedi: 2 «İsrail övladlarına belə
deyin: “Quruda yaşayan heyvanlardan
belələrinin ətini yemək olar. 3 Hər hansı
qoşadırnaqlı gövşəyən heyvanın ətini
yeyə bilərsiniz. 4 Lakin gövşəyən yaxud
qoşadırnaqlı heyvanlar içində bunları
yeməyin: dəvə, çünki o gövşəsə də,
qoşadırnaqlı deyil, buna görə də sizin
üçün haramdır; 5 qayadovşanı, çünki o
gövşəsə də qoşadırnaqlı deyil, buna görə
də sizin üçün haramdır; 6 dovşan, çünki
o gövşəsə də qoşadırnaqlı deyil, buna
görə də sizin üçün haramdır; 7 donuz,
çünki o qoşadırnaqlı olsa da, gövşəmir,
buna görə də sizin üçün haramdır.
8 Onların nə ətini yeyin, nə də leşinə
toxunun, onlar sizin üçün haramdır.
9 Sularda, dənizlərdə yaxud çaylarda
yaşayan heyvanlardan üzgəcləri və
pulcuqları olanların hamısını yeyə
bilərsiniz. 10 Amma sularda, dənizlərdə
yaxud çaylarda qaynaşan heyvanlardan
üzgəcləri və pulcuqları olmayan hər
canlı məxluq sizin üçün iyrənc olsun.
11 Onların ətini yeməyin və leşindən
iyrənin; onlar sizin üçün iyrənc olsun.
12 Sularda üzgəcləri və pulcuqları
olmayanların hamısı sizin üçün iyrənc
olsun.
13 Quşlardan bunları iyrənc olduğuna
görə yeməyin: qartal, keçələkərkəs,
qaraquş, 14 çalağan, bütün şahin
cinsindən olanlar, 15 bütün qarğa
cinsindən olanlar, 16 dəvəquşu, bayquş,
qağayı, bütün qırğı cinsindən olanlar,
17 yapalaq, qarabatdaq, böyük bayquş,
18 ağ bayquş, qutan, leş kərkəsi,
19 leylək, bütün vağ cinsindən olanlar,
şanapipik, yarasa.
20 Dördayaqla gəzən, qanadlı
qaynaşan heyvanların hamısı da sizin
üçün iyrənc olsun. 21 Lakin dördayaqla
gəzən, qanadlı qaynaşan heyvanlardan
yerdə sıçramaq üçün oynaqlı ayaqları
olanları yeyə bilərsiniz; 22 onlardan
bütün çəyirtkə cinsindən olanları, bütün
keçəl çəyirtkə cinsindən olanları, bütün
sisək cinsindən olanları, bütün şala
cırcıraması cinsindən olanları yemək
olar. 23 Bütün digər dördayaqlı qanadlı
qaynaşan heyvanlar isə sizin üçün
iyrənc olsun.
24 Bu heyvanlardan siz özünüz
murdar ola bilərsiniz. Hər kim
onların leşinə toxunursa, axşama
qədər murdar sayılsın. 25 Onların
leşindən bir hissəsini daşıyan hər kəs
də geyimlərini yusun; axşama qədər
murdar sayılsın. 26 Qoşadırnağı olmayan
yaxud gövşəməyən hər dırnaqlı heyvan
sizin üçün murdar olsun. Onların
leşinə toxunan hər kəs murdar sayılsın.
27 Pəncələri üstündə yeriyən dördayaqlı
hər heyvan sizin üçün murdar olsun;
onların leşinə toxunan hər kəs axşama
qədər murdar sayılsın. 28 Onların leşini
daşıyan geyimlərini yusun və axşama
qədər murdar sayılsın. Bu heyvanlar
sizin üçün murdar sayılsın.
29 Yerdə qaynaşan heyvanlar arasında
sizin üçün murdar olan bunlardır:
kor siçan, siçan, hər növ kərtənkələ,
30 gekkon, varan, kərtəncik, kələz,
buqələmun. 31 Bunlar bütün qaynaşan
heyvanlar arasında sizin üçün murdar
olsun. Onların leşinə toxunan hər kəs
axşamadək murdar sayılsın. 32 Onlardan
birisinin leşi üstünə düşən hər şey
murdar sayılsın. Hər taxta, parça,
dəri yaxud giş əşya nə cür iş üçün
işlənsə, suya salınsın. Axşama qədər
murdar sayılsın, axşamdan sonra təmiz
sayılsın. 33 Onlardan biri gil qabın içinə
düşsə, onun içindəki hər şey murdar
sayılsın və qab qırılsın. 34 Belə bir
qabdan su xörəyin içinə tökülsə, o xörək
murdarlanır. Bu cür qabın içində hər
içki murdarlanır. 35 O heyvanlardan

birinin leşi üstünə düşən hər bir şey murdar sayılsın. İstər təndir, istərsə də ocaq sökülsün, çünki murdarlanıb; onlar sizin üçün murdar olsun. 36 Ancaq su bulağı yaxud su anbarı pak sayılsın. Bu heyvanların leşinə toxunan hər kəs murdar sayılsın. 37 Bunlardan birinin leşi əkin üçün ayrılmış toxumun üstünə düşərsə, o toxum təmiz sayılsın. 38 Amma leş suya salınmış toxumun üstünə düşərsə, toxum sizin üçün murdar olsun.

39 Əti sizin üçün yeməli olan heyvanlardan biri ölərsə, leşinə toxunan adam axşama qədər murdar sayılsın. 40 O heyvanın leşindən yeyən adam geyimini yusun və axşama qədər murdar sayılsın. Leşini daşıyan adam da geyimləri yusun və axşama qədər murdar sayılsın.

41 Yer üzündə sürünən hər qaynaşan heyvan sizin üçün iyrənc olsun; onu yeməyin. 42 İstər qarnı üstündə, istər dörd ayağı ilə sürünən ya da yer üzündəki çoxayaqlı olan qaynaşan heyvanlardan yeməyin, çünki onlar iyrəncdir. 43 Qaynaşan heyvanların heç biri ilə özünüzü iyrənc edib murdarlamayın, çünki onlara görə siz murdar olarsınız.

44 [b]Allahınız Rəbb Mənəm. Özünüzü təqdis edin və müqəddəs olun, çünki Mən müqəddəsəm; özünüzü yerdə sürünən heç bir qaynaşan heyvanla murdar etməyin. 45 Çünki Allahınız olmaq üçün sizi Misir torpağından çıxaran Rəbb Mənəm. Müqəddəs olun, çünki Mən müqəddəsəm”».

46 Heyvan, quş, sularda üzən hər cür canlı məxluq, yer üzündə qaynaşan hər cür heyvan haqqında təlimat budur. 47 Bununla pakla murdar şeylər arasında, yeyilən və yeyilməyən heyvanlar arasında fərq qoyulur.

Zahı qadınlar üçün qaydalar

12 Rəbb Musaya dedi: 2 «İsrail övladlarına belə de: “Hamilə olub oğlan uşağı doğan bir qadın aybaşı, murdarlıq dövründə olduğu kimi yeddi gün murdar sayılsın. 3 [c]Səkkizinci gün uşaq sünnət olunsun. 4 Qadın qanaxmadan paklanmaq üçün daha otuz üç gün gözləsin. Bu paklanma dövrü bitənə qədər qadın heç bir müqəddəs şeyə toxunmamalı və Müqəddəs məkana yaxınlaşmamalıdır.

5 Əgər bir qadın qız uşağı doğarsa, aybaşı vaxtı kimi iki həftə murdar sayılsın və paklanmaq üçün əlavə olaraq altmış altı gün gözləsin.

6 Oğlan yaxud qız uşağı doğub paklanma müddəti bitəndə qadın Hüzur çadırının girişinə birillik toğlunu yandırma qurbanı kimi və göyərçin yaxud qumru quşunu kahinin yanına günah qurbanı kimi gətirsin. 7 Kahin bunları Rəbbin hüzurunda qurban gətirib, zahı qadın üçün kəffarə etsin ki, o qan axmasından pak olsun. Qız ya oğlan doğan zahı qadın üçün təlimat budur.

8 [d]Əgər qadının toğlu gətirməyə gücü çatmırsa, onda birini yandırma qurbanı, o birini isə günah qurbanı olaraq iki qumru quşu yaxud iki göyərçin gətirsin. Bununla kahin həmin zahı üçün kəffarə etsin ki, o pak olsun”».

Cüzam və dəri xəstəlikləri

13 Rəbb Musaya və Haruna dedi: 2 «Bir adamın dərisində şiş yaxud səpki yaxud ləkə əmələ gəlib dəridə cüzam [*]kimi görünən bir əlaməti olarsa,

[*]**13:2** *Cüzam* – yaxud *iyrənc dəri xəstəliyi.*

[b]**11:44** Lev. 19:2; 1Pet. 1:16 [c]**12:3** Yar. 17:12; Luka 1:59; 2:21
[d]**12:8** Luka 2:24

qoy o adam kahin Harunun yaxud onun
nəslindən olan kahinlərin birinin yanına
gətirilsin. 3 Kahin dəridəki əlamətə
baxsın. Əlamət üstündəki tükləri ağardıb
dəridən dərin görünsə, bu, cüzamın
bir əlamətidir. Kahin baxıb o adamı
murdar elan etsin. 4 Əgər dərisindəki
ləkə ağ olub dəridən dərin görünməsə
və üstündəki tükləri ağartmasa, kahin
azarlını yeddi gün müddətinə təcrid
etsin. 5 Yeddinci gün kahin ona baxsın.
Onun nəzərində əlamət yerində qalıb
dərisinə yayılmayıbsa, kahin onu yenə
də yeddi gün müddətinə təcrid etsin.
6 Yeddinci gün kahin yenə də ona
baxsın. Əlamət dərisinə yayılmayıb,
solubsa, kahin o adamı pak elan etsin.
Bu azar dəri səpməsidir. Qoy o adam
geyimlərini yusun, sonra pak sayılsın.
7 Lakin kahin ona baxıb pak saydıqdan
sonra səpmə dərisinə yayılırsa, o yenə
də özünü kahinə göstərsin. 8 Kahin
yenə də ona baxsın, dərisindəki səpmə
yayılıbsa, kahin o adamı murdar elan
etsin. Bu cüzamdır.

9 Bir adamın dərisində cüzam əlaməti
əmələ gələrsə, qoy o adam kahinin
yanına gətirilsin. 10 Kahin ona baxsın,
dəridəki tükləri ağardan xoralı ağ bir
şiş varsa, 11 bu, bədəninin dərisində kök
salmış cüzamdır. Kahin o adamı murdar
elan etsin, amma təcrid etməsin, çünki o
murdardır. 12 Əgər cüzam dəriyə yayılıb
bütün bədəni bürüsə və əlamətin onu
təpədən dırnağadək tutması kahinə
görünsə, 13 qoy kahin diqqətlə baxsın.
Cüzam bütün bədəni bürüyübsə, kahin
azarlını pak elan etsin. Ağardığı üçün o
adam pak sayılsın. 14 Lakin o adamda
xoralanma görünsə o, murdar sayılsın.
15 Kahin o adama baxıb xoralanma
görsə, onu murdar elan etsin. Xoralanma
murdardır, o, cüzamdır. 16 Xoralanma
sağalıb ağardığı halda o adam kahinin
yanına getsin 17 və kahin ona baxsın;
əlamət ağarıbsa, o adamı pak elan etsin,
çünki o, pakdır.

18 Bir adamın dərisində çiban əmələ
gəlib sağaldıqdan sonra 19 və yerində
ağ şiş yaxud qırmızımtıl-ağ parlaq ləkə
əmələ gələn halda bu əlamət kahinə
göstərilsin. 20 Kahin ləkəyə baxsın,
üstündəki tükləri ağarıb dəridən dərin
görünsə, kahin o adamı murdar elan
etsin. Bu, çibanla başlanan cüzamdır.
21 Əgər kahin baxıb görsə ki, ləkənin
üstündəki ağ tüklər yoxdur və ləkə
dəridən dərin deyil, solğundur, onda
kahin azarlını yeddi gün müddətinə
təcrid etsin. 22 Əgər dəridəki ləkə
yayılırsa, kahin adamı murdar elan
etsin. Çünki bu, əlamətdir. 23 Amma
ləkə yerində qalıb yayılmayıbsa, bu,
çibandan qalan çapıqdır. Kahin o adamı
pak elan etsin.

24 Bir adamın dərisində olan yanıq
yerində qırmızımtıl-ağ yaxud ağ parlaq
ləkə əmələ gələrsə, 25 kahin ləkəyə
baxsın, ləkə üstündəki tükləri ağardıb
dəridən dərin görünsə, bu yanıqda
başlanan cüzamdır. Kahin o adamı
murdar elan etsin, çünki bu cüzamın
əlamətidir. 26 Əgər kahin baxıb görsə
ki, ləkənin üstündə ağ tüklər yoxdur və
ləkə dəridən dərin olmayaraq solğun
görünür, bu halda kahin azarlını
yeddi gün müddətinə təcrid etsin.
27 Yeddinci gün kahin yenə azarlıya
baxsın. Əgər ləkə dəriyə yayılıbsa, kahin
o adamı murdar elan etsin; bu, cüzamın
əlamətidir. 28 Amma ləkə yerində qalıb
dərisində yayılmayıbsa və solubsa, bu,
yanıqdan qalan şişdir; kahin o adamı
pak elan etsin, çünki bu, yanıqdan qalan
izdir.

29 Bir kişinin ya qadının başında ya
çənəsində əlamət olanda 30 kahin ona
baxsın. Əlamət dəridən dərin görünürsə
və üstündəki tüklər sarı və nazikdirsə,
kahin onu murdar elan etsin. Bu başda
ya da çənədə iyrənc xəstəlik – qoturdur.

31 Kahin qotur əlamətinə baxsın. Əlamət
dəridən dərin görünməyib üstündə
qara tüklər olmayan halda kahin qotur
adamı yeddi gün müddətinə təcrid
etsin. 32 Kahin yeddinci gün yenə də
əlamətə baxsın, qoturluq yayılmayıbsa,
üstündəki tüklər saralmayıbsa, qoturluq
da dəridən dərin görünmürsə, 33 qoy o
adam qoturluq olan yerdən başqa bütün
bədənini qırxsın. Sonra kahin onu yenə
də yeddi gün müddətinə təcrid etsin.
34 Yeddinci gün kahin yenə də əlamətə
baxsın. Əgər qotur dəriyə yayılmayıbsa
və dəridən dərin görünməsə, kahin
o adamı pak elan etsin. Qoy o adam
geyimlərini yusun, sonra da pak
sayılsın. 35 Lakin əgər kahin xəstəni
pak saydıqdan sonra qoturluq dəriyə
yayılırsa, 36 kahin ona təkrarən baxsın.
Qoturluq dərisinə yayılıbsa, kahin
üstündəki sarı tükün olub-olmamasına
baxmasın. O adam murdar sayılsın.
37 Lakin kahinin nəzərində qoturluq
yerində qalıbsa və üstündə qara tük
əmələ gəlirsə, qotur keçir və onda o
adam pak sayılsın, kahin onu pak elan
etsin.

38 Bir kişinin yaxud qadının dərisində
ağ parlaq ləkələr olarsa, 39 qoy kahin
baxsın; dərisində donuq ağ ləkələr
varsa, bu başlanan dəmrovdur. O adam
pak sayılsın.

40 Başının təpəsində saçı tökülmüş
kişi dazdır. O pak sayılsın. 41 Əgər
alnından saçı tökülübsə, o adamın alnı
açılmışdır və o pak sayılsın. 42 Lakin
daz və yaxud alnı açılmış adamın saçı
tökülən yerdən qırmızımtıl-ağ ləkə
çıxarsa, bu həmin yerdə başlanan
cüzamdır. 43 Kahin oraya baxsın, saçı
tökülmüş yerdəki şişqırmızımtıl-ağdırsa
və cüzam kimi görünürsə, 44 o kişi
iyrənc xəstəliyə tutulduğu üçün murdar
sayılsın. Başındakı əlamətə görə kahin
mütləq onu murdar elan etsin.

45 Belə iyrənc xəstəliyə tutulan
adamın geyimləri cırıq, saçı isə
dağınıq olmalıdır. O adam üzünün
aşağı hissəsini örtüb "Murdaram!
Murdaram!" deyə çığırsın. 46 Dərisində
əlamət olduğu bütün müddət o murdar
sayılsın. Murdarlığına görə düşərgədən
kənarda tək yaşasın.

Parçadakı iyrənc kif

47 Üstündə iyrənc kif əlaməti olan
hər cür parça: yun ya da kətan geyim
48 yaxud hər cür toxunma parça yaxud
dəri və hər dəri məmulatı haqqında
təlimat budur. 49 Ya geyimdə, dəridə ya
da hər cür parçada, dəridən düzəlmiş
hər bir əşyada əmələ gələn əlamət
yaşıltəhər və ya qırmızımtıl olsa, bu,
iyrənc kif əlamətidir. Qoy bu, kahinə
göstərilsin. 50 Kahin ona baxıb, əşyanı
yeddi gün müddətinə təcrid etsin.
51 Yeddinci gün yenə də ona baxıb
görsə ki, geyimə, parçaya, dəriyə yaxud
dəridən düzəlmiş məmulata əlamət
yayılıb, bu əlamət təhlükəli iyrənc
kifdir, murdar sayılsın. 52 Üstündə
əlamət olan yun ya da kətan geyimi
yaxud parçanı yaxud dəridən olan
əşyanı kahin yandırsın. Bu, iyrənc
təhlükəli kifdir, yandırılsın.

53 Amma əgər kahin baxıb görsə ki,
geyimə, parçaya yaxud dəridən olan
əşyaya əlamət yayılmayıb, 54 kahin əmr
versin ki, üstündə əlamət olan hər şey
yuyulsun. Sonra onu yenə də yeddi
gün müddətinə təcrid etsin. 55 Əlamət
yuyulduqdan sonra kahin yenə də o
şeyə baxsın. Əlamət yayılmadığı halda
görkəmini dəyişməyibsə, o şey murdar
sayılsın. Əlamət istər ön, istərsə arxa
tərəfindən olsun, onu yandırmalısınız.
56 Lakin kahin baxıb görsə ki, əlamət
yuyulduqdan sonra rəngi solub, qoy
onu geyimdən, dəridən yaxud parçadan
qopartsın. 57 Əgər bundan sonra əlamət
geyimdə, parçada yaxud dəri əşyada

yenidən əmələ gələrsə, o əşyanın sahibi
onu yandırsın. 58 Yuyulduqdan sonra
əlamət üstündən yox olan paltar, parça
yaxud dəri əşya yenə də yuyulub pak
sayılsın.
59 Bu, yun və ya kətan geyimdə, hər
toxunma parçada və dəridən olan hər
əşyada əmələ gələn iyrənc kif əlamətinə
əsasən onu pak ya murdar saymaq üçün
təlimatdır».

Cüzam haqqında

14 Rəbb Musaya dedi: 2 [e]«Dərisində
cüzam olan adamın paklanması
haqqında təlimat budur. Bu adam
kahinin yanına gətirildikdə 3 kahin
düşərgədən kənara çıxıb cüzama
tutulan xəstəyə baxsın; onun dərisindəki
əlamətlər sağalıbsa, 4 onda qoy kahin
paklanan adam üçün iki pak diri
quş, sidr ağacının budağı, al rəngli
ip və züfa otu gətirməyi əmr etsin.
5 Kahinin buyurduğuna görə quşların
biri saxsı qabda axar su üzərində
kəsilsin. 6 Sonra kahin sağ qalan quşu,
sidr ağacının budağını, al rəngli ipi
və züfa otunu götürüb, axar suyun
üzərində kəsilən quşun qanına batırsın.
7 Sonra qoy cüzamdan paklanan adamın
üstünə yeddi dəfə qanı çiləyib onu
pak elan etsin. Sağ qalan quşu çölə
buraxsın. 8 Paklanan adam geyimlərini
yusun, özünü bütünlüklə qırxsın, su
ilə yuyunsun; sonra pak sayılsın və
düşərgəyə girsin. Amma o, yeddi gün
ərzində öz çadırından kənarda yaşasın.
9 Yeddinci gün o adam saçını, saqqalını,
qaşlarını, bədənindəki bütün tüklərini
qırxsın, geyimini yusun, bədənini su ilə
yusun, sonra pak sayılsın.
10 Səkkizinci gün o adam qüsursuz
iki erkək toğlu, birillik qüsursuz dişi
toğlu, taxıl təqdimi olaraq bir efanın
onda üç hissəsi miqdarında zeytun yağı
ilə yoğrulmuş un və bir loq zeytun
yağı gətirsin. 11 Paklanma mərasimi ilə
məşğul olan kahin paklanan adamı və
gətirdiyi təqdimləri Rəbbin hüzuruna
– Hüzur çadırının girişinə gətirsin.
12 Kahin erkək toğluların birini götürüb
zeytun yağı ilə təqsir qurbanı kimi
təqdim etsin. Onları Rəbbin hüzurunda
yellədərək təqdim etsin. 13 Toğlunu
günah qurbanı və yandırma qurbanı
kəsdiyi yerdə – müqəddəs sayılan
yerdə kəssin; çünki günah qurbanı
kimi təqsir qurbanı da kahinə aiddir.
O qurban ən müqəddəsdir. 14 Sonra
kahin təqsir qurbanının qanından
bir az götürüb paklanan adamın sağ
qulağının mərcəyinə, sağ əlinin və
sağ ayağının baş barmağına çəksin.
15 Kahin bir az zeytun yağı götürüb
sol ovcuna töksün və 16 sağ əlinin bir
barmağını sol ovcundakı zeytun yağına
batıraraq Rəbbin hüzurunda yeddi dəfə
çiləsin. 17 Ovcunda qalan yağdan kahin
paklanan adamın sağ qulaq mərcəyinə,
sağ əlinə və sağ ayağının baş barmağına,
yəni təqsir qurbanının qanından çəkdiyi
yerlərə sürtsün. 18 Kahin ovcundakı
yağın qalan hissəsini bu adamın başına
çəkib bununla onun üçün Rəbbin
önündə kəffarə etsin. 19 Bundan sonra
kahin günah qurbanını kəssin. Bununla
paklanan adam üçün murdarlığını
kəffarə etsin. Sonra isə yandırma
qurbanını kəsib 20 onunla taxıl
təqdimini qurbangahda təqdim etsin.
Beləcə kahin o adam üçün kəffarə etsin
ki, o pak sayılsın.
21 Əgər o adam yoxsuldur və bu
təqdimlərə gücü çatmırsa, özünün
kəffarəsi üçün yellədilən təqsir qurbanı
kimi bir erkək toğlu, taxıl təqdimi
kimi zeytun yağı ilə yoğrulmuş onda
bir efa narın unla bir loq zeytun yağı,
22 biri günah qurbanı, o biri yandırma

---

[e] **14:2** Mat. 8:4; Mark 1:44; Luka 5:14; 17:14

qurbanı olaraq iki qumru quşu yaxud
iki göyərçin götürsün. Bunlara gücü
çatar. 23 Paklanmasının səkkizinci
günü bu adam bunları kahinin yanına,
Hüzur çadırının girişinə – Rəbbin
hüzuruna gətirsin. 24 Kahin təqsir
qurbanı olan toğlunu və bir loq zeytun
yağını götürüb yelləmə təqdimi olaraq
Rəbbin hüzurunda yelləsin və 25 təqsir
qurbanı olan toğlunu kəssin. Sonra
kahin təqsir qurbanının qanından bir
az götürüb paklanan adamın sağ qulaq
mərcəyinə və sağ əli ilə sağ ayağının baş
barmaqlarına çəksin. 26 Kahin zeytun
yağından bir az sol ovcuna töksün 27 və
sağ əlinin bir barmağı ilə sol ovcundakı
yağdan Rəbbin hüzurunda yeddi dəfə
çiləsin. 28 Ovcundakı yağdan paklanan
adamın sağ qulaq mərcəyinə, sağ əlinin
və sağ ayağının baş barmağına, yəni
təqsir qurbanının qanını çəkdiyi yerlərə
çəksin. 29 Kahin ovcundakı yağın qalan
hissəsini bu adamın başına çəksin.
Bununla o adam üçün Rəbbin önündə
kəffarə etsin. 30 Sonra bu adam gücü
çatan qədər qumru quşlarından ya
göyərçinlərdən birini təqdim etsin.
31 Gücü çatan qədər birini günah
qurbanı kimi, o birisini isə taxıl təqdimi
ilə birgə yandırma qurbanı kimi təqdim
etsin. Beləcə kahin paklanan adam
üçün Rəbbin önündə kəffarə etsin».
32 Bu, dərisində cüzamın əlaməti olub
paklanmasına gücü çatmayan adam
üçün təlimatdır.

Evlərdəki iyrənc kif

33 Rəbb Musaya və Haruna dedi:
34 «Sizə mülk olaraq verəcəyim
Kənan torpağına girəndən sonra Mən
ölkənizdə olan bir evə iyrənc kif
əlaməti göndərsəm, 35 qoy ev sahibi
gedib kahinə “evimdə kifə bənzər
bir şey görünüb” deyə xəbər versin.
36 Kahin kifə baxmazdan əvvəl evi
boşaltmağı əmr etsin ki, evdə hər bir
əşya murdar sayılmasın, sonra o evə
baxmağa getsin. 37 Əlamətə baxsın:
evin divarlarında yaşıltəhər yaxud
qırmızımtıl, divarın səthindən dərin
görünən ləkələr varsa, 38 kahin evdən
çıxsın və onu bağlayıb yeddi gün
müddətinə təcrid etsin. 39 Yeddinci gün
kahin yenə də gəlib baxsın. Əlamət
evin divarına yayılıbsa, 40 onda əmr
etsin ki, kifli daşlar qoparılsın və
şəhərdən kənara – murdar yerə atılsın.
41 Sonra evin içinin hər tərəfini qaşıyıb
təmizləsinlər və qaşıdıqları malanı
şəhərdən kənara – həmin murdar yerə
töksünlər. 42 Qoparılmış daşların yerinə
başqa daşları götürüb qoysunlar, sonra
təzə mala götürüb evi malalasınlar.
43 Əgər daşları qopardıqdan və evi
qaşıyıb malalayandan sonra yenə də
evdə kif əlaməti əmələ gəlsə, 44 kahin
gedib baxsın. Əlamət evə yayılıbsa,
evdə olan təhlükəli, iyrənc kif budur və
o murdar sayılsın. 45 Belə halda qoy ev
sökülsün, onun daşları, taxtaları, bütün
malası şəhərdən kənara – murdar yerə
atılsın. 46 Ev bağlı olduğu vaxt ərzində
evə girən hər bir adam axşama qədər
murdar sayılsın. 47 O evdə yeyən yaxud
yatan adam geyimlərini yusun.
48 Ev malalanandan sonra kahin
gəlib evə baxanda görsə ki, əlamət evə
yayılmayıb, o, evi pak elan etsin, çünki
kif keçib gedib. 49 O, evi pak etmək üçün
iki quş, sidr ağacının budağı, al rəngli ip
və züfa otunu götürüb 50 quşların birini
saxsı qabda axar su üzərində kəssin.
51 Sonra kahin sidr ağacının budağını,
züfanı, al rəngli ipi və sağ qalan quşu
götürüb kəsilən quşun qanına və axar
suya batırsın, evə yeddi dəfə çiləyərək
52 quşun qanı, axar su, sağ qalan quş,
sidr ağacının budağı, züfa otu və al
rəngli iplə o evi pak etsin. 53 Qoy kahin
sağ qalan quşu şəhərdən kənara – çölə
buraxsın. Beləcə o evi kəffarə etsin ki, o
pak sayılsın».

54 Bu, hər cür cüzam, qotur,
55 geyimlərdə və evlərdə əmələ gələn
iyrənc kif, 56 şiş, səpki və ləkə, 57 belə
cüzamın nə vaxt murdar, nə vaxt
pak sayılması barədə müəyyən edən
təlimatdır.

Xəstəliyə görə bədən axıntıları

15 Rəbb Musaya və Haruna dedi:
2 «İsrail övladlarına belə deyin:
“Bir nəfərin xəstəliyə görə bədən axıntısı
olarsa, o murdar sayılsın. 3 Xəstəliyə
görə bədən axıntısı istər sərbəst axsın,
istərsə də qatılaşsın, o şəxs murdar
sayılır. 4 Üstündə yatdığı hər yataq və
oturduğu hər şey murdar sayılsın. 5 Kim
onun yatağına toxunarsa, geyimini
yusun, su ilə yuyunsun; sonra axşama
qədər murdar sayılsın. 6 Xəstəliyə
görə bədən axıntısı olan şəxs üstündə
oturduğu əşyanın üstündə oturan
hər kəs də geyimlərini yusun, su ilə
yuyunsun, sonra axşama qədər murdar
sayılsın. 7 Xəstəliyə görə bədən axıntısı
olan şəxsin bədəninə toxunan hər kəs də
geyimini yusun və özü su ilə yuyunsun,
sonra axşama qədər murdar sayılsın.
8 Xəstəliyə görə bədən axıntısı olan şəxs
pak adama tüpürsə, o adam geyimini
yusun, su ilə yuyunsun. O, axşama
qədər murdar sayılsın. 9 Xəstəliyə görə
bədən axıntısı olan şəxsin mindiyi hər
yəhər murdar sayılsın. 10 Onun altında
olmuş hər şeyə toxunan hər kəs də
geyimlərini yusun, su ilə yuyunsun,
sonra axşama qədər murdar sayılsın;
belə şey daşıyan hər kəs də geyimini
yusun. 11 Xəstəliyə görə bədən axıntısı
olan şəxs əllərini yumamış kimə
toxunarsa, o adam geyimlərini yusun və
su ilə yuyunsun, sonra axşama qədər
murdar sayılsın. 12 Xəstəliyə görə bədən
axıntısı olan şəxsin toxunduğu hər saxsı
qab sındırılsın, taxta qab isə su ilə
yuyulsun.

13 Bu adam öz axıntısı kəsildiyi halda
paklanmaq üçün yeddi gün gözləsin,
geyimini yusun, bədənini axar su ilə
yusun, sonra pak sayılsın. 14 Səkkizinci
gün iki qumru quşu ya iki göyərçin
götürüb Rəbbin hüzuruna – Hüzur
çadırının girişinə gəlsin və bunları
kahinə versin. 15 Kahin quşların birini
günah qurbanı, o birini isə yandırma
qurbanı kimi təqdim etsin. Bunlarla
kahin o şəxs üçün axıntısına görə
Rəbbin önündə kəffarə etsin.

Cinsi axıntı

16 Toxumu tökülən hər kişi bütün
bədənini su ilə yusun, sonra axşama
qədər murdar sayılsın. 17 Üstünə toxum
tökülüb bulaşan hər geyim ya da dəri
əşya yuyulsun, sonra axşama qədər
murdar sayılsın. 18 Kişi qadınla yaxınlıq
edəndə toxumu tökülsə, hər ikisi su ilə
yuyunsun. Sonra onlar axşama qədər
murdar sayılsın.

Qadınların qanaxması

19 Aybaşı vaxtı qanaxması olan hər
qadın yeddi gün murdar sayılsın, ona
toxunan hər kəs isə axşama qədər
murdar sayılsın. 20 Aybaşı müddəti
qadın nəyin üzərində uzanıb və yaxud
otursa, hər şey murdar sayılsın. 21 O
qadının yatağına toxunan hər kəs öz
geyimlərini yusun, su ilə yuyunsun və
axşama qədər murdar sayılsın. 22 O
qadının oturduğu hər şeyə toxunan
hər kəs də geyimlərini yusun, su ilə
yuyunsun, sonra axşama qədər murdar
sayılsın. 23 Əgər bir adam o qadının
yatağına ya üstündə oturduğu şeyə
toxunsa, o adam axşama qədər murdar
sayılsın. 24 Əgər kişi qadınla yaxınlıq
edən zaman qadın aybaşı görsə və
kişi onunla bulaşsa, kişi də yeddi gün
murdar sayılsın; kişinin yatdığı hər
yataq da murdar sayılsın.

25 Bir qadının aybaşı vaxtından kənar
ya da sonra neçə gün davam edən
qanaxması olarsa, bütün bu axıntı
müddəti aybaşı murdarlığı dövründəki
kimi murdar sayılsın. 26 Bütün axıntı
vaxtı aybaşı murdarlığı vaxtı kimi
üstündə yatdığı yataq və oturduğu
hər şey murdar sayılsın. 27 Onlara
toxunan hər kəs də murdar sayılsın.
Qoy o, geyimini yusun, su ilə yuyunsun
və axşama qədər murdar sayılsın.
28 Əgər axıntısı kəsilsə, o qadın yeddi
gün gözləsin, sonra pak sayılsın.
29 Səkkizinci gün həmin o qadın iki
qumru quşu yaxud iki göyərçin götürüb
Hüzur çadırının girişinə, kahinin yanına
gətirsin. 30 Kahin quşların birini günah
qurbanı, o birisini isə yandırma qurbanı
kimi təqdim etsin. Bunlarla kahin bu
qadın üçün axıntısının murdarlığını
Rəbbin önündə kəffarə etsin.
31 Beləcə İsrail övladlarını öz
murdarlığından ayırın ki, aralarında
olan Mənim məskənimi murdarlığı ilə
murdar edib ölməsinlər”».
32 Bu təlimat xəstəliyə görə bədən
axıntısı olan adamlar üçün, toxumu
tökülməklə murdarlanan hər kişi üçün,
33 aybaşı olub murdarlanan hər qadın
üçün, axıntı növünə görə olan hər kişi
və hər qadın üçün, murdar qadınla
yaxınlıq edən hər kişi üçündür.

Kəffarə günü

16 [f]Harunun iki oğlu Rəbbin
hüzuruna yaxınlaşıb öləndən
sonra Rəbb Musaya dedi: 2 «Qardaşın
Haruna söylə ki, istənilən vaxt pərdənin
iç tərəfindəki Müqəddəs yerə, sandıq
üzərindəki kəffarə qapağının önünə
keçməsin ki, özü ölməsin, çünki
Mən kəffarə qapağının üzərindəki
buludda zahir oluram. 3 [g]Buna görə
Harun Müqəddəs yerə yalnız belə
girə bilər: günah qurbanı üçün bir
buğa və yandırma qurbanı üçün bir
qoç götürsün; 4 müqəddəs kətan xirqə
geysin, əynində kətan alt paltarı da
olsun, belinə kətan qurşaq bağlasın,
başına çalma qoysun. Bunlar müqəddəs
geyimlərdir. Qoy Harun əvvəl bədənini
su ilə yusun, sonra onları geysin. 5 İsrail
övladlarının icmasından günah qurbanı
iki təkə və yandırma qurbanı üçün bir
qoç götürsün.
6 Harun özü üçün günah qurbanı
olan buğanı təqdim etsin. Bununla
həm özü, həm də ailəsi üçün günahını
kəffarə etsin. 7 Sonra Harun iki təkəni
götürüb Rəbbin önündə Hüzur çadırının
girişində saxlasın. 8 Harun bu təkələrdən
birini Rəbb üçün, o birisini Azazel
*üçün püşklə seçsin. 9 Sonra Harun
püşklə Rəbbə məxsus olan təkəni günah
qurbanı olaraq təqdim etsin. 10 Püşklə
Azazel olmaq üçün seçilən təkəni isə
Rəbbin önündə diri saxlasın ki, onu
sonra Azazel olaraq çölə göndərib
onunla kəffarə etsin.
11 Harun özü ilə ailəsi üçün kəffarə
edən günah qurbanını – buğanı kəssin.
12 Rəbbin hüzurundan, qurbangahdan
gətirilən közərmiş kömürlə dolmuş bir
buxurdan götürüb, iki ovuc dolu narın
əzilən xoş ətirli buxurla pərdənin iç
tərəfinə keçsin. 13 Rəbbin hüzurunda
buxuru oda qoysun. Beləcə buxur
tüstüsü bulud ilə Şəhadət sandığının
üzərində olan kəffarə qapağını örtsün
ki, özü ölməsin. 14 Buğanın qanından
götürüb barmağı ilə qapağın ön tərəfinə

---

*16:8 *Azazel* – xalqın günahını kəffarə etmək üçün çölə qovulan təkə. Kəffarə günü bu təkə xalqın bütün günahını özündə daşıyıb çölə qovulub yox olurdu və bu xalqın günahının gedib yox olmasının rəmzidir.

[f]**16:1** İbr. 6:19 [g]**16:3** İbr. 9:7

– qapağın qarşısına da yeddi dəfə
çiləsin.
15 [h]Sonra xalq üçün günah qurbanı
olan təkəni kəssin və onun qanını
pərdənin iç tərəfinə gətirib qanını
buğanın qanı kimi kəffarə qapağının ön
tərəfinə və qarşısına çiləsin. 16 Bununla
Harun İsrail övladlarının murdarlığına,
qanunsuzluğuna və bütün günahlarına
görə Müqəddəs yer üçün kəffarə etsin;
murdar xalqın arasında yerləşdiyinə
görə Hüzur çadırı üçün belə etsin.
17 Müqəddəs yerdə kəffarə etməyə
girəndən çıxana qədər Hüzur çadırında
da heç kim olmasın. Harun özü, ailəsi
və bütün İsrail camaatı üçün kəffarə
edib 18 çıxsın, sonra Rəbbin önündə olan
qurbangaha gedib onun üçün kəffarə
etsin; buğanın və təkənin qanından
götürüb qurbangahın buynuzlarının
ətrafına çəksin. 19 Harun qurbangahın
üstünə barmağı ilə yeddi dəfə qan
çiləsin. Beləcə onu İsrail övladlarının
murdarlığından pak edib təqdis edin.
20 Qoy Harun Müqəddəs yeri, Hüzur
çadırını, qurbangahı kəffarə edib
qurtarandan sonra sağ qalan təkəni
gətirsin 21 və iki əlini o təkənin
başına qoyub İsraillilərin bütün
qanunsuzluğundan və günahlarından
ötrü qazandığı cəzanın hamısını
onun üzərində etiraf etsin və təkənin
başına ötürsün. Sonra bu iş üçün təyin
olunan bir adamın vasitəsilə çöldə yola
salınsın. 22 Təkə onların bütün cəzasını
öz üzərində ayaq dəyməmiş torpağa
aparsın. O adam təkəni çöldə yola
salsın.
23 [i]Harun Hüzur çadırına girsin və
Müqəddəs yerə girən zaman geymiş
olduğu kətan geyimi çıxarıb orada
qoysun. 24 Müqəddəs bir yerdə bədənini
su ilə yusun və öz geyimini geysin.
Oradan çıxıb öz yandırma qurbanını
və xalqın yandırma qurbanını təqdim
etsin. 25 Günah qurbanının piyini də
qurbangahda tüstülədib yandırsın.
26 Azazel olan təkəni yola salan adam da
geyimini və bədənini su ilə yusun, sonra
düşərgəyə girsin. 27 [j]Müqəddəs yerdə
kəffarə etmək üçün qanı oraya gətirilən
günah qurbanı olan buğa ilə təkənin
dəri, ət və bağırsaqları düşərgənin
kənarına aparılıb yandırılsın. 28 Onları
yandıran adam geyimini, bədənini su
ilə yusun, ondan sonra düşərgəyə girsin.
29 [k]Bu sizin üçün əbədi bir qayda
olsun. Yeddinci ayın onuncu günündə
özünüzü hər şeydən məhrum edib heç
bir iş görməyin; həm yerlilərniz, həm
də aranızda yaşayan yadellilər belə
etsin. 30 Çünki o gün sizin üçün kəffarə
olunacaq ki, siz pak olasınız və Rəbbin
hüzurunda bütün günahlarınızdan
təmizlənəcəksiniz. 31 O gün sizin üçün
Şənbə gününə bənzər istirahət günüdür.
Özünüzü hər şeydən məhrum edin. Bu,
əbədi qayda olsun. 32 Atasının yerinə
kahinlik etmək üçün məsh edilmiş
vəzifəli baş kahin belə kəffarə etsin:
o, müqəddəs kətan geyimlərini geyib
33 Ən Müqəddəs yer, Hüzur çadırı,
qurbangah üçün kəffarə etsin; kahinlər
və camaatın hər biri üçün də kəffarə
etsin. 34 İldə bir dəfə İsrail övladlarının
bütün günahlarının kəffarə edilməsi
üçün bu sizə əbədi qayda olsun». Rəbbin
Musaya əmr etdiyi kimi oldu.

Həyat verən qandır

17 Rəbb Musaya belə dedi:
2 «Harunla oğullarına və bütün
İsrail övladlarına söylə: “Rəbbin
əmri budur: 3 İsraillilərdən düşərgədə
yaxud onun kənarında mal-qara,
qoyun ya da keçi kəsən 4 onu Rəbbin

---

[h]**16:15** İbr. 9:12 [i]**16:23** Yez. 44:19 [j]**16:27** İbr. 13:11
[k]**16:29** Lev. 23:26-32; Say. 29:7-11

məskəninə, Onun önünə qurban kimi
təqdim edərək Hüzur çadırının girişinə
gətirməyən hər kəs qan tökməkdə
müqəssir sayılsın. Belə adam xalqı
arasından qovulsun. 5 Belə ki İsrail
övladları qurbanlarını çöldə kəsmək
əvəzinə onları Rəbbin hüzuruna, Hüzur
çadırının girişinə, kahinin yanına
gətirsinlər və Rəbbə ünsiyyət qurbanları
olaraq kəssinlər. 6 Kahin belə qurbanın
qanını Hüzur çadırı girişinin yanındakı
Rəbbin qurbangahına səpsin, piyini
isə Rəbbin xoşuna gələn ətir kimi
tüstülədib yandırsın. 7 [l]İsrail övladları
bir daha Rəbbə xəyanət edib heç
vaxt təkə görkəmində bütlərə qurban
kəsməsinlər. Bu, nəsildən-nəslə onlar
üçün əbədi qayda olsun”.
8 Bir də ki onlara de: “İsrail
övladlarından yaxud aralarında yaşayan
yadellilərdən kim yandırma qurbanını
və ya ünsiyyət qurbanını kəsəndə
9 Rəbbin hüzuruna təqdim edərək Hüzur
çadırının girişinə qurban gətirməyən
hər adam xalqı arasından qovulsun.
10 [m]İsrail övladlarından ya da
aralarında yaşayan yadellilərdən bir az
da olsa, qan yeyən hər kəsdən Mən üz
döndərib xalqı arasından qovacağam,
11 [n]çünki hər məxluqa həyat verən
qandır. Mən onu həyatınızın kəffarəsi
üçün qurbangahda təqdim olunmağa
təyin etmişəm; çünki həyat verdiyinə
görə kəffarə edən qandır. 12 Buna görə
də Mən İsrail övladlarına demişəm:
‹Sizdən heç bir kəs, aranızda yaşayan
yadelli də qan yeməsin›.
13 İsrail övladlarından ya da
aralarında yaşayan yadellilərdən yeyilə
bilən heyvan yaxud quş ovlayan insan
onun qanını yerə axıdıb torpaqla
örtsün. 14 Çünki hər məxluqa həyat
verən onun qanıdır. Buna görə Mən
İsrail övladlarına ‹heç bir məxluqun
qanını yeməyin› demişəm. Çünki hər
məxluqa həyat verən onun qanıdır.
Onu yeyən hər kəs xalqının arasından
qovulsun. 15 Yerli olsun, yadelli olsun,
təbii yolla ölən, parçalanıb ölən heyvanı
yeyən adam qoy geyimini yusun, su ilə
yuyunsun və axşamadək murdar, sonra
pak sayılsın. 16 Əgər belə adam geyimini
və bədənini yumasa, cəzasını çəkəcək”».

Qadağan olunmuş cinsi münasibətlər

18 Rəbb Musaya dedi: 2 «İsrail
övladlarına belə de: “Allahınız
Rəbb Mənəm. 3 Nə əvvəl yaşadığınız
Misir torpağının ənənələrinə əməl edin,
nə də sizi aparacağım Kənan torpağına
girəndən sonra adət-ənənələrinə əməl
edib uymayın; 4 Mənim hökmlərimə
əməl edib qanunlarıma riayət edin,
onlara uyğun yaşayın. Allahınız Rəbb
Mənəm. 5 [o]Qaydalarıma və hökmlərimə
səylə əməl edin; onları yerinə yetirən
adam bunların sayəsində yaşayacaq.
Rəbb Mənəm.
6 Qoy heç kəs öz yaxın qohumları
ilə cinsi əlaqədə olmaq* üçün onlara
yaxınlaşmasın. Rəbb Mənəm. 7 Atanla
cinsi əlaqədə olma, ananla da cinsi
əlaqədə olma; o sənin anandır, onunla
cinsi əlaqədə olma. 8 [p]Atanın arvadı
ilə cinsi əlaqədə olma, çünki o sənin
atanın namusudur. 9 [q]Atabir yaxud
anabir bacınla, sənlə bir evdə yaxud
başqa yerdə böyümüş bacınla cinsi
əlaqədə olma. 10 Öz oğlunun qızı yaxud
qızının qızı ilə cinsi əlaqədə olma, çünki

*18:6 *Cinsi əlaqədə olmaq* – hərfi tərcümədə *ayıb yerini açmaq.*

[l]**17:7** 2Saln. 11:15 [m]**17:10** Yar. 9:4; Lev. 7:26-27; 19:26; Qanun. 12:16,23-25; 15:23 [n]**17:11** İbr. 9:22
[o]**18:5** Neh. 9:29; Yez. 18:9; 20:11-13; Luka 10:28; Rom. 10:5; Qal. 3:12 [p]**18:8** Lev. 20:11; Qanun. 22:30; 27:20; 1Kor. 5:1 [q]**18:9** Lev. 20:17; Qanun. 27:22

onların namusu sənin namusundur.
11 Atanın başqa arvadından doğulan
qızı ilə cinsi əlaqədə olma; o sənin
bacındır. 12 [r]Bibinlə cinsi əlaqədə olma,
çünki o, atanın yaxın qohumudur.
13 Xalanla cinsi əlaqədə olma, çünki o,
ananın yaxın qohumudur. 14 Əminin
namusunu tapdalama, onun arvadı
ilə yaxınlıq etmə, çünki o sənin
əmiarvadındır. 15 [s]Oğlunun arvadı ilə
cinsi əlaqədə olma. Oğlunun arvadı
olduğu üçün onunla cinsi əlaqədə olma.
16 [t]Qardaşının arvadı ilə cinsi əlaqədə
olma, çünki bu, qardaşının namusudur.
17 [u]Bir qadının həm özü, həm də qızı ilə
cinsi əlaqədə olma. O qadının oğul ya
da qız nəvəsi ilə cinsi əlaqədə olmaq
üçün onları alma, çünki onlar sənin
yaxın qohumların olduğu üçün bu,
əxlaqsızlıqdır. 18 Arvadın sağ ikən onun
bacısını günü olaraq alma və onunla
cinsi əlaqədə olma.
19 [v]Aybaşı murdarlığı zamanı qadınla
cinsi əlaqədə olmaq üçün onunla
yaxınlıq etmə. 20 [w]Başqasının arvadı
ilə yaxınlıq edib özünü murdarlama.
21 [x]Övladlarının heç birini Molekə
qurban olaraq təqdim etmə. Beləliklə,
Allahının adını ləkələmə. Rəbb Mənəm.
22 [y]Kişi qadınla yaxınlıq etdiyi kimi kişi
ilə yaxınlıq etməsin, bu, iyrəncdir. 23 [z]Nə
kişi, nə də qadın heç bir heyvanla cinsi
əlaqəyə girib özünü murdarlamasın. Bu,
rəzillikdir.
24 Bu şeylərin heç biri ilə özünüzü
murdar etməyin, çünki önünüzdən
qovacağım millətlər bunların hamısı
ilə murdarlanıb, 25 torpaqlarını da
murdarlayıblar. Buna görə də Mən
o torpağı cəzalandırıb sakinlərini
oradan rədd edirəm. 26 İstər yerli,
istər aranızda yaşayan yadelli –
hamınız qaydalarıma və hökmlərimə
riayət edərək iyrənc işlərin heç birinə
əməl etməyin. 27 Önünüzdəki ölkənin
sakinləri bütün bu iyrənc işləri edərək
torpağı murdarlayıblar. 28 Əgər siz də
bu torpağı murdarlasanız, torpaq sizdən
əvvəlki milləti ağzından qaytardığı kimi
sizi də ağzından qaytaracaq. 29 Buna
görə də bu iyrənc işlərin hər hansı birinə
əməl edən hər kəs xalqının arasından
qovulsun. 30 Beləliklə, önünüzdə edilən
iyrənc adətlərinə əməl edib onlarla
özünüzü murdar etməmək üçün Mənim
buyruğuma riayət edin. Allahınız Rəbb
Mənəm”».

Müqəddəslik və ədalət

19 Rəbb Musaya dedi: 2 [a]«Bütün
İsrail övladlarının icmasına
bəyan edib de: “Müqəddəs olun, çünki
Mən Allahınız Rəbb müqəddəsəm.
3 [b]Sizdən hər kəs atasına və anasına
hörmət etsin və Mənim Şənbə günlərimə
riayət etsin. Allahınız Rəbb Mənəm.
4 [c]Bütlərə tərəf dönməyin və özünüzə
tökmə allahlar düzəltməyin. Allahınız
Rəbb Mənəm.
5 Rəbbə ünsiyyət qurbanları gətirəndə
elə gətirin ki, qurbanınız qəbul edilsin.
6 Qurbanınız kəsilən gün yaxud ertəsi
gün yeyilsin, üçüncü günə qalan hissəsi
yandırılsın. 7 Əgər ondan üçüncü gün
yeyilsə, o qurban qəbul olunmaz,
iyrənc sayılar. 8 O qurbanı yeyən adam
Rəbbin müqəddəs yeməyini murdar

---

[r]**18:12** Lev. 20:19-20 [s]**18:15** Lev. 20:12 [t]**18:16** Lev. 20:21
[u]**18:17** Lev. 20:14; Qanun. 27:23 [v]**18:19** Lev. 20:18 [w]**18:20** Lev. 20:10
[x]**18:21** Lev. 20:1-5 [y]**18:22** Lev. 20:13
[z]**18:23** Çıx. 22:19; Lev. 20:15-16; Qanun. 27:21 [a]**19:2** Lev. 11:44-45; 1Pet. 1:16
[b]**19:3** Çıx. 20:12; Qanun. 5:16; Çıx. 20:8; Qanun. 5:12
[c]**19:4** Lev. 26:1; Çıx. 20:23; 34:17; Qanun. 27:15

etdiyinə görə cəzasını çəkər. Qoy o,
xalqı arasından qovulsun.
9 [d]Torpağınızda məhsul biçəndə
tarlanın qıraq-bucaqlarını biçməyin və
biçindən düşən başaqları yığmayın.
10 Üzüm bağında da tənəkləri büsbütün
təmizləyib yerə düşən salxımları
yığmayın. Qalan məhsul kasıblara və
qəriblərə qalsın. Allahınız Rəbb Mənəm.
11 [e]Oğurlamayın, bir-birinizə yalan
satıb aldatmayın. 12 [f]Allahınızın adını
ləkələməmək üçün adıma yalandan and
içməyin. Rəbb Mənəm.
13 [g]Qonşunu istismar etmə, onu
soyma; muzdlu işçinin zəhmət haqqını
axşamdan səhərəcən özündə saxlama.
14 [h]Kar adamı söymə və kor adamın
qarşısına büdrədən heç bir şey qoyma.
Allahından qorx. Rəbb Mənəm.
15 [i]Məhkəmədə haqsızlıq etməyin.
Nə yoxsula üstünlük ver, nə də varlıya
meyl sal, amma bir-birinizi ədalətlə
mühakimə edin. 16 Xalq arasında
xəbərçilik etmə; qonşunun qanının
tökülməsini istəmə. Rəbb Mənəm.
17 [j]Soydaşına qarşı ürəyində nifrət
bəsləmə. Başqa adamı mütləq tənbeh
et ki, sən də günahının cəzasını
çəkməyəsən. 18 [k]Öz xalqından heç
kəsdən qisas alma, heç kimə qarşı kin
saxlama. Ancaq qonşunu özün kimi sev.
Rəbb Mənəm.
19 [l]Mənim qaydalarıma riayət edin.
Başqa növlərdən olan heyvanları
cütləşdirməyin. Tarlanızda iki növ
toxum əkməyin. Əyninizə iki növ
sapdan toxunmuş paltar geyməyin.
20 Bir kişi başqa kişinin nişanlı, hələ
qiyməti ödənməmiş, azad olunmamış
qarabaşı ilə yaxınlıq edərsə, ona cəza
verilsin. Amma onlar öldürülməsinlər,
çünki qarabaş azad deyil, 21 o kişi
isə Rəbbin önünə – Hüzur çadırının
girişinə təqsir qurbanı kimi bir qoç
gətirsin. 22 Kahin o kişi üçün işlətdiyi
günahını təqsir qurbanı olan qoçla
Rəbbin önündə kəffarə etsin ki, bu
günahı bağışlansın.
23 Kənan torpağına girib yemək üçün
hər hansı bir meyvə ağacını əksəniz,
meyvəsi sizin üçün üç il haramdır, onu
yeməyin. 24 Dördüncü ildə onun bütün
meyvəsi şükür təqdimi kimi Rəbb üçün
müqəddəs sayılsın. 25 Beşinci ildə isə o
ağacın meyvəsini yeyə bilərsiniz. Bunu
edin ki, məhsul xeyriniz üçün artsın.
Allahınız Rəbb Mənəm.
26 [m]Heç bir əti qanlı-qanlı yeməyin.
Baxıcılıq etməyin və gələcəyi
deməyin. 27 [n]Gicgahlarınızı qırxmayın,
saqqallarınızın kənarlarını kəsməyin.
28 Ölülərə görə bədəninizə yara
vurmayın, bədəninizə heç bir şəkil
döydürməyin. Allahınız Rəbb Mənəm.
29 [o]Qoy heç kim qızını fahişəlik edib
ləkələnməyə qoymasın. Qoy fahişəlik
ölkəyə yayılmasın ki, ölkə əxlaqsızlıqla
dolub daşmasın. 30 [p]Şənbə istirahət
günlərimə riayət edin və Müqəddəs
məkanıma ehtiramla yanaşın. Rəbb
Mənəm.

---

[d]**19:9** Lev. 23:22; Qanun. 24:19-22
[e]**19:11** Çıx. 20:15; Qanun. 5:19; Çıx. 20:16; Qanun. 5:20
[f]**19:12** Çıx. 20:7; Qanun. 5:11; Mat. 5:33 [g]**19:13** Qanun. 24:14-15
[h]**19:14** Qanun. 27:18 [i]**19:15** Çıx. 23:6-8; Qanun. 16:19
[j]**19:17** Mat. 18:15 [k]**19:18** Mat. 5:43; 19:19; 22:39; Mark 12:31,33; Luka 10:27; Rom. 13:9; Qal. 5:14; Yaq. 2:8 [l]**19:19** Qanun. 22:9-11 [m]**19:26** Yar. 9:4; Lev. 7:26-27; 17:10-14; Qanun. 12:16,23-25; 15:23; Qanun. 18:10
[n]**19:27** Lev. 21:5; Qanun. 14:1 [o]**19:29** Qanun. 23:17 [p]**19:30** Lev. 26:2

31 [q]Cindarlara və ruh çağıranlara
tərəf dönməyin, onlarla danışmayın,
yoxsa murdarlanarsınız. Allahınız Rəbb
Mənəm.
32 Yaşlıların qarşısında ayağa
durun, ağsaqqallara hörmət eləyin.
Allahınızdan qorxun. Rəbb Mənəm.
33 [r]Sizinlə ölkənizdə yaşayan heç bir
qəribə haqsızlıq etməyin. 34 Hamınız
onu öz adamınız, yerliniz kimi qəbul
edin, hər kəs onu özünü sevən kimi
sevsin. Çünki siz özünüz də Misir
ölkəsində qərib idiniz. Allahınız Rəbb
Mənəm.
35 [s]Məhkəmədə, ölçüdə, çəkidə və
miqdarda haqsızlıq etməyin. 36 Qoy
tərəziniz, çəki daşınız, taxıl və maye
ölçüsü üçün işlənən qablarınız düzgün
olsun. Sizi Misir torpağından çıxaran
Allahınız Rəbb Mənəm. 37 Bütün Mənim
qaydalarıma və hökmlərimə səylə əməl
edin. Rəbb Mənəm”».

İtaətsizliyə görə cəza

20 Rəbb Musaya dedi: 2 «İsrail
övladlarına de: “İsraillilərdən
və İsraildə yaşayan yadellilərdən
övladını Molekə təqdim edən hər
kəs öldürülməlidir. Qoy ölkə xalqı
onu daşqalaq etsin. 3 Öz övladını
Molekə təqdim etdiyi üçün Mən o
adamdan üz döndərib xalqı arasından
qovacağam; çünki o, Müqəddəs
məkanımı murdarlayıb müqəddəs adımı
ləkələmişdir. 4 Əgər ölkə xalqı o adamın
övladını Molekə təqdim etdiyini görüb
göz yumaraq onu öldürməsə, 5 Mən
Özüm həmin adamdan və ailəsindən üz
döndərib onu və onunla birgə Moleklə
Mənə xəyanət edən hər kəsi xalqın
arasından qovacağam.
6 Mənə xəyanət edərək cindarlara
və ruh çağıranlara tərəf dönən hər
kəsdən üz döndərib xalqın arasından
qovacağam. 7 Buna görə də özünüzü
təqdis edin və müqəddəs olun, çünki
Allahınız Rəbb Mənəm. 8 Qaydalarıma
səylə əməl edin, çünki sizi təqdis edən
Rəbb Mənəm.
9 [t]Atasına yaxud anasına lənət edən
hər kəs öldürülməlidir. O adam öz
atasına yaxud anasına lənət etdiyi üçün
qanının tökülməyinə özü baisdir.
10 [u]Başqa kişinin arvadı ilə zina
edənlərə aid: qonşusunun arvadı
ilə zina edən kişi zinakar qadınla
birlikdə öldürülməlidir. 11 [v]Atasının
arvadı ilə yaxınlıq edən kişi atasının
namusunu tapdalamış olur. Bunu
edənlərin hər ikisi öldürülməlidir. Onlar
qanlarının tökülməyinə özləri baisdir.
12 [w]Gəlini ilə yaxınlıq edən kişi gəlini
ilə birgə – hər ikisi öldürülməlidir,
çünki bu rəzillikdir. Bunlar qanlarının
tökülməyinə özləri baisdir. 13 [x]Kişi
qadınla yaxınlıq etdiyi kimi kişi kişi
ilə yaxınlıq edərsə, hər ikisi iyrənc
iş görür və onlar öldürülməlidirlər;
qanlarının tökülməyinə özləri baisdir.
14 [y]Qadınla bərabər anasını arvad alan
kişi əxlaqsızlıq edər; aranızda belə
əxlaqsızlıq olmamaq üçün o kişi də, o
qadınlar da yandırılsın. 15 [z]Heyvanla
cinsi əlaqəyə girən kişi öldürülməlidir;
heyvan isə kəsilməlidir. 16 Hər hansı
bir heyvanla cinsi əlaqəyə girən qadın
heyvanla birgə öldürülməlidir. Bunlar
qanlarının tökülməyinə özləri baisdir.

---

[q] **19:31** Qanun. 18:11; 1Şam. 28:3; 2Pad. 23:4; Yeş. 8:19
[r] **19:33** Çıx. 22:21; Qanun. 24:17-18; 27:19 [s] **19:35** Qanun. 25:13-16; Sül. 20:10; Yez. 45:10 [t] **20:9** Çıx. 21:17; Mat. 15:4; Mark 7:10 [u] **20:10** Çıx. 20:14; Lev. 18:20; Qanun. 5:18 [v] **20:11** Lev. 18:8; Qanun. 22:30; 27:20; 1Kor. 5:1
[w] **20:12** Lev. 18:15 [x] **20:13** Lev. 18:22 [y] **20:14** Lev. 18:17; Qanun. 27:23
[z] **20:15** Çıx. 22:19; Lev. 18:23; Qanun. 27:21

17 [a]Əgər bir kişi atabir yaxud anabir
bacısını alıb onunla cinsi əlaqədə olsa,
qadın da onunla cinsi əlaqədə olsa, bu,
rüsvayçılıqdır. Onlar xalqı arasından
qovulsun. Bacısı ilə cinsi əlaqədə olan
kişi cəzasını çəkər. 18 [b]Əgər bir kişi
aybaşı olan qadınla yaxınlıq edib
onunla cinsi əlaqədə olarsa, qadının
qanaxma mənbəyinin üstünü açar,
qadın da öz qanaxma mənbəyinin
üstünü açar. Hər ikisi xalqı arasından
qovulsun. 19 [c]Xalanla yaxud bibinlə
yaxınlıq etmə, çünki yaxın qohumları
ilə yaxınlıq edənlər cəzasını çəkərlər.
20 Əmisi arvadı ilə yaxınlıq edən kişi öz
əmisinin namusunu tapdalamış olur;
ikisi də günahının cəzasını çəkərək
övladları olmadan öləcəklər. 21 [d]Qardaşı
arvadını alan kişi qardaşının namusunu
tapdalayaraq murdar iş görür; onlar
sonsuz qalacaqlar.
22 Siz Mənim qaydalarıma və
hökmlərimə səylə əməl edin ki,
yaşamaq üçün aparacağım torpaq sizi
rədd etməsin. 23 Qarşınızdan qovacağım
millətlərin adətlərinə uymayın; onlar
bütün bu şeyləri etdiklərinə görə Mənim
gözümdə iyrəncdirlər. 24 Mən sizə
dedim ki, onların torpağına siz sahib
olacaqsınız; Mən o süd və bal axan
torpağı sizə irs olaraq verəcəyəm. Sizi
digər xalqlardan ayıran Allahınız Rəbb
Mənəm. 25 Beləliklə, siz pak və murdar
heyvan və quşları bir-birindən ayırd
edin. Sizin üçün ayırd etdiyim murdar
sayılan heyvanlar yaxud quşlar ya da
yerdə sürünən məxluqlarla özünüzü
iyrənc etməyin. 26 Siz Mənim üçün
müqəddəs olun, çünki Mən Rəbb
müqəddəsəm. Mən sizi digər xalqlardan
ayırdım ki, siz Mənim xalqım olasınız.
27 Cindar yaxud ruh çağıran kişilər
və ya qadınlar öldürülməlidir, onlar
daşqalaq olmalıdır. Bunlar qanlarının
tökülməyinə özləri baisdir”».

Kahinlərə aid qanunlar

21 Rəbb Musaya dedi: «Harun
nəslindən olan kahinlərə bəyan
edib belə de: “Qoy kahinlər öz xalqı
arasından olan hər hansı bir meyitə
görə özlərini murdar etməsin; 2 ancaq
kahinin yaxın qohumu – anası, atası,
oğlu, qızı, qardaşı 3 [e]yaxud da yanında
yaşayan subay bacısı ölsə, kahin o ölüyə
görə özünü murdar etməsin. 4 Qoy
o, xalq arasında başçı olduğuna görə
özünü murdar edib ləkələməsin.
5 [f]Qoy kahinlər yas tutaraq başının
heç bir hissəsini qırxmasın, saqqalının
kənarını kəsməsin, bədənlərinə də
yara vurmasınlar, 6 özlərinin Allahı
üçün müqəddəs olsunlar və Onun
adını ləkələməsinlər, çünki onlar
özlərinin Allahına pay, Rəbb üçün
yandırma təqdimi gətirirlər. Buna
görə də müqəddəs olsunlar. 7 Kahin
fahişəni yaxud ləkələnmiş və ya ərindən
boşanmış qadını da arvad almasın,
çünki kahin Allahı üçün müqəddəsdir.
8 Onu müqəddəs say, çünki Allahına
gətirilən payı təqdim edən odur; o sənin
üçün müqəddəs olsun, çünki Mən –
sizi təqdis edən Rəbb müqəddəsəm.
9 Fahişəliklə ləkələnən kahin qızı atasını
da ləkələdiyinə görə yandırılsın.
10 Qohumları üzərində olan başında
məsh yağı ilə məsh olunan və müqəddəs
geyimləri geyən vəzifəli baş kahin
yas tutaraq nə saçını dağıtsın, nə
də əynindəki geyimini cırsın. 11 Bu
kahin heç bir meyitə, hətta ölən
ata-anasına yaxınlaşıb özünü murdar
etməsin. 12 O, Müqəddəs məkanı tərk
etməsin və Allahın Müqəddəs məkanını
ləkələməsin, çünki Allahın nişanəsi olan

---

[a]**20:17** Lev. 18:9; Qanun. 27:22 [b]**20:18** Lev. 18:19 [c]**20:19** Lev. 18:12-14
[d]**20:21** Lev. 18:16 [e]**21:3** Yez. 44:25 [f]**21:5** Lev. 19:27-28; Qanun. 14:1

məsh yağı üzərindədir. Rəbb Mənəm.
13 Bu kahin bakirə qız alsın; 14 [g]dul,
boşanmış yaxud fahişəliklə ləkələnmiş
qadın yox, yalnız öz xalqından olan
bakirə qız alsın ki, 15 onun övladları
xalqı arasında ləkəli olmasın. Onu
təqdis edən Rəbb Mənəm”».
16 Rəbb Musaya dedi: 17 «Haruna belə
söylə: “Nəsildən-nəslə övladlarından
qüsuru olan adam Allahına pay təqdim
etmək üçün yaxınlaşmasın. 18 Bunlardan
heç biri bu xidmətə yaxınlaşmasın: nə
kor, nə axsaq, nə eybəcər, nə əlil, 19 nə
əl-ayağından şikəst, 20 nə qozbel, nə
cırtdanboy, nə gözündə titə olan, nə
xoralı yaxud dəmrovlu, nə axtalanmış
adam, 21 yəni kahin Harunun nəslindən
bədənində hər hansı bir qüsuru olan şəxs
Rəbb üçün yandırma təqdimi verməyə
yaxınlaşmasın. Onun bədənində
qüsur var. Buna görə də o, Allahına
pay gətirmək üçün yaxınlaşmasın.
22 Belə adam Allahına gətirilən paydan
– həm ən müqəddəs yeməkdən,
həm də müqəddəs yeməkdən yeyə
bilər. 23 Lakin o, bədənində qüsuru
olduğuna görə nə müqəddəs pərdəyə,
nə də qurbangaha yaxınlaşmasın ki,
Müqəddəs məkanlarımı ləkələməsin,
çünki onları təqdis edən Rəbb Mənəm”».
24 Musa Harunla oğullarına və bütün
İsrail övladlarına belə dedi.

Təqdimlərin və qurbanların müqəddəsliyi

22 Rəbb Musaya dedi: 2 «Harunla
oğullarına söylə ki, İsrail
övladlarının Mənim üçün təqdis
etdikləri müqəddəs şeylərlə ehtiyatlı
olsunlar və müqəddəs adımı
ləkələməsinlər. Rəbb Mənəm. 3 Onlara
de: “Nəsildən-nəslə İsrail övladlarının
Rəbb üçün təqdis etdikləri müqəddəs
şeylərə murdar halda yaxınlaşan hər
hansı bir övladınız Mənim hüzurumdan
qovulsun. Rəbb Mənəm.
4 Harun nəslindən iyrənc dəri xəstəliyi
yaxud xəstəliyə görə bədən axıntısı
olan heç kəs pak olana qədər müqəddəs
yeməkdən yeməsin. Meyitə görə murdar
olan şeyə toxunan hər kəs, toxumu
tökülən hər kəs, 5 onu murdarlayan
qaynaşan heyvana və yaxud hər cür
murdarlığı olan insana toxunan hər
kəs də – 6 belə şeylərə toxunan hər
adam axşamadək bədənini yumayınca
murdar sayılsın və müqəddəs yeməkdən
yeməsin. 7 Günəş batanda isə o adam
pak sayılsın, sonra müqəddəs yeməkdən
yesin, çünki bu onun xörəyidir.
8 Murdarlanmamaq üçün kahin nə
təbii yolla ölən, nə də parçalanıb ölən
heyvanın ətini yesin. Rəbb Mənəm.
9 Mənim buyruğuma riayət etsinlər
ki, onu ləkələdikləri üçün günahının
cəzasını çəkərək ölməsinlər. Onları
təqdis edən Rəbb Mənəm.
10 Heç bir kənar şəxs: nə kahinin
qonağı, nə də onun muzdlu işçisi
müqəddəs yeməkdən yeməsin. 11 Lakin
kahinin satın aldığı ya da evində
doğulan qul o yeməkdən yeyə bilər.
12 Kənar adama ərə gedən kahin qızı
müqəddəs təqdim yeməyindən yeməsin.
13 Amma dul qalmış və ya boşanmış,
sonsuz qalaraq atasının evinə qayıdıb
ailə üzvü kimi yaşayan kahin qızı
atasının yeməyindən yeyə bilər. Lakin
heç bir kənar şəxs ondan yeyə bilməz.
14 Bilmədən müqəddəs yeməkdən yeyən
adam beşdə birini əlavə edərək əvəzini
kahinə qaytarsın. 15 Qoy kahinlər İsrail
övladlarının Rəbbə təqdim etdikləri
müqəddəs yeməyi ləkələməsinlər.
16 Onlara bu müqəddəs yeməyi verib
bunun təqsirini və cəzasını boyunlarına
qoymasınlar; çünki onları təqdis edən
Rəbb Mənəm”».

---

[g] **21:14** Yez. 44:22

17 Rəbb Musaya dedi: 18 «Harunla
oğullarına və bütün İsraillilərə belə de:
“İsrail övladlarından yaxud İsraildə
yaşayan yadellilərdən kimsənin
yandırma qurbanı olaraq Rəbbə
təqdim etdiyi hər əhdə görə təqdim
və hər könüllü təqdim 19 sizdən qəbul
olunsun deyə ya mal-qaradan ya
da qoyun-keçidən qüsursuz erkək
olsun. 20 [h]Qüsurlu heyvanı gətirmək
olmaz, çünki belə qurban sizdən qəbul
olunmaz. 21 Kimsə Rəbbə əhdini ödəmək
üçün yaxud könüllü təqdim olaraq
mal-qaradan ya da qoyun-keçidən
ünsiyyət qurbanı təqdim edərsə,
heyvan qəbul olunsun deyə qüsursuz
olsun; onun bədənində heç bir qüsur
olmasın. 22 Rəbbə kor, yaralı, şikəst,
qaysaqlı, xoralı, dəmrovlu heyvanları
təqdim etməyin, Rəbb üçün yandırma
təqdimi vermək üçün onları qurbangaha
gətirməyin. 23 Mal-qaradan yaxud
qoyun-keçidən çolaq yaxud qısaqıç
heyvanı könüllü təqdim etmək olar,
lakin əhdini ödəmək üçün o qəbul
olunmaz. 24 Xayası zədələnmiş, əzilmiş,
burulmuş ya da kəsilmiş heyvanı Rəbbə
qurban gətirməyin, ölkənizdə buna yol
verməyin. 25 Belə bir heyvanı yadellidən
götürüb pay olaraq Allahınıza təqdim
etməyin, çünki bu heyvan xarab
və qüsurlu sayılaraq sizdən qəbul
olunmaz”».
26 Rəbb Musaya dedi: 27 «Buzov,
quzu ya da oğlaq doğularsa, yeddi gün
anasının yanında qalsın. Səkkizinci
gündən etibarən Rəbb üçün yandırma
təqdimi kimi qəbul oluna bilər. 28 Nə
inək, nə qoyun, nə də keçi ilə balasını
eyni gündə birlikdə kəsməyin. 29 Rəbbə
təşəkkür qurbanı gətirəndə elə gətirin
ki, o sizdən Rəbbə məqbul olsun.
30 Qurbanın əti həmin gün yeyilsin,
səhərə qədər saxlanılmasın. Rəbb
Mənəm.
31 Mənim əmrlərimə səylə əməl edin.
Rəbb Mənəm. 32 Mənim müqəddəs
adımı ləkələməyin. Qoy İsrail övladları
arasında müqəddəs tutulum. Sizi təqdis
edən Rəbb Mənəm. 33 Allahınız olmaq
üçün sizi Misir torpağından çıxartdım.
Rəbb Mənəm».

Rəbbin bayramları

23 Rəbb Musaya dedi: 2 «İsrail
övladlarına belə de: “Rəbbin
təyin etdiyi bayramlar, Mənim
bayramlarım bunlardır. Bu vaxt
müqəddəs toplantı çağırın:

Şənbə istirahət günü

3 [i]Altı gün işinizi görün, yeddinci gün
isə Şənbə istirahət və müqəddəs toplantı
günüdür. Qoy Rəbbin bu Şənbə günü
yaşadığınız bütün yerlərdə heç bir iş
görülməsin.

Pasxa və Mayasız Çörək bayramları

*(Çıx. 12:14-20; Say.
28:16-25; Qanun. 16:1-8)*

4 Rəbbin təyin etdiyi bu müqəddəs
toplantı günlərini bayramlar elan edin.
5 [j]Birinci ayın on dördü axşamçağı
Rəbbin Pasxa bayramıdır. 6 Həmin
ayın on beşi Rəbbin Mayasız Çörək
bayramıdır. Yeddi gün mayasız
çörək yeyin. 7 Birinci gün müqəddəs
toplantınız olsun; gündəlik işlərinizi
görməyin. 8 Bu yeddi gün ərzində
Rəbb üçün yandırma təqdimi gətirin.
Yeddinci gün isə müqəddəs toplantınız
olsun; gündəlik işlərinizi görməyin”».

---

[h] **22:20** Qanun. 17:1

[i] **23:3** Çıx. 20:8-10; 23:12; 31:15; 34:21; 35:2; Qanun. 5:12-14

[j] **23:5** Çıx. 12:1-13; Qanun. 16:1-2

İlk dərzin həsr olunması bayramı

9 Rəbb Musaya belə dedi: 10 «İsrail
övladlarına de: “Sizə verəcəyim torpağa
gəldiyiniz zaman məhsulunuzu biçəndə
biçdiyiniz ilk dərzi kahinin yanına
gətirin. 11 O, dərzi Rəbbin hüzurunda
yellədərək təqdim etsin ki, sizdən qəbul
olunsun. Kahin onu Şənbənin ertəsi
günü yellətsin. 12 Dərzi yellətdiyiniz
gün Rəbbə birillik qüsursuz erkək toğlu
yandırma qurbanı kimi kəsin. 13 Toğlu
ilə birlikdə taxıl təqdimi olaraq zeytun
yağı ilə yoğrulmuş bir efanın onda ikisi
olan miqdarda narın un gətirin. Bu,
Rəbb üçün yandırma təqdimi – Onun
xoşuna gələn ətirdir. İçmə təqdimi
olaraq da bir hin şərabın dörddə
birini gətirin. 14 Bu qurbanı Allahınıza
təqdim etdiyiniz həmin günə qədər nə
çörək, nə qovurğa, nə də təzə sünbül
yeməyin. Bu bütün yaşadığınız yerlərdə
nəsildən-nəslə sizin üçün əbədi qayda
olsun.

Biçin bayramı

(Say. 28:26-31; Qanun. 16:9-12)

15 [k]Şənbənin ertəsi günü olan
yellədilən dərzi gətirdiyiniz gündən tam
yeddi həftə, 16 yeddinci Şənbə gününün
ertəsinədək əlli gün sayın, sonra Rəbbə
təzə taxıl təqdimi gətirin. 17 Yaşadığınız
hər yerdən yellədib təqdim etmək
üçün bir efanın onda ikisi narın undan
maya ilə bişirilmiş iki kömbə çörəyi
Rəbbə nübar təqdimi gətirin. 18 Çörəklə
birgə birillik yeddi qüsursuz toğlu, bir
buğa və iki qoç təqdim edin. Bunlar
taxıl təqdimləri və içmə təqdimləri
ilə birlikdə Rəbb üçün yandırma
qurbanıdır, Rəbbin xoşuna gələn ətir –
yandırma təqdimidir. 19 Günah qurbanı
üçün bir təkə, ünsiyyət qurbanı üçün isə
iki birillik toğlu gətirin. 20 Kahin bu iki
toğlunu nübar çörəyi ilə birgə Rəbbin
hüzurunda yellədərək təqdim etsin.
Bunlar kahinin Rəbb üçün müqəddəs
payı olsun. 21 Həmin gün özünüz üçün
müqəddəs toplantı elan edin və heç
bir gündəlik iş görməyin. Bu bütün
yaşadığınız yerlərdə nəsildən-nəslə sizin
üçün əbədi qayda olsun.
22 [l]Torpağınızda məhsul biçəndə
tarlanın qıraqlarını biçməyin və
biçindən düşən başaqları yığmayın. Qoy
qalan məhsul kasıblara və qəriblərə
qalsın. Allahınız Rəbb Mənəm”».

Şeypur çalınma günü

(Say. 29:1-6)

23 Rəbb Musaya dedi: 24 «İsrail
övladlarına belə de: “Yeddinci ayın
birinci günü sizin üçün istirahət günü,
şeypur çalınma ilə qeyd olunan gün,
müqəddəs toplantı günü olsun. 25 O gün
heç bir gündəlik iş görməyin və Rəbb
üçün yandırma təqdimi gətirin”».

Kəffarə günü

(Lev. 16:2-34; Say. 29:7-11)

26 Rəbb Musaya dedi: 27 [m]«İsrail
övladlarına de: “Yeddinci ayın onu isə
Kəffarə günüdür, müqəddəs toplantınız
olsun; özünüzü hər şeydən məhrum
edin və Rəbb üçün yandırma təqdimi
gətirin. 28 Həmin gün heç bir iş
görməyin, çünki bu, Allahınız Rəbbin
hüzurunda sizin üçün kəffarə edilən
Kəffarə günüdür. 29 Həmin o gün özünü
hər şeydən məhrum etməyən adam
xalqı arasından qovulsun. 30 O gün hər
hansı bir iş görən adamı Mən xalqı
arasından yox edəcəyəm. 31 Heç bir
iş görməyin. Bu bütün yaşadığınız
yerlərdə nəsildən-nəslə sizin üçün əbədi
qayda olsun. 32 O gün sizin üçün Şənbə

---

[k]**23:15** Çıx. 23:16; 34:22 [l]**23:22** Lev. 19:9-10; Qanun. 24:19-22
[m]**23:27** Lev. 16:29-34; Say. 29:7

istirahət günü kimidir. Özünüzü hər
şeydən məhrum edin. Ayın doqquzuncu
günü axşamdan ertəsi günün axşamına
qədər Şənbə günü kimi istirahət edin”».

Çardaqlar bayramı

(Say. 29:12-40; Qanun. 16:13-17)

33 Rəbb Musaya dedi: 34 [n]«İsrail
övladlarına söylə: “Həmin yeddinci
ayın on beşinci günündən Rəbb üçün
yeddi gün Çardaqlar bayramını keçirin.
35 Birinci gün müqəddəs toplantı
günüdür. Gündəlik işlərinizi görməyin.
36 Bu yeddi gün ərzində Rəbbə yandırma
təqdimləri gətirin. Səkkizinci gün isə
müqəddəs toplantınız olsun və Rəbbə
yandırma təqdimləri gətirin. Bu gün
təntənəli toplantı günüdür, gündəlik
işlərinizi görməyin.
37 Bunlar Rəbbin təyin etdiyi
bayramlardır: bu zaman müqəddəs
toplantı çağırıb hər birini öz günündə
olmaqla yandırma təqdimlərini
– yandırma qurbanlarını, taxıl
təqdimlərini, ünsiyyət qurbanlarını
və içmə təqdimlərini Rəbbə gətirin.
38 Bunlar Rəbbin Şənbələrinə və Rəbbə
verdiyiniz bütün ianələrə, bütün
əhdlərin ödəmələrinə, bütün könüllü
təqdimlərə əlavədir.
39 [o]Üstəlik yeddinci ayın on beşinci
günü torpağın məhsullarını yığandan
sonra yeddi gün Rəbb üçün bayram
keçirin. Birinci gün və səkkizinci
gün istirahət günləri olsun. 40 Birinci
gün gözəl ağacların meyvələrini,
xurma ağaclarının budaqlarını, sıx
yarpaqlı ağacların və çay kənarında
bitən qovaq ağaclarının budaqlarını
toplayıb Allahınız Rəbbin hüzurunda
yeddi gün şənlik edin. 41 Hər il Rəbb
üçün bu bayramı yeddi gün keçirin.
Bu, nəsildən-nəslə sizin üçün əbədi
qaydadır; bu bayramı yeddinci ayda
qeyd edin. 42 Yeddi gün çardaqlarda
qalın; bütün yerli İsraillilər çardaqlarda
yaşasın. 43 Beləliklə, sizin nəsillərniz
bilsin ki, Mən İsrail övladlarını Misir
torpağından çıxarandan sonra onları
çardaqlarda yerləşdirdim. Allahınız
Rəbb Mənəm”».
44 Beləcə Musa İsrail övladlarına
Rəbbin təyin etdiyi bayramlar barəsində
nəql etdi.

Rəbbin hüzurunda yanan çıraq

(Çıx. 27:20-21)

24 Rəbb Musaya dedi: 2 «İsrail
övladlarına əmr et ki, işıq
yandırmaq üçün sənə zeytundan
çəkilmiş xalis yağ gətirsinlər. Bu yağdan
çıraqlar daima 3 Hüzur çadırında,
şəhadət pərdəsinin bayır tərəfində
yansın. Harun onu hər axşam Rəbbin
hüzurunda yandırıb səhərə qədər
nəzarət etsin. Bu, nəsildən-nəslə sizin
üçün əbədi qayda olsun. 4 Rəbbin
hüzurunda xalis qızıldan düzəlmiş
çıraqdandakı çıraqlara daim nəzarət
edilsin.

Təqdis çörəkləri

5 [p]Narın un götürüb hər kökə bir
efanın onda ikisi qədər miqdarda on iki
kökə bişir. 6 Onları Rəbbin hüzurunda
xalis qızıldan düzəlmiş masaya, iki
sıraya altı-altı qoy. 7 Çörək sıralarının
üstünə xalis kündür qoy. Çörəklərin
üstündəki kündür Rəbb üçün yandırma
təqdimi, çörək yerinə xatirə təqdimi
olsun. 8 Qoy bu çörəklər hər Şənbə
günü daim Rəbbin hüzurunda düzülsün.
Bu, İsrail övladları üçün əbədi əhddir.
9 [q]Bu çörəklər Harunla övladlarının
payıdır. Onlar bu çörəkləri müqəddəs
bir yerdə yesinlər. Çünki bunlar Rəbb

---

[n] **23:34** Say. 29:12,35 [o] **23:39** Çıx. 23:16; 34:22 [p] **24:5** Çıx. 25:30
[q] **24:9** Mat. 12:4; Mark 2:26; Luka 6:4

üçün verilən yandırma təqdimlərindən
ən müqəddəs, Harun övladları üçün
əbədi paydır».

Allaha küfr edənin sonu

10 Bir gün anası İsrailli, atası Misirli
olan bir adam İsrail övladlarının arasına
çıxdı. O, düşərgədə bir İsrailli ilə savaşıb
11 Allahın adına küfr və lənət etdi.
O adamı Musanın yanına gətirdilər.
Onun anası Dan qəbiləsindən Dibri
qızı Şelomit idi. 12 O adamı həbs edib
Rəbbin qərarını gözlədilər.
13 Rəbb Musaya belə dedi: 14 «Lənət
edəni düşərgədən kənara çıxar; qoy bu
lənəti eşidənlər əllərini o adamın başına
qoysunlar. Sonra qoy bütün icma onu
daşqalaq etsin. 15 İsrail övladlarına belə
de: "Allahına lənət edən hər kəs öz
günahının cəzasını çəkəcək; 16 Rəbbin
adına küfr edən hər kəs öldürülməlidir.
Bütün icma onu daşqalaq etsin; istər
yadelli, istər yerli olsun, Allahın adına
küfr etdiyinə görə öldürülməlidir.
17 [r]Başqa bir adamın canını alan hər
kəs öldürülməlidir. 18 Heyvanı öldürən
isə can əvəzinə can olaraq zərəri ödəsin.
19 Bir adam başqa adamı yaralayarsa,
o nə cür edibsə, ona da belə edilsin:
20 [s]sınıq əvəzinə sınıq, göz əvəzinə göz,
diş əvəzinə diş; o adama nə cür yara
vurubsa, ona da belə yara vurulsun.
21 Heyvan öldürən zərərini ödəsin.
Adam öldürən isə özü öldürülsün.
22 [t]Sizdə istər qərib, istər yerli üçün
ədalət bir olsun; çünki Allahınız Rəbb
Mənəm"».
23 Musa İsrail övladlarına bunu dedi.
Lənət edəni düşərgədən kənara çıxarıb
daşqalaq etdilər. Rəbbin Musaya əmr
etdiyi kimi İsrail övladları buna əməl
etdilər.

Dinclik ili haqqında

(Qanun. 15:1-11)

25 [u]Rəbb Sina dağında Musaya belə
söylədi: 2 «İsrail övladlarına de:
"Sizə verəcəyim torpağa daxil olanda
bütün ölkədə Şənbə günü kimi Rəbb
üçün dinclik vaxtları olsun. 3 Altı il
tarlanı ək, üzümlüyün budaqlarını
kəs və məhsulunu yığ. 4 Yeddinci ildə
isə torpaq Şənbə günü kimi dincə
qoyulsun. Bu, Rəbbin dinclik ilidir. Bu
il sən nə tarlanı ək, nə də üzümlüyünü
buda, 5 biçinindən düşən toxumdan
bitən məhsulu biçmə və kəsilməmiş
tənəklərdən salxımları yığma. Bu,
torpaq üçün dinclik ili olsun. 6 Bu
dinclik ilində torpağın verdiyi hər
məhsul sizin üçün qida olacaq; qulunuz,
qarabaşınız, muzdlu işçiniz, aranızda
yaşayan gəlmənin, 7 ev heyvanının və
ölkədəki vəhşi heyvanın qidası olacaq.

Azadlıq ili

8 Özün üçün yeddi dinclik ili –
yeddi dəfə yeddi il say. Yeddi dinclik
ilinin müddəti qırx doqquz ildir.
9 Sonra yeddinci ayın onu – Kəffarə
günü bütün ölkənizdə yüksək səslə
şeypur çaldırmaqla 10 əllinci ili təqdis
edin və ölkənin bütün sakinləri üçün
azadlıq elan edin. Bu il sizin üçün
Azadlıq ili olsun; hamı öz mülkünə,
öz ailəsinə qayıtsın. 11 Qoy əllinci
il sizin üçün Azadlıq ili olsun. O il
heç nə əkməyin, düşən toxumdan
bitən məhsulu biçməyin, budanmamış
meynələrinizdən yığmayın, 12 çünki bu
Azadlıq ili sizin üçün müqəddəs olsun.
Tarlalarınızın verdiyi məhsulu yeyin.
13 Bu Azadlıq ilində hər kəs öz
mülkünə qayıtsın. 14 Kim torpaq
sahəsini başqa adama satarsa, ondan

---

[r] **24:17** Çıx. 21:12
[s] **24:20** Çıx. 21:23-25; Qanun. 19:21; Mat. 5:38
[t] **24:22** Say. 15:16
[u] **25:1** Çıx. 23:10-11

alan soydaşına haqsızlıq etməsin.
15 Alan şəxs Azadlıq ilindən neçə il
keçməsinə görə qiymətləndirib alsın.
Satan isə məhsul götürəcəyi illərə
münasib olaraq satsın. 16 İllərin sayı
çoxdursa, qiyməti qaldır, azdırsa, onu
endir, çünki o sənə satılan məhsulların
miqdarıdır. 17 Bir-birinizə qarşı
haqsızlıq etməyin, amma Allahınızdan
qorxun, çünki Allahınız Rəbb Mənəm.
18 Mənim qaydalarıma əməl edin,
hökmlərimə səylə riayət edin ki, ölkədə
arxayın yaşayasınız. 19 Torpaq da
barını verəcək ki, siz doyunca yeyib
orada sakit yaşayasınız. 20 ‹Məhsul
əkib-biçmədiyimiz yeddinci ildə nə
yeyək?› soruşanda bilin: 21 altıncı il
üstünüzə elə bərəkət göndərəcəyəm
ki, torpaq üçillik məhsul verəcək.
22 Səkkizinci il əkin və köhnə
məhsuldan yeyin; doqquzuncu il təzə
məhsul yetişənə qədər köhnəni yeyin.
23 Torpaq əbədi olaraq satılmaz; çünki
torpaq Mənimdir, siz isə yanımda qərib
və gəlməsiniz. 24 Bütün mülkünüzdən
sahə satanda onu geri satınalma
hüququnu saxlayın.
25 Yanındakı soydaşın yoxsullaşıb
mülkündən bir sahə satılmalıdırsa,
onun yaxın qohumu o sahəni geri satın
ala bilər. 26 Geri satın alan qohumu
yoxdursa, o soydaş sonra gücü çatıb geri
satınalma məbləği tapsa, 27 qoy satılan
vaxtdan neçə illər keçdiyini hesablasın
və qiymətin qalığını satdığı adama verib
yenə öz mülkünə malik olsun. 28 Əgər
gücü çatıb bu məbləği tapmasa, sahəsi
Azadlıq ilinə qədər onu geri satın alan
adama məxsus qalsın. Azadlıq ilində
isə qaytarılsın ki, satan adam yenə öz
mülkünə malik olsun.
29 Bir adam qalalı şəhərdə olan
yaşayış evini satarsa, onu geri satınalma
hüququ satdığı gündən bir il müddətinə
qüvvədədir; satan adam evi geri
satın ala bilər. 30 Amma əgər bütöv il
tamamlananacan o adam evi geri satın
ala bilməsə, qalalı şəhərdəki ev onu
alana məxsus həmişəlik nəsildən-nəslə
qalsın. Bu, Azadlıq ilində qaytarılmaz.
31 Ətraf qala divarı olmayan kəndlərdəki
evlər isə torpaq sahələri kimi sayılsın;
onları geri satınalma hüququ olsun və
Azadlıq ilində qaytarılsın.
32 Lakin Levililər özlərinə aid
şəhərlərdə mülklərini satdıqları evləri
daima geri satınalma hüququna malik
olsunlar. 33 Levililərdən birinin mülkü
satdığı və geri satın almadığı şəhər
evi Azadlıq ilində ona qaytarılsın.
Çünki Levililərin şəhərlərindəki evlər
onların İsrail övladları arasındakı irsdir.
34 Onların şəhərlərinin ətraf otlaqları
isə heç satılmamalıdır, çünki bunlar
Levililərin ayrılmaz mülküdür.
35 [v]Yanındakı soydaşın yoxsullaşıb və
özünü təmin edə bilmirsə, ona yardım
et. Qoy o sənin yanında yadelli ya
gəlmə kimi yaşasın. 36 Ondan nə sələm,
nə də mənfəət götür. Allahından qorx
və qoy soydaşın sənin yanında yaşaya
bilsin. 37 [w]Ona nə sələmlə pul ver, nə
də mənfəətini güdmək üçün yemək
ver. 38 Kənan torpağını sizə vermək
və Allahınız olmaq üçün sizi Misir
torpağından çıxaran Allahınız Rəbb
Mənəm.
39 [x]Yanındakı soydaşın yoxsullaşıb
sənə özünü qul kimi satarsa, ona qulun
ağır işini gördürmə. 40 Qoy o, yanında
muzdlu işçi yaxud gəlmə kimi olsun.
O, Azadlıq ilinədək yanında işləsin,
41 sonra uşaqları ilə birlikdə səndən
ayrılıb ailəsinin yanına, atalarının
mülkünə qayıtsın. 42 Çünki İsrail
övladları Mənim Misir torpağından

---

[v]**25:35** Qanun. 15:7-8 [w]**25:37** Çıx. 22:25; Qanun. 23:19-20
[x]**25:39** Çıx. 21:2-6; Qanun. 15:12-18

çıxartdığım qullarımdır, buna görə
də onlar qul kimi satılmasınlar. 43 O
soydaşına sərt ağalıq etmə. Allahından
qorx.
44 Qullarınız və kənizləriniz
ətrafınızdakı millətlərdən olsun. Siz
onlardan nökər və qarabaş geri satın
ala bilərsiniz. 45 Aranızda yaşayan
gəlmələrdən və onların ölkənizdə
doğulmuş ailə üzvlərindən də geri satın
ala bilərsiniz. Bunlar sizin mülkiyyətiniz
olacaq. 46 Siz özünüzdən sonra bunları
oğullarınıza əmlak kimi vəsiyyət edə
bilərsiniz və onlar oğullarınızın mirası
olub həyatı boyunca iş görəcəklər.
Ancaq İsrailli soydaşlarınız arasında heç
kim soydaşına sərt ağalıq etməsin.
47 Yanındakı soydaşın yoxsullaşıbsa,
qonşuluqda yaşayan pulu olan bir
yadelli ya da gəlməyə yaxud onun
ailə üzvünə özünü qul olaraq satarsa,
48 satıldıqdan sonra onun geri satınalma
hüququ var. Qardaşlarından biri onu
geri satın ala bilər; 49 əmisi ya da
əmisi oğlu da onu geri satın ala bilər.
Ailəsindən hər bir yaxın qohumu
da onu geri satın ala bilər. Öz gücü
çatanda o adam özünü geri satın ala
bilər. 50 Qoy bu adam ağası ilə özünü
satdığı ildən Azadlıq ilinə qədər muzdlu
işçinin iş müddəti kimi hesablaşsın və
illərin sayına görə qiyməti qoyulsun.
51 Əgər illərin sayı hələ də çoxdursa, o
buna görə geri satınalınmanın qiyməti
olaraq satın alındığı məbləğin böyük bir
hissəsini ödəsin. 52 Lakin əgər Azadlıq
ilinə az qalırsa, o müddətə görə hesab
edərək geri satınalınmanın qiyməti
olaraq az ödəsin. 53 Yəni ilbəil muzdlu
işçi kimi ağası ilə hesablaşsın. Qoy
ağası da sənin gözün qarşısında ona
sərt ağalıq etməsin. 54 Əgər o adam
bu yolla geri satın alınmamışdırsa,
Azadlıq ilində uşaqları ilə birgə azad
olsun. 55 Çünki İsrail övladları Mənim
qullarım, Mənim Misir torpağından
çıxardığım qullarımdır. Allahınız Rəbb
Mənəm.

Allaha itaətin bərəkətləri

(Qanun. 7:12-24; 28:1-14)

26 [y]Özünüzə büt düzəltməyin; oyma
büt yaxud sütun qoymayın,
ölkənizdə yonulmuş daş qoyub səcdə
etməyin; çünki Allahınız Rəbb Mənəm.
2 Şənbə istirahət günlərimə riayət
edin, Müqəddəs məkanıma ehtiramla
yanaşın. Rəbb Mənəm.
3 [z]Əgər qaydalarımla yaşayıb
əmrlərimə səylə əməl etsəniz, 4 sizə
mövsümündə yağış göndərəcəyəm
ki, torpaq öz məhsulunu, ağaclar isə
meyvələrini versin. 5 Sizin xırmanınız
o qədər bol olacaq ki, onun döyülməsi
üzüm yığımına qədər davam edəcək,
üzümünüz o qədər bol olacaq ki, onun
yığılması əkin vaxtına qədər davam
edəcək. Çörəyinizi doyunca yeyib
ölkənizdə arxayın yaşayacaqsınız.
6 Ölkənizə sülh verəcəyəm; yatanda
sizi vahiməyə salan olmayacaq.
Yırtıcı heyvanları ölkədən qovacağam
və müharibə üzü görməyəcəksiniz.
7 Düşmənlərinizi qovacaqsınız, onlar
döyüş zamanı qarşınızda həlak
olacaqlar. 8 Beşiniz yüz adamı,
yüzünüz on min adamı qovacaq.
Düşmənləriniz döyüş zamanı qarşınızda
həlak olacaqlar. 9 Mən üzümü sizə
çevirəcəyəm, sizi artırıb çoxaldacağam,
sizinlə olan Öz əhdimi yerinə
yetirəcəyəm. 10 Saxladığınız məhsul
bütün il boyu sizə çatacaq. Yeni
məhsula yer tapmaq üçün köhnəni
boşaltmalı olacaqsınız. 11 Üstəlik, Mən
aranızda məskunlaşacağam və sizə

---

[y]**26:1** Lev. 19:4; Çıx. 20:4; Qanun. 5:8; 16:21-22; 27:1 [z]**26:3** Qanun. 11:13-15

nifrət etməyəcəyəm. 12 [a]Mən həm
də aranızda yaşayıb sizin Allahınız
olacağam, siz isə Mənim xalqım
olacaqsınız. 13 Sizi Misir torpağından
çıxardan və onların köləliyindən azad
edən, boyunduruğunuzu qırıb başınızı
uca edən Allahınız Rəbb Mənəm.

Allahdan uzaqlaşmanın cəzası

(Qanun. 28:15-68)

14 Amma əgər Mənə qulaq asıb
bütün bu əmrlərimə əməl etməsəniz,
15 əvəzində qaydalarıma xor baxıb
hökmlərimi qəlbinizdən rədd etsəniz,
Mənim bütün əmrlərimə əməl etməyib,
əhdimi pozsanız, 16 Mən sizə bunu
edəcəyəm: göz çıxaran və qəlbi sıxan
fəlakət, vərəm, qızdırma göndərəcəyəm.
Toxumlarınızı hədər yerə əkəcəksiniz;
düşmənləriniz onlardan əmələ gələn
məhsulu yeyəcək. 17 Üzümü sizdən
döndərəcəyəm, düşmənlərinizin
qarşısında məğlub olacaqsınız,
yağılarınız üzərinizdə hökm sürəcək;
sizi qovan olmasa da, qaçacaqsınız.
18 Əgər buna baxmayaraq yenə
də Mənə qulaq asmasanız, o vaxt
günahlarınıza görə sizi yeddi qat artıq
tənbeh edəcəyəm. 19 Öyündüyünüz
güclü təkəbbürünüzü qıracağam.
Başınız üzərində olan göyləri dəmir
və ayağınız altındakı yeri tunc kimi
edəcəyəm ki, 20 qüvvətiniz tükənsin; nə
torpağınız məhsul, nə də ağaclarınız
meyvə verəcək.
21 Əgər Mənə qarşı çıxıb sözlərimə
hələ də qulaq asmaq istəməsəniz,
Mən sizə günahlarınıza görə yeddiqat
artıq bəla göndərəcəyəm. 22 Üstünüzə
vəhşi heyvanlar göndərəcəyəm. Onlar
övladlarınızı öldürüb, ev heyvanlarınızı
parçalayacaq. Buna görə sayınız elə
azalacaq ki, yollarınız viran qalacaq.
23 Əgər bunlardan ibrət dərsi almayıb
Mənə qarşı çıxmaqda davam etsəniz,
24 Mən də sizə qarşı çıxacağam və
günahlarınıza görə yenə də yeddiqat
artıq cəzalandıracağam. 25 Əhdi
pozduğunuza görə qisas almaq üçün
üstünüzə müharibə göndərəcəyəm. Siz
şəhərlərinizdə sığınanda aranıza vəba
salacağam ki, düşmənin əlinə düşəsiniz.
26 Çörəyinizin kökünü kəsəcəyəm. On
qadın bir təndirdə çörək bişirəcək və
onu sizə çəki ilə paylayacaq, siz isə
yeyib doymayacaqsınız.
27 Əgər siz bundan sonra da Mənə
qulaq asmasanız və Mənə qarşı çıxsanız,
28 bu dəfə Mən də sizə qarşı qəzəblə
çıxıb günahlarınıza görə yeddiqat artıq
tənbeh edəcəyəm. 29 Oğul və qızlarınızın
ətini yeməyə məcbur olacaqsınız.
30 Səcdəgahlarınızı məhv edib, buxur
qurbangahlarınızı yox edəcəyəm,
bütlərinizi devirəcəyəm və meyitlərinizi
o bütlərin üstünə sərəcəyəm. Sizi
rədd edəcəyəm; 31 şəhərlərinizi xaraba
qoyacağam, Müqəddəs məkanlarınızı
viranəliyə döndərib xoş ətirlərinizi
qəbul etməyəcəyəm. 32 Mən ölkənizi
elə viran qoyacağam ki, oranı işğal
edən düşmənləriniz baxıb dəhşətə
gəlsinlər. 33 Sizi isə millətlər arasına
səpələyəcəyəm və arxanızca qılıncla
düşəcəyəm. Torpağınız viranəliyə,
şəhərləriniz xarabalığa dönəcək.
34 O zaman ölkə viran qalacaq, siz
isə düşmən torpağında yaşayacaqsınız.
Bütün bu vaxt ərzində ölkə dinclik
illərini qeyd edəcək. Yalnız o vaxt
ölkə dinclik illərini qeyd edərək
şadlanacaq. 35 Orada yaşadığınız
dinclik illərində görmədiyi dincliyi ölkə
viran qalan bütün müddət görəcək.
36 Düşmən ölkələrində sizdən sağ
qalanların ürəklərinə elə cəsarətsizlik
salacağam ki, onlar hətta küləkdən

---

[a]**26:12** Yez. 37:27; 2Kor. 6:16; Vəhy 21:3

tərpənən yarpağın xışıltısından qorxub
qaçacaqlar. Onları qovan olmasa
da, müharibədən qaçan kimi qaçıb
yıxılacaqlar; 37 büdrəyib bir-birinin
üstünə yıxılacaqlar, amma onları qovan
olmayacaq; düşmənləriniz qarşısında
durmağa qüvvətiniz olmayacaq.
38 Millətlər arasında həlak olacaqsınız,
düşmən torpağı sizi udacaq. 39 Sizdən
sağ qalanlarsa düşmən ölkələrində
həm öz günahlarının cəzasını, həm də
atalarının günahlarının cəzasını çəkib
çürüyəcəklər.
40 Amma özlərinin və atalarının
günahlarını, Mənə xainlik etdiklərini və
Mənə qarşı çıxdıqlarını etiraf etsələr,
41 – buna görə Mən də onlara qarşı çıxıb
düşmən torpağına aparmışam – daş
ürəkləri yumşalıb günahlarının əvəzini
ödəsələr, 42 [b]o zaman Mən də Yaqubla,
İshaqla və İbrahimlə bağladığım
əhdimi və onlara vəd etdiyim ölkəni
xatırlayacağam.
43 Bu torpaq onlar tərəfindən tərk
ediləcək, onlarsız boş qalıb Şənbə
istirahəti edib şadlanacaq. Onlarsa
öz cəzalarını çəkəcəklər, çünki
Mənim hökmlərimi rədd edərək
qaydalarıma nifrət etdilər. 44 Bütün
bunlara baxmayaraq, düşmən ölkəsində
yaşadıqları zaman onlara xor baxıb rədd
etməyəcəyəm. Beləcə Mən onları məhv
edib bağladığım əhdimi pozmayacağam,
çünki onların Allahı Rəbb Mənəm.
45 Mən onların əcdadlarını başqa
millətlərin qarşısında onların Allahı
olmaq üçün Misir torpağından çıxaran
vaxt bağladığım əhdimi xatırlayacağam;
Rəbb Mənəm”».
46 Bunlar Rəbbin Özü ilə İsrail
övladları arasında Sina dağında Musa
vasitəsilə verdiyi qaydalar, hökmlər və
qanunlardır.

Rəbbə təqdimlərin gətirilməsi

27 Rəbb Musaya dedi: 2 «İsrail
övladlarına söylə: “İnsanları
Rəbbə həsr edən adam əhdini
bu dəyərlərinə görə ödəyə bilər:
3 Müqəddəs yerdəki şekelin ölçüsünə
görə iyirmi yaşından altmış yaşına
qədər kişinin dəyəri əlli şekel gümüş,
4 qadının dəyəri otuz şekeldir; 5 beş
yaşından iyirmi yaşına qədər oğlanın
dəyəri iyirmi şekel, qızın isə on şekeldir;
6 bir aydan beş yaşa qədər olan oğlanın
dəyəri beş şekel gümüş, qızın dəyəri isə
üç şekel gümüşdür; 7 altmış yaşından
yuxarı olan kişinin dəyəri on beş şekel,
qadının isə on şekeldir; 8 əgər əhdinə
əməl edən adam belə dəyəri ödəmək
üçün çox kasıbdırsa, qoy həsr etdiyi
adamı kahinin önünə gətirsin ki, kahin
onu qiymətləndirsin. Əhdinə əməl
edənin gücü nəyə çatırsa, kahin onun
qiymətini təyin etsin.
9 Əgər bir nəfər Rəbbə qurban
gətirilən heyvanlardan birini həsr
etsə, bunlardan Rəbbə verilən hər baş
heyvan müqəddəs sayılır. 10 O adam
heyvanı dəyişdirməsin. Nə pisi yaxşı
ilə, nə yaxşını pislə əvəz etməsin. Əgər
o, heyvanı dəyişdirirsə, dəyişdirilən
heyvanların ikisi də müqəddəs sayılsın.
11 Əgər Rəbbə qurban gətirməyə
layiq olmayan hər hansı murdar
heyvanlardan birini həsr etsə, qoy o
heyvanı kahinin yanına gətirib ona
göstərsin; 12 kahin onu yaxşı ya pis
olduğuna görə qiymətləndirsin və
dəyəri onun təyin etdiyinə görə olsun.
13 Əgər heyvanı həsr edən onu geri satın
almaq istəsə, qoy o dəyərinə beşdə biri
qədər əlavə edərək ödəsin.
14 Bir nəfər öz evini müqəddəs
təqdim kimi Rəbbə təqdis edəndə
kahin evi yaxşı ya pis olduğuna görə

---

[b]**26:42** Yar. 28:13-14; Yar. 26:3-4; Yar. 17:7-8

qiymətləndirsin. Qiymət kahinin təyin
etdiyi kimi qalsın. 15 Əgər o adam evini
geri satın almaq istəsə, qoy o qiymətə
görə beşdə birini əlavə edərək ödəsin və
ev ona qayıtsın.
16 Əgər bir nəfər mülkü olan tarla
sahəsini Rəbbə təqdis edirsə, oraya
əkilən toxum miqdarına görə bir xomer
arpa əkilən tarlanın qiyməti əlli şekel
gümüş olsun. 17 Əgər o adam tarlasını
Azadlıq ilindən başlayaraq təqdis edirsə,
bu dəyər olduğu kimi qalsın. 18 Əgər
tarlasını Azadlıq ilindən sonra təqdis
edirsə, kahin onunla qiymətini sonrakı
Azadlıq ilinə qədər qalan müddətə görə
hesablaşsın və dəyəri belə aşağı salınsın.
19 Əgər tarlanı təqdis edən adam onu
geri satın almaq istəsə, qoy o, gümüşə
görə dəyərinə beşdə birini əlavə edərək
ödəsin və tarla ona qayıtsın. 20 Əgər
tarlanı geri satın almadan başqa birinə
satarsa, sonra onu heç vaxt geri satın
ala bilməz. 21 O tarla Azadlıq ilində
azad olanda həmişəlik həsr olunmuş
bir tarla kimi Rəbb üçün təqdis edilmiş
sayılsın; kahinin mülkü olsun.
22 Əgər bir nəfər öz mülkü olmayaraq,
satın aldığı bir tarlanı Rəbbə təqdis
edərsə, 23 qoy kahin onunla Azadlıq
ilinə qədər dəyərini hesablasın. O adam
həmin gün qiyməti Rəbb üçün təqdis
edilmiş bir şey kimi versin. 24 Azadlıq
ilində həmin tarla mülk olub onu satan
adama qaytarılsın. 25 Bütün dəyərlər
Müqəddəs yerdəki şekelə görə sayılsın.
Bu şekel iyirmi geraya bərabərdir.
26 Heyvanlar arasında ilk doğulanlar
Rəbbə məxsusdur. Heç kim onu yenidən
təqdis etməsin. İstər mal-qara, istər
qoyun-keçi olsun, onlar Rəbbindir.
27 Əgər murdar heyvanın balası olsa,
onu gətirən adam ümumi dəyərinə
beşdə birini əlavə edərək geri satın
ala bilər. Əgər o geri satın alınmırsa,
dəyərinə satılsın.
28 [c]Bir nəfərin öz əmlakından istər
adam, istər heyvan, istər mülkü olan
tarla sahəsi olsun – Rəbb üçün məhv
edilməyə həsr etdiyi hər bir şey nə
satılsın, nə də geri satın alınsın. Məhv
edilməyə həsr olunmuş hər şey Rəbb
üçün ən müqəddəsdir. 29 Məhv edilməyə
həsr olunmuş hər kəs geri satın
alınmamalıdır, hamısı öldürülməlidir.
30 [d]Torpağın məhsulundan –
onun verdiyi taxıldan və ağacların
meyvəsindən bütün onda bir hissə
Rəbbə məxsusdur və Onun üçün
təqdis edilib. 31 Əgər bir nəfər öz onda
bir hissəsini geri satın almaq istəsə,
qoy qiymətinə beşdə birini əlavə
edərək ödəsin. 32 Bütün mal-qaradan,
qoyun-keçidən onda bir hissə, sayla
çoban dəyənəyinin altından keçən
hər onuncu heyvan Rəbb üçün təqdis
edilmiş sayılsın. 33 Qoy heyvan sahibi
heyvanlara yaxşı yaxud pis fərq qoyub
baxmasın; birini o biri ilə dəyişdirməsin.
Əgər o belə dəyişdirsə, dəyişdirilən
heyvanların ikisi də müqəddəs sayılıb
geri satın alınmamalıdır”».
34 Bu, Rəbbin Musaya İsrail övladları
üçün Sina dağında verdiyi əmrlərdir.

---

[c]**27:28** Say. 18:14 [d]**27:30** Say. 18:21; Qanun. 14:22-29

SAYLAR

KİTABI

GİRİŞ

«Saylar» Kitabı İsrail xalqının Sina dağını tərk etdiyi vaxtdan Allahın onlara vəd etdiyi ölkənin şərq sərhədinə çatdıqları vaxta qədər qırx illik tarixi əhatə edir. Kitab İsraillilərin mühüm bir işinin adı ilə bağlıdır: Musa peyğəmbərin İsrail xalqı ilə yola düşməzdən əvvəl Sina dağında İsrail xalqını siyahıya alması və bir nəsil böyüdükdən sonra İordan çayının şərqində – Moavda yenə də İsrail xalqını siyahıya alması. İki siyahıyaalma dövrü arasında İsraillilər Kənanın cənub sərhədinə – Qadeşə getdilər, amma vəd olunmuş ölkəyə girə bilmədilər. Onlar həmin ərazidə uzun illər qaldıqdan sonra İordan çayının şərqinə getdilər. Xalqın bir hissəsi burada məskunlaşdı, qalan hissəsi isə Kənana daxil olmaq üçün İordan çayını keçməyə hazırlaşdı.

«Saylar» Kitabı çətinliklər qarşısında ruhdan düşən və qorxan, Allaha və Onun göndərdiyi elçiyə – Musaya qarşı üsyankar olan xalqın salnaməsidir. Xalq dəfələrlə Allaha zəif iman və itaətsizlik göstərməsinə baxmayaraq, O Öz xalqına sədaqətli olmuş və ona davamlı qayğı göstərmişdir.

Kitabın məzmunu:

1:1–9:23 İsraillilərin Sina dağını tərk etməyə hazırlaşması

1:1–4:49 Birinci siyahıyaalma

5:1–8:26 Müxtəlif qanun və qaydalar

9:1-23 İkinci Pasxa

10:1–21:35 Sina dağından Moava

22:1–32:42 Moavda baş vermiş hadisələr

33:1-49 Misirdən Moava səyahətin yekunu

33:50–36:13 İordan çayını keçməzdən əvvəl Rəbbin verdiyi öyüd-nəsihətlər

İsrail övladlarının ilk dəfə siyahıya alınması

1 [e]İsrail övladlarının Misirdən çıxmasının ikinci ilində, ikinci ayın birinci günü Sina səhrasında, Hüzur çadırında Rəbb Musaya belə dedi:
[2] «Bütün İsrail övladlarının icmasını, nəsilləri və ailələri ilə birlikdə siyahıya alın. Bütün kişiləri ayrı-ayrı sayıb adlarını yazın. [3] İsraildə iyirmi və ondan yuxarı yaşda döyüşə qabil olan hər kişini sən və Harun siyahıya alıb dəstələrə ayıracaqsınız. [4] Sizinlə bərabər hər qəbilədən bir kişi olsun; bu adamlar ailə başçısı olmalıdır. [5] Sizə kömək edəcək adamlar bunlardır:
Ruven qəbiləsindən: Şedeur oğlu Elisur;
[6] Şimeondan: Surişadday oğlu Şelumiel;
[7] Yəhudadan: Amminadav oğlu Naxşon;
[8] İssakardan: Suar oğlu Netanel;
[9] Zevulundan: Xelon oğlu Eliav;
[10] Yusif övladlarından:
Efrayimdən: Ammihud oğlu Elişama;
Menaşşedən: Pedahsur oğlu Qamliel;
[11] Binyamindən: Gidoni oğlu Avidan;
[12] Dandan: Ammişadday oğlu Axiezer;
[13] Aşerdən: Okran oğlu Pagiel;
[14] Qaddan: Deuel oğlu Elyasaf;
[15] Naftalidən: Enan oğlu Axira».

[16] Bunlar icmadan təyin edilmiş adamlar, öz ata-babalarının qəbilə rəhbərləri və İsrailin tayfa başçıları idilər. [17] Musa ilə Harun adları göstərilən bu adamları apardılar.
[18] İkinci ayın birinci günündə bütün icmanı topladılar; nəsillərinə və ailələrinə görə adlarının siyahısı ilə iyirmi və ondan yuxarı yaşda olanlar ayrı-ayrı yazıldılar. [19] Rəbbin Musaya

---

[e] **1:1** Say. 26:1-51

əmr etdiyi kimi onlar Sina səhrasında
xalqı elə də siyahıya aldılar.
20 İsrailin ilk oğlu Ruvenin
övladlarından iyirmi və ondan
yuxarı yaşda döyüşə qabil olan hər kişi
mənsub olduğu nəsil və ailəyə görə
adlar siyahısına ayrı-ayrı qeyd edildi.
21 Ruven qəbiləsindən 46 500 nəfər
siyahıya alındı.
22 Şimeon övladlarından iyirmi və
ondan yuxarı yaşda döyüşə qabil olan
hər kişi mənsub olduğu nəsil və ailəyə
görə adlar siyahısına ayrı-ayrı qeyd
edildi. 23 Şimeon qəbiləsindən 59 300
nəfər siyahıya alındı.
24 Qad övladlarından iyirmi və ondan
yuxarı yaşda döyüşə qabil olan hər kişi
mənsub olduğu nəsil və ailəyə görə
adlar siyahısına qeyd edildi. 25 Qad
qəbiləsindən 45 650 nəfər siyahıya
alındı.
26 Yəhuda övladlarından iyirmi və
ondan yuxarı yaşda döyüşə qabil olan
hər kişi mənsub olduğu nəsil və ailəyə
görə adlar siyahısına qeyd edildi.
27 Yəhuda qəbiləsindən 74 600 nəfər
siyahıya alındı.
28 İssakar övladlarından iyirmi və
ondan yuxarı yaşda döyüşə qabil olan
hər kişi mənsub olduğu nəsil və ailəyə
görə adlar siyahısına qeyd edildi.
29 İssakar qəbiləsindən 54 400 nəfər
siyahıya alındı.
30 Zevulun övladlarından iyirmi və
ondan yuxarı yaşda döyüşə qabil olan
hər kişi mənsub olduğu nəsil və ailəyə
görə adlar siyahısına qeyd edildi.
31 Zevulun qəbiləsindən 57 400 nəfər
siyahıya alındı.
32 Yusif nəslindən – Efrayim
övladlarından iyirmi və ondan yuxarı
yaşda döyüşə qabil olan hər kişi
mənsub olduğu nəsil və ailəyə görə
adlar siyahısına qeyd edildi. 33 Efrayim
qəbiləsindən 40 500 nəfər siyahıya
alındı.
34 Menaşşe övladlarından iyirmi
və ondan yuxarı yaşda döyüşə qabil
olan hər kişi mənsub olduğu nəsil və
ailəyə görə adlar siyahısına qeyd edildi.
35 Menaşşe qəbiləsindən 32 200 nəfər
siyahıya alındı.
36 Binyamin övladlarından iyirmi
və ondan yuxarı yaşda döyüşə qabil
olan hər kişi mənsub olduğu nəsil və
ailəyə görə adlar siyahısına qeyd edildi.
37 Binyamin qəbiləsindən 35 400 nəfər
siyahıya alındı.
38 Dan övladlarından iyirmi və ondan
yuxarı yaşda döyüşə qabil olan hər kişi
mənsub olduğu nəsil və ailəyə görə
adlar siyahısına qeyd edildi. 39 Dan
qəbiləsindən 62 700 nəfər siyahıya
alındı.
40 Aşer övladlarından iyirmi və ondan
yuxarı yaşda döyüşə qabil olan hər kişi
mənsub olduğu nəsil və ailəyə görə
adlar siyahısına qeyd edildi. 41 Aşer
qəbiləsindən 41 500 nəfər siyahıya
alındı.
42 Naftali övladlarından iyirmi və
ondan yuxarı yaşda döyüşə qabil olan
hər kişi mənsub olduğu nəsil və ailəyə
görə adlar siyahısına qeyd edildi.
43 Naftali qəbiləsindən 53 400 nəfər
siyahıya alındı.
44 Musa, Harun və İsrailin on iki
rəhbəri tərəfindən bunlar siyahıya
alındı; hər biri mənsub olduqları ailəni
təmsil edirdi. 45 İsraildə iyirmi və ondan
yuxarı yaşda döyüşə qabil olan kişilərin
hamısı mənsub olduqları ailəyə görə
siyahıya alındı. 46 Siyahıya alınanlar
cəmi 603 550 nəfər idi.
47 Lakin onların arasında Levililər
ailələrinə görə siyahıya alınmadı.
48 Çünki Rəbb Musaya demişdi:
49 «Ancaq Levi qəbiləsini siyahıya
alma və digər İsrail övladlarını aldığın
siyahıya daxil etmə. 50 Şəhadət məskəni
ilə onun bütün avadanlığı və məskənə
aid olan hər şey üçün məsuliyyəti

Levililərin üzərinə qoy. Məskəni
və onun bütün avadanlığını onlar
daşısınlar, məskənə baxsınlar və onun
ətrafında düşərgə salsınlar. 51 Məskən
daşınacağı zaman Levililər onu
toplasınlar. Məskən bir yerə qoyulacağı
zaman yenə Levililər onu qursunlar.
Onlardan savayı məskənə yaxınlaşan
öldürülsün. 52 İsrail övladları öz
çadırlarını bölüklərinə görə qursunlar.
Hər kəs öz düşərgəsində bayrağının
altında olsun. 53 Levililər isə Şəhadət
məskəni ətrafında düşərgə salsınlar ki,
İsrail icması Rəbbin qəzəbinə düçar
olmasın. Levililər Şəhadət məskəninə
cavabdeh olsunlar».
54 İsrail övladları bütün bunları
Rəbbin Musaya əmr etdiyi kimi etdilər.

Qəbilələrin düşərgə yerləri

2 Rəbb Musaya və Haruna dedi:
2 «İsrail övladları Hüzur çadırını
əhatə edərək bir az kənarda, hər biri öz
bayrağının altında ailələrinin nişanı ilə
düşərgə salsınlar.
3 Şərq tərəfində, gündoğana tərəf
Yəhuda ordugahına aid bölüklər öz
bayraqlarının altında düşərgə salsınlar.
Yəhudalıların rəhbəri Amminadav oğlu
Naxşon olsun. 4 Yəhuda ordusunda
74 600 nəfər siyahıya alındı. 5 Onun
yanında düşərgə salanlar İssakar qəbiləsi
olacaq. İssakarlıların rəhbəri Suar oğlu
Netanel olsun. 6 Onun ordusundan
54 400 nəfər siyahıya alındı. 7 Sonra
Zevulun qəbiləsi düşərgə salacaq.
Zevulun övladlarının rəhbəri Xelon
oğlu Eliav olsun. 8 Onun ordusundan
57 400 nəfər siyahıya alındı. 9 Yəhuda
ordugahından bölüklərinə görə bütün
sayılanlar 186 400 nəfər idi. Onlar
birinci köçəcəklər.
10 Cənub tərəfində Ruven ordugahına
aid bölüklər öz bayraqlarının altında
düşərgə salacaqlar. Ruvenlilərin rəhbəri
Şedeur oğlu Elisur olsun. 11 Ruven
ordusundan 46 500 nəfər siyahıya
alındı. 12 Onun yanında düşərgə salanlar
Şimeon qəbiləsi olacaq. Şimeonluların
rəhbəri Surişadday oğlu Şelumiel
olsun. 13 Onun ordusundan 59 300
nəfər siyahıya alındı. 14 Sonra Qad
qəbiləsi düşərgə salacaq. Qadlıların
rəhbəri Deuel oğlu Elyasaf olsun.
15 Onun ordusundan 45 650 nəfər
siyahıya alındı. 16 Ruven ordugahından
bölüklərinə görə sayılanların cəmi 151
450 nəfər idi. İkinci onlar gedəcəklər.
17 Hüzur çadırı yola düşəndə
Levililərin düşərgəsi düşərgələrin
ortasında dursun. Hərə necə düşərgə
salıbsa, həmin nizamla, öz bayrağı
altında yola düşsün.
18 Qərb tərəfində Efrayim ordugahına
aid bölüklər öz bayraqlarının altında
düşərgə salacaqlar. Efrayimlilərin
rəhbəri Ammihud oğlu Elişama olsun.
19 Efrayim ordusundan 40 500 nəfər
siyahıya alındı. 20 Onun yanında
düşərgə salanlar Menaşşe qəbiləsi
olacaq. Menaşşelilərin rəhbəri Pedahsur
oğlu Qamliel olsun. 21 Onun ordusundan
32 200 nəfər siyahıya alındı. 22 Sonra
Binyamin qəbiləsi düşərgə salacaq.
Binyaminlilərin rəhbəri Gidoni oğlu
Avidan olsun. 23 Onun ordusundan 35
400 nəfər siyahıya alındı. 24 Efrayim
ordugahından bölüklərinə görə
sayılanların cəmi 108 100 nəfər idi.
Üçüncü onlar gedəcəklər.
25 Şimal tərəfində Dan ordugahına
aid bölüklər öz bayraqlarının altında
düşərgə salacaqlar. Danlıların rəhbəri
Ammişadday oğlu Axiezer olsun. 26 Dan
ordusundan 62 700 nəfər siyahıya
alındı. 27 Onun yanında düşərgə salanlar
Aşer qəbiləsi olacaq. Aşerlilərin rəhbəri
Okran oğlu Pagiel olsun. 28 Onun
ordusundan 41 500 nəfər siyahıya
alındı. 29 Sonra Naftali qəbiləsi düşərgə
salacaq. Naftalililərin rəhbəri Enan
oğlu Axira olsun. 30 Onun ordusundan

53 400 nəfər siyahıya alındı. 31 Dan
ordugahından cəmi 157 600 nəfər
siyahıya alındı. Öz bayraqlarının altında
ən sonuncu onlar gedəcəklər».
32 İsrail övladlarından ailələrinə
görə siyahıya alınanlar bunlardır.
Ordugahlardan bölüklərinə görə cəmi
603 550 nəfər siyahıya alındı. 33 Ancaq
Rəbbin Musaya əmr etdiyi kimi Levililər
digər İsrail övladları ilə birgə siyahıya
alınmadı. 34 İsrail övladları Rəbbin
Musaya əmr etdiyi hər şeyi yerinə
yetirdilər. Bayraqlarının altında belə
düşərgə saldılar və hər kəs nəsil və ailəsi
ilə birgə belə yola düşdü.

Harun oğulları

3 Rəbb Sina dağında Musa ilə
danışdığı zaman Harunla Musanın
nəsil tarixçəsi belədir. 2 [f]Harun
oğullarının adları belədir: ilk doğulan
Nadav, Avihu, Eleazar və İtamar.
3 Harun oğullarının kahinlik vəzifəsinə
keçirdiyi məsh olunmuş kahinlər
bunlardır. 4 [g]Nadav ilə Avihu Sina
səhrasında Rəbbin önündə haram
od təqdim edərkən oradaca öldülər.
Onların övladları yox idi. Eleazarla
İtamar ataları Harunun yanında
kahinlik etdilər.
5 Rəbb Musaya dedi: 6 «Levi qəbiləsini
gətir və kahin Harunun önündə
dayandır ki, ona kömək etsinlər. 7 Qoy
Hüzur çadırında Harun və bütün icma
üçün öz vəzifələrini yerinə yetirərək
müqəddəs məskənə xidmət etsinlər.
8 Hüzur çadırının bütün avadanlığına
baxsınlar və məskənə xidmət edərək
İsrail övladları üçün vəzifələrini
yerinə yetirsinlər. 9 Levililəri Harunla
oğullarının ixtiyarına ver; onlar İsrail
övladları arasından tamamilə Onun
xidmətinə verilmişdir. 10 Harunla
oğullarına tapşır ki, öz kahinlik
vəzifələrini yerinə yetirsinlər; müqəddəs
yerə yaxınlaşan kənar adam isə
öldürülsün».
11 Rəbb Musaya dedi: 12 «Budur,
hər İsrail qadınının doğduğu ilk oğlan
uşağının əvəzinə İsraillilər arasından
Levililəri seçmişəm. Levililər Mənimdir.
13 [h]Çünki bütün ilk oğlanlar Mənimdir.
Misir torpağında bütün ilk doğulanları
məhv etdiyim gün İsraildə istər insan,
istərsə heyvan – erkək olan bütün ilk
doğulanları Özüm üçün ayırdım. Onlar
Mənim olacaq. Rəbb Mənəm».

Levililərin vəzifələri

14 Rəbb Sina səhrasında Musaya belə
dedi: 15 «Levililəri ailələrinə, nəsillərinə
görə siyahıya al. Bir aylıq və ondan
yuxarı yaşda olan bütün kişi cinsindən
olanları siyahıya al». 16 Musa da Rəbbin
sözünə görə əmr edildiyi kimi onları
siyahıya aldı. 17 Adbaad Levi oğulları
bunlardır: Gerşon, Qohat və Merari.
18 Nəsillərinə görə Gerşonun nəsil
başçısı olan oğullarının adları belədir:
Livni və Şimey. 19 Qohatın nəsil başçısı
olan oğulları: Amram, İshar, Xevron və
Uzziel. 20 Merarinin nəsil başçısı olan
oğulları: Maxli və Muşi.
Ailələrinə görə Levi nəsilləri
bunlardır.
21 Livni və Şimey nəsilləri Gerşon
nəslindəndir. Gerşon tayfaları bunlardır.
22 Bir aylıq və ondan yuxarı yaşda olan
bütün kişi cinsindən 7500 nəfər
siyahıya alındı. 23 Gerşon nəsilləri
qərb tərəfində məskənin arxasında
düşərgə salmalıdırlar. 24 Gerşon nəslinə
mənsub olan ailələrin rəhbəri Lael oğlu
Elyasafdır. 25 Hüzur çadırında Gerşon
övladları Müqəddəs məskənə, çadır
örtüklərinə, Hüzur çadırının girişində
olan arakəsməyə, 26 həyətin pərdələrinə,
məskənlə qurbangahın ətrafındakı

---

[f] **3:2** Say. 26:60 [g] **3:4** Lev. 10:1-2; Say. 26:61 [h] **3:13** Çıx. 13:2

həyətin darvazasının arakəsməsi ilə
iplərinə və bunlarla əlaqədar olan bütün
xidmətə cavabdehdirlər.
27 Amram, İshar, Xevron və Uzziel
nəsilləri Qohat nəslindəndir. Qohat
nəsilləri bunlardır. 28 Bir aylıq və ondan
yuxarı yaşda olan bütün kişi cinsindən
8600 nəfər siyahıya alındı. Onlar
müqəddəs əşyalara cavabdehdirlər.
29 Qohat nəsilləri çadırın cənub
tərəfində düşərgə salmalıdırlar.
30 Qohat nəsillərinə mənsub ailələrin
rəhbəri Uzziel oğlu Elisafandır.
31 Onlar sandığa, masaya, çıraqdana,
qurbangahlara, müqəddəs yerdə ibadət
üçün işlənən bütün əşyalara, arakəsmə
pərdəsinə və bunlarla əlaqədar olan
bütün xidmətə cavabdehdirlər. 32 Levili
rəhbərlərinin rəhbəri kahin Harun oğlu
Eleazardır. O, Müqəddəs yerə cavabdeh
olanlara nəzarətçi təyin edilmişdir.
33 Maxli və Muşi nəsilləri Merari
nəslindəndir. Merari nəsilləri bunlardır.
34 Bir aylıq və ondan yuxarı yaşda
olan bütün kişi cinsindən 6200 nəfər
siyahıya alındı. 35 Merari nəsillərinə
mənsub ailələrin rəhbəri Avixayil
oğlu Surieldir. Onlar məskənin şimal
tərəfində düşərgə salmalıdırlar.
36 Merarililərə məskənin çərçivələri,
şüvülləri, dirəkləri, altlıqları, bütün
avadanlığı və bunlarla əlaqədar bütün
xidmət, 37 məskənin ətrafındakı həyətin
dirəkləri ilə altlıqları, payaları və ipləri
həvalə olundu.
38 Musa və Harun ilə oğulları
məskənin şərq tərəfində, gündoğana
doğru Hüzur çadırının önündə düşərgə
salmalıdırlar. Onlar İsrail övladları
üçün öz vəzifələrini yerinə yetirərək
Müqəddəs məkana cavabdehdirlər.
Oraya yaxınlaşan kənar adam
öldürülməlidir.
39 Rəbbin əmri ilə Musa və Harunun
Levi nəsillərindən saydıqları bir aylıq
və ondan yuxarı yaşda kişi cinsindən
olanlar cəmi 22 000 nəfər idi.
40 Rəbb Musaya dedi: «Bir aylıq və
ondan yuxarı yaşda kişi cinsindən
olan, ilk doğulan bütün İsrail
övladlarını adları ilə siyahıya al. 41 İsrail
övladlarının bütün ilk oğlanlarının
əvəzinə Levililəri və İsraillilərin
ilk doğulan heyvanlarının əvəzinə
Levililərin heyvanlarını Mənim üçün
ayır. Rəbb Mənəm». 42 Musa Rəbbin
ona əmr etdiyi kimi etdi. İsrail övladları
arasında bütün ilk doğulanları siyahıya
aldı. 43 Adları qeyd edilən, bir aylıq və
ondan yuxarı yaşda ilk doğulan kişi
cinsindən olanlar cəmi 22 273 nəfər idi.
44 Rəbb Musaya dedi: 45 «Levililəri
İsrail övladlarının ilk doğulanlarının
əvəzinə və Levililərin heyvanlarını
onların heyvanları əvəzinə ayır.
Levililər Mənim olacaq; Rəbb Mənəm».
46 İsraillilərin ilk oğlanlarından olub
Levililərin sayını aşan 273 nəfəri
satın almaq məqsədi ilə, 47 hər adam
üçün hər şekeldə iyirmi gera olan
Müqəddəs yerdəki şekelə görə beş
şekel götür. 48 Onları Levililərin sayını
aşanları satınalma ödənişi olaraq
Haruna və oğullarına ver. 49 Musa
Levililərlə əvəz olanların sayını aşan
İsrail övladlarından satınalma ödənişini
götürdü. 50 İsrail övladlarının ilk
oğlanlarından Müqəddəs yerdəki şekelə
görə 1365 şekel aldı. 51 Musa Rəbbin
sözünə görə, Rəbbin ona əmr etdiyi kimi
satınalma ödənişini Harunla oğullarına
verdi.

Qohat övladlarının vəzifələri

4 Rəbb Musaya və Haruna dedi:
2 «Levililər arasından Qohat
övladlarına mənsub nəsillərlə ailələri
siyahıya alın. 3 Hüzur çadırında xidmət
etməyə gələn otuz yaşından əlli yaşına
qədər kişilərin hamısını hesablayın.
4 Qohatlıların Hüzur çadırında xidməti

budur: ən müqəddəs əşyalara baxmaq.
5 Düşərgə yola düşəndə Harunla
oğulları içəri girsinlər, arakəsmə
pərdəsini endirərək onunla Şəhadət
sandığını örtsünlər. 6 Onun üzərinə
suiti dərisindən örtük çəkərək üstünə
büsbütün bənövşəyi kətan sərsinlər və
onun şüvüllərini yerinə qoysunlar.
7 Təqdis masası üzərinə bənövşəyi
kətan sərərək kətanın üstündə sinilər,
nimçələr, dolçalar və içmə təqdimi
tökmək üçün piyalələr olmalıdır. Daimi
çörək onun üzərində qalsın. 8 Onların
üzərinə al rəngli bir kətan sərərək suiti
dərisindən bir örtük çəksinlər və onun
şüvüllərini yerinə qoysunlar.
9 Bənövşəyi kətan götürüb, işıq
verəcək çıraqdanı, çıraqlarını,
maşalarını, xəkəndazlarını və çıraqdan
xidmətində işlədilən bütün zeytun
yağı qablarını örtsünlər. 10 Çıraqdanı
və onun bütün avadanlığını suiti
dərisindən bir örtüklə sarıyıb xərəyə
qoysunlar.
11 Qızıl qurbangahın üzərinə
bənövşəyi kətan sərərək onu suiti
dərisindən bir örtüklə örtsünlər və
şüvüllərini taxsınlar. 12 Müqəddəs yerdə
ibadət zamanı işlədilən bütün əşyaları
götürərək bənövşəyi kətanla sarısınlar
və suiti dərisindən bir örtüklə örtüb
xərəyə qoysunlar. 13 Qurbangahdan külü
təmizləyib, üzərinə tünd qırmızı kətan
çəksinlər. 14 İbadət zamanı işlədilən
bütün əşyaları: xəkəndazı, çəngəlləri,
kürəkləri, ləyənləri, qurbangahın bütün
avadanlığını onun üzərinə qoysunlar.
Sonra bunların üstünü suiti dərisindən
bir örtüklə örtüb şüvüllərini taxsınlar.
15 Düşərgə yola düşəndə Harunla
oğulları müqəddəs əşyaları və bütün
avadanlığı örtməyi qurtarandan
sonra Qohatlılar onu daşımağa
gəlsinlər. Amma müqəddəs şeylərə
toxunmamalıdırlar ki, ölməsinlər.
Hüzur çadırında olan bu şeyləri
daşımaq məsuliyyəti Qohatlılara aiddir.
16 Kahin Harun oğlu Eleazarın işi
çıraq üçün zeytun yağına, ətirli buxura,
daimi taxıl təqdimi və məsh yağına
nəzarət etməkdir. O bütün məskənə və
içində olan hər şeyə, müqəddəs yerlə
avadanlığına nəzarət edəcəkdir».
17 Rəbb Musaya və Haruna dedi:
18 «Qoymayın ki Levililər arasından
Qohatlıların nəsilləri yox olsun. 19 Ancaq
ən müqəddəs şeylərə yaxınlaşdıqları
zaman ölməyib sağ qalsınlar deyə
Harunla oğulları içəri girib onların
hərəsini öz işinin üstünə və öz yükünün
başında qoysun. 20 Lakin Qohatlılar bir
an belə, içəri girib müqəddəs əşyalara
baxmasınlar, yoxsa ölərlər».

Gerşon övladlarının vəzifələri

21 Rəbb Musaya belə dedi:
22 «Gerşonluları da mənsub olduqları
ailələrə və nəsillərə görə siyahıya al.
23 Onlardan otuz yaşından əlli yaşına
qədər olanların hamısını siyahıya al.
Qoy xidmət edib Hüzur çadırında iş
görmək üçün gəlsinlər. 24 İş görmək
və yük daşımaq xüsusunda Gerşon
nəsillərinin vəzifəsi budur: 25 Müqəddəs
məskənin pərdələrini, Hüzur çadırı
ilə onun örtüyünü, üzərindəki suiti
dərisindən xarici örtüyü, Hüzur
çadırının girişində olan arakəsməni,
26 həyətin pərdələrini və qurbangahın
ətrafındakı həyətin darvazasının
arakəsməsi ilə iplərini və onların
ibadət üçün işlənən bütün əşyalarını
daşısınlar; bu şeylərlə görüləcək bütün
işləri Gerşonlular görsünlər. 27 İstər
yük daşımaq, istərsə başqa iş görmək,
edəcəkləri bütün xidmətlər Harunla
oğullarının rəhbərliyi ilə görülsün.
Gerşonlular daşıyacaqları hər yükə
cavabdeh olsunlar. 28 Hüzur çadırında
Gerşon nəsillərinin xidməti budur.

Onların vəzifələri kahin Harun oğlu
İtamarın nəzarəti altında olsun.

Merari övladlarının vəzifələri

29 Merarililəri mənsub olduqları
nəsillərə və ailələrə görə siyahıya al.
30 Otuz yaşından əlli yaşına qədər
Hüzur çadırının işini görmək üçün
gələnlərin hamısını siyahıya al. 31 Hüzur
çadırında xidmət edərkən onların
vəzifəsi budur: məskənin çərçivələrini,
şüvüllərini, dirəklərini, altlıqlarını,
32 çadırın ətrafındakı həyətin dirəkləri
ilə altlıqlarını, payalarını, iplərini,
bütün avadanlığını və işlətdikləri hər
şeyi daşımaq. Hər kəsi adbaad təyin et
ki, müəyyən əşyaları daşısın. 33 Hüzur
çadırında Merari nəsillərinin vəzifəsi
budur. Onlar kahin Harun oğlu İtamarın
nəzarəti altında xidmət edəcəklər».

Levililərin siyahıya alınması

34 Musa ilə Harun və icma başçıları,
Qohatlılardan nəsillərə və ailələrə görə
35 otuz yaşından əlli yaşına qədər Hüzur
çadırına xidmət edib iş görmək üçün
gələn kişilərin hamısını siyahıya aldılar.
36 Nəsillərinə görə 2 750 nəfər siyahıya
alındı. 37 Hüzur çadırında xidmət edən
Qohat nəsillərinə mənsub kişilərin
cəmi bu idi. Rəbbin Musa vasitəsilə
verdiyi əmrə görə Musa ilə Harun onları
siyahıya aldılar.
38 Gerşonlulardan nəsillərinə və
ailələrinə görə 39 otuz yaşından əlli
yaşına qədər Hüzur çadırına xidmət
edib iş görmək üçün gələn kişilərin
hamısı siyahıya alındı. 40 Nəsillərinə
və ailələrinə görə 2630 nəfər siyahıya
alındı. 41 Gerşon nəslindən siyahıya
alınan, Hüzur çadırında xidmət edən
kişilərin cəmi bu idi. Rəbbin əmrinə
görə Musa ilə Harun onları siyahıya
aldılar.
42 Merari övladlarından nəsillərinə
və ailələrinə görə 43 otuz yaşından əlli
yaşına qədər Hüzur çadırına xidmət edib
iş görmək üçün gələn kişilərin hamısı
siyahıya alındı. 44 Nəsillərinə görə 3200
nəfər siyahıya alındı. 45 Hüzur çadırında
xidmət edən Merari nəsillərinə mənsub
kişilərin cəmi bu idi. Rəbbin Musa
vasitəsi ilə verdiyi əmrə görə Musa ilə
Harun onları siyahıya aldılar.
46 Musa ilə Harun və İsrail rəhbərləri,
nəsillərinə və ailələrinə görə bütün
Levililəri, 47 otuz yaşından əlli yaşına
qədər, Hüzur çadırında xidmət etmək
və yük daşımaq üçün gələn kişilərin
hamısını siyahıya aldılar. 48 8580 nəfər
siyahıya alındı. 49 Rəbbin əmrinə görə
hər biri edəcəyi xidmətə və daşıyacağı
yükə görə Musanın nəzarəti ilə siyahıya
alındılar; onlar Rəbbin Musaya əmr
etdiyi kimi siyahıya alındılar.

Düşərgənin paklığı

5 Rəbb Musaya dedi: 2 «İsrail
övladlarına əmr et ki, bütün iyrənc
dəri xəstəliyi və xəstəliyə görə bədən
axıntısı olan yaxud da meyitdən
murdarlanan hər kəsi düşərgədən
çıxarsınlar. 3 Onlar istər kişi olsun, istər
qadın, arasında olduğum düşərgələrini
murdar etməsinlər, onları düşərgədən
çıxarın». 4 İsrail övladları beləcə etdilər:
onları düşərgədən çıxardılar. Rəbb
Musaya necə söylədisə, İsrail övladları
elə də etdilər.

Günah üçün ödəmə

5 [i]Rəbb Musaya dedi: 6 «İsrail
övladlarına söylə: “İnsanların işlətdiyi
günahlardan birini edərək Rəbbə
xəyanət edən kişi yaxud qadın
təqsirkardır”. 7 Qoy o işlətdiyi günahı
etiraf edib təqsirinin əvəzinin beşdə
birini əlavə edərək qarşısında təqsirkar

---

[i]**5:5** Lev. 6:1-7

olan adama ödəsin. 8 Əgər o adamın
təqsirinin əvəzini ala biləcək qohumu
yoxdursa, ödənəcək əvəz Rəbb üçün
verilsin; qoy bu təqsirkar üçün verdiyi
kəffarə təkəsi ilə birlikdə kahininki
olsun. 9 İsrail övladlarının kahinə
təqdim etdikləri bütün müqəddəs
ianələr kahinə məxsusdur. 10 Hər kəsin
özü üçün təqdis etdiyi əşyalar özünə
məxsusdur, amma kahinə nə verərlərsə,
kahinə aiddir».

Xəyanətdə ittiham edilən qadınlar

11 Rəbb Musaya belə dedi: 12 «İsrail
övladlarına belə söylə: “Bir kişinin
arvadı əyri yola düşüb ona xəyanət etsə
və 13 başqa kişi ilə yaxınlıq edib cinsi
əlaqədə olduğu ərindən gizlədilirsə
və beləcə qadının murdar işi ortaya
çıxmamışsa, heç bir şahid olmadığı üçün
günah üstündə tutulmamışsa, 14 əri
qısqanclığa qapılıb murdar iş görən
arvadından şübhələnməyə başlayarsa
yaxud arvadı murdar iş görmədiyi
halda yenə qısqanclığa qapılıb ondan
şübhələnərsə, 15 kişi arvadını kahinin
yanına aparsın və arvadı üçün təqdim
olaraq istənilən efanın onda biri qədər
arpa unu gətirsin. Onun üzərinə nə
zeytun yağı töksün, nə də kündür
qoysun, çünki bu qısqanclıq üçün taxıl
təqdimidir. Təqsirkarlığı xatırladan
xatirə təqdimidir.
16 Kahin qadını Rəbbin hüzuruna
gətirsin; 17 gil qaba müqəddəs su alaraq
müqəddəs məskənin döşəməsindən toz
götürüb suya salsın. 18 Kahin qadını
Rəbbin önündə dayandıraraq onun
saçını dağıtsın. Sonra xatirə təqdimini
onun ovuclarına qoysun. Bu, qısqanclıq
üçün taxıl təqdimidir. Kahinin əlində
isə lənət gətirən acı su olacaq. 19 Kahin
qadına and içdirib desin: ‹Əgər sən
başqa kişi ilə yaxınlıq etməmisənsə,
ərinin nikahı altında olaraq əyri yola
düşüb murdarlıq etməmisənsə, lənət
gətirən bu acı su sənə zərər vurmayacaq.
20 Lakin əri ilə nikahda olaraq əyri
yola düşərək ərindən başqa bir kişi
ilə yaxınlıq edib murdar olmusansa›
21 onda kahin qadına lənət andını
içdirib belə desin: ‹Rəbb sənin bətnini
sonsuz edib qarnını şişirtdiyi zaman
səni xalqının içində lənət və töhmətə
düçar etsin. 22 Lənət gətirən bu su sənin
qarnını şişirtmək və bətnini sonsuz
etmək üçün bağırsaqlarına daxil olsun›.
Qadın ‹Amin, amin!› desin.
23 Kahin bu lənətləri bir tumara
yazsın və acı suda islatsın, 24 sonra
lənət gətirən acı suyu qadına içirtsin.
Lənət gətirən su onun bətninə girəcək
və acı olacaq. 25 Kahin qısqanclıq üçün
taxıl təqdimini qadının əlindən alsın və
Rəbbin hüzurunda yellədikdən sonra
qurbangaha gətirsin. 26 Xatirə təqdimi
olaraq taxıl təqdimindən ovuc dolusu
götürsün və qurbangahda tüstülədib
yandırsın, sonra qadına suyu içirtsin.
27 Qadına suyu içirdikdən sonra əgər
qadın murdar olub ərinə xəyanət
etmişsə, lənət gətirən su onun bətninə
girəcək və acılıq verəcək; onun qarnı
şişəcək, bətni sonsuz olacaq və özü
xalqının arasında lənətlənəcəkdir.
28 Əgər qadın murdarlıq etməmişsə və
pakdırsa, su zərər vurmayacaq və uşaq
doğa biləcəkdir.
29 Qısqanclığa aid olan qanun belədir:
bir qadın əri ilə nikahda olarkən əyri
yola düşüb murdar olanda 30 yaxud
bir kişi qısqanclığa qapılıb arvadından
şübhələnəndə kahin qadını Rəbbin
hüzurunda qoysun və ona bütün bu
qanunu icra etsin. 31 Kişi bu işdə cəzasız
qalsın, o qadın isə öz günahının cəzasını
çəksin”».

Nəzirilik andı

6 Rəbb Musaya belə dedi: 2 «İsrail
övladlarına söylə və onlara əmr et:
“Bir kişi və yaxud bir qadın nəzirilik

əhdi edib özünü Rəbbə həsr edərsə,
3 [j]şərabdan və başqa kefləndirici içkidən
çəkinsin. Hətta şərab sirkəsi də, başqa
kefləndirici içkidən hazırlanmış sirkə
də, üzüm suyu da içməsin; nə üzüm,
nə də kişmiş yesin. 4 Nəziri olduğu
müddətdə çəyirdəkdən qabığa qədər
meynədən istehsal edilmiş heç bir şey
yeməsin.
5 Nəziri olduğu bütün müddətdə
başına ülgüc dəyməsin, saçını uzatsın;
özünü Rəbbə həsr etdiyi müddət
qurtarana qədər müqəddəs olsun.
6 Özünü Rəbbə həsr etdiyi günlərdə
meyitə yaxınlaşmasın. 7 Atası və anası,
qardaşı və bacısı ölsə, onlara görə özünü
murdar etməsin; çünki özünü Allahına
həsretmə rəmzi onun başı üzərindədir.
8 Nəziri olduğu bütün müddətdə o,
Rəbbə həsr edilmişdir.
9 Yanında bir adam birdən-birə
qəflətən ölərsə və nəzirinin saçını
murdar eləyərsə, o təmiz olduğu
gün – yeddinci gün başını qırxdırsın.
10 Səkkizinci gün Hüzur çadırının
girişində kahinə iki qumru quşu yaxud
iki göyərçin gətirsin. 11 Kahin birini
günah qurbanı və o birini yandırma
qurbanı kimi təqdim etsin ki, nəzirinin
günahı üçün kəffarə olsun, çünki
meyitlə bir yerdə olmaqla o günah
işlətdi. Həmin gün yenidən başını təqdis
etsin. 12 Nəziri olduğu müddətdə özünü
Rəbbə yenidən həsr etsin və təqsir
qurbanı olaraq birillik erkək toğlu
gətirsin. Əvvəlki günlər isə boşa getsin,
çünki nəziriliyi murdarlanmışdır.
13 [k]Nəziriyə aid olan qanun budur:
özünü həsr etdiyi müddət qurtaranda
nəziri Hüzur çadırının girişinə gətirilsin.
14 Orada Rəbbə bu təqdimləri gətirsin:
yandırma qurbanı olaraq birillik
qüsursuz bir erkək toğlu, günah qurbanı
olan birillik qüsursuz bir dişi toğlu,
ünsiyyət qurbanı olan qüsursuz bir qoç,
15 bir səbət mayasız çörək, narın undan
zeytun yağı ilə yoğrulmuş mayasız
kökələrdən və üstünə zeytun yağı
sürtülmüş mayasız qoğallardan ibarət
olan taxıl təqdimləri və içmə təqdimləri.
16 Kahin Rəbbin önündə onları təqdim
etsin; günah qurbanını və yandırma
qurbanını gətirsin. 17 Mayasız çörək
səbəti ilə birgə qoçu Rəbbə ünsiyyət
qurbanı kimi gətirsin; kahin onun taxıl
təqdimi ilə içmə təqdimini də gətirsin.
18 Nəziri Hüzur çadırının girişində öz
həsr etdiyi saçını qırxsın, sonra saçını
götürüb ünsiyyət qurbanının altındakı
oda qoysun. 19 Nəziri həsr etdiyi saçını
qırxdıqdan sonra kahin qoçun bişmiş
bir qolunu, səbətdən götürdüyü mayasız
bir kökə və mayasız bir qoğal ilə
birgə nəzirinin ovuclarına qoysun.
20 Sonra yellətmə təqdimi kimi onları
Rəbbin hüzurunda yellətsin. Onlar
yellədilən döş əti və qaldırılan budla
birgə müqəddəsdir, kahinə məxsusdur.
Ondan sonra nəziri şərab içə bilər.
21 Özünü həsr etdiyinə görə Rəbbə
təqdimini və buna əlavə olaraq verə
biləcəyi başqa şeyləri əhd edən nəziri
ilə əlaqədar qanun budur. Nəzirilik
qanuna görə nəziri nə əhd etmişsə, onu
icra etməlidir”».

Kahinlərin xeyir-duası

22 Rəbb Musaya dedi: 23 «Harun və
oğullarına belə de: İsrail övladlarına
belə xeyir-dua verin:
24 “Qoy Rəbb sənə xeyir-dua verib
səni qorusun;
25 Rəbb Öz nurlu üzünü sənə
göstərərək lütf versin.
26 Rəbb üzünü sənə tərəf çevirsin,
sənə sülh versin”.

---

[j]**6:3** Luka 1:15 [k]**6:13** Həv. 21:23-24

27 Beləcə kahinlər Mənim adımla
İsrail övladlarına xeyir-dua verəndə
Mən də onlara xeyir-dua verəcəyəm».

Rəhbərlərin təqdimləri

7 Musa məskəni qurub qurtaranda
onu və bütün avadanlığını məsh
və təqdis etdi. Qurbangah və bütün
avadanlığını da məsh və təqdis etdi.
2 Sonra İsrail rəhbərləri təqdimləri
gətirdilər. Onlar nəsil başçıları, siyahıya
alınan xalqa nəzarət edən qəbilə
rəhbərləri idi. 3 Rəbbə təqdim olaraq
üstü örtülü altı araba və on iki öküz
gətirdilər; hər iki rəhbər üçün bir
araba və hər rəhbər üçün bir öküz. Bu
təqdimləri məskənin önünə gətirdilər.
4 Rəbb Musaya belə dedi: 5 «Onları bu
adamlardan götür ki, Hüzur çadırındakı
xidmətlərdə işlənilsin. Onları Levililərə,
hər birinin vəzifəsinə görə ver».
6 Musa arabaları və öküzləri götürüb
Levililərə verdi. 7 Gerşonlulara
vəzifələrinə görə iki araba və dörd öküz
verdi; 8 Merarililərə isə vəzifələrinə
görə dörd araba və səkkiz öküz verdi.
Onların hamısı kahin Harun oğlu
İtamarın nəzarəti altında idi. 9 Lakin
Qohatlılara bir şey vermədi, çünki
onların vəzifəsi müqəddəs əşyaları
çiyinlərində daşımaqdır.
10 Qurbangah məsh edilən gün
rəhbərlər onun təqdisi üçün təqdimlər
gətirdilər; onlar təqdimlərini
qurbangahın qabağına gətirdilər.
11 Çünki Rəbb Musaya demişdi:
«Qurbangahın təqdisi üçün hər gün bir
rəhbər öz təqdimini gətirsin».
12 Birinci gün təqdimi gətirən Yəhuda
qəbiləsindən Amminadav oğlu Naxşon
oldu. 13 Onun təqdimləri bunlar idi:
Müqəddəs yerdəki şekelə görə yüz otuz
şekel ağırlığında bir gümüş sini, yetmiş
şekellik bir gümüş ləyən – bunların ikisi
də taxıl təqdimi olaraq zeytun yağı ilə
yoğrulmuş narın unla dolu idi; 14 buxur
dolu on şekel ağırlığında bir qızıl nimçə;
15 yandırma qurbanı olaraq bir buğa, bir
qoç, bir erkək toğlu; 16 günah qurbanı
olaraq bir təkə; 17 ünsiyyət qurbanı
olaraq iki öküz, beş qoç, beş təkə, beş
erkək toğlu. Amminadav oğlu Naxşonun
gətirdiyi təqdimlər bunlar idi.
18 İkinci gün İssakarlıların rəhbəri
Suar oğlu Netanel təqdimlərini
gətirdi. 19 Onun təqdimləri bunlar idi:
Müqəddəs yerdəki şekelə görə yüz otuz
şekel ağırlığında bir gümüş sini; yetmiş
şekellik bir gümüş ləyən – bunların ikisi
də taxıl təqdimi olaraq zeytun yağı ilə
yoğrulmuş narın unla dolu idi; 20 buxur
dolu on şekel ağırlığında bir qızıl nimçə;
21 yandırma qurbanı olaraq bir buğa, bir
qoç, bir erkək toğlu; 22 günah qurbanı
olaraq bir təkə; 23 qurban ediləcək
ünsiyyət qurbanı olaraq iki öküz, beş
qoç, beş təkə, beş erkək toğlu. Suar oğlu
Netanelin gətirdiyi təqdimlər bunlar idi.
24 Üçüncü gün Zevulunluların
rəhbəri Xelon oğlu Eliav təqdimlərini
gətirdi. 25 Onun təqdimləri bunlar idi:
Müqəddəs yerdəki şekelə görə yüz otuz
şekel ağırlığında bir gümüş sini, yetmiş
şekellik bir gümüş ləyən – bunların ikisi
də taxıl təqdimi olaraq zeytun yağı ilə
yoğrulmuş narın unla dolu idi; 26 buxur
dolu on şekel ağırlığında bir qızıl nimçə;
27 yandırma qurbanı olaraq bir buğa, bir
qoç, bir erkək toğlu; 28 günah qurbanı
olaraq bir təkə; 29 qurban ediləcək
ünsiyyət qurbanı olaraq iki öküz, beş
qoç, beş təkə, beş erkək toğlu. Xelon
oğlu Eliavın gətirdiyi təqdimlər bunlar
idi.
30 Dördüncü gün Ruvenlilərin
rəhbəri Şedeur oğlu Elisur təqdimlərini
gətirdi. 31 Onun təqdimləri bunlar idi:
Müqəddəs yerdəki şekelə görə yüz otuz
şekel ağırlığında bir gümüş sini, yetmiş
şekellik bir gümüş ləyən – bunların ikisi
də taxıl təqdimi olaraq zeytun yağı ilə
yoğrulmuş narın unla dolu idi; 32 buxur

dolu on şekel ağırlığında bir qızıl nimçə;
33 yandırma qurbanı olaraq bir buğa, bir
qoç, bir erkək toğlu; 34 günah qurbanı
olaraq bir təkə; 35 qurban ediləcək
ünsiyyət qurbanı olaraq iki öküz, beş
qoç, beş təkə, beş erkək toğlu. Şedeur
oğlu Elisurun gətirdiyi təqdimlər bunlar
idi.
36 Beşinci gün Şimeonluların rəhbəri
Surişadday oğlu Şelumiel təqdimlərini
gətirdi. 37 Onun təqdimləri bunlar idi:
Müqəddəs yerdəki şekelə görə yüz otuz
şekel ağırlığında bir gümüş sini, yetmiş
şekellik bir gümüş ləyən – bunların ikisi
də taxıl təqdimi olaraq zeytun yağı ilə
yoğrulmuş narın un ilə dolu idi; 38 buxur
dolu on şekel ağırlığında bir qızıl nimçə;
39 yandırma qurbanı olaraq bir buğa, bir
qoç, bir erkək toğlu; 40 günah qurbanı
olaraq bir təkə; 41 ünsiyyət qurbanı
olaraq iki öküz, beş qoç, beş təkə, beş
erkək toğlu. Surişadday oğlu Şelumielin
gətirdiyi təqdimlər bunlar idi.
42 Altıncı gün Qadlıların rəhbəri
Deuel oğlu Elyasaf təqdimlərini
gətirdi. 43 Onun təqdimləri bunlar idi:
Müqəddəs yerdəki şekelə görə yüz otuz
şekel ağırlığında bir gümüş sini, yetmiş
şekellik bir gümüş ləyən – bunların ikisi
də taxıl təqdimi olaraq zeytun yağı ilə
yoğrulmuş narın unla dolu idi; 44 buxur
dolu on şekel ağırlığında bir qızıl nimçə;
45 yandırma qurbanı olaraq bir buğa, bir
qoç, bir erkək toğlu; 46 günah qurbanı
olaraq bir təkə; 47 ünsiyyət qurbanı
olaraq iki öküz, beş qoç, beş təkə,
beş erkək toğlu. Deuel oğlu Elyasafın
gətirdiyi təqdimlər bunlar idi.
48 Yeddinci gün Efrayimlilərin rəhbəri
Ammihud oğlu Elişama təqdimlərini
gətirdi. 49 Onun təqdimləri bunlar idi:
Müqəddəs yerdəki şekelə görə yüz otuz
şekel ağırlığında bir gümüş sini, yetmiş
şekellik bir gümüş ləyən – bunların ikisi
də taxıl təqdimi olaraq zeytun yağı ilə
yoğrulmuş narın unla dolu idi; 50 buxur
dolu on şekel ağırlığında bir qızıl nimçə;
51 yandırma qurbanı olaraq bir buğa, bir
qoç, bir erkək toğlu; 52 günah qurbanı
olaraq bir təkə; 53 ünsiyyət qurbanı
olaraq iki öküz, beş qoç, beş təkə, beş
erkək toğlu. Ammihud oğlu Elişamanın
gətirdiyi təqdimlər bunlar idi.
54 Səkkizinci gün Menaşşelilərin
rəhbəri Pedahsur oğlu Qamliel
təqdimlərini gətirdi. 55 Onun təqdimləri
bunlar idi: Müqəddəs yerdəki şekelə
görə yüz otuz şekel ağırlığında bir
gümüş sini, yetmiş şekellik bir gümüş
ləyən – bunların ikisi də taxıl təqdimi
olaraq zeytun yağı ilə yoğrulmuş narın
unla dolu idi; 56 buxur dolu on şekel
ağırlığında bir qızıl nimçə; 57 yandırma
qurbanı olaraq bir buğa, bir qoç, bir
erkək toğlu; 58 günah qurbanı olaraq
bir təkə; 59 ünsiyyət qurbanı olaraq
iki öküz, beş qoç, beş təkə, beş erkək
toğlu. Pedahsur oğlu Qamlielin gətirdiyi
təqdimlər bunlar idi.
60 Doqquzuncu gün Binyaminlilərin
rəhbəri Gidoni oğlu Avidan təqdimlərini
gətirdi. 61 Onun təqdimləri bunlar idi:
Müqəddəs yerdəki şekelə görə yüz otuz
şekel ağırlığında bir gümüş sini, yetmiş
şekellik bir gümüş ləyən – bunların ikisi
də taxıl təqdimi olaraq zeytun yağı ilə
yoğrulmuş narın unla dolu idi; 62 buxur
dolu on şekel ağırlığında bir qızıl nimçə;
63 yandırma qurbanı olaraq bir buğa, bir
qoç, bir erkək toğlu; 64 günah qurbanı
olaraq bir təkə; 65 ünsiyyət qurbanı
olaraq iki öküz, beş qoç, beş təkə,
beş erkək toğlu. Gidoni oğlu Avidanın
gətirdiyi təqdimlər bunlar idi.
66 Onuncu gün Danlıların rəhbəri
Ammişadday oğlu Axiezer təqdimlərini
gətirdi. 67 Onun təqdimləri bunlar idi:
Müqəddəs yerdəki şekelə görə yüz otuz
şekel ağırlığında bir gümüş sini, yetmiş
şekellik bir gümüş ləyən – bunların ikisi
də taxıl təqdimi olaraq zeytun yağı ilə
yoğrulmuş narın unla dolu idi; 68 buxur

dolu on şekel ağırlığında bir qızıl
nimçə; 69 yandırma qurbanı olaraq bir
dana, bir qoç, bir erkək toğlu; 70 günah
qurbanı olaraq bir təkə; 71 ünsiyyət
qurbanı olaraq iki öküz, beş qoç, beş
təkə, beş erkək toğlu. Ammişadday oğlu
Axiezerin gətirdiyi təqdimlər bunlar idi.
72 On birinci gün Aşerlilərin rəhbəri
Okran oğlu Pagiel təqdimlərini
gətirdi. 73 Onun təqdimləri bunlar idi:
Müqəddəs yerdəki şekelə görə yüz otuz
şekel ağırlığında bir gümüş sini, yetmiş
şekellik bir gümüş ləyən – bunların ikisi
də taxıl təqdimi olaraq zeytun yağı ilə
yoğrulmuş narın unla dolu idi; 74 buxur
dolu on şekel ağırlığında bir qızıl nimçə;
75 yandırma qurbanı olaraq bir dana, bir
qoç, bir erkək toğlu; 76 günah qurbanı
olaraq bir təkə; 77 ünsiyyət qurbanı
olaraq iki öküz, beş qoç, beş təkə,
birillik beş erkək toğlu. Okran oğlu
Pagielin gətirdiyi təqdimlər bunlar idi.
78 On ikinci gün Naftalililərin
rəhbəri Enan oğlu Axira təqdimlərini
gətirdi. 79 Onun təqdimləri bunlar idi:
Müqəddəs yerdəki şekelə görə yüz otuz
şekel ağırlığında bir gümüş sini, yetmiş
şekellik bir gümüş ləyən – bunların ikisi
də taxıl təqdimi olaraq zeytun yağı ilə
yoğrulmuş unla dolu idi; 80 buxur dolu
on şekel ağırlığında bir qızıl nimçə;
81 yandırma qurbanı olaraq bir buğa, bir
qoç, bir erkək toğlu; 82 günah qurbanı
olaraq bir təkə; 83 ünsiyyət qurbanı
olaraq iki öküz, beş qoç, beş təkə,
beş erkək toğlu. Enan oğlu Axiranın
gətirdiyi təqdimlər bunlar idi.
84 Qurbangah məsh ediləndə İsrail
rəhbərlərinin onun təqdisi üçün
gətirdiyi təqdimlər bunlardır: on iki
gümüş sini, on iki gümüş ləyən, on iki
qızıl nimçə; 85 hər gümüş nimçənin
ağırlığı yüz otuz şekel və hər ləyənin
ağırlığı isə yetmiş şekel idi; bütün
gümüş qabların ağırlığı Müqəddəs
yerdəki şekelə görə iki min dörd yüz
şekel idi; 86 buxurla dolu on iki qızıl
nimçədən hər birinin ağırlığı Müqəddəs
yerdəki şekelə görə on şekel olub.
Beləliklə, nimçələrdəki bütün qızılın
ağırlığı yüz iyirmi şekel idi; 87 yandırma
qurbanı olaraq, taxıl təqdimləri ilə
birlikdə heyvanların cəmi on iki buğa,
on iki qoç, on iki erkək toğlu və günah
qurbanı olaraq on iki təkə; 88 ünsiyyət
qurbanı üçün heyvanların cəmi iyirmi
dörd buğa, altmış qoç, altmış təkə,
altmış erkək toğlu. Qurbangah məsh
ediləndən sonra onun təqdisi üçün
verilən təqdimlər bunlar idi.
89 Musa Rəbb ilə danışmaq üçün
Hüzur çadırına girdiyi zaman Şəhadət
sandığında olan kəffarə qapağının
üzərindəki iki keruvun arasından ona
xitab edən Rəbbin səsini eşidərdi. Rəbb
Musa ilə danışardı.

Yeddi çıraq

8 [l]Rəbb Musaya belə dedi: 2 «Haruna
de: “Yeddi çırağı elə qoy ki,
çıraqdanın önünü işıqlandırsın”».
3 Harun belə etdi; Rəbbin Musaya əmr
etdiyi kimi çıraqları çıraqdanın önündə
yerləşdirdi. 4 Çıraqdanın quruluşu belə
idi: altlığından gül təsvirlərinə qədər
yastılanmış qızıldan hazırlanmışdı.
Çıraqdan Rəbbin Musaya göstərdiyi
nümunəyə görə düzəldilmişdi.

Levililərin təyin edilməsi

5 Rəbb Musaya dedi: 6 «İsrail
övladlarının arasından Levililəri götür
və onları pak et. 7 Onları pak etmək
üçün belə et: paklama suyunu üzərlərinə
çilə, sonra bədənlərindəki bütün tükləri
qırxıb geyimlərini yusunlar. Beləliklə,
pak olarlar. 8 O zaman bir buğa və
onun taxıl təqdimi olan zeytun yağı

---

[l]**8:1** Çıx. 25:31-40; 37:17-24

ilə yoğrulmuş narın un götürsünlər.
Günah qurbanı olaraq yenə bir buğa
götür. 9 Levililəri Hüzur çadırının
önünə gətir. İsrail övladlarının bütün
icmasını da topla. 10 Levililəri Rəbbin
önünə gətirdikdə qoy İsrail övladları
əllərini onların üzərinə qoysunlar.
11 Harun yellətmə təqdimi olaraq İsrail
övladlarının arasından Levililəri Rəbbin
önünə gətirəcək ki, Rəbbə xidmət
etsinlər. 12 Levililər əllərini buğaların
başlarına qoysunlar; birini günah
qurbanı və o birini yandırma qurbanı
olaraq Rəbbə gətir ki, Levililər üçün
kəffarə olunsun. 13 Levililəri Harunla
oğullarının önündə dayandır. Sonra da
onları Rəbbə gətirib yellətmə təqdimi
olaraq həsr edəcəksən.
14 Levililəri İsrail övladları arasından
beləcə ayır ki, Levililər Mənim olsun.
15 Levililəri pak edib yellətmə təqdimi
olaraq həsr et; bundan sonra onlar
Hüzur çadırında xidmət etmək üçün
içəri girə bilər. 16 Çünki İsrail övladları
arasından onlar tamamilə Mənə
verilmişdir; İsrailli qadınların doğduğu
bütün ilk oğlanların əvəzinə onları
Özümə götürdüm. 17 [m]İsrail övladları
arasında ilk doğulan bütün oğlanlar və
bütün heyvan balaları Mənimdir; Misir
diyarında bütün ilk oğlanları məhv
etdiyim gün onları Özümə təqdis etdim.
18 Ona görə də İsrail övladları arasında
bütün ilk oğlanların yerinə Levililəri
götürdüm. 19 İsrail övladları arasından
Levililəri Haruna və oğullarına hədiyyə
olaraq verdim ki, Hüzur çadırında İsrail
övladları üçün xidməti yerinə yetirib
kəffarə etsinlər və beləcə Müqəddəs
yerə yaxınlaşan İsraillilər bəlaya düçar
olmaqdan qorusunlar».
20 Musa ilə Harun və bütün İsrail
övladlarının icması Levililər üçün
deyilənləri etdilər. İsrail övladları
Rəbbin Levililər haqqında Musaya
əmr etdiyi hər şeyi yerinə yetirdilər.
21 Levililər özlərini pak edib geyimlərini
yudular. Harun onları Rəbbin önünə
gətirib yellədilən təqdim olaraq həsr
etdi və onlar üçün kəffarə etdi ki,
pak olsunlar. 22 Ondan sonra Levililər
Harunla oğullarının nəzarəti altında
Hüzur çadırında xidmətlərini icra etmək
üçün Rəbbin Musaya əmr etdiyini
yerinə yetirdilər.
23 Rəbb Musaya belə dedi: 24 «Bu
qanun Levililərə aiddir. İyirmi beş yaş
və ondan yuxarı olanlar Hüzur çadırının
işini görmək üçün içəri girsinlər. 25 Əlli
yaşa çatanda isə gördükləri xidmətlərini
dayandırıb daha işləməməlidirlər.
26 Hüzur çadırında öz vəzifələrini
yerinə yetirən qardaşlarına yardım edə
bilərlər, lakin özləri xidmət etməsinlər.
Levililərin vəzifələrini belə qaydaya
sal».

Pasxa bayramının keçirilməsi

9 [n]İsrail övladları Misir torpağından
çıxdıqdan sonra ikinci ilin birinci
ayında Rəbb Sina səhrasında Musaya
dedi: 2 «İsrail övladları Pasxa bayramını
təyin olunmuş vaxtda qeyd etsinlər.
3 Onu ayın on dördüncü günündə,
axşamçağı, təyin olunmuş vaxtda
keçirin; onu bütün qaydalarına və
hökmlərinə görə qeyd edin». 4 Beləcə
Musa İsrail övladlarına əmr etdi ki,
Pasxa bayramını keçirsinlər. 5 Sina
səhrasında, birinci ayın on dördüncü
günündə, axşamçağı Pasxa bayramını
keçirtdilər. İsrail övladları Rəbbin
Musaya əmr etdiyi hər şeyi yerinə
yetirdilər.
6 Ölüyə toxunub murdar olan adamlar
vardı ki, o gün onlar Pasxa bayramını
keçirə bilmədilər. Həmin gün bu
adamlar Musa və Harunun yanına

---

[m]**8:17** Çıx. 13:2 [n]**9:1** Çıx. 12:1-13

gəlib 7 belə dedilər: «Ölüyə görə biz
murdarıq, nə üçün biz başqa İsrail
övladları kimi Rəbbə qurban təqdim
etməkdən məhrum olaq?» 8 Musa onlara
dedi: «Dayanın, görüm Rəbb sizin
barədə nə əmr edəcək».
9 Rəbb Musaya dedi: 10 «İsrail
övladlarına belə de: "Əgər sizdən yaxud
nəslinizdən bir nəfər ölüyə toxunub
murdar olarsa yaxud uzaq yolda olarsa,
yenə də Rəbbin Pasxa bayramını
keçirtsin. 11 İkinci ayın on dördüncü
günü axşamçağı Pasxa bayramını qeyd
etsinlər. Pasxa qurbanını mayasız çörək
və acı göyərti ilə yesinlər. 12 [o]Ondan
sabaha qədər heç nə qalmasın və bir
sümük belə qırılmasın. Pasxaya aid olan
bütün qanunları icra etsinlər. 13 Amma
kim ki pakdır, uzaq yolda deyil və
Pasxanı keçirmirsə, öz xalqı arasından
qovulsun; çünki təyin olunan vaxtda
Rəbbin təqdimini gətirməmişdir, o
adam günahının cəzasını çəksin.
14 Əgər sizinlə yaşayan bir yadelli
Rəbbin Pasxa bayramını keçirmək
istəyirsə, Pasxanı qaydalarına və
hökmlərinə görə keçirsin; həm yadelli
üçün, həm də yerli əhali üçün qayda bir
olsun"».

Məskən üzərindəki bulud

(Çıx. 40:34-38)

15 Məskənin qurulduğu gün məskəni,
Şəhadət çadırını bulud bürüyərdi;
axşamdan səhərə qədər məskənin
üzərindəki bulud alova oxşayırdı.
16 Daima belə oldu. Məskəni bürüyən
bulud gecələr oda oxşayırdı. 17 [p]Bulud
çadırın üzərindən qalxan zaman İsrail
övladları köç edərdilər; əgər bulud
harada dayanardısa, İsrail övladları
da orada düşərgə salardılar. 18 Onlar
Rəbbin əmrinə görə yola düşər və
Rəbbin əmrinə görə də məskən
salardılar. Nə vaxt bulud məskənin
üzərində dayanardısa, onlar düşərgə
saldıqları yerdə qalardılar.
19 Bulud uzun müddət çadırın
üzərində dayananda İsrail övladları
Rəbbin buyruğuna riayət edərdilər.
20 Bəzən bulud məskənin üzərində
bir neçə gün görünərdi; onlar Rəbbin
əmrinə görə düşərgə saldıqları yerdə
qalar, yenə Rəbbin əmrinə görə yola
düşərdilər. 21 Bəzən də bulud axşamdan
səhərə kimi dayanırdı; səhər erkən
bulud qalxdıqda yola düşərdilər. İstər
gecə, istər gündüz olsun bulud qalxanda
yola düşərdilər. 22 İstər iki gün olsun,
istər bir ay və yaxud bir il, bulud
məskən üzərində dayanıb qalanda İsrail
övladları düşərgə saldıqları yerdə qalar,
köç etməzdilər. Lakin qalxan zaman
yola düşərdilər. 23 Rəbbin əmrinə görə
düşərgə salardılar və Rəbbin əmrinə
görə də yola düşərdilər. Musa vasitəsilə
verdiyi əmrə görə Rəbbin buyruğuna
riayət edərdilər.

İki gümüş kərənay

10 Rəbb Musaya belə dedi:
2 «Özünə yastılanmış gümüşdən
iki kərənay düzəlt. Bunları icmanı
çağırmaq və düşərgədəkilərin köçməsi
üçün işlət. 3 İki kərənay birdən
çalınarsa, bütün icma sənin yanına,
Hüzur çadırının girişinə toplansın.
4 Əgər tək biri çalınarsa, rəhbərlər,
İsrailin tayfa başçıları sənin yanına
toplansınlar. 5 Yüksək səslə çalınanda
şərqi düşərgədəkilər yola düşsünlər.
6 Yenə də yüksək səslə çalınanda cənubi
düşərgədəkilər yola düşsünlər. Onları
yola salmaq üçün yüksək səslə çalınsın.
7 Camaatı toplamaq lazım olanda çalın,
amma yüksək səslə çalmayın.
8 Kərənayları Harun oğulları olan
kahinlər çalsınlar. Bu, nəsildən-nəslə

---

[o]**9:12** Çıx. 12:46; Zəb. 34:20; Yəh. 19:36 [p]**9:17** Çıx. 40:36

sizin üçün əbədi qayda olsun. 9 Sizi
torpağınızda sıxışdıran düşmənə qarşı
döyüşə çıxanda kərənayları yüksək səslə
çalın ki, Allahınız Rəbbin yadına düşüb
düşmənlərinizdən xilas olasınız. 10 Şad
gününüzdə, bayramlarınızda və Təzə Ay
mərasimində yandırma qurbanlarınızı
və ünsiyyət qurbanınızı verərkən
kərənay çalın; Allahınızın qarşısında bu
sizin üçün bir xatirə olsun. Allahınız
Rəbb Mənəm».

İsrail övladları Sinanı tərk edirlər

11 İkinci ilin ikinci ayında, ayın
iyirminci günündə Şəhadət məskəninin
üzərindən bulud çəkildi. 12 İsrail
övladları köçlərinə görə Sina
səhrasından yola düşdülər. Bulud
Paran səhrasında dayandı.
13 İlk dəfə olaraq Musa vasitəsilə
Rəbbin əmrinə görə yola düşdülər.
14 Öncə Yəhuda ordu dəstələri öz
bayraqları altında yola düşdülər.
Bu orduya Amminadav oğlu Naxşon
rəhbərlik edirdi. 15 İssakar qəbiləsinin
ordusuna Suar oğlu Netanel rəhbərlik
edirdi. 16 Zevulun qəbiləsinin ordusuna
isə Xelon oğlu Eliav rəhbərlik edirdi.
17 Məskən sökülənde məskəni daşıyan
Gerşon övladları və Merari övladları
yola düşdülər.
18 Ruven ordu dəstələri öz bayraqları
altında yola düşdülər. Onlara Şedeur
oğlu Elisur rəhbərlik edirdi. 19 Şimeon
qəbiləsinin ordusuna Surişadday oğlu
Şelumiel rəhbərlik edirdi. 20 Qad
qəbiləsinin ordusuna Deuel oğlu Elyasaf
rəhbərlik edirdi.
21 Müqəddəs əşyaları daşıyan
Qohatlılar yola düşdülər; onlar
gələnədək o birilər məskəni qurardılar.
22 Efrayim ordu dəstələri öz
bayraqları altında yola düşdülər. Onlara
Ammihud oğlu Elişama rəhbərlik
edirdi. 23 Menaşşe qəbiləsinin ordusuna
Pedahsur oğlu Qamliel rəhbərlik edirdi.
24 Binyamin qəbiləsinin ordusuna isə
Gidoni oğlu Avidan rəhbərlik edirdi.
25 Ən axırda isə Dan ordu dəstələri
öz bayraqları altında yola düşdülər.
Bu orduya Ammişadday oğlu Axiezer
rəhbərlik edirdi. 26 Aşer qəbiləsinin
ordusuna Okran oğlu Pagiel, 27 Naftali
qəbiləsinin ordusuna Enan oğlu Axira
rəhbərlik edirdi.
28 İsrail ordu dəstələri bu nizamla
yola düşərdilər.
29 Musa qayınatası Midyanlı Reuel
oğlu Xovava dedi: «Rəbbin “sizə
verəcəyəm” dediyi yerə yola düşürük,
bizimlə gəl, biz sənə yaxşılıq edərik.
Çünki Rəbb İsrailə yaxşılıq edəcəyinə
söz verib». 30 Xovav ona dedi: «Gedə
bilmərəm. Mən öz torpağıma və
qohum-əqrəbamın yanına gedəcəyəm».
31 Musa dedi: «Xahiş edirəm, bizi
tərk etmə, çünki səhrada düşərgə
salacağımız yerləri sən bilirsən. Bizə
bələdçilik et. 32 Bizimlə getsən, Rəbbin
bizə edəcəyi yaxşılığı biz də sənə
edərik».
33 İsrail övladları Rəbbin dağından
ayrılıb üç gün yol getdilər. Rəbbin
Əhd sandığı da üç gün onların önündə
getdi ki, dincələcəkləri yeri onlara
göstərsin. 34 Düşərgə saldıqları yerdən
yola düşdükləri vaxt Rəbbin buludu
gündüz onların üzərində idi.
35 [q]Sandıq yola düşəndə Musa deyirdi:
«Ya Rəbb qalx!
Qoy düşmənlərin dağılsın,
Sənə nifrət edənlər Sənin hüzurundan
qaçsın».
36 Sandıq dayananda belə deyirdi:
«Ya Rəbb, İsrail tayfalarının on
minlərinin yanına qayıt».

---

[q]**10:35** Zəb. 68:1

Rəbbin göndərdiyi od və bildirçinlər

11 Camaat çəkdiyi sıxıntıdan
Rəbbə şikayət etdi. Rəbb bunu
eşidəndə qəzəbi alovlandı. Rəbbin
odu onların arasında yandı və düşərgə
ətrafındakıların bəzilərini məhv etdi.
2 Camaat Musaya fəryad etdi. Musa
Rəbbə yalvardı və od söndü. 3 O yerin
adı Tavera *qoyuldu, çünki onların
arasında Rəbbin odu yanırdı.
4 [r]Xalqın arasında olan alçaq
yadellilərin iştahası ifrat dərəcədə
artdı. İsrail övladları da yenə ağlayıb
dedilər: «Kaş ki yeməyə ətimiz olaydı!
5 Misirdə müftə yediyimiz balıqları,
xiyarları, qarpızları, kəvərləri, soğanları
və sarımsaqları yadımıza salırıq.
6 Ancaq indi iştahamız küsüb, yeməyə
mannadan başqa bir şey görmürük».
7 [s]Manna görünüşcə keşniş toxumu
kimi idi, rəngi də mirvari rəngində
idi. 8 Camaat dolaşar və onu yığıb
dəyirmanda üyüdər yaxud da həvəngdə
döyərdilər. Qazanda qaynadaraq kökə
düzəldərdilər. Onun dadı zeytun yağı
ilə bişirilmiş yeməklərə oxşayırdı.
9 [t]Manna gecə düşərgə üzərinə düşən
şehlə bərabər düşərdi.
10 Musa xalqın, hər ailənin çadırının
qarşısında ağlamaqlarını eşitdi və
Rəbbin qəzəbi çox alovlandı. Musa da
narazı idi. 11 Ona görə Rəbbə dedi:
«Sən nə üçün quluna əzab verdin?
Sənin gözündə lütf tapmadığım üçün bu
xalqın bütün yükünü mənim üzəriməmi
qoyursan? 12 Bütün bu xalqa mənmi
hamilə olmuşam? Bunları mənmi
doğmuşam? Məgər Sən istəyirsən ki,
südəmər uşağı gəzdirən dayə kimi
atalarına and içib söz verdiyin torpağa
onları qucağımda mən aparım? 13 Bütün
bu xalqa yedirtmək üçün əti mən
haradan tapım? Çünki onlar mənim
qarşımda ağlayaraq "bizə ət ver, yeyək"
deyirlər. 14 Bu xalqı mən təkbaşına
daşıya bilmərəm, çünki bu mənim
üçün çox ağırdır. 15 Əgər mənimlə bu
cür davranacaqsansa, gözündə lütf
tapdımsa, onda nə olar, məni öldür ki,
belə əzabı görməyim».
16 Rəbb Musaya dedi: «Mənə xalq
arasında rəhbər və mötəbər saydığın
İsrail ağsaqqallarından yetmiş nəfər
topla. Onları Hüzur çadırına gətir
və qoy sənlə dursunlar. 17 Mən
enərək orada sənlə danışacağam.
Səndə olan Ruhdan götürüb onlara
verəcəyəm ki, xalqın yükünü sənlə
bərabər çəksinlər. Bununla da bu yükü
təkbaşına daşımayacaqsan. 18 Xalqa de
ki, sabah üçün özlərini pak etsinlər,
çünki ət yeyəcəklər. "Kaş ki ətimiz
olaydı! Misirdə halımız yaxşı idi"
deyərək bərkdən ağladınız. Bunu Rəbb
eşitdi. Ona görə Rəbb sizə ət verəcək,
yeyəcəksiniz. 19 Nə bir gün, nə iki
gün, nə beş gün, nə on gün, nə də
iyirmi gün yeyəcəksiniz. 20 Düz bir ay,
burnunuzdan gələnə qədər, iyrənənə
qədər yeyəcəksiniz; çünki aranızda olan
Rəbbi rədd etdiniz və Onun qarşısında
"nə üçün Misirdən çıxdıq?" deyərək
ağladınız». 21 Musa dedi: «Arasında
olduğum bu xalqda altı yüz min piyada
vardır və Sən deyirsən: "Mən onlara
bir aylıq yemək üçün ət verəcəyəm".
22 Bütün qoyun-keçi və mal-qara
kəsilərsə, onlar doyarmı? Dənizin bütün
balıqları tutularsa, onlar doyarmı?»
23 Rəbb Musaya dedi: «Məgər Rəbbin
əli qısaldımı? İndi görəcəksən sənə
dediklərim yerinə yetir ya yox».
24 Musa çıxdı və Rəbbin sözünü
xalqa çatdırdı. Xalqın ağsaqqallarından
yetmiş nəfəri topladı və çadırın ətrafında

*11:3 *Tavera* – ibrani dilində *yanğın.*

[r]11:4 1Kor. 10:6 [s]11:7 Çıx. 16:31 [t]11:9 Çıx. 16:13-15

dayandırdı. 25 Rəbb buludda endi və
Musa ilə danışdı. Ondakı Ruhdan
götürüb yetmiş nəfər ağsaqqallara
verdi; onların üzərinə Ruh çökən zaman
peyğəmbərlik etdilər, amma sonra
etmədilər.
26 Düşərgədə iki adam qalmışdı,
birinin adı Eldad və o birinin adı Medad
idi. Onlar yazılan yetmiş nəfər arasında
idilər, lakin çadıra getməmişdilər. Ruh
onların da üzərinə çökdü və onlar
düşərgədə peyğəmbərlik edirdilər.
27 Bir gənc qaçaraq Musaya xəbər
verib dedi: «Eldad və Medad düşərgədə
peyğəmbərlik edirlər». 28 Gəncliyindən
bəri Musanın köməkçisi olan Nun oğlu
Yeşua «ağam Musa, onlara qadağan et»
deyib fikrini bildirdi. 29 Musa ona cavab
verdi: «Sən mənə görəmi qısqanırsan?
Kaş Rəbbin bütün xalqı peyğəmbər
olaydı və Rəbb onlara Ruhunu verəydi!»
30 Sonra Musa və İsrail ağsaqqalları
düşərgəyə qayıtdılar.
31 Rəbb dənizdən bildirçin gətirən
bir külək əsdirdi. Külək bildirçinləri
düşərgənin hər istiqamətindən bir
günlük yol qədər uzaqlığa, yerin
üzərindən iki qulac qədər hündürlüyə
saldı. 32 Bütün o gün, o gecə və ertəsi
gün camaat çıxıb bildirçinləri yığdı. Ən
az yığan on xomer yığdı. Bildirçinləri
özləri üçün düşərgənin ətrafına
sərirdilər. 33 Amma əti hələ dişləri
arasında çeynəməmişdən əvvəl xalqa
qarşı Rəbbin qəzəbi alovlandı, Rəbb
onları şiddətli vəba ilə cəzalandırdı.
34 O yerin adı Qivrot-Hattaava*
qoyuldu, çünki iştahası başqa yemək
çəkənlər orada basdırıldı. 35 Camaat
Qivrot-Hattaavadan Xaserota köçüb
orada qaldı.

Məryəmin cəzalanması

12 Məryəm ilə Harun Kuşlu
qadından ötrü Musadan giley
edirdilər. Çünki Musa özünə arvad
olaraq həmin Kuşlu qadını almışdı.
2 Onlar dedilər: «Rəbb yalnız Musa
vasitəsiləmi danışdı? Bizim vasitəmizlə
də danışmadımı?» Rəbb bunu eşitdi.
3 Musa yer üzündə yaşayan bütün
adamlardan daha itaətkar bir insan idi.
4 Rəbb bir anlıq Musaya, Haruna
və Məryəmə dedi: «Üçünüz də Hüzur
çadırına gəlin». Üçü də oraya getdilər.
5 O zaman Rəbb bulud dirəyində endi
və çadırın girişində durub Harunla
Məryəmi çağırdı; hər ikisi önə çıxanda
6 Rəbb onlara dedi:
«İndi sözlərimi dinləyin;
Əgər aranızda bir peyğəmbər varsa,
Mən Rəbb görüntüdə ona Özümü
bildirərəm,
Yuxuda onunla danışaram.
7 uQulum Musa isə elə deyil,
O bütün evimdə sadiqdir.
8 Mən onunla müəmmalarla deyil,
Üzbəüz açıq danışaram və
O, Rəbbin surətini görür.
Nə üçün qorxmayaraq qulum
Musadan gileyləndiniz?»
9 Rəbb onlara bərk qəzəbləndi və
oradan getdi. 10 Bulud çadırın üzərindən
çəkiləndə Məryəm cüzama tutulmuş,
qar kimi ağarmışdı. Harun Məryəmə
baxdıqda gördü ki, o cüzama tutulub.
11 Harun Musaya dedi: «Ey ağam,
rica edirəm ki, axmaqlıq və günah
işlədiyimizə görə bizi bu cəzanı çəkməyə
qoyma. 12 Rica edirəm, qoyma ki onun
bədəni ananın bətnindən çıxan ölü
doğulmuş uşağın yarı çürümüş bədəninə
bənzəsin». 13 Musa Rəbbə fəryad edib
dedi: «Yalvarıram, ay Allah, ona şəfa

*11:34 *Qivrot-Hattaava* – ibrani dilində *həsrət qəbirləri.*

u12:7 İbr. 3:2,5

ver!» 14 [v]Rəbb Musaya dedi: «Əgər
atası onun üzünə tüpürmüş olsaydı,
yeddi gün gözdən düşməyəcəkdimi?»
15 Məryəm yeddi gün düşərgədən kənar
yerdə saxlandı. O geri gətirilənə qədər
camaat köçmədi.
16 Ondan sonra camaat Xaserotdan
yola düşdü və Paran səhrasında düşərgə
saldılar.

Kənan ölkəsinə nəzər salma

(Qanun. 1:19-33)

13 Rəbb Musaya dedi: 2 «İsrail
övladlarına verəcəyim Kənan
torpağına nəzər salmağa adamlar
göndər; atalarının hər qəbiləsindən bir
rəhbər göndər».
3 Musa Rəbbin əmrinə görə Paran
səhrasından onları göndərdi; hamısı
İsrail övladlarının başçılarındandır.
4 Adları bunlardır:
Ruven qəbiləsindən Zakkur oğlu
Şammua;
5 Şimeon qəbiləsindən Xori oğlu Şafat;
6 Yəhuda qəbiləsindən Yefunne oğlu
Kalev;
7 İssakar qəbiləsindən Yusif oğlu İqal;
8 Efrayim qəbiləsindən Nun oğlu Huşə;
9 Binyamin qəbiləsindən Rafu oğlu Palti;
10 Zevulun qəbiləsindən Sodi oğlu
Qaddiel;
11 Yusif qəbiləsindən, yəni Menaşşe
qəbiləsindən Susi oğlu Qaddi;
12 Dan qəbiləsindən Gemalli oğlu
Ammiel;
13 Aşer qəbiləsindən Mikael oğlu Setur;
14 Naftali qəbiləsindən Vofsi oğlu Naxbi;
15 Qad qəbiləsindən Maki oğlu Geuel.
16 Ölkəni nəzərdən keçirmək üçün
Musanın göndərdiyi adamların adları
belədir: Musa Nun oğlu Huşəyə Yeşua
adını verdi.
17 Musa onları Kənan torpağını
nəzərdən keçirmək üçün göndərərkən
dedi: «Bu yoldan Negevə gedin və
dağlığa çıxın. 18 Ölkənin necə olduğunu
görün. Orada yaşayan xalq güclümü,
zəifmi, azmı, çoxmu? 19 Yaşadıqları ölkə
necə, yaxşımı, pismi? Şəhərləri necə,
hasarlımı, istehkamsızmı? 20 Torpaq
necə, münbitmi, məhsulsuzmu? Orada
ağac varmı, yoxsa yox? Əlinizdən gələni
edib ölkənin meyvəsindən gətirin». O
zaman üzüm yetişən mövsüm idi.
21 Onlar yola düşdülər və Zin
səhrasından Xamat keçidindəki Rexova
qədər ölkəni nəzərdən keçirdilər.
22 Negevə çıxdılar və Xevrona çatdılar;
orada Anaqlı Aximan, Şeşay və Talmay
yaşayırdı. Xevron Misirdəki Soan
şəhərindən yeddi il əvvəl tikilmişdi.
23 Eşkol vadisinə çatanda bir salxım
üzümü olan bir tənək budağı kəsdilər və
adamların ikisi bir neçə nar və əncirlə
birlikdə tənək budağını aralarında bir
şüvüldə aparırdılar. 24 İsrail oğullarının
oradan kəsdikləri salxıma görə o yerə
Eşkol [*]vadisi deyildi.
25 Qırx gündən sonra ölkəni nəzərdən
keçirib qayıtdılar. 26 Paran səhrasındakı
Qadeşə, Musa ilə Harunun və bütün
İsrail övladlarının icmasının yanına
gəldilər. Onlara və bütün icmaya
xəbər gətirdilər, sonra ölkənin
meyvələrini onlara göstərdilər.
27 Musaya belə izah edərək dedilər:
«Bizi göndərdiyin ölkəyə çatdıq.
Həqiqətən də, orada süd və bal axır.
Budur o torpağın meyvələri! 28 Lakin
orada yaşayan xalq çox güclüdür.
Şəhərlər istehkamlı və çox böyükdür.
Hətta orada Anaqlıları gördük. 29 Negev
məntəqəsində Amaleqlilər, dağlıqda
Xetlilər, Yevuslular və Emorlular, dəniz

---

[*]**13:24** *Eşkol* – ibrani dilində *salxım.*

[v]**12:14** Say. 5:2-3

kənarında və İordan çayı sahilində isə
Kənanlılar yaşayırlar».
30 Kalev Musanın önündə camaatı
sakitləşdirib dedi: «Gedib oranı ələ
keçirək. Çünki biz mütləq onların
öhdəsindən gələrik». 31 Onunla gedən
adamlar isə dedilər: «O xalqa hücum
edə bilmərik, çünki onlar bizdən
güclüdürlər». 32 Nəzərdən keçirdikləri
torpaq haqqında İsrail övladlarına
pis xəbər gətirib dedilər: «Gözdən
keçirmək üçün içindən keçdiyimiz
torpaq öz əhalisinin başını yeyən
torpaqdır və orada gördüyümüz hər
kəs uca boyludur. 33 Orada nəhəng
adamların nəslindən olan Anaqlıları
gördük. Onların yanında özümüzü
çəyirtkə boyda hiss etdik, onlara da elə
göründük».

Xalqın üsyanı

14 Bütün icma uca səslə fəryad
qoparıb gecə boyu ağladı.
2 İsrail övladları Musaya və Haruna
qarşı deyindilər; bütün icma onlara
dedi: «Kaş Misir torpağında ya da bu
səhrada öləydik! 3 Nə üçün Rəbb bizi
bu torpağa aparır? Yəni biz qılıncla
qırılaq? Arvadlarımız və uşaqlarımız
əsir olacaqlar. Misirə qayıtmaq bizim
üçün daha yaxşı olmazdımı?» 4 Sonra
bir-birlərinə dedilər: «Özümüzə başçı
seçək və Misirə qayıdaq».
5 O zaman Musa ilə Harun orada
toplanmış bütün İsrail icmasının
camaatının önündə üzüstə yerə sərildi.
6 Ölkəyə nəzər salanlardan Nun
oğlu Yeşua və Yefunne oğlu Kalev
paltarlarını cırdılar; 7 bütün İsrail
övladlarının icmasına belə dedilər:
«Nəzərdən keçirmək üçün içərisindən
keçdiyimiz ölkə çox yaxşı bir ölkədir.
8 Əgər Rəbb bizdən razı qalarsa, bizi
o ölkəyə aparacaq, süd və bal axan
torpağı bizə verəcək. 9 [w]Ancaq Rəbbə
qarşı üsyankarlıq etməyin. Ölkənin
xalqından qorxmayın, onları məğlub
edə bilərik. Müdafiəçiləri onları atıb
getmişdir, amma Rəbb bizimlədir.
Onlardan qorxmayın!» 10 Lakin bütün
icma «Onları daşqalaq edin!» deyəndə
Rəbbin izzəti Hüzur çadırında bütün
İsrail övladlarına göründü.
11 Rəbb Musaya belə dedi: «Nə
vaxtadək bu xalq Mənə hörmətsizlik
edəcək? Aralarında etdiyim əlamətləri
görə-görə nə vaxta qədər Mənə iman
gətirməyəcəklər? 12 Onları vəba ilə
cəzalandıracağam. İrsdən məhrum
edəcəyəm. Onlardan çox böyük və güclü
bir milləti səndən törədəcəyəm».
13 [x]Musa Rəbbə dedi: «O zaman
Misirlilər eşidəcək, çünki bu xalqı
onların arasından qüdrətinlə Sən
çıxartdın. 14 Bunu ölkənin əhalisinə
anladacaqlar. Eşitdilər ki, Sən Rəbb bu
xalqın arasındasan. Çünki, ya Rəbb,
Sən onlarla üzbəüz görüşürsən, Sənin
buludun onların üzərində durur. Sən
gündüz bulud sütunu və gecə alov
sütunu ilə onlara yol göstərirsən.
15 Əgər bu xalqın hamısını bir nəfər
kimi öldürsən, Sənin şöhrətini eşidən
millətlər belə deyəcəklər: 16 “Rəbb and
içərək vəd etdiyi ölkəyə bu xalqı apara
bilmədiyi üçün onları səhrada öldürdü”.
17 İstəyirəm ki, qoy indi Xudavəndin
böyük qüdrəti göstərilsin, necə ki Sən
dedin: 18 [y]“Rəbb hədsiz səbirli, bol
məhəbbətli, cəzanı və qanunsuzluğu
bağışlayandır, lakin cəzasız da qoymaz,
ataların cəzasını üçüncü-dördüncü nəslə
çəkdirər”. 19 İstəyirəm ki, Misirdən
çıxdıqları gündən bu günə kimi bu xalqı

---

[w] **14:9** İbr. 3:16

[x] **14:13** Çıx. 32:11-14 [y] **14:18** Çıx. 34:6; Neh. 9:17; Zəb. 86:15; 103:8; 145:8; Yoel 2:13; Yun. 4:2; Çıx. 20:5-6; 34:6-7; Qanun. 5:9-10; 7:9-10

necə bağışlamısansa, onların günahını
böyük məhəbbətinə görə bağışlayasan».
20 Rəbb dedi: «Sənin ricana görə
bağışladım, 21 [z]amma Varlığıma və
Rəbbin bütün dünyanı dolduran izzətinə
and olsun ki, 22 izzətimi və Misirdə,
eləcə də səhrada etdiyim əlamətləri
görüb Məni on dəfə sınayan, Mənim
sözümü dinləməyən bu adamların
heç biri 23 atalarına and içərək vəd
etdiyim torpağı görməyəcək və Mənə
hörmətsizlik edənlərin heç biri oranı
görməyəcək. 24 [a]Ancaq qulum Kalevdə
başqa ruh var. O bütün qəlbi ilə ardımca
getdi. Onu gəzdiyi torpağa aparacağam
və onun nəsli oranı irs olaraq alacaq.
25 Amaleqlilər və Kənanlılar dərədə
yaşayırlar. Ona görə sabah qayıdın və
Qırmızı dənizin yolu ilə səhraya gedin».
26 Rəbb Musaya və Haruna dedi:
27 «Nə vaxta qədər bu pis icma Mənə
qarşı deyinəcək? İsrail oğullarının Mənə
deyinmələrini eşitdim. 28 Onlara de
ki, Rəbb deyir: “Varlığıma and olsun
ki, Mənə qarşı dediklərinizin eynisini
sizə edəcəyəm. 29 [b]Meyitləriniz bu
səhraya səriləcək. Mənə deyinən iyirmi
və ondan yuxarı yaşda olub siyahıya
alınanların hamısı səhrada öləcək,
30 sizi sakin edəcəyimə əlimi qaldırıb
and içdiyim torpağa girməyəcəksiniz.
Oraya yalnız Yefunne oğlu Kalev və
Nun oğlu Yeşua girəcək. 31 Lakin ‹əsir
olacaqlar› dediyiniz uşaqlarınızı oraya
aparacağam və sizin rədd etdiyiniz
ölkəni onlar tanıyacaqlar. 32 Sizə
gəldikdə isə meyitləriniz bu səhraya
səriləcək. 33 [c]Övladlarınız qırx il səhrada
çobanlıq edəcəklər. Nə vaxta qədər
ki siz səhrada məhv olmamısınız,
sizin xəyanətinizin acısını çəkəcəklər.
34 Ölkəni nəzərdən keçirdiyiniz günlərin
sayına görə qırx gün, hər gün üçün bir il
olmaqla, qırx il günahlarınızın cəzasını
çəkəcəksiniz və sizdən üz döndərdiyimi
biləcəksiniz”. 35 Mən Rəbb söylədim:
“Həqiqətən, Mənə qarşı birləşən bu pis
icmaya belə də edəcəyəm. Bu səhrada
ölüb tələf olacaqlar”».
36 Musanın ölkəni nəzərdən keçirmək
üçün göndərdiyi adamlar qayıdıb ölkə
haqqında pis xəbər gətirərək bütün
icmanın Rəbbə qarşı deyinməsinə səbəb
oldular. 37 Ölkə haqqında pis xəbər
gətirənlər Rəbbin önündə vəbadan
öldü. 38 Ölkəni nəzərdən keçirmək üçün
gedənlərdən yalnız Nun oğlu Yeşua və
Yefunne oğlu Kalev sağ qaldılar.
39 Musa bu sözləri bütün İsrail
övladlarına danışdı və xalq çox
kədərləndi. 40 Onlar səhər tezdən
qalxıb dağın təpəsinə çıxaraq dedilər:
«Günah etmişik, indi Rəbbin vəd
verdiyi yerə çıxırıq». 41 Musa dedi: «Nə
üçün Rəbbin əmrinə qarşı çıxırsınız?
Bunu bacara bilməzsiniz. 42 Döyüşə
çıxmayın, çünki Rəbb aranızda deyil.
Düşmənlərinizə məğlub olacaqsınız.
43 Çünki Amaleqlilər və Kənanlılar orada
önünüzdədir və qılıncla öləcəksiniz;
madam ki Rəbbin ardınca getməkdən
vaz keçdiniz, Rəbb sizinlə bərabər
olmayacaq». 44 Ancaq onlar özlərinə
güvənərək dağlığın ən yüksək təpəsinə
çıxdılar. Lakin nə Rəbbin Əhd sandığı,
nə də Musa düşərgədən ayrılmadı.
45 O zaman həmin dağlıqda yaşayan
Amaleqlilər və Kənanlılar enib onlara
hücum etdilər və Xorma şəhərinədək
qovub məğlubiyyətə uğratdılar.

Qurban haqqında qanunlar

15 Rəbb Musaya dedi: 2 «İsrail
övladlarına belə söylə: “Sakin
olmaq üçün sizə verəcəyim torpağa girib
yaşadığınız vaxt 3 əgər kimsə Rəbbin

---

[z]**14:21** İbr. 3:18 [a]**14:24** Yeşua 14:9-12 [b]**14:29** 1Kor. 10:5; İbr. 3:17
[c]**14:33** Həv. 7:36; 13:17-18

xoşuna gələn ətri təqdim etmək üçün
yandırma qurbanı, əhd qurbanı, könüllü
qurban yaxud bayram qurbanı olaraq
mal-qaradan yaxud qoyun-keçidən Rəbb
üçün yandırma təqdimi versə, 4 Rəbbə
qurban gətirən adam taxıl təqdimi
kimi dörddə bir hin zeytun yağı ilə
yoğrulmuş efanın onda biri qədər narın
un gətirsin. 5 Yandırma qurbanı yaxud
digər növlü qurban üçün hər bir quzuya
tökülən içmə təqdimi olaraq dörddə bir
hin şərab hazırlayın.
6 Qoç üçün taxıl təqdimi kimi
hinin üçdə biri qədər zeytun yağı ilə
yoğrulmuş efanın onda iki hissəsi qədər
narın un və 7 içmə təqdimi kimi hinin
üçdə biri qədər şərab hazırlayın. Bunları
Rəbbin xoşuna gələn ətir olaraq təqdim
edin.
8 Rəbbə yandırma qurbanı, əhd
qurbanı və yaxud ünsiyyət qurbanı kimi
bir buğa kəsərkən 9 buğa ilə birlikdə
taxıl təqdimi kimi yarım hin zeytun
yağı ilə yoğrulmuş efanın onda üçü
qədər narın un gətirin. 10 İçmə təqdimi
kimi yarım hin şərab təqdim edin. Bu,
Rəbbin xoşuna gələn ətir – yandırma
təqdimidir.
11 Hər buğa, qoç, quzu və yaxud
keçi belə hazırlansın. 12 Nə qədər
heyvan kəssəniz, hər biri ilə birlikdə
eyni təqdimi gətirin. 13 Hər bir yerli
İsrail övladı Rəbbin xoşuna gələn ətri
– yandırma təqdimini gətirərkən bu
şeyləri belə etsin.
14 Müvəqqəti yaxud nəsildən-nəslə
aranızda yaşayan yadelli Rəbbin
xoşuna gələn ətri – yandırma təqdimini
gətirərkən eynilə sizin etdiyiniz kimi
etsin. 15 Ey camaat, sizin üçün də,
sizinlə yaşayan yadelli üçün də qayda
birdir, nəsillər boyu daimi qaydadır,
çünki Rəbb sizə də, yadellilərə də bir
gözlə baxır. 16 [d]Sizin üçün də, sizinlə
yaşayan yadellilər üçün də eyni qanun
və eyni hökm olmalıdır”».
17 Rəbb Musaya belə dedi: 18 «İsrail
övladlarına belə söylə: “Mən sizi
aparacağım torpağa girib yaşadığınız
vaxt 19 torpağın çörəyindən yeyəndə
onun müəyyən hissəsini Rəbbə qaldırma
təqdimi kimi verin. 20 İlk xəmirinizdən
bir yastı kökə gətirin, bunu xırmanınızın
qaldırma təqdimi kimi verin. 21 İlk
xəmirinizdən edilən bu qaldırma
təqdimini nəsildən-nəslə qədər Rəbbə
verin.

Bilmədən işlənən günaha görə təqdim

22 Əgər səhv edib Rəbbin Musaya
buyurduğu əmrlərin birinə – 23 Rəbbin
əmr etdiyi gündən başlayaraq
nəsildən-nəslə Musa vasitəsilə sizə
buyurduğu hər hansı bir şeyə əməl
etmirsinizsə 24 bu iş səhvən İsrail
icması tərəfindən bilmədən edilirsə,
onda bütün icma Rəbbin xoşuna gələn
ətir olaraq qaydaya görə taxıl və içmə
təqdimləri ilə birlikdə yandırma qurbanı
olaraq bir buğa və günah qurbanı olaraq
bir təkə gətirsin. 25 Kahin bütün İsrail
övladlarının icması üçün kəffarə etsin.
Beləcə onlar bağışlanacaqlar, çünki
səhv olmuşdur və bu səhv üçün də
Rəbb üçün yandırma təqdimi olan
qurbanlarını və Onun hüzurunda günah
qurbanlarını gətirmişlər. 26 Bütün
İsrail icması və aralarında yaşayan
yadellilər bağışlanacaq, çünki bütün
xalq bilmədən səhv etmişdir.
27 [e]Əgər bir nəfər bilmədən günah
edərsə, qoy günah qurbanı olaraq
birillik dişi keçi gətirsin. 28 Kahin
bilmədən günah işlədən adam üçün
Rəbbin önündə kəffarə etsin ki, o
bağışlansın. Kəffarə edilən adam
bağışlanacaq. 29 İsrail övladları arasında
yerli olsun ya da yadelli olsun, bilmədən

---

[d]**15:16** Lev. 24:22 [e]**15:27** Lev. 4:27-31

günah edənlər üçün qoy qanun bir
olsun.
30 Lakin əgər yerli ya yadelli qəsdən
günah işlətsə, Rəbbə küfr etmişdir və
xalqı arasından qovulsun. 31 Çünki
o, Rəbbin sözünə xor baxıb və Onun
əmrini pozub. Belə adam mütləq
qovulsun və öz cəzasını çəksin”».

Şənbə gününü pozan adam

32 İsrail övladları səhrada olarkən
Şənbə günündə odun yığan bir adama
rast gəldilər. 33 Odun toplayan adamla
rastlaşanlar onu Musanın, Harunun və
bütün icmanın qarşısına gətirdilər. 34 O
adamı həbs etdilər, çünki onunla nə
edəcəkləri hələ qərara alınmamışdı.
35 Rəbb Musaya dedi: «Bu adam
öldürülməlidir; qoy bütün icma onu
düşərgədən kənara aparsın və daşqalaq
edərək öldürsün». 36 İcma o adamı
düşərgədən kənara çıxarıb Rəbbin
Musaya əmr etdiyi kimi daşqalaq edərək
öldürdü.

Qotazlar

37 Rəbb Musaya belə dedi: 38 [f]«İsrail
övladlarına de ki, nəsildən-nəslə
geyimlərinin ətəklərinə dörd tərəfdən
qotaz tiksinlər. Hər qotazın üzərinə
bənövşəyi qaytan salsınlar. 39 Bu
qotazlara baxanda Rəbbin bütün
əmrlərini xatırlayın və onlara əməl
edin; öz ürəyinizin və gözlərinizin
istəklərinə qapılıb Mənə xəyanət
etməyin. 40 O zaman bütün əmrlərimi
yadda saxlayıb yerinə yetirəcəksiniz
və Allahınızın hüzurunda müqəddəs
olacaqsınız. 41 Allahınız olmaq üçün
sizi Misir torpağından çıxaran Allahınız
Rəbb Mənəm. Bəli, Allahınız Rəbb
Mənəm!»

Qorah, Datan və Aviramın etirazı

16 [g]Levi oğlu Qohat oğlu İshar
oğlu Qorah qürurlanıb Ruven
nəslindən Eliav oğulları Datan ilə
Aviram və Pelet oğlu On ilə birlikdə
2 Musaya qarşı üsyan qaldırdılar. İsrail
övladlarından icmada seçilmiş və ad
qazanmış iki yüz əlli nəfər icma rəhbəri
onlara qoşuldu. 3 Birlikdə toplanaraq
Musa ilə Haruna qarşı çıxdılar və
onlara dedilər: «Artıq bəsdir! Çünki
bütün icmanın hamısı müqəddəsdir və
Rəbb onların arasındadır. Nə üçün siz
özünüzü Rəbbin camaatından üstün
tutursunuz?»
4 Musa bunu eşidib üzüstə yerə sərildi.
5 Sonra Qorah ilə bütün yoldaşlarına
dedi: «Səhər Rəbb kimin Ona məxsus,
kimin müqəddəs olduğunu göstərəcək
və həmin adamın Öz hüzuruna
girməsinə izin verəcək. Rəbbin
seçdiyi adam hüzuruna girməsinə izin
verdiyi adamdır. 6 Ey Qorah və bütün
yoldaşları, özünüz üçün buxurdanlar
alın; 7 səhəri gün Rəbbin hüzurunda
onların içinə közərmiş kömür və buxur
qoyun. Beləliklə, Rəbb kimi seçibsə,
müqəddəs olan o olacaqdır. Ey Levililər,
artıq bəsdir!»
8 Musa Qoraha bunu da söylədi: «Ey
Levililər, mənə qulaq asın! 9 İsrailin
Allahı sizi İsrail icmasından seçib Öz
hüzuruna gəlməniz üçün imkan yaratdı
ki, Rəbbin məskənində iş görəsiniz
və icmanın önündə duraraq onlara
xidmət edəsiniz. 10 Sizə və bütün Levili
qardaşlarınıza Öz hüzuruna girmə
səlahiyyətini verdi. Bu sizə azmı gəlir?
İndi kahinliyi də istəyirsiniz? 11 Deməli,
ey Qorah, sən və bütün yoldaşların belə
toplanaraq Rəbbə qarşı çıxırsınız. Harun
kimdir ki, ona qarşı deyinirsiniz?»

---

[f] **15:38** Qanun. 22:12 [g] **16:1** Yəhd. 11

12 Musa Eliav oğulları Datanı və
Aviramı çağırtdırdı və onlar dedi:
«Gəlməyəcəyik! 13 Bizi səhrada
öldürmək üçün süd və bal axan ölkədən
çıxardığın bəs deyil, hələ özünü
üzərimizdə başçı etmək istəyirsən?
14 Bundan başqa, bizi süd və bal axan
bir ölkəyə gətirmədin, irs olaraq
bizə tarlalar və bağlar vermədin. Bu
adamların gözündən pərdə asmaq
istəyirsən? Gəlməyəcəyik!»
15 Musa çox qəzəblənib Rəbbə
dedi: «Onların təqdimlərinə əhəmiyyət
vermə; onlardan bir eşşək belə, almadım
və onların heç birinə pislik etmədim».
16 Musa Qoraha dedi: «Sən və bütün
yoldaşların, sabah Rəbbin hüzurunda
olun – sən, onlar və Harun. 17 Hər biriniz
öz buxurdanınızı götürüb üzərinə buxur
qoyun. Sonra iki yüz əlli nəfərin hər
biri buxurdan götürüb Rəbbin hüzuruna
gətirsin. Sən və Harun da buxurdanınızı
gətirin». 18 Hər kəs öz buxurdanını
götürüb içinə közərmiş kömür və buxur
qoydu. Sonra Musa və Harunla birgə
Hüzur çadırının girişində durdular.
19 Qorah Musa ilə Haruna qarşı çıxmaq
üçün bütün yoldaşlarını Hüzur çadırının
girişinə toplayanda Rəbbin izzəti bütün
icmaya göründü.
20 Rəbb Musaya və Haruna dedi:
21 «Bu icmadan ayrılın ki, onları bir
an içində məhv edim». 22 Onlar üzüstə
yerə sərildilər: «Ey Allah, bütün bəşərə
ruh verən Allah! Bir adamın günahına
görə bütün icmayamı qəzəblənirsən?»
23 Rəbb Musaya dedi: 24 «İcmaya
de: “Qorah, Datan və Aviramın
məskənlərinin ətrafından çəkilin!”»
25 Musa qalxıb Datanla Aviramın
yanına getdi. İsrailin ağsaqqalları da
onun ardınca getdilər. 26 Musa icmaya
xəbərdarlıq edib dedi: «Nə olar, bu pis
adamların məskənlərindən uzaqlaşın və
onlara aid olan heç bir şeyə toxunmayın.
Yoxsa onların bütün günahlarına görə
siz məhv olarsınız». 27 Hamı Qorah,
Datan və Aviramın məskənlərindən
uzaqlaşdı. Datanla Aviram, arvadları,
oğulları və körpə uşaqları ilə çıxıb
çadırlarının girişində durdular. 28 Musa
dedi: «Bütün bu işləri etmək üçün məni
Rəbbin göndərdiyini, özbaşıma hərəkət
etmədiyimi bununla biləcəksiniz.
29 Əgər bu adamlar hər kəsin öldüyü
kimi ölsələr və yaxud hər kəsin başına
gələn təcrübələrdən keçsələr, o halda
Rəbb məni göndərməmişdir. 30 Lakin
Rəbb yeni bir şey etsə, yer ağzını açaraq
onları və onlara aid olan hər şeyi udsa,
onlar ölülər diyarına diri-diri ensələr,
bu adamların Rəbbi təhqir etdiklərini
anlayacaqsınız».
31 Musa bütün bu şeyləri danışıb
qurtaran kimi onların altındakı yer
yarıldı. 32 Yer ağzını açdı, onları,
ailələrini, Qoraha aid olan bütün
adamları və bütün mallarını uddu.
33 Onlar və onlara aid olanların hamısı
diri-diri ölülər diyarına endilər. Yer
üzərlərinə qapandı və camaat arasından
yox oldular. 34 Onların ətrafında olan
bütün İsrail övladları onların fəryadını
eşidib «Yer bizi də udmasın!» deyərək
qaçışdılar. 35 Rəbbin hüzurundan od
çıxdı və buxur təqdim edən iki yüz əlli
nəfəri məhv etdi.
36 Rəbb Musaya dedi: 37 «Kahin
Harun oğlu Eleazara de, buxurdanları
yanmış adamların üstündən götürsün,
sən isə közləri kənara dağıt, çünki
buxurdanlar müqəddəsdir. 38 Öz həyatı
bahasına günah edən bu adamların
buxurdanlarından qurbangah üçün
örtük olaraq lövhələr düzəltsinlər. Çünki
buxurdanlar Rəbbə təqdim edildiyi
üçün müqəddəsdir. Qoy bu, İsrail
övladlarına əlamət olsun». 39 Yandırılan
adamların təqdim etmiş olduqları mis
buxurdanları, kahin Eleazar Rəbbin
Musa vasitəsilə ona dediyi kimi
götürüb döydü və onlardan qurbangahı

örtmək üçün lövhələr düzəltdi. 40 Bu,
İsrail övladlarına bir xatirədir ki,
Harunun nəslindən olmayan bir kənar
şəxs Rəbbin hüzuruna gəlib buxur
yandırmasın, yoxsa Qorah və yoldaşları
kimi məhv olar.
41 [h]Ancaq ertəsi gün bütün İsrail
övladlarının icması Musaya və Haruna
qarşı deyinərək dedilər: «Rəbbin xalqını
siz öldürdünüz». 42 İcma Musaya və
Haruna qarşı çıxmaq üçün toplanıb
Hüzur çadırına yönələndə qəflətən
bulud çadırı bürüdü və Rəbbin izzəti
göründü. 43 Musa ilə Harun Hüzur
çadırının önünə gəldilər. 44 Rəbb
Musaya dedi: 45 «Bu icmanın arasından
çıxın ki, onları bir anda məhv edim».
Musa ilə Harun üzüstə yerə sərildilər.
46 Sonra Musa Haruna dedi: «Öz
buxurdanını götür, içinə qurbangahdan
közərmiş kömür və buxur qoy. Tez
icmaya apar, onlar üçün kəffarə et,
çünki Rəbb qəzəbini tökdü. Vəba
başladı». 47 Musanın dediyi kimi Harun
buxurdanı götürdü və camaatın arasına
qaçdı. Gördü ki, xalq arasında vəba
başlamışdır. Buna görə buxuru təqdim
edərək xalq üçün kəffarə etdi. 48 Harun
ölülərlə dirilər arasında duranda
vəba dayandı. 49 Qorah əhvalatında
ölənlərdən başqa vəbadan ölənlər on
dörd min yeddi yüz nəfər idi. 50 Vəba
dayandığına görə Harun Musanın
yanına Hüzur çadırının girişinə qayıtdı.

Harunun əsası

17 Rəbb Musaya belə dedi: 2 «İsrail
övladlarına de və hər qəbilə
üçün bir əsa götür. Qəbilə rəhbərlərinin
hər birindən alınan on iki əsa olacaq.
Hər birinin adını öz əsasının üzərinə
yaz. 3 Harunun adını Levi əsasının
üzərinə yaz ki, hər qəbilə başçısı
üçün bir əsa olsun. 4 Əsaları sizinlə
görüşdüyüm yerə, Hüzur çadırındakı
Şəhadət sandığının qarşısına qoy.
5 O zaman seçəcəyim adamın əsası
tumurcuqlayacaq və İsrail övladlarının
sizə qarşı sürəkli deyinmələrinə son
qoyacağam». 6 Musa İsrail övladları ilə
danışdı. Onların bütün rəhbərləri ona
bir əsa verdilər. Hər qəbilə rəhbəri üçün
biri olmaqla on iki əsa var idi. Harunun
əsası da onların əsaları arasında idi.
7 Musa əsaları Şəhadət çadırında Rəbbin
önünə qoydu.
8 [i]Ertəsi gün Musa Şəhadət çadırına
girdi və gördü ki, Levi nəslini təmsil
edən Harunun əsası tumurcuqlayıb.
Budur, tumurcuq qönçələnmiş, çiçək
açmış və badam yetişdirmişdi. 9 Musa
əsaların hamısını Rəbbin hüzurundan
bütün İsrail övladlarının qarşısına
çıxardı. Əsalara baxdılar və hər kəs öz
əsasını götürdü.
10 Rəbb Musaya dedi: «Üsyan edənlərə
qarşı əlamət olaraq saxlamaq üçün
Harunun əsasını Şəhadət sandığının
önünə qoy. Bu onların Mənim üçün
deyinmələrinə son qoyacaq ki,
ölməsinlər». 11 Musa Rəbbin əmr
etdiyinə əməl etdi.
12 İsrail övladları Musaya dedilər:
«Yox olacağımız bəllidir! Məhv
olacağıq! Hamımız həlak olacağıq!
13 Rəbbin məskəninə yaxınlaşan hər kəs
ölür. Doğrudanmı hamımız öləcəyik?»

Kahinlərlə Levililərin vəzifəsi

18 Rəbb Haruna dedi: «Sən,
övladların və atanın nəsli
Müqəddəs məkanla əlaqədar hər
hansı bir günah üçün məsuliyyət
daşıyacaqsınız. Kahinliklə əlaqədar
günahlar üçün məsuliyyəti yalnız
sən və oğulların daşıyacaqsınız.
2 [j]Atanın qəbiləsi olan Levi qəbiləsinə
mənsub olan soydaşlarınızı da

---

[h]**16:41** 1Kor. 10:10 [i]**17:8** İbr. 9:4 [j]**18:2** İbr. 9:6

özünlə götür ki, sən və övladların
Şəhadət çadırının önündə ikən sənə
qoşulub kömək etsinlər. 3 Sənin
qarşında cavabdehlik daşıyaraq
çadırın bütün işlərinə baxsınlar.
Ancaq müqəddəs yerin əşyalarına
və qurbangaha yaxınlaşmasınlar ki,
həm onlar, həm də siz ölməyəsiniz.
4 Sənə qoşulsunlar və Hüzur çadırının
işlərinə, çadırdakı bütün xidmətlərə
cavabdeh olsunlar. Başqa heç kimsə
sizə yaxınlaşmamalıdır. 5 Müqəddəs
yerə və qurbangaha cavabdeh olun ki,
İsrail övladları bir də qəzəbimə düçar
olmasınlar. 6 Budur, Mən İsrail övladları
arasından Levili soydaşlarınızı sizə
hədiyyə olaraq seçdim. Onlar Rəbbə
Hüzur çadırında xidmət etmək üçün
həsr olunmuşlar. 7 Lakin qurbangaha
və pərdənin iç tərəfinə aid olan hər
şeyə yalnız sən və oğulların kahin
kimi xidmət edin. Kahinlik xidmətinizi
sizə hədiyyə olaraq verirəm. Sizdən
başqa müqəddəs yerə kim yaxınlaşarsa,
öldürülsün».

Kahinlə Levililərin payı

8 Rəbb Haruna dedi: «Budur, Mənə
gətirilən təqdimlərə nəzarət etməyi
sənə tapşırdım. İsrail övladlarının
bütün müqəddəs təqdimlərini əbədi
pay olaraq sənə və övladlarına verirəm.
9 Qurbangahda yandırılmayan ən
müqəddəs təqdimlərdən bunlar sənin
olsun: taxıl təqdimləri, günah qurbanları
və təqsir qurbanları – Mənə gətirilən ən
müqəddəs təqdimlərin hamısı sənin və
övladlarının olsun. 10 Bu ən müqəddəs
şeyləri ye. Kişi cinsindən hər kəs
onlardan yeyə bilər. Onları müqəddəs
say. 11 Bunlar, İsrail övladlarının xüsusi
hədiyyə olaraq gətirdikləri yellətmə
təqdimlərinin hamısı sənindir. Onları
sənə və oğullarınla qızlarına əbədi
pay olaraq verdim. Sənin ailəndə pak
olan hər kəs onu yeyə bilər. 12 Rəbbə
verdikləri ilk məhsulları, zeytun yağının
ən yaxşısının hamısını, təzə şərabın
və buğdanın ən yaxşısının hamısını
sənə verdim. 13 Torpaqlarında bitən
nübardan Rəbbə gətirdiklərinin hamısı
sənin olsun. Sənin ailəndə pak olan
hər kəs onu yeyə bilər. 14 [k]İsraildə
Rəbbə həmişəlik həsr olunan hər şey
sənin olsun. 15 Hər bətndən ilk doğulan,
Rəbbə həsr olunan bütün oğlanlar və
bütün heyvan balaları sənin olsun.
Ancaq hər ilk oğlanın əvəzini mütləq
ödə, hər murdar heyvanın ilk balasının
da əvəzini ödə. 16 Onlar bir aylıq olanda
sənin qoyduğun qiymətə görə iyirmi
gera ağırlığında olan Müqəddəs yerdəki
şekelə görə beş şekel gümüşlə əvəzlərini
ödə. 17 Ancaq inəyin, qoyunun və
yaxud da keçinin ilk balasının əvəzini
ödəmə. Onlar müqəddəsdir. Qanlarını
qurbangah üzərinə səp və piylərini
tüstülədib yandır ki, Rəbbin xoşuna
gələn ətir – yandırma təqdimi olsun.
18 Yellədilən döş əti və sağ budu kimi
onların əti də sənin olsun. 19 İsrail
övladlarının Mənə qaldırma təqdimi
kimi gətirdikləri müqəddəs təqdimlərin
hamısını Mən Rəbb sənə və oğullarınla
qızlarına əbədi pay olaraq verdim. Bu,
Rəbbin səninlə və nəslinlə kəsdiyi əbədi
və pozulmaz əhddir». *
20 Rəbb Haruna dedi: «Onların
torpağında sənin irsin olmayacaq və
onlar arasında heç bir payın olmayacaq.
İsrail övladları arasında sənin payın və
irsin Mənəm. 21 [l]Levililərə isə İsraildə
olan bütün varidatın onda birini irs
olaraq verdim. Bu, xidmətlərinin,
Hüzur çadırında etdikləri xidmətin
əvəzidir. 22 Artıq İsrail övladları

*18:19 *Əbədi və pozulmaz əhd* – hərfi tərcümədə *əbədi duz əhdi.*

[k]**18:14** Lev. 27:28 [l]**18:21** Lev. 27:30-33; Qanun. 14:22-29; İbr. 7:5

Hüzur çadırına yaxınlaşmasınlar ki,
günahlarının cəzasını çəkib ölməsinlər.
23 Lakin Hüzur çadırının xidmətini
Levililər etsinlər və çadırla əlaqədar
günahlarının cəzasını çəksinlər. Bu,
nəsildən-nəslə qədər sizin üçün əbədi
qaydadır. İsrail övladları arasında
onların irsi olmayacaq. 24 Bunun yerinə
Levililərə irs olaraq İsrail övladlarının
Rəbbə qaldırma təqdimi kimi verdikləri
onda birini verdim. Buna görə Levililər
üçün dedim ki, İsrail övladları arasında
onların irsi olmayacaq».
25 Rəbb Musaya dedi: 26 «Levililərə
belə söylə: "İsrail övladlarının
məhsullarından irsiniz olaraq sizə
verdiyim onda bir hissəni aldığınız vaxt
bu hissənin onda birini Rəbbə qaldırma
təqdimi kimi verin. 27 Təqdiminiz
xırmanda döyülən taxıl yaxud
üzümsıxandan çıxan məhsul kimi
sayılacaq. 28 Beləliklə, siz də İsrail
övladlarından alacağınız onda
birlərinizin hamısından Rəbbə qaldırma
təqdimini gətirib kahin Haruna
verin. 29 Bütün hədiyyələrinizdən
Rəbbə qaldırma təqdimi verin. Hər
təqdim onun təqdis olunmuş ən yaxşı
hissəsindən olsun". 30 Bunun üçün
onlara deyin: "Ondan ən yaxşısını
təqdim etdiyiniz zaman bu, Levililər
üçün xırman məhsulu yaxud üzümsıxan
məhsulu kimi sayılacaq. 31 Siz və ev
xalqınız hər yerdə onu yeyəcəksiniz,
çünki o, haqqınız, Hüzur çadırında
olan xidmətinizin əvəzidir. 32 Ondan ən
yaxşısını təqdim edəndə ondan savayı
günahın cəzasını çəkməmək üçün İsrail
övladlarının müqəddəs təqdimlərini
pozmayın ki, ölməyəsiniz"».

Qırmızı düyə və paklama suyu

19 Rəbb Musaya və Haruna
dedi: 2 «Bu, Rəbbin əmr etdiyi
qanunun qaydasıdır: İsrail övladlarına
deyin ki, qüsursuz, eyibsiz, heç vaxt
boynuna bir boyunduruq taxılmayan
bir qırmızı düyə gətirsinlər. 3 Onu
kahin Eleazara verin. Düyə düşərgənin
kənarına çıxarılsın və onun önündə
kəsilsin. 4 Kahin Eleazar barmağı
ilə onun qanından götürərək Hüzur
çadırının önünə doğru yeddi dəfə
çiləsin. 5 Onun gözləri önündə düyə
yandırılsın. Dərisi, əti və qanı, bağırsağı
ilə birgə yansın. 6 Kahin sidr ağacının
budağını, züfa otunu və al rəngli ipi
götürüb yandırılan düyənin üstünə
atsın. 7 Kahin geyimlərini yusun,
bədənini su ilə yusun, sonra düşərgəyə
girsin. O, axşama qədər murdar
sayılsın. 8 Qoy düyəni yandıran adam
da geyimlərini yusun, bədənini də su
ilə yusun və axşama qədər murdar
sayılsın. 9 [m]Düyənin külünü pak adam
toplayıb düşərgənin kənarında pak
bir yerə qoysun və İsrail övladlarının
icması naminə paklama suyu düzəltmək
üçün saxlanılsın. Bu, günah qurbanıdır.
10 Düyənin külünü toplayan adam
geyimlərini yusun və axşama qədər
murdar sayılsın. Bu, İsrail övladları
üçün və aralarında yaşayan yadellilər
üçün də əbədi bir qaydadır.
11 Hər hansı bir insan meyitinə
toxunan yeddi gün murdar olacaq.
12 Üçüncü və yeddinci gün özünü
paklama suyu ilə paklasın ki, pak olsun.
Əgər üçüncü və yeddinci gün özünü
paklamasa, pak olmayacaq. 13 Bir ölüyə,
hər hansı bir insan meyitinə toxunan
və özünü pak etməyən adam Rəbbin
məskənini murdar edər, o şəxs İsraildən
qovulsun. Paklama suyu onun üzərinə
səpilmədiyi üçün murdar sayılsın. Onun
murdarlığı hələ üzərində qalır.
14 Çadırda ölən adam üçün təlimat
belədir: çadıra girən və çadırda olan

---

[m]**19:9** İbr. 9:13

hər kəs yeddi gün murdar sayılsın.
15 İplə bağlanmış qapağı olmayan hər
açıq qab murdar sayılsın. 16 Çöldə
qılıncla öldürülmüş olana, bir ölüyə
yaxud bir insan sümüyünə yaxud da
qəbirə toxunan şəxs yeddi gün murdar
sayılsın. 17 Murdar adam üçün yanmış
günah qurbanı külündən götürüb onun
üzərinə axar su tökün. 18 Pak bir adam
züfa otunu götürüb, o suya batırsın
və çadırın, bütün qabların və orada
olanların üzərinə çiləsin. Sümüyə,
öldürülən adama, meyitə yaxud da
qəbirə toxunan adamın üzərinə də
çiləsin. 19 Pak adam murdar adamın
üzərinə üçüncü gün və yeddinci gün
çiləsin və yeddinci gün bu pak olacaq.
O, geyimlərini yusun, su ilə yuyunsun
və axşam pak sayılsın.
20 Ancaq murdar olub özünü pak
etməyən adam camaat arasından
qovulsun, çünki Rəbbin Müqəddəs
məkanını murdarlayıb. Onun üzərinə
paklama suyu çilənmədiyi üçün o
murdar sayılsın. 21 Bu onlara əbədi
qayda olsun: paklama suyu çiləyən
adam geyimlərini yusun və paklama
suyuna toxunan adam axşama qədər
murdar sayılsın. 22 Murdar adamın
toxunduğu hər şey murdar sayılsın.
O şeyə toxunan adam axşama qədər
murdar sayılsın».

Qayadan çıxan su

20 Birinci ay bütün İsrail
övladlarının icması Zin səhrasına
gəldi. Onlar Qadeşdə dayandılar.
Məryəm oradaca öldü və elə orada da
basdırıldı.
2 [n]İcma üçün su yox idi, ona görə
Musa və Haruna etiraz etmək üçün
toplandılar. 3 Xalq Musaya narazılıq
edib dedi: «Kaş ki biz də soydaşlarımızla
birgə Rəbbin önündə öləydik! 4 Rəbbin
camaatını bu səhraya nə üçün
gətirdiniz? Bizim və heyvanlarımızın
burada ölməsi üçünmü? 5 Nə üçün
bizi Misirdən çıxarıb belə pis yerə
gətirdiniz? Bura nə əkin, nə əncir, nə
bağ, nə də nar yeridir. İçməyə belə, su
yoxdur».
6 Musa ilə Harun camaatın önündən
Hüzur çadırının girişinə getdilər və
üzüstə yerə sərildilər. Rəbbin izzəti
onlara göründü. 7 Rəbb Musaya dedi:
8 «Əsanı götür, sən və qardaşın Harun
icmanı toplayın və onların gözü
önündə qayaya su versin deyə söyləyin.
Qayadan onlara su çıxart, icmaya
və heyvanlarına içirt». 9 Musa əmr
olunduğu kimi əsanı Rəbbin önündən
götürdü.
10 Musa ilə Harun camaatı qayanın
önünə topladılar və onlara dedilər:
«Ey dönük olanlar, indi dinləyin; bu
qayadan sizə su çıxaraqmı?» 11 Musa
əlini qaldırdı və əsası ilə iki dəfə qayaya
vurdu, qayadan bol su çıxdı. Bütün icma
və onların heyvanları su içdilər.
12 Lakin Rəbb Musaya və Haruna
dedi: «Madam ki İsrail övladlarının
gözü önündə Mənim müqəddəsliyimi
göstərərək Mənə iman etmədiniz,
bu camaatı onlara verdiyim ölkəyə
aparmayacaqsınız». 13 Bu sulara Meriva
suları deyilir, çünki bu yerdə İsrail
övladları Rəbb ilə mübahisə etdilər
və Rəbb onlara Öz müqəddəsliyini
göstərdi.

Edom padşahının İsrail övladlarına etirazı

14 Musa Qadeşdən Edom padşahına
bu xəbərlə qasidlər göndərdi: «Qardaşın
İsrail belə deyir: “Çəkdiyimiz zəhmətin
hamısını bilirsən. 15 Atalarımız
Misirə köçdülər və biz bir xeyli vaxt
Misirdə yaşadıq. Misirlilər bizimlə və

---

[n]**20:2** Çıx. 17:1-7; 1Kor. 10:4

atalarımızla pis rəftar etdilər. 16 Rəbbə
fəryad etdik, O da səsimizi eşitdi və
bir mələk göndərdi, bizi Misirdən
çıxardı. İndi biz sənin sərhədinə yaxın
bir şəhər olan Qadeşdəyik. 17 Sənə
rica edib torpağından keçmək üçün
izin istəyirəm. Biz tarladan və bağdan
keçməyəcəyik, heç bir quyudan su
içməyəcəyik. Padşah yolu ilə sənin
torpaqlarından keçənədək sağa və sola
dönməyəcəyik”». 18 Lakin Edomlular
ona dedilər: «Torpağımızdan keçməyin,
yoxsa qarşınıza qılıncla çıxarıq».
19 İsrail övladları onlara dedilər: «Biz
əsas yolla getmək istəyirik. Əgər biz və
sürülərimiz sularından içəriksə, dəyərini
ödəyərik; yalnız piyada getməkdən
başqa heç nə istəmirik». 20 Edomlular
dedilər: «Keçmək olmaz». Sonra
Edomlular böyük və güclü bir ordu ilə
onların qarşısına çıxdılar. 21 Edomlular
ölkəsindən İsrail övladlarının keçməsinə
izin verməyəndə İsraillilər onların
torpaqlarından çəkildilər.

Harunun ölümü

22 Bütün İsrail icması Qadeşdən yola
düşüb Hor dağına gəldi. 23 Rəbb Edom
torpağı sərhədində Hor dağında Musa
ilə Haruna belə dedi: 24 «Harun ölüb
öz xalqına qovuşacaq, çünki Meriva
sularında sözümə qarşı çıxdığınız
üçün İsrail övladlarına vəd etdiyim
ölkəyə girməyəcək. 25 Harunu və oğlu
Eleazarı götür, onları Hor dağına apar.
26 Harunun paltarlarını çıxar və onları
oğlu Eleazara geyindir, Harun isə
oradaca ölüb xalqına qovuşacaq».
27 Musa Rəbbin əmr etdiyi kimi etdi
və bütün icmanın gözü önündə Hor
dağına çıxdılar. 28 [o]Musa Harunun
kahinlik geyimlərini çıxarıb oğlu
Eleazara geyindirdi. Harun orada
dağın təpəsində öldü. Musa ilə Eleazar
dağdan endilər. 29 Bütün icma Harunun
öldüyünü bildi. Bütün İsrail xalqı onun
üçün otuz gün yas tutdu.

Arad şəhərinin yox edilməsi

21 [p]Negevdə yaşayan Kənanlı
Arad padşahı İsrail övladlarının
Atarim yolundan keçdiyini eşitdi. O,
İsrail övladları ilə vuruşaraq bir neçə
nəfəri əsir tutdu. 2 İsrail övladları Rəbbə
əhd edib dedilər: «Əgər, həqiqətən,
bu xalqı bizə təslim etsən, o zaman
onların şəhərlərini tamamilə yox
edəcəyik». 3 Rəbb İsraillilərin səsini
eşitdi. Kənanlıları onlara təslim etdi.
İsraillilər də onları və şəhərlərini
tamamilə yox etdilər və beləliklə, o
yerin adı Xorma *qoyuldu.

Tunc ilan

4 [q]Xalq Hor dağını tərk edib Edom
torpağının ətrafından keçmək üçün
Qırmızı dəniz yolundan keçdi. Yolda
onların səbri tükəndi. 5 [r]Onlar Allaha və
Musaya qarşı deyinirdilər: «Nə üçün siz
bizi Misirdən çıxardınız? Səhrada ölmək
üçünmü? Axı burada nə çörək, nə də su
var. Bu dadsız yeməkdən də iyrənirik».
6 O zaman Rəbb xalqın arasına
zəhərli ilanlar göndərdi. İlanlar xalqı
sancdı və İsrail övladlarından çox
adam öldü. 7 Xalq gəlib Musaya dedi:
«Biz günah etdik, çünki Rəbbə və sənə
qarşı deyindik. İndi isə ilanları bizdən
uzaqlaşdırmaq üçün Rəbbə yalvar».
Musa xalqı xilas etmək üçün Rəbbə
yalvardı. 8 Rəbb Musaya dedi: «Özünə
bir ilan düzəlt və onu uzun dəyənəyin
üzərinə qoy. İlan vuran adam ona
baxdıqda sağalsın». 9 [s]Musa tuncdan

*21:3 *Xorma* – ibrani dilində *tamamilə yox etmək.*

[o]**20:28** Çıx. 29:29; Say. 33:38; Qanun. 10:6 [p]**21:1** Say. 33:40
[q]**21:4** Qanun. 2:1 [r]**21:5** 1Kor. 10:9 [s]**21:9** 2Pad. 18:4; Yəh. 3:14

bir ilan düzəltdi və dəyənəyin üzərinə
qoydu, ilan vuran hər adam tunc ilana
baxan kimi sağalırdı.

Moav səfəri

10 İsrail övladları yola düşüb Ovotda
düşərgə saldılar. 11 Ovotdan köç
edib Moavın şərqindəki səhrada
İye-Avarimdə dayandılar. 12 Oradan
da yola düşdülər və Zered vadisində
dayandılar. 13 Oradan da yola düşüb
Emorluların sərhədindən başlanan
səhradakı Arnon dərəsinin o tayında
dayandılar, çünki Arnon dərəsi
Moavlılarla Emorlular arasındakı
sərhəddir. 14 Bu barədə «Rəbbin
Döyüşləri» kitabında yazılmışdır:

«Sufada olan Vahev və vadilər, Arnon,
15 Arın məskəninə uzanıb
Moav sərhədinə çatan vadilərin
yamacları…»

16 Oradan Beerə *yola düşdülər;
Rəbbin Musaya «xalqı topla, onlara su
verəcəyəm» dediyi quyu budur. 17 O
zaman İsrail övladları bu nəğməni
oxudular:

«Ey quyu, suların fışqırsın,
Ona nəğmə oxuyun,
18 O quyu ki onu başçıların açdı,
Xalqın əsilzadələri
Əsa ilə, dəyənəklə qazdı».

Sonra səhradan Mattanaya yollandılar.
19 Mattanadan Naxalielə, Naxalieldən
Bamota, 20 Bamotdan isə Moav
torpağında olan dərəyə, çölə baxan
Pisqa dağının yamaclarına getdilər.

Padşah Sixonun və padşah Oqun məğlub olması

(Qanun. 2:26–3:11)

21 İsrail Emorluların padşahı Sixona
qasidlər göndərib dedi: 22 «Rica edirəm,
sənin torpağından keçmək üçün bizə
izin verəsən. Nə tarlaya, nə də bağa
girəcəyik. Quyularının suyundan
belə, içməyəcəyik. Sənin sərhədindən
keçənədək yalnız padşah yolu ilə
gedəcəyik».

23 Lakin Sixon İsraili öz
sərhədlərindən buraxmayaraq bütün
ordusunu topladı və İsrail övladları
ilə vuruşmaq üçün səhraya çıxdı.
Yahsaya çatanda İsraillilərə hücum
etdi. 24 İsrail övladları onu qılıncdan
keçirdilər, Arnondan Yabboqa və
Ammonluların sərhədinə qədər uzanan
torpaqlarını aldılar. Çünki Ammon
sərhədinin möhkəm istehkamı var.
25 İsrail övladları bu şəhərlərin hamısını
ələ keçirdilər. Xeşbon və ətrafındakı
qəsəbələr daxil olmaqla Emorluların
bütün şəhərlərinə yerləşdilər. 26 Çünki
Xeşbon Emorluların padşahı Sixonun
şəhəri idi. Sixon Moavın əvvəlki padşahı
ilə döyüşmüş və Arnona qədər uzanan
bütün torpaqlarını ələ keçirmişdi.

27 Bunun üçün şairlər belə deyirlər:

«Xeşbona gəlin;
Qoy yenidən qurulsun,
Sixonun şəhəri bərpa edilsin.
28 [t]Çünki Xeşbondan atəş,
Sixonun şəhərindən alov çıxdı;
Moavın Ar şəhərini,
Arnonun təpələrinin başçılarını
Yandırıb məhv etdi.
29 Vay halına, ey Moav!
Ey Kemoşun xalqı, yox oldun!
Kemoş övladları Emorluların padşahı
Sixonun qarşısından qaçdı,
Qızları əsir aparıldı.
30 Lakin biz onları məğlub etdik,
Xeşbondan Divona qədər məhv
oldular,
Medvaya uzanan Nofahadək
Hər tərəfi viran etdik».

---

*21:16 *Beer* – ibrani dilində *quyu.*

t21:28 Yer. 48:45-46

31 İsraillilər Emorluların torpağında
məskunlaşdı. 32 Musa Yazeri nəzərdən
keçirmək üçün adamlar göndərdi. İsrail
övladları ətraf qəsəbələri ələ keçirərək
orada yaşayan Emorluları qovdular.
33 Sonra istiqaməti dəyişib Başana
yollandılar. Başan padşahı Oq bütün
ordusu ilə birlikdə Edreidə onlarla
döyüşə çıxdı. 34 Rəbb Musaya dedi:
«Ondan qorxma, çünki Mən onu,
bütün xalqını və torpağını sənə təslim
edirəm. Xeşbonda yaşayan Emorluların
padşahı Sixonun başına gətirdiyini
onun da başına gətir». 35 İsraillilər onu,
övladlarını və bütün xalqını bir nəfər
qalmayana qədər qırdılar və torpağını
ələ keçirdilər.

Balaqın Bilamı çağırması

22 İsrail övladları yola düşüb Moav
düzənliyində, İordanın şərqində
Yerixonun qarşısında dayandılar.
2 İsrailin Emorluların başına gətirdiyi
hər şeyi Sippor oğlu Balaq görmüşdü.
3 Camaatı gördükdə Moavlılar bərk
qorxdular, çünki İsrail xalqı çox idi.
Moav sakinləri İsrail övladlarından
vahiməyə düşdü. 4 Moavlılar Midyan
ağsaqqallarına dedilər: «Öküz çöl otunu
yediyi kimi bu camaat da indi bütün
ətrafımızı yeyib qurtaracaq». O vaxtlar
Sippor oğlu Balaq Moav padşahı idi.
5 [u]Beor oğlu Bilamı çağırmaq üçün
Fərat çayının kənarındakı Petora,
onun vətəninə qasidlər göndərib
dedi: «Budur, Misirdən bir xalq çıxıb,
yer üzünü bürüyərək yaxınlığımda
yerləşmişdir. 6 Xahiş edirəm, indi gəl,
mənim xeyrimə bu xalqa lənət oxu,
çünki onlar məndən güclüdür. Bəlkə
onda mən onları məğlub edib ölkədən
qova bildim. Sənin xeyir-dua verdiyin
şəxsin xeyir-dualı, lənətlədiyin şəxsin
lənətli olduğunu bilirəm».
7 Moav ağsaqqalları ilə Midyan
ağsaqqalları fala baxmaq haqqını
əllərinə götürüb Bilamın yanına getdilər
və Balaqın sözlərini ona söylədilər.
8 Bilam onlara dedi: «Bu gecəni burada
keçirin ki, Rəbb mənə söyləyəcəyini
sizə deyim». Beləliklə, Moav başçıları
Bilamın yanında qaldılar.
9 Allah Bilamın yanına gəlib dedi:
«Evindəki bu adamlar kimdir?» 10 Bilam
Allaha dedi: «Moav padşahı Sippor oğlu
Balaq mənim yanıma adam göndərib
dedi: 11 “Budur, Misirdən çıxan xalq yer
üzünü bürüyür. İndi gəl, mənim xeyrimə
görə ona lənət oxu, bəlkə döyüşüb
onları qova bildim”». 12 Allah Bilama
dedi: «O adamlarla getmə, o xalqa
lənət etmə, çünki xeyir-dualı xalqdır».
13 Bilam səhər tezdən durdu və Balaqın
başçılarına dedi: «Torpağınıza qayıdın,
çünki Rəbb sizinlə birgə getməyə mənə
izin vermir». 14 Moav başçıları qalxdılar
və Balaqın yanına gəlib dedilər: «Bilam
bizimlə birgə gəlmək istəmədi».
15 Yenə Balaq əvvəlkilərdən daha
çox və daha etibarlı başçılar göndərdi.
16 Bilamın yanına gəlib ona dedilər:
«Sippor oğlu Balaq belə deyir: “Xahiş
edirəm, yanıma gəlməkdən imtina etmə.
17 Çünki sənə çox mükafat verəcəyəm
və nə desən, hamısını edəcəyəm. İndi
xahiş edirəm, gəl, mənim xeyrimə görə
bu xalqa lənət oxu”». 18 Bilam cavab
verib Balaqın adamlarına dedi: «Balaq
evini qızıl və gümüşlə dolu mənə versə
belə, Allahım Rəbbin sözündən yan
keçib, nə kiçik, nə də böyük iş görə
bilərəm. 19 İndi xahiş edirəm, siz də bu
gecə burada qalın və görüm Rəbb mənə
başqa nə deyəcək». 20 O gecə Allah
Bilama görünüb ona dedi: «Əgər bu
adamlar səni çağırmaq üçün gəliblərsə,
qalx onlarla get, ancaq Mənim sənə
söyləyəcəyim şeyləri et».

---

[u]**22:5** 2Pet. 2:15-16; Yəhd. 11

Bilamın eşşəyi

21 Bilam səhər tezdən qalxaraq
eşşəyinə palan vurub Moav başçıları ilə
birgə getdi. 22 O getdiyi üçün Allahın
qəzəbi alovlandı və Rəbbin mələyi ona
qarşı çıxmaq üçün yolda durdu. Bilam
eşşəyinə minmişdi və onunla bərabər
iki nökəri də vardı. 23 Eşşək sıyrılmış
qılıncı əlində, yolda duran Rəbbin
mələyini gördü və yoldan dönərək
tarlaya girdi. Bilam yoluna döndərmək
üçün eşşəyi vurdu. 24 Rəbbin mələyi
bağların arasında dar bir yolda durdu.
Hər iki tərəf divar idi. 25 Eşşək Rəbbin
mələyini görüb divara sıxıldı və Bilamın
ayağını divara sıxışdırdı. O yenə eşşəyi
vurmağa başladı. 26 Rəbbin mələyi irəli
çıxdı və sağa-sola dönmək üçün yol
olmayan dar bir yerdə durdu. 27 Eşşək
Rəbbin mələyini gördü və Bilamın
altında çökdü. Bilamın qəzəbi alovlandı,
dəyənəklə eşşəyi vurdu. 28 Rəbb eşşəyin
dilini açdı və o, Bilama dedi: «Sənə
nə etdim ki, məni üç dəfə vurdun?»
29 Bilam eşşəyə dedi: «Çünki mənimlə
əyləndin. Kaş ki əlimdə bir qılınc
olaydı, indi səni öldürərdim». 30 Eşşək
Bilama dedi: «Ömrünün əvvəlindən bu
günə qədər belinə mindiyin eşşəyin
mən deyiləmmi? Mən sənə heç belə
edərdimmi?» Bilam dedi: «Xeyr».
31 Sonra Rəbb Bilamın gözlərini
açdı. Bilam əlində sıyrılmış qılınc olan
Rəbbin mələyinin yolda durduğunu
gördü və başını əyib üzüstə yerə sərildi.
32 Rəbbin mələyi ona dedi: «Nə üçün
eşşəyini üç dəfə vurdun? Budur, mən
sənə qarşı durmaq üçün çıxdım. Məncə
tezliklə yolun məhvə doğru gedir.
33 Eşşək məni gördü, bu üç dəfədir ki,
önümdən yana döndü. Əgər yoldan
dönməsəydi, həqiqətən, indi səni
öldürərdim və onu sağ buraxardım».
34 Bilam Rəbbin mələyinə dedi: «Günah
etdim, çünki sənin mənə qarşı yolda
durduğunu bilmədim. İndi əgər bu
sənin gözündə pis görünürsə, qoy evimə
qayıdım». 35 Rəbbin mələyi Bilama
dedi: «Bu adamlarla get, ancaq yalnız
sənə deyəcəyim sözü de». Bilam Balaqın
başçıları ilə bərabər getdi.
36 Balaq Bilamın gəldiyini eşitdikdə
onu qarşılamaq üçün Arnon çayının
kənarında, torpağının ən uzaq
sərhədində olan İr-Moav şəhərinə getdi.
37 Balaq Bilama dedi: «Səni çağırtdırmaq
üçün adam göndərmədimmi? Nə üçün
mənim yanıma gəlmədin? Məgər
mən sənə mükafat verə bilmirəmmi?»
38 Bilam Balaqa dedi: «Budur, indi sənin
yanına gəldim! Amma nə deyə bilərəm
ki? Ancaq Allahın dilimə qoyacaq sözü
söyləyəcəyəm». 39 Bilam Balaqla birgə
getdi və Qiryat-Xusota gəldilər. 40 Balaq
mal-qaranı və qoyun-keçini qurban
kəsdi. Bilama və onunla birgə olan
başçılara ət göndərdi.
41 Bundan sonra səhəri gün Balaq
Bilamı götürdü və onu Bamot-Baala
çıxartdı. Bilam oradan İsrail xalqının bir
hissəsini gördü.

Bilamın birinci dəfə gələcəkdən xəbər verməsi

23 Bilam Balaqa dedi: «Burada
mənə yeddi qurbangah düzəlt
və mənim üçün burada yeddi buğa və
yeddi qoç hazırla». 2 Balaq Bilamın
dediyi kimi etdi. Balaq ilə Bilam hər
qurbangahda bir buğa və bir qoç təqdim
etdilər. 3 Bilam Balaqa dedi: «Sən
yandırma qurbanının yanında dur, mən
gedim. Bəlkə Rəbb məni qarşılamağa
gələcək və mənə nə göstərsə, sənə
bildirərəm». Sonra çılpaq bir təpəyə
çıxdı.
4 Allah Bilamla qarşılaşdı və Bilam
Ona dedi: «Yeddi qurbangah hazırladım
və hər qurbangahda bir buğa ilə bir qoç
təqdim etdim». 5 Rəbb Bilamın vasitəsilə
bir kəlam dedi: «Balaqın yanına qayıdıb

belə de». [6] Bilam Balaqın yanına
qayıtdı. Gördü ki, Balaq və Moavın
bütün başçıları yandırma qurbanlarının
yanında durublar. [7] Bilam gələcəkdən
xəbər verib dedi:
«Balaq məni Aramdan,
Moav padşahı məni şərq dağlarından
gətirdi,
“Gəl, mənim xeyrimə görə Yaquba
lənət oxu,
Gəl İsrailə qarğış et” dedi.
[8] Allahın lənət etmədiyinə mən necə
lənət edim?
Rəbbin qarğış etmədiyinə mən necə
qarğış edim?
[9] Qayaların zirvəsindən onları
görürəm mən,
Təpələrdən onlara baxıram.
Müstəqil yaşayan,
Ellərdən özünü ayıran
Bir xalq görürəm.
[10] Kim Yaqubun tozunu saya bilər?
İsrailin dörddə birini
Axı kim hesablar?
Qoy saleh adamların ölümü ilə ölüm!
Onlar necə olubsa, sonum elə olsun!»
[11] Balaq Bilama dedi: «Mənə nə etdin?
Düşmənlərimə lənət etmək üçün səni
gətirdim, budur, sən onlara xeyir-dua
verdin!» [12] Bilam cavab verdi: «Rəbbin
dilimə qoyduğunu söyləməyə diqqət
etməli deyiləmmi?»

Bilamın ikinci dəfə gələcəkdən xəbər verməsi

[13] Balaq ona dedi: «Xahiş edirəm,
mənimlə gəl, başqa bir yerə gedək,
oradan onları görəcəksən. Onların
hamısını yox, bir qismini görəcəksən.
Oradan mənim xeyrimə onlara lənət
oxu». [14] Onu Pisqa təpəsindəki Sofim
yaylağına apardı, yeddi qurbangah
düzəltdi və hər qurbangahda bir
buğa, bir qoç təqdim etdi. [15] Bilam
Balaqa dedi: «Bir az irəlidə Rəblə
görüşə gedirəm. Sən burada yandırma
qurbanının yanında dur». [16] Rəbb
Bilama görünüb nə deyəcəyini ona
bildirərək dedi: «Balaqın yanına
qayıt və belə de». [17] Beləliklə, Bilam
Balaqın yanına gəldi. Gördü ki, Balaq
yandırma qurbanının yanında durub.
Moav başçıları da onunla bərabər idi.
Balaq ondan soruşdu: «Rəbb nə dedi?»
[18] Bilam gələcəkdən xəbər verib dedi:
«Ey Balaq, oyan və dinlə;
Ey Sippor oğlu, mənə qulaq as.
[19] Allah insan deyil ki,
Yalan söyləsin,
Bəşər oğlu deyil ki,
Fikrini dəyişdirsin.
Dediyini həyata keçirməzmi?
Verdiyi sözü yerinə yetirməzmi?
[20] Budur, xeyir-dua üçün əmr aldım;
O, xeyir-dua vermişdir,
Mən onu dəyişə bilmərəm.
[21] Yaqubda bədbəxtlik üz verməyəcək.
İsraildə bəla olmayacaq.
Özlərinin Allahı Rəbb onlarladır,
Onları padşah kimi alqışlayırlar.
[22] Allah onları Misirdən çıxardı;
Onların çöl öküzü kimi qüvvəti
vardır.
[23] Yaqub üçün edilən baxıcılıq baş
tutmaz,
İsrail üçün edilən falçılıq alınmaz.
Bax indi deyiləcək:
“Yaqub və İsrail üçün
Allah nələr etdi!”
[24] Budur, xalq dişi aslan tək oyanır,
Şir kimi qalxır,
Şikarını yeməyincə,
Ölənlərin qanını içməyincə
yatmayacaq».
[25] Balaq Bilama dedi: «Onlara nə lənət
oxu, nə də xeyir-dua ver». [26] Ancaq
Bilam Balaqa cavab verib dedi: «Məgər
sənə demədim ki, Rəbb nə desə,
hamısını etməliyəm?»

Bilamın üçüncü dəfə gələcəkdən xəbər verməsi

27 Balaq Bilama dedi: «Xahiş edirəm
gəl, səni başqa bir yerə aparım;
bəlkə Allahın gözünə xoş gələr ki,
oradan onlara mənim xeyrimə görə
lənət oxuyasan». 28 Balaq Bilamı çölə
baxan Peor təpəsinə apardı. 29 Bilam
Balaqa dedi: «Burada mənə yeddi
qurbangah düzəlt və burada mənim
üçün yeddi buğa və yeddi qoç hazırla».
30 Balaq Bilamın dediyi kimi etdi. Hər
qurbangahda bir buğa və bir qoç təqdim
etdi.

24 Bilam Rəbbin gözündə İsrailə
xeyir-dua verməyin yaxşı
olduğunu gördükdə əvvəlki kimi
baxıcılıq etmədi, amma üzünü səhraya
doğru çevirdi. 2 Bilam gözlərini qaldırdı
və İsraili qəbilələrinə görə yerləşmiş
görəndə onun üzərinə Allahın Ruhu
endi. 3 O, gələcəkdən xəbər verib dedi:

«Budur, Beor oğlu Bilamın kəlamı,
Uzaq görən adamın kəlamı,
4 Allahın sözlərini eşidən,
Külli-İxtiyarın görüntüsünü görən,
Gözləri açıq, yerə sərilən adamın
kəlamı:
5 "Ey Yaqub, sənin çadırların,
Ey İsrail, məskənlərin nə gözəldir!
6 Yayılırlar vadilər tək,
Çay kənarındakı bağ-bağçalar tək,
Rəbbin bitirdiyi əzvay ağacları tək,
Çay kənarındakı sidr ağacları tək.
7 Satıllarından sular axacaq,
Toxumları bol su ilə sulanacaq,
Padşahları Aqaqdan böyük olacaq,
Padşahlıqları ucalacaq.
8 Allah onları Misirdən çıxartdı;
Onların çöl öküzü kimi qüvvəti var.
Onlar düşmən millətləri yeyib
qurtaracaq.
Sümüklərini qıracaq,
Oxları ilə onları dələcək.
9 [v]Onlar pusub şir kimi yatar,
Dişi aslana oxşar.
Onları oyandırmağa kim cürət edər?
Sizə xeyir-dua verən xeyir-dualı
olsun,
Sizə lənət oxuyan qoy lənətli olsun!"»

10 Bilama qarşı Balaqın qəzəbi
alovlandı. Balaq əllərini bir-birinə vurdu
və Bilama dedi: «Səni düşmənlərimə
lənət etmək üçün çağırdım və budur,
üçüncü dəfədir ki, onlara ancaq
xeyir-dua verirsən. 11 İndi tez get,
yerinə qayıt. Demişdim ki, səni çox
mükafatlandıracağam, amma Rəbb səni
mükafatdan məhrum etdi». 12 Bilam
Balaqa dedi: «Yanıma göndərdiyin
qasidlərə demədimmi, 13 Balaq mənə
qızıl və gümüşlə dolu evini versə belə,
Rəbbin sözündən bilə-bilə yan keçib
yaxşılıq yaxud pislik edə bilmərəm.
Rəbb nə desə, onu deyəcəyəm. 14 İndi
mən xalqımın yanına qayıdıram. Qoy
mən bu xalqın gələcəkdə sənin xalqının
başına nə gətirəcəyini bildirim».

Bilamın dördüncü dəfə gələcəkdən xəbər verməsi

15 Sonra Bilam gələcəkdən xəbər verib
dedi:

«Budur, Beor oğlu Bilamın kəlamı,
Uzaq görən adamın kəlamı,
16 Allahın sözlərini eşidən,
Haqq-Taalanın biliyinə qovuşan,
Külli-İxtiyarın görüntüsünü görən,
Gözləri açıq, yerə sərilən adamın
kəlamı:
17 "Onu mən görürəm, amma indi
deyil,
Mən ona baxıram, amma yaxından
deyil.
Yaqubdan bir ulduz çıxacaq,

---

[v]**24:9** Yar. 49:9; Vəhy 5:5; Yar. 12:3

İsraildən bir Əsa *ucalacaq,
Moavlıların alınlarını,
Şet övladlarının başlarını əzəcək.
18 Onun düşməni Edomla Seir təslim olacaq,
İsrail isə get-gedə güclənəcək.
19 Yaqubun nəslindən olan o adam
Səltənət sürəcək,
Şəhərdə sağ qalanları məhv edəcək”».

Bilamın sonuncu dəfə gələcəkdən xəbər verməsi

20 Bilam Amaleqliləri görəndə gələcəkdən xəbər verib belə dedi:
«Amaleq millətlərin birincisi idi,
Ancaq axırda məhv olacaq».
21 Qenliləri görəndə gələcəkdən xəbər verib belə dedi:
«Məskəniniz möhkəm,
Yuvanız qayada qurulub.
22 Amma, ey Qenlilər, Aşşurlular sizi əsir alanda
Yanıb yox olacaqsınız».
23 Bilam gələcəkdən xəbər verməyə belə davam etdi:
«Vay, Allah bunu etdiyi zaman kim yaşaya biləcək?
24 Kittim sahillərindən gəmilər gələcək,
Aşşur ilə Everi ram edəcək,
Amma onlar da məhv olacaq».
25 Bundan sonra Bilam yola çıxıb evinə qayıtdı. Balaq da öz yoluna davam etdi.

İsrail övladlarının Peorda günaha batması

25 [w]İsrail xalqı Şittimdə yaşayarkən kişiləri Moav qızları ilə zina etməyə başladı. 2 Bu qadınlar allahlarına qurban kəsəndə İsrail xalqını da dəvət edirdilər. İsrail xalqı qurban ətindən yedi və onların allahlarına səcdə etdi. 3 İsrail övladları Peordakı Baal bütünə səcdə edənlərə qoşuldular və Rəbbin qəzəbi İsraillilərə qarşı alovlandı.
4 Rəbb Musaya dedi: «Xalqın bütün başçılarını götürüb gündüz Rəbbin önündə dar ağacından asdır. Beləliklə, qoy Rəbbin qızğın qəzəbi İsraildən dönsün». 5 Buna görə Musa İsrailin hakimlərinə dedi: «Hər biriniz öz adamlarınız arasında Peordakı Baala səcdə edənlərə qoşulanları öldürün».
6 Bu an İsrail övladlarından olan bir nəfər gəldi, Musanın və Hüzur çadırının girişində ağlaşan bütün İsrail övladlarının icmasının gözü önündə qohumlarına Midyanlı bir qadın gətirdi. 7 Kahin Harun oğlu Eleazar oğlu Pinxas bunu görən kimi icmanın arasından qalxdı və əlinə bir nizə götürdü. 8 İsrailli adamın ardınca çadırın içinə girdi, nizəni İsrailli kişinin və qadının qarnına soxdu. Beləliklə, İsrail övladlarını qıran vəba dayandı. 9 Vəbadan ölənlərin sayı iyirmi dörd min nəfər idi.
10 Rəbb Musaya dedi: 11 «Kahin Harun oğlu Eleazar oğlu Pinxas Mənim qəzəbimi İsrail övladlarından döndərdi, çünki aralarında yalnız o Mənim qeyrətimi çəkdi. Beləliklə, Mən qeyrətimə görə İsrail övladlarını məhv etmədim. 12 Buna görə söylə: “Budur, Mən onunla sülh əhdi bağlayıram. 13 Bu onun üçün və ondan sonra gələn nəsli üçün əbədi kahinlik əhdi olacaq. Çünki Allahının qeyrətini çəkib İsrail övladları üçün kəffarə etdi”».
14 Midyanlı qadınla birgə öldürülən İsrailli kişinin adı Salu oğlu Zimri idi. O, Şimeonlular arasında bir nəsil rəhbəri idi. 15 Öldürülən Midyanlı qadının adı Sur qızı Kozbi idi. Sur Midyanda bir nəsil başçısı idi.

---

*24:17 *Əsa* – burada *başçı* mənasında işlənir.

w25:1 1Kor. 10:8

16 Rəbb Musaya dedi: 17 «Midyanlıları
düşmən hesab edin və onları qırın.
18 Çünki onlar hiylə ilə sizə düşmənçilik
etdilər. Peor hadisəsində və Peorda baş
verən vəba günündə öldürülən bacıları,
Midyanlı bəyin qızı Kozbi məsələsində
sizi aldatdılar».

İkinci siyahıyaalma

26 [x]Vəbadan sonra Rəbb Musaya
və kahin Harun oğlu Eleazara
dedi: 2 «Bütün İsrail övladlarının
icmasını, ailələrinə görə iyirmi və
ondan yuxarı yaşda döyüşə qabil olan
İsrail övladlarını sayın». 3 Musa ilə
kahin Eleazar İordan çayı yanında,
Yerixo qarşısında Moav düzənliyində
onlarla danışıb dedi: 4 «Rəbbin Musaya
əmr etdiyi kimi iyirmi və ondan yuxarı
yaşda olanları siyahıya alın!»
Misir torpağından çıxan İsrail
övladları bunlardır:
5 İsrailin ilk oğlu Ruven, Ruvenlilər
bunlardır:
Xanok soyundan Xanok nəsli;
Pallu soyundan Pallu nəsli;
6 Xesron soyundan Xesron nəsli;
Karmi soyundan Karmi nəsli.
7 Ruvenlilərin nəsilləri bunlardır,
sayları 43 730 nəfər idi.
8 Palunun oğlu Eliav, 9 Eliavın oğulları
Nemuel, Datan və Aviram idi. Bunlar o
Datanla Aviramdır ki, icma tərəfindən
seçildi və Rəbbə üsyan edən Qorahın
tərəfdarlarına qoşulub Musa ilə Haruna
zidd getdilər. 10 Qorahla 250 yoldaşını
od yandırıb yox edəndə yer yarıqları
onları uddu. Qorahla birlikdə ölənlər
başqalarına da bir ibrət oldu. 11 Qorahın
nəsli isə ölmədi.
12 Nəsillərinə görə Şimeonlular
bunlardır:
Nemuel soyundan Nemuel nəsli;
Yamin soyundan Yamin nəsli;
Yakin soyundan Yakin nəsli;
13 Zerah soyundan Zerah nəsli;
Şaul soyundan Şaul nəsli;
14 Şimeon nəsilləri bunlardır, sayları 22
200 nəfərdir.
15 Nəsillərinə görə Qadlılar bunlardır:
Sefon soyundan Sefon nəsli;
Haqqi soyundan Haqqi nəsli;
Şuni soyundan Şuni nəsli;
16 Ozni soyundan Ozni nəsli;
Eri soyundan Eri nəsli:
17 Arod soyundan Arod nəsli;
Areli soyundan Areli nəsli.
18 Qad nəsilləri bunlardır, sayları 40
500 nəfərdir.
19 Yəhudanın iki oğlu var idi: Er və
Onan. Onlar Kənan torpağında öldülər.
20 Nəsillərinə görə Yəhudalılar
bunlardır:
Şela soyundan Şela nəsli;
Peres soyundan Peres nəsli;
Zerah soyundan Zerah nəsli.
21 Peres övladları bunlardır:
Xesron soyundan Xesron nəsli;
Xamul soyundan Xamul nəsli.
22 Yəhuda nəsilləri bunlardır, sayları 76
500 nəfərdir.
23 Nəsillərinə görə İssakar övladları
bunlardır:
Tola soyundan Tola nəsli;
Puva soyundan Puva nəsli;
24 Yaşuv soyundan Yaşuv nəsli;
Şimron soyundan Şimron nəsli.
25 İssakar nəsilləri bunlardır, sayları 64
300 nəfərdir.
26 Nəsillərinə görə Zevulunlular
bunlardır:
Sered soyundan Sered nəsli;
Elon soyundan Elon nəsli;
Yaxleel soyundan Yaxleel nəsli.
27 Zevulun nəsilləri bunlardır, sayları 60
500 nəfərdir.
28 Nəsillərinə görə Yusifin oğulları:
Menaşşe və Efrayim.

---

[x]**26:1** Say. 1:1-46

29 Menaşşe övladları bunlardır:
Makir soyundan Makir nəsli, Makir
Gileadın atası idi;
Gilead soyundan Gilead nəsli;
30 Gilead övladları bunlardır:
İezer soyundan İezer nəsli;
Xeleq soyundan Xeleq nəsli;
31 Asriel soyundan Asriel nəsli;
Şekem soyundan Şekem nəsli;
32 Şemida soyundan Şemida nəsli;
Xefer soyundan Xefer nəsli.
33 Xefer oğlu Selofxadın oğlu olmadı,
amma Maxla, Noa, Xoqla, Milka və
Tirsa adında qızları var idi.
34 Menaşşe nəsilləri bunlardır, sayları
52 700 nəfərdir.
35 Nəsillərinə görə Efrayim övladları
bunlardır:
Şutelah soyundan Şutelah nəsli;
Beker soyundan Beker nəsli;
Taxan soyundan Taxan nəsli;
36 Şutelah övladları bunlardır:
Eran soyundan Eran nəsli.
37 Efrayim övladlarının nəsilləri
bunlardır, sayları 32 500 nəfərdir.
Nəsillərinə görə Yusif övladları
bunlardır.
38 Nəsillərinə görə Binyaminlilər
bunlardır:
Bela soyundan Bela nəsli;
Aşbel soyundan Aşbel nəsli;
Axiram soyundan Axiram nəsli;
39 Şufam soyundan Şufam nəsli;
Xufam soyundan Xufam nəsli.
40 Belanın oğulları Ardla Naaman
nəslindən törənənlər bunlardır:
Ard soyundan Ard nəsli;
Naaman soyundan Naaman nəsli.
41 Nəsillərinə görə Binyamin övladları
bunlardır, sayları 45 600 nəfərdir.
42 Nəsillərinə görə Dan övladları
bunlardır:
Şuxam soyundan Şuxam nəsli.
Bunlar Dan nəslindən törənən
nəsillərdir.
43 Hamısı Şuxam nəslindəndir, sayları
64 400 nəfərdir.
44 Nəsillərinə görə Aşerlilər bunlardır:
İmna soyundan İmna nəsli;
İşvi soyundan İşvi nəsli;
Beria soyundan Beria nəsli.
45 Beria övladları bunlardır:
Xever soyundan Xever nəsli;
Malkiel soyundan Malkiel nəsli.
46 Aşerin Serah adında bir qızı var idi.
47 Aşer övladları bunlardır, sayı 53
400 nəfərdir.
48 Nəsillərinə görə Naftali övladları
bunlardır:
Yaxseel soyundan Yaxseel nəsli;
Quni soyundan Quni nəsli;
49 Yeser soyundan Yeser nəsli;
Şillem soyundan Şillem nəsli.
50 Naftali nəsilləri bunlardır, sayları 45
400 nəfərdir.
51 Sayılan İsrail övladlarının cəmi 601
730 kişi idi.
52 [y]Rəbb Musaya belə dedi:
53 «Adamların sayına görə ölkə bunlara
irs olaraq bölünsün. 54 Sayı çox olana
böyük, sayı az olana az pay verəcəksən.
Siyahıya yazılanların sayına görə hər
birinə düşən pay verilsin. 55 Ancaq
torpaq püşklə bölünsün. Hər kəsin payı
atalarının aid olduğu qəbilələrin adına
görə olacaq. 56 Kiçik ya böyük – hər
qəbilənin payı püşklə bölünsün».
57 Nəsillərinə görə sayılan Levililər
bunlardır:
Gerşon soyundan Gerşon nəsli;
Qohat soyundan Qohat nəsli;
Merari soyundan Merari nəsli.
58 Bunlar da Levi nəsilləridir:
Livni nəsli,
Xevron nəsli,
Maxli nəsli,
Muşi nəsli,

---

[y]**26:52** Say. 34:13; Yeşua 14:1-2

Qorah nəsli.
Qohat Amramın atası idi.
59 Amramın arvadının adı Yokeved idi.
O, Misirdə Levi nəslindən doğulmuşdu.
Amramdan Harun, Musa və bacıları
Məryəm doğuldu. 60 [z]Harunun Nadav,
Avihu, Eleazar, İtamar adlı uşaqları
oldu. 61 [a]Nadavla Avihu Rəbbin önündə
haram od təqdim edərkən öldülər.
62 Levililərdən sayılan bir aylıq və
ondan yuxarı yaşda bütün kişi cinsindən
olanlar 23 000 nəfər idi. Bunlar o biri
İsrail övladları ilə birlikdə siyahıya
alınmışdı. Çünki İsrail övladları
arasında onlara miras verilməmişdi.
63 İsrail övladlarının siyahısı İordan
çayının yanında, Yerixo qarşısındakı
Moav düzənliyində Musa və kahin
Eleazar tərəfindən tutuldu. 64 Amma
Musa ilə kahin Harunun Sina səhrasında
saydığı İsrail övladlarından heç kim bu
siyahıda olmadı. 65 [b]Ona görə ki Rəbb o
vaxt siyahıya alınan İsrail övladlarının
səhrada öləcəyini qətiyyətlə söyləmişdi.
Onlardan Yefunne oğlu Kalevlə Nun
oğlu Yeşuadan başqa kimsə sağ
qalmamışdı.

Selofxadın qızları

27 Menaşşe oğlu Makir oğlu Gilead
oğlu Xefer oğlu Selofxadın
qızları Yusif oğlu Menaşşenin nəsillərinə
mənsub idi. Qızların adları belədir:
Maxla, Noa, Xoqla, Milka və Tirsa.
2 Onlar Musanın, kahin Eleazarın və
rəhbərlərlə bütün icmanın önündə,
Hüzur çadırının girişində durub
dedilər: 3 «Atamız səhrada öldü, lakin
Qorahın tərəfini tutub Rəbbə qarşı
üsyan edənlərin arasında deyildi. O öz
günahına görə öldü və oğulları olmadı.
4 Oğlu olmadığına görə onun adı öz
nəsli arasından nə üçün silinməlidir?
Atamızın qardaşları arasında bizə bir
mülk verin».
5 Musa onların işini Rəbbin
önünə qoydu. 6 Rəbb Musaya dedi:
7 [c]«Selofxadın qızları doğru deyirlər:
mütləq onlara atalarının qardaşları
arasında mülk ver və atalarının mirasını
onlara keçir. 8 İsrail övladlarına de ki,
əgər bir adam ölərsə və onun oğlu
yoxdursa, o zaman mirası onun qızına
keçir. 9 Əgər onun qızı yoxdursa, onda
mirasını onun qardaşlarına ver. 10 Əgər
qardaşları yoxdursa, onda mirasını
atasının qardaşlarına ver. 11 Əgər
atasının qardaşları yoxdursa, o zaman
mirasını nəslindən ona ən yaxın olan
qohumuna ver ki, mülk onun olsun. Bu,
Rəbbin Musaya əmr etdiyi kimi İsrail
övladlarına qanun və hökm olsun».

Yeşuanın Musanın yerinə təyin olunması

(Qanun. 31:1-8)

12 [d]Rəbb Musaya dedi: «Bu Avarim
dağına çıx və İsrail oğullarına verdiyim
ölkəni gör. 13 Onu gördükdən sonra
qardaşın Harun nə cür xalqına
qovuşdusa, sən də elə ölüb, xalqına
qovuşacaqsan. 14 Çünki Zin səhrasında
əmrimə qarşı çıxdınız. İcma Mənə üsyan
edəndə sulara görə onların gözləri
önündə Mənim müqəddəsliyimi etiraf
etmədiniz». Bunlar Zin səhrasındakı
Qadeşdə olan Meriva sularıdır.
15 Musa Rəbbə dedi: 16 «Rəbb – bütün
bəşər ruhlarının Allahı, icma üzərinə
bir adam nəsib etsin, 17 [e]o da onların
önündə girib-çıxsın, onların önündə
döyüşə gedib-gəlsin. Qoy Rəbbin icması
çobansız sürü kimi olmasın».

---

[z]**26:60** Say. 3:2 [a]**26:61** Lev. 10:1-2; Say. 3:4 [b]**26:65** Say. 14:26-35
[c]**27:7** Say. 36:2 [d]**27:12** Qanun. 3:23-27; 32:48-52
[e]**27:17** 1Pad. 22:17; 2Saln. 18:16; Yez. 34:5; Zək. 10:2; Mat. 9:36; Mark 6:34

18 [f]Rəbb Musaya dedi: «İçində Ruh
olan bir adamı – Nun oğlu Yeşuanı
yanına gətirərək əlini onun üzərinə
qoyacaqsan. 19 Onu kahin Eleazar
və bütün icma qarşısında dayandırıb
onların gözləri önündə ona vəzifə tapşır.
20 Ona öz səlahiyyətindən ver ki, bütün
İsrail icması ona itaət etsin. 21 O, hökm
almaq üçün kahin Eleazarın qarşısında
duracaq. Eleazar isə Urim *vasitəsilə
Rəbdən soruşmalıdır. Yeşua ilə bütün
İsraillilər icması Eleazarın əmri ilə
döyüşə gedib-gəlsinlər».
22 Musa Rəbbin ona əmr etdiyi kimi
etdi: Yeşuanı götürüb kahin Eleazarın
və bütün icmasının önündə dayandırdı.
23 [g]Rəbbin Musa vasitəsilə əmr etdiyi
kimi əllərini onun üzərinə qoyaraq ona
vəzifə tapşırdı.

Gündəlik təqdimlər

(Çıx. 29:38-46)

28 Rəbb Musaya dedi: 2 «İsrail
övladlarına əmr edib de: "Diqqət
edin ki, Mənə təqdim olunan payı –
yandırma təqdimini, Mənim xoşuma
gələn ətri öz vaxtında verəsiniz".
3 Onlara de: "Rəbbə verəcəyiniz
yandırma təqdimi budur: daimi
yandırma qurbanı olaraq hər gün
iki birillik qüsursuz erkək toğlu.
4 Toğlulardan birini səhər, o birini
isə axşamçağı təqdim edin. 5 Toğlu
ilə birlikdə taxıl təqdimi olaraq
dörddə bir hin çəkilmiş zeytun yağı
ilə yoğrulmuş efanın onda biri narın
un təqdim edin. 6 Bu, daimi yandırma
qurbanı, Sina dağında buyurulan,
Rəbbin xoşuna gələn ətir – Onun üçün
yandırma təqdimidir. 7 Hər toğlu ilə
birlikdə içmə təqdimi olaraq dörddə
bir hin kefləndirici içkini Rəbbin adına
müqəddəs yerdə tökün. 8 O biri toğlunu
axşamçağı təqdim edin. Səhərki kimi
taxıl təqdimi və içmə təqdimi ilə birlikdə
onu təqdim edin. Bu, Rəbbin xoşuna
gələn ətir – yandırma təqdimidir.

Şənbə təqdimləri

9 [h]Şənbə günündə iki birillik qüsursuz
erkək toğlu və taxıl təqdimi olaraq
zeytun yağı ilə yoğrulmuş onda iki
efa narın un və onun içmə təqdimini
təqdim edin. 10 Daimi yandırma qurbanı
və onun içmə təqdimindən başqa hər
Şənbənin yandırma qurbanı olan təqdim
budur.

Təzə Ay təqdimləri

11 Hər ayın başında Rəbbə yandırma
qurbanı olaraq qüsursuz iki buğa və bir
qoç, birillik yeddi erkək toğlu təqdim
edin. 12 Hər buğa üçün taxıl təqdimi
olaraq zeytun yağı ilə yoğrulmuş
onda üç efa narın un və tək qoç üçün
taxıl təqdimi olaraq zeytun yağı ilə
yoğrulmuş onda iki efa narın un, 13 hər
toğlu üçün taxıl təqdimi olaraq zeytun
yağı ilə yoğrulmuş onda bir efa narın
un təqdim edin. Bu, yandırma qurbanı
Rəbbin xoşuna gələn ətir – Onun üçün
yandırma təqdimidir. 14 Onların içmə
təqdimləri bir buğa üçün yarım hin,
qoç üçün üçdə bir hin və bir toğlu üçün
dörddə bir hin şərab olacaq. İl boyu hər
yeni ayda veriləcək yandırma qurbanı
budur. 15 Daimi yandırma qurbanı və
onun içmə təqdimlərindən başqa Rəbbə
günah təqdimi olaraq bir təkə də təqdim
edin.

---

*__27:21__ *Urim* – kahin döşlüyünün içində olub, Rəbbin iradəsini bilmək üçün püşk kimi atılan daş.

[f]**27:18** Çıx. 24:13 [g]**27:23** Qanun. 31:23 [h]**28:9** Mat. 12:5

Pasxa bayramının təqdimləri

(Lev. 23:5-14)

16 [i]Birinci ayın on dördüncü günü
Rəbbin Pasxa bayramıdır. 17 Bu ayın on
beşinci günü bayram olsun, yeddi gün
mayasız çörək yeyilsin. 18 Birinci gün
müqəddəs toplantı keçirin, gündəlik
işlərinizi görməyin. 19 Rəbbə yandırma
qurbanı, yandırma təqdimi olaraq iki
buğa, bir qoç və birillik yeddi erkək
toğlu təqdim edin; hamısı qüsursuz
olsun. 20 Hər buğa üçün taxıl təqdimi
olaraq zeytun yağı ilə yoğrulmuş onda
üç efa, qoç üçün onda iki, 21 yeddi
toğludan hər toğlu üçün onda bir efa
narın un təqdim edin. 22 Özünüzü
kəffarə etmək üçün günah qurbanı
olaraq bir təkə təqdim edin. 23 Hər səhər
təqdim edəcəyiniz daimi yandırma
qurbanına əlavə olaraq bunları da
təqdim edin. 24 Beləliklə, yeddi gün
ərzində hər gün Rəbbin payını, Onun
xoşuna gələn ətri – yandırma təqdimini
verin. Bunu daimi yandırma qurbanı
ilə içmə təqdiminə əlavə olaraq verin.
25 Yeddinci gün müqəddəs toplantı
keçirin, gündəlik işlərinizi görməyin.

Həftələr bayramının təqdimləri

(Lev. 23:15-22; Qanun. 16:9-12)

26 Nübarın təqdim edilməsi günü
Həftələr bayramında Rəbbə təzə
taxıl təqdimi gətirəndə müqəddəs
toplantı keçirin, gündəlik işlərinizi
görməyin. 27 Yandırma qurbanını
Rəbbin xoşuna gələn ətir kimi iki buğa,
bir qoç və birillik yeddi erkək toğlu
olmaqla təqdim edin. 28 Hər buğa üçün
taxıl təqdimi olaraq zeytun yağı ilə
yoğrulmuş onda üç efa, tək qoç üçün
onda iki efa, 29 yeddi toğludan hər toğlu
üçün isə onda bir efa narın un təqdim
edin. 30 Özünüzü kəffarə etmək üçün bir
təkə də təqdim edin. 31 Daimi yandırma
qurbanı taxıl və içmə təqdimlərinə əlavə
olaraq bunları gətirin. Qurban etdiyiniz
heyvanlar qüsursuz olmalıdır.

Şeypur çalma gününün təqdimləri

(Lev. 23:23-25)

29 Yeddinci ayda, ayın birində
müqəddəs toplantı keçirin, heç
bir gündəlik işlərinizi görməyin. O gün
sizin üçün şeypur çalma günü olacaq.
2 Yandırma qurbanını Rəbbin xoşuna
gələn ətir kimi qüsursuz bir buğa,
bir qoç və birillik yeddi erkək toğlu
olmaqla verin. 3 Buğa üçün taxıl təqdimi
olaraq zeytun yağı ilə yoğrulmuş onda
üç efa, qoç üçün onda iki efa, 4 yeddi
toğludan hər toğlu üçün onda bir efa
narın un təqdim edin. 5 Özünüzü kəffarə
etmək üçün günah qurbanı olaraq bir
təkə də təqdim edin. 6 Aylıq və gündəlik
yandırma qurbanları ilə lazımi taxıl və
içmə təqdimlərinə əlavə olaraq bunları
gətirin. Bu, Rəbbin xoşuna gələn ətir –
Onun üçün yandırma təqdimidir.

Kəffarə gününün təqdimləri

(Lev. 23:26-32)

7 [j]Həmin yeddinci ayın onunda
müqəddəs toplantı keçirin; özünüzü
hər şeydən məhrum edin və heç bir
iş görməyin. 8 Rəbbə xoş ətir kimi
yandırma qurbanı olaraq bir buğa, bir
qoç, birillik yeddi erkək toğlu təqdim
edin. Onlar qüsursuz olmalıdır. 9 Buğa
üçün taxıl təqdimi olaraq zeytun yağı
ilə yoğrulmuş onda üç efa, qoç üçün
onda iki efa, 10 yeddi toğludan hər toğlu
üçün onda bir efa narın un təqdim edin.
11 Günah qurbanı olaraq bir təkə də
təqdim edin. Kəffarələr üçün günah
qurbanına, daimi yandırma qurbanına,
onun taxıl təqdiminə və onların içmə

---

[i]**28:16** Çıx. 12:1-13; Qanun. 16:1-2 [j]**29:7** Lev. 23:27

təqdimlərinə əlavə olaraq bunları
gətirin.

Çardaqlar bayramının təqdimləri

(Lev. 23:33-44)

12 [k]Yeddinci ayın on beşinci günündə
müqəddəs toplantı keçirin; heç bir
gündəlik işlərinizi görməyin. Rəbbin
şərəfinə yeddi gün bayram keçirin.
13 Rəbbin xoşuna gələn ətir – yandırma
təqdimi olaraq qüsursuz on üç buğa, iki
qoç və birillik on dörd erkək toğlu verin.
Onlar qüsursuz olmalıdır. 14 Hər buğa
üçün taxıl təqdimi olaraq zeytun yağı
ilə yoğrulmuş onda üç efa, hər qoç üçün
onda iki efa, 15 on dörd toğludan hər
toğlu üçün onda bir efa narın un təqdim
edin. 16 Günah qurbanı olaraq bir
təkə də təqdim edin. Daimi yandırma
qurbanı ilə taxıl və içmə təqdimlərinə
əlavə olaraq bunları gətirin.
17 İkinci gün qüsursuz on iki buğa,
iki qoç, birillik on dörd erkək toğlu
təqdim edin. 18 Buğa, qoç və toğluların
sayına görə onların lazımi taxıl və
içmə təqdimlərini gətirin. 19 Günah
qurbanı olaraq bir təkə də təqdim edin.
Daimi yandırma qurbanı ilə taxıl və
içmə təqdimlərinə əlavə olaraq bunları
gətirin.
20 Üçüncü gün qüsursuz on bir buğa,
iki qoç, birillik on dörd erkək toğlu
təqdim edin. 21 Buğa, qoç və toğluların
sayına görə onların lazımi taxıl və
içmə təqdimlərini gətirin. 22 Günah
qurbanı olaraq bir təkə də təqdim edin.
Daimi yandırma qurbanı ilə taxıl və
içmə təqdimlərinə əlavə olaraq bunları
gətirin.
23 Dördüncü gün qüsursuz on buğa,
iki qoç, birillik on dörd erkək toğlu
təqdim edin. 24 Buğa, qoç və toğluların
sayına görə onların lazımi taxıl və
içmə təqdimlərini gətirin. 25 Günah
qurbanı olaraq bir təkə də təqdim edin.
Daimi yandırma qurbanı ilə taxıl və
içmə təqdimlərinə əlavə olaraq bunları
gətirin.
26 Beşinci gün qüsursuz doqquz
buğa, iki qoç, birillik on dörd erkək
toğlu təqdim edin. 27 Buğa, qoç və
toğluların sayına görə lazımi taxıl və
içmə təqdimlərini gətirin. 28 Günah
qurbanı olaraq bir təkə də təqdim edin.
Daimi yandırma qurbanı ilə taxıl və
içmə təqdimlərinə əlavə olaraq bunları
gətirin.
29 Altıncı gün qüsursuz səkkiz buğa,
iki qoç, birillik on dörd erkək toğlu
təqdim edin. 30 Buğa, qoç və toğluların
sayına görə onların lazımi taxıl və
içmə təqdimlərini gətirin. 31 Günah
qurbanı olaraq bir təkə də təqdim edin.
Daimi yandırma qurbanı ilə taxıl və
içmə təqdimlərinə əlavə olaraq bunları
gətirin.
32 Yeddinci gün qüsursuz yeddi buğa,
iki qoç, birillik on dörd erkək toğlu
təqdim edin. 33 Buğa, qoç və toğluların
sayına görə onların lazımi taxıl və
içmə təqdimlərini gətirin. 34 Günah
qurbanı olaraq bir təkə də təqdim edin.
Daimi yandırma qurbanı ilə taxıl və
içmə təqdimlərinə əlavə olaraq bunları
gətirin.
35 [l]Səkkizinci gün özünüz üçün
təntənəli toplantı keçirin, heç
bir gündəlik işlərinizi görməyin.
36 Yandırma qurbanı, Rəbbin xoşuna
gələn ətir – yandırma təqdimi olaraq
qüsursuz bir buğa, bir qoç və birillik
yeddi erkək toğlu təqdim edin. 37 Buğa,
qoç və toğluların sayına görə onların
lazımi taxıl və içmə təqdimlərini gətirin.
38 Günah qurbanı olaraq bir təkə də
təqdim edin. Daimi yandırma qurbanı
ilə taxıl və içmə təqdimlərinə əlavə
olaraq bunları gətirin.

---

[k]**29:12** Lev. 23:34-35 [l]**29:35** Lev. 23:36

39 Əhdə görə və könüllü
təqdimlərinizdən əlavə təyin olunan
bayramlarınızda Rəbbə bu yandırma
qurbanlarınızı, taxıl təqdimlərinizi,
içmə təqdimlərinizi və ünsiyyət
qurbanlarınızı təqdim edin”».
40 Musa Rəbbin ona əmr etdiyi hər
şeyi İsrail övladlarına bildirdi.

Əhdlər

30 Musa İsrail övladlarının qəbilə
başçılarına dedi: «Rəbb belə
əmr etmişdir: 2 [m]bir kişi Rəbbə əhd
edərək yaxud and içərək öhdəsinə nə
isə götürərsə, verdiyi sözü pozmasın,
ağzından çıxan hər şeyi yerinə yetirsin.
3 Əgər atasının evində yaşayan gənc
qız Rəbbə əhd edib öhdəsinə nə isə
götürərsə, 4 lakin atası onun əhdini və
öhdəsinə götürdüyü şeyi eşidəndə ona
qarşı çıxmazsa, qızın etdiyi əhdlər və
öhdəsinə götürdüyü şeylərin hamısı
qüvvədə qalar. 5 Amma atası bunları
eşidən gün mane olarsa, qızın etdiyi
əhdlər və öhdəsinə götürdüyü şeylər
qüvvədən düşər. Rəbb onu bağışlayar,
çünki atası mane olmuşdur.
6 Əgər qız əhd yaxud düşünmədən
öhdəsinə bir şey götürdükdən sonra ərə
gedərsə, 7 bunu eşidən əri həmin gün
ona qarşı çıxmazsa, onun etdiyi əhdlər
və düşünmədən öhdəsinə götürdüyü
şeylər qüvvədə qalar. 8 Amma əri bunu
eşidən gün mane olarsa, gəlinin etdiyi
əhdlər və öhdəsinə götürdüyü şeylər
qüvvədən düşər. Rəbb onu bağışlayar.
9 Dul yaxud boşanan qadının əhdi və
öhdəsinə götürdüyü hər şey qüvvədə
qalar.
10 Əgər ərli bir qadın əhd edər yaxud
öhdəsinə nə isə götürərsə, 11 əri bunu
eşidəndə ona qarşı çıxmayıb mane
olmazsa, qadının bütün əhdləri yaxud
öhdəsinə götürdüyü şeylər qüvvədə
qalar. 12 Amma əri bunları eşidən gün
ona mane olarsa, qadının bütün əhdləri
və öhdəsinə götürdüyü şeylər qüvvədən
düşər. Əri mane olduğu üçün Rəbb
qadını bağışlayar. 13 Əri qadının özünü
məhrum etmək üçün etdiyi əhdləri
yaxud and içərək öhdəsinə götürdüyü
şeyləri təsdiq edə bilər ya da mane
ola bilər. 14 Əgər əri bir gün içində
bu barədə ona qarşı çıxmazsa, bütün
əhdləri yaxud öhdəliklərini təsdiqləmiş
olur. Onları eşidən gün qadına qarşı
çıxmamaqla təsdiqləmiş sayılar. 15 Əgər
onları eşitdikdən bir müddət sonra
mane olursa, qadının cəzasını əri çəkər».
16 Kişi ilə arvadı, atası ilə onun evində
yaşayan gənc qızı arasında münasibət
barədə Rəbbin Musaya əmr etdiyi
qaydalar bunlardır.

Midyanlılardan qisas alma

31 Rəbb Musaya belə dedi:
2 «İsrail övladlarının qisasını
Midyanlılardan al. Sonra isə ölüb öz
xalqına qovuşacaqsan».
3 Buna görə Musa xalqa belə dedi:
«Aranızdan bəzi adamları silahlandırın
ki, Midyanlılarla döyüşə çıxıb Rəbbin
qisasını onlardan alsınlar. 4 İsrail
qəbilələrinin hər birindən döyüşə min
nəfər göndərin».
5 Beləliklə, İsrailin tayfalarından,
hər qəbilədən min nəfər olmaqla
döyüşə hazır on iki min nəfər seçildi.
6 Musa hər qəbilədən min nəfəri kahin
Eleazarın oğlu Pinxasla birlikdə döyüşə
göndərdi. Pinxas özü ilə müqəddəs
yerə aid bəzi əşyaları və işarə vermək
üçün kərənayları götürdü. 7 Onlar
Rəbbin Musaya əmr etdiyi kimi
Midyanlılarla döyüşüb bütün kişiləri
qırdılar. 8 Qırılanlar arasında Midyanın
beş padşahı vardı: Evi, Reqem, Sur, Xur

---

[m]**30:2** Qanun. 23:21-23; Mat. 5:33

və Reva. Beor oğlu Bilamı da qılıncla
öldürdülər.
9 Sonra İsraillilər bütün Midyan
qadınları ilə uşaqlarını əsir götürüb
onların bütün naxır və sürülərini, bütün
əşyalarını talan etdilər. 10 Midyanlıların
yaşadıqları bütün şəhərlərə, obalara od
vurdular. 11 İnsanları, heyvanları, bütün
qəniməti, talan mallarını götürdülər.
12 Əsirləri, qəniməti, talan mallarını
İordan çayının şərqində, Yerixonun
qarşısında, Moav düzənliyindəki
düşərgədə olan Musa ilə kahin Eleazarın
və İsrail övladlarının icmasının yanına
gətirdilər.
13 Musa, kahin Eleazar və icma
rəhbərləri onları qarşılamaq üçün
düşərgənin kənarına çıxdılar. 14 Musa
döyüşdən qayıdan sərkərdələrə –
minbaşılara və yüzbaşılara qəzəblənib
15 «Bütün qadınları nə üçün sağ
saxladınız?» dedi. 16 [n]«Bunlar həmin
qadınlardır ki, Bilamın verdiyi
nəsihətə uyub Peor hadisəsində İsrail
övladlarının Rəbdən dönməsinə səbəb
oldular. Ona görə Rəbbin icması
arasında vəba törəndi. 17 İndi bütün
oğlan uşaqlarını və kişi ilə yaxınlıq
etmiş qadınları öldürün. 18 Yalnız kişi
ilə yaxınlıq etməmiş cavan qızları
özünüz üçün sağ saxlayın.
19 Aranızda kimisə öldürən yaxud
meyitə toxunan hər kəs yeddi gün
düşərgənin kənarında qalsın. Üçüncü
və yeddinci gün özünüzü, həm də
əsirlərinizi pak edin. 20 Hər paltarı,
dəridən, keçi tükündən və ağacdan
düzələn nə varsa, hamısını pak edin».
21 Bundan sonra kahin Eleazar
döyüşdən qayıdan əsgərlərə dedi:
«Rəbbin Musaya əmr etdiyi qanunun
qaydası belədir. 22 Qızılı, gümüşü,
tuncu, dəmiri, qalayı, qurğuşunu,
23 oda davamlı hər şeyi alovdan
keçirin ki, pak sayılsın. Lakin paklama
suyu ilə də paklansın. Oda davamsız
şeyləri isə sudan keçirin. 24 Yeddinci
gün geyimlərinizi yuyun, onda pak
olacaqsınız, sonra düşərgəyə girin».

Talan malının bölünməsi

25 Rəbb Musaya dedi: 26 «Sən, kahin
Eleazar və icmanın nəsil başçıları ələ
keçirilən insanları, heyvanları, talan
mallarını sayın. 27 Talan mallarını
döyüşə çıxan igidlərlə icmanın qalan
qismi arasında yarı bölün. 28 Döyüşə
gedən igidlərə düşən insan, mal-qara,
eşşək, qoyun-keçi payından vergi
olaraq beş yüzdə birini Rəbbə ayırın.
29 Bu vergini igidlərə bölünən paydan
götürüb Rəbbə ianə olaraq təqdim
etmək üçün kahin Eleazara verin. 30 O
biri İsrail övladlarına düşən paydan
insan, mal-qara, eşşək, qoyun-keçi
və başqa heyvanlardan əllidə birini
götürüb Rəbbin məskəninə cavabdeh
olan Levililərə verin». 31 Musa ilə kahin
Eleazar Rəbbin Musaya əmr etdiyinə
əməl etdilər.
32 Döyüşə gedən igidlərin götürdüyü
talan malından bu qənimətlər qalmışdı:
675 000 qoyun-keçi, 33 72 000
mal-qara, 34 61 000 eşşək, 35 kişi ilə
yaxınlıq etməmiş 32 000 qız.
36 Bunların yarısı döyüşə gedən
igidlərə pay düşdü: 337 500 qoyun-keçi,
37 bunlardan Rəbbə vergi olaraq
675 qoyun-keçi verildi; 38 36 000
mal-qara, bunlardan 72 mal-qara Rəbbə
vergi olaraq ayrıldı; 39 30 500 eşşək,
bunlardan 61 eşşək Rəbbə vergi olaraq
ayrıldı; 40 16 000 nəfər, bunlardan
32 nəfər Rəbbə vergi olaraq ayrıldı.
41 Musa Rəbbin ona əmr etdiyi kimi
Rəbbə vergi olaraq ayrılanları kahin
Eleazara verdi.

---

[n]**31:16** Say. 25:1-9

42 Musanın döyüşə gedən igidlərdən
ayırdığından İsrail övladlarına düşən
payın yarısı bunlardır: 43 İcmaya düşən
yarı pay 337 500 qoyun-keçi, 44 36
000 mal-qara, 45 30 500 eşşək, 46 16
000 insan. 47 Rəbbin ona əmr etdiyi
kimi Musa İsrail övladlarının payından
hər əlli nəfərdən və heyvandan birini
seçib Rəbbin məskəninə cavabdeh olan
Levililərə verdi.
48 Ordu bölmələrində hökm verən
sərkərdələr – minbaşılar və yüzbaşılar
Musanın yanına gedib dedilər: 49 «Biz
qulların hökm etdiyimiz döyüşçülərin
sayını öyrəndik. Onlardan heç kim
əskik deyildir. 50 Ona görə də hər
birimiz əldə etdiyimiz qızıl əşyaları
– xalxalları, bilərzikləri, üzükləri,
sırğaları, boyunbağıları təqdim olaraq
Rəbbə gətirdik ki, Rəbbin önündə
özümüz üçün kəffarə edək».
51 Musa ilə kahin Eleazar qızılı və
hər cür bəzək əşyalarını onlardan aldı;
52 minbaşılardan və yüzbaşılardan
Rəbbə ianə olaraq gətirdikləri qızıl cəmi
16 750 şekel *ağırlığında idi. 53 Döyüşə
gedən igidlərin hər biri özləri üçün talan
edilmiş maldan götürmüşdü. 54 Musa
ilə kahin Eleazar minbaşılardan və
yüzbaşılardan qızılı alıb İsrail övladları
üçün Rəbbin önündə bir xatirə olaraq
Hüzur çadırına gətirdilər.

Ruvenlilərlə Qadlıların Gileadda məskunlaşması

(Qanun. 3:12-22)

32 Ruvenlilərlə Qadlıların çoxlu
heyvanları var idi. Onlar Yazer
ilə Gilead torpaqlarını görəndə heyvan
otarmaq üçün bu yerlərin münasib
olduğunu başa düşdülər. 2 Qadlılarla
Ruvenlilər gəlib Musaya, kahin Eleazara
və icmanın rəhbərlərinə dedilər:
3 «Atarot, Divon, Yazer, Nimra, Xeşbon,
Elale, Sevam, Nevo və Beon 4 Rəbbin
İsrail icmasına təslim etdiyi bu ölkə
heyvan otarmaq üçün münasib yerdir;
qullarının da heyvanları var». 5 Sonra
əlavə etdilər: «Əgər biz sənin gözündə
lütf tapmışıqsa, qoy bu torpaq mülk
olaraq biz qullarına verilsin. Bizi
İordandan o taya keçirməyin».
6 Musa cavab verdi: «İsrailli
qardaşlarınız döyüşməyə gedərkən siz
buradamı qalmaq niyyətindəsiniz? 7 Nə
üçün çayı keçib Rəbbin onlara verdiyi
torpağa getmək üçün İsrail övladlarını
ruhdan salırsınız? 8 [o]Qadeş-Barneadan o
torpağı gözdən keçirməyə göndərdiyim
atalarınız da belə hərəkət etdilər.
9 Onlar Eşkol vadisinə çatıb torpağı
gördülər, lakin İsrail övladlarını ruhdan
saldılar ki, Rəbbin verdiyi torpağa
girməsinlər. 10 [p]O gün Rəbbin qəzəbi
alovlandı və and içib dedi: 11 “Misirdən
çıxan iyirmi və ondan yuxarı yaşda olan
adamların heç biri İbrahimə, İshaqa və
Yaquba and içib vəd etdiyim torpağı heç
vaxt görməyəcək, çünki onlar Mənim
yolumda sədaqətlə getmədilər. 12 Ancaq
Qenizli Yefunne oğlu Kalev və Nun oğlu
Yeşua bu torpağı görəcək, çünki onlar
yolumda sədaqətlə getdilər”. 13 Rəbbin
qəzəbi İsrailə qarşı alovlandı və Rəbb
gözündə pislik etmiş nəsil ölənə qədər
onları qırx il səhrada gəzdirdi. 14 Budur,
atalarınızın yerinə siz – günahlılar nəsli
qalxaraq Rəbbin qızğın qəzəbini İsrailə
qarşı daha da alovlandırırsınız. 15 Əgər
siz indi Rəbbin ardınca getməkdən
dönsəniz, O bütün bu xalqı yenə də
səhrada atacaq, siz də onların ölümünə
səbəb olacaqsınız».
16 Ruvenlilərlə Qadlılar Musaya
yaxınlaşıb dedilər: «Burada sürülərimiz
üçün ağıllar, övladlarımız üçün şəhərlər

*31:52 *16 750 şekel* – təqribən 190 kq.

[o]32:8 Say. 13:17-33 [p]32:10 Say. 14:26-35

tikəcəyik. 17 Biz isə silahlanıb İsrail
övladlarının qabağında getməyə hazırıq.
Onlar vəd olunmuş torpağa daxil olana
qədər onları tərk etmərik. Uşaqlarımız
isə qoy möhkəmlənmiş şəhərlərdə
qalsınlar ki, bu torpağın sakinlərindən
qorunsunlar. 18 İsrail övladlarından hər
biri öz irsini alana qədər evlərimizə
qayıtmayacağıq. 19 Biz onlarla birlikdə
İordanın o biri tayındakı torpaqdan irs
istəməyəcəyik, çünki bizim payımız
İordanın şərq tərəfinə düşdü».
20 Musa onlara belə cavab verdi:
«Əgər siz belə hərəkət edib silahlanaraq
Rəbbin hüzurunda döyüşə getsəniz
21 və Rəbb düşmənlərini hüzurundan
qovana qədər hamınız Onun hüzurunda
İordanın o biri tayına silahlı olaraq
keçsəniz, 22 bu torpaq Rəbbin
önündə sizə tabe olarsa, onda qayıda
bilərsiniz. Rəbbin və İsrailin qarşısında
borclarınızı yerinə yetirmiş olarsınız.
Onda bu torpaq Rəbbin təsdiqi ilə sizin
mülkünüz olacaq. 23 Lakin əgər belə
etməsəniz, budur, Rəbbə qarşı günah
etmiş olursunuz və bilin ki, günahınıza
görə cəza alacaqsınız. 24 Uşaqlarınız
üçün şəhərlər, sürüləriniz üçün ağıllar
düzəldin. Lakin vədinizi yerinə yetirin».
25 Qadlılarla Ruvenlilər Musaya
dedilər: «Ağamız necə buyurursa, biz
qulların elə də edərik. 26 Arvadlarımız,
uşaqlarımız, qoyun-keçi və mal-qaramız,
burada – Gilead şəhərlərində
qalacaq. 27 Sənin qulların – hamımız
silahlanaraq, ağamız buyurduğu kimi
çayı keçib Rəbbin əmri ilə döyüşə
çıxacağıq».
28 [q]Musa onların haqqında kahin
Eleazara, Nun oğlu Yeşuaya və İsrail
övladlarının qəbilə başçılarına əmr etdi.
29 Musa onlara dedi: «Əgər Qadlılarla
Ruvenlilər silahlanaraq Rəbbin əmri
ilə sizinlə İordan çayının o biri tayına
keçərlərsə, torpaq zəbt olunarsa, onda
Gilead torpağını onlara mülk olaraq
verin. 30 Lakin əgər onlar silahlanıb
sizinlə çayın o biri tayına keçməsələr,
onlar sizin aranızda – Kənan torpağında
miras alacaqlar».
31 Qadlılar və Ruvenlilər belə cavab
verdilər: «Rəbb sənin qullarına necə
deyibsə, biz də elə edərik. 32 Biz Rəbbin
hüzurunda silahlanıb çaydan Kənan
torpağına keçəcəyik, lakin bizim miras
aldığımız torpaq İordanın bu tayında
olsun».
33 Musa Emorlular padşahı Sixonun
ölkəsini, Başan padşahı Oqun ölkəsini
bütün ətraf şəhərləri və torpaqları
ilə birlikdə Ruvenlilərlə Qadlılara
və Menaşşe qəbiləsinin yarısına
verdi. 34 Qadlılar möhkəmlənmiş
şəhərlər olaraq Divonu, Atrotu, Aroeri,
35 Atrot-Şofanı, Yazeri, Yoqbohanı,
36 Bet-Nimranı və Bet-Haranı bərpa
etdilər və sürülər üçün ağıllar
düzəltdilər. 37 Ruvenlilər isə Xeşbonu,
Elaleni, Qiryatayimi, 38 Nevonu,
Baal-Meonu – onların adları sonra
dəyişdirildi – və Sivmanı bərpa etdilər.
Yenidən tikdikləri şəhərlərə başqa
adlar qoydular. 39 Menaşşe oğlu
Makirin övladları Gileada girib oradakı
Emorluları qovdular və oranı ələ
keçirdilər. 40 Musa Gileadı Menaşşe
oğlu Makirin nəslinə verdi. Onlar orada
məskən saldılar. 41 Menaşşe nəslindən
olan Yair gedib Emorluların kəndlərini
alaraq adlarını Xavvot-Yair qoydu.
42 Novah isə gedib Qenatı və ətrafdakı
qəsəbələri aldı. Oranı da öz adı ilə
Novah adlandırdı.

Misirdən Moava qədər köçlər

33 Musa və Harunun başçılığı
ilə ordular halında Misir
torpağından çıxan İsrail övladlarının

---

[q] **32:28** Yeşua 1:12-15

köçləri bunlardır. 2 Musa Rəbbin
əmrinə görə onların köçlərini və
dayanacaqlarını qeyd etdi. Onların
köçləri və qaldıqları yerlər bunlardır:
3 İsrail övladları Pasxa bayramının
səhəri, birinci ayın on beşində
Misirlilərin gözü qarşısında vüqarla
Ramsesdən yola düşdü. 4 O vaxt
Misirlilər Rəbbin qırdığı bütün ilk
oğlanları basdırırdılar. Rəbb onların
allahlarını da Öz hökmünə məruz
qoymuşdu.
5 İsrail övladları Ramsesdən yola çıxıb
Sukkotda düşərgə saldılar.
6 Sukkotu tərk edib səhra kənarındakı
Etamda düşərgə saldılar.
7 Etamı tərk edib Baal-Sefonun
şərqində Pi-Haxirota qayıtdılar və
Miqdol yaxınlığında düşərgə saldılar.
8 Pi-Haxirotu tərk edib dənizin
ortasından keçərək səhraya çıxdılar.
Etam səhrasında üç gün gəzib
dolanandan sonra Marada düşərgə
saldılar.
9 [r]Maranı tərk edib on iki su çeşməsi
və yetmiş xurma ağacı olan Elimə
gedərək orada düşərgə saldılar.
10 Elimi tərk edib Qırmızı dəniz
kənarında düşərgə saldılar.
11 Qırmızı dənizin kənarından ayrılıb
Sin səhrasında düşərgə saldılar.
12 Sin səhrasını tərk edib Dofqada
düşərgə saldılar.
13 Dofqanı tərk edib Aluşda düşərgə
saldılar.
14 Aluşu tərk edib Refidimdə düşərgə
saldılar. Orada xalq üçün içməyə su yox
idi.
15 Refidimi tərk edib Sina səhrasında
düşərgə saldılar.
16 Sina səhrasını tərk edib
Qivrot-Hattaavada düşərgə saldılar.
17 Qivrot-Hattaavanı tərk edib
Xaserotda düşərgə saldılar.
18 Xaserotu tərk edib Ritmada düşərgə
saldılar.
19 Ritmanı tərk edib Rimmon-Peresdə
düşərgə saldılar.
20 Rimmon-Peresi tərk edib Livnada
düşərgə saldılar.
21 Livnanı tərk edib Rissada düşərgə
saldılar.
22 Rissanı tərk edib Qehelatda düşərgə
saldılar.
23 Qehelatı tərk edib Şefer dağında
düşərgə saldılar.
24 Şefer dağını tərk edib Xaradada
düşərgə saldılar.
25 Xaradadan ayrılıb Maqhelotda
düşərgə saldılar.
26 Maqhelotu tərk edib Taxatda
düşərgə saldılar.
27 Taxatdan ayrılıb Terahda düşərgə
saldılar.
28 Terahı tərk edib Mitqada düşərgə
saldılar.
29 Mitqanı tərk edib Xaşmonada
düşərgə saldılar.
30 Xaşmonadan ayrılıb Moserotda
düşərgə saldılar.
31 Moserotu tərk edib Bene-Yaaqanda
düşərgə saldılar.
32 Bene-Yaaqandan ayrılıb
Xor-Haqqidqadda düşərgə saldılar.
33 Xor-Haqqidqadı tərk edib Yotvatada
düşərgə saldılar.
34 Yotvatanı tərk edib Avronada
düşərgə saldılar.
35 Avronanı tərk edib Esyon-Geverdə
düşərgə saldılar.
36 Esyon-Geveri tərk edib Zin
səhrasında, yəni Qadeşdə düşərgə
saldılar.
37 Qadeşdən ayrılıb Edom torpağının
sərhədindəki Hor dağında düşərgə
saldılar. 38 [s]Kahin Harun Rəbbin əmrinə
görə Hor dağına çıxdı. İsraillilərin
Misirdən çıxmasının qırxıncı ilində,

---

[r] **33:9** Çıx. 15:27 [s] **33:38** Say. 20:22-28; Qanun. 10:6

beşinci ayın birinci günündə orada
öldü. 39 Harun Hor dağında öləndə yüz
iyirmi üç yaşında idi.
40 [t]Kənan ölkəsinin Negev bölgəsində
yaşayan Kənanlı Arad padşahı eşitdi ki,
İsrail övladları gəlib.
41 İsrail övladları Hor dağından
ayrılıb Salmonada düşərgə saldılar.
42 Salmonanı tərk edib Punonda
düşərgə saldılar.
43 Punonu tərk edib Ovotda düşərgə
saldılar.
44 Ovotu tərk edib Moav sərhədindəki
İye-Avarimdə düşərgə saldılar.
45 İye-Avarimi tərk edib Divon-Qadda
düşərgə saldılar.
46 Divon-Qaddan ayrılıb
Almon-Divlataymada düşərgə saldılar.
47 Almon-Divlataymanı tərk edib
Nevo yaxınlığında olan Avarim dağlıq
bölgəsində düşərgə saldılar.
48 Avarim dağlıq bölgəsindən
ayrılıb İordan çayı yanında, Yerixo
qarşısında olan Moav düzənliyində
düşərgə saldılar. 49 İordan çayı boyunca
Bet-Yeşimotdan Avel-Şittimə qədər
Moav düzənliyində düşərgə saldılar.
50 Orada, İordan çayı yanında,
Yerixo qarşısındakı Moav düzənliyində
Rəbb Musaya belə dedi: 51 «İsrail
övladlarına de: "İordan çayından Kənan
ölkəsinə keçəndə 52 ölkədə yaşayan
bütün əhalini qovun. Oyma daşlarının,
tökmə bütlərinin hamısını yox edin.
Onların bütün səcdəgah yerlərini
dağıdın. 53 Ölkəni ələ keçirib orada
məskunlaşacaqsınız, çünki mülk almaq
üçün oranı sizə verdim. 54 [u]Püşklə ölkəni
nəsillərinizə arasında bölün. Böyük nəslə
böyük torpaq payı, kiçik nəslə kiçik
torpaq payı verin. Kimin püşkünə nə
çıxsa, qoy ora onun olsun. Paylarınızı
atalarınızın qəbilələrinə görə irs alın.
55 Amma yerli əhalini qovmasanız,
qalanlar böyrünüzü kol kimi dolayıb
tikan kimi gözünüzə girəcək.
Yaşadığınız ölkədə sizə əziyyət
verəcək. 56 Mən də onlara nə etməyi
düşünsəm, onu sizə edəcəyəm"».

Kənan ölkəsinin sərhədləri

34 Rəbb Musaya dedi: 2 «İsrail
övladlarına əmr et və onlara
de: "Kənan ölkəsinə girdiyiniz zaman
irs olaraq sizə düşən torpağın – Kənan
torpağının sərhədləri belə olacaq:
3 [v]Cənub tərəfiniz Zin səhrasından
Edom sərhədi boyunca uzanacaq.
Cənub sərhədiniz şərqdə Duz dənizinin
ucundan başlayacaq. 4 Sərhədiniz
Aqrabbim keçidinin cənubundan
dolaşaraq Zin səhrasına keçəcək və
oradan Qadeş-Barneanın cənubuna
qədər uzanacaq. Oradan Xasar-Addara
uzanıb Asmona keçəcək. 5 Sərhəd
Asmondan Misir vadisinə qədər
dolaşacaq və onun ucu dənizin yanında
olacaq.
6 Qərb sərhədiniz Böyük dənizi və
onun kənarı olacaq, qərb sərhədiniz
belə olacaq.
7 Şimal sərhədiniz bu olacaq:
Böyük dənizdən Hor dağına qədər
nişan qoyacaqsınız. 8 Hor dağından
da Xamat keçidinə qədər nişan
qoyacaqsınız. Sərhədin ucu Sedadda
olacaq. 9 Sərhəd Zifrona uzanacaq və
onun ucu Xasar-Enanda olacaq. Bu,
şimal sərhədiniz olacaq.
10 Şərq sərhədinizə Xasar-Enandan
Şefama qədər nişan qoyacaqsınız.
11 Sərhəd Şefamdan Ayinin şərq
tərəfində olan Rivlaya enəcək və oradan
Kinneret gölünün şərq kənarındakı
yamaclara çatacaq. 12 Sonra sərhəd
İordan çayı boyunca enəcək və onun
ucu Duz dənizinin yanında olacaq.

---

[t]**33:40** Say. 21:1 [u]**33:54** Say. 26:54-56 [v]**34:3** Yeşua 15:2-4

Hər tərəfdən ölkənizin sərhədləri
bunlar olacaq”».
13 [w]Musa İsrail övladlarına əmr edib
dedi: «Bu o torpaqdır ki, siz onu püşk
vasitəsilə bölməlisiniz. Rəbbin əmri
ilə onu doqquz yarım qəbilə arasında
bölməlisiniz. 14 Çünki Ruven qəbiləsinin
nəsilləri, Qad qəbiləsinin nəsilləri və
Menaşşe qəbiləsinin o biri yarısı öz
irsini aldılar. 15 Bu iki yarım qəbilə
Yerixonun qarşısında İordan çayının
şərq tərəfində irsini aldı».
16 Rəbb Musaya dedi: 17 «Torpaqları
sizə irs olaraq böləcək adamların adları
belədir: kahin Eleazar və Nun oğlu
Yeşua. 18 Torpaqları bölmək üçün hər
qəbilədən bir nəfər rəhbər götürün.
19 Bu adamlar bunlardır: Yəhuda
qəbiləsi üçün Yefunne oğlu Kalev;
20 Şimeon qəbiləsi üçün Ammihud oğlu
Şamuel; 21 Binyamin qəbiləsi üçün
Kislon oğlu Elidad; 22 Dan qəbiləsi
üçün rəhbər olan Yoqli oğlu Buqqi;
23 Yusif oğullarından Menaşşe qəbiləsi
üçün rəhbər olan Efod oğlu Xanniel;
24 Efrayim qəbiləsi üçün rəhbər olan
Şiftan oğlu Qemuel; 25 Zevulun qəbiləsi
üçün rəhbər olan Parnak oğlu Elisafan;
26 İssakar qəbiləsi üçün rəhbər olan
Azzan oğlu Paltiel; 27 Aşer qəbiləsi
üçün rəhbər olan Şelomi oğlu Axihud;
28 Naftali qəbiləsi üçün rəhbər olan
Ammihud oğlu Pedahel».
29 Kənan torpağında İsrail övladlarına
irs torpaqları bölmək üçün Rəbbin əmr
etdiyi adamlar bunlardır.

Levililərə ayrılan şəhərlər

35 [x]İordan çayının yanında,
Yerixo qarşısında olan Moav
düzənliyində Rəbb Musaya dedi: 2 «İsrail
övladlarına əmr et ki, mülk etdikləri
torpaqda yaşamaq üçün Levililərə
şəhərlər versinlər. Sən şəhərlərin
ətrafında Levililərə otlaqlar da ver.
3 Beləliklə, Levililərin yaşamaq üçün
şəhərləri və onların mal-qaraları,
sürüləri və digər heyvanları üçün
otlaqları olsun. 4 Levililərə verəcəyiniz
şəhərlərin ətrafındakı otlaqlar şəhər
divarından min qulac uzanacaq. 5 Şəhər
ortada olaraq şəhərin bayırından şərq
tərəfini iki min qulac, cənub tərəfini iki
min qulac, qərb tərəfini iki min qulac
və şimal tərəfini iki min qulac ölçün. Bu
onlar üçün şəhər otlaqları olsun.
6 Levililərə verəcəyiniz şəhərlərdən
altı sığınacaq şəhər olsun ki, kimisə
öldürən oraya qaça bilsin. Bunlardan
başqa qırx iki şəhər də verin. 7 Levililərə
verəcəyiniz şəhərlərin cəmi qırx səkkiz
şəhər olsun. Onları otlaqları ilə birgə
verin. 8 Levililərə verəcəyiniz şəhərlər
hər qəbiləyə düşən payın nisbətində
alınsın, çox şəhəri olan qəbilədən çox
şəhər, az şəhəri olan qəbilədən az şəhər
alın».

Sığınacaq şəhərlər

(Qanun. 19:1-13; Yeşua 20:1-4)

9 Sonra Rəbb Musaya dedi: 10 «İsrail
övladlarına de: “Siz İordan çayını keçib
Kənan torpağına girəndə 11 sığınacaq
şəhərlər olaraq bəzi şəhərlər seçin ki,
bilmədən adam öldürən oraya qaçsın.
12 Qisas alandan sığınacaq şəhərləriniz
bunlar olsun ki, adam öldürən şəxs
icmanın önündə hökm alana qədər
öldürülməsin. 13 Verəcəyiniz bu altı
şəhər sizin üçün sığınacaq şəhərlər
olsun. 14 İordan çayının o biri tayında
üç şəhər və Kənan torpağında üç şəhər
verin. Bunlar sığınacaq şəhərlər olsun.
15 Bu altı şəhər İsrail övladlarına,
aralarında yaşayan yadellilərə və
qəriblərə sığınacaq şəhərləri olacaq.
Belə ki bilmədən birini öldürən hər kəs
oraya qaça bilsin.

---

[w]**34:13** Say. 26:52-56; Yeşua 14:1-5 [x]**35:1** Yeşua 21:1-42

16 Əgər biri dəmir bir alətlə başqa
birini vurub öldürmüşsə, o adam
qatildir. Qatil öldürülməlidir. 17 Əgər
kimsə əlində insanın ölə biləcəyi bir
daşla kimisə vurmuşsa və o adam
ölmüşsə, onda o adam qatildir. Qatil
öldürülməlidir. 18 Yaxud əlində adam
öldürə bilən ağac bir alətlə birini
vurub öldürmüşsə, o adam qatildir.
Qatil öldürülməlidir. 19 Tökülən qanın
qisasını alan özü qatili öldürsün,
onunla rastlaşdığı zaman öldürsün.
20 Əgər onu kinlə itələyib yaxud
pusquda duraraq ona tərəf bir şey atıb
öldürmüşsə 21 ya da ədavətə görə onu
əli ilə vurub öldürmüşsə, vuran mütləq
öldürülməlidir. O qatildir, tökülən
qanın qisasını alan adam qatilə rast
gəldiyi zaman onu öldürsün.
22 Ancaq ədavəti olmayaraq birini
qəflətən itələmişsə yaxud pusquda
durmadan ona bir şey atmışsa 23 və
yaxud da onu görmədən üstünə
adam öldürə bilən bir daş düşürüb
öldürmüşsə, onda ölən şəxsi-qərəzlik
olmadığından və ona ziyan vurmaq
istəmədiyindən 24 adam öldürənlə
tökülən qanın qisasını alan arasında
bu hökmlərə görə icma hökm
çıxaracaq. 25 İcma tökülən qanın
qisasını alanın əlindən adam öldürəni
qurtaracaq, qaçdığı sığınacaq şəhərə
geri göndərəcək və o, müqəddəs yağla
məsh olunmuş baş kahinin ölümünə
qədər orada qalacaq. 26 Əgər adam
öldürən qaçdığı sığınacaq şəhərin
sərhədini keçərsə, 27 tökülən qanın
qisasını alan adam öldürəni sığınacaq
şəhərin sərhəd kənarında taparsa və onu
öldürərsə, o qatil sayılmayacaq. 28 Çünki
adam öldürən baş kahinin ölümünə
qədər sığındığı şəhərdə qalmalı idi.
Ancaq baş kahinin ölümündən sonra öz
mülkü olan torpağına qayıda bilər.
29 Bunlar nəsildən-nəslə bütün
yaşadığınız yerlərdə qanun və hökm
olacaq.
30 [y]Bir adam bir adamı öldürsə,
şahidlərin ifadəsi ilə öldürülsün. Lakin
heç bir qatil tək şahidin ifadəsi ilə
öldürülməsin. 31 Ölüm cəzasına layiq
qatilin canı üçün fidyə almayın, çünki
o öldürülməlidir. 32 Sığınacaq şəhərinə
qaçan üçün fidyə almayın ki, kahinin
ölümündən əvvəl torpağında yaşamağa
qayıtsın. 33 Beləcə olduğunuz ölkəni
murdarlamayın. Çünki qan tökmək
ölkəni murdar edər və ölkədə tökülən
qanın əvəzi ancaq onu tökənin qanı
ilə kəffarə oluna bilər. 34 Yaşadığınız,
Mənim də olduğum ölkəni ləkələməyin.
Çünki İsrail övladları arasında yaşayan
Rəbb Mənəm”».

Selofxadın qızlarının irsi

36 Yusif övladlarının nəsillərindən
Menaşşe oğlu Makir oğlu
Gilead nəslinin ailə başçıları yaxınlaşıb
Musanın önündə və İsrail nəsil başçıları
olan rəhbərlərin önündə belə danışdılar:
2 [z]«Rəbb ölkəni irs olaraq püşk ilə
İsrail övladları arasında bölüşdürməyi
ağamıza əmr etdi. Soydaşımız
Selofxadın irsini onun qızlarına vermək
ağamıza Rəbb tərəfindən əmr olundu.
3 Əgər Selofxadın qızları başqa bir İsrail
qəbiləsinə mənsub kişilərə ərə getsələr,
onların irsi bizim irsimizdən götürülüb
mənsub olacaqları qəbilənin irsinə
qatılar. Beləliklə, püşklə bizə düşən pay
azalar. 4 İsrail övladlarının Azadlıq ili
gələndə qızların irsi ərlərinin mənsub
olduqları qəbilənin irsinə əlavə olunar.
Beləliklə, qızların irsi atalarımızın
qəbiləsinə düşən irsdən alınar».
5 Musa Rəbbin əmrinə görə İsrail
övladlarına əmr edib dedi: «Yusif
nəslinin qəbiləsi doğru söyləyir.

---

[y]**35:30** Qanun. 17:6; 19:15 [z]**36:2** Say. 27:7

6 Selofxadın qızları haqqında Rəbbin
əmr edib dediyi söz budur: onlar öz
istədikləri kişiyə ərə gedə bilər, ancaq
atalarının mənsub olduğu qəbilədən
olan nəsil içində ərə getməlidirlər
ki, 7 İsrail övladlarının irsi qəbilədən
qəbiləyə keçməsin. İsrail övladlarının
hər biri atalarının qəbiləsinin irsinə
bağlı qalsın. 8 İsrail qəbilələrindən hər
hansı birində irsə malik olan hər qız
atasının mənsub olduğu qəbilədən və
nəsildən bir nəfərə ərə getməlidir ki, hər
bir İsrail övladı atalarının irsinə malik
olsun. 9 İrs bir qəbilədən başqa qəbiləyə
keçməsin. Hər bir İsrail qəbiləsi öz
irsinə bağlı qalsın».
10 Rəbbin Musaya əmr etdiyinə əməl
edərək Selofxadın qızları 11 Maxla,
Tirsa, Xoqla, Milka və Noa əmisi
oğlanlarına ərə getdilər. 12 Onlar Yusif
oğlu Menaşşe nəsillərinə mənsub
kişilərə ərə getdilər. Ona görə də irsi
atalarının mənsub olduğu qəbilə və
nəsil içində qaldı.
13 Rəbbin Musa vasitəsilə İordan
çayının yanında Yerixo qarşısındakı
Moav düzənliyində İsrail övladlarına
verdiyi əmr və hökmlər bunlardır.

QANUNUN TƏKRARI

KİTABI

GİRİŞ

«Qanunun Təkrarı» Kitabı Musa peyğəmbər Moav səhrasında olarkən İsrail xalqına söylədiyi nitqdir. Kitabda yazılan mühüm hadisələr bunlardır: Musa ötən qırx il ərzində baş vermiş hadisələri yada salır. O, xalqı Allaha itaətli və sadiq olmağa çağırır, Allahın onları səhradan necə keçirtdiyini yadda saxlasınlar deyə xalqa müraciət edir. Musa Müqəddəs Qanunun əsası olan On Əmri (5:6-21), həmçinin vəd olunmuş torpaqda İsrail xalqının həyatını istiqamətləndirən qanunları nəzərdən keçirir. O, Allahın kim olduğunu dönə-dönə İsrail xalqının yadına salır.

Musa İsrail xalqına Allahın onlarla bağladığı əhdinin mənasını xatırladır və əhdin şərtlərinə əsasən xalqı Allaha həsr olunmağa çağırır. Allah Musadan sonra Yeşuanı İsrail xalqına rəhbər olmağa çağırır. Musa Allahı mədh edən ilahi qoşub oxuyur və İsrail qəbilələrinə xeyir-dua verdikdən sonra Moavda – İordan çayının şərqində vəfat edir.

Kitabın əsas mövzusu budur: Allah seçdiyi xalqı sevdiyinə görə xilas edir və xeyir-dua verir. Buna görə də İsrail xalqı bunu yadda saxlamalı və xeyir-dualı həyat sürmək üçün Allaha itaət etməlidir. İsa Məsihin ən böyük əmr adlandırdığı əmrin sözləri bu kitabdandır:

«Allahın Rəbbi bütün qəlbinlə, bütün varlığınla, bütün gücünlə sev» (6:5).

Kitabın məzmunu:

1:1–4:49 Musanın xalqa nidası
5:1–26:19 Musa qanunu və əmrləri təkrarlayır
27:1–28:68 Bərəkət və lənət
29:1–30:20 Əhdin yeniləşməsi
31:1–33:29 Musanın son sözləri
34:1-12 Musanın ölümü

Qanunun izahı

1 İordan çayının şərq tərəfində səhrada Paranla Tofel, Lavan, Xaserot və Di-Zahav arasında, Sufun qarşısında olan Arava vadisində Musanın bütün İsraillilərə söylədiyi sözlər bunlar idi: 2 Seir dağının yolu ilə getmək üçün Xorevdən Qadeş-Barneaya qədər on bir günlük yol var idi. 3 Misirdən çıxdıqlarının qırxıncı ilində, on birinci ayın birində Musa Rəbbin İsrail övladları üçün ona əmr etdiyi hər şeyi söylədi. 4 [a]Musa Xeşbonda yaşayan Emorluların padşahı Sixonu və Aştarotda, Edreidə yaşayan Başan padşahı Oqu məğlub edəndən sonra bu nitqi söylədi. 5 İordan çayının şərq tərəfində yerləşən Moav torpağında Musa bu Qanunu izah etməyə başladı.

Xorevdən çıxma

6 «Xorevdə olanda Allahımız Rəbb bizə belə dedi: “Bəsdir bu dağda yaşadığınız! 7 Qalxın buradan köçüb Emorluların dağlıq bölgəsinə, Arava vadisində, dağlarda, yamaclı-düzənlikli bölgədə, Negevdə və dəniz kənarında yaşayan bütün qonşu xalqların arasına, böyük Fərat çayına qədər uzanan Kənan torpağına və Livana gedin. 8 Sizin qarşınıza çıxardığım torpaq budur. Rəbbin atalarınıza – İbrahimə, İshaqa, Yaquba özləri üçün və özlərindən sonra gələn övladları üçün vəd etdiyi bu torpağa girərək oranı özünüzə mülk edin”.

---

[a] **1:4** Say. 21:21-35

9 O vaxt mən sizə belə dedim:
“Təkbaşına sizin yükünüzü daşıya
bilmərəm. 10 Allahınız Rəbb sizi
çoxaltdı və budur, bu gün siz göydəki
ulduzlar qədər çoxsunuz. 11 Qoy
atalarınızın Allahı Rəbbin söylədiyi
kimi olsun, sizə xeyir-dua verərək
olduğunuzdan min qat artıq etsin. 12 Axı
mən təkbaşına zəhmətinizə, əziyyətinizə
və münaqişələrinizə necə tab gətirim?
13 Özünüz üçün hər qəbilədən müdrik,
uzaqgörən və təcrübəli adamlar seçin.
Mən onları sizə başçı təyin edəcəyəm”.
14 Siz də “sən deyən yaxşıdır” dediniz.
15 Mən qəbilələrinizin müdrik və
təcrübəli ağsaqqallarından götürüb
sizə minbaşı, yüzbaşı, əllibaşı, onbaşı
və qəbilə məmurları təyin etdim.
16 O vaxt hakimlərinizə belə əmr
etdim: “Aralarında münaqişəsi olan
soydaşlarınızı dinləyin. Münaqişə istər
İsrailli soydaşlarınız arasında, istərsə
bir İsrailli ilə yadelli arasında olsun,
hökm çıxararkən ədalətli olun. 17 Heç
kimə tərəfkeşlik etmədən kiçiyi də
böyük kimi dinləyərək hökm çıxarın.
İnsan şəxsiyyətindən qorxmayın,
hökm Allahındır. Sizin üçün çətin
olan münaqişəli məsələləri isə mənim
yanıma gətirin. Mən onlara qulaq
asaram”. 18 O vaxt edəcəyiniz şeylərin
hamısını sizə əmr etdim.

Vəd edilən torpaqların gözdən keçirilməsi

(Say. 13:1-33)

19 Sonra biz Xorevdən köçdük.
Allahımız Rəbbin bizə əmr etdiyi kimi
gördüyünüz böyük və qorxunc səhranı
keçərək Emorluların dağlıq bölgəsinə
tərəf köçüb Qadeş-Barneaya çatdıq.
20 Mən orada sizə dedim: “Allahınız
Rəbbin bizə verdiyi Emorluların dağlıq
bölgəsinə çatdınız. 21 Budur, Allahınız
Rəbb torpağı sizə verdi. Atalarınızın
Allahı Rəbbin sizə söylədiyi kimi qalxın,
oranı mülk edin. Heç nədən qorxub
çəkinməyin”. 22 O zaman hamınız
yanıma gəlib dediniz: “Adamlar
göndərək, qoy əvvəlcə torpağı onlar
nəzərdən keçirsinlər. Qoy gedəcəyimiz
yol və çatacağımız şəhərlər barədə
bizə məlumat gətirsinlər”. 23 Bu fikir
xoşuma gəldi. Hər qəbilədən bir
nəfər olmaqla aranızdan on iki nəfər
götürdüm. 24 Onlar dağlıq bölgəsinə
qalxdılar. Eşkol vadisinə qədər gəlib
oranı gözdən keçirdilər. 25 Bu torpağın
məhsullarından əllərinə götürüb
yanımıza qayıtdılar və belə məlumat
verdilər: “Allahımız Rəbbin bizə vermək
istədiyi münbit torpaqdır”.

Rəbbə qarşı üsyankarlıq

(Say. 14:1-45)

26 [b]Siz isə Allahımız Rəbbin
əmrinə qarşı çıxaraq oraya qalxmaq
istəmədiniz. 27 Öz çadırlarınızda
deyindiniz: “Rəbb bizə nifrət edir. Bizi
Misir ölkəsindən ona görə çıxartdı ki,
Emorlulara təslim etsin və həlak etsin.
28 Axı biz hara gedirik? Soydaşlarımız
‹o xalq sayca bizdən çox və ucaboydur,
böyük şəhərləri, göyə çatan hasarları
var, Anaqlıları da orada gördük›
deyə-deyə bizdə ürək qoymadılar”.
29 Onda mən sizə dedim: “Onlardan
qorxub çəkinməyin. 30 [c]Allahınız
Rəbb qarşınızca gedir. Sizin üçün
Özü döyüşəcək. Misirdə və səhrada
gözünüz qarşısında sizin üçün etdiyi
hər şeyi yenə də edəcəkdir. 31 İnsan
öz balasını apardığı kimi səhradan bu
yerə çatana qədər Allahınız Rəbbin də
sizi elə apardığını gördünüz”. 32 [d]Buna
baxmayaraq, sizə düşərgə salmağa
yer axtarmaq və gedəcəyiniz yolu
göstərmək üçün gecə alovla, gündüz

---

[b] **1:26** Qanun. 9:23; İbr. 3:16 [c] **1:30** Həv. 13:18 [d] **1:32** İbr. 3:19

buludla 33 qarşınızca yol gedən Rəbbə
etibar etmədiniz.
34 [e]Rəbb bu danışığınızı eşidib
qəzəbləndi və and içərək dedi:
35 “Atalarınıza vermək üçün and
etdiyim bu gözəl torpağı Yefunne
oğlu Kalevdən başqa bu iyrənc nəslin
adamlarından heç biri görməyəcək.
36 Oranı Kalev görəcək. Tamamilə
Rəbbin ardınca getdiyi üçün ayaq
basdığı torpağı ona və övladlarına
verəcəyəm”. 37 Sizin ucbatınızdan Rəbb
mənə də qəzəbləndi və belə dedi: “Sən
də oraya girməyəcəksən. 38 Oraya sənin
köməkçin Nun oğlu Yeşua girəcək. Onu
cəsarətləndir, çünki torpağı İsraillilərə
irs olaraq o böləcək. 39 ‹Əsir olacaqlar›
dediyiniz balalarınız, yaxşını pisdən
hələ ayıra bilməyən uşaqlarınız oraya
girəcəklər. Ölkəni onlara verəcəyəm,
oranı onlar mülk olaraq alacaqlar.
40 Siz isə dönüb Qırmızı dəniz yolundan
səhraya köçün”.
41 Sonra siz mənə belə cavab verdiniz:
“Rəbbə qarşı günah etdik. Allahımız
Rəbbin bizə etdiyi əmrə əsasən
çıxıb döyüşəcəyik”. Hamınız dağlığa
çıxmağın asan olduğunu düşünərək
döyüş silahlarına sarıldınız. 42 [f]Rəbb
mənə dedi: “Onlara de ki, aralarında
Mən yoxam. Döyüşə çıxmasınlar, yoxsa
düşmənlərinə məğlub olarlar”. 43 Siz isə
mənim sözümə qulaq asmadınız. Rəbbin
əmrinə qarşı çıxaraq döyüşə çıxmağa
cürət etdiniz. 44 Bu dağlıq bölgəsində
yaşayan Emorlular müqavimət
göstərərək sizi arı kimi qovdular və sizi
Seirdən Xormaya qədər qırdılar. 45 Belə
olanda qayıdıb Rəbbin hüzurunda
ağladınız, lakin Rəbb səsinizi eşitmədi
və sizə qulaq asmadı. 46 Uzun müddət
yerinizdəcə – Qadeşdə qaldınız.

İsrail xalqının səhrada dolaşdığı illər

2 [g]Rəbbin mənə əmr etdiyi kimi
qayıdıb Qırmızı dəniz yolu ilə
səhraya köç etdik. Xeyli vaxt Seir dağlıq
bölgəsini gəzib dolaşandan sonra 2 Rəbb
mənə belə dedi: 3 “Bu dağlıq bölgəsini
gəzib dolaşmağınız kifayətdir, indi
şimala dönün. 4 [h]Xalqa belə əmr et:
‹Seirdə yaşayan qohumlarınız Esav
övladlarının torpağından keçəcəksiniz.
Onlar sizdən qorxacaqlar, buna görə
çox diqqətli olun. 5 Onlarla münaqişə
yaratmayın, çünki torpaqlarından
bir qarış da sizə verməyəcəyəm. Ona
görə ki Mən mülk olaraq Seir dağlıq
bölgəsini Esav nəslinə vermişəm.
6 Onlardan yeməyi də, suyu da pulla
alın, yeyib-içməyiniz qoy belə olsun›”.
7 Çünki Allahınız Rəbb əlinizdə olan
hər işə xeyir-dua verib. Belə böyük
səhrada gəzib-dolaşdığınız zaman O sizi
qorumuşdu. Bu qırx il ərzində sizinlə
olan Allahınız Rəbbin sayəsində heç
nəyə ehtiyacınız olmayıb.
8 Biz Seir dağında yaşayan
qohumlarımız Esav övladlarının
torpağından, Elat və Esyon-Geverdən
Arava yolundan burularaq Moav səhrası
yolundan keçdik. 9 [i]Rəbb mənə dedi:
“Moavlıları incitmə və onlarla döyüşə
girmə. Mən onların torpağından mülk
olaraq sizə heç nə verməyəcəyəm,
çünki Ar ölkəsini mülk olaraq Lut
övladlarına vermişəm”. 10 Orada əvvəl
Emlilər, Anaqlılar kimi ucaboy, güclü və
çoxsaylı bir xalq yaşayırdı. 11 Onlar da
Anaqlılar kimi Rafalılar sayılırdı, lakin
Moavlılar onları Emlilər adlandırırdılar.
12 Seirdə isə əvvəllər Xorlular yaşayırdı.
Esav övladları onları qovdu, İsraillilərin
Rəbbin mülk olaraq verdiyi torpağın
əhalisinə etdiyi kimi qarşılarına çıxan

---

[e]**1:34** İbr. 3:18 [f]**1:42** Say. 14:42,45 [g]**2:1** Say. 21:4 [h]**2:4** Yar. 36:8
[i]**2:9** Yar. 19:37

Xorluları qırıb torpaqlarında məskən
saldılar.
13 Rəbb sözünə davam etdi: “İndi
qalxıb Zered vadisini keçin”. Biz Zered
vadisini keçdik. 14 [j]Qadeş-Barneadan
köçdüyümüz vaxtdan Zered vadisini
keçənədək otuz səkkiz il oldu. Rəbbin
and içdiyi kimi düşərgədə olan o
dövrdəki nəslin döyüşçülərindən
heç biri sağ qalmamışdı. 15 Onları
ordugahdan yox edib qurtaranadək
Rəbbin əli onlara qarşı oldu.
16 Xalqın bütün döyüş adamları
ölüb-qurtarandan sonra 17 Rəbb
mənə belə dedi: 18 “Siz bu gün Moav
torpağında yerləşən Ardan keçəcəksiniz.
19 [k]Ammon övladlarına yaxınlaşanda
onları incitməyin və münaqişə
yaratmayın, çünki sizə Ammon
övladlarının torpağından mülk olaraq
heç nə verməyəcəyəm, ona görə ki oranı
da Lut övladlarına vermişəm”. 20 Ora
da Rafalıların torpağı sayılırdı, əvvəllər
orada Rafalılar yaşayırdı. Ammonlular
onları Zamzumlular adlandırırdılar.
21 Onlar da Anaqlılar kimi ucaboy, güclü
və çoxsaylı bir xalq idi. Rəbb onları
Ammonluların qarşısından yox etmişdi.
Ammonlular onları qovub yerlərində
məskən salmışdılar. 22 Rəbb Seirdə
yaşayan Esav övladları üçün də həmin
işi görərək Xorluları onların qarşısından
yox etmişdi. Esav övladları Xorluları
qıraraq yerlərində məskən saldılar və
bu günə qədər orada yaşamaqdadırlar.
23 Kaftordan çıxan Kaftorlular isə
Qəzzəyə qədər kəndlərdə yaşayan
Avvalıları qırdılar və onların yerində
məskən saldılar.
24 Rəbb dedi: “Qalxıb köç edin, Arnon
vadisindən keçin. Bax Xeşbon padşahı
Emorlu Sixonu və onun ölkəsini sizə
təslim etdim. Özünüz üçün mülk olaraq
oranı almağa başlayın. Onlarla döyüşə
girin. 25 Bu gündən Mən səma altında
olan bütün xalqları sizə görə qorxu və
vahiməyə salmağa başlayıram. Sizin
sorağınızı eşidənlər qarşınızda titrəyib
büzüşəcəklər”.

İsraillilərin padşah Sixonu məğlub etməsi

(Say. 21:21-30)

26 Qedemot səhrasından Xeşbon
padşahı Sixonun yanına sülh danışığı
üçün qasidlər göndərdim və dedim:
27 “Rica edirik, sənin torpağından
keçmək üçün bizə izin verəsən. Yalnız
yol keçəcəyik, oradan nə sağa, nə də sola
dönəcəyik. 28 Pulla bizə yemək satsanız,
yeyəcəyik, su satsanız, içəcəyik. Bizə
ölkəni piyada keçmək kifayətdir.
29 Seirdə yaşayan Esav övladları və Arda
yaşayan Moavlılar etdiyi kimi sən də
izin ver ki, İordan çayından Allahımız
Rəbbin bizə verdiyi torpağa keçək”.
30 Lakin Xeşbon padşahı Sixon bizi
torpağından keçməyə qoymadı. Çünki
bugünkü kimi Allahınız Rəbb sizə təslim
etmək üçün onu inadkar və daşürəkli
etdi.
31 Rəbb mənə dedi: “Bax Sixonu və
ölkəsini sənə təslim etməyə başlayıram.
Oranı fəth edib irs olaraq almağa başla”.
32 Sixon özü və bütün ordusu döyüşmək
üçün Yahsada bizim qarşımıza çıxdı.
33 Allahımız Rəbb onu bizə təslim etdi.
Biz də Sixonu, övladlarını və bütün
ordusunu qırdıq. 34 O vaxt onun bütün
şəhərlərini aldıq. Hər bir şəhəri kişi,
qadın və uşaqlarla birlikdə tamamilə
məhv etdik: kimsəni sağ qoymadıq.
35 Heyvanlarını götürüb aldığımız
şəhərləri talan etdik. 36 Arnon vadisinin
kənarında Aroerdən və vadidə olan
şəhərdən Gileadadək qarşımıza bizdən
güclü bir şəhər çıxmadı. Allahımız
Rəbb onların hamısını bizə təslim

---

[j] **2:14** Say. 14:28-35 [k] **2:19** Yar. 19:38

etdi. 37 Lakin Ammonluların ölkəsinə,
bütün Yabboq çayı kənarına və dağlıq
bölgəsindəki şəhərlərə – Allahımız
Rəbbin qadağan etdiyi heç yerə
yaxınlaşmadıq.

Başan padşahı Oq üzərində qələbə

(Say. 21:31-35)

3 [l]Sonra istiqaməti dəyişib Başana
yollandıq. Başan padşahı Oq
bütün ordusu ilə bərabər Edreidə
bizimlə döyüşə çıxdı. 2 Rəbb mənə
dedi: "Ondan qorxma, çünki Mən onu,
bütün xalqını və torpağını sənə təslim
edirəm. Xeşbonda yaşayan Emorluların
padşahı Sixonun başına gətirdiyini
onun da başına gətir". 3 Allahımız Rəbb
Başan padşahı Oqu və bütün ordusunu
bizə təslim etdi. Biz də kimsəni sağ
buraxmadan hamısını qırıb 4 bütün
şəhərlərini aldıq, almadığımız bir şəhər
belə, qalmadı. Aldığımız şəhərlərin
sayı altmış idi. Bu yerlər Başanda
Oqun ölkəsi olan bütün Arqov diyarını
təşkil edirdi. 5 Şəhərlərin hamısının
darvazaları cəftəli idi və hündür
divarlarla əhatə olunmuşdu. Bundan
əlavə, çoxlu divarsız kəndlər də var
idi. 6 Xeşbon padşahı Sixonun başına
gətirdiyimiz kimi onları da qırıb kişi,
qadın və uşaqları ilə bərabər şəhərlərin
hamısını tamamilə məhv etdik. 7 Bütün
heyvanları götürüb şəhərləri talan etdik.
8 Beləcə o vaxtlar Arnon vadisindən
Xermon dağına qədər olan İordan
çayının şərqindəki Emorluların
iki padşahının əlindən ölkəni
aldıq. 9 Sidonlular Xermonu Siryon
adlandırırdılar. Emorlular isə oraya
Senir deyirdilər. 10 Yaylada olan bütün
şəhərləri, bütün Gileadı, Oqun Başan
ölkəsindəki şəhərləri olan Selka və
Edreiyə qədər bütün Başan torpağını
aldıq.
11 Rafalılardan ancaq Başan padşahı
Oq sağ qalmışdı. O, dəmir çarpayısında
yatardı. Hələ Ammon övladlarının
Rabba şəhərində olan bu çarpayının adi
ölçüyə görə uzunluğu doqquz, eni isə
dörd qulac idi.

İordan çayının şərq torpaqlarının paylaşdırılması

(Say. 32:1-42)

12 O vaxt irs olaraq bu torpaqları
aldıq: Arnon vadisinin yanında olan
Aroerdən başlanan ölkəni, Gilead
dağlıq bölgəsinin yarısını şəhərləri
ilə bərabər Ruvenlilərə və Qadlılara
verdim. 13 Gileadın qalan hissəsini,
Oqun ölkəsi olan bütün Başanı Menaşşe
qəbiləsinin yarısına verdim. Başanda
olan bütün Arqov diyarına Rafalılar
ölkəsi deyilirdi. 14 Menaşşe oğlu Yair
Geşurlular və Maakatlıların sərhədinə
qədər Arqov diyarını aldı. Oraya –
Başana öz adına uyğun Xavvot-Yair
adını verdi, bu günə qədər də belə
adlanır. 15 Gileadı Makirə verdim.
16 Ruvenlilərlə Qadlılara Gileaddan
Arnon vadisinə qədər uzanan torpaqları
verdim. Vadinin ortası onların sərhədi,
Ammonlularla sərhədləri isə Yabboq
çayı idi. 17 [m]Aravada sərhəd İordan
çayı idi: Kinneretdən Arava dənizinə,
yəni Duz dənizinə, şərq tərəfdəki Pisqa
yamaclarının altına qədər uzanırdı.
18 O vaxtlar sizə əmr edib dedim:
"Bu torpağı mülk olaraq almaq üçün
Allahınız Rəbb sizə verdi. Siz – bütün
cəngavərlər silahlanaraq soydaşlarınız
İsrail övladlarının qarşısında gedin.
19 Hər biriniz sizə verdiyim şəhərlərə
sonralar qayıda bilərsiniz". 20 Amma
Rəbb sizin kimi soydaşlarınıza da
rahatlıq verənə qədər, Rəbbin İordan
çayının şərqində onlara verdiyi torpağı
mülk olaraq alana qədər arvadlarınız,

---

[l]**3:1** Say. 21:33-34 [m]**3:17** Yeşua 1:12-15

uşaqlarınız və heyvanlarınız – bilirəm
ki, çox heyvanlarınız var – sizə verdiyim
şəhərlərdə qalsınlar.
21 O vaxtlar Yeşuaya əmr edib dedim:
“Allahınız Rəbbin bu iki padşahın
başına gətirdiyi hər şeyi gözlərinizlə
gördünüz. Rəbb keçəcəyiniz bütün
ölkələrdə belə edəcək. 22 Onlardan
qorxmayın, çünki Allahınız Rəbb Özü
sizin üçün döyüşəcək!”

Rəbb Musaya İordan çayını keçməyə izin vermir

23 [n]O zaman Rəbbə yalvararaq
dedim: 24 “Ya Xudavənd Rəbb, Sən
Öz böyüklüyünü və qüdrətli əlini bu
quluna göstərməyə başladın. Göydə və
yerdə hansı allah var ki, Sənin etdiyin
böyük işləri görə bilsin, Sənin kimi
hər şeyə qadir olsun! 25 Rica edirəm,
qoy İordan çayını keçib onun qərb
tərəfində olan gözəl torpağı – o gözəl
dağlıq bölgəsini və Livanı görüm”.
26 Lakin sizin ucbatınızdan Rəbb mənə
qəzəblənmişdi, ona görə də məni
eşitmədi və dedi: “Bəsdir, bu barədə
bir daha Mənə müraciət etmə! 27 Pisqa
təpəsinə çıxıb qərbə, şimala, cənuba
və şərqə göz gəzdir. Qoy gözlərin
oraları görsün, çünki sən İordan çayını
keçməyəcəksən. 28 Yeşuaya əmr ver.
Ona cəsarət verərək qüvvətləndir, çünki
bu xalqın önündən keçərək görəcəyin
torpağı irs olaraq onlar üçün Yeşua
böləcək”. 29 Buna görə də Bet-Peor
qarşısında olan dərədə dayandıq.

Rəbbin qanunlarına itaət

4 İndi, ey İsraillilər, sizə öyrədəcəyim
qaydalara və hökmlərə qulaq asın.
Onlara əməl etsəniz, yaşayacaqsınız,
atalarınızın Allahı Rəbbin sizə verəcəyi
torpağa daxil olub oranı irs olaraq
alacaqsınız. 2 [o]Sizə verəcəyim əmrlərə
heç nə artırıb-əskiltməyin. Yalnız
Allahınız Rəbbin əmrlərinə – sizə
verəcəyim əmrlərə riayət edin.
3 [p]Rəbbin Baal-Peorda nələr etdiyini öz
gözünüzlə gördünüz. Allahınız Rəbb
Peordakı Baala səcdə edənlərin hamısını
aranızdan yox etdi. 4 Siz isə Allahınız
Rəbbə sadiq olduğunuz üçün bu gün
sağsınız.
5 Baxın Allahım Rəbbin mənə
əmr etdiyi qayda və hökmləri sizə
öyrətmişəm ki, mülk olaraq almaq üçün
daxil olacağınız torpaqda bunlara əməl
edəsiniz. 6 Onlara diqqətlə riayət edin.
Bu, digər xalqlara nə qədər müdrik və
aqil olduğunuzu göstərər. Onlar bu
qaydaları eşidəndə deyəcəklər ki, bu
böyük millət, həqiqətən, müdrik və aqil
bir xalqdır! 7 Allahımız Rəbb hər dəfə
dua edərkən bizə yaxın olar. Axı hansı
millət belə üstündür ki, Allahı ona bu
cür yaxın olsun? 8 Hansı millət belə
üstündür ki, bu gün qarşınıza gətirdiyim
bu Qanun kimi ədalətli qaydalara və
hökmlərə malik olsun?
9 Ancaq diqqətli olun. Gözünüzlə
gördüklərinizi unutmamaq və ömür
boyu yaddan çıxarmamaq üçün böyük
səy göstərin. Bunları övladlarınıza,
nəvələrinizə öyrədin. 10 Xorevdə
Allahınız Rəbbin önündə dayandığınız
günü xatırlayın. O zaman Rəbb mənə
dedi: “Xalqı Mənim üçün bir yerə topla.
Mən Öz sözlərimi onlara eşitdirəcəyəm.
Belə ki yer üzərində yaşadıqları
müddətdə yalnız Məndən qorxmağı
öyrənsinlər və övladlarına öyrətsinlər”.
11 [q]Siz də yaxınlaşıb dağın ətəyində
dayandınız. Dağ yanır, alovu göyün
dərinliklərinə çatırdı. Hər yan isə qara
bulud və qatı zülmət içində idi. 12 Rəbb
sizinlə bu alovun içərisindən danışdı.

---

[n] **3:23** Say. 27:12-14; Qanun. 32:48-52 [o] **4:2** Vəhy 22:18-19
[p] **4:3** Say. 25:1-9 [q] **4:11** Çıx. 19:16-18; İbr. 12:18-19

Siz Onun danışıq səsini eşitdiniz, lakin
bir surət görmədiniz. Yalnız bir səs
var idi. 13 [r]O sizə əhdini, yəni əməl
etmənizi buyurduğu On Əmri elan etdi.
Bunları iki daş lövhə üzərinə yazdı.
14 [s]Elə o vaxt Rəbb mənə mülk olaraq
almaq üçün gedəcəyiniz torpaqda əməl
edəcəyiniz qayda və hökmləri öyrətmək
tapşırığını verdi.

Bütpərəstlikdən çəkinmə yolları

15 Rəbb Xorevdə alovun içərisindən
sizinlə danışan gün heç bir surət
görmədiniz. Buna görə çox diqqətli olun
ki, 16 [t]yoldan azıb özünüz üçün kişi
və yaxud qadınabənzər, 17 yerdə olan
hər hansı bir heyvanabənzər, göydə
uçan hər hansı bir qanadlı quşabənzər,
18 torpaqda sürünən hər hansı bir
məxluqabənzər, yerin dərinliklərində
yığılan suda yaşayan hər hansı bir
balığabənzər, hər hansı bir cisməbənzər
oyma büt yaratmayasınız. 19 Gözlərinizi
göyə qaldıraraq günəşi, ayı, ulduzları
və bütün səma cisimlərini görəndə
azmayın. Allahınız Rəbbin bütün səma
altındakı xalqlara verdiyi bu şeylərlə
aldanıb onlara səcdə edərək sitayiş
etməyin. 20 [u]Sizə gəldikdə isə, Rəbb sizi
götürüb dəmirəridən soba içindən –
Misirdən çıxarıb ki, bugünkü kimi Ona
məxsus xalq olasınız.
21 [v]Sizin ucbatınızdan Allahınız
Rəbb mənə qəzəbləndi və and etdi
ki, mən İordan çayını keçib irs olaraq
sizə verdiyi o gözəl torpağa daxil
olmayım. 22 İordan çayını keçə bilməyib
bu torpaqda ölməyəm. Siz isə o
gözəl torpağa keçəcək və oranı mülk
olaraq alacaqsınız. 23 Ehtiyatlı olun
ki, Allahınız Rəbbin sizinlə etdiyi
əhdi unutmayasınız. Allahınız Rəbbin
qadağan etdiyi hər hansı bir şeyə
bənzər oyma büt yaratmayın. 24 [w]Çünki
Allahınız Rəbb hər şeyi yandırıb-yaxan
alovdur. O, qısqanc Allahdır.
25 Siz ölkədə yaşayıb övladlarınız,
nəvələriniz doğulandan sonra oyma büt
yaradaraq yoldan azsanız, Allahınız
Rəbbin gözündə pis olanı edib Onu
acıqlandırsanız, 26 sizin qarşınızda bu
gün göyləri və yeri şahid tuturam ki,
mülk olaraq almaq üçün İordan çayını
keçib getdiyiniz torpaq üzərindən
tezliklə yox olacaqsınız. O torpaqda
uzun ömür sürməyəcəksiniz, tamamilə
məhv olacaqsınız. 27 [x]Rəbb sizi xalqlar
arasına səpələyəcək və apardığı
yerdə millətlər arasında sizdən az
miqdarda adam sağ qalacaq. 28 Orada
isə siz insanın əl işi olan – görməyən,
eşitməyən, yeməyən, iy bilməyən
ağacdan və ya daşdan olan allahlara
qulluq edəcəksiniz. 29 [y]Amma o yerdə
Allahınız Rəbbi axtaracaqsınız. Əgər
Onu bütün qəlbinizlə, bütün varlığınızla
axtarsanız, tapacaqsınız. 30 Əzabda
olarkən, bütün bu hadisələr başınıza
gələrkən, nəhayət, Rəbbə dönüb Ona
qulaq asacaqsınız. 31 Axı Allahınız Rəbb
rəhmli Allahdır. O sizi atmaz, məhv
etməz. Atalarınıza andla təsdiq etdiyi
əhdi unutmaz.
32 İndi Allahınızın yer üzərində insan
yaratdığı gündən bəri sizdən əvvəlki
dövrün günləri barədə göylərin bir
başından o biri başına qədər hamıdan
soruşun. Belə böyük hadisə olubmu?
Belə bir şey eşidilibmi? 33 Hansı
bir xalq sizin kimi alov içərisindən

---

[r] **4:13** Çıx. 31:18 [s] **4:14** Çıx. 21:1
[t] **4:16** Çıx. 20:4; Lev. 26:1; Qanun. 5:8; 27:15; Rom. 1:23
[u] **4:20** Çıx. 19:5; Qanun. 7:6; 14:2; 26:18; Titə 2:14; 1Pet. 2:9
[v] **4:21** Say. 20:12 [w] **4:24** Qanun. 9:3; İbr. 12:29
[x] **4:27** Lev. 26:33; Qanun. 28:64 [y] **4:29** Yer. 29:13

danışan Allahın səsini eşitdi və sağ
qaldı? 34 Yaxud hansı allah Allahınız
Rəbb kimi Misirdə gözləriniz önündə
sizin xeyrinizə işləyərək imtahanlarla,
əlamətlərlə, möcüzələrlə, döyüşlərlə,
qüdrətli əli ilə, uzanan qolu ilə, böyük
zəhmi ilə başqa millətin üstünə gedib
onlardan öz millətini aldı? 35 [z]Bütün
bunlar sizə ona görə göstərildi ki, bunu
biləsiniz: yalnız Rəbb Allahdır, başqası
yoxdur. 36 Sizi tərbiyə etmək üçün
göylərdən səsini sizə eşitdirdi. Öz böyük
alovunu yer üzərində sizə göstərdi
və alovun içərisindən Onun sözlərini
eşitdiniz. 37 Atalarınızı sevdiyindən
onlardan sonra övladlarını seçdi. Sizi
böyük qüdrəti ilə Misirdən Şəxsən
Özü çıxartdı ki, 38 sizdən böyük və
qüvvətli millətləri qarşınızdan qovsun
və bugünkü kimi onların torpağını irs
olaraq vermək üçün sizi oraya gətirsin.
39 Bu gündən bilin və yadınızda qalsın
ki, yuxarıda – göydə və aşağıda – yerdə
Rəbb Allahdır. Ondan başqası yoxdur.
40 Bu gün sizə verdiyim Rəbbin qanun
və əmrlərinə riayət edin ki, sizə, sizdən
sonra gələn övladlarınıza xeyir gətirsin,
Allahınız Rəbbin əbədi olaraq verdiyi
bu torpaqda uzun ömür sürəsiniz».

Üç sığınacaq şəhər

41 [a]O zaman Musa İordan çayının şərq
tərəfində üç şəhər seçdi. 42 Bu şəhərləri
qonşusu ilə əvvəlcədən ədavəti olmayan
və bilmədən onu öldürən adamın oraya
qaçması üçün ayırdı. Belə adam bu
şəhərlərdən birinə qaçıb sağ qala bilər.
43 Bunlar Ruven qəbiləsi üçün yaylada
yerləşən səhradakı Beser, Qadlılar üçün
Gileaddakı Ramot, Menaşşe qəbiləsi
üçün isə Başandakı Qolan şəhərləri idi.

Qanuna giriş

44 Musa Qanunu İsrail övladlarının
qarşısına qoydu. 45 Bu, Misirdən
çıxan zaman Musanın İsrail övladlarına
verdiyi göstərişlər, qayda və hökmlərdir.
46 Bunları Musa İordan çayının şərqində
Misirdən çıxan zaman Musa ilə İsrail
övladlarının həlak etdikləri Xeşbonda
yaşayan Emorluların padşahı Sixonun
ölkəsində olan Bet-Peor qarşısındakı
dərədə söylədi. 47 İrs olaraq onun
ölkəsini və Başan padşahı Oqun ölkəsini
– İordan çayının şərq tərəfindən əldə
edilən Emorluların iki padşahının
ölkəsini, 48 Arnon vadisi kənarında
olan Aroerdən Siyon dağına qədər,
yəni Xermona qədər, 49 İordan çayının
şərqində Arava dənizinə qədər olan
Pisqa yamaclarının altındakı bütün
Aravanı aldılar.

5 Musa bütün İsraillilləri çağırıb
dedi: «Dinlə, ey İsrail! Bu gün sənə
deyəcəyim qayda və hökmləri öyrənib
dəqiq əməl et! 2 Xorevdə Allahımız
Rəbb bizimlə əhd kəsdi. 3 Bu əhdi Rəbb
atalarımızla deyil, bu gün məhz burada
bizim sağ qalanlarımızla kəsdi. 4 Rəbb
dağdakı alovun içərisindən sizinlə
üzbəüz danışdı. 5 O zaman Rəbbin
sözünü izah etmək üçün sizinlə Rəbbin
arasında mən dayanmışdım. Alovdan
qorxduğunuza görə dağa çıxmadınız.

On Əmr

(Çıx. 20:1-17)

6 Rəbb belə dedi: “Səni Misir
torpağından, köləlik diyarından çıxaran
Allahın Rəbb Mənəm.
7 Məndən başqa allahların olmasın.
8 [b]Özün üçün heç bir oyma büt, nə
yuxarıda – səmada və ya aşağıda –
yerdə, nə də yerdən aşağıya yığılan
sulardakı şeylərin heç birinin surətini

---

[z] **4:35** Mark 12:32 [a] **4:41** Yeşua 20:8-9 [b] **5:8** Qanun. 4:15-18; 27:15

düzəltmə. 9 [c]Belə şeylərə səcdə qılaraq
ibadət etmə. Çünki Mən sənin Allahın
Rəbb qısqanc Allaham. Mənə nifrət
edən ataların cəzasını üç-dörd nəslə
qədər övladlarına çəkdirərəm. 10 Məni
sevib əmrlərimə əməl edənlərin isə
minlərlə nəslinə məhəbbət göstərərəm.
11 [d]Allahın Rəbbin adını boş yerə
dilinə gətirmə, çünki Rəbb Öz adını boş
yerə dilinə gətirəni cəzasız qoymaz.
12 [e]Allahın Rəbbin sənə etdiyi əmrə
əsasən Şənbə gününü qeyd və təqdis
et. 13 [f]Altı gün çalışıb bütün işlərini
gör. 14 Lakin yeddinci gün Allahın
Rəbbin Şənbə günüdür. Bu gün sən,
oğlun, qızın, qulun, qarabaşın, öküzün,
eşşəyin, heç bir heyvanın, yanında
qalan yadellin də heç bir iş görməsin,
sənin kimi qul-qarabaşın da istirahət
etsin. 15 Misir torpağında sənin kölə
olduğunu və Allahın Rəbbin qüdrətli əli,
uzanan qolu ilə səni oradan çıxardığını
yadda saxla. Məhz buna görə Şənbə
gününü qeyd etməyi Allahın Rəbb sənə
əmr edib.
16 [g]Allahın Rəbbin sənə əmr etdiyi
kimi ata-anana hörmət et ki, ömrün
uzun olsun və Allahın Rəbbin sənə
verəcəyi torpaqda xoş güzəranın olsun.
17 [h]Qətl etmə.
18 [i]Zina etmə.
19 [j]Oğurluq etmə.
20 [k]Heç kimə qarşı yalandan şahidlik
etmə.
21 [l]Heç kimin arvadına tamah salma.
Heç kimin evinə, tarlasına, quluna,
qarabaşına, öküzünə, eşşəyinə – heç bir
şeyinə tamah salma”.
22 [m]Rəbb bu sözləri bütün camaatınıza
dağda alovun, buludun və qatı
qaranlığın içərisindən ucadan söylədi,
başqa bir söz deməmdi. Sonra bunları iki
lövhə üzərinə yazıb mənə verdi.
23 Dağ alovlanıb-yanarkən zülmət
içindən siz Onun səsini eşidəndə bütün
qəbilə başçılarınız və ağsaqqallarınız
mənə yaxınlaşdı. 24 Belə dediniz:
“Budur, Allahımız Rəbb bizə ehtişamını
və əzəmətini göstərdi. Alovun
içərisindən Onun səsini eşitdik. Bu gün
gördük ki, Allah insanla danışanda insan
sağ qalır. 25 Bu gün niyə ölməliyik? Axı
bu böyük alov bizi külə döndərər. Əgər
Allahımız Rəbbin səsini bir də eşitsək,
o zaman öləcəyik. 26 Bütün bəşəriyyət
içərisində bizim kimi alov içərisindən
var olan Allahın səsini eşidib sağ qalan
varmı? 27 Sən Ona yaxınlaş, Allahımız
Rəbbin deyəcəyi hər şeyə qulaq as.
Sonra Allahımız Rəbbin dediyi hər şeyi
bizə söylə! Biz isə buna qulaq asıb əməl
edəcəyik”.
28 Rəbb mənə bunları deyəndə bu
sözləri siz də eşitdiniz. Rəbb mənə dedi:
“Bu xalqın sənə söylədiklərini eşitdim.
Söylədikləri hər şeyi yaxşı dedilər.
29 Kaş ki ürəkləri dönməsin, Məndən
qorxsunlar və bütün əmrlərimə əməl
etsinlər. O zaman həm özlərinin, həm də
övladlarının xoş güzəranı olar. 30 Get,
onlara de ki, çadırlarına qayıtsınlar.
31 Sən isə burada yanımda dayan.

---

[c]**5:9** Çıx. 34:6-7; Say. 14:18; Qanun. 7:9-10 [d]**5:11** Lev. 19:12
[e]**5:12** Çıx. 16:23-30; 31:12-14
[f]**5:13** Çıx. 23:12; 31:15; 34:21; 35:2; Lev. 23:3 [g]**5:16** Qanun. 27:16; Mat. 15:4; 19:19; Mark 7:10; 10:19; Luka 18:20; Ef. 6:2; Ef. 6:3 [h]**5:17** Yar. 9:6; Lev. 24:17; Mat. 5:21; 19:18; Mark 10:19; Luka 18:20; Rom. 13:9; Yaq. 2:11
[i]**5:18** Lev. 20:10; Mat. 19:18; Mark 5:27; Mark 10:19; Luka 18:20; Rom. 13:9; Yaq. 2:11 [j]**5:19** Lev. 19:11; Mat. 19:18; Mark 10:19; Luka 18:20; Rom. 13:9
[k]**5:20** Çıx. 23:1; Mat. 19:18; Mark 10:19; Luka 18:20 [l]**5:21** Rom. 7:7; 13:9
[m]**5:22** İbr. 12:18-19

Bütün əmrləri, qayda və hökmləri sənə
deyəcəyəm. Sən xalqa öyrət ki, mülk
olaraq almaq üçün onlara verəcəyim
torpaqda bunları yerinə yetirsinlər”.
32 Allahınız Rəbbin sizə əmr etdiklərinə
diqqətlə əməl edin, onlardan nə sağa, nə
də sola dönün. 33 Bütünlüklə Allahınız
Rəbbin sizə əmr etdiyi yolda gəzin.
Onda sağ qalarsınız, xoş güzəranınız
olar və mülk olaraq alacağınız torpaqda
uzun ömür sürərsiniz.

Allahınız Rəbb yeganə Rəbdir

6 Allahınız Rəbbin sizə öyrətmək
üçün mənə buyurduğu əmr, qayda
və hökmlər bunlardır. Ona görə də irs
olaraq almaq üçün gedəcəyiniz torpaqda
bunlara əməl edin. 2 Ömrün boyu sən,
oğlun, nəvələrin sənə buyurduğum
Onun bütün qayda və əmrlərinə əməl
etməklə Allahın Rəbdən qorx ki, ömrün
uzun olsun. 3 Dinlə, ey İsrail! Bunlara
diqqətlə əməl et ki, atalarının Allahı
Rəbbin sənə söz verdiyi kimi süd və
bal axan torpaqda xoş güzəran görərək
çoxalıb artasan.
4 [n]Dinlə, ey İsrail! Allahımız Rəbb
yeganə Rəbdir. 5 [o]Allahın Rəbbi bütün
qəlbinlə, bütün varlığınla, bütün
gücünlə sev. 6 [p]Bu gün sənə əmr etdiyim
bu sözlər ürəyində kök salsın. 7 Bunları
övladlarının şüuruna yaxşı-yaxşı yerit.
Evində oturanda, yol gedəndə, yatanda,
duranda bunlar barədə danış. 8 Onları
yazıb qoluna bir nişan kimi, gözlərinin
arasına alın bağı kimi bağla, 9 evlərinin
qapı çərçivələrinə və darvazalarına yaz.
10 [q]Allahın Rəbb səni ata-babaların
İbrahimə, İshaqa, Yaquba etdiyi anda
görə verəcəyi torpağa aparacaq. Orada
inşa etmədiyin böyük və gözəl şəhərlər,
yığmadığın gözəl şeylərlə dolu evlər,
11 zəhmətini çəkmədiyin qazılmış su
quyuları, salmadığın üzümlüklər və
zeytunluqlar var. Yeyib-doyanda isə
diqqətli ol. 12 Səni Misir torpağından
– köləlik diyarından çıxaran Rəbbi
unutma. 13 [r]Allahın Rəbdən qorx və Ona
qulluq et. Andı Onun adı ilə et.
14 Yad allahların – başqa xalqların
allahlarının ardınca getmə ki, 15 Allahın
Rəbbin sənə qarşı qəzəbi alovlanmasın
və səni yer üzündən yox etməsin, çünki
aranızda olan Allahın Rəbb qısqanc bir
Allahdır.
16 [s]Allahınız Rəbbi Massada
sınadığınız kimi sınamayın. 17 Ona görə
də Allahınız Rəbbin sizə buyurduğu
əmrlərə, göstərişlərə və qanunlara
diqqətlə əməl edin. 18 Rəbbin gözündə
doğru və yaxşı olana əməl et ki, xoş
güzəranın olsun, Rəbbin atalarına
vəd etdiyi gözəl torpağı irs olaraq ala
biləsən. 19 Rəbb də söz verdiyi kimi
bütün düşmənlərini qarşından qovacaq.

Rəbbin qanunlarının şərhi

20 Əgər gələcəkdə oğlun sənə
“Allahımız Rəbbin sizə buyurduğu
göstərişlərin, qayda və hökmlərin
mənası nədir?” deyə soruşsa, 21 oğluna
belə de: “Biz Misirdə fironun köləsi idik.
Rəbb oradan bizi qüdrətli əli ilə çıxartdı.
22 Rəbb gözümüzün önündə Misirə,
fironla bütün ailəsinə böyük, dəhşətli
əlamətlər və möcüzələr göstərdi. 23 Bizi
oradan çıxartdı ki, atalarımıza vəd
etdiyi bu torpağa gətirsin və oranı
bizə versin. 24 Allahımız Rəbb bütün
bu qaydalara əməl etməyi və Ondan
qorxmağı bizə ona görə buyurdu ki,
həmişə güzəranımız xoş olsun, bugünkü
kimi bizi sağ saxlasın. 25 Allahımız
Rəbbin hüzurunda bizə buyurduğu

---

[n] **6:4** Mark 12:29 [o] **6:5** Mat. 22:37; Mark 12:30; Luka 10:27
[p] **6:6** Qanun. 11:18-20 [q] **6:10** Yar. 12:7; 26:3; 28:13
[r] **6:13** Mat. 4:10; Luka 4:8 [s] **6:16** Çıx. 17:1-7; Mat. 4:7; Luka 4:12

bütün bu əmrlərə diqqətlə əməl etsək,
bunu bizə salehlik sayacaq”.

Rəbbin Kənanlıları qovmaq barədəki əmri

(Çıx. 34:11-16)

7 [t]Allahınız Rəbb sizi gedəcəyiniz
torpağa aparır. Siz oranı mülk
olaraq alacaqsınız. O sizin önünüzdən
bir çox milləti – Xetliləri, Qirqaşlıları,
Emorluları, Kənanlıları, Perizliləri,
Xivliləri, Yevusluları – sizdən xeyli çox,
xeyli qüvvətli yeddi milləti qovacaq.
2 Allahınız Rəbb onları sizə təslim
edəcək. Siz onları məğlub edərək
tamamilə məhv edin. Onlarla əhd
bağlamayın və rəhm etməyin. 3 Onlarla
qohum olmayın, oğullarına qız verib,
oğullarınıza onlardan qız almayın.
4 Çünki onlar övladlarınızı Mənim
ardımca getməkdən döndərib, başqa
allahlara qulluq etdirəcəklər. Onda
Rəbbin sizə qarşı qəzəbi alovlanacaq və
tezliklə sizi yox edəcək. 5 [u]Onlarla belə
rəftar edin: qurbangahlarını dağıdıb
daş sütunlarını sındırın, ilahə Aşera
bütlərini baltalayıb oyma bütlərini
odda yandırın. 6 [v]Çünki siz Allahınız
Rəbbin müqəddəs xalqısınız. O sizi
yer üzündəki bütün xalqlar içərisindən
Özünə məxsus xalq olaraq seçdi.
7 Rəbbin sizi sevməsi, seçməsi o biri
xalqlardan daha çox olduğunuz üçün
deyil. Həqiqətən, siz onlardan azsınız.
8 Rəbb sizi sevdiyi və atalarınıza verdiyi
vədi yerinə yetirmək istədiyi üçün
qüdrətli əli ilə sizi Misirdən çıxartdı. O
sizi köləlik diyarından, Misir padşahı
firondan satın aldı. 9 [w]Bilin ki, Allahınız
Rəbb əsl Allahdır. O, vəfalı Allahdır.
Əhdinə sadiq qalıb Onu sevənlərin,
əmrlərini yerinə yetirənlərin minlərlə
nəslinə məhəbbətini göstərər. 10 Ona
nifrət edənləri isə qisas alaraq məhv
edəcək. Onlardan qisasını almağa
gecikməyəcək, bunu mütləq edəcək.
11 Ona görə sizə bu gün buyurduğum
əmrləri, qaydaları və hökmləri diqqətlə
yerinə yetirin.
12 [x]Əgər bu əmrlərə qulaq asıb
diqqətlə əməl edəcəksinizsə, Allahınız
Rəbb ata-babalarınıza etdiyi anda sadiq
qalıb məhəbbətini göstərəcək. 13 O sizi
sevəcək, bərəkətli edib çoxaldacaq. Sizə
vermək üçün atalarınıza and etdiyi
torpaqda, bətninizdən doğulanlarınızı,
torpağınızın bəhrəsini, buğdanızı,
təzə şərabınızı, zeytun yağınızı,
mal-qaranızın və qoyun-keçilərinizin
balalarını bərəkətli edəcək. 14 O biri
xalqlardan daha çox siz xeyir-dua
alacaqsınız. Heç bir kişi və qadınınız
sonsuz, heç bir heyvanınız qısır
olmayacaq. 15 Rəbb üzərinizdən bütün
xəstəlikləri götürəcək. Sizi Misirdə
gördüyünüz dəhşətli xəstəliklərin heç
birinə məruz qoymayacaq. Bu bəlalara
sizə nifrət edənləri düçar edəcək.
16 Allahınız Rəbbin sizə təslim edəcəyi
bütün xalqların axırına çıxacaqsınız.
Onlara rəhm etməyin, allahlarına sitayiş
etməyin. Əgər belə etsəniz, bu sizə tələ
olar.
17 Bəlkə düşünürsünüz ki, bu millətlər
bizdən güclüdür, onları necə qova
bilərik? 18 Onlardan qorxmayın.
Allahınız Rəbbin firona və bütün
Misirlilərə nə etdiyini xatırlayın.
19 Gözünüzlə gördüyünüz böyük
sınaqları, sizi Misirdən çıxaran
zaman Allahınız Rəbbin göstərdiyi
əlamətləri, möcüzələri, qüdrətli əlini,
uzanan qolunu xatırlayın. Hazırda
qorxduğunuz xalqların hamısını

---

[t] **7:1** Həv. 13:19-20 [u] **7:5** Qanun. 12:3
[v] **7:6** Çıx. 19:5; Qanun. 4:20; 14:2; 26:18; Titə 2:14; 1Pet. 2:9
[w] **7:9** Çıx. 20:5-6; 34:6-7; Say. 14:18; Qanun. 5:9-10 [x] **7:12** Qanun. 11:13-17

Allahınız Rəbb bu hala salacaq. [20] Yerdə
qalıb sizdən gizlənənlərin üzərinə də
Allahınız Rəbb eşşəkarısı göndərib
hamısını yox edəcək. [21] Onlardan
heç qorxmayın, çünki aranızda olan
Allahınız Rəbb böyük və zəhmli
Allahdır. [22] Allahınız Rəbb yavaş-yavaş
o millətləri qarşınızdan qovacaq. Onları
tezliklə məhv edə bilməyəcəksiniz,
yoxsa çöl heyvanları üstünüzə daraşar.
[23] Allahınız Rəbb onları sizə təslim
edəcək və vahiməyə salaraq, nəhayət,
yox edəcək. [24] Onların padşahlarını
da sizə təslim edəcək. Siz də onların
adlarını səma altından siləcəksiniz.
Siz onları qırarkən kimsə qarşınızı ala
bilməyəcək. [25] Onların allah saydıqları
oyma bütlərə od vurub yandırın.
Onlara çəkilmiş qızıl-gümüşə gözünüz
düşməsin. Özünüz üçün onlardan
götürməyin, yoxsa tələyə düşərsiniz,
çünki onlar Allahınız Rəbbin gözündə
iyrəncdir. [26] Belə iyrənc şeyləri evinizə
gətirməyin, yoxsa siz də onlar kimi
məhv olarsınız. Onlara tamamilə ikrah
və nifrət etməlisiniz, çünki belə təsvirlər
məhv olunmağa həsr olunub.

Rəbbi unutmayın

8 Bu gün sizə buyurduğum bütün
əmrləri yerinə yetirməyə çalışın.
Onda yaşayıb çoxalar və Rəbbin
atalarınıza vəd etdiyi torpağa daxil olub
irs olaraq oranı alarsınız. [2] Allahınız
Rəbbin sizi qırx il səhrada gəzdirdiyi
uzun səyahəti yada salın. Bunu
ona görə etdi ki, təkəbbürünüzü
qırsın və sizi sınaqdan keçirərək
ürəyinizdəkini öyrənsin; görsün ki, siz
Onun əmrlərinə əməl edəcəksiniz ya
yox. [3] [y]Təkəbbürünüzü qırmaq üçün
sizi ac qoydu, sonra isə nə sizin, nə
də atalarınızın gördüyü manna ilə sizi
qidalandırdı. Bununla öyrətdi ki, insan
yalnız çörəklə deyil, Rəbbin ağzından
çıxan hər kəlmə ilə yaşayar. [4] Bu qırx
il ərzində paltarınız yırtılıb dağılmadı,
ayaqlarınız şişmədi. [5] Bunu ürəkdən
dərk edin ki, insan öz övladına necə
tərbiyə verirsə, Allahınız Rəbb də sizə
elə tərbiyə verir. [6] Allahınız Rəbbin
əmrlərinə riayət edib Onun yolları
ilə gedin və Ondan qorxun. [7] Çünki
Allahınız Rəbb sizi gözəl torpağa – çay
və gölləri olan, dərə və təpələrində
bulaqlar çağlayan yerlərə aparır. [8] O
torpaq buğda, arpa, üzüm, əncir,
nar, yağlı zeytun və bal yetirir. [9] Ora
elə bir torpaqdır ki, orada qıtlıqla
çörək yeməyəcək və heç nəyə möhtac
olmayacaqsınız; daşlarından dəmir,
dağlarından isə mis çıxara biləcəksiniz.
[10] Yeyib-doyanda sizə verdiyi gözəl
torpağa görə Allahınız Rəbbə həmd
edəcəksiniz.

Təkəbbürdən çəkinin

[11] [z]Ehtiyatlı olun ki, Allahınız Rəbbi
unutmayasınız. Bu gün sizə buyurduğum
Rəbbin əmr, hökm və qaydalarına riayət
edin. [12] Yeyib doyanda, gözəl evlər
tikib içərisində oturanda, [13] naxırınız,
sürünüz çoxalanda, qızıl-gümüşünüz
və hər şeyiniz artanda [14] ürəyiniz
qürurla dolmasın. Diqqət edin ki, sizi
Misir torpağından – köləlik diyarından
çıxaran Allahınız Rəbbi unutmayasınız.
[15] Rəbb sizi o böyük və qorxunc səhrada,
zəhərli ilan və əqrəblərlə dolu olan
o susuz şoran torpaqlarda gəzdirdi,
sizə sərt qayalardan su çıxartdı. [16] Sizi
atalarınıza məlum olmayan manna
ilə qidalandırdı. Xoş güzəranınız
olsun deyə təkəbbürünüzü qıraraq sizi
sınaqdan keçirdi. [17] Ürəyinizdə "biz öz
qabiliyyətimizlə və biləyimizin gücü
ilə bu sərvəti qazandıq" deməyəsiniz.
[18] Unutmayın ki, bu sərvəti qazanmaq

---

[y] **8:3** Mat. 4:4; Luka 4:4 [z] **8:11** Huşə 13:5-6

qabiliyyətini sizə verən Allahınız
Rəbdir. O bunu edir ki, bugünkü kimi
atalarınıza vəd verərək sizinlə kəsdiyi
əhdi yerinə yetirsin.
19 Əgər Allahınız Rəbbi unudub başqa
allahların ardınca getsəniz, onlara
sitayiş edərək səcdə etsəniz, bu gün
sizin qarşınızda şəhadət edirəm ki,
mütləq məhv olacaqsınız! 20 Allahınız
Rəbbin sözünə qulaq asmasanız, Rəbb
sizin qarşınızdan millətləri yox etdiyi
kimi sizi də yox edəcək.

İtaətsiz xalq

9 Ey İsraillilər, qulaq asın! Bu gün
sizdən daha böyük, daha qüdrətli
millətlərin torpaqlarını irs olaraq
almaq üçün İordan çayını keçmək
ərəfəsindəsiniz. Onların şəhərləri
böyük, hasarları göylərə çatır. 2 Bu
güclü, ucaboy xalq Anaqlılardır.
Onları tanıyırsınız və barələrində belə
eşitmisiniz: "Anaqlıların qarşısında
kim dayana bilər?" 3 [a]Bu gün də bilin
ki, sizin önünüzdə gedən Allahınız
Rəbb hər şeyi yandırıb-yaxan alovdur.
Rəbb onları qıracaq, qarşınızda boyun
əydirəcək və sizə söylədiyi kimi onları
qovub tezliklə yox edəcəksiniz.
4 Allahınız Rəbb onları önünüzdən
kənara atanda ürəyinizdə deməyin
ki, bu torpağı almaq üçün Rəbb bizi
buraya salehliyimizə görə gətirdi. Belə
ki Rəbb bu millətləri pis əməllərinə
görə önünüzdən qovur. 5 Torpaqlarına
girib irs olaraq oranı almağınız sizin
salehliyinizə və ürəyinizin düzlüyünə
görə deyil. Ancaq Allahınız Rəbb bu
millətləri pis əməllərinə görə sizin
qarşınızdan qovacaq ki, ata-babalarınız
İbrahimə, İshaqa, Yaquba verdiyi vədi
yerinə yetirsin.
6 Bilin ki, Allahınız Rəbb salehliyinizə
görə bu gözəl torpağı mülk olaraq almaq
üçün sizə vermir, çünki siz dikbaş bir
xalqsınız. 7 Bunu yada salın və Allahınız
Rəbbi səhrada necə qəzəbləndirdiyinizi
unutmayın. Misir torpağından çıxdığınız
gündən bu yerə gələnədək Rəbbə qarşı
nə qədər itaətsizlik etdiniz. 8 Rəbbi
Xorevdə qəzəbləndirdiniz. Rəbb sizi
məhv edəcək qədər hiddətləndi. 9 [b]Mən
Rəbbin sizinlə etdiyi əhdin lövhələri
olan daş lövhələri götürmək üçün
dağa çıxanda orada qırx gün-qırx gecə
qaldım: nə çörək yedim, nə də su içdim.
10 Rəbb Allah mənə Öz barmağı ilə
yazdığı iki daş lövhə verdi. Yığıldığınız
gün dağda Rəbbin sizə alovun içindən
bildirdiyi bütün əmrlər onların üzərində
yazılmışdı. 11 Rəbb iki daş lövhəni –
əhd lövhələrini qırx gün-qırx gecənin
sonunda mənə verdi.
12 Sonra Rəbb dedi: "Tez ol, dağdan
en, çünki Misirdən çıxardığın xalq
əxlaqsızlıq edir. Onlar buyurduğum
yoldan yaman tez azdılar. Özlərinə
tökmə büt yaradıblar". 13 Rəbb mənə
bunu da söylədi: "Görürəm ki, bu xalq
dikbaş xalqdır. 14 Qoy onları yox edim.
Adlarını səma altından silim. Səndən isə
onlardan daha güclü, daha böyük millət
törədim".
15 Mən dönərək dağdan aşağı endim.
Dağ alovlanıb yanırdı. Əhdin yazıldığı
iki lövhə əlimdə idi. 16 Gördüm ki,
Allahınız Rəbbə qarşı günah edirsiniz.
Özünüz üçün danayabənzər bir tökmə
büt düzəltmisiniz və Rəbbin sizə
buyurduğu yoldan yaman tez azmısınız.
17 Buna görə də əlimdə tutduğum iki
lövhəni atdım və gözünüz önündə onları
parça-parça etdim. 18 Yenə Rəbbin
hüzurunda heç nə yeyib-içmədən qırx
gün-qırx gecə yerə sərilib qaldım,
çünki günah etmişdiniz və Rəbbin
gözündə pis sayılan işlər görərək
Onu qəzəbləndirmişdiniz. 19 [c]Rəbbin

---

[a] **9:3** Qanun. 4:24; İbr. 12:29 [b] **9:9** Çıx. 24:18 [c] **9:19** İbr. 12:21

qızğın qəzəbi qarşısında qorxdum.
Qəzəbi o qədər alovlanmışdı ki, O
sizi yox etmək istəyirdi. Amma Rəbb
yenə də yalvarışımı eşitdi. 20 Rəbb
Haruna da hiddətlənmişdi. Onu da yox
etmək istəyirdi. O an Harun üçün də
yalvardım. 21 [d]Etdiyiniz günah əşyasını
– o danayabənzər tökmə bütü götürüb
oda atdım və sındırdım, əzib toza
döndərdim. Sonra tozu dağdan axan
selə tökdüm.
22 [e]Siz Taverada, Massada,
Qivrot-Hattaavada da Rəbbi
qəzəbləndirdiniz. 23 [f]Rəbb sizi
Qadeş-Barneadan yola salarkən belə
buyurmuşdu: "Gedin, sizə verəcəyim
torpağı özünüz üçün irs olaraq alın".
Siz isə Allahınız Rəbbin əmrinə qarşı
çıxdınız, Rəbbə güvənmədiniz, sözünə
qulaq asmadınız. 24 Sizi tanıyan gündən
bu vaxta qədər dayanmadan Rəbbə
qarşı üsyankar oldunuz.
25 Rəbb sizi yox edəcəyini söylədiyi
üçün qırx gün-qırx gecə Onun
hüzurunda yerə döşənib qaldım.
26 Rəbbə yalvarıb dedim: "Ya Xudavənd
Rəbb, Misirdən böyük qüvvətinlə,
qüdrətli əlinlə çıxararaq qurtardığın
xalqını, Öz irsini yox etmə. 27 Qulların
İbrahimi, İshaqı, Yaqubu yada sal.
Bu xalqın dikbaşlığına, pisliyinə,
günahına nəzər salma. 28 Yoxsa bizi
çıxartdığın ölkənin xalqı deyəcək ki,
Rəbb onları vəd etdiyi torpağa apara
bilmədi və bu xalqa nifrət etdiyi üçün
onları səhrada məhv etmək məqsədi
ilə Misirdən çıxartdı. 29 Halbuki onlar
Sənin xalqın, Sənin irsindir. Sən onları
böyük qüdrətinlə, uzanan qolunla
oradan çıxartmısan".

Musanın yenidən əmr alması

(Çıx. 34:1-10)

10 O vaxt Rəbb mənə dedi:
"Əvvəlki kimi özün üçün iki
daş lövhə yon və dağa – yanıma çıx.
Ağacdan bir sandıq da düzəlt. 2 Qırdığın
əvvəlki lövhələrdə yazılan sözləri yeni
lövhələrin üstündə yazacağam. Onları
sandığa qoy". 3 Əbrişim ağacından
bir sandıq düzəldib əvvəlki kimi iki
daş lövhəni yondum. Sonra bu iki daş
lövhəni əlimə götürüb dağa çıxdım.
4 Rəbb yığıldığınız gün dağda alovun
içindən Özünün sizə bildirdiyi On Əmri
bu lövhələr üzərinə yenə də əvvəlki
kimi yazdı və mənə verdi. 5 Mən dönüb
dağdan enərək Rəbbin mənə əmr etdiyi
kimi bu lövhələri düzəltdiyim sandığa
qoydum və həmin lövhələr orada qaldı.
6 [g]İsrail övladları Yaaqan övladlarına
məxsus quyular olan yerdən Moseraya
köçdülər. Harun orada ölüb dəfn
olundu. Onun yerinə oğlu Eleazar
kahin oldu. 7 Oradan Qudqodaya və
Qudqodadan da axar sular diyarı olan
Yotvataya köçdülər. 8 [h]O zaman Rəbb
Levi qəbiləsini ayırdı ki, Rəbbin Əhd
sandığını daşısınlar, Rəbbə xidmət
edərək, Onun adı ilə xeyir-dua verərək
hüzurunda dayansınlar. Onlar bu
günədək eyni işi görürlər. 9 [i]Elə buna
görə də Levililərə İsrailli soydaşları ilə
birlikdə pay və irsi torpaq düşmədi.
Allahınız Rəbbin onlara söz verdiyi kimi
onların irsi Rəbb Özüdür.
10 [j]Əvvəlki kimi yenə də qırx gün-qırx
gecə dağda qalmışdım. Rəbb bu dəfə də
məni dinlədi və ona görə sizi qırmaq
istəmədi. 11 Rəbb mənə dedi: "Qalx
köçən xalqın qarşısında get ki, atalarına

---

[d]**9:21** Çıx. 32:20 [e]**9:22** Say. 11:3; Say. 17:7; Say. 11:34
[f]**9:23** Say. 13:25–14:38; Qanun. 1:21; Say. 13:31; Qanun. 1:26; İbr. 3:16 [g]**10:6** Say. 20:28; 33:38 [h]**10:8** Say. 3:5-8 [i]**10:9** Qanun. 18:2 [j]**10:10** Çıx. 34:28

vəd edib söz verdiyim torpağa daxil
olub oranı irs olaraq alsınlar”.
12 İndi, ey İsrail, axı Allahın Rəbb
səndən nə istəyir? Yalnız bunu istəyir:
Ondan qorx, tamamilə Onun yolunu
tut, Onu sev, bütün qəlbinlə və bütün
varlığınla Allahın Rəbbə sitayiş et.
13 Bu gün xoş güzəranın üçün sənə
buyurduğum Rəbbin əmr və qaydalarına
riayət et.
14 Bax göylər, göylərin ən uca qatları
belə, yer üzü və yer üzərində olan hər
şey Allahın Rəbbindir. 15 Lakin Rəbb
atalarınıza şəfqətli olmuşdur. Onları
sevib sonrakı nəsil olan sizi bugünkü
kimi bütün xalqlar arasından seçdi.
16 Elə buna görə ürəklərinizi sünnət
edin* ki, bir daha dikbaş olmayasınız.
17 [k]Çünki Allahınız Rəbb allahların
Allahı, hökmranların Hökmranıdır. O
tərəfkeşlik etməyən, rüşvət almayan,
böyük, qüdrətli, zəhmli Allahdır. 18 O,
yetimin və dul qadının haqqını qoruyur.
Qəribi sevir, ona çörək və paltar verir.
19 Siz də qəribi sevin, çünki özünüz də
Misir ölkəsində qərib idiniz. 20 Allahınız
Rəbdən qorxun, Ona sitayiş edərək
sadiq qalın və yalnız Onun adı ilə
and için. 21 Ona həmişə həmd edin.
Gözünüzlə gördüyünüz əzəmətli və
zəhmli əlamətləri edən Allahınızdır.
22 [l]Atalarınız yetmiş nəfər olaraq Misirə
getmişdi. İndi isə Allahınız Rəbb sizi
çoxaldaraq göydəki ulduzlar qədər edib.

Vəd olunan torpağa Rəbbin verəcəyi bərəkət

11 Allahınız Rəbbi sevin. Həmişə
Onun buyruq, qayda, hökm və
əmrlərinə əməl edin. 2 Bu gün yadda
saxlayın ki, Allahınız Rəbbin təlimini
öyrənib sınaqdan keçirən övladlarınız
deyil, sizsiniz. Onun əzəmətini, qüdrətli
əlini, uzanan qolunu, 3 [m]Misirdə firona
və bütün torpağına etdiyi əlamətləri,
gördüyü işləri, 4 [n]Misir ordusuna,
onların atlarına, döyüş arabalarına
nə etdiyini, ardınızca düşərkən onları
Qırmızı dənizin sularında necə qərq
etdiyini, Rəbbin onları bu günədək
davam edən bir qırğına necə düçar
etdiyini 5 və səhrada, bu yerə çatanadək
sizin üçün nə etdiyini, 6 [o]Ruvenli
Eliavın oğullarına – Datana və
Avirama nə etdiyini gördünüz: bütün
İsraillilərin arasında yeri yardı, onları və
evindəkiləri çadırları ilə bərabər onlara
məxsus olan bütün canlıları uddu.
7 Siz Rəbbin etdiyi bu əzəmətli işlərin
hamısını öz gözlərinizlə görürsünüz.
8 Bu gün sizə buyurduğum əmrlərin
hamısına əməl edin ki, qüvvətli
olasınız və mülk olaraq almaq üçün
İordan çayını keçəcəyiniz torpağa
girib oranı zəbt edəsiniz. 9 Rəbbin
atalarınıza və onların övladlarına vəd
etdiyi südlə bal axan torpaqda uzun
ömür sürəsiniz. 10 Çünki mülk olaraq
almaq üçün girəcəyiniz torpaq çıxmış
olduğunuz Misir ölkəsinə bənzəmir.
Orada toxumunuzu əkirdiniz, bostan
kimi ayağınızla sulayırdınız. 11 Amma
mülk olaraq almağa gedəcəyiniz torpaq
dağlı-dərəli bir diyardır. Bu torpaq
göydən yağış suyu içər. 12 Ora Allahınız
Rəbbin lütf göstərdiyi elə bir torpaqdır
ki, ilin əvvəlindən sonuna qədər
Allahınız Rəbbin nəzəri altındadır.
13 [p]Rəbb deyir: “Əgər bu gün sizə
buyurduğum əmrlərə yaxşı qulaq

*10:16 *Ürəklərinizi sünnət edin* – yəni *ürəklərinizi həsr edin.*

[k]**10:17** 1Tim. 6:15; Vəhy 17:14; 19:16; Həv. 10:34-35; Rom. 2:11; Qal. 2:6; Ef. 6:9
[l]**10:22** Yar. 46:27; Yar. 15:5; 22:17
[m]**11:3** Çıx. 7:8–12:13
[n]**11:4** Çıx. 14:28
[o]**11:6** Say. 16:31-32
[p]**11:13** Lev. 26:3-5; Qanun. 7:12-16; 28:1-14

assanız, Allahınız Rəbbi sevib bütün
qəlbinizlə, bütün varlığınızla ona
sitayiş etsəniz, 14 o zaman Mən
torpağınıza yağışı – ilk yağışla son
yağışı vaxtlı-vaxtında verəcəyəm.
Onda taxılınızı, təzə şərabınızı və
zeytun yağınızı yığacaqsınız. 15 Çöldə
heyvanlarınıza ot verəcəyəm. Siz
doyunca yeyəcəksiniz". 16 Onda məbada
ürəyiniz aldansın, azmayın, başqa
allahlara səcdə və sitayiş etməyin.
17 Belə etsəniz, Rəbbin sizə qarşı qəzəbi
alovlanacaq. O, göyləri bağlayıb yağış
yağdırmayacaq, torpağınızı məhsulsuz
qoyacaq və tezliklə Rəbbin sizə verdiyi
o gözəl torpaqdan yox olacaqsınız.
18 [q]Buna görə də mənim bu sözlərimi
ürəyinizdə və ağlınızda saxlayın,
qolunuza bir nişan kimi, gözlərinizin
arasına alın bağı kimi bağlayın,
19 övladlarınıza öyrədin. Evinizdə
oturanda, yol gedəndə, yatanda,
duranda bunlar barədə danışın.
20 Onları evlərinizin qapı çərçivələrinə
və darvazalarına yazın. 21 Belə
etsəniz, Rəbbin atalarınıza vəd etdiyi
torpaqlarda sizin də, övladlarınızın da
ömrü uzun olar və göy yer üzərində
durduqca orada yaşayarsınız.
22 Əməl etməniz üçün sizə
buyurduğum bütün bu əmrləri
diqqətlə yerinə yetirsəniz, Allahınız
Rəbbi sevib Onun yolları ilə getsəniz və
yalnız Ona bağlı qalsanız, 23 onda Rəbb
qarşınızdan bütün millətləri qovacaq
və sizdən daha böyük, daha güclü
millətlərin torpaqlarını mülk olaraq
alacaqsınız. 24 [r]Ayaq basdığınız hər
yer sizin olacaq. Sərhədiniz səhradan
Livana, Fərat çayından Qərb dənizinə*
qədər uzanacaq. 25 Sizin qarşınızda heç
kim dayana bilməyəcək. Allahınız Rəbb
sizə vəd etdiyi kimi ayaq basacağınız
hər yerə vahimə və qorxunuzu yayacaq.
26 Budur, bu gün qarşınıza xeyir-dua
və lənəti qoyuram. 27 Allahınız Rəbbin
əmrlərinə, bu gün sizə buyurduğum
əmrlərə qulaq assanız, xeyir-dua
alacaqsınız. 28 Əgər Allahınız Rəbbin
əmrlərini dinləməsəniz, tanımadığınız
başqa allahların ardınca gedərək bu gün
sizə buyurduğum yoldan azsanız, lənətə
düçar olacaqsınız. 29 [s]Allahınız Rəbb
mülk olaraq almaq üçün girəcəyiniz
torpağa sizi aparanda Gerizim dağında
xeyir-dua, Eval dağında isə lənət
oxuyacaqsınız. 30 Bu iki dağ İordan
çayının qarşı tayında, yolun şərqində –
Aravada yaşayan Kənanlılar ölkəsində,
Qilqal qarşısında, More palıdlarının
yanındadır. 31 Allahınız Rəbbin sizə
verəcəyi torpağı irs olaraq almaq üçün
İordan çayını keçmək ərəfəsindəsiniz.
Oranı ələ keçirib yerləşəndə 32 bu gün
önünüzə qoyacağım bütün qayda və
hökmləri yerinə yetirmək üçün diqqətli
olun.

Tək ibadət yeri

12 Atalarınızın Allahı Rəbbin mülk
olaraq almaq üçün sizə verəcəyi
torpaqda ömür boyu bu qaydalara
və hökmlərə riayət edin. 2 Hansı
millətlərin torpaqlarını alacaqsınızsa,
allahlarına səcdə etdikləri uca dağlarda,
təpələrdə, kölgəli hər ağacın altında
olan bütün yerləri mütləq viran qoyun.
3 [t]Qurbangahlarını dağıdıb daş sütunları
sındırın, ilahə Aşera bütlərini odda
yandırıb allah saydıqları oyma bütləri
baltalayın və adlarını o yerlərdən silin.
4 Allahınız Rəbbə bu cür pərəstiş
etməyin. 5 Allahınız Rəbbin adını
qoymaq üçün bütün qəbilələriniz

*11:24 *Qərb dənizi* – Aralıq dənizi.

[q]**11:18** Qanun. 6:6-9 [r]**11:24** Yeşua 1:3-5
[s]**11:29** Qanun. 27:11-14; Yeşua 8:33-35 [t]**12:3** Qanun. 7:5

arasından seçəcəyi yeri, Onun
məskənini axtarın və oraya gedin.
6 Yandırma qurbanlarınızı, ünsiyyət
qurbanlarınızı, qazancınızın onda bir
hissəsini, qaldırma təqdimlərinizi, əhd
etdiklərinizi, könüllü təqdimlərinizi,
mal-qara və qoyun-keçilərinizin ilk
balalarını oraya gətirin. 7 Orada
sizə bərəkət verən Allahınız Rəbbin
önündə ailələrinizlə birlikdə yemək
yeyəcəksiniz. Onda hansı işə əl
atacaqsınızsa, sevinc tapacaqsınız.
8 Bu gün burada etdiklərinizi orada
etməyin. Burada hər kəs öz nəzərində
nəyi düz sayırsa, onu da edir. 9 Çünki
hələ Allahınız Rəbbin sizə verəcəyi
rahatlığa və irs torpağa çatmamısınız.
10 Amma İordan çayını keçib Allahınız
Rəbbin irs olaraq sizə verəcəyi
torpaqda məskunlaşacaqsınız. Rəbb
sizi ətrafınızdakı bütün düşmənlərdən
qurtararaq rahatlıq verəcək və
əmin-amanlıq içərisində yaşayacaqsınız.
11 O zaman sizə əmr etdiyim hər şeyi
– yandırma təqdimlərinizi, ünsiyyət
qurbanlarınızı, qazancınızın onda bir
hissəsini, qaldırma təqdimlərinizi və
Rəbbə həsr etdiyiniz bütün seçmə
təqdimlərinizi Allahınız Rəbbin
Öz isminə məskən seçəcəyi yerə
gətirəcəksiniz. 12 Allahınız Rəbbin
qarşısında siz, oğullarınız, qızlarınız,
qullarınız, qarabaşlarınız, şəhərlərinizdə
yaşayan sizinlə birgə payı və irsi torpağı
olmayan Levililər qoy sevinsin.
13 Ehtiyatlı olun! Hər gördüyünüz
yerdə yandırma qurbanlarınızı təqdim
etməyin. 14 Yandırma qurbanlarınızı
qəbilələrinizin birində Rəbbin seçəcəyi
yerdə təqdim edin. Sizə əmr etməkdə
olduğum hər şeyi orada edəcəksiniz.
15 Ancaq Allahınız Rəbbin sizə verdiyi
bərəkətə görə yaşadığınız şəhərlərdə
ürəyiniz istəyən qədər heyvan kəsib
ətindən yeyə bilərsiniz. Pak yaxud
murdar insan bu əti ceyran və ya
maral əti yediyiniz kimi yeyə bilər.
16 [u]Qanını isə yeməyin, su kimi yerə
tökün. 17 Taxılınızın, təzə şərablarınızın,
zeytun yağınızın onda bir hissəsini,
mal-qara və qoyun-keçilərinizin ilk
balalarını, əhd etdiklərinizin hamısını,
könüllü təqdimlərinizi, qaldırma
təqdimlərinizi yaşadığınız şəhərlərdə
yeməyin. 18 Siz, oğullarınız, qızlarınız,
qul və qarabaşlarınız, şəhərlərinizdə
yaşayan Levililər bunları Allahınız
Rəbbin hüzurunda, Onun seçəcəyi
yerdə yeyəcəksiniz. Allahınız Rəbbin
hüzurunda hansı işə əl atsanız,
sevinc tapacaqsınız. 19 Ehtiyatlı olun!
Bu torpaqda yaşadığınız müddətdə
Levililərə etinasız yanaşmayın.
20 Allahınız Rəbbin sizə vəd etdiyi
kimi sərhədinizi genişləndirəndə ət
yemək istəyərək "gəlin ət yeyək"
desəniz, ürəyiniz istəyən qədər ət
yeyə bilərsiniz. 21 Allahınız Rəbbin
adını qoymaq üçün seçdiyi yer sizdən
uzaqdırsa, əmr etdiyim kimi Rəbbin
verdiyi naxırlardan, sürülərdən heyvan
kəsib öz şəhərlərinizdə ürəyiniz istəyən
qədər ət yeyə bilərsiniz. 22 Pak yaxud
murdar insan bu əti ceyran və ya maral
əti kimi yeyə bilər. 23 [v]Lakin ehtiyatlı
olun ki, əti qanlı-qanlı yeməyəsiniz,
çünki ətə can verən qandır. Ətlə birlikdə
canı yeməyin. 24 Qanı yeməyin, su
kimi yerə tökün. 25 Qan yeməyin. Belə
etsəniz, Rəbbin gözündə doğru olanı
etmiş olarsınız. Onda həm sizin, həm də
sizdən sonra gələn övladlarınızın xoş
güzəranı olar.
26 Müqəddəs təqdimlərinizi, əhd
etdiyiniz təqdimləri götürüb Rəbbin
seçəcəyi yerə gedin. 27 Yandırma

---

[u] **12:16** Yar. 9:4; Lev. 7:26-27; 17:10-14; 19:26; Qanun. 15:23
[v] **12:23** Lev. 17:10-14

qurbanlarınızı, əti və qanı Allahınız
Rəbbin qurbangahında təqdim edin.
Qurbanlarınızın qanı Allahınız Rəbbin
qurbangahında tökülsün. Ətini isə yeyə
bilərsiniz. 28 Sizə çatdırdığım bütün bu
əmrlərə düzgün əməl edin. Allahınız
Rəbbin gözündə yaxşı və doğru işlər
gördüyünüz üçün sizin və sizdən
sonra gələn övladlarınızın həmişə xoş
güzəranı olar.

Başqa allahlara səcdə etməyin

29 Allahınız Rəbb torpaqlarını almağa
gedəcəyiniz millətləri qarşınızdan
yox edəcək. Torpaqlarını irs olaraq
alıb orada yaşayanda, 30 onları yox
edəndə ehtiyatlı olun ki, onların felinə
düşməyəsiniz. "Bu millətlər allahlarına
necə sitayiş edirdilərsə, biz də elə edək"
deyərək onların allahlarına müraciət
etməyin. 31 Allahınız Rəbbə bu cür
pərəstiş etməyin. Onlar öz allahları
üçün Rəbbin nifrət etdiyi iyrənc işləri
görürlər. Belə ki oğullarını, qızlarını
odda yandıraraq allahlarına qurban
verirlər.
32 [w]Sizə buyurduğum bütün əmrlərə
diqqətlə əməl edin. Onlardan nəyisə
əskildib, onlara nəyisə artırmayın.

13 Əgər aranızdan bir peyğəmbər
yaxud bir röya görən çıxıb sizə
bir əlamət ya da möcüzə olacağını
söyləyərsə, 2 sonra "tanımadığınız yad
allahların ardınca gedək və onlara
sitayiş edək" deyərsə, bəhs etdiyi
əlamət və ya möcüzə həyata keçsə
də, 3 belə peyğəmbərin yaxud röya
görənin sözlərinə qulaq asmayın.
Bilin ki, Allahınız Rəbb sizi sınayır,
görmək istəyir, siz Allahınız Rəbbi
bütün qəlbinizlə, bütün varlığınızla
sevirsinizmi? 4 Siz Allahınız Rəbbin
ardınca gedin və Ondan qorxun. Onun
əmrlərinə əməl edib sözlərinə qulaq
asın, Rəbbə sitayiş edərək Ona bağlı
qalın. 5 [x]O peyğəmbər yaxud röya
görən isə öldürülsün, çünki sizi Misir
ölkəsindən çıxaran və köləlik diyarından
qurtaran Allahınız Rəbbə qarşı getməyə
sövq edirdi. Onlar sizi Allahınız Rəbbin
əmr etdiyi yolla getməkdən azdırmaq
istəyirdi. Beləliklə, aranızdan pisliyi
atın.
6 Hətta bir anadan doğulan qardaşınız,
öz oğlunuz və ya qızınız, qoynunuzdakı
arvadınız ya da candan əziz dostunuz
sizi gizlicə başdan çıxarmaq üçün sizə və
atalarınıza naməlum olan allahlardan,
7 ətraf xalqların, dünyanın bu başından
o biri başına qədər sizə yaxın və ya uzaq
xalqların allahlarından bəhs edib "gedək
yad allahlara sitayiş edək" desə, 8 ona
uyaraq qulaq asmayın. Ona heyfiniz
gəlməsin, acımayın, onu qorumayın.
9 Mütləq onu öldürün. Əvvəlcə siz,
sonra bütün xalq qoy onu daşqalaq
etsin. 10 Sizi Misir torpağından, köləlik
diyarından çıxaran Allahınız Rəbdən
ayırmaq üçün çalışdığına görə onu
daşqalaq edib öldürün. 11 Onda bunun
sorağını alan bütün İsraillilər qorxacaq
və bir də aranızda buna bənzər pis işlər
olmayacaq.
12 Allahınız Rəbbin sizə yaşamaq
üçün verəcəyi şəhərlərin birində
13 sizin aranızdan yaramaz adamlar
çıxıb "tanımadığınız yad allahların
ardınca gedək və onlara sitayiş
edək" deyərək şəhərlərində yaşayan
xalqı azdırdıqlarını eşitsəniz, 14 bunu
araşdıraraq yaxşı-yaxşı tədqiq edin.
Eşitdiklériniz doğrudursa və aranızdan
birisinin belə iyrənc iş gördüyü sübut
edilərsə, 15 mütləq o şəhərdə yaşayanları
qılıncdan keçirin. Şəhəri tamamilə məhv
edib oradakı bütün xalqı və heyvanları
qılıncdan keçirin. 16 Talan mallarının
hamısını toplayıb meydanın ortasına

---

[w]**12:32** Qanun. 4:2; Vəhy 22:18-19 [x]**13:5** Qanun. 17:7; 1Kor. 5:13

yığın. Şəhəri və malların hamısını
Allahınız Rəbb üçün tamamilə yandırın.
Qoy bu şəhər əbədi olaraq viranəliyə
çevrilsin və yenidən bərpa edilməsin.
17 Məhv edilməyə həsr edilən mallardan
heç nəyi özünüz üçün götürməyin.
Onda Rəbbin qızğın qəzəbi yatar və
atalarınıza and edib söz verdiyi kimi
sizə rəhm edər və mərhəmət göstərərək
sizi çoxaldar. 18 Ona görə ki siz Allahınız
Rəbbin sözünü dinləyirsiniz. Beləliklə,
bu gün sizə buyurduğum əmrlərə əməl
edib Rəbbin gözündə doğru olanı etmiş
olacaqsınız.

Qadağan olan matəm ənənəsi

14 [y]Siz Allahınız Rəbbin
övladlarısınız. Ölən üçün
bədəninizi yaralamayın və saçınızın ön
tərəfini qırxmayın. 2 [z]Axı siz Allahınız
Rəbbin müqəddəs xalqısınız. Rəbb yer
üzərində olan bütün xalqlar arasından
sizi Özünə məxsus xalq olaraq seçdi.

Əti yeyilən və yeyilməyən heyvanlar

(Lev. 11:1-47)

3 Murdar şeylər yeməyin. 4 Bu
heyvanların ətini yeyə bilərsiniz: öküz,
qoyun, keçi, 5 maral, ceyran, xallı maral,
dağ keçisi, geyik, cüyür, dağ qoyunu.
6 Heyvanlardan qoşadırnaqlı, gövşəyən
heyvanların hamısının ətindən yeyə
bilərsiniz. 7 Lakin gövşəyən yaxud
qoşadırnaqlı olan bu heyvanların –
dəvə, dovşan, qayadovşanının ətini
yeməyin, çünki onlar gövşəyir, lakin
qoşadırnaqlı deyil, buna görə sizin üçün
haramdır. 8 Donuz isə qoşadırnaqlı olsa
da, gövşəmir, o sizin üçün haramdır.
Onların nə ətini yeyin, nə də leşinə
toxunun.

9 Sularda yaşayan heyvanlardan
üzgəcləri və pulcuqları olanların
hamısını yeyə bilərsiniz. 10 Amma
üzgəcləri və pulcuqları olmayanların
hamısı sizə haram sayılır, yeməyin.

11 Bütün pak quşların ətindən yeyə
bilərsiniz. 12 Lakin bu quşların ətini
yeməməlisiniz: qartal, keçələkərkəs,
qaraquş, 13 çalağan, şahin, bütün
çalağan cinsindən olanlar, 14 bütün
qarğa cinsindən olanlar, 15 dəvəquşu,
bayquş, qağayı, bütün qırğı cinsindən
olanlar, 16 yapalaq, böyük bayquş,
ağ bayquş, 17 qutan, leş kərkəsi,
qarabatdaq, 18 leylək, bütün vağ
cinsindən olanlar, şanapipik, yarasa.
19 Bütün qanadlı qaynaşan heyvanlar
sizin üçün haramdır, yeməyin. 20 Qanadı
olan pak heyvanların hamısını yeyə
bilərsiniz.

21 [a]Ölü halda tapılan heyvan ətindən
yeməyin. Şəhərinizdə olan əcnəbiyə
verə bilərsiniz ki, yesin yaxud da
yadellilərə sata bilərsiniz. Siz isə Allahın
müqəddəs xalqısınız. Oğlağı anasının
südündə bişirməyin.

Ondabir hissəyə aid qayda

22 [b]İlbəil tarlalarınızda bitən bütün
məhsulların onda bir hissəsini mütləq
ayırın. 23 Daim Allahınız Rəbdən
qorxmağı öyrənmək üçün taxılınızın,
təzə şərabınızın, zeytun yağınızın
onda bir hissəsini, mal-qaranızın,
qoyun-keçilərinizin ilk balalarını
Allahınız Rəbbin qarşısında, Öz isminə
məskən seçdiyi yerdə yeyin. 24 Allahınız
Rəbbin Öz isminə məskən seçdiyi
yer sizdən çox uzaqdadırsa, Allahınız
Rəbbin sizə bərəkət verdiyi məhsulların
onda bir hissəsini siz oraya apara
bilməyəcək qədər yol uzundursa, 25 o

---

[y] **14:1** Lev. 19:28; 21:5
[z] **14:2** Çıx. 19:5-6; Qanun. 4:20; 7:6; 26:18; Titə 2:14; 1Pet. 2:9
[a] **14:21** Çıx. 23:19; 34:26 [b] **14:22** Lev. 27:30-33; Say. 18:21

zaman bunları satıb pula çevirin və bu
pulu götürüb Allahınız Rəbbin seçəcəyi
yerə gedin. 26 Pulu ürəyiniz istəyəni
almağa sərf edin: mal-qara, qoyun-keçi,
şərab, başqa kefləndirici içki – ürəyiniz
nə istəyirsə, alın. Siz və külfətiniz
orada Allahınız Rəbbin qarşısında
yeyib sevinin. 27 Şəhərlərinizdə yaşayan
Levililərə etinasız yanaşmayın, çünki
onların sizinlə birgə payı və irsi torpağı
yoxdur.
28 Hər üç ilin sonunda – üçüncü ildə
bitən bütün məhsulunuzun onda bir
hissəsini çıxarıb şəhərlərinizdə toplayın.
29 Sizinlə birgə payı və irsi torpağı
olmayan Levililər, şəhərlərinizdə olan
qəriblər, yetimlər və dul qadınlar qoy
gəlib bundan doyunca yesinlər. Belə
edin ki, Allahınız Rəbb sizə əlinizin
bütün zəhmətinə xeyir-dua versin.

Borcların bağışlanma ili

(Lev. 25:1-7)

15 Hər yeddi ilin sonunda sizə
borclu olanları bağışlayın.
2 Borcların bağışlanma işini belə edin:
hər alacağı olan şəxs qonşusunun
borcunu bağışlasın. Qonşusunu yaxud
soydaşını borcunu geri qaytarmağa
məcbur etməsin, çünki Rəbb tərəfindən
borcların bağışlanma ili elan edilmişdir.
3 Yadellilərdən borclarınızı geri ala
bilərsiniz, lakin İsrailli soydaşlarınızın
borclarını bağışlamalısınız. 4 Onda
aranızda kasıb olmaz. Əgər Allahınız
Rəbbin sizə mülk olaraq almaq üçün
verəcəyi torpaqda 5 Onun sözünə tam
itaət etsəniz, bu gün sizə buyurduğum
əmrlərin hamısına diqqətlə əməl
etsəniz, 6 Allahınız Rəbb sizə vəd
verdiyi kimi mütləq bərəkət verəcək.
Siz bir çox millətlərə borc verəcək, lakin
onlardan borc almayacaqsınız. Siz bir
çox millətlərə hökmranlıq edəcəksiniz,
onlar sizə hökmranlıq etməyəcək.
7 [c]Allahınız Rəbbin sizə verəcəyi
torpağın hər hansı bir şəhərində
yaşayan soydaşlarınızdan biri
kasıbdırsa, daşürəkli olmayın. Kasıb
soydaşınıza qarşı əliniz bağlı olmasın.
8 Əksinə, əliaçıq olun, nəyə ehtiyacı
varsa, ona lazımınca borc verin.
9 Məbada "yeddinci il – borcların
bağışlanma ili yaxındır" deyərək
ürəyinizə pis fikirlər gətirəsiniz.
Soydaşınız üçün xəsislik etməyin, ona
kömək etməkdən boyun qaçırmayın.
Yoxsa kasıb soydaşınız sizdən Rəbbə
şikayət edər və günah qazanarsınız.
10 Kasıba səxavətlə, könüllü surətdə
yardım edin, çünki buna görə Allahınız
Rəbb bütün əməyinizə, əl atdığınız hər
işə bərəkət verəcək. 11 [d]Ölkədə həmişə
kasıblar olacaq, buna görə mən sizə
belə əmr edirəm: mütləq öz ölkənizdəki
kasıb və möhtac soydaşınıza qarşı
əliaçıq olun.

Qullar haqqında

(Çıx. 21:1-11)

12 [e]Əgər İbrani soydaşlarınızdan
bir kişi və yaxud qadın sizə qul
kimi satılıbsa, bu qul altı il sizə
qulluq edəndən sonra yeddinci il onu
azad edin. 13 Azad edərkən onları
əliboş yola salmayın. 14 Səxavət
göstərib sürülərinizdən, taxılınızdan,
şərabınızdan onlara verin. Allahınız
Rəbb sizə necə bərəkət veribsə, siz
də onlara elə verin. 15 Misirdə kölə
olduğunuzu, Allahınız Rəbbin sizi
qurtardığını yada salın. Bu gün ona görə
bu əmri verirəm.
16 Əgər qulunuz sizi və külfətinizi
sevirsə, sizinlə güzəranı xoşdursa və
"sizdən ayrılmaq istəmirəm" deyirsə,

---

[c]**15:7** Lev. 25:35 [d]**15:11** Mat. 26:11; Mark 14:7; Yəh. 12:8
[e]**15:12** Çıx. 21:2; Lev. 25:39-46

17 onda bir biz götürüb qulunuzun
qulağından keçirərək qapıya batırın.
Bundan sonra o ömrü boyu qulunuz
olaraq qalacaq. Qarabaşlarınızla da
bu cür rəftar edin. 18 Qullarınızı azad
etmək sizə çətin gəlməsin. Sizə qulluq
etdiyi altı il ərzində muzdlu işçidən
ikiqat artıq iş görmüşdür. Sizə Allahınız
Rəbb hər işdə bərəkət verəcək.

İlk dəfə doğan heyvanlar

19 [f]Mal-qara və qoyun-keçilərinizin ilk
doğulan balalarından hər erkək heyvanı
Allahınız Rəbb üçün təqdis edin.
Öküzlərinizin ilk balalarını işlətməyin,
qoyun-keçilərinizin ilk balalarını
qırxmayın. 20 Siz ailələrinizlə birgə
hər il Allahınız Rəbbin önündə, Onun
seçəcəyi yerdə bu heyvanların ətini
yeyin. 21 Bir heyvanın qüsuru varsa,
axsaq yaxud kordursa, hansısa ciddi
çatışmazlığı varsa, onu Allahınız Rəbbə
qurban etməyin. 22 Belə heyvanları
kəsib şəhərlərinizdə yeyə bilərsiniz. Pak
və yaxud murdar insan bu ətdən ceyran
və ya maral əti yediyi kimi yeyə bilər.
23 [g]Qanını isə yeməyin, onu su kimi
torpağa tökün.

Pasxa bayramı

(Çıx. 12:1-20)

16 Aviv ayını qeyd edin və Allahınız
Rəbbin Pasxa bayramını keçirin.
Allahınız Rəbb sizi Misirdən Aviv ayında
gecə ikən çıxartdı. 2 Allahınız Rəbbin
Öz isminə məskən seçəcəyi yerdə
qoyun-keçilərinizdən, mal-qaranızdan
Pasxa qurbanı kəsin. 3 Qurban əti
ilə birlikdə mayalı çörək yeməyin.
Misirdən tələsik çıxdığınıza görə əziyyət
içərisində yediyiniz çörək kimi yeddi
gün mayasız çörək, yəni əziyyət çörəyi
yeyin. Bununla ömür boyu Misirdən
çıxdığınız günü yada salın. 4 Ölkənizin
heç bir yerində yeddi gün mayadan
istifadə olunmasın. İlk gün axşam
qurban kəsdiyiniz heyvanların əti
səhərə qədər qalmasın.
5 Pasxa qurbanlarını Allahınız Rəbbin
sizə verəcəyi şəhərlərin heç birində
kəsməyin, 6 ancaq Allahınız Rəbbin Öz
isminə məskən seçəcəyi yerdə kəsin.
Orada qurbanları axşam, gün batanda,
Misirdən çıxdığınız saatlarda kəsin. 7 Əti
Allahınız Rəbbin seçəcəyi yerdə bişirib
yeyin. Səhər açılanda isə oradan çıxıb
çadırlarınıza qayıdın. 8 Altı gün mayasız
çörək yeyin. Yeddinci gün Allahınız
Rəbb üçün təntənəli toplantı keçirin və
heç bir iş görməyin.

Həftələr bayramı

(Çıx. 34:22; Lev. 23:15-21)

9 Əkinə oraq vurduğunuz ilk gündən
yeddi həftə sayın və 10 Allahınız Rəbbin
sizə verdiyi bərəkətə görə könüllü
təqdim verməklə Allahınız Rəbb üçün
Həftələr bayramı keçirin. 11 Allahınız
Rəbbin qarşısında – Onun Öz isminə
məskən seçəcəyi yerdə siz, oğullarınız,
qızlarınız, qullarınız, qarabaşlarınız,
şəhərlərinizdə yaşayan Levililər,
aranızda yaşayan qəriblər, yetimlər və
dul qadınlar birlikdə sevinəcəksiniz.
12 Misirdə kölə olduğunuzu yada salın
və bu qaydalara diqqətlə əməl edin.

Çardaqlar bayramı

(Lev. 23:33-43)

13 Xırmanınızdan, üzümsıxanınızdan
məhsul götürəndən sonra özünüz
üçün yeddi gün Çardaqlar bayramı
keçirin. 14 Bu bayramda siz, oğullarınız,
qızlarınız, qullarınız, qarabaşlarınız,
şəhərlərinizdə yaşayan Levililər,
qəriblər, yetimlər və dul qadınlarla

---

[f] **15:19** Çıx. 13:12

[g] **15:23** Yar. 9:4; Lev. 7:26-27; 17:10-14; 19:26; Qanun. 12:16,23-25

birlikdə sevinəcəksiniz. 15 Allahınız
Rəbbin seçəcəyi yerdə Rəbb üçün yeddi
gün bu bayramı keçirin, çünki Allahınız
Rəbb bütün məhsullarınıza, əllərinizin
hər işinə xeyir-dua verib və siz tam
sevinc içində yaşayacaqsınız.
16 Bütün kişiləriniz ildə üç dəfə
Mayasız Çörək bayramında, Həftələr
bayramında, Çardaqlar bayramında
Allahınız Rəbbin hüzurunda olmaq
üçün Onun seçəcəyi yerə getsin. Heç kəs
Rəbbin hüzuruna əliboş gəlməsin. 17 Hər
biriniz Allahınız Rəbbin sizə verdiyi
bərəkətə görə bəxşiş götürməlisiniz.

Hakimlərlə məmurların təyin olunması

18 Allahınız Rəbbin sizə verəcəyi
şəhərlərdə hər qəbiləniz üçün hakimlər
və məmurlar seçin. Qoy onlar xalqa
ədalətlə hakimlik etsinlər. 19 [h]Hökm
çıxararkən haqsızlıq etməyin, heç
kimin tərəfini saxlamayın. Rüşvət
almayın, çünki rüşvət müdrik insanın
belə, gözlərini kor edir və məhkəmədə
məsum bir insana qarşı səhv qərara yol
verir. 20 Salehliyin, yalnız salehliyin
ardınca gedin, onda həyat taparsınız və
Allahınız Rəbbin sizə verəcəyi torpağı
irs olaraq alarsınız.
21 [i]Allahınız Rəbb üçün quracağınız
qurbangahın yanına ilahə Aşeranın
surətində heç bir ağac sütunu qoymayın.
22 [j]Allahınız Rəbbin ikrah etdiyi daş
sütun qoymayın.

17 Hər hansı bir qüsuru və
çatışmazlığı olan öküzü ya
da qoyunu Allahınız Rəbbə qurban
etməyin. Belə etmək Allahınız Rəbb
üçün iyrəncdir.
2 Allahınız Rəbbin sizə verəcəyi
şəhərlərin birində aranızdan Onun
əhdini pozub gözündə pis olanı edən
hər hansı bir kişi və ya qadın çıxarsa,
3 [k]əmrlərimin ziddinə gedib başqa
allahlara sitayiş edərsə, bütlərə yaxud
günəşə, aya yaxud səma cisimlərindən
hər hansı birinə sitayiş və səcdə edərsə,
4 bu hadisədən xəbərdar olsanız,
eşitdiklərinizi yaxşı-yaxşı araşdırın.
Əgər bu xəbər doğrudursa və belə
iyrənc halın İsraildə baş verdiyi sübuta
yetərsə, 5 belə pis hərəkət edən kişini və
ya qadını şəhərin darvazasına gətirib
daşqalaq edərək öldürün. 6 [l]Ölümə
məhkum olan adam iki yaxud üç nəfərin
şahidliyi ilə öldürülməlidir. Tək bir
nəfərin şahidliyi ilə öldürülməsin. 7 [m]O
adamı əvvəlcə şahidlər, sonra isə bütün
xalq daşqalaq etsin. Beləliklə, aranızdan
pisliyi atın.

Məhkəmə işləri

8 Əgər şəhərlərinizdə qatillik, dava və
ya təcavüz barəsində qərar çıxarmaqda
həll edə bilmədiyiniz çətinliklərə rast
gəlsəniz, Allahınız Rəbbin seçəcəyi
yerə gedin. 9 O dövrdə xidmət edən
Levili kahinlərin və hakimlərin yanına
gedib onlara müraciət edin. Qoy
onlar araşdırıb məhkəmə qərarını
sizə versinlər. 10 Rəbbin seçəcəyi
yerdən sizə deyilən qərara əməl
edin. Sizə nə öyrətsələr, ona diqqətlə
əməl edin. 11 Öyrədilən təlimata və
söylənilən hökmə görə rəftar edin. Əmr
edilənlərdən nə sağa, nə də sola dönün.
12 Orada Allahınız Rəbbin hüzurunda
vəzifəsini icra edən kahinə yaxud
hakimə qulaq asmamaq iddiasında olan
şəxs öldürülsün. Beləliklə, aranızdan
pisliyi atın. 13 Bütün xalq bu xəbəri
eşidib qorxacaq və bir daha bu iddiaya
düşməyəcək.

---

[h] **16:19** Çıx. 23:6-8; Lev. 19:15 [i] **16:21** Çıx. 34:13 [j] **16:22** Lev. 26:1
[k] **17:3** Çıx. 22:20 [l] **17:6** Say. 35:30; Qanun. 19:15; Mat. 18:16; 2Kor. 13:1; 1Tim. 5:19; İbr. 10:28 [m] **17:7** Qanun. 13:5; 1Kor. 5:13

Padşahla əlaqədar qanunlar

14 [n]Allahınız Rəbbin sizə verəcəyi
torpağa girib, oranı irs olaraq alanda və
orada məskunlaşanda əgər "bütün ətraf
ölkələrdəki kimi bizə hökm edəcək bir
padşah təyin edək" desəniz, 15 mütləq
Allahınız Rəbbin seçəcəyi adamı padşah
qoyun. Padşah təyin etdiyiniz adam
öz soydaşlarınızdan olmalıdır. İsrailli
soydaşlarınızdan olmayan yadelli bir
adamı padşah edə bilməzsiniz. 16 [o]Qoy
padşah özü üçün at çoxaltmasın.
İlxısını artırmaq üçün xalqı Misirə –
geriyə qaytarmasın, çünki Rəbb sizə
belə demişdi: "Bir də bu yoldan geri
qayıtmayın". 17 [p]Padşah çox arvad
almasın, yoxsa ürəyi haqq yolundan
dönər. O özü üçün çoxlu qızıl-gümüş
yığıb onu çoxaltmasın.
18 Padşah taxta çıxandan sonra Levili
kahinlərin nəzarəti altında bu Qanundan
bir surətini özü üçün kitaba köçürsün.
19 Qoy o, Qanunun bu surətini yanında
saxlayaraq ömrü boyu hər gün oxusun.
Bununla da padşah Allahınız Rəbdən
qorxmağı, bu Qanunun bütün sözlərinə
və bu qaydalara diqqətlə əməl etməyi
öyrənsin. 20 Özünü soydaşlarından
üstün tutmasın, əmrdən nə sağa, nə də
sola dönsün. Onda İsraildə özünün və
nəslinin padşahlıq dövrü uzun olar.

Levililərlə kahinlərin payı

18 Levili kahinlərin, bütün Levi
qəbiləsinin digər İsraillilərlə
birgə payı və irsi olmayacaq. Onlar
Rəbbə verilən yandırma təqdimləri ilə
doyacaqlar və bu onların irsi olacaq.
2 [q]Levililərin soydaşları arasında irsi
torpaqları olmayacaq və Rəbbin onlara
söz verdiyi kimi onların irsi Rəbb
Özüdür.
3 Xalq arasında öküz və qoyun
qurbanı təqdim edən qol, çənə və içalatı
kahinlərə pay versin. 4 Taxılınızın, təzə
şərabınızın, zeytun yağınızın nübarını
və qoyunlarınızdan qırxdığınız ilk
yunu kahinlərə verin. 5 Allahınız Rəbb
onları və övladlarını bütün qəbilələriniz
arasından seçdi ki, daim Rəbbin adına
xidmətdə dayansınlar.
6 Əgər bir Levili yaşadığı İsrail
şəhərlərinin birindən könüllü surətdə
Rəbbin seçəcəyi yerə gedərsə, 7 orada
Allahı Rəbbin qarşısında dayanan Levili
soydaşları kimi Rəbbin naminə xidmət
edə bilsin. 8 O, ata mülkünün satışından
əldə etdiyi vəsaitdən əlavə, onlarla
bərabər paydan da istifadə edə bilər.

Başqa millətlərin iyrənc adətləri

9 Allahınız Rəbbin sizə verəcəyi
torpağa girdiyiniz zaman o millətlərin
iyrənc adətlərini götürüb təqlid
etməyin. 10 [r]Aranızda oğul və qızını
oda qurban verən, falçı, gələcəyideyən,
baxıcı, cadugər, 11 ovsunçu, cindarlara
və ruhçağıranlara müraciət edən
yaxud ölüləriçağıran olmasın. 12 Rəbb
belə iş görənlərə nifrət edir. Elə bu
iyrənc işlərə görə Allahınız Rəbb
millətləri sizin qarşınızdan qovacaq.
13 [s]Allahınız Rəbbin gözü önündə kamil
olun. 14 Çünki torpaqlarını alacağınız
millətlərin hamısı gələcəyideyənlərin
və falçıların nəsihətlərinə qulaq asırlar.
Amma Allahınız Rəbb sizin üçün buna
izin vermir.

---

[n] **17:14** 1Şam. 8:5 [o] **17:16** 1Pad. 10:28; 2Saln. 1:16; 9:28
[p] **17:17** 1Pad. 11:1-8; 1Pad. 10:14-22,27; 2Saln. 1:15; 9:27
[q] **18:2** Say. 18:20; Qanun. 10:9 [r] **18:10** Çıx. 22:18; Lev. 19:26,31
[s] **18:13** Mat. 5:48

Gələcək peyğəmbər

15 [t]Allahınız Rəbb sizin üçün
aranızdan – öz soydaşlarınız içərisindən
mənim kimi bir peyğəmbər yetirəcək.
Ona qulaq asın. 16 Çünki Xorevdə
yığıldığınız gün Allahınız Rəbdən bunu
diləmişdiniz: “Qoy bir də Allahımız
Rəbbin səsini eşitməyək və bir daha bu
böyük alovu görməyək, yoxsa ölərik”.
17 Onda Rəbb mənə dedi: “Dedikləri
doğrudur. 18 Onlar üçün soydaşları
arasından sənin kimi bir peyğəmbər
yetirəcəyəm və sözlərimi onun dilindən
eşidəcəksiniz. O əmr etdiyim hər şeyi
sizə söyləyəcək. 19 [u]Mənim adımla
söylədiyi sözlərə qulaq asmayan adamı
ittiham edəcəyəm. 20 Lakin hansı bir
peyğəmbər ona əmr etmədiyim sözü
Mənim adımdan danışmağa cürət
edərsə yaxud başqa allahların adından
danışarsa, o peyğəmbər öldürülsün”.
21 “Axı bu sözün Rəbdən
olub-olmadığını necə bilək?” deyə
düşünə bilərsiniz. 22 Əgər bir peyğəmbər
Rəbbin adından danışanda dediyi söz
həyata keçməzsə yaxud düz çıxmazsa,
bilin ki, onu Rəbb söyləməmişdir. O
peyğəmbərin dediklərinin səlahiyyəti
yoxdur. Ondan qorxmayın.

Sığınacaq şəhərlər

*(Say. 35:6-34; Qanun.
4:41-43; Yeşua 20:1-9)*

19 Allahınız Rəbb torpaqlarını sizə
verəcəyi millətləri yox edəndə və
siz onların mülkünü alıb şəhərlərində və
evlərində yaşayanda 2 Allahınız Rəbbin
mülk olaraq almaq üçün sizə verəcəyi
torpağın mərkəzində özünüz üçün üç
şəhər ayırın. 3 Bu şəhərlərə getmək üçün
yollar çəkib Allahınız Rəbbin irs olaraq
sizə verəcəyi ölkəni üç bölgəyə ayırın.
Belə ki qətl edən bu şəhərlərdən birinə
qaçsın.
4 Sağ qalmaq üçün oraya qaçan qatil
haqqında – yəni qonşusu ilə əvvəlcədən
ədavəti olmadan və bilmədən onu
öldürən adam barədə belə bir qaydanız
olsun. 5 Məsələn, odun kəsmək üçün
qonşusu ilə meşəyə gedib ağac
doğramaq üçün balta vuranda baltanın
dəmiri sapından çıxıb qonşusuna
dəyərsə və qonşusu ölərsə, ölümə bais
adam bu şəhərlərdən birinə qaçıb canını
qurtarsın. 6 Yoxsa qan qisasını alan
qəzəblə qatilin izinə düşə bilər. Yol
uzaq olarsa, çatıb onu öldürə bilər.
Bu adamın öldürdüyü adamla əvvəllər
heç bir ədavəti olmamışdı. Ona görə
də ölüm hökmünə layiq deyil. 7 Bunun
üçün “özünüzə üç şəhər seçin” deyə əmr
edirəm.
8 Allahınız Rəbbi sevmək və daim
Onun yolları ilə getmək üçün bu gün
sizə buyurduğum bütün bu əmrlərə
diqqətlə əməl etdiyiniz üçün 9 Allahınız
Rəbb atalarınıza and etdiyi kimi
sizin sərhədinizi genişləndirərsə və
atalarınıza verməyi vəd etdiyi bütün
torpaqları sizə verərsə, o zaman özünüz
üçün bu üç şəhərdən əlavə üç şəhər
də seçin. 10 Belə ki Allahınız Rəbbin
irs olaraq sizə verəcəyi torpaqda
günahsız qan tökülməsin və həm də qan
tökməkdə təqsirkar olmayasınız.
11 Lakin kiminsə qonşusu ilə ədavəti
varsa, pusquda durub onu izləyərsə,
hücum edərək onu vurub öldürərsə və
bu şəhərlərdən birinə qaçarsa, 12 bu
adamın şəhərinin ağsaqqalları adam
göndərib onu oradan götürüb öldürmək
üçün qan qisası alana təslim etsin.
13 Ona rəhm etməyin. Günahsız qanı
İsraildən təmizləyin ki, güzəranınız xoş
olsun.

---

[t] **18:15** Yəh. 1:21; 7:40; Həv. 3:22; 7:37

[u] **18:19** Həv. 3:23

14 [v]Allahınız Rəbbin mülk olaraq
almaq üçün sizə verəcəyi torpaqda
alacağınız mülkdə qonşunuzun əvvəlki
adamlar tərəfindən qoyulan sərhədini
dəyişdirməyin.

Şahidlər

15 [w]Bir adamı işlədə biləcəyi hər
hansı bir günahda yaxud cinayətdə
təqsirləndirmək üçün bir şahid kifayət
deyil. Hər iddia iki yaxud üç nəfərin
şahidliyi ilə təsdiq edilsin.
16 Əgər bir yalançı şahid pis məqsədlə
birini təqsirləndirərsə, 17 aralarında
münaqişə olan iki adam Rəbbin
hüzurunda, o dövrdə xidmət edən
kahinlərin və hakimlərin qarşısında
dayansın. 18 Hakimlər yaxşı-yaxşı
araşdırsınlar. Əgər şahid yalançıdırsa,
soydaşlarına qarşı yalandan şahidlik
etmişsə, 19 onda soydaşına etmək
istədiyini onun öz başına gətirin.
Beləliklə, aranızdan pisliyi atın.
20 Qalanları da bunu eşidib qorxacaq
və bir daha bu cür pislik etməyəcəklər.
21 [x]Belə adama rəhm etməyin, can
əvəzinə can, göz əvəzinə göz, diş
əvəzinə diş, əl əvəzinə əl, ayaq əvəzinə
ayaq ödənsin.

Döyüş zamanı

20 Düşmənlərinizə qarşı döyüşə
çıxanda atları, döyüş arabalarını
və sizdən böyük bir ordunu görəndə
qorxmayın, çünki sizi Misir torpağından
çıxaran Allahınız Rəbb sizinlədir.
2 Kahin döyüş qabağı ordunun yanına
gəlib müraciət edərək 3 belə desin:
“Ey İsraillilər, qulaq asın! Bu gün
düşmənlərinizlə döyüşə çıxırsınız.
Onlardan qorxub ürkməyin və tələşə
düşərək ürəyinizi yeməyin, 4 çünki
Allahınız Rəbb düşmənlərinizlə
döyüşmək və sizə qələbə qazandırmaq
üçün sizinlə gedir”.
5 Zabitlər isə orduya belə desinlər:
“Yeni ev tikib içində oturmayan kim
var? Qoy evinə qayıtsın. Yoxsa döyüşdə
ölər, evində başqası yaşayar. 6 Üzüm
bağı salıb məhsulunu toplamayan
varmı? Qoy o da evinə qayıtsın. Birdən
döyüşdə ölər, məhsulunu başqası yığar.
7 Bir qıza nişanlı olub evlənməyən
varmı? O da evinə qayıtsın. Yoxsa
döyüşdə ölər, nişanlısını başqası alar”.
8 Zabitlərin orduya müraciətinin davamı
belə olsun: “Kim qorxusundan ürəyini
yeyirsə, evinə qayıtsın. Öz ürəyi kimi
yoldaşlarının da ürəyini üzməsin”.
9 Zabitlər orduya müraciətini bitirəndən
sonra bölmələrə rəhbərlər təyin etsinlər.
10 Hansı şəhərə yürüş etsəniz, əvvəl
onun xalqını sülhə çağırın. 11 Əgər o
sizinlə sülh yolu ilə razılaşıb qarşınızda
darvazalarını açarsa, qoy oranın
bütün əhalisi sizə mükəlləfiyyətçi
olub qulluğunuzda dursun. 12 Yox,
əgər sizin sülh çağırışınızı rədd edib
döyüşə başlasa, onda şəhəri mühasirəyə
alın. 13 Allahınız Rəbb şəhəri sizə
təslim edəndə oranın bütün kişilərini
qılıncdan keçirin. 14 Qadınları, uşaqları,
heyvanları və şəhərdə olan bütün
malları isə talan edin. Allahınız Rəbbin
sizə verdiyi düşmən malını özünüzə sərf
edə bilərsiniz. 15 Sizə yaxın millətlərə
aid olmayan, sizdən uzaqlarda yerləşən
şəhərlərin hamısına qarşı rəftarınız belə
olsun!
16 Ancaq Allahınız Rəbbin irs olaraq
sizə verəcəyi bu millətlərin şəhərlərində
nəfəsi olan heç bir canlını belə,
sağ buraxmamalısınız. 17 Xetliləri,
Emorluları, Kənanlıları, Perizliləri,
Xivliləri, Yevusluları Allahınız Rəbbin
sizə əmr etdiyi kimi tamamilə yox edin

---

[v]**19:14** Qanun. 27:17 [w]**19:15** Say. 35:30; Qanun. 17:6; Mat. 18:16; Yəh. 19:31; 2Kor. 13:1; 1Tim. 5:19; İbr. 10:28 [x]**19:21** Çıx. 21:23-25; Lev. 24:20; Mat. 5:38

ki, [18] allahlarına iyrənc adətlərlə səcdə
edənlərdən bunları öyrənərək Allahınız
Rəbbə qarşı günah işlətməyəsiniz.
[19] Hər hansı bir şəhərlə döyüşəndə
oranı almaq üçün mühasirəsi uzun
çəkərsə, ağacları baltalayıb məhv
etməyin. Bu ağacların məhsulundan
yeyə bilərsiniz, amma onları qırmayın.
Məgər çöldəki ağaclar insandır ki, onları
mühasirəyə alasınız? [20] Biləndə ki bir
ağac bar vermir, həmin ağacı kəsib yox
edə bilərsiniz. Sizə müqavimət göstərən
şəhəri alanadək mühasirə əməliyyatında
bu ağaclardan istifadə edə bilərsiniz.

Naməlum şəxs tərəfindən öldürülənlər

21 Allahınız Rəbbin mülk olaraq
almaq üçün sizə verəcəyi
torpaqda, çöldə yerə sərilmiş və kim
tərəfindən öldürüldüyü bilinməyən
meyit görsəniz, [2] ağsaqqallarınız və
hakimləriniz gedib meyitin olduğu
yerlə ətraf şəhərlər arasındakı məsafəni
ölçsünlər. [3] Meyitə ən yaxın şəhər
hansıdırsa, oranın ağsaqqalları işə
qoşulmamış, boyunduruq taxılmayan
bir düyə götürsünlər. [4] Düyəni
şumlanmamış, əkilməmiş torpaqdakı
axar sulu dərəyə gətirsinlər və orada
düyənin boynunu qırsınlar. [5] Levili
kahinlər də oraya getsin. Çünki Allahınız
Rəbb onları Özünə xidmətçi seçib. Qoy
onlar Rəbbin adı ilə xeyir-dua versinlər,
aranızdakı münaqişə və zorakılıq
hallarına baxsınlar. [6] Meyitə ən yaxın
şəhərin ağsaqqalları dərədə boynu
qırılmış düyənin üzərində əllərini yuyub
[7] belə bəyan etsinlər: “Bu qan bizim
əllərimizlə tökülməyib. Kimin etdiyini
də gözümüzlə görməmişik. [8] Ya Rəbb,
qurtardığın xalqı – İsraillilər kəffarə et.
Xalqını nahaq tökülən qana cavabdeh
etmə”. Beləliklə, qan tökmək günahı
kəffarə olunacaq. [9] Rəbbin gözündə
doğru olanı etdiyiniz üçün nahaq qan
boynunuzdan götürüləcək.

Əsirlərdən arvad almaq

[10] Düşmənlərinizlə döyüşə çıxanda,
Allahınız Rəbb onları sizə təslim edəndə
və siz onları əsir götürəndə [11] aralarında
gözəl qadın görüb ona vurulsanız,
onu arvad olaraq ala bilərsiniz. [12] Qoy
o qadın kişinin evinə aparılsın. O,
başını qırxdıraraq dırnaqlarını kəssin,
[13] əynindəki əsirlik geyimlərini çıxarsın
və evinizdə qalıb ata-anası üçün bir ay
yas tutsun. Bundan sonra qadını alan
kişi onun yanına girib öz arvadı edə
bilər. [14] Əgər o sənin sonradan xoşuna
gəlməzsə, könlü istədiyi kimi onu azad
burax. Qadını pula satma və qul kimi
rəftar etmə, çünki onu zəlil etmisən.

İlk oğulluq haqqı

[15] Əgər bir kişinin iki arvadı varsa,
birini sevib digərini sevmirsə və hər iki
qadın ona oğul doğmuşsa, sevmədiyi
qadından doğulan oğul ilk oğludursa,
[16] bu kişi əmlakını irs olaraq oğulları
arasında bölləndə ilk oğulluq haqqını
sevdiyi qadının oğluna verə bilməz.
[17] Sevmədiyi qadının oğlunu ilk oğul
olaraq tanısın və bölünən malın ikiqat
payını ona versin, çünki gücünün ilk
yadigarıdır. Ona görə də ilk oğulluq
haqqı onundur.

Sözə baxmayan oğul

[18] Əgər bir adamın dikbaş, itaətsiz,
valideynlərinə qulaq asmayan,
ata-ana tərbiyəsinə məhəl qoymayan
bir oğlu varsa, [19] valideynləri onu
götürüb şəhərin darvazasına, şəhərin
ağsaqqallarının yanına gətirsinlər.
[20] Şəhər ağsaqqallarına belə desinlər:
“Bizim oğlumuz dikbaş və itaətsizdir.
Heç sözümüzə baxmır, qarınqulu və
əyyaşdır. [21] Onda şəhərin əhalisi onu
daşqalaq edib öldürəcək. Beləliklə,

aranızdan pisliyi atın. Qoy bütün
İsraillilər bu xəbəri eşidib qorxsunlar”.

Digər qanunlar

22 [y]Əgər bir adam bir günahdan
ötrü ölüm cəzasına məhkum olunub
ağacdan asılırsa, 23 meyiti gecə ağacda
asılı qoymayın, mütləq onu həmin
gün basdırın, çünki asılan adam
Allahın lənətinə düçar olub. Allahınız
Rəbbin irs olaraq sizə verəcəyi torpağı
murdarlamayın.

22 [z]Soydaşının itmiş öküz və
ya qoyununu görsən, özünü
görməməzliyə vurma. Mütləq
öküzü və ya qoyunu soydaşına geri
qaytarmalısan. 2 Soydaşın səndən
uzaqdadırsa ya da heyvanın kimə aid
olduğunu bilmirsənsə, onu öz evinə
apar. Soydaşın onu axtara-axtara sizə
gələnədək qoy bu heyvan evində qalsın.
Sonra onu geri qaytar. 3 Soydaşının
eşşəyini, paltarını yaxud itirdiyi başqa
şeyləri tapanda da bu cür etməlisən.
Özünü görməməzliyə vurma. 4 Görəndə
ki soydaşının eşşəyi yaxud öküzü yolda
yıxılıb, özünü görməməzliyə vurma.
Mütləq heyvanı ayağa qaldırmaq üçün
soydaşına kömək et.
5 Qadın kişi paltarı, kişi də qadın
paltarı geyinməsin, çünki belə şeyləri
edən hər kəs Allahınız Rəbbə iyrənc
görünür.
6 Əgər təsadüfən yolda, ağacda
yaxud torpaq üzərində bir quş yuvası
görsən və ana quş balalarının ya da
yumurtalarının üzərində oturmuşsa,
ana quşu balaları ilə birlikdə götürmə.
7 Özün üçün balalarını götürə bilərsən,
amma mütləq anasını buraxmalısan.
Belə etsən, güzəranın xoş, ömrün uzun
olar.
8 Yeni tikdiyin evin damının kənarına
sürahi çək ki, kimsə damından yıxılıb
ölsə, qanı evinin üstünə düşməsin.
9 [a]Bağında iki növ toxumu qarışdırıb
əkmə. Belə etsən, əkdiyin toxumun da,
bağın da məhsulundan istifadə etmək
sənə qadağandır.
10 Kotan sürmək üçün eşşəklə öküzü
yanaşı qoşma.
11 Yunla kətandan toxunmuş qarışıq
parçadan paltar geyinmə.
12 [b]Əbanın dörd tərəfinə qotaz sal.

Cinsi təmizliyə aid qanunlar

13 Əgər bir nəfər arvad alıb yaxınlıq
edəndən sonra onu bəyənməzsə, 14 ona
şər ataraq adını ləkələyib “bu qızı aldım,
onunla yaxınlıq edəndən sonra gördüm
ki, bakirə deyil” deyərsə, 15 onda
ata-anası qızın “üzağlıq mələfəsini”
darvazaya – şəhər ağsaqqallarının
yanına gətirsin. 16 Qızın atası şəhər
ağsaqqallarına belə desin: “Bu adama
qızımı arvad olaraq verdim. İndi
qızımı bəyənmir. 17 ‹Gördüm ki, sənin
qızın bakirə deyil› deyərək mənim
qızımın adını ləkələyir. Bu isə qızımın
‹üzağlıq mələfəsidir›”. Mələfə şəhərin
ağsaqqallarının qarşısına sərilsin.
18 Şəhərin ağsaqqalları isə o adama
cəza versin. 19 Onu yüz şekel gümüş pul
cəzasına məhkum edib gənc qadının
atasına versinlər, çünki o adam İsraildə
bir qızın adını ləkələyib. Bu qadın
həmin adamın arvadı olacaq və ömrü
boyu onu boşaya bilməz.
20 Əgər iddia doğrudursa, gənc
qadının üzağlığı tapılmazsa, 21 onda
gənc qadını ata evinin qapısına
çıxarsınlar. Şəhər sakinləri onu daşqalaq
edib öldürsünlər, çünki ata evində zina
etməklə İsraildə namussuzluq edib.
Beləliklə, aranızdan pisliyi atın.

---

[y]**21:22** Qal. 3:13-14 [z]**22:1** Çıx. 23:4-5 [a]**22:9** Lev. 19:19
[b]**22:12** Say. 15:37-41

22 Kim başqasının arvadı ilə yataqda
tutulsa, o zaman o kişi və qadın – hər
ikisi öldürülsün. Beləliklə, İsraildən
pisliyi atın.
23 Əgər bir qız kiməsə nişanlıdırsa,
şəhərdə kimsə onu tapıb cinsi yaxınlıq
etsə, 24 o zaman onların ikisini də o
şəhərin darvazasına çıxararaq daşqalaq
edib öldürün. Şəhərdə olduğu halda
qışqırmadığı üçün qızı, yaxınının
nişanlısını ləyaqətsiz etdiyi üçün kişini
öldürün. Beləliklə, İsraildən pisliyi atın.
25 Əgər bir kişi nişanlı qıza çöldə
rast gəlsə, onu zorlasa, onunla cinsi
yaxınlıq etsə, o zaman yalnız onunla
cinsi yaxınlıq edən kişi öldürülsün.
26 Gənc qadına heç nə etməyin, çünki
onda ölümə layiq günah yoxdur. Ona
görə ki bir adam qonşusuna necə hücum
edib öldürərsə, bu iş də elədir. 27 Çünki
kişi qıza çöldə rast gəlib. Nişanlı qız
nə qədər qışqırsa da, köməyinə çatan
olmayıb.
28 [c]Əgər kimsə nişanlanmamış bakirə
bir qıza rast gəlib onu zorlayarsa və
onlar tapılarsa, 29 o zaman onunla cinsi
yaxınlıq edən adam qızın atasına əlli
şekel gümüş versin və həmin qız onun
arvadı olsun, çünki onu zəlil etmişdir.
O, qadını ömrü boyu boşaya bilməz.
30 [d]Kimsə atasının arvadını almasın
və atasının nikahını ləkələməsin.

Camaat arasına daxil ola bilməyənlər

23 Cinsiyyət üzvü əzilmiş ya da
kəsilmiş şəxs Rəbbin camaatı
arasına daxil ola bilməz.
2 Qeyri-qanuni doğulan şəxs Rəbbin
camaatı arasına daxil ola bilməz. Onun
övladları, hətta onuncu nəslə qədər
olanı Rəbbin camaatı arasına daxil ola
bilməz.
3 [e]Heç bir Ammonlu və yaxud Moavlı
Rəbbin camaatı arasına daxil ola
bilməz. Onların heç bir övladı, hətta
onuncu nəslə qədər olanlar da Rəbbin
camaatı arasına əsla daxil ola bilməz,
4 [f]çünki onlar Misirdən çıxdığınız
zaman yolda sizi çörək və su ilə
qarşılamadılar. Sizə lənət oxumaq üçün
Aram-Naharayimdəki Petor şəhərindən
Beor oğlu Bilamı muzdla tutdular.
5 [g]Lakin Allahınız Rəbb Bilamı dinləmək
istəmədi. Ona görə də Allahınız Rəbb
bu lənəti xeyir-duaya çevirdi, çünki O
sizi sevir. 6 [h]Nə qədər ömrünüz varsa,
onların xeyri və rifahı üçün çalışmayın.
7 Edomlulara isə ikrahla yanaşmayın,
çünki onlar sizin qohumlarınızdır.
Misirlilərə də ikrahla yanaşmayın,
çünki torpaqlarında qərib olmusunuz.
8 Onlardan doğulanların üçüncü nəsli
Rəbbin camaatı arasına daxil ola bilər.

Ordugahın təmizliyi

9 Düşmənlərinizlə döyüşmək üçün
ordugah quranda özünüzü hər cür
murdarlıqdan qoruyun. 10 Əgər gecə
yatarkən aranızda toxumu tökülən şəxs
olarsa, o, ordugahdan kənara çıxsın və
buraya daxil olmasın. 11 Axşamadək
yuyunsun və gün batandan sonra
ordugaha qayıtsın.
12 Ordugahınızdan kənarda ayaqyolu
üçün yer təyin edin. 13 Sursatınız
arasında yer qazmaq üçün bel də
olsun ki, ayaqyoluna gedəndə ifrazatın
üstünü basdıra biləsiniz. 14 Çünki sizi
qurtarmaq və düşmənlərinizi sizə
təslim etmək üçün ordugahınızın içində
Allahınız Rəbb gedir. Ordugahınız
müqəddəs olsun ki, Rəbb natəmiz bir
şey görüb sizdən üz döndərməsin.

---

[c]**22:28** Çıx. 22:16-17 [d]**22:30** Lev. 18:8; 20:11; Qanun. 27:20; 1Kor. 5:1
[e]**23:3** Neh. 13:1-2 [f]**23:4** Say. 22:1-6 [g]**23:5** Say. 23:7–24:9
[h]**23:6** Ezra 9:12

Müxtəlif qanunlar

15 Ağasının yanından sizin yanınıza
qaçan qulu ağasına qaytarmayın. 16 Qoy
öz seçdiyi yerdə, bəyəndiyi bir şəhərdə
aranızda yaşasın. Ona əzab verməyin.
17 [i]İsrailli qadın və kişilər arasından
heç kim məbəd fahişəliyi etməsin.
18 Qadının və ya kişinin fahişəliklə
qazandığı qazancı Allahınız Rəbbin
məbədinə təqdim etməyin. Hər ikisi
Allahınız Rəbbin gözündə iyrəncdir.
19 [j]Soydaşınıza pulu, ərzağı və yaxud
da faiz gətirən başqa bir şeyi sələmlə
borc verməyin. 20 Yadellidənsə faiz
ala bilərsiniz, amma soydaşlarınızdan
almayın ki, Allahınız Rəbb mülk olaraq
almaq üçün gedəcəyiniz torpaqda əl
atdığınız hər işə xeyir-dua versin.
21 [k]Allahınız Rəbbə bir əhd təqdimi
edəcəyinizi söyləyəndə gecikdirməyin,
çünki Allahınız Rəbb mütləq
bunu sizdən istəyəcək. Onu yerinə
yetirməməyiniz günahdır. 22 Amma əhd
etməkdən çəkinirsinizsə, bu, günah
deyil. 23 Ağzınızdan çıxanı yerinə
yetirməyə diqqət edin, çünki Allahınız
Rəbbə əhd edərək ürəkdən təqdim
etməlisiniz.
24 Qonşunuzun bağına girəndə
doyunca üzüm yeyə bilərsiniz, amma
səbətinizə yığmayın. 25 [l]Qonşunuzun
zəmisinə girəndə əlinizlə başaq yığa
bilərsiniz, amma zəmiyə oraq vurmayın.
24 [m]Kimsə bir qadını alıb, evlilik
zamanı onda ləyaqətsiz bir şey
tapdığı üçün qadını bəyənməzsə, talaq
kağızı yazıb əlinə verərək evindən
çıxararsa, 2 evdən çıxmış qadın sonra
başqa kişiyə ərə gedə bilər. 3 O biri kişi
də onu bəyənməzsə, ona talaq kağızı
yazıb əlinə verərək evdən çıxararsa
və yaxud onu alan kişi ölərsə, 4 onu
evdən çıxarmış əvvəlki əri onu təkrar
özünə arvad edə bilməz, çünki qadını
ləkələmişdir. Bu, Rəbbin hüzurunda
iyrəncdir. Allahınız Rəbbin sizə irs
olaraq verəcəyi ölkədə belə günaha yol
verməyin.
5 Təzə evlənən adam döyüşə getməsin.
Ona heç bir iş tapşırmayın. Qoy bir
il evində sərbəst qalıb aldığı arvadı
sevindirsin.
6 Dəyirmanı yaxud üst daşını kimsə
girov götürməsin, çünki o adamın
həyatını girov götürmüş olur.
7 [n]Əgər İsrail övladları arasında kimsə
soydaşını oğurlayıb onunla kölə kimi
rəftar edərsə yaxud onu satarsa, bu oğru
öldürülməlidir. Beləliklə, aranızdan
pisliyi atın.
8 [o]Cüzam xəstəliyinə tutulanda
Levili kahinlərin əmr etdiyi kimi sizə
öyrədəcəkləri hər şeyə əməl etməyə
həssiz diqqət göstərin. 9 [p]Misirdən çıxan
zaman Allahınız Rəbbin yolda Məryəmə
etdiyi hər şeyi xatırlayın.
10 [q]Qonşunuza bir şey borc verəndə
girovu onun evinə girərək özünüz
götürməyin. 11 Bayırda dayanın, borc
verdiyiniz adam qoy özü girovu bayıra
çıxarsın. 12 Əgər o adam kasıbdırsa,
onun girovu sizdə ola-ola yatmayın.
13 Girov götürdüyünüzün üst paltarını
mütləq gün batanda geri qaytarın ki, o
öz üst paltarında yatıb sizə xeyir-dua
etsin və bu, Allahınız Rəbbin önündə
sizin üçün salehlik sayılsın.
14 [r]Muzdla işləyəni, kasıb və
möhtac bir İsrailli soydaşınızı yaxud
şəhərlərinizdə yaşayan hər hansı bir
qəribi istismar etməyin. 15 Muzdunu hər

---

[i]**23:17** Lev. 19:29 [j]**23:19** Çıx. 22:25; Lev. 25:36-37; Qanun. 15:7-11 [k]**23:21** Say. 30:1-16; Mat. 5:33 [l]**23:25** Mat. 12:1; Mark 2:23; Luka 6:1 [m]**24:1** Mat. 5:31; 19:7; Mark 10:4 [n]**24:7** Çıx. 21:16 [o]**24:8** Lev. 13:1–14:54 [p]**24:9** Say. 12:10 [q]**24:10** Çıx. 22:26-27 [r]**24:14** Lev. 19:13; Yaq. 5:4

gün gün batmazdan əvvəl verin, çünki
kasıbdır, ümidini yalnız ona bağlayıb.
Yoxsa sizdən Rəbbə fəryad edər və siz
günahkar sayılarsınız.
16 [s]Oğula görə ata, ataya görə oğul
öldürülməsin, hər kəs öz günahına görə
öldürülsün.
17 [t]Qəribi və yetimi ədalətdən məhrum
etməyin və dul qadının geyimini girov
götürməyin. 18 Misirdə kölə olan zaman
Allahınız Rəbbin sizi oradan necə
qurtardığını xatırlayın. Bunun üçün
belə rəftar etməyi sizə əmr edirəm.
19 [u]Zəminizdə əkini biçən zaman bir
dərz unutmusunuzsa, onu götürmək
üçün geri qayıtmayın. Qoy o qəribin,
yetimin və dul qadının olsun. Onda
Allahınız Rəbb ələ götürdüyünüz hər
işdə sizə bərəkət verəcək. 20 Ağacları
döyüb zeytun yığan zaman budaqlarda
qalanı dənləmək üçün geri qayıtmayın.
Qoy o, qəribin, yetimin və dul qadının
olsun. 21 Bağınızın üzümlərini yığan
zaman tənəklərdə qalan məhsulu
toplamaq üçün geri qayıtmayın. Qoy o,
qəribin, yetimin və dul qadının olsun.
22 Misir torpağında kölə olduğunuzu
xatırlayın. Bunun üçün belə rəftar
etməyi sizə əmr edirəm.

25 İnsanlar arasında münaqişə
olarsa, qoy onlar məhkəməyə
getsinlər. Hakimlər bu işə baxıb
haqlı adama bəraət, haqsıza isə
cəza versinlər. 2 Əgər təqsirkar adam
kötəklənməyə layiqdirsə, qoy hakim
onu yerə uzandırıb kötəyi günahının
ağırlığına görə vurdursun. 3 [v]Təqsirkara
qırx zərbədən artıq vurulmasın. Əgər
qırxdan çox zərbə vursanız, soydaşınız
göz önündə zəlil ola bilər.
4 [w]Xırman çəkən öküzün ağzını
bağlama.
5 [x]Əgər qardaşlar bir yerdə
yaşayırlarsa, onlardan biri ölərsə
və ölənin oğlu olmazsa, dul qadın başqa
ailədən olan bir adama ərə getməsin.
Qaynı yanına gəlib onu arvad olaraq
alsın və qayın-qəyyumluq vəzifəsini
yerinə yetirsin. 6 Qadının doğacağı ilk
oğul mərhumun adını yaşatsın. Qoy
İsraildə mərhumun adı batmasın. 7 [y]Kim
mərhum qardaşının dul arvadını almaq
istəməzsə, dul qadın darvazada yerləşən
ağsaqqalların yanına getsin və belə
desin: “Qaynım İsraildə qardaşının adını
yaşatmaqdan imtina edir. Mənim üçün
qayın-qəyyumluq vəzifəsini icra etmək
istəmir”. 8 Onda şəhər ağsaqqalları
onun qaynını çağırıb danışacaqlar.
Əgər o inad edib yenə də “onu
almıram” desə, 9 o zaman həmin qadın
ağsaqqallar qarşısında gəlib qaynının
çarığını çıxararaq üzünə tüpürsün və
“qardaşının nəslini yaşatmayana belə
edilir” desin. 10 İsraildə onun nəsli
“çarığı çıxarılanın nəsli” adlanacaq.
11 Əgər dalaşan iki kişinin
arvadlarından hansısa ərini döyən
kişinin əlindən qurtarmaq üçün gəlib
əl uzatsa və o biri kişinin cinsiyyət
üzvündən yapışsa, 12 belə qadına rəhm
etmədən onun əlini kəsin.
13 [z]Aldatmaq üçün torbanızda biri
ağır, digəri yüngül çəkən iki cür çəki
daşı olmasın. 14 Evinizdə biri böyük,
digəri kiçik ölçən iki cür ölçü əşyası
olmasın. 15 Çəki daşınız, ölçünüz düzgün
və dəqiq olsun ki, Allahınız Rəbbin sizə
verəcəyi torpaqda uzun ömür sürəsiniz.

---

[s]**24:16** 2Pad. 14:6; 2Saln. 25:4; Yez. 18:20
[t]**24:17** Çıx. 23:9; Lev. 19:33-34; Qanun. 27:19 [u]**24:19** Lev. 19:9-10; 23:22
[v]**25:3** 2Kor. 11:24 [w]**25:4** 1Kor. 9:9-10; 1Tim. 5:18
[x]**25:5** Mat. 22:23-24; Mark 12:18-19; Luka 20:27-28 [y]**25:7** Rut 4:7-8
[z]**25:13** Lev. 19:35-36

16 Çünki Allahınız Rəbb belə pis işlər
görən və haqsızlıq edənlərə nifrət edir.
17 [a]Misirdən çıxanda Amaleqlilərin
yolda sizə nə etdiyini yada salın.
18 Siz yorulub əldən düşərkən onlar
yolda sizə hücum etdilər, arxada
qalan bütün gücsüzləri qırdılar,
Allahdan qorxmadılar. 19 Allahınız
Rəbb mülk etmək üçün irs olaraq
sizə verəcəyi torpaqda və ətrafınızda
olan düşmənlərin hamısından qurtarıb
rahatlıq verəndə səma altından
Amaleqlilərin xatirəsini silin və bunu
unutmayın.

İlk məhsul və onda bir hissə

26 Allahınız Rəbbin irs olaraq sizə
verəcəyi torpağa girib orada
məskunlaşanda 2 [b]Allahınız Rəbbin
sizə verəcəyi ölkənin torpaqlarından
topladığınız bütün məhsulların nübarını
götürüb bir səbətə yığın. Sonra Allahınız
Rəbbin Öz isminə məskən seçəcəyi
yerə gedin. 3 O dövrdə xidmət edən
kahinin yanına gedib deyin: “Allahın
Rəbbə bu gün bəyan edirəm ki, Rəbbin
atalarımıza vəd etdiyi ölkəyə çatdım”.
4 Kahin əlinizdən səbəti alıb onu
Allahınız Rəbbin qurbangahı önündə
yerə qoysun. 5 Allahınız Rəbbin önündə
bunu bəyan edin: “Atam köçəri Aramlı
idi. Azsaylı olaraq Misirə enib orada
məskunlaşdı və ondan böyük, güclü,
çoxsaylı millət törədi. 6 Misirlilər
bizimlə pis rəftar etdilər. Bizi zəlil
edib üzərimizə ağır işlər yüklədilər.
7 Onda atalarımızın Allahı Rəbbə fəryad
qopardıq və Rəbb səsimizi eşitdi.
Əzabımızı, əziyyətimizi və zəlalətimizi
gördü. 8 Rəbb qüdrətli əli, uzanan qolu,
böyük zəhmi, əlamət və möcüzələri ilə
bizi Misirdən çıxartdı. 9 O bizi bu yerə
gətirərək süd və bal axan bu torpağı bizə
verdi. 10 İndi, ya Rəbb, mənə verdiyin
torpağın məhsulunun nübarını Sənə
gətirmişəm”. Sonra səbəti Allahınız
Rəbbin önünə qoyub Onun qarşısında
səcdə edin. 11 Siz, Levililər, aranızda
yaşayan qəriblər Allahınız Rəbbin sizə
və ailənizə verdiyi bütün yaxşı şeylər
üçün sevinəcəksiniz.
12 [c]Üçüncü il onda bir hissəni
təqdimetmə ilidir. Bütün məhsulunuzun
onda birini bir yana yığın. Ayırma işini
qurtarandan sonra onda bir hissəni
Levililərə, qəriblərə, yetimlərə və
dul qadınlara verin ki, şəhərlərinizdə
onlar da yeyib-doysunlar. 13 Sonra
Allahınız Rəbbə deyin: “Mənə əmr
etdiyin kimi Rəbb yolunda ayırdıqlarımı
evdən çıxarıb Levililərə, qəriblərə,
yetimlərə və dul qadınlara verdim.
Əmrlərindən çıxmadım, heç birini
yaddan çıxarmadım. 14 Bu paydan yas
tutarkən yemədim, onu evdən çıxaranda
murdar deyildim və onu ölülərə təqdim
etmədim. Allahım Rəbbin sözünə qulaq
asdım. Mənə əmr etdiklərinin hamısını
yerinə yetirdim. 15 Ya Rəbb, indi
müqəddəs məskənindən – göylərdən
aşağıya bax. Xalqın İsrailə, atalarımıza
etdiyin anda görə bizə verdiyin torpağa
– süd və bal axan torpağa xeyir-dua
ver”.

Allahın Öz xalqı

16 Bu gün Allahınız Rəbb bu
qaydalara, hökmlərə əməl etməyi sizə
buyurur. Onlara bütün qəlbinizlə, bütün
varlığınızla əməl etmək üçün diqqətli
olun. 17 Bu gün Rəbbin Allahınız
olduğunu, Onun yolları ilə gedəcəyinizi,
qanunlarına, əmrlərinə, hökmlərinə
riayət edəcəyinizi, Onun sözünə qulaq
asacağınızı bəyan etdiniz. 18 [d]Bu gün
Rəbb sizə verdiyi sözə görə bəyan etdi

---

[a]**25:17** Çıx. 17:8-14; 1Şam. 15:2-9 [b]**26:2** Çıx. 23:19 [c]**26:12** Qanun. 14:28-29
[d]**26:18** Çıx. 19:5; Qanun. 4:20; 7:6; 14:2; Titə 2:14; 1Pet. 2:9

ki, Ona məxsus xalq olasınız. Ona görə
də bütün əmrlərinə riayət etməlisiniz.
19 O zaman dediyi kimi Allahınız Rəbb,
yaratdığı bütün millətlərdən tərifdə,
şöhrətdə və hörmətdə sizi üstün edəcək
ki, Allahınız Rəbb üçün təqdis edilmiş
xalq olasınız».

Eval dağındakı qurbangah

27 Musa ilə İsrailin ağsaqqalları
xalqa belə dedilər: «Bu gün
sizə buyurduğum bütün əmrlərə
riayət edin. 2 [e]İordan çayını keçib
Allahınız Rəbbin sizə verəcəyi torpağa
gedəndə böyük daşları dik qoyub
əhəngləyin. 3 Atalarınızın Allahı Rəbbin
vəd etdiyi kimi Onun sizə verəcəyi
ölkəyə – süd və bal axan torpağa
girəndə bu qanunun bütün sözlərini
bu daşlara yazın. 4 Bu daşları bu gün
sizə əmr etdiyim kimi İordan çayını
keçəndən sonra Eval dağında dikəldib
əhəngləyin. 5 [f]Orada Allahınız Rəbbə
dəmir alət vurulmamış daşlardan bir
qurbangah düzəldin. 6 Allahınız Rəbbin
qurbangahını yonulmamış daşlardan
düzəldib üzərində Allahınız Rəbbə
yandırma qurbanları təqdim edin.
7 Ünsiyyət qurbanlarını orada kəsib
yeyərək Allahınız Rəbbin önündə
sevinin. 8 Bu qanunun bütün sözlərini
bu daşlara aydın, oxunabilən tərzdə
yazın».
9 Sonra Musa ilə Levili kahinlər bütün
İsraillilərə belə müraciət etdilər: «Ey
İsraillilər, sakitcə qulaq asın! Bu gündən
siz Allahın xalqı oldunuz. 10 Bu gün
sizə buyurduğum kimi Allahınız Rəbbin
sözlərinə qulaq asıb Onun əmrlərinə,
qanunlarına və qaydalarına əməl edin».

Eval dağından lənətlər

11 O gün Musa xalqa belə dedi:
12 [g]«İordan çayını keçəndə xalqa
xeyir-dua vermək üçün bu qəbilələr
Gerizim dağında dursun: Şimeon, Levi,
Yəhuda, İssakar, Yusif, Binyamin.
13 Lənətləmək üçün bu qəbilələr Eval
dağında dursun: Ruven, Qad, Aşer,
Zevulun, Dan, Naftali. 14 Levililər bütün
İsrail xalqına ucadan belə müraciət
etsin:
15 [h]"Qoy Rəbbin iyrəndiyi, bir
sənətkarın əl işi olan oyma və ya
tökmə büt yaradana, gizlicə belə
şeylər saxlayana lənət olsun!"
Bütün xalq cavab versin: "Amin!"
16 [i]"Qoy ata-anası ilə hörmətsiz
rəftar edənə lənət olsun!"
Bütün xalq desin: "Amin!"
17 [j]"Qoy qonşusunun sərhədini
dəyişdirənə lənət olsun!"
Bütün xalq desin: "Amin!"
18 [k]"Qoy kor olanı yoldan azdırana
lənət olsun!"
Bütün xalq desin: "Amin!"
19 [l]"Qoy qəribə, yetimə, dul qadına
haqsızlıq edənə lənət olsun!"
Bütün xalq desin: "Amin!"
20 [m]"Qoy atasının arvadı ilə yatana
lənət olsun! Çünki o, atasının
nikahını ləkələmişdir".
Bütün xalq desin: "Amin!"
21 [n]"Qoy hər hansı bir heyvanla
cinsi əlaqəyə girənə lənət olsun!"
Bütün xalq desin: "Amin!"

---

[e] **27:2** Yeşua 8:30-32 [f] **27:5** Çıx. 20:25 [g] **27:12** Qanun. 11:29; Yeşua 8:33-35
[h] **27:15** Çıx. 20:4; 34:17; Lev. 19:4; 26:1; Qanun. 4:15-18; 5:8
[i] **27:16** Çıx. 20:12; Qanun. 5:16 [j] **27:17** Qanun. 19:14 [k] **27:18** Lev. 19:14
[l] **27:19** Çıx. 22:21; 23:9; Lev. 19:33-34; Qanun. 24:17-18
[m] **27:20** Lev. 18:8; 20:11; Qanun. 22:30; 1Kor. 5:1
[n] **27:21** Çıx. 22:19; Lev. 18:23; 20:15

22 [o]"Qoy anadan yaxud atadan bir
olan bacısı ilə yatana lənət olsun!"
Bütün xalq desin: "Amin!"
23 [p]"Qoy qayınanası ilə yatana lənət
olsun!"
Bütün xalq desin: "Amin!"
24 "Qoy gizlicə qonşusunu öldürənə
lənət olsun!"
Bütün xalq desin: "Amin!"
25 "Qoy günahsız qan tökmək üçün
rüşvət alana lənət olsun!"
Bütün xalq desin: "Amin!"
26 [q]"Qoy bu Qanunun sözlərini
əməldə təsdiq etməyənə lənət
olsun!"
Bütün xalq desin: "Amin!"

Xeyir-dualar

(Lev. 26:3-13; Qanun. 7:12-24)

28 [r]Əgər Allahınız Rəbbin sözlərinə
yaxşı-yaxşı qulaq asıb bu gün
sizə buyurduğum bütün əmrlərinə
riayət etsəniz, Allahınız Rəbb sizi yer
üzündəki bütün millətlərdən üstün
edəcək. 2 Allahınız Rəbbin sözünü
dinləsəniz, bütün bu xeyir-dualar sizə
gələcək və üzərinizdə qalacaq.
3 Şəhərdə və çöldə xeyir-dualı
olacaqsınız.
4 Doğulan övladlarınız, torpağınızın
məhsulları, heyvanlarınızın, mal-qara
və qoyun-keçilərinizin balaları artımlı
olacaq.
5 Səbət və xəmir təknələriniz bərəkətli
olacaq.
6 Hər girişiniz, hər çıxışınız xeyir-dualı
olacaq.
7 Rəbb sizə hücum edən
düşmənlərinizi önünüzdə məğlub
edəcək. Onlar sizə bir yoldan hücum
edəndə önünüzdən yeddi yolla qaçacaq.
8 Rəbb anbarlarınıza, əl atdığınız hər
işə "Bərəkətli olsun!" deyə əmr verəcək
və Allahınız Rəbb sizə verəcəyi torpağa
bərəkət yağdıracaq.
9 Allahınız Rəbbin əmrlərinə riayət
etsəniz, Onun yolları ilə getsəniz, Rəbb
vəd etdiyi kimi sizi Özü üçün müqəddəs
bir xalq kimi qoruyacaq. 10 Yer
üzərindəki bütün xalqlar Rəbbə məxsus
olduğunuzu görüb sizdən qorxacaq.
11 Rəbb atalarınıza vəd etdiyi torpaqda
sizi bolluq içərisində yaşadacaq.
Doğulan övladlarınızın nəslini
artırıb-çoxaldacaq, heyvanlarınızın
balalarını, torpağınızın məhsulunu
artımlı edəcək. 12 Rəbb torpağınıza
yağışı vaxtlı-vaxtında yağdıracaq və
bütün zəhmətinizə bərəkət vermək üçün
göylərdən zəngin xəzinəsini açacaq.
Siz bir çox millətlərə borc verəcək,
lakin heç kimdən borc almayacaqsınız.
13 Rəbb sizi quyruq deyil, baş edəcək.
Əgər bu gün sizə buyurduğum Allahınız
Rəbbin əmrlərinə qulaq assanız, onlara
dəqiq əməl etsəniz, aşağıda deyil, hər
zaman yuxarıda olacaqsınız. 14 Bu gün
sizə buyurduğum əmrlərdən kənara
çıxmayın, başqa allahların ardınca
getməyin, onlara sitayiş etməyin.

Lənətlər

(Lev. 26:14-46)

15 Amma Allahınız Rəbbin sözünə
qulaq asmasanız, bu gün sizə
buyurduğum əmrlərin, qaydaların
hamısına dəqiq əməl etməsəniz, bu
lənətlər gəlib üzərinizə töküləcək.
16 Şəhərdə və çöldə lənət
qazanacaqsınız.
17 Səbət və xəmir təknələriniz lənətli
olacaq.
18 Doğulan övladlarınız,
torpaqlarınızın məhsulları, mal-qara
və qoyun-keçilərinizin balaları lənətə
düçar olacaq.

---

[o]**27:22** Lev. 18:9; 20:17 [p]**27:23** Lev. 18:17; 20:14 [q]**27:26** Qal. 3:10
[r]**28:1** Qanun. 11:13-17

19 Hər girişiniz, hər çıxışınız lənətli
olacaq.
20 Rəbb əl atdığınız hər işdə üzərinizə
lənət göndərəcək, sizi vahiməyə
salıb çaşdıracaq. Nəhayət, Rəbdən üz
döndərib pislik etdiyinizə görə tezliklə
sizə ziyan vurub həlak edəcək. 21 Rəbb
mülk olaraq almaq üçün gedəcəyiniz
torpaqdan sizi yox edənədək vəbaya
düçar edəcək. 22 O sizi vərəm, qızdırma,
iltihab, insanı qovuran istilik, quraqlıq,
səmum küləyi və kiflə cəzalandıracaq.
Siz yox olana qədər bunlar sizdən əl
çəkməyəcək. 23 Başınız üzərində olan
göylər tunc, ayağınız altındakı yer isə
dəmir kimi olacaq. 24 Rəbb ölkənizə
yağış əvəzinə toz-torpaq yağdıracaq.
Siz həlak olana qədər göydən üzərinizə
bunlar yağacaq.
25 Rəbb sizi düşmənlərinizin önündə
məğlub edəcək, onlara bir yoldan
hücum edəndə önlərindən yeddi
yolla qaçacaqsınız. Dünyanın bütün
ölkələrinə dəhşətli ibrət olacaqsınız.
26 [s]Cəsədləriniz göydəki quşlara,
yerdəki heyvanlara yem olacaq, onları
ürküdüb qovan olmayacaq. 27 Rəbb
sizi sağalmaz Misir çibanları, şişlər,
xoralar, qoturlarla cəzalandıracaq.
28 O sizi cəzalandıraraq dəli və kor
edəcək, ürəyinizi qubarladacaq.
29 Günorta vaxtı kor adam qaranlıqda
əl toxundura-toxundura gəzdiyi kimi
gəzəcəksiniz. Hər işiniz uğursuz
olacaq, daim iztirab çəkəcək və talan
olacaqsınız. Sizi qurtaran olmayacaq.
30 Nişanlandığınız qızla
başqası yatacaq. Tikdiyiniz evdə
yaşamayacaqsınız. Saldığınız
bağın məhsulunu dərməyəcəksiniz.
31 Öküzünüz gözünüz önündə
kəsiləcək, ətindən yeməyəcəksiniz.
Eşşəklériniz sizdən zorla alınacaq
və geri qaytarılmayacaq. Sürüləriniz
düşmənlərinizə veriləcək və sizi
qurtaran olmayacaq. 32 Oğullarınız
və qızlarınız gözünüz önündə başqa
bir xalqa təslim ediləcək və onların
həsrətindən günbəgün gözlərinizin
nuru sönəcək. Əlinizdən isə heç nə
gəlməyəcək. 33 Torpağınızın və bütün
zəhmətinizin məhsulunu tanımadığınız
bir xalq yeyəcək, siz isə daima iztirab
çəkəcək və əziləcəksiniz. 34 Gözlərinizlə
gördüklériniz ağlınızı başınızdan
çıxaracaq. 35 Rəbb dizlərinizə,
baldırlarınıza təpədən dırnağa qədər
sağalmaz çibanlar çıxararaq sizi
cəzalandıracaq.
36 Rəbb sizi, öz üzərinizə təyin
etdiyiniz padşahı sizin də, atalarınızın
da tanımadığı bir millətə əsir
apartdıracaq. Orada ağacdan, daşdan
düzəldilmiş yad allahlara sitayiş
edəcəksiniz. 37 Rəbbin sizi əsir etdiyi
xalqlar arasında heyrət, məsəl və kinayə
hədəfinə çevriləcəksiniz.
38 Zəmiyə çox toxum səpib, az
yığacaqsınız, çünki onu çəyirtkə
yeyib qurtaracaq. 39 Üzüm bağları
salacaq, becərəcəksiniz, lakin
üzümündən dərməyəcək, şərabından
içməyəcəksiniz, çünki onlara qurd
düşəcək. 40 Torpağınızın hər tərəfində
zeytun ağacları bitsə də, onlardan yağ
çəkə bilməyəcəksiniz, çünki zeytun
ağaclarınız öz meyvəsini tökəcək.
41 Oğullarınız, qızlarınız olacaq, lakin
yanınızda qalmayacaq, çünki əsir
düşəcəklər. 42 Bütün ağaclarınızın və
əkin sahələrinizin bəhərinə çəyirtkələr
daraşacaq.
43 Aranızda yaşayan yadellilər sizdən
olduqca üstün olacaq, siz aşağı endikcə
enəcəksiniz. 44 Sizə onlar borc verəcək,
siz onlara borc verə bilməyəcəksiniz,
onlar baş, siz isə quyruq olacaqsınız.

---

[s]**28:26** Yer. 7:33

45 Bu lənətlərin hamısı sizin üzərinizə
töküləcək. Sizi həlak olanadək qovub
yaxalayacaqlar, çünki Allahınız Rəbbin
sözünə qulaq asmadınız, sizə buyurduğu
əmrlərə və qaydalara riayət etmədiniz.
46 Bunlar sizə və övladlarınıza əbədi bir
əlamət, bir möcüzə olacaq.
47 Madam ki bolluq vaxtında
Allahınız Rəbbə sevinclə və xoşluqla
itaət etmədiniz, 48 Rəbbin sizə qarşı
göndərdiyi düşmənlərə ac-susuz, çılpaq
və hər cür ehtiyac içərisində qulluq
edəcəksiniz. Rəbb sizi həlak edənə
qədər boynunuza dəmir boyunduruq
salacaq.
49 Rəbb uzaqdan, dünyanın
ucqarlarından bir milləti – dilini
başa düşmədiyiniz bir milləti qartal
kimi üzərinizə şığıdacaq. 50 Bu elə sərt
sifətli bir millətdir ki, nə qocaların
şəxsiyyətinə hörməti var, nə də
uşaqlara rəhmi gəlir. 51 Bu millət sizi
həlak edənə qədər heyvanlarınızın
balalarını, torpağınızın məhsulunu
yeyib qurtaracaq, sizin üçün nə
taxıl, nə təzə şərab, nə zeytun yağı, nə
mal-qaranızın, nə də qoyun-keçilərinizin
balalarını qoymayacaq. 52 Bütün
şəhərlərinizi mühasirəyə alıb
ölkənizdəki güvəndiyiniz möhkəm
və hündür divarlarınızı tamamilə yerlə
yeksan edəcəklər. Allahınız Rəbbin
sizə verəcəyi ölkənin bütün şəhərlərini
mühasirəyə alacaqlar.
53 Mühasirəyə düşəndə
düşmənlərinizin sizə verəcəyi aclıqdan
doğulan övladlarınızın – Allahın
Rəbbin sizə verdiyi oğul-qızlarınızın
ətini yeyəcəksiniz. 54 Aranızda ən
ürəyinazik və həssas adam belə,
öz qardaşına, sevdiyi arvadına, sağ
qalan övladlarına rəhm etməyəcək.
55 Yediyi uşaqların ətindən onların heç
birinə verməyəcək, çünki mühasirə
olunanda düşmənlərinizin yaratdığı
qıtlığa görə şəhərlərinizdə yeməyə
heç nə qalmayacaq. 56 [t]Aranızda ən
ürəyinazik, həssas qadın – zərifliyindən
və incəliyindən ayağını yerə basmaq
istəməyən qadın belə, sevdiyi ərinə, öz
oğluna, eləcə də qızına rəhm etməyəcək.
57 Bətnindən çıxan cifti və doğduğu
uşaqları verməyib gizli yeyəcək, çünki
bütün şəhərləriniz mühasirəyə düşəndə
aclıq olacaq.
58 Əgər bu kitaba yazılmış bu
Qanunun bütün sözlərinə diqqətlə əməl
etməsəniz, Allahınız Rəbbin əzəmətli
və zəhmli adından qorxmasanız,
59 Rəbb sizi və nəslinizi dəhşətli
bəlalara, böyük və sonsuz müsibətlərə,
sağalmaz, ağır xəstəliklərə düçar
edəcək. 60 Qorxduğunuz bütün Misir
xəstəliklərini yenə başınıza gətirəcək,
bu xəstəliklərə tutulacaqsınız. 61 Rəbbin
bu Qanun kitabında yazılmamış hər cür
xəstəlik və bəlanı sizi yox edənədək
başınıza gətirəcək. 62 Göydəki ulduzlar
qədər çoxalmaq əvəzinə sayca çox az
qalacaqsınız, çünki Allahınız Rəbbin
sözünə qulaq asmadınız. 63 Sizə yaxşılıq
etmək və artırmaqdan Rəbb necə
razı qalırdısa, sizi həlak etdiyi və yox
etdiyi üçün də elə razı qalacaq. Mülk
olaraq almaq üçün gedəcəyiniz ölkədən
qoparılacaqsınız.
64 Rəbb sizi dünyanın bu başından
o biri başınadək bütün xalqların
arasına səpələyəcək. Orada sizin də,
atalarınızın da tanımadığı, ağacdan və
ya daşdan düzəldilmiş yad allahlara
sitayiş edəcəksiniz. 65 Bu millətlər
arasında nə sülhünüz, nə də rahatlığınız
olacaq. Rəbb sizə orada ürəkqopması,
ümidsizlik, gözləməkdən yorulan
gözlər verəcək. 66 Daim canınızın
qayğısını çəkəcək, gecə-gündüz vahimə
içərisində yaşayacaqsınız. Həyatınızın

---

[t]**28:56** 2Pad. 6:28-29; Mərs. 4:10

asayişi olmayacaq. 67 Ürəyinizə dolan
vahimədən və gözünüzlə gördüyünüz
hadisələr üzündən səhər olanda “kaş
axşam olaydı”, axşam olanda “kaş
səhər olaydı” deyəcəksiniz. 68 Mən
sizə demişdim ki, gəldiyiniz yolla geri
dönməyəcəksiniz, amma Rəbb sizi
gəmilərlə Misirə geri qaytaracaq. Orada
qul və qarabaş kimi düşmən bazarında
satılacaqsınız, amma sizi pulla alan
olmayacaq».

Əhdin yeniləşməsi

29 Rəbb İsrail övladları ilə Xorev
dağında əhd etmişdir. Moavda
isə Musaya əmr etdi ki, yenidən əhd
kəssin. Əhdin şərtləri bunlardır:
2 Musa bütün İsraillilər bir yerə yığıb
belə dedi: «Rəbbin Misirdə gözləriniz
önündə firona, əyanlarına və ölkəsinə
etdiyi hər şeyi gördünüz. 3 Böyük
sınaqları, bu böyük əlamətləri və
möcüzələri öz gözünüzlə gördünüz.
4 Lakin Rəbb bu günədək sizə anlamaq
üçün ağıl, görmək üçün göz, eşitmək
üçün qulaq vermədi. 5 Rəbb deyir:
“Sizi qırx il səhrada gəzdirdim.
Əyninizdəki paltar, ayağınızdakı çarıq
yırtılıb-dağılmadı. 6 Çörək yemədiniz,
şərab ya da başqa kefləndirici içki
içmədiniz. Bunları ona görə etmişəm
ki, Mənim Allahınız Rəbb olduğumu
biləsiniz”.
7 [u]Buraya çatanda Xeşbon padşahı
Sixon ilə Başan padşahı Oq bizimlə
döyüşə başladılar. Amma onları məğlub
etdik. 8 [v]Torpaqlarını ələ keçirib irs
olaraq Ruvenlilərə, Qadlılara, Menaşşe
qəbiləsinin yarısına verdik. 9 Ələ
götürdüyünüz hər işdə uğur qazanmaq
üçün bu əhdin hər sözünə diqqətlə əməl
edin.
10 Bu gün siz hamınız – qəbilə
başçılarınız, ağsaqqallarınız,
məmurlarınız, İsraillilərin hamısı,
11 uşaqlarınız, arvadlarınız, aranızda
yaşayıb odununuzu doğrayan, suyunuzu
daşıyan yadellilər Allahınız Rəbbin
qarşısında dayanmısınız ki, 12 bu gün
Allahınız Rəbbin and edərək sizinlə
bağladığı bu əhdi həyata keçirəsiniz.
13 Qoy bu gün O sizi Öz xalqı kimi təsdiq
etsin, sizə söz verdiyi kimi atalarınız
İbrahimə, İshaqa, Yaquba etdiyi anda
görə sizin Allahınız olsun. 14 Mən bu
əhdi və andı yalnız sizinlə, 15 Allahımız
Rəbbin hüzurunda bizimlə bərabər
duranlarla deyil, bu gün yanımızda
olmayanlarla da edirəm.
16 Misirdə necə yaşadığınızı, o biri
millətlərin içərisindən keçərək buraya
necə gəldiyinizi özünüz də bilirsiniz.
17 Onların arasında iyrənc şeyləri –
ağacdan, daşdan, qızıldan, gümüşdən
düzəldilən iyrənc bütləri gördünüz.
18 [w]Ehtiyatlı olun, bu gün aranızda bu
millətlərin allahlarına sitayiş etmək
üçün Allahınız Rəbdən dönən nə kişi,
nə qadın, nə nəsil, nə də qəbilə olsun.
Aranızda belə acı pöhrəli, zəhərli kök
olmasın. 19 Bu andın sözlərini eşidən
zaman kimsə öz-özünə gözaydınlığı
verib belə bir fikrə düşməsin: “Onsuz da
salamat qalacağam, qoy kefim istəyən
kimi yaşayım”. Bu fikir həm münbit
torpağa, həm də quru torpağa bəla
gətirər. 20 Belə adamı Rəbb bağışlamaq
istəməz. O adama qarşı qısqanc Rəbbin
qəzəbi alovlanacaq. Bu kitabda yazılan
bütün lənətlər başına töküləcək və Rəbb
onun adını göyün altından siləcək.
21 Rəbb bu Qanun kitabında yazılan
əhdin içərisində yer tutan lənətlərin
hamısına görə fəlakətə uğratmaq
üçün onu İsrailin bütün qəbilələrinin
içərisindən çıxaracaq.
22 Gələcək nəsil, sizdən sonra gələn
övladlarınız və uzaq diyardan gələn

---

[u]**29:7** Say. 21:21-35 [v]**29:8** Say. 32:33 [w]**29:18** İbr. 12:15

yadellilər bu ölkənin bəlalarını, Rəbbin
oraya göndərdiyi xəstəlikləri görəcək.
23 [x]Bütün torpaq yanacaq, kükürd və
duzla örtüləcək, toxum əkilməyəcək,
cücərti görünməyəcək, ot bitməyəcək.
Ölkə Rəbbin qızğın qəzəbi ilə yerlə
yeksan etdiyi Sodom, Homorra, Adma
və Sevoyim kimi viran olacaq. 24 [y]Bütün
millətlər "Rəbb bu ölkəyə niyə belə etdi?
Bu böyük qəzəb niyə alovlandı?" deyə
soruşacaqlar. 25 O zaman deyəcəklər:
"Çünki onları Misir torpağından
çıxararkən atalarının Allahı Rəbbin
onlarla bağladığı əhdi atdılar. 26 Gedib
tanımadıqları allahlara, Rəbbin onlara
bəxş etmədiyi yad allahlara sitayiş və
səcdə etdilər. 27 Ona görə Rəbbin qəzəbi
bu ölkəyə qarşı alovlandı, oranı bu
kitabda yazılan bütün lənətlərə düçar
etdi. 28 Rəbb qəzəb, hirs və böyük
hiddətlə onları ölkələrindən qopardı.
Bu gün olduğu kimi onları başqa bir
torpağa atdı".
29 Allahımız Rəbbin sirləri var, lakin
bəzi şeyləri bizə və övladlarımıza
əbədilik aşkar etdi ki, bu qanunun
bütün sözlərinə əməl edək.

Şəfa və xeyir-dua

30 Bütün bu hadisələr – qarşınıza
qoyduğum xeyir-dua və lənət
başınıza gələndə Allahınız Rəbbin sizi
səpələdiyi millətlər arasında bunları
xatırlayacaqsınız. 2 Siz və övladlarınız
Allahınız Rəbbə tərəf dönüb bu gün
sizə əmr etdiyim hər işdə Onun sözünü
bütün qəlbinizlə və bütün varlığınızla
qulağınızda saxlasanız, 3 Allahınız
Rəbb sizə rəhm edib əsirlikdən geri
qaytaracaq, sizi yenidən səpələdiyi
bütün xalqların arasından toplayacaq.
4 [z]Səpələnib göyün altındakı ən ucqar
ölkəyə düşsəniz belə, Allahınız Rəbb
sizi oradan yığıb geri qaytaracaq. 5 Sizi
atalarınıza irs olaraq verdiyi torpağa
qovuşduracaq. Oranı yenə də irs olaraq
alacaqsınız, Allahınız Rəbb sizə xoş
güzəran verəcək və sizi atalarınızdan da
artıq çoxaldacaq.
6 Allahınız Rəbb sizin ürəyinizi
və övladlarınızın ürəklərini sünnət
edəcək ki, Allahınız Rəbbi bütün
qəlbinizlə, bütün varlığınızla sevəsiniz
və yaşayasınız. 7 Allahınız Rəbb
bütün bu lənətləri isə sizə nifrət və
zülm edən düşmənlərinizin üzərinizə
tökəcək. 8 Siz yenə Rəbbin sözünə qulaq
asacaq və bu gün sizə buyurduğum
bütün əmrlərini yerinə yetirəcəksiniz.
9 Onda Allahınız Rəbb əlinizdə olan
hər işinizi uğurlu edəcək, sizə çoxlu
övlad, heyvanlarınıza çoxlu bala,
torpaqlarınıza bol məhsul verəcək. Rəbb
atalarınıza yaxşılıq etməkdən necə razı
qalırdısa, sizə də yaxşılıq etməkdən
elə razı qalacaq. 10 Bir şərtlə: Allahınız
Rəbbin sözünü qulağınızda saxlayın.
Onun bu Qanun kitabında yazılan
əmrlərinə və qaydalarına əməl edin,
bütün qəlbinizlə, bütün varlığınızla
Allahınız Rəbbə tərəf dönün.
11 Bu gün sizə verdiyim əmrə əməl
etmək sizin üçün çətin və əlçatmaz
deyil. 12 [a]Axı o, göylərdə deyil ki,
deyəsiniz: "Kim bizim üçün göylərə
çıxacaq və onu oradan götürüb bizə
çatdıracaq ki, biz buna əməl edək?"
13 O, dənizin o tayında deyil ki,
deyəsiniz: "Kim bizim üçün dənizin o
tayına gedəcək və onu götürüb bizə
çatdıracaq ki, qulaq asıb buna əməl
edək?" 14 Yox, bu kəlam sizə əməl
etmək üçün çox yaxındır, o, dilinizdə və
ürəyinizdədir.
15 Bax bu gün sizin qarşınızda
həyatla xoşbəxtliyi, ölümlə bədbəxtliyi

---

[x]**29:23** Yar. 19:24-25 [y]**29:24** Yer. 22:8-9 [z]**30:4** Neh. 1:9
[a]**30:12** Rom. 10:6-8

qoyuram. 16 Bu gün sizə Allahınız
Rəbbi sevməyi, Onun qoyduğu yollarla
getməyi, əmrlərinə, qaydalarına,
hökmlərinə riayət etməyi əmr edirəm.
Belə etsəniz, yaşayıb artacaqsınız və
mülk olaraq almaq üçün gedəcəyiniz
torpaqda Allahınız Rəbb tərəfindən
xeyir-dua alacaqsınız. 17 Əgər bu
yoldan dönsəniz, qulaq asmasanız,
azaraq, yad allahlara səcdə qılaraq
onlara qulluq etsəniz, 18 bu gün sizə
bildirirəm ki, mütləq məhv olacaqsınız.
İordan çayını keçib mülk olaraq
almaq üçün gedəcəyiniz ölkədə uzun
ömür sürməyəcəksiniz. 19 Qarşınızda
həyatla ölümü, xeyir-dua ilə lənəti
qoyduğum üçün bu gün göyü və
yeri sizə şahid tuturam. Həyatı
seçin ki, siz və övladlarınız yaşaya
biləsiniz. 20 [b]Allahınız Rəbbi sevin, sözü
qulağınızda qalsın və Ona bağlanın.
Çünki sizin həyatınız Odur. Belə etsəniz,
Rəbbin ata-babalarınız İbrahimə, İshaqa
və Yaquba verməyi vəd etdiyi torpaqda
sizi uzun ömürlü edəcək».

Musanın yerinə Yeşuanın gəlməsi

31 Musa bütün İsraillilərin qarşısına
çıxıb belə dedi: 2 [c]«Artıq mən
yüz iyirmi yaşındayam, daha sizə
başçılıq etməyə taqətim yoxdur. Rəbb
mənə demişdir ki, sən İordan çayını
keçməyəcəksən. 3 Oranı keçəndə
Allahınız Rəbb Özü qabağınızda
gedəcək və bu millətləri qarşınızdan yox
edəcək, siz də onların torpaqlarını irs
olaraq alacaqsınız. Rəbbin sözünə görə
Yeşua sizə rəhbərlik edəcək. 4 [d]Rəbb
Emorlu padşahları Sixonu və Oqu həlak
edərək ölkələrinin başına gətirdiyini
bu millətlərin də başına gətirəcək.
5 Rəbb onları sizə təslim edəcək. Onlarla
əmr etdiyim kimi rəftar etməlisiniz.
6 [e]Möhkəm və cəsarətli olun! Onlardan
qorxub çəkinməyin! Çünki Allahınız
Rəbb sizinlə gedir. O sizi atmaz, tərk
etməz!»
7 Sonra Musa Yeşuanı çağırıb bütün
İsraillilərin gözü qarşısında ona belə
dedi: «Möhkəm və cəsarətli ol! Çünki
Rəbbin atalarına vəd etdiyi ölkəyə
bu xalqla birlikdə sən gedəcəksən.
Ölkəni irs olaraq onlara sən verəcəksən.
8 Başının üstündə Rəbb gedəcək. O
sənin ləd ir, səni atmaz və tərk etməz.
Qorxub çəkinmə!»

Qanunun oxunması

9 Musa bu qanunu yazıb sonra
Rəbbin Əhd sandığını aparan
Levili kahinlərə və bütün İsrail
ağsaqqallarına verdi. 10 [f]Sonra onlara
belə buyurdu: «Hər yeddi ilin sonunda,
borcların bağışlanma ilində, Çardaqlar
bayramında, 11 bütün İsraillilər
Allahınız Rəbbin hüzurunda olmaq
üçün Onun seçəcəyi yerə gələndə bu
qanunu İsraillilərə oxuyun. 12 Xalqın
kişi, qadın və uşaqlarını, həmçinin
şəhərinizdə yaşayan yadelliləri toplayın.
Qoy hamı eşidib öyrənsin və Allahınız
Rəbdən qorxub Qanunun bütün
sözlərinə diqqətlə əməl etsin. 13 Qoy
qanunu bilməyən uşaqlar da eşitsinlər
və mülk olaraq almaq üçün İordan
çayından keçib gedəcəyiniz ölkədə
ömür boyu Allahınız Rəbdən qorxmağı
öyrənsinlər».

Rəbbin Musaya son əmri

14 Rəbb Musaya dedi: «Ölümünə az
qalıb. Yeşuanı çağır. Hüzur çadırında
hazır dayanın ki, ona əmrlərimi
bildirim». Beləliklə, Musa ilə Yeşua
gedib Hüzur çadırında gözlədilər.
15 Sonra Rəbb çadırda sütuna oxşar bir

---

[b]**30:20** Yar. 12:7; 26:3; 28:13 [c]**31:2** Say. 20:12 [d]**31:4** Say. 21:21-35
[e]**31:6** Yeşua 1:5; İbr. 13:5 [f]**31:10** Qanun. 15:1; Qanun. 16:13-15

bulud içərisində göründü. Bulud çadırın
qapısı üzərində dayandı.
16 Rəbb Musaya belə söylədi: «Bu
yaxınlarda ölüb atalarına qovuşacaqsan.
Bu xalq da gedəcəyi ölkənin allahlarına
bağlanıb Mənə xəyanət edəcək. Məni
atıb onlarla bağladığım əhdi pozacaqlar.
17 Onda onlara qəzəblənəcəyəm, onları
ataraq üz döndərəcəyəm. Onlar
başqalarına yem olacaq, başlarına çox
bəlalar və müsibətlər gələcək. Həmin
gün "Allahımız bizimlə olmadığı üçün
başımıza müsibətlər gəldi" deyəcəklər.
18 Başqa allahlara tərəf dönməklə pis iş
gördüklərinə görə mütləq onlardan üz
döndərəcəyəm.
19 İndi özünüz üçün bu ilahini yazın
və İsrail övladlarına öyrədin. Qoy onu
oxusunlar. Belə ki bu ilahi İsraillilərə
qarşı Mənim şahidim olsun. 20 Çünki
onları atalarına and edib söz verdiyim
süd və bal axan torpağa gətirəndə,
yeyib-doyanda və kökələndə yad
allahlara meyl edərək onlara sitayiş
edəcəklər, Məni rədd edərək əhdimi
pozacaqlar. 21 Onlara çox bəlalar və
müsibətlər yetişəndə qoy bu ilahi onlara
qarşı şahid kimi səslənsin, çünki bu ilahi
nəsillərin dilindən düşməyəcək. Ona
görə ki Mən onları vəd etdiyim torpağa
gətirməzdən əvvəl, bu gün belə, fəndgir
olduqlarını bilirəm». 22 Həmin gün
Musa bu ilahini yazıb İsrail övladlarına
öyrətdi.
23 [g]Rəbb o gün Nun oğlu Yeşuaya
əmr edib dedi: «Möhkəm və cəsarətli
ol, çünki İsrail övladlarını onlara vəd
etdiyim ölkəyə sən aparacaqsan və Mən
səninləyəm».
24 Musa bu Qanunu sözlərindən
heç nəyi əskiltmədən kitaba yazmağı
qurtaranda 25 Rəbbin Əhd sandığını
daşıyan Levililərə bu əmri verdi: 26 «Bu
Qanun kitabını götürüb Allahınız
Rəbbin Əhd sandığının yanına qoyun.
Qoy sizə qarşı bir şahid olaraq orada
qalsın. 27 Çünki sizin üsyankar və
dikbaş olduğunuzu bilirəm. Bu gün
mən sağ olaraq aranızda ikən belə,
Rəbbə üsyankar oldunuzsa, gör mən
öləndən sonra necə olacaqsınız.
28 Qəbilələrinizin bütün ağsaqqallarını
və məmurlarınızı yanıma toplayın.
Bu sözləri onlara eşitdirim ki, göyü
və yeri onlara qarşı şahid tutacağam.
29 Ölümümdən sonra tamamilə
pozulacağınızı, sizə əmr etdiyim
yoldan azacağınızı bilirəm. Axır
zamanda müsibətlərlə qarşılaşacaqsınız.
Çünki Rəbbin gözündə pis olan
işləri görərək əməllərinizlə Onu
qəzəbləndirəcəksiniz».

Musanın ilahisi

30 Musa bu ilahini axıracan oxudu ki,
bütün İsrail camaatı ilahinin sözlərini
eşitsin.

32 «Ey göylər, qulaq asın,
söyləyəcəyəm,
Qoy yer üzü dilimdən çıxan sözləri
eşitsin.
2 Qoy təlimim yağış kimi tökülsün,
Sözüm şeh kimi düşsün,
Çəmən üzərinə düşən narın yağış tək
olsun,
Ot üzərinə tökülən leysana oxşasın,
3 Çünki Rəbbin ismini elan edəcəyəm!
Allahımızın əzəmətini mədh edin!
4 O, işləri kamil Qayadır,
Çünki bütün yolları haqdır,
Sadiq Allahdır, heç zaman haqsızlıq
etməz,
Adil və doğru olan Odur.
5 Ona xəyanət etdilər,
Ona övlad olmadılar,
Ona görə rüsvay oldular.
Çünki əyri və tərs nəsildirlər.
6 Ey axmaq, ağılsız xalq,

---

[g] **31:23** Say. 27:23; Yeşua 1:6

Rəbbə budurmu əvəziniz?
Sizi yaradan, sizə görkəm verən
Atanız, Yaradanınız O deyilmi?
7 Ötən günləri yadınıza salın,
Keçmiş nəsillərin dövrünə nəzər salın,
Atanızdan soruşun, o sizə desin,
Ağsaqqallarınızdan soruşun, onlar
sizə söyləsin.
8 [h]Haqq-Taala millətlərə irsi torpaq
bölərkən,
Bəşər övladlarını ayırarkən
İsrail övladlarının sayına görə
Xalqlara sərhəd qoydu.
9 Çünki Rəbbin payı Öz xalqıdır!
Yaqub Onun payına düşən irsidir.
10 Onu quraq bir torpaqda,
Uğultulu, boş-biyaban səhrada tapdı.
Bir sipər kimi onu hifz etdi,
Göz bəbəyi kimi onu qorudu.
11 Yuvasında balalarını sövq etdirərək
uçuran,
Onlar üzərində qanad çalan,
Qanadlarını açıb onları tutan,
Pərlərinin üzərində aparan qartal
kimi
12 Ona yol göstərən yalnız Rəbb idi.
Yanında özgə bir allah yox idi.
13 Onu yer üzünün yüksəkliklərinə
çıxartdı,
Zəminin məhsulundan yedirtdi.
Onu qayadan süzülən balla,
Çaxmaq daşından çəkilən yağla
bəslədi.
14 Onu inəklərin kəsmiyi, qoyunların
südü ilə,
Kökəldilmiş quzularla,
Başandakı təkələrlə, qoçlarla.
Ən yaxşı buğda ilə bəslədi.
Xalq şərabı, üzümün al qanını içdi,
15 Lakin Yeşurun *kökələrkən təpik
atdı,
Doyarkən, yoğunlaşıb piyləşərkən
Onu yaradan Allahı tərk etdi,
Xilaskarını, Qayasını rədd etdi.
16 Yad allahlarla Allahı qısqandırdılar,
İyrənc əməllərlə Onu
qəzəbləndirdilər.
17 [i]Allah olmayan cinlərə,
Tanımadıqları allahlara,
Atalarının qorxmadıqları,
Son zamanlar yeni yaranan allahlara
Qurban kəsdilər.
18 Sizi həyata gətirən Qayanı atdınız.
Sizi yaradan Allahı unutdunuz.
19 Rəbb bunu görəndə onları rədd
etdi,
Çünki oğul və qızları Onu
hiddətləndirdi.
20 O dedi: “Bax onlardan Mənim üzüm
dönəcək,
Onların aqibəti görüm necə olacaq?
Çünki onlar etimada layiq olmayan
övladlar, azğın nəsildirlər.
21 [j]Məni Allah olmayanlarla
qısqandırdılar,
Boş bütləri ilə qəzəbləndirdilər.
Mən də onları xalq olmayanlarla
qısqandıracağam,
Axmaq bir millətlə
qəzəbləndirəcəyəm.
22 Çünki qəzəbimdən bir od alovlandı,
Ölülər diyarı dibinəcən yandı.
Dünyanı və nemətlərini yeyib
qurtaracaq,
Dağların bünövrəsi odlanıb tutuşacaq.
23 Mən onların üzərinə bəlalar
yığacağam,
Oxlarımı onlara tuşlayacağam.
24 Qıtlıqdan tükənəcək, qızdırmadan
qırılacaqlar,
Vəbadan tələf olacaqlar.
Heyvanların dişlərini,
Torpaqda sürünən ilanların zəhərini
Onlara sarı göndərəcəyəm.
25 Gənc oğlanı və qızı,
Südəmər körpəni, ağsaçlı insanı

---

*32:15 *Yeşurun* – İsrailin bir ləqəbi olub *düz olan* mənasını verir.

[h]**32:8** Həv. 17:26 [i]**32:17** 1Kor. 10:20 [j]**32:21** 1Kor. 10:22; Rom. 10:19

Bayırdan qılınc, daxildən dəhşət
məhv edəcək.
26 Dedim: ‹Qoy onları uzaqlara
dağıdım,
Onları insanların yaddaşından
çıxarım›.
27 Lakin düşmənin istehzasından
çəkindim,
İstəmədim ki, əleyhdarları yanlış
anlayıb desinlər:
‹Bütün bu işləri Rəbb görməyib,
Özümüz zəfər qazanmışıq›”.
28 Çünki onlar düşüncəsiz bir
millətdir,
Necə də ağılsızdırlar.
29 Kaş ki müdrik olub bunu dərk
edəydilər,
Aqibətlərini düşünəydilər.
30 Əgər onların Qayası onları
satmasaydı,
Rəbb onları təslim etməsəydi,
Bir adam min nəfəri necə qova
bilərdi?
İki kişi on min nəfəri necə qaçıra
bilərdi?
31 Həqiqətən, onların qayası Qayamız
kimi deyil,
Hətta düşmənlərimiz bunu qəbul edir.
32 Tənəkləri Sodomdakı üzüm
ağaclarındandır,
Homorra bağlarındandır.
Üzümləri zəhərlidir,
Salxımları acıdır.
33 Şərabları əfi ilan zəhəridir,
Gürzələrin öldürücü ağısıdır.
34 “Məgər bunların hamısını Mən
yanımda saxlamamışammı?
Bunları xəzinəmdə möhürləyən Mən
deyiləmmi?
35 [k]Qisas Mənimdir, əvəzini Mən
verəcəyəm.
Vaxtı çatarkən sürüşüb yıxılacaqlar,
Çünki onlar həlak gününə yaxındırlar,
Əcəlləri tez çatar”.
36 [l]Rəbb Öz xalqını mühakimə edəcək.
Onların gücünün qurtardığını
görərkən,
Nə kölədən, nə azaddan kimsə
qalmayarkən
Qullarına rəhm edəcək.
37 O belə deyəcək: “Hanı onların
Allahı, sığınacaqları qaya?
38 Qurbanlarının yağını yeyən,
Hanı içmə təqdimlərini içən allahları?
Qoy sizə kömək etmək üçün
dursunlar,
Pənahgahınız olsunlar.
39 İndi görün ki, Mən, Mən Oyam,
Məndən başqa Allah yoxdur.
Mənəm öldürən və həyat verən,
Mənəm yaralayan və şəfa verən,
Heç kim əlimdən qurtara bilməz.
40 Çünki əlimi göylərə qaldırıb belə
bəyan edirəm:
‹Əbədi Varlığıma and olsun ki,
41 Şimşək çaxan qılıncımı itiləyib
Hökm etmək üçün əlimə alsam,
Düşmənlərimdən qisas alacağam,
Mənə nifrət edənlərdən əvəz
çıxacağam.
42 Onların qanı ilə oxlarımı sərxoş
edəcəyəm;
Qılıncım əti, qırılanların, əsir
edənlərin qanını,
Düşmən rəhbərlərinin başını
yeyəcək›”.
43 [m]Ey millətlər, Onun xalqı ilə birgə
sevinin!
Çünki O, qullarının qan qisasını
alacaq,
Düşmənlərindən əvəz çıxacaq,
Ölkəsi və xalqı üçün kəffarə edəcək».
44 Musa Nun oğlu Yeşua ilə bərabər
gəlib bu ilahinin bütün sözlərini xalq
qarşısında söylədi. 45 Musa bütün
İsraillilərə bu sözlərin hamısını söyləyib

[k]**32:35** Rom. 12:19; İbr. 10:30 [l]**32:36** Zəb. 135:14
[m]**32:43** Rom. 15:10-11; Vəhy 19:2

qurtaranda 46 belə dedi: «Bu gün
sizə bəyan etdiyim sözlərin hamısına
ürəkdən bağlanın ki, övladlarınıza bu
qanunun bütün sözlərinə diqqətlə əməl
etməyi əmr edəsiniz. 47 Axı bu sizin
üçün əhəmiyyətsiz iş deyil, həyatınızdır.
Bu sözlər mülk olaraq almaq üçün
İordan çayını keçərək gedəcəyiniz
torpaqda sizə uzun ömür verəcək».

Musanın ölümünün əvvəldən bildirilməsi

48 [n]Rəbb elə həmin gün Musaya
belə dedi: 49 «Yerixo qarşısında, Moav
torpağında olan bu Avarim dağına,
Nevo dağına çıx. İsrail övladlarına
mülk olaraq verəcəyim Kənan torpağını
gör. 50 Qardaşın Harun Hor dağında
ölüb əcdadlarına qoşulduğu kimi
sən də çıxacağın dağda ölüb xalqına
qovuşacaqsan. 51 Çünki Zin səhrasında,
Meriva-Qadeş sularında, İsrail
övladlarının önündə Məni müqəddəs
saymamaqla İsrail övladları arasında
Mənə xəyanət etdiniz. 52 Ona görə
ölkəni uzaqdan görəcəksən, lakin
İsrail övladlarına verəcəyim torpağa
girməyəcəksən».

Musanın İsrail qəbilələrinə xeyir-duası

33 Allah adamı Musa ölümündən
əvvəl İsrail övladlarına bu
xeyir-duanı oxudu. 2 O belə dedi:
«Rəbb Sina dağından gəldi,
Bizə Seirdən zühur etdi,
Paran dağından şəfəq saçdı,
On minlərlə müqəddəs mələklər ilə
gəldi.
Sağ əlində yanar alov var idi.
3 Ya Rəbb, həqiqətən, Sən xalqları
sevirsən!
Bütün müqəddəslər Sənin əlindədir!
Onlar ayağına düşər, sözlərini dinlər.
4 Musa bizə qanuna əməl etməyi
tapşırdı,
Bu, Yaqubun camaatı üçün bir irsdir.
5 İsrail qəbilələri,
Xalqın rəhbərləri bir yerə yığılanda
Rəbb Yeşuruna padşah oldu.
6 Qoy Ruven ölməsin, yaşasın!
Xalqının sayı azalmasın!»
7 Musa Yəhuda üçün belə dedi:
«Ya Rəbb, Yəhudanın səsini eşit,
Onu xalqına geri qaytar.
O özü üçün öz əlləri ilə döyüşdü,
Düşmənlərinə görə ona kömək et!»
8 [o]Levi üçün belə dedi:
«Ya Rəbb, Tummimin və Urimin
Sənin sadiq qulun üçündür.
Onu Massada sınaqdan keçirdin,
Onunla Meriva sularında mübahisə
etdin.
9 O, ata-anası üçün dedi:
“Onlara nəzər salmadım”.
Qardaşlarını tanımadı,
Övladlarını unutdu,
Ancaq Sənin sözünə riayət etdi,
Sənin əhdini hifz etdi.
10 Hökmlərini Yaqub nəslinə,
Qanununu İsraillilərə öyrədəcəklər.
Onlar hüzurunda buxuru,
Qurbangahında bütöv yandırma
qurbanını təqdim edəcək.
11 Ya Rəbb, onların malına bərəkət
ver,
Əməllərindən razı qal.
Kim onlara hücum etsə,
Kim onlara nifrət etsə,
Belini qır,
Bir daha qalxmasınlar!»
12 Binyamin üçün belə dedi:
«Rəbbin sevimlisi
Onun yanında əmin-amanlıqda
yaşasın!
Rəbb gün boyu onu qoruyur,
O da Rəbbin qucağında qalır».
13 Yusif üçün belə dedi:

---

[n]**32:48** Say. 27:12-14; Qanun. 3:23-27 [o]**33:8** Çıx. 28:30; Çıx. 17:7; Say. 20:13

«Onun torpağı Rəbdən bərəkət alsın,
Göydən gələn qiymətli şehlə,
Yer altında yatan dərin sularla,
14 Günəşin yetişdirdiyi ən gözəl barlarla,
Hər ay yetişən ən gözəl bəhərlərlə,
15 Qədimdən qalan dağların əla nemətləri ilə,
Əbədi təpələrin münbitliyi ilə,
16 [p]Yerin ən qiymətli məhsulu və bolluğu ilə,
Kolda məskən Salanın lütfü ilə
Qoy bərəkət alsın!
Yusifin başı üzərinə –
Qardaşlarından ayrı düşənin başı üzərinə
Qoy bərəkət yağsın!
17 O, birinci doğulan buğa qədər heybətlidir,
Buynuzları çöl öküzünün buynuzlarına bənzəyir.
Bu buynuzlarla xalqları,
Yer üzünün qurtaracağınadək hər yerdə olanları vuracaq.
Bax belədir Efrayimin on minləri,
Bax budur Menaşşenin minləri».
18 Zevulun üçün belə dedi:
«Ey Zevulun, yola düşəndə sevin,
Ey İssakar, çadırlarında sevin!
19 Onlar xalqları dağa çağıracaqlar,
Orada salehlik qurbanları kəsəcəklər.
Bol dəniz nemətləri ilə,
Qumlarda gizlənən xəzinələrlə doyacaqlar».
20 Qad üçün belə dedi:
«Qadın ərazisini artırana şükür olsun!
Qad aslan tək yaşayır,
Qolu, başı qoparır.
21 O özü üçün ilk torpağı seçdi.
Çünki onun üçün sərdarın payı saxlanıldı.
Xalq rəhbərləri yığılanda
Rəbbin ədalətini,
İsraillilərə gətirdiyi hökmləri icra etdi».
22 Dan üçün belə dedi:
«Dan Başandan sıçrayan
Bala aslandır».
23 Naftali üçün belə dedi:
«Ey Rəbbin lütfü və bərəkəti ilə dolu olan Naftali,
Qərbi və cənubu mülk edəcəksən».
24 Aşer üçün belə dedi:
«Oğullar arasında Aşer ən çox bərəkət alsın!
Qardaşlarının ən çox bəyəndiyi o olsun!
Ayağını zeytun yağına batırsın.
25 Darvazalarının cəftələri dəmirdən, tuncdan olsun,
Qüvvətin ömrün boyu qurtarmasın!
26 Ey Yeşurun, bax sənə kömək etmək üçün
Göylər və buludlara əzəməti ilə minən
Allahın bənzəri yoxdur.
27 Pənahgahın əzəli əbədi Allahdır,
Səni daim qollarında gəzdirər.
Düşmənlərini qarşından qovar,
“Yox et onları!” sənə deyər.
28 İsrail əmin-amanlıqda yaşayır.
Taxıl və təzə şərab torpağında
Yaqubun çeşməsi sakit qalır,
Oraya göylərdən şeh damır.
29 Ey İsrail! Nə bəxtiyarsan,
Sənin kimisi varmı?
Rəbbin qurtardığı xalqsan!
Rəbb sipərdir, köməyinə çatandır,
Əzəmətli qılıncındır.
Sənə düşmənlər yaltaqlanır,
Sən onların yuxarı yerlərini tapdalayırsan».

Musanın ölümü

34 Musa Moav düzənliyindən Nevo dağına gedib Yerixo qarşısında olan Pisqa təpəsinə çıxdı. Rəbb ona bütün ölkəni göstərdi. Dana qədər

---

[p]**33:16** Çıx. 3:2

uzanan Gileadı, 2 bütün Naftalini,
Efrayim və Menaşşe torpaqlarını, Qərb
dənizinə qədər uzanan bütün Yəhuda
torpağını, 3 Negevi, Xurmalar şəhəri
Yerixo vadisinin Soara qədər uzanan
hövzəsini göstərdi. 4 [q]Sonra Rəbb ona
dedi: «İbrahimə, İshaqa və Yaquba
vəd etdiyim torpaq budur, oranı sizin
övladlarınıza verəcəyəm. Mən izin
verdim ki, oranı öz gözlərinlə görəsən.
Lakin oraya girməyəcəksən».
5 Rəbbin sözünə görə qulu Musa elə
orada – Moav torpağında öldü. 6 Rəbb
onu Moav torpağında olan Bet-Peor
qarşısındakı dərədə dəfn etdi. Bu günə
qədər heç kim onun qəbrinin yerini
bilmir. 7 Musa öləndə yüz iyirmi yaşında
idi. Gözü nurdan düşməmiş, taqəti
çəkilməmişdi. 8 İsrail övladları Musa
üçün Moav düzənliyində otuz gün yas
tutdular.

Musa üçün olan ağlaşma və yas
günləri qurtardı.

9 Nun oğlu Yeşua hikmət ruhu ilə
dolmuşdu, çünki Musa onun üzərinə
əllərini qoymuşdu. İsrail övladları da
ona qulaq asdılar və Rəbbin Musaya
əmr etdiyi hər şeyə əməl etdilər.
10 [r]İsraildə Musa kimi Rəbbin üz-üzə
görüşdüyü bir peyğəmbər bir daha
çıxmadı. 11 Rəbb onu göndərmişdi ki,
Misir torpağında firona, onun bütün
əyanlarına, ölkəsinə çoxlu əlamətlər
və möcüzələr göstərsin. 12 Musanın
əməlləri İsraillilərin gözləri önündə
böyük və zəhmli idi.

---

[q]**34:4** Yar. 12:7; 26:3; 28:13 [r]**34:10** Çıx. 33:11

YEŞUA

PEYĞƏMBƏRİN KİTABI

GİRİŞ

«Yeşua» Kitabının məzmunu Musanın davamçısı olan Yeşuanın başçılığı ilə İsrail xalqının Kənan torpağını zəbt etmə tarixindən bəhs edir. Bu kitabda yazılan məşhur hadisələr İsrail xalqının İordan çayının keçməsi, Yerixonun süqutu, Ay şəhəri uğrunda döyüş, Kənan torpağının on iki qəbilə arasında bölünməsi və Allahla xalqının arasında əhdin təzələnməsidir. Müqəddəs Kitabın ən geniş yayılan ayələrindən biri *«Yeşua»* Kitabının 24:15-ci ayəsində yazılmışdır: «…bu gün kimə qulluq edəcəyinizi özünüz seçin. …Amma mən və mənim evimdəkilər Rəbbə qulluq edəcək».

Kitabın məzmunu:

1:1–12:24 Kənan torpağının ələ keçirilməsi

13:1–21:45 Torpağın bölünüb paylanması

13:1-33 İordan çayının şərqindəki torpaq

14:1–19:51 İordan çayının qərbindəki torpaq

20:1-9 Sığınacaq üçün şəhərlər

21:1-45 Levililərin şəhərləri

22:1-34 Şərq qəbilələrinin qayıtması

23:1-6 Yeşuanın vəsiyyəti

24:1-33 Şekemdə yenidən bağlanan əhd

Rəbb Yeşuaya vəd olunmuş torpağı tutmasını əmr edir

1 Rəbbin qulu Musanın ölümündən sonra Rəbb Musanın köməkçisi Nun oğlu Yeşuaya belə dedi: 2 «Qulum Musa öldü. İndi qalx, sən və bütün bu xalq İordan çayını keçib İsrail övladlarına verəcəyim torpağa gedin. 3 [s]Musaya dediyim kimi qədəm qoyacağınız hər yeri sizə vermişəm. 4 Bu səhra ilə Livandan böyük çaya – Fərat çayına qədər, Xetlilərin bütün ölkəsi və günbatan tərəfdən isə Böyük dənizə* qədər yer sizin torpaqlarınız olacaq. 5 [t]Bütün ömrün boyu heç kəs sənə qarşı çıxa bilməyəcək. Musa ilə olduğum kimi sənlə də olacağam, səni atmayacağam və tərk etməyəcəyəm. 6 [u]Möhkəm və cəsarətli ol, çünki atalarına vermək üçün and içdiyim bu torpağı bu xalqa irs olaraq sən verəcəksən. 7 Qulum Musanın sənə tapşırdığı Qanuna tam və dəqiq əməl etmək üçün cəsarətli və çox möhkəm ol. Ondan nə sağa, nə də sola dön ki, hara getsən, uğur qazanasan. 8 Bu Qanun kitabının sözləri dilindən düşməsin, orada yazılan hər şeyə dəqiq əməl etmək üçün gecə-gündüz onun üzərində düşün. Onda yolun uğurlu olacaq və müvəffəqiyyət qazanacaqsan. 9 Sənə möhkəm və cəsarətli olmağı əmr edən Mən deyiləmmi? Qorxma və ruhdan düşmə, çünki Allahın Rəbb gedəcəyin hər yerdə sənlədir».

10 Yeşua xalqın məmurlarına əmr edib dedi: 11 «Ordugahı gəzin və xalqa əmr edib deyin: “Özünüzə azuqə hazırlayın, çünki üç gün ərzində İordan çayını keçib Allahınız Rəbbin sizə mülk olaraq verdiyi torpağa girərək oraya sahib olacaqsınız”».

Torpaq alan İsrail qəbilələri də Yeşua ilə gedir

12 [v]Yeşua Ruvenlilərə, Qadlılara, Menaşşe qəbiləsinin yarısına belə dedi:

*1:4 *Böyük dəniz* – Aralıq dənizi.

[s]1:3 Qanun. 11:24-25 [t]1:5 Qanun. 31:6,8; İbr. 13:5

[u]1:6 Qanun. 31:6,7,23 [v]1:12 Say. 32:28-32; Qanun. 3:18-20; Yeşua 22:1-6

13 «Yadınıza salın ki, Rəbbin qulu Musa
sizə belə vəsiyyət etmişdi: “Allahınız
Rəbb rahatlığınız üçün bu torpağı sizə
verdi”. 14 Arvadlarınız, uşaqlarınız,
sürüləriniz İordan çayının bu tayında
Musanın sizə verdiyi torpaqda qalsın.
Ancaq siz – bütün igid adamlar
silahlanıb qardaşlarınızın qabağında o
taya keçin. 15 Rəbb sizə rahatlıq verdiyi
kimi soydaşlarınıza da rahatlıq verənə
qədər və Allahınız Rəbbin verdiyi
torpağa sahib olana qədər onlara kömək
edin. Sonra siz Rəbbin qulu Musanın
İordan çayının şərqində sizə mülk
olaraq verdiyi torpağa qayıdıb oraya
sahib ola bilərsiniz».
16 Onlar da Yeşuaya cavab verib
dedilər: «Bizə nə buyursan, edəcəyik
və hara göndərsən, gedəcəyik. 17 Hər
işdə Musaya necə qulaq asırdıqsa, sənə
də elə qulaq asacağıq. Qoy Allahın
Rəbb Musa ilə olduğu kimi sənin lə də
olsun. 18 Sənin əmrlərinə qarşı çıxan,
buyurduğun hər sözə qulaq asmayan
hər kəs öldürüləcək. Yalnız sən möhkəm
və cəsarətli ol».

Yerixoda İsrail casusları
və fahişə Raxav

2 [w]Nun oğlu Yeşua Şittimdən iki kişini
casusluq etməyə gizli göndərib dedi:
«Gedin oranın torpağını və Yerixonu
gözdən keçirin». Onlar getdilər və Raxav
adlı bir fahişənin evinə girib orada
qaldılar. 2 Yerixo padşahına «budur, bu
gecə torpağımızı gözdən keçirmək üçün
İsrail övladlarından buraya adamlar
gəldi» deyə bildirildi. 3 Yerixo padşahı
Raxava xəbər göndərib dedi: «Sənin
yanına gəlib evinə girən adamları çıxart,
çünki onlar torpağımızın hər tərəfini
gözdən keçirməyə gəliblər». 4 Raxav
isə o iki kişini gizlətmişdi. O dedi:
«Doğrusu, yanıma adamlar gəlmişdi,
amma haradan olduqlarını bilmirdim.
5 Qaranlıq düşəndə, darvaza bağlananda
o adamlar çıxdılar. Bilmirəm hara
getdilər. Tez dallarınca qaçın ki, onları
tuta biləsiniz». 6 Lakin qadın onları
dama çıxarıb damda sərdiyi kətan
liflərin arasında gizlətmişdi. 7 Padşahın
göndərdiyi adamlar casusları təqib
etmək üçün İordan çayının keçidinə
qədər yol boyu qaçdılar. Təqibçilər
bayıra çıxan kimi darvazalar bağlandı.
8 Casuslar yatmazdan əvvəl qadın
dama – onların yanına çıxdı. 9 O bu
adamlara dedi: «Mən bilirəm ki, Rəbb
bu torpağı sizə verib. Siz bizi dəhşətə
saldınız və bu torpağın bütün sakinləri
sizin qarşınızda əsir. 10 [x]Çünki Misirdən
çıxdığınız zaman Rəbb Qırmızı dənizin
sularını qarşınızda necə qurutduğunu
və İordan çayının o tayında məhv
etdiyiniz iki Emor padşahı Sixonla Oqa
nə etdiyinizi eşitmişik. 11 Biz bunları
eşidəndə ürəyimiz qorxuya düşdü
və vahimənizdən heç kimin taqəti
qalmadı; çünki Allahınız Rəbb yuxarıda
göyün və aşağıda yerin Allahıdır.
12 İndi rica edirəm, Rəbbə and için ki,
sizə xeyirxahlıq etdiyim üçün siz də
mənə və atamın külfətinə xeyirxahlıq
edəcəksiniz. Mənə etibarlı bir nişanə
verin ki, 13 atamı, anamı, qardaşlarımı,
bacılarımı, onların yanında olan hər
kəsi sağ qoyacaqsınız və canımızı
ölümdən qurtaracaqsınız». 14 Adamlar
isə ona dedilər: «Əgər bu işimizin üstünü
açmasanız, canımızı belə, sizə fəda
edərik. Rəbb bu torpağı bizə verən vaxt
sənə xeyirxahlıq və sədaqət göstərərik».
15 O vaxt qadın onları kəndirlə
pəncərədən aşağı endirdi, çünki onun
evi şəhərin qala divarında idi və o,
divarın içində yaşayırdı. 16 Qadın onlara
dedi: «Dağa gedin ki, təqibçilər sizə
çatmasınlar, onlar qayıdana qədər üç

---

[w]**2:1** İbr. 11:31; Yaq. 2:25 [x]**2:10** Çıx. 14:21; Say. 21:21-35

gün orada gizlənin, sonra yolunuza
davam edərsiniz». 17 Bu adamlar da
ona dedilər: «Sənin bizə içdirdiyin bu
anddan bu yolla günahsız olacağıq.
18 Bu torpağa gəldiyimiz vaxt bizi
düşürdüyün pəncərəyə bu al rəngli ipi
bağlayarsan. Atanı, ananı, qardaşlarını
və atanın bütün qohumlarını yanına – öz
evinə toplayarsan. 19 Əgər sənin evinin
qapısından kim bayıra çıxarsa, qanı öz
başına dönəcək və biz buna günahkar
olmayacağıq. Əgər səninlə birgə evində
olan bir kimsəyə toxunularsa, qoy onun
qanı bizim başımıza dönsün. 20 Ancaq
bu işimizin üstünü açmaq istəsən, onda
sənin bizə içdirdiyin anddan təqsirimiz
olmaz». 21 Raxav dedi: «Necə deyirsiniz,
elə də olsun». Sonra onları yola saldı
və onlar getdilər. Raxav al rəngli ipi
pəncərəyə bağladı.
22 Bu iki adam getdi. Dağa çatıb
təqibçilər qayıdana qədər üç gün orada
qaldılar. Təqibçilər bütün yol boyu
onları axtardılar, ancaq tapmadılar.
23 O iki kişi isə geri dönüb dağdan endi,
çayı keçərək Nun oğlu Yeşuanın yanına
gəldi və başlarına gələn hər şeyi ona
nəql etdi. 24 Onlar Yeşuaya dedilər:
«Həqiqətən, Rəbb bütün o torpağı bizə
təslim edib, o torpağın bütün sakinləri
də qarşımızda qorxu içində əsir».

İsraillilərin İordan çayını keçməsi

3 Yeşua səhər erkən qalxdı. Onunla
birgə bütün İsrail övladları
Şittimdən irəliləyərək İordan çayına
qədər gəldilər. Onlar çayı keçməzdən
əvvəl orada qaldılar. 2 Üçüncü günün
sonunda məmurlar ordugahı gəzdilər.
3 Xalqa əmr edib dedilər: «Allahınız
Rəbbin Əhd sandığını Levililərdən olan
kahinlərin daşıdığını görəndə siz də
yerinizdən irəliləyərək onun ardınca
gedin. 4 Ancaq sizinlə onun arasında
iki min qulaca qədər məsafə olmalıdır.
Ona yaxınlaşmayın ki, hansı yolla
gedəcəyinizi biləsiniz, çünki siz əvvəllər
heç vaxt bu yoldan keçməmisiniz».
5 Yeşua xalqa dedi: «Özünüzü təqdis
edin, çünki sabah Rəbb aranızda
möcüzələr göstərəcək». 6 Kahinlərə isə
Yeşua belə dedi: «Əhd sandığını götürün
və xalqın önündə gedin». Onlar da
Əhd sandığını götürüb xalqın önündə
getdilər.
7 Rəbb Yeşuaya dedi: «Bu gün
Mən səni bütün İsraillilərin gözündə
ucaltmağa başlayacağam ki, onlar Musa
ilə olduğum kimi sənin lə də olduğumu
bilsinlər.
8 Sən isə Əhd sandığını daşıyan
kahinlərə əmr edib deyəcəksən: “Siz
İordan çayının kənarına çatanda İordan
çayına girib dayanın”».
9 Yeşua İsrail övladlarına dedi:
«Buraya yaxınlaşın və Allahınız Rəbbin
sözlərini eşidin». 10 Yeşua dedi: «Var
olan Allahın aranızda olmasını buradan
biləcəksiniz ki, O sizin önünüzdən
hökmən Kənanlıları, Xetliləri, Xivliləri,
Perizliləri, Qirqaşlıları, Emorluları və
Yevusluları qovacaq. 11 Budur, bütün
yer üzünün Sahibinin Əhd sandığı sizin
önünüzdən keçib İordan çayına girəcək.
12 İndi isə özünüzə hər qəbilədən bir
adam olmaqla İsrail qəbilələrindən
on iki adam götürün. 13 Bütün yer
üzünün Sahibi Rəbbin sandığını daşıyan
kahinlərin ayaqları İordan çayının
sularına dəyən kimi çayın suları
kəsiləcək, yuxarıdan axan sular yığın
halında dayanacaq».
14 Xalq çadırlarından çıxıb İordan
çayını keçmək üçün irəliləyirdi və
Əhd sandığını daşıyan kahinlər xalqın
önündə gedirdilər. 15 Biçin ərzində
İordan çayının suları daşıb sahilləri
basırdı. Sandığı daşıyan kahinlər
İordana girəndə və onların ayaqları
çayın sularına dəyəndə 16 yuxarıdan
axan sular çox uzaqda Sartan yanında
olan Adam şəhərində yığın halında

dayanıb qalxdı. Arava dənizinə, yəni
Duz dənizinə axan sular tamamilə
kəsildi. Xalq çayı Yerixonun qarşısından
keçdi. 17 Rəbbin Əhd sandığını daşıyan
kahinlər isə İordan çayının ortasında
quru yerdə möhkəm durmuşdular.
Bütün İsraillilər İordan çayını tamamilə
keçənə qədər quru yerdə gedirdilər.

İordan çayının dibindən on iki daşın götürülməsi

4 Bütün millət tamamilə İordan çayını
keçəndən sonra Rəbb Yeşuaya
dedi: 2 «Hər qəbilədən bir adam
olmaqla özünüzə xalqdan on iki adam
götürün. 3 Onlara əmr et ki, buradan,
İordan çayının ortasından, kahinlərin
ayaqlarının möhkəm durduğu yerdən
on iki daş götürsünlər. Bu daşları aparıb
bu gecə qaldığınız yerdə qoyun».
4 Yeşua hər qəbilədən bir adam
olmaqla İsrail övladlarının arasından
seçdiyi on iki adamı çağırdı. 5 Yeşua
onlara dedi: «Allahınız Rəbbin sandığı
önündən İordan çayının ortasına keçib
İsrail qəbilələrinin sayına görə hərəniz
çiyninizə bir daş götürün. 6 Qoy bu sizin
aranızda bir əlamət olsun. Sizdən sonra
övladlarınız “Bu daşlar nədir?” deyərək
soruşanda 7 onlara belə deyərsiniz:
“İordan çayının suları Rəbbin Əhd
sandığının önündə kəsildi. Əhd
sandığını İordan çayından keçirəndə
İordan çayının suları kəsilmişdi”. Bu
daşlar İsrail övladlarına əbədi bir xatirə
olacaq».
8 İsraillilər Yeşuanın əmr etdiyi
kimi etdilər və Rəbbin Yeşuaya dediyi
kimi İsrail qəbilələrinin sayına görə
İordan çayının ortasından on iki daş
götürdülər, özləri ilə gecə qalacaqları
yerə aparıb onları orada yerə qoydular.
9 Sonra Yeşua İordan çayının ortasında
Əhd sandığını daşıyan kahinlərin
ayaqlarının möhkəm durduğu yerə on
iki daş qoydu. Onlar bu günə qədər
oradadır.
10 Musanın Yeşuaya dediyi kimi xalqa
demək üçün Rəbbin Yeşuaya əmr etdiyi
şeylər qurtarana qədər sandığı daşıyan
kahinlər İordan çayının ortasında
dayandılar, xalq isə tələsərək çayı
keçdi. 11 Xalq çayı keçib qurtarandan
sonra Rəbbin sandığı və kahinlər
xalqın önünə keçdilər. 12 Ruvenlilər,
Qadlılar və Menaşşe qəbiləsinin yarısı
Musanın onlara dediyi kimi silahlanaraq
İsrail övladlarının önündə çayı keçdi.
13 Döyüş üçün silahlanmış qırx minə
yaxın adam Rəbbin önündə Yerixo
düzənliklərinə keçdi.
14 O gün Rəbb Yeşuanı bütün İsrail
xalqının gözündə ucaltdı. Onlar da
Musadan çəkindiyi kimi Yeşuadan da
onun ömrü boyu çəkindilər.
15 Rəbb Yeşuaya söyləyib dedi:
16 «Şəhadət sandığını daşıyan kahinlərə
əmr et ki, İordan çayından çıxsınlar».
17 Yeşua da kahinlərə «İordan çayından
çıxın!» deyə əmr etdi. 18 Rəbbin Əhd
sandığını daşıyan kahinlər İordan
çayının ortasından çıxanda kahinlərin
ayaqları quru torpağa dəyən kimi
İordan çayının suları öz yerinə qayıtdı.
Yenə əvvəlki kimi bütün sular daşıb
sahilləri basdı.
19 Birinci ayın onuncu günündə xalq
İordan çayından çıxıb Yerixonun şərq
sərhədində olan Qilqalda ordugah
qurdu. 20 Yeşua İordan çayından
götürülmüş həmin on iki daşı Qilqalda
qoydu. 21 O, İsrail övladlarına dedi:
«Sonra övladlarınız atalarından “Bu
daşlar nəyə görədir?” deyib soruşanda
22 övladlarınıza bəyan edin: “İsraillilər
İordan çayını quru yer üzərində keçib”.
23 Çünki Allahınız Rəbb biz keçənə
qədər qarşımızda qurutduğu Qırmızı
dəniz kimi İordan çayının sularını da
siz keçənə qədər qarşımızda qurutdu
ki, 24 yer üzünün bütün xalqları Rəbbin

əlinin qüdrətli olduğunu bilsin və
siz də bütün ömrünüz boyu Rəbdən
qorxasınız».

İsraillilərin Qilqalda sünnət olunması

5 İordan çayının qərb tərəfində olan
bütün Emorluların padşahları
və dəniz kənarında yaşayan bütün
Kənan padşahları biz İordan çayını
keçərkən, Rəbbin İsrail övladlarının
qarşısında suları necə qurutduğunu
eşidərkən ürəkləri qorxuya düşdü. İsrail
övladlarının vahiməsindən onlarda
taqət qalmadı.
2 O zaman Rəbb Yeşuaya dedi:
«Özün üçün çaxmaq daşından bıçaqlar
düzəlt və İsrail övladlarını ikinci
dəfə sən sünnət et». 3 Yeşua özü üçün
çaxmaq daşından bıçaqlar düzəldib
Giveat-Haaralotda İsrail övladlarını
sünnət etdi. 4 Yeşuanın sünnət etməsinin
səbəbi budur: bütün döyüş qabiliyyəti
olan kişilər Misirdən çıxandan sonra
səhrada – yolda öldülər. 5 Oradan
çıxan xalqın hamısı sünnətli idi, ancaq
Misirdən çıxandan sonra səhrada –
yolda doğulanların heç biri sünnət
olunmamışdı. 6 [y]Misirdən çıxan döyüş
qabiliyyəti olan adamların hamısı ölüb
qurtarana qədər İsrail övladları qırx il
səhrada dolaşdı, çünki onlar Rəbbin
sözünə qulaq asmamışdı. Rəbb bizə
vermək üçün atalarımıza and içdiyi
süd və bal axan torpağı itaətsizlərə
göstərməmək üçün də and içdi. 7 Bunun
əvəzinə Rəbb onların övladlarını
yetişdirdi və Yeşua onları sünnət etdi.
Çünki onlar sünnətsiz idilər və yolda
onları heç kim sünnət etməmişdi.
8 Bütün İsraillilərin sünnət olunması
qurtardıqdan sonra onlar sağalana qədər
ordugahda öz yerlərində qaldılar. 9 Rəbb
Yeşuaya dedi: «Misir rüsvayçılığını bu
gün üzərinizdən atdım». Ona görə də bu
günə qədər o yerin adına Qilqal *deyilir.
10 [z]İsrail övladları Qilqalda ordugah
qurdular. Ayın on dördü axşam
vaxtı Yerixo düzənliklərində Pasxa
bayramı keçirdilər. 11 Pasxanın ertəsi
günü – həmin o gün bu torpağın
bəhrəsindən olan mayasız çörək və
qovurğa yedilər. 12 [a]Onlar o torpağın
bəhrəsindən yedikləri günün səhəri
mannanın tökülməsi kəsildi. Artıq
İsrail övladlarının mannası yox idi və
o il Kənan torpağının məhsulları ilə
dolandılar.

Yeşua və qılınclı adam

13 Yeşua Yerixo yaxınlığında olanda
başını qaldırıb baxdı və əlində sıyrılmış
qılınc olan bir şəxsi qarşısında gördü.
Yeşua onun yanına gəlib «Sən bizim
tərəfdənsən, yoxsa düşmənlərimiz
tərəfdən?» deyə soruşdu. 14 O dedi:
«Xeyr, mən Rəbbin ordusunun
başçısıyam, indi gəlmişəm». Yeşua
üzüstə yerə yıxıldı və ona səcdə edib
dedi: «Ağamın quluna nə sözü var?»
15 [b]Rəbbin ordusunun başçısı Yeşuaya
dedi: «Çarığını ayağından çıxart, çünki
üstündə durduğun yer müqəddəsdir».
Yeşua belə də etdi.

Yerixonun süqutu

6 İsrail övladlarının qorxusundan
Yerixonu bərk-bərk bağlamışdılar.
Oraya girib-çıxan yox idi. 2 Rəbb
Yeşuaya dedi: «Bax Yerixonu, onların
padşahını, igid adamlarını sənə təslim
edirəm. 3 Siz – bütün döyüşçülər şəhərin
ətrafına bir dəfə dolanın; altı gün belə
edin. 4 Sandığın qarşısında yeddi kahin
qoç buynuzundan olan yeddi şeypur
daşısın. Yeddinci gün şəhəri yeddi dəfə
dolanın və kahinlər şeypurları çalsınlar.

---

*__5:9__ *Qilqal* – ibrani dilində *atmaq*.

[y]**5:6** Say. 14:28-35 [z]**5:10** Çıx. 12:1-13 [a]**5:12** Çıx. 16:35 [b]**5:15** Çıx. 3:5

5 Onlar qoç buynuzundan olan şeypuru
uzun-uzadı çaldıqları və siz şeypurun
səsini eşitdiyiniz vaxt bütün xalq
gur səslə bağırsın. Onda şəhərin qala
divarları yerə çökəcək və xalqın hər
biri dayandığı yerdən şəhərə qalxsın».
6 Nun oğlu Yeşua kahinləri çağırıb
onlara dedi: «Əhd sandığını götürün,
Rəbbin sandığı qarşısında yeddi kahin
qoç buynuzundan olan yeddi şeypur
daşısın». 7 Xalqa isə dedi: «Gedin şəhəri
dolanın, silahlı adamlar isə Rəbbin
sandığı önündə getsinlər».
8 Yeşuanın xalqa dediyi kimi Rəbbin
önündə qoç buynuzundan olan
yeddi şeypuru daşıyan yeddi kahin
keçib şeypurları çaldı. Rəbbin Əhd
sandığı da onların ardınca aparıldı.
9 Silahlı adamlar şeypurları çalan
kahinlərin qarşısında gedirdilər,
kahinlər şeypurları çala-çala gedərkən
arxada olan dəstə sandığın ardınca
gedirdi. 10 Yeşua xalqa əmr edib dedi:
«Sizə "çığırın" deyəcəyim günə qədər
çığırmayın, səsinizi eşitdirməyin və
ağzınızdan bir söz çıxartmayın, ancaq
mən deyən vaxt çığırın». 11 Xalq Rəbbin
sandığını bir dəfə şəhərin ətrafına
dolandırdı. Sonra ordugaha gəldilər və
orada gecələdilər.
12 Yeşua səhər erkən qalxdı. Kahinlər
də Rəbbin sandığını götürdülər. 13 Qoç
buynuzundan olan yeddi şeypuru
daşıyan yeddi kahin Rəbbin sandığı
önündə gedirdi və şeypurları çalırdı.
Silahlı adamlar onların qarşısında
gedirdi. Kahinlər şeypurları çala-çala
gedir, arxa dəstə Rəbbin sandığının
ardınca gedirdi. 14 Onlar ikinci gün də
şəhəri bir dəfə dolandılar və ordugaha
qayıtdılar; altı gün belə etdilər.
15 Yeddinci gün tezdən dan yeri
sökülməndə qalxıb şəhəri yeddi dəfə bu
qayda ilə dolandılar. Ancaq yeddinci
gün şəhəri yeddi dəfə dolandılar.
16 Yeddinci dəfə dolanan zaman
kahinlər şeypurları çalanda Yeşua xalqa
dedi: «Çığırın, çünki Rəbb şəhəri sizə
verdi. 17 Şəhər məhv edilməyə həsr
olunmuşdur *və onda olan hər şey Rəbbə
təqdim olunmalıdır. Yalnız fahişə Raxav
və onunla birgə evdə olanların hamısı
sağ qalmalıdır, çünki o göndərdiyimiz
elçiləri gizlətmişdi. 18 Lakin siz məhv
edilməyə həsr olunmuş şeylərdən
çəkinin ki, heç nə götürməyəsiniz. Əgər
bir şey götürsəniz, onda siz də məhv
edilməyə həsr olunacaqsınız və bununla
da İsrail ordugahını məhv edilməyə
həsr etməklə bəlaya salarsınız. 19 Ancaq
bütün qızıl və gümüş, tunc və dəmir
əşyalar Rəbbə məxsus olduğuna görə
Rəbbin xəzinəsinə daxil olacaq».
20 [c]Xalq çığırdı və kahinlər şeypur
çaldılar. Xalq şeypur səsini eşidəndə
ucadan çığırdı. Onda qala divarları
yerə çökdü və xalqın hər biri dayandığı
yerdən irəliləyərək şəhəri aldı.
21 Onlar kişini, qadını, cavanı, qocanı,
mal-qaranı, qoyun-quzunu, eşşəyi və
şəhərdə olanların hamısını qılıncdan
keçirib tamamilə məhv etdilər.

Yeşuanın Raxavı və yanındakıları sağ buraxması

22 Yeşua ölkəni gözdən keçirən o iki
nəfər casusa tapşırmışdı: «Fahişə qadının
evinə girin, ona and içdiyiniz kimi
qadını və onun yanındakıların hamısını
evdən çıxarın». 23 O zaman həmin
casus cavanlar qadının evinə gəldi.
Raxavı, atasını, anasını, qardaşlarını,

---

*6:17 *Məhv edilməyə həsr olunmuş* – ibrani mətnində *xerem* sözü olub Allaha təqdim olunan, məhv olunmaq üçün təqdis edilən və götürülməsi qadağan olunan şeylərə deyilir.

[c]**6:20** İbr. 11:30

onun yanında olan hər kəsi, bütün
qohumlarını evdən çıxartdılar və
onları İsrail ordugahından kənar yerdə
qoydular. 24 Şəhərə və orada olan
hər şeyə od vurub yandırdılar. Yalnız
qızıl-gümüşü, mis və dəmir əşyaları
Rəbbin evinin xəzinəsinə qoydular.
25 [d]Ancaq Yeşua fahişə Raxavı, onun
atasının külfətini və onun yanında olan
hər kəsi sağ buraxdı. Qadın bu günə
qədər də İsraillilərin arasında yaşayır,
çünki Yerixonu gözdən keçirmək üçün
Yeşuanın göndərdiyi elçiləri yanında
gizlətmişdi.

Yeşuanın Yerixonu lənətləməsi

26 [e]Yeşua o vaxt xalqa and verib
xəbərdarlıq etdi: «Bu şəhəri – Yerixonu
kim bərpa etsə, qoy Rəbbin önündə
lənətə gəlsin. Bunu edən həmin şəxs
onun bünövrəsini ilk oğlunun həyatı
bahasına qoyacaq və kiçik oğlunun
həyatı bahasına isə onun qapılarını
yerinə vuracaq». 27 Rəbb Yeşua ilə idi
və onun şöhrəti bütün ölkəyə yayıldı.

Akanın günahı və cəzası

7 Amma İsrail övladları məhv
edilməyə həsr olunmuş şeylərə
münasibətdə xəyanət etdilər. Çünki
Yəhuda qəbiləsindən Zerah oğlu Zavdi
oğlu Karmi oğlu Akan məhv edilməyə
həsr olunmuş şeylərdən götürdü. Ona
görə də Rəbbin qəzəbi İsrail övladlarına
qarşı alovlandı.
2 Yeşua Yerixodan Bet-Elin şərqində,
Bet-Avenin yanında olan Ay şəhərinə
adamlar göndərib onlara dedi: «Gedin,
ölkəni gözdən keçirin». Adamlar çıxıb
Ay şəhərini gözdən keçirdilər. 3 Onlar
Yeşuanın yanına qayıdıb dedilər:
«Bütün xalq getməsin, ancaq iki ya
üç min nəfərə qədər adam gedib Ay
şəhərini məhv etsin. Bütün xalqı oraya
göndərib yorma, çünki onlar azdır».
4 Beləliklə, oraya xalqın üç min nəfərə
qədəri getdi, lakin onlar Ay sakinlərinin
qarşısından qaçdılar. 5 Aylılar onlardan
otuz altı nəfəri öldürüb, İsraillilər
şəhərin darvazasının qabağından daş
çıxarılan yerə qədər qovdular və onları
enişlikdə qırdılar. Bundan sonra xalqın
ürəyi qorxudan dəhşətə gəldi.
6 Yeşua paltarını cırdı, özü və İsrailin
ağsaqqalları Rəbbin sandığı önündə
axşama kimi yerə yıxılıb başlarına
torpaq tökdülər. 7 Yeşua dedi: «Ah,
ey Xudavənd Rəbb, bizi Emorlulara
təslim etmək, bizi məhv etmək üçünmü
bu xalqı İordan çayından keçirtdin?
Kaş ki İordan çayının o tayında
qalıb yaşayaydıq. 8 Ah, ey Xudavənd,
İsraillilər düşmənin qarşısından
qaçandan sonra mən nə deyə bilərəm?
9 Bundan sonra Kənanlılar və bu ölkədə
yaşayan bütün xalqlar eşidəcək, bizi
mühasirəyə alıb adımızı yer üzündən
siləcəklər. Bəs Sən Öz böyük adın üçün
nə edəcəksən?»
10 Rəbb Yeşuaya dedi: «Qalx, nə üçün
belə üzüstə yıxılmısan?» 11 İsraillilər
günah etdilər və onlara əmr etdiyim
əhdimi pozdular. Məhv edilməyə
həsr olunmuş şeylərdən götürdülər,
onlardan oğurladılar, gizlədərək öz
əşyaları arasına qoydular. 12 Buna
görə də İsrail övladları düşmən
qabağında dura bilmir, düşmənin
qarşısından qaçdılar. Çünki onlar özləri
də məhv edilməyə həsr olunmuşlar.
Əgər məhv edilməyə həsr olunmuş
şeyləri aranızdan yox etməsəniz, bir
daha sizinlə olmayacağam. 13 Qalx,
xalqı təqdis et və de: «Sabahkı gün
üçün özünüzü təqdis edin, çünki
İsrailin Allahı Rəbb belə deyir: “Ey
İsraillilər, aranızda məhv edilməyə
həsr olunmuş şey var. Onu aranızdan

---

[d]**6:25** İbr. 11:31 [e]**6:26** 1Pad. 16:34

götürməsəniz, düşmənləriniz qarşısında
dura bilməyəcəksiniz. 14 Sabah hamınız
qəbilələrinizə görə Rəbbin hüzuruna
çıxacaqsınız və Onun göstərdiyi qəbilə
nəsillərə görə irəli çıxacaq. Rəbbin
göstərdiyi nəsil ailələrə görə irəli
çıxacaq. Rəbbin göstərdiyi ailə kişilərə
görə irəli çıxacaq. 15 Məhv edilməyə
həsr olunmuş şeylərə xəyanət edən
adam və ona aid olanların hamısı odda
yandırılacaq, çünki o, Rəbbin əhdini
pozmuşdur və İsraildə rüsvayçılıq
etmişdir”».
16 Yeşua səhər tezdən qalxdı və
İsraillilərin qəbilələrinə görə Rəbbin
hüzuruna çıxmasını əmr etdi və Yəhuda
qəbiləsi göstərildi. 17 Yəhuda qəbiləsini
irəli çıxardı və Zerah nəsli göstərildi.
Zerah nəslini ailələrinə görə irəli çıxardı
və Zavdi ailəsi göstərildi. 18 Zavdi
ailəsini kişilərinə görə irəli çıxardı
və Yəhuda qəbiləsindən Zerah oğlu
Zavdi oğlu Karmi oğlu Akan göstərildi.
19 Yeşua Akana dedi: «Oğlum, buyur,
İsrailin Allahı Rəbbi izzətləndir və
Onun önündə etiraf et. Nə etmisən? İndi
mənə bildir, məndən gizlətmə». 20 Akan
Yeşuaya cavab verdi: «Həqiqətən, mən
İsrailin Allahı Rəbbə qarşı günah edərək
belə elədim: 21 talan malından Babil
malı olan gözəl bir paltar, iki yüz
şekel gümüş və ağırlığı əlli şekel olan
bir qızıl külçə görəndə onlara tamah
salıb götürdüm. Budur, ən altda gümüş
olmaqla hamısını çadırımın ortasında
torpağa basdırmışam».
22 Yeşua adamlar göndərdi və onlar
çadıra qaçdılar. Şeylər ən altda gümüş
olmaqla onun çadırında gizlədilmişdi.
23 Onları çadırın içindən götürüb
Yeşuanın və bütün İsrail övladlarının
yanına gətirdilər və Rəbbin önündə
yerə qoydular. 24 Yeşua, onunla birgə
bütün İsraillilər, Zerah oğlu Akanı,
gümüşü, paltarı, qızıl külçəni, onun
övladlarını, qızlarını, mal-qarasını,
eşşəklərini, qoyun-quzularını, çadırını
və bütün malını götürüb Akor dərəsinə
çıxartdılar. 25 Yeşua dedi: «Nə üçün bizi
bəlaya saldın? Rəbb bu gün səni bəlaya
salacaq». Bütün İsraillilər onu və onunla
olanları da daşqalaq edib sonra odda
yandırdılar. 26 Onların üstünə böyük
daş qalağı yığıldı və o bu günə qədər
də durur. Bundan sonra Rəbbin qəzəb
alovu söndü. Bunun üçün bu günə qədər
o yerin adına Akor *dərəsi deyilir.

İsraillilərin Ay şəhərini ələ keçirməsi

8 Rəbb Yeşuaya dedi: «Qorxma və
dəhşətə gəlmə, bütün döyüşçülərini
öz yanına yığ və qalxıb Ay şəhərinə
hücum et. Mən Ay şəhərinin padşahını,
xalqını, şəhərini və torpağını sənə
təslim edirəm. 2 Yerixonun və oranın
padşahının başına gətirdiyini Ay
torpağının və onun padşahının başına
gətir. Mallarını və heyvanlarını isə
özünüz üçün qarət edin. Şəhərə qarşı
arxa tərəfdən pusqu qurun».
3 Yeşua ilə bütün döyüşçülər Ay
şəhərinə getmək üçün qalxdılar. Yeşua
otuz min igid adam seçib onları gecə
ikən oraya göndərəndə belə əmr
etdi: 4 «Qulaq asın, şəhərə qarşı arxa
tərəfdən pusquda durun, şəhərdən çox
uzağa getməyin, hamınız hazır durun.
5 Mən və yanımda olan bütün xalq
şəhərə yaxınlaşacağıq. Əvvəlki kimi Ay
şəhərinin sakinləri bizə qarşı çıxanda
biz də onların qarşısından qaçacağıq.
6 Biz onları şəhərdən ayırana qədər
arxamızca aparacağıq, çünki “əvvəlki
kimi qarşımızdan qaçırlar” deyəcəklər.
Biz də onların qarşısından qaçacağıq.
7 O vaxt siz pusqudan qalxıb şəhəri alın,
çünki Allahınız Rəbb oranı sizə təslim
edəcək. 8 Şəhəri ələ keçirdiyiniz zaman

*7:26 *Akor* – ibrani dilində *əziyyət*.

şəhərə od vurun. Bunu Rəbbin sözünə
görə edin. Sizə belə əmr edirəm».
9 Beləliklə, Yeşua onları göndərdi. Onlar
pusquda durdular və Bet-El ilə Ay şəhəri
arasında, Ay şəhərinin qərb tərəfində
gözlədilər. Yeşua gecəni camaatın
arasında keçirdi.
10 Yeşua səhər tezdən durdu,
xalqı gözdən keçirdi, özü və xalqın
ağsaqqalları xalqın qarşısında Ay
şəhərinin üzərinə getdilər. 11 Onunla
birgə olan bütün döyüşçülər getdilər və
yaxınlaşıb şəhərin qarşısına gəldilər, Ay
şəhərinin şimal tərəfində toplandılar.
Onlarla Ay şəhərinin arasında bir dərə
var idi. 12 Yeşua beş minə qədər adam
götürdü, onları Bet-El ilə Ay şəhəri
arasında, şəhərin qərb tərəfində pusquya
qoydu. 13 Şəhərin şimalında olan bütün
ordu və şəhərin qərbində pusquda
duranlar döyüş üçün yerləşdirildi.
Yeşua o gecə dərənin ortasına getdi.
14 Ay şəhərinin padşahı bunu
gördükdə səhər tezdən şəhərin adamları
ilə birgə tələsik qalxdı və bütün camaat
düz vaxtında İsraillilərə qarşı Arava
vadisinin önündə döyüşə çıxdı. Lakin
padşah bilmirdi ki, şəhər arxasında ona
qarşı pusqu qurulub. 15 Yeşua ilə bütün
İsraillilər özlərini onların qarşısında
məğlub olmuş kimi göstərərək çölə tərəf
qaçdılar. 16 Onları təqib etmək üçün
şəhərdə olan bütün camaat çağırıldı.
Yeşuanı təqib edərək şəhərdən çıxdılar.
17 Ay və Bet-El şəhərlərində bir nəfər
də qalmadı ki, İsraillilərin ardınca
getməsin. Onlar şəhəri açıq qoyaraq
İsraillilləri təqib etdilər.
18 Rəbb Yeşuaya dedi: «Əlindəki
nizəni Ay şəhərinə tərəf uzat, çünki
oranı sənə təslim edəcəyəm». Yeşua
əlindəki nizəni Ay şəhərinə tərəf uzatdı.
19 Yeşua əlini şəhərə tərəf uzadarkən
pusquda duranlar cəld yerlərindən
qalxdılar və şəhərə girib oranı aldılar. O
anda bütün şəhərə od vurdular. 20 Ay
şəhərinin əhalisi arxaya dönüb baxanda
gördü ki, şəhərdən göyə tüstü qalxır
və onların o yan-bu yana qaçmağa
da taqəti yox idi. Çölə tərəf qaçan
İsraillilər də onları təqib edənlərə tərəf
döndü. 21 Yeşua ilə pusquda olan bütün
İsraillilər şəhəri alındığını və şəhərdən
tüstü qalxdığını görəndə dönüb Ay
şəhərinin adamlarını qırdılar. 22 O biri
İsraillilər də şəhərdən onlara tərəf
çıxdılar. Onda onlar iki tərəfdən gələn
İsraillilərin arasında qaldılar. İsraillilər
onlardan heç kimi sağ yaxud qaçmağa
qoymadan qırdılar. 23 Ay şəhərinin
padşahını isə diri tutub Yeşuanın yanına
gətirdilər.
24 İsraillilər Ay şəhərinin əhalisinin
hamısını öldürüb qurtarana qədər
tarlada və onları təqib etdikləri çöldə
qılıncdan keçirtdilər. Sonra bütün
İsraillilər Ay şəhərinə qayıdıb orada
qalanları da qılıncdan keçirtdilər.
25 O gün qırılan kişi və qadınlardan
hamısı – bütünlüklə Ay şəhərinin
əhalisi on iki min nəfər idi. 26 Bütün
Ay şəhərinin əhalisini tamamilə qırıb
qurtarana qədər Yeşua nizə uzadan
əlini geri çəkmədi. 27 Ancaq Rəbbin
Yeşuaya buyurduğu sözə görə İsraillilər
o şəhərin heyvanlarını və əmlakını talan
edib özlərinə götürdülər. 28 Yeşua Ay
şəhərini yandırdı. Oranı əbədi qalan
daş qalağına, yəni elə bir viranəyə
çevirdi ki, bu günə qədər qalmaqdadır.
29 O, Ay şəhərinin padşahını ağacdan
asaraq axşama qədər saxladı. Gün
batanda isə Yeşua əmr verdi və onun
cəsədini ağacdan düşürtdülər, onu şəhər
darvazasının girəcəyinə atdılar. Üstünə
bu günə qədər qalan böyük bir daş
qalağı yığdılar.

Eval dağında qurban mərasimi

30 [f]O zaman Yeşua Eval dağında
İsrailin Allahı Rəbbə bir qurbangah
qurdu. 31 [g]O, Rəbbin qulu Musanın
İsrail övladlarına əmr etdiyi və Musanın
Qanun kitabında yazıldığı kimi
üstünə heç kimin dəmir vurmadığı,
yonulmamış daşlardan bir qurbangah
düzəltdi. Onun üstündə Rəbbə yandırma
qurbanları və ünsiyyət qurbanları
təqdim etdilər. 32 Yeşua orada Musanın
İsrail övladları qarşısında yazdığı
Qanunun bir nüsxəsini daşlar üzərinə
yazdı. 33 [h]Bütün İsraillilər, ağsaqqallar,
məmurlar, hakimlər, qəriblər də
daxil olmaqla Rəbbin Əhd sandığının
iki tərəfində sandığı daşıyan Levili
kahinlərin qarşısında dayandılar.
Xalqın yarısı Gerizim dağının, o biri
yarısı isə Eval dağının qarşısında
durdu. Çünki Rəbbin qulu Musa İsrail
xalqına xeyir-dua vermək üçün əvvəllər
bu cür dayanmağı buyurmuşdu.
34 Ondan sonra Yeşua Qanunun bütün
sözlərini – xeyir-dua və lənəti, yəni
Qanun kitabında yazılanların hamısını
oxudu. 35 Bütün İsrail camaatının,
qadınların, uşaqların və aralarında olan
qəriblərin qarşısında Musanın bütün
buyurduqlarından Yeşuanın oxumadığı
bir söz belə, qalmadı.

Kənan padşahlarının İsraillilərlə vuruşmaq üçün yığılması

9 İordan çayının qərb tərəfində
dağlıqda, yamaclı-düzənlikli
bölgədə, Livana qədər uzanan Böyük
dənizin sahilində yaşayan Xetlilər,
Emorlular, Kənanlılar, Perizlilər,
Xivlilər və Yevusluların padşahları bunu
eşidən zaman 2 Yeşua və İsraillilərə
qarşı birlikdə döyüşmək üçün bir yerə
toplandılar.

Giveon əhalisinin İsraillilərlə hiyləgərcəsinə sülh bağlaması

3 Lakin Giveon əhalisi Yeşuanın
Yerixonun və Ay şəhərinin başına
gətirdiklərini eşitdikdə 4 hiylə ilə
hərəkət etdilər: gedib özlərini elçi
kimi göstərdilər və köhnəlmiş torbalar,
köhnə, yırtıq və bağlanmış şərab
tuluqlarını eşşəklərinə yüklədilər.
5 Ayaqlarında cırıq və yamaqlı çarıqları,
əyinlərində köhnə paltarları var idi.
Ərzaqları, bütün çörəkləri qurumuş
və kiflənmişdi. 6 Onlar Qilqalda olan
ordugaha, Yeşuanın yanına getdilər,
ona və İsraillilərə dedilər: «Biz uzaq
bir ölkədən gəlmişik, indi bizimlə əhd
kəsin». 7 [i]İsraillilər Xivlilərə dedilər:
«Bəlkə siz bizim aramızda yaşayırsınız?
Biz sizinlə necə əhd kəsək?» 8 Onlar
Yeşuaya dedilər: «Biz sənin qullarınıq».
Yeşua isə onlara dedi: «Siz kimsiniz
və haradan gəlirsiniz?» 9 Ona dedilər:
«Sənin Allahın Rəbbin şöhrətli adına
görə biz qulların çox uzaq ölkədən
gəlmişik. Çünki Rəbbin xəbərini,
Misirdə etdiyi bütün şeyləri, 10 [j]İordan
çayının o tərəfində olan Emorluların iki
padşahı – Xeşbon padşahı Sixonun və
Aştarotdakı Başan padşahı Oqun başına
gətirdiyi hər şeyi eşitmişik. 11 Ona
görə ağsaqqallarımız və ölkəmizin
bütün əhalisi bizə belə dedilər: “Yol
üçün əlinizə ərzaq götürüb onları
qarşılamağa gedin və deyin: ‹Biz sizin
qullarınızıq, indi bizimlə əhd kəsin›”.
12 Yanınıza gəlmək üçün çıxdığımız gün
bu çörəyimizi ərzaq kimi evlərimizdən
isti-isti götürmüşdük, indi isə quruyub
və kiflənib. 13 Doldurduğumuz bu şərab
tuluqları təzə idi, indi isə yırtılıb. Yol

---

[f] **8:30** Qanun. 27:2-8 [g] **8:31** Çıx. 20:25 [h] **8:33** Qanun. 11:29; 27:11-14
[i] **9:7** Çıx. 23:32; 34:12; Qanun. 7:2 [j] **9:10** Say. 21:21-35

çox uzun olduğu üçün paltarlarımız və
çarıqlarımız da köhnəlib».
14 İsraillilər onların ərzaqlarını
götürdülər və onlara inandılar,
ancaq Rəbdən məsləhət almadılar.
15 Yeşua onlarla sülh bağlayıb onları
sağ buraxacağına söz verdi və icma
rəhbərləri də bunun üçün and içdilər.
16 Onlarla əhd bağladıqdan üç
gün sonra eşitdilər ki, bu adamlar
İsraillilərlə qonşuluqda – öz aralarında
yaşayanlardır. 17 İsraillilər çıxıb üçüncü
gün onların şəhərlərinə gəldilər. Onların
şəhərləri Giveon, Kefira, Beerot və
Qiryat-Yearim idi. 18 İsraillilər onları
qırmadılar, çünki icma rəhbərləri
onlar üçün İsrailin Allahı Rəbbə and
içmişdilər. Bütün icma rəhbərlərin
əleyhinə danışdı. 19 Rəhbərlərin hamısı
icmaya dedi: «Biz onlar üçün İsrailin
Allahı Rəbbə and içdik ki, onlara
toxunmayaq. 20 Ona görə də belə edək:
onları sağ buraxaq, yoxsa içdiyimiz
anda görə üzərimizə qəzəb gələr».
21 Rəhbərlər xalqa dedi: «Qoy onlar sağ
qalsın, amma bütün icma üçün odun
kəsən və su daşıyan olsunlar». Beləcə
hər şey rəhbərlər deyən kimi oldu.
22 Yeşua onları çağırıb belə dedi:
«Aramızda yaşadığınız halda “biz
sizdən çox uzağıq” deyərək bizi nə
üçün aldatdınız? 23 İndi lənətlənmisiniz
və siz həmişəlik Allahımın evi üçün
odun kəsən və su daşıyan kölələr
olmalısınız». 24 Onlar Yeşuaya cavab
verib dedilər: «Sənin Allahın Rəbbin
bütün ölkəni sizə vermək, ölkənin
bütün əhalisini qarşınızda həlak etmək
üçün qulu Musaya necə əmr verdiyi
bu qullarına aşkar bildirilmişdi. Sizin
ucbatınızdan canımız üçün çox qorxduq
və ona görə belə etdik. 25 Artıq sənin
əlindəyik. Sənin gözündə nə xoşdursa
və nə doğrudursa, onu et». 26 Yeşua
onlarla belə rəftar etdi: onları İsrail
övladlarının əlindən qurtarıb qoymadı
ki, öldürülsünlər. 27 O gün Yeşua icma
üçün və Rəbbin seçəcəyi yerdəki öz
qurbangahı üçün onları odun kəsən və
su daşıyan işinə təyin etdi və bu günə
qədər də belədir.

Giveon ətrafında döyüş

10 Yerusəlim padşahı Adoni-Sedeq
Yeşuanın Ay şəhərini alıb
tamamilə məhv etməsini, Yerixo ilə
padşahının, Ay şəhəri ilə padşahının
başına gətirdiyini və Giveon əhalisinin
İsraillilərlə sülh bağlayıb onların
arasında olduqlarını eşitdi. 2 O vaxt
onun özü və xalqı çox qorxdu, çünki
Giveon şəhəri padşah şəhərlərindən
biri kimi böyük bir şəhər idi. Giveon
Ay şəhərindən də böyük idi və oranın
adamları igid idi. 3 Bunun üçün
Yerusəlim padşahı Adoni-Sedeq Xevron
padşahı Hohama, Yarmut padşahı
Pirama, Lakiş padşahı Yafiaya, Eqlon
padşahı Devirə xəbər göndərib dedi:
4 «Yanıma gəlib Giveonluları qırmaqda
mənə kömək edin, çünki onlar Yeşua və
İsrail övladları ilə sülh bağlayıb». 5 Beş
Emor padşahı olan Yerusəlim padşahı,
Xevron padşahı, Yarmut padşahı, Lakiş
padşahı, Eqlon padşahı bütün orduları
birləşdirərək gəlib Giveon qarşısında
ordugah quraraq ona qarşı vuruşdular.
6 Giveon adamları Qilqaldakı
ordugaha, Yeşuaya xəbər göndərib
dedilər: «Əlini qullarının üstündən
çəkmə, tez yanımıza gəl, bizi qurtar
və bizə kömək et. Çünki dağlıqda
yaşayan bütün Emor padşahları bizə
qarşı birləşib». 7 Yeşua, onunla birgə
bütün döyüşçülər və bütün igid adamlar
Qilqaldan çıxdılar.
8 Rəbb Yeşuaya dedi: «Onlardan
qorxma, çünki onları sənə təslim
etdim, onlardan heç kim sənin qarşında
dura bilməyəcək». 9 Yeşua bütün gecə
Qilqaldan yuxarı çıxıb qəflətən onların
üstünə gəldi. 10 Rəbb onları İsraillilərin

qarşısında çaşbaş saldı, İsraillilər onları
Giveonda böyük tələfata uğratdı və
onları Bet-Xoron yoxuşunda təqib
edərək Azeqaya və Maqqedaya qədər
qırdılar. 11 Emorlular İsraillilərin
qarşısından qaçdıqları zaman Bet-Xoron
enişində ikən Azeqaya qədər Rəbb
onların üstünə göydən böyük daşlar
yağdırdı və onlar öldülər. Daş kimi dolu
ilə ölənlər İsrail övladlarının qılıncla
öldürdüklərindən daha çox idi.
12 Rəbb Emorluları İsrail övladlarına
təslim etdiyi gün Yeşua Rəbbə yalvardı
və İsraillilərin gözü qarşısında dedi:
«Dayan, ey günəş, Giveon üzərində,
Ey ay, Ayyalon dərəsində».
13 [k]İsrail xalqı düşmənlərindən qisas
alana qədər günəş orada dayandı və ay
yerində qaldı. Bu hadisə Yaşar kitabında
yazılmışdı. Günəş göyün ortasında
durdu və ləngiyib təxminən bütün günü
batmadı. 14 Rəbbin insan səsini eşitdiyi
o gün kimi bir gün nə ondan əvvəl, nə
də ondan sonra oldu, çünki Rəbb İsrail
üçün vuruşdu.
15 Sonra Yeşua və onunla birlikdə
bütün İsraillilər Qilqaldakı ordugaha
qayıtdı.

Emor padşahlarının öldürülməsi

16 Bu beş padşah qaçıb
Maqqedada olan mağarada gizləndi.
17 «Maqqedadakı mağarada gizlənən
beş padşah tapıldı» deyə Yeşuaya xəbər
verdilər. 18 Yeşua dedi: «Mağaranın
ağzına böyük daşlar yuvarladın
və onlara nəzarət etmək üçün
yanına adamlar qoyun. 19 Ancaq
siz dayanmayın, düşmənlərinizi
təqib edin və arxadakıları da qırın.
Onları şəhərlərinə girməyə qoymayın.
Allahınız Rəbb onları sizə təslim
edib». 20 Yeşua və İsrail övladları
düşməni çox ağır bir məğlubiyyətə
uğradaraq tamamilə qırdı. Sağ qalanlar
isə qalalı şəhərlərdə sığındı. 21 Bütün
xalq Maqqedadakı ordugaha, Yeşuanın
yanına salamat qayıtdı və bundan sonra
İsrail övladlarına qarşı heç kim bir söz
deyə bilmədi.
22 O vaxt Yeşua dedi: «Mağaranın
ağzını açın, bu beş padşahı mağaradan
mənim yanıma gətirin». 23 Elə də etdilər,
mağaradan bu beş padşahı – Yerusəlim
padşahını, Xevron padşahını, Yarmut
padşahını, Lakiş padşahını və Eqlon
padşahını onun yanına gətirdilər. 24 Bu
padşahları Yeşuanın yanına gətirən
zaman o bütün İsrail adamlarını çağırdı.
Onunla gələn döyüşçülərin başçılarına
dedi: «Yaxınlaşın, ayaqlarınızı bu
padşahların boynuna qoyun». Onlar
yaxınlaşdılar, ayaqlarını onların
boynuna qoydular. 25 Yeşua onlara
dedi: «Qorxmayın və ruhdan düşməyin,
qüvvətli və ürəkli olun, çünki Rəbb
vuruşacağınız bütün düşmənlərinizin
başına bunları gətirəcək». 26 Ondan
sonra Yeşua onları vurub öldürdü.
Onları beş ağacdan asdı və axşama kimi
ağacdan asılı qaldılar. 27 Gün batanda
Yeşua əmr etdi ki, onları ağacdan
endirsinlər və onları gizləndikləri
mağaraya atdılar. Mağaranın ağzına da
böyük daşlar qoydular və bu daşlar bu
günə qədər də oradadır.
28 Yeşua o gün Maqqedanı aldı, onları
və onun tərəfində olan bütün adamları
tamamilə məhv etdi, bir adamı belə, sağ
buraxmadı. Yerixo padşahının başına
gətirdiyini Maqqeda padşahının da
başına gətirdi.

Yeşuanın cənub şəhərləri fəth etməsi

29 Yeşua və onunla birgə bütün
İsraillilər Maqqedadan Livnaya keçdilər
və Livnaya qarşı vuruşdular. 30 Rəbb
həm şəhəri, həm də onun padşahını

---

[k]**10:13** 2Şam. 1:18

İsraillilərə təslim etdi. Yeşua padşahı və
orada olan bütün adamları qılıncdan
keçirib bir adamı belə, sağ buraxmadı.
Yerixo padşahının başına gətirdiyini
oranın padşahının da başına gətirdi.
31 Yeşua və onunla birgə bütün
İsraillilər Livnadan Lakişə keçib onların
qarşısında dayanaraq Lakişlilərlə
vuruşdular. 32 Rəbb Lakişi İsraillilərə
təslim etdi və oranı ikinci gün aldılar.
Livnada etdikləri kimi Lakişi və oradakı
bütün adamları qılıncdan keçirtdilər.
33 O zaman Gezer padşahı Horam Lakişə
kömək etmək üçün gəldi. Yeşua bir
nəfəri də sağ buraxmadan onu və onun
xalqını da qırdı.
34 Yeşua və onunla birgə bütün
İsraillilər Lakişdən Eqlona keçdilər,
onun qarşısına çıxıb Eqlonlularla
vuruşdular. 35 Elə həmin gün oranı
aldılar və qılıncdan keçirdilər. Lakişdə
etdikləri kimi Eqlondakı bütün adamları
o gün tamamilə məhv etdilər.
36 Yeşua və onunla birgə bütün
İsraillilər Eqlondan Xevrona keçdilər
və oradakılarla vuruşdular. 37 Oranı da
alıb padşahını, bütün kəndləri və bütün
əhalisini qılıncdan keçirdilər. Eqlonda
etdikləri kimi Xevronda da heç kimi
sağ qoymadılar, oranı və oradakı bütün
adamları tamamilə məhv etdilər.
38 Yeşua və onunla birgə bütün
İsraillilər Devirə qayıtdılar və
oradakılarla vuruşdular. 39 Deviri, onun
padşahını və bütün kəndlərini alaraq
əhalisini qılıncdan keçirdilər. Orada
olan bütün adamları tamamilə məhv
etdilər, heç kimi sağ qoymadılar. Yeşua
Xevronun, Livnanın və onun padşahının
başına gətirdiyini Devirin və onun
padşahının da başına gətirdi.
40 Yeşua bütün ölkəni – dağlıq yerləri,
Negevi, yamaclı-düzənlikli bölgəni
tutdu və bütün o yerlərin padşahlarını
qırdı. İsrailin Allahı Rəbbin əmr etdiyi
kimi heç kəsi sağ qoymadı, hər nəfəs
alan adamı tamamilə məhv etdi.
41 Yeşua Qadeş-Barneadan Qəzzəyə və
Giveona qədər bütün Qoşen diyarında
yaşayanları qırdı. 42 Yeşua bir dəfəyə
bütün padşahları və onların ölkələrini
aldı, çünki İsrailin Allahı Rəbb İsrail
üçün vuruşdu. 43 Yeşua və onunla birgə
bütün İsraillilər Qilqaldakı ordugaha
qayıtdı.

Yeşuanın şimal şəhərlərini fəth etməsi

11 Xasor padşahı Yavin bunu
eşidəndə Madon padşahı
Yovava, Şimron padşahına, Akşaf
padşahına, 2 şimalda – dağlıq yerlərdəki,
Kinneretin cənubunda olan Aravadakı,
yamaclı-düzənlikli bölgədəki və qərbdə
yerləşən Nafot-Dordakı padşahlara,
3 şərqdə və qərbdə yaşayan Kənanlılara
və Emorlulara, Xetlilərə, Perizlilərə,
dağlıqda yaşayan Yevuslulara, Xermon
dağının aşağısındakı Mispa diyarında
yaşayan Xivlilərə xəbər göndərdi.
4 Bunlar özləri ilə birgə bütün orduları
dəniz sahilindəki qum kimi böyük xalq
olaraq çoxlu at və döyüş arabaları ilə
gəldilər. 5 Bütün bu padşahlar birləşdilər
və İsraillilərlə vuruşmaq üçün gəlib
Merom suları yanında birgə ordugah
qurdular.
6 Rəbb Yeşuaya dedi: «Onlardan
qorxma, çünki sabah bu vaxt hamısını
İsraillilərin qarşısında öldürüb təslim
edəcəyəm, onların atlarının ayaq
vətərini kəsəcəksən, döyüş arabalarına
od vurub yandıracaqsan». 7 Yeşua və
onunla birgə bütün döyüşçülər Merom
suları yanında qəflətən düşmənlərin
üstünə çıxdılar və onlara hücum etdilər.
8 Rəbb onları İsraillilərə təslim edib
qırdırdı. İsraillilər böyük Sidona və
Misrefot-Mayimə qədər, şərq tərəfdəki
Mispa vadisinə qədər düşmənləri qovub
heç kim sağ qalmayana qədər hamısını
qırdılar. 9 Yeşua Rəbbin ona dediyi

kimi onlarla rəftar etdi; atlarının ayaq
vətərini kəsdi və döyüş arabalarına od
vurub yandırdı.
10 O vaxt Yeşua geri qayıdıb Xasoru
aldı və onun padşahını qılıncla öldürdü.
Xasor əvvəlcə bütün bu ölkələrin başı
idi. 11 Orada olan bütün adamları
qılıncdan keçirib tamamilə məhv
etdilər, nəfəs çəkən bir nəfər də
qalmadı. Sonra Xasora od vurdu.
12 Rəbbin qulu Musanın əmr etdiyi kimi
Yeşua bu padşahların bütün şəhərlərini
və bütün padşahları tutub hamısını
qılıncdan keçirərək tamamilə məhv
etdi. 13 Ancaq Yeşuanın yandırdığı
Xasordan başqa təpəciklər üstündə
olan şəhərlərdən heç birini İsraillilər
yandırmadılar. 14 İsrail övladları
bu şəhərlərin bütün əmlakını və
heyvanlarını qarət etdilər. Hamısını
həlak edənədək qılıncdan keçirib məhv
etdilər, nəfəsi çəkən bir adam belə,
qalmadı. 15 Rəbbin qulu Musaya əmr
etdiyini Musa da Yeşuaya əmr etdi və
Yeşua da belə etdi. Rəbb Musaya nə əmr
etmişdisə, hamısını yerinə yetirdi.
16 Yeşua Seirə çıxan Xalaq dağından,
Xermon dağı altında, Livan vadisindəki
Baal-Qada qədər bütün bu diyarı
– dağları, 17 bütün Negevi, bütün
Qoşen diyarını, yamaclı-düzənlikli
bölgəni, Aravanı və İsrailin dağlıq
və yamaclı-düzənlikli bölgəsini aldı.
Onların bütün padşahlarını tutdu və
vurub öldürdü. 18 Yeşua uzun müddət
bu padşahlarla vuruşdu. 19 Giveonun
əhalisi olan Xivlilərdən başqa İsrail
övladları ilə sülh bağlayan başqa bir
şəhər yox idi. Bütün yerlər döyüşlə
alınmışdı. 20 [l]Çünki Rəbbin Musaya
əmr etdiyi kimi İsraillilər onları rəhm
etmədən tamamilə məhv etdilər.
Beləliklə, İsraillilərə qarşı döyüşə
çıxmağa onların ürəyini sərtləşdirən
Rəbbin Özü idi.
21 O vaxt Yeşua gedib dağlıq
Xevronda, Devirdə, Anavda, bütün
Yəhudanın dağlıq bölgəsində və
bütün İsrailin dağlıq bölgəsində olan
Anaqlıları qırıb məhv etdi. Yeşua
onları şəhərləri ilə birgə tamamilə
yerlə yeksan etdi. 22 İsrail övladlarının
torpağında Anaqlılar qalmadı, onlar
ancaq Qəzzədə, Qatda və Aşdodda
qaldı. 23 Rəbbin Musaya dediyi kimi
Yeşua bütün ölkəni aldı. Yeşua oranı
İsraillilərə, hər qəbiləyə irs olaraq
öz payını verdi. Ölkə müharibədən
əmin-amanlığa çıxdı.

İordan çayının şərq tərəfində Musanın qalib gəldiyi padşahlar

12 [m]İsrail övladları bu padşahları
öldürdülər və onların
torpaqlarını – İordan çayının şərqindəki
bütün Arava ilə Arnon vadisindən
Xermon dağına qədər olan yeri zəbt
edib özlərinə mülk etdilər. 2 Xeşbonda
yaşayan Emorluların padşahı Sixon
bu torpaqlarda hökmranlıq etmişdi:
Arnon vadisi sahilindəki Aroerdən və
vadinin ortasındakı Ammonluların
sərhədi olan Yabboq çayına qədər
Gileadın yarısı, 3 şərqə tərəf Kinneret
gölündən Arava dənizinə, yəni Duz
dənizinə qədər, şərqdə Bet-Yeşimot
istiqamətinə və cənuba tərəf Pisqa
yamaclarının ətəklərinə qədər Arava
torpağı idi. 4 Sağ qalan Rafalılardan
biri olan Başan padşahı Oq Aştarotda
və Edreidə hökmranlıq edirdi. 5 O,
Xermon dağında, Sakada, Geşurlular
və Maakatlılar sərhədinə qədər bütün
Başanda, Xeşbon padşahı Sixonun
sərhədinə qədər Gileadın yarısında
hökmranlıq edirdi.

---

[l] **11:20** Qanun. 7:16 [m] **12:1** Say. 21:21-35; Qanun. 2:26–3:11

6 [n]Rəbbin qulu Musa və İsrail övladları
onları öldürdülər. Sonra Rəbbin qulu
Musa onların torpaqlarını irs olaraq
Ruvenlilərə, Qadlılara, Menaşşe
qəbiləsinin yarısına verdi.

İordan çayının qərb tərəfində Yeşuanın məğlub etdiyi padşahlar

7 Livan vadisində olan Baal-Qaddan
Seirə çıxan Xalaq dağına qədər İordan
çayının qərb tərəfində olan torpaqlarda
Yeşua ilə İsrail övladlarının öldürdükləri
padşahlar bunlardır: 8 Yeşua dağlıq
bölgədə, yamaclı-düzənlikli bölgədə,
Aravada, yamaclarda, çöldə, Negevdə
yerləşən bu torpaqları, yəni Xetlilər,
Emorlular, Kənanlılar, Perizlilər,
Xivlilər və Yevuslular ölkəsini, İsrail
qəbilələrinə torpaq payı kimi mülk
olaraq verdi.
9 Yerixo padşahı;
Bet-Elin yanındakı Ay şəhərinin
padşahı;
10 Yerusəlim padşahı;
Xevron padşahı;
11 Yarmut padşahı;
Lakiş padşahı;
12 Eqlon padşahı;
Gezer padşahı;
13 Devir padşahı;
Geder padşahı;
14 Xorma padşahı;
Arad padşahı;
15 Livna padşahı;
Adullam padşahı;
16 Maqqeda padşahı;
Bet-El padşahı;
17 Tappuah padşahı;
Xefer padşahı;
18 Afeq padşahı;
Laşşaron padşahı;
19 Madon padşahı;
Xasor padşahı;
20 Şimron-Meron padşahı;
Akşaf padşahı;
21 Taanak padşahı;
Megiddo padşahı;
22 Qedeş padşahı;
Karmeldəki Yoqneam padşahı;
23 Nafot-Dordakı Dor padşahı;
Qilqaldakı Qoyim padşahı;
24 Tirsa padşahı.
Bütün padşahlar cəmi 31 nəfər idi.

İsraillilərin almalı olduqları torpaqlar

13 Yeşua qocalıb yaşa dolmuşdu.
Rəbb ona dedi: «Sən qocalıb yaşa
dolmusan, ancaq mülk olaraq almaq
üçün olduqca çox yer qalıb.
2 Qalan yerlər bunlardır: Filiştlilərin
bütün əyalətləri, Geşurluların bütün
torpaqları; 3 Misir qarşısında olan Şixor
çayından şimala tərəf Kənanlıların
torpağı sayılan Eqron sərhədinə qədər
torpaqlar; Filiştlilərin beş ağasına
məxsus Qəzzəlilərin, Aşdodluların,
Aşqelonluların, Qatlıların torpaqları
və Eqronluların ağalarına məxsus
torpaqlar; Avvalıların torpağı;
4 cənubda bütün Kənan torpağı,
Sidonlulara məxsus Mearadan Afeqə –
Emorluların sərhədlərinə qədər olan
torpaqlar; 5 Gevallıların torpağı, Xermon
dağı ətəyində olan Baal-Qaddan Xamat
keçidinə qədər gün doğana tərəf bütün
Livan; 6 [o]Livandan Misrefot-Mayimə
qədər bütün dağlıq əhalisi və bütün
Sidonluları da İsrail övladlarının
qarşısından Mən qovacağam. Ancaq
sənə əmr etdiyim kimi bu torpaqları
İsraillilərə irs olaraq böl. 7 İndi bu
yerləri doqquz qəbilə ilə Menaşşe
qəbiləsinin yarısına irs olaraq böl».

---

[n] **12:6** Say. 32:33; Qanun. 3:12 [o] **13:6** Say. 33:54

İordan çayının şərq tərəfindəki torpaqların bölünməsi

8 [p]Menaşşe qəbiləsinin yarısı ilə birgə
Ruvenlilər və Qadlılar Musanın İordan
çayının şərq tərəfində onlara verdiyi irs
torpaqları, Rəbbin qulu Musanın onlara
verdiyi bu torpaqları almışdılar: 9 Arnon
vadisi kənarında olan Aroerdən vadinin
ortasında olan şəhərlə Divona qədər
bütün Medva yaylası; 10 Ammonluların
sərhədinə qədər Xeşbonda hökmranlıq
edən Emorluların padşahı Sixonun
bütün şəhərləri; 11 Gilead, Geşurlular
və Maakatlıların torpaqları, bütün
Xermon dağı, Salkaya qədər bütün
Başan; 12 Aştarot və Edreidə hökmranlıq
edən, sağ qalan Rafalılardan biri olan
Oqun Başandakı bütün torpaqları;
Musa bütün bu torpaqlarda yaşayanları
döyüşlə qovmuşdu. 13 Ancaq İsraillilər
Geşurluları və Maakatlıları qovmadılar.
Geşurlularla Maakatlılar bu günə qədər
İsraillilər arasında yaşayır.
14 [q]Amma Levi qəbiləsinə irs olaraq
torpaq verilmədi, çünki Rəbbin
Musaya dediyi kimi onların irsi İsrailin
Allahı Rəbb üçün gətirilən yandırma
təqdimləridir.

Ruven qəbiləsinin İordan çayının şərq tərəfindən torpaq alması

15 Musa Ruven övladlarının
qəbiləsinə nəsillərinə görə pay
verdi. 16 Onların sərhədi belə idi:
Arnon vadisi kənarındakı Aroerdən,
bu vadinin ortasındakı şəhər və
Medva yanında olan bütün yayla;
17 Xeşbon və yaylada yerləşən
şəhərlərin hamısı – Divon, Bamot-Baal,
Bet-Baal-Meon, 18 Yahsa, Qedemot,
Mefaat, 19 Qiryatayim, Sivma, dərə
dağında olan Seret-Şahar, 20 Bet-Peor,
Pisqa yamacları, Bet-Yeşimot, 21 bu
yaylanın bütün şəhərləri, Xeşbonda
hökmranlıq edən Emorlular padşahı
Sixonun bütün ölkəsi idi. Musa
Sixonu və Midyan başçıları olan və
onun ölkəsində yaşayan ağaları –
Evini, Reqemi, Suru, Xuru, Revanı
öldürdü. 22 İsrail övladları öldürdükləri
adamlarla birgə Beor oğlu falçı Bilamı
da qılıncdan keçirtdilər. 23 Ruven
övladlarının sərhədi İordan çayı ilə
sahil torpaqları idi. Ruven övladlarının
nəsillərinə görə irsi olan şəhərlər və
onların kəndləri bunlar idi.

Qad qəbiləsinin İordan çayının şərq tərəfindən torpaq alması

24 Musa Qad qəbiləsinə, Qad
övladlarına nəsillərinə görə torpaq
verdi. 25 Onların sərhədi isə belə idi:
Yazer, Gileadın bütün şəhərləri və
Rabba qarşısında olan Aroerə qədər
Ammon övladları ölkəsinin yarısı;
26 Xeşbondan Ramat-Mispa və Betonimə
qədər; Maxanayimdən Devir sərhədinə
qədər; 27 dərədə Bet-Haram, Bet-Nimra,
Sukkot, Safon, Xeşbon padşahı Sixonun
ölkəsinin qalan hissəsi, İordan çayı ilə
onun sahil torpaqları, İordan çayının
şərq tərəfindən Kinneret gölünün cənub
sahilinə qədər. 28 Qad övladlarının
nəsillərinə görə torpaq irsi olan şəhərlər
və onların kəndləri bunlar idi.

Menaşşe qəbiləsinin yarısının İordan çayının şərq tərəfində torpaq alması

29 Musa Menaşşe qəbiləsinin yarısına
torpaq verdi ki, bu da Menaşşe övladları
qəbiləsinin yarısı üçün, nəsillərinə görə
idi. 30 Onların torpağı Maxanayimdən,
bütün Başan diyarı, Başan padşahı Oqun
bütün ölkəsi və Başanda olan Yairin
bütün qəsəbələri də daxil olmaqla
altmış şəhər idi. 31 Gileadın yarısı Başan
padşahı Oqun ölkəsindəki Aştarot

---

[p] **13:8** Say. 32:33; Qanun. 3:12 [q] **13:14** Qanun. 18:1

və Edrei şəhərlərini də əhatə edirdi.
Bunlar Menaşşe oğlu Makir övladlarına
nəsillərinə görə Makir övladlarının
yarısına verilmək üçün idi.
32 Yerixo şəhərinin qarşısında,
İordan çayının şərq tərəfindəki Moav
düzənliklərində Musanın böldüyü irs
olan torpaqlar bunlar idi. 33 [r]Ancaq
Musa Levi qəbiləsinə irs olaraq torpaq
vermədi. Rəbbin onlara dediyi kimi
İsrailin Allahı Rəbb Özü onların irsidir.

Kənan torpağının bölünməsi

14 İsrail övladları Kənan
torpağından irs olaraq aldıqları
torpaqlar bunlardır; bu torpaqları
kahin Eleazar, Nun oğlu Yeşua və
İsrail övladları qəbilələrinin nəsil
başçıları, 2 [s]Rəbbin Musa vasitəsilə
buyurduğu kimi doqquz qəbilə və bir
qəbilənin yarısı üçün irs olaraq püşk
ilə böldülər. 3 [t]Çünki Musa iki qəbilə
ilə yarım qəbilənin irs olan torpağını
İordanın şərq tərəfində onlara vermişdi,
lakin onların arasında Levililərə irs
olaraq torpaq verməmişdi. 4 Çünki
Yusif övladları Menaşşe və Efrayim
qəbiləsindən ibarət iki qəbilə oldu.
Bundan sonra Levililərə yaşamaqdan
ötrü şəhərlərdən, sürüləri və naxırları
üçün otlaqlardan başqa heç bir torpaq
hissəsi verilmədi. 5 İsrail övladları
Rəbbin Musaya buyurduğu kimi etdilər
və torpağı bölüşdürdülər.

Kalevin Xevronu alması

6 [u]Belə bir zamanda Yəhuda övladları
Qilqala – Yeşuanın yanına gəldilər.
Qenizli Yefunne oğlu Kalev Yeşuaya
dedi: «Qadeş-Barneada Rəbbin sənlə
mənim haqqımda Allah adamı
Musaya dediyi sözü sən özün bilirsən.
7 [v]Rəbbin qulu Musa ölkəni gözdən
keçirtmək üçün Qadeş-Barneadan məni
göndərəndə qırx yaşında idim. Mən ona
səmimi qəlbdən müjdə gətirdim. 8 Lakin
mənimlə birlikdə gedən soydaşlarım
xalqın ürəyini üzdülər. Amma mən
səmimi qəlblə Allahım Rəbbin ardınca
getdim. 9 [w]O gün Musa and içib dedi:
“Sən qədəm basdığın torpaq mütləq
sənə və sənin övladlarına əbədi irs
olaraq veriləcək, çünki sən Allahım
Rəbbin ardınca səmimi qəlblə getdin”.
10 İndi artıq İsraillilər səhrada gedərkən
Rəbbin Musaya bu sözü dediyi vaxtdan
qırx beş il keçir. Rəbb dediyi kimi
mənə ömür verdi, bax mən bu gün
səksən beş yaşındayam. 11 Musanın
məni göndərdiyi vaxta olduğum kimi bu
gün də qüvvətliyəm. O zaman qüvvətim
necə idisə, indi də girib-çıxmaq və
döyüşmək üçün elə qüvvətim var.
12 Buna görə də Rəbbin o zaman dediyi
bu dağlıq yeri sən indi mənə ver. Bu
dağlıq yerdə Anaqlıların, böyük və qala
divarlı şəhərlərin olduğunu o gün sən
də eşitdin. Bəlkə Rəbb mənimlə olar
və mən də Rəbbin dediyi kimi onları
qovaram».
13 Yeşua ona xeyir-dua verdi. Xevronu
Yefunne oğlu Kalevə irs olaraq verdi.
14 Bunun üçün Xevron bu günə qədər
Qenizli Yefunne oğlu Kalevin irs
torpağıdır. Çünki o, səmimi qəlblə
İsrailin Allahı Rəbbin ardınca getmişdi.
15 Xevronun adı əvvəlcə Qiryat-Arba idi.
Anaqlılar arasında Arba ən böyük adam
olmuşdu.
Ölkə müharibədən dincliyə çıxdı.

Yəhuda qəbiləsinin torpaqları

15 Nəsillərinə görə Yəhuda
övladları qəbiləsinin irs torpağı

---

[r] **13:33** Say. 18:20; Qanun. 18:2 [s] **14:2** Say. 26:52-56; 34:13
[t] **14:3** Say. 32:33; 34:14-15; Qanun. 3:12-17 [u] **14:6** Say. 14:30
[v] **14:7** Say. 13:1-30 [w] **14:9** Say. 14:24

Edom sərhədinə, cənuba doğru və
oranın ən cənubunda yerləşən Zin
səhrasına qədər idi. 2 Onların cənub
sərhədi Duz dənizi qurtaran yerdən –
cənubda yerləşən körfəzdən başlayırdı.
3 Aqrabbim keçidinin cənubundan keçib
Zinə çatırdı və oradan Qadeş-Barneanın
cənubundan qalxaraq Xesrona çatırdı.
Buradan Addara qalxıb Qarqaya
dönürdü. 4 [x]Sonra isə Asmonadan keçib
Misir vadisinə çıxırdı və bu sərhədin
sonu dənizdə qurtarırdı. Rəbb demişdi
ki, cənub sərhədiniz bura olacaq. 5 Şərq
sərhədi İordan çayının mənsəbindən
Duz dənizi boyunca idi. Şimal tərəfdən
isə bu sərhəd İordan çayının mənsəbində
yerləşən su körfəzindən başlayırdı.
6 Sonra bu sərhəd Bet-Xoqlaya qalxaraq
Bet-Aravanın şimalından keçirdi və
Ruven oğlu Bohanın qayasına çatırdı.
7 Sonra isə Akor dərəsindən Devirə
çıxıb oranın cənubundakı Adummim
yoxuşu qarşısında olan Qilqala
doğru, şimala yönəlirdi. Buradan isə
En-Şemeş sularına keçirdi və onun
sonu En-Rogeldə qurtarırdı. 8 Sonra
sərhəd Ben-Hinnom vadisindən cənuba
doğru Yevusluların şəhərinin, yəni
Yerusəlimin arxasından keçib buradan
Refaim vadisinin şimal qütbündə olan
Hinnom vadisinin qərbindəki dağın
təpəsinə qalxırdı. 9 Bu dağın təpəsindən
isə Neftoah sularının mənbəyinə doğru
uzanıb Efron dağındakı şəhərlərə çıxır
və oradan Baalaya, yəni Qiryat-Yearimə
tərəf uzanırdı. 10 Baaladan qərbə
doğru, Seir dağına qədər dönəndən
sonra Yearim dağının, yəni Kesalonun
şimal tərəfindən keçib Bet-Şemeşə
enərək Timnaya çatırdı. 11 Sonra isə
Eqronun yanından şimala doğru çıxaraq
Şikkerona uzanıb Baala dağına keçərək
Yavneelə qalxırdı. Burada sərhədin sonu
dənizdə qurtarırdı. 12 Böyük dənizin
sahili qərb sərhədi idi. Nəsillərinə görə
Yəhuda övladlarına verilən torpağın
sərhədi belə idi.

Kalevlə Otnielin Xevron və Deviri alması

13 Rəbbin əmrinə görə Yeşua
Yəhudalıların torpağında olan
Qiryat-Arbanı, yəni Xevronu irs olaraq
Yefunne oğlu Kalevə verdi. Arba Anaqın
atası idi. 14 [y]Kalev Anaq oğullarından
Anaqın üç oğlu Şeşayı, Aximanı və
Talmayı oradan qovdu. 15 Bundan sonra
Devir əhalisinə qarşı çıxdı. Devirin
əvvəlki adı Qiryat-Sefer idi. 16 Kalev
dedi: «Kim Qiryat-Seferliləri qırıb
oranı alarsa, qızım Aksanı ona ərə
verəcəyəm». 17 Oranı Kalevin qardaşı
Kenazın oğlu Otniel aldı. Kalev də
qızı Aksanı ona ərə verdi. 18 Aksa
ona ərə gedəndə ərini atasından
bir tarla istəməyə sövq etdirdi. Qız
eşşəyindən düşəndə Kalev ona dedi: «Nə
istəyirsən?» 19 Aksa dedi: «Mənə bir pay
da ver. Madam ki Negev torpağını mənə
verdin, onda su qaynaqlarını da mənə
ver». Kalev ona yuxarıdakı və aşağıdakı
su qaynaqlarını verdi.

Yəhuda qəbiləsinin şəhərləri

20 Nəsillərinə görə Yəhuda
övladlarının qəbiləsinin irs torpağı
budur: 21 Yəhuda övladları qəbiləsinin
Edom sərhədinə doğru ən cənubda
yerləşən şəhərləri bunlardır: Qavseel,
Eder, Yaqur, 22 Qina, Dimona,
Adada, 23 Qedeş, Xasor, İtnan, 24 Zif,
Telem, Bealot, 25 Xasor-Xadatta,
Qeriyot-Xesron, yəni Xasor 26 Amam,
Şema, Molada, 27 Xasar-Qadda, Xeşmon,
Bet-Pelet, 28 Xasar-Şual, Beer-Şeva,
Bizyotya, 29 Baala, İyim, Esem,
30 Eltolad, Kesil, Xorma, 31 Ziqlaq,
Madmanna, Sansanna, 32 Levaot, Şilxim,

---

[x]**15:4** Say. 34:3-5 [y]**15:14** Hak. 1:10-15,20

Ayin və Rimmon. Bu şəhərlərin hamısı
kəndləri ilə birlikdə iyirmi doqquz şəhər
idi.
33 Yamaclı-düzənlikli bölgədə
yerləşən şəhərlər isə bunlardır: Eştaol,
Sora, Aşna, 34 Zanoah, En-Qannim,
Tappuah, Enam, 35 Yarmut, Adullam,
Soko, Azeqa, 36 Şaarayim, Aditayim,
Gedera və Gederotayim. Bunlar da
kəndləri ilə birlikdə on dörd şəhər idi.
37 Senan, Xadaşa, Miqdal-Qad,
38 Dilan, Mispe, Yoqteel, 39 Lakiş,
Bosqat, Eqlon, 40 Kabbon, Laxmas,
Kitliş, 41 Gederot, Bet-Daqon, Naama
və Maqqeda. Bunlar da kəndləri ilə
birlikdə on altı şəhər idi.
42 Livna, Eter, Aşan, 43 İftah, Aşna,
Nesiv, 44 Qeila, Akziv və Mareşa. Bunlar
da kəndləri ilə birlikdə doqquz şəhər
idi.
45 Qəsəbələri və kəndləri ilə birlikdə
Eqron, 46 Eqrondan dənizə qədər
kəndləri ilə birlikdə bütün Aşdod
ətrafında yerləşənlər, 47 Aşdod və onun
qəsəbələri ilə kəndləri, Misir vadisinə
və Böyük dənizin sahilinə qədər olan
Qəzzə və onun qəsəbələri ilə kəndləri.
48 Dağlıq bölgəsində yerləşən şəhərlər
isə bunlardır: Şamir, Yattir, Soko,
49 Danna, Qiryat-Sanna, yəni Devir,
50 Anav, Eştemo, Anim, 51 Qoşen, Xolon
və Gilo. Bunlar da kəndləri ilə birlikdə
on bir şəhər idi.
52 Arav, Ruma, Eşan, 53 Yanim,
Bet-Tappuah, Afeqa, 54 Xumta,
Qiryat-Arba, yəni Xevron, Sior. Bunlar
da kəndləri ilə birlikdə doqquz şəhər
idi.
55 Maon, Karmel, Zif, Yutta, 56 İzreel,
Yoqdeam, Zanoah, 57 Qayin, Givea,
Timna. Bunlar da kəndləri ilə birlikdə
on şəhər idi.
58 Xalxul, Bet-Sur, Qedor, 59 Maarat,
Bet-Anot, Elteqon. Bunlar da kəndləri
ilə birlikdə altı şəhər idi.
60 Qiryat-Baal, yəni Qiryat-Yearim,
Rabba. Bunlar da kəndləri ilə birlikdə
iki şəhər idi.
61 Çöllükdə yerləşən şəhərlər isə
bunlardır: Bet-Arava, Middin, Sekaka,
62 Nivşan, Duz şəhəri, En-Gedi. Bunlar
da kəndləri ilə birlikdə altı şəhər idi.
63 [z]Yəhuda övladları Yerusəlimdə
yaşayan Yevusluları qova bilmədilər
və Yevuslular bu günə qədər Yəhuda
övladları ilə birlikdə Yerusəlimdə
yaşayır.

Menaşşe və Efrayim qəbilələrinə düşən torpağın cənub sərhədi

16 Yusif övladlarına püşk ilə düşən
torpaqların sərhədi şərqdən
Yerixo sularından – qarşısındakı İordan
çayından başlayıb çöllüyə, Yerixodan
Bet-Elin dağlıq bölgəsinə qalxırdı.
2 Bet-Eldən isə Luza çıxıb Arklılar
torpağına, Atarota keçirdi. 3 Sonra
qərbə doğru Aşağı Bet-Xoron torpağına
qədər, Yafletlilər torpağına, bundan
sonra isə Gezerə qədər enirdi. Bu
sərhədin sonu dənizdə qurtarırdı.
4 Yusifin övladları Menaşşe və Efrayim
torpaqlarını irs olaraq aldılar.

Efrayim qəbiləsinin torpaqları

5 Efrayim övladlarının nəsillərinə
görə irs torpağının sərhədi belə idi.
Şərqə doğru Atrot-Addardan Yuxarı
Bet-Xorona qədər gedib dənizdə bitirdi.
6 Şimal tərəfdən isə Mikmetatdan şərqə
tərəf uzanıb, Taanat-Şilo şəhərinin
şərqindən dönərək Yanoahın şərqinə
çıxırdı. 7 Yanoahdan isə Atarota və
Naaraya enərək oradan Yerixoya çatır
və sonu İordan çayında qurtarırdı. 8 Bu
sərhəd Tappuahdan qərbə tərəf Qana

---

[z]**15:63** Hak. 1:21; 2Şam. 5:6; 1Saln. 11:4

vadisinə gedərək sonu dənizdə bitirdi.
Nəsillərinə görə Efrayim övladları
qəbiləsinin irs torpağı bunlardır.
9 Bundan əlavə, Menaşşe övladlarına
düşən torpaqlarda da Efrayim övladları
üçün ayrılan şəhər və kəndlər var idi.
10 [a]Amma Efrayim övladları Gezerdə
yaşayan Kənanlıları qovmadılar. Onlar
bu günə qədər Efrayim övladları
arasında yaşayır, Efrayim övladları
üçün mükəlləfiyyətçi quldurlar.

Menaşşe qəbiləsinin torpaqları

17 Menaşşe qəbiləsinin püşkünə bu
torpaqlar düşdü: Menaşşe Yusifin
ilk oğlu idi. Gileadın atası Makir isə
Menaşşenin ilk oğlu idi. Makir döyüşçü
olduğu üçün Gilead və Başan torpağı
onun oldu. 2 Menaşşenin o biri oğulları
– Aviezerin, Xeleqin, Asrielin, Şekemin,
Xeferin və Şemidanın oğulları üçün də
nəsillərinə görə püşk düşdü. Bunlar
nəsillərinə görə Yusif oğlu Menaşşenin
kişi nəsli idi.
3 Lakin Menaşşe oğlu Makir oğlu
Gilead oğlu Xefer oğlu Selofxadın
oğlanları yox idi, ancaq qızları
var idi. Qızlarının adları belə idi:
Maxla, Noa, Xoqla, Milka, Tirsa.
4 [b]Onlar kahin Eleazarın, Nun oğlu
Yeşuanın və rəhbərlərin qarşısına gəlib
dedilər: «Rəbb Musaya buyurmuşdu
ki, soydaşlarımızın yanında bizə irs
torpaq versin». Onda Yeşua Rəbbin
əmrinə görə atalarının kişi qohumları
arasında onlara irs olaraq torpaq verdi.
5 Menaşşeyə İordan çayının o tayında
olan Gilead və Başan torpağından
başqa on hissə torpaq da düşdü,
6 çünki Menaşşe qızları da onun
oğulları arasından irs olaraq torpaq
aldılar. Gilead diyarı Menaşşenin qalan
oğullarına məxsus idi.
7 Menaşşenin sərhədi Aşerdən
Şekemin şərqində olan Mikmetata
uzanaraq cənuba tərəf En-Tappuah
əhalisinin yerlərinə gəlib çatırdı.
8 Tappuah torpağı Menaşşenin idi,
amma Menaşşe sərhədində olan
Tappuah şəhəri isə Efrayim oğullarına
məxsus idi. 9 Sərhəd Qana vadisinə
enirdi. Bu vadinin cənubunda olan
şəhərlər Menaşşenin şəhərləri arasında
olsa da, Efrayimin idi. Menaşşenin
sərhədi vadinin şimal tərəfində idi,
sonu isə dənizdə qurtarırdı. 10 Sərhədin
cənubu Efrayimin, şimalı isə Menaşşenin
idi. Dəniz də Menaşşenin sərhədi idi.
Sərhəd şimaldan Aşerə, şərqdən
İssakara gedib çatırdı. 11 İssakar və Aşer
torpaqlarının daxilində olan bu şəhərlər
Menaşşenin idi: Bet-Şeanla qəsəbələri,
İvleamla qəsəbələri, Dorla qəsəbələrinin
əhalisi, En-Dorla qəsəbələrinin əhalisi,
Taanakla qəsəbələrinin əhalisi, Megiddo
ilə qəsəbələrinin əhalisi. Bunlar birlikdə
üç bölgədən ibarət idi.
12 [c]Menaşşe övladları bu şəhərlərdə
yaşayanları qova bilmədilər, buna görə
Kənanlılar da bu torpaqda qaldılar.
13 İsraillilər qüvvətlənəndə Kənanlıları
özlərinə mükəlləfiyyətçi etdilər, amma
tamamilə qovmadılar.

Efrayim ilə Menaşşe qəbilələrinin çox torpaq istəməsi

14 Yusif övladları Yeşuaya belə
dedilər: «İrs torpaq almaq üçün niyə
bizə tək püşklə bir pay verdin? Biz
böyük xalqıq və indiyə qədər Rəbb
bizə bərəkət verib». 15 Yeşua onlara
dedi: «Əgər siz böyük xalqsınızsa və
Efrayimin dağlıq bölgəsi sizə darlıq
edirsə, meşəliyə çıxın, orada Perizlilər
və Rafalılar torpağında özünüzə yer
edin». 16 Yusif övladları dedilər: «Dağlıq
bölgəsi bizə bəs deyil. Ancaq dərədə

---

[a]**16:10** Hak. 1:29 [b]**17:4** Say. 27:1-7 [c]**17:12** Hak. 1:27-28

olan torpaqda – Bet-Şean və onun
qəsəbələrində, İzreel vadisində yaşayan
bütün Kənanlıların dəmir döyüş
arabaları var». 17 Onda Yeşua Yusif
nəslinə – Efrayimlilərə və Menaşşelilərə
belə dedi: «Siz böyük xalqsınız,
qüvvətiniz də böyükdür, ona görə sizə
bir püşk kifayət deyil. 18 Dağlıq bölgə də
sizin olacaq, o yer meşəlikdir, amma siz
oranı təmizləyəcəksiniz və bütünlüklə
sizin olacaq. Kənanlılar qüvvətli olsa
da, onların dəmir döyüş arabaları olsa
da, siz onları qova biləcəksiniz».

Qalan torpaqların bölünməsi

18 Bütün İsrail övladlarının
icması Şiloya yığışıb orada
Hüzur çadırını qurdu. Bu torpaq
onların hökmranlığı altında idi. 2 İsrail
övladlarının yeddi qəbiləsi arasında isə
irs olan torpaqlar hələ paylanmamışdı.
3 Yeşua İsrail övladlarına dedi:
«Atalarınızın Allahı Rəbbin sizə verdiyi
torpağa mülk sahibi kimi girməyə nə
vaxta qədər tərəddüd edəcəksiniz?
4 Hər qəbilədən özünüzə üç adam seçin.
Onları göndərəcəyəm ki, çıxıb ölkəni
dolaşsınlar və alacaqları irs torpaqlara
görə oranı təsvir edib mənim yanıma
gəlsinlər. 5 Onlar oranı yeddi hissəyə
bölsünlər. Yəhuda cənubda olan öz
torpağında qalsın, Yusifin nəsli də
şimalda olan torpağında qalsın. 6 Siz
ölkəni yeddi hissə kimi təsvir edin və
təsviri buraya mənə gətirin. Burada
Allahımız Rəbbin hüzurunda sizin
üçün püşk atacağam. 7 Amma aranızda
Levililərin payı yoxdur, çünki onların
irsi Rəbbin kahinliyidir. Qad, Ruven
qəbilələri və Menaşşe qəbiləsinin yarısı
İordan çayının şərq tərəfində Rəbbin
qulu Musanın onlara verdiyi irs olan
torpaqlarını aldılar».
8 Adamlar qalxıb gedəndə Yeşua
onlara ölkəni təsvir edərək yazmağı
əmr edib dedi: «Gedin, ölkəni gəzib
oranı yazılı təsvir edərək yanıma
qayıdın. Mən də burada, Şiloda, Rəbbin
hüzurunda sizin üçün püşk atacağam».
9 Adamlar gedib ölkəni dolaşdılar.
Şəhərlərinə görə oranı yeddi hissəyə
ayıraraq təsvirini kitaba yazıb Şilodakı
ordugaha, Yeşuanın yanına qayıtdılar.
10 Yeşua Şiloda Rəbbin hüzurunda
onlar üçün püşk atdı və orada İsrail
övladlarının paylarına görə torpağı
payladı.

Binyamin qəbiləsinin torpaqları

11 İlk püşk nəsillərinə görə Binyamin
övladları qəbiləsinə düşdü. Onlara
düşən hissə Yəhuda övladları ilə
Yusif övladlarının torpağı arasında
idi. 12 Şimal tərəfdən onların sərhədi
İordan çayından başlayırdı. Sərhəd
Yerixonun şimal tərəfindəki yamacına
yüksəlirdi, sonra qərbə doğru dağlığa
qalxırdı, sonu isə Bet-Aven çölündə
qurtarırdı. 13 Oradan cənuba doğru
sərhəd Luza, yəni Bet-Elə və Luzun
yamacına çatırdı. Sonra sərhəd Aşağı
Bet-Xoronun cənubunda olan dağlıqdan
Atrot-Addara enirdi. 14 Sərhəd oradan
uzanaraq qərb tərəfdən cənuba doğru,
Bet-Xoronun qarşısında olan dağdan
da cənuba doğru dönürdü. Onun
sonu Yəhuda övladlarının şəhəri olan
Qiryat-Baalda, yəni Qiryat-Yearimdə
qurtarırdı; qərb sərhədi bu idi.
15 Cənub sərhədi Qiryat-Yearimin
ən son hissəsindən qərbə doğru
Neftoah sularının mənbəyinə çatırdı.
16 Ondan sonra sərhəd Refaim vadisinin
şimalında Ben-Hinnom vadisinin
qarşısındakı dağın ən son hissəsinə
enirdi; buradan da cənuba doğru
Hinnom vadisinə, Yevusun cənub
yamacına enib En-Rogelə çatırdı,
17 sonra sərhəd şimala doğru uzanaraq
En-Şemeşə çıxırdı, Adummim yoxuşu
qarşısında olan Gelilota çatırdı; oradan
da Ruven oğlu Bohanın qayasına enirdi,

18 sonra şimala doğru Aravanın qarşı
tərəfinə keçib Aravaya enirdi. 19 Sərhəd
şimala doğru Bet-Xoqla yoxuşuna keçir,
sərhədin sonu Duz dənizinin şimal
körfəzində, İordan çayının cənubunda
qurtarırdı. Bu, cənub sərhədi idi.
20 Onun şərq tərəfdən sərhədi İordan
çayı idi. Nəsillərinə görə Binyamin
oğullarının irs torpaqlarının ərazisi
bunlar idi.
21 Nəsillərinə görə Binyamin övladları
qəbiləsinin şəhərləri bunlar idi: Yerixo,
Bet-Xoqla, Emeq-Qesis, 22 Bet-Arava,
Semarayim, Bet-El, 23 Avvim, Para,
Ofra, 24 Kefar-Ammonay, Ofni, Geva,
yəni kəndləri ilə birlikdə on iki şəhər;
25 Giveon, Rama, Beerot, 26 Mispe,
Kefira, Mosa, 27 Reqem, İrpeel, Tarala,
28 Sela, Elef, Yevus, yəni Yerusəlim,
Givea, Qiryat, yəni kəndləri ilə
birlikdə on dörd şəhər. Nəsillərinə görə
Binyamin övladlarının irs torpaqları
bunlardır.

Şimeon qəbiləsinin torpaqları

19 İkinci püşk nəsillərinə görə
Şimeona – Şimeon övladlarının
qəbiləsinə düşdü. Onların irs torpağı
Yəhuda övladlarının irs torpağı arasında
idi. 2 [d]Onların irs torpaqları bunlar idi:
Beer-Şeva, Şeva, Molada, 3 Xasar-Şual,
Bala, Esem, 4 Eltolad, Betul, Xorma,
5 Ziqlaq, Bet-Markavot, Xasar-Susa,
6 Bet-Levaot, Şaruxen, yəni kəndləri
ilə birlikdə on üç şəhər; 7 Ayin,
Rimmon, Eter, Aşan, yəni kəndləri ilə
birlikdə dörd şəhər; 8 Baalat-Beerə,
yəni cənubda Ramaya qədər bu
şəhərlərin ətrafındakı bütün kəndlər
onların irs olan torpağı idi. Bunlar
nəsillərinə görə Şimeon övladları
qəbiləsinin irs olan torpaqlarıdır.
9 Şimeon övladlarının irs olan torpağı
Yəhuda övladlarının payından oldu,
çünki Yəhuda övladlarının payı onlar
üçün çox idi. Buna görə də Şimeon
övladları onların torpaqları arasında irs
torpaqlarını aldılar.

Zevulun qəbiləsinin torpaqları

10 Üçüncü püşk nəsillərinə görə
Zevulun övladlarına düşdü. Onların irs
olan torpağının sərhədi Saridə qədərdir.
11 Sonra sərhədi Maralaya qədər –
qərbə doğru yüksəlib Dabbeşetdən
keçərək Yoqneam qarşısında olan
vadiyə çatırdı. 12 Sariddən şərqə – gün
doğana tərəf Kislot-Tavor sərhədinə
dönüb Davrata qalxaraq Yafiaya
yüksəlirdi. 13 Oradan şərqə doğru
Qat-Xeferə, Et-Qasinə keçirdi və Neaya
dönən Rimmona qalxırdı. 14 Şimala
tərəf sərhəd Xannatona dönüb sonu
İftah-El dərəsində idi. 15 Qattat, Nahalal,
Şimron, İdala, Bet-Lexem, yəni kəndləri
ilə birlikdə on iki şəhər idi. 16 Nəsillərinə
görə Zevulun övladlarının irsi olan
torpaq kəndləri ilə birlikdə bu şəhərlər
idi.

İssakar qəbiləsinin torpaqları

17 Dördüncü püşk nəsillərinə görə
İssakara – İssakar övladlarına düşdü.
18 Onların torpağı İzreel, Kesulot,
Şunem, 19 Xafarayim, Şion, Anaxarat,
20 Rabbit, Qişyon, Eves, 21 Remet,
En-Qannim, En-Xadda, Bet-Passes
idi. 22 Sərhəd Tavora, Şaxsivmaya,
Bet-Şemeşə çatırdı. Sərhədlərinin sonu
İordan çayında idi. Bunlar kəndləri ilə
birlikdə on altı şəhər idi. 23 Nəsillərinə
görə İssakar övladları qəbiləsinin irs
olan kəndləri ilə birlikdə bu şəhərlər idi.

Aşer qəbiləsinin torpaqları

24 Beşinci püşk nəsillərinə görə Aşer
övladları qəbiləsinə düşdü. 25 Onların
torpağı Xelqat, Xali, Beten, Akşaf,

---

[d] **19:2** 1Saln. 4:28-33

26 Alamelek, Amad və Mişal idi. Sərhəd
qərbə tərəf Karmelə, Şixor-Livnata
çatırdı, 27 Gündoğana tərəf Bet-Daqona
dönürdü. Sonra şimala tərəf Zevuluna,
İftah-El dərəsinə, oradan Bet-Emeqə,
Neielə çatırdı, sonra şimala doğru
Kavula, 28 Evrona, Rexova, Xammona,
Qanaya, böyük Sidona qədər çatırdı.
29 Onda sərhəd Ramaya, qalalı Sur
şəhərinə dönürdü. Sərhəd Xosaya
dönürdü, sonu Akziv, 30 Uma, Afeq,
Rexov torpağında dənizdə qurtarırdı.
Bunlar kəndləri ilə birlikdə iyirmi
iki şəhər idi. 31 Nəsillərinə görə Aşer
övladları qəbiləsinin irs olan torpaqları
kəndləri ilə birlikdə bu şəhərlər idi.

Naftali qəbiləsinin torpaqları

32 Altıncı püşk Naftali övladları üçün
nəsillərinə görə Naftali övladlarına
düşdü. 33 Onların sərhədi Xelefdən
Saanannimdəki palıd ağacından
başlayaraq Adami-Negev və Yavneeli
keçib Laqquma çatır, sonu isə İordan
çayında bitirdi. 34 Sərhəd qərbə doğru
Aznot-Tavora dönüb oradan Xuqoqa
qalxırdı. Cənubda Zevuluna, qərbdə
Aşerə, gündoğana tərəf İordan çayına
*çatırdı. 35 Qalalı şəhərlər bunlar idi:
Siddim, Ser, Xammat, Raqqat, Kinneret,
36 Adama, Rama, Xasor, 37 Qedeş,
Edrei, En-Xasor, 38 İreon, Miqdal-El,
Xorem, Bet-Anat, Bet-Şemeş. Bunlar
kəndləri ilə birlikdə on doqquz şəhər
idi. 39 Nəsillərinə görə Naftali övladları
qəbiləsinin irs olan torpaqları kəndləri
ilə birlikdə bu şəhərlər idi.

Dan qəbiləsinin torpaqları

40 Yeddinci püşk nəsillərinə görə
Dan övladları qəbiləsinə düşdü. 41 İrs
torpaqları bunlar idi: Sora, Eştaol,
İr-Şemeş, 42 Şaalabbin, Ayyalon, İtla,
43 Elon, Timna, Eqron, 44 Elteqe,
Gibbeton, Baalat, 45 Yehud, Bene-Beraq,
Qat-Rimmon, 46 Me-Yarqon, Yafo
qarşısında olan sərhədi ilə Raqqon.
47 [e]Amma Dan övladlarının torpağı
onların əlindən çıxdı. Ona görə də
Dan övladları Leşem üzərinə döyüşə
getdilər. Oranı alıb əhalisini qılıncdan
keçirtdilər və oraya sahib olub məskən
saldılar. Ataları Danın şərəfinə görə
Leşemə Dan adı verdilər. 48 Nəsillərinə
görə Dan övladları qəbiləsinin irs olan
kəndləri ilə birlikdə bu şəhərlər idi.

Torpağın bölüşdürülməsinin başa çatması

49 Ölkəni torpaq paylarına görə
irs olaraq bölüşdürüb qurtarandan
sonra İsrail övladları Nun oğlu
Yeşuaya aralarında irs olaraq torpaq
verdilər. 50 Rəbbin əmrinə görə istədiyi
şəhəri – Efrayimin dağlıq bölgəsində
Timnat-Serahı ona verdilər. O da bu
şəhəri tikib orada yaşadı.
51 Şilodakı Hüzur çadırının girişində,
Rəbbin hüzurunda kahin Eleazarın, Nun
oğlu Yeşuanın, İsrail qəbilələrinin nəsil
başçılarının püşk ilə bölüşdürdükləri
irs torpaqlar bunlar idi. Beləliklə,
onlar ölkənin bölüşdürülməsini başa
çatdırdılar.

Altı sığınacaq şəhər

20 Rəbb Yeşuaya dedi: 2 «İsrail
övladlarına söylə: "Özünüz
üçün Musa vasitəsilə dediyim sığınacaq
şəhərləri seçin ki, 3 bilmədən, səhvən
bir adamı öldürən qatil oraya qaçsın.
Ora sizin üçün qan qisasını alan
adamdan sığınacaq yeri olsun. 4 Qoy
qatil bu şəhərlərdən birinə qaçsın, şəhər
qapısının girəcəyində dursun. Orada
o şəhərin ağsaqqallarına öz əməlini

*19:34 *İordan çayına* – yaxud *İordan çayından Yəhudaya.*

[e]19:47 Hak. 18:27-29

söyləsin. Onlar da onu şəhərə, yanlarına
aparsınlar və yer versinlər ki, onlarla
yaşasın. 5 Əgər qan qisası alan onu
təqib edərsə, o zaman qatili ona təslim
etməsinlər, çünki qonşusunu bilmədən
öldürmüşdür, əvvəldən onunla ədavəti
yox idi. 6 Bu adam icma qarşısında
hökm alana qədər və o dövrdə olan baş
kahinin ölümünə qədər qoy bu şəhərdə
yaşasın. Bundan sonra qatil qaçdığı
şəhərə, öz şəhərinə, öz evinə qayıda
bilər”».
7 Sığınacaq şəhər üçün Qalileyada,
Naftalinin dağlıq bölgəsində Qedeşi,
Efrayimin dağlıq bölgəsində Şekemi
və Yəhudanın dağlıq bölgəsində
Qiryat-Arbanı, yəni Xevronu ayırdılar.
8 İordan çayının şərqində, Yerixonun
şərqində isə Ruven qəbiləsinin
torpağından yaylada yerləşən səhradakı
Beseri, Qad qəbiləsinin torpağından
olan Gileaddakı Ramotu, Menaşşe
qəbiləsindən olan Başanda Qolanı
ayırdılar. 9 Bilmədən qətl edən hər bir
kəs oraya qaçsın və icma qarşısında
dayananadək qan qisasını alanın əli ilə
öldürülməsin deyə bütün İsraillilərlə
aralarında yaşayan yadellilər üçün təyin
olunan şəhərlər bunlar idi.

Levililərə verilən şəhərlər

21 [f]O zaman Levililərin nəsil
başçıları kahin Eleazara, Nun
oğlu Yeşuaya və İsrail övladları
qəbilələrinin nəsil başçılarına
yaxınlaşdılar. 2 Kənan torpağında
yerləşən Şiloda onlara belə dedilər:
«Rəbb Musa vasitəsilə bizə yaşamaq
üçün şəhərlər, heyvanlarımız üçün
otlaqlar verməyi əmr edib». 3 İsrail
övladları Rəbbin əmrinə görə öz irs
torpaqlarından bu şəhərləri və oranın
otlaqlarını Levililərə verdilər.
4 Püşk Qohatdan olan nəsillərə
düşdü. Levililərdən olan kahin Harun
övladlarına Yəhuda, Şimeon və
Binyamin qəbilələrindən püşk ilə
on üç şəhər verildi. 5 Digər Qohat
övladlarına isə Efrayim qəbiləsinin
nəsillərindən, Dan qəbiləsindən və
Menaşşe qəbiləsinin yarısından püşk ilə
on şəhər verildi.
6 Gerşon övladlarına İssakar
qəbiləsi nəsillərindən, Aşer, Naftali
qəbilələrindən, Başanda Menaşşe
qəbiləsinin yarısından püşk ilə on üç
şəhər verildi.
7 Nəsillərinə görə Merari övladlarına
Ruven, Qad, Zevulun qəbilələrindən on
iki şəhər verildi.
8 İsrail övladları Musa vasitəsilə
Rəbbin əmr etdiyinə görə bu şəhərləri
və onların otlaqlarını püşk ilə Levililərə
verdilər. 9 Onlara Yəhuda və Şimeon
övladlarının qəbilələrindən adları
göstərilən bu şəhərləri verdilər.
10 Bunlar Levililərdən olan Qohat
övladlarından Harun övladları üçün idi,
çünki ilk püşk onların idi. 11 Yəhudanın
dağlıq bölgəsindəki Anaqlıların atası
Arbanın adı ilə adlanan Qiryat-Arba
şəhərini, yəni Xevronu və ətrafında
olan otlaqları onlara verdilər. 12 Amma
şəhərin tarlaları ilə kəndlərini mülk
olaraq Yefunne oğlu Kalevə verdilər.
13 Kahin Harun övladlarına qatillər
üçün bu sığınacaq şəhərləri verdilər:
Xevronla otlaqlarını, Livna ilə
otlaqlarını, 14 Yattirlə otlaqlarını,
Eştemoa ilə otlaqlarını, 15 Xolonla
otlaqlarını, Devirlə otlaqlarını,
16 Ayin, Yutta, Bet-Şemeş şəhərləri
ilə otlaqlarını. Bu, iki qəbilədən
cəmi doqquz şəhər idi. 17 Binyamin
qəbiləsindən isə bu şəhərləri verdilər:
Giveonla otlaqlarını, Geva ilə
otlaqlarını, 18 Anatotla otlaqlarını,

---

[f]**21:1** Say. 35:1-8

Almonla otlaqlarını. Bu, dörd şəhər idi.
19 Harun övladlarının, kahinlərin bütün
şəhərləri otlaqları ilə birgə on üç şəhər
idi.
20 Levililərdən olan digər Qohat
övladlarına nəsillərinə görə püşklə
düşən Efrayim qəbiləsinə aid şəhərləri
verdilər. 21 Onlara Efrayimin dağlıq
bölgəsində qatillər üçün bu sığınacaq
şəhərləri verdilər: Şekemlə otlaqlarını,
Gezerlə otlaqlarını, 22 Qivsayimlə
otlaqlarını, Bet-Xoronla otlaqlarını
verdilər. Bunlar cəmi dörd şəhər
idi. 23 Dan qəbiləsindən bu şəhərləri
verdilər: Elteqe ilə otlaqlarını,
Gibbetonla otlaqlarını, 24 Ayyalonla
otlaqlarını, Qat-Rimmonla otlaqlarını.
Bunlar da dörd şəhər idi. 25 Menaşşe
qəbiləsinin yarısından isə bu şəhərləri
verdilər: Taanakla otlaqlarını,
Qat-Rimmonla otlaqlarını. Bunlar isə
iki şəhər idi. 26 Digər Qohat övladlarına
nəsillərinə görə verilən bütün şəhərlər
otlaqları ilə birlikdə on şəhər idi.
27 Levililərin nəsillərindən Gerşon
övladlarına Menaşşe qəbiləsinin
yarısından qatillər üçün bu sığınacaq
şəhərləri verdilər: Başandakı Qolanla
otlaqlarını, Beeştera ilə otlaqlarını
verdilər. Bunlar iki şəhər idi. 28 İssakar
qəbiləsindən Qişyonla otlaqlarını,
Davratla otlaqlarını, 29 Yarmutla
otlaqlarını, En-Qannimlə otlaqlarını
verdilər. Bunlar dörd şəhər idi. 30 Aşer
qəbiləsindən Mişalla otlaqlarını,
Avdonla otlaqlarını, 31 Xelqatla
otlaqlarını, Rexovla otlaqlarını verdilər.
Bunlar dörd şəhər idi. 32 Naftali
qəbiləsindən qatillər üçün sığınacaq
şəhəri olan Qalileyadakı Qedeşlə
otlaqlarını, Xammot-Dorla otlaqlarını
və Qartanla otlaqlarını verdilər.
Bunlar üç şəhər idi. 33 Nəsillərinə görə
Gerşonluların bütün şəhərləri otlaqları
ilə birlikdə on üç şəhər idi.
34 Levililərdən olan Merari
övladlarının nəsillərinə bu şəhərləri
verdilər: Zevulun qəbiləsindən
Yoqneamla otlaqlarını, Qarta ilə
otlaqlarını, 35 Dimna ilə otlaqlarını,
Nahalalla otlaqlarını. Bunlar dörd
şəhər idi. 36 Onlara Ruven qəbiləsindən
Beserlə otlaqlarını, Yahsa ilə otlaqlarını,
37 Qedemotla otlaqlarını, Mefaatla
otlaqlarını verdilər. Bunlar dörd şəhər
idi; 38 Qad qəbiləsindən qatillər üçün
sığınacaq şəhəri olan Gileaddakı
Ramotla otlaqlarını, Maxanayimlə
otlaqlarını, 39 Xeşbonla otlaqlarını,
Yazerlə otlaqlarını verdilər. Bunlar dörd
şəhər idi. 40 Bunların hamısı Merari
övladlarının, yəni Levililərdən qalan
nəsillərin şəhərləri idi. Onların püşkü
on iki şəhərə düşmüşdü.
41 İsrail övladlarının irsi arasında
Levililərin bütün şəhərləri otlaqları
ilə birlikdə qırx səkkiz şəhər idi. 42 Bu
şəhərlərin hər birinin ətrafında otlaqları
var idi. Şəhərlərin hamısı belə idi.

Vəd olunmuş torpağın İsrailə verilməsi barədə Rəbbin sözünün yerinə yetirilməsi

43 Rəbb atalarına etdiyi anda görə vəd
etdiyi bütün torpağı İsraillilərə verdi.
Onlar bu torpağa sahib oldular və orada
məskən saldılar. 44 Rəbb atalarına etdiyi
anda görə hər şeydə onlara hər tərəfdən
dinclik verdi və bütün düşmənlərindən
heç biri onların qarşısında dura bilmədi.
Rəbb bütün düşmənlərini onlara təslim
etdi. 45 Rəbbin İsrail nəslinə söylədiyi
bütün yaxşı sözlərdən heç biri boşa
çıxmadı, hamısı yerinə yetdi.

Şərq qəbilələrinin qayıtması

22 O zaman Yeşua Ruvenliləri,
Qadlıları, Menaşşe qəbiləsinin

yarısını çağırıb dedi: 2 [g]«Siz Rəbbin
qulu Musanın əmr etdiyi hər şeyə əməl
etdiniz və mənim sizə əmr etdiyim
hər şeydə sözümə qulaq asdınız.
3 Bu günə qədər keçən uzun müddət
ərzində soydaşlarınızı tərk etmədiniz və
Allahınız Rəbbin sizə buyurduğu işlərə
əməl etdiniz. 4 Ona görə də Allahınız
Rəbb soydaşlarınıza vəd etdiyi kimi
əmin-amanlıq verdi. İndi Rəbbin qulu
Musanın İordan çayının o tərəfində
sizə mülk olaraq verdiyi torpağa, öz
çadırlarınıza qayıdın. 5 Ancaq Rəbbin
qulu Musanın sizə buyurduğu əmrə
və qanuna əməl etməyə səylə çalışın.
Allahınız Rəbbi sevin, tamamilə Allahın
göstərdiyi yolla gedin və əmrlərinə
əməl edin, Ona bağlanın, bütün
qəlbinizlə, bütün varlığınızla yalnız Ona
qulluq edin». 6 Yeşua onlara xeyir-dua
verib yola saldı və onlar çadırlarına
qayıtdılar.
7 Musa Başanda Menaşşe qəbiləsinin
yarısına irs torpağı vermişdi. Yeşua
isə İordan çayının qərb tərəfində bu
qəbilənin o biri yarısına soydaşları
arasında irs torpağı verdi. Yeşua
onları çadırlarına göndərən zaman
xeyir-dua verdi. 8 Onlara belə dedi:
«İndi öz çadırlarınıza çoxlu var-dövlətlə
qayıdırsınız. Özünüzə xeyli heyvan,
qızıl-gümüş, tunc, dəmir və çoxlu paltar
götürmüsünüz. Düşmənlərinizdən
qarət etdiyiniz bu malı soydaşlarınıza
paylayın».
9 Ruven övladları, Qad övladları,
Menaşşe qəbiləsinin yarısı Kənan
torpağındakı Şilodan, İsrail övladlarının
yanından qayıtdılar. Onlar Rəbbin
əmrinə görə Musa vasitəsilə sahib
olduqları Gilead torpağına – mülk
olaraq onlara verilən torpağa yola
düşdülər.

İordan çayının o tayında qoyulmuş qurbangah barədə mübahisə

10 Onlar Kənan torpağında olan
İordan çayının yanındakı Gelilota
çatdılar. Orada – İordan çayının
yanında Ruven övladları, Qad övladları
və Menaşşe qəbiləsinin yarısı bir
qurbangah – möhtəşəm görünüşlü
qurbangah qurdular. 11 İsrail övladları
bunu eşitdilər: «Budur, Ruven övladları,
Qad övladları və Menaşşe qəbiləsinin
yarısı Kənan torpağının sərhədində –
İordan çayının yanındakı Gelilotda,
İsrail övladlarına aid olan tərəfdə bir
qurbangah qurub». 12 İsrail övladları
bunu eşidəndə bütün İsrail övladlarının
icmasını onlara qarşı döyüşə çıxmaq
üçün Şiloya çağırdılar.
13 İsrail övladları Gilead torpağına,
Ruven övladlarının, Qad övladlarının
və Menaşşe qəbiləsinin yarısının yanına
kahin Eleazar oğlu Pinxası, 14 onunla
birlikdə İsrail qəbilələrinin hər biri
üçün nəsil rəhbəri olmaqla on rəhbər
göndərdilər. Onların hər biri İsrail
tayfaları arasında nəsil başçıları idi.
15 Onlar Gilead torpağına, Ruven
övladlarının, Qad övladlarının və
Menaşşe qəbiləsinin yarısının yanına
gələrək belə dedi: 16 [h]«Rəbbin icması
hamılıqla belə deyir: “Nədir İsrailin
Allahına belə xəyanət etdiniz? Niyə
Rəbbin yolundan döndünüz və bu gün
özünüzə başqa qurbangah quraraq
Ona qarşı üsyan etdiniz? 17 [i]Rəbbin
icması üzərinə bəla gətirən və bu
günə qədər də təmizlənmədiyimiz
Peor günahı məgər bizə azlıq edir
ki, 18 bu gün də Rəbbin yolundan
dönürsünüz? Əgər siz bu gün Rəbbə
qarşı üsyan etsəniz, O da sabah bütün
İsrail icmasına qəzəblənəcək. 19 Əgər
sahib olduğunuz torpaq murdardırsa,

[g]**22:2** Say. 32:20-32; Yeşua 1:12-15 [h]**22:16** Qanun. 12:6 [i]**22:17** Say. 25:1-9

Rəbbin məskəninin yerləşdiyi –
Rəbbin mülkü olan torpağa keçin. Qoy
torpaq payınız bizim aramızda olsun.
Allahımız Rəbbin qurbangahından
başqa özünüzə qurbangah qurmaqla
Rəbbə və bizə qarşı üsyan etməyin.
20 [j]Zerah oğlu Akan məhv edilmək
üçün həsr olunan şeylərdən götürməklə
xəyanət etmədimi? Ona görə bütün
İsrail icması üzərinə qəzəb gəlmədimi?
Bu günahdan ötrü o adam tək özü məhv
olmadı”».
21 Ruven övladları, Qad övladları,
Menaşşe qəbiləsinin yarısı İsrail
tayfalarının başçılarına cavab verdilər:
22 «Qadir Allah Rəbb! Qadir Allah
Rəbb! O bilir, qoy İsrail də bilsin. Əgər
Rəbbin əleyhinə çıxıb üsyan edəriksə,
qoy bu gün O bizə qənim olsun!
23 Əgər Rəbbin yolundan dönmək üçün
üzərində yandırma qurbanları, taxıl
təqdimləri, ünsiyyət qurbanları təqdim
etməkdən ötrü özümüzə başqa bir
qurbangah qurmuşuqsa, qoy Rəbb Özü
bunun cavabını bizdən istəsin. 24 Amma
bunu qorxaraq bu məqsədlə etdik ki,
sabah sizin övladlarınız övladlarımıza
deməsinlər: “İsrailin Allahı Rəbdən
sizə nə? 25 Ey Ruven övladları, ey Qad
övladları! Rəbb sizinlə bizim aramızda
İordan çayını sərhəd qoydu. Rəbdə
sizin payınız yoxdur”. Bununla da
sizin övladlarınız bizim övladlarımızı
Rəbb qorxusundan döndərə bilər.
26 Ona görə belə dedik: “Özümüzə bir
qurbangah qurmaq üçün işə başlayaq”.
Bu qurbangah yandırma qurbanı və
başqa qurbanlar üçün deyil, 27 bizimlə
sizin aranızda və sonrakı nəsillərimiz
arasında şahid olmaq üçündür. Ta
ki biz də yandırma qurbanlarımız,
başqa qurbanlarımız və ünsiyyət
qurbanlarımızla Rəbbin hüzurunda Ona
xidmət edək. Sabah sizin övladlarınız
da bizim övladlarımıza “Rəbdə
sizin payınız yoxdur” deməsinlər.
28 Biz dedik: “Sabah bizə yaxud
nəsillərimizə belə desələr, biz də
belə cavab verərik ki, atalarımızın
qurduğu Rəbbin qurbangahının surətinə
baxın. Bu yandırma qurbanlar və
başqa qurbanlar üçün deyil, yalnız
sizinlə bizim aramızda şahid olmaq
üçündür”. 29 Rəbbə qarşı üsyan etmək,
bu gün Rəbbin yolundan dönmək,
yandırma qurbanı, taxıl təqdimləri,
başqa qurbanlar üçün Allahımız
Rəbbin məskəni qarşısında olan Öz
qurbangahından başqa qurbangah
qurmaq qoy bizdən uzaq olsun».
30 Kahin Pinxas, onunla birgə olan
icma rəhbərləri, yəni İsrail tayfalarının
başçıları Ruven övladlarının, Qad
övladlarının və Menaşşe övladlarının
söylədiklərini eşidəndə bu sözləri
bəyəndilər. 31 Kahin Eleazar oğlu Pinxas
və rəhbərlər Ruven övladlarına, Qad
övladlarına və Menaşşe övladlarına
dedilər: «Bu gün bildik ki, Rəbb
aramızdadır, çünki Ona qarşı bu
xəyanəti etmədiniz və İsraillilər Rəbbin
əlindən qurtardınız».
32 Kahin Eleazar oğlu Pinxas
və rəhbərlər Ruven övladları və
Qad övladlarının yanından, Gilead
torpağından Kənan torpağına İsrail
övladlarının yanına qayıdıb onlara
xəbər gətirdilər. 33 Bu işi İsrail övladları
da bəyəndilər. Onlar Allaha şükür
etdilər və Ruven övladlarına, Qad
övladlarına qarşı müharibə etmək və
onların yaşadıqları ölkəni viran etmək
fikrindən döndülər.
34 Ruven övladları və Qad övladları
qurbangahın adını «Şahid» qoydular.
Çünki onlar dedi: «Bu qurbangah Rəbbin
Allah olduğuna aramızda şahiddir».

---

[j]**22:20** Yeşua 7:1-26

Yeşuanın vəsiyyəti

23 Rəbb İsraillilərə hər tərəfdən
düşmənlərindən əmin-amanlıq
verəndən sonra uzun müddət keçdi.
Artıq Yeşua qocalıb yaşa dolmuşdu. 2 O
bütün İsraili, ağsaqqalları, başçıları,
hakimləri və məmurları çağırdı və
onlara dedi: «Mən qocalmışam, yaşım
çoxdur. 3 Allahınız Rəbbin sizin
uğrunuzda bütün bu millətlərə nə
etdiyini gördünüz, çünki Allahınız
Rəbb Özü sizin üçün döyüşdü. 4 Budur,
İordan çayından qərb tərəfə Böyük
dənizə qədər qırdığım bütün millətlərin
torpaqları ilə birlikdə qalan bu
millətlərin də torpaqlarını qəbilələriniz
üçün irs olaraq payladım. 5 Allahınız
Rəbb Özü onları qarşınızdan silib
atacaq və onları gözünüzün qarşısından
qovacaq. Allahınız Rəbbin sizə söz
verdiyi kimi onların torpağına sahib
olacaqsınız. 6 Musanın Qanun kitabında
yazılan hər şeyi saxlayıb yerinə
yetirmək üçün çox diqqətli olun ki,
ondan nə sağa, nə də sola dönəsiniz.
7 Sizinlə qalan bu millətlərə qarışmayın,
allahlarının adını çəkməyin, onlara
and içməyin, onlara qulluq etməyin,
onlara səcdə qılmayın. 8 Yalnız bu günə
qədər etdiyiniz kimi Rəbbə etibar edin.
9 Çünki Rəbb qarşınızdan böyük və
qüvvətli millətləri qovdu, ona görə
də bu günə qədər sizin qarşınızda
heç kim dura bilmədi. 10 [k]Sizdən bir
adam min adamı qova bildi, çünki
Allahınız Rəbb sizə dediyi kimi sizin
üçün Özü döyüşdü. 11 Öz canınız
xatirinə Allahınız Rəbbi sevməyə
cəhd edin. 12 Əgər geri dönsəniz, sizin
aranızda yaşayan bu millətlərdən
qalanlara bağlansanız, onlarla qohum
olsanız, onlarla qaynayıb-qarışsanız,
13 yaxşı bilin ki, Allahınız Rəbb bu
millətləri gözünüz qarşısından bir daha
qovmayacaq. Allahınız Rəbbin verdiyi
bu nemətli torpaq üzərindən yox olana
qədər onlar sizin üçün kəmənd, tələ,
böyürlərinizə qamçı və gözlərinizə tikan
olacaq.
14 Budur, bu gün mən də hamı kimi
dünyadan köçəcəyəm. Bütün qəlbinizlə
və varlığınızla bilirsiniz ki, Allahınız
Rəbbin haqqınızda dediyi bütün yaxşı
şeylərdən heç biri boşa çıxmadı.
Hamısı sizin üçün yerinə yetdi. Onun
sözlərindən heç biri boşa çıxmadı.
15 Allahınız Rəbbin sizə vəd etdiyi bütün
nemətli şeylər necə yerinə yetdisə,
verdiyi bu yaxşı torpaq üzərindən sizi
həlak edənə qədər bütün pis şeyləri də
Rəbb beləcə sizin başınıza gətirəcək.
16 Əgər Allahınız Rəbbin sizə buyurduğu
əhdi pozsanız, gedib başqa allahlara
qulluq etsəniz, onlara səcdə qılsanız,
Rəbbin qəzəbi sizə qarşı alovlanacaq və
sizə verdiyi nemətli torpaq üzərindən
tezliklə yox olacaqsınız».

Yeşuanın və İsrail xalqının Şekemdə əhd bağlaması

24 Yeşua İsrailin bütün qəbilələrini
Şekemə topladı və İsrailin
ağsaqqallarını, başçılarını, hakimlərini
və məmurlarını çağırdı. Onlar Allahın
hüzurunda durdular. 2 [l]Yeşua bütün
xalqa dedi: «İsrailin Allahı Rəbb belə
deyir: “İbrahimin, Naxorun atası Terah
və atalarınız keçmişdə Fərat çayının o
biri tayında yaşayırdılar. Onlar başqa
allahlara qulluq edirdilər. 3 [m]Atanız
İbrahimi Fərat çayının o biri tayından
gətirib bütün Kənan torpağında
gəzdirdim, nəslini çoxaldaraq ona
İshaqı verdim. 4 [n]İshaqa Yaqubu və
Esavı verdim. Esavın mülk sahibi olması

---

[k] **23:10** Qanun. 32:30; Qanun. 3:22 [l] **24:2** Yar. 11:27 [m] **24:3** Yar. 12:1-9; Yar. 21:1-3 [n] **24:4** Yar. 25:24-26; Yar. 36:8; Qanun. 2:5; Yar. 46:1-7

üçün Seir dağını ona verdim. Yaqubla
övladları isə Misirə getdilər. 5 [o]Musa ilə
Harunu göndərib Misiri bəlalara düçar
etdim və sonra sizi oradan çıxartdım.
6 [p]Atalarınızı Misirdən çıxartdım,
siz Qırmızı dənizə tərəf gəldiniz.
Misirlilər Qırmızı dənizə qədər döyüş
arabaları və süvarilərlə atalarınızı təqib
etdilər. 7 Onlar Rəbbə fəryad edəndə
O, Misirlilərlə sizin aranızda qaranlıq
yaratdı, onların üstünə dənizi gətirdi,
onlar suların altında qaldılar. Misirdə
etdiyim şeyləri gözünüzlə gördünüz və
uzun müddət səhrada yaşadınız.
8 [q]Sizi İordan çayının şərq tərəfində
yaşayan Emorlular torpağına gətirdim,
onlar sizinlə vuruşanda onları sizə
təslim etdim, torpaqlarını isə mülk
olaraq aldınız və hamısını qarşınızdan
yox etdim. 9 [r]Moav padşahı Sippor
oğlu Balaq qalxıb İsraillilərlə vuruşdu
və xəbər göndərib Beor oğlu Bilamı
sizə lənət etmək üçün çağırdı. 10 Lakin
Bilamı eşitmək istəmədim. O da
ancaq xeyir-dua verdi. Beləcə sizi
onun əlindən azad etdim. 11 [s]İordan
çayından keçib Yerixoya gəldiniz.
Yerixo adamları, Emorlular, Perizlilər,
Kənanlılar, Xetlilər, Qirqaşlılar, Xivlilər,
Yevuslular sizə qarşı vuruşdular,
lakin onları sizə təslim etdim. 12 Sizin
önünüzcə eşşəkarısı çıxarıb onunla
Emorluların iki padşahını qarşınızdan
qovdum. Bu iş sizin qılıncınızla və
ox-kamanınızla olmadı. 13 [t]Üzərində
işləmədiyiniz bir torpağı, tikmədiyiniz
şəhərləri sizə verdim ki, orada
yaşayasınız. Salmadığınız bağlardan və
zeytunluqlardan yeyirsiniz”.
14 Ona görə də Rəbdən qorxun,
səmimiyyətlə və sədaqətlə Ona qulluq
edin. Fərat çayının o biri tərəfində
və Misirdə atalarınızın qulluq etdiyi
allahları atın, yalnız Rəbbə qulluq edin.
15 Əgər Rəbbə qulluq etmək gözünüzdə
pisdirsə, bu gün kimə qulluq edəcəyinizi
özünüz seçin. Atalarınızın qulluq
etdikləri Fərat çayının o tayındakı
allahlaramı, yoxsa torpaqlarında
yaşadığınız Emorluların allahlarınamı
qulluq edəcəksiniz? Amma mən və
mənim evimdəkilər Rəbbə qulluq
edəcək».
16 Xalq cavab verdi: «Rəbbi tərk
edib başqa allahlara qulluq etmək
qoy bizdən uzaq olsun! 17 Çünki bizi
və atalarımızı Misir torpağından –
köləlik diyarından çıxaran, gözümüzün
qarşısında bu böyük əlamətləri göstərən
və getdiyimiz bu yolda, arasından
keçdiyimiz bütün xalqlar arasında
bizi qoruyan yalnız Allahımız Rəbdir.
18 Rəbb bütün xalqları, bu torpaqda
yaşayan Emorluları qarşımızdan qovdu.
Biz də Rəbbə qulluq edəcəyik, çünki
Allahımız Odur».
19 Yeşua xalqa dedi: «Rəbbə
qulluq edə bilməzsiniz, çünki O,
müqəddəs Allahdır. O, qısqanc Allahdır,
qanunsuzluğunuzu və günahlarınızı
bağışlamayacaq. 20 Əgər Rəbbi tərk
edib yad allahlara qulluq etsəniz, sizə
yaxşılıq edən Rəbb əleyhinizə dönüb
pislik edəcək və sizi məhv edəcək».
21 Xalq Yeşuaya dedi: «Xeyr, ancaq
Rəbbə qulluq edəcəyik». 22 Yeşua
xalqa dedi: «Qulluq etmək üçün Rəbbi
seçdiyinizə siz özünüz şahidsiniz».
Onlar «biz şahidik» dedilər. 23 Yeşua
dedi: «Elə isə indi aranızda olan yad
allahları atın, ürəyinizi İsrailin Allahı
Rəbbə meyl etdirin». 24 Xalq Yeşuaya
dedi: «Allahımız Rəbbə qulluq edəcəyik
və yalnız Onun sözünə qulaq asacağıq».
25 Yeşua o gün xalqla əhd bağladı.
Onlar üçün Şekemdə qanun və hökm

---

[o]**24:5** Çıx. 3:1–12:42 [p]**24:6** Çıx. 14:1-31 [q]**24:8** Say. 21:21-35 [r]**24:9** Say. 22:1–24:25 [s]**24:11** Yeşua 3:14-17; Yeşua 6:1-21 [t]**24:13** Qanun. 6:10-11

qoydu. 26 Yeşua bu sözləri Allahın
Qanun kitabına yazdı. Sonra böyük
bir daş götürüb Rəbbin Müqəddəs
məkanının yanında olan palıd ağacı
altında yerləşdirdi. 27 Yeşua bütün xalqa
dedi: «Budur, bu daş bizə qarşı şahid
olacaq, çünki Rəbbin bizə dediyi bütün
sözləri o eşitdi. Qoy bu daş Allahınızı
inkar etməmək üçün sizə qarşı şahid
olsun». 28 Bundan sonra bütün xalqı irs
aldığı torpaqlara göndərdi.

Yeşuanın ölümü

29 Bu hadisələrdən sonra Rəbbin qulu
Nun oğlu Yeşua yüz on yaşında vəfat
etdi. 30 [u]Onu Qaaş dağının şimalında,
Efrayimin dağlıq bölgəsindəki
Timnat-Serahda irs olan torpağının
sahəsində dəfn etdilər.

31 Yeşuanın bütün ömrü boyu
və ondan sonra sağ qalan, Rəbbin
İsrail üçün etdiyi bütün işləri bilən
ağsaqqalların ömrü boyu İsrail xalqı
Rəbbə qulluq etdi.

Yusifin sümüklərinin Şekemdə basdırılması

32 [v]İsraillilər Misirdən çıxarkən Yusifin
sümüklərini özləri ilə götürmüşdülər.
Bunları Yaqubun Şekemdəki tarlasında
basdırdılar. Yaqub bu tarlanı Şekemin
atası Xamorun övladlarından yüz parça
gümüşə satın almışdı və bu torpaq Yusif
övladlarının irsi oldu.
33 Bundan sonra Harun oğlu Eleazar
öldü. Onu Efrayimin dağlıq bölgəsində
oğlu Pinxasa verilən təpədə dəfn etdilər.

---

[u]**24:30** Yeşua 19:49-50

[v]**24:32** Yar. 50:24-25; Çıx. 13:19; Yar. 33:19; Yəh. 4:5; Həv. 7:16

HAKİMLƏR

KİTABI

GİRİŞ

«Hakimlər» Kitabı İsrail tarixində Kənan torpağının zəbt olunması və padşahlığın əsasının qoyulması arasındakı dövrü təsvir edir. Bu, qanunsuzluq dövrü idi. Kitabın əsas ideyası budur: «O dövrdə İsraildə padşah yox idi, hərə öz gözündə doğru görünən işi edirdi» (17:6, 21:25).

Burada yazılan hekayələr «hakimlər» adlanan milli qəhrəmanların rəşadətindən bəhs edir. Əslində onların əksəri hakimlərdən çox hərbi başçı idi. Kitabın verdiyi ibrət dərsi budur ki, İsrailin varlığı Allaha sadiqliyindən asılı idi, çünki onların vəfasızlığı başlarına bəla gətirirdi. Amma ən vacib şey odur ki, İsrail xalqı Allaha vəfasız olub üzərinə bəla gətirsə də, onlar Allaha tərəf dönüb tövbə etdikdə O Öz xalqını xilas etməyə həmişə hazır idi.

Kitabın məzmunu:

1:1–2:10 Yeşuanın ölümünə qədər baş verən hadisələr
2:11–3:6 İsrail Rəbdən üz döndərir
3:7–16:31 İsrailin hakimləri
3:7-31 Otniel, Ehud, Şamqar
4:1–5:3 Devora və Baraq
6:1–8:35 Gideon
9:1-57 Avimelek
10:1–12:7 Tola, Yair, İftah
12:8-15 İvsan, Elon və Avdon
13:1–16:31 Şimşon
17:1–21:25 Müxtəlif hadisələr

Yerusəlimin alınması

1 Yeşuanın ölümündən sonra İsrail
övladları Rəbdən soruşdu: «Bizim
üçün Kənanlılara qarşı döyüşə birinci
kim çıxacaq?» 2 Rəbb dedi: «Yəhudalılar
çıxacaq, budur, Mən torpağı onlara
təslim edirəm».
3 Yəhudalılar soydaşları Şimeonlulara
dedi: «Torpağın bizə düşən hissəsinə
gəlin, Kənanlılara qarşı vuruşmaq
üçün bizimlə döyüşə çıxın. Sonra da
torpağın sizə düşən hissəsinə gəlib
sizinlə bərabər biz döyüşə çıxarıq».
4 Yəhudalılar döyüşə çıxdı. Rəbb
Kənanlılarla Perizliləri onlara təslim
etdi və Yəhudalılar Bezeqdə onlardan
on min nəfər adamı qırdı. 5 Bezeqdə
Adoni-Bezeqi tapıb vuruşdular və
həm Kənanlıları, həm də Perizliləri
qırdılar. 6 Lakin Adoni-Bezeq qaçdı və
Yəhudalılar onun ardınca qaçıb əllərinin
və ayaqlarının baş barmaqlarını
kəsdilər. 7 Adoni-Bezeq dedi: «Mənim
masamın altında yetmiş padşah əl və
ayaqlarının baş barmaqları kəsilmiş
halda çörək qırıntıları dənləyirdi. Mən
necə etmişdimsə, Allah da mənə əvəzini
elə verdi». Yəhudalılar Adoni-Bezeqi
Yerusəlimə gətirdi və o orada öldü.
8 Yəhuda övladları Yerusəlimə hücum
edib vuruşdu və oranı alıb əhalisini
qılıncdan keçirdilər. Şəhərə isə od vurub
yandırdılar. 9 Bundan sonra Yəhuda
övladları dağlıq bölgədə, Negevdə və
yamaclı-düzənlikli bölgədə yaşayan
Kənanlılara qarşı vuruşmaq üçün
endilər. 10 [w]Əvvəlki adı Qiryat-Arba
olan Xevronda yaşayan Kənanlılara
qarşı yürüş edib Şeşayı, Aximanı və
Talmayı məğlub etdilər.
11 Oradan da əvvəlki adı Qiryat-Sefer
olan Devir əhalisinə qarşı yürüş etdilər.
12 Kalev dedi: «Kim Qiryat-Seferə
hücum edib oranı alarsa, qızım Aksanı
ona ərə verəcəyəm». 13 Oranı Kalevin
kiçik qardaşı Kenazın oğlu Otniel aldı.
Kalev qızı Aksanı arvad olaraq ona

---

[w]**1:10** Yeşua 15:14-19

verdi. 14 Qız Otnielə ərə gedəndə ərini
atasından bir tarla yeri istəməyə sövq
etdi. Qız eşşəkdən düşəndə Kalev ona
dedi: «Nə istəyirsən?» 15 Aksa Kalevə
dedi: «Mənə bir pay da ver. Madam
ki mənə Negev torpağını verdin, onda
su qaynaqlarını da ver». Kalev ona
yuxarıdakı və aşağıdakı su qaynaqlarını
verdi.
16 Musanın Qenli qayınatasının
nəslindən olanlar Yəhudalılarla birgə
Xurma şəhərindən *çıxaraq Aradın
cənubunda olan Yəhuda çölündə
xalqın arasında məskunlaşdılar.
17 Yəhudalılar soydaşları Şimeonlularla
birgə gedib Sefatda qalan Kənanlıları
qıraraq tamamilə məhv etdilər. O
şəhərin adı Xorma† adlandırıldı.
18 Yəhudalılar Qəzzəni və bütün
ərazisini, Aşqelonu və bütün ərazisini,
Eqronu və bütün ərazisini aldılar.
19 Rəbb Yəhudalılarla idi. Yəhudalılar
dağlıq bölgəsini ələ keçirdilər. Vadi
sakinlərini isə qova bilmədilər, çünki
onların dəmir döyüş arabaları var idi.
20 Musanın söylədiyi kimi Xevronu
Kalevə verdilər. O da Anaqın üç oğlunu
oradan qovdu. 21 [x]Lakin Binyamin
övladları Yerusəlimdə qalan Yevusluları
qovmadılar və Yevuslular bu günə
qədər Binyamin övladları ilə birgə
Yerusəlimdə yaşayırlar.
22 Yusif nəsli də Bet-Elə hücum etdi və
Rəbb onlarla idi. 23 Yusif nəsli Bet-Elə
kəşfiyyata adamlar göndərdi. Şəhərin
əvvəlki adı Luz idi. 24 Kəşfiyyatçılar
şəhərdən çıxan bir adamı görüb dedilər:
«Rica edirik, bizə şəhərə girmək üçün
yol göstərəsiniz və biz də sizinlə yaxşı
rəftar edərik». 25 Bu adam onlara şəhərə
girmək üçün yol göstərdi. Onlar şəhərə
girib əhalisini qılıncdan keçirdilər,
lakin həmin adama və qohumlarına
dəymədilər. 26 Bu adam Xetlilərin
torpağına getdi və orada bir şəhər salıb
adını Luz qoydu. Oranın bu günə qədər
adı belədir.
27 [y]Menaşşe qəbiləsi Bet-Şeanla
qəsəbələrinin əhalisini, Taanakla
qəsəbələrinin əhalisini, Dorla
qəsəbələrinin əhalisini, İvleamla
qəsəbələrinin əhalisini və Megiddo
ilə qəsəbələrinin əhalisini qovmadı.
Kənanlılar bu ölkədə qalmaq iddiasını
etdi. 28 İsraillilər bu torpaqlarda
möhkəmlənəndə Kənanlıların üzərinə
mükəlləfiyyət qoydular, amma
tamamilə qovmadılar.
29 [z]Efrayim qəbiləsi Gezerdə olan
Kənanlıları qovmadı. Bununla da
Kənanlılar Gezerdə – onların arasında
yaşadı.
30 Zevulun qəbiləsi Qitron əhalisini
və Nahalol əhalisini qovmadı.
Kənanlılar da onların arasında qalıb
mükəlləfiyyətçi oldular.
31 Aşer qəbiləsi Akko əhalisini,
Sidon, Axlav, Akziv, Xelba, Afeq və
Rexov əhalisini qovmadı. 32 Aşerlilər
bu ölkənin sakinləri olan Kənanlılar
arasında yaşadı və onları qovmadı.
33 Naftali qəbiləsi Bet-Şemeş və
Bet-Anat əhalisini qovmadı, bu ölkənin
sakinləri olan Kənanlılar arasında
yaşadı. Bet-Şemeş və Bet-Anat əhalisi
onlar üçün mükəlləfiyyətçi oldu.
34 Emorlular Dan övladlarını dağlıq
bölgəsinə köçməyə vadar etdi və onları
vadiyə düşməyə qoymadı. 35 Emorlular
Har-Xeresdə, Ayyalonda və Şaalvimdə
qalıb orada yaşadı. Ancaq Yusif nəsli
qüvvətlənəndə Emorlular onlar üçün

*1:16 *Xurma şəhəri* – Yerixo şəhəri.
†1:17 *Xorma* – ibrani dilində *tamamilə yox etmək.*

[x]**1:21** Yeşua 15:63; 2Şam. 5:6; 1Saln. 11:4 [y]**1:27** Yeşua 17:11-13
[z]**1:29** Yeşua 16:10

mükəlləfiyyətçi oldu. 36 Emorluların
sərhədi Aqrabbim keçidindən – Seladan
yuxarıya uzanırdı.

İsrailin sədaqətsizliyi

2 Rəbbin mələyi Qilqaldan Bokimə
çıxdı və dedi: «Sizi Mən Misirdən
çıxararaq atalarınıza vəd etdiyim
torpağa gətirib dedim ki, sizinlə olan
əhdimi heç vaxt pozmayacağam.
2 [a]Siz isə bu torpağın əhalisi ilə əhd
bağlamayın və onların qurbangahlarını
dağıdın. Lakin siz Mənim sözümə qulaq
asmadınız. Niyə belə etdiniz? 3 Buna
görə də Mən deyirəm: onları qarşınızdan
qovmayacağam və onlar sizə əngəl,
allahları isə sizə tələ olacaq». 4 Rəbbin
mələyi bu sözləri İsrail övladlarına
söylədiyi zaman xalq bərkdən ağlamağa
başladı. 5 Ona görə də o yerin adına
Bokim *dedilər və orada Rəbbə qurban
təqdim etdilər.

Yeşuanın ölümü

6 Yeşua xalqı yola salan zaman
İsrail övladlarından hər biri öz torpaq
paylarına sahib olmaq üçün getdi.
7 Yeşuanın bütün ömrü boyu Rəbbin
İsrail üçün etdiyi bütün böyük işləri
görən və Yeşuadan sonra sağ qalan
ağsaqqalların bütün ömrü boyunca
xalq Rəbbə qulluq etdi. 8 Rəbbin qulu
Nun oğlu Yeşua yüz on yaşında vəfat
etdi. 9 [b]Onu Qaaş dağının şimalında,
Efrayimin dağlıq bölgəsində olan
Timnat-Xeres adlı irs olan torpaq
sahəsində dəfn etdilər. 10 Yeşua ilə
bir dövrdə yaşayan bütün nəsil də
ölüb atalarına qovuşdu. Bundan sonra
Rəbbin İsrail üçün etdiyi işləri bilməyən
başqa bir nəsil törədi.
11 İsrail övladları Rəbbin gözündə pis
olan işlər görərək Baal bütlərinə qulluq
etdilər. 12 Bununla da onları Misir
ölkəsindən çıxaran atalarının Allahı
Rəbbi atıb başqa allahlara – ətraflarında
yaşayan millətlərin allahlarına sitayiş
edərək onlara səcdə etdilər. Buna görə
də Rəbbi qəzəbləndirdilər. 13 Onlar
Rəbbi ataraq Baal və Aştoret bütlərinə
qulluq etdilər. 14 Rəbbin İsrailə qarşı
qəzəbi alovlandı və onları basqınçılara
təslim etdi. Basqınçılar da onları talan
etdilər. Rəbb onları ətraflarındakı
düşmənlərə verdi. İsrail övladları
isə düşmən qabağında tab gətirə
bilmədilər. 15 Harada döyüşdülərsə,
Rəbbin onlara dediyi və and içdiyi
kimi Rəbbin əli onların əleyhinə qalxdı.
Bundan İsraillilər pis vəziyyətə düşüb
çox əziyyət çəkdilər.
16 Rəbb İsrail övladlarını talançıların
əlindən qurtarmaq üçün hakimlər
yetirdi. 17 Lakin onlar hakimlərə də
qulaq asmadılar. Başqa allahlara
sitayiş etməklə Rəbbə xəyanət etdilər.
Rəbbin əmrlərinə itaət edən atalarına
bənzəmədilər və tezliklə ata-babaları
gedən yoldan azdılar. 18 Rəbb onlar
üçün hakimlər yetirdi və Özü də
hakimlərlə oldu. Hakimlərin ömrü
boyunca Rəbb İsraillilər düşmənlərin
əlindən qurtarırdı. Ona görə ki onları
əzənlərin və sıxışdıranların üzündən
nalə çəkdikləri zaman Rəbbin xalqa
rəhmi gəlirdi. 19 Hər hansı hakim
öləndən sonra xalq yenə başqa allahlara
sitayiş etməklə, onlara qulluq edib
səcdə etməklə atalarından daha betər
olurdu. Onlar bu əməllərindən, bu
inadkarlıqlarından əl çəkmədi. 20 Ona
görə də Rəbbin İsraillilərə qarşı
qəzəbi alovlandı və dedi: «Madam
ki bu millət Mənim atalarına əmr
etdiyim əhdi pozub sözümə qulaq
asmadı, 21 Mən də Yeşua vəfat edəndə

*2:5 *Bokim* – ibrani dilində *ağlayanlar*.

[a]2:2 Çıx. 34:12-13; Qanun. 7:2-5 [b]2:9 Yeşua 19:49-50

bu torpaqlarda saxladığı millətlərin
heç birini daha onların qarşısından
qovmayacağam. 22 Ataları kimi bu
yolla gedib-getməyəcəklərini görmək
üçün İsrailliləri bu millətlər vasitəsilə
sınaqdan keçirəcəyəm». 23 Rəbb
bu millətlərin həmin torpaqlarda
qalmasına izin verdi. Onları Yeşuaya
təslim etməyərək dərhal qovmadı.

Kənan torpağında qalan millətlər

3 Rəbb Kənan döyüşlərindən heç
birini görməyən İsrailliləri sınamaq
istədi. 2 İsrail övladlarının nəsillərindən
əvvəldən döyüşə bilməyənlərin
hamısına döyüş təlimi vermək üçün
Rəbbin ölkədə saxladığı millətlər
bunlar idi: 3 Beş Filişt ağası, bütün
Kənanlılar və Sidonlular, eləcə də
Baal-Xermon dağından Xamat keçidinə
qədər Livan dağlarında yaşayan
Xivlilər. 4 Onları orada Rəbb ona görə
saxladı ki, İsrailliləri sınasın və Musa
vasitəsilə atalarına verdiyi əmrlərə necə
itaət edib-etməyəcəklərini öyrənsin.
5 Beləliklə, İsrail övladları Kənanlılar,
Xetlilər, Emorlular, Perizlilər, Xivlilər
və Yevuslular arasında yaşadı. 6 İsrail
övladları onların qızlarından özlərinə
arvad aldı, öz qızlarını da onların
oğullarına verdi və onların allahlarına
sitayiş etdi.

Birinci hakim Otniel

7 Beləliklə, İsrail övladları Rəbbin
gözündə pis olan işlər gördülər. Onlar
özlərinin Allahı Rəbbi unudaraq
Baal və Aşera bütlərinə sitayiş
etdilər. 8 Ona görə də Rəbbin
qəzəbi İsrailliləra qarşı alovlandı
və onları Aram-Naharayim padşahı
Kuşan-Rişatayimə təslim etdi. İsrail
övladları səkkiz il Kuşan-Rişatayimə
tabe oldu. 9 İsrail övladları Rəbbə
fəryad edəndə Rəbb də onlar üçün bir
xilaskar yetirdi. Xilaskar Kalevin kiçik
qardaşı olan Qenazın oğlu Otniel idi.
O, İsrail övladlarını əsarətdən xilas
etdi. 10 Rəbbin Ruhu Otnielin üzərinə
endi. O, İsrailin hakimi oldu və döyüşə
çıxdı. Rəbb Aram-Naharayim padşahı
Kuşan-Rişatayimi Otnielə təslim etdi. O,
Kuşan-Rişatayimdən daha güclü oldu.
11 O dövrdə ölkə qırx il rahat yaşadı.
Sonra Qenazın oğlu Otniel öldü.

Ehudun hakimliyi

12 İsrail övladları yenə də Rəbbin
gözündə pis olan işləri gördülər. Rəbb
də Moav padşahı Eqlonu İsrailliləra
qarşı qaldıraraq qüvvətləndirdi. Çünki
onlar Rəbbin gözündə pis olan işləri
görmüşdülər. 13 Moav padşahı Eqlon
Ammon və Amaleq övladlarını öz
yanına toplayaraq İsrailliləri məğlub
edib Xurma şəhərini aldı. 14 Beləliklə,
İsrail övladları Moav padşahı Eqlona on
səkkiz il tabe oldu.
15 Lakin İsrail övladları Rəbbə fəryad
edəndə Rəbb Binyaminli Geranın oğlu
solaxay Ehudu bir xilaskar kimi onlara
yetirdi. İsrail övladları Moav padşahı
Eqlona Ehud vasitəsilə xərac göndərdi.
16 Ehud özünə uzunluğu bir qulac
olan ikiağızlı xəncər düzəltdi və onu
paltarının altında sağ buduna bağladı.
17 Ehud xəracı Moav padşahı Eqlona
təqdim etdi. Eqlon isə çox tosqun adam
idi. 18 Ehud xərac təqdimini bitirəndən
sonra hədiyyə gətirən adamları geri
göndərdi. 19 Amma özü Qilqalın
yaxınlığındakı daş bütlərin yanından
geriyə qayıdıb padşaha dedi: «Ey
padşah, sənə gizli sözüm var». Padşah
«sus» dedi. Onda yanında dayanan
adamların hamısı eşiyə çıxdılar.
20 Ehud onun yanına gəldi. Padşah
üst mərtəbədəki sərin otağında tənha
qalırdı. Ehud ona dedi: «Allahdan sənə
bir sözüm var». Padşah kürsüsündən
qalxdı. 21 Ehud isə sol əlini uzadıb
sağ buduna bağladığı xəncəri çıxarıb

padşahın qarnına soxdu. 22 Xəncəri
elə bərk vurmuşdu ki, tiyənin ardınca
qəbzəsi də onun qarnına girmişdi
və bağırsaqları yerə tökülmüşdü.
Xəncərin tiyəsini isə piy tutmuşdu,
çünki Ehud xəncəri padşahın qarnından
çıxarmamışdı. 23 Ehud eyvana çıxıb
arxasınca yuxarıdakı otağın qapılarını
örtüb qıfılladı.
24 O çıxanda padşahın qulları gəlib
baxdılar. Yuxarı otağın qapısını qıfıllı
görəndə dedilər: «Yəqin padşah yuxarı
otaqda ayaqyoluna gedir». 25 Padşahı
gözlədilər, lakin otağın qapısını açan
olmadığına görə nigaran qaldılar. Sonra
açar götürüb qapıları açanda gördülər
ki, ağalarının meyiti yerə sərilib.
26 Onlar padşahı gözləyən zaman
Ehud artıq aradan çıxmış və daş bütlərin
yanından keçib Seiraya qaçmışdı. 27 O,
İsrailə çatan kimi Efrayimin dağlıq
bölgəsində şeypur çaldı və İsrail
övladları onunla birgə dağlıq yerdən
aşağı düşdülər. Ehud onların qabağında
gedirdi. 28 Ehud İsraillilərə dedi:
«Ardımca gəlin, çünki Rəbb düşmənimiz
olan Moavlıları sizə təslim etdi». İsrail
övladları da Ehudun ardınca enib
Moavlılara qarşı bütün İordan çayının
keçidlərini bağladılar ki, heç kim
keçə bilməsin. 29 O zamankı döyüşdə
Moavlılardan on min nəfərə qədər
qırıldı. Onların da hər biri qüvvətli
bir igid idi və heç kim canını qurtara
bilmədi. 30 Həmin gün Moav ölkəsi
İsraillilərə tabe oldu və İsrail ölkəsi
səksən il rahat yaşadı.

Şamqarın hakimliyi

31 Bundan sonra Anat oğlu Şamqar
hakim oldu və o, altı yüz Filiştlini öküz
payası ilə qıraraq İsraili xilas etdi.

Devora və Baraqın İsraili xilas etməsi

4 Ehud öləndən sonra İsrail övladları
yenə də Rəbbin gözündə pis olan
işlər gördülər. 2 Buna görə də Rəbb
onları Xasorda padşahlıq edən Kənan
padşahı Yavinə təslim etdi. Yavinin ordu
başçısı Sisra idi. O, Xaroşet-Haqqoyimdə
yaşayırdı. 3 İsrail övladları Rəbbə fəryad
etdilər, çünki doqquz yüz dəmir döyüş
arabasına malik olan Yavin iyirmi il idi
ki, İsrail övladlarına zülm edib əziyyət
verirdi.
4 O vaxtlar Lappidotun arvadı
peyğəmbər Devora İsraildə hakimlik
edirdi. 5 Bu qadın Efrayimin dağlıq
bölgəsində Rama ilə Bet-El arasında
olan Devoranın xurma ağacı altında
yaşayırdı. İsrail övladları da hökm
çıxarmaq üçün onun yanına qalxırdılar.
6 Devora adam göndərib Naftali
bölgəsində Qedeş şəhərindən Avinoam
oğlu Baraqı çağırıb dedi: «İsrailin
Allahı Rəbb sənə əmr etdi ki, yanına
Naftali və Zevulun övladlarından on
min nəfər kişini alıb Tavor dağına
aparasan. 7 Mən də Yavinin ordu başçısı
Sisranı və onun döyüş arabaları ilə
əsgərlərini yolundan döndərib Qişon
çayına – sənin yanına gətirəcəyəm
və sənə təslim edəcəyəm». 8 Baraq
Devoraya dedi: «Əgər sən mənimlə
bərabər getsən, mən də gedəcəyəm,
yox, əgər mənimlə bir getməsən, mən
də getməyəcəyəm». 9 Devora dedi: «Mən
mütləq sənlə bir gedəcəyəm, amma
bunu da bil ki, getdiyin yolun şöhrəti
sənin olmayacaq, çünki Rəbb Sisranı bir
qadına təslim edəcək». Devora ayağa
qalxdı və Baraqla birgə Qedeşə getdi.
10 Baraq Zevulun və Naftali övladlarını
Qedeşə topladı və on min nəfər kişi
onun ardınca getdi. Devora da Baraqla
birgə yola düşdü.
11 Qenli Xever, Musanın qaynı
Xovavın nəslindən olan o biri
Qenlilərdən ayrılmışdı. O, Qedeş
yaxınlığında, Saanayimdəki palıd
ağacının yanında öz çadırını qurmuşdu.

12 Sisraya xəbər çatdı ki, Avinoam
oğlu Baraq Tavor dağına çıxıb. 13 Sisra
doqquz yüz dəmir arabadan ibarət
bütün döyüş arabalarını və yanındakı
bütün xalqı Xaroşet-Haqqoyimdən
Qişon çayına topladı. 14 Devora Baraqa
dedi: «Qalx, çünki Rəbbin Sisranı
təslim etdiyi gün bu gündür. Sənin
qarşında gedən Rəbb deyilmi?» Baraq
da arxasınca gələn on min nəfər kişi
ilə birgə Tavor dağından endi. 15 Rəbb
Sisranı və bütün döyüş arabaları ilə
ordusunu Baraqın qarşısında qılıncdan
keçirərək məğlub etdi. Sisra isə öz
döyüş arabasından düşüb qaçdı.
16 Baraq Xaroşet-Haqqoyimə qədər
onların döyüş arabaları ilə ordusunu
qovdu. Sisranın bütün ordusu qılıncdan
keçirildi və heç kim sağ qalmadı.
17 Sisra Qenli Xeverin arvadı Yaelin
çadırına qaçdı, çünki Xasor padşahı
Yavinlə Qenli Xever arasında sülh var
idi. 18 Yael Sisranı qarşılamaq üçün
bayıra çıxıb dedi: «Gəl içəri, ağam,
qorxma, bizə gəl». Sisra onun çadırına
girdi və qadın onun üstünü kilimlə
örtdü. 19 Sisra qadına dedi: «Susamışam,
rica edirəm, mənə bir içim su ver».
Qadın süd tuluğunu açıb ona süd içirtdi
və üstünü örtdü. 20 Sisra qadına dedi:
«Çadırın qapısında dayan, əgər bir
adam gəlib səndən “Burada kimsə
varmı?” deyə soruşsa, deyərsən ki, yox».
21 Lakin Xeverin arvadı Yael əlinə bir
çadır payası və bir də toxmaq götürüb
yavaş-yavaş ona yaxınlaşdı. Sisra isə
çox yorulduğundan dərin yuxuya
getmişdi. Yael çadır payasını onun
gicgahına zərblə elə vurdu ki, paya onun
başından keçib yerə girdi və Sisra belə
öldürüldü. 22 Bu vaxt Baraq Sisranın
izinə düşmüşdü. Yael onun qarşısına
çıxıb dedi: «Gəl, axtardığın adamı
sənə göstərim». O, Yaellə birgə çadıra
girəndə gördü ki, Sisra gicgahında paya
ölüb yerə sərilmişdir.
23 Beləcə o gün Allah Kənan padşahı
Yavini İsrail övladlarına tabe etdi.
24 İsrail övladlarının əli Kənan padşahı
Yavinə qarşı get-gedə qüvvətləndi və
axırda Kənan padşahı Yavini məhv etdi.

Devora ilə Baraqın ilahisi

5 Həmin gün Devora və Avinoam oğlu
Baraq bu ilahini oxudular:
2 Başçılar İsraildə rəhbərlik edəndə,
Xalq özünü könüllü təqdim edəndə
Rəbbə alqış edin!
3 Dinləyin, ey padşahlar! Qulaq asın,
əmirlər!
Mən Rəbbi tərənnüm edəcəyəm,
İsrailin Allahı Rəbbə nəğmə
söyləyəcəyəm!
4 [c]Ya Rəbb, Sən Seirdən çıxarkən,
Edom çölündən keçərkən
Yer titrədi, göylər damdı.
Bəli, buludlardan sular axdı.
5 Sina dağına sahib olan Rəbbin
qarşısında,
İsrailin Allahı Rəbbin qarşısında
Dağlar titrədi.
6 Anat oğlu Şamqar zamanında,
Həm də Yael zamanında
Karvanlar buraya gəlişini kəsdi,
Səyyahlar dolanbac yollarla getdi.
7 Mən Devora ayağa qalxanadək,
İsraildə ana kimi meydana çıxanadək
İsraildə kəndlilər artıq yaşamırdı.
8 İsraillilər yeni allahlar seçərkən
Döyüşlər darvazalardan keçdi.
O zaman qırx min İsraillinin əlində
Nə nizə, nə də ki qalxan göründü.
9 Mənim könlüm İsrailə hökm
edənlərlədir,
Xalq içində özünü könüllü təqdim
edənlərlədir.
Rəbbə alqış edin!

---

[c]**5:4** Çıx. 19:18; Zəb. 68:7-8

10 Bu nəğməni söyləyin, ey ağappaq
eşşəklərə minənlər,
Ey əlvan xalılar üstündə əyləşənlər,
Ey bütün yoldan keçənlər!
11 Oxatanların səs-küyündən uzaqda,
Su çəkənlər arasında –
Orada Rəbbin zəfərlərindən,
İsraildəki igidlərin zəfərlərindən nəql
ediləcək.
O zaman Rəbbin xalqı darvazalara
endi.
12 Oyan, ey Devora, oyan!
Oyan, ilahi oxu, oyan!
Ayağa qalx, ey Baraq!
Sən, ey Avinoam oğlu, gəl əsirlərini
apar!
13 O zaman sağ qalanlar əyanların
yanına endi.
Rəbbin xalqı cəngavər tək yanıma
endi.
14 Amaleq soyundan olanlar
Efrayimdən gəldi,
Sənin ardınca gələn xalq arasında
Binyamin də var idi.
Makirdən əmirlər,
Zevulundan sərkərdə əsasını
daşıyanlar gəldilər.
15 İssakardakı ağalar Devora ilə
gəldilər.
İssakar necədirsə, Baraq da elə idi,
Onun ardınca vadiyə hücum
çəkirdilər.
Ruven qəbiləsinin bölmələri çaşıb
qalmışdı.
16 Çobanların sürülərinə çaldığı tütək
səsini dinləmək üçün
Niyə ağıllar arasında qaldınız?
Ruven qəbiləsinin bölmələri çaşıb
qalmışdı.
17 Gilead xalqı İordan çayının o
tayında qaldı.
Bəs niyə Dan gəmilərin yanında sakin
oldu?
Aşer dənizlərin sahilində qaldı,
Öz limanlarında məskən saldı.
18 Döyüş meydanının yüksək
yerlərində, Zevulunla Naftali
Canlarını ölüm təhlükəsinə atan bir
xalq oldu.
19 O zaman padşahlar gəlib
vuruşdular.
Taanakda, Megiddo suları kənarında
Kənan padşahları vuruşdular.
Nə gümüş, nə də qənimət alan oldu.
20 Ulduzlar göydən döyüşdü,
Sisraya qarşı öz dövrəsində
döyüşdülər.
21 Düşmənləri Qişon çayı apardı,
Qişon çayı coşub-daşandı.
Ey canım, sən qüvvətlə irəli get!
22 O zaman at dırnaqları vurdu o yerə
damğalar,
Dördnala, dördnala qaçarkən köhlən
atlar.
23 Rəbbin mələyi dedi: «Meroza lənət
edin,
Onun xalqına ağır lənət söyləyin.
Çünki Rəbbin köməyinə,
Cəngavərlərə qarşı Rəbbin köməyinə
gəlmədilər».
24 Qenli Xeverin arvadı Yael
Qadınlar arasında hamıdan artıq
xeyir-dua alsın,
Çadırda yaşayan qadınlardan daha
bəxtiyar olsun!
25 Su istəyəndə Sisra
Yael ona süd verdi.
Ağalara layiq bir camda ayran verdi.
26 Sol əlinə payanı,
Sağ əlinə isə işçi toxmağını götürdü,
Onlarla Sisranı vurdu, başını əzdi.
Sındırıb gicgahlarını, deşib yerə
keçirtdi.
27 O yıxılıb ayaqlar altına sərildi,
Yerə döşəndi,
O yıxılıb ayaqlar altına sərildi,
Yıxıldığı yerə sərilib öldü.
28 Sisranın anası məhəccər arxasından,
Pəncərədən nigaran-nigaran baxıb
çığırdı:

«Nə üçün onun döyüş arabası bu
qədər gecikir?
Döyüş arabalarının səsi axı niyə
ləngiyir?»
29 Müdrik əsilzadə xanımlar ona
cavab verirdi,
O da öz-özünə təkrar-təkrar deyirdi:
30 «Bəlkə qənimət malını tapıb
bölüşdürürlər,
Yəqin ki hər igidə bir-iki qız düşür.
Sisraya talan malından düşür əlvan
geyimlər,
Bəli, talan malından naxışlı əlvan
geyimlər.
Qarət etdiklərinin içindən tapıb
bölüşdürdülər,
Talançıların boyunları üçün
İki tərəfdən əlvan naxışlı geyimlər».
31 Ya Rəbb, bütün düşmənlərin belə
yox olur.
Amma səni sevənlər qüdrəti ilə doğan
günəş kimi olur!
Bundan sonra ölkə qırx il rahat
yaşadı.

Rəbbin Gideona çağırışı

6 İsrail övladları yenə də Rəbbin gözündə pis işlər gördülər və Rəbb də onları yeddi il Midyanlılara təslim etdi. 2 Midyanlıların güclü əli İsraillilərin əleyhinə qalxdı və Midyanlıların üzündən İsrail övladları özləri üçün dağlarda sığınacaq yerləri, mağaralar və qalalar qurdular. 3 İsraillilər əkin əkəndə Midyanlılar, Amaleqlilər və şərq xalqları gəlib İsrailə hücum edirdi. 4 İsraildə ordugah quraraq Qəzzəyə çatana qədər torpağın məhsullarını məhv edirdilər. İstər qoyun, istər öküz, istərsə də eşşək olsun, İsraillilərə dolanmaq üçün heç nə qoymazdılar. 5 Çünki onlar öz heyvanları və çadırları ilə çıxırdılar. Gələndə isə çəyirtkə kimi o qədər çox gəlirdilər ki, nə özlərinin, nə də dəvələrinin sayı-hesabı olmazdı. Onlar İsraili viran qoymaq üçün gəlirdilər. 6 İsraillilər Midyanlıların əlindən çox yoxsullaşdı. Ona görə də İsrail övladları Rəbbə fəryad qopardı.

7 Midyanlıların əlindən İsrail övladları Rəbbə fəryad edəndə 8 Rəbb İsrail övladlarına bir peyğəmbər göndərdi. O, İsraillilərə belə dedi: «İsrailin Allahı Rəbb belə deyir: “Mən sizi Misirdən çıxardaraq köləlik diyarından qurtardım. 9 Sizi Misirlilərin və bütün zülmkarların əlindən azad edərək onları qarşınızdan qovdum və torpaqlarını sizə verdim. 10 Sizə dedim ki, Allahınız Rəbb Mənəm, torpağında yaşadığınız Emorluların allahlarına sitayiş etməyin. Siz isə Mənim sözümə qulaq asmadınız”».

11 Rəbbin mələyi gəlib Aviezerli Yoaşın Ofra şəhərindəki palıd ağacının altında durdu. Yoaş oğlu Gideon üzüm sıxılan yerdə Midyanlılardan gizlətdiyi taxılı döyürdü. 12 Rəbbin mələyi ona görünüb dedi: «Ey cəsur cəngavər, Rəbb sənindədir». 13 Gideon dedi: «Ah mənim ağam, əgər Rəbb bizimlədirsə, bəs bütün bu işlər başımıza niyə gəldi? Atalarımız “Rəbb bizi Misirdən çıxarmadımı?” deyərək danışdıqları bütün möcüzələr görəsən indi harada qaldı? İndi Rəbb bizi atmışdır, ona görə də bizi Midyanlılara təslim edib». 14 Rəbb ona tərəf çevrilib dedi: «Bu qüvvətinlə get, İsraili Midyanlıların əlindən qurtar. Səni göndərən Mən deyiləmmi?» 15 Gideon ona dedi: «Ey Xudavənd, İsraili mən necə qurtarım? Mənim nəslim Menaşşe qəbiləsində ən zəif nəsildir, mən də atamın evində ən kiçiyəm». 16 Rəbb ona dedi: «Mən mütləq sənlə olacağam və sən də Midyanlıların hamısını bir nəfər kimi qıracaqsan». 17 Gideon dedi: «Əgər indi Sənin gözündə lütf tapmışamsa, mənə bir əlamət göstər, bilim ki, mənimlə danışan Rəbdir. 18 Rica edirəm, mən

sənin yanına qurbanımı gətirib təqdim
edənə qədər buradan getmə». Rəbb
Gideona dedi: «Sən geri qayıdana qədər
Mən burada gözləyirəm».
19 Gideon içəri girdi. Bir oğlaq kəsib
bir efa undan mayasız çörəklər bişirdi
və əti səbətə qoydu, ətin suyunu isə
qazana tökdü. Sonra onları palıd
ağacının altına – Rəbbin yanına gətirib
Ona təqdim etdi. 20 Allahın mələyi
ona dedi: «Əti və mayasız çörəkləri
götür, bu qayanın üstünə qoy və ətin
suyunu da oraya tök». Gideon belə
də etdi. 21 Rəbbin mələyi əlində olan
əsanın ucunu oraya uzadıb ətlə mayasız
çörəklərə toxunanda qayadan alov
çıxdı və ətlə mayasız çörəkləri udub
yox etdi. Sonra Rəbbin mələyi onun
gözü önündəcə qeyb oldu. 22 Gideon
Onun Rəbbin mələyi olduğunu anlayıb
dedi: «Ay aman, ya Xudavənd Rəbb!
Mən Sənin mələyinin sifətini gördüm».
23 Rəbb ona dedi: «Salamat qal, qorxma,
ölməyəcəksən». 24 Gideon orada Rəbbə
bir qurbangah düzəltdi və onun adını
Yahve-Şalom *qoydu. Bu qurbangah
bu günə qədər Aviezerlilərin Ofra
şəhərindədir.
25 Həmin gecə Rəbb Gideona
dedi: «Get, atanın ikinci yeddiillik
buğasını götür. Sonra get, atanın Baal
bütünə düzəltdiyi qurbangahı dağıt
və yanındakı Aşera bütünü kəs. 26 Bu
təpənin başında Allahın Rəbbə layiq
qurbangah düzəlt. Sonra kəsdiyin
Aşeranın ağac bütünə od vuraraq
götürdüyün ikinci buğanı yandırma
qurbanı olaraq təqdim et». 27 Gideon
qulluqçularından on nəfəri özü ilə
götürüb Rəbbin tapşırdığı kimi etdi.
Lakin atasının ev xalqından və şəhər
sakinlərindən qorxduğu üçün işi gündüz
deyil, gecə etdi.
28 Şəhər sakinləri səhər tezdən
qalxıb gördülər ki, Baal qurbangahı
tamamilə dağıdılıb və yanındakı Aşera
bütü kəsilib. Qurulan yeni qurbangah
üzərində isə ikinci buğa yandırma
qurbanı olaraq təqdim olunub.
29 Adamlar bunu görüb bir-birlərinə
dedilər: «Görəsən bu işi kim görüb?»
Onlar bunu araşdırandan sonra bildilər
ki, bu işi görən Yoaşın oğlu Gideondur.
30 Şəhər sakinləri Yoaşa dedilər:
«Oğlunu buraya gətir ki, öldürülsün.
Çünki o, Baalın qurbangahını dağıdıb,
yanındakı Aşera bütünü isə kəsib».
31 Yoaş ona qarşı çıxanların hamısına
belə dedi: «Bu Baal bütünün əvəzinə
sizmi mübarizə aparacaqsınız? Ya
sizmi onu qurtaracaqsınız? Baal üçün
mübarizə aparan səhərə qədər öləcək.
Əgər o, həqiqətən, allahdırsa, onun
qurbangahını dağıdan adamla qoy özü
mübarizə aparsın». 32 Bundan sonra
«qoy Baal onunla özü mübarizə aparsın,
çünki o, Baalın qurbangahını dağıdıb»
deyərək Gideonun adını Yerub-Baal
†qoydular.
33 Bu vaxt bütün Midyanlılar,
Amaleqlilər və şərq xalqları bir
yerə yığılaraq İordan çayını keçib
İzreel vadisində ordugah qurdular.
34 Gideonun üzərinə Rəbbin Ruhu
endi və o, şeypur çalıb Aviezerliləri öz
yanına yığdı. 35 O bütün Menaşşeyə
qasidlər göndərdi və onları da öz
yanına yığdı. Sonra Aşerə, Zevuluna
və Naftaliyə qasid göndərdi. Onlar
qasidləri qarşılamağa çıxdılar.
36 Gideon Allaha dedi: «Söz
verdiyin kimi İsraili mənim əlimlə
qurtaracaqsansa, 37 qoy mən xırmanın
üstünə qoyundan qırxılan yun qoyum.
Əgər şeh yalnız yunu isladarsa, torpaq
isə quru qalarsa, onda biləcəyəm ki,

---

*6:24 *Yahve-Şalom* – ibrani dilində *Rəbbin sülhü.*
†6:32 *Yerub-Baal* – ibrani dilində *Baal mübarizə aparsın.*

Sən dediyin kimi İsraili mənim əlimlə
qurtaracaqsan». 38 Belə də oldu. Gideon
ertəsi gün tezdən qalxıb yunu sıxdı.
Yundan bir kasa dolu su çıxartdı.
39 Sonra Gideon Allaha dedi: «Qoy
mənə qarşı qəzəbin alovlanmasın, yenə
bir ricam var. Bu yunla bir də bu işi
sınamaq istəyirəm. İndi də qoy yalnız
bu yun quru qalsın və bütün yer şehlə
islanmış olsun». 40 Allah o gecə belə
də etdi. Bütün torpaq şehə büründü,
qırxılmış yun isə quru qaldı.

Gideonun Midyan üzərində qələbəsi

7 Yerub-Baal, yəni Gideon və
onunla bərabər bütün xalq tezdən
durub Xarod çeşməsinin başında
ordugah qurdu. Midyan ordugahı isə
onların şimal tərəfində More təpəsinin
yanındakı vadidə idi.
2 Rəbb Gideona dedi: «Yanında
olan xalqın sayı çoxdur, ona görə
Midyanlıları onlara təslim etmirəm.
Çünki İsraillilər Mənim qarşımda
“öz əlimlə özümü qurtardım” deyib
öyünəcək. 3 [d]İndi sən xalqa bunu
eşitdirib de: “Kim qorxudan əsirsə,
Gilead dağından geri qayıtsın”».
Xalqdan iyirmi iki min nəfəri geri
qayıtdı, on min nəfəri qaldı.
4 Rəbb Gideona dedi: «Xalqın sayı
yenə də çoxdur, onları su kənarına endir
və orada adamları sənin üçün ələkdən
keçirəcəyəm. “Bu səninlə gedəcək”
dediyim adam sənlə gedəcək və “bu
sənlə getməyəcək” dediyim bütün
adamlar isə getməyəcək». 5 Gideon xalqı
su kənarına endirəndə Rəbb ona dedi:
«Suyu it kimi dili ilə içənlərin hamısını
bir tərəfə, su içmək üçün dizüstü
oturanların hamısını isə o biri tərəfə
ayırıb yığarsan». 6 Əllərini ağızlarına
aparıb suyu dili ilə içənlərin sayı üç yüz
nəfər oldu. Lakin xalqın qalan hissəsi
su içmək üçün dizüstü yerə oturdu.
7 Rəbb Gideona dedi: «Sizi dili ilə su
içən bu üç yüz nəfərlə qurtaracağam və
Midyanlıları sənə təslim edəcəyəm. Qoy
xalqın qalan hissəsi öz yerinə qayıtsın».
8 Bu üç yüz adam xalqın azuqəsini və
şeypurlarını əlindən aldı. Gideon qalan
İsraillilərin hamısını bir nəfər kimi
öz evlərinə göndərdi və üç yüz nəfəri
yanında saxladı. Midyan ordugahı
Gideonun olduğu yerin aşağısındakı
vadidə idi.
9 O gecə Rəbb ona dedi: «Qalx, Midyan
ordugahına en, çünki onları sənə təslim
edirəm. 10 Əgər ordugaha enməyə
qorxursansa, nökərin Pura ilə bərabər
en. 11 Orada sən onların söhbətini
eşidəcəksən, onda qüvvət alıb ordugaha
enərsən». O zaman Gideon və nökəri
Pura ordugahın kənarında olan silahlı
adamların yanına endilər. 12 Vadiyə
yığılan Midyanlılar, Amaleqlilər və
bütün şərq xalqlarının sayı çəyirtkə
qədər çox idi. Dəvələrinin isə dəniz
sahilindəki qum qədər sayı-hesabı yox
idi. 13 Gideon gəlib gördü ki, bir nəfər
yoldaşına öz yuxusunu danışır və belə
deyir: «Bax yuxumda görmüşəm ki,
arpa unundan bişirilmiş bir yumru
çörək yuvarlanaraq Midyan ordugahına
girib çadıra çatdı, çadırı vurub yıxaraq
alt-üst etdi və çadır yerə sərildi».
14 Yoldaşı ona cavab verdi: «Bu İsrailli
Yoaş oğlu Gideonun qılıncından başqa
bir şey deyil. Allah Midyanı və bütün
ordugahını ona təslim edib».
15 Gideon yuxu danışan adamın
hekayəsini və yozumunu eşidəndə
Allaha səcdə qıldı və İsrail ordugahına
qayıdıb dedi: «Qalxın, çünki Rəbb
Midyan ordusunu bizə təslim edib».
16 Yanında olan üç yüz nəfəri üç dəstəyə
ayırdı. Hamısının əlinə şeypurlar, boş
dolçalar və dolçanın içində məşəllər

---

[d]**7:3** Qanun. 20:8

verdi. 17 Onlara tapşırdı ki, «mənə
baxın, mən necə edirəmsə, siz də elə
edin. Bax mən ordugahın kənarına çatan
zaman nə etsəm, siz də elə edin. 18 Mən
və mənimlə bərabər olanların hamısı
şeypur çalan kimi siz də ordugahın
bütün ətrafında şeypurlarınızı çalın və
“Rəbb üçün və Gideon üçün!” deyə
bağırın».
19 Gideonla yanında olan yüz nəfər
kişi orta növbəsinin başlanğıcında
*– növbətçilər təzə dəyişən zaman
ordugahın kənarına çatdılar. Onlar
şeypurlarını çalıb əllərindəki dolçaları
qırdılar. 20 Üç dəstə də şeypur çalıb
dolçaları qırdı, sol əllərində məşəl,
sağ əllərində isə çaldıqları şeypuru
tutub «Rəbbin və Gideonun qılıncı!»
deyə bağırdılar. 21 Ordugahın ətrafında
hamı öz yerində dayandı və bütün
Midyan ordusuna vurnuxma düşdü.
Onlar bağıra-bağıra qaçdılar. 22 Üç yüz
nəfər şeypur çalanda Rəbb düşmən
ordugahındakıların qılıncını bir-birinə
qarşı qaldırdı. Düşmən ordusu Sereraya
doğru – Bet-Şittaya qədər, Tabbatın
yanında olan Avel-Mexola sərhədinə
qədər qaçdı. 23 Naftalidən, Aşerdən və
bütün Menaşşedən çağırılmış İsraillilər
Midyanlıları qovdular.
24 Gideon bütün Efrayimin dağlıq
bölgəsinə qasid göndərib dedi: «Enin,
Midyanlılara hücuma keçin. Onların
yolunu kəsmək üçün Bet-Baraya
qədər İordan çayının sularını tutun».
Bütün Efrayimlilər yığılıb Bet-Baraya
qədər İordan çayının sularını tutdular.
25 Sonra iki Midyan başçısı Orevlə Zeevi
tutdular. Orevi Orev qayasında, Zeevi
isə Zeev üzümsıxanında öldürdülər.
Midyanlıları qovdular və İordan çayını
keçərək Orevlə Zeevin başlarını Gideona
gətirdilər.

Efrayimin qısqanclığı

8 Efrayimlilər Gideona dedilər:
«Bu nə işdir başımıza gətirdin?
Midyanlılarla döyüşə gedəndə niyə
bizi çağırmadın?» Bundan ötrü onunla
kəskin mübahisə etdilər. 2 Gideon
onlara dedi: «Axı sizin gördüyünüz
işlərin yanında indi gördüyüm bu iş
nədir ki? Efrayimin üzüm başaqları
Aviezerin üzüm bağının məhsullarından
yaxşı deyilmi? 3 Midyan başçıları olan,
Orevi və Zeevi Allah sizə təslim etdi.
Axı sizin gördüyünüz işlərin yanında
mən nə edə bilmişəm?» Bunu deyəndən
sonra Efrayimlilərin ona olan qəzəbi
yatdı.
4 Gideon İordan çayına çatdı, özü
və yanındakı üç yüz nəfərlə bərabər
çayı keçdilər. Onlar yorulmaqlarına
baxmayaraq düşmənləri təqib etməkdə
davam edirdilər. 5 O gəlib Sukkot
adamlarının yanına çataraq dedi: «Rica
edirəm, arxamca gələn adamlara bir
parça çörək verin, çünki taqətdən
düşüblər. Mən isə Midyan padşahları
Zevah və Salmunnanın ardınca
qaçıram». 6 Sukkot başçıları ona dedilər:
«Zevah və Salmunnanın biləyi indi
sənin əlindədir ki, sənin döyüşçülərinə
çörək verək?» 7 Gideon onlara dedi: «Elə
buna görə sizə deyirəm ki, Rəbb Zevah
və Salmunnanı mənə təslim edəndə
çölün tikanları və kolları ilə ətinizi
didəcəyəm». 8 Oradan gəlib Penuelə
çıxdı və oradakılardan da eyni şeyi
istədi. Sukkot sakinləri necə ona cavab
vermişdilərsə, Penuel sakinləri də ona
elə cavab verdilər. 9 Gideon Penuel
sakinlərinə isə belə dedi: «Sağ-salamat
geriyə qayıtdığım zaman bu qülləni
dağıdacağam».
10 Zevahla Salmunna və bütün şərq
xalqlarının ordusundan sağ qalan

---

*7:19 *Orta növbəsinin başlanğıcı* – yəni axşam saat 10-a yaxın.

təxminən on beş min nəfərlik bir ordu
Qarqorda idi. Onların ordusundan
yüz iyirmi min qılınc gəzdirən adam
yerə sərilmişdi. 11 Gideon Novah və
Yoqbohanın şərqindən – köçərilərin
yolundan keçərək laqeyd dayanan
düşmən ordugahına hücum etdi.
12 Zevah və Salmunna qaçdı. Gideon
isə onları təqib etdi. O, Midyanın iki
padşahı Zevahla Salmunnanı tutub
bütün ordunu məğlub etdi.
13 Yoaş oğlu Gideon Xeres keçidi
ilə döyüşdən qayıtdı. 14 Sukkot
sakinlərindən bir cavanı tutub ondan
söz aldı. O da ona Sukkot başçısı olan
yetmiş yeddi ağsaqqalın adını yazıb
verdi. 15 Gideon Sukkot sakinlərinin
yanına gəlib dedi: «“Zevah və
Salmunnanın biləyi sənin əlindədir ki,
sənin yorğun adamlarına çörək verək?”
deyərək məni ələ salırdınız. Budur, bu
da Zevah və Salmunna!» 16 Sonra o,
şəhər ağsaqqallarını topladı və Sukkot
sakinlərini çöl tikanları və kollarla
döyərək tənbeh etdi. 17 Bundan sonra da
gəlib Penuel qülləsini dağıtdı və şəhərin
sakinlərini qırdı.
18 Gideon Zevah ilə Salmunnaya
dedi: «Tavorda öldürdüyünüz adamlar
necə adamlar idi?» Onlar dedilər:
«Hamısı sənin kimi padşah oğullarına
oxşayırdı». 19 Gideon dedi: «Onlar
mənim qardaşlarım, anamın oğulları
idi. Var olan Rəbb haqqı, əgər siz
onları sağ buraxsaydınız, mən də
sizi öldürməzdim». 20 İlk oğlu Yeterə
dedi: «Qalx onları öldür». Lakin oğlan
qılıncını çəkmədi, çünki hələ cavan
olduğuna görə qorxurdu. 21 Zevah və
Salmunna dedilər: «Dur, bizi sən vur,
çünki kişi güclü olar». Gideon qalxıb
Zevahla Salmunnanı öldürdü və sonra
onların dəvələrinin boyunlarından
asılan ayparalarını götürdü.

Gideonun efodu

22 İsraillilər Gideona dedilər:
«Sən, oğlun və nəvən bizə hakimlik
edin. Çünki bizi Midyanın əlindən
sən qurtardın». 23 Gideon onlara
dedi: «Nə mən sizin üstünüzdə
hakimlik edəcəyəm, nə də oğlum. Sizə
hökmranlığı Rəbb edəcək». 24 Sonra
Gideon onlara dedi: «Ancaq sizdən
bir ricam var ki, götürdüyünüz talan
malından hər kəs mənə bir sırğa versin».
Çünki düşmənlər İsmailli olduqları üçün
qızıl sırğa taxırdılar. 25 Onlar Gideona
dedilər: «Bunu məmnuniyyətlə verərik».
Onlar yerə bir paltar sərdilər və hamı
talan malından götürdüyü sırğaları bu
paltarın üstünə atdı. 26 Ayparalardan,
boyunbağılardan, Midyan padşahlarının
əynindəki tünd qırmızı paltarlardan
və dəvələrin boynundakı zəncirlərdən
əlavə bu qızıl sırğaların çəkisi min
yeddi yüz şekel gəlirdi. 27 Gideon
onlardan bir efod düzəltdi və onu öz
şəhərində Ofrada qoydu. Bundan sonra
bütün İsraillilər orada bu efoda səcdə
etməklə Rəbbə xəyanət etdilər. Bu
efod Gideon və onun külfəti üçün tələ
oldu. 28 Midyanlılar İsrail övladlarına
tabe olub bir daha başlarını qaldıra
bilmədilər. Gideonun dövründə ölkə
qırx il rahat yaşadı.

Gideonun, yəni Yerub-Baalın ölümü

29 Yoaş oğlu Yerub-Baal qayıdıb yenə
öz evində yaşadı. 30 Onun belindən
gələn yetmiş oğlu var idi, çünki arvadı
çox idi. 31 Şekemdə olan cariyəsi də
ona bir oğul doğdu və Yerub-Baal onun
adını Avimelek qoydu. 32 Yoaş oğlu
Gideon uzun və yaxşı ömür sürüb öldü.
O, Aviezerlilərin Orfa şəhərində atası
Yoaşın məqbərəsində dəfn olundu.
33 Gideonun vəfatından sonra İsrail
övladları yenə də Baal bütlərinə sitayiş
edərək Rəbbə xəyanət etdilər. Onlar

Baal-Beriti özlərinə allah etdilər.
34 İsrail övladları ətraflarındakı bütün
düşmənlərinin əlindən onları azad
edən özlərinin Allahı Rəbbi yada
salmadılar. 35 Yerub-Baalın, yəni
Gideonun İsraillilərə etdiyi bütün
xeyirxahlığın əvəzinə onun nəsli ilə
yaxşı rəftar etmədilər.

Gideonun oğlu Avimelekin Şekemdə hökmranlığı

9 Yerub-Baalın oğlu Avimelek
Şekemə, dayılarının yanına getdi.
Onlara və bütün ana nəslinə belə
dedi: 2 «Rica edirəm, bütün Şekem
başçılarına bunu eşitdirib deyin: “Sizin
üçün hansı yaxşıdır, Yerub-Baalın
yetmiş oğlu sizə hakimlik etsin, yoxsa
bir nəfər? Unutmayın ki, mən sizin
sümüyünüzdən və ətinizdənəm”».
3 Dayıları onun söylədiyi bu sözləri
bütün Şekem əhalisinə çatdırdı. Bundan
sonra onların da könülləri Avimelekə
meyl etdi və «o bizim soydaşımızdır»
dedilər. 4 Ona Baal-Beritin ibadət
evindən yetmiş şekel gümüş verdilər.
Avimelek isə özünə muzdla yaramaz
və macəraçı adamlar tutdu. Onlar
Avimelekin ardınca getdilər. 5 Avimelek
Ofraya – öz ata evinə gəldi və qardaşları
Yerub-Baalın yetmiş oğlunu bir daş
üstündə öldürdü. Təkcə Yerub-Baalın
kiçik oğlu Yotam sağ qalmışdı, ona
görə ki gizlənə bilmişdi. 6 Bütün Şekem
və Bet-Millo əhalisi toplaşaraq gedib
Şekemdə daş sütunun yanındakı palıd
ağacının yaxınlığında Avimeleki padşah
elan etdi.

7 Bu xəbər Yotama çatanda o gedib
Gerizim dağının təpəsində durdu və
bərkdən çığırıb onlara belə dedi: «Ey
Şekem sakinləri, məni dinləyin ki, Allah
da sizi dinləsin. 8 Günlərin bir günündə
bütün ağaclar özləri üçün padşah
məsh etməkdən ötrü gedib zeytun
ağacına dedilər: “Bizim padşahımız
ol”. 9 Zeytun ağacı dedi: “Allahın və
insanın şərəfi üçün məndən alınan yağı
ataraq ağacların üstündəmi sallanıb
qalım?” 10 Sonra ağaclar əncir ağacına
dedilər: “Gəl sən bizə padşah ol”.
11 Əncir ağacı onlara dedi: “Şirinliyimi
və gözəl meyvələrimi ataraq ağacların
üstündəmi sallanıb qalım?” 12 Bu dəfə
ağaclar üzüm tənəyinə dedilər: “Gəl
sən bizə padşah ol”. 13 Üzüm tənəyi
isə onlara dedi: “Allahı və insanları
sevindirən təzə şərablarımı ataraq
ağacların üstündəmi sallanıb qalım?”
14 Nəhayət, bütün ağaclar gəlib yabanı
göyəmə dedilər: “Gəl sən bizə padşah
ol”. 15 Yabanı göyəm dedi: “Əgər,
həqiqətən, siz məni özünüzə padşah
olaraq məsh edirsinizsə, gəlin mənim
kölgəmə sığının. Belə olmazsa, qoy
yabanı göyəmdən alov çıxsın və Livanın
sidr ağaclarını yandırıb-yaxsın”.

16 Baxın Avimeleki padşah etməkdə
haqq niyyət və doğruluqla iş
gördünüzmü? Siz Yerub-Baala və onun
nəslinə qarşı yaxşı iş gördünüzmü?
Münasibətiniz atama layiqdirmi? 17 Axı
atam sizin üçün döyüşdü və öz canını
təhlükəyə atıb sizi Midyanın əlindən
qurtardı. 18 Siz isə bu gün atamın
nəslinin əleyhinə çıxıb yetmiş oğlunu
bir daş üstündə öldürdünüz və sonra
cariyəsindən olan oğlu Avimeleki
Şekem əhalisinin padşahı etdiniz,
çünki o sizin soydaşınızdır. 19 Əgər
bu gün Yerub-Baalla onun nəsli üçün
haqq niyyətlə və doğruluqla rəftar
etdinizsə, onda bu Avimeleklə sevinin
və qoy o da sizinlə sevinsin. 20 Yoxsa
qoy Avimelekdən alov çıxıb Şekem
başçılarını və Bet-Millo əhalisini yox
etsin, onlardan da od çıxıb Avimeleki
yox etsin». 21 Yotam qaçıb aradan çıxdı
və Beerə getdi. Qardaşı Avimelekdən
qorxduğu üçün orada qaldı.

Şekemlə Avimelek arasında münaqişə

22 Avimelek üç il İsrail üzərində
başçılıq etdi. 23 Sonra Allahın izni ilə
Avimeleklə Şekem əhalisinin arasına
şər ruh girdi və onlar Avimelekə
xəyanətlə yanaşdılar. 24 Bu ona görə baş
verdi ki, həm Avimelek Yerub-Baalın
yetmiş oğluna qarşı etdiyi günahın
cəzasını çəksin, həm də Avimelekdən
və onu bu qətlə sövq edən Şekem
əhalisindən tökdükləri qanların qisası
alınsın. 25 Şekem əhalisi dağların
başında Avimelekə qarşı pusqu qurub
yolda yanlarından keçənlərin hamısını
soyurdular. Bunu Avimelekə xəbər
verdilər.
26 Evedin oğlu Qaal və qardaşları
gəlib Şekemdə məskunlaşdılar. Şekem
əhalisi də ona etimad göstərdi. 27 Onlar
çölə, bağlara gedib üzüm yığdılar.
Sonra bu üzümləri əzib şənlik qurdular
və öz allahlarının ibadətgahına gedərək
yeyib-içib Avimelekə lənət oxudular.
28 Eved oğlu Qaal dedi: «Avimelek
kimdir ki, biz Şekem sakinləri ona
xidmət edək? Yerub-Baalın oğlu
deyilmi? Onun müavini də Zevul
deyilmi? Gəlin Şekemin atası Xamorun
adamlarına xidmət edin! Axı nəyə görə
biz Avimelekə xidmət etməliyik? 29 Kaş
bu xalq mənim əlimdə olaydı! O zaman
Avimeleki qovardım». Sonra Qaal
Avimelekə dedi: «Ordunu yığ, meydana
çıx!»
30 Şəhər başçısı Zevul Evedin
oğlu Qaalın bu sözlərini eşidəndə
qəzəbdən alışıb yandı. 31 Hiylə işlədərək
Avimelekin yanına qasidlər göndərib
dedi: «Budur, Eved oğlu Qaal ilə
qardaşları Şekemə gəlib şəhəri sənin
əleyhinə qaldırırlar. 32 İndi sən və
adamların bu gecə qalxıb çöldə
pusquda durun. 33 Səhər açılanda günəş
doğar-doğmaz qalxıb şəhərə hücum
edərsən. Bax Qaal ilə adamları sənə
qarşı çıxarkən əlindən gələni et».
34 Avimeleklə adamları gecə ikən
qalxdılar və dörd dəstə olub Şekemin
yaxınlığında pusquda durdular. 35 Eved
oğlu Qaal çıxıb şəhər darvazasının
giriş yerində duranda Avimelek və
adamları pusqudan çıxdılar. 36 Qaal
onları görüb Zevula dedi: «Bax dağların
təpəsindən bir dəstə xalq enir».
Zevul ona dedi: «Gördüyün dağların
kölgəsidir, adamlara oxşadırsan».
37 Qaal sözünə davam edərək dedi:
«Bax ölkənin orta hissəsindən xalq enir.
Gələcəyideyənlər palıdı yolundan da
bir dəstə gəlir». 38 O zaman Zevul ona
dedi: «“Avimelek kimdir ki, biz ona
xidmət edək” deyə lovğalanan dilin
haradadır? Həqarətlə baxdığın xalq
bu xalq deyilmi? İndi meydana çıx,
onunla döyüş». 39 Qaal Şekem əhalisinin
qabağına çıxıb Avimeleklə döyüşdü.
40 Avimelek onu qovdu, Qaal onun
qabağından qaçdı. Adamların çoxu
yaralanaraq darvazanın giriş yerinə
qədər yerə sərildi. 41 Avimelek Arumada
yaşadı. Zevul isə Qaal ilə qardaşlarını
Şekemdə yaşamağa qoymayıb qovdu.
42 Ertəsi gün Şekem xalqı çölə çıxanda
bu barədə Avimelekə xəbər verildi.
43 O, ordusunu götürüb üç dəstəyə
ayırdı və onlar çöldə pusqu qurub
güddülər. Avimelek xalqın şəhərdən
çıxdığını görəndə qalxıb hücuma keçdi.
44 Avimeleklə dəstəsi cəld irəli keçərək
şəhər darvazasının girişində dayandılar.
O biri iki dəstə isə çöldəki xalqın üstünə
düşüb onları qırdı. 45 Avimelek bütün
günü şəhərə hücum edərək şəhəri aldı.
Orada olan adamları qırdı, şəhəri viran
edib yerinə duz əkdi.
46 Şekemin qülləsindəki adamlar
bunu eşidəndə El-Berit məbədinin
qalasına girdilər. 47 Bütün Şekem
qülləsindəkilərin oraya yığıldığını
Avimelekə xəbər verdilər. 48 Avimelek

bütün adamları ilə bərabər Salmon
dağına çıxdı. Əlinə balta götürüb
ağacdan bir budaq kəsdi və onu
çiyinlərinin üstünə qoyub yanındakı
xalqa belə dedi: «Cəld olun, mən necə
edirəmsə, siz də elə edin». 49 Bütün xalq
bir-bir budaqları kəsərək Avimelekin
arxasınca getdi və budaqları qalanın
ətrafında qoyub od vurdu. Şekem
qülləsindəki adamlardan minə qədər
kişi və qadın yanaraq öldü.
50 Avimelek Tevesə getdi və oranı
mühasirə edib aldı. 51 Şəhərin ortasında
möhkəm bir qüllə var idi. Bütün şəhər
əhalisi – kişi və qadınlar qülləyə qaçaraq
qapını arxalarınca bağlayıb qüllənin
başına çıxdılar. 52 Avimelek gəlib
qülləyə hücum etdi. Oraya od vurmaq
üçün qüllənin qapısına yaxınlaşdı.
53 Onda bir qadın dəyirmanın üst
daşını Avimelekin başına tullayaraq
kəlləsini əzdi. 54 Avimelek tez silah
daşıyan gənc nökərini çağırıb dedi:
«Çək qılıncını, məni öldür. Qoy mənim
üçün deməsinlər ki, onu bir arvad
öldürdü». Nökər qılıncı ilə onu vuranda
Avimelek öldü. 55 İsraillilər görəndə
ki Avimelek ölüb, hamısı öz yerinə
qayıtdı. 56 Bununla da Allah Avimelekin
yetmiş qardaşını öldürməklə atasına
etdiyi pisliyi öz başına gətirdi. 57 Allah
Şekem əhalisinin də bütün pisliyini öz
başlarına gətirdi. Yerub-Baalın oğlu
Yotamın lənəti onların üstünə düşdü.

Tolanın hakimliyi

10 Avimelekdən sonra İsraili xilas
etmək üçün İssakar qəbiləsindən
olan Dodo oğlu Pua oğlu Tola adlı
bir adam çıxdı. O, Efrayimin dağlıq
bölgəsində Şamirdə yaşayırdı. 2 İsraildə
Tola iyirmi üç il hakimlik edəndən
sonra öldü və Şamirdə dəfn olundu.

Yairin hakimliyi

3 Bundan sonra Gileadlı Yair çıxıb
iyirmi iki il İsraildə hakimlik etdi.
4 Onun otuz sıpaya minən otuz oğlu
və oğlanlarının da otuz şəhəri var idi.
Gilead bölgəsində olan bu şəhərlərə bu
günə qədər Xavvot-Yair deyilir. *5 Yair
öldü və Qamonda dəfn olundu.

İsraillilərin Ammonlulara və Filiştlilərə təslim edilməsi

6 İsrail övladları yenə də Rəbbin
gözündə pis olan işlər görərək Baal və
Aştoret bütlərinə, Aram allahlarına,
Sidon allahlarına, Moav allahlarına,
Ammon övladlarının allahlarına,
Filiştlilərin allahlarına qulluq edərək
Rəbbi atdılar və Ona qulluq etmədilər.
7 Buna görə də İsraillilərə qarşı Rəbbin
qəzəbi alovlandı və onları Filiştlilərə,
Ammon övladlarına təslim etdi. 8 Bu
dövrdə onlar İsraillilər sıxışdırıb
əzdilər. Onlar on səkkiz il İordan
çayının o tayında Gileaddakı Emorlular
diyarında olan bütün İsrail övladlarını
əzdilər. 9 Ammon övladları hətta
Yəhuda, Binyamin, Efrayim qəbilələrinə
qarşı döyüşmək üçün İordan çayını
keçirdilər. Buna görə İsraillilər çox
əziyyət çəkirdi.
10 [e]İsrail övladları Rəbbə fəryad edib
dedilər: «Sənə qarşı günah etmişik,
çünki Allahımızı atıb Baal bütlərinə
qulluq etmişik».
11 Rəbb İsrail övladlarına dedi:
«Sizi Misirlilərdən, Emorlulardan,
Ammon övladlarından və Filiştlilərdən
Mən qurtarmadımmı? 12 Sidonlular,
Amaleqlilər, Maonlular sizi sıxışdıranda
da Mənə fəryad etdiniz və sizi onların
əlindən qurtaran Mən deyildimmi?
13 Amma siz Məni atıb başqa allahlara

*10:4 *Xavvot-Yair* – ibrani dilində *Yairin qəsəbələri.*

[e]10:10 1Şam. 12:10

qulluq etdiniz, buna görə də bir
daha sizi qurtarmayacağam. 14 Gedin
seçdiyiniz allahlara fəryad edin,
qoy bu əzablı vaxtınızda onlar sizi
qurtarsınlar». 15 İsrail övladları Rəbbə
dedilər: «Günah etmişik. Gözündə nə
xoş görünürsə, onu bizə et. Yalvarırıq
bu gün bizi qurtar». 16 Onlar aralarından
yad allahları atdılar və Rəbbə qulluq
etdilər. Rəbb İsraillilərin bu əzabına
artıq dözə bilmədi.
17 Ammon övladları yığılıb Gileadda
ordugah qurdular. İsrail övladları isə
toplanıb Mispada ordugah qurdular.
18 Xalq və Gilead başçıları bir-birlərinə
dedilər: «Kim Ammon övladlarına qarşı
döyüşə başlasa, o adam bütün Gilead
əhalisinə rəhbər olacaq».

İftahın hakimliyi

11 Bir fahişədən doğulan Gileadlı
İftah igid döyüşçü idi. Onun
atası Gilead idi. 2 Gileadın arvadı ona
oğullar doğdu və bu qadının oğulları
böyüyən zaman İftahı qovub belə
dedilər: «Atamızın evindən sənə miras
düşmür, ona görə ki sən başqa qadının
oğlusan». 3 İftah qardaşlarının yanından
qaçıb Tov diyarında yaşadı. İftahın
başına macəraçı adamlar yığıldı və
onunla birgə basqınçılıq edirdilər.
4 Bir müddətdən sonra Ammon
övladları İsraillilərə qarşı döyüşə
çıxdılar. 5 Ammon övladları İsraillilərə
qarşı çıxan zaman Gilead ağsaqqalları
İftahı Tov diyarından gətirmək üçün
onun yanına getdilər. 6 Onlar İftaha
dedilər: «Gəl bizə sərkərdəlik et
və Ammon övladlarına qarşı birgə
vuruşaq». 7 İftah Gilead ağsaqqallarına
dedi: «Mənə nifrət edib atamın evindən
məni qovan siz deyildinizmi? Bəs indi
niyə çətinliyə düşəndə mənim yanıma
gəlmisiniz?» 8 Gilead ağsaqqalları
İftaha dedilər: «Sənin yanına ona görə
gəlmişik ki, indi sən bizimlə gedib
Ammon övladlarına qarşı döyüşəsən və
bizə – bütün Gilead əhalisinə sərkərdə
olasan». 9 İftah Gilead ağsaqqallarına
dedi: «Yaxşı, Ammon övladlarına qarşı
döyüşmək üçün məni geri aparırsınız.
Bəs Rəbb qarşımda onları mənə
təslim edəndə sizin başçınız mən
olacağammı?» 10 Gilead ağsaqqalları
İftaha dedilər: «Səninlə bizim aramızda
qoy Rəbb şahid olsun! Biz mütləq sənin
sözünə əməl edəcəyik». 11 İftah Gilead
ağsaqqalları ilə bərabər getdi və xalq
da onu özünə başçı – sərkərdə etdi.
İftah Mispada, Rəbbin önündə bütün
şərtlərini təkrar etdi.
12 Bundan sonra Ammon padşahının
yanına qasidlər göndərib dedi: «Bizim
aramızda nə olub ki, torpağımda
mənimlə vuruşmağa gəlmisiniz?»
13 Ammon padşahı İftahın qasidlərinə
dedi: «Ona görə ki İsraillilər Misirdən
çıxan zaman mənim torpaqlarımı
Arnondan Yabboq və İordan çaylarına
qədər alıb. Gəlin onları mənə sülh
yolu ilə geri qaytarın». 14 İftah yenə
də Ammon xalqının padşahının yanına
qasidlər göndərib dedi: 15 İftah belə
deyir: «İsraillilər Moav torpağını,
Ammon övladlarının torpağını almayıb.
16 Amma İsraillilər Misirdən çıxanda
Qırmızı dənizə qədər səhradan
keçərək Qadeşə gəlib və 17 [f]Edom
padşahının yanına qasidlər göndərib
belə demişdilər: “Rica edib torpağından
keçmək üçün səndən izin istəyirəm”.
Lakin Edom padşahı onlara qulaq
asmadı və sonra İsraillilər Moav
padşahının yanına adamlar göndərdi, o
da razı olmadı. Ona görə də İsraillilər
Qadeşdə qalmışdılar. 18 [g]İsraillilər səhra
ilə gedib Edomla Moav torpaqlarının
ətrafından keçərək Moav ölkəsinin

[f]**11:17** Say. 20:14-21 [g]**11:18** Say. 21:4

şərqinə çatdı və Arnon vadisinin o
biri tərəfində düşərgə saldılar. Lakin
Moavın sərhədini keçmədilər, ona
görə ki Arnon Moavın sərhədi idi.
19 [h]İsraillilər Emorluların padşahı
– Xeşbon padşahı Sixonun yanına
qasidlər göndərib demişdi: “Rica
edirik, öz ölkəmizə çatana qədər sənin
torpağından keçmək üçün bizə izin
verəsən”. 20 Amma Sixon öz torpağını
yol keçmək üçün İsraillilərə etibar
etmədi və bütün xalqını toplayaraq
Yahsada ordugah qurub İsraillilərə qarşı
döyüşdü. 21 İsrailin Allahı Rəbb Sixonu
və onun bütün xalqını İsraillilərə təslim
edəndə onları məğlub etdilər. Beləliklə,
İsraillilər o yerdə yaşayan Emorluların
torpağını irs olaraq aldı. 22 Arnondan
Yabboq çayına qədər, səhradan İordan
çayına qədər bütün Emor torpaqlarını
İsraillilər irs olaraq aldı.
23 İndi İsrailin Allahı Rəbb Öz xalqı
İsraillilərin qarşısından Emorluları
qovandan sonra sənmi buraya sahib
çıxacaqsan? 24 Allahın Kemoşun sənə
verdiyi torpağı özünə irs etməzsənmi?
Biz də Allahımız Rəbbin bizə verdiyi
torpağı özümüzə irs edəcəyik. 25 [i]İndi
sənin Moav padşahı Sippor oğlu
Balaqdan nəyin yaxşıdır? Gör o, İsraillə
heç çəkişdimi? Yaxud onlara qarşı heç
döyüşdümü? 26 Üç yüz il İsrail Xeşbon
ilə Aroerdə, bunların ətraf qəsəbələrində
və Arnon vadisi boyunca yerləşən bütün
şəhərlərdə yaşadığı müddətdə niyə bu
torpaqları geri almadınız? 27 Mən sənə
qarşı günah etmədim. Lakin sən mənə
qarşı döyüşməklə mənə pislik edirsən.
Qoy hakim olan Rəbb bu gün İsrail
övladları ilə Ammon övladları arasında
hökm etsin». 28 Lakin Ammon padşahı
İftahın ona göndərdiyi sözlərə qulaq
asmadı.
29 İftahın üzərinə Rəbbin Ruhu
endi. O, Gileaddan və Menaşşedən
keçdi, sonra Gileaddakı Mispadan
keçib Ammon övladlarının üstünə
getdi. 30 İftah Rəbbə əhd edib
dedi: «Əgər Ammon övladlarını,
həqiqətən, mənə təslim etsən, 31 o
zaman Ammon övladları ilə döyüşdən
sağ-salamat qayıdanda mənim evimin
darvazasından qarşıma birinci nə
çıxarsa, Rəbbin olacaq və onu yandırma
qurbanı edəcəyəm». 32 İftah Ammon
övladları ilə döyüşə çıxdı. Rəbb də
Ammon övladlarını İftaha təslim etdi.
33 Aroerdən Minnitə çatana qədər iyirmi
şəhəri və Avel-Keramimə qədər Ammon
övladlarını çox böyük məğlubiyyətə
uğratdı. Onlar İsraillilərə tabe oldular.
34 İftah Mispaya, öz evinə qayıtdı.
Budur, İftahın qızı dəf çalıb oynayaraq
onu qarşılamağa çıxdı. Bu onun yeganə
övladı idi, ondan başqa nə oğlu, nə
də qızı var idi. 35 [j]O, qızını görəndə
paltarını cırıb dedi: «Vay, qızım! Belimi
əydin, qəddimi əyənlərdən biri də sən
oldun! Mən Rəbbə əhd etmişəm, artıq
sözümdən dönə bilmərəm». 36 Qızı ona
dedi: «Ata, sən Rəbbə əhd etmisən.
Madam ki Rəbb düşmənlərindən,
Ammon övladlarından sənin üçün qisas
aldı, söz ağzından necə çıxıbsa, mənə
eləcə də et». 37 Sonra qız atasına dedi:
«Ancaq bu arzumu yerinə yetir: mənə
iki ay izin ver, qoy rəfiqələrimlə dağları
gəzib-dolaşaraq öz nakam qızlığım
üçün ağlayım». 38 Atası ona «yaxşı, gedə
bilərsən» deyərək ona iki ay müddətinə
izin verdi. O da rəfiqələri ilə bərabər
gedib dağlarda öz nakam qızlığına
ağladı. 39 İki ay keçəndən sonra atasının
yanına qayıtdı və atası onun barəsində
etdiyi əhdi yerinə yetirdi. Qız ərə
getməmişdi. Bundan sonra İsraildə belə
bir adət oldu: 40 hər il İsrail qızları gedib

---

[h]**11:19** Say. 21:21-24 [i]**11:25** Say. 22:1-6 [j]**11:35** Say. 30:2

Gileadlı İftahın qızı üçün ildə dörd gün
yas tutdular.

İftahla Efrayimlilərin münaqişəsi

12 Efrayimlilər yığılaraq Safona
gedib İftaha dedilər: «Sən nəyə
görə Ammon övladları ilə döyüşə çıxıb
bizi özünlə getməyə çağırmadın? Buna
görə biz səni də, evini də yandıracağıq».
2 İftah onlara dedi: «Mən və xalqım
Ammon övladları ilə ağır döyüşdə
olan vaxt sizi köməyə çağırdım,
lakin siz gəlib məni onların əlindən
qurtarmadınız. 3 Mən də gördüm ki,
siz məni qurtarmırsınız, onda həyatımı
təhlükəyə atıb Ammon övladlarına
qarşı özüm hücuma keçdim və Rəbb
onları mənə təslim etdi. Nə üçün bu
gün mənimlə davaya çıxmısınız?»
4 İftah bütün Gileadlıları toplayıb
Efrayimlilərlə döyüşdü və Gileadlılar
Efrayimliləri qırdılar, çünki Efrayimlilər
belə demişdilər: «Ey Efrayimlə Menaşşe
arasında yaşayan Gileadlılar, siz
Efrayimdən qaçan fərarilərsiniz!»
5 Gileadlılar Efrayimin qarşısındakı
İordan çayının keçidlərini tutdular. Əgər
qaçıb qurtulmaq istəyən Efrayimlilərdən
biri gəlib «qoy çayı keçim» deyərdisə,
Gileadlılar ondan «sən Efrayimlisənmi?»
deyə soruşardılar. O «xeyr» desəydi, 6 o
zaman ona «bir "şibbolet" de görək»
deyərdilər. O da kəlməni doğru söyləyə
bilməyib «sibbolet» deyərdi. Onda
Gileadlılar onu tutub İordan çayının
keçidlərində öldürərdi. Həmin dövrdə
Efrayimlilərdən qırx iki min nəfər
qırıldı.
7 İftah altı il İsraildə hakimlik etdi.
Sonra Gileadlı İftah öldü və Gileadın bir
şəhərində dəfn olundu.

İvsan, Elon və Avdonun hakimliyi

8 Ondan sonra Bet-Lexemli İvsan
İsraildə hakimlik etdi. 9 Onun otuz oğlu
və otuz qızı var idi. Qızlarını başqa
nəsillərə ərə vermiş, oğullarına isə
başqa nəsillərdən otuz gəlin gətirmişdi.
İvsan İsraildə yeddi il hakimlik etdi.
10 Sonra İvsan öldü və Bet-Lexemdə
dəfn olundu.
11 Ondan sonra Zevulunlu Elon on
il İsraildə hakimlik etdi. 12 Zevulunlu
Elon da öldü və Zevulun torpağında,
Ayyalonda dəfn olundu.
13 Ondan sonra Piratonlu Hillel oğlu
Avdon İsraildə hakimlik etdi. 14 Onun
yetmiş sıpaya minən qırx oğlu ilə otuz
nəvəsi var idi və o, səkkiz il İsraildə
hakimlik etdi. 15 Piratonlu Hillel oğlu
Avdon da öldü və Amaleqlilərin dağlıq
bölgəsindəki Efrayim torpağında –
Piratonda dəfn olundu.

Şimşonun doğulması

13 İsrail övladları yenə də Rəbbin
gözündə pis işlər etdilər. Rəbb
onları qırx il Filiştlilərə təslim etdi.
2 Dan qəbiləsindən Manoah adlı
Soralı bir adam var idi. Onun arvadı
doğmurdu, sonsuz idi. 3 Rəbbin mələyi
bu qadına görünüb dedi: «Bax indi sən
sonsuzsan, doğmursan, amma hamilə
olub bir oğlan doğacaqsan. 4 İndidən
diqqətli ol: sən nə şərab, nə də başqa
kefləndirici içki içmə və dilinə heç bir
haram şey dəyməsin. 5 Ona görə ki sən
hamilə olub bir oğul doğacaqsan və
qoy onun başına ülgüc dəyməsin. Çünki
uşaq ana bətnindən Allaha həsr olunmuş
Nəziri* olacaq. O, İsraili Filiştlilərin
əlindən qurtarmağa başlayacaq».
6 Qadın gedib ərinə belə dedi: «Mənim
yanıma bir Allah adamı gəlmişdi.
O, Allahın mələyi görkəmində çox

*13:5 *Nəziri* – yəni Allaha həsr olunan adam. Bax: Say. 6:2.

zəhmli idi. Buna görə də onun haradan
gəldiyini soruşmadım. Mənə adını da
bildirmədi. 7 Lakin dedi ki, sən hamilə
olub bir oğul doğacaqsan. İndidən sən
nə şərab, nə də başqa kefləndirici içki iç
və dilinə heç bir haram şey dəyməsin,
çünki uşaq ana bətnindən ölən gününə
qədər Allahın Nəzirisi olacaq».
8 Manoah Rəbbə yalvarıb dedi: «Ya
Xudavənd, yalvarıram, göndərdiyin
Allah adamı qoy yanımıza yenə
gəlsin və doğulacaq uşaq barədə nə
edəcəyimizi bizə öyrətsin». 9 Allah
Manoahın səsini eşitdi. Qadın çöldə
oturanda Allahın mələyi yenə onun
yanına gəldi. Lakin qadının əri Manoah
yanında deyildi. 10 Qadın cəld qaçıb
ərinə xəbər verərək dedi: «Budur, ötən
gün yanıma gələn o adam yenə mənə
göründü». 11 Manoah durub arvadının
arxasınca getdi və o adamın yanına
gəlib soruşdu: «Arvadımla söhbət edən
adam sənsənmi?» O «mənəm» dedi.
12 Manoah dedi: «Sənin sözlərin yerinə
yetəndə uşağın həyat tərzi və işi nə
olacaq?» 13 Rəbbin mələyi Manoaha
dedi: «Arvadın ona tapşırdığım
şeylərdən özünü qorusun. 14 Tənəkdən
emal olunan şeylərdən heç nə yeməsin.
Nə şərab, nə də başqa kefləndirici
içki içsin və dilinə heç bir haram şey
dəyməsin. Qoy ona əmr etdiyim hər
şeydən özünü qorusun».
15 Manoah Rəbbin mələyinə dedi:
«Rica edirəm, bir ayaq saxla, sənin
üçün bir oğlaq kəsib yemək hazırlayaq».
16 Rəbbin mələyi Manoaha dedi: «Məni
burada saxlasan belə, sənin çörəyindən
yemərəm. Əgər yandırma qurbanı
vermək istəyirsənsə, onu Rəbbə təqdim
et». Amma Manoah bilmirdi ki, bu,
Rəbbin mələyidir. 17 O, Rəbbin mələyinə
dedi: «Sənin adın nədir ki, sözlərin
yerinə yetəndə səni şərəfləndirək?»
18 Rəbbin mələyi ona dedi: «Niyə
adımı soruşursan? Ecazkar adım var».
19 Manoah oğlağı və taxıl təqdimini
götürüb qaya üzərində Rəbbə təqdim
etdi. Mələk də Manoah ilə arvadının
gözü önündə qeyri-adi bir şey etdi.
20 Qurbangahın üstündən alov göyə
qalxanda Rəbbin mələyi də qurbangahın
alovu ilə bərabər göyə qalxdı. Manoahla
arvadı bunu görəndə ikisi də üzüstə
yerə döşəndi.
21 Rəbbin mələyi bundan sonra
Manoahla arvadına bir daha görünmədi.
Manoah o zaman bildi ki, bu, Rəbbin
mələyidir. 22 Manoah arvadına dedi:
«Biz mütləq öləcəyik, çünki Allahı
gördük». 23 Arvadı ona dedi: «Əgər
Rəbb bizi öldürmək istəsəydi, bizdən
yandırma qurbanı və taxıl təqdimi qəbul
etməzdi. Bu şeyləri bizə göstərməz
və indi eşitdiklərimizi deməzdi».
24 Beləliklə, qadın bir oğul doğdu və
adını Şimşon qoydu. Uşaq böyüdükcə
Rəbb ona xeyir-dua verdi. 25 Sora ilə
Eştaol arasında, Maxane-Danda Rəbbin
Ruhu onu idarə etməyə başladı.

Şimşon və Timnalı qadın

14 Bir gün Şimşon Timnaya endi
və Timnada Filişt qızlarından
bir qadın gördü. 2 O, ata-anasının
yanına qayıdıb dedi: «Timnada Filişt
qızlarının arasında bir qadın görmüşəm,
gedin, onu mənim üçün arvad alın».
3 Atası ilə anası ona dedilər: «Məgər
qohumlarının qızları arasında, xalqımın
arasında bir qadın yoxdur ki, gedib
özünə sünnətsiz Filiştlilərdən arvad
alırsan?» Şimşon atasına dedi: «Mənim
üçün onu alın, çünki gözümə o xoş
görünür». 4 Ata və anası bilmirdi ki,
bu istək Rəbdəndir. Ona görə ki Rəbb
Filiştlilərin hakimiyyətini devirmək
üçün fürsət axtarırdı. O dövrdə Filiştlilər
İsraillilərin üstündə hökmranlıq edirdi.
5 Şimşon ata və anası ilə birlikdə
Timnaya endi. Onlar Timnanın üzüm
bağlarına çatanda qəflətən cavan bir

aslan nərə çəkərək onun qarşısına
çıxdı. 6 Rəbbin Ruhu qüvvəsi ilə
Şimşonun üstünə endi. Onun əli boş
idi, amma cavan aslanı balaca oğlaq
kimi parçaladı. Ata-anasına isə heç nə
bildirmədi. 7 Sonra enib qadınla söhbət
etdi və qadın Şimşonun gözünə xoş
göründü.

Şimşon və tapmaca

8 Bir müddət keçəndən sonra Şimşon
qadını almaq məqsədi ilə geri qayıtdı.
Aslanın leşinə baxmaq üçün o öz
yolundan döndü. Gördü ki, aslanın
leşinin üstündə arı beçəsi ilə bal var.
9 O, ovucları ilə baldan götürdü və
yeyə-yeyə ata-anasının yanına gəldi.
Baldan onlara da verdi, lakin onlara
bildirmədi ki, balı aslanın leşinin
üzərindən götürüb.
10 Atası qadının evinə getdi və Şimşon
orada ziyafət qurdu, çünki o zamanlar
cavanlar belə edərdi. 11 Onu görən
xalq müşayiət üçün ona otuz nəfər
sağdış-soldış seçdi. 12 Şimşon onlara
dedi: «İndi mən sizə bir tapmaca
deyəcəyəm. Əgər ziyafətin yeddinci
gününə qədər açmasını mənə desəniz,
mən sizə otuz dəst kətan paltar və otuz
dəst bayram libası verəcəyəm. 13 Yox,
əgər tapmacanın açmasını mənə deyə
bilməsəniz, onda siz mənə otuz dəst
kətan paltar və otuz dəst bayram libası
verməlisiniz». Ona dedilər: «Tapmacanı
de, bir ona qulaq asaq». 14 Şimşon
onlara dedi:

«Yeyəndən bir yeməli şey çıxdı,
Güclüdən bir şirin şey çıxdı».

Üç gün ərzində onlar tapmacanı tapa
bilmədilər.
15 Dördüncü gün *olanda Şimşonun
arvadına dedilər: «Ərini başa sal ki, bizə
bu tapmacanın cavabını desin, yoxsa
sənin də, atanın da evini yandırarıq.
Siz bizi buraya soymağa çağırmısınız?»
16 Arvadı Şimşonun qarşısında ağlayıb
dedi: «Əslində məndən zəhlən gedir,
məni sevmirsən, ona görə də xalqımın
oğullarına dediyin tapmacanın cavabını
mənə açmırsan». Şimşon ona dedi: «Bax
heç atama və anama da bu tapmacanın
cavabını açmamışam. Sənəmi açım?»
17 Yeddi gün ziyafət davam edə-edə
qadın onun qarşısında ağladı. Yeddinci
gün Şimşon tapmacanın açmasını
arvadına dedi, çünki qadın onu cana
gətirmişdi. Qadın da gedib tapmacanın
cavabını öz xalqına söylədi. 18 Şəhərin
adamları yeddinci gün günəş batmazdan
əvvəl Şimşona dedilər:

«Baldan şirini varmı?
Aslandan güclüsü varmı?»

Şimşon onlara dedi: «Əgər mənim
düyəmlə kotan sürməsəydiniz,
tapmacamı tapa bilməzdiniz».
19 Bundan sonra Rəbbin Ruhu qüvvə
ilə onun üstünə endi. Şimşon Aşqelona
gedib oradakılardan otuz nəfəri
öldürərək onların mallarını talan edib
tapmacanın açmasını deyənlərə bayram
libası verdi. Sonra o, alovlu qəzəblə
atasının evinə qalxdı. 20 Şimşonun
arvadını isə Şimşonu müşayiət edən
sağdışlarından birinə verdilər.

Şimşonun Filiştlilərdən qisas alması

15 Bir müddət keçəndən sonra,
buğda biçini mövsümündə
Şimşon bir oğlaq götürüb arvadına baş
çəkməyə getdi və dedi: «Arvadımın
yanına – gərdəyə girmək istəyirəm».
Lakin qadının atası Şimşonu gərdəyə
girməyə qoymadı. 2 Qızın atası dedi:
«Elə bildim ki, sənin ondan, həqiqətən,
zəhlən gedir, ona görə də arvadını sənin
sağdışına ərə verdim. Bax onun kiçik

---

*14:15 *Dördüncü gün* – qədim yunan və süryani tərcümələrində belədir, ibrani mətnində isə *yeddinci gün.*

bacısı var. O ondan da gözəl deyilmi?
Rica edirəm, qoy onun yerinə bu sənin
olsun». 3 Şimşon onlara dedi: «Bu dəfə
Filiştlilərə pislik etsəm, heç təqsirkar
olmaram». 4 Şimşon gedib üç yüz tülkü
tutdu və məşəllər götürdü. Tülküləri
cüt-cüt quyruq-quyruğa bağladı və
quyruqların arasına bir məşəl qoydu.
5 Məşəlləri yandırıb tülküləri Filiştlilərin
əkinlərinə buraxdı və bununla da taxıl
dərzlərinə, əkinlərə, üzümlüklərə,
zeytunluqlara od vurdu.
6 Filiştlilər bir-birindən soruşdular:
«Görəsən bunu kim edib?» Kimsə
dedi ki, bunu Timnalının kürəkəni
Şimşon edib, çünki qayınatası götürüb
onun arvadını sağdışına ərə verib.
Filiştlilər çıxıb o qadınla atasına od
vurub yandırdılar. 7 Şimşon onlara dedi:
«İndi ki siz belə etdiniz, mütləq sizdən
qisasımı almamış əl çəkməyəcəyəm».
8 Şimşon onlara amansızcasına hücum
edərək çoxunun belini qırdı. Özü isə
Etam qayasının oyuğuna enib orada
qaldı.
9 Filiştlilər çıxıb Yəhudada ordugah
qurdular və Lexidə yayıldılar. 10 Yəhuda
adamları dedi: «Nə üçün bizə qarşı
çıxmısınız?» Onlar dedilər: «Biz gəlmişik
ki, Şimşonun əl-qolunu bağlayaq və
bizim başımıza gətirdiyini onun
başına gətirək». 11 Yəhudadan üç min
nəfər Etam qayasının oyuğuna enib
Şimşona dedi: «Bilmirsən Filiştlilər
bizim üzərimizdə hakimdir? Bu nə
işdir başımıza gətirdin?» Şimşon onlara
dedi: «Onların mənə elədiklərini onların
başına gətirmişəm». 12 Yəhudalılar ona
dedi: «Biz sənin əl-qolunu bağlayıb
Filiştlilərə təslim etməyə gəlmişik».
Şimşon onlara dedi: «And için ki, məni
öldürməyəcəksiniz». 13 Yəhudalılar söz
verdilər: «Yox, biz ancaq səni möhkəm
bağlayıb onlara təslim edəcəyik və səni
əsla öldürmərik». Sonra onu iki təzə iplə
sarıdılar və qayadan çıxartdılar.
14 Şimşon Lexiyə gələndə Filiştlilər
onu bağıra-bağıra qarşıladılar və elə o
anda Rəbbin Ruhu qüvvə ilə Şimşonun
üstünə endi. Qollarına bağlanan ip
alışıb-yanan kətan kimi qırılıb yerə
töküldü. 15 O, yerdə bir eşşəyin saf çənə
sümüyünü tapdı. Əl ataraq sümüyü
götürüb onunla min nəfər kişini qırdı.
16 Sonra Şimşon belə dedi:

«Eşşəyin çənə sümüyü ilə bir-iki qalaq
yaratdım.
Eşşəyin çənə sümüyü ilə min nəfəri
qırıb-çatdım».

17 Şimşon bu sözləri söyləyib
qurtarandan sonra eşşəyin çənə
sümüyünü tulladı. Ona görə də o yerə
Ramat-Lexi *deyilir.
18 Bundan sonra Şimşon bərk susadı
və Rəbbə fəryad edib dedi: «Sən quluna
bu böyük qələbəni verdin, amma indi
mən susuzluqdan ölüb sünnətsizlərin
əlinə düşümmü?» 19 Onda Rəbb Lexidə
çuxur yarıb su axıtdı. Şimşon su içəndə
cana gəlib ruhlandı. Buna görə bu
çeşmənin adı En-Haqqore †qoyuldu
və bu bulaq bu günə qədər Lexidədir.
20 Filiştlilərin hökmranlığı dövründə
Şimşon İsraildə iyirmi il hakimlik etdi.

Şimşon və Delila

16 Şimşon Qəzzəyə getdi və orada
bir fahişə görüb evinə girdi.
2 Qəzzəlilərə xəbər çatdı ki, Şimşon
buraya gəlib. Qəzzəlilər evi mühasirəyə
aldılar. «Dan yeri ağarana qədər onu
öldürərik» deyərək bütün gecəni şəhərin
darvazasında pusquda durub onu
gözlədilər. 3 Şimşon gecəyarısına qədər
yatdı, sonra ayağa qalxdı. O gəlib şəhər
darvazasının hər iki dirəyindən tutaraq

*15:17 *Ramat-Lexi* – ibrani dilində *çənə sümüyü təpəsi.*
†15:19 *En-Haqqore* – ibrani dilində *fəryad edənin çeşməsi.*

cəftə qarışıq darvazanı çiyninə qoydu və
Xevronun qarşısındakı dağın təpəsinə
çıxartdı.
4 Bundan bir qədər sonra Şimşon
Soreq vadisində Delila adlı bir qadına
vuruldu. 5 Filiştlilərin ağaları o qadının
yanına gəlib dedilər: «Şimşonu dilə
tutub öyrən, gör onda bu qədər güc
haradandır? Onu özümüzə tabe etmək
üçün necə gücdən salıb bağlaya bilərik?
Bundan ötrü hər birimiz sənə min yüz
şekel gümüş verərik».
6 Delila Şimşona dedi: «Rica edirəm,
səndəki bu böyük qüvvənin haradan
olduğunu mənə söylə. Səni necə ram
etmək və bağlamaq olar?» 7 Şimşon
ona dedi: «Əgər məni yeddi kaman
yayı düzəldilən qurumamış, təzə iplə
bağlasalar, o zaman gücdən düşüb adi
adam kimi oluram». 8 Filiştlilərin ağaları
qadının yanına yeddi qurumamış, təzə
ip gətirdilər və Delila bunlarla Şimşonu
bağladı. 9 İç otaqda qadının pusquda
duran adamları var idi. Qadın Şimşona
dedi: «Filiştlilər sənin üstünə gəldilər,
ey Şimşon!» Şimşon isə qollarındakı
ipləri oda toxunub qırılan kətan lifi kimi
qırdı və gücünün sirri bilinmədi.
10 Delila Şimşona dedi: «Bax məni
lağa qoyub yalan demişdin. Rica
edirəm, indi mənə bildir, səni hansı
iplə bağlamaq olar?» 11 Şimşon dedi:
«Əgər heç işlədilməmiş təzə iplərlə məni
yaxşıca bağlasalar, o zaman gücdən
düşüb adi adam kimi oluram». 12 Delila
yeni iplər götürüb onlarla Şimşonu
bağlayıb dedi: «Filiştlilər sənin üstünə
gəldilər, ey Şimşon!» Pusquda duranlar
iç otaqda qalmışdı. O isə qollarındakı
iplərin sarığını sap kimi qırdı.
13 Delila Şimşona dedi: «Bəsdir, indiyə
qədər məni lağa qoyub yalan dedin.
İndi isə bir başa sal görüm, səni nə ilə
bağlamaq olar?» Şimşon dedi: «Saçımın
yeddi hörüyünü toxucu dəzgahındakı
parça ilə toxusan». 14 Sonra Delila onun
saçının yeddi hörüyünü payaya bərkitdi
və onu səslədi: «Filiştlilər sənin üstünə
gəldilər, ey Şimşon!» O yuxudan oyandı
və toxucu dəzgahının payasını parça ilə
qopardı.
15 Delila dedi: «Ürəyində mənə
etibarın yox ikən necə “səni sevirəm”
deyirsən? Bununla üçüncü dəfədir
ki, məni lağa qoyursan və bu böyük
qüvvənin səndə haradan olduğunu
mənə bildirmirsən». 16 Qadının bu
sözlərindən, hər gün ona əziyyət
və başağrısı verməsindən Şimşonun
canı boğazına yığıldı. 17 Ona görə də
ürəyinin sirrini qadına açdı: «Mənim
başıma ülgüc dəyməmişdi, çünki mən
ana bətnindən Allahın Nəzirisiyəm.
Əgər başım qırxılsa, o zaman bu qüvvə
məndən çıxar və gücdən düşüb adi
adam kimi olaram».

Şimşonun ölümü

18 Delila Şimşonun ürəyinin sirrini
ona açdığını görəndə Filiştlilərin
ağalarına xəbər göndərib onları çağırdı
və dedi: «Bu dəfə də buraya gəlin,
çünki o, ürəyindəki sirri mənə açdı».
Filiştlilərin ağaları əllərində gümüş
gətirərək Delilanın yanına gəldilər.
19 Delila dizləri üstündə Şimşonu
yuxuya verdi. Sonra adam çağırıb onun
saçının yeddi hörüyünü qırxdırdı və
bununla onu gücdən saldı. Şimşonun
gücü get-gedə yox oldu. 20 Delila yenə
dedi: «Filiştlilər sənin üstünə gəldilər,
ey Şimşon!» Şimşon yuxudan oyanıb
düşündü: «Başqa vaxtlarda olduğu kimi
bu dəfə də onların əlindən sıçrayıb
çıxaram». Lakin bilmirdi ki, Rəbb ondan
ayrılıb. 21 Filiştlilər onu yaxalayıb
gözlərini çıxartdılar. Onu Qəzzəyə
endirib tunc zəncirlərlə bağladılar.
O, zindanda dəyirman daşı çəkirdi.
22 Lakin Şimşonun qırxılmış saçı
yenidən bitməyə başladı.

23 Filiştlilərin ağaları öz allahları
Daqona böyük qurban kəsmək və şənlik
etmək üçün yığılıb dedilər: «Allahımız
düşmənimiz Şimşonu bizə təslim etdi».
24 Xalq Şimşonu görəndə öz allahlarına
həmdlər etdi və dedi:
«Ölkəmizə ziyan vuran,
Bizdən bir çoxunu öldürən
Düşmənimizi allahımız bizə təslim
etdi».
25 Onların kefi kökələndə dedilər:
«Şimşonu bura gətirin, qoy bizi
əyləndirsin». Onlar Şimşonu zindandan
çağırtdırdılar və Şimşon onların
qarşısında oynadı. Onu direklər
arasında dayandırdılar. 26 Şimşon
əlindən tutan gəncə dedi: «Nə olar,
məni burax, məbədin damını saxlayan
direklərə toxunum və onlara söykənim».
27 Məbəd kişi və qadınlarla dolu idi.
Filiştlilərin bütün ağaları da orada idi.
Şimşonun oynamasına tamaşa edən üç
minə qədər kişi və qadın isə damın
üstündə idi.
28 Şimşon Rəbbə fəryad edib dedi:
«Ey Xudavənd Rəbb, yalvarıram,
məni yada sal. Yalvarıram, ay Allah,
mənə ancaq bu dəfəlik qüvvət ver ki,
bu Filiştlilərdən iki gözüm üçün bir
zərbə ilə qisas alım». 29 Şimşon əllərini
məbədin damını saxlayan iki orta direyə
uzatdı. Sağ əli ilə bir, sol əli ilə isə o biri
direkdən yapışdı. 30 Şimşon «qoy mən
də Filiştlilərlə bir ölüm» dedi. Sonra
var gücü ilə əyilərək direkləri itələyib
məbədin damını oradakı bütün ağaların
və xalqın üzərinə saldı. Beləliklə,
Şimşon öləndə həyatı boyu öldürdüyü
adamlardan daha çox adam öldürdü.
31 Onun qardaşları, atasının bütün
külfəti məbədə endilər və Şimşonun
meyitini oradan çıxarıb apardılar. Onu
Sora ilə Eştaol arasında atası Manoahın
məqbərəsində dəfn etdilər. Şimşon
İsraildə iyirmi il hakimlik etmişdi.

Mikeyanın ev bütləri

17 Efrayimin dağlıq bölgəsindən
olan Mikeya adlı bir adam var
idi. 2 O, anasına belə dedi: «Səndən
oğurlanan min yüz şekel gümüşdən ötrü
lənət etdin və bunu mənə eşitdirdin.
Budur, o gümüş məndədir, onu mən
götürmüşəm». Anası ona dedi: «Oğlum,
qoy Rəbb sənə xeyir-dua versin».
3 O, min yüz şekel gümüşü anasına
qaytardı. Anası ona dedi: «Bu gümüşün
hamısını Rəbb üçün təqdis edirəm. Qoy
oğlum ondan bir oyma və bir tökmə
büt düzəltsin. İndi bu gümüşü sənə
qaytarıram». 4 Gümüşü anasına geri
qaytararkən anası iki yüz şekel gümüş
götürüb zərgərə verdi. Ondan bir oyma
və bir tökmə büt düzəltdirdi. Bu bütləri
Mikeyanın evinə qoydular. 5 Mikeyanın
ibadətgahı var idi. O, bir efod və ev
bütləri düzəldib oğullarından birini
özünə kahin təyin etdi. 6 [k]O dövrdə
İsraildə padşah yox idi, hərə öz gözündə
doğru görünən işi edirdi.
7 Yəhudanın Bet-Lexem şəhərindən
olan bir Yəhudalının ailəsində yaşayan
gənc Levili var idi. 8 Həmin adam
yaşamağa bir yer tapmaq üçün
Yəhudanın Bet-Lexem şəhərindən
çıxdı. Səfərə çıxarkən Efrayimin
dağlıq bölgəsinə – Mikeyanın evinə
gəldi. 9 Mikeya ona dedi: «Haradan
gəlirsən?» O, Mikeyaya dedi: «Mən
Yəhudanın Bet-Lexem şəhərindən
gələn bir Leviliyəm, bir yer tapıb
yaşamaq istəyirəm». 10 Mikeya ona
dedi: «Mənimlə qal, mənə ata və kahin
ol. Mən də sənə ildə on şekel gümüş,
bir dəst paltar və yeməyini verərəm».
Levili onunla getdi. 11 O, Mikeya ilə
qalmağa razı oldu və bu gənc ona bir

---

[k]**17:6** Hak. 21:25

oğul kimi oldu. 12 Mikeya Levilini özünə
kahin təyin etdi və bu gənc onun evində
yaşadı. 13 Mikeya dedi: «İndi bilirəm ki,
Rəbb mənə yaxşılıq edəcək, çünki bir
Levili kahinim var».

Mikeyanın evinin qarət edilməsi

18 O dövrdə İsraildə padşah yox
idi. Elə həmin dövrdə Dan
qəbiləsi yaşamaq üçün özlərinə irsi
torpaq axtarırdı, çünki o günə qədər
İsrail qəbilələri arasında onlara irs
olaraq torpaq düşməmişdi. 2 Dan
övladları ölkəni axtarıb aramaq üçün
Sora və Eştaol şəhərlərindən olan
bütün nəsillərindən beş nəfər igid adamı
kəşfiyyata göndərdilər və onlara dedilər:
«Gedin, ölkəni axtarın». Onlar Efrayimin
dağlıq bölgəsinə – Mikeyanın evinə
gəldilər və orada gecələdilər. 3 Hələ
Mikeyanın evinin yanında ikən gənc
Levilinin səsini tanıdılar və evə tərəf
dönüb ondan soruşdular: «Buraya səni
kim gətirib? Burada nə edirsən? Sənin
burada nə işin var?» 4 Levili onlara dedi:
«Mikeya mənim üçün belə-belə işlər
gördü. O məni muzdla tutdu və mən
də onun kahini oldum». 5 Danlılar ona
dedilər: «Rica edirik, Allaha müraciət
et. Qoy biz getdiyimiz bu yolun necə
uğurlu olacağını öyrənək». 6 Kahin
onlara dedi: «Salamat gedin, getdiyiniz
bu yol Rəbbə xoşdur».
7 Bu beş igid gedib Layişə çatdı
və gördü ki, orada yaşayan xalq
qayğısızdır. Sidonlular kimi dinc və
rahat yaşayırlar. Bu bölgədə onlara
hökm edib əziyyət verən heç kim
yox idi. Onlar Sidonlulardan uzaqda
olub başqa heç kəslə əlaqələri yox idi.
8 İgidlər Sora və Eştaol şəhərlərinə,
öz xalqının yanına qayıdanda xalq
onlara dedi: «Nə öyrənə bildiniz?»
9 İgidlər onlara dedilər: «Qalxın,
Sidonlulara hücum edək, çünki onların
torpağını gördük, çox yaxşıdır. Niyə
boş dayanmısınız? Tərəddüd etməyin,
gedib torpağı alın! 10 Oraya çatanda
qayğısız bir xalq görəcəksiniz. Allahın
sizə verdiyi bu torpaq çox genişdir. Ora
elə torpaqdır ki, heç nəyə ehtiyacları
yoxdur».
11 Dan nəslindən altı yüz kişi
silahlanaraq Sora və Eştaoldan
yola düşdülər. 12 Yəhudaya qalxıb
Qiryat-Yearimdə gecələdilər. Buna görə
də o yer bu günə qədər Maxane-Dan
*adlanır. O yer Qiryat-Yearimin
qərbində yerləşir. 13 Oradan Efrayimin
dağlıq bölgəsinə keçdilər və Mikeyanın
evinə gəldilər.
14 Layiş diyarını axtarmaq üçün
gedən beş nəfər kişi öz xalqına sual
verdi: «Bu evlərdə efod, ev bütləri,
həm də oyma və tökmə bütlərin
olduğunu bilirsinizmi? Onda görün nə
edirsiniz, bu barədə bir qərara gəlin».
15 Onlar oraya burulub, o gənc Levilinin
qaldığı Mikeyanın evinə gələrək onun
hal-əhvalını xəbər aldılar. 16 Dan
övladlarından döyüş üçün silahlanmış
altı yüz nəfər onun darvazasının
girişində dayandı. 17 Ölkəni axtarmağa
gedən həmin o beş igid evə girib oyma
bütü, efodla ev bütlərini və tökmə
bütü götürdülər. Kahin və silahlanmış
altı yüz nəfər isə darvazanın girişində
dayanmışdı. 18 Onlar Mikeyanın evinə
girib oyma bütü, efodla ev bütlərini
və tökmə bütü götürdükləri zaman
kahin onlardan soruşdu: «Nə edirsiniz?»
19 Onda dedilər: «Sus, əlinlə ağzını
yum və dur bizimlə gedək, bizə ata
və kahin ol. Sənin üçün bir adama
kahin olmaq yaxşıdır, yoxsa bir İsrail
qəbiləsinə, bir nəslə?» 20 Kahinin könlü
şad oldu, efodla ev bütlərini və oyma
bütü götürüb xalq ilə bərabər getdi.

---

*18:12 *Maxane-Dan* – ibrani dilində *Dan ordugahı.*

21 Onlar öz külfətlərini, heyvanları
və ev əşyalarını qabaqlarına qatıb
yola düşdülər. 22 Mikeyanın evindən
uzaqlaşanda Mikeyanın qonşuları
toplaşaraq Dan övladlarına çatdılar.
23 Onlar Dan övladlarını səslədi. Dan
övladları üzlərini Mikeyaya tutub
dedi: «Sənə nə olub ki, bunları bura
yığmısan?» 24 Mikeya onlara dedi:
«Düzəltdiyim allahları və kahini
götürüb getdiniz, bəs mənə nə qaldı?
Hələ bir soruşursunuz ki, sənə nə
olub?» 25 Dan övladları ona dedilər:
«Səsin aramızda eşidilməsin, yoxsa
qəzəbindən odlanan adamlarımız sənin
üstünə düşər, həm öz həyatını, həm də
evindəkilərin həyatını itirərsən». 26 Dan
övladları yollarına davam etdilər.
Mikeya bu adamların ondan güclü
olduğunu görüb evinə qayıtdı.

27 Dan övladları Mikeyanın düzəltdiyi
şeyləri və onun kahinini götürüb Layişə,
dinc və rahat bir xalqa hücum etdi.
Əhalisini qılıncdan keçirib şəhərə od
vurdular. 28 Onları qurtaran olmadı,
çünki Layiş Sidondan uzaqda idi. Bu
xalqın başqa heç kəslə əlaqəsi yox idi.
Bu şəhər Bet-Rexovun yanında olan bir
vadidə yerləşir. Danlılar bu şəhəri bərpa
edib orada yaşadılar. 29 Onlar İsraildən
törənən öz ataları Danın xatirinə bu
şəhərin adını Dan qoydular. Amma
əvvəlcə şəhərin adı Layiş idi. 30 Dan
övladları orada oyma bütü qurdular
və əhali əsirliyə düşən günə qədər
Musa oğlu *Gerşom oğlu Yonatan özü
və oğulları Dan qəbiləsinə kahin oldu.
31 Allahın evi Şiloda olarkən bütün bu
dövrdə Danlılar Mikeyanın düzəltdiyi
oyma bütə sitayiş edirdilər.

Giveada baş verən dəhşətli hadisə

19 İsraildə padşah olmayan dövrdə
Efrayimin dağlıq bölgəsinin
ucqar bir hissəsində bir Levili yaşayırdı.
O, Yəhudanın Bet-Lexem şəhərindən
özü üçün bir cariyə almışdı. 2 Bu cariyə
ona qarşı zina etdi və ondan ayrılıb
atasının evinə, Yəhudanın Bet-Lexem
şəhərinə qayıdaraq orada dörd ay
qaldı. 3 Əri cariyənin könlünü alıb geri
qaytarmaq üçün onun dalınca getdi.
O özü ilə nökərini və bir cüt eşşək
götürdü. Cariyə ərini ata evinə apardı
və atası kişini görəndə onu sevinclə
qarşıladı. 4 Bu kişinin qayınatası –
gənc qadının atası onu evində qonaq
saxladı. Kişi onlarda üç gün qaldı və
onlar yeyib-içib orada gecələdilər.
5 Dördüncü gün sübh tezdən durdular.
Kişi getməyə hazırlaşanda gənc qadının
atası kürəkəninə dedi: «Bir loğma çörək
ye ki, ürəyində taqət olsun, ondan
sonra gedərsiniz». 6 Onlar oturdular və
ikisi də birlikdə yeyib-içdilər. Sonra
gənc qadının atası bu kişiyə dedi:
«Rica edirəm, bu gecəni də bizimlə
qal, qoy ürəyin şad olsun». 7 Kişi isə
yola düşmək üçün ayağa qalxdı, lakin
qayınatası təkidlə onun qalmasını
istədiyinə görə o gecəni orada keçirdi.
8 Beşinci gün kişi geri qayıtmaq üçün
sübh tezdən qalxanda gənc qadının
atası ona dedi: «Rica edirəm, bir az
yemək ye ki, ürəyində taqət olsun.
Günortadan sonraya qədər ləngisəniz,
nə olar?» Onlar ikisi də birlikdə yedilər
və içdilər. 9 Kişi cariyəsi və nökəri ilə
getmək üçün ayağa qalxanda qayınatası
– gənc qadının atası ona dedi: «Bax
gün günortanı keçib, axşama çatır. Rica
edirəm, bu gecəni də burada qal, qoy
ürəyin şad olsun. Sabah səhər tezdən
durub evinizə qayıdarsınız».

10 Lakin bu kişi gecəni onunla qalmaq
istəməyərək ayağa qalxıb yola düşdü. O,
Yevus, yəni indiki Yerusəlim şəhərinin
qarşısına gəlib çıxdı. Onun palanlı iki

---

*18:30 *Musa oğlu* – ibrani dilində *Menaşşe oğlu* kimi də oxunur.

eşşəyi var idi, cariyəsi də yanında idi.
11 Onlar Yevusa yaxınlaşanda artıq gün
batmaqda idi. Nökəri ağasına dedi:
«Rica edirəm, gəl Yevusluların bu
şəhərinə girək və burada gecələyək».
12 Ağası ona dedi: «Yox, İsrail
övladlarından olmayan yadellilərin
şəhərinə girməyək, Giveaya gedək».
13 Sonra ağası nökərinə dedi: «Gəl
çalışaq Giveaya ya da ki Ramaya çataq.
Onların birində gecələyək». 14 Onlar
oradan keçib getdilər. Binyaminin Givea
şəhərinə yaxınlaşarkən artıq günəş
batmışdı. 15 Gecəni Giveada keçirmək
üçün oranın yoluna döndülər. Kişi
şəhərə girib meydanda oturdu, amma
onları gecələmək üçün evinə aparan
kimsə yox idi.
16 Bu zaman axşam bir qoca
tarladan – işdən evə qayıdırdı. O,
Efrayimin dağlıq bölgəsindən idi,
amma Giveada yaşayırdı. Oranın
sakinləri isə Binyaminlilərdən ibarət
idi. 17 Bu qoca başını qaldırıb şəhərin
meydanındakı yolçunu görüb dedi:
«Haradan gəlib, hara gedirsən?»
18 Kişi ona dedi: «Biz Yəhudanın
Bet-Lexem şəhərindən Efrayimin
dağlıq bölgəsinin ucqar bir hissəsinə
gedirik. Mən oralıyam. Yəhudanın
Bet-Lexem şəhərinə getmişdim, indi
isə Rəbbin evinə qayıdıram, amma
məni evinə aparan yoxdur. 19 Halbuki
eşşəklərimizin samanı da var, yemi də
var. Mənim, qarabaşımın və yanımdakı
nökərin çörəyi və şərabı var, heç
nəyə ehtiyacımız yoxdur». 20 Qoca
dedi: «Canın sağ olsun! Təki mənim
üzərimə sənin ehtiyacların düşsün,
ancaq meydanda gecələmə». 21 Onu
götürüb evinə gətirdi və eşşəklərinə
yem verdi. Hamı ayaqlarını yuyandan
sonra yeyib-içdilər.
22 Onlar könüllərini şad edərkən,
budur, şəhər sakinlərindən bir dəstə
yaramaz adam evi əhatəyə alıb qapını
döydü. Bu adamlar ev sahibi qocaya
dedi: «Evinə gələn kişini bayıra çıxar,
onunla cinsi əlaqədə olaq». 23 Ev
sahibi bayıra çıxıb onlara dedi: «Yox,
soydaşlarım, yalvarıram pislik etməyin.
Madam ki bu adam mənim evimə
gəlib, bu alçaqlığı etməyin. 24 Bax
mənim evdə ərə getməmiş qızım və
o kişinin cariyəsi var. Qoy onları
bura çıxarım, bu biabırçılığı onlarla
edin, onlarla gözünüzə xoş görünəni
edin, lakin bu kişi ilə belə alçaqlıq
etməyin». 25 Lakin bu adamlar ona
qulaq asmaq istəmədilər. Ona görə
də Levili cariyəsinin qolundan tutub
bayıra – onların yanına çıxardı. Onlar
onunla cinsi münasibətdə olub bütün
gecəni səhərəcən pis işlər gördülər. Dan
yeri sökülənda isə qadını buraxdılar.
26 Qadın gün ağaranda ağasının qaldığı
yerə – qocanın evinə qayıdıb darvazanın
yanında yerə sərildi və hava açılana
qədər orada qaldı.
27 Ağası səhər qalxıb evin qapılarını
açdı və yoluna davam etmək üçün
çıxanda cariyəsini evin darvazasında
əlləri astanada yerə sərilmiş gördü.
28 Kişi qadına dedi: «Dur, gedək». Lakin
ondan heç bir cavab gəlmədi. Sonra
kişi cariyəsini eşşəyin üstünə qoyub öz
şəhərinə yola düşdü. 29 O, evinə çatanda
bir bıçaq götürüb cariyəsinin cəsədini
hissə-hissə on iki parçaya böldü. O
doğradığı hissələri bütün İsrail ərazisinə
göndərdi. 30 Bu hissələri görən hər kəs
belə dedi: «İsrail övladları Misirdən
çıxandan bu günədək belə bir hadisə
olmamışdır və görünməmişdir. Bu
barədə düşünün, məsləhətləşib bir qərar
verin».

İsraillilərlə Binyaminlilər arasında olan qardaş qırğını

20 Bütün İsrail övladları Dandan
Beer-Şevaya qədər ərazidən və
Gilead torpağından Mispaya çıxdılar.

İcma bir nəfər kimi Rəbbin önündə
toplandı. 2 Bütün xalqın, bütün İsrail
qəbilələrinin başçıları Allahın xalqının
toplantısında öz yerlərini tutdular.
Orada qılınc daşıyan dörd yüz min
piyada var idi.
3 Binyamin övladları İsrail
övladlarının Mispaya çıxdıqlarını
eşitdi. Orada İsrail övladları dedilər:
«Danışın görək, bu pis hadisə necə baş
verdi?» 4 Öldürülən qadının əri olan
Levili onlara cavab verdi: «Mənimlə
cariyəm gecələmək üçün Binyaminin
Givea şəhərinə daxil olduq. 5 Givea
kişiləri mənə qarşı qalxdılar və mənim
gecələdiyim evi mühasirəyə aldılar,
məni öldürmək istədilər və cariyəmi
zorladılar. Bunun nəticəsində qadın
öldü. 6 Mən də cariyəmi götürüb
parça-parça doğrayaraq hər hissəsini
İsrailin irs torpaqlarının bütün
bölgələrinə göndərdim, çünki İsraildə
pozğunçuluq və alçaqlıq edilib. 7 Ey
İsrail övladları! Baxın hamınız burada
öz fikir və məsləhətinizi verin».
8 Bütün xalq bir nəfər kimi ayağa
qalxıb dedi: «Bizdən heç kim çadırına
getməyəcək və heç kim evinə
qayıtmayacaq. 9 İndi belə bir iş
görməliyik: püşk atıb Giveaya hücum
edəcəyik. 10 Orduya azuqə gətirmək
üçün İsrailin bütün qəbilələrinin hər
yüz nəfərdən onunu, min nəfərindən
yüzünü, on min nəfərindən minini
götürəcəyik ki, Binyaminin Givea
şəhərinə gedib çatanda İsraildə etdikləri
alçaq işlərin hamısının əvəzini onlara
edə bilsinlər». 11 Bütün İsraillilər bir
nəfər kimi birləşib o şəhərə qarşı
toplandılar.
12 İsrail qəbilələri Binyamin
qəbiləsinin torpaqlarının hər tərəfinə
qasidlər göndərib dedi: «Bu nə
pislikdir, sizin aranızdan çıxıb? 13 İndi
Giveada olan o yaramaz adamları
bizə verin, onları öldürək və bununla
İsraildən bu pisliyi təmizləyək». Lakin
Binyamin övladları soydaşları olan
İsrail övladlarının sözünə qulaq asmaq
istəmədilər. 14 İsrail övladları ilə döyüşə
çıxmaq üçün Binyamin övladları öz
şəhərlərindən Giveaya toplandılar.
15 Həmin gün şəhərlərdən gələn
Binyamin övladları Givea əhalisindən
yığılmış yeddi yüz seçmə adamdan
savayı, qılınc daşıyan iyirmi altı min
kişi də yığdılar. 16 Bütün bu xalqın
arasında solaxay olan yeddi yüz seçmə
adam var idi ki, hər biri sərrast sapand
atıb daşla başda olan bir tükü belə, vura
bilirdi və atdıqları boşa çıxmırdı.
17 Binyaminlilərdən başqa,
İsraillilərdən qılınc daşıyan dörd
yüz iyirmi kişini saydılar ki, bunların
da hamısı döyüşçü idi. 18 İsrail övladları
Bet-Elə çıxdılar və Allaha müraciət edib
dedilər: «Binyamin övladlarına qarşı biz
tərəfdən əvvəlcə kim döyüşə çıxacaq?»
Rəbb dedi: «Əvvəlcə Yəhuda qəbiləsi
çıxacaq».
19 İsrail övladları səhər tezdən qalxıb
Giveaya qarşı ordugah qurdular.
20 İsraillilər Binyaminlilərlə döyüşə
çıxıb Giveada onlara qarşı düzüldülər.
21 Binyamin övladları Giveadan çıxdılar
və o gün İsraillilərdən iyirmi iki min
kişini vurub yerə sərdilər. 22 Lakin
İsrail ordusu cəsarətə gəlib əvvəlki gün
düzüldükləri yerdə yenə də döyüşə
düzüldü. 23 İsrail övladları Bet-Elə çıxıb
Rəbbin önündə axşama qədər ağladılar
və Rəbbə müraciət edib dedilər:
«Soydaşımız olan Binyamin övladları ilə
yenə döyüşə girişəkmi?» Rəbb onlara
dedi: «Onların qarşısına çıxın».
24 İkinci gün İsrail övladları Binyamin
övladlarına yaxınlaşdılar. 25 Həmin
gün də Binyaminlilər onların qarşısına
çıxaraq İsrail övladlarından bu dəfə
on səkkiz min kişini vurub yerə sərdi.
Bunların hamısı qılınc daşıyan adamlar
idi. 26 Bütün İsrail övladları, bütün

ordu Bet-Elə çıxıb ağladı. Orada
Rəbbin önündə qalıb axşama qədər
oruc tutdular. Rəbbin hüzurunda
yandırma və ünsiyyət qurbanları
təqdim etdilər. 27 İsrail övladları Rəbbə
müraciət etdilər, çünki Allahın Əhd
sandığı o günlər orada idi. 28 Harun
oğlu Eleazar oğlu Pinxas o dövrdə
sandığın önündə dururdu. Onlar Rəbbə
dedilər: «Soydaşlarımız olan Binyamin
övladlarına qarşı bir daha döyüşə
çıxaqmı, yoxsa bu işdən əl çəkək?» Rəbb
dedi: «Çıxın, çünki sabah onları sizə
təslim edəcəyəm».
29 İsraillilər pusquda duranları
Giveanın ətrafında yerləşdirdilər.
30 Üçüncü gün yenə İsrail övladları
Binyamin övladlarına qarşı çıxdılar və
əvvəlki kimi Giveaya qarşı düzüldülər.
31 Binyamin övladları da bu xalqa
qarşı çıxdılar və şəhərdən kənara
çəkildilər. Əvvəlki kimi onlar İsraillilləri
qırmağa başladılar. Bet-Elə və Giveaya
gedən əsas yollarda otuz nəfər
İsrailli qırıldı. 32 Binyamin övladları
dedilər: «Əvvəlki kimi onlar yenə
də qarşımızda məğlub olur». İsrail
övladları isə dedilər: «Qaçaq, onları
şəhərdən uzağa əsas yollara çıxardaq».
33 Bütün İsraillilər yerlərindən qalxıb
Baal-Tamarda düzüldülər. Birdən-birə
Givea yaxınlığında pusquda duran
İsraillilər də yerlərindən çıxdılar.
34 Bütün İsraildən seçilmiş on min kişi
Giveaya ön cəbhədən hücum etdi.
Döyüş şiddətli idi. Amma Binyaminlilər
müsibətlə qarşılaşdıqlarını bilmədilər.
35 Rəbb İsrailin önündə Binyaminliləri
darmadağın etdi. Həmin gün İsrail
övladları Binyaminlilərdən iyirmi beş
min yüz kişini həlak etdi. Bunların
hamısı qılınc gəzdirən adamlar idi.
36 Binyamin övladları gördülər
ki, məğlub oldular. Belə oldu ki,
İsraillilər Giveaya qarşı qurduqları
pusquda duranlara güvəndiklərinə görə
Binyaminlilərə meydan vermişdilər.
37 Pusquda duran adamlar cəld tərpənib
Giveaya hücum etdilər və ətrafa
yayılaraq bütün şəhəri qılıncdan
keçirtdilər. 38 Şəhərdən qalxan böyük
tüstü İsraillilərlə pusquda duranlar
arasında təyin olunmuş işarə idi. 39 Bu
işarəyə görə döyüş meydanındakı
İsraillilər dönüb Binyaminlilərin
üzərinə getməli idi. Binyaminlilər
İsraillilləri qırmağa başladılar və otuz
nəfərə qədər adamı öldürdülər. Ona
görə də belə dedilər: «Yəqin əvvəlki
döyüşdə olduğu kimi önümüzdə
məğlub olurlar». 40 Lakin şəhərdən
sütun kimi tüstü qalxmağa başlayanda
Binyaminlilər arxaya baxıb bütün
şəhərdən yanğının göyə yüksəldiyini
gördülər. 41 İsraillilər dönüb onların
üstünə gələndə Binyaminliləri dəhşət
bürüdü, çünki fəlakətlə qarşılaşdıqlarını
gördülər. 42 Onlar İsraillilərin önündən
geri çəkilib çölə tərəf qaçdılar, lakin
döyüş oranı da bürüdü. Onları şəhərdən
çıxanlar mühasirəyə alıb qırdılar.
43 Binyaminliləri mühasirəyə alıb
dayanmadan təqib edərək gündoğana
tərəf Giveanın qarşısında onları əzdilər.
44 Binyaminlilərdən on səkkiz min
nəfər yerə sərildi. Bunların hamısı
igid cəngavər idi. 45 Qalanları dönüb
çölə tərəf, Rimmon qayasına qaçdılar.
İsraillilər əsas yollar boyunca onlardan
beş min kişini qırdılar. Sonra Gidoma
qədər Binyaminlilərin ardınca düşüb
daha iki minini qırdılar. 46 Həmin
gün qılınc gəzdirən iyirmi beş min
Binyaminli qırıldı. Bunların hamısı igid
cəngavər idi. 47 Altı yüz kişi isə dönüb
çölə tərəf, Rimmon qayasına qaçdı
və dörd ay orada qaldı. 48 İsraillilər
Binyamin övladlarının torpaqlarına
qayıdıb bütün şəhər sakinlərini və
heyvanlarını, əllərinə nə keçdisə,
hamısını qılıncdan keçirdilər. Sonra

qarşılarına çıxan bütün şəhərlərə od vurdular.

Binyamin qəbiləsinin sonrakı aqibəti

21 İsraillilər «bizdən heç kim qızını Binyaminliyə ərə verməyəcək» deyə Mispada and içmişdilər. 2 Xalq Bet-Elə gedib orada axşama qədər Allahın hüzurunda oturaraq və fəryad edərək bərkdən ağladı. 3 Onlar dedilər: «Ey İsrailin Allahı Rəbb, niyə İsraildə belə hadisə baş verdi? Nə üçün bu gün İsraildən bir qəbilə əskildi?» 4 Ertəsi gün xalq tezdən qalxıb orada Rəbbə bir qurbangah tikərək yandırma və ünsiyyət qurbanları təqdim etdi.

5 İsrail övladları dedi: «Bütün İsrail qəbilələrindən Rəbbin önündəki toplantımıza gəlməyən varmı?» Çünki Mispada olan Rəbbin önündəki toplantıya gəlməyənlər haqqında möhkəm and içmişdilər ki, onlar öldürülməlidirlər. 6 İsrail övladları öz soydaşları Binyaminlilərdən ötrü kədərlənib dedilər: «Bu gün İsraildən bir qəbilə kəsildi. 7 Onlardan sağ qalanlara arvad tapmaq üçün nə edək? Axı onlara qızlarımızı ərə verməmək üçün Rəbbin haqqına and içmişik».

8 Sonra İsrail övladları soruşdu: «İsrail qəbilələrindən Mispaya, Rəbbin hüzuruna kim gəlməyib?» Toplantı üçün ordugaha Yaveş-Gileaddan heç kimin gəlmədiyini öyrəndilər, 9 çünki xalq siyahıya alınanda orada Yaveş-Gilead əhalisindən heç kimin olmadığı məlum oldu. 10 İcma oraya on iki min igid cəngavər göndərərək onlara əmr edib dedi: «Gedin, qadınlar və uşaqlar da daxil olmaqla Yaveş-Gilead əhalisinin hamısını qılıncdan keçirin. 11 Edəcəyiniz iş belə olacaq: hər kişini və kişi ilə yatan qadınların hamısını tamamilə məhv edin». 12 Yaveş-Gilead əhalisi arasında ərə getməmiş dörd yüz qız tapdılar və onları Kənan torpağında olan Şilodakı ordugaha gətirdilər.

13 Bütün icma Rimmon qayasında olan Binyamin övladlarının yanına adam göndərib danışdı və onları barışığa çağırdı. 14 O vaxt Binyaminlilər qayıtdılar və Yaveş-Gilead qadınlarından sağ qalan qadınlar onlara verildi, lakin gətirilənlər onların hamısına çatmadı. 15 Xalq Binyaminlilərdən ötrü kədərləndi, çünki Rəbb İsrail qəbilələri arasında bir yarıq açmışdı.

16 İcmanın ağsaqqalları dedi: «Qalanlar üçün necə arvad tapaq? Çünki Binyamindəki qadınlar həlak olmuşdu». 17 Ağsaqqallar sözlərinə davam etdi: «İsraildən bir qəbilə silinməsin deyə Binyamində sağ qalan oğulların varisi olmalıdır. 18 Biz qızlarımızı onlara ərə verə bilmərik, çünki İsrail övladları “Binyaminliyə qız verən lənətə gəlsin” deyə and içmişdilər».

19 Onlar sonra dedilər: «Baxın Bet-Elin şimalında, Bet-Eldən Şekemə çıxan əsas yolun şərqində və Levonanın cənubunda olan Şiloda ilbəil Rəbbin bayramı olur». 20 Beləliklə, Binyamin övladlarına belə əmr etdilər: «Gedib üzüm bağlarında pusquda durun, 21 baxın, güdün, Şilo qızları rəqsə çıxanda cəld bağlardan çıxın, hər kəs özünə arvad etmək üçün bir Şilo qızı götürüb Binyamin torpağına qaçsın. 22 Əgər onların ataları ya da qardaşları bizim yanımıza şikayətə gəlsələr, onlara belə deyərik: “Bizim xatirimizə Binyaminliləri bağışlayın, çünki əsir aldığımız qızlar hamısına çatmadı. Siz də onlara qız vermədiyinizə görə təqsirkar deyilsiniz”».

23 Binyamin övladları belə də etdilər və öz saylarına görə rəqs edən qızlardan götürüb qaçdılar. Sonra öz irs olan torpaqlarına qayıtdılar və şəhərləri bərpa edib o yerlərdə yaşadılar. 24 O vaxt İsrail övladları oranı tərk etdilər.

Hər biri öz qəbiləsinə və öz nəslinin
yanına qayıtdı, hər biri öz irs olan
torpağına getdi.

25 [l]O dövrdə İsraildə padşah yox idi,
hərə öz gözündə doğru görünən işi
edirdi.

[l]**21:25** Hak. 17:6

RUT
KİTABI
GİRİŞ

«Rut» Kitabı Moavlı bir qadının ürək kövrəldən həyat hekayəsidir. Moavlı Rut İsrailli bir kişiyə ərə gedir. Əri öləndən sonra o, qayınanasına sonsuz sədaqət göstərərək İsraillilərin etiqad etdikləri Allaha bütün ürəyi ilə ümid bağlayır. Allah da Rutun sadiq ürəyini görüb ona yeni bir ümid qapısı açır. Sınıq qəlbli, qərib və tənha dul qadın olan Rut Allahın sonsuz mərhəməti nəticəsində İsrail xalqı arasında sakin olur. O, böyük peyğəmbər və padşah Davudun ulu nənəsidir.

«Rut» Kitabında aydın göstərilir ki, millətindən asılı olmayaraq hər kəs tək Allaha üz tutsa, Allahdan bərəkət alar və Onun sadiq xalqının nümayəndəsi olar.

Kitabın məzmunu:

1:1-22 Naominin Rutla Bet-Lexemə qayıtması

2:1–3:18 Rut Boaza rast gəlir

4:1-22 Boazın Rutla evlənməsi

Elimelekin ailəsi ilə Moav torpağına köçməsi

1 Hakimlərin hökm etdiyi günlərdə ölkədə qıtlıq oldu. Elə bu vaxtlarda Yəhudanın Bet-Lexem şəhərindən bir kişi arvadı və iki oğlu ilə birgə müvəqqəti yaşamaq üçün Moav torpağına köçdü. [2] Bu kişinin adı Elimelek, arvadının adı Naomi, bir oğlunun adı Maxlon, o birinin adı isə Kilyon idi. Onlar Yəhudanın Bet-Lexem şəhərindən olan Efratlılar idi. Bu adamlar gəlib Moav torpağında yaşadılar.

[3] Bir gün Naominin əri Elimelek öldü və o, iki oğlu ilə qaldı. [4] Oğulları özlərinə Moav qadınlarından arvad aldı. Bu qadınların birinin adı Orpa, o birinin adı isə Rut idi. Onlar on ilə yaxın bu torpaqda yaşadı. [5] Sonra Maxlon və Kilyon da öldü, Naomi həm oğulsuz, həm də ərsiz qaldı.

Bet-Lexemə qayıtma

[6] Bir gün Naomi gəlinləri ilə Moav torpağından geri qayıtmaq üçün ayağa qalxdı. O, Moav torpağında eşitmişdi ki, Rəbb Öz xalqına nəzər salaraq onlara çörək vermişdir. [7] Naomi Yəhuda torpağına qayıtmaq üçün gəlinləri ilə yaşadığı yerdən çıxıb yola düşdü. [8] Naomi hər iki gəlininə dedi: «Gəlin siz hər biriniz ananızın evinə qayıdın. Sizin mərhumlara və mənə etdiyiniz xeyirxahlığa görə qoy Rəbb sizə xeyirxahlıq etsin. [9] Rəbb elə etsin ki, hər biriniz ər evində rahatlıq tapasınız». Sonra o, gəlinlərini öpdü və onlar hönkürüb ağladılar. [10] Gəlinləri ona dedilər: «Xeyr, biz də sənlə birgə xalqının yanına gedirik». [11] Naomi isə dedi: «Ay qızlarım, qayıdın geri. Axı niyə siz də mənimlə getməlisiniz? Məgər bətnimdə yenə oğullarım var ki, sizə ər olsun? [12] Qayıdın, ay qızlarım, öz yolunuzla gedin. Mən indi ərə getmək üçün çox yaşlıyam. Desəm ki, ümidim var, hətta bu gecə ərə gedib oğullar doğacağam, [13] onlar böyüyənə qədər gözləyərsinizmi? Ərə getməyib səbir edərsinizmi? Yox, qızlarım! Sizin halınıza çox acıyıram, çünki mənə qarşı qalxan Rəbbin əlidir». [14] Onlar yenə də bərkdən ağlaşdılar. Orpa qayınanasını öpüb vidalaşdı, Rut isə ona sarıldı.

[15] Naomi Ruta dedi: «Bax qaynın arvadı öz xalqının və allahlarının yanına qayıtdı, gəl sən də onun ardınca geri qayıt». [16] Rut dedi:

«Məcbur etmə ki, səni tərk edib
Sənlə getməyim.
Bil ki, hara getsən, ora gedəcəyəm,

Harada qalsan, orada qalacağam;
Xalqın xalqım olacaq,
Allahın Allahım.
17 Sən harada öləcəksənsə,
Mən də orada öləcəyəm,
Orada da basdırılacağam.
Əgər ölümdən başqa bir şey
Məni səndən ayırarsa,
Qoy Rəbb mənə beləsini və
Bundan betərini etsin».
18 Naomi Rutun onunla getmək üçün
qəti qərara gəldiyini görəndə bir daha
onu dilə tutmadı.
19 Hər ikisi Bet-Lexemə qədər gedib
oraya çatdılar. Bet-Lexemə daxil
olanda onları görən bütün şəhər əhalisi
hərəkətə gəldi və dedilər: «Bu, Naomi
deyilmi?» 20 Naomi onlara dedi: «Mənə
Naomi *deməyin, mənə Mara† deyin,
çünki Külli-İxtiyar həyatımı acı etdi.
21 Mən buradan dolu çıxdım, Rəbb
məni boş qaytardı. Bir halda ki Rəbb
məni ittiham etdi, Külli-İxtiyar başıma
müsibət gətirdi, daha niyə məni Naomi
çağırırsınız?»
22 Beləliklə, Naomi Moav torpağından
onunla birgə gələn gəlini Moavlı Rutla
bərabər geri qayıtdı. Onlar Bet-Lexemə
arpa biçini başlananda gəldilər.

Rut Boazın zəmisində

2 Naominin əri Elimelekin nəslindən
Boaz adlı mərd və xeyirxah bir
qohumu var idi.
2 mBir gün Moavlı Rut Naomiyə
dedi: «İzin ver, zəmilərə gedim. Kimin
gözündə lütf tapsam, onun ardınca
düşüb başaq yığaram». Naomi ona
«get, qızım» dedi. 3 Rut getdi və bir
zəmiyə girib biçinçilərin ardınca
başaq yığmağa başladı. Təsadüfən
o, Elimelekin nəslindən olan Boazın
sahəsinə girmişdi.
4 Bu vaxt Boaz Bet-Lexemdən gəldi
və biçinçilərə dedi: «Qoy Rəbb sizinlə
olsun!» Biçinçilər cavab verdilər:
«Rəbb sənə xeyir-dua versin». 5 Boaz
biçinçilərə nəzarət edən nökərinə dedi:
«Bəs bu cavan qadın kimdir?» 6 Nökər
cavab verdi: «Bu cavan qadın Moavlıdır.
O, Moav torpağından buraya Naomi
ilə birlikdə gəlib. 7 Mənə dedi: “Rica
edirəm, qoy biçinçilərin ardınca düşüm
və dərzlərin arasından düşən başaqları
yığıb toplayım”. Səhərdən gəlib,
indiyəcən buradadır, talvar altında isə
lap az dincəlib».
8 Boaz Ruta dedi: «Mənə qulaq as,
qızım! Başaq yığmaq üçün buradan
ayrılıb başqa zəmiyə getmə. Burada
işləyən mənim qulluqçu qızlarımla qal.
9 Yalnız biçinçilərin biçdiyi bu zəmiyə
gözünü dik və qızların ardınca get.
Nökərlərə əmr etmişəm ki, heç kimin
səninlə işi olmasın. Əgər susasan, su
qablarının yanına gedib nökərlərin
çəkdiyi sudan iç». 10 Rut üzüstə yerə
döşəndi və yerədək təzim edərək
dedi: «Nəyə görə mən gözlərində
lütf tapdım? Nə üçün mənə hörmət
edirsən? Axı mən bir qəribəm». 11 Boaz
ona cavab verdi: «Ərin öləndən sonra
qayınanana etdiyin hər şeyi eşitmişəm.
Sən atanı, ananı, doğma torpağını
atıb heç tanımadığın bir xalqın yanına
gəlmisən». 12 Bu işinin əvəzini qoy Rəbb
versin! Qoy qanadı altına sığınmaq
üçün gəldiyin İsrailin Allahı Rəbb sənə
bol mükafat versin! 13 Rut dedi: «Qoy
sənin gözündə lütf tapım, ağam, necə də
mənə təsəlli verdin. Sənin kənizlərinin
birinə tay olmadığım halda bu kənizini
ürəkləndirən sözlər söylədin».

---

*1:20 *Naomi* – ibrani dilində *xoş.*
†1:20 *Mara* – ibrani dilində *acı.*

m2:2 Lev. 19:9-10; Qanun. 24:19

14 Yemək zamanı Boaz Ruta dedi:
«Buraya gəl, sən də çörəkdən ye,
tikəni sirkə-şirəyə batır». Qadın gəlib
biçinçilərin yanında əyləşdi. Boaz ona
qovurğa uzatdı. Qadın yeyib-doydu və
yeməyindən artıq da qaldı. 15 Rut başaq
yığmaq üçün ayağa qalxanda Boaz
nökərlərinə əmr edib dedi: «Qoy o gedib
dərzlərin arasından başaq yığsın, onu
incitməyin. 16 Dərzlər arasından çəkib
onun üçün də atın ki, o da yığsın. Onu
qınamayın».
17 Rut axşama qədər zəmidə başaq
yığdı və yığdığı başağı döyüb bir
efaya yaxın arpa çıxartdı. 18 Sonra
onu götürüb şəhərə gəldi. Qayınanası
gördü ki, o, başaq gətirib. Rut naharda
doyandan sonra artıq qalan yeməyini
qayınanasına verdi. 19 Qayınanası ona
dedi: «Bu gün harada başaq yığmısan?
Harada işləmisən? Sənə hörmət edən
qoy xeyir-dua alsın!» Rut yanında
işlədiyi adam haqqında qayınanasına
danışıb dedi: «Bu gün yanında işlədiyim
adamın adı Boazdır». 20 [n]Naomi gəlininə
dedi: «Dirilərdən və ölülərdən Öz
xeyirxahlığını əsirgəməyən Rəbb qoy
ona xeyir-dua versin!» Naomi yenə
dedi: «O, qohumumuzdur, yaxın
qəyyumlarımızdan biridir». 21 Moavlı
Rut dedi: «Bir də o mənə dedi ki, mənim
biçinim qurtarana qədər işçilərimlə
birgə işlə». 22 Naomi gəlininə dedi:
«Qızım, onun qulluqçu qızları ilə
işləməyin çox yaxşıdır, yoxsa başqa
zəmilərdə səni incidərlər».
23 Beləliklə, Rut arpa və buğda
biçinləri qurtarana qədər Boazın
qulluqçu qızlarının yanında başaq yığdı
və qayınanası ilə birgə yaşadı.

Rut Boazın xırmanında

3 Bir gün qayınanası Naomi Ruta
dedi: «Qızım, sənin ailə xoşbəxtliyin
üçün rahat bir yer axtarmayımmı? 2 Bax
qulluqçu qızları ilə sahəsində işlədiyin
Boaz bizim qohumumuzdur. O bu gecə
xırmanda arpa sovurur. 3 Sən də yuyun,
ətirlən və ən gözəl paltarını geyinib
xırmana en. Amma o yeyib-içməyini
qurtarmayınca özünü ona göstərmə.
4 Elə ki yatmağa getdi, yerini tapıb
onun ayaqlarının üstünü açaraq ayaq
tərəfində yatarsan. Sonra nə etmək
lazımdırsa, o özü sənə deyəcək».*
5 Rut ona «dediklərinin hamısına əməl
edərəm» dedi.
6 Rut xırmana endi və qayınanasının
bütün tapşırıqlarına əməl etdi. 7 Boaz
yeyib-içib kefi kökələndən sonra yatmaq
üçün məhsul tayasının kənarına getdi.
Rut da sakitcə gəldi və ayaqlarının
üstünü açıb ayaq tərəfində uzandı.
8 Gecə yarısı birdən Boaz səksəndi və
çevrilib baxanda gördü ki, ayaqlarının
yanında bir qadın uzanıb. 9 O, qadına
dedi: «Sən kimsən?» Qadın cavab verdi:
«Mən qarabaşın Rutam. Ətəyinlə bu
qarabaşının da üstünü ört, çünki sən
qəyyumumsan». 10 Boaz dedi: «Qoy
Rəbb sənə xeyir-dua versin, qızım!
Sonuncu xeyirxahlığın əvvəlkindən də
yaxşıdır. Çünki nə kasıb, nə də varlı bir
cavanın ardınca düşdün. 11 Qızım, daha
qorxma! Dediyin hər şeyi sənin üçün
edəcəyəm. Şəhərimizin bütün əhalisi
yaxşı bilir ki, sən xeyirxah qadınsan.
12 [o]Düzdür, sənin qəyyumun mənəm,
amma məndən də yaxın qəyyumun var.
13 Bu gecəni qal, sabah əgər o adam sənə
qəyyum olmaq istəsə, çox yaxşı, qoy
olsun. Yox, əgər bundan imtina etsə, var
olan Rəbb haqqı, sənin qəyyumun mən

*3:4 Bu, qədim Yəhudilərdə ərə getməyə bir işarədir.

[n]2:20 Lev. 25:25 [o]3:12 Rut 2:20

özüm olacağam. Hələlik sabaha qədər
yat».
14 Rut onun ayaqlarının yanında
sübhədək yatdı və səhərin
alaqaranlığında – hələ gözün yaxşı
seçmədiyi vaxtda ayağa qalxdı, çünki
Boaz demişdi: «Qoy heç kəs bilməsin ki,
xırmana bu qadın gəlib». 15 Sonra Boaz
Ruta dedi: «Üst örtüyünü götür, burada
tut». Rut örtüyünü götürüb kənarından
tutdu. Boaz altı ölçü arpanı örtüyün
üstünə töküb ona verdi. Rut şəhərə
qayıtdı.
16 O, qayınanasının yanına gələndə
qayınanası ona dedi: «Necə oldu,
qızım?» Rut Boazla olan hər şeyi
Naomiyə danışdı, 17 sonra dedi: «O
mənə altı ölçü arpa verib dedi ki,
qayınananın yanına əliboş qayıtma».
18 Naomi Ruta dedi: «Qızım, gözlə, gör
bu işin sonu necə qurtarır, çünki o adam
bu işi bu gün axıra çatdırmayınca sakit
olmayacaq».

Boazın Rutla evlənməsi

4 Boaz şəhərin darvazasına çıxıb
adamlar toplanan yerdə oturdu.
Boazın bəhs etdiyi qəyyum oradan
keçirdi. Onu görən Boaz «ay filankəs,
bir dön, burada otur» dedi. O da gəlib
orada oturdu. 2 Şəhər ağsaqqallarından
on adamı çağırıb «siz də burada
oturun» dedi. Onlar da gəlib orada
oturdular. 3 Boaz həmin qəyyuma dedi:
«Moav torpağından qayıdan Naomi,
qardaşımız Elimelekin zəmisini satır.
4 Mən də burada oturanların və xalqımın
ağsaqqalları qarşısında sənə eşitdirmək
istədim ki, oranı satın alasan. Əgər
sən bu qəyyumluq vəzifəsini yerinə
yetirəcəksənsə, bunu et, əgər bundan
imtina edirsənsə, bunu açıq de, mən də
bilim. Çünki səndən başqa bu vəzifəni
öhdəsinə götürən kimsə yoxdur, yalnız
səndən sonra mən varam». O, Boaza
dedi: «Qəyyumluq vəzifəsini mən
yerinə yetirərəm». 5 Boaz dedi: «Zəmini
Naomidən satın alarkən onun mərhum
oğlunun arvadı Moavlı Rutu da arvad
olaraq almalısan ki, mərhumun adı
öz irsi üzərində qalsın». 6 Qəyyum
olan adam dedi: «Mən ona qəyyumluq
edə bilmərəm, yoxsa öz irsim dağılar.
Mənim vəzifəmi sən öz öhdənə götür,
mən qəyyum ola bilmərəm».
7 [p]Qədim zamanlarda İsraildə belə bir
adət var idi: qəyyumluq vəzifəsini icra
edərkən və mal dəyişərkən müqavilə
bağlanmasına şəhadət olsun deyə biri
öz çarığını çıxarıb başqasına verərdi.
Bu, İsraildə qəbul olunan razılaşma
üsulu idi. 8 Qəyyum olan adam Boaza
dedi: «Sən özün satın al». Sonra da o
öz çarığını çıxardı. 9 Boaz ağsaqqallara
və bütün xalqa dedi: «Siz də bu gün
şahidsiniz ki, mən Elimelekin bütün
mülkünü, Kilyon və Maxlonun bütün
mülklərini Naomidən satın alıram.
10 [q]Mərhumun adı öz irsi üzərində
qalsın deyə Maxlonun dul arvadı Moavlı
Rutu da özümə arvad alıram. Qoy
qardaşları arasından, yurd qapılarından
mərhumun adı silinməsin. Siz də bu gün
şahidsiniz». 11 [r]Darvaza yanına yığılan
bütün xalq və ağsaqqallar dedilər: «Biz
şahidik, qoy Rəbb sənin evinə gələn
qadını İsrail evini quran iki qadın Rəhilə
və Lea kimi etsin. Efratada qüdrətli
işlər görəsən və Bet-Lexemdə adın
tanınsın. 12 [s]Qoy Rəbb sənin evini bu
gənc qadından verəcəyi nəsli Tamarın
Yəhudaya doğduğu Peresin evi kimi
etsin».
13 Boaz Rutu aldı və Rut ona arvad
oldu. Boaz onun yanına girdi. Rəbb
Rutun bətninə uşaq verdi və Rut oğul

[p] **4:7** Qanun. 25:9 [q] **4:10** Qanun. 25:5-6 [r] **4:11** Yar. 29:31
[s] **4:12** Yar. 38:27-30

doğdu. [14] Qadınlar Naomiyə dedilər:
«Rəbbə alqış olsun ki, bu gün sənə
gələcək qəyyumunu verdi. Qoy onun
adı İsraildə tanınsın. [15] Bu körpə səni
canlandıracaq və qoca vaxtında səni
saxlayacaq. Çünki onu sənə yeddi
oğuldan daha yaxşı olan, səni sevən
gəlinin doğmuşdur». [16] Naomi uşağı
qucağına alıb gəzdirdi və onun dayəsi
oldu. [17] Qonşu qadınlar ona ad qoyub
dedilər: «Naomi üçün oğul doğulub».
Onun adını Oved qoydular. O, Davudun
atası olan Yesseyin atasıdır.

Davudun nəsil şəcərəsi

[18] Peresin nəsli budur: Peresdən
Xesron törədi. [19] Xesrondan Ram
törədi. Ramdan Amminadav törədi.
[20] Amminadavdan Naxşon törədi.
Naxşondan Salmon törədi. [21] Salmondan
Boaz törədi. Boazdan Oved törədi.
[22] Oveddən Yessey törədi. Yesseydən də
Davud törədi.

BİRİNCİ ŞAMUEL

KİTABI

GİRİŞ

«1 Şamuel» Kitabı İsrailin hakimlər dövründən padşahlığa keçid dövrünün salnaməsidir. Ölkədə dəyişikliklər əsasən üç nəfər – böyük hakimlərin sonuncusu Şamuelin, İsrailin birinci padşahı Şaulun və onların qarşılaşdığı İsrailin gələcək hökmdarı Davudun vasitəsilə baş verir. Şamuel və Şaul gənc Davudun həyatına təsir edir.

Əhdi-Ətiqin digər tarixi yazıları kimi bu kitabın da əsas mövzusu belədir: Allaha sədaqət uğur, itaətsizlik isə fəlakət gətirir. Bu fikir Rəbbin kahin Eliyə göndərdiyi xəbərdə aydın ifadə olunur: «Mənə hörmət edənləri hörmətə çatdıracağam, Məni saymayanlar isə rüsvay ediləcək!» (2:30).

«1 Şamuel» Kitabında padşahlığın qurulmasına müsbət nöqteyi-nəzərdən baxılmır, çünki Rəbb Özü İsrailin padşahı sayılırdı. Lakin xalqının xahişini nəzərə alaraq Rəbb onlar üçün padşah seçdi. Ən vacib o idi ki, İsrail xalqı da, padşah da Allahın hakimiyyəti altında yaşayırdı. Bütün xalqın – varlıların da, kasıbların da hüquqları Allahın qanunlarının himayəsi altında qorunurdu.

Qədim yunan və bəzi müasir tərcümələrdə *«1 və 2 Şamuel»* ilə *«1 və 2 Padşahlar»* Kitabları *«1, 2, 3 və 4 Padşahlıqlar»* başlığı ilə yazılıb.

Kitabın məzmunu:

1:1–7:17 Şamuel İsrailin hakimidir

8:1–10:27 Şaulun padşah seçilməsi

11:1–15:35 Şaulun hakimiyyətinin ilk illəri

16:1–30:31 Şaulun Davudu təqib etməsi

31:1-13 Şaul və oğullarının ölümü

Şamuelin doğulması

1 Efrayimin dağlıq bölgəsində yerləşən Ramatayim-Sofim şəhərində Elqana adlı bir adam yaşayırdı. O, Efrayim sakini olub Suf tayfasından – Suf oğlu Toxu oğlu Elihu oğlu Yeroxamın oğlu idi. [2] Elqananın Xanna və Peninna adında iki arvadı vardı. Peninnanın uşaqları var idi, amma Xannanın övladı olmurdu. [3] Elqana Ordular Rəbbinə səcdə qılmaq və qurban kəsmək üçün hər il öz şəhərindən Şiloya gedərdi. Orada Elinin iki oğlu – Xofni və Pinxas Rəbbin kahinləri idi. [4] Elqana qurban kəsilən gün arvadı Peninnaya, oğul və qızlarının hamısına pay verərdi. [5] Xannaya isə ikiqat pay verərdi. Rəbb onun bətnini bağlamışdı, buna baxmayaraq Elqana onu çox sevirdi. [6] Günüsü Peninna isə Xannanın Rəbb tərəfindən bətninin bağlanmasına görə həmişə ona sataşar və xətrinə dəyərdi. [7] Bu, illərlə belə davam edirdi. Xanna hər dəfə Rəbbin ibadətgahına gedəndə günüsü ona söz atar, Xanna da ağlayar, yemək yeməzdi. [8] Bir gün əri Elqana ona dedi: «Xanna, niyə ağlayırsan? Niyə yemək yemirsən? Axı niyə kədərlisən? Mən sənə on oğuldan da artıq deyiləmmi?»

[9] Onlar Şiloda yeyib-içəndən sonra Xanna ayağa qalxdı. Kahin Eli Rəbbin məbədinin qapısının yanındakı kürsüdə oturmuşdu.

[10] Xanna ürək yanğısı ilə dua edərək acı-acı ağlayırdı. [11] Rəbbə yalvararaq əhdini belə söylədi: «Ey Ordular Rəbbi, Öz dərdli bəndənin vəziyyətini görürsən. Mən bəndəni unutmayıb bir oğul versən, oğlumun həyatını Sənə

həsr etmək üçün verər və qoymaram ki,
onun başına ülgüc dəysin».*
12 Xanna Rəbbin hüzurunda uzun
müddət dua etdi. Eli isə onun ağzına
baxırdı. 13 Xanna qəlbində yalvardığı
üçün yalnız dodaqları tərpənirdi, səsi
eşidilmirdi. Eli elə güman etdi ki, o
sərxoşdur. 14 Ona görə də dedi: «Nə
vaxta qədər sərxoşluq edəcəksən?
Bəsdir, at bu şərabı». 15 Xanna
cavabında dedi: «Xeyr, ağam, mən nə
şərab içmişəm, nə də başqa kefləndirici
içki. Könlü qəm-qüssəli bir qadınam
ki, sadəcə Rəbbin hüzurunda ürəyimi
boşaldıram. 16 Kənizini pis qadın sanma.
Bu yalvarışım indiyədək çəkdiyim
böyük qayğı və əziyyətə görədir». 17 Eli
cavab verib dedi: «Salamat get, qoy
İsrailin Allahı səni muradına çatdırsın!»
18 Xanna «təki bəndən sənin gözlərində
lütf tapsın» deyib yolu ilə getdi və
yemək yedi. Artıq çöhrəsi kədərli
deyildi.
19 Ertəsi gün onlar sübh tezdən qalxıb
Rəbbə səcdə qılandan sonra Ramadakı
evlərinə qayıtdılar. Elqana arvadı Xanna
ilə yaxınlıq etdi və Rəbb də Xannanı
yada saldı. 20 Vaxt keçdi, Xanna hamilə
olub bir oğul doğdu. «Onu Rəbdən
dilədim» deyərək adını Şamuel† qoydu.

Xannanın Şamueli Allaha təqdim etməsi

21 Elqana Rəbbə illik qurbanını və
əhdini yerinə yetirmək üçün evdəkilərlə
bərabər Şiloya getdi. 22 Amma Xanna
getmədi. Ərinə «körpəni süddən
kəsəndən sonra onu Rəbbə xidmət
etmək üçün aparacağam və ömrü boyu
orada qalacaq» dedi. 23 Əri Elqana
ona dedi: «Gözündə nə xoşdursa,
elə də et, onu süddən ayırana qədər
evdə otur. Qoy Rəbb Öz vədini yerinə
yetirsin». Qadın evdə qalıb oğlunu
süddən ayırana qədər əmizdirdi.
24 Uşağı süddən ayırandan sonra
Xanna onu üç buğa, bir efa un və bir
tuluq şərabla birlikdə Rəbbin Şilodakı
ibadətgahına apardı. Uşaq isə hələ
balaca idi. 25 Buğanı kəsəndən sonra
uşağı Eliyə verdilər. 26 Xanna dedi: «Ey
ağam, canına and olsun, burada – sənin
yanında durub Rəbbə yalvaran qadın
mənəm. 27 Yalvarışım bu uşaq üçün idi,
Rəbb muradımı yerinə yetirdi. 28 Mən
onu Rəbbə əhd etmişdim və ömrü boyu
Rəbbə həsr olunmalıdır». Sonra uşaq
orada Rəbbə səcdə etdi.

Xannanın duası

2 tXanna Rəbbə belə dua etdi:
«Rəbdə tapdığım sevincdən ürəyim
cuşa gəlir,
Rəbb mənə böyük güc verir, ‡
Düşmənlərimin önündə öyünürəm,
Çünki Sən məni qurtardığına görə
sevinirəm.
2 Rəbbə oxşar ikinci müqəddəs
yoxdur,
Ey Rəbb, yeganəsən Sən!
Allahımız kimi sığınacaq qaya
yoxdur!
3 Artıq qürurla danışmayın,
Dilinizdən təkəbbürlü sözlər çıxmasın.
Çünki Rəbb hər şeyi bilən Allahdır,
Hər iş Onun tərəfindən ölçülür.
4 İgidlərin yayları qırılır,
Büdrəyənlər isə Onun qüdrəti ilə
qurşanır.
5 Toxlar azuqə üçün muzdla işlərkən
Aclar doyuzdurulur.
Sonsuz qadın yeddi övlad doğur,

*1:11 Saçını qırxdırmamaq özünü Rəbbə təqdim etmək əlamətidir. Bax: Say. 6:5.
†1:20 *Şamuel* – ibrani dilində *Allah tərəfindən eşidildi.*
‡2:1 *Mənə böyük güc verir* – bu cümlə ibrani dilində *buynuzumu yüksəldir* idiomudur.

t2:1 Luka 1:46-55

Çoxuşaqlı qadın isə tənha qalır.
6 Rəbb insanı həm öldürür, həm
dirildir.
Ölülər diyarına həm endirir, həm
çıxarır.
7 Rəbb yoxsulluq və var-dövlət
göndərir,
Alçaldır və yüksəldir.
8 uO, yoxsulları toz-torpağın içindən
götürür,
Fəqirləri küllükdən çıxarır.
Onları hökmdarların yanında
əyləşdirir,
Onlara irs olaraq şərəf taxtını verir.
Çünki Rəbb yerin təməlini qoydu,
Onun üzərində dünyanı qurdu.
9 Sadiq qullarının addımlarını
qoruyur,
Pisləri isə zülmətdə susdurur.
Çünki insan öz qüvvəsi ilə zəfər
çalmır.
10 Rəbbə qarşı duranlar parça-parça
olacaq,
Haqq-Taala onların üzərində göyləri
gurladacaq.
Rəbb yer üzünün qurtaracağınadək
hər yerdə hakimlik edir,
Öz padşahına qüvvət verəcək,
Məsh etdiyinə böyük güc verəcək!»
11 Sonra Elqana Ramadakı evinə
qayıtdı. Kiçik Şamuel isə kahin Elinin
nəzəri altında Rəbbə xidmət etməyə
başladı.

Elinin oğullarının pis əməlləri

12 Elinin oğulları yaramaz adamlar idi.
13 Onlar Rəbbi tanımırdı. Bu kahinlərin
xalqla rəftarı belə idi: qurban təqdim
edilən zaman, ət qaynayarkən kahinin
xidmətçisi əlində üçdişli ət qarmağı
ilə gələrdi. 14 Ət qarmağını qazana,
təknəyə, tavaya, bardağa salardı və
qarmaqla nə çıxardısa, bu kahinlər onu
özlərinə götürərdi. Onlar Şiloya qurban
gətirən İsraillilərin hamısı ilə belə rəftar
edirdilər. 15 Üstəlik də qurbanın iç piyini
yandırmazdan əvvəl kahinin xidmətçisi
gəlib qurban gətirən adama deyərdi:
«Kahinə qızartma üçün ət ver. İndi isə
o səndən bişmiş ət deyil, çiy ət istəyir».
16 Əgər qurban gətirən «qoy əvvəlcə iç
piyi yandırılsın, sonra istədiyin payı
gəl götür» deyərdisə, xidmətçi «xeyr,
indi ver, yoxsa zorla götürərəm» deyə
cavab verərdi. 17 Rəbbin gözü önündə
bu gənclər çox böyük günah işlədirdilər,
çünki onlar Rəbbə gətirilən təqdimlərə
hörmət etmirdilər.
18 Kiçik Şamuel isə əyninə kətan efod
geyərək Rəbbin önündə xidmət edirdi.
19 Anası Şamuelə kiçik cübbə tikərdi.
Hər il atası illik qurbanı təqdim etmək
üçün Şiloya gələndə o da tikdiyi kiçik
cübbəni gətirib oğluna verərdi. 20 Kahin
Eli isə Elqana ilə arvadına xeyir-dua
verərək «arvadının istədiyi və Rəbbə
əhd etdiyi uşağın yerinə Rəbb sənə bu
qadından yeni övladlar versin» deyərdi.
Bundan sonra onlar evlərinə qayıdardı.
21 Rəbbin lütfü ilə Xanna yenə hamilə
olub bundan sonra üç oğul və iki
qız doğdu. Kiçik Şamuel isə Rəbbin
hüzurunda böyüyürdü.
22 Eli artıq çox qocalmışdı. O,
oğullarının İsraillilərə etdikləri və
Hüzur çadırının girişində xidmət edən
qadınlarla əxlaqsızlıqları barədə hər
şeyi eşitmişdi. 23 Eli onlara dedi: «Nə
edirsiniz? Bütün xalqdan etdiyiniz
pis əməllər barədə eşidirəm. 24 Belə
yaramaz, oğullarım! Eşitdiyim yaxşı
xəbər deyil. Rəbbin xalqını yoldan
çıxarırsınız. 25 İnsan insana qarşı
günah işlədərsə, onun üçün Allaha
yalvarmaq olar. Amma Rəbbə qarşı
günah işlədənə kim yalvarışla zamin
durar?» Lakin onlar atalarının sözlərinə

---

u**2:8** Zəb. 113:7

qulaq asmazdılar, çünki Rəbb onları
ölümə məhkum etmişdi.
26 [v]Kiçik Şamuel isə getdikcə böyüyür,
Rəbbin və insanların gözündə hörmət
qazanırdı.

Elinin oğulları haqqında peyğəmbərlik sözü

27 Həmin dövrdə bir Allah adamı
Elinin yanına gəlib söylədi: «Rəbb
belə deyir: “Misirdə atan və onun
nəsli fironun xalqına kölə olarkən
Özümü onlara aydın göstərmədimmi?
28 [w]Qurbangahıma çıxaraq buxur
yandırıb önümdə efod geyməsi üçün
bütün İsrail qəbilələri arasından yalnız
atanı Özümə kahin seçmədimmi?
İsraillilərin verdiyi yandırma
təqdimlərinin hamısını atanın
nəslinə vermədimmi? 29 Bəs nə üçün
məskənimə buyurduğum qurban və
təqdimlərə hörmətsizlik edirsiniz? Nə
üçün oğullarını Məndən üstün tutursan?
Xalqım İsrailin bütün təqdimlərinin
ən əlası ilə özünüzü kökəltdiyinizə
görəmi?” 30 Ona görə də İsrailin Allahı
Rəbb belə deyir: “Həqiqətən, ailən
və ata nəslin əbədilik Mənə xidmət
edəcək” demişdim, amma indi belə
deyirəm: “Yox, Mən belə etməyəcəyəm.
Mənə hörmət edənləri hörmətə
çatdıracağam, Məni saymayanlar isə
rüsvay ediləcək! 31 Budur, elə günlər
gəlir ki, sənin də, ata nəslinin də gücünü
qıracağam və nəslindən heç kim uzun
ömür sürməyəcək. 32 İsrailə etdiyim
yaxşılığın əvəzinə sən evində qəm-qüssə
görəcəksən və artıq nəslindən heç kim
uzun ömür sürməyəcək. 33 Aranızda
qurbangahımdan ayağını kəsmədiyim
bir adam olacaq ki, onu da gözlərini
kor etmək və qəlbini kədərləndirmək
üçün sağ saxlayacağam. Nəslindən
olanların hamısı az ömür sürüb öləcək.
34 İki oğlunun – Xofni və Pinxasın
eyni bir gündə ölməsi sənə bir işarə
olacaq. 35 Mən isə Özümə istəklərimi
və arzularımı yerinə yetirən vəfalı
bir kahin seçəcəyəm. Onun nəslini
əbədiləşdirəcəyəm. Məsh etdiyimin
önündə o xidmət edəcək. 36 Ailəndən
sağ qalan hər kəs bir az gümüş pul
və bir parça çörək üçün gəlib onun
qarşısında əyiləcək, ‹nə olar, bir parça
çörək üçün mənə hər hansı bir kahinlik
işi ver› deyərək yalvaracaq”».

Allahın Şamueli çağırması

3 Gənc Şamuel Elinin başçılığı altında
Rəbbə xidmət edirdi. O vaxt Rəbbin
sözünün nazil olması və görüntülərin
görülməsi nadir hallarda baş verirdi.
2 Bir gecə Eli yatağında uzanmışdı.
Onun gözləri zəif olduğuna görə
yaxşı görmürdü. 3 Şamuel isə Rəbbin
məbədində – Allahın sandığı olan
yerdə uzanmışdı və Allahın çırağı hələ
sönməmişdi.
4 Rəbb Şamueli çağırdı. O
«buradayam» deyə cavab verdi.
5 Sonra da Elinin yanına qaçıb «məni
çağırdın, mən buradayam» dedi. Amma
Eli «mən çağırmamışam, get yat» deyə
cavab verdi. Şamuel gedib yatdı. 6 Rəbb
«Şamuel!» deyə yenidən çağırdı. Şamuel
yenə qalxıb Elinin yanına getdi və
«Məni çağırdın? Mən buradayam!»
dedi. Eli yenə də «mən çağırmadım
oğlum, get yat» deyə cavab verdi.
7 Şamuel Rəbbi hələ tanımırdı və Rəbbin
sözü ona açılmamışdı. 8 Rəbb üçüncü
dəfə Şamueli çağırdı və Şamuel yenə
qalxaraq Elinin yanına gedib dedi: «Bax
buradayam, məni sən çağırdın». O anda
Eli anladı ki, gənc Şamueli çağıran
Rəbdir. 9 Buna görə də Şamuelə dedi:
«Get uzan, yenə səni çağırarsa, belə

---

[v]**2:26** Sül. 3:4; Luka 2:52 [w]**2:28** Çıx. 28:1-4; Lev. 7:35-36

deyərsən: “Danış, ya Rəbb, qulun Səni
eşidir”». Şamuel gedib yerində yatdı.
10 Rəbb gəlib orada durdu və əvvəlki
kimi «Şamuel! Şamuel!» deyə çağırdı.
Şamuel dedi: «Danış, ya Rəbb, qulun
Səni eşidir». 11 Rəbb Şamuelə belə
dedi: «Bax İsraildə elə bir iş görəcəyəm
ki, eşidənin qulaqları cingildəyəcək.
12 Həmin gün Elinin evi haqqında
dediklərimin hamısını əvvəldən axıra
qədər yerinə yetirəcəyəm. 13 Çünki ona
çatdırmışdım ki, özü bildiyi günahlarına
görə onun evini əbədi məhkum
edəcəyəm. Oğulları özlərini alçaltdılar.
Eli isə onların qarşısını almadı. 14 Buna
görə də and içmişəm ki, Elinin ailəsinin
günahı heç vaxt nə qurban, nə də başqa
təqdimlərlə bağışlanmayacaq».
15 Şamuel səhərə qədər uzandı, sonra
Rəbbin ibadətgahının qapılarını açdı.
Eşitdiyi görüntünü isə Eliyə bildirməyə
qorxdu. 16 Amma Eli onu «Şamuel,
oğlum» deyə səslədi. Şamuel cavab
verib dedi: «Bəli, buradayam». 17 Eli
ondan soruşub dedi: «Rəbb sənə nə
dedi? Rica edirəm, məndən gizlətmə.
Əgər sənə dediklərindən birini belə,
məndən gizlətsən, Allah sənə beləsini
və bundan betərini etsin». 18 Bundan
sonra Şamuel heç nə gizlətmədi və ona
hər şeyi danışdı. Eli də dedi: «O, Rəbdir,
gözündə nə xoşdursa, onu da etsin».
19 Şamuel böyüdü. Rəbb onunla
idi və Rəbb onun sözlərindən heç
birini boşa çıxartmadı. 20 Rəbbin
Şamueli peyğəmbər kimi təsdiq etdiyini
Dandan Beer-Şevaya qədər bütün İsrail
bildi. 21 Rəbb yenə Şiloda görünməyə
başladı. O Özünü Şamuelə kəlamı ilə
göstərmişdi.

Əhd sandığının ələ keçməsi

4 Şamuelin sözü bütün İsrailə
yayılmışdı. O dövrdə İsraillilər
Filiştlilərə qarşı döyüşmək üçün
çıxdılar. 2 İsraillilər Even-Ezerdə,
Filiştlilər isə Afeqdə ordugah qurdular.
Filiştlilər İsraillilərlə döyüşmək üçün
düzüldülər. Döyüş qızışanda İsraillilər
Filiştlilərə məğlub oldular və döyüş
meydanında dörd minə yaxın İsrailli
qırıldı. 3 Xalq ordugaha qayıdarkən
İsrail ağsaqqalları bir-birindən soruşdu:
«Görəsən Rəbb bu gün bizi Filiştlilər
qarşısında nə üçün məğlub etdi? Şilodan
Rəbbin Əhd sandığını yanımıza gətirək.
Qoy aramızda olsun və bizi düşmənlərin
əlindən qurtarsın». 4 [x]Xalq Şiloya adam
göndərdi. Keruvlar arasında taxt qurmuş
Ordular Rəbbinin Əhd sandığını oradan
gətirdilər. Elinin iki oğlu Xofni və
Pinxas Allahın Əhd sandığının yanında
idi.
5 Rəbbin Əhd sandığı ordugaha çatan
kimi bütün İsraillilər bərkdən elə
qışqırdılar ki, yer titrədi. 6 Bu qışqırığın
gurultusunu eşidərkən Filiştlilər belə
dedilər: «İbranilərin ordugahında niyə
belə böyük qışqırıq və gurultu var?»
Ordugaha Rəbbin sandığının gəldiyini
bildikdə 7 Filiştlilər qorxub dedilər:
«Ordugaha allahlar gəlib, vay halımıza!
Çünki bundan əvvəl belə bir şey
olmamışdı. 8 Vay halımıza! Bu qüdrətli
allahların əlindən bizi kim qurtaracaq?
Səhrada Misirlilərə hər cür bəla verən
allahlar bunlardır. 9 Ey Filiştlilər,
cəsur olun, kişi kimi dayanın! Yoxsa
İbranilər sizə necə boyun əydilərsə, siz
də onlara elə boyun əyəcəksiniz! Kişi
kimi dayanın və döyüşün!»
10 Filiştlilər vuruşdular. İsraillilər
məğlub oldu və hamısı öz çadırına
qaçdı. Çox böyük qırğın oldu və
İsraillilərdən otuz min piyada həlak
oldu. 11 Allahın sandığı ələ keçirildi və
Elinin iki oğlu – Xofni ilə Pinxas öldü.

---

[x]**4:4** Çıx. 25:22

Elinin ölümü

12 Bir nəfər Binyaminli döyüş
yerindən qaçaraq elə həmin gün gəlib
Şiloya çatdı. Onun paltarı cırılmış,
başı toz-torpaq içində idi. 13 Budur, o
gələn zaman Eli kürsü üstündə oturub
yol kənarında gözləyir və Allahın
sandığından ötrü ürəyi çırpınırdı.
Bu adam şəhərə girib baş verən
hadisələri danışanda bütün şəhər şivən
qopardı. 14 Eli bu səsi eşidəndə «Bu nə
səs-küydür?» deyə soruşdu. Bu adam
tez gəlib hər şeyi Eliyə danışdı. 15 Eli
doxsan səkkiz yaşında idi, artıq gözləri
tutulmuşdu, görmürdü. 16 Həmin adam
Eliyə dedi: «Mən döyüş meydanından
gəlirəm. Bu gün döyüşdən qaçmışam».
Eli soruşdu: «Oğlum, nə baş verib?»
17 Xəbər gətirən adam belə cavab verdi:
«İsraillilər Filiştlilərin qabağından
qaçdılar və xalq arasında böyük qırğın
oldu. İki oğlun Xofni ilə Pinxas ölmüş,
Allahın sandığı isə ələ keçirilmişdir».
18 Bu adam Allahın sandığından danışan
zaman Eli kürsüdən arxaya – qapının
yanına yıxıldı; həm qoca, həm də kök
olduğu üçün boynu qırıldı və öldü. O,
qırx il İsrail xalqına hakimlik etmişdi.
19 Elinin gəlini – Pinxasın arvadı
hamilə idi. Doğuş vaxtı çatmışdı. Allahın
sandığının ələ keçirildiyini, qayınatası
ilə ərinin ölüm xəbərini eşidərkən onun
ağrısı tutdu və çömbəlib doğdu. 20 Ölüm
ayağında ona kömək edən qadınlar
dedilər: «Qorxma, bir oğlun oldu». O isə
bunu əhəmiyyətsiz bir şey saydığı üçün
cavab vermədi. 21 Çünki Allahın sandığı
ələ keçmiş, qayınatası ilə əri ölmüşdü.
Buna görə də «İsrail şərəfdən düşdü»
deyərək körpəsinin adını İkavod qoydu.
22 O dedi: «Allahın sandığı ələ keçirildi,
İsrail şərəfdən düşdü».

Allahın Filiştlilərə qəzəbi

5 Filiştlilər Allahın sandığını ələ
keçirib Even-Ezerdən Aşdoda
apardılar. 2 Allahın sandığını Daqonun
məbədinə aparıb Daqonun heykəlinin
yanına qoydular. 3 Ertəsi gün Aşdodlular
erkən duranda Daqonu Rəbbin
sandığının önündə üzüstə yerə düşmüş
gördülər. Onlar Daqonu götürüb öz
yerinə qoydular. 4 Amma ertəsi gün
səhər erkən durduqları vaxt gördülər
ki, Daqon yenə Rəbbin sandığının
önündə üzüstə yerə düşmüşdür. Bu
dəfə isə Daqonun başı ilə iki əli qırılıb
kandarın üstünə düşmüş və yalnız
gövdəsi qalmışdı. 5 Daqonun kahinləri
də, Aşdoddakı Daqon məbədinə gələnlər
də buna görə bu günə qədər bu məbədin
kandarına ayaq basmırlar.
6 Rəbbin əli Aşdodlular üzərində
ağırlaşdı. Onlara və ətrafındakı camaata
bəla verib bədənlərinə şişlər çıxartdı.
7 Aşdodlular vəziyyətin belə olduğunu
görəndə dedilər: «Qoy İsrail Allahının
sandığı bizim yanımızda qalmasın,
çünki Onun əli bizim və allahımız
Daqonun üzərində ağır oldu». 8 Ona
görə də hər tərəfə qasidlər göndərərək
bütün Filiştlilərin ağalarını yanlarına
toplayıb soruşdular: «İsrail Allahının
sandığını nə edək?» Filiştlilərin ağaları
isə dedilər: «İsrail Allahının sandığı Qata
aparılsın». Beləliklə, İsrail Allahının
sandığını Qata apardılar. 9 Onlar sandığı
Qata gətirəndən sonra Rəbbin əli bu
şəhərin üstündə də ağırlaşdı. Şəhəri
dəhşətli qorxu bürüdü, böyükdən-kiçiyə
qədər şəhər sakinlərinin hamısına
zərbə dəydi. Onların da bədənlərinə şiş
çıxdı. 10 Bu hadisədən sonra Allahın
sandığını Eqrona göndərdilər. Allahın
sandığı Eqrona çatanda Eqronlular
fəryad qoparıb dedilər: «Bizi və
xalqımızı öldürmək üçün İsrailin
Allahının sandığını bura gətirdilər!»

11 Ona görə də hər tərəfə qasidlər
göndərib bütün Filiştlilərin ağalarını
yanlarına toplayaraq dedilər: «İsrail
Allahının sandığını göndərin getsin
yerinə, qoy bizi və xalqımızı qırmasın».
Çünki bütün şəhəri ölüm vahiməsi
bürümüşdü və Allahın əli ora üçün də
çox ağır olmuşdu. 12 Sağ qalanların da
bədənlərinə şiş çıxdı və şəhərin fəryadı
ərşə qalxdı.

Əhd sandığının İsrailə qaytarılması

6 Rəbbin sandığı Filiştlilərin diyarında
yeddi ay qaldı. 2 Filiştlilər kahinlərlə
falçıları çağırıb dedilər: «Bu Rəbbin
sandığını nə edək? Onu öz yerinə necə
qaytarmağı bizə başa salın». 3 Kahinlər
və baxıcılar dedilər: «İsrail Allahının
sandığını geri göndərmək istəyirsinizsə,
boş göndərməyin. Ona mütləq təqsir
təqdimi verməlisiniz. O zaman
sağalacaqsınız və O sizdən nə üçün əl
çəkmədiyini bildirəcək». 4 Filiştlilər
soruşdular: «Ona göndərəcəyimiz təqsir
təqdimi nə olmalıdır?» Kahinlər və
baxıcılar belə cavab verdi: «Filiştlilərin
ağalarının sayına görə beş qızıl şiş
surəti ilə beş qızıl siçovul surəti
düzəldib göndərin. Çünki bu bəla həm
sizin, həm də ağalarınızın üstündədir.
5 Ona görə də həm şişlərinizin, həm
də ölkənizi dağıdan siçovulların
surətlərini yaradın və İsrailin
Allahını şərəfləndirin. Bəlkə O sizin,
allahlarınızın və torpağınızın üstündə
əlini yüngülləşdirdi. 6 Misirlilərlə
fironun ürəyi inadkarlıq etdiyi kimi nə
üçün sizin də ürəkləriniz inadkarlıq
edir? Allah onlarla sərt davrananda
İsraillilər azad buraxmadılarmı?
7 İndi isə bir təzə araba düzəldin və
boyunduruğa qoşulmayan iki sağmal
inəyi arabaya qoşun. Balalarını isə
onlardan ayırıb evə göndərin. 8 Rəbbin
sandığını götürüb arabaya qoyun və
təqsir təqdimi olaraq Ona ödəyəcəyiniz
qızıl əşyaları isə bir mücrü içərisində
sandığın yanına qoyun, sonra da yola
salın getsin. 9 Amma baxın, onlar
sandığın olduğu torpağa – Bet-Şemeş
yoluna qalxarlarsa, deməli, bu böyük
bəlanı bizə verən Odur. Yox, əgər
oraya getməzlərsə, onda biləcəyik ki,
bizi vuran Onun əli deyil və bu qəza
başımıza təsadüfən gəlmişdir».
10 Adamlar belə də etdilər. İki
sağmal inək gətirib arabaya qoşdular
və balalarını da evdə bağladılar.
11 Rəbbin sandığı ilə bərabər içərisində
siçovulların və şişlərin qızıl surətləri
yığılmış mücrünü də arabaya
qoydular. 12 İnəklər birbaşa Bet-Şemeşə
gedən yolla sağa-sola dönmədən,
böyürə-böyürə getdilər. Filiştlilərin
ağaları isə onları Bet-Şemeş sərhədinə
qədər ötürdülər.
13 O zaman Bet-Şemeşlilər zəmidə
buğda biçirdilər. Onlar başlarını
qaldırıb sandığı görəndə sevindilər.
14 Araba Bet-Şemeşli Yeşuanın zəmisinə
girib böyük bir daşın yanında dayandı.
Bet-Şemeşlilər arabanın ağaclarını
qırdılar, inəkləri isə Rəbbə yandırma
qurbanı verdilər. 15 Levililər Rəbbin
sandığını və onun yanındakı qızıl
əşyalar yığılmış mücrünü arabadan
endirib böyük bir daşın üstünə
qoydular. O gün Bet-Şemeşlilər Rəbbə
yandırma qurbanı verib başqa qurbanlar
da kəsdilər. 16 Filiştlilərin beş ağası bu
hadisəni gördükdən sonra həmin gün
Eqrona qayıtdı.
17 Filiştlilərin təqsir təqdimi olaraq
Rəbbə gətirdikləri qızıl şişlərin hər biri
Aşdod, Qəzzə, Aşqelon, Qat, Eqron
üçün olub bu şəhərlərin sayına görə
idi. 18 Qızıl siçovullar isə qala divarlı
şəhərlərlə ətraf kəndlər də daxil olmaqla
beş ağaya məxsus Filişt şəhərlərinin
sayına görə beş dənə idi. Bet-Şemeşli
Yeşuanın zəmisində Rəbbin sandığı
qoyulan böyük daş bu günə qədər

şahid kimi qalmaqdadır. 19 Rəbbin
sandığının içinə baxdıqları üçün Allah
Bet-Şemeşliləri də vurdu və əlli ailədən
yetmiş nəfəri *öldürdü. Xalq isə Rəbbin
onların başına gətirdiyi müsibətə görə
yas tutdu. 20 Bet-Şemeşlilər dedilər:
«Bu müqəddəs Allah olan Rəbbin
qarşısında kim dayana bilər? Bizdən
sonra kimin yanına gedəcək?» 21 Sonra
Qiryat-Yearim əhalisinə qasidlər
göndərib dedilər: «Filiştlilər Rəbbin
sandığını geri qaytardılar, gəlin onu
aparın».

Şamuelin İsrailə hakimlik etməsi

7 [y]Qiryat-Yearim əhalisi gəlib Rəbbin
sandığını apardı. Onu təpədə olan
Avinadavın evinə çıxartdı və oğlu
Eleazarı Rəbbin sandığına nəzarətçi
təyin etdi. 2 Sandıq Qiryat-Yearimə
gələn gündən çox vaxt keçdi: iyirmi il
tamam oldu. Bütün İsrail xalqı Rəbbin
intizarını çəkirdi.
3 Şamuel bütün İsraillilərə müraciət
edib dedi: «Əgər bütün qəlbinizlə Rəbbə
dönürsünüzsə, yad allahları, Aştoret
bütlərini atıb ürəyinizi Rəbbə verin və
yalnız Ona qulluq edin. Sizi Filiştlilərin
əlindən O qurtaracaq». 4 O zaman İsrail
övladları Baal bütlərini və Aştoret
bütlərini rədd edib yalnız Rəbbə qulluq
etdilər.
5 Şamuel dedi: «Bütün İsraillilər
Mispaya toplayın və mən sizə görə
Rəbbə yalvaracağam». 6 Onlar Mispaya
toplaşdılar, su çəkib Rəbbin önünə
tökdülər və o gün orada oruc tutub
dedilər: «Rəbbə qarşı günah işlətmişik».
Şamuel Mispada İsraillilərə hakimlik
edirdi.
7 İsrail övladlarının Mispada
toplandığını Filiştlilər eşidəndə
Filiştlilərin ağaları İsraillilərə qarşı
çıxdılar. Bunu eşidən İsrail övladları
Filiştlilərdən qorxdu. 8 Ona görə də
İsrail övladları Şamuelə dedilər: «Bizi
Filiştlilərin əlindən qurtarmaq üçün
Allahımız Rəbbə durmadan yalvar».
9 Şamuel bir əmlik quzu götürərək onu
bütövlüklə Rəbbə yandırma qurbanı
verdi və o, İsrail üçün Rəbbə yalvardı.
Rəbb Şamuelə cavab verdi. 10 Şamuel
yandırma qurbanı verərkən Filiştlilər
İsrailə hücum etmək üçün yaxınlaşdılar.
Rəbb o gün güclü səslə gurlayıb
Filiştlilərin üzərinə vəlvələ saldı və
onları İsrailin önündə məğlub etdi.
11 İsraillilər Mispadan çıxıb Bet-Kar
altına çatana qədər Filiştliləri qovaraq
qırdılar.
12 Sonra Şamuel bir daş götürüb
Mispa ilə Şen arasına qoydu və «Rəbb
bizə buraya qədər kömək etdi» deyərək
bu daşı Even-Ezer †adlandırdı.
13 Məğlubiyyətə uğrayan Filiştlilər bir
daha İsrail torpağına gəlmədi. Şamuelin
bütün ömrü boyu Rəbbin əli Filiştlilərə
qarşı oldu. 14 Filiştlilər Eqrondan Qata
qədər İsraildən aldıqları şəhərləri
geri qaytardılar. Bundan əlavə, İsrail
ətrafındakı torpaqları da Filiştlilərin
əlindən aldı və İsraillilərlə Emorluların
arasında sülh yarandı.
15 Şamuel ömrü boyu İsrailə hakimlik
etdi. 16 O, ilbəil, növbə ilə Bet-Eli,
Qilqalı, Mispanı gəzir və bu yerlərdə
İsrailə hakimlik edirdi. 17 Sonra isə
Ramaya qayıdardı, çünki evi orada idi.
Oradan da İsrailə hakimlik edirdi. O
həmin yerdə Rəbbə bir qurbangah tikdi.

İsrail xalqının padşah istəməsi

8 Şamuel qocalanda oğullarını İsrailə
hakim etdi. 2 Onun ilk oğlunun adı

---

*6:19 *Əlli ailədən yetmiş nəfəri* – yaxud *əlli min yetmiş nəfər.*
†7:12 *Even-Ezer* – ibrani dilində *kömək daşı.*

[y]7:1 2Şam. 6:2-4; 1Saln. 13:5-7

Yoel, ikincisinin adı isə Aviya idi. Onlar
Beer-Şevada hakim idilər. 3 Oğulları
onun yolu ilə getməyib şərəfsiz qazanc
ardınca düşdülər və rüşvət alıb düzgün
olmayan hökmlər verirdilər.
4 Bütün İsrail ağsaqqalları yığılıb
Ramaya – Şamuelin yanına gəldilər.
5 [z]Ona dedilər: «Bax sən qocasan və
oğulların sənin yolunla getmir. İndi isə
digər millətlərdə olduğu kimi bizə bir
padşah təyin et ki, bizə hökmranlıq
etsin». 6 Lakin Şamuel «bizə bir padşah
təyin et ki, hökmranımız olsun» deyilən
zaman bu sözlərdən narazı qaldı və
Rəbbə dua etdi. 7 Rəbb Şamuelə dedi:
«Sənə dedikləri məsələlərlə əlaqədar
xalqın hər sözünə qulaq as, çünki
rədd etdikləri sən deyilsən, onlar
üzərində hökmranlıq etməyim deyə,
yalnız Məni rədd edirlər. 8 Onları
Misirdən çıxartdığım gündən bu günə
qədər yad allahlara qulluq etməklə
Məni tərk edirlər. Mənə etdiklərini
indi eyni şəkildə sənə edirlər. 9 Sən
onların sözlərinə qulaq as, amma açıqca
xəbərdarlıq et ki, onlara hökmdarlıq
edəcək padşahın hakimiyyəti necə
olacaq».
10 Şamuel ondan padşah istəyən xalqa
Rəbbin bütün sözlərini söylədi. 11 O
dedi: «Sizə hökmdarlıq edəcək padşahın
hökmranlığı belə olacaq: oğullarınızı
döyüş arabaları və süvari qoşununda
xidmət etmək üçün aparacaq və döyüş
arabalarının qabağında qaçıracaq.
12 Onlardan bəzisini minbaşı və əllibaşı
təyin edəcək, bəzisinə torpaqlarını
şumladacaq və əkinini biçdirəcək,
bəzisini isə hərbi sursat və döyüş
arabalarına ləvazimat hazırlamaq
üçün işlədəcək. 13 Qızlarınızı ətir
düzəltmək, aşpaz və çörəkçi işlətmək
üçün aparacaq. 14 Ən yaxşı tarlalarınızı,
üzüm və zeytun bağlarınızı alıb
əyanlarına verəcək. 15 Taxıllarınızın
və üzümlüklərinizin məhsullarından
onda birini alıb xadimlərinə və
əyanlarına verəcək. 16 Qullarınızla
qarabaşlarınızı, ən seçmə cavanlarınızı
və eşşəklərinizi götürüb öz işində
işlədəcək. 17 Sürülərinizin onda
birini özünə götürəcək və siz onun
qulu olacaqsınız. 18 Gün gələcək ki,
seçdiyiniz padşahın əlindən fəryad
edəcəksiniz, amma o vaxt Rəbb sizə
cavab verməyəcək».
19 Xalq isə Şamuelin sözünə qulaq
asmaq istəməyib dedi: «Yox, mütləq
üzərimizdə bir padşah olsun. 20 Başqa
millətlərdə olduğu kimi bizə də
padşahımız hökmranlıq etsin, qabağa
düşüb döyüşlərimizə başçılıq etsin».
21 Şamuel xalqın hər sözünü dinləyib
Rəbbə söylədi. 22 Rəbb Şamuelə belə
dedi: «Onların sözlərinə qulaq as və
bir padşah təyin et». Şamuel İsraillilərə
«hər kəs öz şəhərinə qayıtsın» dedi.

Şaulun padşahlığa seçilməsi

9 Binyamindən Afiah oğlu Bekorat
oğlu Seror oğlu Aviel oğlu Qiş adlı
bir adam var idi. Binyaminli bu adam
cəsur cəngavər idi. 2 Onun Şaul adlı
gənc, yaraşıqlı oğlu var idi və İsrail
övladları arasında ondan yaraşıqlısı
yox idi. O, xalqın hamısından bir çiyin
hündür idi.
3 Şaulun atası Qişin eşşəkləri itmişdi.
Qiş oğlu Şaula dedi: «Qalx nökərlərdən
birini yanına al, get, eşşəkləri axtar».
4 Onlar Efrayimin dağlıq bölgəsini
gəzdilər və Şalişa diyarından keçdilər,
lakin eşşəkləri tapa bilmədilər. Şaalim
diyarını dolandılar, eşşəklər orada
da yox idi. Sonra Binyamin torpağını
gəzdilər, lakin eşşəkləri tapa bilmədilər.
5 Bundan sonra Suf bölgəsinə gəldilər
və Şaul yanındakı nökərinə dedi: «Gəl

[z]**8:5** Qanun. 17:14

qayıdaq, yoxsa atam eşşəkləri yaddan
çıxarıb bizim üçün narahat olacaq».
6 Nökəri isə ona dedi: «Bax bu şəhərdə
bir Allah adamı var. O, möhtərəm bir
adamdır və nə deyirsə, hamısı mütləq
doğru çıxır. Gəl oraya gedək, bəlkə
bizə gedəcəyimiz yolu o göstərdi».
7 Şaul nökərinə dedi: «Əgər getsək, o
adama nə aparaq? Artıq torbalarımızda
çörək qurtarmış və Allah adamına
vermək üçün bir hədiyyəmiz belə,
yoxdur. Axı nəyimiz var?» 8 Nökər
Şaula cavab olaraq belə dedi: «Bax
əlimdə dörddə bir şekel gümüş var.
Mən onu Allah adamına verərəm, qoy
o bizə yolumuzu göstərsin». 9 Əvvəllər
İsraildə Allahın iradəsini öyrənmək
üçün gedəndə adamlar belə deyərdilər:
«Gəl görücünün yanına gedək». O vaxt
peyğəmbərləri görücü adlandırırdılar.
10 Şaul isə nökərinə dedi: «Yaxşı
deyirsən, gəl gedək». Onlar Allah
adamının olduğu şəhərə getdilər.
11 Yoxuşdan şəhərə qalxanda su
çəkmək üçün şəhərdən çıxan gənc
qızlara rast gəldilər və onlara dedilər:
«Görücü buradadırmı?» 12 Onlara cavab
verdilər: «Buradadır, sizdən qabaqdadır.
Tələsin, elə bu gün şəhərə gəlib,
çünki xalq bu gün səcdəgahda qurban
kəsəcək. 13 Şəhərə girən kimi onu yemək
üçün səcdəgaha qalxmazdan əvvəl
taparsınız, ona görə ki o gəlməyincə
xalq yeməyə başlamaz. O, qurbana
xeyir-dua verəndən sonra çağırılanlar
yeyər. Tez qalxsanız, ona çatarsınız».
14 Onlar şəhərə qalxdılar. Şaul da
təpədə yerləşən şəhərin mərkəzinə
çatanda Şamuellə rastlaşdı, çünki o da
səcdəgaha çıxırdı.
15 Şaul gəlməmişdən bir gün əvvəl
Rəbb Şamuelə bunu bildirərək qulağına
demişdi: 16 «Sabah bu vaxtlar sənin
yanına Binyamin torpağından bir
adam göndərəcəyəm və onu Mənim
xalqım İsraillilərə başçı olaraq məsh
edəcəksən. Filiştlilərin əlindən xalqımı
o qurtaracaq, çünki xalqımın halına
yanıram. Ona görə ki fəryadı gəlib Mənə
çatdı».
17 Şamuel Şaulu görəndə Rəbb ona
dedi: «Bax sənə dediyim bu adam
xalqıma hökmranlıq edəcək». 18 Şaul
darvazada Şamuelə yaxınlaşıb dedi:
«Rica edirəm, görücünün evinin harada
olduğunu mənə göstərəsiniz». 19 Şamuel
Şaula cavab verdi: «Görücü mənəm,
qarşımca səcdəgaha qalx. Bu gün
mənimlə bərabər yemək yeyəcəksiniz,
sabah açılanda isə ürəyində olanların
hamısını sənə bildirib yola salaram.
20 Üç gün əvvəl itən eşşəklərinə gəlincə,
onların fikrini çəkmə, artıq tapılıblar.
Bütün İsrail nəyin həsrətindədir? Bu
sənə və ata nəslinə aid deyilmi?» 21 Şaul
cavab verdi: «Mən İsrail qəbilələrinin
ən kiçiyi olan Binyamindən deyiləmmi?
Nəslim isə Binyamin qəbiləsinin
nəsillərinin ən kiçiyi deyilmi? Axı nə
üçün mənə belə söz söyləyirsiniz?»
22 Şamuel Şaul ilə nökəri götürüb
otağa apardı və otuz nəfərə qədər
çağırılmış adamların arasında baş
tərəfdə ona yer verdi. 23 Şamuel aşpaza
dedi: «“Bir yana ayrı qoy” deyib sənə
verdiyim payı bura gətir!» 24 Aşpaz yağlı
budu Şaulun qarşısına qoydu. Şamuel
dedi: «Buyur ye, bu sənin üçün ayrılan
paydır, bunu sənin üçün saxladım ki,
təyin etdiyim gün çağırdığım xalqla
birlikdə yeyəsən». O gün Şaul Şamuellə
birlikdə yemək yedi.
25 Onlar səcdəgahdan şəhərə endilər,
Şamuel Şaulla evin damında söhbət
etdi. 26 Onlar erkən qalxdılar. Dan yeri
söküləndə damdan Şamuel Şaulu çağırıb
dedi: «Dur, səni yola salım». O da qalxıb
Şamuellə birlikdə bayıra çıxdı. 27 Onlar
şəhər kənarına enərkən Şamuel Şaula
dedi: «Nökərə de ki, qabaqda getsin».
Nökər qabağa keçdi. «Amma sən indi

ayaq saxla, qoy Allahın sözünü sənə
bildirim».

Şaulun padşahlığa məsh olunması

10 Şamuel bir qab zeytun yağı
götürüb Şaulun başına tökdü və
onu öpərək dedi: «Rəbb səni Öz irsi olan
İsrail üzərində başçı olmaq üçün məsh
etdi, elə deyilmi? 2 Bu gün məndən
ayrılandan sonra Binyamin torpağında,
Selsahda olan Rəhilənin məzarı yanında
iki adama rast gələcəksən və onlar
sənə deyəcək: “Axtarmağa getdiyin
eşşəklər tapılıb. Artıq atan eşşəkləri
unudub sizin dərdinizi çəkərək deyir:
‹Oğluma görə nə edim?›” 3 Oradan da
irəli keçib Tavordakı palıd ağacının
yanına çatacaqsan və həmin yerdə
səni Bet-Elə – Allahın hüzuruna çıxan
üç adam qarşılayacaq. Onlardan biri
üç oğlaq, o biri üç kömbə çörək,
biri də bir tuluq şərab aparacaq.
4 Onlar səni salamlayaraq iki kömbə
çörək verəcəklər. Sən də o çörəkləri
onlardan alacaqsan. 5 Bundan sonra
Filişt keşik dəstəsinin olduğu yerə –
Giveat-Elohimə çatacaqsan. Şəhərə
girən zaman orada səcdəgahdan enən
bir peyğəmbər dəstəsinə rast gələcəksən.
Onların qarşılarında çəng, dəf, ney,
lira çalınacaq və onlar peyğəmbərlik
edəcək. 6 Onda Rəbbin Ruhu üzərinə
qüvvə ilə enəcək və sən də onlarla
birgə peyğəmbərlik edəcəksən və dönüb
tamam başqa bir adam olacaqsan.
7 Bu əlamətlər səndə baş verəndə
vəziyyətə uyğun hərəkət et, çünki Allah
sənindir. 8 Sən məndən əvvəl Qilqala
enəcəksən, mən də yandırma qurbanları
təqdim etmək və ünsiyyət qurbanları
kəsmək üçün oraya enəcəyəm. Amma
mən yanına gəlib nə edəcəyini sənə
bildirənədək yeddi gün gözləməli
olacaqsan».

9 Şaul Şamuelin yanından yola
düşmək üçün çevriləndə Allah onun
ürəyini dəyişdirdi və bütün bu əlamətlər
o gün yerinə yetdi. 10 Oradan Giveaya
gedərkən onları bir peyğəmbər dəstəsi
qarşıladı və Allahın Ruhu Şaulun
üstünə qüvvə ilə endi. Onların arasında
Şaul da peyğəmbərlik etməyə başladı.
11 Əvvəldən onu tanıyan camaatın
hamısı onun peyğəmbərlik etdiyini
görəndə bir-birinə belə dedi: «Qişin
oğluna nə olub? Məgər Şaul da
peyğəmbərlərin sırasındadır?» 12 [a]Bir
adam cavab verib dedi: «Görün onların
atası kimdir?» Buna görə də «Məgər Şaul
da peyğəmbərlərin sırasındadır?» sözü
məsələ çevrildi. 13 Şaul peyğəmbərlik
edəndən sonra səcdəgaha qalxdı.
14 Şaulun əmisi ondan və nökərindən
soruşdu: «Hara getmişdiniz?» Şaul dedi:
«Eşşəkləri axtarmağa getmişdik, amma
gördük ki, tapa bilmirik, ona görə də
Şamuelin yanına getdik». 15 Şaulun
əmisi dedi: «Rica edirəm, Şamuelin sənə
nə dediyini mənə danış». 16 Şaul əmisinə
dedi: «Eşşəklərin tapıldığını bizə aydın
bildirdi». Lakin padşahlıq haqqında
Şamuelin sözünü əmisinə danışmadı.
17 Şamuel xalqı Rəbbin önünə –
Mispaya çağırdı. 18 O, İsrail övladlarına
dedi: «İsrailin Allahı Rəbb belə deyir:
“İsraili Misirdən Mən çıxartdım.
Misirlilərin və sizə zülm edən bütün
padşahlıqların əlindən sizi Mən
azad etdim”. 19 Lakin bəlalarınızdan
və müsibətlərinizdən sizi qurtaran
Allahınızı bu gün rədd etdiniz və Ona
“üzərimizə bir padşah qoy” dediniz.
İndi isə qəbilələrinizə və nəsillərinizə
görə Rəbbin hüzurunda durun».
20 Şamuel İsrailin bütün qəbilələrini
bir-bir qabağa çıxartdı, Binyamin
qəbiləsi püşk ilə seçildi. 21 Sonra
Binyamin qəbiləsini nəsilbənəsil qabağa

---

[a]**10:12** 1Şam. 19:23-24

çıxartdı. Püşk Matri nəslinə düşdü.
Nəhayət Qiş oğlu Şaul seçildi. Lakin
onu axtarıb tapa bilmədilər. 22 Yenə
Rəbdən soruşdular: «O buraya hələ
gəlməyibmi?» Rəbb dedi: «Odur,
yüklərin arasında gizlənib». 23 Qaçıb
Şaulu oradan gətirdilər. Xalq arasında
duran zaman Şaul xalqın hamısından
bir çiyin hündür görünürdü. 24 Şamuel
bütün xalqa dedi: «Rəbbin seçdiyi bu
xalqın arasında bənzəri olmayan adamı
görürsünüzmü?» O zaman xalq bir səslə
qışqırıb dedi: «Yaşasın padşah!»
25 Şamuel padşahlıq qaydalarını
xalqa söylədi və kitaba yazıb Rəbbin
önünə qoydu. Sonra Şamuel bütün xalqı
evinə göndərdi. 26 Şaul da Giveaya, öz
evinə qayıtdı və qəlblərində Allahın
oyanış yaratdığı igidlər onunla bərabər
getdilər. 27 Bəzi yaramaz adamlar
isə belə dedilər: «Bu adam bizi necə
qurtaracaq?» Ona xor baxıb hədiyyə
göndərmədilər. Şaul isə buna susdu.

Şaulun Ammonluları məğlubiyyətə uğratması

11 Ammonlu Naxaş gəlib
Yaveş-Gileada qarşı ordugah
qurdu. Bütün Yaveş əhalisi Naxaşa
dedi: «Bizimlə saziş bağla, biz də sənə
qulluq edək». 2 Ammonlu Naxaş isə
onlara dedi: «Bu şərtlə sizinlə razılığa
gələrəm ki, hər birinizin sağ gözünü
çıxarıb bütün İsraili rüsvay edim».
3 Yaveş ağsaqqalları ona dedilər: «Bizə
yeddi gün möhlət ver ki, İsrailin bütün
ərazisinə qasidlər göndərək və əgər bizi
heç kim xilas edə bilməsə, sənə təslim
olarıq».
4 Qasidlər Şaulun Givea şəhərinə
gəldilər və xalq arasında bu sözləri
car çəkdilər. Bütün xalq da şivən
qoparıb ağladı. 5 Bu vaxt Şaul öküzlərin
arxasınca tarladan gəlirdi. O dedi:
«Xalqa nə olub ki, ağlayır?» Ona
Yaveşlilərin sözünü çatdırdılar.
6 Həmin sözləri eşidən zaman Allahın
Ruhu Şaulun üstünə qüvvə ilə endi,
qəzəbindən od tutub yandı. 7 O, bir cüt
öküzünü götürüb parça-parça doğradı
və onları qasidlərin əli ilə bütün İsrail
ərazisinə göndərib dedi: «Kim Şaulun və
Şamuelin ardınca getməsə, bax öküzləri
bu kökə salınacaq». Xalqın arasına
Rəbbin xofu düşdü və hamı bir nəfər
kimi ayağa qalxdı. 8 Şaul onları Bezeqdə
saydı: İsrail övladları üç yüz min və
Yəhuda adamları isə otuz min nəfər
oldu.
9 Gələn qasidlərə dedilər:
«Yaveş-Gileadlılara belə deyərsiniz:
“Sabah gün qızınca sizə qurtuluş
olacaq”». Qasidlər gedib bunu
Yaveşlilərə bildirdilər və onlar da
sevindilər. 10 Yaveşlilər Ammonlulara
dedilər: «Sabah təslim olacağıq və
bizimlə gözünüzdə xoş görünən kimi
rəftar edin».
11 Ertəsi gün Şaul xalqı üç bölməyə
ayırdı və səhər qarovulunda düşmən
ordugahının içinə girərək gün qızana
qədər Ammonluları qırdı. Qalanlar isə
elə dağıldılar ki, onlardan iki nəfər bir
yerdə qalmadı. 12 Xalq Şamuelə dedi:
«“Şaulmu üzərimizdə padşah olacaq?”
deyənlər kimlərdir? O adamları verin
öldürək». 13 Şaul isə dedi: «Bu gün heç
kəs öldürülməyəcək, çünki Rəbb bu gün
İsrailə qurtuluş verdi».
14 Şamuel xalqa dedi: «Gəlin Qilqala
gedək və orada padşahlığı yenidən
təsdiq edək». 15 Bütün xalq Qilqala
getdi. Orada – Qilqalda Şaulu Rəbbin
önündə padşah olaraq qəbul etdilər
və sonra Rəbbin önündə ünsiyyət
qurbanları kəsdilər. Bütün İsraillilər
Şaulla birgə böyük bayram etdilər.

Şamuelin nitqi

12 Şamuel İsraillilərin hamısına
dedi: «Baxın mən dediklərinizə
axıradək qulaq asaraq üzərinizə bir

padşah təyin etdim. 2 İndi qarşınızda
padşah gedir, mən isə qocalmışam,
saçlarım ağarıb. Budur, oğlanlarım da
sizinlədir. Mən də gəncliyimdən bu
günə qədər sizin qarşınızda getmişəm.
3 Budur, qarşınızdayam, hansınızın
öküzünü almışam? Kimin eşşəyini
almışam? Kimi aldatmışam, kimi
incitmişəm və yaxud kimdən rüşvət alıb
haqsız əməlinə göz yummuşam? Rəbbin
və Onun məsh etdiyinin qarşısında
mənə qarşı şəhadət edin ki, haqqınızı
ödəyim». 4 Onlar belə cavab verdilər:
«Sən bizi heç vaxt aldatmamısan,
incitməmisən, heç kimin əlindən də heç
nə almamısan». 5 Şamuel onlara dedi:
«Sizə qarşı əlimdə bir şey tapmadığınıza
bu gün Rəbb və Onun məsh olunmuş
padşahı da şahiddir». Xalq dedi: «Bəli,
şahiddir».
6 [b]Şamuel xalqa dedi: «Musanı və
Harunu təyin edən, atalarınızı Misir
torpağından çıxaran Rəbdir. 7 İndi isə
Rəbbin hüzurunda dayanın. Rəbbin
sizə və atalarınıza etdiyi bütün haqq
işlər barədə sübutlar göstərəcəyəm.
8 [c]Yaqub Misirə gəldi. Sonra atalarınız
Rəbbə fəryad etdilər. Rəbb Musa ilə
Harunu göndərdi ki, atalarınızı Misirdən
çıxardıb bu yerdə məskunlaşdırsın.
9 [d]Lakin onlar özlərinin Allahı Rəbbi
unutdular, Rəbb də onları Xasor
ordusunun başçısı Sisraya, Filiştlilərə
və Moav padşahına təslim etdi. Onlar
atalarınıza qarşı vuruşdular». 10 [e]Xalq
Rəbbə fəryadla dedi: «Rəbbi atıb
Baal və Aştoret bütlərinə qulluq
etməklə günah etdik. Ya Rəbb, indi
bizi düşmənlərimizin əlindən qurtar
və biz Sənə qulluq edərik». 11 [f]Rəbb
də Yerub-Baalı, Bedanı, İftahı və
Şamueli göndərdi. O sizi ətrafınızdakı
düşmənlərin əlindən qurtardı və
əmin-amanlıqda yaşadınız. 12 [g]Amma
siz Ammon padşahı Naxaşın sizə qarşı
gəldiyini görəndə Rəbb Allahınız sizə
padşah ikən mənə dediniz: «Xeyr,
gərək bizə bir padşah hökmranlıq
etsin». 13 İndi isə budur seçdiyiniz
və istədiyiniz padşah! Baxın Rəbb
üzərinizə bir padşah qoydu. 14 Əgər
Rəbdən qorxub Ona qulluq edərək
səsinə qulaq assanız, əmrinə qarşı
çıxmasanız, həm sizə hökmranlıq
edən padşahınız, həm də siz Allahınız
Rəbbin ardınca gedəcəksiniz. 15 Yox,
əgər Rəbbin səsinə qulaq asmasanız və
Rəbbin əmrinə qarşı çıxsanız, o zaman
Rəbbin əli atalarınıza qarşı olduğu kimi
sizin də əleyhinizə olacaq.
16 İndi isə dayanın, Rəbbin gözünüz
önündə edəcəyi bu böyük hadisəni
görün. 17 Bu gün buğda biçimi deyilmi?
Göy gurultusu və yağış göndərsin
deyə Rəbbi çağıracağam, özünüz üçün
padşah istəməklə etdiyiniz pisliyin
Rəbbin gözündə nə qədər böyük
olduğunu dərk edib görəcəksiniz.
18 Şamuel Rəbbi çağırdı və Rəbb
o gün göy gurladıb yağış yağdırdı.
Bütün xalq həmin gün Rəbdən və
Şamueldən çox qorxdu. 19 Camaat
Şamuelə belə dedi: «Qulların üçün
Allahın Rəbbə yalvar ki, ölməyək,
çünki bütün günahlarımızın üzərinə
özümüzə padşah istəmək təqsirini
də əlavə etdik». 20 Şamuel isə xalqa
dedi: «Qorxmayın, bu pisliyi həqiqətən
siz etmisiniz, lakin Rəbbin yolundan
dönməyin, bütün qəlbinizlə yalnız
Rəbbə qulluq edin. 21 Dönməyin, çünki
o zaman boş bütlərin ardınca getmiş
olacaqsınız, o bütlər ki fayda verməz
və xilas etməzlər, çünki puçdurlar.

---

[b]**12:6** Çıx. 6:26 [c]**12:8** Çıx. 2:23 [d]**12:9** Hak. 4:2; Hak. 13:1; Hak. 3:12
[e]**12:10** Hak. 10:10 [f]**12:11** Hak. 7:1; Hak. 11:29; 1Şam. 3:20
[g]**12:12** 1Şam. 8:19

22 Amma Rəbb xalqını Öz böyük ismi
naminə atmayacaq, ona görə ki sizi Öz
xalqı etmək Rəbbin xoşuna gəlmişdi.
23 Mənə gəlincə, sizin üçün yalvarmağı
dayandırmaqla Rəbbə qarşı günah
etmək qoy məndən uzaq olsun. Mən
sizə xeyirli və düz yolu öyrədəcəyəm.
24 Ancaq Rəbdən qorxun, Ona sədaqətlə,
bütün qəlbinizlə xidmət edin. Görün
sizin üçün necə əzəmətli işlər görüb.
25 Əgər pislik etməkdə davam etsəniz,
həm siz, həm də padşahınız məhv
olacaq».

Şaulun itaətsizliyi

13 Şaul bir il padşah oldu və İsrailin
üzərində daha iki il padşahlıq
edəndən sonra 2 o özü üçün üç min
nəfər İsrailli seçdi. Bunlardan iki min
nəfəri Mikmasda və Bet-El təpələrində
Şaulun yanında qaldı, min nəfəri isə
Binyaminin Givea şəhərində Yonatanın
yanında saxladı. Xalqın qalan hissəsini
isə Şaul öz evlərinə göndərdi. 3 Yonatan
Gevadakı Filiştlilərin keşik dəstəsinin
əsgərlərini qırdı və bunu bütün
Filiştlilər eşitdilər. Şaul isə İbranilər
eşitsinlər deyə bütün ölkədə şeypur
çaldırdı. 4 İsraillilərin hamısı Şaulun
Filiştlilərin keşik dəstəsini qırdığını,
Filiştlilərin İsrailə nifrət etdiyini eşitdi.
Xalq Şaulun ətrafında yığılmaq üçün
Qilqala çağırıldı. 5 Filiştlilər İsraillə
vuruşmaq üçün yığıldılar. Otuz min
döyüş arabası, altı min atlı və dənizdəki
qum dənələrinin sayı qədər camaat
çıxıb Bet-Avenin şərqində Mikmasda
ordugah qurdu.
6 İsraillilər təhlükə qarşısında
olduqlarını gördülər, çünki xalq
sıxışdırıldı, xalq mağaralarda,
kolluqlarda, qayalarda, məqbərələrdə
və nohurlarda gizləndi. 7 İbranilərdən
bəzisi İordan çayından Qad və Gilead
torpağına keçmişdi, lakin Şaul isə hələ
Qilqalda idi və bütün xalq qorxudan
əsə-əsə onun ardınca gedirdi.
8 [h]Şaul Şamuel təyin etdiyi vaxta
qədər yeddi gün gözlədi, lakin Şamuel
Qilqala gəlmədi, ona görə də xalq
Şaulun yanından dağılmağa başladı.
9 Şaul dedi: «Yandırma qurbanını və
ünsiyyət qurbanını yanıma gətirin».
O, yandırma qurbanını təqdim etdi.
10 Yandırma qurbanının təqdimi
qurtaranda Şamuel gəlib çıxdı və Şaul
salamlaşmaq üçün onu qarşılamağa
çıxdı. 11 Şamuel dedi: «Sən nə etmisən?»
Şaul isə dedi: «Gördüm ki, ətrafımdakı
xalq dağılır, sən isə təyin etdiyin
gün gəlmədin və Filiştlilər Mikmasda
toplanıb. 12 Dedim ki, indi Filiştlilər
Qilqala, üstümə gələcəklər, mən isə
hələ Rəbbin razılığını almamışam. Ona
görə də özümü məcbur edib yandırma
qurbanını təqdim etdim». 13 Şamuel
Şaula dedi: «Ağılsızlıq etdin, Allahın
Rəbbin sənə verdiyi əmrə əməl etmədin.
Belə olmasaydı, Rəbb İsrail üzərində
sənin padşahlığını əbədi saxlayacaqdı.
14 [i]Lakin indi padşahlığın davam
etməyəcək. Rəbb Özü üçün Öz ürəyinə
yatan bir adam tapıb. Həmin adamı
Rəbb xalqına başçı təyin etdi. Çünki sən
Rəbbin verdiyi əmrlərə əməl etmədin».
15 Bundan sonra Şamuel Qilqalı tərk
edib Binyaminlilərin Givea şəhərinə
çıxdı. Şaul yanında olan xalqı saydı: altı
yüz nəfərə qədər idi.
16 Şaul, oğlu Yonatan və yanında olan
xalq Binyaminlilərin Geva şəhərində
qalmaqda idi. Filiştlilər isə Mikmasda
ordugah qurmuşdular. 17 Filişt
ordugahından qarətçi hücumçular üç
dəstəyə bölünüb çıxdılar. Bir dəstə
Ofra yoluna – Şual torpağına yönəldi.
18 Digər dəstə isə Bet-Xoron yoluna, o

---

[h]**13:8** 1Şam. 10:8 [i]**13:14** Həv. 13:22

biri dəstə isə çölə – Sevoim vadisinə
baxan sərhəd yoluna yönəldi.
19 Bütün İsrail ölkəsində bir nəfər
də olsun dəmirçi yox idi. Filiştlilər
demişdilər ki, qoy İbranilər qılınc,
nizə düzəltməsinlər. 20 Bütün İsraillilər
kotanlarını, kərkilərini, baltalarını və
oraqlarını itiləmək üçün Filiştlilərin
yanına gəlirdi. 21 Kotanın, kərkinin
itiləmə qiyməti bir pim *idi. Bellər,
baltalar, bizlər üçün isə şekelin üçdə biri
qədər gümüş pul alardılar. 22 Ona görə
də müharibə zamanı Şaulla Yonatanın
yanında olan xalqın əlində qılınc və
nizə yox idi, bu silahlar ancaq Şaulun
və oğlu Yonatanın əlində olardı.
23 Filiştlilərin keşik dəstəsi Mikmas
keçidinə çıxdı.

Yonatanın böyük qələbəsi

14 Bir gün Şaulun oğlu Yonatan
silahdarı olan nökərə dedi:
«Gəl qarşı tərəfdə olan Filiştlilərin
keşik dəstəsinə keçək». Lakin bunu
atasına bildirmədi. 2 Şaul isə Givea
kənarında Miqrondakı nar ağacı altında
oturmuşdu, yanındakı xalq altı yüz
nəfərə qədər idi. 3 Şiloda Rəbbin kahini,
Eli oğlu Pinxas oğlu İkavodun qardaşı
Axituvun oğlu Axiya efod geyinmişdi.
Yonatanın getdiyindən xalqın xəbəri
yox idi. 4 Filiştlilərin keşik dəstəsinə
getmək üçün Yonatanın keçmək istədiyi
keçidlər iki şişuclu qayalığın arasında
idi. Qayalıqlardan birinin adı Boses, o
birinin adı isə Sene idi. 5 Qayalıqlardan
biri şimal tərəfdən Mikmasa, o biri
qayalıq isə cənub tərəfdən Gevaya
baxırdı.
6 Yonatan silahdarı olan nökərə dedi:
«Gəl bu sünnətsizlərin keşik dəstəsinə
keçək, bəlkə Rəbb bizim üçün bir iş
gördü. Çünki həm çox, həm də az
adamların üzərində qələbə çalmaq üçün
Rəbbə mane olan yoxdur». 7 Silahdarı
ona dedi: «Ürəyin necə istəyirsə, elə
də et. Get bax, mən sənin ləyəm, çünki
ürəyimizin istəyi birdir». 8 Yonatan
dedi: «Gəl bu adamlara tərəf gedib
özümüzü onlara göstərək. 9 Əgər
bizə “sizin yanınıza biz gələnə qədər
dayanın” desələr, o zaman yerimizdə
durub onların yanına çıxmarıq. 10 Lakin
“yanımıza çıxın”, desələr, o zaman
yerimizdən durub onların yanına
qalxarıq, çünki Rəbb onları bizə təslim
etmişdir və bu bizim üçün əlamət
olacaq».
11 İkisi də özünü Filiştlilərin keşik
dəstəsinə göstərdi. Filiştlilər isə dedilər:
«Bax İbranilər gizləndikləri deşiklərdən
çıxırlar». 12 Əsgərlər Yonatana və
onun silahdarına dedilər: «Yanımıza
çıxın, sizin dərsinizi verək». Yonatan
silahdarına dedi: «Ardımca gəl, çünki
Rəbb onları İsrailə təslim etdi».
13 Yonatan, onun ardınca silahdarı əl və
ayaqları ilə yuxarı dırmaşdılar, Yonatan
Filiştliləri vurub yıxır, arxadan silahdarı
onları öldürürdü. 14 Bu ilk döyüşdə
yarım sahə torpaqda †Yonatanla
silahdarı iyirmi nəfərə qədər adamı
qırdı. 15 Ordugaha, çölə, bütün xalq
arasına vəlvələ düşdü. Keşikçi əsgərlər
və qarət hücumçuları arasına elə bir
çaxnaşma düşdü ki, yer sarsıldı. Bu,
Allah xofu idi.
16 Şaulun Binyamində olan Givea
şəhərindəki gözətçiləri baxanda
gördülər ki, Filişt qoşunu dağılıb
ora-bura qaçır. 17 Şaul yanında olan
xalqa dedi: «İndi sayın, görün bizdən
kim yoxdur». Saydıqları zaman
Yonatanla silahdarı olmadı. 18 Şaul
Axiyaya dedi: «Allahın sandığını buraya

---

*13:21 *Pim* – şekelin üçdə ikisi, səkkiz qrama yaxın gümüş pul.
†14:14 *Yarım sahə torpaq* – yarım hektara qədər sahə.

gətirin». Çünki o vaxtlar Allahın sandığı
İsraillilərin yanında idi.
19 Şaul kahinə bunu deyərkən
Filiştlilərin ordugahından gurultu
getdikcə çoxalırdı və Şaul kahinə «Əl
saxla!» dedi. 20 Şaul və yanında olan
bütün xalq yığılıb döyüş meydanına
getdilər. Budur, Filiştlilərdən hər bir kəs
qılıncını öz ətrafındakı qonşusuna qarşı
çıxartdı və çox böyük çaşqınlıq yarandı.
21 Əvvəlcədən Filiştlilər tərəfinə
keçən İbranilər Filiştlilərlə bərabər
ordugaha gəlmişdilər. Onlar da
Şaulun və Yonatanın yanında olan
İsraillilərlə birləşdilər. 22 Efrayim dağlıq
bölgəsində gizlənən bütün İsraillilər
də Filiştlilərin qaçdığını eşitdikdə
öz döyüş meydanından Filiştliləri
qovmağa başladılar. 23 Beləcə o gün
Rəbb İsrailə qələbə qazandırdı və döyüş
Bet-Avendən o tərəfə keçdi.
24 İsraillilər o gün çox yorulmuşdu.
Çünki Şaul «Axşama qədər, Şaul
düşmənlərindən qisas alana qədər kim
çörək yesə, lənətə gəlsin!» deyərək
onlara and içdirmişdi. Xalqdan heç kim
dilinə heç nə vurmadı. 25 Bütün xalq
meşəyə getdi və torpaq üzərində olan
bal şanısına rast gəldi. 26 Xalq meşədə
bal şanısına rast gələndə şanıdan
bal süzülürdü, lakin heç kəs əlini
ağzına aparmırdı, çünki xalq anddan
qorxurdu. 27 Lakin Yonatan atasının
xalqa and içdirdiyini eşitməmişdi. O,
əlindəki dəyənəyi uzadıb ucunu şanı
balına batıraraq əlini ağzına apardı və
gözlərinə işıq gəldi.
28 Camaat arasından bir nəfər dedi:
«“Bu gün kim çörək yesə, lənətə gəlsin!”
deyə atan xalqa möhkəm and içdirmiş,
buna görə də xalq taqətdən düşmüşdü».
29 Yonatan dedi: «Atam ölkəyə əzab
verir. Rica edirəm, baxın bu baldan bir
az daddım, gör necə gözlərim işıqlandı!
30 Əgər bu gün düşmənlərdən ələ
keçirilən yemək̇ləri xalq doyunca yemiş
olsaydı, gör nələr olardı? O zaman
Filiştlilər arasında daha böyük qırğın
olmazdımı?»
31 Həmin gün İsraillilər Mikmasdan
Ayyalona qədər Filiştliləri məğlub
etdilər. Xalq çox yorğun idi. 32 Ona
görə də düşmən malının üstünə düşüb
qoyunları, öküzləri, buğaları yerindəcə
kəsdilər və onları qanlı-qanlı yedilər.
33 [j]Bunu Şaula xəbər verdilər: «Bax
xalq əti qanlı-qanlı yeyərək Rəbbə
qarşı günah edir». Şaul dedi: «Xəyanət
etmisiniz, indi isə yanıma böyük bir daş
yuvarlayın». 34 Şaul sözünə davam etdi:
«Xalqın arasına gedib onlara deyin:
“Hər kəs öküzünü, qoyununu yanıma
gətirsin və burada kəsib yesin. Əti
qanlı-qanlı yeyərək Rəbbə qarşı günah
etməyin”». Bütün xalq o gecə öküzünü
öz əli ilə oraya gətirib kəsdi. 35 Şaul
Rəbbə bir qurbangah düzəltdi. Bu onun
Rəbb üçün qurduğu ilk qurbangah idi.
36 Şaul dedi: «Filiştlilərin ardınca
gecə ikən düşək ki, dan yeri sökülənə
qədər onları talan edək və onlardan heç
kimi sağ buraxmayaq». Ona dedilər:
«Gözündə nə xoşdursa, onu da et».
Kahin isə dedi: «Gəlin buraya – Allahın
hüzuruna yaxınlaşaq». 37 Şaul Allahdan
soruşdu: «Mən Filiştlilərin ardınca
düşümmü? Sən onları İsraillilərə təslim
edəcəksənmi?» Lakin həmin gün Allah
ona cavab vermədi. 38 Şaul dedi: «Ey
bütün xalq başçıları, buraya yaxınlaşın,
bu gün hansı günah etdiyinizi öyrənin
və görün. 39 Çünki İsraili qurtaran, var
olan Rəbbə and olsun, bu işdə oğlum
Yonatan təqsirkar olsa belə, mütləq
ölməlidir». Lakin xalq arasından ona
cavab verən olmadı. 40 Şaul bütün
İsraillilərə dedi: «Siz bir tərəfdə, mən
də oğlumla başqa bir tərəfdə duraq».

---

[j]**14:33** Yar. 9:4; Lev. 7:26-27; 17:10-14; 19:26; Qanun. 12:16,23-25; 15:23

Xalq Şaula dedi: «Gözündə nə xoşdursa,
onu da et». 41 Şaul İsrailin Allahı Rəbbə
dedi: «Həqiqəti üzə çıxart!» Püşk Şaulla
Yonatana düşdü. Xalq təmizə çıxdı.
42 Şaul dedi: «Mənimlə oğlum Yonatan
arasında da püşk atın». Püşk Yonatana
düşdü.
43 Şaul Yonatana dedi: «Nə etmisən,
mənə bildir!» Yonatan ona dedi: «Ancaq
əlimdə olan dəyənəyin ucu ilə bir az bal
dadmışam, buna görə ölməliyəmmi?»
44 Şaul dedi: «Yonatan, əgər mən səni
öldürməsəm, Allah mənə beləsini və
bundan betərini etsin! Sən mütləq
ölməlisən». 45 Xalq Şaula belə dedi:
«İsraildə belə böyük qurtuluş zəfəri
çalan Yonatanmı öləcək? Əsla! Var olan
Rəbbə and olsun, onun başından bir tük
belə, yerə düşməyəcək. Çünki bu gün o,
Allahın köməyi ilə iş gördü». Beləliklə,
xalq Yonatanı qurtardı və o ölmədi.
46 Şaul daha Filiştliləri təqib etməyib
geri qayıtdı və Filiştlilər öz yerlərinə
qayıtdılar.
47 Beləliklə, Şaul İsrail üzərində
padşah olandan sonra ətrafdakı
bütün düşmənlərinə – Moavlılara,
Ammonlulara, Edomlulara, Sova
padşahlarına və Filiştlilərə qarşı
döyüşdü. Hansı tərəfə gedərdisə,
onların başına bəla gətirirdi. 48 O şücaət
göstərərək Amaleqliləri məğlub etdi və
İsraili talan edənlərin əlindən qurtardı.
49 Şaulun oğulları Yonatan, İşvi və
Malki-Şua idi. İki qızından böyüyünün
adı Merav, kiçiyinin adı isə Mikal idi.
50 Şaulun arvadının adı Aximaas qızı
Axinoam idi. Ordu başçısı Şaulun əmisi
Nerin oğlu Avner idi. 51 Şaulun atası
Qişlə Avnerin atası Ner Avielin oğulları
idi.
52 Şaul ömrü boyu Filiştlilərə qarşı
şiddətli döyüşlərdə oldu və o, güclü
yaxud da cəsur bir adam görən zaman
öz yanına götürürdü.

Şaulun daha bir itaətsizliyi

15 [k]Şamuel Şaula dedi: «Rəbb məni
göndərdi ki, Öz xalqı İsrail
üzərində padşah olaraq səni məsh edim.
İndi isə Rəbbin sözünü dinlə, 2 [l]Ordular
Rəbbi belə deyir: “İsraillilər Misirdən
çıxan zaman yolda Amaleqlilər onlara
qarşı müqavimət göstərdilər. Ona görə
də onları cəzalandıracağam. 3 İndi
get, Amaleqliləri qır, hər şeylərini
tamamilə darmadağın et və onlara
heyfin gəlməsin. Kişidən qadınadək,
yeniyetmədən südəmər körpəyədək,
öküzdən qoyunadək, dəvədən eşşəyədək
hamısını qır”».
4 Şaul xalqı çağırdı və onları Telaimdə
saydı: iki yüz min piyada əsgərlə
bərabər Yəhudadan on min nəfər var
idi. 5 Şaul Amaleqlilərin şəhərinə gəlib
vadidə pusqu qurdu. 6 O, Qenlilərə dedi:
«Gedib Amaleqlilərdən ayrılın ki, sizi
də onlarla bərabər qırmayım. Çünki
İsrail övladları Misirdən çıxan zaman
siz onlara xeyirxahlıq etdiniz». Qenlilər
Amaleqlilərdən ayrıldılar.
7 Şaul Xaviladan Misirin şərqindəki
Şura çatana qədər Amaleqliləri qırdı.
8 Amaleq padşahı Aqaqı sağ tutdu,
bütün xalqı isə tamamilə qılıncdan
keçirdi. 9 Amma Şaul xalqı ilə birlikdə
Aqaqa və Amaleqlilərin ən yaxşı
qoyunlarına, öküzlərinə, kökəldilmiş
heyvanlarına, quzularına və yaxşı
şeylərin hamısına heyfi gəlib tamamilə
məhv etmək istəmədi, bütün gərəksiz və
yararsız şeyləri isə tamamilə yox etdi.
10 Bundan sonra Rəbbin sözü Şamuelə
nazil oldu: 11 «Şaulu padşah etdiyimə
peşman oldum. Çünki o dönüb Mənim
ardımca getməyərək sözlərimi yerinə
yetirməyib». Şamuel qəzəbləndi və

---

[k]**15:1** 1Şam. 10:1 [l]**15:2** Çıx. 17:8-14; Qanun. 25:17-19

bütün gecəni Rəbbə fəryad etdi. 12 O,
Şaulla səhər görüşmək üçün erkən
durdu, amma ona belə xəbər verdilər:
«Şaul Karmelə getdi və özünə abidə
qoyandan sonra geri qayıdıb irəlidəki
Qilqala endi».
13 Şamuel Qilqala, Şaulun yanına
gəldi. Şaul ona dedi: «Qoy Rəbb sənə
xeyir-dua versin, mən Rəbbin sözünə
əməl etdim». 14 Şamuel isə dedi: «Elə isə
qulaqlarıma gələn bu qoyun mələşməsi
və eşitdiyim bu öküz böyürtüsü nədir?»
15 Şaul dedi: «Onları Amaleqlilərdən
gətiriblər. Çünki xalq sənin Allahın
Rəbbə qurban etmək üçün qoyunlarla
öküzlərin ən yaxşılarını saxlayıb,
qalanlarını isə tamamilə yox etdi».
16 Şamuel Şaula dedi: «Dayan, bu
gecə Rəbbin mənə söylədiklərini sənə
deyəcəyəm». Şaul dedi: «Danış».
17 Şamuel dedi: «Sən öz gözündə
kiçik olduğun halda İsrail qəbilələrinin
başçısı olmadınmı? Rəbb səni İsrail
üzərinə padşah olaraq məsh etməyibmi?
18 Rəbb səni yürüşə göndərib dedi:
“Günahkarları – Amaleqliləri tamamilə
məhv et və qırıb qurtarana qədər
onlarla vuruş”. 19 Bəs nə üçün Rəbbin
sözünə itaət etmədin, qarətçilik edib
talana girişdin və Rəbbin gözündə pis
sayılan iş gördün?» 20 Şaul Şamuelə
dedi: «Mən Rəbbin sözünə itaət etdim.
Rəbbin məni göndərdiyi yürüşə getdim.
Amaleq padşahı Aqaqı bura gətirdim,
Amaleqliləri isə tamamilə məhv etdim.
21 Lakin xalq talan malından qoyunları
və öküzləri, məhv edilməyə həsr
olunanlardan ən yaxşısını götürdü ki,
Qilqalda Allahın Rəbbə qurban versin».
22 Şamuel isə dedi:

«Rəbb Öz sözünə itaət edilməsindən
xoşu gəldiyi qədər
Yandırma qurbanı və başqa
qurbanlardan xoşu gələrmi?
Bax itaət etmək qurbandan,
Qulaq asmaq qoçların iç piyindən
daha yaxşıdır.
23 Çünki üsyankarlıq falçılığa bərabər
günahdır,
İnadkarlıq isə özbaşınalıq və
bütpərəstliyə bərabərdir.
İndi ki sən Rəbbin sözünü rədd etdin,
O da səni padşahlıqdan rədd etdi».

24 Şaul Şamuelə dedi: «Günah etdim,
çünki Rəbbin əmrini və sənin sözlərini
pozdum və xalqdan qorxub onların
sözünə qulaq asdım. 25 Rica edirəm,
günahımı bağışla və indi mənimlə
bərabər geri qayıt ki, Rəbbə səcdə
qılım». 26 Şamuel Şaula dedi: «Mən
sənlə geri qayıtmayacağam, çünki sən
Rəbbin sözünü rədd etdin. Ona görə
Rəbb İsraildə padşah olmayasan deyə
səni rədd etdi».
27 Şamuel geri qayıtmaq üçün dönən
zaman Şaul onun cübbəsinin ətəyindən
yapışanda ətək qopdu. 28 Şamuel ona
dedi: «Bu gün Rəbb də səndən İsrail
padşahlığını bu cür qoparıb səndən də
yaxşı olan yaxınına verdi. 29 İsrailin
İzzətlisi yalan söyləməz və fikrini
dəyişməz. Axı insan deyil ki, fikrini
dəyişsin». 30 Şaul dedi: «Günaha batdım.
Rica edirəm, indi xalqımın ağsaqqalları
və İsrail qarşısında mənə hörmət et və
mənimlə birlikdə geri qayıt ki, Allahın
Rəbbə səcdə qılım». 31 Şamuel Şaulun
arxasınca geri qayıtdı və Şaul Rəbbə
səcdə qıldı.
32 Şamuel dedi: «Amaleq padşahı
Aqaqı buraya – mənim yanıma gətirin».
Aqaq isə onun yanına tərəddüd içində
gəldi. Aqaq öz-özünə deyirdi: «Görəsən
acı ölüm məni mütləq haqlayıbmı?»
33 Şamuel dedi: «Sənin qılıncın qadınları
necə övladsız qoyurdusa, sənin anan
da qadınlar arasında beləcə övladsız
qalacaq». Şamuel Qilqalda – Rəbbin
önündə Aqaqı doğradı.
34 Sonra Şamuel Ramaya getdi, Şaul
isə Giveadakı evinə qalxdı. 35 Şamuel

ölənə qədər daha Şaulu görmədi,
çünki Şaulun dərdini çəkirdi. Rəbb
Şaulu İsrailin padşahı etdiyinə peşman
olmuşdu.

Davudun padşah seçilməsi

16 Rəbb Şamuelə dedi: «İsrail
üzərində padşah olmasın deyə
Şaulu rədd etdiyim halda sən nə
vaxta qədər onun dərdini çəkəcəksən?
Yağ buynuzunu yağla doldur və get.
Səni Bet-Lexemli Yesseyin yanına
göndərirəm. Çünki onun oğulları
arasında Özüm üçün padşah təyin
etmişəm». [2] Şamuel dedi: «Necə gedim?
Axı Şaul eşitsə, məni öldürər». Rəbb
dedi: «Özünlə bir düyə götürüb "Rəbbə
qurban kəsmək üçün gəlmişəm"
de. [3] Yesseyi də qurban mərasiminə
dəvət et və sonra nə edəcəyini sənə
bildirəcəyəm. Sənə deyəcəyim adamı
Mənim üçün məsh edəcəksən». [4] Şamuel
Rəbbin söylədiyi kimi Bet-Lexemə getdi.
Şəhərin ağsaqqalları onu həyəcanla
qarşıladılar və dedilər: «Bu gəlişin
xeyirdirmi?» [5] O dedi: «Bəli, xeyirdir.
Rəbbə qurban kəsmək üçün gəlmişəm.
Özünüzü təqdis edin və mənimlə
bərabər qurban mərasiminə gəlin».
Şamuel Yesseylə oğullarını da təqdis
edərək onları da qurban mərasiminə
dəvət etdi.

[6] Onlar gələrkən Şamuel Eliava baxıb
dedi: «Doğrudan da, Rəbbin məsh etdiyi
Rəbbin qarşısındadır!» [7] Lakin Rəbb
Şamuelə belə dedi: «Onun görünüşünə
və uca boyuna baxma, Mən onu rədd
etmişəm. Ona görə ki Rəbb insanın
gördüyü kimi görməz, çünki insan
zahirə, Rəbb isə ürəyə baxar». [8] O
zaman Yessey Avinadavı çağırdı və
onu Şamuelin qarşısından keçirdi.
Şamuel dedi: «Rəbb bunu da seçmədi».
[9] Yessey Şammanı gətirdi və Şamuel
dedi: «Rəbb bunu da seçmədi». [10] Yessey
isə oğlanlarının yeddisini Şamuelin
qarşısından keçirdi. Şamuel Yesseyə
dedi: «Rəbb bunları seçmədi». [11] Sonra
Yesseydən soruşdu: «Oğlanlarının
hamısı budur?» Yessey cavab verdi:
«Lap kiçiyi də var, odur, qoyun otarır».
Şamuel Yesseyə dedi: «Bir nəfər göndər,
qoy o da buraya gəlsin. Çünki o buraya
gəlməsə, biz süfrəyə oturmayacağıq».
[12] Yessey adam göndərib onu içəri
gətirtdi. Oğlan alyanaq, gözləri gözəl,
üzü göyçək idi. Rəbb Şamuelə dedi:
«Dur, onu məsh et, çünki seçilmiş
budur». [13] Şamuel yağ buynuzunu
götürüb qardaşları arasında onu məsh
etdi və o gündən başlayaraq Davudun
üzərinə Rəbbin Ruhu qüvvə ilə endi.
Sonra Şamuel qalxıb Ramaya getdi.

Şaul və Davud

[14] Rəbbin Ruhu Şauldan ayrılandan
sonra Rəbbin izni ilə şər bir ruh ona
əzab verirdi. [15] Şaulun əyanları ona
belə dedilər: «Budur, indi Allahın
izni ilə şər bir ruh sənə əziyyət verir.
[16] Ey ağamız, qarşında olan qullarına
əmr et ki, yaxşı çəng çalan bir adam
axtarsınlar. Allahın izni ilə şər ruh sənin
üstünə gələn zaman o, lira çalar, sən də
ruhlanarsan». [17] Şaul əyanlarına dedi:
«Elə isə mənim üçün yaxşı çəng çalan
bir adam tapıb yanıma gətirin». [18] Gənc
əyanlardan biri cavab verdi: «Mən
görmüşəm ki, Bet-Lexemli Yesseyin
oğlu yaxşı çəng çalır. O, igid, cəsur
döyüşçü, müdrikliklə danışan, yaraşıqlı
bir oğlandır və Rəbb onunladır». [19] Şaul
Yesseyin yanına qasidlər göndərib dedi:
«Qoyunotaran oğlun Davudu mənim
yanıma göndər». [20] Yessey bir eşşəyə
çörək, bir tuluq şərab, bir oğlaq yüklədi
və oğlu Davudun əli ilə Şaula göndərdi.
[21] Davud Şaulun yanına gəldi və onun
qulluğunda durdu. Davud Şaulun çox
xoşuna gəldi və onu öz silahdarı etdi.

[22] Sonra Şaul Yesseyin yanına adam
göndərib dedi: «Rica edirəm, qoy Davud

yanımda qalsın, çünki o, gözümdə lütf
tapıb». 23 Hər dəfə Allahın izni ilə Şaula
şər ruh gələn zaman Davud lirasını
götürüb çalar, Şaul sakitləşər, yaxşı olar
və şər ruh ondan ayrılardı.

Davud Qolyatı öldürür

17 Filiştlilər müharibə üçün
ordularını toplayıb Yəhudaya
mənsub Soko şəhərində cəmləşdilər.
Soko ilə Azeqa şəhəri arasında olan
Efes-Dammimdə ordugah qurdular.
2 Şaulla İsraillilər toplaşıb Ela vadisində
ordugah qurdular və Filiştlilərə qarşı
döyüş üçün düzüldülər.
3 Filiştlilər bir təpənin üstündə,
İsraillilər isə o biri təpədə
dayanmışdılar, aralarında vadi var idi.
4 Qat şəhərindən olan Qolyat adlı bir
cəngavər Filiştlilərin ordugahından irəli
çıxdı. Onun boyu altı qulac bir qarış *idi.
5 Başında tunc dəbilqəsi vardı, əyninə
beş min şekel ağırlığında tuncdan
pullu zireh geymişdi. 6 Baldırlarına
tunc zireh taxmışdı, kürəyində isə tunc
mizraq vardı. 7 Nizəsinin sapı toxucu
dəzgahının əriş ağacı boyda olub dəmir
ucu altı yüz şekel ağırlığında idi. Qalxan
daşıyan silahdarı isə onun qabağında
gedirdi.
8 Qolyat İsrail alaylarının qarşısında
dayanaraq qışqıra-qışqıra dedi:
«Niyə döyüşə çıxıb düzülmüsünüz?
Mən Filiştli, siz də Şaulun qulları
deyilsinizmi? Aranızdan bir kişi tapın,
qoy yanıma gəlsin. 9 Əgər mənimlə
vuruşanda o məni öldürərsə, onda biz
sizə qul olarıq, yox əgər mən onu vurub
öldürsəm, onda siz bizə qul olub qulluq
edəcəksiniz». 10 Sonra Filiştli sözünü
belə davam etdirdi: «Bu gün mən
İsrail alaylarına meydan oxuyuram.
Mənim qarşıma təkbətək vuruşmaq
üçün bir kişi çıxarın!» 11 Filiştlinin bu
sözlərini eşidən Şaul və bütün İsraillilər
vahiməyə düşüb çox qorxdu.
12 Davud Yəhudanın Bet-Lexem
şəhərindən olan Yessey adlı bir
Efratlının oğlu idi. Yesseyin səkkiz oğlu
var idi. Şaulun dövründə Yessey qocalıb
yaşa dolmuşdu. 13 Onun üç böyük
oğlu Şaulun ardınca döyüşə getmişdi.
Döyüşə gedən üç oğlunun adı belə idi:
birincisi Eliav, ikincisi Avinadav və
üçüncüsü Şamma. 14 Davud Yesseyin
ən kiçik oğlu idi. Üç böyük oğlu isə
Şaulun ardınca gedirdi. 15 Davud da
atasının sürüsünü otarmaq üçün Şaulun
yanından Bet-Lexemə gedər və geri
qayıdardı. 16 Filiştli Qolyat qırx gün
səhər-axşam İsraillilərə meydan oxudu.
17 Bir gün Yessey oğlu Davuda dedi:
«İndi qardaşların üçün bu bir efa
qovurğa və on kömbə çörəyi götür,
ordugaha – qardaşlarının yanına tələs.
18 Bu on parça pendiri də minbaşı üçün
götür, ondan qardaşlarının hal-əhvalını
soruş və mənə onlardan bir xəbər
gətir». 19 Davudun qardaşları Şaul və
bütün İsraillilərlə birgə Ela vadisində
Filiştlilərlə döyüşdə idi.
20 Davud səhər tezdən durub
qoyunlarını çobana tapşıraraq Yesseyin
buyurduğu kimi ərzaqları götürüb getdi.
O, ordugaha gələn zaman ordu döyüş
meydanına çıxır və nərə çəkərək döyüşə
düzülürdü. 21 İsraillilərlə Filiştlilər
döyüşmək üçün üz-üzə dayandılar.
22 Davud gətirdiyi şeyləri tədarük
keşikçisinə verdi, özü isə cəbhəyə qaçdı
və qardaşlarının yanına gəlib onları
salamladı. 23 Davud onlarla söhbət
edərkən Filiştlilərin Qat şəhərindən
olan Qolyat adlı cəngavər öz alaylarının
arasından irəli çıxıb yenə əvvəlki kimi
sözlər söylədi. Davud bunu eşitdi.
24 Bütün İsraillilər bu adamı görəndə
bərk qorxdular və onun qarşısından

---

*17:4 *Altı qulac bir qarış* – təqribən 3 metr.

qaçdılar. 25 İsraillilər dedilər: «Qabağa
çıxan bu adamı görürsünüzmü?
Doğrudan da, o, İsrailə meydan
oxumağa çıxıb. Kim onu öldürsə,
padşah onu var-dövlətə çatdıracaq,
qızını ona verəcək və atasının ailəsini
İsraildəki vergidən azad edəcək».
26 Davud yanındakı adamlara dedi: «Bu
Filiştlini öldürüb İsraili bu xəcalətdən
qurtaran adama nə ediləcək? Axı
bu sünnətsiz Filiştli kimdir ki var
olan Allahın alaylarına meydan
oxuyur?» 27 Xalq onu öldürən adama
nə ediləcəyini deyərək eyni sözü təkrar
etdi.
28 Davud adamlarla danışarkən
böyük qardaşı Eliav onun səsini eşitdi
və qəzəbdən alovlanaraq dedi: «Sən
niyə aşağı enmisən? Çöldəki bir
neçə qoyunumuzu kimə tapşırmısan?
Bilirəm, sən lovğalığından və ürəyinin
pis niyyətindən ötrü buraya döyüşə
tamaşa etmək üçün gəlmisən». 29 Davud
dedi: «Axı indi mən nə etmişəm? Yəni
danışa da bilmərəm?» 30 Davud oradan
qayıdıb başqasından soruşdu və xalq
ona yenə də əvvəlki kimi cavab verib
eyni sözləri dedi.
31 Davudun bu sözlərini eşidənlər
bunu Şaula çatdırdılar. Şaul onu
yanına çağırtdırdı. 32 Davud Şaula dedi:
«Bu adamdan ötrü heç kim ürəyini
üzməsin. Sənin qulun gedib o Filiştli
ilə vuruşacaq». 33 Şaul Davuda dedi:
«Bu Filiştli ilə vuruşmağa hünərin
çatmaz, çünki sən hələ uşaqsan,
o isə cavanlığından döyüşçüdür».
34 Davud Şaula dedi: «Sənin qulun
atasının qoyunlarını otaranda aslan
yaxud da ayı gəlib sürüdən bir quzu
götürəndə 35 mən arxadan çıxıb
onu vurardım və ağzından quzunu
qurtarardım. Əgər üstümə atılardısa,
mən boğazının tüklərindən tutaraq
çırpıb öldürərdim. 36 Bu qulun həm
aslan, həm də ayı öldürüb, bu sünnətsiz
Filiştli də onlardan biri kimi olacaq,
çünki o, var olan Allahın alaylarına
meydan oxumuşdur». 37 Davud sözünə
davam etdi: «Məni aslan pəncəsindən,
ayı pəncəsindən qurtaran Rəbb bu
Filiştlinin də əlindən qurtaracaq». Şaul
Davuda dedi: «Get, Rəbb sənə yar
olsun!»
38 Şaul öz silahlarını Davuda bağladı
və başına tunc dəbilqə qoyub əyninə
zireh geyindirdi. 39 Davud bu zirehin
üstündən qılınc taxıb gəzməyə çalışdı,
çünki ona alışmamışdı. Sonra Davud
Şaula dedi: «Bunlara alışmadığım üçün
gəzə bilmirəm». Davud onları əynindən
çıxartdı. 40 Sonra əlinə dəyənəyini
götürüb çaydan özünə beş hamar
daş seçdi və onları üstündəki çoban
torbasına – dağarcığına qoyub əlində
sapand Filiştliyə yaxınlaşdı.
41 Filiştli irəliləyərək Davuda
yaxınlaşırdı. Qalxan daşıyan nökəri isə
onun qabağında idi. 42 O nəzər salıb
Davudu görəndə ona kinayə ilə baxdı.
Çünki Davud gənc, alyanaq, üzügöyçək
idi. 43 Filiştli Davuda dedi: «Məgər mən
itəm ki, üstümə dəyənəklərlə gəlirsən».
Filiştli öz allahları ilə Davudu lənətlədi
və dedi: 44 «Yanıma gəl, sənin ətini
göydəki quşlara və çöldəki heyvanlara
verim».
45 Davud isə Filiştliyə dedi: «Sən
mənim üstümə qılınc, nizə və mizraqla
gəlirsən, lakin mən sənin üstünə
söydüyün İsrail alaylarının Allahı
Ordular Rəbbinin ismi ilə gəlirəm. 46 Bu
gün Rəbb səni mənə təslim edəcək
və mən səni öldürəcəyəm. Başını
bədənindən ayıracağam. Bu gün Filişt
ordusunun leşlərini göydəki quşlara və
yerdəki heyvanlara verəcəyəm. Bundan
sonra bütün dünya biləcək ki, İsraildə
Allah var. 47 Bütün bu camaat biləcək
ki, Rəbb qılıncla və nizə ilə xilas etməz,
çünki bu döyüş Rəbbindir və O sizi bizə
təslim edəcək».

48 Davudun qabağına çıxmaq üçün
Filiştli durub yaxınlaşanda Davud cəld
onu qabaqlayıb Filişt alaylarına tərəf
qaçdı. 49 Davud əl atıb dağarcığından
bir daş götürdü, sapandla fırladaraq
Filiştlinin alnından vurdu. Daş onun
alnına batdı və o, üzüstə yerə yıxıldı.
50 Davud Filiştlini sapandla, daşla
məğlub etdi və vurub yerə sərdi.
Davudun əlində qılınc yox idi. 51 O
qaçıb bu Filiştlinin üstünə çıxdı.
Filiştlinin qılıncını götürdü, qınından
çəkib onu öldürdü və sonra başını
kəsdi. Filiştlilər öz cəngavərinin
öldürüldüyünü görəndə qaçdılar.
52 İsraillilərlə Yəhudalılar isə qalxıb
nərə çəkdilər və Filiştliləri Qatın
girişinə və Eqronun darvazalarına
çatana qədər qovdular. Filiştlilərdən
ölənlər Şaarayim yolu boyu Qata və
Eqrona qədər yerə sərilmişdilər. 53 İsrail
övladları Filiştliləri arxadan qovandan
sonra qayıdıb onların ordugahını
talan etdilər. 54 Davud Qolyatın başını
götürüb Yerusəlimə gətirdi, lakin
silahını öz çadırına qoydu.
55 Şaul Davudun Filiştliyə qarşı
çıxdığını görən zaman ordu başçısı
Avnerə «Avner, bu gənc kimin oğludur?»
deyə soruşdu. Avner isə dedi: «Padşah
sağ olsun, bilmirəm». 56 Padşah dedi:
«Öyrən gör, bu cavan kimin oğludur».
57 Davud Qolyatı öldürüb qayıdandan
sonra Avner onu götürüb Şaulun
qarşısına gətirdi. Filiştlinin başı onun
əlində idi. 58 Şaul ona dedi: «Ey cavan,
kimin oğlusan?» Davud cavab verdi:
«Qulun Bet-Lexemli Yesseyin oğluyam».

Davud və Yonatan

18 Davud Şaulla danışığını qurtaran
kimi Yonatanın qəlbi Davudun
qəlbinə bağlandı və Yonatan onu
öz canı kimi sevdi. 2 Şaul o gündən
sonra Davudu öz yanında saxlayıb
bir daha atasının evinə qayıtmağa
qoymadı. 3 Yonatan isə Davudla əhd
bağladı, çünki onu öz canı kimi sevirdi.
4 Yonatan cübbəsini əynindən çıxarıb
qılınc, ox-kaman və kəməri ilə birlikdə
zirehini Davuda verdi.
5 Şaul Davudu hansı işə göndərirdisə,
o uğur qazanırdı. Ona görə də Şaul
Davudu döyüşçülərinin başçısı etdi
və bu da həm xalqın, həm də Şaulun
əyanlarının gözünə xoş göründü.

Şaulun Davuda paxıllıq etməsi

6 Davud Filiştli Qolyatı öldürüb
qayıdanda əsgərlər geri gələrkən
İsrailin bütün şəhərlərindən qadınlar
dəflərlə, üçsimli alətlərlə şənlik mahnısı
oxuyaraq və rəqs edərək padşah Şaulu
qarşılamaq üçün çıxırdılar. 7 [m]Qadınlar
rəqs edə-edə belə mahnı oxuyurdular:
«Şaul qırdı minləri,
Davudsa on minləri».
8 Şaul bundan çox qəzəbləndi, çünki
bu söz onun gözündə pis göründü və
dedi: «Davud üçün on minləri, mənim
üçünsə ancaq minləri deyirlər. Təkcə
padşahlıq qaldı, bundan başqa nə var
ki, ona verilsin?» 9 O gündən sonra Şaul
Davuda çəp-çəp baxmağa başladı.
10 Ertəsi gün Allahın izni ilə şər ruh
Şaulun üstünə qüvvə ilə gəldi və o,
evinin ortasında sayıqlamağa başladı.
Davud isə hər gün etdiyi kimi yenə də
əlində lira çalırdı. Şaulun nizəsi əlində
olardı. 11 Şaul «qoy Davudu bu nizə
ilə divara yapışdırım» deyərək nizəni
atdı. Lakin Davud onun qabağından iki
dəfə kənara çəkildi. 12 Şaul Davuddan
qorxdu, çünki Rəbb Davudla idi və
Şauldan ayrılmışdı. 13 Ona görə də
Şaul onu öz yanından uzaqlaşdırıb
minbaşı etdi və Davud xalqı döyüşə
aparıb-gətirməyə başladı. 14 Davud

---

[m]**18:7** 1Şam. 21:11; 29:5

bütün yürüşlərində uğur qazanırdı,
çünki Rəbb onunla idi. 15 Şaul Davudun
böyük uğurlar qazandığını görüb çox
qorxdu. 16 Bütün İsrail və Yəhuda xalqı
isə Davudu çox sevirdi, çünki onları
döyüşlərə aparıb-gətirirdi.
17 Şaul Davuda dedi: «Bax, budur
böyük qızım Merav, onu sənə ərə
verəcəyəm. Ancaq sən uğrumda cəsur ol
və Rəbbin döyüşlərini apar». Çünki Şaul
«qoy o mənim yox, Filiştlilərin əlində
ölsün» deyə fikirləşdi. 18 Davud Şaula
dedi: «Axı mən kiməm ki? Ailəm kimdir,
İsraildə atamın nəsli kimdir ki, padşaha
kürəkən olum?» 19 Şaulun qızı Merav isə
Davuda veriləcəyi vaxt Mexolalı Adrielə
ərə verildi.
20 Şaulun o biri qızı Mikal Davuda
vurulmuşdu. Bu xəbəri Şaula çatdırdılar
və bu onun gözündə xoş göründü.
21 Şaul «Davuda Mikalı verim ki, bu ona
bir tələ olsun. Qoy Davud Filiştlilərin
əli ilə öldürülsün» deyə fikirləşdi.
Sonra Şaul Davuda dedi: «Bu gün mənə
kürəkən olmaq üçün əlində ikinci fürsət
var». 22 Şaul əyanlarına əmr etdi ki,
Davuda gizlincə belə desinlər: «Bax
padşahın səndən xoşu gəlir və bütün
əyanları da səni sevir; gəl indi padşaha
sən kürəkən ol». 23 Şaulun əyanları
bu sözləri Davuda eşitdirəndə o belə
dedi: «Kasıb və gərəksiz adam olan
mən padşahamı kürəkən olum? Məgər
bu sizin gözünüzdə kiçik işdirmi?»
24 Şaulun əyanları «Davud belə söylədi»
deyərək onun sözünü Şaula çatdırdılar.
25 Şaul dedi: «Davuda deyərsiniz:
“Padşah səndən başlıq pulu istəmir.
Ancaq padşahın düşmənlərindən qisas
almaq üçün yüz Filiştlinin sünnət
ətini istəyir”». Bunu da Şaul Davudu
Filiştlilərin əli ilə həlak etmək üçün
quraşdırmışdı.
26 Şaulun əyanları bu sözləri Davuda
çatdırdılar və padşahın kürəkəni olmaq
onun gözündə xoş göründü. Təyin
olunan günlər hələ başa çatmamış
27 Davud qalxıb adamları ilə getdi və
Filiştlilərdən iki yüz kişini öldürdü.
Padşahın kürəkəni olmaq üçün Davud
onların sünnət ətini gətirdi və onları
tam sayda padşaha verdilər. Şaul qızı
Mikalı Davuda ərə verdi. 28 Şaul Rəbbin
Davudla olduğunu görüb başa düşdü.
Şaulun qızı Mikal isə Davudu sevirdi.
29 Bundan sonra Şaul Davuddan daha
da qorxdu və ömrünün sonuna qədər
ona düşmən oldu.
30 Filiştlilərin başçıları döyüşə
çıxırdılar. Onlar hər dəfə döyüşə çıxanda
Davud Şaulun əyanlarının hamısından
daha çox uğur qazanırdı. Buna görə də
onun adı çox şöhrətlənmişdi.

Şaulun Davudu təqib etməsi

19 Şaul oğlu Yonatana və bütün
əyanlarına tapşırdı ki, Davudu
öldürsünlər. Lakin Şaulun oğlu
Yonatanın Davuddan çox xoşu gəlirdi.
2 Yonatan Davuda xəbər verib dedi:
«Atam Şaul səni öldürmək istəyir. İndi
isə rica edirəm, səhərə qədər özünü
qoru. Bir yer tap, gizlən. 3 Mən isə
çöldə gizləndiyin yerə çıxaraq atamın
yanında dayanıb sənin haqqında onunla
danışacağam. Əgər bir şey görsəm,
gəlib sənə xəbər verərəm». 4 Yonatan
atası Şaula Davudu tərifləyib dedi:
«Padşah qulu Davuda qarşı günah
etməsin, çünki o sənə qarşı heç vaxt
günah etməyib və onun işləri sənin
üçün çox xeyirli olmuşdur. 5 O, canını
dişinə tutub Qolyatı öldürdü və Rəbb
bütün İsrailə böyük qələbə qazandırdı.
Bunu sən də görüb sevindin. Davudu
boş yerə öldürməklə nə üçün nahaq qan
töküb günah edirsən?» 6 Şaul Yonatanın
sözünü dinləyib «var olan Rəbb haqqı,
onu öldürməyəcəyəm» deyə and içdi.
7 Yonatan Davudu çağırdı və bütün
bu sözləri ona xəbər verdi. Sonra o,

Davudu Şaulun yanına gətirdi və Davud
əvvəlki kimi Şaulun qulluğunda durdu.
8 Yenidən müharibə başladı. Davud
qalxıb Filiştlilərə qarşı vuruşdu, onları
məğlubiyyətə uğratdı və Filiştlilər
Davudun qabağından qaçdılar. 9 Şaul
əlində nizə evdə oturmuşdu, Rəbbin izni
ilə şər ruh onun üzərinə endi. Davud
isə əlində lira çalırdı. 10 Şaul Davudu
nizə ilə divara yapışdırmağa çalışdı,
lakin Davud Şaulun qabağından qaçdı,
nizə divara yapışdı. Davud o gecə qaçıb
canını qurtardı.
11 [n]Şaul Davudun evinə adamlar
göndərdi ki, onu güdüb səhər ikən
öldürsünlər. Davudun arvadı Mikal
bunu Davuda xəbər verib dedi: «Əgər
bu gecə canını qurtarmasan, səhər ikən
öldürüləcəksən». 12 Sonra Mikal Davudu
pəncərədən aşağı saldı və o qaçaraq
qurtuldu. 13 Mikal ev bütünü götürüb
yatağa uzatdı və başına tüklü keçi
dərisi keçirib üstünü paltarla örtdü.
14 Şaulun Davudu yaxalamaq üçün
göndərdiyi adamlar gələndə Mikal dedi
ki, o xəstədir. 15 Şaul Davudu görmək
istəyirdi. Onun üçün başqa adamlar
göndərib dedi: «Onu yatağının içindən
çıxarıb yanıma gətirin ki, öldürüm».
16 Bu adamlar içəri girib gördülər
ki, yataqda başına tüklü keçi dərisi
keçirilmiş büt uzanıb. 17 Şaul Mikala
dedi: «Niyə məni aldatdın? Düşmənimi
buraxdın, o da qurtuldu». Mikal Şaula
cavab verdi: «Davud mənə dedi ki, məni
burax, gedim! Axı niyə səni öldürüm?»
18 Davud qaçıb qurtuldu və Ramaya,
Şamuelin yanına gəldi. Şaulun ona
qarşı nə etdiyini təfsilatı ilə Şamuelə
danışdı və onunla birlikdə gedib Nayot
məhəlləsində qaldılar. 19 «Budur, Davud
Ramanın Nayot məhəlləsindədir»
deyə Şaula xəbər verdilər. 20 Şaul
Davudu gətirmək üçün oraya adamlar
göndərdi. Adamlar Şamuelin başçılığı
altında peyğəmbərlər dəstəsinin
peyğəmbərlik etdiyini gördülər. Onda
bu adamların da üstünə Allahın
Ruhu endi və onlar da peyğəmbərlik
etməyə başladılar. 21 Bunu Şaula xəbər
verdilər, o başqa adamlar göndərdi
və onlar da peyğəmbərlik etdilər.
Şaul üçüncü dəfə yenə adamlar
göndərdi, onlar da peyğəmbərlik
etdilər. 22 Axırda özü Ramaya getdi
və Sekuda olan böyük quyunun
yanına gəlib oradakılardan soruşdu:
«Şamuellə Davud haradadırlar?»
Bir nəfər dedi ki, budur, Ramadakı
Nayotda. 23 Şaul Ramadakı Nayota
gedəndə onun da üstünə Allahın Ruhu
endi və Ramadakı Nayota çatana qədər
peyğəmbərlik edərək getdi. 24 [o]Sonra o,
paltarını soyunub Şamuelin qabağında
peyğəmbərlik etdi və gəlib bütün o
günü və gecəni çılpaq yerə sərildi. Buna
görə də «Məgər Şaul da peyğəmbərlərin
sırasındadır?» deyirlər.

Yonatanla Davudun əhdi

20 Davud Ramadakı Nayotdan
qaçdı və gəlib Yonatana dedi:
«Axı nə etmişəm? Təqsirim nədir?
Atana qarşı nə günahım var ki, canımın
qəsdinə durub?» 2 Yonatan ona cavab
verdi: «Əsla, sən ölməyəcəksən. Bax
böyük olsun, kiçik olsun, atam mənə
deməmiş bir iş görməz. Axı niyə atam
məndən bu işi gizlətsin? Belə şey
ola bilməz!» 3 Davud yenə and içib
dedi: «Atan əmindir ki, mən sənin
gözündə lütf tapmışam. Ona görə
deyir ki, qoy Yonatan bunu bilməsin,
yoxsa kədərlənər. Lakin var olan
Rəbbə və canına and olsun, mənimlə
ölüm arasında, həqiqətən, ancaq bir
addım var». 4 Yonatan Davuda dedi:
«Sənin üçün ürəyin nə istəsə, onu

---

[n]**19:11** Zəb. 59 başlıq [o]**19:24** 1Şam. 10:11-12

da edəcəyəm». 5 [p]Davud Yonatana
dedi: «Sabah Təzə Ay mərasimidir və
mütləq padşahla yeməyə oturmalıyam.
Lakin sən mənə birisi gün axşama
qədər izin ver, gedib çöldə gizlənim.
6 Əgər atan məni axtararsa, o vaxt de
ki, Davud öz şəhərinə – Bet-Lexemə
dəymək üçün məndən izin istədi. Çünki
orada bütün ailəsinin illik qurbanı
vardır. 7 Əgər "lap yaxşı" deyərsə,
deməli sənin qulun salamatdır, yox,
əgər qəzəblənərsə, onda o mənə pislik
etmək niyyətindədir. 8 Belə olarsa, bu
quluna xeyirxahlıq et, çünki qulunu
özünlə Rəbbin əhdinə saldın. Əgər
mənim təqsirim varsa, sən özün məni
öldür. Axı nə üçün məni atanın yanına
aparmalısan?» 9 Yonatan dedi: «Əsla, bu
sənin başına gəlməz! Atamın sənə pislik
etmək niyyətində olduğunu bilsəydim,
sənə xəbər verməzdimmi?» 10 Davud
Yonatana dedi: «Atan sənə sərt cavab
versə, bunu mənə kim bildirəcək?»
11 Yonatan Davuda dedi: «Gəl çölə
çıxaq». Hər ikisi çölə çıxdı.
12 Sonra Yonatan Davuda dedi:
«İsrailin Allahı Rəbbə and olsun, sabah
yaxud o birisi gün bu vaxtlar mən
atamdan fikrini öyrənərəm. Əgər,
həqiqətən, Davuda qarşı fikri yaxşıdırsa,
bu xəbəri sənə çatdıraram. 13 Yox, əgər
sənə pislik etmək atamın xoşuna gəlirsə
və mən bunu sənə deməsəm, salamat
gedəsən deyə səni yola salmasam,
Rəbb Yonatana beləsini və bundan
betərini etsin. Rəbb necə atamla oldusa,
qoy sənlə də elə olsun. 14 Əgər
sağ qalaramsa, Rəbbin sədaqətini
mənə göstərərsən. Yox, əgər ölsəm,
15 [q]bu sədaqəti Rəbb Davudun bütün
düşmənlərini yer üzündən silən zaman
da heç vaxt evimdən kəsməyəcəksən».
16 Yonatan Davud nəsli ilə əhd bağlayıb
dedi: «Qoy Rəbb Davudun düşmənlərini
Özü cəzalandırsın!» 17 Yonatan Davuda
olan sevgisi naminə bir də ona and
içdirdi, çünki onu öz canı kimi sevirdi.
18 Yonatan dedi: «Sabah Təzə Ay
mərasimidir, yerin boş olduğu üçün
səni axtaracaqlar. 19 Üç gün qalandan
sonra tezdən bura enərsən və əvvəl
gizləndiyin yerə gəlib Ezel *daşının
yanında oturarsan. 20 Mən hədəfə atan
kimi daşın bir tərəfinə üç ox atacağam.
21 Sonra "get oxları tap" deyərək bir
uşaq göndərəcəyəm. Bax əgər uşağa
"oxlar burada – sənin yanındadır, get
onları oradan götür" desəm, yanıma
gəl, çünki sənin üçün salamatlıqdır
və var olan Rəbbə and olsun, heç
bir şey yoxdur. 22 Lakin əgər uşağa
"oxlar səndən uzaqdadır" desəm, öz
yolunla çıx get, çünki Rəbb səni uzağa
göndərmişdir. 23 Aramızda danışdığımız
sözə gəlincə, bil ki, Rəbb əbədi olaraq
sənlə mənim aramdadır».
24 Davud çöldə gizləndi. Təzə Ay
mərasimi başlayarkən padşah yeməyə
oturdu. 25 Həmişəki kimi padşah öz
yerində – divarın yanında oturdu.
Yonatan ayağa qalxdı və Avner Şaulun
yanında oturdu. Davudun yeri isə boş
idi. 26 Şaul o gün bir söz demədi, çünki
elə düşünürdü ki, Davudun başına nə
isə gəlib. Yəqin ki natəmizdir. 27 Ertəsi
gün – Təzə Ay mərasiminin ikinci
günü Davudun yeri yenə də boş idi
və Şaul oğlu Yonatana dedi: «Nə üçün
Yesseyin oğlu nə dünən, nə də bu gün
yeməyə gəlməyib?» 28 Yonatan Şaula
belə cavab verdi: «Davud Bet-Lexemə
getmək üçün təkidlə məndən izin istədi.
29 Mənə dedi: "Rica edirəm, izin ver
gedim, çünki şəhərdə ailəmizin qurbanı
var. Orada olmağımı böyük qardaşım
mənə əmr etmişdi. Əgər indi gözündə

*20:19 *Ezel* – ibrani dilində *ayrılıq*.

[p]**20:5** Say. 28:11 [q]**20:15** 2Şam. 9:1

lütf tapmışamsa, rica edirəm, məni
burax, gedim qardaşlarımla görüşüm”.
Buna görə də padşahın süfrəsinə gələ
bilməyib».
30 Yonatana qarşı Şaulun qəzəbi
alovlandı və ona belə dedi: «Ey
xəyanətkar və dönük qadının oğlu,
öz rüsvayçılığına görə, ananın
biabırçılığına görə Yesseyin oğlunu
özünə dost seçdiyini guya mən
bilmirəm? 31 Nə qədər ki Yesseyin
bu oğlu yer üzündə yaşayır, nə sən
rahat olacaqsan, nə də padşahlığın.
İndi isə adam göndər, qoy onu yanıma
gətirsin, çünki o mütləq ölməlidir».
32 Yonatan atası Şaula cavab verdi:
«Axı nə üçün ölməlidir? O nə edib ki?»
33 Şaul Yonatanı öldürmək üçün nizə
atdı. Onda Yonatan atasının Davudu
öldürmək niyyətində olduğunu başa
düşdü. 34 Yonatan qızğın qəzəblə süfrə
üstündən qalxdı. Təzə ayın ikinci
günündə yemək yemədi, çünki atası
Davuda namərdlik etdiyi üçün qanı
qaralmışdı.
35 Səhəri gün erkən Yonatan Davudla
təyin etdiyi vaxt çölə getdi. Yanında
kiçik bir uşaq var idi. 36 O, uşağa dedi:
«Qaç, indi atacağım oxları tap». Uşaq
qaçarkən Yonatan onun başı üzərindən
bir ox atdı. 37 Uşaq Yonatanın atdığı
oxun yanına çatanda Yonatan uşağı
arxadan çağırıb dedi: «Ox səndən
uzaqda deyilmi?» 38 Yonatan uşağı yenə
arxadan çağırıb «Tez ol, qaç, dayanma!»
dedi. Yonatanın nökəri oxu götürüb
ağasının yanına gəldi. 39 Lakin uşağın
heç nədən xəbəri yox idi. Bu işi ancaq
Yonatanla Davud bilirdi. 40 Yonatan
silahlarını uşağa verib dedi: «Get,
bunları şəhərə apar». 41 Uşaq gedəndən
sonra Davud daşın cənub tərəfindən
çıxıb üzüstə yerə sərildi və üç dəfə
onun qarşısında əyildi. Onlar öpüşüb
ağlaşdılar, Davud daha çox ağladı.
42 Yonatan Davuda dedi: «Sağ-salamat
get, çünki “sənin lə mənim aramda və
sənin övladlarınla mənim övladlarım
arasında əbədilik Rəbb olacaq” deyərək
ikimiz də Rəbbin isminə and içmişik».
Bundan sonra Davud qalxıb öz yolu ilə
getdi, Yonatan isə şəhərə qayıtdı.

Davudun Şaulun yanından qaçması

21 [r]Davud Nov şəhərinə – kahin
Aximelekin yanına gəldi.
Aximelek qorxudan əsərək Davudu
qarşılayıb dedi: «Niyə tənhasan, məgər
yanında heç kim yoxdur?» 2 Davud
kahin Aximelekə dedi: «Padşah mənə
iş buyurub dedi ki, səni nə üçün
göndərdiyimi və sənə əmr etdiyim işi
heç kim bilməsin. Ona görə də nökərləri
müəyyən yerlərə təyin etmişəm. 3 İndi
yanında yeməyə nə var? Mənə beş
kömbə çörək yaxud nə varsa, ver».
4 Kahin Davuda dedi: «Yanımızda adi
çörək yoxdur, ancaq gənclər qadınlarla
yaxınlıq etməyiblərsə, müqəddəs çörək
var». 5 Davud kahinə belə cavab verdi:
«Adətə görə mənim adamlarım adi
səfərə çıxanda belə, bədənlərini təmiz
saxlayır və qadınlarla yaxınlıq etmirlər.
O ki qaldı bugünkü səfərə, sözsüz
ki hamı pak olmalıdır». 6 [s]Kahin ona
müqəddəs çörək verdi, çünki Rəbbə
təqdim edilən çörəklərdən başqa, çörək
yox idi. O çörəklər Rəbbin önündən
götürülmüşdü ki, yerinə isti çörəklər
qoyulsun.
7 O gün Şaulun əyanlarından bir nəfər
orada idi. O, Rəbbin önündə olan dini
mərasimə görə yubanmışdı. Bu, Şaulun
baş çobanı Edomlu Doeq idi. 8 Davud
Aximelekə dedi: «Burada yanınızda
bir nizə yaxud bir qılınc varmı? Çünki
padşah mənə təcili iş buyurduğu üçün
nə qılıncımı, nə də silahlarımı götürə

[r]**21:1** Mat. 12:3-4; Mark 2:25-26; Luka 6:3-4 [s]**21:6** Lev. 24:5-9

bildim». 9 [t]Kahin dedi: «Ela vadisində
öldürdüyün Filiştli Qolyatın qılıncı
bezə bükülü olaraq orada – efodun
arxasındadır. Əgər onu istəyirsənsə,
götür, çünki burada ondan başqası
yoxdur». Davud dedi: «Onun əvəzi
yoxdur, mənə ver».
10 O gün Davud Şauldan qaçdı və
Qat padşahı Akişin yanına getdi.
11 [u]Akişin əyanları ona dedilər: «Bu
öz ölkəsinin padşahı Davud deyilmi?
Rəqslərdə qadınlar bunu tərənnüm edib
oxumurdularmı?
"Şaul qırdı minləri,
Davudsa on minləri"».
12 [v]Davud bu sözləri ürəyinə salıb Qat
padşahı Akişdən çox qorxdu. 13 Onların
qarşısında görkəmini dəyişdirdi və
yanlarında özünü dəli kimi göstərərək
darvaza qapısının taylarını cırmaqladı
və ağzının suyunu saqqalına axıtdı.
14 Akiş əyanlarına dedi: «Bax görürsünüz
ki, bu adam dəlidir. Nə üçün onu mənim
yanıma gətirmisiniz? 15 Mənim dəlilərim
əskikdir ki, qarşımda dəlilik etmək üçün
bunu da gətirdiniz? Heç belə adam da
mənim evimə girərmi?»

22 [w]Davud oradan yola çıxıb
Adullam mağarasında gizləndi.
Qardaşları və atasının külfəti bunu
eşidəndə onun yanına gəldilər.
2 Vəziyyəti ağır olanların, borcu
olanların, narazıların hamısı yanına
yığıldı və Davud onların başçısı oldu.
Onun yanında dörd yüz nəfərə qədər
adam var idi.
3 Davud oradan Moavın Mispa
şəhərinə gəlib Moav padşahına
dedi: «Rica edirəm, Allahın mənə nə
edəcəyini bilənə qədər qoy atamla
anam gəlib yanında qalsın». 4 Davud
onları Moav padşahının yanında qoydu
və özü qalada qaldığı müddətdə ata
və anası Moav padşahının yanında
qaldı. 5 Peyğəmbər Qad Davuda dedi:
«Sən burada – qalada belə dolanma,
Yəhuda diyarına get». Davud gedib
Xeret meşəsinə girdi.

Şaulun Nov kahinlərini öldürməsi

6 Şaul Davudla yanındakı adamlarının
yerini öyrəndi. O, Giveadakı bir təpədə,
yulğun ağacının altında əlində nizə
oturmuş, bütün əyanları isə ətrafında
dayanmışdılar. 7 Şaul ətrafındakı
əyanlarına belə dedi: «Ey Binyaminlilər,
indi mənə qulaq asın. Yesseyin oğlu
hamınıza tarlalar və üzümlüklər
verəcəkmi? Hamınızı minbaşı və
yüzbaşı edəcək ki, 8 mənim üçün hiylə
qurursunuz? Mənim oğlum Yesseyin
oğlu ilə əhd bağlayan zaman bunu
qulağıma çatdıran olmadı və heç
birinizin mənə yazığı gəlmədi. Pusqu
qurmaq üçün oğlum mənim üstümə
qulumu qiyama qaldırır, deyə bu xəbəri
qulağıma çatdıran oldumu?» 9 [x]Şaulun
əyanlarının yanında Edomlu Doeq də
dayanmışdı və o dedi: «Yesseyin oğlunu
Novda, Axituv oğlu Aximelekin yanına
gələndə gördüm. 10 Orada Aximelek
Davud üçün Rəbbə müraciət etdi və
ona həm ərzaq, həm də Filiştli Qolyatın
qılıncını verdi».
11 Padşah Axituv oğlu kahin Aximeleki
və atasının külfətini, həm də Novda
olan kahinləri çağırmaq üçün adam
göndərdi. Onların hamısı padşahın
yanına gəldi. 12 Şaul dedi: «Ey Axituv
oğlu, indi məni dinlə». Aximelek
dedi: «Buyurun, ağam». 13 Şaul dedi:
«Allaha müraciət edib bugünkü kimi
mənim üstümə qiyam qaldırmaq
üçün Yessey oğlunun əlinə çörək və
qılınc verərək niyə mənə qarşı fənd
qurdunuz?» 14 Aximelek padşaha cavab

---

[t]**21:9** 1Şam. 17:51 [u]**21:11** 1Şam. 18:7; 29:5 [v]**21:12** Zəb. 56 başlıq; Zəb. 34 başlıq [w]**22:1** Zəb. 57 başlıq; Zəb. 142 başlıq [x]**22:9** Zəb. 52 başlıq

verdi: «Bütün əyanlarının arasında
Davud kimi sədaqətli olanı varmı? O,
padşahın kürəkəni, mühafizəçilərin
başçısı və sənin evində çox etibarlı
sayılan adamdır. 15 Onun üçün Allaha
müraciət etməyə ancaq o gündənmi
başlamışam? Əsla! Padşahım bu quluna
və atamın külfətinə şər atmasın, çünki
az-çox olsa belə, qulunun bu işdən heç
bir xəbəri yoxdur». 16 Padşah dedi: «Ey
Aximelek, sən və atanın külfəti mütləq
ölməlisiniz». 17 Padşah yanındakı
mühafizəçi əsgərlərə dedi: «Dönün,
Rəbbin kahinlərini öldürün. Ona görə
ki onlar da Davudla əlbir olub. Çünki
onun qaçdığını bilib bu xəbəri qulağıma
çatdırmayıblar». Lakin padşahın
adamları əl qaldırıb Rəbbin kahinlərini
öldürmək istəmədilər. 18 Padşah Edomlu
Doeqə dedi: «Dön, bu kahinləri öldür».
Edomlu Doeq dönüb kahinləri öldürdü
və o gün kətan efod geyən səksən beş
kişi öldürüldü. 19 Sonra o, kahinlərin
şəhəri olan Novu da qılıncdan keçirdi.
Kişi, qadın, gənc, körpə bilmədən bütün
adamları, eləcə də öküzləri, eşşəkləri və
qoyunları qılıncdan keçirdi.
20 Axituvun oğlu Aximelekin
oğullarından Evyatar adlı bir nəfər
qurtulub Davudun yanına qaçdı.
21 Evyatar Şaulun Rəbbin kahinlərini
öldürdüyünü Davuda xəbər verdi.
22 Davud Evyatara dedi: «O vaxt
Edomlu Doeq orada olanda mütləq
bunu Şaula çatdıracağını anlamışdım.
Atanın külfətinin qırılmasına səbəb mən
oldum. 23 Yanımda qal, qorxma, çünki
mənim canımı almaq istəyən sənin də
canını almaq istəyir. Əgər yanımda
qalsan, salamat olarsan».

Davudun Qeila şəhərini qurtarması

23 Davuda xəbər verərək dedilər:
«Budur, Filiştlilər Qeilaya hücum
çəkib xırmanları talan edirlər». 2 Davud
Rəbbə müraciət edib dedi: «Gedib
Filiştlilərlə vuruşummu?» Rəbb Davuda
dedi: «Get Filiştlilərə hücum et və
Qeilanı qurtar». 3 Davudun adamları isə
ona dedilər: «Bax burada – Yəhudada
biz qorxu içərisindəyik. Bəs biz Qeilaya,
Filişt ordularına qarşı necə çıxaq?»
4 Davud Rəbbə yenidən müraciət etdi
və Rəbb ona cavab verib dedi: «Qalx
Qeilaya en, çünki Filiştliləri sənə təslim
edəcəyəm». 5 Davudla adamları Qeilaya
gedib Filiştlilərə qarşı hücuma keçdilər.
Davud onların mal-qaralarını apardı
və Filiştlilərə güclü zərbə vurub Qeila
əhalisini qurtardı.
6 Aximelekin oğlu Evyatar Qeilaya –
Davudun yanına qaçarkən əlində efod
enmişdi. 7 Davudun Qeilaya gəlməsi
Şaula çatdırıldı. Şaul dedi: «Allah onu
mənim ovcumun içinə qoyub, çünki
cəftəli darvazaları olan bir şəhərə
girməklə o özünü çıxılmaz vəziyyətə
salıb». 8 Şaul Qeilaya enmək və Davudla
adamlarını mühasirəyə almaq üçün
bütün xalqı müharibəyə çağırdı.
9 Şaulun ona pislik etmək istədiyini
Davud bilirdi. O, kahin Evyatara dedi:
«Efodu bura gətir». 10 Davud sözünə
davam etdi: «Ey İsrailin Allahı Rəbb,
mən ciddi məlumat almışam ki, bu
quluna görə şəhəri məhv etmək üçün
Şaul Qeilaya gəlmək istəyir. 11 Qeila
sakinləri məni ona təslim edəcəklərmi?
Ey İsrailin Allahı Rəbb, yalvarıram,
bunu quluna agah et. Şaul da Sənin
qulun eşitdiyi kimi bura enəcəkmi?»
Rəbb «o enəcək» dedi. 12 O zaman
Davud dedi: «Qeilalılar məni və
adamlarımı Şaula təslim edəcəkmi?»
Rəbb «təslim edəcəklər» dedi. 13 Davud
təxminən altı yüz nəfər adam ilə qalxıb
Qeiladan çıxdı və bu yerdən başqa yerə
getdi. Davudun Qeiladan qaçdığını
eşidən Şaul oraya getmək fikrindən
döndü. 14 Davud çöllükdə qalalarda
qalıb Zif səhrasındakı dağlıq bölgəsində

yaşadı. Şaul hər gün Davudu axtarırdı,
lakin Allah onu Şaula təslim etmədi.

Yonatan ilə Davudun görüşü

15 Zif səhrasındakı Xoreşdə olan
Davud gördü ki, Şaul onun canını
almaq üçün yola çıxıb. 16 Şaulun oğlu
Yonatan qalxıb Xoreşə, Davudun yanına
gəldi və onu Allah naminə ruhlandırdı.
17 Ona dedi: «Qorxma, atam Şaulun
əlinə düşməyəcəksən, İsrailin padşahı
sən olacaqsan, mən səndən sonra ikinci
olacağam. Bunu hətta atam Şaul da
bilir». 18 [y]Sonra ikisi də Rəbbin önündə
əhd bağladı və Davud Xoreşdə qaldı,
Yonatan isə evinə qayıtdı.

Davudun Zifdə Şauldan qurtulması

19 [z]Ziflilər Giveaya, Şaulun yanına
qalxıb dedilər: «Davud bizim yanımızda,
Yeşimonun cənubundakı Xakila
təpəsində, Xoreşdəki qalalarda
gizlənmişdi. 20 Ey padşah, indi oraya
ensən, ürəyindəki arzuna çatarsan.
Onu padşaha təslim etmək bizim
payımıza düşər». 21 Şaul dedi: «Mənə
xeyirxahlıq etdiyiniz üçün Rəbb sizə
bərəkət versin. 22 Gedin daha yaxşı
araşdırın və öyrənin ki, hara ayaq
basıb, kimlər onu görüb. Deyirlər ki, o
çox hiyləgərdir. 23 Gizləndiyi yerlərin
hamısını tapıb öyrənin, doğru xəbərlə
mütləq yanıma gəlin və mən də sizinlə
oraya gedəcəyəm. Əgər o bölgədə olsa,
onu bütün Yəhuda tayfaları arasında
axtaracağam».
24 Ziflilər qalxıb Şauldan qabaq
Zifə qayıtdılar. Davudla adamları
Yeşimonun cənubunda – Aravadakı
Maon səhrasında idi. 25 Şaulla adamları
onu axtarmaq üçün həmin yerə getdilər.
Bu, Davuda xəbər verildi və o da
qayalığa enib Maon səhrasında qaldı.
Şaul bunu eşidərkən Maon səhrasında
Davudu təqib etdi. 26 Şaul dağın bir
tərəfi, Davudla adamları isə dağın o
biri tərəfi ilə getməkdə idi. Davud
cəld tərpənib Şaulun qabağından
qaçdı, çünki Şaulla adamları Davudla
adamlarını tutmaq üçün oranı
mühasirəyə alırdılar. 27 Bu vaxt Şaulun
yanına bir qasid gəlib dedi: «Tez ol, geri
qayıt, çünki Filiştlilər ölkəyə hücum
ediblər». 28 Şaul Davudu təqib etməkdən
əl çəkərək Filiştlilərə qarşı döyüşə getdi.
Ona görə də o yerə Sela-Hammaxleqot
[*]adı verildi. 29 Davud oradan çıxıb
En-Gedi qalalarında qaldı.

Davudun Şaula rəhmi

24 Şaul Filiştliləri təqib edib
dönərkən ona belə xəbər verildi:
«Davud En-Gedi səhrasındadır». 2 O
bütün İsraildən üç min seçmə adam
götürüb Davudla adamlarını axtarmaq
üçün Dağ Keçiləri qayasının yaxınlığına
getdi. 3 [a]Yol kənarındakı qoyun
ağıllarına gəldi. Orada bir mağara vardı.
Şaul ayaqyoluna getmək üçün oraya
girdi. Davud adamları ilə mağaranın lap
içəri tərəfində oturmuşdu. 4 Davudun
adamları ona dedi: «Budur, Rəbbin sənə
“bax düşmənini sənə təslim edəcəyəm,
gözündə nə xoşdursa, ona edəcəksən”
dediyi gün bu gündür». Davud qalxıb
gizlicə Şaulun cübbəsinin ətəyindən
kəsdi. 5 Sonra Şaulun ətəyindən bir
parça kəsdiyinə görə Davudun ürəyi
ağrıdı. 6 O, adamlarına belə dedi:
«Rəbbin məsh etdiyi ağama əl qaldırıb
belə bir iş görməyi Rəbb məndən
uzaq etsin, çünki o, Rəbbin məsh
olunmuşudur». 7 Davud bu sözlərlə
adamlarının qarşısını aldı və onları

[*]**23:28** *Sela-Hammaxleqot* – ibrani dilində *ayrılıq qayası.*

[y]**23:18** 1Şam. 18:3 [z]**23:19** Zəb. 54 başlıq
[a]**24:3** Zəb. 57 başlıq; Zəb. 142 başlıq

Şaula qarşı qalxmağa qoymadı. Şaul da
mağaradan çıxıb yoluna davam etdi.
8 Ondan sonra Davud qalxıb
mağaradan çıxdı və Şaulun arxasınca
«Ağam padşah!» deyə çığırdı. Şaul
arxaya baxdı. Davud üzüstə yerədək
təzim etdi. 9 O, Şaula dedi: «“Davud
sənin pisliyini istəyir” deyən adamların
sözünə niyə qulaq asırsan? 10 Bax öz
gözlərinlə gördün ki, bu gün Rəbb
mağarada səni mənə necə təslim etdi.
Mənə təklif etdilər ki, səni öldürüm,
lakin mən sənə qıymadım. Dedim ki,
ağama qarşı əl qaldırmaram, çünki
o, Rəbbin məsh olunmuş padşahıdır.
11 Ey atam, əlimdəkinə bax, bu sənin
cübbənin ətəyidir. Cübbənin ətəyindən
kəsib səni öldürmədiyimdən gör və anla
ki, sənə qarşı pislik və qiyam etmək
əlimdən gəlmir. Sən canımı almaq
üçün məni ovladığın halda mən sənə
qarşı günah etmədim. 12 Səninlə mənim
aramda qoy Rəbb hakim olsun! Qoy
Rəbb səndən mənim qisasımı alsın.
Mən sənə əl qaldırmaram. 13 Qədim
zamanlardan belə bir məsəl var:
“Pislik pislərdən çıxar”. Bu məsəldə
deyildiyi kimi sənə əl qaldırmayacağam.
14 İsrailin padşahı kimə qarşı çıxıb? Sən
kimi qovursan? Ölü itimi qovursan,
yoxsa bir birənimi? 15 Qoy Rəbb səninlə
mənim aramda hakim olub hökm versin
və baxıb bu çəkişməni görsün, məni
sənin əlindən qurtarsın».
16 Davud bu sözləri Şaula söyləyib
qurtarandan sonra Şaul «Oğlum Davud,
bu sənin səsindirmi?» dedi və bərkdən
ağladı. 17 O, Davuda dedi: «Mən sənin
qədər saleh deyiləm, çünki sən mənə
pisliyimin əvəzinə yaxşılıq etdin.
18 Bu gün də mənə yaxşı münasibətini
bəlli etdin, çünki Rəbb məni sənə
təslim etdi, sən isə məni öldürmədin.
19 Əgər bir insan düşmənini taparsa,
onu salamat buraxarmı? Buna görə
də bugünkü işinin əvəzini Rəbb sənə
yaxşılıqla ödəsin. 20 İndi isə bax bilirəm
ki, sən mütləq padşah olacaqsan və
İsrailin padşahlığı sənin əlinə keçib
güclənəcək. 21 Məndən sonra nəslimi
kəsməyəcəyinə və atamın nəslindən
adımı silməyəcəyinə indi burada mənə
Rəbbin haqqı naminə and iç». 22 Davud
Şaula and içdi və Şaul evinə qayıtdı.
Davud isə adamları ilə sığınacağa çıxdı.

Şamuelin ölümü

25 Şamuel öldü və bütün İsrail
yığılıb onun üçün yas qurdu.
Onu Ramada – öz evinin yanında dəfn
etdilər. Sonra Davud durub Paran
səhrasına endi.

Aviqailin müdrikliyi

2 Maonda yaşayan, Karmeldə mülkü
olan çox varlı bir adam var idi. Onun üç
min baş qoyunu, min baş keçisi vardı.
O, qoyunlarını Karmeldə qırxdırırdı.
3 Bu adamın adı Naval, arvadının adı
isə Aviqail idi. Qadın ağıllı və gözəl
idi. Kalev nəslindən olan kişi isə kobud
və bədxasiyyət idi. 4 Davud səhrada
eşitdi ki, Navalın qoyun qırxımı var.
5 O, on nökər göndərib onlara dedi:
«Karmelə qalxıb Navalın yanına gedin
və məndən ona salam deyin. 6 Sonra
ona belə deyərsiniz: “Ömrün uzun
olsun! Sən və evin, səninkilərin hamısı
qoy var olsun! 7 Eşitmişəm ki, indi
sizdə yun qırxımıdır. Sənin çobanların
bizim yanımızda olanda biz onları
incitmədik və Karmeldə qaldıqları
günlər ərzində heç nəyi əskilmədi.
8 Bunu öz nökərlərindən də soruşa
bilərsən və onlar da sənə deyər. Qoy
nökərlərim sənin gözündə lütf tapsın,
çünki yanına bayram zamanı gəlmişik.
Rica edirəm ki, qullarına və oğlun
Davuda əlində olanından ver”».
9 Davudun nökərləri gəlib bütün
bu sözləri Davudun adından Navala
söyləyib gözlədilər. 10 Naval isə

Davudun nökərlərinə belə cavab verdi:
«Davud kimdir? Yessey oğlu kimdir?
İndilərdə ağasından qaçan çox qullar
var. 11 Çörəyimi, suyumu və qırxınçılar
üçün kəsdiyim heyvanların ətini
götürüb haradan olduğunu bilmədiyim
adamlaramı verim?» 12 Davudun
nökərləri öz yolları ilə geriyə qayıtdılar
və gəlib bu sözlərin hamısını Davuda
söylədilər. 13 Davud adamlarına «hamı
qılıncını bağlasın» dedi. Hamı bir nəfər
kimi qılıncını bağladı. Davud da belə
etdi. Dörd yüz nəfər Davudun ardınca
getdi və iki yüz nəfər isə ərzaqların
yanında qaldı.
14 Navalın nökərlərindən biri onun
arvadı Aviqailə xəbər verdi: «Bax
ağamızı salamlamaq üçün Davud
səhradan qasidlər göndərdi, ağamız
isə onları təhqir etdi. 15 Amma həmin
adamlar bizə çox yaxşılıq etmiş və bizi
incitməmişdilər. Çöldə olduğumuz,
onlarla gəzdiyimiz bütün günlər ərzində
heç nəyimiz əskilməmişdi. 16 Qoyunları
otararkən yanlarında olduğumuz günlər
gecə və gündüz bizə dayaq oldular.
17 İndi isə budur, bax nə edəcəyini
düşün, çünki ağamıza, onun bütün
külfətinə qarşı pis qərar verilmişdir.
Çünki Naval elə yaramaz insandır ki,
ona kimsə söz deyə bilmir».
18 Bundan sonra Aviqail cəld tərpənib,
iki yüz kömbə çörək və iki tuluq şərab
hazırladı. Beş qoyun cəmdəyi, beş ölçü
qovurğa, yüz salxım quru üzüm və iki
yüz parça basılmış əncir lavaşanası
götürüb eşşəklərə yüklədi. 19 Sonra
nökərlərinə dedi: «Siz qabaqda gedin,
arxanızca gəlirəm». Bu barədə əri
Navala heç nə bildirmədi. 20 Aviqail
eşşəyə minib dağın bağlı tərəfindən
enərkən Davud da adamları ilə oraya
enməkdə idi və qadın onlarla rastlaşdı.
21 Davud demişdi: «Doğrudan da, bu
adamın çöldə olan bütün mallarını
qorudum və onun heç nəyini əskilməyə
qoymadım, amma nahaq yerə. O isə
mənə yaxşılığımın əvəzində pislik etdi.
22 Əgər səhərədək onun bütün divar
isladanlarından – kişilərindən birini
belə, sağ buraxsam, qoy Allah Davudun
düşmənlərinə beləsini və bundan
betərini etsin».
23 Aviqail Davudu görcək cəld
eşşəkdən düşdü və Davudun önündə
üzünü yerə qoyaraq təzim etdi. 24 Sonra
onun ayaqlarına düşüb dedi: «Ey ağam,
bu günahı mənim üzərimə qoy. İzin ver
ki, kənizin sənlə danışsın. Nə olar,
kənizinin sözlərinə qulaq as. 25 Ağam,
rica edirəm, Navalın – o yaramaz
insanın acığını qəlbinə salma, çünki
adı necədirsə, özü də elədir. Adı Naval
*olduğu kimi özü də axmaqdır. Ey
ağam, mən kənizin ağamın göndərdiyi
nökərləri görməmişəm. 26 Madam ki
Rəbb səni indi qana batmaqdan və öz
əlinlə qisas almaqdan saxladı, var olan
Rəbbə və canına and olsun, ağamın
düşmənləri və bədxahları Naval kimi
olsun. 27 İndi isə izin ver, kənizinin
ağama gətirdiyi bu hədiyyələr arxanca
gələn cavanlara verilsin. 28 Yalvarıram,
kənizinin günahını bağışla, çünki
Rəbb mütləq ağam üçün möhkəm
sülalə yaradacaq, ona görə ki ağam
Rəbbin döyüşlərini edir və ömrün
boyu səndə şər olmayacaq. 29 Kimsə
qalxıb səni qovmaq və canını almaq
istəyəndə ağamın canı Rəbb Allahın
həyat kisəsində saxlanılacaq, sənin
düşmənlərinin canı isə sapandın
ortasından atılan daş kimi atılacaq.
30 Rəbb ağama dediyi yaxşılıqların
hamısını həyata keçirəndə və səni
İsrailə hökmdar edəndə 31 ağam nahaq
qan tökü b özü üçün qisas aldığına
görə peşman olmayacaq, vicdan əzabı

*25:25 *Naval* – ibrani dilində *axmaq.*

çəkməyəcək. Rəbb ağama yaxşılıq
edəndə kənizini də yada sal».
32 Davud Aviqailə dedi: «İsrailin
Allahı Rəbbə alqış olsun ki, bu gün
məni qarşılamağa səni göndərdi.
33 Ağlına bərəkallah, xeyir-dualı olasan!
Bu gün məni qan tökməkdən və
əlimlə öz qisasımı almaqdan saxladın.
34 Həqiqətən, məni sizə pislik etməkdən
sən saxladın, İsrailin Allahı var olan
Rəbbə and olsun, əgər cəld tərpənib
mənim qarşıma çıxmasaydın, mütləq
səhər işığına qədər Navalın divar
isladanlarından – kişilərindən biri də
sağ qalmayacaqdı». 35 Davud onun
gətirdiyi şeyləri əlindən alıb dedi:
«Evinə salamat get, budur, sənin sözünə
baxıb xahişini yerinə yetirdim».
36 Aviqail Navalın yanına gəldi.
Navalın evində padşah ziyafətinə oxşar
bir ziyafət vardı. O çox sərxoş olduğuna
görə könlü nəşəli idi. Səhər açılana
qədər qadın ona heç nə bildirmədi.
37 Səhər açılanda, Naval şərabdan
ayılan kimi arvadı baş verən hadisələri
ona danışdı və Navalın ürəyindən ağrı
tutdu, bədəni daşa döndü. 38 Bununla
da təxminən on gündən sonra Rəbb
Navalı vurdu və o öldü.
39 Davud Navalın öldüyünü eşidəndə
dedi: «Navalın əli ilə yaranan
rüsvayçılığımı görüb qulunu davadan
və pislikdən saxlayan Rəbbə alqış olsun!
Rəbb Navalın bədxahlığını öz başına
gətirdi». Davud Aviqaili özünə arvad
olaraq almaq üçün ona elçi göndərdi.
40 Davudun elçiləri Karmelə, Aviqailin
yanına gəlib belə söylədilər: «Səni arvad
olaraq almaq üçün Davud bizi elçi
göndərdi». 41 Aviqail qalxıb yerədək
təzim edib dedi: «Qoy kənizin ağamın
qullarının ayaqlarını yumaq üçün bir
qarabaş olsun». 42 O cəld qalxıb eşşəyə
mindi. Ona xidmət edən beş gənc qadını
yanına alaraq Davudun qasidlərinin
ardınca getdi və Davudun arvadı oldu.
43 Davud İzreelli Axinoamı da almışdı.
Hər ikisi onun arvadı oldu. 44 Şaul isə
qızı Mikalı – Davudun arvadını Qallimli
Layiş oğlu Paltiyə ərə vermişdi.

Davudun yenə Şaula rəhm etməsi

26 [b]Ziflilər Giveaya, Şaulun yanına
gəlib dedilər: «Davud Yeşimon
şəhəri ilə üzbəüz olan Xakila təpəsində
gizlənmirmi?» 2 Şaul durub Davudu
axtarmaq üçün özü ilə bərabər İsraildən
üç min seçmə adam götürərək Zif
səhrasına endi. 3 O, Yeşimonla üzbəüz
olan Xakila təpəsindəki yol kənarında
ordugah qurdu. Səhrada qalan Davud
Şaulun onun ardınca düşüb gəldiyini
gördü. 4 Davud kəşfiyyatçılar göndərdi
və həqiqətən, Şaulun gəldiyini öyrəndi.
5 O qalxıb Şaulun ordugah qurduğu
yerə gəldi və Şaulla ordu başçısı Ner
oğlu Avnerin yatdığı yerə baxdı. Şaul
ordugahın içərisində yatırdı. Xalq onun
yanında düşərgə salmışdı.
6 Davud Xetli Aximelekə və Yoavın
qardaşı Seruya oğlu Avişaya dedi: «Kim
mənimlə Şaulun yanına – ordugaha
enər?» Avişay dedi: «Mən sənlə
enərəm». 7 Davud və Avişay gecə
xalqın yanına çatdılar və budur, Şaul
ordugahın içərisində yatıb yuxuya
getmişdi, nizəsi isə başı üstündə yerə
sancılmışdı. Avnerlə xalq isə onun
ətrafında yatırdı. 8 Avişay Davuda
dedi: «Allah bu gün düşmənini sənə
təslim etdi. İndi isə qoy nizə ilə onu
birdəfəlik yerə elə yapışdırım ki, ikinci
dəfə vurmağa ehtiyac olmasın». 9 Davud
Avişaya dedi: «Yox, onu öldürmə!
Bax Rəbbin məsh etdiyinə əl qaldıran
günahsız sayılarmı?» 10 Davud yenə
dedi: «Var olan Rəbbə and olsun, Rəbb
onu mütləq vuracaq. Elə gün gələcək

---

[b]**26:1** Zəb. 54 başlıq

ki, öz əcəli ilə öləcək ya da döyüşdə
həlak olacaq. 11 Qoy Rəbbin məsh
etdiyinə əl qaldırmaqdan Rəbb Özü
məni uzaq etsin. Rica edirəm, indi
başının yanındakı nizəsini və su qabını
götür gedək». 12 Davud Şaulun başının
yanındakı nizəsi ilə su qabını götürdü
və onlar getdilər. Onları görən olmadı.
Bu işi bilən və oyanan da olmadı. Rəbb
tərəfindən onların üstünə dərin yuxu
gəldiyinə görə hamı yatmışdı.
13 Davud qarşı tərəfə keçib uzaqda,
dağın başında durdu; onların arasında
xeyli məsafə var idi. 14 Davud xalqa və
Ner oğlu Avnerə «ey Avner, mənə cavab
ver» deyə qışqırdı. Avner də cavab verdi:
«Sən kimsən ki, qışqıra-qışqıra padşahı
çağırırsan?» 15 Davud Avnerə dedi: «Sən
igidsən? İsraildə sənə bənzər kim var
ki? Bəs niyə ağan padşahın keşiyini
çəkmirsən? Axı xalq arasından biri ağan
padşahı öldürmək üçün gəlmişdi. 16 İşini
yaxşı görmürsən. Var olan Rəbb haqqı,
hamınız ölümə layiq adamlarsınız,
ona görə ki ağanızın – Rəbbin məsh
etdiyinin keşiyini çəkmirsiniz. Bax
padşahın başının yanında olan nizə və
su qabı indi haradadır?»
17 Şaul Davudun səsini tanıyıb dedi:
«Bu sənin səsindirmi, oğlum Davud?»
Davud dedi: «Mənim səsimdir, ağam
padşah». 18 Sonra sözünə davam etdi:
«Ağam nə üçün qulunu belə təqib edir?
Nə etmişəm ki? Əlimdən nə pislik
gəlib? 19 Rica edirəm, ağam padşah indi
qulunun sözlərinə qulaq assın. Əgər
mənə qarşı səni qaldıran Rəbdirsə, bir
təqdim qəbul etməyə razı olsun, yox,
əgər bəşər övladlarıdırsa, qoy onlar
Rəbb qarşısında lənətə gəlsinlər. Belə ki
“get özgə allahlara qulluq et” deyərək
Rəbbin irsindən pay almayım deyə
məni qovdular. 20 Qoy qanım Rəbbin
hüzurundan uzaq yerdə tökülməsin.
Dağlarda necə kəklik ovlayırlarsa, indi
İsrail padşahı da bir tək birəni axtarmaq
üçün eləcə ova çıxıb».
21 Şaul dedi: «Günah etdim, qayıt,
oğlum Davud. Mənim canım bu gün
sənin gözündə qiymətli olduğu üçün
bir daha sənə pislik etməyəcəyəm.
Bax ağılsızlıq edib lap çox yanıldım».
22 Davud cavab verdi: «Budur nizən,
ey padşah! Qoy nökərlərindən biri
gəlib onu aparsın. 23 Rəbb hər kəsə
öz salehliyinin və sədaqətinin əvəzini
verəcək. Bu gün Rəbb səni mənə
təslim etdiyi halda mən Rəbbin məsh
etdiyinə əl qaldırmaq istəmədim. 24 Qoy
bu gün sənin canın gözümdə necə
qiymətlidirsə, mənim canım da Rəbbin
gözündə elə qiymətli olsun və məni hər
çətinlikdən qurtarsın». 25 Şaul Davuda
dedi: «Oğlum Davud, bəxtiyar olasan!
Sən böyük işlər görüb mütləq qalib
gələcəksən». Bundan sonra Davud öz
yolu ilə getdi və Şaul da öz yerinə
qayıtdı.

Davud Filiştlilər arasında

27 Davud ürəyində düşündü: «Bir
gün Şaulun əlində öləcəyəm.
Mənim üçün Filiştlilərin ölkəsinə
qaçmaqdan yaxşı çarə yoxdur. Şaul da
məni bütün İsrail torpağında axtarmaq
fikrindən əl çəkər və mən onun əlindən
qurtararam». 2 Davud durub yanındakı
altı yüz kişi ilə Qat padşahı Maok oğlu
Akişin tərəfinə keçdi. 3 Davud həm özü,
həm də adamlarının hər biri külfəti ilə –
Davudun iki arvadı İzreelli Axinoam və
Karmelli Navalın dul arvadı Aviqaillə
birlikdə Qatda, Akişin yanında qaldı.
4 Davudun Qata qaçdığını Şaula xəbər
verdilər və o da bir daha onu axtarmadı.
5 Davud Akişə dedi: «Əgər indi sənin
gözündə lütf tapmışamsa, qoy ətraf
şəhərlərin birində mənə yer verilsin və
mən də orada qalım. Axı nə üçün bu
qulun padşah şəhərində sənin yanında
qalsın?» 6 O gün Akiş ona Ziqlaqı

verdi. Bu günə qədər Ziqlaq Yəhuda
padşahlarına məxsusdur. 7 Davudun
Filiştlilərin ölkəsində qaldığı müddət
bir il dörd ay idi.
8 Davudla adamları gəlib Geşurlulara,
Girzlilərə və Amaleqlilərə basqın etdilər.
Bu xalqlar qədim zamanlardan bəri
Şura çatanadək – Misir ölkəsinə qədər
olan ərazidə məskən salmışdılar. 9 O
hücum etdiyi bu yerlərdə nə kişi, nə də
qadınlardan heç kimi sağ buraxmazdı.
Onların qoyunlarını, öküzlərini,
eşşəklərini, dəvələrini və geyimlərini
götürüb Akişin yanına qayıdırdı.
10 Akiş ondan soruşanda ki bu gün
hara basqın etdiniz, Davud belə cavab
verirdi: «Yəhudanın, Yeraxmeellilərin
və Qenlilərin cənub bölgəsinə basqın
etdik». 11 Davud belə edirdi. Filiştlilərin
ölkəsində qaldığı müddət ərzində onun
iş üsulu belə idi: «Bizim haqqımızda
qoy xəbər verməsinlər» deyərək nə
kişi, nə də qadınlardan heç kimi sağ
buraxmaz və onlardan heç birisini Qata
gətirməzdi.
12 Akiş Davuda inanaraq belə
düşünürdü: «Artıq o öz xalqının –
İsrailin gözündən tamamilə düşüb və
bundan sonra həmişəlik qulum olacaq».

Şaul və En-Dorlu cindar qadın

28 Həmin dövrdə İsrailə qarşı
döyüşmək üçün Filiştlilər
ordularını döyüşə yığdılar. Akiş
Davuda dedi: «Bunu yaxşı bil ki, sən
və adamların mənimlə bir orduda
döyüşəcəksiniz». 2 Davud Akişə dedi:
«Əla! Sən qulunun nə edəcəyini
görəcəksən». Akiş Davuda dedi:
«Çox yaxşı, mən səni həmişə özümə
mühafizəçi qoyacağam».
3 [c]Şamuel ölmüşdü və bütün İsrail
onun üçün yas tutmuşdu. Onu Ramada
– öz şəhərində dəfn etmişdilər. Şaul
isə bütün cindarları və ruhçağıranları
ölkədən qovmuşdu.
4 Filiştlilər yığılaraq gəlib Şunemdə
ordugah qurdular. Şaul bütün İsraili
yığıb Gilboa dağında ordugah qurdu.
5 Şaul Filişt ordugahını görəndə
qorxudan ürəyi əsdi. 6 O, Rəbbə
müraciət etdi. Amma Rəbb ona nə yuxu,
nə Urim, nə də peyğəmbərlər vasitəsilə
cavab verdi. 7 Şaul əyanlarına dedi:
«Mənim üçün bir cindar qadın tapın ki,
gedib ona müraciət edim». Əyanları ona
dedilər: «Bax En-Dorda bir cindar qadın
var».
8 Şaul zahiri görkəmini dəyişdirdi,
başqa paltar geyinib, iki nəfərlə bərabər
oraya getdi və gecə ikən qadının yanına
gəlib çatdı. Şaul dedi: «Rica edirəm,
mənim falıma baxıb cindarlığını göstər
və kimi desəm, onu mənim üçün
çıxar». 9 Qadın dedi: «Bax Şaulun
bu ölkədə nə etdiyini, cindarları və
ruhçağıranları necə qırdığını bilirsən.
Niyə məni öldürmək üçün canıma
tələ qurursan?» 10 Şaul qadına «var
olan Rəbbə and olsun, bu işin sənə bir
ziyanı olmayacaq» deyərək Rəbbə and
içdi. 11 Qadın dedi: «Sənin üçün kimi
çıxarım?» Şaul «mənə Şamueli çıxar»
dedi. 12 Qadın Şamueli görüncə bərkdən
çığırıb Şaula dedi: «Sən ki Şaulsan, niyə
məni aldatdın?» 13 Padşah ona dedi:
«Qorxma, de görüm, nə görürsən?»
Qadın Şaula dedi: «Yer altından çıxan
allahlar kimi bir şəxs görürəm». 14 Şaul
dedi: «O kimə oxşayır?» Qadın dedi:
«Cübbə geyinmiş qoca bir adam çıxır».
Şaul onun Şamuel olduğunu başa düşüb
üzüstə əyilib yerə sərildi.
15 Şamuel Şaula dedi: «Məni çıxararaq
niyə narahat etdin?» Şaul dedi: «Çox
dara düşmüşəm, çünki Filiştlilər mənə
qarşı müharibə edirlər. Artıq Allah
da məndən üz döndərib, daha mənə

[c]**28:3** 1Şam. 25:1; Lev. 20:27; Qanun. 18:10-11

peyğəmbərlər, yuxular vasitəsilə cavab
vermir. Ona görə də səni çağırdım ki,
nə etməliyəmsə, onu mənə bildirəsən».
16 Şamuel dedi: «Əgər Rəbb səndən
üz döndəribsə, demək O sənə düşmən
olmuşdur. Belə halda bunu niyə məndən
soruşursan? 17 [d]Rəbb mənim vasitəmlə
söylədiyini etdi və padşahlığı sənin
əlindən qoparıb onu sənin yaxının
Davuda verdi. 18 [e]Sən Rəbbin sözünə
baxmadığın və Onun qızğın qəzəbini
Amaleqlilərin üstünə gətirmədiyin üçün
bu gün O səni bu hala salıb. 19 Rəbb
sənlə bərabər İsraili də Filiştlilərə
təslim edəcək və sabah sən və oğulların
mənimlə bərabər olacaqsınız, çünki
Rəbb İsrail ordusunu da Filiştlilərə
təslim edəcək».
20 Şaul o zaman tir-tap yerə sərildi.
Ona görə ki Şamuelin sözlərindən
çox qorxmuşdu, həm də onda taqət
qalmamışdı, çünki bütün günü və
gecəni çörək yeməmişdi. 21 Qadın
Şaulun yanına gəldi və onu sarsılmış
halda gördükdə dedi: «Bax kənizin
sənin sözünə itaət etdi. Canımı dişimə
tutub mənə dediyin sözlərə qulaq
asdım. 22 Rica edirəm, indi kənizinin
sözünə qulaq as və qabağına bir tikə
çörək qoyum, onu ye ki, yola düşəndə
qüvvən olsun». 23 Lakin Şaul bunu
rədd edib «yemirəm» dedi. Amma
əyanları da qadınla bərabər onu məcbur
etdikdə Şaul onların sözünə qulaq
asdı və yerdən qalxıb yatağın üstündə
oturdu. 24 Qadının evində kökəldilmiş
bir dana var idi. Tez onu kəsdi və un
götürüb yoğurdu, ondan mayasız çörək
bişirdi. 25 Sonra onu Şaulla əyanlarının
qarşısına qoydu. Onlar yeyib ayağa
qalxdılar və həmin gecə də durub
getdilər.

Filiştlilərin Davuda inanmaması

29 Filiştlilər bütün ordularını
Afeqdə topladılar. İsraillilər isə
İzreeldəki bulağın yanında ordugah
qurdular.
2 Filiştlilərin ağaları yüz və min
nəfərlik dəstələrlə irəliləyirdilər.
Davudla adamları isə Akişlə birlikdə
arxadan gəlirdilər.
3 Filiştlilərin ağaları dedilər: «Bu
İbranilərin burada nə işi var?» Akiş
onlara belə cavab verdi: «Bu adam bu
günlərdə yaxud daha doğrusu, bu illərdə
yanımda olan İsrail padşahı Şaulun
qulu Davud deyilmi? Mənim yanıma
gələn gündən bəri onda pis bir şey
görmədim». 4 Filiştlilərin ağaları Akişin
üstünə qəzəblənib dedilər: «Bu adamı
geri qaytar, qoy o təyin etdiyin yerə
qayıtsın və bizimlə döyüşə getməsin,
yoxsa döyüşdə bizə düşmənçilik edər.
Çünki o, ağasının rəğbətini qazanmaq
üçün buradakı adamların başını kəsib
ona aparmaqdan daha yaxşı yol
taparmı? 5 [f]Rəqslərdə
“Şaul qırdı minləri,
Davudsa on minləri”
deyə haqqında tərənnüm sözləri
söylənən Davud bu deyilmi?»
6 Akiş Davudu çağırıb ona dedi:
«Var olan Rəbbə and olsun, sən düz
adamsan. Orduda mənimlə yürüşə
çıxmağın gözümdə xoşdur, çünki
yanıma gəldiyin gündən bu günə qədər
səndə pis bir şey tapmadım. Lakin
ağaların gözünə xoş görünmürsən.
7 İndi sağ-salamat öz yerinə qayıt.
Filiştlilərin ağalarının gözündə pis olanı
etmə». 8 Davud Akişə dedi: «Axı mən
nə etmişəm? Yanına gələn gündən bu
günə qədər qulunda nə tapdın ki, ağam
padşahın düşmənlərinə qarşı gedib
vuruşmayım?» 9 Akiş Davuda cavab

---

[d]**28:17** 1Şam. 15:28 [e]**28:18** 1Şam. 15:3-9 [f]**29:5** 1Şam. 18:7; 21:11

verdi: «Bilirəm ki, mənim gözümdə sən
Allahın mələyi kimi yaxşısan, amma
Filiştlilərin başçıları dedilər: “O bizimlə
bir döyüşə çıxmasın”. 10 İndi sənin lə
gələn ağanın qulları ilə birgə səhər
tezdən qalxın. Sübh tezdən qalxın
və dan yeri ağarar-ağarmaz buradan
gedin».
11 Səhəri yola çıxmaq üçün Davud özü
və adamları qalxıb Filiştlilərin torpağına
qayıtdı. Filiştlilər isə İzreelə getdilər.

Davudun Amaleqliləri məğlub etməsi

30 Davudla adamları üçüncü
gün Ziqlaqa çatdılar. Elə
bu zaman Amaleqlilər Negevə
və Ziqlaqa hücum edərək Ziqlaq
şəhərinə od vurub yandırmışdılar.
2 Orada olan qadınlardan isə heç
kimi öldürməmişdilər, böyükdən
kiçiyə qədər hamısını əsir edib öz
yolları ilə geri qayıtmışdılar. 3 Davud
adamları ilə şəhərə gəlib gördü ki, şəhər
yandırılıb və onların arvadları, oğul
və qızları əsir aparılıb. 4 Buna görə
Davud yanına yığılan camaatla birgə
taqətdən düşənə qədər hönkürüb ağladı.
5 [g]Əsir aparılanlar arasında Davudun
iki arvadı, İzreelli Axinoamla Karmelli
Navalın dul arvadı Aviqail də var idi.
6 [h]Davudun ürəyi çox sıxılırdı, çünki
xalq «onu daşlayaq» deyirdi. Ona görə
ki camaatın hər birinin oğul və qızından
ötrü canı yanırdı. Lakin Davud Allahı
Rəbdən qüvvət aldı.
7 O, Aximelekin oğlu kahin Evyatara
dedi: «Rica edirəm, efodu mənim
üçün buraya gətir». Evyatar da efodu
Davudun yanına gətirdi. 8 Davud Rəbbə
müraciət edərək dedi: «Bu basqınçıların
arxasınca düşsəm, onlara çatarammı?»
Rəbb ona dedi: «Ardlarınca düş, mütləq
onlara çatacaqsan və mütləq əsirləri
qurtaracaqsan». 9 Davud yanında olan
altı yüz nəfərlə gedib Besor vadisinə
çatdı. Yorulub dala qalanlar isə vadidə
qaldılar. 10 Lakin Davud dörd yüz nəfərlə
basqınçıların ardınca qaçmaqda davam
etdi, çünki iki yüz nəfər adam yorularaq
Besor vadisini keçə bilməmişdi. 11 Çöldə
bir Misirli tapdılar və onu Davudun
yanına gətirdilər. Ona çörək yedirib,
su içirtdilər. 12 Sonra bir dilim basılmış
əncir lavaşanası ilə iki salxım quru
üzüm verdilər. O da yeyib özünə gəldi,
çünki üç gün-üç gecə çörək yeməmiş
və su içməmişdi. 13 Davud ona dedi:
«Sən kimin qulusan? Haradansan?» O
dedi: «Bir Amaleqlinin qulu, Misirli bir
gəncəm. Üç gün əvvəl xəstələndim, ona
görə ağam məni atdı. 14 Biz Keretlilərin
cənubuna, Yəhuda torpağına və
Kalevin cənubuna basqın etdik, Ziqlaqa
od vurub yandırdıq». 15 Davud ona
dedi: «Məni bu basqınçıların yanına
apararsanmı?» Həmin adam dedi: «Məni
öldürməyəcəyinə və ağama təslim
etməyəcəyinə Allah haqqı üçün and
iç, mən də səni basqınçıların yanına
aparım».
16 O, Davudu basqınçıların yanına
endirdi. Bu zaman basqınçılar hər
yana yayılmışdılar. Onlar Filişt və
Yəhuda diyarından böyük talan malı
götürmüş və bundan ötrü yeyib-içərək
şənlik edirdilər. 17 Davud gün batandan
ertəsi günün axşamınadək onları qırdı.
Dəvələrə minib qaçan dörd yüz nəfər
gəncdən başqa heç kim canını qurtara
bilmədi. 18 O, Amaleqlilərin götürüb
apardığı hər bir şeyi və iki arvadını
geri qaytardı. 19 Böyükləri, kiçikləri,
bütün oğul və qızları, talan edərək
ələ keçirdikləri bütün şeyləri Davud
geri qaytardı və onlardan heç nə əskik
olmadı. 20 Davud qoyunlarla öküzləri də
geri qaytardı. Onları o biri heyvanların

---

[g]**30:5** 1Şam. 25:42-43 [h]**30:6** 1Şam. 22:20-23

qarşısından sürüb «bu, Davudun talan
malıdır» deyirdilər.
21 Davud yorulub ardınca gələ
bilməyən və Besor vadisində qalan iki
yüz nəfərin yanına gəldi. Onlar Davudu
və yanındakı adamları qarşılamağa
çıxdılar. Davud oraya yaxınlaşanda
xalqa salam verdi. 22 Davudla birlikdə
gedən adamlar arasında olan bütün
pis və yaramaz adamlar belə dedilər:
«Onlar bizimlə birlikdə getmədikləri
üçün biz də qurtardığımız talan
malından onlara heç nə verməyəcəyik.
Ancaq hər adama öz arvad-uşaqlarını
verəcəyik. Qoy onları götürüb buradan
getsinlər». 23 Amma Davud onlara belə
dedi: «Xeyr, qardaşlarım! Rəbbin bizə
verdiyi şeylərlə belə etməyəcəksiniz.
Bizi qoruyan Rəbdir və üstümüzə gələn
basqınçıları O bizə təslim etdi. 24 Sizin
bu sözünüzü kim dinləyər? Çünki
döyüşə gedənin payı nə qədərdirsə,
yüklərin yanında qalanın da payı o
qədər olacaq, bərabər bölünəcək».
25 Davud bütün İsrail üçün o gündən bu
günə qədər davam edən bir qanun və
hökm yaratdı.
26 Davud Ziqlaqa gəldi və «budur,
sizin üçün Rəbbin düşmənlərindən
alınan talandan bir hədiyyə» deyərək
dostları olan Yəhuda ağsaqqallarına,
27 Bet-Eldə, Negevdəki Ramotda
və Yattirdə, 28 Aroerdə, Sifmotda,
Eştemoada, 29 Rakalda, Yeraxmeellilərin
və Qenlilərin şəhərlərində, 30 Xormada,
Bor-Aşanda, Atakda, 31 Xevronda
olanlara və adamları ilə gəzdiyi yerlərin
hamısında yaşayanlara talan malından
göndərdi.

Şaulla oğullarının ölümü

(1Saln. 10:1-14)

31 Filiştlilər İsraillilərlə döyüşdü.
İsraillilər Filiştlilərin önündən
qaçdılar, qırılanlar Gilboa dağında qaldı.
2 Filiştlilər Şaulla oğullarını təqib edib
Şaulun oğulları Yonatanı, Avinadavı və
Malki-Şuanı öldürdülər. 3 Döyüş Şaulun
ətrafında şiddətlənəndə oxatanlar
onu tapdılar və ağır yaraladılar.
4 Şaul öz silahdarına dedi: «Qılıncını
çək, məni vur, yoxsa bu sünnətsizlər
gəlib qılınclarını mənə batıraraq
əylənəcəklər». Lakin silahdarı çox
qorxduğundan bunu etmək istəmədi.
Ona görə də Şaul qılıncını götürüb
özünü onun üstünə yıxdı. 5 Şaulun
öldüyünü görəndə silahdarı da özünü
qılıncının üstünə yıxıb Şaulla birgə
öldü. 6 O gün Şaul üç oğlu, silahdarı
və bütün adamları ilə birlikdə belə
həlak oldu. 7 Dərənin o biri tərəfində
və İordan çayının o biri tayında olan
İsraillilər İsrail ordusunun qaçdığını və
Şaulla oğullarının öldüyünü görəndə
şəhərləri qoyub qaçdılar. Filiştlilər gəlib
o yerlərdə yaşadılar.
8 Ertəsi gün Filiştlilər öldürülənləri
soymaq üçün gələndə Gilboa dağında
Şaulla üç oğlunun meyitini tapdılar.
9 Şaulun başını kəsib silahlarını
götürdülər. Bütlərinin məbədinə və
xalqa xoş xəbər vermək üçün Filiştlilərin
ölkəsinin hər tərəfinə qasid göndərdilər.
10 Şaulun silahlarını ilahə Aştoretin
məbədinə qoydular və cəsədini Bet-Şean
şəhərinin divarına mıxladılar.
11 Yaveş-Gilead əhalisi Filiştlilərin
Şaula etdiklərini eşidəndə 12 bütün
igidləri qalxıb gecə boyu yol gedərək
Şaulun və oğullarının cəsədini
Bet-Şeanın divarından götürdülər.
Yaveşə gəlib orada cəsədləri yandırdılar.
13 Sonra cəsədlərin sümüklərini götürüb
Yaveşdə, yulğun ağacının altında
basdırdılar və yeddi gün oruc tutdular.

İKİNCİ ŞAMUEL

KİTABI

GİRİŞ

«2 Şamuel» Kitabı *«1 Şamuel»* Kitabının davamıdır. Bu, Davudun əvvəl Yəhuda üzərində, sonra da, İsrail daxil olmaqla bütün millət üzərində hökmranlıq etməsinin tarixidir. Davud padşahlığının sərhədlərini genişləndirmək və mövqeyini möhkəmləndirmək üçün həm daxili, həm də xarici düşmənləri ilə mübarizə aparırdı. Bu Kitab Davudu böyük imana malik və Allaha həsr olunmuş, öz xalqının məhəbbətini qazanan bir insan kimi təsvir edir. Lakin o öz ehtiraslarına uyaraq böyük günah etdi. Amma Rəbbin peyğəmbəri Natan onun günahlarını ifşa edəndə Davud etiraf edərək Allahın verdiyi cəzanı həlimliklə qəbul edir. Davudun həyatı və nailiyyətləri İsrail xalqına o qədər təsir etmişdi ki, sonrakı dövrlərdə millət ən əzablı günlərində belə, Davuda bənzər bir padşah istəyir və arzuladığı padşahı «Davud oğlu» adlandırırdı.

Kitabın məzmunu:

1:1–4:12 Davudun Yəhuda üzərində hökmranlıq etməsi

5:1–24:25 Davudun bütün İsrail üzərində hökmranlıq etməsi

5:1–10:19 Erkən illər

11:1–12:25 Davud və Bat-Şeva

12:26–20:26 Əziyyət və çətinliklər

21:1–24:25 Sonrakı illər

Şaulun ölüm xəbəri

1 Şaulun ölümündən sonra Davud Amaleqliləri məğlub edib qayıdan zaman iki gün Ziqlaqda qaldı. 2 Üçüncü gün Şaulun yanından – ordugahdan paltarı cırılmış, başı toz-torpağa batmış bir adam gəldi. O, Davudun yanına çatıb qarşısında üzünü yerə qoyaraq təzim etdi. 3 Davud ondan soruşdu: «Haradan gəlirsən?» Həmin adam ona dedi: «Qaçıb canımı İsrail ordugahından qurtardım». 4 Davud ona dedi: «Orada nə baş verib? Rica edirəm, mənə de». O dedi: «Ordu döyüş meydanından qaçdı və onların bir çoxu qırılıb öldü. Şaulla oğlu Yonatan da həlak oldu».

5 Davud ona xəbər verən cavan adamdan soruşdu: «Bəs sən haradan bildin ki, Şaulla Yonatan da öldü?» 6 [i]Davuda xəbər verən cavan belə dedi: «Təsadüfən Gilboa dağında idim və gördüm ki, Şaul nizəsinə söykənərək dayanıb. Atlılar və döyüş arabaları isə artıq ona çatmaqda idi. 7 Şaul geriyə baxanda məni görüb çağırdı. Mən dedim: “Buyurun, buradayam”. 8 O mənə “Sən kimsən?” dedi. Mən ona dedim ki, mən bir Amaleqliyəm. 9 Şaul mənə dedi: “Gəl əyil üzərimə, məni öldür, can üstəyəm, bu ağrılardan qurtarmaq istəyirəm”. 10 Elə buna görə də mən onun üstünə əyilib nəfəsini kəsdim. Çünki bilirdim ki, o yıxılandan sonra artıq yaşaya bilməyəcək. Sonra onun başının tacını və qolunun bilərziyini götürdüm və buraya, ağam üçün gətirdim».

11 Bunu eşidən Davud dartıb paltarlarını cırdı və yanındakı bütün adamlar da belə etdilər. 12 Onlar Şaul üçün, oğlu Yonatan üçün, Rəbbin xalqı və bütün İsrail nəsli üçün axşamacan yas qurub ağladılar və oruc tutdular, çünki onlar qılıncdan keçirilərək həlak olmuşdu. 13 Davud əhvalatı ona danışan cavana dedi: «Haralısan?» O cavab verdi: «Mən yadelliyəm, bir Amaleqlinin oğluyam». 14 Davud ona dedi: «Bəs niyə qorxmayaraq Rəbbin məsh olunmuş

---

[i] **1:6** 1Şam. 31:1-6; 1Saln. 10:1-6

padşahını öldürmək üçün əl qaldırdın?»
15 Davud adamlarından birini çağırıb
dedi: «Get, onu öldür». O da Amaleqlini
vurub öldürdü. 16 Davud Amaleqliyə
dedi: «Qoy qanın öz başına dönsün!
Çünki sənin əleyhinə "mən Rəbbin məsh
olunmuş padşahını öldürdüm" deyən
ağzın şahidlik etdi».

Davudun Şaul və Yonatan üçün söylədiyi mərsiyə

17 Davud Şaul və oğlu Yonatanın
yasında bu mərsiyəni oxudu. 18 Sonra
tapşırdı ki, «Oxatan yay» adlı bu
mərsiyəni Yəhuda övladlarına
öyrətsinlər. Bu mərsiyə Yaşar kitabında*
yazılmışdır:
19 Ey İsrail, şərəfin öz yüksək
yerlərinin üstündə öldürüldü!
İgidlər necə də qırıldı!
20 Filiştlilərin qızları sevinməsinlər
deyə,
Sünnətsizlərin qızları
fərəhlənməsinlər deyə
Bunu Qatda bildirməyin,
Aşqelon küçələrində yaymayın.
21 Ey Gilboa dağları,
Üstünə şeh, yağış düşməsin,
Qoy zəmilərin məhsul verməsin!
Çünki orada ləkələndi igidlərin
qalxanı,
Şaulun yağ ilə silinməmiş qalxanı.
22 Öldürülənlərin qanına, igidlərin
piyinə görə
Yonatanın yayı geri dönməzdi,
Şaulun qılıncı boş qayıtmazdı.
23 Şaul ilə Yonatan necə sevimli, əziz,
Həyatda və ölümdə ayrılmaz oldunuz
siz.
Onlar qartallardan sürətli idi,
Aslanlardan qüvvətli idi.
24 Ey İsrail qızları, ağlayın Şaul üçün.
O sizə qiymətli al qumaşlar geydirərdi,
Geyiminizə qızıl naxışlar vurardı.
25 Ah, döyüş meydanında necə də
igidlər qırıldı!
Yonatan sənin yüksək təpələrində
həlak oldu.
26 Ey qardaşım Yonatan, sənin üçün
ürəyim yanar.
Sən mənə çox əziz idin.
Sənin sevgin mənim üçün heyranedici
idi,
Qadın sevgisindən də üstün idi.
27 İgidlər necə də qırıldı!
Döyüş silahları necə də yox oldu!

Davudun Yəhudada padşah seçilməsi

2 Bundan sonra Davud «Yəhuda
şəhərlərindən birinə qalxımmı?»
deyə Rəbbə müraciət etdi. Rəbb «ora
qalx» deyə cavab verdi. Davud dedi:
«Hara qalxım?» Rəbb dedi: «Xevrona».
2 [j]Davud iki arvadı – İzreelli Axinoam və
Karmelli Navalın dul arvadı Aviqaillə
birlikdə Xevrona qalxdı. 3 Davudun
yanında olan adamları öz külfətlərini
götürüb Xevronun ətraf məhəllələrində
yaşamağa başladı. 4 [k]Yəhuda adamları
isə gəlib Davudu orada Yəhuda nəslinin
padşahı olaraq məsh etdilər.
O vaxt Davuda bildirdilər ki, Şaulu
Yaveş-Gilead əhalisi dəfn edib. 5 Davud
Yaveş-Gilead sakinlərinin yanına
qasidlər göndərib belə dedi: «Rəbb sizə
xeyir-dua versin, çünki ağanız Şaula
sədaqətli oldunuz və onu dəfn etdiniz.
6 Bu işinizin əvəzini indi Rəbb sizə
qoy xeyirxahlıq və sədaqətlə versin!
Bu işinizin və bu yaxşılığınızın əvəzini
mən də sizə ödəyəcəyəm. 7 Ağanız
Şaul öldüyü üçün qoy indi qollarınız
qüvvətdən düşməsin və cəsur olun,
çünki Yəhuda nəsli məni öz üzərində
padşah olaraq məsh edib».

---

*1:18 *Yaşar kitabı* – bax: Yeşua 10:13.

[j]2:2 1Şam. 25:42-43 [k]2:4 1Şam. 31:11-13

8 Şaulun ordu başçısı Ner oğlu
Avner Şaulun oğlu İş-Boşeti götürüb
Maxanayimə aparmışdı. 9 Orada Avner
onu Gilead, Aşuri, İzreel, Efrayim,
Binyamin və bütün İsrailin üzərində
padşah etdi. 10 Şaul oğlu İş-Boşet İsrailin
padşahı olan zaman qırx yaşında idi. O,
cəmi iki il padşahlıq etdi. Yəhuda nəsli
isə Davudun tərəfində idi. 11 Davud
Xevronda, Yəhuda nəsli üzərində yeddi
il altı ay idi ki, padşahlıq edirdi.
12 Bir gün Ner oğlu Avner, Şaul oğlu
İş-Boşetin əyanları ilə Maxanayimdən
Giveona getdi. 13 Seruya oğlu Yoav isə
Davudun adamları ilə çıxıb Giveon
gölməçəsi yanında onları qarşıladı. Yoav
adamları ilə gölməçənin bir tərəfində,
Avner isə adamları ilə gölməçənin o biri
tərəfində əyləşdi.
14 Avner Yoava dedi: «Qoy cavanlar
qalxıb qarşımızda təkbətək döyüşsün».
Yoav dedi: «Qalxsınlar». 15 Onlar
qalxdılar. Binyamin və Şaul oğlu
İş-Boşet tərəfindən on iki nəfər və
Davudun adamlarından da on iki nəfər
qalxıb sayı-hesabı ilə yerlərinə keçdilər.
16 Onlar bir-birinin başından tutub
hər biri öz qılıncını qarşısında olanın
böyrünə sapladı. Hamısı birlikdə yerə
yıxıldı. Buna görə də Giveonda olan
o yerə Xelqat-Hassurim *deyilir. 17 O
gün döyüş çox şiddətli oldu və Avnerlə
İsraillilər Davudun adamları qarşısında
məğlub oldular.
18 Seruyanın üç oğlu Yoav, Avişay və
Asahel də orada idi. Asahel çöl ceyranı
kimi ayaqdan iti idi. 19 O, Avnerin
dalınca düşüb onu qovurdu və Avnerin
arxasınca qaçarkən düz gedərək nə sağa,
nə də sola dönürdü. 20 Avner arxaya
baxıb dedi: «Asahel, bu sənsənmi?»
O dedi: «Bəli, mənəm». 21 Avner ona
dedi: «Bir sağına yaxud soluna dön. O
gənclərdən birini tut, onun silahlarını
al». Lakin Asahel əl çəkmədən onu
qovurdu. 22 Avner Asahelə bir də dedi:
«Qayıt, əl çək, məni qovma! Axı niyə
səni öldürüb yerə sərim? Sonra qardaşın
Yoavın üzünə necə baxaram?» 23 Lakin
Asahel yolundan dönmək istəmədi.
Avner də nizəsinin arxa ucu ilə onun
qarnından elə vurdu ki, nizə onun
kürəyindən çıxdı. Asahel yerindəcə
öldü. Bu hadisədən sonra Asahelin
yıxılıb öldüyü yerə gələnlərin hamısı
ayaq saxladı.
24 Yoavla Avişay Avnerin ardınca
qaçdılar və gün batarkən Giveon
çölü yolunda Giahla üzbəüz olan
Amma təpəsinə çatdılar. 25 Binyamin
övladları toplanıb Avnerin ardınca
getdilər və yığılıb bir təpənin başında
dayandılar. 26 Avner Yoava üz tutub
çığıra-çığıra dedi: «Həmişə bizi qılıncmı
yeyib qurtarmalıdır? Bəs bilmirsən
ki, bunun sonu acı olacaq? Nə vaxta
qədər bu xalqa deməyəcəksən ki,
soydaşlarınızdan əl çəkin?» 27 Yoav
dedi: «Var olan Allaha and olsun, əgər
sən bu sözləri deməsəydin, həqiqətən,
sabaha qədər döyüşçülər dayanmadan
öz soydaşlarını təqib edəcəkdi». 28 Sonra
Yoav şeypur çaldı, hamı dayandı. Artıq
İsraillilər təqib etmədilər və bir daha
döyüşmədilər. 29 Avnerlə adamları
bütün gecəni Arava vadisindən ötüb
İordan çayını keçdilər və bütün Bitron
boyunca irəliləyərək Maxanayimə
çatdılar.
30 Yoav Avnerin ardınca düşməkdən
vaz keçib qayıtdı və bütün xalqı topladı.
Davudun adamlarından Asaheldən
başqa on doqquz nəfər də əskik idi.
31 Davudun adamları isə Binyaminliləri
və Avnerin adamlarını vurdu və üç yüz
altmış nəfəri öldürdü. 32 Asaheli götürüb
atasının Bet-Lexemdə olan qəbrində
dəfn etdilər. Yoavla adamları bütün

*2:16 *Xelqat-Hassurim* – ibrani dilində *qılınclar sahəsi.*

gecəni yol getdilər və gün doğanda
Xevrona çatdılar.

Davud nəslinin güclənməsi

(1Saln. 3:1-4)

3 Şaul nəsli ilə Davud nəsli arasında
çəkişmə çox uzun çəkdi. Getdikcə
Davud nəsli qüvvətlənir, Şaul nəsli isə
zəifləyirdi.
2 Xevronda Davudun oğulları doğuldu.
İlk oğlu İzreelli Axinoamdan doğulan
Amnon idi. 3 İkincisi Karmelli Navalın
dul arvadı Aviqaildən doğulan Kilav,
üçüncüsü Geşur padşahı Talmayın
qızı Maakadan doğulan Avşalom,
4 dördüncüsü Haqqitdən doğulan
Adoniya, beşincisi Avitaldan doğulan
Şefatya, 5 altıncısı isə Davudun arvadı
Eqladan doğulan İtream idi. Davudun
bu oğulları Xevronda doğulmuşdu.

Avnerin Davudla birləşməsi

6 Şaul nəsli ilə Davud nəsli arasında
olan çəkişmə zamanı Şaul nəslini
himayə edən Avner qüvvə toplayırdı.
7 Şaulun Ayya qızı Rispa adlı bir cariyəsi
var idi. İş-Boşet Avnerə dedi: «Niyə
atamın cariyəsinin yanına girdin?»
8 İş-Boşetin bu sözlərinə görə Avner
çox qəzəbləndi və dedi: «Mən Yəhuda
tərəfini saxlayan bir köpək başıyammı?
Mən bu gün atan Şaulun nəslinə, onun
soydaşlarına və dostlarına havadar
olub səni Davuda təslim etmədim,
lakin indi sən bir qadından ötrü
mənim üstümə günah yıxırsan? 9 [l]Rəbb
padşahlığı Şaul nəslindən alıb Dandan
Beer-Şevaya qədər İsraildə Davudun
taxtını quracağına and içdi. 10 Bunu
Davud üçün mən də etməsəm, qoy Allah
Avnerə beləsini və bundan betərini
etsin!» 11 Belə olanda İş-Boşet Avnerdən
qorxdu, daha cavab qaytara bilmədi.
12 Sonra Avner Davudun yanına öz
adından qasidlər göndərib dedi: «Bu
torpaq kimindir? Gəl sən mənimlə
əhd bağla və sonra mən bütün İsraili
sənin tərəfinə çəkmək üçün sənlə
əlbir olacağam». 13 Davud dedi: «Lap
yaxşı, mən sənlə əhd bağlayaram.
Ancaq bir şərtlə ki mənimlə görüşməyə
gələn zaman əvvəlcə Şaulun qızı Mikalı
yanıma gətirməlisən, yoxsa məni
görməyəcəksən». 14 [m]Davud Şaul oğlu
İş-Boşetin yanına qasidlər göndərib
dedi: «Yüz Filiştlinin sünnət ətini gətirib
nişanlandığım arvadım Mikalı mənə
qaytar». 15 İş-Boşet adam göndərib
qadını əri Layiş oğlu Paltieldən aldı.
16 Onun əri ağlaya-ağlaya Baxurimə
qədər arvadının dalınca getdi. Burada
Avner ona dedi: «Geri qayıt». O da
geriyə qayıtdı.
17 Avner İsrail ağsaqqallarına
müraciət edib dedi: «Xeyli vaxtdır
istəyirsiniz ki, Davud padşahınız olsun.
18 İndi isə bunu edin! Çünki Rəbb
“qulum Davudun əli ilə xalqım İsraili
Filiştlilərin və bütün düşmənlərinin
əlindən qurtaracağam” sözünü Davud
üçün söyləmişdi». 19 Avner bunu
Binyaminlilərə də söylədi və İsrail ilə
bütün Binyamin nəslinin gözündə xoş
olan hər şeyi Davuda nəql etmək üçün
Xevrona getdi.
20 Avner və onunla bərabər iyirmi
nəfər Xevrona, Davudun yanına gəldi.
Davud Avnerlə adamları üçün ziyafət
qurdu. 21 Avner Davuda dedi: «Qoy
gedim, bütün İsraili ağam padşaha
tərəfdar edim ki, onlar da sənlə əhd
bağlasın. Sən də ürəyin istəyən kimi
bütün ölkəyə padşahlıq et». Davud
Avneri buraxdı, o da sağ-salamat çıxıb
getdi.

---

[l] **3:9** 1Şam. 15:28 [m] **3:14** 1Şam. 18:27

Yoavın Avneri öldürməsi

22 Bu vaxt Davudun adamları ilə Yoav
bir basqından qayıtmışdı. Özləri ilə
çoxlu talan malı gətirmişdilər. Avner
isə Xevronda Davudun yanında deyildi,
çünki Davud onu buraxmışdı, o da
sağ-salamat çıxıb getmişdi. 23 Yoavla
birlikdə bütün ordu gəldi və Yoava bunu
xəbər verib dedilər: «Ner oğlu Avner
padşahın yanına gəlmişdi və padşah onu
buraxdı, o da sağ-salamat çıxıb getdi».
24 Yoav padşahın yanına gəlib dedi: «Sən
nə etmisən? Bax Avner sənin yanına
gəlmişdi, bəs nə üçün onu buraxdın? O
getdi. 25 Sən Ner oğlu Avneri tanıyırsan,
bilirsən ki, o səni aldatmaq, hara
gedib-gəldiyini öyrənmək və etdiyin
hər şeyi bilmək üçün gəlmişdi». 26 Yoav
Davudun yanından çıxıb Avnerin
arxasınca çaparlar göndərdi və onu Sira
quyusunun yanından geri qaytardılar,
lakin Davudun bundan xəbəri yox idi.
27 Avner Xevrona qayıdanda Yoav
təklikdə danışmaq üçün onu darvazanın
içinə çəkdi və qardaşı Asahelin
qanından ötrü Avneri qarnından vurub
öldürdü. 28 Sonra Davud bundan xəbər
tutanda dedi: «Rəbb qarşısında Ner oğlu
Avnerin qanından ötrü əbədi olaraq
mən və padşahlığım günahkar deyil.
29 Qoy bu günah Yoavın başına və
atasının nəslinin üstünə dönsün. Qoy
Yoavın nəslindən yara-xoralı, cüzamlı,
qoltuq ağacına söykənən, qılıncdan
keçən yaxud aclıq çəkən adamlar heç
vaxt əskik olmasın». 30 Beləcə Yoavla
qardaşı Avişay Avneri öldürdülər, çünki
onların qardaşı Asaheli Giveondakı
döyüşdə o öldürmüşdü.
31 Sonra Davud Yoava və yanında olan
bütün xalqa belə dedi: «Paltarlarınızı
cırın, çula bürünüb Avner üçün yas
qurun». Padşah Davud mafənin ardınca
gedirdi. 32 Avneri Xevronda dəfn etdilər.
Padşah Avnerin qəbri üstündə bərkdən
ağladı və bütün xalq ona qoşulub ağladı.
33 Padşah Avner üçün mərsiyə oxudu:

Avner, bir axmaq kimi ölməli idinmi?
34 Əllərin bağlanmamışdı,
Ayaqlarına zəncir vurulmamışdı.
Şər adamlar qarşısında yerə düşən bir
adam kimi yıxıldın.

Bütün xalq bir daha Avner üçün ağladı.
35 Bütün xalq hələ gündüz ikən
Davudun yanına gəlib onu çörək
yeməyə məcbur edirdi. Lakin Davud
and içib dedi: «Əgər gün batmazdan
əvvəl çörək yaxud başqa bir şey dilimə
vursam, qoy Allah mənə beləsini və
bundan betərini etsin!» 36 Bütün xalq
buna fikir verdi, əvvəllər padşahın
etdiyi hər şey onlara xoş təsir bağışladığı
kimi bu iş də gözlərində o cür yaxşı
göründü. 37 O gün xalq – bütün İsraillilər
başa düşdülər ki, Ner oğlu Avnerin
öldürülməsində günahkar padşah deyil.
38 Padşah əyanlarına dedi: «Bu gün
İsraildə bir rəhbərin, böyük bir adamın
həlak olduğunu bilmirsinizmi? 39 Mən
məsh edilmiş bir padşah olduğum
halda bu gün nə qədər acizəm. Bu
adamlar – Seruyanın oğulları məndən
çox güclüdür. Qoy Rəbb pislik edənə
əvəzini versin!»

İş-Boşetin qətli

4 Şaul oğlu İş-Boşet Avnerin Xevronda
öldürüldüyünü eşidəndə əlləri
sustaldı və bütün İsraili dəhşət bürüdü.
2 Şaul oğlu İş-Boşetin dəstə başçısı olan
iki adamı var idi. Bunlar Binyamin
övladlarından olan Beerotlu Rimmonun
oğulları olub, birinin adı Baana,
o birinin adı isə Rekav idi. Beerot
da Binyaminin bir hissəsi sayılır.
3 Beerotlular Gittayimə qaçmışdı və bu
günə qədər orada qəriblikdə yaşayırlar.

4 [n]Şaul oğlu Yonatanın ayaqdan
şikəst bir oğlu var idi. İzreeldən Şaulla
Yonatanın ölüm xəbəri çatanda onun
beş yaşı var idi. Dayəsi onu götürüb
qaçdı. Tələsib qaçanda uşaq əlindən
düşüb topal oldu. Bu uşağın adı
Mefiboşet idi.
5 İş-Boşet günorta vaxtı dincələndə
Beerotlu Rimmonun oğulları Rekav
və Baana yola çıxıb günortanın isti
çağında onun evinə çatdılar. 6 Rekav
qardaşı Baana ilə buğda daşıyanlar
görkəmində evə girdilər və İş-Boşeti
qarnından vurub aradan çıxdılar.
7 Onlar evə girəndə İş-Boşet yataq
otağında, öz yatağında yatırdı. Onu
vurub öldürdülər, başını kəsdilər və
başını götürüb bütün gecəni Arava
yolu ilə getdilər. 8 İş-Boşetin başını
Xevrona Davudun yanına gətirdilər və
padşaha dedilər: «Budur, sənin canına
qəsd etmək istəyən düşmənin Şaul oğlu
İş-Boşetin başı! Rəbb Şauldan və onun
övladlarından ağam padşaha bu gün
qisaslar ehsan etdi».
9 [o]Davud Beerotlu Rimmonun
oğullarına – Rekavla qardaşı Baanaya
belə cavab verdi: «Canımı hər cür
bəlalardan qurtaran var olan Rəbbə and
olsun, 10 Ziqlaqda olanda özünə görə
guya müjdə verərək “budur, Şaul öldü”
deyə birisi mənə xəbər gətirmişdi. Buna
görə də onu yaxalayıb öldürdüm. Ona
gətirdiyi xəbərə görə mükafatım bu
oldu. 11 İndi şər adamlar bir günahsızı
öz evində, yatağı üstündə öldürərkən
sizdən onun qan qisasını alıb sizi yer
üzündən yox etməyəcəyəmmi?» 12 Sonra
Davud nökərlərinə əmr etdi, nökərlər
onları öldürdü və əl-ayaqlarını kəsib
Xevrondakı gölməçənin yanından asdı.
İş-Boşetin başını isə götürüb Xevronda
Avnerin qəbrinin yanında basdırdılar.

Davudun bütün İsrail üzərində padşahlığı

(1Saln. 11:1-3)

5 İsrailin bütün qəbilələri Xevrona,
Davudun yanına gəlib belə dedi:
«Bax biz sənin sümüyündən, sənin
ətindənik. 2 Əvvəllər – Şaul padşahımız
olanda da İsraillilləri yürüşlərə aparan və
gətirən sən idin. Rəbb sənə demişdi ki,
xalqım İsrailə sən çobanlıq edəcəksən,
İsrail üzərində sən hökmdar olacaqsan».
3 İsrailin bütün ağsaqqalları Xevrona,
padşah Davudun yanına gəldilər və
padşah orada Rəbbin önündə onlarla
əhd bağladı. Ağsaqqallar Davudu İsrail
üzərində padşah olmaq üçün məsh
etdilər.
4 [p]Davud padşah olanda otuz yaşı
var idi və qırx il padşahlıq etdi. 5 O,
Xevronda Yəhuda üzərində yeddi il
altı ay idi ki, padşahlıq etmişdi və
Yerusəlimdə, bütün İsrail ilə Yəhuda
üzərində isə otuz üç il padşahlıq etdi.

Davudun Yerusəlimi alması

(1Saln. 11:4-9; 14:1-2)

6 [q]Padşahla adamları Yerusəlimə
gedib o torpağın yerli əhalisi
Yevuslulara hücum etdilər. Yevuslular
Davuda dedilər: «Sən buraya girə
bilməzsən. Əgər buraya gəlsən, səni
hətta korlar və topallar da geri ata
bilər». Onlar fikirləşdilər ki, Davud bu
şəhərə girə bilməz. 7 Buna baxmayaraq
Davud indi «Davudun şəhəri» adlanan
Sion qalasını aldı. 8 Davud həmin gün
dedi: «Hər kim Yevuslulara hücum
edəcəksə, yeraltı keçidlə Davudun
canına nifrət edən o topallara və korlara
çatmalıdır». Elə buna görə də deyirlər
ki, kor və topallar saraya girməyəcək.
9 Davud qalada məskən saldı və qalanı

---

[n]**4:4** 2Şam. 9:3 [o]**4:9** 2Şam. 1:1-16 [p]**5:4** 1Pad. 2:11; 1Saln. 3:4; 29:27
[q]**5:6** Yeşua 15:63; Hak. 1:21

Davudun şəhəri adlandırdı. Sonra
ətrafda, qala yamacından içəriyə doğru
olan sahəni tikdi. 10 Davud getdikcə
yüksəlirdi, çünki Ordular Allahı Rəbb
onunla idi.
11 Sur padşahı Xiram Davudun yanına
qasidlərlə sidr ağacları, dülgərlər,
bənnalar göndərdi. Onlar Davud üçün
bir ev tikdilər. 12 Onda Davud başa
düşdü ki, Rəbb onu İsrail üzərində
padşah kimi möhkəmləndirib və xalqı
İsrailin xatirinə onun padşahlığını
yüksəldib.
13 Davud Xevrondan gələndən sonra
Yerusəlimdən özünə təzə arvadlarla
cariyələr aldı. Onlar Davuda yenə oğul
və qızlar doğdu. 14 Onun Yerusəlimdə
doğulan oğullarının adları belədir:
Şammua, Şovav, Natan, Süleyman,
15 İvxar, Elişua, Nefeq, Yafia, 16 Elişama,
Elyada və Elifelet.

Davudun Filiştliləri məğlub etməsi

(1Saln. 14:8-17)

17 Filiştlilər eşitdilər ki, Davud İsrail
üzərində padşah olmaq üçün məsh
edilib. Onda hamısı Davudu axtarmağa
çıxdı. Davud bunu eşidib qalaya endi.
18 Filiştlilər gəlib Refaim vadisinə
yayıldı. 19 Davud Rəbdən soruşdu: «Mən
Filiştlilərə qarşı çıxımmı? Onları mənə
təslim edəcəksənmi?» Rəbb Davuda
cavab verdi: «Çıx, mütləq Filiştliləri
sənə təslim edəcəyəm». 20 Davud
Baal-Perasimə gəlib Filiştliləri qırdı və
belə dedi: «Sellər bəndləri dağıtdığı
kimi Rəbb də düşmənlərimi mənim
önümdə dağıtdı». Buna görə də o
yerin adını Baal-Perasim* qoydular.
21 Filiştlilər qaçanda bütlərini orada
qoydular. Davudla adamları o bütləri
götürüb apardı.
22 Filiştlilər yenə də Refaim vadisinə
çıxaraq yayıldılar. 23 Buna görə Davud
Rəbdən soruşdu və Rəbb dedi: «Birbaşa
onların qarşısına çıxma, arxalarından
dolanıb balzam ağaclarının qabağında
bu düşmənlərin üstünə gəl. 24 Balzam
ağaclarının başından addım səslərini
eşidəndə cəld hərəkətə keç, çünki o
zaman Rəbb sənin qarşınca Filiştlilərin
ordusunu məğlub etmək üçün çıxacaq».
25 Rəbb Davuda necə buyurmuşdusa, o
da elə etdi və Gevadan Gezerə çatana
qədər Filiştliləri qırdı.

Əhd sandığının Yerusəlimə gətirilməsi

(1Saln. 13:1-14; 15:25–16:6,43)

6 Davud İsraildə yenidən bütün
seçmə adamları topladı. Onlar
otuz min nəfər idi. 2 [r]Davud durub
yanındakı xalqla birgə Yəhudanın Baale
şəhərinə getdi ki, keruvlar üstündə
taxt quran Ordular Rəbbinə aid olan
Allahın sandığını oradan çıxartsın.
3 [s]Allahın sandığını bir təzə arabaya
qoyub Avinadavın təpədəki evindən
çıxartdılar. Təzə arabanı Avinadavın
oğulları Uzza və Axyo sürürdü. 4 Onlar
Allahın sandığını Avinadavın təpədəki
evindən arabaya qoyub çıxartdılar.
Axyo sandığın qabağında gedirdi.
5 Davudla bütün İsrail nəsli Rəbbin
hüzurunda həvəslə ilahi oxuyur,
liralarla, çənglərlə, dəflərlə, şaxşaxlarla
və sinclərlə çalıb oynayırdılar.
6 Nakonun xırman yerindən keçəndə
öküzlər büdrədi. Buna görə də Uzza
əl uzadıb Allahın sandığından tutdu.
7 Uzzaya qarşı Rəbbin qəzəbi alovlandı
və Allah onu hörmətsizlik etdiyinə
görə oradaca vurdu. Uzza yerindəcə –
Allahın sandığı yanında öldü. 8 Davud
Rəbbin Uzzanı vurmasından çox məyus

*5:20 *Baal-Perasim* – ibrani dilində *dağıdıcılıq ağası.*

[r]6:2 Çıx. 25:22 [s]6:3 1Şam. 7:1-2

oldu. O yerə bu günə qədər Peres-Uzza*
deyilir. 9 Həmin gün Davud Rəbdən
qorxub dedi: «Rəbbin sandığı mənim
yanımda necə qala bilər?» 10 Davud
Rəbbin sandığını öz yanına – Davudun
şəhərinə aparmaq istəmədi və sandığı
yolundan döndərib Qatlı Oved-Edomun
evinə qoydu. 11 tRəbbin sandığı üç ay
Qatlı Oved-Edomun evində qaldı. Rəbb
Oved-Edoma və onun bütün külfətinə
bərəkət verdi.
12 Padşah Davuda «Rəbb
Oved-Edomun nəslinə və ona məxsus
hər şeyə Allahın sandığına görə bərəkət
verdi» deyə xəbər verildi. Davud
gedib Oved-Edomun evindən Allahın
sandığını sevinclə Davudun adı verilən
şəhərə çıxardı. 13 Rəbbin sandığını
daşıyanlar altı addım gedəndən sonra
Davud bir öküzü və kökəldilmiş buğanı
qurban kəsdi. 14 O, kətan efod geyib
Rəbbin önündə var gücü ilə rəqs edirdi.
15 Davudla bütün İsrail nəsli Rəbbin
sandığını hay-küylə, şeypur səsi ilə
çıxartdılar.
16 Rəbbin sandığı Davudun şəhərinə
gətiriləndə Şaulun qızı Mikal
pəncərədən baxıb padşah Davudu
Rəbbin önündə atılıb rəqs edərkən
gördü və ürəyində ona kinayə etdi.
17 Rəbbin sandığını gətirib Davudun
bu məqsədlə qurduğu çadırın içərisində
onun üçün ayrılan yerə qoydular. Davud
Rəbbin önündə yandırma və ünsiyyət
qurbanları kəsdi. 18 Davud yandırma
və ünsiyyət qurbanlarını təqdim edib
qurtarandan sonra Ordular Rəbbinin
adı ilə xalqa xeyir-dua verdi. 19 uİstər
qadın, istərsə də kişi olsun, xalqın
hamısına – İsrail camaatından hərəyə
bir kömbə çörək, bir parça ət və bir
üzüm lavaşanası payladı. Sonra xalqın
hamısı öz evinə qayıtdı.
20 Davud öz külfətinə xeyir-dua
vermək üçün qayıdanda Şaulun qızı
Mikal Davudun qarşısına çıxıb belə
dedi: «Gör bu gün İsrailin padşahı
necə də şərəf qazanıb! Adi bir təlxək
kimi utanmadan bu gün əyanlarının
və qarabaşlarının qarşısında soyundu!»
21 Davud Mikala dedi: «Mən bunu
atanın və onun bütün nəslinin yerinə
məni seçib Öz xalqı İsraillilərə hökmdar
qoyan Rəbbin qarşısında etmişəm. Bəli,
Rəbbin hüzurunda şənlik edəcəyəm.
22 Bundan sonra bundan betər alçalıb
öz mənliyimi heç edəcəyəm, yalnız
sən dediyin qarabaşların qarşısında
şərəflənəcəyəm». 23 Buna görə də Şaul
qızı Mikalın ölənə qədər övladı olmadı.

Davudun məbəd tikmək fikri

(1Saln. 17:1-15)

7 Rəbb padşah Davuda ətrafında
olan bütün düşmənlərinin əlindən
rahatlıq verən zamanlarda Davud öz
evində oturmuşdu. 2 O vaxt padşah
peyğəmbər Natana belə dedi: «Bax
mən sidr ağacından tikilən bir sarayda
yaşayıram, lakin Allahın sandığı isə bir
çadırda qalır». 3 Natan padşaha dedi:
«Get, ürəyindəki niyyətini həyata keçir,
çünki Rəbb sənindədir».
4 Lakin o gecə Natana Rəbbin bu
sözü nazil oldu: 5 «Get, qulum Davuda
söylə ki, Rəbb belə deyir: “Sənmi Mənə
yaşamaq üçün ev tikəcəksən? 6 İsrail
övladlarını Misirdən çıxartdığım gündən
ta bu günə qədər Mən heç bir evdə
yaşamamışam, ancaq bir səyyar çadırda
oraya-buraya köçmüşəm. 7 Bütün İsrail
övladları ilə birgə gəzdiyim o yerlərdə
xalqım İsrailin qayğısına qalmağı
buyurduğum İsrail qəbilələrindən
birinə ‹Niyə Mənə sidr ağacından
bir ev qurmadınız?› deyə bir söz

*6:8 *Peres-Uzza* – ibrani dilində *Uzzanın cəzası.*

t6:11 1Saln. 26:4-5 u6:19 1Saln. 16:43

söyləmişəmmi?” 8 İndi qulum Davuda
söylə ki, Ordular Rəbbi belə deyir:
“Mən səni otlaqlarda qoyun otaranda
götürüb xalqım İsrailə hökmdar etdim.
9 Getdiyin hər yerdə səninlə oldum
və qarşından bütün düşmənlərini
qırıb atdım. İndi isə adını dünyadakı
böyüklərin adı kimi məşhur edəcəyəm.
10 Xalqım İsrail üçün bir yer təyin
edib onları oraya sakin edəcəyəm ki,
öz yurdlarında yaşasınlar və bir daha
sarsılmasınlar. Şər adamlar əvvəllər
xalqım İsraillilərə hakimlər təyin
etdiyim günlərdən bəri etdikləri kimi
yenə də onlara zülm etməsinlər. 11 Sənə
bütün düşmənlərinin əlindən rahatlıq
verəcəyəm”. Rəbb sənə bildirir ki, Rəbb
Özü sənə ev tikəcək. 12 v“Ömrün başa
çatıb atalarınla uyuyanda yerinə sənin
toxumundan – belindən gələn övladını
çıxaracağam və onun padşahlığını
möhkəmləndirəcəyəm. 13 O Mənim
ismimə ev tikəcək və onun şahlıq taxtını
əbədi möhkəm edəcəyəm. 14 wMən
ona Ata, o isə Mənə oğul olacaq.
Günah edəndə onu insanların dəyənəyi
ilə, bəşər övladlarının kötəkləri ilə
vuracağam. 15 Qarşından götürdüyüm
Şauldan lütfümü geri aldığım kimi
ondan geri almayacağam. 16 Sənin
nəslin və padşahlığın Mənim qarşımda
əbədi əmin-amanlıqda olacaq, taxtın
isə əbədi möhkəm qalacaq”». 17 Natan
Davuda bütün bu sözləri və bütün bu
vəhyi nəql etdi.

Davudun duası

(1Saln. 17:16-27)

18 Padşah Davud içəri keçib Rəbbin
önündə diz çökərək dedi: «Ya Xudavənd
Rəbb, mən kiməm və nəslim kimdir
ki, Sən məni bu yerə çıxartdın? 19 Ya
Xudavənd Rəbb, Sənin gözündə bu
da kiçik göründü, hələ bu qulunun
nəslinin gələcəyi haqqında xəbər verdin.
Bu insanlar üçün bir təlimdirmi, ya
Xudavənd Rəbb? 20 Davud Sənə daha
nə deyə bilər? Ya Xudavənd Rəbb, bu
qulunu Sən tanıyırsan! 21 Sən bütün
bu böyük şeyləri quluna başa salmaq
üçün, həm də Öz sözün uğrunda və Öz
ürəyincə etdin. 22 Bunun üçün, ya Rəbb
Allah, Sən böyüksən. Axı qulaqlarımızla
eşitdiklərimizin hamısına görə Sənin
kimisi heç yoxdur və Səndən başqa
Allah yoxdur. 23 Yer üzərində xalqın
İsrail kimi bir millət varmı? Ey Allah,
Sən onu Özünə xalq etmək üçün satın
almağa getdin. Sən Misirdən satın
aldığın xalqın önündə onlar və Öz ölkən
uğrunda böyük və xariqəli işlər gördün.
Belə ki millətləri və onların allahlarını
qovub Özünə şöhrət qazandın. 24 Əbədi
olaraq xalqın İsraili Özün üçün xalq
olaraq təyin etdin və Sən, ya Rəbb,
onların Allahı oldun.
25 İndi isə, ya Rəbb Allah, bu qulun
və onun nəsli haqqında söylədiyin sözü
əbədi saxla və dediyinə əməl et. 26 Qoy
insanlar “Ordular Rəbbi İsrailə hakim
olan Allahdır” deyərək Sənin adını əbədi
ucaltsınlar və qulun Davudun nəsli
Sənin önündə möhkəm qalsın. 27 Çünki
Sən Ordular Rəbbi, İsrailin Allahı “sənə
ev tikəcəyəm” deyərək bu quluna vəhy
göndərdin. Ona görə də qulun Sənə
bu duanı etməyə cəsarət tapdı. 28 Ya
Xudavənd Rəbb, Sən Allahsan, Sənin
sözlərin haqdır və indi də quluna bu
yaxşı şeyi vəd etdin. 29 Əbədi olaraq
Sənin önündə olsun deyə qulunun
nəslinə xeyir-dua vermək qoy Sənə xoş
görünsün! Çünki, ya Xudavənd Rəbb,
Sən belə söz verdin. Bu qulunun nəsli
Sənin xeyir-duanla əbədilik xeyir-dua
alsın!»

---

v**7:12** Zəb. 132:11; Həv. 2:30

w**7:14** 1Saln. 17:13; 2Kor. 6:18; İbr. 1:5; Vəhy 21:7

Davudun qələbələri

(1Saln. 18:1-17)

8 Bundan sonra Davud Filiştliləri
məğlub edib özünə tabe etdi və
Meteq-Ammahı Filiştlilərdən aldı.
2 Moavlıları da məğlub etdi və yerə
uzadaraq ölçü ipi ilə ölçdü, ölçdüyü
iki cərgəni öldürdü, bir cərgəni isə sağ
buraxdı. Moavlılar Davuda tabe olub
xərac verdilər.
3 Sova padşahı Rexov oğlu Hadadezer
Fərat çayının ətrafında öz hakimiyyətini
bərpa etmək üçün gedəndə Davud onu
məğlub etdi. 4 O, Hadadezerin min
yeddi yüz süvarisini və iyirmi min
piyada əsgərini əsir etdi və atlardan
yüzə qədərini döyüş arabası üçün
saxlayaraq qalan atların ayaq vətərini
kəsdi. 5 Dəməşqdə yaşayan Aramlılar
Sova padşahı Hadadezerə kömək
etməyə gələndə Davud onlardan iyirmi
iki min nəfəri qırdı. 6 Davud Dəməşq
Aramına hərbi dəstələr yerləşdirdi
və Aramlılar ona tabe olub xərac
verdilər. Rəbb Davuda getdiyi hər yerdə
zəfər qazandırdı. 7 O, Hadadezerin
zabitlərinin gəzdirdiyi qızıl qalxanları
götürüb Yerusəlimə gətirdi. 8 Padşah
Davud Hadadezerin Betah və Berotay
şəhərlərindən çoxlu tunc aldı.
9 Xamat padşahı Toi eşitdi ki, Davud
Hadadezerin bütün ordusunu məğlub
edib. 10 Toi padşah Davudu salamlamaq
və Hadadezeri döyüşdə məğlub etdiyinə
görə təbrik etmək üçün oğlu Yoramı
onun yanına göndərdi, çünki Hadadezer
Toi ilə həmişə müharibə etmişdi.
Yoram Davuda qızıl-gümüş və tunc
əşyalar bəxş etdi. 11 Padşah Davud
bu bəxşişləri də, özünə tabe etdirdiyi
bütün millətlərdən – 12 Aramlılardan,
Moavlılardan, Ammonlulardan,
Filiştlilərdən, Amaleqlilərdən əldə
etdiyi qızıl-gümüşü də Sova padşahı
Rexov oğlu Hadadezerdən əldə edilən
talan malı ilə birlikdə Rəbbə həsr etdi.
13 [x]Duz vadisində Davud
Edomlulardan on səkkiz min nəfəri
qırandan sonra geri qayıdan zaman
ad qazandı. 14 Edoma hərbi dəstələr
yerləşdirdi. Edomun hər tərəfinə
hərbi dəstələri yerləşdirəndən sonra
Edomluların hamısı Davuda tabe oldu.
Rəbb Davuda getdiyi hər yerdə zəfər
qazandırdı.
15 Davud bütün İsrailin padşahı oldu.
O bütün xalqına ədalət və salehliklə
hökmranlıq edirdi. 16 Seruya oğlu Yoav
ordu başçısı idi; Axilud oğlu Yehoşafat
salnaməçi idi; 17 Axituv oğlu Sadoq və
Evyatar oğlu Aximelek kahin idi; Seraya
mirzə idi; 18 Yehoyada oğlu Benaya
Keretlilər və Peletlilərin başçısı idi;
Davudun oğulları isə vəzir idi.

Davudun Mefiboşetə etdiyi yaxşılıq

9 [y]Davud dedi: «Şaul nəslindən sağ
qalan kimsə varmı? Yonatanın
xatirinə ona yaxşılıq edim». 2 Şaulun
nəslində Siva adlı bir xidmətçi var
idi. Onu Davudun yanına çağırdılar
və padşah ona dedi: «Siva sənsənmi?»
O dedi: «Qulun özüdür ki, var».
3 [z]Padşah dedi: «Şaul nəslindən bir
adam qalmayıb ki, ona Allah xatirinə
yaxşılıq edim?» Siva padşaha dedi:
«Yonatanın iki ayağından şikəst bir
oğlu var». 4 Padşah ona dedi: «İndi o
haradadır?» Siva padşaha dedi: «Budur,
indi o, Lo-Devarda Ammielin oğlu
Makirin evindədir».
5 Padşah Davud adam göndərib
Lo-Devardan Ammielin oğlu Makirin
evindən Mefiboşeti gətirtdi. 6 Şaul oğlu
Yonatanın oğlu Mefiboşet Davudun
yanına gəldi və üzünü yerə qoyub
təzim etdi. Davud dedi: «Mefiboşet!»

---

[x] **8:13** Zəb. 60 başlıq [y] **9:1** 1Şam. 20:15-17 [z] **9:3** 2Şam. 4:4

O «Budur, qulun özüdür ki, var!»
dedi. 7 Davud ona dedi: «Qorxma,
atan Yonatanın xatirinə mütləq sənə
yaxşılıq edəcəyəm və baban Şaulun
bütün torpağını sənə qaytaracağam.
Sən həmişə mənim süfrəmdə yemək
yeyəcəksən». 8 Mefiboşet təzim edib
dedi: «Axı bu qulun kimdir ki? Mənim
kimi ölü bir köpəyə tərəf nə üçün üz
tutursan?»
9 Padşah Şaulun xidmətçisi Sivanı
çağırıb dedi: «Şaula və onun nəslinə
aid olan hər şeyi sənin ağanın nəvəsinə
verdim. 10 Ağanızın nəvəsinin torpağını
sən, oğulların və qulların becərəcək.
Məhsulunu ona verəcəksiniz ki, azuqəsi
olsun. Ağanızın nəvəsi Mefiboşet
isə həmişə mənim süfrəmdə yemək
yeyəcək». Sivanın on beş oğlu və iyirmi
qulu var idi. 11 Siva padşaha dedi: «Mən
ağam padşahın bu quluna əmr etdiyi
hər şeyi edəcəyəm». Beləliklə, Mefiboşet
padşah oğullarından biri kimi Davudun
süfrəsində yemək yeyirdi.
12 Mefiboşetin kiçik bir oğlu var idi.
Onun adı Mika idi. Sivanın evində
yaşayanların hamısı Mefiboşetin
xidmətçiləri idi. 13 Bundan sonra
Mefiboşet Yerusəlimdə qaldı, çünki
həmişə padşahın süfrəsində yemək
yeyirdi. O, iki ayağından şikəst idi.

Ammonluların və Aramlıların məğlubiyyəti

(1Saln. 19:1-19)

10 Bir müddət sonra Ammonluların
padşahı öldü və onun yerinə
oğlu Xanun padşah oldu. 2 Davud dedi:
«Atası mənə yaxşılıq etdiyinə görə
mən də Naxaşın oğlu Xanuna yaxşılıq
edəcəyəm». Davud əyanlarından bir
neçəsini Xanunun atası üçün başsağlığı
verməyə göndərdi. Lakin Davudun
adamları Ammon ölkəsinə çatanda
3 Ammonluların başçıları öz ağaları
Xanuna dedilər: «Sən elə bilirsən ki,
Davud bu başsağlığı verən adamları
sənin atana hörməti olduğu üçün
göndərib? Davudun sənin yanına
adamlarını göndərməsi şəhəri gözdən
keçirib araşdırmaq və buranı yıxmaq
üçün deyilmi?» 4 Xanun Davudun
adamlarını tutaraq saqqallarını
yarıyacan qırxdırıb paltarlarını
oturacaq yerinə qədər aşağıdan kəsdirdi
və onları geri göndərdi. 5 Bunu Davuda
xəbər verdilər, Davud da onları
qarşılamaq üçün qasidlər göndərdi,
çünki bu adamlar çox utanırdı. Padşah
dedi: «Saqqalınız çıxana qədər Yerixoda
qalın, sonra qayıdarsınız».
6 Ammonlular özlərinə qarşı Davudda
nifrət oyatdıqlarını görəndə adam
göndərib Bet-Rexov Aramlılarından
və Sova Aramlılarından iyirmi min
piyada əsgəri, Maaka padşahı ilə min
adamı və Tov əhalisindən on iki min
nəfəri muzdla tutdular. 7 Davud bunu
eşidib Yoavla bütün igidlər ordusunu
onların üstünə göndərdi. 8 Ammonlular
çıxıb darvazanın girişində döyüşə
düzüldülər. Sova və Rexov Aramlıları
ilə Tov və Maaka adamları çöldə ayrıca
durmuşdular.
9 Yoav öndən və arxadan düşmənlərin
ona qarşı düzüldüklərini görəndə
bütün İsrailin seçmə döyüşçülərindən
bəzilərini ayırıb Aramlılara qarşı
düzdü. 10 Xalqın qalan hissəsinə isə
qardaşı Avişayı başçı qoydu və onları
Ammonlulara qarşı düzdü. 11 Yoav
dedi: «Əgər Aramlılar məndən güclü
çıxarsa, sən mənə kömək edərsən, əgər
Ammonlular səndən güclü çıxarsa, mən
gəlib sənə kömək edərəm. 12 Cəsarətli
ol. Gəl xalqımız naminə, Allahımızın
şəhərləri naminə igidlik göstərək. Qoy
Rəbb gözündə xoş olanı etsin». 13 Yoav
və yanındakı qoşun Aramlılara qarşı
döyüşə yaxınlaşarkən düşmənlər Yoavın
qabağından qaçdılar. 14 Ammonlular
Aramlıların qaçdığını görəndə Avişayın

qabağından qaçıb şəhərə girdilər.
Ammonlular ilə döyüş qurtarandan
sonra Yoav Yerusəlimə qayıtdı.
15 Aramlılar İsraillilərin önündə
məğlub olduqlarını görəndə bir yerə
yığıldılar. 16 Hadadezer adam göndərib
Fərat çayının o tayındakı Aramlıları
döyüşə çıxartdı. Hadadezerin ordu
başçısı Şovakla birgə Xelama gəldi.
17 Bunu Davuda xəbər verdilər. O
bütün İsraillilər toplayıb İordan çayını
keçərək Xelama gəldi. Aramlılar Davuda
qarşı düzülüb onunla vuruşdular.
18 Aramlılar İsraillilərin qarşısından
qaçdılar. Davud Aramlılardan yeddi yüz
döyüş arabaçısı ilə qırx min süvarini
qırdı və orada ordu başçısı Şovakı
vurub öldürdü. 19 Hadadezerə tabe olan
padşahların hamısı İsrail qarşısında
məğlub olduqlarını görəndə İsraillilərlə
sülh bağlayıb onlara tabe oldular. Artıq
Aramlılar Ammonlulara kömək etməyə
qorxdular.

Davud və Bat-Şeva

11 [a]Bahar gələndə padşahlar
müharibəyə çıxan vaxt Davud
Yoavı, zabitlərini bütün İsrail ordusu ilə
birlikdə müharibəyə göndərdi. Onlar
Ammonluları qırıb Rabbanı mühasirəyə
aldılar. Davud isə Yerusəlimdə qaldı.
2 Bir axşamçağı Davud yatağından
qalxıb padşah sarayının damı üstündə
gəzişirdi. O, damdan baxıb gördü ki,
bir qadın yuyunur. Qadın çox gözəl
idi. 3 Davud adam göndərib bu qadın
barəsində xəbər aldı. Biri belə dedi: «Bu
qadın Xetli Uriyanın arvadı, Eliamın qızı
Bat-Şevadır». 4 Davud qasidlər göndərib
onu yanına gətirtdi. Qadın onun yanına
gələndə hələ aybaşı murdarlığından
təmizlənməkdə idi. Davud onunla yatdı
və sonra qadın evinə qayıtdı. 5 Qadın
bundan boylu olub Davuda «mən
hamiləyəm» deyə xəbər göndərdi.
6 Davud Yoavın yanına adam
göndərib dedi: «Xetli Uriyanı mənim
yanıma göndər». Yoav Uriyanı Davudun
yanına göndərdi. 7 Uriya Davudun
yanına gələndə Davud Yoavın, xalqın
və döyüşün vəziyyətini soruşdu.
8 Sonra Davud Uriyaya dedi: «Get
evinə, ayaqlarını yu». Uriya padşahın
sarayından çıxanda padşah arxasınca
ona hədiyyə də göndərdi. 9 Lakin
Uriya padşahın sarayının qapısında
ağasının bütün mühafizəçiləri ilə
birlikdə yatıb evinə getmədi. 10 Davuda
«Uriya evinə getmədi» deyə bildirdilər.
Davud Uriyaya dedi: «Sən yoldan
gəlməmisənmi? Niyə evinə getmədin?»
11 Uriya Davuda dedi: «Əhd sandığı və
İsraillilərlə Yəhudalılar çardaqlarda
qalarkən, ağam Yoavla ağamın
zabitləri çöllərdə məskən salarkən
mən yemək-içmək və arvadım ilə
yatmaq üçün evimə gedimmi? Həyatına
və canına and olsun, mən belə şey
etmərəm». 12 Davud Uriyaya dedi: «Bu
gün də burada qal, sabah səni yola
salaram». Uriya həmin günü və ertəsi
günü Yerusəlimdə qaldı. 13 Davud onu
çağırıb yedirib-içirərək sərxoş etdi.
Uriya padşahın yanından axşamüstü
çıxdı. O öz hərbi yatağında yatmaq
üçün ağasının mühafizəçilərinin yanına
gedərək yenə də evinə getmədi.
14 Səhər açılanda Davud Yoava
məktub yazdı və məktubu Uriyanın əli
ilə Yoava göndərdi. 15 Məktubunda belə
yazılmışdı: «Uriyanı qızğın döyüşlərə
göndər. Onu ön xəttə qoy və yanından
çəkilin ki, vurulub öldürülsün». 16 Yoav
şəhəri mühasirə altında saxlayarkən
igid adamlar olan yeri bilirdi və
Uriyanı oraya göndərdi. 17 Şəhərin
adamları qalxıb Yoavla döyüşə çıxdılar.

---

[a]**11:1** 1Saln. 20:1

Xalqdan, Davudun döyüşçülərindən
qırılanlar oldu və Xetli Uriya da ölənlər
arasında idi. 18 Yoav Davudun yanına
adam göndərib döyüş haqqında olan
məlumatların hamısını xəbər verdi.
19 Qasidə əmr edib dedi: «Döyüş
haqqında olan bütün məlumatları
padşaha söyləyib bitirərkən 20 padşah
sənə qəzəblənib "Şəhərə hücum etmək
üçün niyə bu qədər yaxınlaşdınız?
Divarın üstündən sizə ox atacaqlarını
bilmirdinizmi? 21 [b]Bax Yerubbeşet
oğlu Avimeleki kim vurdu? Divarın
üstündən bir qadın dəyirmanın üst
daşını onun üstünə atmadımı və o,
Tevesdə ölmədimi?" deyərsə, o zaman
"qulun Xetli Uriya da öldü" deyərsən».
22 Qasid yola düşdü və Davudun
yanına gəlib Yoavın göndərdiyi
məlumatların hamısını ona xəbər
verdi. 23 Qasid Davuda dedi: «Adamlar
bizə üstün gəldilər. Onlar bizə qarşı
döyüşmək üçün çölə çıxdılar və onları
darvazanın girişinə qədər qovduq.
24 Oxatanlar divardan döyüşçülərin
üstünə ox yağdırdılar və padşahın
döyüşçülərindən ölənlər də oldu. Qulun
Xetli Uriya da ölənlər arasındadır».
25 Davud qasidə dedi: «Yoava deyərsən
ki, "bu hadisə sənin gözündə pis
görünməsin, çünki qılınc gah birinin,
gah da başqasının başını yeyir. Şəhərə
qarşı döyüşü gücləndirib oranı yıxsın".
Bununla Yoavı sən də ruhlandır».
26 Uriyanın arvadı Uriyanın ölümünü
eşidib əri üçün yas tutdu. 27 Yas
qurtarandan sonra Davud adam
göndərib Bat-Şevanı öz evinə gətirdi və
o, Davudun arvadı oldu. Sonra Davuda
bir oğul doğdu. Lakin Davudun gördüyü
bu iş Rəbbin gözündə pis idi.

Natan peyğəmbərin Davuda məzəmməti

12 [c]Rəbb Natanı Davudun yanına
göndərdi. Natan onun yanına
gəlib belə nəql etdi: «Bir şəhərdə iki
adam var idi. Onlardan biri varlı, o
biri isə kasıb idi. 2 Varlı adamın çoxlu
sürüləri və naxırı var idi. 3 Lakin kasıb
adamın satın alıb bəslədiyi bir körpə
dişi quzudan başqa heç nəyi yox idi.
O, quzusunu öz yanında uşaqları ilə
bərabər böyütmüş, ona öz yeməyindən
yedirtmiş, öz içdiyi qabdan su içirtmiş
və qoynunda yatırtmışdı. Quzu ona
doğma qızı kimi idi. 4 Bir gün varlı
adamgilə yadelli bir qonaq gəlir. Varlı
adam onlara gələn qonağa yemək
hazırlamaq üçün öz sürüsündən və
naxırından heyvan götürüb kəsməyə
qıymadı. O gedib kasıbın quzusunu
götürüb kəsdi və yanına gələn qonağa
yemək hazırladı». 5 O adama qarşı
Davudun qəzəbi alovlandı və Natana
dedi: «Var olan Rəbb haqqı, bunu edən
adam ölümə layiqdir. 6 Bu işi gördüyünə
və rəhmsizliyinə görə o, quzunun
əvəzini dördqat verəcək».
7 Natan Davuda dedi: «O adam sənsən!
İsrailin Allahı Rəbb belə deyir: "Mən
səni İsrailin üzərində padşah olaraq
məsh etdim və səni Şaulun əlindən
qurtardım. 8 Sənə ağanın evini verdim.
Ağanın arvadlarını qoynunda yatırıb
İsraillə Yəhuda nəslini sənə verdim.
Əgər bu sənə azlıq edirdisə, Mən sənə
daha nələri, nələri əlavə edərdim.
9 Nə üçün Rəbbin gözündə pis olan işi
etdin? Niyə Onun sözünə xor baxdın?
Xetli Uriyanın arvadını özünə arvad
etmək üçün onu qılıncla öldürtdürdün.
Uriyanı Ammon övladlarının qılıncı
ilə öldürtdürdün. 10 Bundan sonra heç
vaxt qılınc sənin evindən ayrılmayacaq,

---

[b]**11:21** Hak. 9:53 [c]**12:1** Zəb. 51 başlıq

çünki sən Mənə xor baxdın və Xetli
Uriyanın arvadını özünə arvad etdin”.
11 [d]Rəbb belə deyir: “Bax sənə qarşı
pisliyi öz nəslindən çıxaracağam və
sənin gözünün önündə arvadlarını
götürüb yaxınına verəcəyəm. O da göz
görə-görə, gündüzün günorta çağı sənin
arvadlarınla yatacaq. 12 Bu işi sən gizli
etdinsə, Mən bu işi bütün İsraillilərin
qarşısında gündüzün günorta çağı
etdirəcəyəm”».
13 Davud Natana dedi: «Mən Rəbbə
qarşı günah etdim». Natan Davuda
dedi: «Rəbb sənin günahını sildi,
ölməyəcəksən. 14 Lakin bunu etməklə
Rəbbin düşmənlərinə böyük fürsət
verdin ki, Ona küfr etsinlər. Ona görə
də mütləq səndən doğulan uşaq öləcək».

Davudun uşağının ölümü

15 Sonra Natan evinə qayıtdı. Rəbb
Davudun Uriyanın dul arvadından
olan uşağını vurdu və uşaq xəstələndi.
16 Davud uşaq üçün Allaha yalvardı
və oruc tutaraq otağına girib bütün
gecəni quru yerdə uzandı. 17 Evinin
ağsaqqalları onu yerdən qaldırmaq
üçün yanında dayandılar, lakin o
qalxmaq istəmədi və onlarla birgə çörək
yemədi. 18 Yeddinci gün körpə öldü.
Davudun əyanları uşağın öldüyünü
ona bildirməyə qorxdular və belə
düşündülər: «Uşaq sağ ikən onu
dilə tutduq, lakin sözümüzə qulaq
asmadı. İndi uşağın öldüyünü ona necə
söyləyək? Özünə bir xətər yetirər».
19 Davud əyanlarının pıçıldaşmasını
görəndə başa düşdü ki, uşaq ölüb və
əyanlarına «Uşaq öldümü?» dedi. Onlar
«öldü» dedilər.
20 Davud yerdən qalxdı, yuyunub
başına zeytun yağı sürtdü və paltarlarını
dəyişərək Rəbbin evinə gedib səcdə
qıldı. Evə qayıdıb yemək istəyəndə
qarşısına yemək qoydular və o yedi.
21 Əyanları ona dedi: «Bu nə işdir
edirsən? Körpə sağ ikən nə üçün oruc
tutub ağladın, körpə öləndə isə durub
çörək yedin?» 22 Davud cavab verdi:
«Uşaq sağ olanda oruc tutub ağlayırdım
və deyirdim ki, kim bilir, bəlkə Rəbb
mənə lütf edər, uşaq sağ qalar. 23 Lakin
indi uşaq ölüb, nə üçün oruc tutum?
Məgər onu geri qaytara bilərəmmi?
Mən onun yanına gedəcəyəm, o mənim
yanıma qayıtmayacaq».

Süleymanın anadan olması

24 Davud arvadı Bat-Şevaya təsəlli
verdi və yanına girib onunla yatdı.
Bat-Şeva bir oğul doğdu və adını
Süleyman qoydu. Rəbb bu uşağı sevdi.
25 O, Natan peyğəmbəri göndərdi və
o da Rəbbin naminə uşağın adını
Yedidyah [*]qoydu.

Yenidən müharibənin başlanması

(1Saln. 20:1-3)

26 Yoav Ammon övladlarının Rabba
şəhərinə hücum edib padşah qalasını
aldı. 27 Sonra Yoav Davudun yanına
qasidlər göndərib belə dedi: «Rabbaya
hücum edib ehtiyat su mənbələrini
aldım. 28 İndi isə sən xalqın qalan
hissəsini topla və şəhərə qarşı ordugah
qurub oranı al ki, mən gedib oranı
almayım və o yer adımla çağırılmasın».
29 Davud da bütün xalqı toplayıb
Rabbaya getdi və şəhərə hücum edib
oranı aldı. 30 Davud onların padşahının
başından tacını götürdü. Tac qızıldan
olub çəkisi bir talant idi. Onun üzərində
qiymətli daş var idi. Bu tac Davudun
başına qoyuldu. Davud bu şəhərdən
çoxlu qənimət apardı. 31 O, şəhərdə
olan xalqı köçürüb mişar, dəmir külüng,

[*]**12:25** *Yedidyah* – ibrani dilində *Rəbbin sevimlisi.*

[d]**12:11** 2Şam. 16:22

dəmir balta ilə görülən işlərdə və kərpic emalında işlətdi. Davud Ammonluların bütün şəhərlərində belə edəndən sonra bütün xalqla birgə Yerusəlimə qayıtdı.

Amnon və Tamar

13 Davudun oğlu Avşalomun Tamar adlı gözəl doğma bacısı var idi. Rabbanın alınmasından bir müddət sonra Davudun oğlu Amnon Tamara vuruldu. 2 Amnon ögey bacısı Tamardan ötrü o qədər qüssələndi ki, lap xəstəliyə düşdü. Çünki Tamar bakirə qız olduğuna görə Amnona onunla bir şey etmək çətin gəlirdi. 3 Amnonun Yonadav adlı bir dostu var idi. Yonadav Davudun qardaşı Şimanın oğlu idi və özü də çox hiyləgər idi. 4 Yonadav Amnona dedi: «Ey şahzadə, niyə gündən-günə pərişansan? Bunu mənə bildirməzsənmi?» Amnon ona dedi: «Qardaşım Avşalomun doğma bacısı Tamara vurulmuşam». 5 Yonadav ona dedi: «Yatağına girib özünü xəstə göstər və atan səni görməyə gələndə ona belə de: “Rica edirəm, bacım Tamar gəlib mənə çörək yedirtsin və gözümün qarşısında yemək hazırlasın, mən də onu görüm, bişirdiyi yeməyi onun əlindən alıb yeyim”». 6 Amnon yatağa girib özünü xəstə göstərdi. Padşah onu görməyə gələndə Amnon padşaha dedi: «Rica edirəm, bacım Tamar gəlsin və gözümün qarşısında iki kökə bişirsin, mən də o kökələri onun əlindən alıb yeyim».

7 Davud evə adam göndərib Tamara dedi: «İndi qardaşın Amnonun evinə get, ona yemək hazırla». 8 Tamar qardaşı Amnonun evinə gedəndə o uzanmışdı. Tamar xəmir yoğurdu və onun gözü önündə kökələr düzəldib bişirdi. 9 Tavanı götürüb onun qarşısına boşaltdı. Lakin o yemək istəmədi. Amnon dedi: «Qoy hamı yanımdan çıxsın». Hamı onun yanından çıxdı. 10 Amnon Tamara dedi: «Yeməyi içəri otağa apar və orada sənin əlindən alıb yeyim». Tamar qardaşı Amnon üçün bişirdiyi kökələri götürüb içəri otağa apardı. 11 Kökələri yemək üçün Amnonun yanına gətirəndə Amnon Tamardan yapışıb dedi: «Gəl mənimlə yat, bacım». 12 Tamar isə ona dedi: «Yox, qardaşım, mənim namusuma toxunma, çünki İsraildə belə işlər etmək olmaz. Belə iyrənc iş görmə. 13 Mən bu rüsvayçılıqdan necə qurtara bilərəm? Səni isə İsraildə binamus kimi tanıyacaqlar. İndi isə rica edirəm, get padşahla danış, o məni sənə verər, yox deməz». 14 Lakin Amnon onun sözünü dinləmək istəmədi və qızdan qüvvətli olduğu üçün qızı zorlayaraq onunla yatdı.

15 Bundan sonra Amnonda Tamara qarşı həddən çox nifrət yarandı. Ona olan nifrəti əvvəlki sevgi hissindən daha güclü idi. Amnon ona «dur, buradan rədd ol» dedi. 16 Tamar isə dedi: «Yox! Axı indi məni qovmaqla etdiyin bu pislik mənə etdiyin o biri pislikdən daha böyükdür». 17 Amma Amnon ona qulaq asmaq istəməyib öz nökərini yanına çağırıb dedi: «Bunu yanımdan rədd edib bayıra at və arxasınca da qapını qıfılla». 18 Qızın əynində əlvan paltar var idi, çünki padşahın bakirə qızları belə paltar geyərdilər. Amnonun nökəri Tamarı bayıra atıb arxasınca qapını qıfılladı. 19 Tamar da başına kül tökdü. Əynindəki əlvan paltarını cırıb əlləri ilə başını tutaraq getdi. O gedə-gedə hönkürürdü.

20 Qardaşı Avşalom ona dedi: «Sənə toxunan qardaşın Amnon idimi? Hələlik sus, bacım, axı o sənin qardaşındır, bunu qəlbinə salma». Tamar tənha və qəm içində qardaşı Avşalomun evində yaşadı. 21 Padşah Davud bu hadisəni eşidərkən çox qəzəbləndi. 22 Avşalom isə Amnona nə yaxşı, nə də yaman bir söz

dedi, çünki bacısı Tamarı zorladığına
görə Avşalom Amnona nifrət edirdi.

Avşalomun qisası

23 İki il tamam olandan sonra
Efrayimə yaxın Baal-Xasorda Avşalom
qoyun qırxımı keçirirdi. Avşalom
padşahın bütün oğullarını oraya dəvət
etdi. 24 O, padşahın yanına gəlib
dedi: «Bax bu qulun qoyun qırxımı
keçirir. Rica edirəm, qoy padşah və
əyanları bu qulunun yanına gəlsin».
25 Padşah Avşaloma dedi: «Yox, ay oğul,
qoy hamımız getməyək, sənə ağırlıq
düşər». Avşalom nə qədər təkid etsə
də, padşah getmək istəmədi, lakin
ona xeyir-dua verdi. 26 Sonra Avşalom
dedi: «Heç olmasa qardaşım Amnon
bizimlə getsin». Padşah ona dedi: «Axı
nə üçün o sənin lə getsin?» 27 Avşalom
isə təkid etdi. Davud Amnonu və bütün
şahzadələri onunla göndərdi. 28 Avşalom
nökərlərinə belə əmr etmişdi: «Baxın
Amnonun ürəyi şərabla nəşələnəndə sizə
“Amnonu vurun!” deyəcəyəm, o zaman
onu öldürün, qorxmayın. Sizə əmri
verən mən deyiləmmi? Cəsur və igid
olun». 29 Avşalom necə buyurmuşdusa,
nökərləri elə edib Amnonu vurdular.
Bunu görən bütün şahzadələr qalxıb hər
biri öz qatırına minərək qaçdı.
30 Hələ onlar yolda ikən Davuda
belə xəbər çatdı: «Avşalom bütün
şahzadələri qırıb, onlardan heç birini
sağ qoymayıb». 31 Padşah qalxıb
paltarını cırdı və yerə sərildi. Yanındakı
əyanların hamısı öz paltarını cırdılar.
32 Davudun qardaşı Şimanın oğlu
Yonadav belə dedi: «Ağam bütün
gəncləri, şahzadələri ölmüş zənn
etməsin, təkcə Amnon ölüb. Ona görə
ki o, ögey bacısı Tamarı zorladığı
gündən bəri Avşalom bu niyyətdə idi.
33 Onun üçün də ağam padşahın bütün
şahzadələrin ölüm xəbərindən ürəyi
narahat olmasın, çünki təkcə Amnon
ölüb».
34 Avşalom isə qaçmışdı. Növbətçi
nökər başını qaldırıb baxdı və budur,
arxa yoldan dağın yamacından böyük
bir qələbəlik gəlirdi. 35 Yonadav
padşaha dedi: «Budur, şahzadələr gəlir,
qulun necə dedisə, elə də oldu». 36 O,
sözünü qurtaran kimi şahzadələr içəri
girib bərkdən ağladılar və padşahla
bütün əyanları da acı göz yaşları
tökdülər.
37 [e]Avşalom qaçıb Geşur padşahı
Ammihud oğlu Talmayın yanına getdi.
Davud isə oğlu Amnon üçün hər gün yas
tuturdu. 38 Geşura qaçan Avşalom üç il
orada qaldı. 39 Avşalom üçün padşah
Davud ürəyində həsrət çəkirdi, çünki
Amnonun ölümünə görə artıq təsəlli
tapmışdı.

Teqoalı qadın

14 Seruya oğlu Yoav başa düşdü
ki, padşah Avşalomun həsrətini
çəkir. 2 Yoav Teqoaya adam göndərib
oradan müdrik bir qadın gətirtdi və ona
dedi: «Rica edirəm, özünü yaslı adam
kimi göstər. Yas paltarı geyin, başına
zeytun yağı sürtmə, özünü çoxdan
bəridir ki, ölən üçün yas tutan bir
qadına bənzət. 3 Padşahın yanına gedib
ona belə söyləyərsən». Yoav qadına nə
demək lazım olduğunu öyrətdi.
4 Teqoalı qadın padşahın hüzurunda
üzüstə yerə döşəndi və ona müraciət
edib belə dedi: «Kömək et, ey padşah!»
5 Padşah da ona dedi: «Dərdin nədir?»
Qadın dedi: «Həqiqətən, mən dul bir
qadınam, ərim ölüb. 6 Kənizinin iki
oğlu var idi. Bir gün onların ikisi də
çöldə bir-biri ilə dalaşdı. Orada onları
ayıran heç kim yox idi və biri o birini
vurub öldürdü. 7 Bax bütün nəsil mənə

---

[e]**13:37** 2Şam. 3:3

– kənizinə qarşı çıxdı və “qardaş qatilini
bizə ver, öldürdüyü qardaşının canının
əvəzinə onu öldürək, qoy mirasa varis
olan qardaş da həlak olsun” dedilər.
Onlar ocağımın qalan közünü də
söndürəcəklər və ərimin yer üzündə nə
adı, nə də yadigarı qalacaq».
8 Padşah qadına dedi: «Evinə qayıt.
Mən sənin haqqında əmr verərəm».
9 Teqoalı qadın padşaha dedi: «Ağam
padşah, günahın qoy mənim və atamın
nəsli üzərinə düşsün! Qoy padşahla taxtı
günahsız qalsın!» 10 Padşah dedi: «Kim
sənə bir söz desə, onu mənim yanıma
gətir, heç kim sənə toxuna bilməz».
11 Qadın dedi: «Rica edirəm, padşah
Allahı Rəbbi xatırlasın ki, qan qisasını
alaraq qırğını davam etdirməsin, yoxsa
onlar mənim oğlumu həlak edəcək».
Davud dedi: «Var olan Rəbb haqqı,
oğlunun başından bir tük belə, əskik
olmayacaq».
12 Qadın dedi: «Rica edirəm, izin ver,
kənizin ağam padşaha bir söz söyləsin».
O «söylə» dedi. 13 Qadın dedi: «Əgər
belə olarsa, nə üçün Allahın xalqına
qarşı bu cür iş gördün? Çünki padşahın
bu sözü onun özünü də mühakimə
edir. Ona görə ki sürgün etdiyi adamı
qaytarıb geri gətirtmir. 14 Axı hamımız
öləcəyik, yerə dağılan və yenidən bir
yerə yığılmayan su kimiyik. Allah
da canı insandan çəkib almaz, lakin
bir çarə düşünər ki, sürgündə olan
adam Özündən uzaq düşməsin. 15 İndi
ağam padşaha bu sözü söyləmək üçün
gəlməyimin səbəbi budur ki, xalq məni
qorxutdu və bu kənizin dedi: “Qoy
indi gedib bunu padşaha söyləyim,
bəlkə padşah kənizinin xahişini yerinə
yetirər. 16 Ona görə ki padşah bu
kənizini eşidəcək və oğlunu Allahın irs
olaraq verdiyi torpaqdan qoparıb atmaq
istəyənin əlindən qurtaracaq”. 17 Ona
görə kənizin belə düşündü. Rica edirəm,
ağam padşah, sözünlə mənə təskinlik
ver, çünki yaxşını-pisi başa düşməkdə
Allahın mələyi necədirsə, ağam padşah
da elədir. Qoy Allahın Rəbb sənə yar
olsun!»
18 Bu sözdən sonra padşah qadına
belə dedi: «Səndən bir şey soruşacağam,
cavabını məndən gizlətmə». Qadın dedi:
«Ağam padşah, söylə, rica edirəm».
19 Padşah dedi: «Sənin bu işlərinin
hamısında Yoavın da əli varmı?» Qadın
cavab verdi: «Ağam padşah sağ olsun,
padşahın sözündən heç kim nə sağa,
nə də sola dönə bilməz. Qulun Yoav
mənə əmr etdi və bu sözlərin hamısını
kənizinə o öyrətdi. 20 Qulun Yoav bunu
işin istiqamətini dəyişmək üçün etdi.
Ağam Allahın mələyi qədər müdrikdir,
ölkədə olub-keçən hər şeyi bilir».

Avşalomun Yerusəlimə qaytarılması

21 Padşah Yoava dedi: «Yaxşı, bu işi
görərəm. Get, o cavanı – Avşalomu
geri qaytar». 22 Yoav üzüstə düşüb yerə
döşəndi və padşahı alqışladı. Sonra
Yoav dedi: «Ağam padşah, bu gün
sənin gözündə lütf tapdığını bu qulun
bilir, çünki padşah qulunun ricasına
əməl etdi». 23 Yoav durub Geşura gedib
Avşalomu Yerusəlimə gətirdi. 24 Lakin
padşah dedi: «Qoy o öz evinə qayıtsın,
mənim gözümə görünməsin». Avşalom
evinə qayıtdı və padşahın gözünə
görünmədi.
25 Bütün İsraildə Avşalom qədər
gözəlliyi mədh olunan heç kim yox idi.
Təpədən dırnağa qədər onda bir eyib
yox idi. 26 Hər ilin sonunda saçı ona
ağırlıq etdiyi üçün kəsərdi, başından
saçını kəsəndə saçı padşah tərəzisi ilə
iki yüz şekel *gələrdi. 27 Avşalomun üç
oğlu və Tamar adında bir qızı vardı.
Tamar çox gözəl bir qadın olmuşdu.

---

*14:26 *Padşah tərəzisi ilə iki yüz şekel* – təqribən 2,5 kq.

28 Avşalom tam iki il Yerusəlimdə
qaldı və padşahın gözünə görünmədi.
29 O, Yoavı padşahın yanına göndərmək
üçün onun yanına adam göndərdi,
amma Yoav onun yanına gəlmək
istəmədi. Avşalom ikinci dəfə Yoavın
yanına adam göndərdi və o yenə də
gəlmək istəmədi. 30 Sonra Avşalom
qullarına dedi: «Baxın Yoavın tarlası
mənimkinə bitişikdir və orada onun
arpası var. Gedib ora od vurun».
Avşalomun qulları gedib tarlaya od
vurdular. 31 Yoav durub Avşalomun
evinə gəlib dedi: «Niyə sənin qulların
gəlib mənim tarlama od vurdular?»
32 Avşalom Yoava dedi: «Bax sənin
yanına adam göndərdim, dedim ki,
buraya gələsən. “Söylə, mən Geşurdan
buraya nə üçün gəlmişəm? Orada
qalsaydım, mənim üçün bundan daha
yaxşı olardı” deyərək səni padşahın
yanına göndərmək istəyirdim. İndi
gedib padşahın gözünə görünüm,
günahım varsa, qoy məni öldürsün».
33 Yoav da padşahın yanına gəlib
bunu ona bildirdi və padşah Avşalomu
çağırdı. Avşalom padşahın yanına gedib
onun qarşısında üzüstə yerə təzim etdi
və padşah onu öpdü.

Avşalomun qəsdi

15 Bir müddət keçəndən sonra
Avşalom özü üçün bir döyüş
arabası ilə atlar və onun qabağında
qaçmaq üçün əlli adam hazırladı.
2 Avşalom tezdən durub darvaza
yolunun kənarında dayanardı. O, hökm
almaq üçün padşahın yanına aparılacaq
davası olan hər adamı öz yanına
çağırar, «Sən hansı şəhərdənsən?» deyə
ondan soruşardı. O adam da deyərdi
ki, qulun İsrailin filan qəbiləsindəndir.
3 Avşalom ona belə deyərdi: «Bax
sənin işin yaxşı və düzgündür, lakin
padşah tərəfindən heç kim sənə qulaq
asmayacaq». 4 Avşalom deyərdi: «Kaş
bu ölkəyə məni hakim qoyaydılar.
O zaman mənim yanıma davası və
yaxud da iddiası olub gələn hər adamın
işinə ədalətlə baxardım». 5 Bir nəfər
ona təzim etmək üçün yaxınlaşanda o
əl uzadıb onu qucaqlayar və öpərdi.
6 Avşalom hökm üçün padşahın yanına
gələn bütün İsraillilərlə belə rəftar
edərdi. İsraillilərin könlünü bu surətdə
ələ alardı.
7 Dörd il keçəndən sonra Avşalom
padşaha dedi: «Rica edirəm, izin ver,
gedib Xevronda Rəbbə əhd etdiyim
qurbanı təqdim edim. 8 Çünki qulun
Aram torpağının Geşur şəhərində
qalanda belə əhd etmişdi: “Əgər Rəbb
məni Yerusəlimə geri qaytarsa, Ona
qulluq edəcəyəm”». 9 Padşah ona
«salamat get» dedi. Avşalom qalxıb
Xevrona getdi.
10 Avşalom İsrail qəbilələrinin
hamısına gizli qasidlər göndərərək
onlara tapşırdı: «Şeypur səsini eşidəndə
“Avşalom Xevronda padşah oldu”
deyin». 11 Yerusəlimdən çağırdığı iki
yüz nəfər də Avşalomla getdi. Onlar pak
niyyətlə onun arxasınca gedirdi və heç
bir şeydən xəbərləri yox idi. 12 Avşalom
qurbanları təqdim edərkən Davudun
müşaviri Gilolu Axitofeli öz şəhərindən
– Gilodan öz yanına gətirtdi. Fitnəkar
dəstə qüvvətli idi, çünki Avşalomun
yanında olan xalq get-gedə çoxalırdı.

Davudun Yerusəlimdən qaçması

13 Bir adam gəlib Davuda xəbər
verərək dedi: «İsraillilər Avşaloma
rəğbət bəsləyir». 14 Davud Yerusəlimdə
– yanında olan bütün əyanlarına
dedi: «Durun qaçaq, yoxsa Avşalomun
qarşısından heç kim qaçıb qurtula
bilməz. Cəld olun, gedək, yoxsa o
tez gəlib bizə çatar, başımıza bəla
açar və şəhəri qılıncdan keçirər».
15 Padşahın əyanları dedilər: «Ağam
padşahın istədiyi kimi olsun, bax biz

sənin qullarınıq». 16 Padşah və onun
ardınca bütün külfəti çıxdı. Lakin
padşah cariyələrindən on qadını evə
nəzarət etmək üçün qoydu. 17 Padşah
və ardınca bütün xalq çıxıb şəhərin
sonuncu evində dayandı. 18 Bütün
əyanları onun qarşısından keçdilər və
bütün Keretlilər, Peletlilər və Qatdan
onun ardınca gəlmiş altı yüz nəfər Qatlı
da padşahın qarşısından keçdi.
19 Padşah Qatlı Yettaya dedi: «Sən
niyə bizimlə gedirsən? Qayıt təzə
padşahla qal. Sən ki yadellisən və
öz yurdundan sürgünə aparılmış
adamsan, qayıt öz yerinə. 20 Sən bura
hələ dünən gəlmisən. Bu gün səni
özümüzlə getməyəmi məcbur edim?
Mən hara gedə bilsəm, ora gedəcəyəm.
Sən isə qayıt, öz soydaşlarını da geri
qaytar. Xeyirxahlıq və sədaqət sənə yar
olsun!» 21 Yettay padşaha cavab verdi:
«Var olan Rəbbə və ağam padşahımın
canına and olsun, padşahım harada
olsa, mütləq bu qulun ölsə də, qalsa
da, orada olacaq». 22 Davud Yettaya
dedi: «Onda gəl, keç». Qatlı Yettay ilə
bütün adamları və yanında olan bütün
uşaqlar gəlib onların tərəfinə keçdi.
23 Camaat keçərkən bütün bölgə əhalisi
bərkdən ağlayırdı. Padşah da Qidron
vadisini keçdi və bütün camaat çölə
tərəf irəlilədi.
24 Sonra Sadoq Allahın Əhd sandığını
daşıyan bütün Levililərlə bərabər gəldi.
Allahın sandığını yerə qoydular. Bütün
xalq şəhərdən tamamilə çıxandan sonra
Evyatar da çıxdı. 25 Padşah Sadoqa yenə
dedi: «Allahın sandığını şəhərə qaytar.
Əgər mən Rəbbin gözündə lütf tapsam,
O məni geri qaytarıb Öz sandığını və
məskənini yenə mənə göstərər. 26 Lakin
“səndən razı deyiləm” desə, budur, qoy
gözündə nə yaxşı görünsə, mənim üçün
elə etsin. Mən hazıram». 27 Padşah kahin
Sadoqa dedi: «Sən görücü deyilsənmi?
Sən oğlun Aximaas və Evyatarın oğlu
Yonatanla bərabər salamat şəhərə qayıt.
Sən və Evyatar iki oğlunuzu da özünüzlə
aparın. 28 Baxın sizdən mənə hal-əhval
bildirən söz çatana qədər mən çöldə –
çayın dayaz yerində gözləyəcəyəm».
29 Sadoqla Evyatar Allahın sandığını
Yerusəlimə geri qaytardı və orada qaldı.
30 Davud Zeytun dağının yoxuşu ilə
çıxır və çıxarkən ağlayırdı. Başıörtülü,
ayaqyalın gedirdi. Onunla bərabər
gedən bütün xalq da başıörtülü
dağı çıxır və gedə-gedə ağlayırdı.
31 Kimsə «Axitofel Avşalomun yanında
– qiyamçılar arasındadır» deyə
Davuda xəbər verdi. Davud dedi: «Ya
Rəbb, Səndən diləyirəm, Axitofelin
məsləhətlərini boşa çıxar». 32 Davud
xalqın Allaha səcdə etdiyi təpənin
başına çatanda, budur, Arklı Xuşay
paltarı cırılmış və başı toz-torpaq içində
onu qarşılamağa gəldi. 33 Davud ona
dedi: «Əgər sən də mənimlə bərabər
getsən, mənə yük olarsan. 34 Lakin
əgər şəhərə qayıdıb Avşaloma “ey
padşah, mən də sənin qulun olacağam.
Keçmişdə necə atana qul oldumsa,
sənə də indi elə qul olacağam” desən,
o zaman mənim xeyrimə Axitofelin
məsləhətini poza bilərsən. 35 Kahin
Sadoq və kahin Evyatar orada sənlə
deyilmi? Padşah sarayından eşidəcəyin
hər şeyi kahinlərə – Sadoq və Evyatara
bildirəcəksən. 36 Budur, iki oğlu –
Sadoqun oğlu Aximaas, Evyatarın
oğlu Yonatan onların yanındadır və
eşidəcəyiniz hər şeyi onların əli ilə
mənə çatdıracaqsınız». 37 Avşalom
Yerusəlimə girərkən Davudun dostu
Xuşay da şəhərə girdi.

Xidmətçi Sivanın iftirası

16 [f]Davud təpə başından bir az yana
keçərkən Mefiboşetin xidmətçisi
Siva iki yüz kömbə çörək, yüz salxım
quru üzüm, yüz ədəd yay meyvəsi və bir
tuluq şərab yüklənmiş bir sürü palanlı
eşşəklə onu qarşıladı. 2 Padşah Sivaya
dedi: «Bunları hara aparırsan?» Siva
dedi: «Eşşəkləri padşahın külfətinin
minməsi, çörəklə yay meyvələrini
nökərlərin yeməsi və bu şərabı isə
çöldə olan yorğunların içməsi üçün
gətirmişəm». 3 Padşah Sivaya dedi:
«Bəs sənin ağanın oğlu haradadır?»
Siva padşaha dedi: «Bax o "bu gün
İsrail nəsli atamın padşahlığını mənə
geri qaytaracaq" deyərək Yerusəlimdə
qaldı». 4 Padşah Sivaya dedi: «Belə isə,
onda Mefiboşetin hər şeyi sənindir».
Siva cavab verdi: «Ayağının torpağı
olum, ağam padşah, təki sənin gözündə
lütf tapım».

Şimeyin lənəti

5 Padşah Davud Baxurimə gəldi və
oradan Şaulun nəslindən olan Gera
oğlu Şimey adlı bir nəfər çıxdı. Şimey
Davuda lənət edə-edə çıxırdı. 6 Davuda
və Davudun adamlarına daş atırdı.
Bütün xalq və igidlərin hamısı Davudun
sağında və solunda idi. 7 Şimey Davuda
lənət edərkən belə deyirdi: «Rədd ol,
rədd ol, ey əliqanlı, yaramaz adam!
8 Yerinə padşah olduğun Şaul nəslinin
tökülən qan qisasını Rəbb səndən alır.
Rəbb padşahlığı oğlun Avşaloma verdi.
Budur, sən öz şərinin qurbanısan, çünki
sən əliqanlı insansan».
9 Seruya oğlu Avişay padşaha dedi:
«Axı nə üçün bu köpək leşi ağam
padşaha belə lənət etsin? İzin ver
gedim, onun başını üzüm». 10 Padşah
dedi: «Ey Seruya oğulları, axı məndən
sizə nə? Madam ki lənət edir, demək
Rəbb ona "Davuda lənət et" deyib.
Elə isə kim ona "belə etmə" deyə
bilər?» 11 Davud Avişaya və bütün
əyanlarına dedi: «Bax əgər öz belimdən
gələn oğlum canımı almaq istəyirsə,
bu Binyaminli bundan daha betərini
etməzmi? Buraxın onu, qoy o, lənətini
etsin, çünki ona Rəbb belə əmr etmişdir.
12 Bəlkə Rəbb çəkdiyim əzabı görüb
bu gün onun etdiyi lənətlərin əvəzinə
mənə yaxşılıq edər». 13 Davud və
adamları yolla gedirdi, Şimey isə onun
qarşısında dağın yamacı ilə gedir və
gedə-gedə lənət edir, ona daş-torpaq
atırdı. 14 Padşahla yanındakı bütün xalq
yorulmuşdu və bu yerdə dinclərini aldı.

Avşalomun Yerusəlimə daxil olması

15 Avşalom ilə bütün xalq – İsrail
adamları Yerusəlimə gəldilər, Axitofel
də onunla idi. 16 Davudun dostu
Arklı Xuşay Avşalomun yanına gəlib
«Yaşasın padşah! Yaşasın padşah!»
dedi. 17 Avşalom Xuşaya dedi: «Dostuna
etibarın budurmu? Niyə dostunla
bərabər getmədin?» 18 Xuşay Avşaloma
dedi: «Xeyr, mən ancaq Rəbbin, bu
xalqın və bütün İsrail adamlarının
seçdiyi adamın tərəfində olacağam
və onunla da qalacağam. 19 Bir de
görüm, axı mən kimə xidmət edəcəyəm,
dostumun oğluna deyilmi? Atana necə
qulluq etdimsə, sənə də elə qulluq
edəcəyəm».
20 Avşalom Axitofelə dedi:
«Məsləhətinizi verin görək, nə
etməliyik?» 21 Axitofel Avşaloma
dedi: «Evə nəzarət etmək üçün atanın
qoyub getdiyi cariyələrin yanına gir.
Onda atanın nifrətini qazandığını
bütün İsraillilər eşidəcək və sənin
tərəfində olanların hamısının əl-qolu
qüvvətlənəcək». 22 [g]Dam üstündə

---

[f]**16:1** 2Şam. 9:9-10 [g]**16:22** 2Şam. 12:11-12

Avşalom üçün çadır qurdular və bütün
İsraillilərin gözü qarşısında Avşalom
atasının cariyələrinin yanına girdi. 23 O
zamanlar Axitofelin verdiyi məsləhət
Allah kəlamına müraciət edən şəxsin
aldığı məsləhətlərlə bərabər sayılırdı.
Axitofelin hər məsləhəti Davud üçün də,
Avşalom üçün də bu cür idi.

Xuşayın məsləhəti

17 Axitofel Avşaloma dedi: «İndi
seçəcəyim on iki min nəfərlə
çıxıb bu gecə Davudu təqib edəcəyəm.
2 Gərək onu yorğun və qol-qanadı
qırılmış ikən dəhşətə gətirim. Onda
yanında olan bütün xalq qaçar və mən
də yalnız padşahı öldürərəm. 3 Bütün
xalqı isə sənə qaytararam. Hamının sənə
tərəf dönməsi üçün axtardığın adamın
öldürülməsi vacibdir. O zaman bütün
xalq salamat qalar». 4 Bu söz Avşalomun
və bütün İsrail ağsaqqallarının
nəzərində doğru göründü.
5 Avşalom dedi: «İndi isə Arklı Xuşayı
da çağır, bir onun da dediyinə qulaq
asaq». 6 Xuşay Avşalomun yanına
gəldi. Avşalom ona müraciət edib
dedi: «Axitofel belə bir məsləhət verdi.
Onun təklifinə əməl edəkmi? Əgər
belə etməyəcəyiksə, sən məsləhətini
ver». 7 Xuşay dedi: «Axitofelin bu
dəfə verdiyi məsləhət yaxşı deyil».
8 Sonra Xuşay sözünə davam etdi:
«Bilirsən ki, atan və adamları igiddir.
Onlar çöldə balalarından məhrum
olan ayı kimi qəzəbli adamlardır.
Atan isə təcrübəli cəngavərdir, o
xalqla bir yerdə gecələməz. 9 Bax
indi mağaraların birində yaxud başqa
bir yerdə gizlənmişdir. İlk həmlədə
sizlərdən qırılanlar olsa, hər eşidən
“Avşalomun ardınca gedən xalqın
arasında qırğın var” deyəcək. 10 Aslan
ürəyi kimi ürəyi olan igid oğul da
bundan tamamilə yumşalıb əriyəcək.
Çünki bütün İsrail bilir ki, atan qoçaqdır
və onunla əlbir olan adamlar da
igiddir. 11 Lakin mən belə məsləhət
verirəm: Dandan Beer-Şevaya qədər
bütün İsraillilər dəniz kənarında
qum kimi yanına yığılsın və döyüşə
şəxsən sən gedəsən. 12 Davudun qaldığı
yerlərin birində onun üstünə gedərək
torpağa düşən şeh kimi onların üstünə
elə səpələnərik ki, nə özü, nə də ki
yanındakı adamlardan biri belə, sağ
qalmaz. 13 Əgər o bir şəhərə çəkilibsə,
o zaman bütün İsraillilər oraya iplər
gətirər və yerdə kiçik bir çınqıl belə,
qalmayana qədər şəhəri vadiyə çəkib
atarıq». 14 Avşalomla bütün İsrail
adamları dedilər: «Arklı Xuşayın
məsləhəti Axitofelin məsləhətindən
yaxşıdır». Çünki Rəbb Avşalomun
başına fəlakət gətirmək üçün Axitofelin
yaxşı məsləhətinin pozulmasına qərar
vermişdir.

Xuşayın Davuda xəbərdarlığı və Davudun xilası

15 Xuşay kahin Sadoqa və kahin
Evyatara dedi: «Axitofel Avşaloma və
İsrail ağsaqqallarına bu cür məsləhət
verdi, mən də başqa cür məsləhət
verdim. 16 İndi cəld Davudun yanına
adam göndərin və ona belə deyin:
“Bu gecə çöldə, çayın dayaz yerində
qalma, mütləq qarşı tərəfə keç, yoxsa
padşah və onunla birlikdə bütün xalq
məhv olacaq”». 17 Yonatanla Aximaas
En-Rogeldə qalırdılar. Bir qulluqçu qız
gedib onlara məlumat gətirir, onlar da
gedib bunu padşah Davuda çatdırırdılar.
Ona görə ki şəhər içərisində görünə
bilməzdilər. 18 Lakin bir gənc onları
görüb Avşaloma xəbər verdi. Ona
görə də Yonatanla Aximaas cəld gedib
Baxurimdə bir adamın evinə girdilər.
Bu adamın həyətində bir quyu var idi.
Onlar quyunun içinə girdilər. 19 Ev
sahibəsi bir örtük götürüb quyunun
üstünə döşəyib ora yarma sərdi və

heç bir şey bilinmədi. 20 Avşalomun
adamları bu evə – qadının yanına
gəlib dedilər: «Aximaas və Yonatan
haradadır?» Qadın onlara dedi: «Çayı
keçdilər». Onlar axtarmağa başladılar,
lakin heç kəsi tapa bilməyib Yerusəlimə
qayıtdılar.
21 Avşalomun adamları gedəndən
sonra Yonatanla Aximaas quyudan çıxdı
və gedib padşah Davuda xəbər verərək
dedi: «Qalxın, tez axar sulardan keçin,
çünki Axitofel sizə qarşı bu cür məsləhət
verib». 22 Davud və yanında olan bütün
xalq qalxıb İordan çayını keçdilər və
səhər açılana qədər çayı keçməmiş
adam qalmadı. 23 Axitofel görəndə ki
işlər onun məsləhətinə görə edilməyib,
eşşəyinin üstünə palan vuraraq yola
çıxdı və öz şəhərinə, öz evinə getdi. Ev
işlərini nizama salandan sonra özünü
asıb öldürdü və onu atasının qəbri
yanında basdırdılar.
24 Davud Maxanayimə gəldi.
Avşalomla yanında olan bütün
İsraillilərsə İordan çayını keçdilər.
25 Avşalom Amasanı Yoavın yerinə ordu
başçısı qoymuşdu. Amasa Yoavın anası
Seruyanın bacısı, Naxaşın qızı Aviqailin
yanına girmiş olan İsrailli Yetra adlanan
bir adamın oğlu idi. 26 İsraillilərlə
Avşalom Gilead torpağında ordugah
qurdu.
27 Belə oldu ki, Davud Maxanayimə
gələndə Ammon oğullarının Rabba
şəhərindən Naxaş oğlu Şovi,
Lo-Devardan Ammiel oğlu Makir
və Rogelimdən Gileadlı Barzillay
28 Davudla yanındakı camaata döşəklər,
ləyənlər, gil qablar, yemək üçün buğda,
arpa, un, qovurğa, paxla, mərci və
qovrulmuş dən, 29 bal və kəsmik,
qoyun və inək pendiri gətirdilər. Çünki
düşünürdülər ki, xalq çöldə ac, yorğun
və susuzdur.

Avşalomun ölümü

18 Davud yanındakı xalqı saydı.
Onların üzərinə minbaşılar və
yüzbaşılar təyin etdi. 2 Davud xalqı
üç dəstəyə böldü. Birincisinə Yoavı,
ikincisinə Yoavın qardaşını – Seruya
oğlu Avişayı, üçüncüsünə isə Qatlı
Yettayı başçı etdi. Padşah xalqa dedi:
«Mütləq mən də sizinlə bərabər döyüşə
çıxacağam». 3 Lakin xalq ona dedi: «Yox,
sən döyüşə çıxmayacaqsan, çünki əgər
biz qaçsaq, bizə əhəmiyyət verməzlər,
yarımız ölsək belə, yenə də əhəmiyyəti
olmaz. Ancaq sən bizim on minimizdən
də qiymətlisən və indi şəhərdə qalıb
bizə kömək etməyə hazır olmağın daha
yaxşıdır». 4 Padşah onlara dedi: «Sizin
gözünüzdə yaxşı sayılan nədirsə, onu
edəcəyəm». Padşah darvazanın yanında
dayandı və bütün xalq yüz-yüz, min-min
şəhərdən çıxdı. 5 Padşah Yoava, Avişaya
və Yettaya müraciətlə əmr edib
dedi: «Mənim xatirimə o cavanla
– Avşalomla mülayim davranın!»
Padşahın Avşalomla əlaqədar bütün bu
rəislərə müraciətlə əmrini bütün xalq
eşitdi.
6 Ordu çölə, İsrail xalqına qarşı döyüşə
çıxdı və döyüş Efrayim meşəsində oldu.
7 İsrail xalqı orada Davudun adamları
qarşısında məğlub oldu. O gün o yerdə
böyük qırğın oldu, iyirmi min nəfər
qırıldı. 8 Orada olan döyüş bütün
ətrafa yayıldı və həmin gün qılıncla
qırılanlardan çox meşədə qırılanlar
oldu.
9 Avşalom Davudun adamlarına rast
gəldi. O, qatıra minmişdi və qatır böyük
bir palıd ağacının sıx budaqları altından
keçəndə Avşalomun saçı palıd ağacına
ilişdi. O, göylə yer arasında asılı qaldı,
altındakı qatır isə yoluna davam etdi.
10 Bir nəfər bunu görüb Yoava
xəbər verdi: «Bax Avşalomun bir palıd
ağacından asıldığını gördüm». 11 Yoav

ona xəbər verən adama dedi: «Bəs sən
gördünsə, nə üçün onu oradaca vurub
yerə sərmədin? Onda mən sənə on
şekel gümüş və bir kəmər verərdim».
12 Həmin adam Yoava dedi: «Ovcuma
min gümüş alsam belə, padşahın
oğluna əl qaldırmaram. Çünki sənə,
Avişaya və Yettaya "mənim xatirimə
o cavana – Avşaloma qıymayın" deyə
əmr etdiyini qulaqlarımızla eşitdik.
13 Əgər mən xəyanət edib onun canını
almış olsaydım, heç bir şey padşah üçün
gizli qalmazdı və sən də mənə kömək
etməzdin». 14 Yoav «sənlə belə vaxt
itirə bilmərəm» dedi. Avşalom palıd
ağacının içində hələ sağ ikən Yoav əlinə
üç mizraq alıb onun sinəsinə sapladı.
15 Yoavın silahlarını daşıyan on nəfər
cavan adam Avşalomu əhatə edərək onu
vurub öldürdü.

16 Yoav şeypur çaldı və ordu İsrailliləri
təqib etməkdən əl çəkdi, çünki Yoav
buna mane oldu. 17 Avşalomu isə
götürüb meşədəki dərin çuxura
atdılar və üstünə böyük daş qalağı
yığdılar. Sonra İsraillilər öz evlərinə
dağılışdılar. 18 Avşalom hələ sağ
ikən bir sütunu götürüb özü üçün
tikdirmişdi, çünki «adımı yaşadan bir
oğlum olmadı» deyərək həmin sütuna
öz adını qoymuşdu. Bu sütun Padşah
Vadisindədir və bu günə qədər ona
Avşalomun abidəsi deyilir.

Davud Avşalomun ölümündən xəbər tutur

19 Sadoq oğlu Aximaas dedi: «Qoy
qaçım, padşahın haqqını düşmənlərin
əlindən Rəbbin necə aldığını padşaha
müjdələyim». 20 Yoav ona dedi: «Sən bu
gün müjdəçi olmayacaqsan, müjdəni
başqa gün verəcəksən. Bu gün vermə,
ona görə ki padşahın oğlu ölüb».
21 Yoav Kuşlu kişiyə dedi: «Get, bütün
gördüklərini padşaha xəbər ver». Kuşlu
kişi Yoavın qarşısında baş əydi və qaçdı.
22 Sadoq oğlu Aximaas yenə Yoava dedi:
«Nə olursa-olsun, qoy mən də Kuşlu
kişinin ardınca qaçım». Yoav dedi: «Axı
nə üçün qaçırsan, oğlum? Getdiyin üçün
mükafat almayacaqsan». 23 O dedi: «Nə
olursa-olsun, qaçacağam». Yoav ona
«Yaxşı, qaç» dedi. Aximaas hövzə yolu
ilə qaçıb Kuşlu kişini ötdü.

24 Davud içəri və çöl darvazaların
arasında oturmuşdu. Növbətçi divara,
darvazanın üstünə çıxdı, başını qaldırıb
gördü ki, bir adam təkbaşına qaçır.
25 Növbətçi qışqıraraq padşaha xəbər
verdi. Padşah dedi: «Əgər o tək gəlirsə,
müjdə gətirir». Həmin adam getdikcə
yaxınlaşırdı. 26 Növbətçi qaçan başqa bir
adam gördü və qapıçıya qışqırıb «bax
təkbaşına qaçan daha bir adam da gəlir»
dedi. Padşah dedi: «O da müjdəçidir».
27 Növbətçi dedi: «Baxıram, birincisinin
qaçışı Sadoq oğlu Aximaasın qaçışına
bənzəyir». Padşah dedi: «O yaxşı
adamdır, müjdə ilə gəlir».

28 Aximaas bərkdən padşaha belə
dedi: «Salamatlıqdır». Sonra padşaha
təzim edib üzüstə yerə döşəndi və
dedi: «Allahın Rəbbə alqış olsun ki,
ağam padşaha əl qaldıranları Rəbb ona
təslim etdi». 29 Padşah dedi: «O cavan
– Avşalom salamatdırmı?» Aximaas
dedi: «Yoav padşahın bir qulunu və
mən qulunu göndərən zaman gördüm
ki, orada böyük bir qarışıqlıq var, lakin
nə olduğunu bilmədim». 30 Padşah dedi:
«Çəkil, bir yanda dayan». O da çəkilib
bir yanda dayandı.

31 Budur, Kuşlu gəldi və dedi: «Ağam
padşaha müjdə var! Rəbb bu gün sənə
qarşı qalxanların hamısının əlindən səni
qurtardı». 32 Padşah Kuşluya dedi: «O
cavan – Avşalom salamatdırmı?» Kuşlu
dedi: «Ağam padşahın düşmənləri, pis
niyyətlə sənə qarşı qalxanların hamısı
qoy o cavan kimi olsun». 33 Padşah
həyəcandan titrəyərək darvazanın
üstündəki otağa qalxdı və ağladı.

Gedə-gedə belə deyirdi: «Oğlum
Avşalom, oğlum, oğlum Avşalom! Kaş
sənin yerinə mən öləydim, oğlum!
Oğlum, Avşalom!»

Yoavın Davuda məzəmməti

19 Yoava «budur, padşah Avşalom
üçün ağlayır və yas tutur» deyə
bildirildi. 2 O gün qələbə xalq üçün
yasa çevrildi, çünki bütün xalq eşitdi
ki, padşah oğlu üçün kədərlidir. 3 Fərari
döyüşdən qaçandan sonra utanan oğru
kimi necə geri qayıdırsa, o gün ordu da
şəhərə o cür oğru kimi qayıtdı. 4 Padşah
üzünü örtüb fəryadla çığırırdı: «Oğlum
Avşalom, ey Avşalom, oğlum, oğlum!»
5 Yoav saraya – padşahın yanına gəlib
dedi: «Bu gün sənin canını, oğullarının,
qızlarının və cariyələrinin canlarını xilas
edən bütün qullarını xəcalətli etdin.
6 Çünki sənə nifrət edənləri sevib, səni
sevənlərə isə nifrət edirsən. Bu gün sən
aşkar etdin ki, başçıların və zabitlərin
sənin gözündə əhəmiyyətsizdir. Mən
bu gün başa düşdüm ki, əgər Avşalom
sağ qalıb, biz hamımız bu gün ölsəydik,
bundan razı qalardın. 7 İndi isə qalx
ayağa, xalqın qarşısına çıx, adamlarının
könlünü al. Çünki mən Rəbbin haqqı
üçün and içirəm, xalqın qarşısına
çıxmasan, bu gecə sənlə bir nəfər
belə, qalmayacaq. Bu da sənin üçün
uşaqlıqdan indiyədək başına gələn
müsibətlərin hamısından betər olacaq».
8 Padşah qalxıb darvazada oturdu.
Bütün xalqa «budur, padşah darvaza
ağzında oturub» deyə bildirdilər və
bütün camaat padşahın qarşısına gəldi.
Bu vaxt İsraillilərin hamısı öz evlərinə
dağılmışdı.

Davudun padşahlığının bərpası

9 İsrailin bütün qəbilələrində hər
kəs mübahisə edib deyirdi: «Padşah
bizi düşmənlərimizin əlindən qurtardı
və Filiştlilərin əlindən xilas etdi.
İndi isə Avşaloma görə o bu ölkədən
qaçdı. 10 Bizə hakim olmaq üçün məsh
etdiyimiz Avşalom isə döyüşdə öldü.
İndi padşahı geri qaytarmaq barədə
niyə susursunuz?»
11 Padşah Davud kahin Sadoq və
kahin Evyatara bu xəbəri göndərib dedi:
«Yəhuda ağsaqqallarına belə deyin:
“Padşahı evinə qaytarmaqda siz niyə
axıra qalırsınız? Bütün İsraildə gəzən
söz-söhbət padşahın qulağına çatmışdır.
12 Siz mənim qardaşlarım, ətimdən,
sümüyümdənsiniz. Niyə padşahı
geri qaytarmaqda axıra qalmısınız?”
13 Amasaya da deyin ki, məgər sən
də mənim ətimdən, sümüyümdən
deyilsənmi? Daim mənim qarşımda
Yoavın yerinə ordu başçısı olmasan,
qoy Allah mənə beləsini və bundan
betərini etsin». 14 Beləliklə o, bir nəfər
kimi bütün Yəhudalıların könlünü
aldı və onlar padşahın yanına adam
göndərib dedilər: «Ey padşah, sən bütün
qullarınla bərabər geri qayıt». 15 Padşah
geri qayıtdı və İordan çayına çatdı.
Yəhudalılar padşahı qarşılamaq və onu
İordan çayından keçirmək üçün Qilqala
gəldilər.
16 [h]Baxurimdən olan Binyaminli
Geranın oğlu Şimey də Yəhuda adamları
ilə birgə padşah Davudu qarşılamaq
üçün cəld tərpənib aşağı endi. 17 Onun
yanında Binyamindən min nəfər və
Şaul evinin xidmətçisi Siva ilə on beş
oğlu və iyirmi qulu var idi. Onlar
İordan çayına tərəf – padşahın qarşısına
çıxmağa tələsdilər. 18 Padşahın külfətini
çaydan keçirmək və onu razı salmaq
üçün qayıqla o tay-bu taya keçirtdilər.
Gera oğlu Şimey padşah İordan çayını
keçən kimi onun qabağında yerə
sərildi. 19 O, padşaha dedi: «Qoy ağam

---

[h]**19:16** 2Şam. 16:5-13

məni günahkar saymasın və ağam
padşah Yerusəlimdən çıxdığı gün bu
qulunun etdiyi azğınlığı ürəyinə salıb
xatırlamasın. 20 Çünki günah etdiyimi
bu qulun özü də bilir və budur, ağam
padşahı qarşılamaq üçün bütün Yusif
nəslindən hamıdan əvvəl bu gün mən
gəlmişəm».
21 Lakin Seruya oğlu Avişay cavab
verib dedi: «Sən Rəbbin məsh etdiyinə
lənət yağdırdın. Ona görə sən Şimey
öldürülməlisən». 22 Davud dedi: «Ey
Seruya oğulları, məndən sizə nə? Niyə
mənə düşmənçilik edirsiniz? Heç bu
gün də İsraildə kimi isə öldürmək
olarmı? Məgər mən bilmirəm ki, bu
gün İsrailin padşahı mənəm?» 23 Padşah
sonra Şimeyə dedi: «Sənə ölüm yoxdur».
Buna görə padşah ona and içdi.
24 [i]Şaulun nəvəsi Mefiboşet padşahı
qarşılamağa gəldi. Padşah gedən
gündən evinə sağ-salamat qayıdan
günə qədər o, ayaqlarına baxmamış,
bığlarını kəsməmiş və paltarlarını
yumamışdı. 25 Padşahı qarşılamaq
üçün Yerusəlimə gələn zaman padşah
ona dedi: «Mefiboşet, bəs niyə sən də
mənimlə getmədin?» 26 O isə cavab
verib dedi: «Ey ağam padşah, xidmətçim
məni aldatdı, çünki bu qulun demişdi ki,
padşahla bərabər getmək üçün eşşəyə
palan vurub üstünə minim. Axı qulun
şikəstdir. 27 Lakin xidmətçim ağam
padşahın qarşısında quluna böhtan atdı.
Ağam padşah Allahın mələyi kimidir.
İndi sənin gözündə nə xoşdursa, mənə
et. 28 Atamın bütün evi ağam padşahın
önündə ölümdən başqa bir şeyə layiq
deyilkən sən bu qulunu öz süfrəndə
yemək yeyənlər arasında qoydun. Artıq
padşahdan bir şey istəməyə nə haqqım
var ki?» 29 Padşah ona dedi: «Öz işlərin
haqqında nə üçün sözü uzadırsan? Sən
və Siva torpağı öz aranızda bölün,
deyirəm». 30 Mefiboşet padşaha dedi:
«İndi ki padşah öz sarayına salamat
gəldi, qoy hər şeyi o götürsün».
31 [j]Gileadlı Barzillay Rogelimdən
gəlmişdi. Padşahı İordan çayından
keçirmək üçün onunla bərabər o da
İordan çayına qədər getdi. 32 Barzillay
səksən yaşına çatmış, yaşlanmışdı.
Padşah Maxanayimdə qalan zaman
Barzillay onun dolanacağını təmin
etmişdi, çünki o çox böyük adam idi.
33 Padşah Barzillaya dedi: «Mənimlə
bərabər çayı keç, səni Yerusəlimdə
öz yanımda dolandırım». 34 Barzillay
padşaha dedi: «Ömrümün illəri və
günlərinin tamamına nə qalıb ki,
padşahla bərabər Yerusəlimə qalxım?
35 Mənim bu gün səksən yaşım var,
yaxşını pisdən ayıra bilirəmmi? Bu
qulun heç yediyinin, içdiyinin dadını
bilirmi? Kişi və qadın xanəndələrinin
səsini eşidə bilərəmmi? Belə isə, nə
üçün bu qulun ağam padşaha artıq
yük olsun? 36 Bu qulun ancaq padşahla
İordan çayını keçib bir az yol getmək
istəyir. Axı niyə görə padşah mənə
belə mükafat versin? 37 Qoy mən qulun
qayıdıb öz şəhərimdə – ata-anamın
qəbrinin yanında ölüm. Lakin budur,
qulun Kimham, qoy o, ağam padşahla
çayı keçsin və sən də gözündə xoş
görünəni onun üçün et». 38 Padşah
dedi: «Kimham mənimlə bərabər o taya
keçəcək, sənin gözündə xoş olanı onun
üçün edəcəyəm. Məndən umduğun hər
şeyi sənin üçün edəcəyəm». 39 Bütün
xalq İordan çayını keçdi. Padşah da çayı
keçdi. Sonra padşah Barzillayı öpdü
və ona xeyir-dua verdi. O da öz yerinə
qayıtdı.
40 Padşah Qilqala tərəf yolunu davam
etdirdi və Kimham da onunla bir
getdi. Bütün Yəhuda xalqı və İsrail
xalqının yarısı padşahı müşayiət

[i]**19:24** 2Şam. 9:1-13; 16:1-4 [j]**19:31** 2Şam. 17:27-29

edirdi. 41 Bütün İsraillilər padşahın
yanına gəlib və padşaha dedi: «Nə
üçün qardaşımız Yəhudalılar səni
oğurladılar? Nə üçün padşah Davudla
külfətini və yanındakı bütün adamları
İordan çayından keçirtdilər?» 42 Bütün
Yəhudalılar İsraillilərə cavab verdilər:
«Çünki padşah qohumumuzdur. Belə
isə nə üçün bundan qəzəblənirsiniz?
Biz padşah kasasından bir şey yedikmi?
Yaxud padşah bizə bir hədiyyə
verdimi?» 43 İsraillilər Yəhudalılara
cavab verib dedilər: «Padşah bizə
sizdən on qat artıq yaxındır. Davudda
bizim sizdən də artıq haqqımız var.
Axı niyə bizə xor baxırsınız? Padşahı
geri qaytarmaqdan ilk bəhs edən
biz deyildikmi?» Lakin Yəhudalılar
İsraillilərdən daha ötkəm danışırdılar.

Binyaminli Şevanın qiyamı

20 [k]Elə bu zamanlar Binyaminli
Bikri oğlu Şeva adında yaramaz
bir adam təsadüfən Qilqalda idi. O,
şeypur çalıb dedi:

«Bizim Davudla şərikliyimiz yoxdur.
Yesseyin oğlu ilə heç bir irsimiz
yoxdur!
Ey İsraillilər, hərə öz çadırına!»

2 Bütün İsraillilər də Davudu atıb Bikri
oğlu Şevanın ardınca getdi. Lakin
Yəhudalılar padşahları Davuda sadiq
qalaraq İordan çayından Yerusəlimə
qədər onu müşayiət etdi.

3 [l]Padşah Davud Yerusəlimdəki evinə
gedib on qadını – sarayı qorumaq
üçün saxladığı cariyələri götürərək
öz nəzarəti altında saxladı və onların
yaşayışını təmin etdi, lakin yanlarına
girmədi. Ölənə qədər bu qadınlar dul
kimi qalaraq qapalı saxlandılar.

4 Padşah Amasaya dedi: «Üç gün
ərzində Yəhudalıları mənim yanıma
çağır və özün də burada ol». 5 Amasa
Yəhudalıları bir yerə çağırmaq üçün
getdi, lakin onun üçün təyin olunan
vaxtda geri qayıtmadı. 6 Davud Avişaya
dedi: «İndi Bikri oğlu Şeva bizə
Avşalomdan daha çox ziyan vuracaq.
Sən ağanın qullarını götür, onu təqib
etməyə get. Yoxsa o özünə qala divarlı
şəhərlər tapar və gözümüzdən qaçar».
7 Beləcə Yoavın adamları, Keretlilərlə
Peletlilər və bütün cəngavərlər Bikri
oğlu Şevanı təqib etmək üçün Avişayın
başçılığı altında Yerusəlimdən çıxdılar.

8 Onlar Giveondakı böyük qayanın
yanında olanda Amasa onları
qarşılamağa gəldi. Yoav döyüş libasını
geymişdi və paltarının üstündə kəməri
var idi. Kəmərinə bağlı qınında olan bir
qılınc belində idi. O irəliyərkən qılınc
qınından çıxdı. 9 Yoav Amasaya dedi:
«Qardaşım, yaxşısanmı?» Sonra Yoav
onu öpmək üçün sağ əli ilə Amasanın
saqqalından yapışdı. 10 Amasa isə
Yoavın sol əlindəki qılınca əhəmiyyət
vermədi. Yoav qılıncı ilə Amasanın
qarnından vurub bağırsaqlarını yerə
elə tökdü ki, ikinci zərbəyə ehtiyac
qalmadan Amasa öldü. Yoavla qardaşı
Avişay Bikri oğlu Şevanı təqib etdilər.
11 Yoavın adamlarından biri onun
yanında durub dedi: «Kim Yoavdan
razıdırsa, kim Davudun tərəfindədirsə,
Yoavın ardınca gəlsin». 12 Amasa əsas
yolun ortasında qan içində üzürdü.
Yoavın tərəfdarı həmin adam gördü
ki, Amasanın cəsədinin yanına gələn
hər kəs dayanır. Xalqın dayandığını
gördüyü üçün cəsədi böyük yoldan
götürüb çölə apararaq üstünə bir
paltar atdı. 13 Amasa böyük yoldan
götürüləndən sonra hamı Bikri oğlu
Şevanı təqib etmək üçün Yoavın ardınca
getdi.

14 Şeva Avel-Bet-Maaka və bütün
Berim diyarlarına qədər bütün İsrail

---

[k]**20:1** 1Pad. 12:16; 2Saln. 10:16 [l]**20:3** 2Şam. 16:22

qəbilələrinin içərisindən keçdi və
bütün camaat yığılıb onun ardınca
getdi. 15 Yoavın yanındakı bütün xalq
gəlib Şevanın qaldığı Avel-Bet-Maaka
şəhərini mühasirəyə aldı və şəhərin
qarşısında bir torpaq qalağı tökdü.
Onlar divarı uçurtmaq üçün lağım
atarkən 16 bir ağıllı qadın şəhərdən
qışqırıb dedi: «Qulaq asın! Qulaq
asın! Rica edirəm, Yoava söyləyin ki,
buraya yaxınlaşsın, ona sözüm var».
17 Yoav ona yaxınlaşanda qadın «Yoav
sənsən?» dedi. O «bəli, mənəm» dedi.
Qadın ona dedi: «Sən bu kənizinin
sözünə qulaq as». Yoav «eşidirəm
səni» dedi. 18 Qadın sözünə davam
etdi «Qədim zamanlarda "Aveldə
məsləhət alın" deyərdilər və işləri belə
həll edərdilər. 19 Mən İsrailin rifahını
istəyən sadiq adamlardan biriyəm. Sən
İsraildə şəhərlərin anası olan bir şəhəri
dağıtmaq istəyirsən. Axı nə üçün Rəbbin
irsini məhv etmək istəyirsən?» 20 Yoav
cavab verdi: «Dağıtmaq yaxud məhv
etmək niyyəti məndən uzaq, qoy uzaq
olsun! 21 İş burasındadır ki, Efrayimin
dağlıq bölgəsindən Bikri oğlu Şeva adlı
bir adam padşah Davuda qarşı üsyan
qaldırıb. Yalnız onu bizə verin, mən
də bu şəhərdən çəkilim». Qadın Yoava
dedi: «Onun başı şəhər divarından
sənə atılacaq». 22 Qadın ağıllı tərpənib
xalqının yanına getdi. Onlar da Bikri
oğlu Şevanın başını kəsib Yoava atdı.
Bundan sonra Yoav şeypur çaldı və ordu
şəhərin mühasirəsindən çəkildi. Hamı
öz evinə qayıtdı. Yoav isə Yerusəlimə –
padşahın yanına qayıtdı.

23 Yoav bütün İsrail ordusunun
başçısı idi. Yehoyadanın oğlu Benaya
Keretlilərin və Peletlilərin qabağında
idi. 24 Adoram mükəlləfiyyətçilərin
başçısı və Axilud oğlu Yehoşafat
salnaməçi idi. 25 Şeva mirzə, Sadoqla
Evyatar kahin, 26 Yairli İra isə Davudun
kahini idi.

Giveonluların qisası

21 Davudun dövründə üç il dalbadal
qıtlıq oldu. Davud buna görə
Rəbbə müraciət edəndə Rəbb dedi
ki, bu qıtlıq Şaula və onun qan tökən
nəslinə görədir. Çünki o, Giveonluları
öldürmüşdü. 2 [m]Padşah Giveonluları
çağırdı və onlarla danışdı. Giveonlular
İsrail övladları deyildi. Emorlulardan
sağ qalan bir xalq idi ki, İsraillilər onları
sağ buraxacaqlarına and içmişdilər.
Lakin Şaul İsrail və Yəhuda övladları
naminə onları ciddi-cəhdlə yox etməyə
çalışmışdı. 3 Davud Giveonlulara dedi:
«Sizin üçün mən nə edə bilərəm? Edilən
bu günahı nə ilə təmizləyə bilərəm ki,
siz Rəbbin irsinə xeyir-dua verəsiniz?»
4 Giveonlular ona dedi: «Şaulla onun
nəslindən qızıl-gümüş istəmək fikrində
deyilik. İsraildə adam öldürmək
niyyətində də deyilik». Davud dedi:
«Siz nə istəsəniz, onu edərəm». 5 Onlar
padşaha dedi: «Bizi qırıb məhv edən və
İsrail ərazisində qalmamaq üçün bizə
qəsd quran adamın övladlarından yeddi
nəfər bizə verilsin. 6 Rəbbin seçdiyi
Şaulun Givea şəhərində onları Rəbbin
önündə asaq». Padşah dedi: «Yaxşı, mən
onları sizə verərəm».

7 [n]Lakin padşah Davud Rəbbin
önündə and içdiyi Şaul oğlu Yonatan
oğlu Mefiboşetə qıymadı. 8 Ayya qızı
Rispanın Şauldan doğulan iki oğlunu
– Armoni ilə Mefiboşeti, bir də Şaulun
qızı Meravın Mexolalı Barzillay oğlu
Adrieldən doğduğu beş oğlunu padşah
götürüb 9 Giveonlulara təslim etdi.
Giveonlular onları Rəbbin önündə,
dağın üstündə asdılar və yeddisi də
birlikdə öldü. Onlar biçin vaxtının ilk

---

[m]**21:2** Yeşua 9:3-15 [n]**21:7** 1Şam. 20:15-17; 2Şam. 9:1-7

günlərində, arpa biçini başlanğıcında
öldürüldü.
10 Ayyanın qızı Rispa çul götürüb özü
üçün qayaya sərdi. Biçin başlanandan
cəsədlərin üstünə yağış yağanadək
Rispa orada qalaraq onların meyitlərini
gündüz göydəki quşlardan, gecə
vəhşi heyvanlardan qorudu. 11 Şaulun
cariyəsi Ayya qızı Rispanın etdiyi bu
işi Davuda xəbər verdilər. 12 [o]Davud
gedib Şaulun sümüklərini və oğlu
Yonatanın sümüklərini Yaveş-Gilead
əhalisindən aldı. Filiştlilər Gilboada
Şaulu öldürdükləri gün onların
cəsədlərini Bet-Şean meydanında
asmışdılar, Yaveş-Gilead əhalisi də gəlib
cəsədləri oradan oğurlamışdı. 13 Davud
Şaulun və oğlu Yonatanın sümüklərini
həmin yerdən çıxartdırdı və asılanların
da sümüklərini topladılar. 14 Onlar
Şaulun və oğlu Yonatanın sümüklərini
Binyamin torpağında – Selada, Şaulun
atası Qişin məqbərəsində basdırdılar,
padşahın onlara əmr etdiyi hər şeyə
əməl etdilər. Bundan sonra Allah ölkə
üçün duaları qəbul etdi.

İsraillilərin Filiştli nəhənglərə qarşı döyüşü

(1Saln. 20:4-8)

15 Yenə Filiştlilərin İsraillilərlə döyüşü
oldu. Davud adamları ilə birgə döyüşə
getdi və onlar Filiştlilərlə döyüşərkən
Davud yoruldu. 16 Rafa övladlarından
[*]İşbi-Benov Davudu öldürmək istədi.
Onun nizəsinin başı üç yüz şekel
ağırlığında tuncdan idi və belinə
təzə qılınc bağlamışdı. 17 Seruya oğlu
Avişay Davudun köməyinə çatıb həmin
Filiştlini vurub öldürdü. O zaman
Davudun adamları ona and verib
dedilər: «Bir daha sən bizimlə bərabər
döyüşə çıxma ki, İsrailin çırağını
söndürməyəsən».
18 Bundan sonra yenə Filiştlilərlə
Qovda döyüş oldu. O zaman Xuşalı
Sibbekay Rafa övladlarından Safı
öldürdü. 19 Yenə Filiştlilərlə
Qovda döyüş oldu və Bet-Lexemli
Yaare-Orgimin oğlu Elxanan Qatlı
Qolyatı öldürdü. Qolyatın nizəsinin sapı
toxucu dəzgahının əriş ağacı boyda idi.
20 Qatda bir də döyüş oldu. Orada Rafa
övladlarından digər ucaboy bir adam
var idi. Bu adamın əlləri və ayaqları
altı barmaqlı idi və cəmi iyirmi dörd
barmağı var idi. 21 O, İsrailə meydan
oxudu. Onu Davudun qardaşı Şimanın
oğlu Yonatan öldürdü. 22 Bu dörd
kişi Rafa övladlarından olub Qatda
doğulmuşdu. Onlar Davudun və onun
adamlarının əli ilə qırıldı.

Davudun qələbə məzmuru

(Zəb. 18)

22 Rəbb Davudu bütün
düşmənlərinin və Şaulun
əlindən qurtaranda Davud bu ilahinin
[†]sözlərini Rəbbə söylədi;
2 O belə oxudu:
Rəbb qayam, qalamdır, xilaskarımdır,
3 Allahım qayamdır, Ona pənah
gətirəcəyəm,
Odur qalxanım, qüvvətli qurtarıcım,
qülləm,
Sığınacaq yerim, xilaskarım!
Sən məni zalımların əlindən
qurtarırsan!
4 Həmdə layiq olan Rəbbi
çağıracağam,
Düşmənlərimin əlindən
qurtulacağam.
5 Çünki ətrafımı ölüm dalğaları
bürümüşdü,

---

[*]**21:16** *Rafa övladları* – nəhəng adamlar.
[†]**22:1** *İlahi* – ruhani nəğmə.

[o]**21:12** 1Şam. 31:8-13

Məni əcəl selləri ürkütmüşdü,
6 Ölülər diyarının ipləri mənə
sarılmışdı,
Ölüm kəməndləri məni qarşılamışdı.
7 Əzab içində Rəbbə yalvardım,
Allahımı köməyə çağırdım.
O, məbədindən səsimi eşitdi,
Fəryadımsa Onun qulağına yetdi.
8 O zaman sarsılıb dünya titrədi,
Göylər təməllərindən sarsılıb lərzəyə
gəldi.
Çünki O qəzəbləndi.
9 Burnundan tüstü çıxıb yüksəldi,
Ağzından yandırıb-yaxan alov
püskürdü,
Bundan közlər tutuşdu.
10 O, göyləri yarıb yerədək endi.
Qatı zülmət ayaqları altında idi.
11 Bir keruva minib uçdu,
Yel qanadları üstündə şığıdı.
12 Ətrafını zülmətə bürüdü,
Tufan qoparan qara buludlardan
Özünə çardaqlar qurdu.
13 Hüzurunun nuru şəfəq saçdı,
Oradan odlu közlər düşüb alovlandı.
14 Rəbb göylərdən gurladı,
Haqq-Taala səs saldı.
15 Oxlar atıb düşmənləri darmadağın
etdi,
Şimşəyini çaxdırıb onları dağıtdı.
16 Rəbbin məzəmmətindən,
Burnundakı nəfəsinin şiddətindən
Dənizin dərinlikləri göründü,
Dünyanın bünövrələri açıq qaldı.
17 O, ucalardan əl uzadıb məni tutdu,
Məni dərin suların içindən çıxartdı.
18 Məni qüvvətli düşmənimdən azad
etdi,
Çünki yağılarım məndən güclü idi.
19 Fəlakətli günümdə qarşıma çıxdılar,
Lakin Rəbb mənə dayaq oldu.
20 O məni geniş yerə çıxartdı,
Məndən razı qalıb məni qurtardı.
21 Rəbb mənə salehliyim naminə
ənam verdi,
Mənə əlitəmizliyimin əvəzini verdi.
22 Çünki Rəbbin yolunu tutmuşam,
Pis olub Allahımın yolundan
azmamışam.
23 Onun bütün hökmləri önümdədir,
Qaydalarından imtina etməmişəm.
24 Onun önündə kamilliyə çatmışam,
Özümü günahdan qorumuşam.
25 Rəbb mənə salehliyimin əvəzini
verdi,
Gözünün önündə təmizliyimin əvəzini
verdi.
26 Sədaqətlilərlə sədaqətlisən,
Kamillərlə kamilsən.
27 Təmizlərlə təmizsən,
Əyrilərlə əyriliklərinə görə
davranırsan.
28 İtaətkar insanları qurtarırsan,
Lovğalara göz qoyursan, onları
alçaldırsan.
29 Ya Rəbb, Sən mənim çırağımsan,
Rəbb zülmətimi nura çevirir.
30 Sənlə qoşun üstünə hücum
çəkirəm,
Allahımla sədlər keçirəm.
31 Allahın yolu kamildir,
Rəbbin kəlamı safdır,
Rəbb ona sığınanların sipəridir.
32 Rəbdən başqa Allah kimdir ki?
Allahımızdan başqa qaya kimdir ki?
33 Allah qalamdır, mənə qüvvət verər,
Yolumu kamil edər.
34 [p]Ayaqlarımı maral ayaqları kimi
çevik edər,
Məni zirvələrdə saxlar.
35 Əllərimə döyüş təlimi verər,
Qollarım tunc kamanı dartar.
36 Sən mənə qurtuluş qalxanını
verdin,
Etdiyin köməklə Sən məni yüksəltdin.
37 Geniş yer açdın ki, addımlayım,
Büdrəməsin ayaqlarım.

---

[p]**22:34** Hab. 3:19

38 Düşmənlərimi qovdum, onları
qırdım,
Onlar məhv olanadək geriyə
qayıtmadım.
39 Onları əzib qurtardım, qalxa
bilmədilər,
Ayaqlarımın altına sərildilər.
40 Döyüş üçün məni qüvvə ilə
bürüdün,
Əleyhdarlarımı ayağımın altına
saldın,
41 Düşmənlərimin kürəyini mənə sarı
çevirdin,
Mənə nifrət edən yağıları məhv etdim.
42 Gözləsələr də, onları qurtaran
olmadı,
Rəbbə baxsalar da, Ondan cavab
gəlmədi.
43 Onları yerdəki toz kimi əzdim,
Küçələrin palçığı kimi tapdaladım.
44 Sən məni xalqımın çəkişmələrindən
qurtardın,
Məni millətlərə başçı qoydun,
Tanımadığım xalqları mənə tabe
etdirdin.
45 Yadellilər mənə boyun əyirlər.
Səsimi eşidəndə mənə itaət edirlər.
46 Yadellilərin cəsarəti qırıldı,
Titrəyərək sığınacaqlarından çıxdılar.
47 Rəbb əbədi yaşayır, Qayama alqış
olsun!
Məni qurtaran Qayam, Allahım
ucalsın!
48 O Allahdır, mənə görə qisas alır,
Xalqları mənə tabe etdirir.
49 O məni düşmən içindən çıxarır,
Məni yağılar üstündə ucaldır,
Məni zalımların əlindən qurtarır.
50 [q]Buna görə, ya Rəbb,
Millətlər arasında Sənə şükür
edəcəyəm,
İsminə tərənnüm söyləyəcəyəm!
51 Rəbb padşahına böyük zəfərlər
verər,
Məsh etdiyi Davuda və nəslinə əbədi
məhəbbət göstərər.

Davudun son sözləri

23 Davudun son sözləri bunlardır:
Yessey oğlu Davud deyir,
Allahın ucaltdığı adam,
Yaqubun Allahının məsh etdiyi,
İsrailin sevimli məzmur şairi belə
söyləyir:
2 Rəbbin Ruhu mənim vasitəmlə
söylədi,
Onun sözü dilimin ucundadır.
3 İsrailin Allahı belə dedi,
İsrailin Qayası mənə belə söylədi:
İnsanlar üstündə doğruluqla hökm
edən,
Allah qorxusu ilə səltənət sürən şəxs
4 Buludsuz bir səmada gün doğarkən
sübh şəfəqi kimidir,
Şüası yağışdan sonra yerdən təzə ot
bitirir.
5 Həqiqətən, mənim evim Allahla belə
deyilmi?
Çünki O mənimlə əbədi əhd bağladı,
Kamil və tam təminatlı əhd bağladı,
Qurtuluşumu və arzumu tam həyata
keçirməzmi?
6 Bütün yaramazlar tikanlar kimi
atılacaq.
Onlara heç kim əl vurmayacaq.
7 Lakin onlara toxunanlar
Dəmirlə və nizə sapı ilə
silahlanmalıdırlar.
Yaramazlar yerindəcə tamamilə
yandırılacaqlar.

Davudun igid döyüşçüləri

(1Saln. 11:10-47)

8 Davudun igid döyüşçülərinin adları
belədir: Taxkemonlu Yoşev-Başşevet «üç

---

[q]**22:50** Rom. 15:8-9

igid»in *başçısı idi. O, nizəsini qaldırıb
†bir hücumda səkkiz yüz nəfəri vurub
öldürmüşdü.
9 Ondan sonra Axoah nəslindən Dodo
oğlu Eleazar idi. O, döyüş üçün orada
yığılan Filiştlilərə meydan oxunanda
Davudun yanındakı «üç igid»dən biri
idi. İsraillilər döyüş meydanından
geriyə çəkiləndə 10 Eleazar möhkəm
dayandı və qılınc çəkib əlləri taqətdən
düşənə qədər Filiştliləri qırdı. Rəbb o
gün İsraillilərə böyük qələbə bəxş etdi.
İsraillilər onun ardınca yalnız talan malı
götürmək üçün qayıtdılar.
11 Ondan sonra Hararlı Age
oğlu Şamma idi. Filiştlilər Laxidə
yığılmışdılar. Orada mərci əkilən bir
tarla sahəsi vardı. Xalq Filiştlilərin
önündən qaçdı. 12 Lakin Şamma tarlanın
ortasında durub oranı qorudu və
Filiştliləri qırdı. Rəbb İsraillilərə böyük
bir zəfər verdi.
13 Biçin zamanı otuz başçı arasından
«üç igid» Davudun yanına – Adullam
mağarasına getdi. Filiştlilərin bir döyüş
dəstəsi Refaim vadisində ordugah
qurmuşdu. 14 Bu zaman Davud qalada
idi. Filiştlilərin bir keşikçi dəstəsi
isə Bet-Lexemdə idi. 15 Davud həsrət
çəkərək dedi: «Kaş ki biri Bet-Lexem
darvazası yanındakı quyudan mənə
içmək üçün su gətirəydi!» 16 Bu «üç
igid» Filiştlilərin ordugahını yararaq
darvazanın yanında olan Bet-Lexem
quyusundan su çəkdi və onu götürüb
Davuda gətirdi. Lakin Davud bu suyu
içmək istəmədi və onu Rəbbə təqdim
olaraq yerə tökdü. 17 O dedi: «Ya Rəbb,
bunu etmək qoy məndən uzaq olsun,
canlarını təhlükəyə salaraq gedən
adamların qanındanmı içəcəyəm?»
Buna görə də bu suyu içmək istəmədi.
Bunları «üç igid» etmişdi.
18 Yoavın qardaşı Seruya oğlu Avişay
bu «üç igid»in başçısı idi. O, nizəsini
qaldırıb üç yüz nəfəri qırdı. Buna görə
də onun adı «üç igid»in adı qədər
şöhrətləndi. 19 Əslində «üç igid»dən
daha şöhrətli idi və onlara başçı oldu,
lakin «üç igid» kimi deyildi.
20 Yehoyada oğlu Benaya da böyük
işlər görən igid adam idi. O, Qavseeldən
gəlmişdi. Benaya iki Moavlı igidi
öldürdü. O, qarlı gündə çuxura enib bir
şir öldürdü. 21 O həm də qədd-qamətli
bir Misirlini vurub öldürdü. Misirlinin
əlində nizə vardı. Benaya onun üstünə
dəyənəklə getdi və Misirlinin əlindən
nizəsini çəkib aldı, onu öz nizəsi ilə
öldürdü. 22 Bunları Yehoyada oğlu
Benaya etdi. Buna görə də onun «üç
igid» qədər şöhrəti var idi. 23 O, «otuz
igid»dən daha məşhur idi, lakin «üç
igid» kimi deyildi. Davud onu öz
mühafizəçilərinə başçı qoydu.
24 «Otuz igid»in arasında olanlar:
Yoavın qardaşı Asahel, Bet-Lexemli
Dodo oğlu Elxanan, 25 Xarodlu Şamma
və Eliqa, 26 Peletli Xeles, Teqoalı
İqqeş oğlu İra, 27 Anatotlu Aviezer,
Xuşalı Mevunnay, 28 Axoahlı Salmon,
Netofalı Mahray, 29 Netofalı Baana
oğlu Xelev, Binyamin övladlarından
Givealı Rivay oğlu Yettay, 30 Piratonlu
Benaya, Qaaş vadilərindən Hidday,
31 Aravalı Avi-Alvon, Barxumlu
Azmavet, 32 Şaalvonlu Elyaxba, Yaşenin
oğulları Yonatan, 33 Hararlı Şamma,
Ararlı Şarar oğlu Axiam, 34 Maakalı
Axasbay oğlu Elifelet, Gilolu Axitofel
oğlu Eliam, 35 Karmelli Xesro, Aravalı
Paaray, 36 Sovalı Natan oğlu İqal, Qadlı
Bani, 37 Ammonlu Seleq, Seruya oğlu

---

*23:8 *Üç igid* – bax: 1Saln. 11:12.
†23:8 *O, nizəsini qaldırıb* – qədim yunan tərcüməsində belədir, ibrani mətnində isə *o, Esnili Adino idi, çünki…* Bax: 1Saln. 11:11.

Yoavın silahdarı olan Beerotlu Naxray,
38 Yeterli İra və Yeterli Qarev, 39 Xetli
Uriya. Hamısı birlikdə otuz yeddi nəfər
idi.

Davudun xalqı siyahıya alması

(1Saln. 21:1-27)

24 İsrailə qarşı Rəbbin qəzəbi yenə
də alovlandı və «get, İsraillilərlə
Yəhudalıları say» deyə Davudu onlara
qarşı təhrik etdi. 2 Padşah yanındakı
ordu başçısı Yoava dedi: «İndi Dandan
Beer-Şevaya qədər İsrailin bütün
qəbilələri arasında dolanın və xalqı
siyahıya alın ki, sayını bilim». 3 Yoav
padşaha dedi: «Xalqın nə qədərdirsə,
qoy Allahın Rəbb onu yüz qat artıq etsin
və ağam padşah bunu gözləri ilə görsün.
Axı niyə belə şeylər ağam padşahın
xoşuna gəlir?» 4 Lakin padşahın sözü
Yoava və onun ordu başçılarına üstün
gəldi. Yoavla ordu başçıları İsrail
xalqını siyahıya almaq üçün padşahın
hüzurundan çıxdı. 5 İordan çayını
keçdilər və Qad vadisinin ortasında olan
şəhərin cənubunda – Aroerdə düşərgə
qurdular. 6 Sonra Yazerə, Gileada və
Taxtim-Xodşi torpağına getdilər və
Dan-Yaanı keçib Sidona çatdılar. 7 Sur
qalasına və Xivlilərlə Kənanlıların bütün
şəhərlərinə yetişib, nəhayət, Yəhudanın
cənubunda olan Beer-Şevaya gəldilər.
8 Bütün ölkəni dolandılar və doqquz ay
iyirmi gün keçəndən sonra Yerusəlimə
qayıtdılar. 9 Yoav xalqın siyahısını
padşaha verdi. İsraildə qılınc çəkən
səkkiz yüz min igid, Yəhudada isə beş
yüz min igid var idi.

10 Lakin xalqı sayandan sonra Davud
vicdan əzabı çəkdi. O, Rəbbə dedi: «Bu
işi görməklə böyük günah etdim. İndi
isə, ya Rəbb, yalvarıram, qulunun bu
təqsirindən keç, çünki çox ağılsızlıq
etmişəm». 11 Davud ertəsi gün səhər
qalxanda Rəbb Davudun görücüsü
Qad peyğəmbərə sözünü bildirib dedi:
12 «Get, Davuda söylə ki, Rəbb belə
deyir: “Sənin qarşına üç şey qoyuram,
özün üçün bunların birini seç ki, sənə
edim”». 13 Qad Davudun yanına gəlib
bunu bildirdi: «Sənin ölkəndə yeddi
il aclıq olsun, yoxsa səni təqib edən
düşmənlərin önündə üç ay qaçasan
yaxud da ölkəndə üç gün vəba olsun?
İndi yaxşı fikirləş və qərar ver, məni
Göndərənə mən nə cavab verim?»
14 Davud Qada dedi: «Mənim üçün çox
çətindir. İnsan əlinə düşməkdənsə qoy
Rəbbin əlinə düşək, çünki Onun rəhmi
çoxdur».

15 Beləcə Rəbb sabahdan təyin olunan
vaxta qədər İsrailin üzərinə vəba
göndərdi. Dandan Beer-Şevaya qədər
xalqdan yetmiş min nəfər öldü. 16 Xalqı
həlak edən mələk Yerusəlimi məhv
etmək üçün oraya doğru əlini uzadanda
Rəbb verəcəyi bəladan vaz keçib mələyə
dedi: «Bəsdir, əl saxla!» Rəbbin mələyi
Yevuslu Aravnanın xırmanının yanında
idi. 17 Davud xalqı qıran mələyi görən
zaman Rəbbə belə dedi: «Budur, günah
edən mənəm, mən təqsirkaram. Bəs
bu yazıq xalq nə edib? Qoy Sənin
əlin mənim və ata nəslimin əleyhinə
qalxsın».

18 O gün Qad Davudun yanına
gəlib dedi: «Çıx, Yevuslu Aravnanın
xırmanında Rəbbə bir qurbangah
düzəlt». 19 Qadın sözü ilə Davud Rəbbin
əmr etdiyi kimi çıxdı. 20 Aravna aşağı
baxıb gördü ki, padşahla əyanları onlara
tərəf gəlir. O bayıra çıxıb padşahın
qarşısında yerə qədər təzim etdi və dedi:
21 «Ağam padşah nə əcəb bu qulunun
yanına gəlib?» Davud dedi: «Rəbbə
qurbangah qurmaq üçün səndən bu
xırmanını satın almağa gəldim ki, xalqın
üzərinə gələn vəba dayansın». 22 Aravna
Davuda dedi: «Qoy ağam padşah öz
gözünə xoş görünəni götürsün və Rəbbə
təqdim etsin. Budur yandırma qurbanı
üçün öküzlər, yandırmağa odun yerinə

vəllər və öküzlərin boyunduruqları.
23 Ey padşah, Aravna bunların hamısını
sənə verir». Aravna padşaha yenə dedi:
«Qoy Allahın Rəbb səndən razı olsun».
24 Lakin padşah Aravnaya dedi: «Belə
yox, amma səndən bunu mütləq qiymət
qoyub satın alacağam. Çünki mən
havayı malı Allahım Rəbbə yandırma
qurbanı vermərəm». Beləliklə, Davud
xırmanı və öküzləri əlli şekel gümüşə
satın aldı. 25 Davud orada Rəbbə
bir qurbangah düzəldib yandırma
qurbanları və ünsiyyət qurbanları
təqdim etdi. Rəbb ölkə üçün edilən
duaları qəbul etdi və İsrailin üzərinə
gələn vəbanı dayandırdı.

BİRİNCİ PADŞAHLAR

KİTABI

GİRİŞ

«1 Padşahlar» Kitabı *«1 və 2 Şamuel»* Kitablarında başlanan İsrail padşahlığının tarixinin davamıdır.

Bu kitabı iki hissəyə ayırmaq olar: Süleymanın hakimiyyəti və nailiyyətləri, xüsusən Yerusəlimdə məbədin tikilməsi; İsrailin şimal və cənub padşahlıqlara bölünməsi.

«1 və 2 Padşahlar» Kitablarında hər hökmdarın dəyəri Allaha sadiq olması ilə ölçülür. Xalqın uğurları da bu sədaqətdən asılı idi. Bütpərəstlik və itaətsizlik isə bədbəxtliyə aparırdı. Şimaldakı dövlətin padşahlarından heç biri Allaha sadiq qalmadı, cənubda isə Yəhuda padşahlarının bəzisi sadiq, bəzisi isə sədaqətsiz çıxdı. *«1 Padşahlar»* Kitabında Rəbbin peyğəmbərləri əhəmiyyətli rol oynayır. Onlar bütlərə səcdə etməmək üçün adamlara cəsarətlə xəbərdarlıq edir və Allaha tərəf dönməyə çağırırdılar. Bu baxımdan İlyas peyğəmbərlə Baal bütünün kahinlərinin mübahisəsi barədə hekayət xüsusilə diqqəti cəlb edir.

Kitabın məzmunu

1:1–2:12 Davudun padşahlığının sonu
2:13-46 Süleymanın padşah olması
3:1–11:43 Süleymanın hakimiyyəti
3:1–4:34 Erkən illər
5:1–8:66 Məbədin tikilməsi
9:1–11:43 Sonrakı illər
12:1–22:53 Padşahlığın bölünməsi
12:1–14:20 Şimal qəbilələrinin üsyanı
14:21–16:34 Yəhuda və İsrailin padşahları
17:1–19:21 İlyas peyğəmbər
20:1–22:40 İsrail padşahı Axav
22:41-53 Yəhuda padşahı Yehoşafat və İsrail padşahı Axazya

Padşah Davudun son illəri

1 Padşah Davud qocalıb yaşa dolmuşdu. Onun üstünü örtüklərlə nə qədər örtürdülərsə, o isinmirdi. 2 Əyanları ona dedilər: «Ağamız padşah üçün gənc bir qız axtaraq. Qoy o, padşahın önündə durub qayğısına qalsın və qoynunda yatsın ki, ağamız padşah isinsin». 3 Onlar İsrailin bütün ərazisində gözəl bir qız axtardılar və Şunemli Avişaqı tapıb padşahın yanına gətirdilər. 4 Qız çox gözəl idi. O, padşaha baxıb xidmət etdi, amma padşah onunla yaxınlıq etmədi.

Adoniyanın padşahlıq iddiası

5 [r]Davudun Haqqitdən olan oğlu Adoniya «mən padşah olacağam» deyə lovğalanırdı. O özü üçün döyüş arabaları, atlılar və önündə gedəcək əlli nəfər hazırlamışdı. 6 Atası Davud heç vaxt ona «Niyə belə etdin?» deməmişdi. Adoniya görkəmcə çox yaraşıqlı idi. O, Avşalomdan sonra dünyaya gəlmişdi. 7 Adoniya Seruya oğlu Yoav və kahin Evyatarla əlbir oldu və onlar Adoniyaya kömək etdilər. 8 Amma kahin Sadoq, Yehoyada oğlu Benaya, peyğəmbər Natan, Şimey, Rei və Davudun igidləri Adoniyanın tərəfində deyildilər. 9 Adoniya En-Rogel yaxınlığındakı Zoxelet qayasında qoyun-keçi, mal-qara və bəslənmiş heyvanlar qurban kəsdi. Bütün qardaşlarını – padşahın oğullarını və padşaha qulluq edən bütün Yəhudalıları çağırdı, 10 amma peyğəmbər Natanı, Benayanı, igidləri və qardaşı Süleymanı çağırmadı.

---

[r] **1:5** 2Şam. 3:4

Süleymanın padşah elan edilməsi

11 [s]Onda Natan Süleymanın anası
Bat-Şevaya dedi: «Məgər eşitməmisən ki,
Haqqit oğlu Adoniya ağamız Davudun
xəbəri olmadan padşahlıq edir? 12 İndi
qulaq as, özünün və oğlun Süleymanın
canını necə qurtaracağın barədə sənə
məsləhət verim: 13 get, padşah Davudun
yanına gir və ona söylə: “Ağam padşah!
‹Məndən sonra hökmən oğlun Süleyman
padşah olacaq və taxtımda o oturacaq›
deyib kənizinə and içmədinmi? Bəs
onda nə üçün Adoniya padşahlıq edir?”
14 Sən orada padşahla danışarkən mən
səndən sonra girəcəyəm və sözlərini
təsdiq edəcəyəm».
15 Bat-Şeva otağa – padşahın yanına
girdi. Padşah çox qoca idi və Şunemli
Avişaq ona qulluq edirdi. 16 Bat-Şeva
padşahın önündə diz çöküb təzim
etdi. Padşah «Nə istəyirsən?» dedi.
17 Bat-Şeva ona dedi: «Mənim ağam!
“Məndən sonra hökmən oğlun Süleyman
padşah olacaq və taxtımda o oturacaq”
deyib kənizinə Allahın Rəbbin haqqı
üçün and içdin. 18 Ağam padşah, indi isə
Adoniya padşahlıq edir və sənin bundan
xəbərin yoxdur. 19 O, çoxlu mal-qara,
bəslənmiş heyvan və qoyun-keçi qurban
kəsdi. Padşahın bütün oğullarını, kahin
Evyatarı və ordu başçısı Yoavı çağırdı,
amma qulun Süleymanı çağırmadı.
20 Ağam padşah, bütün İsrailin gözü
səndədir; sən onlara bildirməlisən ki,
ağam padşahdan sonra taxtında kim
oturacaq. 21 Yoxsa ağam padşah ataları
ilə uyuyanda mən və oğlum Süleyman
müqəssir sayılacağıq».
22 Bat-Şeva hələ padşahla danışarkən
peyğəmbər Natan gəldi. 23 Padşaha
«peyğəmbər Natan gəldi» dedilər. O,
padşahın hüzuruna gəldi və üzüstə
əyilib təzim etdi. 24 Natan dedi: «Ağam
padşah! “Məndən sonra Adoniya padşah
olacaq və taxtımda o oturacaq” deyib
söyləmisənmi? 25 Adoniya bu gün gedib
çoxlu mal-qara, bəslənmiş heyvan və
qoyun-keçi qurban kəsdi və padşahın
bütün oğullarını, ordu başçılarını və
kahin Evyatarı çağırdı. Budur, “Yaşasın
padşah Adoniya!” deyərək onun önündə
yeyib-içirlər. 26 Ancaq o mən qulunu,
kahin Sadoqu, Yehoyada oğlu Benayanı
və qulun Süleymanı çağırmadı. 27 Məgər
bu iş ağam padşahın əmri ilə olub? Bəs
sən nə üçün qullarına bildirmədin ki,
ağam padşahdan sonra taxtında kim
oturacaq?»
28 Padşah Davud cavab verib
«Bat-Şevanı yanıma çağırın!» dedi.
Bat-Şeva padşahın hüzuruna gəlib
önündə durdu. 29 Padşah and içib dedi:
«Canımı bütün bəlalardan qurtarmış var
olan Rəbbə and olsun ki, 30 “məndən
sonra hökmən oğlun Süleyman padşah
olacaq və mənim əvəzimə taxtımda
o oturacaq” deyib sənin üçün İsrailin
Allahı Rəbbə içdiyim andı bu gün yerinə
yetirəcəyəm». 31 Bat-Şeva padşahın
önündə üzüstə yerə əyilib təzim etdi və
«Ağam padşah Davud əbədi yaşasın!»
dedi.
32 Padşah Davud dedi: «Kahin Sadoqu,
peyğəmbər Natanı və Yehoyada oğlu
Benayanı mənim yanıma çağırın».
Onların hamısı padşahın hüzuruna
gəldi. 33 Padşah onlara dedi: «Ağanızın
əyanlarını yanınıza alın və oğlum
Süleymanı mənim qatırıma mindirib
Gixon bulağına endirin. 34 Orada
kahin Sadoq və peyğəmbər Natan
onu İsrail padşahı olmaq üçün məsh
etsinlər. Şeypur çalıb “Yaşasın padşah
Süleyman!” söyləyin. 35 Sonra onun
dalınca qalxın, o da gəlib taxtımda
otursun, çünki mənim yerimə padşah
olacaq. Onu İsrail və Yəhudaya

---

[s]**1:11** 2Şam. 12:24

hökmdar təyin etdim». 36 Yehoyada
oğlu Benaya cavab verib dedi: «Amin!
Ağam padşahın Allahı Rəbb belə istəyir.
37 Rəbb ağam padşaha yar olduğu kimi
Süleymana da yar olsun və onun taxtını
ağam padşah Davudun taxtından daha
uca etsin».
38 Kahin Sadoq, peyğəmbər Natan,
Yehoyada oğlu Benaya, Keretlilər və
Peletlilər Süleymanı padşah Davudun
qatırına mindirib aşağı endilər və onu
Gixona qədər apardılar. 39 Kahin Sadoq
ibadət çadırından yağ buynuzunu
götürüb Süleymanı məsh etdi. Şeypur
çalındı və bütün camaat «Yaşasın
padşah Süleyman!» söylədi. 40 Camaat
onun dalınca qalxıb getdi. Onlar ney
çalaraq elə sevinirdilər ki, səslərindən
yer titrəyirdi.
41 Adoniya və onunla olan bütün
qonaqlar yeməklərini qurtaranda
bu səsi eşitdilər. Yoav şeypur səsini
eşidəndə dedi: «Şəhərdən niyə gurultu
gəlir?» 42 O, sözünü qurtarmamış
birdən kahin Evyatarın oğlu Yonatan
gəldi. Adoniya ona dedi: «Gəl, sən
igid adamsan, yaxşı xəbər gətirərsən».
43 Yonatan Adoniyaya cavab verib dedi:
«Yox, elə deyil, ağamız padşah Davud
Süleymanı padşah etmişdir. 44 Padşah
kahin Sadoqu, peyğəmbər Natanı,
Yehoyada oğlu Benayanı, Keretliləri və
Peletliləri Süleymanla birgə göndərdi
və onu padşahın qatırına mindirdilər.
45 Kahin Sadoq və peyğəmbər Natan
Gixonda onu padşah olmaq üçün məsh
etdilər. Oradan sevinclə qalxıb getdilər
və şəhər canlandı. Eşitdiyiniz səs budur.
46 Üstəlik Süleyman padşahlıq taxtında
oturdu. 47 Ağamız padşah Davudu təbrik
etməyə gələn əyanları da "Sənin Allahın
Süleymanın adını sənin adından daha
böyük, taxtını sənin taxtından daha
uca etsin!" deyəndə padşah yatağının
üstündən əyildi. 48 Sonra belə dedi:
"İsrailin Allahı Rəbbə alqış olsun ki, bu
gün hələ gözlərim görərkən taxtımda
oturan bir nəfər verdi!"»
49 Bunu eşidəndə Adoniyanın bütün
qonaqları təşvişə düşüb qalxdılar və
hər kəs öz yolu ilə getdi. 50 Adoniya
isə Süleymandan qorxaraq qalxıb
getdi və qurbangahın buynuzlarından
yapışdı. *51 Bunu Süleymana bildirib
dedilər: «Adoniya padşah Süleymandan
qorxur və qurbangahın buynuzlarından
yapışaraq "qoy padşah Süleyman bu
gün mənə and içsin ki, bu qulunu
qılıncla öldürməyəcək" deyir».
52 Süleyman dedi: «Əgər o, ləyaqətli
adam olsa, başından bir tük belə, əskik
olmaz, amma onda bir pislik tapılsa,
öləcək». 53 Padşah Süleyman Adoniyanı
qurbangahdan düşürüb gətirtdi. O da
gəlib padşah Süleymana təzim etdi və
Süleyman ona «Evinə get!» dedi.

Davudun Süleymana vəsiyyəti

2 Davudun ölüm günü yaxınlaşanda
oğlu Süleymana vəsiyyət edərək
dedi: 2 «Bu yaxınlarda mən də hamı kimi
dünyadan köçəcəyəm. Sən möhkəm
və igid ol. 3 Allahın Rəbbin verdiyi
buyruğu yerinə yetirib Onun yolları ilə
get və Musanın Qanununda yazıldığı
kimi Allahın qaydalarına, əmrlərinə,
hökmlərinə və göstərişlərinə əməl et ki,
elədiyin hər işdə və getdiyin hər yerdə
uğur qazanasan. 4 Onda Rəbb mənə
verdiyi bu sözü yerinə yetirəcək: "Əgər
övladların öz yollarına diqqət etsələr,
bütün ürəkləri və canları ilə Mənə sadiq
qalsalar, İsrail taxtında sənin nəslindən
bir kişi əskik olmayacaq".

---

*1:50 *Qurbangahın buynuzlarından yapışdı* – qədim Yəhudilərin adətinə görə qurbangahın buynuzlarından yapışmış adamı öldürmək olmazdı. Bax: Çıx. 21:13-14.

5 [t]Sən Seruya oğlu Yoavın mənə nə
elədiyini bilirsən: İsrail ordusunun
iki başçısı Ner oğlu Avnerlə Yeter
oğlu Amasanı öldürərək sülh zamanı
hərb qanı tökdü və belindəki kəmərlə
ayağındakı çarıqları qana bulaşdırdı.
6 Sən öz hikmətinə görə davran, qoy
onun ağarmış başı ölülər diyarına
salamat enməsin.
7 [u]Gileadlı Barzillayın oğullarına
xeyirxahlıq et, qoy süfrəndə yemək
yeyənlərin arasında olsunlar. Çünki mən
qardaşın Avşalomun önündən qaçdığım
vaxt onlar mənə kömək etdilər.
8 [v]Baxurimdən olan Binyaminli
Gera oğlu Şimey də sənin yanındadır.
Maxanayimə getdiyim gün o məni ağır
lənətlədi. Ancaq sonra məni qarşılamaq
üçün İordan çayı sahilinə endi və mən
ona "səni qılıncla öldürməyəcəyəm"
deyə Rəbbin haqqı üçün and içdim.
9 İndi onu cəzasız qoyma, çünki sən
müdrik adamsan və ona nə edəcəyini
bilirsən. Onun ağarmış başını qan içində
ölülər diyarına göndər».

Davudun ölümü

10 Davud ataları ilə uyudu və Davudun
şəhərində basdırıldı. 11 [w]Davud İsrail
üzərində qırx il padşah olmuşdu: yeddi
il Xevronda və otuz üç il Yerusəlimdə
padşahlıq etmişdi. 12 [x]Süleyman atası
Davudun taxtında oturdu və onun
padşahlığı çox möhkəm oldu.

Adoniyanın öldürülməsi

13 Haqqit oğlu Adoniya Süleymanın
anası Bat-Şevanın yanına gəldi. Bat-Şeva
dedi: «Xeyirlə gəlirsənmi?» Adoniya
«bəli» deyə cavab verdi. 14 Sonra dedi:
«Sənə söyləyəcək sözüm var». Bat-Şeva
«söylə» dedi. 15 O dedi: «Sən bilirsən ki,
padşahlıq mənim idi və bütün İsraillilər
mənim padşah olacağımı gözləyirdilər,
ancaq hər şey dəyişdi, padşahlıq
qardaşımın əlinə keçdi, çünki Rəbb
belə etdi. 16 İndi səndən bir xahişim
var, mənə "yox" demə». Bat-Şeva ona
«söylə» dedi. 17 O dedi: «Xahiş edirəm,
padşah Süleymana söylə – o sənə "yox"
deməz – qoy Şunemli Avişaqı mənə
arvad olmaq üçün versin». 18 Bat-Şeva
dedi: «Yaxşı, mən səndən ötrü padşahla
danışaram».
19 Bat-Şeva Adoniya barədə padşah
Süleymanla danışmaq üçün onun
yanına getdi. Padşah onu qarşılamaq
üçün ayağa qalxdı və ona təzim etdi,
sonra taxtına oturdu. Padşah anası
üçün də bir taxt qoydurdu. O, padşahın
sağında oturdu, 20 sonra dedi: «Mənim
səndən kiçik bir xahişim var, mənə
"yox" demə». Padşah ona dedi: «Söylə,
ana, mən sənə "yox" demərəm».
21 Bat-Şeva dedi: «Şunemli Avişaqı
qardaşın Adoniyaya arvad olmaq üçün
ver». 22 Padşah Süleyman anasına cavab
verib dedi: «Niyə Adoniya üçün Şunemli
Avişaqı istəyirsən? Padşahlığı da onun
üçün istə, üstəlik onunla birlikdə kahin
Evyatarla Seruya oğlu Yoav üçün istə.
Axı o mənim böyük qardaşımdır!»
23 Padşah Süleyman Rəbbin haqqı üçün
and içərək dedi: «Əgər Adoniya bu
sözü öz həyatı bahasına söyləməmişsə,
Allah mənə beləsini və bundan betərini
etsin. 24 İndi məni möhkəmləndirib
atam Davudun taxtında oturtmuş və
söylədiyi kimi mənə bir ev qurmuş
var olan Rəbbə and olsun ki, Adoniya
hökmən bu gün öldürüləcək!» 25 Padşah
Süleyman Yehoyada oğlu Benayaya əmr
etdi, Benaya da gedib Adoniyanı vurdu
və o öldü.

---

[t]**2:5** 2Şam. 3:27; 2Şam. 20:10 [u]**2:7** 2Şam. 17:27-29
[v]**2:8** 2Şam. 16:5-13; 2Şam. 19:16-23 [w]**2:11** 2Şam. 5:4-5; 1Saln. 3:4
[x]**2:12** 1Saln. 29:23

Evyatarın qovulması
və Yoavın ölümü

26 [y]Padşah kahin Evyatara da dedi:
«Anatota, öz tarlalarına get! Sən ölümə
layiqsən, amma indi səni öldürmürəm.
Çünki atam Davudun önündə Xudavənd
Rəbbin sandığını daşıyırdın və atamın
çəkdiyi hər əzabı sən də çəkirdin».
27 [z]Beləcə Süleyman Evyatarı Rəbbin
kahinliyindən qovdu. Bununla da Elinin
evinə qarşı Rəbbin Şiloda söylədiyi söz
yerinə yetdi.
28 Xəbər Yoava çatdı. Yoav Avşaloma
qoşulmadığı halda Adoniyanın
tərəfini tutmuşdu. Buna görə də
o, Rəbbin ibadət çadırına qaçdı və
qurbangahın buynuzlarından yapışdı.
29 Padşah Süleymana söylədilər: «Yoav
Rəbbin ibadət çadırına qaçdı və indi
qurbangahın yanındadır». Süleyman
«get, onu öldür» deyə Yehoyada oğlu
Benayanı göndərdi. 30 Benaya Rəbbin
ibadət çadırına gəlib Yoava dedi: «Çıx,
padşah belə deyir!» O dedi: «Yox,
burada öləcəyəm». Benaya padşaha
«Yoav belə dedi və mənə bu cavabı
verdi» deyə xəbər gətirdi. 31 Padşah ona
dedi: «Onun dediyi kimi et: onu orada
öldür və basdır ki, Yoavın səbəbsiz
tökdüyü qanın təqsirini mənim və
atamın evi üzərindən götürəsən. 32 Rəbb
onun qanını öz başına döndərəcək,
çünki o özündən daha saleh və daha
yaxşı olan iki nəfəri qılıncla vurdu:
atam Davudun xəbəri olmadan İsrail
ordusunun başçısı Ner oğlu Avnerlə
Yəhuda ordusunun başçısı Yeter oğlu
Amasanı öldürdü. 33 Beləcə onların
qanı həmişəlik Yoavın və onun nəslinin
üstündə qalacaq, amma Rəbb Davuda,
onun nəslinə, evinə və taxtına əbədi
əmin-amanlıq verəcək». 34 Yehoyada
oğlu Benaya yuxarıya getdi, Yoavı
vurub öldürdü və onu çöldəki evində
basdırdılar.
35 Padşah Yoavın yerinə Yehoyada
oğlu Benayanı ordu başçısı qoydu.
Evyatarın yerinə isə kahin Sadoqu təyin
etdi.

Şimeyin ölümü

36 Padşah Şimeyi çağırtdırıb ona dedi:
«Yerusəlimdə özünə bir ev tik və orada
yaşa, heç yerə getmə. 37 Oradan çıxıb
Qidron vadisini keçdiyin gün, bil ki,
hökmən öləcəksən və qanın öz üstündə
qalacaq». 38 Şimey padşaha dedi:
«Sözünlə razıyam, ağam padşah necə
dedisə, qulun elə də edəcək». Şimey
uzun müddət Yerusəlimdə yaşadı.
39 Üçüncü ilin sonunda Şimeyin iki
qulu Qat padşahı Maaka oğlu Akişin
yanına qaçdı. Şimeyə xəbər gəldi ki,
qulları Qatdadır. 40 O qalxıb eşşəyini
palanladı, qullarını axtarmaq üçün
Qata, Akişin yanına gedib onları Qatdan
gətirdi. 41 Şimeyin Yerusəlimdən
Qata gedib-gəlmək xəbəri Süleymana
çatdı. 42 Padşah Şimeyi çağırtdırıb
ona dedi: «Səni Rəbbin haqqına and
içdirmədimmi? “Çıxıb bir yerə getdiyin
gün, bil ki, hökmən öləcəksən!” deyə
sənə xəbərdarlıq etmədimmi? Sən
də mənə “yaxşı, sözünlə razıyam”
demədinmi? 43 Elə isə Rəbbə içdiyin
anda və sənə verdiyim əmrə niyə əməl
etmədin?» 44 Sonra padşah Şimeyə
dedi: «Sən atam Davuda qarşı ürəyində
saxladığın və etdiyin pisliklərin
hamısını bilirsən. Pisliyini Rəbb sənin
öz başına döndərəcək. 45 Amma qoy
padşah Süleyman xeyir-dua alsın və
Davudun taxtı Rəbbin önündə əbədi
möhkəmlənsin». 46 Padşah Yehoyada
oğlu Benayaya əmr etdi, Benaya da
gedib Şimeyi vurdu və o öldü. Beləliklə,
Süleymanın padşahlığı möhkəmləndi.

---

[y]**2:26** 2Şam. 15:24; 1Şam. 22:20-23 [z]**2:27** 1Şam. 2:27-36

Süleymanın Allahdan hikmət istəməsi

(2Saln. 1:3-12)

3 Süleyman Misir padşahı fironun
qızını arvad alaraq onunla müttəfiq
oldu. Öz sarayı, Rəbbin məbədi və
Yerusəlimin ətrafındakı divarlar tikilib
qurtarana qədər arvadını Davudun
şəhərinə gətirdi. 2 Xalq isə hələ
səcdəgahlarda qurban gətirirdi, çünki
o günlərə qədər Rəbbin adına tikilmiş
bir məbəd yox idi. 3 Süleyman atası
Davudun qanunlarına əməl edərək
Rəbbi sevirdi, ancaq səcdəgahlarda
qurban gətirir və buxur yandırırdı.
4 Padşah qurban gətirmək üçün
Giveona getdi, çünki ora səcdəgahların
ən böyüyü idi. Süleyman o qurbangahda
min baş yandırma qurbanı təqdim
etmişdi. 5 Giveonda Rəbb Süleymana
gecə vaxtı yuxuda göründü. Allah dedi:
«Nə istəyirsən, sənə verim?» 6 Süleyman
dedi: «Sən qulun atam Davuda böyük
xeyirxahlıq göstərdin, çünki o Sənin
önündə sadiq və saleh işlər görürdü, düz
qəlblə Sənin lə idi. Bu gün də taxtında
oturan bir oğul verməklə ona Öz böyük
xeyirxahlığını saxladın. 7 İndi, ya Rəbb
Allahım, Öz qulunu atam Davudun
yerinə padşah etdin. Ancaq mən
çox cavanam, nə edib-etməyəcəyimi
bilmirəm. 8 Qulun Sənin seçdiyin xalqın
– saysız-hesabsız böyük bir kütlənin
arasındadır. 9 İndi mənə elə bir dərrakəli
ürək ver ki, yaxşı ilə pisi ayırd edib
Sənin xalqına hökm edə bilim. Başqa
cür Sənin bu böyük xalqını kim idarə
edə bilər?» 10 Süleymanın bu istəyi
Xudavəndin gözünə xoş gəldi. 11 Allah
ona dedi: «İndi ki özün üçün uzun ömür,
var-dövlət və düşmənlərinin canını
istəmədin, bunların yerinə ədaləti ayırd
etmək üçün dərrakə istədin, 12 Mən
istəyini yerinə yetirirəm: sənə elə bir
hikmətli və dərrakəli ürək verirəm ki,
sənin kimisi nə səndən əvvəl olmuş,
nə də səndən sonra olacaq. 13 Hətta
sənə istəmədiyini – var-dövləti də,
şöhrəti də verirəm; belə ki bütün ömrün
boyu padşahlar arasında sənin kimisi
olmayacaq. 14 Əgər sən də atan Davud
kimi qanunlarıma və əmrlərimə əməl
edib yolumla getsən, sənin ömrünü də
uzadacağam».
15 Süleyman oyandı. Bu, bir yuxu idi.
Sonra Yerusəlimə gəldi. Xudavəndin
Əhd sandığının önündə durub yandırma
qurbanları və ünsiyyət qurbanları
təqdim etdi və bütün əyanları üçün
ziyafət verdi.

Süleymanın hikmətlə hökm verməsi

16 Bir gün iki fahişə qadın
gəlib padşahın hüzurunda durdu.
17 Qadınlardan biri dedi: «Yalvarıram,
ay ağam! Mən bu qadınla bir evdə
yaşayıram. Bu evdə onun yanında uşaq
doğdum. 18 Mən doğandan sonra üçüncü
gün bu qadın da doğdu. Biz bir yerdə
olurduq, evdə bizdən başqa heç kəs
yox idi, yalnız ikimiz idik. 19 Gecə bu
qadın yatanda oğlu onun altında qalıb
öldü. 20 Kənizin yuxuda ikən gecə yarısı
bu qadın qalxaraq oğlumu yanımdan
götürüb öz qoynuna almış, ölü oğlunu
isə mənim qoynuma qoymuşdur.
21 Səhər oğlumu əmizdirmək üçün
duranda gördüm ki, o ölüb. Amma
sonra diqqətlə baxanda bildim ki, bu
mənim doğduğum uşaq deyil».
22 O biri qadın isə dedi: «Yox, sağ
olan uşaq mənim oğlumdur, ölən isə
sənin kidir». Amma birinci qadın dedi:
«Yox, ölən uşaq sənin oğlundur, sağ
olan mənimkidir». Padşahın önündə
onlar beləcə mübahisə edirdilər.
23 Padşah dedi: «Biri deyir, sağ olan
uşaq mənim oğlumdur, ölən sənin kidir;
o biri isə deyir, yox, ölən uşaq sənin
oğlundur, sağ olan mənimkidir».
24 Padşah yenə dedi: «Mənə qılınc

gətirin!» Padşaha qılınc gətirdilər.
25 Padşah dedi: «Sağ olan uşağı iki
yerə bölün: yarısını birinə, yarısını
isə o birinə verin!» 26 Oğlu sağ olan
qadın balası üçün ürəyi yandığına
görə padşaha belə söylədi: «Aman,
ağam, sağ olan uşağı ona verin, amma
öldürməyin». O biri isə dedi: «Bölün,
qoy nə onun olsun, nə mənim». 27 Onda
padşah cavab verib dedi: «Sağ olan uşağı
birinci qadına verin, onu öldürməyin,
uşağın anası odur».
28 Bütün İsraillilər padşahın verdiyi
hökmü eşidib ona hörmət etdilər, çünki
gördülər ki, hökm etmək üçün onda
Allahın hikməti var.

Süleymanın əyanları

4 Padşah Süleyman bütün İsrail
üzərində hökmran idi. 2 Əyanları da
bunlar idi:
Kahin – Sadoq oğlu Azarya;
3 Mirzələr – Şişanın oğulları Elixoref və
Axiya;
Salnaməçi – Axilud oğlu Yehoşafat;
4 Ordu başçısı – Yehoyada oğlu Benaya;
Kahinlər – Sadoq və Evyatar;
5 Baş vali – Natan oğlu Azarya;
Padşahın həmsöhbəti – kahin Natan
oğlu Zavud;
6 Saray rəisi – Axişar;
Mükəlləfiyyətçilər üzərində nəzarətçi –
Avda oğlu Adoniram.
7 Bütün İsrail üzərində Süleymanın on
iki bölgə valisi var idi. Onlar padşahı və
onun evini ərzaqla təmin edirdilər və
hər biri ildə bir aylıq ərzaq göndərməli
idi. 8 Onların adları belədir:
Efrayimin dağlıq bölgəsində Ben-Xur;
9 Maqas, Şaalvim, Bet-Şemeş və
Elon-Bet-Xanan bölgələrində
Ben-Deqer;
10 Soko və bütün Xefer torpağının
da aid olduğu Arubbot bölgəsində
Ben-Xesed;
11 bütün Nafat-Dor bölgəsində
Süleymanın qızı Tafatın əri olan
Ben-Avinadav;
12 Taanak, Megiddo, İzreelin altındakı
Sartanın yanında olan bütün
Bet-Şean bölgəsində və Bet-Şeandan
Avel-Mexolaya, Yoqmeamın o biri
tərəfinə qədər uzanan bölgədə Axilud
oğlu Baana;
13 Gileadda olan Menaşşe oğlu Yairin
kəndlərinin və Başanda olan Arqov
ətrafında divarlar və tunc sürgülərlə
bağlanmış altmış böyük şəhərin aid
olduğu Ramot-Gilead bölgəsində
Ben-Gever;
14 Maxanayim bölgəsində İddo oğlu
Axinadav;
15 Naftali torpağında Süleymanın qızı
Basmatı arvad alan Aximaas;
16 Aşer torpağında və Alot bölgəsində
Xuşay oğlu Baana;
17 İssakar torpağında Paruah oğlu
Yehoşafat;
18 Binyamin torpağında Ela oğlu Şimey;
19 Gilead torpağında, yəni keçmişdə
Emorluların padşahı Sixona və Başan
padşahı Oqa məxsus olan ölkədə bu
bölgənin yeganə valisi olan Uri oğlu
Gever.

Süleymanın bir günlük təminatı

20 Yəhudalılar və İsraillilər dəniz
qırağında olan qum qədər çox idi.
Onlar yeyib-içir və xoşbəxt yaşayırdılar.
21 [a]Süleyman Fərat çayından Filiştlilərin
torpağına və Misir sərhədinə qədər
bütün padşahlıqlar üzərində hökmranlıq
edirdi. Onlar Süleymanın ömrünün
axırına qədər xərac verdilər və ona
qulluq etdilər.

---

[a]**4:21** Yar. 15:18; 2Saln. 9:26

22 Süleymanın evinin gündəlik
ərzağı bunlardan ibarət idi: otuz kor
narın un və altmış kor iri üyüdülmüş
un, 23 on baş bəslənmiş mal-qara,
iyirmi otlaq öküzü, yüz qoyun, maral,
ceyran, cüyür və bəslənmiş ev quşları.
24 Tifsahdan Qəzzəyə qədər Fərat
çayının bu tayındakı bütün torpaqlar
və çayın bu tayındakı bütün padşahlar
üzərində Süleyman hökmranlıq edirdi
və bütün ətraf ölkələrlə sülh şəraitində
yaşayırdı. 25 Onun bütün ömrü boyu
Dandan Beer-Şevaya qədər Yəhuda və
İsraildə hər kəs öz üzüm meynəsinin
və əncir ağacının altında dinclik içində
yaşayırdı.
26 [b]Süleymanın qırx min axurunda
döyüş arabaları üçün atları və on iki
min atlısı var idi. 27 Valilərin hər biri
öz ayında padşah Süleymana və onun
süfrəsinə gələnlərin hamısına ərzaq
göndərirdi və heç bir şeyə ehtiyac
qalmırdı. 28 Hər vali ona verilmiş əmrə
görə döyüş və çapar atlarının olduqları
yerə arpa-saman göndərirdi.

Süleymanın misilsiz hikməti

29 Allah Süleymana dəniz sahilindəki
qum qədər bol hikmət, dərrakə və
ürək genişliyi verdi. 30 Süleymanın
hikməti bütün şərq xalqlarının və
Misirlilərin hikmətindən üstün idi. 31 [c]O
bütün adamlardan, Ezrahlı Etandan,
Maxolun oğulları Heman, Kalkol və
Dardadan hikmətli idi, şöhrəti bütün
ətraf millətlər arasında yayılmışdı.
32 [d]O, üç min məsəl söyləmişdi və onun
min beş nəğməsi var idi. 33 Livanda
olan sidr ağacından tutmuş divarda
bitən züfa otuna qədər bitkilər barədə
bəhs etdi, həmçinin heyvanlar, quşlar,
həşəratlar və balıqlar haqqında danışdı.
34 Süleymanın hikmətli sözlərinə qulaq
asmaq üçün bütün xalqlardan və onun
hikməti barədə eşitmiş bütün dünya
padşahlarından yanına adamlar gəlirdi.

Məbədin tikilməsinə hazırlıq

(2Saln. 2:1-18)

5 Sur padşahı Xiram atasının yerinə
Süleymanın padşah olmaq üçün
məsh edildiyini eşidəndə öz adamlarını
onun yanına göndərdi, çünki Xiram
Davudla bütün ömrü boyu dost
olmuşdu. 2 Süleyman Xirama xəbər
göndərib dedi: 3 «Sən bilirsən ki, atam
Davud Allahı Rəbbin adına bir məbəd
tikə bilmədi. Çünki Rəbb düşmənlərini
onun ayaqları altına atana qədər
ətrafında müharibələr gedirdi. 4 Ancaq
indi Allahım Rəbb mənə hər tərəfdən
əmin-amanlıq verib: nə bir düşmən var,
nə də bir əngəl. 5 [e]Mən Allahım Rəbbin
adına bir məbəd tikmək niyyətindəyəm;
necə ki Rəbb atam Davuda demişdi:
“Sənin yerinə taxtında oturdacağım
oğlun Mənim adıma məbəd tikəcək”.
6 İndi əmr et ki, mənim üçün Livan
dağlarından sidr ağacları kəsilsin.
Adamlarım da sənin adamlarınla birgə
olacaq və mən sənin adamların üçün
nə qədər desən, o qədər zəhmət haqqı
verəcəyəm. Çünki bilirsən ki, bizdə
Sidonlular kimi ağac kəsməyi bilən
adamlar yoxdur».
7 Xiram Süleymanın sözlərini eşidəndə
çox sevindi və dedi: «Bu gün Rəbbə
alqış olsun ki, bu böyük xalqı idarə
etmək üçün Davuda belə müdrik
oğul verdi!» 8 O, Süleymana xəbər
göndərib dedi: «Mənə göndərdiyin sözü
eşitdim. Mən sənin sidr və şam ağacları
barədə hər istəyini yerinə yetirəcəyəm:
9 mənim adamlarım onları Livandan
dənizə endirərlər və mən bu ağaclardan
sallar düzəldərəm, dəniz yolu ilə təyin

---

[b] **4:26** 1Pad. 10:26; 2Saln. 1:14; 9:25
[c] **4:31** Zəb. 89 başlıq
[d] **4:32** Sül. 1:1; 10:1; 25:1; Nəğ. 1:1
[e] **5:5** 2Şam. 7:12-13; 1Saln. 17:11-12

edəcəyin yerə apararam və onları orada
ayırıb yığaram, sən isə götürərsən.
Ancaq sən də mənim istəyimi yerinə
yetirib evimi ərzaqla təmin et». 10 Xiram
Süleymana istədiyi qədər sidr və şam
ağacları verirdi. 11 Süleyman isə hər il
Xiramın evi üçün ərzaq olaraq iyirmi
min kor buğda və iyirmi kor xalis
zeytun yağı verirdi. 12 Rəbb vəd etdiyi
kimi Süleymana hikmət verdi. Xiramla
Süleyman arasında sülh var idi və onlar
bir-biri ilə saziş bağlamışdılar.
13 Padşah Süleyman bütün İsraillilər
üzərinə əmək mükəlləfiyyəti qoydu.
Mükəlləfiyyətçilər otuz min nəfər idi.
14 Hər ay onların on min nəfərini növbə
ilə Livana göndərirdi; bir ay Livanda, iki
ay evlərində qalırdılar. Onların üzərində
Adoniram nəzarət edirdi. 15 Süleymanın
yük daşıyan yetmiş min və dağlarda
daş yonan səksən min adamı var idi.
16 Bunlardan başqa, Süleyman işə
nəzarət etmək üçün üç min üç yüz nəfər
məmur qoymuşdu. Onlar adamlara
hökm edir və iş görürdülər. 17 Padşahın
əmrinə görə işçilər məbədin bünövrəsini
yonulmuş daşdan qoymaq üçün böyük
və dəyərli daşlar kəsib gətirdilər.
18 Süleymanın və Xiramın ustaları
Gevallılarla birgə məbədi tikmək üçün
taxtalar və daşlar yonub hazırladılar.

Məbədin tikilməsi

(2Saln. 3:1-14)

6 İsrail övladları Misir torpağından
çıxdıqdan dörd yüz səksən il
sonra – Süleymanın İsrail üzərində
padşahlığının dördüncü ilində, ikinci
ay olan Ziv ayında o, Rəbbə məbəd
tikməyə başladı. 2 Padşah Süleymanın
Rəbbə tikdiyi məbədin uzunluğu altmış,
eni iyirmi və hündürlüyü otuz qulac idi.
3 Məbədin böyük otağının önündə olan
eyvanın uzunluğu məbədin eninə görə
iyirmi qulac və eni məbədin önündə on
qulac idi. 4 O, məbəd üçün qəfəslə bağlı
pəncərələr düzəltdi. 5 Məbədin divarına
bitişik, bütün məbədin divarını, yəni
böyük otağı və iç otağı dövrəyə alan
artırma tikdi. Onun içində məbədi əhatə
edən yan otaqlar düzəltdi. 6 Artırmanın
alt mərtəbəsinin eni beş, ortasındakının
eni altı, üçüncüsünün eni isə yeddi
qulac idi. Çünki artırmanın dirəkləri
məbədin divarına dəyməsin deyə
məbədin divarı ətrafında bayır tərəfdən
çıxıntılar düzəldilmişdi.
7 Məbədin tikilməsi üçün karxanada
hazırlanan yonulmuş daşlar işlədilmişdi.
Məbəddə tikinti zamanı nə gürzün, nə
iskənənin, nə də başqa bir dəmir alətin
səsi eşidildi. 8 Orta mərtəbəyə giriş
məbədin sağ tərəfində idi. Pilləkənlərlə
orta mərtəbəyə, orta mərtəbədən isə
üçüncü mərtəbəyə çıxırdılar. 9 Beləcə
Süleyman məbədi tikib qurtardı. Məbədi
sidr ağacından olan tirlər və taxtalarla
örtdü. 10 Bütün məbədə bitişik olan
mərtəbələri beş qulac hündürlüyündə
tikdi və bunlar sidr dirəklərlə məbədə
bərkidilmişdi.
11 Süleymana Rəbbin bu sözü nazil
oldu: 12 «Budur, sən məbəd tikirsən.
Əgər sən Mənim qaydalarımla getsən,
hökmlərimə və əmrlərimə uyğun
hərəkət etsən, onda Mən atan Davuda
verdiyim sözü sənin vasitənlə yerinə
yetirəcəyəm: 13 İsrail övladlarının
arasında yaşayacağam və xalqım İsraili
tərk etməyəcəyəm».
14 Süleyman məbədi tikib qurtardı.
15 Məbədin divarlarına içəridən sidr
taxtalarla örtük vurdu və məbədin
döşəməsini şam ağacından olan
taxtalarla örtdü. Beləcə məbədi
döşəməsindən divarlarına və tavanına
qədər ağacla örtdü. 16 [f]Məbədin arxa
tərəfində döşəmədən tavana qədər sidr

[f]**6:16** Çıx. 26:33-34

taxtalarla örtülmüş uzunluğu iyirmi
qulac olan bir bölmə ayırıb orada Ən
Müqəddəs yer üçün bir iç otaq hazırladı.
17 İç otağın bayırında olan böyük otaq
qırx qulac uzunluğunda idi. 18 Məbədin
içindəki sidr ağaclarının üstündə
balqabaq və açılmış güllərin təsviri
oyulmuşdu. Hər şey sidrlə örtülmüşdü,
daş heç görünmürdü. 19 Məbədin
içərisindəki iç otağı isə o, Rəbbin Əhd
sandığını qoymaq üçün hazırladı. 20 İç
otağın uzunluğu iyirmi, eni iyirmi və
hündürlüyü iyirmi qulac idi. Oranı
və sidr ağacından olan qurbangahın
üstünü xalis qızılla örtdü. 21 Süleyman
məbədi içəridən xalis qızılla örtdü, iç
otağın önündən qızıl zəncirlər keçirdi
və onu qızılla örtdü. 22 [g]O bütün məbədi
tikib qurtararaq onu başdan-başa qızılla
örtdü. İç otağa aid olan qurbangahı da
tamamilə qızılla örtdü.

23 [h]İç otaqda zeytun ağacından
hündürlüyü on qulac olan iki keruv
düzəltdi. 24 Keruvun bir qanadının
uzunluğu beş qulac, o biri qanadının da
uzunluğu beş qulac idi; bir qanadının
ucundan o biri qanadının ucuna qədər
on qulac idi. 25 O biri keruvun ölçüsü
də on qulac idi. Hər iki keruv eyni
ölçüdə və eyni görkəmdə idi. 26 Hər
ikisinin hündürlüyü on qulac idi. 27 O,
keruvları məbədin iç otağının ortasına
qoydu. Keruvların qanadları açıq idi. Bir
keruvun qanadı bir divara, o birisinin
qanadı isə o biri divara toxunurdu.
Onların o biri qanadları məbədin
ortasında bir-birinə toxunurdu. 28 O,
keruvları qızılla örtdü.

29 Məbədin iç və bayır otağındakı
bütün divarlarında keruvların, xurma
ağaclarının və açılmış güllərin oyma
təsvirini düzəltdi. 30 Məbəddə iç və
bayır otağın döşəməsini qızılla örtdü.

31 İç otağın girişi üçün zeytun
ağacından qapılar düzəltdi. Onların
çərçivəsi beşguşəli idi. 32 O, zeytun
ağacından düzəldilmiş iki qapı üzərində
keruvların, xurma ağaclarının və açılmış
güllərin təsvirini oydu və qapıları qızılla
örtdü. Keruvların və xurma ağaclarının
üstünə qızıl çəkdi. 33 Eləcə də böyük
otağın girişi üçün zeytun ağacından
dördguşəli çərçivə, 34 həmçinin şam
ağacından iki qapı düzəltdi. Bir qapının
hər iki tayı qatlanırdı, o biri qapının
da hər iki tayı qatlanırdı. 35 Onların
üstündə keruvların, xurma ağaclarının,
açılmış güllərin təsvirini oydu və oyma
işinin üstünü qızılla örtdü. 36 O, üç
cərgə yonulmuş daşlardan və bir cərgə
sidr dirəklərdən içəri həyət tikdi.

37 Dördüncü ildə, Ziv ayında Rəbbin
məbədinin bünövrəsi qoyuldu, 38 on
birinci ildə, səkkizinci ay olan Bul
ayında məbəd bütün ləvazimatı ilə birgə
və bütün şəklinə görə tikilib qurtardı.
Beləcə Süleyman onu yeddi ilə tikdi.

Süleymanın sarayı

7 Ancaq Süleyman öz sarayını
ətrafdakı bütün evlərlə birlikdə
on üç ilə tikib qurtardı. 2 Onun tikdiyi
«Livan meşəsi» adlı sarayın uzunluğu
yüz, eni əlli, hündürlüyü isə otuz qulac
idi. O, dörd cərgə sidr sütunlardan və
sütunlar üzərində olan sidr dirəklərdən
ibarət idi. 3 Sütunlar üzərindəki qırx
beş dirəyin üstündə sidrdən olan dam
salınmışdı və hər cərgədə on beş dirək
var idi. 4 Pəncərə çərçivələri üç cərgə
idi və onların içində qarşı-qarşıya üç
cərgə pəncərə var idi. 5 Bütün girişlər
və onların çərçivələri dördguşəli idi.
Girişlər qarşı-qarşıya olmaqla üç cərgə
idi.

6 Süleyman uzunluğu əlli, eni otuz
qulac olan sütunlu bir eyvan tikdi.

---

[g]**6:22** Çıx. 30:1-3 [h]**6:23** Çıx. 25:18-20

Qabağında artırma və sütunlar, onların
qabağında isə eşik düzəltdi. 7 O
həmçinin hökm verəcəyi taxt eyvanını,
yəni məhkəmə otağını tikdi və onu
döşəmədən tavana qədər sidr ağacı
ilə örtdü. 8 [i]Onun yaşadığı ev eyvanın
arxasında, o biri həyətdə idi və eyni
quruluşda tikilmişdi. Süleyman arvad
aldığı firon qızı üçün də bu eyvan kimi
bir ev tikdirdi.
9 Bütün bunlar iç və bayır tərəfdən,
bünövrədən dama və bayır tərəfdən
böyük həyətə qədər ölçüyə görə
yonulmuş, daş mişarı ilə kəsilmiş
dəyərli daşlardan düzəldilmişdi.
10 Bünövrə böyük və dəyərli daşlardan –
on qulaclıq və səkkiz qulaclıq daşlardan
qoyulmuşdu. 11 Onların üstündə ölçüyə
görə yonulmuş dəyərli daşlar və sidr
dirəklər var idi. 12 Rəbbin məbədinin
içəri həyəti və məbədin eyvanı kimi
böyük həyət də üç cərgə yonulmuş
daş və bir cərgə sidr dirəklərlə əhatə
olunmuşdu.

Xiramın məbəd üçün tunc şeylər düzəltməsi

(2Saln. 3:15–5:1)

13 Padşah Süleyman Xiram adlı bir
nəfəri Surdan gətirtdi. 14 Onun anası
Naftali qəbiləsindən dul bir qadın, atası
isə Surlu bir misgər idi. Xiram tuncdan
hər cür şey qayırmaq işində hikmətli,
dərrakəli və bilikli idi. O, padşah
Süleymanın yanına gəldi və onun bütün
işlərini gördü.
15 Xiram iki tunc sütun düzəltdi. Hər
sütunun hündürlüyü on səkkiz qulac idi
və hər birinin ətrafına on iki qulaclıq bir
ip dolanmışdı. 16 O, sütunların üstünə
qoymaq üçün tökmə tuncdan iki başlıq
düzəltdi. Hər iki başlığın hündürlüyü
beş qulac idi. 17 Sütunların üstündə olan
başlıqlarda hörmə torlar və zəncirvari
çələnglər var idi. Hər iki başlıqda
yeddi dənə var idi. 18 O, sütunları belə
düzəltdi. Sütunların üstündəki başlıqları
örtmək üçün hörmə torların ətrafında
iki cərgə nar düzəltdi və hər başlıq üçün
də belə etdi. 19 Eyvanda olan sütunların
üstündəki başlıqlar su zanbağı şəklində
düzəldilmişdi və hər birinin hündürlüyü
dörd qulac idi. 20 Hər iki sütunun
yuxarısında olan başlıqlar hörmə
torların yanındakı girdə çıxıntının üst
tərəfində idi. Hər başlığın üzərində
dairəvi cərgələrdə iki yüz nar var idi.
21 Xiram məbədin eyvanında sütunlar
qoydu. Sağ tərəfdə olan sütunu Yakin,*
sol tərəfdəkini isə Boaz† adlandırdı.
22 Sütunların üstündəki başlıqlar su
zanbağı şəklində idi. Beləcə sütunların
işi qurtardı.
23 Xiram tuncdan tökülmüş dairəvi
bir hovuz‡ düzəltdi. Onun hündürlüyü
beş qulac idi və bir kənarından digər
kənarına qədər on qulac idi, otuz
qulaclıq bir ip də onun ətrafına
dolanmışdı. 24 Hər tərəfdən kənarının
altından onu balqabaq təsvirləri əhatə
edirdi. Hər qulacda on balqabaq var
idi. Balqabaqlar iki cərgə idi və onlar
hovuzla birgə tökülmüşdü. 25 Hovuz on
iki tökmə buğanın üstündə dururdu:
üçü şimala, üçü qərbə, üçü cənuba,
üçü də şərqə baxırdı. Hovuz yuxarıda –
onların üzərində idi və buğaların bütün
sağrıları içəriyə doğru idi. 26 Hovuzun
qalınlığı bir ovuc idi, onun kənarı kasa
kənarı kimi düzəldilmişdi və açılan
zanbağa bənzəyirdi. O, iki min bat su
tuturdu.

---

*7:21 *Yakin* – ibrani dilində *möhkəm.*
†7:21 *Boaz* – ibrani dilində *güclü.*
‡7:23 *Hovuz* – hərfi tərcümədə *dəniz.*

[i]7:8 1Pad. 3:1

27 Xiram tuncdan on dayaq düzəltdi.
Hər dayağın uzunluğu dörd, eni
dörd və hündürlüyü üç qulac idi.
28 Dayaqlar belə hazırlanmışdı: onların
yan lövhələri var idi və yan lövhələr
gövdəyə bərkidilmişdi. 29 Gövdənin
arasında olan yan lövhələr üzərində
şir, buğa və keruv təsvirləri var
idi. Həmçinin gövdədə, şir və buğa
təsvirlərinin yuxarısında və aşağısında
asma çələnglər var idi. 30 Hər dayağın
dörd tunc çarxı, tunc oxları və ləyən
üçün dörd tökmə çıxıntısı var idi.
Çıxıntılar hər tərəfdən çələnglərlə
bəzədilmişdi. 31 Dayağın başlığında
bir oyuq var idi. Başlığın hündürlüyü
bir qulac idi, oyuq isə dəyirmi və
bir qulac yarım enində idi, üstündə
oymalar var idi. Yan lövhələr dairəvi
deyil, dördguşəli idi. 32 Dörd çarx yan
lövhələrin altında idi və çarxların oxları
dayaqda idi. Bir çarxın hündürlüyü bir
qulac yarım idi. 33 Çarxların quruluşu
döyüş arabalarının çarxlarının quruluşu
kimi idi. Onların oxları, sağanaqları,
milləri və topları – hər şeyi tökmə
idi. 34 Hər dayağın dörd küncündə
çıxıntı var idi. Çıxıntılar dayağa bitişik
idi. 35 Dayağın başında yarım qulac
hündürlüyündə dəyirmi bir çənbər var
idi. Dayağın başında olan dəstəkləri və
yan lövhələri özünə bitişik idi. 36 Xiram
dəstəklərin və yan lövhələrin üzərində
yer çatan qədər keruv, şir, xurma ağacı
təsvirləri, ətrafında isə çələnglər oydu.
37 Beləcə on dayaq düzəltdi. Onların
hamısı bir tökmədə, bir ölçüdə və bir
quruluşda idi.

38 [j]Xiram on dayağın üstünə qoymaq
üçün tuncdan on ləyən düzəltdi. Hər
ləyən qırx bat tuturdu və dörd qulac
enində idi. 39 Dayaqların beşini məbədin
sağ tərəfində, beşini də məbədin sol
tərəfində qoydu. Hovuzu isə məbədin
cənub-şərq küncündə yerləşdirdi.

40 O həmçinin qazanlar, kürəklər,
piyalələr düzəltdi. Xiram Rəbbin məbədi
üçün padşah Süleymanın əmri ilə bütün
bu işləri görüb qurtardı:
41 iki sütun;
sütunların üstündə iki dəyirmi başlıq;
sütunların üstündəki başlıqları örtmək
üçün iki hörmə tor;
42 sütunların üstündə olan dəyirmi
başlıqları örtən hər hörmə torun
üzərində iki cərgədə dörd yüz nar;
43 on dayaq;
dayaqların üzərində on ləyən;
44 bir hovuz;
hovuzun altında on iki tökmə buğa;
45 qazanlar, kürəklər və piyalələr.

Bütün bu əşyaları Xiram Rəbbin
məbədi üçün padşah Süleymanın əmri
ilə cilalanmış tuncdan düzəltmişdi.
46 Padşah bunları İordan çayının
kənarındakı düzənlikdə Sukkot ilə
Sartan arasındakı gilli torpaqlarda
tökmüşdü. 47 Bütün bu əşyalar həddən
artıq çox olduğu üçün Süleyman onlara
işlədilən tuncun çəkisini müəyyən
etmədi.

48 [k]Süleyman Rəbbin məbədindəki
bütün bu əşyaları düzəltdi:
qızıl qurbangah;
təqdis çörəkləri qoyulan qızıl masa;
49 [l]iç otağın önündə beşi sağ tərəfdə,
beşi də sol tərəfdə olan xalis qızıldan
çıraqdanlar;
qızıldan olan qönçə, çıraqlar və maşalar;
50 xalis qızıldan kasalar, maqqaşlar,
piyalələr, nimçələr və buxurdanlar;
iç otağın, yəni Ən Müqəddəs yerin və
böyük otağın qapıları üçün qızıldan
ilgəklər.

51 [m]Padşah Süleymanın Rəbbin
məbədində gördüyü bütün işlər

---

[j] **7:38** Çıx. 30:17-21
[k] **7:48** Çıx. 30:1-3; Çıx. 25:23-30
[l] **7:49** Çıx. 25:31-40
[m] **7:51** 2Şam. 8:11; 1Saln. 18:11

qurtardı. Atası Davudun təqdis etdiyi
qızıl-gümüşü və əşyaları Süleyman içəri
gətirib Rəbbin məbədinin xəzinələrinə
qoydu.

Əhd sandığının məbədə gətirilməsi

(2Saln. 5:2–6:2)

8 [n]O zaman padşah Süleyman
İsrailin ağsaqqallarını, bütün qəbilə
başçılarını, yəni İsrail övladlarının
nəsil rəhbərlərini Yerusəlimə, özünün
yanına topladı ki, Rəbbin Əhd sandığını
Davudun şəhəri olan Siondan yuxarı
gətirsinlər. [2] Yeddinci – Etanim ayında
olan bayram vaxtı bütün İsrail xalqı
padşah Süleymanın yanına toplandı.
[3] Bütün İsrail ağsaqqalları gələndə
kahinlər Rəbbin sandığını götürdülər.
[4] Onunla birgə Hüzur çadırını və çadırda
olan bütün müqəddəs əşyaları kahinlər
və Levililər yuxarı gətirdilər. [5] Padşah
Süleyman və onun yanına toplanmış
bütün İsrail icması sandığın önündə
çoxluğuna görə sayı-hesabı bilinməyən
qədər qoyun-keçi və mal-qara qurban
kəsirdilər. [6] Kahinlər Rəbbin Əhd
sandığını öz yerinə, məbədin iç otağına
– Ən Müqəddəs yerə, keruvların
qanadları altındakı yerinə gətirdilər.
[7] Keruvlar qanadlarını sandığın yeri
üzərində açmışdı, onlar sandığı və
onun şüvüllərini örtmüşdü. [8] Şüvüllər
elə uzun idi ki, onların ucu iç otağın
önündəki Müqəddəs yerdən görünürdü,
ancaq bayır tərəfdən görünmürdü.
Onlar bu günə qədər oradadır. [9] [o]İsrail
övladları Misir torpağından çıxdıqları
zaman Rəbbin onlarla əhd bağladığı
Xorevdə Musa sandığın içinə iki daş
lövhə qoymuşdu. Bunlardan başqa,
sandığın içində heç bir şey yox idi.
[10] [p]Kahinlər Müqəddəs yerdən
çıxdıqları vaxt bulud Rəbbin məbədini
elə doldurdu ki, [11] buluda görə onlar
ibadət etmək üçün orada dayana
bilmədilər. Çünki Rəbbin izzəti Onun
məbədini doldurmuşdu. [12] O zaman
Süleyman dedi:

«Rəbb istədi ki, qatı qaranlıqda
məskən salsın.
[13] Mən Sənin üçün uca bir məbəd
tikdim ki,
Sənin əbədi yaşayacağın yer olsun».

Süleymanın xalqa müraciəti

(2Saln. 6:3-11)

[14] Padşah dönüb bütün İsrail
camaatına xeyir-dua verdi. Bu zaman
bütün İsrail camaatı ayaq üstə
durmuşdu. [15] Padşah dedi: «İsrailin
Allahı Rəbbə alqış olsun ki, atam
Davuda Öz ağzı ilə dediyini Öz əli ilə
yerinə yetirdi. O söyləmişdi: [16] [q]“Mən
xalqım İsraili Misirdən çıxardığım
gündən bəri bir məbəd tikmək üçün
İsrailin heç bir qəbiləsindən şəhər
seçməmişdim ki, adım üstündə
olsun, ancaq xalqım İsrailin üzərində
olmaq üçün Davudu seçdim”. [17] [r]Atam
Davudun ürəyində İsrailin Allahı Rəbbin
adına bir məbəd tikmək istəyi var idi.
[18] Lakin Rəbb atam Davuda dedi: “Sən
yaxşı eləmisən ki, Mənim adıma bir
məbəd tikmək niyyətinə düşmüsən.
[19] [s]Ancaq məbədi sən tikməyəcəksən,
sənin belindən gələn oğlun Mənim
adıma məbəd tikəcək”. [20] Rəbb vəd
etdiyini yerinə yetirdi: belə ki mən atam
Davudun yerinə qalxdım, Rəbbin dediyi
kimi İsrail taxtında oturdum və İsrailin
Allahı Rəbbin adına məbəd tikdim.
[21] Orada sandıq üçün yer hazırladım.
Atalarımızı Misir torpağından çıxardığı

---

[n] **8:1** 2Şam. 6:12-16; 1Saln. 15:25-29 [o] **8:9** Qanun. 10:5
[p] **8:10** Çıx. 40:34-35 [q] **8:16** 2Şam. 7:4-11; 1Saln. 17:3-10
[r] **8:17** 2Şam. 7:1-3; 1Saln. 17:1-2 [s] **8:19** 2Şam. 7:12-13; 1Saln. 17:11-12

vaxt Rəbbin onlarla bağladığı əhd onun
içindədir».

Məbədin təqdisi üçün Süleymanın duası

(2Saln. 6:12-42)

22 Süleyman Rəbbin qurbangahı
önündə, bütün İsrail camaatının
qarşısında durdu və əllərini göyə açıb
dedi: 23 «Ya Rəbb, İsrailin Allahı! Nə
yuxarıda göydə, nə də aşağıda yerdə
Sənin kimi Allah yoxdur. Sən bütün
ürəkləri ilə yolunla gedən qullarına
əhdini və lütfünü saxlayırsan. 24 Sən
qulun atam Davuda verdiyin vədə əməl
etdin, Öz dilinlə söylədiyini bu gün
Öz əlinlə yerinə yetirdin. 25 [t]Ya Rəbb,
İsrailin Allahı, indi də qulun atam
Davuda dediyin sözə əməl et, Özün
söyləmişdin: "Sən yolumla getdiyin
kimi oğulların da yolumla gedərək
öz əməllərinə diqqət etsələr, İsrail
taxtında sənin nəslindən bir kişi əskik
olmayacaq". 26 Ey İsrailin Allahı, indi
qulun atam Davuda dediyin sözü təsdiq
et!
27 [u]Lakin, doğrudan da, Allah yerdə
yaşayarmı? Sən göyə və göylərin
göyünə sığmazsan, o ki qaldı mənim
tikdiyim məbədə! 28 Ancaq Sən bu
qulunun duasına və yalvarışına nəzər
sal, ya Rəbb Allahım. Bu gün qulunun
Sənin önündə etdiyi fəryadı və duanı
eşit. 29 [v]Qoy Sənin nəzərin gecə-gündüz
bu məbədin üstündə olsun. Bu yer
barədə Sən demisən: "Mənim adım
orada olacaq". Qulunun buraya üz
tutub etdiyi duanı eşit. 30 Bu yerə tərəf
dua etdikləri vaxt Öz qulunun və xalqın
İsrailin yalvarışlarını Sən eşit, göydə –
Öz məskənində eşit və bağışla!
31 Əgər bir adam öz yaxınına qarşı
günah edərsə və ondan and içmək tələb
olunarsa, o da gəlib bu məbəddə, Sənin
qurbangahın önündə and içərsə, 32 o
vaxt Sən göydə eşit və belə et, qulların
üzərində hökm et: əməlini öz başına
döndərərək müqəssiri ittiham et və
təqsirsizə salehliyinə görə bəraət ver.
33 Əgər xalqın İsrail Sənə qarşı günah
etdiyi üçün düşmən önündə məğlub
olsa, onlar təkrar Sənə tərəf dönüb adını
dillərinə gətirsələr və bu məbəddə Sənə
yalvarıb fəryad etsələr, 34 o vaxt Sən
göydə eşit və xalqın İsrailin günahını
bağışla, onları yenə atalarına verdiyin
torpağa qaytar.
35 Əgər xalqın Sənin önündə günah
etdiyi üçün göy bağlanıb yağış
yağmayan vaxt bu yerə tərəf dua edərək
adını dillərinə gətirsələr və Sən onlara
bəla göndərdiyin vaxt öz günahlarından
dönsələr, 36 o vaxt Sən göydə eşit,
qullarının və xalqın İsrailin günahını
bağışla və gedəcəkləri doğru yolu
onlara göstər. Xalqına irs kimi verdiyin
torpağına da yağış göndər.
37 Əgər ölkədə aclıq, vəba olarsa,
səmum küləyi ya kif, çəyirtkə ya
bitki qurdu olarsa, əgər düşmən
onları ölkənin hər hansı bir şəhərində
mühasirəyə alarsa – hansı bəla,
hansı xəstəlik olursa-olsun – 38 kimsə
tərəfindən yaxud da bütün xalqın İsrail
tərəfindən bir dua və yalvarış olarsa, hər
kəs öz ürəyinin dərdini bilib bu məbədə
tərəf əllərini açarsa, 39 o vaxt Sən göydə
– Öz məskənində eşit, bağışla və bir əlac
et. Ürəyini bildiyin hər adama bütün
əməllərinə görə əvəz ver, çünki hər
insanın ürəyini yalnız Sən bilirsən. 40 Ta
ki onlar atalarımıza verdiyin torpaqda
yaşadıqları bütün günlər boyu Səndən
qorxsunlar.
41 Əgər xalqın İsraildən olmayan
yadelli də Sənin adın naminə uzaq
ölkədən gəlsə, 42 Sənin böyük adın,
qüdrətli əlin və uzanan qolun barədə

---

[t] **8:25** 1Pad. 2:4 [u] **8:27** 2Saln. 2:6 [v] **8:29** Qanun. 12:11

eşidib bu məbədə tərəf dua etsə, 43 o
vaxt Sən göydə – Öz məskənində eşit
və yadellinin Sənə fəryad etdiyi hər
şeyi elə ki, yer üzünün bütün xalqları
da Sənin adını tanısınlar, xalqın İsrail
kimi Səndən qorxsunlar və tikdiyim
bu məbədin Sənin adınla çağırıldığını
bilsinlər.
44 Əgər xalqın göndərdiyin yolla
düşməninə qarşı müharibəyə çıxsa və
Sənin seçdiyin şəhərə tərəf, Sənin adına
tikdiyim məbədə doğru üz çevirib Rəbbə
dua etsə, 45 Sən göydə onların dua və
yalvarışlarını eşit, onların tərəfində ol.
46 Əgər onlar önündə günah etsələr –
çünki günah etməyən insan yoxdur –
Sən qəzəblənib onları düşmənə təslim
etsən və düşmən onları əsir edib yaxın
ya uzaq torpağına aparsa, 47 onlar
əsirlikdə olduqları ölkədə ürəklərini
döndərib tövbə etsələr və Sənə dua
edərək "biz günah və haqsızlıq etdik,
pislik etdik" desələr, 48 onları əsir edən
düşmənlərin ölkəsində bütün ürəkləri
və canları ilə Sənə tərəf dönsələr,
atalarına verdiyin torpağa, seçdiyin
şəhərə və adına tikdiyim məbədə
tərəf üz tutub Sənə dua etsələr, 49 o
vaxt Sən göydə – Öz məskənində
onların dua və yalvarışlarını eşit,
onların tərəfində ol. 50 Sənin önündə
günah edən xalqını və onun Sənə qarşı
etdiyi bütün üsyankarlıqları bağışla
və onları əsir alanlara insaf ver ki,
onlara qarşı rəhmli olsunlar. 51 Çünki
onlar Sənin xalqın, Sənin irsindir,
Sən onları Misirdən, dəmir kürənin
içindən çıxartmısan. 52 Bu qulunun və
xalqın İsrailin yalvarışına nəzər yetir ki,
onların Sənə fəryad etdikləri hər sözü
eşidəsən. 53 Çünki, ya Xudavənd Rəbb,
Sən irsin olmaq üçün onları yer üzünün
bütün xalqlarından ayırdın. Bunu
atalarımızı Misirdən çıxartdığın vaxt
qulun Musa vasitəsilə söyləmişdin».

Süleymanın xalqa xeyir-dua verməsi

54 Süleyman bütün bu dua və
yalvarışlarını Rəbbə söyləyib
qurtarandan sonra Rəbbin qurbangahı
önündən, əlləri göyə açıq halda diz
çökdüyü yerdən qalxdı. 55 O ayağa
durdu və bütün İsrail camaatına uca
səslə xeyir-dua verib dedi: 56 [w]«Rəbbə
alqış olsun ki, vəd etdiyi kimi xalqı
İsrailə dinclik verdi! Öz qulu Musanın
vasitəsilə verdiyi yaxşı vədlərindən heç
biri hədər getmədi. 57 Qoy Allahımız
Rəbb atalarımıza yar olduğu kimi bizə
də yar olsun, qoy bizi buraxmasın
və tərk etməsin. 58 Bizim ürəklərimizi
Özünə tərəf yönəltsin ki, Onun yolları ilə
gedək və Onun atalarımıza buyurduğu
əmrlərinə, qanunlarına və hökmlərinə
əməl edək. 59 Qoy Rəbbin önündə bu
yalvarış sözlərim gecə-gündüz Rəbb
Allahımızın xatirində olsun, Öz qulunun
və xalqı İsrailin yaxşılığı üçün günbəgün
çalışsın. 60 Ta ki yer üzünün bütün
xalqları bilsin: yalnız Rəbb Allahdır,
Ondan başqası yoxdur. 61 Qoy sizin
ürəyiniz bütünlüklə Allahımız Rəbbə
sadiq olsun ki, bu gün olduğu kimi
Onun qanunları ilə gedəsiniz və Onun
əmrlərinə əməl edəsiniz».

Məbədin təqdis edilməsi

(2Saln. 7:4-10)

62 Padşah və onunla birgə bütün
İsraillilər Rəbbin önündə qurbanlar
kəsdilər. 63 Süleymanın Rəbbə təqdim
etdiyi ünsiyyət qurbanlarının sayı
iyirmi iki min baş mal-qara və yüz
iyirmi min baş qoyun-keçi idi. Beləliklə,
padşah və bütün İsrail övladları Rəbbin
məbədini təqdis etdilər. 64 Həmin
gün padşah Rəbbin məbədi önündəki

---

[w]**8:56** Qanun. 12:10; Yeşua 21:44-45

həyətin ortasını təqdis etdi ki, yandırma
qurbanlarını, taxıl təqdimlərini və
ünsiyyət qurbanlarının piyini orada
təqdim etsin, çünki Rəbbin önündəki
tunc qurbangah kiçik olduğu üçün
yandırma qurbanları, taxıl təqdimləri
və ünsiyyət qurbanlarının piyi oraya
yerləşməzdi.
65 O vaxt Süleyman və onunla birgə
böyük bir camaat – Xamat keçidindən
Misir vadisinə qədər yaşayan bütün
İsraillilər Allahımız Rəbbin önündə
yeddi gün və daha yeddi gün – on dörd
gün bayram etdilər. 66 Səkkizinci gün
Süleyman xalqı buraxdı. Onlar padşaha
xeyir-dua verib Rəbbin qulu Davuda və
xalqı İsrailə etdiyi bütün yaxşılıqlara
görə sevinclə və şad ürəklə öz evlərinə
getdilər.

Rəbbin yenə Süleymana görünməsi

(2Saln. 7:11-22)

9 Süleyman Rəbbin məbədini, padşah
sarayını və tikmək istədiyi bütün
şeyləri tamamlayıb qurtarandan sonra
2 [x]Rəbb Giveonda göründüyü kimi ikinci
dəfə ona göründü. 3 Rəbb Süleymana
dedi: «Mən önümdə etdiyin dua və
yalvarışını eşitdim. Adımı əbədilik
oraya qoymaq üçün tikdiyin bu məbədi
təqdis etdim. Mənim nəzərim və ürəyim
daim orada olacaq. 4 Əgər Mənim sənə
əmr etdiklərimi yerinə yetirərək atan
Davud kimi ürək bütövlüyü və düzlüklə
yolumla getsən, Mənim qanunlarıma
və hökmlərimə əməl etsən, 5 [y]sənin
padşahlıq taxtını İsrail üzərində əbədi
ucaldacağam. Bunu atan Davuda "İsrail
taxtında sənin nəslindən bir kişi əskik
olmayacaq" deyə vəd etmişdim. 6 Ancaq
siz və övladlarınız ardımca getməkdən
dönüb qarşınıza qoyduğum əmrlərimə
və qaydalarıma əməl etməsəniz, gedib
başqa allahlara qulluq edərək onlara
səcdə etsəniz, 7 Mən İsraillilər onlara
verdiyim torpaqdan silib atacağam və
Öz adıma təqdis etdiyim bu məbədi
hüzurumdan rədd edəcəyəm. Onda
İsrail barədə bütün xalqlar arasında
məsəl və kinayə söyləniləcək. 8 Bu
məbədin qalaqları elə uca olacaq ki,
yanından keçən hər kəs dəhşətə gələrək
deyəcək: "Nə üçün Rəbb bu torpağı və
bu məbədi bu cür rədd etdi?" 9 Onlara
deyəcəklər: "Ona görə ki bu xalq
atalarını Misir torpağından çıxaran
özlərinin Allahı Rəbbi tərk etdi və başqa
allahlardan yapışdı, onlara səcdə və
qulluq etdi. Buna görə də Rəbb bütün
bu bəlanı onların üzərinə göndərdi"».

Süleymanın Xiramla müqavilə bağlaması

(2Saln. 8:1-2)

10 Süleyman iki evi – Rəbbin məbədini
və padşah sarayını iyirmi ilə tikib
qurtardıqdan sonra 11 Sur padşahı
Xirama Qalileya diyarında iyirmi şəhər
verdi, çünki Xiram Süleymana onun
arzusuna görə sidr, şam ağacları və qızıl
göndərmişdi. 12 Xiram Surdan çıxdı
ki, Süleymanın ona verdiyi şəhərlərə
baxsın. Onlar Xiramın xoşuna gəlmədi.
13 O dedi: «Qardaşım, bu nə şəhərlərdir,
mənə vermisən?» Onları Kavul [*]torpağı
adlandırdı və bu günə qədər onlar belə
adlanır. 14 Xiram padşaha yüz iyirmi
talant qızıl göndərdi.

Süleymanın tikinti işləri

(2Saln. 8:3-18)

15 Padşah Süleyman əmək
mükəlləfiyyəti qoyub bu işləri gördü:
Rəbbin məbədini, öz sarayını, qala
yamacını, Yerusəlim divarını, Xasoru,
Megiddonu və Gezeri tikdi. 16 Misir

[*]**9:13** *Kavul* – ibrani dilində *heç nə.*

[x]**9:2** 1Pad. 3:5; 2Saln. 1:7 [y]**9:5** 1Pad. 2:4

padşahı firon gəlib Gezeri tutmuşdu
və oranı yandırmışdı. Şəhərdə yaşayan
Kənanlıları qırmışdı və bu şəhəri öz
qızına – Süleymanın arvadına cehiz
vermişdi. 17 Süleyman yenidən Gezeri
tikdi. O həmçinin Aşağı Bet-Xoronu,
18 Baalatı, ölkədəki səhralıqda olan
Tadmoru, 19 özünün bütün anbar
şəhərlərini, döyüş arabalarının
olduğu şəhərləri, süvarilərin olduğu
şəhərləri, Yerusəlimdə, Livanda və onun
hökmranlığı altında olan bütün yerlərdə
tikmək istədiyi hər şeyi tikdi. 20 Ölkədə
İsrail övladlarından olmayan başqa
xalqlar – Emorlular, Xetlilər, Perizlilər,
Xivlilər və Yevuslular qalmışdı, 21 çünki
İsraillilər onların atalarını tamamilə
məhv edə bilməmişdilər. Süleyman
onları mükəlləfiyyətçi qul etdi və
bu indiyə qədər belədir. 22 İsrail
övladlarını isə qul etmədi, ancaq onlar
Süleymanın əsgərləri, əyanları, rəisləri
və sərkərdələri, döyüş arabalarının və
süvarilərinin başçıları idi.
23 Süleymanın işlərinə nəzarət edən
rəislər də İsraillilərdən idi. İş görən
xalqa rəislik edən bu adamlar beş yüz
əlli nəfər idi.
24 Fironun qızı Davudun şəhərindən
Süleymanın onun üçün tikdiyi evinə
köçdü. Sonra Süleyman qala yamacını
tikdi.
25 [z]Süleyman Rəbbə tikdiyi
qurbangahın üzərində ildə üç dəfə
yandırma qurbanları və ünsiyyət
qurbanları gətirirdi, bununla bərabər
Rəbbin önündə buxur yandırırdı. Beləcə
o, məbədin işini görürdü.

Süleymanın donanması

26 Padşah Süleyman həmçinin Edom
ölkəsində, Qırmızı dənizin körfəzində,
Elatın yanında olan Esyon-Gever
limanında donanma düzəltdi. 27 Xiram
öz təbəəsi olan dənizə bələd gəmiçiləri
Süleymanın adamları ilə birgə
donanmaya göndərdi. 28 Onlar Ofirə
gəldilər və oradan dörd yüz iyirmi
talant qızıl götürüb padşah Süleymana
gətirdilər.

Səba mələkəsinin Süleymanın yanına gəlməsi

(2Saln. 9:1-12)

10 [a]Səba mələkəsi Rəbbin adından
ötrü Süleymanın şöhrətini eşidib
onu tapmacalarla sınamağa gəldi. 2 O,
çox böyük karvanla – ətriyyat, çoxlu
qızıl və qiymətli daşlarla yüklənmiş
dəvələrlə Yerusəlimə, Süleymanın
yanına gəldi və ürəyində olan hər şey
barədə onunla söhbət etdi. 3 Süleyman
onun bütün suallarına cavab verdi,
elə bir gizli şey olmadı ki, padşah
ona izah etməsin. 4 Səba mələkəsi
Süleymanın bütün hikmətini və onun
tikdiyi sarayı, 5 süfrəsindəki yeməyi,
əyanlarının oturuşunu, qulluqçularının
xidmətini və onların geyimlərini,
saqilərini, Rəbbin məbədində gətirdiyi
yandırma qurbanlarını görəndə daha
özünü saxlaya bilmədi. 6 O, padşaha
dedi: «Sənin işlərin və hikmətin barədə
öz ölkəmdə eşitdiyim sözlər düz imiş.
7 Gəlib öz gözlərimlə görənə qədər mən
bu sözlərə inanmamışdım. Mənə heç
gördüklərimin yarısı danışılmayıb, sənin
hikmətin və var-dövlətin mən eşitdiyim
şöhrətdən üstündür. 8 Sənin adamların
nə bəxtiyardır, bu qulluqçuların nə
bəxtiyardır ki, həmişə önündə durub
hikmətini eşidirlər. 9 Allahın Rəbbə
alqış olsun ki, səni istəyib İsrail taxtında
oturtdu! Rəbb İsrailə olan əbədi sevgisi
naminə ədalət və salehliklə hökm
etmək üçün səni padşah qoydu». 10 Səba
mələkəsi padşaha yüz iyirmi talant
qızıl, çoxlu ətriyyat və qiymətli daşlar

---

[z] **9:25** Çıx. 23:17; 34:23; Qanun. 16:16

[a] **10:1** Mat. 12:42; Luka 11:31

bağışladı. Onun padşah Süleymana
verdiyi qədər çox ətriyyat hələ heç vaxt
gəlməmişdi.
11 Ofirdən qızıl gətirən Xiramın
gəmiləri oradan çoxlu ardıc ağacı və
qiymətli daşlar gətirdi. 12 Padşah ardıc
ağacından Rəbbin məbədi və padşah
sarayı üçün sürahi, musiqiçilər üçün
lira və çəng düzəltdi. Heç vaxt bu
qədər ardıc ağacı gəlməmişdi və bu
günə qədər görünməmişdi. 13 Padşah
Süleymanın öz səxavətinə görə Səba
mələkəsinə verdiklərindən başqa,
padşah onun arzuladığı və istədiyi
bütün şeyləri verdi. O da adamları ilə
birgə qayıdıb öz ölkəsinə getdi.

Padşah Süleymanın var-dövləti

(2Saln. 9:13-28)

14 Bir ildə Süleymana gələn qızılın
çəkisi altı yüz altmış altı talant
idi. 15 Alver edən adamlardan,
tacirlərin ticarətindən, bütün Ərəb
padşahlarından və ölkənin valilərindən
gələn qızıl buraya daxil deyildi.
16 Padşah Süleyman döymə qızıldan iki
yüz sipər düzəltdi. Bir sipərə altı yüz
şekel qızıl işləndi. 17 O, döymə qızıldan
üç yüz qalxan da düzəltdi. Bir qalxana
üç mina qızıl işləndi. Padşah onları
«Livan meşəsi» adlı sarayına qoydu.
18 Padşah fil sümüyündən böyük
taxt düzəltdi və onu xalis qızılla
örtdü. 19 Taxtın altı pilləsi var idi.
Arxa tərəfdən taxtın başı dəyirmi idi.
Oturacağın hər iki tərəfində qollar
var idi, qolların yanında iki şir təsviri
var idi. 20 Altı pillənin iki tərəfində
isə on iki şir təsviri var idi. Heç bir
padşahlıqda belə şey yox idi. 21 Padşah
Süleymanın bütün içki qabları qızıldan
idi, «Livan meşəsi» adlı sarayında olan
bütün əşyalar da xalis qızıldan idi.
Gümüşdən heç bir şey yox idi, çünki
gümüş Süleymanın dövründə heç nə
sayılırdı. 22 Padşahın dənizdə Xiramın
gəmiləri ilə birgə Tarşiş gəmiləri *var
idi. Üç ildə bir dəfə Tarşiş gəmiləri
qızıl, gümüş, fil sümüyü, meymunlar və
əntərlərlə yüklənərək gəlirdi.
23 Padşah Süleyman var-dövlətdə
və hikmətdə yer üzünün bütün
padşahlarından üstün idi. 24 Süleymanın
ürəyinə Allahın qoyduğu hikməti
eşitmək üçün hamı onun üzünü görmək
istəyirdi. 25 Onun yanına gələn hər kəs
hədiyyə gətirirdi. Beləcə ona hər il qızıl
və gümüş qablar, paltarlar, silahlar,
ətriyyat, atlar və qatırlar gətirilirdi.
26 [b]Süleyman döyüş arabaları və
süvarilər topladı. Onun min dörd
yüz döyüş arabası və on iki min
süvarisi var idi. Onları arabalar üçün
ayrılan şəhərlərdə və Yerusəlimdə,
padşahın yanında yerləşdirdi.
27 [c]Padşah Yerusəlimdə çoxluğuna
görə gümüşü daşlara, sidr ağacını
isə yamaclı-düzənlikli bölgədə bitən
firon ənciri ağacına bərabər etdi.
28 [d]Süleymanın atları Misirdən və
Quvedən gətirilirdi, padşahın tacirləri
onları Quvedən satın alırdılar. 29 Hər
bir döyüş arabası altı yüz şekel, hər
bir at isə yüz əlli şekel gümüşə başa
gəlib, Misirdən gətirilirdi. Bütün Xet və
Aram padşahları da bunları Süleymanın
tacirlərinin vasitəsilə alırdılar.

Süleymanın Allahdan uzaqlaşması

11 [e]Padşah Süleyman fironun
qızından başqa, Moavlılar,
Ammonlular, Edomlular, Sidonlular və
Xetlilərdən çoxlu yadelli qadın sevdi.
2 [f]Rəbb İsrail övladlarına bu xalqlar

*__10:22__ *Tarşiş gəmiləri* – yaxud *ticarət gəmiləri.*

[b]**10:26** 1Pad. 4:26 [c]**10:27** Qanun. 17:17 [d]**10:28** Qanun. 17:16
[e]**11:1** Qanun. 17:17 [f]**11:2** Çıx. 34:16; Qanun. 7:3-4

barədə demişdi: «Onlardan qız almayın
və onlara qız verməyin. Əgər belə
etsəniz, hökmən ürəyinizi öz allahlarına
tərəf azdıracaqlar». Bu qadınlar da
həmin xalqlardan idi. Süleyman sevgi
ilə onlara bağlandı. 3 Onun zadəgan
nəslindən olan yeddi yüz arvadı və
üç yüz kənizi var idi. Arvadları onun
ürəyini yoldan çıxartdılar. 4 Onlar
Süleymanın qocalıq çağında onun
ürəyini başqa allahlara tərəf azdırdılar
və onun ürəyi atası Davuddan fərqli
olaraq Allahı Rəbbə sadiq deyildi.
5 Süleyman Sidonluların ilahəsi Aştoretə
və Ammonluların iyrənc bütü Milkoma
xidmət etdi. 6 Süleyman Rəbbin gözündə
pis olan işlər etdi və atası Davuddan
fərqli olaraq Rəbbə tamamilə xidmət
etmədi. 7 Onda Süleyman Yerusəlimin
şərqindəki dağda Moavın iyrənc bütü
Kemoş üçün və Ammon övladlarının
iyrənc bütü Molek üçün səcdəgah
düzəltdi. 8 O öz allahlarına buxur
yandıran və qurbanlar gətirən bütün
yadelli arvadları üçün belə etdi.
9 Rəbb Süleymana qəzəbləndi, çünki
onun ürəyi İsrailin Allahı Rəbdən
dönmüşdü. Rəbb ona iki dəfə görünərək
10 «başqa allahlara xidmət etmə» deyə
bu barədə əmr etdi, o isə Rəbbin əmrinə
əməl etmədi. 11 Ona görə də Rəbb
Süleymana dedi: «Bu niyyətdə olduğuna
görə, sənə əmr etdiyim əhdimə və
qaydalarıma əməl etmədiyin üçün
Mən hökmən padşahlığını əlindən
çəkib alacağam və onu sənin quluna
verəcəyəm. 12 Ancaq atan Davudun
xatirinə Mən bunu sənin dövründə
etməyəcəyəm, onu sənin oğlunun
əlindən çəkib alacağam. 13 Həm də
bütün padşahlığı çəkib almayacağam,
qulum Davudun xatirinə və Mənim
seçdiyim Yerusəlimdən ötrü bir qəbiləni
sənin oğluna verəcəyəm».

Süleymanın düşmənləri

14 Rəbb Edomlu Hadadı Süleymana
düşmən etdi. O, Edomun padşah
nəslindən idi. 15 Davud Edomda olarkən
ordu başçısı Yoav ölənləri basdırmaq
üçün gəlib Edomda bütün kişiləri
qırmışdı. 16 Yoav bütün İsraillilərlə
birgə Edomda olan bütün kişiləri qırana
qədər altı ay orada qalmışdı. 17 O zaman
Hadad və atasının əyanlarından olan
bəzi Edomlular onunla birgə Misirə
tərəf qaçmışdılar. Hadad balaca bir uşaq
idi. 18 Onlar Midyandan qalxıb Parana
gəldilər, Parandan özləri ilə adamlar
götürüb Misirə, Misir padşahı fironun
yanına gəldilər. O, Hadada ev və torpaq
verdi, onu azuqə ilə təmin etdi. 19 Hadad
fironun gözündə böyük rəğbət qazandı
və firon arvadı mələkə Taxpenesin
bacısını ona arvad olmaq üçün verdi.
20 Taxpenesin bacısı ona oğlu Genuvatı
doğdu. Taxpenes özü fironun evində
onu böyütdü. Genuvat fironun evində,
fironun oğulları arasında idi. 21 Hadad
Misirdə olanda Davudun vəfat etdiyini
və ordu başçısı Yoavın öldüyünü eşidib
firona dedi: «Göndər məni, öz ölkəmə
gedim». 22 Firon ona dedi: «Məgər
mənim yanımda bir şeyə ehtiyacın
var ki, öz ölkənə getmək istəyirsən?»
O cavab verdi: «Yox, ancaq sən məni
göndər, gedim».
23 Allah həmçinin ağası Sova padşahı
Hadadezerdən qaçan Elyada oğlu
Rezonu Süleymana düşmən etdi.
24 Davud Sovalıları qırandan sonra o,
yanına adamlar toplayıb bir quldur
dəstəsinin başçısı olmuşdu. Bu adamlar
Dəməşqə gedib orada qalmışdılar və
Dəməşqdə hökmranlıq edirdilər. 25 O,
Süleymanın bütün ömrü boyu İsrailə
düşmən idi. Hadadın etdiyi pisliklərlə
birgə o da həmişə İsraillilərə pislik
edirdi və kin bəsləyirdi. Aramda o,
padşahlıq edirdi.

Yarovamın padşah olacağı barədə peyğəmbərlik

26 Süleymanın təbəələrindən biri –
Seredadan olan Efrayimli Nevat oğlu
Yarovam da padşaha qarşı çıxmışdı.
Onun dul bir qadın olan anasının adı
Serua idi. 27 Yarovamın padşaha qarşı
çıxmasının səbəbi bu idi: Süleyman
qala yamacını tikdi və atası Davudun
şəhərinin divarındakı yarığı bərpa
etdi. 28 Yarovam bacarıqlı adam idi.
Süleyman cavan oğlanın iş bacarığını
gördü və onu Yusifin nəslindən olan
ağır işdə işləyən adamların üzərində
rəis qoydu.
29 O zaman günlərin birində Yarovam
Yerusəlimdən çıxdı və yolda Şilolu
peyğəmbər Axiya onu qarşıladı. Axiya
təzə paltar geymişdi. Çöldə yalnız
onlar ikisi idi. 30 Axiya əynində olan
təzə paltarı götürüb on iki yerə cırdı.
31 Sonra Yarovama dedi: «Özünə on
hissə götür, çünki İsrailin Allahı Rəbb
belə deyir: “Mən padşahlığı Süleymanın
əlindən çəkib alıram və on qəbiləni
sənə verirəm. 32 Ancaq qulum Davudun
xatirinə və İsrailin bütün qəbilələrindən
seçdiyim şəhər olan Yerusəlimdən ötrü
bir qəbilə onun olacaq. 33 Bunu ona
görə edirəm ki, Süleyman Məni tərk
etdi və Sidonluların ilahəsi Aştoretə,
Moav allahı Kemoşa, Ammonluların
allahı Milkoma səcdə etdi. Atası Davud
gözümdə doğru olan işlər etməklə,
qaydalarıma və əmrlərimə əməl etməklə
Mənim yolumla getdi, amma Süleyman
belə etmədi. 34 Buna baxmayaraq,
bütün padşahlığı onun əlindən
çəkib almayacağam. Əmrlərimə və
qaydalarıma əməl edən seçdiyim qulum
Davudun xatirinə onu bütün ömrü boyu
hökmdar edəcəyəm. 35 Padşahlığı onun
oğlunun əlindən çəkib alacağam və
on qəbiləni sənə verəcəyəm. 36 [g]Onun
oğluna isə bir qəbiləni verəcəyəm ki,
Mənim önümdə, adımı oraya qoymaq
üçün seçdiyim şəhər olan Yerusəlimdə
həmişə qulum Davudun çırağı olsun.
37 Mən səni seçirəm, sən ürəyin istədiyi
hər şey üzərində hökmranlıq edəcəksən
və İsrailin padşahı olacaqsan. 38 Əgər
qulum Davud kimi Mənim qanunlarıma
və əmrlərimə əməl edərək sənə
buyurduğum hər şeyə qulaq assan,
Mənim yolumla getsən və Mənim
gözümdə doğru olan işlər görsən,
onda Mən sənlə olacağam. Davud
üçün qurduğum kimi sənin üçün də
möhkəm bir sülalə quracağam və İsraili
sənə verəcəyəm. 39 Mən bundan ötrü
Davudun nəslini alçaldacağam, ancaq
həmişəlik yox”».
40 Süleyman Yarovamı öldürmək
istədi, ancaq Yarovam qalxıb Misirə,
Misir padşahı Sisaqın yanına qaçdı və
Süleymanın ölümünə qədər Misirdə
qaldı.

Süleymanın ölümü

(2Saln. 9:29-31)

41 Süleymanın qalan işləri, etdiyi hər
şey və onun hikməti barədə Süleymanın
əməlləri kitabında yazılmışdır. 42 O,
Yerusəlimdə bütün İsrail üzərində qırx
il padşahlıq etmişdi. 43 Süleyman ataları
ilə uyudu və atası Davudun şəhərində
basdırıldı. Onun yerinə oğlu Rexavam
padşah oldu.

İsraillilərin Rexavama qarşı çıxması

(2Saln. 10:1-19)

12 Rexavam Şekemə getdi, çünki
bütün İsraillilər onu padşah
etmək üçün Şekemə gəlmişdilər.
2 Nevat oğlu Yarovam bunu eşitdiyi
zaman hələ Misirdə idi. Oraya padşah
Süleymanın əlindən qaçmışdı və

---

[g] **11:36** 1Pad. 15:4; 2Pad. 8:19; 2Saln. 21:7; Zəb. 132:17

Misirdə yaşayırdı. 3 Onu çağırtdırdılar.
Yarovam gəldi və bütün İsrail camaatı
ilə birgə Rexavama söylədi: 4 «Atan
üzərimizə ağır boyunduruq qoydu.
Sən isə indi atanın çətin qulluğunu və
üzərimizə qoyduğu ağır boyunduruğu
yüngülləşdir, biz də sənə qulluq edərik».
5 Rexavam onlara dedi: «İndi gedin və
üç gündən sonra yenə mənim yanıma
gəlin». Xalq getdi.
6 Padşah Rexavam atası Süleymanın
sağlığında onun önündə duran
ağsaqqallarla məsləhət edib dedi: «Bu
xalqa cavab vermək üçün mənə nə
məsləhət verirsiniz?» 7 Ağsaqqallar ona
dedilər: «Əgər bu gün sən bu xalqa
xidmətçi olsan, onlara qulluq etsən
və onlara cavab verəndə yaxşı sözlər
desən, daim sənə qul olacaqlar». 8 Ancaq
o, ağsaqqalların verdikləri məsləhətə
məhəl qoymadı, onunla birgə böyümüş
və onun önündə duran cavan adamlarla
məsləhətləşdi. 9 Onlara dedi: «Siz nə
məsləhət verirsiniz? Mənə “atanın
üzərimizə qoyduğu boyunduruğu
yüngülləşdir” deyən bu xalqa nə cavab
verim?» 10 Onunla birgə böyümüş
cavan adamlar ona dedilər: «Sənə “atan
üzərimizə ağır boyunduruq qoydu, sən
isə onu yüngülləşdir” deyən bu xalqa
belə söylə: “Mənim kiçik barmağım
atamın belindən yoğundur. 11 Atam
sizi ağır boyunduruqla yükləmişdi,
mən isə sizin boyunduruğunuzu daha
da artıracağam; atam sizi qamçılarla
cəzalandırırdı, mən isə sizi əqrəblərlə
cəzalandıracağam”».
12 «Üç gündən sonra yenə yanıma
gəlin» deyə padşahın söylədiyi kimi
Yarovam bütün xalqla birgə üç
gündən sonra Rexavamın yanına gəldi.
13 Padşah xalqa sərt cavab verdi,
ağsaqqalların ona verdiyi məsləhətə
məhəl qoymayıb 14 cavan adamların
məsləhətinə görə xalqa dedi: «Atam
sizi ağır boyunduruqla yükləmişdi,
mən isə sizin boyunduruğunuzu daha
da artıracağam; atam sizi qamçılarla
cəzalandırırdı, mən isə əqrəblərlə
cəzalandıracağam». 15 Padşah xalqa
qulaq asmadı, çünki bu hadisə Rəbb
tərəfindən oldu ki, O, Şilolu Axiya
vasitəsilə Nevat oğlu Yarovama
söylədiyi sözü yerinə yetirsin.
16 [h]Bütün İsraillilər padşahın onlara
qulaq asmadığını gördülər. Onda xalq
ona cavab verib dedi:

«Davudla bizim nə şərikliyimiz var?
Yesseyin oğlu ilə heç bir irsimiz
yoxdur!
Ey İsraillilər, çadırınıza!
İndi, ey Davud, öz evinin halına özün
bax!»

İsraillilər evlərinə getdilər.
17 Rexavam yalnız Yəhuda şəhərlərində
yaşayan İsrail övladları üzərində
padşahlıq etdi. 18 Padşah Rexavam
mükəlləfiyyətçilər üzərində nəzarətçi
olan Adoniramı göndərdi, bütün
İsraillilər onu daşqalaq edib öldürdülər.
Padşah Rexavam Yerusəlimə qaçmaq
üçün tələsik öz döyüş arabasına mindi.
19 Beləcə İsraillilər Davudun sülaləsinə
qarşı qalxdılar və bu indiyə qədər
belədir.
20 Bütün İsraillilər Yarovamın
qayıtdığını eşidəndə onu toplantıya
çağırtdırdılar və bütün İsrail üzərində
onu padşah etdilər. Yəhuda qəbiləsindən
başqa Davud sülaləsinin arxasınca gedən
olmadı.

Şemayanın peyğəmbərliyi

(2Saln. 11:1-4)

21 Rexavam Yerusəlimə gəldi. O, İsrail
evi ilə müharibə edib öz padşahlığını
qaytarmaq üçün bütün Yəhuda evini
və Binyamin qəbiləsini – yüz səksən

---

[h]**12:16** 2Şam. 20:1

min seçmə döyüşçünü topladı. 22 Ancaq
Allah adamı Şemayaya Allahın bu
sözü nazil oldu: 23 «Yəhuda padşahı
Süleyman oğlu Rexavama, bütün
Yəhuda və Binyamin evinə, qalan xalqa
söylə ki, 24 Rəbb belə deyir: “Getməyin
və öz soydaşlarınız olan İsrail övladları
ilə müharibə etməyin. Hər kəs öz evinə
qayıtsın, çünki bu iş Mənim tərəfimdən
oldu”». Onlar Rəbbin sözünə qulaq
asdılar və Rəbbin sözünə görə geri
qayıtdılar.

Yarovamın İsrailə etdirdiyi günah

25 Yarovam Efrayimin dağlıq
bölgəsində Şekemi tikdi və orada yaşadı.
Oradan çıxıb Penueli tikdi. 26 Yarovam
ürəyində dedi: «Padşahlıq yenə Davud
sülaləsinə qayıda bilər. 27 Əgər bu xalq
Yerusəlimə, Rəbbin məbədinə qurban
gətirmək üçün gedərsə, bu xalqın ürəyi
ağalarına – Yəhuda padşahı Rexavama
tərəf dönəcək. Onlar məni öldürüb
Yəhuda padşahı Rexavamın tərəfinə
keçəcəklər». 28 [i]Padşah məsləhətləşib iki
qızıl dana [*]düzəltdi və xalqa dedi: «Sizə
daha Yerusəlimə getmək lazım deyil.
Ey İsraillilər, sizi Misir torpağından
çıxaran allahlarınız bunlardır». 29 O,
danalardan birini Bet-Eldə, o birini isə
Danda qoydu. 30 Bu iş günah oldu. Xalq
onlardan birinə səcdə etmək üçün Dana
qədər gedirdi.
31 Yarovam səcdəgahlarda ibadət
evləri tikdi və xalqın arasından
Levililərdən olmayan kahinlər təyin
etdi.

Yarovam və Yəhudalı Allah adamı

32 [j]Yarovam səkkizinci ayın on beşinci
günü Yəhudada keçirilən bayram
kimi bir bayram keçirdi. Bet-Eldə
düzəltdiyi danalara qurban gətirmək
üçün qurbangaha qalxdı və tikdiyi
səcdəgahların kahinlərini Bet-Eldə
vəzifəyə qoydu. 33 O öz istəyincə
uydurduğu vaxt – səkkizinci ayın on
beşinci günü İsrail övladları üçün
bayram keçirdi və buxur yandırmaq
üçün Bet-Eldə düzəltdiyi qurbangaha
qalxdı.

13 Yarovam buxur yandırmaq üçün
qurbangahın yanında durduğu
vaxt bir Allah adamı Rəbbin sözü ilə
Yəhudadan Bet-Elə gəlib 2 [k]Rəbbin
adından qurbangaha müraciətlə dedi:
«Qurbangah, ay qurbangah! Rəbb
belə deyir: “Budur, Davudun nəslində
bir oğlan uşağı doğulacaq, onun
adı Yoşiya olacaq. O sənin üstündə,
orada buxur yandıran səcdəgahların
kahinlərini qurban edib insan sümükləri
yandıracaq”». 3 Allah adamı həmin
gün bir əlamət verib dedi: «Rəbbin
söylədiyi əlamət budur: “Bu qurbangah
bölünəcək və üstündəki kül töküləcək”».
4 Padşah Yarovam Allah adamının
Bet-Eldə qurbangaha müraciətlə dediyi
sözü eşidəndə qurbangahın üzərindən
əlini uzadıb «onu tutun» dedi. Onun
Allah adamına qarşı uzatdığı əli qurudu
və əlini özünə tərəf döndərə bilmədi.
5 Allah adamının Rəbbin sözü ilə verdiyi
əlamətə görə qurbangah bölündü və kül
qurbangahdan töküldü.
6 Onda padşah Allah adamına dedi:
«Allahın Rəbbi rəhmə gətir və mənim
üçün dua et ki, əlimi özümə tərəf
döndərə bilim». Allah adamı Rəbbi
rəhmə gətirdi və padşahın əli özünə
tərəf dönüb əvvəlki kimi oldu. 7 Padşah
Allah adamına dedi: «Mənimlə birgə evə
gedib nahar edək. Mən sənə hədiyyə
verərəm». 8 Allah adamı isə padşaha
dedi: «Sən mənə malının yarısını da
versən, səninlə getmərəm, bu yerdə

[*]**12:28** *Qızıl dana* – bax: Çıx. 32:4.

[i]**12:28** Çıx. 32:4 [j]**12:32** Lev. 23:33-34 [k]**13:2** 2Pad. 23:15-16

çörək yeyib su içmərəm. 9 Çünki Rəbbin
sözü ilə mənə belə əmr gəldi: “Orada
çörək yeyib su içmə və getdiyin yolla
geri qayıtma”». 10 Allah adamı başqa
yolla getdi və Bet-Elə gəldiyi yolla geri
qayıtmadı.

Allah adamı və qoca peyğəmbər

11 Bet-Eldə qoca bir peyğəmbər
yaşayırdı. Onun oğullarından biri gəlib
Allah adamının həmin gün Bet-Eldə
etdiyi bütün işlər barədə danışdı.
Oğulları onun padşaha söylədiyi sözləri
də atalarına bildirdilər. 12 Ata onlara
dedi: «O hansı yolla getdi?» Oğulları
Yəhudadan gələn Allah adamının
hansı yolla getdiyini ona göstərdilər.
13 O öz oğullarına dedi: «Mənim üçün
eşşəyi palanlayın». Eşşəyi onun üçün
palanladılar və o, eşşəyin üstünə minib
14 Allah adamının dalınca getdi. Onu
palıd ağacının altında oturmuş halda
tapdı və ona dedi: «Yəhudadan gələn
Allah adamı sənsənmi?» O da «mənəm»
dedi. 15 Sonra qoca peyğəmbər ona
dedi: «Mənimlə birgə evə gedib nahar
edək». 16 O dedi: «Sənlə qayıdıb evinə
getmərəm, bu yerdə sənlə çörək yeyib
su içmərəm. 17 Çünki Rəbbin sözü ilə
mənə deyildi: “Orada çörək yeyib su
içmə və getdiyin yolla geri qayıtma”».
18 Qoca peyğəmbər ona dedi: «Mən
də sənin kimi bir peyğəmbərəm. Bir
mələk Rəbbin sözü ilə mənə dedi: “Onu
qaytarıb özünlə evinə gətir, çörək yeyib
su içsin”». Ancaq bunu ona yalandan
söylədi. 19 Allah adamı onunla qayıtdı,
onun evində çörək yeyib su içdi.
20 Onlar süfrə arxasında oturarkən
onu yoldan qaytaran peyğəmbərə
Rəbbin sözü nazil oldu. 21 O, Yəhudadan
gələn Allah adamına müraciətlə dedi:
«Rəbb belə deyir: “Sən Rəbbin sözünə
qarşı getdin və Allahın Rəbbin sənə
etdiyi əmrə əməl etmədin, 22 geri
qayıdaraq Onun sənə ‹çörək yeyib su
içmə› dediyi yerdə çörək yeyib su içdin.
Buna görə də cəsədin atalarının qəbrinə
girməyəcək”».
23 Yoldan qaytardığı peyğəmbər
çörək yeyib su içdikdən sonra qoca
peyğəmbər onun üçün eşşəyi palanladı.
24 Allah adamı getdi, yolda ona bir şir
rast gəldi və onu öldürdü. Onun cəsədi
yola sərilmişdi və eşşək onun yanında
dayanmışdı, şir də cəsədin yanında
durmuşdu. 25 Adamlar onların yanından
keçirdilər, yola sərilmiş cəsədi, cəsədin
yanında durmuş şiri gördülər və gəlib
qoca peyğəmbərin yaşadığı şəhərdə
söylədilər.
26 Onu yoldan qaytaran peyğəmbər
bunu eşidib dedi: «O, Rəbbin sözünə
qarşı gedən Allah adamıdır. Rəbb də
ona söylədiyi sözə görə onu şirə verdi və
şir onu didib öldürdü». 27 O, oğullarına
dedi: «Mənim üçün eşşəyi palanlayın».
Onlar eşşəyi palanladılar. 28 O gedib
yola sərilmiş cəsədi tapdı. Eşşək və şir
cəsədin yanında durmuşdu. Şir cəsədi
yeməmiş və eşşəyə toxunmamışdı.
29 Qoca peyğəmbər Allah adamının
cəsədini götürüb eşşəyin üstünə qoydu
və yas tutub onu basdırmaq üçün öz
şəhərinə geri gətirdi. 30 Onun cəsədini
özünün qəbrinə qoydu. «Ah, qardaşım!»
deyib onun üçün yas tutdular. 31 Onu
basdırandan sonra qoca peyğəmbər
oğullarına dedi: «Öləndə məni Allah
adamının basdırıldığı qəbirdə basdırın,
sümüklərimi onun sümüklərinin
yanına qoyun. 32 Çünki Bet-Eldə olan
qurbangaha və Samariya şəhərlərində
olan səcdəgahların bütün ibadət
evlərinə müraciətlə deyilmiş Rəbbin
sözü hökmən yerinə yetəcək».

Yarovam günahlarını davam etdirir

33 Bu işdən sonra da Yarovam
öz pis yolundan dönmədi. Yenə də
səcdəgahlara xalqın hər təbəqəsindən
olan kahinlər qoydu. O, səcdəgahların

kahini olmaq istəyən hər kəsi təqdis
etdi. 34 Bu günah iş Yarovam nəslinin
yer üzündən silinib atılmasına və məhv
olmasına səbəb oldu.

Yarovamın oğlunun ölümü

14 O vaxt Yarovamın oğlu Aviya
xəstələndi. 2 Yarovam arvadına
dedi: «Qalx öz qiyafəni elə dəyiş ki,
sənin Yarovamın arvadı olduğunu
bilməsinlər. Şiloya get, peyğəmbər
Axiya oradadır. O mənim barəmdə
demişdi ki, bu xalqın padşahı olacağam.
3 Əlinə on kömbə çörək, qurabiyələr və
bir küpə bal götürüb onun yanına get.
Oğlana nə olacağını o sənə bildirəcək».
4 Yarovamın arvadı belə də etdi:
qalxıb Şiloya getdi və Axiyanın evinə
gəldi. Axiya artıq görə bilmirdi, çünki
qocaldığı üçün gözləri zəifləmişdi.
5 Rəbb Axiyaya demişdi: «Yarovamın
arvadı oğlu barədə səndən soruşmağa
gəlir, çünki oğlu xəstədir. O başqa
bir qiyafədədir. Sən ona belə-belə
deyərsən».
6 Qadın qapıdan girəndə Axiya onun
ayaq səslərini eşidib dedi: «Yarovamın
arvadı, içəri gəl! Sən nə üçün qiyafəni
dəyişmisən? Mən sənə ağır xəbər
söyləmək üçün göndərilmişəm. 7 Get,
Yarovama söylə ki, İsrailin Allahı Rəbb
belə deyir: “Mən səni xalqın içindən
yüksəldib xalqım İsrailin üzərində
hökmran etdim. 8 Padşahlığı Davudun
nəslindən çəkib aldım və sənə verdim.
Sən isə qulum Davud kimi olmadın. O,
əmrlərimə əməl edib gözümdə yalnız
doğru olan işi görmək üçün bütün ürəyi
ilə Mənə xidmət edirdi. 9 Səndən əvvəl
olanların hamısından çox pislik etdin.
Məni qəzəbləndirmək üçün gedib özünə
başqa allahlar, tökmə bütlər düzəltdin
və Məni kənara atdın. 10 [l]Bunun
üçün Mən Yarovamın nəsli üzərinə
bəla gətirəcəyəm. İsraildə Yarovamın
nəslindən divar isladan hər kəsi –
bütün kişiləri, istər kölə olsun, istər
azad, kəsib atacağam və onları peyin
yandırılan kimi hamısı tükənənə qədər
bütünlüklə yandırıb məhv edəcəyəm.
11 Yarovamdan şəhərdə ölənləri
köpəklər, çöldə ölənləri quşlar yeyəcək,
çünki Rəbb belə söylədi”. 12 Sən qalxıb
evinə get. Şəhərə ayaq basdığın vaxt
oğlan öləcək. 13 Bütün İsraillilər yas
tutub onu basdıracaq. Amma Yarovam
nəslindən yalnız o, qəbirə gedəcək,
çünki İsrailin Allahı Rəbb Yarovamın
nəslindən yalnız onda yaxşı bir şey
tapmışdır. 14 Rəbb Özü üçün İsrail
üzərində bir padşah qoyacaq, o da
Yarovamın nəslini bu gün kəsib atacaq,
hətta indi belə olacaq. 15 Rəbb İsraili
suda yellənən bir qamış kimi vuracaq
və İsraillilər atalarına verdiyi bu yaxşı
torpaqdan çəkib çıxaracaq, onları
Fərat çayının o tərəfinə səpələyəcək,
çünki özlərinə Aşera bütləri düzəldərək
Rəbbi qəzəbləndirdilər. 16 Yarovamın
etdiyi və İsraillilərə etdirdiyi günahları
ucbatından Rəbb İsraildən üz
döndərəcək». 17 Yarovamın arvadı
qalxıb getdi və Tirsaya gəldi. Evin
astanasına ayaq basdığı vaxt oğlan
öldü. 18 Bütün İsraillilər onu basdırıb
yas tutdular. Beləcə Rəbbin Öz qulu
peyğəmbər Axiya vasitəsilə söylədiyi
sözü yerinə yetdi.

Yarovamın ölümü

19 Yarovamın qalan işləri, necə
döyüşdüyü və necə padşahlıq etdiyi
barədə İsrail padşahlarının salnamələr
kitabında yazılmışdır. 20 Yarovam iyirmi
iki il padşahlıq etdi. O, ataları ilə uyudu
və yerinə oğlu Nadav padşah oldu.

---

[l] **14:10** 1Pad. 15:29

Yəhuda padşahı Rexavam

(2Saln. 11:5–12:15)

21 Süleyman oğlu Rexavam Yəhudada
padşahlıq etdi. Rexavam padşah olan
vaxt qırx bir yaşında idi. O, Rəbbin
Öz adını qoymaq üçün İsrailin bütün
qəbilələrindən seçdiyi şəhərdə –
Yerusəlimdə on yeddi il padşahlıq etdi.
Anası Ammonlu olub adı Naama idi.
22 Yəhudalılar Rəbbin gözündə pis
olan işlər etdilər və atalarının etdiyi
bütün günahlardan da çox günah
etməklə Rəbdə qısqanclıq oyatdılar.
23 [m]Onlar da hər yüksək təpə üzərində
və hər kölgəli ağac altında özləri üçün
səcdəgahlar, sütunlar və Aşera bütləri
düzəltdilər. 24 [n]Ölkədə həm də məbəd
fahişəliyi ilə məşğul olan kişilər var
idi. Xalq İsrail övladlarının önündən
Rəbbin qovduğu millətlərin bütün
iyrənc işlərinə görə davrandı.
25 [o]Rexavamın padşahlığının beşinci
ilində Misir padşahı Sisaq Yerusəlimə
hücum etdi. 26 [p]O, Rəbbin məbədinin və
padşah sarayının xəzinələrini götürdü.
Hər şeyi aldı, Süleymanın düzəltdiyi
bütün qızıl qalxanları da götürdü.
27 Padşah Rexavam onların yerinə tunc
qalxanlar düzəltdi və bunları padşah
sarayının qapısını qoruyan mühafizəçi
rəislərin əlinə verdi. 28 Hər dəfə padşah
Rəbbin məbədinə gələndə mühafizəçilər
onları daşıyır və sonra mühafizəçilərin
otağına geri gətirirdilər.
29 Rexavamın qalan işləri və
onun etdiyi hər şey barədə Yəhuda
padşahlarının salnamələr kitabında
yazılmışdır. 30 Rexavamla Yarovam
arasında həmişə müharibə gedirdi.
31 Rexavam ataları ilə uyudu və
Davudun şəhərində, atalarının yanında
basdırıldı. Anası Ammonlu olub adı
Naama idi. Onun yerinə oğlu Aviya
*padşah oldu.

Yəhuda padşahı Aviya

(2Saln. 13:1–14:1)

15 Nevat oğlu Yarovamın
padşahlığının on səkkizinci
ilində Aviya Yəhuda üzərində padşah
oldu. 2 O, Yerusəlimdə üç il padşahlıq
etdi. Anasının adı Avişalom qızı Maaka
idi. 3 Aviya atasının ondan qabaq etdiyi
bütün günahları ilə getdi. Onun ürəyi
babası Davuddan fərqli olaraq Allahı
Rəbbə sadiq deyildi. 4 [q]Ancaq Allahı
Rəbb Davudun xatirinə ona Yerusəlimdə
bir çıraq verdi, özündən sonra oğlunu
onun yerinə oturtdu və Yerusəlimi
möhkəmləndirdi. 5 [r]Çünki Xetli Uriya
ilə olan işindən başqa, Davud Rəbbin
gözündə doğru olan işlər etdi və bütün
ömrü boyu Onun əmr etdiyi heç bir
şeydən kənara çıxmadı. 6 [s]Aviyanın
bütün ömrü boyu Rexavam və Yarovam
arasında müharibə gedirdi.
7 Aviyanın qalan işləri və onun etdiyi
hər şey barədə Yəhuda padşahlarının
salnamələr kitabında yazılmışdır.
Aviya ilə Yarovam arasında müharibə
gedirdi. 8 Aviya ataları ilə uyudu və onu
Davudun şəhərində basdırdılar. Onun
yerinə oğlu Asa padşah oldu.

Yəhuda padşahı Asa

(2Saln. 15:16–16:6)

9 İsrail padşahı Yarovamın
padşahlığının iyirminci ilində Asa
Yəhuda üzərində padşah oldu. 10 O,
Yerusəlimdə qırx bir il padşahlıq etdi.
Nənəsinin adı Avişalom qızı Maaka

*__14:31__ *Aviya* – ibrani mətnində *Aviyam*. Bax: 2Saln. 12:16.

[m]**14:23** 2Pad. 17:9-10 [n]**14:24** Qanun. 23:17 [o]**14:25** 2Saln. 12:2-8 [p]**14:26** 1Pad. 10:16-17; 2Saln. 9:15-16 [q]**15:4** 1Pad. 11:36; 2Pad. 8:19; 2Saln. 21:7; Zəb. 132:17 [r]**15:5** 2Şam. 11:1-27 [s]**15:6** 2Saln. 13:3-21

idi. 11 Asa babası Davud kimi Rəbbin
gözündə doğru olan işlər etdi. 12 [t]O,
məbəd fahişəliyi ilə məşğul olan kişiləri
ölkədən qovdu və atalarının düzəltdiyi
bütün bütləri aradan qaldırdı. 13 Nənəsi
Maakanı da mələkəlikdən məhrum
etdi, çünki o, Aşera üçün iyrənc bir büt
düzəltmişdi. Asa onun bütünü kəsib
Qidron vadisində yandırdı. 14 Ancaq
səcdəgahlar aradan qaldırılmadı, lakin
Asanın ürəyi bütün ömrü boyu Rəbbə
sadiq idi.
15 O, atasının və özünün təqdis etdiyi
əşyaları – qızılı, gümüşü və qabları
Rəbbin məbədinə gətirdi.
16 Asa ilə İsrail padşahı Baaşa
arasında ömürləri boyu müharibə
gedirdi. 17 İsrail padşahı Baaşa
Yəhudaya hücum etdi və Yəhuda
padşahı Asanın yanına gəlib-getmək
istəyənləri buraxmamaq üçün Rama
şəhərini tikdi. 18 Asa Rəbbin məbədinin
və padşah sarayının xəzinələrində qalan
bütün qızıl-gümüşü götürüb əyanlarına
verdi. Padşah Asa onları Dəməşqdə
yaşayan Aram padşahı Xezyon oğlu
Tavrimmon oğlu Ben-Hadada bu
xəbərlə göndərdi: 19 «Sənin atanla
mənim atam arasında saziş var idi, qoy
bizim aramızda da saziş olsun. Sənə
qızıl-gümüş hədiyyə göndərirəm. Get
İsrail padşahı Baaşa ilə olan sazişini
poz ki, torpağımdan geri çəkilsin».
20 Ben-Hadad padşah Asaya qulaq asdı
və qoşun başçılarını İsrail şəhərlərinin
üstünə göndərdi. Onun qoşunları
bütün Naftali torpağına – İyona,
Dana, Avel-Bet-Maakaya və bütün
Kinneretə zərbə vurdu. 21 Baaşa bunu
eşitdikdə Ramanı tikməyi dayandırdı
və Tirsada qaldı. 22 Padşah Asa istisna
etmədən bütün Yəhudalıları çağırdı
və onlar Ramada Baaşanın tikməkdə
olduğu yerlərin daşlarını və dirəklərini
daşıdılar. Bunlarla padşah Asa Binyamin
torpağındakı Gevanı və Mispanı tikdi.
23 Asanın bütün qalan işləri, onun
bütün hünəri, etdiyi hər şey və tikdiyi
şəhərlər barədə Yəhuda padşahlarının
salnamələr kitabında yazılmışdır.
Ancaq qocalanda onun ayaqları xəstə
oldu. 24 Asa ataları ilə uyudu və atası
Davudun şəhərində, atalarının yanında
basdırıldı. Onun yerinə oğlu Yehoşafat
padşah oldu.

İsrail padşahı Nadav

25 Yəhuda padşahı Asanın
padşahlığının ikinci ilində Yarovam
oğlu Nadav İsrail üzərində padşah oldu
və iki il padşahlıq etdi. 26 O, Rəbbin
gözündə pis olan işlər etdi, atasının yolu
və İsrailə etdirdiyi günahı ilə getdi.
27 İssakar qəbiləsindən Axiya oğlu
Baaşa ona qəsd hazırladı və Filiştlilərə
məxsus olan Gibbetonda onu öldürdü.
O zaman Nadav və bütün İsraillilər
Gibbetonu mühasirəyə almışdılar.
28 Yəhuda padşahı Asanın padşahlığının
üçüncü ilində Baaşa Nadavı öldürdü
və onun yerinə padşah oldu. 29 [u]O,
padşah olan kimi Yarovamın bütün
nəslini qırdı, Yarovamdan nəfəs çəkən
hər kəsi məhv edənə qədər bir nəfəri
sağ buraxmadı. Beləcə Rəbbin Öz qulu
Şilolu Axiya vasitəsilə söylədiyi söz
yerinə yetdi. 30 İsrailin Allahı Rəbbi
qəzəbləndirərək Yarovamın özünün
etdiyi və İsrailə etdirdiyi günahların
ucbatından bu iş oldu.
31 Nadavın qalan işləri və onun etdiyi
hər şey barədə İsrail padşahlarının
salnamələr kitabında yazılmışdır. 32 Asa
ilə İsrail padşahı Baaşa arasında bütün
ömürləri boyu müharibə gedirdi.

---

[t] **15:12** 2Saln. 15:8-15 [u] **15:29** 1Pad. 14:10

İsrail padşahı Baaşa

33 Yəhuda padşahı Asanın
padşahlığının üçüncü ilində Axiya
oğlu Baaşa bütün İsrail üzərində padşah
oldu və Tirsada iyirmi dörd il padşahlıq
etdi. 34 O, Rəbbin gözündə pis olan işlər
etdi, Yarovamın yolu və İsrailə etdirdiyi
günahı ilə getdi.

16 Baaşaya qarşı Xanani oğlu
Yehuya Rəbbin bu sözü nazil
oldu: 2 «Səni torpaqdan yüksəldib
xalqım İsrail üzərində hökmran etdim,
sən isə Yarovamın yolu ilə gedib
xalqım İsrailə günah etdirərək Məni
qəzəbləndirdin. 3 Buna görə də Baaşanı
və onun nəslini Nevat oğlu Yarovamın
nəsli kimi yandırıb məhv edəcəyəm.
4 Baaşadan şəhərdə ölənləri köpəklər,
çöldə ölənləri quşlar yeyəcək».
5 Baaşanın qalan işləri, etdiyi hər
şey və onun hünəri barədə İsrail
padşahlarının salnamələr kitabında
yazılmışdır. 6 Baaşa ataları ilə uyudu və
Tirsada basdırıldı. Onun yerinə oğlu Ela
padşah oldu.
7 Baaşa Rəbbin gözündə pis olan
işlər edərək Yarovamın nəsli kimi
əməlləri ilə Rəbbi qəzəbləndirdi. O,
Yarovamın nəslini də qırdı. Buna
görə də peyğəmbər Xanani oğlu Yehu
vasitəsilə onun özünə və nəslinə qarşı
Rəbbin sözü nazil oldu.

İsrail padşahı Ela

8 Yəhuda padşahı Asanın
padşahlığının iyirmi altıncı ilində
Baaşa oğlu Ela İsrail üzərində padşah
oldu və Tirsada iki il padşahlıq etdi.
9 Döyüş arabalarının yarısına başçılıq
edən əyanı Zimri ona qəsd hazırladı.
Ela Tirsada, öz saray rəisi olan Arsanın
evində içib sərxoş olarkən 10 Zimri
içəri girdi, onu vurub öldürdü və onun
yerinə padşah oldu. Bu hadisə Yəhuda
padşahı Asanın padşahlığının iyirmi
yeddinci ilində oldu. 11 O, padşah olub
taxtda oturan kimi Baaşanın bütün
nəslini qırdı, istər onun qohumlarından,
istərsə də dostlarından divar isladan
heç kəsi – bir kişini də sağ buraxmadı.
12 Peyğəmbər Yehu vasitəsilə Baaşaya
qarşı Rəbbin söylədiyi sözə görə Zimri
Baaşanın bütün nəslini məhv etdi.
13 Çünki Baaşa və oğlu Ela öz bütləri
ilə etdikləri və İsrailə etdirdikləri bütün
günahlara görə İsrailin Allahı Rəbbi
qəzəbləndirmişdilər.
14 Elanın qalan işləri və onun etdiyi
hər şey barədə İsrail padşahlarının
salnamələr kitabında yazılmışdır.

İsrail padşahı Zimri

15 Yəhuda padşahı Asanın
padşahlığının iyirmi yeddinci ilində
Zimri Tirsada yeddi gün padşahlıq etdi.
O vaxt xalq Filiştlilərə məxsus olan
Gibbetona qarşı qurulmuş ordugahda
qalırdı. 16 Zimrinin padşaha qəsd
hazırladığını və onu öldürdüyünü
ordugahda olan xalq eşitdi. O gün
bütün İsraillilər ordu başçısı Omrini
ordugahda İsrail üzərində padşah
etdilər. 17 Omri bütün İsraillilərlə birgə
Gibbetondan gəlib Tirsanı mühasirəyə
aldı. 18 Zimri şəhərin alınacağını
görəndə padşah sarayının qalasına
girdi və padşah sarayını odladı, özü də
həlak oldu. 19 Ona görə ki günah edərək
Rəbbin gözündə pis olan işlər etmişdi:
Yarovamın yolu və günahı ilə gedib
İsrailə günah etdirmişdi. 20 Zimrinin
qalan işləri və onun hazırladığı qəsd
barədə İsrail padşahlarının salnamələr
kitabında yazılmışdır.
21 O vaxt İsrail xalqı iki hissəyə
bölündü: xalqın yarısı Ginat oğlu
Tivnini padşah etmək üçün onun
dalınca, yarısı isə Omrinin dalınca
getdi. 22 Omrinin dalınca gedən xalq
Ginat oğlu Tivninin dalınca gedən xalqa

üstün gəldi. Beləliklə, Tivni öldü və
Omri padşah oldu.

İsrail padşahı Omri

23 Yəhuda padşahı Asanın
padşahlığının otuz birinci ilində
Omri İsrail üzərində padşah oldu və
on iki il padşahlıq etdi. Tirsada altı il
padşahlıq etdi. 24 O, Samariya dağını
Samardan iki talant gümüşə satın aldı və
dağın üstündə şəhər tikib, adını dağın
sahibi Samarın adına görə Samariya
qoydu. 25 Omri Rəbbin gözündə pis olan
işlər etdi və özündən əvvəl olanların
hamısından çox pislik etdi. 26 O, Nevat
oğlu Yarovamın yolu və onun İsrailə
etdirdiyi günahlarla gedib İsrailin Allahı
Rəbbi öz bütləri ilə qəzəbləndirdi.
27 Omrinin etdiyi qalan işlər
və göstərdiyi hünər barədə İsrail
padşahlarının salnamələr kitabında
yazılmışdır. 28 Omri ataları ilə uyudu
və Samariyada basdırıldı. Onun yerinə
oğlu Axav padşah oldu.

İsrail padşahı Axav

29 Yəhuda padşahı Asanın
padşahlığının otuz səkkizinci ilində
Omri oğlu Axav İsrail üzərində padşah
oldu. O, Samariyada iyirmi iki il
padşahlıq etdi. 30 Omri oğlu Axav
özündən əvvəl olanların hamısından
çox Rəbbin gözündə pis olan işlər etdi.
31 Nevat oğlu Yarovamın günahları
ilə getmək ona az gəlirdi, üstəlik
Sidonluların padşahı Etbaalın qızı
İzeveli də arvad alıb Baala qulluq və
səcdə etdi. 32 O, Samariyada tikdiyi Baal
məbədində Baal üçün qurbangah qurdu.
33 Aşera bütü də düzəltdi. Axav özündən
əvvəl olan bütün İsrail padşahlarından
çox pislik edərək İsrailin Allahı Rəbbi
qəzəbləndirdi.
34 [v]Onun dövründə Bet-Elli Xiel
Yerixonu tikdi. Nun oğlu Yeşua
vasitəsilə Rəbbin söylədiyi sözə görə
o, ilk oğlu Aviramın həyatı bahasına
şəhərin bünövrəsini tikdi və kiçik oğlu
Sequvun həyatı bahasına qapılarını
qoydu.

İlyasın quraqlıq barədə xəbərdarlığı

17 [w]Gilead sakinlərindən olan
Tişbeli İlyas Axava dedi:
«Önündə durduğum İsrailin Allahı var
olan Rəbbə and olsun ki, mənim bir
sözüm olmayınca bu illərdə şeh və yağış
olmayacaq».
2 Ona Rəbbin bu sözü nazil oldu:
3 «Buradan get və şərqə tərəf yollan,
İordan çayının şərqində olan Kerit
vadisində gizlən. 4 Orada vadidən su
içəcəksən, səni yedirməyi də qarğalara
əmr etdim». 5 O, Rəbbin sözünə əməl
etdi və İordan çayının şərqində olan
Kerit vadisinə gedib orada qaldı.
6 Qarğalar ona hər səhər-axşam çörək
və ət gətirərdilər, vadidən də su içərdi.
7 Bir müddət sonra vadi qurudu, çünki
ölkədə yağış yağmırdı.

İlyas və Sarfatlı qadın

8 İlyasa Rəbbin bu sözü nazil oldu:
9 [x]«Qalx Sidonun Sarfat şəhərinə get və
orada qal. Orada bir dul qadına sənə
yemək verməyi əmr etdim». 10 O qalxıb
Sarfata getdi. Şəhərin darvazasına
çatanda bir dul qadının odun yığdığını
gördü və onu çağırıb dedi: «Mənə bir
qabda azca su gətir, içim». 11 Qadın
gətirməyə gedəndə onu çağırıb dedi:
«Mənim üçün əlinə bir tikə çörək
də al». 12 Qadın dedi: «Allahın var
olan Rəbbə and olsun ki, bişmiş heç
nəyim yoxdur, ancaq küpdə bir ovuc
un və qabda bir az yağ var. Bax mən
iki parça odun yığıram və içəri girib

---

[v] **16:34** Yeşua 6:26 [w] **17:1** Yaq. 5:17 [x] **17:9** Luka 4:25-26

özümlə oğlum üçün bunlardan yemək
hazırlayacağam. Biz onu yeyəcəyik
və sonra öləcəyik». 13 İlyas ona dedi:
«Qorxma, get söylədiyin kimi et. Amma
əvvəlcə mənim üçün ondan kiçik bir
kökə düzəlt və mənə gətir, özünlə oğlun
üçün sonra hazırlayarsan. 14 Çünki
İsrailin Allahı Rəbb belə deyir: “Rəbb
torpaq üzərinə yağış verəcəyi günə
qədər nə küpdə un tükənəcək, nə də
qabda yağ qurtaracaq”». 15 Qadın gedib
İlyasın sözünə əməl etdi. Qadın və
onun ailəsi İlyasla birgə uzun müddət
ərzində yemək yedilər. 16 İlyas vasitəsilə
Rəbbin söylədiyi sözə görə nə küpdə un
tükəndi, nə də qabda yağ qurtardı.
17 Bundan sonra ev sahibi qadının
oğlu xəstələndi, xəstəliyi də çox ağır
oldu, belə ki onun heç nəfəsi gəlmirdi.
18 Qadın İlyasa dedi: «Mən sənə nə
etdim, ey Allah adamı? Günahımı
xatırlatmaq və oğlumu öldürmək
üçün yanıma gəlmisən?» 19 İlyas
ona dedi: «Oğlunu mənə ver». Uşağı
qadının qucağından götürüb özünün
qaldığı yuxarı otağa çıxartdı və onu öz
yatağının üstünə uzandırdı. 20 O, Rəbbi
çağırıb dedi: «Ey Allahım Rəbb, yanında
qaldığım dul qadının oğlunu öldürməklə
onun başına bəla gətirirsən?» 21 Sonra
uşağın üstünə üç dəfə uzandı və Rəbbi
çağırıb dedi: «Ey Allahım Rəbb, Sənə
yalvarıram, qoy bu uşağın canı özünə
qayıtsın». 22 Rəbb İlyasın səsini eşitdi:
uşağın canı özünə qayıtdı və o dirildi.
23 İlyas uşağı götürüb yuxarı otaqdan
evə düşürtdü və onu anasına verib dedi:
«Bax oğlun sağdır». 24 Qadın İlyasa dedi:
«İndi bildim ki, sən Allah adamısan və
sənin ağzında Rəbbin sözü haqdır».

İlyas və Avdiya

18 Uzun müddət sonra, quraqlığın
üçüncü ilində İlyasa Rəbbin bu
sözü nazil oldu: «Get, Axava görün.
Mən torpağın üzərinə yağış verəcəyəm».
2 İlyas Axava görünmək üçün getdi.
O vaxt Samariyada şiddətli aclıq idi.
3 Axav saray rəisi olan Avdiyanı çağırdı.
Avdiya Rəbdən çox qorxurdu. 4 İzevel
Rəbbin peyğəmbərlərini qırıb öldürən
zaman Avdiya peyğəmbərlərdən yüz
nəfəri aparıb onları əlli-əlli olaraq
mağaralarda gizlətmiş, çörək və su ilə
təmin etmişdi. 5 Axav Avdiyaya dedi:
«Ölkədə olan bütün su mənbələrinə və
vadilərə get. Bəlkə ot tapdıq, atları və
qatırları salamat saxladıq, heyvanlar da
tələf olmadı». 6 Onlar ölkəni aralarında
böldülər ki, hər tərəfi gəzib dolaşsınlar.
Axav ayrıca, bir yolla, Avdiya isə ayrıca,
başqa bir yolla getdi.
7 Avdiya yolda ikən İlyas ona rast
gəldi. O, İlyası tanıdı və üzüstə
yerə döşənib dedi: «Ağam İlyas, bu
sənsənmi?» 8 İlyas dedi: «Mənəm.
Get, ağana de ki, İlyas buradadır».
9 O dedi: «Nə günah etmişəm ki, mən
qulunu öldürmək üçün Axavın əlinə
verirsən? 10 Allahın var olan Rəbbə and
olsun ki, ağamız səni axtarmağa adam
göndərmədiyi bir millət, bir padşahlıq
qalmadı. Onlar “o burada yoxdur”
dedikləri vaxt həmin padşahlığa
və millətə səni tapmadıqlarına and
içdirdi. 11 Amma indi sən deyirsən:
“Get, ağana de ki, İlyas buradadır”.
12 Sənin yanından getdiyim vaxt
Rəbbin Ruhu səni bilmədiyim bir
yerə aparacaq. Mən də gedib Axava
bildirəndə o səni tapmayacaq və
məni öldürəcək. Ancaq bu qulun
cavanlığından bəri Rəbdən qorxur.
13 İzevel Rəbbin peyğəmbərlərini qırıb
öldürən zaman mənim etdiyim iş ağama
bildirilmədimi? Mən onda Rəbbin
peyğəmbərlərindən yüz nəfəri əlli-əlli
olaraq mağaralarda gizlətdim, onları
çörək və su ilə təmin etdim. 14 İndi
sən deyirsən: “Get, ağana de ki, İlyas
buradadır”. Axı o məni öldürər». 15 İlyas
dedi: «Önündə durduğum var olan

Ordular Rəbbinə and olsun ki, bu gün
hökmən ona görünəcəyəm».

İlyas Karmel dağında

16 Avdiya Axavın yanına getdi və
ona hər şeyi danışdı. Axav da İlyası
qarşılamağa getdi. 17 Axav İlyası
görəndə ona dedi: «Ey İsraili dərdə
salan adam, bu sənsənmi?» 18 O cavab
verdi: «İsraili mən yox, sən və atanın evi
dərdə saldınız. Siz Rəbbin əmrlərindən
dönüb Baal bütlərinə xidmət etdiniz.
19 İndi bütün İsraillilər, İzevelin
süfrəsində yemək yeyən dörd yüz əlli
Baal peyğəmbərini və dörd yüz Aşera
peyğəmbərini Karmel dağına, yanıma
çağırtdır».
20 Axav bütün İsrail övladlarını
və peyğəmbərləri Karmel dağına
çağırtdırdı. 21 İlyas bütün xalqın yanına
gəlib dedi: «Nə vaxta qədər iki tərəfə
əyiləcəksiniz? Əgər Rəbb Allahdırsa,
Ona xidmət edin, yox, Baal Allahdırsa,
onda ona xidmət edin». Xalq onun
sözünə cavab vermədi. 22 Onda İlyas
xalqa dedi: «Rəbbin peyğəmbərlərindən
təkcə mən qaldım, amma Baalın
peyğəmbərləri dörd yüz əlli nəfərdir.
23 İndi qoy bizə iki buğa verilsin: onlar
özləri üçün bir buğa seçsinlər, onu
doğrayıb odunların üstünə qoysunlar,
ancaq od vurmasınlar. Mən isə başqa
buğanı hazırlayıb onu odunların üstünə
qoyacağam, ancaq od vurmayacağam.
24 Siz öz allahınızın adını çağırın, mən
də Rəbbin adını çağıracağam; hansı
odla cavab verərsə, Allah odur». Bütün
xalq cavab verib «qoy belə olsun» dedi.
25 İlyas Baal peyğəmbərlərinə dedi:
«Bir buğanı özünüz üçün seçin və
məndən əvvəl onu hazırlayın, çünki
siz çoxsunuz. Siz öz allahınızın
adını çağırın, ancaq od vurmayın».
26 Onlar özlərinə verilən buğanı
götürüb hazırladılar və səhərdən
günortaya qədər «Ey Baal, bizə cavab
ver!» deyə Baalın adını çağırdılar,
ancaq heç səs-soraq çıxmadı. Onlar
düzəltdikləri qurbangahın ətrafında
gəzərək atılıb-düşdülər. 27 Günorta
olanda İlyas onları lağa qoyub dedi:
«Onu uca səslə çağırın. O ki allahdır,
bəlkə fikrə gedib yaxud bayıra çıxıb ya
da səfərdədir? Bəlkə də yatıb, oyatmaq
lazımdır?» 28 Onlar uca səslə çağırdılar
və adətlərinə görə bədənlərindən qan
axana qədər qılınc və nizələrlə özlərini
yaraladılar. 29 Günorta keçincə, axşam
qurbanı təqdim olunan vaxta qədər
coşub dəlilik etdilər, ancaq nə bir
səs-soraq verən, nə də bir qulaq asan
var idi.
30 İlyas bütün xalqa dedi: «Mənim
yanıma gəlin». Bütün xalq onun
yanına gəldi. O, Rəbbin dağıdılmış
qurbangahını bərpa etdi. 31 [y]İlyas Yaqub
oğulları qəbilələrinin sayına görə on
iki daş götürdü, çünki Yaquba «sənin
adın İsrail olacaq» deyə Rəbbin sözü
nazil olmuşdu. 32 İlyas daşlarla Rəbbin
adına qurbangah tikdi. O, qurbangahın
ətrafında iki sea toxum tutacaq qədər
bir xəndək düzəltdi. 33 Odunları düzdü,
buğanı doğrayıb odunların üzərinə
qoydu və 34 dedi: «Dörd səhəng su
gətirin, onu yandırma qurbanının
və odunların üstünə tökün». Sonra o
dedi: «İkinci dəfə edin». Onlar ikinci
dəfə etdilər. O dedi: «Üçüncü dəfə
edin». Onlar üçüncü dəfə etdilər. 35 Su
qurbangahın ətrafına axdı və xəndək də
su ilə doldu.
36 Axşam qurbanı təqdim edilən vaxt
peyğəmbər İlyas qabağa çıxıb dedi: «Ey
İbrahimin, İshaqın və İsrailin Allahı
Rəbb! Qoy bu gün bilinsin ki, İsraildə
Sən Allahsan və mən Sənin qulunam,
bütün bu işləri də Sənin sözünlə etdim.

---

[y] **18:31** Yar. 32:28; 35:10

37 Səsimi eşit, ya Rəbb, mənə cavab ver.
Qoy bu xalq bilsin ki, Sən Allahsan, ya
Rəbb, onda onların ürəyini Özünə tərəf
döndərəcəksən».
38 O vaxt Rəbdən od düşdü, yandırma
qurbanını, odunları, daşları, torpağı
yandırıb-yaxdı və xəndəkdə olan suyu
uddu. 39 Bütün xalq bunu gördü və onlar
üzüstə düşüb dedilər: «Rəbb Allahdır!
Rəbb Allahdır!» 40 İlyas onlara dedi:
«Baal peyğəmbərlərini tutun, onlardan
bir nəfər də qaçıb qurtarmasın». Onları
tutdular. İlyas onları Qişon vadisinə
endirib orada öldürdü.

Quraqlığın sonu

41 İlyas Axava dedi: «Get, yeyib-iç,
çünki güclü yağış səsi gəlir». 42 [z]Axav
yeyib-içməyə getdi. İlyas Karmel
dağının təpəsinə çıxdı, yerə əyilib
üzünü dizləri arasına qoydu. 43 Öz
nökərinə dedi: «İndi qalx və dəniz tərəfə
diqqətlə bax». Nökər qalxdı və diqqətlə
baxıb «bir şey yoxdur» dedi. İlyas yeddi
dəfə ona «yenə get» dedi. 44 Yeddinci
dəfə gedəndə nökər dedi: «Budur,
dənizdən insan ovcu boyda kiçik bir
bulud çıxır». İlyas dedi: «Gedib Axava
söylə: “Arabanı qoşub aşağı en ki, yağış
səni ləngitməsin”». 45 Bu vaxt göylər
qalın buludlarla qaraldı, külək əsdi
və güclü yağış yağmağa başladı. Axav
arabaya minib İzreelə getdi. 46 İlyasa
Rəbbin gücü gəldi və o, belini qurşayıb
Axavın önündə İzreelin girəcəyinə
qədər qaçdı.

İlyasın təqibdən qaçması

19 Axav İlyasın etdiyi bütün
işləri və onun necə bütün
peyğəmbərləri qılıncla öldürdüyünü
İzevelə danışdı. 2 İzevel İlyasın yanına
qasid göndərib dedi: «Sabah bu vaxt
mən səni onların gününə salmasam,
qoy allahlar mənə beləsini və bundan
betərini etsin». 3 İlyas bunu görüb
canını qurtarmaq üçün Yəhudada olan
Beer-Şevaya getdi. Nökərini orada
qoyub, 4 özü çöldə bir günlük yol getdi.
Gəlib bir süpürgə ağacının altında
oturdu və canına ölüm diləyib dedi:
«Bəsdir, ya Rəbb, indi mənim canımı al,
çünki mən atalarımdan yaxşı deyiləm».
5 O, süpürgə ağacının altında uzanıb
yuxuya getdi. Bu zaman bir mələk ona
toxunub dedi: «Qalx yemək ye!» 6 İlyas
baxıb gördü ki, başının kənarında isti
daş üzərində bişən bir kökə və bir
bardaq su var. O yeyib-içdi və yenə
yuxuya getdi. 7 Rəbbin mələyi ikinci
dəfə qayıtdı və ona toxunub dedi:
«Qalx yemək ye, çünki çox uzun yol
gedəcəksən». 8 O qalxdı və yeyib-içdi.
Yeməyin gücü ilə qırx gün-qırx gecə
Allahın dağı Xorevə qədər getdi.

Rəbbin İlyasa görünməsi

9 İlyas oradakı mağaraya girdi və
burada gecələdi. Ona «İlyas, burada
nə edirsən?» deyə Rəbbin sözü nazil
oldu. 10 [a]O dedi: «Mən Ordular Allahı
Rəbb üçün çox fədakarlıq göstərdim.
Çünki İsrail övladları Sənin əhdini
unutdular, qurbangahlarını dağıtdılar
və peyğəmbərlərini qılıncla öldürdülər.
Təkcə mən qaldım, onlar canımı almaq
üçün məni də axtarırlar». 11 O dedi:
«Çıx, dağda Rəbbin önündə dur, çünki
Rəbb buradan keçəcək». Dağları yaran
və Rəbbin önündə qayaları parçalayan
böyük və güclü bir külək əsdi, ancaq
Rəbb küləkdə deyildi. Küləkdən sonra
zəlzələ oldu, ancaq Rəbb zəlzələdə
deyildi. 12 Zəlzələdən sonra od düşdü,
ancaq Rəbb odda deyildi. Oddan sonra
xəfif bir meh səsi gəldi. 13 İlyas bunu
eşidəndə üzünü cübbəsi ilə örtdü və
çıxıb mağaranın ağzında dayandı.

---

[z]**18:42** Yaq. 5:18 [a]**19:10** Rom. 11:3

Bir səs ona dedi: «İlyas, burada nə
edirsən?» 14 O dedi: «Mən Ordular Allahı
Rəbb üçün çox fədakarlıq göstərdim.
Çünki İsrail övladları Sənin əhdini
unutdular, qurbangahlarını dağıtdılar
və peyğəmbərlərini qılıncla öldürdülər.
Təkcə mən qaldım, onlar canımı almaq
üçün məni də axtarırlar».
15 [b]Rəbb ona dedi: «Qalx çöl yolu ilə
Dəməşqə get. Oraya çatanda Xazaeli
Aram üzərində padşah olmaq üçün
məsh et, 16 Nimşi oğlu Yehunu İsrail
üzərində padşah olmaq üçün məsh
et, Avel-Mexoladan olan Şafat oğlu
Elişanı öz yerinə peyğəmbər olmaq
üçün məsh et. 17 Xazaelin qılıncından
qurtaranı Yehu öldürəcək, Yehunun
qılıncından qurtaranı Elişa öldürəcək.
18 [c]Ancaq Mən İsraildə Baal qarşısında
diz çökməmiş və dodaqları onu
öpməmiş hər kəsi – yeddi min adamı
saxlamışam».

Elişanın peyğəmbərlik çağırışı

19 İlyas oranı tərk etdi və Şafat oğlu
Elişanı tapdı. O, yer şumlayırdı, önündə
on iki cüt öküz var idi və özü on
ikinci cüt öküzü sürürdü. İlyas Elişanın
yanından keçəndə cübbəsini onun
üstünə atdı. 20 [d]Elişa öküzləri qoyub
İlyasın dalınca qaçdı və dedi: «Qoy
gedib ata-anamı öpüm, sonra sənin
dalınca gələrəm». İlyas ona dedi: «Geri
qayıt, mən sənə nə etdim?» 21 Elişa
ondan ayrılıb geri qayıtdı. Öz bir cüt
öküzünü götürüb onları qurban kəsdi.
Öküzləri kotanın taxtaları ilə bişirib
ətlərini xalqa verdi və onlar yedilər.
Sonra o qalxıb İlyasın dalınca getdi və
ona xidmət etdi.

Ben-Hadadın Samariyaya hücumu

20 Aram padşahı Ben-Hadad bütün
ordusunu topladı. Onunla birgə
otuz iki padşah, atlar və döyüş arabaları
var idi. Ben-Hadad gəlib Samariyanı
mühasirəyə aldı və şəhərə hücum etdi.
2 O, şəhərə, İsrail padşahı Axavın yanına
qasidlər göndərib dedi: «Ben-Hadad
belə deyir: 3 “Sənin qızıl-gümüşün
mənimdir, arvadlarının və oğullarının
ən yaxşıları da mənimdir”». 4 İsrail
padşahı cavab verib dedi: «Ağam
padşah, sənin söylədiyin kimi özüm və
hər nəyim var, sənindir». 5 Qasidlər yenə
gəlib dedilər: «Ben-Hadad belə söyləyir:
“Hərçənd ki sənə ‹qızıl-gümüşünü,
arvadlarını və oğullarını mənə ver›
deyə xəbər göndərdim, 6 ancaq sabah
bu vaxt adamlarımı sənin yanına
göndərəcəyəm. Evini və əyanlarının
evlərini axtaracaqlar və sənin xoşuna
gələn hər şeyi götürüb gətirəcəklər”».
7 İsrail padşahı ölkənin bütün
ağsaqqallarını çağırıb dedi: «Görün bu
adam necə pislik axtarır. Arvadlarımı,
oğullarımı, qızıl-gümüşümü məndən
tələb etdi, mən ondan əsirgəmədim».
8 Bütün ağsaqqallar və xalq ona «qulaq
asma və razı olma» dedilər. 9 O,
Ben-Hadadın qasidlərinə dedi: «Ağam
padşaha deyin: “Bu qulundan əvvəlcə
istədiyin hər şeyi verərəm, ancaq bunu
edə bilməyəcəyəm”». Qasidlər gedib
onun sözünü çatdırdılar. 10 Ben-Hadad
ona xəbər göndərib dedi: «Əgər
Samariya torpağı mənim dalımca gedən
qoşunun ovuclarını doldurmağa bəs
edərsə, allahlar mənə beləsini və bundan
betərini etsin». 11 İsrail padşahı cavab
verib dedi: «Söyləyin, qurşanan adam
soyunan kimi öyünməsin». 12 Bu sözü
eşidəndə Ben-Hadad padşahlarla birgə
çadırlarda şərab içirdi. O, əsgərlərinə
«Sıraya düzülün!» dedi. Onlar şəhərin
qarşısında sıraya düzüldülər.

---

[b] **19:15** 2Pad. 8:7-13; 2Pad. 9:6 [c] **19:18** Rom. 11:4 [d] **19:20** Luka 9:61

Axavın Ben-Hadadı məğlub etməsi

13 Bu vaxt bir peyğəmbər İsrail
padşahı Axavın yanına gəlib dedi:
«Rəbb belə deyir: “Bu böyük qoşunu
görürsənmi? Bu gün onu sənə təslim
edəcəyəm və biləcəksən ki, Rəbb
Mənəm”». 14 Axav dedi: «Kimin
vasitəsilə?» O dedi: «Rəbb belə deyir:
“Əyalət başçılarının xidmətində olan
igidlərin vasitəsilə bunu edəcəyəm”».
Sonra Axav dedi: «Döyüşü kim
başlayacaq?» O cavab verdi: «Sən».
15 Sonra Axav əyalət başçılarının
igidlərini sıraya düzdü: onlar iki yüz
otuz iki nəfər idi. Onlardan sonra orada
olan xalqın hamısını – bütün İsrail
övladlarını sıraya düzdü: onlar yeddi
min nəfər idi.
16 Onlar günorta oradan çıxdılar.
Ben-Hadad və ona kömək edən otuz
iki padşah çadırlarda içib sərxoşluq
edirdilər. 17 Əvvəl əyalət başçılarının
igidləri çıxdılar. Ben-Hadadın
göndərdiyi casuslar ona «Samariyadan
adamlar çıxır» deyə bildirdilər. 18 O
dedi: «Əgər sülh üçün çıxırlarsa, onları
diri tutun, yox, döyüş üçün çıxırlarsa,
yenə onları diri tutun». 19 O vaxt bu
adamlar – həm əyalət başçılarının
igidləri, həm də onların ardınca
gələn qoşun artıq şəhərdən çıxmışdı.
20 Onlardan hər biri qarşısında duranı
vurdu. Aramlılar qaçdılar və İsraillilər
onları təqib etdilər. Aram padşahı
Ben-Hadad at üstündə süvariləri ilə
birgə qaçıb qurtardı. 21 İsrail padşahı
oradan çıxıb atlara və döyüş arabalarına
hücum etdi və Aramlıları böyük tələfata
uğratdı.

Aramlıların ikinci hücumu

22 Həmin peyğəmbər İsrail padşahının
yanına gəlib ona dedi: «Get özünü
möhkəmləndir, gör ki, nə etməlisən.
Çünki bahar gələndə Aram padşahı
yenə sənin üstünə gələcək».
23 Aram padşahının əyanları ona
deyirdilər: «İsraillilərin Allahı təpələr
Allahıdır, buna görə də onlar bizə qalib
gəldilər. Onlarla düzənlikdə vuruşaq,
hökmən biz onlara qalib gələcəyik.
24 Belə et: padşahların hər birini
vəzifəsindən götür və onların yerinə
valilər təyin et. 25 Sən isə at yerinə at,
araba yerinə araba qoyaraq itirdiyin
ordu kimi özün üçün bir ordu düzəlt ki,
biz onlara qarşı düzənlikdə vuruşaq.
Hökmən biz onlara qalib gələcəyik».
Ben-Hadad onların sözünə qulaq asdı və
belə etdi.
26 Bahar gələndə Ben-Hadad
Aramlıları topladı və İsraillilərlə
vuruşmaq üçün Afeqə doğru getdi.
27 İsrail övladları da toplaşdılar,
azuqə hazırladılar və onların qarşısına
getdilər. İsrail övladları onların önündə
iki kiçik sürü kimi ordugah qurdular,
Aramlılar isə hər tərəfi tutmuşdular.
28 Allah adamı İsrail padşahının yanına
gəlib dedi: «Rəbb belə deyir: “Aramlılar
‹Rəbb təpələr Allahıdır, düzənliklər
Allahı deyil› deyirlər. Buna görə də
Mən bu böyük qoşunu bütünlüklə sənə
təslim edəcəyəm və biləcəksiniz ki,
Rəbb Mənəm”». 29 Onlar bir-birlərinin
qarşısında yeddi gün ordugahda
qaldılar. Yeddinci gün döyüş başlandı.
İsrail övladları bir gündə Aramlıların
piyada qoşunundan yüz min nəfəri
qırdılar. 30 Onların qalanları Afeqə –
şəhərin içinə qaçdılar. Şəhərin divarı
qalan iyirmi yeddi min nəfərin üstünə
yıxıldı. Ben-Hadad şəhərə qaçıb bir iç
otağa girdi.
31 Əyanları ona dedilər: «Biz eşitmişik
ki, İsrail padşahları mərhəmətli
padşahlardır. Gəlin bellərimizə çul,
başlarımıza ip sarıyaq və İsrail
padşahının yanına gedək. Bəlkə o səni
sağ buraxar». 32 Onlar bellərinə çul,

başlarına ip bağladılar və gəlib İsrail
padşahına dedilər: «Qulun Ben-Hadad
“yalvarıram, məni sağ burax” deyir».
İsrail padşahı dedi: «O hələ sağdır? O ki
mənim qardaşımdır». 33 Bu adamlar bir
əlamət gözləyirdilər, padşahın sözünü
yaxşı əlamət sayıb cəld dedilər: «Bəli,
Ben-Hadad sənin qardaşındır». O dedi:
«Gedin, onu gətirin». Ben-Hadad onun
yanına gəldi və o, Ben-Hadadı öz döyüş
arabasına mindirdi. 34 Ben-Hadad ona
dedi: «Mənim atamın sənin atandan
aldığı şəhərləri geri qaytarıram.
Atamın Samariyada düzəltdiyi kimi
sən də Dəməşqdə özün üçün bazarlar
düzəldərsən». İsrail padşahı dedi:
«Mənimlə saziş bağlayandan sonra
səni buraxacağam». Ben-Hadadla saziş
bağladı və onu buraxdı.

İsrail padşahı və peyğəmbər

35 Peyğəmbərlərdən olan bir nəfər
Rəbbin sözü ilə öz yoldaşına dedi:
«Məni vur». O adam onu vurmaq
istəmədi. 36 Onda peyğəmbər o adama
dedi: «İndi ki sən Rəbbin sözünə qulaq
asmadın, mənim yanımdan gedəndə
bir şir səni öldürəcək». Peyğəmbərin
yanından gedəndə bir şir ona rast
gəlib onu öldürdü. 37 Peyğəmbər başqa
bir adam tapıb ona dedi: «Məni vur».
O adam peyğəmbəri vurub yaraladı.
38 Peyğəmbər getdi və gözlərini örtərək
qiyafəsini dəyişib padşahın yolu
üstündə dayandı. 39 Padşah keçəndə
onu səsləyib dedi: «Bu qulun döyüşün
ortasına girmişdi. Bu zaman bir adam
kənara çəkildi və mənim yanıma bir
nəfər gətirib dedi: “Bu adamı qoru.
Əgər aradan çıxsa, əvəzində ya canını
verəcəksən ya da bir talant gümüş”.
40 Bu qulun orada-burada çalışarkən
o, yanımdan qaçdı». İsrail padşahı
bu adama dedi: «Hökmün elə də
olmalıdır, özün qərar vermisən». 41 O
cəld gözlərindən örtüyü götürdü. İsrail
padşahı onun peyğəmbərlərdən biri
olduğunu gördü. 42 O, İsrail padşahına
dedi: «Rəbb belə deyir: “Mənim
lənətlədiyim adamı sən əldən buraxdın.
Buna görə də onun yerinə sən öləcəksən
və onun xalqının başına gələcək işlər
sənin xalqının başına gələcək”». 43 İsrail
padşahı qaşqabaqlı və dilxor halda
Samariyada olan evinə gəldi.

Navotun bağı

21 İzreeldə, Samariya padşahı
Axavın sarayının yanında İzreelli
Navotun bir üzüm bağı var idi. 2 Bir
müddət sonra Axav Navota dedi: «Üzüm
bağını mənə ver ki, oranı özüm üçün
bostan edim, çünki evimə yaxındır.
Mən onun əvəzinə sənə daha yaxşı bağ
verərəm ya da istəsən, onun dəyərini
sənə pulla ödəyərəm». 3 Navot Axava
dedi: «Qoy atalarımın mirasını sənə
verməyi Rəbb məndən uzaq etsin!»
4 Axav evinə qaşqabaqlı və dilxor
halda qayıtdı, çünki İzreelli Navot ona
«atalarımın mirasını sənə vermərəm»
demişdi. O, yatağı üzərinə uzanıb üzünü
çevirdi və yemək yemədi.
5 Arvadı İzevel yanına gəlib ona
dedi: «Niyə qanın qaradır, heç yemək
də yemirsən?» 6 O dedi: «Mən İzreelli
Navota “üzüm bağını pulla mənə sat ya
da istəsən, onun əvəzində sənə başqa
üzüm bağı verərəm” söylədim, o isə
dedi: “Üzüm bağımı sənə vermərəm”».
7 Arvadı İzevel ona dedi: «İndi İsrail
üzərində padşahlıq edən sənsən ya
yox? Qalx yemək ye, ürəyini sıxma.
İzreelli Navotun üzüm bağını mən sənə
verərəm».
8 O, Axavın adından məktublar
yazdı və onları Axavın möhürü
ilə möhürlədi. Navotun şəhərində
onunla birgə yaşayan ağsaqqallara və
əyanlara məktublar göndərdi. 9 İzevel
məktublarda belə yazdı:

«Oruc elan edin və Navotu xalqın
arasında yuxarı başda əyləşdirin.
10 İki nəfər yaramaz adamı onun
qarşısında oturdun və onlar şahidlik
edərək desinlər: “Sən Allahı və
padşahı lənətlədin”. Sonra onu
bayıra çıxarın və ölənə qədər
daşqalaq edin».
11 Navotun yaşadığı şəhərin adamları
– orada yaşayan ağsaqqallar və əyanlar
İzevelin onlara göndərdiyi məktublarda
yazdığı kimi etdilər. 12 Onlar oruc elan
etdilər və Navotu xalqın arasında yuxarı
başda əyləşdirdilər. 13 İki nəfər yaramaz
adam gəlib onun qarşısında oturdu.
Onlar xalqın önündə Navota qarşı
«Navot Allahı və padşahı lənətlədi»
deyə şahidlik etdilər. Sonra onu şəhərin
kənarına çıxartdılar və daşqalaq edib
öldürdülər. 14 Onlar İzevelə xəbər
göndərib dedilər: «Navot daşqalaq
olunaraq öldü».
15 İzevel Navotun daşqalaq olunaraq
öldüyünü eşidəndə Axava dedi: «Qalx
İzreelli Navotun sənə pulla vermək
istəmədiyi üzüm bağını özünə mülk
götür, çünki Navot sağ deyil, ölüb».
16 Axav İzreelli Navotun öldüyünü
eşidəndə onun üzüm bağını özünə mülk
götürmək üçün oraya yollandı.

Axavın nəsli barədə İlyasın peyğəmbərliyi

17 Tişbeli İlyasa Rəbbin bu sözü
nazil oldu: 18 «Qalx Samariyada İsrailə
padşahlıq edən Axavı qarşılamağa get.
O, Navotun üzüm bağındadır. Axav
onu mülk etmək üçün oraya yollandı.
19 Sən ona söylə ki, Rəbb belə deyir:
“Qatillik etdin, hələ özünə mülk də
götürürsən?” Sonra ona söylə ki, Rəbb
belə deyir: “Navotun qanını köpəklərin
yaladıqları yerdə sənin də qanını
köpəklər yalayacaq”».
20 Axav İlyasa dedi: «Ey düşmənim,
axır məni də tapdın». O dedi: «Bəli,
səni də tapdım. Sən Rəbbin gözündə
pis olan işlər etməyə özünü təslim
etdin. 21 “Budur, sənin üzərinə bəla
gətirəcəyəm, səni yandırıb məhv
edəcəyəm. İsraildə Axavın nəslindən
divar isladan hər kəsi – bütün kişiləri,
istər kölə olsun, istər azad, kəsib
atacağam. 22 Mən sənin evini Nevat
oğlu Yarovamın evi kimi, Axiya oğlu
Baaşanın evi kimi edəcəyəm. Çünki
sən İsrailə günah etdirərək Məni
qəzəbləndirdin”. 23 [e]Rəbb İzevel barədə
dedi: “İzreel divarının içərisində İzeveli
köpəklər yeyəcək”. 24 Axavın nəslindən
şəhərdə öləni köpəklər, çöldə öləni isə
quşlar yeyəcək».
25 Həqiqətən, Axav kimi Rəbbin
gözündə pis olan işlər etməyə özünü
təslim edən hələ olmamışdı. Arvadı
İzevel onu buna təhrik edirdi. 26 Axav
İsrail övladlarının önündən Rəbbin
qovduğu Emorlular kimi bütlərə xidmət
edərək çox iyrənc işlər etdi.
27 Axav bu sözləri eşidəndə libasını
cırıb əyninə çul geydi. O, oruc tutub
çulda yatdı və qüssəyə batdı. 28 Tişbeli
İlyasa Rəbbin bu sözü nazil oldu:
29 «Gördünmü Axav Mənim önümdə
özünü necə aşağı tutdu? Önümdə özünü
aşağı tutduğu üçün Mən bu bəlanı
onun dövründə göndərməyəcəyəm,
oğlunun dövründə bu bəlanı onun evinə
göndərəcəyəm».

Yehoşafat, Axav və peyğəmbər Mikeya

(2Saln. 18:2-27)

22 Üç il keçdi. Bu müddətdə
Aramla İsrail arasında müharibə
getmirdi. 2 Üçüncü ildə Yəhuda padşahı
Yehoşafat İsrail padşahının yanına
gəldi. 3 İsrail padşahı əyanlarına dedi:

---

[e]**21:23** 2Pad. 9:36

«Bilirsiniz ki, Ramot-Gilead bizimdir?
Biz isə onu Aram padşahının əlindən
almaq üçün heç nə etmirik». 4 Sonra
o, Yehoşafata dedi: «Sən mənimlə
birgə vuruşmaq üçün Ramot-Gileada
gedirsənmi?» Yehoşafat İsrail padşahına
dedi: «Məni özün kimi, xalqımı xalqın
kimi, atlarımı atların kimi hesab et».
5 Yehoşafat yenə İsrail padşahına
dedi: «Əvvəlcə görək Rəbbin sözü
nədir?» 6 İsrail padşahı dörd yüzə qədər
peyğəmbəri topladı və onlara dedi:
«Vuruşmaq üçün Ramot-Gileada gedim
ya getməyim?» Onlar dedilər: «Get,
Xudavənd onu padşaha təslim edəcək».
7 Yehoşafat dedi: «Burada olanlardan
başqa, Rəbbin bir peyğəmbəri
yoxdur ki, ondan soruşaq?» 8 İsrail
padşahı Yehoşafata dedi: «Rəbdən
soruşmaq üçün bir nəfər də var: İmla
oğlu Mikeya. Ancaq mənim ondan
zəhləm gedir, çünki yaxşılığıma
deyil, pisliyimə peyğəmbərlik edir».
Yehoşafat dedi: «Qoy padşah belə
söyləməsin». 9 İsrail padşahı bir saray
xidmətçisini çağırıb dedi: «Tez İmla
oğlu Mikeyanı buraya gətir». 10 İsrail
padşahı və Yəhuda padşahı Yehoşafat
Samariya darvazalarının girəcəyindəki
meydanda şahlıq libası geymiş halda
hər biri öz taxtında oturmuşdu və
bütün peyğəmbərlər onların önündə
peyğəmbərlik edirdilər. 11 Kenaana
oğlu Sidqiya özünə dəmir buynuzlar
düzəldib dedi: «Rəbb belə deyir:
“Aramlıları qırıb qurtarana qədər onları
beləcə buynuzlayacaqsan”». 12 Bütün
peyğəmbərlər də peyğəmbərlik edərək
deyirdilər: «Ramot-Gileada get, qalib
gələcəksən, Rəbb onu padşaha təslim
edəcək».
13 Mikeyanı çağırmaq üçün gedən
qasid ona dedi: «İndi peyğəmbərlər
padşaha bir ağızdan xoş sözlər deyirlər.
Sənin sözün də onlardan birinin
sözü kimi olsun və yaxşılığa danış».
14 Mikeya dedi: «Var olan Rəbbə and
olsun ki, Rəbb mənə nə desə, onu
söyləyəcəyəm». 15 O, padşahın yanına
gəldi və padşah ona dedi: «Mikeya,
vuruşmaq üçün Ramot-Gileada gedək,
yoxsa getməyək?» Mikeya ona dedi:
«Get, qalib gələcəksən, Rəbb onu
padşaha təslim edəcək». 16 Padşah ona
dedi: «Səni neçə dəfə and içdirim ki,
mənə Rəbbin adı ilə həqiqətdən başqa
bir şey söyləməyəcəksən?» 17 [f]Mikeya
dedi: «Mən bütün İsrailliləri təpələr
üstündə çobanı olmayan sürü kimi
səpələnmiş gördüm. Rəbb dedi: “Onların
ağaları yoxdur. Qoy hər biri salamat
öz evinə qayıtsın”». 18 İsrail padşahı
Yehoşafata dedi: «Sənə demədimmi
o mənim yaxşılığıma deyil, pisliyimə
peyğəmbərlik edəcək?» 19 Mikeya
dedi: «Onda Rəbbin sözünü eşit. Mən
Rəbbi Öz taxtında oturmuş və bütün
göylər ordusunu Onun sağında və
solunda durmuş gördüm. 20 Rəbb dedi:
“Ramot-Gileada gedib həlak olması
üçün Axavı kim tovlayacaq?” Biri
elə dedi, o biri belə. 21 Bir ruh irəli
çıxıb Rəbbin önündə dayandı və dedi:
“Mən onu tovlayaram”. Rəbb ona dedi:
“Necə?” 22 O dedi: “Mən çıxıb bütün
peyğəmbərlərin ağzında yalançı bir
ruh olaram”. Rəbb dedi: “Sən onu
tovlayacaqsan, bunu bacarırsan, get
və belə et”». 23 Mikeya davam etdi:
«İndi, budur, Rəbb sənin bütün bu
peyğəmbərlərinin ağzına yalançı bir ruh
qoymuşdur. Beləcə Rəbb sənin başına
bəla gətirməyi qərara aldı».
24 Kenaana oğlu Sidqiya yaxınlaşdı
və Mikeyanın yanağına vurub dedi:
«Rəbbin Ruhu səndə danışmaq üçün
məndən sənə necə keçdi?» 25 Mikeya
dedi: «Sən gizlənmək üçün iç otağa

---

[f]**22:17** Say. 27:17; Yez. 34:5; Zək. 10:2; Mat. 9:36; Mark 6:34

girdiyin gün bunu biləcəksən». 26 İsrail
padşahı dedi: «Mikeyanı götür, onu
şəhər rəisi Amonun və padşahın oğlu
Yoaşın yanına göndər. 27 Onlara söylə
ki, padşah belə deyir: “Bu adamı
zindana atın və mən salamat qayıdana
qədər ona çox az çörək və su verərək
zülm edin”». 28 Mikeya dedi: «Əgər
sən salamat qayıtsan, Rəbb mənim
vasitəmlə danışmamışdır». Sonra dedi:
«Ey camaat, hamınız eşidin!»

Axavın ölümü

(2Saln. 18:28-34)

29 İsrail padşahı və Yəhuda padşahı
Yehoşafat Ramot-Gileada getdilər.
30 İsrail padşahı Yehoşafata dedi: «Mən
qiyafəmi dəyişib döyüşə girəcəyəm,
ancaq sən öz şahlıq libasını gey». İsrail
padşahı qiyafəsini dəyişib döyüşə girdi.
31 Aram padşahı öz döyüş arabalarının
otuz iki başçısına «nə kiçiklə, nə
də böyüklə vuruşun, yalnız İsrail
padşahı ilə döyüşə girin» deyə əmr
etmişdi. 32 Döyüş arabalarının başçıları
Yehoşafatı görəndə dedilər: «Yəqin
İsrail padşahı budur». Dönüb onunla
vuruşmağa getdilər. Onda Yehoşafat
çığırdı. 33 Döyüş arabalarının başçıları
onun İsrail padşahı olmadığını görəndə
ardınca getməyib geri qayıtdılar.
34 Bir adam nişan almadan yay çəkib
İsrail padşahını zirehlərin birləşdiyi
yerdən vurdu. Padşah arabaçısına dedi:
«Döndər və məni döyüşdən çıxar, çünki
yaralanmışam». 35 O gün döyüş qızışdı.
Padşah öz döyüş arabasında Aramlıların
önündə söykənib dayandı. Döyüş
arabası onun yarasının qanına bulaşdı.
Axşam o öldü. 36 Günəş batmaqda ikən
ordugahın içində «Hər kəs öz şəhərinə!
Hər kəs öz ölkəsinə!» deyə car çəkildi.
37 Beləcə padşah öldü və onu
Samariyaya gətirib orada basdırdılar.
38 Arabanı Samariya hovuzunun
suyunda yudular. Rəbbin söylədiyi sözə
görə köpəklər onun qanını yaladı. O
hovuzda fahişələr yuyunardı.
39 Axavın qalan işləri və onun etdiyi
hər şey, fil sümüyündən tikdiyi saray
və tikdiyi bütün şəhərlər barədə İsrail
padşahlarının salnamələr kitabında
yazılmışdır. 40 Axav ataları ilə uyudu və
yerinə oğlu Axazya padşah oldu.

Yəhuda padşahı Yehoşafat

(2Saln. 20:31–21:1)

41 İsrail padşahı Axavın padşahlığının
dördüncü ilində Asa oğlu Yehoşafat
Yəhuda üzərində padşah oldu.
42 Yehoşafat padşah olduğu vaxt otuz
beş yaşında idi. O, Yerusəlimdə iyirmi
beş il padşahlıq etdi. Anasının adı Şilxi
qızı Azuva idi. 43 O, atası Asanın yolu
ilə getdi və Rəbbin gözündə doğru olan
işlər edərək bunlardan kənara çıxmadı.
Ancaq səcdəgahlar aradan qaldırılmadı,
xalq hələ səcdəgahlarda qurban gətirir
və buxur yandırırdı. 44 Yehoşafat İsrail
padşahı ilə sülh içində yaşadı.
45 Yehoşafatın qalan işləri, onun
göstərdiyi hünər və necə döyüşdüyü
barədə Yəhuda padşahlarının
salnamələr kitabında yazılmışdır.
46 O, atası Asanın qovmadığı məbəd
fahişəliyi ilə məşğul olan kişiləri
ölkədən qovdu.
47 Edomda padşah yox idi, bir
canişin orada hökmranlıq edirdi.
48 Yehoşafat qızıl dalınca Ofirə
getmək üçün Tarşiş gəmiləri *düzəltdi.
Ancaq gedə bilmədilər, çünki gəmilər
Esyon-Geverdə parçalandı. 49 Onda
Axav oğlu Axazya Yehoşafata dedi:
«Qoy gəmilərdə sənin adamlarınla birgə
mənim adamlarım da getsinlər». Ancaq
Yehoşafat razı olmadı.

---

*22:48 *Tarşiş gəmiləri* – yaxud *ticarət gəmiləri.*

50 Yehoşafat ataları ilə uyudu və atası
Davudun şəhərində, ataların yanında
basdırıldı. Onun yerinə oğlu Yehoram
padşah oldu.

İsrail padşahı Axazya

51 Yəhuda padşahı Yehoşafatın
padşahlığının on yeddinci ilində Axav
oğlu Axazya Samariyada İsrail üzərində
padşah oldu. O, iki il İsrail üzərində
padşahlıq etdi. 52 Axazya Rəbbin
gözündə pis olan işlər etdi, ata-anasının
və İsrailə günah etdirmiş Nevat oğlu
Yarovamın yolu ilə getdi. 53 Axazya
atasının etdiyi kimi Baala qulluq və
səcdə edərək İsrailin Allahı Rəbbi
qəzəbləndirdi.

İKİNCİ PADŞAHLAR

KİTABI

GİRİŞ

«2 Padşahlar» Kitabı Yəhuda və İsrail padşahlıqlarının tarixini davam etdirir.

Kitabdakı hadisələr miladdan əvvəl IX əsrin ortalarından 586-cı ildə Yəhuda padşahlığının süqutuna qədər olan dövrü əhatə edir. Kitabda həmçinin 722-ci ildə İsrail padşahlığının süqutu təsvir edilir.

Yəhuda və İsrail padşahları ilə xalqın Allaha sədaqətsizliyi üzündən millətin başına bu bəlalar gəlmişdi. Yerusəlimin dağıdılması və Yəhuda xalqının əksəriyyətinin sürgün edilməsi İsraillilərin tarixində ən mühüm hadisələrdən biridir.

«2 Padşahlar» Kitabında İlyasın ardıcılı olan Elişa Rəbb tərəfindən peyğəmbərliyə seçilir.

Kitabın məzmunu

1:1–17:41 Bölünmüş padşahlıq

1:1–8:15 Elişa peyğəmbər

8:16–17:4 Yəhuda və İsrail padşahları

17:5-41 Samariyanın süqutu

18:1–25:30 Yəhuda padşahlığı

18:1–21:26 Xizqiyadan Yoşiyaya qədər olan dövr

22:1–23:30 Yoşiyanın hökmranlıq etməsi

23:31–24:20 Yəhudanın axırıncı padşahları

25:1-30 Yerusəlimin süqutu

Rəbbin padşah Axazyanı cəzalandırması

1 İsrail padşahı Axavın ölümündən sonra Moav İsrailə qarşı üsyan qaldırdı.

[2] Padşah Axazya Samariyada olan yuxarı otağındakı barmaqlığı olan pəncərədən yıxılıb yaralandı. O, qasidlərinə «Gedin, Eqron allahı Baal-Zevuvdan* soruşun, bu yaram sağalacaqmı?» deyib onları göndərdi. [3] Rəbbin mələyi Tişbeli İlyasa dedi: «Qalx Samariya padşahının qasidlərini qarşılamaq üçün çıx və onlara de: “İsraildə Allah yoxdur ki, Eqron allahı Baal-Zevuva müraciət etməyə gedirsiniz?” [4] Buna görə də Rəbb belə deyir: “Üstündə uzandığın yataqdan qalxa bilməyəcəksən, çünki hökmən öləcəksən!”» İlyas getdi.

[5] Qasidlər padşahın yanına qayıtdılar. Padşah onlara dedi: «Niyə geri qayıtdınız?» [6] Ona dedilər: «Bir adam bizi qarşılamağa çıxdı və bizə dedi: “Sizi göndərən padşahın yanına qayıdıb ona söyləyin ki, Rəbb belə deyir: ‹İsraildə Allah yoxdur ki, Eqron allahı Baal-Zevuva müraciət etmək üçün qasidlər göndərdin?› Buna görə də üstündə uzandığın yataqdan qalxa bilməyəcəksən, çünki hökmən öləcəksən!”» [7] Padşah onlara dedi: «Sizi qarşılamağa çıxan və sizə bu sözləri söyləyən adam nə qiyafədə idi?» [8] [g]Ona dedilər: «Tüklü bir adam idi, belinə dəri qurşaq bağlamışdı». Padşah dedi: «O, Tişbeli İlyasdır».

[9] Padşah bir əllibaşı ilə əlli adamını İlyasın yanına göndərdi. Əllibaşı onun yanına qalxdı. İlyas təpənin başında oturmuşdu. Əllibaşı ona dedi: «Ey Allah

---

*1:2 *Baal-Zevuv* – ibrani dilində *milçəklərin ağası* mənasında olub İsraillilərin Baal-Zevul (yüksək yerin ağası) adlı bir Filişt bütünə verdikləri addır.

g1:8 Mat. 3:4; Mark 1:6

adamı, padşah “aşağı düş” deyir».
10 [h]İlyas əllibaşıya cavab verib dedi:
«Əgər mən Allah adamıyamsa, göydən
od yağsın, səni və əlli adamını tələf
etsin!» Onda göydən od yağdı, əllibaşı
ilə əlli adamını tələf etdi. 11 Padşah
başqa bir əllibaşı ilə əlli adamını onun
yanına göndərdi. Əllibaşı ona dedi: «Ey
Allah adamı, padşah belə deyir: “Tez
aşağı düş”». 12 İlyas onlara cavab verib
dedi: «Əgər mən Allah adamıyamsa,
göydən od yağsın, səni və əlli adamını
tələf etsin!» Onda göydən Allahın odu
yağdı, əllibaşı ilə əlli adamını tələf
etdi. 13 Padşah yenə üçüncü bir əllibaşı
ilə əlli adamını göndərdi. Üçüncü
əllibaşı qalxıb gəldi, İlyasın qarşısında
diz çökdü və ona yalvarıb dedi: «Ey
Allah adamı, xahiş edirəm, mənim və
bu əlli qulunun canına yazığın gəlsin.
14 Göydən od yağıb əvvəl gələn iki
əllibaşını və onların hərəsinin əlli
adamını tələf etdi. İndi mənim canıma
yazığın gəlsin».
15 Rəbbin mələyi İlyasa dedi: «Onunla
birgə aşağı düş, ondan qorxma». İlyas
qalxıb aşağı düşdü və əllibaşı ilə
birgə padşahın yanına gəldi. 16 Ona
dedi: «Rəbb belə deyir: “İsraildə
sözünü soruşmağa Allah yoxdur ki,
Eqron allahı Baal-Zevuvdan soruşmaq
üçün qasidlər göndərdin? Buna görə
də üstündə uzandığın yataqdan
qalxa bilməyəcəksən, çünki hökmən
öləcəksən!”»
17 İlyasın söylədiyi Rəbbin sözünə
görə Axazya öldü. Oğlu olmadığı üçün
yerinə Axavın oğlu Yehoram padşah
oldu. Bu da Yəhuda padşahı Yehoşafat
oğlu Yehoramın padşahlığının ikinci
ilində oldu. 18 Axazyanın qalan
işləri İsrail padşahlarının salnamələr
kitabında yazılmışdır.

İlyasın göyə aparılması

2 Rəbb İlyası qasırğa ilə göyə
qaldırmazdan əvvəl İlyas və Elişa
Qilqaldan getdilər. 2 Onda İlyas Elişaya
dedi: «Burada qal, çünki Rəbb məni
Bet-Elə göndərir». Elişa dedi: «Var olan
Rəbbə və sənin canına and olsun ki,
səndən əl çəkmərəm». Onlar Bet-Elə
getdilər. 3 Bet-Eldə olan peyğəmbərlər
Elişanın yanına gəlib ona dedilər:
«Rəbbin bu gün sənin ağanı başının
üstündən götürəcəyini bilirsənmi?» O
dedi: «Bəli, bilirəm, susun».
4 İlyas ona dedi: «Elişa, burada qal,
çünki Rəbb məni Yerixoya göndərir».
Elişa dedi: «Var olan Rəbbə və
sənin canına and olsun ki, səndən əl
çəkmərəm». Onlar Yerixoya gəldilər.
5 Yerixoda olan peyğəmbərlər Elişanın
yanına gəlib ona dedilər: «Bilirsənmi,
Rəbb bu gün ağanı sənin başın üstündən
götürəcək?» O dedi: «Bəli, bilirəm,
susun!»
6 İlyas ona dedi: «Burada qal, çünki
Rəbb məni İordan çayının yanına
göndərir». Elişa dedi: «Var olan
Rəbbə və sənin canına and olsun ki,
səndən əl çəkmərəm». Onlar getdilər.
7 Peyğəmbərlərdən əlli adam gedib
uzaqda onların qarşısında dayandı.
Onlar da İordan çayının yanında
dayandılar. 8 İlyas cübbəsini götürdü
və onu büküb suya vurdu. Su iki yerə
ayrıldı və onlar quru yerin üstündən
keçdilər. 9 [i]Onlar keçəndən sonra İlyas
Elişaya dedi: «Mən sənin yanından
götürülməzdən əvvəl məndən bir şey
istə, sənin üçün nə edim?» Elişa dedi:
«Qoy indi səndə olan ruh ikiqat artıq
məndə olsun». 10 İlyas dedi: «Sən çətin
bir şey istədin. Əgər sənin yanından
götürüldüyümü görsən, səninlə belə
olacaq, yoxsa bu olmayacaq». 11 Onlar

[h]**1:10** Luka 9:54 [i]**2:9** Qanun. 21:17

danışa-danışa gedərkən qəflətən odlu
bir araba və odlu atlar göründü, onları
bir-birindən ayırdı və İlyas qasırğa ilə
göyə qaldırıldı. 12 [j]Elişa bunu görüb
qışqırdı: «Atam, ey atam! İsrailin arabası
və atlıları!» O, İlyası daha görməyəndə
öz paltarını götürdü və onu cırıb iki
yerə böldü.
13 Sonra İlyasın əynindən düşən
cübbəni götürüb geri döndü və İordan
çayının sahilində dayandı. 14 İlyasın
əynindən düşən cübbəni götürüb suya
vurdu və dedi: «İlyasın Allahı Rəbb
haradadır?» O da cübbəni suya vuranda
su iki yerə ayrıldı. Elişa oradan keçdi.
15 Yerixoda olan peyğəmbərlər onu
uzaqdan görüb dedilər: «İlyasın ruhunun
gücü Elişanın üstünə qondu». Onlar
Elişanı qarşılamağa gələrək önündə
yerə qədər təzim etdilər. 16 Ona dedilər:
«Bu qullarının yanında əlli igid var, qoy
gedib ağanı axtarsınlar. Bəlkə Rəbbin
Ruhu onu qaldırıb dağların yaxud
da dərələrin birinə atmışdır?» Elişa
dedi: «Göndərməyin». 17 Amma onlar o
qədər inad etdilər ki, Elişa utanıb dedi:
«Göndərin». Əlli nəfər göndərdilər və
onlar üç gün axtardılar, ancaq İlyası
tapa bilmədilər. 18 Sonra Yerixoda qalan
Elişanın yanına qayıtdılar. Elişa onlara
dedi: «Mən sizə demədim ki, getməyin?»

Elişanın suyu pak etməsi

19 Şəhərin adamları Elişaya dedilər:
«Ağamın gördüyü kimi bu şəhərin yeri
yaxşıdır, ancaq suyu pisdir, torpağı
bəhər vermir». 20 O dedi: «Mənə təzə bir
qab gətirin və onun içinə duz qoyun».
Bunu ona gətirdilər. 21 O, bulağa çıxdı,
duzu oraya atıb dedi: «Rəbb belə deyir:
“Bu suları pak edirəm, artıq onda ölüm
və bəhərsizlik olmayacaq”». 22 Elişanın
söylədiyi sözə görə bu su indiyə qədər
də pak qalır.

Elişanı lağa qoyan oğlanlar

23 Elişa oradan Bet-Elə qalxdı. O,
yola düşəndə kiçik oğlanlar şəhərdən
çıxdılar və onu lağa qoyub dedilər:
«Rədd ol, keçəl, rədd ol, keçəl!» 24 O
arxaya dönüb oğlanları gördü və onları
Rəbbin adı ilə lənətlədi. Meşədən iki
dişi ayı çıxıb onlardan qırx iki nəfəri
parçaladı. 25 Elişa oradan Karmel dağına
getdi, oradan da Samariyaya qayıtdı.

İsrail padşahı Yehoram

3 Yəhuda padşahı Yehoşafatın
padşahlığının on səkkizinci ilində
Axav oğlu Yehoram Samariyada İsrail
üzərində padşah oldu və on iki il
padşahlıq etdi. 2 O, Rəbbin gözündə pis
olan işlər etdi, ancaq atası və anası kimi
deyildi, çünki atasının düzəltdiyi Baal
sütununu yox etdi. 3 Ancaq Nevat oğlu
Yarovamın İsrailə etdirdiyi günahlardan
yapışdı, onlardan əl çəkmədi.

Moavlıların üsyan qaldırması

4 Moav padşahı Meşanın sürüsü var
idi. O, İsrail padşahına yüz min quzu
və yüz min qoçun yununu göndərərdi.
5 Axavın ölümündən sonra Moav
padşahı İsrail padşahına qarşı üsyan
qaldırdı. 6 O vaxt padşah Yehoram
Samariyadan çıxdı və bütün İsrailliləri
topladı. 7 O gedəndə Yəhuda padşahı
Yehoşafata xəbər göndərib dedi:
«Moav padşahı mənə qarşı üsyan
qaldırdı. Moavlılara qarşı vuruşmaq
üçün mənimlə birgə gedərsənmi?»
Yehoşafat dedi: «Gedərəm, məni özün
kimi, xalqımı xalqın kimi, atlarımı
atların kimi hesab elə». 8 Yehoram dedi:
«Hansı yolla çıxaq?» O dedi: «Edom
çölünün yolu ilə». 9 İsrail padşahı,
Yəhuda padşahı və Edom padşahı gedib
o yolu yeddi gün dolaşdılar. Əsgərlər

---

[j] **2:12** 2Pad. 13:14

və dallarınca gələn heyvanlar üçün
su yox idi. 10 İsrail padşahı dedi: «Ay
aman! Rəbb bu üç padşahı Moavlılara
təslim etmək üçün bir yerə çağırıb».
11 Yehoşafat dedi: «Burada Rəbbin bir
peyğəmbəri yoxdur ki, onun vasitəsilə
Rəbdən soruşaq?» İsrail padşahının
əyanlarından biri cavab verib dedi:
«Şafat oğlu Elişa buradadır. O, İlyasın
əlinə su tökərdi». 12 Padşah Yehoşafat
dedi: «Onda Rəbbin sözü var». Sonra
İsrail padşahı, Edom padşahı və
Yehoşafat Elişanın yanına enib getdilər.
13 Elişa İsrail padşahına dedi:
«Məndən sənə nə? Öz ata-ananın
peyğəmbərlərinin yanına get». İsrail
padşahı ona dedi: «Yox! Bu üç
padşahı Moavlılara təslim etmək üçün
Rəbb bir yerə çağırıb». 14 Elişa dedi:
«Önündə durduğum var olan Ordular
Rəbbinə and olsun ki, Yəhuda padşahı
Yehoşafata hörmət etməsəydim, sənin
üzünə baxmazdım. 15 İndi mənim
yanıma çəng çalan bir adam gətirin».
Gətirilən adam çəng çalarkən Rəbbin
əli Elişanın üzərinə gəldi. 16 O dedi:
«Rəbb belə deyir: “Bu vadinin hər
tərəfində xəndəklər qazın”. 17 Çünki
Rəbb belə deyir: “Siz külək və yağış
görməyəcəksiniz, amma bu vadi
su ilə dolacaq. Siz, mal-qaranız və
heyvanlarınız doyunca su içəcəksiniz”.
18 Bu, Rəbbin gözündə çox asan bir
şeydir. O, Moavlıları da sizə təslim
edəcək. 19 Bütün qalalı şəhərləri
və seçmə şəhərləri dağıdacaqsınız,
hər yaxşı ağacı kəsəcəksiniz, bütün
bulaqların gözünü tutacaqsınız və hər
yaxşı tarlanı daşlarla dolduracaqsınız».
20 Ertəsi gün səhər təqdim gətirilən
zaman birdən Edom yolundan su gəldi
və torpaq su ilə doldu.
21 Bütün Moavlılar eşitdilər ki,
padşahlar onlarla vuruşmağa gəlir.
Silah qurşana bilən hər kəsi və daha
yaşlı adamları çağırdılar. Onlar
sərhəddə dayandılar. 22 Moavlılar ertəsi
gün səhər tezdən duran zaman günəş
çıxıb suların üzərinə şəfəq salmışdı.
Onlar qarşılarındakı suları qan kimi
qırmızı gördülər. 23 O zaman dedilər:
«Bu qandır, yəqin padşahlar vuruşub
bir-birlərini qırıblar. İndi, ey Moavlılar,
qarət etməyə gedək!» 24 Onlar İsrail
ordugahına gəldilər. İsraillilər qalxıb
Moavlıları qırdılar və Moavlılar onların
qabağından qaçmağa başladılar.
İsraillilər qalxıb Moav torpağını viran
etmək üçün hücum etdilər. 25 Onlar
şəhərləri dağıtdılar, hər yaxşı tarlanı
daşlarla doldurdular, bütün bulaqların
gözünü tutdular və hər yaxşı ağacı
kəsdilər. Yalnız Qir-Xaresetin daşları
yerində qaldı, ancaq sapandçılar onu
da mühasirəyə alıb vurdular. 26 Moav
padşahı döyüşdə məğlub olduğunu
görəndə özü ilə yeddi yüz nəfər əli
qılınclı adam götürdü. Onlar Edom
padşahının qoşununu yarmaq istədilər,
ancaq bunu edə bilmədilər. 27 Sonra o,
vəliəhd olan ilk oğlunu götürüb divarın
üzərində yandırma qurbanı gətirdi.
Onda İsraillilərə qarşı böyük bir qəzəb
oyandı, onlar da oranı tərk edib öz
ölkələrinə qayıtdılar.

Elişanın yoxsul dul qadına kömək etməsi

4 Peyğəmbərlərdən olan bir adamın
arvadı Elişaya fəryad edərək dedi:
«Sənin qulun ərim öldü! Bilirsən ki, o
qulun Rəbdən qorxurdu. İndi isə bir
borc sahibi iki oğlumu özünə qul etmək
üçün gəlmişdi». 2 Elişa ona dedi: «Sənin
üçün nə edim? Mənə söylə görüm,
evində nəyin var?» Qadın dedi: «Bir qab
yağdan başqa bu kənizinin evində heç
nə yoxdur». 3 Elişa dedi: «Get bayırda
bütün qonşularından özün üçün boş
qablar istə, qoy çox olsun. 4 Sonra
içəri gir, özünün və oğullarının dalınca

qapını bağla, öz yağını bütün bu qablara
tök və onları doldurub bir tərəfə qoy».
5 Qadın onu tərk edib qapını özünün
və oğullarının dalınca bağladı. Oğulları
qabları onun yanına gətirdilər, o
da doldurdu. 6 Qablar dolanda o,
oğullarından birinə dedi: «Mənə bir qab
da gətir». Oğlu ona dedi: «Daha qab
qalmadı». Onda yağ kəsildi. 7 Qadın
gəlib bunları Allah adamına danışdı,
o da dedi: «Get yağı satıb borcunu
ödə. Qalanı ilə də oğullarınla birgə
dolanarsan».

Elişa və Şunemli varlı qadın

8 Bir gün Elişa Şunemdən keçirdi.
Orada yaşayan varlı bir qadın Elişanı
çörək yeməyə dəvət etdi. Sonralar
Elişa hər dəfə keçəndə çörək yemək
üçün oraya gedərdi. 9 Qadın ərinə dedi:
«İndi bildim ki, həmişə yanımızdan
keçən bu adam müqəddəs bir Allah
adamıdır. 10 Gəl damda ona kiçik bir
otaq düzəldək, oraya onun üçün yataq,
süfrə, taxt, bir də çıraq qoyaq ki, bizə
gələndə orada qalsın».
11 Bir gün Elişa oraya gəldi və
damdakı otağa çıxıb orada yatdı. 12 O,
nökəri Gehaziyə dedi: «Şunemli qadını
çağır». O, qadını çağırdı və qadın onun
qarşısında dayandı. 13 Elişa nökərinə
dedi: «İndi qadına söylə: “Bizim üçün
bu qədər zəhmət çəkmisən. Mən sənin
üçün nə edə bilərəm? Sənin barəndə
padşahla ya ordu başçısı ilə danışım?”»
Gehazi bunu söylədi. Qadın dedi: «Yox,
lazım deyil, mən öz xalqımla birgə
yaşayıram». 14 Elişa dedi: «Elə isə onun
üçün nə edə bilərəm?» Gehazi dedi:
«Doğrusu, oğlu yoxdur, əri də qocadır».
15 Elişa dedi: «Qadını çağır». Gehazi
qadını çağırdı və o gəlib qapıda durdu.
16 Elişa dedi: «Bir ildən sonra bu fəsildə
qucağında bir oğlun olacaq». Qadın
dedi: «Yox, ey ağam Allah adamı,
kənizinə yalan söyləmə!» 17 Elişanın
söylədiyi kimi qadın hamilə oldu və bir
il sonra həmin fəsildə bir oğlan doğdu.
18 Uşaq böyüdü. O, bir gün biçinçilərlə
birgə işləyən atasının yanına getdi.
19 O, atasına «Başım ağrıyır, başım!»
dedi. Atası nökərə dedi: «Onu anasının
yanına apar». 20 Nökər onu götürüb
anasının yanına gətirdi. O, günortaya
qədər anasının dizləri üstündə qaldı və
sonra öldü. 21 Qadın yuxarı çıxıb uşağı
Allah adamının yatağı üstünə uzandırdı,
sonra qapını dalınca örtüb çıxdı. 22 O,
ərini çağırıb dedi: «Nökərlərindən biri
ilə mənə bir eşşək göndər. Tez Allah
adamının yanına gedib-qayıdacağam».
23 Əri dedi: «Nə üçün bu gün onun
yanına gedirsən? Nə Təzə Ay mərasimi,
nə də Şənbə günüdür». Qadın dedi:
«Eybi yox». 24 O, eşşəyi palanlayıb
nökərinə dedi: «Sür və mən sənə
deməyincə dayanma». 25 O getdi və
Karmel dağına, Allah adamının yanına
gəldi.

Allah adamı qadını uzaqdan gördükdə
nökəri Gehaziyə dedi: «Şunemli qadın
buraya gəlir. 26 İndi onun qabağına
qaçıb soruş: “Necəsən, yaxşısanmı, ərin
və oğlun yaxşıdırmı?”» O gedib soruşdu.
Qadın dedi: «Yaxşıyıq». 27 Qadın dağa
çıxıb Allah adamının yanına gəldi və
onun ayaqlarına sarıldı. Gehazi onu geri
itələmək üçün yaxınlaşdı, ancaq Allah
adamı dedi: «Onu burax, çünki ürəyi
kədərlidir, ancaq Rəbb bunun səbəbini
gizlətdi və mənə bildirmədi». 28 Qadın
dedi: «Mən ağamdan uşaq istədimmi?
“Məni aldatma” demədimmi?» 29 Elişa
Gehaziyə dedi: «Belini qurşa və əsamı
əlinə götürüb get. Əgər bir adamla
rastlaşsan, ona salam vermə və sənə
salam verənin salamını alma. Get,
əsamı oğlanın üzünün üstünə qoy».
30 Oğlanın anası dedi: «Var olan Rəbbə
və sənin canına and olsun ki, səndən əl
çəkmərəm». Elişa qalxıb onun dalınca
getdi. 31 Gehazi onlardan qabaq getdi

və əsanı oğlanın üzünün üstünə qoydu,
ancaq nə bir səs, nə də bir cavab oldu.
Gehazi Elişanı qarşılamaq üçün geri
döndü və «oğlan dirilmədi» deyə ona
bildirdi.
32 Elişa evə girdi. Ölən oğlan onun
yatağı üstündə uzanmışdı. 33 O içəri
girib qapını onların üzünə bağladı
və Rəbbə dua etdi. 34 Sonra yatağa
qalxıb uşağın üstünə əyildi. Ağzını
onun ağzının, gözlərini onun gözlərinin,
ovuclarını onun ovuclarının üstünə
qoydu. Uşağın bədəni isindi. 35 Elişa
yataqdan düşüb otaqda o tərəf-bu tərəfə
gəzdi. Sonra yenə yatağa qalxıb onun
üstünə əyildi. Oğlan yeddi dəfə asqırıb
gözlərini açdı. 36 Elişa Gehazini çağırıb
dedi: «Şunemli qadını çağır». O, qadını
çağırdı. Qadın Elişanın yanına gələndə
o dedi: «Al oğlunu». 37 Qadın gəlib
Elişanın ayaqlarına düşərək yerə qədər
əyildi və oğlunu götürüb getdi.

Elişanın şorbanı pak etməsi

38 Elişa yenə Qilqala gəldi. Vilayətdə
aclıq idi. Peyğəmbərlər onun önündə
oturmuşdular. O, nökərinə dedi: «Böyük
qazanı ocağa qoy və peyğəmbərlər
üçün şorba bişir». 39 Onlardan biri
ot yığmaq üçün çölə çıxdı. Bir çöl
tənəyi tapıb ondan ətək dolusu yabanı
balqabaq yığdı və gətirib şorba qazanına
doğradı. Bunun nə olduğunu bilməyərək
40 yemək üçün adamlara verdilər. Şorba
yeyənlər qışqırıb dedilər: «Qazandakı
yeməkdən yesək, ölərik, ey Allah
adamı!» Heç kəs ondan yeyə bilmədi.
41 Elişa dedi: «Elə isə un gətirin». Sonra
onu qazana atıb dedi: «Adamlar üçün
tök, yesinlər». Qazanda zərərli bir şey
olmadı.

Elişanın yüz adama çörək verməsi

42 Baal-Şalişadan bir adam gəldi.
O, Allah adamı üçün ilk nübardan
bişirilən iyirmi kömbə arpa çörəyi və
təzə sünbülləri torbada gətirdi. Elişa
dedi: «Adamlara ver, yesinlər». 43 Onun
qulluqçusu dedi: «Bunu yüz adamın
qabağına necə qoyaq?» Elişa dedi:
«Adamlara ver, yesinlər. Çünki Rəbb
belə deyir: “Yeyəcəklər, hələ artıq da
qalacaq”». 44 Yeməyi onların qabağına
qoydular. Rəbbin dediyi kimi onlar
yedilər və yemək artıq qaldı.

Naamanın cüzamdan şəfa tapması

5 [k]Aram padşahının ordu başçısı
Naaman ağasının yanında hörmət
və etibar sahibi idi, çünki Rəbb onun
vasitəsilə Arama qurtuluş vermişdi.
O, cəsur bir döyüşçü idi, ancaq
cüzamlı idi. 2 Aramlılar dəstələrlə
çıxıb İsrail torpağından kiçik bir qızı
əsir götürmüşdülər. Bu qız Naamanın
arvadının yanında qalırdı. 3 O, xanımına
dedi: «Kaş ki ağam Samariyada
peyğəmbərin yanında olaydı. O
zaman peyğəmbər onun cüzamına
şəfa verərdi». 4 Naaman gedib «İsrail
torpağından olan qız belə-belə söylədi»
deyə ağasına bildirdi. 5 Aram padşahı
dedi: «Get, mən İsrail padşahına bir
məktub göndərərəm». Naaman özü ilə
altı min şekel qızıl, on talant gümüş və
on dəst paltar götürüb getdi. 6 Məktubu
da İsrail padşahına gətirdi. Orada belə
yazılmışdı:

> «İndi bu məktubla bərabər qulum
> Naamanı da yanına göndərirəm ki,
> sən onun cüzamına şəfa verəsən».

7 İsrail padşahı məktubu oxuyanda
paltarını cırıb dedi: «Məgər mən
öldürüb-dirildən Allaham? Niyə bu
adam cüzamına şəfa vermək üçün

---

[k]**5:1** Luka 4:27

mənim yanıma adam göndərir?
Baxarsınız, mənimlə dava etmək üçün
bəhanə axtarır».
8 Allah adamı Elişa İsrail padşahının
öz paltarını cırdığını eşidəndə ona
xəbər göndərib dedi: «Nə üçün paltarını
cırdın? Qoy indi o mənim yanıma gəlsin
və bilsin ki, İsraildə bir peyğəmbər
var». 9 Naaman atları və döyüş arabası
ilə gəldi və Elişanın evinin qapısında
dayandı. 10 Elişa onun yanına qasid
göndərib dedi: «Get, İordan çayında
yeddi dəfə yuyun ki, bədənin sağalıb
tər-təmiz olsun». 11 Ancaq Naaman
acıqlanıb getdi və dedi: «Mən güman
edirdim ki, mütləq bayıra çıxıb
yanıma gələcək, durub Allahı Rəbbin
adını çağıracaq və əlini cüzamlı
yerin üzərində yelləyib şəfa verəcək.
12 Dəməşqin çayları Avana və Parpar
İsrailin bütün sularından daha yaxşı
deyilmi? Onlarda yuyunub təmiz ola
bilməzdimmi?» O hirslə dönüb getdi.
13 Naamanın adamları onun yanına
gəlib dedilər: «Ey atamız, əgər
peyğəmbər sənə böyük bir şey əmr
etsəydi, ona əməl etməzdinmi? O
yalnız sənə "yuyun və təmiz ol"
deyir». 14 Bundan sonra Naaman Allah
adamının sözünə görə İordan çayına
enib yeddi dəfə suya baş vurdu. Onun
bədəni sağaldı və körpə bədəni kimi
tər-təmiz oldu.
15 Naaman bütün dəstəsi ilə yenə
Allah adamının yanına gəldi və onun
önündə dayanıb dedi: «Bax indi bildim
ki, İsraildən başqa, dünyanın heç bir
yerində Allah yoxdur. Buyur bu qulunun
hədiyyəsini götür». 16 Lakin Elişa dedi:
«Önündə durduğum var olan Rəbbə
and olsun ki, heç nə götürməyəcəyəm».
Naaman götürməyi təkid etdi, ancaq
Elişa istəmədi. 17 Naaman dedi: «Əgər
götürmürsənsə, onda qoy bu quluna
buradan iki qatır yükü torpaq verilsin.
Çünki bu qulun artıq başqa allahlara
deyil, yalnız Rəbbə yandırma qurbanları
və təqdimlər gətirəcək. 18 Ancaq Rəbb
bu işi quluna bağışlasın: ağam padşah
səcdə etmək üçün Rimmon məbədinə
girəndə mən onun sağında durmalıyam,
onda Rimmon məbədində mən də
səcdə etməliyəm. Orada səcdə etdiyimi
Rəbb quluna bağışlasın». 19 Elişa ona
dedi: «Sağ-salamat get». Naaman onun
yanından çıxıb bir az yol getdi.
20 Allah adamı Elişanın nökəri Gehazi
dedi: «Ağam gətirdiyi şeyi bu Aramlı
Naamandan götürmək istəmədi. Var
olan Rəbbə and olsun ki, onun dalınca
qaçıb ondan nəsə alacağam». 21 Gehazi
Naamanın dalınca qaçdı. Naaman
dalınca bir nəfərin gəldiyini görəndə
onu qarşılamaq üçün arabadan düşüb
dedi: «Xeyir ola?» 22 Gehazi dedi:
«Xeyirdir. Ağam məni göndərdi ki, sənə
deyim: "Elə indicə Efrayimin dağlıq
bölgəsindən yanıma peyğəmbərlərdən
olan iki cavan oğlan gəldi. Xahiş
edirəm, onlara bir talant gümüş və
iki dəst paltar ver"». 23 Naaman dedi:
«Buyur iki talant götür». Ona təkid
edərək iki talant gümüşü iki torbaya
qoyub bağladı və iki dəst paltarla birgə
nökərlərindən ikisinə verdi. Nökərlər
Gehazinin qabağında gedib bunları
daşıdılar. 24 Təpəyə çatanda Gehazi
şeyləri onların əlindən alıb evinə
qoydu. Nökərləri geri göndərdi və
onlar getdilər. 25 Sonra ağası Elişanın
yanına gedib önündə dayandı. Elişa
ondan soruşdu: «Haradan gəlirsən,
Gehazi?» Gehazi dedi: «Bu qulun heç
yerə getməyib». 26 Elişa ona dedi: «O
adam səni qarşılamaq üçün arabasından
düşəndə ürəyim orada deyildimi? İndi
gümüş götürmək, paltar, zeytun və
üzüm bağları, qoyun-keçi, mal-qara,
qullar və kənizlər almaq vaxtıdırmı?
27 Buna görə də Naamanın cüzamı əbədi
olaraq sənə və sənin nəslinə yapışacaq».

Gehazi qar kimi cüzamlı olub onun
hüzurundan çıxdı.

Baltanın su üzərinə çıxması

6 Peyğəmbərlər Elişaya dedilər: «Bax
indi sənin yanında qaldığımız
yer bizə dardır. 2 Qoy İordan çayının
kənarına gedək, hərəmiz bir ağac kəsib
gətirək və qalmaq üçün orada özümüzə
yer düzəldək». Elişa «gedin» dedi.
3 Onlardan biri dedi: «Xahiş edirəm, sən
də bu qullarınla gəl». Elişa «gələrəm»
deyib 4 onlarla getdi. Onlar İordan
çayının kənarına gəldilər və ağac
kəsməyə başladılar. 5 Onlardan biri ağac
kəsərkən baltanın dəmiri suya düşdü.
O qışqırıb dedi: «Vay, ağam! Onu borc
almışdım». 6 Allah adamı dedi: «Hara
düşdü?» O, Elişaya həmin yeri göstərdi.
Elişa bir budaq kəsib oraya atdı və
dəmir suyun üzərinə çıxdı. 7 Elişa «onu
qaldır» dedi. Həmin adam əlini uzadıb
onu qaldırdı.

Elişanın Aram ordusunu əsir alması

8 Aram padşahı İsrailə qarşı vuruşduğu
zaman əyanları ilə məsləhətləşib dedi:
«Filan yerdə ordugah quracağam».
9 Allah adamı İsrail padşahına xəbər
göndərib dedi: «O yerdən keçmə,
çünki Aramlılar oraya enirlər». 10 İsrail
padşahı Allah adamının dediyi yerə
xəbər göndərdi. Beləcə padşah onun
xəbərdarlıq etdiyi yerlərdə dəfələrlə
özünü qorudu.
11 Aram padşahı bundan çox
qəzəbləndi və əyanlarını çağırıb onlara
dedi: «Mənə deyin görək, bizimkilərdən
İsrail padşahına tərəfdar olan kimdir?»
12 Əyanlardan biri dedi: «Heç kim, ağam
padşah. Bunları İsrail padşahına bildirən
İsraildə olan peyğəmbər Elişadır. O
hətta yataq otağında söylədiyin
sözləri ona çatdırır». 13 Padşah dedi:
«Gedin görün, o haradadır, mən onu
bura gətirtdirəcəyəm». Padşaha «o,
Dotandadır» deyə bildirdilər. 14 Padşah
atlar, döyüş arabaları və çoxlu qoşun
göndərdi və onlar gecə ikən gəlib şəhəri
əhatəyə aldılar.
15 Allah adamının qulluqçusu səhər
tezdən durub bayıra çıxdı və şəhərin
ətrafında qoşunun, atların və döyüş
arabalarının olduğunu gördü. O, Elişaya
dedi: «Vay, ağam, nə edəcəyik?» 16 O
dedi: «Qorxma, çünki bizimlə olanlar
onlarla olanlardan çoxdur». 17 Sonra
Elişa dua edib dedi: «Ya Rəbb, onun
gözlərini aç ki, görsün». Rəbb nökərin
gözlərini açdı və o gördü ki, dağ odlu
atlar və döyüş arabaları ilə doludur.
Onlar Elişanı əhatəyə almışdı. 18 Qoşun
ona tərəf enəndə Elişa Rəbbə dua edib
dedi: «Bu adamları kor et». Elişanın
sözünə görə Rəbb onları kor etdi.
19 Elişa onlara dedi: «Yol bu deyil,
şəhər də bu deyil. Ardımca gəlin, sizi
axtardığınız adamın yanına aparım».
Elişa onları Samariyaya gətirdi.
20 Onlar Samariyaya girəndə Elişa
dedi: «Ya Rəbb, onların gözlərini aç
ki, görsünlər». Rəbb onların gözlərini
açdı və onlar gördülər ki, Samariyanın
ortasındadırlar. 21 İsrail padşahı onları
görəndə Elişaya dedi: «Mənim atam,
onları qırıb məhv edimmi?» 22 Elişa
dedi: «Yox, qırma. Məgər bu adamları
sən qılıncın və ox-kamanınla əsir
etmisən ki, qırmağa haqqın olsun?
Onların qabağına çörək və su qoy ki,
yeyib-içsinlər və sonra öz ağalarının
yanına getsinlər». 23 O, Aramlılar
üçün böyük bir ziyafət verdi və onlar
yeyib-içdilər. Sonra onları öz ağalarının
yanına göndərdi. Aramlıların dəstələri
bir daha İsrail torpağına gəlmədi.

Samariyada aclıq

24 Bir müddət sonra Aram padşahı
Ben-Hadad bütün ordusunu toplayıb
çıxdı və Samariyanı mühasirəyə aldı.
25 Samariyada böyük bir aclıq oldu.

Çünki şəhəri o qədər mühasirədə
saxlamışdılar ki, bir eşşək başı səksən
şekel gümüşə və bir kabın dörddə biri
qədər göyərçin peyini beş şekel gümüşə
satılırdı. 26 Bir dəfə İsrail padşahı
qala divarının üstündən keçəndə bir
qadın fəryad edib ona dedi: «Ağam
padşah, kömək et!» 27 Padşah dedi:
«Rəbb sənə kömək etməsə, mən sənə
necə kömək edim? Xırmandan yoxsa
üzümsıxandan?» 28 Sonra padşah ona
dedi: «Nə istəyirsən?» O dedi: «Bu qadın
mənə demişdi: “Sən öz oğlunu ver, bu
gün yeyək, mənim oğlumu isə sabah
yeyərik”. 29 [l]Oğlumu bişirib yedik.
Ertəsi gün ona dedim: “Öz oğlunu ver,
yeyək”. Ancaq o, oğlunu gizlətdi».
30 Padşah qadının sözlərini eşidəndə
paltarını cırdı. O bu vaxt qala divarının
üstündən keçirdi və xalq gördü ki, onun
əynində çul var. 31 Padşah dedi: «Əgər
bu gün Şafat oğlu Elişanın başı çiyni
üstündə qalsa, Allah mənə beləsini və
bundan betərini eləsin».
32 Elişa öz evində oturmuşdu,
ağsaqqallar da onun yanında əyləşmişdi.
Padşah hüzurundan bir qasid göndərdi.
Amma qasid yanına gəlməzdən
qabaq Elişa ağsaqqallara dedi:
«Görürsünüzmü, bu qatil mənim
boynumu vurmaq üçün adam göndərir!
Baxın qasid gələndə qapını bağlayın və
onu içəri buraxmayın. Onun arxasınca
ağasının da ayaq səsləri gələcək!»
33 Elişa hələ danışarkən qasid onun
yanına gəlib dedi: «Bax bu bəlanı
göndərən Rəbdir. Nə üçün daha Rəbdən
kömək gözləyək?»

7 Elişa dedi: «Rəbbin sözünü eşidin,
Rəbb belə deyir: “Sabah bu vaxt
Samariya darvazasında bir sea narın
un bir şekelə və iki sea arpa bir şekelə
satılacaq”». 2 Padşahın sağında duran
köməkçi Allah adamına cavab verib
dedi: «Rəbb göylərdə pəncərələr açsa da,
bu iş ola bilməz». Allah adamı isə dedi:
«Bax sən gözlərinlə bunu görəcəksən,
ancaq ondan yeməyəcəksən».

Mühasirənin sonu

3 Şəhər darvazasının önündə dörd
cüzamlı adam var idi. Onlar bir-birlərinə
dedilər: «Nə üçün biz ölənə qədər burada
oturub qalmalıyıq? 4 Əgər şəhərə girsək,
şəhərdə olan aclıqdan öləcəyik,
burada qalsaq, burada öləcəyik. Onda
Aramlıların ordugahına gedib təslim
olaq. Əgər bizi sağ buraxsalar, sağ
qalarıq, öldürsələr, ölərik». 5 Onlar
Aramlıların ordugahına getmək üçün
axşam alaqaranlığında qalxıb onun
kənarına gəldilər. Orada heç kəs
yox idi. 6 Rəbb Aramlıların ordusuna
döyüş arabalarının gurultusunu,
atların tappıltısını və böyük ordunun
səsini eşitdirmişdi. Onlar bir-birlərinə
söyləmişdilər: «İsrail padşahı Xet və
Misir padşahlarını muzdla tutmuşdur
ki, bizim üstümüzə gəlsinlər».
7 Onlar axşam alaqaranlığında qalxıb
qaçmışdılar. Çadırlarını, atlarını,
eşşəklərini – bütün ordugahı olduğu
kimi buraxıb getmişdilər. Beləcə
canlarını qurtarmaq üçün qaçmışdılar.
8 Bu cüzamlılar ordugahın kənarına
gəlib bir çadıra girdilər və yeyib-içdilər.
Oradan qızıl-gümüş, paltar götürüb
getdilər və onları gizlətdilər. Sonra
qayıdıb başqa bir çadıra girdilər.
Oradan da şeylər götürüb getdilər və
onları da gizlətdilər.
9 Onlar bir-birlərinə dedilər: «Biz yaxşı
eləmirik, bu gün müjdə günüdür, biz isə
susuruq. Səhər açılana qədər gözləməyə
haqqımız yoxdur, indi gedək, saray
adamlarına bu xəbəri bildirək». 10 Onlar
gəlib şəhərin qapıçılarını səslədilər və
onlara bildirib dedilər: «Aramlıların

---

[l] **6:29** Qanun. 28:57

ordugahına getdik, orada heç kəs yox
idi və insan səsi də gəlmirdi. Ancaq
bağlı atlar, bağlı eşşəklər və olduğu
kimi qalan çadırlar var idi». 11 Qapıçılar
da qışqırıb bu xəbəri saray içərisində
olan adamlara bildirdilər. 12 Padşah
gecə ikən qalxıb əyanlarına dedi:
«Aramlıların bizə nə etmək istədiklərini
indi sizə deyərəm: onlar bilirlər ki, biz
acıq, buna görə də ordugahdan çıxıb
çöldə gizlənmişlər və "şəhərdən çıxanda
onları diri tutarıq və şəhərə girərik"
deyə düşünürlər». 13 Əyanlardan biri
cavab verib dedi: «Qoy bir neçə adam
şəhərdə qalmış atlardan beşini götürsün
və onları göndərək, gedib görsünlər.
Onların da aqibəti qalan bütün İsrail
camaatının aqibəti kimi olacaq, çünki
bütün İsrail camaatı həlak olacaq».
14 Onlar atlar qoşulmuş iki döyüş
arabası götürdülər. Padşah «gedin
görün» deyib onları Aram ordusunun
dalınca göndərdi. 15 Onlar Aramlıların
dalınca İordan çayına qədər getdilər.
Bütün yol Aramlıların tələsik qaçdıqları
vaxt atdıqları geyim və əşyalarla dolu
idi. Qasidlər geri qayıdıb padşaha
bu xəbəri bildirdilər. 16 Xalq çıxıb
Aramlıların ordugahını qarət etdi.
Rəbbin sözünə görə bir sea narın un bir
şekelə və iki sea arpa bir şekelə satıldı.
17 Padşah sağında duran köməkçini
darvazanın ağzına qoymuşdu. Padşah
Allah adamının yanına enib gəldiyi
zaman onun söylədiyi kimi xalq
padşahın köməkçisini darvazanın
ağzında tapdaladı və o öldü. 18 Allah
adamının padşaha söylədiyi kimi oldu.
O demişdi: «Sabah bu vaxt Samariya
darvazasında iki sea arpa bir şekelə və
bir sea narın un bir şekelə satılacaq».
19 Padşahın köməkçisi də Allah adamına
cavab verib demişdi: «Rəbb göylərdə
pəncərələr açsa da, bu iş ola bilməz».
Allah adamı isə demişdi: «Bax sən
gözlərinlə bunu görəcəksən, ancaq
ondan yeməyəcəksən». 20 Həmin şey də
onun başına gəldi: xalq onu darvazanın
ağzında tapdaladı və o öldü.

Şunemli qadının qayıtması

(2Saln. 21:1-20)

8 [m]Elişa oğlunu diriltdiyi qadına
demişdi: «Qalx öz ev adamlarınla
birgə get və qala biləcəyin yerdə qal.
Çünki Rəbb qərar verdi ki, yeddi il
ölkədə aclıq olacaq». 2 Qadın Allah
adamının sözünə əməl etmişdi və ev
adamları ilə birgə gedib Filiştlilərin
ölkəsində yeddi il qalmışdı. 3 Bu
müddətdən sonra qadın Filiştlilərin
ölkəsindən qayıtdı. O, evini və tarlasını
istəmək üçün padşahın yanına getdi.
4 O vaxt padşah Allah adamının nökəri
Gehazi ilə danışaraq ona deyirdi:
«Buyur Elişanın etdiyi bütün böyük
işləri mənə danış». 5 O, Elişanın ölünü
necə diriltdiyini padşaha danışdığı vaxt
oğlu dirilən qadın da evini və tarlasını
istəmək üçün padşaha yalvarmağa
başladı. Gehazi dedi: «Ağam padşah,
o qadın budur, Elişanın diriltdiyi oğlu
da yanındadır». 6 Padşah qadından
soruşanda o, padşaha hər şeyi danışdı.
Padşah ona bir saray xidmətçisi
verib dedi: «Onun hər şeyini qaytar,
ölkəni tərk etdiyi gündən indiyə qədər
tarlasının yetirdiyi bütün məhsulu ona
ver».

Elişa və Aram padşahları

7 Elişa Dəməşqə gəldi. Aram padşahı
Ben-Hadad xəstə idi. «Allah adamı
buraya gəlib» deyə ona bildirdilər.
8 Padşah Xazaelə dedi: «Bir hədiyyə
götürüb Allah adamını qarşılamağa
get. "Bu xəstəlikdən sağalacağammı?"
deyib onun vasitəsilə Rəbdən soruş».

---

[m]**8:1** 2Pad. 4:8-37

9 Xazael onu qarşılamağa getdi. Əlindəki
hədiyyə ilə birgə Dəməşqin bütün yaxşı
şeylərindən qırx dəvə yükü hədiyyə
götürüb gəldi və onun önündə durub
dedi: «Oğlun Aram padşahı Ben-Hadad
“Bu xəstəlikdən sağalacağammı?”
deyib məni sənin yanına göndərdi».
10 Elişa ona dedi: «Get, ona “mütləq
sağalacaqsan” söylə. Ancaq Rəbb mənə
göstərdi ki, o mütləq öləcək». 11 Allah
adamı Xazaeli utandırana kimi gözünü
onun üzünə dikdi və sonra ağladı.
12 Xazael dedi: «Ağam nə üçün ağlayır?»
O dedi: «Ona görə ki İsraillilərə
sənin edəcəyin pisliyi bilirəm: onların
qalalarına od vuracaqsan, cavanlarını
qılıncla öldürəcəksən, uşaqlarını daşlara
çırpacaqsan və hamilə qadınlarını
doğrayacaqsan». 13 [n]Xazael dedi: «Bu
köpək qulun kimdir ki, bu böyük
işi etsin?» Elişa dedi: «Rəbb mənə
göstərdi ki, sən Aram üzərində padşah
olacaqsan». 14 Xazael Elişanı tərk edib
ağasının yanına gəldi. Ağası ondan
soruşdu: «Elişa sənə nə dedi?» O cavab
verdi: «Mənə dedi ki, sən mütləq
sağalacaqsan». 15 Ertəsi gün Xazael bir
örtük götürüb suya batırdı, ağasının
üzünün üstünə çəkdi və o boğulub öldü.
Onun yerinə Xazael padşah oldu.

Yəhuda padşahı Yehoram

(2Saln. 21:1-20)

16 İsrail padşahı Axav oğlu Yehoramın
padşahlığının beşinci ilində, Yehoşafat
Yəhuda padşahı olanda onun oğlu
Yehoram da onunla birgə padşah oldu.
17 O, padşah olduğu vaxt otuz iki
yaşında idi və Yerusəlimdə səkkiz il
padşahlıq etdi. 18 Axav nəslinin etdiyi
kimi o da İsrail padşahlarının yolu ilə
getdi, çünki Axavın qızı onun arvadı
idi. Yehoram Rəbbin gözündə pis olan
işlər etdi. 19 [o]Ancaq Rəbb Öz qulu
Davudun xatirinə Yəhudalıları məhv
etmək istəmədi, çünki Davuda və onun
nəslinə əbədi olaraq bir çıraq verəcəyini
vəd etmişdi.
20 [p]Onun dövründə Edomlular üsyan
qaldırıb Yəhudanın əsarəti altından
çıxdılar və özlərinə bir padşah qoydular.
21 Yehoram bütün döyüş arabaları ilə
birgə Sairə getdi. Gecə ikən qalxıb onu
hər tərəfdən əhatə edən Edomluları
və araba rəislərini qırdı, lakin xalq öz
torpağına qaçdı. 22 Beləcə Edomlular
üsyan qaldırdılar, bu günə qədər də
Yəhudanın əsarəti altında deyillər.
Həmin vaxt Livnalılar da üsyan
qaldırmışdılar.
23 Yehoramın qalan işləri və etdiyi
hər şey barədə Yəhuda padşahlarının
salnamələr kitabında yazılmışdır.
24 Yehoram ataları ilə uyudu və
Davudun şəhərində, atalarının yanında
basdırıldı. Onun yerinə oğlu Axazya
padşah oldu.

Yəhuda padşahı Axazya

(2Saln. 22:1-6)

25 İsrail padşahı Axav oğlu Yehoramın
padşahlığının on ikinci ilində Yehoram
oğlu Axazya Yəhuda üzərində padşah
oldu. 26 Axazya padşah olduğu vaxt
iyirmi iki yaşında idi və Yerusəlimdə bir
il padşahlıq etdi. Anası İsrail padşahı
Omrinin nəvəsi olub adı Atalya idi.
27 Axazya da Axav nəslinin yolu ilə getdi
və onlar kimi Rəbbin gözündə pis olan
işlər etdi, çünki Axav nəslinin kürəkəni
idi.
28 O, Aram padşahı Xazaelə qarşı
vuruşmaq üçün Axav oğlu Yehoramla
birgə Ramot-Gileada getdi. Aramlılar
Yehoramı yaraladılar. 29 Padşah
Yehoram Ramot-Gileadda Aram padşahı

---

[n]**8:13** 1Pad. 19:15 [o]**8:19** 1Pad. 11:36; 15:4; 2Saln. 21:7; Zəb. 132:17
[p]**8:20** Yar. 27:40

Xazaelə qarşı vuruşarkən Aramlıların
ona vurduqları yaraları sağaltmaq
üçün İzreelə qayıtdı. Yəhuda padşahı
Yehoram oğlu Axazya, Axav oğlu
Yehoramı görmək üçün İzreelə gəldi,
çünki o, yaralı idi.

İsrail padşahı Yehu

9 Peyğəmbər Elişa peyğəmbərlərdən
birini çağırıb ona demişdi: «Belini
qurşa və bu yağ qabını əlinə alıb
Ramot-Gileada get. 2 Oraya çatınca
Nimşi oğlu Yehoşafat oğlu Yehunu tap.
Girib onu yoldaşlarının arasından çağır
və içəri otağa apar. 3 Yağ qabını götür
və yağı onun başına tökü̇b söylə: “Rəbb
belə deyir: ‹Səni İsrail üzərində padşah
olmaq üçün məsh etdim›”. Sonra qapını
açıb qaç və orada durma».
4 Peyğəmbərin nökəri olan bu cavan
oğlan Ramot-Gileada getdi. 5 Oraya
gəlib gördü ki, qoşun başçıları burada
oturmuşlar. O dedi: «Ey rəis, sənə
sözüm var». Yehu dedi: «Aramızdan
kimə?» Nökər dedi: «Ey rəis, sənə».
6 [q]Yehu qalxıb içəri girdi. Nökər yağı
onun başına tökü̇b dedi: «İsrailin Allahı
Rəbb belə deyir: “Səni Rəbbin xalqı olan
İsrail üzərində padşah olmaq üçün məsh
etdim. 7 Ağan Axavın nəslini qırıb məhv
edəcəksən. Qullarım peyğəmbərlərin
və Rəbbin bütün qullarının qanı üçün
Mən İzeveldən qisasımı alacağam.
8 Bütün Axav nəsli məhv olacaq: İsraildə
Axavdan divar isladan hər kəsi – bütün
kişiləri, istər kölə olsun, istər azad,
kəsib atacağam. 9 Axavın nəslini Nevat
oğlu Yarovamın və Axiya oğlu Baaşanın
nəsilləri kimi edəcəyəm. 10 [r]İzeveli isə
İzreel tarlasında köpəklər yeyəcək və
onu basdıran olmayacaq”». Sonra o,
qapını açıb qaçdı.
11 Yehu çıxıb ağasının adamlarının
yanına gəldi. Onlardan biri Yehuya
dedi: «Xeyir ola? Bu dəli sənin yanına
nə üçün gəlib?» Yehu onlara dedi:
«Onun necə adam olduğunu və nə
deyəcəyini bilirsiniz». 12 Onlar dedilər:
«Yalan deyirsən! Onun nə dediyini bizə
bildir». Yehu dedi: «Mənə söylədi ki,
Rəbb belə deyir: “Səni İsrail üzərində
padşah olmaq üçün məsh etdim”».
13 Hamı tez qalxıb öz paltarını götürdü
və onları pilləkənin üstünə – Yehunun
ayağı altına sərdi. Onlar şeypur çalıb
«Yehu padşahdır!» dedilər.

Yehunun Yehoramı öldürməsi

14 Nimşi oğlu Yehoşafat oğlu Yehu
Yehorama qəsd hazırladı. O vaxt
Yehoram və onunla birgə bütün
İsraillilər Ramot-Gileadı Aram padşahı
Xazaelin hücumundan qoruyurdular.
15 [s]Ancaq padşah Yehoram Aram
padşahı Xazaelə qarşı vuruşarkən
Aramlıların ona vurduqları yaraları
sağaltmaq üçün İzreelə qayıtmışdı. Yehu
dedi: «Əgər siz mənimlə razısınızsa,
qoy şəhəri heç kəs tərk etməsin ki,
bu xəbər İzreelə gedib çatmasın».
16 Yehu arabaya minib İzreelə getdi,
çünki Yehoram orada yatırdı. Yəhuda
padşahı Axazya Yehoramı görmək üçün
gəlmişdi.
17 İzreeldəki qüllə üzərində duran
gözətçi Yehunun oraya yaxınlaşan
qoşununu görüb dedi: «Qoşun
görürəm». Yehoram dedi: «Bir atlı
götürüb onları qarşılamağa göndər
ki, soruşsun: “Xeyir ola?”» 18 Bir atlı
Yehunu qarşılamağa getdi və ona dedi:
«Padşah soruşur: “Xeyir ola?”» Yehu
dedi: «Xeyirdən sənə nə? Dön, dalımca
gəl». Gözətçi dedi: «Qasid onların yanına
gəldi, ancaq geri qayıtmır». 19 İkinci
atlını göndərdilər, o da Yehunun yanına
gəlib dedi: «Padşah soruşur: “Xeyir
ola?”» Yehu dedi: «Xeyirdən sənə nə?

---

[q]**9:6** 1Pad. 19:16 [r]**9:10** 1Pad. 21:23 [s]**9:15** 2Saln. 22:6

Dön, dalımca gəl». 20 Gözətçi dedi:
«Qasid onların yanına gəldi, ancaq geri
qayıtmır. Araba sürməyi Nimşi oğlu
Yehunun sürməyinə oxşayır, çünki o
dəli kimi sürür».
21 Yehoram dedi: «Arabamı qoş».
Onun arabasını qoşdular. İsrail padşahı
Yehoram və Yəhuda padşahı Axazya
öz arabalarında Yehunu qarşılamağa
çıxdılar və İzreelli Navotun tarlasında
onunla rastlaşdılar. 22 Yehoram
Yehunu görəndə soruşdu: «Xeyir ola,
Yehu?» Yehu dedi: «Anan İzevelin
xainlikləri və cadugərlikləri bu qədər
çox olduğu halda necə xeyir ola bilər?»
23 Yehoram arabasını döndərdi və
Axazyaya «Xəyanət, ey Axazya!» deyib
qaçdı. 24 Yehu ox-kamanını çəkdi
və Yehoramı kürəyindən vurdu. Ox
onun ürəyindən keçib çıxdı və o öz
arabasına yıxıldı. 25 Yehu padşahın
köməkçisi Bidqara dedi: «Onu götürüb
İzreelli Navotun tarlasına at. Yadına
sal, mən sənin lə birgə onun atası
Axavın dalınca gedərkən Rəbb ona qarşı
belə söyləmişdi: 26 t“Navotun və onun
oğullarının qanı dünən Mənim gözümün
qabağına gəldi” bəyan edir Rəbb.
“Səndən bu tarlada qisas alacağam”
bəyan edir Rəbb. İndi Rəbbin sözünə
görə onu götürüb tarlaya at».

Yehunun Yəhuda padşahı Axazyanı öldürməsi

27 Yəhuda padşahı Axazya bunu
gördükdə Bet-Haqqan yolu ilə qaçdı.
Yehu onu təqib edib dedi: «Onu da
vurun». İvleam yanında olan Qur
yoxuşunda onu arabada vurdular.
O, Megiddoya qaçıb orada öldü.
28 Adamları onu araba ilə Yerusəlimə
gətirdilər və Davudun şəhərində,
atalarının yanında, öz qəbrində
basdırdılar. 29 Axav oğlu Yehoramın
padşahlığının on birinci ilində Axazya
Yəhuda üzərində padşah olmuşdu.

Yehunun İzeveli öldürməsi

30 Yehu İzreelə gəldi. İzevel bunu
eşitdi. O, gözlərinə sürmə çəkib
başına bəzək vurdu və pəncərədən
boylanıb baxdı. 31 Yehu darvazadan
girəndə İzevel dedi: «Xeyir ola, ey
öz ağasını öldürən Zimri?» 32 Yehu
üzünü pəncərəyə doğru qaldırıb dedi:
«Kim mənimlədir, kim?» İki-üç saray
xidmətçisi boylanıb ona baxdı. 33 Yehu
dedi: «Onu aşağı atın». İzeveli aşağı
atdılar. Qanı divarın və atların üstünə
sıçradı və atlar onun cəsədini tapdaladı.
34 Yehu içəri girərək yeyib-içdi və
dedi: «Bu lənətə gəlmiş qadını götürüb
basdırın, çünki padşah qızıdır». 35 Onlar
İzeveli basdırmaq üçün getdilər. Ancaq
onun kəlləsindən, ayaqlarından və
ovuclarından başqa heç nə tapmadılar.
36 uGeri qayıdıb Yehuya söylədilər.
O dedi: «Qulu Tişbeli İlyas vasitəsilə
Rəbbin söylədiyi söz belədir: “İzreel
tarlasında İzevelin ətini köpəklər
yeyəcək. 37 İzevelin cəsədi İzreel
tarlasına tökülmüş peyin kimi olacaq
və heç kəs deyə bilməyəcək ki, bu,
İzeveldir”».

Yehunun şahzadələri öldürməsi

10 Samariyada Axavın nəslindən
olan yetmiş nəfər şahzadə
var idi. Yehu İzreel başçılarına,
ağsaqqallara və Axavın nəslindən olan
uşaqların himayəçilərinə məktublar
yazıb Samariyaya göndərdi. O belə
yazdı: 2 «Ağanızın şahzadələri sizin
yanınızdadır, döyüş arabalarınız və
atlarınız, qalalı şəhəriniz və silahlarınız
var. Bu məktub sizə çatanda 3 ağanızın
şahzadələrindən ən yaxşısını, ən
layiqlisini seçib onu atasının taxtında

---

t**9:26** 1Pad. 21:19 u**9:36** 1Pad. 21:23

oturdun və ağanızın nəsli üçün
vuruşun».
4 Onlar çox qorxub dedilər: «İki
padşah ona qarşı dayana bilmədi, biz
necə dayanacağıq?» 5 Saray rəisi, şəhər
başçısı, ağsaqqallar və himayəçilər
Yehuya xəbər göndərib dedilər: «Biz
sənin qullarınıq və bizə dediyin
hər şeyi edərik, heç kəsi də padşah
etməyəcəyik. Sən nə istəyirsən, onu da
et». 6 Yehu ikinci məktubunda onlara
belə yazdı: «Əgər siz mənimlə razı
olub sözümə qulaq asırsınızsa, ağanızın
şahzadələrinin başlarını götürüb sabah
bu vaxt İzreelə, yanıma gəlin». Yetmiş
nəfər şahzadə onları tərbiyə edən
şəhərin böyük adamlarının yanında
qalırdı. 7 Məktub onlara çatanda onlar
yetmiş nəfər şahzadəni tutub öldürdülər
və başlarını səbətlərə qoyub İzreelə,
Yehuya göndərdilər. 8 Qasid gəldi və ona
bildirib dedi: «Şahzadələrin başlarını
gətirdilər». Yehu dedi: «Onları iki qalaq
edib darvazanın girişində səhərə qədər
qoyun». 9 Səhəri gün Yehu bayıra çıxdı
və qalxıb bütün xalqa dedi: «Sizin
təqsiriniz yoxdur. Ağama mən qəsd
hazırladım və onu mən öldürdüm. Bəs
bunların hamısını kim qırdı? 10 Onda
bilin ki, Axavın nəslinə qarşı Rəbbin
söylədiyi sözlərdən heç biri hədər gedə
bilməz. Rəbb Öz qulu İlyas vasitəsilə
söylədiyi işi etmişdir». 11 [v]Yehu Axavın
İzreeldəki sarayında olan adamlardan
sağ qalanların hamısını – onun bütün
böyüklərini, yaxın adamlarını və
kahinlərini qırdı, bir adamını da sağ
buraxmadı.

Yehu padşah Axazyanın qohumlarını öldürür

12 Yehu Samariyaya tərəf yola
düşdü. Yolda çobanlara məxsus olan
Bet-Eqeddən keçəndə 13 Yəhuda padşahı
Axazyanın qohumlarına rast gəldi və
onlara dedi: «Siz kimsiniz?» Onlar
dedilər: «Biz Axazyanın qohumlarıyıq.
Padşahın və mələkənin övladlarını
salamlamaq üçün gedirik». 14 Yehu dedi:
«Bunları diri tutun». Onları diri tutdular
və bu qırx iki nəfər adamı Bet-Eqed
quyusunun yanında öldürdülər. Yehu
onlardan heç birini sağ buraxmadı.

Yehu Axavın Samariyada olan adamlarını öldürür

15 Yehu oradan gedəndə onu
qarşılamağa gələn Rekav oğlu
Yehonadava rast gəldi və onu
salamlayıb dedi: «Sənin niyyətin
mənim ürəyimcə olduğu kimi mənim
də niyyətim sənin ürəyincədirmi?»
Yehonadav «bəli» dedi. Yehu dedi: «Elə
isə əlini ver». O, əlini verdi və Yehu onu
öz arabasına qaldırdı. 16 Sonra dedi:
«Mənimlə gəl və Rəbb üçün göstərdiyim
qeyrəti gör». Onu Yehunun arabasına
mindirib apardılar. 17 Yehu Samariyaya
gəldi və Rəbbin İlyasa söylədiyi sözə
görə Axavın Samariyada qalan bütün
adamlarını tamamilə qırıb məhv etdi.

Yehunun Baala səcdə edənləri öldürməsi

18 Yehu bütün xalqı toplayıb onlara
dedi: «Axav Baala az səcdə etdi, ancaq
Yehu ona çox səcdə edəcək. 19 İndi
Baalın bütün peyğəmbərlərini, ona
səcdə edənlərin hamısını, onun bütün
kahinlərini mənim yanıma çağırın,
heç kəs qalmasın, çünki Baala böyük
qurbanım var. Kim gəlməsə, sağ
qalmayacaq». Ancaq Yehu burada hiylə
işlətdi ki, Baala səcdə edənləri məhv
etsin. 20 Yehu dedi: «Baal üçün təqdis
olunmuş bir toplantı çağırın». Onlar
toplantı çağırdılar. 21 Yehu İsrailin hər
tərəfinə xəbər göndərdi. Baala səcdə

---

[v] **10:11** Huşə 1:4

edənlərin hamısı gəldi, gəlməyən bir
nəfər də qalmadı. Onlar Baal məbədinə
girdilər və Baal məbədi ağzınacan
adamla doldu. 22 Yehu paltarlara baxan
adama dedi: «Baala səcdə edənlərin
hamısı üçün əba ver». Bu adam da onlar
üçün əba verdi.
23 Yehu Rekav oğlu Yehonadavla
birgə Baal məbədinə girib Baala səcdə
edənlərə dedi: «Axtarıb baxın, burada
Rəbbə səcdə edən bir nəfər sizinlə
olmasın, yalnız Baala səcdə edənlər
olsun». 24 Onlar təqdimlər və yandırma
qurbanları gətirmək üçün qabağa
gəldilər. Yehu bayırda səksən adam
qoymuşdu və onlara demişdi: «Əlinizə
verdiyim bu adamlardan biri kimdən
qaçıb qurtarsa, o adam əvəzində öz
canını verəcək». 25 Yandırma qurbanları
gətirilməsi sona çatanda Yehu öz
mühafizəçilərinə və rəislərinə dedi:
«İçəri girib onları qırın, heç kəs çıxa
bilməsin». Mühafizəçilər və rəislər
onları qılıncdan keçirib qırdılar və
meyitlərini bayıra atdılar. Sonra Baal
məbədinin içəri otağına girdilər.
26 Oradan Baal məbədinin büt olan
sütununu çıxarıb yandırdılar. 27 Beləcə
Baala qoyulan sütunu yıxdılar. Baal
məbədini də dağıdıb ayaqyolu etdilər,
ora bu günə qədər də belədir.
28 Beləliklə, Yehu İsraildən Baalın
kökünü kəsdi. 29 [w]Ancaq Yehu Nevat
oğlu Yarovamın İsrailə etdirdiyi
günahlardan, Bet-Eldə və Danda olan
qızıl danalara səcdə etməkdən əl
çəkmədi. 30 Rəbb Yehuya dedi: «Sən
gözümdə doğru olan işlər görməklə
yaxşı elədin və Mənim ürəyimdə olan
hər şeyə görə Axavın adamları ilə rəftar
etdin. Buna görə də dördüncü nəslinə
qədər sənin övladların İsrail taxtında
oturacaq». 31 Ancaq Yehu bütün qəlbi
ilə İsrailin Allahı Rəbbin Qanunu ilə
getmək istəmədi və Yarovamın İsrailə
etdirdiyi günahlardan əl çəkmədi.

Yehunun ölümü

32 Rəbb o dövrdə İsrail torpağını
kəsib kiçiltməyə başladı. Xazael bütün
İsrail hüdudlarında onları məğlub
etdi: 33 İordan çayının şərq tərəfindəki
Qadlılara, Ruvenlilərə və Menaşşelilərə
məxsus olan bütün Gilead torpağını,
Arnon vadisinin kənarında olan
Aroerdən Gileada və Başana qədər hər
tərəfi zəbt etdi.
34 Yehunun qalan işləri, etdiyi hər
şey və onun bütün hünəri barədə İsrail
padşahlarının salnamələr kitabında
yazılmışdır. 35 Yehu ataları ilə uyudu
və onu Samariyada basdırdılar. Onun
yerinə oğlu Yehoaxaz padşah oldu.
36 Yehunun Samariyada İsrail üzərində
padşahlıq etdiyi müddət iyirmi səkkiz il
idi.

Yəhuda mələkəsi Atalya

(2Saln. 22:10–23:15)

11 Axazyanın anası Atalya oğlunun
öldüyünü görəndə qalxıb bütün
padşah nəslini məhv etdi. 2 Ancaq
padşah Yehoramın qızı, Axazyanın
bacısı Yehoşeva öldürülən şahzadələr
arasından Axazyanın oğlu Yoaşı gizlincə
apardı və onu dayəsi ilə birgə yataq
otağında yerləşdirdi. Beləcə Yoaşı
Atalyadan gizlətdilər və o öldürülmədi.
3 O, altı il gizli olaraq Rəbbin məbədində
dayəsi ilə birgə qaldı. Atalya isə ölkə
üzərində padşahlıq etdi.
4 [x]Yeddinci ildə Yehoyada Karyalıların
və mühafizəçilərin yüzbaşılarını
çağırtdırdı, onları öz yanına – Rəbbin
məbədinin içərisinə gətirdi. Orada
bu adamlarla əhd kəsib onları and
içdirdi və şahzadəni onlara göstərdi.
5 Sonra Yehoyada onlara əmr edib

---

[w]**10:29** 1Pad. 12:28-30 [x]**11:4** Çıx. 30:11-16; Lev. 27:1-25

dedi: «Siz belə edin: Şənbə günü növbə
çəkənlərinizin üçdə biri sarayın keşiyini
çəksin, 6 üçdə biri Sur darvazasında
dursun, üçdə biri isə mühafizəçilərin
arxasındakı darvazada dayansın.
Beləcə sarayın keşiyini çəkin. 7 Sizin
iki bölüyünüz – Şənbə günü növbə
çəkməyənlərin hamısı padşahın
tərəfində olub Rəbbin məbədinin
keşiyini çəksin. 8 Hər kəs silahı əlində
padşahı əhatəyə alsın, cərgələrinizə
girən öldürülsün. Padşah girib-çıxdığı
vaxt onunla olun».
9 Yüzbaşılar kahin Yehoyadanın
əmr etdiyi hər şeyi etdilər: hər biri
öz adamlarını, Şənbə günü növbə
çəkənləri və növbədə olmayanları
götürüb kahin Yehoyadanın yanına
gəldi. 10 Kahin yüzbaşılara Rəbbin
məbədində olan padşah Davudun
nizələrini və qalxanlarını verdi.
11 Mühafizəçilər məbədin sağ tərəfindən
sol tərəfinə qədər qurbangahın və
məbədin yanında, padşahın ətrafında
dayandılar. Hər kəsin silahı əlində idi.
12 Kahin şahzadəni irəli çıxartdı və tacı
başına qoyub şəhadətnaməni ona verdi.
Onu padşah olmaq üçün məsh etdilər və
əl çalıb «Yaşasın padşah!» dedilər.
13 Atalya mühafizəçilərin və xalqın
səsini eşidəndə xalqın yanına, Rəbbin
məbədinə gəldi. 14 O baxıb gördü ki,
padşah qaydaya görə sütunun yanında
dayanmış, rəislər və kərənay çalanlar
da padşahın yanındadır. Bütün ölkə
xalqı sevinərək kərənay çalırdı. Atalya
paltarını cırıb bağırdı: «Xəyanət!
Xəyanət!» 15 Kahin Yehoyada qoşun
üçün cavabdeh olan yüzbaşılara əmr
edib dedi: «Onu cərgələrin arasından
çıxarın və dalınca gələni qılıncla
öldürün». Çünki kahin «qoy o, Rəbbin
məbədində öldürülməsin» demişdi.
16 [y]Atalyanı tutdular, onu atların girdiyi
darvazadan saraya gətirdilər və orada
öldürüldü.
17 Yehoyada Rəbb ilə padşah və xalq
arasında əhd kəsdi ki, onlar Rəbbin xalqı
olsun. O, padşahla xalq arasında da əhd
kəsdi. 18 Bütün ölkə xalqı Baal məbədinə
getdi. Onu dağıdıb qurbangahlarını
və bütlərini parça-parça etdilər, Baal
kahini Mattanı qurbangahların önündə
öldürdülər. Kahin Rəbbin məbədinə
gözətçilər qoydu. 19 O, yüzbaşıları,
Karyalıları, mühafizəçiləri, bütün ölkə
xalqını özü ilə götürdü. Onlar padşahı
Rəbbin məbədindən düşürtdülər və
mühafizəçilər darvazasının yolu ilə
saraya gəldilər. Yoaş padşahların
taxtında oturdu. 20 Bütün ölkə xalqı
sevindi və şəhər sakitləşdi. Çünki
Atalyanı padşah sarayında qılıncla
öldürmüşdülər.

Yəhuda padşahı Yoaş

(2Saln. 24:1-27)

21 Yoaş padşah olduğu vaxt yeddi
yaşında idi.
12 Yehunun padşahlığının yeddinci
ilində Yoaş padşah oldu və
Yerusəlimdə qırx il padşahlıq etdi.
Anası Beer-Şevadan olub adı Sivya idi.
2 Kahin Yehoyada Yoaşı öyrətdiyi dövr
ərzində Rəbbin gözündə doğru olan
işlər etdi. 3 Ancaq səcdəgahlar aradan
qaldırılmadı, xalq hələ səcdəgahlarda
qurban gətirir və buxur yandırırdı.
4 Yoaş kahinlərə dedi: «Müqəddəs
şeylər kimi Rəbbin məbədinə gətirilən
gümüşü, siyahıyaalma zamanı
toplanmış gümüşü, hər kəsin öz canı
əvəzinə verdiyi gümüşü və Rəbbin
məbədinə gətirmək üçün hər kəsin
ürəyi istədiyi qədər verdiyi gümüşün
hamısını 5 kahinlərin hər biri öz
xəzinədarından götürsün və məbəddə
harada uçuq bir yer varsa, o uçuqları

[y] **11:16** Lev. 7:7

özləri təmir etsin». 6 Ancaq padşah
Yoaşın padşahlığının iyirmi üçüncü
ilində kahinlər hələ məbədin uçuqlarını
təmir etməmişdilər. 7 Padşah Yoaş
kahin Yehoyadanı və o biri kahinləri
çağırıb onlara dedi: «Nə üçün siz
məbədin uçuqlarını təmir etmirsiniz?
İndi daha xəzinədarlarınızdan özünüz
üçün gümüş almayın, qoy bu gümüş
məbədin uçuqlarının təmiri üçün
verilsin». 8 Kahinlər razı oldular ki, daha
xalqdan gümüş almasınlar və məbədin
uçuqlarını da özləri təmir etməsinlər.
9 Kahin Yehoyada bir sandıq götürdü
və onun qapağında dəlik açdı. Onu
qurbangahın yanına, Rəbbin məbədinə
girən yerdə sağ tərəfə qoydu. Astana
keşikçisi olan kahinlər Rəbbin məbədinə
gətirilən gümüşün hamısını oraya
qoyardı. 10 Sandıqda çoxlu gümüş
olduğunu görəndə padşahın mirzəsi və
baş kahin gələrək Rəbbin məbədində
tapılan gümüşü torbalara doldurub
tərəzidə çəkirdilər. 11 Çəkilən gümüşü
Rəbbin məbədinin işinə nəzarət edən
rəislərə verirdilər. Onlar da bunu Rəbbin
məbədində işləyən dülgərlərə, ustalara,
12 bənnalara, daşyonanlara, Rəbbin
məbədinin uçuqlarını təmir etmək
üçün taxta və yonulmuş daşlar satın
alan adamlara verir və məbədin bütün
təmir işlərinə xərcləyirdilər. 13 Ancaq
Rəbbin məbədinə gətirilmiş gümüşdən
məbəd üçün gümüş kasalar, maqqaşlar,
piyalələr, kərənaylar və qızıl yaxud
gümüş qablar düzəldilmirdi. 14 [z]Çünki
gümüşü iş görənlərə verirdilər və
onunla Rəbbin məbədini təmir edirdilər.
15 İş görənlərə vermək üçün əllərinə
gümüş verdikləri adamlardan hesabat
istəmirdilər, çünki onlar sədaqətlə
çalışırdılar. 16 Təqsir təqdimlərinin
və günah təqdimlərinin gümüşü
Rəbbin məbədinə gətirilmədi, çünki o,
kahinlərin idi.
17 O vaxt Aram padşahı Xazael gəldi
və Qata hücum edib oranı aldı. Sonra
o, Yerusəlimə hücum etməyə yönəldi.
18 Yəhuda padşahı Yoaş babaları
olan Yəhuda padşahları Yehoşafatın,
Yehoramın və Axazyanın təqdis
etdiyi bütün şeyləri, özünün təqdis
etdiyi şeyləri, Rəbbin məbədinin və
sarayın xəzinələrində tapılan bütün
qızılı götürüb Aram padşahı Xazaelə
göndərdi. O da Yerusəlimdən geri
çəkildi.
19 Yoaşın qalan işləri və etdiyi hər
şey barədə Yəhuda padşahlarının
salnamələr kitabında yazılmışdır.
20 Əyanları qalxıb ona qəsd hazırladılar
və Sillaya enən yoldakı Bet-Milloda
Yoaşı vurdular. 21 Onu vuranlar əyanları
Şimeat oğlu Yozakar və Şomer oğlu
Yehozavad idi. Yoaş ataları ilə uyudu
və onu Davudun şəhərində, atalarının
yanında basdırdılar. Onun yerinə oğlu
Amasya padşah oldu.

İsrail padşahı Yehoaxaz

13 Yəhuda padşahı Axazya oğlu
Yoaşın padşahlığının iyirmi
üçüncü ilində Yehunun oğlu Yehoaxaz
Samariyada İsrail üzərində padşah
oldu və on yeddi il padşahlıq etdi. 2 O,
Rəbbin gözündə pis olan işlər etdi və
Nevat oğlu Yarovamın İsrailə etdirdiyi
günahların dalınca getdi, onlardan əl
çəkmədi.
3 İsrailə qarşı Rəbbin qəzəbi alovlandı
və Yehoaxazın bütün ömrü boyu onları
Aram padşahı Xazaelin və Xazaelin oğlu
Ben-Hadadın əlinə verdi. 4 Yehoaxaz
Rəbbə üz tutub yalvardı və Rəbb onu
eşitdi, çünki İsraillilərin əzabını və
Aram padşahının onlara necə zülm
etdiyini gördü. 5 Rəbb İsraillilərə bir

---

[z]**12:14** 2Pad. 2:12

xilaskar verdi və onlar Aramın əsarəti
altından çıxdılar. İsraillilər əvvəlki kimi
öz torpaqlarında yaşadılar. 6 Ancaq
onlar Yarovam nəslinin İsrailə etdirdiyi
günahlardan əl çəkmədilər və bu
günahların dalınca getdilər, Aşera
bütü də Samariyada qalırdı. 7 Əlli
süvaridən, on döyüş arabasından və on
min piyadadan başqa, Yehoaxazın daha
qoşunu qalmadı, çünki Aram padşahı
onları xırmanda toz kimi əzmişdi.
8 Yehoaxazın qalan işləri, etdiyi
hər şey və onun hünəri barədə İsrail
padşahlarının salnamələr kitabında
yazılmışdır. 9 Yehoaxaz ataları ilə uyudu
və onu Samariyada basdırdılar. Onun
yerinə oğlu Yoaş padşah oldu.

İsrail padşahı Yoaş

10 Yəhuda padşahı Yoaşın
padşahlığının otuz yeddinci ilində
Yehoaxaz oğlu Yoaş Samariyada İsrail
üzərində padşah oldu və on altı il
padşahlıq etdi. 11 O, Rəbbin gözündə pis
olan işlər etdi, Nevat oğlu Yarovamın
İsrailə etdirdiyi bütün günahlardan əl
çəkmədi və bu günahların dalınca getdi.
12 Yoaşın qalan işləri, etdiyi hər
şey və Yəhuda padşahı Amasya ilə
döyüşdə göstərdiyi hünər barədə İsrail
padşahlarının salnamələr kitabında
yazılmışdır. 13 Yoaş ataları ilə uyudu
və onun taxtında Yarovam oturdu.
Yoaş Samariyada İsrail padşahlarının
yanında basdırıldı.

Elişanın ölümü və Yoaşın qələbələri

14 Elişa ölümcül halda xəstələnmişdi.
İsrail padşahı Yoaş ona baş çəkmək
üçün yanına gəldi və ağlayıb dedi:
«Atam, ey atam! İsrailin arabası və
atlıları!» 15 Elişa ona dedi: «Kaman
və oxlar götür». O, kaman və oxlar
götürdü. 16 Elişa İsrail padşahına dedi:
«Kamanı çək». O, kamanı çəkdi. Elişa
əllərini padşahın əlləri üstünə qoydu.
17 Sonra dedi: «Şərq tərəfdəki pəncərəni
aç». O açdı. Elişa «oxu at» dedi. O
atdı. Elişa dedi: «Bu, Rəbbin qurtuluş
oxu, Arama qarşı qurtuluş oxudur!
Sən Aramlıları Afeqdə axıra qədər
qıracaqsan». 18 Sonra dedi: «Oxları
götür». O götürdü. Elişa İsrail padşahına
dedi: «Yerə vur». O, üç dəfə vurub
dayandı. 19 Allah adamı ona qəzəblənib
dedi: «Beş-altı dəfə vurmalı idin. Onda
Aramlıları axıra qədər qıra bilərdin,
indi isə onları üç dəfə qıracaqsan».
20 Elişa öldü və onu basdırdılar.
Moavlıların dəstələri hər bahar fəslində
ölkəyə gələrdi. 21 Bir dəfə bir nəfəri
basdırarkən adamlar bir dəstə gördülər
və ölünü Elişanın qəbrinə atdılar. Ölü
düşüb Elişanın sümüklərinə toxunan
kimi dirildi və ayaq üstə qalxdı.
22 Yehoaxazın bütün ömrü boyu
Aram padşahı Xazael İsraillilərə zülm
etdi. 23 Ancaq Rəbb İbrahim, İshaq
və Yaqubla etdiyi əhdindən ötrü lütf
və mərhəmət göstərib onlara tərəf üz
tutdu, onları məhv etmək istəmədi və
indiyə qədər Öz hüzurundan kənar
etmədi. 24 Aram padşahı Xazael öldü və
yerinə oğlu Ben-Hadad padşah oldu.
25 Yehoaxaz oğlu Yoaş müharibədə atası
Yehoaxazın əlindən alınan şəhərləri
Xazaelin oğlu Ben-Hadadın əlindən
aldı. Yoaş Aramlıları üç dəfə qırıb İsrail
şəhərlərini geri aldı.

Yəhuda padşahı Amasya

(2Saln. 25:1-24)

14 İsrail padşahı Yehoaxaz oğlu
Yoaşın padşahlığının ikinci
ilində Yəhuda padşahı Yoaşın oğlu
Amasya padşah oldu. 2 O, padşah
olduğu vaxt iyirmi beş yaşında idi və
Yerusəlimdə iyirmi doqquz il padşahlıq
etdi. Anası Yerusəlimdən olub adı
Yehoaddan idi. 3 Amasya atası Yoaşın
etdiyi kimi Rəbbin gözündə doğru olan
işlər etdi, amma babası Davud kimi

deyildi. 4 Lakin səcdəgahlar aradan
qaldırılmadı, xalq hələ səcdəgahlarda
qurban gətirir və buxur yandırırdı.
5 Padşahlıq əlində möhkəmlənəndə
Amasya padşah olan atasını öldürmüş
əyanları öldürdü. 6 [a]Ancaq Musanın
Qanun kitabında yazıldığı kimi
qatillərin oğullarını öldürmədi, çünki
Rəbb əmr edib demişdi: «Oğula görə
ata, ataya görə oğul öldürülməsin, hər
kəs öz günahına görə ölməlidir». 7 O,
on min nəfər Edomlunu Duz dərəsində
qırıb Selanı müharibə ilə aldı. Onun
adını Yoqteel qoydu və bu günə qədər
də belədir.
8 O vaxt Amasya İsrail padşahı
Yehu oğlu Yehoaxaz oğlu Yoaşın
yanına qasidlər göndərib dedi: «Gəl,
qarşılaşaq». 9 İsrail padşahı Yoaş Yəhuda
padşahı Amasyaya cavab verib dedi:
«Livanda olan qanqal oradakı sidr
ağacına xəbər göndərib "qızını oğluma
arvad olmaq üçün ver" dedi. Amma
Livanda olan bir çöl heyvanı keçərək
qanqalı tapdaladı. 10 Əlbəttə, sən
Edomluları qırdın və ürəyin qürurlandı.
Bununla öyün və öz evində otur. Nə
üçün sən Yəhudalılarla birlikdə bəlaya
düşmək üçün münaqişəyə atılırsan?»
11 Ancaq Amasya qulaq asmadı.
İsrail padşahı Yoaş çıxıb Yəhuda
padşahı Amasya ilə Yəhudada olan
Bet-Şemeşdə qarşılaşdı. 12 Yəhudalılar
İsraillilərin önündə məğlub oldular
və hər kəs öz evinə qaçdı. 13 İsrail
padşahı Yoaş Yəhuda padşahı Axazya
oğlu Yoaş oğlu Amasyanı Bet-Şemeşdə
tutdu. Yoaş Yerusəlimə gəlib şəhər
divarının Efrayim darvazasından Künc
darvazasına qədər dörd yüz qulacını
uçurdu. 14 Rəbbin məbədində və
sarayın xəzinələrində tapılan bütün
qızıl-gümüşü, bütün əşyaları apardı.
Girov olaraq tutduğu adamları da
götürüb Samariyaya qayıtdı.
15 Yoaşın qalan işləri, onun hünəri
və Yəhuda padşahı Amasya ilə necə
vuruşduğu barədə İsrail padşahlarının
salnamələr kitabında yazılmışdır.
16 Yoaş ataları ilə uyudu və Samariyada
İsrail padşahlarının yanında basdırıldı.
Onun yerinə oğlu Yarovam padşah oldu.
17 Yəhuda padşahı Yoaş oğlu Amasya
İsrail padşahı Yehoaxaz oğlu Yoaşın
ölümündən sonra on beş il yaşadı.
18 Amasyanın qalan işləri barədə
Yəhuda padşahlarının salnamələr
kitabında yazılmışdır. 19 Yerusəlimdə
Amasyaya qəsd hazırladılar. O, Lakişə
qaçdı. Lakişə onun dalınca adamlar
göndərib orada onu öldürdülər. 20 Onu
atlar üstündə gətirib Yerusəlimdə,
Davudun şəhərində, atalarının yanında
basdırdılar. 21 Bütün Yəhuda xalqı
on altı yaşlı Azaryanı *götürüb
atası Amasyanın yerinə padşah etdi.
22 Padşah ataları ilə uyuduqdan sonra o,
Elatı Yəhudaya qaytarıb oranı tikdi.

İsrail padşahı II Yarovam

23 Yəhuda padşahı Yoaş oğlu
Amasyanın padşahlığının on beşinci
ilində Yoaş oğlu Yarovam Samariyada
İsrail üzərində padşah oldu və qırx
bir il padşahlıq etdi. 24 O, Rəbbin
gözündə pis olan işlər etdi və Nevat
oğlu Yarovamın İsrailə etdirdiyi bütün
günahlardan əl çəkmədi. 25 [b]Qulu
Qat-Xeferli peyğəmbər Amittay oğlu
Yunus vasitəsilə İsrailin Allahı Rəbbin
söylədiyi sözə görə o, Xamat keçidindən
Arava dənizinə qədər İsrail torpaqlarını
geri aldı. 26 Çünki Rəbb İsraillilərin
acı fəlakətini görmüşdü: istər kölə
olsun, istər azad, İsraillilərə kömək
edən bir kəs olmadı. 27 Rəbb heç vaxt

*14:21 *Azarya* – başqa adı Uzziya. Bax: 2Pad. 15:13.

[a]**14:6** Qanun. 24:16; 2Saln. 25:4; Yez. 18:20 [b]**14:25** Yun. 1:1

İsrailin adını göylər altından siləcəyini deməmişdi, buna görə də Yoaş oğlu Yarovamın vasitəsilə onlara qurtuluş verdi.

28 Yarovamın qalan işləri, etdiyi hər şey, onun hünəri, necə vuruşduğu və əvvəllər Yəhudaya məxsus olan Dəməşqi və Xamatı İsrailə necə qaytarması barədə İsrail padşahlarının salnamələr kitabında yazılmışdır. 29 Yarovam ataları İsrail padşahları ilə uyudu və yerinə oğlu Zəkəriyyə padşah oldu.

Yəhuda padşahı Azarya

(2Saln. 26:1-23)

15 İsrail padşahı Yarovamın padşahlığının iyirmi yeddinci ilində Yəhuda padşahı Amasyanın oğlu Azarya padşah oldu. 2 O padşah olduğu vaxt on altı yaşında idi və Yerusəlimdə əlli iki il padşahlıq etdi. Anası Yerusəlimdən olub adı Yekolya idi. 3 Azarya atası Amasyanın etdiyi kimi Rəbbin gözündə doğru olan işlər etdi. 4 Lakin səcdəgahlar aradan qaldırılmadı, xalq hələ səcdəgahlarda qurban gətirir və buxur yandırırdı.

5 Rəbb padşaha bəla göndərdi, o, ölüm gününə qədər cüzamlı oldu. Padşah başqa bir evdə yaşayırdı. Onun oğlu Yotam isə saraya başçılıq edərək ölkə xalqına hökm edirdi.

6 Azaryanın qalan işləri və etdiyi hər şey barədə Yəhuda padşahlarının salnamələr kitabında yazılmışdır. 7 [c]Azarya ataları ilə uyudu və onu Davudun şəhərində, atalarının yanında basdırdılar. Onun yerinə oğlu Yotam padşah oldu.

İsrail padşahı Zəkəriyyə

8 Yəhuda padşahı Azaryanın padşahlığının otuz səkkizinci ilində Yarovam oğlu Zəkəriyyə Samariyada İsrail üzərində padşah oldu və altı ay padşahlıq etdi. 9 O, atalarının etdiyi kimi Rəbbin gözündə pis olan işlər etdi və Nevat oğlu Yarovamın İsrailə etdirdiyi günahlardan əl çəkmədi. 10 Yaveş oğlu Şallum ona qəsd hazırladı, onu xalqın qabağında vurub öldürdü və yerinə padşah oldu.

11 Zəkəriyyənin qalan işləri barədə İsrail padşahlarının salnamələr kitabında yazılmışdır. 12 [d]Rəbbin Yehuya «dördüncü nəslinə qədər sənin övladların İsrail taxtında oturacaqlar» deyə söylədiyi sözə görə belə oldu.

İsrail padşahı Şallum

13 Yəhuda padşahı Uzziyanın [*]padşahlığının otuz doqquzuncu ilində Yaveş oğlu Şallum padşah oldu və Samariyada bir ay padşahlıq etdi. 14 Qadi oğlu Menaxem Tirsadan çıxıb Samariyaya gəldi. Samariyada Yaveş oğlu Şallumu vurub öldürdü və yerinə padşah oldu.

15 Şallumun qalan işləri və necə qəsd hazırladığı barədə İsrail padşahlarının salnamələr kitabında yazılmışdır. 16 O vaxt Menaxem Tirsadan çıxıb Tifsahda və onun ətrafında yaşayanların hamısını qırdı. Darvazaları onun üzünə açmadıqlarına görə onları məhv etdi və orada olan bütün hamilə qadınları doğradı.

İsrail padşahı Menaxem

17 Yəhuda padşahı Azaryanın padşahlığının otuz doqquzuncu ilində Qadi oğlu Menaxem İsrail üzərində

---

[*]**15:13** *Uzziya* – Azaryanın başqa adı. Bax: 2Pad. 14:21; 15:26.

[c]**15:7** Yeş. 6:1 [d]**15:12** 2Pad. 10:30

padşah oldu və Samariyada on il
padşahlıq etdi. 18 O, Rəbbin gözündə
pis olan işlər etdi və bütün ömrü boyu
Nevat oğlu Yarovamın İsrailə etdirdiyi
günahlardan əl çəkmədi. 19 Aşşur
padşahı Pul *ölkəyə hücum etdi.
Menaxem ona min talant gümüş verdi
ki, padşahlığını möhkəmləndirmək üçün
Pul onunla müttəfiq olsun. 20 Menaxem
Aşşur padşahına vermək üçün İsrailin
varlı adamlarının hamısından gümüş
yığdı, onların hər birindən əlli şekel
gümüş aldı. Onda Aşşur padşahı bu
ölkədə qalmayıb geri qayıtdı.
21 Menaxemin qalan işləri və etdiyi
hər şey barədə İsrail padşahlarının
salnamələr kitabında yazılmışdır.
22 Menaxem ataları ilə uyudu və yerinə
oğlu Peqahya padşah oldu.

İsrail padşahı Peqahya

23 Yəhuda padşahı Azaryanın
padşahlığının əllinci ilində Menaxem
oğlu Peqahya Samariyada İsrail
üzərində padşah oldu və iki il padşahlıq
etdi. 24 O, Rəbbin gözündə pis olan işlər
etdi və Nevat oğlu Yarovamın İsrailə
etdirdiyi günahlardan əl çəkmədi.
25 Peqahyanın mühafizəçilər rəisi
Remalya oğlu Peqah ona qəsd hazırladı,
Gileadlılardan əlli nəfərin köməyi ilə
Samariyada sarayın qalasında onu
Arqov və Arye ilə birgə vurub öldürdü
və onun yerinə padşah oldu.
26 Peqahyanın qalan işləri və etdiyi
hər şey barədə İsrail padşahlarının
salnamələr kitabında yazılmışdır.

İsrail padşahı Peqah

27 Yəhuda padşahı Azaryanın
padşahlığının əlli ikinci ilində Remalya
oğlu Peqah Samariyada İsrail üzərində
padşah oldu və iyirmi il padşahlıq etdi.
28 O, Rəbbin gözündə pis olan işlər
etdi və Nevat oğlu Yarovamın İsrailə
etdirdiyi günahlardan əl çəkmədi.
29 İsrail padşahı Peqahın dövründə
Aşşur padşahı Tiqlat-Pileser gəlib İyonu,
Avel-Bet-Maakanı, Yanoahı, Qedeşi,
Xasoru, Gileadı, Qalileyanı və bütün
Naftali torpağını tutdu, əhalisini də
Aşşura sürgün etdi. 30 Ela oğlu Huşə
Remalya oğlu Peqaha qəsd hazırladı,
onu vurub öldürdü və Uzziya oğlu
Yotamın padşahlığının iyirminci ilində
onun yerinə padşah oldu.
31 Peqahın qalan işləri və etdiyi
hər şey barədə İsrail padşahlarının
salnamələr kitabında yazılmışdır.

Yəhuda padşahı Yotam

(2Saln. 27:1-9)

32 İsrail padşahı Remalya oğlu
Peqahın padşahlığının ikinci ilində
Uzziya oğlu Yotam Yəhuda üzərində
padşah oldu. 33 O, padşah olduğu vaxt
iyirmi beş yaşında idi və Yerusəlimdə
on altı il padşahlıq etdi. Anası Sadoq
qızı Yeruşa idi. 34 Yotam atası Uzziyanın
etdiyi kimi Rəbbin gözündə doğru olan
işlər etdi. 35 Lakin səcdəgahlar aradan
qaldırılmadı, xalq hələ səcdəgahlarda
qurban gətirir və buxur yandırırdı. O,
Rəbbin məbədinin yuxarı darvazasını
düzəltdi.
36 Yotamın qalan işləri və etdiyi
hər şey barədə Yəhuda padşahlarının
salnamələr kitabında yazılmışdır.
37 Rəbb o dövrdə Aram padşahı Resini
və Remalya oğlu Peqahı Yəhudalıların
üstünə göndərməyə başladı. 38 Yotam
ataları ilə uyudu və babası Davudun
şəhərində, atalarının yanında basdırıldı.
Onun yerinə oğlu Axaz padşah oldu.

---

*15:19 *Pul* – Tiqlat-Pileserin başqa adı. Bax: 1Saln. 5:26.

Yəhuda padşahı Axaz

(2Saln. 28:1-27)

16 Remalya oğlu Peqahın
padşahlığının on yeddinci ilində
Yotam oğlu Axaz Yəhuda üzərində
padşah oldu. 2 Axaz padşah olduğu
vaxt iyirmi yaşında idi və Yerusəlimdə
on altı il padşahlıq etdi. O, babası
Davuddan fərqli olaraq Allahı Rəbbin
gözündə doğru olan işlər etmədi. 3 [e]Axaz
İsrail padşahlarının yolu ilə getdi və
Rəbbin İsrail övladlarının önündən
qovduğu millətlərin iyrənc əməllərini
edərək oğlunu oda qurban verdi. 4 O,
səcdəgahlarda, təpələr üstündə və hər
kölgəli ağac altında qurban gətirir və
buxur yandırırdı.
5 [f]Onda Aram padşahı Resin və
İsrail padşahı Remalya oğlu Peqah
Yerusəlimin üzərinə hücum etdilər və
Axazı mühasirəyə aldılar, ancaq onu
məğlub edə bilmədilər. 6 O vaxt Aram
padşahı Resin Elatı Arama qaytardı və
Yəhudalıları Elatdan qovub çıxartdı.
Edomlular Elata girdilər və bu günə
qədər orada yaşayırlar.
7 Axaz Aşşur padşahı Tiqlat-Pileserin
yanına qasidlər göndərib dedi: «Mən
sənin qulun və nökərinəm. Gəl,
məni üstümə hücum edən Aram və
İsrail padşahlarının əlindən qurtar».
8 Axaz Rəbbin məbədində və sarayın
xəzinələrində tapılan qızıl-gümüşü
götürüb Aşşur padşahına hədiyyə
göndərdi. 9 Aşşur padşahı ona qulaq
asdı: Dəməşqə hücum edib onu aldı,
əhalisini Qirə sürgün etdi və Resini
öldürdü.
10 Padşah Axaz Aşşur padşahı
Tiqlat-Pileseri qarşılamaq üçün
Dəməşqə getdi. O, Dəməşqdə olan
qurbangahı gördü, qurbangahın
bütün quruluşunu və təsvirini kahin
Uriyaya göndərdi. 11 Kahin Uriya
padşah Axazın Dəməşqdən göndərdiyi
bütün şeylərə görə bir qurbangah
düzəltdi. O, padşah Dəməşqdən
qayıdana qədər bunu etdi. 12 Padşah
Dəməşqdən qayıdıb qurbangahı gördü.
O yaxınlaşıb qurbangahın üstünə
qalxdı. 13 Qurbangahın üstündə öz
yandırma qurbanını və taxıl təqdimini
yandırdı, tökmə təqdimini tökdü
və ünsiyyət qurbanlarının qanını
oraya səpdi. 14 [g]Rəbbin önündə olan
tunc qurbangahı məbədin qabaq
tərəfindən, öz qurbangahı ilə Rəbbin
məbədi arasından gətirdi və onu öz
qurbangahının şimal tərəfinə qoydu.
15 Padşah Axaz kahin Uriyaya əmr
edib dedi: «Hər gün səhərin yandırma
qurbanını, axşamın taxıl təqdimini,
padşahın yandırma qurbanını və taxıl
təqdimini, bütün ölkə xalqının yandırma
qurbanını, taxıl təqdimini və tökmə
təqdimini böyük qurbangahın üstündə
yandır. Yandırma qurbanlarının və
başqa qurbanların bütün qanını onun
üstünə səp. Ancaq tunc qurbangah soraq
etmək üçün mənim olacaq». 16 Kahin
Uriya da padşah Axazın əmr etdiyi hər
şeyi yerinə yetirdi.
17 [h]Padşah Axaz dayaqların yan
lövhələrini kəsib dayaqların üstündən
ləyənləri götürdü. Hovuzu altında olan
tunc buğaların üstündən qaldırıb bir daş
səkinin üstünə qoydu. 18 Şənbə günü
üçün məbəddə düzəldilmiş bağlı yeri və
padşahın bayırdakı giriş yerini Aşşur
padşahından ötrü Rəbbin məbədindən
götürdü.
19 Axazın qalan işləri barədə Yəhuda
padşahlarının salnamələr kitabında
yazılmışdır. 20 [i]Axaz ataları ilə uyudu və
Davudun şəhərində, atalarının yanında

---

[e] **16:3** Qanun. 12:31 [f] **16:5** Yeş. 7:1 [g] **16:14** Çıx. 27:1-2; 2Saln. 4:1
[h] **16:17** 1Pad. 7:23-39; 2Saln. 4:2-6 [i] **16:20** Yeş. 14:28

basdırıldı. Onun yerinə oğlu Xizqiya
padşah oldu.

İsrailin son padşahı Huşə

17 Yəhuda padşahı Axazın
padşahlığının on ikinci ilində Ela
oğlu Huşə Samariyada İsrail üzərində
padşah oldu və doqquz il padşahlıq etdi.
2 O, Rəbbin gözündə pis olan işlər etdi,
ancaq özündən əvvəlki İsrail padşahları
kimi deyildi. 3 Aşşur padşahı Şalmaneser
Huşənin üstünə hücum etmişdi və Huşə
ona tabe olub xərac vermişdi. 4 Amma
Aşşur padşahı Huşənin xəyanət etdiyini
gördü, çünki o həm Misir padşahı Sonun
yanına qasidlər göndərmişdi, həm də
hər il olduğu kimi Aşşur padşahına
xərac verməmişdi. Buna görə də Aşşur
padşahı onu tutub zindana saldı.

Samariyanın süqutu

5 Aşşur padşahı bütün ölkəyə hücum
etdi. O, Samariyaya yaxınlaşdı və oranı
üç il mühasirədə saxladı. 6 Huşənin
padşahlığının doqquzuncu ilində Aşşur
padşahı Samariyanı aldı və İsraillilləri
Aşşur torpağına sürgün etdi. Onları
Xalahda, Qozan çayı sahilindəki
Xavorda və Midiya şəhərlərində
yerləşdirdi.
7 Bu iş ona görə İsrail övladlarının
başına gəldi ki, onları Misir padşahı
fironun əsarəti altından, Misir
torpağından çıxaran özlərinin Allahı
Rəbbə qarşı günah etmişdilər. İsrail
övladları başqa allahlara səcdə
etmişdilər. 8 Onların önündən Rəbbin
qovduğu millətlərin adətlərinə və İsrail
padşahlarının qoyduğu qanunlara görə
davranmışdılar. 9 Gizlində özlərinin
Allahı Rəbbə qarşı doğru olmayan işlər
etmişdilər. Məskən saldıqları hər yerdə
keşikçi qülləsindən qalalı şəhərə qədər
özləri üçün səcdəgahlar tikmişdilər.
10 [j]Hər hündür təpənin üstündə, hər
kölgəli ağacın altında sütunlar və
Aşera bütləri qoymuşdular. 11 Onların
önündən Rəbbin qovduğu millətlərin
etdiyi kimi bütün bu səcdəgahlarda
buxur yandırmış və pis işlər görüb Rəbbi
qəzəbləndirmişdilər. 12 Rəbb onlara
«belə etməyin» söylədiyinə baxmayaraq,
onlar bütlərə qulluq etmişdilər.
13 Rəbb bütün peyğəmbərləri və
görücüləri vasitəsilə İsraillilərə və
Yəhudalılara xəbərdarlıq edib demişdi:
«Pis yolunuzdan dönün. Atalarınıza
buyurduğum və qullarım peyğəmbərlər
vasitəsilə sizə öyrətdiyim Qanunda olan
bütün əmrlərimə və qanunlarıma əməl
edin». 14 Ancaq onlar bu sözlərə qulaq
asmamışdılar və iman etməyən ataları
kimi özlərinin Allahı Rəbbə boyun
əyməmişdilər. 15 Onun qanunlarını,
ataları ilə bağladığı əhdini və onlara
etdiyi xəbərdarlıqları rədd etmişdilər.
Boş şey dalınca gedib boş adamlar
olmuşdular. Rəbb «ətrafınızdakı
millətlər kimi etməyin» deyib əmr
etdiyi halda onlar kimi davranmışdılar.
16 [k]Özlərinin Allahı Rəbbin bütün
əmrlərindən üz döndərib iki tökmə
dana bütü və Aşera bütü düzəltmişdilər,
bütün səma cisimlərinə səcdə etmişdilər
və Baala qulluq etmişdilər. 17 [l]Oğullarını
və qızlarını oda qurban vermişdilər,
falçılıq və baxıcılıq etmişdilər. Rəbbin
gözündə pis olan işlərə özlərini təslim
edib Onu qəzəbləndirmişdilər.
18 Buna görə də Rəbb İsraillilərə
qəzəblənib onlardan üz döndərdi.
Yalnız Yəhuda qəbiləsindən başqa heç
biri qalmadı.
19 Yəhudalılar da özlərinin Allahı
Rəbbin əmrlərinə əməl etməmişdilər
və İsraillilərin qoyduğu adətlərlə
davranmışdılar. 20 Rəbb bütün İsrail
nəslindən üz döndərərək onları alçaldıb

---

[j] **17:10** 1Pad. 14:23 [k] **17:16** 1Pad. 12:28 [l] **17:17** Qanun. 18:10

soyğunçulara təslim etdi və nəhayət,
onları hüzurundan kənara atdı. 21 Rəbb
İsraili Davud sülaləsindən alıb ayırmışdı
və İsraillilər Nevat oğlu Yarovamı
padşah etmişdilər. Yarovam onları
Rəbbin yolundan azdırmışdı və onlara
böyük günahlar etdirmişdi. 22 İsrail
övladları Yarovamın etdiyi bütün
günahlara görə davranmışdılar və bu
günahlardan əl çəkməmişdilər. 23 Rəbb
Öz qulu olan bütün peyğəmbərlər
vasitəsilə söylədiyi kimi, nəhayət,
İsraillilərdən üz döndərdi. Onlar öz
torpaqlarından Aşşur torpağına sürgün
olundular və bu günə qədər belədir.

Aşşurluların Samariyaya yeni sakinlər köçürməsi

24 Aşşur padşahı Babildən, Kutadan,
Avvadan, Xamatdan və Sefarvayimdən
adamlar gətirib İsrail övladlarının
yerinə Samariyanın şəhərlərində
yerləşdirdi. Onlar Samariyaya sahib
oldular və oranın şəhərlərində yaşadılar.
25 Onlar orada yaşamağa başlayanda
Rəbbə sitayiş etmirdilər. Rəbb də
üstlərinə şirlər göndərdi və şirlər
onları öldürməyə başladı. 26 Onlar
Aşşur padşahına dedilər: «Sürgün edib
Samariyanın şəhərlərində yerləşdirdiyin
millətlər bu ölkə Allahının adətlərini
bilmirlər. O Allah da üstlərinə şirlər
göndərdi və şirlər onları öldürür,
çünki bu adamlar ölkə Allahının
adətlərini bilmirlər». 27 Aşşur padşahı
əmr edib dedi: «Oradan sürgün etdiyiniz
kahinlərdən birini geri qaytarın,
adamları ilə gedib orada yaşasın və ölkə
Allahının adətlərini onlara öyrətsin».
28 Samariyadan sürgün etdikləri
kahinlərdən biri gəlib Bet-Eldə yaşadı
və Rəbbə necə sitayiş etməyi onlara
öyrətməyə başladı.

29 Ancaq hər millət öz allahının
bütünü düzəltdi. Onları yaşadıqları
şəhərlərdə Samariyalıların
səcdəgahlarda tikdikləri məbədlərə
qoydular: 30 Babillilər Sukkot-Benot
bütünü, Kutalılar Nerqal bütünü,
Xamatlılar Aşima bütünü, 31 Avvalılar
Nivxaz və Tartaq bütlərini düzəltdilər.
Sefarvayimlilər isə oğullarını
Sefarvayim allahları Adrammelek
və Anammelek üçün odda yandırırdılar.
32 Onlar Rəbbə də sitayiş edirdilər.
Səcdəgahların məbədlərində xidmət
etmək üçün öz aralarından kahinlər
seçib qoydular. 33 Onlar həm Rəbbə,
həm də aralarından sürgün olunduqları
millətlərin adətlərinə görə öz allahlarına
sitayiş edirdilər.
34 [m]Onlar bu günə qədər də əvvəlki
adətlərinə görə davranırlar və Rəbbə
sitayiş etmirlər, adını İsrail qoyduğu
Yaqubun nəslinə Rəbbin buyurduğu
qaydalara, hökmlərə, qanunlara və
əmrlərə əməl etmirlər. 35 [n]Rəbb Yaqub
övladları ilə əhd etmişdi və onlara əmr
edib demişdi: «Başqa allahlara sitayiş
və səcdə etməyin, onlara qulluq edib
qurban gətirməyin. 36 [o]Ancaq böyük
qüdrəti və uzatdığı əli ilə sizi Misir
torpağından çıxaran Rəbbə sitayiş və
səcdə edin, Ona qurban gətirin. 37 Sizin
üçün yazdığı qaydalara, hökmlərə,
qanunlara və əmrlərə həmişə diqqətlə
əməl edin və başqa allahlara sitayiş
etməyin. 38 Sizinlə bağladığım əhdi
unutmayın. Başqa allahlara deyil,
39 yalnız Allahınız Rəbbə sitayiş etsəniz,
O sizi bütün düşmənlərinizin əlindən
qurtarar». 40 Ancaq onlar bu sözlərə
qulaq asmadılar və bu günə qədər
də özlərinin əvvəlki adətlərinə görə
davranırlar. 41 Beləcə bu millətlər həm
Rəbbə, həm də öz bütlərinə sitayiş
edirdilər. Ataları necə edirdisə, oğulları

---

[m]**17:34** Yar. 32:28; 35:10 [n]**17:35** Çıx. 20:5; Qanun. 5:9 [o]**17:36** Qanun. 6:13

və nəvələri də bu günə qədər belə edirlər.

Yəhuda padşahı Xizqiya

(2Saln. 29:1-2; 31:1)

18 İsrail padşahı Ela oğlu Huşənin padşahlığının üçüncü ilində Axaz oğlu Xizqiya Yəhuda üzərində padşah oldu. 2 O, padşah olduğu vaxt iyirmi beş yaşında idi və Yerusəlimdə iyirmi doqquz il padşahlıq etdi. Anası Zəkəriyyə qızı Avi idi. 3 Xizqiya babası Davudun etdiyi kimi Rəbbin gözündə doğru olan işlər etdi. 4 [p]O, səcdəgahları aradan qaldırdı, sütunları parça-parça etdi və Aşera bütünü kəsdi. Musanın düzəltdiyi tunc ilanı əzib parçaladı, çünki İsraillilər onun adını Nexuştan [*]qoyub o vaxta qədər ona buxur yandırırdılar.

5 Xizqiya İsrailin Allahı Rəbbə güvəndi. Özündən əvvəl və sonra olan bütün Yəhuda padşahları arasında onun kimisi olmadı. 6 O, Rəbdən yapışıb Onun yolundan dönmədi və Rəbbin Musaya verdiyi əmrlərinə əməl etdi. 7 Rəbb də onunla idi və hara gedirdisə, uğur qazanırdı. Xizqiya Aşşur padşahına qulluq etməkdən boyun qaçırdı. 8 Qəzzədə və onun sərhədləri boyu, keşikçi qülləsindən qalalı şəhərə qədər hər yerdə yaşayan Filiştliləri qırdı.

9 Xizqiyanın padşahlığının dördüncü ilində, yəni İsrail padşahı Ela oğlu Huşənin padşahlığının yeddinci ilində Aşşur padşahı Şalmaneser Samariya üzərinə hücum edib oranı mühasirəyə aldı. 10 Üç ildən sonra şəhəri aldılar. Xizqiyanın padşahlığının altıncı ilində, yəni İsrail padşahı Huşənin padşahlığının doqquzuncu ilində Samariya alındı. 11 Aşşur padşahı İsraillilər Aşşur torpağına sürgün etdi və onları Xalahda, Qozan çayı sahilindəki Xavorda və Midiya şəhərlərində yerləşdirdi. 12 Bu iş ona görə onların başına gəldi ki, özlərinin Allahı Rəbbin sözünə qulaq asmamışdılar və Onun əhdini, Rəbbin qulu Musanın əmr etdiyi hər şeyi pozmuşdular. Onlar buna nə qulaq asmış, nə də əməl etmişdilər.

Aşşurluların Yəhudaya hücum etməsi

(2Saln. 32:1-19; Yeş. 36:1-22)

13 Xizqiyanın padşahlığının on dördüncü ilində Aşşur padşahı Sanxeriv Yəhudanın bütün qalalı şəhərlərinə hücum edib onları aldı. 14 Yəhuda padşahı Xizqiya Lakişə, Aşşur padşahına xəbər göndərib dedi: «Təqsirkaram, üzərimdən geri çəkil, məndən nə qədər xərac tələb etsən, verərəm». Aşşur padşahı Yəhuda padşahı Xizqiyadan xərac olaraq otuz talant qızıl və üç yüz talant gümüş tələb etdi. 15 Xizqiya Rəbbin məbədində və sarayın xəzinələrində tapılan gümüşün hamısını verdi. 16 O vaxt Yəhuda padşahı Xizqiya Rəbbin məbədinin qapılarının və sütunlarının üstünə özünün örtdüyü qızılı çıxartdı və onu Aşşur padşahına verdi.

Aşşur padşahının Yerusəlimi hədələməsi

17 Aşşur padşahı öz ordu başçısını, baş məmuru və baş vəzirini böyük qoşunla Lakişdən Yerusəlimə, padşah Xizqiyanın yanına göndərdi. Onlar çıxıb Yerusəlimə gəldilər və Mahudbasan tarlası yoluna, yuxarı hovuzun su kəmərinin yanına qalxıb orada dayandılar. 18 Onlar padşahı çağırdılar. Saray rəisi Xilqiya oğlu Elyaqim, mirzə Şevna və salnaməçi Asəf oğlu Yoah onların qabağına çıxdı.

---

[*]**18:4** *Nexuştan* – ibrani dilində *tunc parçası.*

[p]**18:4** Say. 21:9

19 Baş vəzir onlara dedi: «İndi
Xizqiyaya söyləyin ki, böyük padşah
– Aşşur padşahı belə deyir: “Nəyə
güvənirsən? 20 Sən yalnız boş sözlər
deyirsən, müharibə üçün tədbir və güc
lazımdır. İndi sən kimə güvənirsən
ki, mənə qarşı çıxırsan? 21 [q]Yəqin
sən əzilmiş qamış çubuğuna – Misirə
güvənirsən. Bil ki, kim ona söykənsə,
əlinə batıb deşər. Misir padşahı firon
ona güvənənlərin hamısı üçün belədir.
22 Bəlkə mənə ‹biz Allahımız Rəbbə
güvənirik› söyləyəsiniz. Məgər bu
həmin Allah deyildi ki, Xizqiya Onun
səcdəgahlarını və qurbangahlarını
aradan qaldırdı? O, Yəhudalılara və
Yerusəlimlilərə də ‹yalnız Yerusəlimdəki
bu qurbangahın önündə səcdə edin›
demədimi? 23 İndi ağam Aşşur padşahı
ilə mərcə gəl: əgər sən iki min süvari
tapa bilsən, mən sənə o qədər at
verərəm. 24 Görək sən ağamın kiçik qulu
olan bir başçını necə məğlub edəcəksən.
Sən hələ döyüş arabaları və süvarilər
almaq üçün Misirə güvənirsən! 25 Məgər
indi mən bu yeri viran etməyə Rəbbin
istəyi ilə gəlmədimmi? Rəbb mənə ‹bu
ölkəyə hücum edib onu viran et› dedi”».
26 Xilqiya oğlu Elyaqim, Şevna və
Yoah baş vəzirə dedi: «Xahiş edirik,
bu qullarınla Arami dilində danış,
biz bu dili başa düşürük, amma
divar üzərindəki xalqın eşitdiyi yerdə
bizimlə Yəhudi dilində danışma». 27 Baş
vəzir onlara dedi: «Məgər ağam məni
göndərib ki, bu sözləri təkcə sənin
ağana və sənə söyləyim, yoxsa divar
üzərində oturan bu adamlara? Axı
onlar da sizinlə birgə nəcislərini yeyib
sidiklərini içəcəklər».
28 Onda baş vəzir durub Yəhudi
dilində uca səslə bağıraraq dedi: «Böyük
padşahın – Aşşur padşahının sözünü
eşidin! 29 Padşah belə deyir: “Xizqiya
sizi aldatmasın, sizi mənim əlimdən
qurtara bilməyəcək. 30 Qoy Xizqiya
sizə ‹Rəbb bizi hökmən qurtaracaq
və bu şəhər Aşşur padşahına təslim
edilməyəcək› deyib Rəbbə arxayın
etməsin”. 31 Ona qulaq asmayın! Çünki
Aşşur padşahı belə deyir: “Mənimlə sülh
bağlayın və yanıma gəlin. Mən gələnə
qədər hər kəs öz üzüm meynəsinin və
əncir ağacının bəhrəsindən yeyib öz
quyusunun suyundan içəcək. 32 Sonra
mən gəlib sizi ölkənizə bənzər bir
ölkəyə – buğda, şərab, çörək, üzüm
bağları, zeytun yağı və bal olan bir
torpağa aparacağam. Beləcə ölməyib
sağ qalarsınız. ‹Rəbb bizi qurtaracaq›
deyib sizi azdıran Xizqiyaya qulaq
asmayın. 33 Millətlərin allahlarından
biri öz ölkəsini Aşşur padşahının əlindən
qurtardımı? 34 Hanı Xamatın və Arpadın
allahları? Hanı Sefarvayimin, Henanın
və Avvanın allahları? Onlar Samariyanı
mənim əlimdən qurtardılarmı? 35 Bütün
bu allahlardan hansı öz ölkəsini mənim
əlimdən qurtardı? Bəs Rəbb necə
Yerusəlimi mənim əlimdən qurtara
bilər?”»
36 Xalq susdu və onun cavabında heç
nə demədi. Çünki padşah «ona cavab
verməyin» deyə əmr etmişdi. 37 Saray
rəisi Xilqiya oğlu Elyaqim, mirzə Şevna
və salnaməçi Asəf oğlu Yoah cırılmış
paltarlarda Xizqiyanın yanına gəlib baş
vəzirin sözlərini ona çatdırdılar.

Padşah Xizqiyanın Yeşayadan məsləhət alması

(Yeş. 37:1-7)

19 Padşah Xizqiya bunu eşidəndə
paltarını cırdı və çula bürünüb
Rəbbin məbədinə girdi. 2 O, saray rəisi
Elyaqimi, mirzə Şevnanı və kahinlərin
ağsaqqallarını çula bürünmüş halda
peyğəmbər Amots oğlu Yeşayanın

---

[q] **18:21** Yez. 29:6-7

yanına göndərdi. 3 Onlar Yeşayaya
dedilər: «Xizqiya belə deyir: “Bu gün
bəla, təhqir və rüsvayçılıq günüdür,
çünki uşaqların doğulması vaxtı çatıb,
ancaq doğmağa güc yoxdur. 4 Bəlkə
ağası Aşşur padşahının var olan Allahı
təhqir etməyə göndərdiyi baş vəzirin
bütün sözlərini Allahın Rəbb eşidib
buna görə məzəmmət edər. Ona görə
də qalanlar üçün dua et”». 5 Padşah
Xizqiyanın adamları Yeşayanın yanına
gələndə 6 Yeşaya onlara dedi: «Ağanıza
söyləyin ki, Rəbb belə deyir: “Aşşur
padşahının nökərlərinin Mənə qarşı
küfr edərək söylədiyi və sənin eşitdiyin
sözlərdən qorxma. 7 Mən onun daxilinə
elə bir ruh göndərəcəyəm ki, bir xəbər
eşidib öz ölkəsinə qayıdacaq və orada
onu qılıncla öldürtdürəcəyəm”».

Aşşur padşahının məktubu

(Yeş. 37:8-20)

8 Baş vəzir geri qayıdıb Aşşur
padşahının Livna üzərinə hücum
etdiyini gördü. Çünki Lakişdən
geri çəkildiyini eşitmişdi. 9 Aşşur
padşahına «Kuş padşahı Tirhaqa
sənin üstünə vuruşmağa gəlir» xəbəri
çatdı. O, Xizqiyanın yanına yenidən
qasidlər göndərib dedi: 10 «Yəhuda
padşahı Xizqiyaya belə söyləyin: “Qoy
güvəndiyin Allahın ‹Yerusəlim Aşşur
padşahına təslim edilməyəcək› deyə
səni aldatmasın. 11 Axı sən eşitdin ki,
Aşşur padşahları bütün ölkələrə nə
ediblər, oraları necə viran ediblər. Sən
qurtula biləcəksənmi? 12 Atalarımın
məhv etdikləri millətlərin – Qozanın,
Xaranın, Resefin və Telassarda olan
Edenlilərin allahları onları qurtardımı?
13 Hanı Xamat padşahı, Arpad padşahı,
Sefarvayim şəhərinin, Henanın və
Avvanın padşahı?”»

14 Xizqiya məktubu qasidlərdən alıb
oxudu. O, Rəbbin məbədinə qalxıb
məktubu Rəbbin önündə yerə sərdi.
15 [r]Xizqiya Rəbbin önündə dua edib
dedi: «Ey keruvlar üstündə əyləşən
İsrailin Allahı Rəbb! Bütün dünya
padşahlıqlarının Allahı yalnız Sənsən.
Göyü və yeri Sən yaratmısan. 16 Ya
Rəbb, qulağın eşitsin, gözün görsün,
Sanxerivin var olan Allaha qarşı küfr
edərək göndərdiyi sözlərə qulaq as.
17 Ya Rəbb, doğrudur, Aşşur padşahları
millətləri və onların torpaqlarını
talan etdilər, 18 allahlarını oda atıb
məhv etdilər. Çünki onlar Allah
deyildi, insanlar onları ağac və daşdan
düzəltmişdilər. 19 Ey Allahımız Rəbb,
indi isə yalvarıram, bizi onun əlindən
qurtar və bütün dünya padşahlıqları
bilsinlər ki, ya Rəbb, Sən, yalnız Sən
Allahsan!»

Aşşurluların məğlubiyyəti barədə Yeşayanın peyğəmbərlik etməsi

(Yeş. 37:21-38)

20 Amots oğlu Yeşaya Xizqiyaya xəbər
göndərib dedi: «İsrailin Allahı Rəbb belə
deyir: “Aşşur padşahı Sanxeriv barədə
Mənə etdiyin duanı eşitdim”. 21 Onun
haqqında Rəbbin söylədiyi söz budur:

“Bakirə Sion qızı
Sənə xor baxıb lağ edir,
Yerusəlim qızı
Sənin arxanca başını bulayır.
22 Kimi söyüb küfr etdin?
Kimə qarşı səsini qaldırdın?
Kimə lovğalıqla baxdın?
İsrailin Müqəddəsinə!
23 Qasidlərinin vasitəsilə
Rəbbi təhqir edib dedin:
‹Çoxlu döyüş arabalarımla
Dağların zirvəsinə,
Livanın ən uca yerlərinə çıxdım.
Uca sidr ağaclarını,

[r]**19:15** Çıx. 25:22

Gözəl sərv ağaclarını kəsdim,
Ən son məskəninə,
Yaşıl meşələrinə girdim.
24 Quyu qazdım və özgə sularını
içdim,
Misirin bütün çaylarını ayağımla
qurutdum».
25 Məgər eşitməmisən ki,
Mən çoxdan bu işi hazırladım,
Qədimdən bəri müəyyən etdiyimi
İndi yerinə yetirirəm ki,
Sən qalalı şəhərləri dağıdıb
Viranəliyə çevirəsən.
26 Bu şəhərlərin sakinləri zəiflədi,
Çaşqınlığa və xəcalətə düşdülər.
Yetişməmişdən əvvəl yandırılan
Çöl otu, göyərti və damda bitən ot
kimi oldular.
27 Sənin oturuşunu,
Girişini-çıxışını,
Mənə qarşı hiddətini bilirəm.
28 Mənə qarşı hiddətləndiyinə görə,
Lovğalığın qulağıma çatdığına görə
Halqamı burnuna və yüyənimi ağzına
taxacağam,
Səni gəldiyin yolla geri qaytaracağam.
29 Ancaq sənin üçün əlamət budur, ey
Xizqiya!
Bu il və gələn il özü yetişən barını,
Üçüncü il isə taxıl zəmilərini,
Üzüm bağları salıb onların bəhrəsini
yeyin.
30 Yəhuda nəslindən xilas olub
qalanlar
Yenə aşağıya doğru kök atacaqlar,
Yuxarıya doğru bəhrə verəcəklər.
31 Çünki qalanlar Yerusəlimdən,
Xilas olanlar Sion dağından
çıxacaqlar.
Rəbbin qeyrəti bunu edəcək”.
32 Buna görə Aşşur padşahı barədə
Rəbb belə deyir:
“O bu şəhərə girməyəcək,
Oraya ox atmayacaq,
Qarşısına qalxanla çıxmayacaq,
Qala önündə torpaq qalağı
qurmayacaq.
33 Ancaq gəldiyi yolla geri qayıdacaq,
Bu şəhərə girməyəcək”
Rəbb belə bəyan edir.
34 “Mən bu şəhəri Özüm üçün,
Qulum Davudun xatirinə qoruyub
xilas edəcəyəm”».
35 O gecə Rəbbin mələyi çıxıb Aşşur
ordugahında yüz səksən beş min nəfəri
qırdı. Səhər erkən qalxıb gördülər
ki, onların hamısı öldürülüb. 36 Aşşur
padşahı Sanxeriv geri çəkilib getdi və
Ninevada qaldı. 37 O öz allahı Nisrokun
məbədində səcdə edərkən oğulları
Adrammelek və Şareser onu qılıncla
öldürdülər və Urartu ölkəsinə qaçdılar.
Sanxerivin yerinə oğlu Esar-Xaddon
padşah oldu.

Xizqiyanın xəstələnməsi

(2Saln. 32:24-26; Yeş. 38:1-8,21-22)

20 O günlərdə Xizqiya ölümcül
xəstələndi. Peyğəmbər Amots
oğlu Yeşaya onun yanına gəlib dedi:
«Rəbb belə deyir: “Evin üçün vəsiyyət
et, çünki xəstəlikdən sağalmayıb
öləcəksən”». 2 Xizqiya üzünü divara
çevirdi və Rəbbə dua edib dedi:
3 «Yalvarıram, ya Rəbb, yadına sal
ki, necə Sənin önündə salehliklə və
sidq ürəklə davranmışam, necə Sənin
gözündə yaxşı olan işlər etmişəm».
Xizqiya acı-acı ağladı. 4 Yeşaya hələ
orta həyətdən çıxmamış ona Rəbbin
bu sözü nazil oldu: 5 «Qayıt, Mənim
xalqımın hökmdarı Xizqiyaya söylə ki,
baban Davudun Allahı Rəbb belə deyir:
“Sənin duanı eşitdim, göz yaşlarını
gördüm. İndi Mən səni sağaldıram
və üçüncü gün Rəbbin məbədinə
qalxacaqsan. 6 Sənin ömrünü on beş
il artırıram. Səni və bu şəhəri Aşşur
padşahının əlindən qurtaracağam, onu
Özüm üçün və qulum Davudun xatirinə
qoruyacağam”». 7 Sonra Yeşaya «əncir

kündəsi götürün» dedi. Bunu götürüb
çibanın üstünə qoydular və padşah
sağaldı.
8 Xizqiya Yeşayaya demişdi: «Rəbbin
məni sağaldacağına və üçüncü gün
Rəbbin məbədinə qalxacağıma əlamət
nədir?» 9 Yeşaya dedi: «Söylədiyi sözə
əməl edəcəyinə Rəbbin verdiyi əlamət
budur: sənin istəyinə görə kölgə ya
on dərəcə qabağa gedəcək ya da on
dərəcə geri çəkiləcək». 10 Xizqiya dedi:
«Kölgə üçün on dərəcə qabağa getmək
asandır. Qoy on dərəcə geri çəkilsin».
11 Peyğəmbər Yeşaya Rəbbi çağırdı,
Rəbb də Axazın tikdiyi günəş saatının
üstünə düşən kölgəni on dərəcə geri
çəkdi.

Xizqiyanın ağılsızlığı

(Yeş. 39:1-8)

12 O zaman Babil padşahı Baladan
oğlu Merodak-Baladan Xizqiyaya
məktublar və hədiyyələr göndərdi,
çünki Xizqiyanın xəstələndiyini
eşitmişdi. 13 Bunlar Xizqiyanı sevindirdi.
O, xəzinəsində olan bütün şeyləri –
qızıl-gümüşü, ətriyyatı, qiymətli
yağları, silah anbarını elçilərə göstərdi.
Xizqiyanın sarayında və bütün ölkəsində
onlara göstərmədiyi bir şey qalmadı.
14 Onda Yeşaya peyğəmbər padşah
Xizqiyanın yanına gəlib ona dedi:
«Bu adamlar nə dedilər? Sənin yanına
haradan gəldilər?» Xizqiya dedi: «Uzaq
bir ölkədən – Babildən gəldilər».
15 Yeşaya dedi: «Sənin sarayında nə
gördülər?» Xizqiya dedi: «Sarayımda
olan bütün şeyləri gördülər. Xəzinəmdə
onlara göstərmədiyim bir şey qalmadı».
16 Yeşaya Xizqiyaya dedi: «Rəbbin
sözünü dinlə: 17 [s]“Bir gün gələcək
ki, sənin sarayında olan hər şey və
atalarının bu günə qədər yığdıqları
şeylər Babilə aparılacaq, heç nə
qalmayacaq” deyir Rəbb. 18 [t]“Sənin
nəslindən olan və səndən törəyən bəzi
oğullarını götürüb aparacaqlar və onlar
Babil padşahının sarayında hərəmağası
olacaq”». 19 Xizqiya Yeşayaya dedi:
«Söylədiyin Rəbbin sözü yaxşı sözdür».
Sonra dedi: «Heç olmasa mənim
dövrümdə sülh və əmin-amanlıq olacaq.
Bu, yaxşı deyilmi?»
20 Xizqiyanın qalan işləri, onun bütün
hünəri, hovuz və su kəməri düzəldib
suyu necə şəhərə gətirməsi barədə
Yəhuda padşahlarının salnamələr
kitabında yazılmışdır. 21 Xizqiya ataları
ilə uyudu və yerinə oğlu Menaşşe
padşah oldu.

Yəhuda padşahı Menaşşe

(2Saln. 33:1-20)

21 Menaşşe padşah olduğu vaxt on
iki yaşında idi və Yerusəlimdə
əlli beş il padşahlıq etdi. Anasının adı
Xefsivah idi. 2 [u]O, İsrail övladlarının
önündən Rəbbin qovduğu millətlərin
etdikləri iyrənc işlər kimi Rəbbin
gözündə pis olan işlər etdi. 3 Atası
Xizqiyanın dağıtdığı səcdəgahları
yenidən tikdi. İsrail padşahı Axav
kimi Baal bütü üçün qurbangahlar
qurdu və Aşera bütü düzəltdi, bütün
səma cisimlərinə səcdə və qulluq
etdi. 4 [v]Rəbbin «adımı Yerusəlimdə
qoyacağam» dediyi məbədində Menaşşe
qurbangahlar tikməyə başladı. 5 Rəbbin
məbədinin hər iki həyətində bütün
səma cisimlərinə qurbangahlar düzəltdi.
6 O, oğlunu oda qurban verdi, gələcəyi
dedi, baxıcılıq edib cindarlara və
ruhçağıranlara müraciət etdi. Beləliklə,
Rəbbin gözündə çoxlu pis işlər görərək
Onu qəzəbləndirdi. 7 [w]Düzəltdiyi
oyma Aşera bütünü məbədə qoydu.

---

[s]**20:17** 2Pad. 24:13; 2Saln. 36:10 [t]**20:18** 2Pad. 24:10-16; Dan. 1:1-7
[u]**21:2** Yer. 15:4 [v]**21:4** 2Şam. 7:13 [w]**21:7** 1Pad. 9:3-5; 2Saln. 7:12-18

Rəbb Davuda və oğlu Süleymana
demişdi: «Bu məbəddə və bütün İsrail
qəbilələrindən seçdiyim Yerusəlimdə
Öz adımı əbədi qoyacağam. 8 Əgər
Mənim onlara buyurduqlarıma və
qulum Musanın onlara əmr etdiyi
bütün Qanuna əməl etsələr, İsraillilləri
atalarına verdiyim torpaqdan didərgin
düşməyə qoymayacağam». 9 Ancaq
onlar bu sözlərə qulaq asmadılar. İsrail
övladlarının önündə Rəbbin məhv etdiyi
millətlərdən də çox pis işlər etmək üçün
Menaşşe onları yoldan çıxartdı.
10 Rəbb Öz qulları peyğəmbərlər
vasitəsilə dedi: 11 «Yəhuda padşahı
Menaşşe bu iyrənc işləri etməklə
özündən əvvəlki Emorluların
etdiklərindən də çox pislik etdi və
bütləri ilə Yəhudalılara da günah
etdirdi. 12 Buna görə də İsrailin Allahı
Rəbb belə deyir: “Mən Yerusəlimin
və Yəhudanın üzərinə elə bir bəla
gətirəcəyəm ki, bunu eşidən hər kəsin
qulaqları cingildəyəcək. 13 Samariyanı
ölçdüyüm ipi və Axav nəslinin üstünə
çəkdiyim şaqulu Yerusəlimin üzərinə də
çəkəcəyəm. Bir nəfər boşqabı necə silib
üzüstə çevirirsə, Mən də Yerusəlimi
elə siləcəyəm. 14 İrsimin qalanlarından
üz döndərəcəyəm, onları düşmənlərinə
təslim edəcəyəm və düşmənləri onları
soyub talan edəcək. 15 Çünki gözümdə
pis olan işlər edirdilər və ataları
Misirdən çıxdıqları gündən bu günə
qədər Məni qəzəbləndirirdilər”».
16 Menaşşe Rəbbin gözündə pis olan
işlər edərək Yəhudalılara etdirdiyi
günahdan başqa çoxlu günahsız qan
töküb Yerusəlimi başdan-başa qana
buladı.
17 Menaşşenin qalan işləri, etdiyi hər
şey və elədiyi günah barədə Yəhuda
padşahlarının salnamələr kitabında
yazılmışdır. 18 Menaşşe ataları ilə uyudu
və öz sarayının bağçasında – Uzza
bağçasında basdırıldı. Onun yerinə oğlu
Amon padşah oldu.

Yəhuda padşahı Amon

(2Saln. 33:21-25)

19 Amon padşah olduğu vaxt iyirmi
iki yaşında idi və Yerusəlimdə iki il
padşahlıq etdi. Anası Yotvalı Xarusun
qızı olub adı Meşullemet idi. 20 O, atası
Menaşşenin etdiyi kimi Rəbbin gözündə
pis olan işlər etdi. 21 Atasının yolu
ilə gedib onun qulluq etdiyi bütlərə
səcdə və qulluq etdi. 22 Atalarının
Allahı Rəbbi tərk etdi və Rəbbin yolu
ilə getmədi. 23 Amonun əyanları ona
qəsd hazırladılar və padşahı sarayında
öldürdülər. 24 Ölkə xalqı padşah Amona
qəsd hazırlayanların hamısını qırdı və
onun yerinə oğlu Yoşiyanı padşah etdi.
25 Amonun qalan işləri barədə Yəhuda
padşahlarının salnamələr kitabında
yazılmışdır. 26 O, Uzza bağçasında, öz
qəbrində basdırıldı. Onun yerinə oğlu
Yoşiya padşah oldu.

Yəhuda padşahı Yoşiya

(2Saln. 34:1-2)

22 [x]Yoşiya padşah olduğu
vaxt səkkiz yaşında idi və
Yerusəlimdə otuz bir il padşahlıq etdi.
Anası Bosqatlı Adayanın qızı olub adı
Yedida idi. 2 O, Rəbbin gözündə doğru
olan işlər etdi, hər işdə babası Davudun
yolu ilə gedərək ondan kənara çıxmadı.

Məbəddə Qanun kitabının tapılması

(2Saln. 34:8-28)

3 Yoşiyanın padşahlığının on
səkkizinci ilində padşah mirzə
Meşullam oğlu Asalya oğlu Şafanı
Rəbbin məbədinə göndərib dedi:
4 «Baş kahin Xilqiyanın yanına get.
Qoy o, astana keşikçilərinin xalqdan

---

[x]**22:1** Yer. 3:6

yığdıqları Rəbbin məbədinə gətirilən
pulu tərəzidə çəksin. 5 Onu Rəbbin
məbədinin işinə nəzarət edənlərə
versinlər. Onlar da pulu məbədin uçuq
yerlərini təmir etmək üçün Rəbbin
məbədində olan işçilərə – 6 dülgərlərə,
ustalara, bənnalara, məbədi təmir etmək
üçün taxta və yonulmuş daş alanlara
versinlər. 7 Ancaq əllərinə verilən
pulun hesabı onlarla aparılmasın, çünki
sədaqətlə çalışırlar».
8 Baş kahin Xilqiya mirzə Şafana
dedi: «Rəbbin məbədində Qanun
kitabını tapdım». Xilqiya kitabı Şafana
verdi və Şafan onu oxudu. 9 Mirzə
Şafan padşahın yanına gəldi və ona
xəbər gətirib dedi: «Qulların məbəddə
tapılan pulu boşaltdılar və onu Rəbbin
məbədinin işinə nəzarət edənlərə
verdilər». 10 Mirzə Şafan padşaha
bildirib dedi: «Kahin Xilqiya mənə
bir kitab verdi». Şafan onu padşahın
önündə oxudu.
11 Padşah Qanun kitabının sözlərini
eşidəndə paltarını cırdı. 12 Padşah
kahin Xilqiyaya, Şafan oğlu Axiqama,
Mikeya oğlu Akbora, mirzə Şafana və
padşahın xidmətçisi Asayaya əmr edib
dedi: 13 «Gedin, tapılmış bu kitabın
sözlərinə görə mənim üçün, xalq və
bütün Yəhuda üçün Rəbdən soruşun,
çünki Rəbbin bizə qarşı alovlanmış
qəzəbi böyükdür. Ona görə ki atalarımız
bu kitabın sözlərinə qulaq asmamışdı
və orada bizim üçün yazılmış bu şeylərə
əməl etməmişdi».
14 Kahin Xilqiya, Axiqam, Akbor,
Şafan və Asaya qadın peyğəmbər
Xuldanın yanına getdilər. O, paltarlara
baxan Harhas oğlu Tiqva oğlu Şallumun
arvadı idi və Yerusəlimdə ikinci
məhəllədə yaşayırdı. Onunla söhbət
etdilər. 15 Qadın onlara dedi: «İsrailin
Allahı Rəbb deyir: sizi Mənim yanıma
göndərən adama söyləyin ki, 16 Rəbb
belə deyir: “Mən Yəhuda padşahının
oxuduğu kitabdakı bütün sözlərə
görə bu yerə və burada yaşayanların
üzərinə bəla gətirəcəyəm. 17 Onlar
Məni tərk etdilər və başqa allahlara
buxur yandıraraq bütün əməlləri ilə
Məni qəzəbləndirdilər. Buna görə də
bu yerə qarşı qəzəbim alovlanacaq
və sönməyəcək”. 18 Ancaq Rəbdən
soruşmaq üçün sizi göndərən Yəhuda
padşahına söyləyin ki, İsrailin Allahı
Rəbb belə deyir: “Sözlərimi dinlədin.
19 Mənim bu yer və orada yaşayanlar
barədə ‹viranəlik və lənət olsun› deyə
söylədiyim sözü eşidəndə ürəyin
yumşaldı və Rəbbin önündə özünü
aşağı tutdun, paltarını cırıb önümdə
ağladın. Buna görə də Mən səni eşitdim”
belə deyir Rəbb. 20 “Bundan ötrü Mən
səni atalarına qoşacağam, rahatlıqla
öz qəbrinə qoyulacaqsan və bu yerin
üzərinə gətirəcəyim bütün bəlanı
gözlərin görməyəcək”». Onlar bu xəbəri
padşaha çatdırdılar.

Padşah və xalqın Rəbb ilə əhd bağlaması

(2Saln. 34:3-7,29-30)

23 Padşah Yəhuda və Yerusəlimin
bütün ağsaqqallarını çağırtdırıb
öz yanına topladı. 2 Padşah, onunla
birgə bütün Yəhuda adamları,
Yerusəlimdə yaşayanların hamısı,
kahinlər, peyğəmbərlər və böyükdən
kiçiyə qədər bütün xalq Rəbbin
məbədinə qalxdı. O, Rəbbin məbədində
tapılmış Əhd kitabının bütün sözlərini
onlara eşitdirərək oxudu. 3 Padşah
sütunun yanında dayandı. O, Rəbbin
önündə əhd bağladı ki, Rəbbin ardınca
gedib Onun əmrlərinə, göstərişlərinə,
qaydalarına bütün qəlbi, bütün varlığı
ilə əməl etsin və bu kitabda yazılmış
əhdin sözlərini yerinə yetirsin. Bütün
xalq da onunla birgə əhd bağladı.

Yoşiyanın bütpərəstliyi aradan qaldırması

4 [y]Padşah baş kahin Xilqiyaya, müavin
kahinlərə və astana keşikçilərinə
əmr etdi ki, Baal, Aşera və bütün
səma cisimləri üçün düzəldilmiş
şeylərin hamısını Rəbbin məbədindən
çıxarsınlar. Onları Yerusəlimin
kənarında olan Qidron vadisindəki
tarlalarda yandırdı və küllərini Bet-Elə
apardı. 5 O, Yəhuda şəhərlərində
və Yerusəlimin ətrafında olan
səcdəgahlarda buxur yandırmaq üçün
Yəhuda padşahlarının qoyduqları
kahinləri və Baala, günəşə, aya,
bürclərə, bütün səma cisimlərinə buxur
yandıranları işdən kənar etdi. 6 Aşera
bütünü Rəbbin məbədindən Yerusəlimin
kənarına, Qidron vadisinə çıxartdı. Onu
Qidron vadisində yandırdı, əzib toz
etdi və tozunu adi adamların qəbirləri
üstünə səpələyib murdarladı. 7 Rəbbin
məbədində məbəd fahişəliyi ilə məşğul
olan kişilərin evlərini dağıtdı. Qadınlar
orada Aşera üçün çadırlar toxuyurdular.
8 Yoşiya Yəhuda şəhərlərindən
bütün kahinləri gətirtdi, Gevadan
Beer-Şevaya qədər bu kahinlərin buxur
yandırdıqları səcdəgahları murdar
etdi. Şəhər rəisi Yeşuanın darvazasının
girəcək yerində, sol tərəfdə olan
şəhər darvazasındakı səcdəgahları
dağıtdı. 9 Lakin səcdəgahların kahinləri
Yerusəlimdə Rəbbin qurbangahına
qalxmırdılar, amma qardaşları ilə
birlikdə mayasız çörək yeyirdilər.
10 [z]Yoşiya Ben-Hinnom vadisində olan
Tofeti murdar etdi ki, heç kəs oğlunu ya
qızını Molek üçün oda qurban verməsin.
11 O, Rəbbin məbədinə, saray xidmətçisi
Natan-Melekin həyətdə olan otağına
Yəhuda padşahlarının günəşə həsr
etdikləri atların gətirilməsinə son qoydu
və günəş arabalarını odda yandırdı.
12 [a]Axazın yuxarı otağının damında
Yəhuda padşahlarının düzəltdiyi
qurbangahları və Rəbbin məbədinin
iki həyətində Menaşşenin düzəltdiyi
qurbangahları da padşah dağıtdı. Onları
orada qırıb əzdi və tozlarını Qidron
vadisinə səpələdi. 13 [b]Yerusəlimin
şərq tərəfində, Həlak dağının cənub
tərəfində Sidonluların iyrənc bütü
Aştoret, Moavlıların iyrənc bütü
Kemoş və Ammonluların iyrənc bütü
Milkom üçün İsrail padşahı Süleymanın
düzəltdiyi səcdəgahları padşah murdar
etdi. 14 O, sütunları parça-parça etdi,
Aşera bütlərini kəsdi və onların yerlərini
insan sümükləri ilə doldurdu.
15 [c]Həmçinin Bet-Eldə olan
qurbangahı və İsrailə günah etdirmiş
Nevat oğlu Yarovamın düzəltdiyi
səcdəgahı dağıtdı. O, səcdəgahı
yandırdı və əzib toz etdi, Aşera
bütünü də yandırdı. 16 [d]Yoşiya dönüb
qarşısındakı dağda olan qəbirləri gördü
və sümükləri qəbirlərdən götürtdü.
Bu işləri qabaqcadan söyləyən Allah
adamının dediyi Rəbbin sözünə görə
onları qurbangah üzərində yandırıb
onu murdar etdi. 17 [e]Yoşiya dedi:
«Orada gördüyüm abidə nədir?» Şəhərin
adamları ona dedilər: «Yəhudadan
gələn Allah adamının qəbridir. O, Bet-El
qurbangahına qarşı sənin etdiyin bu
işləri qabaqcadan söyləmişdi». 18 O
dedi: «Ona toxunmayın, heç kəs onun
sümüklərini narahat etməsin». Onun
və Samariyadan gələn peyğəmbərin
sümüklərinə toxunmadılar. 19 Yoşiya
Samariya şəhərlərində olan bütün
səcdəgahlardakı məbədləri aradan

---

[y]**23:4** 2Pad. 21:3; 2Saln. 33:3 [z]**23:10** Lev. 18:21; Yer. 7:31; 19:1-6; 32:35
[a]**23:12** 2Pad. 21:5; 2Saln. 33:5 [b]**23:13** 1Pad. 11:7 [c]**23:15** 1Pad. 12:33
[d]**23:16** 1Pad. 13:2 [e]**23:17** 1Pad. 13:30-32

qaldırdı. İsrail padşahları bu məbədləri
tikib Rəbbi qəzəbləndirmişdilər. O,
Bet-Eldə etdiyi bütün işləri bu yerlərdə
də etdi. 20 Yoşiya qurbangahların
üstündə həmin səcdəgahlardakı bütün
kahinləri qurban gətirdi və insan
sümükləri yandırdı. Sonra Yerusəlimə
qayıtdı.

Yoşiyanın Pasxa bayramını keçirməsi

(2Saln. 35:1-19)

21 Padşah bütün xalqa əmr edib
dedi: «Bu Əhd kitabında yazıldığına
görə Allahınız Rəbb üçün Pasxa
bayramını keçirin». 22 İsrailə hökm edən
hakimlərin dövründən bəri, İsrail və
Yəhuda padşahlarının bütün dövrü boyu
Pasxa bayramı belə keçirilməmişdi.
23 Ancaq Yoşiyanın padşahlığının on
səkkizinci ilində bu Pasxa Rəbb üçün
Yerusəlimdə keçirildi.
24 Bundan başqa, Yoşiya Rəbbin
məbədində kahin Xilqiyanın tapdığı
kitabda yazılan Qanunun sözlərinə əməl
edərək cindarları və ruhçağıranları, ev
bütlərini və başqa bütləri – Yəhuda
ölkəsində və Yerusəlimdə gözünə
dəyən bütün mənfur şeyləri məhv etdi.
25 Musanın bütün Qanununa görə bütün
qəlbi, bütün varlığı, bütün gücü ilə
onun kimi Rəbbə üz tutan bir padşah nə
ondan əvvəl, nə də ondan sonra oldu.
26 Ancaq Menaşşenin Rəbbi
qəzəbləndirmək üçün etdiyi bütün
əməllərindən ötrü Rəbb Yəhudalılara
qarşı alovlanan böyük qəzəbindən
dönmədi. 27 Rəbb dedi: «İsraillilər
gözümün önündən rədd etdiyim
kimi Yəhudalıları da rədd edəcəyəm,
seçdiyim şəhər Yerusəlimdən və “adım
orada olacaq” dediyim məbəddən üz
döndərəcəyəm».

Yoşiyanın ölümü

(2Saln. 35:20–36:1)

28 Yoşiyanın qalan işləri və etdiyi
hər şey barədə Yəhuda padşahlarının
salnamələr kitabında yazılmışdır.
29 [f]Onun dövründə Misir padşahı
firon Neko Fərat çayına tərəf Aşşur
padşahının üstünə hücum etmək istədi.
Padşah Yoşiya onunla qarşılaşmağa
çıxdı. Firon Neko Yoşiya ilə Megiddoda
qarşılaşıb onu öldürdü. 30 Adamları
onun cəsədini Megiddodan götürüb
araba ilə Yerusəlimə gətirdilər və
öz qəbrində basdırdılar. Ölkə xalqı
Yoşiyanın oğlu Yehoaxazı götürüb məsh
etdi və onu atasının yerinə padşah etdi.

Yəhuda padşahı Yehoaxaz

(2Saln. 36:2-4)

31 Yehoaxaz padşah olduğu vaxt
iyirmi üç yaşında idi və Yerusəlimdə
üç ay padşahlıq etdi. Anası Livnalı
Yeremyanın qızı olub adı Xamutal
idi. 32 O, atalarının etdiyi kimi Rəbbin
gözündə pis olan işlər etdi. 33 Firon
Neko Xamat torpağındakı Rivlada onu
əsir aldı ki, Yerusəlimdə padşahlıq edə
bilməsin. O, ölkə üzərinə bir talant qızıl
və yüz talant gümüş miqdarında xərac
qoydu. 34 [g]Firon Neko Yoşiyanın oğlu
Elyaqimi atası Yoşiyanın yerinə padşah
etdi və onun adını dəyişdirib Yehoyaqim
qoydu. Yehoaxazı isə götürüb apardı.
Yehoaxaz Misirə gəlib orada öldü.
35 Yehoyaqim firona qızıl-gümüş verdi
və fironun istədiyi qədər gümüş vermək
üçün ölkə üzərinə vergi qoydu. O, firon
Nekoya vermək üçün ölkə xalqından
hər kəsə təyin olunmuş məbləğə görə
qızıl-gümüş alırdı.

---

[f]**23:29** Zək. 12:11; Vəhy 16:16 [g]**23:34** Yer. 22:11-12

Yəhuda padşahı Yehoyaqim

(2Saln. 36:5-8)

36 [h]Yehoyaqim padşah olduğu vaxt
iyirmi beş yaşında idi və Yerusəlimdə
on bir il padşahlıq etdi. Anası Rumalı
Pedayanın qızı olub adı Zevida idi. 37 O,
atalarının etdiyi kimi Rəbbin gözündə
pis olan işlər etdi.

24 [i]Yehoyaqimin dövründə Babil
padşahı Navuxodonosor onun
üzərinə hücum etdi. Yehoyaqim üç
il ona tabe oldu, amma sonra ona
qulluq etməkdən boyun qaçırdı.
2 Xaldeylilərin, Aramlıların, Moavlıların
və Ammonluların qoşunlarını Rəbb
ona qarşı göndərdi; Rəbbin Öz qulları
peyğəmbərlər vasitəsilə söylədiyi
sözünə görə Yəhudanı məhv etmək üçün
onun üzərinə göndərdi. 3 Həqiqətən,
Rəbbin sözünə görə Yəhudanın
başına bu iş gəldi ki, Menaşşenin
etdiyi bütün günahlardan ötrü Rəbb
onları hüzurundan rədd etsin. 4 Çünki
onun günahsız qan tökü b Yerusəlimi
qanla doldurmasını Rəbb bağışlamaq
istəmədi.
5 Yehoyaqimin qalan işləri və etdiyi
hər şey barədə Yəhuda padşahlarının
salnamələr kitabında yazılmışdır.
6 Yehoyaqim ataları ilə uyudu və yerinə
oğlu Yehoyakin padşah oldu. 7 Misir
padşahı bir daha öz ölkəsindən kənara
çıxmadı, çünki Misir vadisindən Fərat
çayına qədər Misir padşahının əvvəllər
işğal etdiyi hər yeri Babil padşahı
tutmuşdu.

Yəhuda padşahı Yehoyakin

(2Saln. 36:9-10)

8 Yehoyakin padşah olduğu vaxt on
səkkiz yaşında idi və Yerusəlimdə üç
ay padşahlıq etdi. Anası Yerusəlimli
Elnatanın qızı olub adı Nexuşta idi.
9 Yehoyakin atasının etdiyi kimi Rəbbin
gözündə pis olan işlər etdi.
10 O zaman Babil padşahı
Navuxodonosorun qoşunları Yerusəlimə
yaxınlaşdı. Şəhər mühasirəyə alındı.
11 Qoşunlar şəhəri mühasirəyə
alanda Babil padşahı Navuxodonosor
onun ətrafına gəldi. 12 [j]Yəhuda
padşahı Yehoyakin anası, əyanları,
rəisləri və saray xidmətçiləri ilə
birlikdə Babil padşahına təslim oldu.
Padşahlığının səkkizinci ilində Babil
padşahı onu əsir aldı. 13 Rəbbin
söylədiyi kimi Rəbbin məbədinin və
sarayın xəzinələrini oradan çıxartdı.
İsrail padşahı Süleymanın Rəbbin
məbədi üçün düzəltdiyi bütün qızıl
şeyləri parça-parça etdi. 14 O bütün
Yerusəlimliləri, bütün rəisləri, igid
adamların hamısını – cəmi on min
nəfəri və bütün ustalarla sənətkarları
sürgün etdi. Ölkədə yoxsul xalqdan
başqa heç kəs qalmadı. 15 [k]Yehoyakini
də Babilə sürgün etdi. Padşahın anasını,
arvadlarını, saray xidmətçilərini
və ölkənin adlı-sanlı adamlarını
Yerusəlimdən sürgün edib Babilə
apardı. 16 Babil padşahı sayı yeddi min
nəfər olan bütün döyüşçüləri, min nəfər
ustanı və sənətkarı – müharibədə iş
görən bütün bacarıqlı adamları əsir
edib Babilə gətirdi. 17 [l]Babil padşahı
Yehoyakinin yerinə əmisi Mattanyanı
padşah etdi və onun adını dəyişib
Sidqiya qoydu.

Yəhudanın son padşahı Sidqiya

(2Saln. 36:11-12; Yer. 52:1-3)

18 [m]Sidqiya padşah olduğu vaxt
iyirmi bir yaşında idi və Yerusəlimdə

---

[h]**23:36** Yer. 22:18-19; 26:1-6; 35:1-19 [i]**24:1** Yer. 25:1-38; Dan. 1:1-2
[j]**24:12** Yer. 22:24-30; 24:1-10; 29:1-2 [k]**24:15** Yez. 17:12
[l]**24:17** Yer. 37:1; Yez. 17:13 [m]**24:18** Yer. 27:1-22; 28:1-17

on bir il padşahlıq etdi. Anası Livnalı
Yeremyanın qızı olub adı Xamutal
idi. 19 O, Yehoyaqimin etdiyi kimi
Rəbbin gözündə pis olan işlər etdi.
20 [n]Həqiqətən, Rəbbin qəzəbinə görə
Yerusəlimin və Yəhudanın başına bu iş
gəldi və Rəbb onları hüzurundan kənar
etdi.

Yerusəlimin süqutu

(2Saln. 36:13-21; Yer. 52:3-33)

Sidqiya Babil padşahına qarşı üsyan
etdi.

25 [o]Onun padşahlığının
doqquzuncu ilində, onuncu
ayın onuncu günü Babil padşahı
Navuxodonosor bütün ordusu ilə
Yerusəlimin üzərinə hücum etdi, oraya
qarşı ordugah qurdu və ətrafında
mühasirə divarları düzəltdi. 2 Padşah
Sidqiyanın hakimiyyətinin on birinci
ilinə qədər şəhər mühasirədə qaldı.
3 Dördüncü ayın doqquzuncu günü
şəhərdə aclıq elə gücləndi ki, ölkə
xalqının yeməyə çörəyi qalmadı.
4 [p]Həmin vaxt şəhərin divarlarında dəlik
açıldı. Gecə ikən Xaldeylilər şəhərin
ətrafında olanda padşah və bütün
döyüşçülər padşah bağçasının yanında
olan iki divar arasındakı darvazadan
çıxıb Arava yolu ilə getdilər. 5 Ancaq
Xaldeylilərin qoşunu padşahı təqib
etdi və Yerixo düzənliklərində ona
çatdı. Padşahın ordusu onu tərk edib
dağılmışdı. 6 Padşahı tutub Rivlaya,
Babil padşahının yanına apardılar
və onun haqqında hökm verdilər.
7 [q]Sidqiyanın oğullarını gözü qabağında
öldürdülər, özünün isə gözlərini
çıxartdılar və qandallayıb Babilə
apardılar.

8 Babil padşahı Navuxodonosorun
padşahlığının on doqquzuncu ilində,
beşinci ayın yeddinci günü Babil
padşahının əyanı olan mühafizəçilər
rəisi Nevuzaradan Yerusəlimə gəldi.
9 O, Rəbbin məbədinə, padşah
sarayına, Yerusəlimdəki bütün
evlərə od vurub bütün əsas binaları
yandırdı. 10 Mühafizəçilər rəisi ilə
birgə gələn bütün Xaldey ordusu
Yerusəlimin ətrafındakı divarları
uçurtdu. 11 Mühafizəçilər rəisi
Nevuzaradan şəhərdə qalan xalqı, Babil
padşahının tərəfinə keçən fərariləri və
başqa əhalini sürgün etdi. 12 Ancaq
o, bağçılıq və əkinçilik etmək üçün
ölkədəki yoxsulların bir hissəsini orada
saxladı.

13 [r]Xaldeylilər Rəbbin məbədində olan
tunc sütunları, dayaqları və tunc hovuzu
parçalayıb tunclarını Babilə apardılar.
14 [s]İbadət zamanı işlədilən qazanları,
kürəkləri, maqqaşları, nimçələri və
bütün tunc qabları götürüb apardılar.
15 Mühafizəçilər rəisi xalis qızıldan
və gümüşdən olan bütün şeyləri –
buxurdanları və piyalələri götürdü.
16 Rəbbin məbədi üçün Süleymanın
düzəltdiyi iki sütunda, hovuzda və
dayaqlarda olan bütün tuncun ağırlığı
hesaba gəlməzdi. 17 Bir sütunun
hündürlüyü on səkkiz qulac idi və
üzərində tunc başlıq var idi. Başlığın
hündürlüyü üç qulac idi. Bu başlığın
ətrafında hörmə tor və narlar var idi.
Hər şey tuncdan düzəldilmişdi. O biri
sütun da hörmə torla birgə bu cür idi.

18 Mühafizəçilər rəisi başçı
kahin Serayanı, başçı kahinin
müavini Sefanyanı və üç astana
keşikçisini əsir aldı. 19 Şəhərdə qalan

---

[n] **24:20** Yez. 17:15 [o] **25:1** Yer. 21:1-10; 34:1-5; Yez. 24:2
[p] **25:4** Yez. 33:21 [q] **25:7** Yez. 12:13
[r] **25:13** 1Pad. 7:15-22; 2Saln. 3:15-17; 1Pad. 7:23-26; 2Saln. 4:2-5
[s] **25:14** 1Pad. 7:45; 2Saln. 4:16

döyüşçülərin sərkərdəsini, padşahın
məsləhətçilərindən şəhərdə olan beş
nəfəri, ölkə xalqını orduya yazan
sərkərdənin mirzəsini və ölkə xalqından
şəhərdə qalan altmış nəfəri əsir tutdu.
20 Mühafizəçilər rəisi Nevuzaradan
onları götürüb Rivlaya, Babil padşahının
yanına apardı. 21 Babil padşahı Xamat
torpağında olan Rivlada onları öldürdü.
Beləcə Yəhuda xalqı öz ölkəsindən
sürgün olundu.

Yəhuda valisi Gedalya

(Yer. 40:7-9; 41:1-3)

22 [t]Yəhuda ölkəsində Babil padşahı
Navuxodonosorun toxunmadığı qalan
xalqa gəlincə, padşah Şafan oğlu Axiqam
oğlu Gedalyanı onların üzərində vali
qoydu. 23 Babil padşahının Gedalyanı
vali qoyduğunu eşitdikdə bütün qoşun
başçıları və onların adamları – Netanya
oğlu İsmail, Qareah oğlu Yoxanan,
Netofalı Tanxumet oğlu Seraya, bir
Maakalının oğlu Yaazanya və onların
döyüşçüləri Mispaya, Gedalyanın
yanına gəldilər. 24 Gedalya onların
özlərinə və adamlarına and içib dedi:
«Xaldeylilərdən qorxmayın. Ölkədə
qalıb Babil padşahına qulluq edin.
Belə etsəniz, sizin üçün yaxşı olar».
25 [u]Yeddinci ayda padşah nəslindən olan
Elişama oğlu Netanya oğlu İsmail on
nəfərlə birgə gəlib Gedalyanı öldürdü.
Onlar Mispada Gedalyanın yanında
olan Yəhudalıları və Xaldeyliləri də
öldürdülər. 26 [v]Böyükdən kiçiyə qədər
bütün xalq və qoşun başçıları qalxıb
Misirə qaçdı, çünki Xaldeylilərdən
qorxurdular.

Yehoyakinin azad edilməsi

(Yer. 52:31-34)

27 Yəhuda padşahı Yehoyakinin
sürgündə olmasının otuz yeddinci
ilində Evil-Merodak Babil padşahı
oldu. Həmin ilin on ikinci ayının
iyirmi yeddinci günü Evil-Merodak
Yəhuda padşahı Yehoyakinə mərhəmət
göstərərək onu zindandan azad etdi.
28 Onunla mehribanlıqla söhbət etdi və
onun üçün özü ilə birgə Babildə olan
padşahların taxtlarından yuxarı bir
taxt qoydurdu. 29 Yehoyakin həbsxana
paltarlarını əynindən çıxartdı. O
yaşadığı müddətdə padşahın süfrəsində
yemək yeyərdi. 30 Bütün ömrü boyu
ona padşah tərəfindən gündəlik azuqə
verilirdi.

---

[t]**25:22** Yer. 40:7-9 [u]**25:25** Yer. 41:1-3 [v]**25:26** Yer. 43:5-7

BİRİNCİ SALNAMƏLƏR

KİTABI

GİRİŞ

«1 və 2 Salnamələr» adlanan iki kitab *«Şamuel»* və *«Padşahlar»* Kitablarındakı hadisələri yenidən başqa nöqteyi-nəzərdən işıqlandırır. *«1 Salnamələr»* Kitabı İsrail tarixinin yazılmasının iki əsas məqsədini göstərir:

İsrail və Yəhuda padşahlığının başına gəlmiş bəlalara baxmayaraq, Allah İsrail xalqına verdiyi vədlərinə sadiq olub Yəhudada yaşayanlar vasitəsilə Öz xalqı üçün niyyətini həyata keçirirdi. Müəllif bunu Davud və Süleymanın nailiyyətlərində, Yehoşafat, Xizqiya və Yoşiyanın islahatlarında, həmçinin xalqın Allaha sadiqliyində görürdü.

Yerusəlim məbədində xalqın Allaha səcdə etməsi, xüsusilə kahinlərlə Levililərin ibadət xidməti təsvir olunur. Süleyman məbədi tikdi, amma Davud məbədin təməlini və mərasimlərin əsasını qoydu.

Kitabın məzmunu

1:1–9:44 Nəsil şəcərələri və siyahılar

10:1-14 Şaulun ölümü

11:1–29:30 Davudun padşahlığı

11:1–22:1 Bəlalar və nailiyyətlər

22:2–29:30 Məbədi tikmək üçün hazırlıq

Adəm və onun nəsilləri

(Yar. 5:1-32)

1 Adəm, Şet, Enoş, 2 Qenan,
Mahalalel, Yered, 3 Xanok,
Metuşelah, Lemek, 4 Nuh, Sam, Ham və
Yafəs.

Nuhun nəsilləri

(Yar. 10:1-32; 11:10-26)

5 Yafəsin oğulları: Qomer, Maqoq,
Maday, Yavan, Tuval, Meşek və Tiras.
6 Qomerin oğulları: Aşkenaz, Rifat və
Toqarma. 7 Yavanın oğulları: Elişa,
Tarşiş, Kittim və Rodanim.
8 Hamın oğulları: Kuş, Misrayim,
Put və Kənan. 9 Kuşun oğulları: Seva,
Xavila, Savta, Raama və Savteka.
Raamanın oğulları: Səba və Dedan.
10 Kuşun Nəmrud adlı bir oğlu da
oldu. O, yer üzündə ilk qüdrətli
adam oldu. 11 Misrayimin nəsilləri
bunlardır: Ludlular, Anamlılar,
Lehavlılar, Naftuhlular, 12 Patroslular,
Filiştlilərin əcdadı olan Kasluhlular,
həmçinin Kaftorlular. 13 Kənanın
nəsilləri bunlardır: ilk oğlu Sidon, Xet,
14 həmçinin Yevuslular, Emorlular,
Qirqaşlılar, 15 Xivlilər, Arqlılar, Sinlilər,
16 Ervadlılar, Semarlılar və Xamatlılar.
17 Samın oğulları: Elam, Aşşur,
Arpakşad, Lud, Aram, Us, Xul, Geter və
Meşek. 18 Arpakşaddan Şelah törədi və
Şelahdan Ever törədi. 19 Everin iki oğlu
oldu: birinin adı Peleq *idi, çünki onun
dövründə yer üzü bölündü. Qardaşının
adı Yoqtan idi. 20 Yoqtandan Almodad,
Şelef, Xasarmavet, Yerah, 21 Hadoram,
Uzal, Diqla, 22 Eval, Avimael, Səba,
23 Ofir, Xavila və Yovav törədi. Bunların
hamısı Yoqtanın oğulları idi.
24 Sam, Arpakşad, Şelah, 25 Ever,
Peleq, Reu, 26 Seruq, Naxor, Terah,
27 İbram, yəni İbrahim.

İbrahimin nəsilləri

(Yar. 25:12-16; 36:1-19)

28 İbrahimin oğulları: İshaq və İsmail.
29 Onların oğulları bunlardır: İsmailin
ilk oğlu Nevayot, sonra Qedar, Adbeel,
Mivsam, 30 Mişma, Duma, Massa,

---

*1:19 *Peleq* – ibrani dilində *bölünmə.*

Xadad, Tema, 31 Yetur, Nafiş və Qedma.
Bunlar İsmailin oğullarıdır.
32 İbrahimin cariyəsi Qeturanın
doğduğu oğullar bunlardır: Zimran,
Yoqşan, Medan, Midyan, İşbaq və
Şuah. Yoqşanın oğulları: Səba və
Dedan. 33 Midyanın oğulları: Efa, Efer,
Xanok, Avida və Eldaa. Bunların hamısı
Qeturanın övladlarıdır.
34 İbrahimdən İshaq törədi. İshaqın
oğulları: Esav və İsrail. 35 Esavın
oğulları: Elifaz, Reuel, Yeuş, Yalam
və Qorah. 36 Elifazın oğulları: Teman,
Omar, Sefi, Qatam, Qenaz, Timna və
Amaleq. 37 Reuelin oğulları: Naxat,
Zerah, Şamma və Mizza.

Seirin nəsilləri

(Yar. 36:20-30)

38 Seirin oğulları: Lotan, Şoval,
Siveon, Ana, Dişon, Eser və Dişan.
39 Lotanın oğulları: Xori və Homam,
Lotanın bacısı Timna. 40 Şovalın
oğulları: Alvan, Manaxat, Eval, Şefo və
Onam. Siveonun oğulları: Ayya və Ana.
41 Ananın oğlu Dişon. Dişonun oğulları:
Xamran, Eşban, İtran və Keran. 42 Eserin
oğulları: Bilhan, Zaavan və Yaaqan.
Dişanın oğulları: Us və Aran.

Edomun padşahları və başçıları

(Yar. 36:31-43)

43 İsrailliləra bir kəs padşahlıq
etməzdən əvvəl Edom ölkəsində
padşahlıq edən adamlar bunlardır:
Beor oğlu Bela. Onun şəhəri Dinhava
idi. 44 Bela öldü və onun yerinə
Bosradan olan Zerah oğlu Yovav padşah
oldu. 45 Yovav öldü və onun yerinə
Temanlıların torpağından olan Xuşam
padşah oldu. 46 Xuşam öldü və onun
yerinə Moav çölündə Midyanlıları
qıran Bedad oğlu Hadad padşah oldu.
Onun şəhəri Avit idi. 47 Hadad öldü və
onun yerinə Masreqadan olan Samla
padşah oldu. 48 Samla öldü və onun
yerinə Rexovot-Hannahardan olan
Şaul padşah oldu. 49 Şaul öldü və onun
yerinə Akbor oğlu Baal-Xanan padşah
oldu. 50 Baal-Xanan öldü və onun yerinə
Hadad padşah oldu. Onun şəhəri Pau
idi. Onun arvadının adı Me-Zahav qızı
Matred qızı Mehetavel idi.
51 Hadad öldü və bunlar Edomun
başçıları oldu: başçı Timna, başçı Alva,
başçı Yetet, 52 başçı Oholivama, başçı
Ela, başçı Pinon, 53 başçı Qenaz, başçı
Teman, başçı Mivsar, 54 başçı Maqdiel,
başçı İram. Edomun başçıları bunlardır.

İsrailin oğulları

2 İsrailin oğulları bunlardır: Ruven,
Şimeon, Levi, Yəhuda, İssakar,
Zevulun, 2 Dan, Yusif, Binyamin,
Naftali, Qad və Aşer.

Yəhudanın nəsilləri

3 Yəhudanın oğulları: Er, Onan
və Şela. Onun bu üç oğlu Kənanlı
Bat-Şuadan doğuldu. Yəhudanın ilk
oğlu Er Rəbbin gözündə pis adam idi və
Rəbb onu öldürdü. 4 Yəhudanın gəlini
Tamar ona Peresi və Zerahı doğdu.
Yəhudanın cəmisi beş oğlu var idi.
5 Peresin oğulları: Xesron və Xamul.
6 Zerahın oğulları: Zimri, Etan, Heman,
Kalkol və Dara. Bunlar cəmisi beş nəfər
idi. 7 [w]Karminin oğlu həsr olunmuş
şeydə xainlik edib İsraili bəlaya salan
Akan idi. 8 Etanın oğlu Azarya idi.

Davudun əcdadları

9 Xesronun oğulları: Yeraxmeel,
Ram və Kalev. 10 Ramdan Amminadav
törədi və Amminadavdan Yəhudalıların
rəhbəri Naxşon törədi. 11 Naxşondan
Salmon törədi və Salmondan Boaz
törədi. 12 Boazdan Oved törədi və

---

[w]**2:7** Yeşua 7:1

Oveddən Yessey törədi. 13 Yesseyin
oğulları bunlar idi: ilk oğlu Eliav,
ikincisi Avinadav, üçüncüsü Şimea,
14 dördüncüsü Netanel, beşincisi
Radday, 15 altıncısı Osem, yeddincisi
Davud. 16 Onların bacıları Seruya və
Aviqail idi. Seruyanın üç oğlu var
idi: Avişay, Yoav və Asahel. 17 Aviqail
Amasanı doğdu. Amasanın atası İsmailli
Yeter idi.

Xesronun başqa nəsilləri

18 Xesron oğlu Kalevin arvadı Azuva
və Yeriot ona övladlar doğdu. Kalevin
Azuvadan olan oğulları bunlardır:
Yeşer, Şovav və Ardon. 19 Azuva öldü.
Kalev Efratı arvad aldı və o da Kalevə
Xuru doğdu. 20 Xurdan Uri törədi.
Uridən Besalel törədi.
21 Bundan sonra Xesron altmış
yaşında ikən Gileadın atası olan Makirin
qızını aldı və onunla yaxınlıq etdi; o,
Xesrona Sequvu doğdu. 22 Sequv Yairin
atası idi. Yairin Gilead torpağında
iyirmi üç şəhəri var idi. 23 Amma
Geşurlular və Aramlılar onlardan
Xavvot-Yairi aldılar, bundan başqa,
Qenatı və onun qəsəbələrini də – cəmisi
altmış şəhəri aldılar. Bunların hamısı
Gileadın atası olan Makirin nəsilləri
idi. 24 Xesron Kalev-Efratada öldükdən
sonra Xesronun arvadı Aviya ona
Teqoanın atası Aşxuru doğdu.
25 Xesronun ilk oğlu Yeraxmeelin
oğulları: ilk oğlu Ram, Buna, Oren,
Osem və Axiya. 26 Yeraxmeelin başqa
bir arvadı var idi, onun adı Atara idi.
Onamın anası o idi. 27 Yeraxmeelin
ilk oğlu Ramın oğulları: Maas, Yamin
və Eqer. 28 Onamın oğulları: Şammay
və Yada. Şammayın oğulları: Nadav
və Avişur. 29 Avişurun arvadının adı
Avihayil idi. O, Avişura Axbanı və
Molidi doğdu. 30 Nadavın oğulları:
Seled və Appayim. Seled oğulsuz öldü.
31 Appayimin oğlu İşi idi. İşinin oğlu
Şeşan idi. Şeşanın oğlu Axlay idi.
32 Şammayın qardaşı Yadanın oğulları:
Yeter və Yonatan. Yeter oğulsuz öldü.
33 Yonatanın oğulları: Pelet və Zaza.
Bunlar Yeraxmeelin nəsilləri idi.
34 Şeşanın oğulları yox idi, yalnız
qızları var idi. Şeşanın bir Misirli qulu
var idi, onun adı Yarxa idi. 35 Şeşan qulu
Yarxaya qızını arvad olmaq üçün verdi.
Arvadı ona Attayı doğdu. 36 Attaydan
Natan törədi. Natandan Zavad törədi.
37 Zavaddan Eflal törədi. Eflaldan
Oved törədi. 38 Oveddən Yehu törədi.
Yehudan Azarya törədi. 39 Azaryadan
Xeles törədi. Xelesdən Eleasa törədi.
40 Eleasadan Sismay törədi. Sismaydan
Şallum törədi. 41 Şallumdan Yeqamya
törədi. Yeqamyadan Elişama törədi.
42 Yeraxmeelin qardaşı Kalevin
oğulları: Zifin atası ilk oğlu Meşa,
Xevronun atası Mareşa. 43 Xevronun
oğulları: Qorah, Tappuah, Reqem və
Şema. 44 Şemadan Yorqoamın atası
olan Raxam törədi. Reqemdən Şammay
törədi. 45 Şammayın oğlu Maon idi.
Maon Bet-Suru tikdi. 46 Kalevin cariyəsi
Efa Xaranı, Mosanı və Qazezi doğdu.
Xaran Qazezin atası idi. 47 Yahdayın
oğulları: Regem, Yotam, Geşan, Pelet,
Efa və Şaaf. 48 Kalevin cariyəsi Maaka
Şeveri və Tirxananı doğdu. 49 O həm də
Madmannanın atası Şaafı, Makbenanın
və Giveanın atası Şevanı doğdu. Kalevin
qızı Aksa idi. 50 Bunlar Kalevin nəsilləri
idi.
Efratanın ilk oğlu Xurun oğulları
bunlardır: Qiryat-Yearimin atası Şoval,
51 Bet-Lexemin atası Salma, Bet-Qaderin
atası Xaref. 52 Qiryat-Yearimin
atası Şovalın nəsilləri bunlardır:
Haroelilər, Manaxatlıların yarısı.
53 Qiryat-Yearimin sakinləri:
Yeterlilər, Putlular, Şumalılar,
Mişralılar. Bunların arasından
Soralılar və Eştaollular çıxdılar.
54 Salmanın nəsilləri: Bet-Lexemlilər,

Netofalılar, Atrot-Bet-Yoavlılar,
Manaxatlıların yarısı və Soralılar.
55 Yabesdə yaşayan mirzələrin nəsilləri:
Tirealılar, Şimealılar, Sukalılar. Bunlar
Bet-Rekavın atası Xammatın nəslindən
olan Qenlilərdir.

Davudun oğulları

3 Davudun Xevronda doğulan
oğulları bunlardır: ilk oğlu İzreelli
Axinoamdan doğulan Amnon, ikincisi
Karmelli Aviqaildən doğulan Daniel,
2 üçüncüsü Geşur padşahı Talmayın
qızı Maakadan doğulan Avşalom,
dördüncüsü Haqqitdən doğulan
Adoniya, 3 beşincisi Avitaldan doğulan
Şefatya, altıncısı arvadı Eqladan
doğulan İtream. 4 [x]Davudun bu altı
oğlu Xevronda doğuldu. Davud
orada yeddi il altı ay padşahlıq etdi,
Yerusəlimdə isə otuz üç il padşahlıq
etdi. 5 [y]Davudun Yerusəlimdə doğulan
oğulları bunlardır: Ammielin qızı
Bat-Şevadan doğulan dörd oğlu: Şimea,
Şovav, Natan və Süleyman, 6 daha
doqquz oğlu: İvxar, Elişua, Elpelet,
7 Noqah, Nefeq, Yafia, 8 Elişama, Elyada
və Elifelet. 9 Cariyələrdən doğulan
oğullarından başqa Davudun bütün
oğulları bunlardır. Tamar da onların
bacısıdır.

Yəhuda padşahları

10 Süleymanın oğlu Rexavam, onun
oğlu Aviya, onun oğlu Asa, onun oğlu
Yehoşafat, 11 onun oğlu Yehoram, onun
oğlu Axazya, onun oğlu Yoaş, 12 onun
oğlu Amasya, onun oğlu Azarya, onun
oğlu Yotam, 13 onun oğlu Axaz, onun
oğlu Xizqiya, onun oğlu Menaşşe,
14 onun oğlu Amon, onun oğlu Yoşiya.
15 Yoşiyanın oğulları: ilk oğlu Yoxanan,
ikincisi Yehoyaqim, üçüncüsü Sidqiya,
dördüncüsü Şallum. 16 Yehoyaqimin
oğulları: onun oğlu Yekonya, [*]onun
oğlu Sidqiya.

Yekonyanın nəsilləri

17 Əsir aparılmış Yekonyanın oğulları:
Şealtiel, 18 Malkiram, Pedaya, Şenassar,
Yeqamya, Hoşama və Nedavya.
19 Pedayanın oğulları: Zerubbabil
və Şimey. Zerubbabilin oğulları:
Meşullam və Xananya, onların bacısı
Şelomit, 20 daha beş oğlu: Xaşuva, Ohel,
Berekya, Xasadya və Yuşav-Xesed.
21 Xananyanın nəsilləri: Pelatya, Yeşaya,
Refayanın oğulları, Arnanın oğulları,
Avdiyanın oğulları, Şekanyanın
oğulları. 22 Şekanyanın oğlu Şemaya
idi. Şemayanın altı oğlu: Xattuş, İqal,
Bariah, Nearya və Şafat. 23 Nearyanın
üç oğlu: Elyoenay, Xizqiya və Azriqam.
24 Elyoenayın yeddi oğlu: Hodavya,
Elyaşiv, Pelaya, Aqquv, Yoxanan,
Delaya və Anani.

Yəhudanın nəsilləri

4 Yəhudanın oğulları: Peres, Xesron,
Karmi, Xur və Şoval. 2 Şovalın
oğlu Reayadan Yaxat törədi; Yaxatdan
Axumay və Lahad törədi. Bunlar
Soralıların nəsilləri idi. 3 Etamın
oğulları bunlardır: İzreel, İşma və İdbaş.
Onların bacısının adı Haslelponidir.
4 Penueldən Qedor, Ezerdən isə Xuşa
törədi. Bunlar Bet-Lexemin atası
Efratanın ilk oğlu Xurun övladlarıdır.
5 Teqoanın atası Aşxurun iki arvadı var
idi: Xela və Naara. 6 Naara ona bunları
doğdu: Axuzzam, Xefer, Temeni və
Axaştari. Bunlar Naaranın oğulları idi.
7 Xelanın oğulları: Seret, İsxar, Etnan və
Qos. 8 Qosdan Anuv, Soveva və Harum
oğlu Axarxelin nəsilləri törədi.

---

[*]**3:16** *Yekonya* – başqa adı Yehoyakin.

[x]**3:4** 2Şam. 5:4-5; 1Pad. 2:11; 1Saln. 29:27 [y]**3:5** 2Şam. 11:3

9 Yabes qardaşlarından daha hörmətli
idi. Anası «onu ağrı ilə doğdum» deyib
adını Yabes qoymuşdu. 10 Yabes İsrailin
Allahını çağırıb dedi: «Kaş Sən mənə
xeyir-dua verəydin! Torpaqlarımı
genişləndir, mənə kömək ol və əzab
çəkməyim deyə məni şərdən qoru».
Allah da istədiyi şeyi ona verdi.
11 Şuxanın qardaşı Keluvdan Mexir
törədi. Mexirdən Eşton törədi.
12 Eştondan Bet-Rafa, Paseahın və
İr-Naxaşın atası Texinna törədi. Bunlar
Rekalılardır. 13 Qenazın oğulları: Otniel
və Seraya. Otnielin oğulları Xatat
və 14 Ofranın atası olan Meonotay.
Serayadan Ge-Xaraşimin *atası
Yoav törədi. Bu şəhərin sakinləri
ustalar olduğuna görə belə adlanırdı.
15 Yefunnenin oğlu Kalevin oğulları:
İru, Ela və Naam. Elanın oğlu Qenaz
idi. 16 Yehallelelin oğulları: Zif, Zifa,
Tirya və Asarel. 17 Ezranın oğulları:
Yeter, Mered, Efer, Yalon. Meredin
arvad aldığı firon qızı Bityanın oğulları:
Məryəm, Şammay və Eştemoanın atası
İşbah. 18 Yəhudalı arvadı isə bunları
doğdu: Qedorun atası Yered, Sokonun
atası Xever və Zanoahın atası Yequtiel.
19 Naxamın bacısı Hodiyanın arvadı idi.
Onun oğullarından Qarmili Qeila və
Maakalı Eştemoa törədi. 20 Şimeonun
oğulları: Amnon, Rinna, Ben-Xanan
və Tilon. İşinin oğulları: Zoxet və
Ben-Zoxet. 21 Yəhudanın oğlu Şelanın
nəsilləri: Lexanın atası Er, Mareşanın
atası Laada və Bet-Aşbeada olan incə
kətan toxuyanların nəsilləri, 22 Yoqim
və Kozevalılar, Yoaş və Saraf. Bunlar
Moavda arvad aldılar və Lexemə
qayıtdılar. Bu, qədim hadisələrdir.
23 Onlar dulusçu idi, Netaimdə və
Gederada yaşayırdılar. Padşah üçün iş
görərək orada qalırdılar.

Şimeonun nəsilləri

24 Şimeonun oğulları: Nemuel, Yamin,
Yariv, Zerah və Şaul. 25 Şaulun oğlu
Şallum, onun oğlu Mivsam, onun oğlu
Mişma. 26 Mişmanın oğulları: onun oğlu
Xammuel, onun oğlu Zakkur, onun
oğlu Şimey. 27 Şimeyin on altı oğlu və
altı qızı var idi, lakin qohumlarının
oğulları çox deyildi və onların bütün
nəsli Yəhuda oğulları qədər çoxalmadı.
28 Onlar bu yerlərdə yaşayırdı:
Beer-Şeva, Molada, Xasar-Şual, 29 Bilha,
Esem, Tolad, 30 Betuel, Xorma, Ziqlaq,
31 Bet-Markavot, Xasar-Susim, Bet-Biri
və Şaarayim. Davudun padşahlıq etdiyi
dövrə qədər onların şəhərləri bunlardır.
32 Onların qəsəbələri bunlardır: Etam,
Ayin, Rimmon, Token və Aşan – cəmi
beş şəhər. 33 Bu şəhərlərin ətrafında
Baala qədər olan bütün kəndlər də
onların yaşadıqları yerlərdir. Onların
nəsil şəcərəsi belədir: 34 Meşovav,
Yamlek, Amasya oğlu Yoşa, 35 Yoel,
Asiel oğlu Seraya oğlu Yoşivya oğlu
Yehu, 36 Elyoenay, Yaaqova, Yeşoxaya,
Asaya, Adiel, Yesimiel, Benaya,
37 Şemaya oğlu Şimri oğlu Yedaya oğlu
Allon oğlu Şifi oğlu Ziza. 38 Bu adları
çəkilənlər nəsil rəhbərləri idi və onların
nəsilləri artıb çoxalmışdı. 39 Onlar
sürüləri üçün otlaq axtarmaqdan ötrü
Qedorun yaxınlığına, dərənin şərq
tərəfinə qədər getdilər. 40 Bol və yaxşı
otlaq tapdılar, ölkə də geniş, sakit və
dinc idi. Onlardan əvvəl orada Hamlılar
yaşayırdı. 41 Bu adları yazılanlar
Yəhuda padşahı Xizqiyanın dövründə
gəlib öz çadırlarında olan Hamlıları
və orada olan Maonluları qırdılar.
Onları tamamilə məhv edib yerlərində
yaşadılar, çünki orada sürüləri üçün
otlaq var idi. Bu günə qədər də belədir.
42 Həmin Şimeonlulardan beş yüz

---

*4:14 *Ge-Xaraşim* – ibrani dilində *ustalar vadisi.*

nəfər Seir dağına getdi. İşinin oğulları
Pelatya, Naarya, Refaya və Uzziel
onlara başçılıq edirdi. 43 Onlar sağ qalan
Amaleqli qaçanları qırdılar. Onlar bu
günə qədər də orada yaşayır.

Ruvenin nəsilləri

5 [z]İsrailin ilk oğlu Ruven idi, amma
atasının yatağını murdarladığı
üçün onun ilk oğulluq haqqı İsrailin
oğlu Yusifin nəslinə verildi və Ruvenin
nəsli şəcərədə ilk oğul kimi sayılmadı.
2 [a]Ancaq Yəhuda qardaşları arasında
daha güclü oldu və hökmdar onun
nəslindən çıxdı. İlk oğulluq haqqı isə
Yusifin idi. 3 İsrailin ilk oğlu Ruvenin
oğulları: Xanok, Pallu, Xesron və Karmi.
4 [b]Yoelin nəsli: onun oğlu Şemaya, onun
oğlu Qoq, onun oğlu Şimey, 5 onun
oğlu Mikeya, onun oğlu Reaya, onun
oğlu Baal, 6 onun oğlu Beera. Onu
Aşşur padşahı Tiqlat-Pileser sürgünə
aparmışdı. Beera Ruvenlilərin başçısı
idi. 7 Nəsil şəcərələrinə görə onların
qohumları bunlar idi: başçı Yeiel,
Zəkəriyyə, 8 Yoel oğlu Şema oğlu Azaz
oğlu Bela. O, Aroerdə yaşayırdı, torpağı
Nevoya və Baal-Meona qədər uzanırdı.
9 Şərqə tərəf Fərat çayının bu tayındakı
çölün başlanğıc yerinə qədər torpaqlar
onun idi, çünki Gilead torpağında
çoxlu heyvanları var idi. 10 Şaulun
dövründə bu adamlar Həcərlilərlə
müharibə edib onları məğlub etdi və
Gileadın şərqindəki bütün torpaqlarda
Həcərlilərin çadırlarında yaşadı.

Qadın nəsilləri

11 Qadlılar Salkaya qədər uzanan
Başan torpağında Ruvenlilərin
qarşısında yaşadı. 12 Başanda başçı
Yoel, köməkçisi Şafam, sonra Yanay
və Şafat idi. 13 Öz nəsillərindən olan
qohumları bunlardır: Mikael, Meşullam,
Şeva, Yoray, Yakan, Ziya və Ever –
cəmi yeddi nəfər. 14 Bunlar Buz oğlu
Yaxdo oğlu Yeşişay oğlu Mikael oğlu
Gilead oğlu Yaroah oğlu Xuri oğlu
Avixayilin oğulları idi. 15 Quni oğlu
Avdiel oğlu Axi onların nəsil başçısı
idi. 16 Onlar Gileadda, Başanda və onun
qəsəbələrində, Şaronun sərhədlərinə
qədər uzanan bütün otlaq torpaqlarında
yaşadı. 17 Yəhuda padşahı Yotamın və
İsrail padşahı Yarovamın dövründə
onların hamısı nəsil şəcərələrində qeyd
olundu.

İsraillilərin Həcərlilərlə müharibəsi

18 Ruvenlilərdən, Qadlılardan,
Menaşşe qəbiləsinin yarısından olan,
qalxan və qılınc daşıyan, ox atan,
döyüş üçün təlim görmüş və döyüşməyi
bacaran igid adamlar qırx dörd min
yeddi yüz altmış nəfər idi. 19 Onlar
Həcərlilərdən olan Yeturun, Nafişin və
Nadavın nəsilləri ilə müharibə etdi.
20 İsraillilər düşmənləri ilə döyüşdə
kömək aldıqları üçün Həcərliləri və
onlarla olanların hamısını məğlub
etdilər, çünki İsraillilər döyüş zamanı
Allahı çağırdılar və Ona güvəndikləri
üçün Allah onları eşitdi. 21 Onlar
düşmənlərinin heyvanlarını – əlli min
dəvəsini, iki yüz əlli min qoyun-keçisini,
iki min eşşəyini ələ keçirdi və yüz
min adamını götürüb apardı. 22 Həlak
olanlar çox oldu, çünki bu döyüş
Allahdan idi. Onlar sürgün olunan
zamana qədər Həcərlilərin yerlərində
yaşadı.

İordan çayının şərqində yaşayan Menaşşelilərin nəsilləri

23 Menaşşe qəbiləsinin yarısının
nəsilləri də həmin torpaqda yaşadı.
Onlar çoxalıb Başandan Baal-Xermona,
Senirə və Xermon dağına qədər uzanan

---

[z]**5:1** Yar. 35:22; 49:3-4 [a]**5:2** Yar. 49:8-10 [b]**5:4** 2Pad. 15:29

torpağa yayıldılar. 24 Onların nəsil
başçıları bunlardır: Efer, İşi, Eliel,
Azriel, Yeremya, Hodavya və Yaxdiel.
Bunlar igid döyüşçülər, adlı-sanlı
adamlar və nəsil başçıları idi. 25 Amma
onlar atalarının Allahına qarşı xainlik
etdilər və onların önündə Allahın
məhv etdiyi ölkə xalqlarının allahlarına
sitayiş edib xəyanət etdilər. 26 [c]Onda
İsrailin Allahı Aşşur padşahı Pulda,
yəni Tiqlat-Pileserdə niyyət oyandırdı,
o da Ruvenliləri, Qadlıları və Menaşşe
qəbiləsinin yarısını əsir aparıb Xalaha,
Xavora, Haraya və Qozan çayının
sahilində yerləşdirdi. Onlar bu günə
qədər də oradadır.

Levinin nəsilləri

6 Levinin oğulları: Gerşon, Qohat və
Merari. 2 Qohatın oğulları: Amram,
İshar, Xevron və Uzziel. 3 Amramın
övladları: Harun, Musa və Məryəm.
Harunun oğulları: Nadav, Avihu,
Eleazar və İtamar.
4 Eleazardan Pinxas törədi. Pinxasdan
Avişua törədi. 5 Avişuadan Buqqi
törədi. Buqqidən Uzzi törədi. 6 Uzzidən
Zerahya törədi. Zerahyadan Merayot
törədi. 7 Merayotdan Amarya törədi.
Amaryadan Axituv törədi. 8 Axituvdan
Sadoq törədi. Sadoqdan Aximaas törədi.
9 Aximaasdan Azarya törədi. Azaryadan
Yoxanan törədi. 10 Yoxanandan Azarya
törədi. Yerusəlimdə Süleymanın tikdiyi
məbəddə Azarya kahin idi. 11 Azaryadan
Amarya törədi. Amaryadan Axituv
törədi. 12 Axituvdan Sadoq törədi.
Sadoqdan Şallum törədi. 13 Şallumdan
Xilqiya törədi. Xilqiyadan Azarya törədi.
14 Azaryadan Seraya törədi. Serayadan
Yehosadaq törədi. 15 Navuxodonosorun
vasitəsilə Rəbb Yəhudalıları və
Yerusəlimliləri sürgün etdiyi zaman
Yehosadaq da sürgün olundu.
16 [d]Levinin oğulları: Gerşon, Qohat və
Merari. 17 Gerşonun oğullarının adları
belədir: Livni və Şimey. 18 Qohatın
oğulları: Amram, İshar, Xevron və
Uzziel. 19 Merarinin oğulları: Maxli
və Muşi. Nəsillərinə görə Levililərin
övladları bunlardır. 20 Gerşonun nəsli:
onun oğlu Livni, onun oğlu Yaxat, onun
oğlu Zimma, 21 onun oğlu Yoah, onun
oğlu İddo, onun oğlu Zerah, onun oğlu
Yeatray. 22 Qohatın nəsli: onun oğlu
Amminadav, onun oğlu Qorah, onun
oğlu Assir, 23 onun oğlu Elqana, onun
oğlu Evyasaf, onun oğlu Assir, 24 onun
oğlu Taxat, onun oğlu Uriel, onun oğlu
Uzziya və onun oğlu Şaul. 25 Elqananın
oğulları: Amasay, Aximot və Elqana.
26 Elqananın nəsli: onun oğlu Sofay,
onun oğlu Naxat, 27 onun oğlu Eliav,
onun oğlu Yeroxam, onun oğlu Elqana.
28 Şamuelin oğulları: ilk oğlu Yoel və
ikincisi Aviya. 29 Merarinin nəsli: onun
oğlu Maxli, onun oğlu Livni, onun oğlu
Şimey, onun oğlu Uzza, 30 onun oğlu
Şima, onun oğlu Haqqiya, onun oğlu
Asaya.

Rəbbin evində olan musiqiçilər və kahinlər

31 Əhd sandığı rahatlıq yerinə
qoyulduqdan sonra Rəbbin evində
musiqi xidməti üzərində Davudun
qoyduğu adamlar bunlardır.
32 Süleyman Yerusəlimdə Rəbbin
məbədini tikənə qədər onlar müqəddəs
məskən olan Hüzur çadırının önündə
ilahi oxumaqla xidmət edirdilər və
növbələrinə görə öz xidmətlərində
dayanırdılar. 33 Orada xidmət edənlər
və onların oğulları bunlardır: Qohatın
nəslindən ilahi oxuyan Heman. Onun
nəsil şəcərəsi belədir: Yoel oğlu Şamuel
oğlu 34 Elqana oğlu Yeroxam oğlu Eliel
oğlu Toah oğlu 35 Suf oğlu Elqana oğlu

[c] **5:26** 2Pad. 15:19; 2Pad. 15:29; 2Pad. 17:6
[d] **6:16** Çıx. 6:16-19

Maxat oğlu Amasay oğlu 36 Elqana
oğlu Yoel oğlu Azarya oğlu Sefanya
oğlu 37 Taxat oğlu Assir oğlu Evyasaf
oğlu Qorah oğlu 38 İshar oğlu Qohat
oğlu Levi oğlu İsrail oğlu. 39 Sağında
xidmət edən qohumu Asəf. Onun nəsil
şəcərəsi belədir: Berekya oğlu Şima oğlu
40 Mikael oğlu Baaseya oğlu Malkiya
oğlu 41 Etni oğlu Zerah oğlu Adaya oğlu
42 Etan oğlu Zimma oğlu Şimey oğlu
43 Yaxat oğlu Gerşon oğlu Levi oğlu.
44 Sol tərəfində xidmət edən qohumları
Merarinin nəslindən Etan. Onun nəsil
şəcərəsi belədir: Qişi oğlu Avdi oğlu
Malluk oğlu 45 Xaşavya oğlu Amasya
oğlu Xilqiya oğlu 46 Amsi oğlu Bani
oğlu Şemer oğlu 47 Maxli oğlu Muşi
oğlu Merari oğlu Levi oğlu. 48 Onların
qohumları olan Levililər müqəddəs
məskən olan Allah evinin bütün xidmət
işlərinə təyin olunmuşdu.
49 Harunun və onun nəslinin öhdəsinə
isə bu işlər qoyulmuşdu: yandırma
qurbangahında və buxur qurbangahında
təqdim gətirilməsi, Ən Müqəddəs yerə
aid hər iş – İsraillilərin günahlarını
kəffarə etmək üçün Allahın qulu
Musanın əmr etdiyi bütün işlər.
50 Harunun nəsli budur: onun oğlu
Eleazar, onun oğlu Pinxas, onun oğlu
Avişua, 51 onun oğlu Buqqi, onun oğlu
Uzzi, onun oğlu Zerahya, 52 onun oğlu
Merayot, onun oğlu Amarya, onun oğlu
Axituv, 53 onun oğlu Sadoq, onun oğlu
Aximaas.

Levililərə verilən şəhərlər

54 Levililərin öz torpaqlarında
yaşadığı yerlər bunlardır: ilk püşk
Qohat nəslindən olan Harunun
övladlarına düşdüyü üçün onlara
55 Yəhuda torpağında olan Xevronu
və onun ətrafındakı otlaqları verdilər.
56 Ancaq bu şəhərin çölünü və
kəndlərini Yefunne oğlu Kalevə
verdilər. 57 Harunun nəslinə bu şəhərləri
verdilər: sığınacaq şəhəri olan Xevron,
Livna ilə otlaqları, Yattir, Eştemoa
ilə otlaqları, 58 Xilenlə otlaqları,
Devirlə otlaqları, 59 Aşanla otlaqları,
Bet-Şemeşlə otlaqları, 60 Binyamin
qəbiləsinin torpağından Geva ilə
otlaqları, Alemetlə otlaqları, Anatotla
otlaqları. Onların bütün şəhərləri
nəsillərinə görə on üç şəhərdir.
61 Digər Qohat övladlarına isə
Menaşşe qəbiləsinin yarısının
torpağından püşkə görə on şəhər verildi.
62 Gerşon övladlarına nəsillərinə görə
İssakar qəbiləsinin, Aşer qəbiləsinin,
Naftali qəbiləsinin və Başanda olan
Menaşşe qəbiləsinin torpağından on
üç şəhər verildi. 63 Merari övladlarına
nəsillərinə görə Ruven, Qad və Zevulun
qəbilələrinin torpağından püşklə on
iki şəhər verildi. 64 İsrail övladları
Levililərə bu şəhərləri və onların
otlaqlarını verdilər. 65 Yəhuda, Şimeon
və Binyamin qəbilələrinin torpağından
adları göstərilən bu şəhərləri püşkə görə
verdilər.
66 Qohat nəslindən bəzilərinə Efrayim
qəbiləsinə aid şəhərləri verdilər.
67 Efrayimin dağlıq bölgəsində sığınacaq
şəhəri olan Şekemlə otlaqları, Gezerlə
otlaqları, 68 Yoqmeamla otlaqları,
Bet-Xoronla otlaqları, 69 Ayyalonla
otlaqları, Qat-Rimmonla otlaqları.
70 Menaşşe qəbiləsinin yarısının
torpağından Anerlə otlaqları, Bileamla
otlaqları Qohat nəslinin qalanına
verildi.
71 Gerşon nəslinə bu yerlər verildi:
oğullarına Menaşşe qəbiləsinin
yarısının torpağından Başandakı
Qolanla otlaqları, Aştarotla otlaqları,
72 İssakar qəbiləsinin torpağından
Qedeşlə otlaqları, Davratla otlaqları,
73 Ramotla otlaqları, Anemlə otlaqları,
74 Aşer qəbiləsinin torpağından Maşalla
otlaqları, Avdonla otlaqları, 75 Xuqoqla
otlaqları, Rexovla otlaqları, 76 Naftali

qəbiləsinin torpağından Qalileyada olan
Qedeşlə otlaqları, Xammonla otlaqları,
Qiryatayimlə otlaqları.
77 Merari nəslinin digər adamlarına
bu yerlər verildi: Zevulun qəbiləsinin
torpağından Rimmono ilə otlaqları,
Tavorla otlaqları, 78 Yerixonun
qarşısındakı, İordan çayının şərq
tərəfində olan Ruven qəbiləsinin
torpağından səhradakı Beserlə otlaqları,
Yahsa ilə otlaqları, 79 Qedemotla
otlaqları, Mefaatla otlaqları, 80 Qad
qəbiləsinin torpağından Gileaddakı
Ramotla otlaqları, Maxanayimlə
otlaqları, 81 Xeşbonla otlaqları, Yazerlə
otlaqları.

İssakarın nəsilləri

7 İssakarın oğulları: Tola, Pua, Yaşuv
və Şimron – cəmisi dörd nəfər.
2 Tolanın oğulları: Uzzi, Refaya, Yeriel,
Yaxmay, İvsam və Şamuel. Bunlar
Tolanın nəsil başçıları idi. Davudun
dövründə onların nəslindən olan igid
döyüşçülər iyirmi iki min altı yüz nəfər
idi. 3 Uzzinin nəsli: İzrahya və onun
oğulları: Mikael, Avdiya, Yoel, İşşiya –
cəmisi beş nəfər. Onların hamısı başçı
idi. 4 Bunlardan başqa nəsil şəcərələrinə
görə döyüşə bilən dəstələrdə otuz altı
min nəfər var idi, çünki onların çoxlu
arvadları və oğulları var idi. 5 İssakarın
bütün nəsilləri arasında igid döyüşçülər
olan qohumları nəsil şəcərəsinə görə
cəmisi səksən yeddi min nəfər idi.

Binyaminin nəsilləri

6 Binyaminin oğulları: Bela, Beker
və Yediael – cəmisi üç nəfər. 7 Belanın
oğulları: Esbon, Uzzi, Uzziel, Yerimot
və İri – cəmisi beş nəfər nəsil başçısı.
Onların nəslindən olan igid döyüşçülər
nəsil şəcərələrinə görə iyirmi iki min
otuz dörd nəfər idi. 8 Bekerin oğulları:
Zemira, Yoaş, Eliezer, Elyoenay, Omri,
Yeremot, Aviya, Anatot və Alemet.
Bunların hamısı Bekerin oğulları idi.
9 Nəsil başçılarının şəcərəsinə görə
onların igid döyüşçüləri iyirmi min iki
yüz nəfər idi. 10 Yediaelin nəsli: Bilhan
və onun oğulları Yeuş, Binyamin, Ehud,
Kenaana, Zetan, Tarşiş və Axişaxar.
11 Bunların hamısı Yediaelin nəsil
başçıları idi. Onlardan döyüşə bilən igid
döyüşçülər on yeddi min iki yüz nəfər
idi. 12 İrin nəsilləri: Şuflular və Xuflular.
Xuşlular isə Axerin nəslindən idi.

Naftalinin nəsilləri

13 Naftalinin oğulları: Yaxasiel, Quni,
Yeser, Şallum. Bunlar Bilhanın nəsilləri
idi.

Menaşşenin nəsilləri

14 Menaşşenin oğulları: Aramlı
cariyəsinin doğduğu Asriel, həmin
qadının doğduğu Gileadın atası Makir.
15 Makir Xuflulardan və Şuflulardan bir
arvad aldı. Onun bacısının adı Maaka
idi. Selofxad isə onların qohumu idi.
Onun yalnız qızları var idi. 16 Makirin
arvadının da adı Maaka idi. O, bir
oğul doğub adını Pereş qoydu. Pereşin
qardaşının adı Şereş idi, onun oğulları
isə Ulam və Reqem idi. 17 Ulamın
oğlu Bedan idi. Menaşşe oğlu Makir
oğlu Gileadın nəsli bunlardır. 18 Onun
bacısı Hammoleket İşhodu, Aviezeri və
Maxlanı doğdu. 19 Şemidanın oğulları:
Axyan, Şekem, Liqxi və Aniam.

Efrayimin nəsilləri

20 Efrayimin nəsli: Şutelah, onun oğlu
Bered, onun oğlu Taxat, onun oğlu
Eleada, onun oğlu Taxat, 21 onun oğlu
Zavad, onun oğlu Şutelah. Efrayimin
başqa oğulları Ezer və Eleadı o torpağın
yerli sakinləri olan Qatlılar öldürdü,
çünki onların heyvanlarını oğurlamağa
getmişdilər. 22 Ataları Efrayim uzun
müddət onlara yas tutdu və qohumları
ona təsəlli vermək üçün gəldi. 23 Sonra

o, arvadının yanına girdi, qadın hamilə
oldu və bir oğul doğdu. Atası onun
adını Beria *qoydu, çünki evinə bəla
üz vermişdi. 24 Onun Şeera adlı qızı da
var idi. O, Aşağı və Yuxarı Bet-Xoronu,
Uzzen-Şeeranı tikdi. 25 Efrayimin başqa
oğlu Refah, onun oğlu Reşef, onun
oğlu Telah, onun oğlu Taxan, 26 onun
oğlu Ladan, onun oğlu Ammihud, onun
oğlu Elişama, 27 onun oğlu Nun, onun
oğlu Yeşua. 28 Onların mülkləri və
yaşadıqları yerlər bunlardır: Bet-Ellə
qəsəbələri, şərq tərəfdə Naaran, qərb
tərəfdə Gezerlə qəsəbələri, Şekemlə
qəsəbələri, Ayya ilə qəsəbələri, 29 həm
də Menaşşelilərin torpağına yaxın
olan Bet-Şeanla qəsəbələri, Taanakla
qəsəbələri, Megiddo ilə qəsəbələri,
Dorla qəsəbələri. İsrail oğlu Yusifin
nəsli bu yerlərdə yaşadı.

Aşerin nəsilləri

30 Aşerin övladları: İmna, İşva, İşvi,
Beria və onların bacısı Serah. 31 Berianın
oğulları: Xever və Birzayitin atası olan
Malkiel. 32 Xever bunların atası idi:
Yaflet, Şomer, Xotam və onların bacısı
Şua. 33 Yafletin oğulları bunlardır:
Pasak, Bimhal və Aşvat. 34 Şemerin
oğulları: Axi, Rohqa, Xubba və Aram.
35 Onun qardaşı Helemin oğulları:
Sofah, İmna, Şeleş və Amal. 36 Sofahın
oğulları: Suah, Xarnefer, Şual, Beri,
İmra, 37 Beser, Hod, Şamma, Şilşa, İtran
və Beera. 38 Yeterin oğulları: Yefunne,
Pispa və Ara. 39 Ullanın oğulları: Arah,
Xanniel və Risya. 40 Aşerin nəslindən
olan bu adamların hamısı nəsil başçıları,
seçilmiş adamlar, igid döyüşçülər və
baş rəislər idi. Onlardan döyüşə bilən
adamlar nəsil şəcərələrinə görə iyirmi
altı min nəfər idi.

Binyaminin nəsilləri

8 Binyaminin oğulları bunlardır: ilk
oğlu Bela, ikincisi Aşbel, üçüncüsü
Axrah, 2 dördüncüsü Noxa, beşincisi
Rafa. 3 Belanın oğulları bunlardır:
Addar, Gera, Avihud, 4 Avişua, Naaman,
Axoah, 5 Gera, Şefufan və Xuram.
6 Gevada yaşayanların nəsil başçıları
olan, sonra isə Manaxata köçürülən
Ehudun oğulları bunlardır: 7 Naaman,
Axiya və onları köçürən Gera. Geradan
Uzza və Axixud törədi. 8 Şaxarayim
arvadları Xuşim və Baaranı boşadıqdan
sonra Moav ölkəsində övlad atası oldu,
9 arvadı Xodeş ona bunları doğdu:
Yovav, Sivya, Meşa, Malkam, 10 Yeus,
Sakya və Mirma. Onun bu oğulları nəsil
başçıları idi. 11 Xuşim isə ona Avituvu
və Elpaalı doğmuşdu. 12 Elpaalın
oğulları: Ever, Mişam və Şamed.
Şamed Ono ilə Lodu, onun qəsəbələrini
tikdi. 13 Ayyalonda yaşayanların nəsil
başçıları Beria və Şema idi. Onlar Qatda
yaşayanları qovdu. 14 Berianın oğulları:
Axyo, Şaşaq, Yeremot, 15 Zevadya,
Arad, Eder, 16 Mikael, İşpa və Yoxa.
17 Elpaalın oğulları: Zevadya, Meşullam,
Xizqi, Xever, 18 İşmeray, İzlia və Yovav.
19 Şimeyin oğulları: Yaqim, Zikri, Zavdi,
20 Elienay, Silletay, Eliel, 21 Adaya,
Beraya və Şimrat. 22 Şaşaqın oğulları:
İşpan, Ever, Eliel, 23 Avdon, Zikri,
Xanan, 24 Xananya, Elam, Antotiya,
25 İfdeya və Penuel. 26 Yeroxamın
oğulları: Şamşeray, Şexarya, Atalya,
27 Yaareşya, İlyas və Zikri. 28 Bunlar
nəsil şəcərələrinə görə nəsil başçıları idi
və Yerusəlimdə yaşadılar.

Padşah Şaulun əcdadları və nəsilləri

29 Giveonun atası Yeiel Giveonda
yaşayırdı və arvadının adı Maaka
idi. 30 İlk oğlu Avdon idi, o biriləri

---

*7:23 *Beria* – ibrani dilində *bəla içində.*

isə bunlar idi: Sur, Qiş, Baal, Nadav,
31 Qedor, Axyo, Zeker, 32 Şimanın
atası Miqlot. Onlar qohumlarının
yanında, Yerusəlimdə qohumları
ilə birgə yaşayırdı. 33 Nerdən Qiş
törədi və Qişdən Şaul törədi. Şauldan
Yonatan, Malki-Şua, Avinadav və Eşbaal
*törədi. 34 Yonatanın oğlu Merib-Baal
†idi. Merib-Baaldan Mikeya törədi.
35 Mikeyanın oğulları: Piton, Melek,
Tarea və Axaz. 36 Axazdan Yehoadda
törədi. Yehoaddadan Alemet, Azmavet
və Zimri törədi. Zimridən Mosa törədi.
37 Mosadan Bina törədi. Binanın oğlu
Rafa, onun oğlu Elasa, onun oğlu Asel.
38 Aselin altı oğlu var idi, onların adları
belədir: Azriqam, Bokru, İsmail, Şearya,
Avdiya və Xanan. Bunların hamısı
Aselin oğulları idi. 39 Onun qardaşı
Eseqin oğulları: ilk oğlu Ulam, ikincisi
Yeuş və üçüncüsü Elifelet. 40 Ulamın
oğulları oxatan igid döyüşçülər idi.
Oğulları və nəvələri çox idi: yüz əlli
nəfər. Bunların hamısı Binyaminin
nəslindəndir.

Yerusəlimin sakinləri

9 Beləcə bütün İsraillilər nəsil
şəcərələrində qeyd olunmuşdu və
bunlar İsrail padşahlarının kitabında
yazılmışdır.

Yəhudalılar xainliklərinə görə
Babilə sürgün olunmuşdu. 2 eİlk
dəfə mülklərinə qayıdıb yaşayanlar
İsraillilərdən bəzi adamlar, kahinlər,
Levililər və məbəd qulluqçuları idi.
3 Yerusəlimdə isə Yəhudalılardan,
Binyaminlilərdən, Efrayimlilərdən
və Menaşşelilərdən olan bu adamlar
yaşadı. 4 Yəhudanın oğlu Peresin
nəslindən: Bani oğlu İmri oğlu Omri
oğlu Ammihud oğlu Utay. 5 Şelanın
nəslindən: ilk oğlu Asaya və onun
oğulları. 6 Zerahın nəslindən: Yeuel
və onun qohumları. Hamısı birlikdə
altı yüz doxsan nəfər idi. 7 Binyaminin
nəslindən: Hassenua oğlu Hodavya
oğlu Meşullam oğlu Sallu, 8 Yeroxam
oğlu İvniya, Mikri oğlu Uzzi oğlu Ela
və İvniya oğlu Reuel oğlu Şefatya oğlu
Meşullam. 9 Onlar qohumları ilə birgə
nəsil şəcərələrinə görə doqquz yüz əlli
altı nəfər idi. Bunların hamısı nəsil
başçıları idi.

10 Kahinlərdən: Yedaya, Yehoyariv,
Yakin, 11 Allah məbədinin rəisi Axituv
oğlu Merayot oğlu Sadoq oğlu Meşullam
oğlu Xilqiya oğlu Azarya, 12 Malkiya
oğlu Paşxur oğlu Yeroxam oğlu
Adaya və İmmer oğlu Meşillemit oğlu
Meşullam oğlu Yaxzera oğlu Adiel
oğlu Maasay. 13 Bunlar nəsil başçıları
idi. Onlar qohumları ilə birgə – Allah
evinin xidməti işində bacarıqlı olan bu
adamlar min yeddi yüz altmış nəfər idi.

14 Levililərdən: Merarinin nəslindən
Xaşavya oğlu Azriqam oğlu Xaşşuv
oğlu Şemaya, 15 Baqbaqqar, Xereş,
Qalal, Asəf oğlu Zikri oğlu Mikeya oğlu
Mattanya, 16 Yedutun oğlu Qalal oğlu
Şemaya oğlu Avdiya və Netofalıların
kəndlərində yaşayan Elqana oğlu Asa
oğlu Berekya.

17 Qapıçılar: Şallum, Aqquv, Talmon,
Aximan və onların qohumları. Şallum
onların başçısı idi. 18 Onlar bu günə
qədər də məbədin şərq tərəfdəki padşah
qapısında keşik çəkirlər. Levililərin
düşərgə qapıçıları bunlardır. 19 Qorah
oğlu Evyasaf oğlu Qore oğlu Şallum və
onun Qorah nəslindən olan qohumları
məbədin astana keşikçilərinin xidmət
işinə başçılıq edirdi. Əvvəllər onların
babaları Rəbbin düşərgəsinin girəcək

---

*8:33 *Eşbaal* – başqa adı İş-Boşet.
†8:34 *Merib-Baal* – başqa adı Mefiboşet.

e9:2 Ezra 2:27; Neh. 7:73

yerinin keşiyini çəkirdi. 20 Eleazar
oğlu Pinxas onların başçısı idi və Rəbb
onunla idi. 21 Hüzur çadırının girişində
Meşelemya oğlu Zəkəriyyə qapıçı
idi. 22 Astana keşikçisi olmaq üçün
seçilən bütün bu adamlar iki yüz on iki
nəfər idi. Onlar öz kəndlərində nəsil
şəcərələrində qeyd edilmişlər. Onları
vəzifələrinə Davud və görücü Şamuel
təyin etmişdi. 23 Bu adamlar və onların
nəsilləri çadırın və Rəbbin məbədinin
qapılarında keşik çəkirdi. 24 Bu qapıçılar
məbədin dörd tərəfində – şərq, qərb,
şimal və cənub qapılarında dururdu.
25 Öz kəndlərində yaşayan qohumları
vaxtaşırı yeddi günlüyə onların yanına
gəlməli idi. 26 Allah evinin otaqlarının
və xəzinələrinin keşiyini çəkmək Levili
olan qapıçıların dörd nəfər rəisinin
öhdəsində idi. 27 Onlar gecə də Allah
evinin ətrafında qalırdı, çünki onun
keşiyini çəkmək və hər səhər qapıları
açmaq onların işi idi.
28 Onların bəzisi xidmət üçün olan
qablara baxırdı: bunları sayıb içəri
gətirir və sayıb bayıra aparırdılar.
29 Bəziləri isə başqa əşyalar, bütün
təqdis olunmuş şeylər və un, şərab,
yağ, kündür, ətriyyatlar üzərində
nəzarətçi qoyulmuşdu. 30 Kahinlərdən
bəzisi ətriyyatlardan qatışıq maddə
hazırlayırdı. 31 Kökələr bişirilməsi
Qorah nəslindən olan Şallumun ilk
oğlu olan Levili Mattityanın öhdəsində
idi. 32 Onların Qohat nəslindən olan
qohumlarından bəzisinə isə hər Şənbə
günü çörək hazırlanması tapşırılmışdı.
33 Levililərin nəsil başçıları olan
ilahiçilər başqa xidmətdən azad olub
məbədin otaqlarında qalırdılar, çünki
onlar gecə-gündüz öz işləri ilə məşğul
olmalı idi. 34 Bunlar nəsil şəcərələrinə
görə Levililərin nəsil başçıları idi və
Yerusəlimdə yaşayırdılar.

Padşah Şaulun əcdadları və nəsilləri

(1Saln. 8:29-38)

35 Giveonun atası Yeiel Giveonda
yaşayırdı və arvadının adı Maaka idi.
36 İlk oğlu Avdon idi, o biriləri isə bunlar
idi: Sur, Qiş, Baal, Ner, Nadav, 37 Qedor,
Axyo, Zəkəriyyə və Miqlot. 38 Miqlotdan
Şima törədi. Onlar qohumlarının
yanında, Yerusəlimdə qohumları
ilə birgə yaşayırdılar. 39 Nerdən Qiş
törədi. Qişdən Şaul törədi. Şauldan
Yonatan, Malki-Şua, Avinadav və Eşbaal
törədi. 40 Yonatanın oğlu Merib-Baal
idi. Merib-Baaldan Mikeya törədi.
41 Mikeyanın oğulları: Piton, Melek,
Taxrea və Axaz. 42 Axazdan Yehoadda
*törədi. Yehoaddadan Alemet, Azmavet
və Zimri törədi. Zimridən Mosa törədi.
43 Mosadan Bina törədi. Binanın oğlu
Rafa, onun oğlu Elasa, onun oğlu Asel.
44 Aselin altı oğlu var idi, onların adları
belədir: Azriqam, Bokru, İsmail, Şearya,
Avdiya və Xanan. Bunların hamısı
Aselin oğulları idi.

Şaulla oğullarının ölümü

(1Şam. 31:1-13)

10 Filiştlilər İsraillilərlə döyüşdü.
İsraillilər Filiştlilərin önündən
qaçdılar və qırılanlar Gilboa dağında
qaldı. 2 Filiştlilər Şaulla oğullarını
təqib edib Şaulun oğulları Yonatanı,
Avinadavı və Malki-Şuanı öldürdülər.
3 Döyüş Şaulun ətrafında şiddətlənəndə
oxatanlar onu tapdılar və yaraladılar.
4 Şaul öz silahdarına dedi: «Qılıncını
çək, məni vur, yoxsa bu sünnətsizlər
gəlib mənimlə əylənəcəklər». Lakin
silahdarı çox qorxduğundan bunu
etmək istəmədi. Ona görə də Şaul
qılıncını götürüb özünü onun üstünə
yıxdı. 5 Şaulun öldüyünü görəndə
silahdarı da özünü qılıncının üstünə

---

*9:42 *Yehoadda* – ibrani mətnində *Yara,* 1Saln. 8:36 görə *Yehoadda* yazılır.

yıxıb Şaulla birgə öldü. 6 Beləcə
Şaul və üç oğlu öldü, bütün nəsli də
onunla birgə öldü. 7 Dərədə olan bütün
İsraillilər öz ordularının qaçdığını və
Şaulla oğullarının öldüyünü görəndə
şəhərlərini qoyub qaçdılar. Filiştlilər
gəlib o yerlərdə yaşadı.
8 Ertəsi gün Filiştlilər öldürülənləri
soymaq üçün gələndə Gilboa dağında
Şaulla oğullarının meyitini tapdılar.
9 Onun paltarlarını soyundurdular,
başını və silahlarını götürdülər, öz
bütlərinin məbədinə və xalqa xoş xəbər
vermək üçün Filiştlilərin ölkəsinin hər
tərəfinə qasid göndərdilər. 10 Şaulun
silahlarını öz allahlarının məbədinə
qoydular və başını Daqon məbədinə
mıxladılar. 11 Yaveş-Gilead əhalisi
Filiştlilərin Şaula etdiklərini eşidəndə
12 onların bütün igidləri qalxıb Şaulla
oğullarının cəsədini götürərək Yaveşə
gətirdilər. Onların sümüklərini götürüb
Yaveşdə olan palıd ağacının altında
basdırdılar və yeddi gün oruc tutdular.
13 [f]Beləcə Şaul Rəbbə qarşı xainlik
etdiyi üçün öldü. O, Rəbbin sözünə əməl
etməyib cindara müraciət etdi, 14 amma
Rəbdən məsləhət istəmədi. Ona görə
də Rəbb onu öldürdü və padşahlığı
Yesseyin oğlu Davuda verdi.

Davudun taxta çıxması

(2Şam. 5:1-10)

11 Bütün İsraillilər Xevrona,
Davudun yanına toplaşıb
dedilər: «Bax biz sənin sümüyündən,
sənin ətindənik. 2 Əvvəlki vaxtlarda,
Şaul padşahımız olanda da İsraillıləri
yürüşlərə aparan və gətirən sən idin.
Allahın Rəbb sənə demişdi ki, xalqım
İsrailə sən çobanlıq edəcəksən, xalqım
İsrail üzərində sən hökmdar olacaqsan».
3 İsrailin bütün ağsaqqalları Xevrona,
padşahın yanına gəldilər. Davud
Xevronda, Rəbbin önündə onlarla əhd
bağladı və onlar Şamuel vasitəsilə
Rəbbin söylədiyi sözə görə Davudu
İsrail üzərində padşah olmaq üçün məsh
etdilər.

Davudun Yerusəlimi paytaxt şəhərinə çevirməsi

4 [g]Davud və bütün İsraillilər
Yerusəlimə gəldilər. O vaxt şəhər
Yevus adlanırdı və burada Yevuslular
yaşayırdı. 5 Onlar Davuda dedilər: «Sən
buraya girə bilməzsən». Ancaq Davud
indi «Davudun şəhəri» adlanan Sion
qalasını aldı. 6 Davud dedi: «Yevusluları
hamıdan əvvəl kim məğlub etsə, rəis
və ordu başçısı o olacaq». Seruya oğlu
Yoav hamıdan əvvəl Yevusa qalxdı və
buna görə də o, başçı oldu. 7 Davud
qalada məskən saldı və buna görə onu
«Davudun şəhəri» adlandırdılar. 8 O,
qala yamacından qalanın ətrafına qədər
bütün yerləri tikdi. Yoav isə şəhərin
qalan hissəsini bərpa etdi. 9 Davud
getdikcə yüksəlirdi, çünki Ordular
Rəbbi onunla idi.

Davudun igid döyüşçüləri

(2Şam. 23:8-39)

10 Davudun igid döyüşçülərinin
başçıları bütün İsraillilərlə birgə Rəbbin
sözünə görə Davudu İsrail üzərində
padşah etmək üçün onun padşahlığında
şücaət göstərirdilər. 11 Davudun igid
döyüşçülərinin siyahısı belədir: «otuz
igid»in başçısı olan Xakmoni oğlu
Yaşoveam. O, bir hücumda üç yüz nəfəri
nizəsi ilə vurub öldürdü. 12 Ondan sonra
«üç igid»dən biri olan Axoahlı Dodo
oğlu Eleazar idi. 13 Filiştlilər döyüşmək
üçün Pas-Dammimdə toplaşanda o da
Davudla birgə orada idi. Orada arpa

---

[f]**10:13** 1Şam. 13:8-14; 15:1-24; Lev. 19:31; 20:6; 1Şam. 28:7-8
[g]**11:4** Yeşua 15:63; Hak. 1:21

əkilən bir tarla sahəsi var idi. Xalq
Filiştlilərin önündən qaçdı. 14 Lakin
Eleazar və döyüşçüləri bu sahənin
ortasında durub oranı qorudular və
Filiştliləri qırdılar. Rəbb İsrailliləri xilas
edib böyük zəfər qazandırdı.
15 Otuz başçı arasından «üç igid»
qayaya, Davudun yanına, Adullam
mağarasına enib gəldi. Filiştlilərin
ordusu Refaim vadisində ordugah
qurmuşdu. 16 Bu zaman Davud qalada
idi, Filiştlilərin bir keşikçi dəstəsi
isə Bet-Lexemdə idi. 17 Davud həsrət
çəkərək dedi: «Kaş ki biri Bet-Lexem
darvazasının yanındakı quyudan mənə
içmək üçün su gətirəydi!» 18 Bu üç
nəfər Filiştlilərin ordugahını yararaq
darvazanın yanında olan Bet-Lexem
quyusundan su çəkdilər və onu götürüb
Davuda gətirdilər. Lakin Davud suyu
içmək istəmədi və Rəbbə təqdim
olaraq yerə tökdü. 19 O dedi: «Allahım
bunu etməkdən məni uzaq eləsin. Bu
adamların qanını içəcəyəmmi? Axı
canlarını təhlükəyə salaraq bu suyu
gətirdilər». Buna görə də bu suyu içmək
istəmədi. Bunları «üç igid» etmişdi.
20 Yoavın qardaşı Avişay bu «üç
igid»in başçısı idi. O, nizəsini qaldırıb
üç yüz nəfəri qırdı. Buna görə də onun
adı «üç igid»in adı qədər şöhrətləndi.
21 Əslində «üç igid»dən ikiqat artıq
şöhrəti var idi və onlara başçı oldu,
lakin «üç igid» kimi deyildi.
22 Yehoyada oğlu Benaya da böyük
işlər görmüş igid adam idi. O,
Qavseeldən gəlmişdi. Benaya iki Moavlı
igidi öldürdü. O, qarlı gündə çuxura
enib bir şir öldürdü. 23 O həm də boyu
beş qulac olan bir Misirlini öldürdü.
Misirlinin əlində toxucu dəzgahının
əriş ağacı boyda nizə var idi. Benaya
onun üstünə dəyənəklə getdi, nizəni
Misirlinin əlindən çəkib aldı və onu öz
nizəsi ilə öldürdü. 24 Bunları Yehoyada
oğlu Benaya etdi, buna görə də onun
«üç igid» qədər şöhrəti var idi. 25 O,
«otuz igid»dən daha şöhrətli idi, lakin
«üç igid» kimi deyildi. Davud onu öz
mühafizəçilərinə başçı qoydu.
26 Ordunun igid döyüşçüləri
bunlardır: Yoavın qardaşı Asahel,
Bet-Lexemli Dodo oğlu Elxanan,
27 Harorlu Şammot, Pelonlu Xeles,
28 Teqoalı İqqeş oğlu İra, Anatotlu
Aviezer, 29 Xuşalı Sibbekay, Axoahlı
İlay, 30 Netofalı Mahray, Netofalı Baana
oğlu Xeled, 31 Binyamin övladlarından
Givealı Rivay oğlu Yetay, Piratonlu
Benaya, 32 Qaaş vadisindən olan Xuray,
Aravalı Aviel, 33 Baxarumlu Azmavet,
Şaalvonlu Elyaxba, 34 Gizonlu Haşemin
oğulları, Hararlı Şage oğlu Yonatan,
35 Hararlı Sakar oğlu Axiam, Ur oğlu
Elifal, 36 Mekeralı Xefer, Pelonlu Axiya,
37 Karmelli Xesro, Ezbay oğlu Naaray,
38 Natanın qardaşı Yoel, Haqri oğlu
Mivxar, 39 Ammonlu Seleq, Seruya oğlu
Yoavın silahdarı olan Beerotlu Naxray,
40 Yeterli İra, Yeterli Qarev, 41 Xetli
Uriya, Axlay oğlu Zavad, 42 Ruvenlilərin
başçısı Ruvenli Şiza oğlu Adina və
onunla birgə otuz nəfər, 43 Maaka oğlu
Xanan və Metenli Yehoşafat, 44 Aşteratlı
Uzziya, Aroerli Xotamın oğulları Şama
və Yeiel, 45 Şimri oğlu Yediael və
qardaşı Tisli Yoxa, 46 Maxavlı Eliel və
Elnaamın oğulları Yerivay, Yoşavya
və Moavlı Yetma, 47 Eliel, Oved və
Mesovalı Yaasiel.

Davuda qoşulan döyüşçülər

12 Davud, Qiş oğlu Şauldan
gizlənən vaxt bir neçə nəfər
Ziqlaqa, Davudun yanına gəldi. Onlar
döyüşdə ona kömək edən igidlər
arasında idi. 2 Binyamin nəslindən,
Şaulun qohumlarından olan bu adamlar
ox-kamanla silahlanıb sağ və sol əllə
sapanddan daş atmağı və kamanla ox
atmağı bacarırdı. Onların adları belədir:
3 onların başçısı olan Givealı Şemaanın

oğulları, Axiezer və Yoaş, Azmavetin
oğulları Yeziel və Pelet, Beraka və
Anatotlu Yehu, 4 «otuz igid»dən biri
olan və onlara başçılıq edən Giveonlu
İşmaya, Yeremya, Yaxaziel, Yoxanan,
Gederalı Yozavad, 5 Eluzay, Yerimot,
Bealya, Şemarya, Xaruflu Şefatya,
6 Qorahın nəslindən olan Elqana, İşşiya,
Azarel, Yoezer, Yaşoveam, 7 Qedorlu
Yeroxam oğulları Yoela və Zevadya.
8 Qadlılardan sipər və nizə işlədə
bilən, döyüşməyi bacaran igidlər
Davudun tərəfinə keçdilər və çöldəki
qalaya gəldilər. Onların üzləri şir üzü
kimi idi və dağlardakı ceyranlar kimi
qaça bilirdilər. 9 Bu başçıların adları
belədir: Ezer, ikincisi Avdiya, üçüncüsü
Eliav, 10 dördüncüsü Mişmanna,
beşincisi Yeremya, 11 altıncısı Attay,
yeddincisi Eliel, 12 səkkizincisi Yoxanan,
doqquzuncusu Elzavad, 13 onuncusu
Yeremya, on birincisi Makbannay.
14 Bunlar Qadlılardan olan qoşun
başçıları idi. Ən zəifi yüz adamın, ən
güclüsü isə min adamın qabağına çıxa
bilərdi. 15 Onlar birinci ayda, İordan
çayı bütün sahilləri boyu daşanda onu
keçib vadilərdə yaşayanların hamısını
şərqə və qərbə tərəf qovdular.
16 Binyaminlilərdən və
Yəhudalılardan da Davudun yanına,
qalaya adamlar gəldi. 17 Davud onları
qarşılamağa çıxdı və onlara dedi: «Əgər
mənə kömək üçün sülhlə gəlmisinizsə,
gözüm üstə yeriniz var, ancaq zorakılıq
etmədiyim halda məni düşmənlərimə
təslim etmək üçün gəlmisinizsə,
atalarımızın Allahı bunu görsün və
hökm etsin». 18 Ruh «otuz igid»in başçısı
Amasayın üzərinə endi və o dedi:

«Ey Davud, biz səninləyik,
Ey Yessey oğlu, biz sənin tərəfindəyik.
Sülh, sülh olsun sənə və sənə kömək
edənə,
Çünki Allahın sənə kömək edir».

Davud onları götürüb dəstə başçıları
təyin etdi.
19 Davud Filiştlilərlə birgə müharibə
etmək üçün Şaulun üstünə gələndə
Menaşşelilərdən də bəzisi Davudun
tərəfinə keçdi, ancaq Filiştlilərə
kömək etmədilər. Çünki Filiştlilərin
ağaları məsləhətləşib «Davud bizim
başımızı verib ağası Şaulla barışacaq»
dedilər və onu geri göndərdilər.
20 Davud Ziqlaqa gedərkən onun
tərəfinə keçən Menaşşelilər bunlardır:
Adnah, Yozavad, Yediael, Mikael,
Yozavad, Elihu və Silletay. Onların
hamısı Menaşşelilər arasında minbaşı
idi. 21 Onlar quldur dəstəsinə qarşı
döyüşdə Davuda kömək etdilər, çünki
onların hamısı igid adamlar idi. Sonra
onlar qoşun başçıları oldu. 22 Beləcə
gündən-günə Davuda kömək etmək
üçün onun yanına döyüşçülər gəlirdi və
onun ordusu Allah ordusu qədər böyük
oldu.

Davudu padşah etmək üçün gələn adamlar

23 Rəbbin sözünə görə Şaulun
padşahlığını Davuda vermək
üçün onun yanına, Xevrona gələn
silahlanmış döyüşçülərin sayı belədir:
24 Yəhudalılardan altı min səkkiz yüz
nəfər sipər və nizə ilə silahlanmış
əsgər; 25 Şimeonlulardan döyüş üçün
yeddi min yüz nəfər igid döyüşçü;
26 Levililərdən dörd min altı yüz nəfər;
27 Harun evinin rəhbəri Yehoyada
və onunla birgə üç min yeddi yüz
nəfər; 28 gənc və igid bir döyüşçü olan
Sadoq və onun nəslindən olan iyirmi
iki başçı; 29 Şaulun qohumları olan
Binyaminlilərin əksəriyyəti o vaxta
qədər Şaul sülaləsinə sadiq qaldığı
üçün onlardan yalnız üç min nəfər;
30 Efrayimlilərdən iyirmi min səkkiz yüz
nəfər igid və öz nəsillərinin adlı-sanlı
adamları; 31 Menaşşe qəbiləsinin

yarısının arasından gəlib Davudu
padşah etmək üçün təyin olunmuş on
səkkiz min nəfər; 32 İssakarlılardan
dövrün vəziyyətinə görə İsrailə nə
etmək lazım gəldiyini bilən adamlar
– iki yüz nəfər başçı və onların
əmri altında olan bütün qohumları;
33 Zevulunlulardan döyüşməyi bacaran,
bütün silahlarla döyüş nizamını qura
bilən və sidq ürəkdən kömək edən əlli
min nəfər; 34 Naftalililərdən min başçı,
onlarla birgə sipər və nizəsi olan otuz
yeddi min nəfər; 35 Danlılardan döyüş
nizamını qura bilən iyirmi səkkiz min
altı yüz nəfər; 36 Aşerlilərdən döyüşməyi
bacaran və döyüş nizamını qura bilən
qırx min nəfər; 37 İordan çayının
o tayında yaşayan Ruvenlilərdən,
Qadlılardan və Menaşşe qəbiləsinin
yarısından döyüş üçün hər cür silahı
olan yüz iyirmi min nəfər.
38 Döyüşməyi bacaran bu könüllü
döyüşçülərin hamısı Davudu bütün
İsrail üzərində padşah etmək üçün
Xevrona gəldi. İsraillilərin qalan hissəsi
də Davudu yekdilliklə padşah etmək
niyyətində idi. 39 Döyüşçülər orada
üç gün Davudla birgə qaldılar və
yeyib-içdilər, çünki qohumları onlar
üçün hazırlıq görmüşdü. 40 İssakara,
Zevuluna və Naftaliyə qədər yayılmış
yaxınları da onlara eşşəklər, dəvələr,
qatırlar və öküzlər üstündə ərzaq –
yaxşı un, sıxılmış əncir, kişmiş, şərab,
yağ, mal-qara və qoyun-keçi gətirmişdi.
O zaman İsraildə şadlıq var idi.

Davud Əhd sandığını Qiryat-Yearimdən köçürür

(2Şam. 6:1-11)

13 Davud minbaşılar, yüzbaşılar və
bütün başçılarla məsləhətləşdi.
2 O bütün İsrail camaatına dedi: «Əgər
bu iş sizə xoş gəlsə və Allahımız Rəbbin
iradəsi ilə olsa, İsrailin hər tərəfində
yaşayan soydaşlarımıza, onlarla
birgə otlağı olan şəhərlərdə yaşayan
kahinlərə və Levililərə xəbər göndərək
ki, bizim yanımıza toplansınlar.
3 Sonra Allahımızın sandığını yanımıza
qaytaraq, axı Şaulun dövründə biz ona
məhəl qoymurduq». 4 Bütün camaat
«belə edək» dedi, çünki bütün xalqın
nəzərində bu iş doğru idi.
5 [h]Davud Allahın sandığını
Qiryat-Yearimdən gətirmək üçün
Misirdəki Şixor çayından Xamat
keçidinə qədər uzanan torpaqda
yaşayan bütün İsraillilər topladı.
6 [i]Davud bütün İsraillilərlə birgə
«keruvlar üzərində taxt quran
Rəbb» çağırılan Allahın sandığını
Yəhudaya məxsus olan Baalatdan,
yəni Qiryat-Yearimdən çıxartmaq üçün
oraya getdi. 7 Allahın sandığını bir təzə
arabaya qoyub Avinadavın evindən
apardılar. Arabanı Uzza və Axyo
sürürdü. 8 Davud və bütün İsraillilər
Allahın hüzurunda həvəslə ilahi oxuyur,
liralarla, çənglərlə, dəflərlə, sinclərlə və
kərənaylarla çalıb oynayırdılar.
9 Kidonun xırman yerindən keçəndə
öküzlər büdrədi. Buna görə də Uzza
əl uzadıb sandığı tutdu. 10 Uzza əlini
uzadaraq sandığa toxunduğu üçün
Rəbb qəzəblənib onu vurdu. Beləcə
Uzza orada Allahın önündə öldü.
11 Davud Rəbbin Uzzanı vurmasından
çox məyus oldu. O yerə bu günə qədər
Peres-Uzza *deyilir. 12 Həmin gün
Davud Allahdan qorxub dedi: «Allahın
sandığını necə yanıma gətirə bilərəm?»
13 Buna görə də Davud sandığı öz yanına
– Davudun şəhərinə gətirmədi, onu
yolundan döndərib Qatlı Oved-Edomun
evinə qoydu. 14 [j]Allahın sandığı üç ay

*13:11 *Peres-Uzza* – ibrani dilində *Uzzanın cəzası.*

[h]**13:5** 1Şam. 7:1-2 [i]**13:6** Çıx. 25:22 [j]**13:14** 1Saln. 26:4-5

Oved-Edomun evində – onun ailəsinin yanında qaldı. Rəbb Oved-Edomun ailəsinə və ona məxsus hər şeyə bərəkət verdi.

Davudun Yerusəlimdə padşahlıq etməsi

(2Şam. 5:11-16)

14 Sur padşahı Xiram Davudun yanına qasidlər və ona saray tikmək üçün sidr ağacları, bənnalar və dülgərlər göndərdi. 2 Onda Davud başa düşdü ki, Rəbb onu İsrail üzərində padşah kimi möhkəmləndirmiş və xalqı İsrailin xatirinə onun padşahlığını yüksəltmişdi.

3 Davud Yerusəlimdə başqa arvadlar aldı, yenə oğullar və qızlar atası oldu. 4 Onun Yerusəlimdə doğulan oğullarının adları belədir: Şammua, Şovav, Natan, Süleyman, 5 İvxar, Elişua, Elpelet, 6 Noqah, Nefeq, Yafia, 7 Elişama, Beelyada və Elifelet.

İki döyüşdə Filiştlilər üzərində qələbə

(2Şam. 5:17-25)

8 Filiştlilər eşitdilər ki, Davud bütün İsrail üzərində padşah olmaq üçün məsh edilmişdir. Onda hamısı Davudu axtarmağa çıxdı. Davud bunu eşidib onlarla qarşılaşmağa çıxdı. 9 Filiştlilər gəlib Refaim vadisini talayırdılar. 10 Davud Allahdan soruşdu: «Filiştlilərin qarşısına çıxımmı? Onları mənə təslim edəcəksənmi?» Rəbb ona cavab verdi: «Çıx, onları sənə təslim edəcəyəm».

11 Davud Baal-Perasimə çıxıb Filiştliləri qırdı. Davud dedi: «Sellər bəndləri dağıtdığı kimi Allah da mənim əlimlə düşmənlərimi dağıtdı». Buna görə də o yerin adını Baal-Perasim* qoydular. 12 Filiştlilər qaçanda öz allahlarının bütlərini orada qoydular. Davudun əmri ilə bunlar odda yandırıldı.

13 Filiştlilər yenə o vadini taladılar. 14 Davud yenə Allahdan soruşdu və Allah ona dedi: «Onların arxasınca çıxma, onların ətrafına dolanıb balzam ağaclarının qabağında bu düşmənlərin üstünə gəl. 15 Balzam ağaclarının başından addım səsləri eşidəndə döyüşə çıx, çünki o zaman Allah sənin qarşınca Filiştlilərin ordusunu məğlub etmək üçün çıxacaq». 16 Davud Allahın ona buyurduğu kimi etdi və onlar Giveondan Gezerə qədər Filiştlilərin ordusunu qırdılar. 17 Davudun şöhrəti bütün ölkələrə yayıldı və Rəbb onun qorxusunu bütün millətlərin ürəyinə saldı.

Allahın sandığını Yerusəlimə gətirmək üçün hazırlıq görülür

15 Davud özü üçün Davudun şəhərində evlər tikdi və Allahın sandığı üçün də yer hazırlayıb çadır qurdu. 2 [k]Onda Davud dedi: «Levililərdən başqa heç kəs Allahın sandığını daşıya bilməz, çünki Rəbbin sandığını daşımaq və Ona əbədi olaraq xidmət etmək üçün Rəbb onları seçdi». 3 Davud Rəbbin sandığını onun üçün hazırladığı yerə çıxarmaq üçün bütün İsraillilləri Yerusəlimə yığdı. 4 Davud Harunun nəslindən olan adamları və Levililəri topladı: 5 Qohat nəslindən başçı Uriel və onun yüz iyirmi nəfər qohumu; 6 Merarinin nəslindən başçı Asaya və onun iki yüz iyirmi nəfər qohumu; 7 Gerşon nəslindən başçı Yoel və onun yüz otuz nəfər qohumu; 8 Elisafan nəslindən başçı Şemaya və onun iki yüz nəfər qohumu; 9 Xevron nəslindən başçı Eliel və onun səksən nəfər qohumu; 10 Uzziel nəslindən başçı

*14:11 *Baal-Perasim* – ibrani dilində *dağıtma ağası.*

k15:2 Qanun. 10:8

Amminadav və onun yüz on iki nəfər
qohumu. 11 Davud kahin olan Sadoqu
və Evyatarı, Levili olan Urieli, Asayanı,
Yoeli, Şemayanı, Elieli və Amminadavı
çağırıb 12 onlara dedi: «Siz Levililər
arasında nəsil başçılarısınız. Siz və
qohumlarınız özünüzü təqdis edin və
İsrailin Allahı Rəbbin sandığını onun
üçün hazırladığım yerə çıxarın. 13 Çünki
keçən dəfə siz onu daşımadığınıza
və lazım olduğu kimi Allahımız
Rəbbi axtarmadığımıza görə O bizi
cəzalandırdı».
14 İsrailin Allahı Rəbbin sandığını
çıxarmaq üçün kahinlərlə Levililər
özlərini təqdis etdilər. 15 [l]Rəbbin
sözünə görə, Musanın əmr etdiyi kimi
Levililər Allahın sandığının şüvüllərini
çiyinlərinə qoyub onu daşıdılar.
16 Davud Levililərin başçılarına
əmr etdi ki, şadlıq etmək üçün öz
qohumları arasından musiqi alətlərində
– çənglərdə, liralarda və sinclərdə
çalıb-oxuyan ilahiçilər təyin etsinlər.
17 Levililər bu adamları təyin etdilər:
Yoel oğlu Heman, onun qohumlarından
Berekya oğlu Asəf – qohumları Merari
nəslindən Quşaya oğlu Etan, 18 onların
köməkçisi olan Zəkəriyyə, Ben, Yaaziel,
Şemiramot, Yexiel, Unni, Eliav,
Benaya, Maaseya, Mattitya, Elifelehu,
Miqneya, qapıçılar Oved-Edom və
Yeiel. 19 İlahiçilər Heman, Asəf və Etan
yüksək səsli tunc sinclər, 20 Zəkəriyyə,
Aziel, Şemiramot, Yexiel, Unni, Eliav,
Maaseya, Benaya Alamot ahəngi üzrə
çənglər, 21 Mattitya, Elifelehu, Miqneya,
Oved-Edom, Yeiel və Azazya Şeminit
ahəngi üzrə lira çalmalı idi. 22 Levililərin
rəhbəri Kenanya musiqiyə rəhbərlik
edirdi, çünki onun bu işdə bacarığı
var idi; 23 Berekya və Elqana sandığın
yanında qapıçı idi; 24 kahinlər Şevanya,
Yehoşafat, Netanel, Amasay, Zəkəriyyə,
Benaya və Eliezer Allahın sandığı
önündə kərənay çalırdılar; Oved-Edom
və Yexiya sandığın yanında qapıçı idi.

Allahın sandığı Yerusəlimə gətirilir

(2Şam. 6:12-22)

25 Davud, İsrail ağsaqqalları və
minbaşılar şadlıq etməklə Rəbbin
Əhd sandığını Oved-Edomun evindən
gətirməyə getdilər. 26 Rəbbin Əhd
sandığını daşıyan Levililər yeddi buğa
və yeddi qoç qurban kəsdilər, çünki
Allah onlara kömək edirdi. 27 Davud
incə kətandan cübbə geyinmişdi, sandığı
daşıyan bütün Levililər, ilahiçilər və
ilahiçilərin rəhbəri olan Kenanya da
belə geyinmişdi. Davudun əynində
kətan efod da var idi. 28 Bütün İsraillilər
səs-küylə şeypur, kərənay, sinc çalaraq
çənglərin və liraların yüksək səsi altında
Rəbbin Əhd sandığını çıxartdılar.
29 Rəbbin Əhd sandığı Davudun
şəhərinə gətiriləndə Şaulun qızı Mikal
pəncərədən baxdı, padşah Davudu
tullanıb rəqs edən gördü və ürəyində
ona kinayə etdi.

16 Allahın sandığını gətirib onun
üçün Davudun qurduğu çadırın
ortasına qoydular. Allahın önündə
yandırma və ünsiyyət qurbanları təqdim
etdilər. 2 Davud yandırma və ünsiyyət
qurbanlarını təqdim edib qurtarandan
sonra Rəbbin adı ilə xalqa xeyir-dua
verdi. 3 O bütün İsraillilərə – kişilərin və
qadınların hər birinə bir kömbə çörək,
bir parça ət və bir üzüm lavaşanası
payladı.
4 Davud İsrailin Allahı Rəbbi çağırıb
Ona şükür və həmd etmək üçün
Levililərdən xidmət edən bu adamları
Rəbbin sandığının önünə qoydu. 5 Başçı
Asəf, onun köməkçisi Zəkəriyyə, çəng
və lira çalan Yeiel, Şemiramot, Yexiel,
Mattitya, Eliav, Benaya, Oved-Edom və

---

[l] **15:15** Çıx. 25:14

Yeiel, sincləri yüksək səslə çalan Asəf,
6 Allahın Əhd sandığı önündə həmişə
kərənaylar çalan kahinlər Benaya
və Yaxaziel. 7 O gün Davud ilk dəfə
olaraq Rəbbə şükür etmək işini Asəflə
yoldaşlarına tapşırdı.

Allaha həsr olunan məzmur

(Zəb. 105:1-15; 96:1-13; 106:47-48)

8 [m]«Rəbbə şükür edin, ismini çağırın,
Əməllərini xalqlar arasında elan edin!
9 Onu ilahilərlə tərənnüm edin,
Bütün xariqələrini bəyan edin!
10 Onun müqəddəs adı ilə fəxr edin,
Ey Rəbbi axtaranlar, ürəkləriniz qoy
sevinsin!
11 Rəbbi, Onun qüvvətini arayın,
Daim hüzurunu axtarın.
12 Etdiyi xariqələri,
Möcüzələri, dilindən çıxan hökmləri
xatırlayın,
13 Ey Onun qulu İsrail nəsli,
Ey Yaqub övladları, ey Onun
seçdikləri!
14 Allahımız Rəbb Odur,
Hökmü bütün yer üzərindədir.
15 [n]Əbədi olaraq – min nəslə qədər
əhdini,
Əmr etdiyi sözü,
16 İbrahimlə kəsdiyi əhdini,
İshaqa and içərək verdiyi vədini
unutmaz.
17 [o]Bunu qayda kimi Yaqub üçün
təsdiq etdi,
Bu əbədi əhdi İsrail üçün etdi,
18 Dedi: "Övladlarının payına düşən
mülk kimi
Kənan torpağını sənə verəcəyəm".
19 O zaman sayca onlar az idilər,
Azsaylı olaraq ölkədə qərib idilər.
20 Ölkədən-ölkəyə,
Məmləkətdən-məmləkətə köçürdülər.
21 [p]Rəbb heç kimi onlara əzab
verməyə qoymadı,
Onlara görə padşahları tənbeh etdi.
22 Dedi: "Məsh elədiklərimə
dəyməyin,
Peyğəmbərlərimə pislik etməyin".
23 Ey bütün dünya, Rəbbə ilahi
oxuyun,
Xilaskar olduğunu gündən-günə
müjdələyin.
24 Ehtişamını millətlərə elan edin,
Xariqələrini bütün xalqlara bəyan
edin!
25 Axı Rəbb əzəmətlidir, bol həmdə
layiqdir,
O bütün allahlardan daha zəhmlidir.
26 Bütün özgə xalqların allahları
bütlərdir,
Lakin göyləri yaradan Rəbdir.
27 Ehtişam və əzəmət hüzurunda olar,
Sevinclə qüdrət Onun yerindədir.
28 Ey xalqların tayfaları, Rəbbə verin
–
Ehtişamı, qüdrəti Rəbbə verin,
29 [q]Adına layiq ehtişamı Rəbbə verin,
Hüzuruna girib təqdimlər verin.
Müqəddəslik zinəti ilə Rəbbə səcdə
edin.
30 Ey bütün dünya, Onun hüzurunda
lərzəyə gəlin!
O, dünyanı sarsılmaz və möhkəm
qurub.
31 Göylər sevinsin, yer üzü şad olsun!
Millətlərə belə elan edin:
"Rəbb hökmranlıq edir".
32 Dənizin və dənizdəki canlıların səsi
ucalsın,
Çöllər və çöldə yaşayanlar fərəhlənsin,
33 Meşədəki bütün ağaclar mədh
söyləsin
Rəbbin hüzurunda!
O, dünyanın hökmünü vermək üçün
gəlir.

---

[m]**16:8** Zəb. 105:1; Yeş. 12:4 [n]**16:15** Yar. 12:7; Yar. 26:3
[o]**16:17** Yar. 28:13 [p]**16:21** Yar. 20:3-7 [q]**16:29** Zəb. 29:2; 96:8-9

34 r
Rəbbə şükür edin, ona görə ki
yaxşıdır,
Çünki məhəbbəti əbədidir.
35 Deyin: “Ey qurtarıcımız Allah, bizi
qurtar,
Bizi millətlərin arasından topla və
azad et.
Müqəddəs isminə şükür edək,
Biz fəxrlə Sənə həmd söyləyək”.
36 Alqış olsun İsrailin Allahı Rəbbə
Əzəldən sonsuza qədər!»
Bütün xalq «Amin!» söylədi və Rəbbə
həmd etdi.

Rəbbin Əhd sandığının önündə və Giveonda xidmət edənlər

37 Davud orada – Rəbbin Əhd
sandığının önündə bu adamları qoydu:
hər günün işinə görə sandığın önündə
daim xidmət edən Asəf və onun
yoldaşları, 38 Oved-Edom və onun
altmış səkkiz nəfər yoldaşı, qapıçılar
Yedutun oğlu Oved-Edom və Xosa. 39 O,
Giveonda olan səcdəgahda, Rəbbin
məskəni önündə, kahin Sadoqu və onun
kahin yoldaşlarını qoydu ki, 40 Rəbbin
İsrailə əmr etdiyi Qanunda yazılanların
hamısına görə daim səhər və axşam
Rəbbə yandırma qurbanları üçün
düzəldilən qurbangahda Ona yandırma
qurbanları versinlər. 41 Onlarla birgə
Hemanı, Yedutunu və adları çəkilən
başqa seçilmiş adamları təyin etdi
ki, Rəbbə şükür etsinlər, çünki Onun
məhəbbəti əbədidir. 42 Heman, Yedutun
və həmin adamların əlində Allaha
yüksək səslə musiqi çalmaq üçün
kərənaylar, sinclər və başqa alətlər
var idi. Yedutunun oğulları isə qapıçı
oldular. 43 sBütün xalq – hər kəs evinə
getdi, Davud da öz evinə xeyir-dua
vermək üçün geri qayıtdı.

Allahın Davuda vədi

(2Şam. 7:1-17)

17 Davud sarayında yaşayan vaxt
peyğəmbər Natana dedi: «Mən
sidr ağacından tikilən bir sarayda
yaşayıram, Rəbbin Əhd sandığı isə
çadır altındadır». 2 Natan Davuda dedi:
«Ürəyindəki niyyəti həyata keçir, çünki
Allah sənindədir».
3 Lakin gecə Natana Allahın bu
sözü nazil oldu: 4 «Get qulum Davuda
söylə ki, Rəbb belə deyir: “Yaşamaq
üçün Mənə evi sən tikməyəcəksən,
5 çünki İsraili çıxartdığım gündən bu
günə qədər heç bir evdə yaşamadım,
yalnız çadırdan çadıra, məskəndən
məskənə gəzdim. 6 Bütün İsraillilərlə
birgə gəzdiyim yerlərdə xalqımın
qayğısına qalmağı buyurduğum İsrail
hakimlərindən birinə ‹Niyə Mənə
sidr ağacından bir ev tikmədiniz?›
deyə bir söz söyləmişəmmi?” 7 İndi
qulum Davuda söylə ki, Ordular
Rəbbi belə deyir: “Mən səni otlaqlarda
qoyun otararkən götürüb xalqım
İsrailə hökmdar etdim. 8 Getdiyin
hər yerdə sənində oldum, qarşından
bütün düşmənlərini qırıb atdım. İndi
isə adını dünyadakı böyüklərin adı
kimi məşhur edəcəyəm. 9 Xalqım
İsrail üçün bir yer təyin edəcəyəm,
o kök atıb bu yerdə yaşayacaq və
bir daha sarsılmayacaq. Şər adamlar
əvvəllər – xalqım İsraillilərə hakimlər
təyin etdiyim günlərdən bəri etdikləri
kimi yenə də onu qırıb-çatmayacaq.
10 Bütün düşmənlərini əzəcəyəm.
Sənə bildirirəm ki, Rəbb sənə bir ev
tikəcək. 11 tÖmrün başa çatıb ataların
kimi dünyadan getdiyin zaman yerinə
sənin övladını – oğullarından birini
çıxaracağam və onun padşahlığını

---

r**16:34** 2Saln. 5:13; 7:3; Ezra 3:11; Zəb. 100:5; 106:1; 107:1; 118:1; 136:1; Yer. 33:11 s**16:43** 2Şam. 6:19-20 t**17:11** Zəb. 132:11; Həv. 2:30

möhkəmləndirəcəyəm. 12 O Mənim
üçün ev tikəcək və Mən onun taxtını
əbədi möhkəm edəcəyəm. 13 [u]Mən ona
Ata, o isə Mənə oğul olacaq. Lütfümü
səndən əvvəl olan adamdan geri aldığım
kimi ondan geri almayacağam. 14 Onu
Öz evimin və padşahlığımın üzərinə
əbədi olaraq qoyacağam, onun taxtı
əbədi möhkəm qalacaq”». 15 Natan
Davuda bütün bu sözləri və bütün bu
vəhyi nəql etdi.

Davudun duası

(2Şam. 7:18-29)

16 Padşah Davud içəri keçib Rəbbin
önündə diz çökərək dedi: «Ya Rəbb
Allah, mən kiməm və nəslim kimdir
ki, Sən məni bu yerə çıxartdın? 17 Ey
Allah, Sənin gözündə bu da kiçik
göründü, hələ bu qulunun nəslinin
gələcəyi haqqında xəbər verdin. Mənə
yüksək bir adam kimi baxırsan, ya
Rəbb Allah! 18 Bu quluna izzət verdiyin
üçün Davud Sənə daha nə deyə bilər?
Sən ki bu qulunu tanıyırsan. 19 Ya
Rəbb, qulundan ötrü və Öz istəyinə
görə bu böyük işlərin hamısını etdin
ki, bütün əzəmətini göstərəsən. 20 Ya
Rəbb, qulaqlarımızla eşitdiklərimizin
hamısına görə Sənin kimisi heç yoxdur
və Səndən başqa Allah yoxdur. 21 Yer
üzərində xalqın İsrail kimi bir millət
varmı? Ey Allah, Sən onu Özünə xalq
etmək üçün satın almağa getdin. Sən
Misirdən satın aldığın xalqının önündən
millətləri qovaraq böyük və xariqəli
işlərlə Özünə şöhrət qazandın. 22 Əbədi
olaraq xalqın İsraili Özün üçün xalq
olaraq müəyyən etdin və Sən, ya Rəbb,
onların Allahı oldun.
23 İndi isə, ya Rəbb, bu qulun və
onun nəsli haqqında söylədiyin söz
əbədi olaraq yerinə yetsin və dediyinə
əməl et. 24 Qoy adın əbədi olaraq
qalsın və izzətlənsin, “İsrailin Allahı
Ordular Rəbbi İsraili saxlayan Allahdır”
desinlər. Qulun Davudun nəsli də Sənin
önündə möhkəm qalsın. 25 Çünki, Sən ey
Allahım, “sənə ev tikəcəyəm” deyərək
bunu quluna çatdırdın və buna görə
qulun önündə dua etməyə cəsarət tapdı.
26 Ya Rəbb, Sən Allahsan və indi də
quluna bu yaxşı şeyi vəd etdin. 27 Əbədi
olaraq Sənin önündə olsun deyə bu
qulunun nəslinə xeyir-dua vermək
Sənə xoş göründü. Sən, ya Rəbb, ona
xeyir-dua verdiyin üçün o əbədi olaraq
xeyir-dua almışdır».

Davudun qələbələri

(2Şam. 8:1-18)

18 Bundan sonra Davud Filiştliləri
məğlub edib özünə tabe etdi və
Qatı, onun qəsəbələrini Filiştlilərdən
aldı. 2 O, Moavlıları da məğlub etdi
və Moavlılar Davuda tabe olub xərac
verdilər.
3 Sova padşahı Hadadezer
Fərat çayının ətrafındakı yerlərdə
hakimiyyətini bərpa etməyə gedəndə
Davud Xamatda onu məğlub etdi.
4 O, Hadadezerin min döyüş arabasını
aldı, yeddi min süvarisini, iyirmi min
piyada əsgərini əsir etdi və atlardan
yüzə qədərini döyüş arabası üçün
saxlayaraq qalan atların ayaq vətərini
kəsdi. 5 Dəməşqdə yaşayan Aramlılar
Sova padşahı Hadadezerə kömək
etməyə gələndə Davud onlardan iyirmi
iki min nəfəri qırdı. 6 Davud Dəməşq
Aramına hərbi dəstələr yerləşdirdi
və Aramlılar ona tabe olub xərac
verdilər. Rəbb Davuda getdiyi hər yerdə
zəfər qazandırdı. 7 O, Hadadezerin
zabitlərinin gəzdirdiyi qızıl qalxanları
götürüb Yerusəlimə gətirdi. 8 [v]Davud

---

[u] **17:13** 2Şam. 7:14; 2Kor. 6:18; İbr. 1:5; Vəhy 21:7
[v] **18:8** 1Pad. 7:40-47; 2Saln. 4:11-18

Hadadezerin şəhərləri olan Tivxatdan
və Kundan çoxlu tunc aldı. Sonralar
Süleyman ondan tunc hovuzu, sütunları
və tunc qabları düzəltdi.
9 Xamat padşahı Tou eşitdi ki,
Davud Sova padşahı Hadadezerin
bütün ordusunu məğlub edib. 10 O,
Davudu salamlamaq və Hadadezeri
döyüşdə məğlub etdiyinə görə təbrik
etmək üçün oğlu Hadoramı onun
yanına göndərdi, çünki Hadadezer
Tou ilə həmişə müharibə etmişdi.
Hadoram hər cür qızıl-gümüş və
tunc əşyalar gətirdi. 11 Padşah Davud
bütün millətlərdən – Edomlulardan,
Moavlılardan, Ammonlulardan,
Filiştlilərdən və Amaleqlilərdən alıb
gətirdiyi qızıl-gümüşlə birgə bunları da
Rəbbə həsr etdi.
12 [w]Seruya oğlu Avişay Duz vadisində
Edomlulardan on səkkiz min nəfəri
qırdı. 13 O, Edoma hərbi dəstələr
yerləşdirdi və bütün Edomlular Davuda
tabe oldular. Rəbb Davuda getdiyi hər
yerdə zəfər qazandırdı.

Davudun əyanları

14 Davud bütün İsrailin padşahı oldu.
O bütün xalqına ədalət və salehliklə
hökmranlıq edirdi.
15 Seruya oğlu Yoav ordu başçısı idi;
Axilud oğlu Yehoşafat salnaməçi idi;
16 Axituv oğlu Sadoq və Evyatar oğlu
Avimelek kahin idi; Şavşa mirzə idi;
17 Yehoyada oğlu Benaya Keretlilər və
Peletlilərin başçısı idi; Davudun oğulları
padşahın baş məmurları idi.

Ammonlular və Aramlılar üzərində qələbə

(2Şam. 10:1-19)

19 Bir müddət sonra Ammonluların
padşahı Naxaş öldü və yerinə
oğlu padşah oldu. 2 Davud dedi:
«Naxaşın oğlu Xanuna yaxşılıq
edəcəyəm, çünki atası mənə yaxşılıq
etdi». Davud qasidlər göndərdi ki,
atasına görə Xanuna başsağlığı
versin. Lakin Davudun adamları
Ammon ölkəsinə, onun yanına gələndə
3 Ammonluların başçıları Xanuna
dedilər: «Sən elə bilirsən ki, Davud bu
başsağlığı verən adamları sənin atana
hörməti olduğu üçün göndərib? Bəlkə
onun adamları bu torpaqdan keçməklə
onu yoxlayıb öyrənmək, sonra da ələ
keçirmək üçün sənin yanına gəliblər».
4 Xanun Davudun adamlarını tutub
saqqallarını qırxdıraraq paltarlarını
oturacaq yerinə qədər aşağıdan
kəsdirdi və onları geri göndərdi.
5 Bu adamlar barədə Davuda xəbər
çatdı. Davud onları qarşılamaq üçün
qasidlər göndərdi, çünki bu adamlar
çox utanırdı. Padşah dedi: «Saqqalınız
çıxana qədər Yerixoda qalın, sonra
qayıdarsınız».
6 Xanun və Ammonlular Davudun
yanında nifrət qazandıqlarını görəndə
Aram-Naharayimdən, Aram-Maakadan,
Sovadan özlərinə muzdla döyüş
arabaları və atlılar tutmaq üçün min
talant gümüş göndərdilər. 7 Özləri üçün
otuz iki min araba, Maaka padşahını və
onun qoşunlarını muzdla tutdular, onlar
da gəlib Medvanın önündə ordugah
qurdular. Ammonlular öz şəhərlərindən
yığılıb döyüşə gəldilər. 8 Davud bunu
eşidib Yoavla bütün igidlər ordusunu
onların üstünə göndərdi. 9 Ammonlular
çıxıb şəhərin girişində, gələn padşahlar
isə ayrıca çöldə döyüş üçün düzüldü.
10 Yoav öndən və arxadan
düşmənlərin ona qarşı düzüldüklərini
görəndə bütün İsrailin seçmə
döyüşçülərindən bəzisini ayırıb
Aramlılara qarşı düzdü. 11 Xalqın
qalan hissəsinə isə qardaşı Avişayı

---

[w]**18:12** Zəb. 60 başlıq

başçı qoydu və onlar Ammonluların
qarşısında düzüldü. 12 Yoav dedi: «Əgər
Aramlılar məndən güclü çıxarsa, sən
mənə kömək edərsən, əgər Ammonlular
səndən güclü çıxarsa, mən sənə kömək
edərəm. 13 Möhkəm ol. Gəl xalqımız
naminə və Allahımızın şəhərləri naminə
igidlik göstərək. Qoy Rəbb gözündə xoş
olanı etsin». 14 Yoav və yanındakı qoşun
vuruşmaq üçün Aramlıların qarşısına
yaxınlaşdı. Aramlılar Yoavın önündən
qaçdı. 15 Ammonlular da Aramlıların
qaçdığını görəndə Yoavın qardaşı
Avişayın qabağından qaçıb şəhərə
girdilər. Sonra Yoav Yerusəlimə gəldi.
16 Aramlılar İsraillilərin önündə
məğlub olduqlarını görəndə qasidlər
göndərib Fərat çayının o tayındakı
Aramlıları döyüşə çıxartdılar. Onların
başçısı Hadadezerin ordu başçısı Şofak
idi. 17 Bunu Davuda xəbər verdilər.
O bütün İsraillilər toplayıb İordan
çayını keçdi və Aramlıların qarşısına
gəlib qoşununu onlara qarşı düzdü.
Davud öz qoşununu Aramlıların önünə
çıxartdı və Aramlılar onunla vuruşdu.
18 Aramlılar İsraillilərin qabağından
qaçdı. Davud Aramlılardan yeddi
min araba döyüşçüsünü və qırx min
piyadanı qırdı, ordu başçısı Şofakı
da öldürdü. 19 Hadadezerin adamları
İsraillilərin önündə məğlub olduqlarını
görəndə Davudla sülh bağladılar və
ona tabe oldular. Aramlılar bir daha
Ammonlulara kömək etmək istəmədi.

Ammonluların darmadağın edilməsi

(2Şam. 11:1; 12:26-31)

20 [x]Bahar gələndə padşahlar
müharibəyə çıxan vaxt
Yoav ordusunu səfərə çıxardı. O,
Ammonluların ölkəsini viran etdi
və gəlib Rabbanı mühasirəyə aldı.
Davud isə Yerusəlimdə qaldı. Yoav
Rabbanı vurub dağıtdı. 2 Davud onların
padşahının başından tacını götürdü.
Tac qızıldan olub çəkisi bir talant idi.
Onun üzərində qiymətli daş var idi. Bu
tac Davudun başına qoyuldu. Davud
bu şəhərdən çoxlu qənimət apardı. 3 O,
şəhərdə olan xalqı köçürdü və əllərinə
mişar, dəmir, külüng və balta verib
ağır işlərə qoydu. Davud Ammonluların
bütün şəhərlərində belə edəndən sonra
xalqın hamısı ilə birgə Yerusəlimə
qayıtdı.

İsraillilərin Filiştli nəhənglərə qarşı döyüşü

(2Şam. 21:15-22)

4 Bundan sonra Gezerdə Filiştlilərlə
döyüş oldu. O zaman Xuşalı Sibbekay
Rafa övladlarından *Sippayı öldürdü.
Beləcə Filiştlilər tabe oldu. 5 [y]Filiştlilərlə
daha bir döyüşdə Yair oğlu Elxanan
Qatlı Qolyatın qardaşı Laxmini öldürdü.
Onun əlindəki nizənin sapı toxucu
dəzgahının əriş ağacı boyda idi.
6 Qatda bir də döyüş oldu. Orada Rafa
övladlarından digər ucaboy bir adam
var idi. Bu adamın əlləri və ayaqları
altı barmaqlı idi və cəmi iyirmi dörd
barmağı var idi. 7 O, İsrailə meydan
oxudu. Onu Davudun qardaşı Şimanın
oğlu Yonatan öldürdü. 8 Bunlar Rafa
övladlarından olub Qatda doğulmuşdu.
Onlar Davudun və onun adamlarının əli
ilə qırıldı.

Davudun xalqı siyahıya alması

(2Şam. 24:1-25)

21 Şeytan İsraillilərə qarşı qalxdı
və Davudu İsraillilər siyahıya
almağa təhrik etdi. 2 Davud Yoava
və xalqın başçılarına dedi: «Gedin,
Beer-Şevadan Dana qədər İsraillilər

*20:4 *Rafa övladları* – nəhəng adamlar.

[x]**20:1** 2Şam. 11:1 [y]**20:5** 1Şam. 17:4-7

siyahıya alın və siyahını mənə gətirin
ki, onların sayını bilim». 3 Yoav dedi:
«Rəbb xalqını olduğundan yüz qat artıq
etsin. Ancaq, ağam padşah, onların
hamısı ağamın qulları deyilmi? Nə üçün
ağam bunu istəyir? Nə üçün bu, İsrailə
cəza gətirsin?» 4 Lakin padşahın sözü
Yoava üstün gəldi. Yoav çıxıb bütün
İsraili dolaşdı və sonra Yerusəlimə gəldi.
5 O, xalqın siyahısını Davuda verdi.
Bütün İsraildə qılınc çəkən bir milyon
yüz min nəfər, Yəhudada isə qılınc
çəkən dörd yüz yetmiş min nəfər adam
var idi. 6 Ancaq Yoav onların arasında
Levililəri və Binyaminliləri siyahıya
almadı, çünki padşahın sözündən acığı
gəlmişdi.
7 Bu iş Allahın gözündə pis oldu və
O, İsrailə cəza verdi. 8 Davud Allaha
dedi: «Bu işi görməklə böyük günah
etdim. İndi isə, yalvarıram, bu qulunun
təqsirindən keç, çünki çox ağılsızlıq
etmişəm». 9 Rəbb Davudun görücüsü
Qada dedi: 10 «Get, Davuda söylə ki,
Rəbb belə deyir: “Sənə üç şey təklif
edirəm, özün üçün bunların birini seç
ki, sənə edim”». 11 Qad Davudun yanına
gəlib ona dedi: «Rəbb belə deyir: “Özün
üçün seç: 12 ya üç il aclıq olacaq ya üç
ay düşmənlərin səni təqib edəcək və
onların qılıncı səni vuracaq ya da üç
gün Rəbbin qılıncı olan vəba ölkənin
üzərinə gələcək və Rəbbin mələyi
İsraillilləri hər yerdə qıracaq”. İndi qərar
ver görək məni göndərənə nə cavab
verim?» 13 Davud Qada dedi: «Mənim
üçün çox çətindir. İnsan əlinə düşüncə
qoy Rəbbin əlinə düşüm, çünki Onun
rəhmi çox böyükdür».
14 Beləcə Rəbb İsrail üzərinə vəba
göndərdi və İsraillilərdən yetmiş min
nəfər həlak oldu. 15 Allah Yerusəlimin
əhalisini həlak etmək üçün bir mələk
göndərdi. Mələk onları həlak edərkən
Rəbb bunu görüb bu bəlaya görə
təəssüfləndi və həlak edən mələyə
dedi: «Bəsdir, əl saxla!» Rəbbin
mələyi Yevuslu Ornanın xırmanının
yanında dayandı. 16 Davud başını
qaldırıb Rəbbin mələyini gördü. Mələk
əlindəki sıyrılmış qılıncı Yerusəlimin
üzərinə uzadaraq yerlə göyün arasında
dayanmışdı. Çula bürünən Davud
və ağsaqqallar üzüstə yerə qapandı.
17 Davud Allaha dedi: «Xalqı siyahıya
almağı əmr edən mən deyildimmi?
Mən günah etdim və həqiqətən, pis iş
gördüm, bəs bu yazıq xalq nə edib? Ya
Rəbb Allahım, qoy Sənin əlin mənim və
ata nəslimin əleyhinə qalxsın, amma Öz
xalqına vəba göndərmə».

Davud Ornanın xırman yerində qurbangah düzəldir

18 Rəbbin mələyi Davuda söyləmək
üçün Qada dedi: «Qoy Davud çıxıb
Yevuslu Ornanın xırmanında Rəbbə bir
qurbangah düzəltsin». 19 Rəbbin adı ilə
Qadın söylədiyi sözə görə Davud çıxdı.
20 Ornan geri dönüb mələyi gördü.
Onunla birgə olan dörd oğlu gizləndi,
Ornan isə yenə də buğda döyürdü.
21 Davud Ornanın yanına gələndə Ornan
baxıb Davudu gördü, xırmandan çıxdı
və ona yerə qədər təzim etdi. 22 Davud
Ornana dedi: «Bu xırmanını mənə ver
ki, burada Rəbb üçün qurbangah tikim,
onu mənə tam dəyərinə sat. Beləcə
xalqın üzərinə gələn vəba dayansın».
23 Ornan Davuda dedi: «Götür, havayı
sənin olsun, ağam padşah gözündə xoş
olanı etsin. Mən yandırma qurbanı
olaraq öküzləri, odun yerinə vəlləri və
taxıl təqdimi kimi buğdanı verirəm,
bunların hamısını verirəm». 24 Padşah
Davud Ornana dedi: «Yox, mütləq tam
dəyərinə satın alacağam, çünki sənin
malını Rəbb üçün götürmərəm, havayı
malı yandırma qurbanı vermərəm».
25 Buna görə də Davud bu yer üçün
Ornana çəkisi altı yüz şekel qızıl verdi.
26 Davud orada Rəbbə bir qurbangah

düzəldib yandırma qurbanları və
ünsiyyət qurbanları təqdim etdi. O,
Rəbbi çağırdı, Rəbb də yandırma
qurbanlarının gətirildiyi qurbangaha
göydən od göndərib ona cavab verdi.
27 Rəbb mələyə əmr etdi, o da qılıncını
qınına qoydu.
28 Davud Yevuslu Ornanın xırmanında
Rəbbin ona cavab verdiyini gördükdə
orada qurban kəsdi. 29 Musanın səhrada
düzəltdiyi Rəbbin məskəni və yandırma
qurbanları üçün düzəldilən qurbangah
o vaxt Giveondakı səcdəgahda idi.
30 Ancaq Davud Allahdan soruşmaq
üçün Onun hüzuruna gedə bilmədi,
çünki Rəbbin mələyinin qılıncından
qorxurdu.

22 Buna görə də Davud dedi:
«Rəbb Allahın evi burada olsun,
burada İsrail üçün yandırma qurbanları
gətirilən qurbangah da olsun».

Davud məbədin tikilməsinə hazırlıq görür

2 Davud İsrail torpağında olan
qəriblərin yığılmasını əmr etdi və
Allah evinin tikilişinə yonma daşlar
düzəltmək üçün onların arasından
daşyonanlar təyin etdi. 3 Davud qapı
taylarının mıxları və rəzələri üçün
çoxlu dəmir hazırladı. Həmçinin
çoxluğuna görə çəkiyə gəlməz tunc
hazırladı 4 və saysız-hesabsız sidr
ağacları da yığdı. Çünki Sidonlular və
Surlular Davuda çoxlu sidr ağacları
gətirmişdi. 5 Davud öz-özünə dedi:
«Oğlum Süleyman cavandır, təcrübəsi
yoxdur, Rəbbə tikiləcək məbəd isə
əzəmətli olmalı, şöhrəti və izzəti bütün
ölkələrə yayılmalıdır. Buna görə onun
üçün hazırlıq görməliyəm». Beləliklə,
Davud ölümündən əvvəl çoxlu hazırlıq
işləri gördü.

Davud Süleymana məbəd tikməyi vəsiyyət edir

6 Davud oğlu Süleymanı çağırdı
və İsrailin Allahı Rəbb üçün məbəd
tikməyi ona vəsiyyət etdi. 7 [z]Davud
Süleymana dedi: «Ey oğlum, mənim
ürəyimdə Allahım Rəbbin adına
məbəd tikmək istəyi vardı. 8 Ancaq
mənə Rəbbin bu sözü nazil oldu:
“Sən çoxlu qan tökdün və böyük
müharibələr etdin. Sən Mənim adıma
məbəd tikməyəcəksən, çünki önümdə
yerə çoxlu qan tökmüsən. 9 Sənin bir
oğlun olacaq. O, dinc yaşayacaq, onu
ətrafındakı bütün düşmənlərindən
qoruyacağam. Onun adı Süleyman
olacaq. Onun dövründə İsrailə sülh və
əmin-amanlıq verəcəyəm. 10 O Mənim
adıma məbəd tikəcək. O Mənə oğul
olacaq, Mən də ona ata olacağam. Onun
padşahlıq taxtını İsrail üzərində əbədi
olaraq möhkəmlədəcəyəm”. 11 İndi,
oğlum, qoy Rəbb sənə yar olsun, sənin
barəndə söylədiyi kimi Allahın Rəbbin
məbədini uğurla tikəsən. 12 Ancaq
Rəbb səni İsrailə hökm etmək üçün
qoyanda sənə müdriklik və həssaslıq
versin ki, Allahın Rəbbin verdiyi
Qanuna əməl edəsən. 13 [a]Əgər İsrail
barədə Rəbbin Musaya əmr etdiyi
qaydalara və hökmlərə əməl etsən, uğur
qazanacaqsan. Möhkəm və cəsarətli ol,
qorxma və ruhdan düşmə. 14 Bax böyük
cəhdlə Rəbbin məbədi üçün yüz min
talant qızıl, bir milyon talant gümüş,
çox olduğu üçün çəkiyə gəlməz tunc
və dəmir yığdım, həmçinin ağaclar
və daşlar hazırladım. Sən də bunların
üstünə əlavə et. 15 Sənin yanında
çoxlu işçilər – daşyonanlar, bənnalar,
dülgərlər, 16 hər cür qızıl, gümüş, tunc
və dəmir işini bacaran ustalar var.

---

[z] **22:7** 2Şam. 7:1-16; 1Saln. 17:1-14 [a] **22:13** Yeşua 1:6-9

Onların sayı-hesabı yoxdur. Buyur, işə
başla, Rəbb sənə yar olsun».
17 Davud İsrailin bütün başçılarına
oğlu Süleymana kömək etməyi vəsiyyət
edib dedi: 18 «Allahınız Rəbb sizinlə
deyilmi? O, ölkədə yaşayanları mənim
ixtiyarıma verməklə sizə hər tərəfdən
dinclik vermədimi? Ölkə Rəbbə və Onun
xalqına tabe edilib. 19 İndi ürəyinizi
və canınızı Allahınız Rəbbi axtarmağa
yönəldin. Rəbb Allahın Müqəddəs
məkanını tikməyə başlayın ki, Rəbbin
Əhd sandığını və Allahın müqəddəs
əşyalarını Rəbbin adına tikilmiş məbədə
gətirəsiniz».
23 [b]Davud qocalıb yaşa dolanda
oğlu Süleymanı İsrail üzərində
padşah etdi.

Levililər və onların vəzifələri

2 Davud İsrailin bütün başçılarını,
kahinləri və Levililəri topladı. 3 Otuz
yaşında və bundan yuxarı yaşda olan
Levililər siyahıya alındı. Onlardan
kişilərin sayı otuz səkkiz min nəfər
idi. 4 Bunlardan iyirmi dörd min
nəfəri Rəbbin məbədində xidmət üçün
qoyuldu. Altı min məmur və hakim,
5 dörd mini isə qapıçı oldu. Dörd min
nəfər Davudun bu məqsədlə düzəltdiyi
musiqi alətləri ilə Rəbbi həmd etmək
üçün qoyuldu. 6 Levinin Gerşon, Qohat
və Merari nəsillərinə görə Davud onları
bölmələrə ayırdı.
7 Gerşonun nəslindən: Ladan və
Şimey. 8 Ladanın oğulları: ilk oğlu
Yexiel, Zetam və Yoel – üç nəfər.
9 Şimeyin oğulları: Şelomit, Xaziel və
Haran – üç nəfər. Bunlar Ladanın nəsil
başçıları idi. 10 Şimeyin oğulları: Yaxat,
Ziza, Yeuş və Beria. Bu dördü Şimeyin
oğulları idi. 11 Yaxat ilk oğlu, Ziza isə
ikincisi idi. Ancaq Yeuşun və Berianın
oğulları çox deyildi. Onlar birlikdə bir
nəsil kimi siyahıya alındı.
12 Qohatın oğulları: Amram, İshar,
Xevron və Uzziel – dörd nəfər.
13 [c]Amramın oğulları: Harun və Musa.
Harun ən müqəddəs şeyləri təqdis
etmək üçün təyin olundu. Onun nəsli
əbədi olaraq Rəbbin önündə buxur
yandırmaq, Rəbbə xidmət etmək
və həmişə Onun adı ilə xeyir-dua
vermək üçün təyin olundu. 14 Allah
adamı Musaya gəlincə, onun nəsli
Levi qəbiləsi arasında siyahıya alındı.
15 Musanın oğulları: Gerşom və Eliezer.
16 Gerşomun ilk oğlu Şevuel. 17 Eliezerin
ilk oğlu Rexavya. Eliezerin başqa oğlu
yox idi, amma Rexavyanın oğulları
olduqca çox idi. 18 İsharın ilk oğlu
Şelomit. 19 Xevronun oğulları: ilk oğlu
Yeriya, ikincisi Amarya, üçüncüsü
Yaxaziel və dördüncüsü Yeqameam.
20 Uzzielin oğulları: ilk oğlu Mikeya və
ikincisi İşşiya.
21 Merarinin oğulları: Maxli və Muşi.
Maxlinin oğulları: Eleazar və Qiş.
22 Eleazar öləndə onun oğlu yox idi,
ancaq qızları var idi və əmiləri Qişin
oğulları onları arvad aldılar. 23 Muşinin
oğulları: Maxli, Eder və Yeremot – üç
nəfər. 24 Bunlar adları ilə siyahıya düşən
Levililərin ailə başçılarıdır. Rəbbin
məbədinin xidmət işini görən Levililər
iyirmi yaşında və bundan yuxarı yaşda
idi.
25 Davud demişdi: «İsrailin Allahı
Rəbb xalqına dinclik vermişdir və əbədi
olaraq Yerusəlimdə məskən salacaq.
26 [d]Levililər müqəddəs məskəni və
onun bütün xidmət əşyalarını daha
daşımayacaq». 27 Buna görə də Davudun
son sözlərinə görə iyirmi yaşında və
bundan yuxarı yaşda olan Levililər
siyahıya alındı. 28 [e]Onların vəzifəsi

---

[b] **23:1** 1Pad. 1:1-40 [c] **23:13** Çıx. 28:1 [d] **23:26** Qanun. 10:8
[e] **23:28** Say. 3:5-9

Rəbbin məbədində Harunun nəslindən
olan kahinlərin yanında dayanıb bu
xidmət işlərini görmək idi: həyətlərə
və otaqlara baxmaq, bütün müqəddəs
əşyaları təmizləmək, Allahın evində
xidmət etmək, 29 təqdim çörəklərinə,
təqdim üçün verilən una, mayasız
qoğallara, onların yoğrulmasına və
bişməsinə, hər cür ölçü qablarına
baxmaq, 30 hər səhər durub Rəbbə
şükür və həmd etmək, hər axşam
da elə etmək, 31 Şənbə günlərində,
Təzə Ay mərasimlərində, bayramlarda
əmr edilən qaydalara görə düzgün
sayda daim Rəbbin önündə yandırma
qurbanları təqdim etmək. 32 Beləcə
Levililər Hüzur çadırının, Müqəddəs
yerin xidmətlərinə, Rəbbin evinin
xidmətlərində qohumları Harun nəslinə
xidmət etməyə cavabdeh idilər.

Kahinlər və onların xidmət qaydaları

24 Harun nəslinin bölükləri
bunlardır. Harunun oğulları:
Nadav, Avihu, Eleazar və İtamar.
2 [f]Ancaq Nadav və Avihu atalarından
əvvəl öldü və oğulları da yox idi.
Buna görə də Eleazar və İtamar kahin
oldu. 3 Davud, Eleazar nəslindən Sadoq
və İtamar nəslindən Aximelek onları
xidmət işlərinə görə növbələrə ayırdı.
4 Eleazar nəsli arasında İtamar nəslindən
daha çox nəsil başçısı tapıldı. Onlar
belə ayrıldı: Eleazar nəslindən nəsil
başçısı on altı nəfər, İtamar nəslindən
nəsil başçısı səkkiz nəfər. 5 Beləcə onlar
püşklə eyni qayda ilə ayrıldı, çünki
həm Eleazar nəslindən, həm də İtamar
nəslindən Müqəddəs yerdə və Allahın
önündə durmaq üçün başçılar var idi.
6 Padşahın, rəislərin, kahin Sadoqun,
Evyatar oğlu Aximelekin, kahinlərin
və Levililərin nəsil başçılarının önündə
Levili mirzə Netanel oğlu Şemaya onları
qeydə aldı. Bir nəsil Eleazar üçün, o biri
İtamar üçün alındı.
7 Birinci püşk Yehoyarivə, ikincisi
Yedayaya, 8 üçüncüsü Xarimə,
dördüncüsü Seorimə, 9 beşincisi
Malkiyaya, altıncısı Miyaminə,
10 [g]yeddincisi Haqqosa, səkkizincisi
Aviyaya, 11 doqquzuncusu Yeşuaya,
onuncusu Şekanyaya, 12 on birincisi
Elyaşivə, on ikincisi Yaqimə, 13 on
üçüncüsü Xuppaya, on dördüncüsü
Yeşevaya, 14 on beşincisi Bilqaya,
on altıncısı İmmerə, 15 on yeddincisi
Xezirə, on səkkizincisi Happissesə, 16 on
doqquzuncusu Petahyaya, iyirmincisi
Yezekelə, 17 iyirmi birincisi Yakinə,
iyirmi ikincisi Qamula, 18 iyirmi
üçüncüsü Delayaya, iyirmi dördüncüsü
Maazyaya çıxdı. 19 İsrailin Allahı Rəbbin
əmr etdiyi kimi babaları Harunun
vasitəsilə onlara verilən qaydalarına
görə, Rəbbin məbədinə girmək üçün
xidmət işinə görə növbələri belə idi.

Qalan Levililərin siyahısı

20 Levililərin qalan bölmələri
bunlardır: Amramın nəslindən
Şuvael, Şuvaelin nəslindən Yexdeya.
21 Rexavyanın nəslindən ilk oğlu İşşiya.
22 İsharın nəslindən Şelomot, Şelomotun
nəslindən Yaxat. 23 Xevronun oğulları:
ilk oğlu Yeriya, ikincisi Amarya,
üçüncüsü Yaxaziel, dördüncüsü
Yeqameam. 24 Uzzielin nəslindən
Mikeya, Mikeyanın nəslindən Şamir.
25 Mikeyanın qardaşı İşşiya, İşşiyanın
nəslindən Zəkəriyyə. 26 Merarinin
oğulları: Maxli, Muşi, onun nəslindən
Yaaziya. 27 Merari nəslindən olan
Yaaziyanın oğulları: Şoham, Zakkur
və İvri. 28 Maxlinin nəslindən Eleazar.
Onun oğlu yox idi. 29 Qişin nəslindən
Yeraxmeel. 30 Muşinin oğulları: Maxli,
Eder və Yerimot. Bunlar nəsillərinə

---

[f] **24:2** Lev. 10:1-2 [g] **24:10** Luka 1:5

görə Levililərin bölüklərdir. 31 Onlar
da qohumları olan Harun nəsli
kimi padşah Davudun, Sadoqun,
Aximelekin, kahinlərin və Levililərin
nəsil başçılarının önündə püşk atdılar.
Böyük nəsil başçıları da, qohumları olan
kiçik nəsil başçıları da eyni qayda ilə
püşk atdılar.

Məbəddə olan musiqiçilər

25 Davud və ordu başçıları,
Asəfin, Hemanın və Yedutunun
nəslindən liralarla, çənglərlə və sinclərlə
peyğəmbərlik etsinlər deyə xidmət üçün
ayırdılar. Bu xidmət işini görənlərin
siyahısı budur: 2 Asəfin nəslindən: onun
oğulları Zakkur, Yusif, Netanya, Asarela.
Asəfin başçılığı altında olan oğulları
padşahın əmrinə görə peyğəmbərlik
edirdilər. 3 Yedutunun nəslindən: onun
oğulları Gedalya, Seri, Yeşaya, Xaşavya,
Mattitya. Ataları Yedutunun başçılığı
altında olan bu altı nəfər Rəbbə şükür
və həmd edərək lira ilə peyğəmbərlik
edirdi. 4 Hemanın nəslindən: onun
oğulları Buqqiya, Mattanya, Uzziel,
Şevuel, Yerimot, Xananya, Xanani,
Eliata, Giddalti, Romamti-Ezer,
Yoşbeqaşa, Malloti, Hotir və Maxaziot.
5 Bunların hamısı padşahın görücüsü
Hemanın oğulları idi, çünki Hemanı
yüksəltmək barədə Allahın verdiyi sözə
görə Allah ona on dörd oğul və üç
qız vermişdi. 6 Onların hamısı Rəbbin
məbədində atalarının başçılığı altında
Allah evinin xidməti üçün sinclər,
çənglər və liralar çalıb ilahi oxuyurdu.
Asəf, Yedutun və Heman isə padşahın
başçılığı altında idi. 7 Rəbbə ilahi
oxumaq öyrədilmiş qohumları ilə birgə
bütün bunu bacaranlar iki yüz səksən
səkkiz nəfər idi. 8 Hamısı – böyüyü də,
kiçiyi də, müəllimi də, şagirdi də eyni
qayda ilə vəzifələri üçün püşk atdı.
9 Birinci püşk Asəfin nəslindən olan
Yusifə çıxdı. İkincisi qohumları və
oğulları ilə birgə Gedalyaya çıxdı. Onlar
on iki nəfər idi. 10 Üçüncüsü oğulları
və qohumları ilə birgə Zakkura çıxdı.
Onlar on iki nəfər idi. 11 Dördüncüsü
oğulları və qohumları ilə birgə İsriyə
çıxdı. Onlar on iki nəfər idi. 12 Beşincisi
oğulları və qohumları ilə birgə
Netanyaya çıxdı. Onlar on iki nəfər
idi. 13 Altıncısı oğulları və qohumları
ilə birgə Buqqiyaya çıxdı. Onlar on
iki nəfər idi. 14 Yeddincisi oğulları və
qohumları ilə birgə Yesarelaya çıxdı.
Onlar on iki nəfər idi. 15 Səkkizincisi
oğulları və qohumları ilə birgə
Yeşayaya çıxdı. Onlar on iki nəfər idi.
16 Doqquzuncusu oğulları və qohumları
ilə birgə Mattanyaya çıxdı. Onlar on
iki nəfər idi. 17 Onuncusu oğulları
və qohumları ilə birgə Şimeyə çıxdı.
Onlar on iki nəfər idi. 18 On birincisi
oğulları və qohumları ilə birgə Azarelə
çıxdı. Onlar on iki nəfər idi. 19 On
ikincisi oğulları və qohumları ilə birgə
Xaşavyaya çıxdı. Onlar on iki nəfər idi.
20 On üçüncüsü oğulları və qohumları
ilə birgə Şuvaelə çıxdı. Onlar on iki
nəfər idi. 21 On dördüncüsü oğulları
və qohumları ilə birgə Mattityaya
çıxdı. Onlar on iki nəfər idi. 22 On
beşincisi oğulları və qohumları ilə birgə
Yeremota çıxdı. Onlar on iki nəfər idi.
23 On altıncısı oğulları və qohumları
ilə birgə Xananyaya çıxdı. Onlar on
iki nəfər idi. 24 On yeddincisi oğulları
və qohumları ilə birgə Yoşbeqaşaya
çıxdı. Onlar on iki nəfər idi. 25 On
səkkizincisi oğulları və qohumları ilə
birgə Xananiyə çıxdı. Onlar on iki nəfər
idi. 26 On doqquzuncusu oğulları və
qohumları ilə birgə Mallotiyə çıxdı.
Onlar on iki nəfər idi. 27 İyirmincisi
oğulları və qohumları ilə birgə Eliataya
çıxdı. Onlar on iki nəfər idi. 28 İyirmi
beşincisi oğulları və qohumları ilə birgə
Hotirə çıxdı. Onlar on iki nəfər idi.
29 İyirmi ikincisi oğulları və qohumları

ilə birgə Giddaltiyə çıxdı. Onlar on iki
nəfər idi. 30 İyirmi üçüncüsü oğulları
və qohumları ilə birgə Maxaziota
çıxdı. Onlar on iki nəfər idi. 31 İyirmi
dördüncüsü oğulları və qohumları ilə
birgə Romamti-Ezerə çıxdı. Onlar on iki
nəfər idi.

Məbədin qapıçıları

26 Qapıçıların bölükləri belədir:
Qorah nəslindən, Asəfin
övladlarından olan Qore oğlu
Meşelemya. 2 Meşelemyanın oğulları:
ilk oğlu Zəkəriyyə, ikincisi Yediael,
üçüncüsü Zevadya, dördüncüsü
Yatniel, 3 beşincisi Elam, altıncısı
Yehoxanan, yeddincisi Elyehoenay.
4 [h]Oved-Edomun oğulları: ilk oğlu
Şemaya, ikincisi Yehozavad, üçüncüsü
Yoah, dördüncüsü Sakar, beşincisi
Netanel, 5 altıncısı Ammiel, yeddincisi
İssakar, səkkizincisi Peulletay, çünki
Allah Oved-Edoma xeyir-dua vermişdi.
6 Onun oğlu Şemayanın da oğulları oldu
və onlar nəsil başçıları oldu, çünki igid
adamlar idi. 7 Şemayanın oğulları: Otni,
Refael, Oved və Elzavad. Qohumları
Elihu və Semakya da igid adamlar
idi. 8 Bunların hamısı Oved-Edomun
nəslindən idi. Özləri, oğulları və
qohumları xidmət işində bacarıqlı və
igid adamlar idi. Hamısı birlikdə altmış
iki nəfər idi. Onlar Oved-Edomdan
idi. 9 Meşelemyanın oğullarından və
qohumlarından olan igid adamlar on
səkkiz nəfər idi. 10 Merari nəslindən
olan Xosanın oğulları: ilk oğlu olmadığı
halda atasının böyük başçı qoyduğu
Şimri, 11 ikincisi Xilqiya, üçüncüsü
Tevalya, dördüncüsü Zəkəriyyə.
Xosanın bütün oğulları və qohumları on
üç nəfər idi.
12 Bu adamların başçılıq etdiyi
qapıçı bölükləri başqa qohumları kimi
Rəbbin məbədində xidmət etmək üçün
vəzifələrinə təyin olundular. 13 Böyüyü
də, kiçiyi də ata nəsillərinə görə hər
qapı üçün püşk atdı. 14 Şelemya üçün
püşk Şərq qapısına düşdü. Onun oğlu
ağıllı məsləhətçi olan Zəkəriyyə üçün
də püşk atdılar. Onun püşkü Şimal
qapısına düşdü. 15 Oved-Edom üçün
püşk Cənub qapısına, oğulları üçün isə
anbar evinə düşdü. 16 Şuppim və Xosa
üçün püşk Qərb qapısına və yuxarı
qalxan yolda olan Şalleket qapısına
düşdü. Bunların hamısı növbə ilə beləcə
keşik çəkirdi. 17 Şərq qapısı üçün altı
Levili, Şimal qapısı üçün gündə dörd
Levili, Cənub qapısı üçün gündə dörd
Levili və hər iki anbar üçün iki Levili.
18 Qərb tərəfdə olan həyət üçün isə
yolda dördü, həyətdə ikisi dururdu.
19 Bunlar Qorah və Merari nəsillərindən
olan qapıçı bölmələridir.

Xəzinə nəzarətçiləri
və başqa məmurlar

20 Allah evinin xəzinələrinə və təqdis
olunan şeylərin xəzinələrinə nəzarət
edən Levililər – onların qohumları
bunlardır: 21 Gerşonlulardan olan
Ladanın nəslindən Ladanın nəsil başçısı
Gerşonlu Yexieli, 22 Rəbbin məbədinin
xəzinələrinə nəzarət edən Yexielinin
oğulları Zetam və onun qardaşı Yoel.
23 Amramın, İsharın, Xevronun və
Uzzielin nəsillərindən 24 Musa oğlu
Gerşomun nəslindən olan Şevuel
xəzinələr üzərində baş nəzarətçi idi.
25 Gerşomun qardaşı Eliezerin nəsli:
onun oğlu Rexavya, onun oğlu Yeşaya,
onun oğlu Yoram, onun oğlu Zikri,
onun oğlu Şelomit. 26 Şelomit və onun
qohumları bütün təqdis olunan şeylər
xəzinələri üzərində nəzarətçi idi. Bu
şeyləri padşah Davud, minbaşı və
yüzbaşı olan nəsil və ordu başçıları

---

[h]**26:4** 2Şam. 6:11; 1Saln. 13:14; 27:23

təqdis etmişdi. 27 Müharibələrdə ələ
keçirilən təqdis olunmuş qənimətin
bir hissəsini Rəbbin məbədini təmin
etmək üçün ayırmışdılar. 28 Hər kəsin
təqdis etdiyi şeylər – görücü Şamuelin,
Qiş oğlu Şaulun, Ner oğlu Avnerin
və Seruya oğlu Yoavın təqdis etdiyi
şeylərin hamısı Şelomitin və onun
qohumlarının nəzarəti altında idi.
29 İshar nəslindən Kenanya və onun
oğulları İsrail üzərində məmur və
hakim olub məbəddən kənardakı
işlərə baxırdı. 30 Xevronun nəslindən
igid adamlar olan Xaşavya və onun
qardaşları – min yeddi yüz nəfər
Rəbbə ibadət işi və padşahın xidmət
işi üçün İordan çayının qərb tayında
yaşayan İsraillilər üzərində məmur
idi. 31 Xevronun nəslindən olan Yeriya
Xevronluların nəsil başçısı idi. Davudun
padşahlığının qırxıncı ilində onların
nəsil şəcərələrinə baxıldı və Gileadın
Yazer şəhərində onların arasında igid
adamlar tapıldı. 32 Yeriyanın nəsil
başçıları olan qohumları igid adamlar
idi və sayları iki min yeddi yüz nəfər
idi. Padşah Davud Allahın və padşahın
xidmət işi üçün Ruvenlilər, Qadlılar
və Menaşşe qəbiləsinin yarısı üzərində
onları məmur qoydu.

Qoşun başçılarının aylıq növbələri

27 İlin hər ayında bir bölmə
növbə çəkirdi. Hər bölmədə
iyirmi dörd min nəfər var idi. Bu
bölmələrin bütün işlərində padşaha
xidmət edən İsraillilərin nəsil
başçılarının, minbaşıların, yüzbaşıların
və məmurların siyahısı budur: 2 birinci
ay üçün birinci bölməyə Zavdiel
oğlu Yaşoveam başçılıq edirdi. Onun
bölməsində iyirmi dörd min nəfər var
idi. 3 O, Peres nəslindən idi və birinci
ay üçün bütün ordu başçılarının böyüyü
idi. 4 İkinci ayın bölməsinə Axoahlı
Doday başçılıq edirdi. Miqlot onun
köməkçisi idi və onun bölməsində
iyirmi dörd min nəfər var idi. 5 Üçüncü
ay üçün üçüncü qoşun başçısı kahin
Yehoyadanın oğlu Benaya idi. Onun
bölməsində iyirmi dörd min nəfər
var idi. 6 «Otuz igid»dən biri və «otuz
igid»in başçısı olan Benaya budur.
Oğlu Ammizavad onun köməkçisi idi.
7 Dördüncü ay üçün dördüncü başçı
Yoavın qardaşı Asahel idi, ondan sonra
oğlu Zevadya idi. Onun bölməsində
iyirmi dörd min nəfər var idi. 8 Beşinci
ay üçün beşinci başçı İzrahlı Şamhut
idi. Onun bölməsində iyirmi dörd min
nəfər var idi. 9 Altıncı ay üçün altıncı
başçı Teqoalı İqqeşin oğlu İra idi. Onun
bölməsində iyirmi dörd min nəfər var
idi. 10 Yeddinci ay üçün yeddinci başçı
Efrayimlilərdən Pelonlu Xeles idi. Onun
bölməsində iyirmi dörd min nəfər var
idi. 11 Səkkizinci ay üçün səkkizinci
başçı Zerah nəslindən Xuşalı Sibbekay
idi. Onun bölməsində iyirmi dörd min
nəfər var idi. 12 Doqquzuncu ay üçün
doqquzuncu başçı Binyaminlilərdən
Anatotlu Aviezer idi. Onun bölməsində
iyirmi dörd min nəfər var idi. 13 Onuncu
ay üçün onuncu başçı Zerah nəslindən
Netofalı Mahray idi. Onun bölməsində
iyirmi dörd min nəfər var idi. 14 On
birinci ay üçün on birinci başçı
Efrayimlilərdən Piratonlu Benaya idi.
Onun bölməsində iyirmi dörd min nəfər
var idi. 15 On ikinci ay üçün on ikinci
başçı Otnielin nəslindən Netofalı Xelday
idi. Onun bölməsində iyirmi dörd min
nəfər var idi.

İsrail qəbilələri üzərində olan başçılar

16 İsrail qəbilələri üzərində olan
başçılar bunlardır: Ruvenlilərin başçısı
Zikri oğlu Eliezer; Şimeonluların başçısı
Maaka oğlu Şefatya; 17 Levililərin başçısı
Qemuel oğlu Xaşavya, Harun nəslinin
başçısı Sadoq; 18 Yəhudalıların başçısı

Davudun qardaşlarından biri Elihu;
İssakarlıların başçısı Mikael oğlu Omri;
19 Zevulunluların başçısı Avdiya oğlu
İşmaya; Naftalililərin başçısı Azriel oğlu
Yerimot; 20 Efrayimlilərin başçısı Azazya
oğlu Huşə; Menaşşelilərin yarısının
başçısı Pedaya oğlu Yoel; 21 Gileadda
olan Menaşşelilərin yarısının başçısı
Zəkəriyyə oğlu İddo; Binyaminlilərin
başçısı Avner oğlu Yaasiel; 22 Danlıların
başçısı Yeroxam oğlu Azarel. Bunlar
İsrail qəbilələrinin başçılarıdır.
23 [i]Davud iyirmi yaşında və bundan
aşağı yaşda olanları hesaba almadı,
çünki Rəbb İsraili göydəki ulduzlar
qədər çoxaldacağını vəd etmişdi.
24 [j]Seruya oğlu Yoav siyahıya almağa
başladı, ancaq bunu başa çatdırmadı.
Bu siyahıyaalmadan ötrü Rəbbin qəzəbi
İsrail üzərinə gəldi və siyahıyaalma
padşah Davudun salnamələr kitabına
daxil olmadı.

Padşahın nəzarətçiləri
və məsləhətçiləri

25 Padşahın anbarlarına nəzarət
edən Adiel oğlu Azmavet; tarlalarda,
şəhərlərdə, kəndlərdə və qalalarda
olan anbarlara nəzarət edən Uzziya
oğlu Yonatan; 26 tarlada çalışan
əkinçilərin üzərində nəzarətçi Keluv
oğlu Ezri; 27 üzüm bağlarına nəzarət
edən Ramalı Şimey; üzüm bağlarındakı
şərab anbarlarına yığılan üzüm
məhsuluna nəzarət edən Şifemli Zavdi;
28 yamaclı-düzənlikli bölgədə olan
zeytunluqlar və firon ənciri ağaclarına
nəzarət edən Gederli Baal-Xanan; yağ
anbarlarına nəzarət edən Yoaş; 29 Şaron
düzənliyində otlayan mal-qaraya
baxan Şaronlu Şitray; dərələrdə
olan mal-qaraya baxan Adlay oğlu
Şafat; 30 dəvələrə baxan İsmailli Ovil;
eşşəklərə baxan Meronotlu Yexdeya;
31 qoyun-keçiyə baxan Həcərli Yaziz.
Bunların hamısı padşah Davudun
mülklərinə baxan rəislər idi.
32 Davudun əmisi Yonatan məsləhətçi
idi. O çox ağıllı və savadlı idi.
Xakmoni oğlu Yexiel padşah oğullarının
tərbiyəçisi idi. 33 Axitofel padşahın
məsləhətçisi idi. Arklı Xuşay padşahın
həmsöhbəti idi. 34 Axitofeldən sonra
yerinə Benaya oğlu Yehoyada və
Evyatar oldu. Padşahın ordu başçısı isə
Yoav idi.

Məbədin tikilişi barədə
Davudun son məsləhətləri

28 Davud İsrailin bütün başçılarını
– qəbilə başçılarını, padşaha
xidmət edən bölmələrin başçılarını,
minbaşıları və yüzbaşıları, padşahla
oğullarının bütün mülkünə və
heyvanlarına baxanların başçılarını,
saray xidmətçilərini, sərkərdələri və
bütün igid adamları Yerusəlimə topladı.
2 [k]Padşah Davud ayağa qalxıb dedi:
«Ey qardaşlarım və xalqım, məni
dinləyin! Ürəyimdə Allahımızın kətili
və Rəbbin Əhd sandığı üçün bir rahatlıq
evi tikmək arzusu var idi və onu
tikmək üçün hazırlıq gördüm. 3 Ancaq
Allah mənə dedi: “Sən Mənim adıma
məbəd tikməyəcəksən, çünki sən hərb
adamısan və qan tökmüsən”. 4 Lakin
İsrailin Allahı Rəbb İsrail üzərində
əbədi olaraq padşah olmaq üçün bütün
nəslimdən məni seçdi, çünki hökmdar
olmaq üçün O, Yəhudanı və Yəhuda
qəbiləsindən mənim nəslimi seçdi.
Bütün İsrail üzərində padşah etmək
üçün nəslimin arasında mən xoşuna
gəldim. 5 Rəbbin mənə verdiyi çoxlu
oğul arasından da İsrail üzərində
Rəbbin padşahlıq taxtında oturmaq

---

[i]**27:23** Yar. 15:5; 22:17; 26:4 [j]**27:24** 2Şam. 24:1-15; 1Saln. 21:1-14
[k]**28:2** 2Şam. 7:1-16; 1Saln. 17:1-14

üçün oğlum Süleymanı seçdi. 6 Rəbb
mənə dedi: “Oğlun Süleyman da həmin
adamdır ki, Mənim məbədimi və
həyətlərimi tikəcək, çünki onu Özümə
oğul seçdim və Mən ona Ata olacağam.
7 Əgər bu gün olduğu kimi əmrlərimə
və hökmlərimə əməl etməkdə sadiq
olsa, onun padşahlığını əbədi olaraq
möhkəmləndirəcəyəm”.
8 İndi isə bütün İsraillilərin, Rəbbin
camaatının gözü önündə və Allahımız
eşidərkən belə tapşırıram: “Allahınız
Rəbbin bütün əmrlərinə əməl edin,
onları öyrənin ki, bu nemətli torpaqda
qalasınız və sizdən sonra övladlarınıza
onu əbədi miras verəsiniz”.
9 Sən də, oğlum Süleyman, atanın
Allahını tanı, səmimi qəlbdən və
həvəslə Ona qulluq et, çünki Rəbb
bütün ürəkləri sınayır və ağılların bütün
istəklərini bilir. Əgər Onu axtarsan, sən
Onu tapacaqsan. Əgər Onu tərk etsən, O
da səni əbədi olaraq atacaq. 10 İndi bax
Rəbb səni Müqəddəs məkan olan bir ev
tikmək üçün seçmişdir, sən də möhkəm
ol və bu işi gör».
11 Davud oğlu Süleymana eyvanın,
onun evlərinin, xəzinələrinin, yuxarı
otaqların, iç otaqların, Kəffarə yerinin,
fikrində olan bütün bunların təsvirini
və 12 Ruhun vasitəsilə ona aşkar olmuş
bütün bunların təsvirini verdi: Rəbbin
məbədinin həyətləri, ətrafdakı bütün
otaqlar, Allah məbədinin xəzinələri,
təqdis olunan şeylərin xəzinələri,
13 kahinlərin və Levililərin bölükləri,
Rəbbin məbədində hər cür xidmət işi,
Rəbbin məbədində olan bütün xidmət
əşyaları, 14 hər cür xidmət üçün işlədilən
bütün qızılın çəkisinə görə qızıl əşyalar,
hər cür xidmət üçün işlədilən gümüşün
çəkisinə görə gümüş əşyalar, 15 hər
çıraqdanın və onun çıraqlarının çəkisinə
görə qızıl çıraqdanlar və onların qızıl
çıraqları, hər cür xidmət üçün çəkisinə
görə gümüş çıraqdanlar və onların
çıraqları, 16 təqdis çörəkləri qoyulan
masalar üçün hər masanın çəkisinə görə
qızıl, hər gümüş masa üçün gümüş,
17 xalis qızıldan olan çəngəllər, piyalələr
və dolçalar, hər kasanın çəkisinə görə
qızıl kasalar, hər kasanın çəkisinə görə
gümüş kasalar, 18 çəkisinə görə xalis
qızıldan buxur qurbangahı. Davud həm
də qanadlarını açıb Əhd sandığını örtən
Rəbbin arabası olan qızıl keruvların
təsvirini verdi. 19 Davud dedi: «Bunların
hamısının təsviri bütün təfsilatı ilə
yazılı şəkildə Rəbb tərəfindən mənə
aşkar edildi».
20 Davud oğlu Süleymana dedi:
«Möhkəm və cəsarətli ol, bu işi gör,
qorxma və ruhdan düşmə, çünki Rəbb
Allah, mənim Allahım sənindir. O,
Rəbbin məbədinin bütün xidmət işi sona
çatmamış səni atmaz və tərk etməz.
21 Allah məbədinin bütün xidməti
üçün kahinlərin və Levililərin bölükləri
hazır durub. Sənin yanında bütün işlər
üçün hər cür xidməti bacaran könüllü
adamlar da var. Rəislər və bütün xalq
sənin hər əmrini gözləyir».

Məbədə gətirilən nəzirlər

29 [l]Padşah Davud bütün camaata
dedi: «Allahın yeganə seçdiyi
oğlum Süleyman cavan və təcrübəsizdir,
bu iş isə böyükdür, çünki bu bina insan
üçün deyil, Rəbb Allah üçün olacaq.
2 Bütün səyimlə Allahımın məbədindən
ötrü qızıl şeylər üçün qızıl, gümüş şeylər
üçün gümüş, tunc şeylər üçün tunc,
dəmir şeylər üçün dəmir, ağac şeylər
üçün ağac, damarlı əqiq daşları və
onların sağanaqları, cilalı və cürbəcür
rəngli daşlar, hər cür qiymətli daşlar
və çoxlu mərmər daşlar hazırlamışam.
3 Bundan başqa, Allahımın məbədini

[l]**29:1** 1Saln. 22:5

tikməyə həvəsim naminə müqəddəs məbəd üçün hazırladığım hər şeydən əlavə nə qədər qızıl-gümüş xəzinəm varsa, onu da Allahım Rəbbin məbədi üçün verirəm: 4 Ofir qızılından üç min talant qızılı, yeddi min talant xalis gümüşü evlərin divarını örtmək üçün, 5 qızıl şeylər üçün qızılı, gümüş şeylər üçün gümüşü ustaların düzəldəcəyi bütün işlər üçün verirəm. Kim bu gün Rəbbə könüllü nəzir təqdim etmək istəyir?»

6 Nəsil başçıları, İsrail qəbilələrinin başçıları, minbaşılar, yüzbaşılar və padşahın işləri üzərində olan rəislər könüllü gəlib 7 Allah məbədinin xidməti üçün beş min talant və on min darik qızıl, on min talant gümüş, on səkkiz min talant tunc və yüz min talant dəmir verdilər. 8 Kimdə qiymətli daşlar var idisə, onları Gerşon nəslindən olan Yexielin nəzarəti altında olan Rəbbin məbədinin xəzinəsinə verirdi. 9 Xalq onların könüllü nəzir verməsinə sevindi, çünki bütün qəlbi ilə Rəbbə nəzir təqdim etmişdilər. Padşah Davud da çox sevindi.

Davudun duası

10 Davud bütün camaatın gözü önündə Rəbbə alqış edib dedi: «Ey atamız İsrailin Allahı Rəbb, əzəldən sonsuza qədər Sənə alqış olsun! 11 [m]Ya Rəbb, əzəmət, qüdrət, calal, zəfər və şöhrət Sənə məxsusdur, çünki göydə və yerdə olan hər şey Sənindir. Ya Rəbb, padşahlıq Sənindir və Hökmdar olaraq hər şeydən ucasan. 12 Var-dövlətlə şöhrət Səndən gəlir və Sən hər şeyə hökmranlıq edirsən. Hər kəsi yüksəltmək və gücləndirmək üçün qüdrət və güc Sənin əlindədir. 13 İndi, ey Allahımız, biz Sənə şükür edirik və izzətli adına həmd edirik.

14 Ancaq mən kiməm və xalqım nədir ki, bu cür könüllü nəzirlər verə bilək? Çünki hər şey Səndəndir və əlindən aldığımızı Sənə verdik. 15 Biz bütün atalarımız kimi Sənin önündə bir qərib və qonağıq. Günlərimiz yer üzündə kölgə kimidir və heç nəyə ümidimiz yoxdur. 16 Ya Rəbb Allahımız, Sənin müqəddəs adına məbəd tikmək üçün hazırladığımız bütün bu var-dövlət Sənin əlinlə verilib, bunların hamısı Sənindir. 17 Bilirəm ki, ey Allahım, Sən ürəyi sınayırsan və düzlüyü sevirsən. Mən bütün bu şeyləri ürəyimin düzlüyü ilə könüllü olaraq təqdim etdim, indi də burada olan xalqının Sənə könüllü nəzir verdiyini sevinclə gördüm. 18 Ya Rəbb, atalarımız İbrahimin, İshaqın və İsrailin Allahı! Xalqının ürəyindəki istəklərində bunu əbədi olaraq qoruyub saxla və onların ürəyini Özünə tərəf yönəlt. 19 Oğlum Süleymana sadiq bir ürək ver ki, Sənin əmrlərinə, göstərişlərinə və qanunlarına əməl etsin, bütün bu işləri görsün, tikintisinə hazırlıq gördüyüm bu binanı tiksin».

20 Davud bütün camaata dedi: «İndi Allahınız Rəbbə həmd edin». Bütün camaat atalarının Allahı Rəbbə həmd etdi. Onlar əyilib Rəbbə səcdə, padşaha isə təzim etdilər.

Süleymanın taxta çıxması

21 Ertəsi gün Rəbbə qurbanlar kəsdilər və Rəbbə yandırma qurbanı olaraq min baş buğa, min baş qoç, min baş quzu, onların içmə təqdimlərini və bütün İsrail üçün çoxlu qurbanlar təqdim etdilər. 22 O gün onlar böyük sevinclə Rəbbin önündə yeyib-içdilər. Sonra ikinci dəfə Davud oğlu Süleymanı padşah etdilər. Rəbb üçün onu hökmdar və Sadoqu kahin olaraq məsh etdilər. 23 [n]Süleyman atası Davudun yerinə padşah olaraq

---

[m]**29:11** Mat. 6:13 [n]**29:23** 1Pad. 2:12

Rəbbin taxtında oturdu və uğur qazandı.
Bütün İsraillilər ona itaət etdi. 24 Bütün
rəislər, igid adamlar, həm də Davudun
bütün oğulları padşah Süleymana
tabe oldu. 25 Rəbb Süleymanı bütün
İsraillilərin gözündə çox ucaltdı və
özündən əvvəl İsraildə heç bir padşahın
malik olmadığı padşahlıq əzəmətini ona
verdi.

Davudun ölümü

26 Beləliklə, Yessey oğlu Davud bütün
İsrail üzərində padşahlıq etdi. 27 [o]Onun
İsrail üzərində padşahlıq etdiyi müddət
qırx il idi; yeddi il Xevronda və otuz üç
il Yerusəlimdə padşahlıq etdi. 28 O, uzun
ömür sürüb sərvət və şöhrətdən doymuş
halda xoş bir qocalıq çağında öldü və
yerinə oğlu Süleyman padşah oldu.
29 Padşah Davudun əvvəldən axıra qədər
bütün işləri görücü Şamuelin kitabında,
peyğəmbər Natanın kitabında və görücü
Qadın kitabında yazılmışdır. 30 Bu
kitablarda həm Davudun padşahlığı və
qüdrəti, həm də onun, İsrailin və bütün
dünya padşahlıqlarının başına gələn
əhvalatlar barədə yazılmışdır.

---

[o]**29:27** 2Şam. 5:4-5; 1Saln. 3:4

İKİNCİ SALNAMƏLƏR

KİTABI

GİRİŞ

«2 Salnamələr» Kitabı *«1 Salnamələr»* Kitabının davamıdır. Müəllif bu kitabı Davud oğlu Süleymanın hökmdarlıq dövrünü təsvir etməklə başlayır. Süleymanın oğlu və varisi Rexavama qarşı Yarovamın başçılıq etdiyi şimal qəbilələrinin qiyamını nəql edəndən sonra yalnız cənub padşahlığı olan Yəhudanın tarixindən danışır. Kitabda miladdan əvvəl 586-cı ildə Yerusəlimin süqutunun təsviri ilə Yəhuda padşahlığının tarixi tamamlanır.

Kitabın məzmunu:

1:1–9:31 Süleymanın hakimiyyəti
1:1-17 Erkən illər
2:1–7:10 Məbədin tikilməsi
7:11–9:31 Sonrakı illər
10:1-19 Şimal qəbilələrinin qiyamı
11:1–36:12 Yəhuda padşahları
36:13-23 Yerusəlimin süqutu

Süleyman Allahdan hikmət istəyir

(1Pad. 3:1-15)

1 Davud oğlu Süleyman öz padşahlığını möhkəmləndirdi, Allahı Rəbb onunla idi və onu çox yüksəltdi.

2 Süleyman bütün İsraillilər, minbaşıları, yüzbaşıları, hakimləri, bütün İsraildə hər bir rəhbəri və nəsil başçılarını çağırdı. 3 Süleyman və onunla bərabər bütün camaat Giveonda olan səcdəgaha getdi, çünki Rəbbin qulu Musanın çöldə qurduğu Allahın Hüzur çadırı orada idi. 4 [p]Ancaq Davud Allahın sandığını Qiryat-Yearimdən onun üçün hazırladığı yerə gətirmişdi, çünki Davud onun üçün Yerusəlimdə bir çadır qurmuşdu. 5 [q]Xur oğlu Uri oğlu Besalelin düzəltdiyi tunc qurbangah Giveonda, Rəbbin məskəni önündə idi və Süleymanla camaat oraya Rəbdən söz soruşmağa getdi. 6 Süleyman oraya – Rəbbin önündə, Hüzur çadırının qarşısındakı tunc qurbangaha qalxdı və onun üzərində min baş yandırma qurbanı təqdim etdi.

7 Həmin gecə Allah Süleymana görünüb ona dedi: «Nə istəyirsən, sənə verim?» 8 Süleyman Allaha dedi: «Sən atam Davuda böyük xeyirxahlıq göstərdin və onun yerinə məni padşah etdin. 9 [r]İndi, ya Rəbb Allah, atam Davuda olan vədin yerinə yetsin, çünki Sən məni yerin tozu qədər çox olan bir xalq üzərində padşah etdin. 10 İndi mənə hikmət və bilik ver ki, bu xalqa nə edib-etməyəcəyimi bilim, çünki bu qədər böyük olan bu xalqına kim hökm edə bilər?» 11 Allah Süleymana dedi: «İndi ki ürəyində bu istək var və sən var-dövlət, əmlak, izzət, hətta sənə nifrət edənlərin canını və özünə uzun ömür istəmədin, ancaq səni üzərində padşah etdiyim xalqıma hökm edəsən deyə özün üçün hikmət və bilik istədin, 12 Mən sənə nəinki hikmət və bilik, həm də var-dövlət, əmlak və izzət verəcəyəm ki, nə səndən əvvəl olan padşahlarda olub, nə də səndən sonrakılarda olacaq». 13 Süleyman Giveonda olan səcdəgahdan, Hüzur çadırının önündən Yerusəlimə gəldi və İsrail üzərində padşahlıq etdi.

Süleymanın var-dövləti

(1Pad. 10:26-29)

14 [s]Süleyman döyüş arabaları ilə süvarilər topladı. Onun min dörd yüz döyüş arabası və on iki min

---

[p] **1:4** 2Şam. 6:1-17; 1Saln. 13:5-14; 15:25–16:1 [q] **1:5** Çıx. 38:1-7
[r] **1:9** Yar. 13:16; 28:14 [s] **1:14** 1Pad. 4:26

süvarisi var idi. Onları arabalar üçün
ayrılan şəhərlərdə və Yerusəlimdə,
padşahın yanında yerləşdirdi. 15 [t]Padşah
Yerusəlimdə çoxluğuna görə qızıl
və gümüşü daşlara, sidr ağacını isə
yamaclı-düzənlikli bölgədə bitən
firon ənciri ağacına bərabər etdi.
16 [u]Süleymanın atları Misirdən və
Quvedən gətirilirdi, padşahın tacirləri
onları Quvedən satın alırdı. 17 Hər
bir döyüş arabası altı yüz şekel, hər
bir at isə yüz əlli şekel gümüşə başa
gəlib Misirdən gətirilirdi. Bütün Xet və
Aram padşahları da bunları Süleymanın
tacirlərinin vasitəsilə alırdı.

Məbədin tikilməsinə hazırlıq

(1Pad. 5:1-18)

2 Süleyman Rəbbin adına bir məbəd
və özü üçün bir saray tikməyi niyyət
etdi. 2 Süleyman yük daşıyan yetmiş
min nəfər, dağlarda daş yonan səksən
min nəfər, onların üzərində nəzarətçi
olan üç min altı yüz adam sayıb ayırdı.
3 Süleyman Sur padşahı Xirama xəbər
göndərib dedi:
«Yaşamaq üçün özünə saray
tiksin deyə atam Davuda sidr
ağacları göndərdiyin kimi mənə
də göndər. 4 Mən Allahım Rəbbə
təqdis etmək üçün Onun adına bir
məbəd tikirəm ki, Onun önündə xoş
ətirli buxur yandırmaq üçün, daimi
təqdis çörəkləri üçün, səhər-axşam,
Şənbə günlərində, Təzə Ay
mərasimlərində və Allahımız
Rəbbin bayramlarında yandırma
qurbanları üçün olsun. Bunlar İsrail
üçün əbədi qaydadır. 5 Tikəcəyim
məbəd böyükdür, çünki Allahımız
bütün allahlardan böyükdür. 6 [v]Kim
Ona ev tikməyə qadirdir? O, göyə
və göylərin göyünə sığmaz və mən
kiməm ki, Ona bir ev tikəm? Onun
önündə yalnız buxur yandırmaq
üçün bir yer tikə bilərəm. 7 Atam
Davudun hazırladığı, Yəhudada
və Yerusəlimdə mənim yanımda
olan ustalarla birgə işləmək üçün
mənə bir adam göndər ki, qızıl,
gümüş, tunc, dəmir işlərini, tünd
qırmızı, al rəngli və bənövşəyi
parça işlərini bacarsın, hər cür
oyma işi görsün. 8 Livandan mənə
sidr, şam və ardıc ağacları göndər,
çünki bilirəm ki, sənin adamların
Livanda ağac kəsməyi bacarır. 9 İndi
mənə bol taxta-şalban hazırlasınlar
deyə mənim adamlarım sənin
adamlarınla birgə olacaq. Çünki
tikəcəyim məbəd böyük və
möcüzəli bir şey olacaq. 10 Mən isə
sənin adamlarına – ağac kəsənlərə
iyirmi min kor döyülmüş buğda,
iyirmi min kor arpa, iyirmi min bat
şərab və iyirmi min bat zeytun yağı
verirəm».
11 Sur padşahı Xiram göndərdiyi
məktubla Süleymana cavab verdi:
«Rəbb xalqını sevdiyi üçün səni
onların üzərində padşah etdi».
12 Xiram belə davam etdi:
«Göyü və yeri yaradan İsrailin
Allahı Rəbbə alqış olsun ki, padşah
Davuda Rəbb üçün bir məbəd və
özü üçün bir padşah sarayı tikən
bacarıqlı, dərrakəli və müdrik oğul
verib.
13 Bacarıqlı və həssas olan
Xiram-Avini yanına göndərdim ki,
sənin ustalarınla və atanın – ağam
Davudun ustaları ilə birgə ona da iş
tapşırılsın. 14 O, Danlı bir qadının
oğludur, atası isə Surlu idi. Bu adam
qızıl, gümüş, tunc, dəmir, daş, ağac
işlərini, tünd qırmızı, bənövşəyi, al
rəngli parça və incə kətan işlərini

[t] **1:15** Qanun. 17:17 [u] **1:16** Qanun. 17:16 [v] **2:6** 1Pad. 8:27; 2Saln. 6:18

bacarır, hər cür oyma işini və ona
tapşırılan hər naxışı çəkə bilir.
15 Ağamın söylədiyi buğdanı və
arpanı, zeytun yağını və şərabı
qullarına göndər. 16 Biz isə sənə
lazım olduğu qədər Livandan ağac
kəsərik, onu sallarla dəniz yolu ilə
sənin yanına Yafoya gətirərik və
sən də onu Yerusəlimə çıxararsan».
17 Atası Davud İsrail torpağında
olan bütün qəribləri siyahıya aldıqdan
sonra Süleyman onları bir də saydı.
Qəriblər yüz əlli üç min altı yüz nəfər
idi. 18 Onlardan yetmiş min nəfəri yük
daşımağa, səksən min nəfəri dağlarda
daş yonmağa qoydu. Üç min altı yüz
adamı da xalqı işlətmək üçün nəzarətçi
qoydu.

Məbədin tikilməsi

(1Pad. 6:1-38)

3 Süleyman Yerusəlimdə atası
Davuda Rəbbin göründüyü Moriya
dağında, Yevuslu Ornanın xırmanında
Davudun hazırladığı yerdə Rəbbin
məbədini tikməyə başladı. 2 Onu
padşahlığının dördüncü ilində, ikinci
ayın ikinci günündə tikməyə başladı.
3 Allahın məbədinin tikilməsi üçün
Süleymanın qoyduğu bünövrələr
bunlardır: bünövrələrin uzunluğu
köhnə ölçüyə görə altmış qulac və eni
iyirmi qulac idi. 4 Məbədin önündəki
eyvanın uzunluğu məbədin eninə görə
iyirmi qulac və hündürlüyü yüz iyirmi
qulac idi. Onu içəridən xalis qızılla
örtdü. 5 Böyük otağa şam ağacı ilə
örtük vurub onu xalis qızılla örtdü,
onun üstünə xurma ağacları və zəncir
təsvirləri həkk etdi. 6 Əzəmətli olsun
deyə evi qiymətli daşlarla bəzədi. Qızıl
Parvayim qızılı idi. 7 Məbədi və onun
dirəklərini, astanalarını, divarlarını
və qapılarını qızılla örtdü, divarlarda
keruvların təsvirini oydu. 8 [w]Süleyman
Ən Müqəddəs yeri də tikdi. Onun
uzunluğu məbədin eninə görə iyirmi
qulac və eni iyirmi qulac idi. Onu altı
yüz talant xalis qızılla örtdü. 9 Qızıl
mismarların ağırlığı əlli şekel idi. Yuxarı
otaqları da qızılla örtdü.
10 [x]Ən Müqəddəs yerdə heykəltəraş işi
olan iki keruv düzəltdi və onları qızılla
örtdü. 11 Keruvların qanadları iyirmi
qulac uzunluğunda idi. Bir keruvun
qanadı beş qulac idi və evin divarına
dəyirdi. O biri qanadı da beş qulac idi
və o biri keruvun qanadına dəyirdi. 12 O
biri keruvun da qanadı beş qulac idi və
evin divarına dəyirdi. O biri qanadı da
beş qulac idi və o biri keruvun qanadına
birləşmişdi. 13 Bu keruvların qanadları
iyirmi qulac uzanırdı. Keruvlar ayaq
üstə durmuşdu və üzləri böyük otağa
doğru çevrilmişdi. 14 [y]O, bənövşəyi,
tünd qırmızı, al rəngli parça və incə
kətandan pərdə tikdi, üzərində keruvlar
işlədi.

Məbəd üçün qızıldan və tuncdan olan əşyalar

(1Pad. 7:15-51)

15 Süleyman məbədin önündə otuz beş
qulac hündürlüyündə iki sütun düzəltdi
və hər bir sütunun üstündəki başlıq beş
qulac idi. 16 İç otaqda zəncirlər düzəltdi
və onları sütunların üstünə qoydu,
yüz nar düzəltdi və onları zəncirlərin
üzərinə qoydu. 17 O, sütunları məbədin
önünə – birini sağa və o birini sola
qoydu. Sağda olanı Yakin, solda olanı
isə Boaz adlandırdı.
4 [z]Süleyman tuncdan bir qurbangah
tikdi. Onun uzunluğu və eni iyirmi
qulac, hündürlüyü isə on qulac idi. 2 O,
tökülmüş dairəvi bir hovuz düzəltdi.
Onun hündürlüyü beş qulac idi, bir
kənarından digər kənarına qədər on

---

[w]**3:8** Çıx. 26:33-34 [x]**3:10** Çıx. 25:18-20 [y]**3:14** Çıx. 26:31 [z]**4:1** Çıx. 27:1-2

qulac idi və otuz qulaclıq bir ip onun
ətrafına dolanmışdı. 3 Altının hər
tərəfindən onu buğa təsvirləri əhatə
edirdi. Hər qulacda on buğa vardı.
Buğalar iki cərgə idi və onlar hovuzla
birgə tökülmüşdü. 4 Hovuz on iki tökmə
buğanın üstündə dururdu: üçü şimala,
üçü qərbə, üçü cənuba, üçü də şərqə
baxırdı. Hovuz yuxarıda – onların
üzərində idi və buğaların bütün sağrıları
içəriyə doğru idi. 5 Hovuzun qalınlığı
bir ovuc idi. Onun kənarı kasa kənarı
kimi düzəldilmişdi və açılan zanbağa
bənzəyirdi. O, üç min bat su tuturdu.
6 [a]Süleyman on ləyən düzəltdi, onlarda
yuyunmaq üçün beşini sağa, beşini sola
qoydu. Yandırma qurbanı olacaq şeyləri
onların içində yuyardılar. Ancaq hovuz
kahinlərin yuyunması üçün idi.
7 [b]O, təsvirinə görə on qızıl çıraqdan
düzəltdi, beşi sağda və beşi solda
olmaqla onları məbədə qoydu. 8 [c]On
masa düzəltdi, beşi sağda və beşi
solda olmaqla onları məbədə qoydu.
Qızıldan yüz piyalə də düzəltdi.
9 Kahinlər həyətini, böyük həyəti,
həyətin qapılarını düzəltdi və onların
qapılarını tuncla örtdü. 10 Hovuzu
məbədin sağında, cənub-şərq küncündə
yerləşdirdi. 11 Xiram həmçinin qazanlar,
kürəklər, piyalələr düzəltdi.

Xiram Allahın məbədi üçün padşah
Süleymanın əmri ilə bütün bu işləri
görüb qurtardı:
12 iki sütun;
sütunların üstündə iki dəyirmi başlıq;
sütunların üstündəki başlıqları örtmək
üçün iki hörmə tor;
13 sütunların üstündə olan dəyirmi
başlıqları örtən hər hörmə torun
üzərində iki cərgədə dörd yüz nar;
14 dayaqlar;
dayaqların üzərində on ləyən;
15 bir hovuz;
onun altında on iki tökmə buğa;
16 qazanlar, kürəklər və piyalələr.

Bütün bu əşyaları Xiram-Avi Rəbbin
məbədi üçün padşah Süleymanın əmri
ilə cilalanmış tuncdan tökmüşdü.
17 Padşah bunları İordan çayının
kənarındakı düzənlikdə, Sukkot ilə
Seredata arasındakı gil torpaqlarda
tökmüşdü. 18 Süleyman bu əşyaların
hamısından lap çox düzəltdi və onlara
işlədilən tuncun çəkisini müəyyən
etmədi.

19 Süleyman Allahın məbədindəki
bütün əşyaları düzəltdi:
qızıl qurbangah;
təqdis çörəkləri qoyulan masalar;
20 qaydaya görə iç otağın önündə
yandırmaq üçün xalis qızıldan
çıraqdanlar və onların çıraqları;
21 xalis qızıldan güllər, çıraqlar və
maşalar;
22 xalis qızıldan maqqaşlar, piyalələr,
nimçələr və buxurdanlar;
məbədin qızıl qapıları, yəni Ən
Müqəddəs yerə açılan içəri qapı
tayları və məbədin böyük otağının
qapı tayları.

5 [d]Rəbbin məbədi üçün Süleymanın
gördüyü bütün işlər qurtardı. Atası
Davudun təqdis etdiyi qızıl-gümüşü və
əşyaları Süleyman içəri gətirib Allahın
məbədinin xəzinələrinə qoydu.

Əhd sandığının məbədə gətirilməsi

(1Pad. 8:1-9)

2 [e]O zaman padşah Süleyman İsrailin
ağsaqqallarını, bütün qəbilə başçılarını,
yəni İsrail övladlarının nəsil rəhbərlərini
Yerusəlimə, özünün yanına topladı
ki, Rəbbin Əhd sandığını Davudun
şəhəri olan Siondan yuxarı gətirsinlər.
3 Yeddinci ayda olan bayram vaxtı bütün

---

[a] **4:6** Çıx. 30:17-21 [b] **4:7** Çıx. 25:31-40 [c] **4:8** Çıx. 25:23-30
[d] **5:1** 2Şam. 8:11; 1Saln. 18:11 [e] **5:2** 2Şam. 6:12-15; 1Saln. 15:25-28

İsrail xalqı padşahın yanına toplandı.
4 Bütün İsrail ağsaqqalları gələndə
Levililər sandığı götürdü. 5 Onunla
birgə Hüzur çadırını və çadırda olan
bütün müqəddəs əşyaları Levili kahinlər
yuxarı gətirdi. 6 Padşah Süleyman və
onun yanına toplanmış bütün İsrail
icması sandığın önündə çoxluğuna görə
sayı-hesabı bilinməyən qoyun-keçi və
mal-qara qurban kəsirdi. 7 Kahinlər
Rəbbin Əhd sandığını öz yerinə,
məbədin iç otağına – Ən Müqəddəs
yerə, keruvların qanadları altındakı
yerinə gətirdi. 8 Keruvlar qanadlarını
sandığın yeri üzərində açmışdı, onlar
sandığı və onun şüvüllərini örtmüşdü.
9 Şüvüllər elə uzun idi ki, onların
ucu iç otağın önündəki Müqəddəs
yerdən görünürdü, ancaq bayır tərəfdən
görünmürdü. Onlar bu günə qədər
oradadır. 10 [f]İsrail övladları Misirdən
çıxdıqları zaman Rəbbin onlarla əhd
bağladığı Xorevdə Musa sandığın içinə
iki lövhə qoymuşdu. Bunlardan başqa
onun içində heç bir şey yox idi.
11 Kahinlər Müqəddəs yerdən
çıxdılar. Hazır olan kahinlərin hamısı
bölmələrini gözləmədən özlərini təqdis
etmişdi. 12 İlahi oxuyan Levililərin
hamısı da – Asəf, Heman, Yedutun
və onların oğulları ilə qohumları incə
kətan geyərək sinclər, çənglər və
liralarla qurbangahın şərq tərəfində
dayandılar və onlarla bərabər yüz iyirmi
kahin kərənay çalırdı. 13 [g]Kərənay
çalanlar və ilahiçilər bir səslə Rəbbə
həmd və şükür etməklə səslərini birgə
ucaltdılar. Kərənayların, sinclərin,
musiqi alətlərinin səsi yüksələndə onlar
dedi: «Rəbbə həmd edin, çünki yaxşıdır,
çünki məhəbbəti əbədidir». O vaxt
bulud Rəbbin məbədini elə doldurdu
ki, 14 o buluda görə kahinlər ibadət
etmək üçün orada dayana bilmədilər,
çünki Rəbbin izzəti Allahın məbədini
doldurmuşdu.

6 O zaman Süleyman dedi: «Rəbb
istədi ki, qatı qaranlıqda məskən
salsın. 2 Mən Sənin üçün uca bir məbəd
tikdim ki, Sənin əbədi yaşayacağın yer
olsun».

Süleymanın xalqa müraciəti

(1Pad. 8:12-21)

3 Padşah dönüb bütün İsrail camaatına
xeyir-dua verdi. Bu zaman bütün İsrail
camaatı ayaq üstə durmuşdu. 4 [h]Padşah
dedi: «İsrailin Allahı Rəbbə alqış
olsun ki, atam Davuda Öz ağzı ilə
dediyini Öz əli ilə yerinə yetirdi.
O söyləmişdi: 5 “Mən xalqımı Misir
torpağından çıxartdığım gündən bəri
bir məbəd tikmək üçün İsrailin heç
bir qəbiləsindən şəhər seçməmişdim
ki, adım üstündə olsun. Xalqım İsrail
üzərində hökmdar olmaq üçün bir
adam da seçməmişdim. 6 İndi isə adım
orada olsun deyə Yerusəlimi seçmişəm
və xalqım İsrail üzərində hökmdar
olmaq üçün Davudu seçmişəm”. 7 Atam
Davudun ürəyində İsrailin Allahı Rəbbin
adına bir məbəd tikmək istəyi var idi.
8 Lakin Rəbb atam Davuda dedi: “Sən
yaxşı eləmisən ki, Mənim adıma bir
məbəd tikmək niyyətinə düşmüsən.
9 Ancaq məbədi sən tikməyəcəksən,
sənin belindən gələn oğlun Mənim
adıma məbəd tikəcək”. 10 Rəbb vəd
etdiyini yerinə yetirdi: belə ki mən atam
Davudun yerinə qalxdım, Rəbbin dediyi
kimi İsrail taxtında oturdum və İsrailin
Allahı Rəbbin adına məbəd tikdim.
11 Sandığı oraya qoydum. Rəbbin

---

[f] **5:10** Qanun. 10:5 [g] **5:13** 1Saln. 16:34; 2Saln. 7:3; Ezra 3:11; Zəb. 100:5; 106:1; 107:1; 116:1; 136:1; Yer. 33:11; Çıx. 40:34-35
[h] **6:4** 2Şam. 7:1-13; 1Saln. 17:1-12

İsrail övladları ilə bağladığı əhd onun
içindədir».

Süleymanın duası

(1Pad. 8:22-53)

12 Süleyman Rəbbin qurbangahı
önündə, bütün İsrail camaatının
qarşısında durub əllərini göyə açdı.
13 O, tuncdan uzunluğu ilə eni beş qulac,
hündürlüyü isə üç qulac olan bir kürsü
düzəldib həyətin ortasına qoymuşdu
və indi onun üstündə dururdu. Bütün
İsrail camaatı önündə diz çöküb əllərini
göyə açdı. 14 Süleyman dedi: «Ya Rəbb,
İsrailin Allahı! Nə göydə, nə də yerdə
Sənin kimi Allah yoxdur. Sən bütün
ürəkləri ilə yolunla gedən qullarına
əhdini və lütfünü saxlayırsan. 15 Sən
qulun atam Davuda verdiyin vədə əməl
etdin, Öz dilinlə söylədiyini bu gün
Öz əlinlə yerinə yetirdin. 16 [i]Ya Rəbb
İsrailin Allahı, indi də qulun atam
Davuda dediyin sözə əməl et. Özün
söyləmişdin: “Sən yolumla getdiyin
kimi oğulların da qanunuma görə əməl
edərək öz yollarına diqqət edərlərsə,
İsrail taxtında sənin nəslindən bir kişi
əskik olmayacaq”. 17 Ey İsrailin Allahı
Rəbb, indi qulun atam Davuda dediyin
sözü təsdiq et!
18 [j]Lakin, doğrudan da, Allah yerdə,
insanların yanında yaşayarmı? Sən
göyə və göylərin göyünə sığmazsan,
o ki qaldı mənim tikdiyim məbədə!
19 Ancaq Sən bu qulunun duasına və
yalvarışına nəzər sal, ya Rəbb Allahım,
bu gün onun önündə etdiyi fəryadı
və duanı eşit. 20 [k]Qoy Sənin nəzərin
gecə-gündüz bu məbədin üstündə olsun.
Bu yer barədə Sən demisən ki, adını
orada qoyursan. Qulunun buraya üz
tutub etdiyi duanı eşit. 21 Bu yerə tərəf
dua etdikləri vaxt Öz qulunun və xalqın
İsrailin yalvarışlarını Sən eşit, göydən –
Öz məskənindən eşit və bağışla!
22 Əgər bir adam öz yaxınına qarşı
günah edərsə və ondan and içmək tələb
olunarsa, o da gəlib bu məbəddə, Sənin
qurbangahın önündə and içərsə, 23 o
vaxt Sən göydən eşit və belə et, qulların
üzərində hökm et: əməlini öz başına
döndərərək müqəssiri ittiham et və
təqsirsizə salehliyinə görə bəraət ver.
24 Əgər xalqın İsrail Sənə qarşı günah
etdiyi üçün düşmən önündə məğlub
olsa və onlar təkrar Sənə dönüb adını
dillərinə gətirsələr və bu məbəddə Sənə
yalvarıb fəryad etsələr, 25 o vaxt Sən
göydən eşit və xalqın İsrailin günahını
bağışla, onları yenə özlərinə və atalarına
verdiyin torpağa qaytar.
26 Əgər xalqın Sənin önündə günah
etdiyi üçün göy bağlanıb yağış
yağmayan vaxt bu yerə tərəf dua edərək
adını dillərinə gətirsələr və Sən onlara
bəla göndərdiyin vaxt öz günahlarından
dönsələr, 27 o vaxt Sən göydə eşit,
qullarının və xalqın İsrailin günahını
bağışla və gedəcəkləri doğru yolu
onlara göstər. Xalqına irs kimi verdiyin
torpağına da yağış göndər.
28 Əgər ölkədə aclıq, vəba olarsa,
səmum küləyi ya kif, çəyirtkə ya
bitki qurdu olarsa, əgər düşmən
onları ölkənin hər hansı bir şəhərində
mühasirəyə alarsa – hansı bəla,
hansı xəstəlik olursa-olsun – 29 kimsə
tərəfindən yaxud da bütün xalqın İsrail
tərəfindən bir dua və yalvarış olarsa,
hər kəs öz bəlasını və dərdini bilib bu
məbədə tərəf əllərini açsa, 30 o vaxt
Sən göydən – Öz məskənindən eşit və
bağışla. Ürəyini bildiyin hər adama
bütün əməllərinə görə əvəz ver, çünki
insan ürəklərini yalnız Sən bilirsən.
31 Ta ki onlar atalarımıza verdiyin
torpaqda yaşadıqları bütün günlər boyu

---

[i] **6:16** 1Pad. 2:4 [j] **6:18** 2Saln. 2:6 [k] **6:20** Qanun. 12:11

Sənin yolunla getmək üçün Səndən
qorxsun.
32 Əgər xalqın İsraildən olmayan
yadelli də uzaq ölkədən gəlsə, Sənin
böyük adın, qüdrətli əlin və uzanan
qolun barədə eşidib bu məbədə tərəf
dua etsə, 33 o vaxt Sən göydən – Öz
məskənindən eşit və yadellinin Sənə
fəryad etdiyi hər şeyi et ki, yer üzünün
bütün xalqları da Sənin adını tanısın,
xalqın İsrail kimi Səndən qorxsun və
tikdiyim bu məbədin Sənin adınla
çağırıldığını bilsin.
34 Əgər xalqın göndərdiyin yolla
düşmənlərinə qarşı müharibəyə çıxsa və
Sənin seçdiyin bu şəhərə tərəf, Sənin
adına tikdiyim məbədə doğru üz çevirib
Sənə dua etsə, 35 Sən göydən onların
dualarını və yalvarışlarını eşit, onların
tərəfində ol.
36 Əgər onlar önündə günah etsələr –
çünki günah etməyən insan yoxdur –
Sən qəzəblənib onları düşmənə təslim
etsən və düşmən onları əsir edib yaxın
ya uzaq torpağına aparsa, 37 onlar
əsirlikdə olduqları ölkədə ürəklərini
döndərib tövbə etsələr və Sənə dua
edərək "biz günah və haqsızlıq etdik,
pislik etdik" desələr, 38 onların əsir
olunub aparıldığı ölkədə bütün ürəkləri
və canları ilə Sənə tərəf dönsələr,
atalarına verdiyin torpağa, seçdiyin
şəhərə və adına tikdiyim məbədə tərəf
üz tutub Sənə dua etsələr, 39 o vaxt
Sən göydən – Öz məskənindən onların
dua və yalvarışlarını eşit və onların
tərəfində ol. Sənin önündə günah edən
xalqını bağışla. 40 İndi, ey Allahım,
Sənə yalvarıram, bu yerdə edilən duanı
gözlərin görsün və qulaqların eşitsin.
41 Ya Rəbb Allah, qüvvənin rəmzi
olan sandığınla birgə,
Gücün rəmzi olan sandığınla birgə
İstirahət edəcəyin yerə qalx.
Ya Rəbb Allah, kahinlərin zəfərinlə
əhatə olunsun,
Möminlərin xeyirxahlığına görə
sevinsin.
42 Ya Rəbb Allah, məsh etdiyindən üz
döndərmə,
Qulun Davuda göstərdiyin
məhəbbətini yada sal».

Məbədin təqdis edilməsi

(1Pad. 8:62-66)

7 [l]Süleyman duanı bitirdikdə göydən
od düşüb yandırma qurbanları və
təqdimləri uddu. Rəbbin izzəti məbədi
doldurdu. 2 Kahinlər Rəbbin məbədinə
girə bilmədi, çünki Rəbbin izzəti Öz
məbədini doldurmuşdu. 3 [m]Bütün İsrail
övladları odun düşdüyünü və məbədin
üzərində olan Rəbbin izzətini görəndə
daş döşəmənin üstündə üzüstə yerə
çöküb «Rəbbə şükür olsun, çünki O
yaxşıdır, Onun məhəbbəti əbədidir»
deyərək səcdə etdilər.
4 Padşah və bütün xalq Rəbbin
önündə qurbanlar kəsdi. 5 Padşah
Süleyman qurban olaraq iyirmi iki
min baş mal-qara və yüz iyirmi min
baş qoyun-keçi təqdim etdi. Beləliklə,
padşah və bütün xalq Allahın məbədini
təqdis etdi. 6 Kahinlər öz vəzifələrinə
görə dayandı, Levililər isə Rəbbin
musiqi alətləri ilə durdu. Padşah
Davud bunları düzəltmişdi ki, o,
«Rəbbə şükür olsun, çünki məhəbbəti
əbədidir» oxuyaraq həmd edəndə
Levililər onlarda çalsın. Kahinlər
onların qarşısında kərənaylar çalırdı və
bütün İsraillilər ayaq üstə dayanmışdı.
7 Süleyman Rəbbin məbədi önündəki
həyətin ortasını təqdis etdi ki, yandırma
qurbanları və ünsiyyət qurbanlarının
piyini orada təqdim etsin. Çünki

---

[l]**7:1** Lev. 9:23-24 [m]**7:3** 1Saln. 16:34; 2Saln. 5:13; Ezra 3:11; Zəb. 100:5; 106:1; 107:1; 118:1; 136:1; Yer. 33:11

düzəltdiyi tunc qurbangah kiçik olduğu
üçün yandırma qurbanları, taxıl
təqdimləri və piy oraya yerləşməzdi.
8 O vaxt Süleyman və onunla birgə çox
böyük bir camaat – Xamat keçidindən
Misir vadisinə qədər yaşayan bütün
İsraillilər yeddi gün bayram etdi.
9 Səkkizinci gün təntənəli toplantı oldu.
Qurbangahın təqdisi yeddi gün, bayram
da yeddi gün oldu. 10 Yeddinci ayın
iyirmi üçüncü günü Süleyman xalqı
buraxdı. Rəbbin Davuda, Süleymana
və xalqı İsrailə etdiyi yaxşılıqlara görə
onlar sevinclə və şad ürəklə öz evlərinə
getdi.

Rəbb yenə Süleymana görünür

(1Pad. 9:1-9)

11 Süleyman Rəbbin məbədini və
padşah sarayını tikib qurtardı. Rəbbin
məbədində və öz sarayında ürəyi
istədiyi hər şeyi uğurla etdi. 12 Rəbb
Süleymana gecə görünüb ona dedi:
«Sənin duanı eşitdim və bu yeri
Özümə qurban evi seçdim. 13 Göyləri
bağladığım və yağış olmadığı vaxt
yeri yeyib qurtarsın deyə, çəyirtkəyə
əmr etdiyim və xalqımın arasına vəba
göndərdiyim zaman 14 əgər Mənim
adımla çağırılan xalqım özünü aşağı
tutarsa, dua edib Məni axtararsa və
pis yollarından dönərsə, o vaxt göydən
eşidib onların günahını bağışlayacağam
və torpaqlarını sağaldacağam. 15 İndi
bu yerdə edilən duanı gözlərim görəcək
və qulaqlarım eşidəcək. 16 İndi adımı
əbədilik oraya qoymaq üçün bu məbədi
seçib təqdis etdim. Mənim nəzərim və
ürəyim daim orada olacaq. 17 Əgər sən
Mənim əmr etdiklərimi yerinə yetirərək
atan Davud kimi yolumla getsən, Mənim
qanunlarıma və hökmlərimə əməl etsən,
18 [n]sənin padşahlıq taxtını ucaldacağam.
Mən "sənin nəslindən İsrailə hökm edən
bir kişi əskik olmayacaq" deyərək atan
Davudla əhd bağlamışdım.
19 Ancaq siz dönüb qarşınıza
qoyduğum qanunlarımı və əmrlərimi
tərk etsəniz, gedib başqa allahlara
qulluq edərək onlara səcdə etsəniz,
20 Mən İsraillilləri onlara verdiyim
torpaqdan qovub atacağam və Öz
adıma təqdis etdiyim bu məbədi
hüzurumdan rədd edəcəyəm. Onda
İsrail barədə bütün xalqlar arasında
məsəl və kinayə söylədəcəyəm. 21 İndi
uca olan bu məbədin yanından keçən
hər kəs dəhşətə gələrək deyəcək: "Nə
üçün Rəbb bu torpağı və bu məbədi bu
cür rədd etdi?" 22 Onlara deyəcəklər:
"Bu xalq atalarını Misir torpağından
çıxaran Allahı Rəbbi tərk etdi və başqa
allahlardan yapışdı, onlara səcdə və
qulluq etdilər. Buna görə də O bütün bu
bəlanı onların üzərinə göndərdi"».

Süleymanın tikinti işləri

(1Pad. 9:10-28)

8 Süleyman Rəbbin məbədini və öz
sarayını iyirmi ilə tikib qurtardıqdan
sonra 2 Xiramın Süleymana verdiyi
şəhərləri Süleyman yenə tikdi və İsrail
övladlarını orada yerləşdirdi.
3 Süleyman Xamat-Sovaya getdi və
bu ölkəni tutdu. 4 Səhrada Tadmoru
və Xamatda bütün anbar şəhərlərini
tikdi. 5 Yuxarı Bet-Xoronu və Aşağı
Bet-Xoronu, divarlarla, qapılarla və
sürgülərlə olan qalalı şəhərlər kimi
tikdi. 6 Baalatı, özünün bütün anbar
şəhərlərini, bütün döyüş arabalarının
olduğu şəhərləri, süvarilərin olduğu
şəhərləri, Yerusəlimdə, Livanda və onun
hökmranlığı altında olan bütün yerlərdə
tikmək istədiyi hər şeyi tikdi.
7 Ölkədə İsraillilərdən olmayan başqa
xalqlar – Xetlilər, Emorlular, Perizlilər,
Xivlilər və Yevuslular qalmışdı. 8 Çünki

---

[n]**7:18** 1Pad. 2:4

İsrail övladları onların atalarını
məhv etməmişdi. Süleyman onları
mükəlləfiyyətçi etdi və bu indiyə qədər
belədir. 9 İsrail övladlarından isə heç
kəsi öz işi üçün qul etmədi, ancaq onlar
Süleymanın əsgərləri, keşik rəisləri,
döyüş arabalarının və süvarilərinin
başçıları idi. 10 Padşah Süleymanın
nəzarətçi rəisləri də İsraillilərdən idi.
Xalqa rəislik edən bu adamlar iki yüz
əlli nəfər idi.
11 Süleyman fironun qızını Davudun
şəhərindən onun üçün tikdiyi evinə
köçürdü. Çünki o dedi: «Arvadım İsrailin
padşahı Davudun sarayında yaşamasın,
ona görə ki Rəbbin sandığının gəldiyi
yerlər müqəddəsdir».

Süleyman məbəddə ibadət qaydasını müəyyən edir

12 O vaxt Süleyman eyvanın önündə
düzəltdiyi Rəbbin qurbangahında
Rəbbə yandırma qurbanları təqdim
edərdi. 13 [o]Şənbə günlərində və
Təzə Ay mərasimlərində, ildə üç
dəfə bayramlarda – Mayasız Çörək
bayramında, Həftələr bayramında
və Çardaqlar bayramında Musanın
əmr etdiyi təqdimlər günündə təqdim
edərdi.
14 Atası Davudun hökmünə görə, o,
kahinlərin bölmələrini xidmətlərinə
görə, hər günün qaydası ilə kahinlərin
yanında həmd və xidmət etmək üçün
Levililəri vəzifələrinə görə və hər
qapıya qapıçıları bölmələrinə görə təyin
etdi. Çünki Allah adamı Davud belə
əmr etmişdi. 15 Onlar hər məsələdə,
xəzinələrlə bağlı məsələlərdə padşahın
kahinlərə və Levililərə olan əmrindən
çıxmadı.
16 Rəbbin məbədinin bünövrəsinin
qoyulmasından tikilib qurtarmasına
qədər Süleymanın hər işi hazırlanmışdı.
Beləcə Rəbbin məbədi tikilib qurtardı.

Süleymanın donanması

17 Süleyman Edom ölkəsində, dənizin
körfəzində olan Esyon-Geverə və Elata
getdi. 18 Xiram adamlarının vasitəsilə
ona gəmilər və dənizə bələd adamlar
göndərdi. Onlar Süleymanın adamları
ilə birgə Ofirə gəldi və oradan dörd
yüz əlli talant qızıl götürüb padşah
Süleymana gətirdilər.

Süleyman və Səba mələkəsi

(1Pad. 10:1-13)

9 [p]Səba mələkəsi Süleymanın
şöhrətini eşidib onu tapmacalarla
sınamağa gəldi. O, çox böyük karvanla –
ətriyyat, çoxlu qızıl və qiymətli daşlarla
yüklənmiş dəvələrlə Yerusəlimə,
Süleymanın yanına gəldi və ürəyində
olan hər şey barədə onunla söhbət
etdi. 2 Süleyman onun bütün suallarına
cavab verdi, elə bir gizli şey olmadı
ki, padşah ona izah etməsin. 3 Səba
mələkəsi Süleymanın hikmətini və onun
tikdiyi sarayı, 4 süfrəsindəki yeməyi,
əyanlarının oturuşunu, qulluqçularının
xidmətini və onların geyimlərini,
saqilərini və onların geyimlərini,
Rəbbin məbədində gətirdiyi yandırma
qurbanları görəndə daha özünü saxlaya
bilmədi. 5 O, padşaha dedi: «Sənin
işlərin və hikmətin barədə öz ölkəmdə
eşitdiyim sözlər düz imiş. 6 Gəlib öz
gözlərimlə görənə qədər mən bu sözlərə
inanmamışdım. Mənə sənin böyük
hikmətinin yarısı belə, danışılmayıb,
sənin şöhrətin barədə eşitdiklərimdən
də üstünsən. 7 Sənin adamların nə
bəxtiyardır və bu qulluqçuların
nə bəxtiyardır ki, həmişə önündə
durub hikmətini eşidirlər. 8 Allahın
Rəbbə alqış olsun ki, səni istəyib

---

[o]**8:13** Say. 28:9-15 [p]**9:1** Mat. 12:42; Luka 11:31

Allahın Rəbb üçün padşah kimi İsrail
taxtında oturtdu! Allahın İsraili əbədi
möhkəmləndirməkdən ötrü ona olan
sevgisi naminə ədalət və salehliklə
hökm etmək üçün səni onlar üzərinə
padşah qoydu». 9 Səba mələkəsi padşaha
yüz iyirmi talant qızıl, çoxlu ətriyyat və
qiymətli daşlar bağışladı. Onun padşah
Süleymana verdiyi qədər ətriyyat hələ
heç vaxt gəlməmişdi.
10 Ofirdən qızıl gətirən Xiramın
adamları ilə Süleymanın adamları
ardıc ağacı və qiymətli daşlar da
gətirdilər. 11 Padşah ardıc ağacından
Rəbbin məbədi və padşah sarayı üçün
pilləkənlər, musiqiçilər üçün lira və
çəng düzəltdi. Yəhuda diyarında bu
günə qədər beləsi görünməmişdi.
12 Padşah Süleyman Səba mələkəsinin
arzuladığı və istədiyi bütün şeyləri
ona verdi; bu, mələkənin padşaha
gətirdiklərindən də çox idi. Sonra
mələkə əyanları ilə birgə qayıdıb öz
ölkəsinə getdi.

Süleymanın var-dövləti

(1Pad. 10:14-25)

13 Bir ildə Süleymana gələn qızılın
çəkisi altı yüz altmış altı talant idi.
14 Alver edən adamların və tacirlərin
gətirdiyi qızıl buraya daxil deyildi.
Bütün Ərəb padşahları və ölkənin
valiləri də Süleymana qızıl və gümüş
gətirərdi. 15 Padşah Süleyman döymə
qızıldan iki yüz sipər düzəltdi. Bir
sipərə altı yüz şekel döymə qızıl işləndi.
16 O, döymə qızıldan üç yüz qalxan da
düzəltdi və bir qalxana üç yüz şekel qızıl
işləndi. Padşah onları «Livan meşəsi»
adlı sarayına qoydu.
17 Padşah fil sümüyündən böyük taxt
düzəltdi və onu xalis qızılla örtdü.
18 Taxtın altı pilləsi və ayaq qoymaq
üçün qızıl kətili var idi, bunlar taxta
bağlı idi. Oturacağın hər iki tərəfində
qollar var idi və qolların yanında iki
şir təsviri var idi. 19 Altı pillənin iki
tərəfində isə on iki şir təsviri var idi.
Heç bir padşahlıqda belə bir şey yox
idi. 20 Padşah Süleymanın bütün içki
qabları qızıldan idi. «Livan meşəsi» adlı
sarayında olan bütün əşyalar da xalis
qızıldan idi. Çünki gümüş Süleymanın
dövründə heç nə sayılırdı. 21 Padşahın
gəmiləri Xiramın adamları ilə birgə
Tarşişə gedərdi. Üç ildə bir dəfə Tarşiş
gəmiləri qızıl, gümüş, fil sümüyü,
meymunlar və əntərlərlə yüklənərək
gəlirdi.
22 Padşah Süleyman var-dövlətdə
və hikmətdə yer üzünün bütün
padşahlarından üstün idi. 23 Bütün yer
üzünün padşahları Süleymanın ürəyinə
Allahın qoyduğu hikməti eşitmək
üçün onun üzünü görmək istəyirdi.
24 Onun yanına gələn hər kəs hədiyyə
gətirirdi. Beləcə ona hər il qızıl qablar,
gümüş qablar, paltarlar, silahlar,
ətriyyat, atlar və qatırlar gətirilirdi.
25 [q]Süleymanın dörd min axurunda
döyüş arabaları üçün atları və on iki
min süvarisi vardı. Onları arabalar
üçün ayrılan şəhərlərdə və Yerusəlimdə,
padşahın yanında yerləşdirdi. 26 [r]O,
Fərat çayından Filiştlilərin torpağına
və Misir sərhədinə qədər bütün
padşahlar üzərində hökmranlıq edirdi.
27 [s]Padşah Yerusəlimdə çoxluğuna
görə gümüşü daşlara, sidr ağacını
isə yamaclı-düzənlikli bölgədə bitən
firon ənciri ağacına bərabər etdi.
28 [t]Süleymanın atları Misirdən və bütün
ölkələrdən gətirilirdi.

---

[q]**9:25** 1Pad. 4:26 [r]**9:26** Yar. 15:18; 1Pad. 4:21 [s]**9:27** Qanun. 17:17
[t]**9:28** Qanun. 17:16

Süleymanın ölümü

(1Pad. 11:41-43)

29 Süleymanın qalan işləri, ilk
işlərindən son işlərinə qədər peyğəmbər
Natanın tarix kitabında və Şilolu
Axiyanın peyğəmbərliyində və
görücü İddonun Nevat oğlu Yarovam
haqqındakı vəhylərində yazılmışdır.
30 O, Yerusəlimdə bütün İsrail üzərində
qırx il padşahlıq etmişdi. 31 Süleyman
ataları ilə uyudu və atası Davudun
şəhərində basdırıldı. Onun yerinə oğlu
Rexavam padşah oldu.

İsraillilər Rexavama qarşı çıxır

(1Pad. 12:1-20)

10 Rexavam Şekemə getdi,
çünki bütün İsraillilər onu
padşah etmək üçün Şekemə gəlmişdi.
2 Nevat oğlu Yarovam bunu eşitdiyi
zaman padşah Süleymanın əlindən
qaçdığı Misirdən oraya qayıtdı. 3 Onu
çağırtdırdılar. Yarovam gəldi və bütün
İsraillilərlə birgə Rexavama söylədi:
4 «Atan üzərimizə ağır boyunduruq
qoydu. Sən isə indi atanın çətin
qulluğunu və üzərimizə qoyduğu ağır
boyunduruğu yüngülləşdir, biz də sənə
qulluq edərik». 5 Rexavam onlara dedi:
«Üç gündən sonra yenə mənim yanıma
gəlin». Xalq getdi.
6 Padşah Rexavam atası Süleymanın
sağlığında onun önündə duran
ağsaqqallarla məsləhət edib dedi: «Bu
xalqa cavab vermək üçün mənə nə
məsləhət verirsiniz?» 7 Ağsaqqallar ona
dedi: «Əgər sən bu xalqa xeyirxahlıq
göstərməklə onları razı salıb yaxşı sözlər
desən, daim sənə qul olacaq». 8 Ancaq
o, ağsaqqalların verdikləri məsləhətə
məhəl qoymadı, onunla birgə böyümüş
və onun önündə duran cavan adamlarla
məsləhətləşdi. 9 Onlara dedi: «Siz nə
məsləhət verirsiniz? Mənə "atanın
üzərimizə qoyduğu boyunduruğu
yüngülləşdir" deyən bu xalqa nə cavab
verim?» 10 Onunla birgə böyümüş
cavan adamlar ona dedi: «Sənə "atan
üzərimizə ağır bir boyunduruq qoydu,
sən isə onu yüngülləşdir" deyən bu xalqa
belə söylə: "Mənim kiçik barmağım
atamın belindən yoğundur. 11 Atam
sizi ağır boyunduruqla yükləmişdi,
mən isə sizin boyunduruğunuzu daha
da artıracağam. Atam sizi qamçılarla
cəzalandırırdı, mən isə sizi əqrəblərlə
cəzalandıracağam"».
12 «Üç gün sonra yenə yanıma gəlin»
deyə padşahın söylədiyi kimi Yarovam
bütün xalqla birgə üç gün sonra
Rexavamın yanına gəldi. 13 Padşah
onlara sərt cavab verdi. Padşah
Rexavam ağsaqqalların məsləhətinə
məhəl qoymayıb 14 cavan adamların
məsləhətinə görə xalqa dedi: «Atam sizi
ağır boyunduruqla yükləmişdi, mən
isə onu daha da artıracağam. Atam
sizi qamçılarla cəzalandırırdı, mən isə
əqrəblərlə cəzalandıracağam». 15 Padşah
xalqa qulaq asmadı, çünki bu hadisə
Allah tərəfindən oldu ki, Rəbb Şilolu
Axiya vasitəsilə Nevat oğlu Yarovama
söylədiyi sözü yerinə yetirsin.
16 [u]Bütün İsraillilər padşahın onlara
qulaq asmadığını gördü. Onda xalq ona
cavab verib dedi:

«Davudla bizim nə şərikliyimiz var?
Yesseyin oğlu ilə heç bir irsimiz
yoxdur!
Ey İsraillilər, çadırınıza!
İndi, ey Davud, öz evinin halına özün
bax!»

Bütün İsraillilər evlərinə getdi.
17 Rexavam yalnız Yəhuda şəhərlərində
yaşayan İsrail övladları üzərində
padşahlıq etdi. 18 Padşah Rexavam
mükəlləfiyyətçilər üzərində nəzarətçi

---

[u] **10:16** 2Şam. 20:1

olan Adoniramı göndərdi. İsrail
övladları onu daşqalaq edib öldürdülər.
Padşah Rexavam Yerusəlimə qaçmaq
üçün tələsik öz döyüş arabasına mindi.
19 Beləcə İsraillilər Davudun sülaləsinə
qarşı qalxdı və bu indiyə qədər belədir.

Şemayanın peyğəmbərliyi

(1Pad. 12:21-24)

11 Rexavam Yerusəlimə gəldi. O,
İsraillilərlə müharibə edib öz
padşahlığını qaytarmaq üçün Yəhuda
və Binyamin evini – yüz səksən min
seçmə döyüşçünü topladı. 2 Ancaq
Allah adamı Şemayaya Rəbbin bu
sözü nazil oldu: 3 «Yəhuda padşahı
Süleyman oğlu Rexavama, Yəhuda və
Binyamində olan bütün İsraillilərə söylə
ki, 4 Rəbb belə deyir: “Getməyin və
soydaşlarınızla müharibə etməyin. Hər
kəs öz evinə qayıtsın, çünki bu iş Mənim
tərəfimdən oldu”». Onlar Rəbbin sözünə
qulaq asdılar və Yarovamın üzərinə
getməkdən əl çəkdilər.

Rexavam qalalar tikir

5 Rexavam Yerusəlimdə yaşadı və
Yəhudada müdafiə olunmaq üçün bu
şəhərləri tikdi. 6 Bet-Lexem, Etam,
Teqoa, 7 Bet-Sur, Soko, Adullam, 8 Qat,
Mareşa, Zif, 9 Adorayim, Lakiş, Azeqa,
10 Sora, Ayyalon və Xevron. O, Yəhuda
və Binyamin torpağında olan bu qalalı
şəhərləri tikdi. 11 Qalaları möhkəmlədib
onlara rəislər təyin etdi və ərzaq, yağ,
şərab ehtiyatı gördü. 12 Hər şəhərə
sipər və nizələr qoydu, onları çox
möhkəmləndirdi. Beləcə Yəhuda ilə
Binyamin torpaqları onun tərəfində
qaldı.
13 Bütün İsraildə olan kahinlər və
Levililər onların bütün mahallarından
gəlib Rexavamın yanına toplandı.
14 Levililər otlaqlarını və mülklərini
qoyub Yəhudaya və Yerusəlimə gəldilər.
Çünki Yarovam onları oğulları ilə
birgə Rəbbə kahinlik etməkdən kənar
etmişdi. 15 [v]O, səcdəgahlar, təkə bütləri
və düzəltdiyi dana bütləri üçün özünə
kahinlər qoymuşdu. 16 Onların ardınca
bütün İsrail qəbilələrindən olan İsrailin
Allahı Rəbbi sidq ürəkdən axtarmaq
istəyənlər atalarının Allahı Rəbbə
qurban təqdim etmək üçün Yerusəlimə
gəldilər. 17 Yəhuda padşahlığını
möhkəmləndirdilər və üç il Süleymanın
oğlu Rexavama kömək etdilər. Çünki
üç il Davudun və Süleymanın yolu ilə
getdilər.

Rexavamın arvadları və uşaqları

18 Rexavam Maxalatı özünə arvad
aldı. Maxalat Davudun oğlu Yerimotunla
Yesseyin oğlu Eliavın qızı Avihayilin
qızı idi. 19 O, Rexavama oğullar – Yeuşu,
Şemaryanı, Zahamı doğdu. 20 Rexavam
Maxalatdan sonra Avşalomun qızı
Maakanı aldı. O, Aviyanı, Attayı,
Zizanı və Şelomiti doğdu. 21 Rexavam
Avşalomun qızı Maakanı bütün
arvadları və cariyələrindən daha çox
sevirdi. O, on səkkiz arvad və altmış
cariyə almışdı, iyirmi səkkiz oğul və
altmış qız atası oldu. 22 Rexavam Maaka
oğlu Aviyanı qardaşları arasında padşah
etmək üçün ayıraraq vəliəhd təyin etdi.
23 Ağıllı davranıb bütün Yəhuda və
Binyamin torpağında hər qalalı şəhərə
oğullarını göndərdi və onlara bol ərzaq
verdi, onlar üçün çoxlu arvad aldı.

Sisaqın Yəhudaya hücumu

(1Pad. 4:25-28)

12 Padşahlığı möhkəmlənib özü
qüvvətləndikdə Rexavam,
onunla bərabər bütün İsraillilər Rəbbin
Qanunundan üz döndərdilər. 2 Padşah
Rexavamın beşinci ilində Rəbbə qarşı

---

[v]**11:15** 1Pad. 12:31; Lev. 17:7

vəfasızlıq etdiklərinə görə Misir padşahı
Sisaq min iki yüz döyüş arabası və
altmış min süvari ilə Yerusəlimə
hücum etdi. 3 Onunla bərabər Misirdən
gələn xalqın, Luvluların, Sukluların və
Kuşluların sayı-hesabı bilinmirdi. 4 O,
Yəhudanın qalalı şəhərlərini aldı və
Yerusəlimə yaxınlaşdı.
5 Peyğəmbər Şemaya Rexavamın və
Sisaqdan ötrü Yerusəlimə toplanan
Yəhuda rəislərinin yanına gəlib onlara
dedi: «Rəbb belə deyir: “Siz Məni tərk
etdiniz, buna görə Mən də sizi Sisaqa
təslim etdim”». 6 İsrail rəisləri ilə padşah
özlərini aşağı tutdular və «Rəbb adildir»
dedilər. 7 Rəbb onların özlərini aşağı
tutduğunu görəndə Şemayaya Rəbbin
bu sözü gəldi: «Özlərini aşağı tutduqları
üçün onları məhv etməyəcəyəm, onlara
bir az qurtuluş verəcəyəm, Sisaqın
əli ilə qəzəbim Yerusəlimin üzərinə
tökülməyəcək. 8 Amma Mənə qulluq
etməklə dünya padşahlıqlarına qulluq
etməyin fərqini başa düşsünlər deyə
onun qulları olacaqlar».
9 [w]Misir padşahı Sisaq Yerusəlimə
hücum etdi və Rəbbin məbədinin və
padşah sarayının xəzinələrini götürdü.
Hər şeyi aldı, Süleymanın düzəltdiyi
qızıl qalxanları da götürdü. 10 Padşah
Rexavam onların yerinə tunc qalxanlar
düzəltdi və bunları padşah sarayının
qapısını qoruyan mühafizə rəislərinin
əlinə verdi. 11 Hər dəfə padşah Rəbbin
məbədinə gələndə mühafizəçilər
onları daşıyır və sonra mühafizəçilərin
otağına geri gətirirdilər. 12 Özünü aşağı
tutduqda onu büsbütün məhv etməmək
üçün Rəbbin qəzəbi üzərindən döndü.
Çünki Yəhudada yaxşı işlər də var idi.

Rexavamın padşahlığının sonu

13 Padşah Rexavam Yerusəlimdə
özünü möhkəmləndirərək padşahlıq
etdi. Rexavam padşah olan vaxt qırx bir
yaşında idi. O, Rəbbin Öz adını qoymaq
üçün İsrailin bütün qəbilələrindən
seçdiyi şəhərdə – Yerusəlimdə on yeddi
il padşahlıq etdi. Anasının adı Ammonlu
Naama idi. 14 O, pis olan işlər etdi,
çünki ürəyi Rəbbi axtarmaq istəmədi.
15 Rexavamın etdiyi işlər, ilk
işlərindən son işlərinə qədər peyğəmbər
Şemayanın və görücü İddonun tarix
kitablarında nəsil şəcərəsinə görə
yazılmışdır. Rexavamla Yarovam
arasında həmişə müharibə gedirdi.
16 Rexavam ataları ilə uyudu və
Davudun şəhərində basdırıldı. Yerinə
oğlu Aviya padşah oldu.

Yəhuda padşahı Aviya

(1Pad. 15:1-8)

13 Yarovamın padşahlığının on
səkkizinci ilində Aviya Yəhuda
üzərində padşah oldu. 2 O, Yerusəlimdə
üç il padşahlıq etdi. Anasının adı
Givealı Urielin qızı Maaka idi. Aviya
ilə Yarovamın arasında müharibə
gedirdi. 3 Aviya dörd yüz min seçmə
igid döyüşçüdən ibarət olan bir ordu ilə
hərbə girişdi. Yarovam isə səkkiz yüz
min seçmə igid döyüşçünü ona qarşı
döyüş üçün düzdü.
4 Aviya Efrayimin dağlıq bölgəsində
olan Semarayim dağına qalxıb dedi:
«Ey Yarovam və bütün İsraillilər, məni
dinləyin! 5 Bilmirsiniz ki, İsrailin Allahı
Rəbb İsrail üzərində padşahlığı əbədi
olaraq Davuda və onun oğullarına
vermişdir? Bunu duzla əhd etmişdir.
6 Ancaq Davudun oğlu Süleymanın
qulu Nevat oğlu Yarovam qalxıb
ağasına qarşı üsyan etdi. 7 Onun
ətrafına boş və yaramaz adamlar
yığılıb Süleyman oğlu Rexavama
qarşı çıxdılar. Rexavam gənc və zəif
iradəli olduğu üçün onlara qarşı dura

---

[w]**12:9** 1Pad. 10:16-17; 2Saln. 9:15-16

bilmədi. 8 İndi siz Davud oğullarının
əlində olan Rəbbin padşahlığına qarşı
durmağı düşünürsünüz və siz böyük bir
kütləsiniz. Yarovamın allahlar deyə sizə
düzəltdiyi qızıl danalar da aranızdadır.
9 Amma Harun nəslindən olan Rəbbin
kahinlərini və Levililəri qovmadınızmı?
Başqa ölkələrin xalqlarının qaydasına
görə özünüzə kahinlər qoymadınızmı?
Buğa və yeddi qoçla təqdis olunmaq
üçün gələn hər kəs yalançı allahların
kahini ola bilər. 10 Amma Rəbb
Allahımız olduğuna görə biz Onu tərk
etməmişik və bizdə Rəbbin xidmətində
Harun nəslindən olan kahinlər və onlara
kömək edən Levililər vardı. 11 Onlar
hər səhər-axşam Rəbbə yandırma
qurbanları və xoş ətirli buxur yandırar,
təmiz masa üzərində çörək təqdimi
verər və hər axşam qızıl çıraqdanda
çıraqları yandırar. Çünki biz Allahımız
Rəbbin qoyduğu qaydalara əməl edirik,
siz isə Onu tərk etdiniz. 12 Budur,
Allah bizimlədir, başımızın üstündədir.
Onun kahinləri də bizimlədir. Sizə
qarşı çalmaq üçün əllərində yüksək
səs verən kərənaylar var. Ey İsrail
övladları, atalarınızın Allahı Rəbbə
qarşı müharibə etməyin, çünki işiniz
yaxşı getməz».
13 Yarovam onların arxasından pusqu
qurmaq üçün dəstə göndərmişdi.
Onun özü Yəhudalılardan qabaqda
idi. Pusqu isə onların arxasında idi.
14 Yəhudalılar geriyə baxdıqda gördülər
ki, onlara öndən və arxadan hücum
olunacaq. Onlar Rəbbə fəryad etdilər
və kahinlər kərənayları yüksək səslə
çaldılar. 15 Yəhudalılar nərə çəkdilər
və onlar nərə çəkəndə Allah Yarovamı
və bütün İsraillilləri Aviyanın və
Yəhudanın önündə qırdı. 16 İsrail
övladları Yəhudalıların önündən qaçdı
və Allah onları bunlara təslim etdi.
17 Aviya ilə xalqı onları böyük tələfata
uğratdılar: İsraillilərdən beş yüz min
seçmə adam həlak oldu. 18 Beləcə o vaxt
İsrail övladları sakitləşdilər, Yəhudalılar
isə atalarının Allahı Rəbbə güvəndikləri
üçün üstün gəldilər. 19 Aviya Yarovamı
təqib etdi və ondan şəhərləri – Bet-Eli və
qəsəbələrini, Yeşananı və qəsəbələrini,
Efronu və qəsəbələrini aldı. 20 Aviyanın
dövründə Yarovam bir daha güclü
olmadı. Rəbb onu vurdu və o öldü.
21 Ancaq Aviya daha da gücləndi. O, on
dörd arvad aldı, iyirmi iki oğul və on
altı qız atası oldu.
22 Aviyanın qalan işləri, əməlləri və
sözləri peyğəmbər İddonun təlimində
yazılmışdır.

14 Aviya ataları ilə uyudu və onu
Davudun şəhərində basdırdılar.
Yerinə oğlu Asa padşah oldu. Onun
dövründə ölkə on il rahat yaşadı.

Yəhuda padşahı Asa

2 Asa Allahı Rəbbin gözündə yaxşı və
doğru olan işlər etdi. 3 Özgə allahların
qurbangahlarını və səcdəgahları aradan
qaldırdı və sütunları qırdı, Aşera
bütlərini kəsdi.
4 Asa atalarının Allahı Rəbbi
axtarmağı və qanunla əmrlərinə əməl
etməyi Yəhudaya söylədi. 5 Yəhudanın
bütün şəhərlərindən səcdəgahları və
buxur qurbangahlarını aradan qaldırdı.
Onun dövründə ölkə rahat yaşadı. 6 O,
Yəhudada qalalı şəhərlər tikdi, çünki o
illərdə ölkədə əmin-amanlıq idi və orada
müharibə yox idi. Rəbb ona dinclik
vermişdi. 7 Asa Yəhudalılara dedi: «Bu
şəhərləri tikək, ətrafında divarlar və
qüllələr, qapılar və sürgülər düzəldək.
Ölkə hələ bizimdir, çünki biz Allahımız
Rəbbi axtardıq, Onu axtardığımıza görə
Allah bizə hər tərəfdən dinclik verdi».
Onlar beləcə uğurla tikdilər.

Asanın Zerah üzərində qələbəsi

8 Asanın ordusu Yəhudadan sipər
və nizə daşıyan üç yüz min nəfər,

Binyamin nəslindən qalxan daşıyan
və kaman çəkən iki yüz səksən min
nəfərdən ibarət idi. Onların hamısı igid
döyüşçülər idi.
9 Bunlara qarşı Kuşlu Zerah milyon
əsgərlə və üç yüz döyüş arabası ilə
Mareşaya hücum etdi. 10 Asa onun
üzərinə getdi və Mareşada Sefata
dərəsində döyüş üçün düzüldü. 11 Asa
Allahı Rəbbi çağırıb dedi: «Ya Rəbb,
güclülər arasında gücsüzəm, yardım
edəcək Səndən başqası yoxdur. Ya
Rəbb Allahımız, bizə yardım et, çünki
Sən bizim dayağımızsan və Sənin
isminlə bu qoşunun üstünə gəlmişik.
Ya Rəbb, Allahımız Sənsən, qoy insan
Sənə üstün gəlməsin». 12 Asanın və
Yəhudalıların önündə Rəbb Kuşluları
qırdı və Kuşlular qaçdı. 13 Asa və onunla
birgə olan xalq onları Gerara qədər
təqib etdi. Kuşlulardan o qədər ölən
oldu ki, heç kəs salamat qalmadı,
çünki Rəbbin və onun ordusunun
önündə məhv olmuşdular. Yəhudalılar
çoxlu qənimət ələ keçirdilər. 14 Gerar
ətrafındakı bütün şəhərləri dağıtdılar,
çünki onların canına Rəbbin qorxusu
düşmüşdü. Bütün şəhərləri qarət
etdilər, orada çoxlu qənimət vardı.
15 Çoban çadırlarını da dağıtdılar, çoxlu
qoyun-keçi və dəvə apardılar. Sonra
Yerusəlimə qayıtdılar.

Azaryanın peyğəmbərliyi

15 Oded oğlu Azaryanın üzərinə
Allahın Ruhu gəldi. 2 O, Asanın
qarşısına çıxıb ona dedi: «Ey Asa, bütün
Yəhudalılar və Binyaminlilər, məni
dinləyin! Siz Rəbb ilə bərabər olarkən O
da sizinlədir. Əgər siz Onu axtarsanız,
O da Özünü sizə göstərər. Ancaq siz
Onu tərk etsəniz, O da sizi tərk edər.
3 Uzun zamandan bəri İsraildə həqiqi
Allah yoxdur. Onun öyrədən kahini
və Qanunu da yoxdur. 4 Ancaq ağır
günlərində İsrailin Allahı Rəbbə qayıdıb
Onu axtaranda O Özünü onlara göstərdi.
5 O vaxtlar gedib-gəlmək təhlükəli idi.
Çünki bütün ölkələrin əhalisi böyük
həyəcana düşmüşdü. 6 Millət millətə
qarşı, şəhər şəhərə qarşı vuruşurdu.
Çünki Allah onları hər cür bəla ilə
çaşqınlığa salmışdı. 7 Ancaq siz möhkəm
olun və əllərniz gücdən düşməsin,
çünki işiniz üçün mükafat alacaqsınız».
8 Asa bu sözləri və peyğəmbər Odedin
peyğəmbərliyini eşitdikdə cəsarətə gəlib
bütün Yəhuda və Binyamin torpağından,
Efrayimin dağlıq bölgəsində olan aldığı
şəhərlərdən iyrənc bütləri götürüb
atdı, Rəbbin eyvanı önündə olan
Rəbbin qurbangahını təmir etdi.
9 Bütün Yəhudalıları və Binyaminliləri,
onların arasında yaşayan Efrayimliləri,
Menaşşeliləri və Şimeonluları bir yerə
yığdı. Allahı Rəbbin onunla birgə
olduğunu gördükdə çoxlu İsrailli
onun tərəfinə keçmişdi. 10 Asanın
padşahlığının on beşinci ilinin üçüncü
ayında onlar Yerusəlimə toplandılar.
11 O gün gətirdikləri qənimətdən yeddi
yüz baş mal-qara və yeddi min baş
qoyun-keçi Rəbbə qurban etdilər.
12 Atalarının Allahı Rəbbi bütün ürəkləri
ilə və bütün canları ilə axtarmaq üçün
əhd etdilər. 13 İstər kiçik ya böyük,
istərsə də kişi ya qadın olsun, İsrailin
Allahı Rəbbi axtarmayan hər kəs
öldürülməli idi. 14 Borular və şeypurlar
çalaraq bağırtı və yüksək səslə Rəbbə
and içdilər. 15 Bu anda görə bütün
Yəhudalılar sevindi, çünki bütün
ürəkləri ilə and içmişdilər, bütün səyləri
ilə Onu axtarmışdılar və O da onlara
Özünü göstərmişdi. Rəbb onlara hər
tərəfdən dinclik vermişdi.
16 Padşah Asa nənəsi Maakanı
mələkəlikdən məhrum etdi, çünki o,
Aşera üçün iyrənc bir büt düzəltmişdi.
Asa onun bütünü kəsdi və toz
edib Qidron vadisində yandırdı.
17 Ancaq İsraildə səcdəgahlar aradan

qaldırılmadı. Lakin Asanın ürəyi
bütün ömrü boyu Rəbbə sadiq idi.
18 O, atasının və özünün təqdis etdiyi
şeyləri – qızılı, gümüşü və qabları
Allahın məbədinə gətirdi. 19 Asanın
padşahlığının otuz beşinci ilinə qədər
müharibə olmadı.

Asa ilə İsrail padşahı Baaşanın müharibəsi

(1Pad. 15:17-22)

16 Asanın padşahlığının otuz
altıncı ilində İsrail padşahı
Baaşa Yəhudaya hücum etdi və Yəhuda
padşahı Asanın yanına gəlib-getmək
istəyənləri buraxmamaq üçün Rama
şəhərini tikdi. 2 Asa Rəbbin məbədinin
və padşah sarayının xəzinələrindən
qızıl-gümüşü götürdü və onları
Dəməşqdə yaşayan Aram padşahı
Ben-Hadada bu xəbərlə göndərdi:
3 «Sənin atanla mənim atam arasında
saziş var idi, qoy bizim aramızda
da saziş olsun. Sənə qızıl-gümüş
göndərdim, get İsrail padşahı Baaşa ilə
olan sazişini poz ki, torpağımdan geri
çəkilsin». 4 Ben-Hadad padşah Asaya
qulaq asdı və qoşun başçılarını İsrail
şəhərlərinin üstünə göndərdi. Onun
qoşunları İyona, Dana, Avel-Mayimə və
Naftalinin bütün anbar şəhərlərinə zərbə
vurdu. 5 Baaşa bunu eşitdikdə Ramanı
tikməyi dayandırdı və işini buraxdı.
6 Padşah Asa bütün Yəhudalıları yanına
yığdı. Onlar Ramada Baaşanın tikməkdə
olduğu yerlərin daşlarını və dirəklərini
daşıdı. Bunlarla Gevanı və Mispanı
tikdi.
7 O vaxt görücü Xanani Yəhuda
padşahı Asanın yanına gəlib ona dedi:
«Madam ki Allahın Rəbbə deyil, Aram
padşahına güvəndin, buna görə də
Aram padşahının ordusu sənin əlindən
qaçıb qurtardı. 8 Kuşlular və Luvlular
çoxlu süvari və döyüş arabaları ilə çox
böyük bir ordu deyildimi? Rəbb Ona
güvəndiyin üçün onları sənə təslim
etdi. 9 Çünki Rəbbin gözləri yer üzünü
seyr edir ki, ürəyi bütünlüklə Onunla
olanları qüvvətləndirsin. Ağılsızlıq
etdin. İndidən sənə müharibə olacaq».
10 Asa görücüyə qəzəbləndi və onu
işgəncə zindanına atdı, çünki bunun
üçün ona hiddətlənmişdi. O vaxt Asa
xalqdan bəzilərinə zülm etdi.

Asanın padşahlığının sonu

(1Pad. 15:23-24)

11 Asanın işləri, ilk işlərindən
son işlərinə qədər Yəhuda və İsrail
padşahlarının kitabında yazılmışdır.
12 Padşahlığının otuz doqquzuncu
ilində Asa ayaqlarından xəstələndi,
xəstəliyi get-gedə ağırlaşdı. Həm də
xəstə olduqda Rəbbi deyil, ancaq
həkimləri axtardı. 13 Asa padşahlığının
qırx birinci ilində ölüb ataları ilə uyudu.
14 Onu Davudun şəhərində özü üçün
qazdığı qəbirdə basdırdılar və onu gözəl
ədviyyat və hər cür qatışmış ətriyyatla
dolu yatağa qoydular. Onun xatirinə
böyük bir tonqal yandırdılar.

Yəhuda padşahı Yehoşafat

17 Onun yerinə oğlu Yehoşafat
padşah oldu və İsrailə qarşı
özünü möhkəmləndirdi. 2 Yəhudanın
hər qalalı şəhərinə qoşun qoydu və
Yəhuda torpağına və atası Asanın aldığı
Efrayim şəhərlərinə hərbi dəstələr
yerləşdirdi. 3 Rəbb Yehoşafatla idi,
çünki atası Davudun əvvəlki yolları
ilə getdi və Baal bütlərini deyil,
4 yalnız atasının Allahını axtardı və
İsraillilərin etdiyi işlərə görə deyil,
Allahın əmrləri ilə getdi. 5 Rəbb
padşahlığı onun əlində möhkəmləndirdi
və bütün Yəhudalılar Yehoşafata xərac
gətirdilər. Onun bol sərvəti və şərəfi
vardı. 6 Rəbbin yollarında cəsarətləndi.
Üstəlik səcdəgahları və Aşera bütlərini
Yəhudadan götürdü.

7 Padşahlığının üçüncü ilində Yəhuda
şəhərlərində xalqa təlim versinlər
deyə bunları göndərdi: rəisləri olan
Ben-Xayil, Avdiya, Zəkəriyyə, Natanel
və Mikeya. 8 Onlarla bərabər Levililər:
Şemaya, Netanya, Zevadya, Asahel,
Şemiramot, Yonatan, Adoniya, Toviya,
Tov-Adoniya və onlarla birgə kahinlər:
Elişama və Yehoram. 9 Onlar Yəhudada
xalqa təlim verdilər. Yanlarında Rəbbin
Qanun kitabı olmaqla Yəhudanın
bütün şəhərlərini dolaşdılar və xalqı
öyrətdilər.
10 Yəhuda ətrafında olan bütün
ölkələrin padşahlıqları üzərinə Rəbbin
qorxusu düşdü və Yehoşafata qarşı
müharibə etmədilər. 11 Filiştlilərdən
bəzisi Yehoşafata hədiyyə və xərac
olaraq gümüş gətirdi. Ərəblər də ona
qoyun-keçi – yeddi min yeddi yüz
qoç və yeddi min yeddi yüz təkə
gətirdi. 12 Yehoşafat get-gedə əzəmət
qazandı. Yəhudada qalalar və anbar
şəhərləri tikdi. 13 Yəhuda şəhərlərində
çoxlu ehtiyatları vardı. Yerusəlimdə
igid döyüşçülər olan əsgərləri vardı.
14 Nəsillərinə görə onların siyahısı
bu idi: Yəhudadan minbaşılar: başçı
Adna və onunla bərabər üç yüz min
igid döyüşçü; 15 onun yanında başçı
Yehoxanan və onunla birgə iki yüz
səksən min nəfər; 16 onun yanında
könüllü olaraq Rəbbin işini boynuna
götürən Zikri oğlu Amasya və onunla
birgə iki yüz min igid döyüşçü;
17 Binyamindən igid bir döyüşçü olan
Elyada və onunla bərabər ox-kaman və
qalxanla silahlanmış iki yüz min nəfər,
18 onun yanında Yehozavad və onunla
döyüşə hazır olan yüz səksən min nəfər.
19 Bunlar padşahın bütün Yəhudadakı
qalalı şəhərlərə qoyduğu döyüşçülərdən
əlavə ona xidmət edənlər idi.

Yehoşafat, Axav və peyğəmbər Mikeya

(1Pad. 22:1-28)

18 Yehoşafatın bol sərvəti və
şərəfi vardı. O, Axavla qohum
və müttəfiq oldu. 2 Bir neçə il sonra
Samariyaya Axavın yanına gəldi. Axav
onun üçün və onunla bərabər olan xalq
üçün çoxlu qoyun-keçi və mal-qara
kəsdi, onu Ramot-Gileada qalxmağa
təhrik etdi. 3 İsrail padşahı Axav Yəhuda
padşahı Yehoşafata dedi: «Sən mənimlə
birgə Ramot-Gileada gedirsənmi?»
Yehoşafat ona dedi: «Məni özün kimi,
xalqımı xalqın kimi hesab elə, səninlə
bərabər vuruşarıq».
4 Yehoşafat yenə İsrail padşahına
dedi: «Əvvəlcə görək Rəbbin sözü
nədir?» 5 İsrail padşahı dörd yüz
peyğəmbəri topladı və onlara dedi:
«Vuruşmaq üçün Ramot-Gileada gedim
ya getməyim?» Onlar dedi: «Get,
Allah onu padşaha təslim edəcək».
6 Yehoşafat dedi: «Burada olanlardan
başqa Rəbbin bir peyğəmbəri yoxdur
ki, ondan soruşaq?» 7 İsrail padşahı
Yehoşafata dedi: «Rəbdən soruşmaq
üçün bir nəfər də var: İmla oğlu
Mikeya. Ancaq mənim ondan zəhləm
gedir, çünki həmişə yaxşılığıma deyil,
pisliyimə peyğəmbərlik edir». Yehoşafat
dedi: «Qoy padşah belə söyləməsin».
8 İsrail padşahı bir saray xidmətçisini
çağırıb dedi: «Tez İmla oğlu Mikeyanı
buraya gətir». 9 İsrail padşahı və
Yəhuda padşahı Yehoşafat Samariya
darvazalarının girəcəyindəki meydanda
şahlıq libası geyinib oturmuşdu.
Hər biri öz taxtında oturmuşdu və
bütün peyğəmbərlər onların önündə
peyğəmbərlik edirdi. 10 Kenaana
oğlu Sidqiya özünə dəmir buynuzlar
düzəldib dedi: «Rəbb belə deyir:
“Aramlıları qırıb qurtarana qədər onları
beləcə buynuzlayacaqsan”». 11 Bütün

peyğəmbərlər də peyğəmbərlik edərək
deyirdilər: «Ramot-Gileada get, qalib
gələcəksən, Rəbb onu padşaha təslim
edəcək».
12 Mikeyanı çağırmaq üçün gedən
qasid ona dedi: «İndi peyğəmbərlər
padşaha bir ağızdan xoş sözlər deyir.
Sənin sözün də onlardan birinin
sözü kimi olsun və yaxşılığa danış».
13 Mikeya dedi: «Var olan Rəbbə and
olsun ki, Allahım mənə nə desə, onu
söyləyəcəyəm». 14 O, padşahın yanına
gəldi və padşah ona dedi: «Mikeya,
vuruşmaq üçün Ramot-Gileada gedək,
yoxsa getməyək?» Mikeya ona dedi:
«Gedin, qalib gələcəksiniz, onlar sizə
təslim ediləcək». 15 Padşah ona dedi:
«Səni neçə dəfə and içdirim ki, mənə
Rəbbin adı ilə həqiqətdən başqa bir şey
söyləməyəcəksən?» 16 [x]Mikeya dedi:
«Mən bütün İsrailliləri təpələr üstündə
çobanı olmayan sürü kimi səpələnmiş
gördüm. Rəbb dedi: “Onların ağası
yoxdur. Qoy hər biri salamat öz
evinə qayıtsın”». 17 İsrail padşahı
Yehoşafata dedi: «Sənə deməmdimmi
o mənim yaxşılığıma deyil, pisliyimə
peyğəmbərlik edəcək?» 18 Mikeya
dedi: «Onda Rəbbin sözünü eşit. Mən
Rəbbi Öz taxtında oturmuş və bütün
göylər ordusunu Onun sağında və
solunda durmuş gördüm. 19 Rəbb dedi:
“Ramot-Gileada gedib həlak olması
üçün Axavı kim tovlayacaq?” Biri
elə dedi, o biri belə. 20 Bir ruh irəli
çıxıb Rəbbin önündə dayandı və dedi:
“Mən onu tovlayaram”. Rəbb ona dedi:
“Necə?” 21 O dedi: “Mən çıxıb bütün
peyğəmbərlərin ağzında yalançı bir
ruh olaram”. Rəbb dedi: “Sən onu
tovlayacaqsan, bunu bacarırsan, get
və belə elə”». 22 Mikeya davam etdi:
«İndi, budur, Rəbb sənin bütün bu
peyğəmbərlərinin ağzına yalançı bir
ruh qoyub. Beləcə Rəbb başına bəla
gətirməyi qərara aldı».
23 Kenaana oğlu Sidqiya yaxınlaşdı
və Mikeyanın yanağına vurub dedi:
«Rəbbin Ruhu səndə danışmaq üçün
məndən sənə hansı yolla keçdi?»
24 Mikeya dedi: «Sən gizlənmək üçün iç
otağa girdiyin gün bunu biləcəksən».
25 İsrail padşahı dedi: «Mikeyanı
götürün, onu şəhər rəisi Amonun və
padşahın oğlu Yoaşın yanına göndərin.
26 Onlara söyləyin ki, padşah belə deyir:
“Bu adamı zindana atın və mən salamat
qayıdana qədər ona çox az çörək və
su verərək zülm edin”». 27 Mikeya
dedi: «Əgər sən salamat qayıtsan, Rəbb
mənim vasitəmlə danışmayıb». Sonra
dedi: «Ey camaat, hamınız eşidin!»

Axavın ölümü

(1Pad. 22:29-35)

28 İsrail padşahı və Yəhuda padşahı
Yehoşafat Ramot-Gileada getdi. 29 İsrail
padşahı Yehoşafata dedi: «Mən qiyafəmi
dəyişib döyüşə girəcəyəm, ancaq
sən öz şahlıq libasını gey». İsrail
padşahı qiyafəsini dəyişib döyüşə girdi.
30 Aram padşahı öz döyüş arabalarının
başçılarına «nə kiçiklə, nə də böyüklə
vuruşun, yalnız İsrail padşahı ilə döyüşə
girin» deyə əmr etmişdi. 31 Döyüş
arabalarının başçıları Yehoşafatı
görəndə dedi: «İsrail padşahı budur».
Dönüb onunla vuruşmağa getdilər.
Yehoşafat çığırdı. Rəbb ona yardım
etdi, Allah onları onun yanından geri
çəkdi. 32 Döyüş arabalarının başçıları
onun İsrail padşahı olmadığını görəndə
onun ardından geri qayıtdılar. 33 Bir
adam nişan almadan kaman çəkib
İsrail padşahını zirehlərin birləşdiyi
yerdən vurdu. Padşah arabaçısına
dedi: «Dön və məni döyüşdən çıxar,
çünki yaralanmışam». 34 O gün döyüş

---

[x]**18:16** Say. 27:17; Yez. 34:5; Zək. 10:2; Mat. 9:36; Mark 6:34

qızışdı. İsrail padşahı axşamacan öz
döyüş arabasında Aramlıların önündə
söykənib dayandı. Günəş batmaqda
ikən o öldü.

19 Yəhuda padşahı Yehoşafat
Yerusəlimə, evinə salamat
qayıtdı. [2] Xanani oğlu görücü Yehu
onun önünə çıxdı və padşah Yehoşafata
dedi: «Pis adama kömək etmək və
Rəbbə nifrət edənləri sevmək sənə lazım
idimi? Bundan ötrü Rəbbin qəzəbi sənin
üzərindədir. [3] Lakin sənin yaxşı işlərin
də var: Aşera bütlərini ölkədən yox
etdin və öz ürəyini Allahı axtarmaq
üçün hazırladın».

Yehoşafatın hakimləri

[4] Yehoşafat Yerusəlimdə yaşadı.
Təkrar Beer-Şevadan Efrayimin dağlıq
bölgəsinə qədər xalq arasında gəzdi
və onları atalarının Allahı Rəbbə tərəf
döndərdi. [5] Ölkəyə, Yəhudanın bütün
qalalı şəhərlərinə hakimlər – hər şəhərə
bir hakim qoydu. [6] O, hakimlərə dedi:
«Baxın ki nə edirsiniz, çünki insan üçün
deyil, Rəbb üçün hakimlik edirsiniz və
hakimlik işində O sizinlədir. [7] İndi sizin
üzərinizdə Rəbb qorxusu olsun. Ehtiyat
edin, çünki Allahımız Rəbdə haqsızlıq,
tərəfkeşlik, rüşvətxorluq yoxdur».
[8] Yehoşafat Rəbbin hakimliyinə və
mübahisəli işlər üçün Yerusəlimə də
bəzi Levililəri, kahinləri və İsrailin nəsil
başçılarını təyin etdi. Onlar Yerusəlimə
qayıdanda [9] padşah onlara əmr edib
dedi: «Rəbb qorxusu ilə, sədaqətlə
və bütün ürəklə belə edin: [10] öz
şəhərlərində yaşayan qohumlarınızdan
sizə gələcək hər mübahisəli iş üçün,
istər qan işi olsun, istərsə də qanun,
əmr, qayda və hökm barədə olsun,
onlara xəbərdarlıq edin ki, Rəbbin
qarşısında təqsirkar olmasınlar və Onun
qəzəbi sizin və qohumlarınızın üzərinə
gəlməsin. Belə etməklə siz təqsirkar
olmayacaqsınız. [11] Budur, Rəbbin hər
işi üçün başçı kahin Amarya, padşahın
hər işi üçün isə Yəhudanın qəbilə rəisi
İsmail oğlu Zevadya başçınız olacaq,
önünüzdə də Levililər məmur olacaq.
Cəsarətlə davranın. Rəbb yaxşılıq
edənlərlə olsun».

Yehoşafat Moavlıları və Ammonluları məğlub edir

20 Bundan sonra Moavlılar və
Ammonlular, onlarla bərabər
Maonlulardan bəzisi Yehoşafata qarşı
döyüşmək üçün gəldi. [2] Adamlar gəldi
və Yehoşafata bildirib dedi: «Dənizin
o biri tərəfindən, Aramdan sənə qarşı
böyük bir izdiham gəlir. İndi onlar
Xaseson-Tamardadır. Bura En-Gedidir».
[3] Yehoşafat qorxdu və üzünü Rəbbi
axtarmağa döndərdi və bütün Yəhuda
üçün oruc elan etdi. [4] Yəhudalılar
Rəbdən kömək diləmək üçün toplandı,
Yəhudanın bütün şəhərlərindən də
Rəbbi axtarmaq üçün gəldilər.
[5] Yehoşafat Rəbbin məbədində,
yeni həyətin qabağında, Yəhuda və
Yerusəlim camaatının önündə durub
dedi: [6] «Ya Rəbb, atalarımızın Allahı,
göylərdə olan Allah Sən deyilsənmi?
Bütün millətlərin padşahlıqları üzərinə
hakim olan Sən deyilsənmi? Qüdrətlə
qüvvət Sənin əlindədir və heç kim Sənə
qarşı dura bilməz. [7] [y]Ey Allahımız, bu
torpaqda yaşayanları xalqın İsrailin
önündə qovan və onu dostun İbrahimin
nəslinə əbədi olaraq verən Sən
deyilsənmi? [8] Orada məskən saldılar,
orada Sənin adına müqəddəs bir məbəd
tikdilər və dedilər: [9] "Əgər üzərimizə
bəla, cəza qılıncı, vəba və ya aclıq
gələrsə, adın bu məbəddə olduğuna görə
bu məbədin önündə, yəni Sənin önündə
də duracağıq və çətin günlərdə Sənə

---

[y] **20:7** Yeş. 41:8; Yaq. 2:23

fəryad edəcəyik, onda Sən eşidəcəksən
və xilas edəcəksən”.
10 [z]İndi bax Ammonlular, Moavlılar,
Seir dağının sakinləri nə edir! Misirdən
gələrkən İsrailliləri onların torpağına
girməyə qoymadın, İsraillilər də dönüb
onları məhv etmədi. 11 Budur, bizə
irs olaraq verdiyin Sənin mülkündən
bizi qovmağa gələrək əvəzini necə
ödəyirlər. 12 Ey Allahımız, onlara hökm
etməyəcəksənmi? Çünki üzərimizə
gələn bu böyük qoşuna qarşı gücümüz
yoxdur və biz nə edəcəyimizi bilmirik,
ancaq gözlərimiz Sənin üzərindədir».
13 Bütün Yəhudalılar uşaqları,
qadınları və oğulları ilə birgə Rəbbin
önündə durmuşdu. 14 Camaatın
arasında olanda Asəf nəslindən olan
bir Levili, Mattanya oğlu Yeiel oğlu
Benaya oğlu Zəkəriyyə oğlu Yaxazielin
üzərinə Rəbbin Ruhu gəldi. 15 [a]O
dedi: «Bütün Yəhudalılar, Yerusəlimdə
yaşayanlar və sən padşah Yehoşafat,
yaxşı dinləyin! Rəbb sizə belə deyir:
“Bu böyük qoşundan qorxmayın və
ruhdan düşməyin, çünki döyüş sizin
deyil, ancaq Allahındır. 16 Sabah onlara
qarşı enin: budur, onlar Sis yoxuşu ilə
qalxır və onları vadinin sonunda, Yeruel
çölünün önündə tapacaqsınız. 17 Bu
səfərdə döyüşmək sizə lazım olmayacaq.
Ey Yəhudalılar və Yerusəlimlilər, səf
bağlayıb durun, sizinlə bərabər olan
Rəbbin xilasını görün. Qorxmayın
və ruhdan düşməyin. Sabah onların
qarşısına gedin və Rəbb sizinlə olacaq”».
18 Yehoşafat üzüstə yerə qapandı
və bütün Yəhudalılar və Yerusəlimdə
yaşayanlar Rəbbə səcdə etmək üçün
Rəbbin önündə yerə qapandı. 19 Qohat
və Qorah nəsillərindən olan Levililər
ayağa qalxıb İsrailin Allahı Rəbbə
yüksək səslə şükür etdilər.
20 Onlar səhər tezdən qalxdı və
Teqoa çölünə çıxdılar. Çıxdıqları zaman
Yehoşafat durub dedi: «Ey Yəhuda
və Yerusəlimdə yaşayanlar, məni
dinləyin: Allahınız Rəbbə inanın, onda
qorunacaqsınız, Onun peyğəmbərlərinə
inanın və uğur qazanacaqsınız».
21 Xalqla məsləhət etdikdən sonra
Rəbbə ilahi oxuyanları irəli qoydu ki,
ordusunun önündə gedərək müqəddəs
calalına həmd edib oxusunlar: «Rəbbə
şükür edin, çünki Onun məhəbbəti
əbədidir».
22 Tərənnümlə həmdə başladıqları
zaman Yəhudaya gələn Ammonlulara,
Moavlılara və Seir dağının sakinlərinə
qarşı Rəbb pusqu qurdu və onlar qırıldı.
23 Çünki Ammonlularla Moavlılar Seir
dağının sakinlərini qırıb tamam yox
etmək üçün onlara qarşı qalxdı və Seir
sakinlərini qırandan sonra bir-birlərini
məhv etməyə başladı.
24 Yəhudalılar çölə baxan gözətçi
yerinə çatdıqda qoşuna baxıb yerə
yıxılmış meyitlər gördülər. Sağ qalan
yox idi. 25 Yehoşafat və onun xalqı
onların qənimətini götürməyə gəldi,
onların arasında çoxlu mallar, paltarlar
və qiymətli şeylər tapdılar. Bunlardan
o qədər yığdılar ki, daşıya bilmədilər.
Qənimət o qədər çox idi ki, onu üç
gün yığdılar. 26 Dördüncü gün Beraka
[*]vadisində Rəbbə həmd etmək üçün
toplandılar. Bundan ötrü o yerin
adını Beraka vadisi qoydular və
bu günə qədər də belədir. 27 Bütün
Yəhuda və Yerusəlim xalqı Yehoşafatın
başçılığı altında sevinclə Yerusəlimə
qayıtdı, çünki Rəbb düşmənlərini
məhv edərək onları sevindirmişdi.
28 Çənglər, liralar və kərənaylar
çalaraq Yerusəlimə, Rəbbin məbədinə
gəldilər. 29 İsrailin düşmənlərinə

[*]**20:26** *Beraka* – ibrani dilində *həmd* və *bərəkət.*

[z]**20:10** Qanun. 2:4-19 [a]**20:15** Qanun. 20:1-4

qarşı Rəbbin döyüşdüyünü eşitdikdə
bütün ölkələrdəki padşahlar üzərinə
Allahın qorxusu düşdü. 30 Yehoşafatın
padşahlığında isə əmin-amanlıq oldu,
çünki Allahı ona hər tərəfdən dinclik
verdi.

Yehoşafatın padşahlığının sonu

(1Pad. 22:41-50)

31 Yehoşafat Yəhuda üzərində
padşahlıq etdi. Padşah olduğu zaman
otuz beş yaşında idi. O, Yerusəlimdə
iyirmi beş il padşahlıq etdi. Anasının
adı Şilxi qızı Azuva idi. 32 O, atası
Asanın yolu ilə getdi və Rəbbin gözündə
doğru olan işlər edərək bunlardan
kənara çıxmadı. 33 Ancaq səcdəgahlar
aradan qaldırılmadı və xalqın ürəyi
hələ atalarının Allahı Rəbbə tərəf
yönəlməmişdi.
34 Yehoşafatın qalan işləri, ilk
işlərindən son işlərinə qədər İsrail
padşahlarının kitabına daxil olan
Xanani oğlu Yehunun tarix kitabında
yazılmışdır.
35 Ondan sonra Yəhuda padşahı
Yehoşafat pis işlər görən İsrail padşahı
Axazya ilə razılığa gəldi. 36 Tarşişə
getməyə gəmilər düzəltmək üçün onunla
razılaşdı və gəmiləri Esyon-Geverdə
düzəltdilər. 37 Mareşadan olan
Dodavın oğlu Eliezer Yehoşafata qarşı
peyğəmbərlik edib dedi: «Axazya ilə
razılığa gəldiyin üçün Rəbb sənin
işlərini pozdu». Gəmilər parçalandı və
Tarşişə gedə bilmədilər.

Yəhuda padşahı Yehoram

(2Pad. 8:17-24)

21 Yehoşafat ataları ilə uyudu və
Davudun şəhərində, atalarının
yanında basdırıldı. Onun yerinə
oğlu Yehoram padşah oldu. 2 Onun
qardaşları, Yehoşafatın oğulları bunlar
idi: Azarya, Yexiel, Zəkəriyyə, Azarya,
Mikael və Şefatya. Bunların hamısı
İsrail padşahı Yehoşafatın oğulları
idi. 3 Ataları onlara çoxlu hədiyyələr
– qızıl, gümüş və qiymətli şeylər,
bunlarla bərabər Yəhudada olan qalalı
şəhərlər verdi. Padşahlığı isə Yehorama
verdi, çünki o, ilk oğul idi. 4 Yehoram
atasının padşahlıq taxtına çıxıb
möhkəmləndikdə bütün qardaşlarını və
İsrail rəislərindən bəzisini də qılıncdan
keçirdi. 5 Yehoram padşah olduğu vaxt
otuz iki yaşında idi və Yerusəlimdə
səkkiz il padşahlıq etdi. 6 Axav nəslinin
etdiyi kimi o da İsrail padşahlarının
yolu ilə getdi, çünki Axavın qızı onun
arvadı idi. Yehoram Rəbbin gözündə pis
olan işlər etdi. 7 [b]Ancaq Rəbb Davudla
etdiyi əhddən ötrü Davudun sülaləsini
məhv etmək istəmədi. Çünki Davuda
və onun nəslinə əbədi olaraq bir çıraq
verəcəyini vəd etmişdi.
8 [c]Onun dövründə Edomlular üsyan
qaldırıb Yəhudanın əsarəti altından
çıxdılar və özlərinə bir padşah qoydular.
9 Yehoram rəisləri və bütün döyüş
arabaları ilə birgə getdi. Gecə ikən
qalxıb onu hər tərəfdən əhatə edən
Edomluları və araba rəislərini qırdı.
10 Beləcə Edomlular üsyan qaldırdı, bu
günə qədər də Yəhudanın əsarəti altında
deyil. Həmin vaxt Livnalılar da üsyan
qaldırıb onun əsarəti altından çıxdılar,
çünki Yehoram atalarının Allahı Rəbbi
tərk etmişdi.
11 O, Yəhuda dağlarında da
səcdəgahlar tikmişdi. Yerusəlimdə
yaşayanları da xəyanətə təhrik edib
Yəhudanı da yoldan azdırmışdı. 12 Ona
peyğəmbər İlyasdan bu məktub gəldi:

«Atan Davudun Allahı Rəbb belə
deyir: “Atan Yehoşafatın və Yəhuda
padşahı Asanın yolları ilə deyil,
13 ancaq İsrail padşahlarının yolu

---

[b]**21:7** 1Pad. 11:36; 2Pad. 8:19; Zəb. 132:17 [c]**21:8** Yar. 27:40

ilə getdin, Axav nəslinin etdiyi
kimi Yəhudanı və Yerusəlimdə
yaşayanları xəyanətə təhrik
etdin. Həm də atanın nəslindən
qardaşlarını, səndən daha yaxşı
olanları öldürdün. 14 Buna görə
də Rəbb sənin xalqına, oğullarına,
arvadlarına və bütün malına böyük
zərbə vuracaq. 15 Sən isə ağır
xəstələnəcəksən, elə bir şiddətli
xəstəlik keçirəcəksən ki, nəticədə
bağırsaqların töküləcək”».
16 Rəbb Yehorama qarşı Filiştlilərin
ruhunu və Kuşluların qonşuluğunda
yaşayan Ərəblərin ruhunu oyandırdı.
17 Onlar Yəhudanın üstünə gəlib oraya
hücum çəkdilər. Padşahın sarayında
tapdıqları bütün malı, onun oğullarını
və arvadlarını apardılar. Oğullarının ən
balacası Axazyadan başqa oğlu qalmadı.
18 Bunların hamısından sonra Rəbb
Yehoramı bağırsaqlarından sağalmaz
bir xəstəliklə vurdu. 19 Onun xəstəliyi
gündən-günə şiddətləndi. Nəhayət,
ikinci ilin sonunda xəstəliyinə görə
bağırsaqları tköküldü və o, şiddətli
ağrılarla öldü. Onun xalqı Yehoramın
ataları üçün tonqal yandırdığı kimi
onun xatirinə yandırmadı. 20 Yehoram
padşah olduğu vaxt otuz iki yaşında idi
və Yerusəlimdə səkkiz il padşahlıq etdi.
Ölümünə heç kəs təəssüf etmədi. Onu
Davudun şəhərində basdırdılar, lakin
padşahların qəbirlərində basdırmadılar.

Yəhuda padşahı Axazya

(2Pad. 8:25-29; 9:21-28)

22 Yerusəlimdə yaşayanlar onun
yerinə ən kiçik oğlu Axazyanı
padşah etdilər, çünki Ərəblərlə birgə
ordugaha girən dəstələr bütün böyükləri
öldürmüşdü. Beləcə Yəhuda padşahı
Yehoramın oğlu Axazya padşah oldu.
2 Axazya padşah olduğu vaxt qırx
iki yaşında idi və Yerusəlimdə bir il
padşahlıq etdi. Anası Omrinin nəvəsi
olub adı Atalya idi. 3 Axazya da Axav
nəslinin yolları ilə getdi, çünki anası ona
pislik etmək öyrədirdi. 4 O da Axav nəsli
kimi Rəbbin gözündə pis olan işlər etdi.
Çünki atasının ölümündən sonra məhvi
üçün bu adamlar onun məsləhətçiləri
oldu. 5 Onların məsləhəti ilə Aram
padşahı Xazaelə qarşı vuruşmaq üçün
İsrail padşahı Axav oğlu Yehoramla
birgə Ramot-Gileada getdi. Aramlılar
Yehoramı yaraladı. 6 [d]Ramot-Gileadda
Aram padşahı Xazaelə qarşı vuruşarkən
aldığı yaraları sağaltmaq üçün İzreelə
qayıtdı. Yəhuda padşahı Yehoram oğlu
Axazya, Axav oğlu Yehoramı görmək
üçün İzreelə gəldi, çünki o yaralı idi.
7 Axazyanın bu yolla məhv olması
Allahdan idi. O, Yehoramın yanına gəldi
və oraya gəlib Axav nəslini yox etmək
üçün Rəbbin məsh etdiyi Nimşi oğlu
Yehuya qarşı Yehoramla birgə çıxdı.
8 Yehu Axav nəslinə hökmü icra edərkən
Yəhuda rəislərini və Axazyanın ona
xidmət edən qardaşı oğullarını tapdı
və onları öldürdü. 9 Axazyanı axtardı
və onu Samariyada gizləndiyi halda
tutdular. Yehunun yanına gətirdilər və
onu öldürdülər. Sonra onu basdırdılar,
çünki dedilər: «Rəbbi bütün ürəyi
ilə axtaran Yehoşafatın oğlu budur».
Beləliklə, Axazyanın nəslində padşahlığı
əldə saxlaya biləcək adam qalmadı.

Yəhuda üzərində Atalyanın hökmranlığı

(2Pad. 11:1-20)

10 Axazyanın anası Atalya oğlunun
öldüyünü görəndə qalxıb Yəhudanın
bütün padşah nəslini məhv etdi.
11 Ancaq padşahın qızı Yehoşeva
öldürülən şahzadələr arasından
Axazyanın oğlu Yoaşı gizlincə apardı

---

[d]**22:6** 2Pad. 9:15-16

və onu dayəsi ilə birgə yataq otağında
yerləşdirdi. Kahin Yehoyadanın
arvadı və padşah Yehoramın qızı olan
Yehoşeva Axazyanın bacısı olduğu üçün
Yoaşı Atalyadan gizlətdi ki, Atalya onu
öldürməsin. 12 Yoaş altı il gizli olaraq
Allahın məbədində onlarla birgə qaldı.
Atalya isə ölkə üzərində padşahlıq etdi.

23 Yeddinci ildə Yehoyada
cəsarətləndi və yüzbaşılar
Yeroxam oğlu Azarya, Yehoxanan
oğlu İsmail, Oved oğlu Azarya,
Adaya oğlu Maaseya və Zikri oğlu
Elişafatla əhd etdi. 2 Onlar Yəhudanı
gəzib oranın bütün şəhərlərindən
Levililəri və İsrailin nəsil başçılarını
topladılar və Yerusəlimə gəldilər.
3 [e]Bütün camaat Allahın məbədində
padşahla əhd bağladı. Yehoyada onlara
dedi: «Padşahın oğlu budur. Davud
oğulları haqqında Rəbbin söylədiyi
kimi padşahlıq edəcək. 4 Siz belə
edin: sizdən Şənbə günü növbə çəkən
kahinlərin və Levililərin üçdə biri
astanada duran qapıçılar olsun, 5 üçdə
biri padşah sarayında və üçdə biri
Bünövrə darvazasında olsun. Bütün xalq
isə Rəbbin məbədinin həyətində olsun.
6 Ancaq kahinlərdən və xidmət edən
Levililərdən başqa Rəbbin məbədinə
heç kəs girməsin, onlar girsin, çünki
müqəddəsdirlər. Bütün xalq isə Rəbbin
buyurduğunu qorusun. 7 Levililər hər
biri silahı əlində padşahı hər tərəfdən
əhatəyə alsınlar, məbədə girən hər kəs
öldürülsün. Onlar padşah girib-çıxdığı
vaxt onunla olsun».

8 Levililərlə bütün Yəhudalılar kahin
Yehoyadanın əmr etdiyi hər şeyi
etdilər. Hər biri öz adamlarını, Şənbə
günü növbə çəkənləri və növbədə
olmayanları götürdü, çünki kahin
Yehoyada bölmələrin heç birini
buraxmamışdı. 9 Kahin Yehoyada
yüzbaşılara Allahın məbədində olan
padşah Davudun nizələrini, qalxanlarını
və sipərlərini verdi. 10 Bütün xalqı
məbədin sağ tərəfindən sol tərəfinə
qədər qurbangahın və məbədin yanında,
padşahın ətrafında qoydu. Hər kəsin
silahı əlində idi. 11 Yehoyada ilə oğulları
şahzadəni irəli çıxartdılar və tacı başına
qoyub şəhadətnaməni ona verdilər. Onu
padşah olmaq üçün məsh etdilər və
«Yaşasın padşah!» dedilər.

12 Atalya qaçışan və padşahı
alqışlayan xalqın səsini eşitdikdə xalqın
yanına, Rəbbin məbədinə gəldi. 13 O
baxıb gördü ki, padşah girəcək yerdə
öz sütununun yanında dayanmışdır və
rəislərlə kərənay çalanlar da padşahın
yanındadır. Bütün ölkə xalqı sevinərək
kərənay çalırdı. İlahiçilər də musiqi
alətləri çalaraq ucadan həmd edirdilər.
Atalya paltarını cırıb bağırdı: «Xəyanət!
Xəyanət!» 14 Kahin Yehoyada qoşun
üçün cavabdeh olan yüzbaşıları çağırıb
dedi: «Onu cərgələrin arasından çıxarın
və dalınca gələn qılıncla öldürülsün».
Çünki kahin «onu Rəbbin məbədində
öldürməyin» demişdi. 15 Atalyanı tutub
sarayın atlar darvazasının girəcək yerinə
gətirdilər və orada onu öldürdülər.

16 Yehoyada özü və bütün xalqla
padşah arasında əhd kəsdi ki,
onlar Rəbbin xalqı olsun. 17 Bütün
xalq Baal məbədinə getdi. Onu
dağıdıb qurbangahlarını və bütlərini
parça-parça etdilər. Baalın kahini
Mattanı da qurbangahların önündə
öldürdülər. 18 Yehoyada Rəbbin
məbədi üzərində məsuliyyəti Davudun
Rəbbin evində bölmələrə ayırdığı
Levili kahinlərə verdi. Davud onları
öz qaydasına görə sevinclə və musiqi
ilə Musanın Qanununda yazıldığı
kimi Rəbbə yandırma qurbanları
təqdim etmək üçün Rəbbin məbədinə

---

[e]**23:3** 2Şam. 7:12

qoymuşdu. 19 Hər hansı yolla natəmiz
bir kəs girməsin deyə Rəbbin məbədinin
qapılarına qapıçılar qoydu. 20 O,
yüzbaşıları, əyanları, xalqın valilərini,
bütün ölkə xalqını özü ilə götürdü.
Onlar padşahı Rəbbin məbədindən
düşürtdülər və yuxarı darvazadan keçib
saraya gəldilər. Padşahı padşahlıq
taxtında oturtdular. 21 Bütün ölkə
xalqı sevindi və şəhər sakitləşdi, çünki
Atalyanı qılıncla öldürmüşdülər.

Yəhuda padşahı Yoaş

(2Pad. 12:1-16)

24 Yoaş padşah olduğu vaxt yeddi
yaşında idi və Yerusəlimdə qırx il
padşahlıq etdi. Anası Beer-Şevadan olub
adı Sivya idi. 2 Yoaş kahin Yehoyadanın
bütün ömrü boyu Rəbbin gözündə
doğru olan işlər etdi. 3 Yehoyada ona
iki arvad aldı. O, oğullar və qızlar atası
oldu.

4 Bundan sonra Yoaş Rəbbin
məbədini bərpa etməyi qərara aldı.
5 Kahinlərlə Levililəri toplayıb onlara
dedi: «Yəhudanın şəhərlərinə çıxın
və Allahınızın məbədini hər il təmir
etmək üçün bütün İsraillilərdən pul
toplayın, bu işi görməyə tələsin».
Ancaq Levililər tələsmədi. 6 [f]Başçı
olan Yehoyadanı padşah çağırdı və
ona dedi: «Rəbbin qulu Musanın və
İsrail camaatının Şəhadət çadırı üçün
qoyduqları vergini Yəhudadan və
Yerusəlimdən gətirmələrini nə üçün
Levililərdən tələb etmədin?» 7 Çünki
o pis qadın Atalyanın oğulları Allahın
məbədini viran etmişdilər və Rəbbin
məbədinin bütün müqəddəs şeylərini də
Baal bütləri üçün işlətmişdilər.

8 Padşah əmr etdi və bir sandıq
düzəldib onu Rəbbin məbədinin
darvazasına, bayır tərəfə qoydular.
9 Allahın qulu Musanın çöldə İsrail
üzərinə qoyduğu vergini Rəbb
üçün gətirsinlər deyə Yəhudada və
Yerusəlimdə elan etdilər. 10 Rəislərlə
bütün xalq sevindi və sandıq dolana
qədər vergini gətirib onun içinə
qoydular. 11 Padşahlığın məmurları
Levililərin onların yanına gətirdikləri
sandığın içində çox pul olduğunu
gördükləri vaxt padşahın mirzəsi ilə
başçı kahinin məmuru gəlib sandığı
boşaldar, sonra onu yenə yerinə
qaytarardılar. Hər gün beləcə etməklə
olduqca çox pul topladılar. 12 Padşahla
Yehoyada onu Rəbbin məbədinin
xidmət işini görənlərə verdilər və
Rəbbin məbədini bərpa etmək üçün
daşyonanları və dülgərləri, Rəbbin
məbədini təmir etmək üçün dəmir
və tunc ustalarını muzdla tutdular.
13 İşçilər işlədilər, təmir işi onların
əlində irəli getdi və Allahın məbədini
qaydasına salıb onu möhkəmləndirdilər.
14 İşi qurtardıqları vaxt yerdə qalan
pulu padşahın və Yehoyadanın önünə
gətirdilər və bununla Rəbbin məbədi
üçün əşyalar – xidmət və yandırma
qurbanları üçün əşyalar, nimçələr, qızıl
və gümüş əşyalar düzəltdilər.

Onlar Yehoyadanın bütün ömrü boyu
daim Rəbbin məbədində yandırma
qurbanları təqdim edərdi.

15 Yehoyada qocalıb yaşa doldu
və öldü. O, öldüyü zaman yüz otuz
yaşında idi. 16 Onu Davudun şəhərində
padşahların yanında basdırdılar, çünki
İsrail üçün və Allahla məbədi üçün
yaxşılıq etmişdi.

17 Yehoyadanın ölümündən sonra
Yəhuda rəisləri gəlib padşaha baş
əydilər. O zaman padşah onlara qulaq
asdı. 18 Xalq atalarının Allahı Rəbbin
məbədini tərk etdi, Aşera bütlərinə və
başqa bütlərə qulluq etdi. Onların bu
günahından ötrü Yəhuda ilə Yerusəlim

---

[f]**24:6** Çıx. 30:11-16

üzərinə qəzəb gəldi. 19 Rəbb onları
Özünə tərəf döndərmək üçün onların
yanına peyğəmbərlər göndərdi və
peyğəmbərlər onlara qarşı şəhadət
etdilər, ancaq xalq qulaq asmadı.
20 [g]Kahin Yehoyadanın oğlu
Zəkəriyyənin üzərinə Allahın Ruhu
gəldi və xalqın arasında çıxış edib
onlara dedi: «Allah belə deyir: nə
üçün Rəbbin əmrlərini pozursunuz?
İşləriniz yaxşı getməz, çünki siz Rəbbi
tərk etdiyiniz kimi O da sizi tərk etdi».
21 Ona qarşı qəsd hazırladılar və onu
padşahın əmri ilə Rəbbin məbədinin
həyətində daşqalaq etdilər. 22 Beləcə
padşah Yoaş Zəkəriyyənin də atası
Yehoyadanın ona etdiyi xeyirxahlığı
yada salmadı və oğlunu öldürdü. O da
ölərkən dedi: «Rəbb görsün və hökm
etsin».
23 O biri ilin əvvəlində Aram ordusu
onun üstünə gəldi. Onlar Yəhudaya və
Yerusəlimə hücum etdilər. Xalqın bütün
rəislərini xalqın arasından götürüb
məhv etdilər və onlardan alınan
bütün qəniməti Dəməşq padşahına
göndərdilər. 24 Aramlılar az qoşunla
gəldikləri halda Rəbb çox böyük
bir ordunu onlara təslim etdi, çünki
xalq atalarının Allahı Rəbdən üz
döndərmişdi. Beləliklə, Yoaşa qarşı
hökmü icra etdilər.
25 Yoaşın yanından getdikləri zaman
onu ağır yaralı vəziyyətdə qoydular.
Onun əyanları kahin Yehoyadanın
oğullarının qanına görə ona qarşı
qəsd hazırladılar və onu yatağında
öldürdülər. Yoaş öldü və onu Davudun
şəhərində basdırdılar, ancaq padşahların
məqbərəsində basdırmadılar. 26 Ona
qarşı qəsd quranlar bunlardır: Ammonlu
qadın Şimatın oğlu Zavad və Moavlı
qadın Şimritin oğlu Yehozavad.
27 Yoaşın oğulları, ona edilən çoxlu
xəbərdarlıq və Allah məbədinin bərpası
barədə padşahların tarix kitabında
yazılmışdır. Onun yerinə oğlu Amasya
padşah oldu.

Yəhuda padşahı Amasya

(2Pad. 14:2-20)

25 Amasya padşah olduğu vaxt
iyirmi beş yaşında idi və
Yerusəlimdə iyirmi doqquz il padşahlıq
etdi. Anası Yerusəlimdən olub adı
Yehoaddan idi. 2 Amasya Rəbbin
gözündə doğru olan işlər etdi, ancaq
bunları bütün ürəyi ilə etmədi.
3 Padşahlıq əlində möhkəmlənəndə
Amasya atasını öldürmüş əyanlarını
öldürdü. 4 [h]Ancaq Musanın Qanun
kitabında yazıldığı kimi qatillərin
oğullarını öldürmədi, çünki Rəbb əmr
edib demişdi: «Oğula görə ata, ataya
görə oğul öldürülməsin, hər kəs öz
günahına görə ölməlidir».
5 Amasya Yəhudalıları topladı,
nəsillərinə görə bütün Yəhudalıları
və Binyaminliləri minbaşıların və
yüzbaşıların başçılığı altında düzdü.
İyirmi yaşda və ondan yuxarı olanları
yığıb onların arasından nizə və sipər
daşıyan, döyüşmək bacaran üç yüz
min adam seçdi. 6 Yüz talant gümüşə
İsraildən yüz min igid döyüşçünü
də muzdla tutdu. 7 Ancaq bir Allah
adamı gəlib ona dedi: «Ey padşah,
qoy İsrail ordusu sənlə bərabər
getməsin, çünki Rəbb İsraillilərlə,
bütün bu Efrayimlilərlə deyil. 8 Əgər
getsən, tək get, döyüşdə cəsarətli ol,
amma Allah səni düşmənin önündə
büdrədəcək, çünki Allahda yardım
etməyə və büdrətməyə qüdrət var».
9 Amasya Allah adamına dedi: «Ancaq
İsrail ordusuna verdiyim yüz talant
üçün nə edim?» Allah adamı dedi:
«Rəbb sənə bundan artığını verə bilər».

---

[g]**24:20** Mat. 23:35; Luka 11:51; İbr. 11:37 [h]**25:4** Qanun. 24:16; Yez. 18:20

10 Amasya Efrayimdən yanına gələn
ordunu yerlərinə getmək üçün ayırdı.
Bundan ötrü Yəhudaya qarşı onların
qəzəbi alovlandı və qızğın qəzəblə
yerlərinə qayıtdılar.
11 Amasya cəsarətləndi və xalqını
götürüb Duz dərəsinə getdi, Seirlilərdən
on min nəfəri qırdı. 12 Yəhudalılar
sağ qalan daha on min nəfəri əsir
aldılar, onları qayanın başına gətirib
oradan aşağı atdılar. Onların hamısı
parça-parça oldu. 13 Ancaq özü ilə birgə
döyüşə getməsinlər deyə Amasyanın
geri göndərdiyi ordunun əsgərləri
Samariyadan Bet-Xorona qədər Yəhuda
şəhərlərinə basqın etdilər. Onlardan üç
min nəfəri qırdılar və qarət olunmuş
çoxlu qənimət ələ keçirdilər.
14 Amasya Edomluları qırıb gəldikdən
sonra Seirlilərin bütlərini gətirib onları
özü üçün allahlar olaraq qoydu. O
bunların önündə səcdə etdi və onlara
buxur yandırdı. 15 Amasyaya qarşı
Rəbbin qəzəbi alovlandı və onun yanına
bir peyğəmbər göndərdi. Bu peyğəmbər
ona dedi: «Nə üçün o xalqın allahlarına
üz tutdun? Onlar öz xalqlarını sənin
əlindən qurtara bilmədilər». 16 Bunu
söyləyərkən Amasya ona dedi: «Məgər
səni padşaha məsləhətçi qoymuşuq?
Sus, ölməkmi istəyirsən?» Peyğəmbər
vaz keçib dedi: «Allahın səni məhv
etməyə qərar verdiyini bilirəm, çünki
bunu etdin və mənim məsləhətimə
qulaq asmadın».
17 Yəhuda padşahı Amasya
məsləhətləşib İsrail padşahı Yehu
oğlu Yehoaxaz oğlu Yoaşın yanına
xəbər göndərib dedi: «Gəl, qarşılaşaq».
18 İsrail padşahı Yoaş Yəhuda padşahı
Amasyaya cavab verib dedi: «Livanda
olan qanqal oradakı sidr ağacına xəbər
göndərib "qızını oğluma arvad olmaq
üçün ver" dedi. Amma Livanda olan bir
çöl heyvanı keçərək qanqalı tapdaladı.
19 Sən "Edomluları qırdım" deyərək
ürəyin qürurlanıb, bununla öyünürsən.
İndi öz evində otur. Nə üçün sən
Yəhudalılarla birlikdə bəlaya düşmək
üçün münaqişəyə atılırsan?»
20 Ancaq Amasya qulaq asmadı. Bu
iş onları Yoaşın əlinə təslim etmək
üçün Allahdan oldu, çünki Amasya
Edomun allahlarına üz tutmuşdu.
21 İsrail padşahı Yoaş çıxıb Yəhuda
padşahı Amasya ilə Yəhudada olan
Bet-Şemeşdə qarşılaşdı. 22 Yəhudalılar
İsraillilərin önündə məğlub oldu və hər
kəs öz evinə qaçdı. 23 İsrail padşahı
Yoaş Yəhuda padşahı Axazya oğlu
Yoaş oğlu Amasyanı Bet-Şemeşdə
tutub onu Yerusəlimə gətirdi. O, şəhər
divarının Efrayim darvazasından Künc
darvazasına qədər dörd yüz qulacını
uçurdu. 24 Bütün qızıl-gümüşü, Allahın
məbədində Oved-Edomun ixtiyarında
olan bütün əşyaları, sarayın xəzinələrini
apardı. Girov olaraq tutduğu adamları
da götürüb Samariyaya qayıtdı.
25 Yəhuda padşahı Yoaş oğlu Amasya
İsrail padşahı Yehoaxaz oğlu Yoaşın
ölümündən sonra on beş il yaşadı.
26 Amasyanın qalan işləri, ilk işlərindən
son işlərinə qədər Yəhuda və İsrail
padşahlarının kitabında yazılmışdır.
27 Amasya Rəbbin yolundan azdığı
vaxtdan başlayaraq Yerusəlimdə ona
qarşı qəsd hazırladılar. O, Lakişə
qaçdı, ancaq Lakişə onun dalınca
adamlar göndərdilər və orada onu
öldürdülər. 28 Onu atlar üstündə gətirib
Yəhuda şəhərində, atalarının yanında
basdırdılar.

26 Bütün Yəhuda xalqı on altı
yaşlı Uzziyanı götürüb atası
Amasyanın yerinə padşah etdi. 2 Padşah
ataları ilə uyuduqdan sonra o, Elatı
Yəhudaya qaytarıb onu tikdi.

Yəhuda padşahı Uzziya

(2Pad. 15:1-7)

3 Uzziya padşah olduğu vaxt on altı
yaşında idi və Yerusəlimdə əlli iki il
padşahlıq etdi. Anası Yerusəlimdən
olub adı Yekolya idi. 4 Uzziya atası
Amasyanın etdiyi kimi Rəbbin gözündə
doğru olan işlər etdi. 5 Allahdan
qorxmağı öyrədən Zəkəriyyənin ömrü
boyu Uzziya Allahı axtarırdı və Rəbbi
axtardığı dövrdə Allah onun işini avand
etdi.
6 O çıxıb Filiştlilərə qarşı döyüşdü
və Qat, Yavne və Aşdod şəhərlərinin
divarlarını yıxdı. Aşdod torpağında
və Filiştlilər arasında şəhərlər tikdi.
7 Filiştlilərə, Qur-Baalda yaşayan
Ərəblərə və Maonlulara qarşı Allah ona
yardım etdi. 8 Ammonlular Uzziyaya
vergi verirdilər. Onun şöhrəti Misirin
girəcəyinə qədər yayıldı, çünki get-gedə
çox güclü oldu.
9 Uzziya Yerusəlimdə Künc və Dərə
darvazaları, divarın küncü üzərində
möhkəm qüllələr düzəltdi. 10 O, çöldə də
qüllələr düzəltdi və çoxlu su anbarı üçün
yer qazdı, çünki yamaclı-düzənlikli
bölgədə və düzənlikdə çoxlu heyvanları
vardı. Dağlarda və Karmeldə əkinçilər
və üzümçülər qoydu, çünki torpağı çox
sevərdi.
11 Uzziyanın döyüşməyi bacaran
ordusunda qayda belə idi. Padşahın
qoşun başçılarından biri olan
Xananyanın nəzarəti altında ordu
mirzə Yeielin və məmur Maaseyanın
düzdüyü dəstələrin saylarına görə
dəstə-dəstə döyüşə çıxardı. 12 Nəsil
başçılarının ümumi sayı iki min altı yüz
nəfər igid döyüşçü idi. 13 Onların əli
altında düşmənə qarşı padşaha yardım
etmək üçün böyük igidliklə döyüşən üç
yüz yeddi min beş yüz nəfərlik hərbi
qüvvə vardı. 14 Uzziya bütün ordu üçün
qalxanlar, nizələr, dəbilqələr, zirehlər,
kamanlar və sapand daşları hazırladı.
15 Yerusəlimdə oxlar və böyük daşlar
atmaq üçün məharətli adamların icad
etdiyi mancanaqlar düzəldib qüllələr və
künclər üzərinə qoydu. Onun şöhrəti
uzaqlara yayıldı, çünki ona möcüzəli
şəkildə kömək olunduğuna görə çox
möhkəmləndi.
16 Ancaq Uzziya qüvvətlənəndə öz
həlakı üçün onun ürəyi qürurlandı.
Allahı Rəbbə qarşı xainlik edərək
buxur qurbangahı üzərində buxur
yandırmaq üçün Rəbbin məbədinə
daxil oldu. 17 Kahin Azarya və onunla
bərabər Rəbbin səksən igid kahini
onun ardınca girdi. 18 [i]Padşah Uzziyaya
qarşı durdular və ona dedilər: «Ey
Uzziya, Rəbbə buxur yandırmaq sənin
işin deyil, buxur yandırmaq üçün
təqdis edilmiş Harun nəslindən olan
kahinlərin işidir, Müqəddəs məkandan
çıx, çünki xainlik etdin və bu iş Rəbb
Allahdan sənə izzət gətirməyəcək».
19 Uzziya qəzəbləndi. Buxur yandırmaq
üçün onun əlində buxurdan vardı.
Kahinlərə qarşı qəzəbləndikdə onların
önündə Rəbbin məbədində, buxur
qurbangahının yanında alnından
cüzama tutuldu. 20 Başçı kahin Azarya
və bütün kahinlər ona baxıb alnından
cüzama tutulduğunu gördülər. Onu
oradan tez bayıra çıxartdılar. Özü də
çıxmağa tələsdi, çünki Rəbb ona bəla
göndərmişdi. 21 Padşah Uzziya ölüm
gününə qədər cüzamlı qaldı. O başqa bir
evdə yaşayırdı, çünki cüzamlı olduğu
üçün Rəbbin məbədindən uzaqlaşdırıldı.
Onun oğlu Yotam isə saray üzərində
olaraq ölkə xalqına hökm edirdi.
22 Uzziyanın qalan işləri barədə, ilk
işlərindən son işlərinə qədər Amots oğlu
peyğəmbər Yeşaya yazmışdır. 23 [j]Uzziya

---

[i] **26:18** Çıx. 30:7-8; Say. 3:10 [j] **26:23** Yeş. 6:1

ataları ilə uyudu və onu padşahların
qəbiristanlığında, atalarının yanında
basdırdılar, çünki «cüzamlıdır» dedilər.
Onun yerinə oğlu Yotam padşah oldu.

Yəhuda padşahı Yotam

(2Pad. 15:32-38)

27 Yotam padşah olduğu vaxt iyirmi
beş yaşında idi və Yerusəlimdə
on altı il padşahlıq etdi. Anası Sadoqun
qızı Yeruşa idi. 2 Yotam atası Uzziyanın
etdiyi kimi Rəbbin gözündə doğru olan
işlər etdi, ancaq Rəbbin məbədinin
böyük otağına girmədi. Xalq hələ də
pozğunluq edirdi.
3 O, Rəbbin məbədinin yuxarı
darvazasını düzəltdi, Ofel divarında
çoxlu tikinti işi gördü. 4 Yəhudanın
dağlıq bölgəsində şəhərlər, meşələrdə
qalalar və qüllələr tikdi. 5 Yotam
Ammonlular padşahına qarşı vuruşdu
və onları məğlub etdi. Ammonlular
ona o il yüz talant gümüş və on min
kor *buğda, on min kor arpa verdi.
İkinci və üçüncü il də Ammonlular ona
bu qədər ödədi. 6 Yotam qüvvətləndi,
çünki Allahı Rəbbin önündə öz yollarını
düzəltmişdi.
7 Yotamın qalan işləri, bütün döyüşləri
və əməlləri barədə İsrail və Yəhuda
padşahlarının kitabında yazılmışdır.
8 O, padşah olduğu vaxt iyirmi beş
yaşında idi və Yerusəlimdə on altı il
padşahlıq etdi. 9 Yotam ataları ilə uyudu
və onu Davudun şəhərində basdırdılar.
Onun yerinə oğlu Axaz padşah oldu.

Yəhuda padşahı Axaz

(2Pad. 16:1-6)

28 Axaz padşah olduğu vaxt iyirmi
yaşında idi və Yerusəlimdə
on altı il padşahlıq etdi. O, babası
Davuddan fərqli olaraq Rəbbin gözündə
doğru olan işlər etmədi. 2 Axaz İsrail
padşahlarının yolları ilə getdi, həm də
Baallar üçün tökmə bütlər düzəltdi.
3 Ben-Hinnom vadisində buxur yandırdı
və Rəbbin İsrail övladları önündən
qovduğu millətlərin iyrənc əməllərini
edərək oğullarını odda yandırdı. 4 O,
səcdəgahlarda, təpələr üzərində və hər
kölgəli ağac altında qurban gətirər və
buxur yandırardı.
5 [k]Bundan ötrü Allahı Rəbb onu Aram
padşahına təslim etdi. Aramlılar onu
məğlub edib çoxlu əsir götürdülər və
onları Dəməşqə gətirdilər. Özü də İsrail
padşahına təslim edildi. O da onu böyük
tələfatla məğlub etdi. 6 Remalya oğlu
Peqah Yəhudada yüz iyirmi min adamı
bir gündə öldürdü, hamısı igid adam
idi. Çünki onlar atalarının Allahı Rəbbi
tərk etmişdi. 7 Efrayimli bir igid olan
Zikri padşahın oğlu Maaseyanı və saray
rəisi Azriqamı, padşahdan sonra ikinci
adam olan Elqananı da öldürdü.
8 İsraillilər öz qohumlarından
qadınlar, oğullar, qızlar, iki yüz min
nəfər əsir götürdü, həm də onlardan
çoxlu qənimət götürüb Samariyaya
apardılar. 9 Ancaq orada Rəbbin
bir peyğəmbəri vardı, adı Oded
idi. O, Samariyaya gələn ordunun
qarşısına çıxdı və onlara dedi: «Budur,
atalarınızın Allahı Rəbb Yəhudaya
qarşı qəzəbləndiyi üçün onları sizə
təslim etdi, siz də göylərə çatan qəzəblə
onları öldürdünüz. 10 İndi Yəhuda və
Yerusəlim xalqını kölə və cariyə olaraq
özünüzə tabe etmək istəyirsiniz. Ancaq
sizin də Allahınız Rəbbə qarşı təqsiriniz
yoxdurmu? 11 İndi mənə qulaq asın!
Qohumlarınızdan aldığınız əsirləri geri
göndərin, çünki Rəbbin qızğın qəzəbi
üzərinizdədir».

---

*27:5 *Kor* – cədvələ bax.

k28:5 2Pad. 16:5; Yeş. 7:1

12 Efrayimlilərin başçılarından olan
Yehoxanan oğlu Azarya, Meşillemot
oğlu Berekya, Şallum oğlu Yexizqiya
və Xadlay oğlu Amasa döyüşdən
gələnlərə qarşı qalxıb dedi: 13 «Əsirləri
buraya gətirməyin, çünki etmək
istədiyiniz şey Rəbbə qarşı üzərimizə
təqsir gətirməklə günahlarımızı və
təqsirlərimizi artıracaq. Onsuz da
təqsirimiz çoxdur və İsrail üzərinə
qızğın qəzəb var». 14 Silahlı əsgərlər
əsirləri və qəniməti rəislərin və bütün
camaatın önünə qoydular. 15 Adları
çəkilən adamlar qalxdı və əsirləri
götürüb onlardan çılpaq olanların
hamısını qənimətdən götürülmüş
paltar və çarıqla geyindirdilər. Onları
yedirib-içirdilər və onlara yağ sürtdülər,
zəif olanların hamısını eşşəklərə
mindirdilər və onları xurma ağacları
şəhəri Yerixoya – qohumlarının
yanına apardılar və sonra Samariyaya
qayıtdılar.

Axazın padşahlığının sonu

(2Pad. 16:7-9)

16 O zaman padşah Axaz özü üçün
kömək istəyərək Aşşur padşahlarına
xəbər göndərdi. 17 Çünki yenə
Edomlular gəlib Yəhudalıları məğlub
edib əsir götürmüşdülər. 18 Filiştlilər
də yamaclı-düzənlikli bölgədə və
Yəhudanın cənubunda olan şəhərlərə
basqın etdilər. Bet-Şemeşi, Ayyalonu,
Gederotu və Soko ilə qəsəbələrini,
Timna ilə qəsəbələrini və Gimzo
ilə qəsəbələrini almışdılar və orada
yaşayırdılar. 19 Beləcə İsrail padşahı
Axazın üzündən Rəbb Yəhudanı
alçaltmışdı, çünki o, Yəhudada azğınlıq
edib Rəbbə qarşı çox xainlik etmişdi.
20 Aşşur padşahı Tiqlat-Pileser onun
üstünə gəlib kömək etmək əvəzinə onu
sıxışdırdı. 21 Axaz Rəbbin məbədindən,
saraydan və rəislərin evlərindən pay
toplayıb onu Aşşur padşahına vermişdi.
Ancaq bu ona kömək etmədi.
22 Bu padşah Axaz sıxıntılı vaxtında
Rəbbə qarşı xainliyi artırdı. 23 Onu
məğlub edən Dəməşqlilərin bütlərinə
qurban kəsdi və dedi: «Madam ki
Aram padşahlarının allahları onlara
kömək etdilər, mən də onlara qurban
kəsəcəyəm ki, mənə də kömək etsinlər».
Ancaq bunlar onun və bütün İsrailin
büdrəməsinə səbəb oldu. 24 Axaz
Allahın məbədinin əşyalarını yığıb
parçaladı və Rəbbin məbədinin
qapılarını bağladı. Yerusəlimin hər
küncündə özü üçün qurbangahlar,
25 Yəhudanın hər şəhərində başqa
allahlara buxur yandırmaq üçün
səcdəgahlar düzəltdi. Beləcə atalarının
Allahı Rəbbi qəzəbləndirdi.
26 Onun qalan işləri və bütün əməlləri,
ilk işlərindən son işlərinə qədər Yəhuda
və İsrail padşahlarının kitabında
yazılmışdır. 27 [l]Axaz ataları ilə uyudu
və onu Yerusəlim şəhərində basdırdılar.
Onu İsrail padşahlarının qəbirlərinə
qoymadılar. Onun yerinə oğlu Xizqiya
padşah oldu.

Yəhuda padşahı Xizqiya

(2Pad. 18:1-3)

29 Xizqiya padşah olduğu vaxt
iyirmi beş yaşında idi və
Yerusəlimdə iyirmi doqquz il padşahlıq
etdi. Anası Zəkəriyyə qızı Aviya idi.
2 Xizqiya babası Davudun etdiyi kimi
Rəbbin gözündə doğru olan işlər etdi.

Məbədin təmizlənməsi

3 Xizqiya padşahlığının birinci
ilində, birinci ayda Rəbbin məbədinin
qapılarını açdı və onları təmir etdi.
4 Kahinləri və Levililəri içəri çağırdı,
onları şərq meydanına topladı.

---

[l] **28:27** Yeş. 14:28

5 Xizqiya onlara dedi: «Ey Levililər,
məni dinləyin! İndi özünüzü və
atalarınızın Allahı Rəbbin məbədini
təqdis edin və müqəddəs yerdən
murdar şeyləri çıxarın. 6 Atalarımız
Rəbbin gözündə xainlik və pis olan
işlər edib Onu tərk etdilər. Rəbbin
məskənindən üz döndərib Ona
arxa çevirdilər. 7 Eyvanın qapılarını
bağladılar, çıraqları söndürdülər,
İsrail Allahının müqəddəs yerində
buxur yandırmadılar və yandırma
qurbanları gətirmədilər. 8 Yəhuda
və Yerusəlim üzərinə Rəbbin qəzəbi
gəldi və gözlərinizlə gördüyünüz kimi
onları dəhşət, heyrət və təhqir hədəfinə
çevirdi. 9 Ona görə də atalarımız qılıncla
öldürülmüş, oğullarımız, qızlarımız və
arvadlarımız əsirlikdədir. 10 İndi isə
İsrailin Allahı Rəbb ilə əhd bağlamağı
ürəyimə qoydum ki, Öz qızğın qəzəbini
bizdən döndərsin. 11 Oğullarım, laqeyd
olmayın, çünki Rəbb sizi seçib ki, Onun
önündə xidmət edəsiniz və Onun buxur
yandıran xidmətçiləri olasınız».
12 Levililərdən bu adamlar qalxdı:
Qohat nəslindən Amasay oğlu Maxat
və Azarya oğlu Yoel; Merari nəslindən
Avdi oğlu Qiş və Yehallelel oğlu Azarya;
Gerşon nəslindən Zimma oğlu Yoah və
Yoah oğlu Eden; 13 Elisafan nəslindən
Şimri və Yeiel; Asəf nəslindən Zəkəriyyə
və Mattanya; 14 Heman nəslindən Yexiel,
Şimeyi və Yedutun nəslindən Şemaya
və Uzziel. 15 Onlar qohumlarını topladı
və özlərini təqdis etdi. Padşahın əmr
etdiyi kimi Rəbbin sözünə görə Rəbbin
məbədini təmizləmək üçün getdilər.
16 Kahinlər isə Rəbbin məbədinin
içərisinə girib oranı təmizlədilər və
böyük otaqda tapdıqları bütün murdar
şeyləri məbədin həyətinə çıxartdılar.
Levililər isə onları götürüb bayıra,
Qidron vadisinə apardı. 17 Birinci
ayın birinci günündə təqdisetmə işinə
başladılar və həmin ayın səkkizinci
günündə Rəbbin eyvanına qədər
çatdılar. Səkkiz gün Rəbbin məbədini
təqdis etdilər və birinci ayın on altıncı
günündə bitirdilər.
18 Onlar padşah Xizqiyanın yanına
girib dedilər: «Biz Rəbbin bütün
məbədini, yandırma qurbanlarının
gətirildiyi qurbangahını və onun bütün
avadanlığını, təqdis çörəkləri qoyulan
masanı və onun bütün ləvazimatını
təmizlədik. 19 Padşah Axaz padşah
olanda xainlik edib tulladığı bütün
əşyaları da hazırladıq və təqdis
etdik. İndi onlar Rəbbin qurbangahı
önündədir».
20 Padşah Xizqiya səhər tezdən
durdu və şəhərin rəislərini toplayıb
Rəbbin məbədinə qalxdı. 21 Padşahlıq,
Müqəddəs məkan, Yəhudalılar üçün
günah qurbanı olaraq yeddi buğa,
yeddi qoç, yeddi quzu və yeddi təkə
gətirdilər. O, Harun nəslindən olan
kahinlərə əmr etdi ki, onları Rəbbin
qurbangahında qurban gətirsinlər.
22 Mal-qaranı kəsdilər və kahinlər qanı
götürüb qurbangaha səpdilər, qoçları
kəsdilər və qanı qurbangaha səpdilər,
quzuları kəsdilər və qanı qurbangaha
səpdilər. 23 Təkələri isə günah qurbanı
olmaq üçün padşahın və camaatın
önünə gətirdilər və əllərini onların
üstünə qoydular. 24 Kahinlər onları
kəsdi və qurbangahda günah qurbanı
olaraq onların qanını bütün İsraillilərin
günahlarını bağışlamaq üçün axıtdı.
Çünki padşah əmr etmişdi ki, yandırma
qurbanı və günah qurbanı bütün İsrail
üçün gətirilsin.
25 Davudun, padşahın görücüsü Qadın
və peyğəmbər Natanın əmrinə görə
Xizqiya Levililəri sinclərlə, çənglərlə və
liralarla Rəbbin məbədinə qoydu. Bu
əmr peyğəmbərlər vasitəsilə Rəbdən
gəlmişdi. 26 Levililər Davudun musiqi
alətləri ilə, kahinlər kərənaylarla
dayandı. 27 Xizqiya əmr etdi ki,

yandırma qurbanı qurbangahda təqdim
edilsin. Yandırma qurbanının təqdimi
başlananda kərənayların və İsrail
padşahı Davudun musiqi alətlərinin
sədası altında Rəbbin ilahisi də başlandı.
28 Bütün camaat səcdə etdi, ilahiçilər
ilahi oxudu, kərənay çalanlar çaldı.
Bunların hamısı yandırma qurbanının
təqdimi qurtarana qədər davam etdi.
29 Yandırma qurbanının təqdimi
qurtaranda padşah və yanında olanların
hamısı əyilib səcdə etdi. 30 Padşah
Xizqiya və rəislər Levililərə əmr etdilər
ki, Davudun və görücü Asəfin sözləri ilə
Rəbbə həmd oxusunlar. Onlar sevinclə
həmd oxudu və əyilib səcdə etdilər.
31 Sonra Xizqiya dedi: «İndi özünüzü
Rəbbə həsr etdiniz, yaxın gəlin, Rəbbin
məbədinə qurbanlar və şükür təqdimləri
gətirin». Camaat qurbanlar və şükür
təqdimləri gətirdi, ürəyi istəyənlərin
hamısı yandırma qurbanları təqdim
etdi. 32 Camaatın gətirdiyi yandırma
qurbanlarının sayı yetmiş baş mal-qara,
yüz qoç, iki yüz quzu idi. Bunların
hamısı Rəbbə yandırma qurbanı
gətirildi. 33 Təqdis olunan heyvanların
sayı isə altı yüz baş mal-qara və üç
min baş qoyun-keçi idi. 34 Ancaq
kahinlər az idi və bütün yandırma
qurbanlarının dərisini soya bilmədilər.
İş qurtarana və kahinlər özlərini
təqdis edənə qədər qohumları olan
Levililər kahinlərə kömək etdilər. Çünki
Levililər kahinlərdən artıq sidq ürəklə
özlərini təqdis etmişdi. 35 Ünsiyyət
qurbanlarının yağı və yandırma
qurbanları ilə birgə gətirilmiş tökmə
təqdimlər də çox idi. Beləcə Rəbbin
məbədinin xidməti bərpa olundu.
36 Allahın xalq üçün gördüyü işinə görə
Xizqiya və bütün xalq sevindi. Çünki bu
iş gözlənilmədən olmuşdu.

Pasxa bayramının keçirilməsi

30 Xizqiya İsrailin Allahı Rəbbə
Pasxa bayramı etmək üçün
Yerusəlimdə olan Rəbbin məbədinə
gəlsinlər deyə bütün İsraillilərə
və Yəhudalılara xəbər göndərdi,
Efrayimlilərə və Menaşşelilərə də
məktublar yazdı. 2 [m]Yerusəlimdə
padşahla rəislər və bütün camaat Pasxa
bayramını ikinci ayda keçirmək barədə
qərara gəlmişdi. 3 Çünki lazımi sayda
kahin özünü təqdis etmədiyinə görə
və xalq Yerusəlimə toplanmadığı üçün
onu lazım olan vaxt edə bilməmişdilər.
4 Ona görə də bu qərar padşahın və
bütün camaatın gözündə doğru idi.
5 Onlar gəlib Yerusəlimdə İsrailin
Allahı Rəbbə Pasxa bayramı etsinlər
deyə Beer-Şevadan Dana qədər bütün
İsraildə elan etməyə qərar verdilər.
Çünki çoxdan bəri bunu yazıldığı kimi
etməmişdilər.
6 Padşahın əmrinə görə çaparlar
padşahın və rəislərin yazdığı
məktublarla bütün İsrail və Yəhuda
torpağını dolaşıb dedilər:
«Ey İsrail övladları, İbrahimin,
İshaqın və İsrailin Allahı Rəbbə
qayıdın! O da sizə – Aşşur
padşahlarının əlindən qaçıb
qurtarmış, sağ qalan adamlarınıza
tərəf qayıdacaq. 7 Atalarının Allahı
Rəbbə qarşı xainlik edən atalarınız
və qohumlarınız kimi olmayın.
Belə ki gördüyünüz kimi Rəbb
onları tar-mar etdi. 8 İndi atalarınız
kimi dikbaş olmayın, Rəbbə tabe
olun və Onun əbədi olaraq təqdis
etdiyi Müqəddəs məkana gəlib
Allahınız Rəbbə qulluq edin ki,
qızğın qəzəbi sizdən dönsün. 9 Siz
Rəbbə qayıtdıqda qohumlarınız
və oğullarınız onları əsir alanların

[m]**30:2** Say. 9:9-11

önündə mərhəmət tapacaq və bu
torpağa qayıdacaq. Çünki Allahınız
Rəbb lütfkar və rəhmlidir; əgər Ona
qayıtsanız, sizdən üz döndərməz».
10 Çaparlar Efrayim və Menaşşe
torpaqlarından Zevuluna qədər bu
şəhərdən o şəhərə keçdi. Ancaq onlara
güldülər və lağa qoydular. 11 Amma
Aşerdən, Menaşşedən və Zevulundan
bəzi adamlar özlərini aşağı tutub
Yerusəlimə gəldi. 12 Yəhudalılara
da Allah Öz əli ilə eyni ürək verdi
ki, Rəbbin sözünə görə padşahın və
rəislərin əmrlərini yerinə yetirsinlər.
13 İkinci ay Mayasız Çörək bayramını
Yerusəlimdə keçirmək üçün çoxlu xalq,
böyük bir camaat toplandı. 14 Qalxıb
Yerusəlimdə olan qurbangahları və
bütün buxur qurbangahlarını ləğv
etdilər və Qidron vadisinə atdılar.
15 İkinci ayın on dördüncü günü
Pasxa qurbanlarını kəsdilər. Kahinlərlə
Levililər utanıb özlərini təqdis etdilər və
Rəbbin məbədinə yandırma qurbanları
gətirdilər. 16 Allah adamı Musanın
Qanununda yazılmış qaydalarına
görə öz yerlərində durdular. Kahinlər
Levililərdən aldıqları qanı səpdilər.
17 Çünki camaat içində özlərini təqdis
etməmiş çox adam olduğuna görə
Rəbbə təqdis etmək üçün təmiz
olmayan hər adamın Pasxa qurbanını
kəsmək işi Levililərin öhdəsində idi.
18 Çünki xalqın böyük bir hissəsi,
Efrayim və Menaşşe, İssakar və
Zevulun qəbilələrindən bir çoxu
özlərini təmizləyib yazılanlara uyğun
olmayaraq öz Pasxa qurbanlarından
yedi. 19 Xizqiya onlar üçün dua edib
demişdi: «Qoy xeyirxah olan Allah
müqəddəs yer üçün təmiz olmadıqları
halda sidq ürəklə Allahı, atalarının
Allahı Rəbbi axtarmağa hazırlaşmış hər
kəsi bağışlasın». 20 Rəbb Xizqiyanı eşitdi
və xalqa şəfqət göstərdi. 21 Yerusəlimdə
olan İsraillilər yeddi gün Mayasız Çörək
bayramını böyük sevinclə keçirdilər.
Levililər və kahinlər yüksək səsli
musiqi alətləri ilə hər gün Rəbbə
həmd edirdilər. 22 Xizqiya Rəbbin
xidmətində bacarıqlı olan bütün
Levililəri ruhlandırdı. Onlar ünsiyyət
qurbanlarını kəsərək və atalarının
Allahı Rəbbə şükürlər edərək yeddi gün
bayram yeməyi yedilər.
23 Bütün camaat belə qərara gəldi
ki, daha yeddi gün də bayram olsun.
Yeddi günü də sevinclə keçirdilər.
24 Yəhuda padşahı Xizqiya camaata
təqdim etmək üçün min buğa və yeddi
min baş qoyun-keçi, rəislər isə camaata
min buğa və on min qoyun-keçi
verdilər. Bir çox kahin özünü təqdis
etdi. 25 Bütün Yəhuda camaatı, kahinlər,
Levililər, İsraildən gələn bütün camaat
və İsrail torpağından olan və Yəhudada
yaşayan qəriblər sevindi. 26 Yerusəlim
böyük sevinc içində idi, çünki İsrail
padşahı Davud oğlu Süleymanın
dövründən bəri Yerusəlimdə belə
bayram olmamışdı. 27 Levili kahinlər
qalxıb xalqa xeyir-dua verdi, Allah
onların səslərini eşitdi, çünki duaları
Onun müqəddəs məskəninə – göylərə
çatdı.

31 Bütün bu iş qurtaranda orada
olan bütün İsraillilər Yəhuda
şəhərlərinə çıxıb daş sütunları sındırdı,
Aşera bütlərini kəsdi. Bütün Yəhuda
və Binyamin, Efrayim, Menaşşe
torpaqlarında olan səcdəgahları və
qurbangahları axıra qədər dağıtdılar.
Sonra bütün İsrail övladları öz
şəhərlərinə, hər kəs öz mülkünə qayıtdı.

Xizqiya kahinlərin və Levililərin qayğısına qalır

2 Xizqiya kahinləri və Levililəri
bölmələrə ayırdı və hər kəsi öz işinə
uyğun olan bölməyə təyin etdi. O,
Rəbbin darvazalarla hasarlanmış
yerində yandırma və ünsiyyət

qurbanlarını gətirmək, xidmət
etmək, şükür və həmd oxumaq üçün
kahinləri və Levililəri qoydu. 3 [n]Rəbbin
Qanununda yazıldığına görə yandırma
qurbanları – səhər və axşamın yandırma
qurbanları, Şənbə günlərinin, Təzə
Ay mərasimlərinin və bayramların
yandırma qurbanları üçün padşah öz
malından pay ayırdı.
4 [o]Kahinlər və Levililər özlərini
Rəbbin Qanununa həsr etsinlər deyə
onların payını verməyi Yerusəlimdə
yaşayan xalqa əmr etdi. 5 Bu əmr
hər yana yayılanda İsrail övladları
taxılın, təzə şərabın, yağın, balın və
bütün tarla məhsullarının nübarından
bol-bol verdi. Hər şeyin onda birini
bol-bol gətirdilər. 6 Yəhuda şəhərlərində
yaşayan İsraillilər və Yəhudalılar
mal-qaranın və qoyun-keçinin onda
birini, özlərinin Allahı Rəbbə təqdis
olunan müqəddəs şeylərin onda birini
də gətirdilər və qalaq-qalaq verdilər.
7 Üçüncü ayda bunları qalaqlarla
üst-üstə yığmağa başladılar və yeddinci
ayda qurtardılar. 8 Xizqiya və rəislər
gəlib qalaqları gördülər, Rəbbə və
Onun xalqı İsrailə minnətdarlıqlarını
bildirdilər. 9 Xizqiya bu qalaqlar barədə
kahinlərdən və Levililərdən soruşdu.
10 Sadoqun nəslindən olan başçı kahin
Azarya ona belə cavab verdi: «Rəbbin
məbədinə nəzirlər gətirilən vaxtdan bəri
biz yeyib doyuruq, hələ artıq da qalır.
Çünki Rəbb Öz xalqına bərəkət verdi və
bu bol şeylər də artıq qaldı».
11 Xizqiya əmr etdi ki, Rəbbin
məbədindəki otaqları hazırlasınlar.
Onlar hazırladılar. 12 Nəzirləri, onda
birləri və təqdis olunan şeyləri sədaqətlə
oraya gətirib saxladılar. Bu şeyləri rəis
olan Levili Konanya və müavini olan
qardaşı Şimey saxlayırdı. 13 Yexiel,
Azazya, Naxat, Asahel, Yerimot,
Yozavad, Eliel, İsmakya, Maxat və
Benaya da padşah Xizqiyanın və Allahın
məbədində rəis olan Azaryanın əmrinə
görə Konanyanın və qardaşı Şimeyin əli
altında məmur idi. 14 Şərq darvazasında
qapıçı olan Levili İmna oğlu Qore
Rəbbə verilən nəzirlər və ən müqəddəs
şeyləri paylamaqdan ötrü Allah üçün
verilən könüllü təqdimlərə nəzarət
edirdi. 15 Onun başçılığı altında olan
Edenə, Minyaminə, Yeşuaya, Şemayaya,
Amaryaya və Şekanyaya bölmələrinə
görə kahin şəhərlərində böyükdən
kiçiyə qədər bu qohumlarına paylarını
bölmək işi tapşırılmışdı: 16 nəsil
şəcərələrinə baxmayaraq, üç yaşında və
ondan yuxarı yaşda olan, vəzifələrinə
və bölmələrinə görə gündəlik xidmət
işi üçün Rəbbin məbədinə girən
kişilərin hamısı; 17 nəsil şəcərələrində
yazıldığı kimi nəsillərinə görə kahinlər,
vəzifələrinə, həm də bölmələrinə görə
iyirmi yaşında və ondan yuxarı yaşda
olan Levililər; 18 nəsil şəcərələrinə görə
bütün camaatın uşaqları, arvadları,
oğul və qızları – çünki onlar özlərini
sədaqətlə müqəddəs xidmət üçün təqdis
etmişdilər – 19 öz şəhərlərinin ətraf
çöllərində yaşayan Harun nəslindən
kahinlər. Hər şəhərdə adları çəkilən
adamlar qoyulmuşdu ki, kahinlər
arasındakı bütün kişilərə və Levililər
arasında nəsil şəcərələrində yazılanların
hamısına pay versinlər.
20 Xizqiya bütün Yəhudada belə
etdi, Allahı Rəbbin önündə yaxşı,
doğru və sədaqətli işlər gördü. 21 O öz
Allahını axtararaq Allahın məbədinin
xidmətində, qanuna və əmrlərə əməl
etməkdə başladığı hər işi bütün qəlbi ilə
icra etdi və uğur qazandı.

---

[n]**31:3** Say. 28:1–29:39 [o]**31:4** Say. 18:12-13,21

Sanxerivin hücumu

(2Pad. 18:13-37; 19:14-19,35-37; Yeş. 36:1-22; 37:8-38)

32 Bu sədaqətli işlərdən sonra
Aşşur padşahı Sanxeriv gəlib
Yəhudaya girdi. O, qalalı şəhərlərə
qarşı ordugah qurdu və onları ələ
keçirmək istədi. 2 Xizqiya Sanxerivin
Yerusəlim üzərinə döyüşmək üçün
gəldiyini gördükdə 3 şəhərdən kənarda
olan su mənbələrini kəsmək üçün öz
rəisləri və sərkərdələri ilə məsləhətləşdi
və onlar Xizqiyaya kömək etdi. 4 Çoxlu
xalq yığıldı və «Aşşur padşahları nə
üçün gəlib çoxlu su tapsınlar?» deyib
bütün su mənbələrinin və ölkədən axan
çayların yollarını kəsdilər. 5 Xizqiya
cəsarətləndi, divarın bütün uçmuş
yerlərini tikdi və onun üstündə qüllələr
düzəltdi. Bayır tərəfdən başqa bir divar
da tikdi, Davudun şəhərində olan qala
yamacını da möhkəmləndirdi. Çoxlu
silah və qalxan düzəltdi. 6 O, xalqın
üzərinə sərkərdələr qoydu, onları
şəhər darvazası meydanında yanına
topladı və onları ürəkləndirib dedi:
7 «Möhkəm və cəsarətli olun. Aşşur
padşahından və onun yanında olan
çoxlu qoşundan qorxmayın, ruhdan
düşməyin, çünki bizimlə olan onunla
olandan böyükdür. 8 Onunla olan
insan gücüdür, ancaq bizimlə olan
Allahımız Rəbdir ki, bizə kömək edir
və müharibələrimizdə vuruşur». Xalq
Yəhuda padşahı Xizqiyanın sözlərindən
ürəkləndi.

9 Bundan sonra Aşşur padşahı
Sanxeriv yanında olan bütün
qərargahı ilə Lakişin qarşısında
dayanarkən Yerusəlimə, Yəhuda
padşahı Xizqiyanın və Yerusəlimdə
olan bütün Yəhudalıların yanına
adamlarını göndərdi və onlar dedi:
10 «Aşşur padşahı Sanxeriv belə deyir:
“Siz nəyə güvənirsiniz ki, Yerusəlimdə
mühasirəyə oturursunuz? 11 ‹Allahımız
Rəbb bizi Aşşur padşahının əlindən
qurtaracaq› deyən Xizqiya sizi aclıqla
və susuzluqla ölümə vermək üçün
azdırmırmı? 12 O həmin Allahın
səcdəgahlarını və qurbangahlarını
aradan qaldıran, Yəhudaya və
Yerusəlimə ‹bir qurbangahın önündə
səcdə edəcəksiniz və onun üzərində
buxur yandıracaqsınız› deyə əmr
edən Xizqiyanın özü deyildimi?
13 Bütün ölkələrin xalqlarına mənim və
atalarımın nə etdiyini bilmirsinizmi?
O ölkələrin millətlərinin allahları öz
torpaqlarını mənim əlimdən qurtara
bildilərmi? 14 Atalarımın tamamilə
məhv etdikləri o millətlərin bütün
allahları arasında hansı biri öz xalqını
əlimdən qurtara bildi ki, Allahınız sizi
mənim əlimdən qurtara bilsin? 15 Qoy
indi Xizqiya sizi aldatmasın və bu cür
azdırmasın, ona inanmayın. Çünki
heç bir millətin və heç bir ölkənin
allahlarından heç biri öz xalqını mənim
və atalarımın əlindən qurtara bilmədi.
Sizin Allahınız da sizi mənim əlimdən
qurtara bilməyəcək!”»

16 Sanxerivin adamları Rəbb Allaha
və Onun qulu Xizqiyaya qarşı hələ
çox şeylər söylədi. 17 O özü də
İsrailin Allahı Rəbbi təhqir etmək
üçün yazdığı məktublarda Ona qarşı
belə dedi: «Ölkələrin millətlərinin
allahları öz xalqlarını necə əlimdən
qurtara bilmədilərsə, Xizqiyanın
Allahı da xalqını mənim əlimdən
qurtara bilməyəcək». 18 Onun adamları
şəhəri almaq üçün divar üzərində
olan Yerusəlim xalqını qorxudub
dəhşətə salsınlar deyə onlara tərəf
uca səslə Yəhudi dilində bağırdılar.
19 Yer üzü xalqlarının insan əllərinin
işi olan allahlarına qarşı dedikləri
sözləri Yerusəlimin Allahına qarşı da
söylədilər.

20 Bundan ötrü padşah Xizqiya və
peyğəmbər Amots oğlu Yeşaya dua
edib göyə fəryad etdilər. 21 Rəbb
bir mələk göndərdi və o, Aşşur
padşahının ordugahında olan bütün
igid döyüşçüləri, sərkərdələri və
rəisləri məhv etdi. Aşşur padşahı
biabırçılıqla öz ölkəsinə qayıtdı. O öz
allahının məbədinə girdi və orada öz
doğma oğullarından bəzisi onu qılıncla
öldürdü. 22 Beləcə Rəbb Xizqiyanı və
Yerusəlimdə yaşayanları Aşşur padşahı
Sanxerivin və bütün başqalarının
əlindən qurtardı və onları hər tərəfdən
qorudu. 23 Onda çoxlu adam Yerusəlimə,
Rəbbə hədiyyələr və Yəhuda padşahı
Xizqiyaya dəyərli şeylər gətirdi. Bundan
sonra Xizqiya bütün millətlərin gözündə
ucaldı.

Xizqiyanın padşahlığının sonu

(2Pad. 20:1-3,12-21; Yeş. 38:1-3)

24 [p]O günlərdə Xizqiya ölümcül
xəstələndi. O, Rəbbə dua etdi, Rəbb
də ona cavab verdi və ona bir əlamət
göstərdi. 25 Ancaq Xizqiya ona edilən
yaxşılığın əvəzini ödəmədi. Çünki ürəyi
qürurlanmışdı, buna görə də özünün,
Yəhudanın və Yerusəlimin üzərinə
Allahın qəzəbi gəldi. 26 Amma Xizqiya
ürəyinin qürurundan əl çəkib özünü
aşağı tutdu, Yerusəlimdə yaşayanlar
da belə etdi. Buna görə də Xizqiyanın
dövründə onların üzərinə Rəbbin qəzəbi
gəlmədi.
27 Xizqiyanın olduqca çoxlu sərvəti
və şöhrəti vardı. O özünə qızıl-gümüş,
qiymətli daşlar, ətriyyat, qalxanlar və
hər cür qiymətli əşya üçün xəzinələr
tikdi. 28 Buğda, təzə şərab və yağ
məhsulları üçün anbarlar, hər cür
heyvan üçün axurlar və sürülər üçün
ağıllar tikdi. 29 O özü üçün şəhərlər
də tikdi. Onun çoxlu qoyun-keçisi
və mal-qarası vardı. Çünki Allah
ona lap çox mal-dövlət vermişdi.
30 Həmin Xizqiya Gixon sularının yuxarı
mənbəyini bağladı və onları yer altından
qərbə doğru, Davudun şəhərinə keçirdi.
Xizqiya bütün işlərində uğur qazandı.
31 Ancaq Babil hökmdarlarının ölkədə
baş verən əlamət barədə soruşmaq üçün
göndərdiyi elçilər gəldiyi zaman bu işdə
Allah sınağa çəkib ürəyində olan hər
şeyi bilmək üçün onu tərk etdi.
32 Xizqiyanın qalan işləri və sədaqətli
əməlləri barədə peyğəmbər Amots
oğlu Yeşayanın peyğəmbərliklərində,
Yəhuda və İsrail padşahlarının kitabında
yazılmışdır. 33 Xizqiya ataları ilə uyudu
və onu Davud sülaləsinin qəbirlərinin
yuxarısında basdırdılar. Öldüyü zaman
bütün Yəhudalılar və Yerusəlimdə
yaşayanlar ona ehtiram göstərdilər.
Onun yerinə oğlu Menaşşe padşah oldu.

Yəhuda padşahı Menaşşe

(2Pad. 21:1-9)

33 Menaşşe padşah olduğu vaxt on
iki yaşında idi və Yerusəlimdə
əlli beş il padşahlıq etdi 2 [q]O, İsrail
övladlarının önündən Rəbbin qovduğu
millətlərin etdikləri iyrənc işlər kimi
Rəbbin gözündə pis olan işlər etdi.
3 Atası Xizqiyanın dağıtdığı səcdəgahları
yenidən tikdi, Baal bütləri üçün
qurbangahlar qurdu və Aşera bütləri
düzəltdi, bütün səma cisimlərinə
səcdə və qulluq etdi. 4 [r]Rəbbin «adım
əbədi olaraq Yerusəlimdə qalacaq»
dediyi məbədində qurbangahlar
tikməyə başladı. 5 Menaşşe Rəbbin
məbədinin hər iki həyətində bütün
səma cisimlərinə qurbangahlar düzəltdi.
6 O, oğullarını Ben-Hinnom vadisində
oda qurban verdi, gələcəyi dedi,

---

[p] **32:24** 2Saln. 32:31; 2Pad. 20:10-11; Yeş. 38:7-8 [q] **33:2** Yer. 15:4
[r] **33:4** 2Şam. 7:13; 2Saln. 6:6

baxıcılıq və cadugərlik edib cindarlara
və ruhçağıranlara müraciət etdi. Rəbbin
gözündə çoxlu pis işlər görərək Onu
qəzəbləndirdi. 7 [s]Düzəltdiyi oyma bütü
Allahın məbədinə qoydu. Bu məbəd
barədə Allah Davuda və oğlu Süleymana
demişdi: «Bu məbəddə və bütün İsrail
qəbilələrindən seçdiyim Yerusəlimdə
Öz adımı əbədi qoyacağam. 8 Əgər
Mənim onlara buyurduğum hər şeyə
və Musa vasitəsilə onlara verilən bütün
qanuna, qaydalara və hökmlərə əməl
etsələr, İsrail övladlarının atalarına
təyin etdiyim torpaqdan didərgin
düşməyə qoymayacağam». 9 Menaşşe
Yəhudalıları və Yerusəlimdə yaşayanları
İsrail övladları önündə Rəbbin məhv
etdiyi millətlərdən də çox pis işlər
etmək üçün yoldan çıxardı.
10 Rəbb Menaşşe və onun xalqı ilə
danışdı, amma onlar qulaq asmadı.
11 Rəbb Aşşur padşahının ordu
başçılarını onların üzərinə göndərdi.
Onlar Menaşşeyə qandal və tunc
zəncir vurub onu əsir aldılar və Babilə
apardılar. 12 O bu kədərində Allahı
Rəbbə yalvardı və atalarının Allahı
önündə özünü çox aşağı tutdu, 13 Allaha
dua etdi. Allah da onun duasını qəbul
etdi və yalvarışını eşitdi, onu yenə
Yerusəlimə – öz padşahlığına gətirdi.
Onda Menaşşe bildi ki, Rəbb həqiqi
Allahdır.
14 Bundan sonra o, vadidə olan
Gixonun qərb tərəfindən Balıqlar
darvazasının girəcək yerinə qədər
Davudun şəhərinə bayır tərəfdən bir
divar tikdi, onunla Ofeli əhatəyə aldı
və onu çox yüksəltdi. Yəhudanın bütün
qalalı şəhərlərinə qoşun başçıları qoydu.
15 Menaşşe özgə allahları, Rəbbin
məbədindəki bütü, Rəbbin məbədinin
dağında və Yerusəlimdə tikdiyi bütün
qurbangahları aradan qaldırıb onları
şəhərin bayırına atdı. 16 O, Rəbbin
qurbangahını təmir edib orada ünsiyyət
və şükür qurbanları təqdim etdi və
İsrailin Allahı Rəbbə qulluq etməyi
Yəhudalılara əmr etdi. 17 Bununla
bərabər xalq hələ səcdəgahlarda qurban
gətirirdi, hərçənd ki bunu özlərinin
Allahı Rəbbə görə edirdi.
18 Menaşşenin qalan işləri, öz
Allahına duası və İsrailin Allahı Rəbbin
adı ilə ona söz deyən görücülərin
sözləri İsrail padşahlarının tarix
kitabında yazılmışdır. 19 Onun duası və
duasının eşidildiyi, bütün günahları və
xainliyi, özünü aşağı tutmazdan əvvəl
səcdəgahlar tikib Aşera bütlərini və
oyma bütləri qoyduğu yerlər barədə
görücülərin tarix kitabında yazılmışdır.
20 Menaşşe ataları ilə uyudu və onu öz
evində basdırdılar. Onun yerinə oğlu
Amon padşah oldu.

Yəhuda padşahı Amon

(2Pad. 21:19-26)

21 Amon padşah olduğu vaxt iyirmi
iki yaşında idi və Yerusəlimdə iki il
padşahlıq etdi. 22 O, atası Menaşşenin
etdiyi kimi Rəbbin gözündə pis olan
işlər etdi. Atası Menaşşenin düzəltdiyi
bütün oyma bütlərə Amon da qurban
kəsdi və onlara qulluq etdi. 23 O,
atası Menaşşedən fərqli olaraq özünü
Rəbbin önündə aşağı tutmadı, əksinə,
Amon get-gedə daha çox günah etdi.
24 Əyanları ona qarşı qəsd hazırladı
və onu öz sarayında öldürdülər.
25 Ölkə xalqı padşah Amona qarşı qəsd
hazırlayanların hamısını qırdı və onun
yerinə oğlu Yoşiyanı padşah etdi.

Yəhuda padşahı Yoşiya

(2Pad. 22:1-2)

34 [t]Yoşiya padşah olduğu vaxt
səkkiz yaşında idi və Yerusəlimdə

[s]**33:7** 1Pad. 9:3-5; 2Saln. 7:12-18 [t]**34:1** Yer. 3:6

otuz bir il padşahlıq etdi. 2 O, Rəbbin
gözündə doğru olan işlər etdi, hər işdə
babası Davudun yolları ilə gedərək
onlardan kənara çıxmadı.
3 Padşahlığının səkkizinci ilində
hələ gənc ikən babası Davudun
Allahını axtarmağa başladı. On
ikinci ildə Yəhudanı və Yerusəlimi
səcdəgahlardan, Aşera bütlərindən,
oyma bütlərdən və tökmə bütlərdən
təmizləməyə başladı. 4 [u]Yoşiyanın
önündə Baal bütlərinin qurbangahlarını
dağıtdılar. Onların üzərində qoyulan
buxur qurbangahlarını kəsib atdı. Aşera
bütlərini, oyma bütləri və tökmə bütləri
sındırdı, onları əzib toz etdi və bu
bütlərə qurban gətirənlərin qəbirləri
üzərinə səpdi. 5 [v]Öz qurbangahlarında
onların kahinlərinin sümüklərini
yandırdı, beləcə Yəhudanı və Yerusəlimi
təmizlədi. 6 Yoşiya Menaşşe, Efrayim
və Şimeon qəbilələrinin şəhərlərində
və ətraf viranəliklərində də Naftali
torpağına qədər qurbangahları dağıtdı.
7 Aşera bütlərini və oyma bütləri toz
edənə qədər əzdi, bütün İsrail ölkəsində
buxur qurbangahlarının hamısını kəsib
atdı, sonra Yerusəlimə qayıtdı.

Məbəddə Qanun kitabının tapılması

(2Pad. 22:3-20)

8 Padşahlığının on səkkizinci ilində
ölkəni və məbədi təmizlədikdən sonra
Yoşiya Asalya oğlu Şafanı, şəhər rəisi
Maaseyanı, salnaməçi Yoaxaz oğlu
Yoahı öz Allahı Rəbbin məbədini təmir
etmək üçün göndərdi. 9 Onlar baş
kahin Xilqiyanın yanına gəldi. Bütün
qalan İsraillilərin – Menaşşelilərin,
Efrayimlilərin, bütün Yəhudalıların,
Binyaminlilərin və Yerusəlimdə
yaşayanların Allahın məbədinə
gətirdikləri, astana keşikçisi olan
Levililərin yığdıqları pulu 10 Rəbbin
məbədinin işinə nəzarət edənlərə
verdilər. Onlar da pulu məbədin uçuq
yerlərini təmir etmək üçün Rəbbin
məbədində olan işçilərə – 11 dülgərlərə
və ustalara verdilər ki, Yəhuda
padşahlarının xaraba qoyduqları evlər
üçün yonulmuş daş və rəzələrlə dirəklər
üçün taxta alsınlar. 12 Bu adamlar
sədaqətlə iş gördülər. İşə nəzarət etmək
üçün onların üzərinə Levililər – Merari
nəslindən olan Yaxat və Avdiya, Qohat
nəslindən olan Zəkəriyyə və Meşullam,
hər biri musiqi alətlərində çala bilən
Levililər qoyulmuşdu. 13 Bunlar yük
daşıyanların da üzərində idi və hər cür
xidmətdə bütün işi görənlərə nəzarət
edirdi. Mirzələr, məmurlar, qapıçılar da
Levililərdən idi.
14 Rəbbin məbədinə gətirilmiş olan
pulu çıxartdıqları zaman kahin Xilqiya
Musa vasitəsilə verilən Rəbbin Qanun
kitabını tapdı. 15 Xilqiya mirzə Şafana
dedi: «Rəbbin məbədində Qanun
kitabını tapdım». Xilqiya kitabı Şafana
verdi. 16 Şafan kitabı padşahın yanına
apardı, həm də ona xəbər gətirib
dedi: «Qulların tapşırdığın hər şeyi
edir. 17 Rəbbin məbədində tapılan
pulu boşaltdılar, onu nəzarətçilərin
və işçilərin əlinə verdilər». 18 Mirzə
Şafan padşaha bildirib dedi: «Kahin
Xilqiya mənə bir kitab verdi». Şafan
onu padşahın önündə oxudu. 19 Padşah
Qanun sözlərini eşidəndə paltarını
cırdı. 20 Padşah Xilqiyaya, Şafan oğlu
Axiqama, Mikeya oğlu Avdona, mirzə
Şafana və padşahın xidmətçisi Asayaya
əmr edib dedi: 21 «Gedin, tapılmış
kitabın sözlərinə görə mənim üçün,
İsraillilərin və Yəhudalıların qalanı
üçün Rəbdən soruşun, çünki Rəbbin
bizə qarşı tökülmüş qəzəbi böyükdür.
Ona görə ki atalarımız bu kitabda

---

[u]**34:4** 2Pad. 21:3; 2Saln. 33:3 [v]**34:5** 1Pad. 13:2

yazılan hər şeyə görə Rəbbin sözünə
əməl etməmişdilər».
22 Xilqiya və padşahın adamları
qadın peyğəmbər Xuldanın yanına
getdilər. O, paltarlara baxan Xasra oğlu
Toqhat oğlu Şallumun arvadı idi və
Yerusəlimdə ikinci məhəllədə yaşayırdı.
Onunla bu barədə söhbət etdilər.
23 Qadın onlara dedi: «İsrailin Allahı
Rəbb belə deyir: sizi Mənim yanıma
göndərən adama söyləyin ki, 24 Rəbb
belə deyir: "Mən Yəhuda padşahının
önündə oxuduqları kitabda yazılan
bütün lənətlərə görə bu yerə və burada
yaşayanların üzərinə bəla gətirəcəyəm.
25 Onlar Məni tərk etdilər və başqa
allahlara buxur yandıraraq bütün
əməlləri ilə Məni qəzəbləndirdilər. Buna
görə də bu yerə qarşı qəzəbim töküləcək
və sönməyəcək". 26 Ancaq Rəbdən
soruşmaq üçün sizi göndərən Yəhuda
padşahına söyləyin ki, İsrailin Allahı
Rəbb belə deyir: "Sözlərimi dinlədin.
27 Allahın bu yerə və orada yaşayanlara
qarşı Allah sözlərini eşidəndə ürəyin
yumşaldı və Onun önündə özünü
aşağı tutdun. Bəli, Mənim önümdə
özünü aşağı tutdun, paltarını cırıb
önümdə ağladın. Buna görə də Mən səni
eşitdim" Rəbb belə bəyan edir. 28 "Mən
səni atalarına qoşacağam və rahat öz
qəbrinə qoyulacaqsan, bu yerin və
orada yaşayanların üzərinə gətirəcəyim
bütün bəlanı gözlərin görməyəcək"».
Onlar bu xəbəri padşaha çatdırdı.

Padşah və xalq Rəbb ilə əhd bağlayır

(2Pad. 23:1-20)

29 Padşah Yəhudanın və Yerusəlimin
bütün ağsaqqallarını çağırtdırıb öz
yanına topladı. 30 Padşah, onunla birgə
bütün Yəhuda adamları, Yerusəlimdə
yaşayanlar, kahinlər, Levililər və
böyükdən kiçiyə qədər bütün xalq
Rəbbin məbədinə qalxdı. O, Rəbbin
məbədində tapılmış əhd kitabının
bütün sözlərini onlara eşitdirərək
oxudu. 31 Padşah öz yerində dayandı.
O, Rəbbin önündə əhd bağladı ki,
Rəbbin ardınca gedib Onun əmrlərinə,
göstərişlərinə, qaydalarına bütün qəlbi
və bütün varlığı ilə əməl etsin və bu
kitabda yazılmış əhdin sözlərini yerinə
yetirsin. 32 O, Yerusəlimdə olanların
hamısına və Binyaminlilərə bu əhdi
təsdiq etdirdi. Yerusəlimdə yaşayanlar
Allahın, atalarının Allahının əhdinə
görə belə etdi. 33 Yoşiya İsraillilərin
bütün torpaqlarında iyrənc şeylərin
hamısını aradan qaldırdı və İsraildə
olanların hamısına özlərinin Allahı
Rəbbə qulluq etməyi əmr etdi. Onun
bütün ömrü boyu xalq atalarının Allahı
Rəbbin ardınca getməkdən dönmədi.

Yoşiya Pasxa bayramını keçirir

(2Pad. 23:21-23)

35 Yoşiya Yerusəlimdə Rəbb üçün
Pasxa bayramını keçirdi və
birinci ayın on dördüncü günü Pasxa
qurbanını kəsdilər. 2 O, kahinləri
vəzifələrinə qoydu və onları Rəbbin
məbədinin xidməti üçün ruhlandırdı.
3 Rəbb üçün təqdis edilmiş və bütün
İsrailə təlim verən Levililərə dedi:
«Müqəddəs sandığı İsrail padşahı
Davud oğlu Süleymanın tikdiyi məbədə
qoyun. O daha sizin çiyinlərinizə
yük olmayacaq. İndi Allahınız
Rəbbə və onun xalqı İsrailə xidmət
edin. 4 [w]İsrail padşahı Davudun və
onun oğlu Süleymanın yazdığı kimi
nəsillərinizə, bölmələrinizə görə hazır
olun. 5 Qohumlarınız olan xalqın
nəsil bölmələrinə və Levililərin nəsil
bölmələrinə görə Müqəddəs yerdə
dayanın. 6 Pasxa qurbanını kəsin,
özünüzü təqdis edin və Musa vasitəsilə

---

[w]**35:4** 2Saln. 8:14

olan Rəbbin sözünə əməl edərək
qohumlarınız üçün hazırlıq görün».
7 Yoşiya xalqa, orada olan hər kəsə
Pasxa qurbanı olaraq sürüdən otuz
min quzu və oğlaq verdi, üç min baş
mal-qara da verdi. Bunlar padşahın
malından idi. 8 Onun rəisləri də
xalqa, kahinlərə və Levililərə könüllü
hədiyyələr verdilər. Allah məbədinin
rəisləri olan Xilqiya, Zəkəriyyə və
Yexiel, kahinlərə iki min altı yüz
Pasxa qurbanı olacaq davar və üç
yüz baş mal-qara verdi. 9 Konanya,
onun qardaşları Şemaya və Netanel,
Levililərin rəisləri Xaşavya, Yeiel və
Yozavad Levililərə beş min Pasxa
qurbanı olacaq heyvan və beş yüz baş
mal-qara verdi.
10 Xidmət işi hazır olanda padşahın
əmri ilə kahinlər yerlərində və Levililər
bölmələrinə görə dayanıb 11 Pasxa
qurbanını kəsdilər. Kahinlər özlərinə
verilən qanı səpdilər, Levililər isə
qurbanların dərisini soydular. 12 Onları
xalqa nəsil bölmələrinə görə vermək
üçün ayırdılar ki, Musanın kitabında
yazıldığı kimi xalq Rəbbə yandırma
qurbanları təqdim etsin. Mal-qaranı
da belə etdilər. 13 [x]Pasxa qurbanını
da qaydaya görə odda qızartdılar.
Müqəddəs qurbanları qazanlarda,
tiyanlarda və tavalarda bişirdilər
və bütün xalqa tələsik payladılar.
14 Bundan sonra özləri və kahinlər üçün
hazırladılar, çünki Harun nəslindən olan
kahinlər gecə düşənə qədər yandırma
qurbanları və yağları təqdim etməklə
məşğul idi. Bundan ötrü Levililər özləri
və Harun nəslindən olan kahinlər üçün
hazırlıq gördülər. 15 [y]Asəf nəslindən olan
ilahiçilər Davudun, Asəfin, Hemanın
və padşahın görücüsü Yedutunun əmr
etdiyi yerlərdə, qapıçılar isə hər darvaza
ağzında dayandı. Xidmətlərindən
ayrılmaları lazım deyildi, çünki Levili
olan qohumları onlar üçün hazırlıq
gördü.
16 Padşah Yoşiyanın əmrinə görə
Pasxa bayramını keçirmək və Rəbbin
qurbangahında yandırma qurbanları
təqdim etmək üçün Rəbbin bütün
xidməti o gün beləcə hazırlandı.
17 [z]Orada olan İsrail övladları o
zaman Pasxa bayramını, yeddi gün isə
Mayasız Çörək bayramını qeyd etdilər.
18 Peyğəmbər Şamuelin dövründən
bəri Pasxa bayramı İsraildə belə
keçirilməmişdi. İsrail padşahlarından
heç biri Yoşiya ilə kahinlərin,
Levililərin, bütün Yəhudalıların, orada
olan İsraillilərin və Yerusəlimdə
yaşayanların qeyd etdikləri bu Pasxa
kimi bir Pasxa keçirməmişdi. 19 Bu
Pasxa Yoşiyanın padşahlığının on
səkkizinci ilində keçirildi.

Yoşiyanın ölümü

(2Pad. 23:28-30)

20 Yoşiyanın məbəddə gördüyü
bütün bu işlərdən sonra Misir padşahı
Neko müharibə etmək üçün Fərat çayı
yanında olan Karkemişin üzərinə gəldi.
Yoşiya onunla qarşılaşmağa çıxdı.
21 Misir padşahı onun yanına qasidlər
göndərib dedi: «Ey Yəhuda padşahı,
mənim sənlə nə işim var? Mən bu
gün sənin üstünə deyil, müharibə
etdiyim sülaləyə qarşı gedirəm. Allah
mənə tələsməyi əmr etdi, mənimlə
olan Allahdan çəkin ki, səni həlak
etməsin». 22 Yoşiya ondan əl çəkmədi
və onunla vuruşmaq üçün qiyafəsini
dəyişdi, Allah tərəfindən olan Nekonun
sözlərinə qulaq asmadı və vuruşmaq
üçün Megiddo düzənliyinə getdi.
23 Oxatanlar padşah Yoşiyanı oxla
vurdu. Padşah adamlarına dedi: «Məni
buradan aparın, çünki ağır yaralandım».

---

[x]**35:13** Çıx. 12:8-9 [y]**35:15** 1Saln. 25:1 [z]**35:17** Çıx. 12:1-20

24 Adamları onu arabadan götürdülər və
onu özünün ikinci arabasına mindirib
Yerusəlimə apardılar. Yoşiya öldü
və atalarının qəbirlərində basdırıldı.
Bütün Yəhudalılar və Yerusəlimlilər
Yoşiya üçün yas tutdu. 25 Yeremya
Yoşiya üçün mərsiyə qoşdu. Bütün kişi
və qadın xanəndələr bu günə qədər
məlum olan mərsiyələrində Yoşiya
barədə danışmışlar. Bu mərsiyələri
oxumağı İsraildə adət etdilər və bunlar
mərsiyələr kitabında yazılmışdır.
26 Yoşiyanın qalan işləri, Rəbbin
Qanununda yazıldığına görə etdiyi
sədaqətli işləri, 27 ilk işlərindən
son işlərinə qədər İsrail və Yəhuda
padşahlarının kitabında yazılmışdır.

36 Ölkə xalqı Yoşiyanın oğlu
Yehoaxazı götürüb atasının
yerinə Yerusəlimdə padşah etdi.

Yəhuda padşahı Yehoaxaz

(2Pad. 23:30-35)

2 Yehoaxaz padşah olduğu vaxt iyirmi
üç yaşında idi və Yerusəlimdə üç ay
padşahlıq etdi. 3 [a]Misir padşahı onu
Yerusəlimdə taxtdan saldı və ölkə
üzərinə bir talant qızıl və yüz talant
gümüş miqdarında xərac qoydu. 4 Misir
padşahı onun qardaşı Elyaqimi Yəhuda
və Yerusəlim üzərində padşah etdi və
adını dəyişdirib Yehoyaqim qoydu.
Neko onun qardaşı Yehoaxazı götürüb
Misirə apardı.

Yəhuda padşahı Yehoyaqim

(2Pad. 23:36–24:7)

5 [b]Yehoyaqim padşah olduğu vaxt
iyirmi beş yaşında idi və Yerusəlimdə
on bir il padşahlıq etdi. O, Allahı
Rəbbin gözündə pis olan işlər etdi.
6 [c]Babil padşahı Navuxodonosor onun
üstünə hücum etdi. Tunc zəncir
vurub onu əsir etdi və Babilə apardı.
7 Navuxodonosor Rəbbin məbədinin
əşyalarından bəzilərini Babilə apardı və
onları Babildəki öz məbədinə qoydu.
8 Yehoyaqimin qalan işləri, etdiyi
iyrənc işlər və onun təqsiri İsrail
və Yəhuda padşahlarının kitabında
yazılmışdır. Onun yerinə oğlu
Yehoyakin padşah oldu.

Yəhuda padşahı Yehoyakin

(2Pad. 24:8-17)

9 Yehoyakin padşah olduğu vaxt on
səkkiz yaşında idi və Yerusəlimdə üç
ay on gün padşahlıq etdi. O, Rəbbin
gözündə pis olan işlər etdi. 10 [d]Bahar
gələndə Navuxodonosor onu Rəbbin
məbədinin qiymətli əşyaları ilə birgə
Babilə gətirtdi və Yehoyakinin qohumu
Sidqiyanı Yəhuda və Yerusəlim üzərində
padşah etdi.

Yəhudanın son padşahı Sidqiya

(2Pad. 24:18-20; Yer. 52:1-3)

11 [e]Sidqiya padşah olduğu vaxt iyirmi
bir yaşında idi və Yerusəlimdə on bir
il padşahlıq etdi. 12 O, Allahı Rəbbin
gözündə pis olan işlər etdi, Rəbbin dili
ilə danışan peyğəmbər Yeremyanın
önündə özünü aşağı tutmadı. 13 [f]Həm
də Allahın adı ilə onu and içdirmiş
padşah Navuxodonosora qarşı üsyan
etdi, dikbaşlıqla İsrailin Allahı Rəbbə
tərəf dönmək istəməyib ürəyini inadkar
etdi. 14 Kahinlərin bütün rəhbərləri də
xalqla birgə başqa millətlərin bütün
iyrənc işlərinə görə davranaraq böyük
xainlik etdilər və Rəbbin Yerusəlimdə
təqdis etdiyi məbədini murdarladılar.

---

[a]**36:3** Yer. 22:11-12 [b]**36:5** Yer. 22:18-19; 26:1-6; 35:1-19
[c]**36:6** Yer. 25:1-38; 36:1-32; 45:1-5; Dan. 1:1-2
[d]**36:10** Yer. 22:24-30; 24:1-10; 29:1-2; Yez. 17:12; Yer. 37:1; Yez. 17:13
[e]**36:11** Yer. 27:1-22; 28:1-17 [f]**36:13** Yez. 17:15

Yerusəlimin süqutu

(2Pad. 25:1-21; Yer. 52:3-27)

15 Atalarının Allahı Rəbb dəfələrlə
Öz elçilərinin vasitəsilə onlara
xəbər göndərdi, çünki Öz xalqına və
məskəninə rəhmi gəlirdi. 16 [g]Ancaq
Rəbbin qəzəbi Öz xalqının üzərinə
gəldi və onlara heç bir çarə tapılmadı,
çünki Allahın elçilərini lağa qoydular,
Onun sözlərinə xor baxdılar və
peyğəmbərlərini təhqir etdilər.
17 [h]Rəbb onların üzərinə Xaldeylilərin
padşahını göndərdi. O da Müqəddəs
məkanlarında onların cavanlarını
qılıncla öldürdü, yeniyetməyə və bakirə
qıza, qocaya və zəifə rəhm etmədi,
Rəbb hamısını ona təslim etdi. 18 O,
Allahın məbədinin bütün böyük və
kiçik əşyalarını, Rəbbin məbədinin
xəzinələrini, padşahın və onun
rəislərinin xəzinələrini – hər şeyi Babilə
apardı. 19 Xaldeylilər Allahın məbədini
yandırdılar, Yerusəlimin divarını
uçurdular, onun bütün saraylarına
od vurdular və orada olan qiymətli
əşyaların hamısını məhv etdilər.
20 Xaldeylilərin padşahı qılıncdan
qurtaranları Babilə sürgünlüyə apardı.
Onlar Fars padşahlarının hökmranlığına
qədər ona və onun oğullarına qul oldu.
21 [i]Yeremyanın dili ilə deyilən Rəbbin
sözü yerinə yetsin deyə yetmiş il bitənə
qədər torpaq öz Şənbə vaxtlarını qeyd
edərək bütün bu viranəlik müddəti
dincəldi.

Kir Yəhudilərə öz ölkələrinə qayıtmağa icazə verir

(Ezra 1:1-4)

22 Rəbb Fars padşahı Kirin
hökmranlığının birinci ilində
Yeremyanın dili ilə dediyi sözü
yerinə yetirmək üçün Kiri ruhlandırdı.
Ona görə Kir padşahlığının bütün
ərazisində yazılı və şifahi şəkildə elan
etdi:

23 [j]«Budur, Fars padşahı Kir
belə deyir: “Göylərin Allahı Rəbb
dünyanın bütün padşahlıqlarını
mənə verdi və Yəhudanın Yerusəlim
şəhərində Öz məbədini tikməyi
mənə əmr etdi. Aranızda Onun
xalqına mənsub olanların hamısına
qoy Allahı Rəbb yar olsun və oraya
getsinlər”».

---

[g]**36:16** Mat. 5:12; Luka 6:23; Həv. 7:52-53 [h]**36:17** Yer. 21:1-10; 34:1-5
[i]**36:21** Yer. 25:11; 29:10 [j]**36:23** Yeş. 44:28

EZRA

KİTABI

GİRİŞ

«Ezra» və *«Nehemya»* Kitabları vəhdət təşkil edib *«Salnamələr»* Kitabının davamıdır. Bu kitab yəhudilərin Babil sürgünlüyündən qayıtmasından və Yerusəlimdəki məbədin bərpa olunmasından danışır. Kitabın müəllifi sübut edir ki, yəhudilərin qovulmasına və padşahlığın dağılmasına baxmayaraq, onlar yenə də Allahın seçilmiş xalqı olaraq qalırlar. Kitabın baş qəhrəmanı ilahiyyatçı, Allahın qanununu yaxşı bilən və Ona sadiq olan Ezradır. O öz imanı ilə İsrailin mənəvi irsini qorumaq üçün xalqın ruhani və ictimai həyatının bərpasına kömək edir.

Kitabda hadisələr belə ardıcıllıqla qələmə alınıb:

Sürgündə olan yəhudilərin bir hissəsinin Fars padşahı Kirin əmri ilə vətənə qayıtması.

Məbədin yenidən tikilməsi və təqdis olunması; Yerusəlimdə Allaha ibadətin bərpası.

Sürgündə olan yəhudilərin başqa bir hissəsinin Yerusəlimə qayıtması və nikah problemi.

Kitabın məzmunu:

1:1–2:70 Sürgündən Yəhudaya birinci qayıdanlar

3:1–6:22 Məbədin yenidən tikilməsi və təqdis edilməsi

7:1–10:44 Ezranın başqa sürgün olunanlarla birgə qayıtması

Yerusəlimdəki məbədin bərpası

(2Saln. 36:22-23)

1 [k]Rəbb Fars padşahı Kirin hökmranlığının birinci ilində Yeremyanın dili ilə dediyi sözü yerinə yetirmək üçün Kiri ruhlandırdı. Ona görə Kir padşahlığının bütün ərazisində yazılı və şifahi elan etdi:

[2] [l]«Budur, Fars padşahı Kir belə deyir: “Göylərin Allahı Rəbb dünyanın bütün padşahlıqlarını mənə verdi və Yəhudanın Yerusəlim şəhərində Öz məbədini tikməyi mənə əmr etdi. [3] Aranızda Onun xalqına mənsub olanların hamısına qoy Allahı yar olsun! Qoy onlar Yəhudanın Yerusəlim şəhərinə qalxsın və İsrailin Allahı Rəbbin məbədini tiksinlər. Yerusəlimdə səcdə qılınan Allah Odur. [4] Sağ qalan İsraillilər hansı əhali arasında yaşayırsa, qoy onlar Yerusəlimdəki Allah evinə verəcəkləri könüllü ianələrdən başqa, qızıl-gümüş, əşya və heyvanlar verməklə bu adamlara kömək etsinlər”».

[5] Yəhuda, Binyamin qəbilələrinin nəsil başçıları, kahinlərlə Levililər, eləcə də Allahın ruhlandırdığı bütün adamlar Rəbbin Yerusəlimdəki məbədini tikmək üçün yola düşməyə hazırlaşdılar. [6] Aralarında yaşadıqları yerli əhalinin hamısı verdikləri könüllü ianələrdən başqa, qızılla, gümüş qablarla, əşyalarla, heyvanlarla və qiymətli şeylərlə onlara kömək etdilər. [7] Padşah Kir Navuxodonosorun Rəbbin Yerusəlimdəki məbədindən götürüb öz allahlarının məbədinə qoyduğu əşyaları çıxartdı. [8] Fars padşahı Kir onları xəzinədar Mitredatın əli ilə oradan çıxardaraq hamısını sayıb Yəhuda rəhbəri Şeşbassara verdi. [9] Onların

---

[k]**1:1** Yer. 25:11; 29:10 [l]**1:2** Yeş. 44:28

sayı bu qədər idi: otuz qızıl ləyən, min
gümüş ləyən, iyirmi doqquz bıçaq,
10 otuz qızıl boşqab, bir-birinə oxşayan
dörd yüz on gümüş boşqab və min
ədəd də başqa qablar. 11 Qızıl və gümüş
əşyaların hamısı beş min dörd yüz
ədəd idi. Sürgündə yaşayanlar Babildən
Yerusəlimə qaytarılanda Şeşbassar
bu əşyaların hamısını onlarla bərabər
gətirdi.

Sürgündən Yəhudaya qayıdanların siyahısı

(Neh. 7:4-73)

2 Babil padşahı Navuxodonosorun
Babilə apardığı əsirlər yaşadıqları
vilayətdən Yerusəlimə və Yəhudadakı
öz şəhərlərinə qayıtdılar.
2 Onlar Zerubbabil, Yeşua, Nehemya,
Seraya, Reelaya, Mordokay, Bilşan,
Mispar, Biqvay, Rexum, Baananın
başçılığı ilə gəldilər.
Sürgündən qayıdan İsraillilərin sayı:
3 Paroş övladları – 2172 nəfər;
4 Şefatya övladları – 372 nəfər;
5 Arah övladları – 775 nəfər;
6 Yeşua və Yoav nəslindən Paxat-Moav
övladları – 2812 nəfər;
7 Elam övladları – 1254 nəfər;
8 Zattu övladları – 945 nəfər;
9 Zakkay övladları – 760 nəfər;
10 Bani övladları – 642 nəfər;
11 Bevay övladları – 623 nəfər;
12 Azqad övladları – 1222 nəfər;
13 Adoniqam övladları – 666 nəfər;
14 Biqvay övladları – 2056 nəfər;
15 Adin övladları – 454 nəfər;
16 Ater, yəni Xizqiya övladları – 98
nəfər;
17 Besay övladları – 323 nəfər;
18 Yora övladları – 112 nəfər;
19 Xaşum övladları – 223 nəfər;
20 Gibbar övladları – 95 nəfər;
21 Bet-Lexem övladları – 123 nəfər;
22 Netofa sakinləri – 56 nəfər;
23 Anatot sakinləri – 128 nəfər;
24 Azmavet övladları – 42 nəfər;
25 Qiryat-Arim, Kefira və Beerot
övladları – 743 nəfər;
26 Rama və Geva övladları – 621 nəfər;
27 Mikmas sakinləri – 122 nəfər;
28 Bet-El və Ay sakinləri – 223 nəfər;
29 Nevo övladları – 52 nəfər;
30 Maqbiş övladları – 156 nəfər;
31 Digər Elam övladları – 1254 nəfər;
32 Xarim övladları – 320 nəfər;
33 Lod, Xadid və Ono övladları – 725
nəfər;
34 Yerixo övladları – 345 nəfər;
35 Senaa övladları – 3630 nəfər.
36 Kahinlər:
Yeşua nəslindən Yedaya övladları – 973
nəfər;
37 İmmer övladları – 1052 nəfər;
38 Paşxur övladları – 1247 nəfər;
39 Xarim övladları – 1017 nəfər.
40 Levililər: Hodavya nəslindən
yaranan Yeşua və Qadmiel övladları –
74 nəfər.
41 İlahiçilər: Asəf övladları – 128
nəfər.
42 Məbəd qapıçıları: Şallum övladları,
Ater övladları, Talmon övladları, Aqquv
övladları, Xatita övladları və Şovay
övladları ilə birlikdə 139 nəfər.
43 Məbəd qulluqçuları: Sixa övladları,
Xasufa övladları, Tabbaot övladları,
44 Qeros övladları, Siaha övladları,
Padon övladları, 45 Levana övladları,
Xaqava övladları, Aqquv övladları,
46 Xaqav övladları, Şamlay övladları,
Xanan övladları, 47 Giddel övladları,
Qaxar övladları, Reaya övladları,
48 Resin övladları, Neqoda övladları,
Qazzam övladları, 49 Uzza övladları,
Paseah övladları, Besay övladları,
50 Asna övladları, Meunim övladları,
Nefusim övladları, 51 Baqbuq övladları,
Xaqufa övladları, Xarxur övladları,
52 Baslut övladları, Mexida övladları,
Xarşa övladları, 53 Barqos övladları,

Sisra övladları, Tamax övladları,
54 Nesiah övladları, Xatifa övladları.
55 Süleymanın əyanlarının nəslindən:
Sotay övladları, Hassoferet övladları,
Peruda övladları, 56 Yela övladları,
Darqon övladları, Giddel övladları,
57 Şefatya övladları, Xattil övladları,
Pokeret-Hassevayim övladları, Ami
övladları.
58 Məbəd qulluqçuları ilə Süleymanın
əyan qullarının övladları – cəmi 392
nəfər.
59 Tel-Melahdan, Tel-Xarşadan,
Keruvdan, Addondan, İmmerdən
qayıdan, ancaq ailələrinin və nəsillərinin
İsrail övladlarından olduğunu sübut
edə bilməyənlər bunlardır: 60 Delaya
övladları, Toviya övladları, Neqoda
övladları – 652 nəfər.
61 Kahinlərin nəslindən: Xovaya
övladları, Haqqos övladları, Gileadlı
Barzillayın qızlarından arvad alıb
qayınatasının adını götürən Barzillay
övladları. 62 Onlar nəsil şəcərəsini
axtardılar, lakin öz adlarını tapa
bilmədilər və buna görə murdar
sayılaraq kahinlikdən çıxarıldılar.
63 Yəhuda valisi onlara əmr edib belə
dedi: «Urim və Tummimi işlədən bir
kahin olmayınca onlar ən müqəddəs
yeməklərdən yeməsin».
64 Bütün camaat birlikdə 42 360 nəfər
idi. 65 Bundan başqa, 7337 nəfər kölə
və kənizlər, 200 nəfər kişi və qadından
ibarət ilahiçi var idi. 66 Bu adamların
736 atı, 245 qatırı, 67 435 dəvəsi, 6720
eşşəyi var idi.
68 Rəbbin Yerusəlimdəki məbədinə
gələn zaman bəzi nəsil başçıları Allahın
evini öz yerində tikmək üçün könüllü
ianələr verdilər. 69 Bu iş üçün yığılan
xəzinəyə imkan daxilində altmış bir min
darik *qızıl, beş min mina gümüş və yüz
kahin geyimi verdilər.
70 [m]Kahinlər, Levililər, xalqın
bəziləri, ilahiçilər, məbəd qapıçıları və
qulluqçuları öz şəhərlərində yerləşdilər.
Beləliklə, İsraillilər isə öz şəhərlərində
yerləşdilər.

Yerusəlimdəki qurbangahın tikilməsi

3 [n]Artıq İsraillilər öz şəhərlərində idi.
Yeddinci ay çatanda xalq bir nəfər
kimi Yerusəlimdə toplandı. 2 [o]Yosadaq
oğlu Yeşua ilə kahin qardaşları və
Şealtiel oğlu Zerubbabillə qardaşları
İsrailin Allahının qurbangahını qurdular
ki, Allah adamı Musanın Qanununda
yazıldığı kimi üstündə yandırma
qurbanları təqdim edilsin. 3 [p]Ətrafda
yaşayan xalqlardan qorxmalarına
baxmayaraq, qurbangahı əvvəlki
bünövrə üzərində qurdular. Sonra
onun üzərində səhər-axşam Rəbbə
yandırma qurbanları təqdim etdilər.
4 [q]Yazıya görə Çardaqlar bayramı
keçirdilər və qaydaya görə günbəgün
müəyyən miqdarda gündəlik yandırma
qurbanları təqdim etdilər. 5 [r]Sonra
daimi yandırma qurbanları verdilər.
Təzə Ay mərasimlərinin, eləcə də
Rəbbin təqdis etdiyi bütün bayramların
təqdimlərini və hamının könüllü olaraq
Rəbbə etdiyi təqdimləri verdilər.
6 Rəbbin məbədinin bünövrəsinin
qoyulmamasına baxmayaraq, onlar
yeddinci ayın birinci günündə Rəbbə
yandırma qurbanları təqdim etməyə
başladılar.

Məbədin bünövrəsinin qoyulması

7 Daşyonanlarla dülgərlərə pul
verdilər. Fars padşahı Kirdən izin
aldıqlarına görə Livandan dəniz yolu ilə

*2:69 *Darik* – qızıl sikkə.

[m]**2:70** 1Saln. 9:2; Neh. 11:3 [n]**3:1** Neh. 8:1 [o]**3:2** Çıx. 27:1
[p]**3:3** Say. 28:1-8 [q]**3:4** Say. 29:12-38 [r]**3:5** Say. 28:11–29:39

Yafoya sidr ağacları gətirmələri üçün
Sidonlularla Surlulara yemək-içmək və
zeytun yağı verdilər.
8 Allahın evinə, Yerusəlimə
gəlişlərinin ikinci ilinin ikinci
ayında Şealtiel oğlu Zerubbabil və
Yosadaq oğlu Yeşua ilə digər qardaşları
– kahinlər, Levililər, əsirlikdən
Yerusəlimə qayıdanların hamısı işə
başladılar. İyirmi və ondan yuxarı
yaşda olan Levililəri Rəbbin məbədinin
tikinti işinə nəzarətçi təyin etdilər.
9 Levililərdən Yeşua və övladları ilə
qardaşları, Hodavya *nəslindən törənən
Qadmiellə övladları, Xenadad övladları,
nəvələri və qardaşları Allahın evində
işləyənlərə nəzarət etdilər. 10 sBənnalar
Rəbbin məbədinin təməlini qoyan
zaman İsrail padşahı Davudun qoyduğu
qaydaya əsasən kahinlər xüsusi libas
geyinib əllərindəki kərənaylarla, Asəf
övladlarından olan Levililərsə sinclərlə
Rəbbə həmd etmək üçün öz yerlərini
tutdular. 11 tOnlar Rəbbə həmd və
şükür edib növbə ilə Onu tərənnüm
edərək belə deyirdilər: «Rəbb yaxşıdır,
çünki İsrailin üzərində məhəbbəti
əbədidir». Onlar Rəbbə həmd edəndə
bütün xalq ucadan qışqırdı, çünki
Rəbb evinin bünövrəsi qoyulmuşdu.
12 Əvvəlki məbədi görmüş bir çox qoca
kahinlər, Levililər və nəsil başçıları
məbədin bünövrəsinin qoyulduğunu
görəndə hönkürüb ağladılar, bir çoxları
isə sevincdən haray çəkdilər. 13 Xalq
gurultulu sevinc səsləri ilə ağlaşma
səslərini bir-birindən ayıra bilmirdi,
çünki onların gurultu ilə qopan haray
səsləri uzaqlarda eşidilirdi.

Samariyalılar məbəd tikintisinə mane olur

4 Yəhudalıların və Binyaminlilərin
düşmənləri eşitdilər ki, sürgündən
qayıdanlar İsrailin Allahı Rəbb üçün
məbəd tikirlər. 2 uOnlar Zerubbabilə
və nəsil başçılarına yaxınlaşıb belə
dedi: «Qoy biz də sizinlə bərabər bu
məbədi tikək, çünki biz də sizin kimi
Allahınıza sitayiş edirik. Bizi buraya
gətirən Aşşur padşahı Esar-Xaddonun
dövründən bəri sizin Allaha qurban
təqdim edirik». 3 Lakin Zerubbabil,
Yeşua və İsrailin digər nəsil başçıları
onlara belə dedilər: «Allahımızın evini
qurmaq üçün sizin bizimlə heç bir
ortaq işiniz yoxdur. Biz özümüz əlbir
olaraq Fars padşahı Kirin əmrinə əsasən
İsrailin Allahı Rəbbə məbəd tikəcəyik».
4 Onda bu ölkənin xalqı Yəhuda
xalqının əllərini işdən soyutmaqla
tikinti işində onlara əziyyət verdi. 5 Bu
xalq Yəhudilərin məqsədlərini boşa
çıxarmaq üçün Fars padşahları olan
Kirin dövründən Daranın dövrünə qədər
onlara qarşı çıxaraq özlərinə muzdla
məsləhətçilər tutdu. 6 vOnlar Axaşveroş
padşah olanda, onun hökmranlığının
başlanğıcında Yəhuda və Yerusəlimdə
yaşayanların əleyhinə bir ittiham
məktubu yazdılar.
7 Fars padşahı Artaxşastanın†
dövründə Bişlam Mitredat, Taveel və
digər yoldaşları padşah Artaxşastaya
məktub yazdı. Məktub Arami dilində
yazılaraq‡ tərcümə edildi.
8 Sərkərdə Rexum və mirzə Şimşay
padşah Artaxşastaya Yerusəlimi ittiham
edən bir məktub yazdı. 9 Sonra məktuba

*3:9 *Hodavya* – ibrani mətnində *Yəhuda* yazılmışdır. Bax: Ezr. 2:40, Neh. 7:43.
†4:7 *Artaxşasta* – Azərbaycanda indiki tarixi ədəbiyyatlarda Artakserks.
‡4:7 4:8–6:18-ə qədər mətn o dövrün rəsmi dili olan arami dilində yazılmışdır.

s3:10 1Saln. 25:1 t3:11 1Saln. 16:34; 2Saln. 5:13; 7:3; Zəb. 100:5; 106:1; 107:1; 118:1; 136:1; Yer. 33:11 u4:2 2Pad. 19:37; Yeş. 37:38 v4:6 Est. 1:1

sərkərdə Rexumla mirzə Şimşay və
qalan yoldaşları, hakimlər, əmirlər,
qulluqçular, Farslar, Ereklilər, Babillilər,
Şuşanlılar, yəni Elamlılar, 10 böyük
və şanlı Aşurbanipalın* sürgün edib
Samariya şəhərlərində və Fərat çayının
qərb torpaqlarında yerləşdirdiyi başqa
xalqlar imza qoydular.
11 Padşah Artaxşastaya göndərdikləri
məktubun surəti belədir:
«Padşah Artaxşastaya
Fərat çayının qərb torpaqlarında
yaşayan qullarından.
12 Padşaha məlum olsun ki, sizin
yanınızdan qayıdan Yəhudilər
bizim yanımıza – Yerusəlimə
gəlib bu pis, üsyankar şəhəri
bərpa edirlər. Divarları hörüb
qurtardılar və binaların təməlini
bərpa etdilər. 13 Padşaha məlum
edirik ki, əgər bu şəhər bərpa
edilərsə, divarları hörülüb
qurtararsa, onlar sənə vergi,
xərac və gömrük verməyəcəklər.
Bununla da padşahın gəlirinə
böyük ziyan dəyəcək. 14 Əgər indi
bu sarayın duzu ilə dolanırıqsa,
gözümüz önündə padşaha ziyan
dəyməsini görmək bizə yaraşmaz.
Ona görə də padşaha bu xəbəri
göndərib belə məlum edirik:
15 qoy ata-babalarının dəftərxanası
axtarılsın. Qeyd kitablarında bu
şəhər haqqında məlumat tapanda
biləcəksiniz ki, bu şəhər həm
üsyankar, həm də padşahlar və
dövlətlər üçün zərərlidir. Qədimdən
bəri oradan həmişə xəyanət törəyib
və bunun üçün şəhər xarabaya
çevrilib. 16 Padşaha məlum edirik
ki, əgər bu şəhər bərpa edilərsə və
divarları tikilib qurtararsa, sənin
Fərat çayının qərb torpaqlarında
payın olmayacaq».
17 Padşah belə cavab göndərdi:
«Sərkərdə Rexuma, mirzə
Şimşaya və Samariya ilə Fərat
çayının digər qərb torpaqlarında
yaşayan yoldaşlarına salamlar!
18 Bizə göndərdiyiniz məktub
hüzurumda tərcümə edildi. 19 Ona
görə mən əmr verdim və əmrimə
əsasən istintaq aparıldı. Bu
şəhərin sakinlərinin qədimdən bəri
padşahlara qarşı üsyan qaldırması
təsdiq olundu. Üsyankarlıq və
xəyanət bu şəhərin daxilindən baş
qaldırıb. 20 O zaman Yerusəlimi
idarə edən qüdrətli padşahlar var
idi. Fərat çayının qərbindəki bütün
torpaqlar üzərində bu padşahlar
hökmranlıq edirdilər. Buranın
əhalisi isə onlara xərac, vergi və
gömrük verirdi. 21 İndi əmr verin,
bu adamlar işi dayandırsınlar və
mən əmr verənə qədər bu şəhəri
bərpa etməsinlər. 22 Bu işə etinasız
yanaşmaqdan çəkinin. Niyə şər
artıb padşahlığıma ziyan vursun?»
23 Padşah Artaxşastanın məktubunun
surəti Rexumla mirzə Şimşayın və
yoldaşlarının qarşısında oxunanda
onlar tələsik Yerusəlimə Yəhudilərin
yanına getdilər. Onların işini zorla,
güclə dayandırdılar. 24 Beləliklə,
Yerusəlimdəki Allah evinin tikinti işi
dayandırıldı və bu iş Fars padşahı
Daranın hökmranlığının ikinci ilinə
qədər ləngidi.

Tikintinin davam etdirilməsi

5 [w]Peyğəmbərlərdən peyğəmbər
Haqqayla İddo oğlu Zəkəriyyə
Yəhudada və Yerusəlimdə yaşayan
Yəhudilərə İsrail Allahının adı ilə

*4:10 *Aşurbanipal* – arami mətnində *Osnappar*.

[w]5:1 Ezra 6:14; Haq. 1:1; Zək. 1:1

peyğəmbərlik etdi. 2 [x]O zaman Şealtiel
oğlu Zerubbabil və Yosadaq oğlu Yeşua
işə başlayaraq Yerusəlimdəki Allah
evinin tikintisini davam etdirdilər.
Allahın peyğəmbərləri də onlarla idi və
onlara kömək etdi.
3 O vaxtlar Fərat çayının qərb
torpaqlarının valisi olan Tattenay,
Şetar-Boznay və yoldaşları onların
yanına gəlib dedi: «Bu məbədi bərpa
etmək və tikintisini qurtarmaq üçün
sizə kim icazə verib?» 4 Onda biz onlara
bu binanı tikənlərin adlarını bildirdik.
5 Allahın nəzəri Yəhudi ağsaqqallarının
üzərinə yönəlmişdi. Ona görə bu işin
sorağı Daraya çatana və bu barədə
məktubla cavab qayıdanadək onlar
Yəhudilərin işini dayandırmadılar.
6 Fərat çayının qərb torpaqlarının
valisi Tattenay, Şetar-Boznay və
yoldaşları, Fərat çayının qərb
torpaqlarındakı məmurlar padşah
Daraya bu surətdə məktub yolladı.
7 Ona yolladıqları məktubda belə
yazılmışdı:

«Padşah Daraya böyük ehtiramla
salamlar!
8 Padşaha məlum olsun ki, biz
Yəhuda vilayətindəki böyük Allahın
məbədinə getdik. Məbəd böyük
daşlardan tikilmiş, divarların
içərisinə dirəklər qoyulmuşdur.
Bu iş səylə görülərək uğurla
idarə edilir. 9 O zaman oranın
ağsaqqallarından soruşub belə
dedik: “Bu məbədi bərpa etmək və
tikintisini qurtarmaq üçün sizə kim
icazə verib?” 10 Həm də onlardan
bu işin başçılarının adını soruşduq
ki, bunları yazaraq sizə bildirək.
11 Onlar bizə belə cavab verdilər:
“Biz göylərin və yerin Allahının
qullarıyıq. Bundan bir çox il
əvvəl tikilən məbədi bərpa edirik.
Vaxtı ilə oranı İsrailin böyük
padşahı tikib başa çatdırmışdı.
12 [y]Lakin atalarımız göylərin
Allahını qəzəbləndirdiyi üçün
Allah onları Babil padşahı Xaldeyli
Navuxodonosora təslim etdi. O da
bu məbədi xarabaya çevirdi və
xalqını Babilə əsir apardı. 13 [z]Lakin
Babil padşahı Kirin hakimiyyətinin
birinci ilində padşah Kir Allah
evinin bərpası üçün əmr verdi.
14 Həmçinin Yerusəlimdəki Allah
evindən Navuxodonosorun götürüb
Babil məbədinə apardığı qızıl və
gümüş qabları padşah Kir Babildəki
məbəddən çıxartdı. Onları vali
təyin etdiyi Şeşbassar adlı bir
adama verərək dedi: 15 ‹Bu əşyaları
götürüb get, Yerusəlimdəki məbədə
qoy. Allahın evi qoy öz yerində
bərpa olunsun›. 16 O zaman həmin
Şeşbassar gəlib Yerusəlimdəki Allah
evinin təməlini qoydu. O zamandan
indiyə qədər bu məbəd tikilir, lakin
hələ tamamlanmayıb”.
17 İndi padşahın xoşuna gələrsə,
qoy Babil sarayındakı dəftərxana
axtarılaraq Yerusəlimdəki Allah
evinin bərpası üçün padşah Kirin
verdiyi əmr üzə çıxarılsın. Sonra
isə bu iş barədə padşah öz iradəsini
bizə bildirsin».

Dara Kirin fərmanını təsdiq edir

6 O zaman padşah Daranın verdiyi
əmrə əsasən Babil xəzinəsində
olan dəftərxana axtarıldı. 2 Midiya
vilayətində olan Ekbatana qalasında bir
tumar tapıldı. Bu tumarda belə qeyd
edilmişdi:
3 «Padşah Kirin hökmdarlığının
birinci ilində Allahın Yerusəlimdəki

[x]**5:2** Haq. 1:12; Zək. 4:6-9; Zək. 3:1
[y]**5:12** 2Pad. 25:8-12; 2Saln. 36:17-20; Yer. 52:12-15 [z]**5:13** Ezra 1:2-11

məbədi barədə Kir belə əmr
verib: “Bu məbəd – qurbanlar
təqdim edilən bu yer əvvəlki
bünövrəsi üzərində bərpa edilsin.
4 Üç cərgə böyük daş, bir cərgə
təzə dirək qoyulmaqla altmış
qulac hündürlükdə və altmış
qulac uzunluqda olsun. Bu işin
bütün xərci padşah xəzinəsindən
ödənilsin. 5 Həm də Yerusəlimdəki
Allah evindən Navuxodonosorun
çıxarıb Babilə gətirdiyi qızıl və
gümüş qablar geri qaytarılsın.
Bunların hamısı öz yerinə,
Yerusəlimdə olan məbədə aparılsın.
Onları Allahın evinə qoyun”.
6 Ona görə Fərat çayının qərb
torpaqlarının valisi Tattenay,
Şetar-Boznay və yoldaşları – Fərat
çayının qərb torpaqlarındakı
məmurlar qoy indi oradan
uzaqlaşsın, 7 Allah evinin işinə
qarışmasınlar. Yəhudilərin valisi və
Yəhudilərin ağsaqqalları Allahın
evini öz yerində bərpa etsinlər.
8 Mən əmr edirəm ki, Allahın bu
evinin bərpasında Yəhudilərin bu
ağsaqqallarına kömək edəsiniz,
işlərinin dayandırılmaması üçün
bu adamların xərci mütləq padşah
xəzinəsindən, Fərat çayının qərb
torpaqlarından yığılan vergilərdən
ödənilsin. 9 Göylərin Allahına
yandırma qurbanları vermək
üçün hər gün ehtiyaclarına görə
cavan buğalar, qoç və quzular,
Yerusəlimdəki kahinlərin istədiyi
miqdarda buğda, duz, şərab,
zeytun yağı əskik edilmədən onlara
verilsin. 10 Onlar göylərin Allahına
xoş ətirli qurbanlar versinlər və
buna görə padşahla övladları üçün
dua etsinlər ki, canları sağ olsun.
11 Əmr edirəm ki, bu fərmanı
dəyişdirən adamın evindən bir
dirək çıxarıb dik basdırılsın və
həmin adam bu dirəkdən asılsın.
Qoy belə ev xarabalığa çevrilsin.
12 Bu məbədi isminə məskən edən
Allah bu fərmanı dəyişdirməyə cəhd
edən və Yerusəlimdəki məbədin
dağılmasını istəyən hər padşahı
və xalqı yox etsin. Mən Dara
əmr edirəm, əmrim sözsüz yerinə
yetirilsin».

Allahın evinin təqdisi

13 O zaman Fərat çayının qərb
torpaqlarının valisi Tattenay,
Şetar-Boznay və yoldaşları padşah
Daranın göndərdiyi bu əmri alan
kimi ona əməl etdilər. 14 [a]Yəhudilərin
ağsaqqalları tikintini davam etdirdilər
və peyğəmbər Haqqay ilə İddo
oğlu Zəkəriyyənin peyğəmbərlik
sözlərinə əsasən onların işləri uğurlu
gedirdi. İsrail Allahının buyruğuna
görə Fars padşahları Kir, Dara və
Artaxşastanın əmri ilə məbədi tikib
qurtardılar. 15 Məbəd padşah Daranın
hakimiyyətinin altıncı ili, Adar ayının
üçündə başa çatdı.
16 İsrail övladları – kahinlər, Levililər
və sürgündən qayıdanların hamısı bu
Allah evinin təqdis mərasimini sevinclə
qeyd etdilər. 17 Allahın evinin təqdisi
üçün yüz buğa, iki yüz qoç, dörd yüz
quzu və bütün İsrail üçün qəbilələrinin
sayına görə günah qurbanı olaraq on
iki təkə təqdim etdilər. 18 Yerusəlimdə
Allaha xidmət üçün Musanın Kitabında
yazıldığı kimi kahinləri öz dəstələrində
və Levililəri öz bölmələrində düzdülər.

Pasxa bayramının keçirilməsi

19 [b]Sürgündən qayıdanlar Pasxa
bayramını birinci ayın on dördündə
keçirdilər. 20 Çünki kahinlərlə Levililər

[a]**6:14** Ezra 5:1; Haq. 1:1; Zək. 1:1 [b]**6:19** Çıx. 12:1-20

bir nəfər kimi özlərini pak etdikləri
üçün təmiz idilər. Levililər bütün
sürgündən qayıdanlar üçün, kahin
qardaşları və özləri üçün Pasxa qurbanı
kəsdilər. 21 Sürgündən qayıdan İsrail
övladları və İsrailin Allahı Rəbbə sitayiş
etmək üçün özlərini ətraf millətlərin
murdarlığından təcrid edənlərin hamısı
qurban əti yedilər. 22 Yeddi gün sevinclə
Mayasız Çörək bayramı keçirdilər,
çünki onları sevindirən Rəbb idi. Rəbb
İsrail Allahının evinin bərpasına kömək
etmək üçün Aşşur padşahının ürəyində
meyl yaratmışdı.

Ezranın Yerusəlimə gəlməsi

7 Bu işlərdən sonra Fars padşahı
Artaxşastanın dövründə başçı kahin
Harun oğlu Eleazar oğlu Pinxas oğlu
Avişua oğlu 2 Buqqi oğlu Uzzi oğlu
3 Zerahya oğlu Merayot oğlu Azarya
oğlu Amarya oğlu 4 Axituv oğlu Sadoq
oğlu Şallum oğlu 5 Xilqiya oğlu Azarya
oğlu Seraya oğlu Ezra Babildən çıxdı.
6 Babildən gələn bu Ezra İsrailin Allahı
Rəbbin Musaya verdiyi Qanunu yaxşı
bilən ilahiyyatçı idi. Allahı Rəbbin əli
onun üzərində olduğuna görə padşah
Ezranın istədiyi hər bir şeyi vermişdi.
7 Padşah Artaxşastanın
hakimiyyətinin yeddinci ilində
İsrail övladlarından, kahinlərdən,
Levililərdən, ilahiçilərdən, məbəddəki
qapıçılardan və qulluqçulardan bəziləri
Yerusəlimə qayıtdı. 8 Ezra Yerusəlimə
çatanda Artaxşastanın hökmdarlığının
yeddinci ilinin beşinci ayı idi. 9 O, birinci
ayın birinci günündə Babildən yola
düşüb beşinci ayın birində Yerusəlimə
çatdı, çünki Allahın mərhəmətli əli
onun üzərində idi. 10 Ezra özünü Rəbbin
Qanununu tədqiq və tətbiq etməyə,
İsraildə qayda-qanunları öyrətməyə
həsr etmişdi.

Padşah Artaxşastanın Ezraya verdiyi məktub

11 Rəbbin əmrlərini və İsrailə
buyurduğu qanunları öyrədən
ilahiyyatçı, kahin Ezraya padşah
Artaxşasta bu məzmunda məktub
vermişdi:
12 «Padşahlar* padşahı
Artaxşastadan göylərin Allahının
qanunlarını öyrədən kahin Ezraya
bildiriş:
13 İndi mən əmr edirəm
ki, padşahlığımda olan İsrail
xalqından, kahinlərdən,
Levililərdən könüllü olaraq
Yerusəlimə getmək istəyən hər
kəs sənlə getsin. 14 İndi sən
padşahla yeddi məsləhətçisi
tərəfindən əlində olan Allahın
Qanununa əsasən Yəhuda və
Yerusəlimdəki vəziyyəti öyrənmək
üçün göndərilirsən. 15 Yerusəlimi
məskəni edən İsrailin Allahına
padşah və məsləhətçilərinin
könüllü təqdim etdikləri
qızıl-gümüşü götür. 16 Xalqın
və kahinlərin İsrailin Allahının
Yerusəlimdəki məbədinə könüllü
surətdə verdikləri hədiyyələrlə
bərabər Babil vilayətinin hər
tərəfindən yığacağın qızıl-gümüşün
hamısını götür. 17 Sonra bu pulla
tez buğalar, qoçlar, quzular, taxıl
və şərab təqdimlərini alarsan.
Onları Allahınızın Yerusəlimdəki
məbədinin qurbangahında təqdim
edərsiniz. 18 Sən və qardaşların
qızıl-gümüşün qalan hissəsini
Allahın iradəsinə uyğun, istədiyin
kimi istifadə edə bilərsiniz.
19 Allahının məbədində ibadət
zamanı işlətmək üçün sənə
qaytarılan qabları isə Yerusəlim

*7:12 7:12-26-ya qədər mətn arami dilində yazılmışdır.

Allahının hüzurunda təhvil ver.
20 Allahın məbədinə başqa nə lazım
olarsa, sən onu padşah xəzinəsindən
ödə.
21 Mən padşah Artaxşasta Fərat
çayının qərb torpaqlarının bütün
xəzinədarlarına əmr edirəm ki,
göylər Allahının Qanununun
ilahiyyatçısı, kahin Ezranın hər
istəyini diqqətlə yerinə yetirin.
22 Yüz talanta qədər gümüş, yüz
kora qədər buğda, yüz bata qədər
şərab, yüz bata qədər zeytun yağı
və istədikləri qədər duz verin.
23 Göylərin Allahının məbədi
üçün, bu Allah tərəfindən hər
nə əmr olunarsa, yerli-yerində
ona əməl edilsin. Niyə padşahın
və övladlarının ölkəsi qəzəbə
düçar olsun? 24 Sizə bildiririk
ki, kahinlərdən, Levililərdən,
ilahiçilərdən, bu Allah evinin
qapıçılarından, qulluqçularından,
digər xidmətçilərindən xərac, vergi
və gömrük istəməyə izin yoxdur.
25 Sən Ezra Allahın sənə verdiyi
müdrikliyə görə orada hakimlər
və qazilər təyin et. Qoy onlar
Fərat çayının qərbində olan bütün
xalqa – sənin Allahının qanunlarını
bilənlərin hamısına hökm etsinlər.
Bilməyənləri də sən öyrətməlisən.
26 Sənin Allahının qanununa və
padşahın qanununa əməl etməyən
adam mütləq ölüm, sürgün, əmlak
müsadirəsi yaxud həbs cəzaları ilə
cəzalansın».
27 Atalarımızın Allahı Rəbbə alqış
olsun ki, padşahın qəlbində Rəbbin
Yerusəlimdə olan məbədinə belə hörmət
göstərmək istəyini yaratdı. 28 Rəbb
padşahın, onun məsləhətçilərinin
və bütün güclü rəislərinin mənə
yaxşı münasibətini yaratdı. Üzərimdə
olan Allahım Rəbbin əlindən qüvvət
alaraq mənimlə bərabər getmək üçün
İsrailin başçılarından bəzilərini yanıma
topladım.

Ezranın yol yoldaşlarının siyahısı

8 Artaxşastanın padşahlığı zamanı
mənimlə bərabər Babildən gələn
və adları qeyd edilmiş nəsil başçıları
bunlardır: 2 Pinxas övladlarından
Gerşom, İtamar övladlarından Daniel,
Davud övladlarından Xattuş, 3 Şekanya
nəslindən, Paroş övladlarından,
Zəkəriyyə və onunla bir nəsildən
qeydə alınan yüz əlli kişi. 4 Paxat-Moav
övladlarından Zerahya oğlu Elyehoenay
və onunla bərabər iki yüz kişi. 5 Şekanya
övladlarından Yaxazielin oğlu və
onunla bərabər üç yüz kişi. 6 Adin
övladlarından Yonatan oğlu Eved
və onunla bərabər əlli kişi. 7 Elam
övladlarından Atalya oğlu Yeşaya və
onunla bərabər yetmiş kişi. 8 Şefatya
övladlarından Mikael oğlu Zevadya
və onunla bərabər səksən kişi. 9 Yoav
övladlarından Yexiel oğlu Avdiya və
onunla bərabər iki yüz on səkkiz kişi.
10 Şelomit övladlarından Yosifyanın
oğlu və onunla bərabər yüz altmış kişi.
11 Bevay övladlarından Bevay oğlu
Zəkəriyyə və onunla bərabər iyirmi
səkkiz kişi. 12 Azqad övladlarından
Haqqatan oğlu Yoxanan və onunla
bərabər yüz on kişi. 13 Adoniqamın
Elifelet, Yeiel, Şemaya adlı sonuncu
oğulları və onlarla bərabər altmış kişi.
14 Biqvay övladlarından Utay, Zakkur
və onlarla bərabər yetmiş kişi.

Yerusəlimə qayıdış

15 Onları Ahavaya tərəf axan çayın
yanına yığdım və üç gün orada qaldıq.
Mən orada xalqla kahinləri yoxladım,
lakin orada Levi övladlarından heç
kimi tapa bilmədim. 16 Başçılardan
Eliezeri, Arieli, Şemayanı, Elnatanı,
Yarivi, Elnatanı, Natanı, Zəkəriyyəni,
Meşullamı, savadlılardan Yoyarivi və

Elnatanı çağırtdırdım. 17 Sonra onları
Kasifya deyilən yerdə başçılıq edən
İddonun yanına göndərdim. Allahımızın
məbədinə xidmət edən adamları
bizə gətirmək üçün Kasifya deyilən
yerdə İddoya və məbəd qulluqçuları
olan qardaşlarına nə deyəcəklərini
öyrətdim. 18 Allahımızın mərhəmətli əli
üzərimizdə olduğuna görə İsrail oğlu
Levi oğlu Maxli övladlarından zəkalı
bir adam olan Şerevya ilə oğulları
və soydaşlarından on səkkiz nəfəri,
19 Haşavyanı, onunla bərabər Merari
övladlarından Yeşayanı və qardaşları
ilə onların övladlarından iyirmi nəfəri,
20 Levililərə kömək etmək üçün Davudla
başçılarının təyin etdikləri məbəd
qulluqçularından iki yüz iyirmi nəfəri
bizə gətirdilər. Onların hamısı adbaad
qeyd olunmuşdu.

21 Allahımızın qarşısında özümüzü
aşağı tutub Ondan özümüz, övladlarımız
və bütün malımız üçün təhlükəsiz yol
diləməkdən ötrü Ahava çayı yanında
oruc elan etdim. 22 Çünki düşmənə
qarşı yolda bizə kömək etmək üçün
padşahdan əsgər və atlılar istəməyə
utanırdım, həm də padşaha belə
söyləmişdik: «Allahımızın əli yaxşılıq
etmək üçün Ona etiqad edənlərin
üzərindədir. Lakin Ondan dönənlərə
Öz gücünü və qəzəbini göstərir». 23 Elə
buna görə də biz oruc tutub Allahımıza
yalvardıq. O bizim duamızı qəbul etdi.

24 Kahinlərin rəhbərləri arasından on
iki nəfəri – Şerevya, Xaşavya ilə onların
on nəfər soydaşını seçdim. 25 Padşahın,
məsləhətçilərinin, rəislərinin və orada
olan bütün İsraillilərin Allahımızın
məbədi üçün təqdim etdikləri qızıl
və gümüşlə bərabər əşyaları da çəkib
onlara verdim. 26 Onların əlinə altı yüz
əlli talant gümüş, yüz talant gümüş
əşya, yüz talant qızıl, 27 min dariklik
dəyəri olan iyirmi qızıl boşqab və qızıl
qədər qiymətli olan parlaq misdən iki
gözəl qabı da çəkib verdim. 28 Onlara
dedim: «Siz Rəbbin müqəddəslərisiniz,
bu əşyalar da müqəddəsdir. Bu qızılla
gümüş atalarınızın Allahı Rəbbə edilən
könüllü təqdimdir. 29 Diqqətli olun!
Onları kahinlərin rəhbərləri, Levililər
və İsrailin nəsil başçıları qarşısında
Yerusəlimdəki Rəbbin məbədinin
otaqlarında çəkib təhvil verənə qədər
qoruyun». 30 Kahinlərlə Levililər
çəkilmiş qızıl və gümüşlə qabları
Yerusəlimə, Allahımızın məbədinə
aparmaq üçün götürdülər.

31 Yerusəlimə getmək üçün Ahava
çayı sahilindən birinci ayın on
ikinci günü köçdük. Allahımızın əli
üzərimizdə idi və bizi düşmənin əlindən,
yolumuzdakı pusqulardan qurtardı.
32 Biz Yerusəlimə çatıb orada üç gün
qaldıq. 33 Dördüncü gün isə Allahımızın
məbədində qızıl-gümüş əşyaları çəkib
kahin Uriyanın oğlu Meremotun əlinə
verdik. Pinxas oğlu Eleazar, habelə
Levililərdən olan Yeşua oğlu Yozavad
və Binnuy oğlu Noadya da onunla idi.
34 Əşyaların hamısı sayla, çəki ilə təhvil
verilində bütün çəki miqdarı yazıldı.

35 Bütün İsrail üçün sürgündən
qayıdanlar İsrailin Allahına yandırma
qurbanı olaraq on iki buğa, doxsan
altı qoç, yetmiş yeddi quzu və günah
qurbanı olaraq on iki təkə təqdim
etdilər. Bunların hamısı Rəbbə təqdim
edilən yandırma qurbanları idi. 36 Sonra
onlar padşahın əmrlərini padşahın
canişinlərinə və Fərat çayının qərb
tərəfindəki valilərinə verdilər. Onlar da
xalqa və Allahın evinə kömək etdilər.

Ezranın tövbə duası

9 Bu işlər qurtarandan sonra rəhbərlər
mənə yaxınlaşıb dedilər: «Kahinlərlə
Levililər daxil olmaqla İsrail xalqı
ətraflarındakı xalqların – Kənanlıların,
Xetlilərin, Perizlilərin, Yevusluların,
Ammonluların, Moavlıların, Misirlilərin,

Emorluların iyrənc adətlərinə uyub
özlərini onlardan fərqləndirməyiblər.
2 Belə ki onlar özlərinə və oğullarına
ətraflarındakı xalqların qızlarından
alıblar. Bununla müqəddəs xalq başqa
xalqlarla qarışıb. Rəhbərlərlə məmurlar
bu xəyanətə ilk yol açmışlar». 3 Mən bu
sözü eşidəndə paltarımla cübbəmi cırıb
saç-saqqalımı yolaraq çarəsiz oturdum.
4 Sürgündən qayıdanların bu xəyanətinə
görə İsrail Allahının sözlərindən lərzəyə
gələnlərin hamısı yanıma yığıldı. Mən
axşam qurbanı təqdim edilənə qədər
çaşqın-çaşqın oturdum.
5 Axşam qurbanı vaxtı pərişan halda
ayağa qalxdım. Paltarım və cübbəm
cırıq idi. Dizüstü oturub əllərimi
Allahım Rəbbə açıb 6 belə dua etdim:
«Ey Allahım, utanıram! Üzümü Sənə
– Allahıma qaldırmağa xəcalət çəkirəm,
çünki təqsirlərimiz başımızdan aşıb,
günahlarımız böyüyərək göylərə çatıb.
7 Atalarımızın dövründən bu günə qədər
böyük günah içindəyik. Ona görə də hər
zaman bugünkü kimi biz, padşahlarımız,
kahinlərimiz təqsirlərimiz üzündən
yadelli padşahlara təslim edilib qılınca,
əsirliyə, talana, rüsvayçılığa düçar
olduq. 8 İndi isə bizə Allahımız Rəbb
tərəfindən ani olaraq mərhəmət
göstərildi. Əsirlikdən qurtulub sağ qalan
bir neçə adamı Allahımız bizim üçün
saxladı. Müqəddəs məkanında bizə
möhkəm bir yer verdi ki, gözümüzə nur
versin, bizi köləlikdən qurtarıb bir az
həyata qovuşdursun. 9 Axı biz köləyik,
lakin Allahımız bizi köləlikdə qoymadı.
Bizi Allahımızın məbədini bərpa etmək,
onun xarabalıqlarını abad etmək üçün
Yəhuda ilə Yerusəlimdə özümüzə divar
çəkməyə ruhlandırdı. Ona görə də Fars
padşahlarının gözündə bizə qarşı lütf
yaratdı.
10 Ey Allahımız, daha nə deyə
bilərik? Çünki Sənin əmrlərini tərk
etmişdik. 11 Sən əmrlərini qulların
peyğəmbərlər vasitəsilə verib dedin:
“Mülk olaraq almaq üçün getdiyiniz
ölkə öz əhalisinin pozğunluğu ilə,
oranı başdan-başa dolduran iyrənc
adətləri və murdarlıqları ilə çirkaba
batan ölkədir. 12 [c]Buna görə də nə
qızlarınızı onların oğullarına verin,
nə də qızlarından oğullarınıza alın.
Əgər qüvvətli olmaq, bu torpağın
nemətlərini yemək istəyirsinizsə,
heç vaxt onların salamatlığı və
firavanlığı üçün çalışmayın. Onda bu
torpağı övladlarınıza irs olaraq əbədi
saxlayarsınız”.
13 Hər şey pis işlərimizdən və
böyük günahlarımızdan ötrü başımıza
gəldi, lakin, ey Allahımız, Sən bizi
təqsirlərimizin layiq olduğundan az
cəzalandırdın. Əsirlikdən qurtulub
sağ qalan bir neçə adamı – bunları
bizə verdin. 14 Bundan sonra yenə
əmrlərinimi pozaq? Belə iyrənc işlər
görən xalqlarla qohummu olaq? Biz
qurtarana, sağ qalıb qurtula bilməyənə
qədər bizə qəzəblənməyəcəksənmi?
15 Ey İsrailin Allahı Rəbb, Sən adilsən!
Bugünkü kimi biz kiçik bir dəstə
halında sağ qalmışıq. Budur, Sənin
qarşında günah içindəyik və buna görə
heç birimiz Sənin qarşında dayana
bilmirik».

Yadellilərlə nikahın pozulması

10 Ezra Allah evinin qarşısında
ağlayıb yerə sərilərək dua
və etiraf edərkən İsraillilərdən çox
böyük bir camaat – kişilər, qadınlar və
uşaqlar onun yanına yığıldı. Xalq da
acı-acı ağlayırdı. 2 Elam övladlarından
Yexiel oğlu Şekanya Ezraya müraciət
edib dedi: «Biz Allahımıza xəyanət

---

[c] **9:12** Çıx. 34:11-16; Qanun. 7:1-5; Qanun. 23:6

edərək ətrafımızdakı xalqlardan yadelli
arvadlar aldıq. Buna baxmayaraq, hələ
də İsraillilərin ümidi var. 3 Ağamızın
və Allahımızın əmri üzərində əsənlərin
məsləhətinə görə bütün belə arvadları
və onlardan doğulanları ataq. Gəlin
bunun üçün indi Allahımızla əhd
bağlayaq. Qoy bu Qanuna görə edilsin.
4 Qalx, çünki bu işin məsuliyyətini
daşıyan sənsən və biz də sənin ləyik.
Ürəkli ol, işə başla!»
5 Ezra ayağa qalxdı. Kahinlərin
rəhbərlərinə, Levililərə və digər
İsraillilərə bu sözü yerinə yetirmələri
üçün and içdirdi. Onlar da and
içdilər. 6 Ezra Allah evinin qarşısından
ayrılıb Elyaşivin oğlu Yehoxananın
otağına girdi. Gecəni orada keçirib
nə çörək yedi, nə də su içdi, çünki
sürgündən qayıdanların bu xəyanətinə
görə yas tuturdu. 7 Yəhudada və
Yerusəlimdə sürgündən qayıdanların
hamısına elan etdilər ki, Yerusəlimə
yığılsınlar. 8 Başçıların və ağsaqqalların
məsləhətinə görə üç gün ərzində
buraya gəlməyən hər adamın bütün
əmlakı müsadirə ediləcək və özü də
sürgündən qayıdan camaatın içərisindən
çıxarılacaq.
9 Yəhudanın və Binyaminin bütün
adamları üç gün ərzində Yerusəlimə
yığıldı. Bu doqquzuncu ayın iyirmisində
oldu. Bütün xalq bu hadisədən,
həm də yağışdan ötrü əsə-əsə Allah
evinin qarşısında, meydanda oturdu.
10 Kahin Ezra ayağa qalxıb onlara
dedi: «Siz xəyanət etmisiniz. İsrailin
günahını daha da artıraraq yadelli
arvadlar almısınız. 11 İndi atalarınızın
Allahı Rəbbə öz günahlarınızı etiraf
edin və Onun iradəsini yerinə
yetirin. Ətrafınızdakı xalqlardan,
yadelli arvadlardan ayrılın». 12 Bütün
camaat bərkdən cavab verib dedi:
«Bəli, haqlısan, sənin sözlərinə əməl
etmək bizim borcumuzdur. 13 Amma
yağış vaxtıdır, bayırda dayanmağa
taqətimiz yoxdur, xalq isə çoxdur.
Bu iş bir-iki günün işi deyil. Çünki
belə əməllə günahımızı artırmışıq.
14 Qoy bütün xalqı rəhbərlərimiz təmsil
etsin. Bu işə görə Allahımızın coşan
qəzəbi soyuyanadək şəhərlərimizdəki
hər yadelli arvad alan şəxs şəhər
ağsaqqalları və hakimlərlə bərabər təyin
olunacaq vaxtda buraya gəlsin». 15 Buna
qarşı yalnız Asahel oğlu Yonatan və
Tiqva oğlu Yaxzeya çıxdı. Meşullamla
Levili Şabbetay da onlara kömək etdi.
16 Sürgündən qayıdanlar bu sözə əməl
etdi. Kahin Ezra hər nəsildən nəsil
başçısını seçib hamısının adını bəyan
etdi. Onuncu ayın birində isə oturub
bu işi araşdırmağa başladılar. 17 Onlar
birinci ayın birinci gününə qədər yadelli
arvad alanların hamısı barədə lazımi
qərar çıxartdılar.
18 Kahin övladları arasında yadelli
arvad alanlardan bunlar tapıldı:
Yosadaqın oğlu Yeşua övladlarından və
qardaşlarından Maaseya Eliezer, Yariv
və Gedalya. 19 Onlar da arvadlarını
boşayacaqlarına dair əlbir oldu və
öz təqsirlərinə görə təqsir qurbanı
olaraq bir qoç təqdim etdi. 20 İmmer
övladlarından Xanani və Zevadya,
21 Xarim övladlarından Maaseya, Eliya,
Şemaya, Yexiel, Uzziya, 22 Paşxur
övladlarından Elyoenay, Maaseya,
İsmail, Netanel, Yozavad və Elasa;
23 Levililərdən: Yozavad, Şimey,
Qelaya, yəni Qelita, Petahya, Yəhuda və
Eliezer;
24 İlahiçilərdən: Elyaşiv, məbəd
qapıçılarından Şallum, Telem və Uri;
25 Digər İsraillilərdən – Paroş
övladlarından Ramya, İzziya, Malkiya,
Miyamin, Eleazar, Malkiya və Benaya;
26 Elam övladlarından Mattanya,
Zəkəriyyə, Yexiel, Avdi, Yeremot və
Eliya; 27 Zattu övladlarından Elyoenay,
Elyaşiv, Mattanya, Yeremot, Zavad

və Aziza; [28] Bevay övladlarından
Yehoxanan, Xananya, Zabbay, Atlay;
[29] Bani övladlarından Meşullam,
Malluk, Adaya, Yaşuv, Şeal, Yeremot;
[30] Paxat-Moav övladlarından Adna,
Kelal, Benaya, Maaseya, Mattanya,
Besalel, Binnuy və Menaşşe; [31] Xarim
övladlarından Eliezer, İşşiya, Malkiya,
Şemaya və Şimeon, [32] Binyamin, Malluk,
Şemarya; [33] Xaşum övladlarından
Mattenay, Mattata, Zavad, Elifelet,
Yeremay, Menaşşe, Şimey; [34] Bani
övladlarından Maaday, Amram, Uel,
[35] Benaya, Bedeya, Keluhi, [36] Vanya,
Meremot, Elyaşiv, [37] Mattanya,
Mattenay, Yaasay, [38] Bani, Binnuy,
Şimey, [39] Şelemya, Natan, Adaya,
[40] Maknadvay, Şaşay, Şaray, [41] Azarel,
Şelemya, Şemarya, [42] Şallum, Amarya,
Yusif; [43] Nevo övladlarından Yeiel,
Mattitya, Zavad, Zevina, Yadday, Yoel
və Benaya.

[44] Bu adamların hamısı yadelli arvad
almışdı və bəzilərinin bu arvadlardan
uşaqları da var idi.

NEHEMYA

KİTABI

GİRİŞ

«Nehemya» Kitabı *«Salnamələr»* və *«Ezra»* Kitabları ilə sıx əlaqədədir. Kitabda yəhudilərin üçüncü hissəsinin sürgündən Yerusəlim şəhərinə qayıtmasından bəhs olunur. Kitabın baş qəhrəmanı olan Nehemya Fars padşahının sarayında yüksək vəzifə sahibi, həm də Allaha səmimi qəlblə bağlı bir şəxs idi. Nehemyanın qiymətli keyfiyyətlərindən biri də vaxtaşırı Allaha dua etməsi idi. O, çox fəal adam olduğuna görə sürgündən qayıdan həmvətənlərini ruhlandırıb onların ruhani həyatlarına istiqamət verirdi. Allah da vədlərinə sadiq qalıb Öz xalqına kömək edirdi.

Kitabın məzmunu:

1:1–2:20 Yerusəlimə səyahət

3:1–6:19 Divarın tikilməsi

7:1-73 Siyahıyaalma

8:1–11:36 Xalqın ruhani oyanması

12:1-26 Kahinlərin və Levililərin siyahıya alınması

12:27-43 Divarın təqdis edilməsi

12:44-47 Məbəddə ibadətin bərpa olunması

13:1-31 Nehemyanın qayda-qanunu bərpa etməsi

Nehemyanın Yerusəlim üçün qayğısı

1 Xakalya oğlu Nehemyanın sözləri:
Mən iyirminci ildə *Kislev
ayında Şuşan qalasında olarkən
2 qardaşlarımdan biri Xanani və
Yəhudadan bəzi adamlar gəldi.
Mən onlardan əsirlikdən qurtulub
qayıdan Yəhudilərlə Yerusəlim şəhəri
barəsində soruşdum. 3 Mənə belə
dedilər: «Əsirlikdən qurtulub qayıdanlar
orada – vilayətdə böyük məşəqqət və
xəcalət içində yaşayır. Yerusəlimin
divarı dağıdılıb, darvazaları isə
yandırılmışdır». 4 Bu sözləri eşitdikdə
oturub ağladım. Günlərlə yas tutdum və
göylər Allahının önündə oruc tutaraq
dua edib belə dedim:

Nehemyanın duası

5 «Ey göylərin Allahı Rəbb! Səni
sevənlərlə, əmrlərinə əməl edənlərlə Öz
əhdinə sadiq qalıb lütf göstərirsən. Ey
böyük və zəhmli Allah! 6 Yalvarıram,
mənə diqqətlə qulaq as. Qulların
olan İsrail övladları üçün gözlərini
aç, Sənin önündə gecə-gündüz bu
qulunun etdiyi duanı dinlə. Mən, biz
İsrail övladlarının Sənə qarşı etdiyimiz
günahları etiraf edirəm. Mən də,
atalarım da günah etmişik. 7 Hüzurunda
təqsirimiz çoxdur. Qulun Musaya
buyurduğun əmrlərə, qaydalara və
hökmlərə əməl etmədik. 8 [d]Yalvarıram,
qulun Musaya "əgər xəyanət etsəniz, sizi
xalqlar arasına səpələyəcəyəm. 9 [e]Amma
Mənə tərəf dönsəniz və əmrlərimi
tutub onlara əməl etsəniz, göylərin
o başına qovulsanız belə, oradan sizi
toplayacağam. Adımı yaşatmaq üçün
seçdiyim yerə gətirəcəyəm" deyə
buyurduğun sözlərini xatırla. 10 Onlar
Sənin qulların və xalqındır. Böyük
qüvvətinlə və qüdrətli əlinlə onları Sən
qurtardın. 11 Ya Xudavənd, yalvarıram,
bu qulunun duasına və Sənin adına
ehtiram etməkdən zövq alan qullarının
duasına diqqətlə qulaq as! Yalvarıram,
bu gün qulunun işini uğurlu et, qoy
padşahın gözündə lütf tapsın».

Mən o vaxt padşahın saqisi idim.

---

*1:1 Fars padşahı Artaxşastanın hakimiyyətinin iyirminci ili nəzərdə tutulur.

[d]1:8 Lev. 26:33 [e]1:9 Qanun. 30:4

Artaxşastanın Nehemyanı Yerusəlimə göndərməsi

2 Padşah Artaxşastanın
[*]hakimiyyətinin iyirminci ili,
Nisan ayı idi. Padşahın qarşısına
şərab gətirildi. Mən şərab camını
qaldırıb ona verdim. O günə qədər
mən heç vaxt onun hüzurunda kədərli
görünməmişdim. [2] Padşah mənə
dedi: «Üzün niyə belə qəmlidir?
Xəstə olmasan da, hər halda ürəyin
dərdlidir». Onda mən çox qorxdum.
[3] [f]Sonra padşaha dedim: «Padşah
həmişə sağ olsun! Atalarımın dəfn
edildiyi yer, şəhərimiz xaraba qalıb,
darvazaları yandırılıb. Bəs mən necə
kədərlənməyim?» [4] Padşah isə mənə
dedi: «Sən məndən nə diləyirsən?» Mən
göylərin Allahına dua edərək padşaha
dedim: [5] «Əgər padşaha bu xoş gəlirsə
və qulun sənin gözündə lütf tapıbsa,
məni Yəhudaya, atalarımın dəfn edildiyi
şəhərə göndər ki, oranı bərpa edə
bilim». [6] Mələkə də padşahın yanında
oturmuşdu. Padşah mənə dedi: «Bu
səfərin nə qədər çəkər? Nə vaxt qayıda
bilərsən?» Məni göndərmək padşaha
məqbul oldu və mən qayıdacağım vaxtı
müəyyən etdim. [7] Sonra mən padşaha
dedim: «Əgər padşaha xoş gəlirsə,
Fərat çayının qərbindəki torpaqların
valiləri üçün mənə namələr verilsin
ki, Yəhudaya çatana qədər məni
vilayətlərindən keçirtsinlər. [8] Həm də
padşahın meşə nəzarətçisi Asəfə namə
göndərilsin ki, məbədin yanındakı
qala darvazalarına, şəhərin divarına və
iqamətgahıma tirlər düzəltmək üçün
mənə ağac versin». Allahın mərhəmətli
əli üzərimdə olduğuna görə padşahdan
nə istədimsə, mənə verdi.
[9] Fərat çayının qərbindəki valilərin
yanına getdim və padşahın namələrini
verdim. Padşah mənimlə birgə ordu
zabitləri ilə atlıları da göndərmişdi.
[10] Xoronlu Sanballat və Ammonlu
məmur Toviya İsrail övladlarının
xeyrinə çalışan bir nəfərin gəldiyini
eşitdikdə çox hirsləndilər.

Nehemyanın dağılmış divarlara nəzər salması

[11] Mən Yerusəlimə gəlib orada üç
gün qaldım. [12] Gecə ikən qalxıb özümlə
bir neçə adam götürdüm. Yerusəlim
üçün nə etmək barəsində Allahımın
ürəyimə göndərdiyi fikirləri heç kəsə
açmadım. Mindiyimdən başqa heç
bir heyvan götürmədim. [13] Gecə Dərə
darvazasından çıxıb Əjdaha quyusuna
və Peyin darvazasına doğru getdim,
Yerusəlimin dağıdılan divarına və
yandırılan darvazalarına nəzər saldım.
[14] Sonra Çeşmə darvazasına və Padşah
hovuzuna tərəf getdim, lakin mindiyim
heyvan o yerlərdən keçə bilmirdi.
[15] Həmin gecə vadi boyunca çıxaraq
divarı gözdən keçirtdim. Sonra dönüb
Dərə darvazasından girərək geri
qayıtdım. [16] Hökumət məmurları hara
getdiyimi, nə etdiyimi bilmirdilər.
Çünki Yəhudilərə, kahinlərə, əyanlara,
məmurlara və digər vəzifəlilərə heç bir
şey danışmamışdım.
[17] Mən onlara dedim: «Düşdüyümüz
bu pis vəziyyəti görürsünüz; Yerusəlim
xarabalığa çevrilmiş, darvazalarına isə
od vurulmuşdur. Gəlin Yerusəlimin
divarını bərpa edək ki, bir daha
rüsvayçılıq içərisində qalmayaq».
[18] Mən Allahın mərhəmətli əlinin
üzərimdə olduğunu bildirərək padşahın
mənə dediyi sözləri onlara çatdırdım.
Onlar belə dedilər: «Gəlin qalxaq,

---

[*]**2:1** *Artaxşasta* – Azərbaycanda indiki tarixi ədəbiyyatlarda Artakserks.

[f]**2:3** 2Pad. 25:8-10; 2Saln. 36:19; Yer. 52:12-14

buraları bərpa edək». Bu xeyirli iş üçün
hamı əlbir oldu.
19 Lakin Xoronlu Sanballat, Ammonlu
məmur Toviya və Ərəb Geşem bundan
xəbər tutanda bizə xor baxaraq ələ salıb
dedilər: «Bu nə işdir tutursunuz? Yoxsa
siz padşaha qarşı üsyan qaldırırsınız?»
20 Mən onlara cavab verərək dedim:
«Göylərin Allahı işimizi uğurlu edəcək.
Onun qulları olan bizlər qalxıb buranı
bərpa edəcəyik. Sizin isə Yerusəlimdə
nə payınız, nə haqqınız, nə də adınız
olacaq».

Divarı tikənlər

3 Baş kahin Elyaşiv ilə qardaşları
qalxıb Qoyun darvazasını tikdilər.
Sonra onu təqdis edib qapı taylarını
yerinə qoydular. Onlar Yüz qülləsindən
Xananel qülləsinə qədər olan divarı
təqdis etdilər. 2 Elyaşivin yanındakı
hissədə Yerixo sakinləri tikdilər. Onların
yanında İmri oğlu Zakkur tikdi.
3 Balıqlar darvazasını Hassenaa
oğulları tikdi. Onlar tirləri yerinə
qoydular, qapı taylarını, rəzələrini və
cəftələrini yerinə taxdılar. 4 Onların
yanında isə Haqqos oğlu Uriya oğlu
Meremot bərpa işləri gördü. Meremotun
yanında Meşezavel oğlu Berekya oğlu
Meşullam bərpa işləri gördü. Onların
yanında da Baana oğlu Sadoq bərpa
etdi. 5 Sadoqun yanında Teqoa sakinləri
bərpa işləri gördülər, amma oranın
əsilzadələri özlərinin Xudavəndinin
işlərini görmək üçün qəddini əymədilər.
6 Köhnə darvazasını Paseah oğlu
Yoyada və Besodya oğlu Meşullam
bərpa etdi. Onlar tirləri yerinə qoyub
qapı taylarını, rəzələri və cəftələri
taxdılar. 7 Onların yanında Giveonlu
Melatya, Meronotlu Yadon, Fərat
çayının qərbindəki torpaqların valisinin
hökmünə tabe olan Giveon və Mispa
sakinləri bərpa işləri gördü. 8 Onların
yanında da zərgərlərdən Xarhaya oğlu
Uzziel bərpa işləri gördü. Uzzielin
yanında ətriyyatçılardan biri olan
Xananya bərpa işləri gördü. Onlar
Yerusəlimi Geniş divara qədər təzədən
qurdular. 9 Onların yanındakı divarı
Yerusəlim əyalətinin yarı hissə rəisi
Xur oğlu Refaya bərpa etdi. 10 Xarumaf
oğlu Yedaya isə onun yanında öz evinin
qarşısında bərpa işləri gördü. Onunla
yanaşı Xaşavneya oğlu Xattuş bərpa
işləri görürdü. 11 Xarim oğlu Malkiya
və Paxat-Moav oğlu Xaşşuv başqa bir
sahəni və Sobalar Qülləsini bərpa etdi.
12 Malkiyanın və Xaşşuvun yanında
Yerusəlim əyalətinin o biri yarısının
rəisi Halloxeş oğlu Şallum qızları ilə
birgə bərpa işləri gördü.
13 Vadi darvazasını Xanun və Zanoah
sakinləri bərpa etdi. Onlar darvazanı
təzədən tikib qapı taylarını, rəzələrini
və cəftələrini yerinə vurdular. Peyin
darvazasına qədər min qulac məsafəyə
divarı bərpa etdilər.
14 Peyin Darvazasını Bet-Hakkerem
əyalətinin rəisi Rekav oğlu Malkiya
bərpa etdi. Oranı təzədən tikib qapı
taylarını, rəzələrini və cəftələrini yerinə
vurdu.
15 Çeşmə darvazasını Mispa əyalətinin
rəisi Qal-Xoze oğlu Şallun bərpa edərək
oranı təzədən tikib üstünü örtdü və
qapı taylarını, rəzələrini, cəftələrini
yerinə vurdu. O, Padşah bağçasının
yanında Şelah hovuzunun divarını da
Davudun şəhərindən enən pilləkənə
qədər bərpa etdi. 16 Şallundan sonra
Bet-Sur əyalətinin yarı hissə rəisi
Azbuq oğlu Nehemya divarı Davudun
qəbrinin qarşısına, hovuza və əsgər
qışlasına qədər tikdi. 17 Ondan sonra isə
Levililər Bani oğlu Rexumun rəhbərliyi
altında bərpa işləri gördülər. Rexumun
yanında Qeila əyalətinin yarı hissə
rəisi Xaşavya öz əyaləti üçün bərpa
işləri gördü. 18 Xaşavyadan sonra
onların qardaşları, Qaila əyalətinin

yarı hissə rəisi Xenadad oğlu Binnuy
bərpa işləri gördülər. 19 Onun yanında
Mispa əyalətinin rəisi Yeşua oğlu Ezer
silah anbarına çıxan yolun qarşısından
divarın küncünə qədər başqa sahəni
bərpa etdi. 20 Onun yanında Zabbay
oğlu Baruk divarın küncündən baş
kahin Elyaşivin evinin qapısına qədər
olan başqa bir sahəni səylə bərpa etdi.
21 Ondan sonra Haqqos oğlu Uriya oğlu
Meremot, Elyaşivin evinin girişindən
axırına qədər bərpa etdi. 22 Ondan
sonra isə o düzənlikdə yaşayan kahinlər
bərpa işləri gördülər. 23 Onlardan
sonra Binyamin və Xaşşuv öz evlərinin
yanındakı sahəni bərpa etdilər.
Onlardan sonra Ananya oğlu Maaseya
oğlu Azarya öz evinin yanındakı
sahəni bərpa etdi. 24 Azaryadan sonra
Xenadad oğlu Binnuy Azaryanın
evindən divarın künc-bucaqlarına qədər
olan sahəni bərpa etdi. 25 Uzay oğlu
Palal divarın küncünün qarşısından
və padşahın yuxarı sarayından irəli
çıxan mühafizəçilər həyətinin yanında
olan gözətçilik qülləsindən başlayaraq
bərpa işləri gördü. Ondan sonra Paroş
oğlu Pedaya ilə 26 Ofeldə yaşayan
məbəd qulluqçuları şərqə doğru Su
darvazasının qarşısını və gözətçi
qülləsinə qədər sahəni bərpa etdilər.
27 Onların yanında Teqoa sakinləri
böyük gözətçi qülləsindən Ofel
divarınadək olan başqa bir sahəni bərpa
etdilər.
28 At darvazasının yuxarı hissəsində
kahinlərdən hər biri öz evinin qabağını
bərpa etdi. 29 Kahinlərdən sonra İmmer
oğlu Sadoq öz evinin qabağını bərpa
etdi. Ondan sonra Şərq qapısının
gözətçisi Şekanya oğlu Şemaya bərpa
işləri gördü. 30 Ondan sonra Şelemya
oğlu Xananya və Salafın altıncı oğlu
Xanun bir sahəni bərpa etdi. Xananya və
Xanundan sonra Berekya oğlu Meşullam
öz evinin qarşısını bərpa etdi. 31 Ondan
sonra Malkiya adlı bir zərgər məbəd
qulluqçularının və tacirlərin Nəzarət
darvazasının qarşısındakı binasına və
divarın künc tərəfindəki otağa qədər
sahəni bərpa etdi. 32 Divarın künc
tərəfindəki otağı ilə Qoyun darvazasının
arasını zərgərlər və tacirlər bərpa
etdilər.

Düşmənlərin Yəhudilərə rişxənd etməsi

4 Sanballat divarı tikdiyimiz barədə
eşidəndə qanı qaraldı, qəzəbləndi və
biz Yəhudilərə rişxənd etməyə başladı.
2 O, soydaşlarının və Samariyalıların
silahlı dəstəsinin qarşısında belə dedi:
«Bu yazıq Yəhudilər nə edirlər? Onlar
buranı təzədən quracaqlarmı? Onlar
qurban kəsəcəklərmi? Görəsən bu işi
bir gün bitirə biləcəklərmi? Məgər
yanmış viranəlikdən yenidən daşlar
yaradacaqlar?» 3 Onun yanında olan
Ammonlu Toviya belə dedi: «Əgər
tikdikləri daş divarın üstünə bir tülkü
çıxarsa, ora dağılacaq».

Nehemyanın dua ilə cavab verməsi

4 Eşit, ey Allahımız, çünki bizə xor
baxırlar. Qoy həqarətləri öz başlarına
düşsün və əsir düşdükləri ölkədə talan
olunsunlar! 5 Onların günahını əfv
etmə və qoy təqsirləri Sənin yadından
çıxmasın! Axı onlar bənnaları təhqir
etdilər.

Bərpa işlərinin davam etdirilməsi

6 Biz divarın bərpasını davam etdirdik
və onun hər yeri hündürlüyünün
yarısına qədər bitişdirildi. Çünki xalq
ürəkdən çalışırdı.
7 Sanballat, Toviya, Ərəblər,
Ammonlular və Aşdodlular Yerusəlim
divarının bərpa işlərinin irəlilədiyini və
dağıdılmış yerlərin tikildiyini eşidəndə
çox hirsləndilər. 8 Onların hamısı
Yerusəlimə gəlib hücum etmək və orada

qarmaqarışıqlıq salmaq üçün əlbir oldu.
9 Lakin biz Allahımıza dua etdik və
divarın üstündə onların hədə-qorxusu
qarşısında gecə-gündüz gözətçilər
qoyduq. 10 O zaman Yəhudalılar
deyirdi: «İşləyənlər taqətdən düşüb,
tükəntü isə çoxdur. Ona görə də biz bu
divarı daha tikə bilmərik».
11 Düşmənlərimiz isə dedilər: «Biz
Yəhudilərin arasına girib onları öldürək.
Bu işi elə edək ki, kimsə nə görsün, nə
də başa düşsün». 12 Onların yanında
yaşayan Yəhudilər gəlib bizə on dəfə
dedilər ki, düşmənlər hər tərəfdən
bizə hücum edəcək. 13 Buna görə
də mən qılınclı, nizəli, ox-kamanlı
xalqı nəsilbənəsil divarın arxasındakı
ən aşağıdakı açıq yerlərə düzdüm.
14 Bu vəziyyəti görəndə mən qalxıb
əyanlara, hökumət məmurlarına və
xalqın qalan hissəsinə belə dedim:
«Onlardan qorxmayın! Böyük və zəhmli
Xudavəndi xatırlayın! Siz soydaşlarınız,
oğullarınız, qızlarınız, arvadlarınız və
evləriniz uğrunda vuruşacaqsınız».
15 Düşmənlərimiz eşitdi ki, bu
iş bizə məlum olub, çünki Allah
onların niyyətini boşa çıxarmışdı.
Buna görə hamımız işimizə, divarın
tikintisinə qayıtdıq. 16 O gündən
sonra adamlarımın yarısı tikintidə
çalışdı. Yarısı isə nizələri, qalxanları,
ox-kamanlarını tutub zireh geydi.
Rəislər bütün divar tikən Yəhuda
xalqının arxasında keşik çəkirdi. 17 Yük
daşıyan fəhlələr bir əli ilə iş görür, o biri
əli ilə silah tuturdu. 18 Bənnaların da
hər biri qılıncı belinə bağlayaraq divar
tikirdi. Şeypurçu isə mənim yanımda
idi. 19 Əyanlara, hökumət məmurlarına
və xalqın qalan hissəsinə dedim:
«İşimiz çoxdur, tikinti sahəmiz genişdir.
Biz divar üzərində olan ayrı-ayrı
sahələrdə bir-birimizdən uzaqdayıq.
20 Harada şeypur səsi eşitsəniz, oraya
– yanımıza toplanın. Allahımız bizim
üçün vuruşacaq».
21 Beləliklə, işimizi gördük və
xalqın yarısı dan sökülən dən ulduzlar
görünənə qədər nizə tutmuşdu. 22 O vaxt
mən camaata dedim: «Hər kəs öz nökəri
ilə birgə Yerusəlimdə gecələsin və gecə
keşikdə durub, gündüz isə işləsin». 23 Nə
mən, nə soydaşlarım, nə nökərlərim,
nə də arxamda dayanan keşikçilər, heç
birimiz paltarlarımızı soyunmadıq. Su
gətirəndə də silah əlimizdə idi.

Nehemyanın ədalətsizliklə üzləşməsi

5 O zaman xalqın kişiləri və qadınları
Yəhudi soydaşlarından bərk
şikayət etməyə başladılar. 2 Bəziləri
belə deyirdi: «Bizim külfətimiz
böyük, oğullarımız, qızlarımız çoxdur.
Yaşamaq üçün yeməyə taxıl tapmalıyıq».
3 Bəziləri isə belə deyirdi: «Qıtlığın
üzündən tarlalarımızı, bağlarımızı
və evlərimizi girov qoyuruq ki, taxıl
tapaq». 4 Belə deyənlər də var idi:
«Padşahın tarlalarımıza və bağlarımıza
qoyduğu vergini ödəmək üçün borc
pul aldıq. 5 İndi bizimlə soydaşlarımız
eyni nəsildir, bizim uşaqlarımız da
onlarınkından fərqlənmir. Budur,
oğullarımızı və qızlarımızı kölə kimi
satmağa məcburuq. Artıq qızlarımızdan
bəziləri belə, satıldı. Lakin biçarəyik,
çünki tarlalarımız və bağlarımız
başqalarının əlindədir».
6 Mən onların şikayət və ittihamlarını
eşidəndə çox qəzəbləndim. 7 [g]Ciddi
düşündükdən sonra əyanlarla hökumət
məmurlarını tənbeh edib belə dedim:
«Siz hamınız soydaşlarınıza sələmlə
pul verirsiniz». Onların əleyhinə
böyük yığıncaq topladım. 8 Mən
onlara dedim: «Biz yadellilərə kölə
kimi satılan Yəhudi soydaşlarımızı

---

[g] **5:7** Çıx. 22:25; Lev. 25:35-37; Qanun. 23:19-20

gücümüz çatana qədər satın alırıq. Siz
isə soydaşlarımızı satırsınız ki, onları
təzədən bizə satsınlar?» Onlar deməyə
bir söz tapmayıb susdular. 9 Sonra
mən dedim: «Etdiyiniz bu iş yaxşı
deyil. Siz düşmənlərimiz olan yadelli
millətlərin danlağından qurtulmaq üçün
Allahımıza ehtiram göstərərək yaşamalı
deyilsinizmi? 10 Mən də qardaşlarım
və nökərlərimlə birgə onlara pul və
taxıl borc verirəm. Gəlin bu sələmçiliyi
dayandıraq. 11 İndi isə bu gün onlara
tarlalarını, bağlarını, zeytunluqlarını,
evlərini, onlardan aldığınız pulun,
taxılın, təzə şərabın və yağın sələmini
geri qaytarın». 12 Əyanlar və hökumət
məmurları dedilər: «Biz bunları
qaytararıq və daha onlardan heç bir şey
tələb etmərik. Sən necə deyirsən, biz də
elə edərik». Mən kahinləri çağırdım və
bu sözə əməl edəcəkləri barədə onları
and içdirdim. 13 Sonra ətəyimi silkələyib
dedim: «Qoy bu sözə əməl etməyən
hər kəsi Allah evindən, mal-mülkündən
silkələyib ataraq boş yerdə qoysun!»
Bütün camaat «Amin» deyib Rəbbə
həmd etdi. İcma bu sözlərə əməl etdi.

Nehemyanın təmənnasız xidməti

14 Bundan əlavə, padşah Artaxşastanın
hökmranlığının iyirminci ilindən otuz
ikinci ilinə qədər – Yəhuda torpağına
vali təyin edildiyim gündən bəri on
iki il mən və qardaşlarım valilərə
təyin olunmuş azuqəni işlətmədik.
15 Amma məndən əvvəlki valilər xalqın
üzərində yük olmuşdu. Onlardan
çörək və şərabdan əlavə, qırx şekel
gümüş alırdılar. Hətta o valilərin
nökərləri də xalqa ağalıq edirdi.
Mən isə Allah qorxusuna görə belə
etmirdim. 16 Mən özümü bu divarın
bərpasına həsr etdim. Biz bir tarla
belə, almadıq. Bütün nökərlərim
oraya – iş başına toplaşmışdı. 17 Ətraf
millətlərdən yanımıza gələnlərdən
əlavə, Yəhudilərdən və məmurlardan
da yüz əlli adam süfrəmdə oturardı.
18 Hər gün mənim üçün bir öküz, altı
seçmə qoyun və toyuqlar kəsilərdi. On
gündən bir müxtəlif növ bol-bol şərab
gətirilərdi. Buna baxmayaraq, mən
valilərə təyin olunmuş azuqəni tələb
etmirdim, onsuz da xalqın yükü ağır idi.
19 Ey Allahım, bu xalq üçün etdiyim
işlərə görə məni yaxşılıqla xatırla!

Düşmənlərin fənd işlətməsi

6 Divarı bərpa etdiyimi və orada
uçuq-söküyün qalmadığını
Sanballata, Toviyaya, Ərəb Geşemə və
başqa düşmənlərimizə xəbər verdilər.
Lakin mən o vaxta qədər darvazaların
qapı taylarını yerinə vurmamışdım.
2 Sanballat və Geşem yanıma adam
göndərib dedi: «Gəl Ono düzənliyindəki
kəndlərin birində görüşək». Amma
onlar mənə pislik etmək niyyətində idi.
3 Mən onların yanına qasid göndərib
dedim: «Böyük bir iş görürəm və
oraya enə bilmərəm. Bu işi qoyub
yanınıza endiyim müddət ərzində
iş nə üçün dayansın?» 4 Düşmənlər
yanıma dörd dəfə bu xəbəri göndərdi
və mən onlara eyni cavab verdim.
5 Sanballat beşinci dəfə nökərini eyni
xəbərlə mənim yanıma yolladı və onun
əlində möhürlənməmiş namə var idi.
6 Məktubda belə yazılmışdı:

> «Başqa millətlər arasında
> söz yayılıb və Geşem deyir ki,
> sən və Yəhudilər üsyan etmək
> niyyətindəsiniz. Divarı da buna
> görə tikirsən. Şayiələrə görə sən
> onların padşahı olmaq istəyirsən.
> 7 “Yəhudada padşah var” deyə
> özün haqqında car çəkmək üçün
> Yerusəlimdə peyğəmbərlər də təyin
> etmisən. İndi isə bu sözlər padşaha
> çatacaq. Buna görə də gəl bu barədə
> birlikdə məsləhətləşək».

8 O vaxt Sanballatın yanına adam
göndərib dedim: «Dediyin şeylərin
heç biri olmayıb, sən onları özündən
uydurmusan». 9 Çünki hamı bizi
qorxutmağa çalışıb deyirdi: «Bu
işdən əlləri soyuyacaq və bu iş baş
tutmayacaq». Ay Allah, indi Sən
əllərimə qüvvət ver!
10 Mən Mehetavel oğlu Delaya oğlu
Şemayanın evinə getdim. O, evinə
qapanıb qalmışdı. Mənə dedi: «Gəl
Allahın evində – məbəddə görüşək
və qapılarını bağlayaq. Çünki səni
öldürməyə adamlar gələcək. Bəli, gecə
ikən səni öldürməyə gələcəklər». 11 Mən
isə dedim: «Mənim kimi adam qaçarmı?
Canını qurtarmaq üçün məbəddə
gizlənərmi? Əsla belə etmərəm!»
12 Bunu başa düşdüm ki, Şemayanı
Allah göndərməmişdi. Bu peyğəmbərlik
sözünü mənə qarşı ona görə söyləmişdi
ki, Toviya ilə Sanballat onu pulla
tutmuşdu. 13 O məni qorxutmaq üçün
muzdla tutulmuşdu ki, mən dediyini
edib günaha batım. Beləcə məni pisləyib
hörmətdən salmağa fürsət axtarırdılar.
14 Ey Allahım, Toviya ilə Sanballatı,
həm də məni qorxutmaq istəyən
qadın peyğəmbər Noadyanı və digər
peyğəmbərləri bu əməllərinə görə
yadda saxla!

Divarın tikintisinin tamamlanması

15 Elul ayının iyirmi beşində, əlli
iki gün ərzində divarın tikintisi
tamamlandı. 16 Bütün düşmənlərimiz,
ətrafımızdakı xalqlar bunu eşidəndə
qorxdular və öz gözlərində çox
kiçildilər. Çünki onlar başa düşdülər ki,
bu iş Allahımızın köməyi ilə edilib.
17 Həm də o günlər Yəhudanın
əyanları Toviyaya çoxlu namə
göndərirdi və Toviyadan da onlara
cavablar gəlirdi. 18 Toviya Arah oğlu
Şekanyanın kürəkəni olduğuna görə
Yəhudada çox adam onunla əhd
bağlamışdı. Həm də Toviyanın oğlu
Yehoxanan Berekya oğlu Meşullamın
qızını almışdı. 19 Əyanlar onun yaxşı
işləri haqqında mənim yanımda
danışardılar və mənim sözlərimi ona
çatdırardılar. Toviya məni qorxutmaq
üçün namələr göndərirdi.

7 Divar tikilib qurtaranda və mən
qapı taylarını vuranda məbəd
qapıçıları, ilahiçilər və Levililər təyin
olundu. 2 Qardaşım Xananini və qala
rəisi Xananyanı Yerusəlimə məmur
təyin etdim. Çünki Xanani çoxlarından
sadiq və Allahdan qorxan adam idi.
3 Mən onlara dedim: «Gün qızana qədər
Yerusəlimin darvazaları açılmasın.
Qapıçılar oyaq olduğu müddət qapıları
bağlayıb qıfıllayın. Yerusəlimdə
yaşayanlardan da keşikçi təyin edin,
qoy hamı öz evinin qabağında keşik
çəksin».

Sürgündən Yəhudaya qayıdanların siyahısı

(Ezra 2:1-70)

4 Şəhər geniş və böyük idi, lakin içində
adam az idi. Evlər hələ tikilməmişdi.
5 Allahım ürəyimə fikir göndərdi
ki, əyanları, hökumət məmurlarını və
habelə xalqı yığıb siyahıya alım. Mən
ilk qayıdanların nəsil şəcərələrinin
siyahısını əldə edib, içində belə bir yazı
tapdım:
6 Babil padşahı Navuxodonosorun əsir
aldığı adamlar yaşadıqları vilayətdən
Yerusəlimə və Yəhudadakı öz
şəhərlərinə qayıtdı. 7 Bunlar Zerubbabil,
Yeşua, Nehemya, Azarya, Raamya,
Naxamani, Mordokay, Bilşan, Misperet,
Biqvay, Nexum və Baananın başçılığı ilə
gəldi.
Sürgündən qayıdan İsraillilərin sayı:
8 Paroş övladları – 2172 nəfər;
9 Şefatya övladları – 372 nəfər;
10 Arah övladları – 652 nəfər;

11 Yeşua və Yoav nəslindən Paxat-Moav
övladları – 2818 nəfər;
12 Elam övladları – 1254 nəfər;
13 Zattu övladları – 845 nəfər;
14 Zakkay övladları – 760 nəfər;
15 Binnuy övladları – 648 nəfər;
16 Bevay övladları – 628 nəfər;
17 Azqad övladları – 2322 nəfər;
18 Adoniqam övladları – 667 nəfər;
19 Biqvay övladları – 2067 nəfər;
20 Adin övladları – 655 nəfər;
21 Ater, yəni Xizqiya övladları – 98
nəfər;
22 Xaşum övladları – 328 nəfər;
23 Besay övladları – 324 nəfər;
24 Xarif övladları – 112 nəfər;
25 Giveon övladları – 95 nəfər;
26 Bet-Lexem və Netofa sakinləri – 188
nəfər;
27 Anatot sakinləri – 128 nəfər;
28 Bet-Azmavet sakinləri – 42 nəfər;
29 Qiryat-Yearim, Kefira və Beerot
sakinləri – 743 nəfər;
30 Rama və Geva sakinləri – 621 nəfər;
31 Mikmas sakinləri – 122 nəfər;
32 Bet-El və Ay sakinləri – 123 nəfər;
33 Digər Nevo sakinləri – 52 nəfər;
34 Digər Elam övladları – 1254 nəfər;
35 Xarim övladları – 320 nəfər;
36 Yerixo övladları – 345 nəfər;
37 Lod, Xadid və Ono övladları – 721
nəfər;
38 Senaa övladları – 3930 nəfər.
39 Kahinlər:
Yeşua nəslindən Yedaya övladları – 973
nəfər;
40 İmmer övladları – 1052 nəfər;
41 Paşxur övladları – 1247 nəfər;
42 Xarim övladları – 1017 nəfər.
43 Levililər: Hodavya nəslindən Yeşua
ilə Qadmiel övladları – 74 nəfər.
44 İlahiçilər: Asəf övladları – 148
nəfər.
45 Məbəd qapıçıları: Şallum övladları,
Ater övladları, Talmon övladları,
Aqquv övladları, Xatita övladları, Şovay
övladları – 138 nəfər.
46 Məbəd qulluqçuları: Sixa övladları,
Xasufa övladları, Tabbaot övladları,
47 Qeros övladları, Siya övladları,
Padon övladları, 48 Levana övladları,
Xaqava övladları, Şalmay övladları,
49 Xanan övladları, Giddel övladları,
Qaxar övladları, 50 Reaya övladları,
Resin övladları, Neqoda övladları,
51 Qazzam övladları, Uzza övladları,
Paseah övladları, 52 Besay övladları,
Meunim övladları, Nefuşsim övladları,
53 Baqbuq övladları, Xaqufa övladları,
Xarxur övladları, 54 Baslit övladları,
Mexida övladları, Xarşa övladları,
55 Barqos övladları, Sisra övladları,
Tamax övladları, 56 Nesiah övladları,
Xatifa övladları.
57 Süleymanın əyanlarının nəslindən:
Sotay övladları, Soferet övladları,
Perida övladları, 58 Yaala övladları,
Darqon övladları, Giddel övladları,
59 Şefatya övladları, Xattil övladları,
Pokeret-Hassevayim övladları, Amon
övladları. 60 Məbəd qulluqçuları ilə
Süleymanın əyanlarının övladları –
cəmi 392 nəfər.
61 Tel-Melahdan, Tel-Xarşadan,
Keruvdan, Addondan, İmmerdən
qayıdan, ancaq ailələrinin və nəsillərinin
İsrail övladlarından olduğunu sübut
edə bilməyənlər bunlardır: 62 Delaya
övladları, Toviya övladları, Neqoda
övladları – 642 nəfər.
63 Kahinlərdən: Xovaya övladları,
Haqqos övladları, Gileadlı Barzillayın
qızlarından arvad alıb qayınatasının
adını götürən Barzillay övladları.
64 Bunlar nəsil şəcərəsini axtardılar,
lakin öz adlarını tapa bilmədilər və
buna görə murdar sayılaraq kahinlikdən
çıxarıldılar. 65 Yəhudi valisi onlara əmr
edib belə dedi: «Urim və Tummimi
işlədən bir kahin olmayınca onlar ən
müqəddəs yeməklərdən yeməsin».

66 7337 nəfər kölə və kənizlərdən
başqa, 67 bütün camaat birlikdə 42 360
nəfər idi. Onların kişi və qadınlardan
ibarət 245 ilahiçisi var idi. 68 Bu
adamların 736 atı və 245 qatırı, 69 435
dəvəsi, 6720 eşşəyi var idi.
70 Nəsil başçılarının bəziləri işin
görülməsi üçün könüllü ianələr verdilər.
Vali xəzinəyə 1000 darik *qızıl, 50
ləyən, 530 kahin cübbəsi verdi. 71 Nəsil
başçılarından bəziləri iş üçün xəzinəyə
20 000 darik qızıl və 2200 mina gümüş
verdilər. 72 Xalqın sağ qalanlarının
verdikləri 20 000 darik qızıl, 2000 mina
gümüş, 67 kahin cübbəsi idi.
73 [h]Kahinlərlə Levililər, qapıçılarla
ilahiçilər, xalqın bəzisi, məbəd
qulluqçuları və bütün İsraillilər öz
şəhərlərində yerləşdilər. Yeddinci ay
çatanda artıq İsraillilər öz şəhərlərində
idi.

Ezranın Qanunu oxuyub izah etməsi

8 [i]Bütün xalq bir nəfər kimi Su
darvazasının qarşısındakı meydana
toplaşdı. Xalq ilahiyyatçı Ezraya
dedi ki, Rəbbin İsraillilərə əmr etdiyi
Musanın Qanun kitabını gətirsin.
2 Yeddinci ayın birinci günü Ezra
Qanunu kişilərdən, qadınlardan və
dinləyib anlaya bilən uşaqlardan ibarət
olan camaatın qabağına gətirdi. 3 Ezra
Su darvazasının qarşısındakı meydanda
kişilərin, qadınların və anlaya bilənlərin
qabağında səhər açılandan günortaya
qədər bu kitabdan oxudu. Bütün xalq
Qanun kitabına qulaq asdı. 4 İlahiyyatçı
Ezra bu iş üçün taxtadan düzəldilmiş
hündür kürsünün üstünə çıxdı. Onun
sağ tərəfində Mattitya, Şema, Anaya,
Uriya, Xilqiya və Maaseya, solunda
isə Pedaya, Mişael, Malkiya, Xaşum,
Xaşbaddana, Zəkəriyyə və Meşullam
dayanmışdı. 5 Ezra bütün xalqın gözü
qabağında kitabı açdı, çünki o bütün
xalqdan daha yüksəkdə durmuşdu. O,
kitabı açanda bütün xalq ayağa qalxdı.
6 Ezra ulu Allaha, Rəbbə həmd etdi və
bütün xalq əllərini qaldıraraq «Amin!
Amin!» deyə cavab verdi. Sonra baş
əydilər və üzüstə yerə döşənib Rəbbə
səcdə qıldılar. 7 Yeşua, Bani, Şerevya,
Yamin, Aqquv, Şabbetay, Hodiya,
Maaseya, Qelita, Azarya, Yozavad,
Xanan, Pelaya adlı Levililər Qanunu
xalqa izah etdilər. Xalq isə yerində
dayanmışdı. 8 Onlar Allahın Qanun
kitabından oxuyub aydınlaşdırdılar
və mənasını camaata izah etdilər ki,
oxunan ayələr başa düşülsün.
9 Vali Nehemya, kahin ilahiyyatçı
Ezra və xalqı öyrədən Levililər
hamıya dedilər: «Bu gün Allahınız
Rəbb üçün müqəddəs gündür. Buna
görə kədərlənməyin və ağlamayın».
Çünki bütün xalq Qanunun sözlərini
eşidərkən ağlayırdı. 10 Nehemya da
onlara dedi: «Gedin, yağlı yemək
yeyin, şirin içki için və hazırlıqlı
olmayanlara da pay göndərin, çünki bu
gün Xudavəndimiz üçün müqəddəsdir.
Kədərlənməyin, çünki Rəbbin verdiyi
sevinc sizin qüvvətinizdir». 11 Levililər
«susun, kədərlənməyin, çünki bu
gün müqəddəsdir» deyə bütün
xalqı sakitləşdirdilər. 12 Bütün xalq
yeyib-içməyə, paylar göndərməyə və
böyük şənlik etməyə getdi. Çünki xalq
ona deyilənləri başa düşdü.

Çardaqlar bayramının qeyd olunması

13 Ertəsi gün bütün xalqın nəsil
başçıları, kahinlər və Levililər Qanunun
sözlərini dinləmək üçün ilahiyyatçı

---

*7:70 *Darik* – qızıl sikkə.

[h]7:73 1Saln. 9:2; İbr. 11:3 [i]8:1 Ezra 3:1

Ezranın yanına toplaşdı. 14 [j]Rəbbin
Musa vasitəsilə buyurduğu Qanunda bu
yazını tapdılar: «İsrail övladları yeddinci
ayın bayram günlərində çardaqlarda
yaşasın». 15 Onlar bütün şəhərlərdə
və Yerusəlimdə bu xəbəri elan edib
yaydılar: «Dağa çıxın, yazıldığı kimi
çardaq qurmaq üçün zeytun, cır zeytun,
mərsin, xurma və sıx yarpaqlı ağacların
budaqlarını buraya gətirin». 16 Bütün
xalq çıxıb budaq gətirdi, hər kəs öz
evinin damında, həyətlərində, Allah
evinin həyətində, Su darvazasındakı
meydanda və Efrayim darvazasındakı
meydanda özlərinə çardaq düzəltdi.
17 Bütün əsirlikdən geri qayıdan camaat
çardaqlar düzəldib orada qaldı. Əslində
Nun oğlu Yeşuanın dövründən bu günə
qədər İsrail övladları belə etməmişdi.
Çox böyük sevinc oldu. 18 Ezra birinci
gündən sonuncu günə qədər hər gün
Allahın Qanun kitabından oxuyurdu.
Onlar yeddi gün bayram keçirtdilər,
səkkizinci gün isə qayda-qanuna görə
təntənəli toplantı quruldu.

Xalqın orucu və tövbəsi

9 Həmin ayın iyirmi dördüncü
günü İsrail övladları oruc tutaraq
əyinlərində çul və başları toz-torpaq
içində toplandı. 2 İsrail övladları
nəsli bütün yadellilərdən ayrılaraq
durub öz günahlarını və atalarının şər
işlərini etiraf etdi. 3 Onlar olduqları
yerdə dayanıb günün dörddə bir
hissəsini özlərinin Allahı Rəbbin Qanun
kitabından oxudular. Günün digər
dörddə bir hissəsini isə günahlarını
etiraf edib özlərinin Allahı Rəbbə səcdə
qıldılar.
4 Yeşua, Bani, Qadmiel, Şevanya,
Bunni, Şerevya, Bani və Kenani
Levililərin pilləkəninin üstünə qalxıb
özlərinin Allahı Rəbbə uca səslə
yalvardılar. 5 Levililər – Yeşua, Qadmiel,
Bani, Xaşavneya, Şerevya, Hodiya,
Şevanya, Petahya dedilər: «Ayağa qalxın
və əbədi olan Allahınız Rəbbə həmd
edin! Qoy Sənin izzətli adına həmd
olsun və etdiyiniz bütün həmdlərdən,
şükürlərdən də çox ucaldılsın!
6 Sən, yalnız Sən Rəbsən, göyləri,
göylərin ən uca qatlarını və bütün
səma cisimlərini, yer üzünü və onun
məxluqlarını, dənizləri və içindəki hər
şeyi Sən yaratdın və hamısına həyat
verirsən. Səma cisimləri Sənə səcdə
qılır! 7 [k]Ya Rəbb, Sən o Allahsan ki,
İbramı seçib Xaldeylilərin Ur şəhərindən
çıxararaq ona İbrahim adını verdin.
8 [l]Sən Öz önündə onun sadiq ürəyini
gördün. Ona görə də Kənanlıların,
Xetlilərin, Emorluların, Perizlilərin,
Yevusluların və Qirqaşlıların diyarını
İbrahim övladlarına vermək üçün
onunla əhd kəsdin və sözlərini yerinə
yetirdin. Çünki Sən adilsən.
9 [m]Misirdə atalarımızın çəkdikləri
əziyyəti gördün və Qırmızı dənizin
yanındakı fəryadlarını eşitdin.
10 [n]Fironla bütün əyanlarına və
ölkəsinin bütün xalqına əlamətlər və
möcüzələr göstərdin. Çünki Misirlilərin
atalarımıza qarşı azğınlıq etdiyini bildin
və bu günə kimi adını izzətləndirdin.
11 [o]Atalarımızın qarşısında dənizi yardın
və onlar dənizin ortasında quru yerdən
keçib getdilər. Onları təqib edənləri isə
dərinliklərə, coşğun sulara atılan bir
daş kimi atdın. 12 [p]Atalarımıza gündüz
bulud dirəyi ilə, gecələr isə gedəcəkləri
yolu nurlandırmaq üçün od dirəyi ilə

---

[j] **8:14** Lev. 23:33-36,39-43; Qanun. 16:13-15 [k] **9:7** Yar. 12:1; Yar. 17:5
[l] **9:8** Yar. 15:18-21 [m] **9:9** Çıx. 3:7; Çıx. 14:10-12 [n] **9:10** Çıx. 7:8–12:32
[o] **9:11** Çıx. 14:21-29; Çıx. 15:4-5 [p] **9:12** Çıx. 13:21-22

yol göstərdin. 13 [q]Sina dağının üstünə
enib onlarla göylərdən danışdın. Onlara
ədalətli hökmlər, doğru qanunlar,
yaxşı qaydalar və əmrlər verdin.
14 Sən müqəddəs Şənbə gününü onlara
bildirdin və qulun Musa vasitəsilə
əmrləri, qaydaları və qanunu buyurdun.
15 [r]Atalarımız acanda onlara göylərdən
çörək göndərdin. Susayanda onlar üçün
qayadan su çıxardın. Atalarımıza əmr
verdin ki, vəd etdiyin torpağa girib
sahib olsunlar.
16 [s]Lakin atalarımız təkəbbürlü olub
dikbaşlıq etdilər və Sənin əmrlərini
dinləmədilər. 17 [t]İtaət etmək istəməyib
Sənin onlar üçün göstərdiyin möcüzələri
yada salmadılar, dikbaşlıq etdilər,
üsyankarlıqları ilə köləlik həyatlarına
qayıtmaq üçün özlərinə bir başçı
təyin etdilər. Lakin Sən bağışlamağı
sevən, lütfkar, rəhmli, çox səbirli və
bol məhəbbəti olan Allah olduğuna
görə onları tərk etmədin. 18 [u]Hətta
atalarımız özləri üçün tökmə dana
düzəldib "Budur, səni Misirdən çıxaran
Allahın!" deyə böyük küfr edəndə
19 [v]Sən Öz böyük mərhəmətin naminə
onları səhrada tək qoymadın. Gündüz
onlara yolda bələdçilik etmək üçün
bulud dirəyini, gecələr isə gedəcəkləri
yolu nurlandırmaq üçün od dirəyini
qabaqlarından əskik etmədin. 20 Sən
onlara nəsihət vermək üçün Öz xeyirxah
Ruhunu verdin. İsrail övladlarının
ağızlarından mannanı əsirgəmədin,
susayanda su verdin. 21 Qırx il onları
səhrada bəslədin və onlar heç nədən
korluq çəkmədi. Nə paltarları köhnəldi,
nə ayaqları şişdi. 22 [w]Ölkələri və xalqları
onlara təslim edərək torpaqlarını
aralarında bölüşdürdün. Onlar Sixonun
ölkəsini, yəni Xeşbon padşahının
ölkəsini və Başan padşahı Oqun
ölkəsini ələ keçirtdi. 23 [x]Övladlarını
göydəki ulduzlar qədər çoxaltdın.
Onların atalarına "oraya girib sahib
olsunlar" deyə vəd etdiyin ölkəyə
gətirdin. 24 [y]Onların övladları o
torpağa girib sahib oldular. Sən oranın
əhalisini – Kənanlıları onlara tabe
etdirib padşahlarını ölkənin əhalisi
ilə bərabər onlara təslim etdirdin ki,
o adamlarla istədikləri kimi rəftar
etsinlər. 25 [z]Onlar möhkəmlənmiş
şəhərləri və bərəkətli torpağı tutub
mal-dövlətlə dolu evlərə, qazılmış
quyulara, bağlara, zeytunluqlara və
bol-bol meyvə ağaclarına sahib oldular.
Yeyib doydular, kökəldilər və verdiyin
böyük nemətlər üçün sevindilər.
26 [a]Lakin onlar itaətsizlik edərək
Sənə qarşı üsyankar oldular. Qanununa
arxa çevirdilər, Sənə tərəf dönmək
üçün onlara xəbərdarlıq edən
peyğəmbərlərini öldürdülər və böyük
küfr etdilər. 27 Onda Sən onları düşmənə
təslim etdin. Düşmənləri də onlara
zülm etdilər. Sıxıntılı vaxtlarında
İsrail övladları Sənə fəryad etdilər.
Sən göylərdən eşitdin və Öz böyük
mərhəmətinə görə onlara xilaskarlar
göndərdin. Onlar da İsrail övladlarını
düşmən əlindən qurtardılar. 28 Lakin
rahat olan kimi yenə Sənin nəzərində
pis işlər gördülər. Buna görə də
Sən onları düşmənə təslim etdin,
düşmənləri də onlara hökm etdilər.
Onlar yenə də Sənə fəryad etdilər,

---

[q] **9:13** Çıx. 19:18–23:33 [r] **9:15** Çıx. 16:4-15; Çıx. 17:1-7; Qanun. 1:21
[s] **9:16** Say. 14:1-4; Qanun. 1:26-33
[t] **9:17** Çıx. 34:6; Say. 14:18; Zəb. 86:15; 103:8; 145:8; Yoel 2:13; Yun. 4:2
[u] **9:18** Çıx. 32:1-4 [v] **9:19** Qanun. 8:2-4 [w] **9:22** Say. 21:21-35
[x] **9:23** Yar. 15:5; 22:17; Yeşua 3:14-17 [y] **9:24** Yeşua 11:23
[z] **9:25** Qanun. 6:10-11 [a] **9:26** Hak. 2:11-16

Sən də onları göylərdən eşidib Öz
böyük mərhəmətinə görə dəfələrlə
qurtardın. 29 [b]Onlara xəbərdarlıq etdin
ki, Sənin Qanununa tərəf dönsünlər.
Amma onlar təkəbbürlü olub əmrlərinə
qulaq asmadılar və hökmlərini pozub
günah etdilər. Halbuki o hökmlərə
əməl edən hər kəs həyat tapar. Onlar
inadkarlıqla Sənə arxa çevirib dikbaşlıq
və itaətsizlik etdilər. 30 [c]Lakin Sən illər
boyu onlarla səbirlə davrandın. Öz
Ruhunla, peyğəmbərlərin vasitəsilə
onlara xəbərdarlıq etdin. Onlar isə
qulaq asmadılar və ona görə Sən
onları ətraflarındakı xalqlara təslim
etdin. 31 Lakin Sən böyük mərhəmətinə
görə İsrail övladlarını məhv olmağa
qoymadın, onları tərk etmədin, çünki
Sən lütfkar və rəhmli Allahsan.
32 [d]Ey Allahımız! Böyük, qüdrətli və
zəhmli, əhdi və məhəbbəti saxlayan
Allah! Aşşur padşahlarının dövründən
bu günə qədər bizim çəkdiyimiz,
padşahlarımızın, ağalarımızın,
kahinlərimizin, peyğəmbərlərimizin,
atalarımızın və bütün xalqının
çəkdiyi əzab-əziyyət Sənin gözündə
kiçik görünməsin. 33 Sən haqlısan,
başımıza gələn hər işdə bizimlə
ədalətlə davrandın, biz isə pis işlər
etdik. 34 Padşahlarımız, rəislərimiz,
kahinlərimiz, atalarımız Sənin
Qanununa riayət etmədi. Sənin
əmrlərinə və verdiyin xəbərdarlıqlara
qulaq asmadılar. 35 Onlar öz ölkələrində
verdiyin böyük nemətlər içində,
geniş, bərəkətli torpaqda belə, Sənə
qulluq etmədilər və pis əməllərindən
əl çəkmədilər. 36 Budur, bu gün
biz köləyik. Atalarımıza meyvəsini
və gözəl məhsulunu yemək üçün
verdiyin o torpaqda biz kölelik edirik.
37 Günahlarımıza görə torpağımızın
bol məhsulu üzərimizdə hökm sürən
padşahlara nəsib olur. Bizim özümüzü
də, heyvanlarımızı da istədikləri kimi
idarə edirlər. Biz isə böyük zülm
içindəyik.
38 Bütün bunlara görə biz Sənlə
yazılı sabit əhd bağlayırıq. Rəislərimiz,
Levililərimiz və kahinlərimiz də bu əhdi
möhürləyir».

Əhdi möhürləyənlərin siyahısı

10 Əhdi möhürləyənlər bunlar idi:
Xakalya oğlu vali Nehemya,
Sidqiya, 2 Seraya, Azarya, Yeremya,
3 Paşxur, Amarya, Malkiya, 4 Xattuş,
Şevanya, Malluk, 5 Xarim, Meremot,
Avdiya, 6 Daniel, Ginneton, Baruk,
7 Meşullam, Aviya, Miyamin, 8 Maazya,
Bilqay, Şemaya. Bunlar kahinlər idi.
9 Levililər: Azanyanın oğlu Yeşua,
Xenadad övladlarından Binnuy və
Qedmiel, 10 onların qardaşları Şevanya,
Hodiya, Qelita, Pelaya, Xanan,
11 Mikeya, Rexov, Xaşavya, 12 Zakkur,
Şerevya, Şevanya, 13 Hodiya, Bani,
Beninu.
14 Xalqın başçıları: Paroş, Paxat-Moav,
Elam, Zattu, Bani, 15 Bunni, Azqad,
Bevay, 16 Adoniya, Biqvay, Adin,
17 Ater, Xizqiya, Azzur, 18 Hodiya,
Xaşum, Besay, 19 Xarif, Anatot,
Nevay, 20 Maqpiaş, Meşullam, Xezir,
21 Meşezavel, Sadoq, Yaddua, 22 Pelatya,
Xanan, Anaya, 23 Huşə, Xananya,
Xaşşuv, 24 Halloxeş, Pilxa, Şoveq,
25 Rexum, Xaşavna, Maaseya, 26 Axiya,
Xanan, Anan, 27 Malluk, Xarim, Baana.
28 Qalan xalq – kahinlər, Levililər,
məbəd qapıçıları, ilahiçilər, məbəd
qulluqçuları, Allahın Qanununa
görə ətraf xalqlardan ayrılan hər
kəs arvadları, ağlıkəsən oğul və
qızları ilə bərabər 29 əsl soydaşları ilə

[b] **9:29** Lev. 18:5 [c] **9:30** 2Pad. 17:13-18; 2Saln. 36:15-16
[d] **9:32** 2Pad. 15:19,29; 17:3-6; Ezra 4:2,10

birləşdi. Allahın qulu Musanın əli ilə
verilmiş Qanuna görə hərəkət etmək,
Xudavəndimiz Rəbbin bütün əmrlərinə,
hökmlərinə və qanunlarına etina ilə
əməl etmək üçün and içdilər. Əməl
etməyənlərə isə lənət oxudular. 30 [e]And
içdik ki, qızlarımızı ətrafımızdakı
xalqlara verməyib onların qızlarını
öz oğullarımıza almayacağıq. 31 [f]Ətraf
xalqlara mənsub olanlar Şənbə günü
yaxud başqa müqəddəs bir gündə
satmaq üçün əşya yaxud taxıl gətirsələr,
onlardan heç nə almayacağıq. Yeddi
ildə bir dəfə torpağı dincə qoyacağıq və
bütün borcları ləğv edəcəyik.
32 [g]Allahımızın məbədinin xidməti
üçün ildə şekelin üçdə bir hissəsini
verməyi öhdəmizə götürdük. 33 Bu pul
təqdim çörəkləri, daimi taxıl təqdimi,
daimi yandırma qurbanı, Şənbə
günləri, Təzə Ay mərasimləri və başqa
bayramlar, müqəddəs sovqatlar, İsrail
övladlarının günahını kəffarə etmək
üçün günah qurbanları və Allahımızın
məbədinin digər ehtiyacları üçündür.
34 Biz kahinlər, Levililər və xalq
hər il müəyyən vaxtda Allahımızın
məbədini odunla təmin etmək üçün
nəsillərimizə görə püşk atdıq. Bu
odunlar Qanunda yazıldığı kimi
Allahımız Rəbbin qurbangahında
yandırılmalı idi. 35 [h]Hər il torpağımızın
ilk məhsulunu və hər növlü ağacın
nübarını Rəbbin məbədinə aparmalıyıq.
36 [i]Qanunda yazıldığı kimi ilk doğulan
oğullarımızı, heyvanlarımızı, ilk
doğulan mal-qara və qoyun-keçimizi
Allahımızın məbədinə, orada xidmət
edən kahinlərin yanına gətirməliyik.
37 [j]Həm də xəmirimizin, taxıl
təqdimlərimizin, hər növ ağaclarımızın
meyvəsinin, təzə şərablarımızın,
zeytun yağımızın nübarını kahinlərə,
Allahımızın məbədinin anbarına, torpaq
məhsullarımızın onda bir hissəsini
isə Levililərə gətirməliyik. Çünki
işlədiyimiz bütün şəhərlərdə onda bir
hissəni Levililər alır. 38 [k]Levililər onda
bir hissəni alarkən Harun oğullarından
olan kahin onlarla olacaq. Levililər
isə alacaqları onda bir hissənin onda
birini Allahımızın məbədinə, xəzinənin
anbar otaqlarına aparacaq. 39 Çünki
İsrail övladları və Levililər taxılın, təzə
şərabın və zeytun yağının təqdimlərini
anbar otaqlarına gətirməlidir. Orada
Müqəddəs məkanın qabları, xidmət
edən kahinlər, məbəd qapıçıları və
ilahiçilər olacaq. Beləcə biz Allahımızın
məbədinə laqeyd yanaşmayacağıq.

Yerusəlim və digər şəhərlərinin əhalisi barəsində

11 Xalqın rəisləri Yerusəlimdə
yerləşdi. Xalqın yerdə qalanı
isə püşk atdı ki, hər on nəfərindən
biri müqəddəs Yerusəlim şəhərinə
yaşamağa getsin, doqquzu isə o biri
şəhərlərdə yaşasın. 2 Yerusəlimdə
könüllü yaşamağa gedənlərin hamısına
xalq xeyir-dua verdi.
3 [l]Yerusəlimdə yerləşən vilayət
başçıları bunlardır. Ancaq bəzi
İsraillilər, kahinlər, Levililər, məbəd
qulluqçuları və Süleymanın əyanlarının
oğulları Yəhuda şəhərlərində, hər kəs
öz şəhərindəki mülkündə yerləşdi.
4 Binyamin övladlarından və Yəhuda
övladlarından bəziləri isə Yerusəlimdə
məskunlaşdı.
Yəhuda övladları: Peres nəslindən
Mahalalel oğlu Şefatya oğlu Amarya
oğlu Zəkəriyyə oğlu Uzziya oğlu Ataya,
5 Şilolu Zəkəriyyə oğlu Yoyariv oğlu

[e] **10:30** Çıx. 34:16; Qanun. 7:3 [f] **10:31** Çıx. 23:10-11; Lev. 25:1-7; Qanun. 15:1-2
[g] **10:32** Çıx. 30:11-16 [h] **10:35** Çıx. 23:19; 34:26; Qanun. 26:2
[i] **10:36** Çıx. 13:2 [j] **10:37** Say. 18:21 [k] **10:38** Say. 18:26 [l] **11:3** Neh. 7:73

Adaya oğlu Xazaya oğlu Qal-Xoze
oğlu Baruk oğlu Maaseya. 6 Peres
övladlarından Yerusəlimdə yerləşən 468
nəfər igid adam idi.
7 Binyamin övladları bunlardır:
Yeşaya oğlu Yetiel oğlu Maaseya oğlu
Qolaya oğlu Pedaya oğlu Yoed oğlu
Meşullam oğlu Sallu və 8 ondan sonra
Qabbay, Sallay – 928 nəfər. 9 Zikri oğlu
Yoel onların rəhbəri idi, Hassenua oğlu
Yəhuda isə şəhərin vali müavini idi.
10 Kahinlərdən: Yoyariv oğlu Yedaya,
Yakin, 11 Axituv oğlu Merayot oğlu
Sadoq oğlu Meşullam oğlu Xilqiya
oğlu Allah evinin başçısı Seraya və
12 məbəddə iş görən soydaşları –
822 nəfər; Malkiya oğlu Paşxur oğlu
Zəkəriyyə oğlu Amsi oğlu Pelalya oğlu
Yeroxam oğlu Adaya və 13 onun nəsil
başçısı olan soydaşları – 242 nəfər;
İmmer oğlu Meşillemot oğlu Axzay
oğlu Azarel oğlu Amaşsay və 14 onun
soydaşları – 128 nəfər igid döyüşçü.
Haqqedolim oğlu Zavdiel onların
rəhbəri idi.
15 Levililərdən: Bunni oğlu Xaşavya
oğlu Azriqam oğlu Xaşşuv oğlu Şemaya.
16 Levililərin başçılarından Şabbetay
və Yozavad Allah evinin bayır işlərini
idarə edirdilər. 17 Asəf oğlu Zavdi oğlu
Mikeya oğlu Mattanya şükür duasını
oxuyan məbəd ilahiçilərinin dəstə
rəhbəri və soydaşlarından Baqbuqya
onun müavini idi. Yedutun oğlu Qalal
oğlu Şammua oğlu Avda da var idi.
18 Müqəddəs şəhərdə yaşayan bütün
Levililər 284 nəfər idi.
19 Məbəd qapıçıları Aqquv, Talmon ilə
qardaşları darvazalarda keşik çəkənlər,
172 nəfər idi.
20 İsraillilərin, kahinlərin, Levililərin
yerdə qalanları bütün Yəhuda
şəhərlərində yaşayırdı. Hər kəs öz
mülkündə yaşayırdı.
21 Məbəd qulluqçuları isə Ofeldə
qalırdı. Sixa və Gişpa onlara rəhbərlik
edirdi.
22 Allahın evindəki ibadətdə ilahilər
oxuyan Asəf övladlarından Mikeya oğlu
Mattanya oğlu Xaşavya oğlu Bani oğlu
Uzzi Yerusəlimdə Levililərin rəhbəri idi.
23 Bu ilahiçilər padşahın fərmanına tabe
idi və hər gün vəzifələrini müəyyən
edən qaydaları yerinə yetirirdi.
24 Yəhuda oğlu Zerah övladlarından
Meşezavel oğlu Petahya İsrail xalqının
ümumi işlərində Fars padşahına kömək
edirdi.
25 Kəndlərə və tarlalarına gəlincə,
Yəhuda övladlarından bəziləri
Qiryat-Arba ilə qəsəbələrində, Divon
ilə qəsəbələrində, Yeqqavseel ilə
kəndlərində, 26 Yeşuada, Moladada,
Bet-Peletdə, 27 Xasar-Şualda və
Beer-Şeva ilə qəsəbələrində,
28 Ziqlaqda, Mekona ilə qəsəbələrində,
29 En-Rimmonda, Sorada, Yarmutda,
30 Zanoahda, Adullam ilə kəndlərində,
Lakiş ilə tarlalarında, Azeqa ilə
qəsəbələrində qaldılar. Yaşadıqları
məntəqə Beer-Şevadan Hinnom
vadisinə qədər idi.
31 Binyamin övladları Gevadan
başlayaraq Mikmas ilə Ayyada, Bet-El
ilə qəsəbələrində, 32 Anatot, Nov,
Ananya, 33 Xasor, Rama, Gittayim,
34 Xadid, Sevoim, Nevallat, 35 Lod,
Ono və Sənətkarlar dərəsində məskən
saldılar. 36 Yəhudadakı Levililərin bəzi
bölmələri Binyamin ərazisi üçün ayrıldı.

Zerubbabil ilə gələn kahinlər və Levililər

12 Şealtiel oğlu Zerubbabil və Yeşua
ilə qayıdan kahinlər və Levililər
bunlar idi: Seraya, Yeremya, Ezra,
2 Amarya, Malluk, Xattuş, 3 Şekanya,
Rexum, Meremot, 4 İddo, Ginnetoy,
Aviya, 5 Miyamin, Maadya, Bilqa,
6 Şemaya, Yoyariv, Yedaya, 7 Sallu,

Amoq, Xilqiya, Yedaya. Bunlar Yeşuanın
dövründə kahinlərin və qardaşlarının
başçıları idi.
8 Levililər: Yeşua, Binnuy, Qadmiel,
Şerevya, Yəhuda, Mattanya. Mattanya
qardaşları ilə birgə şükür ilahiləri
üçün məsuliyyət daşıyırdı. 9 Onların
qardaşları Baqbuqya ilə Unni ibadətdə
onların qarşısında dururdu.
10 Yeşuadan Yoyaqim törədi,
Yoyaqimdən Elyaşiv törədi, Elyaşivdən
Yoyada törədi. 11 Yoyadadan Yonatan
törədi, Yonatandan Yaddua törədi.
12 Yoyaqimin dövründə nəsil başçıları
olan kahinlər bunlar idi: Seraya
nəslindən Meraya, Yeremya nəslindən
Xananya, 13 Ezra nəslindən Meşullam,
Amarya nəslindən Yehoxanan,
14 Malluk nəslindən Yonatan, Şevanya
nəslindən Yusif, 15 Xarim nəslindən
Adna, Merayot nəslindən Xelqay,
16 İddo nəslindən Zəkəriyyə, Ginneton
nəslindən Meşullam, 17 Aviya nəslindən
Zikri, Minyamin nəslindən, Moadya
nəslindən Piltay, 18 Bilqa nəslindən
Şammua, Şemaya nəslindən Yehonatan,
19 Yoyariv nəslindən Mattenay, Yedaya
nəslindən Uzzi, 20 Şallay nəslindən
Qallay, Amoq nəslindən Ever, 21 Xilqiya
nəslindən Xaşavya, Yedaya nəslindən
Netanel.
22 Elyaşiv, Yoyada, Yoxanan və
Yadduanın günlərində Levili nəsil
başçıları və kahinlər Fars padşahı
Daranın hökmranlığına qədər qeyd
edilmişdi. 23 Levili nəsil başçıları,
Elyaşiv oğlu Yoxananın günlərinə
qədər salnamələr kitabında yazıldı.
24 Levililərin başçıları Xaşavya,
Şerevya və Qadmiel oğlu Yeşua bir
tərəfdə, qardaşları da o biri tərəfdə
dayanıb Allah adamı Davudun əmrinə
görə qarşılıqlı həmdlər və şükürlər
edirdi. 25 Mattanya, Baqbuqya,
Avdiya, Meşullam, Talmon və Aqquv
qapıçılıq edib darvazalardakı anbarları
qoruyurdu. 26 Bunlar Yosadaq oğlu
Yeşua oğlu Yoyaqimin günlərində, vali
Nehemya və ilahiyyatçı kahin Ezranın
dövründə yaşayırdı.

Yerusəlim divarının təqdis edilməsi

27 Yerusəlim divarının təqdisetmə
mərasimini sevinclə, şükürlə, ilahilərlə,
sinc, çəng və lira ilə keçirmək üçün
Levililər yaşadıqları hər yerdən çağırılıb
Yerusəlimə gətirildilər. 28 Yerusəlim
ətrafındakı sahədən və Netofalıların
kəndlərindən, 29 Bet-Qilqaldan
və Geva ilə Azmavet çöllərindən
ilahiçilər toplandı. Çünki ilahiçilər
Yerusəlim ətrafında özləri üçün kəndlər
salmışdılar.
30 Kahinlər və Levililər özlərini pak
edəndən sonra xalqı, darvazaları və
divarı pak etdilər.
31 Onda mən Yəhuda rəislərini divarın
üstünə çıxartdım və şükür ilahiləri
oxuyan iki böyük dəstə təyin etdim.
Onlardan biri divarın üstü ilə sağ
tərəfdən Peyin darvazasına doğru
gedirdi. 32 Onların ardınca Hoşaya və
Yəhuda rəislərinin yarısı, 33 Azarya,
Ezra, Meşullam, 34 Yəhuda, Binyamin,
Şemaya, Yeremya, 35 əllərində
kərənaylarla kahinlərdən bəziləri
– Asəf oğlu Zakkur oğlu Mikeya
oğlu Mattanya oğlu Şemaya oğlu
Yonatan oğlu Zəkəriyyə, 36 qardaşları
Şemaya, Azarel, Milalay, Gilalay, Maay,
Netanel, Yəhuda, Xanani, Allah adamı
Davudun musiqi alətləri ilə gedirdilər.
İlahiyyatçı Ezra onların qabağında
gedir. 37 Çeşmə darvazası yanında və
onların qarşısında divar yoxuşunda
Davudun şəhərinin pilləkənləri ilə çıxıb
Davudun sarayının üst tərəfindən şərqə
doğru Su darvazasına qədər getdilər.
38 Şükür ilahiləri oxuyanların o
biri dəstəsi divarın üstü ilə sol tərəfə
gedirdi. Mən xalqın yarısı ilə onların
ardınca yeriyirdim. Sobalar qülləsindən

keçib Geniş divara qədər, 39 Efrayim
darvazasının üstündən Köhnə darvaza,
Balıqlar darvazası, Xananel qülləsi,
Yüz qülləsi və Qoyun darvazasına
qədər gedib Mühafizəçilər darvazasında
dayandıq. 40 Şükür ilahiləri oxuyanların
iki dəstəsi Allah evinin yanında ayaq
saxladı. Mən də hökumət məmurlarının
yarısı ilə dayandım. 41 Yanımda kərənay
çalan kahinlər bunlar idi: Elyaqim,
Maaseya, Minyamin, Mikeya, Elyoenay,
Zəkəriyyə və Xananya; 42 habelə
Maaseya, Şemaya, Eleazar, Uzzi,
Yehoxanan, Malkiya, Elam və Ezer.
İlahiçilər İzrahyanın rəhbərliyi altında
tərənnüm etdi. 43 O gün çoxlu qurban
kəsildi və şadlıq oldu, çünki Allah xalqa
böyük sevinc bəxş etmişdi. Qadınlar
və uşaqlar da sevinirdi və Yerusəlimin
şənliyi uzaqlardan eşidilirdi.

Məbəd ibadəti üçün təminat

44 Elə o gün ianələrin, ilk məhsulun
və onda bir hissələrin yığılacağı
anbarları qorumaq üçün adamlar təyin
edildi. Bütün bunlar Qanunda kahinlər
və Levililər üçün nəzərdə tutulan
şəhərlərin ətrafındakı tarlalardan
anbarlara gətirilməli idi. Çünki
Yəhudalılar ibadət edən kahinlərlə
Levililərdən məmnun idi. 45 [m]Onlar,
ilahiçilərlə məbəd qapıçıları Davud
və oğlu Süleymanın əmrinə əsasən
özlərinin Allahına xidmət edib pak olma
mərasimini yerinə yetirdi. 46 Çünki
qədim zamanlarda – Davudun və
Asəfin günlərində ilahiçilərin başçıları
var idi və Allaha həmd və şükür
mahnıları oxunurdu. 47 Zerubbabilin və
Nehemyanın günlərində bütün İsraillilər
hər gün ilahiçiləri və məbəd qapıçılarını
gündəlik paylar ilə təmin edirdi. Onlar
Levililərə düşən payı ayırdı. Levililər də
Harun övladlarına düşən payı ayırdı.

Nehemyanın qayda-qanunu bərpa etməsi

13 [n]O gün Musanın kitabından
oxundu və xalq qulaq asırdı.
Bu kitabda belə bir yazı aşkar olundu:
«Allahın camaatına Ammonlu və yaxud
Moavlı heç vaxt daxil ola bilməz».
2 [o]Çünki Moav və Ammon övladları
İsrail övladlarını çörək və su ilə
qarşılamamışdı. Lakin İsrail övladlarına
qarşı lənət oxumaq üçün Bilamı muzdla
tutmuşdular. Allahımız isə lənəti
xeyir-duaya çevirdi. 3 İsrail övladları
qanunu dinlədikdə bütün yadelliləri
aralarından ayırdı.
4 Bundan əvvəl Allahımızın məbədinin
anbarlarına nəzarətçi təyin edilən kahin
Elyaşiv Toviyanın yaxın tanışı olduğuna
görə 5 ona böyük bir otaq hazırlamışdı.
Oraya əvvəllər taxıl təqdimləri, kündür,
məbəd əşyaları, qanun üzrə Levililərə,
ilahiçilərə və məbəd qapıçılarına
verilən taxılın, təzə şərabın və zeytun
yağının onda bir hissələri və kahinlərə
verilən ianələr qoyulardı. 6 Bu iş baş
verəndə mən Yerusəlimdə deyildim.
Ona görə ki Babil padşahı Artaxşastanın
hakimiyyətinin otuz ikinci ilində onun
hüzuruna getmişdim. Bir müddət
sonra padşahdan izin alıb 7 Yerusəlimə
qayıtdım. Elyaşivin etdiyi pisliyi – Allah
evinin həyətində Toviyaya bir otaq
hazırladığı barədə xəbər aldım. 8 Bu
məni çox qəzəbləndirdi və Toviyanın
bütün ev əşyalarını otaqdan bayıra
atdım. 9 Mənim əmrimlə otaqları
təmizlədilər və Allah evinin əşyalarını,
taxıl təqdimlərini kündürlə birgə oraya
geri gətirdim.

---

[m]**12:45** 1Saln. 25:1-8; 26:12 [n]**13:1** Qanun. 23:3-5 [o]**13:2** Say. 22:1-6

10 [p]Bir də xəbər tutdum ki, Levililərin
payları onlara verilmir və xidmət
edən Levililərlə ilahiçilərin hər biri öz
torpağına qayıtmışdır. 11 Mən hökumət
məmurlarını tənbeh edib dedim:
«Nə üçün Allahın evinə etinasızlıq
edilir?» Sonra Levililərlə ilahiçiləri
toplayıb yerlərinə qaytardım. 12 [q]Bütün
Yəhudalılar anbarlara taxılın, təzə
şərabın və zeytun yağının onda
bir hissələrini gətirdilər. 13 Kahin
Şelemyanı, ilahiyyatçı Sadoqu və
Levililərdən Pedayanı anbarlara
nəzarətçi və Mattanya oğlu Zakkur oğlu
Xananı onların köməkçisi təyin etdim.
Bu adamlar etimada layiq sayıldıqlarına
görə qardaşlarına paybölmə işi onlara
düşdü.
14 Ey Allahım, buna görə məni yadda
saxla. Allahımın məbədi və oradakı
xidmətlər üçün etdiyim yaxşı işlərimi
yoxa çıxarma!
15 [r]O günlər Yəhudada gördüm ki, bəzi
adamlar Şənbə günü üzüm sıxılan yerdə
ayaqları ilə üzüm sıxırdı və içəri taxıl
gətirib eşşəklərin üstünə yükləyirdi.
Şərab, üzüm, əncir və hər cür yükləri
də Şənbə günündə Yerusəlimin içinə
gətirirdilər. Həmin gün mən ərzaq
satanları töhmətləndirdim. 16 Orada
yaşayan Surlular balıq, hər cür mallar
gətirərək Şənbə günü Yerusəlimdə
Yəhudalılara satırdı. 17 Yəhuda
əyanlarını töhmətləndirib onlara dedim:
«Nə üçün bu pis işi görüb Şənbə gününü
murdar edirsiniz? 18 Atalarımız belə
işlər etmədilərmi? Allahımız bütün bu
bəlaları bizim və bu şəhərin üzərinə
buna görə gətirmədimi? Siz isə Şənbə
gününü murdar edərək Onun İsrail
övladlarına qəzəbini artırırsınız».
19 [s]Yerusəlim darvazalarında
Şənbənin başlayacağı axşamçağı əmr
etdim ki, qapılar qıfıllansın. Şənbə
bitənə qədər qapıların açılmamasını
tapşırdım. Bəzi nökərlərimi də
darvazaların qabağına qoymuşdum
ki, Şənbə günü şəhərə heç bir yük
gətirilməsin. 20 Tacirlər və hər cür
mal satanlar bir-iki dəfə Yerusəlimdən
kənarda gecələmişdi. 21 Mən onlara
xəbərdarlıq edərək dedim: «Nə üçün
divarın yanında gecələyirsiniz? Bir
də belə etsəniz, sizə əl qaldıraram!»
Tacirlər də o vaxtdan Şənbə günü
gəlmədilər. 22 Sonra mən Levililərə əmr
etdim ki, Şənbə gününü təqdis etmək
üçün özlərini təmizləyib gəlsinlər və
darvazaların keşiyini çəksinlər.
Ey Allahım, bundan ötrü məni
unutma və böyük məhəbbətinə görə
rəhm elə!
23 [t]Həm də o günlər Aşdodlu,
Ammonlu və Moavlılardan arvad
alan Yəhudiləri də gördüm. 24 Onların
uşaqlarının yarısı Aşdod dilində yaxud
digər xalqların dilində danışırdı,
ancaq Yəhudi dilində danışa bilmirdi.
25 Mən onları tənbeh və lənət etdim.
Bəzilərini isə döyüb saçlarını yoldum.
O adamlara Allah haqqına and içdirib
dedim: «Qızlarınızı yadelli oğullarına
verməyin, oğullarınıza və özünüzə
onların qızlarını almayın. 26 [u]İsrail
padşahı Süleyman buna görə günaha
batmadımı? Çox millətlərin arasında
onun kimi padşah yox idi və o, Allahın
sevimlisi idi. Allah onu bütün İsrail
üzərinə padşah etdi, lakin yadelli
qadınlar onu belə, günaha saldılar.
27 İndi siz Allahımıza qarşı xainlik edib
yadelli qadınlar alırsınız? Etdiyiniz bu
böyük pisliyə yol verərikmi?»

---

[p]**13:10** Qanun. 12:19 [q]**13:12** Mal. 3:10 [r]**13:15** Çıx. 20:8-10; Qanun. 5:12-14; Yer. 17:21-22 [s]**13:19** Yer. 17:21; Yəh. 5:10
[t]**13:23** Çıx. 34:11-16; Qanun. 7:1-5 [u]**13:26** 2Şam. 12:24-25; 1Pad. 11:1-8

28 [v]Baş kahin Elyaşivin oğlu
Yoyadanın oğullarından biri Xoronlu
Sanballatın kürəkəni idi. Buna görə də
onu yanımdan qovdum.
29 Ey Allahım, onları yadda saxla,
çünki onlar kahinliyi, kahinlər və
Levililərlə kəsdiyin əhdi murdar etdilər!
30 Beləliklə, xalqı bütün
yadelli ənənələrdən təmizlədim.
Kahinlərlə Levililərin vəzifələrini
müəyyənləşdirdim. Hər kəsin öz işi var
idi. 31 Müəyyən edilmiş vaxtda odun
gətirilməsini və ilk nübarın təqdim
edilməsini təşkil etdim.
Ey Allahım, məni yadda saxla və
mənə xeyirxah ol!

[v]**13:28** Neh. 4:1

ESTER
KİTABI
GİRİŞ

«Ester» Kitabında hadisələr Fars padşahı Axaşveroşun (Kserksin) qış iqamətgahında, Şuşan qala şəhərində baş verir.

Kitabın baş qəhrəmanı Esterdir. Gənc, gözəl Ester yəhudi qızıdır və Fars padşahı Axaşveroşa ərə gedib mələkə olur. O öz xalqını – İsrailliləri kütləvi soyqırımından qurtarır. Onun əmisi oğlu Binyaminli Mordokay Esterin baş məsləhətçisi və köməkçisi olub Esterlə birgə qəhrəmanlıq göstərir və bu böyük təhlükənin qarşısını alıb İsrail xalqını xilas edir.

Bu kitab yəhudilərin Purim bayramının yaranmasını və mənasını izah edir.

Kitabın məzmunu:

1:1-22 Padşah Axaşveroşun ziyafəti və Vaştinin mələkəlikdən çıxarılması

2:1-23 Esterin mələkə seçilməsi

3:1–5:14 Hamanın yəhudilərə qəsdi

6:1–7:10 Hamanın məğlubiyyəti və edamı

8:1–10:3 Yəhudilərin düşmənləri üzərində qələbə çalması

Fars padşahı Axaşveroşun ziyafəti

1 [w]Bu hadisələr Axaşveroşun dövründə baş vermişdi. Axaşveroş Hinddən Kuşa qədər yüz iyirmi yeddi vilayət üzərində padşahlıq edirdi. [2] O dövrdə padşah Axaşveroş Şuşan qalasında taxtında oturmuşdu. [3] Padşahlığının üçüncü ilində o bütün rəisləri və əyanları üçün bir ziyafət qurdu. Farsın və Midiyanın sərkərdələri, əsilzadələri və vilayət başçıları onun hüzuruna gəldi. [4] O, uzun müddət ərzində, yəni yüz səksən gün öz padşahlığının cah-calalını, əzəmətini və parlaq şöhrətini nümayiş etdirdi. [5] Bu ziyafət günləri qurtarandan sonra padşah Şuşan qalasında böyükdən kiçiyə qədər bütün xalqa sarayının həyət bağçasında yeddi gün ayrı bir ziyafət verdi. [6] Bağçada tünd qırmızı zərif kətan qaytanlarla mərmər sütunlardakı gümüş halqalara keçirilmiş pambıq parçadan ağ və bənövşəyi pərdələr var idi. Sumaqdaşı, mərmər, sədəf və başqa qiymətli daşlardan düzəldilmiş döşəmə üzərində qızıl və gümüş kürsülər qoyulmuşdu. [7] Oradakılara bir-birindən fərqli qızıl camlarda padşahın səxavətinə layiq bol-bol şahanə şərab təqdim edilirdi. [8] Padşahın əmri ilə şərab içmək üçün hüdud qoyulmamışdı, çünki padşah şərab məmurlarına əmr etmişdi ki, hər kəsə istəyinə görə xidmət göstərilsin. [9] Mələkə Vaşti də Axaşveroşun sarayında qadınlar üçün ziyafət qurdu.

Padşahın Vaştini mələkəlikdən çıxarması

[10] Yeddinci gün padşah Axaşveroşun ürəyi şərabdan nəşələnəndə hüzurunda xidmət edən Mehuman, Bizzeta, Xarvona, Biqta, Avaqta, Zetar və Karkas adlı yeddi hərəmağasına belə əmr etdi: [11] «Mələkə Vaşti başında mələkəlik tacı ilə padşahın hüzuruna gətirilsin». O, mələkənin gözəlliyini xalqa və rəislərə nümayiş etdirmək istəyirdi, çünki mələkə cazibədar idi. [12] Lakin mələkə Vaşti hərəmağaları vasitəsilə göndərilən padşah əmrindən çıxıb onun hüzuruna gəlmək istəmədi. Padşah buna çox qəzəbləndi və qəzəb ürəyini yandırıb-yaxdı.

---

[w] **1:1** Ezra 4:6

13 Padşah adəti üzrə qayda-qanun
bilənlərə müraciət edərdi, ona görə
də müdrik adamlarla məsləhətləşdi.
14 Karşena, Şetar, Admata, Tarşiş,
Meres, Marsena, Memukan padşahın
yaxın adamları olub Fars-Midiya
padşahlığının yeddi rəisi, padşahlıqda
ən yüksək rütbə sahibi idi. Bu adamlar
padşahla üz-üzə görüşə bilirdi. 15 Padşah
soruşdu: «Qanuna əsasən mələkə Vaştiyə
nə edilməlidir? O, padşah Axaşveroşun
hərəmağalar vasitəsilə göndərdiyi əmrə
əməl etmədi». 16 Memukan padşahın və
rəislərin hüzurunda dedi: «Mələkə Vaşti
yalnız padşaha deyil, bütün rəislərə
qarşı, padşah Axaşveroşun bütün
vilayətlərindəki xalqların hamısına
qarşı günah işlətdi. 17 Çünki mələkənin
bu hərəkəti hansı qadının qulağına
çatsa və onlara "padşah Axaşveroş
mələkə Vaştini öz önünə gətirilməsini
əmr etmişdi, o isə imtina etdi" deyilsə,
bütün qadınlar öz ərlərinə xor baxacaq.
18 Mələkənin bu gün gördüyü işi
eşidən Fars və Midiya xanımları
padşahın bütün rəisləri ilə belə rəftar
edəcək. Bununla da çoxlu itaətsizlik
və münaqişə olacaq. 19 Əgər padşahın
gözündə xoş görünərsə, qoy padşah
tərəfindən belə bir əmr verilsin: "Vaşti
bir daha padşah Axaşveroşun önünə
çıxmasın". Qoy bu əmr Farsların və
Midiyalıların qanunları arasına yazılsın
və dəyişdirilməsin. Padşah isə onun
mələkəliyini daha yaxşısına versin.
20 Padşahın verdiyi əmr öz böyük
padşahlığının hər yerində elan ediləndə
böyükdən kiçiyə qədər bütün qadınlar
öz ərlərinə hörmətlə yanaşacaq».
21 Bu söz padşahın və rəislərin xoşuna
gəldi, padşah Memukanın təklifinə əməl
etdi. 22 Padşahın bütün vilayətlərinə
yazılı əmrlər göndərdi. Bu əmrlər hər
vilayətə öz yazısı və hər xalqa öz dili
ilə yazıldı. «Hər kişi öz ailəsində hakim
olsun və öz xalqının dilində danışsın»
deyə elan edildi.

Esterin mələkə seçilməsi

2 Bir müddət keçəndən sonra padşah
Axaşveroşun qəzəbi soyudu. O,
Vaştini, onun etdiyi işi və əleyhinə
verdiyi qərarını xatırladı. 2 Padşahın
qulluğunda dayanan xidmətçiləri dedi:
«Qoy padşah üçün bakirə, gənc və gözəl
qızlar axtarılsın. 3 Padşah öz ölkəsinin
bütün vilayətlərinə müşahidəçilər
təyin etsin. Qoy gözəl surətli qızların
hamısı Şuşan qalasına, qalasındakı
hərəmxanaya toplanaraq padşahın
hərəmağası Heqaya təhvil verilsin
və təravətləndirici ləvazimatla təmin
olunsun. 4 Padşahın xoşuna gələn qız
Vaştinin yerinə mələkə olsun». Bu fikir
padşahın gözündə xoş göründü və ona
əməl etdi.
5 Şuşan qalasında Mordokay *adlı
bir Yəhudi var idi. O, Binyamin
qəbiləsindən olub Qiş oğlu Şimey
oğlu Yairin oğlu idi. 6 xYəhuda
padşahı Yekonya əsir alınanda Qiş
də Yerusəlimin sakinləri ilə bərabər
əsir aparılmışdı. Onları əsir aparan
Babil padşahı Navuxodonosor idi.
7 Mordokayın əmisi qızı Hadassanın,
yəni Esterin ata-anası yox idi. Bu qızı
Mordokay böyütmüşdü. Ester gözəl
qamətli, qəşəng surətli idi. Ata-anası
ölən gündən Mordokay onu qızlığa
götürmüşdü.
8 Padşahın əmri və fərmanı oxunanda
Şuşan qalasına Heqayın nəzarəti
altına xeyli qız toplandı. O zaman
Ester də padşah sarayında hərəmağası
olan Heqayın nəzarəti altına düşdü.
9 Bu qız Heqayın xoşuna gələrək

*2:5 Fərz edilir ki, Mordokay padşah Şaulun nəslindən idi.

x2:6 2Pad. 24:10-16; 2Saln. 36:10

hüsn-rəğbətini qazandı. Heqay dərhal onu təravətləndirmək üçün lazımi vəsait və xüsusi yeməklərlə təmin etdi. Esterə padşah sarayından münasib görülən yeddi qız təyin edərək onunla xidmətçi qızlarını hərəmxananın ən yaxşı yerinə apartdırdı. 10 Ester öz milliyyəti və nəsli barədə heç kimə bir söz deməmişdi, çünki Mordokay ona tapşırmışdı ki, bunu heç kimə bildirməsin. 11 Esterin nə vəziyyətdə olduğunu və ona nə ediləcəyini öyrənmək üçün Mordokay hər gün hərəmxananın həyəti qarşısında vurnuxurdu.

12 On iki ay hər qıza gözəlləşdirici vasitələr çəkəndən sonra onları növbə ilə padşah Axaşveroşun yanına gətirirdilər. Gözəlləşdirmək üçün qulluq müddəti bundan ibarətdir ki, onlara altı ay mirra yağı, altı ay isə ətirlər və təravətləndirici vasitələr çəkirdilər. 13 Qız padşahın yanına gətirilində hərəmxanadan istədiyi hər şeyi götürüb padşahın sarayına apararDı. 14 O, axşamüstü padşahın yanına gedər, səhər açılanda isə ikinci hərəmxanaya, cariyələrin hərəmağası Şaaşqazın nəzarəti altına göndərilərdi. Yalnız padşahın bəyəndiyi və adı ilə çağırdığı qız bir daha onun yanına gələ bilərdi. 15 Padşahın yanına gəlmək üçün növbə Mordokayın qızlığa götürdüyü əmisi Avixayilin qızı Esterə çatanda o, hərəmə məsul olan padşahın hərəmağası Heqayın məsləhət gördüyündən başqa heç nə istəmədi. Ester ona baxanların hamısının gözündə lütf tapdı.

16 Padşah Axaşveroşun hökmranlığının yeddinci ilinin onuncu ayında – Tevet ayında Ester padşah sarayına aparıldı. 17 Padşah Esteri digər qadınlardan çox bəyəndi. O, padşahın hüzurunda lütf və hüsn-rəğbət qazandı. Padşah Esterin başına mələkəlik tacını qoyaraq Vaştinin yerinə mələkə etdi. 18 Sonra isə Esterin şərəfinə böyük bir ziyafət qurdu. Bu ziyafətə padşahın bütün rəisləri və əyanları dəvət olunmuşdu. Padşah bütün vilayətlərdə bayram elan etdi və öz səxavətinə görə hədiyyələr verdi.

Mordokay padşahın həyatını qurtarır

19 Qızlar ikinci dəfə toplananda Mordokay saray darvazasında vəzifə başında idi. 20 Ester isə Mordokayın əmr etdiyi kimi öz nəslini və milliyyətini məlum etməmişdi. O, Mordokayın tərbiyəsi altında olan vaxtlarda olduğu kimi onun əmrlərinə əməl edirdi.

21 Mordokay padşahın saray darvazasında vəzifə başında olanda saray darvazasının keşikçilərindən Biqtana ilə Tereş adlı iki hərəmağası padşaha qəzəblənmişdi və ona sui-qəsd etmək istəyirdi. 22 Bu işdən xəbər tutan Mordokay bunu mələkə Esterə bildirdi. Ester də Mordokayın adından bunu padşaha xəbər verdi. 23 Yoxlama zamanı bu məlumatın həqiqət olduğu üzə çıxarıldı və hər ikisi dar ağacından asıldı. Bu hadisə padşahın hüzurunda salnamələr kitabına yazıldı.

Hamanın Yəhudilərə qəsdi

3 Bir müddət keçəndən sonra padşah Axaşveroş Aqaqlı *Hammedata oğlu Hamanı şərəfləndirib rütbəsini qaldırdı. Ona yanındakı bütün rəislərdən üstün mövqe verdi. 2 Padşahın əmrinə görə padşahın saray darvazasında olan bütün əyanları Hamana baş əyib qarşısında təzim edirdi. Mordokay isə Hamana baş əyərək təzim etmirdi. 3 Padşah sarayının darvazasında olan əyanlar Mordokaydan soruşdular: «Niyə

*3:1 *Aqaqlı* – İsrailin ən qəddar düşmənlərindən olan Amaleq xalqının padşah nəsli. Bax: 1Şam. 15:32.

padşahın əmrinə itaət etmirsən?» [4] Bunu
Mordokaydan hər gün soruşurdular,
lakin o buna əhəmiyyət vermirdi. Bunun
xəbəri Hamana çatdı, çünki Mordokay
onlara Yəhudi olduğunu söyləmişdi.
Hamı bilmək istəyirdi ki, Mordokay
belə davranışını davam etdirəcək, yoxsa
yox. [5] Haman Mordokayın ona baş
əyməyərək qarşısında təzim etmədiyini
görəndə kini artdı. [6] Buna görə də
təkcə Mordokayı öldürmək niyyəti
ilə kifayətlənmədi. Mordokayın hansı
xalqa mənsub olması Hamana məlum
edilmişdi. Ona görə də o, Mordokayın
xalqını – Axaşveroşun padşahlığının
hər tərəfində yaşayan bütün Yəhudiləri
qırdırmaq qərarına gəldi.
[7] Bu işin görüləcəyi günü
müəyyənləşdirmək üçün padşah
Axaşveroşun hökmdarlığının on ikinci
ilində birinci ay olan Nisan ayında
Hamanın önündə pur, yəni püşk atdılar.
Püşk on ikinci ay olan Adara düşdü.
[8] Sonra Haman padşah Axaşveroşa dedi:
«Sənin padşahlığının hər vilayətinin
xalqları arasına səpələnib yayılan bir
xalq vardır. Onların qanunları bütün
xalqların qanunlarından fərqlidir və
padşahın qanunlarına əməl etmirlər.
Onları bu halda qoymaq padşaha
yaraşmaz. [9] Əgər padşahın xoşuna
gələrsə, qoy onların məhv olunmasına
dair fərman yazılsın. Buna görə
padşahın xəzinəsinə, bu işi görənlər
üçün on min talant *gümüş çəkib
göndərərəm». [10] Padşah barmağından
möhür üzüyünü çıxarıb Yəhudilərin
düşməninə – Aqaqlı Hammedata oğlu
Hamana verdi. [11] Padşah Hamana dedi:
«Gümüş də sənin ixtiyarında olsun, xalq
da. Bu xalqa gözündə nə xoşdursa, onu
da et».
[12] Birinci ayın on üçüncü günündə
padşahın mirzələri çağırıldı. Hamanın
əmri hər vilayətə öz yazısı və hər xalqa
öz dili ilə yazılaraq canişinlərə, bütün
vilayətlərin valilərinə və xalqların
rəislərinə göndərildi. Bu əmr padşah
Axaşveroşun adı ilə yazıldı və padşahın
möhürlü üzüyü ilə möhürləndi. [13] On
ikinci ay olan Adar ayının on üçündə
bütün Yəhudiləri – gəncləri, qocaları,
körpə uşaqları və qadınları bir gündə
qıraraq məhv edib kökünü kəsmək və
mallarını talan etmək üçün qasidlərlə
bütün vilayətlərə məktublar göndərildi.
[14] Bu fərmanın surəti hər vilayətdə
qanun kimi dəst-xətlə yazılmalı və o
günə hazır olmaları üçün bütün xalqlara
bildirilməli idi. [15] Qasidlər padşahın
əmri ilə cəld yola düşdü. Fərman Şuşan
qalasında tərtib olundu. Padşahla
Haman əyləşib şərab içərkən Şuşan
şəhəri çaşbaş qalmışdı.

Mordokayın Esterdən imdad istəməsi

4 Mordokay baş vermiş bu
hadisələrdən xəbər tutanda
paltarlarını cırdı və çula bürünüb başına
kül tökdü. Şəhərin mərkəzinə çıxıb nalə
ilə acı şivən qopardı. [2] O ancaq padşah
sarayının darvazasına qədər gəldi, çünki
çula bürünən adam padşah sarayına girə
bilməzdi. [3] Padşahın bu əmri və fərmanı
hansı vilayətə çatmışdısa, oradakı
Yəhudilər arasında böyük matəm, oruc,
ağlaşma və fəğan var idi. Bir çoxu da
çula bürünüb kül üzərində uzanmışdı.
[4] Esterin xidmətçi qızları və
hərəmağaları gəlib bu xəbəri ona
çatdırdı. Mələkə bundan çox məyus
oldu. O, Mordokay üçün paltar göndərdi
ki, çulunu çıxarıb əyninə geyinsin,
lakin Mordokay bunu qəbul etmədi.
[5] Sonra Ester padşahın onun xidmətinə
təyin etdiyi hərəmağalarından biri olan
Hatakı çağırıb tapşırdı ki, Mordokayın
yanına gedərək bu işin nə olduğunu

---

*3:9 *On min talant* – təqribən 345 ton.

və niyə baş verdiyini öyrənsin. 6 Hatak
saray darvazasının qarşısında olan şəhər
meydanına – Mordokayın yanına getdi.
7 Mordokay başına gələn hal-qəziyyəni
ona danışdı. Yəhudi qırğını üçün
padşah xəzinələrinə Hamanın vəd
edərək vermək istədiyi gümüşün tam
miqdarını ona bildirdi. 8 Sonra Yəhudi
qırğını üçün Şuşanda dəst-xətlə yazılan
fərmanın surətlərindən birini verdi ki,
bunu göstərərək Esterə izah etsin, həm
də ona padşahın yanına gedib öz xalqı
üçün yalvararaq mərhəmət istəməsini
tapşırsın.
9 Hatak qayıdıb Mordokayın sözlərini
Esterə çatdırdı. 10 Ester də Mordokaya
Hatak vasitəsilə belə bir xəbər göndərdi:
11 «Padşahın bütün əyanları və padşah
vilayətlərinin xalqları bilir ki, kişi,
qadın – kim olursa-olsun – padşahın
çağırışı olmadan içəri həyətə girərsə,
onun haqqında təkcə ölüm hökmü
veriləcək. Yalnız padşah qızıl əsasını
kimə uzatsa, o sağ qalar. Otuz gündür
ki, padşahın yanına getmək üçün
çağırışım yoxdur». 12 Esterin bu sözləri
Mordokaya çatdırıldı.
13 Mordokay Esterə belə cavab
vermələrini xahiş etdi: «Elə düşünmə
ki, padşah sarayında olduğun üçün o
biri Yəhudilər qırılanda təkcə sən sağ
qalacaqsan. 14 Əgər sən susarsansa,
Yəhudilərə yardım və qurtuluş başqa
yerdən gələcək, amma sən və ata evin
tamamilə məhv olacaq. Kim bilir,
bəlkə sən elə bu gün üçün mələkəliyə
çatmısan?» 15 Ester Mordokayın bu
cavabı qarşısında belə söylədi: 16 «Get,
Şuşanda olan bütün Yəhudiləri topla.
Üç gün-üç gecə yeməyib-içməyib
mənim üçün oruc tutun. Mən də burada
xidmətçi qızlarımla oruc tutacağam və
sonra qanunu pozub padşahın yanına
girəcəyəm. Buna görə ölməliyəmsə, qoy
ölüm».
17 Mordokay gedib Esterin ona
tapşırdığı kimi etdi.

Esterin ziyafəti

5 Üçüncü gün Ester mələkə libasını
geyindi və sarayının içəri həyətində
padşahın otağı ilə üzbəüz dayandı.
Padşah otağında üzü qapıya tərəf
taxtında oturmuşdu. 2 O, mələkə Esterin
həyətdə dayandığını görəndə gözündə
Esterə qarşı lütf yarandı. Padşah
qızıl əsasını ona tərəf uzatdı. Ester
də yaxınlaşıb əsanın ucuna toxundu.
3 Padşah ona dedi: «Mələkə Ester, sənə
nə olub? İstəyin nədir? Padşahlığın
yarısını belə, istəsən, verəcəyəm».
4 Ester dedi: «Əgər padşahın xoşuna
gələrsə, bu gün onun üçün qurduğum
ziyafətə gəlsin, Hamanı da gətirsin».
5 Padşah dedi: «Hamanı tez buraya
gətirin, Esterin sözünü yerinə yetirək!»
Padşahla Haman Esterin qurduğu
ziyafətə gəldi. 6 Şərab içiləndə padşah
Esterə dedi: «Arzun nədir? De, sənə
verim! İstəyin nədir? Padşahlığın
yarısını belə, istəsən, verəcəyəm».
7 Ester cavab verdi: «Arzu-istəyim
budur: 8 Əgər padşahın gözündə lütf
tapdımsa və mənim arzu-istəyimi
yerinə yetirmək padşaha xoş görünürsə,
padşahla Haman onlar üçün quracağım
yeni ziyafətə gəlsin. Mən də sabah
padşahın sualına cavab verərəm».

Hamanın Mordokayı edam etdirmək niyyəti

9 O gün Haman sevinclə, könlü
xoş oradan çıxdı, lakin saray
darvazasında Mordokayın ayağa
qalxmadığını və hüzurunda yerindən
belə, tərpənmədiyini görəndə köksü
Mordokaya qarşı qəzəblə doldu.
10 Haman özünü ələ alaraq evə
getdi. Adam göndərib dostlarını və
arvadı Zereşi çağırtdırdı. 11 Onlara
cah-calalından, çoxlu oğullarından,

padşahın neçə dəfə rütbəsini qaldıraraq
ona digər rəislərdən və əyanlardan
üstün mövqe verməsindən danışdı.
12 O belə dedi: «Bəli, mələkə Ester də
qurduğu ziyafətə padşahla bərabər
gəlmək üçün məndən başqa kimsəni
layiq görmədi. Sabah da o məni
padşahla bərabər ziyafətə dəvət edib.
13 Amma mən Yəhudi Mordokayı saray
darvazasında oturan görəndə gözümdə
hər şey qiymətdən düşür». 14 Arvadı
Zereş və dostları belə dedi: «Hündürlüyü
əlli qulac olan bir dar ağacı düzəltdir.
Səhər açılanda isə padşaha söylə ki,
Mordokayı ondan asdırsın və padşah
ziyafətinə əhvalı xoş get». Bu sözlər
Hamanın ürəyinə yatdı və dar ağacı
düzəltdirdi.

Padşahın Mordokayı şərəfləndirməsi

6 Həmin gecə padşahın yuxusu qaçdı.
O əmr etdi ki, hökmranlığının xatirə
kitabı – salnamələr kitabı gətirilsin.
Bunlar padşahın hüzurunda oxundu.
2 [y]Orada belə bir yazı tapıldı: «Saray
darvazasının keşikçilərindən Biqtana
ilə Tereş adlı iki hərəmağası padşah
Axaşveroşa sui-qəsd hazırlamışdı.
Mordokay bunu padşaha xəbər
vermişdi». 3 Padşah dedi: «Buna görə
Mordokaya hansı şərəf və mükafat
verildi?» Onun xidmətində duran
nökərlər dedi: «Buna görə ona heç nə
edilməyib». 4 Padşah dedi: «Həyətdə
kim var?» Bu zaman Haman padşah
sarayının bayır həyətinə girmişdi ki,
padşahla danışıb Mordokayı düzəltdiyi
dar ağacından asdırsın. 5 Padşahın
nökərləri ona dedi: «Budur, Haman
həyətdə dayanıb». Padşah dedi: «Gəlsin
içəri». 6 Haman içəri gələndə padşah
ona dedi: «Padşahın şərəfləndirmək
istədiyi adama nə edilməlidir?» Haman
da özlüyündə düşündü: «Məndən başqa
kimi şərəfləndirmək istər ki?» 7 Bu halda
Haman padşaha belə dedi: «Padşah
kimi şərəfləndirmək istəyirsə, qoy belə
edilsin: 8 padşahın geyindiyi şahlıq
libası, padşahın mindiyi və başına şahlıq
kəkili qoyulan at gətirilsin. 9 Həmin
paltar və at padşahın ən yüksək rütbəli
rəislərindən birinin əlinə verilsin ki,
padşahın şərəfləndirmək istədiyi adamı
geyindirərək ata mindirsinlər və şəhər
meydanında gəzdirsinlər və qabağa
düşüb belə car çəksinlər: “Padşah
istədiyi adamı bu cür şərəfləndirir”».
10 Padşah Hamana dedi: «Paltar və atı
tez götürüb saray darvazasında vəzifəsi
olan Yəhudi Mordokaya dediklərinin
heç birini əskiltmədən et».
11 Haman paltar və at götürüb
Mordokayı geyindirdi. Sonra ata
mindirərək şəhərin meydanında
gəzdirdi və qarşısında car çəkərək
dedi: «Padşah istədiyi adamı bu
cür şərəfləndirir». 12 Bundan sonra
Mordokay saray darvazasına qayıtdı.
Haman isə dərdli və başıörtülü
halda tez evə qayıtdı. 13 O, arvadı
Zereşə və dostlarına başına gələn
bütün əhvalatları danışdı. Müdrik
məsləhətçiləri ilə arvadı Zereş ona dedi:
«Qarşısında mövqeyini əldən verdiyin
Mordokay Yəhudi soyundandırsa, ona
gücün çatmaz, mütləq qarşısında məhv
olacaqsan».
14 Elə onunla söhbət edirdilər ki,
padşahın hərəmağaları Hamanı tələsik
Esterin qurduğu ziyafətə apardı.

Hamanın məğlubiyyəti və edamı

7 Padşahla Haman mələkə Esterin
ziyafətinə gəldi. 2 İkinci gün şərab
içiləndə padşah yenə Esterə dedi:
«Mələkə Ester, nə istəyirsən? De, sənə
verim! Arzun nədir? Padşahlığımın
yarısını belə, istəsən, verəcəyəm».

---

[y]**6:2** Est. 2:21-22

3 Ester padşaha cavab verdi: «Əgər
padşahın gözündə lütf tapmışamsa, əgər
padşahın xoşuna gəlirəmsə, istəyim
budur ki, mənə həyat bəxş etsin, arzum
budur ki, xalqıma qıymasın. 4 Çünki
həm mən, həm də xalqım qırılmaq,
öldürülmək, məhv edilmək üçün
satılmışıq. Əgər bizi qul-qarabaş kimi
satsaydılar, susardım, çünki padşahı
belə bir dərdlə narahat etməyə dəyməz».
5 O zaman padşah Axaşveroş mələkə
Esterdən «Bu işi kim etmişdir? Ürəyində
belə istəyi olan haradadır?» deyib
soruşanda 6 Ester dedi: «Bizə nifrət edən
düşmənimiz bu bədxah Hamandır!»
Padşahın və mələkənin önündə Hamanı
dəhşət bürüdü. 7 Padşah qəzəblə
şərab süfrəsindən qalxdı və sarayın
bağçasına çıxdı. Haman isə mələkə
Esterdən canı üçün əfv diləməkdən ötrü
içəridə qaldı, çünki gördü ki, padşah
onun aqibətinə qərar verir. 8 Padşah
saray bağçasından şərab içdikləri
ziyafət yerinə qayıdanda gördü ki,
Haman Ester uzanan kürsünün üzərinə
döşənib. Padşah dedi: «Bu nədir?
Bu adam evimdə, mənim yanımda
mələkəni zorlayacaqmı?» Elə bu sözlər
padşahın ağzından çıxanda Hamanın
üzünü bağladılar. 9 Hərəmağalardan
Xarvona adlı bir nəfər padşaha belə
dedi: «Budur, Hamanın evinin yanında
əlli qulac hündürlüyündə dar ağacı
var. Onu padşaha xeyir xəbər verən
Mordokay üçün hazırlatdırıb». Padşah
dedi: «Ondan özü asılsın!» 10 Hamanın
Mordokay üçün düzəltdirdiyi dar
ağacından onun özünü asdılar. Bundan
sonra padşahın qəzəbi soyudu.

Yəhudilərin padşah tərəfindən müdafiəsi

8 Elə həmin gün padşah Axaşveroş
Yəhudilərin düşməni olan Hamanın
evini mələkə Esterə verdi. Ester
Mordokayın kim olduğunu padşaha
məlum edəndən sonra o, padşahın
hüzuruna gəldi. 2 Padşah Hamandan
geri aldığı üzüyü çıxarıb Mordokaya
verdi. Ester də Mordokayı Hamanın
evinə nəzarətçi qoydu.
3 Bundan sonra Ester yenə də
padşaha müraciət etdi. Onun ayaqlarına
düşüb ağlaya-ağlaya yalvardı ki,
Aqaqlı Hamanın Yəhudilərə qarşı
qərəzlə qurduğu qəsdi qüvvədən
salsın. 4 Padşah qızıl əsasını Esterə
uzatdı. Ester ayağa qalxıb padşahın
hüzurunda durdu. 5 Daha sonra belə
dedi: «Əgər padşahın xoşuna gələrsə,
onun önündə lütf tapmışamsa, bu iş
padşahın gözündə doğru görünərsə və o
məni bəyənmişsə, Aqaqlı Hammedata
oğlu Hamanın qəsd-qərəzlə padşahın
vilayətlərində yaşayan Yəhudiləri
qırmaq üçün yazdığı məktubları
ləğv edən bir fərman yazsın. 6 Axı
xalqımın başına gələn bu müsibətə necə
dözüm? Görəndə ki qohumlarım qırılır,
necə dözüm?» 7 Padşah Axaşveroş
mələkə Esterə və Yəhudi Mordokaya
dedi: «Budur, Hamanın evini Esterə
vermişəm. Hamanı dar ağacından
asdırmışam, çünki Yəhudilərin qəsdinə
əl uzadıb. 8 Amma padşahın adı ilə
yazılaraq padşahın möhürlü üzüyü
ilə möhürlənən qərarı heç kim ləğv
edə bilməz. Buna görə də gözünüzdə
xoş görünən kimi padşahın adı ilə
Yəhudilərə başqa bir qərar yazın
və padşahın möhürlü üzüyü ilə
möhürləyin».
9 Elə o zaman üçüncü ay olan Sivan
ayının iyirmi üçündə padşahın mirzələri
çağırıldı. Mordokayın Hinddən Kuşa
qədər yüz iyirmi yeddi vilayətdəki
Yəhudilərə, canişinlərə, valilərə, rəislərə
əmr etdiyi hər şey yazılıb, hər vilayətə
öz yazısı ilə və hər xalqa öz dili
ilə, habelə Yəhudilərə də öz yazı və
dillərində göndərildi.

10 Mordokay padşah Axaşveroşun
adı ilə onun əmrini məktublara yazıb
padşahın möhürlü üzüyü ilə möhürlədi.
Padşah üçün bəslənən xüsusi çapar
atlara minən qasidlərin əli ilə bu
məktubları göndərdi. 11 Bu məktublara
görə padşah hər şəhərdə yaşayan
Yəhudilərə izin verdi ki, yığılıb öz
canlarını qorusunlar. Onlara, arvad və
uşaqlarına hücum edən hər millətin
yaxud hər vilayətin silahlı dəstələrini
tamamilə qırıb öldürərək yox etsinlər,
əmlaklarını isə talan etsinlər. 12 Padşah
Axaşveroşun bütün vilayətlərində bu
iş üçün müəyyən olunmuş gün, on
ikinci ay olan Adar ayının on üçü idi.
13 Bu fərmanın surəti hər vilayətdə
dəst-xətlə yazılmalı və bütün xalqlara
elan olunmalı idi ki, Yəhudilər həmin
gün öz düşmənlərindən qisas almağa
hazır olsun. 14 Qasidlər padşaha xidmət
edən çapar atlara mindirildi və padşahın
əmri ilə tələsdirilərək tez yola salındı.
Fərman Şuşan qalasında dəst-xətlə
yazıldı.
15 Mordokay padşahın hüzurundan
başında böyük qızıl tac, ağ və göy
rəngli şahanə libasda, tünd qırmızı
incə kətan cübbə ilə çıxdı. Şuşan
şəhəri sevinc içində çığırdı. 16 Artıq
Yəhudilərin arasında şadlıq, sevinc,
fərəh və təntənə var idi. 17 Padşahın
əmri və fərmanı hansı vilayətə, hansı
şəhərə çatırdısa, orada Yəhudilər üçün
sevinc, fərəh, ziyafət və şənlik günü
olurdu. Ölkənin xalqları arasından bir
çoxu Yəhudilərdən qorxduqları üçün
Yəhudi oldu.

Yəhudilərin düşmənlərini məhv etməsi

9 On ikinci ay – Adar ayının on üçü
padşahın əmri və fərmanının icra
vaxtı yaxınlaşmaqda idi. Düşmənlər elə
güman etmişdilər ki, o gün Yəhudilər
onların hakimiyyəti altına düşəcək.
Lakin bunun əksinə, Yəhudilər onlara
nifrət edənlər üzərində zəfər çaldılar.
2 Yəhudilər onlara pislik etməyə
çalışanlara hücum etmək üçün padşah
Axaşveroşun bütün vilayətlərində,
yaşadıqları şəhərlərə də yığıldılar. Artıq
onların qarşısında heç kim dayana
bilməzdi, çünki onların zəhmi bütün
xalqları bürümüşdü. 3 Bütün vilayət
rəisləri, canişinlər, valilər və padşahın
məmurları Yəhudilərə kömək etdi.
Çünki Mordokaya görə onların canına
qorxu düşmüşdü. 4 Mordokay padşah
sarayında yüksək rütbə sahibi olmuş,
şöhrəti bütün vilayətlərə yayılmışdı.
Artıq bir şəxsiyyət kimi Mordokay
get-gedə yüksəlirdi.
5 Yəhudilər bütün düşmənlərini
qılıncdan keçirərək öldürüb yox etdilər.
Onlara nifrət edənlərə nə istədilərsə,
onu da etdilər. 6 Yəhudilər Şuşan
qalasında beş yüz nəfəri öldürüb yox
etdilər. Bunlarla bərabər 7 Yəhudilərin
düşməni Hammedata oğlu Hamanın
on oğlunu – 8 Parşandatanı, Dalfonu,
Aspatanı, 9 Poratanı, Adalyanı,
Aridatanı, 10 Parmaştanı, Arisayı,
Aridayı, Vayzatanı öldürdülər, lakin
talana əl atmadılar.
11 O gün Şuşan qalasında
öldürülənlərin siyahısı padşahın
hüzuruna gətirildi.
12 Padşah mələkə Esterə dedi:
«Yəhudilər Şuşan qalasında beş yüz
nəfəri və Hamanın on oğlunu öldürüb
yox etdilər. İndi gör padşahın digər
vilayətlərində nə ediblər! Yenə nə
istəyin var? Sənə veriləcək. Nə arzun
var? Yerinə yetiriləcək». 13 Ester dedi:
«Əgər padşaha xoş görünsə, Şuşandakı
Yəhudilərə sabah da izin verilsin ki,
bugünkü fərmanı icra etsinlər. Hamanın
on oğlunu isə dar ağacından assınlar».
14 Padşah belə edilməsini əmr etdi.
Şuşanda fərman elan edildi. Hamanın
on oğlu asıldı. 15 Şuşandakı Yəhudilər

Adar ayının on dördündə də yığılıb
orada üç yüz nəfəri öldürdülər, lakin
talana əl atmadılar.
16 Padşahın vilayətlərində yaşayan
digər Yəhudilər öz canlarını qorumaq
üçün yığıldılar. Onlara nifrət edən
yetmiş beş min nəfəri öldürüb
düşmənlərindən azad oldular, lakin
talana əl atmadılar. 17 Bu hadisə baş
verəndə Adar ayının on üçü idi. On
dördüncü gün azad olan Yəhudilər
ziyafət və sevinc günü keçirdi.
18 Şuşandakı Yəhudilər isə həmin ayın
on üçündə və on dördündə yığılıb ayın
on beşində istirahət edərək ziyafət və
sevinc günü keçirdilər. 19 Elə buna
görə də kəndli olub əyalət şəhərlərində
yaşayan Yəhudilər Adar ayının on
dördünü sevinc, ziyafət və bir-birlərinə
sovqat göndərdikləri şənlik günü kimi
keçirməkdədir.

Purim bayramının təsisi

20 Mordokay bu hadisələri qeyd
edib padşah Axaşveroşun uzaqda və
yaxında olan bütün vilayətlərindəki
Yəhudilərin hamısına məktub göndərdi.
21 Onlara buyurdu ki, hər il Adar
ayının on dördünü və on beşini qeyd
etsinlər, 22 çünki bu günlər Yəhudilər
öz düşmənlərindən azad oldular və
o ay kədərləri sevincə, matəmləri
şənlik gününə çevrilmişdi. O günlər
şənlik qurub sevinməli və bir-birlərinə
yemək sovqatları göndərib kasıblara
hədiyyə verməli idilər. 23 Yəhudilər
özləri başladığı kimi Mordokayın yazılı
əmrinə görə buna əməl etməyə razı
oldular. 24 [z]Çünki bütün Yəhudilərin
düşməni Aqaqlı Hammedata oğlu
Haman Yəhudiləri yox etmək üçün
onlara qəsd qurmuşdu. Onları əzərək
məhv etmək üçün pur, yəni püşk
atmışdı. 25 Lakin iş padşahın hüzuruna
çatanda padşah məktub vasitəsilə
əmr etmişdi ki, Hamanın Yəhudilərə
qurduğu qəsd-qərəz Hamanın öz başına
gətirilsin və Hamanla oğulları dar
ağacından asılsın.
26 Elə buna görə də bu günlər Pur
kəlməsinə görə Purim adlandırılır.
Bu namədə verilən təlimatdan, bu iş
haqqında gördüklərindən və başlarına
gələn hadisələrdən ötrü 27 Yəhudilər
özləri və sonrakı nəsilləri üçün, habelə
onlara qoşulanlar üçün bir adət təsis
etdirib bunu davam etdirdilər. Dedilər
ki, bu iki günü hər il qaydalara və
müəyyən vaxta görə qeyd etməkdə
laqeydlik göstərməməlidirlər. 28 Bu
günlər hər nəsildə, hər ailədə, hər
vilayətdə və hər şəhərdə xatırlanıb qeyd
edilməli, bu Purim günləri Yəhudilər
arasından itməməli və övladlarının
yadından çıxmamalıdır.
29 Avixayilin qızı mələkə Ester və
Yəhudi Mordokay bu ikinci Purim
naməsini tam səlahiyyətlə yazıb təsdiq
etdilər. 30 Mordokay Axaşveroşun
padşahlığının yüz iyirmi yeddi
vilayətində yaşayan bütün Yəhudilərə
sülh və həqiqət sözləri yazaraq məktub
göndərdi ki, 31 Yəhudi Mordokayla
mələkə Esterin onlara əmr etdikləri
kimi, eləcə də tutacaqları oruclar və
matəm vaxtları barədəki təlimatla
özləri və sonrakı nəsilləri üçün
müəyyənləşdirdikləri kimi vaxtı bəlli
olan bu Purim günlərini təsis etsinlər.
32 Esterin əmri Purim bayramının
bu qaydalarını təsdiqlədi və kitabda
yazıldı.

Mordokayın mötəbər vəzifəsi

10 Padşah Axaşveroş uzaq dəniz
sahillərinə qədər padşahlığındakı
ölkələrə xərac qoydu. 2 Padşahın bütün
güclü və qüdrətli işləri, eləcə də

---

[z] **9:24** Est. 3:7

Mordokaya verdiyi yüksək rütbə
haqqındakı qərar Midiya və Fars
padşahlarının salnamələr kitabında
yazılmışdır. 3 Yəhudi Mordokay rütbə
etibarı ilə yalnız padşah Axaşveroşdan
aşağı idi. Yəhudilər arasında nüfuz
sahibi olub onların əksəriyyətinin
hörmətini qazanmışdı. O, xalqının
xeyrinə işləyən və bütün millətinin
əmin-amanlığını müdafiə edən adam
idi.

ƏYYUB

KİTABI

GİRİŞ

«Əyyub» Kitabı böyük bəlalar çəkən bir insanın hekayəsidir. Kamil, əməlisaleh və Allahdan qorxan Əyyub var-dövlətini, bütün övladlarını itirir və ağır xəstəliyə düçar olur. Lakin bunlara baxmayaraq o, Allaha olan böyük imanını itirmir. Üç hissədən ibarət poetik dialoqlarda müəllif Əyyubun və onun dostlarının bu fəlakətlərə münasibətini göstərir. Uzun müzakirələrdən sonra Allah Özü Əyyuba cavab verir. Əyyubun dostları onun çəkdiyi iztirabların səbəbini ənənəvi dini anlayışlarla izah edir. Onlar belə bir nəticəyə gəlir ki, yaxşı əməlləri mükafatlandıran və pisliyi cəzalandıran Allah bu iztirabları Əyyuba onu cəzalandırmaq üçün göndərmişdi. Amma Əyyub düşünür ki, o, çox xeyirxah və saleh adam olduğuna görə belə ağır cəzaya layiq deyil.

Əyyub başa düşə bilmir ki, Allah niyə onun başına bəla gəlməsinə izin verir. O öz imanını itirmir, amma Allahın önündə bəraət qazanmağa can atır.

Allah Əyyubun suallarına birbaşa cavab vermir. O Öz qüdrət və hikməti ilə təbiəti necə yaratmasını poetik surətdə təsvir edərək Əyyubun imanına görə cavab verir. Sonra Əyyubun ürəyi yumşalır, Allahın hikmət və əzəmətini qəbul edərək söylədiyi hiddətli, sərt sözlərdən ötrü tövbə edir.

Kitabın sonunda deyilir ki, Əyyub daha böyük sərvətə çatıb əvvəlkindən daha yaxşı vəziyyətə qayıdır. Allah Əyyubun çəkdiyi iztirabların səbəbini başa düşməyən dostlarını məzəmmət edir.

Çünki onların arasında ənənəvi, dini anlayışların həddini aşaraq Allahın böyüklüyünü dərk edən yalnız Əyyub idi.

Kitabın məzmunu:

1:1–2:13 Proloq
3:1–31:40 Əyyub və onun dostları
3:1-26 Əyyubun şikayəti
4:1–14:22 Birinci söhbət
15:1–21:34 İkinci söhbət
22:1–27:23 Üçüncü söhbət
28:1-28 Hikmətin mədhi
29:1–31:40 Əyyubun yekun sözü
32:1–37:24 Elihunun nitqi
38:1–42:6 Rəbb Əyyuba cavab verir
42:7-17 Epiloq

Əyyubun şəxsiyyəti və dövləti

1 Us ölkəsində Əyyub adlı bir şəxs var
idi. O, kamil, əməlisaleh, Allahdan
qorxan və özünü şərdən uzaq saxlayan
bir adam idi. [2] Onun yeddi oğlu, üç qızı
var idi. [3] O, yeddi min baş qoyuna, üç
min baş dəvəyə, beş yüz cüt öküzə, beş
yüz baş eşşəyə və çoxlu nökərlərə sahib
olub şərqdə yaşayanlar arasında ən varlı
adam sayılırdı.
[4] Oğlanları növbə ilə evlərində ziyafət
qurar və üç bacılarını da çağırardılar ki,
birgə yeyib-içsinlər. [5] Ziyafət müddəti
bitəndən sonra Əyyub övladlarını
çağırtdırıb təqdis edər və erkən
qalxıb bütün övladlarının sayına görə
yandırma qurbanı təqdim edərdi. Əyyub
«bəlkə övladlarım günaha bataraq
ürəklərində Allaha lənət ediblər» deyə
düşündüyündən həmişə belə edərdi.

Əyyubun ilk sınağı

[6] Bir gün ilahi varlıqlar* Rəbbin
hüzuruna qalxmaq üçün gələndə
Şeytan da onlara qoşulub gəldi.
[7] Rəbb Şeytana dedi: «Haradan
gəlirsən?» Şeytan cavabında «dünyanı

*1:6 *İlahi varlıqlar* – hərfi tərcümədə *Allah oğulları.*

gəzib-dolaşmaqdan» dedi. 8 Rəbb ona
dedi: «Qulum Əyyuba yaxşı-yaxşı nəzər
sala bildinmi? Axı yer üzərində onun
kimisi yoxdur. O, kamil, əməlisaleh,
Allahdan qorxan və özünü şərdən uzaq
saxlayan bir adamdır». 9 [a]Şeytan Rəbbə
belə cavab verdi: «Əyyub Allahdan
boş yerəmi qorxur? 10 Canına, evinə,
var-dövlətinə sipər olub onu qoruyan
Sən deyilsənmi? Əlinin bütün əməyinə
bərəkət vermisən, sürüləri bütün ölkəni
bürüyüb. 11 İndi bir əl uzadıb onun
var-yoxunu əlindən al, o, gözünün
qabağında mütləq Sənə lənət edəcək».
12 Rəbb Şeytana dedi: «Yaxşı, sahib
olduğu hər şeyi sənə təslim edirəm,
amma canına toxunma». Beləliklə,
Şeytan Rəbbin hüzurundan getdi.
13 Bir gün Əyyubun oğulları ilə qızları
böyük qardaşlarının evində yemək
yeyib şərab içərkən 14 bir nökər gəlib
Əyyuba belə dedi: «Öküzlər cüt sürür,
eşşəklər də onların yanında otlayırdı.
15 Bu zaman Səbalılar hücum edib
onları apardılar və nökərləri qılıncdan
keçirtdilər. Təkcə mən sağ qalmışam ki,
sənə xəbər gətirim». 16 O hələ sözünü
qurtarmamış başqa nökər gəlib dedi:
«Göydən Allahın odu töküldü. Həm
qoyunları, həm də nökərləri yandırıb
külə çevirdi. Təkcə mən sağ qalmışam
ki, sənə xəbər gətirim». 17 O, sözünü
qurtarmamış başqa nökər gəlib dedi:
«Xaldeylilərdən üç qoşun hücum edərək
dəvələrini apardı və nökərləri qılıncdan
keçirtdi. Təkcə mən sağ qalmışam ki,
sənə xəbər gətirim». 18 O hələ sözünü
qurtarmamış başqa bir nökər gəlib
belə dedi: «Oğullarınla qızların böyük
qardaşlarının evində yemək yeyib şərab
içərkən 19 qəflətən çöldə güclü tufan
qopdu və evin dörd tərəfini bürüdü.
Ev uçub bu cavanların üstünə töküldü,
hamısı öldü. Təkcə mən sağ qalmışam
ki, sənə xəbər gətirim».
20 Buna görə Əyyub durub cübbəsini
yırtdı, saç-saqqalını kəsdi, yerə sərilib
səcdə etdi. 21 O belə dedi:

«Bu dünyaya çılpaq gəlmişəm,
Çılpaq da gedəcəyəm.
Verən də Rəbdir, alan da Rəbdir.
Rəbbin isminə alqış olsun!»

22 Bütün bu hadisələr baş verərkən
Əyyub özünə günah qazanmadı və
Allahı təqsirləndirmədi.

Əyyubun ikinci sınağı

2 Başqa bir gün ilahi varlıqlar Rəbbin
hüzuruna qalxmaq üçün gələndə
Şeytan da onlara qoşulub Rəbbin
hüzuruna qalxmaq üçün gəldi. 2 Rəbb
Şeytana dedi: «Haradan gəlirsən?»
Şeytan «dünyanı gəzib-dolaşmaqdan»
deyə cavab verdi. 3 Rəbb dedi: «Qulum
Əyyuba yaxşı-yaxşı nəzər sala bildinmi?
Axı yer üzərində onun kimisi yoxdur.
O, kamil, əməlisaleh, Allahdan qorxan
və özünü şərdən uzaq saxlayan bir
adamdır. Məni vadar etdin ki, boş yerə
onu məhv edim, amma o hələ kamil
olaraq qalıb». 4 Şeytan Rəbbə belə cavab
verdi: «Dəri əvəzinə dəri! İnsan canına
görə hər şeyini verər. 5 Əlini uzadıb
onun ətinə və sümüyünə toxun, o,
gözünün qabağında mütləq Sənə lənət
edəcək». 6 Rəbb Şeytana dedi: «Yaxşı,
onu sənə təslim edirəm. Yalnız canını
alma».
7 Beləliklə, Şeytan Rəbbin hüzurundan
getdi və sonra Əyyubun bədəninə
başdan ayağadək ağrılı çibanlar
çıxartdı. 8 Əyyub çibanlarını qaşımaq
üçün bir saxsı parçası götürdü və kül
içində oturdu. 9 Arvadı ona dedi: «Yenə
də kamil olaraq qalacaqsan? Lənət et
Allaha, öl qurtar!» 10 Əyyub cavab verdi:
«Lap nadan arvadlar kimi danışırsan.

---

[a]**1:9** Vəhy 12:10

Nə oldu, Allahdan yaxşılığı qəbul
edək, pisliyi qəbul etməyək?» Bütün bu
hadisələr baş verərkən Əyyub özünə
günah qazandıran bir kəlmə də demədi.

Əyyubun üç dostu

11 Əyyubun üç dostu – Temanlı Elifaz,
Şuahlı Bildad və Naamatlı Sofar onun
başına gələn bütün bəlaları eşidərkən
üçü də yaşadıqları yerdən çıxıb bir yerdə
görüşdü. Onun dərdinə şərik olmaq
və onu ovutmaq üçün yanına gəldilər.
12 Əyyubu uzaqdan görərkən tanıya
bilmədilər, hönkürüb ağlayaraq öz
cübbələrini cırıb-dağıtdılar və yerdəki
torpağı götürüb başlarına tökdülər.
13 Yeddi gün-yeddi gecə onunla birlikdə
quru yerdə oturdular. Kimsə ağzını
açmadı, çünki Əyyubun dərdinin nə
qədər böyük olduğunu gördülər.

Əyyubun gileyi

3 [b]Bundan sonra Əyyub ağzını açıb
öz doğulduğu günə lənət etdi. 2 Dilə
gəlib belə dedi:
3 «Kaş ki mən doğulan gün yox olaydı,
"Oğlun oldu!" deyilən gecə yox
olaydı.
4 O gün qara gələydi,
Allah göydən o günün qayğısına
qalmayaydı,
O gün üçün sabah açılmayaydı.
5 O günü zülmət, qatı qaranlıq
bürüyəydi,
Üzünü bulud tutaydı,
Nurunu qaranlıq batıraydı.
6 O gecəni zil qaranlıq udub yeyəydi,
İlin günləri arasında fərəh
tapmayaydı,
Ayın günləri sırasına girməyəydi.
7 Kaş o gecə qısır olaydı,
Sevincsiz, səssiz qalaydı!
8 Günlərə lənət oxuyanlar,
Livyatanı [*]oyatmağa mahir olanlar
Qoy o günə lənət yağdırsın.
9 Dan ulduzları sönəydi,
İşığa olan ümidləri boşa çıxaydı,
Sübhün nuru görünməyəydi.
10 Əfsus ki O, anamın bətninin
qapılarını bağlamadı,
Gözlərimi əzabsız saxlamadı.
11 Niyə doğulanda mən ölmədim,
Bətndən çıxarkən nəfəsim kəsilmədi?
12 Niyə məni dizlərin arasından
aldılar,
Əmizdirmək üçün ağzıma döş
saldılar?
13 Belə olmasaydı, indi rahat
uzanardım,
Yatıb dincələrdim
14 Özləri üçün viranə şəhərləri tikən
Dünya padşahları və müşavirlərlə,
15 Evlərini gümüşə qərq edən
Qızıl xəzinəsi olan rəhbərlərlə.
16 Niyə bətndən yarımçıq uşaq tək
düşmədim?
Niyə işıq üzü görməyən körpə kimi
basdırılmadım?
17 Orada pis adamlar belə, kini atır,
Yorğunlar rahatlıq tapır,
18 Məhbuslar dinc yaşayır,
Nəzarətçinin səsi çıxmır.
19 Orada kiçik də, böyük də vardır,
Qul ağasından da azaddır.
20 Niyə əzab çəkənlər işıq üzü görür,
Əziyyət içində olanlar həyata gəlir?
21 [c]Ölüm arzulayırlar amma tapmırlar,
Dəfinə axtarmaqdan da çox onu
axtarırlar,
22 Onlar məzar tapanda fərəhlənər,
Şadlanaraq sevinər.
23 Hara getdiyi bilinməyən insana,
Ətrafına Allah sədd çəkdiyi adama
niyə ömür verilir?
24 Çörəkdən əvvəl ah-zar gəlir,
Nalələrim sular kimi tökülür.

---

[*]**3:8** *Livyatan* – bu gün bizə məlum olmayan nəhəng su heyvanı.

[b]**3:1** Yer. 20:14-18 [c]**3:21** Yer. 8:3; Vəhy 9:6

25 Çəkindiyim şeylər üzərimə tökülür,
Qorxduğum şeylər başıma gəlir.
26 Rahatlığım, sakitliyim, dincliyim yoxdur,
Ancaq sıxıntım vardır».

Elifaz

4 Temanlı Elifaz belə cavab verdi:
2 «Kimsə sənə bir söz desə, inciyərsənmi?
Danışmasın deyə kim özünü saxlaya bilər?
3 Bəli, çoxlarına dərs verdin,
Onları əlləri taqətdən düşərkən gücləndirdin.
4 Yıxılanları sözlərinlə qaldırdın,
Dizləri əsənlərə güc verdin.
5 İndi bu iş başına gələrkən
Özün taqətdən düşdün,
Bəla sənə dəyəndə özünü itirdin.
6 Sən Allah xofuna etibar etmirdinmi?
Kamil həyatına ümid edən sən deyildinmi?
7 Kimdir günahsız məhv olan? İndi yada sal.
Əməlisalehlərin həlak olduğunu harada görmüsən?
8 Mənim gördüyümə görə şər sahəsini belləyən,
Əzab toxumu səpən insanlar əkdiyini biçər.
9 Onlar Allahın nəfəsi ilə yox olar,
Qəzəbinin küləyi onları udar.
10 Aslanların nəfəsi, qızmış şirlərin səsi kəsildi,
Gənc aslanların dişləri qırıldı.
11 Şikarı olmadığı üçün güclü aslan həlak olar,
Dişi aslanların balaları pərən-pərən qalar.
12 Mənə gizli bir söz çatdı,
Qulağım bir pıçıltı eşitdi,
13 Gecə röyalardan doğan düşüncələr içində olanda,
İnsanların dərin yuxuya getdiyi zamanda
14 Üstümə bir qorxu, bir titrətmə gəldi,
Bütün sümüklərimi lərzəyə saldı.
15 Qarşımdan bir ruh keçdi,
Bütün tüklərimi ürpətdi.
16 Ruh dayandı, bunun nə olduğunu bilmədim.
Gözlərimin önündə bir surət dururdu,
Sükunətin içindən bir səs eşitdim:
17 “İnsan Allah qarşısında saleh olarmı?
Yaradanın qarşısında təmiz adam varmı?
18 Allah bəndələrinə güvənmir,
Mələklərində belə, səhv görür.
19 Palçıq evlərdə yaşayanlara,
Mayası torpaqdan olanlara,
Güvədən də tez əzilənlərə O güvənərmi?
20 Ömürləri səhərdən axşama çatmır,
Fərqi yoxdur, hamı əbədi yox olur.
21 Yaşadıqları çadırın ipləri çəkiləndə
Heç nə anlamazlar, ölüb gedərlər”.

5 Çağır görək sənə cavab verən varmı?
Müqəddəslərin hansı birinə üz tutacaqsan?
2 Səfehi qəzəb öldürər,
Nadanı həsəd məhv edər.
3 Səfehin kök saldığını görərkən
Dərhal yurduna lənət etmişəm.
4 Övladları əmin-amanlıqdan uzaqdır,
Məhkəmə qapılarında tapdalanır,
Onlara havadar yoxdur.
5 Məhsullarını aclar yeyir,
Tikanlar arasında olanlarını belə, yığırlar,
Susayanlar sərvətini udmaq istəyir.
6 Axı torpaqdan bəla gəlməz,
Əzab yerdən bitməz.
7 Sanki havaya atılan qığılcımdır,
İnsan əzab çəkmək üçün doğulur.
8 Mən olsaydım, Allaha üz tutardım,
Müşkül işlərimi Ona tapşırardım.
9 Çünki O, dərk etmədiyimiz böyük işləri görür,

Saysız xariqələr göstərir.
10 Yer üzərinə yağış yağdırır,
Çöllərə sular axıdır.
11 Alçaldılanları ucaldır,
Yaslıları əmin-amanlığa çıxarır.
12 Əlləri qurğu qurmağı öyrənməsin deyə
Hiyləgərlərin fəndini pozur.
13 [d]Müdrikləri hiylə qurarkən yaxalayır,
Fəndgirlərin oyununa son qoyur.
14 Gündüzləri qaranlığa dönür,
Günorta onlara gecə kimi görünür,
Onlar kor kimi əl sürtə-sürtə gəzir.
15 Yoxsulları isə onların ağızlarındakı qılıncdan qurtarır,
Zorakının əlindən alır.
16 Kasıblar ümid tapır,
Haqsızlıq ağzını yumur.
17 [e]Allahın tərbiyə etdiyi insan nə bəxtiyardır!
Sən Külli-İxtiyarın tərbiyəsinə xor baxma.
18 Çünki O yaralayar, sonra isə sarıyar,
Ağrı verər, əlləri ilə sağaldar.
19 O, altı dəfə dara düşsən belə, qurtarar,
Yeddinci dəfə sənə ziyan dəyməz.
20 O səni aclıqda məhv olmaqdan,
Döyüşdəki qılıncdan qurtarar.
21 Kəskin dillərdən uzaq olarsan,
Qırğın gələrkən qorxmazsan.
22 Qırğına, aclığa gülərsən,
Vəhşi heyvanlardan qorxmazsan.
23 Çünki çöldəki daşlarla belə, əhd kəsərsən,
Vəhşi heyvanlarla belə, barışarsan.
24 Çadırının salamat qalacağını bilərsən,
Mülkünə baxanda heç bir əskiklik tapmazsan.
25 Övladlarının necə artdığını görərsən,
Nəslin ot kimi bitib qalxar.
26 Vaxtında yığılan taxıl dərzləri kimi
Kama çatıb məzarına gedərsən.
27 Bax bunu araşdırmışıq, bu həqiqətdir,
Onun üçün bunu dinlə və anla».

Əyyub

6 Əyyub belə cavab verdi:
2 «Kaş bu dərdim çəkiləydi,
Bütün ağrılarım tərəziyə qoyulaydı.
3 Onda dənizlərin qumundan ağır gələrdi,
Ona görə tez bu sözləri dedim.
4 Həqiqətən, Külli-İxtiyarın oxları köksümdədir,
Ruhum onların zəhərlərini içir.
Allahın dəhşətləri mənə hücum çəkir.
5 Ot olanda vəhşi eşşək anqırarmı?
Yem tapanda öküz heç böyürərmi?
6 Duzsuz, şit yeməyi yemək olarmı?
Yumurta ağının dadı varmı?
7 Belə yeməklərə əl vurmaq istəmirəm,
Onlardan iyrənirəm.
8 Kaş arzuma çataydım,
Allah mənə həsrətində olduğumu verəydi,
9 Lütf edib məni əzsə belə,
Əldən cəld olub həyatımın bağını kəssə belə,
10 Mən yenə ovunardım,
Bu amansız dərdimə baxmayaraq
Müqəddəs Olanın sözlərini inkar etmədiyimə görə sevinərdim.
11 Nə gücüm var ki, gözləyim?
Sonum nə qədərdir ki, səbir edim?
12 Daş qədər güclüyəmmi?
Ətim tuncdandırmı?
13 Əlacsız qalanda
Özümə kömək etməyə gücüm çatarmı?
14 İnsan Külli-İxtiyarın qorxusundan vaz keçsə belə,

---

[d]**5:13** 1Kor. 3:19 [e]**5:17** Sül. 3:11-12; İbr. 12:5-6

Çarəsiz qalanda ona dostun sədaqəti
gərəkdir.
15 Qardaşlarım mənə bir vadi kimi
xəyanət etdi,
Çaylar kimi axıb getdi.
16 Bu vadilər buzlar əriyəndə daşar,
Qar suları ilə dolar.
17 Bu vadilər quraq vaxtı quruyar,
İstidə yataqlarından yox olar.
18 Bu vadilərə görə karvanlar yolunu
azar,
Səhraya çıxanda həlak olar.
19 Temanın karvanları su axtarar,
Səbadan gələn səyyahlar ora ümid
bağlar.
20 Amma ora çatanda ümid
bağladıqlarına peşman olar,
Mat-məəttəl qalar.
21 İndi siz də mənim üçün bir heç
olmusunuz,
Bu dəhşətə baxıb qorxursunuz.
22 Mən demişəmmi "Mənə nəyisə
verin,
Var-dövlətinizdən mənə rüşvət
göndərin?
23 Yaxud da məni düşmən əlindən
qurtarın,
Zalımların əlindən azad edin?"
24 Mən susum, siz mənə öyrədin,
Nə səhv etmişəmsə, mənə göstərin.
25 Doğru söz kəsərli olar,
Sizin bu iradınız bəs nəyi sübut edir?
26 Niyə sözlərimi qınamaq
istəyirsiniz?
Niyə mən biçarənin dediyini
boşboğazlıq sanırsınız?
27 Yetim üçün belə, püşk atırsınız,
Dostunuzu satırsınız.
28 İndi lütf edib mənə baxın,
Bax mən üzünüzə ağ yalan demərəm.
29 Atın haqsızlığı, haqsızlıq etməyin,
Düşünün ki, bu davada mən haqlıyam.
30 Dilimdən haqsız söz çıxırmı?
Pis şeyləri ağzıma alırammı?

7 İnsanın yer üzündəki həyatı ağır
xidmət deyilmi?
Keçirdiyi günlərin muzdur ömründən
fərqi nədir?
2 Kölgəyə həsrət qalan kölə kimidir,
Muzdunu gözləyən fəhlə kimidir,
3 Bəli, irs olaraq mənə boş aylar
verildi,
Qismətimə sıxıntılı gecələr düşdü.
4 Yatanda düşünürəm: "Görəsən nə
vaxt qalxacağam?"
Gecə isə hey uzanır,
Mən gün doğana qədər yerimdə
qurcalanıram.
5 Bədənimə qurd düşüb, qabıqlanır,
Çatlayan dərimdən irin axır.
6 Günlərim toxucunun məkikindən də
sürətli gedir,
Ümidsiz sona çatır.
7 Ey Allah, yada sal, həyatım bir
nəfəsdir,
Gözüm yenidən yaxşılıq görməyəcək.
8 Bu anda mənə baxan gözlər məni
təzədən görməyəcək,
Sənin gözlərin üzərimdə olacaq,
amma mən olmayacağam.
9 Bulud dağılıb getdiyi kimi
Ölülər diyarına enən bir daha çıxmaz.
10 Bir daha evinə qayıtmaz,
Olduğu yer artıq onu tanımaz.
11 Ona görə sakitləşməyəcəyəm,
Ruhumun sıxıntısını dilə gətirəcəyəm,
Canımın ağrısından şikayət edəcəyəm.
12 Dənizəmmi, dəniz əjdahasıyammı?
Niyə üzərimdə nəzarətçi qoyursan?
13 Düşündüm ki, bəlkə yatağım məni
rahatlar,
Döşəyim şikayətimi azaldar.
14 Məni yuxularla qorxudursan,
Röyalarla canıma vəlvələ salırsan.
15 Canım boğulub-ölməyi yaşamaqdan
üstün tutur,
Quru cəsəddə qalmaqdansa ölüm
mənə xoşdur.
16 Həyatımdan bezmişəm,
Uzun ömür istəmirəm.
Məndən əlini çək,
Ömrümün mənası getdi.

17 [f]İnsan nədir ki, onu bu qədər böyüdürsən,
Qayğısını çəkirsən.
18 Ona hər səhər baş çəkirsən,
Hər an onu sınayırsan.
19 Nə vaxtadək nəzərini üzərimdən çəkməyəcəksən?
Mənə udqunmağa imkan verməyəcəksən?
20 Ey insan nəzarətçisi, nədir günahım?
Mən Sənə nə etmişəm?
Məni niyə Özünə hədəf etdin?
İndi öz yükümü çəkə bilmirəm.
21 Niyə üsyankarlığımı əfv etmirsən,
Təqsirimi bağışlamırsan?
Bir azdan torpaq altda yatacağam,
Axtarsan da, məni tapmayacaqsan».

Bildad

8 Şuahlı Bildad belə cavab verdi:
2 «Bunları nə vaxta qədər deyəcəksən?
Sözlərin sərt küləyə bənzər.
3 Allah ədaləti azdırarmı?
Külli-İxtiyar salehi əyri edərmi?
4 Bəlkə oğulların Ona qarşı günah edib,
O da üsyankarlıqlarının cəzasını verib.
5 Əgər cəhd göstərib Allahı axtarsaydın,
Külli-İxtiyara yalvarsaydın,
6 Əgər təmiz, doğru olsaydın,
O sənin üçün, həqiqətən, qalxardı,
Sənə layiqincə bir məskən verərdi.
7 Başlanğıcın kiçik olsa da,
Sonun böyük olacaq.
8 Gəl indi əvvəlki nəsillərdən soruş,
Ata-babaların sınağından keçənlərə yaxşı nəzər sal.
9 Dünənki övladlarıq, heç nə bilmirik.
Bu dünyada ömrümüz sadəcə bir kölgədir.
10 Onlar izah edib sənə öyrətməzlərmi?
Köksündəki sözləri dilə gətirməzlərmi?
11 Bataqlıq olmayan yerdə qarğı bitərmi?
Su olmayan yerdə qamış çıxarmı?
12 Hələ yaşıl ikən qırılmadan,
Hər otdan əvvəl onlar quruyar.
13 Allahı unudan hər kəs axırda belə qalar,
Allahsız insanın ümidi beləcə yox olar.
14 Onun etibar etdiyi şeylər qırılar,
Bel bağladığı sanki hörümçək toru olar.
15 Evinə söykənərkən evi uçar,
Evindən tutarkən dağılar.
16 Sanki bu allahsızlar günəşə baxar, yaşıllaşar,
Pöhrələri bağçanın hər tərəfinə yayılar.
17 Rişələri daş qalağına dolaşar,
Çınqılların arasında yer axtarar.
18 Amma yerindən qoparılarkən
Yer inkar edərək deyər: “Səni görməmişəm”.
19 Bax belə sevincinə son qoyular,
Onun yerində başqa bitkilər bitər.
20 Allah kamil insanı Özündən kənar etməz,
Pislik edənlərinsə əlindən tutmaz.
21 O sənin ağzını yenə gülüşlə,
Dodaqlarını sevinc nidaları ilə doldurar.
22 Düşmənlərini rüsvayçılıq bürüyəcək,
Pislərin çadırı məhv ediləcək».

Əyyub

9 Əyyub belə cavab verdi:
2 «Belə olduğunu, həqiqətən, bilirəm.

---

[f]**7:17** Zəb. 8:4; 144:3

Amma Allah qarşısında insan necə
haqlı çıxa bilər?
3 Əgər Onunla kimsə mübahisə etmək
istəsə,
Onun min sualına bir cavab tapa
bilməz.
4 Hikməti dərin, gücü tükənməyən
Odur.
Ona qarşı duranlardan kim sağ qalıb?
5 Allah dağları yerindən oynadar,
Dağlar heç bilməz.
Qəzəbi ilə onları alt-üst edər.
6 Dünyanı yerindən oynadar,
Dirəklərini lərzəyə salar.
7 Əmr etsə, günəş doğmaz,
Ulduzların işığını örtüb möhürlər.
8 Odur təkbaşına göyləri sərən,
Dəniz dalğalarının üstündə gəzən.
9 [g]Odur Böyük Ayı, Orion, Ülkər
bürclərini,
Cənub bürclərini yaradan.
10 Odur dərk etmədiyimizdən də
böyük işlər görən,
Saysız xariqələr göstərən.
11 Bax yanımdan elə keçər ki, Onu
görə bilmərəm,
Elə keçib gedər ki, heç hiss etmərəm.
12 Nə isə tutub apararsa, kim Ona
mane ola bilər?
Kim Ona "Nə edirsən?" deyə bilər?
13 Allah qəzəbini geri döndərməz,
Rahavın [*]köməkçiləri belə, ayağı
altda qalar.
14 Belə isə Ona necə cavab verə
bilərəm?
Hüzurunda necə söz tapa bilərəm?
15 Günahsız olsam belə, Ona cavab
verə bilmərəm,
Rəhm etsin deyə Hökmdarıma
yalvarmalıyam.
16 Onu çağıranda O mənə cavab versə
belə,
Yenə inanmıram ki, O, səsimi eşidir.
17 Çünki tufanla məni əzir,
Nahaq yerə yaralarımı çoxaldır,
18 Məni nəfəs almağa qoymur,
Məni acılarla cana doydurur,
19 İş qüvvədədirsə, O qüvvəlidir,
İş ədalətdədirsə, kim Onu hakimin
qarşısına apara bilər?
20 Mən günahsız olsam belə, dilim
məni ittiham edər,
Kamil olsam belə, məni təqsirkar
çıxarar.
21 Kamil olsam da, bir şey deyiləm,
Öz həyatıma xor baxıram.
22 Hamısı birdir, ona görə deyirəm:
"O həm kamili, həm də günahkarı yox
edir".
23 Əgər qəfil ölüm gəlsə,
Günahsızların əzabına gülür.
24 Dünya pislərə təslim edilib,
Dünya hakimlərinin gözünü bağlayan
Odur.
O deyilsə, bəs kimdir?
25 Günlərim sürətlə qaçır, çapardan
sürətlidir,
Bir xeyir tapmadan qaçırlar.
26 Qamış qayıq kimi keçib gedirlər
Ovunun üstünə şığıyan qartal
kimidirlər.
27 Bu şikayətimi unutmaq istəsəm,
Sifətimin ifadəsini dəyişib ürəyimin
açılmasını istəsəm,
28 Bu əziyyətdən yenə vahimələnərəm,
Məni günahsız saymayacağını
bilərəm.
29 Madam ki yenə günahkar
çıxacağam,
Boş yerə niyə belə zəhmət çəkim?
30 Əgər qar suyu ilə yuyunsam,
Əllərimi gilabı ilə yusam,
31 Yenə də məni çirkaba batırarsan,
Paltarlarım belə, məndən iyrənir.
32 O mənim kimi insan olmadığına
görə

[*]**9:13** *Rahav* – xaos və şər qüvvələrin rəmzi olan dəniz əjdahası.

[g]**9:9** Əyy. 38:31-32; Amos 5:8

Ona cavab verə bilmirəm, məhkəməyə
birgə gedə bilmirəm.
33 Kaş aramızda bir hakim olaydı,
Əlini ikimizin də üzərinə qoyaydı.
34 Allah Öz dəyənəyini üstümdən
götürəydi,
Dəhşəti ilə məni
vahimələndirməyəydi.
35 O zaman Ondan qorxmadan
danışardım,
Amma bu vəziyyətdə heç nə edə
bilmirəm.

10 Canım həyatımdan bezib.
Şikayətimə məhdudiyyət
qoymayacağam,
Acı həyatımdan danışacağam.
2 Qoy Allaha deyim: "Məni
günahlandırma,
Bir mənə söylə, niyə mənimlə
çəkişirsən?
3 Məni incitmək,
Əllərinin işini xor görmək,
Pislərin niyyətlərinə işıq vermək Sənə
xoşdurmu?
4 Səndə insan gözümü var?
İnsan necə görürsə, Sən də elə
görürsənmi?
5 Günlərin insan ömrü kimidirmi?
İllərin insanın yaşadığı illər
kimidirmi?
6 Çünki məndə təqsir axtarırsan,
Günahlarımı araşdırırsan.
7 Özün də bilirsən mən şər adam
deyiləm,
Məni Sənin əlindən qurtaran yoxdur.
8 Əllərin mənə quruluş verdi, məni
yaratdı.
İndi dönüb məni yox edəcəksənmi?
9 Məni palçıqdan düzəltdin, bunu
xatırla.
Yenidən məni torpağa
çevirəcəksənmi?
10 Məni süd kimi tökmədinmi,
Pendir kimi bərkitmədinmi?
11 Ət və dərini əynimə geyindirdin,
Məni sümük və vətərlərlə hördün,
12 Mənə həyat verdin, sevgi göstərdin,
Qayğıma qalmağınla ruhumu hifz
etdin.
13 Amma bunları qəlbində gizlətdin.
Mən isə bilirəm, fikrində bu şeylər
var:
14 Günah işlətsəydim, mənə nəzarət
edərdin,
Təqsirlərimi cəzasız qoymazdın.
15 Əgər günahkar olsaydım, vay
halıma!
Günahsız olsam belə, yenə başımı
qaldıra bilmərəm,
Çünki xəcalət içindəyəm, necə də
biçarəyəm.
16 Əgər başımı qaldırsam, məni aslan
kimi ovlarsan,
Yenə heyrətamiz qüvvəni mənə
göstərərsən.
17 Əleyhimə yeni şahidlər çıxararsan,
Mənə qarşı qəzəbini artırarsan,
Orduların üstümə dayanmadan
hücum çəkər.
18 Niyə məni doğulmağa qoydun?
Kimsənin gözü məni görmədən kaş
öləydim.
19 Kaş ki heç yaranmayaydım,
Bətndən məzara düşəydim.
20 Məgər ömrümə bir neçə gün
qalmayıbmı?
Mənə bir qədər sərbəstlik ver ki, bir
az ürəyim açılsın
21 Gedər-gəlməz yerə,
Zülmət və ölüm kölgəsi diyarına,
22 Qatı qaranlıq diyarına,
Ölüm kölgəsi, qarışıqlıq diyarına,
İşığı qaranlıq olan diyara getməzdən
əvvəl"».

Sofar

11 Naamatlı Sofar belə cavab verdi:
2 «Bu qədər söz cavabsız
qalsınmı?
Çox danışan haqlı sayılsınmı?
3 İnsanlar boşboğazlıqlarının
qarşısında sussunmu?

Sən rişxənd edəndə səni
saxlamasınlar?
4 Allaha deyirsən: “İmanda safam,
Gözün görür ki, pakam”.
5 Kaş ki Allah danışaydı,
Sənə qarşı ağzını açaydı.
6 Səni hikmətin sirlərindən agah
etsəydi,
Hikmətin çox şaxələri üzə çıxardı.
Bil ki, Allah günahlarının neçəsindən
keçib.
7 Allahın dərin sirlərini dərk edə
bilərsənmi?
Külli-İxtiyarın sərhədlərinə çata
bilərsənmi?
8 Onlar göylər qədər ucadır, axı nə
edə bilərsən?
Ölülər diyarından dərindir, nəyi dərk
edə bilərsən?
9 Meyarı aləmdən uzundur,
Dənizlərdən genişdir.
10 Əgər gəlib səni zindana salarsa,
məhkum edərsə,
Kim Onun qarşısını ala bilər?
11 O, yalançıları tanıyır,
Pisliyi görəndə onu dərk edir.
12 Vəhşi eşşək insan olaraq doğulanda
Axmaq da ağla gələr.
13 Əgər ürəyini təqdis etsən,
Əllərini Ona tərəf uzatsan,
14 Günahın varsa, ondan əl çək,
Qoyma pislik çadırında sakin olsun.
15 Onda başını utanmadan dik
tutarsan,
Sağ-salamat, qorxusuz yaşayarsan.
16 Sən dar gününü unudub
Onu axıb-qurtaran bir su kimi yad
edərsən.
17 Həyatın gündüzün günəşindən də
parlaq olar,
Qaranlığın səhər kimi işıqlanar.
18 Çünki ümidin var, sən arxayınsan,
Mühafizə olunaraq rahat yatarsan.
19 Yatanda belə, səni qorxudan olmaz,
Sənin lütfünü çoxları arzular.
20 Amma pis adamların gözlərinin
nuru sönəcək,
Onların pənah yeri olmayacaq,
Yeganə ümidləri son nəfəslərini
vermək olacaq».

Əyyub

12 Əyyub belə cavab verdi:
2 «Yəqin ki siz özünüzü xalq
içində müdrik sanırsınız,
Siz öləndə hikmət də öləcək.
3 Sizin qədər mənim də ağlım var,
Sizdən geri qalmıram.
Bu cür şeyləri kim bilmir?
4 Mən dostlarımın gülüş hədəfi
olmuşam,
Vaxtı ilə Allaha yalvaranda mən də
cavab almışam,
Amma indi bir saleh, bir kamil insan
gülünc olub.
5 Dərdsizlər bəlanı boş bir şey sanır,
Büdrəyənlər üçün bəla hazır dayanır.
6 Soyğunçuların çadırlarında rahatlıq
var,
Allahı qəzəbləndirənlər
əmin-amanlıqdadır,
Axı onlar Allaha yox, öz qollarına
arxalanır.
7 Gəl heyvanlardan soruş, qoy sənə
bildirsin,
Qoy göydəki quşlar sənə desin,
8 Torpağa de, qoy o sənə bildirsin,
Dənizdəki balıqlardan soruş, sənə
məlumat versin.
9 Bunlardan hansı biri bilmir ki,
Bunu Rəbbin əli edib?
10 Hər yaratdığının canı Onun
əlindədir,
Bütün insanların nəfəsi Onun
əlindədir.
11 Yeməyin dadını damaq hiss etdiyi
kimi
Qulaq da sözləri sınaqdan
keçirməzmi?
12 Ağsaqqalların hikməti var,
Uzunömürlülər dünyagörmüş olar.

13 Hikmət və qüdrət Allahdandır,
O, nəsihət və dərrakə verir.
14 Onun yıxdığı bərpa olunmaz,
Onun həbs etdiyi insan azad olmaz.
15 Suları kəsərsə, quraqlıq olar,
Suları buraxsa, dünyanı sel aparar.
16 Qüdrət və hikmət Onundur,
Aldadan da, aldanan da Onundur
17 Məsləhətçiləri talana məruz qoyar,
Hakimləri axmaqlaşdırar.
18 Padşahların bağladığı bağı açar,
Bellərinə qurşaq salar.
19 Kahinləri talana məruz qoyar,
Mətinləri də devirər.
20 Etibarlı məsləhətçiləri susdurar,
Ağsaqqalların ağlını alar.
21 [h]Əsilzadələrin üstünə rüsvayçılıq yağdırar,
Güclülərin qurşaqlarını çıxarar.
22 Qaranlığın dərin sirlərini açar,
Ölüm kölgəsini aydınlığa çıxarar.
23 Millətləri çoxaldar, millətləri yox edər,
Millətləri artırar, millətləri sürgün edər.
24 Dünyanın başçılarının ağlını başından alar,
Yolu-izi məlum olmayan çöllərdə dolandırar.
25 Qaranlıqda əl sürtə-sürtə yeriyərlər,
Onları sərxoş kimi aşa-aşa gəzdirər.

13 Bax gözlərim hər şeyi gördü,
Qulaqlarım bunu eşidib dərk etdi.
2 Sizin bildiyinizi mən də anlayıram,
Sizdən geri qalmıram.
3 Amma istəyirəm Külli-İxtiyarla danışım,
Allahla mübarizə aparım.
4 Sizlərsə yalandan mala çəkirsiniz,
Hamınız dəyərsiz həkimlərsiniz.
5 Kaş hamınız səsinizi kəsəydiniz,
Onda hikmətli görünərdiniz.
6 İndi necə bəhsə girdiyimi eşidin,
Dilimin iddiasını yaxşı dinləyin.
7 Məgər Allah üçün haqsız sözlər söyləyəcəksiniz?
Onun adına yalanmı söyləyəcəksiniz?
8 Sizmi Onun tərəfini tutacaqsınız?
Sizmi Onun müdafiəsinə qalxacaqsınız?
9 O sizi istintaq edərsə, yaxşı olarmı?
İnsanları aldatdığınız kimi Onu da aldadacaqsınızmı?
10 Əgər Onun tərəfini gizli tutsanız,
Şübhəsiz ki, sizi də məzəmmət edər.
11 Onun əzəməti sizi vahimələndirməzmi?
Xofu üstünüzə düşməzmi?
12 Fikrinizdəki sözlər, məsəllər külə dəyməz,
Müdafiəniz lilə dəyməz.
13 Susun, qoyun danışım,
Qoy başıma gələn gəlsin.
14 Həyatım təhlükəyə düşürsə-düşsün.
Canım bəlaya düşürsə-düşsün.
15 Məni öldürsə də, Ona etibar edəcəyəm,
Amma yolumun müdafiəsi üçün hüzuruna çıxacağam.
16 Əslində bu məni qurtaracaq,
Çünki Allaha inanmayan Onun hüzuruna gələ bilməz.
17 Diqqətlə sözlərimə qulaq asın,
Qoy elan etdiklərim qulaqlarınızda qalsın.
18 Baxın mühakiməyə hazırlaşmışam,
Haqlı çıxacağımı bilirəm.
19 Kim məni ittiham edəcək?
Eləsi varsa, son nəfəsimi verib susaram.
20 Ey Allah, mənim üçün bu iki şeyi et ki,
Səndən gizlənməyim:
21 Əlini üzərimdən götür,
Məni dəhşətinlə qorxutma.
22 Sonra da məni səslə, qoy Sənə cavab verim,

---

[h]**12:21** Zəb. 107:40

Yaxud da qoy mən danışım, Sən cavab
söylə.
23 Təqsirlərim, günahlarım nə
qədərdir?
Mənə üsyankarlığımı və günahlarımı
bildir.
24 Niyə üzünü gizlədirsən,
Məni düşmən hesab edirsən?
25 Məgər yelin qopardığı yarpağı
qorxudacaqsan?
Məgər quru saman çöpünü
qovacaqsan?
26 Çünki əleyhimə acı şeylər yazırsan,
Gənclikdə etdiyim günahları mənə irs
olaraq verirsən.
27 Ayaqlarımı buxovlayırsan,
Bütün yollarıma göz qoyursan,
Hər addımımı yoxlayırsan.
28 Ona görə çürük şey tək məhv
oluram.
Güvə yemiş paltar kimiyəm.

14 Qadından doğulan insanın ömrü
azdır,
Həyatı sıxıntı ilə doludur.
2 Çiçək kimi açar, solar,
Kölgə kimi keçib-gedər.
3 Gözlərini beləsinəmi dikirsən?
Mühakimə etmək üçünmü məni
hüzuruna gətirirsən?
4 Kim çirkab içindən təmiz bir şey
tapar?
Heç kim!
5 İnsana ömür günləri müəyyən edilib,
Aylarının sayını Sən bilirsən,
Ömrü üçün müəyyən hədd qoymusan,
Bu həddi keçən yoxdur.
6 Sən ondan gücünü çək,
İş gününü bitirən zəhmətkeş kimi
Bir az dincəlsin.
7 Bir ağac üçün ümid var,
Kəsilsə belə, yenə pöhrəsini verər,
Şaxələri əskilməz.
8 Kökü yerdə qocalsa da,
Kötüyü torpaqda məhv olsa da,
9 Suyun iyini duyanda çiçəklənər,
Cavan ağac kimi şaxələnər.
10 Amma insan ölər, dəfn olunar,
Son nəfəsini verər, yox olar.
11 Dəniz suları çəkilib getdiyi kimi,
Çaylar azalıb quruduğu kimi
12 İnsan da yatar, bir daha qalxmaz,
Göylər yox olanadək oyadılmaz,
Yuxularından ayılmaz.
13 Kaş ki məni ölülər diyarında
gizlədəydin,
Qəzəbin keçənədək saxlayaydın,
Mənə möhlət verəydin,
Sonra məni yada salaydın.
14 İnsan ölsə, dirilərmi?
Növbəm çatanacan
Bu əzabdan qurtulmaq üçün hər gün
gözləyəcəyəm.
15 Sən çağıranda cavab verəcəyəm,
Əllərinin bu işinin həsrətini
çəkəcəksən.
16 O zaman addımlarımı sayacaqsan,
Günahımı nəzərə almayacaqsan.
17 Üsyankarlığım torbada
möhürlənəcək,
Günahımın üstünü örtəcəksən.
18 Amma dağın uçub dağılması kimi,
Qayanın yerindən qopması kimi,
19 Su daşları yuvarladığı kimi,
Sellər torpağı yuyub apardığı kimi
Sən də insanın ümidini yox edirsən.
20 Onu əbədi məğlub edirsən, o köçüb
gedir.
Görkəmini dəyişdirib yola salırsan.
21 Övladları şərəflənəndə də onun
xəbəri olmaz,
Düşkün hala düşəndə də heç nəyi
başa düşməz.
22 Hamı öz canının ağrısını duyur,
Yalnız özü üçün yas tutur».

Elifaz

15 Temanlı Elifaz belə cavab verdi:
2 «Müdrik insan boş sözlərlə
cavab verərmi?
Köksünü şərq küləyi ilə doldurarmı?
3 Faydasız sözlərlə, dəyərsiz nitqlərlə
Mübahisə etmək olarmı?

4 Amma sən Allah qorxusunu bir
kənara qoyursan,
Allah hüzurunda düşünməyə mane
olursan.
5 Çünki sənin ağzın günahdan dərs
alıb,
Hiyləgərlərin dili ilə danışırsan.
6 Səni məhkum edən mən deyiləm, öz
dilindir.
Dodaqların öz əleyhinə şəhadət edir.
7 İlk doğulan insan sənsənmi?
Yoxsa dağlardan da əvvəl sən var
olmusan?
8 Allahın sirrinəmi qulaq asmısan?
Təkcə özünümü müdrik sayırsan?
9 Sən nəyi bilirsən ki, biz onu
bilmirik?
Sənin dərk etdiyin nədir ki, biz onu
dərk etmirik?
10 Bizdə ağsaçlı da, yaşlı da var,
Onlar atandan da yaşlı olar.
11 Sənə Allahın təsəllisi,
Söylədiyi xoş sözlər kifayət deyilmi?
12 Niyə qəlbin səni belə çaşdırır,
Gözlərindən od çıxır?
13 Niyə Allaha qəzəbini göstərirsən,
Dilindən belə sözlər çıxır?
14 İnsan, həqiqətən, təmiz ola bilərmi?
Qadından doğulan insan saleh ola
bilərmi?
15 Allah müqəddəslərinə belə, etibar
etmirsə,
Göylər belə, Onun gözündə təmiz
deyilsə,
16 Haqsızlığı su kimi içən,
İyrənc, korlanmış insana
O etibar edərmi?
17 Dinlə məni, sənə deyim,
Gördüyümü bəyan edim –
18 Hikmətli adamların dediklərini,
Atalarından alıb gizlətmədiyi şeyləri.
19 O atalar ki ölkə yalnız onlara
verilmişdi,
Aralarına yadelli girməmişdi.
20 Pis insan həyatı boyu əzab çəkir,
Zorakı adama ayrılan illərin sayı
bilinir.
21 Qulağından dəhşətli səslər əskilmir,
Dinc oturanda soyğunçular ona
hücum edir.
22 İnana bilməz ki, qaranlıqdan
qurtara bilər,
Onu qılınc gözlər.
23 “Haradadır?” deyib çörək üçün
avara gəzər,
Qara günlərinin yanında olduğunu
bilər.
24 Ağrı və sıxıntı onu qorxudar,
Zəfər çalan padşah kimi onu
məğlubiyyətə uğradar.
25 Çünki Allaha belə, əl uzadıb,
Külli-İxtiyara meydan oxuyub.
26 Dikbaşlıq edib, dəyirmi sipərini
tutub,
Allahın üstünə hücum çəkir.
27 Onun üzü tosqunluqdan şişər,
Qarnı nə qədər piyləşər,
28 O, dağılmış şəhərlərdə,
Kimsəsiz, yerlə yeksan olan
viranələrdə,
Aqibəti dağılmaq olan evlərdə
yaşayacaq.
29 Varlı olmayacaq, sərvətləri
tükənəcək,
Malları ölkəni bürüməyəcək.
30 Qaranlıqdan qurtulmayacaq,
Pöhrələrini alov tutacaq,
Allahın ağzının nəfəsi ilə yox olacaq.
31 Qoy boş şeyə güvənərək özünü
aldatmasın,
Çünki əvəzində nəsibi boşluq olacaq.
32 İşi vaxtsız bitəcək,
Budağı göyərməyəcək.
33 Qorası tökülən üzüm ağacı kimi,
Çiçəyi tökülən zeytun ağacı kimi
olacaq.
34 Çünki allahsız icma qısır olar,
Rüşvətxorların çadırı od tutub yanar.

35 [i]Onlar bəlaya hamilə olub şər
doğar,
Bətnləri hiylə ilə dolar».

Əyyub

16 Əyyub belə cavab verdi:
2 «Bu cür sözləri çox eşitmişəm,
Hamınız adamincidən təsəlliçilərsiniz.
3 Bu boş söhbətləriniz qurtaracaqmı?
Sizi nə vadar edir, belə danışırsınız?
4 Siz mənim yerimdə olsaydınız, mən
də belə deyərdim.
Əleyhinizə yaxşı-yaxşı sözlər düzüb
başımı yelləyərdim.
5 Ağzım ürəkləndirici sözlər deyərdi,
Dilimdən təsəlliverici sözlər
çıxarardım,
Mən sizi ovudardım.
6 Danışmağımla dərdim azalmır,
Susuram, nə dəyişir?
7 Ay Allah, məni taqətdən saldın,
Bütün külfətimi darmadağın etdin.
8 Sıxılıb əzilməyim buna şahiddir,
Taqətsizliyim əleyhimə çıxıb şahidlik
edir.
9 Allah məni qəzəbi ilə parçalayır,
Mənə nifrət edir, dişlərini qıcıdır,
Düşmənim gözlərini mənə dikir.
10 Mənə qarşı insanlar dodaq büzür,
Həqarətlə üzümə şillə vurur,
Mənə qarşı əlbir olur.
11 Allah məni haqsızlara təslim etdi,
Pislərin əlinə verdi.
12 Rahat yaşayırdım, Allah məni
pərən-pərən saldı,
Boynumdan tutub yerə vurdu, məni
Özünə hədəf etdi.
13 Onun oxçuları ətrafımı aldı,
Aman vermədən böyrəklərimi
deşdilər,
Ödümü yerə tökdülər.
14 Bədənimə yara üstündən yara
vurulur,
Cəngavər tək üzərimə yüyürürlər.
15 Əynimə çul tikmişəm,
Qürurumu yerə atmışam.
16 Ağlamaqdan üzüm qızardı,
Kirpiklərimin altı-üstü kölgə saldı.
17 Yenə də zalımlıq əlimdən gəlmir,
Sənə səmimiyyətlə dua edirəm.
18 Ey torpaq, qanımın üstünü örtmə,
Qoy heç nə mənim naləmi saxlamasın.
19 Lap indidən şahidim göylərdədir,
Himayədarım yüksəklərdədir.
20 Dostlarım məni ələ salır,
Gözlərim Allaha baxıb ağlayır.
21 Bəşər oğlu qonşusu üçün yalvardığı
kimi
Biri də mən insandan ötrü qoy Allaha
yalvarsın.
22 Çünki bir neçə il keçəndən sonra
Gedər-gəlməz yola gedəcəyəm.

17 Taqətim kəsilir, günlərim batır,
Məni məzar gözləyir.
2 Həqiqətən, ətrafıma rişxəndçilər
yığılır,
Gözüm onların düşmənçiliyini görür.
3 Ey Allah, Öz hüzurunda mənə
zəmanət ver.
Başqa kim var ki, mənə zamin
dursun?
4 Çünki onların qəlbini anlayış üçün
bağladın,
Ona görə onlara zəfər
qazandırmayacaqsan.
5 Pul üçün dostlarını satanın
Övladlarının işığı sönəcək.
6 Allah məni insanların dilinə saldı,
Üzümə tüpürdülər.
7 Gözümün nuru kədərdən qaraldı,
Bütün əzalarım kölgə kimi qaldı.
8 Buna əməlisaleh insanlar mat qalıb,
Günahsızlar allahsızlara qarşı çıxır.
9 Saleh insanlar öz yolunu tutur,
Əlitəmiz olanlar getdikcə güclənir.
10 Amma hamınız qayıdıb gəlsəniz,
Aranızdan bir hikmətli insan
tapmaram.

---

[i]**15:35** Zəb. 7:14; Yeş. 59:4

11 Günlərim ötüşdü,
Fikirlərim, arzularım pərən-pərən
düşdü.
12 Onlar gecəni gündüzə çevirir,
“Zülmətə işıq yaxındır” deyir.
13 Əgər ölülər diyarını evimdir deyə
gözləsəm,
Yatağımı qaranlıqda sərsəm,
14 Qəbirə “atam sənsən”,
Qurda “anam-bacım sənsən” desəm,
15 Ümidim hara gedər?
Mənim ümidimi kim görər?
16 Ümid mənimlə ölülər diyarınamı
düşər?
Mənimlə birgə torpaq altınamı girər?»

Bildad

18 Şuahlı Bildad belə cavab verdi:
2 «Bu sözlər nə vaxt qurtaracaq?
Əgər dərrakəli olsanız, danışarıq.
3 Niyə heyvana bənzəyək?
Gözlərinizə axmaq kimi görünək?
4 Özünü hirsindən didib-dağıdırsan.
Sənə görə bu aləmdən vaz keçəkmi?
Yoxsa sal qayalar yerindən çıxsın?
5 Bəli, şər insanın işığı sönəcək,
Odu-alovu parlamayacaq.
6 Çadırında nur qaranlığa dönəcək,
Yanındakı çıraq sönəcək.
7 Addımları gücdən düşəcək,
Öz işlətdiyi fənddən yıxılacaq.
8 Ayaqları onu tələyə aparacaq,
Öz ayağı ilə tora düşəcək.
9 Kəmənd topuğundan tutacaq,
Tələ açılıb onu qapacaq.
10 Torpaq üstə onun üçün gizli
kəmənd səriləcək,
Yolu üstə onu tələ gözləyəcək.
11 Dəhşət onu hər tərəfdən bürüyəcək,
Hər addımda onu təqib edəcək.
12 Aclıq taqətini yeyib-qurtaracaq,
Yanında fəlakət hazır dayanacaq.
13 Dərisini azar yeyəcək,
Ölümün ilk övladı əzalarını yeyib
işini bitirəcək.
14 Əmin-amanlıq çadırından atılacaq,
Dəhşətlər padşahının yanına
aparılacaq.
15 Çadırında ona aid heç nə
olmayacaq,
Yurduna kükürd yağacaq.
16 Aşağıda rişələri quruyacaq,
Yuxarıda budaqları solacaq.
17 Onun adı yer üzündə unudulacaq,
Məhəllə-küçələrdə adı yaddan
çıxacaq.
18 İşıqdan zülmətə aparılacaq,
Dünyadan qovulacaq.
19 Nə övladı, nə nəvəsi xalqı arasında
olmayacaq,
Məskənində bir kimsəsi qalmayacaq.
20 Qərbdəkilər halına heyrətlənəcək,
Şərqdəkilər onu görüb dəhşətə
gələcək.
21 Bəli, pislərin həyatının aqibəti
budur,
Allahı tanımayanların məskəni
budur».

Əyyub

19 Əyyub belə cavab verdi:
2 «Nə vaxtadək məni üzəcəksiniz,
Məni sözlə əzəcəksiniz,
3 On dəfədir ki, məni təhqir edirsiniz,
Utanmadan mənə kəskin sözlər
söyləyirsiniz.
4 Həqiqətən, azıb yanlış yola
düşmüşəmsə,
Səhvim öz üstümdə qalır.
5 Özünüzü, həqiqətən, məndən üstün
tutursunuz,
Eybimi üzümə vurursunuz.
6 Amma bilin ki, Allah mənə haqsızlıq
etdi,
Hər tərəfdən məni toruna saldı.
7 Budur, “Zorakılıqdır!” deyə
bağırıram,
Bir cavab verən yoxdur,
Kömək üçün nalə çəkirəm, ədalət
yoxdur.
8 Keçə bilmirəm, yollarıma sədd
çəkilib,

Yollarımı qaranlığa salıb.
9 Şərəfimi əynimdən soyundurub,
Başımdan tacı götürüb.
10 O məni hər tərəfdən yıxdı, əldən gedirəm,
Ümidimi ağac kimi kökündən qopartdı.
11 Mənə qarşı qəzəbi od tutub yandı,
Məni Özünə düşmən saydı.
12 Orduları üstümə gəlir,
Mənə qarşı torpaq qalağı düzəldir,
Çadırımın ətrafında ordugah qurur.
13 Qardaşlarımı məndən uzaqlaşdırdı,
Tanışlarım mənə yad oldu.
14 Qohumlarım məni tərk eləyib,
Yaxın dostlarım məni unudub.
15 Evimin sakinləri və kənizlər
Məni özgə sayır,
Onların gözündə yad olmuşam.
16 Qulumu çağırıram,
Ağız açıb yalvarsam belə, cavab almıram.
17 Nəfəsimdən arvadımın da zəhləsi gedir,
Qardaşlarım məndən iyrənir.
18 Mənə hətta kiçik uşaqlar xor baxır,
Ayağa duranda məni ələ salırlar.
19 Bütün səmimi dostlarım belə, məndən ikrah edir,
Əzizlərim belə, əleyhimə çıxır.
20 Bir dəri, bir sümük qalmışam,
Ölüm kandarına çatmışam.
21 Aman, ey dostlarım, aman,
Allahın əli məni vurdu!
22 Niyə məni Allah kimi qovursunuz?
Niyə mənim ətimdən doymursunuz?
23 Kaş ki sözlərim yazılaydı,
Kitaba köçürüləydi,
24 Dəmir qələmlə, qurğuşunla
Əbədi qalmaq üçün bir qayaya həkk olaydı.
25 Amma mən bilirəm ki, Satınalanım yaşayır,
Axırda O, yer üzərində dayanacaq.
26 Dərim yox olandan sonra
Bədən alıb Allahı görəcəyəm.
27 Mən Ona baxacağam,
Başqası yox, mən öz gözlərimlə görəcəyəm.
Budur, ürəyim həsrətdən üzülür!
28 Mənim üçün "Bəs onu necə qovaq?
Bədbəxtliyin kökü ondadır" desəniz,
29 Qılıncdan qorxmalısınız,
Çünki qılınc cəzası qəzəblə gəlir.
Onda ədalətin var olduğunu görəcəksiniz».

Sofar

20 Naamatlı Sofar belə cavab verdi:
2 «Düşüncələrimə görə cavab verməyə məcburam,
Çünki daxilən narahatam.
3 Məni utandıran bir giley eşidirəm,
Ruhum dərrakəsi ilə məni cavab verməyə sövq edir.
4 Bilirsən ki, əzəldən bəri,
İnsanın dünyaya gəlişindən bəri
5 Pislərin qələbə çalması qısa çəkər,
Allahsızın sevinci bir an sürər.
6 Boyu göylərə çatsa da,
Başı buludlara dəysə də,
7 Öz nəcisi kimi əbədilik yox ediləcək,
Onu görənlər "O haradadır?" deyəcək.
8 Yuxu kimi uçacaq, bir daha tapılmayacaq,
Bəli, gecə röyası kimi yox olacaq.
9 Onu görən gözlər bir daha görməyəcək,
Yaşadığı yerdə görünməyəcək.
10 Övladları fəqirlərdən mərhəmət diləyəcək,
Sərvətləri əllərindən gedəcək.
11 İnsanın sümükləri gənclik alovu ilə dolar,
Amma insanla birlikdə torpaq altında yatacaq.
12 Pislik ağzına şirin gəlsə də,
Dilinin altında gizlənsə də,
13 İnsan pisliyi tutub buraxmasa da,
Damağının altında saxlasa da,
14 Yediyi yemək mədəsində qıcqıracaq,

Daxilində ilan zəhərinə dönəcək.
15 Yediyi sərvətləri qusacaq,
Qarnındakıları Allah bayıra çıxaracaq.
16 Başqa yerdə əfi ilan zəhərini əməcək,
Gürzənin dişindən öləcək.
17 Axar suların, bal və qaymaq axan dərələrin
Səfasını görməyəcək.
18 Zəhmətlə qazandığını yeməyib geri qaytaracaq,
Ticarətdən qazandığı sərvətdən ləzzət almayacaq.
19 Çünki fəqirləri əzib üzüqoylu qoymuşdu,
Özü tikmədiyi evi zorla almışdı.
20 Könlü rahatlıq nədir bilməz,
Zövq aldığı şeylər onu xilas etməz.
21 Yeməyindən artıq qalmayacaq,
Ona görə firavanlığı uzun sürməyəcək.
22 Bolluq içində əzaba düşəcək,
Fəlakət ona qarşı əl qaldıracaq.
23 Qarnını dolduranda
Allah şiddətli qəzəbini onun üzərinə göndərəcək,
Onun üstünə tökəcək.
24 Dəmir silahdan qaça bilsə də,
Tunc ox onu dəlib-deşəcək,
25 Ox onu dəlib-keçəcək,
Onun kürəyindən çıxacaq,
Parlaq ucu ödünü dağıdıb tökəcək.
Üstünə dəhşət gələcək.
26 Xəzinələrinin aqibəti qaranlıq olacaq,
Üfürülməmiş od onu yeyib-qurtaracaq,
Çadırında qalanları da yandırıb-yaxacaq.
27 Göylər şər işlərinin üstünü açacaq,
Dünya onun əleyhinə qalxacaq.
28 Allahın qəzəb günündə
Azğın sellər sərvətini aparacaq.
29 Pis insan Allahdan belə pay alacaq,
Allahın ona verdiyi irs budur».

Əyyub

21 Əyyub belə cavab verdi:
2 «Sözlərimi diqqətlə dinləyin,
Siz bununla mənə təsəlli verin.
3 Qoyun mən də bir şey deyim,
Mən danışandan sonra lağ edin.
4 Şikayətim insana qarşıdırmı?
Mən necə səbir edim?
5 Mənə baxıb mat qalın,
Əlinizi ağzınızın üstünə qoyun.
6 Bunu düşünəndə köksümü dəhşət bürüyür,
Bədənimə titrətmə düşür.
7 Pislər nə üçün yaşayır?
Yaşlandıqca niyə gücləri artır?
8 Övladları ətrafında,
Nəsilləri gözlərinin qarşısında sapsağlamdır.
9 Evlərində əmin-amanlıqdır, qorxudan uzaqdır,
Allahın dəyənəyi onlara dəymir.
10 Öküzləri cütləşir, qarınları boş qalmır,
Doğar inəkləri var, bala salmaz.
11 Övladlarını sürü tək yola salır,
Uşaqları oynaşır.
12 Dəf və lira çalaraq nəğmə deyirlər,
Tütək səsi ilə şənlənirlər.
13 Ömürlərini firavan keçirirlər,
Ölülər diyarına rahat gedirlər.
14 Allaha belə deyirlər: “Bizdən uzaq ol,
Yolunu tanımaq istəmirik.
15 Kimdir Külli-İxtiyar, biz Ona qulluq edək?
Əgər Ona dua etsək, bizə nə fayda verər?”
16 Görürsən ki, xoşbəxtlikləri öz əllərində deyil,
Pislərin nəsihəti qoy məndən uzaq olsun!
17 Neçə dəfə pislərin çırağı söndü,
Başlarına bəla gəldi.
Allah qəzəblənəndə onlara kədəri pay verdimi?

18 Neçə dəfə yel sovuran saman kimi,
Tufanın uçurduğu saman çöpü kimi
oldular?
19 Deyirsiniz ki, Allah
Atanın cəzasını övladına çəkdirir.
Bunun nə olduğunu bilsin deyə özünə
çəkdirsin.
20 Qoy öz həlakını gözləri görsün,
Külli-İxtiyarın qəzəbini su kimi içsin.
21 Çünki ili, ayı qurtaranda,
Arxada qalan külfətindən nə zövq ala
bilər?
22 Yüksək mənsəb sahiblərinə hökm
edən Allaha
Kim bilik verə bilər?
23 Biri tamam güclü,
Tamam rahat və qayğısız,
24 Bədəni ətli-canlı,
Sümükləri ilikli ölür.
25 O biri isə dərd içində,
Həyatdan kam almamış ölür.
26 İkisi də torpaqda yatır,
İkisinin də bədənini qurd basır.
27 Bilirəm nə fikirdəsiniz,
Qəsdiniz mənə qarşı olmaqdır.
28 Deyirsiniz: "Əsilzadələrin evi
haradadır?
Pislərin yaşadığı çadır haradadır?"
29 Yoldan keçənlərdən
soruşmadınızmı?
Söhbətlərinə qulaq asmadınızmı?
30 Pis insan fəlakət günündə sağ qalır,
Qəzəb günü yol göstərilərək qurtulur.
31 Kim davranışını onun üzünə vurur?
Kim etdiklərinə görə onu cəzalandırır?
32 Qəbiristana aparılarkən
Məzarı üstə qarovul çəkilir.
33 Vadinin torpağı ona şirin gəlir,
Hamı onun ardınca düşür.
Qarşısında gedənlərsə saysızdır.
34 Məni necə boş sözlərlə ovuda
bilərsiniz?
Cavablarınız axıradək yalandır».

Elifaz

22 Temanlı Elifaz belə cavab verdi:
2 [j]«İnsan Allaha fayda verə
bilərmi?
Müdrik adam Ona fayda verərmi?
3 Sənin salehliyindən Külli-İxtiyar nə
ləzzət alır?
Sənin düz həyat tərzinin Ona nə
faydası var?
4 Səni tənbeh etməsi, mübarizə
aparması
Ondan qorxduğun üçündürmü?
5 Pisliyin böyük deyilmi,
Təqsirin hədsiz deyilmi?
6 Çünki qardaşlarından səbəbsiz girov
aldın,
Onları lüt qoydun.
7 Yorğuna bir içim su vermədin,
Ac olandan çörəyini əsirgədin.
8 Qol gücünlə ölkəyə sahib oldun,
Hörmətli insan kimi orada yaşadın.
9 Dul qadınları əliboş qaytardın,
Yetimlərin qol-qanadını qırdın.
10 Ona görə hər yanını tələlər
bürüyüb,
Qəfil qorxu səni dəhşətləndirib.
11 Hər şeyə qara vurub görmürsən,
Sellərdə boğulursan.
12 Allah göylərdə – ucalarda deyilmi?
Ən uzaq ulduzlara bir nəzər sal,
Gör nə qədər ucalarda yerləşib!
13 Amma deyirsən "Allah nə bilir?
Qatı qaranlıq içindən hökm verə
bilərmi?
14 Görə bilmir, qara buludlar Ona
mane olur,
Göy qübbəsinin üzərində dolaşır".
15 Pis adamların gəzdiyi
Köhnə yolumu tutacaqsan?
16 Onlar vaxtı çatmamış çəkilib
getdilər,
Təməllərini sellər basdı.
17 Allaha dedilər: "Bizdən uzaq ol!

[j]**22:2** Əyy. 35:6-8

Bizə Külli-İxtiyar nə edə bilər?”
18 Amma evlərini bərəkətlə dolduran
Allah idi,
Ona görə pislərin nəsihəti qoy
məndən uzaq olsun.
19 Salehlər pislərin həlak olduğunu
görüb sevinir,
Günahsızlar onlara belə istehza edir:
20 “Düşmənlərimiz yox oldu,
Onlardan nə qaldısa, yanıb kül oldu”.
21 Allahla barışıb dost olsan,
Xeyir taparsan.
22 Onun ağzından çıxan təlimi qəbul
et,
Onun sözlərini qəlbində saxla.
23 Külli-İxtiyara tərəf dönsən,
Əvvəlki halına düşərsən.
Çadırın şərdən uzaq olsa,
24 Qızılını torpağa,
Ofir qızılını dərədəki çınqıllığa atsan,
25 Külli-İxtiyar sənin qızılın olar,
Qiymətli gümüşün olar.
26 Onda Külli-İxtiyardan zövq alarsan,
Allaha üz tutarsan.
27 Ona yalvarsan, səni eşidər,
Etdiyin nəzirləri yerinə yetirərsən.
28 O da dediyin sözü yerinə yetirər,
Yollarına nur səpilər.
29 İnsanlar səni alçaldanda
“Baş ucalığına görədir” deyərsən,
Çünki Allah itaətkarları xilas edər.
30 O, günahsız olmayanı belə qurtarar,
Sənin əllərinin təmizliyinə görə
günahkar xilas olar».

Əyyub

23 Əyyub belə cavab verdi:
2 «Bu gün də acı-acı şikayət
edəcəyəm,
Naləmə baxmayaraq üstümdə Allahın
əli ağırdır.
3 Kaş biləydim Onu harada tapmaq
olar,
Məskəninə çatmaq olar.
4 O zaman davamı Onun hüzurunda
dilə gətirərdim,
Dəlillərimi dalbadal düzərdim.
5 Mənə verəcəyi cavabı öyrənərdim,
Dediyini dərk edərdim.
6 Əzəməti, qüdrəti ilə əleyhimə
çıxardımı?
Xeyr, yəqin sözümə qulaq asardı.
7 Hüzurunda bir haqlı insan mübahisə
etsəydi,
Mən hakimimin yanında haqq
qazanardım.
8 Şərqə getsəm, Allah orada deyil,
Qərbə getsəm, Onu tapa bilmirəm.
9 O, şimalda işləsə, gözüm seçməz,
Cənuba dönsə, Onu görə bilmərəm.
10 Amma tutduğum yolu O tanıyır,
Məni sınayan zaman qızıl kimi
çıxaram.
11 Hər addımını yaxından izlədim,
Azmadan yoluna bağlı qaldım.
12 Ağzından çıxan əmrlərdən
ayrılmadım,
Gündəlik çörəkdən çox ağzından
çıxan sözləri qiymətləndirdim.
13 O təkbaşına dayanıb, kim Onu
döndərə bilər?
Könlü nə istəsə, onu edər.
14 Mənimlə bağlı qərarını yerinə
yetirəcək,
Belə fikirləri çoxdur.
15 Ona görə hüzurunda dəhşətə
gəlirəm,
Bunları düşünəndə Ondan
vahimələnirəm.
16 Allah qəlbimin cəsarətini qırdı,
Külli-İxtiyar məni qorxuya saldı.
17 Sifətimi qatı qaranlıq bürüsə belə,
Məni zülmət susdura bilməz.

24 Niyə Külli-İxtiyar hökm üçün
zaman təyin etmir?
Niyə Onu tanıyanlar hökm günlərini
görmür?
2 İnsanlar sərhəd daşlarını qaldırır,
Sürüləri oğurlayıb otarır.
3 Yetimlərin eşşəyini əlindən alır,
Dul qadının öküzünü girov götürür.
4 Yoxsulları yoldan çıxarır,

Ölkədəki fəqirlərin hamısı gizlənməyə
məcbur olur.
5 Baxın kasıblar vəhşi eşşəklər kimi
Yemək tapmaq üçün ertədən işə çıxır,
Övladları üçün çöldə çörək axtarır.
6 Zəmilərdən yem yığırlar,
Pislərin üzüm bağından üzüm
qalıqlarını toplayırlar.
7 Gecə paltarsız, çılpaq qalırlar,
Soyuqda üstlərini örtməyə bir şey
tapmırlar.
8 Dağlara yağan yağışdan islanırlar,
Daldalanacaqları olmadığı üçün
qayalara qısılırlar,
9 Yetim uşağı döşdən ayırırlar,
Fəqirin körpəsini girov alırlar.
10 Bu yazıqlar paltarsız, çılpaq
dolanır,
Qarınları acdır, amma taxıl dərzləri
daşıyır.
11 Pislərin çəpərləri arasında yağ üçün
zeytun sıxırlar,
Şərab üçün üzüm sıxırlar,
Amma özləri susuzluqdan yanırlar.
12 Şəhərlərdən insan nalələri ucalır,
Canı yaralı olanlar fəryad qoparır,
Amma Allah dualarını nəzərə almır.
13 Elə insanlar var ki, işığa üsyan edir,
Nurlu yolu tanımır,
Onun dalınca getmir.
14 Qatil gün batanda qalxır,
Fəqiri, yoxsulu öldürür,
Gecə oğrusuna bənzəyir.
15 Zinakarın gözü alaqaranlıqdadır,
“Kimsə məni görməz” deyə düşünür,
Üz-gözünü gizlədir.
16 Oğrular evləri qaranlıqda yarır,
Gündüz gizlənir, işıq nədir, bilmir.
17 Çünki onların sabahı qatı
qaranlıqdır,
Zülmətin dəhşəti onların aşnasıdır.
18 Amma onlar su üzərində köpüyə
bənzər,
Torpaqdan lənət payı alar,
Üzüm bağlarına qayıtmazlar.
19 Necə ki quraqlıq və istilik qarı
əridib udar,
Ölülər diyarı da günahkarları elə
götürüb aparar.
20 Onları ana bətni unudar,
Qurdlar üçün ləziz yem olar,
Bir də onları heç kim yada salmaz,
Haqsızlıq bir ağac kimi sınar.
21 Çünki sonsuz qadınlara yamanlıq
edərlər,
Dul qadınlara yaxşılıq etməzlər.
22 Allah isə qüdrəti ilə bu güclüləri
dartıb yerə vurar,
Onlar qalxsa belə, həyatlarından əmin
olmazlar.
23 Allah onlara izin verir ki,
əmin-amanlıqda yaşasınlar,
Amma onlar gedən yollara göz qoyur.
24 Qısa müddətə ucalır, sonra da yox
olurlar.
Yıxılırlar, lap əvvəlkilər kimi
götürülüb aparılırlar,
Sünbül kimi dərilib yığılırlar.
25 Əgər belə deyilsə,
Yalançı olduğumu kim sübut edə
bilər?
Sözlərimin dəyərsiz olduğunu kim
deyə bilər?»

Bildad

25 Şuahlı Bildad belə cavab verdi:
2 «Səltənət və zəhm Allaha
məxsusdur,
Uca göylərdə nizam quran Odur.
3 Orduları saya gələrmi?
İşığı kimin üzünə doğmaz?
4 Fani insan Allah qarşısında necə
saleh ola bilər?
Qadından doğulan necə təmiz ola
bilər?
5 Bax Onun gözündə ay belə, parlaq
deyilsə,
Ulduzlar belə, pak deyilsə,
6 Torpaq qurduna bənzər fani insan
necə ola bilər?
Axı bəşər oğlu bir cücüyə bənzər».

Əyyub

26 Əyyub belə cavab verdi:
2 «Biçarəyə necə də kömək etdin!
Taqətdən düşən qolu necə xilas etdin!
3 Hikmətsiz adama necə məsləhət verdin!
Ona bol-bol müdriklik öyrətdin!
4 Axı bu sözləri kimə söyləyirsən?
Sənin ağzınla kimin ruhu danışır?
5 Ölülər titrəyir,
Su altında məskən salanlar lərzəyə gəlir.
6 Allahın hüzurunda ölülər diyarı çılpaqdır,
Həlak yerinin örtüyü yoxdur.
7 Şimalı boş fəzanın üstünə yayır,
Dünyanı heçliyin üstündən asır.
8 Buludların içinə sularını büküb yığır,
Onların ağırlığından buludlar yırtılmır.
9 Bədirlənmiş ayın üzünü örtür,
Buludları üstünə çəkir.
10 Suların üstünə bir sərhəd çəkir,
İşıqla qaranlığı bölür.
11 O qəzəblənəndə göyün dirəkləri sarsılır,
Çaşıb qalır.
12 Dənizi gücü ilə çalxalayır,
Müdrikliyi ilə Rahavı *vurur.
13 Göyləri nəfəsi ilə açır,
Qaçan ilanı əli ilə parçalayır.
14 Bunlar yalnız Onun etdiklərinin bir zərrəsidir,
Ondan eşitdiyimiz çox zəif bir pıçıltıdır.
Axı qüdrətli gurultusunu kim dərk edə bilər?»

27 Əyyub misal çəkərək dedi:
2 «Haqqımı əlimdən alan var olan Allaha and olsun,
Canımı dərdə salan Külli-İxtiyara and olsun,
3 Nə qədər canımda can,
Burnumda Allahın nəfəsi varsa,
4 Ağzımdan pis söz çıxmayacaq,
Dilim yalan danışmayacaq!
5 Sizin sözlərinizi əsla təsdiq etməyəcəyəm,
Son nəfəsimə qədər kamilliyimdən əl çəkməyəcəyəm.
6 Salehliyimdən bərk yapışmışam,
Onu buraxmaram,
Elə gün keçirməmişəm ki, ürəyim tərəfindən ittiham olunum.
7 Qoy düşmən pis adamların gününə düşsün,
Haqsız adamlara nə edilirsə, əleyhdarlarıma da elə edilsin.
8 Allahsız insanı Allah kəsib atanda,
Canını alanda ümidi olarmı?
9 Dara düşəndə fəryadını
Allah eşidəcəkmi?
10 O, Külli-İxtiyardan zövq alırmı?
O hər zaman Allaha yalvarırmı?
11 Allahın qolu haqqında sizə bilik verəcəyəm,
Külli-İxtiyarın niyyətini sizdən gizlətməyəcəyəm.
12 Əslində hamınız bunu görmüsünüz,
Bəs niyə boş sözlər söyləyirsiniz?
13 Pis adam Allahdan belə pay alar,
Külli-İxtiyardan zorakı adamlara bu nəsib olar:
14 Nə olsun, övladları çoxalır,
Hamısı qılıncdan keçiriləcək,
Nəslində doyunca çörək tapan olmayacaq.
15 Nəslindən sağ qalanlar xəstəlikdən ölərək dəfn ediləcək,
Dul arvadları ağlaya bilməyəcək.
16 Pis insan qum qədər gümüş yığsa da,
Torpaq zərrələri qədər paltar yığsa da,
17 Onun yığdığını saleh geyəcək,
Gümüşünü günahsızlar böləcək.

---

*26:12 *Rahav* – 9:13-də olan qeydə bax.

18 Güvə çanağı kimi,
Qarovulçu çardağı kimi ev tikir,
19 Varlı olaraq yatır, amma sona qədər belə qalmaz,
Gözlərini açanda hamısı yox olub gedəcək.
20 Dəhşət onu sel tək basacaq,
Tufan gecə onu qapıb aparacaq.
21 Şərq küləyi onu qaldırıb sovuracaq,
Onu öz yerindən süpürüb aparacaq.
22 Ona qarşı amansız küləklər əsəcək,
O isə yelin əlindən qaçmağa cəhd edəcək.
23 Külək onu ələ salaraq əl çalacaq,
Öz yerindən onun üçün vıyıldayacaq.

Hikmətin mədhi

28 Gümüşün mədəni,
Qızılın təmizlənmə yeri var.
2 Dəmir torpaqdan çıxarılır,
Mis daşlardan əridilərək alınır.
3 İnsan qaranlığa son qoyur,
Sonacan qatı qaranlıqda, zülmətdə filiz axtarır.
4 İnsan məskənlərindən uzaq bir çuxur açır,
İnsan ayağı dəyməyən yerlərdə,
İnsanlardan uzaqlarda ilişib yellənə-yellənə qalır.
5 Torpaqdan çörək çıxır,
Torpağın altı isə fırlanır, elə bil odlar yanır.
6 Qayalarından göy yaqut çıxır,
Orada qızıl tozu da var.
7 Oranın yolunu yırtıcı quşlar bilmir,
Şahinin gözü oranı görməyib.
8 Ora məğrur heyvanların ayağı dəyməyib,
Yırtıcı aslanlar oradan keçməyib.
9 Mədənçi əlini çaxmaq daşına uzadır,
Dağları dibindən oynadır.
10 Qayalardan yeraltı keçidlər açır,
Gözləri müxtəlif qiymətli şeylərə baxır.
11 Çayların mənbələrini bağlayır,
Gizlini aşkara çıxarır.
12 Amma hikməti haradan tapmaq olar?
Müdrikliyin yeri hanı?
13 İnsan onun qiymətini bilməz,
Dirilər arasında ona rast gəlməz.
14 Dərinliklər deyər: “Məndə yoxdur”,
Dəniz deyər: “Yanımda yoxdur”.
15 Saf qızıl onu əvəz edə bilməz,
Qiyməti gümüşlə ölçülməz.
16 Onu Ofir qızılı ilə qiymətləndirmək olmaz,
Onu qiymətli damarlı əqiqlə, göy yaqutla dəyərləndirmək olmaz.
17 Nə qızıl, nə də gözəl cam ona tay deyil,
Hikmət saf qızıl qablarla əvəz edilmir.
18 Yanında mərcanın, büllurun adı çəkilməz,
Hikmətin qiyməti yaqutdan artıqdır.
19 Kuş topazı onun tayı deyil,
Onun dəyəri saf qızılla ölçülməz.
20 Bəs hikmət haradan gəlir?
Müdrikliyin yeri hanı?
21 O bütün canlıların gözündən uzaqdır,
Göydə uçan quşlardan belə, gizli qalır.
22 Həlak yeri ilə ölüm belə deyir:
“Qulaqlarımız yalnız sorağını eşidir”.
23 Onun yolunu Allah dərk edir,
Yerini yalnız O bilir.
24 Çünki yer üzünün ucqarlarına qədər baxır,
Göylərin altındakı hər şeyi görür.
25 Küləyin gücünü təyin edəndə,
Suları ölçəndə,
26 Yağışa qanun qoyanda,
Şimşəyə yol açanda
27 Hikmətə baxıb qiymət qoydu,
Onu bərqərar edib araşdırdı.
28 [k]İnsana dedi: “Rəbb qorxusu hikmətdir,

---

[k]**28:28** Zəb. 111:10; Sül. 1:7; 9:10

Pislikdən çəkinmək müdriklikdir”».

Əyyubun yekun sözü

29 Əyyub yenə misal çəkərək dedi:
2 «Kaş ki ötən aylar geri dönəydi –
Allahın məni qoruduğu,
3 Çırağının başım üstə işıq saçdığı,
Nuru ilə qaranlıqda gəzdiyim günlər.
4 Kaş ki həyatımın çiçəkli günləri geri dönəydi –
Mənə yar olan Allahın çadırımı qoruduğu,
5 Külli-İxtiyarın hər vaxt mənimlə olduğu,
Övladlarımın ətrafımda dolandığı,
6 Yollarımın südlə yuyulduğu,
Yanımdakı qayadan zeytun yağı axdığı günlər.
7 Şəhər darvazasına gedərkən,
Kürsümü meydanın başına qoyarkən
8 Gənclər məni görüb gizlənərdi,
Yaşlılar ayağa qalxıb hörmət göstərərdi.
9 Başçılar söhbətini dayandırardı,
Əlləri ilə ağızlarını tutardı.
10 Əsilzadələrin səsi çıxmazdı,
Dilləri damaqlarına yapışardı.
11 Qulaq məni eşidəndə alqışlayardı,
Göz məni görəndə tərifləyərdi.
12 Çünki imdad diləyən fəqiri,
Köməksiz yetimi qurtarardım.
13 Son anlarını yaşayanlar mənə xeyir-dua verərdi,
Dul qadının qəlbinə şən nəğmələr verərdim.
14 Libas kimi salehliyi geyinmişdim,
Sanki ədalətim mənə cübbə və tac idi.
15 Korlara göz idim,
Topallara ayaq idim,
16 Yoxsulların atası idim,
Qəriblərin müşküllərinin qayğısına qalırdım,
17 Haqsızın çənəsini qırırdım,
Ovunu dişlərindən qoparırdım.
18 Düşünürdüm: “Son nəfəsimi yuvamdaca verəcəyəm,
Ömrümün günlərini qum qədər çoxaldacağam.
19 Köküm sulara tərəf rişələnəcək,
Budaqlarıma şeh düşəcək.
20 Qazandığım şərəf təzələnəcək,
Əlimə yeni ox-kaman gələcək”.
21 İnsanlar ehtiramla məni dinlərdi,
Səssizcə məsləhətimi gözlərdi.
22 Heç kim sözümün üstündən söz deməzdi,
Sözlərim üzərlərinə tökülərdi.
23 Məni yağış kimi gözləyirdilər,
Yaz yağışı tək sözlərimi içirdilər,
24 Üzlərinə gülümsəyəndə gözlərinə inanmazdılar,
Gülər üzümdən ruhlanardılar.
25 Onlara yol göstərərdim, başçı kimi əyləşərdim,
Əsgərlərin arasında padşah kimi ömür sürərdim,
Yaslılara təsəlli verənə bənzəyərdim.

30 Amma indi yaşca məndən kiçiklər
Mənə lağ edirlər.
Vaxtı ilə atalarını heç bir işə layiq görməzdim,
Sürümün itlərinin yanına belə, qoymazdım.
2 Çünki taqətdən düşmüşdülər,
Biləklərinin gücü getmişdi,
Heç biri işimə yaramırdı.
3 Onlar yoxsulluqdan, aclıqdan zəifləmişdi,
Gecələr çöl-biyabanda bitki kökü gəmirirdi.
4 Kollardan duzlu bitkilər toplayırdılar,
Süpürgə kollarının köklərini yeyirdilər.
5 Xalq arasından qovulurdular,
Üstlərinə elə çığırırdılar ki,
Elə bil ki oğrudurlar.
6 Vadi yataqlarında, yerin dəliklərində,

Qaya ovuqlarında yaşayırdılar.
7 Kollar arasında bağırırdılar,
Qara tikan kolu altında daldalanırdılar.
8 Axmaqların, adsız-sansız insanların övladlarıdır,
Ölkədən qovulmuşdular.
9 İndisə dillərində dastan olmuşam,
Ağızlarında məsəl olmuşam.
10 İkrah edərək məndən gen dayanırlar,
Hətta üzümə tüpürməkdən çəkinmirlər.
11 Çünki Allah kamanımın ipini boşaltdı,
Məni zəlil elədi.
Ona görə onlar gözümün qabağındaca
Cilovlarını çıxarıb atdılar.
12 Bu avara gənclər sağ tərəfimdən çıxır,
Ayaqlarımı büdrədir,
Mənə qarşı torpaq qalağı düzəldir.
13 Yolumu bərbad etdilər,
Onlara dəstək verən olmasa da,
Məni yox etməyə çalışırlar.
14 Sanki geniş dəliklərdən keçib
Viranəlikdən üstümə yuvarlanırlar.
15 Dəhşətlər üstümə doldu,
Şərəfimi yel tək sovurdu,
Xoşbəxtliyim bulud kimi keçib getdi.
16 İndi canım taqətdən düşdü,
Dar günlər məndən bərk yapışdı.
17 Gecələr sümüklərim sızıldayır,
Canımı gəmirən ağrılar dayanmır.
18 Allah paltarı zorla əynimdən çıxarır,
Məndən cübbəmin yaxası kimi yapışır.
19 Məni lilə batırır,
Toza, külə dönmüşəm.
20 Sənə yalvarıram, cavab vermirsən,
Ayağa qalxmağıma göz qoyursan.
21 Mənə qarşı rəhmsizsən,
Güclü əllərinlə məni əzirsən.
22 Məni qaldırıb yel üstünə mindirirsən,
Fırtına içinə salıb məni darmadağın edirsən.
23 Bilirəm, məni ölümə,
Bütün ömür sürənlər üçün təyin olunan son mənzilə aparacaqsan.
24 Yıxılana əl qaldırmaq olmaz,
Bəlaya düşənin harayına çatan yoxdur.
25 Məgər dara düşənlər üçün ağlamırdımmı?
Yoxsulların halına yanmırdımmı?
26 Mən yaxşılıq gözlədim, yamanlıq gəldi,
Mən işıq umarkən qaranlıq gəldi.
27 Ürəyim çırpınır, rahatlığı yoxdur,
Ağır günlər qarşımı kəsdi.
28 Yoxdur bir işıq ucu, qarala-qarala gəzirəm,
Camaat arasında durub fəryad edirəm.
29 Çaqqallara qardaş oldum,
Bayquşlara yoldaş oldum.
30 Qaralan dərim soyulur,
Qızdırmadan sümüklərim yanır.
31 Liram yas tutub nalə çəkir,
Tütəyim zar-zar inləyir.

31 Gözlərim üçün əhd etmişəm,
Gözüm bir qıza baxarmı?
2 İnsan yuxarıdan – Allahdan nə pay alır?
İnsana ucalardan – Külli-İxtiyardan nə irs qalır?
3 Məgər haqsızların başına fəlakət gəlmir?
Məgər fitnəkarların başına bəla gəlmir?
4 Məgər O, yollarıma baxmır?
Məgər O hər addımımı saymır?
5 Əgər yalançı olaraq gəzmişəmsə,
Ayağım fırıldaq üçün qaçıbsa,
6 Qoy Allah məni haqq tərəzisində çəksin,
Kamil olduğumu görsün.
7 Yolumda əyri addım atmışamsa,
Gözlərimin ardınca qəlbimi sürükləmişəmsə,

Əllərimi ləkələmişəmsə,
8 Əkdiyimi yadlar yesin,
Qoy əkinim kökündən çıxarılsın.
9 Əgər qəlbim başqa bir qadına meyl edibsə,
Qonşumun qapısını pusmuşamsa,
10 Qoy arvadım başqasının taxılını üyütsün,
Qoy onunla başqa kişilər yatsın.
11 Axı bu bir xəcalət olardı,
Məhkəməyə veriləsi bir günah sayılardı.
12 Çünki bu Həlak yerinədək yandırıb-yaxan bir alovdur.
Bu bütün barımı kökündən çıxarardı.
13 Əgər mənimlə çəkişəndə
Nökərlərimin və kənizlərimin
Haqqını yemişəmsə,
14 Allah ayağa qalxanda
Mən nə edə bilərəm?
Məni yoxlayanda nə cavab verərəm?
15 Anamın bətnində məni yaradan
Onu yaratmayıbmı?
Bətndən bizə quruluş verən O olmayıbmı?
16 Əgər yoxsulların istədiklərini bir kənara qoymuşamsa,
Dul qadının ümidini qırmışamsa,
17 Bir tikəmi özüm yeyib
Yetimə verməmişəmsə,
18 Gəncliyimdən bəri yetimlərə atalıq etməmişəmsə,
Doğulandan bəri dul qadına yol göstərməmişəmsə,
19 Paltarı olmadığı üçün canı ağrıyan,
Ya örtüyə möhtac qalan yoxsulları görəndə
20 Qoyunlarımın yunu ilə onları isitməmişəmsə,
Onlar da mənə ürəkdən alqış etməyiblərsə,
21 Məhkəmədə sözü keçən olduğum üçün
Yetimə əl qaldırmışamsa,
22 Qollarım qırılıb çiyinlərimdən düşsün,
Qoy qolum lüləsindən sınsın.
23 Çünki Allahın bəlasından qorxuram,
Əzəməti qarşısında dayana bilmərəm.
24 Əgər qızıla ümid bağlamışamsa,
Saf qızıla "ümidim sənsən" demişəmsə,
25 Əgər bol sərvətimə görə,
Əlimin gəlirinin çoxluğuna görə sevinmişəmsə,
26 Əgər parlayan günəşə,
İşıq saçaraq dövran edən aya baxıb,
27 Könlümün meylini gizlicə azdırıb,
Sitayiş etmək üçün əlimlə onlara
Öpüş yollamışamsa,
28 Bu da məni ittiham edən günah sayılardı,
Çünki ucalarda olan Allahı danmış olardım.
29 Əgər düşmənlərimin bədbəxtliyinə sevinmişəmsə,
Başına bəla gəldi deyə fərəhlənmişəmsə,
30 Kiminsə canına qarğış yağdıraraq
Dilimə günah işlətməyə yol vermişəmsə,
31 Evimdəki insanlar "Əyyubun verdiyi ətlə
Qarnını doyurmayan varmı?" deyə soruşmayıblarsa,
32 – Heç bir yadelli gecəni küçədə keçirməzdi,
Qapım həmişə yoldan keçənlərin üzünə açıq idi –
33 Əgər təqsirimi gizlətmişəmsə,
Adəm kimi üsyankarlığımı ört-basdır etmişəmsə,
34 Camaatdan qorxduğum üçün,
El qınağından dəhşətə gəldiyim üçün
Dinməzcə bayıra çıxmamışamsa…
35 Kaş məni bir eşidən olaydı!
Bu sözümü təsdiq edirəm,
Qoy Külli-İxtiyar mənə bir cavab versin!
Əleyhdarım bunu tumara yazıb əlimə versin.

36 Şübhəsiz, bu tumarı çiynimdə gəzdirərdim,
Başıma tac edərdim.
37 Onda atdığım hər addımı Allaha bildirərdim,
Mən bir şahzadə kimi Onun yanına gedərdim.
38 Torpağım da məndən fəryad edirsə,
Kotanın açdığı yarıqlar əlimdən bir ağızdan ağlayırsa,
39 Pulunu vermədən məhsulu yemişəmsə,
Buranın sakinlərinin ürəyini qırmışamsa,
40 Qoy sahəmdə buğda yerinə tikan,
Arpa yerinə alaq bitsin».
Əyyubun söhbəti sona yetdi.

Elihu

32 Beləliklə, bu üç kişi artıq Əyyuba cavab verməyi dayandırdı,
çünki Əyyub öz gözündə saleh idi.
2 Amma Əyyub özünü Allahdan da saleh saydığı üçün Ram nəslindən Buzlu Barakelin oğlu Elihu ona qarşı qəzəbdən alovlandı. 3 Elihu Əyyubun üç dostuna görə də hirsindən alışıb-yandı, çünki düzgün cavab tapmayıb Əyyubu günahkar çıxartdılar. 4 Elihu Əyyubla danışmaq üçün növbəsini gözləyirdi, çünki əvvəlkilər yaşca ondan böyük idi.
5 Bu üç nəfərin daha sözü qalmadığını görəndə o, hirsindən alışıb-yandı.
6 Buzlu Barakelin oğlu Elihu belə dedi:
«Mən yaşca kiçiyəm, sizsə yaşlısınız.
Ona görə çəkindim,
Bildiyimi sizə söyləməyə qorxdum.
7 Dedim "qoy danışsın çox uzun ömür sürənlər,
Qoy hikmət öyrətsin çox illərin şahidləri".
8 Həqiqətən, insanda olan ruh,
Külli-İxtiyarın nəfəsi insana ağıl verir.
9 Hikmət yaşda olmaz,
Ədaləti dərk etmək yaşa baxmaz.
10 Ona görə deyirəm ki, məni dinləyin,
Qoy mən də bildiyimi söyləyim.
11 Siz danışarkən mən gözlədim,
Siz sözləri araşdırarkən fikirlərinizi dinlədim.
12 Bütün diqqətimi sizə tərəf çevirdim,
Amma heç biriniz Əyyuba haqsızlığını sübut etmədiniz,
Onun dediklərinə cavab vermədiniz.
13 Əsla deməyin ki, hikmət tapmışıq,
Haqsızlığını insan yox, Allah ona sübut etsin.
14 Amma Əyyubun sözlərinin hədəfi mən deyiləm,
Sizin sözlərinizlə ona cavab verməyəcəyəm.
15 Onlar məəttəl qaldılar.
Artıq cavab tapmadılar.
Deməyə sözləri qalmadı.
16 Onlar danışmırlar, dayanıblar,
Cavab vermirlər deyə
Mən gözləməliyəmmi?
17 Amma deməyə sözüm var,
Mən də bildiyimi söyləyim.
18 Çünki sinəm sözlə doludur,
Köksümdəki ruh məni sıxır,
19 Az qalır açılmamış şərab kimi,
Təzə tuluqlar kimi bağrım çatlasın.
20 Qoy danışım, rahatca nəfəs alaram,
Dil açıb cavab verim.
21 Heç kimin tərəfini saxlamayacağam,
Heç kimə yaltaqlıq etməyəcəyəm.
22 Çünki yaltaqlıq nədir bilmərəm,
Yoxsa Yaradanım məni yox edər.

33 Əyyub, indisə mənim sözümü dinlə,
Hər kəlməmə qulaq as.
2 Bax ağzımı açıram,
Dilim bu sözləri deyir.
3 Sözlərim səmimi ürəkdən gəlir,
Dodaqlarım biliyi doğru söyləyir.
4 Məni Allahın Ruhu yaratdı,
Külli-İxtiyarın nəfəsi mənə həyat verdi.

5 Əgər əlindən gəlirsə, mənə cavab
ver,
Sıraya düz sözlərini, qarşımda dayan.
6 Mən də Allahın nəzərində sənin
kimiyəm,
Mən də palçıqdan düzəldilmişəm.
7 Dəhşətimdən vahiməyə düşmə,
Bu hücumum sənə ağır gəlməsin.
8 Həqiqətən, səsin hələ
qulaqlarımdadır,
Belə demişdin:
9 "Pakam, günahsızam,
Təmizəm, təqsirsizəm.
10 Yenə də Allah mənə qarşı bəhanə
axtarır,
Məni Özünə düşmən sayır.
11 Ayaqlarımı buxovlayır,
Bütün yollarıma göz qoyur".
12 Amma qoy bunu sənə söyləyim ki,
Sən bu barədə haqsızsan,
Çünki Allah insandan böyükdür.
13 İnsanın heç bir sözünə cavab vermir
deyə
Niyə Onunla çəkişirsən?
14 Çünki insan anlamasa da,
Allah bu və ya digər yolla danışır.
15 Yuxuda, gecə röyalarında,
İnsanlar dərin yuxuya qərq olanda,
Yataqda yatanda
16 İnsanın qulağını açır,
Xəbərdarlıq edərək onu qorxudur ki,
17 İnsan şər iş görməkdən dönsün,
Təkəbbürdən uzaq olsun.
18 İnsanın canını quyudan,
Həyatını qılıncla həlak olmaqdan
qurtarır,
19 İnsanı yatağında ağrılarla,
Sümüklərini kəsilməyən sızıltılarla
yola gətirir.
20 Belə ki könlündən yemək keçmir,
Ən ləziz yeməkdən iyrənir.
21 Əti tökülür, görünməz hala düşür.
Görünməyən sümükləri üzə çıxır.
22 Canı quyuya,
Həyatı ölüm mələklərinə yaxınlaşır.
23 İnsana əməlisalehliyini bəyan
etmək üçün
Min mələyin içindən bir mələk, bir
vasitəçi olsa,
24 O zaman Allah ona rəhm edib
deyər:
"Onu quyuya düşməkdən qurtar,
Onun üçün kəffarə tapmışam".
25 Onda bədəni uşaq bədəni kimi təzə
olar,
Yeniyetməlik dövrünə qayıdar.
26 Dua edəndə Allah ondan razı qalar,
Sevinərək Allahın üzünü görər,
Allah onun vəziyyətini düzəldər.
27 Sonra insanların önündə nəğmə
söyləyər:
"Günah işlədib doğru yoldan
azmışdım,
Allah mənə layiq olduğum cəzanı
vermədi.
28 Canımı quyuya düşməkdən
qurtardı,
Həyatım nur görəcək".
29 Bax Allah bütün bunları insanlara
Ya iki dəfə ya da üç dəfə edər ki,
30 Onların canını quyudan xilas etsin,
Onlar həyatın nurunu görsün.
31 Yaxşı dinlə, Əyyub, bir qulaq as,
Sakit ol, qoy danışım.
32 Əgər deməyə sözün varsa, mənə
cavab ver,
Danış, çünki səni haqlı çıxarmaq
istəyirəm.
33 Sözün yoxsa, mənə qulaq as,
Sakit ol, qoy sənə hikmət öyrədim».

34 Elihu söhbətini belə davam
etdirdi:
2 «Ey hikmətlilər, sözlərimi dinləyin,
Ey çoxbilənlər, məni eşidin.
3 Çünki damaq yeməyin dadını bildiyi
kimi
Qulaq da sözləri müəyyən edir.
4 Gəlin doğrunu seçək,
Birlikdə yaxşını öyrənək.
5 Çünki Əyyub deyir: "Mən
günahsızam,

Allah isə əlimdən haqqımı aldı.
6 Haqlı olduğum halda yalançı
sayılıram,
Bir təqsirim yox ikən oxundan
sağalmaz yara aldım”.
7 Əyyub kimi şəxsiyyət varmı?
O, kinayəni su kimi içir.
8 Pislik edənlərlə yoldaşlıq edib gəzir,
Pis adamlarla yol gedir.
9 Çünki “çalışıb Allahı razı salmaq
İnsana xeyir gətirməz” deyir.
10 Buna görə, ey dərrakəli insanlar,
məni dinləyin!
Məgər Allah pislik edərmi?
Məgər Külli-İxtiyar haqsızlıq edərmi?
11 [l]Çünki O hər kəsə əməlinin əvəzini
verir,
Qazandığını başına gətirir.
12 Məgər Allah pislik edir?
Məgər Külli-İxtiyar haqsızlıq edir?
13 Ona bütün dünyanı kim təslim
etdi?
Kim Onu yer üzərində təyin etdi?
14 Əgər qəsdinə durub
Ruhunu, nəfəsini geri çəkərsə,
15 Bir anda bütün bəşər yox olar,
İnsan torpağa qayıdar.
16 Əgər düşüncən varsa, bunları dinlə,
Sözlərimi eşit.
17 Ədalətə nifrət edən səltənət sürə
bilərmi?
Adil və qüdrəti Olanımı məhkum
edəcəksən?
18 Padşahlara “yaramazsınız”,
Əsilzadələrə “şərsiniz” deyən,
19 Başçılar arasında tərəfkeşlik
etməyən,
Varlını yoxsuldan üstün saymayan
O deyilmi?
Çünki hamını Onun əlləri yaratdı,
20 Hamı bir an içində, bir gecə yarısı
ölüb gedir,
Xalq lərzəyə gəlib ölür.
Güclülər belə, əl dəyməmiş aradan
götürülür.
21 Allah gözlərini insanların yolundan
çəkmir,
Atdıqları hər addımı görür.
22 Şər iş görənlərin gizlənəcəyi
Nə qaranlıq, nə də zülmət yeri var.
23 Hökm üçün hüzuruna gəlsinlər
deyə
Allah insana nəzarət etmək üçün
ehtiyac duymur.
24 İstintaq etmədən güclü insanları
qırır,
Onların yerinə başqalarını qoyur.
25 Çünki onların işlərini bilir,
Bir gecə onları alt-üst edir, onlar
əzilir.
26 Hamının gözü önündə
Pislikləri üzündən onlara cəza verir.
27 Çünki Onun ardınca getmədilər,
Yollarının heç birinə fikir vermədilər.
28 Ona görə yoxsulların fəryadı Onun
hüzuruna yetdi,
O, fəqirlərin fəryadını eşitdi.
29 Amma Allah səssiz dursa, kim Onu
ittiham edə bilər?
Üzünü gizlədərsə, kim Onu görə
bilər?
Hər millət, hər insan üçün O eynidir
ki,
30 Allahsız insan hökmranlıq etməsin,
Xalqa tələ qurmasın.
31 Allaha deyən olubmu:
“Günahkaram, bir də pis iş
görməyəcəyəm?
32 Görmədiyimi mənə göstər,
Haqsızlıq etmişəmsə, bir də etmərəm”.
33 Onu atdığın halda sənə
Kefin istəyən əvəz verməlidirmi?
Qərar verən sənsən, mən deyiləm,
İndi bildiyini mənə söylə.
34 Dərrakəli insanlar,
Məni dinləyən müdrik adamlar
deyəcək:

---

[l]**34:11** Zəb. 62:12

35 "Əyyub avam-avam danışır,
Sözlərinin mənası yoxdur".
36 Bir şər adam kimi cavab verdiyi üçün
Qoy Əyyub axıradək sınaqda olsun!
37 Çünki günahına üsyankarlıq da artırır,
Qarşımızda elə bil rişxənd edərək əl çalır,
Allaha qarşı danışdıqca danışır».

35 Elihu sözünü belə davam etdirdi:
2 «Allah önündə haqlı olduğunu deyirsən.
Bunun doğru olduğunumu düşünürsən?
3 Bəs niyə soruşursan ki, "əgər günah işlətməsəm,
Bundan xeyrim, qazancım nə ola bilər?"
4 Həm sənə, həm də dostlarına
Belə cavab verəcəyəm.
5 Bir bax səmaya,
Nəzər sal başının üstündəki buludlara.
6 [m]Günah işlətsən, bunun Allaha nə ziyanı dəyər?
Nə qədər üsyankar olsan da, Ona bir şey olarmı?
7 Sənin salehliyin Ona nə verir?
Yaxud da O, əlindən nəyi alıb götürür?
8 Pisliyin özün kimisinə ziyan vurur,
Salehliyin isə bəşər oğlu üçündür.
9 İnsanlar ağır təzyiq altında fəryad edir,
Güclülərə qarşı yardım istəyir.
10 Amma deyən yoxdur: "Hanı məni yaradan Allah?
Hanı bizə gecələr ilahilər oxutduran Allah?
11 O bizi yer üzünün heyvanlarından çox öyrədib,
Bizə göydəki quşlardan daha çox hikmət verib".
12 Orada pislərin qüruru üzündən
İnsanlar fəryad edir,
Amma Allah cavab vermir.
13 Əslində Allah boş fəryadı dinləmir,
Külli-İxtiyar buna əhəmiyyət vermir.
14 Sən onu görmədiyini söylədiyin anda belə,
Mübahisən önündədir, Onu gözlə.
15 İndi qəzəblənib cəzalandırmırsa,
Təqsirin çoxluğuna baxmır.
16 Ona görə Əyyub boş yerə ağzını yorur,
Avam-avam danışdıqca danışır».

36 Elihu sözünü belə davam etdirdi:
2 «Bir az səbir elə, sənə izah edəcəyəm,
Çünki Allah barədə deyiləcək çox sözüm var.
3 Geniş məlumat toplayacağam,
Yaradanıma haqq verəcəyəm.
4 Dediyimin heç biri, şübhəsiz, yalan deyil,
Qarşında dayanan kamil bilicidir.
5 Allah güclüdür, kimsəyə xor baxmaz,
Güclüdür, dərin şüura malikdir.
6 Pis adamları yaşatmaz,
Fəqirlərin haqqını verər.
7 Salehdən gözünü çəkməz,
Onu padşahlarla birgə taxtda oturdar,
Əbədilik ucaldar.
8 Amma əgər insanlar zəncirlənib
Təzyiq altında saxlanarsa,
9 Onlara əməllərini, günahlarını göstərər,
Təkəbbürlü rəftar etdiklərini bildirər.
10 Öyüdlərini eşitdirər,
Pislikdən dönmələrini əmr edər.
11 Əgər Ona qulaq asıb qulluq edərlərsə,
Qalan günlərini bolluq içində yaşarlar,
Qalan illərini əmin-amanlıqda yaşarlar.
12 Qulaq asmazlarsa, qılıncdan keçirilərlər,

---

[m]**35:6** Əyy. 22:2-3

Cəhalət içində canları çıxar.
13 Allahsızlar ürəklərində kin saxlayırlar,
Allah onları qandallayanda belə, Onu çağırmırlar.
14 Vaxtsız ölüb gedərlər,
Şərəfsiz ömür sürərlər.
15 Amma Allah əzabkeşləri əzablarından xilas edər,
Dara düşəndə onlara səsini eşitdirər.
16 Bəli, O səni çətinlikdən
Darısqal olmayan geniş yerə,
Yağlı yeməklərlə bəzənmiş süfrəyə çıxarar.
17 Amma şərin hökmü vücuduna dolar,
Haqq-ədalət isə yaxandan tutar.
18 Ehtiyatlı ol, qoy pul səni başdan çıxarmasın,
Rüşvətin böyüklüyünü görüb azmayasan.
19 Səni dardan qurtarmağa,
Varının, yoxsa qüdrətinin gücü çatarmı?
20 Xalqların öz yerlərindən
Yox edildiyi gecənin həsrətini çəkmə.
21 Ehtiyatlı ol ki, şərə tərəf dönməyəsən,
Çünki zəlil olmaqdan çox bunu seçmisən.
22 Budur, Allah əzəməti ilə ucalır,
Onun kimi müəllim haradadır?
23 Kim Ona nə etməsinin lazım olduğunu söyləyə bilər?
Kim Ona "haqsızsan" deyə bilər?
24 Onun işlərini yada sal,
İnsanların ilahilərlə tərənnüm etdiyi işləri mədh etməlisən.
25 Bütün insanlar bunu görür,
Hamı bu işləri uzaqdan seyr edir.
26 Bəli, Allah çox böyükdür, Onu tanıya bilmirik,
İllərinin sayını araşdıran yoxdur.
27 Su damcılarını yuxarı qaldırır,
Buxarlandırır, yağış yağdırır.
28 Bu yağışlar buludlardan tökülür,
İnsanların üstünə bol yağışlar səpilir.
29 Buludların necə yayılmasını,
Göylərin çadırında guruldamasını
Kim dərk edə bilər?
30 Baxın, ətrafında şimşəkləri çaxdırır,
Dənizin dərinliklərini doldurur.
31 Allah xalqlara rəhbərlik edir,
Onları bol ərzaqla təmin edir.
32 Şimşəyi əlləri ilə tutur,
Hədəfə vurmasını buyurur.
33 Gurultusu qasırğadan xəbər verir,
Qasırğanın qopacağını öküzlərə belə, bildirir.

37 Bundan qəlbim çırpınıb yerindən oynayır,
2 Dinləyin! Gurlayan səsini dinləyin,
Ağzından çıxan harayını eşidin!
3 Göy altında, hər yanda səs salır,
Yer üzünün dörd bucağında şimşəyini çaxdırır.
4 Ardınca nərə vurur,
Əzəmətli səsi ilə gurlayır,
Həniri eşidilir, dayanmadan şimşək çaxır.
5 Allahın səsi heyrətamiz şəkildə gurlayır,
O bizə məlum olmayan böyük işlər görür.
6 Çünki "yerə yağ" deyə qara əmr edir,
Leysana "şiddətlə tökül" deyir.
7 Yaratdığı bütün insanlar Onun işlərini bilsinlər deyə
Hər kəsin əlini işdən saxlayır.
8 Heyvanlar yuvalarına çəkilir,
Öz yerlərində qalır.
9 Tufan otağından çıxır,
Soyuq şimal yellərindən gəlir.
10 Allahın nəfəsi suları dondurur,
Ümman sular buz bağlayır.
11 Buludlara nəm çəkdirərək yükləyir,
Buludlar içindən şimşək səpələyir.
12 Buludlar yer üzündə əmrini yerinə yetirmək üçün
Onun istəyi istiqamətində dönüb fırlanır.

13 Bəzən insanları cəzalandırmaq üçün,
Bəzən torpağı suvarmaq üçün,
Bəzən də sevgisini göstərmək üçün yağış göndərir.
14 Əyyub, bunu dinlə,
Bir dayan, Allahın heyrətamiz işlərindən düşün.
15 Allahın buludlar üçün necə nizam qurduğunu bilirsənmi?
Buludlarındakı şimşəkdən necə od çıxır?
16 Buludların tarazlığını,
Kamil biliyə malik olanın heyrətamiz işlərini bilirsənmi?
17 Səmum küləyi dünyanın nəfəsini kəsərkən
Paltarın içərisində istidən huşunu itirirsən.
18 Tökmə bürünc ayna kimi möhkəm olan göy qübbəsini
Allahla birlikdə sərə bilirsənmi?
19 Ona nə deyəcəyimizi bizə öyrət,
Çünki cəhalətimiz üzündən sözlərimiz nizamsızdır.
20 Onunla danışmaq istərəm, bu Ona xəbər verilərmi?
Kimsə udulmasını istərmi?
21 Külək qurtaranda, göyü təmizləyəndə
Göydə parlayan işığa kimsə baxmaz.
22 Şimaldan qızılı parıltı görünür,
Allah qüdrətli əzəmətində gəlir.
23 Biz Külli-İxtiyarı tapa bilmərik,
Qüvvəti möhtəşəmdir.
Salehliyi misilsizdir, ədalətlidir,
Heç haqsızlıq etmir.
24 Buna görə insanlar Ondan qorxar,
O özünü hikmətli sayanlara baxmaz».

Allah danışır

38 O zaman Rəbb qasırğanın içindən Əyyuba belə cavab verdi:
2 [n]«Məsləhəti savadsız sözlərlə qaranlığa salan bu kimdir?
3 İndi kişi kimi belinə qurşaq bağla,
Sual verəcəyəm, Mənə cavab ver.
4 Mən yerin təməlini qoyarkən haradaydın?
Anlayışın varsa, söylə.
5 İndi ki bilirsən,
De görüm, yerin ölçüsünü kim qoydu,
Yaxud yer üstündə ölçü xəttini kim çəkdi?
6 Nəyin üstündə onun təmelləri quruldu?
Kim onun guşədaşını qoydu?
7 Onda dan ulduzları birgə nəğmə oxuyurdu,
Bütün ilahi varlıqlar sevincdən haray salırdı.
8 [o]Dəniz bətndən çıxıb fışqırarkən
Onu qapılar arasında kim bağladı?
9 Ona buludları libas,
Qatı qaranlıqları qundaq etdim.
10 Onun sərhədini çəkdim,
Qapı və cəftələrini qoydum.
11 O vaxt dedim: “Buraya qədər gəlib o tərəfə çıxmayacaqsan,
Qürurlu dalğaların burada dursun”.
12 Sən ömründə səhərə buyruq verdinmi?
Şəfəqə yerini göstərdinmi?
13 Belə ki yer üzünün ucqarlarını tutsun,
Üstündən pisləri çırpıb atsın.
14 Torpağın quruluşu dəyişir,
Möhür vurulanda palçıqda əksi qalan kimi,
Libasdakı qırışlar kimi gözə görünür.
15 Pislərin nuru batırılar,
Qaldırdıqları qolları qırılar.
16 Dənizin mənbələrinə getmisənmi?
Dərinliyin dibində gəzmisənmi?
17 Ölüm dərgahı sənə göstərilibmi?
Ölüm kölgəsinin qapılarını görmüsənmi?

---

[n]**38:2** Əyy. 42:3 [o]**38:8** Yer. 5:22

18 Dünyanın həcmini dərk edə
bilirsənmi?
De görüm, bunların hamısını
bilirsənmi?
19 İşıq məskəninə gedən yol
haradadır?
Qaranlığın yeri haradadır?
20 Onları yerlərinə apara bilərsənmi?
Evlərinin yolunu bilirsənmi?
21 Əlbəttə, heç nə anlamırsan,
Çünki onlarla eyni vaxtda
doğulmusan!
Yaşın bu qədərdir.
22 Qar anbarlarına girmisənmi?
Dolu anbarlarını görmüsənmi?
23 Mən onları dar gün üçün,
Döyüş və müharibə günləri üçün
saxlayıram.
24 Hansı yolla işıq yayılar,
Yer üzündə şərq küləyi qopar?
25 Kim sellər üçün arx,
İldırım üçün yol açdı ki,
26 Kimsəsiz yerləri,
İnsan yaşamayan çölləri sulasın,
27 Səhralar – biyabanlar doyunca su
içsin,
Yaşıl ot bitsin?
28 Yağışın atası varmı?
Şeh damlalarını kim yaratdı?
29 Buz kimin bətnindən çıxdı?
Göylərdən düşən şaxtanı kim doğdu?
30 Sular nə zaman daş kimi bərkiyir,
Dərinliklərin səthi donur?
31 [p]Ülkər ulduzlarını bağlaya
bilərsənmi?
Orionun bağlarını açа bilərsənmi?
32 Hər bürcü öz vaxtında çıxara
bilərsənmi?
Böyük, Kiçik Ayı bürcünə yol göstərə
bilərsənmi?
33 Göylərin qanunlarını bilirsənmi?
Allahın hakimiyyətini yer üzərində
qura bilərsənmi?
34 Başına bol yağış yağsın deyə
Buludları səsləyə bilərsənmi?
35 Şimşəkləri göndərə bilərsənmi
getsinlər,
Sənə də "bax buradayıq" desinlər?
36 Kim ürəyə hikmət qoydu,
Dərk etmək üçün şüur verdi?
37 Kim buludları ağılla saya bilər?
Göyün tuluqlarını kim boşalda bilər?
38 Onda toz yatıb yer bərkiyər,
Kəsəklər bir-birinə yapışar.
39 Dişi aslanlar üçün ov ovlaya
bilərsənmi,
Gənc aslanların qarnını doyura
bilərsənmi
40 Yuvalarına girəndə,
Kolluqda pusqu quranda?
41 Kim qarğaya yem verə bilər
Balaları Allaha fəryad edəndə,
Acından vurnuxanda?

39 Dağ keçilərinin nə vaxt
doğduğunu bilirsənmi?
Maralların balalamasının vaxtını sən
gözləyirsənmi?
2 Onlar boğaz olanda ayını-gününü
sən sayırsanmı?
Nə vaxt doğacaqlarını bilirsənmi?
3 Diz çöküb balalarını doğar,
Ağrılardan qurtarar.
4 Balaları çöldə böyüyüb güc alar,
Gedər, geri qayıtmaz.
5 Kim vəhşi eşşəyi azad buraxdı?
Kim onun iplərini açdı?
6 Ona çölləri məskən verdim,
Şoran düzləri ona yurd etdim.
7 O, şəhərdəki izdihama gülər,
Sahibinin hay-küyünü eşitməz.
8 Təpələri dolaşıb otlar,
Yaşıllığı axtarar.
9 Çöl öküzü sənə xidmət etmək
istəyərmi?
Gecəni sənin axurunda keçirərmi?
10 Kotan sürsün deyə onu
boyunduruğa sala bilərsənmi?
Ardınca dərələrdə şırım açа bilərmi?

---

[p]**38:31** Əyy. 9:9; Amos 5:8

11 Onun hədsiz gücünə bel bağlaya
bilərsənmi?
Ona ağır iş gördürə bilərsənmi?
12 Çöl öküzünə etibar edə bilərsən ki,
Əkininin məhsulunu daşısın,
Onu xırmanına yığsın?
13 Dəvəquşu qanadını sevinclə çırpar,
Amma onun qanadı nə leyləyin
qanadları ilə,
Nə də ki pərləri ilə müqayisə olunur.
14 Yerdə yumurtalayır,
Onları toz-torpaq üstündə qızdırır.
15 Yadından çıxarır ki, yumurtalar
ayaq altında sınır,
Çöl heyvanlarının ayağı altında qalır.
16 Balaları ilə elə sərt rəftar edir ki,
Elə bil özününkü deyil,
Çəkdiyi zəhmətin boşa getməsindən
narahat olmaz.
17 Çünki Allah ona müdriklik
verməyib,
Ona dərrakə bəxş etməyib.
18 Qaçmaq üçün yenə qanad açanda
Ata və atlıya gülər.
19 Ata güc verən sənsənmi?
Boynuna yalı qoyan sənsənmi?
20 Onu çəyirtkə kimi tullandıran
sənsənmi?
Onun təmtəraqlı kişnəməsi xof salır.
21 Dərələrə ayağını bərk vurur,
Öz qüvvəsi ilə sevinib-coşur,
Silahlıların qabağına çıxır.
22 Qorxuya gülər, heç bir şeydən
çəkinməz,
Qılınc qarşısında ayağını geri çəkməz.
23 Onun üstündə oxdan cingildəyir,
Parlaq nizə və mizraq şimşək tək
keçir.
24 Coşanda qəzəblənib yeri-yurdu
qapır,
Şeypur çalınan kimi yerindən dik
atılır.
25 Şeypur çalınanda "hiaaa!" deyib
kişnəyir,
Döyüş qoxusunu, sərkərdələrin
gurlayan səsini,
Döyüşün nərəsini uzaqdan hiss edir.
26 Məgər qırğı sənin dərrakənləmi
uçur,
Cənuba tərəf qanad açır?
27 Məgər qartal sənin əmrinləmi göyə
qalxır,
Uca yerlərdə özünə yuva qurur?
28 Sıldırım qayalarda yaşayır,
Şiş uclu qayalarda məskən salır.
29 Oradan şikarını axtarır,
Gözləri onları uzaqdan görür.
30 [q]Onun balaları qanla qidalanır,
Harada leş olsa, o da oradadır».

40 Rəbb Əyyuba belə dedi:
2 «Kim ki tənbehə layiq görülür,
O, Külli-İxtiyarla mübahisə edə
bilərmi?
Qoy buna Allahı ittiham edən cavab
versin».
3 Onda Əyyub Rəbbə belə cavab verdi:
4 «Mənim gərəksizliyimə bax,
Sənə necə cavab verim,
Ağzımı əlimlə tutmuşam.
5 Bir dəfə danışdım, daha cavabım
yoxdur,
Artıq ikinci dəfə nə danışım».
6 Rəbb qasırğanın içindən Əyyuba
cavab verdi:
7 «İndi kişi kimi belinə qurşaq bağla,
Sual verəcəyəm, Mənə cavab ver.
8 Sənmi ədalətimi boşa çıxaracaqsan?
Özünə haqq qazandırmaq üçün sənmi
Məni günahlandıracaqsan?
9 Allahın qolu kimi qolun varmı?
Səsin Onunku kimi gurlayarmı?
10 Əgər belədirsə, şərəfə, şana bürün,
Ehtişamı, əzəməti geyin.
11 Qoy qəzəbinin alovu saçsın,
Hər qürurluya baxıb onları alçalt.
12 Qürurluların hamısına baxıb aşağı
endir,
Pisləri yerindəcə təpiyinin altına sal.

---

[q]**39:30** Mat. 24:28; Luka 17:37

13 Hamısını birlikdə torpaq altında basdır,
Məzarda üzləri kəfənə bürünsün.
14 O zaman Mən də bunu qəbul edərəm,
Belə ki sağ qolun səni qurtarır.
15 Behemota *bax, öküz kimi ot yeyir,
Səni yaratdığım kimi onu da Mən yaratmışam,
16 Gör belində nə qədər güc var,
Qarın əzələləri necə möhkəmdir.
17 Sallanan quyruğu sidr ağacına bənzəyir,
Budlarındakı vətərlər bir-birinə hörülüb.
18 Sümükləri sanki tunc borudur,
Qabırğaları elə bil dəmir çubuqdur.
19 Allahın işləri arasında şah əsərdir,
Yalnız Yaradan ona qılıncla yaxınlaşa bilir.
20 Təpələr məhsullarını ona verir,
Bütün çöl heyvanları yanında oynaşır.
21 Nilufərlərin altında,
Qamışla örtülü bataqlıqlarda yatır.
22 Nilufərlər üstünə kölgə salır,
Dərənin söyüdləri onu əhatəyə alır.
23 Coşğun çaylardan qorxmur,
Sellər boğazına çatsa da, arxayındır.
24 Gözləri açıq ikən kim onu tuta bilər?
Kim qıra ilə onun burnunu deşər?

41 Məgər sən Livyatanı †qarmaqla çəkə bilərsənmi?
Dilinə qaytan vura bilərsənmi?
2 Burnuna ip taxa bilərsənmi?
Qıra ilə çənəsini deşə bilərsənmi?
3 Sənə yalvarıb-yaxararmı,
Sənlə şirin-şirin danışarmı?
4 Əbədi qulun olmaq üçün
Sənlə əhd kəsərmi?
5 Quşla oynadığın kimi onunla oynaya bilərsənmi?
Boynuna ip bağlayıb onu qızların üçün apara bilərsənmi?
6 Məgər tacirlər onu alıb-satarlarmı?
Aralarında bölə bilərlərmi?
7 Yabalarla dərisini,
Balıqçı neştərləri ilə başını doldura bilərsənmi?
8 Əlini onun üstünə qoy, nə cəncələ düşəcəyini təsəvvür et,
Onda bu işi bir daha görməzsən.
9 Onu tutmaq ümidin boş istəkdir.
Onun görkəmi adamı yıxmırmı?
10 Onu oyatmaq üçün heç kimdə cəsarət yoxdur.
Bəs Mənim qarşımda kim dayana bilər?
11 [r]Kim Mənə bir şey verib ki, ona geri qaytarım?
Bax göylər altında hər şey Mənimdir.
12 Sözümü kəsməyib onun əzalarından,
Möhkəm gücündən və gözəl görünüşündən deyəcəyəm.
13 Üstündəki paltarı kim çıxara bilər?
Qoşa cilovla kim ona yaxınlaşa bilər?
14 Ağzının qapılarını kim açа bilər?
Çünki damağındakı dişlər dəhşətlidir.
15 Kürəyi nizamla düzülmüş qalxanlara oxşayır,
Onlar bir-birinə möhkəm bağlanıb,
16 Bir-birlərinə elə bağlanıb ki,
Arasından hava keçməz.
17 Bir-birlərinə elə yapışıb ki,
Birdir, ayrılmaz.
18 Asqıranda od sıçrayır,
Gözləri səhər işığı tək par-par yanır.
19 Ağzından alovlu məşəllər çıxır,
Qığılcımlar saçılır.
20 Burnunun deşiklərindən tüstü çıxır,
Elə bil qazan qaynayır, qamış yanır.
21 Nəfəsindən kömürlər közərir,
Ağzından alov çıxır.

---

*40:15 *Behemot* – bu gün bizə məlum olmayan nəhəng su heyvanı.
†41:1 *Livyatan* – bu gün bizə məlum olmayan nəhəng su heyvanı.

[r]41:11 Rom. 11:35

22 Boynunda qüvvət yaşayır,
Qabağında dəhşət oynayır.
23 Ətinin qatları bir-birinə bitişib,
Oradan tərpənə bilməz, üstünə bərk yapışıb.
24 Ürəyi daş kimi möhkəmdir,
Dəyirmanın alt daşı kimi bərkdir.
25 Qalxanda güclülər lərzəyə gəlir,
Qorxub ürəkləri gedir.
26 Üstünə qılınc çəkməyin faydasızdır,
Nizə, tir, mizraqdan kar aşmır.
27 Dəmiri saman çöpü,
Tuncu çürük odun sayır.
28 O, oxlardan qaçmır,
Sapanddan daş atsan, elə bilər ki, çöpdür.
29 Dəyənəkləri küləş qırıntısı sanır,
Mizraqın vıyıltısına gülür.
30 Qarnının altı sərt saxsıya oxşayır,
Palçıq üstə vəl kimi iz qoyur.
31 Dərin suları bir qazan kimi qaynadır,
Dənizi ətir küpünə döndərir,
32 Arxasınca parlaq bir iz buraxır,
İnsan bu dərinliyi ağaran saça oxşadır.
33 Yer üzündə misli-bərabəri yoxdur,
Qorxu bilməyən məxluqdur.
34 Hər lovğalanana xor baxır,
Bütün məğrur heyvanların hakimidir».

42 O vaxt Əyyub Rəbbə belə cavab verdi:
2 «Bilirəm, Sən hər şeyə qadirsən,
Sənin istəyinin qarşısı alınmaz.
3 [s]Soruşdun: "Məsləhəti savadsızcasına ört-basdır edən bu kimdir?"
Doğrudan da, bilmədiyim şeylərdən,
Əlim çatmadığı heyrətamiz işlərdən danışdım.
4 [t]Dedin: "İndi qulaq as, Mən danışacağam,
Sual verəcəyəm, Mənə cavab ver".
5 Qulaqlarıma sorağın çatmışdı,
İndisə Səni gözlərimlə görürəm.
6 Ona görə özümdən zəhləm gedir,
Torpağın, külün içində tövbə edirəm».

Nəticə

7 Rəbb Əyyuba bu sözləri deyəndən sonra Temanlı Elifaza dedi: «Sənə və iki dostuna qarşı qəzəbdən alışıb-yandım. Çünki siz qulum Əyyub kimi Mənim haqqımda doğru olanı demədiniz. 8 İndi özünüz üçün yeddi buğa və yeddi qoç alıb qulum Əyyubun yanına gedin və özünüz üçün yandırma qurbanı təqdim edin. Qulum Əyyub sizin üçün dua etsin. Mən də onun duasını qəbul edib sizinlə axmaqlığınıza görə rəftar etməyəcəyəm, çünki siz qulum Əyyub kimi Mənim haqqımda doğru olanı demədiniz».
9 Beləcə Temanlı Elifaz, Şuahlı Bildad və Naamatlı Sofar gedib Rəbbin onlara dediklərinə əməl etdi. Rəbb də Əyyubun duasını qəbul etdi.

10 [u]Əyyub dostları üçün dua edəndən sonra Rəbb ondan alınanları geri qaytardı. O, Əyyuba bütün qabaqkı malından da ikiqat artıq var-dövlət verdi. 11 Əyyubun bütün qardaşları, bacıları və bütün əvvəlki dost-tanışları yanına gəlib evində onunla çörək yedi və dərdinə şərik oldular. Rəbbin onun başına gətirdiyi bütün bəlalara görə ona təsəlli verdilər. Hər biri ona bir parça gümüş və bir qızıl halqa verdi.

12 Rəbb Əyyubun axır günlərini əvvəlki günlərindən daha çox bərəkətli etdi. Onun on dörd min qoyunu, altı min dəvəsi, min cüt öküzü və min eşşəyi var idi. 13 Əyyubun yeddi oğlu, üç qızı oldu. 14 İlk qızının adını Yemima, ikincisinin adını Qesia, üçüncüsünün adını Qeren-Happuk qoydu. 15 Ölkənin heç bir yerində Əyyubun qızları kimi gözəl qızlar yox idi. Əyyub onlara da qardaşları ilə yanaşı miras verdi.

---

[s] **42:3** Əyy. 38:2 [t] **42:4** Əyy. 38:3 [u] **42:10** Əyy. 1:1-3

16 Bundan sonra Əyyub yüz qırx il
yaşadı və dörd nəsil övladlarını gördü.
17 O qocalıb yaşa dolaraq öldü.

ZƏBUR

GİRİŞ

«Zəbur» Müqəddəs Kitabın mədh və dualar toplusudur. Bu mədh və dualar uzun illərin məhsulu olub müxtəlif müəlliflər tərəfindən musiqi üstündə yazılmışdır. Hər fəsil ayrılıqda məzmur, yəni ruhani nəğmə adlanır. İsrail xalqı dini ibadətlərində məzmurlardan geniş istifadə edirdi.

Bu mədh və dualar poetik üslubda yazılmışdır. Onlar məzmunca müxtəlifdir: Allaha mədh ilahiləri, kömək, müdafiə, qurtuluş üçün dualar, bağışlanma yalvarışları, Allaha minnətdarlıq məzmurları, tövbə duaları və s. *«Zəbur»* Kitabında insan duyğuları bütün dolğunluğu ilə təsvir edilir. Kitabın ümumi ideyası budur ki, insan hansı vəziyyətə düşürsə-düşsün, Allah onunladır. Burada həyat həqiqəti və Allahın məhəbbəti sarsılmaz imanla bağlanır. Elə bir insan yoxdur ki, *«Zəbur»* Kitabını oxuyub orada öz duyğularının əksini tapmasın.

Bu kitab İsa Məsihə iman edənlərin cəmiyyətlərinin yaranmasından bəri istifadə etdikləri ruhani xəzinələrdən biridir.

Rus və bəzi tərcümələrdə məzmurların əksəriyyəti qədim yunan tərcüməsinə əsaslandığından sıra sayı fərqlidir. Əlinizdəki tərcümədə isə onların sıra sayı əsl ibrani mətnində, ingilis və başqa Avropa dillərində olan tərcümələrdə istifadə olunan sıra sayına uyğundur. İbrani mətni ilə qədim yunan tərcüməsində olan sıra sayının fərqi belədir:

İbrani mətni (qədim yunan tərcüməsi): 1-8(1-8), 9-10(9), 11-113(10-112), 114-115(113), 116(114-115), 117-146(116-145), 147(146-147), 148-150(148-150)

Kitabın məzmunu:

«Zəbur» Kitabı ənənəvi olaraq 5 hissəyə bölünür:

1. 1-41-ci məzmurlar
2. 42-72-ci məzmurlar
3. 73-89-cu məzmurlar
4. 90-106-cı məzmurlar
5. 107-150-ci məzmurlar

Birinci hissə

1-41-ci məzmurlar

Məzmur 1

1 Pislərin məsləhəti ilə getməyən,
Günahkarların yolunda dayanmayan,
Rişxəndçilərin arasında oturmayan insan nə bəxtiyardır!
2 O ancaq Rəbbin Qanunundan zövq alar,
Gecə-gündüz bu təlimatı dərin düşünər.
3 [v]Axar sular kənarında əkilən ağac kimi
Barını mövsümündə verər,
Yarpağı solmaz,
Etdiyi hər işdə uğur qazanar.
4 Pis adamlarsa belə deyil,
Onlar yelin sovurduğu saman çöpünə bənzəyər.
5 Buna görə pis adamlar hökm günündə,
Günahkarlar salehlərin məclisində dayana bilməz.
6 Çünki Rəbb salehlərin yolunu bilər,
Pislərin yolu isə məhv olar.

Məzmur 2

2 [w]Nə üçün millətlər belə vurnuxmaya düşür,
Ümmətlər boş şeylər düşünür?

---

[v]**1:3** Yer. 17:8 [w]**2:1** Həv. 4:25-26

2 Dünya şahları yığışır,
Hökmdarlar Rəbbə və
Onun məsh etdiyinə qarşı birləşir.
3 Deyirlər: «Gəlin onların buxovlarını qoparaq,
Üstümüzdəki zəncirlərini ataq».
4 Göylərin sakini gülür,
Xudavənd onlara istehza edir.
5 Sonra onlara hiddəti ilə xəbərdarlıq edəcək,
Qəzəbi ilə onları dəhşətə gətirəcək.
6 O deyir: «Mən padşahımı
Müqəddəs dağım Sionda əyləşdirmişəm».
7 [x]Rəbbin fərmanını elan edəcəyəm.
Rəbb mənə dedi:
«Sən Mənim oğlumsan,
Mən bu gün sənə Ata oldum.
8 Məndən istə, onda irs olaraq millətləri,
Mülk olaraq yer üzünün qurtaracağınadək hər yeri
Sənə verərəm.
9 [y]Onları dəmir əsa ilə qıracaqsan,
Saxsı qab kimi çilik-çilik edəcəksən».
10 İndi, ey şahlar, müdrik olun!
Ey dünya hakimləri, ibrət alın!
11 Rəbdən qorxub Ona xidmət edin,
Həm titrəyin, həm sevinin.
12 Oğulu öpün ki, qəzəblənməsin,
Yoxsa tutduğunuz yolda məhv olarsınız.
Çünki qəzəbi tezliklə alovlanar.
Ona pənah gətirənlərin hamısı nə bəxtiyardır!

Məzmur 3

Davudun məzmuru.

[z] *Oğlu Avşalomun qarşısından qaçanda.*

3 Ya Rəbb, düşmənlərim nə qədər çoxalıb!
Əleyhimə qalxanlar nə qədər artıb!
2 Mənim üçün çoxları deyir:
«Allahdan ona xilas yoxdur». *Sela*[*]
3 Amma Sən, ya Rəbb, ətrafımda sipərsən,
Şərəfimsən, başımı ucaldan Sənsən!
4 Rəbbi ucadan səsləyirəm,
O, müqəddəs dağından mənə cavab verir. *Sela*
5 Mən yatıram, yuxuya gedirəm,
Yenə oyanıram, çünki Rəbb mənə kömək edir.
6 Hər yandan məni mühasirəyə alan
On minlərlə xalqdan qorxmuram.
7 Qalx, ya Rəbb! Ey Allahım, məni qurtar!
Çünki Sən bütün düşmənlərimin əngindən vurursan,
Pislərin dişlərini qırırsan.
8 Qurtuluş Rəbdəndir,
Qoy Sənin xeyir-duan xalqının üzərində olsun! *Sela*

Məzmur 4

Musiqi rəhbəri üçün. Davudun simli alətlərin müşayiəti ilə oxunan məzmuru.

4 Səni çağıranda mənə cavab ver,
Ey adil Allahım!
Dara düşən zaman məni genişə çıxar,
Mənə lütf edib duama qulaq as!
2 Ey insan övladları, nə vaxtadək
Şərəfimi rüsvayçılığa çevirəcəksiniz?
Nə vaxtadək boş şeylərə meyl göstərib
Yalan axtaracaqsınız? *Sela*
3 Bilin ki, mömin insanı Rəbb Özü üçün ayırıb;
Nə vaxt Rəbbi çağırsam, məni eşidir.
4 [a]Qorxub-titrəyin, günah etməyin,
Yatağınızda olarkən ürəyinizdə düşünün, dinməyin. *Sela*
5 Salehlik qurbanları kəsin,
Rəbbə güvənin.

---

[*]**3:2** *Sela* – fərz edilir ki, bu bir musiqi terminidir.

[x]**2:7** Həv. 13:32-33; İbr. 1:5; 5:5 [y]**2:9** Vəhy 2:26-28; 12:5; 19:15
[z]**3:0** 2Şam. 15:13–17:22 [a]**4:4** Ef. 4:26

6 Çoxları deyir: «Kim bizə yaxşılıq
edəcək?»
Ya Rəbb, üzünün nurunu üstümüzə
sal.
7 Onların bol taxıl və təzə şəraba görə
sevindiklərindən də çox
Mənim qəlbimə sevinc verdin.
8 Arxayın yatıb yuxuya gedirəm,
Çünki yalnız Sən, ya Rəbb, məni
əmin-amanlıqda yaşadırsan!

Məzmur 5

Musiqi rəhbəri üçün. Davudun nəfəs alətlərinin müşayiəti ilə oxunan məzmuru.

5 Ya Rəbb, sözlərimə qulaq as,
Ah-naləmə nəzər sal.
2 Ey Padşahım, ey Allahım, fəryad
səsimə qulaq as,
Çünki Sənə dua edirəm.
3 Ya Rəbb, səhər erkən səsimi
eşidirsən,
Səhər erkən Sənə dua edib cavab
gözləyirəm.
4 Çünki Sən pislikdən xoşlanan Allah
deyilsən,
Şər Sənin yanına gəlməz.
5 Təkəbbürlülər hüzurunda dayana
bilməz,
Bütün şər iş görənlərə nifrət edirsən.
6 Yalan söyləyənləri məhv edirsən,
Ya Rəbb, qaniçənlərdən,
hiyləgərlərdən ikrah edirsən.
7 Fəqət mən bol məhəbbətin naminə
evinə gələcəyəm,
Üz tutub müqəddəs məbədinə qorxu
ilə səcdə edəcəyəm.
8 Ya Rəbb, ədalətinlə məni düz yola
yönəlt,
Düşmənlərimin üzündən Öz yolunu
qarşımda düzəlt.
9 [b]Onların dillərində düz söz yoxdur,
Ürəkləri pis niyyətlə doludur.
Boğazları açıq qəbirdir,
Dilləri yalan danışır.
10 Ey Allah, onları təqsirkar çıxar,
Qoy niyyətlərinə görə bu şər insanlar
yıxılsın.
Onları saysız günahlarına görə qov,
Çünki Sənin əleyhinə qalxıblar.
11 Sənə pənah gətirənlərsə qoy
sevinsin,
Qoy Səni daima mədh etsinlər,
Çünki onları Sən qoruyursan.
Sənin adını sevənlər sevincdən cuşa
gəlsin!
12 Ya Rəbb, salehə xeyir-dua verirsən,
Lütfünlə sipər kimi onları hifz edirsən.

Məzmur 6

Musiqi rəhbəri üçün. Davudun səkkiz simli alətlərin müşayiəti ilə oxunan məzmuru.

6 [c]Ya Rəbb, qəzəblənib məni
töhmətləndirmə,
Hiddətlənib məni tənbeh etmə.
2 Ya Rəbb, mənə rəhm et,
Çünki taqətim qalmayıb.
Mənə şəfa ver, ya Rəbb,
Sümüklərim sızlayır.
3 Canıma vəlvələ düşüb.
Ya Rəbb, bu nə vaxtadək olacaq?
4 Ya Rəbb, gəl, mənə kömək et,
Məhəbbətin naminə məni xilas et!
5 Ölüb-gedən insan Səni xatırlamaz.
Axı ölülər diyarından kim Sənə şükür
edəcək?
6 Öz ah-naləmdən bezmişəm,
Hər gecə ağlamaqdan döşəyim islanır,
Göz yaşlarımdan yatağım yaş olur.
7 Qəmdən gözümün nuru sönüb,
Gözlərim düşmənləri görməkdən
zəifləyib.
8 [d]Siz ey şər iş görənlər, məndən uzaq
durun!
Çünki Rəbb hönkürtümü eşitdi,
9 O, yalvarışımı dinlədi,
Rəbb duamı qəbul etdi!
10 Bütün düşmənlərim rüsvay olacaq,
Canlarına vəlvələ salınacaq,

---

[b]**5:9** Rom. 3:13 [c]**6:1** Zəb. 38:1 [d]**6:8** Mat. 7:23; Luka 13:27

Xəcalət içində bir andaca geri
qayıdacaq.

Məzmur 7

*Davudun Binyaminli Kuşa görə
Allaha oxuduğu şiqqayon.*

7 Ey Rəbb Allahım, Sənə sığınmışam,
Məni bütün təqibçilərimdən qurtar,
Məni xilas et.
2 Yoxsa aslan kimi məni parçalayarlar,
Xilas edən olmasa, məni
didib-dağıdarlar.
3 Ya Rəbb Allahım, əgər günah
etmişəmsə,
Əllərimdən haqsızlıq gəlibsə,
4 Əgər dostuma xəyanət etmişəmsə,
Düşmənimi nahaqdan qarət
etmişəmsə,
5 Qoy məni düşmən qovub tutsun,
Bədənimi təpik altına salsın,
Şərəfimi yerə vursun. *Sela*
6 Qəzəblə qalx, ya Rəbb,
Düşmənlərimin hiddətinə qarşı çıxıb
yüksəl!
Mənə görə oyan,
Hökmünü bəyan et!
7 Ümmətlər icması Sənin ətrafına
yığılsın,
Sən onların başı üzərində ucal,
hökmünü ver.
8 Rəbb xalqlar üzərində hakimlik edir;
Məni mühakimə et, ya Rəbb,
Salehliyimə, kamilliyimə görə mənə
haqq qazandır!
9 [e]Pislərin pisliyi sona yetsin,
Salehlərsə möhkəmlənsin!
Ey adil Allah, çünki Sən düşüncələri,
hissləri bilirsən.
10 Allah mənim sipərimdir,
Ürəyidüz olanları xilas edir.
11 Allah adil hakimdir,
Hər gün haqsızlığa görə hökm verir.
12 Pislər yolundan dönməzsə,
O, qılıncını itilər,
Ox-kamanını qurar,
13 Onlara qarşı ölüm silahları
hazırlayar,
Yandırıcı oxları ilə nişan alar.
14 [f]Pislər hiyləyə hamilə olar,
Şər üçün ağrı çəkər, yalan doğar.
15 Onlar başqasına quyu qazar,
dərinləşdirər,
Qazdıqları quyuya özləri düşər.
16 Yamanlıqları öz üstlərinə dönər,
Zorakılıqları başlarına düşər.
17 Rəbbə ədalətinə görə şükür
edəcəyəm,
Haqq-Taala Rəbbin ismini tərənnüm
edəcəyəm!

Məzmur 8

*Musiqi rəhbəri üçün. Davudun
«Gittit» üstə oxunan məzmuru.*

8 Ey Xudavəndimiz Rəbb,
İsmin bütün yer üzündə nə qədər
əzəmətlidir!
Ehtişamın göylərə qalxır!
2 [g]Düşməni və qisasçını susdurmaq
üçün
Körpələrin və çağaların səsi ilə
Yağılarına qarşı qala qurdun.
3 Əllərinin işi olan göyləri,
Öz yerinə düzdüyün ay və ulduzları
gördükdə deyirəm:
4 [h]«İnsan kimdir ki, onun haqqında
düşünürsən?
Bəşər oğlu kimdir ki, onun qayğısını
çəkirsən?»
5 Onu Allahdan* bir az aşağı yaratdın,
İzzət və əzəmət tacını onun başına
qoydun,
6 [i]Əllərinin işləri üzərində onu
hökmdar etdin.
Hər şeyi onun ayağının altına qoydun:

*8:5 *Allahdan* – yaxud *mələklərdən.*

[e]**7:9** Vəhy 2:23 [f]**7:14** Əyy. 15:35; Yeş. 59:4 [g]**8:2** Mat. 21:16
[h]**8:4** Əyy. 7:17-18; Zəb. 144:3; İbr. 2:6-8 [i]**8:6** 1Kor. 15:27; Ef. 1:22; İbr. 2:8

7 Bütün sürü və naxırları,
Çöldə yaşayan heyvanları,
8 Göydəki quşları, dənizdəki balıqları,
Dəryalarda üzənlərin hamısını.
9 Ey Xudavəndimiz Rəbb,
İsmin bütün yer üzündə nə qədər
əzəmətlidir!

Məzmur 9

Musiqi rəhbəri üçün. Davudun «Mut-labben» üstə oxunan məzmuru.

9 Bütün ürəyimlə Rəbbə şükür
edəcəyəm,
Bütün xariqələrini deyəcəyəm.
2 Sənə görə fərəhimdən sevinib cuşa
gələcəyəm,
Ey Haqq-Taala, ismini tərənnüm
edəcəyəm!
3 Düşmənlərim geri dönəndə
Sənin önündə səndələyərək yıxılıb
məhv olurlar.
4 Çünki Sən haqqımı və mübarizəmi
gördün,
Taxtında oturub ədalətlə hökm etdin.
5 Sən millətləri məzəmmət, pisləri yox
etdin,
Adlarını əbədilik sildin.
6 Düşmənin sonu çatdı, o əbədi viran
oldu,
Şəhərlərini təməlindən qopartdın,
Onların xatirəsi də məhv oldu.
7 Rəbb isə əbədi olaraq hökmranlıq
edir,
O, taxtını hökm üçün qurub.
8 Dünyaya ədalətlə hökm edir,
Ümmətlərə insafla hakimlik edir.
9 Rəbb məzlumların pənahgahıdır,
Sıxıntı anlarında müdafiə qalasıdır.
10 İsmini tanıyanlar Sənə güvənir,
Çünki, ya Rəbb, Səni axtaranları tərk
etməzsən!
11 Sionun sakini olan Rəbbi tərənnüm
edin!
Xalqlar arasında Onun işlərini bəyan
edin!
12 O, tökülən qanın qisasını alır,
yadda saxlayır,
Məzlumların fəryadını unutmur.
13 Ya Rəbb, rəhm et!
Ey ölüm qapılarından məni qurtaran,
Mənə nifrət edənlərin üzündən
çəkdiyim dərdə bax!
14 Sion qızının darvazalarında
Qoy Sənə edilən həmdlərimdən
danışım,
Səndə xilas taparaq şadlanım!
15 Millətlər qazdıqları quyuya özləri
düşüb,
Qurduqları tələyə öz ayaqları ilişib.
16 Rəbb Özünü göstərib hökmünü
yeritdi,
Pislər öz əməlləri ilə tora düşdü.
Hiqqayon,[*] *Sela*
17 Pis adamlar ölülər diyarına
düşəcək,
Allahı unudan bütün millətlər də
oraya gedəcək.
18 Çünki fəqir adam həmişəlik
unudulmaz,
Məzlumun ümidi əbədi olaraq boşa
çıxmaz.
19 Ya Rəbb, qalx, qoy insan qalib
gəlməsin,
Sənin hüzurunda millətlər məhkum
edilsin.
20 Ya Rəbb, qoy millətlər Səndən
qorxsunlar,
Qoy onlar bilsinlər ki, yalnız
insandırlar. *Sela*

Məzmur 10

10 Ya Rəbb, nə üçün uzaqda
durmusan?
Mən dara düşəndə niyə gizlənirsən?
2 Pislər təkəbbürlə məzlumları təqib
edir,
Öz qurduqları fəndlərə özləri düşür.

---

[*]**9:16** *Hiqqayon* – mənası bilinməyən musiqi termini.

3 Pis insan könlünün istəkləri ilə fəxr
edir,
Acgöz Rəbbə xor baxır, Ona küfr edir.
4 Təkəbbürlü, pis insan Allahı
axtarmaz,
«Allah yoxdur» deyə düşünər.
5 Belə insan həmişə uğur qazanar,
Bütün düşmənlərinə xor baxar.
Sənin hökmlərinsə onun
dərrakəsindən çox uzaqdır.
6 Ürəyində deyir: «Sarsılmaram,
Heç zaman fəlakətə düşmərəm».
7 [j]Onun ağzı lənətlə, hiylə ilə, hədə ilə
doludur,
Dilinin altında zülm və şər var.
8 Kəndlərdə pusqu yerlərini qurar,
Günahsızları xəlvətcə öldürər.
Biçarəyə göz qoyub gizlicə güdər,
9 Yuvasında oturmuş aslan kimi gizli
yerdə pusqu qurar,
Məzlumu tutmaq üçün güdər,
Toruna salıb onu tutar.
10 Biçarələrin başından basıb qəddini
qırar,
Onlar bu pis adamın əlindən yıxılar.
11 Pis adam belə düşünər:
«Allah məni yaddan çıxarıb,
Heç vaxt görməz, çünki mənə göz
yumub».
12 Ya Rəbb, qalx, ey Allah, onlara əl
qaldır!
Unutma məzlumları!
13 Niyə pis insan Allaha küfr etsin?
Niyə ürəyində «məndən əvəzini
çıxmaz» desin?
14 Amma Sən bu əzab-əziyyətə
baxırsan,
Məzluma kömək əlini uzadırsan.
Biçarə özünü Sənə tapşırar,
Yetimlərin imdadı Sənsən.
15 Şər iş görənin, pis insanın
qol-qanadını qır,
Axıracan pisliklərini ifşa et.
16 Rəbb sonsuzadək, əbədi padşahdır!
Onun diyarından millətlər yox olacaq.
17 Ya Rəbb, məzlumların səsini
eşidəcəksən,
Onları ürəkləndirib diqqət
yetirəcəksən.
18 Yetimə, fəqirə ədalət göstərəcəksən;
Belə ki torpaqdan yaradılan insan
Bir daha təhlükə yaratmasın.

Məzmur 11

Musiqi rəhbəri üçün. Davudun məzmuru.

11 Rəbbə pənah gətirmişəm.
Könlümə necə deyə bilərsiniz ki,
Quş kimi dağlara uç?
2 Bax pislər ox-kaman qurublar,
Oxlarını yayın üstünə qoyublar,
Qaranlıqda dayanıblar,
Ürəyidüz olanları nişan alıblar.
3 Əgər hər şey təməlindən dağılarsa,
Salehlər nə edə bilər?
4 Rəbb Öz müqəddəs məbədindədir,
Onun taxtı göylərdədir.
Rəbbin görən gözləri var, gözünü
açar,
Bəşər övladlarına diqqətlə baxar.
5 Rəbb saleh adamı sınaqdan keçirir,
Pisə, zülmkarasa nifrət edir.
6 Pislərin üstünə odlu köz, kükürd
yağdırır,
Onların kasalarına düşən pay səmum
yeli olacaq.
7 Çünki Rəbb adildir, ədaləti sevir,
Əməlisalehlər Onun üzünü görəcək.

Məzmur 12

Musiqi rəhbəri üçün. Davudun səkkiz simli alətlərin müşayiəti ilə oxunan məzmuru.

12 Ya Rəbb, bizə yardım et, mömin
insan qalmayıb,
Bəşər övladları arasında vəfalılar
qurtarıb.
2 Hər kəs başqasına yalan söyləyir,
Ağzı yalan danışır, ikiüzlülük edir.

---

[j] **10:7** Rom. 3:14

3 Qoy Rəbb yalan danışan hər ağzı yumsun,
Hər lovğa dili kəssin!
4 Onlar deyir ki, biz dilimizlə zəfər çalacağıq.
Bu ağız bizdədirsə, kim bizə ağalıq edə bilər?
5 Rəbb deyir: «İndi qalxacağam,
Çünki fəqirlərə zülm edilir,
Məzlumlar nalə çəkir, qurtuluş istəyir.
Mən bunu onlara verəcəyəm».
6 Rəbbin kəlamları pakdır,
Kürədə əridilən, yeddi dəfə təmizlənən gümüş kimidir.
7 Sən, ya Rəbb, onları qoru,
Bu nəsildən onların hər birini əbədilik hifz et.
8 Bəşər övladları arasında namərdlik artarkən
Hər yanda pislər gəzər.

Məzmur 13

Musiqi rəhbəri üçün. Davudun məzmuru.

13 Ya Rəbb, nə vaxtadək,
Yoxsa əbədilikmi məni unudacaqsan?
Nə vaxtadək məndən üzünü gizlədəcəksən?
2 Nə vaxtadək qəlbim qəmli olacaq?
Könlümdə hər günmü qubar qalacaq?
Nə vaxtadək düşmənim üstün olacaq?
3 Bax mənə, cavab ver, ey Allahım Rəbb!
Gözümə nur ver ki, əcəl yuxusuna getməyim.
4 Qoy düşmənlərim «uddum onu» deməsinlər,
Mən sarsılarkən şənlənməsinlər.
5 Sənin məhəbbətinə güvənirəm,
Qurtuluşunla qəlbim şadlanacaq.
6 Rəbbə ilahi nəğməmi oxuyacağam,
Çünki mənə comərdlik etdi.

Məzmur 14

(Zəb. 53)

Musiqi rəhbəri üçün. Davudun məzmuru.

14 [k]Axmaqlar ürəyində «Allah yoxdur!» deyə düşünürlər.
İnsanlar pozulmuş, əməlləri iyrənc olmuş,
Yaxşı iş görən yoxdur.
2 Rəbb göylərdən bəşər övladına baxır.
Görəsən Allahı dərk edən, Onu axtaran varmı?
3 Hamı birgə pozulub, namus əldən gedib,
Bir nəfər də olsun yaxşı iş görən yoxdur.
4 Şər iş görənlərin hər biri məgər heç nə qanmır?
Xalqımı çörək yerinə yeyirlər, Rəbbi çağırmırlar.
5 Onlar böyük dəhşətə düşəcək,
Lakin Allah salehlərin nəslinə yar olacaq.
6 Onlar məzlumların niyyətini boşa çıxarır,
Amma Rəbb məzlumların pənahıdır.
7 Kaş İsrailin azadlığı Siondan gələydi!
Rəbb Öz xalqına bəxtəvər günlərini qaytaran zaman
Yaqub övladları şadlıq edəcək,
İsraillilər sevinəcək!

Məzmur 15

Davudun məzmuru.

15 Ya Rəbb, çadırında kim qalar?
Müqəddəs dağında kim məskən salar?
2 Kamillik yolu ilə gedən,
Əməlisaleh olan,
Ürəkdən həqiqəti söyləyən,
3 Dilinə böhtan gəlməyən,
Dostuna yamanlıq etməyən,

---

[k]**14:1** Rom. 3:10-12

Qonşusunu təhqir etməyən,
4 Şərəfsizə xor baxan,
Rəbdən qorxanlarasa hörmət edən,
Zərərinə olsa belə, andından geri dönməyən,
5 Sələmlə pul verməyən,
Təqsirsizin əleyhinə işləmək üçün rüşvət almayan.
Əsla sarsılmaz belə həyat sürən insan!

Məzmur 16

Davudun miktamı.

16 Ey Allah, məni hifz et,
Sənə pənah gətirmişəm.
2 Rəbbə dedim: «Mənim Xudavəndim Sənsən.
Səndən başqa mənim xoşbəxtliyim yoxdur.
3 Yer üzünün müqəddəsləri isə nəcib insanlardır,
Yalnız belələrindən zövq alıram.
4 Yad allahların ardınca qaçanların dərdi artacaq,
Onlar üçün qan təqdimləri vermərəm,
Adlarını dilimə gətirmərəm.
5 Ya Rəbb, mənim qismətimsən, kasama düşən paysan,
Püşkümə düşən Səndən asılıdır.
6 Qismətimə gözəl yerlər düşdü,
Bəli, mənə nemət nəsib oldu.
7 Mənə nəsihət verən Rəbbə alqış edirəm,
Hətta gecələr də vicdanım mənə ağıl öyrədir.
8 [l]Rəbbə həmişə üz tutmuşam,
Sağımda olduğu üçün sarsılmaram.
9 Elə bunun üçün qəlbim sevinir, ruhum şad olur,
Cismim əmin-amanlıqda yaşayır.
10 [m]Çünki məni ölülər diyarına atmazsan,
Mömin insanını qəbirə salmazsan.
11 Mənə həyat yolunu öyrədirsən,
Doyunca sevinc Sənin hüzurundadır,
Sağ əlində hər zaman səadət var».

Məzmur 17

Davudun duası.

17 Ya Rəbb, haqq sözümü dinlə, fəryadımı eşit,
Yalansız dilimdən çıxan duama qulaq as.
2 Gözlərinlə həqiqəti görürsən,
Mənə haqq qazandır.
3 Gecə ikən qəlbimi yoxlayıb-araşdırdın,
Məni sınaqdan keçirtdin,
Heç nə tapmadın.
Niyyətim budur ki, ağzım öz həddini aşmasın.
4 Sənin sözünə görə zalımların tutduğu yoldan,
Bu insanların əməlindən özümü qorumuşam.
5 Sənin yolundan möhkəm tutmuşam,
Sarsılmadan addımlamışam.
6 Səni çağırıram, ey Allah, mənə cavab verirsən,
Qulağını mənə tərəf çevir, sözlərimi dinlə.
7 Məhəbbətinlə Sənə sığınanlara xariqələrini göstər,
Sağ əlinlə onları düşmənlərdən qurtar.
8 Məni göz bəbəyin kimi qoru,
Qanadlarının kölgəsində saxla
9 Məni dara salan şər insanlardan,
Ətrafımı bürüyən, canıma düşmən olanlardan.
10 Onların ürəkləri qapalıdır, harınlayıblar,
Ağızlarından lovğa-lovğa sözlər çıxarırlar.
11 İndi izimə düşüb məni mühasirəyə aldılar,
Güdürlər ki, məni yerə vursunlar.
12 Onlar parçalamağa həris bir aslan kimidir,

---

[l] **16:8** Həv. 2:25-28 [m] **16:10** Həv. 2:31; 13:35

Pusquda duran cavan bir şir kimidir.
13 Ya Rəbb, qalx,
Onların önündə dayan,
Onları yerlə yeksan et.
Qılıncınla bu pis insanlardan canımı qurtar.
14 Ya Rəbb, məni belə insanlardan,
Nəsibi bu həyatda olanlardan
Öz əlinlə xilas et!
Qarınlarını xəzinənlə doldurursan,
Onlar övladlarını doydurur,
Nəvə-nəticələrinə də miras qoyur.
15 Amma mən salehliklə üzünə baxacağam,
Oyananda Səni görməklə doyacağam.

Məzmur 18

(2Şam. 22:1-51)

Musiqi rəhbəri üçün. Rəbb Öz qulu Davudu bütün düşmənlərin və Şaulun əlindən qurtaranda Davudun Ona söylədiyi ilahi.

18 O belə oxudu:
Ey mənə qüvvət verən Rəbb,
Səni sevirəm.
2 Rəbb qayam, qalam, xilaskarımdır,
Allahım qayamdır, Ona pənah gətirəcəyəm,
Odur qalxanım, qüdrətli qurtarıcım, qülləm.
3 Həmdə layiq Rəbbi çağıracağam,
Düşmənlərimin əlindən qurtulacağam.
4 Ətrafımı ölüm ipləri bürümüşdü,
Məni əcəl selləri ürkütmüşdü.
5 Ölülər diyarının ipləri mənə sarılmışdı,
Ölüm kəməndləri məni qarşılamışdı.
6 Əzab içində Rəbbə yalvardım,
Allahıma fəryad qopardım.
O, məbədindən səsimi eşitdi,
Fəryadımsa hüzuruna, Onun qulağına yetdi.
7 O zaman yer üzü sarsılıb titrədi,
Dağların təməlləri lərzəyə gəldi,
Onlar sarsıldı,
Çünki O qəzəbləndi.
8 Burnundan tüstü çıxıb yüksəldi,
Ağzından yandırıb-yaxan alov püskürdü,
Bundan közlər tutuşdu.
9 O, göyləri yarıb yerədək endi,
Qatı zülmət ayaqları altında idi.
10 Bir keruva minib uçdu,
Yel qanadları üstə şığıdı.
11 Gizlənmək üçün ətrafını zülmətə bürüdü,
Tufan qoparan qara buludlardan Özünə çardaq qurdu.
12 Hüzurundan şəfəq saçdı,
Odlu közlər və dolu buludları yardı.
13 Rəbb göylərdə gurladı,
Haqq-Taala səs saldı,
Odlu közlər və dolu yağdı.
14 Oxlarını atıb düşmənləri darmadağın etdi,
Şimşəyini çaxdırıb onları dağıtdı.
15 Ya Rəbb, Sənin məzəmmətindən,
Burnundakı nəfəsinin şiddətindən
Suların dərinlikləri göründü,
Dünyanın bünövrələri açıq qaldı.
16 O, ucalardan əl uzadıb məni tutdu,
Məni dərin suların içindən çıxartdı.
17 Məni qüvvətli düşmənimdən azad etdi,
Çünki yağılarım məndən güclü idi.
18 Fəlakətli günümdə qarşıma çıxdılar,
Lakin Rəbb mənə dayaq oldu.
19 O məni genişliyə çıxardı,
Məndən razı qalıb məni qurtardı.
20 Rəbb mənə salehliyim naminə ənam verdi,
Mənə əlitəmizliyimin əvəzini verdi.
21 Çünki Rəbbin yolunu tutmuşam,
Pis olub Allahımın yolundan azmamışam.
22 Onun bütün hökmləri önümdədir,
Qaydalarından imtina etməmişəm.
23 Onunla mən kamala çatmışam,
Özümü günahdan qorumuşam.
24 Rəbb mənə salehliyimin əvəzini verdi,

Gözünün önündə əlitəmiz olmağımın
əvəzini verdi.
25 Sədaqətlilərlə sədaqətlisən,
Kamillərlə kamilsən.
26 Təmizlərlə təmizsən,
Əyrilərlə əyriliyinə görə davranırsan.
27 İtaətkar insanları qurtarırsan,
Təkəbbürlü baxışları alçaldırsan.
28 Ya Rəbb, Sən çırağıma işıq verirsən!
Allahım Rəbb zülmətimi nura çevirir.
29 Sənin lə qoşun üstünə hücum
çəkirəm,
Allahımla sədlər keçirəm.
30 Allahın yolu kamildir,
Rəbbin kəlamı safdır,
Rəbb Ona sığınanların sipəridir.
31 Rəbdən başqa Allah kimdir ki?
Allahımızdan başqa qaya kimdir ki?
32 Allah məni qüvvəsi ilə bürüyər,
Yolumu kamil edər.
33 [n]Ayaqlarımı maral ayaqları kimi
çevik edər,
Məni zirvələrimdə saxlar.
34 Əllərimə döyüş təlimi verər,
Qollarım tunc kamanın yayını dartar.
35 Sən mənə qurtuluş qalxanını
verdin,
Mənə sağ əlinlə dayaq oldun,
Köməyinlə məni yüksəltdin.
36 Geniş yer açdın ki, addımlayım,
Ayaqlarım büdrəməsin.
37 Düşmənlərimi qovub onlara çatdım,
Onlar məhv olanadək geriyə
qayıtmadım.
38 Onları əzdim, qalxa bilmədilər,
Ayaqlarımın altına sərildilər.
39 Döyüş üçün məni qüvvə ilə
bürüdün,
Əleyhdarlarımı ayağımın altına
saldın.
40 Düşmənlərimin kürəyini mənə sarı
çevirdin,
Mənə nifrət edən yağıları məhv etdim.
41 Fəryad etsələr də, onları qurtaran
olmadı,
Rəbbi çağırsalar da, cavab almadılar.
42 Onları əzib külək sovuran toz
etdim,
Küçələrin palçığı kimi tapdaladım.
43 Sən məni xalqın çəkişmələrindən
qurtardın,
Məni millətlərə başçı qoydun,
Tanımadığım xalqları mənə tabe
etdirdin.
44 Yadellilər mənə boyun əydilər,
Səsimi eşidəndə mənə itaət etdilər.
45 Yadellilərin cəsarəti qırıldı,
Titrəyərək sığınacaqlarından çıxdılar.
46 Rəbb əbədi yaşayır! Qayama alqış
olsun!
Məni qurtaran Allahım ucalsın!
47 O, Allahdır, mənə görə qisas alır,
Xalqları mənə tabe etdirir.
48 O məni düşmənlərimin arasından
xilas edir,
Bəli, məni yağılar üstündə ucaldır,
Məni zalımların əlindən qurtarır.
49 [o]Buna görə, ya Rəbb,
Millətlər arasında Sənə şükür
edəcəyəm,
İsminə tərənnüm söyləyəcəyəm.
50 Rəbb padşahına böyük zəfərlər
verər,
Məsh etdiyi Davuda və nəslinə əbədi
məhəbbət göstərər.

Məzmur 19

Musiqi rəhbəri üçün. Davudun məzmuru.

19 Göylər Allahın əzəmətini bəyan
edir,
Göy qübbəsi əllərinin işini elan edir.
2 Hər gün ertəsi günə nəql edir,
Hər gecə o biri gecəyə bilik verir.
3 Onların nə nitqi, nə də sözləri var,
Onların səsləri eşidilmir.
4 [p]Amma avazları bütün dünyaya
yayılır,

[n]**18:33** Hab. 3:19 [o]**18:49** Rom. 15:8-9 [p]**19:4** Rom. 10:18

Sözləri yerin ucqarlarına çatır.
Allah günəş üçün göylərdə çadır
qurur,
5 Günəş gərdəyindən bəy kimi çıxır,
Qaçışa çıxan bir igid kimi şad olur.
6 Bir tərəfdən çıxır, göylərdə dövrə
vurur,
Heç nə istisindən gizlənə bilmir.
7 Rəbbin qanunu kamildir, canı
təzələyir,
Rəbbin öyüdü etibarlıdır, nadanı
müdrik edir.
8 Rəbbin qayda-qanunları düzdür,
ürəyi sevindirir,
Rəbbin əmrləri pakdır, gözləri aydın
edir.
9 Rəbb qorxusu safdır, əbədi yaşayır,
Rəbbin hökmləri haqdır, hamısı
ədalətlidir.
10 Onlar qızıldan, bol miqdarda olan
saf qızıldan da çox sevilir,
Onlar baldan, şanı balından da
şirindir.
11 Bəndən bunlardan nəsihət alar,
Onlara əməl edənin bol mükafatı var.
12 Kim öz səhvlərini duya bilər?
Məni gizli təqsirlərimdən təmizlə.
13 Qulunu aşkar günahlardan qoru,
Qoyma onların hökmü altında qalım.
Onda kamilliyə çataram,
Bütün itaətsizliklərdən ayrılaram.
14 Ağzımdan çıxan sözlər,
Qəlbimdəki düşüncələr
Hüzurunda qəbul olunsun.
Ya Rəbb, ey Qayam və Satınalanım!

Məzmur 20

Musiqi rəhbəri üçün. Davudun məzmuru.

20 Dar gündə Rəbb sənə cavab
versin,
Yaqubun Allahının ismi səni hifz
etsin!
2 Müqəddəs məskənindən köməyinə
çatsın,
Siondan sənə dayaq olsun!
3 Bütün təqdimlərindən razı qalsın,
Yandırma qurbanların qəbul olunsun!
Sela
4 O səni ürəyinin istəyinə çatdırsın,
Hər bir niyyətini yerinə yetirsin!
5 Biz sənin zəfərlərinə mədh oxuyarıq,
Allahımız naminə bayraqlarımızı
qaldırarıq!
Rəbb səni hər bir diləyinə çatdırsın!
6 İndi bildim ki, Rəbb məsh etdiyinə
zəfərlər verər,
Müqəddəs səmasından ona cavab
göndərər,
Sağ əlinin qüdrəti onu qalib edər.
7 Bəziləri döyüş arabaları, bəziləri
atları ilə öyünür,
Bizsə Allahımız Rəbbin adı ilə
öyünürük.
8 Onlar büdrəyəcəklər, yıxılacaqlar,
Bizsə qalxıb dik duracağıq.
9 Ya Rəbb, Sən padşaha zəfər ver,
Səni çağırarkən bizə cavab ver.

Məzmur 21

Musiqi rəhbəri üçün. Davudun məzmuru.

21 Ya Rəbb, padşah qüdrətinlə
sevinir,
Zəfərinlə fərəhlənir.
2 Onu ürəyinin arzusuna çatdırmısan,
Dilindən çıxan diləyini ondan
əsirgəməmisən. *Sela*
3 Çünki onu yaxşı nemətlərlə
qarşılamısan,
Saf qızıldan başına tac qoymusan.
4 Səndən həyat istəyəndə ona verdin,
Onun ömrünü əbədi olaraq uzatmısan.
5 Ona zəfər çaldıraraq şərəfini
ucaltmısan,
Ehtişam və əzəmət bağışlamısan.
6 Əbədi olaraq başına nemətlər
tökmüsən,
Hüzurundakı sevinclə Sən onu
fərəhləndirmisən.
7 Çünki padşah Rəbbə güvənir,
Haqq-Taalanın məhəbbəti ilə
sarsılmazdır.
8 Əlin bütün düşmənlərini tapacaq,

Sağ əlin yağıları tutacaq.
9 Ya Rəbb, onlara görünən zaman
Sən onları soba tək yandıracaqsan,
Onları qəzəbinlə yeyib, alovunla udacaqsan.
10 Övladlarını yer üzündən,
Gələcək nəsillərini insanlar arasından yox edəcəksən.
11 Çünki pis niyyətlə əleyhinə çıxdılar,
Hiylə işlətdilər, amma gücləri çatmadı.
12 Çünki Sən onları geri qovacaqsan,
Yay çəkib oxla üzlərini nişan alacaqsan.
13 Ya Rəbb, qoy Sənin uca qüdrətini görək!
Əzəmətini ilahilərlə tərənnüm edək!

Məzmur 22

Musiqi rəhbəri üçün. Davudun «Ayyelet haşşaxar» üstə oxunan məzmuru.

22 [q]Ey Allahım, Allahım, niyə məni tərk etdin?
Niyə ah-zarımdan uzaq durursan, mənə imdad etmirsən?
2 Ey Allahım, gündüz çağıranda mənə cavab vermirsən,
Gecə rahatlığım yoxdur.
3 Nə qədər müqəddəssən!
İsrailin həmdləri üzərində taxt quran Sənsən!
4 Ata-babalarımız Sənə güvənmişdi,
Sənə güvənəndə onları xilas etdin.
5 Sənə yalvararkən qurtuldular,
Sənə güvənərkən rüsvay olmadılar.
6 Lakin mən torpaq qurduyam, insan deyiləm,
Adamların tənə hədəfiyəm,
Xalq mənə xor baxır.
7 [r]Məni hər görən lağ edir,
Dodaq büzüb, başını yırğalayıb belə deyir:
8 [s]«Qoy güvəndiyi Rəbb onu azad etsin,
Rəbb ondan razı qalıb, qoy onu xilas etsin».
9 Lakin bətndən dünyaya məni gətirən,
Ana qucağında ikən mənə əminlik verən Sənsən.
10 Doğulandan bəri Səndən asılıyam,
Ana bətnindən bəri Allahım Sənsən.
11 Məndən uzaq durma, çünki əzab yaxındır,
Köməyimə çatan yoxdur.
12 Nə qədər buğa məni dövrəyə salıb,
Güclü Başan buğaları yan-yörəmi bürüyüb.
13 Yırtıcı aslanlar kimi nərə çəkirlər,
Məni parçalamaq üçün ağızlarını açırlar.
14 Mən su kimi töküldüm,
Bütün sümüklərim oynaqlarından çıxdı,
Köksümdəki ürəyim mum kimi əridi.
15 [t]Saxsı parçası kimi gücüm qurudu,
Dilim damağıma yapışdı,
Sən məni torpağa salıb ölüm verdin.
16 Şər insanlar dəstəsi məni dövrəyə aldı,
İt sürüsü kimi yan-yörəmi bürüdülər,
Ayaqlarımı, əllərimi deşdilər.
17 Sümüklərimi saya bilirəm,
Onlar baxırlar, gözlərini mənə zilləyirlər!
18 [u]Aralarında paltarlarımı bölüşdürürlər,
Geyimim üçün püşk atırlar.
19 Ya Rəbb, uzaq durma,
Ey mənim Qüdrətlim, dadıma tez çat!
20 Həyatımı qılıncdan qurtar,
Canımı itlərin caynağından qurtar,
21 Məni aslanın ağzından xilas et!

---

[q]**22:1** Mat. 27:46; Mark 15:34 [r]**22:7** Mat. 27:39-40; Mark 15:29-30; Luka 23:35
[s]**22:8** Mat. 27:43 [t]**22:15** Zəb. 69:21; Yəh. 19:28
[u]**22:18** Mat. 27:35; Mark 15:24; Luka 23:34; Yəh. 19:24

Çöl öküzləri məni buynuzlayarkən
mənə cavab ver.
22 [v]İsmini qardaşlarıma elan
edəcəyəm,
Camaat arasında Sənə həmd
söyləyəcəyəm:
23 «Siz ey Rəbdən qorxanlar, Ona
həmd edin,
Ey bütün Yaqub nəsli, Onu
şərəfləndirin,
Siz ey İsrail nəsli, Ona ehtiram edin!
24 Çünki Rəbb bu məzlumun dərdinə
xor baxmadı,
Ondan ikrah edərək üzünü gizlətmədi,
İmdada çağıranda səsinə cavab
verdi».
25 Çoxlu camaat arasında həmd
etdiyim Sənsən!
Səndən qorxanların önündə əhd
etdiyim təqdimləri verəcəyəm.
26 Qoy məzlumlar doyunca yesin,
Rəbbi axtaranlar Ona həmd etsin!
Qoy canınız həmişə sağ olsun!
27 Yer üzünün qurtaracağınadək hər
yerdə yaşayanlar
Rəbbi xatırlayacaq, Ona tərəf
dönəcəklər.
Bütün millətlərin soyları
Onun hüzurunda səcdə qılacaq.
28 Çünki hökmranlıq Rəbbindir,
Millətlər üzərində səltənət sürən
Odur!
29 Bütün dünya zənginləri
yeyib-doyacaq,
Rəbbin hüzurunda səcdə qılacaq.
Torpağa düşənlərin hamısı –
Özlərini ölümdən saxlaya bilməyənlər
Onun hüzurunda diz çökəcəklər.
30 Gələcək nəsillər Ona qulluq edəcək,
Xudavənd haqqında övladlarına
deyəcək;
31 Onun ədalətini, Onun əməllərini
Gələcəkdə doğulan xalqa bildirəcək.

Məzmur 23

Davudun məzmuru.

23 Rəbb mənim çobanımdır,
möhtac olmaram.
2 [w]O, məni yaşıl çəmənlərdə dincəldir,
Sakit axan sular kənarında gəzdirir.
3 Məni yenə də canlandırır,
İsmi şərəfinə salehlik yolları ilə
aparır.
4 Ölüm kölgəsinin dərəsində gəzsəm
belə,
Şərdən qorxmaram, çünki Sən
mənimləsən,
Sənin əsan, Sənin dəyənəyin mənə
təsəlli verir.
5 Düşmənlərimin qarşısında
Mənim üçün süfrə açırsan,
Başıma ətirli yağ çəkirsən,
Ağzınadək camımı doldurursan.
6 Bəli, bütün həyatım boyu
Yaxşılıq, məhəbbət məni izləyir.
Bütün ömrüm boyu
Rəbbin evində yaşayacağam!

Məzmur 24

Davudun məzmuru.

24 [x]Rəbbindir yer üzü və orada
mövcud olanlar,
Dünya və orada yaşayanlar.
2 O, yerin təməlini dənizlər üstündə
qurdu,
Dünyanı sular üzərində yaratdı.
3 Rəbbin dağına kim çıxa bilər?
Müqəddəs məskəninə kim girə bilər?
4 [y]– Əlləri pak, qəlbi təmiz,
Hiyləyə könül verməyən,
Yalandan and içməyən insan.
5 O, Rəbdən bərəkət alacaq,
Xilaskarı Allahdan salehlik alacaq.
6 Belə adam Rəbbi soraqlayar,
Yaqubun Allahının üzünü axtarar.
Sela
7 Ey darvazalar, başlarınızı qaldırın,

---

[v]**22:22** İbr. 2:12 [w]**23:2** Vəhy 7:17 [x]**24:1** 1Kor. 10:26 [y]**24:4** Mat. 5:8

Ey qədim qapılar, açılın,
Əzəmətli Padşah içəri daxil olsun!
8 Bu əzəmətli Padşah kimdir?
– Odur, güclü-qüdrətli Rəbb,
Döyüşdə qüvvətli Rəbb.
9 Ey darvazalar, başlarınızı qaldırın,
Ey qədim qapılar, açılın,
Əzəmətli Padşah içəri daxil olsun!
10 Bu əzəmətli Padşah kimdir?
– Ordular Rəbbi,
Odur əzəmətli Padşah! *Sela*

Məzmur 25

Davudun məzmuru.

25 Ya Rəbb, Sənə ürəyimi təqdim edirəm,
2 Ey Allahım, yalnız Sənə güvənirəm!
Məni xəcalətdə qoyma,
Qoy düşmənlərim mənə qalib gələrək sevinməsinlər.
3 Sənə ümid bağlayanlar heç zaman utanmasınlar,
Haqsız xəyanətkarlarsa rüsvay olsunlar.
4 Ya Rəbb, yollarını mənə göstər,
Öz yollarını mənə öyrət.
5 Məni haqq yolu ilə apar,
Həqiqətini mənə öyrət.
Məni qurtaran Allah Sənsən,
Daim Səni gözləyirəm.
6 Ya Rəbb, əzəldən bəri var olan
Mərhəmətini, məhəbbətini yada sal.
7 Gənclikdə günahkar, üsyankar oldum,
Bunları yadına salma.
Məni məhəbbətin naminə,
Ya Rəbb, xeyirxahlığına görə yada sal!
8 Rəbb xeyirxah və haqdır,
Ona görə günahkara düz yol göstərir,
9 İtaətkarları ədalət yolu ilə aparır,
Öz yolunu onlara öyrədir.
10 Kim Rəbbin əhdinə və göstərişlərinə bağlıdırsa,
Rəbb yolunda onun üçün xeyirxahlıq və sədaqət var.
11 Ya Rəbb, ismin naminə məni bağışla,
Təqsirim böyükdür.
12 Rəbdən qorxan kimdir?
Rəbb ona yol seçməyi öyrədir.
13 O bəxtəvər yaşayacaq,
Ölkə onun nəslinə irs olaraq qalacaq.
14 Rəbb Ondan qorxanlara sirrini açar,
Onlara Öz əhdini öyrədər.
15 Həmişə gözüm Rəbdədir,
Çünki O, ayaqlarımı tələdən xilas edir.
16 Üzünü mənə sarı çevir və lütfkar ol,
Çünki tənhayam, zülm içindəyəm.
17 Qəlbimdəki qubar artıb,
Məni dərdlərdən qurtar.
18 Əzab-əziyyətimə bax,
Bütün günahlarımı bağışla.
19 Düşmənlərimə bax, gör nə qədər çoxalıb,
Amansız nifrətlərinə hədəfəm.
20 Canımı qoru, məni qurtar,
Sənə pənah gətirdiyimə görə qoyma rüsvay olum!
21 Qoy kamalla düzlük məni hifz etsin,
Çünki Səni gözləyirəm.
22 Ey Allah, İsraili
Bütün çətinliklərindən qurtar.

Məzmur 26

Davudun məzmuru.

26 Məni haqlı çıxar, ya Rəbb,
Çünki mən kamalla gəzmişəm,
Sarsılmadan Rəbbimə güvənmişəm.
2 Ya Rəbb, məni sınaqdan keçir,
Sən məni imtahan et,
Qəlbimi, fikirlərimi saf et.
3 Məhəbbətin gözümün önündə durur,
Sənin sədaqətinlə gəzirəm.
4 Yalançı insanlarla oturmuram,
İkiüzlülərlə yoldaşlıq etmirəm,
5 Yaramazların məclisinə nifrət edirəm,
Pislərlə oturmuram.

6 Ya Rəbb, günahsızlıq içində əllərimi
yuyuram,
Qurbangahının başına dolanıram,
7 Şükür səsimi ucaldıram,
Bütün xariqələrini bəyan edirəm.
8 Ya Rəbb, məskənin olan evi,
Calalının sakin olduğu yeri sevirəm.
9 Məni günahkarlara qatıb aparma,
Qatillərlə birgə canımı alma.
10 Onlar pis niyyəti əllərində tutublar,
Sağ əllərini rüşvətlə doldurublar.
11 Mənsə kamalla gəzirəm,
Məni qurtar, mənə lütf et!
12 Ayağım düzlük üstündə durur,
Cəmiyyətin içində Rəbbə alqış
edəcəyəm.

Məzmur 27

Davudun məzmuru.

27 Rəbdir nurum, qurtuluşum!
Mən kimdən qorxum?
Rəbdir ömrümün qalası,
Mən kimdən vahimələnim?
2 Ətimi yemək üçün hücum edən şər
adamlar –
Yağılarım, düşmənlərim büdrəyərək
yıxılarlar.
3 Bir ordu qarşımda düzülsə belə,
ürəyim qorxmaz,
Mənimlə döyüşsələr də, arxayınam.
4 Rəbdən bir arzum, bir istəyim var:
Bütün ömrüm boyu Rəbbin evində
yaşayım,
Məbədində Rəbbin camalına baxım,
Ona pərəstiş edim.
5 Dar gündə məni çardağında gizlər,
Çadırının örtüyü ilə örtər,
Qaya başındakı yüksək yerə gətirər.
6 İndi ətrafımdakı düşmənlərimin
üzərində
Qələbələr çalacağam,
Rəbbin çadırında şənlik qurub
qurbanlar kəsəcəyəm,
Onu ilahilərlə tərənnüm edəcəyəm.
7 Ya Rəbb, dinlə, Səni çağırıram,
Lütf edib mənə cavab ver.
8 Sən dedin: «Üzümü axtarın».
Ya Rəbb, mən Sənin üzünü axtarıram.
9 Üzünü məndən gizlətmə,
Qulunu qəzəblə qovma.
Mənə Sən kömək etmisən,
Məni atma, tərk etmə,
Ey məni qurtaran Allahım!
10 Ata-anam məni atsa belə,
Rəbb məni qəbul edər.
11 Ya Rəbb, yolunu mənə öyrət,
Düşmənlərimdən ötrü mənə düz yolda
rəhbərlik et.
12 Məni düşmənlərin əlinə salma,
Çünki yalançı şahidlər, zorakılar
əleyhimə qalxdılar.
13 Rəbbin xeyirxahlığını dirilər
arasında görəcəyəm,
Buna şübhəm yoxdur.
14 Rəbbə ümid bağla!
Möhkəm və cəsarətli ol!
Rəbbə ümid bağla!

Məzmur 28

Davudun məzmuru.

28 Ya Rəbb, Səni səsləyirəm,
Ey Qayam, qulağını tıxama.
Əgər cavab verməsən,
Qəbirə düşənlərə bənzəyərəm.
2 Səni yardıma çağırarkən,
Məbədinin ən müqəddəs yerinə tərəf
əllərimi qaldırarkən,
Yalvarış səsimi eşit.
3 Pislərlə, şər iş görənlərlə birgə
Məni dartıb aparma.
Onlar qonşuları ilə dost kimi danışır,
Lakin qəlblərində şər dolaşır.
4 [z]Əməllərinə, pis işlərinə görə
Onların əvəzini ver,
Əllərindən gələn bu işlər nəyə
layiqdirsə,
Onlar üçün ödə.

---

[z]**28:4** Vəhy 22:12

5 Rəbbin əməllərinə əhəmiyyət
vermədiklərinə görə,
Onun əllərinin əməllərinə fikir
vermədiklərinə görə
Rəbb onları yerə vuracaq,
Bir daha qaldırmayacaq.
6 Alqış olsun Rəbbə,
Yalvarış səsimi eşitdi!
7 Rəbb qalam, sipərimdir!
Qəlbim Ona güvənəndə köməyimə
çatır.
Sevincdən qəlbim cuşa gəlir,
İlahilərimlə Ona şükür edirəm.
8 Rəbb Öz xalqının gücüdür,
Məsh etdiyi insanın nicat qalasıdır.
9 Öz xalqını qurtar,
Seçdiklərinə xeyir-dua ver.
Öz sürünü otar,
Xalqının əbədilik qayğısına qal!

Məzmur 29

Davudun məzmuru.

29 [a]Ey ilahi varlıqlar, Rəbbə verin –
İzzəti, qüdrəti Rəbbə verin!
2 Adına layiq olan izzəti Rəbbə verin,
Müqəddəslik zinəti ilə Rəbbə səcdə
edin!
3 Rəbbin səsi suların üzərindədir,
Ehtişam Allahı gurlayar,
Rəbb ümman suların üzərindədir.
4 Rəbbin səsi qüdrətlidir,
Rəbbin səsi əzəmətlidir,
5 Rəbbin səsi sidr ağaclarını sındırar,
Rəbb Livan sidrlərini qırar.
6 Livan dağlarını dana kimi,
Siryon dağını çöl buğası kimi
tullandırar.
7 Rəbbin səsi şimşəkləri çaxdırar,
8 Rəbbin səsi çölləri lərzəyə salar,
Rəbb Qadeş çölünü lərzəyə salar.
9 Rəbbin səsi maralları doğuzdurar,*
Rəbbin səsi meşələri çılpaq qoyar.
Məbədində hamı deyər:
«Ehtişamlısan!»
10 Rəbb daşan sular üstündəki
taxtında oturub,
O, əbədi Padşahdır, taxtında oturub.
11 Rəbb Öz xalqına qüvvət verir,
O, xalqına firavanlıq və bərəkət verir.

Məzmur 30

Davudun məzmuru.

Məbədin təqdisinə aid ilahi.

30 Ya Rəbb, Səni ucaldıram,
Çünki Sən məni qurtardın,
Düşməni mənə görə sevinməyə
qoymadın.
2 Ya Rəbb Allahım,
Səni imdada çağırarkən
Mənə şəfa verdin.
3 Ya Rəbb, canımı
Ölülər diyarından azad etdin,
Qəbirə düşməyim deyə
Sən mənə həyat verdin.
4 Ey Rəbbin möminləri,
Onu tərənnüm edin,
Onun müqəddəs isminə şükür edin.
5 Çünki qəzəbi bir anlıq olur,
Lütfü isə ömür boyu qalır.
Kimin bir gecə gözündən yaş
tökülərsə,
Onun üçün sübh tezdən sevinc doğar.
6 Dinclik tapanda dedim:
«Əsla sarsılmaram».
7 Ya Rəbb, lütfünlə məni
Bir dağ kimi möhkəm etdin.
Sonra məndən üz gizlətdin,
Canıma vəlvələ düşdü.
8 Ya Rəbb, Səni çağırdım,
Xudavəndə belə yalvardım:
9 «Qanımı töküb qəbirə düşsəm,
Sənə fayda verərmi?
Torpaq Sənə şükür edə bilərmi,
Sədaqətini elan edə bilərmi?
10 Ya Rəbb, dinlə, mənə lütf et,

---

*29:9 *Maralları doğuzdurar* – yaxud *palıdların qol-budaqlarını qırar.*

[a]29:1 1Saln. 16:29; Zəb. 96:7-9

Ya Rəbb, köməyimə çat».
11 Yasımı şənliyə çevirdin,
Çulumu çıxarıb məni sevincə
bürüdün.
12 Ona görə susmayacağam,
Səni ucadan tərənnüm edəcəyəm.
Ya Rəbb Allahım,
Sənə daim şükür edəcəyəm!

Məzmur 31

Musiqi rəhbəri üçün. Davudun məzmuru.

31 Ya Rəbb, Sənə pənah gətirirəm!
Heç vaxt məni xəcalətdə qoyma,
Ədalətinlə məni xilas et!
2 Qulağını mənə tərəf çevir,
Məni tez azad et!
Bir qaya ol, qoy sığınım,
Möhkəm bir qala ol, qoy qurtulum.
3 Çünki qayam da Sən, qalam da
Sənsən!
Öz ismin naminə mənə yol göstərib
rəhbərlik et.
4 Məni qarşımda qurulan gizli tordan
hifz et,
Çünki Sən mənim sığınacağımsan!
5 [b]Ruhumu Sənin əlinə verirəm,
Ya Rəbb, sadiq Allah, Sən məni azad
et.
6 Boş şey olan bütlərə pərəstiş
edənlərə nifrət edirəm,
Mən Rəbbə güvənirəm.
7 Mən Sənin məhəbbətində
Şad olub sevinəcəyəm,
Çünki məzlum halımı görmüsən,
Çəkdiyim əzabı bilmisən.
8 Məni düşmənə təslim etmədin,
Genişlikdə gəzdirdin.
9 Ya Rəbb, mənə rəhm et,
Çünki əzabdayam,
Kədərdən gözüm, qəlbim, bədənim
quruyub.
10 Ömrüm qüssə ilə,
İllərim ah-nalə ilə keçir.
Təqsirimə görə taqətim qalmayıb,
Sümüklərim quruyub.
11 Bütün düşmənlərim mənə tənə edir,
Qonşularımsa onlardan daha betərdir,
Tanışlarım məni görərkən dəhşətə
düşür,
Məni küçələrdə görənlər məndən
qaçır.
12 Ölü bir adam kimi unudulmuşam,
Çilik-çilik qırılan bir qaba oxşayıram.
13 [c]Çox adamların pıçıltısını eşidirəm,
Hər tərəfimi dəhşət alıb,
Hamı əleyhimə əlbir olub,
Canımı almaq üçün qəsd qurub.
14 Ya Rəbb, yalnız Sənə güvənirəm,
Dedim: «Allahımsan Sən».
15 Mənim hər anım Sənin əlindədir,
Düşmənlərimin, təqibçilərimin
əlindən
Məni azad et.
16 Bəndənin üstünə üzünün nurunu
sal,
Məhəbbətinlə məni qurtar.
17 Ya Rəbb, məni xəcalətdə qoyma,
Çünki Səni çağırıram.
Qoy pislər utansın,
Qoy ölülər diyarında səsləri batsın.
18 Təkəbbürlə, həqarətlə yalan
danışan,
Salehlərə böhtan atan dillər lal olsun!
19 Xeyirxahlığın nə qədər böyükdür!
Bunu Səndən qorxanlar üçün saxladın.
Bütün bəşər övladları qarşısında
Sənə pənah gətirənlərə xeyirxahlıq
etdin.
20 Onları insanların qəsdlərindən
Hüzurunda sığındırırsan,
Böhtançı dillərə qarşı çardağında
gizlədirsən.
21 Qoy Rəbbə alqış olsun!
Çünki mühasirəyə düşən şəhərdə
Məhəbbətini xariqələrlə mənə
göstərdi!
22 Mən tələşa düşüb demişdim:

---

[b]**31:5** Luka 23:46 [c]**31:13** Yer. 20:10

«Sənin gözlərinin önündən kənara
atıldım».
Lakin Səni imdada çağıranda
Yalvarış səsimi eşitdin.
23 Rəbbi sevin, siz ey bütün möminlər!
Rəbb həmişə Ona sadiq qalanı
qoruyur,
Təkəbbürlü insana isə layiq olduğunu
verir.
24 Ey Rəbbə ümid bağlayan bütün
insanlar,
Möhkəm olun, qoy ürəyiniz cəsarətli
olsun!

Məzmur 32

Davudun maskili.[*]

32 [d]Üsyankarlığı bağışlanan,
Günahı əfv olunan insan
Nə bəxtiyardır!
2 Rəbb tərəfindən təqsirkar
sayılmayan,
Qəlbində hiylə olmayan insan
Nə bəxtiyardır!
3 Etiraf etməyəndə
Bütün gün nalə çəkməkdən
Sümüklərim taqətdən düşdü.
4 Əlin üzərimdə gecə-gündüz
ağırlaşdı,
Sanki yayın quraqlığı məni taqətdən
saldı. *Sela*
5 [e]Sonra Sənə günahımı etiraf etdim,
Təqsirlərimi gizlətmədim.
Dedim: «Üsyankarlığımı Rəbbə etiraf
edirəm».
Təqsirimi, günahımı bağışladın. *Sela*
6 Buna görə hər bir mömin
Səni tapan zaman Sənə dua etsin.
Azğın sellər daşsa da,
Möminə toxunmaz.
7 Sığınacaq yerim Sənsən,
Məni dardan hifz edirsən.
Zəfər harayı ilə
Ətrafımda dövr edirsən. *Sela*
8 Dedin: «Sənə təlim verəcəyəm,
Gedəcəyin yolu öyrədəcəyəm.
Nəsihət verəcəyəm,
Gözüm sənin üstündə olacaq.
9 At yaxud qatır kimi
Şüursuz olmayın.
Cilov, yüyən vurulmasa,
Onlar idarə edilə bilməz».
10 Pislərin başına çox bəla gələr,
Rəbbə güvənənlər isə hər tərəfdən
məhəbbətə bürünər.
11 Ey salehlər, fərəhlənin,
Rəbbə görə sevinin!
Ey ürəyidüz olanlar,
Onu mədh edin!

Məzmur 33

33 Ey salehlər, Rəbbi mədh edin,
Ürəyidüz olanlara həmd
söyləmək yaraşır.
2 Lira çalın, Rəbbə şükür edin,
On telli çənglə Onu tərənnüm edin,
3 [f]Ona yeni bir nəğmə oxuyun,
Sevinc nidaları ilə çalın.
4 Çünki Rəbbin sözü haqdır,
Hər işini sədaqətlə aparır.
5 Rəbb salehliyi və ədaləti sevir,
Yer üzü Onun məhəbbəti ilə dolur.
6 Göylər Rəbbin sözü ilə,
Səma cisimləri Onun hökmü ilə
yarandı.
7 Dənizin sularını bir yerə yığdı,
Dərin suları anbarlarda saxladı.
8 Qoy bütün dünya Rəbdən qorxsun,
Bütün yer üzünün əhalisi Onu
şərəfləndirsin.
9 Çünki nə söylədi, mövcud oldu,
Nə əmr etdi, quruldu.
10 Rəbb millətlərin məsləhətini puç
edər,
Xalqların məqsədini heç edər.

---

[*]**32:0** *Maskil* – bir musiqi və yaxud ədəbi termin.

[d]**32:1** Rom. 4:7-8 [e]**32:5** 2Şam. 12:13
[f]**33:3** Zəb. 98:1; Yeş. 42:10; Vəhy 5:9-10

11 Lakin Rəbbin məsləhəti əbədi olar,
Ürəyinin məqsədi nəsillər ötsə də,
qalar.
12 Nə bəxtiyardır o millət ki Allahı
Rəbdir,
O xalq ki Rəbb onu irs olaraq
seçmişdir.
13 Rəbb göylərdən baxır,
Bütün bəşər övladlarını görür,
14 Taxtında oturduğu yerdən
Bütün dünya əhalisini görür.
15 Odur hər bir insanın ürəyini
yaradan,
Əməllərini anlayan.
16 Qoşunun çoxluğu ilə heç bir padşah
qurtulmaz,
Qolunun gücü ilə heç bir cəngavər
zəfər çalmaz.
17 Qələbə üçün at boş şeydir,
Qüvvətinin çoxluğu ilə bir kimsə xilas
olmaz.
18 Rəbbin gözü Ondan qorxanlara,
Onun məhəbbətinə ümid bağlayanlara
baxar.
19 İstəyir ki, onları ölümdən qurtarsın,
Qıtlıqda belə, onlar sağ qalsın.
20 Könlümüz Rəbbin yolunu gözlər,
Odur köməyimiz və sipərimiz.
21 Bizim qəlbimiz Onda sevinc tapır,
Müqəddəs isminə arxalanmışıq.
22 Ya Rəbb, ümidimizi Sənə
bağlamışıq,
Məhəbbətin üzərimizdən tükənməsin.

Məzmur 34

Davudun məzmuru.

[g] *O, Avimelekin önündə özünü*
dəli kimi göstərib qovulanda.

34 Hər zaman Rəbbə alqış
edəcəyəm,
Ona daim mənim dilim həmd edəcək.
2 Rəblə könlüm fəxr edir,
Ey məzlumlar, eşidib sevinin!
3 Gəlin mənimlə birgə Rəbbi
müqəddəs tutaq,
Rəbbin ismini birgə ucaldaq.
4 Rəbbə üz tutdum, O mənə cavab
verdi,
O hər bir dəhşətdən məni xilas etdi.
5 Rəbbə baxan nur saçar,
Üzü qızarmaz.
6 Mən məzlum, Rəbbi çağırdım, O
məni eşitdi,
Bütün əzablarımdan məni xilas etdi.
7 Rəbdən qorxanları Onun mələyi
müdafiə edər,
Onlara zəfər verər.
8 [h]Dadın, görün Rəbb nə qədər
şirindir,
Nə bəxtiyardır Ona pənah gətirənlər!
9 Ey Rəbbin müqəddəsləri, Rəbdən
qorxun,
Ondan qorxan heç nəyə möhtac
qalmaz.
10 Gənc aslanlar ac-yalavac qaldılar,
Lakin Rəbbi axtaranlar
Heç bir yaxşı şeydən korluq
çəkməzlər.
11 Gəlin, ey övladlar, məni dinləyin,
Rəbb qorxusunu sizə öyrədim:
12 [i]Kim həyatdan kam almaq istəyirsə,
Uzun ömür sürüb xoş gün görmək
istəyirsə,
13 Qoy dilini şərdən,
Ağzını fırıldaq üçün işlətməkdən
qorusun,
14 Qoy şərdən çəkinib yaxşılıq etsin,
Sülhü axtarıb ardınca getsin!
15 Rəbbin gözü salehlərin üzərindədir,
Qulaqları onların fəryadlarına açıqdır.
16 Rəbbin üzü şər iş görənlərə qarşıdır,
Yer üzündə onlardan nişanə
qoymayacaq.
17 Salehlər fəryad çəkəndə Rəbb
eşidir,
Onları bütün əzablarından azad edir.
18 Rəbb qəlbisınıqlara yaxındır,

---

[g] **34:0** 1Şam. 21:13-15 [h] **34:8** 1Pet. 2:3 [i] **34:12** 1Pet. 3:10-12

O, ruhən əzilmişləri qurtarır.
19 Salehlər çox bəlaya düçar olar,
Lakin Rəbb onları hər birindən qurtarır.
20 [j]Rəbb onların hər bir sümüyünü qoruyur,
Heç biri zədələnməz.
21 Pislər öz şəri ilə məhv olacaq,
Salehə nifrət edən məhkum olacaq.
22 Rəbb qullarının canını azad edir,
Rəbbə pənah gətirən məhkum olmur.

Məzmur 35

Davudun məzmuru.

35 Ya Rəbb, mənimlə çəkişənlərlə Sən çəkiş.
Mənimlə döyüşənlərlə Sən döyüş.
2 Qalxan və sipərini əlinə al,
Qalx, mənim imdadıma çat.
3 Nizəni tutub ardımca düşənlərin yolunu kəs,
Qəlbimə söylə: «Səni qurtaran Mənəm».
4 Canımın qəsdinə duranlar
Qoy utanıb rüsvay olsunlar,
Mənə qarşı pis niyyəti olanlar
Geri qovulub biabır olsunlar.
5 Saman çöpü tək olsunlar, onları yel sovursun,
Rəbbin mələyi onları silib atsın.
6 Qoy yolları zülmət, sürüşkən olsun,
Qoy Rəbbin mələyi onları qovsun.
7 Çünki nahaq yerə mənə tələ qurdular,
Nahaqdan canım üçün quyu qazdılar.
8 Qoy başlarına qəfil fəlakət gəlsin,
Qurduqları tələyə özləri düşsün,
Hazırladıqları bəlaya düçar olsunlar.
9 Onda canım Rəblə şad olacaq,
Məni qurtardığı üçün qəlbim fərəh tapacaq.
10 Bütün varlığımla belə deyəcəyəm:
«Ya Rəbb, Sənin kimisi varmı?
Məzlumu ondan güclünün əlindən,
Məzlumu və fəqiri istismarçının əlindən azad edirsən».
11 Amansız şahidlər qalxırlar,
Yalandan üzümə dururlar.
12 Yaxşılığımın əvəzində onlardan yamanlıq görürəm,
Əzizi ölən bir adama bənzəyirəm.
13 Vaxtı ilə onlar xəstələnərkən
Çul geyib, oruc tutub canıma zülm edirdim,
Başımı aşağı salıb dua edirdim.*
14 Onları özümə dost və qardaş bilirdim.
Anası üçün yas tutan adam tək
Bükülüb hüznlə gəzirdim.
15 Lakin mən büdrəyərkən
Bir yerə toplaşıb sevindilər.
Tanımadığım əclaflar mənə qarşı toplaşdılar.
Dayanmadan məni didirdilər,
16 Şikəstləri təhqir edən allahsızlar kimi
Mənə dişlərini qıcayırdılar.
17 Ey Xudavənd, nə vaxta qədər buna baxacaqsan?
Canımı məhv edilməkdən,
Həyatımı bu gənc aslanlardan qurtar.
18 Çoxlu camaat arasında Sənə şükür edəcəyəm,
Çoxsaylı xalq arasında Sənə həmd edəcəyəm.
19 [k]Qoyma haqsız düşmənlərim mənə görə sevinsin,
Mənə nahaqdan nifrət edənlər bir-birinə göz vursun.
20 Çünki onlar sülh üçün danışmırlar,
Sözləri ilə ölkənin dinc sakinlərinə fənd qururlar.
21 Ağızlarını üstümə iri açıb belə deyirlər:
«Aha! Aha! Bax, öz gözümüzlə gördük».

---

*35:13 *Başımı aşağı salıb dua edirdim* – yaxud *duam cavabsız qalarkən.*

[j]34:20 Yəh. 19:36 [k]35:19 Zəb. 69:4; Yəh. 15:25

22 Ya Rəbb, bunu gördün, indi susma,
Ey Xudavənd, məndən uzaq durma.
23 Ey Xudavənd Allahım, oyan, qalx,
Bu mübarizəmdən qoy mən haqlı çıxım.
24 Ədalətinə görə mənə bəraət qazandır,
Ya Rəbb Allahım, qoyma mənə görə sevinsinlər.
25 Qoyma düşünsünlər: «Aha! Muradımıza çatmışıq!»
Qoyma söyləsinlər: «Onun başını yemişik!»
26 Pis günümə şadlananlar
Qoy utanıb biabır olsunlar,
Qarşımda qürrələnənlər
Xəcalətə, rüsvayçılığa bürünsünlər.
27 Mənim haqlı çıxmağımı istəyənlər
Sevinib Səni mədh etsinlər.
Daim belə söyləsinlər:
«Öz qulunun əmin-amanlığını istəyən Rəbb ucalsın!»
28 Dilim Sənin salehliyindən deyəcək,
Daim Sənə həmd edəcəyəm!

Məzmur 36

Musiqi rəhbəri üçün. Rəbbin qulu Davudun məzmuru.

36 [l]Şər pis insanın ürəyinə pıçıldayır,
Onun gözündə Allah qorxusu yoxdur.
2 Öz gözündə özünü yüksək tutur,
Nə təqsirini görür, nə də ona nifrət edir.
3 Dilindən fitnə-fəsad düşmür,
Müdrik, xeyirxah əməllərdən əl çəkib.
4 Yatağında fitnələr barədə fikirləşir,
Pis yolda dayanır, şər işlərdən ikrah etmir.
5 Ya Rəbb, məhəbbətin göylərdədir,
Sədaqətin asimanı bürüyür.
6 Dağlar kimi salehliyin uludur,
Dərya kimi ədalətin dərindir.
Ya Rəbb, həm insanı, həm heyvanı qoruyursan.
7 Ey Allah, məhəbbətin nə qədər qiymətlidir!
Bəşər övladları Sənin qanadlarının kölgəsinə sığınır.
8 Evinin bolluğu ilə onları doydurursan,
Sənin xoşhal edən axar çayından onları içirirsən.
9 Çünki həyat mənbəyi Səndədir,
Biz Sənin nurunla görə bilirik.
10 Səni tanıyanlara məhəbbətini,
Ürəyidüz olanlara salehliyini daima göstər.
11 Qoy təkəbbürlülərin təpiyi altında qalmayım,
Pis adamların əli ilə qovulmayım.
12 Gördüm ki, şər iş görənlər yıxılıblar,
Onlar yerə sərilib, daha qalxa bilməzlər.

Məzmur 37

Davudun məzmuru.

37 Pislik edənlərə görə narahat olma,
Fitnəkarlıq edənlərə qibtə etmə.
2 Tezliklə onlar ot kimi quruyacaq,
Yaşıl çəmən kimi tez solacaq.
3 Rəbbə güvən, yaxşılıq et,
Bu diyarda arxayın ömür sür.
4 Rəbdən zövq al,
O da səni ürəyinin istəklərinə çatdıracaq.
5 Yolunu Rəbbə ver,
Ona güvən,
O edəcək.
6 Rəbb sənin salehliyini nur kimi aydınlaşdıracaq,
Həqiqətini gündüz günəşi tək çıxaracaq.
7 Rəbbin hüzurunda sükut et,
Onu səbirlə gözlə.
Yolunda uğur qazanan

---

[l]**36:1** Rom. 3:18

Hiyləgər insan üçün narahat olma.
8 Qəzəbi at, hiddətdən çəkin,
Narahat olma, bunlar insanı şərə salar.
9 Çünki şər adamlar kəsilib atılacaq,
Rəbbə ümid bağlayanlar ölkəni mülk olaraq alacaq.
10 Bir az gözlə, pis yox olacaq,
Yerini axtarsan belə, tapılmayacaq.
11 [m]Həlimlər yer üzünü mülk olaraq alacaq,
Əmin-amanlığın bolluğundan zövq tapacaq.
12 Şər adam salehin qəsdinə durur,
Ona qarşı dişlərini qıcayır.
13 Amma Xudavənd şər adama gülür,
Onun dövranının az olmasını bilir.
14 Məzlumu, fəqiri yerə vurmaq üçün,
Düz yolda olanı boğazlamaq üçün
Pislər qılınc çəkər, ox-kamanını qurar.
15 Lakin onların qılıncları öz ürəklərinə saplanacaq,
Ox-kamanları parça-parça olacaq.
16 Salehin az malı
Pislərin bütün sərvətlərindən yaxşıdır.
17 Çünki pislərin qol-qanadı qırılacaq,
Rəbb isə salehlərin dayağıdır.
18 Rəbbə kamillərin gündəlik qayğıları məlumdur,
Onların irsi əbədi qalacaq.
19 Dar gündə utanmayacaqlar,
Qıtlıqda tox yaşayacaqlar.
20 Lakin pislər həlak olacaq,
Rəbbin düşmənləri çəmənin təravəti kimi solacaq,
Tüstü kimi çəkilərək yox olacaq.
21 Pis adam borc alır, qaytarmır,
Salehlər səxavətlə paylayır.
22 Rəbdən bərəkət alan ölkəni mülk olaraq alacaq,
Lənət etdiyi kəslər kəsilib atılacaq.
23 Rəbb insana gedəcəyi yolu göstərir,
Kimdən razı qalırsa, onu möhkəmləndirir.
24 Bu insan büdrəsə də, yıxılmaz,
Çünki Rəbb onun əlindən tutar.
25 Gəncliyimdən qocalığımadək
Salehin tərk edildiyini,
Nəslinin çörək üçün diləndiyini görməmişəm.
26 O hər zaman səxavətlə borc verər,
Övladlarına xeyir-dua gələr.
27 Şərdən çəkinib yaxşılıq et ki,
Ölkədə əbədi məskən sala biləsən.
28 Çünki Rəbb ədaləti sevir,
Heç zaman möminlərini tərk etmir.
Salehlər daim müdafiə olunacaq,
Pislər nəsilliklə kəsilib atılacaq.
29 Salehlər ölkəni mülk olaraq alacaq,
Onlar orada əbədi məskən salacaq.
30 Salehin ağzından hikmət çıxar,
Dili haqq söz danışar.
31 Çünki Allahın qanunu ürəyindədir,
Ayaqları büdrəmir.
32 Pis adam salehi güdür,
Onu öldürmək üçün fürsət axtarır.
33 Rəbb salehi pisin əlinə düşməyə qoymaz,
Ona ittiham oxunanda məhkum olmaz.
34 Rəbbi gözlə, Onun yolunu tut,
O sənə ölkəni mülk olaraq verəcək, səni yüksəldəcək.
Pislərin kəsilib atılacağı zamanı görəcəksən.
35 Münbit torpaqda yaşıl ağac tək bitən,
Kök salan zalım, pis adamı görmüşdüm.
36 O keçib-getdi, yeri boş qaldı,
Onu axtararkən tapa bilmədim.
37 Kamil adama bax, əməlisaleh insana nəzər yetir,
Gələcək sülhsevən adama bəxş ediləcək.
38 Amma bütün üsyankarlar birlikdə yox olacaq,
Pislərin kökü kəsiləcək.

---

[m]**37:11** Mat. 5:5

39 Salehlərin qurtuluşu Rəbdəndir,
Dar gündə onlara pənah yeridir.
40 Rəbb onların imdadına çatır,
Onları qurtarıb pislərin əlindən alır,
Çünki onlar Rəbbə pənah aparır.

Məzmur 38

Davudun yadasalma məzmuru.

38 Ya Rəbb, qəzəblənib məni töhmətləndirmə,
Hiddətlənib məni tənbeh eləmə.
2 Artıq Sənin oxların mənə saplanıb,
Əllərin üstümə ağırlıq salıb.
3 Bədənimdə qəzəbindən sağ yer qalmadı,
Günahıma görə sümüklərim də xəstəlik tapdı.
4 Çünki təqsirlərim başımdan aşır,
Ağır yük tək onlara gücüm çatmır.
5 Ağılsızlığımın üzündən
Yaralarım iyrənc və irinlidir.
6 Mənim qəddim əyilib, ikiqat bükülmüşəm,
Gün boyu yaslı gəzirəm.
7 Çünki belim qızdırmadan yandı,
Bədənimdə sağ yer qalmadı.
8 Taqətim kəsildi, çox əzilmişəm,
Ürəyimdəki iztiraba görə ah-zar edirəm.
9 Ey Xudavənd, mənim arzu-diləyim hüzurundadır,
Mənim iniltilərim Səndən gizli qalmır.
10 Ürəyim çırpınır, gücüm tükəndi,
Gözlərimin nuru da söndü.
11 Azarımı görüb məndən dost-yoldaşım uzaqlaşdı,
Qohumlarım məndən uzaqda qaldı.
12 Canımın qəsdinə duranlar mənə tələ qurur,
Bədxahlarım ölümümdən danışır,
Gün boyu mənim üçün hiylə qururlar.
13 Mən bir kar kimi eşitmirəm,
Dilsiz-ağızsız bir lal kimiyəm.
14 Dilsiz-cavabsız
Bir lal-kar kimiyəm.
15 Ya Rəbb, ümidim Sənə qalıb,
Ey Xudavənd Allahım, Səndən cavab gözləyirəm!
16 Dedim ki, qoy halıma sevinməsinlər,
Ayağım büdrəyəndə qarşımda öyünməsinlər.
17 Mən yıxılmaq üzrəyəm,
Daim əzabla üz-üzəyəm.
18 Təqsirlərimi etiraf edirəm,
Günahlarım üçün nigarançılıq çəkirəm.
19 Düşmənlərim qüvvətlidir, hələ sağdır,
Nahaq yerə mənə nifrət edənlər çoxdur.
20 Yaxşılığa yamanlıq edənlər
Yaxşılığa meyl etdiyimə görə əleyhimə durublar.
21 Ya Rəbb, məni tərk etmə!
Ey Allahım, məndən uzaq dayanma!
22 Ey Xudavənd, tez imdadıma çat,
Mənim xilaskarım Sənsən!

Məzmur 39

Musiqi rəhbəri Yedutun üçün. Davudun məzmuru.

39 Dedim: «Hər addımıma diqqət edəcəyəm,
Dilimlə günah etməkdən çəkinəcəyəm.
Pis adam qarşımda durarkən
Dilimi yüyənləyib dinməyəcəyəm».
2 Dilimi saxlayıb susdum,
Yaxşılığa belə, danışmadım.
Dərdlərim ağırlaşdı,
3 Köksümdəki qəlbimə köz doldu.
Dərin düşünəndə yanıb-yaxıldım,
Dilimlə belə dedim:
4 «Ya Rəbb, mənə bildir,
Aqibətim necə olacaq?
Ömrümün günləri nə qədər qalıb?
Qoy nə qədər fani olduğumu anlayım!
5 Budur, günlərim ovcuna sığdı,
Ömrüm qarşında heç oldu.
Bəli, insan sadəcə bir nəfəsdir. *Sela*
6 Əlbəttə, insan kölgə kimi dolaşır,

Həqiqətən, o boş yerə çarpışır,
Var-dövlət yığır, kimə qalacağını
bilmir.
7 Ey Xudavənd, indi mən nə gözləyim?
Mənim ümidim Sənsən!
8 Məni bütün təqsirlərimdən qurtar,
Məni axmaqların tənəsinə hədəf etmə.
9 Susdum, ağzımı açmadım,
Çünki Sən bunu etdin!
10 Göndərdiyin bəlanı mənim
üstümdən götür,
Əlinin zərbəsindən gör necə əzildim.
11 İnsanı təqsirinə görə məzəmmət
edən zaman
Arzularını güvə kimi dağıdırsan.
Bəli, insan sadəcə bir nəfəsdir. *Sela*
12 Dinlə duamı, ya Rəbb, fəryadımı
eşit!
Biganə qalma göz yaşlarıma.
Çünki Sənin yanında bir qəribəm,
Ata-babam kimi bir qonağam.
13 Bir azca nəzərini məndən çək,
Qoy köçüb getməzdən əvvəl dinc
yaşayım».

Məzmur 40

Musiqi rəhbəri üçün. Davudun məzmuru.

40 Rəbbi səbir edərək gözlədim,
Mənə tərəf dönərək fəryadımı
eşitdi.
2 O məni çamırlı quyudan,
Lilli bataqlıqdan çıxartdı.
Ayağımı qaya üzərində bərkitdi,
Hər addımımı möhkəm etdi.
3 Dilimə yeni bir nəğmə verdi,
İlahi ilə Allahımıza həmd etdim.
Bax nə qədər adam bunu görəcək,
Qorxub Rəbbə güvənəcək.
4 Rəbbə ümidlə arxalanan,
Təkəbbürlülərə üz tutmayan,
Bütlərə aldananlara qoşulmayan
İnsan nə bəxtiyardır!
5 Ya Rəbb Allahım, Sənə bənzəyən
yoxdur!
Bizə aid xariqələrin, düşüncələrin
çoxdur.
Onlardan danışmaq istəsəm,
Belə deyərdim: «Sayı-hesabı yoxdur».
6 [n]Qurbandan, təqdimdən xoşun
gəlmədi,
Yandırma qurbanı, günah qurbanı
tələb etmədin,
Amma mənim qulağımı açdın.
7 O zaman dedim: «Budur, gəlmişəm,
Sənin tumarında mənim haqqımda
yazılıb.
8 Ey Allahım, Sənin iradəni yerinə
yetirmək
Mənə zövq verir,
Qanunun qəlbimdədir».
9 Çoxlu camaat arasında salehliyini
car çəkdim,
Ya Rəbb, Sən bilirsən ki, ağzımı
yummadım.
10 Salehliyini qəlbimdə gizlətmədim,
Xilaskar olduğunu, sədaqətini
söylədim.
Çoxlu camaat arasından
Məhəbbətini, həqiqətini gizli
saxlamadım.
11 Ya Rəbb, mərhəmətini məndən
əsirgəmə,
Daim məni məhəbbətinlə, həqiqətinlə
qoru.
12 Çünki sonsuz bəlalar ətrafımı
bürüdü,
Günahlarım mənə sarıldı.
Görə bilmirəm, çünki məndə ürək
qalmadı,
Onlar başımın tükündən çoxdur.
13 Ya Rəbb, lütfünlə məni xilas et,
Ya Rəbb, dadıma tez çat!
14 Canımı almaq üçün qəsd quranlar
Qoy utanıb biabır olsunlar.
Pis günümdən zövq alanlar
Geri qovulub rüsvay olsunlar.
15 Mənə «Aha! Aha!» deyənlər
Xəcalət içində çaşıb qalsınlar.

---

[n]**40:6** İbr. 10:5-7

16 Lakin Səni axtaranlar
Sənə görə qoy şad olub sevinsinlər.
Xilaskar olduğunu sevənlər
Daim «Qoy ucalsın Rəbb!» desinlər.
17 Budur, bir məzlum, bir fəqirəm,
Lakin Xudavənd qayğıma qalır.
Köməyim, xilaskarım Sənsən,
Ey Allahım, ləngimə!

Məzmur 41

Musiqi rəhbəri üçün. Davudun məzmuru.

41 Yoxsulların qayğısına qalan nə bəxtiyardır!
Rəbb dar günündə onu qurtarar,
2 Rəbb onu qoruyar, salamat saxlayar.
O, ölkədə bəxtiyar olar,
Düşmənlərinə təslim edilməz.
3 Yatağa düşəndə Rəbb ona dayaq olar,
Onu bütün xəstəlikdən sağaldar.
4 Mən dedim: «Ya Rəbb, mənə rəhm et,
Canıma şəfa ver,
Çünki Sənə qarşı günah etmişəm».
5 Düşmənlərim məndən pis sözlər söyləyir:
«Bu nə vaxt öləcək, adı batacaq?» deyirlər.
6 Mənə baş çəkənlər yalan danışır,
Ürəklərinə böhtan yığır,
Bayıra çıxanda bundan danışırlar.
7 Bütün mənə nifrət edənlər mənim barəmdə pıçıldaşır,
Mənə qarşı pis fikirləri var.
8 Deyirlər: «Bu, ölümcül bəlaya düşüb,
Budur, yatır, daha qalxmaz».
9 [o]Hətta etibarlı saydığım ən yaxın dostum,
Çörəyimi yeyən mənə xəyanət etdi.
10 Sən, ya Rəbb, rəhm edib məni ayağa qaldır,
Qoy onlardan bunun əvəzini çıxım!
11 Məndən razı qaldığını bundan bilirəm:
Düşmənlərimin mənə qalib gəlmədiyini görürəm.
12 Kamil olduğum üçün məndən möhkəm yapışdın,
Məni hüzurunda əbədilik dayandırdın.
13 [p]Alqış olsun İsrailin Allahı Rəbbə
Əzəldən sonsuza qədər!
Amin! Amin!

İkinci hissə

42-72-ci məzmurlar

Məzmur 42

Musiqi rəhbəri üçün. Qorah övladlarının maskili.

42 Maral axar sulara həsrət qalan kimi,
Ey Allah, könlüm Sənin həsrətini çəkir!
2 Ey var olan Allah, mənim qəlbim Sənin üçün susayıb.
Ay Allah, nə vaxt gəlib hüzurunda görünüm?
3 Göz yaşlarım gecə-gündüz qidam olub,
Daim mənə deyirlər: «Bəs hanı Allahın?»
4 Bunları yadıma salarkən ürəyim üzülür,
Necə də yüksəkdən sevinc, şükür nidalarını söyləyərək
Bayram edən xalqın qarşısında gedərdim,
Onları Allahın evinə aparardım.
5 Mənim qəlbim, niyə qırılmısan?
Axı niyə bu köksümdə tələşlanırsan?
Ümidini yenə Allaha bağla,
Qoy Allahıma – məni qurtarana şükür edim.

---

[o]**41:9** Mat. 26:23; Mark 14:20; Luka 22:21; Yəh. 13:18
[p]**41:13** 1Saln. 16:36; Zəb. 106:48

[6] Köksümdəki qəlbim qırılıb,
Ona görə İordan diyarında,
Xermon, Misar dağında
Səni düşünürəm.
[7] Dərin sular şəlalələrinin səsi ilə
Dərin suları çağırdı,
Sənin ləpələrin, dalğaların başımdan aşdı.
[8] Rəbb mənə gündüz məhəbbət göstərir,
Gecə isə həyatımın Allahına
Etdiyim dua və ilahi dilimdən düşmür.
[9] Qayama – Allahıma deyirəm: «Niyə məni unutdun?
Düşmənin zülmünə görə niyə yaslı gəzməliyəm?»
[10] Düşmənlərim sümüklərimi qırıb məni təhqir edirlər,
Daim mənə «Bəs hanı Allahın?» deyirlər.
[11] Mənim qəlbim, niyə qırılmısan?
Axı niyə bu köksümdə tələşlanırsan?
Ümidini yenə Allaha bağla,
Qoy Allahıma – məni qurtarana şükür edim.

Məzmur 43

43 Ey Allah, etibarsız millətə qarşı olan mübarizəmdən
Məni haqlı çıxart,
Məni hiyləgər, fitnəkar adamın əlindən qurtar.
[2] Çünki Sən pənah gətirdiyim Allahsan.
Niyə məni atmısan?
Düşmənin zülmünə görə niyə yaslı gəzməliyəm?
[3] Göndər Öz nurunu, həqiqətini,
Qoy yolunu mənə göstərsinlər,
Müqəddəs dağına, məskənlərinə
Qoy məni aparsınlar.
[4] Onda Allahın qurbangahına,
Sevincim, fərəhim olan Allahımın yanına gedərəm.
Lira çalıb Sənə şükür edərəm,
Ey Allah, mənim Allahım.
[5] Mənim qəlbim, niyə qırılmısan?
Axı niyə bu köksümdə tələşlanırsan?
Ümidini yenə Allaha bağla,
Qoy Allahıma – məni qurtarana şükür edim.

Məzmur 44

Musiqi rəhbəri üçün. Qorah övladlarının maskili.

44 Ey Allah, öz qulağımızla eşitmişik ki,
Ata-babalarımızdan bizə çatıb ki,
Onların dövründə, qədim zamanda
Sən hansı işləri görmüsən.
[2] Öz əlinlə millətləri torpaqlarından götürdün,
Atalarımızı orada yerləşdirdin.
Xalqlara bəla verdin,
Atalarımızın soyunu şaxələndirdin.
[3] Onlar qılıncları ilə deyil,
Sənin sağ əlinlə torpaqlara sahib oldular.
Öz qolları deyil,
Sənin sağ qolun onlara zəfər qazandırdı.
Onlara üzündən nur verdin,
Çünki Sən onları sevirdin.
[4] Ey mənim Allahım, Sənsən Padşahım,
Əmr et, Yaqub nəsli qələbə çalsın.
[5] Köməyinlə düşmənlərimizi devirək,
İsminlə əleyhdarlarımızı əzək.
[6] Ox-kamanıma güvənmərəm,
Qılıncım məni qurtarmaz.
[7] Yalnız Sən bizi düşmənlərimizdən xilas etdin,
Bizə nifrət edənləri rüsvay etdin!
[8] Gün boyu Allahla fəxr edirik,
İsminə sonsuza qədər şükür edirik.
Sela
[9] İndi isə bizi atıb rüsvay etmisən,
Ordularımızla yürüşə çıxmırsan.
[10] Düşmənin qarşısından bizi geriyə qovursan,
Bizə nifrət edənlər bizi soyub-talayır.

11 Bizi kəsilməyə gedən qoyun kimi
etdin,
Sən bizi millətlər arasına səpdin.
12 Öz xalqını yaman ucuz satdın,
Onların dəyərindən çox qazanmadın.
13 Bizi qonşularımıza tənə hədəfi
etdin,
Ələ salıb lağ edənlərlə yan-yörəmizi
doldurdun.
14 Bizi millətlərin dilinə saldın,
Ümmətlərin gülüş hədəfinə
döndərdin.
15 Rüsvayçılığım daim qarşımı kəsir,
Bu xəcalətin üzündən,
16 Təhqir, söyüş sözlərindən,
Düşməndən, qisasçıdan üzümü
gizlədirəm.
17 Səni unutmadığımız,
Əhdinə xəyanət etmədiyimiz halda
Bunların hamısı başımıza gəldi.
18 Səndən qəlbimiz dönmədiyi,
Yolundan ayaqlarımız büdrəmədiyi
halda
19 Sən bizi çaqqalların diyarında
əzdin,
Qatı zülmətə qərq etdin.
20 Allahımızın ismini unutmuş
olsaydıq,
Yad allaha əl açmış olsaydıq,
21 Allah bunu araşdırmazdımı?
Çünki qəlbin hər sirrini bilən Odur.
22 [q]Biz gün boyu Sənin uğrunda
öldürülürük,
Qurbanlıq qoyunlar sayılırıq.
23 Ey Xudavənd, oyan, niyə yatmısan?
Qalx, bizi əbədilik atma!
24 Niyə üzünü bizdən gizlədirsən?
Əzab-əziyyətimizi nə üçün unutdun?
25 Qəlbimiz palçıq kimi əzilmişdir,
Qəddimiz əyilib yerə dəyir.
26 Qalx, bizə kömək et,
Bizi məhəbbətin naminə xilas et!

Məzmur 45

Musiqi rəhbəri üçün. Qorah övladlarının «Şoşannim» üstə oxunan maskili.

Sevgi nəğməsi

45 Qəlbim yaxşı sözlərlə çağlayır,
Qoy şeirlərimi padşahıma
söyləyim,
Dilim mahir bir xəttatın qələminə
oxşayır.
2 Bəşər övladlarının ən gözəli sənsən,
Dodaqlarından lətafətli sözlər tökülür,
Çünki Allah səni əbədilik xeyir-dualı
edib.
3 Ey cəngavər, qılıncını belinə bağla,
Əzəmətini, ehtişamını göstər.
4 Həqiqət, itaətkarlıq və salehlik
naminə
Döyüş arabasına qalx,
Əzəmətinlə uğur qazan.
Qoy sağ əlindən möhtəşəm işlər
gəlsin.
5 Nə itidir oxların,
Padşahın düşmənlərinin köksünə
saplanır.
Xalqlar ayağının altına yıxılır.
6 [r]Ey Allah, taxtın əbədilik,
sonsuzadək qalır,
Sənin şahlıq əsan insaf əsasıdır.
7 Salehliyi sevib pisliyə nifrət edirsən.
Ona görə Allah, sənin Allahın
Sevinc yağı ilə
Yoldaşlarından çox səni məsh edib.
8 Bütün paltarlarından
Mirra, əzvay və Çin darçınının ətri
gəlir.
Fil dişindən olan saraylarından
Səni şənləndirən simli alətlərin sədası
gəlir.
9 Şərəfə çatdırdığın qadınlar arasında
Şahzadə xanımlar da var.
Mələkə olacaq qız sağ qoluna girib,
Ofir qızıllarına bürünüb.

---

[q]**44:22** Rom. 8:36 [r]**45:6** İbr. 1:8-9

10 Dinlə, ey qız, diqqət elə, sözümə qulaq as,
Öz xalqını, ata evini unut.
11 Sənin gözəlliyin padşahı məftun etsin.
O sənin ağandır, ona itaət et.
12 Sur xalqı yanına hədiyyələr gətirəcək,
Xalqın varlıları səndən lütf istəyəcək.
13 Bu şah qızı sarayına cah-calalla gətirilir,
Paltarları qızıl tikmələrə bürünmüş.
14 Padşahın yanına əlvan libasda gətirilir,
Rəfiqələri sağdışı-soldışıdır.
15 Onlar sevinclə, şadlıqla gətirilir,
Padşahın sarayına girirlər.
16 Ey padşah, ata-baban kimi oğulların olacaq,
Onlara bütün yer üzünün hakimiyyətini verəcəksən.
17 Adını nəsillərdən-nəsillərə çatdıracağam,
Xalqlar da sonsuza qədər sənə həmd oxuyacaq!

Məzmur 46

Musiqi rəhbəri üçün. Qorah övladlarının «Alamot» üstə oxunan ilahisi.

46 Allah bizə sığınacaqdır, qüvvətdir,
Dar gündə çox kömək edir.
2 Buna görə biz qorxmuruq:
Yer üzü alt-üst olsa belə,
Dağlar uçub dənizin köksünə aşsa belə,
3 Dalğalar kükrəyib qalxsa belə,
Vurub dağları yırğalasa belə,
Biz qorxmuruq. *Sela*
4 Bir çay var ki suları Allahın şəhərinə axır,
Haqq-Taalanın müqəddəs məskəninə sevinc gətirir.
5 Allah bu şəhərin mərkəzində sarsılmaz durub,
Ona dan yeri sökülində yardım edər.
6 Millətlər kükrəyər, ölkələr sarsılar,
Allah səsini çıxaranda dünya əriyər.
7 Ordular Rəbbi bizimlədir!
Yaqubun Allahı qalamızdır! *Sela*
8 Gəlin, görün Rəbbin işlərini,
Dünyada etdiyi viranəliyi.
9 O, yerin ucqarlarınadək döyüşləri dayandırar,
Kamanları qırar, nizələri sındırar,
Döyüş arabalarını oda atar.
10 «Dayanın, bilin ki, Mən Allaham,
Millətlər arasında ucayam,
Yer üzündə ucayam!»
11 Ordular Rəbbi bizimlədir!
Yaqubun Allahı qalamızdır! *Sela*

Məzmur 47

Musiqi rəhbəri üçün. Qorah övladlarının məzmuru.

47 Ey bütün xalqlar, əl çalın,
Cuşa gəlib Allaha nida edin!
2 Haqq-Taala Rəbb necə də zəhmlidir,
Bütün yer üzünün böyük Padşahıdır!
3 Onun sayəsində xalqlar bizə tabe olub,
O, ümmətləri ayaqlarımızın altına salıb.
4 Sevdiyi Yaqubun fəxri olan torpağı
Bizə mülk etmək üçün seçdi. *Sela*
5 Allah nida ilə ucaldı,
Rəbb şeypur səsi ilə yüksəldi.
6 Tərənnüm edin Allahı, tərənnüm edin!
Tərənnüm edin Padşahımızı, tərənnüm edin!
7 Çünki Allah bütün yer üzünün Padşahıdır,
Onu ilahilərlə tərənnüm edin.
8 Allah Öz müqəddəs taxtında əyləşir,
Allah millətlərə padşahlıq edir.
9 İbrahimin Allahının xalqı ilə bir yerdə olmaq üçün
Xalqların əsilzadələri yığılır,
Çünki yer üzünün sipərləri Allahındır.
O nə qədər ucadır!

Məzmur 48

Qorah övladlarının məzmuru.

Bir ilahi.

48 Allahımızın şəhərində,
Öz müqəddəs dağında
Rəbb çox əzəmətlidir,
Bol həmdlərə layiqdir.
2 [s]Şimala tərəf böyük Padşahın şəhəri –
Sion dağı ucalığı ilə gözəldir,
Dünyanın sevincidir.
3 Onun qalalarında Allah Özünü
Alınmaz qala kimi göstərmişdir.
4 Padşahlar bir yerə yığıldılar,
Siona yürüş etdilər.
5 Onu görəndə mat qaldılar,
Qorxub tez qaçdılar.
6 Hamilə qadının ağrısı kimi
Canlarına lərzə düşdü.
7 Sən şərq küləyi ilə
Tarşiş gəmilərini parçaladın.
8 Ordular Rəbbinin şəhərində –
Allahımızın şəhərində
Nə eşitmişiksə, onu gördük,
Allah oranı əbədi saxlayacaq. *Sela*
9 Ey Allah, məbədində
Məhəbbətin barədə dərindən düşünürük.
10 Ey Allah, yerin ucqarlarına qədər
Adın həmdə layiqdir.
Sağ əlin ədalətinlə doludur.
11 Qoy Sion dağı sevinsin.
Sənin hökmlərinə görə
Qoy Yəhuda qızları şad olsun.
12 Sionun ətrafında gəzib-dolaşın,
Onun qüllələrini sayın.
13 Divarlarına fikir verin,
Qalalarına diqqətlə baxın.
Gələcək nəslə belə deyin:
14 «Əbədi, sonsuzadək
Bu Allah bizim Allahımızdır.
Ömrümüzün sonunadək
O bizə yol göstərəcək!»

Məzmur 49

Musiqi rəhbəri üçün. Qorah övladlarının məzmuru.

49 Siz, ey bütün xalqlar,
Bunu dinləyin!
Ey dünya sakinləri,
2 Ey sadə insanlar, əsilzadələr,
Ey zənginlər, fəqirlər,
Hamınız qulaq asın!
3 Dilimdən hikmətli sözlər çıxacaq,
Bu müdrik fikirlər qəlbimdən gəlir.
4 Bu məsəllərə qulaq asacağam,
Bu müəmmamı mən lira ilə açacağam:
5 Niyə yaman günlərdən,
Ətrafımda məni təqib edənlərin pis niyyətindən qorxum?
6 Onlar var-dövlətlərinə güvənirlər,
Bol sərvətləri ilə öyünürlər.
7 Amma kimsə öz ömrünü satın ala bilməz,
Həyatının haqqını Allaha ödəyə bilməz.
8 Çünki insanın canının haqqı çox dəyərlidir,
Ən üstün qiymətlər ona kifayət etmir ki,
9 İnsan əbədi ömür sürsün,
Məzarı heç görməsin.
10 Aydındır ki, həm hikmətlilər ölür,
Həm axmaqlar, həm də səfehlər tələf olur,
Hamının sərvəti başqasına nəsib olur.
11 Torpaqlara sahib olsalar belə,
Son mənzilləri qəbirdir,
Yenə nəsillərdən-nəsillərədək yerləri məzardır.
12 İnsan dəyərli olsa da, qalmır,
Həlak olan heyvana oxşayır.
13 Özünə güvənənlərin yolu ölümə aparır,
Özündən razı lovğaların sonu belədir. *Sela*

---

[s]**48:2** Mat. 5:34-35

14 Onlar sürü kimi ölülər diyarına
aparılar,
Onları ölüm otarar.
Səhər açılanda əməlisalehlər onlara
hakim olar.
Yurd-yuvasından uzaq bir yerdə,
ölülər diyarında
Cəsədləri çürüyüb qalar.
15 Amma Allah ölülər diyarının
əlindən canımı qurtaracaq,
Məni oradan alacaq. *Sela*
16 Qorxma bir adam varlı olanda,
Evinə sərvət yığılanda.
17 Çünki öləndə heç nə apara bilməz,
Sərvəti ardınca getməz.
18 Sağ ikən özünü xoşbəxt saysa da,
Uğur qazananda tərifləns də,
19 Ata-babalarının yanına gedəcək,
Sonsuzadək orada işıq görməyəcək.
20 İnsan dəyərli olsa da, anlamır,
Həlak olan heyvana oxşayır.

Məzmur 50

Asəfin məzmuru.

50 Güclü Rəbb Allah çağırır,
Gündoğandan günbatanadək
Bütün yer üzünü səsləyir.
2 Qüsursuz, gözəl Siondan
Allah Öz nurunu saçır.
3 Allahımız gəlir, sakit dayanmaz,
Önündə yandırıb-yaxan alov var,
Ətrafında şiddətli tufan qopar.
4 O, xalqını mühakimə etmək üçün
Yuxarıdakı göyü və yeri şahid çağırır:
5 «Hüzuruma möminlərimi,
Qurban verib Mənimlə əhd
bağlayanları yığın!»
6 Göylər ədalətini bəyan edir,
Çünki hakim Allahın Özüdür. *Sela*
7 «Danışıram, dinlə Məni, ey xalqım!
Ey İsrail, əleyhinə şəhadət edirəm.
Allaham, sənin Allahın Mənəm.
8 Qurbanlarından ötrü səni tənbeh
etmirəm,
Yandırma qurbanlarını həmişə
görürəm.
9 Tövləndəki buğanı, ağılındakı təkəni
Səndən qəbul etmirəm.
10 Çünki Mənimdir bütün meşələrdə
olan heyvanlar,
Minlərlə dağda otlayan mal-qaralar.
11 Dağlardakı bütün quşları tanıyıram,
Bütün çöl heyvanları əlimin
altındadır.
12 Acsam, sənə deməərəm,
Çünki dünyaya, dünyadakı hər şeyə
sahibəm!
13 Məgər Mən buğa əti yeyirəm?
Məgər Mən təkə qanı içirəm?
14 Şükür qurbanını Allaha təqdim et,
Haqq-Taalaya əhd etdiyin
təqdimlərini ver.
15 Dar gündə Məni çağır,
Mən səni xilas edəcəyəm,
Sən də Məni şərəfləndirəcəksən».
16 Pislərəsə Allah deyir:
«Qaydalarımı əzbər söyləməyə
haqqınız varmı?
Əhdimi dilə gətirməyə haqqınız
varmı?
17 Mənim iradıma nifrət edirsən,
Sözlərimi qulaq ardına vurursan.
18 Bir oğru görəndə ona qoşulursan,
Zinakarlara yoldaş olursan.
19 Ağzını şər üçün açırsan,
Dilini fırıldaq üçün işə salırsan.
20 Oturub qardaşından gileylənirsən,
Ananın oğlundan qeybət edirsən.
21 Sən belə edəndə Mən dinməmişəm.
Məgər Məni özün kimi sanırsan?
İndi isə səni tənbeh edəcəyəm,
Əməllərini gözünün önünə
düzəcəyəm.
22 Ey Allahı unudanlar,
Buna diqqət edin!
Yoxsa sizi parça-parça edərəm,
Heç birinizi xilas edən olmaz.
23 Kim ki şükür qurbanı təqdim edir,
Məni şərəfləndirir.
Doğru yol tutan şəxsə
Allahın xilasını göstərəcəyəm».

Məzmur 51

Musiqi rəhbəri üçün. Davudun məzmuru.

[t] *Davudun Bat-Şeva ilə olan münasibətinə görə Natan peyğəmbər onun yanına gəlib irad tutandan sonra.*

51 Məhəbbətinə görə, ey Allah,
mənə rəhm et,
Bol mərhəmətinə görə
qanunsuzluqlarımı sil.
2 Təqsirimi tamamilə yu,
Günahımdan məni təmizlə.
3 Çünki qanunsuzluqlarımı bilirəm,
Günahım daim gözümün
qarşısındadır.
4 [u]Sənə, yalnız Sənə qarşı günah
işlətmişəm,
Gözündə pis sayılanı etmişəm.
Mənə görə çıxarılan hökmündə
ədalətlisən,
Məni məhkum etməkdə haqlısan.
5 Mən doğulandan bəri günahkaram,
Ana bətnindən belə, təqsirkaram.
6 Sənsə ürəkdə düzlüyün olmasını
istəyirsən,
Mənə daxilən hikmət öyrət.
7 Məni züfa ilə pak et, təmiz olum,
Məni yu, qardan da ağ olum.
8 Mənə şadlıq, sevinc səsini eşitdir,
Qırdığın sümüklərim xoşhallansın.
9 Üzünü tut, günahlarımı görmə,
Bütün təqsirlərimi sil.
10 Ey Allah, məndə təmiz ürək yarat,
Daxilimə yenidən sədaqət ruhunu ver.
11 Məni Öz hüzurundan atma,
Müqəddəs Ruhunu məndən götürmə.
12 Xilasının sevincini mənə qaytar,
İtaətkarlıq ruhu verib mənə dayaq ol.
13 Qoy Sənin yollarını qanunsuzlara
öyrədim,
Günahkarlar Sənə sarı dönsünlər.
14 Ey Allah, məni azad et,
Qan tökmək təqsirindən məni qurtar,
Dilim ədalətini mədh etsin.
15 Ey Xudavənd, Sən dilimi aç,
Ağzımla Sənə olan həmdlərimi bəyan
edim.
16 Sən qurbanlardan zövq almazsan,
Yoxsa kəsərdim.
Yandırma qurbanlarından razı
qalmazsan,
17 Allaha məqbul olan qurban sınmış
ruhdur,
Sən sınan və peşman olan ürəyə xor
baxmazsan, ey Allah!
18 Lütfünlə Siona yaxşılıq et,
Yerusəlimin divarlarını bərpa et.
19 Onda doğru yolla təqdim edilən
qurbanlardan,
Bütöv yandırma qurbanlarından zövq
alarsan.
O zaman qurbangahında buğalar
qurban kəsilər.

Məzmur 52

Musiqi rəhbəri üçün. Davudun maskili.

[v] *Edomlu Doeq Davudun Aximelekin evinə getdiyini Şaula xəbər verəndə*

52 Pisliyinlə nə üçün öyünürsən, ey
cəngavər?
Sonsuzdur Allahın məhəbbəti.
2 Ey hiyləgər, dilin insanı məhv edir,
İti ülgüc kimi kəsir.
3 Yaxşılıqdan çox yamanı,
Doğru sözdən çox yalanı sevirsən.
Sela
4 Ey hiyləgər dilli,
Məhvedici sözləri çox sevirsən!
5 Allah səni əbədilik qıracaq,
Yaxandan yapışaraq evindən çölə
atacaq,
Dirilər arasından kökünü qoparacaq.
Sela
6 Salehlər buna baxıb qorxacaqlar,
Gülə-gülə belə deyəcəklər:
7 «Bu adam Allaha pənah gətirmədi,

---

[t] **51:0** 2Şam. 12:1-15 [u] **51:4** Rom. 3:4 [v] **52:0** 1Şam. 22:9-10

Öz bol sərvətinə güvəndi,
Başqalarını məhv edərək gücləndi».
8 Amma mən Allahın evində
Yaşıl zeytun ağacına bənzərəm,
Daima, əbədilik
Allahın məhəbbətinə güvənirəm.
9 Sənin gördüyün işlərə görə daim şükür edirəm,
Möminlərin qarşısında gözəl isminə ümid bağlayıram!

Məzmur 53

(Zəb. 14)

Musiqi rəhbəri üçün. Davudun «Maxalat» üstə oxunan maskili.

53 [w]Axmaqlar ürəyində «Allah yoxdur!» deyə düşünürlər,
İnsanlar pozulmuş, əməlləri iyrənc olmuş,
Yaxşı iş görən yoxdur.
2 Allah göylərdən bəşər övladına baxır;
Görəsən Allahı dərk edən, Onu axtaran varmı?
3 Hamı birgə pozulub, namus əldən gedib,
Bir nəfər də olsun yaxşı iş görən yoxdur.
4 Şər iş görənlərin hər biri məgər heç nə qanmırmı?
Xalqımı çörək yerinə yeyirlər, Allahı çağırmırlar.
5 Onlar böyük dəhşətə düşəcək,
Heç görünməmiş dəhşətə düçar olacaqlar.
Allah bizi mühasirəyə salanların
Sümüklərini qırıb dağıdacaq.
Onlar qarşımızda pərt qalacaq,
Çünki Allah tərəfindən rədd olunacaqlar.
6 Kaş İsrailin azadlığı Siondan gələydi!
Allah Öz xalqına bəxtəvər günlərini qaytaran zaman
Yaqub övladları şadlıq edəcək,
İsraillilər sevinəcək!

Məzmur 54

Musiqi rəhbəri üçün. Davudun simli alətlərin müşayiəti ilə oxunan maskili.

[x] Ziflilər Şaulun yanına gəlib «yəqin ki Davud bizim aramızda gizlənib» deyəndə.

54 Ey Allah, isminlə məni qurtar,
Qüvvənlə mənə bəraət ver.
2 Ey Allah, mənim duamı dinlə,
Dilimdən çıxan sözlərə qulaq as.
3 Yadellilər əleyhimə qalxıblar,
Zalımlar canımı almaq üçün məni axtarırlar,
Heç Allaha baxmırlar. *Sela*
4 Budur, Allah mənə kömək edir,
Xudavənd ömrümə dayaq olur.
5 O bu şəri düşmənlərimə tərəf döndərəcək.
Mənim sadiq Allahım, düşmənləri yox et!
6 Sənə könüllü qurban kəsəcəyəm,
Ya Rəbb, gözəl isminə şükür edəcəyəm!
7 Məni hər darlıqdan xilas etdin,
Gözüm düşmənlərimin məhvini gördü.

Məzmur 55

Musiqi rəhbəri üçün. Davudun simli alətlərin müşayiəti ilə oxunan maskili.

55 Ey Allah, duamı dinlə,
Yalvarışımdan gizlənmə!
2 Yaxşı qulaq as mənə, bir cavab söylə,
Düşüncələrim məni narahat edir,
Çaş-baş qalmışam.
3 Düşmənin səsindən,
Zalımların zülmündən narahatam.
Məni onların şər işləri sarsıdır,
Onlar qəzəblə mənə qəsd-qərəz qurur.
4 Köksümdəki ürəyim sancır,

---

[w] **53:1** Rom. 3:10-12 [x] **54:0** 1Şam. 23:19; 26:1

Ölüm dəhşəti üzərimə düşdü.
5 Mənə qorxu və titrətmə gəlib,
Canımı vicvicə bürüyüb.
6 Dedim: «Kaş göyərçin kimi
qanadlarım olaydı,
Uçub rahatlıq tapaydım.
7 Doğrudan da, uzaqlara qaçardım,
Çöllərdə məskən salardım. *Sela*
8 Bu sərt yellərdən, qasırğalardan
Daldalanmaq üçün tez bir yerə
gedəydim».
9 Ey Xudavənd, bu şəhəri alt-üst et,
Oradakıların dillərinə ayrılıq sal.
Orada zorakılıq, dava gördüm;
10 Bunlar gecə-gündüz divarlarının
üstündə dolanır,
Pislik və şər şəhərin içindədir,
11 Aralarında qırğın var,
Meydanlarından hədə-qorxu və
fırıldaq çıxır.
12 Əgər məni düşmən təhqir etsəydi,
dözərdim,
Yağı qarşımda qürrələnsəydi,
gizlənərdim.
13 Amma bunu sən etdin, ey rəfiqim,
Ey yoldaşım, ürək həmdəmim.
14 Sənlə şirin-şirin söhbət edərdik,
Allah evinə birgə gedərdik.
15 Qoy düşmənlərə qəfil ölüm gəlsin,
Onlar diri-diri ölülər diyarına düşsün,
Çünki şər onların evində və
qəlbindədir.
16 Mənsə Allahı səsləyərəm,
Rəbb məni xilas edər.
17 Səhər, günorta, axşam nalə
çəkirəm,
Ah-zar edirəm, O, səsimi eşidir.
18 Çoxları əleyhimə çıxır,
Amma O, canımı döyüşdən qoruyur.
19 Əzəldən bəri taxtında oturan Allah
Məni eşidib onları zəlil edəcək. *Sela*
Çünki onlar əsla dəyişməz,
Allahdan qorxmurlar.
20 Yoldaşım dostuna əl qaldırır,
Dostluq əhdini pozur.
21 Onun dili kərə yağından da yağlıdır,
Qəlbində isə çəkişmələr yaşayır,
Sözləri zeytun yağından yumşaqdır,
Amma sıyrılmış qılınclardır.
22 [y]Sən qayğı yükünü Rəbbə ver,
Qoy sənə dayaq olsun.
O heç vaxt salehə sarsıntı verməz.
23 Ey Allah, qanlı, hiyləgər adamları
Qəbirə endirəcəksən.
Onların ömrü yarıya çatmayacaq.
Amma mən yalnız Sənə güvənirəm!

Məzmur 56

Musiqi rəhbəri üçün. Davudun «Yonat elem rexoqim» üstə oxunan miktamı.

[z] *Filiştlilər onu Qat şəhərində yaxalayanda.*

56 Rəhm et mənə, ey Allah,
İnsanlar sel kimi üstümə cumur,
Gün boyu döyüşərək məni
sıxışdırırlar.
2 Gün boyu düşmənlərim sel kimi
üstümə cumur,
Əleyhimə qalxan məğrur döyüşçülər
çoxdur.
3 Bu dəhşətli gündə
Mən yalnız Sənə güvənirəm.
4 Vədinə görə Allaha həmd edirəm,
Mən Allaha güvənirəm, qorxmuram;
Fani insan mənə nə edə bilər?
5 Hər işimə onlar ziyan vururlar,
Həmişə mənə qəsd-qərəz qururlar.
6 Xəlvət bir yerə yığılıb hər addımımı
izləyirlər,
Pusqu qurub canımı almaq üçün
gözləyirlər.
7 Günahlarına görə onları cəzalandır,
Ey Allah, qəzəblə bu xalqları yerlə
yeksan et.
8 Dərdlərimi saydın,
Göz yaşlarımı tuluğuna yığ.
Bunlar Sənin kitabında yazılmayıbmı?

---

[y]**55:22** 1Pet. 5:7 [z]**56:0** 1Şam. 21:13-15

9 Mən Səni çağıranda düşmənlərim
geri dönür,
Bunu bilirəm, Allah mənim
tərəfimdədir.
10 Vədinə görə həmd etdiyim Allaha,
Vədinə görə həmd etdiyim Rəbbə,
11 Allaha güvənirəm və qorxmuram;
Fani insan mənə nə edə bilər?
12 Ey Allah, Sənə olan əhdlərimə əməl
etməliyəm,
Sənə şükür qurbanı təqdim edəcəyəm.
13 Çünki canımı ölümdən qurtardın,
Ayaqlarımı büdrəməyə qoymadın,
Belə ki Allahın hüzurunda,
Həyatın nurunda dolanım.

Məzmur 57

Musiqi rəhbəri üçün. Davudun «Al-taşxet» üstə oxuduğu miktamı.

[a] *Şauldan qaçıb mağarada gizlənəndə.*

57 Mənə rəhm et, ey Allah, mənə
rəhm et!
Canımı götürüb Sənin yanına pənah
gətirmişəm.
Bəlalar keçib-gedənəcən
Qanadlarının altına sığınacağam.
2 Allah-Taalanı çağırıram,
Mənim üçün hər şeyi verən Allahı
çağırıram.
3 Göydən mənə qurtuluş göndərəcək,
Başımı yemək istəyəni rüsvay edəcək.
Sela
Allah Öz məhəbbətini və sədaqətini
göndərəcək.
4 Sanki aslanların arasındayam,
Yandırıb-yaxan adamların arasında
yatıram.
Dişləri nizədir, oxdur,
Dilləri iti qılıncdır.
5 Ey Allah, göylər üzərində ucal!
Ehtişamın bütün yer üzərində olsun!
6 Yolumda tələ qurub canımı üzdülər,
Mənə qazdıqları quyuya özləri
düşdülər. *Sela*
7 Ey Allah, qəlbim Sənə möhkəm
bağlanıb, möhkəm bağlanıb,
Qoy ilahi oxuyum, Səni tərənnüm
edim.
8 Ey mənim ruhum, oyan!
Ey çəng və lira, oyan!
Qoy səhəri oyadım.
9 Ey Xudavənd, xalqlar arasında
Sənə şükür edəcəyəm.
Ümmətlər arasında
Səni tərənnüm edəcəyəm.
10 Məhəbbətin böyükdür, göylərə
çatır,
Sədaqətin buludlara dəyir.
11 Ey Allah, göylər üzərində ucal!
Ehtişamın bütün yer üzərində olsun!

Məzmur 58

Musiqi rəhbəri üçün. Davudun «Al-taşxet» üstə oxuduğu miktamı.

58 Ey qüdrətlilər, doğrudanmı
ədalətlə danışırsınız?
Bəşər övladları üçün insaflamı hökm
çıxarırsınız?
2 Xeyr, qəlbinizdən fitnə-fəsad çıxır,
Bu dünyada əlinizdən zorakılıq gəlir.
3 Pis adamlar ana bətnindən belə,
azğındırlar,
Çaşıblar, doğulan gündən belə,
yalançıdırlar.
4 Onlar əfi ilan kimi zəhərlidirlər,
Qulaqlarını tıxayan gürzəyə
bənzəyirlər.
5 Onlar ilanoynadanın səsinə gəlmir,
Usta bir ovsunçu onu ovsunlaya
bilmir.
6 Ey Allah, onların ağızlarındakı
dişlərini qır,
Ya Rəbb, bu gənc aslanların dişlərini
çıxar.
7 Qoy onlar su kimi axıb yox olsun,

---

[a] **57:0** 1Şam. 22:1; 24:3

Kaman üstündəki oxlarının ucları
qırılsın.
8 İlbiz kimi gedərkən ərisinlər,
Ölü doğulan körpələr kimi günəş nuru
görməsinlər.
9 Ocaqda qazanlarını qızdırmazdan
əvvəl kol-kosları sovrulsun,
Nə qurularından, nə də yaşlarından
heç nə qalmasın.
10 Pislərdən qisas alındığını görən
salehlər şad olacaq,
Ayaqlarını onların qanına batıracaq.
11 İnsanlar belə deyəcək: «Bəli,
salehlər barlı olar,
Həqiqətən, dünyanın hökmranı olan
bir Allah var!»

Məzmur 59

Musiqi rəhbəri üçün. Davudun «Al-taşxet» üstə oxunan miktamı.

[b] *Şaul onu öldürmək üçün evinə adam göndərib pusqu qoyanda.*

59 Ey Allahım, məni
düşmənlərimdən qurtar,
Əleyhdarlarımın əlindən hifz et.
2 Məni şər iş görənlərdən xilas et,
Məni qaniçənlərdən azad et.
3 Canımı almaq üçün məni güdürlər,
Güclülər əleyhimə birləşiblər.
Ya Rəbb, üsyankar, günahkar,
4 Təqsirkar olmadığım halda
Onlar mənə qarşı qəti tədbir görürlər.
Bir oyan, halımı gör, yardım et,
5 Ya Rəbb, Ordular Rəbbi, İsrailin
Allahı!
Bütün millətlərə cəza vermək üçün
oyan,
Xəyanətkar pislərin heç birinə rəhm
etmə. *Sela*
6 Bu pis adamlar axşamüstü qayıdırlar,
Köpək kimi mırıldayırlar,
Şəhərdə sülənib-dolaşırlar.
7 Gör dodaqlarından nələr tökülür,
Ağızlarından qılınclar çıxır.
Onlar zənn edirlər ki, eşidən yoxdur.
8 Lakin, ya Rəbb, Sən onlara gülürsən,
Bütün millətlərə rişxənd edirsən.
9 Ey mənə qüvvət verən,
Səni gözləyirəm!
Ey Allahım, qalamsan,
10 Mənə məhəbbətini göstərirsən!
Ey Allah, imdad etmək üçün
çıxacaqsan,
Düşmənlərimin qırılmasını mənə
göstərəcəksən.
11 Ey Xudavənd, Sənsən sipərimiz!
Xalqımın yadında qalsın deyə
Düşmənləri qırma, lakin gücünlə
Onları dağıdaraq məğlub et.
12 Günahkar dillərinə görə,
Ağızlarının sözlərinə görə
Təkəbbürlülərin tələsinə özləri
düşsünlər.
Yağdırdıqları lənətlərə görə,
Dedikləri yalanlara görə
13 Onları qəzəbinlə məhv et,
Məhv et, qoy bir nişanə qalmasın.
Qoy insanlar bilsinlər:
Allah səltənət sürür
Yaqub nəslinin üzərində,
Ta ucqarlara qədər yer üzərində. *Sela*
14 Bu pis adamlar axşamüstü
qayıdırlar,
Köpək kimi mırıldayırlar,
Şəhərdə sülənib-dolaşırlar.
15 Avara-avara gəzib yem axtarırlar,
Doyunca tapmasalar, gecə boyu
ulayırlar.
16 Mən isə Sənin qüdrətini tərənnüm
edəcəyəm,
Sübh tezdən məhəbbətini mədh
edəcəyəm.
Çünki Sən mənə qala olmusan,
Dar günümdə mənim pənahımsan.
17 Ey mənə qüvvət verən,
Səni tərənnüm edəcəyəm!
Ey Allahım, qalamsan,

[b] **59:0** 1Şam. 19:11

Mənə məhəbbətini göstərirsən!

Məzmur 60

Musiqi rəhbəri üçün. Davudun «Şuşan-edut» üstə oxunan təlim miktamı.

[c] *Davud Naharayim və Sova Aramlıları ilə döyüşərkən Yoav gedib Duz vadisində on iki min Edomlunu öldürəndə.*

60 Ey Allah, Sən bizi atmısan,
Müdafiə qüvvələrimizi dağıtmısan.
Bizə qəzəblənmisən,
Bizi əvvəlki halımıza qaytar.
2 Yeri lərzəyə salmısan,
Torpağını dağıtmısan.
Yarıqlarını yenə bitişdir,
Çünki yer sarsılıb.
3 Öz xalqını çətinliyə salmısan,
Şərab içirərək bizi səndələtmisən.
4 Səndən qorxanlara isə bayraq vermisən,
Qoy onu həqiqət naminə qaldırsınlar. *Sela*
5 Sevdiyin insanların xilas olması üçün
Sağ əlinlə bizi qurtar, mənə cavab ver!
6 Allah Öz müqəddəs məskənindən belə söylədi:
«Şekemi sevinclə bölüşdürəcəyəm,
Sukkot dərəsini böləcəyəm.
7 Gilead torpağı Mənimdir,
Menaşşe torpağı da Mənimdir,
Efrayim başımın dəbilqəsidir,
Yəhuda Mənim əsamdır.
8 Moav yuyunmaq üçün ləyənimdir,
Çarığımı ataraq Edomu tutacağam,
Zəfər harayını Filiştə salacağam».
9 Kim məni istehkamlı şəhərə apara bilər?
Kim mənə Edoma qədər yol göstərər?
10 Ay Allah, Sən niyə bizi atmısan?
Ay Allah, qoşunlarımızla niyə yürüşə çıxmırsan?
11 Bizə düşmənin qarşısında imdad et,
Çünki insanın köməyi puçdur.
12 Allahın köməyi ilə igidlik edəcəyik,
O, düşmənlərimizi tapdalayacaq!

Məzmur 61

Musiqi rəhbəri üçün. Davudun simli alətlərin müşayiəti ilə oxunan məzmuru.

61 Ey Allah, fəryadımı eşit,
Duamı dinlə.
2 Düşkünlük qəlbimi alıb,
Mən dünyanın ucqarından Səni çağırıram.
Sən məni əlçatmaz bir qayaya apar.
3 Çünki Sən mənim pənahgahımsan,
Düşmənə qarşı möhkəm qülləsən.
4 Qoy sonsuzadək çadırında yaşayım,
Qanadlarının altında pənah tapım. *Sela*
5 Sən, ey Allah, etdiyim əhdi eşitdin,
Adından qorxanlara təyin etdiyin payı mənə verdin.
6 Sən ömür ver, qoy padşahın yaşasın,
İlləri nəsillərdən-nəsillərə qədər uzansın.
7 Allahın hüzurunda daim taxtda otursun,
Məhəbbət və sədaqət ver, onu qorusun.
8 Mənsə adını həmişə tərənnüm edəcəyəm,
Hər gün əhd etdiyim təqdimləri verəcəyəm!

Məzmur 62

Musiqi rəhbəri Yedutun üçün. Davudun məzmuru.

62 Susan qəlbim yalnız Allahı gözləyir,
Ondadır qurtuluşum.
2 Yalnız Odur qayam, qurtuluşum,

---

[c] **60:0** 2Şam. 8:13; 1Saln. 18:12

O mənim qalamdır, mən əsla
sarsılmaram.
3 İnsan divar kimi əyiləndə,
Hasar kimi laxlayanda
Nə vaxtadək üstünə hücum
edəcəksiniz?
Nə vaxtadək onu əzəcəksiniz?
4 Yalnız fikirləşirsiniz, onu nüfuzdan
salaq,
Çünki yalandan zövq alırsınız.
Diliniz xeyir-dua söyləsə də,
Qəlbiniz lənət yağdırır. *Sela*
5 Ey qəlbim, sükutla Allahı gözlə,
Çünki ümidim Ondadır.
6 Qayam, qurtuluşum yalnız Odur,
O mənim qalamdır, mən sarsılmaram.
7 Qurtuluşum, şərəfim Allaha bağlıdır,
Allah möhkəm qayam və pənahımdır.
8 Ey xalq, hər zaman Ona arxalan,
Onun hüzurunda qəlbini açıb-boşalt,
Çünki Allah bizim pənahımızdır! *Sela*
9 Bəşər övladları yalnız bir nəfəsdir –
İnsan övladları fanidir.
Tərəzinin gözündə çəkərkən hamısı
yuxarı qalxır,
Çəkisi bir nəfəsdən yüngül gəlir.
10 Heç zaman zorakılığınıza
güvənməyin,
Talan malına boş yerə ümid
bağlamayın,
Var-dövlətiniz artsa da, ona
arxalanmayın.
11 Allah bir dəfə dedi,
Bunu iki dəfə eşitdim:
Qüdrət Allahındır,
12 [d]Ey Xudavənd, məhəbbət Sənindir!
Sən hər kəsə əməlinə görə əvəz
verirsən!

Məzmur 63

Davudun məzmuru.

[e] *Yəhuda çölündə olanda.*

63 Ey Allah, mənim Allahım Sənsən,
Sənin üçün yaman qəribsəmişəm.
Quraq, cansıxıcı, susuz bir diyarda
Sənsiz könlüm susuzdur.
Bütün varlığımla həsrətini çəkirəm.
2 Müqəddəs yerdə Səni seyr edirdim,
Qüdrətini, əzəmətini görürdüm.
3 Mənim dilim Səni tərənnüm edir,
Məhəbbətin bu həyatdan gözəldir.
4 Bütün ömrüm boyu Sənə alqış
edəcəyəm,
Əllərimi qaldırıb adınla Səni
səsləyəcəyəm.
5 Sanki yağlı yeməklə canım tox
olacaq,
Dilim Səni mədh edəcək, ağzım həmd
oxuyacaq.
6 Yatanda belə, Səni xatırlayıram,
Gecə növbələrində Səni düşünürəm.
7 Sən mənə kömək oldun,
Qanadlarının kölgəsində Sənə mədh
oxuyacağam.
8 Könlüm Sənə bağlanır,
Sağ əlin məni möhkəm tutur.
9 Amma canımın qəsdinə duranlar
Yerin dibinə batacaqlar,
10 Qılıncın ağzına tuş gələcəklər,
Çaqqallara yem olacaqlar.
11 Amma padşah Allaha görə
sevinəcək,
Adına and içən hər kəs həmd
söyləyəcək,
Yalançıların isə ağzı yumulacaq.

Məzmur 64

Musiqi rəhbəri üçün. Davudun məzmuru.

64 Ey Allah, eşit səsimi, Sənə
şikayət edirəm,

---

[d]**62:12** Əyy. 34:11; Yer. 17:10; Mat. 16:27; Rom. 2:6; 2Tim. 4:14; Vəhy 2:23
[e]**63:0** 1Şam. 23:14

Həyatımı düşmən vahiməsindən qoru.
2 Pislərin fəndlərindən,
Şər iş görənlərin vəlvələsindən
Məni qoru.
3 Onlar qılınc kimi dillərini itiləyirlər,
Kamanın üstünə ox kimi acı sözlərini qoyurlar,
4 Günahsız insana pusqu qurduqları yerlərdən
Qəfildən, çəkinmədən atırlar.
5 Bir-birlərini şər iş görməkdə cəsarətləndirirlər,
Gizlənib tələ qurmaq üçün məsləhət edirlər,
«Bunu kim görəcək?» deyirlər.
6 Fitnəkarlıqla qəsd qururlar və belə deyirlər:
«Ustalıqla fənd işlətdik».
İnsanın daxili, qəlbi görünməz.
7 Lakin Allah onlara ox atacaq,
Onlar qəflətən yaralanacaq.
8 Öz dilləri özlərini yıxacaq,
Onları görənlər başını bulayıb xor baxacaq.
9 Bütün insanlar qorxacaq,
Allahın əməllərini bəyan edəcək,
Onun işləri barədə düşünəcək.
10 Saleh insan Rəbbə görə sevinəcək,
Ona pənah gətirəcək.
Bütün ürəyidüz insanlar Rəbbə həmd edəcək!

Məzmur 65

Musiqi rəhbəri üçün. Davudun məzmuru.

Bir ilahi.

65 Ey Allah, Səni Sionda həmdlər gözləyir,
Sənə edilən əhd yerinə yetiriləcək.
2 Ey duaları eşidən,
Bütün bəşər hüzuruna gələcək.
3 Mən günaha batmışdım,
Lakin Sən üsyankarlığımızı kəffarə edirsən.
4 Nə bəxtiyardır evinin həyətlərində yaşayan,
Seçib Özünə yaxın etdiyin insan!
Biz Sənin evinin, müqəddəs məbədinin
Nemətləri ilə doyacağıq!
5 Sən ey qurtuluşumuzun Allahı,
Zəhmli işlərinlə ədalətini göstərirsən,
Bizə cavab verirsən.
Sən yer üzünün bütün ucqarlarının,
Ən uzaq dənizlərin belə, ümidisən.
6 Sən qüdrətə bürünmüsən,
Qüvvətinlə dağları möhkəmlətmisən.
7 Dənizlərin uğultusunu,
Dalğaların gurultusunu,
Ümmətlərin çaxnaşmasını
Yatıran Sənsən.
8 Dünyanın ucqarlarında yaşayanlar
Sənin əlamətlərinə mat qalırlar.
Gündoğandan günbatanadək bütün insanlar
Sənə mədh oxuyurlar.
9 Yer üzünün qayğısına qalıb su verirsən,
Onu çox məhsuldar edirsən.
Ey Allah, çayın su ilə doludur,
Torpağı taxıl üçün hazır edirsən.
10 Torpağın şırımlarını sulayırsan,
Aralarını bərkidirsən,
Gur yağışla torpağını yumşaldırsan,
Məhsuluna bərəkət verirsən.
11 Yaxşılıqlarınla tac qoyursan,
Yollarından yağ damır,
12 Çöl otlaqlarına tökülür,
Təpələr sevincə bürünür.
13 Çəmənlərin sürülərlə dolur,
Dərələrini taxıl bürüyür.
Onlar cuşa gəlib tərənnüm söyləyir!

Məzmur 66

Musiqi rəhbəri üçün. Bir ilahi.

Məzmur.

66 Ey bütün dünya əhli,
Cuşa gəlib Allaha nida edin,
2 Şərəfli ismini tərənnüm edin,
Ona şərəflə həmd edin!
3 Siz Allaha belə deyin:

«Əməllərin nə qədər zəhmlidir!
O qədər qüdrətlisən ki,
Düşmənlərin qarşında diz çökür!
4 Bütün dünya Sənə səcdə edir,
Səni tərənnüm edir,
İsmini tərənnüm edir». *Sela*
5 Gəlin, Allahın işlərini,
Bəşər övladları üçün etdiyi zəhmli əməllərini görün.
6 [f]Dənizi quruya çevirdi,
Çayın sularını saxlayıb xalqını piyada keçirtdi.
Biz Allaha görə sevinək!
7 Qüdrəti ilə əbədi səltənət sürər,
Günahkarlar Ona qarşı qalxmasın deyə
Göz qoyub millətlərə nəzarət edər. *Sela*
8 Ey xalqlar, Allahımıza alqış edin,
Ona həmd edin, səsiniz eşidilsin!
9 Odur canımızı qoruyan,
Ayağımızı büdrəməyə qoymayan.
10 Ey Allah, bizi sınaqdan keçirtdin,
Sən bizi gümüş kimi təmizləyib saflaşdırdın.
11 Sən bizi Öz torunla tutdun,
Kürəyimizə ağır yük qoydun.
12 Sən insanları başımızın üstündən keçirtdin.
Oda düşdük, suya düşdük,
Axırda bizi Sən bolluğa çıxartdın.
13 Sənin evinə yandırma qurbanları ilə gələcəyəm,
Sənə əhd etdiyim təqdimləri verəcəyəm.
14 Dar gündə dilim bunları bəyan etdi,
Mənim ağzım bu əhdləri söylədi.
15 Kökəldilmiş heyvanları
Sənin üçün yandırma qurbanı verəcəyəm.
Qoçların xoş tüstüsü Sənə sarı qalxacaq,
Təkələri, öküzləri qurban gətirəcəyəm. *Sela*
16 Ey Allahdan qorxanlar, gəlin, dinləyin,
Onun mənə nə etdiyini sizə bəyan edim.
17 Ağzımla Onu səslədim,
Dilimlə Onu mədh etdim.
18 Mən qəlbimdə təqsirə yer versəydim,
Xudavənd məni eşitməzdi.
19 Lakin Allah məni dinlədi,
Duamın səsini eşitdi.
20 Alqış olsun Allaha! Duamı rədd etmədi,
Məndən məhəbbətini əsirgəmədi!

Məzmur 67

Musiqi rəhbəri üçün simli alətlərin müşayiəti ilə oxunan məzmur.

Bir ilahi.

67 Lütf edib, ey Allah, bizə xeyir-dua ver,
Üzün üstümüzə nur saçsın. *Sela*
2 Qoy yer üzündə Sənin yolun,
Bütün millətlər arasında qurtuluşun tanınsın.
3 Ey Allah, Sənə xalqlar şükür etsin,
Qoy Sənə bütün xalqlar şükür etsin.
4 Qoy ümmətlər sevinclə Səni mədh etsin,
Çünki xalqlara insafla hökm edirsən,
Yer üzündəki ümmətlərə yol göstərirsən. *Sela*
5 Ey Allah, Sənə xalqlar şükür etsin,
Qoy Sənə bütün xalqlar şükür etsin.
6 Yer üzü bəhrəsini verib,
Allah, bizim Allahımız bizə bərəkət verib.
7 Allah bizə xeyir-dua verib.
Qoy yer üzünün qurtaracağınadək hər yerdə olanlar Ondan qorxsun!

---

[f]**66:6** Çıx. 14:21; Yeşua 3:14-17

Məzmur 68

Musiqi rəhbəri üçün. Davudun məzmuru.

Bir ilahi.

68 Allah qalxsın, qoy düşmənlər dağılsın,
Ona nifrət edənlər qarşısından qaçsın,
2 Pislər çəkilən tüstü kimi dağılsın,
Alovun qarşısında mum kimi ərisin.
Qoy onlar Allahın qarşısında məhv olsun.
3 Salehlər sevinsin,
Allahın hüzurunda fərəhindən coşsun,
Sevinib şad olsun.
4 Allaha ilahi oxuyun, ismini tərənnüm edin,
Buludlar üstünə minənə yol açın.
İsmi Rəbdir, hüzurunda fərəhiniz çağlasın.
5 Öz müqəddəs məskənində olan Allah
Yetimlərin atası,
Dul qadınların müdafiəçisidir.
6 Allah kimsəsizlərə ev qurur,
Əsirləri firavanlığa çıxarır,
Günahkarlar isə quru yurdda yaşayır.
7 [g]Ey Allah, Sən xalqının önündə gedərkən,
Çöllükdə yürüşə çıxarkən *Sela*
8 Sina dağındakı Allahın qarşısında,
Allahın, İsrailin Allahının hüzurunda
Yer lərzəyə gəldi, göydən yağış töküldü.
9 Ey Allah, yaxşıca yağışlar yağdırdın,
Solan torpaqlarını canlandırdın.
10 Xalqın orada məskən saldı.
Ey Allah, xeyirxahlığına görə
Məzlumlar üçün oranı Sən hazırladın.
11 Xudavənd əmr edir,
Bir alay qadın
Belə müjdə paylayır:
12 «Düşmən orduları qaçır!
Padşahları qaçır!
Evdə olanlar
Talan malını paylayırlar.
13 Siz ağıllar arasında yatanda
Qanadları gümüş kimi bərq vuran,
Tükləri isə qızıl kimi parlayan,
Göyərçinə oxşayırsınız».
14 Külli-İxtiyar padşahları elə dağıtdı ki,
Elə bil Salmon dağına göydən qar tökülür.
15 Ey Başan dağı, Allahın dağı,
Ey zirvələri çox olan Başan dağı!
16 Ey zirvələri çox olan dağlar,
Allah məskən salmaq üçün seçdiyi dağa
Niyə qibtə ilə baxırsınız?
Bəli, Rəbb orada əbədi yaşar.
17 Allahın döyüş arabaları var
Minlərlə, saysız-hesabsız.
Xudavənd onlarla birgə
Sinadan müqəddəs məskəninə gəlib.
18 [h]Ya Rəbb Allah, Sən yüksək yerlərə çıxıb məskən saldın,
Əsir etdiyin düşmənləri Özünlə oraya apardın,
Sən bütün insanlardan,
Hətta üsyankarlardan da xərac aldın.
19 Xudavəndə,
Bizi qurtaran Allaha –
Hər gün qayğı yükümüzü çəkənə alqış olsun! *Sela*
20 Allahımız azad edən Allahdır,
Ölümdən qurtaran Xudavənd Rəbdir.
21 Allah düşmənlərin kəlləsini,
Günah içində yaşayanların tüklü təpəsini əzəcək.
22 Xudavənd belə dedi:
«Onları Başandan geri qaytaracağam,
Dənizin dibində olsalar belə,
Oradan geri qaytaracağam.
23 Qoy ayaqların düşmənlərin qanına batsın,
Bundan itlərinin dilləri də pay alıb yalasın».

---

[g] **68:7** Çıx. 19:18; Hak. 5:4-5 [h] **68:18** Ef. 4:8

24 Ey Allah, indi burada o zəfər
yürüşün,
Ey Allahım, Padşahım, müqəddəs
yerə gəlişin görünür,
25 Öndə ilahi oxuyanlar,
Arxalarından isə çalğıçılar,
Aralarında dəfçalan qızlar gəlir.
26 Ey İsrailin belindən gələnlər,
cəmiyyət içində
Allahınız Rəbbə alqış edin.
27 Qabaqda kiçik Binyamin qəbiləsi
gedir,
Ardınca çoxlu Yəhuda başçıları,
Ondan sonra Zevulunun, Naftalinin
başçıları gəlir.
28 Ey Allah, qüdrətini,
Bizim üçün işlətdiyin qüvvətini
göstər.
29 Yerusəlimdəki məbədinə görə
Sənə padşahlar xərac gətirir.
30 Qamışlıqda yaşayan heyvanları,
Xalqların danaları ilə buğa sürüsünü
tənbeh et.
Bu gümüşpərəstləri təpiyinin altına
sal,
Davakar xalqları pərən-pərən et.
31 Misirdən Allahın hüzuruna elçilər
gələcək,
Kuşlular da Ona əl açacaqlar.
32 Ey dünya ölkələri,
Allaha ilahi söyləyin.
Xudavəndi tərənnüm edin, *Sela*
33 Göylərin, ulu göylərin üstünə
minəni,
Güclü səslə gurlayanı dinləyin,
34 Allahın qüdrətini bəyan edin,
Əzəməti İsrail üzərindədir,
Onun qüdrəti göylərdədir!
35 Müqəddəs məkanında olan ey
Allah, zəhmlisən!
İsrailin Allahı Öz xalqına qüdrət,
qüvvət verir.
Allaha alqış olsun!

Məzmur 69

Musiqi rəhbəri üçün. Davudun «Şoşannim» üstə oxunan məzmuru.

69 Ay Allah, məni qurtar,
Su çıxıb boğazımacan,
2 Dərin bataqlığa batmaqdayam,
Ayaq üstə durmağa yer yoxdur.
Dərin sulara qərq olmuşam,
Sellər məni aparır.
3 Fəryad etməkdən taqətim kəsildi,
Allahı gözləməkdən
Boğazım qurudu, gözümün nuru
söndü.
4 [i]Boş yerə mənə nifrət edənlər
Başımın tükündən çoxdur.
Haqsız yerə mənə düşmən kəsilənlər,
Məni məhv etmək istəyənlər
qüvvətlidir.
Oğurlamadığım şeyləri necə qaytara
bilərəm?
5 Ey Allah, ağılsızlıq etdiyimi bilirsən,
Günahlarım Səndən gizli deyil.
6 Ey Ordular Rəbbi Xudavənd, Səni
gözləyənlər
Mənə görə qoy utanmasınlar.
Ey İsrailin Allahı, Səni axtaranlar
Mənə görə qoy xəcalət içində
qalmasınlar.
7 Sənin uğrunda üzərimə rüsvayçılıq
töküldü,
Üzümü xəcalət bürüdü.
8 Qardaşlarıma yad oldum,
Anamın oğullarına özgə sayıldım.
9 [j]Evinin qeyrəti məni yandırıb-yaxdı,
Səni təhqir edənlərin rüsvayçılıq
təhqirləri altında qaldım.
10 Oruc tutub ağlamağımı belə,
Mənə rüsvayçılıq saydılar.
11 Mən çula bürünəndə
Onlara söz oldum.
12 Darvazadakı adamlar məndən
qeybət edirlər,

[i] **69:4** Zəb. 35:19; Yəh. 15:25 [j] **69:9** Yəh. 2:17; Rom. 15:3

Sərxoşların dilinin nəğməsinə
çevrildim.
13 Mənsə, ya Rəbb, Sənə dua edirəm.
Ey Allah, münasib gördüyün zaman
Bol məhəbbətinə görə mənə cavab
ver,
Çünki qurtuluşuna etibar etmişəm.
14 Məni qurtar, bataqlığa batmayım,
Qoy düşmənlərimdən,
Dərin sulardan xilas olum.
15 Qoy sellər məni aparmasın,
Dərinlik məni udmasın,
Quyu üstümdə ağzını yummasın.
16 Ya Rəbb, mənə cavab ver,
Çünki məhəbbətin yaxşıdır.
17 Üzünü bu bəndəndən gizlətmə,
Tez cavab ver, çünki əzab çəkirəm.
18 Yetiş, canımı azad et,
Məni düşmənlərimdən xilas et.
19 Başıma gələn rüsvayçılığı,
Biabırçılığı, xəcaləti bilirsən,
Bütün yağılarım qarşındadır.
20 Rüsvayçılıq qəlbimi qırdı,
Gör necə biçarəyəm.
Çox axtardım, halıma yanan
tapılmadı,
Hey axtardım, təsəlli verən olmadı.
21 [k]Mənə yemək əvəzinə öd verdilər,
Susayanda sirkə içirtdilər.
22 [l]Süfrələri onlar üçün tələ olsun,
Müttəfiqləri üçün tor olsun.
23 Gözlərinə qara gəlsin, görməsinlər,
Belləri onları lərzəyə salsın.
24 Qoy qəzəbin onların üzərinə yağsın,
Qoy hiddətinin qızğınlığı onları
tutsun.
25 [m]Düşərgələri viran olsun,
Çadırları boş qalsın.
26 Çünki Sənin vurduğun insanı təqib
edirlər,
Yaraladıqlarının dərdini ona qaxınc
edirlər.
27 Bu təqsirkarları daha da təqsirkar
çıxar,
Səndən bəraət almasınlar.
28 [n]Qoy adları həyat kitabından
silinsin,
Salehlərlə yanaşı yazılmasın.
29 Mən məzlumam, dərdliyəm,
Ey Allah, Sənin qurtuluşun məni
ucaltsın.
30 Allahın isminə ilahilərlə həmd
oxuyacağam,
Onu şükürlərlə ucaldacağam.
31 Mal-qara qurbanından çox
Bu, Rəbbin xoşuna gələcək,
Buynuzlu, dırnaqlı buğadan çox
Bu Ona xoş gələcək.
32 Bunu görən məzlumlar qoy
sevinsin,
Ey Allahı axtaranlar, ürəyiniz
dirçəlsin.
33 Çünki Rəbb fəqirləri eşidir,
Öz əsir xalqına xor baxmır.
34 Göy, yer, dənizlər, oradakı canlılar
Qoy Rəbbə həmd oxusunlar.
35 Çünki Allah Sionu qurtaracaq,
O, Yəhuda şəhərlərini bərpa edəcək.
Onun xalqı oranı mülk edib məskən
salacaq,
36 Ora qullarının övladlarına irs
olaraq qalacaq,
Allahın ismini sevənlər orada sakin
olacaq!

Məzmur 70

(Zəb. 40:13-17)

*Musiqi rəhbəri üçün. Davudun
yadasalma məzmuru.*

70 Ey Allah, məni xilas et,
Ya Rəbb, dadıma tez çat!
2 Canımın qəsdinə duranlar
Qoy utanıb biabır olsunlar.
Pis günümdən zövq alanlar

---

[k]**69:21** Mat. 27:48; Mark 15:36; Yəh. 19:28-29 [l]**69:22** Rom. 11:9-10
[m]**69:25** Həv. 1:20 [n]**69:28** Çıx. 32:32; Vəhy 3:5; 13:8; 17:8

Geri qovulub rüsvay olsunlar.
3 «Aha! Aha!» deyənlər
Xəcalət içində çaşıb-qalsınlar.
4 Lakin Səni axtaranlar
Sənə görə qoy şad olub sevinsinlər,
Verdiyin xilası sevənlər
Daim «Qoy ucalsın Allah!» desinlər.
5 Budur, bir məzlum, bir fəqirəm,
Ey Allah, Sən Özünü tez yetir.
Köməyim, xilaskarım Sənsən,
Ya Rəbb, ləngimə!

Məzmur 71

71 Ya Rəbb, Sənə pənah gətirirəm,
Heç vaxt məni xəcalətdə qoyma.
2 Məni ədalətinlə qurtar, xilas et,
Qulağını mənə sarı döndər, məni azad et.
3 Mənə sığınacaq qaya ol,
Qoy əmrinlə hər vaxt ora girib qurtulum.
Çünki qayam da Sən, qalam da Sənsən.
4 Ey Allahım, şər insanın əlindən,
Haqsızın, zalımın pəncəsindən məni qurtar.
5 Ey Xudavənd, Sən mənim ümidimsən,
Ya Rəbb, gəncliyimdən bəri Sənə güvənmişəm.
6 Doğulduğum gündən bəri dayağımsan,
Məni ana bətnindən dünyaya gətirmisən,
Həmişə Sənə həmd edirəm.
7 Çoxlarına qəribə bir şey oldum,
Amma Sən mənim möhkəm sığınacağım oldun.
8 Sənə həmd etmək dilimdən düşməz,
Daim Sənin izzətini düşünürəm.
9 Yaşa dolanda da məni rədd etmə,
Taqətdən düşəndə də məni tərk etmə.
10 Mənim barəmdə düşmənlərim belə söyləyir,
Məni öldürmək istəyənlər belə məsləhətləşir,
11 Deyirlər ki, Allah onu tərk edib,
Gəlin onu təqib edərək tutaq,
Çünki onu xilas edən yoxdur.
12 Ey Allah, məndən uzaq durma,
Ey Allahım, dadıma tez çat!
13 Qoy məni ittiham edənlər utanıb məhv olsun,
Bədxahlarımı xəcalət, rüsvayçılıq bürüsün.
14 Mənsə hər zaman Sənə ümid bağlayacağam,
Sənə həmd oxuduqca oxuyacağam.
15 Gün boyu salehliyini, qurtuluşunu dilim bəyan edir,
Onun ölçüsünü bilməsəm də.
16 Ey Xudavənd Rəbb, qüdrətinlə dolanıb-gəzəcəyəm,
Sənin, yalnız Sənin salehliyini bəyan edəcəyəm.
17 Ey Allah, gəncliyimdən bəri mənə təlim vermisən,
Sənin xariqələrini indiyədək elan edirəm.
18 Yaşa dolub saçıma dən düşənə qədər
Gələcək nəslə qüvvətini,
Gələcək nəslin hər birinə qüdrətini
Elan edəcəyəm.
Ey Allah, məni tərk etmə.
19 Ey Allah, salehliyin göylər qədər ucadır,
Böyük işlər görmüsən!
Ey Allah, Sənin kimisi varmı?
20 Sən mənə çoxlu ağır əzablar versən də,
Yenə məni dirçəldirsən,
Yerin dibindən yenə məni çıxarırsan,
21 Hörmətimi artırmaqla
Mənə yenə əmniyyət verirsən.
22 Ey Allahım, sədaqətinə görə
Çəng çalıb Sənə şükür edəcəyəm!
Ey İsrailin Müqəddəsi,
Səni lira ilə tərənnüm edəcəyəm!
23 Dilim, azadlıq verdiyin qəlbim
Mədh oxuyub Səni tərənnüm edəcək,

[24] Dilim daim salehliyindən
söyləyəcək,
Çünki bədxahlarımın xəcalətdən
üzləri qızarıb.

Məzmur 72

Süleymanın məzmuru.

72 Ey Allah, padşaha ədalət ver,
Şah oğluna salehlik ver.
[2] Qoy Sənin xalqına salehliklə,
Məzlumlara ədalətlə hakimlik etsin.
[3] Xalqın firavanlığı dağlardan aşsın,
Salehlər təpələri dolaşsın.
[4] Padşah xalq arasında olan
məzlumları qorusun,
Fəqirləri xilas etsin,
Zalımları əzsin.
[5] Nə qədər günəş və ay varsa,
Hər gələn nəsil qoy Səndən qorxsun.
[6] Biçilən tarlaya yağış kimi,
Torpağı suvaran gur yağış kimi
tökülsün.
[7] Bu padşahın ömrü boyu qoy salehlər
çiçək açsın,
Göydə ay durduqca qoy firavanlıq
artsın.
[8] [o]Dənizdən-dənizə qədər,
Fəratdan yer üzünün
qurtaracağınadək hər yerdə
hökmranlıq etsin.
[9] Onun qarşısında köçəri xalqlar diz
çöksün,
Düşmənləri isə qoy yerə vurulsun.
[10] Tarşişin və adaların padşahları ona
xərac gətirsin,
Səba və Seva padşahları ona bəxşiş
versin.
[11] Qarşısında bütün padşahlar təzim
etsin,
Qoy bütün millətlər ona xidmət etsin!
[12] Çünki o imdad deyib çağıran
fəqirləri,
Məzlumları, köməksizləri qurtarır.
[13] Yoxsula, fəqirə rəhm edir,
Fəqirlərin canlarını azad edir.
[14] Onları hədə-qorxudan, zorakılıqdan
qurtarır,
Onun gözündə bunların qanı
qiymətlidir.
[15] Yaşasın padşah!
Qoy ona Səba qızılı verilsin,
Qoy onun üçün durmadan dua edilsin,
Hər gün ona xeyir-dua verilsin.
[16] Qoy ölkənin zəmiləri bol olsun,
Dağların başında dalğalansın.
Bu ölkə Livan kimi məhsul versin,
Qoy şəhərin əhalisi ot kimi bitsin.
[17] Qoy padşahın adı əbədi qalsın,
Günəşin ömrü tək adı var olsun.
Onun vasitəsilə insanlar xeyir-dua
alsın,
Onu bütün millətlər bəxtiyar
adlandırsın!
[18] Alqış olsun Rəbb Allaha, İsrailin
Allahına,
Xariqələrin yeganə yaradanına!
[19] Onun şərəfli adına əbədi alqış
olsun,
Bütün yer üzü Onun izzətinə
bürünsün!
Amin! Amin!
[20] Yessey oğlu Davudun duaları
burada sona çatır.

Üçüncü hissə

73-89-cu məzmurlar

Məzmur 73

Asəfin məzmuru.

73 Doğrudan da, İsrail üçün,
Ürəyitəmiz olanlar üçün
Allah xeyirxahdır.
[2] Amma mənim ayaqlarım az qala
büdrəmişdi,
Addımlarım məni yıxmışdı.
[3] Pislərin firavanlığını görərkən

---

[o]**72:8** Zək. 9:10

Bu məğrurlara həsəd aparırdım.
4 Ölənədək onların ağrıları yoxdur,
Vücudları ətə-cana gəlib.
5 Onlar başqaları kimi dərdə düşməzlər,
Əzab çəkməzlər.
6 Çünki təkəbbür onlar üçün boyunbağı kimidir,
Zorakılıq libas kimi əyinlərini örtür.
7 Köklükdən gözləri dombalıb çıxır,
Qəlblərinin pis məqsədləri aşıb-daşır.
8 Pis niyyətli sözləri ilə insanlara istehza edirlər,
Onlara yuxarıdan baxıb hədə-qorxu gəlirlər.
9 Ağızlarını göylərin əleyhinə açırlar,
Dillərinin sözləri dünyanı gəzib-dolaşır.
10 Ona görə bütün xalq onların tərəfinə keçir,
Sözlərini axıradək su kimi içir.
11 Deyirlər ki, Allah necə xəbər tutacaq?
Haqq-Taala bundan necə xəbərdar olacaq?
12 Belədir pis adamlar,
Daim arxayındırlar, var-dövlət artırırlar.
13 Məgər mən boş yerə qəlbimi təmizləmişdim,
Günahsızlıq içində əllərimi yumuşdum?
14 Həmişə əziyyətə düşürəm,
Hər səhər töhmətə rast gəlirəm.
15 Əgər «qoy mən də belə danışım» deyə düşünsəydim,
Sənin övladlarına xəyanət edərdim.
16 Bunu anlamaq üçün düşünəndə
Çətin bir iş kimi gözümə durdu.
17 Yalnız Allahın Müqəddəs məkanına girərkən
Onların aqibətini dərk etdim.
18 Doğrudan da, onları sürüşkən yerə qoymusan,
Onları məhvə yuvarlayırsan.
19 Onlar bir anda yox olacaqlar,
Dəhşət içində itib-batacaqlar.
20 Yuxudan ayılanda röyalar unudular,
Ey Xudavənd, Sənin oyanışınla bu adamlar boş sayılacaq.
21 O vaxt könlüm zəhərlənmişdi,
Qəlbim dəlik-deşik olmuşdu.
22 Necə axmaq idim, dərrakəm yox idi,
Qarşında sanki bir heyvan idim.
23 Amma daim Sənlə olmuşam,
Mənim sağ əlimdən tutmusan.
24 Nəsihətinlə mənə yol göstərirsən,
Sonra məni şərəfə çatdıracaqsan.
25 Göylərdə Səndən başqa kimim var?
Yer üzündə də Səndən başqa heç nə istəmirəm.
26 Cismim və ürəyim taqətdən düşsə belə,
Daim, ey Allah, qəlbimin qüvvəti, nəsibimsən.
27 Budur, Səndən uzaq düşənlər məhv olurlar,
Sənə xəyanət edənləri yox edirsən.
28 Mənim üçün Allaha yaxınlaşmaq yaxşıdır,
Xudavənd Rəbbə pənah gətirmişəm,
Ona görə bütün işlərini hamıya çatdıracağam!

Məzmur 74

Asəfin maskili.

74 Ey Allah, niyə bizi əbədilik tərk etmisən?
Otlağının sürüsünə niyə qəzəbin alovlanıb?
2 Yada sal keçmişdə satın aldığın icmanı,
Özünə xalq etmək üçün azad etdiyin tayfanı,
Həm də məskənin olan Sion dağını.
3 Əbədi viranələrə doğru get,
Müqəddəs yerdə hər şeyi düşmən dağıdıb.
4 Səcdəgahının ortasında düşmənlər nərə çəkdilər,

Bu yerə zəfər bayraqlarını keçirtdilər.
5 Sıx meşəni budamaq üçün
Balta qaldıran adamlara bənzəyirlər.
6 Müqəddəs yerin bütün oyma işlərini
Baltalar və çəkiclərlə qırıb tökdülər.
7 Sənin Müqəddəs məkanına od vurdular,
Adının sakin olduğu yeri uçurub murdarladılar.
8 «Bu xalqı biz birgə əzməliyik» deyə düşünərək
Ölkədəki bütün səcdəgahları yandırdılar.
9 Heç bir rəmzimiz görünmür,
Daha peyğəmbərimiz yoxdur.
Kimsə bilmir, biz nə vaxtadək belə qalacağıq.
10 Ey Allah, nə vaxtadək düşmən Səni söyəcək?
Yağı əbədilikmi Sənin adına küfr edəcək?
11 Axı nə üçün əlini geri çəkirsən?
Çıxart qoynundan sağ əlini, onları məhv et.
12 Ey Allah, əzəldən Padşahımsan,
Yer üzünə qurtuluşlar verirsən.
13 [p]Sən dənizi Öz qüdrətinlə böldün,
Dəniz əjdahalarının başlarını əzdin.
14 Sən Livyatanın* başlarını əzdin,
Onu çöl heyvanlarına yem etdin.
15 Sən bulaqlar açıb sellər axıtdın,
Həmişəaxar çayları isə qurutdun.
16 Gündüz də Sənindir, gecə də Sənin,
Ayı və günəşi Sən yaratmısan.
17 Sən quru yerin bütün sərhədlərini qoydun,
Həm yayı, həm qışı yaratdın.
18 Ya Rəbb, unutma, düşmən Səni söyür,
Sənin adına axmaq bir xalq küfr edir.
19 Öz qumrunun canını yırtıcılara vermə,
Məzlumlarının həyatını əsla unutma.
20 Özün bizimlə bağladığın əhdə bax!
Zorakılıq yuvaları ölkənin hər zülmət yerinə dolub.
21 Qoyma əzabkeş yenə də rüsvay olsun,
Qoy sənin adına məzlumlar və fəqirlər həmd oxusun.
22 Qalx, ey Allah, mübarizəni apar,
Unutma ki, axmaqlar həmişə Səni söyür.
23 Düşmənlərinin səsini,
Əleyhdarlarının daim yüksələn vəlvələsini unutma.

Məzmur 75

Musiqi rəhbəri üçün Asəfin «Al-taşxet» üstə oxunan məzmuru.

Bir ilahi.

75 Ey Allah, biz Sənə şükür edirik,
Bizə doğma olan isminə şükür olsun,
Xariqələrin bunu bəyan edir!
2 Allah deyir: «Müəyyən etdiyim zaman
Mən insafla hakimlik edəcəyəm.
3 Yer və üzərindəkilər lərzəyə gələrkən
Onu saxlayıb sütunlarından tutan Mənəm. *Sela*
4 Məğrurlara dedim: “Daha məğrurluq etməyin”,
Pislərə dedim: “Gücünüzü göstərməyin,
5 Buynuz çıxartmayın,
Dikbaş-dikbaş danışmayın”».
6 İnsanı yüksəltmək
Nə şərqdən, nə qərbdən, nə də çöllərdən gəlir.
7 Hökm verən Allah isə
Həm alçaldır, həm yüksəldir.
8 Rəbb əlində bir cam tutub,
Onu ədviyyatlı, köpüklənən şərabla doldurub.

---

*74:14 *Livyatan* – bu gün bizə məlum olmayan nəhəng su heyvanı.

[p]74:13 Çıx. 14:21

Şərabından tökü̇b dünyanın bütün
pislərinə paylayacaq,
Onlar da şərabı dibinə qədər
içib-qurtaracaq.
9 Mənsə daim bunu elan edəcəyəm,
Yaqubun Allahına tərənnüm
oxuyacağam.
10 Pis adamların buynuzları qırılacaq,
Amma salehlərin qüvvəti artacaq.

Məzmur 76

Musiqi rəhbəri üçün. Asəfin simli alətlərin müşayiəti ilə oxunan məzmuru.

Bir ilahi.

76 Allah Yəhudada şöhrətlidir,
İsraildə Onun adı böyükdür.
2 Çardağı Salemdədir,
Məskəni Siondadır.
3 Allah orada alovlu oxları,
Qalxan-qılıncı və bütün silahları
qırdı. *Sela*
4 Ey Allah, şərəfli Sənsən,
Ulu dağlardan da əzəmətlisən!
5 Cəsur ürəklilər talan oldu,
Ölüm yuxusuna daldı,
Bütün cəngavərlərin əlləri sustaldı.
6 Ey Yaqubun Allahı, Sənin
məzəmmətindən
Arabaçılar və atlar uyumuş qaldı.
7 Sən zəhmlisən, Sən!
Qəzəblənəndə qarşında kim dura
bilər?
8 Öz hökmünü göylərdən elan etdin,
Yer vahimələndi və səsini kəsdi.
9 Onda, ey Allah, hökm çıxarmaq
üçün,
Dünyadakı məzlumların hamısını
qurtarmaq üçün qalxdın. *Sela*
10 Qəzəbli insanlar belə, Sənə şükür
edir,
Qəzəbdən qurtulanları Özünə
bağlayırsan.
11 Allahınız Rəbbə əhd edin və yerinə
yetirin,
Ey bütün ətraf xalqlar, o Zəhmli
Olana xərac gətirin.
12 O, hökmdarların nəfəsini kəsər,
Dünya padşahlarını vahimələndirər.

Məzmur 77

Musiqi rəhbəri Yedutun üçün. Asəfin məzmuru.

77 Allahı səsləyirəm, fəryad edirəm,
Allahı səsləyirəm, O məni dinlər.
2 Dar günümdə Xudavəndi axtarıram,
Bütün gecə durmadan,
Könlüm ovunmadan Ona əl açmışam.
3 Allahı yada salarkən təlaşa düşürəm,
Dərindən fikirləşəndə ruhdan
düşürəm. *Sela*
4 Qoymursan gözlərimi yumum,
Üzgünlükdən danışa bilmirəm.
5 Düşünürəm keçən günləri,
Ötən dövranı, illəri.
6 Oxuduğum ilahi gecələr yadıma
düşür,
Ürəyimdə düşünəndə könlüm məndən
soruşur:
7 «Xudavənd məni əbədilikmi tərk
edib?
Bir daha məndən razı qalmayacaqmı?
8 Məhəbbəti həmişəlik qurtardımı?
Vədi nəsildən-nəslə qədər sona
çatdımı?
9 Allah rəhm etməyi unudubmu,
Mərhəmətinin yerini qəzəb tutdumu?»
Sela
10 Dedim: «Bu mənim üçün bəladır,
Haqq-Taala daha gücünü göstərmir».
11 Ya Rəbb, Sənin əməllərini yada
salıram,
Bəli, xatırlayıram, ta qədimdən
xariqələr göstərmisən.
12 Sənin bütün işlərini dərindən
düşünürəm,
Əməllərin barədə xəyala dalıram.
13 Allahın yolu müqəddəsdir.
Allah kimi böyük hansı allah var?
14 Xariqələr yaradan Allah Sənsən,

Xalqlar arasında qüdrətini
göstərmisən.
15 Əl uzadıb xalqını,
Yaqub, Yusif övladlarını azad etmisən.
Sela
16 Ey Allah, sular Səni gördü,
Səni görən sular qorxdu,
Hətta ümmanlar lərzəyə gəldi.
17 Buludlar yağışa döndü,
Göylərdən gurultular eşidildi,
Hər tərəfə oxların töküldü.
18 Qasırğanın içindən ildırım çaxdı,
Şimşəklər yer üzünə işıq saçdı,
Yer lərzəyə gəlib sarsıldı.
19 Sən dənizdə, ümman sularda yol
açdın,
Amma ayaq izlərin məlum olmadı.
20 Sən Musa və Harunun əli ilə
Xalqını bir sürü kimi aparmışdın.

Məzmur 78

Asəfin maskili.

78 Ey xalqım, təlimimi dinləyin,
Dilimdən çıxan sözləri eşidin.
2 [q]Ağzımı bu məsəllə açıb
Keçmişdəki müəmmaları bəyan
edəcəyəm.
3 Bunları eşitmişik, bilirik,
Bizə atalarımız nəql edib.
4 Bunu onların nəvələrindən
gizlətməyəcəyik;
Rəbbin həmdə layiq işlərini,
Onun qüdrətini, etdiyi xariqələri
Gələcək nəsillərə söyləyəcəyik.
5 Rəbb öyüd vermək üçün Yaqub
nəslinə –
İsrailə bir təlim qoydu.
Ata-babalarımıza əmr etdi ki,
Bu təlimi övladlarına öyrətsin.
6 Qoy gələcək nəsil də bilsin,
Gələcəkdə doğulacaq övladlar da
Balalarına bu təlimi verə bilsin.
7 Qoy ümidlərini Allaha bağlasınlar,
Allahın işlərini unutmasınlar,
Əmrlərini yerinə yetirsinlər.
8 Qoy ata-babaları kimi olmasınlar,
Çünki onlar dikbaş, üsyankar bir nəsil
idi.
Allaha ürəkləri dönük,
Könülləri vəfasız idi.
9 Efrayim övladları ox-kamanla
silahlandılar,
Amma döyüş günü tez geriyə
qayıtdılar.
10 Allahın əhdini pozanlar belə etdilər,
Sənin qanunlarınla yaşamaq
istəmədilər.
11 Allahın işlərini,
Göstərdiyi xariqələrini unutdular.
12 [r]Allah Misir torpağında, Soan
bölgəsində,
Ata-babalarının gözləri önündə
xariqələr göstərmişdi.
13 [s]Dənizi yarıb onları keçirmişdi,
Suları divar kimi saxlamışdı.
14 [t]Onlara gündüz buludla,
Bütün gecə şəfəq saçan alovla yol
göstərmişdi.
15 [u]Çöldə qayaları yarmışdı,
İçsinlər deyə ümman kimi bol su
çıxarmışdı.
16 Qayadan suları sel kimi çıxarmışdı,
Bu suları çaylar kimi axıtmışdı.
17 Amma onlar günah etməyi davam
etdirdilər,
Səhrada Haqq-Taalaya qarşı üsyankar
oldular.
18 [v]İştahaları artdı, yemək tələb
etdilər,
Ürəklərində Allahı sınağa çəkdilər.
19 Allahın əleyhinə belə danışdılar:
«Məgər Allah çöldə süfrə qura bilər?
20 Nə olsun qayaya vuranda sular
axdı,

---

[q]**78:2** Mat. 13:35 [r]**78:12** Çıx. 7:8–12:32 [s]**78:13** Çıx. 14:21-22
[t]**78:14** Çıx. 13:21-22 [u]**78:15** Çıx. 17:1-7; Say. 20:2-13
[v]**78:18** Çıx. 16:2-15; Say. 11:4-23,31-35

Sellər aşıb-daşdı.
Görəsən O, çörək verə bilərmi?
Xalqına ət verə bilərmi?»
21 Rəbb bunu eşidərkən qəzəbləndi,
Yaquba qarşı alovunu yerə tökdü,
İsrailə qarşı hiddəti artdı.
22 Çünki onlar Allaha inanmırdılar,
Onun qurtuluşuna arxalanmırdılar.
23 Bununla belə, uca səmaya əmr etdi,
Göylərin qapılarını açdırdı.
24 [w]Onlara yemək üçün manna yağdırdı,
Göylərin taxılını verdi.
25 İnsan mələklərin çörəyindən yedi,
Onlara doyunca yemək verildi.
26 Göylərdə şərq küləyini əsdirdi,
Qüdrəti ilə cənub küləyini gətirdi.
27 Başlarına toz kimi ət yağdırdı,
Onlara dənizdəki qum qədər quşlar göndərdi.
28 Düşərgələrinin ortasına,
Qaldıqları yerin ətrafına səpələdi.
29 Onlar doyunca, çox yedi,
İştahaları çəkən şeyləri onlara verdi.
30 Lakin iştahaları qurtarmamış,
Yemək ağızlarında olarkən
31 Allah onlara qarşı hiddətini artırdı,
Ətli-canlılarını qırdı,
İsrail igidlərini vurub yerə sərdi.
32 Bununla belə, günahlarını davam etdirdilər,
Onun xariqələrinə inanmadılar.
33 Buna görə də günlərini puç etdi,
Dəhşətlə ömürlərini sona yetirdi.
34 Ölənləri görüb Allahı axtardılar,
Geri dönüb Allahı səylə aradılar.
35 Yadlarına düşdü ki, Allah onların Qayası idi,
Allah-Taala onların Satınalanı idi.
36 Lakin ağızları ilə Ona yaltaqlanırdılar,
Dilləri ilə Ona yalan danışırdılar.
37 [x]Qəlblərində Ona qarşı dönük olmuşdular,
Əhdinə vəfasız çıxmışdılar.
38 Allah isə rəhmlidir, günahı bağışlayır,
Günahkarı yox etmir.
Dəfələrlə qəzəbini saxlayır,
Hiddətini tamamilə oyanmağa qoymayır.
39 Yada saldı ki, onlar yalnız bəşərdir,
Onlar əsən, geri dönməyən küləyə bənzəyir.
40 Neçə dəfə səhrada Ona qarşı üsyankar oldular,
Neçə dəfə çöllükdə Onu kədərləndirdilər!
41 Allahı dönə-dönə sınadılar,
İsrailin Müqəddəsinin xətrinə dəydilər.
42 Xatırlamadılar Onun qüdrətini,
Düşməndən azad etdiyi günü,
43 Misirdə göstərdiyi əlamətləri,
Soan bölgəsində göstərdiyi möcüzələri.
44 [y]Misirlilər sulardan içə bilməsinlər deyə
Suları qana döndərib çaylardan axıtmışdı.
45 [z]Onları göndərdiyi mozalanlara yem etmişdi,
Göndərdiyi qurbağalar ölkələrini xarabaya çevirmişdi.
46 [a]Əkinlərini tırtıllara,
Zəhmətlərinin bəhərini çəyirtkələrə vermişdi.
47 [b]Üzümlərini dolu ilə,
Firon ənciri ağaclarını şaxta ilə məhv etmişdi.
48 Naxırlarını dolu ilə,
Sürülərini şimşəklə qırmışdı.
49 Onların üzərinə qızğın qəzəbini,
Hirsini, hiddətini, dərdləri,
Bir qoşun ölüm mələklərini tökmüşdü.

---

[w]**78:24** Yəh. 6:31 [x]**78:37** Həv. 8:21 [y]**78:44** Çıx. 7:17-21; Vəhy 16:4
[z]**78:45** Çıx. 8:20-24; Çıx. 8:1-6 [a]**78:46** Çıx. 10:12-15 [b]**78:47** Çıx. 9:22-25

50 Qızğın qəzəbinə yol açmışdı,
Əsirgəmədən canlarına ölüm
vermişdi,
Həyatlarına bəla gətirmişdi.
51 [c]Hər Misirlinin ilk oğlunu,
Ham nəslindən hər kişinin belindən
gələn ilk oğlunu qırmışdı.
52 [d]Öz xalqını isə qoyun kimi oradan
çıxarmışdı,
Çöldən onları sürü kimi aparmışdı.
53 [e]Onları qorxudan uzaq, asayiş
içində aparmışdı,
Düşmənləri isə dənizdə qərq olmuşdu.
54 [f]Onları Öz müqəddəs torpağına,
Sağ əli ilə aldığı dağlar diyarına
gətirdi.
55 [g]Onların qarşısından başqa
millətləri qovdu,
Torpaqlarını da İsrail qəbilələrinə
mülk olaraq payladı,
Yaşamaq üçün yurd-yuvalarını onlara
verdi.
56 [h]Lakin onlar Allah-Taalanı
sınadılar,
Ona qarşı üsyankar oldular,
Göstərişlərinə əməl etmədilər.
57 Ataları kimi dönüklük və xəyanət
etdilər,
Xarab kamandan atılan ox kimi əyri
getdilər.
58 Onu səcdəgahları ilə
qəzəbləndirdilər,
Onu yonma bütləri ilə qısqandırdılar.
59 Bunları eşidən Allah çox
hiddətləndi,
İsraili tamamilə rədd etdi.
60 [i]İnsanlar arasında qaldığı çadırını,
Şilodakı məskənini tərk etdi.
61 [j]Qüdrətini* əsarətə,
Şərəfini düşmən əlinə təslim etdi.
62 Öz xalqını qılıncdan keçirtdi,
Öz irsini qəzəbinə düçar etdi.
63 İgidləri alov uddu,
Nişanlı qızlara toy çalınmadı.
64 Kahinləri qılınclarla qırıldı,
Arvadları dul qaldı, gözlərinin yaşı
qurudu.
65 O zaman Xudavənd yuxulu insan
kimi oyandı,
Sanki şərabın təsirindən ayılan bir
pəhləvandır.
66 Düşmənlərini vuraraq geri atdı,
Əbədi olaraq onları rüsvay etdi.
67 Yusifin nəslini rədd etdi,
Efrayim qəbiləsini seçmədi.
68 Yəhuda qəbiləsini,
Sevdiyi Sion dağını seçdi.
69 Öz Müqəddəs məkanını səma kimi,
Əbədi qurduğu dünya kimi tikdi.
70 [k]Çoban olan qulu Davudu seçdi,
Onu qoyun ağıllarından götürdü.
71 Əmlik quzuların qayğısına qalanı
gətirdi,
Xalqı Yaqub nəslinin və Öz irsi İsrailin
çobanı etdi.
72 Davud onları kamil ürəklə otardı,
Əlindən gələn məharətlə onları irəli
apardı.

Məzmur 79

Asəfin məzmuru.

79 [l]Ey Allah, millətlər Sənin
mülkünə giriblər,
Müqəddəs məbədini murdar ediblər,
Yerusəlimi viranəliyə çeviriblər.
2 Qullarının cəsədini göydəki quşlara
yem ediblər,

*__78:61__ *Qüdrət, şərəf* – Əhd sandığının rəmzi. Bax: 1Şam. 4-cü fəsil.

[c]**78:51** Çıx. 12:29 [d]**78:52** Çıx. 13:17-22 [e]**78:53** Çıx. 14:26-28
[f]**78:54** Çıx. 15:17; Yeşua 3:15-17 [g]**78:55** Yeşua 11:16-23
[h]**78:56** Hak. 2:11-15 [i]**78:60** Yeşua 18:1; Yer. 7:12-14; 26:6
[j]**78:61** 1Şam. 4:4-22 [k]**78:70** 1Şam. 16:11-12; 2Şam. 7:8; 1Saln. 17:7
[l]**79:1** 2Pad. 25:8-10; 2Saln. 36:17-19; Yer. 52:12-14

Möminlərinin ətini yerdəki
heyvanlara veriblər.
3 Yerusəlimin hər tərəfində onların
qanı axıdılıb,
Onları dəfn edən yoxdur.
4 Qonşularımızın tənə hədəfinə
döndük,
Ətrafdakılarımız tərəfindən ələ salınıb
lağ edildik.
5 Ya Rəbb, nə vaxtacan,
Yoxsa əbədilikmi bu qəzəbindən
dönməyəcəksən,
Qısqanclıqdan od tutub yanacaqsan?
6 [m]Səni tanımayan millətlərin,
İsmini çağırmayan ölkələrin üstünə
hiddətini tök.
7 Çünki onlar Yaqub nəslinin başını
yeyiblər,
Yurd-yuvasını viranəyə çeviriblər.
8 Ata-babalarımızın günahını
boynumuza qoyma,
Nə qədər alçalmışıq, mərhəmətini
bizə tez göstər.
9 Ey bizi qurtaran Allah,
İsmin şərəfinə Sən bizə yardım et,
Günahlarımızı kəffarə edərək
İsmin naminə Sən bizi xilas et.
10 Niyə millətlər «Hanı onların
Allahı?» desinlər?
Qullarının tökülən qan qisasının
alınmasını
Qoy gözümüz görsün, millətlər də
bilsinlər.
11 Qoy əsirlərin ah-naləsi hüzuruna
çatsın,
Ölümə aparılanları böyük qüdrətinlə
qoru.
12 Ey Xudavənd, Sənə tənə vuran
bizim qonşuların
Tənələrini yeddi qat artıq kökslərinə
qaytar.
13 Biz Sənin xalqın, otlağının
sürüsüyük,
Əbədilik Sənə şükür edərik,
Nəsildən-nəslə qədər həmdlərini
bəyan edərik!

Məzmur 80

*Musiqi rəhbəri üçün. Asəfin «Şoşannim»
üstə oxunan şəhadət məzmuru.*

80 [n]Ey İsrailin Çobanı,
Yusif nəslinə sürü kimi Baxan,
qulaq as!
Ey keruvlar üstündə Oturan, nurunu
saç!
2 Efrayim, Binyamin, Menaşşe
qəbilələrinin önündə
Qoy qüvvətin oyansın, gəl, bizi
qurtar!
3 Ey Allah, bizi əvvəlki halımıza
qaytar,
Üzündən nur saçıb bizi qurtar!
4 Ya Rəbb, ey Ordular Allahı, nə
vaxtacan
Xalqının duasından qəzəblənəcəksən?
5 Onlara çörək yerinə göz yaşı
yedirdin,
Onlara bolluca göz yaşı içirdin.
6 Qonşularımızla bizi çəkişməyə vadar
etdin,
Düşmən bizi ələ salıb gülür.
7 Ey Ordular Allahı, bizi əvvəlki
halımıza qaytar,
Üzündən nur saçıb bizi qurtar!
8 Misirdən tənək fidanı gətirərək
Qovduğun millətlərin torpağında
əkdin.
9 Bunun üçün sahə hazırlamışdın,
Tənək rişələnib ölkəni bürüdü.
10 Budaqları dağlara,
Böyük sidr ağaclarına kölgə saldı.
11 Dənizə qədər qol-budaq atdı,
Zoğ atıb Fərat çayına çatdı.
12 Bəs niyə ətrafdakı hasarını
uçurdun?
Budur, yoldan keçən hər kəs
məhsullarını qoparır,
13 Tənəyi meşənin qabanları korlayır,

---

[m]**79:6** Yer. 10:25 [n]**80:1** Çıx. 25:22

Onu çöl heyvanları çeynəyir.
14 Ey Ordular Allahı, dön, göydən bax,
Bu tənəyi gör, qayğısına qal.
15 Axı bu fidanı sağ əlinlə əkmisən,
Kökünə* qüvvət vermisən.
16 Tənəyini kəsib yandıranlar
Qəzəbli məzəmmətinlə qoy yox olsunlar!
17 Sənin əlin, sağ əlin Öz seçdiyin adamı –
Qüvvət verdiyin bəşər oğlunu qorusun.
18 Qoy Səndən dönüb ayrılmayaq,
Bizi elə yaşat ki, ismini çağıraq.
19 Ya Rəbb, ey Ordular Allahı, bizi əvvəlki halımıza qaytar,
Üzündən nur saçıb bizi qurtar!

Məzmur 81

Musiqi rəhbəri üçün. Asəfin «Gittit» üstə oxunan məzmuru.

81 Qüvvətimiz olan Allahı mədh edin,
Yaqubun Allahına cuşa gəlib nida edin!
2 İlahi oxuyun,
Dəfi, xoş avazlı liranı və çəngi çalın.
3 [o]Təzə Ay mərasimində, ay bədirlənəndə,
Bizim bayram günündə
Şeypur çalın!
4 Çünki bu, İsrail üçün verilən qaydadır,
Yaqubun Allahının hökmüdür.
5 O, Misir əleyhinə çıxanda
Yusif nəslinə belə bir öyüd verib.
Naməlum bir səs eşitdim:
6 «Onun çiyinlərini bu yükdən qurtarıram,
Qoy əlləri bu ağır səbətdən azad olsun.
7 [p]Dar günündə Məni çağırdın,
Mən də səni qurtardım.
Gurlayaraq tufan içindən sənə cavab verdim,
Meriva sularında səni sınadım. *Sela*
8 Ey xalqım, dinlə, xəbərdarlıq edirəm,
Ey İsrail, kaş ki Məni dinləyəydin!
9 [q]Aranızda özgə allah olmasın,
Yad allaha kimsə səcdə qılmasın.
10 Rəbb Allahınız Mənəm,
Mən sizi Misir torpağından buraya gətirmişəm.
Ağzını yaxşı aç,
Doyunca yemək verirəm.
11 Lakin xalqım səsimi eşitmədi,
İsrail nəsli Məni istəmədi.
12 Onların inadkar qəlblərinə izin verdim ki,
Necə istəyirlər, elə gəzsinlər.
13 Kaş ki xalqım Mənə qulaq asaydı,
İsrail nəsli Mənim yolumla gedəydi!
14 Bir anda düşmənlərini yerə sərərdim,
Əlimi yağılarının üstünə qaldırardım.
15 Mən Rəbbə nifrət edənlər Mənə boyun əyərdi,
Əbədi olaraq vaxtları belə keçərdi.
16 Sizə taxılın əlasını yedirərdim,
Sizi qayadan axan balla bəsləyərdim».

Məzmur 82

Asəfin məzmuru.

82 Allah Öz toplantısında durub,
Hökmünü verərək allahlar arasında deyir:
2 «Nə vaxtadək nahaq hökm verəcəksiniz,
Pislərə tərəfkeşlik edəcəksiniz? *Sela*
3 Yoxsulun və yetimin işinə ədalətlə baxın,
Məzlumun və fəqirin haqqını verin.

---

*__80:15__ *Kökünə* – yaxud *oğula.*

[o]__81:3__ Say. 10:10 [p]__81:7__ Çıx. 17:7; Say. 20:13
[q]__81:9__ Çıx. 20:2-3; Qanun. 5:6-7

4 Yoxsul və möhtacları qurtarın,
Pislərin əlindən onları azad edin.
5 Nə bilirsiniz, nə də ki anlayırsınız!
Yerin təməlləri sarsılır, qaranlıqda dolanırsınız.
6 [r]Demişəm: “Siz allahlarsınız,
Hər biriniz Haqq-Taala övladlarısınız”.
7 Lakin insan kimi öləcəksiniz,
Adi bir hökmdar kimi torpağa düşəcəksiniz».
8 Ey Allah, qalx, dünyaya hakim ol,
Çünki bütün millətlərə Sən sahib olacaqsan!

Məzmur 83

Bir ilahi.

Asəfin məzmuru.

83 Ey Allah, susub səssiz durma!
Ey Allah, sakit olma!
2 Budur, düşmənlər qiyamət qoparır,
Sənə nifrət edənlər Sənin əleyhinə qalxır.
3 Xalqına qarşı fənd işlədirlər,
Sənin qoruduqlarına qarşı birgə qərara gəlirlər.
4 Deyirlər: «Gəlin, onları millət olmasın deyə məhv edək,
İsrailin adı xatırlanmasın deyə onları yox edək».
5 Ürəkləri bir olaraq qərara gəliblər,
Sənə qarşı bunlar əhd ediblər:
6 Edomlular, İsmaillilər,
Moavlılar, Həcərlilər,
7 Geval, Ammon, Amaleq,
Filişt və Sur əhalisi.
8 Aşşur da onlara qoşulub,
Lutun övladlarına kömək edir. *Sela*
9 [s]Başlarına gətir Midyanlılara etdiklərini,
Qişon vadisində Sisranın, Yavinin başına gətirdiklərini.
10 Onlar En-Dorda həlak oldular,
Torpaq üçün peyin oldular.
11 [t]Əsilzadələrini Orev və Zeev kimi et,
Bütün ağalarını Zevah və Salmunna kimi et.
12 Onlar demişdilər:
«Allahın otlaqlarına sahib olaq».
13 Ey Allahım, onları sovrulan toza,
Küləyin süpürdüyü saman qırıntısına çevir.
14 Meşəni yandıran od kimi,
Dağları alışdıran alov kimi
15 Onları tufanınla qov,
Qasırğanla dəhşətə sal.
16 Ya Rəbb, onların üzünü xəcalətə bürü,
Qoy Sənin ismini axtarsınlar.
17 Əbədilik utanaraq vəlvələyə düşsünlər,
Rüsvay olub yox olsunlar.
18 Bilsinlər ki, Sənin ismin Rəbdir,
Bütün yer üzündə ancaq Sən Haqq-Taalasan!

Məzmur 84

Musiqi rəhbəri üçün. Qorah övladlarının «Gittit» üstə oxunan məzmuru.

84 Ey Ordular Rəbbi, məskənin nə qədər əzizdir,
2 Qəlbim Rəbbin həyətinin həsrətindədir,
Könlüm, cismim var olan Allaha mədh oxuyur.
3 Ey Ordular Rəbbi, Padşahım, Allahım,
Qurbangahının yaxınında sərçələr yurd salar,
Qaranquş bala çıxartmaq üçün yuva qurar.
4 Nə bəxtiyardır evində yaşayanlar,
Daim Sənə həmd oxuyanlar! *Sela*
5 Nə bəxtiyardır Səndən qüvvət alanlar,

---

[r] **82:6** Yəh. 10:34 [s] **83:9** Hak. 7:1-23; Hak. 4:6-22 [t] **83:11** Hak. 7:25; 8:12

Qəlbində Sionu ziyarət etməyi
arzulayanlar!
6 Baka* vadisindən keçərkən
Onlara çağlayan bulaqlar görünər,
İlk yağışdan ora gölməçələrə bürünər.
7 Bu adamlar getdikcə qüvvət alarlar,
Sionda Allahın hüzurunda olarlar.
8 Ya Rəbb, ey Ordular Allahı, duamı
dinlə,
Ey Yaqubun Allahı, qulaq as! *Sela*
9 Ey Allah, bizə sipər olana bax,
Məsh etdiyinin üzünə bax!
10 Sənin həyətində keçən bir günüm
Başqa yerdə keçən min günümdən
yaxşıdır.
Allahımın evinin keşiyində
dayanmağım
Pislərin çadırında rahat ömür
sürməkdən yaxşıdır.
11 Axı Rəbb Allah günəşdir, sipərdir,
Rəbb lütf və şərəf verir,
Xeyirxahlığını düz yolla gedənlərdən
əsirgəmir.
12 Ey Ordular Rəbbi, Sənə güvənən nə
bəxtiyardır!

Məzmur 85

*Musiqi rəhbəri üçün. Qorah
övladlarının məzmuru.*

85 Ya Rəbb, ölkədən razı qaldın,
Yaqub nəslini bəxtəvər günlərə
qaytardın.
2 Xalqının təqsirlərini bağışladın,
Bütün günahlarını əfv etdin. *Sela*
3 Sən bütün hirsini uddun,
Qızğın qəzəbini yatırdın.
4 Ey bizi qurtaran Allah,
Bizə bəxtəvər günlərimizi qaytar.
Bizə qarşı hiddətindən əl çək.
5 Əbədilikmi bizə acığın tutacaq?
Qəzəbin nəsildən-nəslə qədərmi
uzanacaq?
6 Xalqın Səndən sevinc alsın deyə
Bizi yenə dirçəltməyəcəksənmi?
7 Ya Rəbb, bizə məhəbbətini göstər,
Bizi xilas et.
8 Rəbb Allah nə söyləsə, dinləyirəm.
Sözləri xalqına, möminlərinə sülh
bəyan edər ki,
Onlar öz cəhalətlərinə dönməsinlər.
9 Bəli, Rəbb Ondan qorxanları
qurtarmaq üçün,
Ehtişamını ölkəmizdə saxlamaq üçün
yaxınlaşır!
10 Məhəbbətlə həqiqət bir-birinə
qovuşacaq,
Salehliklə əmin-amanlıq bir-biri ilə
öpüşəcək.
11 Həqiqət yerdə bitib-göyərəcək,
Ədalət göylərdən baxacaq.
12 Bəli, Rəbb ən yaxşı şeyləri
göndərəcək,
Torpağımız bol məhsul verəcək.
13 Ədalət Rəbbin önündə addımlayar,
Qədəmləri üçün cığır salar.

Məzmur 86

Davudun duası.

86 Ya Rəbb, mənə qulaq asıb cavab
ver,
Çünki mən məzlumam, fəqirəm.
2 Möminəm, Sən Özün məni qoru,
Ey Allahım, Sənə güvənən bəndəni
qurtar.
3 Rəhm et mənə, ey Xudavənd,
Çünki bütün gün Səni səsləyirəm!
4 Bu bəndənin qəlbini sevindir,
Ey Xudavənd, Sənə ürəyimi təqdim
edirəm.
5 Çünki Sən, ey Xudavənd,
xeyirxahsan, bağışlayan
Sənsən,
Səni səsləyənlərin hamısı üçün
məhəbbətin boldur.
6 Ya Rəbb, duamı dinlə,
Yalvarışlarımın səsinə qulaq as.
7 Dar gündə Səni səsləyirəm,
Bilirəm ki, mənə cavab verərsən.

---

*84:6 *Baka* – ibrani dilində *ağlama.*

8 Ey Xudavənd, allahlar arasında
Sənin kimisi yoxdur,
Əməllərin kimi əməl yoxdur.
9 [u]Ey Xudavənd, yaratdığın millətlərin
hamısı hüzuruna gələcək,
Sənin ismini izzətləndirərək səcdə
edəcək.
10 Çünki əzəmətli, xariqələr yaradan
Sənsən,
Yeganə Allah Sənsən!
11 Ya Rəbb, mənə yolunu göstər,
Sənin həqiqətinlə addımlayım.
Qəlbimi səmimi et,
Qoy Sənin ismindən qorxum.
12 Ey Xudavənd Allahım, bütün
qəlbimlə Sənə şükür edəcəyəm,
Daim ismini izzətləndirəcəyəm.
13 Çünki mənə olan məhəbbətin
böyükdür,
Canımı ölülər diyarına enməkdən
qurtardın.
14 Ey Allah, lovğalar əleyhimə qalxır,
Bir dəstə zalım canımı almaq üçün
məni axtarır,
Səni qarşılarında görmür.
15 [v]Ey Xudavənd, Sən rəhmli, lütfkar
Allahsan,
Hədsiz səbirlisən, məhəbbətin və
sədaqətin boldur.
16 Sən mənə baxıb rəhm et,
Bu bəndənə Öz gücündən ver,
Kənizinin oğlunu xilas et.
17 Xeyirxahlığından mənə bir əlamət
göstər,
Qoy mənə nifrət edənlər görüb
utansınlar.
Çünki, ya Rəbb, mənə kömək edirsən,
Könlümə təsəlli verirsən.

Məzmur 87

Qorah övladlarının məzmuru.

Bir ilahi.

87 Müqəddəs dağlar
Rəbbin şəhərinin təməlidir,
2 Yaqubun bütün məskənlərindən çox
Sionun darvazaları Ona əzizdir.
3 Ey Allahın şəhəri,
Haqqında bu şanlı sözləri deyirlər:
Sela
4 «Məni tanıyanların içindən
Rahavın,[*] Babilin adını çəkəcəyəm.
Həm də Filişt, Sur, Kuş barədə
Deyiləcək: "Bunlar da bu yerdə
doğulub".
5 Bəli, Sion barədə deyiləcək:
"Onların hamısı bu yerdə doğulub,
Haqq-Taala buranı sarsılmaz edəcək".
6 Rəbb xalqları siyahıda qeyd edəndə
yazacaq:
"Bunlar bu yerdə doğulub". *Sela*
7 Oxuyanlar, rəqs edənlər belə
deyəcəklər:
"Səndə mənim üçün hər cür çeşmə
var"».

Məzmur 88

Bir ilahi.

Qorah övladlarının məzmuru.

Musiqi rəhbəri üçün Ezrahlı Hemanın «Maxalat leannot» üstə oxunan maskili.

88 Ya Rəbb, ey məni qurtaran Allah,
Gecə-gündüz Sənə yalvarıram!
2 Qoy duam Sənə çatsın,
Qulaq as naləmə.
3 Bəlalardan canım boğazıma gəldi,
Həyatım ölülər diyarına yaxınlaşır.
4 Qəbirə düşənlərin içində sayılıram,

---

[*]**87:4** *Rahav* – Misirin rəmzi.

[u]**86:9** Vəhy 15:3-4

[v]**86:15** Çıx. 34:6; Say. 14:18; Neh. 9:17; Zəb. 103:8; 145:8; Yoel 2:13; Yun. 4:2

Sanki məndə taqət qalmayıb.
5 Elə bil ölülər içinə düşmüşəm,
Yaddaşından silinmişəm,
Köməyindən əlimi üzmüşəm,
Məzarda yatan meyitlər kimiyəm.
6 Məni dərin qəbirə,
Dərin, qaranlıq bir yerə saldın.
7 Qəzəbin üstümə gəldi,
Təlatümün tamamilə məni əzdi. *Sela*
8 Tanışlarımı məndən uzaqlaşdırdın,
Onlarda mənə qarşı ikrah yaratdın.
Qapalı qalmışam, çıxa bilmirəm,
9 Bu zülmümdən gözlərimin nuru sönür.
Ya Rəbb, hər gün Səni çağırıram,
Sənə əl açıram.
10 Xariqələrini ölülərəmi göstərəcəksən?
Kölgələrmi qalxıb Sənə şükür edəcək? *Sela*
11 Məhəbbətin məzardamı,
Sədaqətin Həlak yerindəmi bəyan olunacaq?
12 Xariqələrin qaranlıqdamı,
Ədalətin unudulma diyarındamı tanınacaq?
13 Mən isə, ya Rəbb, Səni imdada çağırıram,
Duam hər səhər hüzuruna qalxır.
14 Ya Rəbb, niyə məni rədd edirsən?
Niyə məndən üzünü gizlədirsən?
15 Mən uşaqlıqdan məzlumam, ölümcül haldayam,
Göstərdiyin dəhşətlərdən çarəsiz qalmışam.
16 Qəzəbin üzərimdən basır,
Verdiyin vahimələrdən məhv oluram.
17 Bunlar sel kimi məni dövrəyə salır,
Bunlar birgə həmişə başımın üstünü alır.
18 Yarımı, yoldaşımı məndən uzaqlaşdırmısan,
Yalnız qaranlıqla həmdəm olmuşam.

Məzmur 89

[w] *Ezrahlı Etanın maskili.*

89 Ya Rəbb, daim məhəbbətindən nəğmə oxuyacağam,
Sənin sədaqətini dilim hər nəslə deyəcək.
2 Deyirəm ki, məhəbbətin əbədiyaşardır,
Sədaqətin göylər qədər sarsılmazdır.
3 Dedin: «Öz seçdiyimlə əhd kəsmişəm,
Qulum Davud üçün belə and içmişəm:
4 [x]"Mən nəslini əbədi sarsılmaz edəcəyəm,
Sülaləni taxtında sonsuzadək yaşadacağam"». *Sela*
5 Ya Rəbb, göylər Sənin xariqələrinə şükür etsin,
Müqəddəslər camaatı arasında sədaqətinə həmd edilsin.
6 Göydə Rəbbin tayı-bərabəri varmı?
İlahi varlıqlar arasında Rəbbin bənzəri varmı?
7 Müqəddəslər məclisində Allah çox zəhmlidir,
Ətrafında olanların hamısından O heybətlidir.
8 Ya Rəbb, Ordular Allahı, Sənin tək qüdrətli varmı?
Səni sədaqətin bürüyüb.
9 Sən qabaran dənizə hökm edirsən,
Aşıb-daşan dalğaları yatırırsan.
10 Sən Rahavı* əzib leşini çıxartdın,
Qüvvətli qolunla düşmənləri dağıtdın.
11 Göylər Sənin, yer üzü Sənin,
Qurduğun yer üzündə hər şeyin təməlini qoymusan.
12 Sən şimalı, cənubu yaratmısan,
Tavor və Xermon adına mədh oxuyur.
13 Qolun nə qədər qüvvətlidir,
Sağ əlin ucadır, əllərin qüdrətlidir!

---

*__89:10__ *Rahav* – burada *dəniz əjdahası* mənasında işlənir.

[w]__89:0__ 1Pad. 4:31 [x]__89:4__ 2Şam. 7:12-16; 1Saln. 17:11-14; Zəb. 132:11; Həv. 2:30

14 Salehlik və ədalət taxtının
təməlidir,
Məhəbbət və sədaqət önündə gedir!
15 Bayram şənliyində olan xalq nə
bəxtiyardır!
Ya Rəbb, onlar Sənin üzünün nurunda
gəzər.
16 İsminə görə daim sevinirlər,
Salehliyinə görə şərəfə çatırlar.
17 Onların ehtişamı, qüvvəti Sənsən.
Sənin lütfündən gücümüz artır.
18 Çünki sipərimiz Rəbdəndir,
Padşahımız İsrailin Müqəddəsidir.
19 Keçmişdə bir görüntü ilə
Möminlərinə belə söylədin:
«Bir cəngavərə kömək etdim,
Xalqın içindən onu seçib yüksəltdim.
20 [y]Qulum Davudu tapdım,
Müqəddəs yağımla onu məsh etdim.
21 Əlim daim onu möhkəmləndirəcək,
Qolum ona qüvvət verəcək!
22 Düşmən ona qalib gələ bilməz,
Fitnəkarlar ona zülm edə bilməz.
23 Qarşısındakı düşmənləri qıracağam,
Ona nifrət edənləri vuracağam.
24 Yanında sədaqətim, məhəbbətim
olacaq,
Gücü ismimlə artacaq.
25 Dənizlərə əlini,
Çaylara sağ əlini çatdıracağam.
26 Məni çağırıb deyəcək: "Atamsan,
Allahımsan,
Məni xilas edən Qaya Sənsən!"
27 [z]Mən də ilk oğul haqqını ona
verəcəyəm,
Onu yer üzünün ən uca padşahı
edəcəyəm.
28 Ona daim məhəbbətimi
göstərəcəyəm,
Sadiq qalıb əhdimi pozmayacağam.
29 Onun nəslini əbədi yaşadacağam,
Göylər durduqca taxtını
saxlayacağam.
30 Övladları qanunumu atsalar,
Hökmlərimə görə yaşamasalar,
31 Qaydalarımı pozsalar,
Əmrlərimə əməl etməsələr,
32 Bu qanunsuzluqlarını kötəklə
cəzalandıracağam,
Təqsirlərini qamçı ilə tənbeh
edəcəyəm.
33 Amma yenə də məhəbbətimi
atmaram,
Sədaqətimi yalan olmağa qoymaram.
34 Öz əhdimi pozmaram,
Dilimdən çıxan sözləri dəyişmərəm.
35 Müqəddəsliyim naminə bir dəfə
and içmişəm:
Davuda yalandan söz verməyəcəyəm.
36 Sülaləsi taxtda əbədi qalacaq,
Taxtı hüzurumda günəş kimi duracaq.
37 Ay kimi –
Göydəki etibarlı şahid kimi sabit
qalacaq». *Sela*
38 Amma, ya Rəbb, məsh etdiyin
padşaha qəzəblənmisən,
Sən onu rədd etmisən, ona arxa
çevirmisən.
39 Qulunla bağladığın əhddən imtina
etmisən,
Tacını toz-torpağa atıb bulaşdırmısan.
40 Bütün divarlarını yıxmısan,
Qalalarını viran etmisən.
41 Yoldan keçənlər oranı
soyub-talayırlar,
Qonşuları ona tənə vururlar.
42 Onun düşmənlərinin sağ əlini
yuxarı qaldırmısan,
Bütün yağılarını sevindirmisən.
43 Qılıncının ağzını kütləşdirmisən,
Onu döyüşdə qaldırmamısan.
44 Onu şərəfdən salmısan,
Taxtını yerlə yeksan etmisən.
45 Nə tez onu gəncliyindən saldın,
Onu xəcalətə bürüdün. *Sela*
46 Ya Rəbb, nə vaxta qədər,
Yoxsa əbədilikmi bizdən
gizlənəcəksən,

---

[y]**89:20** 1Şam. 13:14; Həv. 13:22; 1Şam. 16:12 [z]**89:27** Vəhy 1:4-6

Od tutub qəzəbdən yanacaqsan?
47 Ömrümün nə tez keçdiyini xatırla,
Bütün bəşər övladlarını nə fani yaratmısan!
48 İnsanlar arasında ölüm görməyən kimdir?
Kim canını ölülər diyarının pəncəsindən qurtarar? *Sela*
49 Ey Xudavənd, əvvəlki məhəbbətin harada qaldı?
Çünki bu barədə Davuda sədaqətlə and içdin.
50 Ey Xudavənd, unutma, gör bu bəndən necədir,
Köksümdə nə qədər xalqın tənəsini gəzdirirəm.
51 Ya Rəbb, düşmənlərinin etdiyi təhqirləri,
Məsh etdiyinin yoluna vurduqları tənələri daşıyıram.
52 Rəbbə əbədilik alqış olsun!
Amin, Amin.

Dördüncü hissə

90-106-cı məzmurlar

Məzmur 90

Allah adamı Musanın duası.

90 Ey Xudavənd, bütün nəsillərdən bəri
Bizə pənah yeri olmusan.
2 Dağlara təvəllüd verməmişdən əvvəl,
Kainatı, dünyanı doğmazdan əvvəl
Əzəldən axıradək Allah Sənsən.
3 İnsanları torpağa çevirirsən,
Deyirsən: «Qoy bəşər övladları toza dönsün».
4 [a]Sənin gözündə min il ötən bir günə,
Bir gecə növbəsinə bənzər.
5 İnsanları silirsən, çəkilirlər,
Elə bil ki yuxudurlar.
Sanki sübh çağı yerdə bitən otdurlar,
6 Səhər boy atar, çiçək açar,
Axşamsa solar, quruyar.
7 Qəzəbindən məhv oluruq,
Hiddətindən vəlvələyə düşürük.
8 Hüzurunda təqsirlərimizi üzə çıxarmısan,
Gizli günahlarımıza üzünün işığını salmısan.
9 Ömür-günümüz Sənin qəzəbin altında keçir,
İllərimiz bir nəfəs tək tükənir.
10 Yetmiş il ömür sürərik,
Sağlam olsaq, səksənə yetişərik.
Ən yaxşı çağımız belə, zəhmətlə, kədərlə keçir,
Ömrümüz tez bitir, uçub-gedir.
11 Axı qəzəbinin gücünü kim dərk edə bilər?
Hirsinin vahiməsini kim duya bilər?
12 Bizə öyrət nə qədər ömrümüz var,
Qoy qəlbimiz hikmətli olsun.
13 Əl çək, ya Rəbb! Nə vaxtadək qəzəbindən dönməyəcəksən?
Sən qullarına rəhm et.
14 Səhər-səhər bizə doyunca məhəbbət göstər,
Qoy ömrümüz boyu sevinib fərəhlənək.
15 Bizi zülmə saldığın günlər qədər,
Bəlaya düşdüyümüz illər qədər sevindir.
16 Əməllərin qullarına,
Əzəmətin övladlarına görünsün.
17 Ey Xudavənd Allahımız, bizimlə xoş rəftar et,
Əllərimizin zəhmətini uğurlu et,
Bəli, bizim əllərimizin zəhmətini uğurlu et.

Məzmur 91

91 Haqq-Taalanın pənahında yaşayan,
Külli-İxtiyarın kölgəsində oturan insan

---

[a]**90:4** 2Pet. 3:8

2 Rəbb haqqında belə söyləyir:
«O mənim sığınacağımdır, qalamdır,
Allahımdır, Ona güvənirəm».
3 Bil ki, O səni ovçunun tələsindən,
Ağır xəstəliyə düşüb ölməkdən
qurtarar.
4 Səni qanadlarının altına alar,
Pərlərinin altında sığınacaqsan.
Sədaqəti qalxanın, sipərin olar.
5 Nə gecənin kabusundan,
Nə də gündüz atılan oxdan,
6 Nə zülmətdə dolanan ağır
xəstəlikdən,
Nə də günorta məhvedici qırğından
qorxmazsan.
7 Yanında min nəfər,
Sağında on min nəfər qırılsa,
Sənə xətər dəyməz.
8 Gözlərinlə baxacaqsan,
Pislərin cəzasını görəcəksən.
9 «Ya Rəbb, sığınacağımsan!» dediyin
üçün,
Haqq-Taalaya sığındığın üçün
10 Şərə düçar olmazsan,
Bəla çadırından uzaq qaçar.
11 [b]Allah sənə görə mələklərinə əmr
edər ki,
Gedəcəyin hər yerdə səni qorusunlar,
12 [c]Səni əlləri üstündə aparsınlar,
Ayağın bir daşa dəyməsin.
13 [d]Şiri, gürzəni ayaqlayarsan,
Gənc aslanı, əfi ilanı tapdalayarsan.
14 «Mən Rəbbi sevdiyinə görə onu
azad edəcəyəm,
İsmimi tanıdığına görə onu
yüksəldəcəyəm.
15 Məni çağırarkən ona cavab
verəcəyəm,
Dar günündə ona yar olacağam,
Onu xilas edib şərəfə-şana
çatdıracağam.
16 Onu uzun ömürlə doyduracağam,
Ona qurtuluşumu göstərəcəyəm».

Məzmur 92

Məzmur.

Şənbə günü üçün bir ilahi.

92 Nə yaxşıdır Rəbbə şükür etmək,
Ey Haqq-Taala, isminə tərənnüm
söyləmək,
2 Hər səhər məhəbbətini elan etmək,
Hər gecə sədaqətini bəyan etmək,
3 On telli alətin avazı ilə,
Çəngin, liranın sədası ilə oxumaq.
4 Çünki, ya Rəbb, əməllərinlə məni
sevindirmisən,
Əllərinin işlərinə görə Səni mədh
edirəm.
5 Ya Rəbb, Sənin işlərin nə qədər
əzəmətlidir,
Sənin fikirlərin dərindən dərindir!
6 Nadan insan bunu heç vaxt bilməz,
Axmaq insan bunu dərk etməz:
7 Pislər ot kimi bitsə də,
Bütün şər iş görənlər çiçəklənsə də,
Əbədilik yox olacaqlar.
8 Amma, ya Rəbb, Sən əbədi ucasan.
9 Ya Rəbb, düşmənlərin mütləq
qırılacaq,
Bütün şər iş görənlər darmadağın
olacaq.
10 Sən mənə çöl öküzü kimi güc
vermisən,
Başıma təzə zeytun yağı* çəkmisən.
11 Düşmənlərimin yerə sərilməsini
gözlərimlə gördüm,
Bədxahlarımın can verməsini
qulaqlarımla eşitdim.
12 Salehlər xurma ağacı kimi göyərir,
Livandakı sidr ağacı kimi böyüyür.
13 Onlar Rəbbin evində əkilib,
Onlar Allahımızın həyətində göyərir.
14 Qocalanda da bar verəcəklər,

*__92:10__ *Təzə zeytun yağı* – xoşbəxtlik rəmzi.

[b]__91:11__ Mat. 4:5-6; Luka 4:10 [c]__91:12__ Mat. 4:5-6; Luka 4:11
[d]__91:13__ Luka 10:19

Təravətli, yamyaşıl qalacaqlar,
15 Belə deyəcəklər: «Rəbb haqdır,
O mənim qayamdır, Onda haqsızlıq yoxdur».

Məzmur 93

93 Rəbb hökmranlıq edir, əzəmət libasıdır,
Rəbbin libasına qüdrət qurşanıb.
Dünya möhkəm durub, sarsılmazdır.
2 Ya Rəbb, taxtın əvvəldən qurulub,
Əzəldən var olan Sənsən.
3 Ya Rəbb, sellər çağlayır,
Şırıldayan sellər çağlayır,
Uğuldayan sellər çağlayır.
4 Gur suların uğultusundan da,
Dənizin güclü dalğalanmasından da,
Ucalarda olan Rəbb qüdrətlidir!
5 Ya Rəbb, öyüdlərin tamamilə etibarlıdır,
Evinə müqəddəslik əbədi olaraq yaraşır.

Məzmur 94

94 Ya Rəbb, qisas alan Allah!
Ey qisas alan Allah, nurunu saç!
2 Ey dünyanın Hakimi, qalx,
Təkəbbürlülərin əvəzini ödə!
3 Ya Rəbb, nə vaxtadək pislər –
Axı nə vaxtadək pislər sevincdən cuşa gələcəklər?
4 Dillərindən lovğa sözlər tökülür,
Bütün şər iş görənlər öyünürlər.
5 Ya Rəbb, xalqını əzirlər,
Sənin irsindən olan adamlara zülm edirlər.
6 Dul qadını və qəribi öldürürlər,
Yetimləri qırırlar.
7 Belə deyirlər: «Rəbb heç nə görmür,
Yaqubun Allahı heç nə dərk etmir».
8 Dərk edin, ey xalqın nadanları!
Ey axmaqlar, nə vaxt ağla gələcəksiniz?
9 Qulaqları yaradan eşitməzmi?
Gözlərə quruluş verən görməzmi?
10 Məgər millətlərə təlim verən,
İnsanlara bilik öyrədən tənbeh etməzmi?
11 [e]Rəbb insanın düşüncələrini görər,
Bunların boş olduğunu bilər.
12 Ya Rəbb, bəxtiyar o insandır ki, ona təlim vermisən,
Öz qanununu öyrətmisən!
13 Pislər üçün qəbir qazılanadək
Onu dar gündən çıxarıb dinclik verəcəksən.
14 Çünki Rəbb xalqını Özündən ayırmaz,
İrsini Öz əlindən verməz.
15 Yenə ədalətli hökmlər çıxarılacaq,
Ürəyidüz olanlar haqqın ardınca gedəcək.
16 Kim mənim üçün pislərə qarşı durar?
Şər iş görənlərə qarşı kim müdafiəçim olar?
17 Əgər Rəbb köməyim olmasaydı,
Canım sükut diyarına vaxtsız köçərdi.
18 Mən «ayağım büdrəyir» deyən zaman,
Ya Rəbb, mənə məhəbbətinlə dayaqsan.
19 Mən daxilən çox narahat olarkən
Təsəlli verərək məni fərəhləndirirsən.
20 Qanun bəhanəsi ilə şər quran
Əzazil hökmdarlardan Sənə yoldaş olarmı?
21 Əlbir olub salehlərin canına qəsd qururlar,
Məhkum edib təqsirsizin qanına bais olurlar.
22 Amma Rəbb mənə qala oldu,
Allahım mənə sığınacaq bir qaya oldu!
23 Pislərin şər işlərini başlarına gətirəcək,
Pisliklərinə görə onları yox edəcək,

---

[e]**94:11** 1Kor. 3:20

Bəli, Allahımız Rəbb onları yox
edəcək!

Məzmur 95

95 Gəlin Rəbbi mədh edək,
Bizi qurtaran Qayaya sevincdən
cuşa gələrək nida edək,
2 Şükür edərək hüzuruna gedək,
Cuşa gəlib ilahilərlə Ona nida edək!
3 Axı Rəbb böyük Allahdır,
Bütün allahlar üzərində əzəmətli
Padşahdır.
4 Yerin dərin qatları Onun əlindədir,
Həm də dağların zirvələri Onundur,
5 Onunkudur dəniz, Özü yaratmış,
Torpağı əlləri qurmuş!
6 Gəlin Ona səcdə edək, əyilək,
Bizi yaradan Rəbbin hüzurunda diz
çökək.
7 [f]Çünki O, Allahımızdır,
Biz Onun otlağının xalqıyıq,
Əlinin altındakı sürüsüyük.
Əgər bu gün Onun səsini eşitsəniz,
8 [g]«Qoy ürəkləriniz
Merivada olduğunuz kimi,
Səhradakı Massada keçən gündə
olduğu kimi inadkar olmasın.
9 Orada atalarınız Məni sınadılar,
Əməllərimi görsələr də, Məni
yoxladılar.
10 Qırx il o nəsildən zəhləm getdi.
Dedim: “Onlar azğın ürəkli xalqdır,
Yollarımı tanımır”.
11 [h]Buna görə qəzəblənib and
içmişəm:
“Onlar Mənim rahatlıq diyarıma
girməyəcəklər”».

Məzmur 96

(1Saln. 16:23-33)

96 Rəbbə yeni bir ilahi oxuyun,
Ey bütün dünya, Rəbbə ilahi
oxuyun,
2 İsminə alqış edin, Rəbbə ilahi
oxuyun,
Xilaskar olduğunu hər gün
müjdələyin.
3 Ehtişamını millətlərə elan edin,
Xariqələrini bütün xalqlara bəyan
edin!
4 Axı Rəbb əzəmətlidir, bol həmdə
layiqdir,
O bütün allahlardan daha zəhmlidir.
5 Bütün özgə xalqların allahları
bütlərdir,
Lakin göyləri yaradan Rəbdir.
6 Ehtişam və əzəmət hüzurundadır,
Müqəddəs məkanında gözəlliklə
qüdrət var.
7 [i]Ey xalqların tayfaları, Rəbbə verin –
İzzəti, qüdrəti Rəbbə verin,
8 Adına layiq izzəti Rəbbə verin,
Həyətinə girib təqdimlər verin.
9 Müqəddəslik zinəti ilə Rəbbə səcdə
edin,
Ey bütün dünya, Onun hüzurunda
lərzəyə gəlin!
10 Millətlərə belə elan edin:
«Rəbb hökmranlıq edir,
O, dünyanı sarsılmaz və möhkəm
qurub,
O, insafla xalqların hökmünü
verəcək».
11 Göylər sevinsin, yer üzü şad olsun,
Dənizin və dənizdəki canlıların səsi
ucalsın,
12 [j]Çöllər və çöldə yaşayanlar
fərəhlənsin,

---

[f] **95:7** İbr. 3:7-11,15; 4:3,5,7 [g] **95:8** Çıx. 17:1-7; Say. 20:2-13
[h] **95:11** Say. 14:20-23; Qanun. 1:34-36; Qanun. 12:9-10
[i] **96:7** 1Saln. 16:29-30; Zəb. 29:1-2 [j] **96:12** Yeş. 11:4; Vəhy 19:11

Meşədəki bütün ağaclar mədh
söyləsin
13 Rəbbin hüzurunda!
O gəlir, dünyanın hökmünü vermək
üçün gəlir,
Yer üzünün hökmünü ədalətlə,
Xalqların hökmünü həqiqətlə verəcək!

Məzmur 97

97 Rəbb hökmranlıq edir, qoy yer
üzü şadlıq etsin,
Qoy bütün adalar sevinsin.
2 Buludlar və zülmət Onun
ətrafındadır,
Salehliklə ədalət taxtının təməlidir.
3 Onun önündən alov çıxar,
Ətrafındakı düşmənləri
yandırıb-yaxar.
4 Şimşəkləri dünyaya işıq saçar,
Yer üzü bunu görəndə sarsılar.
5 Dağlar Rəbbin hüzurunda –
Bütün yer üzünün Sahibinin
hüzurunda mum tək əriyər.
6 Göylər salehliyini bəyan edər,
Əzəmətini bütün xalqlar görər.
7 Bütün bütpərəstlər,
Xeyirsiz bütlərlə öyünənlər rüsvay
olacaq!
Ey bütün allahlar, Rəbbə səcdə edin!
8 Ya Rəbb, Sənin hökmlərini
Sion eşidib sevinir,
Yəhuda qızları cuşa gəlir.
9 Çünki bütün yer üzərində,
Ya Rəbb, Haqq-Taala Sənsən!
Bütün allahların üzərində
Sən nə qədər yüksəksən!
10 Ey Rəbbi sevənlər, şərə nifrət edin!
O, möminlərinin canını qoruyar,
Onları pislərin əlindən qurtarar.
11 Salehlərin üstünə nur tökülər,
Ürəyidüz olanların üstünə sevinc
səpilər.
12 Ey salehlər, Rəbbə görə sevinin,
Onun müqəddəs adına şükür edin!

Məzmur 98

Məzmur.

98 [k]Rəbbə yeni bir ilahi oxuyun,
Çünki O, xariqələr yaratdı.
O, sağ əli ilə,
Öz müqəddəs qolu ilə zəfərlər
qazandı.
2 Rəbb zəfərini bəyan etdi,
Millətlərin gözündə salehliyini aydın
göstərdi.
3 İsrail nəslinə
Göstərdiyi məhəbbətini və sədaqətini
xatırladı.
Yer üzünün qurtaracağınadək hər
yerdə
Allahımızın zəfərini gördü.
4 Ey bütün dünya, cuşa gəlib Rəbbə
nida et,
Birdən nida edin, mədh, tərənnüm
səsini ucaldın!
5 Rəbbi lira ilə –
Lira ilə, ilahi bir səslə tərənnüm edin!
6 Kərənay, şeypur səsi ilə,
Padşah olan Rəbbin hüzurunda cuşa
gəlin,
Ona nida edin!
7 Qoy dənizin və dənizdəki canlıların,
Yer üzü və orada yaşayanların səsi
ucalsın.
8 Onun hüzurunda qoy çaylar əl
çalsın,
Dağlar birgə mədh oxusun!
9 Çünki Rəbb dünyaya hökm etmək
üçün gəlir.
Yer üzünə ədalətlə,
Xalqlara insafla hökm edəcək!

Məzmur 99

99 [l]Rəbb hökmranlıq edir, qoy
xalqlar titrəsin,
O, keruvlar üstündəki taxtındadır,
qoy yer üzü lərzəyə gəlsin!
2 Sionda olan Rəbb əzəmətlidir,

---

[k]**98:1** Zəb. 33:3; Yeş. 42:10; Vəhy 5:9-10

[l]**99:1** Çıx. 25:22

O bütün xalqların üzərindədir,
yüksəkdədir.
3 Qoy böyük, zəhmli adına şükür
etsinlər!
O müqəddəsdir!
4 Ey ədalətsevər güclü Padşah,
İnsafı bərqərar edən Sənsən,
Yaqub nəslinə ədalət və salehliyi
göstərmisən.
5 Allahımız Rəbbi ucaldın,
Ayaqlarına düşüb səcdə qılın,
O müqəddəsdir!
6 Onun kahinləri arasında Musa ilə
Harun olub,
Onun adını çağıranlar arasında
Şamuel olub.
Onlar Rəbbə yalvararkən
O cavab verərdi.
7 [m]Bulud sütununun içindən onlarla
danışdı,
Onun göstərişlərinə,
Onlara verdiyi qaydalarına bağlı
qaldılar.
8 Ya Rəbb Allahımız, Sən onlara cavab
verdin,
Pis əməllərinin cəzasını versən də,
Bağışlayan Allah olduğunu onlara
göstərdin.
9 Allahımız Rəbbi ucaldın,
Müqəddəs dağında Ona səcdə qılın,
Çünki Allahımız Rəbb müqəddəsdir!

Məzmur 100

Şükran məzmuru.

100 Ey bütün dünya, cuşa gəlib
Rəbbə nida edin,
2 Sevinclə Rəbbə qulluq edin,
Mədh oxuyaraq Onun hüzuruna gəlin!
3 Rəbb Allahdır, siz bunu bilin,
O bizi yaradıb, biz Ona aidik,
Xalqıyıq, otlağında otardığı sürüyük.
4 Dərgahına şükürlərlə,
Həyətlərinə həmdlərlə gəlin.
Ona şükür edin,
İsminə alqış söyləyin.
5 [n]Rəbb nə yaxşıdır, məhəbbəti
əbədidir,
Sədaqəti nəsillərdən-nəslə çatır!

Məzmur 101

Davudun məzmuru.

101 Məhəbbətini, həqiqətini
tərənnüm edəcəyəm,
Ya Rəbb, Sənə ilahi söyləyəcəyəm!
2 Kamillik yolunda müdrik olacağam.
Sən yanıma nə zaman gələcəksən?
Təmiz ürəklə evimdə yaşayacağam,
3 İyrənc şeylərdən gözümü çəkəcəyəm.
Azğınların işlərinə nifrət edirəm,
Qoymaram məndən yapışsın.
4 Əyri ürəkdən dönəcəyəm,
Şəri tapdalayacağam.
5 Qonşusuna gizlincə böhtan atanı
susduracağam,
Yuxarıdan baxan lovğa insana dözə
bilmərəm.
6 Gözüm ölkənin sadiq insanlarına
baxar,
Qoy onlar yanımda yaşasın.
Kamillik yolu ilə gedənlər qulluğumda
dayanar.
7 Fırıldaqçıları sarayımda yaşamağa
qoymaram,
Yalançını hüzurumda dayanmağa
qoymaram.
8 Hər səhər ölkədəki pisləri yox
edəcəyəm,
Bütün şər iş görənləri Rəbbin
şəhərindən kəsib atacağam.

---

[m]**99:7** Çıx. 33:9 [n]**100:5** 1Saln. 16:34; 2Saln. 5:13; 7:3; Ezra 3:11; Zəb. 106:1; 107:1; 118:1; 136:1; Yer. 33:11

Məzmur 102

Bir məzlumun duası.

Taqətdən düşüb Rəbbin
hüzurunda şikayətlənəndə.

102 Ya Rəbb, bu duama qulaq as,
Qoy fəryadım Sənə çatsın.
2 Nə olar, dar günümdə üzünü
məndən gizlətmə,
Qulaq as, Səni çağırarkən mənə tez
cavab ver.
3 Günlərim tüstü kimi çəkilir,
Sümüklərim elə bil yanıb közə dönür.
4 Ürəyim kəsilib atılan ot kimi
saralıb-solur,
Çörək yemək belə, yadımdan çıxır.
5 Ah-zar çəkməkdən
Bir dəri, bir sümük qalmışam.
6 İndi çöldəki yapalağa bənzəyirəm,
Viranəlik bayquşu kimiyəm.
7 Gözümə yuxu getmir,
Damda tənha qalan bir quşa
bənzəyirəm.
8 Bütün gün düşmənlərim məni təhqir
edir,
Mənə istehza edənlər adımla lənət
oxuyur.
9 Yeməyim çörək yerinə kül olub,
İçməyim göz yaşıma qarışıb.
10 Çünki qəzəbindən, hiddətindən
Məni götürüb bir tərəfə atmısan.
11 Günlərim axşamın kölgəsi kimi
keçir,
Bir ot kimi quruyuram.
12 [o]Lakin Sən, ya Rəbb, əbədi taxtında
əyləşmisən,
Sənin şöhrətin nəsildən-nəslə
deyiləcək.
13 Sən qalxıb Siona mərhəmət
edəcəksən,
Zamanını təyin etdin, indi ona lütf
ediləcək.
14 Çünki Sənin qulların onun daşlarını
əziz tuturlar,
Onun toz-torpağına necə də acıyırlar.
15 Millətlər Rəbbin ismindən,
Dünyanın bütün padşahları Onun
əzəmətindən qorxacaqlar.
16 Rəbb Sionu yenidən bərpa edəcək,
Əzəmətində görünəcək,
17 Yoxsulların duasına qulaq asacaq,
Yalvarışlarına xor baxmayacaq.
18 Sonrakı övladları Rəbbə həmd etsin
deyə
Qoy gələcək nəsil üçün belə yazılsın:
19 «Rəbb müqəddəs yüksəklikdən,
Göylərdən yer üzünə nəzər saldı;
20 Əsirlərin naləsini eşitmək üçün,
Ölümə aparılanları azad etmək üçün».
21 Ona görə Rəbbin ismini Sionda elan
edəcəklər,
Yerusəlimdə Ona həmdlər
söyləyəcəklər
22 Rəbbə xidmət etmək üçün gələrkən,
Xalqlar, ölkələr bir yerə gələrkən.
23 Yolda ikən Rəbb gücümü azaltdı,
O, ömrümü qısaltdı.
24 Dedim: «Ey Allahım, canımı alma,
ömrümün yarısıdır,
Sənin illərin nəsillərdən-nəsillərə
çatır».
25 [p]Yerin təməlini əzəldən qurmusan,
Göylər Sənin əllərinin işidir!
26 Onlar yox olacaq, amma Sən
qalacaqsan,
Hamısı paltar kimi köhnələcək,
Onları geyim kimi dəyişdirəcəksən,
Keçib-gedəcəklər.
27 Amma Sən dəyişməzsən,
İllərin tükənməzdir.
28 Qullarının övladları yaşayacaq,
Nəvə-nəticələri hüzurunda
dayanacaq.

---

[o]**102:12** Mərs. 5:19 [p]**102:25** İbr. 1:10-12

Məzmur 103

Davudun məzmuru.

103 Rəbbə alqış et, ey könlüm,
Ey bütün varlığım, Onun müqəddəs adına alqış et!
2 Rəbbə alqış et, ey könlüm,
Unutma etdiyi yaxşılıqları:
3 Odur bütün təqsirlərini əfv edən,
Bütün xəstəliklərinə şəfa verən.
4 Odur həyatını məzara düşməkdən qurtaran,
Məhəbbətin, mərhəmətin tacını başına qoyan.
5 Odur ömür boyu səni bərəkəti ilə doyduran,
Səni təzələyib gənc, gümrah qartala oxşadan.
6 Rəbb bütün miskinlər üçün
Haqq və ədalət edir.
7 Yollarını Musaya,
Əməllərini İsrail övladlarına göstərib.
8 [q]Rəbb rəhmli və lütfkardır,
Hədsiz səbirli və bol məhəbbətlidir.
9 Həmişə töhmətləndirməz,
Qəzəbi sonsuza qədər sürməz.
10 Bizimlə günahlarımıza görə davranmaz,
Təqsirlərimizin əvəzini çıxmaz.
11 Çünki göylər yerdən nə qədər ucadırsa,
Ondan qorxanlara olan məhəbbəti o qədər böyükdür.
12 Nə qədər şərq qərbdən uzaqdırsa,
Qanunsuzluqlarımızı bizdən o qədər uzaqlaşdırıb.
13 Ata övladlarına rəhm etdiyi kimi
Rəbb də Ondan qorxanlara elə rəhm edir.
14 Çünki necə yarandığımızı bilir,
Torpaqdan düzəlməyimizi unutmur.
15 İnsanınsa ömrü bir ota oxşar,
Çəmən gülləri kimi çiçək açar,
16 Üstündən yel əsərkən yox olur,
Yerində izi belə, qalmır.
17 Rəbbin isə Ondan qorxanlara olan məhəbbəti,
Onların övladlarına olan salehliyi
Əzəldən var, bu əbədi qalacaq.
18 Onun əhdinə vəfa edənlərə bunları göstərir,
Qayda-qanunlarını yerinə yetirənləri unutmur.
19 Rəbb taxtını göylərdə qurub,
Hər yerdə hökmranlıq edir.
20 Rəbbə alqış edin, ey Onun mələkləri,
Ey Onun sözünə baxıb icra edən qüdrətli igidlər!
21 Rəbbə alqış edin, ey səmanın bütün orduları,
İradəsini yerinə yetirən xidmətçiləri!
22 Rəbbə alqış edin, ey Onun yaratdıqları,
Ey Onun hökm etdiyi yer üzərində olan bütün varlıqlar!
Rəbbə alqış et, ey könlüm!

Məzmur 104

104 Rəbbə alqış et, ey könlüm!
Ya Rəbb Allahım, Sən nə qədər böyüksən,
Ehtişamı, əzəməti geyinmisən!
2 Nura libas kimi bürünən,
Göyləri çadır tək açan,
3 Yuxarı otaqlarını suların üstündə quran,
Buludları Özünə araba edən,
Yel qanadları üstünə minib gəzən,
4 [r]Küləyi Özünə elçi edən,
Yanar odu Özünə xidmətçi edən Sənsən!
5 Yer üzünün təməlini elə qurdun ki,
Əsla sarsılmasın.
6 Dərin suları libas kimi yer üzünə geydirdin,

---

[q]**103:8** Yaq. 5:11; Çıx. 34:6; Say. 14:18; Neh. 9:17; Zəb. 86:15; 145:8; Yoel 2:13; Yun. 4:2 [r]**104:4** İbr. 1:7

Sular dağların üstünə qalxdı.
7 Sənin məzəmmətindən sular çəkildi,
Şimşəyinin səsindən qorxub qaçdı.
8 Dağlardan dərələrə axdı,
Sənin təyin etdiyin yerlərə töküldü.
9 Onların önünə həd qoydun ki,
ondan aşmasınlar,
Heç vaxt daşıb dünyanı basmasınlar.
10 Bulaqları vadilərdən fışqırtdın,
Dağların arasından axıtdın.
11 Bu bulaqlar bütün çöl heyvanlarına
su verər,
Vəhşi eşşəklər içər, susuzluğu gedər.
12 Yanlarında quşlar yuva qurar,
Budaqlara qonub oxuyar.
13 Sən dağları göydəki sarayından
sulayırsan,
Əlinin bəhrəsindən yer doyur.
14 Heyvanlar üçün ot bitirirsən,
İnsana becərmək üçün bitkilər
yetirirsən.
Qoy insan torpaqdan azuqəsini
çıxartsın:
15 Ürəkləri xoşhal edən şərabı,
Üzləri güldürən zeytun yağını,
Taqət verən çörəyi.
16 Doyunca su içər Rəbbin ağacları,
Livanda əkdiyi sidr ağacları.
17 Bu ağaclarda quşlar yuva qurar,
Leyləklərin yuvası şam ağacındadır.
18 Uca dağlar dağ keçilərinin
oylağıdır,
Qayalar qayadovşanlarının
sığınacağıdır.
19 Fəsilləri müəyyən etmək üçün ayı
yaratdın,
Günəş batacağı zamanı bilir.
20 Gecə olsun deyə havanı qaraldırsan,
Bütün meşə heyvanları vurnuxmaya
düşürlər.
21 Ov üçün gənc aslanlar nərə
çəkərlər,
Öz yemlərini Allahdan istəyərlər.
22 Gün doğanda çəkilirlər,
Yuvalarında yatırlar.
23 İnsanlar iş başına gedir,
Qaş qaralana qədər işləyirlər.
24 Ya Rəbb, əməllərin çoxdur!
Hər birini müdrikliklə etmisən,
Yaratdıqların yer üzünü doldurub.
25 Böyük, dərin dənizlərin var,
Orada da saysız məxluqlar –
Həm kiçik, həm də böyük canlılar
qaynaşar.
26 Oradan gəmilər keçir,
Yaratdığın Livyatan sularda oynayır.
27 Bunların hamısı gözləyir ki, Sən
Vaxtlı-vaxtında onları yemləyəsən.
28 Sən yem verərkən onlar yem
yığırlar,
Açıq əlinin nemətindən doyurlar.
29 Amma üzünü gizlədərkən vəlvələyə
düşürlər,
Sən onların nəfəsini kəsərkən ölüb
torpağa qarışırlar,
30 Ruhunu göndərərkən onlar yaranır,
Yer üzünə yeni həyat verirsən.
31 Rəbbin ehtişamı qoy əbədi var
olsun!
Qoy Rəbb yaratdıqlarına görə şad
olsun!
32 Rəbb yerə baxanda yer lərzəyə
gəlir,
Dağa toxunanda dağ tüstülənir.
33 Rəbbə ömrüm boyu ilahi
söyləyəcəyəm,
Nə qədər varam, Allahımı tərənnüm
edəcəyəm.
34 Düşüncəm Ona xoş görünsün,
Mən Rəbbə görə sevinəcəyəm.
35 Günahkarlar yer üzündən
silinsinlər,
Pis adamlar yox olsunlar!
Rəbbə alqış et, ey könlüm!
Rəbbə həmd edin! *

*104:35 *Rəbbə həmd edin* – ibrani dilində *Halleluya*.

Məzmur 105

(1Saln. 16:8-22)

105 [s]Rəbbə şükür edin, ismini çağırın,
Əməllərini xalqlar arasında elan edin!
2 Onu ilahilərlə tərənnüm edin,
Bütün xariqələrini bəyan edin!
3 Onun müqəddəs adı ilə fəxr edin,
Ey Rəbbi axtaranlar, ürəkləriniz qoy sevinsin!
4 Rəbbi, Onun qüvvətini arayın,
Daim hüzurunu axtarın.
5 Etdiyi xariqələri,
Möcüzələri, dilindən çıxan hökmləri xatırlayın,
6 Ey Onun qulu İbrahim nəsli,
Ey Yaqub övladları, ey Onun seçdikləri!
7 Allahımız Rəbb Odur,
Hökmü bütün yer üzündədir.
8 [t]Əbədi olaraq min nəslə qədər əhdini,
Əmr etdiyi sözü,
9 İbrahimlə kəsdiyi əhdini,
İshaqa and içərək verdiyi vədini unutmaz.
10 [u]Bunu qayda kimi Yaqub üçün təsdiq etdi,
Bu əbədi əhdi İsrail üçün etdi.
11 Dedi: «Övladlarının payına düşən mülk kimi
Kənan torpağını sənə verəcəyəm».
12 O zaman onlar sayca az idilər,
Azsaylı olaraq ölkədə qərib idilər.
13 Ölkədən-ölkəyə,
Məmləkətdən-məmləkətə köçürdülər.
14 [v]Rəbb heç kimi onlara əzab verməyə qoymadı,
Onlara görə padşahları tənbeh etdi.
15 Dedi: «Məsh etdiklərimə dəyməyin,
Peyğəmbərlərimə pislik etməyin».
16 [w]Ölkəyə qıtlıq göndərdi,
Bütün çörəyin kökünü kəsdi.
17 [x]Lakin bunlardan əvvəl birini göndərmişdi,
Bu, qul kimi satılan Yusif idi.
18 [y]Ayaqlarını zəncirləyib əzdilər,
Boğazına dəmir halqa keçirdilər.
19 Yusifin sözü düz çıxanadək
Rəbbin sözü onu təmizlədi.
20 [z]Padşah buyruq verərək onu azad etdi,
Xalqların hökmdarı ona azadlıq verdi.
21 [a]Onu sarayının ağası etdi,
Varidatı üçün cavabdeh etdi.
22 Ona başçılar üstündə səlahiyyət verdi ki,
Ağsaqqallarına uzaqgörənlik öyrətsin.
23 [b]Sonra İsrail Misirə gəldi,
Yaqub Ham ölkəsində yerləşdi.
24 [c]Rəbb onun xalqına bərəkət verdi,
Düşmənlərindən çox onlara qüdrət verdi.
25 Rəbb düşmənlərinə fikir göndərdi ki, xalqına nifrət etsinlər,
Qullarına qarşı fırıldaq işlətsinlər.
26 [d]Qulu Musanı,
Həm də seçdiyi Harunu göndərdi.
27 Xalqın arasında Rəbbin əlamətlərini,
Ham ölkəsində Onun möcüzələrini göstərdilər.
28 [e]Rəbb qaranlıq göndərərək ölkəni zülmət etdi,
Çünki Onun sözlərinə itaət etmədilər.
29 [f]Sularını qana çevirdi,
Balıqlarını öldürdü.

---

[s]**105:1** 1Saln. 16:8; Yeş. 12:4 [t]**105:8** Yar. 12:7; 17:8; Yar. 26:3 [u]**105:10** Yar. 28:13 [v]**105:14** Yar. 20:3-7 [w]**105:16** Yar. 41:53-57 [x]**105:17** Yar. 37:28; 45:5 [y]**105:18** Yar. 39:20–40:23 [z]**105:20** Yar. 41:14 [a]**105:21** Yar. 41:39-41 [b]**105:23** Yar. 46:6; Yar. 47:11 [c]**105:24** Çıx. 1:7-14 [d]**105:26** Çıx. 3:1–4:17 [e]**105:28** Çıx. 10:21-23 [f]**105:29** Çıx. 7:17-21

30 [g]Ölkəyə qurbağalar qaynaşıb
gəldilər,
Padşahın otaqlarına belə, girdilər.
31 [h]Əmr etdi, topa-topa mozalan gəldi,
Mığmığalar bütün ərazilərini bürüdü.
32 [i]Yağış əvəzinə dolu yağdırdı,
Ölkələrini şimşəklərə qərq etdi.
33 Tənəklərinə, əncir ağaclarına zərbə
vurdu,
Sahələrində olan ağacları qırdı.
34 [j]Əmr etdi çəyirtkələrə qaynaşsın,
Saysız balaları torpaqlarına daraşsın.
35 Onlar ölkədə olan bütün otları
yedilər,
Torpaqlarının bar-bəhərini yedilər.
36 [k]O, ölkədə hər yerlinin ilk oğlunu,
Hər kişinin belindən gələn ilk oğlunu
öldürdü.
37 [l]İsraillilləri oradan qızılla, gümüşlə
çıxartdı,
Qəbilələri arasında yıxılan olmadı.
38 Onlar çıxanda Misirlilər sevindi,
Canlarında İsraillilərin qorxusu var
idi.
39 [m]Üzərlərinə örtük kimi bulud sərdi,
Gecəni işıqlandırmaq üçün od
göndərdi.
40 [n]İstədiklərinə görə O, bildirçin
gətirdi,
Onlara göydən doyunca çörək verdi.
41 [o]Qayanı yararaq suyu fışqırtdı,
Quraq yerə çay kimi axdı.
42 Çünki müqəddəs sözünü yada
salmışdı,
Qulu İbrahimə verdiyi vədini
xatırlamışdı.
43 O, xalqını sevinclə,
Öz seçdiklərini mədh səsi ilə çıxartdı.
44 [p]Millətlərin torpaqlarını onlara
verdi,
Onları ümmətlərin sərvətlərinə sahib
etdi.
45 Qoy Rəbbin qaydalarına riayət
etsinlər,
Qanunlarına əməl etsinlər.
Rəbbə həmd edin!

Məzmur 106

106 [q]Rəbbə həmd edin!
Rəbbə şükür edin, ona görə
ki yaxşıdır,
Çünki məhəbbəti əbədidir.
2 Rəbbin qüdrətli işlərini sözlə demək
olarmı?
Onu layiqincə həmd edən varmı?
3 Nə bəxtiyardır ədalətə bağlananlar,
Hər zaman əməlisaleh olanlar!
4 Ya Rəbb, xalqına lütf edərkən məni
yada sal,
Onları nicata çatdırarkən mənim də
qayğıma qal.
5 Qoy seçdiklərini bəxtiyar görüm,
Millətinin sevinci ilə sevinim,
İrsinlə birlikdə fəxr edim.
6 Ata-babamız kimi biz də günaha
batmışıq,
Biz də şər iş görməklə təqsirkar
olmuşuq.
7 [r]Misirdə olanda ata-babamız Sənin
xariqələrini anlamadı,
Bol məhəbbətini yada salmadı,
Dəniz kənarında, Qırmızı dənizdə
Sənə qarşı üsyankar oldu.
8 Amma Rəbb qüdrətini göstərmək
üçün
Onları ismi naminə qurtardı.

---

[g]**105:30** Çıx. 8:1-6 [h]**105:31** Çıx. 8:20-24; Çıx. 8:16-17
[i]**105:32** Çıx. 9:22-25 [j]**105:34** Çıx. 10:12-15 [k]**105:36** Çıx. 12:29
[l]**105:37** Çıx. 12:33-36 [m]**105:39** Çıx. 13:21-22 [n]**105:40** Çıx. 16:2-15
[o]**105:41** Çıx. 17:1-7; Say. 20:2-13
[p]**105:44** Yeşua 11:16-23 [q]**106:1** 1Saln. 16:34; 2Saln. 5:13; 7:3; Ezra 3:11; Zəb. 100:5; 107:1; 118:1; 136:1; Yer. 33:11 [r]**106:7** Çıx. 14:10-12

9 [s]Onun məzəmmətindən Qırmızı
dəniz qurudu,
Çöldən keçdikləri kimi onları dərin
yerdən keçirtdi.
10 İsrailliləri onlara nifrət edənin
əlindən qurtardı,
Onları düşməninin əlindən xilas etdi.
11 Yağıları sular basdı,
Bir nəfər də qalmadı.
12 [t]O zaman Rəbbin sözlərinə
inandılar,
Onu həmdlə tərənnüm etdilər.
13 Lakin Rəbbin əməllərini tez
unutdular,
Ondan məsləhət almadılar.
14 [u]Onlar səhrada iştahaya düşdülər,
Çöllükdə Allahı sınağa çəkdilər.
15 O da istədiklərini verdi,
Lakin onlara azar göndərdi.
16 [v]Düşərgədə Musaya,
Rəbb üçün təqdis olunan Haruna
paxıllıq etdilər,
17 Torpaq yarılıb Datanı uddu,
Aviramla yoldaşlarını yerə batırdı.
18 Yoldaşlarının içinə alov saldı,
Bu, pisləri yandırıb-yaxdı.
19 [w]Xorevdə bir dana heykəli
düzəltdilər,
Tökmə bir bütə səcdə etdilər.
20 Allahın əvəzinə
Otyeyən buğanın surətinə şərəf
verdilər.
21 Onları qurtaran Allahı –
Misirdə böyük möcüzələr yaradanı,
22 Ham ölkəsində xariqələr göstərəni,
Qırmızı dənizdə zəhmli işlər görəni
unutdular.
23 Rəbb onları yox etmək üçün
niyyətini söylədi,
Onu məhvedici qəzəbindən
döndərmək üçün
Seçdiyi Musa Onun qarşısına gəldi.
24 [x]Sonra o gözəl diyara da xor
baxdılar,
Rəbbin vədinə inanmadılar.
25 Çadırlarında giley-güzar etdilər,
Rəbbin səsini eşitmədilər.
26 Buna görə Rəbb and içdi:
Meyitlərini çöllərə sərəcək,
27 [y]Övladlarını millətlər arasına
səpələyəcək,
Onları ölkələr arasında darmadağın
edəcək.
28 [z]Onlar Peordakı Baala səcdə etməyə
gəldilər,
Ölü bütə verilən qurban ətindən
yedilər.
29 Bu işlər Rəbbin qəzəbinə gəldi,
Aralarına vəba töküldü.
30 Onda Pinxas qalxıb buna müdaxilə
etdi,
Beləliklə, vəba çəkilib getdi.
31 Bu, nəsillər boyu, əbədilik
Onun üçün salehlik sayıldı.
32 [a]Onlar Meriva suları kənarında
Rəbbi qəzəbləndirdilər,
Buna görə Musanın başına qəza gəldi:
33 Onlar Musanın ruhunu incitdilər,
O da düşünülməmiş sözlər dedi.
34 [b]Rəbbin əmrini yerinə yetirmədilər,
Dediyi xalqları məhv etmədilər.
35 Əksinə, həmin millətlərə qarışdılar,
Adət-ənənələrini öyrənib onlara əməl
etdilər.
36 Onların bütlərinə ibadət edərək
Özlərini bu tələyə saldılar.
37 [c]Oğul-qızlarını
Cinlərə qurban verdilər.
38 [d]Oğul-qızlarının günahsız qanını
tökdülər,
Onları Kənan bütlərinə qurban
verdilər,

---

[s]**106:9** Çıx. 14:21-31 [t]**106:12** Çıx. 15:1-21 [u]**106:14** Say. 11:4-34
[v]**106:16** Say. 16:1-35 [w]**106:19** Çıx. 32:1-14 [x]**106:24** Say. 14:1-35
[y]**106:27** Lev. 26:33 [z]**106:28** Say. 25:1-13 [a]**106:32** Say. 20:2-13
[b]**106:34** Hak. 2:1-3; 3:5-6 [c]**106:37** 2Pad. 17:17 [d]**106:38** Say. 35:33

Ölkəni qana bulaşdırdılar.
39 Belə işlərlə murdarlandılar,
Öz əməlləri ilə xəyanətə satıldılar.
40 [e]Rəbb xalqına qarşı qəzəbindən yandı,
Öz irsini iyrənc bir şey sandı.
41 Onları millətlərə təslim etdi,
Onlara nifrət edənlər üzərlərində hakim oldu.
42 Düşmənləri onları zülm altına saldılar,
Onlara tabe olaraq əl altında qaldılar.
43 Rəbb dəfələrlə onları azad etmişdi,
Amma pisniyyətli olduqları üçün üsyankar olmuşdular,
Bu insanları öz günahları alçaltdı.
44 Lakin O, fəryadlarını eşidəndə
Onların əziyyətinə baxdı.
45 Bu insanlarla bağladığı əhdini yada saldı,
Bol məhəbbəti naminə rəhmini göstərdi.
46 Onları əsir edənlərin
Qəlbinə mərhəmət saldı.
47 [f]Ey Allahımız Rəbb, bizi qurtar,
Bizi millətlərin arasından topla.
Müqəddəs isminə şükür edək,
Biz fəxrlə Sənə həmd söyləyək.
48 Alqış olsun İsrailin Allahı Rəbbə
Əzəldən sonsuza qədər!
Qoy bütün xalq söyləsin «Amin!»
Rəbbə həmd edin!

Beşinci hissə

107-150-ci məzmurlar

Məzmur 107

107 [g]Rəbbə şükür edin, ona görə ki yaxşıdır,
Çünki məhəbbəti əbədidir!
2 Qoy belə söyləsin Rəbbin xilas etdikləri,
Düşmən əlindən qurtardıqları,
3 Şərqdən, qərbdən, şimaldan və cənubdan –
Ölkələrdən topladıqları.
4 Bəziləri səhrada, çöllükdə sərgərdan dolanırdılar,
Yaşamaq üçün heç bir şəhər tapmırdılar.
5 Aclıqdan, susuzluqdan
Canlarının taqəti getmişdi.
6 Onlar dara düşəndə Rəbbə fəryad etdilər,
Rəbb onları dərdlərindən qurtardı.
7 Yaşamaq üçün onlar bir şəhərə çatanadək
Onları düz yolla apardı.
8 Rəbbə şükür etsinlər məhəbbətinə görə,
Bəşər övladlarına göstərdiyi xariqələrinə görə!
9 Çünki O, susuzlara doyunca su verər,
Acları bol nemətlərlə bəslər.
10 Bəziləri əsir düşüb zülmətdə yaşayırdı,
Zəncirlənib qaranlıqda, əziyyətdə qalırdı.
11 Çünki Allahın sözlərinə qarşı çıxmışdılar,
Haqq-Taalanın məsləhətinə xor baxmışdılar.
12 Ona görə ağır işlə onların ürəklərinə əzab verdi,
Yıxılanda heç kim onlara kömək etmədi.
13 Onlar dara düşəndə Rəbbə fəryad etdilər,
Rəbb onları dərdlərindən qurtardı.
14 Onların buxovlarını qopardı,
Zülmətdən, qaranlıqdan çıxardı.

---

[e]**106:40** Hak. 2:14-18
[f]**106:47** 1Saln. 16:35-36; Zəb. 41:13 [g]**107:1** 1Saln. 16:34; 2Saln. 5:13; 7:3; Ezra 3:11; Zəb. 100:5; 106:1; 118:1; 136:1; Yer. 33:11

15 Qoy şükür etsinlər Rəbbə
məhəbbətinə görə,
Bəşər övladlarına göstərdiyi
xariqələrinə görə!
16 Çünki O, tunc qapıları qırar,
Dəmir cəftələri qoparar.
17 Bəzilərinin ağlı çaşıb üsyankar
oldu,
Təqsirləri onları zülmə saldı.
18 Hər yeməkdən iyrəndilər,
Ölüm qapılarına yaxın gəldilər.
19 Dara düşərkən Rəbbə fəryad
qopardılar,
Rəbb onları dərdlərindən qurtardı.
20 Kəlamını göndərib onlara şəfa
verdi,
Məzara düşməkdən onları xilas etdi.
21 Rəbbə şükür etsinlər məhəbbətinə
görə,
Bəşər övladlarına göstərdiyi
xariqələrinə görə!
22 Qoy şükür qurbanlarını təqdim
etsinlər,
Əməllərinə mədh oxuyub bəyan
etsinlər!
23 Bəziləri gəmilərlə dənizlərdə
üzdülər,
Dəryalarda böyük işlər gördülər.
24 Orada Rəbbin əməllərinə,
Dərin sularda etdiyi xariqələrinə
şahid oldular.
25 Çünki Onun əmri ilə qasırğa qopdu,
Dənizin dalğaları qalxdı.
26 Gəmiçilər göyə qalxıb dərinə enirdi,
Qorxudan canları əldən gedirdi.
27 Onlar sərxoş kimi
yırğalanıb-səndələyirdi,
Ağıllarına heç bir çarə gəlmirdi.
28 Onlar dara düşəndə Rəbbə fəryad
etdilər,
Rəbb onları dərdlərindən qurtardı.
29 Qasırğanı yatırdı, sükut gətirdi,
Dalğaları sakit etdi.
30 Sakitlik yarananda onlar çox
sevindilər,
Rəbb də onları istədikləri limana
çatdırdı.
31 Rəbbə məhəbbətinə görə,
Bəşər övladlarına göstərdiyi
xariqələrinə görə şükür etsinlər!
32 Qoy Onu xalqın toplantısında
ucaltsınlar,
Ona ağsaqqallar məclisində həmd
etsinlər!
33 O, çayları qurudub səhra edər,
Bulaqlar olan yeri quraq çölə
döndərər,
34 Orada yaşayanların pisliyinə görə
Münbit torpağı şoranlığa çevirər.
35 Səhranı gölməçəyə döndərər,
Quraq torpaqdan bulaqlar çıxardar.
36 Oranı verər ki, aclar məskən
salsınlar,
Yaşamaq üçün özlərinə şəhər
qursunlar,
37 Tarlanı əksinlər, üzümlüklər
salsınlar.
Bol məhsul götürsünlər.
38 Onun xeyir-duası ilə törəyib
artırlar,
Heyvanlarının sayı azalmır.
39 Sonra əzabdan, darlıqdan,
bəlalardan
Onlar azalıb alçaldılan an
40 [h]Rəbb əsilzadələrin üstünə həqarət
yağdırar,
Onları sonsuz çöldə sərgərdan
dolandırar.
41 Amma fəqiri zülm altından qaldırar,
Övladlarını sürü kimi çoxaldar.
42 Bunu görən əməlisalehlər şad olar,
Fitnə söyləyən ağızlarsa yumular.
43 Kimin ağlı varsa, qoy buna fikir
versin,
Qoy Rəbbin məhəbbətini dərk etsin!

---

[h]**107:40** Əyy. 12:21,24

Məzmur 108

(Zəb. 57:7-11; 60:5-12)

Bir ilahi.

Davudun məzmuru.

108 Ey Allahım, qəlbim Sənə möhkəm bağlanıb,
Qoy bütün varlığımla ilahi oxuyum, Səni tərənnüm edim.
2 Ey çəng və lira, oyan!
Qoy səhəri oyadım.
3 Ya Rəbb, xalqlar arasında
Sənə şükür edəcəyəm.
Ümmətlər arasında
Səni tərənnüm edəcəyəm.
4 Məhəbbətin böyükdür, göylərdən ucadır,
Sədaqətin buludlara çatır.
5 Ey Allah, göylər üzərində ucal!
Ehtişamın bütün yer üzərində olsun!
6 Sevdiyin insanların xilas olması üçün
Sağ əlinlə bizi qurtar, mənə cavab ver!
7 Allah Öz müqəddəs məskənindən belə söylədi:
«Şekemi sevinclə bölüşdürəcəyəm,
Sukkot dərəsini böləcəyəm.
8 Gilead torpağı Mənimdir,
Menaşşe torpağı Mənimdir,
Efrayim başımın dəbilqəsidir,
Yəhuda Mənim əsamdır.
9 Moav yuyunmaq üçün ləyənimdir,
Çarığımı ataraq Edomu tutacağam,
Zəfər harayını Filiştə salacağam».
10 Kim məni istehkamlı şəhərə apara bilər?
Edoma qədər kim mənə yol göstərə bilər?
11 Ay Allah, niyə bizi atmısan?
Ay Allah, qoşunlarımızla niyə yürüşə çıxmırsan?
12 Düşmənin qarşısında bizə imdad et,
Çünki insanın köməyi puçdur.
13 Allahın köməyi ilə şücaət göstərəcəyik,
O, düşmənlərimizi tapdalayacaq!

Məzmur 109

Musiqi rəhbəri üçün. Davudun məzmuru.

109 Ey tərənnüm etdiyim Allah, susma!
2 Çünki pislər, hiyləgərlər ağzını açıb
Yalançı dilləri ilə məndən danışırlar.
3 Mənə hər tərəfdən nifrət dolu sözlər deyirlər,
Nahaq yerə hücumlarına məruz qalıram.
4 Sevgimin əvəzinə mənə ittiham yağdırırlar,
Mən isə dua etməkdəyəm.
5 Yaxşılığımın əvəzinə yamanlıq edirlər,
Sevgimin əvəzinə nifrətlə cavab verirlər.
6 Belə adamın qarşısına bir pis insanı çıxar,
Sağ tərəfində dayanıb onu ittiham etsin!
7 Hökm oxunanda o təqsirkar çıxsın,
Qoy onun duası günah sayılsın!
8 [i]Onun ömrü az olsun,
Vəzifəsini başqası tutsun!
9 Övladları yetim,
Arvadı isə dul qalsın!
10 Övladları didərgin düşüb dilənçi olsun,
Yaşamağa xarabalıq belə, tapmasın!
11 Sələmçilər hər şeyini əlindən alsın,
Nə qazanıbsa, yadellilər talayaraq aparsın!
12 Ona məhəbbət göstərən olmasın,
Yetim qalan balalarına yazığı gələn tapılmasın!
13 Qoy onun nəsli kəsilsin,
Gələcək nəslin arasından adları silinsin!

---

[i]**109:8** Həv. 1:20

14 Ata-babasının təqsiri Rəbbin
hüzurunda yaddan çıxmasın,
Anasının günahı heç zaman
yuyulmasın!
15 Belə adamlar Rəbbin hüzurunda
daim təqsirkar qalsınlar,
Dünyadan izi-tozu silinsin, yada
salınmasınlar!
16 Çünki məhəbbət göstərməyi
unutdular,
Məzlumu, fəqiri, qəlbisınıqları
Həlak etmək üçün təqib etdilər.
17 Qarğış etməyi sevirdi, öz başına
dönsün,
Alqış etməyi sevmirdi, ona əli
çatmasın!
18 Ondan əynindəki paltar kimi qarğış
çıxardı,
Qoy qarğışı su kimi canına, ilik kimi
sümüklərinə hopsun!
19 Qarğışı onu əyninin libası kimi
bürüsün,
Hər gün belinə kəmər tək dolansın!
20 Məni ittiham edənlər,
Mənim barəmdə pis sözlər söyləyənlər
Rəbbin cəzasına gəlsinlər!
21 Lakin, ey Xudavənd Rəbb, ismin
naminə
Özün mənə qayğı göstər,
O gözəl məhəbbətinə görə məni azad
et.
22 Çünki mən məzlum və fəqir
insanam,
Köksümdəki ürəyimdən
yaralanmışam.
23 Düşən kölgə kimi itirəm,
Vurulub atılan çəyirtkəyə bənzəyirəm.
24 Bax oruc tutmaqdan dizlərim əsir,
Bir dəri, bir sümük qalmışam.
25 [j]Görənlər mənə lağ edir,
Başlarını yelləyir.
26 Ya Rəbb Allahım, Sən mənə kömək
et,
Məhəbbətinə görə məni qurtar.
27 Bilsinlər ki, bu Sənin əlindədir,
Ya Rəbb, Sən bunu edə bilərsən.
28 Qoy onlar qarğış etsinlər, Sən mənə
xeyir-dua ver,
Qoy onlar əleyhimə qalxarkən
utansınlar.
Sənin qulunam, qoy sevinim!
29 İttihamçılarım rüsvayçılığa
bürünsünlər,
Xəcaləti xalat kimi geyinsinlər.
30 Mənim dilim Rəbbə bol-bol şükür
söyləyəcək,
Xalq içində Ona həmd edəcək.
31 Çünki O, fəqirin sağ tərəfində
dayanar ki,
Edam hökmü verənlərin əlindən onu
qurtarsın.

Məzmur 110

Davudun məzmuru.

110 [k]Rəbb mənim Ağama dedi:
«Mən düşmənlərini
ayaqlarının altına kətil kimi
salanadək
Sağımda otur».
2 Rəbb Siondan Sənin qüdrətli əsanı
göndərəcək,
Düşmənlərinin üzərində sənə
hökmranlıq verəcək.
3 Döyüşəcəyin gün xalqın könüllü
olaraq sənə qoşulacaq,
Gənclərin səhər şehi kimi müqəddəs
libasını geyib yanına gələcək.
4 [l]Rəbb and içdi, qərarını dəyişməz:
«Sən Melkisedeq vəzifəli əbədi bir
kahinsən».
5 Xudavənd sənin sağ tərəfindədir,
Qəzəb günündə padşahları qıracaq.

---

[j]**109:25** Mat. 27:39; Mark 15:29 [k]**110:1** Mat. 22:44; Mark 12:36; Luka 20:42-43; Həv. 2:34-35; 1Kor. 15:25; Ef. 1:18-22; Kol. 3:1; İbr. 1:13; 8:1-2; 10:12-13
[l]**110:4** İbr. 5:6,9-10; 6:20; 7:17,21

6 Millətlərin hökmünü verəndə
cəsədləri hər yeri bürüyəcək,
O bütün ölkələrin başçılarını əzəcək.
7 Yol kənarında olan vadidən su
içəcək,
Buna görə güclənib yüksələcək.

Məzmur 111

111 Rəbbə həmd edin!
Əməlisalehlər məclisində,
icma arasında
Bütün qəlbimlə Rəbbə şükür
edəcəyəm.
2 Rəbbin işləri böyükdür,
Bunlardan zövq alanlar ibrət götürür.
3 Əməllərində ehtişamı, əzəməti
görünür,
Salehliyi əbədi qalır.
4 Xariqələrini xalqının yadına salır.
Rəbb lütfkar və rəhmlidir,
5 Ondan qorxanları bəsləyərək
saxlayır,
Öz əhdini əbədi olaraq yadda saxlayır.
6 Xalqına millətlərin torpaqlarını
verərək
Qüdrətli işlərini onlara göstərdi.
7 Əllərinin işləri sədaqət və ədalətdir,
Onun bütün qayda-qanunları
etibarlıdır.
8 Onlar həmişə, əbədi olaraq
möhkəmdir,
Sədaqətdən, düzlükdən yaranmışdır.
9 Öz xalqına qurtuluş göndərdi,
Əhdi əbədi olsun deyə əmr verdi,
İsmi müqəddəsdir, zəhmlidir.
10 [m]Rəbb qorxusu hikmətin
başlanğıcıdır,
Buna əməl edənlərin sağlam düşüncəsi
vardır.
Ona əbədi olaraq həmdlər olsun!

Məzmur 112

112 Rəbbə həmd edin!
Nə bəxtiyardır Rəbdən
qorxan,
Əmrlərindən zövq alan insan!
2 Nəsli yer üzündə güclü olacaq,
Əməlisalehlərin övladları xeyir-dua
alacaq.
3 Evindən bolluq və sərvət əskilməz,
Salehliyi əbədi qalar.
4 Zülmətdə belə, əməlisaleh insanlar
üçün,
Lütfkar, rəhmli və saleh adamlar üçün
nur doğar.
5 Səxavətlə borc verən,
İşlərini ədalətlə görən yaxşı insandır.
6 Belə adam əsla sarsılmaz,
Saleh insan əbədi olaraq yadda
qalacaq.
7 Pis xəbərdən qorxmaz,
Rəbbə güvəndiyi üçün ürəyi
möhkəmdir,
8 Cəsur ürəklidir,
Düşmənlərinin süqutunu görənədək
qorxmaz.
9 [n]Səpələyər, fəqirlərə paylayar,
Salehliyi əbədi qalar,
Qüdrəti və hörməti ucalar.
10 Pis adamsa bunu görüb qəzəblənər,
Dişlərini qıcıdar, yanıb-tökülər,
Pislərin arzusu puç olar.

Məzmur 113

113 Rəbbə həmd edin!
Ey Rəbbin qulları, həmd edin,
Rəbbin isminə həmd edin!
2 İndidən sonsuzadək
Rəbbin isminə alqış olsun!
3 Gündoğandan günbatanadək
Rəbbin ismi həmdə layiqdir!
4 Rəbb bütün millətlərdən ucadır,
Ehtişamı göylərdən yüksəkdir!
5 Allahımız Rəbbin misli varmı?

---

[m]**111:10** Əyy. 28:28; Sül. 1:7; 9:10 [n]**112:9** 2Kor. 9:9

Ucalardakı taxtında oturan,
6 Göyə, yerə əyilərək baxan Odur.
7 [o]O, yoxsulları toz-torpaqdan qaldırar,
Fəqirləri küllükdən çıxarar.
8 Onları əsilzadələrlə,
Öz xalqının əsilzadələri ilə yanaşı oturdar.
9 Sonsuz qadının evini tikər,
Ona övlad verməklə bəxtəvər ana edər.
Rəbbə həmd edin!

Məzmur 114

114 [p]İsraillilər Misirdən çıxanda,
Yaqub nəsli başqa dildə danışan xalqdan ayrılanda
2 Yəhuda Rəbbin müqəddəs məskəni oldu,
İsrail Rəbbin səltənəti oldu.
3 [q]Onları görəndə dəniz qaçdı,
İordan çayı geri çəkildi.
4 Zirvələr qoçlar kimi,
Təpələr quzular kimi tullandı.
5 Ey dəniz, niyə qaçdın, sənə nə oldu?
Ey İordan çayı, niyə belə geri çəkildin?
6 Ey zirvələr, qoçlar kimi,
Ey təpələr, quzular kimi niyə tullandınız?
7 [r]Ey dünya, Hökmranın hüzurunda,
Yaqubun Allahının qarşısında lərzəyə gəl!
8 Qayanı gölməçəyə döndərən,
Çaxmaq daşını çeşməyə çevirən Odur.

Məzmur 115

115 Bizi yox, ya Rəbb, bizi yox,
Məhəbbətin, sədaqətin naminə
Öz adını şərəfləndir.
2 Niyə millətlər belə desin:
«Onların Allahı haradadır?»
3 Allahımız göylərdədir,
Öz istədiyini edir.
4 [s]Amma onların bütləri qızıldan, gümüşdən düzəlmişdir,
Onlar insan əllərinin işidir.
5 Ağızları var, danışa bilmir,
Gözləri var, amma görmür,
6 Qulaqları var, eşitmir,
Burunları var, qoxu bilmir,
7 Əlləri var, hiss etmir,
Ayaqları var, gəzə bilmir,
Boğazlarından səs gəlmir.
8 Bütləri düzəldən, onlara güvənən insanlar
Bu bütlər kimi cansız olacaqlar.
9 Ey İsraillilər, Rəbbə güvənin,
Odur köməyiniz və sipəriniz!
10 Ey Harun nəsli, Rəbbə güvənin,
Odur köməyiniz və sipəriniz!
11 Ey Rəbdən qorxanlar, Rəbbə güvənin,
Odur köməyiniz və sipəriniz!
12 Rəbb bizi unutmayıb,
Bizə xeyir-dua verəcək –
İsrail nəslinə xeyir-dua verəcək,
Harun nəslinə xeyir-dua verəcək,
13 [t]Kiçikdən böyüyə qədər
Ondan qorxanlara xeyir-dua verəcək.
14 Qoy Rəbb sizi,
Sizi və nəslinizi artırsın!
15 Rəbdən, göyləri və yeri Yaradandan
Bərəkət alasınız!
16 Rəbb səmaya sahibdir,
Yeri bəşər övladlarına verdi.
17 Ölənlər, sükut diyarına düşənlər
Rəbbə həmd etmirlər.
18 Lakin biz Rəbbə alqış edirik
İndidən sonsuzadək.
Rəbbə həmd edin!

---

[o] **113:7** 1Şam. 2:8 [p] **114:1** Çıx. 12:51 [q] **114:3** Çıx. 14:21; Yeşua 3:16
[r] **114:7** Çıx. 17:1-7; Say. 20:2-13 [s] **115:4** Zəb. 135:15-17; Vəhy 9:20
[t] **115:13** Vəhy 11:18; 19:5

Məzmur 116

116 Rəbbi sevirəm,
Çünki O, yalvarışımı eşidir.
2 Səsimə qulaq asdığı üçün
Nə qədər varam, Onu çağıracağam.
3 Ətrafıma ölüm bağları sarıldı,
Ölülər diyarının sıxıntıları məni haqladı,
Dərd-bəlalar məni tapdı.
4 O zaman Rəbbin adını çağırdım:
«Ya Rəbb, amandır, canımı qurtar!»
5 Rəbb lütfkardır, ədalətlidir,
Allahımız mərhəmətlidir.
6 Rəbb avam adamı qoruyur,
O məni düşkünlüyə düçar olanda qurtardı.
7 Ey canım, rahat ol,
Çünki Rəbb sənə comərdlik etdi.
8 Ya Rəbb, canımı ölümdən,
Gözlərimi göz yaşından, ayağımı büdrəməkdən qurtardın.
9 İndi Rəbbin hüzurunda gəzib-dolaşıram,
Dirilər arasındayam.
10 [u]«Mən çox əzab çəkirəm» deyərkən
İnamımı itirməmişdim.
11 Mən təlaşa düşüb belə demişdim:
«Bütün insanlar yalançıdır».
12 Mənə etdiyi comərdliyə görə
Rəbbin borcunu necə qaytara bilərəm?
13 Qurtuluş piyaləsini qaldıracağam,
Rəbbin ismini çağıracağam.
14 Rəbbə Onun bütün xalqı qarşısında
Əhd etdiyim təqdimləri verəcəyəm.
15 Rəbbin gözündə hər bir möminin
Ölümü çox bahadır.
16 Aman, ya Rəbb, mən Sənin qulunam,
Qulunam, kənizinin oğluyam,
Buxovlarımı açmısan.
17 Sənə şükür qurbanları təqdim edəcəyəm,
Rəbbin adını çağıracağam.
18 Rəbbə Onun bütün xalqı qarşısında
Əhd etdiyim təqdimləri verəcəyəm
19 Rəbbin evinin həyətində,
Ey Yerusəlim, sənin mərkəzində.
Rəbbə həmd edin!

Məzmur 117

117 [v]Ey bütün millətlər, Rəbbə həmd edin!
Ey bütün ümmətlər, Onu mədh edin!
2 Bizə olan məhəbbəti böyükdür,
Rəbbin sədaqəti əbədidir!
Rəbbə həmd edin!

Məzmur 118

118 [w]Rəbbə şükür edin, ona görə ki yaxşıdır,
Çünki məhəbbəti əbədidir!
2 Qoy İsraillilər belə desin:
«Çünki məhəbbəti əbədidir!»
3 Harun nəsli belə desin:
«Çünki məhəbbəti əbədidir!»
4 Qoy Rəbdən qorxanlar belə söyləsin:
«Çünki məhəbbəti əbədidir!»
5 Sıxıntı içində Rəbbi çağırdım,
Cavab verib məni genişliyə çıxartdı.
6 [x]Rəbb mənimlədir, heç qorxmaram.
İnsan mənə nə edə bilər?
7 Rəbb mənimlədir, mənə yardım edər,
Mənə nifrət edənlərin aqibətini görəcəyəm.
8 Rəbbə pənah gətirmək
İnsana güvənməkdən yaxşıdır.
9 Rəbbə pənah gətirmək
Əsilzadələrə güvənməkdən yaxşıdır.
10 Bütün millətlər məni mühasirəyə aldılar,
Rəbbin ismi ilə onları qırdım.

---

[u] **116:10** 2Kor. 4:13 [v] **117:1** Rom. 15:10-11 [w] **118:1** 1Saln. 16:34; 2Saln. 5:13; 7:3; Ezra 3:11; Zəb. 100:5; 106:1; 107:1; 136:1; Yer. 33:11 [x] **118:6** İbr. 13:6

11 Hər tərəfdən məni mühasirəyə aldılar,
Rəbbin ismi ilə onları qırdım.
12 Arılar tək məni mühasirəyə aldılar,
Lakin kol-kos kimi alışıb tez söndülər,
Rəbbin ismi ilə onları qırdım.
13 Möhkəm təzyiq altında yıxılmağıma az qalmışdı,
Lakin Rəbb imdadıma çatdı.
14 [y]Rəbb qüvvətim, məzmurumdur,
O məni xilas etdi!
15 Salehlərin çadırlarından zəfər nidası yüksəlir:
«Rəbbin sağ əli qüdrətli işlər göstərir!
16 Rəbbin sağ əli necə əzəmətlidir!
Rəbbin sağ əli qüdrətli işlər göstərir!»
17 Ölməyib sağ qalacağam,
Rəbbin işlərini bəyan edəcəyəm.
18 Rəbb mənə möhkəm cəza verdi,
Amma məni ölümə təslim etmədi.
19 Salehlik darvazalarını üzümə açın,
Qoy oradan keçib Rəbbə şükür edim.
20 Bu, Rəbbin darvazasıdır,
Oradan saleh insanlar keçəcək.
21 Ya Rəbb, Sənə şükür edirəm,
Çünki cavab verərək məni xilas etmisən!
22 [z]Bənnaların rədd etdiyi daş
Guşədaşı olub.
23 Bu, Rəbbin işi idi,
Gözümüzdə xariqəli bir işdir.
24 Bu günü Rəbb yaratdı,
Onda sevinib şadlıq edək!
25 [a]Aman, ya Rəbb, bizi qurtar!
Aman, ya Rəbb, bizə uğur göndər!
26 [b]Rəbbin ismi ilə gələnə alqış olsun!
Sizə Rəbbin evindən xeyir-dua veririk.
27 Rəbb Allahdır, O, üzərimizə nur saçdı,
Qurbangahın buynuzlarına bayram qurbanını bağlayın.
28 Allahım Sənsən, Sənə şükür edəcəyəm!
Allahımsan, Səni yüksəldəcəyəm!
29 Rəbbə şükür edin, ona görə ki yaxşıdır,
Çünki məhəbbəti əbədidir!

Məzmur 119

Alef[*]

119 Nə bəxtiyardır öz yolunda kamil olanlar,
Rəbbin qanununa görə yaşayanlar.
2 Nə bəxtiyardır Onun göstərişlərinə əməl edənlər,
Bütün qəlbi ilə Onu axtaranlar.
3 Həqiqətən, onlar fitnəkarlıq etməzlər,
Rəbbin yolunda gəzərlər.
4 Sən qayda-qanunlarını qoydun,
Bunlara bağlı qalmağı buyurdun.
5 Sənin qaydalarına bağlı qalmaq üçün
Kaş tutduğum yolda möhkəm olaydım.
6 Onda xəcalət çəkməzdim,
Sənin bütün əmrlərindən gözümü çəkməzdim.
7 Adil hökmlərini öyrənərkən
Sənə düz qəlblə şükür edəcəyəm.
8 Sənin qaydalarına əməl edəcəyəm,
Sən məni tamamilə tərk etmə!

Bet

9 Bir cavan yolunu necə təmiz saxlaya bilər?
– Sənin sözlərinə bağlı qalmaqla.
10 Bütün qəlbimlə Səni axtarmışam,
Qoyma əmrlərindən çıxım.
11 Sənə qarşı günah etməyim deyə

[*]**119:0** Məzmur 119-da hər səkkiz ayə ibrani əlifba sırası ilə başlayır.

[y]**118:14** Çıx. 15:2; Yeş. 12:2 [z]**118:22** Luka 20:17; Həv. 4:11; 1Pet. 2:7-8; Mat. 21:42; Mark 12:10-11 [a]**118:25** Mat. 21:9; Mark 11:9; Yəh. 12:13
[b]**118:26** Mat. 21:9; 23:39; Mark 11:9; Luka 13:35; 19:38; Yəh. 12:13

Kəlamını qəlbimdə qoruyub
saxlamışam.
12 Ya Rəbb, Sənə alqış olsun!
Qaydalarını mənə öyrət.
13 Ağzından çıxan hər hökmü
Dilimlə bəyan edirəm.
14 Göstərişlərinin ardınca gedərkən
sevinirəm,
Elə bil bolluca var-dövlətə çatmışam.
15 Qayda-qanunlarını dərindən
düşünürəm,
Sənin yollarından gözümü çəkmirəm.
16 Qaydalarından zövq alıram,
Sözünü unutmuram.

Gimel

17 Quluna comərdliyini göstər,
Qoy yaşayım və sözünə bağlı qalım.
18 Gözlərimi aç ki,
Qanununun xariqələrini görüm.
19 Əmrlərini məndən gizlətmə,
Çünki mən bu dünyada bir qəribəm,
20 Hökmlərinin həsrətini çəkməkdən
Hər zaman ürəyim ağrıyır.
21 Sənin əmrlərindən çıxan lovğaları
məzəmmət etdin,
Çünki onlar lənətləndi.
22 Həqarəti, tənəni məndən uzaq et,
Göstərişlərinə əməl etmişəm.
23 Başçılar yığılıb mənim üçün qəsd
qurdular,
Lakin mən qulun qaydalarını dərin
düşünürəm.
24 Göstərişlərin mənə zövq verir,
Onlar mənim məsləhətçilərimdir.

Dalet

25 Mən torpağa düşmüşəm,
Öz sözünə görə məni həyata qaytar.
26 Keçdiyim yolları Sənə bəlli edəndə
cavab verdin,
Mənə qaydalarını öyrət.
27 Qayda-qanunlarının yollarını mənə
Özün izah et,
Xariqələrin barədə dərin düşünüm.
28 Kədərdən canım üzülüb,
Öz sözünə görə mənə güc ver.
29 Məni yanlış yoldan uzaqlaşdır,
Qanununa görə mənə lütf göstər.
30 Mən sədaqət yolunu seçdim,
Hökmlərini gözümün önünə gətirdim.
31 Sənin göstərişlərindən yapışmışam,
Ya Rəbb, qoyma xəcalətli qalım.
32 Qəlbimin düşüncəsini
genişləndirərkən
Əmrlərinin yolu ilə getməyə səy
göstərəcəyəm.

He

33 Ya Rəbb, Sən mənə qaydalarının
yolunu öyrət,
Onlara axıradək əməl edəcəyəm.
34 Mənə ağıl ver, qanununa görə
yaşayım,
Bütün qəlbimlə ona bağlanım.
35 Mənə əmrlərinin yollarını göstər,
Bu yollardan zövq alaram.
36 Qəlbimi haram qazanca deyil,
Göstərişlərinə tərəf yönəlt.
37 Qoyma gözlərim fani şeylərə
baxsın,
Öz yolunda mənə həyat bəxş et.
38 Səndən qorxanlara verdiyin vədini
Qulun üçün həyata keçirt.
39 Qorxduğum tənələri məndən
sovuşdur,
Sənin hökmlərin nə yaxşıdır!
40 Qayda-qanunlarının həsrətini
çəkirəm,
Salehliyinlə məni yaşat.

Vav

41 Ya Rəbb, mənə məhəbbətini göstər,
Kəlamına görə məni qurtar!
42 Məni təhqir edənlərə layiqincə
cavab verəcəyəm,
Çünki Sənin sözlərinə güvənirəm.
43 Qoy həqiqət kəlamı dilimdən
düşməsin,
Çünki Sənin hökmlərinə ümid
bağlamışam.
44 Daim, əbədi olaraq

Qanununa bağlı qalacağam.
45 Azad gəzib-dolaşacağam,
Çünki qayda-qanunlarını axtarmışam.
46 Padşahların hüzurunda
göstərişlərindən danışacağam,
Bundan utanmayacağam.
47 Sənin əmrlərindən zövq alıram,
Onları sevirəm.
48 Sevdiyim əmrlərinə tərəf əl
açacağam,
Sənin qaydalarını dərindən
düşünəcəyəm.

Zayin

49 Sən quluna verdiyin sözü xatırla,
Bu sözünlə mənə ümid vermisən.
50 Əzab çəkəndə bundan təsəlli
tapıram ki,
Kəlamın məni həyata qaytaracaq.
51 Lovğalar mənə çox istehza etdilər,
Amma Sənin qanunundan dönmədim.
52 Əzəldən var olan hökmlərini
xatırladıqca,
Ya Rəbb, bunlardan təsəlli tapıram.
53 Qanununu atan pisləri görərkən
Qəzəb məni bürüyür.
54 Sənin qaydalarını bu qürbət eldə
İlahi tək oxuyuram.
55 Hər gecə adını yadıma salıram,
Ya Rəbb, qanununa bağlı qalıram.
56 Bu mənə bir adət oldu,
Sənin qayda-qanunlarını yerinə
yetirdim.

Xet

57 Ya Rəbb, mənim nəsibimsən,
Sözlərinə bağlı qalmaq üçün vəd
etmişəm.
58 Bütün qəlbimlə Sənə yalvarıram,
Sən Öz kəlamına görə mənə lütf
göstər.
59 Tutduğum yollara nəzər salmışam,
Hər addımımı göstərişlərinə tərəf
yönəltmişəm.
60 Əmrlərinə bağlanmaq üçün
tələsirəm,
Bunun üçün ləngimirəm.
61 Pis adamlar mənə kəmənd atarkən
Qanununu unutmadım.
62 Adil hökmlərinə görə Sənə şükür
etmək üçün
Gecə yarısı qalxıram.
63 Səndən qorxanların hamısı ilə,
Qayda-qanunlarına bağlı qalanlarla
dostam.
64 Ya Rəbb, yer üzü məhəbbətinə
bürünüb,
Mənə qaydalarını öyrət.

Tet

65 Ya Rəbb, verdiyin sözə görə
Quluna xeyirxahlıq etmisən.
66 Mənə ağıl, bilik öyrət,
Çünki əmrlərinə inanıram.
67 Əzaba düşməzdən əvvəl yoldan
azırdım,
Amma indi mən kəlamına bağlıyam.
68 Nə qədər yaxşısan, xeyirxahlıq
edirsən!
Mənə qaydalarını öyrət.
69 Lovğalar yalanları ilə mənə qara
yaxırlar,
Amma mən bütün qəlbimlə
qayda-qanunlarını yerinə
yetirirəm.
70 Onların ürəkləri piylənərək daş
bağlayıb,
Mənsə qanunundan zövq alıram.
71 Çəkdiyim əzabın xeyri mənə bu
olub:
Sənin qaydalarını öyrənirəm.
72 Ağzından çıxan qanun mənim üçün
Minlərlə qızıldan, gümüşdən daha
qiymətlidir.

Yod

73 Əllərinlə yaranmışam, mənə surət
vermisən,
Mənə qabiliyyət ver, qoy əmrlərini
öyrənim.
74 Səndən qorxanlar məni görərkən
sevinsinlər,

Çünki Sənin sözünə ümid bağlamışam.
75 Ya Rəbb, bilirəm ki, hökmlərin
ədalətlidir,
Mənə əzab çəkdirsən də, sədaqətin
yox olmur.
76 Quluna verdiyin kəlama görə
Məhəbbətin mənə təsəlli versin.
77 Mənə mərhəmət et ki, yaşayım,
Çünki qanunundan zövq alıram.
78 Mənim barəmdə yalan danışan
lovğaları utandır,
Çünki mən qayda-qanunlarını
dərindən düşünürəm.
79 Səndən qorxanlar yanıma gəlsin,
Onlar Sənin göstərişlərini bilənlərdir.
80 Qaydalarına görə mənim qəlbim
kamil olsun,
Qoy heç zaman xəcalət çəkməyim!

Kaf

81 Qurtuluş həsrətini çəkməkdən
qəlbimdə tab qalmayıb,
Sözünə ümid bağlamışam.
82 Sözünün intizarından gözümün
nuru sönür.
Deyirəm: «Nə vaxt mənə təsəlli
verəcəksən?»
83 Tüstü içindəki tuluq kimi oldum,
Amma qaydalarını unutmuram.
84 Qulun daha nə qədər gözləsin?
Məni təqib edənləri nə vaxt mühakimə
edəcəksən?
85 Qanununu pozan lovğa insanlar
Mənim üçün quyu qazıblar.
86 Sənin bütün əmrlərin etibarlıdır.
Kömək et! Məni yalançı insanlar təqib
edir.
87 Az qaldı ki, yer üzündən məni yox
etsinlər,
Lakin qayda-qanunlarından
çıxmamışam.
88 Məhəbbətinə görə mənə həyat ver,
Ağzından çıxan göstərişlərə bağlı
qalım.

Lamed

89 Ya Rəbb, sözün əbədidir,
Göylərdədir, dəyişməzdir.
90 Sədaqətin nəsildən-nəslə çatır,
Yer üzünü Sən qurmusan, möhkəm
qalır.
91 Hökmlərinə görə bu günədək hər
şey qalır,
Onlar Sənin xidmətində dayanırlar.
92 Sənin qanunundan zövq
almasaydım,
Əzab çəkməkdən həlak olardım.
93 Qayda-qanunlarını heç vaxt
unutmaram,
Çünki onlarla məni həyata
qaytarmısan.
94 Qurtar məni, mən Sənindəm,
Qayda-qanunlarını axtarmışam.
95 Pislər məni öldürmək üçün pusqu
qurarkən
Mən Sənin göstərişlərinin üzərində
düşünürəm.
96 Görmüşəm ki, hər kamil şeyin
qarşısına bir hədd qoyulur,
Sənin əmrlərin isə sərhəd tanımır.

Mem

97 Qanununu nə qədər sevirəm!
Həmişə onun üzərində dərindən
düşünürəm.
98 Əmrlərin məni düşmənlərimdən
daha müdrik edir,
Çünki onlar həmişə mənimlədir.
99 Bütün müəllimlərimdən daha aqil
olmuşam,
Çünki göstərişlərin üzərində dərindən
düşünürəm.
100 Ağsaqqallardan da artıq
dərrakəliyəm,
Çünki qayda-qanunlarına əməl
edirəm.
101 Ayağımı hər pis yoldan kənar
qoydum ki,
Sözlərinə bağlı qalım.
102 Hökmlərindən dönməmişəm,

Çünki məni Sən belə öyrətmisən.
103 Vədlərin damağıma necə də ləzzət verir!
Onlar dilimdə baldan şirindir.
104 Qayda-qanunlarına görə dərrakəliyəm,
Buna görə hər yanlış yola nifrət edirəm.

Nun

105 Sözün addımıma çıraqdır,
Yollarıma işıqdır.
106 Ədalətli hökmlərinə bağlı qalmaq üçün and içmişəm,
Yerinə yetirəcəyəm.
107 Ya Rəbb, nə qədər əzab çəkmişəm!
Öz sözünə görə həyatımı qoru.
108 Ya Rəbb, sidq ürəkdən etdiyim həmdi qəbul et,
Mənə Öz hökmlərini öyrət.
109 Həyatım daim təhlükəyə düşdü,
Amma qanununu unutmadım.
110 Pislər mənə tələ quranda belə,
Mən Sənin qayda-qanunlarını pozmadım.
111 Əbədilik Sənin göstərişlərinə malikəm,
Çünki onlar qəlbimə sevinc verir.
112 Qəlbimi əbədilik, sonsuzadək
Qaydalarına əməl etməyə meyl etdirmişəm.

Samek

113 İkiüzlü insanlara nifrət edirəm,
Qanununu isə sevirəm.
114 Sən pənahgahım, sipərimsən,
Sözünə ümid bağlamışam.
115 Siz ey pislər, məndən uzaq olun!
Qoy Allahımın əmrlərinə əməl edim.
116 Kəlamınla mənə dayaq ol ki, yaşayım,
Ümidim boşa çıxmasın, utanmayım.
117 Özün mənə dayaq ol, qoy mən nicat tapım,
Sənin qaydalarını həmişə nəzərimdə tutum.
118 Qaydalarını atanları Özündən kənar edirsən,
Çünki onların bütün fəndləri boşdur.
119 Yer üzünün bütün pislərini tullantı hesab edirsən,
Buna görə göstərişlərini sevirəm.
120 Zəhmindən bədənim lərzəyə gəlir,
Hökmlərindən çox qorxuram.

Ayin

121 Ədalətli, düz işlər görmüşəm,
Məni zülmkarlara təslim etmə.
122 Qulunun xeyri üçün zamin dur,
Qoyma lovğa insanlar mənə zülm etsin.
123 Xilasını, haqq sözünə əməl olunmasını gözləməkdən
Gözümün nuru sönür.
124 Quluna məhəbbət göstər,
Qaydalarını mənə öyrət.
125 Qulunam, mənə ağıl ver ki,
Sənin göstərişlərini dərk edim.
126 Ya Rəbb, insanlar qanununu pozdular,
Vaxtı çatıb, onlar üçün bir tədbir gör.
127 Qızıldan, saf qızıldan çox
Sənin əmrlərini sevirəm.
128 Bəli, bütün qayda-qanunlarına görə
Mən düz yolla gedirəm,
Bütün səhv yollarasa nifrət edirəm.

Pe

129 Göstərişlərinin heyrətamizliyinə görə
Onlara ürəkdən əməl edirəm.
130 Kəlamının açıqlanması nur saçır,
Hər nadanı ağıllandırır.
131 Ağız açıb ah-zar edirəm,
Çünki əmrlərinin həsrətini çəkirəm.
132 Adını sevənlər üçün etdiyin adətə görə
Mənə bax və lütf göstər.
133 Kəlamınla addımlarımı möhkəmləndir,

Qoy heç bir təqsirim mənə hakimlik
etməsin.
134 Məni insanların zülmündən qurtar,
Qoy Sənin qayda-qanunlarına bağlı
qalım.
135 Üzün qulunun üstünə nur saçsın,
Sən mənə qaydalarını öyrət.
136 Gözlərimdən sellər kimi yaş axır,
Çünki insanlar qanununa bağlı
qalmırlar.

Sade

137 Ya Rəbb, adilsən,
Hökmlərin doğrudur.
138 Buyurduğun göstərişlər ədalətlidir,
Onlar tamamilə etibarlıdır.
139 Qeyrətim məni yandırıb-yaxıb,
Çünki düşmənlərim Sənin sözlərini
unudub.
140 Sənin kəlamın çox safdır,
Bu qulun onu sevir.
141 Kiçik sayılsam da, mənə xor
baxsalar da,
Qayda-qanunlarını unutmamışam.
142 Salehliyin əbədi salehlikdir,
Sənin qanunun həqiqətdir.
143 Başıma sıxıntı və məşəqqət gəldi,
Amma Sənin əmrlərin mənə zövq
verdi.
144 Sənin göstərişlərin həmişə
ədalətlidir,
Mənə ağıl ver ki, yaşayım.

Qof

145 Ya Rəbb, cavab ver! Bütün
qəlbimlə Səni səsləyirəm,
Sənin qaydalarına əməl edəcəyəm.
146 Səni səslədim, məni qurtar,
Qoy göstərişlərinə bağlı qalım.
147 Dan yeri sökülməzdən əvvəl qalxıb
Səni imdada çağırıram,
Çünki ümidimi Sənin sözlərinə
bağlayıram.
148 Gecə boyu gözümə yuxu getmir,
Kəlamını dərindən düşünürəm.
149 Məhəbbətinə görə mənim səsimi
eşit,
Ya Rəbb, hökmlərinə görə mənə həyat
bəxş et.
150 Şər ardınca qaçanlar mənə
yaxınlaşdılar,
Onlar Sənin qanunundan uzaqlaşdılar.
151 Ya Rəbb, Sən mənə yaxınsan,
Bütün əmrlərin həqiqətdir.
152 Göstərişlərini lap əvvəldən
öyrənirəm,
Əbədi qalsın deyə öyüdlərini verdin.

Reş

153 Çəkdiyim əzabı gör, məni qurtar,
Çünki qanununu unutmamışam.
154 Münaqişəmi həll edib Özün məni
azad et,
Mənə kəlamına görə həyat bəxş et.
155 Pislər qurtuluşdan uzaqdır,
Çünki onlar Sənin qaydalarını
axtarmırlar.
156 Ya Rəbb, mərhəmətin çoxdur,
Hökmlərinə görə məni yaşat.
157 Düşmənlərim, məni təqib edənlər
çoxdur,
Lakin Sənin göstərişlərindən
dönmədim.
158 Bu xainlərə ikrahla baxıram,
Çünki Sənin vədinə bağlı qalmayıblar.
159 Sənin qayda-qanunlarını gör nə
qədər sevirəm,
Ya Rəbb, məhəbbətinə görə mənə
həyat ver.
160 Sözlərinin mahiyyəti həqiqətdir,
Bütün ədalətli hökmlərin əbədidir.

Sin və Şin

161 Başçılar boş yerə məni təqib edir,
Amma ürəyim Sənin sözlərindən
qorxur.
162 Çoxlu qənimət tapan bir insan
kimi
Sənin kəlamın məni sevindirir.
163 Yalandan zəhləm gedir, iyrənirəm,
Çünki qanununu sevirəm.

164 Ədalətli hökmlərinə görə
Hər gün yeddi dəfə Sənə həmd
edirəm.
165 Qanununu sevənlər böyük
əmin-amanlıq tapırlar,
Onlar heç nə ilə büdrəməzlər.
166 Ya Rəbb, xilasına ümid
bəsləmişəm,
Əmrlərinə əməl etmişəm.
167 Göstərişlərinə ürəkdən
bağlanmışam,
Onları çox sevirəm!
168 Qayda-qanunlarına, göstərişlərinə
bağlı qalıram,
Çünki bütün yollarım Sənin
hüzurundadır.

Tav

169 Ya Rəbb, mənim fəryadım qoy
Sənə çatsın,
Mənə Öz sözünə görə ağıl ver.
170 Qoy yalvarışım hüzuruna çatsın,
Məni Öz kəlamınla azad et.
171 Qoy dilimdən həmdlər tökülsün,
Mənə qaydalarını öyrətmisən.
172 Sənin kəlamını dilim tərənnüm
etsin,
Çünki Sənin bütün əmrlərin
ədalətlidir.
173 Sənin əlin mənə kömək etsin,
Çünki Sənin qayda-qanunlarını
seçdim.
174 Ya Rəbb, qurtuluşun üçün həsrət
çəkirəm,
Qanunundan zövq alıram.
175 Mənə həyat bəxş elə, qoy Sənə
həmd oxuyum,
Hökmlərin qoy mənə kömək olsun.
176 İtən quzu kimi azmışam, qulunu
axtar,
Çünki əmrlərini unutmamışam.

Məzmur 120

Ziyarət nəğməsi.

120 Dar gündə Rəbbi səslədim,
O mənə cavab verdi.
2 Dedim: «Ya Rəbb, yalançı
dodaqlardan,
Fitnəkar dillərdən canımı qurtar».
3 Ey fitnəkar dil, sənə nə veriləcək?
Bu işinin əvəzi nə ilə ödəniləcək?
4 Cəngavərin iti oxları ilə,
Süpürgə ağacının odlu közləri ilə!
5 Yazıq canım, Meşekdə qərib
olmuşam,
Qedar çadırlarında yaşayıram!
6 Mənim belə yerdə,
Sülhə nifrət edənlərin içində
yaşamağım bəsdir.
7 Mən sülh sevirəm, buna görə
danışıram,
Onlarsa müharibə üçün çalışır.

Məzmur 121

Ziyarət nəğməsi.

121 Gözlərimi dağlara dikirəm,
Haradan mənə kömək
gələcək?
2 Göyləri və yeri yaradan Rəbdən
Mənə kömək gələcək.
3 O, ayaqlarını büdrəməyə qoymaz,
Səni qoruyan yatmaz.
4 Bax İsraili qoruyan yuxulamaz,
Yatıb qalmaz.
5 Səni qoruyan Rəbdir,
O, sağ tərəfindədir, sənə kölgədir.
6 Gündüz günəşin ziyanı sənə dəyməz,
Gecə ay da sənə zərər verməz.
7 Rəbb səni hər cür şərdən saxlayar,
Canını qoruyar.
8 Rəbb gediş-gəlişini hifz edər
İndidən sonsuza qədər.

Məzmur 122

Davudun ziyarət nəğməsi.

122 Mənə «Rəbbin evinə gedək»
deyilərkən sevindim.
2 Ey Yerusəlim, sənin darvazalarından
keçdim,
Torpağına qədəm qoydum.
3 Bu, Yerusəlim şəhəridir,
Çox sıx tikilmişdir.

4 İsrail üçün verilən şəhadət naminə
Qəbilələr, Rəbbin qəbilələri
Rəbbin isminə şükür etmək üçün
Buranı ziyarət etməyə gəlirlər.
5 Hökm üçün burada taxtlar qurulub,
Bu taxtlarda Davud sülaləsi oturub.
6 Hamı Yerusəlim üçün sülh diləsin:
«Qoy səni sevənlər dinc həyat sürsün!
7 Qoy qala divarlarının içində sülh olsun!
Qoy saraylarındakılar dinc yaşasın!»
8 Yoldaşlarıma, dostlarıma görə
«Səndə sülh olsun!» deyirəm.
9 Allahımız Rəbbin evinə görə
Sənə bəxtiyarlıq diləyirəm.

Məzmur 123

Ziyarət nəğməsi.

123 Ey göylərdəki taxtında Oturan,
Gözlərimi Sənə dikmişəm.
2 Ağasının əlinə baxan qul kimi,
Xanımının əlinə baxan kəniz tək
Biz də Allahımız Rəbbə göz dikmişik,
Bizə rəhm etməsini gözləyirik.
3 Bizə rəhm et, ya Rəbb, rəhm et!
Çünki təhqirlərdən doymuşuq.
4 Laqeydlərin rişxəndləri,
Təkəbbürlülərin təhqirləri bizi cana doydurdu.

Məzmur 124

Davudun ziyarət nəğməsi.

124 İndi İsrail söyləsin:
Rəbb tərəfimizi saxlamasaydı,
2 Bizə qarşı insanlar qalxarkən
Rəbb tərəfimizi saxlamasaydı,
3 Bizə qarşı qəzəblərindən yanarkən
Bizi diri-diri udardılar,
4 Sular bizi yuyub-aparardı,
Sellər üstümüzü basardı,
5 Azğın sular üstümüzü basardı.
6 Alqış olsun Rəbbə!
O bizi onların dişlərinə ov etmədi.
7 Bizi ovçunun tələsindən bir quş kimi qurtardı,
Tələ qırıldı, canımız azad oldu.
8 Bizə Rəbbin adından,
Göyləri və yeri yaradandan yardım gəlir.

Məzmur 125

Ziyarət nəğməsi.

125 Rəbbə güvənənlər Sion dağı kimi
Sarsılmaz, əbədi qalar.
2 Dağlar Yerusəlimi dövrəyə aldığı kimi
Rəbb də indidən sonsuzadək xalqının ətrafındadır.
3 Salehlərin payı üstündə
Şər insanların dəyənəyi hökm sürə bilməz,
Yoxsa salehlər də şərə əl atardı.
4 Ya Rəbb, xeyirxahlara,
Ürəyidüz olan insanlara xeyirxahlıq et!
5 Rəbb əyri yola dönənləri aparacaq,
Onları şər iş görənlərlə bir yerə qoyacaq.
İsrailin üzərinə sülh olsun!

Məzmur 126

Ziyarət nəğməsi.

126 Rəbb Siona bəxtəvər günlərini qaytaranda
Bizə röya kimi gəldi.
2 Dodaqlarımızdan gülüş tökülürdü,
Dilimizdən sevinc harayı yüksəlirdi.
Millətlər öz aralarında belə deyirdi:
«Rəbb onlar üçün böyük işlər görüb».
3 Bunun üçün sevinirik,
Çünki Rəbb bizim üçün böyük işlər görüb.
4 Selləri Negevə qaytardığın kimi,
Ya Rəbb, o bəxtəvər günləri bizə qaytar.
5 Göz yaşı ilə əkənlər
Sevinc harayı çəkərək biçəcək.
6 Ağlaya-ağlaya toxum torbasını daşıyıb-gedən

Sevinc harayı ilə dərzləri
daşıya-daşıya gələcək.

Məzmur 127

Süleymanın ziyarət nəğməsi.

127 Evi Rəbb tikməzsə,
Bənnaların zəhməti boşa
gedər.
Şəhəri Rəbb qorumazsa,
Keşikçilər boş yerə orada gözlər.
2 Erkən qalxıb gec yatmağınız,
Azuqə üçün özünüzü çox yormağınız
faydasızdır.
Rəbb sevdiklərinə yuxuda olanda
belə, verər.
3 Övladlar Rəbbin verdiyi paydır,
Bətnin bəhrəsi Onun mükafatıdır.
4 İnsanın gənc ikən övladları olarsa,
Bir igidin əlindəki oxlara bənzər.
5 Oxdanı bu cür dolu olan nə
bəxtiyardır!
Darvazada əleyhdarları ilə çəkişən
zaman
Xəcalətli olmayacaq.

Məzmur 128

Ziyarət nəğməsi.

128 Nə bəxtiyardır Rəbdən
qorxan,
Onun yolları ilə gedən insan!
2 Çünki öz əlinin bəhrəsini
yeyəcəksən,
Xoşbəxt olub uğur qazanacaqsan.
3 Evində arvadın tənək kimi bar
gətirəcək,
Övladların zeytun pöhrələri kimi
Süfrənin ətrafını bürüyəcək.
4 Rəbdən qorxan insan
Belə xeyir-dua alacaq:
5 Rəbb Siondan sənə xeyir-dua versin,
Ömür boyu Yerusəlimin xoşbəxtliyini
görəsən,
6 Övladlarının övladlarını görəsən!
İsrailin üzərinə sülh olsun!

Məzmur 129

Ziyarət nəğməsi.

129 Qoy İsrail söyləsin:
«Mənə gəncliyimdən bəri
əzab verdilər.
2 Bəli, gəncliyimdən bəri mənə əzab
verdilər,
Lakin məğlub edə bilmədilər.
3 Elə bil kürəyimdə kotan sürüblər,
Qamçılarla bədənimə uzun-uzun
şırım çəkiblər.
4 Rəbb isə adildir,
Pislərin buxovlarını qırdı».
5 Siona nifrət bəsləyənlərin hamısı
Qoy xəcalət içində geri qovulsun!
6 Qoy cücərmədən solsunlar,
Damda bitən ot kimi olsunlar!
7 O, biçinçinin ovcunu,
Dərz bağlayanın qucağını doldurmaz!
8 Yoldan keçən onlara belə deməz:
«Rəbb sizə xeyir-dua versin,
Sizə Rəbbin ismi ilə alqış olsun!»

Məzmur 130

Ziyarət nəğməsi.

130 Ya Rəbb, dərinliklərdən
Səni səsləyirəm.
2 Ey Xudavənd, səsimi eşit,
Yalvarış səsimi yaxşı dinlə.
3 Ya Rəbb, bizim təqsirlərimizi
siyahıya alsan,
Bəs, ey Xudavənd, kim bunun
qarşısında dayana bilər?
4 Amma Sən bağışlayansan,
Ona görə hamı Səndən çəkinir.
5 Rəbbi gözləyirəm, döyünən ürəyim
gözləyir,
Onun sözünə ümid edirəm.
6 Keşikçilər səhərin açılmasını gözlər,
Bəli, keşikçilər səhərin açılmasını
gözlər,
Qəlbimsə bundan da çox Xudavəndin
həsrətini çəkər.
7 Ey İsrail, Rəbbə ümidini bağla!
Çünki Rəbdə məhəbbət var,

Onda bol-bol qurtuluş var.
8 [c]Ey İsrail, O səni
Bütün təqsirlərindən azad edər!

Məzmur 131

Davudun ziyarət nəğməsi.

131 Ya Rəbb, təkəbbürlü deyiləm,
Gözümü yuxarı yerlərə dikməmişəm,
Gücüm çatmayan böyük işlərə girişməmişəm.
2 Ovunub səsimi kəsmişəm,
Ana qucağında olan körpə kimiyəm,
Sanki bir sakit körpəyə dönmüşəm.
3 Ey İsrail, Rəbbə ümidini bağla,
İndidən sonsuzadək ümidini Ona bağla!

Məzmur 132

Ziyarət nəğməsi.

132 Ya Rəbb, Davudu,
Çəkdiyi bütün əzabları,
2 Rəbbə etdiyi andı,
Yaqubun qüdrətli Allahına etdiyi əhdi yada sal.
3 O dedi: «Öz evimdə yaşamaram,
Yatağımda yatmaram,
4 Gözümə yuxu getməz,
Gözlərimi yummaram
5 Rəbbə layiq bir yer,
Yaqubun qüdrətli Allahına bir məskən tapana qədər».
6 [d]Əhd sandığının Efratada olduğunu eşitdik,
Onu Yaar tarlalarında tapdıq.
7 Dedik: «Gəlin, Onun məkanına gedək,
Kətilində səcdə edək».
8 Ya Rəbb, qüvvənin rəmzi olan sandığınla birgə
İstirahət edəcəyin yerə qalx.
9 Kahinlərin həqiqətə bürünsün,
Möminlərin Səni mədh etsin.
10 Qulun Davudun xatirinə
Məsh etdiyindən üz döndərmə.
11 [e]Rəbb Davuda sədaqətlə and içdi,
Bu andından dönməz:
«Belindən gələn oğullarından birini
Səndən sonra taxtında oturdacağam.
12 Əgər övladların əhdimə,
Onlara öyrədəcəyim göstərişlərə əməl edərlərsə,
Onların oğulları da
Sonsuza qədər sənin taxtında oturacaq».
13 Çünki Rəbb Sionu seçdi,
Orada Öz məskənini salmaq istədi.
14 Dedi: «Bura əbədi olaraq istirahət edəcəyim yerdir,
İstəyirəm ki, burada məskən salım.
15 Bu yerə bol ruzi-bərəkət verəcəyəm,
Buradakı fəqirlərə doyunca ərzaq verəcəyəm.
16 Kahinlərini zəfərə bürüyəcəyəm,
Möminləri sevinclə mədh oxuyacaq.
17 [f]Burada Davud sülaləsindən güclü hökmdar yetirəcəyəm,
Məsh etdiyim üçün bir çıraq hazır etmişəm.
18 Düşmənlərini xəcalətə salacağam,
Lakin onun tacı nur saçacaq».

Məzmur 133

Davudun ziyarət nəğməsi.

133 Nə yaxşıdır, nə xoşdur
Qardaş olub bir yaşamaq!
2 Belə yaşamaq qiymətli yağ kimidir;
O yağ ki başa çəkilib saqqala,
Harunun saqqalından paltarının yaxasına axırdı.
3 Sanki Xermon dağının şehi
Sion dağlarına düşür,
Çünki Rəbb buyurub ki,

---

[c]**130:8** Mat. 1:21; Titə 2:14 [d]**132:6** 2Saln. 6:41-42
[e]**132:11** 2Şam. 7:12-13; 1Saln. 17:11-12; Zəb. 89:3-4; Həv. 2:30
[f]**132:17** 1Pad. 11:36; 15:4; 2Pad. 8:19; 2Saln. 21:7

Bu məkana bərəkət, əbədi həyat
verilsin.

Məzmur 134

Ziyarət nəğməsi.

134 Rəbbə alqış edin, ey Onun
qulları,
Ey Rəbb evinin xidmətində gecələr
oyaq duranlar!
2 Müqəddəs yerə tərəf əllərinizi
qaldırın,
Rəbbə alqış edin!
3 Göyləri və yeri yaradan Rəbb
Siondan sizə xeyir-dua versin.

Məzmur 135

135 Rəbbə həmd edin!
Rəbbin isminə həmd edin,
Ey Rəbbin qulları, həmd edin!
2 Ey Rəbbin evində xidmət edənlər,
Allahımızın evinin həyətində
duranlar,
3 Rəbb yaxşıdır, Rəbbə həmd edin,
O nə qədər şirindir, isminə tərənnüm
oxuyun!
4 Çünki Rəbb Özü üçün Yaqubu seçdi,
İsraili Özünə məxsus xalq olaraq
seçdi.
5 Bilirəm, Rəbb əzəmətlidir,
Xudavəndimiz bütün allahlardan
üstündür.
6 Göylərdə, yer üzündə,
Dənizlərdə, bütün ümmanlarda Rəbb
istədiyini edər.
7 [g]Yerin ucqarlarından buludları
qaldırar,
Şimşəkləri çaxdırar, yağış yağdırar,
Küləkləri öz mənbələrindən çıxarar.
8 Rəbb Misirlilərin ilk oğullarını qırdı,
Hər insanın, hər heyvanın ilk balasını
öldürdü.
9 Ey Misir, sənin daxilində,
Fironla bütün əyanlarının üzərində
O, əlamətlərini, möcüzələrini
göstərdi.
10 Nə qədər millətləri qırdı,
Qüdrətli padşahları öldürdü.
11 Emorluların padşahı Sixonu,
Başan padşahı Oqu,
Bütün Kənan padşahlarını qırdı.
12 Onların torpaqlarını, mülklərini
Öz xalqı İsrailə irs olaraq verdi.
13 Ya Rəbb, Sənin adın əbədidir!
Ey Rəbb, ismin nəsillərdən-nəsillərə
çatır!
14 Rəbb xalqına haqq verəcək,
Qullarına rəhm edəcək.
15 [h]Amma millətlərin bütləri qızıldan,
gümüşdən düzəlmişdir,
Onlar insan əllərinin işidir.
16 Ağızları var, danışa bilmir,
Gözləri var, amma görmür,
17 Qulaqları var, eşitmir,
Ağızlarından nəfəs gəlmir.
18 Bütləri düzəldən, onlara güvənən
insanlar
Bu bütlər kimi cansız olacaqlar.
19 Ey İsraillilər, Rəbbə alqış edin!
Ey Harun nəsli, Rəbbə alqış söyləyin!
20 Ey Levi nəsli, Rəbbə alqış edin!
Ey Rəbdən qorxanlar, Ona alqış
söyləyin!
21 Rəbbə Siondan alqış oxunsun!
Rəbb Yerusəlimdə yaşayır!
Rəbbə həmd edin!

Məzmur 136

136 [i]Rəbbə şükür edin, ona görə
ki yaxşıdır,
Çünki məhəbbəti əbədidir!
2 Allahların Allahına şükür edin,
Çünki məhəbbəti əbədidir!
3 Hökmranların Hökmranına şükür
edin,

---

[g]**135:7** Yer. 10:13; 51:16 [h]**135:15** Zəb. 115:4-7; Vəhy 9:20
[i]**136:1** 1Saln. 16:34; 2Saln. 5:13; 7:3; Ezra 3:11; Zəb. 100:5; 106:1; 107:1; 118:1; Yer. 33:11

Çünki məhəbbəti əbədidir!
4 Yalnız Odur böyük xariqələr
yaradan,
Çünki məhəbbəti əbədidir!
5 [j]Odur göyləri hikməti ilə quran,
Çünki məhəbbəti əbədidir!
6 [k]Odur yerin təməlini sular üstündə
qoyan,
Çünki məhəbbəti əbədidir!
7 [l]Odur böyük işıqları yaradan,
Çünki məhəbbəti əbədidir!
8 Gündüzü günəşin hökmü altına
saldı,
Çünki məhəbbəti əbədidir!
9 Gecə ay-ulduzların hökmü altında
oldu,
Çünki məhəbbəti əbədidir!
10 [m]O, Misirlilərin ilk oğullarını qırdı,
Çünki məhəbbəti əbədidir!
11 [n]İsrail nəslini Misirlilərin arasından
çıxartdı,
Çünki məhəbbəti əbədidir!
12 İsraillilləri qüdrətli əli, uzanan qolu
ilə apardı,
Çünki məhəbbəti əbədidir!
13 [o]Qırmızı dənizi iki yerə yardı,
Çünki məhəbbəti əbədidir!
14 İsraillilləri dənizin ortasından
keçirtdi,
Çünki məhəbbəti əbədidir!
15 Fironla ordusunu Qırmızı dənizdə
batırdı,
Çünki məhəbbəti əbədidir!
16 O, xalqını səhrada apardı,
Çünki məhəbbəti əbədidir!
17 O, böyük padşahları vurdu,
Çünki məhəbbəti əbədidir!
18 O, güclü padşahları qırdı,
Çünki məhəbbəti əbədidir!
19 [p]Emor padşahı Sixonu vurdu,
Çünki məhəbbəti əbədidir!
20 [q]Başan padşahı Oqu öldürdü,
Çünki məhəbbəti əbədidir!
21 Onların torpaqlarını irs olaraq
verdi,
Çünki məhəbbəti əbədidir!
22 Bu yerləri qulu İsrail nəslinin
mülkü etdi,
Çünki məhəbbəti əbədidir!
23 O, miskin halımızda bizi yaddan
çıxarmadı,
Çünki məhəbbəti əbədidir!
24 Bizi düşmən əlindən qurtardı,
Çünki məhəbbəti əbədidir!
25 O, bəşəriyyətə ruzi verir,
Çünki məhəbbəti əbədidir!
26 Göylərin Allahına şükür edin,
Çünki məhəbbəti əbədidir!

Məzmur 137

137 Babil torpağında olanda
Sionu yada salardıq,
Çay kənarında oturaraq ağlayardıq,
2 Liralarımızı söyüd ağaclarından
asardıq.
3 Bizi əsir edənlər
Nəğmə oxumağımızı əmr edirdilər,
Bizə zülm verənlər
Onları şənləndirməyimizi istəyirdilər,
«Bizim üçün Sion nəğmələrini
oxuyun» deyirdilər.
4 Axı yad ölkədə Rəbbin nəğmələrini
necə oxuyaq?
5 Ey Yerusəlim, əgər səni unutsam,
Qoy sağ əlim qurusun.
6 Ey Yerusəlim,
Səni anmasam, ən böyük sevincim
olmasan,
Qoy dilim damağıma yapışsın.
7 Ya Rəbb, Edomluları bir yada sal,
Məğlubiyyət günü Yerusəlimdən
danışırdılar,
Deyirdilər: «Gəlin oranı uçuraq,
təməlindən dağıdaq!»

---

[j]**136:5** Yar. 1:1 [k]**136:6** Yar. 1:2 [l]**136:7** Yar. 1:16
[m]**136:10** Çıx. 12:29 [n]**136:11** Çıx. 12:51 [o]**136:13** Çıx. 14:21-29
[p]**136:19** Say. 21:21-30 [q]**136:20** Say. 21:31-35

8 [r]Ey Babil qızı, xaraba qalacaqsan.
Bizə etdiyinin əvəzini sənə verən qoy
bəxtiyar olsun!
9 Körpələrini daşa çırpıb öldürən
bəxtiyar olsun!

Məzmur 138

Davudun məzmuru.

138 Bütün qəlbimlə Sənə şükür
edirəm,
«Allahlar»ın önündə Səni tərənnüm
edirəm.
2 Müqəddəs məbədinə tərəf səcdə
edirəm,
Məhəbbətin, sədaqətin naminə isminə
şükür edirəm.
Çünki ismini, kəlamını hər şeydən
üstün tutmusan.
3 Səni çağıranda mənə cavab
vermisən,
Canıma taqət verib məni
ürəkləndirmisən.
4 Ya Rəbb, bütün dünya padşahları
Sənə şükür edəcəklər,
Çünki ağzından çıxan kəlamları
eşidiblər.
5 Rəbbin yollarını tərənnüm
edəcəklər,
Çünki Rəbbin ehtişamı böyükdür.
6 Rəbb ucalarda olsa da, yazıqlara
nəzər salar,
Amma lovğaları uzaqdan tanıyar.
7 Sıxıntı içində gəzsəm də,
Mənə həyat verirsən.
Düşmənin qəzəbinə qarşı əl
qaldırırsan,
Məni sağ əlinlə qurtarırsan.
8 Rəbb mənə verdiyi vədə əməl edir.
Ya Rəbb, məhəbbətin əbədidir.
Öz əlinin işini tərk etmə!

Məzmur 139

Musiqi rəhbəri üçün. Davudun məzmuru.

139 Ya Rəbb, məni yoxlayaraq
tanıdın,
2 Oturuşumu-duruşumu Özün bilirsən,
Fikirlərimi uzaqdan duyursan.
3 Getməyimə, yatmağıma nəzarət
edirsən,
Nə yollardan keçdiyimi bilirsən.
4 Sözlərimi dilə gətirməmişdən əvvəl,
Ya Rəbb, hamısını tamamilə bilirsən.
5 Hər yandan məni əhatə etmisən,
Öz əlini üzərimə qoymusan.
6 Bu bilik əsrarəngizdir, məndən
yüksəkdir,
Bunu dərk edə bilmərəm.
7 Hara gedim ki, Ruhun orada
olmasın?
Hara qaçım ki, hüzurunda olmayım?
8 Əgər göylərə çıxsam, Sən oradasan,
Ölülər diyarında yatsam, Sən
oradasan.
9 Qanad alıb gündoğana uçsam belə,
Dənizi keçib günbatana qonsam belə,
10 Sənin sağ əlin bələdçim olacaq,
Sağ əlin məni qoruyacaq.
11 Desəm də: «Qoy zülmət məni
bürüsün,
İşıq batsın, ətrafım gecəyə dönsün»,
12 Sənin qarşında zülmət batar,
Önündə gecə də gündüz kimi nur
saçar.
Nurun, zülmətin Sənin üçün nə fərqi
var?
13 Sən mənim daxili üzvlərimi
yaratmısan,
Mənə ana bətnində quruluş vermisən.
14 Sən məni ecazkar, əsrarəngiz yolla
yaratmısan,
Ona görə şükür edirəm.
Nə qədər xariqəli işlər görmüsən!
Bunu ürəkdən yaxşı dərk edirəm.
15 Mən gizli bir yerdə yaranarkən,

---

[r]**137:8** Vəhy 18:6

Dünyanın dərin yerində yaranarkən
Bədənim Səndən gizli qalmadı.
16 Dünyaya gəlməzdən əvvəl
Sənin gözlərin məni gördü.
Ömrüm başlamazdan əvvəl
Mənə təyin etdiyin hər bir günü
kitabına yazmısan.
17 Ey Allah, mənim üçün fikirlərinin
qiyməti çoxdur,
Onların sayı-hesabı yoxdur!
18 Saysaydım onları, qum
dənələrindən çox olardı,
Oyananda yenə mən Sənin ləyəm.
19 Ey Allah, kaş ki pisləri qıraydın,
Qantökənlərin hamısı məndən uzaq
olaydı,
20 Onlar Sənə qarşı pis niyyətlə
danışır,
Düşmənlərin adına küfr edirlər!
21 Ya Rəbb, Sənə nifrət edənlərə nifrət
etmərəmmi?
Əleyhdarlarından ikrah etmərəmmi?
22 Onlara tamamilə nifrət edirəm,
Onları özümə düşmən sayıram.
23 Ey Allah, məni yoxla, qəlbimi
öyrən,
Sən məni sınaqdan keçirib bütün
fikirlərimi bil.
24 Gör qəlbimdə pisliyə yol
verirəmmi?
Əbədi yolda mənə rəhbər ol!

Məzmur 140

Musiqi rəhbəri üçün. Davudun məzmuru.

140 Ya Rəbb, məni şər
adamlardan xilas et,
Məni qəddar insanlardan hifz et.
2 Ürəklərində pis niyyətləri var,
Hər gün dava yaradırlar.
3 [s]Kəskin dilləri ilan tək çalar,
Sanki dodaqlarında gürzə zəhəri var.
Sela
4 Ya Rəbb, şər insanın əlindən,
Qəddar insanlardan məni qoru.
İstəyirlər ki, ayağımı büdrətsinlər.
5 Bu təkəbbürlü insanlar mənə tələ
qurublar,
Tor atıblar, cələlərini yolumun üstünə
qoyublar. *Sela*
6 Rəbbə dedim: «Allahım Sənsən,
Ya Rəbb, yalvarıram, Sən məni eşit!
7 Ey Xudavənd Rəbb, Sən qüvvətli
Xilaskarımsan,
Döyüş günündə başıma dəbilqə
qoymusan.
8 Ya Rəbb, qoy pis adam muradına
çatmasın,
Pis niyyətinə imkan vermə, qoy
lovğalanmasın». *Sela*
9 Ətrafımdakıların ağzından çıxan pis
sözlər
Qoy öz başlarına tökülsün!
10 Qoy onların üstünə yanar közlər
tökülsün,
Onlar quyuya düşüb, çıxa bilməsin!
11 Qoyma ki bu ölkədə iftiraçı uğur
qazansın,
Bəlalar qəddarı vursun, onu ovlasın!
12 Bilirəm ki, Rəbb məzlumların
məhkəmə işinə baxır,
Fəqirlərə haqq qazandırır.
13 Bəli, salehlər Sənin isminə şükür
oxuyacaq,
Əməlisalehlər hüzurunda yaşayacaq.

Məzmur 141

Davudun məzmuru.

141 Ya Rəbb, Səni çağırıram, tez
imdadıma yetiş,
Fəryad edərkən səsimi eşit!
2 [t]Qoy hüzurunda dualarım buxur
kimi,
Açılan əllərim axşam qurbanı kimi
qəbul olunsun!
3 Ya Rəbb, ağzıma nəzarətçi qoy,
Dodağımın qapısını qoru.
4 Qoyma qəlbim şərə meyl etsin,

---

[s]**140:3** Rom. 3:13 [t]**141:2** Vəhy 5:8

Şər iş görənlərə qoşulub mən də pis iş
görməyim,
Pislərlə birgə onların ləziz
yeməklərindən yeməyim.
5 Saleh insan məni vursa, məhəbbətinə
görə tənbeh edər,
Bundan imtina etmərəm, sanki
başıma çəkilən yağdır.
Daim pislərin şərinə qarşı dua edərəm.
6 Hakimləri yarğandan atılarkən
Qoy xalq sözlərimi eşitsin, şirinliyini
bilsin.
7 Şumlanan yerdə şırımlara narın
torpaq töküldüyü kimi
Sümüklərimiz ölülər diyarının
qapısına səpilib.
8 Ey Xudavənd Rəbb, gözlərimi Sənə
dikmişəm,
Məni təhlükədə qoyma, Sənə pənah
gətirmişəm.
9 Şər iş görənlərin tələsindən,
Onların qurduğu cələdən məni qoru.
10 Qoy pislər öz torlarına düşsün,
Mən də yolumu salamat keçib-gedim.

Məzmur 142

Davudun məzmuru.

Maskil.

[u] *Mağarada olanda etdiyi dua.*

142 Rəbbə fəryad qoparıb haray
salıram,
Rəbbə yalvararaq haray salıram.
2 Hüzuruna şikayətimi tökürəm,
Qarşısında əziyyətimi söyləyirəm.
3 Ruhdan düşəndə hansı yolda
olduğumu bildin,
Yolumda gizli tələ qurublar.
4 Sağıma bax, Özün gör, heç kim məni
saymır,
Pənah yerim yoxdur,
Heç kim qayğıma qalmır.
5 Ya Rəbb, Sənə fəryad edərək dedim:
«Pənahım Sənsən,
Dirilər arasında Sən mənim
nəsibimsən».
6 Qulaq as fəryadıma,
Nə qədər alçaldılmışam!
Məni təqib edənlərdən qurtar,
Çünki onlar məndən güclüdür.
7 Canımı zindandan qurtar,
Qoy isminə şükür edim!
Onda salehlər məni əhatə edəcək,
Çünki mənə comərdlik etdin!

Məzmur 143

Davudun məzmuru.

143 Ya Rəbb, eşit duamı,
yalvararkən məni dinlə,
Mənə sədaqətin, salehliyin naminə
cavab söylə.
2 [v]Qulunu məhkəməyə çəkmə,
Bu bəşəriyyət içindən kimsə qarşında
saleh çıxmaz.
3 Məni düşmən təqib etdi,
Yerə vurdu, həyatım əldən getdi.
Sanki lap çoxdan ölənlərin biriyəm,
Bu düşmən məni zülmətə saldı.
4 Ona görə ruhdan düşmüşəm,
Bu dəhşət qəlbimi sarsıtdı.
5 Qədim dövrlər yadıma düşür,
Sənin bütün işlərini dərindən
düşünürəm,
Əməllərin barədə hey fikirləşirəm.
6 Sənə sarı əllərimi açmışam,
Bir quraq torpaq kimi Sənin üçün
susamışam. *Sela*
7 Ya Rəbb, mənə tez cavab ver,
Çünki ürəyim çəkilir.
Üzünü məndən gizlətmə,
Qoyma qəbirə düşən insanlara
bənzəyim.
8 Hər səhər məhəbbətini mənə hiss
etdir,
Çünki Sənə güvənirəm.
Gedəcəyim yolu mənə öyrət,
Çünki varlığımı Sənə verirəm.

---

[u] **142:0** 1Şam. 22:1; 24:3 [v] **143:2** Rom. 3:20; Qal. 2:16

9 Ya Rəbb, məni düşmənlərdən qurtar,
Sənə pənah gətirirəm.
10 Mənə Sənin iradənə əməl etməyi öyrət,
Çünki mənim Allahım Sənsən.
Sənin Ruhun yaxşıdır,
Düz yer üçün mənə yol göstər.
11 Ya Rəbb, mənə ismin naminə həyat ver,
Salehliyin naminə canımı dardan qurtar.
12 Məhəbbətin naminə yağılarımı məhv et,
Canıma düşmən olanları qır, çünki mən Sənin qulunam.

Məzmur 144

Davudun məzmuru.

144 Alqış olsun Rəbbə, Qayama!
Əllərimə döyüş təlimi,
Barmaqlarıma müharibə təlimi verən Odur.
2 Mənə Məhəbbət göstərən, mənim Qalam,
Qülləm, Xilaskarım,
Qalxanım, Pənahgahım,
Xalqımı mənə itaət etdirən Odur.
3 [w]Ya Rəbb, insan kimdir ki, qayğısına qalırsan,
Bəşər övladı kimdir ki, onu düşünürsən?
4 İnsan bir nəfəsə bənzər,
Ömrü kölgə kimi keçib-gedər.
5 Ya Rəbb, göyləri yar, aşağı en,
Dağlara toxun, qoy tüstülənsin.
6 Şimşəyini çaxdır, düşmənləri dağıt,
Oxlarını yağdır, yağıları darmadağın et.
7 Göylərdən əl uzadıb dərin sulardan məni xilas et,
Məni yadellilərin əlindən azad et.
8 Onların dili yalan danışar,
Sağ əlləri yalandan and etmək üçün qalxar.
9 Ey Allah, Sənə yeni bir ilahi ilə şükür edəcəyəm,
Səni ontelli çənglə tərənnüm edəcəyəm.
10 Sənsən padşahlara zəfər qazandıran,
Qulun Davudu amansız qılıncdan qurtaran.
11 Məni yadellilərin əlindən xilas et,
Sən məni azad et!
Onların dili yalan danışar,
Sağ əlləri yalandan and etmək üçün qalxar.
12 Qoy yeniyetmə oğullarımız sağlam fidan kimi boy atsın,
Qızlarımız oyulmuş saray sütunları kimi gümrah olsun.
13 Anbarlarımız müxtəlif nemətlərlə dolub-daşsın,
Otlaqda qoyunlarımız minlərlə, on minlərlə çoxalsın.
14 Naxırlarımız çoxlu balalar versin,
Hasarlarımız dəlmə-deşiksiz olsun.
İnsanlarımız əsir düşməsin,
Meydanlarımız şivən səsinə bir daha bürünməsin.
15 Nə bəxtiyardır belə xeyir-dua alan xalq!
Nə bəxtiyardır Allahı Rəbb olan xalq!

Məzmur 145

Davudun həmd nəğməsi.

145 Ey Padşahım olan Allahım,
Səni yüksəldəcəyəm,
İsminə sonsuza qədər alqış edəcəyəm.
2 Sənə hər gün alqış edəcəyəm,
İsminə əbədilik həmd edəcəyəm.
3 Rəbb əzəmətlidir, bol həmdə layiqdir,
Onun əzəməti insan ağlına sığmaz.
4 Əməllərin nəsildən-nəslə qədər mədh ediləcək,
Qüdrətli işlərin bəyan ediləcək.

---

[w]**144:3** Əyy. 7:17-18; Zəb. 8:4

5 Əzəmətindən, izzətindən, şərəfindən
deyiləcək,
Xariqəli işlərini dərindən
düşünəcəyəm.
6 İnsanlar zəhmli işlərinin qüdrətindən
danışacaq,
Sənin əzəmətini elan edəcəyəm.
7 İnsanlar Sənin bol xeyirxahlığını
bəyan edəcəklər,
Salehliyini mədh edəcəklər.
8 [x]Rəbb lütfkar və rəhmlidir,
Hədsiz səbirli və bol məhəbbətlidir.
9 Rəbb hamıya xeyirxahlıq edər,
Yaratdıqlarının hər birinə mərhəmət
göstərər.
10 Ya Rəbb, bütün yaratdıqların Sənə
şükür edəcək,
Möminlərin Sənə alqış edəcək.
11 Padşahlığının əzəmətindən
deyəcəklər,
Qüdrətindən danışacaqlar.
12 Qoy bəşər övladları Sənin qüdrətini,
Padşahlığının izzətini, əzəmətini
bilsin.
13 Sənin padşahlığın əbədi
padşahlıqdır,
Səltənətin nəsildən-nəslə qədər
uzanır.
14 Rəbb yıxılanların hamısına
dayaqdır,
Qəddi əyilənlərin hamısını qaldırır.
15 Ya Rəbb, hamının gözü Sənə baxır,
Vaxtlı-vaxtında onlara azuqə verirsən.
16 Əlini açırsan,
Bütün canlıları doyunca yedirirsən.
17 Rəbb bütün yollarında adildir,
Hər işində sadiqdir.
18 Rəbb Onu çağıran bütün insanlara,
Onu sidq ürəkdən çağıran bütün
insanlara yaxındır.
19 Ondan qorxanları murada çatdırar,
Fəryadlarına qulaq asıb onları
qurtarar.
20 Rəbb Onu sevənlərin hamısını hifz
edər,
Bütün pis adamlarınsa kökünü kəsər.
21 Mənim dilim Rəbbə həmd
oxuyacaq,
Qoy Onun müqəddəs isminə bütün
bəşəriyyət əbədilik alqış etsin!

Məzmur 146

146 Rəbbə həmd edin!
Ey könlüm, Rəbbə həmd et!
2 Ömür boyu Rəbbə həmdlər
söyləyəcəyəm,
Allahımı nə qədər varam, tərənnüm
edəcəyəm!
3 Əsilzadələrə,
Sizi qurtara bilməyən bəşər oğluna
güvənməyin.
4 Onlar canı çıxan kimi torpağa düşər,
Niyyətləri bircə anda yox olar.
5 Nə bəxtiyardır Yaqubun Allahından
kömək alan,
Yalnız Allahı Rəbbə ümid bağlayan
insan!
6 Odur göyləri, yeri, dənizi,
dənizdəkiləri yaradan,
Odur əbədi sadiq qalan.
7 O, miskinlərə haqq qazandırır,
O, acları azuqə ilə doydurur.
Rəbb əsirləri azad edir,
8 Rəbb kor gözləri açır.
Rəbb qəddi əyilənləri düzəldir,
Rəbb salehləri sevir.
9 Rəbb qəriblərə dayaq olur,
Yetimi, dul qadını ayağa qaldırır,
Pislərinsə yollarını dolaşdırır.
10 Rəbb əbədi hökmranlıq edir,
Ey Sion, Allahın nəsillər boyu hökm
verir!
Rəbbə həmd edin!

---

[x]**145:8** Çıx. 34:6; Say. 14:18; Neh. 9:17; Zəb. 86:15; 103:8; Yoel 2:13; Yun. 4:2

Məzmur 147

147 Rəbbə həmd edin!
Allahımızı tərənnüm etmək
nə qədər yaxşıdır!
O buna layiqdir, Ona həmdlər
söyləmək xoşdur!
2 Rəbb Yerusəlimi bərpa edər,
İsrailin əsarətdə olanlarını
yığıb-gətirər.
3 O, sınıq qəlblərə şəfa verər,
Yaralarını sarıyar.
4 [y]Ulduzların sayını hesablar,
Hər birini öz adı ilə çağırar.
5 Xudavəndimiz əzəmətlidir,
Qüvvəti çoxdur, dərrakəsi hədsizdir!
6 Rəbb məzlumları ayağa qaldırar,
Pisləri isə toz-torpaq içinə atar.
7 Rəbbə şükür nəğməsi söyləyin,
Allahımızı lira ilə tərənnüm edin!
8 O, göyləri buludlarla bürüyər,
Yer üzünü yağışla təmin edər,
Dağlarda ot bitirər.
9 O, heyvanlara yem verər,
Çığırışan quzğun balalarını yemlər.
10 O, güclü atlardan zövq almaz,
Qüvvətli addımlardan razı qalmaz.
11 Amma Rəbb Ondan qorxanlardan,
Onun məhəbbətinə ümid
bağlayanlardan razı qalar.
12 Ey Yerusəlim, Rəbbi mədh et!
Ey Sion, Allahına həmd et!
13 Çünki darvazalarının cəftələrini
bərkidər,
Sənin əhalinə bərəkət verər.
14 Sərhədinə əmin-amanlıq,
Sənə doyunca əla taxıl yetirər.
15 Kəlamını yer üzünə yollar,
Onun sözü tez yayılar.
16 Ağ yun kimi qar yağdırar,
Kül kimi qırov salar.
17 Parça-parça dolu tökər.
Onun soyuğuna kim dözə bilər?
18 Buyruq verəndə buz əriyər,
Külək əsdirəndə sular sel tək axar.
19 O, Yaqub nəslinə sözlərini,
İsraillilərə qanun və hökmlərini
bildirir.
20 Başqa millətlər üçün belə etməyib,
Heç birinə hökmlərini bildirməyib.
Rəbbə həmd edin!

Məzmur 148

148 Rəbbə həmd edin!
Göylərdən Rəbbə həmd edin,
Yüksəklərdən Ona həmd edin!
2 Ey Onun bütün mələkləri, Ona həmd
edin!
Ey Onun bütün orduları, Ona həmd
edin!
3 Ey günəş, ey ay, Ona həmd edin!
Ey parlayan bütün ulduzlar, Ona
həmd edin!
4 Ey göylərin ən uca qatları, Ona
həmd edin!
Ey göy üzərindəki sular, Ona həmd
edin!
5 Rəbbin isminə həmd etsinlər!
Çünki Onun əmri ilə yaranıblar.
6 Rəbb onları həmişəlik, əbədi olaraq
yerinə qoyub,
Bunun üçün pozulmaz qayda qoyub.
7 Rəbbə həmd edin, ey yer
üzündəkilər,
Ey dəniz əjdahaları, ey bütün
dərinliklər,
8 Ey şimşək, dolu, qar, buludlar,
Ey Onun əmrinə tabe olan qasırğalar,
9 Ey dağlar, bütün təpələr,
Ey bəhərli ağaclar, bütün sidr
ağacları,
10 Ey çöl və ev heyvanları,
Ey sürünənlər və uçan quşlar,
11 Ey dünya padşahları və bütün
ümmətlər,
Ey başçılar və dünyada olan bütün
hakimlər,
12 Ey gənc oğlanlar və qızlar,

---

[y] **147:4** Yeş. 40:26

Ey qocalar, cavanlar!
13 Hamınız Rəbbin isminə həmd edin!
Çünki yalnız Onun ismi ucadır.
Əzəməti göylərin, yerin üstündədir,
14 O, xalqına böyük qüvvət verib.
Buna görə Ona həmd etsin Onun bütün möminləri,
Əziz xalqı olan İsrail övladları!
Rəbbə həmd edin!

Məzmur 149

149 Rəbbə həmd edin!
Rəbbə yeni bir ilahi oxuyun,
Möminlər camaatı arasında Ona həmd edin!
2 İsrail nəsli Yaradanına görə sevinsin,
Sion övladları Padşahına görə şad olsun!
3 Rəqslərlə isminə həmd edin,
Dəflə, lira ilə Onu tərənnüm edin!
4 Çünki Rəbb Öz xalqından zövq alar,
Zəfəri ilə itaətkarların üstünə yaraşıq salar.
5 Bu şərəfə görə qoy möminlər sevinsinlər,
Yataqlarında belə, Onu tərənnüm etsinlər.
6 Dilləri ilə Allahı ucaltsınlar,
Əllərində ikiağızlı qılınc tutsunlar.
7 Millətləri qıraraq qisas alsınlar,
Ümmətləri cəzalandırsınlar.
8 Padşahlarına zəncir vursunlar,
Sərkərdələrini dəmir buxovlara salsınlar.
9 Onlar üçün yazılan hökmü yerinə yetirsinlər,
Rəbbin bütün möminləri bununla şərəflənsinlər.
Rəbbə həmd edin!

Məzmur 150

150 Rəbbə həmd edin! *
Müqəddəs məskənində Allaha həmd edin!
Möhtəşəm göy qübbəsində Ona həmd edin!
2 Qüdrətli işləri üçün Ona həmd edin!
Bol əzəmətinə görə Ona həmd edin!
3 Şeypur səsi ilə Ona həmd edin!
Çənglə, lira ilə Ona həmd edin!
4 Dəflə, rəqslərlə Ona həmd edin!
Sazla, tütəklə Ona həmd edin!
5 Xoş səsli sinclərlə Ona həmd edin!
Cingildəyən sinclərlə Ona həmd edin!
6 Ey bütün canlı varlıqlar, Rəbbə həmd edin!
Rəbbə həmd edin!

---

*150:1 *Rəbbə həmd edin* – ibrani dilində *Hallelıya*.

SÜLEYMANIN MƏSƏLLƏRİ

GİRİŞ

«Süleymanın Məsəlləri» Kitabı hikmətli sözlər və məsəllər şəklində olan əxlaqi və mənəvi təlim toplusudur. Bu kitab Allahdan gələn müdrikliyi gündəlik həyatda tətbiq etməyi tövsiyə edir:

«Rəbb qorxusu biliyin başlanğıcıdır» (1:7),

«Bütün qəlbinlə Rəbbə güvən,
Öz idrakına etibar etmə» (3:5).

Buradakı əsas fikir *«Qanunun Təkrarı»* Kitabı ilə həmahəng səslənir: Allaha güvənən, Onun göstərdiyi yolla gedən insan hər işində xeyir-dua alar. Məsəllər ailə və dostluq münasibətlərindən, əmək və ictimai həyatdan bəhs edir. Əsas mövzular müdriklik və səfehlik, salehlik və pislik, hikmətli sözün qüvvəti, sərvət və yoxsulluq, ümid və ehtiyat, sevinc və kədər, ağır əmək və bikarçılıqdır.

Biliyin, hikmətin təməli «Allah qorxusudur», yəni Allaha hörmət və ehtiramla yanaşmaqdır.

Kitabın məzmunu:

1:1–9:18 Hikmətin faydası
10:1–22:16 Süleymanın məsəlləri
22:17–24:22 Otuz hikmətli söz
24:23-34 Hikmətli sözlərin davamı
25:1–29:27 Süleymanın məsəllərinin davamı
30:1-33 Aqurun məsəlləri
31:1-9 Lemuel padşahın anasının sözləri
31:10-31 Xeyirxah arvad

1 [z]İsrail padşahı Davud oğlu
Süleymanın məsəlləri:

Hikmət mənbəyi

2 Hikmət və tərbiyəyə malik olmaq,
Müdrik sözləri dərk etmək üçün,
3 Salehlik, ədalət, insaf barədə
İdrak tərbiyəsi almaq üçün,
4 Cahillərə uzaqgörənlik,
Gənc oğlana bilik və dərrakə vermək üçün;
5 Qoy hikmətli qulaq asıb müdrikliyini artırsın,
Dərrakəli adam sağlam məsləhət alsın.
6 Bu yolla insanlar məsəl və kinayələri,
Hikmətlilərin sözlərini və müəmmalarını anlasınlar.
7 [a]Rəbb qorxusu biliyin başlanğıcıdır,
Amma səfehlər hikmət və tərbiyəyə xor baxar.

Günahkarlardan uzaq durmaq

8 Oğlum, ata tərbiyəsinə qulaq as,
Ananın öyrətdiklərini kənara atma.
9 Onlar başını gözəl çələng kimi,
Boynunu boyunbağı kimi bəzər.
10 Oğlum, qoyma səni günahkarlar azdırsın.
11 Desələr ki: «Gəl bizimlə pusqu qurub qan tökək,
Nahaq yerə günahsızları güdək,
12 Gəl onları ölülər diyarı kimi diri-diri udaq,
Tamam qəbirə düşənlərə bənzəsinlər.
13 Onda çoxlu qiymətli sərvət taparıq,
Evlərimizi talan malı ilə doldurarıq.
14 Bizə qoşul,
Qoy kisəmiz bir olsun»,
15 Oğlum, onlara qoşulma,
Yollarına ayaq basma.
16 [b]Çünki onların ayaqları pisliyə tərəf qaçar,
Qan tökməyə tələsər.
17 Bir quşun gözü önündə
Tələ qurmaq faydasızdır.
18 Çünki onların qurduğu pusqu öz qanlarını tökmək üçündür,

---

[z]**1:1** 1Pad. 4:32 [a]**1:7** Əyy. 28:28; Zəb. 111:10; Sül. 9:10
[b]**1:16** Yeş. 59:7; Rom. 3:15

Güdmələri öz canları üçündür.
19 Tamahkarın yolu həmişə belədir,
Tamahı onun canını alar.

Hikmət çağırır

20 [c]Hikmət bayırda ucadan çağırır,
Meydanlarda onun səsi ucalır.
21 O, səsli-küylü küçələrin başında çağırır,
Şəhər darvazalarında deyir:
22 «Ey cahillər, nə vaxtadək
Cəhaləti sevəcəksiniz?
Nə vaxtadək rişxəndçilər rişxənddən zövq alacaq,
Axmaqların bilikdən zəhləsi gedəcək?
23 Məzəmmətimdən düzəlsəydiniz,
Ruhumu üstünüzə tökərdim,
Sözlərimi sizə bildirərdim.
24 Sizi çağıranda məni rədd etdiniz,
Əlimi uzadanda əhəmiyyət vermədiniz.
25 Bütün nəsihətlərimi boş saydınız,
Məzəmmətlərimi qəbul etmədiniz.
26 Ona görə də sizin üzərinizə bəla gələndə güləcəyəm,
Dəhşət sizi bürüyəndə,
27 Tufan kimi dəhşət sizə hücum çəkəndə,
Sizə qasırğa kimi bəla gələndə,
Dara, əziyyətə düşəndə istehza edəcəyəm.
28 O vaxt məni çağıranlara cavab verməyəcəyəm,
Səylə axtarsalar da, məni tapa bilməyəcəklər.
29 Çünki onlar biliyə nifrət etdilər,
Rəbdən qorxmaq istəmədilər,
30 Nəsihətimi istəmədilər,
Hər məzəmmətimi rədd etdilər.
31 Buna görə də öz yollarının bəhrəsini yeyəcəklər,
Öz nəsihətləri ilə doyacaqlar.
32 Cahili özbaşınalığı öldürəcək,
Axmağı laqeydliyi məhv edəcək.
33 Mənə qulaq asanlarsa əmin-amanlıqda yaşayacaq,
Rahatlıq tapacaq, pislikdən qorxmayacaq».

Hikmətin dəyəri

2 Oğlum, əgər sözlərimi qəbul etsən,
Əmrlərimi qorusan,
2 Qulağını hikmətə tərəf çevirsən,
Ürəyini dərrakəyə tərəf meyl etdirsən,
3 Sən, həqiqətən, idrakı çağırsan,
Səs ucaldıb dərrakəni səsləsən,
4 Bunları gümüş kimi axtarsan,
Gizli xəzinə kimi arasan,
5 Onda Rəbb qorxusunu anlayarsan,
Allahı tanıyarsan.
6 Çünki Rəbb hikmət verir,
Onun ağzından bilik və dərrakə çıxır.
7 O, əməlisalehlərin sağlam şüurunu qoruyur,
Kamalla gəzənlərə sipər olur.
8 O, ədalətin yollarını qoruyur,
Möminlərin yollarını hifz edir.
9 Onda salehlik və ədaləti dərk edərsən,
İnsafı, bütün yaxşı yolları tanıyarsan.
10 Hikmət qəlbinə dolar,
Bilikdən könlün xoş olar.
11 İdrak səni hifz edər,
Dərrakə səni qoruyar.
12 Hikmət səni pislərin yolundan,
Sözü məkrli adamlardan qurtarar.
13 Onlar düz yolları atıblar,
Qaranlıq yollarda dolanırlar.
14 Şər iş görəndə şad olurlar,
Şərin məkrindən xoşhallanırlar.
15 Bu adamların yolları əyridir,
Onlar dolaşıq yollarla gedir.
16 Hikmət səni yad arvaddan,
Şirin dilli əxlaqsız qadından qurtarar.
17 Bu qadın gənc vaxtı getdiyi ərini atıb,
Allahının əhdini unudub.
18 Onun evi ölümə,

---

[c]**1:20** Sül. 8:1-3

Yolları qəbiristanlığa aparar.
19 Yanına gələn kimsə geri qayıtmaz,
Bir daha həyat yollarına çatmaz.
20 Beləliklə, yaxşıların yolu ilə gedərsən,
Salehlərin yollarına bağlı qalarsan.
21 Çünki əməlisalehlər yer üzündə sakin olacaq,
Kamillər burada qalacaq.
22 Pis adamlar bu torpaqdan atılacaq,
Xainlərin kökü buradan qoparılacaq.

Rəbbə güvən

3 Oğlum, təlimimi unutma,
Qoy qəlbin əmrlərimə bağlansın.
2 Onlar ömrünü uzadar,
Həyatına illər, firavanlıq artırar.
3 Qoy səni xeyirxahlıq və sədaqət tərk etməsin,
Onları boynuna bağla, ürəyinin lövhəsinə yaz.
4 [d]Onda Allahın və insanların gözündə
Lütf tapıb şərəfə çatarsan.
5 Bütün qəlbinlə Rəbbə güvən,
Öz idrakına etibar etmə.
6 Bütün yollarında Onu tanı,
O sənin yollarını düzəldər.
7 [e]Öz gözündə özünü hikmətli sanma,
Rəbdən qorx, şərdən çəkin.
8 Bu, bədəninə şəfa verər,
Sümüklərinə ilik olar.
9 Rəbbi var-dövlətinlə,
Məhsulunun nübarı ilə şərəfləndir.
10 Onda anbarların nemətlə dolar,
Şərab çənlərin təzə şərabla daşar.
11 [f]Oğlum, Rəbbin verdiyi tərbiyəyə xor baxma,
Onun məzəmmətinə nifrət etmə.
12 [g]Ata sevdiyi oğlunu necə məzəmmət edərsə,
Rəbb də sevdiyini elə məzəmmət edər.

Hikmətin mədhi

13 Hikmətə çatan,
Dərrakə tapan insan nə bəxtiyardır!
14 Bunları qazanmaq gümüş qazanmaqdan yaxşıdır,
Bu qazanc saf qızıldan dəyərlidir.
15 Hikmət yaqutlardan qiymətlidir,
Xoşladığın bütün şeylər ona tay deyil.
16 Onun sağ əlində uzun ömür,
Sol əlində sərvət və şərəf var.
17 Onun yolları bəyənilir,
Bütün yolları əmin-amandır.
18 Ona bağlananlar üçün o, həyat ağacıdır,
Ondan möhkəm yapışanlar nə bəxtiyardır!
19 Rəbb dünyanın təməlini hikmətlə qurub,
Dərrakə vasitəsilə göyləri bərqərar edib.
20 Biliyi ilə dərinliklər yarılıb,
Göylərdən şeh çilənir.

Qonşularla davranış

21 Oğlum, sağlam şüura, dərrakəyə bağlan,
Bunlardan gözünü çəkmə.
22 Onlar sənin həyatın olar,
Gözəl naxış kimi boynuna bağlanar.
23 O zaman rahat gəzərsən,
Ayaqların büdrəməz.
24 Qorxusuz, rahat yatarsan,
Şirin yuxu taparsan.
25 Qəfil fəlakətdən,
Pislərə gələn bəladan qorxma.
26 Çünki güvəndiyin Rəbdir,
O qoymaz ki, sən tələyə düşəsən.
27 Əlindən yaxşılıq gəlirsə,
Buna layiq insanlardan əsirgəmə.
28 İmkanın varsa, qonşuna demə:
«Sonra gələrsən, sabah verərəm».
29 Yanında sakit yaşayan qonşun üçün

---

[d]**3:4** 1Şam. 2:26; Sül. 3:4; Luka 2:52 [e]**3:7** Rom. 12:16
[f]**3:11** İbr. 12:5-6; Əyy. 5:17 [g]**3:12** Vəhy 3:19

Şər qurma.
30 Sənə pislik etməyənlə
Nahaq yerə çəkişmə.
31 Zorakıya qibtə etmə,
O gedən yolların heç birini seçmə.
32 Çünki azğınlar Rəbdə ikrah
yaradar,
Rəbb əməlisalehlərlə dost olar.
33 Rəbb pislərin ocağına lənət edər,
Salehlərin yurduna xeyir-dua verər.
34 [h]Rəbb rişxəndçilərə istehza edər,
İtaətkarlara isə lütf göstərər.
35 Hikmətlilər şərəfi irs alacaq,
Axmağın nəsibi şərəfsizlik olacaq.

Hikmətin üstünlüyü

4 Ey oğullar, atanızın verdiyi tərbiyə
qulağınızda qalsın,
İdrakı dərk etmək üçün diqqətli olun.
2 Çünki sizə yaxşı dərs verirəm,
Təlimimi atmayın.
3 Mən ata ocağında uşaq olanda,
Anamın yeganə balası olanda
4 Atam mənə təlim verərək dedi:
«Qoy qəlbin sözümə möhkəm
bağlansın,
Əmrlərimə əməl et ki, ömrün uzun
olsun.
5 Hikmət qazan, idrak qazan,
Sözlərimi unutma, sözümdən çıxma.
6 Hikmətdən ayrılmasan, o səni
qoruyar,
Əgər onu sevsən, səni saxlayar.
7 Hikmət hər şeydən üstündür, gərək
onu qazanasan,
İdraka sahib olmaq üçün var-yoxunu
verəsən.
8 Onu üstün tutsan, səni ucaldar,
Əgər ona bağlansan, səni şərəfə
çatdırar.
9 O sənin başının gözəl çələngi olar,
Başına şərəf tacı qoyar».
10 Oğlum, məni dinlə,
Sözlərimi qəbul etsən, ömrünü
uzadarsan.
11 Sənə hikmət yolunun təlimini
verirəm,
Düz yolda gəzdirirəm.
12 Gedəndə addımların büdrəməz,
Qaçanda ayaqların sürüşməz.
13 Aldığın tərbiyəyə bağlan, ayrılma,
Onu saxla, o sənin həyatındır.
14 Pislərin yoluna ayaq basma,
Şər insanın yolu ilə getmə.
15 Çəkil, bu yolun yaxınından belə,
keçmə,
Uzaq dur, başqa bir səmtdən yolu keç.
16 Çünki şər adamlar pislik etməsələr,
Yata bilməzlər.
Kimisə yıxmasalar, yuxuları qaçar.
17 Şərin çörəyini yeyərlər,
Zorakılığın şərabını içərlər.
18 Salehlərin yolu isə dan yeri tək
şəfəq saçar,
Nurunu artıraraq gündüzə qovuşar.
19 Pislərinsə yolu zülmətdir,
Onlar nəyə görə büdrədiklərini
bilməzlər.
20 Oğlum, sözlərimə fikir ver,
Dediklərimə qulaq as.
21 Onları gözlərinin önündən ayırma,
Onları ürəyində qoru.
22 Çünki onları tapanlar
Həyat və cansağlığı tapar.
23 Hər şeydən əvvəl öz ürəyini qoru,
Çünki həyat çeşməsi odur.
24 Əyri danışığı ağzından götür,
Azğın dodaqları özündən uzaqlaşdır.
25 Gözlərin irəliyə baxsın,
Düppədüz qarşına nəzər sal.
26 [i]Getdiyin yolu düzəlt,
Yollarını sahmana sal.
27 Nə sağa, nə də sola dön,
Ayağını pislikdən çək.

---

[h]**3:34** Yaq. 4:6; 1Pet. 5:5 [i]**4:26** İbr. 12:12-13

Əxlaqsızlıqdan uzaqlaş

5 Oğlum, mənim hikmətimə diqqət yetir,
Qulağını müdrik sözlərimə tərəf çevir.
2 Onda dərrakəyə bağlanarsan,
Dilin biliyi kənara atmaz.
3 Əxlaqsız qadının dodağından sanki bal axır,
Dili şirin, yağdan yumşaqdır.
4 Amma aqibəti yovşan kimi acıdır,
İkiağızlı qılınc kimi kəskindir.
5 Onun ayaqları ölümə aparır,
Onun addımları ölülər diyarına çatır.
6 Həyat yoluna fikir vermir,
Yolları dolaşıqdır, özü də bilmir.
7 İndi, ey övladlar, mənə qulaq asın,
Dilimdən çıxan sözlərdən yayınmayın.
8 Belə qadından uzaq ol,
Evinin qapısına yaxın getmə.
9 Yoxsa şərəfini yadlara verərsən,
Ömrünü zalımlara sərf edərsən.
10 Sənin var-yoxunu yadlar yeyər,
Qazancın özgənin evinə gedər.
11 Ömrünün sonu çatanda,
Canında taqət qalmayanda
Ah-nalə çəkərək belə deyərsən:
12 «Mən də tərbiyəyə nifrət etdim,
Ürəyimdə məzəmmətlərə güldüm!
13 Müəllimimin sözünə baxmadım,
Tərbiyəçilərimə qulaq asmadım.
14 Camaatın və icmanın arasında
Az qala hər cür bəlaya düşəcəkdim».

Arvadına vəfalı ol

15 Öz su anbarından,
Öz quyunun içməli suyundan iç.
16 Niyə sənin qaynaqların küçələrə,
Su arxların meydanlara axıb getsin?
17 Onlar yalnız sənindi olsun,
Yadlara paylama.
18 Qoy çeşmən bərəkətli olsun,
Gənc ikən evləndiyin arvadınla xoşbəxt yaşa!
19 Sevimli maralın, gözəl ceyranın
Həmişə səni öz döşləri ilə doydursun,
Onun eşqi ilə məst ol.
20 Oğlum, niyə əxlaqsız qadınla məst olmalısan,
Yad arvadı qoynuna almalısan?
21 İnsanların yolları Rəbbin gözü qarşısındadır,
Onların hər addımlarını yoxlayır.
22 Şər insan öz təqsirlərinə görə tutular,
Günahının kəməndinə dolanar.
23 Tərbiyəsizliyi üzündən həlak olar,
Hədsiz səfehliyi üzündən azar.

Tələlərdən ehtiyatlı ol

6 Oğlum, qonşuna zamin durub,
Yadlarla əlbir olub,
2 Ağzından çıxan sözlərlə tələyə düşmüsənsə,
Ağzından çıxan sözlərlə ələ keçmisənsə,
3 Demək bu qonşunun əlinə düşmüsən.
Oğlum, çalış, özünü qurtar:
Get onun ayağına düş, yalvar-yaxar.
4 Qoy gözünə yuxu getməsin,
Kirpiklərin ağırlaşmasın.
5 Özünü ovçunun əlindən ceyran kimi,
Quşbazın əlindən quş kimi qurtar.
6 Ey tənbəl, qarışqalara diqqət yetir,
Onların həyatından ibrət götür.
7 Onların nə başçıları var,
Nə nəzarətçiləri, nə də hökmdarları.
8 Yayda azuqələrini yığar,
Biçin vaxtı özlərinə yem toplayarlar.
9 Ey tənbəl, nə qədər yatacaqsan?
Nə vaxt yuxudan oyanacaqsan?
10 [j]Bir az da uzanıb yuxuya dalsan,
Əl-qolunu uzadaraq yatsan,
11 Yoxsulluq soyğunçu kimi üstünə gələr,
Ehtiyac quldur kimi sənə hücum çəkər.
12 Yaramaz adam – şər insan

---

[j]**6:10** Sül. 24:33-34

Əyri danışaraq dolanar,
13 Göz vurar, ayaqları ilə işarə edər,
Barmaqları ilə göstərər.
14 Qəlbinin məkrli niyyəti var,
Həmişə şər qurar, nifaq salar.
15 Ona görə başına qəfildən bəla gələr,
Birdən yıxılıb çarəsiz qalar.
16 Rəbbin zəhləsi altı şeydən gedir,
Yeddi şey var, ondan ikrah edir:
17 Təkəbbürlə baxan gözlər;
Yalan danışan dil;
Nahaq qan tökən əllər;
18 Məqsədi şər olan ürək;
Şərə çatmaq üçün qaçan ayaqlar;
19 Nəfəsini yalanla çıxaran yalançı şahid;
Qardaşlar arasında nifaq salan şəxs.

Zinaya qarşı xəbərdarlıq

20 Oğlum, atanın əmrini yerinə yetir,
Ananın öyrətdiklərini atma.
21 Onları qəlbinin başına yapışdır,
Həmişə onları boynuna bağla.
22 Gəzəndə onlar sənə yol göstərər,
Yatanda səni hifz edər,
Oyananda sənə məsləhət verər.
23 Bu əmr çıraqdır, bu təlim nurdur,
Tərbiyə üçün edilən məzəmmət həyat yoludur.
24 Bunlar səni pozğun qadından,
Şirindilli yad arvaddan qoruyar.
25 Onun gözəlliyinə aşiq olma,
Onun kirpiklərinin əsiri olma.
26 Fahişənin üzündən insan bir tikə çörəyə möhtac qalar,
Kiminsə zinakar arvadı insanın qiymətli canını ovlar.
27 Bir kişi qoynuna od alanda
Əyin-başı yanmazmı?
28 Köz üzərində gəzənin
Ayaqları bişməzmi?
29 Qonşusunun arvadının yanına girənin də halı belədir,
O qadına toxunan cəzasını çəkər.
30 Qarnını doydurmaq üçün ac oğru oğurlarsa,
Kimsə onu qınamaz.
31 Amma onu tutsalar, yeddi qat ödəməlidir,
Evinin var-yoxunu verməlidir.
32 Qadınla zina edən qanmazdır,
Özünü məhv etmək istəyən belə edər.
33 Bu kişinin nəsibi kötək, şərəfsizlikdir,
Biabırçılığı üzərindən silinməz.
34 Çünki ərini qeyrət coşdurar,
Ondan amansızcasına qisas alar.
35 Heç nə ilə ərinin qarşısını almaq olmaz,
Nə verilsə belə, o razılaşmaz.

Əxlaqsız qadının hiyləsi

7 Oğlum, sözlərimə bağlı qal,
Əmrlərimi özündə saxla.
2 Əmrlərimə bağlı qalsan, yaşayacaqsan,
Təlimimi göz bəbəyin kimi qoru.
3 Onları üzük kimi barmağına keçir,
Ürəyinin lövhəsinə köçür.
4 Hikmətə de: «Bacımsan»,
İdraka söylə: «Yaxın dostumsan».
5 Onlar səni əxlaqsız qadından,
Şirindilli yad arvaddan qoruyar.
6 Evimin pəncərəsinin şəbəkəsindən
Mən bayıra baxırdım.
7 Bir dəstə cahil gənc arasında
Qanmaz bir cavanı gördüm.
8 Bu qadının evinin tininə yaxın küçədən keçirdi,
Onun evi olan yolla gedirdi.
9 Alaqaranlıqda, gün batanda,
Gecə düşəndə, hava qaralanda.
10 Fahişə libaslı, qəlbi fitnə dolu bu qadın
Dərhal onu qarşıladı.
11 O hay-küyçüdür, o bihəyadır,
Öz evində oturmayandır.
12 Gah küçəyə, gah meydanlara çıxar,
Hər tin başı bir pusqu qurar.
13 O, oğlanı tutub öpdü,
Həyasızcasına belə dedi:

14 «Ünsiyyət qurbanı kəsməyə borclu idim,
Əhdimə bu gün əməl etmişəm.
15 Ona görə səni görmək üçün qarşına çıxdım,
Səni çox axtardım, axır ki tapdım.
16 Yatağıma Misir kətanından toxunan
Əlvan üz çəkmişəm.
17 Yorğan-döşəyimə
Mirra, əzvay, darçın səpmişəm.
18 Gəl sübhə qədər doyunca sevişək,
Eşqdən məst olaq.
19 Ərim evdə yoxdur,
Uzaq bir səfərə gedib.
20 Pul kisəsini götürüb,
Evə ay bədirlənəndə qayıdacaq».
21 Fəndlər işlədib onu tovladı,
Şirin dilə tutub yoldan çıxartdı.
22 Kəsilməyə aparılan bir öküz kimi,
Kəməndə salınan bir maral kimi
Bu oğlan o qadının ardınca düşdü.
23 Axırda ciyərinə bir ox saplanacaq.
Uçub tez tora düşən quş kimi
Bu oğlan da canının alınacağını bilmirdi.
24 İndi, ey övladlar, mənə qulaq asın,
Dilimdən çıxan sözlərə laqeyd olmayın.
25 Qoyma qəlbin o qadının yollarına meyl etsin,
Onun yoluna dönmə.
26 Çünki o qadın nə qədər insanı qurban edib,
Nə qədər adamı öldürüb.
27 Onun evinin yolu ölülər diyarına aparır,
Ölüm mənzilinə gedib çatır.

Hikmətin nitqi

8 [k]Məgər hikmət çağırmırmı,
Məgər dərrakə səsləmirmi
2 Uca yerlərdə, yol kənarında,
Yollar ayrıcında dayanıb?
3 Darvazaların yanında, şəhərin qarşısında,
Qapıların kandarında çağırır:
4 «Ey insanlar, mən sizi səsləyirəm,
Ey bəşər övladları, sizə xitab edirəm.
5 Ey cahillər, uzaqgörən olun,
Ey axmaqlar, ağıllanın.
6 Dinləyin, əla şeylərdən danışıram,
Dilimdən düz sözlər çıxır.
7 Ağzım həqiqət söyləyir,
Dilim şərdən iyrənir.
8 Ağzımdan yalnız salehlik sözləri çıxır,
Sözlərimdə nə əyrilik, nə də ki yalan var.
9 Anlayanlar üçün hər şey aydındır,
Bilik qazananlar üçün bu bir həqiqətdir.
10 Gümüşü yox, tərbiyəmi qəbul edin,
Saf qızıldan çox biliyi seçin.
11 Çünki hikmət yaqutdan qiymətlidir,
İnsanın könlü istəyən şeylər ona tay deyil.
12 Mən hikmətəm, uzaqgörənlik məndə məskən salıb,
Biliyi, dərrakəni tapmışam.
13 Rəbb qorxusu pisliyə nifrət etməkdir,
Lovğalığa, təkəbbürə, pis yola,
Hiyləli dilə nifrət edərəm.
14 Nəsihət, sağlam şüur mənimdir,
İdrak mənəm, qüvvəm var.
15 Mənim vasitəmlə şahlar hökmranlıq edir,
Hökmdarlar ədalətli fərman verir.
16 Ədalətli hakim olan bütün başçılar və əsilzadələr
Mənim vasitəmlə hökm verir.
17 Məni sevənləri sevirəm,
Məni səylə axtaran tapır.
18 Sərvət və şərəf,
Dağılmaz var-dövlət və salehlik yanımdadır.

---

[k]**8:1** Sül. 1:20-21

19 Barım qızıldan, saf qızıldan
dəyərlidir,
Bəhərim gümüşdən qiymətlidir.
20 Mən salehlik yolunda,
Ədalət yollarının ortasında gəzərəm.
21 Məni sevənləri sərvətə çatdıraram,
Xəzinələrini dolduraram.
22 [l]Rəbb Öz yolunun başlanğıcında,
Hər işindən əvvəl mənə malik oldu.
23 Yaradılışın əzəlindən,
Dünya yaranmazdan əvvəl mən var
idim.
24 Dərin sular olmazdan əvvəl,
Bol sulu çeşmələr olmazdan əvvəl
doğulmuşam.
25 Dağlar yaradılmazdan əvvəl,
Təpələr mövcud olmazdan əvvəl
təvəllüd tapmışam.
26 Rəbb dünyanı, çölü-düzü,
torpaqları yaradanda,
27 Göyləri yaradanda,
Dərinliyin üzü üstündə bir dairə
çəkəndə,
28 Buludları yuxarıda yerləşdirəndə,
Dərinlikdə bulaqları bağlayanda,
29 Sular əmrindən çıxmasın deyə
dənizə sədd çəkəndə,
Yerin bünövrələrini təyin edəndə
30 Rəbbin yanında memar idim.
Hər gün fərəhlənirdim,
Hüzurunda həmişə sevinirdim.
31 Yaratdığı aləmə görə sevinirdim,
Bəşər övladlarına görə fərəhlənirdim.
32 İndi, ey övladlar, mənə qulaq asın:
Yoluma bağlı qalan nə bəxtiyardır!
33 Verdiyim tərbiyəyə qulaq asın,
Hikmət alın, onu bir tərəfə atmayın.
34 Mənə qulaq asan,
Hər gün darvazalarım qarşısında
duran,
Qapılarımda dayanıb gözləyən nə
bəxtiyardır!
35 Çünki məni tapan həyat tapar,
Rəbbi razı salar.
36 Məni əldən verən canına qəsd edər,
Mənə nifrət edənlərin hamısı ölümü
sevər».

Hikmət yolu

9 Hikmət evini qurub,
Yeddi dirəyini yonub,
2 Heyvanlarını kəsib,
Şərabını hazırlayıb,
Süfrəsini də düzəldib.
3 Göndərdiyi kənizlər
Şəhərin uca yerlərindən car çəkərlər:
4 «Gəlin bura, ey cahillər!»
Qanmazlara belə deyərlər:
5 «Gəlin, çörəyimdən yeyin,
Hazırladığım şərabdan için.
6 Cəhaləti atın, ömür sürün,
İdrak yolu ilə düz gedin».
7 Rişxəndçini tənqid edən özünü
rüsvayçılığa salar,
Şər adamı danlayan axırda ləkələnər.
8 Rişxəndçini danlama, yoxsa sənə
nifrət edər,
Müdrik insanı danlasan, səni sevər.
9 Hikmətliyə öyüd versən, hikmətini
artıracaq,
Salehə bilik öyrətsən, müdrikliyini
çoxaldacaq.
10 [m]Rəbb qorxusu hikmətin
başlanğıcıdır,
Müqəddəsi tanımaq idraklı olmaqdır.
11 Hikmətin vasitəsilə ömrün-günün
çoxalar,
Həyatına illər əlavə olar.
12 Əgər hikmət qazansan, özünə xeyir
verərsən,
Əgər rişxənd etsən, zərərini özün
çəkərsən.

Axmaqlıq yolu

13 Axmaq qadın hay-küy salır,
Cahildir, heç nə qanmır.
14 O, evinin qapısı önündə oturub,

---

[l] **8:22** Vəhy 3:14-15 [m] **9:10** Əyy. 28:28; Zəb. 111:10; Sül. 1:7

Şəhərin uca yerlərində kətil üstə
əyləşib,
15 Yoldan ötənləri,
Düz yolda olanları çağırır:
16 «Bura gəlin, ey cahillər!»
Qanmazlara belə deyir:
17 «Oğurluq su şirin olar,
Gizli yeyilən çörəyin başqa ləzzəti
var».
18 Lakin yanına gələnlər bilməzlər ki,
Orada ölüm var,
Bu qadının çağırdıqları ölülər
diyarının dərinliyindədir.

Məsəllər

10 Süleymanın məsəlləri:
Hikmətli oğul atasını sevindirər,
Axmaq oğul anasına dərd gətirər.
2 Şər yolla yığılan xəzinədən fayda
götürmək olmaz,
Amma salehlik insanı ölümdən
qurtarar.
3 Rəbb saleh insanı ac qoymaz,
O, acgöz pisləri doydurmaz.
4 Tənbəlin əlləri onu yoxsullaşdırar,
Çalışqanın əli sərvət qazanar.
5 Ağıllı oğul yayda məhsul yığar,
Biçin vaxtı yatan oğul rüsvay olar.
6 Saleh insanın başından bərəkət
yağar,
Şər adamın dili zorakılığı gizli saxlar.
7 Saleh insanın adı xeyir-dua ilə
çağırılar,
Şər adamın adı isə çürüyər.
8 Qəlbən hikmətli olan əmrləri qəbul
edər,
Səfeh boşboğazlığı üzündən itib-batar.
9 Kamalla gəzib-dolaşan dinc yaşar,
Yolu əyri olanlar üzə çıxar.
10 Göz vuran başına bəla açar,
Səfeh boşboğazlığı üzündən itib-batar.
11 Salehin ağzı həyat qaynağı olar,
Amma şər adamın dili zorakılığı gizli
saxlar.
12 [n]Nifrət nifaq yaradar,
Lakin məhəbbət bütün günahları
örtər.
13 Dərrakəlinin dilindən hikmət
tökülər,
Qanmaz kürəyindən kötəklənər.
14 Hikmətli adamlar bilik toplar,
Səfehin boşboğazlığı onu bəlaya
yaxınlaşdırar.
15 Zənginin var-dövləti ona qalalı
şəhərdir,
Kasıbı yoxsulluq bəlaya salar.
16 Salehin mükafatı həyatdır,
Şər adamınsa qazancı günahdır.
17 Tərbiyəyə bağlanan həyat yolunda
olar,
Məzəmməti rədd edən yolunu azar.
18 Nifrətini gizlədən yalan danışar,
Axmaq hər yana böhtanlar yayar.
19 Çox sözlərlə günahı azaltmaq
olmaz,
Dilini saxlayan ağıllıdır.
20 Saleh insanın dili saf gümüşə oxşar,
Şər adamın qəlbinin dəyəri az olar.
21 Saleh öz dili ilə çox adamı
doydurar,
Səfeh qanmazlığı üzündən həlak olar.
22 Rəbbin xeyir-duası insana sərvət
gətirər,
Daha ona qüssə verməz.
23 Axmaq üçün şər iş görmək bir
əyləncədir,
Dərrakəlininsə hikməti var.
24 Şər adam nədən qorxursa, başına
gələr,
Saleh isə muradına çatar.
25 Qopan tufan şəri süpürüb aparar,
Salehin təməli əbədi qalar.
26 Dişlərə sirkə, gözlərə tüstü necə
təsir edirsə,
Tənbələ iş buyuran bunu elə hiss
edər.
27 Rəbb qorxusu ömür uzadar,
Şər insanların ömründən illər azalar.

---

[n]**10:12** Yaq. 5:19-20; 1Pet. 4:8

28 Salehləri sevinc gözlər,
Şər insanların ümidi boşa çıxar.
29 Kamilin pənahı Rəbbin yoludur.
Şər iş görənin başı bəla ilə doludur.
30 Saleh heç vaxt sarsılmaz,
Şər insanlar yer üzündə qalmaz.
31 Salehin ağzı hikmətlə çiçəklənər,
Hiyləli dillər kəsilər.
32 Saleh insanın dili razı salmağı bacarar,
Şər insanın ağzından hiyləli sözlər çıxar.

11 Aldadıcı tərəzi Rəbdə ikrah yaradar,
Rəbb düz çəki daşından razı qalar.
2 Lovğalıq gələndə şərəfsizlik gətirər,
Hikmət itaətkarın yanına gələr.
3 Əməlisalehi kamillik yolu aparar,
Xəyanətkar əyriliyindən məhv olar.
4 Heç kimi var-dövləti qəzəb günündən xilas etməz,
Amma salehlik insanı ölümdən qurtarar.
5 Kamil insanın yolunu salehliyi düz edər,
Şər adamı pisliyi yıxar.
6 Əməlisalehi salehliyi qurtarar,
Xaini acgözlüyü tələyə salar.
7 Şər insan ölər, ümidi də boşa çıxar,
Pislərin arzusu itib-batar.
8 Saleh dardan qurtular,
Onun yerinə pis insan dara düşər.
9 Allahsızın dili qonşusunu məhv edər,
Bilik salehi xilas edər.
10 Salehlər xeyrə çatanda bütün şəhər şad olar,
Şər adamlar öləndə sevinc harayı qalxar.
11 Əməlisalehlərin alqışı şəhəri şərəfə çatdırar,
Lakin şərin qarğışı oranı viran qoyar.
12 Qanmaz qonşusuna xor baxar,
Dərrakəli insan dinc dayanar.
13 Sözgəzdirən sirləri açıb yayar,
Etibarlı adam sözü gizli saxlar.
14 Düz məsləhət verilməyən yerdə xalq yıxılar,
Doğru nəsihət verən çoxdursa, xalq qurtuluşa çatar.
15 Özgəyə zamin duran özünü bəlaya salar,
Belə zaminlikdən zəhləsi gedən dinc yaşar.
16 Mehriban qadın şərəfdən,
Zalım insan isə sərvətdən yapışar.
17 İnsanın sadiqliyi ona xeyir gətirər,
Qəddar adam özünə əzab verər.
18 Şər adam saxta mükafat qazanar,
Salehlik toxumu əkən, həqiqətən, onun əvəzini alar.
19 Sidq ürəkdən saleh olan həyata qovuşar,
Şərin ardınca düşən ölümə çatar.
20 Əyri ürəkli olmaq Rəbdə ikrah yaradar,
O, yolu kamil olanlardan razı qalar.
21 Doğrudan da, pis cəzasız qalmaz,
Salehlərin nəsli xilas olar.
22 Bir gözəl qadının xoş rəftarı olmazsa,
Burnuna qızıl halqa taxılmış donuza bənzər.
23 Salehlər yalnız yaxşılıq arzular,
Şər adama qəzəb nəsib olar.
24 Əliaçıq adamın bərəkəti artar,
Başqasının qazancını yeyən ehtiyaca düşər.
25 Comərd bolluğa yetişər,
Su verənə su verilər.
26 Taxılı anbarda gizlədənə camaat lənət oxuyar,
Onu satanın başına bərəkət yağar.
27 Səylə yaxşılığın ardınca gedən lütf axtarar,
Şər ardınca düşən isə başını bəlaya salar.
28 Sərvətinə güvənənlər yıxılar,
Salehlər isə yaşıl yarpaq kimi təzələnər.
29 Külfətini əzaba salanın nəsibi yel tək sovrular,

Qəlbində hikmət olana səfeh qul olar.
30 Salehin barı həyat ağacıdır,
Hikmətli insan canları qurtarar.
31 [o]Əgər bu dünyada salehlərə belə,
cəza verilirsə,
Pislərə, günahkarlara gör nə qədər
cəza verilər!

12 Tərbiyəni sevən biliyi sevər,
Məzəmmətə nifrət edən
şüursuzdur.
2 Rəbb yaxşı adamdan razı qalar,
Pisniyyət adamı isə məhkum edər.
3 İnsan şərlə möhkəm olmaz,
Salehinsə kökü sarsılmaz.
4 Xeyirxah arvad ərinin tacıdır,
Adbatıran qadın çürümüş sümüyə
oxşar.
5 Salehlərin məqsədi ədalətdir,
Şər insanların məsləhəti
hiyləgərlikdir.
6 Şər adamların sözləri ölüm üçün
pusqu qurar,
Əməlisalehlər dili ilə xilas olar.
7 Pislər yıxılıb məhv olar,
Salehin evi dağılmaz.
8 İnsan ağıllı sözlərinə görə təriflənər,
Qəlbində hiylə olanlara xor baxılar.
9 Şöhrətsiz, lakin qul sahibi olan insan
Lovğalanan, lakin çörəyə möhtac
adamdan yaxşıdır.
10 Saleh insan hətta heyvanlarının
ehtiyacını duyar,
Şər insanın mərhəmətində də zalımlıq
var.
11 Torpağını əkib-becərən doyunca
çörək yeyər,
Qanmaz boş şeylərin ardınca gedər.
12 Şər adam pislərin şikarına qibtə
edər,
Salehin kökü pöhrələnər.
13 Pis adamı itaətsiz dili tələyə salar,
Saleh dara düşsə də, oradan salamat
qurtarar.
14 İnsanın dilindən yaxşı söz çıxarsa,
bol xeyir tapar,
Əlinin zəhmətinin əvəzini alar.
15 Səfehin yolu öz gözündə düz
görünər,
Hikmətli adam nəsihəti dinlər.
16 Səfeh dərhal qəzəbini üzə verər,
Uzaqgörən şərəfsizliyin üstünü örtər.
17 Doğru şahid həqiqəti danışar,
Yalançı şahid hiylə qurar.
18 Düşünmədən danışanın dili qılınc
kimi yaralar,
Hikmətlinin dili isə insanları sağaldar.
19 Düz söz əbədi yaşar,
Yalanın ömrü az olar.
20 Şər quranın qəlbində hiylə olar,
Nəsihət verib sülhə çağıran sevinc
tapar.
21 Saleh heç vaxt bəlaya düşməz,
Pislərin başı bəla ilə dolu olar.
22 Rəbb yalançı dilə ikrah edər,
Həqiqəti yerinə yetirənlərdən isə razı
qalar.
23 Uzaqgörən bildiyini özü üçün
saxlar,
Axmaq qəlbinin səfehliyini hamıya
yayar.
24 Çalışqanın əli özünü ağa edər,
Tənbəllik insanı qula çevirər.
25 Qəlbi narahat olanın qəddi əyilər,
Xoş söz könlü şad edər.
26 Saleh insan qonşusuna da yol
göstərər,
Lakin şər insanın yolu dolaşıqdır.
27 Tənbəlin əlinə ov düşsə də, onu
bişirməz,
Çalışqan qiymətli sərvətə çatar.
28 Salehliyin yollarında həyat var,
Kim bu yolla getsə, orada ölüm
tapmaz.

13 Hikmətli oğul ata tərbiyəsinə
qulaq asar,
Rişxəndçi iradı qulaq ardına vurar.

---

[o]**11:31** 1Pet. 4:18

2 İnsanın dilində yaxşı söz olsa, onun
xeyrini yeyər,
Xain zorakılıq istər.
3 Dilini saxlayan canını qoruyar,
Boşboğaz başını bəlaya salar.
4 Tənbəl arzuladığına çatmaz,
Çalışqan bolluğa qovuşar.
5 Saleh adam yalana nifrət edər,
Şər insanın sözləri xəcalət və
rüsvayçılıq gətirər.
6 Kamillik yolunda olanı salehlik
qoruyar,
Günahkarı şər yıxar.
7 Adam var ki, heç nəyi yoxdur, özünü
varlı göstərir,
Adam var ki, malı çoxdur, özünü
yoxsul göstərir.
8 Sərvət insanın canını təhlükədən
qurtarar,
Yoxsul isə hədə-qorxu eşitməz.
9 Saleh insanların işığı könlü
sevindirər,
Şər insanların çırağı sönər.
10 Təkəbbürdən ancaq münaqişə
yaranar,
Yaxşı nəsihətə qulaq asanın hikməti
var.
11 Kələklə gələn sərvət azalar,
Zəhmətlə qazanılan sərvət isə artar.
12 Gecikən ümid ürəyi xəstələndirir,
Arzuya çatmaq həyat ağacıdır.
13 Öyüdə xor baxan öz canını həlak
edər,
Əmrə ehtiram edənlərə mükafat
verilər.
14 Hikmətli adamın təlimi həyat
qaynağıdır,
İnsanı ölüm tələsinə düşməkdən geri
qaytarır.
15 Dərin ağlı olan lütf qazanır,
Xainin yolu dolaşıqdır.
16 Uzaqgörən hər gördüyü işi bilir,
Axmaq öz səfehliyini hamıya göstərir.
17 Pis qasid bəlaya düşər,
Etibarlı elçi şəfa verər.
18 Tərbiyəni rədd edən yoxsullaşıb
şərəfdən düşər,
Məzəmməti qəbul edən şərəfə yetişər.
19 Arzuya çatmaq qəlbə, cana şirin
gələr,
Axmaq pislikdən dönməyə ikrah edər.
20 Hikmətli ilə oturub-duran hikmət
qazanar,
Axmaqlarla ayaqlaşan bədbəxt olar.
21 Günahkarı şər qovar,
Salehin yaxşı bir əvəzi var.
22 Yaxşı insan nəvələrinə də irs qoyar,
Günahkarın yığdığı sərvət salehə
qalar.
23 Yoxsulların əkini bol bəhrə versə
də,
Ədalət olmayan yerdə bada gedər.
24 Oğlundan kötəyi əsirgəyən sanki
ona nifrət edər,
Oğlunu sevən ona düzgün tərbiyə
verər.
25 Saleh yeyib doyar,
Şər adamsa ac qalar.

14 Hikmətli qadın evini qurar,
Səfeh qadın onu öz əli ilə uçurar.
2 Düz yol tutan Rəbdən qorxar,
Yolunu azan Ona xor baxar.
3 Səfeh lovğa sözlərinə görə kötək
qazanar,
Hikmətlinin dili onu qoruyar.
4 Öküz olmayan yerdə axur təmiz
olar,
Amma bol məhsul öküzün gücü ilə
yaranar.
5 Doğru şahid yalan deməz,
Yalançı şahid yalandan üzə durar.
6 Rişxəndçi hikmət axtaranda onu
tapmaz,
Dərrakəli adama bilik tapmaq asan
olar.
7 Axmağın qarşısından çəkil,
Onun dilində ağıllı söz tapmazsan.
8 Uzaqgörən hikməti ilə öz yolunu
anlar,
Axmaq səfehliyi ilə öz-özünü aldadar.
9 Səfehlər günaha rişxənd edər,

Əməlisalehlər bir-birini məmnun
edər.
10 Ürək öz dərdini bilər,
Özgələr onun sevincinə şərik olmaz.
11 Şərin evi tar-mar olar,
Əməlisalehlərin yurdu çiçək açar.
12 [p]Yol var ki, insanın qarşısında düz
görünür,
Amma sonu ölümdür.
13 Ürək güləndə də qəmli olar,
Sevincin sonunda da kədər var.
14 Azğın ürəklilər öz yollarının
bəhrəsini doyunca yeyir,
Yaxşı adam isə əməlinin əvəzini alır.
15 Cahil hər sözə inanar,
Uzaqgörən hər addımına nəzər salar.
16 Hikmətli qorxub pislikdən dönər,
Axmaq ehtiyatsızdır, özünə güvənər.
17 Hövsələsiz səfeh-səfeh iş görər,
Pisniyyət adama nifrət edilər.
18 Cahil səfehliyi irs alar,
Uzaqgörənin başına bilik tacı qoyular.
19 Pislər yaxşıların qarşısında,
Şər adam isə salehin qapısında əyilər.
20 Yoxsula qonşusu da nifrət edər,
Zəngini isə çox adam sevər.
21 Qonşusuna xor baxan günaha batar,
Məzluma səxavət göstərən nə
bəxtiyardır!
22 Şər quranlar yolundan azmırlarmı?
Məqsədi xeyirxahlıq olan
xeyirxahlığa, sədaqətə çatar.
23 Hər zəhmətdə bir fayda var,
Boş sözlər insanı ehtiyac içində qoyar.
24 Hikmətlinin başına sərvət tacı
qoyular,
Axmaqlar səfehliyi ilə tanınar.
25 Doğru şahid canları qurtarar,
Yalançı şahid hiylə qurar.
26 Rəbdən qorxan tam arxayındır,
Çünki Rəbb onun övladlarının
pənahıdır.
27 Rəbb qorxusu həyat qaynağıdır,
İnsanı ölüm tələsinə düşməkdən geri
qaytarır.
28 Padşahın əzəməti xalqın çoxluğu
ilə bilinər,
Əgər təbəələri olmasa, hökmdar süqut
edər.
29 Gec qəzəblənənin böyük dərrakəsi
var,
Hövsələsizlərdən səfehlik çıxar.
30 Ürəyin rahatlığı cana həyat verər,
Paxıllıqsa sümükləri çürüdər.
31 Kasıba zülm edən Yaradanına xor
baxar,
Yoxsula lütf göstərən Ona hörmət
edər.
32 Şər adam pisliyi üzündən qovular,
Salehin ölümündə belə, pənahı var.
33 Hikmət dərrakəlinin qəlbində
özünə rahat yuva qurar,
Hətta axmaqların arasında da bəlli
olar.
34 Salehlik bir milləti ucaldar,
Günah ümmətləri utandırar.
35 Padşah ağıllı qulundan razı qalar,
Adbatıransa onun qəzəbinə düçar
olar.

15 Həlim cavab hirsi yatırar,
Sərt söz qəzəbi alovlandırar.
2 Hikmətlinin dili biliyi mədh edər,
Axmaqların dilindən səfehlik tökülər.
3 Rəbbin gözü hər yerə baxar,
Pislərə, yaxşılara nəzər salar.
4 Şəfa gətirən dil həyat ağacıdır,
Əyri dil ürək qırar.
5 Səfeh ata tərbiyəsini ələ salar,
Məzəmməti qəbul edən uzaqgörən
olar.
6 Salehin evində böyük xəzinə yaşar,
Şər insanın isə gəlirində əzab var.
7 Hikmətlinin dili bilik səpələyir,
Axmağın qəlbi bunu edə bilmir.
8 Rəbb şər insanın etdiyi qurbandan
ikrah edir,

---

[p]**14:12** Sül. 16:25

Əməlisalehlərin duasından isə razı
qalır.
9 Rəbb şər insanın yollarından ikrah
edər,
Amma salehliyin ardınca gedəni
sevər.
10 Düz yolu buraxana şiddətli töhmət
verilər,
Məzəmmətə nifrət edənə ölüm gələr.
11 Ölüm və Həlak yeri Rəbbə aşkardır,
Gör O, insan ürəyindən necə agahdır.
12 Rişxəndçi iradı sevməz,
Hikmətlilərin yanına gəlməz.
13 Qəlbin sevinci üzü xoş edər,
Ürəyin kədəri könlü sındırar.
14 Dərrakəlinin könlü bilik axtarar,
Axmaqların ağzı səfehliklə qidalanar.
15 Məzlumun hər günü qaradır,
Ürəyi bəxtəvərin elə bil daima ziyafəti
var.
16 Rəbb qorxusu ilə qazanılan az şey
Qayğı ilə yığılan böyük xəzinədən
yaxşıdır.
17 Sevgi dolu bir yerdə göyərti yemək
Nifrət dolu bir yerdə yağlı dana əti
yeməkdən yaxşıdır.
18 Kəmhövsələ dava yaradar,
Səbirli münaqişəni sovuşdurar.
19 Tənbəlin yolunu tikanlar basar,
Əməlisalehlərin yolu baş yoldur.
20 Hikmətli oğul atasını sevindirər,
Axmaq anasına xor baxar.
21 Qanmaz səfehlikdən sevinər,
Dərrakəli düz yolla gedər.
22 Məsləhətsiz niyyət boşa çıxar,
Doğru nəsihət verən çoxdursa, uğur
qazandırar.
23 İnsan münasib cavab versə, şad
olar,
Sözü yerində demək nə yaxşıdır!
24 Ağıllı insan aşağıdan – ölülər
diyarından ayrılmaq üçün
Həyat yolunu tutub yuxarı gedər.
25 Rəbb təkəbbürlünün evini yıxar,
Dul qadının sərhədini qoruyar.
26 Pislərin məqsədləri Rəbdə ikrah
yaradar,
Ona xoş gələnlərin sözlərini təmiz
sayar.
27 Tamahkar külfətini əzaba salar,
Rüşvətə nifrət edənin ömrü uzun olar.
28 Saleh insan cavab verməzdən əvvəl
qəlbində düşünər,
Şər insanın dilindən pislik tökülər.
29 Rəbb şər adamdan gen dayanar,
Saleh insanların duasına qulaq asar.
30 Nurlu gözlər qəlbi sevindirər,
Yaxşı xəbər qəddi düzəldər.
31 Həyatverici məzəmmətə qulaq asan
Hikmətlilərin içərisində yaşar.
32 Tərbiyəni rədd edən öz canına xor
baxar,
Məzəmmətə qulaq asan anlayış
qazanar.
33 Rəbb qorxusu hikmət tərbiyəsi
verər,
İtaətkarlıq şərəfdən əvvəl gələr.

16 Ürəyin fikirləri insandan,
Dilin cavabı isə Rəbdəndir.
2 İnsanın bütün yolları öz gözündə
təmiz sayılar,
Lakin Rəbb ürəkləri yoxlar.
3 Görəcəyin işləri Rəbbə ver,
Onda niyyətlərin yerinə yetər.
4 Rəbb hər şeyi məqsədinə müvafiq
yaradıb,
O, pis insanı bəla günü üçün yaradıb.
5 Rəbb qəlbi təkəbbürlülərdən ikrah
edər,
Doğrudan da, onlar cəzasız qalmaz.
6 Xeyirxahlıq və sədaqət hər təqsiri
kəffarə edər,
İnsan Rəbb qorxusuna görə pislikdən
dönər.
7 Rəbb insanın həyatından razı
qaldısa,
Düşmənlərini belə, onunla barışdırar.
8 Salehliklə qazanılan az şey
Haqsız yolla olan bol gəlirdən
yaxşıdır.
9 İnsan ürəyində özü üçün yol qurar,

Amma Rəbbin verdiyi istiqamətlə
addımlar.
10 Padşah uzaqgörənliklə dilindən
sözlər çıxarar,
Qoy onda məhkəmədə ədalətdən yan
keçməsin.
11 Rəbb düzgün tərəzi və çəkini tələb
edər,
O, torbadakı hər çəki daşını müəyyən
edər.
12 Şər iş görmək padşahlarda ikrah
yaradar,
Çünki salehliklə taxtlar möhkəm olar.
13 Saleh adamın dili padşahları razı
salar,
Onlar düz danışanı sevər.
14 Padşahın hiddəti ölüm elçisidir,
Amma hikmətli insan bu hiddəti
yatırar.
15 Padşahın üzü nuranidirsə, demək,
həyat var,
Razılığı yaz yağışı gətirən buluda
oxşar.
16 Qızıldan çox hikmət qazanmaq
yaxşıdır,
Gümüşü yox, idrakı yığmaq üstün
tutular.
17 Əməlisalehlər pislikdən dönmək
yolunu tutar,
Yoluna diqqət edən canını qoruyar.
18 Əcəldən əvvəl təkəbbür gələr,
Fəlakətdən əvvəl lovğalıq ruhu gələr.
19 Məzlumlar arasında sadə qəlbli
olmaq
Təkəbbürlülərlə talan malı
bölüşdürməkdən yaxşıdır.
20 Sözdən hikmət alan xeyir tapar,
Rəbbə güvənən insan nə bəxtiyardır!
21 Qəlbində hikmət olan dərrakəli
adlanar,
Şirin dilli olan müdrikliyi artırar.
22 Ağıl insan üçün həyat çeşməsidir,
Axmağa tərbiyə vermək səfehlikdir.
23 Hikmətlinin ürəyi dilinə tərbiyə
verir,
Ağzındakı müdrik sözləri artıq edir.
24 Xoş sözlər sanki pətəkdə baldır,
Cana şirinlik, sümüklərə şəfadır.
25 [q]Yol var ki, insanın qarşısında düz
görünür,
Amma sonu ölümdür.
26 Əməkçi qarnı üçün zəhmət çəkir,
Aclıq onu məcbur edir.
27 Yaramaz şər quyusu qazar,
Dili alov kimi yandırıb-yaxar.
28 Hiyləgər adam dava yaradar,
Qeybətçi əziz dostları ayırar.
29 Zorakı qonşularını aldadar,
Onları yaxşı olmayan yola aparar.
30 Niyyəti hiyləli olan göz vurar,
Dodaq büzər, şər qurar.
31 Ağaran saçlar şərəf tacıdır,
Salehlik yolunun qazancıdır.
32 İgid olmaqdan səbirli olmaq
yaxşıdır,
Nəfsə hakim olmaq şəhəri almaqdan
üstündür.
33 Ətəyin üstünə püşk atılar,
Amma hökm Rəbdən gələr.

17 Quru bir loğması olan dinc ev
Münaqişəli olan, ziyafət dolu
evdən yaxşıdır.
2 Ağıllı nökər adbatıran oğlun ağası
olar,
Qardaşlar arasında miras payı alar.
3 Qızıl-gümüş isti kürədə yoxlanar,
Rəbb isə ürəyi araşdırar.
4 Pis adamın diqqəti şər ağızdadır,
Yalançı fitnəkarın sözlərinə qulaq
asır.
5 Yoxsula rişxənd edən Yaradanına
xor baxır,
Başqasının bəlasına sevinən cəzasız
qalmır.
6 Nəvələr ahılların tacıdır,
Oğulların şərəfi atalarıdır.

---

[q]**16:25** Sül. 14:12

7 Sarsağa bəlağətli *söz yaraşmadığı kimi
Əsilzadəyə də yalançı dil yaraşmaz.
8 Rüşvət verənin gözündə rüşvət bir tilsimdir,
Çünki hansı tərəfə getsə, uğur gətirir.
9 Günahı örtən məhəbbət axtarar,
Sözgəzdirən əziz dostları ayırar.
10 Qanan insan üçün bir irad
Axmağa vurulan yüz zərbədən də artıq təsir edir.
11 Pis insan ancaq üsyankarlıq axtarar,
Onun əleyhinə qəddar qasid göndərilər.
12 Balalarını itirmiş bir ayıya rast gəlmək
Səfahətə batmış axmaqla rastlaşmaqdan yaxşıdır.
13 Kim yaxşılıq əvəzinə pislik etsə,
Evindən pislik ayrılmaz.
14 Davanın başlanması su bəndinin açılmasına bənzər,
Dava başlanmamış münaqişəni tərk et.
15 Şərə haqq vermək, salehi məhkum etmək –
Hər ikisi Rəbdə ikrah yaradır.
16 Axmaq hikmət qazanmaq istəməz,
Bunun üçün pul sərf etmək fayda verməz.
17 Dost hər zaman sevər,
Qardaş dar gün üçün doğular.
18 Qanmaz başqası ilə əlbir olar,
O, qonşusuna zamin durar.
19 İtaətsizliyi sevən münaqişəni sevər,
Qapısını ucaldan əcəlini səslər.
20 Əyri ürəkli xeyir tapmaz,
Hiyləgər dilli insanı bəlaya salar.
21 Axmağın atası dərdə düşər,
Sarsağın atasının sevinci itər.
22 Ürək sevinci can üçün ən yaxşı məlhəmdir,
Könlün sınması sümükləri qurudar.
23 Şər qoltuğuna rüşvət götürər ki,
Ədalət yollarını pozsun.
24 Qanan adam hikmətə baxar,
Axmağın gözləri dünyanın o tayını axtarar.
25 Axmaq oğul atasına qəm-kədər verər,
Onu doğan anasını qubarladar.
26 Saleh insanı cərimə etmək yaxşı deyil,
Əsilzadəni düzlüyünə görə döymək yaxşı deyil.
27 Çoxbilən az danışar,
Müdrik həlimlik ruhunda olar.
28 Səfeh belə, sakit dayansa, hikmətli hesab edilər,
Ağzını yumsa, dərrakəli görünər.

18 Tənhalığı sevən niyyətinin ardınca düşür,
Sağlam şüura zidd gedir.
2 Axmaq dərrakəni deyil,
Fikrini ortaya tökməyi sevir.
3 Şər insanla hörmətsizlik,
Şərəfsizliklə rüsvayçılıq gələr.
4 Dilin sözlərindən dərin sular yaranar,
Hikmət qaynağından çay axar.
5 Məhkəmədə salehi haqsız çıxarmaq üçün
Pis adama tərəfkeşlik etmək yaxşı deyil.
6 Axmağın dili münaqişəyə girişər,
Ağzı özünü döydürər.
7 Axmağın ağzı onu bəlaya salar,
Dili canına tələ qurar.
8 Qeybətçinin sözləri şirin tikələrə bənzər,
Mədənin ən dərin yerlərinə düşər.
9 Ləng işləyən dağıdıcıya yoldaşdır.
10 Rəbbin adı qüvvətli bir qaladır,
Saleh qaçıb ona pənah aparır.
11 Varlı üçün sərvəti ona qala şəhəridir,
Öz gümanında özü üçün pənah hasarı tikir.

---

*17:7 *Bəlağətli* – inandırıcı, gözəl və aydın nitq.

12 Ürəyin təkəbbürü əcəldən əvvəl gələr,
İtaətkarlıq şərəfdən əvvəl gələr.
13 Eşitməzdən qabaq cavab vermək
Səfehlik və rüsvayçılıqdır.
14 Xəstənin ürəyi bütün ağrıları çəkər.
Amma ürəyi sınıqdırsa, buna necə dözər?
15 Dərrakəli ürək bilik qazanar,
Hikmətlinin qulağı bilik axtarar.
16 İnsanın hədiyyəsi ona yol açar,
Böyük adamların hüzuruna aparar.
17 İddiasını əvvəl deyən haqlı görünər,
Amma əleyhdarı gəlib onu istintaq edər.
18 Püşk atmaq davaları yatırar,
Savaşanları bir-birindən ayırar.
19 İncik qardaşın könlünü almaq qalalı şəhəri almaqdan daha çətindir,
Belə davalar qapısı cəftəli qala kimidir.
20 İnsanın qarnı ağzının bəhəri ilə,
Dilinin səmərəsi ilə doyar.
21 Ölüm və həyat dilin əlindədir,
Onu sevənlər barından yeyir.
22 Arvad alan uğur qazanar,
Rəbbin razılığını alar.
23 Yoxsul rəhm istəyər,
Zəngin isə sərt cavab verər.
24 Dost çoxaldan öz-özünü yıxar,
Amma qardaşdan daha yaxın dost da var.

19 Kamalla yaşayan yoxsul insan
Şər danışan axmaqdan yaxşıdır.
2 Bilik yoxdursa, həvəs yaxşılıq edə bilməz.
Tələsən tərsə düşər.
3 İnsan öz səfehliyi ilə yolunu alt-üst edər,
Ürəyində isə Rəbbə hiddətlənər.
4 Var-dövlət dost artırar,
Kasıbı isə dostları atar.
5 Yalançı şahid cəzasız qalmaz,
Yalandan üzə duran qurtuluş tapmaz.
6 Çoxları nəcabətlinin üzünü görmək istər,
Səxavətli adamla çoxları dostluq edər.
7 Yoxsuldan qardaşının da zəhləsi gedər,
Dostları ondan lap uzaq gəzər,
Yalvararaq ardınca düşsə də, yaxınına gəlməz.
8 Anlayış qazanan öz canını sevər,
Dərrakəyə bağlanan uğur qazanar.
9 Yalançı şahid cəzasız qalmaz,
Yalandan üzə duran həlak olar.
10 Axmağa dəbdəbəli həyat yaraşmadığı kimi
Qulun ağalara hökm etməsi də yaraşmaz.
11 İnsanın ağlı hiddəti ləngidər,
Başqasının günahını bağışlamaq ona şərəf gətirər.
12 Padşahın qəzəbi aslan nərəsinə bənzər,
Razılığı çəmənə düşən şehə bənzər.
13 Axmaq oğul atasına bəla olar,
Davakar arvad kəsilməyən damcıya oxşar.
14 İnsana ev, var-dövlət atalardan miras qalar,
Ağıllı arvadı isə Rəbb nəsib edər.
15 Tənbəllik insana dərin yuxu gətirər,
Avaralıq insanı ac qoyar.
16 Əmrə əməl edən canını saxlar,
Yoluna baxmayan həlak olar.
17 Kasıba səxavət göstərən sanki Rəbbə borc verər,
Çünki onun əvəzi Rəbdən gələr.
18 Ümid varkən oğluna tərbiyə ver,
Ölümünə bais olma.
19 Kəmhövsələ insan cəriməyə düşər,
Onu qurtarsan belə, yenə də davam edər.
20 Nəsihətə qulaq as, tərbiyəni qəbul et,
Bunun nəticəsində hikmətli olarsan.
21 İnsanın qəlbində çox amalı var,
Amma Rəbbin niyyəti həyata keçər.
22 İnsan etibar arzular,
Yoxsul adam fırıldaqçıdan yaxşıdır.
23 Rəbb qorxusu insana həyat verər,

Ona şər yaxınlaşmaz, tox yatar.
24 Tənbəl əlini qabda olana batırar,
Ağzına belə, aparmaz.
25 Rişxəndçini döysən, cahil insan uzaqgörən olar,
Dərrakəlini danlasan, biliyini artırar.
26 Kim ki atasını soyub, anasını qovar,
Xəcalət gətirən övladdır, ad batırar.
27 Oğlum, bilik verən sözlərdən dönmək istəsən,
Tərbiyəyə qulaq asmaqdan vaz keç!
28 Yaramaz şahid ədalətə rişxənd edər,
Pislərin ağzı acgözlüklə şəri yeyər.
29 Rişxəndçilər üçün məhkəmə,
Axmaqların kürəyi üçün kötək hazırlanar.

20 Şərab insanları ələ salar,
Kefləndirici içki onları dalaşdırar,
Sərxoş olan müdrik olmaz.
2 Padşahın vahiməsi aslan nərəsinə bənzər,
Onu əsəbləşdirən canını itirər.
3 Münaqişədən çəkinmək insana şərəf gətirər,
Hər səfeh davaya girişər.
4 Mövsümündə kotan sürməyən tənbəl əkinçi
Biçin vaxtı heç nə tapmaz.
5 Ürəyin düşüncələri dərin sulara oxşar,
Dərrakəli adam onu çəkib çıxarar.
6 İnsanların çoxu sədaqətindən dəm vurar.
Amma sadiq adamı haradan tapmaq olar?
7 Saleh kamalı ilə yaşar,
Özündən sonra gələn nəsli bəxtiyar olar.
8 Nə zaman ki padşah hökm üçün taxta çıxar,
Gözləri ilə bütün pisliyi sovurar.
9 Kim deyər ki, qəlbimi təmizləmişəm,
Günahımı silmişəm?
10 Aldadıcı ölçü, aldadıcı çəki –
Hər ikisi Rəbdə ikrah yaradar.
11 Hətta uşaq da əməlləri ilə,
İşlərinin saf, doğru, yoxsa əksinə olması ilə tanınar.
12 Eşidən qulaq, görən gözlər –
Bunların hər ikisini yaradan Rəbdir.
13 Sevmə yatmağı, yoxsullaşarsan,
Ayıq ol, onda bol çörəyə çatarsan.
14 Müştəri deyər: «Pisdir, pis maldır»,
Amma alıb gedəndə özünü öyər.
15 Qızıl və çox yaqut var,
Amma ağıllı söz danışan dil qiymətli cəvahirdir.
16 Özgəyə zamin duranın libasını al,
Onu qəriblər üçün girov saxla.
17 Kələklə əldə edilən çörək əvvəlcə şirin olar,
Axırda ağzı çınqılla doldurar.
18 Nəsihət alaraq möhkəm qərar çıxar,
Müharibəni sağlam məsləhətlə apar.
19 Sözgəzdirən sirləri açıb yayar,
Gərək boşboğaza qoşulmayasan.
20 Kim ki atasına, anasına qarğış edər,
Zülmətə düşərkən çırağı sönər.
21 Tələsik alınan mülk
Axırda xeyir gətirməz.
22 Demə «bu pisliyin əvəzini çıxacağam»
Rəbbi gözlə, qoy O səni xilas etsin.
23 Fərqli çəki daşları Rəbdə ikrah yaradar,
O, aldadıcı tərəzidən xoşlanmaz.
24 Kişiyə addım atdıran Rəbdir.
Bəs tutduğu yolu insan necə anlasın?
25 Düşünmədən nəzir edən özünü tələyə salar,
Sonra öz əhdi barədə çox fikirləşməli olar.
26 Hikmətli padşah pisləri sovurar,
Onlar dəyirman daşında üyüdülər.
27 İnsanın ruhu Rəbbin çırağıdır,
Daxilinin dərin yerlərini araşdırar.
28 Padşahı məhəbbət və sədaqət qoruyar,
Taxtını xeyirxahlıq möhkəm saxlar.
29 Gəncləri qüvvəti şərəfləndirər,

Ağ saçlar qocalara zinət verər.
30 Yaralayıcı zərbələr pis insanı
düzəldə bilər,
Kötəkləmək daxilin dərin yerlərinə
təsir edə bilər.
21 Padşahın ürəyi Rəbbin əlindədir,
Onu su arxı kimi istədiyi səmtə
döndərər.
2 İnsanın yolu öz gözündə düz sayılar,
Lakin ürəkləri Rəbb yoxlayar.
3 Rəbb Ona qurban təqdimindən çox
Salehliyə, ədalətə riayət edilməsini
istər.
4 Təkəbbürlü baxış, lovğa ürək
Pislərin işığı və günahıdır.
5 Çalışqanın niyyəti xeyir gətirər,
Tələsən ehtiyac içinə düşər.
6 Yalançılıqla qazanılan xəzinə
Havaya yayılan sis-dumandır, bir
ölüm tələsidir.
7 Zorakılığına görə pislər süpürülüb
atılacaq,
Çünki onlar ədalətə əməl etmək
istəmir.
8 Günahkarın yolu dolaşıqdır,
Pak insanın etdiyi doğru sayılır.
9 Davakar arvadla bir evdə
yaşamaqdansa
Damın bir küncündə yaşamaq
yaxşıdır.
10 Pis insan şərə can atar,
Qonşusu gözündə lütf tapmaz.
11 Rişxəndçini cərimə etsən, cahil
bundan hikmət alar,
Hikmətli ibrətdən bilik qazanar.
12 Saleh insan pislərin evi barədə
düşünər,
Çünki pislər alt-üst olub bəlaya düşər.
13 Qulağını tutub kasıbın fəryadını
eşitməyənin
Fəryadına cavab verilməyəcək.
14 Gizli hədiyyə qəzəbi,
Qoltuqdakı rüşvət hiddəti yatırar.
15 Haqq öz yerinə gələndə saleh
sevinər,
Şər iş görənin başı bəlaya düşər.
16 Kim ki ağlın yolundan çıxar,
Ölülər camaatı arasında uyuyar.
17 Zövq-səfaya düşkün olan ehtiyaca
düşər,
Şərab və yağlı yemək hərisi sərvət
tapmaz.
18 Pis insan salehin yerinə,
Xain əməlisalehin əvəzinə girov
verilər.
19 Davakar, deyingən arvadla
yaşamaqdansa
Çöllükdə yaşamaq yaxşıdır.
20 Hikmətlinin evində istənilən xəzinə
və bolluq var,
Axmağın nəyi varsa, yeyib-qurtarar.
21 Salehlik və sədaqətin ardınca gedən
Həyat, salehlik və şərəf tapar.
22 Bir hikmətli qəhrəmanların
şəhərinə hücum çəkər,
Alınmaz qalanı darmadağın edər.
23 Ağzını, dilini tutan insan
Canını bəlalardan saxlayar.
24 Lovğa, təkəbbürlü adam rişxəndçi
adlanır,
Lovğalandıqca lovğalanır.
25 Tənbəlin arzusu onu ölümə aparır,
Çünki əlləri zəhmətdən qaçır.
26 Tənbəl bütün gün çox şey arzulayar,
Salehsə əsirgəmədən azuqə paylayar.
27 Şər adamın etdiyi qurban iyrəncdir,
Pis niyyətlə təqdim olunarsa, daha
pisdir.
28 Yalançı şahid həlak olar,
Söz eşidən həmişə danışdırılar.
29 Şər adam üzünü sərtləşdirər,
Əməlisaleh tutduğu yolu
möhkəmləndirər.
30 Heç bir hikmət, dərrakə, ibrət
Rəbbin qarşısında dayana bilməz.
31 Atlar döyüş günü üçün hazırlanar,
Amma zəfəri Rəbb qazandırar.
22 Yaxşı ad böyük sərvətdən,
Lütfkarlıq isə qızıl-gümüşdən
üstündür.
2 Zəngin və yoxsul insan bir şeydə
bir-birinə bənzəyir –

Hər ikisini yaradan Rəbdir.
3 Uzaqgörən qabaqcadan şəri görüb ondan qaçar,
Cahil isə irəli çıxar, ziyan tapar.
4 İtaətkarlığın və Rəbb qorxusunun nəticəsi
Sərvət, şərəf, həyatdır.
5 Əyri yol tikanlıdır, orada tələlər var,
Canını qoruyan bundan uzaqlaşar.
6 Uşağa tərbiyə ver ki, layiqli yol tutsun,
O qocalanda da bu yoldan dönməz.
7 Zəngin yoxsulun ağası olar,
Borclu adam borc verənə qul olar.
8 Haqsızlıq əkən şər biçər,
Onun qəzəbinin dəyənəyi məhv edilər.
9 Əliaçıq bərəkət qazanar,
Çünki çörəyindən kasıba paylar.
10 Rişxəndçi adamı qovsan, münaqişə qurtarar,
Çəkişmə, şərəfsizlik sona çatar.
11 Ürək təmizliyini sevən,
Dilindən lütfkar sözlər tökülən padşahın dostudur.
12 Rəbbin gözləri biliyi qoruyar,
Xainin sözlərini isə boşa çıxarar.
13 Tənbəl deyər: «Bayırda aslan var,
Küçəyə çıxsam, məni parçalar».
14 Əxlaqsız qadının ağzı dərin çuxura oxşar,
Rəbbin lənətinə gələn ora yıxılar.
15 Səfehlik uşağın qəlbindən yapışar,
Kötəklə tənbeh ediləndə bu ondan uzaqlaşar.
16 Varlanmaq üçün kasıba zülm edən,
Zəngin adama verən ehtiyaca düşər.

Hikmətlilərin sözləri

17 Qulağını aç, hikmətlilərin sözlərini eşit,
Ürəyini mənim biliyimə ver.
18 Onları sinənə doldursan,
Onların hamısını dilinə salsan, yaxşı olar.
19 Rəbbə güvənəsən deyə
Bu gün bunları sənə bildirirəm.
20 Sənə nəsihətlə, biliklə dolu əla məsəllər yazmamışammı?
21 Qoy bunlar haqq sözün həqiqətini sənə bildirsinlər ki,
Hara səni göndərsələr, düz məlumat gətirəsən.
22 Kasıbı fəqir olduğu üçün soyma,
Darvazada məzlumu zülmə salma.
23 Çünki onların münaqişəsinə Rəbb baxar,
Onları soyanları soyub-talayar.
24 Tez qəzəblənənə yoldaş olma,
Kəmhövsələ ilə yola çıxma.
25 Yoxsa onun yollarına alışarsan,
Canını tələyə salarsan.
26 Başqalarının borclarına zamin durmaqdan,
Belə işə əl atmaqdan çəkin.
27 Ödəməyə pulun olmasa,
Altından yatağını apararlar.
28 Ata-babalarından qalan
Qədim sərhəd daşının yerini dəyişmə.
29 İşində mahir olanı görürsənmi?
Sıravi adamların deyil, şahların hüzurunda dayanar.

23 Bir ağa ilə süfrəyə əyləşəndə
Qarşında olana yaxşı bax.
2 İştahan çox olsa da, boğazına sərhəd qoy.
3 Onun ləziz xörəklərinə tamah salma,
Çünki bu yemək adamı aldadar.
4 Sərvət qazanmaq üçün özünü əldən salma,
İdraklı ol, bu fikirdən vaz keç.
5 Gözünü sərvətə diksən, yox olar,
Birdən qanadlanar, uçub qartal tək göyə qalxar.
6 Xəsisin çörəyini yemə,
Onun ləziz xörəklərinə tamah salma.
7 O, ürəyində hər şeyin hesabını edər.
Dilində sənə «ye, iç» deyər,
Amma ürəyi ilə dili bir deyil.
8 Yediyin loğmanı qusarsan,
Dediyin bütün şirin sözlər boşa çıxar.
9 Axmağın qulağına söz demə,

Çünki sənin ağıllı sözlərinə xor baxar.
10 Qədim sərhəd daşının yerini
dəyişmə,
Yetimlərin əkininə girmə.
11 Çünki onların Hamisi qüvvətlidir,
Sənlə olan münaqişəyə O baxar.
12 Qəlbini tərbiyəyə,
Qulaqlarını bilik sözlərinə ver.
13 Uşağa tərbiyə ver, bundan vaz
keçmə,
Tərbiyə kötəyi ona ölüm gətirməz.
14 Əgər sən onu kötəkləsən,
Canını ölülər diyarından xilas
edərsən.
15 Oğlum, ürəyin hikmətli olarsa,
Mənim də ürəyim sevinər.
16 Dilindən düz sözlər çıxarsa,
Könlüm sevincdən cuşa gələr.
17 Ürəyin günahkarlara qibtə etməsin,
Ancaq bütün gün Rəbb qorxusu ilə
yaşa.
18 Sənin də bir aqibətin var,
Ümidin boşa çıxmaz.
19 Oğlum, dinlə, hikmətli ol,
Qəlbini düz yola bağla.
20 Şərab düşkünü olan əyyaşlara,
Ət qapan qarınqululara qoşulma.
21 Çünki əyyaş və qarınqulu
yoxsullaşar,
Yeyib-içib, məst olan cır-cındır içində
qalar.
22 Doğma atana qulaq as,
Qoca anana xor baxma.
23 Həqiqət al, onu satma,
Hikməti, tərbiyəni, idrakı
qoruyub-saxla.
24 Salehin atası bolluca fərəhlənəcək,
Hikmətlinin övladı onu sevindirəcək.
25 Qoy ata-anan sevinsin,
Səni doğan fərəhlənsin.
26 Oğlum, ürəyini mənə yönəlt,
Gözlərin mənim yollarımı nəzərdən
keçirsin.
27 Fahişə dərin bir çuxurdur,
Yad arvad dar quyudur.
28 Quldur kimi pusqu qurar,
İnsanlar arasında xainləri artırar.
29 Kimdir yaslı?
Kimdir dərdli?
Kimin münaqişəsi var?
Kimin şikayəti var?
Kim boş yerə yaralandı?
Kimin gözləri qızarar?
30 Şərab içməyə oturub qalxmayan,
Gedib müxtəlif şərab dadanlar!
31 Şərabın al rənginə,
Qədəhdə parlamasına, rahat
içilməsinə baxma.
32 Axırda ilan kimi sancar,
Əfi ilan kimi zəhərlər.
33 Gözlərinə qəribə şeylər görünər,
Qəlbinə əyri fikirlər gələr.
34 Özünü dənizin ortasında sanarsan,
Sanki gəmi dirəyinin başında
yatmısan.
35 Deyərsən: «Məni vurublar, hiss
etməmişəm,
Məni döyüblər, heç bilməmişəm.
Yenə içmək üçün nə zaman
ayılacağam?»

24 Pis adamlara qibtə etmə,
Onlara qoşulmaq istəmə.
2 Çünki ürəklərində zalımlığı
fikirləşər,
Dilləri qəddarlıqdan danışar.
3 Ev hikmətlə tikilər,
Dərrakə ilə möhkəmlənər.
4 Mənzillər bilik vasitəsilə,
Hər cür dəyərli, yaxşı şeylərlə dolar.
5 Hikmətli kişi qüvvətli olar,
Bilikli adam öz gücünü artırar.
6 Düzgün məsləhətlə müharibə edə
bilərsən,
Doğru nəsihət verən çoxdursa,
qələbəyə çatarsan.
7 Səfeh üçün hikmət əlçatmazdır,
Darvazada susub ağzını açmır.
8 Şər quran fitnəkar adlanar,
9 Səfehin pis əməlləri günah sayılar,
Rişxəndçilər insanlarda ikrah yaradar.
10 Dar gündə taqətdən düşsən,
Necə də zəif adamsan!

11 Ölümə aparılanları qurtar,
Qırğın təhlükəsi altında olanları geri çək.
12 Desən ki, bax bundan xəbərim yox idi,
Ürəkləri yoxlayan bunu görməzmi?
Canını qoruyan bunu bilməzmi?
İnsan əməlinə görə Ondan əvəz almazmı?
13 Oğlum, bal ye, xeyri var,
Şanı balının şirin dadı damağında qalar.
14 Bil ki, hikmət də canın üçün belə olar,
Onu tapsan, nəticəsi də var,
Ümidin boşa çıxmaz.
15 Ey şər insan, salehin yurdu üçün pusqu qurma,
Onun evini soyma.
16 Saleh yeddi dəfə yıxılsa belə, yenə qalxar,
Şər insan büdrəsə, bəlaya düçar olar.
17 Düşmənin yıxılmasına sevinmə,
Onun büdrəməsinə görə ürəyin fərəhlənməsin.
18 Yoxsa Rəbb görər, bundan xoşu gəlməz,
Düşmənin üzərindən qəzəbini götürər.
19 Pislik edənlərə görə qəzəblənmə,
Şər insanlara qibtə etmə,
20 Çünki pis insanın axırı yoxdur,
Şər adamın çırağı sönər.
21 Oğlum, Rəbdən və padşahdan qorx,
Xəyanətkarlarla yoldaş olmaqdan çəkin.
22 Onların bəlası qəfildən gəlir.
Hər ikisinin verəcəyi cəzanı kim bilir?

Hikmətli sözlərin davamı

23 Bu sözləri də hikmətlilər deyib:
Məhkəmədə tərəfkeşlik etmək yaxşı deyil.
24 Pis insana «sən salehsən» deyəni xalqlar qınayar,
Ümmətlər lənət yağdırar.
25 Amma onu danlayanlar xeyir tapar,
Başlarından bol bərəkət yağar.
26 İnsana doğru cavab verən
Sanki onun üzündən öpər.
27 Əvvəlcə çöldəki işini qurtar,
Zəmi sal, sonra evini tik.
28 Qonşunun əleyhinə haqsız şahidlik etmə,
Qoy dilindən yalan söz çıxmasın.
29 Demə: «Mənə etdiyini mən də ona edəcəyəm,
Onun əməlinin əvəzini verəcəyəm».
30 Tənbəlin zəmisindən,
Qanmazın üzümlüyündən keçdim.
31 Gördüm hər yanı tikan basıb,
Gicitkən bürüyüb, daşı-divarı uçub.
32 Baxaraq ona diqqət yetirdim,
Bundan ibrət götürdüm:
33 [r]Bir az da uzanıb yuxuya dalsan,
Əl-qolunu uzadaraq yatsan,
34 Yoxsulluq üstünə soyğunçu kimi,
Ehtiyac üstünə quldur kimi hücum çəkər.

Süleymanın məsəllərinin davamı

25 Bunlar da Süleymanın məsəlləridir. Yəhuda padşahı Xizqiyanın adamları bir yerə yığılıb bunların üzünü köçürtdü.
2 Allahın işlərinin müəmması Onu şərəfləndirər,
Bu işləri aşkar etmək padşahlara şərəf gətirər.
3 Göyün yüksəkliyini, yerin dərinliyini,
Padşahın da qəlbindən keçənləri bilmək olmaz.
4 Tullantını gümüşdən ayırsan,
Zərgərə əl işi qalar.
5 Əgər şər adam padşahın yanından ayrılarsa,
Taxtı salehliklə möhkəmlənər.

---

[r]**24:33** Sül. 6:10-11

6 [s]Padşahın hüzurunda özünü
ucaltma,
Rütbəlilərin yanında dayanma.
7 Çünki «buyur yuxarı» dəvətini almaq
Bir əsilzadə qarşısında aşağı
endirilməkdən yaxşıdır.
8 Gördüyün şeylər barədə
Dava yaratmağa tələsmə.
Sonra qonşun səni utandırsa, nə
edərsən?
9 Münaqişəni qonşunla özün həll et,
Özgənin sirrini açma.
10 Yoxsa hər eşidən sənə xor baxar,
Bu səni etibardan salar.
11 Yerində deyilən sözlər,
Gümüş oymalar içində qızıl almalara
bənzər.
12 Sözəbaxan insana hikmətlinin
məzəmməti
Qızıl sırğa, qızıl bəzək kimidir.
13 Biçin zamanı qar kimi sərinlik
necədirsə,
Etibarlı elçi də onu göndərən üçün
belədir.
O, ağasının ruhunu təzələyir.
14 Kim ki vermədiyi bəxşişlərlə
öyünür,
Yağışsız buluda və küləyə bənzəyir.
15 Səbirlə hökmdarı da inandırmaq
olar,
Şirin dil sümükləri belə, yumşaldar.
16 Bal tapsan, lazımi qədər ye,
Acgözlüklə yesən, qusarsan.
17 Qonşunun evinə az-az get,
Yoxsa bezər, sənə nifrət edər.
18 Kim ki qonşusuna qarşı yalandan
şahidlik edir,
Toppuza, qılınca, iti oxa bənzəyir.
19 Dar gündə namərdə bel bağlamaq
Çürük dişə, şikəst ayağa güvənməyə
bənzəyir.
20 Qəlbi qubarlıya nəğmə söyləmək
Soyuq havada lüt qoyulmağa,
Soda üstə sirkə tökülməyə bənzəyir.
21 [t]Düşmənin acdırsa, onu yedizdir,
Susuzdursa, ona su ver.
22 Belə etməklə sanki onun başına köz
tökərsən,
Bunun əvəzini Rəbdən alarsan.
23 Şimal küləyi yağış gətirir,
Qeybətçi dil isə insanın üzünə qəzəb
gətirir.
24 Davakar arvadla bir evdə
yaşamaqdansa
Damın bir küncündə yaşamaq
yaxşıdır.
25 Susuzluqdan yanana sərin su
necədirsə,
Uzaq diyardan gələn xoş xəbər də
elədir.
26 Əgər saleh insan pis adama təslim
olarsa,
Bulanan bulağa, murdarlanan quyuya
bənzəyir.
27 Qədərindən çox bal yemək xeyirli
olmadığı kimi
Tərifə uymaq da yaxşı deyil.
28 Nəfsini saxlaya bilməyən
Dağılmış, hasarsız şəhərə bənzəyir.

26 Yay fəslinə qar, biçinə yağış
yaraşmadığı kimi
Axmağa da şərəf yaraşmaz.
2 Sərçənin ora-bura uçduğu kimi,
Qaranquşun gəlib-getdiyi kimi
Nahaq qarğış da boşdur.
3 Ata qamçı, eşşəyə noxta necə
yaraşırsa,
Axmağın kürəyinə də kötək elə
yaraşır.
4 Axmağa səfehliyinə görə cavab
vermə,
Yoxsa ona bənzərsən.
5 Axmağa səfehliyinə görə elə bir
cavab ver ki,
Öz gözündə hikmətli görünməsin.
6 Kim ki axmaq vasitəsilə xəbər
göndərir,

---

[s]**25:6** Luka 14:7-10 [t]**25:21** Rom. 12:20

Öz ayaqlarını kəsib ziyan çəkənə
bənzəyir.
7 Axmağın ağzından çıxan məsəl
Topalın ayağının axsamağına
bənzəyir.
8 Axmağı tərifləmək
Sapanda qoyulan daşa bənzəyir.
9 Sərxoş tikanlı budağı əlində tutduğu
kimi
Axmaq da məsəl çəkər.
10 Axmağı, hər yoldan ötəni muzdla
tutan
Hamını yaralayan naşı oxatan
kimidir.
11 [u]Hansı axmaq öz səfehliyini
təkrarlayırsa,
Qusduğuna qayıdan itə oxşayır.
12 Öz gözündə hikmətli sayılanı
görmüsənmi?
Axmağa ondan artıq ümid var.
13 Tənbəl deyər: «Yolda aslan var,
Şir küçələri dolanır».
14 Qapı öz oxu üstündə necə fırlanırsa,
Tənbəl də yatağında elə fırlanır.
15 Tənbəl əlini qabda olana batırar,
Ağzına aparmağa ərinər.
16 Tənbəl öz gözündə
Ağıllı cavab verən yeddi nəfərdən də
çox hikmətli görünər.
17 Ona aid olmayan münaqişəyə
qarışan
Elə bil küçədəki iti qulaqlarından
tutur.
18 Odlu, öldürücü oxlar atan dəli
necədirsə,
19 Qonşusunu aldadıb «zarafat etdim»
deyən də elədir.
20 Odun qurtaranda ocaq sönər,
Qeybətçi olmayan yerdə dava bitər.
21 Necə ki kömür köz salar, odun
alışar,
Davakar adam da münaqişəni bu cür
alovlandırar.
22 Qeybətçinin sözləri şirin tikələrə
bənzər,
Mədənin ən dərin yerlərinə düşər.
23 Hərarətli dili, şər dolu ürəyi olan
insan
Gümüşü suya çəkilmiş saxsı qaba
oxşayır.
24 Düşmən kinini dili altında gizlədər,
Qəlbində hiyləsini saxlar.
25 Onun mehriban danışığına inanma,
Qəlbinə yeddi cür iyrənclik doldurub.
26 Nifrətini fırıldaqla gizlətsə də,
Şəri camaat qarşısında üzə çıxar.
27 Quyu qazan özü quyuya düşər,
Daş isə onu yuvarlayanın üstünə
gələr.
28 Yalan danışan dil sancdığı adamlara
nifrətini göstərər,
Yaltaqlanan ağız hər yanı xarabaya
çevirər.

27 [v]Sabahkı gününlə öyünmə,
Günün nə doğacağını bilməzsən.
2 Qoy səni özün yox, başqaları
tərifləsin,
Sənə tərifi öz dilin yox, yad söyləsin.
3 Daşın, qumun çəkisi ağırdır,
Səfehin əsib-coşması bunların
ikisindən də ağırdır.
4 Hiddət amansızdır, qəzəbsə
aşıb-daşar,
Paxıllıq daha betərdir, ona necə
dözmək olar?
5 Aşkar irad gizli məhəbbətdən
üstündür.
6 Dostun vurduğu yara onun
sədaqətinə görədir,
Amma düşmən öpdükcə öpər.
7 Toxun könlü şanı balını belə, rədd
edər,
Lakin ac olana acı şeylər belə, şirin
gələr.
8 Yurdundan ayrı düşən insan
Bir quş kimi yuvasından ayrı düşür.

---

[u]**26:11** 2Pet. 2:22 [v]**27:1** Yaq. 4:13-14

9 Gözəl ətir və buxurun ürəyə verdiyi
ləzzət kimi
Dostun nəsihəti də insana xoş gələr.
10 Həm öz dostunu, həm də atanın
dostunu tərk etmə,
Dara düşəndə qardaşının evinə getmə.
Yaxın qonşu uzaq qohumdan yaxşıdır.
11 Oğlum, hikmətli ol, qoy qəlbim
sevinsin,
Onda məni utandırana cavab verə
bilərəm.
12 Uzaqgörən qabaqcadan şəri görüb
ondan qaçar,
Cahil isə irəli çıxar, ziyan tapar.
13 Özgəyə zamin duranın libasını al,
Onu qərib qadın üçün girov saxla.
14 Kim ki qonşusunu sübh erkən
ucadan salamlar,
O zaman salamı söyüş sayılar.
15 Davakar qadın yağışda daman
damcıya oxşar.
16 Onu yel kimi dayandırmaq olmaz,
Zeytun yağı kimi ovucda saxlamaq
olmaz.
17 Dəmir dəmiri itilər,
İnsan insanın ağlını iti edər.
18 Əncir becərən barını yeyər,
Ağasının qayğısına qalan
şərəfləndirilər.
19 Sifətin əksi suyun üzünə düşdüyü
kimi
İnsanın ürəyi də onu elə göstərər.
20 Ölüm və Həlak yeri doymadığı kimi
İnsanın da gözü doymaz.
21 İsti kürədə qızıl-gümüş yoxlanar,
İnsan da başqalarının tərifi ilə tanınar.
22 Buğdanı həvəngdəstədə döysən,
kəpəyi çıxar,
Amma səfehi nə qədər döysən,
səfehliyi çıxmaz.
23 Sürünə yaxşı bax, naxırına nəzər
yetir,
24 Nə var-dövlət əbədidir, nə də tac
nəsildən-nəslə keçir.
25 Saman yığılandan sonra təzə ot
bitəndə,
Dağlarda ot biçiləndə
26 Quzuların səni geyindirər,
Təkələrini satıb tarla ala bilərsən.
27 Keçilər sənə yemək üçün o qədər
süd verər ki,
Bu, evin azuqəsinə, kənizlərinin
dolanışığına çatar.

28 Şər insan onu qovan yox ikən
qaçar,
Saleh aslan kimi mərd dayanar.
2 Ölkədə üsyan olanda rəhbərlər artar,
Dərrakəli, işbilən adam olsa, ölkəni
uzun müddət qoruyar.
3 Bir yoxsul kişi kasıbları incidərsə,
Bu, əkini yuyub aparan, qıtlıq yaradan
güclü yağışa bənzər.
4 Qanunu pozanlar pisi tərifər,
Qanuna əməl edənlər onlara qarşı
çıxar.
5 Pis insanlar nə bilir ki, ədalət nədir,
Rəbbi axtaranlar bunu dərk edir.
6 Kamalla yaşayan yoxsul insan
Əyri yolla sərvət qazanandan yaxşıdır.
7 Qanan oğul qanunu yerinə yetirər,
Qarınquluya qoşulan atasına xəcalət
çəkdirər.
8 Kim ki müamilə ilə, sələmlə
var-dövlət yığar,
Onun varı axırda kasıblara səxavət
göstərənə qalar.
9 Kim ki qanunu eşitməmək üçün
qulaqlarını bağlayır,
Onun duaları iyrəncdir.
10 Kim ki əməlisalehləri əyri yola
çəkər,
Öz qazdığı quyuya düşər,
Kamillərə yaxşı şeylər irs qalar.
11 Zəngin özünü hikmətli sanar,
Amma müdrik kasıb onun qəlbini
oxuyar.
12 Salehlərin zəfəri hamıya şərəf
gətirər,
Amma pislər hakim olsa, hamı
gizlənər.
13 Günahlarını ört-basdır edən uğur
qazanmaz,

Onu etiraf edərək tərk edən mərhəmət
tapar.
14 Həmişə Rəbdən qorxan bəxtiyardır,
Ürəyi inadkar bəlaya düşər.
15 Kasıb xalqın üzərində olan pis
hökmdar
Nərildəyən aslan, hücum edən ayıya
oxşar.
16 Dərrakəsiz hökmdar qəddar,
zülmkar olar,
Haram qazanca nifrət edənin ömrü
uzanar.
17 Qantökən qorxub məzara
düşənədək qaçar.
Qoy heç kim ona kömək etməsin.
18 Kamillik yolu ilə gedən qurtular,
Əyri yolda olanlar qəflətən yıxılar.
19 Torpağını əkib-becərən doyunca
çörək yeyər,
Boş şeylərin ardınca gedən
müflisləşər.
20 Etibarlı insanın bərəkəti boldur,
Tez varlanmaq istəyən cəzasız qalmır.
21 Tərəfkeşlik yaxşı deyil,
Kişi bir loğma çörək üçün günah
işlədə bilər.
22 Xəsis var-dövlət ardınca düşər,
Bilmədən yoxsulluğa yetişər.
23 Kim ki başqasını danlayır,
Yağlı dilə tutandan çox axırda o, lütf
qazanır.
24 Ata-anasını soyub «günah deyildir»
deyən
Qırıcı insana yoldaşdır.
25 Tamahkar dava yaradar,
Rəbbə güvənən bolluğa çatar.
26 Öz ağlına güvənən axmaqdır,
Hikmətlə gəzib-dolaşan azad olur.
27 Yoxsula əl tutan möhtac qalmır,
Ona məhəl qoymayan lənət qazanır.
28 Pislər hakim olsa, hamı gizlənər,
Onlar yox olanda salehlər çoxalar.

29 Məzəmmətlərə baxmayıb
dikbaşlıq edən
Birdən yıxılıb çarəsiz qalar.
2 Salehlər artanda xalq sevinər,
Pis hökmdar olanda xalq nalə çəkər.
3 Hikmət sevən atasını sevindirər,
Fahişələrə aşna olanın əlindən
var-yoxu gedər.
4 Padşah ölkəni ədalətlə
möhkəmləndirər,
Ağır vergilər qoyansa ölkəni süqut
etdirər.
5 Bir kişi ki qonşusunu yağlı dilə tutur,
Onun addımları üçün tor qurur.
6 Pisin günahı özünə tələdir,
Saleh sevincindən haray çəkir.
7 Saleh kasıbların haqqını görür,
Pis adam bunu dərk etmir.
8 Rişxəndçilər şəhəri çaxnaşdırar,
Hikmətlilər isə qəzəbi yatırar.
9 Hikmətli səfehi məhkəməyə versə,
Səfeh coşub lağ edər, dinclik gedər.
10 Qana susayanlar kamil insana nifrət
edər,
Əməlisalehlər can qurtarar.
11 Axmaq həddini aşıb özündən çıxar,
Hikmətli səbirli dayanar.
12 Hökmdar yalan sözə qulaq asarsa,
Bütün xidmətçiləri şər insana çevrilər.
13 Yoxsul insan və zalım bir-birinə bir
şeydə bənzəyir:
Hər ikisinin gözlərini işıqlandıran
Rəbdir.
14 Padşah kasıblara həqiqətlə hökm
versə,
Taxtı əbədi möhkəmlənər.
15 Kötək və məzəmmət hikmət gətirər,
Özbaşına qalan uşaq anasını rüsvay
edər.
16 Pislər çoxalanda cinayət artar,
Salehlər görəcək ki, onlar necə
yıxılacaqlar.
17 Oğluna tərbiyə ver ki, canın dinc
olsun,
Könlün bundan ləzzət alsın.
18 İlahi söz nazil olmayanda xalqda
hərc-mərclik olar.
Qanuna əməl edən nə bəxtiyardır!
19 Qula sözlə tərbiyə vermək olmaz,
Çünki başa düşsə belə, qulaq asmaz.

20 Düşünmədən danışana
baxmısanmı?
Axmağa ondan artıq ümid var.
21 Kim ərköyün qul böyütsə,
Axırda bu ona dərd verər.
22 Qəzəbli insan dava yaradar,
Kəmhövsələ günahı artırar.
23 İnsanı təkəbbürü alçaldar,
İtaətkar şərəfə çatar.
24 Oğruya qoşulan öz-özünə
düşməndir,
And içsə də, məhkəmədə həqiqəti
söyləməz.
25 İnsandan qorxan özünü tələyə salar,
Amma Rəbbə güvənən arxayın yaşar.
26 Çoxu hökmdarın hüzurunu arzular,
Amma insan ədaləti Rəbdə tapar.
27 Salehlər haqsızlardan,
Pis insanlarsa əməlisalehlərdən ikrah
edər.

Aqurun müdrik məsəlləri

30 Yaqe oğlu Aqurun sözləri, onun
kəlamı.
Bu adam Yetielə, Yetiel və Ukala belə
dedi: *
2 Həqiqətən, mən hamıdan ağılsızam,
İnsan idrakına malik deyiləm.
3 Nə hikmət öyrənmişəm,
Nə də Müqəddəsin biliyindən xəbərim
var.
4 Kim göylərə qalxıb endi?
Kim yeli ovcunda topladı?
Kim suları paltarına sarıdı?
Yer üzünün qurtaracağınadək hər yeri
kim yaratdı?
Adı nədir? Oğlunun adı nədir?
Bilirsənmi?
5 Allahın hər bir kəlamı safdır,
Ona pənah gətirənlərin sipəri Odur.
6 Onun sözünə heç nəyi əlavə etmə,
Yoxsa səni tənbeh edər, yalanını
çıxarar.
7 Ey Allah, Səndən iki şey istəyirəm,
Nə qədər ömrüm var, məndən onları
əsirgəmə:
8 Saxta, yalan sözlər qoy məndən uzaq
olsun;
Məni nə yoxsul, nə də zəngin et,
Ancaq mənə gündəlik çörəyimi ver.
9 Varlansam, «Rəbb kimdir?» deyə
Sənə küfr edərəm,
Yoxsul olsam, oğurlaram və Allahımın
adını ləkələrəm.
10 Qul barədə ağasına pis sözlər demə,
Yoxsa sənə qarğış edər, bu təqsirlə
yüklənərsən.
11 Adam var ki, atasına qarğış edir,
Anasına alqış etmir.
12 Adam var ki, özünü təmiz sanır,
Amma murdarlıqdan təmizlənməyib.
13 Adam var ki, yuxarıdan aşağı
baxar,
Təkəbbürlə baxmaq üçün gözlərini
qaldırar.
14 Adam var ki, dişləri qılınca bənzər,
Elə bil çənəsinə bıçaqlar düzüb,
Yer üzündən məzlumları udar,
İnsanların içindən fəqirləri məhv
edər.
15 Zəlinin iki qızı var,
«Ver, ver» deyib bağırar.
Üç şey var ki, heç doymaz,
Dörd şey var ki, «bəsdir» deməz:
16 Ölülər diyarı, qısır bətn,
Sudan doymayan torpaq,
«Bəsdir» deməyən alov.
17 Kim ki atasına rişxənd edir,
Anasının sözünə xor baxır,
Dərələrdəki qarğalar onun gözlərini
deşəcək,
Qartal balaları onun bəbəklərini
yeyəcək.
18 Mənim ağlım kəsməyən üç şey var,
Anlamadığım dörd şey var:
19 Səmada qartalın yolu,

---

*30:1 *Bu adam Yetielə, Yetiel və Ukala belə dedi* – yaxud *ey Allah, yorulmuşam, yorulub taqətdən düşmüşəm.*

Qayada ilanın yolu,
Dənizdə gəminin yolu,
Kişi ilə gənc qadının yolu.
20 Zinakar qadının da yolu belədir:
Yeyər, ağzını silər,
«Nə pis iş görmüşəm ki?» deyər.
21 Yer üç şeydən lərzəyə gəlir,
Dörd şey var ki, ona tab gətirmir:
22 Qulun padşah olması,
Sarsağın doyunca çörək tapması,
23 Nifrətəlayiq qadının ərə getməsi,
Qarabaşın öz xanımının yerinə
keçməsi.
24 Yer üzündə dörd şey var,
Kiçik olsa da, hikməti çoxdur:
25 Qarışqalar qüvvətli olmayan
birlikdir,
Yemini yayda tədarük edir;
26 Qayadovşanları *da güclü olmayan
birlikdir,
Evlərini qaya içində tikir;
27 Çəyirtkələrin şahı yoxdur,
Lakin hamısı dəstə-dəstə irəliləyir;
28 Kərtənkələni əllə tutmaq olur,
Amma o, padşah saraylarına çıxır.
29 Üç məxluq var ki, yerişi gözəldir,
Dörd məxluq var ki, gedişi gözəldir:
30 Heyvanların ən güclüsü,
Heç nəyin qarşısından geri dönməyən
şir,
31 Döyüşkən xoruz, təkə,
Qoşun qabağına çıxan padşah.
32 Əgər özünü ucaltmaqla sarsaqlıq
etmisənsə,
Fikrində pis niyyətin varsa, əlinlə
ağzını tut.
33 Çünki südü çalxalayanda yağ
çıxdığı kimi,
Burnu sıxanda qan çıxdığı kimi
Qəzəbi qızışdıranda da dava yaranar.

Lemuel padşahın anasının sözləri

31 Lemuel padşahın sözləri,
anasının ona öyrətdiyi kəlam.
2 Nə deyim, oğlum, ey doğduğum
oğul,
Nəzir-niyazla əldə etdiyim oğul?
3 Gücünü qadınlara,
Yollarını padşahları məhvə aparanlara
sərf etmə.
4 Ey Lemuel, şərab içmək padşahlara
yaraşmaz,
Kefləndirici içkiyə aludə olmaq
hökmdarlara yaraşmaz.
5 İçəndə qayda-qanunu unudarlar,
Bütün məzlumların haqqını pozarlar.
6 Kefləndirici içkini düşkünə,
Şərabı dərdliyə verin.
7 Qoy içib yoxsulluğunu unutsun,
Öz dərdini daha yada salmasın.
8 Dilsizə görə ağız aç,
Bütün möhtacların haqqını qoru.
9 Ağzını aç, ədalətlə hökm ver,
Məzlumların, fəqirlərin haqqını
yerinə yetir.

Xeyirxah arvad

10 Xeyirxah arvad tapan kimdir? †
O, yaqutlardan daha qiymətlidir.
11 Ərinin qəlbi ondan arxayındır,
Dayanmadan bərəkət qazanır.
12 Ömrü boyu ərinə pislik deyil,
yaxşılıq gətirir,
13 Yunu, kətanı tapıb seçir,
Əlindən hər iş zövqlə gəlir.
14 Ticarət gəmilərinə bənzəyir,
Uzaqlardan gələn ruzini gətirir.
15 Alaqaranlıqda yuxudan durur,
Ailəsinə yemək hazırlayır,
Kənizlərinə də paylayır.
16 Tarlaya baxandan sonra satın alır,
Əlinin zəhməti ilə bağ salır.

---

*30:26 *Qayadovşanı* – ibrani dilində *şafan* adlanan məməli heyvan.
†31:10 Bu ayələr akrostix şəkildə yazılıb, yəni ayələr ibrani əlifbasının sırası ilə başlayır.

17 Belini möhkəm bağlayır,
Qolları güc üstündən güc alır.
18 Ticarətin şirinliyindən dadır,
Bütün gecə boyu çırağı yanır.
19 Əlləri ilə cəhrə əyirir,
İyini *bərkidir.
20 Məzlumlar üçün əliaçıqdır,
Fəqirlərə əl tutur.
21 Qar yağanda ailəsi üçün qayğısı olmaz,
Çünki hamısı qırmızı paltar geyinib.
22 Yorğan-döşək üçün örtük toxuyur,
Öz libası tünd qırmızı incə kətandandır.
23 Əri şəhər darvazalarında yaxşı tanınır,
El ağsaqqalları ilə oturub-durur.
24 Qadın tacirlərə qurşaqları,
Toxuduğu kətan paltarları satır.
25 Qüvvəyə, şərəfə bürünür,
Gələcək üzünə gülür.
26 Ağzını açanda hikmət axır,
Dilindən sədaqət təlimi çıxır.
27 Ailəsinin işini idarə edir,
Tənbələ layiq olan çörəyi yemir.
28 Övladları ayağa qalxıb onu alqışlayır,
Əri onu tərifləyir:
29 «Xeyirxah qadınlar çoxdur,
Amma sənin tayın yoxdur».
30 Qadının məlahəti aldadıcı, gözəlliyi fanidir,
Yalnız Rəbdən qorxan qadın tərifə layiqdir.
31 Ona əlinin bəhrəsini verin,
Qoy şəhər darvazasında əməlləri ona tərif gətirsin.

*31:19 *İy* – cəhrənin sap dolanan düz çubuğu.

VAİZ
KİTABI
GİRİŞ

«Vaiz» Kitabı insan həyatının qısa və təzadlı olmasından, onun müəmmalı haqsızlığından, insan ümidlərinin puça çıxmasından və «həyat puçdur» deyib bu nəticəyə gələn adamın fikirlərindən danışır. O, insan həyatını nizamlayan Allahın yollarını başa düşə bilmir. Buna baxmayaraq, adamlara səylə işləməyi və Allahın bəxş etdiyi nemətlərdən zövq almağı tövsiyə edir.

Vaizin çox fikirləri mənfi və sıxıntılı görünür. Lakin bu kitabın Müqəddəs Kitaba daxil olması göstərir ki, Allaha inam belə bədbinliyi və ruh düşkünlüyünü aradan qaldıra bilər.

Çox adam *«Vaiz»* Kitabını oxuyarkən öz fikir və düşüncələrini sanki güzgüdə görür və bu kitabdan təsəlli tapır. Belə fikirlər əks etdirən adam Allaha daha çox ümid etməyi öyrənir və beləliklə, həyatın əsl mənasını aşkar edir.

Kitabın məzmunu:

1:1-18 Hər şey puçdur
2:1-26 Şadlığın puçluğu
3:1-22 Hər şeyin öz vaxtı var
4:1-16 Dünyanın əziyyətləri
5:1–6:20 Allaha münasibət
7:1–8:17 Hikmət haqqında
9:1–10:20 Hər kəsin taleyi eynidir
11:1–11:6 Zəhmətin qiyməti
11:7–12:8 Son məsləhət: Allahı yada sal
12:9-14 Son söz

Hər şey puçdur

1 Bu, Yerusəlimdə padşahlıq edən
Davud oğlu Vaizin sözləridir.
2 Vaiz deyir:
«Hər şey puçdur, puçdur, tamam puçdur!
3 İnsanın səma altında çəkdiyi
Bütün zəhmətlərinin nə faydası var?
4 Bir nəsil gedir, o biri nəsil gəlir,
Amma dünya daim qalır.
5 Günəş çıxır, günəş batır,
Sonra tələsik yerinə dönür ki,
Təzədən çıxsın.
6 Külək cənub səmtinə əsir,
Sonra şimal səmtinə dönür.
Dönə-dönə gedir,
Öz yolunu təkrar edir.
7 Bütün çaylar dənizə axır,
Amma dəniz heç vaxt dolmur.
Axdıqları yerə qayıdırlar ki,
Təzədən axsınlar.
8 Hər şey çətin başa gəlir.
Sözlər kifayət etmir,
Göz görməkdən doymur,
Qulaq da eşitməkdən.
9 Nə olubsa, yenə olacaq,
Nə edilibsə, yenə ediləcək.
Ona görə də səma altında tamam təzə bir şey yoxdur.
10 Məgər bir şey var ki,
Onun haqqında deyilsin:
“Bax bu təzə bir şeydir?”
O da çoxdan var imiş –
Bizim dövrümüzdən əvvəl.
11 Əvvəlki şeylərdən heç nə xatırlanmır,
Gələcəkdə baş verən şeylərdən də
Bundan sonra gələnlər arasında
Heç nə xatırlanmayacaq.

Hikmətin puçluğu

12 Mən Vaiz Yerusəlimdə İsrailin padşahı idim. 13 Ürəyimdə niyyət etdim ki, göylər altında edilən bütün işləri hikmətlə öyrənib araşdırım. Bu çətin işi üzərində zəhmət çəkmək üçün Allah insanlara verib. 14 Səma altında edilən bütün işlərə nəzər saldım və bildim ki, onların hamısı puçdur, külək dalınca qaçmağa bənzər.

15 Əyri olan düz ola bilməz,
Əskik olan sayıla bilməz.

16 [w]Öz-özümə dedim: “Bax mən
böyük adam olmuşam və məndən əvvəl
Yerusəlimdə yaşayanların hamısından
çox hikmət qazanmışam. Ağlımda çoxlu
hikmət və bilik var”. 17 Sonra ürəyimdə
niyyət etdim ki, hikmətin nə olduğunu,
dəlilik və axmaqlığın nə olduğunu
öyrənim. Amma bildim ki, bu da külək
dalınca qaçmağa bənzər.
18 Çünki hikmət çox olduqca
Kədər də çoxalır.
Bilik artdıqca
Dərd də artır.

Şadlığın puçluğu

2 Mən ürəyimdə dedim: “Gəl indi də
şadlıq etməyi sınaqdan keçir və kefə
bax”. Amma gördüm ki, bu da puçdur.
2 Gülmək haqqında “Dəlilikdir!”,
şadlıq haqqında “Nə faydası var?”
dedim. 3 Hələ ağlım başımda olarkən
cəhd etdim ki, necə özümü şərabla
şənləndirib ağılsız olum. Beləcə görmək
istəyirdim ki, göylər altında insanlar
üçün bir neçə günlük ömürlərində kef
açan nədir.
4 [x]Mən böyük işlər gördüm: özümə
evlər tikdim, üzüm bağları saldım,
5 özümə bağçalar və bağlar düzəltdim,
orada hər cür meyvə ağacı əkdim.
6 Özümə su hovuzları düzəltdim
ki, meşədə bitən ağacları suvarsın.
7 [y]Nökərlər və kənizlər aldım, evimdə
doğulan qullarım var idi. Naxırlarım və
sürülərim də məndən əvvəl Yerusəlimdə
yaşayanların hamısınkından çox idi.
8 [z]Özümə qızıl-gümüş, padşahların
və vilayətlərin xəzinələrini yığdım.
Özümə kişi və qadın müğənnilər
gətirtdim, kişilərin xoşuna gələn ən
gözəl qadınların sayını artırdım.
9 [a]Beləcə yüksəlib məndən əvvəl
Yerusəlimdə yaşayanların hamısından
daha əzəmətli oldum. Hikmətim də
özümdə qaldı.
10 Gözlərimin istədiyi hər şeyi
özümdən əsirgəmədim,
Ürəyimi heç bir həzzdən məhrum
etmədim,
Könlüm etdiyim hər işdən zövq aldı.
Bu çəkdiyim bütün zəhmətlərin payı
idi.
11 Mən etdiyim bütün işlərə,
Nail olmaq üçün çəkdiyim bütün
zəhmətlərə dönüb baxdım:
Gördüm ki, hər şey puçdur,
Külək dalınca qaçmağa bənzər.
Səma altında bunların faydası yoxdur.

Hikmət və ağılsızlıq puçdur

12 Sonra mən hikmət, dəlilik və
ağılsızlığın
Nə olduğuna dönüb baxdım.
Bundan sonra padşah olan adam
İndiyə qədər görülən işlərdən başqa
Nə edə bilər ki?
13 Mən gördüm ki,
Necə işıq qaranlıqdan üstündürsə,
Hikmət də ağılsızlıqdan eləcə
üstündür.
14 Hikmətli adamın gözləri yerindədir,
Ağılsız adam isə qaranlıqda gəzir.
Lakin mən yenə bilirəm ki,
İkisinin də aqibəti eyni cür olur.
15 Mən ürəyimdə dedim:
“Mənim də aqibətim ağılsız adamın
Aqibəti kimi olacaq.
Onda hikmətli olmağımın
Nə faydası var?”
Ona görə də ürəyimdə dedim:
“Bu da puçdur”.
16 Çünki müdrik adam da
Ağılsız adam kimi
Bir daha xatırlanmayacaq,
Gələcək dövrdə hamısı unudulacaq.
Heyf ki hikmətli adam da

---

[w]**1:16** 1Pad. 4:29-31 [x]**2:4** 1Pad. 10:23-27; 2Saln. 9:22-27
[y]**2:7** 1Pad. 4:23 [z]**2:8** 1Pad. 10:10,14-22 [a]**2:9** 1Saln. 29:25

Ağılsız adam kimi ölür!
17 Beləcə həyata nifrət etdim,
Çünki səma altında edilən işlər
Mənim üçün dərddir.
Hər şey puçdur,
Külək dalınca qaçmağa bənzər.

Zəhmətin puçluğu

18 Mən səma altında çəkdiyim bütün
zəhmətlərə nifrət etdim. Çünki onun
da səmərəsini məndən sonra gələn
adama verməliyəm. 19 Kim bilir, o da
bir müdrik adam olacaq, yoxsa ağılsızın
biri? Lakin hər halda səma altında
hikmətlə davranıb çəkdiyim bütün
zəhmətlərin səmərəsinə sahib olacaq.
Bu da puçdur. 20 Ona görə də səma
altında çəkdiyim bütün zəhmətlərdən
əlimi üzdüm. 21 Çünki biri hikmət, bilik
və bacarıqla zəhmət çəkir, axırda isə
onun payını heç bir zəhmət çəkməmiş
başqa adama verməli olur. Bu da
puçdur, böyük bir dərddir. 22 İnsanın
səma altında çəkdiyi bütün zəhmətlərin,
ürəyindəki qayğıların ona nə faydası
var? 23 [b]Onun bütün günləri dərd içində,
işləri kədər içində keçir. Hətta gecə də
ürəyi rahatlanmır. Bu da puçdur.
24 [c]İnsan üçün yeyib-içməkdən və
gördüyü işdən zövq almaqdan yaxşı
şey yoxdur. Ancaq mən gördüm ki,
bunu da verən Allahdır. 25 Çünki
Onsuz [*]kim yeyə, kim kef çəkə bilər?
26 [d]Allah hikməti, biliyi və şadlığı razı
qaldığı adama verir. Günahkarlara isə
var-dövlət yığıb-toplamaq zəhmətini
verir ki, sonra onu Özünün razı qaldığı
adama bəxş etsin. Bu da puçdur, külək
dalınca qaçmağa bənzər.

Hər şeyin öz vaxtı var

3 Hər şeyin öz vaxtı var, göylər
altında hər işin öz vaxtı var:
2 Doğulmağın öz vaxtı var, ölməyin
öz vaxtı.
Əkməyin öz vaxtı, kökündən
çıxartmağın öz vaxtı.
3 Öldürməyin öz vaxtı, sağaltmağın öz
vaxtı.
Yıxmağın öz vaxtı, qurmağın öz vaxtı.
4 Ağlamağın öz vaxtı, gülməyin öz
vaxtı.
Yas tutmağın öz vaxtı, rəqs etməyin
öz vaxtı.
5 Daş atmağın öz vaxtı, daş yığmağın
öz vaxtı.
Qucaqlaşmağın öz vaxtı,
qucaqlaşmamağın öz vaxtı.
6 Axtarmağın öz vaxtı, itirməyin öz
vaxtı.
Saxlamağın öz vaxtı, atmağın öz
vaxtı.
7 Yırtmağın öz vaxtı, tikməyin öz
vaxtı.
Susmağın öz vaxtı, danışmağın öz
vaxtı.
8 Sevməyin öz vaxtı, nifrət etməyin öz
vaxtı.
Müharibənin öz vaxtı, sülhün öz
vaxtı.
9 İşləyən adama zəhmət çəkib gördüyü
işin nə faydası var? 10 Gördüm ki, bu
işi üzərində zəhmət çəkmək üçün Allah
insanlara verib. 11 Allah hər şeyi öz
vaxtında gözəl yaratdı və əbədiyyəti
də insanların ürəyinə qoydu. Hərçənd
ki insan Allahın etdiyi işi əvvəldən
axıra qədər anlaya bilməz. 12 Mən
bilirəm ki, insan üçün şadlıq etməkdən
və ömrü boyu xeyirxahlıq etməkdən
yaxşı şey yoxdur. 13 Həm də hər kəsin

[*]**2:25** *Onsuz* – bəzi qədim mətnlərdə *mənsiz.*

[b]**2:23** Əyy. 5:7; 14:1 [c]**2:24** Vaiz 3:13; 5:18; 9:7; Yeş. 56:12; Luka 12:19; 1Kor. 15:32 [d]**2:26** Əyy. 32:8; Sül. 2:6

yeyib-içməyi və gördüyü işdən zövq
almağı Allahın bəxşişidir. 14 Bunu
bilirəm ki, Allahın etdiyi hər iş daim
qalır: ona nə bir şey artırmaq, nə də bir
şey əskiltmək olar. Allah bunu ona görə
edir ki, insanlar Ondan qorxsun.
15 İndi nə olursa, keçmişdə də olub,
Nə olacaqsa, lap qədimdən də var idi.
Allah olub-keçənləri araşdırır.
16 Səma altında bir şey də gördüm:
Ədalətin yerində pislik var,
Salehliyin də yerində pislik.
17 Mən ürəyimdə dedim:
"Allah həm salehi,
Həm də pis adamı mühakimə edəcək.
Çünki O hər iş, hər əməl üçün
Bir vaxt qoyub".
18 İnsanlar barədə mən ürəyimdə
dedim: "Allah onları sınayır ki, heyvan
kimi olduqlarını görsünlər". 19 Çünki
heyvanın başına gələn insanın da başına
gəlir, ikisinin də aqibəti eyni cür olur.
Necə biri ölürsə, eləcə də o biri ölür.
İkisi də eyni nəfəsə malikdir, insan
heyvandan üstün deyil, çünki hər şey
puçdur. 20 Hamısı bir yerə gedir, hamısı
torpaqdan yaranıb, torpağa da qayıdır.
21 Bunu kim bilir ki, insanların ruhu
yuxarı qalxır, heyvanların ruhu aşağı –
yerin altına enir?
22 Gördüm ki, insanın etdiyi işdən
zövq almasından yaxşı şey yoxdur,
çünki onun payına düşən budur. Kim
onu bir də geri qaytaracaq ki, özündən
sonra nə olacağını görsün?

Dünyanın əziyyətləri

4 Mən yenə səma altında edilən
Bütün zülmləri gördüm:
Məzlumların göz yaşlarını gördüm,
Onlara təsəlli verən yox idi,
Qüdrət zalımların əlində idi,
Məzlumlara təsəlli verən yox idi.
2 Çoxdan ölüb getmiş adamları
Hələ diri qalanlardan daha xoşbəxt
saydım.
3 Bunlardan da xoşbəxt o adamdır ki,
Hələ dünyaya gəlməyib,
Səma altında edilən pisliyi görməyib.
4 Mən gördüm ki, bir adamın çəkdiyi
bütün zəhmətlər, yaxşı gedən bütün
işlər qonşusunda qısqanclıqdan həvəs
yaradır. Bu da puçdur, külək dalınca
qaçmağa bənzər.
5 Ağılsız adam əlini qoynuna qoyur,
Öz canını üzür.
6 Bir ovuc dolusunun gətirdiyi rahatlıq
İki ovuc dolusunun gətirdiyi
Zəhmətdən və külək dalınca
qaçmaqdan yaxşıdır.
7 Mən yenə səma altında puç olan
başqa bir şeyi gördüm:
8 Tənha bir adam var idi,
Onun nə oğlu, nə də qardaşı var idi.
Zəhmət çəkməkdən yorulmazdı,
Lakin yenə də gözləri mal-dövlətdən
doymurdu.
Özündən soruşmurdu ki,
Kimin üçün bu qədər zəhmət çəkirəm,
Kimin üçün özümü zövq almaqdan
məhrum edirəm?
Bu da puçdur, böyük bir dərddir.
9 İki adam bir adamdan yaxşıdır,
Çünki zəhmətləri üçün yaxşı muzd
alacaqlar.
10 Əgər biri yıxılsa,
O biri yoldaşını qaldırar.
Lakin vay o adamın halına ki,
Yıxılanda onu qaldıran olmur!
11 Həmçinin iki nəfər bir yerdə
yatarsa,
Bir-birini isidər.
Amma tək yatan necə isinə bilər?
12 Əgər bir nəfər tək qalıb məğlub
olarsa,
İki nəfər hücuma tab gətirə bilər.
Üçqat ip tez qırılmaz.
13 Yoxsul və hikmətli bir cavan
irad qəbul etməyən qoca və səfeh
padşahdan yaxşıdır. 14 Çünki o cavan
bu ölkədə yoxsulluq içində doğulsa da,
zindana düşsə də, çıxıb padşah ola bilər.

15 Gördüm ki, səma altında dolaşan
bütün adamlar padşah taxtına oturan bu
cavanın ardınca gedir. 16 Onun başına
yığışan bütün xalqın sayı-hesabı yox idi.
Ancaq sonra gələn nəsillər onun üçün
də sevinməyəcək. Bu da puçdur, külək
dalınca qaçmağa bənzər.

Allaha münasibət

5 Allahın evinə getdiyin zaman
hərəkətlərinə diqqət et. Qulaq
asmaq üçün oraya girmək yaxşı və pisin
nə olduğunu bilməyən səfeh adamların
qurban təqdim etməsindən yaxşıdır.
2 Dilin tələsməsin,
Allahın hüzurunda söz deməyə
Ürəyin tələsməsin.
Çünki Allah göydədir, sən yerdə.
Buna görə də az danış.
3 Necə ki iş çox olanda adam yuxu
görər,
Söz də çox olanda səfeh danışığa
çevrilər.
4 [e]Allaha əhd edəndə onu yerinə
yetirməkdə yubanma, çünki ağılsızlar
Onun xoşuna gəlməz. Öz əhdini
yerinə yetir. 5 Əhd etməmək əhd edib
onu yerinə yetirməməkdən yaxşıdır.
6 Qoyma sözlərin səni günaha batırsın.
Allahın elçisinə demə ki, bu, kiçik
səhv idi. Nə üçün Allah sənin sözünə
qəzəblənsin və əlinin zəhmətini yox
etsin? 7 Çünki çox yuxu görəndə də, çox
söz danışanda da puç şeylər çox olar.
Sən ancaq Allahdan qorx.

Var-dövlətin puçluğu

8 Əgər bir vilayətdə yoxsullara zülm
edildiyini, ədalət və salehliyin ayaq
altında tapdalandığını görürsənsə,
gördüyünə təəccüb etmə. Çünki hər
vəzifə başında olana özündən yuxarıda
bir nəzarətçi qoyulub və onların başında
da özlərindən yuxarıda olanlar var.
9 Ancaq hamıdan yuxarıda olan padşah
ədalətli olsa, hər kəs öz tarlasının
bəhrəsindən xeyir götürər.
10 Pul sevən puldan doymaz,
Var-dövlət sevən də qazancdan.
Bu da puçdur.
11 Var-dövlət çoxaldıqca
Onu yeyənlər də çoxalır.
Gözləri ilə görməkdən savayı
Sahibinə ondan nə fayda var?
12 Fəhlə az da yesə, çox da yesə,
Yuxusu şirindir.
Amma varlı adamın dövləti qoymaz
ki,
O, rahat yatsın.
13 Səma altında gördüyüm
Başqa böyük dərd də var:
Yığdığı sərvət sahibinə zərər gətirir,
14 Bu sərvəti bədbəxt hadisələr yox
edir,
Sərvət sahibinin oğlu doğulanda
Ona verməyə bir şeyi qalmır.
15 [f]Necə ki o, anasının bətnindən
çılpaq doğulub,
Eləcə də bu dünyadan gedir.
Zəhmətinin bəhrəsindən
Heç nəyi əlinə götürüb
Özü ilə apara bilmir.
16 Bu da böyük bir dərddir:
İnsan dünyaya necə gəlirsə,
Elə də gedir.
Boş yerə çəkdiyi zəhmətin
Ona nə faydası var?
17 Ömrü boyu öz çörəyini
Qaranlıq, böyük sıxıntı, xəstəlik və
Qəzəb içində yeyir.
18 İnsan üçün mənim gördüyüm yaxşı
və gözəl olan budur ki, o yeyib-içsin
və Allahın ona verdiyi bir neçə günlük
ömründə səma altında çəkdiyi bütün
zəhmətlərindən zövq alsın, çünki ona
düşən bəxşiş budur. 19 Həmçinin Allah
hər kəsə var-dövlət bəxş edərək qüvvət
verib ki, ondan yesin, payını götürsün

---

[e]**5:4** Zəb. 66:13-14 [f]**5:15** Əyy. 1:21; Zəb. 49:17; 1Tim. 6:7

və zəhmətindən zövq alsın. Bu, Allahın
hədiyyəsidir. 20 Çünki Allah insanın
başını şənliklə qatdığı üçün insan
ömrünün günlərini dərindən düşünmür.
6 Səma altında gördüyüm bir dərd də
var ki, insanlar arasında çox yayılıb:
2 adam var ki, Allah ona var-dövlət, izzət
verir, arzu etdiyi hər şeyi yerinə yetirir,
ancaq ona bu şeylərdən yeyib-içməyə
imkan vermir, yad bir adam onun malını
yeyir. Bu da puçdur, böyük bir dərddir.
3 Bir adam yüz uşaq atası olub, uzun
illər yaşasa da, amma uzun ömrünün
əvəzində firavanlığından doymayıb
hörmətlə dəfn olunmazsa, məncə, ölü
doğulmuş uşaq ondan yaxşıdır. 4 Çünki
ölü doğulmuş uşaq boş yerə doğulur,
qaranlıq içində itib-gedir, heç adı da
çəkilmir. 5 Nə günəş üzü görür, nə də
bir şey bilir. Amma bu uşağın rahatlığı
o adamınkından çoxdur. 6 Çünki o adam
iki dəfə min il ömür sürsə də, sevincin
nə olduğunu bilmir. Məgər hər ikisi
eyni yerə getmirmi?
7 İnsan bütün zəhməti
Qarnı üçün çəkir,
Amma yenə də iştahası
bitib-tükənmir.
8 Hikmətli adamın ağılsızdan
Nə üstünlüyü var?
Yoxsul başqa insanlarla
Necə rəftar etməyi bilsə də,
Bunun ona nə faydası var?
9 Gözün görməsi ürəyin istəməsindən
yaxşıdır.
Bu da puçdur, külək dalınca qaçmağa
bənzər.
10 Nə varsa, adı çoxdan qoyulmuşdur,
İnsanın da nə olduğu bilinir.
Heç kəs özündən güclü ilə güləşə
bilməz.
11 Sözün çoxluğu puçluğu çoxaldır.
Bunun insana nə faydası var?
12 Görəsən kim bilir ki, kölgə kimi
keçən qısa puç həyatda insan üçün
yaxşı şey nədir? Kim insana deyə bilər
ki, özündən sonra səma altında nə baş
verəcək?

Hikmət haqqında

7 [g]Yaxşı ad ətirli yağdan,
Ölüm günü isə doğum günündən
yaxşıdır.
2 Yas evinə getmək
Ziyafət evinə getməkdən yaxşıdır,
Çünki hər kəsin axırı ölümdür.
Gərək yaşayan hər adam
Bunu yadında saxlasın.
3 Qüssə gülməkdən yaxşıdır,
Çünki üzün qəmgin olması
İnsan üçün daha yaxşıdır.
4 Hikmətli adamın ürəyi yas evindədir,
Amma ağılsızın ürəyi şadlıq evində.
5 Hikmətli adamın məzəmmətini
eşitmək
Ağılsızın nəğməsini eşitməkdən
yaxşıdır.
6 Çünki ağılsız adamın gülməyi
Qazan altında yanan tikanlı kolun
səsi kimidir.
Bu da puçdur.
7 Haram gəlir hikmətli adamı ağılsıza
çevirir,
Rüşvət isə ürəyi bərbad edir.
8 Bir şeyin axırı əvvəlindən yaxşıdır,
Səbirli adam qürurludan yaxşıdır.
9 [h]Qəzəblənməyə tələsmə,
Çünki qəzəb ağılsızların
Ürəyində yuva salar.
10 "Niyə keçən günlər bu gündən yaxşı
idi?" demə,
Çünki verdiyin sual hikmətli sual
deyil.
11 Hikmət miras mal qədər yaxşıdır,
Dünyada yaşayan hər kəs üçün
faydalıdır.
12 Çünki pul necə insanın sipəridirsə,

[g]**7:1** Sül. 22:1 [h]**7:9** Yaq. 1:19

Hikmət də eləcə insanın sipəridir.
Amma biliyin faydası bundan
ibarətdir:
Hikmət ona sahib olana həyat verər.
13 Allahın işinə diqqət et:
Onun əydiyini kim düzəldə bilər?
14 Yaxşı gündə şad-xürrəm ol,
Pis gündə isə bunu anla:
Hər cür günü Allah təyin edib ki,
İnsan özündən sonra nə olacağını
bilməsin.
15 Puç ömrümdə bunları gördüm:
Saleh adam salehliyinə baxmayaraq,
ölür,
Pis adamın isə pisliyinə baxmayaraq,
ömrü uzanır.
16 Həddən artıq saleh olma,
Həddən artıq müdrik olma.
Nə üçün özünü üzəsən?
17 Həddən artıq pis olma,
Həddən artıq ağılsız olma.
Nə üçün əcəlin çatmamış öləsən?
18 Bir şeydən yapışmağın yaxşıdır,
Amma o birindən də əlini çəkmə.
Çünki Allahdan qorxan adam
Hər ikisini tarazlayar.
19 Hikmət ağıllı adama
Şəhərdə olan on hakimin hökmündən
Daha çox güc verər.
20 Doğrudan da, yer üzündə elə saleh
adam yoxdur ki,
Yalnız yaxşılıq edib heç bir günah
etməsin.
21 Adamların dediyi hər sözə məhəl
qoyma,
Onda nökərinin səni söydüyünü
eşitməzsən.
22 Çünki sənin ürəyin də yaxşı bilir ki,
Sən də başqa adamları çox söymüsən.
23 Bu deyilənlərin hamısını hikmətlə
sınadım.
“Hikmətli olacağam” söylədim.
Amma buna qadir olmadım.
24 Hikmət deyilən şey
Çox uzaqda, çox dərindədir.
Onu kim tapa bilər?
25 Mən ürəyimdə niyyət etdim ki,
Hikməti və hər şeyin əsasını bilim,
Axtarıb araşdırım,
Bilim ki, pislik ağılsızlıqdır,
Ağılsızlıq isə dəlilikdir.
26 Tələ quran qadını
Ölümdən acı gördüm.
Onun ürəyi tora,
Əlləri zəncirə bənzər.
Allahın razı qaldığı adam ondan
qaçar,
Ancaq günahkar adam ona əsir olar».
27 Vaiz deyir:
«Bax bunu öyrəndim:
Hər şeyin əsasını tapmaq üçün
Bir-bir araşdıran zaman
28 Ürəyim hey axtarır, ancaq tapa
bilmir.
Min kişinin içində bir yaxşısını
tapdım,
Amma bu qədər qadının içində bir
yaxşısını tapmadım.
29 Ancaq bunu öyrəndim ki,
Allah insanları kamil yaratdı,
Onlar isə qarışıq fikirlərə düşdü.
8 Kim hikmətli adama tay ola bilər?
Şeylərin mənasını kim bilər?
Hikmət insanın üzünü nurlandırar,
Tutqun simasını dəyişdirər.

Padşaha itaət

2 Mən deyirəm: padşahın hökmünə
qulaq as, çünki Allaha and içmisən.
3 Padşahın hüzurundan çıxmağa
tələsmə, onun xoşuna gəlməyən işində
inad etmə, çünki o istədiyi hər şeyi edə
bilər.
4 Padşahın sözündə səlahiyyət var.
Kim ona “Nə edirsən?” deyə bilər?
5 Onun hökmünü yerinə yetirən
Heç bir bəlaya düşməz.
Hikmətli adamın ürəyi
Bunun vaxtını da, qaydasını da bilir.
6 Axı hər şeyin həm öz vaxtı,
Həm də öz qaydası var.

Hərçənd ki insanın daşıdığı dərd çox
ağırdır.
7 Çünki kim bilir ki, nə olacaq?
Bəs kim ona deyə bilər ki, necə
olacaq?
8 Küləyi tutub saxlamağa heç kəsin
gücü çatmadığı kimi
Ölüm gününü saxlamağa da heç kəsin
gücü çatmaz.
Döyüşçü meydanı tərk etmədiyi kimi
Pislik də pis adamı tərk etməz.
9 Bunların hamısını gördüm və
səma altında görülən hər işə diqqət
etdim: bir adamın başqa adama ağalıq
etməsi başına bəla olur. 10 Sonra mən
pis adamların axırını da gördüm. Bu
adamlar müqəddəs yerə gəlib-gedər,
buna görə də pislik etdikləri şəhərdə
təriflənərdi. Bu da puçdur. 11 Pis
işin cəzası tez verilmədiyinə görə
insanların ürəyi də pislik etməyə cəsarət
tapır. 12 Günahkar adam yüz dəfə
pislik edib uzun müddət yaşasa da,
Allahdan qorxanların, Onun hüzurunda
ehtiramla duranların yaxşılıq görəcəyini
bilirəm. 13 Ancaq pis adam yaxşılıq
görməyəcək və onun kölgəyə bənzər
günləri uzadılmayacaq, çünki Allahın
hüzurunda ehtiramla durmur.
14 Yer üzündə baş verən başqa puç şey
də var: saleh adamlara layiq olan şeylər
pis adamlara qismət olur, pis adamlara
layiq olan şeylər saleh adamlara qismət
olur. Dedim ki, bu da puçdur.
15 Beləcə mən kef çəkməyi üstün
saydım, çünki səma altında insan üçün
yeyib-içməkdən və kef çəkməkdən yaxşı
şey yoxdur. Çünki səma altında Allahın
insana ömrü boyu çəkdirdiyi zəhmətdən
ona ancaq bu qalır.
16 O zaman ürəyimdə niyyət etdim
ki, hikmət öyrənim və yer üzündə
insanların gecə-gündüz gözlərinə
yuxu getməyərək gördükləri işlərə
nəzər salım. 17 Onda Allahın bütün
işlərini gördüm. Bildim ki, kimsə səma
altında edilən işləri anlaya bilməz, nə
qədər səy göstərsə də, yenə də bunu
anlaya bilməz. Bir hikmətli adam bunu
bildiyini iddia etsə də, yenə dərk edə
bilməz.

Hər kəsin taleyi eynidir

9 Beləcə bunların hamısını ürəyimdə
araşdırıb bu nəticəyə gəldim:
salehlər, hikmətlilər və onların etdikləri
işlər Allahın əlindədir. İstər sevgi olsun,
istər nifrət, insan qabağına nə çıxacağını
bilmir. 2 Hər kəsin aqibəti eyni cür olur:
salehlərin və pislərin, yaxşıların və
yamanların, təmizlərin və murdarların,
qurban təqdim edənlərin və qurban
təqdim etməyənlərin. Yaxşı adama nə
olursa, günahkarlara da elə olur. And
içənə nə olursa, and içməkdən qorxana
da elə olur. 3 Səma altında edilən işlərin
hamısının pis cəhəti bundadır ki, hər
kəsin aqibəti eyni cür olur. Doğrudan
da, insanların ürəyi pisliklə doludur. Nə
qədər ki yaşayırlar, ürəklərində dəlilik
var. Sonra isə ölüb gedirlər. 4 İnsan nə
qədər ki yaşayır, onun üçün ümid var,
ona görə ki diri it ölü şirdən yaxşıdır.
5 Çünki dirilər öləcəklərini bilir,
Ancaq ölülər heç nə bilmir.
Onlara daha heç vaxt əvəz
verilməyəcək,
Çünki onların xatirəsi də unudulub.
6 Ölülərin sevgisi, nifrəti,
Paxıllığı artıq məhv olub.
Səma altında görülən işlərdə
Daha payları olmayacaq.
7 Get çörəyini şadlıqla ye,
Şərabını şən ürəklə iç.
Çünki artıq Allah
Etdiyin işlərdən razıdır.
8 Qoy paltarın həmişə ağ olsun,
Başından ətirli yağ əskik olmasın.
9 Səma altında Allahın sənə verdiyi
puç ömrünün bütün günlərini –
həyatının hamısını sevdiyin qadınla
xoş həyat keçir. Çünki həyatından və

səma altında çəkdiyin zəhmətdən sənə
qalan pay budur. 10 Çalışmaq üçün
nə bacarırsan, var gücünlə et. Çünki
gedəcəyin ölülər diyarında nə iş, nə
fikir, nə bilik, nə də hikmət var.
11 Səma altında daha bir şey də
gördüm:
Yarışı həmişə bərk qaçanlar udmur,
Müharibədə həmişə igidlər qalib
gəlmir.
Çörək həmişə müdriklərə,
Var-dövlət həmişə ağıllılara nəsib
olmur,
Hörmət alimlərə göstərilmir.
Ancaq zaman və fürsətdir ki, hər
kəsin qabağına çıxır.
12 Həmçinin insan öz vaxtını bilmir.
Balıqlar amansız bir tora,
Quşlar tələyə düşdüyü kimi
İnsanlar da pis bir zəmanəyə düçar
olur,
Onda pis zəmanə qəfildən başlarının
üstünü alır.

Hikmətin ağılsızlıqdan üstünlüyü

13 Səma altında mənə çox təsir edən
bu hikməti də gördüm: 14 içində az
adam yaşayan kiçik bir şəhər var idi.
Güclü bir padşah oraya hücum edib
onu dövrəyə aldı, ətrafında böyük
mühasirə işləri gördü. 15 Orada yoxsul,
ancaq hikmətli bir adam yaşayırdı. O öz
hikməti ilə şəhəri xilas etdi. Lakin heç
kəs bu yoxsul adamı xatırlamadı.
16 O zaman mən dedim:
"Hikmət qüdrətdən yaxşıdır,
Lakin yoxsul adamın hikmətinə xor
baxırlar,
Onun sözləri eşidilmir".
17 Hikmətli adamın pıçıltı ilə dediyi
sözlər
Ağılsızların içindəki başçının
qışqırtısından yüksəkdir.
18 Hikmət döyüş silahından üstündür,
Amma bir günahkar hər cür yaxşılığı
bərbad edər.

10 Ölü milçəklər ətirdüzəldənin
yağını
İylədib xarab edər.
Kiçik ağılsızlıq da
Hikmət və hörmət sahibini rüsvay
edər.
2 Hikmətli adamın ürəyi düzlüyə tərəf
yönələr,
Ağılsız adamın ürəyi əyriliyə.
3 O yol gedəndə də ağlının azlığı
bilinər,
Ağılsız olduğunu hamıya göstərər.
4 Əgər hakimin qəzəbi sənə qarşı
alovlansa,
Yerindən tərpənmə.
Çünki sakitlik
Böyük xətaların üstünü örtər.
5 Səma altında bir dərd də gördüm:
O da hökmdarın əlindən çıxan
səhvdir.
6 Ağılsızlar yüksək vəzifələrə qoyulur,
Halbuki varlılar aşağıda oturur.
7 Gördüm ki, qullar necə at üstündə,
Ağalar isə qul kimi piyada gedir.
8 [i]Quyu qazan içinə özü düşə bilər,
Divar sökəni ilan sanca bilər.
9 Daş kəsəni daşlar yaralar,
Odun yarana odun xətər yetirər.
10 Əgər balta kütdürsə,
Onun ağzı itilənməyə verilməyibsə,
Daha çox güc sərf olunmalıdır.
Amma hikmət insanın köməyinə
çatar.
11 Əgər ilan ovsun oxunmazdan qabaq
sancsa,
Ovsunçu çağırmağın faydası yoxdur.
12 Hikmətli adamın ağzından lütfkar
sözlər çıxar,
Lakin ağılsız öz dili ilə həlakına yol
açar.
13 Onun dilindəki sözlər ağılsızlıqla
başlanar,

---

[i]**10:8** Zəb. 7:15; Sül. 26:27

Danışığının axırı da sarsaqlıqdır.
14 Ağılsız adam çox söz danışar.
Heç kəs nə olacağını bilməz.
Bəs kim ona özündən sonra
Nə olacağını deyə bilər?
15 Ağılsızların çəkdikləri zəhmət
Özlərini yorar,
Onlar şəhərə gedən yolu da bilmir.
16 Əgər padşahın bir uşaqdırsa,
Başçıların səhər tezdən
Ziyafətə başlayırsa,
Onda vay halına, ey ölkə!
17 Əgər padşahın bir əsilzadədirsə,
Başçıların da vaxtında
Keflənmək üçün yox, qüvvətlənmək üçün yeyirsə,
Onda xoş halına, ey ölkə!
18 Tənbəllik üzündən evin damı uçar,
Heç bir iş görməsən, evin tavanı damar.
19 Yemək şadlıq gətirər,
Şərab həyatı keflə doldurar,
Pul isə hər istəyini ödəyər.
20 Padşahı hətta ürəyində də söymə,
Varlı adamı yataq otağında da lənətləmə.
Çünki göydə uçan quşlar xəbər aparar,
Qanadlı məxluqlar sənin sözünü çatdırar.

Zəhmətin qiyməti

11 Çörəyini suların üzünə burax,
Çünki uzun müddət sonra yenə onu taparsan.
2 Yeddi ya səkkiz adama pay ver,
Çünki bilmirsən ki,
Ölkədə necə bir pis gün olacaq.
3 Əgər buludlar su ilə dolu olsa,
Yağışlarını yer üzünə səpər.
Əgər bir ağac cənub ya şimal
Səmtinə yıxılsa,
Elə yıxıldığı yerdə də qalar.
4 Küləyə baxan toxum səpməz,
Buludlara baxan əkdiyini biçməz.
5 Küləyin səmtini,
Hamilə qadının qarnında
Sümüklərin necə böyüdüyünü bilmədiyin kimi
Hər şeyi yaradan
Allahın işlərindən də xəbərsizsən.
6 Toxumunu səhər vaxtı səp,
Axşama qədər də əlin boş durmasın.
Çünki bilmirsən ki, əvvəlki məhsuldar olacaq
Yoxsa sonrakı
Yaxud hər ikisi birlikdə.

Yaradanı unutma

7 Həqiqətən, işıq gözəldir,
Günəşi görmək gözlərə xoşdur.
8 Əgər insan uzun ömür sürürsə,
Qoy sevinclə yaşasın.
Ancaq qaranlıq günlərinin də olduğunu unutmasın,
Çünki onlar daha çox olacaq.
Baş verəcək hər şey puçdur.
9 Ey gənc, cavanlığında sevin,
Qoy ürəyin səni cavanlıq günlərində sevindirsin.
Ürəyinin istədiyi ilə,
Gözlərinin gördüyü ilə get.
Ancaq bil ki, Allah
Bunların hamısına görə
Səni mühakimə edəcək.
10 Buna görə də təşvişi ürəyindən qov,
Əzabı bədənindən uzaqlaşdır.
Çünki cavanlıq da,
Cavanlıqdakı güc də puçdur.

12 Pis günlər gəlməzdən qabaq,
"Onlardan zövq almıram" deyəcəyin illər
Yaxınlaşmazdan əvvəl,
Cavanlıq günlərində
Səni Yaradanı xatırla.
2 Günəş, işıq, ay və ulduzlar sönməzdən əvvəl,
Yağışdan sonra buludlar yenə qayıtmazdan əvvəl
Onu xatırla.
3 O gün gələndə
Evi qoruyanlar tir-tir əsəcək,

Güclülər əyiləcək,
Əl dəyirmanı ilə işləyənlər
Az olduqları üçün
Dən üyüdə bilməyəcək,
Pəncərədən baxanlar qaralacaq.
4 Küçəyə açılan qapılar bağlanacaq,
Dəyirmanların səsi kəsiləcək.*
Adamlar quş səsi ilə oyanacaq,
Nəğmə oxuyan bütün qızların səsini
Zəif eşidəcəklər.
5 O zaman onlar uca yerdən qorxacaq,
Yolda yerimək də təhlükəli olur.
Bax badam ağacı çiçək verir,
Çəyirtkə özünü güclə çəkir,
Həvəsi zəifləyir.
Beləcə insan son mənzilə gedir,
Yas tutanlar küçələrə düşür.
6 Gümüş iplər qopmamış,
Qızıl kasa qırılmamış,
Bulaq başında kuzə tikə-tikə olmamış,
Quyu yanında çarx sınmamış,†
7 Torpaq gəldiyi yerə qayıtmamış,
Həyat nəfəsi isə onu verən Allaha dönməmiş‡
Səni Yaradanı xatırla».
8 Vaiz deyir:
«Hər şey puçdur, tamam puçdur».

Son söz

9 Vaiz hikmətli adam olmaqdan
başqa, xalqa bilik də öyrədirdi. O bir
çox məsəlləri araşdırıb axtardı və tərtib
etdi. 10 Vaiz faydalı sözlər tapmağa
çalışdı. Onun yazdıqları düzgün və
doğrudur. 11 Hikmətlilərin sözləri çoban
çubuğu kimi, topladıqları sözləri bərk
vurulmuş mıxlar kimidir; o sözlər bir
Çoban tərəfindən verilir.
12 Bunlardan başqa, oğlum, sən buna diqqət et ki,
Çox kitab yazmağın axırı yoxdur,
Çox oxumaq adamı yorur.
13 Hər şey aşkar oldu,
Nəticə bundan ibarətdir:
Allahdan qorx,
Onun əmrlərini yerinə yetir.
Bəli, insanın əsas vəzifəsi budur.
14 Çünki Allah hər işi, gizli olan hər şeyi –
İstər yaxşı olsun, istər pis –
Mühakimə edəcək.

---

*12:4 Burada rəmzi izah mümkündür: *evi qoruyanlar* – əl-qol, *güclülər* – ayaqlar, *əl dəyirmanı ilə işləyənlər* – dişlər, *pəncərədən baxanlar* – gözlər, *küçəyə açılan qapılar* – qulaqlar, *dəyirmanlar* – dişlər mənasını verə bilər.

†12:6 Bu sözlər insanın bədən üzvlərinin çürüməsini təsvir edən rəmzi ifadələr də ola bilər.

‡12:7 Bax: Yar. 2:7.

NƏĞMƏLƏR NƏĞMƏSİ

KİTABI

GİRİŞ

«Nəğmələr Nəğməsi» poetik kitab olub məhəbbət şeirlərindən ibarətdir. Kitabın baş qəhrəmanı qızdır. Burada əsasən qız oğlanla, oğlan qızla şeirlərlə deyişir. Bu şeirlərdə insan məhəbbətinin ecazkar qüvvəsindən bəhs edilir.

Məhəbbət insana Allah tərəfindən verilmişdir. Buna görə də Müqəddəs Kitaba *«Nəğmələr Nəğməsi»*nin daxil olması heç də təəccüblü deyil.
Bu şeirlərin şərhi məcazi məna daşıyır. Bu məhəbbət nəğmələri yəhudilər tərəfindən Allahla xalqının münasibətlərinin əyani təsviri kimi şərh edilir. Məsihçilər isə bunu İsa Məsihlə imanlılar arasında olan münasibətlərin əksi kimi şərh edirlər.

Kitabın məzmunu:

1:1–2:7 Birinci nəğmə
2:8–3:5 İkinci nəğmə
3:6–5:1 Üçüncü nəğmə
5:2–6:3 Dördüncü nəğmə
6:4–8:4 Beşinci nəğmə
8:5-14 Altıncı nəğmə

1 [j]Bu nəğmələr nəğməsi
Süleymanındır.

Qız:

[2] Qoy dodaqların məni öpdükcə öpsün,
Çünki eşqin şərabdan da yaxşıdır.
[3] Vurduğun ətrin qoxusu nə gözəldir,
Adın belə, ətirqabıdan tökülən ətri xatırladır,
Ona görə qızların sevimlisi olmusan.
[4] Bağrına bas məni, səninlə qaçaq,
Qoy padşah məni otağına aparsın.

Qızın rəfiqələri:

Səninlə sevinib biz şadlanarıq,
Şərabdan da artıq eşqinizi anarıq.

Qız:

Sənə heyran olanlar haqlıdır.
[5] Ey Yerusəlimdəki qızlar,
Qedar çadırları tək,
Süleymanın pərdələri tək
Qaralsam da mən,
Yenə gözələm.
[6] Baxmayın ki, mən qarayanızam,
Günəşdən qaralmışam,
Qardaşlarımın mənə qəzəbi tutarkən
Məni üzümlüklərinə qarovulçu qoydular.
Mən də öz üzümlüyümə baxa bilmədim.
[7] Ey könlümün sevgilisi, söylə mənə:
Sürünü harada otarırsan?
Günorta sürünü harada yatırırsan?
Niyə sənin dostlarının sürülərinin yanında gedən,
Üz-gözünü bürüyən bir qadına bənzəyim?

Qızın rəfiqələri:

[8] Ey gözəllər gözəli, əgər yerini tapa bilməsən,
Sürülərin izi ilə get,
Oğlaqlarını çoban çadırlarının yanında otar.

Oğlan:

[9] Ey yarım, sən
Fironun arabalarını çəkən
Gözəl madyana bənzəyirsən.
[10] Yanağına düşən bəzəklərlə,
Boynundakı daş-qaşdan olan boyunbağı ilə
Bax nə qədər gözəlsən.
[11] Sənə düymələri gümüşdən
Qızıl silsilə düzəldəcəyik.

---

[j] **1:1** 1Pad. 4:32

Qız:

12 Padşah süfrəsində oturarkən
Hər yanı nard çiçəyimin ətri bürüyür.
13 Mənim üçün sevgilim
Döşlərimin arasında yatan mirra kisəsidir.
14 Mənim üçün sevgilim
En-Gedinin üzüm bağlarındakı bir dəstə xınagülüdür.

Oğlan:

15 Ey yarım, nə gözəlsən, nə gözəlsən!
Göyərçin gözlüsən!

Qız:

16 Ey sevgilim, nə gözəlsən,
Sən nə qədər şirinsən!
Yaşıldır yatağımız.

Oğlan:

17 Evlərimizin dirəkləri sidr ağacındandır,
Tavanımızın oymaları şam ağacındandır.

Qız:

2 Mən Şaron nərgiziyəm,
Dərələrdə bitən zanbağam.

Oğlan:

2 Mənim yarım qızlar arasındadır,
Elə bil bir zanbaq tikanlar arasındadır.

Qız:

3 Mənim sevgilim oğlanlar arasındadır,
Meşədəki ağaclar arasında alma ağacına oxşayır.
Kölgəsində oturmaqdan zövq alıram,
Meyvəsinin dadı damağımdan getmir.
4 O məni ziyafət evinə apardı,
Sevgisi bayraq kimi üzərimdə dalğalanır.
5 Mən eşq xəstəsiyəm,
Kişmiş verin, qüvvətlənim,
Alma verin, cana gəlim.
6 Sevgilim sol əlini başımın altına salır,
Sağ əli ilə məni qucağına alır.
7 Ey Yerusəlimdəki qızlar, sizi and verirəm
Dişi ceyranlara, çöldəki marallara!
Bizi bu sevgidən oyatmayın, ayıltmayın,
Qoy könül istəyənəcən qalsın.
8 Bu, sevgilimin hənirtisidir!
O, dağlardan aşaraq, təpələrdən sıçrayaraq gəlir.
9 Sevgilim ahuya, maral balasına oxşayır,
Budur, hasarımızın o tayında dayanır,
Pəncərələrdən boylanır, barmaqlıqlardan baxır.
10 Mənə belə dedi sevgilim:
«Dur gəl, yarım, gözəlim.
11 Budur, artıq qış keçib,
Yağıntılar kəsilib.
12 Hər yanda güllər bitib,
Nəğmə oxumağın zamanı yetib,
Qumrunun səsi torpağı bürüyüb.
13 Əncir yaşıl bar gətirib,
Üzüm çiçəklənib ətrini saçır.
Dur gəl, yarım, gözəlim!»

Oğlan:

14 Ey gözəl göyərçinim,
Sanki sal qayalarda, sıldırımlarda gizlənmisən.
Qoy üzünü görüm, səsini eşidim,
Çünki şirin səsli, gözəl surətlisən.
15 Tülküləri, kiçik tülküləri tutun,
Üzümlükləri korlamağa qoymayın,
Çünki bağlarımız çiçəklənib.

Qız:

16 Sevgilim mənimdir, mən də onunam,
O, sürüsünü zanbaqlıq içərisində otarır.
17 Gün sərinləşənəcən, kölgələr düşənəcən,

Ey sevgilim, geri qayıt,
Şişuclu dağların qoynunda olan
Ahuya, maral balasına bənzərsən.

3 Yatağımda bütün gecə
Könlümün sevgilisini axtardım,
Axtardım, amma tapa bilmədim.
[2] Dedim: «Qoy könlümün sevgilisini axtarım,
Durub şəhəri dolaşım,
Küçələrdə, meydanlarda axtarım».
Axtardım, amma tapa bilmədim.
[3] Şəhər asayişini qoruyanlar məni tapdı,
Onlardan soruşdum: «Könlümün sevgilisini görməmisiniz ki?»
[4] Onlardan ayrılanda könlümün sevgilisini tapdım,
Tutub onu buraxmadım.
Onu anamın evinə –
Məni doğan qadının otağına apardım.
[5] Ey Yerusəlimdəki qızlar, sizi and verirəm
Dişi ceyranlara, çöldəki marallara!
Bizi bu sevgidən oyatmayın, ayıltmayın,
Qoy könül istəyənəcən qalsın.
[6] Səhradan keçən,
Tüstü sütunları kimi gələn,
Tacirlərin ətirli bitkiləri içərisində
Mirra və kündür ətri verən kimdir?
[7] Budur Süleymanın taxt-rəvanı!
Ətrafını İsrail igidlərindən altmışı bürüyüb.
[8] Onların hamısı qılınc daşıyır,
Mahir döyüşçüdür,
Hər biri qılıncını belinə bağlayıb,
Təhlükəli gecələr üçün hazırlanıb.
[9] Taxt-rəvanını padşah Süleyman
Livanın ağaclarından düzəltdirib.
[10] Sütunları gümüşdən, söykənəcəyi qızıldan,
Oturacağı tünd qırmızı qumaşdan düzəltdirib,
Yerusəlim qızları bu qumaşa zövqlə naxış vurub.
[11] Ey Sion qızları, çıxın,
Padşah Süleymana baxın!
O, toy günündə, ürəkdən sevindiyi gündə
Başına anasının verdiyi tacı qoyub!

Oğlan:

4 Ey yarım, nə gözəlsən, nə gözəlsən,
Yaşmaq altda gözlərin göyərçinə oxşayır,
Saçların Gilead dağının yamaclarından
Tökülən keçi sürüsü tək qapqaradır.
[2] Dişlərin qırxılmış, yenicə yuyunub çıxan qoyun sürüsü tək düzülüb,
Bu qoyunların hamısının əkiz balası var,
Aralarında balasız olanı yoxdur.
[3] Dodaqların qırmızı qaytan kimi aldır,
Dilin nə qədər şirindir,
Kəsilmiş nar kimi yaşmaqladığın yanaqlarından qan damır.
[4] Boynun sursat üçün tikilmiş Davud qülləsi kimi vüqarlıdır,
Sanki buradan pəhləvan qalxanı olan min sipər asılmışdır.
[5] Döşlərin cüt ceyran balası kimi qoşadır,
Zanbaqlıqda otlayan əkiz maral balasına oxşayır.
[6] Gün sərinləşənəcən, kölgələr düşənəcən,
Mirra dağına, kündür təpəsinə gedəcəyəm.
[7] Təpədən dırnağa qədər gözəlsən,
Yarım, tamamilə eyibsizsən.
[8] Ay gəlin, Livan bölgəsindən mənimlə gəl,
Gəl, Livandan mənimlə gəl.
Amana təpəsindən, Senir, Xermon təpələrindən, dağlardan,
Aslanlar yurdundan, dağlardan, bəbirlər məskənindən en.
[9] Ay həmdəmim, ay gəlin!
Bir baxışınla qəlbimi aldın.
Ləl-cəvahiratı boynuna saldın,

Gözəlliyinlə qəlbimi aldın.
10 Ay həmdəmim, ay gəlin!
Sevgin necə gözəldir,
Eşqin şərabdan da ləzzətlidir,
Sənin ətrin ətirlərin ən gözəlidir.
11 Ay gəlin, dodaqlarından şanı balı axır,
Bal və süd sənin dilinin altındadır.
Paltarlarından Livanın ətri gəlir.
12 Ay həmdəmim, ay gəlin!
Bir qapısı bağlı bağçasan,
Örtülü bir bulaq, möhürlənmiş bulaqsan.
13 Sənin fidanların nar bağçasına oxşayır,
Elə bil cənnətdir, orada seçmə meyvələr,
Xına və nard çiçəkləri var.
14 Nard çiçəyi və zəfəran,
Ətirli qamışla darçınlar,
Hər cür buxur ağacı,
Mirralar və əzvaylar,
Hər cür seçmə ətriyyat var.
15 Sən bağçaların bulağısan,
Canlı su qaynağısan,
Livanın axar suyusan.

Qız:

16 Oyan, ey şimal küləyi,
Dur gəl, ey cənub küləyi,
Gəlin mənim bağçamda əsin,
Qoy o, ətrini hər yana versin.
Sevgilim öz bağçasına gəlsin,
Seçmə meyvələrdən yesin.

Oğlan:

5 Ay həmdəmim, ay gəlin! Öz bağçama girmişəm,
Ətriyyatlarımla mirramı yığmışam.
Şanı balını – öz balımı yemişəm,
Şərabımı və südümü içmişəm.

Qızın rəfiqələri:

Ay dostlar, yeyin,
Ay sevgililər, için, doyunca için!

Qız:

2 Yatsam da, qəlbim oyaq idi.
Qapını döyən sevgilimin səsi gəldi:
«Qapını aç, ay həmdəmim, ay yarım!
Ay göyərçinim, ay eyibsizim!
İslandı başım şehdən,
Saçım gecənin nəmindən».
3 Soyunmuşam paltarımı,
Geyinimmi təzədən?
Yumuşam ayaqlarımı,
Bulaşdırımmı yenidən?
4 Sevgilim əlini qapının deşiyindən uzatdı,
Onun üçün mənim köksüm oynadı.
5 Mən sevgilim üçün qapı açmağa qalxdım,
Əllərimə mirra damdı,
Barmaqlarımdan süzüldü,
Cəftə üstə töküldü.
6 Mən sevgilimə qapı açanda
Sevgilim çıxıb getmişdi.
O məni çağıranda huşumu itirmişdim.
Mən onu axtardım, tapa bilmədim,
Mən onu çağırdım, lakin cavab gəlmədi.
7 Şəhər asayişini qoruyanlar məni tapdılar,
Döyüb bədənimi yaraladılar,
Hasar keşikçiləri örpəyimi açdılar.
8 Ey Yerusəlimdəki qızlar, mən sizə and verirəm,
Tapsanız sevgilimi, deyin ona: «Mən eşq xəstəsiyəm».

Qızın rəfiqələri:

9 Ey gözəllər gözəli,
Sevgilinin digərlərindən fərqi nədir?
Onu fərqləndirən nədir?
Axı niyə bizə belə and verirsən?

Qız:

10 Sevgilim nur saçır, əlvan rənglidir,
O, on minlərin arasından seçilir.
11 Başı sanki saf qızıldır,
Qıvrım saçı qara qarğa tək qaradır.

12 Gözləri axar sular kənarındakı
göyərçinlərə oxşayır,
Süd içində yuyunmuşlar,
Öz yuvasında cəvahir tək görünərlər.
13 Yanaqları ətirli gülüstana oxşayır,
Hər yana ətir saçır,
Dodaqları zanbaqlara bənzəyir,
Ondan mirra tökülür.
14 Əlləri sanki sarı yaqutla bəzənən
qızıl budaqdır,
Qaməti sanki yaqutlarla naxışlanan fil
dişidir.
15 Qıçları saf qızıl ayaqlıqlar üstündə
dayanan
Mərmər sütunlara oxşar.
Görkəmi Livanın dağları kimidir,
Nadir sidr ağacları kimidir.
16 Şirindillidir,
Təpədən dırnağadək gözəldir.
Ey Yerusəlimdəki qızlar, mənim
sevgilim budur,
Mənim yarım budur.

Qızın rəfiqələri:

6 Ey gözəllər gözəli, sevgilin hara
gedib?
O hansı yana dönüb?
Sənin lə birgə onu axtarmağa gedək.

Qız:

2 Sevgilim öz bağçasına –
Ətirli gülüstana gedib,
Bağçalarda sürüsünü otarmağa,
Zanbaq gülü toplamağa gedib.
3 Mən sevgilimin, sevgilim də
mənimdir,
O, sürüsünü zanbaqlıq içərisində
otarır.

Oğlan:

4 Ey yarım, sən
Tirsa şəhəri qədər gözəlsən,
Yerusəlim kimi sevimlisən,
Müzəffər ordu kimi möhtəşəmsən.
5 Gözlərini məndən ayır,
Onlar məni mat qoyur.
Saçların Gilead dağının
yamaclarından
Tökülən keçi sürüsü tək qapqaradır.
6 Dişlərin yenicə yuyunub çıxan
qoyun sürüsü tək düzülüb,
Bu qoyunların hamısının əkiz balası
var,
Aralarında balasız olanı yoxdur.
7 Kəsilmiş nar kimi yaşmaqladığın
yanaqlarından qan damır.
8 Altmış mələkə var,
Cariyələr səksənə çatır,
Kənizlər isə saysızdır.
9 Göyərçinimin, eyibsizimin tayı
yoxdur,
Anasının yeganə qızıdır,
Onu doğanın canı-gözüdür.
Qızlar onu görərkən
Söyləyirlər: «Bəxtəvərsən!»
Mələkələr və cariyələr də onu mədh
edir.

Qızın rəfiqələri:

10 Şəfəq saçan,
Ay tək gözəl, gün tək parlayan,
Müzəffər ordu kimi möhtəşəm olan
kimdir?

Qız:

11 Mən qoz bağına endim,
Yaşıllaşan vadini görmək istədim.
Üzüm tumurcuqlanıbmı, narlar
çiçəklənibmi?
Bunu seyr edim.
12 Heç özüm də bilmədən ruhum məni
apardı,
Şanlı xalqımın döyüş arabalarının
üstünə qaldırdı.

Qızın rəfiqələri:

13 Qayıt, ey Şulam qızı, qayıt,
Qayıt, səni görək, qayıt.

Oğlan:

Maxanayim oyununa tamaşa etdiyiniz
kimi

Niyə Şulam qızına baxmaq
istəyirsiniz?
7 Ey əsilzadə qızı, başmaqlı ayaqların
gözəldir,
Budlarını sanki heykəltəraş yonub,
cəvahirə bənzəyir.
2 Göbəyin cürbəcür şərabların
tükənmədiyi
Dəyirmi piyaləyə bənzəyir.
Belin zanbaqlara bürünən
Bir dəstə sünbülə bənzəyir,
3 Döşlərin cüt ceyran balası kimi,
Əkiz maral balası kimi qoşadır.
4 Boynun fil dişi qülləsi kimi gözəldir.
Gözlərin Bat-Rabbim darvazası
yanındakı
Xeşbon hovuzuna bənzəyir.
Burnun Dəməşqə baxan Livan qülləsi
kimi gözəldir.
5 Başın Karmel dağı kimi dik durur,
Başındakı tellər tünd qırmızı rəngə
çalır,
Padşah zülfünün əsiri olur.
6 Nə qəşəngsən, nə şirinsən,
Ey məlahətli sevgilim.
7 Qamətin xurma ağacına,
Döşlərin salxımlara bənzəyir.
8 Dedim: «Qoy xurma ağacına çıxım,
Meyvəli budaqlarından yapışım».
Döşlərindən üzüm salxımları kimi
dadım,
Nəfəsindən alma ətrini duyum.
9 Dodaqların gözəl şərab dadı verir.

Qız:

Bu şərab birbaşa sevgilim üçün
tökülsün,
Biz yatanların dodaqlarına süzülsün.
10 Mən sevgiliminkiyəm,
Onun meyl etdiyi mənəm.
11 Sevgilim, gəl çölə gedək,
Kəndlərdə gecələyək.
12 Səhər tezdən üzüm bağlarına
gedək,
Üzüm tumurcuqlanıbmı, pöhrə
veribmi?
Narlar çiçəklənibmi? Bunu seyr edək.
Qoy orada sevgimi sənə verim.
13 Ey sevgilim, məhəbbət otları ətir
saçır,
Qapımızın yanında köhnə, təzə –
cürbəcür meyvələr var,
Sənin üçün saxlanılıb.
8 Kaş ki mənə ananın döşlərindən süd
əmən
Bir qardaş kimi olaydın,
Küçədə səninlə rastlaşarkən səni
öpərdim,
Heç kim məni qınamazdı.
2 Qarşına düşəydim, mənə öyüd verən
Anamın evinə aparaydım.
Şirin şərabdan, narımın şirəsindən
Sənə içirəydim.
3 Sevgilim sol əlini başımın altına
salır,
Sağ əli ilə məni qucağına alır.
4 Ey Yerusəlimdəki qızlar, sizi and
verirəm
Dişi ceyranlara, çöldəki marallara!
Bizi bu sevgidən oyatmayın,
ayıltmayın,
Qoy könül istəyənəcən qalsın.

Qızın rəfiqələri:

5 Sevgilisinə söykənib çöldən gələn
Bu gözəl kimdir?

Qız:

Alma ağacı altda səni oyatdım.
Sən orada ananın bətninə düşmüsən,
Orada anan ağrı çəkib, səni doğub.
6 Məni qəlbinin başında, qolunun
üstündə
Bir möhür kimi saxla.
Çünki sevgi ölüm qədər qüvvətlidir,
Qısqanclıq ölülər diyarı kimi
möhkəmdir,
Onun odu alovlanır,
O, atəşdir, tamamilə yandırıb-yaxır.
7 Sevgini ümman sular söndürə
bilməz,
Onu çağlayan çaylar batıra bilməz.

Bir insan sevgisi uğrunda var-yoxunu versə belə,
Hamı ona xor baxar.

Qızın rəfiqələri:

8 Bir kiçik bacımız var,
Hələ döşləri çıxmayıb.
Bacımıza elçi gələn gün
Onun üçün nə edək?
9 Əgər o, bir hasar olsaydı,
Biz üstünə gümüşdən bürc vurardıq.
Əgər o, bir qapı olsaydı,
Onu sidrdən xonça bağlayıb dövrəyə alardıq.

Qız:

10 Mən bir hasaram,
Döşlərim qüllələrə oxşar,
Ona görə yarımın gözləri məndən razı qalar.
11 Süleymanın Baal-Hamonda bir üzüm bağı var idi,
O bu bağı kirayəyə verirdi.
Məhsula görə hər kirayə alan
Ona min parça gümüş gətirməli idi.
12 Mənim də bağım var, onun sahibiyəm,
Ey Süleyman, min parça gümüş sənin olsun,
İki yüz gümüş kirayə alanlara qalsın.

Oğlan:

13 Sən, ey bağçalarda məskən salan gözəl,
Dostlar səni dinləyir,
Mənə də səsini eşitdir.

Qız:

14 Ey sevgilim, qaç,
Ətir saçan dağların üstündə,
Bir ahu, bir maral balası kimi ol.

YEŞAYA

PEYĞƏMBƏRİN KİTABI

GİRİŞ

«Yeşaya» Kitabının adı miladdan əvvəl VIII əsrin ikinci yarısında Yerusəlimdə yaşamış Yeşaya adlı böyük peyğəmbərin adı ilə bağlıdır. Yeşaya ibrani dilində «Rəbb xilas edir» mənasını verir. Kitabın belə adlanması müəyyən mənada kitaba bir mahiyyət verir.

Kitabı üç əsas hissəyə bölmək olar:

(1) 1-39-cu fəsillər cənub padşahlığı olan Yəhudanın qüvvətli qonşusu Aşşur ölkəsi tərəfindən təhdid edildiyi dövrə aiddir. Peyğəmbər alovlu nitqləri ilə xalqı və onun başçılarını salehliyə və doğru həyata çağırır. Yeşaya dönə-dönə xəbərdarlıq edirdi ki, Allaha itaətsizlik ölkənin dağılmasına və xalqın məhv olmasına səbəb olacaq. O həm də bütün dünyaya sülh və Davud nəslindən kamil padşah gələcəyini qabaqcadan xəbər verirdi.

(2) 40-55-ci fəsillər tarixi vəziyyətin dəyişməsini özündə əks etdirir. Bu fəsillər Yəhuda xalqının Babil əsarətində olduğu dövrə aiddir. Aşşurlulardan sonra Orta Şərqdə hakimiyyəti ələ keçirən Babillilər miladdan əvvəl 586-cı ildə Yerusəlimi zəbt edib əhalisini Babilə sürgün etdilər. Babil əsirliyi zamanı Yəhuda xalqı ümidini itirmiş və miskin hala düşmüşdü. Belə vəziyyətdə Yeşaya peyğəmbərlik edir ki, Allah Öz xalqını azad edəcək və onlar Yerusəlimdə yeni həyata başlayacaq. Bu fəsillər göstərir ki, tarixi idarə edən Allahdır və Onun Öz xalqına olan amalını başqa millətlər üçün də tətbiq etmək istəyir. Burada bütün millətlərin İsrail vasitəsilə xeyir-dua alacağından bəhs edilir.

(3) 56-66-cı fəsillərdə sürgündə olan yəhudilərin Yerusəlimdə yenidən yaşayacağı və Allahın Öz vədlərinə sadiq qalmasına əmin ola biləcəkləri bəyan edilir. Burada salehliyə və ədalətə əməl etməyə, Şənbə gününə düzgün riayət edilməsinə, qurban təqdiminə, duaya və oruca xüsusi diqqət yetirilir.

Kitabın məzmunu:

1:1–12:6 Xəbərdarlıq və vədlər

13:1–23:18 Millətlərin cəzalandırılması

24:1–27:13 Allahın dünyanı mühakimə etməsi

28:1–35:10 Sonrakı xəbərdarlıq və vədlər

36:1–39:8 Yəhuda padşahı Xizqiya və Aşşurlular

40:1–55:13 Təsəlli və ümid sözləri

56:1–66:24 Xəbərdarlıq və vədlər

1 [k]Yəhuda padşahları Uzziya, Yotam, Axaz, Xizqiyanın dövründə Yəhuda və Yerusəlim barəsində Amots oğlu Yeşayaya görünən görüntü.

Rəbb xalqına xəbərdarlıq edir

[2] Ey göylər, eşidin,
Ey yer üzü, dinləyin!
Çünki Rəbb belə söylədi:
«Övladlar yetişdirib böyütdüm,
Amma onlar Mənə qarşı üsyankar
oldular.
[3] Öküz yiyəsini,
Eşşək də sahibinin təknəsini tanıyır,
Lakin İsrail xalqı Məni tanımır,
Xalqım anlamır».
[4] Günah edən millətin,
Şər işlər görən xalqın,
Yolunu azmış nəslin,
Pozulmuş övladların vay halına!
Onlar Rəbbi tərk etdilər,

---

[k]**1:1** 2Pad. 15:1-7; 2Saln. 26:1-23; 2Pad. 15:32-38; 2Saln. 27:1-9; 2Pad. 16:1-20; 2Saln. 28:1-27; 2Pad. 18:1–20:21; 2Saln. 29:1–32:33

İsrailin Müqəddəsinə xor baxdılar,
Ondan üz döndərdilər.
5 Siz nə üçün yenə döyüləsiniz,
Niyə üsyan etməkdə davam edirsiniz?
Xoralar başınızı tamamilə bürüyüb,
Ürəyiniz azara düşüb.
6 Təpədən dırnağacan bədəniniz xəstədir,
Bir sağlam yeriniz yoxdur:
Yaralarınız, zədələriniz,
Yenə də vurulmuş yaralarınız
Təmizlənməmiş, sarılmamış,
Məlhəmlə yumşaldılmamışdır.
7 Ölkəniz viran qaldı,
Şəhərləriniz alışıb-yandı,
Yadellilər gözünüzün önündəcə torpağınızı yeyib-dağıtdı.
Torpağınız kimsəsiz qalıb,
Sanki yad adamlar oranı talayıb.
8 Sion qızı bağdakı çardaq, bostandakı koma,
Mühasirəyə alınmış şəhər kimi tək qalıb.
9 [l]Əgər Ordular Rəbbi
Bizim üçün bir neçə adamı sağ qoymasaydı,
Biz Sodom kimi olardıq,
Homorraya bənzəyərdik.
10 Ey Sodom başçıları,
Rəbbin sözünü eşidin!
Siz, ey Homorra xalqı,
Allahımızın təlimini dinləyin!
11 [m]Rəbb deyir:
«Qurbanlarınız çoxalıb, Mənə nə?
Yandırma qoç qurbanlarından,
Bəslənmiş heyvanların piyindən doymuşam.
Buğa, quzu, təkə qanını istəmirəm.
12 Hüzuruma gələrkən
Əlinizdə bunları gətirməyinizi kim istədi?
Məbədimin həyətlərinə boş yerə ayaq basırsınız.
13 Mənə artıq batil təqdimlər gətirməyin,
Buxur Məndə ikrah yaradır.
Pisliklə dolu
Təzə Ay mərasimlərinizə,
Şənbə günlərinizə,
Müqəddəs toplantılarınıza
Dözə bilmirəm!
14 Təzə Ay mərasimlərinizə,
Bayram günlərinizə
Ürəkdən nifrət edirəm.
Bunlar Mənə yük oldu,
Onları daşımaqdan yoruldum.
15 Siz əl açıb Mənə yalvaranda
Göz yumacağam.
Nə qədər çox dua etsəniz də,
Yenə qulaq asmayacağam.
Əllərinizə qanla doludur,
16 Yuyunub təmizlənin,
Gözümün önündə işlərinizi şərdən uzaqlaşdırın,
Pislik etməkdən vaz keçin.
17 Yaxşılıq etməyi öyrənin,
Ədaləti axtarın,
Məzlumları qurtarın,
Yetimin haqqını qoruyun,
Dul qadını müdafiə edin».
18 Rəbb deyir:
«Gəlin indi birgə düşünək bu an,
Günahlarınız qıpqırmızı parça kimi görünsə də,
Onlar qar kimi ağ olacaq,
Tünd qırmızı rəngə çalsa da,
Onlar ağ yun kimi bəyaz olacaq.
19 İtaətkar olub sözə baxsanız,
Torpağın ən gözəl bəhrələrindən yeyərsiniz.
20 Əgər üsyankar olub Məni rədd etsəniz,
Qılınc sizi yeyəcək».
Bu sözlər Rəbbin ağzından çıxıb.

Günahlı şəhər

21 Rəbbə sadiq şəhər

---

[l] **1:9** Yar. 19:24; Rom. 9:29 [m] **1:11** Amos 5:21-22

Necə də fahişəyə bənzər oldu!
Axı o, ədalətlə dolu idi,
Orada salehlik məskunlaşmışdı,
İndi isə qatillərlə doludur!
22 Gümüşünüz tullantıya çevrildi,
Şərabınıza su qatıldı.
23 Başçılarınız üsyankar olub oğrularla
əlbirdir.
Hər kəs rüşvəti sevir, bəxşiş dalınca
düşür.
Yetimin haqqını qorumur,
Dul qadını müdafiə etmək haqqında
düşünmür.
24 Buna görə də Sahibimiz, Ordular
Rəbbi,
İsrailin Qadir Allahı
Belə bəyan edir:
«Yağılarımı cəzalandırıb
rahatlanacağam,
Düşmənlərimdən qisas alacağam.
25 Ey İsrail xalqı, sənə əlimi
uzadacağam,
Paxırını gilabı ilə təmizləyəcəyəm,
Bütün çirkini yuyacağam.
26 Hakimlərini, məsləhətçilərini
Əvvəlki kimi geri qaytaracağam.
Sənə yenidən:
"Salehlik şəhəri, sadiq şəhər"
deyiləcək».
27 Sion ədalətlə,
Tövbə edən sakinləri salehliklə
qurtulacaq.
28 Lakin üsyankarlarla günahkarlar
Birgə həlak olacaq,
Rəbbi tərk edənlər yox olacaq.
29 Palıd ağaclarına səcdə etməkdən
xəcalət çəkəcəksiniz,
Seçdiyiniz bağlarda ibadət etməkdən
utanacaqsınız.
30 Yarpaqları solmuş palıd ağacına,
Susuz bağa dönəcəksiniz.
31 Güclü adam kətan qırıntısına
oxşayacaq,
Gördüyü iş qığılcım kimi olacaq,
İkisi birlikdə yanacaq,
Onları söndürən olmayacaq.

Rəbbin dağı

(Mik. 4:1-3)

2 Amots oğlu Yeşayanın Yəhuda və
Yerusəlim barəsində gördükləri:
2 Axır zamanda Rəbbin evi olan dağ
Dağların zirvəsində möhkəm duracaq,
Təpələrdən yuxarı ucalacaq.
Bütün millətlər ona sarı gələcək.
3 Çox xalqlar gəlib deyəcək:
«Gəlin Rəbbin dağına,
Yaqubun Allahının evinə qalxaq,
Qoy Rəbb bizə Öz yollarını öyrətsin,
Biz Onun rizləri ilə gedək».
Siondan Rəbbin təlimi,
Yerusəlimdən Onun kəlamı yayılacaq.
4 [n]Millətlər arasında Rəbb hakim
olacaq,
Çox xalqlar haqqında qərar çıxaracaq.
Onlar qılınclarından kotan,
Nizələrindən isə dəryaz düzəldəcək.
Millət millətə qarşı qılınc
qaldırmayacaq,
Artıq dava etməyi öyrənməyəcək.
5 Ey Yaqub nəsli, gəlin Rəbbin
nurunda gəzək.

Rəbbin günü

6 Ya Rəbb, xalqını – Yaqub nəslini
atdın,
Çünki onlar
Şərqdən gələn mövhumatlara
uymuşdular,
Filiştlilər kimi falçılıq edirlər,
Əcnəbilərin adət-ənənələrinə əməl
edirlər.
7 Ölkələri qızıl-gümüşlə dolu,
Xəzinələrinin sonu yoxdur.
Ölkələrində çoxlu atlar var,
Döyüş arabaları külli miqdardadır.
8 Ölkələri bütlərlə doludur,
Əlləri ilə düzəltdikləri,

---

[n]**2:4** Yoel 3:10

Barmaqları ilə işlədikləri
Bütlərin qarşısında səcdə qılırlar.
9 Buna görə də hamı yerə səriləcək,
Hər kəs diz üstə çökdürüləcək.
Ya Rəbb, onları bağışlama!
10 [o]Rəbbin zəhmli üzündən,
Ehtişamının əzəmətindən
Qayalıqlara gedin,
Yerin altında gizlənin.
11 Adamların təkəbbürlü baxışları
alçaldılacaq,
İnsanların qüruru qırılacaq,
O gün yalnız Rəbb yüksəldiləcək.
12 Çünki o gün Ordular Rəbbi
Bütün qürurluları, lovğaları,
məğrurları alçaldacaq.
13 Livanın bütün hündür və vüqarlı
sidr ağaclarını məhv edəcək,
Bütün Başan palıdlarını yox edəcək.
14 Bütün ulu dağları, hündür təpələri,
15 Bütün yüksək qüllələri,
Qala divarlarını yerlə yeksan edəcək,
16 Bütün Tarşiş gəmilərini,[*]
Bütün gözəl gəmiləri yox edəcək.
17 Adamların təkəbbürü qırılacaq,
İnsanların qüruru alçaldılacaq,
O gün yalnız Rəbb ucaldılacaq.
18 Bütlər tamamilə aradan
götürüləcək.
19 [p]Rəbb yeri sarsıtmağa qalxanda
Onun zəhmli üzündən, ehtişamının
əzəmətindən
Hər bir insan qayalıqdakı mağaralara,
Yerin altındakı xəndəklərə qaçıb
girəcək.
20 O gün insanlar
Səcdə etmək üçün düzəltdikləri
Qızıl və gümüş bütlərini götürüb
Köstəbək və yarasaların
Qabağına atacaqlar ki,
21 Rəbb yeri sarsıtmağa qalxarkən
Onun zəhmli üzündən, ehtişamının
əzəmətindən
Qaçmaq üçün qayalıqdakı çatlaqlara,
Uçurumlardakı yarıqlara girsinlər.
22 Nəfəsi burunda olan insandan əl
çəkin,
Onun nə dəyəri var ki?

Yerusəlimdə qarmaqarışıqlıq

3 Budur, Sahibimiz, Ordular Rəbbi
Yerusəlimdən və Yəhudadan hər bir
yardımı, köməyi,
Bütün çörək, su yardımını kəsəcək.
2 İgidlərlə cəngavərləri,
Hakimlərlə peyğəmbərləri,
Falçılarla ağsaqqalları,
3 Əllibaşılarla adlı-sanlı adamları,
məsləhətçiləri,
Mahir sehrbazlarla cadugərləri aradan
qaldıracaq.
4 Uşaqları onların üzərinə başçı
qoyacağam,
Qoy körpələr onlara hökm etsin.
5 İnsan insanla, qonşu qonşusu ilə,
Cavan yaşlı ilə, adi adam nüfuzlu
insanla
Həyasızcasına rəftar edəcək.
6 Ailədə qardaş qardaşa sarılıb
deyəcək:
«Sənin heç olmasa əyninə geyməyə
paltarın var.
Sən başçımız ol,
Qoy bu xarabalıqlar sənin əlinin
altında olsun!»
7 O vaxt bu adam uca səslə söyləyəcək:
«Mən yaralarınızı sarımağı
bacarmaram,
Çünki evimdə nə yemək, nə də paltar
var,
Məni xalqın başçısı qoymayın».
8 Yerusəlim sarsıldı, Yəhuda dağıldı,
Çünki sözləri və əməlləri
Rəbbə qarşı oldu,
Onun əzəmətli hüzuru kimsə
tərəfindən sayılmadı.

---

[*]**2:16** *Tarşiş gəmiləri* – yaxud *ticarət gəmiləri.*

[o]**2:10** 2Sal. 1:9; Vəhy 6:15 [p]**2:19** Vəhy 6:15

9 Sifətlərinin ifadəsi onlara qarşı
şəhadət edir,
Günahları haqda Sodomdakı kimi
açıq danışırlar,
Bunu gizlətmirlər.
Vay onların halına!
Axı bu bəlanı başlarına özləri gətirdi.
10 Saleh adamlara söyləyin ki,
Onlara yaxşılıq ediləcək,
Çünki onlar xeyirxahlıqlarının
bəhrəsini yeyəcək.
11 Pis adamların vay halına!
Çünki onlara pislik olunacaq,
Elədikləri əməlləri qarşılarına
çıxacaq.
12 Uşaqlar xalqıma zülm edir,
Qadınlar üzərimizdə hökm sürür!
Ey xalqım, sənə yol göstərənlər
Səni azdırır, yolunu dolaşdırırlar!
13 Rəbb məhkəməsini qurmaq üçün
qalxır,
Xalqları mühakimə etmək üçün durur.
14 Rəbb xalqının rəhbərlərini,
Başçılarını məhkəməyə gətirir:
«Sizsiniz üzüm bağını yeyib-dağıdan,
Kasıbların malı ilə evlərinizi dolduran.
15 Nə haqla xalqıma zülm edib
Yoxsullara əzab verirsiniz?»
Bunu Ordular Rəbbi Xudavənd bəyan
edir.

Yerusəlim qadınlarına xəbərdarlıq

16 Rəbb deyir: Madam ki
Sion qızları çox təkəbbürlüdür,
Boylana-boylana gəzir, göz-qaş
oynadır,
Addımlarını asta-asta atırlar,
Ayaqlarındakı xalxalları cingildədib
yeriyirlər,
17 Buna görə də Xudavənd
Sion qızlarının başlarına qotur
salacaq.
Ayıb yerlərini açıb göstərəcək.
18 O gün Xudavənd onların bəzəklərini
–
Topuqlara taxılan bilərziklərini,
Araqçınlarını, aypara şəkilli
boyunbağılarını,
19 Sırğalarını, qolbaqlarını,
örpəklərini,
20 Tac şəkilli başlıqlarını,
Bazubəndlərini, qurşaqlarını,
Ətirlə dolu mücrülərini,
Tilsimlənmiş bəzək əşyalarını,
21 Üzüklərini, burun halqalarını,
22 Bayram libaslarını, paltarlarını,
Örtüklərini, əl çantalarını,
23 Güzgülərini, nəfis toxunmuş kətan
libaslarını,
Çalmalarını, duvaqlarını əllərindən
alacaq;
24 O vaxt gözəl ətir yerinə üfunət,
Kəmər əvəzinə ip,
Lülə-lülə saç əvəzinə keçəl baş,
Bəzəkli paltar əvəzinə çul bürüncək,
Gözəllik əvəzinə dağlanma olacaq.
25 Kişiləriniz qılıncla,
İgidləriniz döyüşdə məhv olacaq.
26 Yerusəlimin darvazaları
Nalə çəkib yas tutacaq,
Bu şəhərsə kimsəsiz qadın tək
Quru yerdə oturacaq.
4 O gün yeddi qadın
Bir kişinin yaxasından tutub belə
deyəcək:
«Öz çörəyimizi yeyib öz paltarımızı
geyinərik,
Təki adın üstümüzdə olsun,
Bizi xəcalətdən qurtar».

Yerusəlimin gələcəyi

2 O gün Rəbbin Pöhrəsi gözəl və
əzəmətli olacaq, İsrail xalqından xilas
olub sağ qalanlar torpağın verdiyi bəhrə
ilə fəxr edib şərəflənəcəklər. 3 Sionda,
yəni Yerusəlimdə sağ qalanlara, orada
qeyd olunub yaşayanlara «müqəddəs»
deyiləcək. 4 Xudavənd Sion qızlarının
murdarlığını yuyan zaman ədalət və
alov ruhu ilə Yerusəlimi günahlı qandan

təmizləyəcək. 5 [q]Sonra Rəbb Sion
dağının hər yanını, orada toplananların
üzərini gündüz bulud və tüstü, gecə
isə parlaq alovla örtəcək. Həqiqətən,
əzəmətli şəhərin üzərinə örtük olacaq.
6 Bu bir çardaq olub gündüz qızmar
istidə kölgə olacaq, fırtına ilə yağışa
qarşı sığınacaq və daldalanma yeri
olacaq.

Üzüm bağı haqqında nəğmə

5 [r]Sevgilimin üzüm bağı barəsində
Məhəbbət nəğməsini oxuyuram:
Torpağın məhsuldar bir təpəsində
Sevgilimin bir üzüm bağı var idi.
2 O, torpağı belləyib daşlardan
təmizlədi,
Seçmə meynələr əkdi,
Ortada gözətçi qülləsi tikdi,
Üzümsıxan düzəltdi,
Üzümlüyün barını gözlədi,
Amma bağ cır üzüm gətirdi.
3 «İndi isə xahiş edirəm, ey
Yerusəlimdə yaşayanlar,
Ey Yəhuda adamları,
Mənimlə üzüm bağımın arasında
hakim olun!
4 Bağım üçün daha nə etməliyəm?
Üzümlüyün barını gözləyərkən
Axı nə üçün bağım cır üzüm gətirsin?
5 İndi qoy mən sizə bağımla nə
edəcəyimi bildirim:
Çəpərini sökəcəyəm və onu
yeyib-dağıdacaqlar,
Hasarını yıxacağam və onlar
tapdalanacaq.
6 Oranı viranəliyə çevirəcəyəm,
Oranı nə budayacaqlar, nə də
belləyəcəklər.
Orada tikan və qanqal bitəcək,
Buludlara əmr edəcəyəm ki,
Üzərinə yağış yağmasın».
7 İsrail nəsli Ordular Rəbbinin üzüm
bağıdır,
Yəhuda adamları isə Onun sevimli
meynələridir!
O, ədalət gözləyirdi,
Budur, zorakılıq gördü,
O, salehlik gözləyirdi,
Budur, fəryadlar gördü!

İnsanların pis əməlləri

8 Yer qalmayana qədər evi evə,
Tarlanı tarlaya birləşdirənlərin vay
halına!
Yaşamağa yer qoymamısınız,
Məgər bu ölkədə tək siz yaşayırsınız?
9 Ordular Rəbbi mənə belə eşitdirdi:
«Böyük və yaraşıqlı çoxlu evlər xaraba
qalacaq,
İçində yaşayan olmayacaq.
10 Üzümlüyün on sahəsindən [*]bir bat
şərab əldə ediləcək,
Bir xomer toxumdan bir efa taxıl
əmələ gələcək».
11 Vay halına səhər erkən qalxıb içki
ardınca düşənlərin,
Gecə yarısınadək şərab içib
keflənənlərin!
12 Onların ziyafətlərində
Lira, çəng, dəf və ney çalınar,
Şərab içilər,
Lakin onlar Rəbbin gördüyü işlərə
Diqqət etməzlər, əməllərinə
baxmazlar!
13 Buna görə xalqım ağılsızlığından
sürgünə gedəcək,
Onun adlı-sanlı adamları acından
öləcək,
Adi adamlar isə susuzluqdan yanacaq!
14 Ölülər diyarı həddindən artıq ağzını
açıb
Doymaq bilmir.
Yerusəlimin adlı-sanlıları,

---

[*]**5:10** *On sahə* – ibrani dilində *on cüt öküzün bir gündə şumladığı torpaq sahəsi,* təqribən 16 000 kvadrat metr.

[q]**4:5** Çıx. 13:21; 24:16 [r]**5:1** Mat. 21:33; Mark 12:1; Luka 20:9

Adi adamları, səs-küylə əylənən
insanları bu diyara enəcək.
15 Buna görə də hamı yerə səriləcək,
Hər kəs diz üstə çökdürüləcək,
Təkəbbürlü baxışlar alçaldılacaq.
16 Amma Ordular Rəbbi
Ədaləti ilə ucaldılacaq,
Müqəddəs Allah salehliyi ilə
Müqəddəsliyini göstərəcək.
17 Quzular öz otlaqlarındakı kimi
otlayacaq,
Varlıların viranə qalan evlərini
yadellilər alacaq.
18 Pisliyi yalanla hörülmüş iplərlə,
Günahı araba kəndirləri ilə çəkənlərin
vay halına!
19 Onlar deyir: «Qoy Allah tələssin,
Öz əməlini tez həyata keçirsin, biz də
görək.
Qoy İsrailin Müqəddəsinin niyyəti
gerçək olsun ki, bunu bilək!»
20 Vay halına pisə yaxşı, yaxşıya pis
söyləyənlərin,
Qaranlığı işıq, işığı qaranlıq
sayanların,
Acıya şirin, şirinə acı deyənlərin!
21 Vay halına özlərini müdrik zənn
edənlərin, ağıllı sayanların!
22 Vay halına şərab içməkdə
qəhrəman,
İçkiləri qarışdırıb içməkdə pərgar
olanların!
23 Vay halına rüşvət alıb təqsirkara
bəraət qazandıranların,
Haqlıların haqqını əlindən alanların!
24 Beləliklə, alovun dili samanı necə
yeyib-qurtarırsa,
Küləş od içində necə əriyib-gedirsə,
Onlar da köklərindən elə çürüyəcək,
Tumurcuqları toz kimi havaya
sovrulacaq,
Çünki Ordular Rəbbinin qanununu
rədd etdilər,
İsrailin Müqəddəsinin sözünə xor
baxdılar.
25 Buna görə də Rəbbin qəzəbi Öz
xalqına qarşı alovlandı,
Əlini onlara qarşı uzadaraq onları
vurdu.
Dağlar titrədi, küçələrdə meyitləri
zibil kimi qaldı,
Bütün bunlara qarşı yenə də Rəbbin
qəzəbi sönmədi,
Əli hələ də cəzalandırmağa hazır idi.
26 Rəbb uzaqda yaşayan millətləri
Bayraq işarəsi ilə,
Onları yer üzünün ucqarlarından
Fit səsi ilə səsləyəcək.
Tezliklə bu millətlər gələcək.
27 Aralarında yorulan, büdrəyən
olmayacaq.
Onlar mürgüləməyəcək və yuxuya
getməyəcək,
Belindəki kəmər açılmayacaq,
ayaqqabı bağı qırılmayacaq.
28 Onların oxları iti, yayları da
dartılmışdır.
Atların dırnaqları çaxmaq daşına
bənzər,
Döyüş arabalarının təkərləri qasırğa
kimidir.
29 Onların nərəsi bağıran şikarlarını
qapıb aparan,
Kimsə onu əlindən ala bilməyən
Şirin, gənc aslanın nərəsinə bənzər.
30 O gün İsrailə qarşı onlar dənizin
uğultusu kimi gurlayacaqlar.
Kim yerə baxarsa, budur, zülmət,
dərd görəcək.
Axı işıq qara buludlarla örtülüb.

Yeşayanın görüntüsü

6 [s]Padşah Uzziya ölən il mən
Xudavəndi gördüm. O, uca
və əzəmətli taxtda oturmuş və
geyimlərinin ətəyi məbədin döşəməsini
örtmüşdü. 2 Onun ətrafında seraflar

[s]**6:1** 2Pad. 15:7; 2Saln. 26:23

[*]dayanmışdı. Hər birinin altı qanadı var
idi. Qanadının ikisi ilə üzlərini, ikisi ilə
ayaqlarını örtmüş, ikisi ilə uçurdular.
3 [t]Biri o birini səsləyib deyirdi:
«Ordular Rəbbi müqəddəsdir,
müqəddəsdir, müqəddəsdir!
Bütün yer üzü Onun əzəməti ilə
doludur».
4 [u]Serafların səsindən qapı çərçivələri
ilə kandarları sarsıldı, məbəd tüstü ilə
doldu. 5 Mən dedim:
«Vay halıma, həlak oldum!
Çünki ağzı murdar bir adamam,
Həm də murdar ağızlı adamlar
arasında yaşayıram.
Buna baxmayaraq, qarşımda Padşahı –
Ordular Rəbbini gözlərimlə gördüm».
6 Seraflardan biri mənə tərəf uçdu,
əlində də maşa ilə qurbangahdan
götürdüyü yanar kömür var idi. 7 O,
kömürlə dodaqlarıma toxunaraq dedi:
«Budur, bu kömür dodaqlarına dəydi,
Pisliyin silindi, günahın bağışlandı».
8 Sonra Xudavəndin səsini eşitdim:
«Kimi göndərim? Bizim üçün kim
gedəcək?» Mən dedim: «Mən
buradayam. Məni göndər». 9 [v]O
dedi: «Get bu xalqa bunu çatdır:
“Eşitdikcə eşidəcəksiniz, amma
anlamayacaqsınız,
Gördükcə görəcəksiniz, amma
qanmayacaqsınız.
10 Bu xalqın ürəyini kütləşdir,
qulaqlarını ağır eşidən elə, gözlərini
yum ki,
Gözləri ilə görməsinlər, qulaqları ilə
eşitməsinlər,
Ürəkləri ilə anlamasınlar
Və Mənə sarı dönüb şəfa
tapmasınlar”».
11 «Nə vaxtadək, ya Xudavənd?» deyə
soruşdum. Rəbb cavab verdi:
«Şəhərlər xarabalıqlara dönüb
kimsəsiz,
Evlər adamsız, bu torpaq büsbütün
viranə qalanadək.
12 Rəbb adamları çox uzaqlara sürgün
edəcək,
Ölkənin çox yerləri viran qalacaq.
13 Xalqın onda biri qalsa belə,
Ölkə yenə dağılacaq;
Lakin kəsiləndə kötüyü qalan
Yabanı püstə və palıd ağacı kimi
Müqəddəs nəsil onun kötüyüdür».

Padşah Axaza bir işarə: İmmanuel

7 [w]Uzziya oğlu Yotam oğlu Yəhuda
padşahı Axazın hökm sürdüyü
dövrdə Aram padşahı Resinlə
İsrail padşahı Remalya oğlu Peqah
Yerusəlimə hücum etdilər, amma oranı
ala bilmədilər.
2 Davud nəslinə xəbər verildi ki,
Aramlılarla Efrayimlilər birləşib ordu
düzəldib. Padşahın və xalqın ürəyi meşə
ağacları küləkdən titrəyən kimi titrədi.
3 Rəbb Yeşayaya dedi: «Axazı
qarşılamaq üçün oğlun Şear-Yaşuvla
[†]birgə yuxarı hovuzun su yolunun
qurtaracağına, Mahudbasan tarlasına
gedən yola çıx». 4 Ona belə de: «Diqqətli
və sakit ol, qorxma! Qoy ürəyin bu
tüstülənən, yarısı yanmış iki odun
parçasından – Resinin, Aramın və
Remalya oğlunun qızğın qəzəbindən
qorxmasın! 5 Aram, Efrayim və Remalya
oğlu sizə qarşı şər quraraq 6 belə
deyir: “Gəlin Yəhudanın əleyhinə

[*]**6:2** *Seraf* – bir mələk növü.
[†]**7:3** *Şear-Yaşuv* – ibrani dilində *sağ qalanlar dönəcək.*

[t]**6:3** Vəhy 4:8 [u]**6:4** Vəhy 15:8
[v]**6:9** Mat. 13:14-15; Mark 4:12; Luka 8:10; Yəh. 12:39-40; Həv. 8:26-27
[w]**7:1** 2Pad. 16:5; 2Saln. 28:5-6

çıxaq, vahiməyə salaraq zəbt edək və
Tabel oğlunu oraya padşah qoyaq”».
7 Xudavənd Rəbb belə deyir:
«Bu iş olmayacaq, baş tutmayacaq.
8 Çünki Aramın paytaxtı Dəməşqdir,
Dəməşqin başçısı da Resindir. Efrayim
isə altmış beş ildən sonra
Darmadağın edilib xalq kimi
qalmayacaq.
9 Efrayimin paytaxtı Samariyadır,
Samariyanın başçısı isə ancaq
Remalyanın oğludur.
Əgər imanda möhkəm durmasanız,
Heç dayana bilməzsiniz».
10 Rəbb yenə Axaza söylədi: «Allahın
Rəbdən bir işarə istə. 11 Qoy ya ölülər
diyarı qədər dərin ya da göylər qədər
uca olsun». 12 Lakin Axaz cavab verdi:
«Xeyr, Rəbbi sınamaq istəmirəm».
13 Bunun üstündən Yeşaya belə dedi:
«Eşidin, ey Davud nəsli! İnsanları
bezdirməyiniz bəs deyilmi ki, mənim
Allahımı da bezdirirsiniz? 14 [x]Buna görə
də Xudavənd Özü sizə işarə verəcək:
budur, bakirə qız hamilə olub oğlan
doğacaq, adını İmmanuel [*]qoyacaq.
15 Bu uşaq pisə pis deyib yaxşını seçə
biləndə kəsmik və bal yeyəcək. 16 Amma
bu uşaq pisə pis deyib yaxşını seçə
bilməzdən əvvəl səni dəhşətə salan o
iki padşahın torpaqları boş qalacaq.
17 Rəbb səni, xalqını və ata nəslini
Efrayimin Yəhudadan ayrıldığı bu günə
qədər görünməyən fəlakətə uğradacaq,
Aşşur padşahını üstünüzə gətirəcək.
18 O gün Rəbb fit çalacaq və
Misir çaylarının mənsəblərində
yaşayanları milçəklər kimi,
Aşşur torpaqlarında yaşayanları arılar
kimi səsləyəcək.
19 Onlar axın-axın gəlib dərin
vadilərdə,
Qaya yarıqlarında, bütün tikanlı
kolluqlarda,
Otlaqlarda məskunlaşacaq.
20 O gün Xudavənd Fəratın o tayından
muzdla tutduğu ülgüclə –
Aşşur padşahı ilə saçlarınızı,
Bədəndəki tüklərinizi və saqqallarınızı
qırxacaq.
21 O gün bir düyə ilə bir cüt qoyun
bəsləyən
22 Aldığı bol süd nəticəsində kərə yağı
yeyəcək.
Ölkədə sağ qalan hər kəs kərə yağı ilə
bal yeyəcək.
23 O gün min gümüş dəyərində min
tənək olan
Bağ tikanlı, qanqallı çölə dönəcək.
24 Adamlar oralardan oxlarla,
kamanlarla keçəcək,
Çünki ölkənin hər yanı tikan və
qanqalla örtüləcək.
25 Bir vaxt şumlanıb əkin əkilən
təpələr
Kimsənin girə bilməyəcəyi tikanlı,
qanqallı çölə dönəcək,
Mal-qaranın gəzdiyi, qoyun-keçinin
tapdaladığı yerlərə çevriləcək».

İşarə: Maher-Şalal-Xaş-Baz

8 Rəbb mənə belə dedi: «Böyük tumar
götür və üstündə aydın hərflərlə
Maher-Şalal-Xaş-Baz [†]yaz. 2 Kahin Uriya
ilə Yeverekya oğlu Zəkəriyyəni özümə
etibarlı şahid seçdim».
3 Sonra mən peyğəmbər olan
arvadımla yaxınlıq etdim və o hamilə
olub bir oğlan doğdu. Rəbb mənə dedi:
«Onun adını Maher-Şalal-Xaş-Baz qoy.
4 Çünki körpə “anam, atam” deməyi
öyrənməzdən əvvəl Dəməşqin sərvəti və
Samariyanın qəniməti Aşşur padşahına
aparılacaq».

---

[*]**7:14** *İmmanuel* – ibrani dilində *Allah bizimlədir.*
[†]**8:1** *Maher-Şalal-Xaş-Baz* – ibrani dilində *tez qarət elə, cəld talan et.*

[x]**7:14** Mat. 1:22-23

5 Rəbb mənimlə yenə danışıb belə
dedi:
6 «Bu xalq sakit axan Şiloah sularını
rədd edib
Resinlə Remalyanın oğluna meyl
saldıqlarına görə
7 Mən Xudavənd, Fəratın coşan
qüdrətli sularını –
Aşşur padşahı və onun qüvvətini bu
xalqın üstünə gətirəcəyəm.
Bu sular öz yataqlarından yuxarı
qalxaraq aşıb-daşacaq.
8 Bu sular Yəhudanı basacaq, daşıb
içindən keçəcək,
Boğaza qədər çatacaq.
Ordular qanadlarını açıb bütün ölkəyə
dolacaq, ey İmmanuel!»
9 Ey xalqlar, pis işlər görün və qırılın!
Ey yer üzünün bütün uzaq ölkələri,
eşidin!
Döyüşə hazırlaşın və qırılın!
Bəli, döyüşə hazırlaşın və qırılın!
10 Birlikdə məsləhətləşin, o boşa
çıxacaq.
İstədiyiniz qədər danışın, heç bir söz
gerçək olmayacaq,
Çünki Allah bizimlədir.

Rəbbin Öz xalqına xəbərdarlığı

11 Rəbb bu xalqın tutduğu yol ilə
getməməyi söyləyərək məni qüdrətli əli
ilə saxladı və belə xəbərdarlıq etdi:
12 [y]«Bu xalqın sui-qəsd dediyi hər şeyə
siz sui-qəsd deməyin,
Onların qorxduqlarından qorxmayın,
lərzəyə gəlməyin.
13 Ordular Rəbbini müqəddəs sayın,
Ondan qorxun və lərzəyə gəlin!
14 [z]O, Müqəddəs məkan olacaq,
Amma İsrailin iki padşahlığına
büdrəmə daşı və yıxma qayası,
Yerusəlim sakinlərinə tələ və tor
olacaq.
15 Bir çoxları büdrəyib yıxılacaq və
qırılacaq,
Tələyə düşüb əsir aparılacaq».
16 Ya Rəbb, şagirdlərimin arasında
Şəhadətini qoruyub saxla, təlimini
möhürlə!
17 [a]Yaqub nəslindən üzünü gizlədən
Rəbbi gözləyəcəyəm,
Ona ümid edəcəyəm.
18 Mən və Rəbbin mənə verdiyi
övladlar
Sion dağında məskunlaşan Ordular
Rəbbinin
İsraildəki rəmzləri və nişanələriyik.
19 Sizə bəzi adamlar deyəndə ki,
«pıçıldayıb-mırtıldayan cindarlarla,
ruhçağıranlarla danışın», onlara belə
cavab verin: «Xalq öz Allahından
məsləhət almamalıdırmı? Heç dirilər
barəsində ölülərlə danışarlarmı?
20 Allahın təliminə, şəhadətinə sarı
dönün! Əgər onlar Allahın kəlamı
ilə danışmasa, onlar üçün nur şəfəqi
saçmayacaq. 21 Onlar çarəsiz və ac
qalaraq oradan keçəcəklər. Ac qalanda
qəzəblənəcəklər, padşahlarını və
özlərinin Allahını lənətləyəcəklər.
22 Göyə də, yerə də baxsalar, əzabdan,
qaranlıqdan, zülmətdən savayı heç
bir şey görməyəcəklər. Qatı zülmətə
atılacaqlar».

Sülh Hökmdarı

9 [b]Lakin əzab çəkmiş xalq qaranlıqda
qalmayacaq.
Keçmişdə Rəbb Zevulun və Naftali
bölgələrini alçaltdı,
Gələcəkdə isə dənizkənarı yolu,
İordan çayının o biri tayını,
Müxtəlif millətlər yaşayan Qalileyanı
Şərəfə çatdıracaq.
2 [c]Zülmətdə yaşayan xalq
Möhtəşəm bir işıq gördü.

---

[y]**8:12** 1Pet. 3:14-15 [z]**8:14** Rom. 8:32; 1Pet. 2:7-8 [a]**8:17** İbr. 2:13
[b]**9:1** Mat. 4:14-15 [c]**9:2** Mat. 4:16; Luka 1:79

Ölüm kölgəsi diyarında
məskunlaşanların
Üzərinə nur doğdu.
3 Ya Rəbb, milləti çoxaldıb sevinclərini
artırdın,
Əkib-biçənlərin fərəhləndiyi,
Qənimət bölənlərin sevindiyi kimi
Onlar da Sənin hüzurunda sevindilər.
4 Çünki onlara yük olan
boyunduruğunu,
Çiyinlərini döyən çomağını,
Onlara zülm edənlərin dəyənəyini
çilik-çilik etmisən
Midyanlıların başlarına gətirdiyin
gün kimi.
5 Döyüşdə geyilən çəkmələri,
Qana bulanmış geyimləri
yandırılacaq,
Oda yem olacaq.
6 Çünki bizim üçün körpə doğuldu,
Bizə oğul verildi,
Hakimiyyət onun çiyinləri üzərində
olacaq,
Onun adı Ecazkar Məsləhətçi,
Qüdrətli Allah,
Əbədi Ata, Sülh Hökmdarı olacaq.
7 [d]Hakimiyyətinin və sülhünün
artmasının sonu olmayacaq,
O, Davudun taxtı və padşahlığı
üzərində hökm sürəcək,
O, hakimiyyətini ədalətlə və salehliklə
indidən sonsuzadək quracaq.
Ordular Rəbbinin qeyrəti bunu
edəcək.

Rəbbin İsrailə qarşı qəzəbi

8 İsrail üzərində həyata keçirilsin deyə
Rəbb Yaqub nəslinin əleyhinə
xəbərdarlıq etdi.
9 Bütün xalq,
Efrayimin, Samariyanın sakinləri
Bunu biləcək.
Bu qürurlu, təkəbbürlü xalq belə
deyir:
10 «Kərpic evlərimiz yıxıldı,
Amma əvəzinə yonma daşdan evlər
tikərik.
Firon ənciri ağacları kəsildi,
Amma biz onların əvəzinə sidr
ağacları əkərik».
11 Buna görə Rəbb Resinin
düşmənlərini gücləndirəcək,
Yağılarını dirçəldəcək,
12 Aramlılar şərqdən,
Filiştlilər qərbdən
Ağızlarını açıb İsraili udacaq.
Bütün bunlara qarşı yenə də Rəbbin
qəzəbi sönmədi,
Əli hələ də cəzalandırmağa hazır idi.
13 Amma xalq onu cəzalandıran Rəbbə
tərəf dönmədi,
Ordular Rəbbini axtarmadı.
14 Buna görə Rəbb İsraildən başı,
quyruğu,
Xurma ağacının budağını, qarğını bir
gündə kəsib atacaq.
15 Baş – ağsaqqal və hörmətli şəxsdir,
Quyruq isə yalan təlim verən
peyğəmbərdir.
16 Bu xalqa yol göstərənlər onları
azdırır,
Onların ardınca gedənlər qırılır.
17 Buna görə də Xudavənd
Onların cavanlarına görə
sevinməyəcək,
Yetimlərin və dul qadınların halına
yanmayacaq.
Çünki hamı allahsızdır,
Şər işlər görür,
Hamının ağzından axmaq kəlmələr
çıxır.
Bütün bunlara qarşı yenə də Rəbbin
qəzəbi sönmədi,
Əli hələ də cəzalandırmağa hazır idi.
18 Ona görə pislik alovlanıb-yanır,
Tikanla qanqalı yandırıb-yaxır,
Meşədəki kolluqlar məhv olur,
Tüstü sütunları qalxır.

---

[d]**9:7** Luka 1:32-33

19 Ordular Rəbbinin qəzəbi
Ölkəni od kimi yandırdı,
Xalqı alov yandırıb-yaxır,
Qardaş qardaşa rəhm etmir.
20 Adamlar orada-burada tapdıqlarını
yeyəcək,
Amma doymayıb ac qalacaq.
Hər kəs öz uşağının ətini yeyəcək.
21 Menaşşe Efrayimi yeyəcək,
Efrayim Menaşşeni.
Sonra birlikdə Yəhudaya hücum
edəcəklər.
Bütün bunlara qarşı yenə də Rəbbin
qəzəbi sönmədi,
Əli hələ də cəzalandırmağa hazır idi.

10 Haqsız qaydalar çıxaranların,
Ədalətsiz qanun qoyanların,
2 Yoxsullardan ədaləti əsirgəyənlərin,
Xalqımın kasıblarının haqqını əlindən
alanların,
Dul qadınları soyanların,
Yetimlərin malını ələ keçirənlərin vay
halına!
3 Cəza günü uzaqlardan başınıza bəla
gələndə nə edəcəksiniz?
Kömək üçün kimin yanına
qaçacaqsınız?
Mal-dövlətinizi harada
saxlayacaqsınız?
4 Dustaqlar arasında əyilməkdən
Yaxud öldürülənlər arasında
yıxılmaqdan
Başqa bir çarə qalmayacaq.
Bütün bunlara qarşı yenə də Rəbbin
qəzəbi sönmədi,
Əli hələ də cəzalandırmağa hazır idi.

Allahın Aşşura verdiyi cəza

5 [e]«Vay Aşşurun halına,
O Mənim qəzəb əsam,
Əlindəki dəyənəksə qeyzimdir!
6 Aşşuru göndərəcəyəm allahsız
millətin üstünə,
Qəzəbləndiyim xalqın üzərinə hücum
etməyə,
Qarət etməyə, talan malı götürməyə.
Onları küçələrdəki palçıq kimi
Tapdalamağa əmr verəcəyəm.
7 Amma Aşşur padşahı
Bundan da pis niyyətlər haqda
düşünür,
Bir neçə millətin kökünü kəsib məhv
etməyi fikirləşir.
8 O deyir: “Məgər sərkərdələrimin
hamısı padşahlardan artıq
deyilmi?
9 Kalnonu Karkemiş kimi ələ
keçirmədimmi?
Xamat və Arpad şəhərlərini süqut
etdirmədimmi?
Samariya ilə Dəməşq bizə təslim
olmadılarmı?
10 Yerusəlimlə Samariyadakından
daha çox oyma bütləri olan
Bütpərəst ölkələri necə ələ keçirdimsə,
11 Samariyaya və onun bütlərinə nə
etdimsə,
Yerusəlimə və onun bütlərinə də elə
etmərəmmi?”»
12 Xudavənd Sion dağında və
Yerusəlimdə işini bitirəndən
sonra belə deyəcək:
«Aşşur padşahını qürurlu ürəyinə
görə,
Təkəbbürlü baxışlarına görə
cəzalandıracağam.
13 Çünki o deyir:
“Bunu mən əlimin qüvvəti ilə,
hikmətim və ağlımla etdim.
Xalqları ayıran sərhədləri yox etdim,
xəzinələrini talan etdim,
Bir güclü buğa kimi padşahları
taxtlarından endirdim.
14 Elə bil əlimi quş yuvasına uzadıb
Xalqların var-dövlətini götürdüm.
Elə bil yiyəsiz yumurtaları yığıb

---

[e]**10:5** Yeş. 14:24-27; Nah. 1:1–3:19; Sef. 2:13-15

Bütün dünyanı mən beləcə zəbt
etdim.
Qanad çırpan, ağzını açıb səsini
çıxaran belə, olmadı”».
15 Balta onu işlədənin qarşısında
öyünərmi?
Mişar onu qaldıranın qarşısında
qürrələnərmi?
Sanki dəyənək onu götürəni işlədir,
Elə bil ağacdan düzəlmiş əsa canlını
hərəkət etdirir.
16 Buna görə Sahibimiz, Ordular
Rəbbi
Aşşurun güclü əsgərlərinə azar
göndərəcək,
Möhtəşəm orduları od tutub yanacaq.
17 İsrailin Nuru od,
İsrailin Müqəddəsi alov olacaq.
Aşşuru tikan və qanqal kimi bir gündə
yandırıb yox edəcək.
18 Gözəl meşələri, məhsuldar tarlaları
Tamamilə xarab olacaq,
Ağır xəstəliyə tutulan insanın canı
kimi
Həlak olacaq.
19 Meşələrində qalan ağaclarsa
Bir uşağın saya biləcəyi qədər az
qalacaq.

İsrailin sağ qalanları

20 O gün İsrailin sağ qalanları,
Yaqubun nəslindən xilas olub sağ
qalanlar
Onları həlak edənlərə artıq bel
bağlamayacaq.
Lakin, həqiqətən, Rəbbə –
İsrailin Müqəddəsinə arxalanacaq.
21 Sağ qalanlar, *
Yaqub nəslindən sağ qalanlar
Qüdrətli Allaha tərəf dönəcək,
22 [f]Ey İsrail, xalqın dəniz qumu qədər
çox olsa belə,
Onlar arasından ancaq sağ qalanlar
Allaha tərəf dönəcək.
Tükənməz ədalətlə dağıdılma hökmü
verilib.
23 Xudavənd, Ordular Rəbbi dağıdılma
hökmünü
Bütün dünyada yerinə yetirəcək.

Rəbb Aşşuru cəzalandıracaq

24 Buna görə də Xudavənd, Ordular
Rəbbi belə deyir:
«Ey Sionda yaşayan xalqım,
Misirlilərin sənə etdiyi kimi
Səni dəyənəklə vuran,
Üzərinə çomaq qaldıran
Aşşurlulardan qorxma.
25 Çünki bu yaxında qəzəbim sönəcək,
Hiddətim Aşşurluların məhvinə səbəb
olacaq».
26 Mən Ordular Rəbbi, Midyanlıları
Orev qayasında vurduğum kimi
Onları da qırmancla vuracağam,
Dəyənəyimi Misirlilərə qarşı nə cür
dənizin üzərinə uzatdımsa,
İndi də elə edəcəyəm.
27 O gün Aşşurun yükü çiyninizdən,
Boyunduruğu boynunuzdan
götürüləcək.
Dirçəldiyinizə görə boyunduruq
qırılacaq.

İşğalçıların hücumu

28 Ayat şəhərini alıb Miqrondan
keçdilər,
Mikmasda yüklərini boşaltdılar.
29 Onlar keçidi keçdi, Gevada
gecələdi,
Rama şəhəri lərzəyə gəldi,
Şaulun şəhəri Giveada yaşayanlar
qaçdı.
30 Ey Qallim əhli, səsini ucalt!
Ey Layşa, dinlə,

---

*10:21 *Sağ qalanlar* – ibrani mətnində *Şear-Yaşuv*. Yeşaya bu sözləri ilk oğluna ad kimi verdi. Bax: Yeş. 7:3.

[f]10:22 Rom. 9:27-28

Ey zavallı Anatot!
31 Madmena sakinləri qaçır,
Gevim sakinləri sığınacaq axtarır.
32 Bu gün işğalçılar Novda qalacaq,
Sion şəhərinin qurulduğu dağa –
Yerusəlim təpəsinə yumruq göstərəcək.
33 Budur, Sahibimiz, Ordular Rəbbi
Düşməni dəhşətli gücü ilə budaqlar kimi kəsəcək.
Ən hündür ağaclar qırılacaq,
Qürurlular alçaldılacaq.
34 Meşədəki kolluqları balta kimi
Kəsib yerə sərəcək.
Livan Qüdrətli Olanın önündə diz çökəcək.

Sülh ümidi

11 [g]Yesseyin kötüyündən yeni bir fidan çıxacaq,
Kökündən çıxan bir budaq bar verəcək.
2 Rəbbin Ruhu,
Hikmət və anlayış ruhu,
Öyüd-nəsihət və qüdrət ruhu,
Bilik və Rəbb qorxusu ruhu
Onun üzərində olacaq.
3 O, Rəbb qorxusunda sevinc tapacaq.
Gözlərinin gördüyü ilə hökm etməyəcək,
Qulağı ilə eşitdiyinə görə qərar çıxarmayacaq.
4 [h]Lakin o, yoxsullara haqq ilə hökm edəcək,
Yer üzündəki fəqirlərin işinə ədalətlə qərar çıxaracaq.
Dünyanı ağzının dəyənəyi ilə vuracaq.
Pis adamları ağzının nəfəsi ilə öldürəcək.
5 [i]O, belini salehliklə qurşayacaq,
Sədaqəti kəmər kimi taxacaq.
6 [j]O gün qurdla quzu bir yerdə yaşayacaq,
Bəbirlə çəpiş birgə yatacaq,
Dana, gənc aslan və bəslənmiş mal-qara
Yan-yana duracaq,
Onları balaca uşaq gəzdirəcək.
7 İnəklə ayı bir yerdə otlayacaq,
Onların balaları bir yerdə yatacaq,
Şir də buğa tək saman yeyəcək.
8 Südəmər körpə əfi ilanın
Yuvası üstündə oynayacaq,
Süddən kəsilmiş uşaq
Əlini gürzənin yuvasına salacaq.
9 [k]Müqəddəs dağımın heç bir yerində
Heç kimə zərər dəyməyəcək,
Heç bir kəs o birisini məhv etməyəcək.
Çünki sular dənizi bürüdüyü kimi
Dünya Rəbbin biliyi ilə dolacaq.

Əsirlər geri qayıdacaq

10 [l]O gün Yesseyin kökü xalqlara bayraq olacaq,
Millətlər ona tərəf yönələcək
Məskunlaşdığı yer izzətlə dolacaq.
11 O gün Xudavənd Aşşurdan,
Misirdən, Patrosdan, Kuşdan,
Elamdan, Şinardan, Xamatdan və uzaq diyarlardan
Xalqının sağ qalanlarını qurtarmaq üçün
İkinci dəfə əlini uzadacaq.
12 Millətlər üçün bayraq qaldıracaq,
Əsir düşmüş İsrail övladlarını yığacaq,
Dağılmış Yəhudalıları
Dünyanın dörd bucağından bir yerə gətirəcək.
13 Efrayimin qısqanclığı yox olacaq,
Yəhudanı sıxışdıranlar məhv olacaq.
Efrayim Yəhudaya qısqanmayacaq,
Yəhuda Efrayimi sıxışdırmayacaq.
14 Onların ikisi qərbdə Filiştlilərin üstünə hücum edəcək,
Birlikdə şərqdə yaşayanların var-dövlətini qarət edəcək,

---

[g] **11:1** Vəhy 5:5; 22:1 [h] **11:4** Zəb. 96:12-13; Vəhy 19:11; 2Sal. 2:8
[i] **11:5** Ef. 6:14-15 [j] **11:6** Yeş. 65:25 [k] **11:9** Hab. 2:14 [l] **11:10** Rom. 15:12

Edom və Moav torpaqlarını zəbt
edəcək,
Ammonlular onlara tabe olacaq.
15 [m]Rəbb Misirdəki dənizin körfəzini
Büsbütün qurudacaq.
Fərat çayının üzərində
Əlini yellədərək səmum küləyi
gətirəcək,
O, çayı yeddi dərəyə böləcək,
Adamlar oradan çarıqlarla keçə
biləcək.
16 İsrail övladları Misir torpağından
çıxdığı kimi
Rəbbin Aşşurda sağ qalan xalqı üçün
Böyük bir çıxış yolu olacaq.

Şükür məzmuru

12 O gün sən, ey İsrail, belə
deyəcəksən:
«Ya Rəbb, Sənə şükür edəcəyəm!
Sən mənə qəzəblənirdin,
Lakin qəzəbin söndü,
Mənə təsəlli verdin.
2 [n]Allah xilasımdır,
Ona güvənəcəyəm və
qorxmayacağam,
Çünki Rəbb Allahımız qüvvətim,
məzmurumdur,
O mənə xilas verdi!»
3 Sevinclə xilas mənbələrindən
Su çəkəcəksiniz.
4 [o]O gün belə deyəcəksiniz,
«Rəbbə şükür edin, Onun adını
çağırın,
Xalqlar arasında Onun işlərini bəyan
edin,
Onun adının ucalığını elan edin.
5 Rəbbi tərənnüm edin,
Çünki O, möhtəşəm işlər gördü,
Qoy bütün dünya bunu bilsin!
6 Ey Sion sakinləri, səsinizi ucaldın,
Sevinclə çığırın,
Çünki aranızdakı İsrailin Müqəddəsi
böyükdür».

Allah Babili cəzalandıracaq

13 [p]Amots oğlu Yeşayaya Babil
haqqında görüntü ilə nazil olan
xəbərdarlıq:
2 Çılpaq dağın zirvəsinə bayraq
sancın!
Döyüşçüləri bərkdən səsləyin,
Əl edin ki, onlar
Əsilzadələr üçün ayrılan qapılardan
içəri girsin.
3 Mən seçdiklərimə əmr verdim,
Qəzəbimi düşmənlərə tökmək üçün
Cəsur cəngavərləri,
Ucalığımla öyünən igidləri səslədim.
4 Dağlardakı izdihamın gurultusunu
eşidin,
Bu, böyük bir xalqın səsinə bənzər.
Bir yerə toplanan millətlərin,
Padşahlıqların nidasını dinləyin!
Ordular Rəbbi bir ordunu döyüşə
çağırır!
5 Onlar uzaq ölkədən,
Üfüqlərin o biri tərəfindən gəlir.
Ölkəni tamamilə yerlə yeksan etmək
üçün
Rəbb və Onun qəzəbinin silahı gəlir.
6 [q]Fəryad edin, çünki Rəbbin günü
yaxınlaşır.
O gün Külli-İxtiyarın etdiyi qırğın
kimi gəlir!
7 Buna görə hamının əlləri yanına
düşəcək,
Hər kəs qorxub ürəyini yeyəcək.
8 Hər bir adamı dəhşət bürüyəcək,
Dərd və iztirab içində boğulacaq,
Doğan qadın kimi ağrı çəkəcək,
Çaşqın-çaşqın bir-birinə baxacaq,
Üzləri qızaracaq.
9 Budur Rəbbin günü gəlir,

---

[m]**11:15** Vəhy 16:12 [n]**12:2** Çıx. 15:2; Zəb. 118:14
[o]**12:4** 1Saln. 16:8; Zəb. 105:1 [p]**13:1** Yeş. 47:1-15; Yer. 50:1–51:64
[q]**13:6** Yoel 1:15

Amansızlıqla, qeyzlə, qızğın qəzəblə
gəlir ki,
Yeri səhraya döndərsin,
Oradakı günahkarları məhv etsin.
10 [r]Göydəki ulduzlar və bürclər işıq
verməyəcək,
Günəş doğarkən tutulacaq,
Ay nurunu saçmayacaq.
11 Rəbb deyir: «Pisliyə görə dünyanı,
Günahlarına görə pis adamları
cəzalandıracağam.
Təkəbbürlülərin qürurunu qıracağam,
Zalımların məğrurluğunu
alçaldacağam.
12 İnsan saf qızıldan da az olacaq,
Adam Ofir qızılından da nadir halda
tapılacaq.
13 Buna görə də Mən Ordular Rəbbi,
Qızğın qəzəb günündə
Qeyzlə göyləri titrədəcəyəm,
Yer üzü lərzəyə gələcək.
14 Hər kəs qovulan ceyrana, çobansız
qoyunlara dönüb
Öz xalqının yanına qayıdacaq,
Öz vətəninə qaçacaq.
15 Bütün tutulanların bədəni
dəlik-deşik olacaq,
Ələ keçənlərin hamısı qılıncdan
keçiriləcək.
16 Onların gözləri önündə körpələri
parça-parça ediləcək,
Evləri talan ediləcək,
Arvadlarının namusuna toxunulacaq.
17 Gümüşə qiymət verməyən,
Qızılı sevməyən Midiyalıları
Onlara qarşı qaldıracağam.
18 Ox-kamanları gəncləri parça-parça
edəcək,
Körpələrə rəhm etməyəcəklər,
Uşaqları əsirgəməyəcəklər.
19 [s]Mən Allah Sodomla Homorranı
necə dağıtdımsa,
Padşahlıqların ən gözəli olan,
Xaldeylilərin calalı və qüruru olan
Babili də elə yıxacağam.
20 [t]Orada bir daha heç kim
yaşamayacaq,
Nəsildən-nəslə kimsə
məskunlaşmayacaq.
Ərəblər çadırlarını qurmayacaq,
Çobanlar sürülərini orada
saxlamayacaq.
21 [u]Ora vəhşi heyvanların yaşadığı yer
olacaq,
Bayquşlar evlərdə qaynaşacaq,
Orada dəvəquşular məskən salacaq,
Təkələr oynaşacaq.
22 Saraylarında goreşənlər çığıracaq,
Gözəl imarətlərində çaqqallar
gəzəcək.
Babilin sonu yaxınlaşır,
O günlər tez gəlib çatacaq».

Əsirlərin qayıtması

14 Rəbb Yaqub nəslinə rəhm
edəcək,
İsrail xalqını yenə seçib torpaqlarına
sakin edəcək,
Yadellilər də Yaqub nəslinə qoşulacaq,
onlarla birləşəcək.
2 Xalqlar İsrail xalqını götürüb
torpaqlarına aparacaq.
Onda İsrail xalqı Rəbbin torpağında
Onları özlərinə qul və kəniz edəcək;
Onları əsir aparanları özləri əsir
edəcək,
Onlara zülm edənlərin üzərində hökm
sürəcək.

Ölülər diyarına düşən Babil padşahı

3 Rəbb səni ağrıdan, sıxıntıdan,
Gördüyün ağır işdən qurtaranda
4 Babil padşahına lağ edib belə
deyəcəksən:
«Zülmkarın sonu gör necə oldu!
Zorakılığın axırı gör necə oldu!

---

[r]**13:10** Yez. 32:7; Yoel 2:10,31; 3:15; Mat. 24:29; Mark 13:24-25; Luka 21:25; Vəhy 6:12-13; 8:12 [s]**13:19** Yar. 19:24 [t]**13:20** Yer. 50:39 [u]**13:21** Vəhy 18:2

5 Rəbb pis adamların dəyənəyini,
Hökmdarların əsasını qırdı.
6 O əsa ki dayanmadan xalqları
qəzəblə vurardı,
Millətləri qeyzlə, amansızca əzərdi.
7 İndi isə bütün dünya
Sakitlik və rahatlıq içində sevincdən
coşur.
8 Livanın şam və sidr ağacları
Sənin fəlakətinə sevinərək deyir:
"Sənin ölümündən bəri heç kim bizi
kəsməyə gəlmir".
9 Yerin altındakı ölülər diyarı sənə
"xoş gəldin" deyib,
Səni qarşılamağa can atır, ey Babil
padşahı!
Yer üzünün ölən bütün başçıları
Sənin gəlişindən həyəcanlanır,
Millətlərin bütün keçmiş padşahları
Taxtlarından ayağa qalxır.
10 Hamı səni çağırıb belə deyəcək:
"Sən də bizim kimi zəif oldun, bizə
bənzədin!"
11 Cah-calalın, çənglərinin səsi
Ölülər diyarına endirildi.
Altını qurd, üstünü həşərat bürüdü.
12 [v]Ey parlaq ulduz, dan oğlu,
Necə də göylərdən yerə düşdün!
Ey millətləri tapdalayıb keçən,
Necə də yerə yıxıldın!
13 [w]Sən ürəyində dedin:
"Göylərə qalxacağam,
Taxtımı Allahın ulduzları üzərində
ucaldacağam,
Şimaldakı yüksək yerdə, toplantı
dağında oturacağam,
14 Uca buludların üzərinə çıxacağam,
Haqq-Taala kimi olacağam".
15 Ancaq ölülər diyarına,
Ölüm çuxurunun dərinliyinə
endiriləcəksən.
16 Səni görənlər gözlərini zilləyib
Sənin haqqında düşünüb belə
deyəcək:
"Dünyanı sarsıdan, padşahlıqları
lərzəyə salan,
17 Yer üzünü səhraya çevirən,
Şəhərlərini yerlə yeksan edən,
Dustaqları evlərinə buraxmayan adam
bu deyilmi?"
18 Bütün millətlərin padşahları,
Hər biri öz əzəmətli sərdabəsində
uyuyur.
19 Lakin sən iyrənc budaq kimi
Qəbrindən kənara, uzağa atıldın,
Bir çuxurun dibinə tullanan,
Bədənləri qılıncla deşilən meyitlərlə
örtülmüsən,
Ayaq altında qalan leş kimisən.
20 Ölkəni dağıdıb xalqını öldürdüyünə
görə
Başqaları kimi dəfn olmayacaqsan.
Pislik edənlərin nəsli bir daha
xatırlanmayacaq.
21 Atalarının günahına görə
Övladları üçün qırğın hazırlayın ki,
Onlar qalxıb dünyanı zəbt etməsinlər,
Dünyanın üzərini şəhərləri ilə
bürüməsinlər».
22 «Babil xalqına qarşı qalxacağam»
Bunu Ordular Rəbbi bəyan edir.
«Babilin adını, sağ qalanlarını,
oğullarını,
Nəsillərini yox edəcəyəm» Rəbb
bəyan edir.
23 «Babili bayquş yuvasına, bataqlığa
çevirəcəyəm,
Qırğın süpürgəsi ilə süpürəcəyəm»
Ordular Rəbbi bəyan edir.

Rəbb Aşşurluları cəzalandıracaq

24 [x]Ordular Rəbbi and içib belə deyir:
«Mütləq düşündüyüm kimi olacaq,
Niyyət etdiyim kimi gerçəkləşəcək.

---

[v] **14:12** Vəhy 8:10; 9:1 [w] **14:13** Mat. 11:23; Luka 10:15
[x] **14:24** Yeş. 10:5-34; Nah. 1:1–3:19; Sef. 2:13-15

25 Ölkəmdə Aşşurluları məhv
edəcəyəm,
Dağlarımda onları tapdalayacağam.
Xalqım Aşşurun boyunduruğundan,
Çiyinlərindəki yükündən qurtulacaq.
26 Bütün dünya üçün hazırladığım
hökm budur,
Bütün millətlərə qarşı uzanan əl
budur.
27 Ordular Rəbbinin hökmünü kim
poza bilər?
Uzanan əlini kim geri qaytara bilər?»

Rəbb Filiştliləri cəzalandıracaq

28 [y]Padşah Axazın öldüyü ildə görüntü
ilə nazil olan xəbərdarlıq:
29 [z]«Ey bütün Filiştlilər, sevinməyin
ki, sizi döyən dəyənək qırıldı,
Çünki ilanın kökündən gürzə
törəyəcək,
Onun törəməsi də uçan ilan olacaq.
30 Kasıbların ən kasıbı doyacaq,
Fəqirlər rahat dincələcək.
Amma sizin kökünüzü qıtlıqla
kəsəcəyəm,
Sağ qalanlarınız da öldürüləcək.
31 Ey darvaza, fəryad et!
Ey şəhər, ağla!
Ey bütün Filiştlilər, başdan-başa
əriyin!
Çünki şimaldan tüstü gəlir,
Düşmən əsgərləri nizamı pozmadan
gəlir».
32 O millətin elçilərinə nə cavab
veriləcək?
«Rəbb Sionun təməlini qoyub,
Onun xalqının fəqirləri orada
Sığınacaq tapacaq» deyiləcək.

Moavın dağılması

15 [a]Moav barədə xəbərdarlıq:
Moavın Ar şəhəri bir gecəyə
xarabalığa döndü, dağıldı,
Moavın Kir şəhəri bir gecəyə
viranəliyə döndü, dağıldı.
2 [b]Buna görə Divon xalqı ağlamaq
üçün məbədə,
Səcdəgahlara çıxdı.
Moav xalqı Nevo və Medva üçün
fəryad edir.
Yas tutmaq üçün hamı saçını kəsdi,
Saqqalını qırxdı.
3 Çula bürünərək küçələrdə,
Damlarda, meydanlarda hər kəs
fəryad edir,
Göz yaşları sel kimi axır.
4 Xeşbon və Elale fəryad edir,
Səsləri Yahsaya qədər eşidilir.
Buna görə Moav əsgərləri nalə çəkir,
Ürəkləri qorxu içindədir.
5 Ürəyim Moav üçün kədərlənir,
Oranın qaçqınları Soara,
Eqlat-Şelişiyaya doğru qaçdı.
Luxit yoxuşundan ağlayaraq çıxırlar.
Xoronayim yolunda məhv olduqları
üçün ağlayırlar.
6 Nimrim suları quruduğu üçün ot
soldu,
Bitkilər qalmadı, artıq göy-göyərti
yox oldu.
7 Buna görə xalq qazandığı
mal-dövlətini, yığdığı sərvətini
Söyüdlər vadisindən keçirir.
8 Xalqın ağlaşması Moav torpağını
bürüyür,
Fəryadı Eqlayimədək, Beer-Elimədək
çatır.
9 Çünki Dimon suları qanla doludur,

---

[y]**14:28** 2Pad. 16:20; 2Saln. 28:27 [z]**14:29** Yer. 47:1-7; Yez. 25:15-17; Yoel 3:4-8; Amos 1:6-8; Sef. 2:4-7; Zək. 9:5-7

[a]**15:1** Yeş. 25:10-12; Yer. 48:1-47; Yez. 25:8-11; Amos 2:1-3; Sef. 2:8-11

[b]**15:2** Yer. 48:5,34,37

Amma Mən Dimonun başına daha
betər bəla gətirəcəyəm,
Moavdan qaçıb-qurtulanların,
Ölkədə sağ qalanların üstünə şirlər
göndərəcəyəm.
16 Seladan səhra yolu ilə Sion
dağına,
Ölkənin hökmdarına quzular
göndərin.
2 Moav qızları yuvalarından atılmış,
Ora-bura uçan quşlara bənzəyir,
Onlar Arnon çayının bərələrində
dolaşır.
3 «Bizə öyüd ver, ədalət göstər,
Gündüzün istisində gecə kimi
üstümüzə kölgə sal,
Sürgünləri saxla, qaçqınları təslim
etmə.
4 Qoy Moavdan sürgün olanlar
Sənin lə birlikdə yaşasın,
Məhv edənlərə qarşı biz Moavlıların
pənahı ol».
Qarət və qırğın qurtaranda,
Ölkəni ayaqları altına salanlar yox
olanda,
5 Məhəbbət üzərində taxt qurulacaq,
Davud nəslindən bir nəfər
Sədaqətlə padşahlıq edəcək,
Hökm edərkən ədaləti axtaracaq,
Tezliklə salehliyi yerinə yetirəcək.
6 [c]Moavlıların nə dərəcədə
Qürurlanıb lovğalandıqlarını,
Nə cür təkəbbürlü olduqlarını eşitdik,
Boş yerə öyünürlər.
7 Buna görə Moavlılar Moav üçün
fəryad edəcək;
Hamısı fəryad edəcək,
Qir-Xaresetin kişmiş kökələrini
Yada salaraq inləyib kədərlənəcək.
8 Çünki Xeşbon tarlaları,
Sivma tənəkləri qurudu.
Başqa millətlərin başçıları seçmə
budaqlarını qırdı,
O budaqları ki Yazerə qədər uzanardı,
Səhraya çatırdı, şaxələnib dənizi
aşırdı.
9 Buna görə Yazer ağlaşması ilə
Sivma tənəkləri üçün acı-acı
ağlayıram.
Ey Xeşbon və Elale,
Çünki yay meyvələrinizin və
biçininizin üzərinə
Döyüş nərəsi düşdü.
10 Meyvə bağlarından sevinc və fərəh
götürüldü,
Üzümlüklərdə nə nəğmələr, nə də
sevinc nidaları səslənir.
Üzümsıxanlardan şərab
götürülməyəcək,
Onların sevinc səslərini kəsdim.
11 Buna görə ürəyim Moav üçün lira
kimi inləyir,
Qəlbim Qir-Xareset üçün sızlayır.
12 Moav xalqı səcdəgahlarına çıxaraq
Boş yerə özünü yorur,
Dua etmək üçün Müqəddəs məkanına
gedəcək,
Amma hər şey boş-boşunadır!
13 Rəbbin Moav haqqında keçmişdə
dediyi sözü budur. 14 İndi isə Rəbb belə
deyir: «Tam üç ilin ərzində Moavın
şan-şöhrəti çoxsaylı xalqı ilə birgə
alçaldılacaq, sağ qalanları azalıb
zəifləyəcək».

Aram və İsrail haqqında peyğəmbərlik

17 [d]Dəməşq barədə xəbərdarlıq:
Budur, Dəməşq daha şəhər
olmayacaq,
Bir yığın xarabalığa dönəcək.
2 Aroer şəhərləri tərk olunacaq.
Oralar sürülərin otlaq yeri olacaq,
Onları qorxudan olmayacaq.
3 Efrayimdə qalalı şəhər qalmayacaq,
Dəməşqin hakimiyyəti yox olacaq,
Sağ qalan Aramlıların qüvvəti
İsrail övladlarının qüvvəti tək olacaq.

---

[c] **16:6** Yer. 48:29,32-33 [d] **17:1** Yer. 49:23-27; Amos 1:3-5; Zək. 9:1

Bunu Ordular Rəbbi bəyan edir.
4 O gün Yaqub nəslinin əzəməti sönəcək,
Hamısı bir dəri, bir sümük qalacaq;
5 Biçinçi taxılı necə biçirsə,
Başaqları əli ilə necə yığırsa,
Refaim vadisində başaqları necə toplayırsa,
Onlar da elə olacaq.
6 Zeytun ağacı silkələnəndən sonra
Təpəsində iki-üç zeytun qaldığı kimi,
Bəhərli budaqlarında dörd-beş zeytun qaldığı kimi
Çox az adam sağ qalacaq.
Bunu İsrailin Allahı Rəbb bəyan edir.
7 O gün insan öz Yaradanına nəzər salacaq və gözləri İsrailin Müqəddəsini görəcək. 8 Əlləri ilə yaratdığı qurbangahlara baxmayacaq, barmaqları ilə düzəltdiyi ilahə Aşeranın rəmzi olan sütunlara, buxur qurbangahlarına nəzər salmayacaq.
9 O gün istehkamlı şəhərləri
İsrail övladlarından qaçan Hivlilərlə Emorluların tərk etdiyi
Şəhərlərə bənzəyəcək, viran qalacaq.
10 Sən, ey İsrail, sənə qurtuluş verən
Allahını unutdun,
Pənahgahın olan Qayanı xatırlamadın.
Buna görə də sən əcnəbi bütlər üçün bağ əkirsən,
Özgə ağacların budaqlarından peyvənd edirsən.
11 Onları əkdiyin gün böyüdürsən,
Ertəsi gün çiçəkləndirirsən,
Amma kədərli, sağalmayan ağrılı gündə məhsul verməyəcəklər.
12 Ah, çoxsaylı xalqların gurultusu
Dənizlərin gurultusuna bənzər!
Ümmətlərin nərəsi böyük suların çağlayışına oxşar!
13 Ümmətlərin səsi böyük suların gurultusuna bənzəyəcək,
Lakin Allah onları məzəmmət edəcək,
Onlar uzaqlara qaçacaq,
Küləyin qarşısında təpəliklərdəki saman çöpü kimi,
Qasırğanın önündə yuvarlanan küləş kimi qovulacaqlar.
14 Axşamçağı onlar dəhşət doğururlar,
Səhər açılmadan yox olurlar.
Bizi soyanların aqibəti budur,
Bizi qarət edənlərin sonu budur.

Allahın Kuşa cəza verməsi

18 Kuş çaylarının o tərəfində yerləşən,
Qanad vızıltıları eşidilən ölkənin vay halına!
2 Dəniz yolu ilə, qamış qayıqları ilə
Bu ölkə elçilər göndərir!
Ey sürətli qasidlər, yola düşün!
Çaylarla bölünmüş ölkəyə,
Ucaboylu, parlaq dərili millətin,
Hər yanda qorxu doğuran xalqın,
Güclü və işğalçı millətin yanına gedin!
3 Ey bütün yer üzündə yaşayanlar!
Ey dünya sakinləri!
Dağların zirvəsinə bayraq dikələndə baxın!
Şeypur çalınanda eşidin!
4 Çünki Rəbb mənə belə deyir:
«Günəş şüalarından yaranan qızmarlıq kimi,
Biçin vaxtının istisində şeh buludu kimi
Sakitcə məskənimdən baxacağam».
5 Çiçəklənmə qurtarıb məhsul yığımından əvvəl
Üzümlər qora bağlayanda
O, bağ qayçıları ilə pöhrələri kəsəcək,
Şaxələnmiş budaqları qırıb atacaq.
6 Hamısı dağın yırtıcı quşlarına,
Yerin vəhşi heyvanlarının qarşısına atılacaq.
Yayda yırtıcı quşlara,
Qışda bütün vəhşi heyvanlara yem olacaq.
7 O vaxt çaylarla bölünmüş ölkə
Ucaboylu, parlaq dərili xalq,

Hər yanda qorxu doğuran xalq
Güclü və işğalçı millət
Ordular Rəbbinə,
Ordular Rəbbinin adını qoyduğu yerə –
Sion dağına xərac gətirəcək.

Allahın Misirə cəza verməsi

19 [e]Misir barədə xəbərdarlıq:
Budur, Rəbb sürətlə gedən buludun üstünə minib Misirə gəlir.
Misir bütləri Onun qarşısında titrəyir,
Misirlilərin ürəkləri qorxudan əriyir.
2 Rəbb deyir:
«Mən Misirliləri Misirlilərə qarşı qaldıracağam,
Qardaş qardaşla, qonşu qonşu ilə,
Şəhər şəhərlə, ölkə ölkə ilə vuruşacaq.
3 Misirlilərin ruhu qırılacaq,
niyyətlərini boşa çıxaracağam.
Onlar bütlərdən, ölü ruhlarından,
cindarlardan,
Ruhçağıranlardan məsləhət istəyəcək.
4 Misirliləri qəddar bir sahibə təslim edəcəyəm,
Qüvvətli padşah üzərlərində hökm sürəcək».
Sahibimiz, Ordular Rəbbi belə bəyan edir.
5 Nilin suları azalacaq,
Çay çəkilib quruyacaq.
6 Çaylar iylənəcək,
Misirin arxları boşalıb quruyacaq,
Qamışlar və qarğılar çürüyəcək.
7 Nil kənarında, çayın qırağındakı qarğılar,
Nil boyunca əkilmiş zəmilər quruyacaq, sovrulub yox olacaq.
8 Balıqçılar, Nilə tilov atanların hamısı ağlayaraq yas tutacaq,
Nilə tilov atanların hamısı ağlayacaq,
Suya tor salanlar kədərlənəcək.
9 İncə kətan üzərində işləyənlər,
Ağ bez toxuyanlar ümidlərini itirəcək.
10 Misirin sütunları qırılacaq,
Bütün muzdlu işçilər ruhdan düşəcək.
11 Soan şəhərinin başçıları necə də axmaqdır!
Fironun hikmətli vəzirləri ağılsız məsləhətlər verir.
Onlar firona necə: «Mən müdriklərin,
Qədim padşahların nəslindənəm!» deyə bilər?
12 Ey firon, sənin hikmətli vəzirlərin indi haradadır?
Qoy sənə bildirsinlər
Ordular Rəbbi Misirə qarşı nə hazırlayıb.
13 Soan başçıları axmaq oldu,
Nof rəisləri aldandı,
Misir qəbilələrinin başçıları Misiri yoldan azdırdı.
14 Rəbb onların ağlını çaşdırdı.
Necə ki sərxoş adam öz qusduğunun ətrafında səndələyirsə,
Misir də öz əməllərində belə dolaşır.
15 Misirdə heç kim heç bir iş görə bilməyəcək:
Nə baş, nə quyruq və nə xurma budağı, nə də qamış.

Misir Rəbbə tərəf dönəcək

16 O gün Misirlilər qadına bənzəyəcək,
Ordular Rəbbinin onlara qarşı qalxan əlinin önündə titrəyib dəhşətə gələcək.
17 Yəhuda torpağı Misirliləri dəhşətə gətirəcək. Ordular Rəbbinin Misirə qarşı hazırladığı niyyətə görə Yəhudanın adını eşidən hər kəs vəlvələyə düşəcək.
18 O gün Misirdə Kənan dilində danışan və Ordular Rəbbinin adına and içən beş şəhər olacaq. Onlardan biri Həlak şəhəri [*]adlandırılacaq.

---

[*]**19:18** *Həlak şəhəri* – ibrani dilində *Günəş şəhəri* mənasını verə bilər. Misirdəki Heliopolisə işarədir.

[e]**19:1** Yer. 46:2-26; Yez. 29:1–32:32

[19] O gün Misir ölkəsində Rəbbə
qurbangah qurulacaq, sərhədində
isə Ona sütun tikiləcək. [20] Bu, Misir
torpağında Ordular Rəbbinin əlaməti və
şəhadəti olacaq. Onlar zülmkarlardan
qurtulmaq üçün Rəbbə fəryad edəcək.
O, Misirlilərə xilaskar və müdafiəçi
göndərib onları qurtaracaq. [21] Rəbb
Özünü Misirlilərə tanıtdıracaq, onlar
da o gün Rəbbi tanıyacaq. Misirlilər
Rəbbə qurbanlar, təqdimlər gətirəcək,
nəzir-niyaz edib yerinə yetirəcək.
[22] Rəbb Misirliləri vuracaq və sonra şəfa
verəcək. Onlar Rəbbə tərəf dönəcək,
yalvarışları qəbul olunacaq və Rəbb
onlara şəfa verəcək.
[23] O gün Misirdən Aşşura böyük yol
olacaq.
Aşşurlu Misirə, Misirli Aşşura
gedib-gələcək.
Misirlilərlə Aşşurlular birlikdə Rəbbə
səcdə edəcək.
[24] O gün İsrail Misir və Aşşurun yanında
üçüncü ölkə olacaq. Dünya bunların
sayəsində xeyir-dua alacaq. [25] Ordular
Rəbbi onlara xeyir-dua verib deyəcək:
«Xalqım Misir, yaratdığım Aşşur, irsim
İsrail bərəkətli olsun».

Misir və Kuş üçün əlamət

20 Aşşur padşahı Sarqonun əmri
ilə ordusunun başçısı Aşdoda
gəlib onu ələ keçirtdiyi ildə [2] Rəbb
Amots oğlu Yeşayaya belə dedi:
«Get, əynindəki çulunu və ayağındakı
çarıqlarını çıxar». Yeşaya elə də etdi,
lüt və ayaqyalın gəzməyə başladı.
[3] Rəbb dedi: «Misir və Kuş üçün əlamət
və ibrət olaraq qulum Yeşaya necə
üç il ərzində çılpaq və ayaqyalın
dolaşdısa, [4] elə də Aşşur padşahı Misiri
xəcalətli etmək üçün Misirliləri əsir,
Kuşluları sürgün edib gəncləri, qocaları
çılpaq və ayaqyalın, ayıb yerləri açıq
aparacaq. [5] Kuşa güvənən, Misirlə
fəxr edən xalq qorxacaq və xəcalətə
düşəcək. [6] O gün bu sahil boyunca
yerləşən ölkənin sakinləri deyəcək:
“Aşşur padşahının əlindən qurtulmaq
üçün köməyinə güvəndiyimiz, bel
bağladığımız xalqların başına gör nələr
gəldi! Bəs biz nə cür qurtulacağıq?”»

Babilin düşkünlüyü haqqında görüntü

21 Dəniz sahilindəki səhra
barəsində xəbərdarlıq:
Cənubdan necə fırtınalar gəlirsə,
Səhradan, dəhşətli ölkədən də elə bir
fəlakət gəlir.
[2] Dəhşətli görüntü mənə nazil oldu:
Xain xainlik edir, viranəçi viran edir.
Ey Elam, qalx! Ey Midiya, Babili
mühasirəyə al!
Babilin bais olduğu bütün fəryadlara
son qoyacağam.
[3] Gördüklərimdən belimə sancı düşdü,
Doğan qadın tək məni ağrı tutdu.
Eşitdiklərimdən sarsıldım
Gördüklərimdən məni vahimə
bürüdü.
[4] Ürəyim əsir, dəhşət məni bürüyür.
Həsrətlə gözlədiyim sübh artıq məni
qorxudur.
[5] Gördüyüm görüntüdə süfrə
hazırlayırlar,
Xalçalar sərirlər,
Yeyib-içirlər.
Qalxın, ey sərkərdələr,
Qalxanları yağlayın!
[6] Xudavənd mənə belə dedi:
«Get, gözətçi təyin et,
Qoy o gördüklərini danışsın.
[7] Qoşa atlı döyüş arabalarına,
Atlara, eşşəklərə, dəvələrə minmiş
Adamları gördükdə çox diqqət edin».
[8] Gözətçi bağırdı: «Ey Xudavənd,
gözətçi qülləsində daim duraram,
Hər gecə yerimdə növbəmdə olaram.

9 [f]Budur, döyüş arabalarında süvarilər
cüt-cüt gəlir».
Sonra o çığırdı: «Yıxıldı, Babil yıxıldı!
Onun allahlarının bütləri isə yerə
düşüb parça-parça oldu».
10 Ey xalqım, ey xırmanda buğda kimi
döyülmüş xalqım!
İsrailin Allahı Ordular Rəbbindən
eşitdiyimi sizə bildirmişəm.

Duma barəsində görüntü

11 Duma [*]barəsində xəbərdarlıq:
Bir nəfər Seirdən məni səsləyir:
«Ey gözətçi, gecənin qurtarmağına nə
qədər qalıb?
Ey gözətçi, gecənin qurtarmağına nə
qədər qalıb?»
12 Gözətçi cavab verdi: «Səhərin
açılmağına az qalıb,
Lakin yenə gecə gələcək.
Soruşmaq istəsəniz, yenə gəlin
soruşun».

Ərəbistan barəsində vəhy

13 Ərəbistan barəsində xəbərdarlıq:
Ey Dedan karvanları,
Ərəbistan meşələrində
gecələyəcəksiniz!
14 Ey Tema sakinləri,
Susamışlara su gətirin!
Qaçıb qurtulanlara çörək verin!
15 Çünki onlar qılıncdan,
Sıyrılmış qılıncdan,
Çəkilmiş ox-kamandan, ağır döyüşdən
qaçıb.
16 Xudavənd mənə belə dedi: «Tam
bir ilin ərzində Qedarın bütün əzəməti
qurtaracaq. 17 Oxatanlardan, Qedar
nəslinin cəngavərlərindən az qalacaq».
İsrailin Allahı Rəbb belə dedi.

Yerusəlim barəsində görüntü

22 Görüntü vadisi barəsində
xəbərdarlıq:
Ey şəhər xalqı, nə olub ki, hamınız
damlara çıxmısınız?
2 Ey səs-küylü, əylənən, gurultulu
şəhər,
Öldürülənləriniz nə qılıncdan
keçirildi,
Nə də döyüşlərdə öldürüldü.
3 Başçılarınız birlikdə qaçdı,
Onlar kamanlarından ox atmamış
yaxalandı.
Uzaqlara qaçdıqlarına baxmayaraq
hamısı birgə yaxalandı.
4 Buna görə mən belə dedim:
«Məni tənha qoyun, qoy acı-acı
ağlayım,
Əziz xalqım məğlub olduğuna görə
Mənə təsəlli verməyə cəhd
göstərməyin».
5 Çünki Ordular Rəbbi Xudavəndin
Görüntü vadisində tələaş, basqın və
çaşqınlıq günü var.
Divarların dağıdılması və fəryadın
dağlara çatdığı gün gəlir.
6 Elamlılar oxdanlarını tutub
adamlarla dolu döyüş arabaları
ilə, süvariləri ilə gəldilər.
Kir sakinləri qalxanlarını açdılar.
7 Ən gözəl vadilərin döyüş arabaları
ilə doludur,
Süvarilər şəhər darvazalarının
qarşısına düzüldülər.
8 Yəhudanın istehkamları deşik-deşik
oldu,
O gün siz «Meşə» adlı evdə saxlanılan
silaha nəzər saldınız.
9 Davudun şəhərinin divarlarında
çoxlu dəlik-deşik əmələ gəldiyini
gördünüz,
Aşağı hovuza su yığdınız.

---

[*]**21:11** *Duma* – Edomun başqa adı.

[f]**21:9** Yer. 51:8; Vəhy 14:8; 18:2

10 Yerusəlimdəki evləri saydınız,
Şəhər divarının təmiri üçün evləri
sökdünüz.
11 Köhnə hovuzun suları üçün
İki divar arasında su anbarı
düzəltdiniz.
Lakin bu işi Görənə baxmadınız,
Bunu çoxdan hazırlayan Allaha nəzər
salmadınız.
12 O gün Ordular Rəbbi Xudavənd sizi
ağlaşmağa,
Yas tutmağa, saçınızı yolmağa, çula
bürünməyə çağırdı.
13 [g]Fəqət bunun əvəzinə siz sevinc və
şadlıq tapdınız,
«Qoy yeyib-içək, çünki sabah
öləcəyik!» dediniz,
Cöngə, qoyun kəsdiniz, ət yediniz,
şərab içdiniz.
14 Ordular Rəbbi bunu mənə açdı:
«Bu günah sizə ölənə qədər əsla
bağışlanmaz!»
Ordular Rəbbi Xudavənd belə
buyurur.
15 Ordular Rəbbi Xudavənd belə dedi:
Dur, saray rəisi Şevnanın yanına get
və de:
16 «Sənin burada nə işin var?
Kim icazə verib ki,
Burada – yüksəkdə özün üçün məzar
qazasan,
Qayanın içində özünə sərdabə
düzəldəsən?
17 Ey güclü kişi, bax Rəbb səni
var-qüvvə ilə atıb-tutacaq,
18 Top kimi yuvarlayacaq,
Gen-bol ölkəyə atacaq.
Orada öləcəksən və öyündüyün
arabaların orada qalacaq,
Axı öz ağanın evini biabır edən
sənsən!
19 Səni vəzifəndən atacağam,
Tutduğun yerindən qovacağam.
20 O gün qulum Xilqiya oğlu Elyaqimi
çağırıb
21 Sənin geyimini ona
geyindirəcəyəm,
Sənin qurşağını onun belinə
bağlayacağam,
Səlahiyyətini onun ixtiyarına
verəcəyəm.
Bu adam Yerusəlim sakinlərinə,
Yəhuda xalqına ata olacaq.
22 [h]Davud nəslinin açarını onun
çiynindən asacağam,
Açdığını heç kim bağlaya bilməyəcək,
Bağladığını heç kim aça bilməyəcək.
23 Mən onu paya kimi bərk yerə
vuracağam.
O, nəsli üçün fəxr olacaq.
24 Bütün nəslinin şöhrəti onun
üzərində olacaq.
Nəslin və övladların şərəfi –
Taslardan tabaqlaradək
Bütün qab-qacaqların şöhrəti
Onun üzərində olacaq».
25 Ordular Rəbbi bəyan edir:
«O gün bərk yerə vurulmuş paya
qırılıb-düşəcək, onun üstünə asılan
yük də yox olacaq». Çünki Rəbb belə
söylədi.

Sur şəhəri barəsində görüntü

23 [i]Sur barəsində xəbərdarlıq:
Ey Tarşiş gəmiləri, fəryad edin,
Çünki Sur şəhəri evləri ilə, limanları
ilə birlikdə dağıldı,
Kittim torpağından onlara xəbər
gəldi.
2 Ey sahil sakinləri, dənizçilərin
sayəsində varlanan Sidon
tacirləri, susun!
3 Şixorun taxılı, Nilin məhsulu
Dəniz yolundan gələn gəliriniz idi.

---

[g]**22:13** 1Kor. 15:32
[h]**22:22** Vəhy 3:7-8 [i]**23:1** Yez. 26:1–28:19; Yoel 3:4-8; Amos 1:9-10; Zək. 9:2-4; Mat. 11:20-22; Luka 10:13-14

Bütün şəhər millətlərin alver yeri idi!
4 Utan, ey Sidon, dəniz sahilində
yerləşən qala!
Çünki dəniz belə deyir:
«Mən heç doğuş ağrısı çəkmədim,
doğmadım,
Nə oğlanlar yetişdirdim, nə də qızlar
böyütdüm».
5 Sur haqqında xəbər Misirə çatanda
Misirlilərin ürəkləri üzüləcək.
6 Ey sahil sakinləri, Tarşişə doğru
gedin, fəryad edin!
7 Uzaq ölkələri müstəmləkə etmiş,
Əylənib keflənən sakinləri olan
Qədim şəhər bu imiş?
8 Taclar geyindirən Sura qarşı
Bunları kim hazırladı?
Axı bu şəhərin tacirləri şahzadə idi,
Ticarətçiləri dünyanın ən hörmətli
adamları idi.
9 Ordular Rəbbi bunu hazırladı ki,
Hər cür gözəlliyin qururunu qırsın,
Yer üzünün hörmətli adamlarını
utandırsın.
10 Ey Tarşiş qızı, öz torpaqlarından
Nil kimi keç,
Artıq maneçilik yoxdur.
11 Rəbb dənizin üzərinə əlini uzatdı,
Padşahlıqları titrətdi,
Kənanın istehkamlarının dağılması
haqqında əmr verdi.
12 Onda Rəbb dedi:
«Ey zorlanmış bakirə Sidon qızı,
Sən bir daha sevinməyəcəksən!
Qalx, Kittimə yollan,
Amma orada da canına rahatlıq
tapmayacaqsan».
13 Xaldey ölkəsinə bax!
O xalq artıq yoxdur.
Aşşurlular o ölkəni
Vəhşi heyvanların məskəninə
döndərdi.
Onlar hücum etmək üçün qüllələri
tikdi,
Sarayları dağıtdılar,
Bu diyarı viranəliyə çevirdi.
14 [j]Fəryad edin, ey Tarşiş gəmiləri,
Çünki istehkamınız dağılıb.
15 Bundan sonra Sur şəhəri yetmiş
il ərzində bir padşahın ömrü qədər
unudulacaq. Yetmiş il keçdikdən
sonra Surun da başına fahişə qadın
üçün bəstələdiyi nəğmədəki kimi belə
gələcək:
16 «Ey unudulmuş fahişə,
Əlinə bir lira al, şəhəri dolan!
Gözəl havalar çal, çoxlu nəğmələr
oxu,
Qoy səni yada salsınlar!»
17 [k]Yetmişinci ilin sonunda Rəbb
Sur şəhərini yada salacaq. Bu şəhər
yenə də ticarətə başlayacaq. Dünyanın
bütün padşahlıqları ilə fahişəlik
edəcək. 18 Amma Surun ticarətdən
gələn gəliri Rəbbə həsr olunacaq.
Ticarətdən qazanılmış pullar xəzinələrə
qoyulmayacaq, gizlədilməyəcək.
Bu gəlir Rəbbin hüzurunda gəzən
adamların yeməyini və gözəl geyimini
təmin edəcək.

Rəbbin dünyaya verəcəyi cəza

24 Budur, Rəbb yer üzünü boş
qoyub xarabalığa çevirəcək,
Dünyanı alt-üst edəcək,
Sakinlərini dağıdacaq.
2 Nə xalqla kahin arasında,
Nə nökərlə ağası arasında,
Nə qarabaşla xanımı arasında,
Nə alıcı ilə satıcı arasında,
Nə borc verənlə borc alan arasında
Nə də sələmçi ilə borc alan arasında
Heç bir fərq qoyulmayacaq.
3 Yer üzü tamamilə boş qalıb
xarabalığa çevriləcək.
Çünki Rəbb bu sözü söylədi.
4 Dünya saralıb-solur,
Yer üzü quruyub-solur.

---

[j]**23:14** Vəhy 18:17-19 [k]**23:17** Vəhy 17:2; 18:3

Dünyanın məğrur insanları məyus
olur.
5 Dünyanı sakinləri murdar etdi,
Çünki Allahın qanunlarını tapdaladı,
Qaydalarına xor baxdı,
Əbədi əhdi pozdu.
6 Bu səbəbə görə
Lənət yer üzünü məhv edir.
Yer üzünün sakinləri
Günahlarının cəzasını çəkir,
Buna görə yanır,
Çox az adam sağ qalacaq.
7 Təzə şərab qurtarır, meynələr solur,
Nə vaxtsa fərəhlənən adamlar
kədərlənir.
8 [l]Dəflərin şən səsi kəsilib,
Sevinc nidası eşidilmir,
Liraların avazı gəlmir.
9 Bir daha nəğmə oxuyub şərab
içmirlər,
İçkinin dadı içənə acı gəlir.
10 Viran qalmış şəhər xaraba qalıb,
Bütün evlər qıfıllanıb,
Heç kim ora girə bilmir.
11 Şərab çatmamazlığına görə
küçələrdə qışqırırlar,
Fərəhdən əsər-əlamət qalmadı.
Dünyanın sevinci əsir aparıldı.
12 Şəhər viranə qaldı,
Darvazaları darmadağın oldu.
13 Zeytun ağacından zeytunları
tökmək üçün ağacı silkələyib
döyəndə necə olursa,
Üzüm məhsulu yığılandan sonra
qalan salxımlar necə olursa,
Dünyadakı xalqlar da elə olacaq.
14 Sağ qalanlar səslərini ucaldıb
Sevinc ilahiləri söyləyəcək,
Qərbdə yaşayanlar Rəbbin
əzəmətindən nəql edəcək.
15 Beləliklə, şərqdə yaşayanlar Rəbbi
ucaldacaq,
Uzaq diyarların sakinləri İsrailin
Allahı Rəbbin adını yüksəldəcək.
16 Dünyanın ən uzaq guşələrindən
tərənnüm ilahisi eşidirik:
«Saleh Olana izzət olsun!»
Amma mən dedim: «Ölürəm, ölürəm!
Vay halıma!
Xainlər xainliklərini davam edir,
Bəli, xainlər xaincəsinə hərəkət edir!»
17 [m]Ey dünya sakinləri,
Qarşınıza dəhşət, dərin çuxur və tələ
çıxacaq!
18 Dəhşətdən qaçan dərin çuxura
düşəcək,
Dərin çuxurdan çıxa bilən tələyə
düşəcək.
Göylərin pəncərələri açılacaq,
Dünyanın təməlləri sarsılacaq.
19 Yer üzü çatlayacaq, çatlayacaq,
Dünya yarılacaq, yarılacaq,
Dünya lərzəyə gələcək, lərzəyə
gələcək!
20 Dünya sərxoş kimi yırğalanacaq,
Külək əsəndə talvar kimi silkələnəcək,
Qanunsuzluğun ağırlığı altında yerə
yatacaq,
Bir daha qalxa bilməyəcək.
21 O gün Rəbb yuxarıda – göydəki
orduları,
Aşağıda – yer üzünün padşahlarını
cəzalandıracaq.
22 Onlar yeraltı zindana dustaq kimi
yığılacaq,
Həbsxanada bağlı saxlanacaq,
Uzun müddət keçəndən sonra
cəzalanacaq.
23 Ay qaralacaq, günəş işıq
saçmayacaq.
Çünki Ordular Rəbbi Sion dağında,
Yerusəlimdə hökm sürəcək.
Xalqın başçıları Onun əzəmətini
görəcək.

---

[l]**24:8** Yez. 26:13; Vəhy 18:22 [m]**24:17** Yer. 48:43

Sevinc ilahisi

25 Ya Rəbb, Sən mənim Allahımsan,
Səni ucaldıram, adına həmdlər
oxuyuram.
Çünki Sən qədimdən bəri
möcüzələrini, niyyətlərini
Sədaqətlə həyata keçirdin.
2 Çünki Sən şəhəri bir daş yığınına,
İstehkamlı şəhəri xarabalığa
döndərdin.
O şəhər yadellilərin qalası idi,
Ondan əsər-əlamət qalmadı,
O bir daha bərpa olunmaz.
3 Buna görə qüvvətli xalqlar Səni
izzətləndirəcək.
Qəddar millətlərə mənsub şəhərlər
Səndən qorxacaq.
4 Çünki Sən yoxsula sığınacaq,
Sıxıntı içində olan fəqirə pənahgah,
Fırtına vaxtı çardaq,
İstilik vaxtı kölgəlik oldun.
Qəddarların nəfəsi divara çarpan
fırtına kimidir,
5 Quraqlıqda bürkü kimidir.
Lakin Sən, ya Rəbb,
Zülmkarların azğınlığını bulud
bürkünün qarşısını alan kimi
aldın,
Amansız yağıların nəğmə səslərini
kəsdin.

Rəbbin hazırladığı ziyafət

6 Bu dağda Ordular Rəbbi bütün
xalqlar üçün
Zəngin yeməklərdən, gözəl
şərablardan ibarət ziyafət
düzəldəcək,
Orada ən ləziz yeməklər, ən dadlı
şərablar olacaq.
7 Bu dağda bütün xalqların üzərindəki
duvağı,
Bütün millətlərin üstündə olan
toxunma örtüyü götürəcək.
8 [n]Ölümü əbədi olaraq yox edəcək,
Xudavənd Rəbb bütün adamların
üzündən göz yaşlarını siləcək,
Bütün yer üzündən xalqının
rüsvayçılığını götürəcək.
Çünki Rəbb belə söylədi.
9 O gün deyəcəklər:
«Budur bizim Allahımız!
Ona etibar etdik, O bizi qurtardı,
Rəbb Odur, biz Ona ümid etdik.
İndi isə O bizi qurtardığına görə
Sevinib şadlanaq!»

Allahın Moava verdiyi cəza

10 [o]Rəbbin əli bu dağın üstündə
olacaq,
Amma Moav peyinliyə düşən saman
kimi tapdaq altında qalacaq.
11 Üzgüçü üzərkən əl-qol atdığı kimi
Moav peyinlikdə əl-qol atacaq,
Amma Allah Moavın qürurunu
əllərinin məharəti ilə alçaldacaq.
12 O, Moavın istehkamlarını,
Yüksək divarlarını yerə endirəcək,
Dağıdıb yerlə yeksan edəcək.

Həmd ilahisi

26 O gün Yəhuda diyarında belə
ilahi oxunacaq:
«Qüvvətli şəhərimiz var,
Allahın qurtuluşu şəhər üçün divarlar,
səngərlər kimidir.
2 Açın şəhərin darvazalarını,
Qoy sadiq qalan saleh millət içəri
girsin.
3 Ağlı Sənə yönəlmiş adamlara
Sən kamil sülh verirsən,
Çünki onlar Sənə güvənir.
4 Rəbbə həmişə güvənin,
Çünki Rəbb Allah əbədi Qayadır.
5 O, yuxarıdan gedənləri alçaldar,

---

[n]**25:8** 1Kor. 15:54; Vəhy 7:17; 21:4

[o]**25:10** Yeş. 15:1–16:14; Yer. 48:1-47; Yez. 25:8-11; Amos 2:1-3; Sef. 2:8-11

Onların yaşadığı şəhəri dağıdar,
Yerlə yeksan edər.
6 O şəhər məzlumların ayaqları,
Yoxsulların addımları altında
tapdalanacaq.
7 Saleh adamın yolu düzdür.
Ey Düz Olan, saleh adamın yolunu
Sən düz edirsən.
8 Həqiqətən, ya Rəbb, Sənin
hökmlərinin yolunda biz Sənə
ümid bağlayırıq,
Sənin adın, ismin ürəyimizin istəyidir.
9 Qəlbim gecələr Sənin üçün həsrət
çəkər,
Bəli, ruhum daxilimdə Səni arayar.
Hökmlərin yer üzündə həyata
keçdikcə
Dünyanın sakinləri doğruluğu
öyrənir.
10 Pis adama rəhm etsələr də,
O, doğruluğu öyrənməz,
Doğruluq hökm sürən ölkədə də
haqsızlıq edər,
Rəbbin əzəmətini görməz.
11 [p]Ya Rəbb, əlini qaldırdın,
Amma pis adamlar bunu görmür.
Öz xalqın üçün göstərdiyin qeyrəti
görüb utansınlar.
Bəli, düşmənlərin üçün yağdırdığın
od onları məhv edəcək.
12 Ya Rəbb, bizə sülh verən Sənsən,
Bütün işlərimizi Sən bizim üçün
tənzimləyirsən.
13 Ey Allahımız Rəbb,
Səndən savayı başqa ağalar
üzərimizdə hökm sürürdü,
Lakin biz yalnız Sənin adını tanıyırıq.
14 O ağalar öldü, artıq yaşamır,
Onlar kölgə kimidir, dirilməyəcək,
Çünki Sən onları cəzalandırıb məhv
etdin,
Onlar haqqında hər bir xatirəni yox
etdin.
15 Lakin Sən bu milləti çoxaltdın, ya
Rəbb!
Bəli, milləti çoxaltdın,
Özünü izzətləndirdin.
Hər tərəfə ölkənin sərhədlərini
genişləndirdin».
16 Ya Rəbb, onlar bəlaya düşəndə Səni
axtardı.
Sənin cəzan üzərlərində olanda
Sənə dua edib yalvardı.
17 Hamilə qadın doğuş vaxtı gələndə
Ağrı çəkib qovrularaq necə qışqırırsa,
Biz də Sənin qarşında elə idik, ya
Rəbb!
18 Biz də sanki hamilə idik, ağrı
çəkirdik,
Lakin küləkdən başqa bir şey
doğmadıq.
Nə dünyaya qurtuluş gətirə bildik,
Nə də dünya sakinlərini həyata
qovuşdurduq.
19 Sənin ölənlərin həyata qovuşacaq,
meyitimlə birgə diriləcəklər.
Ey torpaq altında yatanlar, oyanın,
Sevinc nəğməsini oxuyun,
Çünki şeh torpağı necə
təravətləndirirsə,
Rəbb də torpaqdakı ölüləri belə
dirçəldəcək.
20 Ey xalqım, keç içəri otaqlara,
Qapıları ört,
Rəbbin qeyzi keçənəcən
Qısa bir müddətə gizlən!
21 Çünki budur, Rəbb yer üzünün
sakinlərini
Qəbahətləri üzündən cəzalandırmaq
üçün
Öz məskənindən gəlir.
Torpaq udduğu qanı üzə çıxaracaq,
Öldürülənləri artıq gizlətməyəcək.

---

[p] **26:11** İbr. 10:26-27

İsrailin qurtuluşu

27 O gün Rəbb Livyatana, *qaçan ilana,
Bəli, Livyatana, qıvrılan ilana
Amansız, nəhəng və qüvvətli qılıncı ilə cəza verəcək,
Dənizdəki əjdahanı öldürəcək.
2 O gün Rəbb deyəcək:
«Xoşladığım bağ üçün nəğmələr oxuyun!
3 Mən Rəbb, bağı qoruyuram,
Tez-tez sulayıram,
Gecə-gündüz keşiyində dururam ki,
Heç kəs ona zərər verməsin.
4 Mən qəzəblənmirəm,
Kaş qarşıma tikan və qanqal çıxaydı,
Onda onlara qarşı çıxıb döyüşərdim,
Hamısını odda yandırardım.
5 Yaxud qoy Mənə pənah gətirsinlər,
Mənimlə barışsınlar,
Bəli, qoy Mənimlə barışsınlar».
6 Yaqub nəsli gələcəkdə kök salacaq,
İsrail şaxələnəcək, çiçəklənəcək,
Yer üzünü bəhrələri ilə dolduracaq.
7 Rəbb İsraili vuran düşmənləri kimi onu vurdumu?
Yaxud O, başqalarını öldürdüyü kimi İsraili də öldürdümü?
8 Rəbb Öz xalqına hökm etdi,
Qovub sürgünə göndərdi.
Şərq küləyi əsən gün Rəbb onları şiddətli yeli ilə qovdu.
9 Yaqub nəslinin qəbahəti bununla bağışlanacaq,
Günahın aradan götürülməsinin tam bəhrəsi bu olacaq:
Bütpərəst qurbangahların daşları
Tabaşir kimi ovulacaq,
İlahə Aşeranın rəmzi olan sütunlar
Ya da buxur qurbangahları
Bir daha dikəlməyəcək.
10 İstehkamlı şəhər tənha, kimsəsiz yurd,
Səhra kimi boş qaldı.
Orada dana otlayıb yatacaq,
Budaqları yeyib-qurtaracaq.
11 Şaxələri quruyanda qoparılacaq,
Qadınlar gəlib onları yandıracaq.
Bu xalq ağılsız olduğuna görə
Yaradan onlara rəhm etməyəcək,
Xaliq onlara qarşı xeyirxah olmayacaq.
12 O gün Rəbb Fərat çayından
Misir vadisinə qədər
Öz bəhrələrini yığacaq.
Siz bir-bir toplanacaqsınız, ey İsrail övladları!
13 O gün böyük şeypur çalınacaq,
Aşşur torpağında itkin düşənlərlə
Misirə sürgün edilənlər gəlib
Yerusəlimdə Müqəddəs dağda
Rəbbə səcdə edəcək.

Şimal padşahlığına xəbərdarlıq

28 Məhsuldar vadinin başında yerləşən,
Şəraba uymuşların şəhərinin –
Efrayim sərxoşlarının qürurlu tacının,
İzzətli gözəlliyin və solan çiçəyin vay halına!
2 Budur, Rəbbin güclü, qüvvətli bir adamı var.
O, bərk yağan dolu,
Bəla gətirən fırtına kimi,
Hər şeyi yolunda məhv edən sel kimi gəlir,
Əlləri ilə şəhəri yerlə yeksan edəcək.
3 Efrayim sərxoşlarının şəhəri, qürur tacı
Ayaq altında tapdalanacaq.
4 Məhsuldar vadinin başında yerləşən şəhər,
İzzətli və gözəl tac,
Artıq solan çiçəyi xatırladan şəhər,
Vaxtından əvvəl yetişən əncir kimi olacaq.
Onu görən tez dərib yeyəcək.

---

*27:1 *Livyatan* – bu gün bizə məlum olmayan nəhəng su heyvanı, şər rəmzi.

5 O gün Ordular Rəbbi
Sağ qalan xalqı üçün
Gözəllik tacı, izzət çələngi olacaq.
6 Hökm kürsüsündə oturana ədalət ruhu,
Şəhər darvazalarını müdafiə edənlərə qüdrət verəcək.

Yeşaya sərxoş peyğəmbərlərə xəbərdarlıq edir

7 Kahinlər və peyğəmbərlər də şərabdan səndələyir,
İçkidən büdrəyir,
Şərab içib xumarlanıb,
İçkidən yollarını azıb.
Onlar yanlış görüntülər görür,
Tutarsız qərarlar qəbul edir.
8 Bütün süfrələri qusmaq və natəmizliklə doludur,
Bulanmamış yer yoxdur!

Yeşayaya edilən istehza

9 «Bu adam kimi öyrədir? Kimə öyüd verir?
Süddən kəsilmiş, ana döşündən ayrılmış körpə uşaqlaramı?
10 Bu nədir?
Əmr üstünə əmr, əmr üstünə əmr,
Sətir üstünə sətir, sətir üstünə sətir,
Bir az oradan, bir az buradan».
11 [q]Onda Rəbb bu xalqla
Yadellilərin ağzı ilə,
Başqa dildə danışacaq.
12 O sizin hamınıza dedi:
«Rahatlıq budur,
Yorğunlara dinclik verin, budur istirahət».
Amma onlar eşitmək istəmədilər.
13 Rəbbin sözü onlar üçün
«Əmr üstünə əmr, əmr üstünə əmr,
Sətir üstünə sətir, sətir üstünə sətir,
Bir az oradan, bir az buradan» olacaq ki,
Gedib arxası üstə yıxılsınlar, yaralansınlar,
Tələyə düşüb əsir aparılsınlar.

Sion üçün guşədaşı

14 Buna görə də, ey rişxəndçilər,
Yerusəlimdə olan bu xalqın rəhbərləri,
Rəbbin sözünə qulaq asın!
15 Madam ki siz dediniz:
«Ölümlə əhd bağladıq,
Ölülər diyarı ilə razılığa gəldik,
Ölkəyə böyük bəla gələndə
Bizə zərər verməyəcək,
Çünki yalanı özümüzə sığınacaq etdik,
Hiylənin arxasında gizləndik»,
16 [r]Buna görə də Xudavənd Rəbb belə deyir:
Budur, Sionda təməl olaraq bir daş,
Sınaqdan keçirilmiş daş, qiymətli bir guşədaşı qoyuram.
Ona iman edən hər kəs narahat olmayacaq.
17 Ədaləti ölçü, salehliyi şaqul edəcəyəm.
Yalan sığınacağını dolu məhv edəcək,
Gizləndiyiniz yerləri sellər yuyub-aparacaq.
18 Ölümlə bağladığınız əhd ləğv olunacaq,
Ölülər diyarı ilə razılığınız qüvvədən düşəcək.
Ölkəyə böyük bəla gələndə sizi məhv edəcək.
19 Bu bəla hər gələndə sizə toxunacaq.
O hər səhər, gecə-gündüz keçəcək.
Bu xəbəri anlayanda dəhşətə gələcəksiniz.
20 Yataq uzanmaq üçün qısa,
Yorğan bürünmək üçün dar olacaq.
21 [s]Çünki Rəbb Perasim dağında etdiyi kimi qalxacaq,

---

[q]**28:11** 1Kor. 14:21 [r]**28:16** Zəb. 118:22-23; Rom. 9:33; 1Pet. 2:6
[s]**28:21** 2Şam. 5:20; 1Saln. 14:11; Yeşua 10:10-12

Giveon vadisindəki kimi
qəzəblənəcək.
O Öz işini, qeyri-adi işini yerinə
yetirəcək!
Öz əməlini, naməlum əməlini həyata
keçirəcək.
22 Buna görə də rişxənd etməyin ki,
Buxovlarınız daha da ağırlaşmasın.
Çünki Ordular Rəbbi Xudavənddən
eşitmişəm ki,
Bütün ölkə məhv olacaq.

Allahın hikməti

23 Qulaq asın, səsimi eşidin, diqqət
edin,
Dediyimi dinləyin.
24 Əkinçi əkin əkmək üçün durmadan
yeri şumlayarmı,
Torpaqda şırım açıb malalayarmı?
25 O, torpağı hamarlayandan sonra
qara çörək otunu, zirəni
səpməzmi?
Buğdanı sıra ilə, arpanı ayırdığı yerə,
pərinci də onun yanına əkməzmi?
26 Allah ona öyüd verər, onu öyrədər.
27 Çünki qara çörək otunu vəl ilə
döyməzlər,
Zirənin üstünə araba təkərləri ilə
sürməzlər.
Qara çörək otu dəyənəklə, zirə isə
çubuqla döyülər.
28 Buğdanı çörək bişirmək üçün
xırmanda döyürlər,
Amma o fasiləsiz döyülməz.
Xırmanın üstündən araba və atlar
keçsə də, buğdanı əzməz.
29 Bu hikmət Ordular Rəbbindən gəlir.
Onun məsləhəti ecazkardır, hikməti
böyükdür.

Vay Yerusəlimin halına!

29 Ariel,* ey Ariel, Davudun
ordugah qurduğu şəhər!
İli ilə qat, bayramların keçirilsin.
2 Amma Arielə əzab verəcəyəm,
O, fəryad, fəğan edəcək,
Mənim üçün qurbangah ocağı kimi
olacaq.
3 Sənə qarşı ətrafında ordugah
quracağam,
Dövrəsinə istehkamlar düzəcəyəm,
Sənə hücum etmək üçün qüllələr
tikəcəyəm.
4 Alçaldılacaqsan, yerin altından
danışacaqsan,
Toz-torpaq içindən səsin boğuq
gələcək,
Səsin ölü səsi kimi yerdən,
Sözlərin pıçıltı kimi torpağın altından
çıxacaq.
5 Amma çoxlu düşmənlərin narın toz
kimi,
Qorxunc adamların orduları
sovrulmuş saman çöpü kimi
olacaq.
Qəflətən bir an içində,
6 Ordular Rəbbi göy gurultusu ilə,
zəlzələ ilə,
Böyük səs-küylə, qasırğa və fırtına ilə,
Hər şeyi məhv edən od ilə sənin
yanına gələcək.
7 Sonra Arielə qarşı döyüşən bütün
millətlərdən izdihamlar,
Ona və qalalarına qarşı savaşanların
hamısı,
Ona zülm edənlər bir röya kimi,
Gecə görünən yuxu kimi yox olacaq.
8 Yuxuda çörək yediyini görən ac
adam
Oyananda yenə acdır.
Yuxuda su içdiyini görən susuz adam
Oyananda yenə susuzluqdan yanır.
Sion dağına qarşı döyüşən
Bütün millətlərdən izdihamlar da belə
olacaq.
9 Heyrətlənin və təəccüblənin,

---

*29:1 *Ariel* – ibrani dilində *qurbangah ocağı* yaxud *Allahın aslanı* mənasını daşıyır. Yerusəlim şəhərinə işarədir.

Gözünüzü kor edin, qoy görməsin.
Şərab içmədən sərxoş olun,
İçki içmədən səndələyin.
10 [t]Çünki Rəbb sizi dərin yuxuya saldı.
Ey peyğəmbərlər, gözlərinizi yumdu,
Ey görücülər, sizi kor elədi.
11 [u]Bütün bu görüntü sizin üçün
möhürlənmiş kitabın sözlərinə bənzəyir.
Oxumağı bacarana bunu verib desələr:
«Rica edirəm, bunu oxu!» O isə
cavab verir: «Oxuya bilmərəm, çünki
möhürlüdür». 12 Kitabı oxuya bilməyənə
verib desələr: «Bunu oxu, rica edirəm», o
isə cavab verir: «Mən oxuya bilmirəm».
13 [v]Xudavənd deyir:
«Bu xalq Mənə yaxınlaşıb
Dilləri və dodaqları ilə Mənə hörmət edir,
Amma qəlbləri Məndən uzaqdır.
Onların Mənə səcdə etmələri
İnsanlardan öyrəndikləri əmrlərdən gəlir.
14 [w]Ona görə Mən bir də bu xalq üçün
Yeni möcüzə, ecazkar şeylər edəcəyəm,
Müdriklərinin müdrikliyi məhv olacaq,
Aqillərinin ağlı yox olacaq».
15 Öz niyyətlərini Rəbdən gizlətməyə çalışanların vay halına!
Qaranlıqda iş görən bu adamlar
«Bizi kim görür, kim tanıyır?» deyirlər.
16 [x]Bu nə cür ağılsız düşüncədir!
Heç dulusçunu gil ilə bir tutmaq olarmı?
Düzəldilən əşya onu düzəldən barədə
«O məni düzəltmədi» deyərmi?
Qab onu yaradan barədə
«O heç nə anlamır» deyərmi?
17 Livan tezliklə məhsuldar tarlaya,
Məhsuldar tarla isə meşəyə dönməyəcəkmi?
18 O gün karlar kitabdakı sözləri eşidəcək,
Korların gözləri zülmət qaranlıqda görəcək.
19 Fəqirlər Rəbdə sevinc tapacaq,
Yoxsullar İsrailin Müqəddəsində şadlanacaq.
20 Çünki zülmkarlar yox olacaq,
Rişxəndçilər itib-batacaq.
Pislik etməyə hazır olanlar məhv olacaq.
21 Onlar başqasına böhtan atanlar,
Şəhər darvazasında hakimə tələ quranlardır,
Haqlının haqqını nahaq yerə təhrif edənlərdir.
22 Buna görə də İbrahimi qurtaran Rəbb Yaqub nəslinə belə deyir:
«Yaqub nəsli artıq utanmayacaq,
Üzləri qorxudan saralmayacaq.
23 Əlimlə yaratdığım övladlarını
Aralarında görəndə
Adımı müqəddəs tutacaqlar,
Yaqubun Müqəddəsini təqdis edəcəklər,
İsrailin Allahından qorxacaqlar.
24 Yolunu azanlar anlayacaq,
Gileylənənlər təlim öyrənəcək».

Misirlə bağlanan əhd puçdur

30 Rəbb bəyan edir: «Bu dikbaş övladların vay halına,
Mənim niyyətlərimi yox, öz niyyətlərini qururlar,
Ruhuma uyğun olmayan razılaşma edirlər,
Eləcə günahı günaha qatırlar.
2 Məndən məsləhət almadan
Misirə gedirlər,
Fironun himayəsini axtarırlar,
Misirin kölgəsi altında sığınacaq tapırlar.
3 Fəqət fironun himayəsi

---

[t]**29:10** Rom. 11:8 [u]**29:11** Vəhy 5:1 [v]**29:13** Mat. 15:7-9; Mark 7:6-7
[w]**29:14** 1Kor. 1:19 [x]**29:16** Yeş. 45:9; Rom. 9:20

Onlar üçün xəcalətə,
Misir kölgəsi altındakı
Sığınacaq rüsvayçılığa çevriləcək.
4 Başçıları Soanda olduqlarına,
Elçiləri Xanesə yetişdiklərinə
baxmayaraq,
5 Özlərinə faydası olmayan xalqa görə
hamı utanacaq.
O xalqın onlara nə köməyi, nə də
faydası olacaq,
Ancaq xəcalət və rüsvayçılıq olacaq».
6 Negev heyvanları barəsində
xəbərdarlıq:
Yəhudanın elçiləri erkək və dişi
aslanların,
Gürzələrin, uçan ilanların yaşadığı
Narahat və təhlükəli torpaqdan
keçirlər.
Mal-dövlətini eşşəklərin belinə,
Xəzinələrini dəvələrin hürgücünə
yükləyib
Onlara kömək edə bilməyən xalq
üçün aparırlar.
7 Misirin köməyi boş və faydasızdır,
Buna görə də Mən Misirə
«Tənbəl Rahav» *adını qoydum.
8 «İndi get, sənə danışdığımı
Onların qarşısında bir lövhəyə yaz,
kitaba köçür ki,
Gələcəkdə, əbədiyyətdə şahid olsun.
9 Çünki bu, üsyankar xalq,
Yalançılar nəslidir,
Rəbbin qanununa qulaq asmaq
istəməyən bir soydur.
10 Onlar baxıcılara "bir daha görüntü
görməyin",
Görücülərə "bizim üçün düzgün
şeylər haqqında peyğəmbərlik
etməyin,
Bizə xoş sözlər söyləyin,
Arzuladığımızı peyğəmbərlik edin.
11 Yoldan çəkilin, bizə yol verin,
İsrailin Müqəddəsini bizimlə
üzləşdirməyin" deyirlər».
12 Buna görə də İsrailin Müqəddəsi
belə deyir:
«Bu sözü rədd etdiyinizə görə,
Zorakılığa və yalana güvənib bel
bağladığınıza görə
13 Bu qəbahət sizin üçün hündür
divarda əmələ gələn çata
bənzəyir,
Qəflətən, bir an içində dağıla bilər.
14 Ölkəniz də bir gil qab kimi
qırılacaq,
Elə xıncım-xıncım olacaq ki,
Ocaqdan od götürmək üçün
Yaxud hovuzdan su çəkmək üçün bir
qırığı da qalmayacaq».
15 Xudavənd Rəbb, İsrailin Müqəddəsi
belə deyir:
«Mənə tərəf dönüb rahatlıq tapanda
xilas olarsınız,
Sakitləşib inanmaqla qüdrətli
olarsınız,
Lakin siz bunu istəmirsiniz.
16 Siz dediniz: "Xeyr, atlara
minib-qaçacağıq",
Buna görə siz qaçmalı olacaqsınız.
"Çevik atlara minəcəyik".
Buna görə təqibçiləriniz də çevik
olacaq.
17 Min nəfər bir nəfərin hədəsinə görə
qaçacaq,
Beş nəfərin hədəsinə görə hamınız
qaçacaqsınız;
Sağ qalanlarınız dağın zirvəsindəki
bayrağın şüvülü tək,
Təpədəki bayraq tək olacaq».
18 Amma Rəbb sizə lütf göstərmək
üçün gözləyir,
Yenə də sizə rəhm etməyə hazırdır,
Çünki Rəbb adil Allahdır,
Onu intizarla gözləyənlər nə
bəxtiyardır!

---

*30:7 *Rahav* – Misirin rəmzi.

Rəbb xalqına bərəkət verəcək

19 Ey Yerusəlimdə yaşayanlar, ey Sion xalqı,
Siz artıq ağlamayacaqsınız,
Fəryad etdikdə Rəbb sizin üçün lütfkar olacaq,
Fəryadınızı eşidən kimi cavab verəcək.
20 Rəbb çörəyi əzabla, suyu çətinliklə sizə verəcək,
Lakin O bir daha Mürəbbinizi sizdən gizlətməyəcək,
Onu gözünüzlə görəcəksiniz.
21 Sağa ya sola azdığınız vaxt
Arxanızdan «Yol budur, gedin bu yolla»
Deyilən səsi eşidəcəksiniz.
22 Onda siz gümüşlə örtülən oyma bütlərinizi,
Qızılla örtülmüş tökmə bütlərinizi
Murdar hesab edəcəksiniz.
Murdar bir şeyi atdığınız kimi onları atıb deyəcəksiniz:
«Rədd ol!»
23 Rəbb yerə əkdiyiniz toxum üçün yağış verəcək,
Torpağın məhsulu bol və bərəkətli olacaq.
O gün mal-qaranız geniş otlaqlarda otlayacaq.
24 Torpağı şumlayan öküzlərlə eşşəklər
Kürəklə, yaba ilə sovrulmuş duzlu yem yeyəcək.
25 O böyük məğlubiyyət günündə
Qalalar yerə çökəndə
Hər hündür dağdan,
Hər uca təpədən sellər axacaq.
26 Rəbb Öz xalqının yaralarını sarıdığı gün,
Zərbəsi ilə açdığı yaralarına şəfa verən gün,
Ay işığı günəş işığı,
Günəşin işığı yeddi günün işığı kimi
Yeddi qat artıq parlayacaq.

Rəbb Aşşuru cəzalandıracaq

27 Budur, Rəbbin adı uzaqdan gəlir,
Qızğın qeyzlə qara bulud içində
Ağzı qəzəbli sözlərlə doludur,
Dili sanki hər şeyi məhv edən alovdur.
28 Onun nəfəsi insan boğazına çatmış daşan sel kimidir,
Millətləri ələkdən keçirəcək ki, məhv olsunlar,
Xalqların ağzına yüyən taxacaq ki, yolunu azsınlar.
29 Siz isə müqəddəs bayram gecəsi kimi
İlahilər oxuyacaqsınız.
Rəbbin dağına, İsrailin Qayasına tütək çalaraq çıxan tək
Ürəyiniz şadlanacaq.
30 Rəbb əzəmətli səsini eşitdirəcək,
Qızğın qəzəblə, hər şeyi yandıran alovla,
Fırtına ilə, güclü leysanla, dolu ilə
Qolunun qüdrətini göstərəcək.
31 Aşşur Rəbbin səsindən vahiməyə gələcək,
Rəbb dəyənəyi ilə onları vuracaq.
32 Rəbbin onlara endirdiyi dəyənəyinin hər zərbəsini
Dəf və liralar müşayiət edəcək.
Döyüşərkən əl-qol atıb onları vuracaq.
33 Tofet çoxdan hazırdır,
Aşşur padşahı üçün də
O yer dərinləşdirilib genişləndirilmişdir.
Od çuxurunda çoxlu odun, alov var.
Rəbbin nəfəsi kükürd axını kimi onu yandırar.

Misirə güvənməyin

31 Kömək üçün Misirə enənlərin,
Atlara güvənənlərin vay halına!
Onlar döyüş arabalarının çoxluğuna,
Süvarilərin gücünə bel bağlayır!
Amma İsrailin Müqəddəsinə baxmırlar,
Rəbbi axtarmırlar!

[2] Lakin Rəbb tam hikmətə malikdir,
O bəla gətirər, Öz sözlərini geri götürməz,
Pislik edən adamlara,
Günahkarlara kömək edənlərə qarşı çıxar.
[3] Misirlilər Allah deyil, insandır,
Atları da ətdəndir, ruhdan deyil.
Rəbb Öz əlini uzadanda
Yardım edən büdrəyəcək,
Yardım alan yıxılacaq,
Hamısı birlikdə məhv olacaq.
[4] Çünki Rəbb mənə belə dedi:
«Şir ya gənc aslan öz şikarı üstünə nərə çəkəndə
Bir dəstə çoban ona qarşı haray salsa da,
Aslan onların səslərindən qorxmur,
Qışqırıqlarına məhəl qoymur.
Ordular Rəbbi də elə enəcək,
Sion dağını, onun təpələrini
Qorumaq üçün döyüşəcək.
[5] Quş qanad açıb necə balalarını qoruyursa,
Ordular Rəbbi Yerusəlimi də belə qoruyacaq,
Müdafiə edəcək, qurtaracaq, saxlayacaq, xilas edəcək».
[6] Ey İsrail övladları, üz döndərdiyiniz Rəbbə tərəf dönün! [7] Çünki o gün hamınız əlinizlə günahkarcasına düzəltdiyiniz qızıl və gümüş bütlərinizi tullayacaqsınız.
[8] «Aşşurlular qılıncdan məhv olacaq,
İnsan qılıncından yox.
Onlar qılıncdan keçiriləcək,
Amma bu insan qılıncı olmayacaq.
Aşşurlular döyüş meydanından qaçacaq,
Cavanları isə yaxalanıb qul olacaq.
[9] Aşşur padşahı dəhşət içində qaçacaq.
Sərkərdələri bayraqlarını atıb vəlvələyə düşəcək».
Bunu alovu Sionda,
Ocağı Yerusəlimdə olan Rəbb bəyan edir.

Saleh padşah

32 Budur, padşah salehliklə hökm sürəcək,
Başçılar ədalətlə rəhbərlik edəcək.
[2] Onların hər biri
Küləyə qarşı bir pənahgah,
Fırtınaya qarşı sığınacaq,
Quraqlıqda bulaqlar,
Cansıxıcı torpaqda kölgə salan böyük qaya kimi olacaq.
[3] Görənlərin gözləri bir daha yumulmayacaq,
Eşidənlərin qulaqları dinləyəcək.
[4] Ağılsızların ağlı biliyə doğru yönələcək,
Pəltəklər açıq-aydın danışacaq.
[5] Artıq axmaq adama alicənab deyilməyəcək,
Alçağı ağayana insan saymayacaqlar.
[6] Çünki axmaq səfeh-səfeh danışır,
Ürəyinin niyyəti pislik etməkdir.
Onun işi küfr edib,
Rəbbə qarşı təhqiranə danışmaq,
Acları ac, susuzları susuz qoymaqdır.
[7] Alçaq adamın əməlləri pisdir.
O, hiylə işlədir ki,
Yalan sözlərlə haqlı olan yoxsula ziyan versin.
[8] Amma alicənab adam
Alicənab şeylər barəsində fikirləşər.
Elədiyi xoş əməllər ona dayaqdır.

Hökm və qurtuluş

[9] Ey qayğısız qadınlar,
Qalxın, səsimi eşidin!
Ey laqeyd qızlar, sözümü dinləyin!
[10] Ey laqeyd qadınlar,
Siz bir ildən sonra sarsılacaqsınız,
Çünki bağda məhsul,
Meyvə yığımı olmayacaq.
[11] Ey qayğısızlar, əsin!
Ey laqeydlər, lərzəyə gəlin,
Geyimlərinizi çıxarın,
Soyunun, belinizə çul qurşayın.
[12] Gözəl tarlalar,

Məhsuldar meynələr üçün,
13 Xalqımın tikanlı kollar bitən
torpağı üçün,
Zövq-səfalı şəhərlərdəki şən evləriniz
üçün
Sinə döyün.
14 Çünki saray viranə,
İzdihamlı şəhər boş qalacaq,
Qala ilə gözətçi qülləsi
Əbədilik mağaralara çevriləcək,
Vəhşi eşşəklərin gəzdiyi,
Sürülərin otlaq yeri olacaq.
15 Bunlar yuxarıdan üzərimizə Ruh
tökülənədək davam edəcək.
O vaxt səhra məhsuldar tarlaya,
Məhsuldar tarla isə meşəyə dönəcək.
16 Sonra ədalət səhrada
məskunlaşacaq,
Salehlik məhsuldar tarlada yaşayacaq.
17 Salehliyin bəhrəsi əmin-amanlıq,
Nəticəsi isə əbədi sakitlik və
təhlükəsizlik olacaq.
18 Xalqım əmin-amanlıq içində
evlərində,
Təhlükəsiz məskəndə, rahat yerlərdə
yaşayacaq.
19 Dolu meşələrə düşsə də,
Şəhər yerlə yeksan olsa da,
20 Bütün sulu torpaqlarda toxum
əkənlər,
Oraya malını, eşşəyini sərbəst
buraxanlar,
Siz nə xoşbəxtsiniz!

Kömək üçün yalvarış

33 Vay halına, ey yıxıb-dağıdan,
Amma özü yıxılmayan insan!
Vay halına, ey xain adam,
Hərçənd sənə qarşı xəyanət
etməmişlər!
Sən məhv edib qurtaran zaman
Özün də yıxılacaqsan,
Sən xain əməllərindən dönəndə
Xəyanətlə rastlaşacaqsan.
2 Ya Rəbb, bizə qarşı lütfkar ol,
Çünki Sənə ümid etmişik.
Hər səhər bizim qüvvətimiz ol,
Fəlakət günündə bizi qurtar.
3 Sənin qüdrətli səsindən xalqlar
qaçır,
Sən ayağa qalxarkən
Millətlər pərən-pərən olur.
4 Çəyirtkələr tarlanı nə cür talan
edirlərsə,
Ey millətlər, qənimətiniz də o cür
talan olacaq.
Malınızın üstünə çəyirtkə yığını kimi
cumacaqlar.
5 Rəbb ucadır, yüksəklərdə oturur,
Sionu ədalətlə və salehliklə doldurur.
6 O, yaşadığınız dövrün təməlidir,
Qurtuluşun, hikmətin, biliyin
mənbəyidir,
Rəbb qorxusu sənin xəzinəndir.
7 Budur, millətlərin igidləri küçələrdə
çığırırlar.
Sülh qasidləri hönkürüb ağlayırlar.
8 Yollar boşalıb, səyyahlar yoxdur.
Düşmən əhdi pozdu,
Şəhərləri dağıtdı, adamları alçaltdı.
9 Ölkə yas tutur, zəifləyir,
Livan məğlub olub, solub,
Şaron səhraya dönür,
Başan və Karmelin ağacları
yarpaqlarını tökür.

Rəbbin xalqlara xəbərdarlığı

10 Rəbb deyir:
«İndi qalxacağam,
İndi yüksələcəyəm,
İndi ucalacağam.
11 Samana hamilə qalıb küləş
doğacaqsınız,
Nəfəsiniz sizi məhv edən alova
dönəcək.
12 Xalqlar yanıb kül olacaq,
Kəsilib odda yandırılan tikanlı kollara
oxşayacaq.
13 Ey uzaqda yaşayanlar,
Nə elədiyimi eşidin,
Ey yaxında yaşayanlar,
Mənim gücümü bilin».

14 Siondakı günahkarlar dəhşətə,
Allahsızlar lərzəyə gəldi:
«Hər şeyi məhv edən alovun yanında
hansımız yaşaya bilərik?
Əbədi yanan atəşin yanında hansımız
dayana bilərik?»
15 Amma salehlik yolu ilə gedən,
Doğru sözlər danışan,
Zorakılıqla əldə edilən qazancı rədd
edən,
Əlini rüşvətdən uzaq tutan,
Qatillərin qurduğu qəsdə fikir
verməyən,
Pisliyə qarşı gözlərini yuman
16 Yüksəkliklərdə yaşayacaq,
Təpələrin başındakı qalalar onun
dayağı olacaq.
O, çörəklə, su ilə təmin olunacaq.

Parlaq gələcək

17 Gözlərin padşahı bütün gözəlliyi ilə
görəcək,
Ucsuz-bucaqsız ölkəni seyr edəcək.
18 «Haradadır xərac yığan?
Haradadır qeydiyyat aparan?
Haradadır qüllələrə nəzər salan?»
deyərək
Dəhşətli günlər haqqında
düşünəcəksən.
19 Anlaşılmaz, yad dildə danışan
Təkəbbürlü xalqı daha
görməyəcəksən.
20 Bayramlar keçirdiyimiz şəhərə –
Siona bax!
Gözlərin Yerusəlimi,
Sarsılmaz çadırı, sülh məskənini
görəcək.
Onun payaları heç vaxt sökülməyəcək,
Kəndirlərinin heç biri qırılmayacaq.
21 Lakin orada –
Geniş çayların, irmaqların olduğu
yerdə
Əzəmətli Rəbb bizimlə olacaq.
Oradan avarlı qayıqlar, böyük gəmilər
Keçə bilməz.
22 Çünki Rəbdir hakim olan,
Rəbdir qanunumuzu qoyan,
Padşahımız Rəbdir, Odur bizi
qurtaran.
23 Gəmilərinin ipləri boşaldı,
Dor ağacları yerində möhkəm
dayanmadı,
Yelkənləri açılmadı.
O vaxt böyük talan malı paylanacaq,
Hətta topal adamlar da talan edəcək.
24 Heç bir Sion sakini
«Xəstəyəm» deməyəcək,
Orada yaşayan xalqın günahları
bağışlanacaq.

Allahın millətlərə cəza verməsi

34 Ey millətlər, yaxın gəlin, eşidin,
Ey ümmətlər, dinləyin!
Ey dünya və sakinləri,
Yer üzü və onun bütün yetirmələri,
qulaq asın!
2 Çünki Rəbb bütün millətlərə qarşı
qəzəbləndi,
Onların ordularına qarşı qeyzə gəldi.
Onların hamısını məhv edəcək,
Ölümə məhkum edəcək.
3 Ölüləri kənara atılacaq,
Meyitlərindən üfunət qalxacaq,
Dağlar onların qanına bulanacaq.
4 [y]Bütün göy cisimləri çürüyəcək,
Göylər bir tumar kimi büküləcək.
Göy ulduzları meynə yarpağı kimi,
Əncir yarpağı kimi düşəcək,
saralıb-solacaq.
5 [z]Rəbb deyir:
«Çünki qılıncım göylərdə doyub,
Bax Edomun üzərinə,
Məhv etməyə qərar verdiyim xalqın
üzərinə enir».
6 Rəbbin qılıncı qanla, quzu və təkə
qanı ilə doydu,

---

[y] **34:4** Vəhy 6:13 [z] **34:5** Yeş. 63:1-6; Yer. 49:7-22; Yez. 25:12-14; 35:1-15; Amos 1:11-12; Avd. 1-14; Mal. 1:2-5

Qoç böyrəklərinin yağı ilə piy bağladı.
Çünki Rəbb Bosrada qurban,
Edomda isə böyük qırğın hazırlayıb.
7 Onlarla birlikdə çöl öküzləri,
Buzovlar, güclü buğalar yerə səriləcək.
Onların ölkəsi qanla dolacaq,
torpaqları piylə münbit olacaq.
8 Çünki Rəbbin qisas günü var,
Siona edilən zülmlərin intiqam ili var.
9 Edomun axar suları qatrana,
Torpağı kükürdə dönəcək,
Ölkənin hər tərəfi yanan qatrana çevriləcək;
10 [a]Gecə-gündüz sönməyəcək, tüstüsü həmişə qalxacaq,
Nəsildən-nəslədək viran qalacaq,
Əsrlər boyu oradan heç kəs keçməyəcək.
11 Orada ancaq bayquşlarla kirpilər yurd salacaq,
Böyük bayquşlarla qarğalar orada yaşayacaq.
Rəbb oranı qarmaqarışıqlıq ipi, viranəlik şaqulu ilə ölçəcək.
12 Orada heç bir adlı-sanlı adam qalmayacaq ki,
Onu padşah elan etsinlər.
Bütün başçıların sonu gələcək.
13 Saraylarında tikanlar,
Qalalarında gicitkən və böyürtkən bitəcək.
Ora çaqqalların yurdu, dəvəquşuların yuvası olacaq.
14 Vəhşi heyvanlarla goreşənlər orada görüşəcək,
Təkələr bir-birini səsləyəcək,
Gecə heyvanları da orada məskunlaşıb rahat yer tapacaq.
15 Orada bayquş yuva quracaq, yumurtlayacaq,
Öz kölgəsi altında balalar çıxaracaq.
Çalağanlar da orada cüt-cüt yığışacaq.
16 Rəbbin kitabını araşdırın, oxuyun,
Bunlardan heç biri əskik olmayacaq,
Hər bir dişi heyvan öz cütünü tapacaq,
Çünki bu əmr Onun ağzından çıxdı,
Ruhu da onları toplayacaq.
17 Rəbb Özü onlar üçün püşk atdı,
Əli ilə ölkəni ölçüb, onlara payladı.
Onlar bu ölkəyə əbədi malik olacaq,
Nəsildən-nəslə burada yaşayacaq.

Müqəddəs yol

35 Səhra və quru torpaq sevinəcək,
Çöl şadlanacaq, nərgiz kimi çiçəklənəcək.
2 Hər yan gül açacaq,
Şadlanacaq, sevincdən nəğmə oxuyacaq.
Livanın gözəlliyi, şan-şöhrəti,
Karmelin və Şaronun cah-calalı ona veriləcək.
Hamı Rəbbin izzətini, Allahımızın əzəmətini görəcək.
3 [b]Zəif əllərə qüvvət verin,
Əsən dizləri möhkəmləndirin.
4 Ürəklərində qorxanlara deyin:
«Möhkəm olun, qorxmayın!
Budur, Allahınız
İntiqam almaq, düşmənlərinizdən qisas almaq üçün gəlir.
O gəlib sizə qurtuluş verəcək!»
5 [c]O vaxt korların gözləri, karların qulaqları açılacaq,
6 Axsaqlar ceyran kimi hoppanacaq,
Lalların dili sevinclə nəğmə deyəcək,
Çünki səhrada bulaqlar fışqıracaq,
Quru torpaqda çaylar axacaq.
7 Qızmar qum hovuza, susuz torpaq su bulaqlarına çevriləcək.
Çaqqalların yaşadığı yerlərdə qamış və qarğı bitəcək.
8 Orada bir yol olacaq,
O yol «Müqəddəs yol» adlanacaq.
Murdar adam oradan keçməyəcək,
O yol qurtuluş tapanların yoludur.

---

[a] **34:10** Vəhy 14:11; 19:3 [b] **35:3** İbr. 12:12-13 [c] **35:5** Mat. 11:5; Luka 7:22

Ora ilə gedənlərdən heç biri,
Hətta ağılsızlar da keçsələr,
Əsla yolunu azmayacaq.
9 Orada şirlər olmayacaq,
Yırtıcı heyvanlar o yola çıxmayacaq,
Onlara orada rast gəlməyəcəklər.
Ancaq qurtuluş tapanlar o yol ilə gəzəcək.
10 [d]Rəbbin satın alınmış adamları qayıdacaq,
Sevinclə nəğmə deyərək Siona gələcək.
Üzlərində əbədi sevinc olacaq,
Onlar fərəh və şadlıq tapacaq,
Kədər və qəm-qüssə yox olacaq!

Aşşurluların hədələməsi

(2Pad. 18:13-27; 2Saln. 32:1-19)

36 Xizqiyanın padşahlığının on dördüncü ilində Aşşur padşahı Sanxeriv Yəhudanın bütün qalalı şəhərlərinə hücum edib onları aldı. 2 Aşşur padşahı baş vəzirini böyük qoşunla Lakişdən Yerusəlimə, padşah Xizqiyanın yanına göndərdi. Baş vəzir Mahudbasan tarlası yoluna, yuxarı hovuzun su kəmərinin yanına qalxıb orada dayandı. 3 Saray rəisi Xilqiya oğlu Elyaqim, mirzə Şevna və salnaməçi Asəf oğlu Yoah onun qabağına çıxdılar.

4 Baş vəzir onlara dedi: «İndi Xizqiyaya söyləyin ki, böyük padşah – Aşşur padşahı belə deyir: “Nəyə güvənirsən? 5 Mən deyirəm ki, sən boş şeyə güvənirsən. Müharibə üçün tədbir və güc lazımdır. İndi sən kimə güvənirsən ki, mənə qarşı çıxırsan? 6 [e]Yəqin sən əzilmiş qamış çubuğuna – Misirə güvənirsən. Bil ki, kim ona söykənsə, əlinə batıb deşər. Misir padşahı firon ona güvənənlərin hamısı üçün belədir. 7 Bəlkə mənə ‹biz Allahımız Rəbbə güvənirik› söyləyəsən. Məgər bu o Allah deyildi ki, Xizqiya Onun səcdəgahlarını və qurbangahlarını aradan qaldırdı? O, Yəhudalılara və Yerusəlimlilərə də ‹yalnız qurbangahın önündə səcdə edin› demədimi? 8 İndi ağam Aşşur padşahı ilə mərcə gəl: əgər sən iki min süvari tapa bilsən, mən sənə o qədər at verərəm. 9 Görək, sən ağamın kiçik qulu olan bir başçını necə məğlub edəcəksən. Sən hələ döyüş arabaları və süvarilər almaq üçün Misirə güvənirsən! 10 Məgər indi mən bu torpağı viran etməyə Rəbbin istəyi ilə gəlmədimmi? Rəbb mənə ‹bu ölkəyə hücum edib onu viran et› dedi”».

11 Elyaqim, Şevna və Yoah baş vəzirə dedi: «Xahiş edirik, bu qullarınla Arami dilində danış, biz bu dili başa düşürük. Ancaq divar üzərindəki xalqın eşitdiyi yerdə bizimlə Yəhudi dilində danışma». 12 Baş vəzir dedi: «Məgər ağam məni göndərib ki, bu sözləri təkcə sənin ağana və sənə, yoxsa divar üzərində oturan bu adamlara söyləyim? Axı onlar da sizinlə birgə nəcislərini yeyib, sidiklərini içəcəklər».

13 Onda baş vəzir durub Yəhudi dilində uca səslə bağıraraq dedi: «Böyük padşahın – Aşşur padşahının sözünü eşidin! 14 Padşah belə deyir: “Xizqiya sizi aldatmasın, sizi qurtara bilməyəcək. 15 Qoy Xizqiya sizə ‹Rəbb bizi hökmən qurtaracaq və bu şəhər Aşşur padşahına təslim edilməyəcək› deyib Rəbbə arxayın etməsin”. 16 Ona qulaq asmayın! Çünki Aşşur padşahı belə deyir: “Mənimlə sülh bağlayın və yanıma gəlin. Mən gələnə qədər hər kəs öz üzüm meynəsinin və əncir ağacının bəhrəsindən yeyib öz quyusunun suyundan içəcək. 17 Sonra mən gəlib sizi ölkənizə bənzər bir ölkəyə – buğda, şərab, çörək, üzüm bağları olan bir torpağa aparacağam. 18 ‹Rəbb bizi qurtaracaq› deyib qoy Xizqiya sizi

---

[d]**35:10** Yeş. 51:11 [e]**36:6** Yez. 29:6,7

azdırmasın. Millətlərin allahlarından
biri öz ölkəsini Aşşur padşahının
əlindən qurtardımı? 19 Hanı Xamatın və
Arpadın allahları? Hanı Sefarvayimin
allahları? Samariyanı mənim əlimdən
qurtardılarmı? 20 Bütün bu allahlardan
hansı öz ölkəsini mənim əlimdən
qurtardı? Bəs Rəbb necə Yerusəlimi
mənim əlimdən qurtara bilər?”»
21 Camaat susdu və onun cavabında
heç nə demədi. Çünki padşah «ona
cavab verməyin» deyə əmr etmişdi.
22 Saray rəisi Xilqiya oğlu Elyaqim,
mirzə Şevna və salnaməçi Asəf oğlu
Yoah cırılmış paltarlarda Xizqiyanın
yanına gəlib baş vəzirin sözlərini ona
çatdırdılar.

Padşah Xizqiya Yeşayadan məsləhət alır

(2Pad. 19:1-7)

37 Padşah Xizqiya bunu eşidəndə
paltarını cırdı və çula bürünüb
Rəbbin məbədinə girdi. 2 O, saray rəisi
Elyaqimi, mirzə Şevnanı və kahinlərin
ağsaqqallarını çula bürünmüş halda
peyğəmbər Amots oğlu Yeşayanın
yanına göndərdi. 3 Onlar Yeşayaya
dedilər: «Xizqiya belə deyir: “Bu gün
bəla, təhqir və rüsvayçılıq günüdür,
çünki uşaqların doğulma vaxtı çatıb,
ancaq doğmağa güc yoxdur. 4 Bəlkə
ağası Aşşur padşahının var olan Allahı
təhqir etməyə göndərdiyi baş vəzirin
sözlərini Allahın Rəbb eşidib buna görə
məzəmmət edər. Ona görə də qalanlar
üçün dua et”».
5 Padşah Xizqiyanın adamları
Yeşayanın yanına gələndə 6 Yeşaya
onlara dedi: «Ağanıza söyləyin ki,
Rəbb belə deyir: “Aşşur padşahının
nökərlərinin Mənə qarşı küfr edərək
söylədiyi və sənin eşitdiyin sözlərdən
qorxma. 7 Mən onun daxilinə elə bir
ruh göndərəcəyəm ki, bir xəbər eşidib
öz ölkəsinə qayıdacaq və orada onu
qılıncla öldürtdürəcəyəm”».

Aşşur padşahının məktubu

(2Pad. 19:8-19)

8 Baş vəzir geri qayıdıb Aşşur
padşahının Livna üzərinə hücum
etdiyini gördü. Çünki Lakişdən geri
çəkildiyini eşitmişdi. 9 Aşşur padşahına
«Kuş padşahı Tirhaqa sənin üstünə
vuruşmağa gəlir» xəbəri çatdı. O
bunu eşidəndə Xizqiyanın yanına
qasidlər göndərib dedi: 10 «Yəhuda
padşahı Xizqiyaya belə söyləyin: “Qoy
güvəndiyin Allahın ‹Yerusəlim Aşşur
padşahına təslim edilməyəcək› deyə səni
aldatmasın. 11 Axı sən eşitdin ki, Aşşur
padşahları bütün ölkələrə nə ediblər,
oraları necə viran ediblər. Sən qurtula
biləcəksənmi? 12 Atalarımın məhv
etdikləri millətlərin – Qozanın, Xaranın,
Resefin və Telassarda olan Edenlilərin
allahları onları qurtardılarmı? 13 Hanı
Xamat padşahı, Arpad padşahı,
Sefarvayim şəhərinin, Henanın və
Avvanın padşahı?”»
14 Xizqiya məktubu qasidlərdən alıb
oxudu. O, Rəbbin məbədinə qalxıb
məktubu Rəbbin önündə yerə sərdi.
15 Xizqiya Rəbbə dua edib dedi: 16 [f]«Ey
keruvlar üstündə əyləşən Ordular
Rəbbi olan İsrailin Allahı! Bütün
dünya padşahlıqlarının Allahı yalnız
Sənsən. Göyü və yeri Sən yaratmısan.
17 Ya Rəbb, qulağın eşitsin, gözün
görsün. Sanxerivin var olan Allaha qarşı
küfr edərək göndərdiyi bütün sözlərə
qulaq as. 18 Ya Rəbb, doğrudur, Aşşur
padşahları bütün ölkələri və onların
torpaqlarını talan etdi, 19 allahlarını
oda atıb məhv etdi. Çünki onlar Allah
deyildi, insanlar onları ağac və daşdan
düzəltmişdi. 20 Ey Allahımız Rəbb, indi

[f]**37:16** Çıx. 25:22

isə yalvarıram, bizi onun əlindən qurtar
və bütün dünya padşahlıqları bilsin ki,
Rəbb yalnız Sənsən!»

Yeşaya Aşşurluların məğlubiyyəti barədə peyğəmbərlik edir

(2Pad. 19:20-37)

21 Amots oğlu Yeşaya Xizqiyaya xəbər
göndərib dedi: «İsrail Allahı Rəbb belə
deyir: "Aşşur padşahı Sanxeriv barədə
Mənə dua etdin". 22 Onun haqqında
Rəbbin söylədiyi söz budur:
"Bakirə Sion qızı
Sənə xor baxıb lağ edir,
Yerusəlim qızı
Sənin arxanca başını bulayır.
23 Kimi söyüb küfr etdin?
Kimə qarşı səsini qaldırdın?
Kimə lovğalıqla baxdın?
İsrailin Müqəddəsinə!
24 Nökərlərinin vasitəsilə Rəbbi təhqir
edib dedin:
‹Çoxlu döyüş arabalarımla
Dağların zirvəsinə,
Livanın ən uca yerlərinə çıxdım.
Uca sidr ağaclarını,
Gözəl şam ağaclarını kəsdim,
Uzaq təpələrinə,
Yaşıl meşələrinə çıxdım.
25 Quyu qazdım və sularını içdim,
Misirin bütün çaylarını ayağımla
qurutdum›.
26 Məgər eşitməmisən ki,
Mən çoxdan bu işi hazırladım,
Qədimdən bəri müəyyən etdiyimi
İndi yerinə yetirirəm ki,
Sən qalalı şəhərləri dağıdıb
Viranəliyə çevirəsən.
27 Bu şəhərlərin sakinləri zəiflədi,
Çaşqınlığa və xəcalətə düşdü.
Yetişməmişdən əvvəl yandırılan
Çöl otu, göyərti və damda bitən ot
kimi oldu.
28 Sənin oturuşunu,
Girişini-çıxışını,
Mənə qarşı hiddətini bilirəm.
29 Mənə qarşı hiddətləndiyinə görə,
Lovğalığın qulağıma çatdığına görə
Halqamı burnuna və yüyənimi ağzına
taxacağam,
Səni gəldiyin yolla geri qaytaracağam.
30 Ancaq sənin üçün əlamət budur, ey
Xizqiya!
Bu il və gələn il özü yetişən barını,
Üçüncü il isə taxıl zəmilərini,
Üzüm bağları salıb onların bəhrəsini
yeyin.
31 Yəhuda nəslindən qurtulub sağ
qalanlar
Yenə aşağıya doğru kök atacaq,
Yuxarıya doğru bəhrə verəcək.
32 Çünki qalanlar Yerusəlimdən,
Xilas olanlar Sion dağından çıxacaq.
Ordular Rəbbinin qeyrəti bunu
edəcək".
33 Buna görə Aşşur padşahı barədə
Rəbb belə deyir:
"O bu şəhərə girməyəcək,
Oraya ox atmayacaq,
Qarşısına qalxanla çıxmayacaq,
Qala önündə torpaq qalağı
qurmayacaq.
34 Ancaq gəldiyi yolla geri qayıdacaq,
Bu şəhərə girməyəcək"
Rəbb bəyan edir.
35 "Mən bu şəhəri Özüm üçün,
Qulum Davudun xatirinə qoruyub
xilas edəcəyəm"».
36 O gecə Rəbbin mələyi çıxıb Aşşur
ordugahında yüz səksən beş min nəfəri
qırdı. Səhər erkən qalxıb gördülər
ki, onların hamısı öldürülüb. 37 Aşşur
padşahı Sanxeriv geri çəkilib getdi və
Ninevada qaldı. 38 O öz allahı Nisrokun
məbədində səcdə edərkən oğulları
Adrammelek ilə Şareser onu qılıncla
öldürdü və Urartu ölkəsinə qaçdı.
Sanxerivin yerinə oğlu Esar-Xaddon
padşah oldu.

Xizqiyanın xəstələnməsi

(2Pad. 20:1-11; 2Saln. 32:24-26)

38 O günlərdə Xizqiya ölümcül
xəstələndi. Peyğəmbər Amots
oğlu Yeşaya onun yanına gəlib dedi:
«Rəbb belə deyir: “Evin üçün vəsiyyət
et, çünki xəstəlikdən sağalmayıb
öləcəksən”».
2 Xizqiya üzünü divara çevirdi və
Rəbbə dua edib dedi: 3 «Yalvarıram, ya
Rəbb, yadına sal ki, necə Sənin önündə
salehliklə və sidq ürəklə davranmışam,
necə Sənin gözündə yaxşı olan işlər
etmişəm». Xizqiya acı-acı ağladı.
4 Sonra Rəbbin sözü Yeşayaya nazil
oldu: 5 «Qayıt, Xizqiyaya söylə ki,
baban Davudun Allahı Rəbb belə deyir:
“Sənin duanı eşitdim, göz yaşlarını
gördüm. Bax sənin ömrünü on beş il
artırıram. 6 Səni və bu şəhəri Aşşur
padşahının əlindən qurtaracağam. Bu
şəhəri qoruyacağam. 7 Söylədiyi sözə
əməl edəcəyinə Rəbbin verdiyi əlamət
budur: 8 batan günəşin Axazın tikdiyi
günəş saatının üstünə düşən kölgəsi
on dərəcə geri çəkiləcək”». Beləliklə,
günəş enmə dərəcəsindən on dərəcə geri
çəkildi.
9 Yəhuda padşahı Xizqiya xəstələnib
şəfa tapdığından sonra bunu yazdı:
10 «Mən öz-özümə dedim:
Ömrüm yarıya çatan zaman
Ölülər diyarının qapısından
keçməliyəm,
Həyatımın qalan illərindən məhrum
olmuşam.
11 Dedim, Rəbbi dirilər arasında,
Bəli, Rəbbi bir daha görməyəcəyəm.
Bu dünyada yaşayanlar kimi
Artıq insan üzü görməyəcəyəm.
12 Evim çoban çadırı kimi dağıldı,
Əlimdən alındı.
Həyatım dəzgahda toxunan saplar
kimi dövr edirdi,
Ya Rəbb, bu dəzgahdan məni kəsdin.
Bir günün içində əcəlimi çatdırdın.
13 Səhərə qədər ağrılardan çığırdım,
Rəbb aslan tək bütün sümüklərimi
qırır.
Bir günün içində əcəlimi çatdırdın.
14 Qaranquş kimi, durna kimi
çığırdım,
Mən göyərçin tək inləyirəm.
Göyə baxmaqdan gözlərim yoruldu.
Ya Xudavənd, imdadıma çat, zülmə
düşmüşəm!
15 Nə deyim? Mənimlə danışan, bunu
edən Rəbdir.
Çəkdiyim əzablardan sonra qalan
illərimi
Sakit yaşayacağam.
16 Ya Xudavənd, adamları yaşadan
Sənsən,
Məni də Sən yaşadırsan.
Məni yenə canlandıracaqsan,
Yaşat məni!
17 Çəkdiyim əzab-əziyyətim mənim
xeyrimə oldu.
Sən sevginlə canımı qəbirdən
qurtardın,
Bütün günahlarımı aradan götürdün.
18 Axı ölülər diyarı Sənə şükür etməz,
Ölüm həmdlər söyləməz,
Qəbirə düşənlər Sənin sədaqətinə
ümid etməz.
19 Bu gün Sənə etdiyim kimi
Dirilər, yalnız dirilər Sənə şükür edər.
Atalar Sənin sədaqətini övladlarına
tanıtdırır.
20 Rəbb mənə qurtuluş verdi,
Ömrümüz boyu Rəbbin məbədində
Səni simli alətlərlə, ilahilərlə mədh
edərik».
21 Əvvəl Yeşaya demişdi: «Əncir
kündəsi götürün, çibanın üstünə qoyun
ki, padşah sağalsın». 22 Xizqiya dedi:
«Rəbbin məbədinə qalxmağım üçün
əlamət nədir?»

Xizqiyanın ağılsızlığı

(2Pad. 20:12-19)

39 O zaman Babil padşahı Baladan
oğlu Merodak-Baladan Xizqiyaya
məktublar və hədiyyələr göndərdi,
çünki Xizqiyanın xəstələndiyini və
sağaldığını eşitmişdi. 2 Bunlar Xizqiyanı
sevindirdi. O, xəzinəsində olan şeyləri –
qızıl-gümüşü, ətriyyatı, qiymətli yağları,
silah anbarındakı bütün əşyaları elçilərə
göstərdi. Xizqiyanın sarayında və bütün
torpağında onlara göstərmədiyi bir şey
qalmadı.
3 Onda Yeşaya peyğəmbər padşah
Xizqiyanın yanına gəlib, ona dedi: «Bu
adamlar nə dedi? Onlar sənin yanına
haradan gəldi?» Xizqiya dedi: «Uzaq bir
ölkədən – Babildən gəldilər». 4 Yeşaya
dedi: «Sənin sarayında nə gördülər?»
Xizqiya dedi: «Sarayımda olan bütün
şeyləri gördülər. Xəzinəmdə onlara
göstərmədiyim bir şey qalmadı».
5 Onda Yeşaya Xizqiyaya dedi:
«Ordular Rəbbinin sözünü dinlə: 6 "Bir
gün gələcək ki, sənin sarayında olan
hər şey və atalarının bu günə qədər
yığdıqları şeylər Babilə aparılacaq, heç
nə qalmayacaq" deyir Rəbb. 7 [g]"Sənin
nəslindən olan və səndən törəyən
bəzi oğullarını götürüb aparacaqlar
və onlar Babil padşahının sarayında
hərəmağası olacaqlar"». 8 Xizqiya
Yeşayaya dedi: «Söylədiyin Rəbbin sözü
yaxşı sözdür». Sonra dedi: «Heç olmasa
mənim dövrümdə sülh və əmin-amanlıq
olacaq».

Təsəlliverici sözlər

40 Allahınız deyir:
«Təsəlli verin xalqıma, təsəlli
verin!
2 Yerusəlim sakinlərinə təskinlik
verən sözlər söyləyin!
Əsirlik dövrünün qurtarmasını,
Təqsirlərinin əvəzinin verilməsini,
Bütün günahlarına görə Rəbbin
əlindən
İkiqat cəza aldıqlarını onlara bəyan
edin».
3 [h]Nida edənin səsi gəlir:
«Səhrada Rəbbin yolunu hazırlayın,
Çöldə Allahımızın keçəcəyi yerləri
hamar edin.
4 Hər dərə yüksəldiləcək,
Hər dağ və təpə aşağı endiriləcək,
Yoldakı əyriliklər düzələcək,
Kələ-kötür yerlər hamar ediləcək.
5 Rəbbin əzəməti aşkar olunacaq,
Bütün bəşər bunu birlikdə görəcək».
Bu sözlər Rəbbin ağzından çıxıb.
6 [i]Səs deyir: «Bəyan et!»
«Nəyi bəyan edim?» deyə soruşdum.
«Bütün bəşər ota bənzər,
Onun bütün gözəlliyi çöl çiçəyi
kimidir.
7 Rəbb nəfəsini üzərinə üfürəndə
Ot quruyar, çiçək solar,
Həqiqətən, bu xalq ota oxşar.
8 Ot quruyar, çiçək solar,
Amma Allahımızın sözü əbədi qalar».

İsrail Allahı qüdrətlidir

9 Ey Siona müjdə gətirən, yüksək dağa
çıx!
Ey Yerusəlimə xoş xəbər gətirən,
Ucalt səsini, car çək,
Qaldır səsini, qorxma.
Yəhuda şəhərlərinə de:
«Budur Allahınız!»
10 [j]Budur, Xudavənd Rəbb Öz qüvvəsi
ilə gəlir,
O, qüdrətlə hökm edəcək,
Mükafatı Onunladır,

---

[g]**39:7** 2Pad. 24:10-16; 2Saln. 36:10; Dan. 1:1-7
[h]**40:3** Mat. 3:3; Mark 1:3; Yəh. 1:23; Luka 3:4-6
[i]**40:6** Yaq. 1:9-11; 1Pet. 1:24-25 [j]**40:10** Yeş. 62:11; Vəhy 22:12

Ənamı önündədir.
11 [k]O Öz sürüsünü çoban kimi
otaracaq,
Quzuları qucağına alacaq, sinəsində
gəzdirəcək,
Sağmal heyvanların qayğısını çəkib
otaracaq.
12 Kim dənizləri ovcu ilə,
Göyləri qarışı ilə ölçüb?
Yerin torpağını ölçü ilə,
Dağları qapanla,
Təpələri tərəzi ilə kim çəkib?
13 [l]Rəbbin Ruhuna kim yol göstərdi?
Ona kim məsləhətçi olub öyrətdi?
14 Ağıl öyrənmək üçün O kimdən
məsləhət alıb?
Ədalət yolunu kimdir ona göstərən?
Kimdir Rəbbə bilik verən?
Kimdir Ona dərrakə yolunu anladan?
15 Rəbb üçün millətlər vedrədə bir
damla su kimidir,
Tərəzidə toz zərrəsi kimi sayılar,
Budur, adaları da toz kimi göyə
sovurar.
16 Qurbanları yandırmaq üçün
Livan meşəsi kifayət deyil,
Yandırma qurbanlar üçün oradakı
heyvanlar bəs deyil.
17 Rəbbin önündə bütün millətlər
heçdir,
Bu Onun önündə heçdən də az, boş
sayılar.
18 [m]Bəs onda Allahı kimə
bənzədərsiniz?
Onu nəyə oxşadarsınız?
19 Bütəmi? Onu usta tökür,
Zərgər qızılla örtür,
Gümüş zəncirlərlə bəzəyir.
20 Belə təqdimi gətirə bilməyən yoxsul
adam
Çürüməyən bir ağac seçər,
Məharətli usta tapar ki,
Yerindən tərpənməyən büt düzəltsin.
21 Məgər siz bilmirsiniz?
Məgər eşitməmisiniz?
Başlanğıcdan bəri bunu sizə
bildirmədilərmi?
Dünyanın təməli qoyulduqdan bəri
bunu dərk etmədinizmi?
22 Rəbb göy qübbəsinin üstündə
oturur,
Yer üzündə yaşayanlar çəyirtkə
kimidir.
Göyləri tül pərdə kimi açır,
Onları yaşamaq üçün çadır kimi
qurur.
23 Rəbb padşahları heç edər,
Dünya hökmdarlarını heçə endirər.
24 Onlar yenicə basdırılan, yenicə
əkilən,
Gövdələri yenicə kök salan ağaclara
bənzəyər.
Üzərlərindən Rəbbin küləyi əsəndə
quruyarlar,
Qasırğa onları saman çöpü kimi
sovurar.
25 «Bəs Məni onda kimə bənzədərsiniz
ki,
Mən ona oxşayım?»
Deyir Müqəddəs Olan.
26 [n]Başınızı göylərə qaldırıb baxın:
Bunları kim yaratdı?
Rəbb göy cisimlərini sıraya düzüb
çıxarar,
Onların hamısını adları ilə çağırar.
Bol qüvvəsinə, böyük qüdrətinə görə
Onlardan heç biri əskik olmaz.
27 Ey Yaqub nəsli, ey İsrail!
Nə üçün «Rəbb başıma gələnləri
bilmir,
Allahım mənim haqqıma diqqətsizlik
edir?»
Deyib gileylənirsən?
28 Məgər sən bilmirsən?
Məgər eşitməmisən?
Rəbb əbədi Allahdır,

---

[k]**40:11** Yəh. 10:11 [l]**40:13** Rom. 11:34; 1Kor. 2:16 [m]**40:18** Həv. 17:29
[n]**40:26** Zəb. 147:4

Odur bütün dünyanı yaradan.
Nə yorulur, nə taqətdən düşür,
Onun ağlı dərkedilməzdir.
29 O, yorğunlara güc verər,
Taqətsizlərin qüvvətini artırar.
30 Hətta cavanlar yorular, taqətdən düşər,
İgidlər əldən düşüb titrəyər.
31 Rəbbə ümid bağlayanlarsa
Yeni qüvvət alar,
Qanad açıb qartal kimi yüksəklərə uçar,
Qaçanda taqətdən düşməzlər,
Yol gedib yorulmazlar.

Allahın İsrailə verdiyi təminat

41 Rəbb deyir:
«Susun qarşımda, ey uzaq diyarlar!
Qoy ümmətlər yeni güc alsın,
Qoy yaxınlaşıb danışsınlar,
Məhkəmə üçün birgə toplaşaq.
2 Ədalətli adamı şərqdən kim ayağa qaldırdı?
Kim ona xidmət etməyi əmr etdi?
Millətləri onun ixtiyarına kim verdi?
Padşahları kim məğlub etdi?
O öz qılıncı ilə
Onları torpağın tozuna çevirir,
Yayı ilə göyə sovrulan samana döndərir.
3 O onları təqib edir,
Ayaqlarını basmadığı yoldan sağ-salamat keçir.
4 Bunları kim etdi, tamamladı?
Əzəldən bəri nəsilləri çağıran kimdir?
Mən Rəbbəm, birinciyəm və sonuncularla da Mən Oyam».
5 Uzaq diyarlar bunu görüb qorxdu,
Dünyanın ucqar yerləri lərzəyə gəldi.
Onlar yaxınlaşıb gəldilər,
6 Hər kəs qonşusuna kömək edir,
Qardaşına «Cəsur ol!» deyir.
7 Usta zərgəri ürəkləndirir,
Hamarlayan zindana çəkiclə vuranı ruhlandırır,
«Lehim yaxşı oldu» deyir.
Büt yerindən laxlamasın deyə bütün mıxları bərkidirlər.
8 [o]Lakin sən ey qulum İsrail,
Seçdiyim Yaqub nəsli,
Dostum İbrahimin övladları!
9 Səni dünyanın ucqar yerlərindən topladım,
Ən uzaq yerlərdən səslədim:
«Sən qulumsan, səni seçdim, rədd etmədim» dedim.
10 Qorxma, çünki Mən sənin ləyəm,
Dəhşətə gəlmə, çünki Allahın Mənəm.
Səni qüvvətləndirəcəyəm,
Sənə kömək edəcəyəm.
Sadiq sağ əlimlə sənə dayaq olacağam.
11 Sənə qarşı hirslənənlər hamısı xəcalət çəkib biabır olacaq,
Sənə qarşı çıxanlar heçə çıxıb tələf olacaq.
12 Sənin lə düşmənçilik edənləri axtaracaqsan,
Amma tapa bilməyəcəksən,
Sənin lə vuruşanlar heç olacaq,
13 Çünki sənin sağ əlindən tutub
«Qorxma, sənə kömək edəcəyəm» deyən Allahın Rəbb Mənəm.
14 «Ey torpaq qurdu olan Yaqub nəsli,
Ey İsrail əhli, qorxma!
Sənə kömək edəcəyəm» Rəbb bəyan edir.
Səni Satınalan İsrailin Müqəddəsidir.
15 Budur, səni təzə, dişləri iti vəl edəcəyəm.
Sən dağları döyüb əzəcəksən,
Təpələri saman çöpü kimi sovuracaqsan.
16 Sən onları sovurduqda külək aparacaq,
Qasırğa onları dağıdacaq,
Sənsə Rəbdə sevinəcəksən,
İsrailin Müqəddəsi ilə öyünəcəksən.

---

[o]**41:8** 2Saln. 20:7; Yaq. 2:23

17 Məzlumlar və fəqirlər
Su axtarıb tapmayanda
Dilləri susuzluqdan quruyur.
Mən Rəbb onlara cavab verəcəyəm.
Mən İsrailin Allahı onları tərk
etməyəcəyəm.
18 Çılpaq təpələrdən çaylar,
Vadilərdə su mənbələri açacağam.
Səhranı gölməçəyə, quraq torpağı
bulaqlara çevirəcəyəm.
19 Səhrada sidr, əbrişim, mərsin və
zeytun əkəcəyəm.
Quru torpaqda şam, çinar və sərv
ağacını bir sırada salacağam.
20 Beləcə insanlar görüb bilsin,
Birgə fikirləşib başa düşsün:
Bunu edən Rəbbin əlidir,
Bunu yaradan İsrailin Müqəddəsidir.

Rəbb bütlərə səcdə etməyin əleyhinədir

21 Rəbb deyir: «İşinizi təqdim edin,
Sübutlarınızı göstərin»,
Bunu Yaqubun Padşahı söyləyir.
22 Bütlərinizi gətirin və qoy onlar
sonra nə olacağını bizə bildirsin,
Olub-keçənləri bizə nəql etsin,
Biz dərindən düşünüb sonunu
öyrənək.
Yaxud onlar gələcəyi bizə agah etsin.
23 Ey bütlər, bundan sonra baş verən
hadisələrdən bizə danışın,
Qoy sizin allah olduğunuzu bilək!
Yaxşılıq ya pislik edin ki, hamımız
qorxub vahiməyə düşək.
24 Amma siz heç nəsiniz, əməllərinizdə heçdir.
Sizə səcdə etməyi seçən iyrəncdir!
25 Şimaldan bir nəfəri hərəkətə
gətirdim, o gəlir.
O, gündoğandan adımı çağıracaq.
Dulusçu gili tapdalayan kimi
O, hökmdarları palçıq kimi
tapdalayacaq.
26 Kim bunu başlanğıcdan bəyan etdi
ki, biz bilək,
Əvvəlcədən kim bildirdi ki,
Biz «O haqlıdır» deyə bilək?
Amma bunu bəyan edən yox idi,
Bildirən yox idi,
Sözlərinizi eşidən də yox idi.
27 İlk olaraq Siona «budur, budur
onlar» deyirəm.
Yerusəlimə müjdəçini göndərəcəyəm.
28 Baxdım, aralarında öyüd-nəsihət
verə bilən heç kim yox idi ki,
Onlardan soruşum, bir cavab alım.
29 Budur, hamısı puçdur,
Etdikləri işlər də heç bir şeydir,
İnsanların tökmə bütləri yalnız
küləkdir, fanidir.

Rəbbin qulu

42 [p]Budur, Mənim saxladığım,
seçdiyim qulum!
Könlüm ondan razıdır!
Mən Öz Ruhumu onun üzərinə
qoymuşam.
O, millətlərə ədalət gətirəcək.
2 Çığırmayacaq, səsini qaldırmayacaq,
Küçələrdə heç kim onun səsini
eşitməyəcək.
3 Əzilmiş qamışı qırmayacaq,
Tüstülənən piltəni söndürməyəcək.
O, ədaləti sədaqətlə yayacaq.
4 O, yer üzündə ədaləti quranadək
Ümidini, cəsarətini itirməyəcək,
Uzaq diyarlar onun qanununa etibar
edəcək.
5 [q]Göyləri yaradıb onları sərən,
Yeri və onun üzərindəkiləri düzəldən,
Dünyadakı adamlara nəfəs verən,
Yer üzündə gəzən insanlara ruh verən
Rəbb Allah belə deyir:

---

[p] **42:1** Mat. 3:17; 17:5; Mark 1:11; Luka 3:22; 9:35; Mat. 12:17-21
[q] **42:5** Həv. 17:24-25

6 [r]«Mən Rəbb salehliyimlə səni
çağırdım,
Səni əlindən tutacağam,
Səni qoruyacağam,
Səni xalqım üçün əhd edəcəyəm,
Millətlərə nur edəcəyəm ki,
7 Korların gözlərini açasan,
Zindandan dustaqları,
Zülmətdə, həbsxanada oturanları
azad edəsən.
8 Mən Rəbbəm, adım budur.
Öz izzətimi heç kimə vermərəm,
Həmdlərimi bütlərə bəxş etmərəm.
9 Budur, əvvəlki işlər həyata keçdi,
İndi Mən təzə işləri bəyan edirəm,
Onlar yetişməmişdən əvvəl
Sizi xəbərdar edirəm».

Şükür ilahisi

10 Ey dəniz səyyahları, dənizdəki
canlılar,
Uzaq diyarlar və orada yaşayanlar,
Rəbbə yeni ilahi oxuyun!
Dünyanın ən ucqar yerlərindən
Ona həmdlər gətirin!
11 Qoy səhra və oradakı şəhərlər,
Qedar xalqı yaşayan kəndlər səsini
ucaltsın,
Sela sakinləri tərənnüm nəğməsi
söyləsin,
Dağların zirvəsindən qışqırsın.
12 Hamı Rəbbi izzətləndirsin,
Uzaq diyarlar da Ona həmd etsin.
13 Rəbb cəsur igid kimi çıxacaq,
Cəngavər kimi qeyrətə gələcək,
Çığırıb döyüş nərəsi çəkəcək,
Düşmənlərinə Öz qüdrətini
göstərəcək.

Rəbb Öz xalqına kömək etməyi vəd verir

14 Rəbb deyir:
«Xeyli vaxtdır ki, dinmirəm,
Susuram, səbir edirəm,
İndi isə doğuş ağrısı çəkən qadın kimi
Qışqıracağam, təngnəfəs olub
zarıyacağam.
15 Dağları, təpələri dağıdacağam,
Bütün yaşıllıqlarını qurudacağam,
Çayları adalara çevirəcəyəm,
hovuzları qurudacağam.
16 Korları tanımadıqları yolla
aparacağam,
Onlara bilmədikləri yollarda rəhbər
olacağam.
Qaranlığı qarşılarında işığa,
Kələ-kötür yolları düzənliyə
çevirəcəyəm.
Bu şeyləri onlar üçün edəcəyəm,
Onları tərk etməyəcəyəm.
17 Oyma bütlərə güvənənlər,
Tökmə bütlərə “Sizsiniz allahlarımız”
deyənlər
Geri qaytarılıb utandırılacaq.

Kor və kar İsrail

18 Ey karlar, eşidin!
Ey korlar, baxın, görün!
19 Qulum qədər kor olan varmı?
Göndərdiyim qasid qədər kar olan
varmı?
Özünü Mənə həsr edən, Rəbbin qulu
qədər kor olan varmı?
20 Siz çox şey gördünüz, amma nəzərə
almadınız,
Qulaqlarınız açıq idi, amma
eşitmədiniz!»
21 Rəbb Öz salehliyi naminə
Qanununu ucaldıb izzətləndirməkdən
xoşlandı.
22 Lakin bu qarət olunmuş, soyulmuş
xalqdır.
Hamısı qazamatlarda buxovlanıb
zindanlarda saxlanılmışdır.
Onlar ovlanıb və qurtaranları yoxdur.
Onları qarət edirlər, «geri qaytarın»
deyən yoxdur.
23 Sizdən kim buna qulaq asacaq,

---

[r]**42:6** Yeş. 49:6; Luka 2:32; Həv. 13:47; 26:23

Gələcəkdə kim diqqətlə dinləyəcək?
24 Yaqub nəslini, İsraili soyğunçular əlinə
Kim qarət edilmək üçün təslim etdi?
Məgər qarşısında günah işlətdiyimiz Rəbb deyilmi?
Onlar Onun yolları ilə getmək istəmədi,
Qanununa qulaq asmadı.
25 Buna görə alovlu qəzəbini, döyüşün şiddətini üstlərinə yağdırdı.
Od onları dövrəyə aldı,
Amma onlar anlamadılar,
Onları yandırdı,
Amma ona ciddi fikir vermədilər.

İsrailin yeganə qurtarıcısı Rəbdir

43 İndi isə, ey Yaqub, ey İsrail, səni yaradan,
Sənə həyat verən Rəbb belə deyir:
«Qorxma, çünki Mən səni satın aldım,
Səni adınla çağırdım, sən Mənimsən.
2 Dərin sulardan keçsən belə,
Mən sənninlə olacağam,
Çaylardan keçəndə batmayacaqsan,
Odun içindən qaçsan belə, yanmayacaqsan,
Alov səni məhv etməyəcək.
3 Çünki Mən sənin Allahın Rəbbəm,
İsrailin Müqəddəsiyəm,
Sənin Xilaskarınam.
Misiri sənin üçün fidyə, *
Kuş və Seva ölkələrini
Sənin azadlığının əvəzinə verdim.
4 Sən nəzərimdə qiymətli, çox əziz olduğuna görə
Səni sevdiyim üçün,
Sənin əvəzinə adamları, həyatın üçün ümmətləri verəcəyəm.
5 Qorxma, Mən səninləyəm,
Nəslindən olanları şərqdən gətirəcəyəm,
Səni qərbdən toplayacağam.
6 Şimala "ver" deyəcəyəm,
Cənuba "saxlama" söyləyəcəyəm.
Oğullarımı uzaqlardan,
Qızlarımı dünyanın ucqar yerlərindən gətir.
7 Mənim adımla çağırılan hər insanı,
İzzətim üçün yaratdığım,
Bəli, həyat verdiyim,
Yaratdığım hər bir adamı gətir».
8 Gözləri olan kor,
Qulaqları olan kar xalqı gətir.
9 Bütün millətlər bir yerə yığılsın,
Ümmətlər toplansın.
Bunlardan kim bu sözü bəyan edər?
Olub-keçənləri bizə bildirər?
Qoy onların şahidləri irəli gəlib bəraət qazansın,
Dinləyib desin: «Bu düzdür».
10 Rəbb bəyan edir: «Sizsiniz Mənim şahidlərim, seçdiyim qullarım,
Belə ki Məni tanıyıb, Mənə arxalanasınız,
Həm də anlayasınız ki, Mən Oyam.
Məndən əvvəl Allah mövcud olmayıb,
Məndən sonra da olmayacaq.
11 Mənəm Rəbb, yalnız Mənəm,
Məndən başqa qurtarıcı yoxdur.
12 Mən dedim və Mən qurtardım,
Mən bəyan etdim,
Aranızda başqa allahlar yox idi.
Sizsiniz şahidlərim».
Rəbb bəyan edir, «Allah Mənəm.
13 Əzəldən bəri Mən Oyam,
Mənim əlimdən qurtaran yoxdur.
Mən bir şey edəndə buna kim mane ola bilər?»

Babildən qurtuluş

14 Sizi Satınalan, İsrailin Müqəddəsi,
Rəbb belə deyir:
«Sizin xatirinizə Babilə ordu göndərəcəyəm.
Onların hamısını qaçqın edəcəyəm,

---

*43:3 *Fidyə* – girov tutulmuş yaxud əsir alınmış bir adamı azad etmək üçün verilən pul vəsaiti.

Xaldeylilər də öyündükləri gəmilərlə
qaçacaq.
15 Mən Rəbbəm, sizin
Müqəddəsinizəm,
İsraili yaradanam, Padşahınızam».
16 Dənizdə və azğın sularda yol, riz
açan,
17 Atlarla döyüş arabalarını,
İgid cəngavərləri ilə ordunu birgə
yola çıxaran Rəbb belə deyir:
«Onlar yıxılıb, qalxa bilməyəcək,
Basdırılıb piltə kimi söndürüldü.
18 Əvvəlki şeyləri yada salmayın,
Köhnə hadisələr barəsində
düşünməyin.
19 Budur, Mən təzə bir şey edirəm,
O artıq baş verir,
Məgər siz bunu başa düşmürsünüz?
Bəli, Mən çöllükdə yol salacağam,
Quru torpaqda çaylar yaradacağam.
20 [s]Mənim seçdiyim xalqıma su
içirtmək üçün
Çöllükdə su verdiyimə görə,
Quru torpaqda çaylar yaratdığıma
görə,
Vəhşi heyvanlar, çaqqallar və
dəvəquşuları Məni ucaldacaq.
21 Bu xalqı Mən Özüm üçün yaratdım
ki,
Mənə həmdlər söyləsin.

İsrailin günahı

22 Lakin sən, ey Yaqub nəsli,
Mənim adımı çağırmadın,
Ey İsrail, Məndən bezdin.
23 Yandırma qurbanı üçün Mənə
quzular gətirmədin,
Qurbanlarınla Mənə ehtiram etmədin.
Sənə təqdimlərə görə əziyyət
vermədim,
Kündür təqdimləri ilə bezdirmədim.
24 Mənim üçün pulla ətirli qamış
almadın,
Qurbanların piyi ilə Məni
doydurmadın.
Əksinə, sən günahlarını Mənə
yüklədin,
Təqsirlərinlə Məni yordun.
25 Mənəm Öz xatirimə görə sənin
üsyankarlığını silən,
Bəli, Mən günahlarını yada salmaram.
26 Yadıma sal, gəl mühakiməyə gedək,
Bəraət qazanmaq üçün məhkəmədə
işindən danış.
27 İlk əcdadların günaha batdı,
Rəhbərlərin Mənə qarşı üsyankar
oldu.
28 Buna görə də Mən
İbadətgahın rəhbərlərini murdarlığa
vadar etdim.
Yaqub nəslini qırğına, İsraili isə
rəzalətə məhkum etdim.

Rəbb yeganə Allahdır

44 İndi isə, ey qulum Yaqub nəsli,
Seçdiyim İsrail, qulaq as!
2 Səni yaradan, ana bətnində quruluş
verən,
İmdadına çatan Rəbb belə deyir:
“Qorxma, ey qulum Yaqub nəsli,
Ey seçdiyim Yeşurun! *
3 Susamış torpağı sulayacağam,
Quru torpağa sellər axıdacağam,
Övladlarına Ruhumu ehsan edəcəyəm,
Nəslinə xeyir-duamı verəcəyəm.
4 Onlar otlar arasında,
Axar sular kənarında,
Söyüd ağacları kimi boy atacaq.
5 Biri ‹Mən Rəbbinəm› deyəcək,
O birisi Yaqubun adı ilə çağırılacaq.
Digəri də əlinə ‹Rəbbin quluyam› deyə
yazacaq,
İsrail adını üzərinə götürəcək”».
6 [t]Rəbb, İsrailin Padşahı, Satınalanı,
Ordular Rəbbi belə deyir:
«Mən birinciyəm, Mən sonuncuyam,

---

*44:2 *Yeşurun* – İsrailin bir ləqəbi olub *düz olan* mənasını verir.

[s]**43:20** 1Pet. 2:9 [t]**44:6** Yeş. 48:12; Vəhy 1:17; 22:13

Məndən başqa Allah yoxdur.
7 Mənə bənzəyən varmı? Xəbər versin.
Qədim xalqımı yaratdığımdan bəri olub-keçənləri,
Bundan sonra olduqlarını danışıb nəql etsin,
Bəli, gələcək hadisələri bildirin!
8 Qorxmayın, dəhşətə gəlməyin,
Mən sizə əzəldən bəri bunu söyləyib danışmadımmı?
Siz Mənim şahidlərimsiniz!
Məndən başqa Allah varmı?
Başqa Qaya yoxdur.
O birilərini tanımıram».

Bütlərə səcdə edənlər xəcalət çəkəcək

9 Bütləri düzəldən adamlar puçdur,
Zövq aldıqları əşyalardan heç bir xeyir yoxdur.
Bütlərə qulluq edənlər heç bir şey görmür,
Heç bir şey bilmir,
Onlar axırda xəcalət içində olacaq.
10 Kim istəyər fayda verməyən allah düzəltsin,
Tökmə büt yaratsın?
11 Budur, bunları düzəldənlərin hamısı xəcalət içində olacaq.
Ustalar isə özləri də insandır,
Qoy onların hamısı toplaşıb məhkəmədə dursun,
Dəhşətə düşüb birlikdə xəcalət çəksin.
12 Dəmirçi alətini götürüb,
Kömürün odunda işləyir,
Çəkiclə dəmirə ölçü verir,
Güclü əli ilə üstündə çalışır.
Onda ac qalır, taqətdən düşür,
Susuz qalıb üzülür.
13 Dülgər iplə ölçür,
Ağacı tabaşirlə nişanlayır,
Rəndələyir, istənilən şəklə salır,
Pərgarla dairə çəkir,
İnsan surəti verir,
İnsan gözəlliyinə bənzər düzəldərək
Evinə qoymaq üçün bir büt yaradır.
14 İnsan özü üçün sidr ağacları kəsir,
Şam ağacını, palıd ağacını seçir.
Meşədə özü üçün bir ağac götürür,
Küknar ağacı əkir və yağış onu böyüdür.
15 Sonra ağac oduna işlənir.
İnsan gətirdiyi odunla həm isinir,
Həm sobanı yandırır, çörək bişirir.
Həm də özünə bir allah düzəldir,
Düzəltdiyi bütün qarşısında səcdə edir,
Yerə sərilir.
16 Odunun bir hissəsini yandırır,
Alovunda ət qızardır,
Qarnını doyuraraq, isinib deyir:
«Ah, isindim, odun istisini hiss etdim!»
17 Ağacın qalığından özünə allah,
Bir oyma büt düzəldib
Qarşısında yerə sərilir, səcdə edir.
Bu bütə dua edib yalvarır:
«Məni xilas et, çünki sənsən mənim allahım!»
18 Onlar bilmir, dərk etmir,
Çünki gözləri də, zehinləri də elə bağlıdır ki,
Görməzlər, anlamazlar.
19 Buna fikir vermirlər, bilmirlər,
Dərk etmirlər ki, belə desinlər:
«Odunun bir hissəsini yandırdım,
Közündə də çörək bişirdim, ət qızartdım, yedim.
Qalığından bir murdar şey düzəldimmi?
Bir parça taxtanın qarşısında yerə sərilimmi?
20 Bu, kül yemək kimi boş işdir,
Aldanmış ürəkləri onları yoldan azdırır,
Canlarını qurtara bilmir və sağ əlimdəki əşya aldadıcı deyilmi?»

Rəbb Yaradan və Xilaskardır

21 «Ey Yaqub nəsli,
Dediyim sözləri xatırla,
Çünki sən qulumsan, ey İsrail,

Mən səni yaratdım, sən Mənim
qulumsan,
Səni unutmaram, ey İsrail!
22 Üsyankarlığını bulud kimi
dağıtdım,
Günahlarını duman kimi sildim,
Mənə tərəf dön,
Çünki Mən səni satın aldım».
23 Tərənnüm edin, ey göylər,
Çünki bunu edən Rəbdir.
Çığırın, ey torpağın dərinlikləri,
Ey dağlar, ey meşə, ey meşədəki
bütün ağaclar,
Sevincdən haray çəkin,
Çünki Rəbb Yaqub nəslini satın aldı,
İsraildə izzətini aşkar etdi.
24 [u]Səni Satınalan,
Ana bətnində quruluş verən Rəbb
deyir:
«Bütün şeyləri yaradan, göyləri təkcə
yayan,
Təkbaşına yer üzünü sərən,
25 Yalançı peyğəmbərlərin
möcüzələrini boşa çıxaran,
Falçıları ifşa edən,
Müdrikləri geri qaytaran,
Onların biliyini heçə çevirən,
26 Qulunun sözlərini icra edən,
Elçilərinin sözlərini gerçək edən,
Yerusəlim üçün "burada sakinləri
təzədən məskunlaşacaq",
Yəhuda şəhərlərinə "bunlar yenidən
qurulacaq,
Xarabalıqları yenidən bərpa
edəcəyəm" deyən Rəbb Mənəm.
27 Dərin sulara "Quru! Mən çaylarını
qurudacağam" söyləyən,
28 Kir haqqında "o, çobanımdır,
Xoşuma gələnlərin hamısını həyata
keçirəcək",
Yerusəlim haqqında "yenidən
qurulacaq",
Məbəd haqqında "təməlin qoyulacaq"
deyən Rəbb Mənəm».

Rəbb Fars padşahı Kiri seçir

45 Rəbb məsh etdiyi adama –
Sağ əlindən tutduğu Kirə belə
deyir.
Onun önündə millətləri baş
əydirəcəyəm,
Padşahları qüdrətindən məhrum
edəcəyəm,
Önündə qapıları açacağam,
Darvazalar onun qarşısında bir daha
bağlanmayacaq.
Rəbb deyir:
2 «Mən qarşında gedib dağları
düzəngaha çevirəcəyəm,
Tunc qapıları qırıb
Dəmir qıfılları sındıracağam.
3 Qaranlıqda gizlənmiş sərvətlərini,
Gizli yerlərdə saxlanılan xəzinələri
sənə verəcəyəm ki, biləsən:
Səni adınla çağıran Rəbb Mənəm,
İsrailin Allahıyam Mən.
4 Qulum Yaqub nəsli, seçdiyim İsrail
naminə
Səni adınla çağırıb hörmət göstərdim,
Halbuki sən Məni tanımırdın.
5 Rəbb Mənəm, başqası yoxdur,
Məndən başqa Allah yoxdur.
Səni Mən gücləndirəcəyəm,
Halbuki Məni tanımırdın.
6 Beləliklə, gündoğandan günbatana
qədər qoy bilsinlər ki,
Məndən savayı heç kim yoxdur,
Rəbb Mənəm, başqası yoxdur.
7 Nuru, qaranlığı, sülhü, fəlakəti
yaradan Mənəm,
Bütün bunları edən Rəbb Mənəm.
8 Ey göylər, yuxarıdan damlayın,
Qoy buludlar salehlik yağdırsın,
Torpaq açılsın, xilas bəhrəsini
yetişdirsin,
Onunla birlikdə salehlik bitsin.
Bunları yaradan Rəbb Mənəm».

---

[u]**44:24** 1Kor. 1:20; 2Saln. 36:23; Ezra 1:2

Hər şeyi yaradan Allahdır

9 [v]Yaradanı ilə çəkişənin vay halına!
Çəkişən özü də saxsı qablar arasında yalnız saxsı parçasıdır.
Gil öz dulusçusuna «Nə düzəldirsən?»
Yaxud «yaratdığın şeyin dəstəkləri yoxdur» deyə bilərmi?
10 Atasına «Dünyaya məni nə üçün gətirdin?»
Anasına «Məni nə üçün doğdun?» deyənin vay halına!
11 İsrailin Müqəddəsi,
Onu yaradan Rəbb belə deyir:
«Övladlarımın gələcəyi haqqında
Mənə sual verə bilərsinizmi?
Gördüklərim işlər barəsində
Mənə əmr edə bilərsinizmi?
12 Dünyanı da, yer üzündə yaşayan adamı da Mən yaratdım.
Mənim əllərim göyləri yaydı,
Əmrimlə səma cisimləri quruldu.
13 Mən Kiri ədalətlə hərəkət etməyə vadar etdim.
Yollarını dürüst edəcəyəm.
O, şəhərimi tikəcək,
Sürgün olunmuş adamlarımı
Fidyəsiz, bəxşişsiz azad edəcək».
Bunu Ordular Rəbbi deyir.
14 Rəbb belə deyir:
«Misirlilərin var-dövləti, Kuşun ticarət gəliri,
Ucaboylu Sevalılar yanınıza gəlib qulunuz olacaq.
Onlar buxovlanacaq və ardınızca gedəcək,
Qarşınızda yerə sərilib yalvaracaq:
"Allah yalnız sizinlədir və başqa birisi yoxdur.
Bundan savayı Allah yoxdur"».
15 Həqiqətən, Sən Özünü gizlədən Allahsan,
Ey İsrailin Allahı, ey Qurtarıcı!
16 Büt düzəldənlərin hamısı utandırılacaq,
Rüsvay olacaq, xəcalət çəkib uzaqlaşacaq.
17 Amma İsrailə qurtuluşu Rəbb verəcək.
Bu qurtuluş əbədi sürəcək.
Əsrlər boyu İsrail utanmayacaq, rüsvay olmayacaq.
18 Göyləri yaradan Rəbb bircə olan Allahdır!
O, dünyanı yaratdı, ona quruluş verdi,
Rəbb dünyanı qarmaqarışıq yaratmadı,
Onu yaşamaq üçün qurdu.
O deyir: «Mən Rəbbəm, başqası yoxdur!
19 Mən gizlində, qaranlıq dünyasında danışmadım,
Yaqub nəslinə "Məni qarmaqarışıq yerdə axtarın" demədim.
Doğrusunu söyləyən, ədaləti bəyan edən Rəbb Mənəm.

Allah və Babilin bütləri

20 Yığışın, gəlin, bir yerə toplaşın, ey millətlərdən sağ qalan kəslər!
Taxta bütləri gəzdirənlər,
Xilas verməyən allahlara dua edənlər heç nə bilmir.
21 Danışın, işinizi təqdim edin,
Qoy hamı birlikdə məsləhətləşib söyləsin:
"Bunu qədimdə kim bəyan etdi,
Keçmişdə kim bildirdi?"
Bunu Mən Rəbb, demədimmi?
Məndən başqa Allah,
Ədalətli Allah və Qurtarıcı yoxdur.
Məndən başqası yoxdur.
22 Ey yer üzünün qurtaracağınadək hər yerdə yaşayanlar,
Mənə tərəf dönün və xilas olun!
Çünki Mən Allaham və başqası yoxdur!

---

[v]**45:9** Yeş. 29:16; Rom. 9:20

23 [w]Varlığıma and içdim,
Ağzımdan çıxan kəlmə doğrudur,
boşa çıxmaz.
Hər diz önümdə çökəcək,
Hər dil Mənə and içəcək.
24 Mənim üçün belə deyəcəklər:
“Salehlik və qüvvət yalnız Rəbdədir.
Ona qarşı qəzəblənənlər hüzuruna
gəlib utanacaqlar.
25 Bütün İsrail nəsli Rəbdə haqq
qazanacaq və izzətlənəcək”».

46 «Bel allahı diz çökdü,
Nevo allahı əyildi,
Babilin bütləri heyvanlara, öküzlərə
yükləndi,
Daşınan əşyalar heyvanlara ağır yük
oldu.
2 Onlar birgə əyildilər, diz çökdülər,
Yük oldular, bundan qurtula bilməyib
əsirliyə aparıldılar.
3 Qulaq asın Mənə, ey Yaqub nəsli,
Ey bütün İsrail nəslinin sağ qalanları!
Anadan olandan sizi aparıram,
Bətndən çıxandan sizi daşıyıram.
4 Siz qocalanacan Mən Oyam,
Saçlarınıza dən düşənəcən
Mən sizi aparacağam,
Sizi Mən yaratdım, Mən daşıyacağam.
Bəli, Mən sizi aparacağam və xilas
edəcəyəm.
5 Məni kimə bənzədəcəksiniz, kimə
oxşadacaqsınız,
Kiminlə müqayisə edəcəksiniz ki, biz
oxşar olaq?
6 Kimsə pul kisəsindən qızıl çıxarır,
Tərəzidə gümüş çəkir,
Bu puldan zərgərə büt düzəltdirir,
Sonra önündə yerə sərilib səcdə edir!
7 Onu çiyinlərinə yükləyib daşıyırlar,
yerinə qoyurlar.
Beləcə büt durur, yerindən tərpənmir.
Ona yalvarırlar, o cavab vermir,
Heç bir bəladan qurtarmır.
8 Ey üsyankar insanlar, bunu
xatırlayın,
Mərd olun, yadınızdan çıxarmayın!
9 Qədimdən bəri olan hadisələri
xatırlayın,
Çünki Allah Mənəm, başqası yoxdur,
Mənəm Allah, Mənə bənzəri yoxdur!
10 Axırı əvvəldən,
Baş verməmiş hadisələri əzəldən
bildirən,
“Niyyətim baş tutacaq,
İstədiyim hər şeyi edəcəyəm” deyən
Mənəm.
11 Şərqdən bir yırtıcı quşu,
Uzaq diyardan niyyətimi yerinə
yetirən adamı çağıran Mənəm.
Mən bunları dedim,
Mütləq yerinə yetirəcəyəm,
Mən niyyət etmişəm, bunu icra
edəcəyəm.
12 Ey salehlikdən uzaq olan dikbaş
insanlar!
Məni dinləyin!
13 Salehliyiniz yaxındır, uzaq deyil,
Qurtuluşum ləngiməyəcək.
Siona xilası, İsrailə izzətimi bəxş
edəcəyəm.

Babilin düşkünlüyü

47 [x]Ey bakirə Babil qızı,
Düş aşağı, torpaqda otur.
Ey Xaldey qızı,
Artıq taxt yoxdur, yerdə otur.
Bundan sonra sənə
“Zərif, nazlı” deməyəcəklər.
2 Bir cüt dəyirman daşı götür, unu
üyüt.
Örpəyini aç, balağını qaldır,
Baldırların açıb çaylardan keç.
3 Çılpaqlığın açılacaq, ayıb yerin
görünəcək.
Mən intiqam alacağam,
Heç kimi əsirgəməyəcəyəm».
4 Bizi Satınalan İsrailin Müqəddəsidir,

[w]**45:23** Rom. 14:11; Fil. 2:10-11 [x]**47:1** Yeş. 13:1–14:23; Yer. 50:1–51:64

Onun adı Ordular Rəbbidir.
5 Rəbb deyir: «Ey Xaldey qızı,
Qaranlığa çəkil, sakitcə otur!
Çünki bundan sonra səni daha
Padşahlıqların mələkəsi
çağırmayacaqlar!
6 Öz xalqıma qəzəbləndim,
İrsimi kiçildib sənə verdim.
Lakin sən onların halına acımadın,
Hətta yaşlılara da ağır boyunduruq
yüklədin.
7 y"Həmişə əbədi mələkə olacağam"
deyə düşünürdün.
Bunları ürəyinə gətirmirdin, sonu
düşünmürdün.
8 İndi isə qulaq as, ey əmin-amanlıqda
yaşayan zövq düşkünü!
Sən ürəyində deyirdin: "Mən mənəm,
Məndən başqası yoxdur.
Heç vaxt dul qalmayacağam,
Övlad itirmək dərdini bilməyəcəyəm".
9 Bu iki bəla bir gündə,
Qəflətən başına gələcək.
Böyük cadugərliyinə, hədsiz
ovsunçuluq etdiyinə baxmayaraq,
Həm övladlarını itirəcək, həm də dul
qalacaqsan.
10 Pisliyinə güvəndin,
Dedin: "Məni heç kim görmür".
Sənin hikmətin və biliyin səni azdırdı.
Düşündün: "Mən mənəm,
Məndən başqası yoxdur".
11 Lakin üzərinə bəla gələcək,
Sən onun qarşısını ala bilməyəcəksən,
Sən xərac versən də, bu fəlakət üstünə
gələcək,
Bilmədiyin bəla qəflətən üzərinə
düşəcək.
12 Gənc yaşlarından bəri
Məşğul olduğun ovsunçuluğuna və
böyük cadugərliyinə davam et.
Bəlkə onlardan bir xeyir görərsən,
Bəlkə düşmənlərini onlarla vahiməyə
sala bilərsən!
13 Aldığın çoxlu məsləhətlər səni
üzdü.
Qoy ulduz falına baxanlar,
münəccimlər,
Yeni ay çıxanda olacaq hadisələri
bildirənlər
İndi gəlib səni
Başına gələn bəlalardan xilas etsinlər.
14 Bax, onlar küləş kimidir,
Od onları yandırıb-yaxar.
Özlərini alovun gücündən xilas edə
bilməyəcəklər.
Bu alov isinmək üçün kömürlü od
deyil,
Qabağında oturulacaq od deyil.
15 Sənin işlədiyin, cavanlığından bəri
alver etdiyin adamların
Aqibəti belə olacaq.
Hər kəs öz yolu ilə gedəcək, səni xilas
edən olmayacaq.

İsrailin inadkarlığı

48 Ey Yaqub nəsli,
İsrail adı ilə çağırılan,
Yəhudanın belindən gələn,
Rəbbin adı ilə and içən,
İsrail Allahının adını etiraf edən,
Fəqət buna həqiqətlə və salehliklə
əməl etməyən nəsil,
Buna qulaq as!
2 Müqəddəs şəhərdən olduğunuza
görə,
İsrail Allahına bel bağladığınıza görə
fəxr edirsiniz.
Onun adı Ordular Rəbbidir.
3 Olub-keçənləri əvvəldən Mən bəyan
etdim.
Bu sözlər ağzımdan çıxdı və onları
Mən bildirdim.
Sonra qəflətən bunları həyata
keçirdim və onlar yerinə yetdi.
4 Bilirdim inadkar olduğunuzu,
Dəmir boyunlusunuz, tunc alınlısınız.

---

y**47:7** Sef. 2:15; Vəhy 18:7-8

5 Bunları sizə qədimdən bəri
bildirdim,
Baş verməmişdən əvvəl sizə xəbər
verdim ki,
Siz “bunu bütüm etdi, oyma və tökmə
bütlər
Bunları əmr etdilər” deməyəsiniz.
6 Bunu eşitdiniz, indi isə hamısına
nəzər salın.
Bəs bunu qəbul etməyəcəksiniz?
İndi isə Mən sizə yeni şeyləri,
Bilmədiyiniz gizli şeyləri
bildirəcəyəm.
7 Bunlar indi yaradılır, keçmişdə yox.
Siz bunu bu günə qədər bilmədiniz,
Ona görə “bunu bilirdik” deyə
bilməzsiniz.
8 Siz bu barədə nə eşitmisiniz,
Nə də xəbəriniz olub,
Keçmişdən bəri qulaqlarınız bağlıdır.
Nə qədər xain olduğunuzu bilirəm,
Ana bətnindən belə, sizin üsyankar
çağırılacağınızdan xəbərdaram.
9 Adım naminə qəzəbimi saxlayırdım,
Şöhrətim naminə qeyzimin qabağını
alırdım ki, sizi məhv etməyim.
10 Budur, Mən sizi gümüş kimi olmasa
da, təmizlədim,
Sizi iztirab ocağında çəkdim.
11 Öz xatirimə, Öz xatirimə bunu
edirəm.
Axı niyə Mənim adım küfrlə çəkilsin?
Mən Öz izzətimi heç kimə vermərəm.

Rəbb İsraili satın alır

12 [z]Qulaq as Mənə, ey Yaqub nəsli,
çağırdığım İsrail!
Mən Oyam, Mən birinciyəm, Mən
sonuncuyam.
13 Mənim əlim yerin təməlini qoydu,
Sağ əlim göyləri sərdi.
Mən onları çağıranda onlar birlikdə
düzülür.
14 Hamınız toplaşın, dinləyin!
Bütlərdən hansıdır bu şeyləri bəyan
edən?
Rəbbin sevdiyi adam Babildə Onun
məqsədini yerinə yetirəcək,
Onun əli Xaldeylilərə qarşı qalxacaq.
15 Mən, bəli Mən dedim,
Onu Mən çağırdım,
Onu gətirdim,
O öz yolunda uğurlu olacaq.
16 Mənə yaxın gəlin, bunu dinləyin!
Başlanğıcdan bəri Mən açıq danışdım,
O vaxtdan indiyədək oradayam.
Xudavənd Rəbb indi Məni və Ruhunu
göndərdi».
17 Səni Satınalan, Rəbb, İsrailin
Müqəddəsi belə deyir:
«Allahın Rəbb Mənəm,
Mən sənin xeyrinə səni öyrədirəm,
Getdiyin lazım olan yolla səni
aparıram.
18 Ah, kaş ki sən Mənim əmrlərimə
diqqət yetirəydin!
Onda əmin-amanlığın heç vaxt
qurumayan çay kimi axardı,
Salehliyin dəniz dalğaları kimi olardı.
19 Nəslin dəniz qumu kimi,
Övladların qum dənələri kimi olardı.
Adları qarşımda nə pozulardı, nə də
silinərdi».
20 [a]Babildən çıxın, Xaldeylilərin
torpağından qaçın,
Sevinc səsi ilə bəyan edin, bunu
bildirin,
Dünyanın ən uzaq yerlərinə bu xəbəri
çatdırın,
Deyin: «Rəbb qulu Yaqub nəslini satın
aldı».
21 Səhradan keçərkən susuzluq
çəkmədilər.
Rəbb onlar üçün qayadan su axıtdı,
Qayanı yardı və oradan su fışqırdı.
22 [b]«Pislərə isə sülh yoxdur» Rəbb
deyir.

---

[z]**48:12** Yeş. 44:6; Vəhy 1:17; 22:13 [a]**48:20** Vəhy 18:4 [b]**48:22** Yeş. 57:21

Rəbbin qulu çağırışını izah edir

49 [c]Ey uzaq diyarlar, Məni dinləyin!
Ey uzaqda yaşayan ümmətlər,
yaxşı qulaq asın!
Rəbb məni anadan olandan bəri
çağırmışdı,
Ana bətnindən adımı yadına saldı.
2 [d]Ağzımı iti qılınc kimi etdi,
O məni əlinin kölgəsində gizlətdi.
O məni iti ox edib
Öz oxdanında saxladı.
3 Mənə dedi: «Qulumsan, ey İsrail,
Mən sənlə izzətlənəcəyəm».
4 Amma mən dedim:
«Mən boş yerə çalışdım,
Gücümü hədər yerə tükətdim.
Rəbb mənə yenə haqq qazandırır,
Mükafatım Allahımdadır».
5 Rəbb məni qulu etmək üçün
Ana bətnində mənə quruluş verdi ki,
Yaqub nəslini Ona tərəf döndərim,
İsraili Onun önünə toplayım.
Onun gözündə hörmət qazandım,
Qüdrətim Allahım oldu.
Rəbb indi belə deyir.
6 [e]O deyir:
«Yaqub qəbilələrinin bərpası,
İsrailin sağ qalanlarının geri qayıtması
üçün
Qulum olmağın kifayət deyil.
Səni millətlərə nur edəcəyəm ki,
Xilasım dünyanın ən uzaq yerlərinə
yayılsın».

Allah Öz qulunu ruhlandırır

7 Adamların nifrət etdiyi,
Millətin həqarətlə baxdığı,
Hökmdarların qulu olan şəxsə,
İsrailin Satınalanı, Müqəddəsi,
Rəbb belə deyir:
«İsrailin Müqəddəsi,
Sadiq Rəbb səni seçdiyinə görə
Padşahlar səni görüb ayağa qalxacaq,
Əmirlər qarşında yerə səriləcək».
8 [f]Rəbb belə deyir:
«Münasib vaxtda sənə cavab verdim,
Xilas günü sənə kömək etdim.
Səni hifz edəcəyəm.
Səni xalqım üçün əhd edəcəyəm ki,
Dağılmış ölkəni bərpa edəsən,
İrs olaraq yenə sahiblərinə verəsən.
9 Dustaqlara "çıxın",
Zülmətdə oturanlara
"Özünüzü göstərin!" deyəsən.
Onlar yol boyunca quzu kimi
bəslənəcək,
Hər çılpaq təpədə otlaq tapacaq.
10 [g]Onlar nə ac, nə də susuz qalacaq,
Qızmar isti və günəş onları
vurmayacaq.
Çünki onlara mərhəmət edən yol
göstərəcək,
Onları bulaqlara doğru yönəldəcək.
11 Mən bütün dağlarımı yola
döndərəcəyəm,
Yollarımı hamar edəcəyəm.
12 Budur, xalqım uzaq yerlərdən,
Kimisi şimaldan, kimisi qərbdən,
Kimisi isə Sinim *ölkəsindən gələcək».
13 Tərənnüm edin, ey göylər,
Ey yer üzü, fərəhlən!
Ey dağlar, sevinc nidalarına qoşulun!
Çünki Rəbb xalqına təsəlli verəcək,
İztirab çəkənlərinə rəhm edəcək.

Sionun bərpası

14 Amma Sion dedi: «Rəbb məni tərk
etdi,
Xudavəndim məni unutdu».
15 Rəbb isə deyir: «Ana südəmər
körpəsini heç unudarmı?
Bətnindən çıxan oğluna rəhm
etməzmi?

*49:12 *Sinim* – zənn edilir ki, Misirdəki bir bölgənin adıdır.

[c]**49:1** Yer. 1:5 [d]**49:2** İbr. 4:12; Vəhy 1:16 [e]**49:6** Yeş. 42:6; Luka 2:32; Həv. 26:23; Həv. 13:47 [f]**49:8** 2Kor. 6:2 [g]**49:10** Vəhy 7:16-17

Ana öz körpəsini unutsa belə,
Mən səni əsla unutmaram.
16 Mən sənin adını ovuclarımda həkk etmişəm,
Ey Sion, divarların daima önümdədir.
17 Oğulların tələsib yanına gələcək,
Səni qarət edənlər, soyğunçular çıxıb-gedəcək.
18 Qaldır başını, bax ətrafına:
Hamı yığılıb yanına gəlir.
Mən Rəbb Varlığıma and içib bəyan edirəm ki,
Onların hamısı sənin üçün bər-bəzək olacaq,
Gəlin kimi onları taxıb fəxr edəcəksən!

Allah İsrail xalqını bərpa edib artıracaq

19 Xarabalığa, viranəliyə dönmüşdün,
Ölkən yerlə yeksan olmuşdu.
Amma indi bu torpaq sakinlərin üçün dar olacaq,
Səni xaraba qoyanlar səndən uzaqda duracaq.
20 Sənin sürgündə doğulmuş övladların
Səsini ucaldıb belə deyəcək:
"Bu yer bizim üçün dar gəlir,
Yaşamaq üçün bizə yer ver".
21 Sən qəlbində deyəcəksən:
"Axı bunları mənim üçün kim doğdu?
Övladlarım itkin düşmüşdü, sonsuz oldum,
Sürgün edilmişdim, qovulmuşdum.
Belə isə bunları kim böyütdü?
Mən tək-tənha qalmışdım,
Bəs bunlar haradan gəlib-çıxdı?"»
22 Xudavənd Rəbb belə deyir:
«Budur, Mən əlimi millətlərə
Bir işarə kimi uzadacağam,
Bayrağımı xalqlar arasında qaldıracağam.
Onlar sənin oğullarını qucağında,
Qızlarını çiyinlərində gətirəcək.
23 Padşahlar sənə atalıq,
Mələkələr sənə analıq edəcək.
Üzüstə yerə sərilib sənə səcdə edəcəklər,
Ayaqlarının tozunu yalayacaqlar.
Onda biləcəksən ki, Mən Rəbbəm,
Mənə güvənənlər utanmayacaq».
24 Məgər güclünün əlindən qənimət alına bilərmi?
Zorakının əlindən əsirlər qurtula bilərmi?
25 Amma Rəbb belə deyir:
«Bəli, güclünün əlindən əsirlər də alına bilər,
Zorakının əlindən qənimət də götürülə bilər,
Səninlə çəkişənlərlə Mən çəkişəcəyəm,
Övladlarını Mən qurtaracağam.
26 Sənə zülm edənlərə öz ətlərini yedirəcəyəm,
Öz qanları ilə sərxoş olub
Şirin şərab içənlərin halına düşəcəklər.
Beləcə bütün bəşər biləcək ki,
Səni qurtaran Rəbb Mənəm.
Səni Satınalan, Yaqubun qüdrətli Allahı Mənəm».

İsrailin günahına görə cəzası

50 Rəbb belə deyir:
«Boşadığım ananızın talağı haradadır?
Borc verənlərimin hansı birinə satdım sizi?
Siz şər əməllərinizə görə satıldınız,
Ananız üsyankarlığınız üzündən qovuldu.
2 Bəs nə üçün Mən gələndə heç kim olmadı?
Axı niyə Mən çağıranda cavab verən olmadı?
Məgər Mənim əlim zəifləyib ki,
Xilas etməyə qadir olmasın?
Yaxud Mənim sizi qurtarmağa gücüm çatmazmı?
Mən qəzəbimlə dənizi quruduram,
Çayları səhraya çevirirəm.

Suyun çatışmazlığından balıqlar
iylənir, susuzluqdan ölür.
3 Mənəm göyləri zülmətə bürüyən,
Oranı çulla örtən».

Rəbbin qulunun itaəti

4 Yorğunlara sözlə dayaq olmağı bilim
deyə
Xudavənd Rəbb mənə savadlıların
dilini verdi.
O hər səhər qulağımı oyadır ki,
Savadlı adamlar kimi dinləyə bilim.
5 Xudavənd Rəbb qulağımı açdı,
Mən qarşı durmadım, geri
çəkilmədim.
6 [h]Məni döyənlər üçün belimi açdım,
Üzümü saqqalımı yolanlara tərəf
uzatdım.
Təhqirlərdən, tüpürcəklərdən üzümü
gizlətmədim.
7 Xudavənd Rəbb mənə kömək
etdiyinə görə utanmayacağam.
Buna görə də üzümü çaxmaq daşı
kimi etdim.
Bilirəm ki, əsla xəcalət
çəkməyəcəyəm.
8 [i]Mənə haqq qazandıran yaxındadır.
Mənimlə kim mübahisə etmək istəyir?
Qoy mənimlə üz-üzə gəlsin.
Kimdir rəqibim?
Qoy yanıma gəlsin.
9 Mənə kömək edən Xudavənd Rəbdir.
Kim məni təqsirkar çıxara bilər?
Rəqiblərimin hamısı paltar kimi
köhnələcək,
Onları güvə yeyib məhv edəcək.
10 Aranızda Rəbdən qorxan,
Qulunun sözünə qulaq asan varmı?
Qaranlıqda gəzən, nurdan məhrum
olan
Rəbbin adına güvənsin, Allahına
arxalansın.
11 Ey sizlər, od qalayıb, qığılcımı
qoruyanlar,
Hamınız öz odunuza, yandırdığınız
qığılcımın içinə atılın.
Mənim əlimdən aldığınız pay bu
olacaq:
Əzab içində qalacaqsınız.

Yerusəlimə təsəlliverici sözlər

51 Ey salehliyi arayanlar, Rəbbi
axtaranlar,
Məni dinləyin!
Yonulduğunuz qayaya,
Çıxarıldığınız çuxurun dərinliyinə
baxın.
2 Atanız İbrahimə, sizi doğan Saraya
baxın!
Mən onu tək çağırdım, xeyir-dua
verdim,
Nəslini artırdım.
3 Həqiqətən, Rəbb Siona və onun
xarabalıqlarına təsəlli verəcək.
Səhralarını Edenə, çöllərini Rəbbin
bağına döndərəcək.
Orada sevinc və şadlıq tapacaqlar,
Şükürlər, ilahilər oxunacaq.
4 Ey xalqım, Məni dinlə,
Ey ümmətim, Məni eşit!
Qanun Məndən çıxacaq,
Ədalətimi nur tək
Xalqlara ehsan edəcəyəm.
5 Salehliyim yaxındır, qurtuluşum
gəlir,
Xalqları Öz gücümlə mühakimə
edəcəyəm.
Uzaq diyarlar Mənə bel bağlayır,
Qüvvətimə ümid edir.
6 Başınızı qaldırıb göylərə nəzər salın,
Aşağıya, yer üzünə baxın.
Çünki göylər dağılacaq tüstü kimi,
Yer üzü paltar kimi köhnələcək.
Beləcə yer üzünün sakinləri də
qırılacaq.
Lakin Mənim xilasım əbədidir,
Salehliyim sonsuzdur.
7 Ey salehlikdən xəbərdar olanlar,

---

[h]**50:6** Mat. 26:67-68; Mark 14:65 [i]**50:8** Rom. 8:33-34

Qanunumu qəlblərində saxlayan xalq,
Mənə qulaq asın!
Adamların məzəmmətindən
qorxmayın,
Onların söyüşlərindən dəhşətə
düşməyin.
8 Onlar güvənin yediyi paltar kimi
məhv olacaq,
Qurdun yediyi yun kimi məhv olacaq.
Lakin Mənim salehliyim əbədidir,
Qurtuluşum nəsillər boyu duracaqdır.
9 Qalx, qalx, güclən, ey Rəbbin qolu!
Qədim zamanlardakı kimi
Qalx əvvəlki nəsillərin vaxtında
olduğu kimi!
Sən Rahavı *parça-parça etmədinmi?
Sən əjdahanın bədənini deşmədinmi?
10 Dənizi, dərin suları Sən
qurutmadınmı?
Satın alınan xalqının keçməsindən
ötrü
Dənizin dərinliklərini yola çevirən
Sən deyildinmi?
11 jRəbbin satın alınmış adamları
qayıdacaq,
Sevinclə nəğmə deyərək Siona
gələcək.
Üzlərində əbədi sevinc olacaq,
Onlar sevinc və şadlıq tapacaq,
Kədər və qəm-qüssə yox olacaq.
12 Rəbb deyir: «Sizə təsəlli verən
Mənəm, Mən!
Fani insandan, ot kimi solan bəşər
oğlundan qorxan
Gör sən kimsən?
13 Səni yaradan, göyləri sərən,
Dünyanın təməlini qoyan Rəbbi necə
unudursan?
Səni məhv etmək niyyətində olan
Zülmkarın qəzəbindən gün boyu,
dayanmadan qorxursan.
Bəs hanı zülmkarın qəzəbi?
14 Zəncirlərlə buxovlanmış dustaqlar
Tezliklə azadlığa çıxacaq.
Ölüm çuxuruna düşməyəcək,
Çörəkləri əskik olmayacaq.
15 Allahınız Rəbb Mənəm.
Mənəm dənizi gur dalğalarla
çalxalayan.
Ordular Rəbbidir Onun adı!
16 Mən sözlərimi sənin ağzına
qoydum,
Əlimin kölgəsində səni gizlətdim ki,
Göyləri qurum, dünyanın təməlini
qoyum,
Siona "Xalqım sənsən" deyim».

Yerusəlimin əzabının sonu

17 kOyan, oyan, qalx ayağa, ey
Yerusəlim!
Sən ki Rəbbin əlindən
Qəzəb kasasını alıb içdin.
Sərxoşluq kasasını axıra qədər
boşaltdın.
18 Doğduğu bütün oğullardan ona yol
göstərən,
Böyütdüyü bütün oğullardan ona əl
tutan olmadı.
19 Bu iki bəla sənin başına gəldi,
Dərdinə kim şərik olacaq?
Qarət, dağıntı, qıtlıq və qılınc!
Sənə necə təsəlli verim?
20 Övladların taqətdən düşüb,
Rəbbin qəzəbi, Allahının məzəmməti
üzərlərindədir.
Onlar tələyə düşmüş cüyür kimi
Hər küçə başında uzanıb.
21 Buna görə də, ey yaralı Yerusəlim,
Şərabsız sərxoş xalq, bunu eşit!
22 Xudavəndin Rəbb, Öz xalqını
müdafiə edən
Allahın belə deyir:
«Budur, sərxoşluq kasasını əlindən
almışam.
Qəzəbimin kasasından artıq
içməyəcəksən.

*51:9 *Rahav* – bax: Yeş. 30:7.

j51:11 Yeş. 35:10 k51:17 Vəhy 14:9-10; 16:19

23 Bu kasanı sənin zülmkarlarının
əlinə verəcəyəm.
Axı onlar sənə belə dedi:
“Uzan yerə, üstündən keçək”.
Sən də kürəyini torpaq kimi, yol kimi
etdin ki, üstündən keçsinlər».

Yerusəlimin sevinci

52 [l]Qalx, qalx, ey Sion, qüdrətinə
qurşan!
Ey müqəddəs şəhər, ey Yerusəlim,
Gözəl paltarlarını geyin!
Çünki sünnətsizlər, murdarlar
Sənin darvazalarından əsla
keçməyəcək.
2 Üst-başındakı tozu çırp,
Qalx, ey Yerusəlim, taxtına otur,
Zənciri boynundan qır,
Ey əsir aparılan Sion qızı!
3 Rəbb belə deyir:
«Siz müftə satılmışdınız,
Müftə də satın alınacaqsınız».
4 Xudavənd Rəbb belə deyir:
«Xalqım qürbətdə yaşamaq üçün
Əvvəllər Misirə enmişdi.
Sonra Aşşurlular onlara boş yerə zülm
etdi.
5 [m]Xalqım nahaq yerə götürülüb
aparıldı,
İndi bundan Mənə nə qaldı?» Rəbb
bəyan edir.
Bu, Rəbbin sözüdür:
«Onların başçıları ah-zar edir,
Həmişə, gün boyu adım küfrlə çəkilir.
6 Buna görə xalqım
Mənim adımı tanıyacaq,
O gün “budur, Mənəm” deyənin Mən
olduğunu başa düşəcək».
7 [n]Sülh xəbəri gətirən,
Dağları aşıb-gələn
Müjdəçinin qədəmləri necə də
gözəldir!
O, xoş müjdə gətirir,
Qurtuluş xəbəri verir,
Sion xalqına
«Allahınız hökm sürür!» bəyan edir.
8 Qulaq asın! Gözətçilər səslərini
ucaldır,
Birlikdə mədh oxuyur,
Çünki Rəbbin Siona qayıdışını
Öz gözləri ilə görür.
9 Ey Yerusəlim xarabalıqları,
Şənlik edin, birlikdə mədh oxuyun,
Çünki Rəbb xalqına təsəlli verdi,
Yerusəlimi satın aldı.
10 Rəbb bütün millətlərin gözləri
önündə
Müqəddəs qolunu çırmaladı,
Yer üzünün qurtaracağınadək hər yer
Allahımızın gətirdiyi xilası görəcək.
11 [o]Çəkilin, çəkilin, oradan çıxın,
Murdar şeylərə toxunmayın,
Oradan çıxıb təmizlənin,
Ey Rəbbin əşyalarını daşıyanlar!
12 Axı siz tələsmədən çıxacaqsınız,
Qaça-qaça getməyəcəksiniz,
Çünki Rəbb qarşınızda gedəcək,
İsrailin Allahı arxanızda olacaq.

Rəbbin qulunun iztirab çəkməsi və qələbəsi

13 Budur, Mənim qulum uğur
qazanacaq,
O yüksəldiləcək, ucaldılacaq, çox
izzətlənəcək.
14 Çoxları onun qarşısında mat
qalacaq.
Bəli, onun görkəmi çox dəyişmişdi,
Zahirən insan surətindən çıxmışdı.
15 [p]Lakin o, çox millətləri heyrətə
salacaq,
Onun qarşısında padşahlar ağzını
yumacaq,
Çünki onlar bilmədiklərini görəcək,
Eşitmədiklərini anlayacaq.

---

[l] **52:1** Vəhy 21:2,27 [m] **52:5** Rom. 2:24
[n] **52:7** Nah. 1:15; Rom. 10:15; Ef. 6:15 [o] **52:11** 2Kor. 6:17 [p] **52:15** Rom. 5:21

53 [q]Xəbərimizə kim inandı,
Rəbbin gücü kimə zahir oldu?
[2] O, Rəbbin önündə bir fidan kimi,
Quru torpaqda bitən kök kimi böyüdü.
Baxanda onun nə görkəmi, nə gözəlliyi var idi,
Gözümüzü oxşayan zahiri siması da yox idi.
[3] Adamlar ona həqarətlə baxıb rədd etdi.
O, dərdli, xəstəlikləri görən insan idi,
Adamlar ondan üz döndərdi, xor baxdı.
Biz ona qiymət vermədik.
[4] [r]Əslində xəstəliklərimizi o çəkdi,
Dərdlərimizi öz üzərinə götürdü.
Biz isə onun Allah tərəfindən cəzalandırıldığını,
Vurulub iztirab çəkdiyini zənn etdik.
[5] [s]Bizim üsyankarlığımıza görə onun bədəni deşildi,
Şər əməllərimiz naminə əzildi,
Bizim əmin-amanlığımız üçün o cəza aldı,
Onun yaraları ilə biz şəfa tapdıq.
[6] [t]Hamımız qoyun kimi yolu azmışdıq,
Hər birimiz öz yolumuzla gedirdik.
Rəbb hamımızın şər əməllərinin yükünü onun üzərinə qoydu.
[7] [u]Ona zülm etdilər,
O iztirab çəkdi, amma ağzını açmadı.
Kəsilməyə aparılan quzu kimi,
Qırxımçıların qabağında dilsiz qoyun kimi
Ağzını açmadı.
[8] Ədalətsizliklə məhkum olunaraq ölümə aparıldı.
Onun nəsli haqqında kim düşünə bilərdi?
Axı xalqımın üsyankarlığına görə
O edam olundu, dirilər arasından atıldı.
[9] [v]O heç bir zorakılıq etmədiyi,
Ağzından yalan söz çıxmadığı halda
Qəbri pis adamların yanında quruldu,
Dövlətli adamın yanında dəfn olundu.
[10] Amma Rəbb Özü onun bu iztirablarını istədi,
Çəkdiyi əziyyətlər Onun iradəsi idi.
Öz canını təqsir qurbanı təqdim edərsə,
Nəsil görəcək, ömür uzadacaq.
Rəbbin istəyi onun əli ilə uğur qazanacaq.
[11] O çəkdiyi iztirablarının bəhrəsini görüb qane olacaq,
Mənim saleh qulum öz biliyi ilə çoxlarına bəraət qazandıracaq,
Onların şər əməllərinin yükünü üzərinə götürəcək.
[12] [w]Buna görə Mən ona böyük adamların arasında pay verəcəyəm.
O, qəniməti güclülərlə böləcək.
Çünki o, canını fəda etdi,
Üsyankarlara tay tutuldu.
Çox adamların günahını üzərinə götürdü,
Üsyankarlardan ötrü yalvardı.

Rəbbin İsrailə məhəbbəti

54 [x]«Şənlən, ey sonsuz, qısır qadın!
Sevinclə mahnı oxu,
Ey doğuş ağrısı çəkməyən qadın!
Çünki atılmış qadının övladları
Ərli qadının övladlarından çox olacaq»,
Bunu Rəbb deyir.
[2] «Çadırının yerini genişləndir,
Məskənlərinin örtüklərini uzat,
Çəkinmə, ipləri uzat, payaları vur.
[3] Çünki sağa və sola səpələnəcəksən,

---

[q]**53:1** Yəh. 12:38; Rom. 10:16 [r]**53:4** Mat. 8:17 [s]**53:5** 1Pet. 2:24
[t]**53:6** 1Pet. 2:25 [u]**53:7** 1Pet. 2:23; Vəhy 5:6; Həv. 8:32-33
[v]**53:9** 1Pet. 2:22 [w]**53:12** Mark 15:28; Luka 22:37 [x]**54:1** Qal. 4:27

Nəslin millətlərə yiyələnəcək,
Viran qalmış şəhərlərdə
məskunlaşacaq.
4 Qorxma, çünki utanmayacaqsan,
Ruhdan düşmə, çünki rüsvay
olmayacaqsan.
Cavanlığın xəcalətini unudacaqsan,
Bir daha dulluğun rüsvayçılığını
Yadına salmazsan».
5 Çünki sənin ərin səni Yaradandır,
Onun adı Ordular Rəbbidir.
Səni Satınalan İsrailin Müqəddəsidir,
O bütün dünyanın Allahı adlanır.
6 Allahın deyir:
«Rəbb səni çağırır
Atılmış və ruhu əzilmiş,
Gənc yaşında ərə getmiş,
Sonra isə rədd olunmuş bir qadın
kimi.
7 Bir anlığa səni tərk etdim,
Amma böyük rəhmlə geri qəbul
edəcəyəm.
8 Bir anlığa qızğın qəzəblə səndən
üzümü döndərdim,
Lakin əbədi məhəbbətimlə sənə rəhm
edəcəyəm».
Bunu səni Satınalan, Rəbb deyir.
9 [y]«Bu Mənim üçün sanki Nuhun
dövründə baş verən daşqındır,
Nuhun dövründəki daşqının suları
Bir daha yer üzünü örtməyəcəyi
barədə necə and içmişdimsə,
İndi də and içirəm ki,
Sənə qəzəblənməyəcəyəm, səni
məzəmmət etməyəcəyəm.
10 Dağlar yerini dəyişsə də,
Təpələr sarsılsa da,
Sənə olan məhəbbətim dəyişməz,
Sülh əhdim sarsılmaz».
Bunu sənə rəhm edən Rəbb deyir.

Yeni Yerusəlimin xoşbəxtliyi

11 [z]«Ey tufana düşmüş,
Təsəlli tapmamış yazıq şəhər!
Sənin daşlarını əqiqlərlə,
Təməlini göy yaqutlarla qoyacağam.
12 Qüllələrini yaqutdan,
Darvazalarını ləl-cəvahirdən,
Divarlarını qiymətli daşlardan
hörəcəyəm.
13 [a]Bütün övladlarını Mən Rəbb
öyrədəcəyəm,
Onlar tam sülh içində olacaq.
14 Salehliyində möhkəmlənəcəksən,
Zülmdən uzaq olacaqsan,
qorxmayacaqsan.
Qorxu hissi səndən uzaq olacaq, sənə
yaxınlaşmayacaq.
15 Sənə hücum edən olsa, bil ki, bu
Məndən deyil,
Sənə hücum edən hər kəs
Qarşında yerə yıxılacaq.
16 Budur, odda kömürü körükləyən,
Öz məqsədi üçün silah hazırlayan
Dəmirçini Mən yaratdım.
Məhv etmək üçün qırıcını da Mən
yaratdım.
17 Sənə qarşı işlənən
Heç bir silah işə yaramayacaq.
Məhkəmədə səni təqsirləndirən
Hər kəsi təqsirkar çıxaracaqsan.
Rəbbə qulluq edənlərin irsi belədir.
Onların salehliyi Məndən gəlir».
Bunu Rəbb bəyan edir.

Rəbbin çağırışı

55 [b]Ey bütün susamışlar, gəlin su
başına!
Ey pulu olmayanlar, gəlin, alın, yeyin!
Gəlin, şərabı və südü pulsuz, havayı
alın!
2 Nə üçün pulunuzu çörək olmayan
şeylərə,
Qazandığınızı sizi doydurmayan
şeylərə xərcləyirsiniz?
Məni diqqətlə dinləyin ki,

---

[y] **54:9** Yar. 9:8-17 [z] **54:11** Vəhy 21:18-21 [a] **54:13** Yəh. 6:45
[b] **55:1** Vəhy 21:6; 22:17

Yaxşı şeylər yeyəsiniz, nemətlərdən
dadasınız.
3 [c]Qulaq asın, Mənim yanıma gəlin,
Dinləyin ki, sağ qalasınız.
Mən sizinlə əbədi əhd,
Davuda vəd etdiyim sadiq məhəbbət
əhdi kəsəcəyəm.
4 Budur, onu ümmətlərə şahid,
Xalqlara başçı və hökmdar etdim.
5 Tanımadığınız millətləri
çağıracaqsınız.
Sizi tanımayan millətlər qaça-qaça
yanınıza gələcək.
Allahınız Rəbbə görə,
İsrailin Müqəddəsindən ötrü onlar
gələcək,
Çünki Rəbb sizi ucaltdı.
6 Tapmaq fürsəti olarkən Rəbbi
axtarın,
O yaxın ikən Onu çağırın.
7 Qoy pis adam öz yolunu,
Şər adam öz fikirlərini atsın.
Qoy Rəbbə sarı dönsün ki, Onda
mərhəmət tapsın.
Qoy Allahımıza tərəf dönsün,
Çünki Onun əfvi boldur.
8 «Çünki Mənim fikirlərim sizin
fikirləriniz deyil,
Sizin yollarınız Mənim yollarım deyil»
Rəbb belə bəyan edir.
9 «Çünki göylər yer üzündən nə qədər
yüksəkdirsə,
Yollarım da sizin yollarınızdan,
Fikirlərim də sizin fikirlərinizdən o
qədər yüksəkdir.
10 [d]Yağış və qar necə göylərdən yağıb
oraya qayıtmırsa,
Ancaq torpağı sulayıb yeri məhsuldar
edirsə,
Əkinçiyə toxum, yeyənə çörək verirsə,
11 Ağzımdan çıxan kəlmə də belədir:
Boş yerə yanıma qayıtmaz,
Ancaq istədiyimi yerinə yetirər,
Onu göndərdiyim iş icra olunsun deyə
həyata keçirər.
12 Sevinclə çıxacaqsınız,
Sülhlə müşayiət olunacaqsınız,
Dağlar, təpələr önünüzdə sevinclə
nəğmə deyəcək,
Çöldəki bütün ağaclar əl çalacaq.
13 Tikanlı kol əvəzinə şam ağacı,
Qanqal əvəzinə mərsin ağacı bitəcək.
Bu, Rəbb üçün şöhrət,
Pozulmaz əbədi əlamət olacaq».

Rəbb bütün xalqları qəbul edəcək

56 Rəbb belə deyir:
«Ədaləti qoruyun, salehliyə əməl
edin.
Çünki xilasım yaxındadır,
Salehliyim tezliklə aşkar olunacaq.
2 Bunu edən insan,
Buna itaət edən bəşər oğlu nə
bəxtiyardır!
Şənbə gününü tutar, murdarlamaz,
Hər cür şərdən qorunar.
3 Qoy Rəbbə bel bağlayan heç bir
yadelli deməsin:
“Əlbəttə, Rəbb məni Öz xalqından
ayıracaq”.
Qoy heç bir xədim deməsin:
“Mən quru bir ağacam”».
4 Çünki Rəbb belə deyir:
«Şənbə günlərimə riayət edən,
Mənə xoş gələni seçən,
Əhdimə itaət edən xədimlərə
5 Evimdə, divarlarımın arasında
Oğul və qızlardan daha da yaxşı olan
Xatirə və ad verəcəyəm.
Onlara silinməz, əbədi bir ad
verəcəyəm.
6 Rəbbə xidmət etmək, Onun adını
sevmək,
Onun qulu olmaq üçün Şənbə
gününə riayət edən, o gün
murdarlamayan,
Əhdimə itaət edən,

---

[c]**55:3** Həv. 13:34 [d]**55:10** 2Kor. 9:10

Rəbbə bel bağlayan bütün yadelliləri
7 [e]Müqəddəs dağıma gətirib
Dua evimdə sevindirəcəyəm.
Onların gətirdikləri
Yandırma qurbanları, bütün qurbanlar
Qurbangahımda qəbul olunacaq.
Çünki Mənim evim bütün xalqlar üçün
Dua evi adlandırılacaq».
8 İsrailin əsir düşmüş övladlarını toplayan
Xudavənd Rəbb belə bəyan edir:
«Mən hələ toplanmışların yanına başqalarını da yığacağam».

İsrailin pis başçıları mühakimə olunur

9 Ey bütün çöl heyvanları,
Ey bütün meşə heyvanları,
Gəlin yeməyə!
10 Xalqımın bütün gözətçiləri kordur, cahildir!
Onların hamısı hürə bilməyən lal itlərdir,
Yuxu görürlər, uzanırlar,
Yatmağı sevirlər!
11 Acgöz, azğın köpəklərdir bunlar,
Axmaq çobanlardır bunlar!
Hər kəs öz yolu ilə gedir,
Hər biri öz xeyrini güdür!
12 Bir-birlərinə deyirlər:
«Gəlin, şərab gətirək,
Bol-bol kefləndirici içki içək!
Sabahkı gün də bu gün kimi,
Hətta bundan da çox yaxşı olacaq!»

Vəfasız xalq

57 «Saleh adam ölür və bunu vecinə alan yoxdur.
Mömin adamlar da köçüb gedir,
Amma heç kim anlamır ki,
Bəla gəlməmiş saleh adam canını qurtarır.
2 Saleh adam sülhə qovuşur,
Doğru yolla gedən son yatağında rahat yatır.
3 Amma siz, ey cadugər qadının övladları,
Fahişə və zinakarlar nəsli, bura, yaxın gəlin!
4 Siz kimi məsxərəyə qoyursunuz?
Kimə ağız əyirsiniz?
Kimə dil göstərirsiniz?
Məgər siz itaətsiz övladlar,
Yalançı nəsil deyilsiniz?
5 Palıd ağacları arasında,
Hər kölgəli ağacın altında
Şəhvətlə alışıb-yanan,
Vadilərdə, qaya oyuqlarında,
Övladlarınızı qurban gətirən
Siz deyilmisiniz?
6 Sizin payınız
Vadinin hamar daşlarından düzələn bütlərdir.
Onlardır, bəli, onlardır sizə nəsib olan.
Onların qarşısında içmə təqdimi tökdünüz,
Taxıl təqdimi gətirdiniz.
Bunlara görə Mən təsəlli taparammı?
7 Yatağınızı yüksək, uca dağda salmısınız,
Qurbanlarınızı kəsmək üçün də oraya çıxırsınız.
8 Qapılarınıza, qapıların yan taxtalarının arxasına
İyrənc işarələr düzmüsünüz.
Məni tərk edib yatağınızı geniş açdınız,
Orada uzandınız, oynaşlarınızla sövdələşdiniz,
Birlikdə yatmağa can atdınız,
Onların çılpaqlığına tamaşa etdiniz!
9 Ətirləri bol-bol vurandan sonra
Molek allahına sarı getdiniz.
Elçilərinizi uzaqlara göndərdiniz,
Özünüzü ölülər diyarına qədər endirdiniz.

---

[e]**56:7** Mat. 21:13; Mark 11:17; Luka 19:46

10 Uzun yollar sizi taqətdən saldı.
Lakin siz “daha bəsdir” demədiniz.
Gücünüzü təzələyib qalxdınız,
Buna görə yorulmadınız.
11 Kim sizi qorxudub dəhşətə saldı ki,
Məni aldatdınız?
Məni yada salmadınız,
Ürəyinizdə Mənə yer vermədiniz?
Mən xeyli vaxt susduğuma görə,
Siz Məndən qorxmursunuz?
12 Mən sizin salehliyinizi,
Etdiyiniz əməlləri aşkara çıxaracağam,
Bunların sizə xeyri olmayacaq.
13 Siz fəryad edəndə
Bu yığdığınız bütlər
Görək sizi nə cür qurtaracaq!
Onların hamısını külək sovurub atacaq,
Bir nəfəs onları yerindən tərpədib aparacaq.
Lakin Mənə sığınan torpağı irs olaraq alacaq,
Müqəddəs dağımı mülk edəcək».

Rəbb xalqına şəfa verəcək

14 Rəbb deyir:
«Tikin, tikin, yol hazırlayın!
Xalqımın yolundakı əngəlləri götürün!»
15 Uca və əzəmətli,
Əbədi yaşayan, adı müqəddəs Olan
Belə deyir:
«Mən yüksək və müqəddəs yerdə yaşadığım halda
Ruhu əzilənlərlə, özünü aşağı tutanlarla birlikdəyəm ki,
Özünü aşağı tutanların ruhunu dirildim,
Əzilmişlərin ürəyini dirçəldim.
16 Həmişə çəkişib qəzəblənməyəcəyəm,
Yoxsa yaratdığım canlı insan qarşımda dura bilməz.
17 Tamahkarlıq günahına görə
Qəzəblənib xalqı cəzalandırdım,
Hiddətlənib üzümü ondan döndərdim.
O da inad edib öz yolu ilə getdi.
18 Əməllərini gördüm,
Amma bu xalqa şəfa verəcəyəm.
Ona rəhbərlik edəcəyəm,
Ona və onun yas tutanlarına təsəlli verəcəyəm.
19 [f]Ağızları ilə həmdlər söyləyəcəyəm.
Uzaqdakılara və yaxındakılara qoy sülh, sülh olsun».
Rəbb belə deyir: «Mən onlara şəfa verəcəyəm».
20 Pislər isə sanki dalğalanan dənizdir,
Bu dəniz sakit dura bilməz,
Onun suları palçıq və kir çıxarar.
21 [g]«Pislərə isə sülh yoxdur» deyir mənim Allahım.

Düzgün oruc

58 «Avazla çığırın, çəkinməyin,
Səsinizi şeypur səsi kimi ucaldın,
Xalqıma üsyankarlığını,
Yaqub nəslinə günahlarını bildirin!
2 Onlar hər gün Məni axtarır,
Mənim yolumu öyrənməkdən zövq alır.
Sanki bu əməlisaleh,
Allahının hökmündən ayrılmayan millət imiş.
Onlar Məndən düzgün hökmlər diləyirdi,
Allaha yaxınlaşmaqdan zövq alırdı.
3 Onlar belə deyir:
“Oruc tutduğumuzu nə üçün görmürsən,
Özümüzü aşağı tutanda,
Sən niyə fikir vermirsən?”
Baxın, oruc tutduğunuz gün
Siz istədiyinizi edirsiniz,
Bütün işçilərinizi sıxışdırırsınız.
4 Baxın, orucunuzu savaşma ilə,

---

[f] **57:19** Ef. 2:17 [g] **57:21** Yeş. 48:22

Dava ilə, yumruqla, döyməklə
keçirirsiniz.
Səsinizi ucalara çatdırmaq üçün
Bugünkü kimi sizə oruc tutmaq
olmaz.
5 İstədiyim oruc, insanın özünü aşağı
tutduğu gün belə olmalı idimi?
Bu, qamış kimi başınızı əyib,
Əyninizə çul geyib, kül üstündə
oturmağınızdırmı?
Bunamı oruc və Rəbbə məqbul olan
gün deyirsiniz?
6 Mənim istədiyim orucsa
Haqsızlığın buxovlarını qırmaq,
Boyunduruğun iplərini açmaq,
Sıxıntı içində olanları azad etmək,
Hər cür boyunduruğu məhv etmək
deyilmi?
7 Yediyiniz çörəyi acla bölüşdürmək,
Yurdsuz kasıbları evinizə gətirmək
deyilmi?
Mənim istədiyim oruc bu deyilmi?
Çılpaq görəndə geyindirmək,
Yaxınlarınızdan köməyinizi
əsirgəməmək deyilmi?
8 Onda nurunuz şəfəq kimi saçacaq,
Tezliklə şəfa tapacaqsınız,
Qarşınızda salehliyiniz gedəcək,
Rəbbin izzəti sizə arxa olacaq.
9 O vaxt Rəbbi köməyə çağıracaqsınız,
Rəbb cavab verəcək.
Fəryad edəcəksiniz, O sizə
“buradayam” deyəcək.
Əgər siz boyunduruğu,
Yəni başqalarına zülm etməyinizi
Aranızdan rədd etsəniz,
Barmaq uzadıb şər sözlər söyləməyə
yol verməsəniz,
10 Can-dildən acların qayğısına
qalsanız,
Fəqirlərin ehtiyaclarını ödəsəniz,
Nurunuz qaranlıqda parlayacaq,
Qaranlığınız günorta işığı kimi nur
saçacaq.
11 Rəbb həmişə sizə yol göstərəcək,
Quru torpaqlarda sizi doyuzduracaq,
güc verəcək.
Siz də sulanmış bağça kimi,
Suları heç vaxtı əskilməyən
Bulaq kimi olacaqsınız.
12 Sizdən törənənlər qədim dağıntıları
tikəcək,
Nəsillərdən qalma təməllərin üstünü
Siz bərpa edəcəksiniz.
Sizə xarabalıqları bərpa edənlər,
Camaatın yaşaması üçün
Küçələri yenidən quranlar deyiləcək.

Şənbə gününə riayət edənlər üçün mükafat

13 Şənbə günündə büdrəməsəniz,
Müqəddəs günümdə istədiyinizi
etməsəniz,
Şənbə gününü “şən gün”,
Rəbbin müqəddəs gününü
“Şərəfli gün” adlandırsanız,
Öz yolunuzla getməməklə,
İstədiyinizi əldə etməməklə,
Boşboğazlıqla məşğul olmamaqla,
O günü əziz tutsanız,
14 Rəblə ünsiyyətdən zövq alacaqsınız.
O zaman Mən sizi yer üzünün
Yüksək yerlərinə çıxaracağam,
Atanız Yaqubun payından
dadacaqsınız».
Bu sözlər Rəbbin ağzından çıxıb.

Günah və etiraf

59 Ah, Rəbbin əli qısa deyil ki, xilas
edə bilməsin,
Qulağı kar deyil ki, eşidə bilməsin.
2 Lakin şər əməllériniz
Allahınızla sizin aranızda ayrılıq
saldı.
Günahlarınıza görə Onun üzü sizdən
döndü,
O səsinizi eşitmir.
3 Çünki əllériniz qanla,
Barmaqlarınız şər əməllərlə
murdarlanıb.
Dodaqlarınız yalan danışır,

Diliniz pislik söyləyir.
4 [h]Məhkəmədə ədalətlə işə baxan
yoxdur,
Doğruluqla özünü müdafiə edən
yoxdur,
Boş sözlərə güvənirlər, aldadırlar,
Əziyyətə hamilə olub pislik doğurlar.
5 Gürzə yumurtalarına qırt yatırlar,
Hörümçək toru toxuyurlar.
O yumurtalardan yeyən ölür,
Qırılan yumurtalardan əfi ilan çıxır.
6 Onların toxuduğu hörümçək
torundan paltar çıxmaz,
Toxuduqları parça ilə özlərini örtə
bilmirlər.
Elədikləri əməllər şər əməllərdir,
Əllərində zorakılıq işləri var.
7 [i]Ayaqları pis işlər etməyə tələsir,
Günahsız qan tökməyə cəlddir.
Fikirləri, niyyətləri şər əməllərdir,
Yollarında viranəlik, qırğın var.
8 Əmin-amanlıq yolu nədir, onlar
bilmirlər,
Getdikləri yolda ədalət yoxdur,
Özlərinə əyri yol seçdilər,
O yoldan gedənlərin heç biri
Əmin-amanlıq nədir bilmir.
9 Buna görə ədalət bizdən uzaqlaşıb,
Salehliyə çata bilmirik.
İşıq ümidindəyik, lakin qaranlıqdayıq,
Aydınlıq gözləyirik, zülmətdə
yeriyirik.
10 Kor kimi əllərimizlə divarı
yoxlayırıq,
Gözü görməyənlər tək yol axtarırıq.
Günorta çağı gecə vaxtı olduğu kimi
büdrəyirik,
Güclülər arasında ölülər kimiyik.
11 Hamımız ayı kimi nərildəyirik,
Göyərçin tək inildəyirik.
Ədalət gözləyirik, lakin heç bir şey
yoxdur.
Qurtuluş gözləyirik, amma bizdən
uzaqdır.
12 Çünki Önündə üsyankarlığımız
böyükdür,
Günahlarımız bizə qarşı şəhadət edir.
Üsyankarlığımız bizi dövrəyə alıb,
Şər əməllərimizdən xəbərdarıq.
13 Üsyankar olub Rəbbi rədd etdik,
Allahımızın ardınca getmədik,
Zorakılıq, xəyanətlə dolu sözlər
danışdıq,
Yalan kəlmələri ürəyimizdə gizlətdik,
Sonra aşkara çıxartdıq.
14 Ədalət geri çəkildi,
Salehlik uzaqda durdu,
Çünki həqiqət şəhər meydanında
yıxıldı,
Dürüstlük aramıza daxil ola bilmir.
15 Həqiqət heç bir yerdə yoxdur,
Şərdən uzaq duran talan olunur.

Rəbb xalqını qurtaracaq

Rəbb bunları gördü,
Ədalətin yoxluğu Onun xoşuna
gəlmədi.
16 [j]Rəbb gördü ki, heç kim yoxdur,
Havadarın olmadığına görə O mat
qaldı.
Onda Onun qolu Ona zəfər gətirdi,
Salehliyi Ona dayaq oldu.
17 [k]O, salehliyi zireh kimi geydi,
Qurtuluş dəbilqəsini başına taxdı.
Qisas geyimlərini geydi,
Qeyrət libasına büründü.
18 O hər kəsə əməllərinə görə əvəz
verəcək.
Düşmənlərinə qəzəblə, yağılarına,
Uzaq diyarlara qisasla əvəz verəcək.
19 Beləcə qərbdən şərqədək adamlar
Rəbbin adından və əzəmətindən
qorxacaq.
Çünki düşmən azğın bir çay kimi
gəldikdə

---

[h]**59:4** Əyy. 15:35; Zəb. 7:14 [i]**59:7** Sül. 1:16; Rom. 3:15-17
[j]**59:16** Yeş. 63:5 [k]**59:17** Ef. 6:14; Ef. 6:17; 1Sal. 5:8

Rəbbin nəfəsi onu qovacaq.
20 [l]Rəbb bəyan edir: «Satınalan Siona
gələcək,
Yaqub nəslinin üsyankarlıqdan
dönənlərinin yanına gələcək».
21 «Mənim onlarla bağladığım əhd
budur: üzərindəki Ruhum, ağzına
qoyduğum sözlərim indidən sonsuzadək
sənin, övladlarının, nəvə-nəticələrinin
ağzından düşməyəcək». Bunu Allah
deyir.

Sionun şərəfli gələcəyi

60 Qalx, işıqlan, çünki nurun gəldi,
Rəbbin izzəti üzərinə gəldi!
2 Budur, dünyanı qaranlıq, ümmətləri
zülmət bürüyəcək.
Amma Rəbb üzərinə nur saçacaq,
İzzəti səni əhatə edəcək.
3 [m]Millətlər sənin nuruna,
Padşahlar üzərinə çökən aydınlığa
doğru gələcək.
4 Qaldır başını, bax ətrafına,
Hamı yığılıb yanına gəlir!
Oğulların uzaqdan gəlir,
Qızların qucaqda gətirilir.
5 O vaxt bunu görüb üzün nur saçacaq,
Ürəyin sevincdən tez-tez çırpınacaq.
Çünki uzaq ölkələrin var-dövləti sənə
gətiriləcək,
Millətlərin sərvəti sənə gələcək.
6 Dəvə sürüləri, Midyan və Efa
köşəkləri
Torpaqlarını dolduracaq.
Bütün Səba xalqı gəlib
Qızıl və kündür gətirəcək,
Rəbbə həmdlər söyləyəcək.
7 Qedarın bütün qoyun sürüləri
yanına yığılacaq,
Nevayotun qoçları sənin əlinin altında
olacaq,
Qurbangahıma Mənə məqbul olan
qurbanlar gətiriləcək.
Şərəfli evimi daha da
izzətləndirəcəyəm.
8 Kimdir bunlar, bulud kimi,
Yuvalarına yaxınlaşan göyərçin tək
uçub gələnlər?
9 Uzaq diyarlar Mənə ümid
bağladıqlarına görə
Tarşiş gəmiləri başda olmaqla
Allahın Rəbbin şərəfinə,
Səni ucaldan İsrailin Müqəddəsi üçün
Sənin övladlarını qızıl-gümüşü ilə
Uzaqdan gətirən gəmilərdir bunlar.
10 Əcnəbilər divarlarını tikəcək,
Padşahları sənə xidmət edəcək.
Qəzəbimdə səni vurdumsa da,
Lütfümlə sənə mərhəmət edəcəyəm.
11 [n]Darvazaların həmişə açıq qalacaq,
Nə gecə, nə də gündüz
qıfıllanmayacaq ki,
Millətlərin sərvəti sənə təqdim
olunsun,
Padşahları yanına gətirilsin.
12 Çünki sənə xidmət etmək istəməyən
Millət ya padşahlıq məhv olacaq,
Bəli, o millətlər tamamilə yox olacaq.
13 Livanın şan-şöhrəti olan şam ağacı,
çinar və sərv ağacları
Müqəddəs məkanımdakı yeri
gözəlləşdirmək üçün
Birgə yanına gətiriləcək,
Qədəm qoyduğum yeri
şərəfləndirəcəyəm.
14 [o]Sənə zülm edənlərin övladları
Gəlib önündə təzim edəcək.
Sənə həqarətlə baxanların hamısı
Ayaqlarına düşüb səcdə edəcək.
Sənə Rəbbin şəhəri,
İsrailin Müqəddəsinin Sionu
deyəcəklər.
15 Səni tərk edib nifrət etdilər,
Yanından heç kim keçmirdi,
İndi isə Mən səni əbədi fəxr,
Nəsillər boyu sevinc edəcəyəm.

---

[l] **59:20** Rom. 11:26-27 [m] **60:3** Vəhy 21:24 [n] **60:11** Vəhy 21:25-26
[o] **60:14** Vəhy 3:9

16 Millətlər və padşahlar
Bir ana kimi sənə süd verəcəklər.
O vaxt biləcəksən ki, səni qurtaran Rəbb,
Səni Satınalan, Yaqubun qüdrətli Allahı Mənəm.
17 Sənə tunc əvəzinə qızıl,
Dəmir yerinə gümüş,
Ağac yerinə tunc,
Daş əvəzinə dəmir gətirəcəyəm.
Əmin-amanlığı başçın,
Salehliyi hökmdarın təyin edəcəyəm.
18 Ölkəndən zorakılıq,
Sərhədlərindən viranəlik,
Qırğın xəbəri gəlməyəcək.
Divarlarını «Xilas»,
Darvazalarını «Həmd» adlandıracaqsan.
19 [p]Artıq gündüz günəş sənin işığın olmayacaq,
Gecə ay sənə aydınlıq verməyəcək.
Çünki Rəbb əbədi nurun,
Allahın sənin şöhrətin olacaq.
20 Günəşin batmayacaq, ayın gizlənməyəcək,
Çünki Rəbb əbədi nurun olacaq,
Sənin yaslı günlərin qurtaracaq.
21 Bütün xalqın saleh olacaq,
Torpağı əbədi mülk olaraq alacaq.
Onlar əkdiyim fidandır,
Şöhrətimi göstərmək üçün əlimin işidir.
22 Ən kiçik ailədən böyük nəsil törəyəcək,
Azsaylı nəsil qüdrətli millət olacaq.
Mən Rəbb bunu öz vaxtında tez edəcəyəm.

Rəbbin lütf ili

61 [q]Xudavənd Rəbbin Ruhu üzərimdədir,
Çünki fəqirlərə müjdəni bildirmək üçün
O məni məsh etdi.
Qəlbi sınıq olanlar üçün, yaralarını sarımaq üçün,
Əsirlərə azadlıq,
Dustaqlara sərbəstlik elan etmək üçün,
2 Rəbbin lütf ilini,
Allahımızın qisas gününü bəyan etmək üçün,
Yaslıların hamısına təsəlli vermək üçün,
3 Sionda yas tutanları təmin etmək,
Kül yerinə çələng,
Yas yerinə sevinc gətirən məsh yağı,
Kədərli ruh əvəzinə
Həmd libasını bəxş etmək üçün
Rəbb məni göndərdi.
Rəbbin şöhrətini aşkar etmək üçün
Onlara Rəbbin əkdiyi salehlik palıdları deyiləcək.
4 Onlar qədim dağıntıları inşa edəcək,
Əvvəlki xarabalıqları bərpa edəcək,
Nəsillər boyu viranə qalmış şəhərləri yenidən quracaq.
5 Yadellilər gəlib sürülərinizi otaracaq,
Əcnəbilər sizə əkinçilik və bağbanlıq edəcək.
6 Sizsə Rəbbin kahinləri,
Allahımızın xidmətçiləri adlanacaqsınız.
Millətlərin sərvəti ilə bəslənəcəksiniz,
Var-dövlətləri ilə fəxr edəcəksiniz.
7 Çəkdiyiniz xəcalət yerinə ikiqat şərəf,
Rüsvayçılıq əvəzinə payınızı alıb sevinəcəksiniz.
İndi isə torpağınızda ikiqat mülk alacaqsınız,
Sevinciniz əbədi olacaq.
8 Çünki Mən Rəbb ədaləti sevirəm.
Soyğunçuluğa, haqsızlığa nifrət edirəm.
Əlbəttə, əməllərinə görə onlara haqqını verəcəyəm,

---

[p] **60:19** Vəhy 21:23; 22:5 [q] **61:1** Luka 4:18-19; Mat. 11:5; Luka 7:22; Mat. 5:4

Onlarla əbədi əhd kəsəcəyəm.
9 Nəsillərindən törəyənlər millətlər
içində,
Övladları xalqlar arasında tanınacaq.
Onları görən hər kəs biləcək ki,
Rəbb nəsillərinə xeyir-dua verdi.
10 [r]Rəbdə böyük sevinc tapacağam,
Allahımda ürəyim şadlıqdan coşacaq,
Çünki çələnglə bəzənmiş bəy kimi,
Bər-bəzək taxmış gəlin kimi
Mənə qurtuluş paltarı geyindirdi,
Salehlik libası ilə bürüdü.
11 Torpaq zoğlarını necə cücərdirsə,
Bağ əkilən toxumları necə yetişdirirsə,
Xudavənd Rəbb də bütün millətlər
qarşısında
Salehliyi və həmdi belə yetişdirəcək.

Sionun yeni adı

62 Salehliyi nur kimi saçanadək,
Qurtuluşu məşəl tək yananadək
Sion naminə susmayacağam,
Yerusəlim naminə sakit
durmayacağam.
2 [s]Millətlər salehliyini,
Bütün padşahlar əzəmətini görəcək.
Rəbbin ağzı ilə deyəcəyi,
Sənə verəcəyi yeni bir adla
çağırılacaqsan.
3 Sən Rəbbin əlində gözəllik tacı,
Allahının ovcunda padşahlıq çələngi
olacaqsan.
4 Artıq sənə «atılmış»,
Ölkənə «viranə qalmış» deməyəcəklər.
Əvəzinə sənə «sevdiyim»,
Ölkənə isə «ərli» deyiləcək.
Çünki Rəbb səni sevəcək,
Ölkən də ərli sayılacaq.
5 Bir gənc bakirə qızla evləndiyi kimi
Səni Yaradan da sənlə evlənəcək.
Bəy gəlindən zövq aldığı kimi
Allahın da səndən zövq alacaq.
6 Ey Yerusəlim, divarlarının üstünə
Mən qarovulçular qoydum.
Gecə-gündüz onlar susmayacaq.
Ey Rəbbə sözünü xatırladan sizlər,
susmayın,
7 Rəbb Yerusəlimi bərpa edənədək,
Onu yer üzünün tərifə layiq şəhərinə
döndərənədək
Ona rahatlıq verməyin!
8 Rəbb sağ əlini, güclü qolunu
Qaldırıb and içdi:
«Düşmənlərinə sənin taxılını bir daha
yedirtməyəcəyəm,
Yadellilər sənin əziyyətlə sıxdığın
şərabını içməyəcək.
9 Taxılı yığan yeyəcək,
Rəbbə həmdlər edəcək.
Üzümü toplayan şərabını
Məbədimin həyətlərində içəcək».
10 Keçin, keçin şəhər darvazalarından,
Xalq üçün yol hazırlayın!
Tikin, yol salın,
Daşları kənara atın,
Xalqlar üçün bayraq qaldırın!
11 [t]Rəbb yer üzünün ən uzaq yerlərinə
bəyan etdi:
«Sion qızına deyin:
“Budur, qurtuluşun gəlir,
Rəbbin mükafatı onunladır,
Ənamı önündədir”».
12 Sion xalqına
«Rəbbin satın aldığı, müqəddəs xalq»
deyəcəklər.
Sən, ey Yerusəlim,
«Allahın axtardığı, tərk olmamış
şəhər» adlanacaqsan.

Rəbbin qüdrəti

63 [u]Edomdan, Bosradan al geyimlər
geyib
Bu gələn kimdir?
Təmtəraqlı libas içində,

---

[r]**61:10** Vəhy 21:2 [s]**62:2** Yeş. 65:15; Vəhy 2:17
[t]**62:11** Yeş. 40:10; Vəhy 22:12 [u]**63:1** Yeş. 34:5-17; Yer. 49:7-22; Yez. 25:12-14; 35:1-15; Amos 1:11-12; Avd. 1-14; Mal. 1:2-5

Böyük qüdrətlə gələn kimdir?
«O Mənəm, həqiqətlə danışan,
Qurtarmağa qadir olan».
2 Nə üçün geyimlərin qırmızıdır,
Nə üçün libasın al rəngdədir,
Sanki sən üzümsıxanda üzüm sıxırdın?
3 [v]«Üzümsıxanda üzümü tək sıxdım,
Yanımda xalqlardan heç kim olmadı.
Qəzəb içində onları tapdaladım,
Qeyzlə təpiyimin altına saldım.
Qanları geyimlərimə sıçradı,
Bütün libaslarımı bulaşdırdım.
4 Çünki qisas günü qəlbimdə idi,
Xalqımı satın aldığım il gəldi.
5 [w]Mən baxdım, kömək edən bir kəs yox idi,
Mənim tərəfimi saxlayan olmadığına məəttəl qaldım,
Onda qolum mənə zəfər gətirdi,
Qeyzim mənə dayaq oldu.
6 Qəzəb içində xalqları tapdaladım,
Qeyzimi onlara içirtdim,
Qanlarını yerə axıtdım».

Rəbbin xeyirxahlığı

7 Rəbbin lütfkar işlərindən,
Həmdlərə layiq əməllərindən nəql edəcəyəm.
Böyük mərhəməti və məhəbbəti naminə,
İsrail nəslinə etdiyi böyük xeyirxahlığına görə,
Rəbbin bizə etdiyi bütün işlərinə görə
Onu xatırlayacağam.
8 Rəbb dedi:
«Əlbəttə, onlar Mənim xalqımdır,
Məni aldatmayan övladlarımdır».
Beləcə onlara Qurtarıcı oldu.
9 Onlar əziyyət çəkdikdə
O da əziyyət çəkdi.
Hüzurundan gələn mələk onları xilas etdi.
Məhəbbəti və mərhəməti ilə
Onları satın aldı.
Bütün keçmiş günlərdə onları götürüb apardı.
10 [x]Lakin İsrail üsyankar olaraq
Onun Müqəddəs Ruhunu kədərləndirdi.
Rəbb də düşməni olub
Onlara qarşı döyüşdü.
11 [y]Sonra xalq keçmiş günləri –
Rəbbin qulu Musanın dövrünü yada saldı.
Onları sürüsünün çobanları ilə birgə
Dənizdən keçirən haradadır?
Onların daxilinə
Müqəddəs Ruhunu ehsan edən,
12 Öz əzəmətli gücü ilə Musanın sağ əlindən tutub,
Özünə əbədi ad qazandırmaq üçün
Suları qarşılarında yaran Rəbb haradadır?
13 Bir at çöldə yıxılmadan çapan kimi
Onları da dərinliklərdən elə keçirən Rəbb haradadır?
14 Rəbbin Ruhu onlara elə rahatlıq verdi ki,
Elə bil naxır otu bol olan dərədə otarılır.
Bəli, Sən adını şərəfləndirmək naminə
Xalqına belə yol göstərdin.

Rəhm və imdad haqqında yalvarış

15 Ya Rəbb, göylərdən bax,
Müqəddəs, izzətli, uca məskənindən bizə nəzər sal!
Haradadır Sənin qeyrətin, gücün?
Qəlbindəki həsrəti, rəhmi bizdən əsirgədin.
16 Sənsən Atamız.
İbrahim bizi tanımasa da,
İsrail bizim kim olduğumuzu bilməsə də,
Atamız Sənsən, ya Rəbb,

---

[v]**63:3** Vəhy 14:20; 19:15; Vəhy 19:13 [w]**63:5** Yeş. 59:16
[x]**63:10** Həv. 7:51; Ef. 4:30 [y]**63:11** Çıx. 14:21

Əzəldən bəri adın «Bizi Satınalan»dır.
17 Nə üçün, ya Rəbb,
Bizi yolundan azdırırsan,
Səndən qorxmayaq deyə
Qəlblərimizi inadkar edirsən?
Qullarının xatirinə,
İrsin olan qəbilələrinin xatirinə geri dön.
18 Müqəddəs xalqın qısa müddətə Sənin Müqəddəs məkanına sahib oldu.
İndi isə oranı düşmənlərimizin ayağı tapdalayır.
19 Əzəldən bəri heç vaxt
Hakimlik etmədiyin xalqa bənzədik,
Sanki Sənin adına bağlı xalq olmamışıq.

64 Ya Rəbb, kaş göyləri yarıb enəydin,
Dağlar hüzurunda sarsılardı!
2 Alov kolluğu yandıran kimi,
Od suyu qaynadan kimi
Adını yağılarına tanıtdıraydın,
Millətlər önündə lərzəyə gələrdi!
3 Sən gözləmədiyimiz əzəmətli işlər edəndə
Endin yer üzünə, dağlar önündə sarsıldı.
4 [z]Ona etibar edənlər üçün belə işlər edən Allahı,
Əzəldən bəri Səndən başqasını nə göz görüb, nə də qulaq eşidib.
5 Sevinə-sevinə salehlik edəni,
Yollarında Səni xatırlayanları qarşılayırsan.
Amma biz günaha batdıq, Sən qəzəbləndin.
Beləcə xeyli vaxt yaşadıq,
Bəs biz necə xilas ola bilərik?
6 Hamımız elə bil ki murdarlandıq,
Bütün saleh əməllərimiz murdar əskiyə bənzəyir.
Hamımız yarpaq kimi soluruq,
Şər əməllərimiz bizi külək tək sovurub-aparır.
7 Sənin adını çağıran yoxdur,
Sənə bağlanmaq üçün can atan yoxdur.
Çünki bizdən üz döndərdin,
Şər əməllərimizə görə bizi yox etdin.
8 Yenə də, ya Rəbb, Sənsən Atamız:
Biz gilik, Sən isə dulusçu,
Biz hamımız Sənin əlinin işiyik.
9 Ya Rəbb, çox qəzəblənmə,
Şər əməllərimizi heç vaxt xatırlama,
Hamımız Sənin xalqınıq, bunu nəzərə al.
10 Müqəddəs şəhərlərin səhraya,
Sion çöllüyə döndü,
Yerusəlim viran qaldı.
11 Atalarımızın Sənə həmd etdikləri yer –
Müqəddəs, şanlı məbədimiz yandı,
Gözəl binalarımız xaraba qaldı.
12 Bütün bunlardan sonra,
Ya Rəbb, yenə də Özünü saxlayacaqsanmı?
Susub bizi nə qədər alçaldacaqsan?

Dikbaşlar cəza çəkəcək

65 [a]«Məni soruşmayanlara Mən zühur etdim,
Məni axtarmayanlar tərəfindən tapıldım.
Adımı çağırmayan millətə dedim:
“Buradayam! Buradayam!”
2 Pis yolla gedən,
Öz düşüncələri ilə hərəkət edən
Dikbaş xalqa gün boyu əllərimi uzadıb durdum.
3 O xalq ki bağlarda qurban kəsərək,
Kərpiclərin üstündə buxur yandırıb
Gözüm önündə daima Məni təhqir edir,
4 Qəbiristanlıqda oturub
Gizli yerlərdə gecələyir,
Donuz əti yeyir,

---

[z]**64:4** 1Kor. 2:9 [a]**65:1** Rom. 10:20-21

Qablarında haram ət qaynadır.
5 Onlar bir-birinə deyir: “Uzaq dur,
Mənə yaxınlaşma, çünki mən səndən müqəddəsəm”.
Belələri burnuma tüstü,
Bütün gün yanan alovdur.
6 Budur, qarşımda bunlar yazılıb:
Mən susmayacağam,
Ancaq onların əvəzini verəcəyəm,
Əməllərini başlarına çevirəcəyəm.
7 Onların da, atalarının da qəbahətlərinin cəzasını
Onlara çəkdirəcəyəm».
Rəbb deyir.
«Dağların başında buxur yandırdıqlarına görə,
Təpələrin başında Mənə küfr etdiklərinə görə
Mən əvvəlki əməllərini ölçüb onların əvəzini onlara çəkdirəcəyəm».
8 Rəbb deyir:
«Üzüm salxımında şirə tapıldığına görə deyirlər:
“Salxımı xarab etməyin, içində bərəkət var”.
Mən də qullarımın xatirinə belə edərəm ki,
Onların hamısı məhv olmasın.
9 Yaqubdan törəyənlərin sayını artıracağam,
Yəhuda nəslindən dağlarıma varis çıxacaq,
Seçilmiş xalqım oranı irs alacaq.
Mənim qullarım orada məskunlaşacaq.
10 [b]Məni axtaran xalqım üçün
Şaron sürülərin otlağı,
Akor vadisi mal-qaranın rahatlandığı yer olacaq.
11 Lakin sizlər – Rəbbi tərk edənlər,
Müqəddəs dağımı unudanlar,
Tale allahına süfrə açanlar,
Qismət allahına camlarda şərab təqdim edənlər,
12 Mən də sizi qılınca qismət edəcəyəm,
Hamınız qırılmaq üçün diz çökəcəksiniz.
Çünki Mən çağıranda sizdən cavab almadım,
Danışanda qulaq asmadınız.
Gözümdə pis olanı etdiniz,
Mənə məqbul olmayanı seçdiniz».
13 Buna görə də Xudavənd Rəbb belə deyir:
«Qullarım yeyəcək, sizsə ac qalacaqsınız,
Qullarım içəcək, sizsə susayacaqsınız,
Qullarım sevinəcək, sizsə utanacaqsınız.
14 Qullarım şadlanıb mədhiyyələr söyləyəcək,
Sizsə ürək ağrısından qışqıracaqsınız,
Kədərli ruhla fəryad edəcəksiniz.
15 [c]Sizin adınız seçilmiş xalqımın
Ağzında ancaq lənət kimi qalacaq.
Xudavənd Rəbb sizi öldürəcək,
Öz qullarına isə başqa ad verəcək.
16 Ölkədə kim xeyir-dua istəsə,
Sadiq Allahdan diləyəcək.
Ölkədə kim and içsə,
Sadiq Allahın adı ilə and içəcək.
Çünki keçmiş əziyyətlər unudulub
Gözümün önündən yox olacaq.

Yeni yer, yeni göylər

17 [d]Budur, Mən yeni göylər və yeni yer yaradıram.
Əvvəlki işlər bir daha xatırlanmayacaq,
Heç yada düşməyəcək.
18 Yaratdığımla əbədilik sevinin, şadlanın.
Çünki sevinc üçün yeni Yerusəlimi,

---

[b] **65:10** Yeşua 7:24-26 [c] **65:15** Yeş. 62:2; Vəhy 2:17
[d] **65:17** Yeş. 66:22; 2Pet. 3:13; Vəhy 21:1

Sakinlərini xoşbəxtlik üçün
yaradacağam.
19 [e]Mən Yerusəlim üçün sevinəcəyəm,
Xalqım üçün şadlanacağam.
Orada nə ağlaşma, nə fəryad səsi
Bir daha eşidilməyəcək.
20 Uşaqlar artıq körpə çağlarında
ölməyəcək,
Uzun ömür sürməyən qoca
olmayacaq,
Yüz yaşında ölənlər cavan sayılacaq,
Yüz yaşına çatmayanlar lənətli
sayılacaq.
21 Onlar evlər tikib orada
məskunlaşacaq,
Üzüm bağları salacaq, bəhrələrindən
yeyəcək.
22 Tikdikləri evdə özgələr
yaşamayacaq,
Əkdikləri bağın meyvələrini başqaları
yeməyəcək.
Çünki xalqım ağaclar tək uzun ömür
sürəcək,
Seçilmişlərim əllərinin işlərindən
zövq alacaq.
23 Onlar boş yerə əlləşməyəcək,
Övladları bəlalarla üzləşməyəcək.
Çünki özləri də, övladları da,
Rəbbin xeyir-dualı nəsli olacaq.
24 Onlar Məni çağırmamışdan
Mən onlara cavab verəcəyəm,
Onlar hələ danışarkən Mən
eşidəcəyəm.
25 [f]Qurdla quzu bir yerdə otlayacaq,
Şir buğa tək saman yeyəcək,
İlanın yediyi torpaq olacaq.
Müqəddəs dağımın heç bir yerində
Heç kimə zərər dəyməyəcək,
Heç bir kəs o birisini məhv
etməyəcək».
Rəbb belə deyir.

Mühakimə və ümid

66 [g]Rəbb belə deyir:
«Göylər Mənim taxtımdır,
Yer ayaqlarımın altındakı kətildir.
Mənim üçün harada ev tikəcəksiniz,
Dincələcəyim yer harada olacaq?
2 Çünki bütün bunları Mənim əlim
yaratdı,
Hər şey beləcə əmələ gəldi» Rəbb
bəyan edir.
«Ancaq Mən özünü aşağı tutan və
ruhu əzilmiş insana,
Sözümün önündə titrəyənə nəzər
salaram.
3 Buğa kəsən şəxs adam öldürən
kimidir,
Quzunu qurban verən şəxs itin
boynunu qıran kimidir,
Taxıl təqdimi gətirən şəxs donuz
qanını təqdim edən kimidir,
Kündür yandıraraq təqdim edən şəxs
bütə pərəstiş edən kimidir.
Onlar öz yolları ilə gedir,
İyrənc işlərindən həzz alır.
4 Mən də onları çətinliyə düçar
edəcəyəm,
Qorxduqları bəlanı başlarına
gətirəcəyəm.
Çünki Mən çağıranda onlardan cavab
almadım,
Danışanda qulaq asmadılar,
Gözümdə pis olanı etdilər,
Mənə məqbul olmayanı seçdilər».
5 Ey Rəbbin sözü önündə titrəyənlər,
Onun dediklərini eşidin:
«Mənim adıma görə sizə nifrət edib
təqib edən soydaşlarınız
“Qoy Rəbb izzətini göstərsin,
Biz də görək, necə sevinərsiniz”
deyirdilər.
Amma onlar rüsvay olacaq.
6 Şəhərdən nərələr,

---

[e]**65:19** Vəhy 21:4 [f]**65:25** Yeş. 11:6-9
[g]**66:1** Mat. 5:34-35; 23:22; Həv. 7:49-50

Məbəddən bir səs eşidilir!
Bu, düşmənlərindən qisas alan Rəbbin
səsidir.
7 [h]Bir qadın ağrı çəkmədən,
Sancısı tutmadan bir oğlan uşağı
doğdu.
8 Belə bir şey eşidən olubmu?
Belə şeyləri kim görüb?
Bir gündə ölkə yarana bilərmi?
Bir anda millət doğula bilərmi?
Sion isə ağrısı tutan kimi övladlarını
doğdu.
9 Mən doğuş anınadək gətirib
Doğmağa güc vermərəmmi?» deyir
Rəbb.
«Doğuş üçün güc verən Mən
Bətni bağlayarammı?» deyir Allahın.
10 «Yerusəlimlə birgə sevinin,
Ey onu sevənlər, hamınız onun üçün
şadlanın.
Ey Yerusəlim üçün yas tutanlar,
Onunla birgə cuşa gəlin, fərəhlənin!
11 Siz ananız Yerusəlimin döşlərini
əmib
Təsəlli tapacaqsınız, doyacaqsınız,
Onun bol nemətlərindən dadıb zövq
alacaqsınız».
12 Rəbb belə deyir:
«Budur, Mən əmin-amanlığı bir çay
tək,
Millətlərin sərvətini daşqın sel kimi
Ona sarı axıdacağam.
Siz ondan bəslənəcəksiniz,
Qucağında daşınacaqsınız,
Dizlərində oxşanacaqsınız.
13 Övladına təsəlli verən bir ana tək
Mən sizə təsəlli verəcəyəm.
Yerusəlimdə təsəlli tapacaqsınız.
14 Bunları görüb ürəyiniz sevinəcək;
Bədənləriniz yaşıl ot kimi
qüvvətlənəcək.
Hər kəs biləcək ki,
Rəbbin qoruyucu əli qullarının,
Qəzəbi isə düşmənlərinin üstündədir».
15 Budur, Rəbb odla gəlir,
Onun döyüş arabaları qasırğa tək
gəlir.
Şiddətli qəzəbini, məzəmmətini
Alov kimi tökməyə hazırdır.
16 Rəbb bütün bəşəri odla,
Qılıncı ilə mühakimə edəcək,
Çoxlarını məhv edəcək.
17 «Bağlara girmək üçün
Özlərini təqdis edib pak edənlər,
Mərkəzdə duranın ardınca gedərək
Donuz, siçan və digər murdar
heyvanların
Ətini yeyənlərin hamısı məhv olacaq»
Rəbb bəyan edir.
18 «Çünki Mən onların əməllərini
də, fikirlərini də bilirəm. Bütün
millətləri və dilləri bir yerə topladığım
vaxt gəlir. Onlar gəlib Mənim
əzəmətimi görəcək. 19 Mən aralarında
bir əlamət qoyacağam. Onlardan
qaçıb-qurtulanları Mən millətlərə
– Tarşişə, Pula, mahir oxatanların
vətəni Luda, Tuvala, Yavana, şöhrətimi
eşitməyən, əzəmətimi görməyən
uzaq diyarlara göndərəcəyəm. Onlar
Mənim əzəmətimi bu millətlər arasında
bəyan edəcək. 20 İsrail övladları
Rəbbin məbədinə pak qablarda
təqdimlərini necə gətirirlərsə, onlar
da bütün millətlərdən soydaşlarını
atlarla, arabalarla, taxt-rəvanlarla,
qatırlarla, dəvələrlə müqəddəs dağıma,
Yerusəlimə, Rəbbə elə təqdim edəcək.
21 Onlardan bəzisini Mən kahin və Levili
seçəcəyəm» Rəbb bəyan edir.
22 [i]«Yaradacağım yeni göylər və yeni
yer önümdə necə qalacaqsa,
Nəsliniz və adınız da elə qalacaq»
Rəbb bəyan edir.
23 «Hər Təzə Ay mərasimində, hər
Şənbə günündə
Bütün bəşər gəlib qarşımda səcdə
edəcək».

---

[h]**66:7** Vəhy 12:5 [i]**66:22** Yeş. 65:17; 2Pet. 3:13; Vəhy 21:1

Rəbb deyir.
24 [j]«Onlar eşiyə çıxanda
Mənə qarşı üsyankar olanların
meyitlərini görəcək.
Meyitləri yeyən qurd ölməyəcək,
Onları yandıran alov sönməyəcək.
Bütün bəşər onlardan iyrənəcək».

[j]**66:24** Mark 9:48

YEREMYA

PEYĞƏMBƏRİN KİTABI

GİRİŞ

Yeremya peyğəmbər miladdan əvvəl VII əsrin ikinci yarısında və VI əsrin birinci yarısında yaşamışdır. O, kahin idi. Uzun sürən xidmət müddətində Allahın xalqını bütpərəstliyə uymaqları və günah nəticəsində düçar olduqları bəla barədə xəbərdarlıq edirdi. Onun qabaqcadan söylədiyi peyğəmbərliklər – Yerusəlimin süqutu, Navuxodonosorun şəhəri və məbədi dağıtması, Yəhuda padşahının və xalqının Babilə sürgün edilməsi gerçək oldu. Yeremya həmçinin xalqın sürgündən qayıtmasını və millətin dirçəlişini də qabaqcadan söyləmişdi.

Yeremya peyğəmbər öz xalqını sevən, onun məhkum olmasından kədərlənən həssas bir adam idi. Kitabın çox yerində o, Allahın peyğəmbəri olduğu üçün iztirablar çəkməsi barədə ürək ağrısı ilə danışır. Rəbbin sözü onun qəlbində sanki yanar od idi, Yeremya onu ürəyində saxlaya bilmirdi.

Kitabda bəzi böyük peyğəmbərliklər Yeremyanın yaşadığı çətin dövrdən sonrakı gələcəyə işarə edir: Yeremya Yeni Əhd barədə danışır. Allahın xalqı bu əhdi yadda saxlayacaq, çünki həmin əhd onların qəlbinə yazılacaq.

Kitabın məzmunu

1:1-19 Yeremyanın çağırışı

2:1–25:38 Yoşiyanın, Yehoyaqimin, Yehoyakinin və Sidqiyanın hökmranlıq etdiyi dövrdə peyğəmbərliklər

26:1–45:5 Yeremyanın həyatında olan hadisələr

46:1–51:64 Millətlərə qarşı peyğəmbərliklər

52:1-34 Yerusəlimin süqutu

1 Bunlar Binyamin torpağındakı Anatotda yaşayan kahinlərdən biri olan Xilqiya oğlu Yeremyanın sözləridir. 2 [k]Yəhuda padşahı Amon oğlu Yoşiyanın dövründə – padşahlığının on üçüncü ilində Yeremyaya Rəbbin sözü nazil oldu. 3 [l]Bu, Yəhuda padşahı Yoşiya oğlu Yehoyaqimin dövründən Yəhuda padşahı Yoşiya oğlu Sidqiyanın padşahlığının on birinci ilinin sonunadək, beşinci ayda Yerusəlim əhalisinin sürgünə aparılmasına qədər davam etdi.

Yeremyaya çağırış

4 Mənə Rəbbin bu sözü nazil oldu:
5 «Mən sənə ananın bətnində
Surət verməzdən əvvəl səni tanıdım,
Doğulmazdan əvvəl səni təqdis edib
Millətlərə peyğəmbər etdim».
6 Onda mən dedim: «Ah, ya Xudavənd
Rəbb! Axı mənim danışıq qabiliyyətim
yoxdur, çünki hələ cavanam». 7 Rəbb
mənə dedi: «Sən “cavanam” demə.
Mən səni kimin yanına göndərsəm,
gedəcəksən, sənə nə əmr etsəm, onu
söyləyəcəksən. 8 Adamlardan qorxma,
çünki səni qurtarmaq üçün Mən sənin lə
olacağam» Rəbb belə bəyan edir.
9 Rəbb əlini uzadıb ağzıma toxundu və
mənə dedi: «Bax sözlərimi sənin dilinə
qoydum. 10 Bu gün səni millətlər və
ölkələr üzərinə təyin etdim ki, onları
kökündən yıxıb dağıdasan, qırıb məhv
edəsən, əkib tikəsən».
11 Mənə Rəbbin bu sözü nazil oldu:
«Ey Yeremya, nə görürsən?» Mən
dedim: «Badam ağacının bir budağını
görürəm». 12 Rəbb mənə dedi: «Düz

---

[k] **1:2** 2Pad. 22:3–23:27; 2Saln. 34:8–35:19

[l] **1:3** 2Pad. 23:36–24:7; 2Saln. 36:5-8; 2Pad. 24:18–25:21; 2Saln. 36:11-21

görmüsən. Axı Mən hər sözümü yerinə
yetirməkdə sayığam». *
13 Mənə yenə Rəbbin bu sözü nazil
oldu: «Nə görürsən?» Mən dedim:
«Şimaldan bu tərəfə yönəlmiş qaynar
bir qazan görürəm». 14 Rəbb mənə dedi:
«Bu ölkədə yaşayanların hamısının
üzərinə
Şimaldan bəla yağacaq.
15 Çünki Mən şimal ölkələrinin bütün
tayfalarını çağıracağam»
Rəbb belə bəyan edir.
«Hər biri gəlib öz taxtını
Yerusəlim darvazalarının girişində,
Onun bütün darvazalarının ətrafında
Və bütün Yəhuda şəhərlərində
quracaq.
16 Bütün pisliklərinə görə
Onların əleyhinə hökmlərimi
bildirəcəyəm.
Çünki Məndən üz döndərib başqa
allahlara buxur yandıraraq
Öz əl işlərinə səcdə etdilər.
17 Sən belini qurşayıb qalx, sənə əmr
edəcəyim bütün şeyləri onlara söylə.
Onlardan qorxma, yoxsa Mən də səni
onların önündə qorxuya salacağam.
18 Budur, Mən bu gün səni bütün
ölkənin – Yəhuda padşahlarının, bu
yerin başçılarının, kahinlərinin və ölkə
xalqının əleyhinə qalalı şəhər, dəmir
sütun və tunc divar etdim. 19 Onlar
sənlə vuruşacaq, ancaq gücləri
çatmayacaq, çünki səni qurtarmaq üçün
Mən sənlə olacağam» Rəbb belə bəyan
edir.

İsrailin yoldan azması

2 Mənə Rəbbin sözü nazil oldu: «Get
Yerusəlimə ucadan elan et ki, 2 Rəbb
belə deyir:
"Mən sənin cavanlığındakı mehrini,
Gəlin olanda məhəbbətini,
Səhrada, ot bitməyən torpaqda
ardımca gəldiyini yadıma saldım.
3 Onda İsrail Rəbbə həsr olunmuşdu
Və Onun məhsulunun nübarı idi.
Onu udmaq istəyənlərin hamısı
mühakimə olunur,
Üstlərinə bəla gəlirdi" Rəbb belə
bəyan edir.
4 Ey Yaqub nəsli, ey İsrail nəslinin
bütün tayfaları,
Rəbbin sözünü eşidin,
5 Rəbb belə deyir:
"Atalarınız Məndə nə haqsızlıq
tapdılar ki,
Məndən uzaqlaşdılar və puç bütlər
ardınca getdilər,
Özləri də puç adam oldular.
6 Daha demədilər ki, Misir
torpağından bizi çıxaran,
Səhrada, uçurumlarla dolu boz
çöllərdə,
Ölüm kölgəsində qalan quraq
torpaqda,
Bir insanın keçmədiyi, heç kəsin
yaşamadığı
Diyarda gəzdirən Rəbb haradadır?
7 Mən sizi bərəkətli torpağa gətirdim
ki,
Onun meyvələrindən və
nemətlərindən dadasınız.
Ancaq siz oraya girən kimi torpağımı
murdar etdiniz,
Mülkümü iyrənc bir yerə çevirdiniz.
8 Kahinlər ‹Rəbbi axtaraq› demədilər,
Qanun müəllimləri Məni tanımadılar,
Rəhbərlər Mənə qarşı üsyan etdilər,
Peyğəmbərlər Baalın adı ilə
peyğəmbərlik etdilər,
Faydasız şeylərin dalınca getdilər".
9 Buna görə Rəbb belə bəyan edir:
"Mən yenə sizinlə çəkişəcəyəm,
Mən övladlarınızın övladları ilə də
çəkişəcəyəm.

---

*1:12 *Badam* – ibrani mətnində *şaqed* və *sayıq* – *şoqed*.

10 Siz Kittim* adalarına gedib görün,
Qedara† adam göndərib öyrənin.
Görün belə bir şey oldumu?
11 Bir millət allahlarını dəyişdirdimi?
Əslində onlar allah deyil.
Ancaq Mənim xalqım öz Calalını
faydasız bütlərə dəyişdi.
12 Ey göylər, siz buna heyrət edib
tir-tir əsin və dəhşətə gəlin”
Rəbb belə bəyan edir.
13 “Çünki xalqım iki pis əməl etdi:
Məni – axar suların mənbəyini atıb
Özlərinə hovuzlar, su saxlamayan
çatlı hovuzlar düzəltdilər.
14 Məgər İsrail quldur? Yoxsa o, kölə
doğulmuşdu?
Bəs nə üçün qarət malı oldu?
15 Onun üstünə cavan aslanlar
nərildədi və səslərini ucaltdılar.
Ölkəsini viran etdilər.
Şəhərləri yandı, bir nəfər sakin
qalmadı.
16 Nof və Taxpanxes sakinləri sənin
başını yardı.
17 Səni yolla aparan Allahın Rəbbi
tərk etməklə
Bu işi öz başına gətirmədinmi?
18 Bəs Şixor‡ suyundan içmək üçün
Misirə niyə gedirsən?
Fərat suyundan içmək üçün Aşşura
niyə gedirsən?
19 Səni öz pisliyin cəzalandıracaq,
Dönüklüyün töhmətini alacaqsan.
Sən də görüb bil ki, Allahın Rəbbi
atmağın,
Məndən qorxmamağın pis və acı
şeydir”
Ordular Rəbbi Xudavənd belə bəyan
edir.
20 “Sən boyunduruğunu ta qədimdən
qırdın, iplərini qopardın
Və ‹sənə qulluq etməyəcəyəm› dedin.
Üstəlik hər uca təpənin üstündə,
Hər kölgəli ağacın altında yerə sərilib
Bütlərə səcdə edərək Mənə xəyanət
etdin.
21 Mən səni gözəl meynə, tər-təmiz
toxum kimi əkmişdim.
Sən necə əleyhimə çıxıb cır, yabanı
meynə oldun?
22 İndi isə sən gilabı ilə yuyunsan,
çoxlu sabun əritsən də,
Yenə günahın önümdə ləkə kimi
qalacaq”
Xudavənd Rəbb belə bəyan edir.
23 “Axı necə deyə bilərsən ki, murdar
olmadım,
Baal bütlərinin ardınca getmədim?
Dərədə necə rəftar etdiyinə bax, nə
etdiyini gör.
Sən qızışan, ora-bura qaçan dişi dəvə
kimi,
24 Şəhvətlə havanı iyləyən, səhraya
öyrəşmiş vəhşi eşşək kimisən.
Qızanda onu kim saxlaya bilər?
Onu istəyənlər özlərini yormaz,
cütləşmə vaxtı onu tapar.
25 Ayaqyalın gəzmə, boğazın
susuzluqdan qurumasın.
Ancaq sən dedin: ‹Xeyr, olmaz!
Çünki mən yad allahları sevdim və
onların ardınca gedəcəyəm›.
26 Oğru tutulanda necə utanırsa,
İsrail nəsli də padşahları, başçıları,
kahinləri
Və peyğəmbərləri ilə birgə eləcə
utanırlar.
27 Onlar ağaca ‹atamsan›, daşa ‹bizi
sən doğdun› deyir.
Çünki Mənə tərəf üzlərini deyil,
arxalarını çevirdilər.
Ancaq üstlərinə bəla gələndə ‹qalxıb
bizi qurtar› deyirlər.

---

*2:10 *Kittim* – İsrailin qərbindəki ölkələr nəzərdə tutulur.
†2:10 *Qedar* – İsrailin şərqindəki ölkələr nəzərdə tutulur.
‡2:18 *Şixor* – Nil çayının qollarından biri.

[28] Bəs özün üçün düzəltdiyin bütlərin
haradadır?
Başına bəla gəldiyi vaxt səni qurtara
bilərlərsə, gəlsinlər.
Sənin allahların şəhərlərinin sayı
qədərdir, ey Yəhuda!
[29] Nə üçün Mənimlə çəkişirsiniz?
Hamınız Mənə qarşı üsyan etdiniz”
Rəbb belə bəyan edir.
[30] “Övladlarınızı nahaq yerə
cəzalandırdım,
Çünki onlar ibrət götürmədilər.
Öz qılıncınız qırıb-çatan aslan kimi
Peyğəmbərlərinizi tələf etdi”.
[31] Ey bu nəslin övladları, Rəbbin
sözünə diqqət edin:
“Məgər Mən İsrail üçün bir səhra
oldum?
Yaxud bir zülmət ölkəsi oldum?
Xalqım nə üçün deyir ki, biz
öz-özümüzə ağayıq,
Bir daha Sənə tərəf gəlmərik?
[32] Qız öz bəzəklərini, gəlin öz cehizini
unuda bilərmi?
Ancaq xalqım uzun müddət Məni
unutdu.
[33] Oynaşlarının ardınca düşməkdə nə
qədər mahirsən.
Ən pis arvadlar belə, səndən dərs ala
bilər.
[34] Sənin ətəklərin öldürdüyün
Məzlum, günahsız adamların qanına
bulaşıb,
Halbuki onları oğurluq üstündə
tutmadın.
Hələ bununla belə,
[35] Sən deyirsən: ‹Mən təqsirsizəm,
Rəbbin qəzəbi hökmən məndən yan
keçəcək›.
Bax Mən səni mühakimə edəcəyəm,
Çünki günah etmədiyini söyləyirsən.
[36] Nə üçün tez-tez dolanıb dönüklük
edirsən?
Aşşurda pərt olduğun kimi Misirdə də
pərt olacaqsan.
[37] Oradan da əllərinlə başını tutub
çıxacaqsan,
Çünki bel bağladıqlarını Rəbb rədd
etdi,
Onlarla uğur qazana bilməyəcəksən”.

Xəyanətkar İsrail

3 Əgər bir adam öz arvadını boşasa,
Arvad da onu tərk edib başqasına
ərə getsə,
O adam bir də arvadının yanına
qayıdarmı?
Belə etsə, ölkə də tamamilə murdar
olmazmı?
Sənsə çoxlu oynaşla zina etdin, yenə
də Mənə tərəf dönürsən?»
Rəbb belə bəyan edir.
[2] «Başını çılpaq təpələrə tərəf qaldırıb
bax.
Sevişmədiyin yer varmı?
Səhrada yaşayan bədəvi kimi
Yol kənarında oturdun və oynaşlarını
gözlədin.
Zinakarlığın və pisliklərinlə ölkəni
murdar etdin.
[3] Buna görə də yağışların ardı kəsildi
və yaz yağışı yağmadı.
Tərs sifətli fahişəyə oxşadın, utanmaq
istəmədin.
[4] İndi Məni “Atam, cavanlığımdan
bəri mənim dostumsan.
[5] Sən həmişə qəzəbli olacaqsan,
Əbədi kin saxlayacaqsanmı?” deyə
çağırırsan.
Belə danışırsan, amma gücün çatdığı
qədər pislik edirsən».
[6] [m]Yoşiyanın padşahlığı dövründə
Rəbb mənə dedi: «Dönük İsrailin nə
etdiyini gördünmü? Hər uca təpənin
üstünə, kölgəli ağacın altına gedib orada
bütlərə səcdə edərək Mənə xəyanət
etdi. [7] İsrail bütün bunları edəndən

---

[m]**3:6** 2Pad. 22:1–23:30; 2Saln. 34:1–35:27

sonra “o Mənə tərəf qayıdacaq” dedim,
ancaq o qayıtmadı. Xəyanətkar bacısı
Yəhuda da bunu gördü. 8 Dəfələrlə zina
etdiyi üçün dönük İsrailə talaq kağızı
verib onu boşadım. Ancaq gördüm ki,
onun xəyanətkar bacısı Yəhuda yenə
qorxmadı, o da gedib fahişəlik etdi.
9 Heç əhəmiyyət vermədən zinakarlığı
ilə ölkəni murdar etdi, daşlara və
ağaclara səcdə edib xəyanət etdi.
10 Bütün bunlara baxmayaraq onun
xəyanətkar bacısı Yəhuda Mənə bütün
qəlbi ilə deyil, hiylə ilə üz tutdu» Rəbb
belə bəyan edir.
11 Rəbb mənə dedi: «Dönük İsrail
xain Yəhuda ilə müqayisədə daha saleh
oldu. 12 Get, bu sözləri şimal səmtinə
elan edib söylə: “Ey dönük İsrail, geri
qayıt” Rəbb belə bəyan edir. “Sənə
qəzəblə baxmayacağam, çünki Mən
mərhəmətliyəm” Rəbb belə bəyan edir.
“Əbədi kin saxlamaram. 13 Ancaq sən öz
təqsirini boynuna al ki, Allahın Rəbbə
qarşı üsyan etdin, hər kölgəli ağacın
altında yad allahlara könül verdin və
Mənim sözümə qulaq asmadınız” Rəbb
belə bəyan edir.
14 “Ey dönük övladlar, geri
qayıdın” Rəbb belə bəyan edir.
“Çünki ağanız Mənəm. Sizi bir-bir
şəhərdən, iki-iki tayfadan çıxarıb
Siona gətirəcəyəm. 15 Ürəyimə yatan
çobanları sizə verəcəyəm, sizə ağıl
və müdrikliklə rəhbərlik edəcəklər.
16 Sizin törəyib çoxaldığınız günlərdə
daha Rəbbin Əhd sandığından
danışmayacaqlar” Rəbb belə bəyan
edir. “O sandıq bir daha kimsənin
ağlına gəlməyəcək, yada salınmayacaq,
onun üçün heyfsilənməyəcəklər, yenisi
də düzəldilməyəcək. 17 O zaman
Yerusəlimə ‹Rəbbin taxtı› deyəcəklər.
Bütün millətlər Rəbbin adı naminə
Yerusəlimdə toplaşacaq. Daha pis
ürəklərinin inadkarlığına görə hərəkət
etməyəcəklər. 18 O günlərdə Yəhuda
nəsli İsrail nəsli ilə birləşib şimal
ölkəsindən atalarınıza irs olaraq
verdiyim torpağa birgə gələcək”.
19 Mən dedim:
“Necə də istərdim, səni oğullarımın
arasına qoyum,
Sənə füsunkar torpağı – millətlər
arasında ən gözəl irsi verim!
Güman etdim ki, Məni ‹Ata› deyə
çağıracaqsınız,
Məndən üz döndərməyəcəksiniz.
20 Bir arvad öz ərinə xəyanət edirsə,
Siz də Mənimlə eləcə xəyanətlə rəftar
etdiniz, ey İsrail nəsli!”
Rəbb belə bəyan edir.
21 “Çılpaq təpələr üzərində bir səs –
İsrail övladlarının
Ağlaşma və yalvarışları eşidilir,
Çünki onlar yollarını azdı,
Özlərinin Allahı Rəbbi unutdu.
22 Geri qayıdın, ey dönük övladlar,
Dönüklüyünüzə şəfa verim”.
Onlar da deyəcək:
“Budur, biz Sənə tərəf gəlirik,
Çünki Allahımız Rəbb Sənsən.
23 Doğrudan da, təpələrdən, dağlardan
gələn
Hay-küy yalandır.
Əslində İsrailin xilası
Allahımız Rəbdədir.
24 Cavanlığımızdan bəri
Rüsvayçı bütlər
Atalarımızın zəhmətini,
Sürülərini və mal-qaralarını,
Oğullarını və qızlarını tələf etdi.
25 Biz xəcalətimiz içində yatırıq,
Rüsvayçılıq bizim yorğanımızdır,
Çünki cavanlığımızdan indiyədək
Biz və atalarımız
Allahımız Rəbbə qarşı günah etdik,
Allahımız Rəbbin sözünə qulaq
asmadıq”».
4 Rəbb bəyan edir: «Ey İsrail, əgər
geri qayıtsan,
Mənə tərəf qayıtsan,
İyrənc bütlərini önümdən götürsən,

Bir daha sərgərdan gəzməsən,
2 Həqiqət, ədalət və doğruluqla
“Var olan Rəbbə and olsun!” deyə and
içsən,
O zaman millətlər
Rəbb vasitəsilə bərəkət alacaq,
Onunla öyünəcək».
3 [n]Çünki Yəhuda adamlarına və
Yerusəlimə
Rəbb belə deyir:
«Özünüz üçün təzə əkin yeri şumlayın,
Ancaq tikanlar arasında əkməyin.
4 Ey Yəhuda adamları və Yerusəlimdə
yaşayanlar,
Özünüzü Rəbb üçün sünnət edin,
Ürəyinizin sünnət ətini kəsin.
Yoxsa pis əməllərinizə görə
Qəzəbim od kimi püskürüb
yandıracaq,
Söndürən olmayacaq.

Yəhudaya hücum

5 Yəhudada elan edin,
Yerusəlimdə car çəkib deyin:
“Ölkədə şeypur çalın!”
Ucadan qışqırıb söyləyin:
“Gəlin toplanıb
Qalalı şəhərlərə girək!”
6 “Siona qaçın” deyə bayraq qaldırın,
Qaçıb qurtulun, dayanmayın.
Çünki Mən şimaldan
Bəla və böyük qırğın gətirəcəyəm».
7 Aslan yuvasından çıxdı,
Millətləri məhv edən yola düşdü.
Öz yerindən çıxdı ki,
Ölkənizi viran etsin.
Şəhərləriniz yerlə yeksan olacaq,
Orada sakin qalmayacaq.
8 Buna görə də çul geyinin,
Yas tutub ağlayın.
Çünki Rəbbin qızğın qəzəbi
Bizdən dönmədi.
9 «O gün padşahın və başçıların
Ürəyi gedəcək» Rəbb belə bəyan edir.
«Kahinlər çaşacaq,
Peyğəmbərlər karıxacaq».
10 Mən dedim: «Ah, ey Xudavənd
Rəbb! Bu xalqı və Yerusəlimi tamamilə
aldatdın. “Sizin üçün əmin-amanlıq
olacaq” dedin, halbuki qılınc boğazımıza
dirəndi».
11 O vaxt bu xalqa və Yerusəlimə
deyiləcək: «Səhradakı çılpaq təpələrdən
əziz xalqıma tərəf isti bir külək əsir.
Bu külək dən sovurmayacaq, taxıl
təmizləməyəcək. 12 Mənim əmrimlə
bundan da güclü bir külək əsəcək
və Mən indi onlara Öz hökmümü
bildirəcəyəm».
13 Budur, düşmən buludlar kimi gəlir,
Onun döyüş arabaları qasırğa kimi
yüksəlir,
Atları qartallardan iti gedir.
Vay halımıza! Çünki bərbad olduq.
14 Ey Yerusəlim, ürəyini pislikdən
yuyub-təmizlə ki, xilas olasan.
Bəd fikirlərin nə vaxta qədər içində
qalacaq?
15 Artıq Dandan bir səs gəlir,
Efrayimin dağlıq bölgəsindən bəd
xəbər eşidilir.
16 «Millətlərə elan edin, Yerusəlimə
xəbər çatdırın ki,
Uzaq bir ölkədən gələn qoşun onu
mühasirəyə alacaq,
Yəhuda şəhərlərinin önündə nərə
çəkəcək.
17 Onlar tarla nəzarətçiləri kimi hər
tərəfdən şəhərə doğru gəlir,
Çünki o Mənə qarşı üsyan etdi» Rəbb
belə bəyan edir.
18 «Bunları sənin başına gətirən öz
işlərin, öz əməllərindir.
Cəzanın acısı lap ürəyinə çatıb.
19 Ah, sinəmdəki dərdim!
Əzabdan qıvrılıram.
Ah, qəlbim, qəlbim çırpınır, susa
bilmirəm.

---

[n]**4:3** Huşə 10:12

Çünki, ey canım, şeypur səsini, döyüş
nərəsini eşidirəm.
20 Qırğın üstünə qırğın gəlir,
Bütün ölkə xaraba qalıb.
Çadırlarım qəflətən,
Pərdələrim bir anda dağıldıldı.
21 Nə vaxta qədər bayraq görəcəyəm,
Boru səsi eşidəcəyəm?
22 Həqiqətən, xalqım ağılsızdır,
Məni tanımır.
Onlar cahil övladlardır,
Dərrakələri yoxdur,
Ağılları pislik etməyə çatır,
Yaxşılıq etməyin nə olduğunu
bilmirlər.
23 Yer üzünə baxdım,
Quruluşsuz və boşdur.
Göylərə baxdım,
İşıqları yoxdur.
24 Dağlara baxdım, titrəyirdilər,
Bütün təpələr yerlərindən qopurdu.
25 Baxıb gördüm ki, bir adam
qalmayıb,
Göydəki quşların hamısı uçub
getmişdir.
26 Baxıb gördüm ki, bəhərli torpaq
Səhraya çevrilib,
Rəbbin önündə bütün şəhərləri
Onun qızğın qəzəbi ilə dağılıb».
27 Bəli, Rəbb belə deyir:
«Bütün ölkə viran olacaq,
Ancaq tam məhv olmasına yol
verməyəcəyəm.
28 Buna görə yer yas tutacaq,
Yuxarıda göylər qaralacaq,
Çünki bunu Mən demişəm,
Fikrimdən daşınmayacağam,
Sözümdən dönməyəcəyəm.
29 Bütün şəhərlərin əhalisi
Süvarilərin və oxatanların
Gurultusundan qaçacaq.
Onlar sıx meşələrə girir,
Qayalara dırmaşır.
Bütün şəhərlər tərk edilmiş,
Orada kimsə yaşamır.
30 Bəs sən ey viran şəhər, nə
edəcəksən?
Qırmızı paltar geyinsən də,
Qızıl bəzəklər taxsan da,
Gözlərinə sürmə sürtsən də,
Əbəs yerə özünü bəzəyirsən.
Sənə oynaşların xor baxır,
Canını almaq istəyir.
31 Mən bir səs eşidirəm:
Sanki doğuş ağrısı çəkən,
Birinci dəfə doğan qadının –
Əllərini uzatmış,
Nəfəsi kəsilmiş Sion qızının səsidir.
O deyir: “Vay halıma!
Qatillərin önündə
Canım taqətdən düşdü”.

Yerusəlimin günahı

5 Yerusəlimin küçələrini dolaşın,
Ətrafa baxıb fikirləşin,
Onun meydanlarını axtarın.
Əgər bir nəfər düz iş görən,
Həqiqət axtaran adam tapsanız,
Mən şəhəri bağışlayaram.
2 Onlar “var olan Allaha and olsun”
desələr də,
Yalandan and içirlər».
3 Ya Rəbb, gözlərin həqiqətə tərəf
yönəlməyibmi?
Sən onları vurdun,
Ancaq ağrı hiss etmədilər.
Sən onları qırdın,
Ancaq ibrət götürmədilər.
Üzləri qayadan bərk olub,
Dönmək istəmədilər.
4 Mən dedim: «Bunlar ancaq yoxsul,
ağılsız avamlardır,
Çünki Rəbbin yolunu,
Özlərinin Allahının hökmlərini
bilmirlər.
5 Qoy mən böyüklərin yanına gedib
Onlarla danışım,
Çünki Rəbbin yolunu,
Özlərinin Allahının hökmlərini
bilirlər».
Ancaq onlar da boyunduruğu sındırıb

İpləri qopardılar.
6 Buna görə də meşədən bir aslan çıxıb
Onları öldürəcək,
Səhradan qurd gəlib onları parçalayacaq,
Şəhər kənarında bəbir pusqu quracaq,
Şəhərdən çıxan hər adam parçalanacaq.
Çünki çox üsyan etdilər,
Dəfələrlə dönük oldular.
7 «Buna görə səni necə bağışlaya bilərəm?
Övladların Məni tərk etdi,
Allah olmayan bütlərin adı ilə and içdi.
Mən onları doydurdum,
Amma onlar zina etdi,
Fahişələrin evlərinə yığışdı.
8 Onlar harınlaşmış, şəhvətli atlar kimidir.
Hər biri qonşusunun arvadına kişnəyir».
9 Rəbb bəyan edir: «Bunlara görə
Mən onlara cəza verməyimmi?
Belə bir millətdən qisas almayımmı?
10 Onların bağlarını dolaşıb dağıdın,
Amma büsbütün məhv etməyin.
Meynə budaqlarını qoparıb atın,
Çünki onlar Rəbbə məxsus olmayan insanlardır».
11 Rəbb bəyan edir: «İsrail və Yəhuda nəsli
Mənə tamamilə xəyanət etdi.
12 Onlar Rəbb üçün yalandan dedi:
"O heç nə etməz,
Başımıza bəla gəlməz.
Nə qılınc görəcəyik, nə aclıq".
13 Peyğəmbərlər boşboğazdır.
Allahın sözü onlarda deyil,
Qoy onların başına bu iş gəlsin».
14 Buna görə də Ordular Allahı Rəbb belə deyir:
«Belə sözlər dedikləri üçün,
Ey Yeremya, sözlərimi sənin ağzında atəşə,
Bu xalqı isə oduna çevirəcəyəm,
Atəş onları yandırıb-qurtaracaq».
15 Rəbb bəyan edir: «Ey İsrail xalqı,
Uzaqdan üstünüzə bir millət gətirəcəyəm.
Dilini bilmədiyin,
Dediklərini anlamadığın
Güclü, qədim bir millət.
16 Onların oxdanları
Açıq qəbir kimidir,
Hamısı igid döyüşçüdür.
17 Onlar sənin məhsul və çörəyini yeyəcək.
Oğul və qızlarını yeyəcək,
Sürü və naxırlarını yeyəcək,
Meynə və əncir ağaclarını yeyəcək.
Güvəndiyin qalalı şəhərləri
Qılıncla dağıdacaq».
18 Ancaq Rəbb bəyan edir:
«Hətta o günlər sizi tamamilə qırıb-çatmayacağam. 19 Bir vaxt onlar soruşacaq: "Nə üçün Allahımız Rəbb bütün bunları başımıza gətirdi?" Onda onlara belə söylə: "Necə Məni tərk edərək öz ölkənizdə yad allahlara xidmət etdinizsə, eləcə də özgə ölkədə yadellilərə xidmət edəcəksiniz".
20 Bunu Yaqub nəslinin içində bildirin,
Yəhudada elan edin.
21 [o]Ey gözləri olub görməyən,
Qulaqları olub eşitməyən,
Ağılsız və dərrakəsiz xalq,
Bu sözə qulaq asın!
22 [p]Məndən qorxmursunuzmu?» Rəbb belə bəyan edir.
«Mənim qarşımda titrəmirsinizmi?
Axı Mən əbədi qayda ilə
Dəniz üçün qumu sərhəd qoydum,
Dəniz bu sərhədi keçə bilməz.
Dalğaları coşsa da,
Üstün gələ bilməz.
Nərə çəksə də, keçə bilməz.

---

[o]**5:21** Yeş. 6:9-10; Yez. 12:2; Mark 8:18-19 [p]**5:22** Əyy. 38:8-11

23 Bu xalqın ürəyi inadlı və
üsyankardır.
Onlar azıb öz yolları ilə getdi.
24 Daha öz-özlərinə demirlər ki,
Payız və yaz yağışlarını vaxtında
verən,
Müəyyən biçin həftələrini bizim üçün
qoruyan
Allahımız Rəbbə sitayiş edək.
25 Təqsirləriniz bunları sizdən aldı,
Günahlarınız sizi bu nemətdən
məhrum etdi.
26 Mənim xalqımın içində pis adamlar
var:
Quş ovçuları kimi pusquda dururlar,
Tələ qurub adam tuturlar.
27 Quşlarla dolu qəfəs kimi
Onların evləri hiylə ilə doludur.
Bunun sayəsində yüksəldilər,
varlandılar.
28 Onlar piylənib, yoğunlaşıb,
Pis işlərlə hədlərini aşıb,
Məhkəmə işlərini,
Yetimlərin işlərini
Ədalətlə həll etmirlər ki,
Qalib gəlsinlər.
Yoxsulların haqqını müdafiə
etmirlər».
29 Rəbb bəyan edir:
«Bunlara görə Mən onlara cəza
verməyimmi?
Belə bir millətdən qisas almayımmı?
30 Bu ölkədə heyrətli və dəhşətli bir iş
oldu:
31 Peyğəmbərlər yalandan
peyğəmbərlik edir,
Kahinlər onların əli ilə hökmranlıq
edir.
Xalqım da bunu bəyənir.
Amma axırda nə edəcəksiniz?»

Yerusəlimin mühasirəsi

6 Ey Binyamin övladları,
Yerusəlimin içindən qaçıb qurtarın.
Teqoada şeypur çalın,
Bet-Hakkeremdə odla işarə verin,
Çünki şimaldan fəlakət,
Böyük qırğın zahir olur.
2 Mən gözəl və zərif qızı –
Sion qızını talan edəcəyəm.
3 Çobanlar öz sürüləri ilə
Ona qarşı gələcək,
Hər tərəfdən onun önündə çadır
quracaq.
Hər kəs öz yerində sürüsünü otaracaq.
4 Sion qızı ilə döyüşə hazırlaşın!
Qalxın, günorta çağı hücum edək!
Vay halımıza!
Gün tutqunlaşır,
Axşam kölgələri uzanır.
5 Qalxın, gecə vaxtı hücum edək!
Onun imarətlərini dağıdaq!
6 Ordular Rəbbi belə dedi:
«Ağac kəsin,
Yerusəlimin önündə torpaq qalağı
qurun.
Bu şəhər cəzalanmalıdır,
Çünki zorakılıqla dolub-daşır.
7 Bir bulaqdan necə su axarsa,
Bu şəhərdən də eləcə pislik fışqırır.
İçində zorakılıq və soyğunçuluq səsi
eşidilir.
Önümdə həmişə dərd və yara
görürəm.
8 Ey Yerusəlim, ibrət al,
Yoxsa səndən üz döndərərəm,
Səni xarabaya, əhalisiz torpağa
çevirərəm».
9 Ordular Rəbbi belə deyir:
«Tənəkdən son üzümlər yığılan kimi
İsrailin qalan əhalisi də
Yığılıb qurtaracaq.
Üzümyığan kimi
Yenə meynə budaqlarına əlini uzat».
10 Kiminlə danışım,
Kimə xəbərdarlıq edim ki, qulaq
assın?
Axı qulaqları tıxanıb,
Eşidə bilmirlər.
Onların arasında Rəbbin sözünə lağ
edilir,
Ondan xoşları gəlmir.

11 Buna görə də mən Rəbbin qəzəbi
ilə dolmuşam,
Özümü ələ almaqdan yorulmuşam.
«Qəzəbini küçədə olan uşaqların,
Yığılan cavanların üzərinə tök.
Bəli, ər də, arvad da,
Qoca da, yaşa dolmuş adam da ələ
keçəcək.
12 [q]Evləri, tarlaları və arvadları da
Başqalarına qalacaq.
Çünki əlimi ölkədə yaşayanlara qarşı
uzadacağam»
Rəbb belə bəyan edir.
13 «Ona görə ki böyüyündən kiçiyinə
qədər
Hər kəs haram qazanc dalınca qaçır.
Peyğəmbərdən kahinə qədər hər kəs
hiylə qurur.
14 [r]Xalqımın yarasını yüngülcəsinə
müalicə edirlər,
“Sülh, sülh” deyirlər,
Amma sülh yoxdur.
15 İyrənc işlər görəndə utanırlarmı?
Yox, heç utanmırlar,
Utanıb qızarmaq bilmirlər.
Buna görə yıxılanlar arasında
Onlar da olacaq.
Mən onları cəzalandıranda
Yerə səriləcəklər» deyir Rəbb.
16 [s]Rəbb belə deyir:
«Yolayrıcında dayanıb baxın,
Əzəldən olan yolları soruşun.
Yaxşı yolun harada olduğunu öyrənin,
O yolla gedin.
Onda ürəyiniz dinclik tapar.
Ancaq siz “o yolla getməyəcəyik”
dediniz.
17 Mən sizin üzərinizə
Gözətçilər qoyub dedim:
“Şeypur səsinə qulaq asın!”
Ancaq siz “qulaq asmayacağıq”
dediniz.
18 Buna görə də, ey millətlər, qulaq
asın,
Ey camaat, bilin ki,
Onların başına nə gələcək.
19 Eşit, ey yer üzü,
Mən bu xalqın başına fəlakət
gətirəcəyəm.
Bu onların niyyətlərinin bəhrəsi
olacaq.
Çünki Mənim sözlərimə qulaq
asmadılar,
Mənim qanunumu rədd etdilər.
20 Səbadan gətirilən kündür,
Uzaq ölkədən gəlmiş ətirli qamış
Nəyimə lazımdır?
Yandırma qurbanlarınız Mənə məqbul
deyil,
Başqa qurbanlarınız da Mənə xoş
deyil».
21 Buna görə də Rəbb belə deyir:
«Mən bu xalqın qabağına
Maneələr qoyacağam.
Atalar və oğullar birlikdə
Onlara ilişib yıxılacaq.
Qonşu dostu ilə birgə həlak olacaq».
22 Rəbb belə deyir:
«Budur, şimal ölkəsindən
Bir xalq gəlir,
Dünyanın uzaq yerlərindən
Böyük bir millət hərəkətə gəlir.
23 Onlar əllərində ox-kaman və nizə
tutub,
Rəhmsizdirlər, heç kəsə acımırlar.
Səsləri dəniz kimi gurlayır,
Atlara miniblər.
Onlar yekdilliklə sənin lə
Müharibəyə hazırdır, ey Sion qızı!»
24 Onlar haqqında xəbər eşitdik,
Əllərimiz yanımıza düşdü.
Doğan qadın kimi bizi
Sıxıntı və əzab bürüdü.
25 Çölə çıxma, yola düşmə,
Çünki düşməndə qılınc,
Hər tərəfdə dəhşət var.
26 Ey əziz xalqım!
Çul geyin və küldə yuvarlan.

---

[q] **6:12** Yer. 8:10-12 [r] **6:14** Yer. 8:11; Yez. 13:10 [s] **6:16** Mat. 11:29

Vahid oğluna yas tutan kimi
Yas tutub acı-acı ağla.
Çünki məhv edən qəflətən başımızın
üstünü alacaq.
27 Rəbb deyir: «Ey Yeremya, Mən səni
qoydum ki,
Xalqımı yoxlayıb imtahan edəsən,
Onlara nəzər qoyub əməllərini
sınayasan.
28 Hamısı inadkar dönükdür,
Böhtançılar kimi dolaşan adamlardır.
Tunc və dəmir kimi sərtdirlər,
Hamısı pozğun olub.
29 Körük basılır,
Atəşində qurğuşun əriyir.
Ancaq dəmirçi nahaq yerə əridir,
Çünki pislər ayrılmır.
30 Onlara isə "atılmış gümüş"
deyəcəklər,
Çünki Rəbb onları atdı».

Məbəddə bütpərəstlik

7 Rəbdən Yeremyaya bu söz nazil
oldu: 2 «Rəbbin məbədinin qapısında
dur və orada bu sözü elan edib söylə ki,
ey bütün Yəhuda, Rəbbə ibadət etmək
üçün bu qapılardan girənlər, Rəbbin
sözünə qulaq asın. 3 İsrailin Allahı olan
Ordular Rəbbi belə deyir: "Yollarınızı
və əməllərinizi islah edin ki, Mən sizi
bu yerdə yaşamağa qoyum. 4 ‹Burada
Rəbbin məbədi var, Rəbbin məbədi
var, Rəbbin məbədi var› deyib yalan
sözlərə güvənməyin. 5 Əgər yollarınızı
və əməllərinizi tamamilə islah etsəniz,
bir-birinizlə, həqiqətən, ədalətlə rəftar
etsəniz, 6 qəribə, yetimə və dul qadına
zülm etməsəniz, bu yerdə günahsız
qan tökməsəniz, özünüzə zərər vuraraq
başqa allahların tərəfdarı olmasanız,
7 o zaman burada əbədilik atalarınıza
verdiyim torpaqda sizi yaşamağa
qoyacağam.
8 Siz isə faydasız olan yalan sözlərə
güvənirsiniz. 9 Siz oğurluq edirsiniz,
adam öldürürsünüz, zina edirsiniz,
yalandan and içirsiniz, Baal bütlərinə
buxur yandırır, tanımadığınız başqa
allahların tərəfdarı olursunuz. 10 Sonra
bütün bu iyrənc işləri görmək
üçün Mənim adımla çağırılan bu
məbədə gəlib önümdə durur və
‹biz əmin-amanlıqdayıq› deyirsiniz.
11 [t]Mənim adımla çağırılan bu məbəd,
sizcə, quldur yuvasına çevrildimi?
Amma Mən nə etdiyinizi görürəm"
Rəbb belə bəyan edir.
12 [u]"İndi adımı ilk dəfə qoyduğum
Şilodakı məskənimə gedin və xalqım
İsrailin pisliyinə görə ona nə etdiyimi
görün". 13 Rəbb bəyan edir: "Siz
bütün bu işləri gördünüz, dəfələrlə
xəbərdarlıq etdiyim halda Mənə qulaq
asmadınız, sizi çağırdığım halda cavab
vermədiniz. 14 Buna görə də Şilo ilə
necə rəftar etdimsə, Mənim adımla
çağırılan, güvəndiyiniz məbədlə, sizə
və atalarınıza verdiyim bu yerlə də elə
rəftar edəcəyəm. 15 Efrayim nəslindən
olan soydaşlarınızı necə rədd etdimsə,
sizi də eləcə önümdən rədd edəcəyəm.
16 Sən isə, ey Yeremya, bu xalq üçün
dua etmə, onlar üçün yalvarıb xahiş
etmə və önümdə mərhəmət istəmə,
çünki sözünə qulaq asmayacağam.
17 Yəhuda şəhərlərində, Yerusəlim
küçələrində onların nə etdiklərini
görmürsənmi? 18 Uşaqlar odun yığır,
ataları od yandırır, qadınlar Göylər
Mələkəsinə xəmir yoğurub kökə bişirir.
Onlar başqa allahlara içmə təqdimləri
verir ki, Məni qəzəbləndirsinlər".
19 Rəbb bəyan edir: "Onlar Mənimi
incidirlər? Məgər özlərini rüsvay
etmirlərmi?" 20 Buna görə də Xudavənd
Rəbb belə deyir: "Bax bu yerin,

---

[t] **7:11** Mat. 21:13; Mark 11:17; Luka 19:46
[u] **7:12** Yeşua 18:1; Zəb. 78:60; Yer. 26:6

insanların, heyvanların, çöl ağaclarının,
torpağın məhsulu üzərinə qəzəbim
və qızğınlığım tökülləcək, alışıb
sönməyəcək”.
21 İsrailin Allahı olan Ordular Rəbbi
belə deyir: “Yandırma qurbanlarınızı
başqa qurbanlarınıza qatıb ət yeyin.
22 Çünki atalarınızı Misir torpağından
çıxaran vaxt yandırma qurbanı və başqa
qurban barədə onlara əmr etmədim və
bir söz demədim. 23 Ancaq onlara bunu
əmr edib dedim: ‹Sözümə qulaq asın.
Onda Mən sizin Allahınız olacağam,
siz də Mənim xalqım olacaqsınız.
Hər barədə sizə əmr etdiyim yolla
gedin ki, uğur qazanasınız›. 24 Ancaq
Məni eşitmədilər, qulaq asmadılar.
Bunun əvəzinə öz istəklərinə, pis
ürəklərinin inadkarlığına görə hərəkət
etdilər, irəliyə deyil, geriyə getdilər.
25 Atalarınız Misir torpağından
çıxdıqları gündən bu günə qədər Öz
qullarım olan peyğəmbərləri hər gün
dəfələrlə yanınıza göndərdim. 26 Amma
Məni eşitmədilər, qulaq asmadılar,
inadkarlıq etdilər, atalarından da pis
işlər gördülər.
27 Sən bütün bu sözləri onlara
söyləyəcəksən, ancaq sənə qulaq
asmayacaqlar, onları çağıracaqsan,
ancaq sənə cavab verməyəcəklər”.
28 Sən onlara söylə: “Bu həmin xalqdır
ki, öz Allahı Rəbbin sözünə qulaq asmır
və cəzadan ibrət almır. Onlarda həqiqət
yox oldu, həqiqətdən heç danışmırlar.
29 Ey Yerusəlim, saçını kəsib at,
Çılpaq təpələr üzərində mərsiyə oxu,
Çünki Rəbb qəzəbləndiyi nəsli
Rədd edib tərk etdi.
30 Ona görə ki Yəhuda övladları
gözümdə pis olan işlər gördü” Rəbb
belə bəyan edir. “Mənim adımla
çağırılan məbədə iyrənc bütlərini
qoyub oranı murdarladılar. 31 [v]Onlar
oğul və qızlarını odda yandırmaq
üçün Ben-Hinnom vadisindəki Tofetdə
səcdəgahlar düzəltdilər. Mən belə
bir şeyi nə buyurdum, nə də ağlıma
gətirdim”».
32 Rəbb bəyan edir: «Buna görə də
bir gün gələcək ki, oraya Tofet yaxud
Ben-Hinnom vadisi deyil, Qırğın vadisi
deyiləcək. Tofetdə yer qalmayana
qədər ölüləri basdıracaqlar. 33 [w]Bu
xalqın cəsədləri göydəki quşlara,
yerdəki heyvanlara yem olacaq,
onları qorxudub qaçıran olmayacaq.
34 [x]Yəhuda şəhərlərində, Yerusəlim
küçələrində sevinc və şadlıq sədasını,
bəy-gəlin səsini kəsəcəyəm, çünki ölkə
viran olacaq».
8 Rəbb bəyan edir: «O vaxt Yəhuda
padşahlarının və başçılarının,
kahinlərinin, peyğəmbərlərin və
Yerusəlimdə yaşayanların sümüklərini
qəbirlərindən çıxarıb atacaqlar.
2 Onların sümükləri sevdikləri, qulluq
etdikləri, tərəfdarı olduqları, müraciət
və səcdə etdikləri günəşin, ayın və bütün
səma cisimlərinin önünə tökülləcək.
Onlar bir yerə yığılıb basdırılmayacaq,
torpağın üstündə peyin kimi olacaq.
3 [y]Bu pis tayfadan sağ qalanların hamısı
sürgün etdiyim hər yerdə həyatı yox,
ölümü seçəcək» Ordular Rəbbi belə
bəyan edir.

Günah və mükafat

4 Onlara söyləyəcəksən ki, Rəbb belə
deyir:
«Yıxılanlar qalxmazmı?
Yoldan azan geri qayıtmazmı?
5 Bəs nə üçün bu xalq yoldan azdı?
Nə üçün Yerusəlim daim dönüklük
edir?
Onlar yalandan bərk yapışıb,

---

[v]**7:31** Lev. 18:21; 2Pad. 23:10; Yer. 32:35 [w]**7:33** Qanun. 28:26
[x]**7:34** Yer. 16:9; 25:10; Vəhy 18:23 [y]**8:3** Əyy. 3:21; Vəhy 9:6

Dönmək istəmir.
6 Mən diqqət edib qulaq asdım:
Heç kəs düz danışmır,
“Nə etdim?” deyib öz pisliyindən
tövbə etmir.
Hər biri döyüşə atılan at kimi
Öz yoluna tərəf dönür.
7 Hətta göydə uçan leylək də
Öz vaxtını bilir,
Qumru, qaranquş, durna da
Uçub gələcəkləri vaxtı gözləyir,
Amma Mənim xalqım Rəbbin
hökmlərini bilmir.
8 Nə haqla deyirsiniz ki, biz müdrikik,
Rəbbin Qanunu bizdədir?
Budur, alimlərin hiyləgər qələmi
Onu yalan şərh edir.
9 Müdriklər rüsvay oldu,
Çaşıb tora düşdü.
Onlar Rəbbin sözünü rədd etdi.
Bəs onların müdrikliyi nədədir?
10 [z]Buna görə də arvadlarını başqa
adamlara,
Tarlalarını isə başqa sahiblərə
verəcəyəm,
Ona görə ki böyükdən kiçiyə qədər
Hər kəs haram qazanc dalınca qaçır.
Peyğəmbərdən kahinə qədər
Hər biri yalan iş görür.
11 [a]Əziz xalqımın yarasını
Yüngülcəsinə müalicə edirlər.
“Sülh, sülh” deyirlər,
Amma sülh yoxdur.
12 İyrənc işlər görəndə utanırlarmı?
Yox, heç utanmırlar,
Utanıb-qızarmaq bilmirlər.
Buna görə yıxılanlar arasında
Onlar da olacaq.
Onları cəzalandırdığım vaxt
Yerə səriləcəklər» deyir Rəbb.
13 «Onları qırıb-çatacağam»
Rəbb belə bəyan edir.
«Tənək üzüm gətirməyəcək,
Əncir ağacı bar verməyəcək,
Yarpaqlar solacaq.
Mən onlara nə verdimsə,
Hamısı əllərindən alınacaq».
14 «Nə üçün yerimizdə oturmuşuq?
Yığılın, gedib qalalı şəhərlərə girək,
Orada həlak olaq,
Çünki Allahımız Rəbb
Bizi ölümə təslim etdi,
Bizə zəhərli su içirdi,
Ona görə ki Rəbbə qarşı günah etdik.
15 Sülh gözləyirik, amma xeyir gəlmir.
Şəfa vaxtını gözləyirik,
Amma dəhşət gəlir.
16 Dandan onların atlarının fınxırtısı
eşidilir,
Ayğırlarının kişnəmə səsindən
Bütün ölkə titrəyir.
Onlar gəlir,
Torpağı və orada olan hər şeyi,
Şəhəri və orada yaşayanları
yeyib-qurtarır.
17 Baxın Mən üstünüzə ilanlar,
Ovsunla ram olmayan gürzələr
göndərəcəyəm,
Onlar sizi sancacaq» Rəbb belə bəyan
edir.

Yeremyanın xalqın taleyi üçün narahatlığı

18 Dərdimə təsəlli yoxdur,
Ürəyim köksümdə taqətsizdir.
19 Baxın uzaq ölkədən
Əziz xalqımın fəryadını eşidirəm:
«Məgər Rəbb Sionda yoxdur?
Onun padşahı orada deyilmi?
Onlar nə üçün oyma bütləri,
Yad olan puç şeyləri ilə
Məni qəzəbləndirirlər?
20 Biçin sona çatdı, yay qurtardı,
Biz xilas olmadıq».
21 Əziz xalqımın yarasından
Mən də yaralandım,
Yas tutub dəhşətə gəldim.
22 Məgər Gileadda məlhəm yoxdur?

---

[z]**8:10** Yer. 6:12-15 [a]**8:11** Yer. 6:14; Yez. 13:10

Orada həkim yoxdur?
Əgər varsa,
Əziz xalqıma nə üçün şəfa verilmədi?
9 Kaş ki başım bulaq olaydı,
Gözlərim yaş çeşməsinə dönəydi,
Əziz xalqımdan öldürülənlərə
Gecə-gündüz yas tutaydım.
2 Kaş ki kimsə mənə səhrada
Səyyahların sığınacağını verəydi!
Mən xalqımı tərk edib
Onlardan uzaqlaşardım.
Çünki onların hamısı
Zinakar və xain yığınıdır.
3 «Dillərini yalan üçün
Kaman kimi dartırlar.
Həqiqət naminə güc göstərmirlər.
Çünki pisliyi pislik dalınca edirlər,
Məni tanımırlar» Rəbb belə bəyan edir.
4 «Hər kəs dostundan çəkinsin,
Heç qardaşına da etibar etməsin.
Çünki hər qardaş başqasına badalaq gəlir,
Hər dost böhtançıdır.
5 Hər kəs öz dostunu aldadır,
Doğru söyləmir.
Onlar dillərini yalan danışmağa öyrətdi,
Yorulana qədər günah işlətdi.
6 Ey Yeremya, hiylə içində yaşayırsan,
Hiylədən ötrü Məni tanımaq istəmirlər»
Rəbb belə bəyan edir.
7 Buna görə də Ordular Rəbbi belə deyir:
«Mən onları əridəcəyəm,
Sınaqdan keçirəcəyəm.
Axı Mən əziz xalqımla
Başqa cür necə rəftar edə bilərəm?
8 Dilləri öldürücü oxdur,
Məkrlə danışırlar.
Ağzı ilə qonşusuna xoş sözlər söyləyir,
Ürəyində isə ona tələ qururlar».
9 Rəbb bəyan edir:
«Bunlara görə Mən onlara cəza verməyimmi?
Belə bir millətdən qisas almayımmı?»
10 Dağlar üçün ağlayıb nalə çəkəcəyəm,
Çölün otlaqları üçün mərsiyə oxuyacağam.
Çünki hamısı yandı,
Daha kimsə oradan keçmir,
Naxırın böyürtüsü eşidilmir.
Quşlar və heyvanlar da qaçıb getdi.
11 «Yerusəlimi daş qalaqlarına,
Çaqqal yuvasına döndərəcəyəm.
Yəhuda şəhərlərini
Sakinsiz bir xarabalığa çevirəcəyəm» deyir Rəbb.
12 Bir müdrik adam varmı, bunu anlasın? Rəbbin dili ilə danışan bir adam varmı, bunu izah etsin? Niyə bu ölkə məhv oldu, səhra kimi yandı və heç kəs oradan keçmir? 13 Rəbb deyir: «Ona görə belə oldu ki, onlar üçün qoyduğum qanunumu rədd etdilər, sözümə qulaq asıb əməl etmədilər, 14 ürəklərinin inadkarlığına görə rəftar etdilər və atalarının öyrətdiyi kimi Baal bütlərinə itaət etdilər. 15 [b]Buna görə də İsrailin Allahı olan Ordular Rəbbi belə deyir: “Mən bu xalqa yovşan yedirəcək, zəhərli su içirəcəyəm. 16 Onları özlərinin və atalarının tanımadıqları millətlər arasına səpələyəcəyəm. Onları məhv edənədək arxalarınca qılınc göndərəcəyəm”».
17 Ordular Rəbbi belə deyir:
«İndi düşünün,
Mərsiyəçi qadınları çağırın gəlsinlər,
Bu işdə bacarıqlı olanları
Gətirin gəlsinlər.
18 Qoy onlar tələsib o qədər
Bizim üçün fəryad etsinlər ki,
Gözlərimizdən yaş axsın,
Kirpiklərimizdən su süzülsün».
19 Çünki Siondan fəryad səsi eşidilir:

[b]**9:15** Vəhy 8:11

«Biz necə talan olunduq,
Yaman rüsvay edildik.
Çünki ölkəni tərk edirik,
Məskənlərimiz dağıdılır».
20 Ey qadınlar, Rəbbin sözünü eşidin,
Ağzından çıxan sözə qulaq asın.
Qızlarınıza fəryad etməyi öyrədin,
Hər kəs yoldaşına mərsiyə oxumağı öyrətsin.
21 Çünki ölüm pəncərələrimizə dırmaşdı,
Saraylarımıza girdi ki,
Küçədə uşaqları,
Meydanlarda cavanları qırıb-çatsın.
22 Sən söylə ki, Rəbb belə bəyan edir:
«İnsan cəsədləri tarlada peyin kimi,
Biçinçinin ardınca qalan taya kimi yerə yıxılacaq.
Onları yığıb aparan olmayacaq».
23 Rəbb belə deyir:
«Müdrik müdrikliyi ilə öyünməsin,
İgid öz gücü ilə öyünməsin,
Varlı öz sərvəti ilə öyünməsin.
24 [c]Ancaq öyünən onunla öyünsün ki,
Mən Rəbbin dünyada
Məhəbbət, ədalət və salehlik yaratdığını
Dərk edir və Məni tanıyır.
Çünki Mən bunlardan xoşlanıram»
Rəbb belə bəyan edir.
25 Bəli, Rəbb bəyan edir: «Gün gələcək ki, yalnız bədəni sünnət olanları cəzalandıracağam. 26 Misiri, Yəhudanı, Edomu, Ammon övladlarını, Moavı, çöldə yaşayıb kəkillərini qırxanların hamısını cəzalandıracağam, çünki bütün bu millətlər sünnətsizdir, bütün İsrail nəslinin də ürəyi sünnətsizdir».

Allaha ibadət və bütlərə pərəstiş

10 Rəbbin sizə söylədiyi sözü eşidin, ey İsrail nəsli! 2 Rəbb belə deyir:
«Başqa millətlərin yolu ilə getməyin,
Göy əlamətlərindən qorxmayın,
Bunlardan başqa millətlər qorxur.
3 Çünki xalqların adətləri boş şeydir.
Meşədə ağac kəsirlər,
Usta əli kəski ilə onu düzəldir.
4 Sonra qızıl-gümüşlə bəzəyirlər,
Çəkiclə, mıxla bərkidirlər ki,
Yerindən tərpənməsin.
5 Bütləri xiyar bostanındakı müqəvva kimi
Danışa bilmir.
Onları daşımaq lazımdır,
Çünki gedə bilmirlər.
Onlardan qorxmayın,
Çünki nə pislik edə bilərlər,
Nə də yaxşılıq».
6 Sənin kimi Allah yoxdur, ya Rəbb.
Sən böyüksən, əzəmətdə adın ucadır.
7 [d]Ey millətlərin Padşahı,
Sənə kim hörmət etməz?
Sənə hörmət yaraşır,
Çünki millətlərin bütün müdrikləri arasında,
Bütün ölkələrində Sənin kimisi yoxdur.
8 Bütlərə səcdə edənlərin hamısı
Ağılsız və axmaqdır,
Boş şeylərdən təlim alırlar.
Büt bir ağacdır!
9 Tarşişdən döyülmüş gümüş,
Ufazdan qızıl gətirilir.
Ustanın və zərgərin əli ilə düzəldilən bütə
Bənövşəyi və tunc qırmızı paltar geyindirilir.
Hamısı bacarıqlı toxucu işidir.
10 Ancaq Rəbb həqiqi Allahdır.
Var olan Allahdır,
Əbədi Padşah Odur.
Qəzəbindən dünya titrəyər,
Hiddətinin qarşısında
Millətlər dura bilməz.
11 Allah mənə dedi ki, onlara belə söylə: «Yeri və göyü yaratmayan

---

[c]**9:24** 1Kor. 1:31; 2Kor. 10:17 [d]**10:7** Vəhy 15:3-4

allahlar yer üzündən və göyün altından
yox olacaq». *
12 [e]Rəbb qüdrəti ilə yer üzünü yaratdı,
Hikməti ilə dünyanı qurdu,
Dərrakəsi ilə göyləri yaydı.
13 [f]O gurlayanda göylərdəki sular
çağlayır,
Yerin ucqarlarından buludları
yüksəldir,
Yağış üçün şimşək çaxdırır,
Anbarlarından külək çıxarır.
14 Hər kəs ağılsız oldu,
Bilikləri qalmadı.
Hər zərgər düzəltdiyi bütdən
utanacaq,
Çünki onun tökdüyü büt puçdur,
Onda nəfəs yoxdur.
15 Onlar boş şey,
Masqaraçıların işidir.
Cəza vaxtı məhv olacaqlar.
16 Yaquba Nəsib Olan isə onlara
bənzəməz,
Çünki hər şeyi yaradan Odur.
İsrail Onun irs qəbiləsidir,
Onun adı Ordular Rəbbidir.
17 Ey sən mühasirəyə alınan şəhərdə
yaşayan,
Şələ-küləni yerdən yığışdır.
18 Çünki Rəbb belə deyir:
«Mən bu dəfə ölkənin sakinlərini
Sapandla kənara atacağam.
Onları dara salacağam ki,
Düşmən əlinə keçsinlər».

Yeremyanın duası

19 Əzabıma görə vay halıma!
Yaram sağalmaz.
Ancaq mən dedim:
«Həqiqətən, bu mənim dərdimdir,
Mən də ona dözməliyəm.
20 Çadırım yıxıldı,
Bütün iplərim qopdu.
Uşaqlarım məni tərk etdi,
Onlar artıq yoxdur.
Çadırımı quran, pərdələrimi asan
qalmadı.
21 Çünki xalqın çobanları ağılsız oldu,
Rəbdən soruşmadılar.
Buna görə də uğur qazanmadılar,
Bütün sürüləri dağıldı.
22 Dinləyin, bir xəbər yayılır:
Şimal ölkəsindən böyük gurultu gəlir
ki,
Yəhuda şəhərlərini xarabalığa,
Çaqqal yuvasına çevirsin.
23 Ya Rəbb, bilirəm ki,
İnsanın ömrü öz əlində deyil.
Addımlarını düzəltmək
Gedən adamın işi deyil.
24 Mənə cəza ver, ya Rəbb,
Ancaq qəzəbinlə yox, ədalətinlə.
Yoxsa məni heçə çıxardarsan.
25 [g]Qəzəbini Səni tanımayan
millətlərin,
Adını çağırmayan tayfaların üzərinə
tök.
Çünki onlar Yaqub nəslini yedi,
Onu yeyib-qurtardı,
Yurdunu viran etdi».

Allahla olan əhdə xəyanət

11 Rəbdən Yeremyaya bu söz nazil
oldu: 2 «Bu əhdin sözlərinə
qulaq asın, Yəhuda adamlarına və
Yerusəlimdə yaşayanlara söyləyib
3 bildirin ki, İsrailin Allahı Rəbb
belə deyir: “Bu əhdin sözlərinə
qulaq asmayana lənət olsun. 4 Bu
əhd barəsində Mən atalarınızı Misir
torpağından, dəmir əridən sobanın
içindən çıxardığım vaxt əmr edib
dedim: ‹Mənim sözümə qulaq asın, sizə
əmr etdiyim hər şeyi edin. Onda siz
Mənim xalqım, Mən də sizin Allahınız
olacağam. 5 Belə etsəniz, Mən də
atalarınıza and içib vəd verdiyim şeyə

*10:11 Bu ayə arami dilində yazılmışdır.

[e]**10:12** Yer. 51:15-18 [f]**10:13** Zəb. 135:7; Yer. 51:16 [g]**10:25** Zəb. 79:6-7

əməl edərəm, bu gün sizin olan torpağı –
süd və bal axan torpağı sizə verərəm›”».
Mən də cavab verib «amin, ya Rəbb»
dedim.
6 Rəbb mənə dedi: «Bu sözlərin
hamısını Yəhuda şəhərlərində və
Yerusəlim küçələrində car çəkib söylə:
“Bu əhdin sözlərinə qulaq asın, onlara
əməl edin”. 7 Bəli, Mən atalarınıza
onları Misir torpağından çıxardığım
gündən indiyə qədər ciddi xəbərdarlıq
etdim. Onlara dəfələrlə xəbərdarlıq edib
dedim: “Mənim sözümə qulaq asın”.
8 Ancaq onlar qulaq asmadı, diqqət
etmədi, inadkarlıqla qara ürəklərinin
istədiyinə uydu. Buna görə də Mən
əhddə deyilən bütün cəzaları onların
başına gətirdim. Mən onlara bu əhdə
əməl etməyi əmr etmişdim, onlarsa
əməl etmədi».
9 Sonra Rəbb mənə dedi: «Yəhuda
adamları və Yerusəlimdə yaşayanlar
arasında bir qəsd üzə çıxdı. 10 Sözlərimə
qulaq asmaq istəməyən əcdadlarının
günahlarına qayıtdılar, başqa allahların
tərəfdarı olub onlara qulluq etdilər.
İsrail və Yəhuda nəsli onların ataları
ilə bağladığım əhdimi pozdu. 11 Buna
görə də Rəbb belə deyir: “Mən onların
üzərinə bəla gətirəcəyəm və onun
içindən çıxa bilməyəcəklər. Onlar
Mənə üz tutub fəryad edəcək, amma
Mən onları eşitməyəcəyəm. 12 O
zaman Yəhuda şəhərlərinin əhalisi və
Yerusəlimdə yaşayanlar gedib buxur
yandırdıqları allahlara üz tutub fəryad
edəcək, amma başlarına bəla gələn
vaxt bu allahlar onlara heç kömək
etməyəcək. 13 Çünki şəhərlərinin sayı
qədər sənin bütlərin var, ey Yəhuda.
Siz Yerusəlim küçələrinin sayı qədər
rüsvayçı şeylərə qurbangahlar, Baal
bütlərinə buxur yandırmaq üçün
qurbangahlar düzəltdiniz”.
14 Sən bu xalq üçün dua etmə,
onlar üçün yalvarıb xahiş etmə. Çünki
fəlakətlərindən ötrü Mənə tərəf fəryad
edəndə qulaq asmayacağam.
15 Sevimli xalqım, pis niyyətlər
qurarkən
Mənim evimdə nə işin var?
Təqdis olunmuş ətin çoxluğu ilə
Üzərinizdən bəla çəkilərmi?
Çünki sən pis iş görəndə sevinirsən.
16 Rəbb sənin adını
“Dadlı meyvəsi olan
Yaşıl zeytun ağacı” qoydu.
İndi isə böyük fırtınanın gurultusu ilə
Ağaca od vuracaq,
Onun budaqları qırılacaq.
17 Səni əkən Ordular Rəbbi başına
fəlakət gətirməyə qərar verdi. Çünki
İsrail və Yəhuda nəsli pislik etdi, Baal
bütlərinə buxur yandırmaqla Məni
qəzəbləndirdi».

Yeremyaya qarşı qəsd

18 O vaxt Rəbb onların etdiklərini
mənə göstərdi. O bunu mənə aşkar
etdi, mən də xəbərdar oldum. 19 Mənsə
kəsilməyə aparılan müti quzu kimi idim,
bilmirdim ki, onlar «ağacı və meyvəsini
məhv edək, onu dirilər arasından yox
edək ki, adı bir daha xatırlanmasın»
deyərək mənə qəsd qururlar.
20 Ancaq, ey Ordular Rəbbi,
Ürəkləri və fikirləri sınayan ədalətli
Hakim,
Mənə imkan ver ki, onlardan alacağın
qisasını görüm!
Çünki mən öz işimi Sənə tapşırdım.
21 «Buna görə də Rəbb səni öldürmək
istəyən və “Rəbbin adı ilə peyğəmbərlik
etmə, yoxsa bizim əlimizdə ölərsən”
deyən Anatot əhalisi barədə belə deyir.
22 Bəli, Ordular Rəbbi belə deyir: “Bax
Mən onları cəzalandıracağam: cavanları
qılıncla həlak olacaq, oğul və qızları
aclıqdan öləcək. 23 Onların nəsli də
qalmayacaq, çünki Mən onlar üçün cəza
gəldiyi ildə Anatot əhalisinin başına
fəlakət gətirəcəyəm”».

Yeremyanın Allahla söhbəti

12 Əgər Sənlə mübahisə etsəm,
Sən haqlı çıxarsan, ya Rəbb.
Ancaq yenə də ədalət barədə
Sənlə danışmaq istəyirəm.
Nə üçün pis adamlar əməllərində
Uğur qazanır,
Bütün xainlər dinc yaşayır?
2 Onları Sən əkdin, kök saldılar,
Qol-budaq atdılar,
Bar verdilər.
Sən onların dillərinə yaxınsan,
Amma ürəklərindən uzaqsan.
3 Məni isə, ya Rəbb, Sən tanıyırsan,
Görürsən və sınayırsan.
Ürəyim Sənlədir.
Onları qurbanlıq qoyun kimi ayır,
Qırğın günü üçün hazırla.
4 Nə vaxta qədər torpaq yas tutacaq,
Bütün çöl otları quruyacaq?
Orada yaşayanların pisliyi üzündən
Heyvanlar və otlar məhv oldu.
Onlar isə «bu adam aqibətimizi
görməyəcək» deyir.

Allahın cavabı

5 «Ey Yeremya, əgər sən piyadalarla
qaçanda yoruldunsa,
Atlarla necə yarışa bilərsən?
Əgər əmin-amanlıq olan torpaqda
büdrəsən,
İordan çayının kənarındakı sıx
meşədə nə edəcəksən?
6 Hətta öz qardaşların – ata evin də
Sənə xəyanət etdi,
Onlar da sənin ardınca
Ucadan bağırdı.
Sənə yaxşı sözlər söyləsələr də,
Onlara inanma.
7 Evimi tərk etdim,
İrsimi əldən verdim,
Sevgilimi düşmənlərə təslim etdim.
8 İrsim Mənim üçün
Meşədəki aslan kimi oldu.
Üstümə nərə çəkdi,
Buna görə də ona nifrət etdim.
9 İrsim Mənim üçün
Alabəzək yırtıcı quş oldumu?
Hər tərəfdən yırtıcı quşlar
Onun üstünə töküldü.
Gedin bütün vəhşi heyvanları
toplayın,
Yeyib-qurtarmaq üçün onun üstünə
gətirin.
10 Çoxlu çoban bağımı viran etdi,
Tarlamı tapdalayıb əzdi,
Gözəl zəmimi boş çölə çevirdi.
11 Onu xaraba qoydular,
Xarabalıq içində önümdə ağlayır.
Bütün ölkə viran oldu,
Amma heç kəsin vecinə deyil.
12 Çöldəki bütün çılpaq təpələrə məhv
edənlər gəldi.
Çünki ölkənin bir ucundan o biri
ucuna qədər
Rəbbin qılıncı qırıb-çatır.
Heç kim salamat qalmır.
13 Onlar buğda əkdi, qanqal biçdi.
Zəhmət çəkdilər, xeyir görmədilər.
Rəbbin qızğın qəzəbindən ötrü
Məhsullarınızdan utanacaqsınız».
14 Rəbb belə deyir: «Xalqım İsrailə
irs olaraq verdiyim mülkə toxunan
bütün bədxah qonşularıma gəlincə, Mən
onları torpaqlarından çıxarıb atacağam,
onların arasından Yəhuda nəslini də
çıxarıb atacağam. 15 Amma onları
çıxarıb atdıqdan sonra yenə hallarına
acıyacağam. Hər kəsi öz mülkünə,
öz torpağına qaytaracağam. 16 Əgər
onlar xalqımın yolunu yaxşı öyrənsələr,
xalqımı Baal adı ilə and içməyi
öyrətdikləri kimi “var olan Rəbbə
and olsun” deyib Mənim adımla and
içsələr, o zaman xalqımın arasında sakin
olacaqlar. 17 Ancaq qulaq asmasalar, o
zaman belə bir milləti mütləq kökündən
çıxarıb yox edəcəyəm» Rəbb belə bəyan
edir.

Kətan qurşaqla müqayisə

13 Rəbb mənə belə dedi: «Get özünə
bir kətan qurşaq al və belinə
bağla, amma onu suya qoyma». 2 Mən
Rəbbin sözünə görə qurşaq aldım və
belimə bağladım. 3 Mənə yenə Rəbbin
sözü nazil oldu: 4 «Belindəki aldığın
qurşağı götürüb qalx və Fərat çayına
tərəf get. Onu orada qayanın oyuğunda
gizlət». 5 Mən gedib Rəbbin əmr etdiyi
kimi onu Fərat çayının yaxınlığında
gizlətdim. 6 Uzun müddət sonra Rəbb
mənə dedi: «Qalx Fərat çayına tərəf get
və sənə gizlətməyi əmr etdiyim qurşağı
oradan götür». 7 Mən Fərat çayına tərəf
getdim və qurşağı gizlətdiyim yerdən
qazıb götürdüm. Gördüm ki, qurşaq
çürüyüb və daha heç nəyə yaramır.
8 O zaman mənə Rəbbin bu sözü nazil
oldu: 9 «Rəbb belə deyir: “Yəhudanın
təkəbbürünü və Yerusəlimin böyük
qürurunu beləcə çürüdəcəyəm.
10 Sözlərimə qulaq asmayan,
inadkarlıqla ürəklərinin istədiyinə
uyan, başqa allahlara qulluq və səcdə
edərək onların tərəfdarı olan bu pis xalq
heç bir şeyə yaramayan həmin qurşaq
kimi olacaq”. 11 Rəbb deyir: “Qurşaq
insanın belinə necə yapışırsa, bütün
İsrail nəslini və Yəhuda nəslini Özümə
eləcə yapışdırdım ki, Öz xalqım olub
Mənə şöhrət, tərif və izzət gətirsinlər,
ancaq onlar qulaq asmadı”.
12 Buna görə onlara bu sözü çatdır
ki, İsrailin Allahı Rəbb belə deyir:
“Hər tuluq şərabla dolacaq”. Onda
sənə deyəcəklər: “Hər tuluğun şərabla
dolacağını biz də bilmirikmi?” 13 O
zaman onlara söylə ki, Rəbb belə
deyir: “Bütün bu ölkədə yaşayanları,
Davudun taxtı üzərində oturan
padşahları, kahinləri, peyğəmbərləri,
bütün Yerusəlimdə yaşayanları sərxoş
olana qədər şərabla doyduracağam”.
14 Rəbb bəyan edir: “Mən onları ata
və oğulları ilə birlikdə bir-birlərinə
çırpacağam. Onlara rəhm etməyəcək,
aman verməyəcək, həlak etməyə
heyfsilənməyəcəyəm”».

Əsarət barədə xəbərdarlıq

15 Eşidin və qulaq asın,
Qürurlu olmayın,
Çünki Rəbb belə söylədi.
16 Nə qədər ki qaranlıq çökdürməyib,
Zülmət dağlarında ayaqlarınız
büdrəməyib,
Allahınız Rəbbi izzətləndirin.
Siz işıq gözləyirsiniz,
Amma Rəbb onu ölüm kölgəsinə
çevirər,
Dərin zülmətə döndərər.
17 Ancaq siz ona qulaq asmasanız,
Gözlərim acı-acı yaş tökəcək,
Göz yaşları sel kimi axacaq.
Çünki Rəbbin sürüsünü
Sürgün etdilər.
18 Padşaha və onun anasına söylə:
«Taxtınızdan enin,
Çünki şərəf tacınız başınızdan düşdü».
19 Negev şəhərlərinin darvazaları
bağlandı,
Açan yoxdur.
Bütün Yəhuda sürgün edildi,
Hamı sürgün edildi.
20 Başınızı qaldırıb
Şimaldan gələnləri görün.
Sənə verilən sürü,
Sənin gözəl sürün haradadır?
21 Rəbb müttəfiq kimi hazırladığın
adamları
Sənə hakim qoyanda nə deyəcəksən?
Məgər doğan qadının çəkdiyi sancı
kimi
Səni də ağrı tutmayacaqmı?
22 Əgər ürəyində
«Bütün bunlar nə üçün başıma gəldi»
desən,
Bil ki, günahının çoxluğundan
Ətəklərin qaldırıldı və zorlandın.
23 Kuşlu öz dərisini,

Bəbir öz xallarını dəyişdirə bilərmi?
Pislik etməyə alışmış
Siz də yaxşılıq edə bilməzsiniz.
24 «Bundan ötrü səni çöl küləyi ilə
Sovrulan saman çöpü kimi
səpələyəcəyəm.
25 Sənə düşən püşk,
Mənim sənə ayırdığım pay budur»
Rəbb belə bəyan edir.
«Çünki Məni unutdun,
Yalana güvəndin.
26 Bundan ötrü Mən də sənin
ətəklərini
Üzünə qaldıracağam ki,
Ayıbın görünsün.
27 Çöldəki təpələr üzərində
Gördüyün iyrənc işləri,
Zinakarlığını, şəhvətlə kişnəməyini,
Həyasız əxlaqsızlığını gördüm.
Vay halına, ey Yerusəlim!
Sən nə vaxta qədər
Təmizlənə bilməyəcəksən?»

Qılınc, aclıq, vəba

14 Bu, quraqlıq haqqında
Yeremyaya nazil olan Rəbbin
sözüdür.
2 «Yəhuda yas tutur,
Onun şəhər darvazaları qəmli
görünür.
Adamlar qara geyinmişlər,
Yerusəlimin fəryadı ucalmışdır.
3 Əyanlar nökərlərini su dalınca
göndərir,
Onlar isə quyu yanına gəlib
Su tapmır,
Boş qablarla geri dönürlər,
Utanıb xəcalət çəkərək
Başlarını örtürlər.
4 Ölkədə yağış olmadığı üçün
Torpaq cadar-cadar oldu.
Əkinçilər utanır,
Başlarını örtür.
5 Hətta çöldəki maral da
Balasını doğub tərk edir,
Çünki ot yoxdur.
6 Vəhşi eşşəklər çılpaq təpələrdə
durub,
Çaqqal kimi tez-tez nəfəs alır.
Onların gözləri korlaşır,
Çünki otlaq yoxdur».
7 Ya Rəbb, hərçənd təqsirlərimiz
Bizə qarşı şəhadət edir,
Sən Öz adından ötrü səy göstər.
Çünki dəfələrlə dönüklük etmiş,
Sənə qarşı günah etmişik.
8 Ey İsrailin Ümidgahı,
Məşəqqət zamanı Xilaskarı!
Nə üçün Sən bu torpaqda bir qərib,
Gecələmək üçün yoldan ayrılan bir
səyyah kimisən?
9 Nə üçün çaşmış adam,
Qurtarmağa gücü çatmayan
İgid kimi olmusan?
Ancaq Sən aramızdasan, ya Rəbb.
Biz Sənə məxsusuq,
Bizi tərk etmə.
10 [h]Rəbb bu xalq barədə belə deyir:
«Onlar gəzib-dolaşmağı o qədər sevir
ki, ayaq saxlamırlar. Buna görə də
Rəbb onlardan razı deyil. İndi onların
təqsirkarlığını yada salacaq, günahları
üçün cəza verəcək».
11 Rəbb mənə dedi: «Sən bu xalqın
uğur qazanması üçün dua etmə.
12 Oruc tutsalar da, Mən onların
fəryadını eşitməyəcəyəm. Yandırma
qurbanı və taxıl təqdimi gətirdikləri
zaman onlardan razı olmayacağam.
Mən onları qılınc, aclıq və vəba ilə
qırıb-çatacağam».
13 Mən dedim: «Ah, Xudavənd Rəbb,
peyğəmbərlər onlara belə deyir: “Qılınc
görməyəcəksiniz, aclıq olmayacaq.
Ancaq Mən bu yerdə sizə həqiqi
sülh verəcəyəm”». 14 Rəbb mənə
dedi: «Peyğəmbərlər Mənim adımla
yalançı peyğəmbərlik edir. Onları

[h]**14:10** Huşə 8:13

Mən göndərməmişəm, onlara əmr edib
söz deməmişəm. Sizə peyğəmbərlik
etdikləri şeylər yalan bir görüntü,
falçılıq, boş bir şey, öz ürəklərinin
uydurmasıdır. 15 Buna görə də Rəbb
o peyğəmbərlər barədə belə deyir:
“Onları göndərmədiyim halda Mənim
adımla peyğəmbərlik edən, ‹bu torpaqda
qılınc və aclıq olmayacaq› deyən bu
peyğəmbərlər özləri qılınc və aclıqdan
həlak olacaq. 16 Peyğəmbərlik etdikləri
xalq da qılınc və aclıq üzündən
Yerusəlim küçələrinə atılacaq. Onların
özlərini, arvadlarını, oğullarını və
qızlarını basdıran olmayacaq, çünki
onların pisliklərini öz başlarına
gətirəcəyəm”.
17 Onlara bu sözü söylə:
“Qoy gözlərim gecə-gündüz
Dayanmadan yaş töksün.
Çünki bakirə qıza bənzəyən əziz
xalqım
Ağır bir yara aldı,
Şiddətli bir zərbə yedi.
18 Çölə çıxıram,
Qılıncla öldürülənləri görürəm,
Şəhərə girirəm,
Aclıqdan üzülənləri görürəm.
Çünki peyğəmbər də, kahin də
Bixəbər olaraq ölkəni dolaşır”».
19 Məgər Sən Yəhudanı birdəfəlik
rədd etmisən?
Məgər Siona nifrət edirsən?
Niyə bizi elə vurdun ki,
Sağaltmaq mümkün olmasın?
Sülh gözlədik, amma xeyir gəlmədi.
Şəfa vaxtını gözlədik,
Ancaq dəhşət gəlir.
20 Ya Rəbb, pisliyimizi,
Atalarımızın təqsirkarlığını bilirik.
Çünki Sənə qarşı günah etdik.
21 Öz adın naminə bizdən imtina
etmə,
Öz izzətli taxtını alçaltma.
Bizimlə olan əhdini pozma, yada sal.
22 Millətlərin bütləri arasında
Yağış yağdıra biləni varmı?
Göylər leysan tökə bilərmi?
Bunu edən Sən deyilsənmi, ya Rəbb
Allahımız?
Ümidimiz Sənədir.
Çünki bütün bu şeyləri Sən etdin.

Yəhuda xalqının məhvi

15 [i]Rəbb mənə dedi: «Musa ilə
Şamuel önümdə dursalar da,
yenə ürəyim bu xalqa tərəf yönəlməz.
Onları qarşımdan rədd et ki, getsinlər.
2 [j]Sənə “Hara gedək?” dedikləri zaman
onlara söylə ki, Rəbb belə deyir:
“Vəba üçün ayrılanlar vəbaya,
Qılınc üçün ayrılanlar qılınca,
Aclıq üçün ayrılanlar aclığa,
Sürgün üçün ayrılanlar sürgünə”.
3 Rəbb bəyan edir: “Onların başına
dörd növ bəla gətirəcəyəm: öldürmək
üçün qılıncı, parçalamaq üçün itləri,
yeyib həlak etmək üçün göydəki quşları
və yerdəki heyvanları. 4 [k]Yəhuda
padşahı Xizqiya oğlu Menaşşeyə, onun
Yerusəlimdə etdiyi işlərə görə onları
yer üzünün bütün ölkələrinin qarşısında
dəhşətli hala salacağam”.
5 Ey Yerusəlim, bəs sənə kim
acıyacaq?
Sənin üçün kim yas tutacaq?
Halını soruşmaq üçün
Kim yolundan dönüb sənin yanına
gələcək?
6 Rəbb bəyan edir: “Sən Məni rədd
etdin,
Geri çəkildin.
Mən də əlimi uzadıb səni məhv
edirəm.
Daha bağışlamaqdan yoruldum.
7 Onları ölkənin şəhər darvazalarında

[i]**15:1** Çıx. 32:11-14; Say. 14:13-19; 1Şam. 7:5-9
[j]**15:2** Yer. 43:11; Vəhy 13:10 [k]**15:4** 2Pad. 21:1-16; 2Saln. 33:1-9

Kürəklə sovurdum,
Xalqımı övladsız qoydum,
Onları məhv etdim.
Çünki yollarından dönmədilər.
8 Mənim önümdə onların dul qadınlarının sayı
Dəniz qumundan da çox oldu.
Günorta çağı
Cavanlarının analarını ağlar qoymaq üçün
Məhv edəni gətirdim.
Qəflətən onları qorxu və dəhşətə saldım.
9 Yeddi uşaq doğan qadın zəifləyib can verdi,
Onun günəşi günorta çağı batdı,
Utanıb alçaldı.
Onlardan sağ qalanlarını
Düşmənlərinin önündə
Qılınca təslim edəcəyəm”»
Rəbb belə bəyan edir.
10 Vay mənim halıma!
Ey anam, sən məni bütün ölkə ilə
Mübahisə və dava etmək üçün doğmusan!
Mən heç kəsə sələm vermədim,
Heç kəs də mənə sələm vermədi.
Ancaq hamı məni lənətləyir.
11 Rəbb dedi:
«Bundan sonra mütləq səni
Xeyir üçün xilas edəcəyəm.
Bəla və kədər vaxtı düşmənlərini
Sənə yalvarmağa məcbur edəcəyəm.
12 Dəmiri, şimaldan gələn dəmiri və tuncu
Kim qıra bilər?
13 Sənin sərvətini və xəzinələrini
Qarət malı kimi başqalarına havayı verəcəyəm.
Bunu ölkənin hər tərəfində
Sənin günahlarından ötrü edəcəyəm.
14 Mən səni tanımadığın ölkədə
Düşmənlərinə qul edəcəyəm.
Çünki qəzəbim od tutub
Sizi yandıracaq».
15 Sən bilirsən, ya Rəbb!
Məni yada sal və qayğıma qal.
Məni təqib edənlərdən qisasımı al,
Səbirli olduğuna görə məni həlak etmə.
Bil ki, Sənin üçün rüsvay oldum.
16 Sözlərini tapıb yedim,
Sözlərin mənə sevinc və ürəyimə şadlıq gətirdi.
Çünki Sənə məxsusam,
Ey Ordular Allahı Rəbb!
17 Kef çəkənlərin məclisində oturaraq
Sevinib coşmadım,
Əlin üzərimdə olduğuna görə
Tək-tənha oturdum.
Çünki məni qəzəblə doldurmuşdun.
18 Nə üçün ağrım kəsilməz,
Yaram çarəsizdir,
Şəfasına ümid yoxdur?
Məgər mənim üçün suyu qurumuş,
Etibarsız bir vadi olacaqsan?
19 Buna görə Rəbb belə deyir:
«Əgər sən tövbə etsən,
Səni yenə qəbul edib xidmətimə təyin edərəm.
Əgər cəfəngiyat danışmaq əvəzinə
Qiymətli sözlər söyləsən,
O zaman Mənim dilimlə danışacaqsan.
Onlar özləri sənə tərəf dönəcək,
Amma sən onlara tərəf qayıtmayacaqsan.
20 Səni bu xalq üçün
Möhkəm tunc bir divar edəcəyəm.
Sənə qarşı döyüşəcəklər,
Ancaq qalib gələ bilməyəcəklər.
Çünki Mən sənin lə olacağam ki,
Səni qurtarıb azad edim»
Rəbb belə bəyan edir.
21 «Səni pis adamların əlindən azad edəcəyəm,
Zülmkarların pəncəsindən satın alacağam».

Fəlakət dövrü

16 Mənə Rəbbin bu sözü nazil oldu: 2 «Özünə arvad alma, qoy bu yerdə oğulların və qızların

olmasın. 3 Çünki bu yerdə doğulan
oğullar və qızlar, onları doğan analar
və onları törədən atalar üçün Rəbb belə
deyir: 4 "Onlar ölümcül xəstəliklərdən
öləcək. Onlar üçün yas tutulmayacaq,
basdırılmayacaqlar, torpağın üstündə
peyin kimi olacaqlar. Qılınc və aclıqla
qırılıb-qurtaracaqlar. Cəsədləri də
göydəki quşlara və yerdəki heyvanlara
yem olacaq".
5 Çünki Rəbb belə deyir: "Yas evinə
girmə, ağlamaq üçün getmə, başsağlığı
vermə, çünki bu xalqın arasından Öz
sülhümü, məhəbbətimi və mərhəmətimi
götürdüm" Rəbb belə bəyan edir. 6 "Bu
ölkədə böyüklər də, kiçiklər də öləcək,
qəbirə qoyulmayacaq, adamlar onlar
üçün yas tutmayacaq, özlərini yaralayıb
saçlarını qırxmayacaq. 7 Ölüdən ötrü
yas tutana təsəlli vermək üçün kimsə
onunla çörək kəsməyəcək, ata-anaları
üçün onlara təsəlli kasasını içirməyəcək.
8 Sən onlarla oturaraq yeyib-içmək
üçün ziyafət məclislərinə də girmə".
9 [l]Çünki İsrailin Allahı olan Ordular
Rəbbi belə deyir: "Bax bu yerdə sizin
günlərinizdə gözlərinizin önündə sevinc
və şadlıq sədasını, bəy-gəlin səsini yox
edəcəyəm".
10 Bütün bu sözləri xalqa bildirəndə
onlar sənə belə deyəcək: "Nə üçün
Rəbb başımıza bu qədər böyük bəla
gətirəcəyini söylədi? Təqsirimiz nədir?
Allahımız Rəbbə qarşı nə günah
etmişik?" 11 Sən onlara söylə ki:
"Sizin atalarınız Məni tərk etdi" Rəbb
belə bəyan edir. "Başqa allahların
tərəfdarı oldular, onlara qulluq və səcdə
etdilər, Məni tərk edib qanunuma əməl
etmədilər. 12 Siz atalarınızdan da artıq
pislik etdiniz, özünüz də Mənə qulaq
asmayaraq qara ürəklərinizin inadı ilə
hərəkət etdiniz. 13 Buna görə də sizi
bu ölkədən atalarınızın və özünüzün
tanımadığı bir ölkəyə atacağam. Orada
gecə-gündüz başqa allahlara qulluq
edəcəksiniz, çünki sizə mərhəmət
etməyəcəyəm"».
14 Buna görə də Rəbb bəyan edir:
«Bir gün gələcək ki, insanlar artıq
"İsrail övladlarını Misir torpağından
çıxaran Rəbbin varlığına and olsun"
deməyəcəklər, 15 amma "İsrail
övladlarını şimal ölkəsindən və
qovduğu başqa ölkələrdən çıxaran
Rəbbin varlığına and olsun" deyəcəklər.
Çünki onları atalarına verdiyim torpağa
qaytaracağam».
16 Rəbb bəyan edir: «Mən çoxlu balıqçı
göndərəcəyəm, onları tutacaqlar. Ondan
sonra Mən çoxlu ovçu göndərəcəyəm,
hər dağ və təpə üzərindən, qaya
oyuqlarından onları ovlayacaqlar.
17 Çünki Mənim nəzərim onların bütün
yollarını izləyir. Onlar Məndən gizlənə
bilməz, təqsirləri də Mənim nəzərimdən
qaça bilməz. 18 İlk növbədə onların
təqsirlərinin və günahlarının əvəzini
alacağam. Çünki iyrənc bütlərinin
qurbanları ilə ölkəmi murdarladılar,
mülkümü murdar bütlərlə doldurdular».
19 Ya Rəbb, qüvvətim və qalam,
Sıxıntı günündə sığınacağım!
Millətlər yer üzünün
qurtaracağınadək hər yerdən
Sənin yanına gəlib deyəcək:
«Atalarımız saxta və puç bütlərə –
Heç bir fayda görmədikləri şeylərə
varis oldu.
20 Adam da özünə bütlər düzəldər?
Axı onlar allah deyil.
21 Buna görə də onlara göstərəcəyəm,
Əlimi və qüdrətimi nümayiş
etdirəcəyəm.
Onda biləcəklər ki, adım Rəbdir.

---

[l]**16:9** Yer. 7:34; 25:10; Vəhy 18:23

Yəhudanın günahı və cəzası

17 Yəhudanın günahı dəmir qələmlə yazıldı,
Ürəklərinin lövhələri və qurbangahlarının buynuzları üzərinə
Almaz uclu alətlə həkk edildi.
2 Onlar kölgəli ağacların yanında,
Yüksək təpələrdə, çöldəki dağlarda
Qurbangahlarına və Aşera bütlərinə
Öz uşaqlarına göstərdikləri qədər maraq göstərir.
3 Sənin mal-dövlətini,
Bütün xəzinələrini, səcdəgahlarını
Ölkənin hər tərəfində işlənən günahlardan ötrü
Qarətə təslim edəcəyəm.
4 Sənə verdiyim irsi
Öz qəbahətinlə yox edəcəksən.
Tanımadığın ölkədə səni
Düşmənlərinə qul edəcəyəm.
Çünki siz Mənim qəzəbimdən
Od alışdırdınız,
O əbədi yanacaq».
5 Rəbb belə deyir:
«O adam lənətlidir ki,
İnsana güvənir,
Bəşərin gücünə arxalanır,
Ürəyi Rəbdən ayrılır.
6 O, çöldəki yulğun ağacı kimi olacaq,
Xeyir gələndə onu görməyəcək.
Səhrada olan quraq yerlərdə
Heç kəs yaşamayan şoranlıqda sakin olacaq.
7 Nə xoşbəxtdir o adam ki
Rəbbə güvənir,
Rəbbi özünə arxa sayır.
8 [m]O, sular kənarında
Əkilmiş ağac kimi olacaq.
Elə ağac ki çay kənarında kök salar,
İsti gələndə qorxmaz,
Yarpağı həmişə yaşıl qalar,
Quraqlıq olan il qayğı çəkməz,
Bəhər verməkdən qalmaz».
9 İnsan ürəyi hər şeydən hiyləgərdir,
Çarəsi yoxdur.
Onu kim başa düşə bilər?
10 [n]«Mən Rəbb ürəyi yoxlayıram,
İnsanın fikrini sınayıram ki,
Hər kəsə əməllərinə görə,
İşlərinin bəhrəsinə görə əvəz verim».
11 Haqsızlıqla var-dövlət toplayan adam
Özünün yumurtlamadığı yumurtaların üstünə
Oturan kəklik kimidir.
Ömrünün ortasında var-dövləti əldən gedəcək,
Axırda o adam axmaq çıxacaq.
12 Müqəddəs məkanımızdakı yer
Əvvəlcədən ucaldılmış izzət taxtıdır.
13 Ya Rəbb, İsrailin Ümidgahı,
Səni tərk edənlərin hamısı utanacaq.
Rəbb deyir:
«Məndən üz döndərənlərin adı
Toz-torpağa yazılacaq,
Çünki Rəbbi – axar sular mənbəyini tərk etdilər».
14 Ya Rəbb, mənə şəfa versən,
Mən sağalaram.
Məni xilas etsən,
Mən xilas olaram.
Çünki həmd etdiyim Sənsən.
15 Bax onlar mənə
«Rəbbin sözü hanı?
Qoy yerinə yetsin!» deyir.
16 Mən Sənin xidmətində
Çoban olmaqdan boyun qaçırmadım.
Bəla gününün gəlməsini istəmədim.
Sən bilirsən ki,
Ağzımdan nə çıxdısa,
Sənin gözünün önündədir.
17 Məni dəhşətə salma,
Fəlakət günündə sığınacağım Sənsən.
18 Qoy məni təqib edənlər utansın,
Mənsə utanmayım.
Qoy onlar qorxuya düşsün,

---

[m]**17:8** Zəb. 1:3 [n]**17:10** Zəb. 62:12; Yer. 32:19; Vəhy 2:23

Mən isə qorxmayım.
Qara günü onların başına gətir,
Tamamilə qırılana qədər onları qır.

Şənbə gününə əməl edilməsi

19 Rəbb mənə belə dedi: «Get Yəhuda
padşahlarının girib-çıxdıqları Xalq
darvazasında və Yerusəlimin bütün
darvazalarında dayanıb 20 onlara söylə
ki, ey Yəhuda padşahları, Yəhuda
və Yerusəlimin bütün əhalisi, bu
darvazalardan girənlər, Rəbbin sözünə
qulaq asın. 21 [o]Rəbb belə deyir: "Öz
canınızı qorumaq üçün Şənbə günü yük
daşımayın, Yerusəlim darvazalarından
içəri gətirməyin. 22 [p]Şənbə günü
evlərinizdən yük çıxarmayın, heç bir iş
görməyin. Atalarınıza əmr etdiyim kimi
Şənbə gününü təqdis edin. 23 Ancaq
onlar eşitmədi, qulaq asmadı. İnadkarlıq
edərək Məni eşitmədilər və nəsihət
almaq istəmədilər".
24 Rəbb bəyan edir: "Əgər siz Şənbə
günü bu şəhərin darvazalarından
yük daşımamaq, Şənbə gününü
təqdis etmək və bu gün heç bir işlə
məşğul olmamaqla Mənə, həqiqətən,
itaət etsəniz, 25 o zaman Davudun
taxtında oturan padşahlar və başçılar
döyüş arabalarına və atlara minib
Yəhuda adamları, Yerusəlimdə
yaşayanlarla birgə bu şəhərin
darvazalarından girəcək. Bu şəhər
əbədi olaraq məskunlaşmış qalacaq.
26 Yəhuda şəhərlərindən, Yerusəlimin
ətrafından, Binyamin torpağından,
yamaclı-düzənlikli bölgədən, dağlıq
bölgədən və Negevdən adamlar gəlib
Rəbbin məbədinə yandırma qurbanları,
başqa qurbanlar, taxıl təqdimləri,
kündür və şükür təqdimləri gətirəcək.
27 Əgər siz Şənbə günü yük daşıyıb
Yerusəlim darvazalarından girərək
Şənbə gününü təqdis etməməklə
Mənim sözümə qulaq asmasanız,
onda Mən şəhərin darvazalarına
od vuracağam, alov Yerusəlimin
saraylarını yandırıb-yaxacaq və heç
vaxt sönməyəcək"».

Yeremya dulusçunun evində

18 Rəbdən Yeremyaya bu söz nazil
oldu: 2 «Qalx dulusçunun evinə
en, orada sözlərimi sənə bildirəcəyəm».
3 Mən dulusçunun evinə endim. Gördüm
ki, o, çarx üzərində işləyir. 4 Palçıqdan
düzəltdiyi qab əlində xarab olanda
dulusçu özünün istədiyi kimi palçıqdan
başqa bir qab düzəldirdi.
5 Mənə yenə Rəbbin sözü nazil oldu:
6 «Ey İsrail nəsli, Mən də sizinlə bu
dulusçunun etdiyi kimi rəftar edə
bilmərəmmi?» Rəbb belə bəyan edir.
«Bilin ki, palçıq dulusçunun əlində
necədirsə, siz də Mənim əlimdə o
cürsünüz, ey İsrail nəsli. 7 Bir vaxt
Mən bir milləti yaxud ölkəni kökündən
dağıdacağımı, yıxıb məhv edəcəyimi
söyləyəndə 8 əgər Mənim xəbərdarlıq
etdiyim bu millət öz pis əməlindən
dönərsə, ona göndərmək istədiyim
bəladan vaz keçəcəyəm. 9 Başqa
vaxt bir milləti yaxud da ölkəni
qurub-tikəcəyimi söyləyəndə 10 əgər
bu millət sözümə qulaq asmayıb
pis əməl edərsə, ona vəd verdiyim
yaxşılıqdan vaz keçəcəyəm. 11 İndi
Yəhuda adamlarına, Yerusəlimdə
yaşayanlara söylə ki, Rəbb belə deyir:
"Mən sizə bir bəla hazırlayıram, sizə
bir qəsd qururam. İndi hər biriniz öz
pis yolunuzdan dönüb yaşayışınızı və
əməllərinizi islah edin".
12 Ancaq onlar deyir: "Boş sözdür, biz
öz niyyətlərimizin dalınca gedəcəyik,
hər birimiz öz qara ürəyimizin inadına
görə rəftar edəcəyik"».
13 Buna görə Rəbb belə deyir:

---

[o] **17:21** Neh. 13:15-22; Yəh. 5:10 [p] **17:22** Çıx. 20:8-10; Qanun. 5:12-14

«İndi millətlər arasında soruşun ki,
Kim belə sözlər eşitmişdir?
Bakirə qıza bənzəyən İsrail
Dəhşətli bir iş etdi.
14 Livanın qarı qayalı dağ
yamaclarından
Heç əskik olarmı?
Uzaqdan axan soyuq sular quruyarmı?
15 Amma xalqım Məni unutdu,
Saxta allahlara buxur yandırdı.
Bu allahlar onların gedəcəyi yollarda,
Qədim yollarda büdrəmələrinə səbəb
oldu,
Onları hamar olmayan
Dolanbac yollarda gəzdirdilər.
16 Ölkələri viran ediləcək,
Əbədi kinayə hədəfinə çevriləcək.
Onda oradan ötən hər kəs
Heyrətə gəlib başını bulayacaq.
17 Onları səmum küləyi kimi
Düşmən önündə pərən-pərən
salacağam.
Onlara fəlakət günündə
Üzümü deyil, arxamı göstərəcəyəm».
18 O zaman onlar dedi: «Gəlin
Yeremyaya qəsd quraq. Çünki qanunu
öyrədəcək kahin, nəsihət verəcək
müdrik adam, söz deyəcək peyğəmbər
heç vaxt əskik olmayacaq. Gəlin ona
dilimizlə hücum edək, sözlərinə qulaq
asmayaq».
19 Ya Rəbb, mənə yaxşı qulaq as,
Mənimlə çəkişənlərin sözünü eşit.
20 Yaxşılığın əvəzində pislik edilərmi?
Onlar canımı almaq üçün quyu qazır.
Unutma, mən önündə ona görə
dayanmışam ki,
Onlar üçün yaxşı şey istəyim,
Onlardan qəzəbini döndərim.
21 Buna görə də onların övladlarını
Aclığa ver, qılınc ağzına təslim et.
Qadınları uşaqsız və dul qalsın,
Ərlərini ölüm aparsın.
Cavanlarını müharibədə qılınc
öldürsün.
22 Sən onların üzərinə
Qəflətən qarətçilər göndərəndə
Qoy evlərindən fəryad eşidilsin.
Çünki məni tutmaq üçün quyu
qazdılar,
Ayağımın altında gizlincə tələ
qurdular.
23 Ancaq, ya Rəbb, məni öldürmək
üçün
Qurduqları bütün qəsdləri Sən
bilirsən.
Təqsirlərini bağışlama,
Günahlarını önündən silmə.
Sənin önündə yıxılsınlar,
Qəzəbin vaxtı onlara qarşı hərəkət et.

Sınmış kuzə ilə müqayisə

19 Rəbb belə dedi: «Get, dulusçunun düzəltdiyi bir gil kuzə al.
Sonra isə xalqın və kahinlərin
ağsaqqallarından bir neçəsini götür,
2 [q]Xarsit* darvazasının girişində
olan Ben-Hinnom vadisinə get. Sənə
deyəcəyim sözləri orada elan edib söylə
ki, 3 ey Yəhuda padşahları, Yerusəlimdə
yaşayanlar, Rəbbin sözünü eşidin,
İsrailin Allahı olan Ordular Rəbbi belə
deyir: “Bax Mən bu yerin üzərinə elə bir
bəla gətirəcəyəm ki, hər eşidənin qulağı
cingildəyəcək. 4 Çünki onlar Məndən
üz döndərdi, buranı yad bir ölkəyə
çevirdi. Orada özlərinin, atalarının və
Yəhuda padşahlarının tanımadıqları
başqa allahlara buxur yandırdılar və
bu yeri günahsız qanla doldurdular.
5 [r]Öz uşaqlarını odda Baal bütlərinə
yandırma qurbanı vermək üçün Baal
səcdəgahlarını qurdular. Mən belə bir
şeyi nə buyurdum, nə söylədim, nə
də ağlıma gətirdim”». 6 Rəbb bəyan
edir: «Buna görə də bir gün gələcək ki,

*19:2 *Xarsit* – ibrani dilində *saxsı qırığı.*

[q]**19:2** 2Pad. 23:10; Yer. 7:30-32; 32:34-35 [r]**19:5** Lev. 18:21

daha bu yerə Tofet yaxud Ben-Hinnom
vadisi deyil, Qırğın vadisi deyiləcək.
7 Bu yerdə Yəhuda ilə Yerusəlimin
niyyətlərini boşa çıxaracağam. *Onları
düşmənlərinin önündə canlarını almaq
istəyənlərin əli ilə qılıncla həlak
edəcəyəm. Cəsədlərini göydəki quşlara
və yerdəki heyvanlara yem olaraq
verəcəyəm. 8 Bu şəhəri viran edəcəyəm,
rişxənd hədəfinə çevirəcəyəm. Oradan
keçən hər kəs onun başına gələn
bəlaları görüb heyrət içində fit çalacaq.
9 Oğullarının və qızlarının ətini özlərinə
yedirdəcəyəm. Canlarını almaq istəyən
düşmənləri onları mühasirəyə alanda
çəkdikləri sıxıntıdan ötrü bir-birlərinin
ətini yeyəcəklər».
10 Sonra sənlə gedən adamların
gözü önündə kuzəni sındırıb 11 onlara
söylə ki, Ordular Rəbbi belə deyir:
«Necə ki dulusçunun əlində qab sınanda
bir də düzəlmir, Mən də bu xalqı
və şəhəri beləcə məhv edəcəyəm.
Basdırmağa yer qalmadığı üçün ölüləri
Tofetdə də basdıracaqlar. 12 Bu yer
və sakinləri ilə belə rəftar edəcəyəm,
bu şəhəri Tofet kimi edəcəyəm» Rəbb
belə bəyan edir. 13 «Yerusəlimin evləri
və Yəhuda padşahlarının sarayları
Tofetin ərazisi kimi murdar olacaq,
çünki bütün evlərin damları üzərində
səma cisimlərinə buxur yandırdılar, yad
allahlara içmə təqdimləri gətirdilər».
14 Peyğəmbərlik etmək üçün Rəbbin
Tofetə göndərdiyi Yeremya oradan
qayıtdı. O, Rəbbin məbədinin həyətində
dayanıb bütün xalqa dedi: 15 «İsrailin
Allahı olan Ordular Rəbbi belə deyir:
“Mən bu şəhər barədə söylədiyim
bütün fəlakətləri onun və ətrafında
olan kəndlərin üzərinə gətirəcəyəm,
çünki inadkarlıq edərək sözlərimə qulaq
asmırlar”».

Yeremyanın Paşxurla mübahisəsi

20 Rəbbin məbədində baş
nəzarətçi olan kahin İmmer
oğlu Paşxur Yeremyanın bu sözlərlə
peyğəmbərlik etdiyini eşitdi. 2 Paşxur
Yeremya peyğəmbəri döydü və
Rəbbin məbədinin yanındakı Yuxarı
Binyamin darvazasında olan kündəyə†
saldı. 3 Ertəsi gün Paşxur Yeremyanı
kündədən çıxartdı. Yeremya ona
dedi: «Rəbb sənin adını Paşxur deyil,
Maqor-Missaviv‡ qoydu. 4 Çünki Rəbb
belə deyir: “Bax Mən səni özün və bütün
səni sevənlər üçün dəhşətə çevirəcəyəm.
Onlar öz düşmənlərinin qılıncı ilə həlak
olacaq və sənin gözlərin bunu görəcək.
Bütün Yəhudanı Babil padşahına təslim
edəcəyəm. O, xalqı Babilə sürgün edəcək
və qılıncla həlak edəcək. 5 Bu şəhərin
bütün var-dövlətini, qazancını, qiymətli
şeylərini və Yəhuda padşahlarının
bütün xəzinələrini düşmənlərə təslim
edəcəyəm. Onları qarət edəcəklər,
götürüb Babilə aparacaqlar. 6 Sən
Paşxur və evində yaşayanların hamısı
Babilə sürgün olunacaqsınız. Sən və
yalandan peyğəmbərlik etdiyin bütün
dostların orada öləcəksiniz, orada da
basdırılacaqsınız”».

Yeremyanın şikayəti

7 Ya Rəbb, Sən məni məcbur etdin,
Mən də məcbur oldum.
Sən məndən güclüsən,
Sən mənə üstün gəldin.
Bütün gün mənə gülürlər,
Hər kəs mənimlə əylənir.
8 Çünki mən danışmağa başlayan kimi
Fəryad edib

---

*19:7 *Boşa çıxarmaq* – ibrani mətnində *baqa* və *kuzə* – *baqbuq* (19:1,10).
†20:2 *Kündə* – dustaqları bağlamaq üçün cəza aləti.
‡20:3 *Paşxur* – ibrani dilində *azad, Maqor-Missaviv* – ibrani dilində *hər tərəfdə dəhşət.*

«Zorakılıq və talan!» deyə qışqırıram.
Rəbbin sözündən ötrü
Mən bütün gün rüsvay oldum,
Təhqir edildim.
9 Mən fikirləşdim:
«Daha Onu yada salmayacağam,
Onun adı ilə danışmayacağam».
Onda Onun sözü sümüklərimdə həbs edilən,
Ürəyimdə yanan bir od oldu.
Onu içimdə saxlamaqdan yoruldum,
Artıq bunu edə bilmirəm.
10 [s]Çünki çoxlarının
«Hər tərəfdə dəhşət!
Onu mühakimə edin,
Biz də onu mühakimə edək!»
Deyə pıçıldaşdığını eşitdim.
Bütün güvəndiyim adamlar
Büdrəməyimi gözləyərək
«Bəlkə aldanar, onda onu məğlub edərik,
Ondan qisasımızı alarıq» dedilər.
11 Ancaq Rəbb igid bir döyüşçü kimi mənimlədir.
Buna görə də məni təqib edənlər büdrəyəcək,
Qalib gələ bilməyəcək.
Uğur qazana bilmədikləri üçün
Böyük xəcalət çəkəcəklər.
Rüsvayçılıq əbədi olacaq,
Heç vaxt unudulmayacaq.
12 Ancaq, ey Ordular Rəbbi,
Sən salehi sınağa çəkirsən,
Fikri və ürəyi görürsən.
Qoy gözüm Sənin onlardan alacağın
Qisası görsün!
Çünki işimi Sənə tapşırdım.
13 Rəbbi tərənnüm edin,
Rəbbə həmd edin!
Çünki fəqiri
Zalımların əlindən qurtardı.
14 [t]Doğulduğum gün lənətə gəlsin!
Anamın məni doğduğu günə
Bir daş düşsün!
15 Atamı çox sevindirərək
«Bir oğlan uşağın oldu!»
Deyə müjdə verən adam
Lənətə gəlsin.
16 Qoy o adam Rəbbin
Yazığı gəlməyib dağıtdığı
Şəhərlər kimi olsun!
Səhər fəryad,
Günorta nalə eşitsin.
17 Çünki bətndə ikən məni öldürmədi.
Onda anamın qarnı qəbrim olardı,
Bətni daim hamilə qalardı.
18 Nə üçün ana bətnindən çıxdım?
Əzab-əziyyət görmək,
Ömrümü rüsvayçılıqla keçirmək üçünmü?

Allahın Sidqiyanın sözünü rədd etməsi

21 Padşah Sidqiya Malkiya oğlu Paşxuru və Maaseya oğlu Sefanyanı Yeremyanın yanına göndərəndə Rəbdən Yeremyaya söz nazil oldu. Paşxur ilə Sefanya belə demişdi: 2 [u]«Gəl bizim barəmizdə Rəbdən soruş. Çünki Babil padşahı Navuxodonosor bizə qarşı müharibə edir. Bəlkə Rəbb keçmişdə etdiyi möcüzələrə bənzər bir şey edər və Navuxodonosor bizdən əl çəkər?»

3 O zaman Yeremya onlara dedi: «Sidqiyaya söyləyin ki, 4 İsrailin Allahı Rəbb belə deyir: “Divarların o tərəfində sizi mühasirəyə alan Babil padşahı və Xaldeylilərlə müharibədə istifadə etdiyiniz silahları özünüzə qarşı çevirəcəyəm. Silahlarınızı bu şəhərin ortasına toplayacağam. 5 Mən sizə qarşı əl qaldıracağam, güclü qolumla, qızğınlıq, qəzəb və böyük hiddətlə sizinlə vuruşacağam. 6 Bu şəhərdə yaşayan insanı da, heyvanı da məhv edəcəyəm. Onlar şiddətli vəbadan öləcək”. 7 Rəbb belə bəyan

[s]**20:10** Zəb. 31:13 [t]**20:14** Əyy. 3:1-19 [u]**21:2** 2Pad. 25:1-11; 2Saln. 36:17-21

edir: “Bundan sonra Yəhuda padşahı
Sidqiyanı və əyanlarını, həmçinin
bu şəhərdə vəbadan, qılıncdan və
aclıqdan sağ qalanları Babil padşahı
Navuxodonosora və canlarını almaq
istəyən düşmənlərinə təslim edəcəyəm.
O onları qılıncdan keçirəcək, onlara
nə rəhm, nə şəfqət, nə də mərhəmət
edəcək”.
8 Bu xalqa söylə ki, Rəbb belə deyir:
“Budur, həyat yolunu və ölüm yolunu
önünüzə qoyuram. 9 Bu şəhərdə qalan
qılınc, aclıq və vəbadan öləcək. Lakin
kim bayıra çıxıb sizi mühasirəyə alan
Xaldeylilərə təslim olsa, sağ qalacaq,
heç olmasa öz canını qurtaracaq. 10 Ona
görə ki bu şəhərə yaxşılıq deyil, pislik
etməyə niyyət etdim” Rəbb belə bəyan
edir. “Bura Babil padşahına təslim
ediləcək, o da buranı yandırıb yox
edəcək”.

Zalım padşahları məzəmmət

11 Yəhuda padşahının ailəsinə söylə
ki,
Rəbbin sözünü eşidin.
12 Ey Davud nəsli, Rəbb belə deyir:
“Hər səhər ədalətlə rəftar edin,
Məzlumu zalımın əlindən qurtarın.
Yoxsa pis əməllərinizə görə
Qəzəbim od kimi çıxıb yandıracaq,
Onu söndürən olmayacaq”.
13 Rəbb bəyan edir:
“Mən sənə qarşıyam,
Ey vadinin üstündəki
Yaylada olan qayada oturan
Yerusəlim!”
Siz deyirsiniz:
“Üstümüzə kim gələr?
Məskənlərimizə kim girər?”
14 Rəbb bəyan edir:
“Mən sizi əməllərinizin
Bəhrəsinə görə cəzalandıracağam.
Meşələrinə elə od vuracağam ki,
Ətrafındakı hər şeyi
yandırıb-yaxacaq”».

Allahın padşah sülaləsinə müraciəti

22 Rəbb belə dedi: «Yəhuda
padşahının sarayına get, orada
bu sözü bildirib söylə ki, 2 ey Davudun
taxtı üzərində oturan Yəhuda padşahı,
ey bu darvazalardan girən əyanlarla
xalq, Rəbbin sözünü eşidin. 3 Rəbb belə
deyir: “Ədalət və salehliklə rəftar edin.
Məzlumu zalımın əlindən qurtarın.
Qəribə, yetimə və dul qadına haqsızlıq
etməyin, zorakılıq etməyin, bu yerdə
günahsız qan tökməyin. 4 Əgər siz
bu əmrə, həqiqətən, əməl etsəniz,
o zaman Davudun taxtında oturan
padşahlar döyüş arabalarına və atlara
minib əyanları və xalqları ilə birgə bu
sarayın darvazalarından girəcək. 5 Lakin
bu sözləri eşitməsəniz, Öz varlığıma
and içirəm ki, bu ev viran qalacaq”
Rəbb belə bəyan edir. 6 Bəli, Yəhuda
padşahının sarayı barədə Rəbb belə
deyir:
“Sən Mənim üçün Gilead,
Livanın zirvəsi kimisən.
Ancaq Mən hökmən səni bir çölə,
Kimsənin yaşamadığı şəhərlərə
çevirəcəyəm.
7 Sənə qarşı həlak edənlər təyin
edəcəyəm,
Hamısının əlində silah olacaq.
Sənin ən yaxşı sidr ağaclarını
kəsəcəklər,
Onları oda atacaqlar.
8 [v]Bir çox millətlər bu şəhərin
yanından keçib bir-birlərindən
soruşacaq: ‹Bu böyük şəhəri Rəbb niyə
belə xaraba qoydu?› 9 Onda deyəcəklər:
‹Çünki özlərinin Allahı Rəbbin əhdini
tərk etdilər, başqa allahlara səcdə və
qulluq etdilər›”».

---

[v]**22:8** Qanun. 29:24-26

Padşah Şallum barədə vəhy

10 Ölən padşah üçün ağlamayın,
Yas tutmayın.
Ancaq sürgünə gedən üçün acı-acı
ağlayın,
Çünki daha qayıtmayacaq,
Doğma vətənini görməyəcək.
11 Bəli, atası Yoşiyanın yerinə Yəhuda
padşahı olan və buradan çıxıb gedən
Yoşiya oğlu Şallum barədə Rəbb deyir:
«O daha bura qayıtmayacaq, 12 sürgün
olunduğu yerdə öləcək və artıq bu
ölkəni görməyəcək.

Padşah Yehoyaqim barədə vəhy

13 Vay o adamın halına ki,
Sarayını haqsızlıqla,
Yuxarı otaqlarını ədalətsizliklə tikir,
Öz soydaşını müftə işlədir,
Ona muzdunu vermir.
14 Vay o adamın halına ki,
"Özümə geniş yuxarı otaqları olan
Böyük bir saray tikdirəcəyəm" deyib
Oraya pəncərələr açır,
Ətrafını sidr ağacı ilə örtür.
Qırmızı rənglə boyayır.
15 Çoxlu sidr ağacın olduğu üçünmü
Özünü padşah sanırsan?
Atan da doyunca yeyib-içirdi,
Ədalət və salehliklə rəftar edirdi.
Ona görə də işləri uğurlu oldu.
16 Məhkəmədə məzlum, yoxsul
adamın işinə baxırdı,
Ona görə də işləri uğurlu oldu».
Rəbb bəyan edir: «Məni tanımaq
Elə bu deyilmi?
17 Ancaq sənin gözlərin və ürəyin
Öz haram qazancında,
Tökmək istədiyin günahsız qanda,
Etmək istədiyin qəddarlıqda,
Zorakılıqda qalıb».
18 [w]Buna görə də Yəhuda padşahı
Yoşiya oğlu Yehoyaqim barədə Rəbb
belə deyir:
«Onun üçün "vay qardaşım,
vay bacım" söyləyib yas
tutmayacaqlar,
"Vay ağam, heyf onun izzəti" söyləyib
yas tutmayacaqlar.
19 Onu sürüyüb Yerusəlim
darvazalarından kənara
atacaqlar,
Eşşək basdırılan kimi basdırılacaq».

Yerusəlim barədə vəhy

20 «Livana qalxıb fəryad et,
Başanda səsini ucalt,
Avarimdən nalə çək,
Çünki bütün müttəfiqlərin əzildi.
21 Hər şeyin əmin-amanlıqda olanda
Sənə nəsihət etdim,
Ancaq "qulaq asmayacağam" dedin.
Uşaqlığından xasiyyətin belədir,
Sözümə qulaq asan deyilsən.
22 Külək bütün başçılarını
alıb-aparacaq,
Müttəfiqlərin sürgünə gedəcək.
O zaman etdiyin bütün pisliklərdən
ötrü
Utanıb rüsvay olacaqsan.
23 Ey sən "Livanda" *yaşayan,
Yuvasını sidr ağacından quran!
Sənə hamilə qadın kimi
Ağrılar, sancılar gələndə
Necə ah-zar edəcəksən!»

Padşah Yehoyakin barədə vəhy

24 [x]Rəbb bəyan edir: «Varlığıma and
olsun ki, ey Yəhuda padşahı Yehoyaqim
oğlu Yehoyakin, sağ əlimdəki
möhür üzüyü olsan da, səni çıxarıb
atardım. 25 Canını almaq istəyənlərə,
qorxduğun adamlara, Babil padşahı
Navuxodonosora və Xaldeylilərə

---

*22:23 *Livan* – Yerusəlimdəki padşah sarayının adı. Bax: 1Pad. 7:2.

[w]**22:18** 2Pad. 23:36–24:6; 2Saln. 36:5-7 [x]**22:24** 2Pad. 24:8-15; 2Saln. 36:9-10

səni təslim edəcəyəm. 26 Özünü, səni
doğan ananı doğulmadığınız yad bir
ölkəyə atacağam və orada öləcəksiniz.
27 Qayıtmağa can atdığınız ölkəyə bir
daha qayıtmayacaqsınız».
28 Bu adam – Yehoyakin xor baxılan
qırıq bir kasa, heç kəsin bəyənmədiyi
bir qabdırmı? Bəs nə üçün özü də,
övladları da aparılıb tanımadıqları bir
ölkəyə atıldı? 29 Ölkə, ey ölkə, Rəbbin
sözünü eşit, ey ölkə! 30 Rəbb deyir: «Bu
adamı övladsız, ömründə işləri uğurlu
olmayan bir kişi hesab edin. Çünki
nəslindən heç kim uğur qazanmayacaq.
Nəslindən heç kim Davudun taxtında
oturmayacaq, Yəhudada bir daha
padşahlıq etməyəcək».

Saleh padşah

23 Rəbb bəyan edir: «Otlağımın
qoyunlarını məhv edən və
pərən-pərən salan çobanların vay
halına!» 2 Buna görə də İsrailin Allahı
Rəbb xalqımı otaran çobanların
əleyhinə belə deyir: «Siz Mənim
sürümü pərən-pərən salıb qovdunuz,
onların qayğısına qalmadınız. İndi
Mən də etdiyiniz bəd əməllərə görə
cəzanızın qayğısına qalacağam»
Rəbb belə bəyan edir. 3 «Sürümün
qalanlarını sürgün etdiyim bütün
ölkələrdən yığıb-toplayacağam, onları
yenə ağıllarına qaytaracağam və
törəyib çoxalacaqlar. 4 Üstlərinə onları
otaracaq çobanlar qoyacağam. Daha
qorxub dəhşətə düşməyəcəklər, biri də
itməyəcək» Rəbb belə bəyan edir.
5 [y]«Budur, Davud üçün saleh bir Pöhrə
Çıxaracağım günlər gəlir.
Bu Padşah müdrikliklə padşahlıq
edəcək,
Ölkədə ədalətli və saleh işlər görəcək»
Rəbb belə bəyan edir.
6 «Onun dövründə Yəhuda xilas
olacaq,
İsrail əmin-amanlıqda yaşayacaq.
Onu “Rəbb salehliyimizdir”
çağıracaqlar».
7 Buna görə də Rəbb bəyan edir: «Bir
gün gələcək ki, insanlar artıq “İsrail
övladlarını Misir torpağından çıxaran
Rəbbin varlığına and olsun” deməyəcək,
8 amma “İsrail nəslindən törəyənləri
şimal ölkəsindən və sürgün etdiyi bütün
başqa ölkələrdən geri qaytaran Rəbbin
varlığına and olsun” deyəcək. Beləcə öz
torpaqlarında yaşayacaqlar».

Yəhudanın yalançı peyğəmbərləri

9 Peyğəmbərlər haqqında:
Ürəyim içimdə parçalandı,
Bütün sümüklərim titrədi.
Rəbbə görə,
Onun müqəddəs sözlərinə görə
Bir sərxoş kimi,
Şəraba aludə olan adam kimiyəm.
10 Çünki ölkə zinakarlarla doludur,
Lənətə görə yas tutur.
Çöldəki otlaqlar quruyub,
Adamlar pis yola düşüb.
Güclərini zorakılığa sərf edirlər.
11 Rəbb bəyan edir:
«Peyğəmbər də, kahin də allahsızdır,
Məbədimdə pisliklərini gördüm.
12 Buna görə getdikləri yol
Qaranlıqda sürüşkən yer kimi olacaq,
Orada qovulub yıxılacaqlar.
Çünki cəzalanacaqları il
Başlarına fəlakət gətirəcəyəm»
Rəbb belə bəyan edir.
13 «Samariya peyğəmbərləri arasında
Bu iyrənc işi gördüm:
Baalın adı ilə peyğəmbərlik edərək
Xalqım İsraili yoldan azdırdılar.
14 [z]Yerusəlim peyğəmbərləri arasında
Bu qorxunc işi gördüm:
Zina edirlər,

---

[y] **23:5** Yer. 33:14-16 [z] **23:14** Yar. 18:20

Yalan dalınca gedirlər.
Zorakıların qoluna güc verirlər.
Beləcə heç kəs pisliyindən dönmür.
Hamısı Mənim üçün Sodom kimi,
Şəhər xalqı Homorra kimi oldu».
15 Buna görə də Ordular Rəbbi
Peyğəmbərlər haqqında belə deyir:
«Baxın Mən onlara yovşan
yedirəcəyəm,
Zəhərli su içirəcəyəm.
Çünki allahsızlıq Yerusəlim
peyğəmbərlərindən
Bütün ölkəyə yayıldı».
16 Ordular Rəbbi belə deyir:
«Sizin üçün peyğəmbərlik edən
Peyğəmbərlərin sözünə qulaq
asmayın.
Onlar sizə boş şeylər öyrədir.
Rəbbin ağzından çıxanları deyil,
Özlərinin uydurduqları görüntüləri
söyləyirlər.
17 Onlar Mənə xor baxanlara deyir:
“Rəbb söylədi ki, sizin üçün
Əmin-amanlıq olacaq”.
İnadkarlıqla ürəklərinin istədiyinə
uyanlara deyirlər:
“Üstünüzə fəlakət gəlməyəcək”.
18 Rəbbin sözünü anlayıb eşitmək
üçün
Rəbbin məclisində kimsə durubmu?
Onun sözünə qulaq asıb eşidən varmı?
19 Budur, Rəbbin fırtınası qəzəblə
qopacaq,
Qasırğa fırlanıb
Pis adamların başında çatlayacaq.
20 Ürəyinin istəyinə çatana qədər,
Onu bitirənə qədər
Rəbbin qəzəbi dayanmayacaq.
Gələcək günlərdə bunu açıq-aşkar
anlayacaqsınız.
21 Bu peyğəmbərləri Mən
göndərmədim,
Amma ora-bura qaçdılar.
Onlara Mən söz demədim,
Amma peyğəmbərlik etdilər.
22 Ancaq onlar məclisimdə
dursaydılar,
Sözlərimi xalqıma çatdırardılar.
Pis yollarından, şər əməllərindən
Xalqı çəkindirərdilər».
23 Rəbb bəyan edir:
«Mən yalnız yaxında olan Allah
deyiləm,
Həm də uzaqda olan Allaham.
24 Kimsə gizli yerlərdə saxlana bilər
ki,
Mən onu görə bilməyim?»
Rəbb belə bəyan edir.
«Yeri, göyü Mən doldurmamışammı?»
Rəbb belə bəyan edir.
25 «Mənim adımdan yalan söyləyən
peyğəmbərlərin “Yuxu gördüm, yuxu
gördüm!” sözlərini eşitdim. 26 Nə vaxta
qədər yalan söyləyən, öz ürəklərinin
uydurmalarını bildirən peyğəmbərlər bu
işlə məşğul olacaq? 27 Ataları necə Baal
bütünə görə adımı unutdularsa, onlar da
zənn edir ki, bir-birlərinə danışdıqları
yuxularla xalqıma adımı unutduracaq.
28 Yuxu görən peyğəmbər yuxusunu
söyləsin. Amma sözüm nazil olan adam
onu dəqiq danışsın. Daha buğdanın
yanında saman nədir?» Rəbb belə bəyan
edir. 29 «Mənim sözüm bir od kimi,
qayaları parçalayan gürz kimi deyilmi?»
Rəbb belə bəyan edir. 30 «Buna görə də
Mən peyğəmbərlərə qarşıyam, onlar
sözlərimi bir-birlərindən oğurlayır»
Rəbb belə bəyan edir. 31 «Bax Mən
peyğəmbərlərə qarşıyam. Onlar öz
dillərini tərpədib “Rəbb belə deyir”
söyləyir» Rəbb belə bəyan edir.
32 «Bax Mən yalançı yuxular görüb
peyğəmbərlik edənlərə qarşıyam» Rəbb
belə bəyan edir. «Onlar bu yuxuları
danışıb yalanları və boş lovğalıqları
ilə xalqımı yoldan azdırır. Onları
Mən göndərmədim, onlara heç nə
buyurmadım. Bu xalqa heç bir faydaları
yoxdur» Rəbb belə bəyan edir.

33 «Əgər bu xalqdan biri yaxud bir
peyğəmbər ya da bir kahin səndən
“Bəs Rəbbin yük olan kəlamı nədir?”
soruşsa, ona söylə: “Yük sizsiniz.
Mən sizi atacağam” Rəbb belə bəyan
edir. 34 “Rəbbin yük olan kəlamıdır”
deyən peyğəmbərə, kahinə yaxud adi
adama gəlincə, Mən o adamı da, onun
ailəsini də cəzalandıracağam. 35 Hər
biriniz öz yoldaşınıza, soydaşınıza belə
deyin: “Rəbb nə cavab verdi? Rəbb
nə söylədi?” 36 Bir daha Rəbbin yük
olan kəlamını yada salmayacaqsınız,
çünki hər kəsin sözü özünə yük olacaq.
Bununla siz var olan Allahın, Ordular
Rəbbinin, Allahımızın sözlərini təhrif
etdiniz. 37 Peyğəmbərə belə söylə: “Rəbb
sənə nə cavab verdi? Rəbb nə söylədi?”
38 “Rəbbin yük olan kəlamıdır”
desəniz də, Rəbb hökmən belə deyər:
“‹Rəbbin yük olan kəlamıdır› deyirsiniz,
halbuki Mən sizə xəbərdarlıq edib
‹Rəbbin yük olan kəlamıdır› deməməyi
söyləmişdim. 39 Buna görə də sizi
tamamilə unudacağam, sizi də, özünüzə
və atalarınıza verdiyim şəhəri də
önümdən rədd edəcəyəm. 40 Üzərinizə
heç vaxt unudulmayan biabırçılıq, əbədi
rüsvayçılıq gətirəcəyəm”».

İki səbət əncirlə müqayisə

24 [a]Babil padşahı Navuxodonosor
Yəhuda padşahı Yehoyaqim
oğlu Yehoyakini, Yəhuda başçılarını,
ustaları və sənətkarları Yerusəlimdən
sürgün edib Babilə apardı. Bu hadisədən
sonra Rəbb mənə Öz məbədi önündə
qoyulmuş iki səbət əncir göstərdi. 2 Bir
səbətdə ilk məhsula oxşayan çox yaxşı
əncirlər, o biri səbətdə isə əzik olduqları
üçün yeməyə yararsız olan çox pis
əncirlər var idi. 3 Rəbb mənə dedi:
«Nə görürsən, Yeremya?» Mən dedim:
«Əncir. Yaxşı əncirlər çox yaxşıdır, pis
əncirlər isə çox pis, əzilib yararsız hala
düşmüşdür, onları yemək olmaz».
4 Mənə Rəbbin bu sözü nazil oldu:
5 «İsrailin Allahı Rəbb belə deyir:
“Buradan Xaldey ölkəsinə sürgünə
göndərdiyim Yəhuda əsirlərini bu
yaxşı əncirlər kimi yaxşı hesab
edəcəyəm. 6 Yaxşı yaşasınlar deyə
gözlərim onların üzərində olacaq və
onları yenə bu ölkəyə qaytaracağam.
Onları dirçəldəcəyəm, yıxmayacağam,
onları əkəcəyəm, çıxarmayacağam.
7 Onlara ürək verəcəyəm ki, Mənim
Rəbb olduğumu bilsinlər. Onlar Mənim
xalqım, Mən də onların Allahı olacağam,
çünki onlar bütün qəlbləri ilə Mənə üz
tutacaq”.
8 Rəbb belə deyir: “Amma Yəhuda
padşahı Sidqiyanı, onun başçılarını,
Yerusəlimdə salamat qalıb bu ölkədə
yaxud Misirdə yaşayanları yeməyə
yararsız olan əzik əncir kimi edəcəyəm.
9 Onları yer üzünün bütün ölkələrinin
qarşısında dəhşətli hala salacağam.
Onlar sürgün etdiyim hər yerdə rüsvay
olub ibrətə çevriləcək, kinayə və lənət
qazanacaqlar. 10 Özlərinə və atalarına
verdiyim torpaqdan silinib qurtarana
qədər üstlərinə qılınc, aclıq və vəba
göndərəcəyəm”».

Yetmiş illik sürgün

25 [b]Yəhuda padşahı Yoşiya oğlu
Yehoyaqimin padşahlığının
dördüncü ilində bütün Yəhuda xalqı
barədə Yeremyaya söz nazil oldu.
Bu, Babil padşahı Navuxodonosorun
padşahlığının birinci ilində oldu.
2 Yeremya peyğəmbər bütün Yəhuda
xalqına və Yerusəlimdə yaşayanların
hamısına bu sözü bildirib dedi: 3 «İyirmi
üç il ərzində – Yəhuda padşahı Amon
oğlu Yoşiyanın padşahlığının on üçüncü
ilindən bu günə qədər Rəbbin sözü

[a]**24:1** 2Pad. 24:12-16; 2Saln. 36:10 [b]**25:1** 2Pad. 24:1; 2Saln. 36:5-7; Dan. 1:1-2

mənə nazil oldu. Mən də dəfələrlə
bu sözləri sizə bildirdim, amma siz
qulaq asmadınız. 4 Rəbb peyğəmbər
qullarını dəfələrlə yanınıza göndərdi,
amma eşitmədiniz, qulaq asmadınız.
5 Onlar sizə belə söylədi: "İndi öz
pis yolunuzdan, pis əməllərinizdən
dönün ki, Rəbbin əbədi olaraq sizə və
atalarınıza verdiyi torpaqda yaşayasınız.
6 Başqa allahlara qulluq və səcdə edərək
onların tərəfdarı olmayın, əl işiniz olan
bütlərlə Məni qəzəbləndirməyin ki,
Mən də sizə pislik etməyim". 7 Rəbb
bəyan edir: "Ancaq siz Mənə qulaq
asmadınız, əl işiniz olan bütlərlə Məni
qəzəbləndirib özünüzə ziyan vurdunuz".
8 Buna görə də Ordular Rəbbi deyir:
"İndi ki sözlərimə qulaq asmadınız,
9 Mən də bütün şimal tayfalarını və
qulum Babil padşahı Navuxodonosoru
çağıracağam". Bu, Rəbbin sözüdür.
"Onları bu ölkənin, burada yaşayanların
və bütün ətraf millətlərin üstünə
gətirəcəyəm. Bunları tamamilə məhv
edəcəyəm, ölkəni dəhşət və rişxənd
hədəfinə çevirəcək, əbədi bir xarabalığa
döndərəcəyəm. 10 [c]Sevinc və şadlıq
sədasını, bəy-gəlin səsini, dəyirman
daşlarının taqqıltısını, çıraq işığını
onların içindən yox edəcəyəm.
11 [d]Bütün bu ölkə xarabaya, dəhşətli
bir yerə çevriləcək. Bu millətlər Babil
padşahına yetmiş il qulluq edəcək".
12 Rəbb bəyan edir: "Yetmiş il
bitəndən sonra isə günahlarına görə
Babil padşahını, onun millətini və
Xaldey ölkəsini cəzalandıracağam.
Oranı əbədi olaraq viranəliyə
çevirəcəyəm. 13 O ölkə üçün
söylədiklərimin hamısını, Yeremyanın
bütün millətlər barəsində bu kitabda
yazılmış peyğəmbərlik sözlərinin
hamısını oranın başına gətirəcəyəm.
14 Bir çox millət, böyük padşahlar
onları özlərinə qul edəcək. Əməllərinə
və əllərinin işinə görə onlara əvəz
verəcəyəm"».

Rəbbin qəzəb kasası

15 Bəli, İsrailin Allahı Rəbb mənə belə
dedi: «Budur, qəzəbimlə dolu bir şərab
kasası! Onu əlimdən al və səni yanına
göndərəcəyim bütün millətlərə içirt.
16 Onlar içən kimi səndələyəcəklər,
üstlərinə göndərəcəyim qılıncın
qorxusundan ağılları çaşacaq».
17 Onda mən kasanı Rəbbin əlindən
aldım və Onun məni yanlarına
göndərdiyi bütün millətlərə içirtdim.
18 Kasadan bunlar içdi: indiki kimi
viranəliyə, dəhşətə, rişxənd hədəfinə və
lənətə düçar olsunlar deyə Yerusəlim
əhalisi, Yəhuda şəhərləri, padşahları
və başçıları, 19 Misir padşahı firon,
əyanları, başçıları və bütün xalqı,
20 Misirdə yaşayan bütün yadellilər,
Us ölkəsinin bütün padşahları, Filişt
ölkəsinin bütün padşahları – Aşqelon,
Qəzzə, Eqron padşahları və Aşdodda
sağ qalanlar, 21 Edom, Moav, Ammon
övladları, 22 bütün Sur və Sidon
padşahları, dənizin o tayındakı
ölkələrin padşahları, 23 Dedan, Tema,
Buz və kəkillərini qırxanların hamısı,
24 bütün Ərəbistan padşahları, səhrada
yaşayan yadelli xalqın padşahları,
25 bütün Zimri, Elam və Midiya
padşahları, 26 sıra ilə bütün yaxın və
uzaq şimal padşahları, yer üzünün
bütün padşahları. Hamıdan sonra bu
kasanı Şeşak [*]padşahı da içəcək.
27 «Sən onlara söylə ki, İsrailin Allahı
olan Ordular Rəbbi belə deyir: "İçib
sərxoş olun, sonra qusun, üstünüzə

[*]**25:26** *Şeşak* – şifrli şəkildə ifadə olunanda *Babil* adını bildirir.

[c]**25:10** Yer. 7:34; 16:9; Vəhy 18:22-23

[d]**25:11** 2Saln. 36:21; Yer. 29:10; Dan. 9:2

göndərəcəyim qılıncla vurulub-yıxılın
və bir daha ayağa qalxmayın”. 28 Əgər
onlar kasanı əlindən alıb içmək
istəməsələr, söylə ki, Ordular Rəbbi
belə deyir: “Mütləq içməlisiniz! 29 Bax
Mənim adımla çağırılan şəhərin üstünə
fəlakət gətirməyə başlayıram. Elə
sanırsınız ki, siz cəzasız qalacaqsınız?
Sizi cəzasız qoymayacağam. Mən yer
üzündə yaşayan hər kəsin üstünə qılınc
gətirəcəyəm” Ordular Rəbbi belə bəyan
edir.
30 [e]Buna görə də bütün bu
peyğəmbərlik sözlərini onlara
bildirib söylə:
“Rəbb uca yerdən nərə çəkəcək,
Müqəddəs məskənindən gurlayacaq.
Öz otlağına qarşı şiddətlə nərə
çəkəcək,
Dünyada yaşayanların hamısına qarşı
hayqıracaq,
Üzüm əzənlər kimi bağıracaq.
31 Hay-küy dünyanın ucqarlarına
qədər yayılacaq,
Çünki Rəbbin millətlərlə davası var.
Bütün bəşəri mühakimə edəcək,
Pisləri qılınca təslim edəcək”
Rəbb belə bəyan edir.
32 Ordular Rəbbi belə deyir:
“Bax millətdən millətə bəla yayılır,
Dünyanın uzaq yerlərindən
Böyük qasırğa qopur”.
33 O gün Rəbb dünyanı bir ucundan
o biri ucuna qədər öldürülənlərlə
dolduracaq. Onlar üçün yas
tutulmayacaq, bir yerə yığılıb
basdırılmayacaqlar, torpağın üstündə
peyin kimi olacaqlar.
34 Ey çobanlar, ağlayıb fəryad edin,
Ey sürü başçıları, torpaqda eşələnin.
Çünki qətl olunma,
Pərən-pərən salınma vaxtınız çatdı.
Siz qiymətli bir qab kimi
yıxılacaqsınız.
35 Çobanlar qaça bilməyəcək,
Sürü başçıları qurtula bilməyəcək.
36 Çobanların fəryadını,
Sürü başçılarının bağırtısını eşit,
Çünki Rəbb onların otlaqlarını viran
edir.
37 Rəbbin qızğın qəzəbindən
Dinc pəyələr də məhv oldu.
38 Rəbb cavan aslan kimi
Yuvasını tərk etdi.
Rəbbin qəzəbi üzündən –
Zor işlədənin qızğın qəzəbi üzündən
Ölkələri viran oldu».

Yeremyanın ölümlə hədələnməsi

26 [f]Yəhuda padşahı Yoşiya oğlu
Yehoyaqimin padşahlığının
əvvəlində Rəbdən bu söz nazil oldu:
2 «Rəbb belə deyir: “Rəbbin məbədinin
həyətində dur, ibadət etmək üçün
Yəhuda şəhərlərindən oraya gələn hər
kəsə müraciət et. Sənə buyurduğum hər
şeyi onlara bildir, bir söz də əskiltmə.
3 Bəlkə qulaq asarlar, öz pis yollarından
dönərlər. Mən də pis əməllərinə görə
başlarına gətirəcəyim fəlakətdən vaz
keçərəm”. 4 Onlara söylə ki, Rəbb belə
deyir: “Əgər sizə verdiyim qanuna görə
davranmasanız, Mənə qulaq asmasanız,
5 dəfələrlə sizin yanınıza göndərdiyim
qullarım olan peyğəmbərlərin sözlərinə
qulaq asmasanız – necə ki qulaq
asmırsınız – o zaman 6 [g]bu məbədi
də Şilo kimi edəcəyəm, bu şəhəri yer
üzünün bütün millətləri arasında lənətə
düçar edəcəyəm”».
7 Kahinlər, peyğəmbərlər və bütün
xalq Yeremyanın Rəbbin məbədində
söylədiyi bu sözləri eşitdi. 8 Yeremya
Rəbbin xalqa çatdırmasını buyurduğu
sözləri deyib qurtaranda kahinlər,

---

[e]**25:30** Yoel 3:16; Amos 1:2 [f]**26:1** 2Pad. 23:36–24:6; 2Saln. 36:5-7
[g]**26:6** Yeşua 18:1; Zəb. 78:60; Yer. 7:12-14

peyğəmbərlər və oradakı bütün xalq
onu tutub söylədi: «Sən ölməlisən.
9 Nə üçün "bu məbəd Şilo kimi olacaq,
bu şəhər xaraba qalacaq, orada
yaşayan olmayacaq" deyib Rəbbin adı
ilə peyğəmbərlik edirsən?» Rəbbin
məbədində olan bütün xalq Yeremyanın
ətrafına yığıldı.
10 Yəhuda başçıları bunları eşidən
kimi padşah sarayından çıxıb Rəbbin
məbədinə qalxdı və məbədin Yeni
darvazasının girəcəyində oturdu. 11 O
zaman kahinlər və peyğəmbərlər
başçılara və bütün xalqa söylədi:
«Bu adam ölümə layiqdir, çünki öz
qulağınızla eşitdiyiniz kimi bu şəhərin
əleyhinə peyğəmbərlik etdi».
12 Onda Yeremya bütün başçılara
və xalqa dedi: «Rəbb məni göndərdi
ki, bu məbədin və şəhərin əleyhinə
eşitdiyiniz bütün peyğəmbərlik
sözlərini bildirim. 13 İndi yaşayışınızı
və əməllərinizi islah edin. Allahınız
Rəbbin sözünə qulaq asın. O zaman
Rəbb başınıza gətirəcəyini bildirdiyi
bəladan vaz keçəcək. 14 Mən isə
sizin ixtiyarınızdayam. Gözünüzdə
nə yaxşı və düzdürsə, mənimlə eləcə
də rəftar edin. 15 Ancaq yaxşı bilin
ki, məni öldürsəniz, günahsız qanın
məsuliyyətini özünüzün, bu şəhərin və
orada yaşayanların üzərinə götürmüş
olursunuz. Çünki Rəbb, həqiqətən, məni
yanınıza göndərdi ki, bütün bu sözləri
sizə çatdırım».
16 Başçılar və bütün xalq kahinlərə
və peyğəmbərlərə dedi: «Bu adama
ölüm hökmü çıxarmaq olmaz, çünki
bizimlə Allahımız Rəbbin adından
danışdı». 17 Ölkə ağsaqqallarından
bir neçəsi qalxıb toplaşmış bütün
xalqa dedi: 18 [h]«Yəhuda padşahı
Xizqiyanın dövründə Moreşetli Mikeya
peyğəmbərlik edib bütün Yəhuda
xalqına söylədi ki, Ordular Rəbbi belə
deyir:

"Sion tarla kimi şumlanacaq,
Yerusəlim daş qalağına dönəcək,
Məbədin tikildiyi dağ
Meşəli təpələrə çevriləcək".

19 Yəhuda padşahı Xizqiya yaxud
Yəhuda xalqından biri onu öldürdümü?
Əksinə, Xizqiya Rəbdən qorxub Ondan
lütf istədi, Rəbb də onlara göndərəcəyini
söylədiyi bəladan vaz keçdi. Biz isə
özümüzə böyük pislik gətirmək
təhlükəsindəyik».

Padşahın Uriya peyğəmbəri öldürməsi

20 Qiryat-Yearimli Şemaya oğlu
Uriya adlı bir adam da Rəbbin adı
ilə peyğəmbərlik edirdi. O da eynilə
Yeremya kimi danışaraq bu şəhərin
və ölkənin əleyhinə peyğəmbərlik
edirdi. 21 Padşah Yehoyaqim, bütün
cəngavərləri və başçıları onun sözlərini
eşitdi. Padşah onu öldürmək istədi.
Ancaq Uriya bunu eşidən kimi qorxub
Misirə qaçdı. 22 Bundan sonra padşah
Yehoyaqim öz adamlarını – Akbor
oğlu Elnatanı və bir neçə nəfəri Misirə
göndərdi. 23 Uriyanı Misirdən çıxarıb
padşah Yehoyaqimin yanına gətirdilər.
Padşah onu qılıncla öldürüb ümumi
qəbiristanlığa atdırdı.
24 Ancaq Yeremya öldürülmək üçün
xalqa təslim edilmədi, çünki Şafan oğlu
Axiqam onu qorudu.

Yəhudanın Babilə təslim edilməsi

27 [i]Yəhuda padşahı Yoşiya oğlu
Sidqiyanın* padşahlığının
əvvəlində Rəbdən Yeremyaya bu

*27:1 *Sidqiyanın* – bəzi ibrani əlyazmalarında, süryani və ərəb tərcümələrində belədir, əksər ibrani əlyazmalarında isə *Yehoyaqimin.*

[h]**26:18** Mik. 3:12 [i]**27:1** 2Pad. 24:18-20; 2Saln. 36:11-13; Yer. 28:1

söz nazil oldu: 2 «Rəbb mənə belə
dedi: “Özünə qayışlarla bağlanan
taxta bir boyunduruq düzəlt və
boynuna tax. 3 Sonra Yerusəlimə,
Yəhuda padşahı Sidqiyanın yanına
gələn qasidlər vasitəsilə Edomun,
Moavın, Ammon övladlarının, Surun və
Sidonun padşahlarına xəbər göndər”.
4 Ağalarına söyləmək üçün onlara bildir
ki, İsrailin Allahı olan Ordular Rəbbi
belə deyir: “Ağalarınıza söyləyin ki,
5 dünyanı da, yer üzündə olan insanı
da, heyvanı da böyük gücümlə və
uzanan qolumla Mən yaratdım və
kimə istəsəm, ona da verərəm. 6 Bəli,
bütün bu ölkələri Babil padşahı qulum
Navuxodonosorun ixtiyarına verirəm.
Hətta vəhşi heyvanları da xidmət
etmək üçün ona verirəm. 7 Ölkəsinin
axırı çatana qədər bütün millətlər ona,
oğluna və nəvəsinə qulluq edəcək.
Sonra isə bir çox millətlər və böyük
padşahlar onu özlərinə qul edəcək.
8 Hansı millət və ölkə Babil padşahı
Navuxodonosora qulluq etməsə,
onun boyunduruğuna girməsə, həmin
milləti onun əli ilə qırıb-çatana
qədər qılınc, aclıq və vəba ilə
cəzalandıracağam” Rəbb bəyan edir.
9 “Siz isə öz peyğəmbərlərinizə,
falçılarınıza, yuxugörənlərinizə,
gələcəyideyənlərinizə və
cadugərlərinizə qulaq asmayın.
Onlar sizə ‹Babil padşahına qulluq
etməyəcəksiniz› söyləyir. 10 Onlar
sizə yalandan peyğəmbərlik edir.
Bunun nəticəsində öz ölkənizdən
qovulacaqsınız. Sizi sürgün edəcəyəm
və məhv olacaqsınız. 11 Ancaq Babil
padşahının boyunduruğuna girən və
ona qulluq edən milləti öz torpağında
saxlayacağam. Torpağı əkib orada
yaşayacaqlar” Rəbb belə bəyan edir».
12 Mən bütün bu sözləri Yəhuda
padşahı Sidqiyaya bildirib dedim:
«Babil padşahının boyunduruğuna
girin, özünə və xalqına qulluq edin
ki, sağ qalasınız. 13 Babil padşahına
qulluq etmək istəməyən hər millət
Rəbbin dediyi kimi məhv olacaq. Sən və
xalqın qılınc, aclıq və vəbadan nə üçün
öləsiniz? 14 Sizə “Babil padşahına qulluq
etməyəcəksiniz” deyən peyğəmbərlərə
qulaq asmayın, çünki onlar sizə
yalandan peyğəmbərlik edir. 15 Rəbb
bəyan edir: “Onları Mən göndərmədim,
onlar Mənim adımla yalandan
peyğəmbərlik edir. Bunun nəticəsində
Mən sizi sürgün edəcəyəm, siz də, sizə
peyğəmbərlik edən peyğəmbərlər də
həlak olacaqsınız”».
16 Mən kahinlərə və bütün bu xalqa
söylədim: «Rəbb belə deyir: “‹Rəbbin
məbədindən götürülən əşyalar tezliklə
Babildən geri qaytarılacaq› deyib sizə
peyğəmbərlik edən peyğəmbərlərinizin
sözlərinə qulaq asmayın. Çünki
sizə yalandan peyğəmbərlik edirlər.
17 Onlara qulaq asmayın, Babil
padşahına qulluq edin ki, sağ qalasınız.
Bu şəhər niyə viran olsun? 18 Əgər
onlar peyğəmbərdirsə, Rəbbin sözünü
söyləyirlərsə, qoy indi Ordular Rəbbinə
yalvarsınlar ki, Rəbbin məbədində,
Yəhuda padşahının sarayında və
Yerusəlimdə qalan əşyalar Babilə
aparılmasın”.
19 Sütunlar, hovuz, ayaqlıqlar və bu
şəhərdə qalan başqa əşyalar barədə
Ordular Rəbbi belə deyir. 20 Bəli,
Yəhuda padşahı Yehoyaqim oğlu
Yehoyakini və Yəhuda ilə Yerusəlimin
bütün əyanlarını Yerusəlimdən
Babilə sürgün etdiyi zaman Babil
padşahı Navuxodonosorun aparmadığı,
21 Rəbbin məbədində, Yəhuda
padşahının sarayında və Yerusəlimdə
qalan əşyalar barədə İsrailin Allahı
Ordular Rəbbi belə deyir: 22 “Onlar
Babilə aparılacaq və Babillilərin işinə
baxacağım günə qədər orada qalacaq. O
zaman onları oradan çıxaracağam və bu

yerə qaytaracağam” Rəbb belə bəyan
edir».

Yalançı peyğəmbər Xananya

28 Həmin il Yəhuda padşahı
Sidqiyanın padşahlığının
əvvəlində – dördüncü ilinin beşinci
ayında Giveonlu Azzur oğlu Xananya
peyğəmbər Rəbbin məbədində,
kahinlərin və bütün xalqın önündə
mənə söylədi: 2 «İsrailin Allahı olan
Ordular Rəbbi belə deyir: “Babil
padşahının boyunduruğunu qırdım.
3 Əvvəl Rəbbin məbədində olan,
Babil padşahı Navuxodonosorun
buradan götürüb Babilə apardığı
bütün əşyaları iki il ərzində bu yerə
qaytaracağam. 4 Yəhuda padşahı
Yehoyaqim oğlu Yehoyakini və Babilə
sürgün olunmuş bütün Yəhudalıları
bu yerə qaytaracağam” Rəbb belə
bəyan edir, “çünki Babil padşahının
boyunduruğunu qıracağam”».
5 O zaman Yeremya peyğəmbər
kahinlərin və Rəbbin məbədində
dayanan bütün xalqın önündə Xananya
peyğəmbərə cavab verib 6 söylədi:
«Amin! Qoy Rəbb belə etsin! Qoy Rəbb
Öz evinin əşyalarını, sürgün olunmuş
bütün adamları Babildən buraya
qaytararaq söylədiyin peyğəmbərlik
sözlərini yerinə yetirsin! 7 Ancaq indi
sən və bütün xalq eşidərkən deyəcəyim
bu sözə qulaq as: 8 qədim zamanlardan
bəri məndən və səndən əvvəl yaşayan
peyğəmbərlər bir çox ölkələrin və böyük
padşahlıqların əleyhinə müharibə,
fəlakət və vəba olacağını qabaqcadan
söylədi. 9 Əgər salamatlıq olacağını
söyləyən peyğəmbərin sözü doğru
çıxarsa, həqiqətən, onun Rəbbin
göndərdiyi peyğəmbər olduğu bilinər».
10 O zaman Xananya peyğəmbər
Yeremya peyğəmbərin boynundan
boyunduruğu götürüb qırdı. 11 Xananya
bütün xalqın önündə söylədi: «Rəbb
belə deyir: “İki il ərzində Babil padşahı
Navuxodonosorun boyunduruğunu
bütün millətlərin boynundan götürüb
beləcə qıracağam”». Yeremya isə öz
yoluna davam etdi.
12 Xananya peyğəmbər Yeremya
peyğəmbərin boynundan boyunduruğu
götürüb qırdıqdan sonra Yeremyaya
Rəbbin bu sözü nazil oldu: 13 «Gedib
Xananyaya söylə ki, Rəbb belə deyir:
“Sən taxta boyunduruğu qırdın,
ancaq onun yerinə dəmir boyunduruq
düzəltməli olacaqsan”. 14 Çünki İsrailin
Allahı olan Ordular Rəbbi belə deyir:
“Bütün bu millətlərin boynuna dəmir
boyunduruq taxdım ki, Babil padşahı
Navuxodonosora qulluq etsinlər və onlar
ona xidmət edəcək. Vəhşi heyvanları da
onun ixtiyarına verdim”». 15 Yeremya
peyğəmbər Xananya peyğəmbərə dedi:
«İndi eşit, ey Xananya, axı səni Rəbb
göndərməyib. Sən bu xalqı yalana
inandırdın. 16 Buna görə də Rəbb belə
deyir: “Bax Mən səni yer üzündən yox
edəcəyəm. Bu il öləcəksən, çünki xalqı
Rəbbə qarşı üsyana təhrik etdin”».
17 Xananya peyğəmbər həmin ilin
yeddinci ayında öldü.

Sürgün olunanlara məktub

29 [j]Yeremya peyğəmbər sürgündə
sağ qalan xalqın ağsaqqallarına,
kahinlərə, peyğəmbərlərə və
Navuxodonosorun Yerusəlimdən
Babilə sürgün etdiyi bütün xalqa
Yerusəlimdən bir məktub göndərdi.
Məktubun mətni aşağıda verilir. 2 Bu
məktub padşah Yehoyakinin, onun
anasının, saray əyanlarının, Yəhuda
və Yerusəlim başçılarının, ustaların,
sənətkarların Yerusəlimdən sürgünə
aparılmasından sonra göndərildi. 3 Onu

---

[j]**29:1** 2Pad. 24:12-16; 2Saln. 36:10

Yəhuda padşahı Sidqiyanın Babil
padşahı Navuxodonosorun yanına
göndərdiyi Şafan oğlu Elasa və Xilqiya
oğlu Gemarya apardı. Belə dedi:
4 «Mən İsrailin Allahı olan
Ordular Rəbbi Yerusəlimdən Babilə
sürgün etdiyim adamlara belə
söyləyirəm: 5 "Evlər tikib yaşayın,
bağçalar salıb meyvələrini yeyin.
6 Arvad alıb oğul-qız atası olun.
Oğullarınıza arvad alın, qızlarınızı
ərə verin ki, oğul-qızları olsun.
Orada azalmayıb çoxalın. 7 Sizi
sürgün etdiyim şəhərin rifahı üçün
çalışın və o şəhər üçün Rəbbə dua
edin. Çünki ora rifah içində olarsa,
siz də rifahda yaşayarsınız".
8 İsrailin Allahı olan Ordular
Rəbbi belə deyir: "Aranızdakı
peyğəmbərləriniz və falçılarınız sizi
aldatmasın, gördüyünüz yuxulara
əhəmiyyət verməyin. 9 Çünki
onlar Mənim adımla sizə yalandan
peyğəmbərlik edir. Onları Mən
göndərmədim" Rəbb belə bəyan
edir.
10 [k]Çünki Rəbb belə deyir:
"Babildə yetmiş iliniz bitəndə
Mən sizə yenə baş çəkəcəyəm
və sizi buraya qaytaracağım
barədə verdiyim xoş sözü yerinə
yetirəcəyəm. 11 Çünki sizin
barənizdə olan fikirlərimi Özüm
bilirəm" Rəbb belə bəyan edir.
"Mən sizin pisliyiniz deyil,
salamatlığınız barədə düşünürəm
ki, sizə ümidli bir gələcək verim.
12 Siz Məni çağıracaqsınız, gəlib
Mənə dua edəcəksiniz, Mən də sizi
eşidəcəyəm. 13 [l]Məni axtaracaqsınız,
əgər bütün qəlbinizlə axtarsanız,
tapacaqsınız. 14 Məni tapmağınıza
izin verəcəyəm" Rəbb belə
bəyan edir. "Sizi sürgündən geri
qaytaracağam, sürgün etdiyim
bütün yerlərdən və millətlərin
arasından toplayacağam. Oradan
sizi sürgün olunduğunuz yerə
qaytaracağam" Rəbb belə bəyan
edir.
15 Siz belə dediniz: "Rəbb bizə
Babildə peyğəmbərlər verib".
16 Davudun taxtında oturan padşah,
bu şəhərdə yaşayan bütün xalq,
sizinlə birgə sürgünə aparılmamış
soydaşlarınız barədə Rəbb belə
deyir. 17 Bəli, Ordular Rəbbi
belə deyir: "Bax Mən onların
üzərinə qılınc, aclıq və vəba
göndərəcəyəm. Onları pisliyinə
görə yeməyə yararsız olan əzik
əncirə döndərəcəyəm. 18 Onları
qılınc, aclıq və vəba ilə təqib
edəcəyəm, yer üzünün bütün
ölkələrinin qarşısında dəhşətli
hala salacağam. Onları qovduğum
bütün millətlərin arasında lənət,
dəhşət, rişxənd və rüsvayçılıq
hədəfi olacaqlar". 19 Rəbb bəyan
edir: "Ona görə ki sözlərimə qulaq
asmadılar. Həmin sözləri qullarım
olan peyğəmbərlər vasitəsilə
dəfələrlə onlara çatdırdım, ancaq
siz qulaq asmadınız" Rəbb belə
bəyan edir. 20 Buna görə də, ey
Yerusəlimdən Babilə göndərdiyim
bütün sürgün olunmuş adamlar,
Rəbbin sözünü eşidin.
21 Mənim adımla sizə yalandan
peyğəmbərlik edən Qolaya oğlu
Axav və Maaseya oğlu Sidqiya
barədə İsrailin Allahı olan Ordular
Rəbbi belə deyir: "Bax Mən onları
Babil padşahı Navuxodonosora
təslim edəcəyəm və o, gözlərinizin
önündə onları öldürəcək. 22 Onlar
barədə Babildəki bütün sürgün
olunmuş Yəhudalılar bundan sonra

[k]**29:10** 2Saln. 36:21; Yer. 25:11; Dan. 9:2
[l]**29:13** Qanun. 4:29

‹Rəbb səni Babil padşahının diri-diri
yandırdığı Sidqiya və Axav kimi
etsin› deyə lənət edəcək. 23 Çünki
İsraildə çirkin işlər gördülər,
qonşularının arvadları ilə zina
etdilər, onlara əmr etmədiyim
halda Mənim adımdan yalan sözlər
söylədilər. Mən bunu bilirəm və
buna şahidəm” Rəbb belə bəyan
edir».

Şemayaya müraciət

24 Nexelamlı Şemaya barədə söylə
ki, 25 İsrailin Allahı Ordular Rəbbi belə
deyir: «Sən Yerusəlimdə olan başqa
xalqa, kahin Maaseya oğlu Sefanyaya və
başqa kahinlərə öz adından məktublar
göndərdin. Sefanyaya belə dedin:
26 “Rəbb Öz məbədinin cavabdehi
kimi Yehoyadanın yerinə səni
kahin qoydu. Peyğəmbər kimi
davranan hər dəliyə kündə və dəmir
yaxa vurmalısan. 27 Bəs nə üçün
sizə özünü peyğəmbər elan edən
Anatotlu Yeremyanı məzəmmət
etmirsən? 28 Çünki Yeremya biz
Babildəkilərə bu xəbəri göndərdi
ki, sürgün uzun çəkəcək. Buna görə
də evlər tikib, içində yaşayın, bağça
salıb, meyvələrini yeyin”».
29 Kahin Sefanya bu məktubu
Yeremya peyğəmbərə uca səslə oxudu.
30 Bu vaxt Yeremyaya Rəbbin bu
sözü nazil oldu: 31 «Bütün sürgün
olunmuşlara xəbər göndərib söylə ki,
Nexelamlı Şemaya barədə Rəbb belə
deyir: “İndi ki Mən göndərmədiyim
halda Şemaya peyğəmbərlik edib sizi
yalana inandırdı, 32 Mən Rəbb də
deyirəm ki, Nexelamlı Şemayanı və
onun nəslini cəzalandıracağam. Bu
xalqın arasında onun nəslindən olan bir
kəs sağ qalmayacaq, xalqıma edəcəyim
xeyirxahlığı görməyəcək, çünki o, xalqı
Rəbbə qarşı üsyana təhrik etdi” Rəbb
belə bəyan edir».

Allahın öz xalqına vədi

30 Yeremyaya Rəbdən bu söz
nazil oldu: 2 «İsrailin Allahı
Rəbb belə deyir: “Sənə söylədiyim
bütün sözləri bir kitaba yaz”. 3 Çünki
Rəbb bəyan edir: “Xalqım İsraili və
Yəhudanı sürgündən qaytaracağım
günlər yaxınlaşır. Onları atalarına
verdiyim torpağa qaytaracağam və
oranı mülk edəcəklər”. Bu, Rəbbin
sözüdür.
4 İsrail və Yəhuda üçün Rəbbin
söylədiyi sözlər bunlardır. 5 Rəbb belə
deyir:
“Qorxu səsi eşitdik,
Asayiş deyil, dəhşət səsi.
6 İndi soruşun, bilin ki,
Kişi də uşaq doğarmı?
Elə isə nə üçün doğan qadın kimi
Hər kişinin əllərini belində görürəm?
Nə üçün hamının bənizi solub?
7 Ah, bu nə dəhşətli gündür!
Bir daha belə gün olmayacaq,
Yaqub nəsli üçün sıxıntı dövrü olacaq,
Ancaq yenə də bundan qurtulacaq”.
8 Ordular Rəbbi bəyan edir: “O gün
boynundakı boyunduruğu qıracaq,
iplərini qoparacağam. Bundan sonra
yadellilər onları özlərinə qul etməyəcək.
9 Ancaq özlərinin Allahı Rəbbə, onlara
təyin edəcəyim padşahları Davuda
qulluq edəcəklər”.
10 [m]Rəbb bəyan edir:
“Qorxma, ey qulum Yaqub,
Dəhşətə düşmə, ey İsrail.
Çünki səni uzaq yerlərdən,
Nəslini sürgün olunduğu ölkədən
qurtaracağam.
Yaqub nəsli yenə geri qayıdacaq,
Rahatlıq tapıb qayğısız olacaq,
Onu kimsə qorxutmayacaq.

---

[m]**30:10** Yer. 46:27-28

11 Çünki Mən sənin ləyəm,
Səni qurtaracağam”
Rəbb belə bəyan edir.
“Səni aralarına apardığım
Millətlərin hamısını yox etsəm də,
Səni tamamilə məhv etməyəcəyəm,
Səni ədalətlə tərbiyələndirəcəyəm,
Amma cəzasız da qoymayacağam”.
12 Çünki Rəbb belə deyir:
“Sənin yaran şəfa tapmaz,
Xoran sağalmaz.
13 Məhkəmədə işinə baxan yoxdur,
Xəstəliyinə dərman yoxdur,
Sənin dərdinə əlac yoxdur.
14 Bütün müttəfiqlərin səni unutdu,
Səni arayıb-axtarmırlar.
Düşmən vuran kimi Mən səni vurdum.
Rəhmsizcəsinə cəzalandırdım.
Çünki təqsirkarlığın böyükdür,
Günahların çoxdur.
15 Niyə yarandan ötrü qışqırırsan?
Dərdin şəfa tapmaz.
Bu işləri ona görə sənə etdim ki,
Təqsirkarlığın böyükdür,
Günahların çoxdur.
16 Ancaq səni yeyənlərin də hamısı yem olacaq.
Bütün düşmənlərin sürgünə gedəcək.
Səni soyanlar soyulacaq,
Səni qarət edənlər qarət olunacaq”.
17 Rəbb bəyan edir:
“Mən səni yenə sağaldacağam,
Yaralarına şəfa verəcəyəm.
Çünki deyirlər ki,
Sion rədd edilib,
Onu axtaran yoxdur”.
18 Rəbb belə deyir:
“Mən Yaqubun çadırlarını
Sürgündən geri qaytaracağam.
Onun məskənlərinə rəhm edəcəyəm.
Şəhər yenidən viranələri üzərində tikiləcək,
Saray öz yerində bərpa olunacaq.
19 Onların arasından
Şükür və şənlik səsləri eşidiləcək.
Mən onları çoxaldacağam, azalmayacaqlar,
İzzətləndirəcəyəm, alçalmayacaqlar.
20 Övladları əvvəlki kimi olacaq,
İcması önümdə möhkəm duracaq.
Onları sıxışdıranların hamısını cəzalandıracağam.
21 Rəhbərləri özlərindən olacaq,
Başçıları aralarından çıxacaq.
Onu Özümə yaxınlaşdıracağam,
O da Mənə yaxınlaşacaq.
Başqa cür kim Mənə özü yaxınlaşmağa
Cürət edə bilər?”
Rəbb belə bəyan edir.
22 “Beləcə siz Mənim xalqım,
Mən də sizin Allahınız olacağam”».
23 Budur, Rəbbin fırtınası qəzəblə qopacaq,
Şiddətli qasırğası
Pis adamların başında çatlayacaq.
24 Rəbb Öz ürəyinin istədiyini
Tamamilə edənə qədər
Qızğın qəzəbini söndürməyəcək.
Siz gələcəkdə bunu anlayacaqsınız.

31 Rəbb bəyan edir: «O zaman Mən bütün İsrail qəbilələrinin Allahı olacağam, onlar da Mənim xalqım olacaq».

İsrail xalqının öz yurduna dönməsi

2 Rəbb belə deyir:
«Mən İsrailə dinclik verməyə gedəndə
Qılıncdan qaçıb qurtulan xalq
Çöldə lütf tapdı».
3 Rəbb uzaqdan mənə görünüb dedi:
«Səni əbədi bir məhəbbətlə sevdim,
Buna görə də sevgi ilə
Səni Özümə tərəf çəkdim.
4 Səni yenidən ayağa qaldıracağam,
Sən də ayağa qalxacaqsan,
Ey bakirə qıza bənzəyən İsrail!
Sən yenə dəflərinlə bəzənib
Şadlıq edənlərlə birgə rəqsə qoşulacaqsan.
5 Yenə də Samariya dağlarında bağ salacaqsan,

Bağ salanlar onun meyvələrindən
dadacaq.
6 Bir gün gələcək ki,
Efrayimin dağlıq bölgəsində
Keşikçilər “qalxın, Siona,
Allahımız Rəbbin yanına çıxaq”
Deyə qışqıracaq».
7 Rəbb belə deyir:
«Yaqubu sevinclə tərənnüm edin,
Millətlərin başçısı üçün səs qaldırın!
Ucadan həmd edib bildirin!
“Ya Rəbb, xalqını,
İsraildən sağ qalanları xilas et!” deyin.
8 Mən onları şimal ölkəsindən
qaytaracağam,
Dünyanın uzaq yerlərindən
toplayacağam.
Aralarında kor, topal,
Hamilə və doğan qadın da olacaq.
Böyük bir camaat olub buraya
qayıdacaqlar.
9 Onlar ağlaya-ağlaya gələcək,
Yalvardıqları zaman
Onlara yol göstərib geri
qaytaracağam.
Axar sular boyunca
Büdrəməyəcəkləri düz yolla
aparacağam.
Çünki Mən İsrailin atasıyam,
Efrayim də ilk oğlumdur.
10 Ey millətlər, Rəbbin sözünü eşidin,
Uzaqlardakı adalarda elan edib deyin:
“İsraili səpələyən onu bir yerə
toplayacaq,
Sürüsünü qoruyan çoban kimi
Onu qoruyacaq”.
11 Çünki Rəbb Yaqubu satın aldı,
Ondan güclü olanın əlindən qurtardı.
12 Onlar Sionun yüksək təpəsinə gəlib
Tərənnüm edəcək.
Rəbbin verdiyi nemətlər –
Taxıl, təzə şərab, zeytun yağı,
Qoyun-keçi, mal-qara önünə
axışacaqlar.
Canları sulanmış bağça kimi olacaq,
Bir daha taqətdən düşməyəcəklər.
13 O zaman bakirə qız, cavan və qoca
kişilər
Birlikdə rəqs edib sevinəcək,
Mən onların yasını şadlığa
çevirəcəyəm,
Sevincə çevirəcəyəm.
Kədərlərinə təsəlli verib
Onları sevindirəcəyəm.
14 Kahinləri bol yeməklə
doyduracağam,
Xalqım nemətlərimlə doyacaq»
Rəbb belə bəyan edir.
15 [n]Rəbb belə deyir:
«Ramada bir səs eşidildi,
Yas və acı fəryad səsləri!
Rəhilə uşaqları üçün ağlayır,
Təsəlli istəmir.
Çünki onlar daha yoxdur».
16 Rəbb belə deyir:
«Səsini ağlamaqdan,
Gözlərini yaş tökməkdən qoru,
Çünki çəkdiyin zəhmətin əvəzi
veriləcək,
Xalqım düşmən ölkəsindən
qayıdacaq»
Rəbb belə bəyan edir.
17 «Gələcəyin üçün ümid var,
Övladların öz yurdlarına dönəcək»
Rəbb belə bəyan edir.
18 Bəli, Mən Efrayimin nalələrini
eşitdim:
«Sən məni
Öyrədilməmiş dana kimi
tərbiyələndirdin,
Mən də tərbiyə aldım.
Məni geri qaytar, qayıdım,
Çünki Allahım Rəbb Sənsən.
19 Mən yolumdan azdıqdan sonra
tövbə etdim,
Ağlım başıma gələndə əllərimi
yanıma çırpdım.
Cavanlığımda etdiyim eyib işlərdən

---

[n]**31:15** Mat. 2:18; Yar. 35:16-19

Utandım, rüsvay oldum.
20 Efrayim əziz oğlum deyilmi?
Mənim razı olduğum övlad deyilmi?
Hər dəfə əleyhinə danışanda
Yenə onu yadıma salıram.
Ürəyim onun üçün sızlayır,
Ona hədsiz rəhmim gəlir»
Rəbb belə bəyan edir.
21 «Yol işarələri qoy,
Yol göstərən lövhələr düzəlt.
Böyük yola – getdiyin yola fikir ver.
Geri dön, ey bakirə qıza bənzəyən İsrail,
Öz şəhərlərinə qayıt!
22 Nə vaxta qədər sərgərdan gəzəcəksən,
Ey dönük qız?
Rəbb dünyada yeni bir şey yaradacaq:
Qadın kişini qoruyacaq».
23 İsrailin Allahı olan Ordular Rəbbi belə deyir: «Mən onların sürgün olunmuşlarını geri qaytaranda Yəhuda torpağında və onun şəhərlərində yenə belə söyləyəcəklər:
"Ey ədalət yurdu, ey müqəddəs dağ,
Rəbb sənə xeyir-dua versin!"
24 Xalq – əkinçilər, sürüləri ilə gəzən çobanlar Yəhudada və onun şəhərlərində birlikdə yaşayacaq.
25 Çünki Mən yorğun adama
su verəcəyəm, taqətsiz adamı
doyduracağam».
26 Bu zaman oyanıb baxdım, yuxum şirin olmuşdu.
27 Rəbb bəyan edir: «İsrail və Yəhuda torpaqlarında insan toxumu və heyvan toxumu əkəcəyim günlər yaxınlaşır. 28 Kökündən çıxarıb yox edəndə, yıxıb-dağıdanda və bəla gətirəndə onlara necə nəzarət etdimsə, dirçəldib yerləşdirəndə də eləcə nəzarət edəcəyəm» Rəbb belə bəyan edir.
29 [o]«O vaxt adamlar daha "atalar kal üzüm yedi, oğulların dişi qamaşır" deməyəcək. 30 Hər kəs öz təqsirinə görə öləcək. Kal üzüm yeyənin öz dişləri qamaşacaq».

Yeni Əhd

31 [p]Rəbb bəyan edir: «İsrail xalqı və Yəhuda xalqı ilə Yeni Əhd bağlayacağım günlər yaxınlaşır. 32 Bu Əhd atalarını Misir torpağından çıxartmaq üçün əllərindən tutduğum gün onlarla bağladığım əhdə bənzəməyəcək. Onların ağası olduğum halda o əhdimi pozdular» Rəbb belə bəyan edir.
33 [q]«O günlərdən sonra İsrail xalqı ilə bağlayacağım Əhd belədir: qanunumu onların daxilinə qoyub ürəklərinə yazacağam. Mən onların Allahı, onlar da Mənim xalqım olacaq» Rəbb belə bəyan edir. 34 «Bundan sonra bir kəs öz qonşusunu yaxud qardaşını "Rəbbi tanıyın" deyib öyrətməyəcək. Ona görə ki böyükdən kiçiyə qədər hamı Məni tanıyacaq. Çünki təqsirlərini bağışlayacağam, günahlarını daha yada salmayacağam» Rəbb belə bəyan edir.
35 Gündüz işıq olsun deyə günəşi çıxaran,
Gecə işıq olsun deyə aya və ulduzlara qaydalar qoyan,
Dalğaları kükrəsin deyə dənizi qabardan Rəbb –
Adı Ordular Rəbbi Olan belə deyir:
36 «Əgər qoyulan bu qayda-qanunlar
Önümdən götürülərsə,
Yalnız onda İsrail nəsli əbədilik
Bir millət olmaqdan çıxar»
Rəbb belə bəyan edir.
37 Rəbb belə deyir:
«Əgər yuxarıda göylər ölçülə bilsə,
Aşağıda yerin təməlləri üzə çıxarıla bilsə,

---

[o] **31:29** Yez. 18:2
[p] **31:31** İbr. 8:8-12; Mat. 26:28; Mark 14:24; Luka 22:20; 1Kor. 11:25; 2Kor. 3:6
[q] **31:33** İbr. 10:16-17

Mən də onda bütün etdikləri işlərdən
ötrü
Bütün İsrail nəslini rədd edərəm»
Rəbb belə bəyan edir.
38 Rəbb bəyan edir: «Xananel
qülləsindən Künc darvazasına qədər
şəhərin Mənim üçün yenidən tikiləcəyi
günlər gəlir. 39 Oradan da ölçü ipi
Qarev təpəsinə doğru uzanıb Qoaya
dönəcək. 40 Ölülərin və küllərin
atıldığı bütün vadi, Qidron vadisinə
qədər uzanan tarlalar, şərqdə At
darvazasının küncünədək Rəbb üçün
müqəddəs olacaq. Şəhər bir daha
kökündən çıxarılmayacaq, heç vaxt
dağıdılmayacaq».

Yeremyanın tarla alması

32 [r]Yəhuda padşahı Sidqiyanın
padşahlığının onuncu,
Navuxodonosorun padşahlığının on
səkkizinci ilində Rəbdən Yeremyaya söz
nazil oldu. 2 Bu zaman Babil padşahının
ordusu Yerusəlimi mühasirəyə almışdı.
Yeremya peyğəmbər Yəhuda padşahının
sarayındakı mühafizəçilər həyətində
məhbus idi. 3 Yəhuda padşahı Sidqiya
onu burada həbs edərək demişdi:
«Sən nə üçün bu cür peyğəmbərlik
edib söyləyirsən ki, Rəbb belə deyir:
“Bu şəhəri Babil padşahına təslim
edəcəyəm, o buranı ələ keçirəcək.
4 Yəhuda padşahı Sidqiya Xaldeylilərin
əlindən qaçıb qurtarmayacaq, hökmən
Babil padşahına təslim ediləcək.
Onunla üz-üzə söhbət edəcək, göz-gözə
dayanacaq. 5 Sidqiya Babilə aparılacaq,
Mən ona baş çəkənə qədər orada
qalacaq. Əgər Xaldeylilərlə vuruşsanız,
uğur qazanmayacaqsınız?” Rəbb belə
bəyan edir».
6 Yeremya dedi: «Mənə Rəbbin
bu sözü nazil oldu: 7 “Əmin Şallum
oğlu Xanamel sənin yanına gəlib
deyəcək ki, Anatotdakı tarlamı satın al.
Çünki qəyyumum kimi tarlamın geri
satınalma hüququ sənə məxsusdur”.
8 Sonra Rəbbin sözünə uyğun olaraq
əmim oğlu Xanamel mühafizəçilər
həyətində yanıma gəlib dedi: “Binyamin
bölgəsində olan Anatotdakı tarlamı satın
al, çünki miras haqqı da, qəyyumluq
haqqı da sənə məxsusdur. Onu özün
üçün satın al”. O zaman Rəbb sözünün
yerinə yetdiyini başa düşdüm.
9 Beləcə Anatotdakı tarlanı əmim
oğlu Xanameldən satın aldım.
Tarlanın əvəzində ona on yeddi
şekel gümüş çəkib verdim. 10 Satış
qəbzini çağırdığım şahidlərin önündə
imzalayıb möhürlədim, gümüşü
tərəzidə çəkdim. 11 Qayda-qanunlar
yazılmış, möhürlənmiş satış qəbzini
və açıq müqavilə kağızını götürdüm.
12 Əmim oğlu Xanamelin, satış qəbzini
imzalayan şahidlərin və mühafizəçilər
həyətində oturan bütün Yəhudalıların
gözü önündə satış qəbzini Maxseya oğlu
Neriya oğlu Baruka verdim. 13 Onların
gözü önündə Baruka əmr edib dedim:
14 “İsrailin Allahı olan Ordular Rəbbi
belə deyir: ‹Uzun müddət qalsın deyə
bu möhürlənmiş satış qəbzini və açıq
müqavilə kağızını götürüb bir gil qabın
içinə qoy›”. 15 Çünki İsrailin Allahı olan
Ordular Rəbbi belə deyir: “Bu ölkədə
yenə evlər, tarlalar və bağlar satın
alınacaq”.
16 Satış qəbzini Neriya oğlu Baruka
verdikdən sonra Rəbbə dua edib
dedim: 17 “Ah Xudavənd Rəbb, böyük
gücünlə və uzanan qolunla yeri, göyü
yaratdın. Edə bilməyəcəyin heç bir
şey yoxdur. 18 Sən minlərlə insana
məhəbbət göstərirsən, amma ataların
etdiyi günahların əvəzini övladlarından
alırsan. Sən böyük və güclü Allahsan,
adın Ordular Rəbbidir. 19 Tədbirlərin

---

[r]**32:1** 2Pad. 25:1-7

əzəmətli, işlərin böyükdür! İnsanların
bütün əməlləri Sənin nəzərin altındadır,
hər kəsə işlərinə və etdiklərinin
nəticəsinə görə əvəz verirsən. 20 Sən
Misirdə, İsraildə və bütün insanlar
arasında bu günə qədər əlamətlər və
möcüzələr göstərdin. Bu gün olduğu
kimi şöhrət qazandın. 21 Sən Öz xalqın
İsraili əlamətlərlə, möcüzələrlə, qüdrətli
əllə, uzanan qolunla böyük dəhşət
saçaraq Misir torpağından çıxartdın.
22 Atalarına verəcəyinə and içdiyin bu
torpağı – süd və bal axan torpağı onlara
verdin. 23 Onlar gəlib torpağı özlərinə
mülk etdilər, amma Sənin sözünə qulaq
asmadılar, Sənin qanununa uyğun
yaşamadılar, əmr etdiyin şeylərin
heç birinə əməl etmədilər. Buna görə
də bütün bu fəlakətləri başlarına
gətirdin. 24 Şəhəri ələ keçirmək üçün
divarlarının yanına torpaq qalaqları
yığılır. Şəhər qılınc, aclıq və vəba
üzündən oraya hücum edən Xaldeylilərə
təslim ediləcək. Söylədiklərin yerinə
yetdi, Sən də bunu görürsən! 25 Amma,
ya Xudavənd Rəbb, Sən mənə ‹tarlanı
gümüşlə özün üçün satın al və şahidlər
çağır› dedin. Şəhər isə Xaldeylilərə
təslim edilir”».
26 Yeremyaya Rəbbin bu sözü nazil
oldu: 27 «Bütün bəşərin Allahı Rəbb
Mənəm. Mənim edə bilməyəcəyim bir
şey varmı? 28 [s]Buna görə də Rəbb belə
deyir: “Bax Mən bu şəhəri Xaldeylilərə
və Babil padşahı Navuxodonosora
təslim edəcəyəm, o da oranı alacaq.
29 Şəhərə hücum edən Xaldeylilər gəlib
oraya od vuracaq. Şəhəri də, evləri də
yandıracaqlar. O evlərin damlarında
Baalın şərəfinə buxur yandırıb başqa
allahlara içmə təqdimləri gətirərək Məni
qəzəbləndirmişdilər. 30 Çünki İsrail
və Yəhuda övladları cavanlıqlarından
bəri həmişə gözümdə pis olan işlər
görür. İsrail övladları əllərinin işi ilə
Məni qəzəbləndirməkdən başqa bir
şey etmədi” Rəbb belə bəyan edir.
31 “Bu şəhər tikildiyi vaxtdan indiyə
qədər Məni o qədər qəzəbləndirdi ki,
onu önümdən rədd edib atacağam.
32 Çünki İsrail və Yəhuda övladlarının –
özlərinin, padşahlarının, başçılarının,
kahinlərinin, peyğəmbərlərinin,
Yəhudada və Yerusəlimdə yaşayanların
Məni qəzəbləndirmək üçün etdikləri
pisliklərin sayı-hesabı yoxdur. 33 Onlar
Mənə üzlərini deyil, arxalarını
çevirdi. Onları dəfələrlə öyrətdimsə
də, Mənə qulaq asmadılar və dərs
almadılar. 34 [t]Mənim adımla çağırılan
bu məbədə iyrənc bütlərini qoyaraq
onu murdarladılar. 35 [u]Ben-Hinnom
vadisində Molek bütünə qurban olaraq
oğullarını və qızlarını odda qurban
etməkdən ötrü Baal üçün səcdəgahlar
qurdular. Mən belə iyrənc bir şeyi
etməyi və Yəhudanı günaha batırmağı
nə onlara buyurdum, nə də ağlıma
gətirdim.
36 Siz bu şəhər barədə ‹qılınc, aclıq
və vəba ilə Babil padşahına təslim
edilir› deyirsiniz”. Amma indi İsrailin
Allahı Rəbb deyir: 37 “Onları qızğın
qəzəb və böyük hiddətlə sürgün etdiyim
bütün ölkələrdən toplayacağam. Onları
buraya qaytarıb əmin-amanlıq içində
yaşamalarını təmin edəcəyəm. 38 Onlar
Mənim xalqım olacaq, Mən də onların
Allahı olacağam. 39 Onlara eyni ürək,
eyni həyat tərzi verəcəyəm ki, özlərinin
və övladlarının yaxşılığı üçün Mənə
həmişə hörmət etsinlər. 40 Onlarla əbədi
bir əhd bağlayacağam. Onlara yaxşılıq
etməkdən dönməyəcəyəm, ürəklərinə
Öz qorxumu qoyacağam ki, Məndən heç
vaxt ayrılmasınlar. 41 Onlara yaxşılıq

---

[s]**32:28** 2Pad. 25:1-11; 2Saln. 36:17-21 [t]**32:34** 2Pad. 23:10; Yer. 7:30-31; 19:1-6
[u]**32:35** Lev. 18:21; 2Pad. 23:10; Yer. 7:31

etməyə şad olacağam. Həqiqətən, bütün
ürəyimlə, bütün canımla onları bu
ölkədə dirçəldəcəyəm”.
42 Rəbb belə deyir: “Bu xalqın
başına bütün bu böyük fəlakətləri
necə gətirdimsə, söz verdiyim bütün
yaxşılıqları da onlara bəxş edəcəyəm.
43 Sizin ‹viran olmuş, insansız, heyvansız
qalmış, Xaldeylilərə təslim olunmuş›
dediyiniz bu torpaqda yenə tarlalar
satın alınacaq. 44 Binyamin bölgəsində,
Yerusəlim ətrafındakı kəndlərdə,
Yəhuda şəhərlərində, dağlıq bölgənin,
yamaclı-düzənlikli bölgənin və Negevin
şəhərlərində tarlalar gümüşlə satın
alınacaq, satış qəbzləri şahidlərin
önündə imzalanıb möhürlənəcək, çünki
onların sürgün olunmuşlarını geri
qaytaracağam” Rəbb belə bəyan edir».

Vətənə qayıtmaq vədi

33 Yeremya hələ mühafizəçilər
həyətində məhbus olanda ikinci
dəfə ona Rəbbin sözü nazil oldu.
2 O dedi: «Dünyanı yaradan, qurub
möhkəmləndirən, adı Rəbb Olan belə
deyir: 3 “Məni çağır, sənə cavab verim,
bilmədiyin böyük, dərkedilməz şeyləri
sənə bildirim”.
4 Mühasirə zamanı torpaq qalaqları
və qılınca qarşı sipər olmaq üçün bu
şəhərin uçurulmuş evləri və Yəhuda
padşahlarının uçurulmuş sarayları
barədə İsrailin Allahı Rəbb belə deyir:
5 “Xaldeylilər vuruşmaq, evləri qəzəb
və qızğınlıqla həlak etdiyim insanların
cəsədləri ilə doldurmaq üçün gələcək.
Bu insanların etdikləri pisliklərə
görə bu şəhərdən üz döndərdim.
6 Yenə də bu şəhərə sağlamlıq və şəfa
verəcəyəm. Əhalisini sağaldacağam,
onların tam salamatlıq və əmin-amanlıq
içində yaşamalarını təmin edəcəyəm.
7 Yəhuda və İsrail sürgünlərini yenə
geri qaytaracağam. Onları əvvəlki
kimi dirçəldəcəyəm. 8 Onları Mənə
qarşı etdikləri bütün günahlardan
təmizləyəcəyəm. Mənə qarşı etdikləri
günahları da, üsyankarlıqları da
bağışlayacağam. 9 Dünyanın bütün
millətlərinin önündə bu şəhər Mənim
üçün sevinc, tərif və şərəf mənbəyinə
çevriləcək. Bu millətlər Yerusəlim
xalqına etdiyim yaxşılıqları, verdiyim
əmin-amanlığı görəndə qorxuya düşüb
titrəyəcək”.
10 Rəbb belə deyir: “Deyirsiniz
ki, bu şəhər viran olmuş, insansız və
heyvansız qalmışdır. Ancaq tərk edilmiş,
insansız və heyvansız qalmış Yəhuda
şəhərlərində, Yerusəlim küçələrində
11 [v]sevinc və şadlıq sədası, bəy-gəlin
səsi, Rəbbin məbədinə şükür təqdimləri
gətirənlərin səsi yenə eşidiləcək:
‹Ordular Rəbbinə şükür edin,
Çünki O, xeyirxahdır,
Məhəbbəti əbədidir›.
Çünki Mən ölkədən sürgün olunanları
əvvəlki kimi geri qaytaracağam” Rəbb
belə bəyan edir.
12 Ordular Rəbbi deyir: “Viran olmuş,
insansız və heyvansız qalmış bu ölkənin
bütün şəhərlərində yenə çobanların öz
sürülərini dincəltdikləri otlaqlar olacaq.
13 Dağlıq bölgənin, yamaclı-düzənlikli
bölgənin, Negev, Binyamin bölgəsinin
şəhərlərində, Yerusəlimin ətrafındakı
kəndlərdə, Yəhuda şəhərlərində sürülər
yenə çoban dəyənəyinin altından
keçəcək” Rəbb belə deyir.
14 [w]Rəbb bəyan edir: “İsrail və Yəhuda
nəslinə verdiyim xoş vədi yerinə
yetirəcəyim günlər gəlir.
15 O zaman, o günlər
Davud üçün saleh bir Pöhrə
yetişdirəcəyəm.

---

[v] **33:11** 1Saln. 16:34; 2Saln. 5:13; 7:3; Ezra 3:11; Zəb. 100:5; 106:1; 107:1; 118:1; 136:1 [w] **33:14** Yer. 23:5-6

O, ölkədə ədalət və salehliklə
davranacaq.
16 O günlər Yəhuda xilas olacaq,
Yerusəlim əmin-amanlıqda yaşayacaq.
O, ‹Rəbb salehliyimizdir› deyə
çağırılacaq”.
17 [x]Rəbb belə deyir: “Davud nəslindən
İsrail taxtında oturan bir adam heç vaxt
əskik olmayacaq. 18 [y]Levili kahinlərdən
önümə yandırma qurbanı gətirən, taxıl
təqdimi yandıran, qurban kəsən bir kəs
heç vaxt əskik olmayacaq”».
19 Yeremyaya Rəbbin bu sözü nazil
oldu: 20 «Rəbb belə deyir: “Necə ki
müəyyən vaxtlarda gecə və gündüz
olması üçün gecə-gündüzlə kəsdiyim
əhdi poza bilməzsiniz, 21 eləcə də
padşahlıq etməsi üçün taxtında oturan
bir oğlu barədə qulum Davudla və
Mənə xidmət edən Levili kahinlərlə
bağladığım əhd pozula bilməz. 22 Qulum
Davudun nəslini və Mənə xidmət edən
Levililəri saysız-hesabsız göy cisimləri
və ölçülməz olan dəniz qumu qədər
çoxaldacağam”».
23 Yeremyaya Rəbbin bu sözü nazil
oldu: 24 «Bu xalqın “Rəbb seçdiyi iki
ailəni rədd etdi” dediyini görmürsənmi?
Xalqımı artıq bir millət kimi saymayaraq
ona xor baxırlar. 25 Rəbb belə deyir:
“Necə ki gecə-gündüzlə əhd bağlayıb
yer və göyün dəyişməz qaydalarını
qoydum, 26 eləcə də Yaqub nəsli ilə
qulum Davudu da rədd etməyəcəyəm.
Davudun oğullarından birini İbrahim,
İshaq və Yaqub nəslinə padşahlıq etmək
üçün seçəcəyəm. Çünki Mən onların
sürgün olunmuşlarını geri qaytaracağam
və onlara rəhm edəcəyəm”».

Padşah Sidqiyaya müraciət

34 [z]Babil padşahı Navuxodonosor
öz hakimiyyəti altındakı
bütün padşahlıqlar və xalqlardan
yığılan ordusu ilə birgə Yerusəlimə və
ətrafındakı şəhərlərə qarşı döyüşən
vaxt Rəbdən Yeremyaya bu söz nazil
oldu: 2 «İsrailin Allahı Rəbb deyir ki,
get Yəhuda padşahı Sidqiya ilə danış,
söylə ki, Rəbb belə deyir: “Bu şəhəri
Babil padşahına təslim edəcəyəm və
o buraya od vuracaq. 3 Sən Sidqiya
onun əlindən qaçıb qurtulmayacaqsan,
mütləq ələ keçib ona təslim ediləcəksən.
Babil padşahını öz gözünlə görəcəksən,
o sənинlə üzbəüz danışacaq. Sonra
Babilə aparılacaqsan”. 4 Ancaq, ey
Yəhuda padşahı Sidqiya, Rəbbin sözünə
qulaq as. Rəbb sənin barəndə belə
deyir: “Qılıncla öldürülməyəcəksən,
5 əmin-amanlıqda öləcəksən. Səndən
əvvəl padşah olan atalarının şərəfinə
ətirli maddə yandırdıqları kimi sənin
də şərəfinə ətirli maddə yandırıb ‹ah,
ağamız› deyərək yas tutacaqlar. Çünki
Mən Rəbb bunu söylədim”».
6 Yeremya peyğəmbər bütün bu
sözləri Yerusəlimdə Yəhuda padşahı
Sidqiyaya söylədi. 7 Həmin vaxt Babil
padşahının ordusu Yerusəlimə və
Yəhudanın hələ ələ keçirilməmiş
şəhərləri olan Lakişə və Azeqaya hücum
edirdi. Yəhudanın qalalı şəhərlərindən
yalnız bunlar qalmışdı.

Qullara azadlıq

8 Padşah Sidqiya Yerusəlimdəki xalqla
əhd kəsərək qulların azadlığını elan
etdikdən sonra Rəbdən Yeremyaya söz
nazil oldu. 9 Bu əhdə görə hər kəs İbrani
xalqından olan kişi və qadın qullarını
azad etməli, Yəhudi soydaşını yanında
qul kimi saxlamamalı idi. 10 Bir-birləri
ilə belə əhd bağlayan bütün başçılar
və xalq buna qulaq asıb öz kişi və
qadın qullarını azad etdilər, bir daha

[x]**33:17** 2Şam. 7:12-16; 1Pad. 2:4; 1Saln. 17:11-14 [y]**33:18** Say. 3:5-10
[z]**34:1** 2Pad. 25:1-11; 2Saln. 36:17-21

heç kəsi özlərinə qul etməyəcəklərinə
söz verdilər, qulaq asıb qullarını azad
etdilər. 11 Amma sonra fikirlərini dəyişib
azad etdikləri kişi və qadın qulları yenə
özlərinə qul etdilər.
12 Bundan sonra Rəbdən Yeremyaya
bu söz nazil oldu: 13 «İsrail Allahı
Rəbb belə deyir: “Mən atalarınızı
Misir torpağından – köləlik diyarından
çıxardığım gün onlarla əhd bağlayıb
dedim: 14 [a]‹Sizə satılıb altı il qulluq
edən İbrani soydaşlarınızı yeddinci
il azad edib sərbəst buraxın›. Ancaq
atalarınız Məni eşidib qulaq asmadı.
15 İndi isə siz tövbə edib gözümdə doğru
olanı etdiniz. Hamınız soydaşlarınızın
azadlığını elan etdiniz. Mənim önümdə,
Mənim adımla çağırılan məbəddə bu
barədə əhd bağladınız. 16 Amma sonra
fikrinizi dəyişib adıma hörmətsizlik
etdiniz. İstəklərinə görə azad etdiyiniz
kişi və qadın qullarınızı təzədən zorla
qul etdiniz”.
17 Buna görə də Rəbb belə deyir:
“Qul olan soydaşlarınızı – öz
həmvətənlərinizi azad etməyərək Mənə
qulaq asmadınız. İndi Mən də sizə
azadlıq – qılınc, vəba və aclıqdan
məhv olmanız üçün azadlıq elan
edəcəyəm. Sizi yer üzünün bütün
ölkələrinin qarşısında dəhşətli hala
salacağam. 18 Əhdimi pozan, önümdə
bağladığım əhdin şərtlərinə əməl
etməyən bu adamları iki yerə bölüb
parçaları arasından keçdikləri dana
kimi edəcəyəm. 19 Dana parçalarının
arasından keçmiş Yəhuda və Yerusəlim
başçılarını, saray əyanlarını, kahinləri
və bütün ölkə xalqını 20 öz düşmənlərinə
– canlarını almaq istəyənlərə təslim
edəcəyəm. Cəsədləri göydəki quşlara
və yerdəki heyvanlara yem olacaq.
21 Yəhuda padşahı Sidqiyanı və onun
başçılarını canlarını almaq istəyən
düşmənlərinə – Babil padşahının
üzərinizdən çəkilən ordusuna təslim
edəcəyəm”. 22 Rəbb bəyan edir: “Mən
əmr edib Babilliləri bu şəhərə tərəf geri
qaytaracağam. Onlar hücum edib şəhəri
ələ keçirəcək, ona od vuracaq. Yəhuda
şəhərlərini heç kəsin yaşamadığı bir
viranəliyə çevirəcəyəm”».

Rekavlıların nümunəsi

35 [b]Yəhuda padşahı Yoşiya
oğlu Yehoyaqimin dövründə
Rəbdən Yeremyaya bu söz nazil oldu:
2 «Rekavlıların evinə gedib onlarla
danış. Onları Rəbbin məbədinin
otaqlarından birinə aparıb içməyə
şərab ver». 3 Bunun üçün Xavassinya
oğlu Yeremya oğlu Yaazanyanı, onun
qardaşlarını, bütün övladlarını və Rekav
ailəsinin o biri üzvlərini yanıma alıb
4 Allah adamı İqdalya oğlu Xananın
oğullarının Rəbbin məbədindəki
otağına apardım. Bu otaq astana
keşikçisi Şallum oğlu Maaseyanın otağı
üzərindəki başçılar otağının yanında
idi. 5 Mən Rekav ailəsinin üzvlərinin
qabağına şərab dolu camlar və kasalar
qoyaraq «buyurun, şərab için» dedim.
6 Lakin onlar dedi: «Biz şərab içmirik.
Çünki atamız Rekav oğlu Yehonadav
bizə belə əmr etdi: “Siz və nəsliniz heç
vaxt şərab içməyin! 7 Özünüz üçün
ev tikməyin, toxum əkməyin, bağ
salmayın. Bu şeyləri almayın, etməyin,
ömrünüz boyu çadırlarda yaşayın.
Belə etsəniz, köç etdiyiniz torpaqlarda
uzun müddət yaşayarsınız”. 8 Atamız
Rekav oğlu Yehonadavın bizə əmr
etdiyi hər şeyə qulaq asdıq. Nə biz, nə
arvadlarımız, nə də oğul-qızlarımız heç
vaxt şərab içmədik. 9 İçində yaşamaq
üçün evlər tikmədik, bağlar, tarlalar
və əkinlər salmadıq. 10 Çadırlarda
yaşadıq. Atamız Yehonadav nə əmr

[a]**34:14** Çıx. 21:2; Qanun. 15:12 [b]**35:1** 2Pad. 23:36–24:6; 2Saln. 36:5-7

etdisə, hamısına qulaq asıb əməl etdik.
11 Amma Babil padşahı Navuxodonosor
bu ölkəyə hücum edən zaman "gəlin
Xaldey və Aram ordusundan qaçmaq
üçün Yerusəlimə gedək" dedik. Buna
görə də Yerusəlimdə qalırıq».
12 Bundan sonra Yeremyaya Rəbbin
bu sözü nazil oldu: 13 «İsrailin Allahı
olan Ordular Rəbbi deyir ki, get
Yəhuda adamlarına və Yerusəlimdə
yaşayanlara bunları söylə: "Siz heç
bir dərs almayacaq, sözlərimə qulaq
asmayacaqsınız?" Rəbb belə bəyan
edir. 14 "Rekav oğlu Yehonadav öz
nəslinə şərab içməmələrini əmr etdi,
nəsli də onun əmrinə əməl etdi və bu
günə qədər də şərab içmirlər. Çünki
atalarının əmrinə qulaq asdılar. Mən isə
sizinlə dəfələrlə danışdığım halda Mənə
qulaq asmadınız. 15 Öz qullarım olan
peyğəmbərləri dəfələrlə sizin yanınıza
göndərdim. Onlar sizə dedi: ‹İndi
hər biriniz öz pis yolunuzdan dönün,
əməllərinizi islah edin, başqa allahların
tərəfdarı olaraq onlara qulluq etməyin.
Onda sizə və atalarınıza verdiyim
ölkədə yaşayacaqsınız›. Amma Məni
eşitməyib qulaq asmadınız. 16 Rekav
oğlu Yehonadavın övladları atalarının
əmr etdiyinə əməl etdi, amma bu xalq
Mənə qulaq asmadı". 17 Buna görə də
İsrailin Allahı olan Ordular Allahı Rəbb
belə deyir: "Mən söylədiyim bütün
fəlakətləri Yəhuda və Yerusəlimdə
yaşayan hər kəsin başına gətirəcəyəm.
Çünki onlara xəbərdarlıq etdim, qulaq
asmadılar, onları çağırdım, cavab
vermədilər"».
18 Yeremya Rekav nəslinə dedi:
«İsrailin Allahı olan Ordular Rəbbi
belə deyir: "Siz atanız Yehonadavın
əmrinə qulaq asdınız, onun bütün
əmrlərinə əməl etdiniz, sizə əmr etdiyi
hər şeyi yerinə yetirdiniz". 19 Buna görə
də İsrailin Allahı olan Ordular Rəbbi
belə deyir: "Rekav oğlu Yehonadavın
nəslindən Mənə xidmət edən bir adam
heç vaxt əskik olmayacaq"».

Yehoyaqimin Yeremyanın tumarını yandırması

36 [c]Yəhuda padşahı Yoşiya oğlu
Yehoyaqimin padşahlığının
dördüncü ilində Rəbdən Yeremyaya
bu söz nazil oldu: 2 «Bir tumar götür,
Yoşiyanın dövründə sənin ilə ilk dəfə
danışdığım gündən indiyə qədər
İsrail, Yəhuda və başqa millətlər
haqqında sənə söylədiyim bütün
sözləri oraya yaz. 3 Bəlkə Yəhuda
xalqı başına gətirməyi niyyət etdiyim
bütün fəlakətlər barəsində xəbər
alanda öz pis yolundan dönər, Mən
də onların təqsirlərini və günahlarını
bağışlayaram». 4 O zaman Yeremya
Neriya oğlu Baruku çağırdı. Baruk da
Rəbbin Yeremyaya söylədiyi bütün
sözləri onun dilindən eşidib tumara
yazdı. 5 Yeremya Baruka əmr edib dedi:
«Mən məhbusam, Rəbbin məbədinə
gedə bilmərəm. 6 Sən oruc günü Rəbbin
məbədinə get. Oradakı xalqa mənim
dilimdən eşidib tumara yazdığın Rəbbin
sözlərini oxu. Yəhuda şəhərlərindən
gələn bütün xalqa bunu oxu. 7 Bəlkə
onda Rəbbə yalvarışla müraciət edib öz
pis yollarından dönərlər. Çünki Rəbbin
bu xalq barədə ifadə etdiyi qəzəb və
hiddət böyükdür». 8 Neriya oğlu Baruk
Yeremya peyğəmbərin əmr etdiyi hər
şeyə əməl etdi, tumarda yazılmış Rəbbin
sözlərini Onun məbədində oxudu.
9 Yəhuda padşahı Yoşiya oğlu
Yehoyaqimin padşahlığının beşinci
ilinin doqquzuncu ayında Yerusəlimdə
yaşayan və Yəhuda şəhərlərindən
Yerusəlimə gələn bütün xalq Rəbbin
önündə oruc elan etdi. 10 Mirzə Şafan

---

[c]**36:1** 2Pad. 24:1; 2Saln. 36:5-7; Yer. 45:1; Dan. 1:1-2

oğlu Gemaryanın yuxarı həyətdə,
məbədin Yeni darvazasının girişindəki
otağında Baruk tumardan Yeremyanın
sözlərini Rəbbin məbədinə yığışmış
bütün xalqa oxudu.
11 Şafan oğlu Gemarya oğlu Mikeya
tumardan oxunan Rəbbin sözlərini
eşidən kimi 12 aşağı enib saraydakı
mirzə otağına getdi. Bütün başçılar
orada toplaşmışdı: mirzə Elişama,
Şemaya oğlu Delaya, Akbor oğlu
Elnatan, Şafan oğlu Gemarya, Xananya
oğlu Sidqiya və başqaları. 13 Mikeya
Barukun xalqa oxuduğu tumardan hər
şeyi onlara danışdı.
14 Bundan sonra bütün başçılar
Kuşi oğlu Şelemya oğlu Netanya oğlu
Yehudini Barukun yanına göndərdi.
Yehudi Baruka «xalqa oxuduğun tumarı
götür gəl» dedi. Neriya oğlu Baruk
əlində tumar onların yanına getdi.
15 Başçılar ona dedi: «Buyur əyləş,
bunu bizə də oxu». Baruk da tumarı
onlara oxudu. 16 Onlar bütün bu sözləri
eşidəndə qorxu içində bir-birlərinə
baxıb Baruka dedilər: «Bütün bu sözləri
mütləq padşaha bildirməliyik». 17 Sonra
Barukdan soruşdular: «İndi bizə söylə,
bütün bu sözləri necə yazdın? Yeremya
diktə etdimi?» 18 Baruk onlara dedi:
«Bütün bu sözləri Yeremya mənə
diktə etdi, mən də mürəkkəblə tumara
yazdım». 19 Başçılar Baruka dedi: «Sən
də, Yeremya da gedin gizlənin. Harada
olduğunuzu heç kəs bilməsin».
20 Sonra onlar tumarı mirzə
Elişamanın otağında qoyub həyətdə
olan padşahın yanına getdilər.
Eşitdikləri hər şeyi ona danışdılar.
21 Padşah tumarı götürüb gətirməsi
üçün Yehudini göndərdi. Yehudi tumarı
mirzə Elişamanın otağından götürüb
gətirdi. Onu padşaha və padşahın
yanında duran bütün başçılara oxudu.
22 Bu zaman doqquzuncu ay idi və
padşah qış sarayında yaşayırdı. Onun
önündə odlu manqal yanırdı. 23 Yehudi
tumardan hələ üç-dörd sütun oxumuşdu
ki, padşah mirzə bıçağı ilə onları kəsib
manqaldakı oda atdı. Bunu o vaxta
qədər etdi ki, bütün tumar manqalda
yanıb-qurtardı. 24 Tumardakı bütün
sözləri eşidən padşah və onun əyanları
nə qorxuya düşdülər, nə də paltarlarını
cırdılar. 25 Elnatan, Delaya və Gemarya
tumarı yandırmaması üçün yalvarsa da,
padşah onlara qulaq asmadı. 26 Əksinə,
o, şahzadə Yeraxmeelə, Azriel oğlu
Serayaya və Avdeel oğlu Şelemyaya
əmr etdi ki, mirzə Baruku və Yeremya
peyğəmbəri tutsunlar. Ancaq Rəbb
onları gizlətmişdi.
27 Barukun Yeremyanın dilindən
eşidib yazdığı tumarı padşah
yandırandan sonra Rəbdən Yeremyaya
bu söz nazil oldu: 28 «Başqa bir tumar
götür, bütün əvvəlki sözləri – Yəhuda
padşahı Yehoyaqimin yandırdığı ilk
tumarda olanları oraya yaz. 29 Yəhuda
padşahı Yehoyaqim üçün də söylə
ki, Rəbb belə deyir: “Sən bu tumarı
yandırıb söylədin ki, nə üçün Babil
padşahının mütləq gəlib bu ölkəni
xarabalığa çevirəcəyini, oradakı
insanları da, heyvanları da məhv
edəcəyini bu tumara yazdın?” 30 Buna
görə də Yəhuda padşahı Yehoyaqim
barədə Rəbb belə deyir: “Onun
nəslindən heç kəs Davudun taxtında
oturmayacaq. Cəsədi gündüzün istisinə,
gecənin ayazına atılacaq. 31 Özünü,
nəslini və əyanlarını günahlarından
ötrü cəzalandıracağam. Haqqında
danışdığım bütün fəlakətləri onların,
Yerusəlimdə yaşayanların və Yəhuda
adamlarının başına gətirəcəyəm, çünki
qulaq asmadılar”».
32 Yeremya başqa bir tumar götürüb
mirzə Neriya oğlu Baruka verdi.
Yəhuda padşahı Yehoyaqimin oda atıb
yandırdığı tumardakı bütün sözləri
Baruk Yeremyanın diktəsi ilə tumara

yazdı. O sözlərə bənzər bir çox söz də
oraya əlavə olundu.

Yeremya həbsxanada

37 [d]Babil padşahı
Navuxodonosorun Yəhudaya
təyin etdiyi Yoşiya oğlu Sidqiya,
Yehoyaqim oğlu Yehoyakinin yerinə
padşah oldu. [2] Ancaq Yeremya
peyğəmbər vasitəsilə Rəbbin söylədiyi
sözlərə nə padşah Sidqiya, nə onun
əyanları, nə də ölkə xalqı qulaq asdı.
[3] Padşah Sidqiya Şelemya oğlu
Yehukalı və Maaseya oğlu kahin
Sefanyanı Yeremya peyğəmbərin yanına
göndərdi ki, ona desinlər: «Bizim
üçün Allahımız Rəbbə dua et». [4] O
vaxt Yeremya xalqın arasında açıq
gedib-gəlirdi, çünki onu hələ zindana
atmamışdılar. [5] Bu zaman fironun
qoşunları Misirdən çıxmışdı. Yerusəlimi
mühasirəyə alan Xaldeylilər bu barədə
xəbər eşidən kimi Yerusəlimdən çəkildi.
[6] O vaxt Yeremya peyğəmbərə Rəbbin
bu sözü nazil oldu: [7] «İsrailin Allahı
Rəbb belə deyir: "Məndən soruşmaq
üçün sizi yanıma göndərən Yəhuda
padşahına söyləyin ki, sizə kömək
etməyə çıxan fironun ordusu öz ölkəsinə
– Misirə qayıdacaq. [8] Xaldeylilər yenə
gəlib bu şəhərə hücum edəcək və
onu ələ keçirib yandıracaq". [9] Rəbb
belə deyir: "Xaldeylilər mütləq geri
çəkiləcək" deyib özünüzü aldatmayın,
çünki onlar geri çəkilməyəcək. [10] Əgər
sizə hücum edən bütün Xaldey ordusunu
məğlub etsəniz və onların arasında
yalnız yaralı adamlar qalsa belə, yenə
hər biri öz çadırından qalxıb bu şəhəri
yandıracaq».
[11] Firon ordusunun üzündən Xaldey
ordusu Yerusəlimdən çəkilən zaman
[12] Yeremya Binyamin torpağına
getmək üçün Yerusəlimdən yola
düşdü. Oradakı xalq arasında öz irs
payını almaq istəyirdi. [13] Binyamin
darvazasına çatanda keşikçilərin başçısı
Xananya oğlu Şelemya oğlu İriyanı
orada gördü. İriya «sən Xaldeylilərin
tərəfinə keçirsən» deyərək onu tutdu.
[14] Yeremya «yalandır, mən Xaldeylilərin
tərəfinə keçmirəm» dedi. Ancaq İriya
Yeremyaya qulaq asmadı və onu tutub
başçıların yanına gətirdi. [15] Başçılar
Yeremyaya qəzəblənib onu döydülər.
Sonra onu mirzə Yonatanın evinə
– həbsxanaya saldılar, çünki o evi
həbsxana etmişdilər. [16] Yeremya çəni
olan zirzəmidə zindana salındı, uzun
müddət orada qaldı.
[17] O zaman padşah Sidqiya adam
göndərib onu gətirtdi. Padşah öz
sarayında gizlicə ondan soruşdu:
«Rəbdən bir söz varmı?» Yeremya
«var» deyə cavab verdi, «Babil
padşahına təslim ediləcəksən». [18] Sonra
Yeremya padşah Sidqiyaya dedi: «Sənə,
əyanlarına və bu xalqa qarşı nə günah
etdim ki, məni həbsxanaya saldınız?
[19] "Babil padşahı sizə və bu ölkəyə
hücum etməyəcək" deyə sizin üçün
peyğəmbərlik edən peyğəmbərləriniz
indi haradadır? [20] Ey ağam padşah, indi
xahiş edirəm, qulaq as. Xahiş edirəm,
bu yalvarışımı qəbul et və məni mirzə
Yonatanın evinə qaytarma, qoy orada
ölməyim».
[21] Padşah Sidqiya əmr etdi və
Yeremyanı keşikçilər həyətində
saxladılar. Şəhərdə çörək ehtiyatı
qurtarana qədər hər gün ona çörək
bişirənlər küçəsindən gətirib bir parça
çörək verirdilər. Beləcə Yeremya
mühafizəçilər həyətində qaldı.

Yeremyanın quyuya atılması

38 Mattan oğlu Şefatya, Paşxur oğlu
Gedalya, Şelemya oğlu Yehukal

---

[d]**37:1** 2Pad. 24:17; 2Saln. 36:10

və Malkiya oğlu Paşxur Yeremyanın
bütün xalqa dediyi bu sözləri eşitdi:
2 «Rəbb belə deyir: “Bu şəhərdə qalan
adam qılıncdan, aclıqdan və vəbadan
öləcək. Ancaq Xaldeylilərə təslim
olan yaşayacaq, heç olmasa öz canını
qurtarıb sağ qalacaq”. 3 Rəbb belə deyir:
“Bu şəhər hökmən Babil padşahının
ordusuna təslim ediləcək və o bu şəhəri
tutacaq”». 4 Başçılar padşaha dedi:
«Qoy bu adam öldürülsün. Çünki belə
sözlər deyib bu şəhərdə salamat qalan
döyüşçüləri və bütün xalqı ruhdan
salır. Yəqin bu adam xalqa yaxşılıq
deyil, pislik arzulayır». 5 Padşah Sidqiya
dedi: «Onu sizin əlinizə verirəm, çünki
padşah sizin əleyhinizə bir iş görə
bilməz». 6 O zaman onlar Yeremyanı
götürüb padşahın oğlu Malkiyanın
mühafizəçilər həyətində olan quyusuna
atdılar. Yeremyanı kəndirlə oraya
saldılar. Quyuda su yox idi, yalnız
çirkab var idi. Yeremya çirkaba batdı.
7 Padşah sarayında olan hərəmağası
Kuşlu Eved-Melek Yeremyanın quyuya
atıldığını eşitdi. Bu zaman padşah
Binyamin darvazasında oturmuşdu.
8 Eved-Melek padşah sarayından gəlib
padşaha belə söylədi: 9 «Ağam padşah,
bu adamlar Yeremya peyğəmbəri
quyuya ataraq onunla pis rəftar etdi.
O orada acından öləcək, çünki daha
şəhərdə çörək qalmadı». 10 Padşah Kuşlu
Eved-Melekə əmr edib dedi: «Özünlə
otuz nəfər götür, nə qədər ki ölməyib,
Yeremya peyğəmbəri quyudan çıxart».
11 Eved-Melek adamları özü ilə götürüb
saray xəzinəsinin altında olan bir otağa
girdi və oradan yırtıq paltarlar, cırıq
əskilər götürdü. Sonra onları iplərlə
quyuya Yeremyaya salladılar. 12 Kuşlu
Eved-Melek Yeremyaya dedi: «Yırtıq
paltarları və əskiləri iplərin üstündən
qoltuqlarının altına qoy». Yeremya
belə də etdi. 13 Yeremyanı iplərlə
çəkib quyudan çıxartdılar. Yeremya
mühafizəçilər həyətində qaldı.

Sidqiyanın yenə Yeremyaya sual verməsi

14 Padşah Sidqiya adam göndərib
Yeremya peyğəmbəri öz yanına –
Rəbbin məbədinin üçüncü girişinə
gətirdi. Padşah Yeremyaya dedi:
«Səndən bir şey soruşacağam,
məndən heç nə gizlətmə». 15 Yeremya
Sidqiyaya dedi: «Sənə bildirsəm, məni
öldürəcəksən. Sənə nəsihət versəm də,
mənə qulaq asmayacaqsan». 16 Padşah
Sidqiya Yeremyaya gizlicə and içib
dedi: «Bizə nəfəs verən, var olan Allaha
and olsun ki, səni öldürməyəcəyəm və
canını almaq istəyən adamlara təslim
etməyəcəyəm».
17 Yeremya Sidqiyaya dedi: «İsrailin
Allahı olan Ordular Allahı Rəbb belə
deyir: “Əgər sən Babil padşahının
başçılarına təslim olsan, canın
qurtaracaq və bu şəhər də odda
yanmayacaq, ailənlə birgə sağ
qalacaqsan. 18 Ancaq Babil padşahının
başçılarına təslim olmasan, bu
şəhər Xaldeylilərə təslim ediləcək
və onu yandıracaqlar. Sən də
onların əlindən qaçıb qurtara
bilməyəcəksən”». 19 Padşah Sidqiya
Yeremyaya dedi: «Xaldeylilərin
tərəfinə keçən Yəhudilərdən qorxuram.
Xaldeylilər məni onların əlinə verə
bilər, onlar da mənimlə pis rəftar
edər». 20 Yeremya dedi: «Verməzlər.
Xahiş edirəm, sənə söyləyəcəyimə əməl
edərək Rəbbin sözünə qulaq as. Onda
xeyir taparsan, canın da amanda qalar.
21 Ancaq sən təslim olmaq istəmədiyin
halda Rəbb mənə bunu göstərir:
22 Yəhuda padşahının sarayında qalan
bütün qadınlar Babil padşahına təslim
ediləcək. Onda o qadınlar deyəcək:
“Güvəndiyin adamlar səni aldadıb
Məğlubiyyətə düçar etdi.

Ayaqların palçığa batanda
Onlar səni qoyub qaçdı”.
23 Sənin bütün arvadların və oğulların
Xaldeylilərə təslim ediləcək. Özün
də onların əlindən qaçıb qurtara
bilməyəcəksən, Babil padşahı səni ələ
keçirəcək. Bu şəhər də yandırılacaq».
24 Sidqiya Yeremyaya dedi: «Bu
söhbəti heç kəs bilməməlidir, yoxsa ölə
bilərsən. 25 Əgər sənin lə danışdığımı
başçılar eşitsə, yanına gəlib “padşaha
nə söylədin və padşah sənə nə dedi,
bizə bildir, bizdən gizlətmə, yoxsa səni
öldürərik” desə, 26 onlara “padşaha
yalvardım ki, məni Yonatanın evinə
qaytarmasın və orada ölməyim” söylə».
27 Bütün başçılar Yeremyanın yanına
gəlib ondan söz soruşdu. O da padşahın
əmr etdiyi kimi bütün bu sözləri onlara
söylədi. Daha ona bir söz demədilər,
çünki bu söhbəti heç kəs eşitməmişdi.
28 [e]Yerusəlim alındığı zaman Yeremya
orada idi və mühafizəçilər həyətində
qalırdı.

Yerusəlimin süqutu

(2Pad. 25:1-12; Yer. 52:4-16)

39 Yəhuda padşahı Sidqiyanın
padşahlığının doqquzuncu
ilinin onuncu ayında Babil padşahı
Navuxodonosor bütün ordusu
ilə Yerusəlimin qarşısına gəlib
şəhəri mühasirəyə aldı. 2 Sidqiyanın
padşahlığının on birinci ilində,
dördüncü ayın doqquzuncu günü şəhər
divarında dəlik açıldı. 3 Babil padşahının
bütün başçıları – Nerqal-Sareser,
Samqar-Nevo, baş məmur Sarsekim,
baş məsləhətçi Nerqal-Sareser və bütün
başqa əyanlar içəri girib Orta darvazada
oturdu.
4 Yəhuda padşahı Sidqiya və bütün
döyüşçülər onları görəndə gecə vaxtı
şəhərdən, padşah bağçası yolundan, iki
divar arasındakı qapıdan çıxıb qaçdılar
və Aravaya üz tutdular. 5 Xaldey ordusu
onları təqib edib Yerixo düzənliyində
Sidqiyaya çatdı. Sidqiyanı tutub Xamat
torpağındakı Rivlaya, Babil padşahı
Navuxodonosorun yanına gətirdilər.
O, Sidqiya barədə hökm verdi. 6 Babil
padşahı Rivlada Sidqiyanın gözü
önündə onun oğlanlarını öldürtdü.
Babil padşahı bütün Yəhuda əyanlarını
da öldürtdü. 7 Sidqiyanın isə gözlərini
kor etdi və onu Babilə aparmaq
üçün zəncirlədi. 8 Xaldeylilər padşah
sarayını və xalqın evlərini yandırdılar,
Yerusəlimin divarlarını uçurtdular.
9 Keşikçilər rəisi Nevuzaradan şəhərdə
sağ qalan xalqı, onun tərəfinə keçənləri
– sağ qalan bütün əhalini Babilə sürgün
etdi. 10 Keşikçilər rəisi Nevuzaradan
xalqdan heç bir şeyi olmayan bəzi
yoxsulları Yəhuda torpağında saxladı,
həmin gün onlara üzümlüklər və
zəmilər verdi.

Yeremyanın azad olunması

11 Babil padşahı Navuxodonosor
Yeremya barədə keşikçilər rəisi
Nevuzaradana əmr edib dedi: 12 «Onu
aparıb yaxşı bax, pis rəftar etmə. Özü
sənə nə desə, onu elə». 13 Keşikçilər rəisi
Nevuzaradan, baş məmur Nevuşazban,
baş məsləhətçi Nerqal-Sareser və
Babil padşahının başqa əyanları adam
göndərib 14 Yeremyanı mühafizəçilər
həyətindən gətirdilər və evinə aparmaq
üçün Şafan oğlu Axiqam oğlu Gedalyaya
tapşırdılar. O da xalqın arasında
yaşamağa başladı.
15 Mühafizəçilər həyətində məhbus
ikən Yeremyaya Rəbbin bu sözü nazil
olmuşdu: 16 «Get Kuşlu Eved-Melekə
söylə ki, İsrailin Allahı olan Ordular
Rəbbi belə deyir: “Bu şəhərin üzərinə
yaxşılıq deyil, pislik gətirərək dediyim

[e]**38:28** Yez. 33:21

sözləri yerinə yetirəcəyəm. O gün bunlar
sənin gözlərin önündə baş verəcək.
17 Ancaq o gün səni xilas edəcəyəm”
Rəbb belə bəyan edir. “Qorxduğun
adamlara təslim edilməyəcəksən. 18 Bəli,
Mən səni xilas edəcəyəm, sən qılıncla
həlak olmayacaqsan. Heç olmasa öz
canını qurtaracaqsan, çünki sən Mənə
güvəndin” Rəbb belə bəyan edir».

Yeremya Gedalyanın yanında

40 Keşikçilər rəisi Nevuzaradan
Yeremyanı Ramada qoyub
getdikdən sonra Rəbbin sözü Yeremyaya
nazil oldu. Nevuzaradan onu Babilə
sürgün olunan bütün Yerusəlim və
Yəhuda xalqı ilə birgə zəncirlənmiş
halda Ramaya aparmışdı. 2 Keşikçilər
rəisi Yeremyanı tapıb ona dedi:
«Bu yerin başına Allahın Rəbb bu
bəlanı gətirəcəyini söylədi, 3 sonra da
onu yerinə yetirib dediyi kimi etdi.
Çünki Rəbbə qarşı günah etdiniz,
sözünə qulaq asmadınız, buna görə də
başınıza bu iş gəldi. 4 İndi səni əlinə
vurulan zəncirlərdən azad edirəm.
Əgər mənimlə birgə Babilə getmək
istəyirsənsə, gəl gedək, sənin qayğına
qalaram. Ancaq mənimlə birgə Babilə
getmək istəmirsənsə, getmə. Bax bütün
ölkə sənin qarşındadır, hara getmək
sənin üçün yaxşı və düzgündürsə, ora
da get».
5 Yeremya hələ qayıtmamış
Nevuzaradan dedi: «Babil padşahının
Yəhuda şəhərləri üzərinə qoyduğu Şafan
oğlu Axiqam oğlu Gedalyanın yanına
qayıt və onunla birgə xalq arasında
yaşa. Yaxud da hara getmək istəyirsən,
ora get». Keşikçilər rəisi ona azuqə
və hədiyyə verib buraxdı. 6 Yeremya
Mispaya Axiqam oğlu Gedalyanın
yanına getdi və onunla birgə ölkədə
qalan xalq arasında yaşadı.

Gedalyanın öldürülməsi

(2Pad. 25:22-26)

7 Çöldə olan bütün qoşun başçıları
və onların adamları eşitdi ki, Babil
padşahı, Axiqam oğlu Gedalyanı
ölkəyə başçı qoymuş və ölkənin yoxsul
əhalisindən Babilə sürgün olunmamış
kişiləri, qadınları və uşaqları onun
ixtiyarına vermişdir. 8 Bu adamlar
Mispaya, Gedalyanın yanına gəldi:
Netanya oğlu İsmail, Qareahın oğulları
Yoxanan və Yonatan, Tanxumet oğlu
Seraya, Netofalı Efayın oğulları,
Maakalının oğlu Yezanya və onların
adamları. 9 Şafan oğlu Axiqam oğlu
Gedalya onlara və öz adamlarına
and içib dedi: «Xaldeylilərə qulluq
etməkdən qorxmayın. Ölkədə qalıb
Babil padşahına qulluq edin, sizin
üçün yaxşı olar. 10 Mənə gəlincə,
bizim yanımıza gələcək Xaldeylilərin
qabağında sizi təmsil etmək üçün
Mispada qalacağam. Ancaq siz şərab,
yay meyvələri və zeytun yağı yığıb
qablarınıza doldurun və aldığınız
şəhərlərdə yaşayın».
11 Moavda, Ammonlular arasında,
Edomda və başqa ölkələrdə olan
bütün Yəhudilər Babil padşahının
Yəhudada müəyyən sayda əhali
saxladığını və Şafan oğlu Axiqam oğlu
Gedalyanı onlara başçı qoyduğunu
eşitdi. 12 Yəhudilərin hamısı sürgün
olunduqları bütün yerlərdən qayıtdı.
Yəhuda torpağına, Mispada olan
Gedalyanın yanına gəldilər, çoxlu şərab
və yay meyvələri topladılar.
13 Qareah oğlu Yoxanan və çöllərdə
olan bütün qoşun başçıları Mispada
olan Gedalyanın yanına gəlib 14 ona
dedi: «Ammonluların padşahı Baalisin
sənin canını almaq üçün Netanya
oğlu İsmaili göndərdiyini bilirsənmi?»
Ancaq Axiqam oğlu Gedalya onlara
inanmadı. 15 Qareah oğlu Yoxanan

Mispada Gedalyaya gizlicə söylədi:
«Burax gedim, Netanya oğlu İsmaili
öldürüm, heç kəs bilməyəcək. Nə üçün
o səni öldürsün və ətrafına yığılmış
bütün Yəhudilər dağılsın, Yəhudadan
sağ qalanlar da məhv olsun?» 16 Ancaq
Axiqam oğlu Gedalya Qareah oğlu
Yoxanana dedi: «Bu işi etmə, çünki
İsmail barəsində yalan danışırsan».

41 [f]Elə oldu ki, yeddinci
ayda padşah nəslindən və
əyanlarından olan Elişama oğlu
Netanya oğlu İsmail on nəfərlə birgə
Mispaya, Axiqam oğlu Gedalyanın
yanına gəldi. Orada birlikdə yemək
yeyərkən 2 Netanya oğlu İsmail və
onunla birgə olan on nəfər qalxıb Babil
padşahının ölkəyə başçı qoyduğu Şafan
oğlu Axiqam oğlu Gedalyanı qılıncla
vurub-öldürdülər. 3 İsmail Mispada
Gedalya ilə birgə olan bütün Yəhudiləri
və oradakı Xaldey döyüşçülərini də
öldürdü. 4 Gedalyanın öldürülməsindən
bir gün sonra, hələ heç kəs olanları
bilməyərkən 5 Şekemdən, Şilodan və
Samariyadan saqqalları qırxılmış,
paltarları cırıq, bədənlərinə yara
vurmuş, Rəbbin məbədinə gətirmək
üçün əllərində taxıl təqdimi və buxur
olan səksən nəfər adam gəldi. 6 Onları
qarşılamaq üçün Mispadan Netanya
oğlu İsmail gəldi. O ağlaya-ağlaya
adamların qabağına çıxıb onlara dedi:
«Axiqam oğlu Gedalyanın yanına gəlin».
7 Adamlar şəhərə girəndə Netanya oğlu
İsmail və yanında olan adamlar onları
öldürüb cəsədlərini quyuya atdılar.
8 Ancaq onlar arasında olan on nəfər
İsmailə dedi: «Bizi öldürmə, çünki
bizim tarlada saxlanan buğda, arpa,
zeytun yağı və balımız var». İsmail də
fikrindən dönüb onları yoldaşları ilə
birgə öldürmədi.
9 İsmailin öldürdüyü Gedalya ilə
adamlarının cəsədlərini atdığı quyunu
padşah Asa İsrail padşahı Baaşaya
qarşı müdafiə tədbiri olaraq qazmışdı.
Netanya oğlu İsmail onu öldürülənlərlə
doldurdu. 10 Sonra İsmail keşikçilər rəisi
Nevuzaradanın Axiqam oğlu Gedalyanın
ixtiyarına verdiyi Mispadakı bütün xalqı
və padşah qızlarını əsir tutdu. Netanya
oğlu İsmail Mispada qalan bütün xalqı
əsir götürüb Ammonlulara sığınmaq
üçün yola düşdü.

Yoxananın xalqı xilas etməsi

11 Qareah oğlu Yoxanan və onunla
birgə olan bütün qoşun başçıları
Netanya oğlu İsmailin etdiyi bütün
pisliklər barədə eşitdi. 12 Onda bütün
adamlarını götürüb Netanya oğlu
İsmaillə vuruşmağa getdilər. Onu
Giveonda olan böyük hovuzun yanında
tapdılar. 13 İsmailin yanında olan
bütün xalq Qareah oğlu Yoxananı və
onunla olan bütün qoşun başçılarını
görəndə sevindi. 14 İsmailin Mispadan
sürgün etdiyi bütün xalq dönüb geri
qayıtdı və Qareah oğlu Yoxananın
yanına getdi. 15 Ancaq Netanya oğlu
İsmail səkkiz nəfərlə birgə Yoxanandan
qaçıb-qurtuldu və Ammonluların yanına
getdi.
16 Qareah oğlu Yoxanan və yanındakı
bütün qoşun başçıları sağ qalanların
hamısını – Axiqam oğlu Gedalyanı
öldürən Netanya oğlu İsmailin
Mispadan əsir apardığı döyüşçüləri,
qadınları, uşaqları və hərəmağalarını
Giveondan götürüb gətirdilər.
17 Xaldeylilərdən qaçmaq üçün Misirə
tərəf yola düşdülər və Bet-Lexem
yaxınlığındakı Gerut-Kimhamda
qaldılar. 18 Çünki Netanya oğlu İsmail
Babil padşahının ölkəyə başçı qoyduğu

---

[f]**41:1** 2Pad. 25:25

Axiqam oğlu Gedalyanı öldürdüyü üçün
Xaldeylilərdən qorxurdular.

Yeremyanın duasına Rəbbin cavabı

42 Bütün qoşun başçıları, Qareah
oğlu Yoxanan, Hoşaya oğlu
Yezanya *və böyükdən kiçiyə qədər
bütün xalq yaxınlaşıb 2 Yeremya
peyğəmbərə dedi: «Xahiş edirik,
yalvarışımız sənə məqbul olsun, bizim
üçün – bu qalan xalq üçün Allahın
Rəbbə dua et, çünki necə ki görürsən, o
boyda xalqdan azalıb bu qədər qalmışıq.
3 Qoy hara gedəcəyimizi, nə edəcəyimizi
Allahın Rəbb bizə bildirsin». 4 Yeremya
peyğəmbər onlara dedi: «Razıyam.
İstədiyiniz kimi Allahınız Rəbbə dua
edəcəyəm və barənizdə Rəbb nə cavab
versə, sizə bildirəcəyəm. Sizdən heç
nəyi gizli saxlamayacağam». 5 Onlar
Yeremyaya dedi: «Allahın Rəbbin bizə
bildirmək üçün sənə nazil etdiyi hər
sözə əməl etməsək, qoy Rəbb Özü
əleyhimizə həqiqi və etibarlı şahid
olsun. 6 Səni yanına göndərdiyimiz
Allahımız Rəbbin sözünü bəyənsək də,
bəyənməsək də, ona qulaq asacağıq
ki, işimiz yaxşı getsin. Bəli, Allahımız
Rəbbin sözünə qulaq asacağıq».
7 On gün sonra Rəbbin sözü
Yeremyaya nazil oldu. 8 Qareah oğlu
Yoxananı, onunla birgə olan bütün
qoşun başçılarını, böyükdən kiçiyə
qədər bütün xalqı çağırıb 9 onlara
dedi: «Yalvarışınızı önünə təqdim
etmək üçün məni yanına göndərdiyiniz
İsrailin Allahı Rəbb belə deyir:
10 "Əgər bu ölkədə qalsanız, Mən sizi
dirçəldərəm, daha dağıtmaram, sizi
əkərəm, daha çıxarmaram. Çünki
başınıza gətirdiyim bütün bəlalara görə
təəssüflənirəm. 11 Babil padşahından
qorxmayın. Siz ondan qorxursunuz,
ancaq qorxmayın" Rəbb belə bəyan
edir. "Çünki Mən sizinləyəm və sizi
azad edib onun əlindən qurtaracağam.
12 Mən sizə mərhəmət göstərəcəyəm
ki, o da rəhm edib sizi öz torpağınıza
qaytarsın". 13 Ancaq siz "bu torpaqda
yaşamayacağıq" deyərək Allahınız
Rəbbin sözünə qulaq asmasanız, 14 "yox,
biz Misir torpağına gedəcəyik, orada
müharibə görməyəcəyik, şeypur səsi
eşitməyəcəyik, aclıq çəkməyəcəyik
və orada qalacağıq" desəniz, 15 onda,
ey qalan Yəhudalılar, Rəbbin sözünü
eşidin. İsrailin Allahı olan Ordular
Rəbbi belə deyir: "Əgər siz, doğrudan
da, Misirə gedib orada sakin olmağı
qərara alsanız, 16 o zaman qorxduğunuz
həmin qılınc Misir torpağında sizə
yetişəcək. Qorxduğunuz aclıq Misirdə
sizi təqib edəcək və orada öləcəksiniz.
17 Misirə gedib sakin olmağı qərara alan
hər kəs qılınc, aclıq və vəbadan öləcək.
Onlardan heç kəs sağ qalmayacaq,
başlarına gətirdiyim bəladan qaçıb
qurtarmayacaq".
18 Çünki İsrailin Allahı olan Ordular
Rəbbi belə deyir: "Yerusəlimdə
yaşayanların üzərinə necə qəzəbim
və qızğınlığım tökküldüsə, siz Misirə
getsəniz, eləcə qızğınlığım üzərinizə
töküləcək. Siz lənət, dəhşət, nifrin
və rüsvayçılıq hədəfi olacaqsınız.
Bir daha bu yeri görməyəcəksiniz".
19 Ey Yəhudanın qalan camaatı, sizin
üçün Rəbb "Misirə getməyin" söylədi.
Yaxşı bilin ki, bu gün sizə xəbərdarlıq
etdim. 20 Çünki siz fəlakət gətirən bir
səhv etdiniz. Məni Allahınız Rəbbin
yanına göndərib dediniz: "Allahımız
Rəbbə bizim üçün dua et, Allahımız
Rəbbin deyəcəyi hər şeyi bizə bildir,
biz elə də edərik". 21 Mən bu gün sizə
xəbər verdim, ancaq siz məni yanınıza
göndərdiyi heç bir işdə Allahınız
Rəbbin sözünə qulaq asmadınız.

---

*42:1 *Yezanya* – yaxud *Azarya.* Bax: Yer. 43:2.

22 İndi yaxşı bilin ki, gedib sakin
olmaq istədiyiniz yerdə qılınc, aclıq və
vəbadan öləcəksiniz».

Yeremyanın Misirə aparılması

43 Yeremya bütün xalqa özlərinin
Allahı Rəbbin sözlərini, Onun
Yeremya vasitəsilə onlara nazil etdiyi
hər şeyi söyləməyi qurtaranda 2 Xoşaya
oğlu Azarya, Qareah oğlu Yoxanan
və bütün dikbaş adamlar Yeremyaya
dedi: «Sən yalan söyləyirsən. "Gedib
Misirdə sakin olmayın" demək üçün
Allahımız Rəbb səni bizim yanımıza
göndərmədi. 3 Ancaq Neriya oğlu
Baruk səni bizə qarşı təhrik edir
ki, Xaldeylilər bizi öldürsün yaxud
da Babilə sürgün etsin». 4 Qareah
oğlu Yoxanan, bütün qoşun başçıları
və xalq Rəbbin Yəhuda torpağında
qalmaq əmrinə qulaq asmadı. 5 [g]Əksinə,
Qareah oğlu Yoxanan və bütün qoşun
başçıları sürgün olunduqları millətlərin
arasından Yəhuda torpağında sakin
olmaq üçün qayıdan Yəhudalıların
qalanını – 6 kişiləri, qadınları, uşaqları,
padşahın qızlarını, keşikçilər rəisi
Nevuzaradanın Şafan oğlu Axiqam oğlu
Gedalyanın yanında qoyduğu hər kəsi,
Yeremya peyğəmbəri və Neriya oğlu
Baruku götürüb getdilər. 7 Onlar Rəbbin
sözünə qulaq asmayıb Misir torpağına
getdi və Taxpanxesə çatdı.

8 Taxpanxesdə Yeremyaya Rəbbin bu
sözü nazil oldu: 9 «Əlinə böyük daşlar
al və onları Yəhuda kişilərinin gözü
önündə Taxpanxesə firon sarayına
girilən yerdə olan kərpic döşəmənin
palçığında gizlət. 10 Sonra onlara söylə
ki, İsrailin Allahı olan Ordular Rəbbi
belə deyir: "Bax Mən xəbər göndərib
qulum Babil padşahı Navuxodonosoru
gətirdəcəyəm və gizlətdiyim bu daşların
üstündə onun taxtını quracağam.
Padşah öz çadırını onların üstündə
açacaq. 11 [h]O gəlib Misir ölkəsini məğlub
edəcək. Ölüm üçün ayrılanlar ölümə,
sürgün üçün ayrılanlar sürgünə, qılınc
üçün ayrılanlar qılınca təslim ediləcək.
12 Misir allahlarının məbədlərində od
qalayacağam. Babil padşahı onları
yandıracaq, bütləri alıb aparacaq. Bir
çoban paltarını necə bitdən təmizləyirsə,
o da Misir ölkəsini eləcə təmizləyəcək.
Sonra oradan sağ-salamat çıxacaq.
13 O, Misir torpağında Günəş allahının
məbədinin dik daşlarını dağıdacaq,
Misir allahlarının məbədlərini
yandıracaq"».

Yeremyanın Misirdəki Yəhudalılara müraciəti

44 Misir ölkəsində, Miqdolda,
Taxpanxesdə, Nofda yaşayan
və Patros torpağında sakin olan bütün
Yəhudalılar barədə Yeremyaya bu
söz nazil oldu: 2 «İsrailin Allahı olan
Ordular Rəbbi belə deyir: "Yerusəlim
və bütün Yəhuda şəhərləri üzərinə
gətirdiyim bəlanın hamısını gördünüz.
3 Etdikləri pislikdən ötrü o şəhərlər
bu gün viran olmuş və sakinsiz
qalmışdır. Onlar özlərinin, sizin və
atalarının tanımadıqları başqa allahlara
buxur yandırıb qulluq edərək Məni
qəzəbləndirdi. 4 Mən dəfələrlə qullarım
olan peyğəmbərləri sizin yanınıza
göndərib ‹Mənim nifrət etdiyim iyrənc
işləri görməyin› dedim. 5 Ancaq onlar
eşitmədi, qulaq asmadı. Pisliklərindən
dönmədilər, başqa allahlara buxur
yandırmağı dayandırmadılar. 6 Buna
görə də qızğınlığım və qəzəbim
daşıb-töküldü, Yəhuda şəhərlərində,
Yerusəlim küçələrində od qaladı. Onlar
bu gün olduğu kimi xaraba və viranə
oldular".

---

[g] **43:5** 2Pad. 25:26 [h] **43:11** Yer. 15:2; Vəhy 13:10

7 İndi İsrailin Allahı – Ordular Allahı
Rəbb belə deyir: “Kişinizi də, qadınınızı
da, uşağınızı da, südəmərinizi də
Yəhuda içində qırıb-çatacağam
ki, sizdən heç kəs sağ qalmasın.
8 Sakin olmaq üçün gəldiyiniz Misir
torpağında əlinizlə düzəltdiyiniz başqa
allahlara buxur yandırmaqla Məni
qəzəbləndirdiniz. Beləcə öz başınıza
fəlakət gətirirsiniz. Dünyanın bütün
millətlərinin qarşısında lənət və
rüsvayçılıq hədəfinə çevriləcəksiniz.
9 Yəhuda ölkəsində, Yerusəlim
küçələrində atalarınızın, Yəhuda
padşahlarının, onların arvadlarının,
sizin və arvadlarınızın etdikləri pislikləri
unutdunuzmu? 10 Bu günə qədər
itaətkarlıq etmədilər, qorxmadılar,
qanunuma, sizə və atalarınıza verdiyim
qaydalara əməl etmədilər”.
11 Buna görə də İsrailin Allahı olan
Ordular Rəbbi belə deyir: “Bax Mən
sizə pislik edib bütün Yəhudalıları
qırıb-çatmağı qərara aldım. 12 Misirə
gəlib sakin olmağı qərara alan
Yəhudanın sağ qalanlarını aradan
götürəcəyəm və onların hamısı Misir
ölkəsində həlak olacaq. Qılıncdan
keçiriləcək və aclıqdan tələf olacaqlar,
böyükdən kiçiyə qədər qılınc və
aclıqdan öləcəklər. Lənət, dəhşət, nifrin
və rüsvayçılıq hədəfinə çevriləcəklər.
13 Yerusəlimi qılınc, aclıq və vəba ilə
necə cəzalandırdımsa, Misir torpağında
yaşayanları da eləcə cəzalandıracağam.
14 Sakin olmaq üçün Misir torpağına
gələn Yəhudanın sağ qalanlarından
heç kəs qaçıb qurtarmayacaq, heç
kəs salamat qalıb Yəhuda torpağına
qayıtmayacaq. Oraya qayıdıb sakin
olmaq istəsələr də, bir neçə qaçqından
başqa qayıdan olmayacaq”».
15 Arvadlarının başqa allahlara buxur
yandırdıqlarını bilən bütün kişilər,
orada dayanan qadınlar – böyük bir
camaat və Misir torpağında, Patrosda
yaşayan bütün xalq Yeremyaya müraciət
edib dedi: 16 «Sənin bizə Rəbbin adı
ilə söylədiyin sözə qulaq asmayacağıq.
17 Dediyimiz hər şeyi mütləq edəcəyik:
Göylər Mələkəsi ilahəyə buxur yandırıb
içmə təqdimləri verəcəyik. Bir zamanlar
bu işi biz, atalarımız, padşahlarımız
və başçılarımız Yəhuda şəhərlərində,
Yerusəlim küçələrində etdik. O zaman
çörəklə doyur, uğur qazanır və heç bir
zərər görmürdük. 18 Göylər Mələkəsi
ilahəyə buxur yandırmağı, ona içmə
təqdimlər verməyi dayandırdığımız
vaxtdan bəri hər şeyə möhtac olduq,
qılınc və aclıqdan həlak oluruq».
19 Qadınlar da dedi: «Biz Göylər
Mələkəsi ilahəyə buxur yandırarkən,
ona içmə təqdimləri verərkən məgər
ərlərimizin xəbəri yox idi ki, onun
təsvirinə oxşar kökələr düzəldib içmə
təqdimləri veririk?»
20 O zaman Yeremya kişilərə və
qadınlara – ona bu cavabı vermiş bütün
xalqa belə dedi: 21 «Sizin, atalarınızın,
padşahlarınızın, başçılarınızın və
ölkə xalqının Yəhuda şəhərlərində
və Yerusəlim küçələrində buxur
yandırmağınızı Rəbb yadına salmadımı,
ağlına gətirmədimi? 22 Rəbb pis
işlərinizə, etdiyiniz iyrənc şeylərə
daha dözə bilmir. Ona görə də indi
ölkəniz sakini olmayan xarabalığa,
viranəliyə və lənət hədəfinə çevrildi.
23 Siz buxur yandırıb Rəbbə qarşı günah
etdiniz, Rəbbin sözünə qulaq asmadınız,
qanununa, qaydalarına və göstərişlərinə
əməl etmədiniz. Buna görə də bu gün
başınıza bu fəlakət gəldi».
24 Yeremya qadınlar da daxil olmaqla
bütün xalqa dedi: «Ey Misirdə olan
bütün Yəhuda xalqı, Rəbbin sözünə
qulaq asın. 25 İsrailin Allahı olan
Ordular Rəbbi belə deyir: “Göylər
Mələkəsi ilahəyə buxur yandırıb içmə
təqdimləri gətirməklə verdiyimiz vədi
mütləq yerinə yetirəcəyik” deyərək siz

və arvadlarınız dilinizlə dediyinizi öz
əlinizlə yerinə yetirdiniz. Eybi yox,
verdiyiniz sözə əməl edin və vədlərinizi
yerinə yetirin.
26 Ey Misir torpağında yaşayan
bütün Yəhuda xalqı, bu işlərə görə
Rəbbin sözünü eşidin: “Mən Öz böyük
adıma and içdim ki, bir daha Misir
torpağında heç bir Yəhudalı şəxs ‹var
olan Xudavənd Rəbbin haqqına and
olsun› deyib Mənim adımı çəkməyəcək.
27 İndi Mən onlara yaxşılıq etmək
üçün deyil, pislik etmək üçün məqam
gözləyirəm. Misir torpağında olan bütün
Yəhudalılar yox olana qədər qılınc və
aclıqdan həlak olacaq. 28 Az sayda adam
qılıncdan qurtarıb Misir torpağından
Yəhuda torpağına qayıdacaq. Misir
torpağına sakin olmağa gələn Yəhuda
xalqından sağ qalanların hamısı o
zaman biləcək ki, kimin sözü yerinə
yetdi, Mənimki yoxsa onlarınkı? 29 Mən
sizi bu yerdə cəzalandıracağam ki,
başınıza bəla gələcəyi barədə sözlərimin
mütləq yerinə yetəcəyini biləsiniz” Rəbb
belə bəyan edir. “Bunun əlaməti belə
olacaq”. 30 [i]Rəbb belə deyir: “Yəhuda
padşahı Sidqiyanı canını almaq istəyən
düşməni Babil padşahı Navuxodonosora
necə təslim etdimsə, Misir padşahı
firon Xofranı da canını almaq istəyən
düşmənlərinə eləcə təslim edəcəyəm”».

Allahın Baruka vədi

45 [j]Yəhuda padşahı Yoşiya oğlu
Yehoyaqimin padşahlığının
dördüncü ilində Neriya oğlu Baruk,
Yeremyanın dediyi bu sözləri kitaba
yazanda Yeremya peyğəmbər ona
belə söylədi: 2 «Ey Baruk, sənin
barəndə İsrailin Allahı Rəbb belə deyir:
3 “Sən dedin ki, vay mənim halıma!
Çünki Rəbb dərdlərimə kədər də
qatdı, iniltimdən yoruldum, rahatlıq
tapmıram”. 4 Sən ona söylə ki, Rəbb belə
deyir: “Bax Mən tikdiyimi dağıdacağam,
əkdiyimi çıxaracağam, özü də bütün
ölkədə. 5 Əgər sən özün üçün çox şey
istəyirsənsə, istəmə. Çünki Mən bütün
bəşərin üzərinə bəla gətirəcəyəm” Rəbb
belə bəyan edir. “Ancaq hara gedirsən,
get, heç olmasa canını qoruyacağam”».

Misirin məğlub olması

46 Bu, millətlər barədə Yeremya
peyğəmbərə nazil olan Rəbbin
sözüdür. 2 [k]Misir haqqında, Misir
padşahı firon Nekonun ordusu barədə
nazil olan sözdür. Bu ordu Fərat çayı
sahilində olan Karkemişdə idi. Yəhuda
padşahı Yoşiya oğlu Yehoyaqimin
padşahlığının dördüncü ilində Babil
padşahı Navuxodonosor onu məğlub
etdi.
3 «Qalxan və sipər hazırlayıb
Döyüşə girin!
4 Atlarınızı yəhərləyin,
Ayğırlarınıza minin, ey atlılar!
Dəbilqə geyinib sıraya düzülün,
Nizələrinizi itiləyib zireh geyinin!
5 Nə üçün mən bunu gördüm?
Onlar dəhşətə düşüb geri döndü,
Döyüşçüləri məğlub oldu,
Tez qaçıb heç geriyə də baxmadı.
Hər tərəfdə dəhşət var!»
Rəbb belə bəyan edir.
6 «Bərk qaçan qaça bilməyəcək,
Güclü qurtula bilməyəcək.
Şimalda Fərat çayı sahilində
Büdrəyib yıxılacaqlar.
7 Nil kimi qalxan,
Suları sel kimi çalxalanan kimdir?
8 Nil kimi qalxan,
Suları sel kimi çalxalanan Misirdir.
O deyir: “Qalxıb yer üzünü
basacağam.

---

[i] **44:30** 2Pad. 25:1-7 [j] **45:1** 2Pad. 24:1; 2Saln. 36:5-7; Yer. 36:1; Dan. 1:1-2
[k] **46:2** Yeş. 19:1-25; Yez. 29:1–32:32

Şəhərləri və orada yaşayanları həlak
edəcəyəm”.
9 Ey atlar, şahə qalxın!
Ey döyüş arabaları, dəli kimi cumun!
Ey qalxanla silahlanmış Kuş və Put
döyüşçüləri,
Kaman götürən və onu çəkən
Ludlular, irəli gedin!
10 O gün Ordular Rəbbi Xudavəndin
günüdür,
Düşmənlərindən qisas alması üçün
Qisas günüdür.
Onları qılınc yeyib-doyacaq,
Qanlarını içib susuzluğunu yatıracaq.
Çünki şimal ölkəsində, Fərat çayı
sahilində
Ordular Rəbbi Xudavənd qurban
kəsir.
11 Ey bakirə qıza bənzəyən Misir,
Gileada çıx, məlhəm al.
Çoxlu dərman içməyin əbəsdir,
Sənin dərdinə əlac yoxdur.
12 Millətlər sənin rüsvayçılığını eşitdi,
Fəryadın yer üzünü bürüdü.
Çünki döyüşçü döyüşçünü büdrətdi,
İkisi də birdən yıxıldı».
13 [l]Babil padşahı Navuxodonosorun
gəlib Misir torpağına hücum edəcəyi
barədə Rəbb Yeremya peyğəmbərə bu
sözləri nazil etdi:
14 «Misirdə bildirin,
Miqdolda eşitdirin,
Nofda və Taxpanxesdə elan edib
deyin:
“Qalx və hazırlaş,
Çünki ətrafında olanları
Qılınc yeyib-qurtardı”.
15 Cəngavərlərin nə üçün yerə yıxıldı,
Dayana bilmədi?
Çünki Rəbb onu yerə vurdu.
16 Dəfələrlə büdrədilər,
Bir-birlərinin üstünə yıxılıb dedilər:
“Qalxın zalımların qılıncından qaçıb
Öz xalqımızın yanına,
Doğma vətənimizə qayıdaq”.
17 Orada onlar bağırdılar:
“Misir padşahı firon boşboğazdır,
O, fürsəti əldən verdi”.
18 Adı Ordular Rəbbi olan Padşah
bəyan edir:
“Varlığıma and olsun ki,
Tavor və dəniz sahilindəki Karmel
dağları
Dağlar arasında necə nəzərə çarparsa,
Gələn şəxs də elə olacaq.
19 Ey Misirdə yaşayan,
Sürgünə getmək üçün əşyalarını
hazırla.
Çünki Nof viran olub yanacaq,
İçində bir sakin qalmayacaq.
20 Misir çox gözəl bir düyədir,
Ancaq şimaldan üstünə mozalan gəlir.
21 Onun muzdlu əsgərləri də
Bəslənmiş dana kimidir.
Onlar üz çevirib birlikdə qaçdı,
Yerlərində durmadı.
Çünki fəlakətlərinin günü,
Cəzalarının vaxtı gəlmişdi.
22 Sürünən ilan kimi fışıltıları gəlir,
Çünki ordu ilə irəliləyirlər,
Ağac kəsənlər kimi ona qarşı
Balta ilə gəlirlər.
23 Keçilməz olsa da,
Yenə meşəni kəsəcəklər”
Rəbb belə bəyan edir.
“Çünki onlar çəyirtkələrdən çoxdur,
Hesaba gəlməzlər.
24 Misir utandırılacaq,
Şimal xalqına təslim ediləcək”.
25 İsrailin Allahı olan Ordular Rəbbi
deyir: “Mən No şəhərinin allahı
Amonu, fironu, Misiri, onun allahlarını,
padşahlarını və firona güvənənləri
cəzalandıracağam. 26 Canlarını
almaq istəyənlərə – Babil padşahı
Navuxodonosora və onun əyanlarına
təslim edəcəyəm. Ancaq sonra əvvəllər

[l]**46:13** Yer. 43:10-13

olduğu kimi adamlar yenə Misirdə
yaşayacaq” Rəbb belə bəyan edir.

Rəbbin Öz xalqına vədi

27 m“Qorxma, ey qulum Yaqub,
Dəhşətə düşmə, ey İsrail.
Çünki səni uzaq yerlərdən,
Nəslini sürgün olunduğu ölkədən
qurtaracağam.
Yaqub geri qayıdacaq,
Rahatlıq tapıb qayğısız olacaq,
Onu qorxudan olmayacaq.
28 Qorxma, ey qulum Yaqub,
Çünki Mən sənin ləyəm”
Rəbb belə bəyan edir.
“Səni aralarına sürgün etdiyim
Millətlərin hamısını yox etsəm də,
Səni tamamilə məhv etməyəcəyəm,
Ədalətlə tərbiyələndirəcəyəm.
Amma cəzasız qoymayacağam”».

Filiştlilər barədə vəhy

47 nFiron Qəzzəyə hücum etməzdən
əvvəl Yeremya peyğəmbərə
Filiştlilər barədə Rəbbin bu sözü nazil
oldu:
2 «Rəbb belə deyir:
“Budur, şimaldan sular qalxır,
Onlar sel kimi daşacaq,
Ölkənin və oradakı hər şeyin,
Şəhərin və orada yaşayanların üstünə
axacaq.
İnsanlar fəryad edəcək,
O ölkədə yaşayanların hamısı nalə
çəkəcək.
3 Ayğırlarının yeri döyən dırnaqlarının
səsindən,
Döyüş arabalarının vəlvələsindən,
Təkərlərinin gurultusundan
Əlləri taqətdən düşdüyü üçün
Atalar dönüb oğullarına baxmır.
4 Çünki Filiştlilərin məhv ediləcəyi
gün gəlir.
Sur və Sidona yardım edə bilən,
Sağ qalan hər kəs yox ediləcək.
Rəbb Kaftor sahilindən gələn *
Filiştlilərin sağ qalanlarını həlak
edəcək.
5 Qəzzə saçını yolacaq,
Aşqelon susdurulacaq.
Ey düzənliklərində sağ qalanlar,
Nə vaxta qədər bədənlərinizi
yaralayacaqsınız?
6 ‹Ey Rəbbin qılıncı,
Nə vaxt sakitləşəcəksən?
Qınına dön, dayan və sakit ol!›
deyəcəksiniz.
7 Rəbb əmr etdiyi halda
Qılınc necə susa bilər?
Rəbb onu oraya – Aşqelona,
Dəniz sahilinə qarşı göndərdi”».

Moav barədə vəhy

48 oMoav barədə İsrailin Allahı olan
Ordular Rəbbi belə deyir:
«Vay Nevonun halına!
Çünki viranəliyə çevriləcək.
Qiryatayim dağılacaq,
Ələ keçiriləcək.
Qalası dağılacaq,
Darmadağın olacaq.
2 Artıq Moavın şöhrəti qalmayıb.
Xeşbonda †onun məhvi üçün niyyət
qururlar:
“Gəlin onu yox edək ki,
Daha bir də belə millət olmasın”.
Ey Madmen, ‡sən də susdurulacaqsan,
Qılınc səni qovacaq.

*47:4 *Kaftor* – indiki Krit adası.
†48:2 *Xeşbon* – ibrani dilində *niyyət qurmaq* sözünə oxşayır.
‡48:2 *Madmen* – ibrani dilində *susdurmaq* sözünə oxşayır.

m**46:27** Yer. 30:10-11
n**47:1** Yeş. 14:29-31; Yez. 25:15-17; Yoel 3:4-8; Amos 1:6-8; Sef. 2:4-7; Zək. 9:5-7
o**48:1** Yeş. 15:1–16:14; 25:10-12; Yez. 25:8-11; Amos 2:1-3; Sef. 2:8-11

3 Xoronayimdən fəryad səsi gələcək:
“Şəhər dağıldı və böyük qırğın oldu!”
4 Moav dağıdıldı,
Övladlarının fəryadı ucaldı.
5 [p]Ağlaya-ağlaya
Luxit yoxuşundan çıxırlar,
Çünki Xoronayim enişində
Qırğına görə acı fəryadlar eşidilir.
6 Qaçın, canınızı qurtarın!
Çöldəki yulğun ağacı kimi az-az görünün.
7 Öz istehkamlarına və mal-dövlətinə güvəndiyin üçün
Sən də ələ keçiriləcəksən.
Allahın Kemoş da kahinləri və başçıları ilə birlikdə
Sürgün ediləcək.
8 Rəbbin söylədiyi kimi
Məhv edən hər şəhərin üstünə gələcək,
Heç bir şəhər qurtulmayacaq.
Vadi yerlə yeksan olacaq,
Yayla viran ediləcək.
9 Moav torpağına duz tökün ki,
Bərəkətsiz olsun.
Şəhərləri elə viran olacaq ki,
Orada kimsə yaşamayacaq.
10 Rəbbin işini yarımçıq görənə
Lənət olsun!
Qılıncını qan tökməkdən saxlayana
Lənət olsun!
11 Moav cavanlığından bəri qayğısız idi.
Tortası dibdə qalan şəraba oxşayırdı.
Qabdan qaba boşaldılmadı,
Sürgünə getmədi.
Buna görə də dadını dəyişmədi,
Ətrini itirmədi.
12 Ancaq onu qabdan qaba tökəcək adamları göndərəcəyim günlər gəlir» Rəbb belə bəyan edir. «Bəli, onu tökəcəklər, qablarını boşaldacaqlar, küplərini parça-parça edəcəklər.
13 İsrail xalqı güvəndiyi Bet-Eldən necə utandısa, Moav da allahı Kemoşdan eləcə utanacaq.
14 Nə üçün “biz igidik,
Döyüşə qabil əsgərlərik” deyirsiniz?
15 Moav məhv olacaq,
Onun şəhərlərinə hücum edəcəklər.
Ən seçmə döyüşçüləri öldürülməyə gedəcək»
Adı Ordular Rəbbi olan Padşah bunu bəyan edir.
16 «Moavın fəlakəti gəlmək üzrədir,
Onun bəlası sürətlə yaxınlaşır.
17 Ey onun ətrafında olanlar,
Onun adını bilənlər,
Onun üçün yas tutub deyin:
“Qüdrətli əsa, əzəmətli dəyənək
Necə də qırıldı!”
18 Ey qıza bənzəyən Divonun sakini,
Cah-calalından düş,
Susuz yerdə otur.
Çünki Moavı məhv edən
Sənin də üstünə gələcək,
Qalalarını dağıdacaq.
19 Ey Aroer sakini,
Yol kənarında durub gözlə!
Qaçan kişidən, qurtulan qadından
“Nə olub?” deyə soruş.
20 Moav alçaldıldı,
Çünki dağıldı.
Fəryad et, bağır!
Moavın məhv olduğunu
Arnon vadisində bildir.
21 Yayladakı şəhərlər – Xolon, Yahsa, Mefaat, 22 Divon, Nevo, Bet-Divlatayim, 23 Qiryatayim, Bet-Qamul, Bet-Meon, 24 Qeriyot, Bosra – uzaq və yaxın bütün Moav şəhərləri məhkum oldu. 25 Moavın buynuzu kəsildi, qolu qırıldı» Rəbb belə bəyan edir.
26 «Moavı sərxoş edin, çünki Rəbbin qarşısında qürurlandı. Moav öz qusduğuna bələnəcək, masqaraya çevriləcək. 27 Bəs İsrail sənə masqara olmadımı? Məgər o, oğrular arasında

[p]**48:5** Yeş. 15:5

tutuldu ki, ondan danışanda həqarətlə
başını yelləyirsən?
28 Ey Moav sakinləri,
Şəhərlərinizi tərk edib
Qayalara sığının.
Yuvasını uçurumun ağzında quran
Göyərçin kimi olun.
29 [q]Moavın qüruru, onun hədsiz
məğrurluğu,
Təkəbbürü, təşəxxüsü, lovğalığı,
Özünü yüksək tutması barədə biz
eşitmişdik.
30 Azğınlığını bilirəm»
Rəbb belə bəyan edir.
«Öyünməsi də boş şeydir, etdikləri də.
31 Buna görə də Moav üçün nalə
çəkəcəyəm,
Bütün Moav üçün fəryad edəcəyəm,
Qir-Xeres xalqı üçün yas tutacağam.
32 Ey Sivma tənəyi,
Sənin üçün Yazer xalqından çox
ağlayacağam.
Budaqların dənizi aşdı,
Yazer dənizinə uzandı.
Məhv edən sənin yay meyvələrinin,
Yetişmiş üzümünün üstünə atıldı.
33 Moavın meyvə bağlarından,
tarlalarından
Sevinc və fərəh götürüldü.
Üzümsıxanlardan axan şərabı kəsdim.
Heç kəs sevinc nidası ilə üzüm əzmir.
Gələn səda sevinc nidası deyil.
34 [r]Xeşbonun fəryadı Elaleyə qədər
eşidilir. Yahsaya qədər, Soardan
Xoronayimə, Eqlat-Şelişiyaya qədər
səslərini ucaltdılar. Çünki Nimrim suları
da qurudu. 35 Moavda səcdəgahlarda
qurban gətirənləri, öz allahlarına buxur
yandıranları məhv edəcəyəm» Rəbb
belə bəyan edir. 36 «Buna görə də Moav
üçün ürəyim ney kimi inləyir. Qir-Xeres
xalqı üçün ürəyim ney kimi inləyir.
Çünki əldə etdiyi mal-dövlət yox oldu.
37 Hər kəs saçını, saqqalını kəsəcək,
əlini yaralayacaq, belinə çul sarıyacaq.
38 Moav damlarından, meydanlarından
yalnız ağlaşma səsi gəlir. Çünki Moavı
heç kəsin bəyənmədiyi bir qab kimi
qırdım» Rəbb belə bəyan edir. 39 «Moav
necə viran oldu! Necə də fəryad edirlər!
Moav xəcalətdən arxaya dönür. Bütün
ətrafındakılar üçün rişxənd və dəhşət
nümunəsi oldu».
40 Rəbb belə deyir:
«Bax düşmən qartal kimi uçub
Moav üzərində qanadlarını gərəcək.
41 Qeriyot ələ keçiriləcək,
Qalalar alınacaq.
O gün Moav döyüşçülərinin ürəyi
Doğuş ağrısı çəkən qadının ürəyi kimi
olacaq.
42 Moav viran olacaq,
Xalqlar arasından silinəcək.
Çünki Rəbb qarşısında qürurlandı.
43 [s]Ey Moav sakinləri,
Qarşınıza dəhşət, dərin çuxur və tələ
çıxacaq»
Rəbb belə bəyan edir.
44 «Dəhşətdən qaçan dərin çuxura
düşəcək,
Dərin çuxurdan çıxa bilən tələyə
düşəcək.
Çünki Moavın üzərinə
Cəza ilini gətirəcəyəm»
Rəbb belə bəyan edir.
45 [t]«Xeşbonun kölgəsində
Qaçqınlar taqətsiz durmuşlar.
Çünki Xeşbondan od,
Sixonun ortasından alov çıxdı.
Moavın alnını,
Hər yana səs salanların başlarını
Yandırıb-yaxdı.
46 Vay halına, ey Moav!
Kemoşun xalqı yox oldu.
Oğulların sürgünə göndərildi,
Qızların əsir alındı.

---

[q] **48:29** Yeş. 16:6,8,10 [r] **48:34** Yeş. 15:2,4 [s] **48:43** Yeş. 24:17
[t] **48:45** Say. 21:28-29

47 Ancaq gələcəkdə
Moavdan sürgün olunanları geri
qaytaracağam»
Rəbb belə bəyan edir.
Moav barədəki hökm burada sona
çatır.

Ammon barədə vəhy

49 [u]Ammon övladları barədə Rəbb
belə deyir:
«İsrailin övladları yoxmu?
Onun varisi yoxmu?
Elə isə nə üçün Milkom Qada sahib
oldu?
Niyə onun xalqı Qad şəhərlərində
yaşayır?
2 Bu səbəbdən də o günlər gəlir ki,
Ammon övladlarının Rabba şəhərinə
Döyüş nərələri eşitdirəcəyəm»
Rəbb belə bəyan edir.
«Rabba bir xarabalıq qalağı olacaq,
Qəsəbələri yandırılacaq.
Beləcə İsrail onu torpağından
qovanları qovacaq»
Rəbb belə deyir.
3 «Nalə çək, ey Xeşbon,
Çünki Ay şəhəri viran oldu.
Fəryad edin, ey Rabba qızları,
Çula bürünüb yas tutun.
Divarlar arasında ora-bura qaçın.
Çünki Milkom kahinləri və başçıları
ilə birlikdə
Sürgünə gedəcək.
4 Vadilərlə nə üçün öyünürsən?
Taqətin kəsilir,
Ey dönük qız!
Sən mal-dövlətinə güvənərək
“Üstümə kim gələ bilər” deyirdin.
5 Ətrafında olanların hamısından
Sənin üzərinə dəhşət gətirəcəyəm»
Ordular Rəbbi Xudavənd belə bəyan
edir.
«Hamı o yan-bu yana qaçacaq,
Qaçanları toplayan olmayacaq.
6 Ancaq bundan sonra sürgün olunan
Ammon övladlarını geri
qaytaracağam»
Rəbb belə bəyan edir.

Edom barədə vəhy

7 [v]Edom barədə Ordular Rəbbi belə
deyir:
«Teman şəhərində müdriklik
qalmadımı?
Ağıllı adamların nəsihəti tükəndimi?
Onların müdrikliyi söndümü?
8 Qaçın, arxaya dönün,
Dərin mağaralarda gizlənin,
Ey Dedanda yaşayanlar!
Çünki Esavı cəzalandırdığım vaxt
Başına fəlakət gətirəcəyəm.
9 Əgər üzüm yığanlar sənin bağına
gəlsəydi,
Bir neçə salxımı saxlamazdılarmı?
Gecə oğrular gəlsəydi,
Yalnız istədiklərini
oğurlamazdılarmı?
10 Amma mən Esavı çıl-çılpaq
soyunduracağam.
Onun gizli yerlərini aşkar edəcəyəm.
Özü də gizlənə bilməyəcək,
Övladları, qohum-qonşuları həlak
olacaq,
Özü də məhv olacaq.
11 Öz yetimlərini burax,
Onları Mən yaşadaram.
Dul qadınların da Mənə güvənsin».
12 Rəbb belə deyir: «Layiq olmayanlar
da cəza kasası içmək məcburiyyətində
ikən sənmi cəzasız qalacaqsan? Yox,
cəzasız qalmayacaqsan, mütləq bu
kasadan içəcəksən». 13 Rəbb bəyan
edir: «Adım naminə and içirəm ki,
Bosra xarabalığa çevriləcək, dəhşət,
rüsvayçılıq, viranəlik və lənətə düçar

---

[u]**49:1** Yez. 21:28-32; 25:1-7; Amos 1:13-15; Sef. 2:8-11
[v]**49:7** Yeş. 34:5-17; 63:1-6; Yez. 25:12-14; 35:1-15; Amos 1:11-12; Mal. 1:2-5

olacaq. Bütün şəhərləri əbədi olaraq
viran qalacaq.
14 Rəbdən bir xəbər eşitdim:
Millətlər arasına göndərdiyi qasid
"Edoma hücum etmək üçün yığılıb
Döyüşə hazırlaşın!" deyir.
15 Bax səni millətlər arasında
kiçildəcəyəm,
İnsanlar sənə xor baxacaq.
16 Ey sən qaya* çatları arasında
məskən salan,
Təpələrin başını əldə saxlayan!
Saldığın dəhşət və ürəyinin qüruru
səni aldatdı.
Yuvanı qartal kimi yuxarılarda qursan
da,
Səni oradan endirəcəyəm»
Rəbb belə bəyan edir.
17 «Edom dəhşət hədəfi olacaq,
Oradan keçən hər kəs
Bütün yaralarından ötrü
Heyrət içində ona fit çalacaq».
18 [w]Rəbb deyir:
«Sodomla Homorranı və ətrafındakı
kəndləri
Necə dağıtdımsa,
Orada da kimsə yaşamayacaq,
O yerdə bəşər oğlu sakin olmayacaq.
19 Budur, aslan İordan çayının
kənarındakı sıx meşədən
Yaxşı sulanan otlağa qalxdığı kimi
Mən də Edomluları bir anda öz
yurdundan qovacağam.
Seçib ona rəhbər qoyacağım adam
kimdir?
Mənim kimisi varmı?
Mənimlə dava edən,
Mənim qabağımda duran bir çoban
varmı?»
20 Buna görə də Rəbbin Edoma qarşı
fikrini,
Temanda yaşayanlara qarşı məqsədini
eşidin:
Sürünün ən kiçikləri də sürgün
ediləcək,
Xalqına görə Edom otlaqları
Səhraya çevriləcək.
21 Dağılmalarının gurultusundan
Yer üzü titrəyəcək.
Qışqırıqlarının səsi
Qırmızı dənizədək eşidiləcək.
22 Düşmən qartal kimi qalxıb üstünə
cumacaq,
Bosra üzərində qanadlarını gərəcək.
O gün Edom döyüşçülərinin ürəyi
Doğuş ağrısı çəkən qadının ürəyi kimi
olacaq.

Dəməşq barədə vəhy

23 [x]Bu sözlər Dəməşq barədədir:
«Xamat və Arpad utanacaq,
Çünki pis xəbər eşidib
Ruhdan düşdülər.
Sakit durmayan dəniz kimi
Coşub narahat oldular.
24 Dəməşq əldən düşdü,
Qaçmağa üz qoydu,
Onu vahimə bürüdü.
Doğan qadın kimi
Onu sancı və ağrı tutdu.
25 Necə oldu ki, Məni sevindirən,
Şöhrətli şəhər tərk edilmədi?
26 Buna görə də cavanları
Meydanlarında həlak olacaq.
O gün bütün döyüşçüləri
susdurulacaq»
Ordular Rəbbi belə bəyan edir.
27 «Dəməşqin divarlarına od
salacağam,
Ben-Hadadın saraylarını yandırıb
məhv edəcək».

Qedar və Xasor barədə vəhy

28 Babil padşahı Navuxodonosorun
məğlub etdiyi Qedar və Xasor
padşahlıqları barədə Rəbb belə deyir:

---

*49:16 *Qaya* – ibrani mətnində *sela*. Sela Edomun paytaxtı idi.

[w]**49:18** Yar. 19:24-25 [x]**49:23** Yeş. 17:1-3; Amos 1:3-5; Zək. 9:1

«Qalxın Qedara hücum edin,
Şərq xalqını məhv edin.
29 Onların çadırlarını və sürülərini
Əllərindən alacaqlar,
Çadır pərdələri, bütün əşyaları və dəvələri
Götürülüb aparılacaq.
Onlara "Hər tərəfdən dəhşət!"
Deyib bağıracaqlar.
30 Ey Xasorda yaşayanlar,
Qaçın, uzaqlaşın,
Dərin mağaralarda gizlənin»
Rəbb belə bəyan edir.
«Çünki Babil padşahı Navuxodonosor
Sizin barənizdə bir fikrə gəldi,
Sizə qarşı tədbir tökdü.
31 Qalxın qayğısız və asayiş içində yaşayan
Xalqın üzərinə hücum edin»
Rəbb belə bəyan edir.
«Onların şəhər darvazaları və sürgüləri yoxdur,
Xalqı da özbaşına buraxılıb.
32 Dəvələri qarət ediləcək,
Saysız sürüləri qənimət kimi aparılacaq.
Kəkillərini qırxanları
Dörd tərəfə səpələyəcəyəm.
Hər yandan başlarına fəlakət gətirəcəyəm»
Rəbb belə bəyan edir.
33 «Xasor çaqqal yuvasına,
Əbədi viranəliyə çevriləcək.
Orada kimsə yaşamayacaq,
O yerdə bəşər oğlu sakin olmayacaq».

Elam barədə vəhy

34 Yəhuda padşahı Sidqiyanın padşahlığının əvvəlində Rəbb Yeremya peyğəmbərə Elam barədə bu sözləri nazil etdi:
35 «Ordular Rəbbi belə deyir:
"Baxın Elamın kamanını,
Əsas qüvvələrini sındıracağam.
36 [y]Elam üzərinə göylərin hər tərəfindən
Dörd küləyi gətirəcəyəm,
Xalqını dörd tərəfə səpələyəcəyəm.
Elamdan sürgün olunanların
Aralarına getmədiyi bir millət qalmayacaq.
37 Düşmənlərinin qarşısında,
Canını almaq istəyənlərin önündə
Elamı dəhşətə salacağam.
Başlarına fəlakət gətirib
Şiddətli qəzəbimi yağdıracağam"
Rəbb belə bəyan edir.
"Onları tamamilə yox edənə qədər
Arxalarınca qılınc göndərəcəyəm.
38 Elamda taxtımı quracaq,
Elam padşahı ilə başçılarını məhv edəcəyəm"
Rəbb belə bəyan edir.
39 "Ancaq gələcəkdə
Elamdan sürgün olunanları geri qaytaracağam"
Rəbb belə bəyan edir».

Babil barədə vəhy

50 [z]Rəbb Babil və Xaldey ölkəsi barədə Yeremya peyğəmbər vasitəsilə bu sözləri nazil etdi:
2 «Millətlərə bildirib elan edin.
Bayraq qaldırıb xəbər verin,
Heç nəyi gizlətməyin!
Deyin ki, Babil ələ keçiriləcək,
Bel allahı utandırılacaq,
Marduk allahı dəhşətə düşəcək,
Bütləri alçaldılacaq,
Məbudları parça-parça olacaq.
3 Çünki onun üstünə şimaldan
Bir millət hücum edəcək,
Ölkəsini viran edəcək.
Orada yaşayan olmayacaq,
İnsan da, heyvan da qaçıb gedəcək».
4 Rəbb bəyan edir: «O gün, o zaman
İsrail xalqı ilə Yəhuda xalqı
Birlikdə gələcək,

---

[y] **49:36** Dan. 7:2; Vəhy 7:1 [z] **50:1** Yeş. 13:1–14:23; 47:1-15

Onlar ağlaya-ağlaya gəlib
Özlərinin Allahı Rəbbi axtaracaq.
5 Üzləri Siona tərəf
Oraya gedən yolu soruşacaqlar,
Onlar gəlib unudulmaz, əbədi bir əhdlə
Rəbbə bağlanacaq.
6 Xalqım itmiş qoyunlar kimidir,
Çobanları onları azdırdı,
Dağlarda özbaşına dolandırdı,
Onlar dağdan təpəyə getdi,
Yatdıqları yeri unutdu.
7 Kim onları tapdısa, yedi.
Düşmənləri dedi:
“Biz təqsirkar deyilik,
Çünki onlara əsl otlaq olan Rəbbə –
Atalarının Ümidgahı Rəbbə qarşı günah etdilər”.
8 [a]Babildən qaçıb qurtarın!
Xaldey ölkəsini tərk edin,
Sürüyə yol göstərən təkə kimi olun!
9 Çünki Mən şimal ölkəsindən
Babilə qarşı böyük millətlər ittifaqını
Oyandırıb çıxaracağam.
Babilin önündə düzülüb
Onu şimaldan ələ keçirəcəklər.
Oxları mahir döyüşçü oxları kimi olacaq,
Heç biri əliboş qayıtmayacaq.
10 Xaldey ölkəsi qarət olunacaq,
Onu qarət edənlər maldan doyacaq»
Rəbb belə bəyan edir.
11 «Ey irsimi talayanlar,
İndi ki sevinib şadlıqla coşursunuz,
Xırmanda taxıl döyən düyə kimi tullanırsınız,
Ayğır kimi kişnəyirsiniz,
12 Ananız çox utanacaq,
Sizi doğanın üzü qızaracaq.
Xaldey millətlərin ən zəifi,
Quraq, boz bir səhra olacaq.
13 Rəbbin qəzəbi üzündən
Heç kəs orada yaşamayacaq,
Tamamilə viran olacaq.
Hər keçən Babilin aldığı
Bütün yaraları görəndə
Heyrət içində fit çalacaq.
14 Ey bütün kaman çəkənlər,
Babilin ətrafında döyüş üçün düzülün.
Oraya ox atın, oxunuzu əsirgəməyin.
Çünki o, Rəbbə qarşı günah etdi.
15 Hər tərəfdən ona qarşı nərə çəkin,
O təslim oldu,
Qüllələri yıxıldı, divarları uçuldu.
Çünki bu, Rəbbin qisasıdır.
Ondan qisas alın,
O nə etdisə, başına onu gətirin.
16 Babildə əkinçiləri məhv edin,
Biçin vaxtı oraqçıları rədd edin.
Zalımların qılıncı üzündən
Hər kəs öz xalqının yanına qayıtsın,
Hamı öz ölkəsinə qaçsın.

İsrailin qayıtması

17 İsrail dağılmış bir sürüyə bənzər,
Onu aslanlar qaçırtdı.
Onu əvvəl Aşşur padşahı yedi,
Sonra Babil padşahı Navuxodonosor
Onun sümüklərini qırdı».
18 Buna görə də İsrailin Allahı olan
Ordular Rəbbi belə deyir:
«Aşşur padşahını necə cəzalandırdımsa,
Babil padşahı ilə ölkəsini də
Eləcə cəzalandıracağam.
19 Lakin İsraili yenə öz otlağına gətirəcəyəm,
O, Karmeldə və Başanda otlayacaq.
Efrayim və Gilead dağlıq bölgələrində
İstədiyi qədər yeyib-doyacaq.
20 O gün, o zaman
İsraildə təqsir axtarılacaq,
Ancaq olmayacaq.
Yəhudada da günah axtarılacaq,
Ancaq tapılmayacaq.
Çünki salamat qoyduğum adamları bağışlayacağam»
Rəbb belə bəyan edir.

---

[a]**50:8** Vəhy 18:4

Rəbbin Babili cəzalandırması

21 «Merataym torpağına,
Peqodda yaşayanlara hücum et.
Onları təqib edib öldür,
Bütünlüklə yox et»
Rəbb belə bəyan edir.
«Sənə nə buyururamsa, hamısını et.
22 Ölkədə müharibə və böyük qırğın
Gurultusu eşidilir.
23 Bütün dünyanın gürzü
Necə də qırılıb parçalandı!
Babil necə də millətlər arasında
Viranə oldu!
24 Sənin üçün tələ qurdum, ey Babil,
Sən də bilmədən tələmə düşdün.
Tutulub yaxalandın,
Çünki Rəbbə qarşı çıxdın.
25 Rəbb cəbbəxanasını açdı,
Qəzəbinin silahlarını çıxartdı.
Çünki Ordular Rəbbi Xudavəndin
Xaldey ölkəsində edəcəyi bir iş var.
26 Hər yandan ona hücum edin,
Anbarlarını açın,
Mallarını qalaq-qalaq yığın.
Onu tamamilə məhv edin,
Ondan bir şey qalmasın.
27 Bütün buğalarını kəsin,
Sallaqxanaya getsinlər.
Vay onların halına!
Çünki onların günü,
Cəza vaxtı gəldi.
28 Allahımız Rəbbin qisasını,
Onun məbədinin qisasını
Sionda elan etmək üçün
Babil ölkəsindən qaçıb qurtaranların
Səsini eşidin!
29 [b]Bütün oxçuları, kaman çəkənləri
Babilə qarşı çağırın.
Ətrafını mühasirəyə alın,
Heç kəs qaçıb qurtara bilməsin.
Ona işlərinə görə əvəz verin.
O nə etdisə, başına onu gətirin.
Çünki Rəbbə, İsrailin Müqəddəsinə qarşı
Məğrurluq etdi.
30 Buna görə də cavanları
Meydanlarda həlak olacaq,
O gün bütün döyüşçüləri susdurulacaq»
Rəbb belə bəyan edir.
31 «Budur, Mən sənə qarşıyam, ey məğrur»
Ordular Rəbbi Xudavənd belə bəyan edir.
«Çünki sənin günün,
Səni cəzalandıracağım vaxt gəldi.
32 Məğrur büdrəyib-yıxılacaq,
Onu qaldıran olmayacaq,
Şəhərlərinə od salacağam,
Bütün ətrafda olanları
Yandırıb yox edəcək».
33 Ordular Rəbbi belə deyir:
«Bütün İsrail xalqı da,
Yəhuda xalqı da əziyyət çəkir.
Onları əsir tutanlar möhkəm saxlayır,
Buraxmaq istəmir.
34 Amma onların Satınalanı güclüdür,
Onun adı Ordular Rəbbidir.
Rəbb mütləq onların işinə baxacaq ki,
Ölkəyə rahatlıq versin,
Amma Babil sakinlərinə təşviş gətirsin».
35 Rəbb bəyan edir: «Xaldeylilərə qarşı qılınc gəlsin!
Babildə yaşayanlara, Babil başçılarına,
Müdriklərinə qarşı qılınc gəlsin!
36 Yalançı peyğəmbərlərə qarşı qılınc gəlsin!
Axmaqlıqları üzə çıxacaq.
Döyüşçülərinə qarşı qılınc gəlsin!
Onlar çaşqınlığa düşəcək.
37 Atlarına, döyüş arabalarına,
Aralarındakı yadelli muzdlulara qarşı qılınc gəlsin!
Hamısı arvad kimi ürkək olacaq.

---

[b]**50:29** Vəhy 18:6

Xəzinələrinə qarşı qılınc gəlsin!
Onlar qarət ediləcək.
38 Sularına quraqlıq gəlsin!
Onlar quruyacaq.
Çünki Babil bütlər ölkəsidir,
Onlar qorxunc bütlərlə dəli oldu.
39 [c]Buna görə də orada vəhşi heyvanlar,
Çaqqallar, bayquşlar yaşayacaq,
Daha insan yaşamayacaq,
Əbədi olaraq orada heç kəs sakin olmayacaq.
40 [d]Sodomla Homorranı və ətrafındakı kəndləri
Allah necə dağıtdısa,
Orada kimsə yaşamayacaq,
O yerdə bəşər oğlu sakin olmayacaq.
41 Budur, şimaldan bir ordu gəlir,
Dünyanın uzaq yerlərindən
Böyük bir millət və çoxlu padşahlar
Hərəkətə gəlir.
42 Onlar ox-kaman və nizə ilə silahlanmış,
Qəddar və rəhmsizdir.
Atların üstündə gələrkən
Səsləri dəniz kimi gurlayır.
Döyüşə hazır döyüşçülər
Önündə düzüləcək, ey Babil xalqı!
43 Babil padşahı onların xəbərini eşitdi,
Əlləri yanına düşdü.
Doğan qadın kimi
Onu üzüntü və sancı bürüdü.
44 Budur, aslan İordan çayının kənarındakı sıx meşədən
Yaxşı sulanan otlağa qalxdığı kimi
Mən də Xaldeyliləri bir anda öz yurdundan qovacağam.
Seçib ona rəhbər qoyacağım adam kimdir?
Mənim kimisi varmı?
Mənimlə dava edəcək,
Mənim qabağımda duracaq
Bir çoban varmı?»
45 Buna görə də Rəbbin Babilə qarşı fikrini,
Xaldey ölkəsinə qarşı məqsədini eşidin:
«Sürünün ən kiçikləri də sürgün ediləcək,
Xalqına görə otlaqlar səhraya çevriləcək.
46 "Babil süqut etdi" səsindən yer üzü titrəyəcək,
Millətlər arasında onun fəryadı eşidiləcək».

51 Rəbb belə deyir:
«Mən Babildə və Lev-Qamayda [*]yaşayanlara qarşı
Həlakedici bir külək əsdirəcəyəm.
2 Babilə taxılsovuranlar [†]göndərəcəyəm,
Onu sovurub ölkəsini boş qoyacaqlar,
Qara gündə hər yandan ona hücum edəcəklər.
3 Oxçu kamanını çəkməsin,
Zirehini geyməsin.
Onun cavanlarına rəhm etməyin,
Ordusunu tamamilə məhv edin.
4 Öldürülənlər Xaldey ölkəsində,
Yaralılar Babil küçələrində
Yerə səriləcək.
5 Ancaq İsrailin Müqəddəsinə qarşı
Ölkələri təqsirlə dolduğu halda
Özlərinin Allahı Ordular Rəbbi
İsrail və Yəhuda xalqlarını tərk etmədi.
6 [e]Babilin içindən qaçın!
Hər kəs canını qurtarsın!
Onun günahına görə məhv olmayın.
Çünki Rəbbin qisas zamanıdır,
Ona öz əvəzini verəcək.

---

[*]**51:1** *Lev-Qamay* – ibrani dilində *düşmənlərimin ürəyi* mənasında olub Xaldey ölkəsinin rəmzi adıdır.
[†]**51:2** *Taxılsovuranlar* – yaxud *yadellilər*.

[c]**50:39** Yeş. 13:20; Vəhy 18:2 [d]**50:40** Yar. 19:24-25 [e]**51:6** Vəhy 18:4

7 [f]Babil Rəbbin əlində bir qızıl kasa
idi,
Bütün dünyanı sərxoş edirdi.
Millətlər onun şərabını içdi,
Ona görə də çılğınlaşdı.
8 [g]Babil qəflətən düşüb parça-parça
olacaq,
Onun üçün yas tutun!
Yarasına məlhəm sürtün,
Bəlkə şəfa tapar.
9 [h]Babilə şəfa vermək istədik,
Amma sağalmadı.
Onu tərk edək,
Hər birimiz öz ölkəmizə qayıdaq.
Çünki Babilin hökmü göylərə çatır,
Buludlara qədər yüksəlir.
10 Rəbb bizə bəraət verdi.
Gəlin Allahımız Rəbbin nələr etdiyini
Sionda elan edək!
11 Oxları itiləyin,
Kaman qablarını doldurun!
Rəbb Midiya padşahlarını hərəkətə
gətirdi.
Məqsədi Babili yox etməkdir,
Rəbb Öz qisasını, məbədinin qisasını
alacaq.
12 Babil divarlarına qarşı
Bayraq yüksəldin!
Keşikçiləri çoxaldın,
Növbətçiləri öz yerinə qoyun,
Pusquda durun.
Çünki Rəbb Babildə yaşayanlara qarşı
Həm niyyət qurdu,
Həm də söylədiyini yerinə yetirdi.
13 [i]Ey axar suların sahilində
yaşayanlar,
Çoxlu xəzinələri olanlar,
Axırınız gəldi,
Vaxtınız yetişdi».
14 Ordular Rəbbi Öz varlığına and
içdi:
«Səni çəyirtkə sürüsü ilə dolduran
kimi
Mütləq əsgərlərlə dolduracağam,
Sənə qarşı zəfər nərəsi çəkəcəklər».

Rəbbin mədhi

15 Rəbb qüdrəti ilə yer üzünü yaratdı,
Hikməti ilə dünyanı qurdu,
Dərrakəsi ilə göyləri yaydı.
16 [j]O gurlayanda göydəki sular
çağlayır,
Yerin ucqarlarından buludları
yüksəldir,
Yağış üçün şimşək çaxdırır,
Anbarlarından külək çıxarır.
17 Hər kəs ağılsız oldu,
Bilikləri qalmadı.
Hər zərgər düzəltdiyi bütdən
utanacaq,
Çünki onun tökdüyü büt puçdur,
Onda nəfəs yoxdur.
18 Onlar boş şey, masqaraçıların işidir,
Cəza vaxtı məhv olacaqlar.
19 Yaquba Nəsib Olan isə onlara
bənzəməz,
Çünki irs qəbiləsi ilə birgə
Hər şeyi yaradan Odur.
Onun adı Ordular Rəbbidir.

Babilin cəzalanması

20 «Sən mənim toppuzum, döyüş
silahımsan,
Sənlə millətləri qırıram,
Sənlə padşahlıqları məhv edirəm.
21 Sənlə atları və süvariləri qırıram,
Sənlə döyüş arabaları və minicilərini
qırıram,
22 Sənlə kişi və qadınları qırıram,
Sənlə qoca və cavanları qırıram,
Sənlə gənc oğlan və qızları qırıram.
23 Sənlə çoban və sürüsünü qırıram,
Sənlə əkinçi və öküzlərini qırıram,
Sənlə valilərlə vəkilləri qırıram.
24 Amma Babildə və Xaldey ölkəsində
yaşayanlara

---

[f]**51:7** Vəhy 17:2-4; 18:3 [g]**51:8** Yeş. 21:9; Vəhy 14:8; 18:2
[h]**51:9** Vəhy 18:5 [i]**51:13** Vəhy 17:1 [j]**51:16** Zəb. 135:7; Yer. 10:13

Sionda etdikləri bütün pis əməllərinin
əvəzini
Gözlərinizin önündə verəcəyəm»
Rəbb belə bəyan edir.
25 «Budur, sənə qarşıyam,
Ey həlak edən dağ»
Rəbb belə bəyan edir.
«Ey bütün dünyanı həlak edən!
Sənə əlimi qaldırıb
Qayanın başından yuvarlayacağam,
Səni yanmış bir dağa çevirəcəyəm.
26 Səndən künc və təməl daşı
götürməyəcəklər,
Sən əbədi bir viranə olacaqsan»
Rəbb belə bəyan edir.
27 «Yer üzündə bayraq qaldırın!
Millətlər arasında şeypur çalın!
Millətləri Babilə qarşı döyüşə
hazırlayın!
Urartu, Minni və Aşkenaz
padşahlıqlarını
Ona qarşı toplayın.
Ona qarşı bir sərkərdə təyin edin,
Üstünə çəyirtkə sürüsü qədər atlar
göndərin.
28 Millətləri – Midiya padşahlarını,
Valilərini və bütün vəkillərini,
Başçılıqları altındakı bütün ölkələri
Babilə qarşı döyüşə hazırlayın!
29 Ölkə titrəyib lərzəyə gəlir!
Çünki Rəbbin Babilə qarşı niyyəti –
Oranı sakinsiz bir viranəyə çevirmə
niyyəti
Yerinə yetməlidir.
30 Babil döyüşçüləri vuruşmaqdan əl
çəkdi,
Öz qalalarında oturdu.
Gücləri tükəndi,
Ürkək qadınlara döndülər.
Yaşadıqları yerlər oda verildi,
Darvaza sürgüləri qırıldı.
31 Qasid qasid dalınca,
Xəbərçi xəbərçi dalınca qaçıb
Bu xəbəri Babil padşahına çatdırır:
“Şəhər hər tərəfdən alındı,
32 Çay keçidləri tutuldu,
Qamışlıqlar yandırıldı,
Döyüşçülər çaşqınlığa düşdü”».
33 İsrailin Allahı olan Ordular Rəbbi
belə deyir:
«Vaxtı gələndə xırman yeri necə
tapdalanırsa,
Babil xalqı da elə olacaq.
Qısa müddətdən sonra
Onun da biçin zamanı gələcək».
34 «Babil padşahı Navuxodonosor
Bizi əzib yedi,
Boş bir qaba çevirdi.
Canavar kimi uddu,
Gözəl yeməklərimizlə qarnını
doydurdu.
Sonra bizi qusdu.
35 Bizə və əhalimizə qarşı edilən
zorakılıq
Babilin başına gəlsin»
Deyir Sion sakini.
«Tökülən qanımızın haqq-hesabı
Qoy Xaldeylilərdən soruşulsun»
Deyir Yerusəlim.

Rəbbin İsrailə köməyi

36 Buna görə Rəbb belə deyir:
«Məhkəmədə işinizə Mən baxacağam,
Qisasınızı Mən alacağam.
Onun çayını qurudacaq,
Bulağının suyunu kəsəcəyəm.
37 Babil daş qalaqlarına,
Çaqqal yuvasına dönəcək.
Dəhşət hədəfi olacaq,
İstehza ilə ona fit çalacaqlar.
Orada heç kəs yaşamayacaq.
38 Xalqı cavan aslanlar kimi
kükrəyəcək,
Şir balaları kimi nərildəyəcək.
39 Ancaq qızışdıqları vaxt
Ziyafət düzəldib onları sərxoş
edəcəyəm.
Qoy keflənsinlər,
Əbədi yuxuya dalsınlar,
Heç vaxt oyanmasınlar»
Rəbb belə bəyan edir.
40 «Onları quzu, qoç və təkə kimi

Kəsməyə aparacağam.

Babilin sonu

41 Şeşak *necə alındı!
Bütün dünyanın qürurlandığı yer
Necə dəhşətli hala düşdü.
Babil millətlər arasında
Necə dəhşətli hala düşdü!
42 Babili çay basacaq,
Onu gurlayan dalğalar örtəcək.
43 Qəsəbələri viran olacaq,
Torpaqları heç kəsin yaşamadığı,
Bəşər oğlunun keçmədiyi
Quraq bir çölə dönəcək.
44 Babildə Bel bütünü
cəzalandıracağam,
Udduğunu ona qusduracağam.
Artıq millətlər oraya axın-axın
gəlməyəcək,
Babil divarı da yıxılacaq.
45 [k]Oradan çıx, ey xalqım!
Hamınız canınızı qurtarın!
Rəbbin qızğın qəzəbindən qaçın!
46 Ölkədə eşitdiyiniz şayiələrə görə
Cəsarətinizi itirib qorxmayın.
Bir il bir şayiə gəlir,
O biri il başqası.
Ölkədə zorakılıq,
Başçının başçıya qarşı çıxması barədə
Şayiələr yayılır.
47 Buna görə də yəqin ki
Babilin bütlərini cəzalandıracağım
günlər gəlir.
Bütün ölkə utandırılacaq,
Öldürülənləri onun ortasında yerə
səriləcək.
48 [l]O zaman yer, göy və onlardakı hər
şey
Babilin başına gələnlərə sevinəcək.
Çünki şimaldan gələn məhv edənlər
Ona hücum edəcək»
Rəbb belə bəyan edir.
49 [m]«İsrailin öldürülənlərinə görə
Babil də məhv olmalıdır,
Necə ki yer üzündə öldürülən hər kəs
Babilə görə məhv oldu.
50 Ey qılıncdan qurtulanlar,
Qaçın, ləngiməyin!
Rəbbi uzaqdan yada salın,
Yerusəlim barədə düşünün!»
51 Biz utandıq,
Çünki təhqir eşitdik,
Üzümüzü rüsvayçılıq örtdü.
Çünki yadellilər Rəbbin məbədinin
Müqəddəs yerlərinə girdi.
52 «Buna görə də bütlərini
Cəzalandıracağım günlər gəlir,
Bütün ölkədə yaralılar inildəyəcək»
Rəbb belə bəyan edir.
53 «Babil göylərə çıxsa da,
Ucalardakı qalasını möhkəmləndirsə
də,
Məhv edənləri üstünə göndərəcəyəm»
Rəbb belə bəyan edir.
54 «Babildən fəryad,
Xaldey ölkəsindən böyük qırğın səsi
eşidilir.
55 Çünki Rəbb Babili məhv edir,
Onun hay-küyünü susdurur.
Düşmən dalğaları axar sular kimi
kükrəyir,
Səslərinin gurultusu ucalır.
56 Çünki Babilə qarşı bir məhv edən
çıxacaq,
Döyüşçüləri əsir tutulacaq,
Kamanları qırılacaq.
Çünki Rəbb əvəz verən bir Allahdır,
Mütləq cəzalandıracaq.
57 Babil başçılarını, müdriklərini,
Valilərini, vəkillərini, döyüşçülərini
Elə sərxoş edəcəyəm ki,
Əbədi yuxuya dalacaq,
Heç vaxt oyanmayacaqlar»
Adı Ordular Rəbbi olan Padşah belə
bəyan edir.
58 Ordular Rəbbi deyir:

---

*51:41 *Şeşak* – bax: 25:26.

[k]51:45 Vəhy 18:4 [l]51:48 Vəhy 18:20 [m]51:49 Vəhy 18:24

«Babilin qalın divarları yerlə yeksan
ediləcək,
Uca darvazaları oda veriləcək.
Xalqlar boş-boşuna zəhmət çəkir,
Ümmətlərin çəkdiyi əziyyət
Oda təslim ediləcək».

Yeremyanın sözünün Babilə çatması

59 Yəhuda padşahı Sidqiyanın
padşahlığının dördüncü ilində ordu
təsərrüfatçısı Maxseya oğlu Neriya
oğlu Seraya, Sidqiya ilə birgə Babilə
gedərkən Yeremya peyğəmbər ona
bu əmri tapşırdı. 60 Yeremya Babilin
başına gələcək bütün fəlakətləri, Babil
barədə yazılmış bütün bu sözləri bir
tumara yazdı. 61 Yeremya Serayaya
dedi: «Babilə çatanda bütün bu sözləri
oxumağı unutma. 62 De ki: "Ya Rəbb,
buranı dağıdacağını, içində insanın da,
heyvanın da yaşamayacağını, ölkənin
əbədi viran qalacağını söylədin". 63 [n]Bu
tumarı oxuyub qurtaranda sən ona bir
daş bağlayıb Fərat çayının ortasına at
və 64 söylə: "Qoy Babil də belə batsın
və Mənim onun başına gətirəcəyim
fəlakətdən bir daha çıxa bilməsin, qoy
onlar taqətdən düşsün"».

Yeremyanın sözləri buraya qədərdir.

Yerusəlimin süqutu

(2Pad. 24:18–25:21)

52 Sidqiya padşah olduğu vaxt
iyirmi bir yaşında idi və
Yerusəlimdə on bir il padşahlıq etdi.
Anası Livnalı Yeremyanın qızı olub adı
Xamutal idi. 2 O, Yehoyaqimin etdiyi
kimi Rəbbin gözündə pis olan işlər
gördü. 3 Həqiqətən, Rəbbin qəzəbinə
görə Yerusəlimin və Yəhudanın
başına bu iş gəldi. Axırda Rəbb onları
hüzurundan kənar etdi. Sidqiya Babil
padşahına qarşı üsyan etdi.

4 [o]Sidqiyanın padşahlığının
doqquzuncu ilində, onuncu ayın onuncu
günü Babil padşahı Navuxodonosor
bütün ordusu ilə Yerusəlimin üzərinə
hücum etdi, oraya qarşı ordugah qurdu
və ətrafında mühasirə divarları düzəltdi.
5 Padşah Sidqiyanın hakimiyyətinin on
birinci ilinə qədər şəhər mühasirədə
qaldı. 6 Dördüncü ayın doqquzuncu
günü şəhərdə aclıq elə gücləndi ki,
ölkə xalqının yeməyə çörəyi qalmadı.
7 [p]Həmin vaxt şəhərin divarlarında
dəlik açıldı. Gecə ikən Xaldeylilər
şəhərin ətrafında olanda bütün
döyüşçülər padşah bağçasının yanında
olan iki divar arasındakı darvazadan
qaçıb Arava yoluna çıxdı. 8 Ancaq
Xaldeylilərin qoşunu padşahı təqib
etdi və Yerixo düzənliyində Sidqiyaya
çatdı. Sidqiyanın bütün ordusu onu tərk
edib dağıldı. 9 Padşahı tutub Xamat
torpağındakı Rivlaya, Babil padşahının
yanına apardılar. Babil padşahı onun
haqqında hökm verdi. 10 O, Sidqiyanın
gözü önündə oğullarını öldürtdü, sonra
bütün Yəhuda başçılarını da Rivlada
öldürtdü. 11 [q]Həmçinin Sidqiyanın
gözlərini çıxartdı, onu qandallayıb
Babilə apardı. Babil padşahı onu ölənə
qədər zindanda saxladı.

12 Babil padşahı Navuxodonosorun
padşahlığının on doqquzuncu ilində,
beşinci ayın onuncu günü Babil
padşahına xidmət edən keşikçilər
rəisi Nevuzaradan Yerusəlimə gəldi.
13 O, Rəbbin məbədinə, padşah
sarayına, Yerusəlimdəki bütün evlərə
od vurub bütün əsas binaları yandırdı.
14 Keşikçilər rəisinə tabe olan bütün
Xaldey ordusu hər tərəfdən Yerusəlim
divarlarını uçurtdu. 15 Keşikçilər rəisi
Nevuzaradan yoxsul adamların bir
hissəsini, şəhərdə qalan xalqı, Babil
padşahının tərəfinə keçən fərariləri

[n] **51:63** Vəhy 18:21 [o] **52:4** Yez. 24:2 [p] **52:7** Yez. 33:21 [q] **52:11** Yez. 12:13

və sağ qalan sənətkarları sürgün etdi.
16 Ancaq o, bağçılıq, əkinçilik etmək
üçün ölkədəki yoxsulların bir hissəsini
orada saxladı.
17 [r]Xaldeylilər Rəbbin məbədində olan
tunc sütunları, dayaqları və tunc hovuzu
parçalayıb tunclarını Babilə apardı.
18 İbadət zamanı işlədilən qazanları,
kürəkləri, maqqaşları, piyalələri,
nimçələri və bütün tunc qabları götürüb
apardılar. 19 Keşikçilər rəisi xalis
qızıldan və gümüşdən olan tasları,
buxurdanları, piyalələri, qazanları,
çıraqdanları, nimçələri, kasaları
götürüb apardı. 20 Rəbbin məbədi
üçün padşah Süleymanın düzəltdiyi iki
sütun, hovuz və altındakı on iki tunc
buğa heykəli və dayaqlardan alınan
tuncun ağırlığı hesaba gəlməzdi. 21 Bir
sütunun hündürlüyü on səkkiz qulac
idi, dairəsi on iki qulac idi. Hər biri
dörd barmaq qalınlığında idi, içləri boş
idi. 22 Üzərində tunc bir başlıq var idi.
Başlığın hündürlüyü beş qulac idi. Bu
başlığın ətrafında hörmə tor və narlar
var idi, hamısı tuncdan düzəldilmişdi.
O biri sütun da narlarla bəzənmişdi
və əvvəlkinə bənzəyirdi. 23 Yanlarda
doxsan altı nar var idi. Başlığı əhatəyə
alan hörmə torların üzərində cəmi yüz
nar var idi.
24 Keşikçilər rəisi Nevuzaradan başçı
kahin Serayanı, başçı kahinin müavini
Sefanyanı və astana keşikçisi olan
üç nəfəri əsir aldı. 25 Şəhərdə qalan
döyüşçülərin sərkərdəsini, padşahın
məsləhətçilərindən şəhərdə olan yeddi
nəfəri, ölkə xalqını orduya yazan
sərkərdənin mirzəsini və ölkə xalqından
şəhərdə qalan altmış nəfəri əsir tutdu.
26 Keşikçilər rəisi Nevuzaradan onları
götürüb Rivlaya, Babil padşahının
yanına apardı. 27 Babil padşahı Xamat
torpağında olan Rivlada onları öldürdü.
Beləcə Yəhuda xalqı öz ölkəsindən
sürgün olundu.
28 Navuxodonosorun sürgünə apardığı
xalqın sayı belədir: yeddinci ildə
üç min iyirmi üç nəfər Yəhudi;
29 Navuxodonosorun padşahlığının on
səkkizinci ilində Yerusəlimdən səkkiz
yüz otuz iki nəfər; 30 iyirmi üçüncü
ilində keşikçilər rəisi Nevuzaradanın
sürgün etdiyi yeddi yüz qırx beş nəfər
Yəhudi. Ümumilikdə dörd min altı yüz
nəfər idi.

Padşah Yehoyakinin azad edilməsi

(2Pad. 25:27-30)

31 Yəhuda padşahı Yehoyakinin
sürgündə olmasının otuz yeddinci
ilində Evil-Merodak Babil padşahı
oldu. Həmin ilin on ikinci ayının
iyirmi beşinci günü Evil-Merodak
Yəhuda padşahı Yehoyakinə mərhəmət
göstərərək onu zindandan azad etdi.
32 Onunla mehribanlıqla söhbət etdi
və onun üçün özü ilə birgə Babildə
olan padşahların taxtından yuxarı
bir taxt qoydurdu. 33 Yehoyakin
həbsxana paltarlarını əynindən çıxartdı.
O yaşadığı müddətdə həmişə Babil
padşahının süfrəsində yemək yeyərdi.
34 Bütün ömrü boyu ona Babil padşahı
tərəfindən öləcəyi günə qədər gündəlik
azuqə verilirdi.

---

[r]**52:17** 1Pad. 7:15-47

MƏRSİYƏLƏR

KİTABI

GİRİŞ

«Mərsiyələr» Kitabı beş mərsiyədən ibarətdir. Miladdan əvvəl 586-cı ildə Yerusəlimin dağıdılıb əhalinin əsir aparılmasından sonra bu mərsiyələrin Yeremya peyğəmbər tərəfindən yazıldığı ehtimal olunur. Bu kitabın 1-4-cü fəslə qədər olan hissəsi akrostix şəklində yazılmışdır, yəni ayələrin sırası ibrani əlifbasının hərfləri ilə başlayır. Yalnız üçüncü fəsildə üç ayə eyni hərflə başlayır.

Bu kitab mərsiyə ruhunda yazılsa da, burada Allaha inam və gələcəyə ümid əhval-ruhiyyəsi də özünü göstərir. Bütün bu dəhşətli hadisələrə baxmayaraq, Yeremya peyğəmbər Allaha sonsuz dərəcədə etibar edib belə deyir:

«Amma bunları yada salarkən
Məndə ümid yaranır.
Rəbbin məhəbbətinə görə məhv olmadıq,
Çünki mərhəməti tükənməzdir.
Hər səhər bunlar təzələnir,
Sənin sədaqətin böyükdür.
Öz-özümə deyirəm: "Rəbb mənim nəsibimdir",
Ona görə Rəbbə ümid bəsləyirəm» (3:21-24).

Miladdan əvvəl 586-cı ildə İsraillilərin başına gələn milli fəlakətin xatirinə yəhudilər hər il tutduqları oruc günlərində ibadət zamanı *«Mərsiyələr»* Kitabından istifadə edirlər.

Kitabın məzmunu:

1:1-22 Yerusəlim dərdi
2:1-22 Yerusəlimin cəzası
3:1-66 Cəza və ümid
4:1-22 Dağılmış Yerusəlim
5:1-22 Mərhəmət duası

Yerusəlim dərdi

1 Yerusəlim şəhəri necə də boş qalıb,
Bir zaman insanlarla dolu idi,
İndi dul qadına bənzəyir –
Millətlər arasında ulu sayılan,
Ellər arasında mələkə olan,
Bu şəhər nökərçilik edir.
2 Gecələr acı-acı ağlar,
Göz yaşları ilə yanağı islanar,
Məşuqlarının arasından
Ona təsəlli verən yoxdur.
Bütün dostları ona xəyanət etdi, düşmən oldu.
3 Yəhuda dərdə, ağır zillətə düşüb,
İndi sürgünə gedir.
O, millətlər arasında yaşayır,
O torpaqlarda rahatlıq tapmır,
Yəhuda bu iztiraba düşəndə,
Təqibçilər ona çatdılar.
4 Siona gedən yollar yas tutur,
Çünki bayramlarına gələn yoxdur,
Buranın bütün darvazaları kimsəsiz qalıb,
Kahinləri ah-zar edir.
Bu şəhərin qızları əzab-əziyyət çəkir,
Buranın aqibəti acıdır,
5 İndi düşmənlər bu şəhərin üstündə hökmrandır,
Bu yağılar gör necə firavan yaşayır.
Çox üsyankar olduqlarına görə
Rəbb onları bu zülmə saldı,
Övladları düşmən önündə əsir aparıldı.
6 Sion qızının cah-calalı yox oldu,
Onların başçıları otlaqsız maral kimi oldu,
Onlar təqib edənlərin qarşısından
Taqətsiz qaçırlar.
7 Yerusəlim sıxıntı içində avara gəzərkən
Ötən günlərdə olan bütün sərvətini xatırlayır,
Xalqı düşmənlərinə təslim olanda köməyinə çatan yoxdur.
Düşmənləri ona baxır,

Yıxılmağına gülür.
8 Yerusəlim böyük günah işlətdi,
Ona görə özünü murdar etdi.
Yerusəlimə hörmət edənlərin hər biri
İndi ona xor baxır,
Çünki onu çılpaq görürlər,
O da üzünü yana çevirib inləyir.
9 Ətəyində ləkələr qaldı,
Sonunu düşünməz oldu,
Ona görə qorxunc surətdə yıxıldı,
Ona təsəlli verən yoxdur,
Ya Rəbb, gör bu əzabımı,
Çünki düşmən zəfər çaldı.
10 Onun bütün sərvətini talamaq üçün
Düşmən əlini uzatdı.
Göz önündəcə millətlər,
Camaatın arasına girməsini qadağan etdiyin
Müqəddəs məkanına soxuldu.
11 Oranın bütün xalqı zarıyır, çörək axtarır,
Canlarını taqətə gətirmək üçün
Sərvətlərinin əvəzinə azuqə alır.
«Ya Rəbb, indi bax, halımı gör,
Bir səfilə dönmüşəm».
12 Ey yoldan keçənlərin hamısı,
Bu iş sizin üçün boşdurmu?
Baxın dərdimə, bunun kimisi varmı,
Mənim başıma gətirilən dərd başqasında olarmı?
Rəbb qəzəbdən alovlananda
Bu dərdi başıma tökdü.
13 Yuxarıdan od göndərdi,
Sümüklərimədək bu odu yeritdi.
Ayaqlarım üçün tor qurdu,
Məni geri qaytardı.
Gün boyu məni yalqız qoydu, taqətdən saldı.
14 Xudavənd günahlarımı mənə boyunduruq etdi,
Əli ilə bir-birinə hördü,
Onları boynuma keçirtdi,
Taqətimi tükəndirdi.
Məni qarşısında dura bilmədiyim
İnsanlara təslim etdi.
15 Məni müdafiə edən cəngavərlər vardı,
Hamısı Xudavənd tərəfindən atıldı.
Mənə qarşı bir ordu göndərdi,
Seçmə igidlərimi qırıb tapdalatdı.
Bakirə Yəhuda qızını üzümsıxanda əzdi.
16 Bunlar üçün ağlayıram,
Gözlərimdən yaş axır.
Təsəlli verən məndən uzaqdır,
Məni dirçəldən uzaqdır.
Övladlarım yalqız qalıb,
Çünki düşmən zəfər çalıb.
17 Sion əl açıb,
Amma ona təsəlli verən yoxdur.
Rəbb Yaqub nəslinə qarşı bu əmrini verib:
«Qoy qonşuları onun düşməni olsun,
Çünki Yerusəlim onlar üçün murdar əskiyə çevrilib».
18 Rəbb adildir, mən isə əmrinə qarşı çıxdım,
Ey bütün xalqlar, siz mənə qulaq asın!
Mənim çəkdiyim bu dərdə baxın,
Bakirə qızlarım, igidlərim sürgünə gedib.
19 Müttəfiqlərimi çağırdım,
Lakin məni aldatdılar,
Kahinlərim, ağsaqqallarım cana gəlmək üçün
Yemək axtardılar,
Amma şəhərin içindəcə canlarını tapşırdılar.
20 Ya Rəbb, bax dara düşmüşəm,
Canım əzabdan yanır.
Çox üsyankarlıq etmişəm,
Buna görə ürəyim üzülür.
Bayırdakı qılınc məni övladsız qoyur,
Ölüm evimi içəridən bəzəyir.
21 Necə ah-zar çəkdiyimi eşidiblər,
Amma mənə təsəlli verən yoxdur,
Düşmənlərim bu əziyyətimdən xəbər tutdu,
Onlar başıma gələnlərə sevinir,
Elan etdiyin günü yetir!
Qoy onlar mənim vəziyyətimə düşsün.

22 Etdikləri pislikləri yada sal,
Üsyankarlığıma görə mənə etdiyini onlara da et,
Çox ah-nalə çəkirəm,
Ürəyim taqətdən düşüb.

Yerusəlimin cəzası

2 Xudavənd Sion qızına qəzəblənərkən
Onu hər tərəfdən qara bulud aldı.
İsrailin əzəmətini göydən yerə tulladı,
Qəzəbləndiyi gün kətilini *xatirindən çıxardı.
2 Xudavənd aman vermədən
Yaqub nəslinin bütün məskənlərini dağıtdı,
Qəzəbi ilə Yəhuda qızının qalalarını yıxdı,
Padşahlığı, başçıları yerlə yeksan etdi.
3 Qızğın qəzəbi ilə İsrailin qüvvəsini kökündən kəsdi,
Düşmən önündə onun üstündən sağ əlini götürdü.
Sanki Yaqub nəslini hər tərəfdən oda saldı
Göndərdiyi atəşlə yandırıb-yaxdı.
4 Düşmən kimi kamanının yayını dartdı,
Yağı kimi sağ əlini qaldırdı,
Gözə xoş görünənləri tamamilə öldürdü.
Qəzəbini Sion qızının çadırına alov kimi tökdü.
5 Xudavənd İsraili uddu,
Onunla düşmən kimi rəftar etdi.
Bütün saraylarını yerlə yeksan etdi,
Qalalarını viran qoydu,
Yəhudanın fəryadını, fəğanını daha da artırdı.
6 Çardağını viranə bağlar tək qırıb tökdü,
Görüş yerlərini xarabalığa çevirdi,
Rəbb Siona bayram və Şənbə günlərini unutdurdu,
Qəzəbi ilə padşahını, kahinini atdı.
7 Xudavənd qurbangahını rədd etdi,
Müqəddəs məkanını tərk etdi.
Saraylarının sədlərini düşmən əlinə keçirtdi,
Onlar bayram günlərində olduğu kimi
Rəbbin məbədində haray qopardı.
8 Rəbb niyyət etdi ki,
Sion qızının divarlarını dağıtsın.
Ölçü ipini dartıb, dağıtmaq üçün ondan əl çəkməyəcək.
Qala divarını, səddini, matəmə bürüyüb,
Hamısı qüvvələrini itirib.
9 Onun darvazalarını yerə batırdı,
Cəftələrini qırıb atdı,
Padşahlarını, başçılarını
Yad millətlərin arasına saldı,
Qanuna əməl edilmir,
Artıq peyğəmbərlərinə Rəbdən görüntü gəlmir.
10 Sion qızının ağsaqqalları susub-dinmir,
Onlar toz-torpaq içində əyləşib,
Başlarına toz töküb, çul geyib,
Yerusəlimin bakirə qızları başlarını yerə dikib.
11 Ağlamaqdan gözlərimin nuru gedir,
Canım əzabdan yanır.
Əziz xalqım qırıldığına görə ürəyimdən qan axır.
Çünki şəhər meydanlarındakı
Körpələrin, uşaqların huşu başından çıxır.
12 Şəhər meydanlarında yaralılar kimi huşunu itirirlər,
Ana qucağında can verirlər.
Analarından soruşurlar:
«Hanı çörək, hanı şərab?»
13 Ey Yerusəlim qızı, sənə nə deyim?
Səni kimlə müqayisə edim?
Ey bakirə Sion qızı, səni kimə bənzədim?
Bununla mən sənə təsəlli verə bilim?
Çünki yaran dəniz qədər dərindir,

---

*2:1 *Kətil* – burada *Əhd sandığı* ya da *Sion dağı* mənasında işlənir.

Sənə kim şəfa verə bilər?
14 Sənin üçün görülən görüntülər
yalan oldu,
Peyğəmbərlərin səni aldatdı.
Firavanlığını sənə qaytarmaq üçün
Təqsirlərini üzə çıxartmadılar,
Amma bu peyğəmbərlər səni azdırdı,
Sənin üçün yalandan görüntülər
gördü.
15 Yoldan keçən bütün insanlar
Qarşında əl çalırlar,
Başlarını yelləyib səni fitə basırlar.
Yerusəlim qızına belə deyirlər:
«Bütün dünyanın gözəllik və sevinc
rəmzi olan şəhər budurmu?»
16 Bütün düşmənlərin səni ələ salır,
Fitə basır, diş qıcıdır,
«Onu udduq,
Bu günün həsrətini çəkdik, axır ki
bunu gördük» deyirlər.
17 Rəbb Öz iradəsini yerinə yetirdi,
Qədim zamanlarda əmr etdiyi sözü
həyata keçirtdi.
Səni viran qoydu, aman vermədi,
Düşmənlərini sənin halına sevindirdi,
Yağılarını gücləndirdi.
18 Xalq Xudavəndə ürəkdən fəryad
etdi,
Ey Sion qızının divarı!
Qoy gecə-gündüz sənin gözlərindən
sel kimi yaş axsın,
Dincəlmə, aç gözlərini, yumulmasın.
19 Qalx, gecə fəryad etməyə,
Gecə növbələri başlayarkən
Xudavəndin hüzurunda qəlbini sular
kimi açıb tök.
Əllərini Ona aç, övladlarının sağ
qalmasını dilə,
Onlar hər tin başında acından huşunu
itirir.
20 Ya Rəbb, indi bax, xalqının halını
gör!
Kiminlə belə rəftar etmisən?
Analar uşaqlarını, əziz balalarınımı
yesin?
Kahinlər, peyğəmbərlər Xudavəndin
Müqəddəs məkanındamı qətlə
yetirilsin?
21 Gənclər, qocalar toz-torpaqda,
küçələrdə yatır.
Bakirə qızlarım, igidlərim qılıncdan
keçirilir.
Qəzəbləndiyin gün onları qətlə
çatdırmısan,
Aman vermədən qırmısan.
22 Qorxduqlarımı hər yandan
çağırmısan,
Elə bil bayrama dəvət etmisən.
Rəbbin qəzəb günündə qaçıb-qurtulan
olmadı,
Onların arasından sağ qalan olmadı,
Sevə-sevə övlad böyütmüşdüm,
Onları düşmənim həlak etdi.

Cəza və ümid

3 Rəbbin qəzəb dəyənəyindən
Mən əzab çəkirəm,
2 O məni apardı,
İşıqda deyil, qaranlıqda gəzdirdi.
3 Bütün gün – dəfələrlə qaldırdığı əli
Mənə qarşıdır.
4 Ətimi, dərimi çürütdü,
Sümüklərimi sındırdı.
5 Məni əzabla, cəfa ilə sarıdı,
Mühasirəyə saldı.
6 Çoxdan ölüb-gedənlər kimi
Məni zülmətdə yaşatdı.
7 Ətrafımı hər tərəfdən hasara aldı,
Məni zəncirləyib, qaça bilmirəm.
8 Fəryad edib mən imdad istəyərkən
O, duamın qarşısına sədd çəkdi.
9 Yonma daşlarla yollarımı kəsdi,
Onları dolaşdırdı.
10 Mənə ayı kimi pusqu düzəldir,
Gizlənib aslan kimi məni güdür.
11 Yoldan sürükləyib məni parçaladı,
Çarəsiz hala saldı.
12 Kamanının yayını çəkdi,
Məni Özü üçün bir hədəf etdi.
13 Çəkib oxdanından ox atdı,
Böyrəyimə sapladı.

14 Gün boyu xalqımın gülüş hədəfinə döndüm,
Məzhəkəli nəğmə ilə məni ələ salırlar.
15 O, acı otlardan mənə doyunca yedirtdi,
Yovşan suyunu içirtdi.
16 Dişlərimi çınqılla qırdı,
Kül içində məni diz çökdürtdü.
17 Salamatlıqdan canımı uzaq etdi,
Yaxşılığı unutdum.
18 Dedim: «Üzərimdən əzəmətim getdi,
Rəbdən ümidim kəsildi».
19 Əzabımı və sərgərdanlığımı,
Acı yovşanı və zəhəri yada sal.
20 Daim onları xatırlayıram,
Ona görə köksümdən ürəyim üzülür.
21 Amma bunları yada salarkən
Məndə ümid yaranır.
22 Rəbbin məhəbbətinə görə məhv olmadıq,
Çünki mərhəməti tükənməzdir.
23 Hər səhər bunlar təzələnir,
Sənin sədaqətin böyükdür.
24 Öz-özümə deyirəm: «Rəbb mənim nəsibimdir»,
Ona görə Rəbbə ümid bəsləyirəm.
25 Rəbb Ona güvənənlərə,
Onu axtaran könüllərə xeyirxahdır.
26 Rəbbə ümid bəsləmək,
Sakitcə bizə qurtuluş verməsini gözləmək nə yaxşıdır.
27 Yaxşı olar ki, insan
Boyunduruğunu gənc yaşından daşısın.
28 Qoy susub tənha otursun,
Axı Rəbb boynuna boyunduruq salıb.
29 Üzünü yerə sürtsün,
Bəlkə hələ ümid var.
30 İzin versin, qoy sifətinə vursunlar,
Qoy ona doyunca böhtan atsınlar.
31 Çünki Xudavənd əbədilik
Bizi Özündən kənar etməz.
32 Qəm-qüssə versə belə,
Bol məhəbbətinə görə rəhmə gələr.
33 Çünki ürəkdən istəyərək bəşər övladlarına əzab verməz,
Heç kimi kədərləndirməz.
34 Dünyadakı bütün əsirlərin ayaq altında əzilməsini,
35 Haqq-Taalanın hüzurunda insanın
Öz haqlarından məhrum olmasını,
36 İnsanın ədalətdən məhrum olmasını
Xudavənd heç görmürmü?
37 Xudavənd əmr verməsə,
Kimin dediyi həyata keçər?
38 Həm xeyir, həm də şər,
Haqq-Taalanın əmri ilə gələr.
39 Öz günahının cəzasından
Sağ qalan insan niyə şikayətlənir?
40 Qoy yollarımıza diqqətlə baxaq,
Rəbbə yenidən üz tutaq.
41 Göylərdəki Allaha əllərimizi,
Həm də ürəklərimizi açaq.
42 Deyək: «Biz qanunsuzluq və üsyankarlıq etdik,
Bunu bizə bağışlamadın».
43 Qəzəbə bürünmüsən, bizi təqib etmisən,
Aman vermədən öldürmüsən.
44 Özünə buludlardan örtük çəkdin,
Onların arasından dua keçmir.
45 Xalqlar arasında
Bizi zibilə, tullantıya çevirmisən.
46 Bütün düşmənlərimizin bizə qarşı
Ağızları açıldı.
47 Dəhşət və çuxur,
Məhv və qırğın birlikdə başımıza gəldi.
48 Qırılan əziz xalqıma görə
Gözlərimdən sel kimi yaş axdı.
49 Dinmədən, dayanmadan
Gözlərimdən yaş axacaq,
50 Rəbb göylərdən aşağıya baxana qədər,
Olanları görənə qədər.
51 Şəhərimdəki hər qızın taleyini görərkən
Ürəyimi kədər bürüyür.
52 Nahaq yerə mənə düşmən olanlar
Məni quş tək ovladılar.

53 Quyuya salıb məni öldürmək
istədilər,
Daşqalaq etdilər.
54 Sular başımdan aşdı,
Dedim: «Ömrüm sona çatdı».
55 Ya Rəbb, ismini
O quyunun dibindən səslədim.
56 «Qulağını tıxama, fəryadımı dinlə»
deyərkən
Səsimi eşitdin.
57 Səni çağıranda yanıma gəldin,
Mənə «qorxma» söylədin.
58 Ey Xudavənd, mənim əməlimə
baxdın,
Həyatımı satın aldın.
59 Ya Rəbb, başıma gətirdikləri şəri
gördün,
Bu iş barədə hökmünü ver.
60 Mənə bəslədikləri kini,
Mənə qarşı qurulan fəndləri gördün.
61 Ya Rəbb, mənə etdikləri həqarəti
eşitdin,
Əleyhimə fənd qururlar.
62 Əleyhdarlarımın pıçıltısını,
Gün boyu mənə qarşı mırıltısını
eşitdin.
63 Onların oturuşuna-duruşuna bax,
Onlara məzhəkə nəğməsi olmuşam.
64 Ya Rəbb, onların əllərinin
əməllərinə görə
Əvəzini verəcəksən.
65 Onların qəlbini inadkar et,
Qoy lənətin onların üstünə gəlsin.
66 Ya Rəbb, qəzəbinlə onları qov,
Səma altından məhv edib at!

Dağılmış Yerusəlim

4 Qızıl necə də tutqunlaşdı,
Saf qızıl parıltıdan düşdü.
Müqəddəs daşlar
Hər küçə başına dağılmışlar.
2 Sion övladları tərəziyə qoyulanda
Saf qızıldan da qiymətli idi.
İndi isə onlar saxsı qablara,
Dulusçunun əl işinə bərabər olublar.
3 Çaqqallar belə, balalarına əmcək
verir,
Onları əmizdirir.
Əziz xalqım isə insafı atır,
Səhra dəvəquşularına oxşayır.
4 Südəmər körpənin dili
Susuzluqdan damağına yapışır.
Uşaqlar yemək istəyir, verən yoxdur.
5 Ən ləziz yemək̇ləri yeyənlər
İndi küçələrdə taqətdən düşüblər.
Al rəngli paltar geyib-böyüyənlər
Zibillikdə yatırlar.
6 [s]Axı əziz xalqımın təqsiri
Sodomun günahını keçdi,
Bu şəhər əl toxunmadan
Bir andaca yerlə yeksan oldu.
7 Yerusəlimin başçıları qardan da
təmiz idi,
Süddən də bəyaz idi,
Vücudları qıpqırmızı yaqut kimi idi,
Zahirən göy yaquta bənzəyirdi.
8 İndisə üzləri kömür kimi qaralıb,
Küçələrdə heç birini tanımaq olmur,
Onlar cılızlaşaraq bir sümük, bir də
dəri qalıb,
Ağac kimi quruyub.
9 Bu aclığın qurbanındansa
Qılınc qurbanı olan bəxtiyardır.
Zəminin məhsulundan məhrum
olmuşdular,
Əriyən canlarında can qalmayıb.
10 [t]Hətta ən qəlbiyumşaq qadınlar
Öz əlləri ilə balalarını bişirirdi.
Əziz xalqım qırılarkən
Balalarının ətini yeyirdi.
11 Rəbb hiddətini boşaltdı,
Qızğın qəzəbini yağdırdı,
Sionda alovunu alışdırdı,
Onu təməlinədək yandırıb-yaxdı.
12 Dünyada heç bir padşah inanmazdı
ki,
Yerusəlimin darvazalarından keçib
Yağılar və düşmənlər

---

[s] **4:6** Yar. 19:24 [t] **4:10** Qanun. 28:57; Yez. 5:10

Bu şəhəri zəbt edər.
13 Bu iş şəhərdə salehlərin qanının tökülməsi
Peyğəmbərlərin günahları, kahinlərin təqsirləri üzündən oldu,
14 Kor kimi küçələrdə dolanırdılar,
Qanla murdar oldular,
Onların libaslarına belə,
Kimsə toxuna bilməz.
15 İnsanlar onlara qışqırır: «Ey murdarlar, rədd olun!
İtilin buradan, bizə dəyməyin, rədd olun!»
Onlar qaçqın, sərgərdan dolanarkən
Başqa millətlər deyir: «Bunlar burada qalmasın!»
16 Rəbb Özü onları pərən-pərən saldı,
Onlara yenidən baxmaz,
O daha kahinlərə hörmət etmir,
Ağsaqqallara xeyirxahlıq göstərmir.
17 Hər an boş yerə yardım gözləməkdən
Gözlərimiz taqətdən düşdü,
Bizi qurtara bilməyən milləti
Hey gözlədik, gəlmədi.
18 Ardımızca düşmən düşüb,
Küçələrdə gəzə bilmirik.
Sonumuz çatdı, günlərimiz bitdi,
Aqibətimiz sona yetdi.
19 Bizi təqib edənlər
Göylərdəki qartallardan sürətlidirlər,
Dağlarda ardımızca düşdülər,
Pusqu qurub səhrada gözlədilər.
20 Rəbbin məsh etdiyi, həyatımızın nəfəsi
Onların xəndəklərində yaxalandı,
Halbuki deyirdik: «Onun kölgəsində
Millətlərin içində yaşayacağıq».
21 Ey Us ölkəsində yaşayan Edom xalqı,
Sevin, fərəhlən!
Sən də bu kasadan içəcəksən,
Sərxoş olub, çılpaq qalacaqsan.
22 Ey Sion qızı, təqsirinin cəzası sona çatdı,
Rəbb səni bir daha sürgünə göndərməyəcək,
Ey Edom xalqı, təqsirini cəzasına çatdıracaq,
Günahlarını meydana çıxaracaq.

Mərhəmət duası

5 Ya Rəbb, başımıza gələni yada sal
Gör bu xəcalətimizi, buna nəzər sal.
2 İrs torpağımız yadellilərin əlinə keçib,
Evlərimiz əcnəbilərə verilib.
3 Atalarımız öldü, yetim qaldıq,
Analarımız dul qaldı.
4 Suyumuzu pulla alıb içirik,
Pulla odun almağa məcburuq.
5 Bizi qovub başımızdan basırlar,
Yorulmuşuq, bizi rahat qoymurlar.
6 Doyunca çörək yemək üçün
Misirə, Aşşura əl açmışıq.
7 Ata-babalarımız günah işlədərək keçib-getdi,
Təqsirlərinin cəzası üstümüzə yükləndi.
8 Qullar bizə hökmran olub,
Bizi onların əlindən qurtaran yoxdur.
9 Çöldəki qılınca görə,
Canımız bahasına çörək qazanırıq.
10 Aclıq bizi yandırıb-yaxdığına görə
Dərimiz qaralıb, kürəyə bənzəyir.
11 Sionda qadınlar,
Yəhuda şəhərlərindəki bakirə qızlar zorlanır.
12 Başçılar əllərindən asılıb,
Ağsaqqallar hörmətdən düşüb.
13 Məcburiyyət qarşısında cavanlar əl dəyirmanını çəkir,
Oğlanlar odun yükləri altında səndələyir.
14 Şəhər darvazasında ağsaqqallar oturmur,
Gənclər çalğı alətlərində çalmır.
15 Ürəyimizdən şadlıq çəkilib,
Oyunlarımız yasa çevrilib.
16 Başımızın tacı düşüb,
Vay halımıza! Çünki günah işlətmişik.

17 Buna görə ürəklərimiz çəkilib,
Gözlərimiz qaralıb,
18 Çünki Sion dağı viran qalıb,
Üstündə tülkülər gəzib-dolaşır.
19 [u]Sən isə, ya Rəbb, əbədi hökmransan,
Nəsildən-nəslə qədər taxtında oturacaqsan.
20 Uzun zamandan bəri niyə bizi bu qədər tərk etmisən?
Niyə bizi bu qədər uzun müddətə tərk etmisən?
21 Ya Rəbb, bizi Özünə qaytar,
Təzədən əvvəlki günlərimizə qayıdaq!
22 Yoxsa hüzurundan bizi tamamilə atmısan,
Bizə qarşı hədsiz qəzəblənmisən?

---

[u]**5:19** Zəb. 102:12

YEZEKEL

PEYĞƏMBƏRİN KİTABI

GİRİŞ

Yezekel peyğəmbər miladdan əvvəl 593-571-ci illərdə peyğəmbərlik edirdi. O, Babildə sürgündə yaşayırdı. Onun sözləri həm sürgündə yaşayan həmvətənlərinə, həm də Yerusəlim əhalisinə aid idi. *«Yezekel»* Kitabında təsvir olunan vacib hadisələr bunlardır:

Allah Yezekeli peyğəmbər olmağa çağırır. Sonra o, insanların üzərinə gələn Allah cəzası, Yerusəlimin süqutu və dağıdılması barədə xəbərdarlıq edir.

Yezekel Allahın xalqına zülm edən millətlərin Onun tərəfindən mühakimə edilməsi barədə peyğəmbərlik edir. Lakin Allah sədaqətlidir, buna görə də Yerusəlimin süqutu və dağıdılmasından sonra İsrail xalqına təsəlliverici sözlər və gələcəyə parlaq ümid verir.

Kitabın məzmunu bir qədər çətin anlaşılır, çünki onun bir hissəsini görüntülər təşkil edir.

Bu kitabda həm də bərpa olunmuş məbəd və İsrail Yezekelin təsvirində böyük maraq doğurur. Yezekel böyük imana malik idi. O, ürəklərin və ruhani vəziyyətin yeniləşməsinin zəruriliyini, hər insanın öz günahlarına görə məsuliyyət daşımasını vurğulayırdı. Yezekel xalqın həyatının yeniləşməsi barədə car çəkirdi. O, kahin və peyğəmbər kimi məbədin bərpa olunmasına və İsrailin qanuna uyğun pak olmasına ehtiyac duyurdu.

Kitabın məzmunu:

1:1–3:37 Allah Yezekeli peyğəmbər olmağa çağırır

4:1–24:27 Yerusəlimin süqutu və dağıdılması barədə xəbərdarlıq

25:1–32:32 Allahın millətlər üzərində məhkəməsi

33:1–37:28 Allahın Öz xalqına vədləri

38:1–39:29 Qoqa qarşı peyğəmbərlik

40:1–48:35 Gələcək məbəd və ölkə barədə görüntü

Yezekelin ilk görüntüsü

1 [v]Otuzuncu ildə,[*] dördüncü ayın
beşinci günü mən Kevar çayı
sahilində, sürgündə yaşayanlar arasında
olanda göylər açıldı və Allahdan
gələn görüntüləri gördüm. [2] [w]Padşah
Yehoyakinin sürgün olunmasının
beşinci ilində, həmin ayın beşinci günü
[3] Xaldey ölkəsində, Kevar çayı sahilində
Buzinin oğlu kahin Yezekelə Rəbbin
sözü nazil oldu. Orada Rəbbin əli onun
üzərində idi.

[4] Mən gördüm ki, budur, şimaldan
çovğun yeli və dayanmadan şimşək
çaxan böyük bir bulud gəlir. Onun
ətrafında parıltı var idi, ortasında isə
od içində kükrəyən metal kimi bir şey
var idi. [5] [x]Ən ortasında canlı məxluqa
bənzəyən dörd varlıq mövcud idi.
Onların görünüşü insana bənzəyirdi.
[6] Hər birinin dörd üzü və dörd qanadı
var idi. [7] Onların bacaqları düz idi.
Ayaqları dana ayaqlarına oxşayırdı
və cilalanmış tunc kimi parıldayırdı.
[8] Dörd yanlarında, qanadları altında
insan əlləri var idi. Dördü də üzlərə və
qanadlara malik idi. [9] Onların qanadları
bir-birinə toxunurdu. İrəli gedərkən
sağa-sola dönmürdülər, hər biri üz
tutduğu tərəfə irəliləyirdi.

[10] [y]Onların dörd tərəfə yönələn
üzlərinin bənzəyişi belə idi: qabaq
tərəfdə insan üzü, sağ tərəfdə aslan

[*] **1:1** *Otuzuncu ildə* – yaxud *otuz yaşında ikən.*

[v] **1:1** Vəhy 19:11 [w] **1:2** 2Pad. 24:10-16; 2Saln. 36:9-10 [x] **1:5** Vəhy 4:6
[y] **1:10** Yez. 10:14; Vəhy 4:7

üzü, sol tərəfdə öküz üzü, arxada isə
qartal üzü var idi. 11 Onların üzləri və
qanadları yuxarıya doğru açılmışdı.
Hər canlının iki qanadı yanda o biri
canlının qanadına toxunur, iki qanadı
da bədənlərini örtürdü. 12 Hər biri üz
tutduğu tərəfə irəliləyirdi. Ruh hara
gedirdisə, onlar da ora gedirdi. İrəli
gedərkən sağa-sola dönmürdülər. 13 [z]Bu
canlılar görünüşcə yanar köz kimi,
məşəl kimi bir şeyə bənzəyirdi. Canlı
məxluqların arasında od hərəkətdə
idi. Od parıldayırdı və ondan şimşək
çaxırdı. 14 Canlı məxluqlar şimşək çaxan
kimi cəld o tərəf-bu tərəfə hərəkət
edirdi.

15 [a]Mən canlı məxluqlara baxıb
gördüm ki, hər birinin yanında yerə
dəyən bir təkər var. 16 Təkərlərin
görünüşü və quruluşu belə idi: onlar
sarı yaqut kimi parıldayır və dördü də
bir-birinə oxşayırdı. Onların görünüşü
və quruluşu elə idi ki, sanki bir
təkər o biri təkər içində yerləşmişdi.
17 Getdikləri zaman dörd tərəfə də
gedə bilirdilər. İrəli gedərkən sağa-sola
dönmürdülər. 18 [b]Təkərlərin sağanaqları
hündür və qorxunc idi. Dördünün də
sağanaqları hər tərəfdən gözlərlə dolu
idi. 19 Canlı məxluqlar irəlilədikcə
təkərlər də yanında fırlanır, canlı
məxluqlar yerdən qalxdıqca təkərlər də
qalxırdı. 20 Ruh hara gedirdisə, onlar da
ora gedirdi, təkərlər də onlarla bərabər
qalxırdı, çünki canlı məxluqların ruhu
təkərlərdə idi. 21 Onlar irəliləyəndə
bunlar da irəliləyirdi, onlar dayananda
bunlar da dayanırdı. Onlar yerdən
qalxanda yanlarındakı təkərlər də
qalxırdı, çünki canlı məxluqların ruhu
təkərlərdə idi.

22 [c]Yuxarı tərəfdə, canlı məxluqların
başı üzərində büllur kimi parıldayan
göy qübbəsinə oxşayan qorxunc bir şey
uzanırdı. 23 Qübbənin altında hər canlı
məxluq qanadlarını yanındakılara doğru
uzadır, başqa iki qanadla da bədənini
örtürdü. 24 [d]Onlar irəlilədikləri zaman
qanadlarının gurultusunu eşitdim: sanki
gur suların səsi, Külli-İxtiyarın sədası,
güclü gurultu, qoşunun tappıltısı gəlirdi.
Onlar dayandıqları zaman qanadlarını
endirirdi. 25 Onlar qanadları enmiş
halda dayanarkən başları üzərindəki
qübbədən bir səs gəldi. 26 [e]Başları
üzərindəki qübbənin üstündə sanki göy
yaqutdan düzəldilmiş taxta oxşar bir şey
var idi. Yüksəkdə, taxta oxşayan şeyin
üzərində insana bənzər bir Şəxs var
idi. 27 [f]Mən gördüm ki, Onun belindən
yuxarı hissəsi kükrəyən metala oxşayır,
içi isə hər tərəfdən alov kimi idi. Mən
Onun belindən aşağı görünüşünü də
gördüm: sanki bir alov idi və ətrafında
parıltı var idi. 28 Yağış günü buludda
olan göy qurşağının görünüşü necə
olursa, hər tərəfdən gələn parıltının
görünüşü də elə idi. Bu, Rəbbin izzətinə
bənzər bir görüntü idi.

Bunu görəndə mən üzüstə yerə
yıxıldım və danışan bir Şəxsin səsini
eşitdim.

Allahın Yezekelə çağırışı

2 O mənə dedi: «Ey bəşər oğlu, ayağa
qalx, Mən sənlə danışacağam».
2 O mənimlə danışarkən Ruh daxilimə
girdi və məni ayağa qaldırdı. Mənimlə
danışan bir Şəxsin səsini eşitdim.
3 O mənə dedi: «Ey bəşər oğlu,
səni Mənə qarşı üsyan edən İsrail
övladlarının – üsyankar bir millətin
yanına göndərirəm. Onlar ataları ilə
birgə bu günə qədər Mənə qarşı üsyan
edir. 4 Səni yanlarına göndərəcəyim
xalq dikbaş və inadkardır. Sən onlara

---

[z]**1:13** Vəhy 4:5 [a]**1:15** Yez. 10:9-13 [b]**1:18** Vəhy 4:8 [c]**1:22** Vəhy 4:6
[d]**1:24** Vəhy 1:4-15; 19:6 [e]**1:26** Yez. 10:1; Vəhy 4:2-3 [f]**1:27** Yez. 8:2

deyəcəksən: “Xudavənd Rəbb belə
deyir!” 5 İstəyirlər sənə qulaq assınlar,
istəyirlər yox, çünki onlar üsyankar bir
xalqdır. Ancaq bilsinlər ki, aralarında
bir peyğəmbər var.
6 Ancaq, ey bəşər oğlu, sən qanqallar
və tikanlar arasında olsan da, əqrəblər
içində otursan da, o adamlardan
qorxma, onların sözlərindən çəkinmə.
Üsyankar bir xalq olsalar da, onların
sözlərindən çəkinmə, onlardan qorxma.
7 Sən onlara Mənim sözlərimi söylə,
istəyirlər sənə qulaq assınlar, istəyirlər
yox, çünki onlar üsyankardır.
8 Ey bəşər oğlu, sənsə Mənim
söylədiklərimə qulaq as, bu üsyankar
xalq kimi sən də üsyankar olma. Ağzını
aç və Mənim sənə verəcəyim şeyi
ye». 9 [g]Mən baxıb gördüm ki, mənə
tərəf bir əl uzandı və əlin içində bir
tumar var. 10 O, tumarı qabağımda
açdı. Tumarın önü və arxası yazılı idi,
üzərində «mərsiyə, matəm, bəla» sözləri
yazılmışdı.
3 [h]O yenə mənə dedi: «Ey bəşər oğlu,
aldığın şeyi – bu tumarı yeyib
get və İsrail nəslinə söylə». 2 Onda
mən ağzımı açdım və O, tumarı mənə
yedirdi. 3 Sonra mənə dedi: «Ey bəşər
oğlu, mədəni bununla doldur, sənə
verdiyim bu tumarla qarnını doydur».
Mən yedim, ağzım bal kimi şirin oldu.
4 O mənə dedi: «Ey bəşər oğlu,
qalx, İsrail nəslinin yanına get və
sözlərimi onlara söylə. 5 Sən ləhcəsi,
danışığı anlaşılmaz, dili çətin olan
bir xalqın yanına deyil, İsrail nəslinin
yanına göndərilirsən, 6 ləhcəsi, danışığı
anlaşılmaz, dili çətin olan çoxlu xalq
arasına göndərilmirsən. Əgər Mən səni
onların yanına göndərsəydim, onlar
sənə qulaq asardı. 7 Ancaq İsrail nəsli
sənə qulaq asmaq istəməyəcək, onlar
Mənə də qulaq asmaq istəmir, çünki
bütün İsrail nəsli inadkar və dikbaşdır.
8 Bax Mən səni də onlar kimi inadkar
edəcəyəm, onlar kimi dikbaş edəcəyəm.
9 Sənin inadını çaxmaq daşından
möhkəm olan almaz kimi möhkəm
edəcəyəm. Üsyankar bir xalq olsalar
da, onlardan qorxma, qarşılarında
vahiməyə düşmə».
10 O yenə mənə dedi: «Ey bəşər oğlu,
Mənim dediyim bütün sözləri ürəyində
saxla və qulaqlarınla eşit. 11 Qalxıb
sürgün olunmuş soydaşlarının yanına
get, onlarla danışıb söylə: “Xudavənd
Rəbb belə deyir!” Onlar istəyirlər sənə
qulaq assın, istəyirlər yox».
12 Sonra Ruh məni yuxarı qaldırdı və
arxamdan böyük bir gurultu eşitdim:
«Rəbbin izzətinə Öz yerində alqış
olsun». 13 Canlı məxluqların qanadları
bir-birinə toxunduqca onların səsini,
yanlarındakı təkərlərin şaqqıltısını –
böyük gurultunu eşitdim. 14 Ruh məni
yuxarı qaldırdı və götürüb apardı.
Mən də kədərli və acıqlı halda getdim.
Rəbb əlini mənim üzərimdə möhkəm
tutmuşdu. 15 Mən Tel-Avivdə olan
sürgün olunmuş adamların – Kevar
çayının sahilində yaşayanların yanına
gəldim və onların yaşadıqları yerdə
qaldım. Orada onların arasında yeddi
gün çaşqınlıq içində yaşadım.

Rəbb Yezekeli İsrailə gözətçi qoyur

16 Yeddi gün keçdikdən sonra mənə
Rəbbin bu sözü nazil oldu: 17 «Ey
bəşər oğlu, səni İsrail nəslinə gözətçi
qoydum. Sən sözü ağzımdan eşidəndə
Mənim adımdan onlara xəbərdarlıq et.
18 Mən pis adama “hökmən öləcəksən”
dediyim zaman sən ona xəbərdarlıq
etməsən, həyatı qurtulsun deyə pis
adamı öz şər əməlindən döndərmək
üçün xəbərdarlıq sözü söyləməsən, onda
o pis adam öz təqsiri içində öləcək,

---

[g] **2:9** Vəhy 5:1 [h] **3:1** Vəhy 10:9-10

lakin onun qanı üçün məsuliyyəti Mən
sənin üzərinə qoyacağam. 19 Ancaq
sən pis adama xəbərdarlıq etsən, o isə
pisliyindən və şər əməlindən dönməsə,
öz təqsiri içində öləcək, lakin sən bunun
məsuliyyətindən qurtarmış olursan.
20 Əgər bir saleh adam öz
salehliyindən dönüb pislik etsə və
Mən onun qarşısına maneə qoysam, o
öləcək. Ona xəbərdarlıq etmədiyin üçün
o adam öz günahı içində öləcək və etdiyi
saleh əməlləri hesaba alınmayacaq,
lakin onun qanı üçün məsuliyyəti Mən
sənin üzərinə qoyacağam. 21 Ancaq
günah etməməsi üçün saleh adama
xəbərdarlıq etsən və o günah etməsə,
hökmən yaşayacaq, çünki xəbərdarlığı
qəbul etmişdir, sənsə məsuliyyətdən
qurtarmış olursan».
22 Orada Rəbbin əli mənim üzərimdə
idi. O mənə dedi: «Qalx, düzənliyə
çıx, Mən sənlə orada danışacağam».
23 Mən qalxıb düzənliyə çıxdım. Orada
da Kevar çayının sahilində gördüyüm
izzət kimi Rəbbin izzəti durmuşdu.
Mən üzüstə yıxıldım. 24 Ruh daxilimə
girdi və məni ayaq üstə qaldırdı.
O mənimlə danışıb belə dedi: «Get,
evində qapını arxadan bağla. 25 Ey
bəşər oğlu, sənə kəndir vuracaqlar,
səni kəndirlərlə bağlayacaqlar, daha
xalqın arasında gəzə bilməyəcəksən.
26 Dilini damağına yapışdıracağam
və sən lal olacaqsan, üsyankar bir
xalq olsalar da, onları məzəmmət edə
bilməyəcəksən. 27 Yalnız Mən sənlə
danışmağa başlayanda dilini açacağam,
sən də onlara deyəcəksən: “Xudavənd
Rəbb belə deyir”. Qoy eşitmək istəyən
eşitsin, eşitmək istəməyən eşitməsin,
çünki onlar üsyankar bir xalqdır.

Yerusəlimin mühasirəsinin təsviri

4 Sən ey bəşər oğlu, özün üçün bir
kərpic götür və onu qarşına qoyub
üstündə Yerusəlim şəhərini təsvir et.
2 Onu mühasirəyə al, önündə mühasirə
divarı tik, qarşısında torpaq qalağı
düzəlt, ətrafında ordugahlar qur və ona
qarşı hər tərəfdən qoçbaşı alətləri qoy.
3 Bir dəmir sac götürüb onu dəmir divar
olmaq üçün özünlə şəhərin arasına qoy
və üzünü ona çevir. Şəhər mühasirədə
olacaq və sən onu mühasirəyə al. Bu,
İsrail nəslinə bir əlamət olacaq.
4 Sən sol yanın üstünə uzan və İsrail
nəslinin cəzasını öz üzərinə götür, o
tərəfə uzandığın günlərin sayına görə
onların cəzasını çəkəcəksən. 5 Mən
onların cəza illərinin sayı qədər sənin
üçün gün ayırdım. Beləcə üç yüz
doxsan gün İsrail nəslinin cəzasını
çəkəcəksən. 6 Bunu etdikdən sonra bu
dəfə sağ yanın üstündə uzan və Yəhuda
nəslinin cəzasını çək. Sənin üçün qırx
gün – hər il üçün bir gün ayırdım.
7 Üzünü Yerusəlimin mühasirəsinə
çevir, çılpaq qolunu qaldırıb ona
qarşı peyğəmbərlik et. 8 Bax Mən səni
kəndirlə bağlayacağam və təsvir etdiyin
mühasirə günləri qurtarmayınca bir
yanından o biri yanın üstünə çevrilə
bilməyəcəksən.
9 Sən buğda, arpa, paxla, mərci,
darı və pərinc götürüb onları bir
qaba qoy. Onlardan özünə çörək
yap. Bir yanın üstünə uzandığın üç
yüz doxsan gün ərzində onu ye.
10 Gündəlik yeməyinin çəkisi iyirmi
şekel olacaq, onu müəyyən vaxtlarda ye.
11 Həmçinin suyu da ölçü ilə – bir hinin
altıda biri qədər iç, onu da müəyyən
vaxtlarda iç. 12 Ondan arpa kökəsi
düzəldərək hamının gözü qabağında
insan nəcisinə od vurub üstündə bişirib
ye». 13 Rəbb yenə dedi: «Bax İsrail
övladları da aralarına sürgün edəcəyim
millətlərin içində beləcə murdar yemək
yeyəcək». 14 Mən dedim: «Aman, ya
Xudavənd Rəbb! Mən heç vaxt murdar
olmamışam. Cavanlığımdan indiyə
qədər nə leş, nə də heyvan parçalamış ət

yemişəm, bir murdar ət mənim ağzıma
dəyməyib». 15 O mənə dedi: «Yaxşı,
Mən insan nəcisini mal təzəyi ilə əvəz
edirəm. Çörəyini onun üstündə bişir».
16 Yenə mənə dedi: «Ey bəşər oğlu,
Mən Yerusəlimdən çörəyin kökünü
kəsəcəyəm. Çörəyi dərd içində çəki ilə
yeyəcəklər, suyu da çaşqınlıq içində
ölçü ilə içəcəklər. 17 Çünki çörəyə
və suya möhtac olacaqlar. Hər kəs
çaşqınlığa düşərək öz təqsiri içində
əriyib yox olacaq.

5 Sən ey bəşər oğlu, bir iti qılınc
götürüb ondan dəllək ülgücü kimi
istifadə et, onu başına və saqqalına
çək. Sonra bir tərəzi götür və qırxdığın
tükləri hissələrə ayır. 2 Onların üçdə
birini şəhərin mühasirə vaxtı qurtaranda
şəhərin ortasında odda yandırar, üçdə
birini götürüb şəhərin ətrafında
doğrayar, üçdə birini isə küləyə
sovurarsan, Mən də onların arxasınca
qılınc çəkəcəyəm. 3 Tüklərin bir azını da
götürüb paltarının ətəyinə bağlayarsan.
4 Onlardan bir qədər də götürüb odun
içinə atar və onları odda yandırarsan.
Bundan bütün İsrail nəslinin üstünə od
yağacaq».

5 Xudavənd Rəbb belə deyir: «Bu,
Yerusəlimdir. Mən onu millətlərin,
ətrafında olan ölkələrin arasında
yerləşdirdim. 6 Onun xalqı isə başqa
millətlərdən, ətrafındakı ölkələrdən
də çox pislik edərək hökmlərimə
və qaydalarıma qarşı üsyan etdi,
çünki hökmlərimi rədd etdilər,
qaydalarıma əməl etmədilər». 7 Buna
görə də Xudavənd Rəbb belə deyir:
«Siz ətrafınızda olan millətlərdən də
çox azğınlıq etdiniz, qaydalarıma
əməl etmədiniz, hökmlərimi yerinə
yetirmədiniz, hətta ətrafınızda olan
millətlərin hökmlərinə görə də
davranmadınız».

8 Buna görə də Xudavənd Rəbb belə
deyir: «Budur, Mən Özüm də sənə
qarşı durmuşam və başqa millətlərin
gözü qabağında səni cəzalandıracağam.
9 Bütün iyrənc işlərindən ötrü indiyə
qədər etmədiyim və bundan sonra
da bir daha etməyəcəyim şeyi sənin
başına gətirəcəyəm. 10 [i]Buna görə də
sənin torpağında atalar oğullarını,
oğullarsa atalarını yeyəcək. Səni
cəzalandıracağam, salamat qalanlarının
hamısını hər tərəfə sovuracağam».

11 Xudavənd Rəbb bəyan edir: «Buna
görə də, Varlığıma and olsun, bütün
iyrənc və murdar şeylərinlə Müqəddəs
məkanımı murdarladığın üçün
Mən hökmən səni qırıb-çatacağam,
sənə yazığım gəlməyəcək və rəhm
etməyəcəyəm. 12 Sənin əhalinin üçdə
biri vəbadan öləcək, sənin içində
aclıqdan tələf olacaq, üçdə biri ətrafında
qılıncla həlak olacaq, üçdə birini isə
hər tərəfə sovurub arxalarınca qılınc
çəkəcəyəm.

13 Beləcə hədsiz qəzəbimi
göstərəcəyəm, onların üzərində
qızğınlığımı söndürüb sakitləşəcəyəm.
Onlara hədsiz qəzəbimi göstərəndə
biləcəklər ki, Mən Rəbb qısqanclıqdan
onlara belə söylədim. 14 Ətrafında
olan millətlər arasında, yoldan
keçən hər kəsin gözü önündə
səni viranəliyə və rüsvayçılıq
hədəfinə çevirəcəyəm. 15 Qəzəb və
hiddətimlə, qızğın məzəmmətlərimlə
səni cəzalandırarkən ətrafında olan
millətlər üçün rüsvayçılıq, təhqir,
ibrət və dəhşət hədəfi olacaqsan. Mən
Rəbb bunu söylədim. 16 Mən sizi məhv
etmək üçün üstünüzə aclığın amansız
oxlarını göndərəcəyəm. Aranızda
aclığı gücləndirəcəyəm və çörəyin
kökünü kəsəcəyəm. 17 [j]Üstünüzə aclıq
və vəhşi heyvanlar göndərəcəyəm,

---

[i] **5:10** Qanun. 28:57; Mərs. 4:10 [j] **5:17** Vəhy 6:8

sizi uşaqlarınızdan məhrum edəcəklər.
Aranızdan vəba və tökülən qan keçəcək,
üstünüzə qılınc gətirəcəyəm. Mən Rəbb
bunu söylədim».

Bütpərəstliyin pislənilməsi

6 Mənə Rəbbin bu sözü nazil oldu:
2 «Ey bəşər oğlu, üzünü İsrail
dağlarına çevir və onların əleyhinə
peyğəmbərlik edib 3 söylə ki, ey İsrail
dağları, Xudavənd Rəbbin sözünü
dinləyin, dağlara, təpələrə, vadilərə və
dərələrə Xudavənd Rəbb belə deyir:
"Baxın Mən üstünüzə qılınc gətirəcəyəm
və səcdəgahlarınızı məhv edəcəyəm.
4 Qurbangahlarınız xarabalığa
çevriləcək, buxur qurbangahlarınız
sındırılacaq. Öldürülmüş adamlarınızı
bütlərinizin qabağına atacağam.
5 İsrail övladlarının cəsədlərini
bütlərin qarşısında yerə sərəcək,
sümüklərinizi qurbangahlarınızın
ətrafına səpələyəcəyəm. 6 Məskən
saldığınız bütün yerlərdə şəhərlər
viran olacaq, səcdəgahlar dağıdılacaq
ki, qurbangahlarınız xarabalığa və
viranəliyə çevrilsin,* bütləriniz sındırılıb
yox edilsin, buxur qurbangahlarınız
kəsilsin və düzəltdiyiniz şeylər
yer üzündən silinsin. 7 Aranızda
öldürülənlər yerə səriləcək. Onda
biləcəksiniz ki, Rəbb Mənəm.
8 Lakin Mən bəzilərinizi sağ
buraxacağam. Ölkələr arasına
səpələndiyiniz zaman millətlər içində
qılıncdan qaçıb-qurtaranlarınız olacaq.
9 Sizin qaçıb-qurtaranlarınız aralarına
sürgün edildikləri millətlər arasında
Məni yada salacaq. Mənə xəyanət edən
ürəklərinə, bütlərə dikdikləri xəyanətkar
gözlərinə görə pərt oldum. Etdikləri
pisliklərdən, bütün iyrənc işlərindən
ötrü öz-özlərindən ikrah edəcəklər.
10 Onda biləcəklər ki, Rəbb Mənəm və
onların başına bu bəlanı gətirəcəyimi
nahaq yerə söyləməmişəm".
11 Xudavənd Rəbb belə deyir: "Əllərini
bir-birinə vur, ayaqlarını yerə çırpıb
söylə ki, İsrail nəslinin bütün pis və
iyrənc işlərinə görə vay onların halına!
Çünki qılıncdan, aclıqdan və vəbadan
həlak olacaqlar. 12 Uzaqda olan vəbadan
öləcək, yaxında olan qılıncla həlak
olacaq, mühasirə zamanı sağ qalan
aclıqdan öləcək, Mən onlara hədsiz
qəzəbimi göstərəcəyəm. 13 Öz bütləri
arasında, qurbangahların ətrafında, hər
yüksək təpədə, hər dağın zirvəsində,
hər kölgəli ağac altında, sıx yarpaqlı
hər palıd ağacı altında, bütün bütlərinə
ətirli buxur təqdim etdikləri yerlərdə
onların həlak olanları yerə səriləcək.
Onda biləcəksiniz ki, Rəbb Mənəm.
14 Onlara qarşı əl qaldıracağam,
səhradan Divlaya doğru yaşadıqları
bütün yerlərdə ölkəni xaraba və sakinsiz
qoyacağam. Onda biləcəklər ki, Rəbb
Mənəm"».

İsrailin aqibəti

7 Mənə Rəbbin bu sözü nazil oldu:
2 «Sən ey bəşər oğlu, Xudavənd
Rəbb İsrail torpağına belə deyir: "Axırı
çatdı, ölkənin dörd tərəfinin axırı çatdı.
3 İndi sənin axırın çatdı. Qəzəbimi
sənin üstünə göndərəcəyəm, öz
əməllərinə görə səni cəzalandıracağam,
bütün iyrənc işlərinin əvəzini başına
gətirəcəyəm. 4 Sənə yazığım gəlməyəcək
və rəhm etməyəcəyəm, öz əməllərinə
görə səni cəzalandıracağam, iyrənc
işlərinin əvəzini alacaqsan. Onda
biləcəksiniz ki, Rəbb Mənəm".
5 Xudavənd Rəbb belə deyir: "Budur,
bir bəla, tayı olmayan bir müsibət
gəlir. 6 Axırın çatıb, axırın çatıb, sənə

---

*6:6 *Xarabalığa və viranəliyə çevrilsin* – arami, süryani və latın tərcümələrində belədir, ibrani mətnində isə *xarabalığa çevrilsin və təqsirkar çıxarılsın.*

qarşı qalxır. Budur, tezliklə gəlir! 7 Ey
ölkənin sakini, qiyamət günün çatdı,
vaxt gəldi, gün yaxındadır. Dağların
üstündən sevinc nidası deyil, çaxnaşma
səsi gəlir. 8 Tezliklə qızğınlığımı
üstünə tökəcəyəm, sənə qarşı qəzəbimi
bütünlüklə göstərəcəyəm, öz əməllərinə
görə səni cəzalandıracaq, bütün iyrənc
işlərinin əvəzini başına gətirəcəyəm.
9 Sənə yazığım gəlməyəcək və rəhm
etməyəcəyəm, öz əməllərinə görə səni
cəzalandıracağam, iyrənc işlərinin
əvəzini alacaqsan. Onda biləcəksiniz ki,
zərbə vuran Mən Rəbbəm.
10 Budur o gün! Gün gəldi, sənin
qiyamət günün çatdı: əsa çiçəkləndi,
qürur gül açdı. 11 Zorakılıq çoxalıb
pisliyin əsası oldu. Buna görə də
xalqdan, onların izdihamından,
var-dövlətindən və əzəmətindən
əsər-əlamət qalmayacaq. 12 Vaxt gəldi,
gün yaxınlaşdı. Alıcı sevinməsin, satıcı
heyfsilənməsin, çünki bütün kütlənin
üstünə qəzəb yağacaq. 13 Hətta onlar
yaşasalar da, satıcı satdığı torpağa
qayıtmayacaq, çünki onların bütün
camaatına aid olan bu vəhy hədəfindən
dönməyəcək. Heç kəs təqsiri ilə həyatını
davam etdirə bilməyəcək.
14 Şeypur çalındı və hər şey
hazırlandı, ancaq müharibəyə gedən
yoxdur. Çünki qəzəbim bütün camaatın
üstünə yağacaq. 15 Bayırda qılınca,
içəridə vəba və aclığa tuş gələcəklər,
çöldə olan qılıncdan öləcək, şəhərdə
olanı aclıq və vəba yeyəcək. 16 Sağ
qalanları qaçıb-qurtulsa da, dərələrdəki
göyərçinlər kimi dağlarda yaşayacaq,
hər kəs təqsirindən ötrü ah-zar edəcək.
17 Hamının əli yanına düşəcək, hər kəsin
dizləri titrəyəcək. 18 Çula bürünəcəklər,
onları dəhşət saracaq. Hamının
üzündə xəcalət olacaq, hamının başı
daz olacaq. 19 Gümüşlərini küçələrə
atacaqlar, qızılları napak sayılacaq.
Rəbbin qəzəb günündə qızıl-gümüşləri
onları qurtara bilməyəcək, bədənlərini
qidalandırmayacaq, qarınlarını
doydurmayacaq, çünki bu şeylər
onların təqsirlərinə bais oldu.
20 Bər-bəzəklərinin gözəlliyi onları
qürurlandırdı. Öz iyrənc və mənfur
bütlərini bu şeylərdən düzəltdilər. Ona
görə də bunları özləri üçün murdar bir
şeyə çevirdim. 21 Bunları qənimət kimi
özgələrə, qarət malı kimi dünyadakı pis
adamların əlinə verəcəyəm və onları
murdarlayacaqlar. 22 Mən xalqdan üz
döndərəcəyəm, müqəddəs məskənim
murdarlanacaq, quldurlar içəri girib
oranı murdarlayacaq.
23 Sən zəncir düzəlt, çünki ölkə
qanlı cinayətlərlə, şəhər zorakılıqla
dolub. 24 Millətlərin ən qəddarını
onların üstünə gətirəcəyəm və evlərini
əllərindən alacaqlar. Güclülərin
qüruruna son qoyacağam, müqəddəs
yerləri murdarlanacaq. 25 Dəhşət gəlir.
Əmin-amanlıq axtaracaqlar, amma
tapmayacaqlar. 26 Bəla üstündən bəla
gələcək, qara xəbər dalınca qara
xəbər çatacaq. Peyğəmbərlərdən
görüntü istəyəcəklər, kahinin qanun
öyrətməyi bitəcək, ağsaqqallar nəsihət
verməyəcək. 27 Padşah yas tutacaq,
əmirləri məyusluq bürüyəcək, ölkə
xalqının əli yanına düşəcək. Onları
əməllərinə görə cəzalandıracağam,
hökmlərinə görə hökm edəcəyəm. Onda
biləcəklər ki, Rəbb Mənəm”».

Rəbbin məbədində bütpərəstlik

8 Sürgünlüyümüzün altıncı ilində,
altıncı ayın beşinci günü mən evdə
oturmuşdum və Yəhuda ağsaqqalları
da qarşımda əyləşmişdi. O zaman
orada üstümə Xudavənd Rəbbin əli

endi. 2 [k]Mən baxıb insana [*]oxşar bir
surət gördüm: belindən aşağı oda
bənzəyir, belindən yuxarı isə metal
kimi parıldayırdı. 3 O, ələ bənzər bir şey
uzatdı və məni saçımdan tutdu. Onda
Ruh məni yerlə göy arasına qaldırdı
və Allahın görüntülərində Yerusəlimə,
içəri həyətin şimal qapısının giriş
yerinə gətirdi. Orada Allahda qısqanclıq
oyadan qısqanclıq bütü qurulmuşdu.
4 [l]Düzənlikdə gördüyümə bənzər İsrail
Allahının izzəti də orada idi.
5 O mənə dedi: «Ey bəşər oğlu, indi
başını şimal tərəfə qaldır». Mən başımı
şimal tərəfə qaldırıb gördüm ki, həmin
qısqanclıq bütü qurbangah qapısının
şimalında – giriş yerindədir. 6 O mənə
dedi: «Ey bəşər oğlu, görürsənmi
nə edirlər? İsrail nəsli burada çoxlu
iyrənc işlər edir ki, Mən Müqəddəs
məkanımdan uzaqlaşım. Hələ bundan
da iyrənc şeylər görəcəksən».
7 O məni həyətin giriş yerinə gətirdi.
Mən baxıb gördüm ki, divarda bir dəlik
var. 8 O mənə dedi: «Ey bəşər oğlu, gəl
divarı dəl». Mən divarı dəlib gördüm ki,
bir qapı var. 9 O mənə dedi: «İçəri gir,
onların orada pis və iyrənc işlərini gör».
10 Mən içəri girib gördüm ki, hər cür
sürünənlərin, mənfur heyvanların surəti
və İsrail nəslinin bütlərinin hamısının
təsviri hər tərəfdən divara çəkilib.
11 İsrail nəslinin ağsaqqallarından
yetmiş nəfər onların önündə durmuşdu.
Şafan oğlu Yaazanya da onların
arasında dayanmışdı. Hər birinin əlində
buxurdan var idi və buxurun ətri bulud
kimi göyə qalxırdı. 12 O mənə dedi: «Ey
bəşər oğlu, görürsənmi İsrail nəslinin
ağsaqqalları öz bütlərinin otaqlarında,
qaranlıq yerlərdə nə edir? Ona görə ki
onlar "Rəbb bizi görmür, Rəbb ölkəni
tərk etdi" deyir». 13 O yenə mənə dedi:
«Hələ onların bundan da iyrənc işlərini
görəcəksən».
14 O məni Rəbbin məbədinin şimal
tərəfdəki qapısının giriş yerinə gətirdi.
Mən gördüm ki, Tammuz bütü üçün
ağlayan qadınlar orada oturub.
15 O mənə dedi: «Görürsənmi, bəşər
oğlu? Hələ bundan da iyrənc şeylər
görəcəksən».
16 O məni Rəbbin məbədinin içəri
həyətinə gətirdi. Gördüm ki, Rəbbin
məbədinin giriş yerində eyvanla
qurbangah arasında arxaları Rəbbin
məbədinə, üzləri isə şərqə çevrilmiş
təxminən iyirmi beş kişi var. Onlar
şərqə üz tutaraq günəşə sitayiş edirdi.
17 O mənə dedi: «Görürsənmi, bəşər
oğlu? Məgər Yəhuda nəsli üçün burada
etdikləri iyrənc işlər az idi ki, üstəlik
ölkəni zorakılıqla doldurur və bununla
Məni daha da qəzəbləndirirlər? Bax
indi onlar budağı burnuma soxaraq
Məni təhqir edir. 18 Buna görə Mən də
qəzəblə rəftar edəcəyəm, onlara yazığım
gəlməyəcək və rəhm etməyəcəyəm.
Məni ucadan çağırsalar da, onlara qulaq
asmayacağam».

Yerusəlimin cəzalandırılması

9 Sonra Onun «qoy şəhəri
cəzalandıranların hər biri öz
qırğın silahı əlində şəhərə yaxınlaşsın»
deyə ucadan qışqırdığını eşitdim. 2 Mən
gördüm ki, şimal tərəfdəki yuxarı
qapının yolu ilə altı nəfər gəldi. Hər
birinin toppuzu əlində idi. Onların
arasında kətan paltar geyinmiş, belində
yazı qutusu olan bir adam var idi. Onlar
içəri girdi və tunc qurbangahın yanında
dayandı.
3 İsrail Allahının izzəti dayandığı
keruvun üstündən qalxıb məbədin
kandarına getdi. Rəbb kətan paltar

[*]**8:2** *İnsana* – qədim yunan tərcüməsində belədir, ibrani mətnində isə *oda.*

[k]**8:2** Yez. 1:27 [l]**8:4** Yez. 1:28

geyinmiş, belində yazı qutusu olan
adamı çağırıb [4] [m]ona dedi: «Yerusəlim
şəhərini gəz və orada edilən bütün
iyrənc işlərdən ötrü ah-nalə edən
adamların alnına işarə qoy». [5] Sonra o
biri adamlara bunu dediyini eşitdim:
«Onun ardınca şəhəri gəzin və
adamları qırın, yazığınız gəlməsin və
rəhm etməyin. [6] Qocanı, cavanı, ərə
getməmiş qızı, uşaqlarla qadınları
ölənəcən vurun, ancaq üstündə işarə
olan adamlara toxunmayın. Mənim
Müqəddəs məkanımdan başlayın».
Onlar da məbədin önündə olan
ağsaqqalları qırmağa başladı. [7] Rəbb
onlara dedi: «Məbədi murdarlayın,
həyətləri cəsədlərlə doldurun. Haydı,
işə başlayın!» Sonra onlar gedib
şəhərdəkiləri qırdı. [8] Onlar adamları
qırarkən mən tək qalmışdım. Onda
mən üzüstə düşərək fəryad edib dedim:
«Aman, ya Xudavənd Rəbb! Yerusəlim
üzərinə qəzəbini tökərkən İsrailin
bütün yerdə qalanlarını da həlak
edəcəksənmi?»

[9] O mənə dedi: «İsrail və Yəhuda
nəslinin təqsiri böyükdür, çox böyükdür.
Ölkə qanla, şəhər azğınlıqla doludur.
Çünki onlar “Rəbb ölkəni tərk etdi,
Rəbb görmür” deyir. [10] Mənim də
onlara yazığım gəlməyəcək və rəhm
etməyəcəyəm, əməllərinin əvəzini
başlarına gətirəcəyəm».

[11] Mən gördüm ki, belində yazı qutusu
olan, kətan paltar geyinmiş adam «mənə
əmr etdiyin şeyə əməl etdim» deyib
xəbər gətirdi.

Rəbbin izzəti məbədi tərk edir

10 [n]Mən baxıb gördüm ki,
keruvların başı üzərindəki
qübbənin üstündə göy yaqut daşı
kimi görünüşcə taxta bənzər bir şey
peyda oldu. [2] [o]Rəbb kətan geyinmiş
adama belə söylədi: «Keruvların
altındakı fırlanan təkərlərin arasına
girib keruvların arasından iki ovuc odlu
köz götür və şəhərin üzərinə səpələ».
O adam gözümün qabağında oraya
girdi. [3] O adam oraya girəndə keruvlar
məbədin cənub tərəfində durmuşdu.
Bu zaman bulud içəri həyətə doldu.
[4] Rəbbin izzəti keruvun üstündən qalxıb
məbədin kandarına getdi. Məbədi bulud
bürüdü və həyət Rəbbin izzətinin nuru
ilə doldu. [5] Keruvların qanadlarının
səsi bayır həyətə qədər gəlirdi. Bu səs
Külli-İxtiyar Allah danışdığı zaman
çıxan səs kimi uca idi.

[6] Rəbb kətan geyinmiş adama
«keruvların və fırlanan təkərlərin
arasından od götür» deyə əmr edəndə o
girib bir təkərin yanında durdu. [7] Onda
keruvlardan biri keruvların arasından
əlini uzadıb onların ortasında olan odu
götürdü və kətan geyinmiş adamın
ovcuna qoydu. O adam da odu götürüb
çıxdı. [8] Keruvların qanadları altında
insan əlinə bənzər bir şey göründü.

[9] [p]Mən baxıb gördüm ki, keruvların
yanında dörd təkər və hər keruvun
yanında bir təkər var. Təkərlər sarı
yaqut kimi parıldayırdı. [10] Dördünün
də görünüşü eyni cür idi, sanki bir
təkər o biri təkər içində yerləşmişdi.
[11] Getdikləri zaman dörd tərəfə
hərəkət edirdilər, gedərkən sağa-sola
dönmürdülər. Baş hansı tərəfə
yönəlmişdisə, o tərəfə də gedirdilər,
gedərkən sağa-sola dönmürdülər.
[12] [q]Onların bütün bədəni, kürəyi, əlləri,
qanadları və təkərləri – dördünün də
təkərləri hər tərəfdən gözlərlə dolu
idi. [13] Mən bu təkərlərə «fırlanan
təkərlər» deyildiyini eşitdim. [14] [r]Canlı
məxluqların hər birinin dörd üzü var

---

[m] **9:4** Vəhy 7:2-3; 9:4; 14:1 [n] **10:1** Yez. 1:26; Vəhy 4:2 [o] **10:2** Vəhy 8:5
[p] **10:9** Yez. 1:15-21 [q] **10:12** Vəhy 4:8 [r] **10:14** Yez. 1:10; Vəhy 4:7

idi: birincisi keruv üzü, ikincisi insan
üzü, üçüncüsü aslan üzü və dördüncüsü
qartal üzü idi.
15 Keruvlar yerdən qalxdı. Bunlar
Kevar çayının sahilində gördüyüm
həmin canlı məxluqlar idi. 16 Keruvlar
gedəndə onların yanında olan təkərlər
də gedirdi. Keruvlar yerdən qalxmaq
üçün qanadlarını qaldıranda təkərlər də
onların yanından ayrılmırdı. 17 Onlar
dayananda bunlar da dayanırdı, onlar
yerdən qalxanda bunlar da birlikdə
yerdən qalxırdı, çünki canlı məxluqların
ruhu təkərlərdə idi.
18 Rəbbin izzəti məbədin kandarından
çıxdı və keruvların üstündə durdu.
19 Keruvlar gedəndə qanadlarını
qaldırıb gözümün önündə yerdən
qalxdı, təkərlər də yanlarında idi. Onlar
Rəbbin məbədinin şərq darvazasının
giriş yerində dayandı. İsrail Allahının
izzəti yuxarıda, onların üzərində idi.
20 Bunlar Kevar çayının sahilində,
İsrail Allahının altında gördüyüm həmin
canlı məxluqlar idi. Mən bildim ki,
onlar keruvdur. 21 Hər birinin dörd
üzü və dörd qanadı var idi. Qanadları
altında insan əllərinə bənzər bir şey
var idi. 22 Onların üzlərinin bənzəyişi
Kevar çayı sahilində gördüyüm üzlərə
oxşayırdı. Hər biri üz tutduğu tərəfə
irəliləyirdi.

Allahın cəzası

11 Ruh məni yerdən qaldırdı
və şərqə yönəlmiş Rəbbin
məbədinin şərq darvazasına gətirdi.
Orada darvazanın girəcəyində iyirmi
beş nəfər var idi. Mən onların arasında
xalqın başçıları Azzur oğlu Yaazanyanı
və Benaya oğlu Pelatyanı gördüm.
2 Rəbb mənə dedi: «Ey bəşər oğlu, pis
şeylər niyyət edən və bu şəhərdə bəd
məsləhətlər verən adamlar bunlardır.
3 Onlar "ev tikmək vaxtı deyil. Şəhər
qazan, bizsə ətik" deyir. 4 Buna görə də
onlara qarşı peyğəmbərlik et, ey bəşər
oğlu, peyğəmbərlik et».
5 Rəbbin Ruhu üzərimə endi və
mənə dedi: «Söylə ki, Rəbb belə deyir:
"Ey İsrail nəsli, siz nə deyirsiniz,
nə düşünürsünüz, Mən bilirəm. 6 Bu
şəhərdə çoxlu adam öldürdünüz, şəhərin
küçələrini ölülərlə doldurdunuz". 7 Buna
görə də Xudavənd Rəbb belə deyir:
"Şəhərdə qoyduğunuz ölülər ət,
şəhərsə qazandır. Ancaq Mən sizi
şəhərdən çıxaracağam. 8 Siz qılıncdan
qorxursunuz, Mən də üstünüzə qılınc
gətirəcəyəm" Xudavənd Rəbb belə
bəyan edir. 9 "Mən sizi şəhərdən
çıxarıb yadellilərə təslim edəcəyəm.
Sizi beləcə cəzalandıracağam.
10 Qılıncla həlak olacaqsınız. Sizi İsrail
ərazisində cəzalandıracağam. Onda
biləcəksiniz ki, Rəbb Mənəm. 11 Bu
şəhər sizə qazan olmayacaq, siz də
onun içində ət olmayacaqsınız. Sizi
İsrail ərazisində cəzalandıracağam.
12 Onda biləcəksiniz ki, Rəbb Mənəm.
Siz qaydalarıma əməl etmədiniz,
hökmlərimi yerinə yetirmədiniz,
ətrafınızda olan millətlərin hökmlərinə
görə davrandınız"».
13 Mən peyğəmbərlik edən zaman
Benaya oğlu Pelatya öldü. Mən üzüstə
yerə yıxıldım və ucadan fəryad edib
dedim: «Aman, ya Xudavənd Rəbb!
Məgər Sən İsrailin yerdə qalanlarını
tamamilə məhv edəcəksən?»
14 Onda mənə Rəbbin bu sözü
nazil oldu: 15 «Öz qohum-əqrəbana,
qəyyumlarına və bütün İsrail nəslinə
gəlincə, ey bəşər oğlu, Yerusəlimdə
yaşayanlar onların hamısına belə deyir:
"Rəbdən uzaq olun. Bu ölkə mülk
olaraq bizə verildi". 16 Buna görə də
söylə ki, Xudavənd Rəbb belə deyir:
"Onları uzaqdakı millətlərin arasına
aparıb ölkələr arasına səpələdiyimə
baxmayaraq, qısa bir müddət Mən
onlara getdikləri ölkələrdə Müqəddəs

məkan oldum”. 17 Buna görə də söylə
ki, Xudavənd Rəbb belə deyir: “Sizi
xalqlar arasından toplayacağam,
səpələndiyiniz ölkələrdən yığıb bir
yerə gətirəcəyəm, İsrail torpağını sizə
verəcəyəm. 18 Oraya qayıdanda bütün
mənfur və iyrənc şeyləri o yerdən
yox edəcəklər. 19 [s]Mən onlara eyni
ürək verəcəyəm, onların daxilinə
yeni ruh qoyacağam. Kökslərindən
daş ürəyi çıxarıb onlara ətdən olan
ürək verəcəyəm ki, 20 qaydalarıma
əməl etsinlər, hökmlərimi saxlayıb
yerinə yetirsinlər. O zaman onlar
Mənim xalqım, Mən də onların Allahı
olacağam. 21 Ancaq ürəkləri öz mənfur
və iyrənc şeylərinin ardınca gedənlərə
gəlincə, Mən onların əməllərinin əvəzini
başlarına gətirəcəyəm” Xudavənd Rəbb
belə bəyan edir».
22 [t]Bu zaman keruvlar qanadlarını
qaldırdı, təkərlər də onların yanında
idi. İsrail Allahının izzəti yuxarıda,
onların üzərində idi. 23 Rəbbin izzəti
şəhərin mərkəzindən qalxdı və şəhərin
şərqindəki dağın üzərində dayandı.
24 Ruh məni qaldırıb Allahın Ruhundan
gələn görüntüdə Xaldey ölkəsinə,
sürgün olunanların yanına gətirdi.
Sonra mənə görünən görüntü qeyb
oldu. 25 Rəbbin mənə göstərdiyi şeylərin
hamısını sürgündə olanlara danışdım.

Sürgünün rəmzi

12 Mənə Rəbbin bu sözü nazil
oldu: 2 [u]«Ey bəşər oğlu, sən
üsyankar bir xalqın arasında yaşayırsan.
Onların görmək üçün gözləri var, ancaq
görmürlər, eşitmək üçün qulaqları var,
ancaq eşitmirlər, çünki onlar üsyankar
bir xalqdır. 3 Ey bəşər oğlu, sən sürgünə
getmək üçün şeylərini hazırla və onların
gözü önündə günün günorta çağı köç,
onların gözü önündə öz yerindən başqa
bir yerə köç et. Üsyankar bir xalq
olsalar da, bəlkə bunu başa düşdülər.
4 Öz şeylərini sürgünə getmək üçün
lazım olan şeylər kimi onların gözü
önündə günün günorta çağı çıxart. Özün
də hamının gözü önündə axşamüstü
sürgünə gedən kimi çıx. 5 Onların
gözü önündə divarda deşik aç və
şeylərini oradan çıxart. 6 Hamının
gözü önündə şeylərini çiynində daşı
və qaranlıqda çıxart. Üzünü də ört ki,
torpağı görməyəsən, çünki səni İsrail
nəslinə əlamət göstərirəm».
7 Mənə necə əmr olunmuşdusa, eləcə
də etdim. Şeylərimi sürgünə getmək
üçün lazım olan şeylər kimi günün
günorta çağı çıxartdım və axşamüstü
divarı əllərimlə deşdim. Şeylərimi
qaranlıqda çıxartdım və onların gözü
önündə çiynimdə daşıdım.
8 Səhər tezdən mənə Rəbbin bu
sözü nazil oldu: 9 «Ey bəşər oğlu,
İsrail nəsli – o üsyankar xalq sənə “Nə
edirsən?” demədimi? 10 Sən onlara
söylə ki, Xudavənd Rəbb belə deyir: “Bu
xəbərdarlıq Yerusəlimdə olan rəhbər
və orada yaşayan bütün İsrail nəsli
üçündür”. 11 Sən belə de: “Mən sizin
üçün əlamətəm. Mən necə etdimsə,
onlara da belə ediləcək, sürgünə
və əsarətə gedəcəklər. 12 Aralarında
yaşayan rəhbər şeylərini qaranlıqda
çiynində daşıyacaq və bayıra çıxacaq.
Şeylərini çıxarmaq üçün divarı
deşəcəklər. O, üzünü örtəcək ki,
torpağı gözləri ilə görməsin. 13 [v]Onun
üstünə tor sərəcəyəm və Mənim tələmə
düşəcək. Onu Babilə – Xaldey ölkəsinə
gətirəcəyəm. Oranı görməyəcək,
amma orada öləcək. 14 Ətrafındakıların
hamısını – köməkçilərini və bütün
qoşunlarını küləyin əsdiyi dörd tərəfə

---

[s] **11:19** Yez. 36:26-28 [t] **11:22** Yez. 43:2-5
[u] **12:2** Yeş. 6:9-10; Yer. 5:21; Mark 8:18 [v] **12:13** 2Pad. 25:7; Yer. 52:11

səpəcək və onların arxasınca qılınc
çəkəcəyəm. 15 Mən onları millətlər
arasına yayanda və başqa ölkələr
arasına səpələyəndə biləcəklər ki, Rəbb
Mənəm. 16 Ancaq onlardan bir azını
qılıncdan, aclıqdan və vəbadan sağ
buraxacağam ki, öz iyrənc işlərinin
hamısını aralarına gedəcəkləri millətlərə
danışsınlar. Onda biləcəklər ki, Rəbb
Mənəm”».
17 Mənə Rəbbin bu sözü nazil oldu:
18 «Ey bəşər oğlu, çörəyini titrəyərək
ye, suyunu əsə-əsə, qorxu ilə iç. 19 Ölkə
xalqına söylə ki, İsrail torpağında,
Yerusəlimdə yaşayanlar üçün Xudavənd
Rəbb belə deyir: “Onlar çörəklərini
qorxu ilə yeyəcək, sularını dəhşətlə
içəcək, çünki orada yaşayanların
hamısının zorakılığından ötrü ölkələri
bolluqdan məhrum olacaq. 20 Adam
yaşayan şəhərlər viran olacaq və ölkə
xarabalığa çevriləcək. Onda biləcəksiniz
ki, Rəbb Mənəm”».
21 Mənə Rəbbin bu sözü nazil oldu:
22 «Ey bəşər oğlu, İsrail torpağında nə
üçün “günlər keçir, hər görüntü puç
olur” məsəlini işlədirsiniz? 23 Buna
görə də onlara söylə ki, Xudavənd
Rəbb belə deyir: “Bu məsələ son
qoyacağam, artıq İsraildə bu məsəli
işlətməyəcəklər. Ancaq sən onlara söylə
ki, hər görüntünün yerinə yetəcəyi
günlər yaxınlaşdı. 24 Daha bundan sonra
İsrail nəslinin arasında heç bir boş
görüntü və aldadıcı falçılıq olmayacaq.
25 Çünki Rəbb Mənəm, Mən deyirəm və
dediyim söz yerinə yetir, artıq təxirə
salınmır. Ey üsyankar xalq, bu sözü
sizin dövrünüzdə deyirəm və onu yerinə
yetirəcəyəm” Xudavənd Rəbb belə
bəyan edir».
26 Mənə Rəbbin bu sözü nazil oldu:
27 «Ey bəşər oğlu, İsrail nəsli belə deyir:
“Ona gələn görüntü uzun müddət
sonra olacaq, o, uzaq gələcək barədə
peyğəmbərlik edir”. 28 Buna görə
də onlara söylə ki, Xudavənd Rəbb
belə deyir: “Heç bir sözümü təxirə
salmayacağam, dediyim söz yerinə
yetəcək” Xudavənd Rəbb belə bəyan
edir».

Yalançı peyğəmbərlərin cəzalanması

13 Mənə Rəbbin bu sözü nazil oldu:
2 «Ey bəşər oğlu, peyğəmbərlik
edən İsrail peyğəmbərlərinə qarşı
peyğəmbərlik et və öz-özlərindən
peyğəmbərlik edən adamlara
söylə ki, Rəbbin sözünü eşitsinlər.
3 Xudavənd Rəbb belə deyir: “O
axmaq peyğəmbərlərin vay halına!
Onlar öz ruhları ilə ilhamlanır və
heç bir vəhy almayıb. 4 Ey İsrail,
sənin peyğəmbərlərin viranəliklərdə
dolaşan tülkülərə bənzəyir. 5 Ey
peyğəmbərlər, siz divarın dəliklərinə
çıxmadınız, Rəbbin günündə döyüşdə
bərk dayanmaq üçün İsrail nəslinin
ətrafında divar qurmadınız. 6 Onlar
boş şeylər görərək falçılıq edib yalan
danışır. Söyləyirlər ki, bunu Rəbb bəyan
edir, Rəbb isə onları göndərməyib.
Yenə də ümid verirlər ki, sözləri yerinə
yetəcək. 7 Sizin gördüyünüz görüntü boş
və etdiyiniz falçılıq yalan deyilmi? Siz
bunlara ‹Rəbb bəyan edir› deyirsiniz,
Mənsə belə söyləmədim”.
8 Buna görə də Xudavənd Rəbb belə
deyir: “İndi ki boş sözlər söyləyib yalan
şeylər gördünüz, Mən sizə qarşıyam”
Xudavənd Rəbb belə bəyan edir.
9 “Mən boş şeylər görən və falçılıq
edib yalan danışan peyğəmbərləri Öz
əlimlə cəzalandıracağam. Onlar Mənim
xalqımın məclisində olmayacaq, İsrail
nəslinin siyahısına yazılmayacaq və
İsrail torpağına girməyəcək. Onda
biləcəksiniz ki, Xudavənd Rəbb Mənəm.

10 [w]Bunu ona görə edəcəyəm ki,
onlar sülh olmadığı halda ‹sülh› deyib
xalqımı azdırır. Biri bünövrəsiz divar
tikəndə o biri ona suvaq vurur. 11 Sən
suvaq vuranlara söylə ki, o divar
uçacaq. Şiddətli yağış yağacaq və dolu
dənələrini yerə salacağam. Tufan küləyi
divara qarşı əsəcək. 12 Bəs divar uçanda
sizə ‹vurduğunuz suvaq necə oldu›
deməyəcəklərmi?”
13 Buna görə də Xudavənd Rəbb
belə deyir: “Mən Öz qəzəbimlə tufan
küləyi əsdirib, Öz hiddətimlə şiddətli
yağış və dolu yağdıracağam ki, divar
qızğınlığımla məhv olsun. 14 Beləcə
suvaq vurduğunuz divarı uçurub
yerlə yeksan edəcəyəm və bünövrəsi
görünəcək. Siz də yıxılan divarın altında
həlak olacaqsınız. Onda biləcəksiniz ki,
Rəbb Mənəm. 15 Öz qızğınlığımı divarın
və ona suvaq vuranların üzərində
söndürəcəyəm. Sizə deyəcəyəm ki,
divar da yoxdur, ona suvaq vuran İsrail
peyğəmbərləri də. 16 O peyğəmbərlər
Yerusəlim üçün peyğəmbərlik edir və
sülh olmadığı halda orada sülh olacağı
barədə görüntülər görür” Xudavənd
Rəbb belə bəyan edir.
17 Sən ey bəşər oğlu, öz-özlərindən
peyğəmbərlik edən xalqının qadınlarına
üzünü tut və onların əleyhinə
peyğəmbərlik edib 18 söylə ki, Xudavənd
Rəbb belə deyir: “Canları ovlamaq
üçün hər kəsin biləyinə yastıqçalar
tikən və hər boyda olan adamın
başına örtüklər düzəldən qadınların
vay halına! Elə bilirsiniz ki, xalqımın
canlarını ovlamaqla öz canınızı salamat
saxlayacaqsınız? 19 Xalqımın önündə bir
neçə ovuc arpa və bir neçə parça çörək
üçün Məni izzətdən saldınız. Yalana
qulaq asan xalqıma yalan söyləyərək
ölməyə layiq olmayanları öldürdünüz və
yaşamağa layiq olmayanları yaşatdınız”.
20 Buna görə də Xudavənd Rəbb
belə deyir: “İndi Mən sizin ovsun
yastıqçalarınıza qarşıyam. Həmin
yastıqçalarla siz orada adamları
quş kimi ovlayırsınız. Mən onları
qollarınızdan qoparacağam. Quş
kimi ovladığınız adamları azad
edəcəyəm. 21 Örtüklərinizi də yırtacaq
və xalqımı əlinizdən qurtaracağam.
Onlar daha bir ov kimi sizin əlinizdə
əsir olmayacaq. Onda biləcəksiniz ki,
Rəbb Mənəm. 22 Mənim kədərlənməsini
istəmədiyim salehin ürəyini siz
yalanlarla kədərləndirdiniz, pis adamın
qoluna güc verdiniz ki, öz pis yolundan
dönməsin və canını qurtarmasın.
23 Buna görə də artıq boş görüntülər
görməyəcək və falçılıq etməyəcəksiniz.
Mən Öz xalqımı sizin əlinizdən
qurtaracağam. Onda biləcəksiniz ki,
Rəbb Mənəm”».

Rəbb bütpərəstliyi pisləyir

14 İsrail ağsaqqallarından bəzisi
yanıma gəlib önümdə oturdu.
2 Onda mənə Rəbbin bu sözü nazil
oldu: 3 «Ey bəşər oğlu, bu adamlar
öz bütlərinə könül verdi və təqsir
etmələrinə bais olan şeyləri üzləri
önünə qoydu. Bundan sonra Mən onlara
cavab verəcəyəmmi? 4 Buna görə də
onlara müraciət edib söylə ki, Xudavənd
Rəbb belə deyir: “İsrail nəslindən kimsə
öz bütlərinə könül verib təqsir etməsinə
bais olan şeyə səcdə etsə və peyğəmbərə
müraciət etsə, Mən Rəbb ona bütlərinin
çoxluğuna görə cavab verəcəyəm. 5 Ona
görə ki bütlərindən ötrü Mənə yad olan
bütün İsrail nəslinin ürəyini yenidən
Özümə cəlb edim”.
6 Buna görə də İsrail nəslinə söylə
ki, Xudavənd Rəbb belə deyir:
“Bütlərinizdən dönün, onları rədd
edin və bütün iyrənc işlərinizdən üz

[w]**13:10** Yer. 6:14; 8:11

döndərin. 7 Əgər İsrail nəslindən hər kəs
və İsraildə yaşayan qəriblərdən kimsə
Məni tərk etsə, öz bütünə könül verib
təqsir etməsinə bais olan şeyə səcdə
etsə və özü barədə Məndən soruşmaq
üçün peyğəmbərə müraciət etsə, Mən
Rəbb ona cavab verəcəyəm. 8 Mən
üzümü həmin adama qarşı çevirəcəyəm,
onu ibrət və kinayə hədəfi edəcəyəm,
xalqımın arasından silib atacağam.
Onda biləcəksiniz ki, Rəbb Mənəm.
9 Əgər peyğəmbər yoldan azıb bir
söz söyləsə, bilin ki, o peyğəmbərin
yoldan azmasına səbəb olan Mən
Rəbbəm. Mən ona qarşı əlimi qaldıracaq
və onu xalqım İsrailin arasından
silib-atacağam. 10 Onlar öz təqsirlərinin
cəzasını çəkəcək. Peyğəmbərdən
soruşanın cəzası necə olacaqsa,
peyğəmbərin də cəzası elə olacaq.
11 Bunu ona görə edəcəyəm ki, İsrail
nəsli bir də Mənim yolumdan sapmasın
və bir daha bütün günahları ilə
özlərini murdar etməsin. Beləcə onlar
Mənim xalqım, Mən də onların Allahı
olacağam” Xudavənd Rəbb belə bəyan
edir».
12 Mənə Rəbbin bu sözü nazil oldu:
13 «Ey bəşər oğlu, əgər bir ölkə Mənə
xain çıxıb günah edərsə, Mən ona qarşı
əlimi qaldıraram, çörəyinin kökünü
kəsib üstünə aclıq göndərərəm və
oradan insanla heyvanı silib ataram.
14 “Əgər Nuh, Daniel və Əyyub – bu üç
adam orada olsa belə, salehlikləri ilə
ancaq öz canlarını qurtarar” Xudavənd
Rəbb belə bəyan edir. 15 “Əgər Mən
bu ölkəyə vəhşi heyvanlar göndərsəm,
onlar oranı sakinsiz qoysa və o torpaq bu
heyvanlara görə xaraba qalıb keçilməz
olsa, 16 bu üç adam orada olsa belə”
bəyan edir Xudavənd Rəbb, “Varlığıma
and olsun, nə oğullarını, nə də qızlarını
qurtarar, yalnız öz canlarını qurtarar,
ölkə isə xaraba qalar. 17 Yaxud o ölkənin
üzərinə qılınc gətirsəm və ona ‹ey
qılınc, ölkəni qırıb keç› deyərək insanı
və heyvanı oradan silib atsam, 18 bu
üç adam orada olsa belə” bəyan edir
Xudavənd Rəbb, “Varlığıma and olsun,
nə oğullarını, nə də qızlarını qurtarar,
yalnız öz canlarını qurtarar. 19 Yaxud o
ölkəyə vəba göndərsəm, qan tökməklə
onun üstünə qəzəbimi yağdıraraq insanı
və heyvanı oradan silib atsam, 20 Nuh,
Daniel və Əyyub orada olsa belə” bəyan
edir Xudavənd Rəbb, “Varlığıma and
olsun, nə oğullarını, nə də qızlarını
qurtarar, salehlikləri ilə yalnız öz
canlarını qurtarar”.
21 [x]Çünki Xudavənd Rəbb belə deyir:
“Hələ Mən Yerusəlimdən insanı və
heyvanı silib atmaq üçün dörd ağır
cəzamı – qılıncı, aclığı, vəhşi heyvanları
və vəbanı onun üzərinə göndərəndə
daha nələr olacaq! 22 Amma orada
bir dəstə salamat qalacaq. Sağ qalan
oğlan və qızlar oradan çıxarılıb sizin
yanınıza gələcək. Siz də onların
əməllərini və işlərini görəcəksiniz.
Onda Yerusəlim üzərinə gətirdiyim
bəlaya görə, oraya etdiyim hər şeydən
ötrü təsəlli tapacaqsınız. 23 Onların
əməllərini və işlərini gördüyünüz zaman
bu sizə təsəlli olacaq. Onda biləcəksiniz
ki, oraya etdiyim hər şeyi boş-boşuna
etmədim” Xudavənd Rəbb belə bəyan
edir».

Yerusəlimin tənəklə müqayisəsi

15 Mənə Rəbbin bu sözü nazil oldu:
2 «Ey bəşər oğlu, üzüm tənəyinin
ağacı hər hansı bir meşə ağacındakı
budağın ağacından nə ilə üstündür?
3 Bir işdə istifadə etmək üçün ondan
ağac alınırmı? Üstünə əşyalar asmaq
üçün ondan payacıq düzəldilirmi?
4 Budur, o yanmaq üçün oda atılır.

---

[x]**14:21** Vəhy 6:8

Od onun uclarını yandırandan və
ortası qovrulandan sonra daha bir işə
yarayarmı? 5 Bütöv olanda da bir işə
yaramırdı, od onu yandırıb-qurtaranda
və ortası qovrulanda heç bir işə
yaramayacaq.
6 Buna görə də Xudavənd Rəbb belə
deyir: “Meşə ağacları arasında üzüm
tənəyini yanan şey kimi necə oda
verdimsə, Yerusəlimdə yaşayanları da
eləcə oda atacağam. 7 Mən üzümü onlara
qarşı çevirəcəyəm. Oddan qaçsalar da,
od yenə onları yandıracaq. Üzümü
onlara qarşı çevirəndə biləcəksiniz ki,
Rəbb Mənəm. 8 Ölkəni viran edəcəyəm,
çünki onlar xainlik etdi” Xudavənd
Rəbb belə bəyan edir».

Xəyanət etmiş Yerusəlim

16 Mənə Rəbbin bu sözü nazil
oldu: 2 «Ey bəşər oğlu, murdar
əməllərini Yerusəlimə bildirib söylə
ki, 3 Xudavənd Rəbb Yerusəlimə belə
deyir: “Əslin və mənşəyin Kənan
torpağındandır: atan Emorludur, anan
isə Xetli. 4 Doğulduğun gün göbək
bağın kəsilmədi, səni su ilə yuyub
təmizləmədilər, duzla ovulmadın və
qundağa bələnmədin. 5 Heç kəs sənə
şəfqətlə baxmadı, rəhm etmədi ki,
bunların birini sənə etsin. Doğulduğun
gün səndən iyrəndikləri üçün çölə
atıldın.
6 Mən sənin yanından keçərkən öz
qanın içində qımıldandığını gördüm
və öz qanında ikən sənə ‹Yaşa!› dedim.
Bəli, öz qanında ikən sənə ‹Yaşa!› dedim.
7 Səni çöl bitkiləri kimi çoxaltdım. Sən
boy atıb böyüdün və həddi-büluğa
çatdın. Döşlərin böyüdü, saçların
uzandı. Ancaq sən lüt və çılpaq idin.
8 Mən yanından keçəndə səni gördüm.
Bu vaxt sənin məhəbbət çağın idi. Mən
sənin üstünə ətəyimi atıb çılpaqlığını
örtdüm. And edib sənінlə əhd bağladım”
bəyan edir Xudavənd Rəbb, “sən də
Mənim oldun. 9 Mən səni su ilə yudum,
qanını tamamilə üstündən təmizlədim,
yağla məsh etdim. 10 Sənə əlvan naxışlı
paltar geyindirdim, ayağına yunusbalığı
dərisindən çarıq geydirdim, belinə incə
kətan qurşaq bağladım və səni ipəklərlə
örtdüm. 11 Səni bəzəklərlə bəzədim,
qollarına bilərzik, boynuna zəncir
taxdım. 12 Burnuna halqa, qulaqlarına
sırğa keçirdim və başına şərəf tacı
qoydum. 13 Sən qızıl-gümüşlə bəzəndin,
incə kətandan, ipəkdən və əlvan naxışlı
qumaşdan paltar geyindin. Narın un, bal
və zeytun yağı yedin. Həddindən artıq
gözəl oldun və padşahlıq əzəmətinə
yüksəldin. 14 Gözəlliyinə görə millətlər
arasında şöhrətləndin. Mənim sənə
bəxş etdiyim əzəmətdən ötrü gözəlliyin
qüsursuz idi” Xudavənd Rəbb belə
bəyan edir.
15 “Ancaq sən gözəlliyinə güvəndin,
şöhrətləndiyinə görə fahişəlik
etdin, hər yoldan keçənə özünü
təslim edib pozğunluq etdin. 16 Öz
paltarlarından götürüb özünə müxtəlif
səcdəgahlar düzəltdin və onların
üstündə fahişəlik etdin. Beləsi nə
olmuşdu, nə də olacaq. 17 Mənim sənə
verdiyim qızıl-gümüşümdən hazırlanan
zinətlərini götürüb özünə kişi surətləri
düzəltdin və onlarla pozğunluq etdin.
18 Əlvan naxışlı paltarını götürüb
onların üstünə örtdün, zeytun yağımı
və buxurumu onların önünə qoydun.
19 Sənə verdiyim çörəyimi, sənə
yedirdiyim narın unu, zeytun yağını və
balı da ətirli buxur olaraq onların önünə
qoydun. Bu iş baş verdi” Xudavənd
Rəbb belə bəyan edir.
20 “Mənim üçün doğduğun oğul və
qızlarını götürüb bütlərə yemək olsun
deyə qurban etdin. Fahişəliyin az idi
ki, 21 hələ övladlarımı da kəsdin və
onları bütlərə təqdim etdin? 22 Bütün
iyrənc işlərini və fahişəliyini edərkən
öz cavanlıq günlərini xatırlamadın,

o zaman lüt və çılpaq idin, öz qanın
içində qımıldanırdın”.
23 Xudavənd Rəbb bəyan edir:
“Vay, vay sənin halına! Sən bütün pis
əməllərindən sonra 24 özünə fahişəlik
yuvaları qurdun və hər meydanda
səcdəgahlar düzəltdin. 25 Hər yolun
başında öz səcdəgahlarını düzəltdin.
Öz gözəlliyini murdar etdin, hər
yoldan keçənə ayaqlarını araladın və
fahişəliyini artırdın. 26 Cinsiyyət üzvləri
böyük olan qonşuların Misirlilərlə
pozğunluq etdin, Məni qəzəbləndirmək
üçün fahişəliyini artırdın. 27 Buna görə
də əlimi sənə qarşı uzadıb sənə təyin
olunan yeməyi azaltdım. Sənə nifrət
edən Filişt qızları sənin lə istədikləri
kimi rəftar etsinlər deyə səni onlara
təslim etdim. Hətta onlar sənin əxlaqsız
əməllərindən utanır. 28 Aşşurlularla da
pozğunluq etdin, çünki doymurdun.
Onlarla pozğunluq etdin, ancaq bu da
sənə kifayət etmədi. 29 Öz pozğunluğunu
ticarət ölkəsi olan Xaldey torpağına
qədər yaydın, ancaq bu da sənə kifayət
etmədi”.
30 Xudavənd Rəbb bəyan edir:
“Bütün bunları edərkən ürəyin nə
qədər aciz oldu, sən həyasız fahişə
kimi davrandın. 31 Hər yolun başında
fahişəlik yuvaları qurarkən, bütün
meydanlarda səcdəgahlar düzəldərkən
hətta fahişə kimi də olmadın, çünki
işinin əvəzində verilən hədiyyəyə xor
baxdın. 32 Zina edən, ərinin əvəzinə
yadları qəbul edən bir qadın oldun.
33 Bütün fahişələrə hədiyyə verirlər,
ancaq bütün oynaşlarına sən hədiyyələr
verirsən. Onlara rüşvət verirsən ki,
hər tərəfdən sənin yanına gəlsinlər və
sənin lə pozğunluq etsinlər. 34 Fahişəlik
etməkdə başqa qadınlara bənzəmirsən,
çünki heç kəs sənin dalınca düşmür ki,
fahişəlik edəsən, əksinə, bunun üçün sən
hədiyyə verirsən, sənə hədiyyə verilmir.
Bu cəhətdən başqalarına bənzəmirsən”.
35 Buna görə də, ey fahişə, Rəbbin
sözünə qulaq as. 36 Xudavənd Rəbb
belə deyir: “Həyasızlığın aşkara
çıxdığı üçün, oynaşlarınla fahişəlik
edərkən çılpaqlığın açıldığı üçün, bütün
iyrənc bütlərindən və onlara qurban
verdiyin oğullarının qanından ötrü
– 37 bütün bunlara görə əyləndiyin
bütün oynaşlarını – sənin sevdiklərini
də, nifrət etdiklərini də bir yerə
yığacağam. Onları hər tərəfdən sənə
qarşı bir yerə yığacağam. Onların
önündə səni çılpaq edəcəyəm və ayıbını
bütünlüklə görəcəklər. 38 Zina edən və
qan tökən qadınlara verilən cəza ilə
səni cəzalandıracaq, qanlı qəzəbimə və
qısqanclığıma təslim edəcəyəm. 39 Səni
oynaşlarının əlinə verəcəyəm. Fahişəlik
yuvalarını dağıdacaq, səcdəgahlarını
uçuracaq, paltarlarını əynindən
soyunduracaq, zinətlərini əlindən
alacaq, səni lüt və çılpaq qoyacaqlar.
40 Camaatı üzərinə qaldıracaq, səni
daşqalaq edəcək və qılıncları ilə
parça-parça doğrayacaqlar. 41 Evlərinə
od vuracaq, çoxlu qadının gözü önündə
səni cəzalandıracaqlar. Fahişəliyinə son
qoyacağam və daha oynaşlarına hədiyyə
verməyəcəksən. 42 Beləcə sənin üzərində
qəzəbimi yatırdacağam, qısqanclığımı
söndürəcəyəm. Mən susacağam və
bir daha qəzəblənməyəcəyəm. 43 İndi
ki sən cavanlıq günlərini yadına
salmadın və bütün bu əməllərinlə Məni
hiddətləndirdin, Mən də əməllərinin
əvəzini başına gətirəcəyəm” bəyan edir
Xudavənd Rəbb. “Bütün iyrənc işlərinə
əlavə olaraq pozğunluq etmədinmi?
44 Bax məsəl söyləyən hər kəs
sənə qarşı bu məsəli deyəcək: ‹Anası
necədirsə, qızı da elədir›. 45 Sən ərindən
və övladlarından ikrah edən ananın
qızısan, sən ərlərindən və övladlarından
ikrah edən bacılarının bacısısan. Ananız
Xetli, atanız isə Emorlu idi.

46 Böyük bacın öz qızları ilə sənin
şimalında yaşayan Samariyadır. Kiçik
bacın isə qızları ilə sənin cənubunda
yaşayan Sodomdur. 47 Ancaq sən onların
yolları ilə də getmədin, onların etdiyi
iyrənc işlər qədər də etmədin. Bütün
bunları kiçik bir iş sayıb öz əməllərində
onlardan da pozğun oldun. 48 Varlığıma
and olsun" bəyan edir Xudavənd
Rəbb, "bacın Sodomla qızları sənin lə
qızlarının etdiyi işləri etmədi. 49 Bacın
Sodomun və onun qızlarının günahı
bundan ibarət idi: qürur, toxluq və
qayğısızlıq içində yaşayarkən məzluma
və fəqirə əl tutmadılar. 50 Qürurlanıb
Mənim önümdə iyrənc işlər etdilər. Mən
bunu görəndə onları rədd etdim.
51 Samariya sənin etdiyin günahların
yarısını belə, etməmişdi. İyrənc işlərdə
onları da ötüb keçdin. Beləcə etdiyin
iyrənc işlərlə bacılarını saleh kimi
göstərdin. 52 Sən də öz rüsvayçılığının
yükünü daşı, çünki bacılarını
təmizə çıxardın. Etdiyin günahlar
onlarınkından da iyrənc olduğuna
görə onlar səndən saleh göründü.
Xəcalətindən utan, öz rüsvayçılığının
yükünü daşı, çünki bacılarını saleh kimi
göstərdin.
53 Sodomdan və onun qızlarından
sürgün olunmuşları, Samariyadan
və onun qızlarından sürgün
olunmuşları, onlarla birgə səndən
sürgün olunmuşları yenidən öz
yerlərinə qaytaracağam. 54 Onda öz
rüsvayçılığının yükünü daşıyacaqsan və
etdiyin hər işdən utanacaqsan, çünki
sən onlara təsəlli oldun. 55 Bacıların
Sodomla qızları əvvəlki vəziyyətlərinə
qayıdacaq, Samariya ilə qızları əvvəlki
vəziyyətlərinə qayıdacaq, sən və qızların
da əvvəlki vəziyyətinizə qayıdacaqsınız.
56 Pisliyin üzə çıxmadan, qürurlu
olduğun günlərdə bacın Sodomun adını
çəkməzdin. 57 İndi sən ətrafındakıların
hamısı ilə birgə Aram qızları və Filişt
qızları – səni təhqir edən ətraf xalqlar
tərəfindən rüsvay edilirsən. 58 Sən
pozğunluğunun və iyrənc əməllərinin
cəzasını çəkəcəksən" Rəbb belə bəyan
edir.
59 Bəli, Xudavənd Rəbb belə deyir:
"Sən əhdi pozub anda xor baxdın.
Buna görə də sən necə etdinsə, Mən
də sənə elə edəcəyəm. 60 Ancaq Mən
cavanlıq günlərində sənin lə etdiyim
əhdimi yada salacağam. Sənin lə əbədi
bir əhd bağlayacağam. 61 Səndən
böyük və səndən kiçik bacılarını
yanına aldığın zaman öz əməllərini
yada salıb utanacaqsan. Qızların
olmaq üçün onları sənə verəcəyəm,
amma sənin lə bağladığım əhddə
bu yox idi. 62 Sənin lə yenidən əhd
bağlayacağam və biləcəksən ki, Rəbb
Mənəm. 63 Eləcə bütün etdiklərini
bağışladığım zaman bunu yada salıb
utanacaqsan, rüsvayçılığından bir daha
ağzını açmayacaqsan" Xudavənd Rəbb
belə bəyan edir».

İsrailin qartal və tənəklə müqayisəsi

17 Mənə Rəbbin bu sözü nazil
oldu: 2 «Ey bəşər oğlu, İsrail
nəslinə bir tapmaca de və bir məsəl
danışıb 3 söylə ki, Xudavənd Rəbb belə
deyir: "Qanadları böyük, lələkləri uzun,
üstü rəngbərəng tüklərlə dolu iri bir
qartal Livana uçdu və sidr ağacının
başından bir zoğ götürdü. 4 Onun
körpə budaqlarının başını qoparıb
ticarət ölkəsinə apardı və onu tacirlər
şəhərinə qoydu. 5 O torpağın toxumunu
götürüb bərəkətli torpaqda əkdi. Söyüd
ağacı əkilən kimi onu gur axan suların
kənarında yerləşdirdi. 6 O da böyüyüb
enli, balacaboy bir üzüm meynəsi oldu.
Budaqları qartala doğru əyilirdi, kökləri
isə altında qalırdı. Beləcə şaxə verən,
budaq salan bir üzüm tənəyi oldu.
7 Böyük qanadları, çoxlu tükləri
olan başqa iri qartal da var idi. Üzüm

tənəyi köklərini ona tərəf döndərdi,
budaqlarını əkildiyi ləklərdən ona doğru
uzatdı ki, sulansın. 8 O, gur axan suların
kənarında, bərəkətli torpaqda əkildi
ki, qol-budaq atsın, meyvə yetirsin və
möhtəşəm bir üzüm tənəyi olsun”.
9 Sən söylə ki, Xudavənd Rəbb
belə deyir: “Bu üzüm tənəyi bəhərli
olacaqmı? Əvvəlki qartal onun köklərini
qırıb meyvələrini qurumaq üçün
qoparmayacaqmı? Onun təzə bitən
bütün pöhrələri quruyacaq. Kökündən
qırıb atmaq üçün böyük qüvvəyə yaxud
çoxlu adama ehtiyac olmayacaq. 10 O
əkilsə də, bəhrəsi olacaqmı? Şərq
küləyi ona toxunan kimi tamamilə
qurumayacaqmı? Bəli, bitdiyi ləklərdə
quruyacaq”».
11 Mənə Rəbbin bu sözü nazil oldu:
12 [y]«İndi o üsyankar nəslə söylə: “Bu
şeylərin mənasını bilmirsinizmi?”
Onlara de: “Budur, Babil padşahı
Yerusəlimə gəldi, oranın padşahını və
başçılarını götürüb Babilə, öz yanına
apardı. 13 Padşah nəslindən olan bir
nəfəri götürərək onunla əhd kəsib
and içdirdi. Ölkənin igid adamlarını
da götürüb apardı ki, 14 padşahlıq
alçaldılıb daha qalxa bilməsin və
əhdinə sadiq olub yerində qalsın.
15 Ancaq Yəhuda padşahı atlar və çoxlu
əsgər versinlər deyə elçilərini Misirə
göndərərək Babil padşahına qarşı üsyan
qaldırdı. O uğur qazanacaqmı? Bu işləri
görən salamat qalacaqmı? Əhdi pozan
salamat qalacaqmı?” 16 Xudavənd Rəbb
bəyan edir: “Varlığıma and olsun ki,
hökmən onu taxta oturdan padşahın
ölkəsində – Babildə öləcək, çünki içdiyi
anda xor baxdı, bağladığı əhdi pozdu.
17 Babillilər çoxlu adam qırmaq üçün
torpaq qalağı və mühasirə divarları
düzəldəndə firon güclü ordusu, böyük
qoşunu ilə müharibədə ona kömək edə
bilməyəcək. 18 Çünki o, əhdi pozaraq
içdiyi anda xor baxdı, söz verdiyi halda
bütün bu işləri etdiyinə görə özü də
qaçıb qurtara bilməyəcək”.
19 Buna görə də Xudavənd Rəbb belə
deyir: “Varlığıma and olsun ki, önümdə
içdiyi anda xor baxdığına görə, əhdimi
pozduğu üçün onu cəzalandıracağam.
20 Onun üstünə Öz torumu sərəcəyəm,
onu Öz tələmə salıb Babilə gətirəcəyəm.
Mənə xəyanət etdiyinə görə orada onu
mühakimə edəcəyəm. 21 Onun bütün
fərari əsgərləri qılıncla həlak olacaq,
yerdə qalanlar küləyin əsdiyi dörd
tərəfə dağılacaq. Onda biləcəksiniz ki,
Mən Rəbb bunu söylədim”.
22 Xudavənd Rəbb belə deyir:
“Mən hündür sidr ağacının başından
Bir zoğ götürüb əkəcəyəm.
Onun budaqlarının başından
Zərif bir budaq qoparacağam,
Onu hündür, dik bir dağın zirvəsində
əkəcəyəm.
23 Onu İsrailin uca dağına əkəcəyəm.
O, qol-budaq atıb meyvə verəcək,
Möhtəşəm bir sidr ağacı olacaq.
Hər cür quş onun altına sığınacaq,
Budaqlarının kölgəsində yuva
quracaq.
24 Bütün çöl ağacları biləcək ki,
Hündür ağacı Mən Rəbb alçaltdım,
Alçaq ağacı yüksəltdim,
Yaşıl ağacı qurutdum,
Quru ağacı yaşıllaşdırdım.
Mən Rəbb bunu söylədim və
Hökmən yerinə yetirəcəyəm”».

Əməllər üçün cavabdehlik

18 Mənə Rəbbin bu sözü nazil oldu:
2 [z]«Siz İsrail torpağı üçün
“Atalar kal üzüm yedi,
Oğulların dişi qamaşır”
məsəlini söyləyərək nə demək
istəyirsiniz? 3 Xudavənd Rəbb bəyan

[y] **17:12** 2Pad. 24:15-20; 2Saln. 36:10-13
[z] **18:2** Yer. 31:29

edir: “Varlığıma and olsun ki, daha siz
İsraildə bu məsəli söyləməyəcəksiniz.
4 Axı bütün adamlar Mənimdir: atanın
canı Mənim olduğu kimi oğulun da canı
Mənimdir. Yalnız günah işlədən adam
öləcək.
5 Əgər bir adam salehdirsə,
Ədalətli və saleh işlər görürsə,
6 Dağlarda gətirilən qurbandan
yemirsə,
Gözlərini İsrail nəslinin bütlərinə
dikmirsə,
Qonşusunun arvadını ləkələmirsə,
Aybaşı olan qadınla yaxınlıq etmirsə,
7 Kimsəyə haqsızlıq etmirsə,
Borclunun girovunu qaytarırsa,
Soyğunçuluq etmirsə,
Ac olana çörək verirsə,
Çılpaq olanı geyindirirsə,
8 Sələmlə borc pul vermirsə,
Müamilə götürmürsə,
Pis əməldən çəkinirsə,
İki adam arasında ədalətlə mühakimə
edirsə,
9 [a]Mənim qaydalarıma görə rəftar
edirsə,
Hökmlərimə sədaqətlə əməl edirsə,
Bu adam salehdir və
Əlbəttə, yaşayacaq”
Xudavənd Rəbb belə bəyan edir.
10 “Deyək ki bu adamın bir oğlu olur.
Əgər bu oğul zorakılıq edib qan
tökürsə,
Soydaşına qarşı bu işlərdən birini
görürsə,
11 Atası bunlardan heç birini etmədiyi
halda,
Oğul dağlarda gətirilən qurbandan
yeyirsə,
Qonşusunun arvadını ləkələyirsə,
12 Fəqirə və yoxsula haqsızlıq edirsə,
Soyğunçuluq edirsə,
Girovu qaytarmırsa,
Gözlərini bütlərə dikirsə,
İyrənc işlər görürsə,
13 Sələmlə borc pul verib müamilə
götürürsə,
Belə oğul yaşayacaqmı?
Xeyr, o yaşamayacaq.
Bütün bu iyrənc işləri gördüyü üçün
öldürülməlidir.
Ölümü üçün də özü məsuliyyət
daşıyacaq.
14 Deyək ki bu oğulun da bir oğlu
olur.
Bu oğul atasının etdiyi bütün
günahları görüb,
Diqqət edərək belə işlər etmirsə,
15 Dağlarda gətirilən qurbandan
yemirsə,
Gözlərini İsrail nəslinin bütlərinə
dikmirsə,
Qonşusunun arvadını ləkələmirsə,
16 Kimsəyə haqsızlıq etmirsə,
Girov almırsa,
Soyğunçuluq etmirsə,
Ac olana çörək verirsə,
Çılpaq olanı geyindirirsə,
17 Məzlumdan əl çəkirsə,
Sələm almırsa,
Müamilə götürmürsə,
Hökmlərimə əməl edib
Qaydalarıma görə rəftar edirsə,
Atasının günahına görə ölməyəcək,
Əlbəttə, yaşayacaq.
18 Bu oğulun atası isə
İnsafsızlıqla qəddarlıq etdiyi üçün,
Soydaşını qarət etdiyinə görə,
Xalqı içində pis işlər gördüyü üçün
Öz təqsirindən ötrü, əlbəttə, öləcək.
19 Ancaq siz ‹atanın etdiyi təqsirin
məsuliyyətini nə üçün oğul daşımasın?›
deyirsiniz. Oğul ədalətli və saleh işlər
gördü, bütün qaydalarıma riayət edib
onlara əməl etdi. Əlbəttə, bu adam
yaşayacaq. 20 [b]Yalnız günah işlədən
adam öləcək. Oğul atanın təqsirinin
məsuliyyətini daşımaz, ata da oğulun

[a]**18:9** Lev. 18:5 [b]**18:20** Qanun. 24:16; 2Pad. 14:6; 2Saln. 25:4

təqsirinin məsuliyyətini daşımaz.
Saleh adam salehliyinin, pis adam isə
pisliyinin əvəzini alacaq.
21 Pis adam etdiyi bütün günahlardan
dönərsə, bütün qaydalarıma riayət
edib ədalətli və saleh işlər görərsə,
əlbəttə, ölməyib yaşayacaq. 22 Etdiyi
günahlardan heç biri onun ayağına
yazılmayacaq, gördüyü saleh işlərlə
yaşayacaq". 23 Xudavənd Rəbb bəyan
edir: "Elə bilirsiniz ki, Mən pis adamın
ölümündən zövq alıram? İstəyirəm ki, o
öz yolundan dönsün və yaşasın.
24 Ancaq saleh adam öz salehliyindən
dönüb pislik edərsə, pis adamın
etdiyi bütün iyrənc işləri görərsə,
yaşayacaqmı? Etdiyi saleh işlərindən
heç biri onun ayağına yazılmayacaq.
Etdiyi xainlik və işlədiyi günahından
ötrü öləcək.
25 Ancaq siz ‹Xudavəndin yolu düz
deyil› deyirsiniz. Ey İsrail nəsli, indi
qulaq asın: Mənimmi yolum düz deyil?
Düz olmayan sizin yollarınız deyilmi?
26 Saleh adam öz salehliyindən dönüb
pislik edərsə, buna görə öləcək. Bəli,
etdiyi pisliyə görə öləcək. 27 Pis adam
da etdiyi pislikdən dönüb ədalətli və
saleh işlər görərsə, öz həyatını qoruyar.
28 Bir halda ki diqqət edib elədiyi
bütün günahlardan dönürsə, əlbəttə,
ölməyib yaşayacaq. 29 Ancaq İsrail nəsli
‹Xudavəndin yolu düz deyil› deyir. Ey
İsrail nəsli, Mənimmi yollarım düz
deyil? Düz olmayan sizin yollarınız
deyilmi? 30 Buna görə, ey İsrail nəsli,
sizin hər birinizi əməllərinizə görə
mühakimə edəcəyəm" Xudavənd Rəbb
belə bəyan edir. "Tövbə edib bütün
günahlarınızdan dönün ki, təqsir sizi
məhvə sürükləməsin. 31 Etdiyiniz
günahların hamısını üstünüzdən
götürün, özünüzdə yeni ürək və yeni
ruh yaradın. Nə üçün öləsiniz, ey
İsrail nəsli?" 32 Xudavənd Rəbb bəyan
edir: "Mən məhv olacaq adamın
ölümündən zövq almıram. Buna görə də
günahlardan dönün və yaşayın".

İsrail rəhbərləri üçün mərsiyə

19 Sən İsrail rəhbərləri üçün
mərsiyə oxuyub söylə:
2 "Sənin anan nə idi?
Şirlər arasında dişi bir şir!
O, cavan aslanların içində yatardı,
Balalarını bəsləyərdi.
3 O, balalarından birini böyütdü,
Bala cavan bir şir oldu.
Şikar etməyi öyrəndi,
Adamları yeməyə başladı.
4 Millətlər onun xəbərini eşitdi,
Bu şir onların quyusuna düşüb ələ
keçdi.
Burnuna halqa taxıb onu
Misir torpağına gətirdilər.
5 Dişi şir boş yerə gözlədiyini,
Ümid qalmadığını görəndə
Balalarından birini götürüb
Cavan bir şir etdi.
6 Bu bala şirlər arasında gəzirdi.
O da cavan bir şir olub
Şikar etməyi öyrəndi,
Adamları yeməyə başladı.
7 Onların qəsrlərini dağıtdı, *
Şəhərlərini viran etdi.
Bu şirin nərə səsindən
Ölkə və onun əhalisi dəhşət içində idi.
8 Ətraf ölkələrin millətləri
Onun üstünə gəldi,
Öz torlarını üzərinə atdı,
Bu şir onların quyusuna düşüb ələ
keçdi.
9 Onun burnuna halqa taxıb qəfəsə
saldılar.
Onu Babil padşahının yanına
gətirdilər.

---

*19:7 *Qəsrlərini dağıtdı* – arami tərcüməsində belədir, ibrani mətnində isə *dul qadınlarını tanıdı.*

Sonra qalaya saldılar ki,
İsrail dağları üzərində
Bir daha səsi eşidilməsin.
10 Sənin anan da çay kənarındakı
bağında
Əkilmiş bir üzüm tənəyi kimi idi.
Bol sulardan bəhərli oldu,
Çoxlu qol-budaq verdi.
11 Onun budaqları
Padşah əsası olacaq qədər gücləndi,
Boyu hündür ağaclara qədər ucaldı,
Onun çoxlu budaqları ilə
Hündürlüyü görünürdü.
12 Ancaq onu qəzəblə
Kökündən çıxarıb yerə atdılar,
Şərq küləyi onun meyvəsini qurutdu,
Möhkəm budaqları qoparıldı,
Onlar qurudu,
Onları od yandırıb-yaxdı.
13 O indi
Çöldə, quraq və susuz torpaqda əkildi.
14 Gövdəsinin bir budağından od
çıxdı,
Onun meyvəsini yandırıb-yaxdı.
Onda padşah əsası olmaq üçün
Bir möhkəm budaq da qalmadı”.
Bu bir mərsiyə idi, mərsiyə olaraq da qalacaq».

Xəyanətkar İsrail

20 Sürgünlüyümüzün yeddinci ilində, beşinci ayın onuncu günü İsrailin bəzi ağsaqqalları Rəbdən soruşmaq üçün gəlib önümdə oturdu.
2 Mənə Rəbbin bu sözü nazil oldu:
3 «Ey bəşər oğlu, İsrail ağsaqqallarına söyləyib bildir ki, Xudavənd Rəbb belə deyir: “Siz Məndən soruşmağa gəldinizmi? Varlığıma and olsun ki, Mən sizin çağırışınıza cavab verməyəcəyəm” Xudavənd Rəbb belə bəyan edir.
4 Onları mühakimə edəcəksənmi, ey bəşər oğlu, mühakimə edəcəksənmi? Onlara atalarının iyrənc işlərini bildirib söylə ki, 5 [c]Xudavənd Rəbb belə bəyan edir: “O gün Mən İsraili seçdim, Yaqub nəslinin övladlarına and içdim, Misir torpağında Özümü onlara aşkar etdim və ‹Allahınız Rəbb Mənəm› deyə and içdim. 6 O gün söz verdim ki, onları Misir torpağından özləri üçün nəzərdə tutduğum bütün ölkələrdən gözəl olan, süd və bal axan torpağa çıxaracağam.
7 Mən onlara dedim: ‹Hər kəs gözünə xoş gələn iyrənc şeyləri atsın. Özünüzü Misir bütləri ilə murdarlamayın, Allahınız Rəbb Mənəm›. 8 Ancaq onlar Mənə qarşı üsyankar oldu və qulaq asmaq istəmədi. Heç biri gözünə xoş gələn iyrənc şeyləri atmadı və Misir bütlərindən əl çəkmədi. Ona görə Mən dedim: ‹Misir torpağında qəzəbimi üstlərinə tökəcəyəm, hədsiz qızğınlığımı onlara göstərəcəyəm›. 9 Ancaq Mən Öz adım naminə elə etdim ki, aralarında yaşadıqları millətlərin gözündə adım ləkələnməsin, çünki bu millətlərin gözü önündə İsrail övladlarını Misir torpağından çıxarmaqla Özümü onlara göstərdim.
10 Mən onları Misir torpağından çıxarıb səhraya gətirdim. 11 [d]Onlara qaydalarımı verib hökmlərimi bildirdim. Əgər insan bu hökmlərə əməl etsə, onların vasitəsilə yaşayar. 12 [e]Onlara Öz Şənbə günlərimi də verdim ki, Mənimlə onların arasında əlamət olsun və onları təqdis edənin Mən Rəbb olduğunu bilsinlər. 13 Ancaq İsrail nəsli səhrada Mənə qarşı üsyankar oldu. Qaydalarıma görə rəftar etmədilər, hökmlərimi rədd etdilər. Əgər insan bu hökmlərə əməl edərsə, onların vasitəsilə yaşayar. Onlar Mənim Şənbə günlərimə də heç məhəl qoymadı. Ona görə Mən dedim: ‹Səhrada onları məhv etmək üçün qızğınlığımı üstlərinə tökəcəyəm›.
14 Ancaq Mən Öz adım naminə elə

[c]**20:5** Çıx. 6:2-8 [d]**20:11** Lev. 18:5 [e]**20:12** Çıx. 31:13-17

etdim ki, millətlərin gözündə adım
ləkələnməsin, çünki bu millətlərin
gözü önündə İsrail övladlarını Misirdən
çıxarmışdım. 15 [f]Mən də səhrada onlara
and içdim ki, onları bütün ölkələrdən
gözəl olan, özlərinə verdiyim süd və
bal axan torpağa gətirməyəcəyəm.
16 Çünki hökmlərimi rədd etdilər,
qaydalarıma görə rəftar etmədilər və
Şənbə günlərimə məhəl qoymadılar.
Ona görə ki onların ürəkləri bütlərinə
tərəf meyl edirdi. 17 Ancaq Mənim
onlara yazığım gəldi, onları həlak
etmədim və səhrada qırıb-çatmadım.
18 Səhrada onların övladlarına
dedim: ‹Atalarınızın qaydasına görə
rəftar etməyin, hökmlərinə riayət
etməyin və onların bütləri ilə özünüzü
murdarlamayın. 19 Allahınız Rəbb
Mənəm. Mənim qaydalarıma görə rəftar
edin, hökmlərimə riayət edin və onlara
əməl edin. 20 Şənbə günlərimi təqdis
edin. Qoy onlar Mənimlə sizin aranızda
əlamət olsun. Onda biləcəksiniz ki,
Allahınız Rəbb Mənəm›. 21 Ancaq
övladlar da Mənə qarşı üsyankar oldu.
Qaydalarıma görə rəftar etmədilər,
hökmlərimə riayət və əməl etmədilər.
Əgər insan bu hökmlərə əməl etsə,
onların vasitəsilə yaşayar. Onlar Mənim
Şənbə günlərimə də məhəl qoymadı.
Ona görə Mən dedim: ‹Səhrada onları
məhv etmək üçün qəzəbimi üstlərinə
tökəcəyəm, hədsiz qızğınlığımı onlara
göstərəcəyəm›. 22 Ancaq Mən onlardan
əl götürdüm və bunu Öz adım naminə
etdim ki, millətlərin gözündə adım
ləkələnməsin, çünki bu millətlərin gözü
önündə İsrail övladlarını çıxarmışdım.
23 [g]Mən səhrada özlərinə and içib dedim
ki, onları millətlər arasına yayacağam,
ölkələr arasına səpələyəcəyəm. 24 Çünki
onlar hökmlərimə əməl etmədi,
qaydalarımı rədd etdi, Şənbə günlərimə
məhəl qoymadı və gözləri atalarının
bütlərinə dikildi. 25 Mən də onlara
xeyirli olmayan qaydalar və həyat verə
bilməyən hökmlər verdim. 26 İmkan
verdim ki, hər ilk doğulan övladı oddan
keçirərək qurban etdikləri hədiyyələrlə
özlərini murdarlasınlar. Bunu etdim ki,
onları dəhşətə salım, qoy bilsinlər ki,
Rəbb Mənəm”.
27 Ey bəşər oğlu, buna görə də
İsrail nəslinə müraciət edib söylə ki,
Xudavənd Rəbb belə deyir: “Atalarınız
bununla yenə xəyanət edərək Mənə
küfr etdi. 28 Mən onları vəd etdiyim
torpağa gətirəndə hər yüksək təpəni, hər
qollu-budaqlı ağacı görüb qurbanlarını
orada kəsdilər, Mənim qəzəbimə səbəb
olan qurbanlarını orada təqdim etdilər,
ətirli təqdimlərini orada qoydular və
içmə təqdimlərini orada səpdilər. 29 Ona
görə Mən onlara dedim: ‹Getdiyiniz
o səcdəgah nədir?› Bura indiyə qədər
Bama [*]adlanır”.
30 Buna görə də İsrail nəslinə söylə
ki, Xudavənd Rəbb belə deyir: “Siz
atalarınızın yolu ilə gedib onların iyrənc
işləri ilə pozğunluq edərək özünüzü
murdar edərsinizmi? 31 İndiyə qədər
hədiyyələr gətirərək oğullarınızı oda
qurban verərək özünüzü bütlərinizlə
murdar edirsiniz. Hələ bununla da
Məndən soruşmaq istəyirsiniz, ey
İsrail nəsli?” Xudavənd Rəbb bəyan
edir: “Varlığıma and olsun ki, Məndən
soruşmağınıza icazə verməyəcəyəm.
32 Ağlınıza gələn şey heç vaxt həyata
keçməyəcək. Siz deyirdiniz: ‹Millətlər,
yadelli tayfalar kimi biz də ağaca və
daşa sitayiş edəcəyik›”.
33 Xudavənd Rəbb bəyan edir:
“Varlığıma and olsun ki, sizin
üzərinizdə qüdrətli əllə, uzanan qolla

[*]**20:29** *Bama* – ibrani dilində *səcdəgah*, həmçinin *ba – getmək, ma* – nədir deməkdir.

[f]**20:15** Say. 14:26-35 [g]**20:23** Lev. 26:33

və güclü qəzəblə hökmən padşahlıq
edəcəyəm. 34 Mən sizi qüdrətli əllə,
uzanan qolla və güclü qəzəblə xalqlar
arasından çıxaracağam, səpələndiyiniz
ölkələrdən bir yerə toplayacağam.
35 Sizi xalqların səhrasına gətirəcək və
orada üz-üzə mühakimə edəcəyəm.
36 Atalarınızı Misir torpağının
səhrasında necə mühakimə etdimsə,
sizi də eləcə mühakimə edəcəyəm”
Xudavənd Rəbb belə bəyan edir. 37 “Sizi
əsanın altından keçirəcək və əhdlə
bağlayacağam. 38 Sizin aranızdan
Mənə qarşı üsyankar olanları və
qanunsuzluq edənləri ayıracağam.
Onları müvəqqəti qaldıqları ölkədən
çıxaracağam, ancaq İsrail torpağına
girməyəcəklər. Onda biləcəksiniz ki,
Rəbb Mənəm”. 39 Xudavənd Rəbb belə
deyir: “Siz ey İsrail nəsli, gedin hər
biriniz öz bütlərinizə qulluq edin. Ancaq
bundan sonra Mənə qulaq asacaq,
hədiyyələriniz və bütlərinizlə bir daha
müqəddəs adımı ləkələməyəcəksiniz”.
40 Xudavənd Rəbb bəyan edir:
“Müqəddəs dağım olan İsrailin uca
dağında, həmin ölkədə hamı – bütün
İsrail nəsli Mənə qulluq edəcək.
Orada onlardan razı olacağam.
Bütün müqəddəs şeylərinizlə
birgə təqdimlərinizi və ən seçmə
hədiyyələrinizi sizdən qəbul edəcəyəm.
41 Sizin arasında çıxardığım və
səpələndiyiniz ölkələrdən topladığım
zaman ətirli təqdim kimi sizdən razı
qalacağam. Millətlərin gözü önündə
sizin aranızda müqəddəs tutulacağam.
42 Sizi atalarınıza verməyi vəd etdiyim
torpağa – İsrail torpağına gətirdiyim
zaman biləcəksiniz ki, Rəbb Mənəm.
43 Orada əməllərinizi və bütün işlərinizi
yada salacaqsınız, bu işlərlə siz
özünüzü murdar etdiniz. Etdiyiniz
bütün pisliklərə görə öz-özünüzdən
iyrənəcəksiniz. 44 Ey İsrail nəsli, pis
əməllərinizə və pozğun işlərinizə görə
deyil, ancaq Öz adım naminə sizinlə
belə rəftar edəndə biləcəksiniz ki, Rəbb
Mənəm” Xudavənd Rəbb belə bəyan
edir».
45 Mənə yenə Rəbbin sözü nazil
oldu: 46 «Ey bəşər oğlu, üzünü cənuba
doğru çevirib cənuba tərəf danış və
Negev meşəsinə qarşı peyğəmbərlik
et. 47 Negev meşəsinə söylə ki, Rəbbin
sözünü dinləsin. Xudavənd Rəbb
belə deyir: “Mən sənin içində od
yandıracağam və səndə olan bütün
yaşıl və quru ağacları yandırıb-yaxacaq.
Alışan alov sönməyəcək, cənubdan
şimala qədər bütün üzlər odda
qovrulacaq. 48 Bütün bəşər görəcək
ki, odu Mən Rəbb alışdırdım və o
sönməyəcək”». 49 Mən dedim: «Ah, ya
Xudavənd Rəbb! Onlar mənim barəmdə
belə deyir: “Bu adam ancaq məsəllərlə
danışır, elə deyilmi?”»

Rəbbin cəza qılıncı

21 Mənə Rəbbin bu sözü nazil
oldu: 2 «Ey bəşər oğlu, üzünü
Yerusəlimə tərəf çevirib Müqəddəs
məkanlara qarşı danış və İsrail
torpağının əleyhinə peyğəmbərlik et.
3 Sən İsrail torpağına söylə ki, Rəbb belə
deyir: “Budur, Mən sənin əleyhinəyəm.
Qılıncımı qınından çıxararaq sənin
içində olan salehi də, pis adamı da
qırıb-çatacağam. 4 Sənin içində olan
salehi də, pis adamı da qırıb-çatım deyə
Mənim qılıncım cənubdan şimaladək
ərazidə yaşayan bütün bəşərin üzərinə
enmək üçün qınından çıxacaq. 5 Onda
bütün bəşər biləcək ki, Mən Rəbb
qılıncımı qınından çıxardım və bir daha
yerinə qayıtmayacaq”.
6 İçini çək, ey bəşər oğlu, sən belini
büküb onların gözü önündə acı-acı
içini çək. 7 Onlar sənə “Nəyə görə içini
çəkirsən?” söyləyəndə onlara deyərsən:
“Gələn xəbərə görə. Hər ürək əriyəcək,
hər əl yanına düşəcək, bütün ruhlar

zəifləyəcək və bütün dizlər titrəyəcək.
O xəbər gəlir, bunlar yerinə yetəcək”
Xudavənd Rəbb belə bəyan edir».
8 Mənə Rəbbin bu sözü nazil oldu:
9 «Ey bəşər oğlu, peyğəmbərlik edib
söylə ki, Xudavənd belə deyir:
“Söylə ki, qılınc, qılınc
İtilənib, cilalanıb.
10 Öldürmək üçün itilənib,
Şimşək kimi çaxsın deyə cilalanıb.
Necə sevinə bilərik?
Qılınc oğlumun əsasına
Hər hansı bir əl ağacı kimi xor baxdı.
11 Qılınc əldə tutulmaq üçün
Cilalanmağa verildi.
Öldürənin əlinə verilsin deyə
İtilənib cilalandı.
12 Ey bəşər oğlu, fəryad edib ağla.
Çünki bu qılınc xalqıma və
Bütün İsrail rəhbərlərinə qarşı qalxıb.
Onlar xalqımla birgə
Qılınca təslim edildi.
Bunun üçün sinə döy”.
13 Xudavənd Rəbb bəyan edir:
“Qarşıda sınaq var.
Qılıncın xor baxdığı əsa
Daha salamat qalmazsa, nə olar?
14 Sən ey bəşər oğlu, peyğəmbərlik et,
Əllərini bir-birinə vur.
Qoy qılınc iki, üç dəfə vursun.
O öldürən bir qılıncdır,
Çoxlu adam qıran,
İnsanı hər tərəfdən saran qılıncdır.
15 Onların ürəyi ərisin,
Yerə sərilənlər çox olsun deyə
Bütün darvazalarında qırğın qılıncı
qoydum.
Ah, o, şimşək kimi parıldadı,
Öldürmək üçün sıyrıldı.
16 Ey qılınc, sağa-sola dönüb kəs,
Sağa dön, sola dön,
Üzün hara çevrilsə, ora get.
17 Mən də əllərimi bir-birinə
vuracağam,
Beləcə qəzəbimi yatırdacağam.
Bunu Mən Rəbb söylədim”».
18 Mənə Rəbbin bu sözü nazil
oldu: 19 «Sən ey bəşər oğlu, Babil
padşahının qılıncının gəlməsi üçün
iki yol hazırla, ikisi də bir ölkədən
çıxsın. Bir yerdə nişan qoy, onu şəhər
yolunun başında qoy. 20 Qılınc Ammon
övladlarının Rabba şəhərinə, Yəhudaya
və qalalı Yerusəlimə yönəlsin deyə
yol hazırla. 21 Çünki Babil padşahı
yolayrıcında – iki yolun başında
falçılıq etmək üçün dayanacaq. Oxları
qarışdıracaq, ev bütlərindən soruşacaq,
kəsilən bir heyvanın qaraciyərinə
baxacaq. 22 Onun sağ əlində Yerusəlimi
göstərən fal var. Orada qoçbaşı alətləri
qoyacaq, öldürmək əmri verəcək, döyüş
nidası ucaldacaq, qoçbaşı alətlərini
darvazaların önündə qoyacaq, torpaq
qalağı və mühasirə divarları düzəldəcək.
23 Onunla and içib saziş bağlayanlar
falın yalan olduğunu güman edəcək.
Ancaq padşah təqsirlərini xatırlayıb
onları əsir alacaq.
24 Buna görə də Xudavənd Rəbb
belə deyir: “İndi ki təqsirlərinizi və
üsyankarlığınızı göstərməklə bunları
yada saldınız, bütün işlərinizdə
günahlarınız aşkara çıxdı və yada
salındınız, mütləq əsir düşəcəksiniz.
25 Sən ey murdar və pis olan İsrail
rəhbəri, günün çatdı, nəhayət, cəza
vaxtın gəldi”. 26 Xudavənd Rəbb belə
deyir: “Çalmanı və tacı götür. Daha
bu belə olmayacaq. Alçalanı yüksəlt,
yüksələni alçalt. 27 Viran, viran, viran
qoyacağam şəhəri! Haqq sahibi gələnə
qədər bərpa olunmayacaq. Mən şəhəri
ona verəcəyəm”.
28 [h]Sən ey bəşər oğlu, peyğəmbərlik
edib söylə ki, Ammonlular və onların
etdikləri təhqirə görə Xudavənd Rəbb
belə deyir:

---

[h]**21:28** Yer. 49:1-6; Yez. 25:1-7; Amos 1:3-15; Sef. 2:8-11

"Qılınc, qılınc həlak etmək üçün
sıyrılıb,
Qırğın üçün itilənib ki,
Şimşək kimi parlasın.
29 Elə bir zamanda ki
Sənə boş görüntülər görünür,
Sənə yalan falçılıq açırlar.
Ölməli olan pis adamların
Boyunlarına enəcəksən, ey qılınc!
Bu adamların günü çatdı,
Nəhayət, cəza vaxtı gəldi.
30 Qılınc qınına qoyulsun!
Səni yaradıldığın yerdə,
Doğulduğun ölkədə mühakimə
edəcəyəm.
31 Qəzəbimi üstünə tökəcəyəm,
Hiddətimin odunu üstünə
püfləyəcəyəm,
Səni vəhşi adamlara təslim edəcəyəm.
Onlar məhv etməkdə mahirdir.
32 Sən oda qida olacaqsan,
Ölkə içində qanın töküləcək.
Daha yada salınmayacaqsan,
Çünki Mən Rəbb bunu söylədim"».

Yerusəlimin günahları

22 Mənə Rəbbin bu sözü nazil
oldu: 2 «Sən ey bəşər oğlu,
mühakimə edəcəksənmi, qan tökən
şəhəri mühakimə edəcəksənmi? Gəl
bütün iyrənc işlərini ona bildir.
3 Ona söylə ki, Xudavənd Rəbb belə
deyir: "Əcəli gəlsin deyə öz içində
qan tökən bütlər düzəldərək özünü
murdarlayan şəhər! 4 Sən tökdüyün
qana görə təqsirkar oldun, düzəltdiyin
bütlərə görə murdar oldun. Sən əcəlini
yaxınlaşdırdın, ömrün sona çatdı.
Buna görə də səni millətlər içində
rüsvayçılıq, bütün ölkələr arasında
istehza hədəfinə çevirdim. 5 Ey adı
pisliyə çıxan, fitnə dolu şəhər, yaxın
olanlar da, uzaq olanlar da sənə istehza
edəcək. 6 Budur, sənin içində olan hər
bir İsrail rəhbəri əlindən gəldiyi qədər
qan tökür. 7 [i]Sənin içində ata-anaya
hörmət edilmir, sənin içində qəribə
qarşı zorakılıq, yetimə və dul qadına
haqsızlıq edilir. 8 [j]Müqəddəs şeylərimə
xor baxdın, Şənbə günlərimə məhəl
qoymadın. 9 Sənin içində qan tökmək
istəyən böhtançı adamlar var. Sənin
içində dağlarda gətirilən qurbandan
yeyir, şəhvətə qapılırlar. 10 [k]Sənin içində
ögey anaları ilə yatanlar, aybaşı olub
murdarlanan qadınları zorlayanlar var.
11 Sənin içində kimi qonşusunun arvadı
ilə iyrənc iş edir, kimi həyasızlıqla
gəlinini murdar edir, kimi öz atasının
qızını – bacısını zorlayır. 12 [l]Sənin içində
qan tökmək üçün rüşvət alırlar. Sələm
və müamilə ilə pul verirsən, zorakılıqla
qonşularından haqsız muzd alırsan.
Beləcə Məni unutdun" Xudavənd Rəbb
belə bəyan edir.
13 "Əldə etdiyin haqsız muzddan
ötrü və sənin içində tökülən qana görə
əllərimi bir-birinə vururam. 14 Sənə qarşı
hərəkətə gəldiyim gün ürəyində taqət
olacaqmı, qollarında qüvvət qalacaqmı?
Mən Rəbb bunu söylədim və hökmən
yerinə yetirəcəyəm. 15 Səni millətlər
arasına yayacağam, ölkələr arasına
səpələyəcəyəm, içindəki murdarlığı
məhv edəcəyəm. 16 Millətlərin gözündə
ləkələnəcəksən. Onda biləcəksən ki,
Rəbb Mənəm"».
17 Mənə Rəbbin bu sözü nazil oldu:
18 «Ey bəşər oğlu, mənim üçün İsrail
nəsli metal tullantısına çevrilib. Hamısı
soba içində qalan tunca, qalaya, dəmirə,
qurğuşuna bənzəyir, gümüş tullantısı
kimidir. 19 Buna görə də Xudavənd
Rəbb belə deyir: "İndi ki hamınız

[i]**22:7** Çıx. 20:12; Qanun. 5:16; Çıx. 22:21-22; Qanun. 24:17
[j]**22:8** Lev. 19:30; 26:2 [k]**22:10** Lev. 18:7-20
[l]**22:12** Çıx. 23:8; Qanun. 16:19; Çıx. 22:25; Lev. 25:36-37; Qanun. 23:19

metal tullantısı kimi oldunuz, Mən sizi
Yerusəlimə yığacağam. 20 Əritmək üçün
odu üfürüb gümüşü, tuncu, dəmiri,
qurğuşunu və qalayı necə sobada
toplayırlarsa, Mən də eləcə sizi qəzəb
və hiddətimlə toplayacağam, sizi şəhərə
qoyub əridəcəyəm. 21 Sizi toplayıb
qəzəbimin odunu üstünüzə üfürəcəyəm
və şəhərin içində əriyəcəksiniz. 22 Soba
içində gümüş necə əridilirsə, siz də
şəhərin içində əriyəcəksiniz. Onda
biləcəksiniz ki, üstünüzə qəzəbimi tökən
Mən Rəbbəm”».
23 Mənə Rəbbin bu sözü nazil
oldu: 24 «Ey bəşər oğlu, ona söylə:
“Sən qəzəb günündə təmizlənməmiş,
üstünə yağış yağmamış bir torpaqsan.
25 Ölkənin peyğəmbərləri nərildəyən,
ovunu parçalayan aslan kimi orada
tələ qurdu, canlara qıydı, xəzinə və
qiymətli şeylər ələ keçirdi, şəhərdə
çoxlu qadınları dul qoydu. 26 [m]Kahinləri
Mənim qanunumu pozdu, müqəddəs
şeylərimi murdarladı, müqəddəs şeyi
adi şeydən ayırmadı, murdar şeylə pak
şey arasındakı fərqi öyrətmədi. Onlar
Mənim Şənbə günlərimə göz yumdu və
müqəddəsliyimə etinasızlıq etdi. 27 Ölkə
içindəki başçıları ovunu parçalayan
canavar kimidir, haqsız muzd əldə
etmək üçün qan tökür, cana qıyırlar.
28 Peyğəmbərləri uydurma görüntülər
görüb, yalan fal açaraq bu günahların
üstünə suvaq vurur. Mən Rəbb elə
demədiyim halda ‹Xudavənd Rəbb
belə deyir› söyləyirlər. 29 Ölkə xalqı isə
bir-birini qarət edərək soyğunçuluqla
məşğuldur. Onlar məzlumu və fəqiri
incidir, haqsız yerə qəribə zülm edir.
30 Onların içində bir adam axtardım ki,
divarı təmir etsin və Mənim hüzurumda
ölkə naminə divardakı dəliklərin
önündə dayansın ki, oranı yerlə yeksan
etməyim, ancaq belə adam tapmadım.
31 Buna görə də üstlərinə qəzəbimi
tökəcəyəm, hiddətimlə onları yandırıb
məhv edəcəyəm. Əməllərinin əvəzini
başlarına gətirəcəyəm” Xudavənd Rəbb
belə bəyan edir».

İki pozğun qadınla müqayisə

23 Mənə Rəbbin bu sözü nazil
oldu: 2 «Ey bəşər oğlu, eyni
ananın qızları olan iki qadın var idi.
3 Onlar cavanlıqlarında Misirdə olarkən
fahişəlik etdi. Onların döşləri orada
əlləşdirildi, qızlıq sinələrinə orada əl
sürtüldü. 4 Bu qadınlardan böyüyünün
adı Ohola, bacısınınkı isə Oholiva idi.
Onlar Mənimki oldu, oğullar və qızlar
doğdu. Ohola Samariyaya, Oholiva
Yerusəlimə verilən addır.
5 Ohola Mənimki olarkən fahişəlik
etdi. Oynaşları olan qonşu Aşşurlulara
aludə oldu. 6 Onların hamısı mavi
paltar geyinmiş valilər və başçılar,
cazibədar cavanlar, atlara minmiş
adamlar idi. 7 Onlarla fahişəlik etdi.
Onların hamısı Aşşurun ən seçmə
adamları idi. Ohola kimə aludə oldusa,
onun bütün bütləri ilə özünü murdar
etdi. 8 Misirdə başladığı fahişəliyindən
əl çəkmədi. Çünki cavanlığında
onunla yatmışdılar, qızlıq sinəsinə əl
sürtmüşdülər, şəhvətlərini onun üstünə
tökmüşdülər. 9 Buna görə də onu aludə
olduğu oynaşlarına – Aşşur övladlarına
təslim etdim. 10 Onlar Oholanın ayıbını
açdı, oğullarını və qızlarını əlindən aldı,
özünü isə qılıncla öldürdü. O, qadınlar
arasında rüsvay oldu, onun hökmünü
yerinə yetirdilər.
11 Onun bacısı Oholiva bunu gördü,
amma Oholivanın şəhvəti daha qızğın,
fahişəliyi bacısından daha betər idi. 12 O
da qonşuları Aşşur övladlarına – valilərə
və başçılara, dəbdəbə ilə geyinmiş,
atlara minmiş adamlara aludə oldu.

---

[m]**22:26** Lev. 10:10; Yez. 44:23

Onların hamısı cazibədar cavanlar idi.
13 Mən gördüm ki, o da murdarlanıb və
hər iki qadın eyni yolu gedir. 14 Oholiva
get-gedə fahişəliyini artırdı, çünki
divara oyulmuş insan təsvirlərini –
15 bellərinə qurşaq, başlarına böyük
çalma bağlamış Xaldeylilərin qırmızı
rəngli şəkillərini gördü. Onların hamısı
əsillərinə görə Xaldey ölkəsindən
olan Babil zabitlərinə bənzəyirdi.
16 Oholiva görən kimi onlara aludə oldu
və onların yanına – Xaldey ölkəsinə
qasidlər göndərdi. 17 Babil övladları
Oholivanın yanına, işrət yatağına gəlib
şəhvətləri ilə onu murdarladı. O onlarla
murdar olandan sonra onlardan iyrəndi.
18 O, fahişəliyini göstərəndə, ayıbını
açanda ürəyim bacısından iyrənən kimi
ondan da iyrəndi. 19 Misir torpağında
fahişəlik etdiyi gənclik çağını yada salıb
fahişəliyini daha da artırdı. 20 Cinsiyyət
üzvü eşşəyinki kimi, toxumları ayğırınkı
kimi olan oynaşlarına aludə oldu.
21 Beləcə sən gənclik çağında etdiyin
pozğunluğa qayıtdın. O zaman Misirlilər
sənin sinənə əl sürtərək cavan döşlərini
əlləşdirirdi.

22 Buna görə də, ey Oholiva,
Xudavənd Rəbb belə deyir: “Bax
iyrəndiyin oynaşlarını sənə qarşı təhrik
edəcək, hər tərəfdən sənin üstünə
gətirəcəyəm. 23 Babillilərlə bütün
Xaldeyliləri, Peqod, Şoa və Qoa xalqını,
bütün Aşşurluları gətirəcəyəm. Onlar
cazibədar cavanlar, valilər, başçılar,
zabitlər və məşhur adamlardır. Hamısı
da atlara minib. 24 Onlar silahlarla,
müharibə və yük arabaları ilə, çoxlu
xalqdan ibarət qoşunla üstünə gələcək,
sipərlə, qalxanla və dəbilqə ilə hər
tərəfdən sənə qarşı düzüləcəklər. Hökm
etmək ixtiyarını onlara verəcəyəm,
öz hökmlərinə görə səni mühakimə
edəcək. 25 Qısqanclığımı sənə qarşı
çevirəcəyəm, sənlə qəzəblə rəftar
edəcəklər. Burnunu və qulaqlarını kəsib
salacaqlar, sağ qalanların qılıncla həlak
olacaq. Oğullarını və qızlarını əsir
alacaqlar, sağ qalanlarını od yandırıb
məhv edəcək. 26 Sənin paltarlarını
soyunduracaq, gözəl bəzəklərini
alacaqlar. 27 Beləcə Misir torpağından
gətirdiyin pozğunluğuna və fahişəliyinə
son qoyacağam. Bu şeylərin artıq
həsrətini çəkməyəcək, daha Misiri yada
salmayacaqsan”. 28 Çünki Xudavənd
Rəbb belə deyir: “Səni nifrət etdiyin
adamlara, iyrəndiyin adamlara təslim
edəcəyəm. 29 Onlar sənlə nifrətlə
rəftar edəcək, bütün zəhmətinin
bəhrəsini əlindən alacaq, səni lüt və
çılpaq qoyacaq. Beləcə fahişəliyinin
ayıbı üzə çıxacaq. Pozğunluğun və
fahişəliyin 30 bunları sənin başına
gətirdi, çünki başqa millətlərlə birgə
fahişəlik etdin, onların bütləri ilə
murdar oldun. 31 Öz bacının yolu ilə
getdin. Buna görə də onun kasasını
sənin əlinə verəcəyəm”.

32 Xudavənd Rəbb belə deyir:
“Sən bacının kasasından içəcəksən.
O dərin və genişdir.
Sənə gülüb istehza edəcəklər,
Çünki dopdolu bir kasadır.
33 Sərxoşluq və kədərlə dolacaqsan.
Bacın Samariyanın kasası
Dəhşət və viranəlik kasasıdır.
34 Bu kasadan içəcəksən,
Onu boşaldacaqsan,
Parçalarını gəmirəcəksən,
Köksünü yırtacaqsan”.
Çünki bunu Mən söylədim,
Xudavənd Rəbb belə bəyan edir.

35 Buna görə də Xudavənd Rəbb belə
deyir: “İndi ki Məni unutdun, Mənə arxa
çevirdin, pozğunluğun və fahişəliyin
üçün cəzanı çək”».

36 Rəbb mənə dedi: «Ey bəşər oğlu,
Oholanı və Oholivanı mühakimə
edəcəksənmi? Elə isə iyrənc işlərini
özlərinə bildir. 37 Çünki onlar xəyanət
etdi və əlləri qana batıb. Onlar bütlərə

səcdə edib xəyanət etdi. Hətta Mənim
üçün doğduqları oğullarını bütlərə
yemək olmaq üçün təqdim etdilər.
38 Mənə qarşı hələ bunları da etdilər:
həmin gün Müqəddəs məkanımı
murdar etdilər, Şənbə günlərimə məhəl
qoymadılar. 39 Onlar bütləri üçün
övladlarını kəsdikdən sonra həmin gün
Müqəddəs məkanıma girərək oranı
murdarladılar. Üstəlik bunu məbədimin
ortasında etdilər.
40 Bundan başqa, qasidlər göndərib
uzaqdan gələn adamlar gətirtdilər.
Bu adamlar gələndə sən onlar üçün
yuyundun, gözlərinə sürmə çəkdin
və bər-bəzək taxdın. 41 Möhtəşəm
divan üzərində oturdun. Onun önündə
hazırlanmış süfrə var idi. Mənim
buxurumu və zeytun yağımı onun
üstünə qoydun. 42 Ətrafında kef edən
bir dəstənin gurultusu yüksəldi. Bayağı
adamlar dəstəsi ilə səhradan Sevalılar
oraya gətirildi. O iki qadının biləklərinə
bilərziklər, başlarına şərəf tacları
qoydular.
43 Mən zinakarlıqda qarımış qadın
barədə dedim: "İndi qoy onlar bu
qadınla zina etsin, çünki o, fahişədir".
44 Fahişənin yanına girən kimi onun
yanına girdilər. Beləcə pozğun qadınlar
olan Ohola ilə Oholivanın yanına
girdilər. 45 Amma saleh adamlar zina
edən qadına verilən cəzanı, qan tökən
qadına verilən cəzanı onlara verəcək,
çünki bu qadınlar zina edib və əlləri
qana batıb.
46 Buna görə də Xudavənd Rəbb
belə deyir: "Üstlərinə bir qoşun gətir
və onları dəhşətə, talana düçar et.
47 Bu qoşun onları daşqalaq edəcək
və qılıncla doğrayacaq. Oğullarını və
qızlarını öldürüb evlərini yandıracaqlar.
48 Ölkədə olan pozğunluğa son
qoyacağam. Bütün qadınlar bundan
dərs alıb sizin kimi pozğunluq
etməyəcək. 49 Pozğunluğunuzun
cəzasını öz başınıza gətirəcəklər.
Bütlərinizə tapınmağınızın əvəzini
alacaqsınız. Onda biləcəksiniz ki,
Xudavənd Rəbb Mənəm"».

Paslanmış qazanla müqayisə

24 Sürgünlüyümüzün doqquzuncu
ilində, onuncu ayın onuncu günü
mənə Rəbbin bu sözü nazil oldu: 2 [n]«Ey
bəşər oğlu, bu günün, məhz bu günün
tarixini qeyd elə. Çünki Babil padşahı
məhz bu gün Yerusəlimi mühasirəyə
aldı. 3 Bu üsyankar xalqa bir məsəl
danışıb söylə ki, Xudavənd Rəbb belə
deyir:
"Qazanı oda qoy, oda qoy,
İçinə su doldur.
4 Ətin parçalarını, ən yaxşı parçalarını,
Budu və döşü oraya yığ.
Onu seçilmiş sümüklərlə doldur.
5 Sürüdən ən yaxşı heyvanları götür,
Qazanın altına isə odun [*]yığ.
Qoy içindəki su qaynasın ki,
Qazandakı sümükləri də bişsin".
6 Buna görə də Xudavənd Rəbb belə
deyir:
"Qan tökən şəhərin vay halına!
Ora pas tutmuşdur,
Öz pasından təmizlənməmiş qazana
bənzəyir.
Püşk atmadan əti parça-parça
qazandan çıxarın.
7 Çünki onun tökdüyü qan hələ
içindədir.
Qanı tozla örtmək üçün hətta yerə də
tökmədi,
Düz çılpaq qayanın üstünə axıtdı.
8 Mən də qəzəbi alovlandıraraq
Qisas alınsın deyə
Onun qanını çılpaq bir qayanın

[*]**24:5** *Odun* – ibrani mətnində *sümüklər*.

[n]**24:2** 2Pad. 25:1; Yer. 52:4

Üstünə tökdüm ki, örtülməsin”.
9 Buna görə də Xudavənd Rəbb belə
deyir:
“Qan tökən şəhərin vay halına!
Mən də odun qalağını böyüdəcəyəm.
10 Odunları yığ, odu alovlandır,
Əti yaxşı bişir,
Ədviyyatını qat,
Sümüklər də yansın.
11 Onun közləri üstünə
Qazanı boş qoy ki, qızsın,
Misi yansın,
İçindəki murdarlığı getsin,
Pası ərisin.
12 Bütün zəhmət hədər getdi,
Qalın pası ərimək bilmir,
Pası odla da çıxmır.
13 Etdiyin pozğunluq səni murdarladı,
Səni təmizləmək istədim,
Amma sən təmizlənmək istəmədin.
Sənə qarşı qəzəbim yatana qədər
Öz murdarlığından
təmizlənməyəcəksən.
14 Mən Rəbb bunu söylədim,
Vaxt çatdı ki, yerinə yetirim.
Çəkinməyəcəyəm, acımayacağam,
Peşman olmayacağam.
Adətlərinə və əməllərinə görə
cəzalanacaqsan”
Xudavənd Rəbb belə deyir».

Yezekelin arvadının ölümü

15 Mənə Rəbbin bu sözü nazil oldu:
16 «Ey bəşər oğlu, gözündə çox qiymətli
olan bir nəfəri bir zərbə ilə əlindən
alacağam. Amma sən yas tutma, ağlayıb
göz yaşı tökmə. 17 İçin-için ağla, ölülər
üçün yas tutma. Çalmanı başına qoyub
çarığını ayağına gey. Üzünün alt
hissəsini örtmə, yas tutanların *çörəyini
yemə».
18 Mən səhər xalqa bu sözləri
söylədim. Axşamüstü arvadım öldü.
Ertəsi gün səhər mənə əmr olunanı
etdim. 19 Xalq mənə dedi: «Etdiyin
bu şeylərin bizə nə dəxli var? Bizə
bildirməzsən?» 20 Mən onlara dedim:
«Mənə Rəbbin bu sözü nazil oldu:
21 İsrail nəslinə söylə ki, Xudavənd
Rəbb belə deyir: “Öyündüyünüz güc
mənbəyinizi, gözünüzdə ən qiymətli
olan şeyi, ürəyinizin arzusu olan
Müqəddəs məkanımın murdarlanmasına
izin verəcəyəm. Arxada qoyduğunuz
oğullarınız və qızlarınız qılıncdan
keçiriləcək. 22 Mən nə etdimsə, siz də
elə edəcəksiniz: üzünüzün alt hissəsini
örtməyəcəksiniz, yas tutanların çörəyini
yeməyəcəksiniz. 23 Çalmanız başınızda,
çarığınız ayağınızda olacaq. Yas
tutmayacaq, ağlamayacaqsınız, ancaq
təqsirlərinizin içində əriyib yox olacaq,
baş-başa verib inləyəcəksiniz. 24 Yezekel
sizə bir əlamət olacaq: o nə edəcəksə,
siz də onu edəcəksiniz. Bu hadisələr
olanda biləcəksiniz ki, Xudavənd Rəbb
Mənəm”.
25 Sən ey bəşər oğlu, qalalarını, sevinc
və izzətlərini, gözlərində qiymətli olan
şeyi, ürəklərinin arzusunu, oğulları
ilə qızlarını onlardan aldığım vaxt –
26 o gün fəlakətdən qaçıb qurtulan bir
nəfər gəlib sənə bu xəbəri bildirəcək.
27 O gün bu qaçağın yanında dilin
açılacaq, onunla danışacaq, artıq
dinməz qalmayacaqsan. Beləcə onlar
üçün bir əlamət olacaqsan. Onda
biləcəklər ki, Rəbb Mənəm».

Ammonluların əleyhinə peyğəmbərlik

25 [o]Mənə Rəbbin bu sözü nazil oldu:
2 «Ey bəşər oğlu, üzünü Ammon

---

*__24:17__ *Yas tutanların* – arami və latın tərcümələrində belədir, ibrani mətnində isə *adamların.*

[o]__25:1__ Yer. 49:1-6; Yez. 21:28-32; Amos 1:13-15; Sef. 2:8-11

övladlarına tərəf çevir və onların
əleyhinə peyğəmbərlik et. 3 Ammon
övladlarına söylə ki, Xudavənd Rəbbin
sözünü dinləsinlər. Xudavənd Rəbb
belə deyir: “Siz Müqəddəs məkanım
ləkələnəndə, İsrail torpağı viran
ediləndə və Yəhuda nəsli sürgünə
gedəndə ‹nə yaxşı› dediniz. 4 Buna
görə də Mən icazə verəcəyəm ki, şərq
xalqları sizin torpağınızı fəth etsin.
Onlar torpağınızda yurd salacaq,
çadır quracaq. Meyvələrinizi onlar
yeyəcək, südünüzü onlar içəcək.
5 Rabbanı dəvələr üçün otlağa, Ammon
övladlarının torpağını sürülər üçün
ağıla çevirəcəyəm. Onda biləcəksiniz ki,
Rəbb Mənəm”. 6 Xudavənd Rəbb belə
deyir: “İndi ki siz əllərinizi bir-birinə
vurub ayaqlarınızı yerə döydünüz və
İsrail torpağını təhqir edib fəlakətinə
bütün qəlbinizlə sevindiniz, 7 Mən də
sizə qarşı əlimi uzadıb sizi qarət malı
kimi millətlər arasında bölüşdürəcək,
xalqlar sırasından silib-atacaq, ölkələr
içindən yox edəcək və məhv edəcəyəm.
Onda biləcəksiniz ki, Rəbb Mənəm”.

Moavlıların əleyhinə peyğəmbərlik

8 [p]Xudavənd Rəbb belə deyir: “Moav
və Seir xalqı deyir ki, budur, daha
Yəhuda nəslinin başqa xalqlardan fərqi
yoxdur. 9 Buna görə də Mən Moavın
sərhədini açıb ölkənin şöhrəti olan
sərhəd şəhərlərini – Bet-Yeşimotu,
Baal-Meonu, Qiryatayimi müdafiəsiz
qoyacağam. 10 Ammonlular bir daha
xalqlar arasında yada salınmasınlar deyə
Moavı Ammonluların torpağı ilə birlikdə
şərq xalqlarına verəcəyəm. 11 Beləcə
Moav xalqını cəzalandıracağam. Onda
biləcəklər ki, Rəbb Mənəm”.

Edomluların əleyhinə peyğəmbərlik

12 [q]Xudavənd Rəbb belə deyir: “Edom
qisas alaraq Yəhuda nəsli ilə pis rəftar
etdi, onlardan intiqam alaraq böyük
təqsir etdi”. 13 Buna görə də Xudavənd
Rəbb belə deyir: “Edom torpağına əlimi
uzadıb insanı da, heyvanı da oradan
silib-atacaq, ölkəni viran edəcəyəm.
Temandan Dedana qədər Edomlular
qılıncla vurulub həlak olacaq. 14 Mən
xalqım İsrail vasitəsilə Edomdan Öz
qisasımı alacağam. İsraillilər Edomda
qəzəb və hiddətimə görə rəftar edəcək.
Beləcə Edomlular Mənim qisasımın nə
olduğunu anlayacaq” Xudavənd Rəbb
belə bəyan edir.

Filiştlilərin əleyhinə peyğəmbərlik

15 [r]Xudavənd Rəbb belə deyir:
“Filiştlilər Yəhudadan qisas alaraq pis
rəftar etdi, ürəklərindəki əbədi ədavətlə
onu yerlə yeksan edərək intiqam aldı”.
16 Buna görə də Xudavənd Rəbb belə
deyir: “Mən Filiştlilərə qarşı əlimi
uzadıb Keretliləri silib-atacağam,
dəniz sahilində yaşayanlardan salamat
qalanları məhv edəcəyəm. 17 Onları
şiddətlə məzəmmətləyib böyük qisaslar
alacağam. Onlardan qisas alanda
biləcəklər ki, Rəbb Mənəm”».

Sur şəhərinin əleyhinə peyğəmbərlik

26 [s]Sürgünlüyümüzün on birinci
ilində, ayın birinci günü mənə
Rəbbin bu sözü nazil oldu: 2 «Ey bəşər
oğlu, Yerusəlimə qarşı Sur belə dedi:
“Nə yaxşı ki xalqların qapısı olan şəhər

---

[p]**25:8** Yeş. 15:1–16:14; 25:10-12; Yer. 48:1-47; Amos 2:1-3; Sef. 2:8-11 [q]**25:12** Yeş. 34:5-17; 63:1-6; Yer. 49:7-22; Yez. 35:1-15; Amos 1:11-12; Avd. 1-14; Mal. 1:2-5 [r]**25:15** Yeş. 14:29-31; Yer. 47:1-7; Yoel 3:4-8; Amos 1:6-8; Sef. 2:4-7; Zək. 9:5-7 [s]**26:1** Yeş. 23:1-18; Yoel 3:4-8; Amos 1:9-10; Zək. 9:2-4; Mat. 11:20-22; Luka 10:13-14

dağıldı, darvazaları mənim üçün açıldı.
O dağıldığı üçün mən varlanacağam”.
3 Bu sözlərə görə Xudavənd Rəbb belə
deyir: “Ey Sur, Mən sənə qarşı gəlirəm.
Dəniz necə dalğalarını coşdurursa, Mən
də eləcə çoxlu milləti sənin üstünə
coşduracağam. 4 Onlar Surun divarlarını
dağıdacaq və qüllələrini uçuracaq.
Töküntülərini silib-süpürəcək, onu
çılpaq bir qayaya çevirəcəyəm. 5 Sur
dənizin ortasında torların sərildiyi bir
yer olacaq, çünki Mən bunu söylədim,
Xudavənd Rəbb belə bəyan edir. Sur
millətlər üçün qarət malı olacaq. 6 Oraya
tabe olan sahil şəhərlərində yaşayanlar
qılıncla öldürüləcək. Onda biləcəklər ki,
Rəbb Mənəm”.
7 Xudavənd Rəbb belə deyir: “Mən
padşahlar padşahı olan Babil padşahı
Navuxodonosoru atlar, döyüş arabaları,
süvarilər, qoşun və çoxlu xalqla birgə
şimaldan Surun üstünə gətirəcəyəm. 8 Ey
Sur, o sənə tabe olan sahil şəhərlərində
yaşayanları qılıncla öldürəcək, sənə
qarşı mühasirə divarları, torpaq qalağı
quracaq və sipərini əleyhinə qaldıracaq.
9 Sənin divarlarını vurub-dəlmək üçün
qoçbaşı alətləri quracaq, baltaları
ilə qüllələrini uçuracaq. 10 Atları çox
olduğu üçün onların tozu səni örtəcək.
Divarlarında oyuq açılmış bir şəhərə
girilən tək sənin darvazalarından
girdikləri zaman atlıların, təkərlərin
və döyüş arabalarının gurultusundan
divarların titrəyəcək. 11 O öz atlarının
dırnaqları ilə sənin bütün küçələrini
tapdalayıb xarab edəcək, xalqını qılıncla
öldürəcək. Möhkəm sütunların yerlə
yeksan olacaq. 12 Onlar sərvətini talan
edəcək, ticarət mallarını qarət edəcək.
Sənin divarlarını dağıdacaq, gözəl
evlərini uçuracaq, daşlarını, taxtalarını
və töküntülərini suya atacaqlar.
13 [t]Oxuduğun nəğmələrin səsinə son
qoyacağam. Liralarının sədası artıq
eşidilməyəcək. 14 Səni çılpaq bir qayaya
çevirəcəyəm, torların sərildiyi bir yer
olacaqsan. Bir daha tikilməyəcəksən”,
çünki Mən Rəbb bunu söylədim,
Xudavənd Rəbb belə bəyan edir.
15 Xudavənd Rəbb Sura belə
deyir: “Səndə qırğın olanda,
yaralılar inildəyəndə dağılmağının
gurultusundan sahil xalqları
titrəməyəcəkmi? 16 [u]Bütün dəniz
ölkələrinin rəhbərləri taxtlarından
enəcək, libaslarını çıxaracaq, əlvan
naxışlı paltarlarını soyunacaq, dəhşətə
bürünəcək, yerə oturacaq, hər an
titrəyəcək və sənin taleyindən heyrətə
düşəcək. 17 Onlar sənin üçün mərsiyə
oxuyub deyəcək:
‹Dənizçilərin yaşadığı məşhur şəhər,
Sən necə məhv oldun?
Dənizdə güclü idin.
Sən və sənin əhalin
Sahildə yaşayanların hamısını
Dəhşətə salmışdınız.
18 İndi dağıldığın gün
Adalar titrəyir,
Adalarda yaşayanlar
Sənin yıxılmağından heyrətə düşür›”.
19 Xudavənd Rəbb belə deyir:
“Səni sakinsiz qalmış şəhərlər kimi
xaraba bir şəhərə çevirdiyim, əngin
dənizlərlə qərq etdiyim vaxt dərin
sular səni örtəndə 20 qəbirə enənlərlə
birgə qədim zamanlarda yaşayanların
yanına endirəcəyəm. Sənin üçün qəbirə
enənlərlə birgə qədim xarabalıqlar kimi
yer üzünün dərinliklərində məskən
quracağam ki, bir daha qayıtmayasan
və Mən sənə dirilər arasında izzət
verməyim. 21 [v]Aqibətini dəhşətli
edəcəyəm. Sən artıq yox olacaqsan.
Səni axtaracaq, ancaq tapmayacaqlar”
Xudavənd Rəbb belə bəyan edir».

---

[t]**26:13** Yeş. 24:8; Vəhy 18:22 [u]**26:16** Vəhy 18:9-10 [v]**26:21** Vəhy 18:21

Sur şəhəri üçün mərsiyə

27 Mənə Rəbbin bu sözü nazil oldu:
2 «Sən ey bəşər oğlu, Sur üçün
mərsiyə oxuyub 3 ona söylə ki, sən ey
dəniz qapılarında yerləşən, çoxlu sahil
xalqı ilə ticarət edən şəhər, Xudavənd
Rəbb belə deyir:
"Ey Sur, sən dedin:
‹Mən gözəllikdə qüsursuzam›.
4 Sərhədlərin dənizin qoynunda idi.
Səni tikənlər gözəlliyini kamil etdi.
5 Bütün taxtalarını
Senirin şam ağaclarından düzəltdilər.
Sənə dor qayırmaq üçün
Livandan sidr ağacları gətirdilər.
6 Avarlarını Başanın palıd
ağaclarından qayırdılar,
Göyərtəni fil sümüyü ilə bəzənən,
Kittim sahillərindən gətirilən
Şam ağaclarından düzəltdilər.
7 Sənin yelkənin, bayrağın
Misirin naxışlı kətanından oldu.
Talvarın Elişa sahillərinin
Bənövşəyi və tünd qırmızı
parçalarından idi.
8 Sidonda və Ervadda yaşayanlar
Sənin avar çəkənlərin idi.
Ey Sur, səndə bacarıqlı adamlar var
idi,
Gəmiçilərin onlardan idi.
9 Gəmilərindəki yarıqları təmir
edənlər
Gevalın təcrübəli və bacarıqlı
adamları idi.
Dənizdəki bütün gəmilər və dənizçilər
Mallarını dəyişmək üçün
Sənin yanına gəldi.
10 Fars, Lud və Put əsgərləri
Ordunda xidmət edirdi.
Qalxanlarını, dəbilqələrini
Divarlarından asdılar,
Sənə əzəmət verdilər.
11 Ervaddan və Xelekdən gələnlər
Hər tərəfdən divarlarını qorudu.
Qammadlılar qüllələrində gözətçi
oldu.
Qalxanlarını divarlarından asdı,
Gözəlliyini kamil etdi.
12 Səndə hər cür mal bol olduğu üçün
Tarşiş səninlə ticarət etdi,
Mallarının əvəzinə sənə
Gümüş, dəmir, qalay və qurğuşun
verdilər.
13 Yavan, Tuval və Meşek səninlə
ticarət etdi,
Mallarının əvəzinə sənə
Qullar və tunc qablar verdilər.
14 Bet-Toqarma xalqı
Mallarının əvəzinə sənə
At, döyüş atı və qatır verdi.
15 Dedan xalqı səninlə ticarət etdi,
Çoxlu sahil xalqı sənin müştərin idi,
Səndən aldıqları malın əvəzinə
Fil sümüyü və abnos ağacı verdilər.
16 Sənin məmulatın çox olduğu üçün
Aram səninlə ticarət etdi,
Mallarının əvəzində sənə
Firuzə, tünd qırmızı qumaş, naxışlı
paltarlar,
İncə kətan, mərcan və yaqut verdilər.
17 Yəhuda və İsrail ölkəsi səninlə
ticarət etdi,
Mallarının əvəzinə sənə
Minnit buğdası, darı, bal,
Zeytun yağı və balzam verdilər.
18 Sənin məmulatın çox olduğu üçün,
Səndə hər cür mal bol olduğuna görə
Dəməşq səninlə ticarət etdi,
Helbon şərabı, Saxar yunu ilə ticarət
etdi.
19 Vadan və Uzaldan gələn
Yavan səninlə ticarət etdi.
Sənə gətirilən mallar arasında
İşlənmiş dəmir, darçın və ətirli qamış
var idi.
20 Dedan xalqı səninlə ticarət edib
Sənə yəhər üçün qumaş verdi.
21 Ərəbistan və bütün Qedar rəhbərləri
Sənin müştərilərin idi,
Quzu, qoç və təkə ilə

Sənlə ticarət etdilər.
22 Səba və Raama tacirləri
Sənlə ticarət etdi.
Mallarının əvəzinə sənə
Hər cür dəyərli ətriyyat, qiymətli
daşlar və qızıl verdilər.
23 Xaran, Kanne, Eden, Səba tacirləri,
Aşşur və Kilmad
Sənlə ticarət etdi,
24 Onlar bazarlarında
Gözəl paltar, bənövşəyi qumaş, naxışlı
libaslar,
Sıx toxunmuş, iplərlə bağlanmış
Rəngli xalçalarla
Sənlə ticarət etdi.
25 [w]Tarşiş gəmiləri [*]sənin mallarını
daşıdı.
Dənizin qoynunda böyük yüklə
doldun.
26 Avarçəkənlərin səni açıq dənizlərə
çıxartdı,
Ancaq şərq yeli dənizin qoynunda
səni parçaladı.
27 Gəmin qəzaya uğradığı gün
Var-dövlətin, malların, ticarət
şeylərin,
Gəmiçilərin, sükançıların,
Təmirçilərin, ticarət şəriklərin,
Döyüşçülərin – içində olan bütün
camaat
Dənizin dərinliklərinə batacaq.
28 Sükançıların fəryadından
Dənizin sahilləri titrəyəcək.
29 Avarçəkənlərin hamısı gəmilərini
tərk edəcək,
Gəmiçilərlə sükançıların hamısı
Gəmilərindən düşüb quruda
dayanacaq.
30 Uca səslə sənin üçün
Acı-acı fəryad edəcəklər.
Başlarına torpaq səpələyəcəklər,
Küldə eşələnəcəklər.
31 Sənin üçün saçlarını ülgüclə
qırxacaqlar,
Çula bürünəcəklər.
Sənin üçün acı-acı ağlayıb
Yas tutacaqlar.
32 Yaslarında sənin üçün mərsiyə
oxuyub
Belə deyəcəklər:
‹Dənizin ortasında
Sur şəhəri kimi susdurulan
Bir şəhər varmı görəsən?›
33 Malların dənizin o tayına çatanda
Çoxlu xalqı doydururdun.
Böyük var-dövlətinlə, malınla
Dünya padşahlarını sərvət sahibi
edirdin.
34 İndi isə dənizdə, suların
dərinliyində
Xarabalığa çevrildiyin zaman
Mal-dövlətin və bütün camaatın
Sənlə birlikdə batdı.
35 Sahillərdə yaşayanların hamısı
Başına gələnlərdən heyrətə düşdü.
Onların padşahlarının tükləri biz-biz
oldu,
Bənizləri soldu.
36 Millətlərin arasındakı tacirlər
Sənə görə fit çalacaq.
Aqibətin dəhşətli oldu,
Sən əbədi olaraq yox olacaqsan”».

Sur padşahının əleyhinə peyğəmbərlik

28 Mənə Rəbbin bu sözü nazil oldu:
2 «Ey bəşər oğlu, Sur hökmdarına
söylə ki, Xudavənd Rəbb belə deyir:
“Sən qürurlandın və belə söylədin:
‹Mən Allaham,
Dənizlərin qoynunda,
Allahın taxtında otururam›.
Ürəyində özünü Allah sandın,
Ancaq sən Allah deyil, insansan.
3 Bax sən Danieldən daha müdriksən,

[*]**27:25** *Tarşiş gəmiləri* – yaxud *ticarət gəmiləri.*

[w]**27:25** Vəhy 18:11-19

Heç kəs öz sirrini səndən gizlədə
bilməz.
4 Müdrikliyin və ağlınla özünə sərvət
yığdın,
Xəzinələrinə qızıl-gümüş topladın.
5 Ticarətdə çox bacarıqlı olduğun
üçün
Öz sərvətini artırdın.
Var-dövlətin çoxalanda
Özünə qürrələndin”.
6 Buna görə də Xudavənd Rəbb belə
deyir:
“İndi ki ürəyində özünü Allah sandın,
7 Mən də yadelliləri, ən rəhmsiz
millətləri
Üstünə göndərəcəyəm.
Onlar sənin müdrikliyinin gözəlliyinə
Qılınc çəkib
Əzəmətini murdarlayacaq.
8 Səni məzara endirəcəklər.
Sən dənizlərin qoynunda
Dəhşətli bir ölümlə məhv olacaqsan.
9 Səni öldürənlərə də
‹Mən Allaham› deyəcəksənmi?
Səni öldürənlərin əlində
Sən Allah deyil, insansan.
10 Yadellilərin əlində
Sünnətsizlərin ölümü ilə öləcəksən”.
Çünki Mən bunu söylədim,
Xudavənd Rəbb belə bəyan edir».
11 Mənə yenə Xudavənd Rəbbin
sözü nazil oldu: «Ey bəşər oğlu, Sur
padşahı üçün mərsiyə oxuyub söylə ki,
Xudavənd Rəbb belə deyir:
12 “Sən kamilliyin möhürüsən,
Müdrikliyin bütöv,
Gözəlliyin qüsursuz idi.
13 [x]Sən Allahın bağçası olan
Eden bağında idin.
Cürbəcür qiymətli daşlarla –
Yaqut, topaz, almaz,
Sarı yaqut, damarlı əqiq, yəşəm daşı,
Göy yaqut, firuzə və zümrüdlə
bəzənmişdin.
Qaxma və oyma işlərin qızıldan idi.
Bunlar yaradıldığın gün
hazırlanmışdı.
14 Sən məsh edilmiş, qoruyucu bir
keruv idin.
Səni bunun üçün qoymuşdum.
Allahın müqəddəs dağının üstündə
idin,
Odlu daşlar arasında gəzirdin.
15 Yaradıldığın gündən
Səndə pislik tapılana qədər
Yollarında qüsursuz idin.
16 Bol ticarətindən ötrü
İçin zorakılıqla doldu,
Sən günah etdin.
Buna görə də səni murdar bir şey kimi
Allahın dağından atdım,
Odlu daşların arasından qovdum,
Ey qoruyucu keruv!
17 Gözəl olduğun üçün ürəyin
qürurlandı,
Əzəmətinə görə müdrikliyini korladın.
Beləcə səni yerə atdım,
Padşahların önündə tamaşaya
çevirdim.
18 Çoxlu təqsir etdiyin üçün,
Ticarətdə əliəyriliyinə görə
Müqəddəs məkanlarını murdarladın.
Mən içindən bir od çıxardım ki,
Səni yandırıb məhv etsin.
Bütün seyr edənlərin gözü önündə
Səni torpaq üstündə külə çevirdim.
19 Xalqlar arasında səni tanıyanlar
Fəlakətinə heyrət etdi.
Aqibətin dəhşətli oldu,
Artıq salamat qalmayacaqsan”».

Sidonun əleyhinə peyğəmbərlik

20 [y]Mənə Rəbbin bu sözü nazil oldu:
21 «Ey bəşər oğlu, üzünü Sidona tərəf
çevirib onun əleyhinə peyğəmbərlik
edərək söylə ki, 22 Xudavənd Rəbb belə
deyir:
“Ey Sidon, Mən sənin əleyhinəyəm,

---

[x]**28:13** Yar. 2:9 [y]**28:20** Yoel 3:4-8; Zək. 9:1-2; Mat. 11:21-22; Luka 10:13-14

Sənin içində izzət qazanacağam.
Mən sakinlərini cəzalandırıb
Onların arasında müqəddəs tutulanda
Biləcəklər ki, Rəbb Mənəm.
23 Əhalinin içinə vəba,
Küçələrinə qan göndərəcəyəm.
Hər tərəfdən onların üstünə gələn qılıncla
Vurulub həlak olacaqlar.
Onda biləcəklər ki, Rəbb Mənəm.

Allahın İsrail xalqına vədi

24 İsrail nəslinin ətrafında olub onları təhqir edən heç bir xalq bir daha İsrail üçün batan tikan, sancan qanqal olmayacaq. Onda biləcəklər ki, Rəbb Mənəm".
25 Xudavənd Rəbb belə deyir: "İsrail xalqını aralarına səpələdiyim xalqların içindən yığanda, millətlərin gözü önündə müqəddəs tutulanda onlar qulum Yaquba verdiyim torpaqlarında sakin olacaq. 26 Orada asayiş içində yaşayacaq, evlər tikəcək və bağlar salacaqlar. Onları təhqir edən bütün ətraf xalqları cəzalandırdığım zaman asayiş içində yaşayacaqlar. Onda biləcəklər ki, Rəbb Mənəm"».

Misirin əleyhinə peyğəmbərlik

29 [z]Sürgünlüyümüzün onuncu ilində, onuncu ayın on ikinci günü mənə Rəbbin sözü nazil oldu:
2 «Ey bəşər oğlu, üzünü Misir padşahı olan firona tərəf çevir, onun və bütün Misirin əleyhinə peyğəmbərlik edib söylə ki, 3 Xudavənd Rəbb belə deyir:
"Ey öz çayları içində yatan
Böyük əjdaha Misir padşahı firon,
Mən sənin əleyhinəyəm.
Sən deyirsən: ‹Nil çayı mənimdir,
Onu özüm üçün yaratdım›.
4 Sənin çənənə qarmaq keçirəcəyəm,
Çaylarındakı balıqları
Sənin pulcuqlarına yapışdıracağam.
Pulcuqlarına yapışmış balıqlarla birgə
Səni çaylarından çıxaracağam.
5 Səni də, çaylarındakı bütün balıqları da
Səhraya atacağam.
Çöllərə düşəcəksən,
Yığılıb basdırılmayacaqsan.
Səni yem kimi vəhşi heyvanlara,
Göydəki quşlara verəcəyəm.
6 [a]Onda Misirdə yaşayan hər kəs
Biləcək ki, Rəbb Mənəm.
Çünki sən İsrail xalqı üçün
Qamışdan olan bir dəyənək oldun.
7 Səndən yapışdıqları zaman
Qırılıb onların çiyinlərini yardın,
Sənə söykəndikləri zaman
Qopub onların bellərini burxutdun". *
8 Buna görə də Xudavənd Rəbb belə deyir: "Mən sənin üstünə qılınc gətirəcəyəm, insanı da, heyvanı da üzərindən silib məhv edəcəyəm.
9 Misir kimsəsiz qalacaq və xarabalığa çevriləcək. Onda biləcəklər ki, Rəbb Mənəm. Firon dedi: ‹Nil çayı mənimdir, onu mən yaratdım›. 10 Buna görə də Mən sənin və çaylarının əleyhinə olacağam. Misir torpağını Miqdoldan Asvana, Kuş sərhədinə qədər kimsəsiz qoyacağam və xarabalığa çevirəcəyəm.
11 İçindən insan ayağı da, heyvan ayağı da keçməyəcək, orada qırx il adam yaşamayacaq. 12 Misiri xaraba qalan ölkələr kimi xarabalığa çevirəcəyəm. Şəhərləri viran olmuş şəhərlər kimi qırx il kimsəsiz qalacaq. Misirliləri millətlər arasına yayacağam, ölkələr arasına səpələyəcəyəm".
13 Xudavənd Rəbb belə deyir: "Qırx ildən sonra Misirliləri

---

*29:7 *Burxutdun* – qədim yunan və süryani tərcümələrində belədir, ibrani mətnində isə *dikəltdin.*

[z]**29:1** Yeş. 19:1-25; Yer. 46:2-26 [a]**29:6** 2Pad. 18:21; Yeş. 36:6

səpələndikləri xalqların arasından
bir yerə yığacağam. 14 Sürgün olunan
Misirliləri Patros torpağına – öz
vətənlərinə geri qaytaracağam. Onlar
orada zəif bir padşahlıq yaradacaq.
15 Padşahlıqların ən gücsüzü olacaqlar,
bir daha millətlərin üzərində ağalıq
etməyəcəklər. Daha millətlərə hökmran
olmasınlar deyə onların sayını
azaldacağam. 16 Misir bir daha İsrail
xalqının güvəndiyi yer olmayacaq.
Misirlilər onlara Misirə qayıtmaqla
günah etdiklərini xatırladacaqlar.
İsraillilər onda biləcəklər ki, Xudavənd
Rəbb Mənəm”».
17 Sürgünlüyümüzün iyirmi yeddinci
ilində, birinci ayın birinci günü mənə
Rəbbin sözü nazil oldu: 18 «Ey bəşər
oğlu, Babil padşahı Navuxodonosor
Surla müharibədə öz ordusuna çox
zəhmət verdi: əsgərlərin saçı töküldü,
ağır yük daşımaqdan çiyinləri yağır
oldu. Amma Surla müharibədə ordusuna
zəhmət verməsinə baxmayaraq, bunun
nə özünə, nə də ordusuna bir xeyri
oldu. 19 Buna görə də Xudavənd Rəbb
belə deyir: “Mən Misir ölkəsini Babil
padşahı Navuxodonosora verəcəyəm. O,
sərvətini aparıb ölkəni qarət və talan
edəcək. Ordusunun xeyri bu olacaq.
20 Çəkdiyi zəhmətin əvəzində Misir
ölkəsini ona verdim, çünki o da, ordusu
da bu işi Mənim üçün etdi” Xudavənd
Rəbb belə bəyan edir.
21 “O gün İsrail nəslinin gücünü özünə
qaytaracağam. Onların arasında sənin
dilini açacağam. Onda biləcəklər ki,
Rəbb Mənəm”».

Rəbbin Misirliləri cəzalandırması

30 Mənə Rəbbin bu sözü nazil oldu:
2 «Ey bəşər oğlu, peyğəmbərlik
edib söylə ki, Xudavənd Rəbb belə
deyir:
“‹Ah, o gün› deyib fəryad edin,
3 Çünki o gün yaxındır,
Rəbbin günü yaxındır.
O gün buludlu gündür,
Millətlərin qiyamət günüdür.
4 Misirin üstünə qılınc gələcək,
Kuş əzab çəkəcək.
Misirdə adamlar həlak olanda
Ölkənin sərvəti qarət olunacaq,
O öz təməlindən dağılacaq.
5 Misirlə birlikdə Kuş, Put, Lud,
Bütün Ərəbistan, Kuv və əhd bağladığı
ölkənin adamları
Qılıncdan keçiriləcək”.
6 Rəbb belə deyir:
“Misirə arxa olanlar yıxılacaq,
Onun qürurlandığı qüdrət çökəcək.
Miqdoldan Asvana qədər ərazidə
Qılıncdan keçiriləcəklər”
Xudavənd Rəbb belə bəyan edir.
7 “Misir xaraba qalmış ölkələr kimi
Xaraba qalacaq.
Şəhərləri viran olmuş
Şəhərlər kimi viran olacaq.
8 Mən Misiri oda təslim edəndə,
Ona kömək edənlər əziləndə
Biləcəklər ki, Rəbb Mənəm.
9 O gün qayğısız Kuş əhalisini
qorxutmaq üçün gəmilərlə qasidlər
göndərəcəyəm. Onlar Misirin dağıldığı
gün gələndə dəhşətə düşəcək. Budur, o
gün gəlir!”
10 Xudavənd Rəbb belə deyir:
“Babil padşahı Navuxodonosor
vasitəsilə
Misirin sərvətinə son qoyacağam.
11 O öz ordusu ilə, millətlər arasında
ən rəhmsizi ilə
Ölkəni yerlə yeksan etmək üçün
gətiriləcək.
Misirə qarşı qılınc çəkəcək,
Ölkəni ölülərlə dolduracaq.
12 Çayları qurudub,
Ölkəni pis adamlara satacağam.
Ölkəni də, orada olan hər şeyi də
Yadellilərin əli ilə viran edəcəyəm”
Mən Rəbb bunu söylədim.
13 Xudavənd Rəbb belə deyir:

"Bütləri məhv edəcəyəm,
Nofdakı* bütləri yox edəcəyəm.
Artıq Misirdə rəhbər qalmayacaq,
Ölkəni dəhşətə salacağam.
14 Patrosu xarabalığa çevirəcəyəm,
Soanı oda verəcəyəm,
No† şəhərini cəzalandıracağam.
15 Qəzəbimi Misirin qalası olan
Sin üzərinə tökəcəyəm,
No şəhərinin çoxlu əhalisini yox edəcəyəm.
16 Misiri oda verəcəyəm,
Sin ağrıdan qıvrılacaq,
No şəhərinin divarı yarılacaq.
Gündüz vaxtı Nofda
Düşmənlər cövlan edəcək.
17 On şəhərinin və Pi-Besetin cavanları
Qılıncdan keçiriləcək.
Oradakı əhali sürgün olunacaq.
18 Taxpanxesdə Misirin boyunduruğunu qırdığım zaman
Orada gündüz qaranlığa çevriləcək,
Qürurlandığı qüdrət məhv olacaq.
Şəhər buludlarla örtüləcək,
Qızları sürgün olunacaq.
19 Beləcə Misiri cəzalandıracağam.
Onda biləcəklər ki, Rəbb Mənəm"».

20 Sürgünlüyümüzün on birinci ilində, birinci ayın yeddinci günü mənə Rəbbin sözü nazil oldu: 21 «Ey bəşər oğlu, Misir padşahı fironun qolunu qırdım. Qolu sağalmaq üçün bağlanmadı, ona sarğı qoyulmadı ki, qılınc ələ alacaq qədər güclənsin.

22 Buna görə də Xudavənd Rəbb belə deyir: "Mən Misir padşahı fironun əleyhinəyəm. Hər iki qolunu – sağlam olanı da, sınanı da qıracaq, qılıncı əlindən salacağam. 23 Misirliləri millətlər arasına yayacağam, ölkələr arasına səpələyəcəyəm. 24 Babil padşahının qoluna güc verəcək, qılıncımı onun əlinə verəcəyəm. Fironun isə qollarını qıracağam. O, Babil padşahının önündə ağır yaralı kimi inildəyəcək. 25 Babil padşahının qoluna güc verəcəyəm, fironun qolları isə yanına düşəcək. Qılıncımı Babil padşahının əlinə verəndə, o da bu qılıncı Misir ölkəsinə tuşlayanda biləcəklər ki, Rəbb Mənəm. 26 Misirliləri millətlər arasına yayacağam və ölkələr arasına səpələyəcəyəm. Onda biləcəklər ki, Rəbb Mənəm"».

Sidr ağacı ilə müqayisə

31 Sürgünlüyümüzün on birinci ilində, üçüncü ayın birinci günü mənə Rəbbin bu sözü nazil oldu: 2 «Ey bəşər oğlu, Misir padşahı firona və onun camaatına söylə:

"Əzəmətdə kim sənlə müqayisə edilə bilər?
3 Bax Aşşur Livandakı sidr ağacına bənzəyirdi,
Meşəyə kölgə salan gözəl budaqları var idi,
Çox uca idi, başı buludlara çatırdı.
4 Onu sular bəslədi,
Dərin su qaynaqları böyütdü.
Çayları əkildiyi yeri əhatə etdi,
Arxları çöldəki bütün ağaclara çatırdı.
5 Buna görə də çöldəki bütün ağaclardan böyük oldu,
Bol su içdiyi üçün qol-budaq atıb
Şaxələri uzandı.
6 Bütün göy quşları onun budaqlarında yuva qurdu,
Vəhşi heyvanlar şaxələri altında balaladı,
Bütün böyük millətlər kölgəsində yaşadı.
7 Böyüklüyü və uzun budaqları ilə gözəl oldu,
Çünki kökləri bol su içdi.

---

*30:13 *Nof* – yunan adı *Memfis.*
†30:14 *No* – yunan adı *Fiv.*

8 [b]Allahın bağçasındakı sidr ağacları da
Boyda ona çatmazdı,
Şam ağacları boyda onun budaqlarına yetməzdi,
Çinar ağacları onun şaxələri kimi deyildi,
Allahın bağçasındakı ağaclardan heç biri
Onun kimi gözəl deyildi.
9 Sıx budaqlarla o sidr ağacını gözəlləşdirdim,
Allahın bağçası olan Edendəki
Bütün ağaclar ona qısqandı”.
10 Buna görə də Xudavənd Rəbb belə deyir: “İndi ki boyu ucalıb başı buludlara çatanda ucalığına görə ürəyi qürurlandı, 11 Mən də onu millətlərin başçısına təslim etdim. O da onunla pisliyinə görə rəftar edəcək. Mən onu qovdum və 12 yadelli millətlərin ən rəhmsizi onu kəsib yerə yıxdı. Budaqları dağlara və bütün dərələrə düşdü. Şaxələri ölkənin bütün vadilərində qırılıb qaldı. Yer üzünün bütün xalqları kölgəsindən çəkilib onu tərk etdi.
13 Göydəki bütün quşlar onun yıxılmış gövdəsi üstünə qondu, bütün vəhşi heyvanlar şaxələri arasında yaşadı.
14 Bu ona görə oldu ki, bir daha suların yaxınlığında bitən heç bir ağac boy-buxun atmasın, başını buludlara çatdırmasın, bol su içən heç bir ağac bu qədər yüksəlməsin. Çünki onların hamısı qəbirə enən insanlarla birgə ölümə – yerin dərinliklərinə təslim edildi”.
15 Xudavənd Rəbb belə deyir: “Sidr ağacı ölülər diyarına endiyi gün ona yas tutsunlar deyə dərin su qaynaqlarını örtdüm, çaylarını dayandırdım, gur sularının qabağını kəsdim. O ağac üçün Livana yas tutdurdum, bütün çöl ağaclarını qurutdum.
16 Qəbirə enənlərlə birgə onu ölülər diyarına endirdiyim zaman dağılmasının gurultusundan millətləri lərzəyə saldım. O zaman Eden bağındakı bütün ağaclar, Livanın ən seçilmiş, ən yaxşı və bol sulanan ağacları yerin dərinliklərində təsəlli tapdı.
17 Kölgəsində yaşayanlar, millətlər arasında ona arxa duranlar da onunla birlikdə ölülər diyarına – qılıncla öldürülmüş adamların yanına endi.
18 Eden ağaclarından hansı izzət və əzəmətdə səninlə müqayisə edilə bilər? Ancaq sən Eden ağacları ilə birgə yerin dərinliklərinə endiriləcək, qılıncla öldürülənlərlə birgə sünnətsizlərin arasında yatacaqsan. Fironun və onun camaatının aqibəti belə olacaq” Xudavənd Rəbb belə bəyan edir».

Firon üçün mərsiyə

32 Sürgünlüyümüzün on ikinci ilində, on ikinci ayın birinci günü mənə Rəbbin bu sözü nazil oldu:
2 «Ey bəşər oğlu, Misir padşahı firon üçün mərsiyə oxuyub ona söylə:
“Millətlər içində özünü cavan bir aslana bənzətdin,
Amma sən bir dəniz əjdahası kimisən.
Çayları qarışdırırsan,
Ayaqlarınla suları çalxalayıb
Çayları bulandırırsan”.
3 Xudavənd Rəbb belə deyir:
“Çoxlu xalqdan ibarət bir qoşun göndərib
Torumu üstünə atacağam.
Onlar səni torumla dartıb çıxaracaq.
4 Səni quruya çıxaracağam,
Çölün üzünə atacağam,
Göydəki quşları üstünə qonduracağam.
Yer üzünün vəhşi heyvanlarını
Səninlə doyduracağam.
5 Bədənini dağların üstünə sərəcəyəm,

[b]**31:8** Yar. 2:9

Dərələri leşinlə dolduracağam.
6 Ölkəni dağlara qədər axan qanınla
sulayacağam,
Vadilər meyitinlə dolacaq.
7 [c]Səni məhv etdiyim zaman
Göyləri bağlayacağam,
Ulduzları qaraldacağam,
Günəşi buludla örtəcəyəm,
Ay işığını verməyəcək.
8 Sənin üzərində nur saçan
Bütün səma cisimlərini qaraldacağam,
Ölkəni qaranlığa qərq edəcəyəm”
Xudavənd Rəbb belə bəyan edir.
9 “Sənin məhv olmaq xəbərini,
Millətlərin arasına,
Tanımadığın ölkələrə çatdırdığım
zaman
Bir çox xalqların ürəyini
kədərləndirəcəyəm.
10 Sənin başına gələnlərlə
Bir çox xalqı heyrətə salacağam.
Onların önündə qılıncımı yellədiyim
zaman
Sənə görə padşahlarının tükləri
biz-biz olacaq.
Yıxıldığın gün
Onların hamısı öz canları üçün
Durmadan qorxu içində titrəyəcək”.
11 Xudavənd Rəbb belə deyir:
“Babil padşahının qılıncı sənin üstünə
gələcək.
12 İzin verəcəyəm ki, millətlərin
rəhmsiz igidləri
Sənin xalqını qılıncdan keçirsin.
Onlar Misirin qürurunu qıracaqlar,
Bütün ordusunu məhv edəcəklər.
13 Bol suların yanında otlayan
Bütün mal-qaranı yox edəcəyəm.
Bundan sonra insan ayağı da, heyvan
ayağı da
Suları qarışdırıb bulandırmayacaq.
14 O zaman onların sularını
duruldacağam,
Çaylarını yağ kimi axıdacağam”
Xudavənd Rəbb belə bəyan edir.
15 “Misiri xarabalığa çevirəndə,
Ölkəni hər şeydən məhrum edəndə,
Orada yaşayan hər kəsi məhv edəndə
Biləcəklər ki, Rəbb Mənəm”.
16 Misir üçün oxunan mərsiyə
budur. Millətlərin qızları bu mərsiyəni
oxuyacaq. Misir və onun xalqı üçün bu
mərsiyəni oxuyacaqlar. Xudavənd Rəbb
belə bəyan edir».
17 Sürgünlüyümüzün on ikinci ilində,
ayın on beşinci günü mənə yenə
Rəbbin sözü nazil oldu: 18 «Ey bəşər
oğlu, Misir xalqı üçün yas tut. Onları
və güclü millətlərin qızlarını qəbirə
enənlərlə birgə yerin dərinliklərinə
endir. 19 Onlara söylə: “Məgər sən
başqalarından daha gözəlsən? Yerin
altına en və oradakı sünnətsizlərlə
birgə uzan”. 20 Misir xalqı qılıncla
öldürülənlərin arasına düşəcək. Bu xalq
qılıncın ixtiyarına verildi. Qoy Misir
bütün camaatı ilə birgə sürüklənsin.
21 Qüdrətli başçılar ölülər diyarından
Misir və ona arxa olanlar üçün belə
söyləyəcək: “Yerin altına endilər,
qılıncla öldürülən sünnətsizlər kimi indi
burada yatırlar”.
22 Aşşur və bütün ordusu oradadır.
Qılıncdan keçirilmiş, ölmüş əsgərlərinin
məzarları ətrafını bürümüşdür.
23 Onların məzarları qəbirin lap dibində,
ordusu məzarının ətrafında uzanıb.
Dirilər arasına qorxu salanların hamısı
qılıncdan keçirilib öldürülmüşdür.
24 Elam oradadır və bütün xalqı
öz məzarlarının ətrafında uzanıb.
Onların hamısı qılıncdan keçirilmiş,
ölmüş və sünnətsiz halda yerin
dərinliklərinə enmişdir. Dirilər arasına
qorxu salmışdılar, indi isə xəcalət
içində qəbirə enənlərə qoşuldular.

---

[c]**32:7** Yeş. 13:10; Yoel 2:10,31; 3:15; Mat. 24:29; Mark 13:24-25; Luka 21:25; Vəhy 6:12-13; 8:12

25 Elam üçün öldürülənlər arasında
bir yataq hazırlandı. Bütün xalqı
məzarının ətrafındadır. Onların hamısı
sünnətsiz halda qılıncdan keçirilib
öldürülmüşdür. Dirilər arasına qorxu
salmışdılar, indi isə xəcalət içində
qəbirə enənlərə qoşulub öldürülənlərin
arasına qoyuldular.
26 Meşek, Tuval oradadır və bütün
xalqı öz məzarlarının ətrafında uzanıb.
Onların hamısı sünnətsiz halda
qılıncdan keçirilib öldürülmüşdür.
Dirilər arasına qorxu salmışdılar.
27 Onlar da döyüş silahları ilə ölülər
diyarına enən, qılıncları başlarının
altına qoyulan, sünnətsiz igidlərlə
birgə məzara uzanacaq. Onların cəzası
özlərinin üzərinə gəldi. Sağ ikən bu
igidlər dirilər arasına qorxu salmışdılar.
28 Sən də, ey firon, qırılacaqsan,
qılıncla öldürülənlərlə birgə
sünnətsizlərin arasında uzanacaqsan.
29 Edom, padşahları və bütün
rəhbərləri oradadır. Güclü olmalarına
baxmayaraq, qılıncla öldürülənlərin
yanına qoyuldular. Qəbirə enənlərin,
sünnətsizlərin yanına uzanırlar.
30 Bütün şimal ölkələrinin başçıları,
bütün Sidonlular oradadır. Gücləri ilə
qorxu saldıqları halda öldürülənlərlə
birgə rüsvayçılıq içində yerin altına
endilər. Sünnətsiz halda qılıncla
öldürülənlərlə birgə xəcalət içində
qəbirə enənlərin yanına uzandılar.
31 "Firon və onun bütün ordusu
qılıncla öldürülmüş bu böyük kütləni
görəndə təsəlli tapacaq" Xudavənd Rəbb
belə bəyan edir. 32 "Dirilər arasına qorxu
salmasına izin verdiyimə baxmayaraq,
firon və onun bütün xalqı qılıncla
öldürülənlərlə birgə sünnətsizlərin
yanına uzanacaq" Xudavənd Rəbb belə
bəyan edir».

Rəbb Yezekeli xalqa gözətçi qoyur

33 Mənə Rəbbin bu sözü nazil oldu:
2 «Ey bəşər oğlu, xalqına mənsub
olanlara belə söylə: "Deyək ki Mən bir
ölkənin üstünə qılınc göndərəndə həmin
ölkə xalqı arasından bir nəfəri seçib
özü üçün gözətçi qoyur. 3 Bu gözətçi
də ölkənin üstünə qılıncın gəldiyini
görəndə şeypur çalıb xalqa xəbərdarlıq
edir. 4 O zaman kim şeypur səsini
eşidib xəbərdarlığa diqqət etməsə və
qılınc gəlib onu öldürsə, ölümünün
məsuliyyətini özü daşıyır. 5 O, şeypur
səsini eşitmiş, ancaq xəbərdarlığa
diqqət etməmişdir, buna görə də
ölümünün məsuliyyətini özü daşıyır.
Amma xəbərdarlığa diqqət etsəydi,
canını xilas edərdi. 6 Lakin gözətçi gələn
qılıncı görüb şeypur çalmırsa, xalqa
xəbərdarlıq edilmirsə və qılınc da gəlib
onlardan birini həlak edirsə, o adam
öz təqsirinə görə öldürülmüşdür, ancaq
ölümünün məsuliyyətini gözətçinin
üzərinə qoyaram.
7 Sən ey bəşər oğlu, səni İsrail nəsli
üçün gözətçi qoydum. Sən sözü Mənim
ağzımdan eşidib Mənim tərəfimdən
onlara xəbərdarlıq edəcəksən. 8 Pis
adama Mən ‹ey pis adam, mütləq
öləcəksən› deyəndə sən ona öz yolundan
dönmək üçün xəbərdarlıq etməsən, o
pis adam öz təqsirinə görə öləcək, ancaq
ölümünün məsuliyyətini sənin üzərinə
qoyacağam. 9 Əgər sən pis adama öz
yolundan dönmək üçün xəbərdarlıq
etsən, amma o öz yolundan dönməsə,
öz təqsirinə görə öləcək, sənsə canını
qurtarmış olursan".
10 Sən ey bəşər oğlu, İsrail evinə belə
söylə: "Siz deyirsiniz ki, üsyanlarımız
və günahlarımız bizi üzür və biz onların
içində əriyib yox oluruq. Belə halda
necə yaşaya bilərik?" 11 Onlara de:
"Varlığıma and olsun, pis adamın
ölümündən yox, onun öz yolundan

dönüb yaşamasından zövq alıram”
Xudavənd Rəbb bəyan edir. “Dönün, pis
yollarınızdan dönün. Nə üçün öləsiniz,
ey İsrail nəsli?”
12 Sən ey bəşər oğlu, xalqına mənsub
olanlara söylə: “Üsyan etdiyi halda
salehin salehliyi onu xilas etməz. Pis
adama gəlincə, o öz pisliyindən dönərsə,
bundan ötrü həlak olmaz. Saleh adam
günah etdiyi halda öz salehliyi ilə
yaşaya bilməz. 13 Saleh adama ‹əlbəttə,
yaşayacaqsan› dediyim zaman o öz
salehliyinə güvənib pislik edərsə, saleh
işlərindən heç biri yada salınmayacaq
və etdiyi pisliyə görə öləcək. 14 Pis
adama ‹əlbəttə, öləcəksən› dediyim
zaman günahından dönüb ədalətli və
saleh işlər görərsə – 15 girovunu geri
verərsə, soyğunçuluqla aldığını geri
qaytararsa, pislik etmədən həyatverici
qaydalara görə rəftar edərsə, əlbəttə,
ölməyib yaşayacaq. 16 Bu adamın etdiyi
günahlardan heç biri onun əleyhinə
yada salınmayacaq. Ədalətli və saleh
əməl etdiyi üçün, əlbəttə, yaşayacaq”.
17 Ancaq sənin xalqına mənsub
olanlar deyir: “Rəbbin yolu düz deyil”.
Halbuki onların öz yolları düz deyil.
18 Saleh adam öz salehliyindən dönüb
pislik edərsə, bundan ötrü öləcək. 19 Pis
adam öz pisliyindən dönüb ədalətli və
saleh əməl etsə, bu əməllərlə yaşayacaq.
20 Ancaq siz deyirsiniz: “Rəbbin yolu
düz deyil”. Sizin hər birinizi öz əməlinə
görə mühakimə edəcəyəm, ey İsrail
nəsli!»

Yerusəlimin süqut xəbəri

21 [d]Sürgünlüyümüzün on birinci
ilində, onuncu ayın beşinci günü
Yerusəlimdən qaçıb qurtulmuş bir nəfər
gəlib mənə dedi: «Şəhər zəbt edildi».
22 O qaçqın mənim yanıma gəlməmişdən
əvvəl axşam vaxtı Rəbbin əli mənim
üstümdə idi və mən danışa bilmirdim.
Səhər adam yanıma gəlməzdən qabaq
Rəbb dilimi açdı, dilim açıldı, artıq
danışa bilirdim.
23 Onda mənə Rəbbin bu sözü nazil
oldu: 24 «Ey bəşər oğlu, İsrailin xaraba
qalmış şəhərlərində yaşayanlar belə
söyləyir: “İbrahim yalqız olduğu halda
ölkəni mülk aldı. Biz isə çoxuq, ona görə
də ölkə mülk olaraq bizə verilmişdir”.
25 Bu sözlərdən ötrü onlara söylə ki,
Xudavənd Rəbb belə deyir: “Əti qanı
ilə yeyirsiniz, bütlərinizə güvənirsiniz
və qan tökürsünüz. Belə olduğu
halda ölkəni mülk ala biləcəksinizmi?
26 Qılıncınıza arxalanırsınız, iyrənc işlər
görürsünüz, hər kəs öz qonşusunun
arvadını murdar edir. Belə olduğu halda
ölkəni mülk ala biləcəksinizmi?”
27 Onlara söylə ki, Xudavənd Rəbb
belə deyir: “Varlığıma and olsun ki,
xaraba qalan şəhərlərdə yaşayanlar
hökmən qılıncla həlak olacaq. Çöldə
qalanları yem olsunlar deyə vəhşi
heyvanlara verəcəyəm. Qalalarda və
mağaralarda olanlar vəbadan öləcək.
28 Ölkəni xaraba və sakinsiz qoyacağam.
Qürurlandıqları qüdrət heç olacaq.
İsrail dağları sakinsiz qalacaq, oradan
kimsə keçməyəcək. 29 Etdikləri bütün
iyrənc işlərdən ötrü ölkəni xaraba və
sakinsiz qoyduğum zaman biləcəklər ki,
Rəbb Mənəm.
30 Sənə gəlincə, ey bəşər oğlu, xalqına
mənsub olanlar divarların dibində,
evlərin qapısı qarşısında sənin barəndə
danışır. Bir-birlərinə deyirlər: ‹Gəl
gedək, Rəbb tərəfindən nazil olan
sözə qulaq asaq›. 31 Xalq hər vaxt
olduğu kimi sənin yanına gəlir. Mənim
xalqım olduqları halda önündə oturur,
sözlərinə qulaq asır, amma dediklərini
etmirlər. Dilləri ilə səmimi olduqlarını
iddia edirlər, ancaq ürəkləri haram

---

[d]**33:21** 2Pad. 25:3-10; Yer. 39:2-8; 52:4-14

qazanc dalınca gedir. 32 Sən onlar üçün
gözəl səslə sevgi nəğmələri oxuyan
yaxşı bir çalğıçı kimisən. Sözlərinə
qulaq asır, ancaq dediklərini etmirlər.
33 Lakin bütün bunlar doğru çıxanda –
mütləq doğru çıxacaq – aralarında bir
peyğəmbər olduğunu başa düşəcəklər”».

İsrail başçılarına müraciət

34 Mənə Rəbbin bu sözü nazil
oldu: 2 «Ey bəşər oğlu,
peyğəmbərlik et, İsrailin çobanlarına
qarşı peyğəmbərlik edib onlara söylə
ki, Xudavənd Rəbb belə deyir: “Yalnız
özlərini bəsləyən İsrail çobanlarının
vay halına! Çobanlar sürünü bəsləməli
deyilmi? 3 Yağdan yeyir, yundan paltar
geyir, bəslənmiş qoyun-keçini kəsirsiniz,
ancaq sürünün qayğısına qalmırsınız.
4 Zəiflərə qüvvət vermədiniz, xəstə
olanı sağaltmadınız, yaralanana sarğı
qoymadınız, azanı geri qaytarmadınız,
itəni axtarmadınız. Ancaq zor və
qəddarlıqla onlara ağalıq etdiniz.
5 [e]Onlar da çoban olmadığı üçün
dağılışdı və vəhşi heyvanlara yem oldu.
6 Mənim sürüm bütün dağları və yüksək
təpələri avara dolaşdı. Onlar bütün yer
üzünə dağılışdı. Bir soruşan, bir axtaran
yox”.
7 Buna görə də, ey çobanlar, Rəbbin
sözünə qulaq asın. 8 Xudavənd Rəbb
bəyan edir: “Varlığıma and olsun, indi
ki çoban olmadığı üçün sürüm qarət
edildi, bütün vəhşi heyvanlara yem
oldu, çobanlarım da sürümü axtarmadı
və bəsləmədi, ancaq öz-özlərini
bəslədi – 9 bütün bunlara görə, ey
çobanlar, Rəbbin sözünə qulaq asın.
10 Xudavənd Rəbb belə deyir: ‹Mən bu
çobanların əleyhinəyəm. Sürüm üçün
hesab vermələrini tələb edəcəyəm.
Sürünü otarmaq işini bir daha onlara
həvalə etməyəcəyəm. Artıq çobanlar
özlərini bəsləməyəcək. Sürümü onların
dişlərindən qurtaracağam, bir daha
onlara yem olmayacaqlar›”.
11 Çünki Xudavənd Rəbb belə deyir:
“Mən Özüm qoyunlarımı soruşub
axtaracağam. 12 Dağılışmış qoyunlarının
arasında olan bir çoban sürüsünü necə
yoxlayırsa, Mən də qoyunlarımı eləcə
yoxlayacağam. Buludlu və qaranlıq bir
gündə ətrafa səpələndikləri hər yerdən
onları qurtaracağam. 13 Onları xalqların
arasından çıxaracağam, ölkələrdən
toplayıb öz torpaqlarına gətirəcəyəm.
İsrail dağlarında, vadilərdə, ölkənin
bütün məskuni yerlərində onları
otaracağam. 14 Onları gözəl bir
otlaqda otaracağam. Yaylaqları İsrailin
uca dağları üzərində olacaq. Orada
gözəl bir yaylaqda yatacaqlar. İsrail
dağları üzərində olan sıx otlaqda
otlayacaqlar. 15 Sürümü Mən Özüm
otaracağam, onları Mən Özüm
yatıracağam” Xudavənd Rəbb belə
bəyan edir. 16 “İtəni axtaracaq, azanı
geri qaytaracaq, yaralı olana sarğı
qoyacaq, xəstə olana qüvvət verəcək,
ancaq harınlayanları və güclü olanları
həlak edəcəyəm. Mən qoyunlarımı
ədalətlə otaracağam”.
17 Siz ey Mənim sürüm, Xudavənd
Rəbb belə deyir: “Qoyunla qoyun
arasında, qoçlarla təkələr arasında
Mən hökm edəcəyəm. 18 Gözəl otlaqda
otlamağınız sizə az idi ki, otlaqlarınızın
qalanını da ayaqlarınız altında
tapdalayırsınız? Duru su içməyiniz
sizə az idi ki, artığını da ayaqlarınızla
bulandırırsınız? 19 Mənim qoyunlarım
isə sizin ayaqlarınızla tapdaladıqlarınızı
yeyir, ayaqlarınızla bulandırdıqlarınızı
içir”.
20 Buna görə də Xudavənd Rəbb
onlara belə deyir: “Mən bəslənmiş
qoyunla zəif qoyun arasında hökm

---

[e]**34:5** Say. 27:17; 1Pad. 22:17; 2Saln. 18:16; Zək. 10:2; Mat. 9:36; Mark 6:34

edəcəyəm. 21 Siz bütün zəif qoyunları
böyrünüzlə və çiyninizlə itələyir,
kənara çıxarmaq üçün buynuzlarınızla
vurursunuz. 22 Buna görə də Mən
sürümü xilas edəcəyəm. Onlar daha
qarət malı olmayacaq və qoyunla
qoyun arasında Mən hökm edəcəyəm.
23 [f]Başlarına onları otaran yeganə çoban
olaraq qulum Davudu qoyacağam.
Onları o otaracaq, çobanları da o
olacaq. 24 [g]Mən Rəbb onların Allahı
olacağam, qulum Davud da onların
içində rəhbər olacaq" Mən Rəbb bunu
söylədim.
25 "Onlarla bir sülh əhdi
bağlayacağam, ölkədən zərərli
heyvanları qovacağam ki, onlar çöldə
asayiş içində yaşayıb meşələrdə
yatsın. 26 Onların özlərinə də,
təpəmin ətrafındakı yerlərə də
bərəkət verəcəyəm. Yağışı vaxtında
yağdıracağam, bərəkətli yağışlar
olacaq. 27 Çöldəki ağaclar meyvə
yetirəcək, torpaq məhsul verəcək. Xalq
öz torpağında asayiş içində yaşayacaq.
Boyunduruq iplərini qırıb onları qul
edənlərin əlindən qurtardığım zaman
biləcəklər ki, Rəbb Mənəm. 28 Artıq
millətlərin qarət malı olmayacaqlar,
vəhşi heyvanlar da onları yeməyəcəklər.
Asayiş içində yaşayacaqlar, onları
qorxudan olmayacaq. 29 Onlar üçün
şöhrətli bir şitillik yetişdirəcəyəm.
Daha ölkədə aclıqdan tələf olmayacaq,
millətlərin təhqirlərinə məruz
qalmayacaqlar. 30 Onda biləcəklər ki,
Mən – özlərinin Allahı Rəbb onlarlayam,
onlar – İsrail nəsli də Mənim xalqımdır"
Xudavənd Rəbb belə bəyan edir.
31 "Mənim qoyunlarım, otlağımın
qoyunları siz insanlarsınız, Mən də
sizin Allahınızam" Xudavənd Rəbb belə
bəyan edir».

Edomun əleyhinə peyğəmbərlik

35 [h]Mənə Rəbbin bu sözü nazil
oldu: 2 «Ey bəşər oğlu, üzünü
Seir dağına çevir və onun əleyhinə
peyğəmbərlik edib 3 söylə ki, Xudavənd
Rəbb belə deyir:
"Ey Seir dağı, Mən sənin əleyhinəyəm.
Mən əlimi sənə qarşı uzadacaq,
Səni xaraba, sakinsiz bir yerə
çevirəcəyəm.
4 Şəhərlərini viran edəcəyəm və sən
xarabalığa çevriləcəksən.
Onda biləcəksən ki, Rəbb Mənəm.
5 Sən İsraillilərə həmişə kin
bəsləmisən, fəlakətə düşdükləri və
cəzalandırıldıqları vaxt zirvəyə yetəndə
onları qılınca təslim etmisən". 6 Buna
görə də Xudavənd Rəbb bəyan edir:
"Varlığıma and olsun ki, səni qana
bulaşdıracağam, qan səni izləyəcək, qan
tökməkdən imtina etmədiyinə görə qan
səni izləyəcək. 7 Mən Seir dağını sakinsiz
bir yerə və xarabalığa çevirəcəyəm.
Oraya gedib-gələnin ayağını kəsəcəyəm.
8 Dağlarını ölülərlə dolduracağam,
qılıncdan keçirilənlər sənin təpələrində,
dərələrində, vadilərində yıxılıb həlak
olacaq.
9 Səni əbədi olaraq xarabalığa
çevirəcəyəm,
Şəhərlərində heç kəs yaşamayacaq.
Onda biləcəksən ki, Rəbb Mənəm.
10 Sən belə söylədin: ‹Rəbb o
yerlərdə olsa da, bu iki millət, bu
iki ölkə mənim olacaq, onları özümə
mülk edəcəyəm›". 11 Buna görə də
Xudavənd Rəbb belə bəyan edir:
"Varlığıma and olsun ki, xalqıma kin
bəslədiyinə görə onlarla necə qəzəb

---

[f]**34:23** Vəhy 7:17 [g]**34:24** Yez. 37:24
[h]**35:1** Yeş. 34:5-17; 63:1-6; Yer. 49:7-22; Yez. 25:12-14; Amos 1:11-12; Avd. 1-14; Mal. 1:2-5

və qısqanclıqla rəftar etdinsə, Mən
də sənin elə rəftar edəcəyəm. Səni
mühakimə etdiyim zaman onlara da
Özümü göstərəcəyəm. 12 O zaman
biləcəksən ki, Mən Rəbb İsrail dağlarına
qarşı söylədiyin təhqirlərin hamısını
eşitmişəm. Sən belə demişdin: ‹Yerlə
yeksan oldular, yeyilmək üçün bizə
verildilər›. 13 Ağzınızla Mənə qarşı
qürurla danışdınız, Mənim əleyhimə
hörmətsiz sözlər dediniz. Mən Rəbb də
bunları eşitdim”.
14 Xudavənd Rəbb belə deyir: “Bütün
yer üzü sevindiyi halda Mən səni viran
edəcəyəm. 15 İsrail xalqının irsi yerlə
yeksan olanda sən necə sevindinsə, Mən
də sənin elə rəftar edəcəyəm. Ey Seir
dağı, viran olacaqsan, bütün Edom da
viran olacaq. Onda biləcəklər ki, Rəbb
Mənəm”.

Allahın İsrailə xeyir-duası

36 Sən ey bəşər oğlu, İsrail dağları
üçün peyğəmbərlik edib söylə
ki, ey İsrail dağları, Rəbbin sözünü
eşidin. 2 Xudavənd Rəbb belə deyir:
“Düşmən sizin barənizdə ‹nə yaxşı, bu
qədim təpələr bizim mülkümüz oldu›
dedi”. 3 Buna görə də peyğəmbərlik
edib söylə ki, Xudavənd Rəbb belə
deyir: “Sizi viran etdilər, hər tərəfdən
sıxışdırıb tapdaladılar, başqa millətlər
mülkünüzə sahib oldu, dillərə düşdünüz
və xalqın dedi-qodusuna çevrildiniz”.
4 Bütün bunlara görə, ey İsrail dağları,
Xudavənd Rəbbin sözünü eşidin.
Xudavənd Rəbb dağlara, təpələrə,
vadilərə, dərələrə, ətrafındakı başqa
millətlərə, qarət və kinayə hədəfi olan
viran olmuş xarabalıqlara, tərk edilmiş
şəhərlərə belə deyir. 5 Buna görə də,
Xudavənd Rəbb belə deyir: “Başqa
millətlərə, xüsusilə bütün Edoma qarşı
qızğın qısqanclığımla danışdım. Onlar
bütün ürəkləri ilə sevinib həqarət
edərək ölkəmə sahib çıxdılar ki, onun
otlaqlarını qarət etsinlər”. 6 Buna görə
də İsrail ölkəsi üçün peyğəmbərlik edib
dağlara, təpələrə, vadilərə və dərələrə
söylə ki, Xudavənd Rəbb belə deyir:
“Millətlərin təhqirinə hədəf olduğunuz
üçün qısqanc qəzəbimlə danışdım”.
7 Buna görə də Xudavənd Rəbb belə
deyir: “And içirəm ki, ətrafınızdakı
millətlər də mütləq təhqir olunacaq.
8 Ey İsrail dağları, siz qol-budaq
atacaq, xalqım İsrail üçün meyvə
verəcəksiniz, ona görə ki xalqım İsrail
tezliklə öz yurduna qayıdacaq. 9 Çünki
Mən sizin tərəfinizdəyəm, sizə tərəf
dönəcəyəm. Torpağınız şumlanıb
əkiləcək. 10 Ölkənizdə adamların
sayını, bəli, bütün İsrail nəslinin sayını
çoxaldacağam. Şəhərlər məskunlaşacaq,
xarabalıqlar abad ediləcək. 11 Ölkənizdə
adamların və heyvanların sayını
çoxaldacağam, törəyib çoxalacaqlar.
Keçmişdə olduğu kimi ölkənizi
insanlarla məskunlaşdıracaq və
sizə əvvəlkindən də artıq yaxşılıq
edəcəyəm. Onda biləcəksiniz ki,
Rəbb Mənəm. 12 Ölkənizdə xalqım
İsraildən olan insanları gəzdirəcəyəm
və onlar sizə sahib olacaq. Siz də
onların irsi olacaqsınız. Onları bir daha
övladlarından məhrum etməyəcəksiniz”.
13 Xudavənd Rəbb belə deyir: “Ey
ölkə, insanlar sənə adam yeyən,
millətini övladdan məhrum edən bir
ölkə deyir. 14 Ancaq bundan sonra
sən daha adam yeməyəcək, millətini
övladdan məhrum etməyəcəksən”
Xudavənd Rəbb belə bəyan edir.
15 “Artıq Mən millətlərin təhqirlərini
eşitdirməyəcəyəm, daha xalqların
kinayəsinə düçar olmayacaqsan.
Millətini bir daha büdrətməyinə izin
verməyəcəyəm” Xudavənd Rəbb belə
bəyan edir».
16 Mənə Rəbbin sözü nazil oldu: 17 «Ey
bəşər oğlu, İsrail nəsli öz torpağında
yaşayanda adət və əməlləri ilə onu

murdar etdi. Onların adətləri Mənim
önümdə qadının aybaşı olduğu vaxtdakı
murdarlığı kimi idi. 18 Mən də qəzəbimi
onların üstünə tökdüm, çünki ölkədə
qan tökdülər, bütləri ilə onu murdar
etdilər. 19 Onları millətlər arasına
yaydım, ölkələr arasına səpələndilər.
Onları adətlərinə və əməllərinə
görə mühakimə etdim. 20 Millətlərin
arasında, getdikləri hər yerdə müqəddəs
adımı ləkələdilər. Çünki onlar üçün belə
deyildi: "Bu xalq Rəbbin xalqı olduğu
halda ölkəsindən çıxmağa məcbur
oldu". 21 İsrail nəslinin getdiyi millətlər
arasında ləkələdiyi müqəddəs adımın
izzətdən düşməsi üçün təəssüfləndim.
22 Buna görə də İsrail nəslinə söylə
ki, Xudavənd Rəbb belə deyir: "Ey
İsrail nəsli, bunu sizin naminizə
deyil, ancaq getdiyiniz millətlər
arasında ləkələdiyiniz müqəddəs
adım naminə edirəm. 23 Millətlər
arasında ləkələdiyiniz böyük adımın
müqəddəsliyini yenə göstərəcəyəm.
Millətlərin gözü önündə sizin içinizdə
müqəddəsliyimi göstərən zaman
biləcəklər ki, Rəbb Mənəm" Xudavənd
Rəbb belə bəyan edir. 24 "Çünki sizi
millətlərin arasından götürəcək, bütün
ölkələrdən toplayacaq və öz torpağınıza
gətirəcəyəm. 25 Üstünüzə təmiz su
səpəcəyəm, pak olacaqsınız. Sizi bütün
murdarlıqlarınızdan və bütlərinizdən
təmizləyəcəyəm. 26 [i]Mən sizə yeni ürək
verəcək, daxilinizə yeni ruh qoyacağam.
Köksünüzdən daş ürəyi çıxarıb sizə
ətdən olan ürək verəcəyəm. 27 Öz
Ruhumu sizin daxilinizə qoyacağam.
Elə edəcəyəm ki, siz qaydalarıma görə
rəftar edəsiniz, hökmlərimə diqqətlə
riayət edəsiniz. 28 O zaman atalarınıza
verdiyim ölkədə yaşayacaqsınız.
Siz Mənim xalqım, Mən də sizin
Allahınız olacağam. 29 Sizi bütün
murdarlıqlarınızdan xilas edəcəyəm.
Buğdaya əmr edib onu çoxaldacaq,
üstünüzə aclıq gətirməyəcəyəm. 30 Bir
daha millətlər içində aclıq rüsvayçılığını
çəkməyəsiniz deyə ağacın meyvəsini,
tarlanın məhsulunu çoxaldacağam. 31 O
zaman pis əməllərinizi, xeyirsiz işlərinizi
yada salacaqsınız. Təqsirlərinizdən və
iyrənc işlərinizdən ötrü özünüzdən
iyrənəcəksiniz. 32 Bilin ki, bunu sizin
naminizə etmirəm" Xudavənd Rəbb
belə bəyan edir, "adətlərinizdən utanıb
xəcalət çəkin, ey İsrail nəsli!"
33 Xudavənd Rəbb belə deyir: "Sizi
bütün təqsirlərinizdən təmizlədiyim
vaxt şəhərləri məskunlaşdıracaq, xaraba
yerləri abad edəcəyəm. 34 Boş qalmış
ölkə şumlanacaq, halbuki hər yoldan
keçənin nəzərində o bir viranə idi.
35 Onda deyəcəklər: ‹Viran olan bu
torpaq Eden bağı kimi oldu. Xaraba
və viran qalmış, dağıdılmış şəhərlərin
istehkamları tikildi, onların içində
adamlar yaşayır›. 36 Onda ətrafınızda
qalan millətlər biləcək ki, dağıdılmış
yerləri Mən Rəbb tikdim, çölə çevrilmiş
yerləri Mən abad etdim. Mən Rəbb
bunu söylədim və hökmən yerinə
yetirəcəyəm".
37 Xudavənd Rəbb belə deyir: "Mən
İsrail nəslinin xahişini qəbul edib
onlar üçün bunu edəcəyəm: əhalisini
sürü kimi çoxaldacağam. 38 Bayram
günlərində Yerusəlimdə qurbanlıq
heyvan sürüləri necə çox olursa, viran
edilmiş şəhərlər də eləcə insan sürüləri
ilə dolu olacaq. Onda biləcəklər ki,
Rəbb Mənəm"».

Quru sümüklə müqayisə

37 Rəbbin əli üzərimdə idi. Rəbb
Öz Ruhu ilə məni bayıra
çıxarıb vadinin ortasına qoydu.
Vadi sümüklərlə dolu idi. 2 O məni

---

[i]**36:26** Yez. 11:19-20

onların üstündə gəzdirib hər tərəfə
apardı. Gördüm ki, vadinin üstündə
saysız-hesabsız sümük var. Onlar bərk
qurumuşdu. 3 Rəbb mənə dedi: «Ey
bəşər oğlu, bu sümüklər dirilə bilərmi?»
Mən cavab verdim: «Ey Xudavənd
Rəbb, bunu Sən bilirsən». 4 O mənə
dedi: «Bu sümüklər üçün peyğəmbərlik
edib onlara söylə ki, ey quru sümüklər,
Rəbbin sözünü eşidin. 5 Xudavənd
Rəbb bu sümüklərə belə deyir: "Mən
sizin daxilinizə ruh qoyacağam və
siz diriləcəksiniz. 6 Üstünüzə vətərlər
qoyacaq, ət bitirəcək, sizi dəri ilə
örtəcəyəm, daxilinizə ruh qoyacağam
və siz diriləcəksiniz. Onda biləcəksiniz
ki, Rəbb Mənəm"».
7 Mənə əmr olunduğu kimi
peyğəmbərlik etdim. Mən peyğəmbərlik
edərkən bir gurultu qopdu, bir taqqıltı
eşidildi. Sümüklər yaxınlaşdı, sümük
sümüyə bitişdi. 8 Mən baxıb gördüm ki,
onların üstünə vətərlər gəldi, ət bitdi,
bunları isə dəri örtdü. Ancaq onlarda
nəfəs yox idi. 9 Rəbb mənə dedi: «Ey
bəşər oğlu, nəfəs üçün peyğəmbərlik
et, peyğəmbərlik edib nəfəsə söylə ki,
Xudavənd Rəbb belə deyir: "Ey nəfəs,
küləyin əsdiyi dörd səmtdən gəl, bu
öldürülən adamların üzərinə üfür ki,
dirilsinlər"». 10 [j]Mənə əmr olunduğu
kimi peyğəmbərlik etdim. Nəfəs onların
daxilinə girdi və onlar dirilib ayaq üstə
qalxdı. Çox böyük bir kütlə yarandı.
11 Rəbb mənə dedi: «Ey bəşər oğlu, bu
sümüklər bütün İsrail nəslinin rəmzidir.
Onlar belə deyir: "Sümüklərimiz
qurudu, ümidimiz yox oldu, işimiz
bitdi". 12 Buna görə də peyğəmbərlik
edib onlara söylə ki, Xudavənd
Rəbb belə deyir: "Ey xalqım, Mən
qəbirlərinizi açıb sizi oradan çıxaracaq
və İsrail torpağına gətirəcəyəm. 13 Ey
xalqım, Mən qəbirlərinizi açanda, sizi
qəbirlərinizdən çıxaranda biləcəksiniz
ki, Rəbb Mənəm. 14 Mən daxilinizə
Öz Ruhumu qoyacağam və siz
diriləcəksiniz. Sizi öz torpağınıza
yerləşdirəcəyəm. Onda biləcəksiniz ki,
Mən Rəbb bunu söylədim və hökmən
yerinə yetirəcəyəm" Rəbb belə bəyan
edir».

Yəhuda və İsrailin birləşməsi

15 Mənə Rəbbin bu sözü nazil oldu:
16 «Sən ey bəşər oğlu, əlinə bir əsa götür
və onun üstünə "Yəhuda və müttəfiqləri
olan İsrail övladları" sözlərini yaz.
Sonra başqa bir əsa götür və onun
üstünə "Yusif və müttəfiqləri olan bütün
İsrail nəsli" sözlərini yaz. Bu, Efrayimin
əsasıdır. 17 Bu əsaları bir-birinin üstünə
qoyaraq öz əlində birləşdir. Elə et
ki, əlində bir əsa olsun. 18 Əgər sənin
xalqına mənsub olanlar "Etdiklərinin
mənası nədir, bizə bildirməzsən?"
deyə soruşsa, 19 onlara söylə ki,
Xudavənd Rəbb belə deyir: "Efrayimin
əlindəki əsanı – Yusif və onun
müttəfiqləri olan İsrail qəbilələrinin
əsasını götürərək Yəhudanın əsası ilə
birləşdirib bir əsa edəcəyəm. Onlar
əlimdə bir olacaq. 20 Üstünə yazı
yazdığın əsaları onların görə biləcəyi
şəkildə əlində tut. 21 Sonra onlara
söylə ki, Xudavənd Rəbb belə deyir:
İsrail övladlarını yanlarına getdikləri
millətlərin arasından götürəcək, onları
hər yerdən toplayıb öz torpaqlarına
qaytaracağam. 22 Onları ölkədə, İsrail
dağları üzərində vahid bir millət
edəcəyəm. Hamısının vahid padşahı
olacaq. Daha iki ayrı millət olmayacaq,
iki padşahlığa bölünməyəcəklər. 23 Artıq
bütləri, iyrənc şeyləri və üsyanları ilə
özlərini murdar etməyəcəklər. Onları
yaşadıqları və içində günah etdikləri
yerlərdən qurtarıb pak edəcəyəm. Onlar

[j] **37:10** Vəhy 11:11

Mənim xalqım, Mən də onların Allahı
olacağam.
24 [k]Qulum Davud onların padşahı
olacaq, onların hamısına vahid çoban
olacaq. Onlar Mənim hökmlərimə görə
rəftar edəcək, qaydalarımı saxlayıb
yerinə yetirəcək. 25 Qulum Yaquba
verdiyim, atalarının yaşadıqları ölkədə
yaşayacaqlar, özləri, oğulları və nəvələri
əbədi olaraq orada yaşayacaq. Qulum
Davud da əbədi olaraq onların rəhbəri
olacaq. 26 Mən onlarla sülh əhdi
bağlayacağam. Bu onlarla əbədi bir
əhd olacaq. Onları orada yerləşdirəcək
və saylarını çoxaldacağam. Müqəddəs
məkanımı əbədi olaraq onların arasında
quracağam. 27 [l]Mənim məskənim
onların arasında olacaq. Mən onların
Allahı, onlar da Mənim xalqım olacaq.
28 Müqəddəs məkanım əbədi olaraq
onların arasında yerləşəndə millətlər
biləcək ki, İsraili təqdis edən Mən
Rəbbəm”».

Qoq əleyhinə peyğəmbərlik

38 Mənə Rəbbin bu sözü nazil
oldu: 2 [m]«Ey bəşər oğlu, Maqoq
ölkəsindən olan Roşun, Meşekin və
Tuvalın rəhbəri Qoqa üz tut və onun
əleyhinə peyğəmbərlik edib söylə
ki, 3 Xudavənd Rəbb belə deyir: “Ey
Roşun, Meşekin və Tuvalın rəhbəri
Qoq, Mən sənin əleyhinəyəm. 4 Səni
geri qaytaracağam, çənələrinə çəngəllər
taxacağam. Səni, bütün ordunu, atları,
tam təchiz olunmuş atlıları, hamısı
qalxan, sipər və qılıncla silahlanmış
böyük qoşunu qovub çıxaracağam.
5 Onlarla birgə hamısı qalxan və
dəbilqəyə bürünmüş Farsları, Kuşluları,
Putluları, 6 Qomeri və onun bütün
qoşunlarını, ucqar şimaldan Toqarma
nəslini və onun bütün qoşunlarını,
bunlarla birgə bir çox xalqları qovub
çıxaracağam.
7 Hazır ol! Ətrafında toplanmış böyük
bir qoşunla birgə hazırlaş. Onları sən
qoruyacaqsan. 8 Uzun müddət sonra
döyüşə çağırılacaqsan. Gələcək illərdə
qılıncdan qurtulub rahatlanan ölkəyə
hücum edəcəksən. O ölkənin sakinləri
çoxlu xalq içindən İsrail dağlarına
toplanmışdı. Bu dağlar həmişə xarabalıq
idi, ancaq indi sakinləri xalqlar
arasından geri qaytarılacaq və hamısı
asayiş içində yaşayacaq. 9 Sən, bütün
qoşunun və sənlə birgə bir çox xalq
çıxıb tufan kimi gələcəksiniz, ölkənin
üzərini tutan buluda bənzəyəcəksiniz”.
10 Xudavənd Rəbb belə deyir: “O
gün ağlına bəzi düşüncələr gələcək, pis
niyyətlər qurub 11 deyəcəksən: ‹Divarsız
kəndləri olan bir ölkəyə hücum
edib asayiş və əmin-amanlıq içində
yaşayan adamların üstünə gedəcəyəm.
Bu kəndlərin hamısı divarsızdır,
darvazaları da, sürgüləri də yoxdur.
12 Viran olmuş şəhərlərdə yaşayan
xalqı qarət edib malını talayacağam›.
Sürüsü və malı olan, dünyanın ortasında
yaşayan bu millətlərin arasından
toplanmış xalqa qarşı əlini uzadacaqsan.
13 Səba, Dedan, Tarşiş tacirləri və
bütün kəndlərinin əhalisi sənə deyəcək:
‹Qarət üçünmü gəldin? Talan etmək,
qızıl-gümüş götürmək, mal-qara və əşya
aparmaq, bol qənimət ələ keçirmək
üçünmü qoşun topladın?›”
14 Buna görə də, ey bəşər oğlu,
peyğəmbərlik edib Qoqa söylə ki,
Xudavənd Rəbb belə deyir: “O gün
xalqım İsrail asayiş içində yaşayanda
bunu dərk etməyəcəksinizmi? 15 Sən və
özünlə birgə bir çox xalqlardan olan
və hamısı ata minmiş böyük bir qoşun,
güclü bir ordu öz yerindən – uzaq

---

[k]**37:24** Yez. 34:24 [l]**37:27** Lev. 26:11-12; 2Kor. 6:16; Vəhy 21:3
[m]**38:2** Vəhy 20:8

şimaldan gələcəksən. 16 Ölkəni bürüyən
bir bulud kimi xalqım İsrailin üstünə
hücum edəcəksən. Ey Qoq, gələcəkdə
səni öz ölkəmin üstünə gətirəcəyəm ki,
gözləri önündə müqəddəsliyimi sənin
vasitənlə göstərdiyim zaman millətlər
məni tanıya bilsin”.
17 Xudavənd Rəbb belə deyir:
“Məgər sən qədim zamanlarda İsrail
peyğəmbərləri vasitəsilə haqqında
danışdığım adam deyilsən? Bu
peyğəmbərlər o zaman səni onların
üstünə gətirəcəyim barədə illərlə
peyğəmbərlik etdi. 18 O gün Qoq İsrail
torpağına hücum etdiyi gün qəzəbim
alovlanacaq” deyir Xudavənd Rəbb.
19 “Qısqanclığımla və şiddətli qəzəbimlə
deyirəm ki, o gün İsrail torpağında
böyük bir zəlzələ olacaq. 20 Dənizdəki
balıqlar, göydəki quşlar, çöldəki
heyvanlar, yerdə sürünən bütün canlılar
və yer üzündəki bütün insanlar önümdə
titrəyəcək. Dağlar yerlə yeksan olacaq,
sıldırım qayalar uçacaq, bütün divarlar
yıxılacaq. 21 Bütün dağlarımda qılıncı
Qoqun üstünə getməyə çağıracağam”
Xudavənd Rəbb belə bəyan edir,
“hər kəs bir-birinin üstünə qılınc
çəkəcək. 22 [n]Üstünə vəba gətirib qanını
tökərək onu cəzalandıracağam. Onun,
ordularının və yanında gələn çoxlu
xalqın üstünə leysan yağış, iri dolu
dənələri, od və kükürd yağdıracağam.
23 Beləcə əzəmətimi və müqəddəsliyimi
göstərəcək, bir çox millətlərin gözü
önündə Özümü tanıdacağam. Onda
biləcəklər ki, Rəbb Mənəm”.

Qoqun məğlub olması

39 Sən ey bəşər oğlu, Qoqun
əleyhinə peyğəmbərlik edib
söylə ki, Xudavənd Rəbb belə deyir:
“Ey Roşun, Meşekin və Tuvalın rəhbəri
Qoq, Mən sənin əleyhinəyəm. 2 Səni
geri qaytarıb aparacağam, uzaq
şimaldan çıxaracağam və İsrail dağları
üzərinə gətirəcəyəm. 3 Sol əlindən
kamanını, sağ əlindən oxlarını vurub
salacağam. 4 Sən bütün ordularınla,
yanında olan xalqlarla birgə İsrail
dağları üzərində həlak olacaqsan.
Səni qida olmaq üçün hər cür yırtıcı
quşa və vəhşi heyvanlara verəcəyəm.
5 Açıq çöldə həlak olacaqsan, çünki
Mən bunu söylədim, Xudavənd Rəbb
belə bəyan edir. 6 Mən Maqoqun və
sahil ölkələrində əmin-amanlıq içində
yaşayanların üstünə od göndərəcəyəm.
Onda biləcəklər ki, Rəbb Mənəm.
7 Xalqım İsrailin arasında
müqəddəs adımı tanıdacağam,
artıq müqəddəs adımın ləkələnməsinə
izin verməyəcəyəm. Onda millətlər
biləcəklər ki, Mən Rəbbəm, İsraildə
Müqəddəs Olanam. 8 Budur, o vaxt
gəlir və mütləq baş verəcək” Xudavənd
Rəbb belə bəyan edir, “bu gün Mənim
dediyim gündür.
9 Onda İsrail şəhərlərində yaşayanlar
çıxıb od qalayacaq. Silahlarını,
qalxanlarını, sipərlərini, kamanlarını,
oxlarını, toppuzlarını və nizələrini
bu odda yandıracaqlar. Onları yeddi
il ərzində yandıracaqlar. 10 Çöldən
odun daşımayacaq, meşələrdən ağac
kəsməyəcəklər, çünki silahlarla od
qalayacaqlar. Onları qarət edənləri
qarət edəcək, mallarını talan edənləri
talan edəcəklər” Xudavənd Rəbb belə
bəyan edir.
11 “O gün Duz dənizinin şərqində,
Səyyahlar dərəsində Qoqa İsraildə
bir qəbiristanlıq verəcəyəm. Orada
Qoq və bütün qoşunu basdırılacaq. Bu
yerə Hamon-Qoq *dərəsi deyiləcək.
Oradan yol keçənlərin qabağı kəsiləcək.

*39:11 *Hamon-Qoq* – ibrani dilində *Qoq qoşunu.*

[n]**38:22** Vəhy 8:7; 14:9-10

12 Ölkəni təmizləmək üçün İsrail nəsli
yeddi ay onları basdırmaqla məşğul
olacaq. 13 Onları bütün ölkə xalqı
basdıracaq. Mənim izzətləndiyim
gün onlar üçün əlamətdar olacaq”
Xudavənd Rəbb belə bəyan edir.
14 “Ölkəni təmizləmək üçün adamlara
iş tapşırılacaq. Bəziləri ölkəni
dayanmadan dolaşacaq, bəziləri isə
yerdə qalan cəsədləri basdıracaq. Yeddi
aydan sonra axtarışlara başlayacaqlar.
15 Bu adamlar ölkənin hər yerini
dolaşacaq. İnsan sümüyü görəndə
qəbirqazanlar onu Hamon-Qoq
dərəsində basdırana qədər yanına
bir nişan qoyacaq. 16 Orada Hamona
adlı bir şəhər olacaq. Beləcə ölkəni
təmizləyəcəklər”.
17 [o]Sən ey bəşər oğlu, Xudavənd
Rəbb belə deyir: “Hər cür quşa və
hər cür vəhşi heyvana söylə ki,
toplaşıb gəlsinlər. Sizin üçün kəsəcəyim
qurbanın – İsrail dağları üzərindəki
böyük qurbanın yanına hər tərəfdən
yığılın. Orada ət yeyib qan içəcəksiniz.
18 Başanın bəslənmiş heyvanlarının
– qoçların, quzuların, təkələrin və
buğaların ətini yeyib qanını içdiyiniz
kimi igidlərin ətini yeyəcək, dünya
rəhbərlərinin qanını içəcəksiniz. 19 Sizin
üçün kəsdiyim qurbandan doyunca yağ
yeyəcək, sərxoş olunca qan içəcəksiniz.
20 Süfrəmdə atlardan, süvarilərdən,
igidlərdən və hər cür əsgərdən bol-bol
yeyib-doyacaqsınız” Xudavənd Rəbb
belə bəyan edir.
21 “İzzətimi millətlər arasında
göstərəcəyəm. Bütün millətlər onlara
verdiyim cəzanı və üstlərinə qoyduğum
əlimi görəcək. 22 Bu gündən sonra
İsrail nəsli biləcək ki, onların Allahı
Rəbb Mənəm. 23 Onda millətlər
biləcək ki, İsrail nəsli öz təqsirlərindən
ötrü sürgünə getdi. Çünki onlar
Mənə xəyanət etdi, Mən onlardan
üz döndərdim, onları düşmənlərinə
təslim etdim, hamısı qılıncla həlak
oldu. 24 Murdarlıqlarına və üsyanlarına
görə onlarla rəftar etdim, onlardan üz
döndərdim”.
25 Buna görə Xudavənd Rəbb belə
deyir: “Yaqub nəslindən sürgün
olunanları indi geri qaytaracaq, bütün
İsrail nəslinə rəhm edəcək və müqəddəs
adım naminə qısqanc olacağam.
26 Torpaqlarında əmin-amanlıq içində
yaşayanda, onları qorxudan bir kəs
olmayanda rüsvayçılıqlarını və Mənə
etdikləri bütün xəyanətləri unudacaqlar.
27 Onları xalqlar arasından geri qaytarıb
düşmən ölkələrindən topladığım zaman
çoxlu millətin gözü önündə, onların
arasında müqəddəs tutulacağam.
28 Onda biləcəklər ki, onların Allahı
Rəbb Mənəm. Çünki onları millətlər
arasına sürgünə göndərdim. Amma öz
torpaqlarına da qaytaracağam, artıq
heç birini qaldığı ölkəsində qoyub
getməyəcəyəm. 29 Bir daha onlardan
üz döndərməyəcəyəm, çünki İsrail
nəsli üzərinə Öz Ruhumu tökəcəyəm”
Xudavənd Rəbb belə bəyan edir».

Yeni məbəd barədə vəhy

40 Sürgünlüyümüzün iyirmi beşinci
ilində, birinci ayın onuncu günü,
Yerusəlim şəhərinin süqutunun on
dördüncü ili – həmin o gün Rəbbin
əli mənim üstümdə idi. O məni oraya
apardı. 2 [p]Görüntüdə Allah məni İsrail
ölkəsinə aparıb çox uca bir dağın
başına qoydu. Dağın cənubunda şəhərə
bənzər tikililər var idi. 3 [q]Allah məni
oraya apardı. Mən orada görünüşcə
tunca bənzər adam gördüm. Onun
əlində bir kətan ip və ölçmək üçün bir
qamış var idi. O, darvazada durmuşdu.
4 O adam mənə dedi: «Ey bəşər oğlu,

[o] **39:17** Vəhy 19:17-18 [p] **40:2** Vəhy 21:10-11 [q] **40:3** Vəhy 11:1; 21:15

gözünlə görüb, qulağınla eşit və sənə
göstərəcəyim hər şeyə yaxşı-yaxşı bax.
Ona görə buraya gətirildin ki, bunları
sənə göstərim. Gördüyün hər şeyi İsrail
nəslinə bildir».

Şərq qapısı

5 [r]Mən məbədi hər tərəfdən əhatəyə
alan bir divar gördüm. Ölçmək üçün o
adamın əlində olan qamışın uzunluğu
altı qulac idi. Hər qulaca bir ovuc
uzunluq əlavə edilmişdi. [*]O adam
divarı ölçdü: qalınlığı bir qamış,
hündürlüyü bir qamış idi. 6 Sonra şərqə
tərəf olan darvazaya tərəf getdi və
onun pilləkənləri ilə yuxarı qalxdı.
Darvazanın kandarını ölçdü: eni bir
qamış idi. Bir kandarın eni bir qamış
idi. 7 Keşikçi otaqlarının hər birinin
uzunluğu və eni bir qamış idi. Keşikçi
otaqlarının arası beş qulac idi. Məbədə
baxan eyvanın yanındakı darvaza
kandarı bir qamış uzunluğunda idi.
8 Sonra o, darvaza eyvanını ölçdü: 9 eni
səkkiz qulac idi. Yan taxtaların qalınlığı
iki qulac idi. Darvaza eyvanı məbədə
baxırdı. 10 Şərq darvazasının hər iki
yanında üç-üç keşikçi otağı var idi.
Üçünün də ölçüsü bir idi. Hər iki tərəfdə
olan bölmə divarlarının da ölçüsü
bir idi. 11 O, darvazanın astanasının
enini ölçdü: on qulac idi. Darvazanın
uzunluğu isə on üç qulac idi. 12 Hər
iki tərəfdə olan keşikçi otaqlarının
qarşısında bir qulac yüksəkliyində
bir-bir arakəsmə var idi. Hər iki
tərəfdə keşikçi otaqları dördbucaqlı idi.
Kənarları hər tərəfdən altı qulac idi.
13 Sonra o, darvazanın enini – girişləri
bir-birinin qarşısında olan keşikçi
otaqlarının arxa divarlarının arasını
ölçdü: iyirmi beş qulac idi. 14 Sütunları
ölçdü: altmış qulac idi. Darvazanın
ətrafındakı həyət sütunlara qədər
uzanırdı. 15 Darvazanın astanasından
eyvanın sonuna qədər məsafə əlli
qulac idi. 16 Darvazanın içəri tərəfinin
hər yanında keşikçi otaqlarının və
bölmə divarlarının içəriyə baxan qəfəsli
pəncərələri var idi. Eyvanlarda da
belə idi. Hər yanın içəri tərəfindən
pəncərələr var idi. Bölmə divarları
üzərində xurma ağacı təsvirləri var idi.

Bayır həyət

17 O adam məni bayır həyətə gətirdi.
Orada bayır həyəti əhatəyə alan otaqlar
və daş yol var idi. Daş yol boyunca
otuz otaq var idi. 18 Darvazaların hər
iki tərəfindəki daş yolun eni qapıların
uzunluğu qədər idi. Bu, aşağı daş yol
idi. 19 O adam həyətin enini aşağı
darvazadan içəri həyətin darvazasına
qədər ölçdü: şərqdə və şimalda olan
məsafə yüz qulac idi.

Şimal darvazası

20 O adam bayır həyətin şimala baxan
darvazasının uzunluğunu və enini
ölçdü. 21 Buranın hər iki tərəfində üç-üç
keşikçi otağı var idi. Bölmə divarları və
eyvanları birinci darvazanın ölçüsünə
bərabər idi: uzunluğu əlli qulac, eni
iyirmi beş qulac idi. 22 Pəncərələrin,
eyvanın və xurma ağacı təsvirlərinin
ölçüsü şərqə baxan darvazanın ölçüsünə
bərabər idi. Oraya yeddi pillə ilə
çıxırdılar, bunların qarşısında eyvan var
idi. 23 Şərq darvazasında olduğu kimi
şimal darvazasına da baxan bir içəri
həyət darvazası var idi. O adam bu iki
darvaza arasındakı məsafəni ölçdü: yüz
qulac idi.

---

[*]**40:5** 40-48-ci fəsillərdə işlədilən qulac xüsusi ölçüyə malik qulacdır. Adi qulacın ölçüsü 45 sm, buradakı qulacın ölçüsü isə 53 sm-dir.

[r]**40:5** 1Pad. 6:1-38; 2Saln. 3:1-9

Cənub darvazası

24 O adam məni cənuba doğru apardı.
Orada cənuba baxan bir darvaza
gördüm. O, darvazanın yan taxtalarını
və eyvanı ölçdü: ölçüləri o birilərinin
ölçülərinə bərabər idi. 25 O birilərində
olduğu kimi bu darvaza ilə eyvanın
hər tərəfində də pəncərələr var idi.
Eyvanın uzunluğu əlli qulac, eni iyirmi
beş qulac idi. 26 Oraya yeddi pilləkənlə
çıxırdılar. Bunların qarşısında eyvan
var idi. Darvazanın yan taxtaları hər
iki tərəfdən bir xurma ağacı təsviri ilə
bəzənmişdi. 27 İçəri həyətin cənuba
baxan bir darvazası var idi. O adam
bu içəri darvazadan cənuba baxan
darvazaya qədər olan məsafəni ölçdü:
yüz qulac idi.

İçəri həyətin darvazaları

28 O adam məni cənub darvazasından
içəri həyətə apardı. Cənub darvazasını
ölçdü: ölçüləri o birilərinin ölçülərinə
bərabər idi. 29 Keşikçi otaqlarının,
bölmə divarlarının və eyvanın ölçüləri
o birilərinin ölçülərinə bərabər idi.
Darvaza ilə eyvanın hər tərəfində
pəncərələr var idi. Darvazanın uzunluğu
əlli qulac, eni iyirmi beş qulac idi.
30 Hər tərəfdə uzunluğu iyirmi beş
qulac, eni beş qulac olan eyvanlar var
idi. 31 Eyvanı bayır həyətə baxırdı.
Darvazanın yan taxtaları xurma ağacı
təsvirləri ilə bəzənmişdi. Oraya səkkiz
pillə ilə çıxırdılar.
32 O adam məni şərqdəki içəri
həyətə apardı. Oradakı darvazanı
ölçdü. Ölçüsü o birilərinin ölçüsünə
bərabər idi. 33 Keşikçi otaqlarının,
bölmə divarlarının və eyvanının ölçüsü
o birilərinin ölçüsünə bərabər idi.
Darvaza ilə eyvanının hər tərəfində
pəncərələr var idi. Darvazanın uzunluğu
əlli qulac, eni iyirmi beş qulac
idi. 34 Eyvanı bayır həyətə baxırdı.
Darvazanın yan taxtaları iki tərəfdən
xurma ağacı təsvirləri ilə bəzənmişdi.
Oraya səkkiz pilləkənlə çıxırdılar.
35 Sonra o adam məni şimal
darvazasının yanına apardı. O, qapını
ölçdü: ölçüsü o birilərinin ölçüsünə
bərabər idi. 36 Keşikçi otaqlarının,
bölmə divarlarının və eyvanının ölçüsü
o birilərinin ölçüsünə bərabər idi.
Darvazanın hər tərəfində pəncərələr var
idi. Darvazanın uzunluğu əlli qulac, eni
iyirmi beş qulac idi. 37 Yan taxtaları
bayır həyətə baxırdı. Darvazanın yan
taxtaları hər iki tərəfdən xurma ağacı
təsvirləri ilə bəzənmişdi. Oraya səkkiz
pilləkənlə çıxırdılar.

Qurbanların hazırlandığı otaqlar

38 İçəri həyətin darvazalarındakı
eyvanların yanında qapısı eyvana açılan
bir otaq var idi. Yandırma qurbanları
burada yuyulurdu. 39 Darvaza eyvanının
hər iki tərəfində iki sıra qoşa masa var
idi. Yandırma qurbanı, günah qurbanı
və təqsir qurbanı olacaq heyvanlar bu
masaların üstündə kəsilirdi. 40 Eyvanın
bayır divarının yanında, şimal
darvazasının pilləkənlərinin hər iki
tərəfində iki sıra qoşa masa da var idi.
41 Beləcə qurbanlıq heyvanları kəsmək
üçün darvazanın hər iki tərəfində
dörd-dörd olmaqla səkkiz masa var idi.
42 Yandırma qurbanları üçün yonulmuş
daşdan dörd masa var idi. Hər masanın
uzunluğu və eni bir yarım qulac,
hündürlüyü bir qulac idi. Yandırma
qurbanlarının və başqa qurbanların
kəsilməsində istifadə olunan alətləri
bunların üstünə qoyurdular. 43 Otağın
divarlarına qarmaqlar asılmışdı: hər
biri bir ovuc uzunluğunda idi. Masalar
təqdim edilən heyvanın əti üçün
nəzərdə tutulmuşdu.

Kahinlər üçün ayrılan otaqlar

44 İçəri darvazanın bayır hissəsində,
içəri həyətdə ilahiçilər üçün otaqlar var
idi. Bunlardan biri şimal darvazasının
yanında idi və cənuba baxırdı, o biri
cənub *darvazasının yanında idi və
şimala baxırdı. 45 O adam mənə dedi:
«Cənuba baxan otaq məbəd üçün
cavabdeh olan kahinlərə məxsusdur.
46 Şimala baxan otaq isə qurbangah üçün
cavabdeh olan kahinlərə məxsusdur.
Onlar Levinin nəslindən olan və Rəbbə
xidmət etmək üçün Ona yaxınlaşan
Sadoq övladlarıdır». 47 O adam həyəti
ölçdü: həyət dördbucaqlı olub uzunluğu
yüz qulac, eni də yüz qulac idi. Məbədin
önündə qurbangah var idi.

Məbəd

48 Sonra o adam məni məbədin
eyvanına aparıb eyvanın qapısının yan
taxtalarını ölçdü. Darvazanın hər iki
tərəfindəki sütunların eni beş qulac
idi. Darvazanın hər iki tərəfinin eni
isə üç qulac idi. 49 Eyvanın uzunluğu
iyirmi qulac, eni on iki qulac idi. Oraya
pilləkənlə çıxırdılar. Darvazanın yan
taxtalarının yanında iki sütun var idi:
biri bu tərəfində, digəri isə o tərəfində
idi.

41 Sonra o adam məni məbədin
əsas hissəsinə gətirib oradakı
darvazanın yan taxtalarını ölçdü: yan
taxtaların eni hər tərəfdən altı qulac
idi. 2 Girişinin eni on qulac, ona hər
iki tərəfdən bitişən hər divarının eni
isə beş qulac idi. O adam məbədin əsas
hissəsini də ölçdü: uzunluğu qırx, eni
iyirmi qulac idi.
3 Sonra o, iç otağa girib girişin yan
taxtalarını ölçdü: hər birinin eni iki
qulac idi. Girişin eni altı qulac, ona
hər iki tərəfdən bitişən divarların eni
yeddi qulac idi. 4 O adam əsas hissənin
o biri tərəfindəki iç otağı ölçdü: həm
uzunluğu, həm də eni iyirmi qulac idi.
O mənə «bura Ən Müqəddəs yerdir»
dedi.
5 Sonra məbədin divarını ölçdü:
qalınlığı altı qulac idi. Məbədin
ətrafındakı yan otaqlardan hər birinin
eni dörd qulac idi. 6 Bu yan otaqlar
üç mərtəbə idi, hər mərtəbədə otuz
otaq var idi. Məbədin divarları boyu
yan otaqlar üçün dayaq olan çıxıntılar
var idi ki, dayaqlar məbəd divarlarına
girməsin. 7 Məbədin ətrafındakı yan
otaqlar yuxarı mərtəbəyə tərəf çıxdıqca
genişlənirdi. Məbədin ətrafındakı
tikilinin yuxarıya qalxan bir pilləkəni
var idi. Yuxarıya doğru çıxdıqca yan
otaqlar genişlənirdi. Pilləkənlə aşağı
mərtəbədən orta mərtəbəyə, oradan da
üst mərtəbəyə çıxırdılar.
8 Məbədin ətrafında yan otaqların
bünövrəsini təşkil edən uca bir döşəmə
gördüm: uzunluğu bir qamış, yəni altı
qulac idi. 9 Yan otaqların bayır divarının
qalınlığı beş qulac idi. Məbədin yan
otaqları ilə kahin otaqları arasında
açıq bir sahə var idi. 10 Məbədin ətrafı
boyunca uzanan sahənin eni iyirmi
qulac idi. 11 Yan otaqların girişləri açıq
sahəyə baxırdı: biri şimalda, o biri
isə cənubda idi. Açıq sahəyə bitişən
bünövrənin eni hər tərəfdən beş qulac
idi.
12 Məbədin qərbində açıq sahəyə
baxan bir tikili var idi: eni yetmiş qulac
idi. Divarının qalınlığı hər tərəfdən beş
qulac, uzunluğu doxsan qulac idi.
13 Sonra o adam məbədi ölçdü:
uzunluğu yüz qulac idi. Açıq sahə,
tikili və onun divarları yüz qulac
uzunluğunda idi. 14 Şərqdəki məbədin
açıq sahəsinin eni məbədin ön tərəfi ilə
birgə yüz qulac idi.

---

*40:44 *Cənub* – qədim yunan tərcüməsində belədir, ibrani mətnində isə *şərq*.

15 O adam məbədin arxasındakı
açıq sahəyə baxan tikilinin və hər iki
tərəfindəki dəhlizlərin uzunluğunu
ölçdü: yüz qulac idi. Məbədin əsas
hissəsi, iç otaq, həyətə baxan eyvan,
16 darvaza astanaları, qəfəsli pəncərələr,
astananın qarşısında üç mərtəbəni əhatə
edən dəhlizlər döşəmədən pəncərələrə
qədər ağacla örtülmüşdü. Pəncərələr
açılıb-bağlanırdı.
17 Girişin üstü, iç otaq, onun bayırı,
bütün içəri və bayır divarlar nizamlı
aralıqlarla, 18 keruv və xurma ağacı
oyma təsvirləri ilə düzəldilmişdi. İki
keruv arasında bir xurma ağacı təsviri
var idi. Hər keruvun iki üzü var idi:
19 bir yandan xurma ağacına baxan
insan üzü, o biri yandan xurma ağacına
baxan şir üzü. Məbəd başdan-başa
bu oyma təsvirləri ilə bəzənmişdi.
20 Döşəmədən girişin üstündəki hissəyə
qədər məbədin əsas hissəsinin divarları
keruv və xurma ağaclarının oyma
təsvirləri ilə düzəldilmişdi.
21 Əsas hissənin qapısının yan
taxtaları dördbucaqlı şəklində idi. Ən
Müqəddəs yerin önündəki qapının
yan taxtaları da bunlara bənzəyirdi.
22 Orada üç qulac hündürlüyündə, iki
qulac uzunluğunda, iki qulac enində
ağacdan düzəldilmiş bir qurbangah var
idi. Onun küncləri, altlığı* və yanları
da ağacdan idi. O adam mənə «Rəbbin
önündə olan masa budur» dedi. 23 Əsas
hissənin və Ən Müqəddəs yerin cüt
qanadlı qoşa qapısı var idi. 24 Hər
qapının iki tərəfə iki qanadı var idi: bir
qapı üçün iki qanad, o biri qapı üçün
iki qanad. 25 Divarlar üzərində olduğu
kimi əsas hissənin qapılarında da keruv
və xurma ağaclarının oyma təsvirləri
düzəldilmişdi. Bayırda, eyvanın önündə
ağacdan olan bir asma tavan var
idi. 26 Eyvanın yan divarlarındakı
qəfəsli pəncərələrin hər iki tərəfi
xurma ağaclarının oyma təsvirləri ilə
örtülmüşdü. Məbədin yan otaqları ilə
asma tavanları da bu cür idi.

Kahinlərin otaqları

42 O adam məni şimala gedən
yoldan bayır həyətə çıxardı,
məbədin açıq sahəsinə və bayır həyətin
şimalındakı tikililərə baxan otaqlara
apardı. 2 Qapısı şimala baxan bu
tikilinin uzunluğu yüz, eni əlli qulac idi.
3 İçəri həyətin iyirmi qulaclıq hissəsi
ilə bayır həyətin daş yoluna baxan üç
mərtəbənin dəhlizləri qarşı-qarşıya idi.
4 Otaqların qabağında eni on qulac,
uzunluğu isə yüz †qulac olan bir içəri
dəhliz var idi. Qapıları şimala baxırdı.
5 Tikilinin üst mərtəbədəki otaqları alt
və orta mərtəbədəki otaqlardan daha
dar idi, çünki üst mərtəbədəki dəhlizlər
daha çox yer tuturdu. 6 Həyətlərdə
sütunlar olduğu halda üçmərtəbəli
otaqların sütunları yox idi. Buna görə
də üst mərtəbədəki otaqlar alt və orta
mərtəbədəki otaqlardan daha dar idi.
7 Otaqların qabağında, otaqlarla və
bayır həyətlə yanaşı bir bayır divar var
idi: əlli qulac uzunluğunda idi. 8 Çünki
bayır həyətin yanındakı yanbayan
otaqların uzunluğu əlli qulac idi.
Məbədin əsas hissəsinə daha yaxın
yanbayan otaqların uzunluğu isə yüz
qulac idi. 9 Bu otaqların aşağıda bayır
həyətdən girmək üçün şərqə tərəf bir
qapısı var idi.
10 İçəri həyətin cənubu ‡boyu açıq
sahəyə və bayır həyətdəki tikililərə
baxan başqa otaqlar var idi. 11 Şimal
tərəfdəki otaqlarda olduğu kimi bu

---

*41:22 *Altlığı* – qədim yunan tərcüməsində belədir, ibrani mətnində isə *uzunluğu.*
†42:4 *Yüz* – qədim yunan və süryani tərcümələrində belədir, ibrani mətnində isə *bir.*
‡42:10 *Cənubu* – qədim yunan tərcüməsində belədir, ibrani mətnində isə *şərqi.*

otaqların qabağında da bir keçid var
idi. Otaqların uzunluğu və eni eyni
idi, çıxışları və ölçüləri şimal tərəfdə
olan otaqlarınkı kimi idi. Cənubdakı
otaqların qapıları da şimaldakılar kimi
idi. 12 Keçidin başlanğıcında bir qapı
var idi. Arxa divarlar boyunca şərqə
uzanan bu keçid otaqlara açılırdı.
13 Sonra o adam mənə dedi: «Məbədin
açıq sahəsinə baxan şimaldakı və
cənubdakı otaqlar müqəddəsdir. Rəbbin
önündə xidmət edən kahinlər orada
ən müqəddəs təqdimlərdən yeyəcək.
Ən müqəddəs təqdimləri – taxıl
təqdimlərini, günah qurbanlarını və
təqsir qurbanlarını orada qoyacaqlar,
çünki ora müqəddəsdir. 14 Kahinlər
müqəddəs yerə girəndə xidmət
edərkən əyinlərindəki geyimləri orada
qoymadan bayır həyətə çıxmasın, çünki
bu geyimlər müqəddəsdir. Onlar xalqın
olduğu yerlərə getməzdən qabaq başqa
paltarlar geyməlidir».
15 O adam məbədin sahəsini içəridən
ölçüb qurtarandan sonra məni şərq
qapısından bayıra apardı və hər
tərəfdən bu sahənin bayırını ölçdü.
16 Şərq tərəfini qamışla ölçdü: uzunluğu
beş yüz qulac idi. 17 Şimal tərəfini də
qamışla ölçdü: uzunluğu beş yüz qulac
idi. 18 Cənub tərəfini də qamışla ölçdü:
uzunluğu beş yüz qulac idi. 19 Qərb
tərəfinə dönüb onu qamışla ölçdü:
uzunluğu beş yüz qulac idi. 20 Beləcə
sahənin dörd tərəfini ölçdü. Müqəddəs
olanı müqəddəs olmayandan ayırmaq
üçün sahənin ətrafında bir divar var idi:
uzunluğu və eni hər biri beş yüz qulac
idi.

Rəbbin hüzurunun məbədə qayıtması

43 O adam məni şərqə baxan
darvazanın yanına gətirdi.
2 [s]Mən gördüm ki, şərq yolundan İsrail
Allahının izzəti gəlir. Onun səsi gur
axan suların səsi kimi idi, izzətindən
yer parıldayırdı. 3 Gördüyüm görüntü
Allah şəhəri məhv etməyə gəldiyi vaxt
və Kevar çayı sahilində gördüyüm
görüntülərə bənzəyirdi. Mən bu zaman
üzüstə yerə yıxıldım. 4 Rəbbin izzəti
şərqə baxan darvazanın yolundan
məbədə girdi. 5 Ruh məni qaldırıb içəri
həyətə gətirdi. Mən gördüm ki, Rəbbin
izzəti məbədi doldurub.
6 Adam yanımda durarkən məbəddən
mənimlə danışan bir nəfərin səsini
eşitdim. 7 O mənə belə dedi: «Ey
bəşər oğlu, taxtımın yeri, ayaqlarımın
dabanları dəyən, İsrail övladları
arasında əbədi yaşayacağım yer buradır.
Bundan sonra İsrail xalqı ilə padşahları
pozğunluqları və ölən padşahların
cəsədləri ilə bir daha müqəddəs adımı
murdarlamayacaq. 8 Onlar astanalarını
astanama, qapılarının yan taxtalarını
qapımın yan taxtalarına bitişdirdi.
Mənimlə onların arasında yalnız bir
divar var idi. Etdikləri murdar işləri
ilə müqəddəs adımı murdarladılar.
Mən də qəzəbimlə onları qırıb-çatdım.
9 İndi pozğunluqlarını və padşahlarının
cəsədlərini Məndən uzaqlaşdırsınlar,
Mən də əbədi olaraq onların arasında
yaşayaram.
10 Sən ey bəşər oğlu, bu məbədi
İsrail nəslinə təsvir et ki, üsyanlarından
utansınlar və məbədin layihəsini
ölçsünlər. 11 Əgər etdikləri bütün
işlərdən utanırlarsa, məbədin şəklini,
nizamını, giriş-çıxış yerlərini –
bütün şəkillərini, bütün qaydalarını,
quruluşlarını və qanunlarını onlara
bildir. Onların gözü önündə bunları
bir yerə yaz. Qoy bütün quruluş və
qaydalarına əməl edib onları yerinə
yetirsinlər. 12 Məbədlə bağlı qanun
budur: dağın başında hər tərəfdən onun

[s]**43:2** Yez. 10:3-4,18-19; 11:22-23

bütün ərazisi çox müqəddəs olacaq.
Bəli, məbədin qanunu budur.

Qurbangah

13 [t]Qurbangahın qulacla ölçüləri
belədir. Hər qulaca bir ovuc əlavə
edilmişdir: qurbangahı əhatəyə alan
xəndəyin dərinliyi bir qulac, eni bir
qulac, ətrafındakı çıxıntı bir qarış
olacaq. Qurbangahın hündürlüyü
isə belədir: 14 qurbangahın yerdəki
xəndəkdən alt çıxıntıya qədərki
hissəsinin hündürlüyü iki qulac, eni bir
qulac, kiçik çıxıntıdan böyük çıxıntıya
qədərki hissənin hündürlüyü dörd
qulac, eni bir qulac, 15 qurbangahın
qurban yandırılan üst hissəsinin
hündürlüyü dörd qulac olacaq. Üst
hissədən yuxarıya doğru dörd buynuz
uzanacaq. 16 Qurbangahın üst hissəsi
dördbucaqlı şəklində olacaq. Onun
uzunluğu on iki, eni on iki qulac olacaq.
17 Üst çıxıntının dörd tərəfdən uzunluğu
və eni hər biri on dörd qulac olacaq.
Ətrafındakı kənar yarım qulac, xəndəyin
dövrəsi bir qulac olacaq. Qurbangahın
pillələri şərqə baxacaq».
18 [u]O adam yenə dedi: «Ey bəşər oğlu,
Xudavənd Rəbb belə deyir: “Qurbangah
tikildiyi gün üstündə yandırma
qurbanları gətirmək və qan tökmək
barədə olan qaydalar belədir. 19 Mənə
xidmət etmək üçün hüzuruma çıxan,
Sadoq nəslindən Levili kahinlərə günah
qurbanı olaraq bir buğa ver” Xudavənd
Rəbb belə bəyan edir. 20 “Buğanın
qanından götürüb qurbangahın dörd
buynuzuna, çıxıntının dörd küncünə və
ətrafındakı kənarın üstünə sürt. Beləcə
qurbangahı pak edib onun üçün kəffarə
ver. 21 Günah qurbanı olaraq buğanı
götürüb Müqəddəs məkandan kənarda,
məbədin təyin edilmiş yerində yandır.
22 İkinci gün günah qurbanı olaraq
qüsursuz bir təkə təqdim et. Qurbangah
buğanın qanı ilə pak edildiyi kimi
təkənin qanı ilə də pak edilsin. 23 Pak
etmək işini qurtarandan sonra qüsursuz
bir buğa ilə sürüdən bir qoç qurban
gətir. 24 Onları Rəbbin önünə gətir.
Kahinlər onların üstünə duz səpib Rəbbə
yandırma qurbanı olaraq təqdim etsin.
25 Yeddi günün günah qurbanı olaraq
hər gün bir təkə hazırla. Qüsursuz bir
buğa ilə sürüdən bir qoç da hazırlansın.
26 Qoy yeddi gün qurbangah üçün
kəffarə versinlər, onu pak edib təqdis
etsinlər. 27 Yeddi gün tamamlanandan
sonra kahinlər səkkizinci gün və
ondan sonra yandırma və ünsiyyət
qurbanlarınızı qurbangahın üstündə
təqdim etsin. O zaman sizdən razı
olacağam” Xudavənd Rəbb belə bəyan
edir».

Məbəddə xidmət edənlər

44 O adam məni Müqəddəs məkanın
şərqə baxan bayır darvazası
yolundan geri qaytardı. Darvaza bağlı
idi. 2 Rəbb mənə dedi: «Bu darvaza
bağlı qalacaq, açılmayacaq, heç kəs
oradan içəri girməyəcək, çünki İsrailin
Allahı Rəbb oradan içəri girmişdir, buna
görə də bağlı qalacaq. 3 Yalnız rəhbər
rəhbərliyinə görə Rəbbin önündə çörək
yemək üçün orada oturacaq. Darvaza
eyvanı yolundan girib, o yoldan da
çıxacaq».
4 O adam məni şimal darvazası
yolundan məbədin önünə gətirdi.
Mən baxıb gördüm ki, Rəbbin izzəti
Öz məbədini doldurub. Bu zaman
üzüstə düşdüm. 5 Rəbb mənə dedi: «Ey
bəşər oğlu, Rəbbin məbədinin bütün
qayda-qanunları ilə bağlı deyəcəyim
sözləri yaxşı-yaxşı dinlə, onlara qulaq
as, hər şeyə diqqətlə bax. Müqəddəs

---

[t]**43:13** Çıx. 27:1-2; 2Saln. 4:1 [u]**43:18** Çıx. 29:35-37

məkana kimin girib-çıxacağına diqqət
et. 6 Üsyankar olan İsrail nəslinə söylə
ki, Xudavənd Rəbb belə deyir: “Ey İsrail
nəsli, artıq bəsdir! Etdiyiniz iyrənc
işlərə daha son qoyun. 7 Ürəyi və bədəni
sünnət edilməmiş yadelliləri Müqəddəs
məkanıma gətirdiniz, Mənə qida olmaq
üçün piy və qan təqdim etməklə
məbədimi murdarladınız. Beləcə iyrənc
işlərinizlə əhdimi pozdunuz. 8 Müqəddəs
şeylərim üzərində vəzifənizi yerinə
yetirmədiniz. Müqəddəs məkanımda
bu şeylərə nəzarət etməyi başqalarına
tapşırdınız”. 9 Xudavənd Rəbb belə
deyir: “İsrail xalqı arasında yaşayan
ürəyi və bədəni sünnət edilməmiş
heç bir yadelli Müqəddəs məkanıma
girməsin.
10 İsrail yoldan azdığı zaman Məndən
uzaqlaşan və yoldan azıb bütlərinə
sitayiş edən Levililər öz günahlarının
cəzasını çəkəcək, 11 lakin Müqəddəs
məkanımda bu işləri görəcək: məbədin
darvazalarına nəzarət edəcək, məbədin
xidmət işlərini görəcək, xalq üçün
yandırma qurbanları və başqa qurbanlıq
heyvanları kəsəcək, xalqın önündə
durub onlara xidmət edəcək. 12 İndi ki
onlar bütlərinin önündə İsrail nəslinə
xidmət edərək xalqı günaha batırdı,
Mən Rəbb də onları günahlarına
görə cəzalandıracağıma and içdim”
Xudavənd Rəbb belə bəyan edir.
13 “Onlar kahin kimi xidmət etmək
üçün Mənə yaxınlaşmayacaq, bütün
müqəddəs şeylərimə, ən müqəddəs
qurbanlarıma toxunmayacaq. Etdikləri
iyrənc əməllərinin rüsvayçılığını
çəkəcəklər. 14 Bundan sonra məbədin
xidmət vəzifəsini və orada görülən
bütün işləri onlara tapşıracağam.
15 Ancaq İsrail Məni qoyub yoldan
azdığı zaman Müqəddəs məkanımın
xidmət vəzifəsini yerinə yetirən Sadoq
nəslindən Levili kahinlər önümdə
xidmət etmək üçün Mənə yaxınlaşacaq.
Onlar piy və qan təqdim etmək üçün
hüzuruma çıxacaq” Xudavənd Rəbb belə
bəyan edir. 16 “Yalnız onlar Müqəddəs
məkanıma girəcək, yalnız onlar önümdə
xidmət etmək üçün süfrəmə yaxınlaşıb
buyruğumu yerinə yetirəcək.
17 [v]Kahinlər içəri həyətin
darvazalarından girəcəkləri zaman
kətan geyim əyinlərində olsun,
içəri həyətin darvazalarında yaxud
məbəddə xidmət edərkən yun paltar
geyməsinlər. 18 Başlarına kətan çalma
sarısınlar, bellərinə kətan alt paltarı
geysinlər. Bədənlərini tərlədən bir şey
geyinməsinlər. 19 [w]Bayır həyətə, bayır
həyətdə olan xalqın yanına çıxmazdan
qabaq xidmət edərkən əyinlərindəki
geyimləri çıxarıb müqəddəs otaqlara
qoysunlar və başqa paltarlar geysinlər
ki, geyimləri ilə xalqı təqdis etməsinlər.
20 [x]Kahinlər başlarını qırxmasın,
saçlarını uzatmasın, yalnız saçlarını
kəsib düzəltsin. 21 [y]İçəri həyətə girəcəyi
vaxt heç bir kahin şərab içməsin.
22 [z]Kahinlər dul yaxud boşanmış
arvad almasın, ancaq İsrail nəslindən
olan bir bakirə qız yaxud da başqa
kahindən dul qalmış arvadı ala bilərlər.
23 [a]Onlar Mənim xalqıma müqəddəs
olan şeyi adi şeydən, murdar şeyi
pak şeydən ayırmağı öyrədəcək.
24 Mübahisəli işlərdə onlar hakimlik
edəcək, hökmlərimə görə qərar
verməlidirlər. Bayramlarımla bağlı
qayda-qanunlarıma əməl etməli, Şənbə
günlərimi müqəddəs saymalıdırlar.

---

[v]**44:17** Çıx. 28:39-43; Lev. 16:4 [w]**44:19** Lev. 16:23 [x]**44:20** Lev. 21:5
[y]**44:21** Lev. 10:9 [z]**44:22** Lev. 21:7,13-14 [a]**44:23** Lev. 10:10; Yez. 22:26

25 [b]Kahin adam meyitinə yaxınlaşıb
özünü murdarlamasın, amma bu,
anasının, atasının, oğlunun, qızının,
qardaşının yaxud ərə getməmiş
bacısının meyiti olsa, özünü murdarlaya
bilər. 26 Pak olduqdan sonra hələ yeddi
gün gözləsin. 27 Məbəddə xidmət etmək
üçün içəri həyətə girəcəyi gün özü
üçün bir günah qurbanı təqdim etsin”
Xudavənd Rəbb belə bəyan edir.
28 [c]“Kahinlərin irsi var: onların irsi
Mənəm. İsraildə onlara mülk verməyin.
Onların mülkü Mənəm. 29 [d]Kahinlər
taxıl təqdimlərini, günah və təqsir
qurbanlarını yesin. İsraildə Rəbbə həsr
olunan hər şey onlarınkı olsun. 30 Bütün
nübarların ilk hissəsi və bütün xüsusi
hədiyyələriniz kahinlərinki olsun.
Evinizə bərəkət yağsın deyə taxılınızın
ilkini onlara verin. 31 [e]Kahinlər ölü
halda tapılmış yaxud vəhşi heyvanlar
tərəfindən parçalanmış heç bir quş və
heyvan yeməsin.

Rəbbə verilən torpaq payı

45 Ölkəni irs olaraq payladığınız
zaman Rəbb üçün torpaqdan pay
kimi iyirmi beş min qulac uzunluğunda,
on min qulac enində müqəddəs bir
bölgə ayırın. Bütün bu bölgə müqəddəs
olacaq. 2 Bu bölgədən dördbucaqlı
şəklində uzunluğu və eni beş yüz
qulaclıq bir hissə müqəddəs məskən
üçün, əlli qulaclıq bir yer isə ətrafındakı
açıq sahə üçün ayrılsın. 3 Bu ölçü ilə bir
hissə ölç: uzunluğu iyirmi beş min qulac
və eni on min qulac olsun. Müqəddəs
məkan – Ən Müqəddəs yer orada olacaq.
4 Bu, ölkənin müqəddəs payı olacaq. Bu
yer məbəddə xidmət etmək üçün Rəbbə
yaxınlaşan kahinlərə ayrılacaq. Burada
kahinlərin evləri, Müqəddəs məkan
üçün müqəddəs yer olacaq. 5 Məbəddə
xidmət edən Levililərə mülk olaraq
iyirmi beş min qulac uzunluğunda, on
min qulac enində bir bölgə verilsin.
Orada yaşamaları üçün onlara məxsus
şəhərlər olacaq. *
6 Müqəddəs bölgəyə düşən hissə
ilə birlikdə şəhər üçün eni beş min,
uzunluğu iyirmi beş min qulac olan
bir hissə ayırın. Bu bütün İsrail xalqı
üçündür.

Başçıya verilən torpaq payı

7 Müqəddəs bölgəyə düşən hissə ilə
şəhərə düşən hissənin hər iki tərəfindəki
torpaqlar rəhbərə veriləcək. Bu
torpaqlar qərbdən-qərbə, şərqdən-şərqə
doğru uzanacaq və qərb sərhədindən
şərq sərhədinə qədər uzunluğu bir İsrail
qəbiləsinə düşən hissə qədərdir. 8 Bu
torpaq İsrail rəhbərinin payı olacaq.
Bundan sonra rəhbərlərim xalqıma bir
daha zülm etməyəcək, ancaq ölkəni
qəbilələrinə görə İsrail nəslinə verəcək”.
9 Xudavənd Rəbb belə deyir: “Ey İsrail
rəhbərləri, artıq bəsdir! Zorakılıqdan
və ziyankarlıqdan əl çəkin, ədalətli
və saleh əməllər edin. Xalqımı öz
torpaqlarından qovmayın” Xudavənd
Rəbb belə bəyan edir. 10 [f]“Düzgün
tərəzi ilə çəkin. Çəkdiyiniz efa da, bat
da düzgün olsun. 11 Efa ilə bat eyni
çəkidə olsun. Bat xomerin onda birinə,
efa da xomerin onda birinə bərabər
olmalıdır. İkisinin çəkisi də xomerə
görə olsun. 12 Bir şekel iyirmi geraya
bərabər olmalıdır. İyirmi, iyirmi beş, on
beş şekel birlikdə bir minaya bərabər
olmalıdır.

---

*45:5 *Orada yaşamaları üçün onlara məxsus şəhərlər olacaq* – qədim yunan tərcüməsində belədir, ibrani mətnində isə *orada mülk olaraq iyirmi otaq alacaqlar.*

[b]**44:25** Lev. 21:1-4 [c]**44:28** Say. 18:20 [d]**44:29** Say. 18:8-19
[e]**44:31** Lev. 22:8 [f]**45:10** Lev. 19:36

Qurbanlar və bayramlar

13 Gətirəcəyiniz təqdimlər bunlardır:
hər xomer buğdadan efanın altıda biri
qədər buğda, hər xomer arpadan efanın
altıda biri qədər arpa verin. 14 Zeytun
yağını isə bat çəkisinə görə ölçün və
hər kor zeytun yağından batın onda
biri qədər təqdim edin. Bir kor on bat
yaxud bir xomerə bərabərdir. 15 İsrailin
sulu otlaqlarındakı sürüdən iki yüz
qoyundan bir qoyun götürülsün. Bu
qoyunlardan taxıl təqdimləri, yandırma
qurbanları və ünsiyyət qurbanları üçün
istifadə edilsin ki, xalq kəffarə olunsun”
Xudavənd Rəbb belə bəyan edir.
16 “Bütün ölkə xalqı bu təqdimi İsrail
rəhbərinə verəcək. 17 İsraildə keçirilən
bütün bayramlarda – şənliklərdə,
Təzə Ay mərasimlərində və Şənbə
günlərində yandırma qurbanları, taxıl
və içmə təqdimlərini təmin etmək
rəhbərin işi olacaq. Günah qurbanını,
taxıl təqdimini, yandırma qurbanını
və ünsiyyət qurbanlarını rəhbər təmin
edəcək ki, İsrail nəsli üçün kəffarə
versin”.
18 Xudavənd Rəbb belə deyir: “Birinci
ayın birinci günü qüsursuz bir buğa
götürüb Müqəddəs məkanı pak et.
19 Kahin günah qurbanının qanından
götürüb məbədin darvazasının
yan taxtalarına, qurbangahın üst
çıxıntısının dörd küncünə, içəri həyətin
darvazasının yan taxtalarına sürtsün.
20 Səhvən yaxud bilmədən günah etmiş
adam üçün də həmin ayın yeddinci
günü eyni şeyi et. Beləcə məbədi pak
edəcəksən.
21 [g]Birinci ayın on dördüncü günü
Pasxa bayramını yeddi gün keçirin və
mayasız çörək yeyin. 22 O gün rəhbər
özü və bütün ölkə xalqı üçün günah
qurbanı olaraq bir buğa hazırlasın.
23 Yeddi gün bayram ərzində hər
gün Rəbbə yandırma qurbanı olaraq
qüsursuz yeddi buğa ilə yeddi qoç,
günah qurbanı olaraq bir təkə təmin
etsin. 24 Taxıl təqdimi olaraq hər buğa
və qoç üçün bir efa taxıl, hər efa üçün
bir hin zeytun yağı təmin etsin.
25 [h]Yeddinci ayın on beşinci günü
başlayan və yeddi gün davam
edən bayramda rəhbər günah
qurbanlarını, yandırma qurbanlarını,
taxıl təqdimlərini və zeytun yağını hər
gün eyni miqdarda təmin etsin”.

46 Xudavənd Rəbb belə deyir: “İçəri
həyətin şərqə baxan darvazası
altı iş günü bağlı qalmalı, Şənbə günləri
və Təzə Ay mərasimi günləri isə açıq
olmalıdır. 2 Rəhbər bayırdan, darvaza
eyvanı yolundan içəri girib darvazanın
yan taxtalarının yanında dursun.
Kahinlər onun yandırma qurbanını və
ünsiyyət qurbanlarını təqdim etsin.
Rəhbər darvaza kandarında ibadət
etsin, sonra bayıra çıxsın, ancaq darvaza
axşama qədər açıq qalsın. 3 Şənbə
günləri və Təzə Ay mərasimi günləri
ölkə xalqı bu darvazanın girişində
Rəbbin önündə ibadət etsin.
4 Rəhbər Şənbə günü Rəbbə yandırma
qurbanı olaraq verdiyi qüsursuz altı
quzu, bir qoç təqdim etsin. 5 Qoç üçün
veriləcək taxıl təqdimi bir efa olsun,
quzular üçün isə istədiyi qədər taxıl
təqdimi verə bilər. Hər efa taxıl üçün
bir hin zeytun yağı versin. 6 Təzə Ay
mərasimi günü qüsursuz bir buğa,
altı quzu və bir qoç qurban gətirsin.
7 Buğa və qoç üçün taxıl təqdimi olaraq
hərəsinə bir efa taxıl təmin etsin.
Quzular üçün istədiyi qədər taxıl təmin
edə bilər. Hər efa taxıl üçün bir hin
zeytun yağı təmin etsin. 8 Rəhbər içəri
girəcəyi zaman darvaza eyvanından
girsin, həmin yolla da bayıra çıxsın.

---

[g] **45:21** Çıx. 12:1-20; Say. 28:16-25 [h] **45:25** Lev. 23:33-36; Say. 29:12-38

9 Ölkə xalqı bayramlarda Rəbbin
önünə gəldiyi zaman ibadət etmək
üçün şimal darvazasından girən adam
cənub darvazasından çıxsın, cənub
darvazasından girən adam şimal
darvazasından çıxsın. Heç kəs girdiyi
darvazadan çıxmasın, hər kəs girdiyi
darvazanın qarşısındakı darvazadan
çıxsın. 10 Rəhbər xalqın arasında olsun,
xalqla birgə girsin, xalqla birgə çıxsın.
11 Bayramlarda və müqəddəs günlərdə
buğa və qoç üçün taxıl təqdimi olaraq
hərəsinə bir efa taxıl versin. Quzular
üçün isə istədiyi qədər taxıl təmin edə
bilər. Hər efa taxıl üçün bir hin zeytun
yağı versin.
12 Rəhbər Rəbbə könüllü olaraq
verdiyi yandırma qurbanı yaxud
ünsiyyət qurbanları təqdim edəcəyi
zaman şərqə baxan darvaza onun
üzünə açılsın. Yandırma qurbanı yaxud
ünsiyyət qurbanlarını Şənbə günü
qurban gətirdiyi kimi təmin etsin,
sonra bayıra çıxsın. O çıxdıqdan sonra
darvaza bağlansın.
13 Hər gün səhərlər yandırma qurbanı
olaraq Rəbbə bir yaşında qüsursuz bir
quzu təmin et. 14 Bununla yanaşı, hər
səhər taxıl təqdimi olaraq efanın altıda
biri qədər taxıl və narın unu islatmaq
üçün bir hinin üçdə biri qədər zeytun
yağı təmin et. Bu taxıl təqdiminin
Rəbbə verilməsi daimi bir qayda olsun.
15 Beləcə hər səhər daimi yandırma
qurbanı olaraq quzu, taxıl təqdimi və
zeytun yağı təmin edilsin”.

Rəhbərə düşən mülk

16 Xudavənd Rəbb belə deyir:
“Əgər rəhbər oğullarından birinə öz
mülkündən pay verərsə, öz irsi kimi
nəslinə də keçsin, irs olaraq bu pay
onların mülkü olsun. 17 [i]Lakin rəhbər
öz mülkündən qulluqçularından birinə
pay verərsə, bu pay azadlıq ilinə
qədər qulluqçununku olsun, sonra
isə rəhbərə qaytarılsın. Rəhbərin irsi
ancaq oğullarına keçə bilər və onların
olsun. 18 Lakin rəhbər xalqı mülkündən
qovaraq irsindən məhrum etməməlidir.
O, oğullarına yalnız öz mülkündən
irs verə bilər, ona görə ki xalqımdan
olan heç kəs mülkünü tərk edib kənara
getməsin”».

Məbədin mətbəxləri

19 Sonra o adam məni darvazanın
yanındakı girişdən şimala baxan,
kahinlərə məxsus müqəddəs otaqlara
gətirdi və mənə qərb tərəfdə bir yer
göstərdi. 20 O mənə dedi: «Kahinlərin
təqsir qurbanı ilə günah qurbanının
ətini qaynadacaqları və taxıl təqdimini
bişirəcəkləri yer buradır. Ona görə ki
bunları bayır həyətə çıxarıb xalqı təqdis
etməsinlər».
21 Sonra o adam məni bayır həyətə
çıxarıb həyətin dörd küncündən keçirdi.
Gördüm ki, həyətin hər küncündə kiçik
bir həyət var. 22 Həyətin dörd küncündə
olan bu qapalı həyətlərin hər birinin
uzunluğu qırx, eni isə otuz qulac idi.
Künclərdəki həyətlər eyni boyda idi.
23 Dörd həyətin hər birinin ətrafında daş
divar var idi. Divarın dibində yemək
bişirmək üçün yerlər düzəldilmişdi. 24 O
adam mənə dedi: «Bunlar mətbəxdir.
Məbəd xidmətçiləri xalqın qurbanlıq
ətlərini burada qaynadacaq».

Məbəddən axan su

47 [j]O adam yenə məni məbədin
girişinə gətirdi. Məbədin
kandarının altından şərqə tərəf sular
axdığını gördüm. Məbəd şərqə baxırdı.
Sular məbədin cənub tərəfinin altından,
qurbangahın cənubundan aşağıya
axırdı. 2 O məni oradan – şimal

[i] **46:17** Lev. 25:10 [j] **47:1** Zək. 14:8; Yəh. 7:38; Vəhy 22:1

darvazasından çıxarıb bayır yoldan
şərqə baxan bayır darvazasına apardı.
Sular cənub tərəfdən axırdı.
3 O adam əlində ölçmək üçün bir iplə
şərqə tərəf getdi. O, min qulac ölçdü və
məni topuğa qədər çıxan suların içinə
gətirdi. 4 Daha min qulac ölçdü və məni
dizə qədər çıxan suların içinə gətirdi.
Yenə min qulac ölçdü və məni belə
qədər çıxan suların içinə gətirdi. 5 Daha
min qulac ölçdü və sular keçilməz bir
çaya döndü. Sular artmışdı, içindən
piyada keçmək mümkün deyildi, adam
üzən qədər dərin bir çaya çevrilmişdi.
6 O adam mənə dedi: «Ey bəşər oğlu,
bunu görürsənmi?» Sonra məni götürüb
yenə çayın sahilinə gətirdi. 7 Oraya
çatanda çayın hər iki sahilində çoxlu
ağac gördüm. 8 O adam mənə dedi: «Bu
sular şərq bölgəsinə tərəf axır, oradan
Arava vadisinə, sonra isə Duz dənizinə
tökülür. Dənizə tökülən kimi oradakı su
şirin suya çevriləcək. 9 O zaman çayın
axdığı yerlərdə hər cür qaynaşan canlı
məxluq yaşayacaq, çoxlu balıq olacaq,
çünki bu sular oraya axır, oradakı şor
suyu şirin suya çevirir. Çay axdığı hər
yerə həyat gətirəcək. 10 Çayın sahili
boyu balıqçılar dayanacaq. En-Gedidən
En-Eqlayimə qədər tor sərilən yerlər
olacaq. Orada da Böyük dənizdəki kimi
çoxlu balıq növləri olacaq. 11 Ancaq
Duz dənizinin palçıqlı və bataqlıq
yerləri şirin suya çevrilməyəcək,
şoranlıq olaraq qalacaq. 12 Çayın hər iki
sahilində hər cür meyvə ağacı yetişəcək.
Onların yarpaqları solmayacaq,
meyvələri tükənməyəcək. Hər ay meyvə
verəcəklər, çünki Müqəddəs məkandan
çıxan sular oraya axır. Meyvələrindən
yemək, yarpaqlarından şəfa vermək
üçün istifadə olunacaq».

Ölkənin sərhədləri

13 Xudavənd Rəbb belə deyir: «Ölkəni
irs olaraq İsrailin on iki qəbiləsi arasında
bu sərhədlərlə bölün: Yusifə iki pay
düşsün. 14 Ölkəni on iki qəbilə arasında
hər birinə bərabər olaraq paylayın. Mən
ölkəni sizin atalarınıza verəcəyimə and
içdim. Bu ölkə sizə irs olaraq veriləcək.
15 Ölkənin sərhədi belə olacaq:
şimalda Böyük dənizdən Xetlon yolu ilə
Xamat keçidinə, Sedada, *16 Berotaya
və Dəməşq ilə Xamatın torpaqları
arasında yerləşən Sivrayimə, Xavran
sərhədində olan Xaser-Hattikona
qədər uzanacaq. 17 Sərhəd dənizdən
Xasar-Enona, Dəməşqin şimal sərhədi
boyunca uzanacaq, Xamat sərhədi
şimalda olacaq. Şimal sərhədi belədir.
18 Şərqdə sərhədi Xavranla Dəməşq
arasından başlayıb Gileadı İsraildən
ayıran İordan çayı boyunca Şərq
dənizinə qədər ölçün. Şərq sərhədi
belədir.
19 Cənubda sərhəd Tamardan
Meriva-Qadeş sularına, Misir vadisi
boyunca Böyük dənizə qədər uzanacaq.
Cənub sərhədi belədir.
20 Qərbdə Xamat keçidinin
qarşısındakı yerə qədər Böyük
dəniz sərhəd olacaq. Qərb sərhədi
belədir.
21 Bu ölkəni İsrail qəbilələrinə görə
öz aranızda bölüşdürün. 22 Ölkəni
öz aranızda və aranızda yaşayarkən
övladları doğulan yadellilərlə irs olaraq
bölüşdürün. Onları da İsrail övladları
arasında yerlilər kimi hesab edin.
Onların da İsrail qəbilələri arasında
sizin kimi irsləri olacaq. 23 Yadelli hansı
qəbilədə yaşayırsa, orada ona düşən
payı irs olaraq verin» Xudavənd Rəbb
belə bəyan edir.

---

*47:15 *Xamat keçidinə, Sedada* – qədim yunan tərcüməsində belədir, ibrani mətnində isə *Sedad keçidinə, Xamata.*

Torpağın bölüşdürülməsi

48 «Qəbilələrin adları belədir:
şimal sərhədində olan Dana
bir pay veriləcək. Danın sərhədi
Xetlon yolundan Xamat keçidinə qədər
uzanacaq. Xasar-Enon və Xamata yaxın
Dəməşqin şimal sərhədi şərqdən qərbə
qədər uzanan sərhədin bir hissəsini
tutacaq. 2 Aşerə bir pay veriləcək.
Sərhədi Danın şərqdən qərbə qədər
uzanan sərhədinə bitişik olacaq.
3 Naftaliyə bir pay veriləcək. Sərhədi
Aşerin şərqdən qərbə qədər uzanan
sərhədinə bitişik olacaq. 4 Menaşşeyə
bir pay veriləcək. Sərhədi Naftalinin
şərqdən qərbə qədər uzanan sərhədinə
bitişik olacaq. 5 Efrayimə bir pay
veriləcək. Sərhədi Menaşşenin şərqdən
qərbə qədər uzanan sərhədinə bitişik
olacaq. 6 Ruvenə bir pay veriləcək.
Sərhədi Efrayimin şərqdən qərbə
qədər uzanan sərhədinə bitişik olacaq.
7 Yəhudaya bir pay veriləcək. Sərhədi
Ruvenin şərqdən qərbə qədər uzanan
sərhədinə bitişik olacaq.
8 Yəhudanın şərqdən qərbə qədər
uzanan sərhədinə bitişik torpaqlar
ayıracağınız xüsusi pay olacaq. Eni
iyirmi beş min qulac, şərqdən qərbə
uzunluğu isə bir qəbiləyə düşən pay
qədər olacaq. Müqəddəs məkan oranın
ortasında olacaq. 9 Rəbbə xüsusi olaraq
verəcəyiniz payın uzunluğu iyirmi beş
min qulac, eni on min qulac olacaq.
10 Bu, kahinlər üçün müqəddəs pay
olacaq. Şimalda uzunluğu iyirmi beş
min qulac, qərbdə eni on min qulac,
şərqdə eni on min qulac, cənubda
uzunluğu iyirmi beş min qulac olacaq.
Rəbbin Müqəddəs məkanı oranın
ortasında olacaq. 11 Bu bölgə Sadoq
nəslindən təqdis olunmuş kahinlər üçün
olacaq. Onlar buyruğumu yerinə yetirdi,
İsrail xalqı yoldan azan zaman Levililər
də yoldan azdı, ancaq onlar yoldan
azmadı. 12 O yer ölkənin müqəddəs
payından xüsusi bir pay olaraq onlara
veriləcək. Ora Levililərin torpaqlarına
bitişik çox müqəddəs bir bölgə olacaq.
13 Kahinlərin sərhədi yaxınlığında
Levililərin iyirmi beş min qulac
uzunluğunda, on min qulac enində bir
payları olacaq. Bu bölgənin uzunluğu
iyirmi beş min qulac, eni on min qulac
olacaq. 14 Levililər oranı satmasın və
başqa yerə dəyişməsin. Bu, ölkənin ən
yaxşı hissəsidir və başqa adamın əlinə
keçməməlidir, çünki ora Rəbbə həsr
edilmişdir.
15 Rəbbə verdiyiniz bu xüsusi payın
qalan iyirmi beş min qulac uzunluqda
və beş min qulac enindəki hissəsi
müqəddəs deyil və şəhər üçündür.
Bu yer evlərə, otlaqlara ayrılacaq.
Şəhər onun ortasında olacaq. 16 Şəhərin
ölçüləri belə olacaq: şimal tərəfi dörd
min beş yüz qulac, cənub tərəfi dörd
min beş yüz qulac, şərq tərəfi dörd min
beş yüz qulac, qərb tərəfi dörd min
beş yüz qulac. 17 Şəhər üçün ayrılan
otlağın ölçüləri belə olacaq: şimalda
iki yüz əlli qulac, cənubda iki yüz
əlli qulac, şərqdə iki yüz əlli qulac,
qərbdə iki yüz əlli qulac. 18 Müqəddəs
bölgənin sərhədində qalan yerin həm
şərq tərəfi, həm də qərb tərəfi on min
qulac olacaq. Müqəddəs bölgəyə bitişik
torpaqlarda yetişən məhsul şəhərdə
işləyənlərə məxsus olacaq. 19 İsrailin
hər qəbiləsindən şəhərdə işləyənlər
torpağı şumlayacaq. 20 Bu bölgənin
ərazisi dördbucaqlı şəklindədir, hər yanı
iyirmi beş min qulacdır. Siz xüsusi bir
pay olaraq şəhərin mülkü ilə birlikdə
müqəddəs bölgəyə düşən payı ayırın.
21 Müqəddəs bölgəyə aid olan hissə
ilə şəhərə aid olan hissədən başqa,
ayırdığınız xüsusi paydan hər iki tərəfdə
qalan torpaqlar rəhbərə veriləcək.
Bu torpaqlar müqəddəs bölgəyə aid
olan iyirmi beş min qulaclıq hissənin

şərqindən və qərbindən ölkənin şərq
və qərb sərhədlərinə qədər uzanacaq.
Qəbilələrə düşən paylar boyunca
uzanan bu iki bölgə rəhbərə məxsus
olacaq. Müqəddəs yerə aid olan hissə
ilə məbədin Müqəddəs məkanı oranın
ortasında olacaq. 22 Beləcə Levililərə
düşən mülklə şəhərə aid olan mülk
rəhbərə verilən torpaqların arasında
qalacaq. Rəhbərə veriləcək torpaqlar
Yəhuda ilə Binyaminin sərhədi arasında
olacaq.
23 Qalan qəbilələrə düşən pay
belədir: Binyaminə bir pay veriləcək.
Sərhədi şərqdən qərbə qədər uzanacaq.
24 Şimeona bir pay veriləcək. Sərhədi
Binyaminin şərqdən qərbə qədər uzanan
sərhədinə bitişik olacaq. 25 İssakara
bir pay veriləcək. Sərhədi Şimeonun
şərqdən qərbə qədər uzanan sərhədinə
bitişik olacaq. 26 Zevuluna bir pay
veriləcək. Sərhədi İssakarın şərqdən
qərbə qədər uzanan sərhədinə bitişik
olacaq. 27 Qada bir pay veriləcək.
Sərhədi Zevulunun şərqdən qərbə
qədər uzanan sərhədinə bitişik olacaq.
28 Qadın sərhədi ölkənin cənub sərhədi
olub Tamardan Meriva-Qadeş sularına,
oradan da Misir vadisi boyunca
Böyük dənizə qədər uzanacaq. 29 İrs
olaraq İsrail qəbilələri arasında
bölüşdürəcəyiniz torpaq budur. Onlara
düşəcək paylar bunlardır» Xudavənd
Rəbb belə bəyan edir.

Şəhərin darvazaları

30 [k]«Şəhərin çıxış yerləri bunlardır:
dörd min beş yüz qulac uzunluğunda
olan şimal tərəfdə darvazalar olacaq.
31 Şəhərin darvazalarına İsrail
qəbilələrinin adları veriləcək. Şimal
tərəfdə üç darvaza olacaq: bir Ruven
darvazası, bir Yəhuda darvazası, bir
Levi darvazası. 32 Dörd min beş yüz
qulac uzunluğunda olan şərq tərəfdə üç
darvaza olacaq: bir Yusif darvazası, bir
Binyamin darvazası, bir Dan darvazası.
33 Dörd min beş yüz qulac uzunluğunda
olan cənub tərəfdə üç darvaza olacaq:
bir Şimeon darvazası, bir İssakar
darvazası, bir Zevulun darvazası.
34 Dörd min beş yüz qulac uzunluğunda
olan qərb tərəfdə üç darvaza olacaq: bir
Qad darvazası, bir Aşer darvazası, bir
Naftali darvazası. 35 Şəhərin dairəsi on
səkkiz min qulac olacaq və o gündən
sonra şəhər Yahve-Şamma [*]adlanacaq».

---

[*]**48:35** *Yahve-Şamma* – ibrani dilində *Rəbb oradadır.*

[k]**48:30** Vəhy 21:12-13

DANİEL

PEYĞƏMBƏRİN KİTABI

GİRİŞ

«Daniel» Kitabı yəhudi xalqının Babil və Fars imperatorluqlarının hakimiyyəti altında olduğu dövrdən bəhs edir.

Kitab iki əsas hissəyə bölünür. İlk hissədə Daniel və onunla birgə əsir olan üç gənc yoldaşının hekayəti nəql edilir. Onlar Allaha etibar edib itaətli olmaqla düşmənlərinə qalib gəlir. İkinci hissədə isə Danielin görüntüləri təsvir olunur. Rəmzlər şəklində Babildən başlayaraq bir neçə imperatorluğun uğuru və süqutu, zülmkarın məhv olması və Allah xalqının qələbəsi barədə danışılır.

Kitabın məzmunu:

1:1–6:28 Daniel və onun yoldaşları
7:1–12:13 Danielin görüntüləri
7:1-28 Dörd heyvan
8:1–9:27 Qoç və təkə
10:1–11:45 Səmavi mələk
12:1-13 Axır zaman

Daniel və onun yoldaşları Babil sarayında

1 [l]Yəhuda padşahı Yehoyaqimin padşahlığının üçüncü ilində Babil padşahı Navuxodonosor Yerusəlimə hücum edib oranı mühasirəyə aldı. 2 [m]Xudavənd Yəhuda padşahı Yehoyaqimi və Allah məbədinin əşyalarından bir hissəsini ona təslim etdi. Navuxodonosor onları Şinar torpağına, öz allahının məbədinə apardı və əşyaları həmin məbədin xəzinəsinə qoydu.

3 Padşah hərəmağalar rəisi Aşpenaza əmr etdi ki, padşah nəslindən və zadəganlardan olan İsraillilərin arasından 4 bədənlərində qüsur olmayan, yaraşıqlı, hər elmdən xəbərdar, bilikli, dərrakəli, sarayda padşaha xidmət etməyə layiq olan cavanlar seçərək onlara Xaldeylilərin dilini və ədəbiyyatını öyrətsin. 5 Padşah onlara özünün yediyi yeməklərdən və içdiyi şərabdan gündəlik yemək payı təyin etdi ki, üç il onlara tərbiyə versinlər, sonra isə padşahın xidmətinə gətirsinlər. 6 Onların arasında Yəhuda nəslindən olan Daniel, Xananya, Mişael və Azarya var idi. 7 Hərəmağalar rəisi onlara yeni ad qoydu: Danieli Belteşassar, Xananyanı Şadrak, Mişaeli Meşak və Azaryanı Aved-Neqo adlandırdı.

8 Daniel qərara aldı ki, padşahın yediyi yeməklərlə və içdiyi şərabla özünü murdar etməsin. Buna görə də özünü murdar etməmək üçün hərəmağalar rəisinə müraciət etdi. 9 Allah hərəmağalar rəisinin gözündə Danielə lütf və rəğbət qazandırdı. 10 Hərəmağalar rəisi Danielə dedi: «Sizin yeyib-içməyinizi təyin edən ağam padşahdan qorxuram. Nə üçün o sizin simanızı həmyaşıdınız olan cavanların simasından solğun görsün? Siz bununla padşahın yanında həyatımı təhlükə altına qoyursunuz». 11 Daniel hərəmağalar rəisinin özü, Xananya, Mişael və Azaryanın üzərinə qoyduğu məmura dedi: 12 «Gəl qullarını on gün ərzində yoxla. Qoy bizə yemək üçün göyərti, içmək üçün su versinlər. 13 Sonra isə sənin hüzurunda həm bizim üzümüzə, həm də padşah yeməklərindən yeyən cavanların üzünə baxsınlar. Bunu görəndən sonra qullarınla necə istəyərsən, elə də rəftar edərsən». 14 Məmur bu məsələdə cavanların sözünə qulaq asdı və onları

---

[l]**1:1** 2Pad. 24:1; 2Saln. 36:5-7

[m]**1:2** 2Pad. 20:17-18; 24:10-16; 2Saln. 36:10; Yeş. 39:7-8

on gün yoxladı. 15 On gün sonra onların
siması padşah yeməklərindən yeyən
başqa cavanların simasından daha gözəl
göründü və onlar bədəncə daha dolğun
idi. 16 Onda məmur cavanların yeməyini
və içəcəkləri şərabı götürüb onlara
göyərti verdi.
17 Allah bu dörd gəncə hər cür
ədəbiyyatı və elmi öyrənmək üçün
bilik və dərrakə verdi. Daniel isə hər
cür görüntüləri və yuxuları yozmağı
bacarırdı.
18 Onların gətirilməsi üçün padşahın
əmr etdiyi gün çatanda hərəmağalar
rəisi onları Navuxodonosorun hüzuruna
gətirdi. 19 Padşah onlarla danışdı və
hamının arasında Daniel, Xananya,
Mişael və Azarya kimisi tapılmadı.
Onlar padşahın hüzurunda xidmətə
qoyuldu. 20 Padşah onlardan hər cür
elm və bilik barədə soruşanda gördü
ki, bunlar ölkəsindəki sehrbazların
və ruhçağıranların hamısından on
qat üstündür. 21 Daniel padşah Kirin
hökmranlığının birinci ilinə qədər orada
qaldı.

Navuxodonosorun yuxusu

2 Navuxodonosor padşahlığının
ikinci ilində bir yuxu gördü,
buna görə ürəyi sıxıldı və yuxusu
qaçdı. 2 Padşah əmr etdi ki, yuxusunu
yozmaq üçün onun yanına sehrbazlar,
ruhçağıranlar, cadugərlər və Xaldeyli
müdriklər çağırılsın. Onlar gəlib
padşahın hüzurunda dayandı. 3 Padşah
onlara dedi: «Bir yuxu görmüşəm
və ürəyim sıxılır. İstəyirəm ki, bu
yuxunun yozumunu bilim». 4 Xaldeyli
müdriklər Arami dilində padşaha dedi:
*«Padşah sağ olsun, yuxunu bu qullarına
danış, biz də onu yozaq». 5 Padşah
Xaldeyli müdriklərə cavab verdi:
«Mən belə qərara gəlmişəm: əgər siz
mənə həm yuxunu, həm də yozumunu
söyləməsəniz, parça-parça ediləcəksiniz
və evləriniz də viran ediləcək. 6 Əgər
yuxunu və yozumunu söyləsəniz,
məndən hədiyyələr, mükafatlar və
böyük hörmət görəcəksiniz. İndi isə
mənə yuxunu və yozumunu söyləyin».
7 Onlar yenə cavab verdi: «Padşah
yuxunu bu qullarına danışsın, biz də
onu yozaq». 8 Padşah cavab verdi:
«Yəqin bilirəm ki, siz vaxt qazanmaq
istəyirsiniz, çünki görürsünüz ki, mənim
qərarım qətidir. 9 Əgər yuxunu mənə
söyləməsəniz, sizin üçün yalnız bir cəza
olacaq. Siz mənə yalan və uydurma
sözlər demək üçün sözləşmisiniz ki,
bəlkə vəziyyət dəyişdi. İndi isə mənə
yuxunu söyləyin, onda bilərəm ki, siz
onu yozmağa qadirsiniz».
10 Xaldeyli müdriklər padşaha cavab
verdi: «Yer üzündə padşahın tələbini
yerinə yetirə bilən adam yoxdur. Ən
əzəmətli və qüdrətli padşah da bir
sehrbazdan, ruhçağırandan yaxud
Xaldeyli müdrikdən belə bir şey
istəməyib. 11 Padşahın istədiyi şey elə
çətindir ki, allahlardan başqa heç kəs
bunu padşaha aşkar edə bilməz. Onların
da məskəni insanlar arasında deyil».
12 Padşah bu sözə özündən çıxıb
bərk qəzəbləndi və əmr etdi ki, bütün
Babil müdriklərini məhv etsinlər.
13 Müdrikləri öldürmək barədə əmr
çıxanda Danieli və onun yoldaşlarını
öldürmək üçün axtardılar.
14 O zaman Daniel Babil müdriklərini
öldürməyə gedən padşahın keşikçilər
rəisi Aryokla müdriklik və nəzakətlə
danışdı. 15 O, padşahın hərbi rəisi
olan Aryokdan soruşdu: «Niyə padşah
belə sərt fərman verib?» Onda Aryok
əhvalatı Danielə danışdı. 16 Daniel içəri
girib padşahdan xahiş etdi ki, yuxunun

*2:4 2:4–7:28-ə qədər mətn arami dilində yazılmışdır.

yozumunu padşaha bildirmək üçün ona
vaxt versin.
17 Daniel öz evinə qayıdıb əhvalatı
dostları Xananya, Mişael və Azaryaya
danışdı ki, 18 bu sirr barədə göylərin
Allahından mərhəmət diləsinlər və
Daniellə onun yoldaşları başqa Babil
müdrikləri ilə birgə məhv olmasın.
19 O zaman bu sirr Danielə gecə gələn
görüntüdə aşkar oldu, buna görə də
Daniel göylərin Allahına şükür etdi.
20 Daniel söylədi:
«Allahın adı əbədi olaraq izzətlənsin!
Çünki hikmət və qüdrət Ona
məxsusdur.
21 Vaxtı və dövrü dəyişdirən Odur.
O, padşahları taxtdan salar və taxta
qoyar,
Müdriklərə hikmət, aqillərə ağıl verər.
22 Dərin və gizli sirləri O açar,
Qaranlıqda qalanı O bilər.
İşıqla əhatə olunan Odur.
23 Ey atalarımın Allahı,
Sənə şükür və həmd olsun ki,
Mənə hikmət və qüdrət verdin,
Səndən dilədiyimiz şeyi mənə aşkar
etdin.
Beləcə padşahın məsələsini bizə
bildirdin».

Danielin yuxunu yozması

24 Bundan sonra Daniel Babil
müdriklərini öldürmək üçün padşahın
təyin etdiyi Aryokun yanına gəlib ona
dedi: «Babil müdriklərini öldürmə.
Məni padşahın yanına apar, yuxusunu
yozum». 25 Onda Aryok Danieli tez
padşahın yanına gətirib ona dedi:
«Mən sürgün olunmuş Yəhudalılar
arasından padşaha yuxunu yoza bilən
bir adam tapdım». 26 Padşah Belteşassar
adlanan Danieldən soruşdu: «Gördüyüm
yuxunu və yozumunu mənə söyləyə
bilərsənmi?» 27 Daniel padşahın önündə
cavab verdi: «Padşahın soruşduğu sirri
müdriklər, ruhçağıranlar, sehrbazlar
və əlamət baxıcıları ona açə bilməz.
28 Ancaq göylərdə sirləri açan bir Allah
var və gələcəkdə nə olacağını padşah
Navuxodonosora O bildirdi. Yatarkən
gördüyün yuxu və görüntü belə idi:
29 Ey padşah, sən öz yatağında
düşünürdün ki, bundan sonra nə
olacaq? Sirləri Açan da nə olacağını
sənə göstərdi. 30 Mənə bu sirr başqa
adamlardan müdrik olduğum üçün
açılmadı, yalnız yuxu padşaha bildirilsin
və sən də öz ürəyinin düşüncələrini
biləsən deyə bu sirr mənə açıldı.
31 Ey padşah, sən yuxuda böyük
bir heykəl görmüsən. Nəhəng və çox
parlaq olan bu heykəl sənin önündə
dururdu, onun görünüşü qorxunc idi.
32 Bu heykəlin başı xalis qızıldan,
sinəsi və qolları gümüşdən, qarnı
və budları tuncdan idi. 33 Baldırları
dəmirdən, ayaqlarının bir hissəsi
dəmirdən, bir hissəsi isə gildən idi.
34 Sən baxdığın zaman əl dəymədən
bir daş yerindən qoparıldı, heykəlin
dəmir və gil ayaqlarından vurub onları
parça-parça etdi. 35 O zaman dəmir, gil,
tunc, gümüş və qızıl birlikdə parçalandı
və yay xırmanlarındakı saman çöpü
kimi sovruldu. Külək onları apardı və
onlardan əsər-əlamət qalmadı. Heykəli
dağıdan daş isə böyük bir dağ oldu və
bütün dünyanı tutdu.
36 Yuxu budur. İndi isə padşahın
önündə onu yozaq. 37 Ey padşah,
sən şahənşahsan. Göylərin Allahı
padşahlığı, qüvvəti, qüdrəti və izzəti
sənə verib. 38 O hər yerdə yaşayan
bəşər övladlarını, çöl heyvanlarını və
göy quşlarını ixtiyarına verməklə səni
onlara hökmdar edib. Qızıldan olan baş
sənsən! 39 Sonra səndən aşağı səviyyədə
olan başqa padşahlıq yaranacaq. Ondan
sonra isə tuncdan olan, bütün dünyaya
hökmranlıq edən üçüncü bir padşahlıq
olacaq. 40 Dördüncü padşahlıq isə
dəmir kimi möhkəm olacaq, çünki

dəmir hər şeyi qırıb-dağıtdığı kimi o
da başqalarını hər şeyi əzən dəmir
tək qırıb-əzəcək. 41 Ayaqların və
barmaqların bir hissəsinin dulusçu
gilindən, bir hissəsinin isə dəmirdən
olduğunu görməyinin mənası budur
ki, o bölünmüş padşahlıq olacaq.
Onda bir qədər dəmir möhkəmliyi
qalacaq, necə ki sən dəmiri dulusçu
gili ilə qarışıq görmüsən. 42 Ayaq
barmaqlarının bir hissəsi dəmirdən,
bir hissəsi gildən olduğu kimi bu
padşahlığın da bir hissəsi möhkəm, bir
hissəsi kövrək olacaq. 43 Dəmiri dulusçu
gili ilə qarışıq gördüyünün mənası
budur ki, onlar müxtəlif insan nəsilləri
vasitəsilə bir-birləri ilə qarışacaq, ancaq
dəmir gillə birləşmədiyi kimi onlar da
bir-birləri ilə birləşməyəcək.
44 O padşahların dövründə göylərin
Allahı heç vaxt dağılmayan bir
padşahlıq quracaq və bu padşahlıq
başqa xalqın əlinə keçməyəcək. O bütün
əvvəlki padşahlıqları əzib-dağıdacaq,
özü isə əbədi qalacaq. 45 Sən gördün ki,
dağdan bir daş əl dəymədən qoparıldı,
dəmiri, tuncu, gili, gümüşü və qızılı
parça-parça etdi. Beləcə böyük Allah
bundan sonra nə olacağını padşaha
bildirib. Bu yuxu doğrudur və onun
yozumu da etibarlıdır».
46 O zaman padşah Navuxodonosor
üzüstə düşüb Danielə səcdə etdi,
onun üçün təqdim gətirməyi və buxur
yandırmağı əmr etdi. 47 Padşah Danielə
dedi: «İndi ki sən bu sirri açə bildin,
həqiqətən, sizin Allahınız allahların
Allahı və padşahların Ağasıdır, sirləri
açan da Odur». 48 Bundan sonra padşah
Danieli yüksək vəzifəyə qoydu və ona
çoxlu qiymətli hədiyyə verdi. Onu
Babil vilayətinin başçısı və bütün Babil
müdriklərinin baş rəisi təyin etdi.
49 Daniel padşahdan xahiş etdi, o da
Şadrakı, Meşakı və Aved-Neqonu Babil
vilayətinə məmur qoydu. Daniel isə
padşah sarayında qaldı.

Qızıl büt və odlu soba

3 Padşah Navuxodonosor bir qızıl
heykəl düzəltdi. Onun hündürlüyü
altmış qulac, eni altı qulac idi.
Onu Babil vilayətində olan Dura
çölündə qoydu. 2 Sonra padşah
Navuxodonosor canişinləri, əmirləri,
valiləri, müşavirləri, xəzinədarları,
hakimləri, vəkilləri, xülasə, bütün
vilayətlərin məmurlarını toplamaq üçün
xəbər göndərdi ki, qoyduğu heykəlin
həsretmə mərasiminə gəlsinlər. 3 O
zaman padşah Navuxodonosorun
qoyduğu heykəlin həsretmə mərasiminə
canişinlər, əmirlər, valilər, müşavirlər,
xəzinədarlar, hakimlər, vəkillər,
xülasə, bütün vilayətlərin məmurları
toplaşdı. 4 Carçı ucadan elan etdi:
«Ey müxtəlif xalqlara, millətlərə və
dillərə mənsub adamlar, sizə əmr
olunur ki, 5 şeypur, zurna, lira, arfa,
səntur, tuluq zurnası və hər cür musiqi
alətlərinin səsini eşidən vaxt yerə əyilib
padşah Navuxodonosorun qoyduğu
qızıl heykələ səcdə edəsiniz. 6 [n]Kim yerə
əyilib səcdə etməsə, o saat odla qızmış
sobanın içinə atılacaq». 7 Beləliklə,
bütün xalqlara, millətlərə və dillərə
mənsub adamlar şeypur, zurna, lira,
arfa, səntur, tuluq zurnası və hər cür
musiqi alətlərinin səsini eşidən zaman
yerə əyilib padşah Navuxodonosorun
qoyduğu qızıl heykələ səcdə etdi.
8 Elə bu vaxt bəzi Xaldeyli müdriklər
Yəhudiləri ittiham etdi. 9 Onlar padşah
Navuxodonosora dedi: «Qoy padşah
həmişə sağ olsun, 10 sən əmr etmisən ki,
şeypur, zurna, lira, arfa, səntur, tuluq
zurnası və hər cür musiqi alətlərinin
səsini eşidən hər kəs yerə əyilib qızıl

---

[n]**3:6** Mat. 13:41-42

heykələ səcdə etsin. 11 Kim yerə əyilib
səcdə etməsə, odla qızmış sobanın
içinə atılacaq. 12 Sənin Babil vilayətinə
məmur qoyduğun Şadrak, Meşak və
Aved-Neqo adlı Yəhudilər var. Ey
padşah, bu adamlar sənə itaət etmir,
sənin allahlarına xidmət etmir və
qoyduğun qızıl heykələ səcdə etmir».
13 O zaman Navuxodonosor qızğın
qəzəblə əmr etdi ki, Şadrakı, Meşakı
və Aved-Neqonu gətirsinlər. Bu
adamlar padşahın hüzuruna gətirildi.
14 Navuxodonosor onlara dedi: «Ey
Şadrak, Meşak və Aved-Neqo, bu
doğrudur ki, siz mənim allahlarıma
qulluq etmirsiniz? Mənim qoyduğum
qızıl heykələ səcdə etmirsiniz? 15 Yaxşı
olar ki, indi şeypur, zurna, lira, arfa,
səntur, tuluq zurnası və hər cür musiqi
alətlərinin səsini eşidən zaman yerə
əyilib düzəltdiyim heykələ səcdə
edəsiniz. Əgər səcdə etməsəniz, o saat
odla qızmış sobaya atılacaqsınız. O
zaman sizi hansı allah mənim əlimdən
qurtara bilər?» 16 Şadrak, Meşak və
Aved-Neqo padşaha cavab verdi: «Ey
Navuxodonosor, bizim bu iş üçün sənin
önündə özümüzü müdafiə etməyimizə
ehtiyac yoxdur. 17 Ey padşah, əgər
belə olsa, qulluq etdiyimiz Allahımız
bizi odla qızmış sobadan xilas etməyə
qadirdir və sənin də əlindən qurtaracaq.
18 Sənə məlum olsun ki, ey padşah, əgər
belə olmasa da, biz sənin allahlarına
qulluq edən deyilik və sənin qoyduğun
qızıl heykələ də səcdə etməyəcəyik».
19 O zaman Navuxodonosor bərk
qəzəbləndi və Şadraka, Meşaka,
Aved-Neqoya qarşı siması dəyişdi.
O əmr etdi ki, sobanı adətən
qızdırdıqlarından yeddi dəfə artıq
qızdırsınlar. 20 Ordusunun ən güclü
əsgərlərinə əmr etdi ki, Şadrakın,
Meşakın və Aved-Neqonun əl-qolunu
bağlayıb onları odla qızmış sobaya
atsınlar. 21 Onda əyinlərində cübbə,
şalvar, çalma və başqa paltarlar olan
bu adamların əl-qolunu bağladılar və
odla qızmış sobaya atdılar. 22 Padşahın
əmri qəti idi. Soba həddindən artıq
qızdırıldığı üçün alovun dilləri Şadrakı,
Meşakı və Aved-Neqonu oda atan
adamları öldürdü. 23 Bu üç nəfər
– Şadrak, Meşak və Aved-Neqo isə
əl-qolları bağlanmış halda odla qızmış
sobanın içinə yıxıldı.
24 O zaman padşah Navuxodonosor
heyrətə gəlib tez ayağa qalxdı və öz
müşavirlərinə dedi: «Biz üç nəfər əl-qolu
bağlanmış adamı oda atmadıqmı?»
Onlar cavabında padşaha dedi:
«Doğrudur, ey padşah!» 25 O dedi:
«Budur, mən odun içində əl-qolu
bağlanmamış dörd nəfərin gəzdiyini
görürəm və onlara heç nə olmur.
Onlardan dördüncüsü allahların oğluna
bənzəyir». 26 O zaman Navuxodonosor
odla qızmış sobanın astanasına
yaxınlaşdı və səsləyib dedi: «Ey
Allah-Taalanın qulları Şadrak, Meşak
və Aved-Neqo! Çıxın və buraya gəlin».
Onda Şadrak, Meşak və Aved-Neqo
odun içindən çıxdı. 27 Ətrafa toplaşmış
canişinlər, əmirlər, valilər və padşahın
müşavirləri gördü ki, od bu adamların
bədəninə heç bir zərər vurmayıb: nə
onların saçları yanmış, nə də paltarları
dəyişmişdi, hətta odun hisi də onlara
hopmamışdı.
28 Onda Navuxodonosor dedi:
«Şadrakın, Meşakın və Aved-Neqonun
Allahına şükür olsun ki, Öz mələyini
göndərib Ona arxalanan qullarını xilas
etdi. Onlar padşahın əmrinə qarşı çıxıb
özlərini qurban vermək istədilər ki,
özlərinin Allahından başqa bir allaha
qulluq yaxud səcdə etməsinlər. 29 Mən
fərman verirəm ki, Şadrakın, Meşakın
və Aved-Neqonun Allahına küfr edən
hər xalqa, millətə və dilə mənsub olan
adam parça-parça ediləcək və onların
evləri zibilliyə çevriləcək, çünki bu

cür xilas edən başqa bir allah yoxdur».
30 O zaman padşah Babil vilayətində
Şadrakın, Meşakın və Aved-Neqonun
vəzifələrini yüksəltdi.

4 Padşah Navuxodonosor bütün
dünyada yaşayan xalqlara,
millətlərə və dillərə mənsub adamlara
müraciət etdi:
«Sülhünüz bol olsun! 2 Məsləhət
bildim ki, Allah-Taalanın mənim üçün
etdiyi əlamətləri və möcüzələri sizə elan
edim.
3 Onun əlamətləri necə də böyükdür,
Onun möcüzələri necə də qüdrətlidir!
Onun padşahlığı əbədi padşahlıqdır,
Onun hökmranlığı nəsildən-nəslə
qalacaq».

Navuxodonosorun ikinci yuxusu

4 Mən Navuxodonosor öz evimdə –
sarayımda rahat və naz-nemət içində
yaşayırdım. 5 Ancaq bir gün məni
qorxudan bir yuxu gördüm. Yatarkən
düşüncələrim və gördüyüm görüntülər
məni vahiməyə saldı. 6 Ona görə də
əmr etdim ki, yuxunu yozmaq üçün
bütün Babil müdriklərini hüzuruma
çağırsınlar. 7 Onda sehrbazlar,
ruhçağıranlar, Xaldeyli müdriklər və
əlamət baxıcıları gəldi. Mən yuxumu
danışdım, ancaq onlar yuxunu yoza
bilmədi. 8 Nəhayət, allahımın adı ilə
Belteşassar adlanan və müqəddəs
allahların ruhuna malik olan Daniel
hüzuruma gəldi. Mən yuxumu ona
danışaraq dedim:
9 «Ey sehrbazların ən böyüyü
Belteşassar! Bilirəm ki, səndə müqəddəs
allahların ruhu var və sənin üçün
hər hansı bir sirri açmaq çətin deyil.
İndi yuxuda gördüyüm görüntüləri
və onların yozumunu mənə söylə.
10 Yatarkən belə yuxu görmüşdüm:
dünyanın ortasında çox hündür bir
ağac var idi. 11 Ağac o qədər böyüdü
və möhkəmləndi ki, başı göylərə çatdı.
O, dünyanın hər tərəfindən görünürdü.
12 Onun gözəl yarpaqları və çoxlu
meyvələri var idi, üstündə hər kəs
üçün qida var idi. Ağacın altında çöl
heyvanları kölgə tapır, budaqlarında
göy quşları yuva salır və bütün canlı
məxluqlar onunla qidalanırdı.
13 Yatarkən yuxumda gördüm ki,
göylərdən qoruyucu, müqəddəs bir
mələk endi. 14 O ucadan elan edib
dedi: “Bu ağacı kəsin, budaqlarını
qırın, yarpaqlarını yolun və meyvəsini
səpələyin. Qoy heyvanlar onun
altından, quşlar isə budaqlarından
qaçsın. 15 Ancaq kötüyü ilə köklərini
dəmir və tuncla çənbərləyib torpağın
içində, çöl otları arasında saxlayın.
Qoy o, göylərin şehi ilə islansın
və heyvanlarla birgə yerin otu ilə
qidalansın. 16 Onun insan ağlı əlindən
alınsın və ona heyvan ağlı verilsin.
Yeddi il keçənə qədər belə qalsın.
17 Qoruyucu mələklər belə əmr edib,
müqəddəs mələklər belə qərara gəlib
ki, indi yaşayanlar bunu bilsin: insan
padşahlıqları üzərində Allah-Taala
hökmranlıq edir, padşahlığı kimə
istəyir, ona verir və insanlar arasında
ən aşağı olanı onlara başçı qoyur”.
18 Mən padşah Navuxodonosor belə
bir yuxu gördüm. Ey Belteşassar, sən
bu yuxunu yoz, çünki padşahlığımın
müdrik adamlarından heç biri bu
yuxunu yoza bilmir. Sən isə bunu
edə bilərsən, çünki səndə müqəddəs
allahların ruhu var».

Danielin yuxunu yozması

19 O zaman Belteşassar adlanan
Daniel bir müddət heyrət içində qaldı
və fikirləri onu vahiməyə saldı. Padşah
belə dedi: «Ey Belteşassar, bu yuxu və
onun yozumu səni vahiməyə salmasın».
Belteşassar cavab verdi: «Ey ağam,
bu yuxu sənə nifrət edənlərin, onun
yozumu sənin düşmənlərinin nəsibi

olsun! [20] Sənin gördüyün böyük və
möhkəm olan, başı göylərə çatan və
dünyanın hər tərəfindən görünən,
[21] yarpaqları gözəl, meyvələri çox və
hər kəs üçün qidası olan, altında çöl
heyvanları kölgə tapan və budaqlarında
göy quşları yuva quran [22] ağac sənsən,
ey padşah. Sən böyüyüb möhkəmləndin,
əzəmətin artıb göylərə, hakimiyyətin
dünyanın hər tərəfinə çatdı. [23] Padşah
gördü ki, qoruyucu, müqəddəs bir mələk
göylərdən enib dedi: "Bu ağacı kəsib
xarab edin, ancaq kötüyü ilə köklərini
dəmir və tuncla çənbərləyib torpağın
içində, çöl otları arasında saxlayın. Qoy
o, göylərin şehi ilə islansın və yeddi il
keçənə qədər çöl heyvanları ilə birgə
qidalansın".

[24] Ey padşah, yuxunun yozumu
və Allah-Taalanın ağam padşaha
qarşı hökmü belədir: [25] sən insanlar
arasından qovulacaqsan, çöl heyvanları
ilə yaşayacaqsan, sənə öküz kimi
ot yedirəcəklər, göylərin şehi ilə
islanacaqsan. Yeddi il keçəcək ki,
Allah-Taalanın insan padşahlığı
üzərində hökmranlıq etdiyini və onu
kimə istəsə verdiyini dərk edəsən.
[26] Ağacın kötüyü ilə köklərinin qalması
barədə olan fərmanın mənası budur
ki, sən göylərin hökmranlıq etdiyini
dərk edəndən sonra padşahlığın sənə
qaytarılacaq. [27] Ey padşah, buna
görə də sən mənim məsləhətimi
qəbul et: ədalətlə rəftar etməklə
günahlarından, yoxsullara mərhəmət
etməklə təqsirlərindən vaz keç. Bəlkə
bununla sənin əmin-amanlığının
müddəti uzadılar».

Yuxunun çin çıxması

[28] Bütün bunlar padşah
Navuxodonosorun başına gəldi.
[29] On iki ay keçəndən sonra Babildəki
sarayının damında gəzən padşah
dedi: [30] «Bu, şan-şöhrətim üçün böyük
qüdrətimlə paytaxt kimi tikdiyim
böyük Babil deyilmi?» [31] Söz padşahın
ağzından çıxmamışdı ki, göylərdən səs
gəldi: «Ey padşah Navuxodonosor, sənə
deyilir ki, padşahlığın əlindən alındı.
[32] Sən insanlar arasından qovulacaq, çöl
heyvanları ilə yaşayacaqsan, sənə öküz
kimi ot yedirəcəklər. Yeddi il keçəcək
ki, Allah-Taalanın insan padşahlığı
üzərində hökmranlıq etdiyini və onu
kimə istəsə verdiyini dərk edəsən».

[33] Deyilən hadisələr o saat
Navuxodonosorun başına gəldi: o,
insanlar arasından qovuldu, öküz kimi
ot yeməyə başladı və göylərin şehi ilə
islandı. Onun tükü qartal tükü kimi,
dırnağı quş dırnağı kimi uzandı.

[34] «O günlərin sonunda mən
Navuxodonosor üzümü göylərə tutdum
və ağlım başıma qayıtdı. Allah-Taalaya
həmd etdim, Əbədi Yaşayanı mədh edib
izzətləndirdim.

Onun hökmranlığı əbədidir,
Padşahlığı nəsildən-nəslə qalır.
[35] Dünyada yaşayanların hamısı heç
bir şey sayılır.
O həm səma ordusunun, həm də
dünyada yaşayanların arasında
Öz hökmünü yeridir.
Onun əlini saxlayacaq yaxud Ona "Nə
edirsən?" deyəcək bir kəs yoxdur.

[36] O zaman ağlım başıma gəldi.
Padşahlığımın izzəti üçün cah-calalım
yenə özümə qayıtdı. Müşavirlərim və
əyanlarım məni axtarıb tapdı. Mən yenə
öz taxtıma qayıtdım və əzəmətim daha
da artdı. [37] İndi isə mən Navuxodonosor
göylərin Padşahına həmd edirəm və Onu
mədh edib izzətləndirirəm, çünki Onun
bütün işləri həqiqət, əməlləri ədalətlidir
və qürurla gəzənləri alçaltmağa qüdrəti
var».

Belşassarın ziyafəti

5 Padşah Belşassar min nəfər əyanı
üçün böyük bir ziyafət qurdu

və onlarla şərab içdi. 2 Belşassar
şərab içərkən əmr etdi ki, babası
Navuxodonosorun Yerusəlimdəki
məbəddən çıxardığı qızıl və gümüş
qabları gətirsinlər və padşah, əyanları,
arvadları və cariyələri onlarla şərab
içsin. 3 Onda məbəddən – Allahın
Yerusəlimdə olan evindən çıxarılmış
qızıl qablar gətirildi. Padşah, əyanları,
arvadları və cariyələri bunlarla şərab
içməyə başladı. 4 Onlar şərab içərək
qızıl, gümüş, tunc, dəmir, ağac və daş
allahlara həmd etdi.
5 Elə bu an bir insan əlinin barmaqları
göründü və şamdanın yanında padşah
sarayının divarının suvağı üzərinə nəsə
yazdı. Padşah yazan əli gördü. 6 Onda
padşahın bənizi soldu və düşüncələri
onu vahiməyə saldı. Belinin əzələləri
zəiflədi və dizləri bir-birinə dəyməyə
başladı. 7 Padşah ucadan qışqırdı
ki, ovsunçuları, Xaldeyli müdrikləri
və falçıları gətirsinlər. Gələn Babil
müdriklərinə padşah belə dedi: «Kim
bu yazılanı mənə oxuyub mənasını izah
etsə, ona qırmızı libas geyindiriləcək,
boynuna qızıl zəncir asılacaq və
padşahlıqda üçüncü adam olacaq».
8 Padşahın bütün müdrikləri içəri girdi,
ancaq yazılanı nə oxuya, nə də mənasını
padşaha izah edə bildilər. 9 Onda padşah
Belşassar daha da vahiməyə düşdü və
bənizi soldu, əyanları da heyrətə düşdü.
10 Mələkə padşahın və əyanlarının
sözlərini eşidib ziyafət otağına gəldi.
Mələkə belə dedi: «Qoy padşah həmişə
sağ olsun, fikirlərin səni vahiməyə
salmasın, bənizin də solmasın. 11 Sənin
padşahlığında müqəddəs allahların
ruhuna malik olan bir adam var.
Sənin babanın dövründə o, nuraniliyə,
dərrakəyə və allahların müdrikliyi qədər
müdrikliyə malik olması ilə tanınırdı.
Baban padşah Navuxodonosorun özü
onu sehrbazların, ruhçağıranların,
Xaldeyli müdriklərin və əlamət
baxıcılarının başçısı qoymuşdu. 12 Çünki
padşahın Belteşassar adlandırdığı bu
adam – Daniel iti ağla, biliyə, dərrakəyə,
yuxuları yozmaq, müəmmaları açmaq
və çətinlikləri həll etmək qabiliyyətinə
malik olması ilə tanınmışdı. İndi qoy
Danieli çağırsınlar, o sənə bunun
mənasını izah edəcək».
13 Onda Danieli padşahın hüzuruna
gətirdilər və padşah ondan soruşdu:
«Padşah babamın Yəhudadan sürgün
edərək gətirdiyi Yəhudalılardan
olan Daniel sənsənmi? 14 Mən sənin
barəndə eşitmişəm ki, səndə allahların
ruhu var, nuranilik, dərrakə və
böyük müdriklik sahibisən. 15 Budur,
hüzuruma müdriklər və ovsunçular
gətirildi ki, bu yazılanı oxuyub mənasını
mənə açsınlar, ancaq onlar bunu mənə
izah edə bilmədi. 16 Sənin barəndə isə
eşitmişəm ki, yozum verib çətinlikləri
həll edə bilirsən. Əgər indi bu yazılanı
oxuyub mənasını izah edə bilsən, sənə
qırmızı libas geyindiriləcək, boynuna
qızıl zəncir asılacaq və padşahlıqda
üçüncü adam olacaqsan».
17 Onda Daniel padşaha cavab
verdi: «Qoy hədiyyələrin özünə qalsın,
mükafatlarını da başqasına ver. Yazılanı
isə mən padşaha oxuyub mənasını izah
edə bilərəm. 18 Ey padşah! Allah-Taala
sənin baban Navuxodonosora padşahlıq,
əzəmət, izzət və cah-calal vermişdi.
19 Allahın ona verdiyi əzəmətə görə
bütün xalqlara, millətlərə və dillərə
mənsub adamlar ondan qorxub əsirdi.
O istədiyi adamı öldürər, istədiyi
adamı sağ buraxardı, istədiyi adamı
yüksəldər, istədiyi adamı alçaldardı.
20 Ancaq ürəyi qürurlanıb inadkar
olanda padşahlıq taxtından salındı
və izzəti əlindən alındı. 21 O, insanlar
arasından qovuldu, ağlı heyvan ağlına
çevrildi və vəhşi eşşəklərlə yaşamağa
başladı. Ona öküz kimi ot yedirirdilər,
bədəni göylərin şehi ilə islanırdı.

Nəhayət, dərk etdi ki, Allah-Taala insan
padşahlıqları üzərində hökmranlıq
edir və kimi istəyirsə, onlara başçı
qoyur. 22 Sən – onun övladı Belşassar da
bütün bunları bildiyin halda itaətkarlıq
etmədin, 23 əksinə, göylərin Rəbbinə
qarşı qürurlandın. Onun məbədinin
qablarını sənin hüzuruna gətirdilər və
sən, əyanların, arvadların, cariyələrin
bunlarla şərab içdiniz. Sən qızıl-gümüş,
tunc, dəmir, ağac və daşdan olub,
görməyən, eşitməyən, anlamayan
allahlara həmd etdin, ancaq nəfəsin
əlində olan və etdiyin hər şeyə göz
qoyan Allahı izzətləndirmədin.
24 Buna görə də Onun tərəfindən bir
əl göndərilib bu sözləri yazdı. 25 Yazılan
sözlər budur: Mene, Mene, Teqel və
Parsin. *26 Sözlərin mənası isə budur:
Mene – Allah sənin padşahlıq müddətini
hesabladı və ona son qoydu; 27 Teqel –
sən tərəzidə çəkildin və yüngül olduğun
bilindi; 28 Peres – sənin padşahlığın
bölünərək Midiyalılara və Farslara
verildi».
29 Onda Belşassarın əmri ilə Danielə
qırmızı libas geyindirdilər, boynuna
qızıl zəncir asdılar və o, padşahlıqda
üçüncü adam elan olundu.
30 Həmin gecə Xaldey padşahı
Belşassar öldürüldü. 31 Altmış iki yaşlı
Midiyalı Dara hakimiyyəti əlinə aldı.

Daniel şirlərlə quyuda

6 Dara qərara aldı ki, ölkəyə başçılıq
etmək üçün padşahlığın bütün
ərazisinə yüz iyirmi canişin təyin
etsin, 2 onlara isə üç vəzir başçılıq
etsin. Bu canişinlər onlara hesabat
versin, padşaha da ziyan dəyməsin.
Həmin üç vəzirdən biri Daniel idi. 3 Bu
adam – Daniel başqa vəzirlərdən və
canişinlərdən üstün idi, çünki o, iti ağla
malik idi. Buna görə də padşah qərara
gəlmişdi ki, onu bütün ölkəyə başçı
qoysun.
4 Belə olanda vəzirlər və canişinlər
Danieli ölkənin idarə işlərində ittiham
etmək üçün bir bəhanə axtarmağa
başladılar, ancaq heç bir bəhanə və
təqsir tapa bilmədilər, çünki Daniel
etibarlı idi və onda heç bir səhv yaxud
təqsir tapılmadı. 5 Nəhayət, bu adamlar
dedi: «Əgər bu adamın – Danielin
Allahının dinində onun əleyhinə bir şey
tapmasaq, ona qarşı bir bəhanə tapa
bilməyəcəyik».
6 Onda bu vəzirlər və canişinlər
padşahın yanına gəldi və ona belə dedi:
«Qoy padşah Dara həmişə sağ olsun!
7 Ölkənin bütün vəzirləri, əmirləri,
canişinləri, müşavirləri və valiləri
birlikdə razılaşdı ki, belə bir padşah
fərmanı və qadağan əmri verilsin: ey
padşah, otuz gün ərzində kim səndən
başqa bir allaha yaxud insana dua etsə,
şirlər olan quyuya atılsın. 8 Ey padşah,
indi bu qadağan əmrini ver, Midiya
və Fars qanunlarına əsasən dəyişilməz
və heç vaxt pozulmayan bir fərmanı
imzala». 9 Padşah Dara belə bir fərmanı
və qadağan əmrini imzaladı.
10 Daniel belə bir fərmanın
imzalandığını öyrəndikdə öz evinə
qayıtdı. Onun yuxarı otağının
Yerusəlimə tərəf olan pəncərələri
açıq idi. Daniel əvvəllər etdiyi kimi
gündə üç dəfə diz çöküb öz Allahına
dua etdi və Onun önündə şükür etdi.
11 Onda bu adamlar birlikdə oraya
gedib Danielin Allaha dua etdiyini
və yalvardığını gördülər. 12 Sonra
gəlib padşaha öz qadağan əmri
barədə dedilər: «Ey padşah, otuz gün
ərzində kim səndən başqa bir allaha
yaxud insana dua edərsə, şirlər olan

*5:25 *Mene* – arami dilində *hesablanmış* yaxud *mina* (pul vahidi), *Teqel – çəkilmiş* yaxud *şekel* (pul vahidi), *Parsin – bölünmüş, Farslar* yaxud *yarım şekel.*

quyuya atılsın deyə qadağan əmri
imzalamadınmı?» Padşah cavab verdi:
«Bu qərar dəyişilməz olan Midiya və
Fars qanunlarına əsasən qətidir». 13 O
vaxt onlar padşaha dedi: «Ey padşah,
sürgün olunmuş Yəhudalılardan olan
Daniel səni və imzaladığın qadağan
əmrini saymayaraq gündə üç dəfə dua
edir». 14 Padşah bu sözləri eşidəndə çox
kədərləndi və ürəyində niyyət etdi ki,
Danieli qurtarsın. Padşah hətta günəş
batana qədər onu xilas etməyə çalışdı.
15 Ancaq o adamlar birlikdə padşahın
yanına gəlib ona dedi: «Ey padşah, bunu
bil ki, Midiya və Fars qanunlarına görə
padşahın təsdiq etdiyi qadağan əmri və
fərman dəyişilməz».
16 Bunu eşitdikdə padşah əmr etdi
və Danieli gətirib şirlər olan quyuya
atdılar. Padşah Danielə belə dedi: «Daim
qulluq etdiyin Allahın səni qurtarsın!»
17 Sonra bir daş gətirilib quyunun ağzına
qoyuldu. Danielin hökmündə heç nə
dəyişməsin deyə padşah özünün möhür
üzüyü və əyanlarının üzükləri ilə daşı
möhürlədi. 18 Sonra padşah öz sarayına
qayıtdı. Gecəni yemək yemədən və
əylənmədən keçirdi, yuxusu da qaçdı.
19 Səhər açılanda padşah yerindən
qalxıb tələsik şirlərin olduğu quyuya
getdi. 20 Oraya yaxınlaşanda kədərli
səslə Danieli çağırıb dedi: «Ey Daniel,
var olan Allahın qulu! Daim qulluq
etdiyin Allahın səni şirlərdən qurtara
bildimi?» 21 Onda Daniel padşaha
dedi: «Qoy padşah həmişə sağ olsun!
22 Allahım Öz mələyini göndərib şirlərin
ağzını bağladı və onlar mənə toxunmadı,
çünki mənim Allahın önündə təqsirsiz
olduğum bilindi. Ey padşah, sənə
qarşı da heç bir cinayət etməmişəm».
23 Onda padşah çox sevindi və Danieli
quyudan çıxarmağı əmr etdi. Daniel
quyudan çıxarılanda onun bədənində
heç bir zədə yox idi, çünki öz Allahına
güvənmişdi. 24 Padşah əmr etdi və
Danieli ittiham edən adamlar gətirildi.
Onları uşaqları və arvadları ilə birlikdə
şirlərin olduğu quyuya atdılar. Quyunun
dibinə çatmamış şirlər onları qapıb
sümüklərini qırdı.
25 O zaman padşah Dara bütün
dünyada yaşayan xalqlara, millətlərə
və dillərə mənsub olan adamlara belə
yazdı: «Sülhünüz bol olsun! 26 Fərman
verirəm ki, bütün padşahlığımın
ərazisində olan adamlar Danielin
Allahından qorxub titrəsin.

O, var olan Allahdır, əbədi olaraq
mövcuddur,
Onun padşahlığı dağılmaz və
hökmranlığı sonsuzdur.
27 O qurtarıb xilas edər, göydə və
yerdə əlamətlər,
Möcüzələr göstərər.
Danieli şirlərin pəncəsindən O
qurtardı».

28 Bu adam – Daniel Daranın, Fars
Kirin padşahlığında uğur qazandı.

Danielin birinci görüntüsü

7 Babil padşahı Belşassarın
padşahlığının birinci ilində
Daniel yatarkən bir yuxu gördü və
ona görüntülər gəldi. Sonra yuxunu
yazıb məzmununu qeyd etdi. 2 [o]Daniel
danışmağa başlayıb dedi: mən gecə
gələn görüntüdə gördüm ki, budur,
göylərin dörd küləyi böyük bir dənizin
üstündə çarpışır. 3 [p]Dənizdən bir-birinə
oxşamayan dörd böyük heyvan çıxdı.
4 [q]Birincisi şirə bənzəyirdi, amma onun
qartal qanadları var idi. Mən baxarkən
onun qanadları qoparıldı və o, yerdən
qaldırılıb insan kimi ayaq üstə qalxdı.
Ona insan ürəyi verilmişdi. 5 Başqa
birisi – ikinci heyvan ayıya bənzəyirdi.
O, bir yanı tərəfə əyilmişdi və ağzında –

[o]**7:2** Yer. 49:36; Vəhy 7:1 [p]**7:3** Vəhy 13:1; 17:8 [q]**7:4** Vəhy 13:2

dişləri arasında üç qabırğa sümüyü var
idi. Ona belə deyildi: «Qalx çoxlu ət ye».
6 Bundan sonra mən bəbirə bənzəyən
başqa bir heyvan gördüm. Heyvanın
belində dörd quş qanadı və onun dörd
başı var idi. Ona hakimiyyət verilmişdi.
7 [r]Bundan sonra mən gecə gələn
görüntülərdə dəhşətli, heybətli və çox
güclü olan dördüncü heyvanı gördüm.
Onun böyük dəmir dişləri var idi. O hər
şeyi əzib yeyir, qalıqları isə ayaqları
altında tapdalayırdı. O, heyvanların
hamısından fərqlənirdi və on buynuzu
var idi. 8 [s]Mən buynuzlara baxırdım ki,
onların arasından yenə kiçik bir buynuz
çıxdı və əvvəlki buynuzlardan üçü onun
qarşısından götürüldü. Bu buynuzun
insan gözləri kimi gözləri və təkəbbürlə
danışan ağzı var idi.

9 [t]Nəhayət, mən gördüm ki,
Taxtlar quruldu və Əzəldən Var Olan
oturdu.
Onun əynində qar kimi bəyaz paltar
var idi,
Saçları yun kimi ağappaq idi.
Taxtı alov dilləri tək, çarxları yanar
od kimi idi.
10 [u]Önündən odlu çay çıxıb axırdı.
Minlərlə nəfər Ona xidmət edir,
On minlərlə nəfər Onun hüzurunda
durmuşdu.
Məhkəmə iclası başlandı və kitablar
açıldı.

11 O zaman buynuzun söylədiyi
təkəbbürlü sözlər mənim diqqətimi cəlb
etdi. Heyvan gözlərimin qabağında
öldürüldü və bədəni parçalanıb
yanan oda atıldı. 12 Həmçinin başqa
heyvanların da hakimiyyəti əllərindən
alındı, ancaq ömürləri müəyyən
müddətə qədər uzadıldı.

13 [v]Gecə gələn görüntülərdə gördüm
ki, budur, bəşər oğluna bənzər Biri
göyün buludları ilə gəlir. O, Əzəldən
Var Olana yaxınlaşdı və Onun hüzuruna
gətirildi. 14 [w]Ona hakimiyyət, izzət və
padşahlıq verildi ki, bütün xalqlara,
millətlərə və dillərə mənsub adamlar
Ona xidmət etsin. Onun hakimiyyəti
sona yetməyən əbədi hakimiyyətdir.
Onun padşahlığı əsla yox olmayacaq.

15 Mən Danielin isə bədənimdə
ruhum titrədi və gələn görüntülər
məni vahiməyə saldı. 16 Ayaq üstə
duran adamlardan birinə yaxınlaşıb
«Bütün bu şeylərin həqiqi mənası
nədir?» deyə soruşdum. O adam bu
şeylərin mənasını mənə izah edib
bildirdi: 17 «Bu dörd böyük heyvan
yerdən çıxacaq dörd padşahlıqdır.
18 [x]Sonra padşahlığı Haqq-Taalanın
müqəddəsləri alacaq, əbədi və daim
padşahlığa sahib olacaq». 19 Onda mən
başqalarından fərqlənən dördüncü
heyvan barədə dəqiq izahat istədim. O,
çox qorxunc idi, dəmir dişləri və tunc
dırnaqları ilə əzib-yeyirdi, qalıqları isə
ayaqları altında tapdalayırdı. 20 Onun
başında on buynuz var idi. Daha biri
çıxdı və üçü onun önündə düşdü.
Bu həmin o buynuz idi ki, gözləri
və təkəbbürlə danışan ağzı var idi
və görünüşü o biri buynuzlarından
daha heybətli idi. 21 [y]Mən gördüm ki,
bu buynuz müqəddəslərlə döyüşüb
onlara üstün gəlir; 22 [z]o vaxta qədər ki
Əzəldən Var Olan gəldi, Haqq-Taalanın
müqəddəslərinin xeyrinə hökm verildi
və padşahlığa müqəddəslərin sahib
olduğu vaxt yetişdi.

23 O bunu belə izah etdi: «Dördüncü
heyvan yer üzündə olacaq dördüncü

---

[r]**7:7** Vəhy 12:3; 13:1 [s]**7:8** Vəhy 13:5-6
[t]**7:9** Vəhy 20:4; Vəhy 1:14 [u]**7:10** Vəhy 5:11; Vəhy 20:12 [v]**7:13** Mat. 24:30; 26:64; Mark 13:26; 14:62; Luka 21:27; Vəhy 1:7,12-13; 14:14
[w]**7:14** Vəhy 11:15 [x]**7:18** Vəhy 22:5 [y]**7:21** Vəhy 13:7 [z]**7:22** Vəhy 20:4

padşahlıqdır. O başqa padşahlıqlardan
fərqli olub bütün yer üzünü udacaq
və hər şeyi tapdalayıb əzəcək. 24 [a]On
buynuzun mənası budur ki, bu
padşahlıqdan on padşah çıxacaq.
Onlardan sonra isə əvvəlkilərdən
fərqli başqası çıxıb üç padşahı
yıxacaq. 25 [b]Haqq-Taalanın əleyhinə
sözlər deyəcək və Haqq-Taalanın
müqəddəslərinə zülm edəcək. Hətta
təqvimi və qanunları dəyişməyə cəhd
göstərəcək. Onlar bir vaxt, vaxtlar və
yarım vaxt ərzində ona təslim ediləcək.
26 Sonra isə məhkəmə qurulacaq və
onun hakimiyyəti əlindən alınacaq,
əbədilik məhv olub yox olacaq.
27 [c]Padşahlıq, hakimiyyət və göylərin
altındakı bütün padşahlıqların əzəməti
Haqq-Taalanın müqəddəs xalqına
veriləcək. Onun padşahlığı əbədi
padşahlıq olacaq və bütün hökmdarlar
Ona qulluq edib itaət edəcək».
28 Burada söz bitir. Mən Danieli isə
düşüncələrim bərk vahiməyə saldı
və bənizim soldu. Ancaq bu sözləri
yadımda saxladım.

Danielin ikinci görüntüsü

8 Əvvəl mənə gələn görüntüdən sonra
padşah Belşassarın hökmranlığının
üçüncü ilində mən Danielə başqa bir
görüntü gəldi. 2 Görüntüdə özümü Elam
vilayətinin Şuşan qalasında gördüm.
Həmin görüntüdə mən Ulay kanalının
kənarında dayanmışdım. 3 Başımı
qaldırıb gördüm ki, kanalın kənarında
bir qoç durub. Onun iki buynuzu var
idi. Buynuzlarının hər ikisi uzun idi,
biri digərindən uzun idi və uzun olan
sonradan çıxdı. 4 Mən gördüm ki, bu qoç
qərbə, şimala və cənuba tərəf buynuz
vurur. Heç bir heyvan onun qabağında
dura bilmirdi və onun əlindən qurtaran
yox idi. O istədiyini etdi və özünü
yüksəltdi.
5 Mən bu barədə düşünərkən qərbdən
bir təkə gəldi. Onun gözləri arasında
gözə çarpan bir buynuzu var idi. O,
ayağı yerə toxunmadan bütün yer
üzünü keçdi. 6 O, kanalın kənarında
durduğunu gördüyüm iki buynuzu olan
qoçun yanına gəldi və böyük qızğınlıqla
onun üstünə atıldı. 7 Mən gördüm ki, o
qeyzə gəlib qoça hücum etdi və qoçu
vurub iki buynuzunu qırdı. Qoçda onun
qabağında durmağa qüvvət yox idi.
O, qoçu yerə yıxıb tapdaladı. Qoçu
onun əlindən qurtaran olmadı. 8 Bir
müddət təkə özünü çox yüksəltdi, ancaq
qüvvətlənəndə böyük buynuzu qırıldı.
Onun əvəzinə göylərin dörd səmtinə
doğru yönəlmiş gözə çarpan dörd
buynuz çıxdı.
9 Onların birindən başqa bir kiçik
buynuz çıxıb cənuba, şərqə və Gözəl
ölkəyə *doğru çox uzandı. 10 [d]Səma
ordusuna qədər uzanıb bu ordunun və
ulduzların bir hissəsini yerə salaraq
tapdaladı. 11 Hətta bu ordunun Başçısına
qədər özünü yüksəltdi. Onun daimi
yandırma qurbanı dayandırıldı və
Müqəddəs məkanı təhqir olundu.
12 Qanunsuzluq üzündən bu ordu və
daimi yandırma qurbanı kiçik buynuza
təslim edildi. O, həqiqəti yerə vurub
etdiyi hər işdə uğur qazandı. 13 Mən
bir müqəddəsin səsini eşitdim və başqa
bir müqəddəs danışana sual verdi:
«Daimi yandırma qurbanı və viranəlik
gətirən qanunsuzluq barədəki görüntü
nə vaxta qədər uzanır? Müqəddəs yerin
və ordunun tapdalanmasına nə vaxta
qədər icazə veriləcək?» 14 Sonra mənə
dedi: «İki min üç yüz axşam və səhər

*8:9 *Gözəl ölkə* – İsrail nəzərdə tutulur.

[a]**7:24** Vəhy 17:12 [b]**7:25** Dan. 12:7; Vəhy 12:14; 13:5
[c]**7:27** Vəhy 20:4; Vəhy 22:5 [d]**8:10** Vəhy 12:4

keçənə qədər. Ondan sonra müqəddəs
yer bərpa olunacaq».
15 Mən Daniel bu görüntünü görəndə
onun mənasını öyrənmək istədim.
Bu zaman qarşımda insan simasında
olan bir nəfər dayandı. 16 [e]Mən Ulay
kanalından bir insan səsi eşitdim. O
nida edib «ey Cəbrayıl, bu görüntünü
ona izah et» dedi. 17 O dayandığım
yerə yaxınlaşdı. Yanıma çatanda mən
dəhşətə düşüb üzüstə yıxıldım. O mənə
dedi: «Ey bəşər oğlu, bil ki, bu görüntü
axır zamana aiddir». 18 O mənimlə
danışdığı vaxt üzüstə yıxılıb dərin
yuxuya getmişdim. O məni tutub ayaq
üstə qaldırdı 19 və dedi: «Bax daha
sonra Allahın qəzəb günlərində nə
baş verəcəyini sənə bildirirəm, çünki
görüntü axır zamanın müəyyən vaxtına
aiddir.
20 Gördüyün iki buynuzlu qoç Midiya
və Fars padşahlarıdır. 21 Tüklü təkə
isə Yunan padşahıdır, onun gözləri
arasında olan böyük buynuz isə birinci
padşahdır. 22 Qırılan buynuzun yerinə
çıxan dörd buynuz o millətdən çıxacaq
dörd padşahlığı təmsil edir. Ancaq
onlar birinci padşah qədər güclü
olmayacaq. 23 Onların hakimiyyətinin
sonunda isə qanunsuzlar azğınlıq
edəndə həyasız və hiyləgərlikdə
mahir bir padşah çıxacaq. 24 O çox
güclənəcək, ancaq öz gücü ilə yox.
Heyrətləndirici dağıntılar törədəcək,
etdiyi hər işdə uğur qazanacaq, igid
adamları və müqəddəs xalqı qıracaq.
25 Öz hiyləgərliyi ilə məkrli işlərində
uğur qazanacaq və ürəyində özünə
qürrələnəcək. Əmin-amanlıqda yaşayan
çoxlu adamı həlak edəcək və başçılar
Başçısına qarşı çıxacaq, ancaq əl
dəymədən məhv olacaq. 26 Axşam və
səhər barədə sənə göstərilən bu görüntü
həqiqətdir. Ancaq sən bu görüntünü
gizli saxla, çünki o, uzaq dövrə aiddir».
27 Onda mən Daniel taqətdən düşdüm
və bir neçə gün xəstə oldum. Sonra
qalxıb padşahın işləri ilə məşğul olmağa
başladım. Mən bu görüntüdən çaşqın
hala gəlmişdim, onu anlaya bilmirdim.

Danielin öz xalqı üçün duası

9 [f]Midiya tayfasından Axaşveroşun
oğlu Daranın padşahlığının birinci
ili idi. O, Xaldey ölkəsinə padşah
qoyulmuşdu. 2 Onun padşahlığının
birinci ilində mən Daniel Yerusəlimin
viranə qalacağı müddətin yetmiş
il olduğu barədə Rəbbin Yeremya
peyğəmbərə göndərdiyi sözü
kitablardan anladım.
3 Mən Xudavənd Allaha üz tutdum,
çul geyib külə oturdum, oruc tutaraq
dua və yalvarışla Onu axtardım.
4 Allahım Rəbbə dua etdim və etiraf
edərək dedim:
«Sənə dua edirəm, ey böyük və
zəhmli Xudavənd Allah! Səni sevənlər
və əmrlərinə əməl edənlər üçün əhdinə
sadiq qalıb məhəbbət göstərirsən.
5 Biz günah və təqsir etdik, pislik
edib Sənə qarşı üsyankar olduq.
Sənin əmrlərindən və hökmlərindən
üz döndərdik. 6 Padşahlarımıza,
başçılarımıza, atalarımıza və ölkənin
bütün xalqına Sənin adınla söz deyən
qulların peyğəmbərlərə qulaq asmadıq.
7 Ey Xudavənd, Səndə ədalət var,
bizdə isə bugünkü kimi üz qaralığı!
Bu, Yəhuda adamlarına, Yerusəlimdə
yaşayanlara və Sənə qarşı etdikləri
xainlikdən ötrü sürgün etdiyin bütün
ölkələrdə, yaxında və uzaqda olan
İsraillilərin hamısına aiddir. 8 Ya Rəbb,
bizim padşahlarımızın, başçılarımızın
və atalarımızın üzü qaradır, çünki Sənə
qarşı günah etmişik. 9 Mərhəmət və

[e] **8:16** Dan. 9:21; Luka 1:19,26 [f] **9:1** Yer. 25:11; 29:10

bağışlamaq isə Xudavənd Allahımıza
məxsusdur, çünki biz Ona qarşı üsyan
etmişik. 10 Allahımız Rəbbin sözünə
qulaq asmadıq, Öz qulları peyğəmbərlər
vasitəsilə bizə verdiyi qanunlarına
əməl etmədik. 11 Bütün İsraillilər Sənin
qanununu pozub azdı, Sənin sözünə
qulaq asmadı. Buna görə də Allahın
qulu Musanın Qanununda yazılmış
lənət başımıza yağdı və and yerinə
yetdi, çünki Ona qarşı günah etdik.
12 O da başımıza böyük bəla gətirərək
bizə və hökm edən hakimlərimizə qarşı
dediyi sözləri yerinə yetirdi, çünki
Yerusəlimə gələn bəla göylər altında
olan heç bir yerə gəlməyib. 13 Musanın
Qanununda yazıldığı kimi bütün bu bəla
başımıza gəldi. Ancaq biz Allahımız
Rəbbə üz tutmadıq ki, təqsirlərimizdən
dönək və Onun həqiqətini dərk edək.
14 Rəbb də bu bəlanı başımıza gətirməyə
tərəddüd etmədi, çünki Allahımız
Rəbb etdiyi bütün işlərində ədalətlidir,
ancaq biz Sənin səsinə qulaq asmadıq.
15 Ey Allahımız Xudavənd, Sən Öz
xalqını Misir torpağından qüdrətli
əlinlə çıxardın və bu günə qədər davam
edən izzət qazandın! Biz isə günah
işlətdik, pislik etdik. 16 Ey Xudavənd,
bütün ədalətli işlərinə görə Sənə
yalvarıram, qeyz və qəzəbini Öz şəhərin
Yerusəlimdən, müqəddəs dağından
döndər. Çünki bizim günahlarımızdan
və atalarımızın təqsirlərindən ötrü
Yerusəlim və Sənin xalqın bütün
ətraf xalqlar arasında rüsvay oldu.
17 Ey Allahımız, indi qulunun duasını
və yalvarışlarını eşit. Ey Xudavənd,
Öz xatirinə işıqlı üzünü viran olan
Müqəddəs məkanına tərəf çevir. 18 Ey
Allahım, qulaq verib eşit, gözünü açıb
bizim viranlıqlarımızı və Sənə məxsus
olan şəhəri gör. Çünki öz salehliyimizə
görə deyil, Sənin böyük mərhəmətinə
görə yalvarışlarımızı Sənin önündə
təqdim edirik. 19 Ey Xudavənd, eşit,
ey Xudavənd, bağışla, ey Xudavənd,
diqqət et və hərəkətə gəl. Ey Allahım,
Öz adın naminə gecikmə, çünki şəhərin
və xalqın Sənə məxsusdur».

Yetmiş dəfə yeddiillik dövr barədə vəhy

20 Mən hələ danışıb duada özümün
və xalqım İsrailin günahlarını etiraf
edərək Allahımın müqəddəs dağı üçün
yalvarışımı Allahım Rəbbə təqdim edən
zaman – 21 [g]hələ dua edərkən əvvəl
görüntüdə gördüyüm insana bənzər
mələk Cəbrayıl axşam qurbanı verilən
vaxt cəld uçaraq yanıma gəldi. 22 O
məni başa saldı və mənimlə danışıb
dedi: «Ey Daniel! İndi mən gəldim
ki, sənə müdriklik və dərrakə verim.
23 Sənin duanın başlanğıcında Allah
cavab verdi və mən də gəldim ki, onu
sənə çatdırım, çünki Allah səni çox
sevir. İndi isə sözüm barədə düşün və
görüntünü bil.
24 Sənin xalqın və müqəddəs şəhərin
üçün yetmiş dəfə yeddiillik dövr təyin
olunub ki, qanunsuzluq bitsin, günah
sona çatdırılsın, təqsirlər üçün kəffarə
verilsin, əbədi ədalət gətirilsin, görüntü
və peyğəmbərlik möhürlənsin, Ən
Müqəddəs yer məsh edilsin. 25 Bunu bil
və anla: Yerusəlimi bərpa edib tikmək
üçün verilən fərmanın çıxmasından
məsh olunmuş hökmdara qədər yeddi
yeddiillik* dövr keçəcək. Altmış iki
yeddiillik dövr ərzində Yerusəlim
yenidən küçələr və xəndəklərlə
tikiləcək, amma bu çətin vaxtlarda
olacaq. 26 Altmış iki yeddiillik dövrdən
sonra məsh olunan həlak olacaq, amma
bu özü üçün olmayacaq. Gələcək

*9:25 *Yeddiillik* – hərfi tərcümədə *həftə, yeddigünlük.*

[g]9:21 Dan. 8:16; Luka 1:19,26

hökmdarın xalqı şəhəri və Müqəddəs
yeri viran edəcək. Onun sonu daşqın
kimi olacaq. Müharibə sona qədər
davam edəcək. Viranəliklər olacağına
qərar verilib. 27 [h]Həmin hökmdar
yeddiillik bir dövr ərzində çoxları
ilə əhd bağlayacaq. Bu yeddiillik
dövrün ortasında qurbanla təqdimi
dayandıracaq, məbədin qülləsində
viranəlik gətirən iyrənc şey qoyacaq və
viranəlik gətirən şey onun təyin edilmiş
aqibətinə qədər orada qalacaq».

Danielə mələyin görünməsi

10 Fars padşahı Kirin
hökmranlığının üçüncü
ilində Belteşassar adlanan Danielə bir
vəhy gəldi. Bu vəhy həqiqi idi, amma
anlaşılması çox çətin oldu. Görüntü ilə
izah ediləndə o bu vəhyi dərk etdi.
2 O günlər mən Daniel üç həftə yas
tutdum. 3 Üç həftə bitənə qədər mən
dadlı yemək yemədim, ət və şərab
dilimə dəymədi və heç bir ətirli yağ
sürtmədim.
4 Birinci ayın iyirmi dördüncü günü
mən böyük Dəclə çayının kənarında
idim. 5 [i]Başımı qaldırıb gördüm ki,
qarşımda kətan paltar geyinmiş, beli
xalis qızılla qurşanan bir nəfər var.
6 Onun bədəni sarı yaqut kimi, üzü
şimşəyə bənzər, gözləri yanar məşəllər
tək, qolları və ayaqları cilalanmış tunc
kimi işıldayırdı, danışıq səsi kütlənin
gurultusu kimi idi.
7 Yalnız mən Daniel bu görüntünü
gördüm, mənimlə birgə olan adamlar
isə bunu görmədi. Ancaq onların arasına
elə vəlvələ düşdü ki, gizlənmək üçün
qaçdılar. 8 Mən tək qaldım. Bu böyük
görüntünü görəndə məndə qüvvət
qalmadı, üzümün siması dəyişdi və
taqətdən düşdüm. 9 Mən onun danışıq
səsini eşitdim. Danışıq səsini eşidəndə
dərin yuxuya getdim və üzüstə düşüb
torpağa uzandım.
10 Bu vaxt mənə bir əl toxundu və
məni əllərimlə dizlərimin üstünə qoydu.
11 O mənə dedi: «Ey Allahın sevimlisi
olan Daniel! Sənə dediyim sözləri dərk
et və ayağa qalx, çünki indi sənin yanına
göndərilmişəm». O bu sözləri deyəndə
mən titrəyərək ayağa qalxdım. 12 O
mənə dedi: «Qorxma, Daniel! Dərrakə
qazanmağa meyl edib, Allahın önündə
özünü aşağı tutmağı qərara aldığın üçün
ilk gündən sözlərin eşidildi və mən sənin
sözlərinə görə gəldim. 13 [j]Lakin Fars
ölkəsinin hamisi olan mələk iyirmi bir
gün mənə qarşı dayandı. O zaman baş
mələklərdən biri olan Mikael köməyimə
gəldi, çünki mən orada Fars ölkəsinin
hamisi olan mələklə birgə qalmışdım.
14 İndi gəldim ki, gələcəkdə xalqının
başına nə gələcəyini sənə başa salım,
çünki bu görüntü gələcək dövrə aiddir».
15 O belə sözlər söyləyərkən mən
üzüstə yerə yıxılıb dinməz qaldım. 16 Bu
vaxt bəşər övladına bənzəyən bir nəfər
dodaqlarıma toxundu. Mən ağzımı
açıb danışmağa başladım və qarşımda
durana dedim: «Ağam, bu görüntüyə
görə əzaba qərq oldum və taqətim
qalmadı. 17 Mən qulun ağamla necə
danışa bilərəm? Çünki mənim gücüm
tükəndi və canımda nəfəs qalmadı».
18 Onda insan simasında olan həmin
şəxs yenə mənə toxunub güc verdi. 19 O
dedi: «Ey Allahın sevimlisi, qorxma,
sənə sülh olsun, möhkəm ol, möhkəm
ol!» O mənimlə danışanda mən qüvvət
tapıb dedim: «Ey ağam, danış, çünki sən
mənə güc verdin». 20 O dedi: «Bilirsənmi
mən niyə sənin yanına gəlmişəm? İndi
mən Fars hamisi olan mələklə mübarizə
etməyə qayıdıram. Mən gəlincə Yunan

---

[h] **9:27** Dan. 11:31; 12:11; Mat. 24:15-16; Mark 13:14
[i] **10:5** Vəhy 1:12-15; 2:18; 19:12 [j] **10:13** Vəhy 12:7

hamisi olan mələk gələcək. 21 Ancaq
əvvəlcə mən həqiqət Kitabında yazılmış
şeyləri sənə bildirəcəyəm. Onlara qarşı
mübarizədə başçınız Mikaeldən başqa
mənə köməkçi olan heç kəs yoxdur.
11 Mən Midiyalı Daranın
padşahlığının birinci ilində
ona dayaq olmaq və onu qorumaq üçün
yanında qaldım.

Şimal və cənub padşahlarının müharibəsi

2 İndi həqiqəti sənə bildirirəm: Fars
ölkəsində daha üç padşah olacaq.
Dördüncüsünün isə hamısından
çox var-dövləti olacaq və bunun
hesabına qüvvətlənəndə hamını Yunan
padşahlığına qarşı qaldıracaq. 3 Sonra
igid bir padşah gələcək, çox qüdrətli
hökmdar olacaq və öz istədiyini edəcək.
4 Ancaq onun gəldiyi vaxt padşahlığı
dağılıb göylərin dörd küləyinin səmtinə
bölünəcək, onun nəslinə keçməyəcək
və hökmranlığı kimi güclü olmayacaq.
Çünki onun padşahlığı dağılacaq və
nəslindən olmayan adamlara qalacaq.
5 Cənub padşahı güclənəcək, ancaq
sərkərdələrindən biri ondan daha
güclü olacaq, hökmranlıq edəcək və
qüdrətli hökmdar olacaq. 6 Ancaq bir
neçə ildən sonra onlar razılığa gələcək.
Cənub padşahının qızı şimal padşahının
yanına gedəcək ki, sülh sazişi bağlasın.
Amma bu qadın öz mövqeyini saxlaya
bilməyəcək. Şimal padşahının ömrü
də, hakimiyyəti də uzun sürməyəcək.
Qadın, onu müşayiət edənlər, atası
və o vaxt ona dayaq duranlar təslim
ediləcək. 7 Lakin o qadının nəslindən
biri cənub padşahının yerinə keçəcək.
O, şimal padşahının ordusuna hücum
edib onun qalasına girəcək. Onlarla
vuruşub üstün gələcək. 8 Hətta onların
allahlarını, tökmə bütlərini qiymətli
qızıl və gümüş qabları ilə birlikdə Misirə
çəkib aparacaq. Bir neçə il ərzində şimal
padşahını rahat buraxacaq. 9 Hərçənd
o da cənub padşahının ölkəsinə hücum
edəcək, ancaq öz torpağına qayıdacaq.
10 Sonra şimal padşahının oğulları
silahlanıb çoxlu qoşun toplayacaq.
Qoşun sel kimi gəlib keçəcək və
irəliləyərək cənub padşahının qalasına
hücum edəcək. 11 Cənub padşahı
qəzəblənib çıxacaq və onunla – şimal
padşahı ilə vuruşacaq. O da böyük
bir qoşun çıxaracaq, lakin bu qoşun
cənub padşahına təslim ediləcək.
12 Qoşun məğlub olanda cənub padşahı
ürəyi qürrələnərək on minlərlə adamı
həlak edəcək, ancaq qələbəsi uzun
sürməyəcək. 13 Çünki şimal padşahı
qayıdıb əvvəlkindən daha böyük qoşun
çıxaracaq və bir neçə ildən sonra tam
silahlanmış böyük bir ordu ilə gələcək.
14 O zaman bir çoxu cənub padşahına
qarşı çıxacaq. Görüntü yerinə yetsin
deyə sənin xalqından qoluzorlular
da ayağa qalxacaq, ancaq uğur
qazanmayacaq. 15 Şimal padşahı gəlib
hasarlara torpaq yığaraq istehkamlı
şəhəri alacaq. Cənubun qüvvələri
onun qarşısında tab gətirməyəcək,
seçmə qoşunu da müqavimət göstərə
bilməyəcək. 16 İstilaçı şimal padşahı
istədiyini edəcək və heç kəs onun
qarşısında dura bilməyəcək. Gözəl
ölkədə bir müddət qalacaq və oranı
viran etməyə qadir olacaq.
17 Şimal padşahı ölkəsinin bütün
qüvvələri ilə birgə gəlməyi qərara
alacaq. Sülh sazişinin şərtlərini
təklif edib yerinə yetirəcək və cənub
padşahlığını məhv etmək üçün ona gənc
bir arvad verəcək, ancaq hiyləsi baş
tutmayacaq və ona kömək olmayacaq.
18 Sonra nəzərini sahil ölkələrinə
çevirəcək və onların çoxunu alacaq.
Ancaq bir sərkərdə onun etdiyi təhqirə
son qoyacaq, hətta təhqirini öz başına
gətirəcək. 19 Sonra nəzərini öz ölkəsinin
qalalarına tərəf çevirəcək. Ancaq

büdrəyib yıxılacaq və ondan bir əsər
qalmayacaq.
20 Onun yerinə keçən padşah
padşahlıq izzəti üçün öz vergiyığanını
göndərəcək, ancaq az müddət sonra o
da həlak olacaq. Amma bu, üsyan yaxud
müharibə zamanı olmayacaq.

Qəddar şimal padşahı

21 Onun yerinə padşahlıq izzətinə
layiq olmayan namərd bir adam
keçəcək. O gözlənilmədən gəlib
yaltaqlıqla hakimiyyəti qəsb edəcək.
22 Sel kimi istilaçı qoşunlar onun
önündən silinib-süpürüləcək, onlar da,
əhdin başçısı da məhv olacaq. 23 Onunla
ittifaq bağlandıqdan sonra o hiylə
işlədəcək və gəlib kiçik bir millətlə
güc qazanacaq. 24 O gözlənilmədən
ən münbit torpaqları istila edəcək,
atalarının və babalarının görmədiyi
işləri görəcək. Talan və qarət olunmuş
mal-dövləti adamlarına paylayacaq
və qalalara hücum etmək niyyətində
olacaq, amma bu uzun sürməyəcək.
25 Sonra güc və cəsarət toplayıb
böyük bir qoşunla cənub padşahına
qarşı çıxacaq. Cənub padşahı da böyük
və çox güclü bir ordu ilə döyüşə
girəcək, ancaq müqavimət göstərə
bilməyəcək, çünki ona qarşı qəsd
quracaqlar. 26 Onunla bir süfrədə
oturanlar onu məhv edəcək. Ordusu
silinib-süpürüləcək və çoxlu tələfat
olacaq. 27 Bu padşahların hər ikisinin
ürəyində pislik olacaq və bir süfrə
arxasında yalan danışacaqlar. Ancaq
heç bir şey baş tutmayacaq, çünki
onların sonu müəyyən vaxtda olacaq.
28 Şimal padşahı böyük sərvətlə öz
ölkəsinə qayıdacaq. Onun müqəddəs
əhdə qarşı pis niyyəti olacaq və hərəkətə
gəlib öz ölkəsinə dönəcək. 29 Müəyyən
bir vaxt yenə cənubu istila edəcək,
ancaq nəticə əvvəlki kimi olmayacaq.
30 Kittim *gəmiləri ona qarşı gələcək
və o, ruhdan düşüb geri dönəcək.
Qəzəblənib müqəddəs əhdə qarşı
çıxacaq və yenə müqəddəs əhdə xəyanət
edənlərlə yaxşı davranacaq. 31 [k]Onun
göndərdiyi qoşunlar qalxıb qalanı
– Müqəddəs məkanı murdarlayacaq,
daimi yandırma qurbanını dayandıracaq
və viranəlik gətirən iyrənc şeyi orada
qoyacaqlar. 32 O, əhdə xəyanət edənləri
yaltaqlıqla yoldan azdıracaq, lakin
öz Allahını tanıyan xalq qüvvətlənib
hərəkətə gələcək. 33 Xalqın ağıllı
adamları çoxunu öyrədəcək, ancaq
bir müddət qılıncla öldürüləcək,
yandırılacaq, əsir düşəcək və qarət
ediləcəklər. 34 Onlar məğlub olanda bir
qədər kömək alacaqlar, ancaq çox adam
riyakarcasına onlara qoşulacaq. 35 Ağıllı
adamlardan bəzisi həlak olacaq ki,
qalanları axır zamana qədər paklanıb
təmizlənsin və ləkəsiz olsun. Çünki axır
zaman yenə də müəyyən vaxtda olacaq.

Şimal padşahının məğrurluğu

36 [l]Bu padşah istədiyini edəcək,
qürurlanaraq özünü bütün allahlardan
üstün sayacaq, allahlar Allahına
qarşı eşidilməmiş küfr söyləyəcək və
Allahın qəzəbi icra olunana qədər
uğur qazanacaq, çünki müəyyən
edilən şey yerinə yetməlidir. 37 Heç bir
allaha – nə öz atalarının allahlarına,
nə də qadınların sevdiyi ilahəyə
ehtiram göstərməyəcək, çünki özünü
bütün allahlardan üstün sayacaq.
38 Ancaq onun əvəzinə qalalar allahını

*11:30 *Kittim* – dar mənada Kipr adası, geniş mənada isə Aralıq dənizi xalqları, xüsusilə Romalılar nəzərdə tutulur.

[k]**11:31** Dan. 9:27; 12:11; Mat. 24:15-16; Mark 13:14

[l]**11:36** 2Sal. 2:4; Vəhy 13:5-6

izzətləndirəcək, atalarının tanımadığı
bir allahı qızıl, gümüş, qiymətli daşlar və
gözəl əşyalarla izzətləndirəcək. 39 O, yad
allaha ümid etməklə ən güclü qalalara
hücum edəcək. Onu qəbul edənləri
həddindən artıq izzətləndirəcək, çoxlu
adama başçı qoyacaq və mükafat olaraq
torpağı bölüşdürəcək.
40 Axır zamanda isə cənub padşahı
onunla vuruşacaq. Şimal padşahı
öz döyüş arabaları, atlıları və çoxlu
gəmiləri ilə qasırğa kimi onun üstünə
hücum çəkəcək, müxtəlif ölkələri istila
edəcək və onlardan sel kimi keçəcək.
41 Gözəl ölkəyə də girəcək. Çoxlu ölkə
işğal olunacaq, ancaq Edom, Moav və
Ammonluların başçıları onun əlindən
qurtaracaq. 42 O, müxtəlif ölkələrə
zərbə vuracaq, Misir ölkəsi də xilas
ola bilməyəcək. 43 Misirin qızıl-gümüş
xəzinələrini və bütün sərvətlərini ələ
keçirəcək. Liviyalılar və Kuşlular da
ona tabe olacaq. 44 Ancaq şərqdən və
şimaldan gələn xəbərlər onu narahat
edəcək. Bir çoxlarını öldürüb məhv
etmək üçün böyük qızğınlıqla yola
düşəcək. 45 Öz padşah çadırlarını
dənizlə gözəl müqəddəs dağın arasında
quracaq. Ancaq onun aqibəti çatacaq və
heç kəs ona kömək edə bilməyəcək.

Axır zaman

12 [m]O vaxt xalqına mənsub
olanların dayağı baş mələk
Mikael qalxacaq və sənin millətin
yaranandan bəri olmamış əzablı vaxt
gələcək. O vaxt sənin xalqından kitabda
adı yazılmış olan hər kəs xilas olacaq.
2 [n]Torpağın altında yatanların çoxu
əbədi həyat, bəzisi isə əbədi xəcalət
və rüsvayçılıq üçün oyanacaq. 3 Ağıllı
adamlar göy qübbəsinin parıltısı
kimi, çoxunu salehliyə döndərənlər
ulduzlar kimi əbədi və daim parlayacaq.
4 [o]Ancaq, sən ey Daniel, axır zamana
qədər bu sözləri sirr saxla və bu kitabı
möhürlə. Çox adam özünü ora-bura
vuracaq və bilik artacaq».
5 Onda mən Daniel gördüm ki, başqa
iki adam – biri çayın bu tayında, biri isə
çayın o tayında durub. 6 Bir adam çayın
suları üzərində olan kətan geyinmiş
adama dedi: «Bu əcaib hadisələrin
sonu nə vaxt olacaq?» 7 [p]Mən eşitdim
ki, çayın suları üzərində olan kətan
geyinmiş adam sağ və sol əlini göyə
qaldırıb Əbədi Yaşayanın adına and
içdi: «Bir vaxt, vaxtlar və yarım
vaxt keçəcək, müqəddəs xalqın gücü
tamamilə tükənəndən sonra bütün
bunlar qurtaracaq».
8 Mən bunu eşitdim, ancaq başa
düşməyib soruşdum: «Ey ağam,
bəs bunların nəticəsi necə olacaq?»
9 O cavab verdi: «Get, ey Daniel.
Çünki bu sözlər axır zamana qədər
sirr olacaq və möhürlü qalacaq.
10 [q]Çoxları paklanıb ləkəsiz və təmiz
olacaq, pis adamlar isə şər işlərindən
dönməyəcək. Pis adamlardan heç biri
bu sözləri başa düşməyəcək, ağıllı
adamlar isə başa düşəcək. 11 [r]Daimi
yandırma qurbanlarının dayandırıldığı
və viranəlik gətirən iyrənc şeyin
qoyulduğu vaxtdan min iki yüz doxsan
gün keçəcək. 12 Gözləyib min üç yüz
otuz beş günə yetişən nə bəxtiyardır!
13 Sən isə öz aqibətinə qədər yaşa, çünki
ölüb rahat olacaqsan və axirət günü
dirilib qismətini alacaqsan».

---

[m]**12:1** Vəhy 12:7; Mat. 24:21; Mark 13:19; Vəhy 7:14 [n]**12:2** Mat. 25:46; Yəh. 5:29 [o]**12:4** Vəhy 22:10 [p]**12:7** Vəhy 10:5; Dan. 7:25; Vəhy 12:14; 13:5 [q]**12:10** Vəhy 22:11 [r]**12:11** Dan. 9:27; 11:31; Mat. 24:15-16; Mark 13:14

HUŞƏ

PEYĞƏMBƏRİN KİTABI

GİRİŞ

Huşə peyğəmbər İsrailin şimal padşahlığının paytaxtı Samariyada vəz edirdi. O, miladdan əvvəl 721-ci ildə Aşşurlular tərəfindən zəbt edilən Samariyanın süqutundan qabaq yaşamışdı. Huşə xüsusilə İsrail xalqının bütpərəstliyinə və Allaha sadiq qalmamasına görə narahat idi. İsrail xalqı bütpərəstliyə tərəf dönmüşdü. Huşə öz uğursuz nikahının nümunəsində İsrailin Allaha xəyanət etməsini cəsarətlə təsvir edir. Huşənin arvadı Qomer ərinə vəfasız olub onu tərk etdiyi kimi Allahın xalqı da vəfasız çıxıb Ondan üz döndərmişdi. Buna görə də İsrail cəzasını alacaq. Amma Allahın məhəbbəti üstün olacaq:

«Ey İsrail, səni necə təslim edim?
…Köksümdə ürəyim alt-üst oldu,
Mərhəmət hisslərim alovlandı» (11:8).

Huşə dövrünün ictimai-siyasi vəziyyəti barədə də danışır. O, İsrailin başqa dövlətlərə deyil, Allaha güvənməsini istəyir.

Kitabın məzmunu:

1:1–3:5 Huşənin nikahı və ailəsi

4:1–13:16 Rəbbin İsraili məzəmmət etməsi

14:1-9 Rəbbin İsraili tövbəyə çağırması və vədlər verməsi

1 [s]Bu, Yəhuda padşahları Uzziya, Yotam, Axaz, Xizqiya və İsrail padşahı Yoaş oğlu Yarovamın dövründə Beeri oğlu Huşəyə nazil olan Rəbbin sözüdür.

Huşənin arvadı və uşaqları

2 Rəbb Huşənin vasitəsilə danışmağa
başlayarkən ona belə dedi: «Get
xəyanətkar bir arvad al və onun kimi
xəyanətkar uşaqların olsun, çünki
ölkənin xalqı Rəbdən üz döndərərək
Ona hədsiz xəyanət edir». 3 Huşə gedib
Divlayimin qızı Qomeri özünə arvad
aldı. Qomer hamilə olub ona bir oğul
doğdu. 4 [t]Rəbb Huşəyə dedi: «Onun
adını İzreel qoy, çünki tezliklə Mən
İzreeldə tökülən qanın əvəzini Yehunun
nəslindən alacağam və İsrail nəslinin
padşahlığına son qoyacağam. 5 Həmin
gün İzreel vadisində İsrailin kamanını
qıracağam».
6 Qomer yenə hamilə olub bir qız
doğdu. Rəbb Huşəyə dedi: «Onun
adını Lo-Ruxama* qoy, çünki Mən
daha İsrail nəslinə mərhəmət edib onu
bağışlamayacağam. 7 Yəhuda nəslinə isə
Mən – onların Allahı Rəbb mərhəmət
göstərəcəyəm, onları xilas edəcəyəm,
ancaq onları nə kaman, nə qılınc, nə
müharibə, nə atlar, nə də süvarilərlə
xilas edəcəyəm».
8 Qomer Lo-Ruxamanı süddən kəsən
kimi yenə hamilə olub bir oğul doğdu.
9 Rəbb dedi: «Onun adını Lo-Ammi†
qoy, çünki siz Mənim xalqım deyilsiniz,
Mən də sizin Allahınız olmayacağam.
10 [u]Ancaq İsrail övladları dəniz qumu
kimi saysız-hesabsız olacaq. Onlara "siz
Mənim xalqım deyilsiniz" deyilən yerdə
"siz var olan Allahın övladlarısınız"
deyiləcək. 11 Yəhuda və İsrail övladları
bir yerə yığılıb özlərinə vahid başçı

*1:6 *Lo-Ruxama* – ibrani dilində *mərhəmət tapmamış.*
†1:9 *Lo-Ammi* – ibrani dilində *xalqım deyil.*

[s]**1:1** 2Pad. 15:1-7; 2Saln. 26:1-23; 2Pad. 15:32-38; 2Saln. 27:1-8; 2Pad. 16:1-20; 2Saln. 28:1-27; 2Pad. 18:1–20:21; 2Saln. 29:1–32:33; 2Pad. 14:23-29
[t]**1:4** 2Pad. 10:11 [u]**1:10** Rom. 9:26

təyin edəcək. Onlar ölkədən çıxacaq,
çünki İzreel* günü möhtəşəm bir gün
olacaq.
2 Qardaşlarınızı "xalqım", bacılarınızı
isə "mərhəmət tapmış" deyə çağırın.

İsrailin xəyanəti

2 Qınayın siz ananızı, qınayın,
Çünki o Mənim arvadım deyil,
Mən də onun əri deyiləm.
Qoy üzündə görünən fahişəliyi,
Qoynunda olan xəyanəti atsın.
3 Yoxsa onu çıl-çılpaq soyundurub
Lüt, anadangəlmə edəcəyəm.
Mən onu səhra, quru torpaq kimi
edəcəyəm,
Susuzluqdan öldürəcəyəm.
4 Onun balalarına da rəhm
etməyəcəyəm,
Çünki onlar da xəyanət övladıdır.
5 Onların anası zina etdi.
Onlara hamilə qalan qadın rəzillik
etdi,
Çünki dedi: "Oynaşlarımın dalınca
gedəcəyəm,
Axı çörəyimi, suyumu, yunumu,
kətanımı,
Zeytun yağımı və içkimi verən
onlardır".
6 Buna görə də onun yolunu
qanqallarla kəsib
Önünə hasar çəkəcəyəm.
Öz yolunu tapa bilməyəcək.
7 Oynaşlarının dalınca gedəcək,
Ancaq onlara çatmayacaq.
Onları axtaracaq,
Ancaq tapmayacaq.
O zaman deyəcək:
"Qoy öz əvvəlki ərimin yanına
qayıdım,
Çünki o vaxt halım indikindən yaxşı
idi".
8 Amma o bilmirdi ki,
Ona taxılı, təzə şərabı,
Zeytun yağını verən Mənəm.
Baal bütü üçün sərf etdikləri
Qızıl-gümüşü çoxaldan Mənəm.
9 Buna görə də öz vaxtında taxılımı,
Öz mövsümündə təzə şərabımı geri
alacağam.
Onun çılpaqlığını örtmək üçün
verdiyim
Yunu və kətanı əlindən alacağam.
10 İndi oynaşlarının önündə
Onun ayıbını üzə çıxaracağam.
Kimsə onu əlimdən qurtara
bilməyəcək.
11 Onda olan bütün şadlıqlara,
Bayramlara, Təzə Ay mərasimlərinə,
Şənbə günlərinə və bütün təntənələrə
son qoyacağam.
12 Onun meynələrini və əncir
ağaclarını məhv edəcəyəm.
O bunlar barədə deyirdi:
"Bu, oynaşlarımın mənə verdiyi
muzddur".
Bağlarını tikanlığa çevirəcəyəm,
Çöl heyvanlarına yem olacaqlar.
13 Baal bütlərinə buxur yandırdığı
günlər üçün
Onu cəzalandıracağam.
O vaxt halqalar və cəvahiratla özünü
bəzəyərək
Oynaşlarının dalınca getmiş,
Məni isə unutmuşdu»
Rəbb belə bəyan edir.
14 «Amma Mən onu dilə tutub
Səhraya aparacağam,
Onun ürəyincə olan sözlər deyəcəyəm.
15 [v]Orada ona üzüm bağları
verəcəyəm,
Akor [†]vadisini ümid qapısına
çevirəcəyəm.
Cavanlıq günlərində olduğu kimi,

---

*1:11 *İzreel* – ibrani dilində *Allah əkir* mənasında olub *inkişaf və rifah* deməkdir.
†2:15 *Akor* – ibrani dilində *əziyyət.*

v2:15 Yeşua 7:24-26

Misir torpağından çıxdığı gün kimi
Orada nəğmə oxuyacaq».
16 Rəbb bəyan edir: «Həmin gün
Mənə "ərim" deyəcəksən,
Artıq "ağam" *deməyəcəksən.
17 Baal bütlərinin adını dilindən
siləcəyəm,
Onların adı bir də yada salınmayacaq.
18 O gün sənin asayişin üçün
Çöl heyvanları, göy quşları və
Yerdə sürünənlərlə əhd kəsəcəyəm.
Ölkədən kamanı, qılıncı,
Müharibəni götürəcək,
Səni əmin-amanlıqda yatıracağam.
19 Səni əbədi olaraq Özümə
nişanlayacağam,
Salehlik, ədalət, məhəbbət və
mərhəmətlə
Səni özümə nişanlayacağam.
20 Səni sədaqətlə Özümə
nişanlayacağam,
Sən də Rəbbi tanıyacaqsan».
21 Rəbb bəyan edir: «O gün hay
verəcəyəm,
Göylərə hay verəcəyəm,
Onlar da yerə hay verəcək.
22 Yer isə taxıla, təzə şəraba və
Zeytun yağına hay verəcək,
Onlar da İzreelə hay verəcək.
23 [w]Xalqımı ölkədə Özüm üçün
əkəcəyəm,
"Mərhəmət tapmamış" dediyimə
Mərhəmət edəcəyəm.
"Xalqım deyil" dediyimə
"Xalqımsan" deyəcəyəm.
O isə Mənə "Allahımsan" deyəcək».

Huşə və vəfasız qadın

3 Rəbb mənə dedi: «Get yenə də
aşnasının sevdiyi zina edən qadını
sev, necə ki Rəbb İsrail övladlarını sevir,
onlarsa başqa allahlara üz tutur və
bunlara təqdim edilən üzüm kökələrini
sevir». 2 Mən də qadını özüm üçün
on beş gümüşə və bir yarım xomer
arpaya satın aldım. 3 Ona dedim: «Uzun
müddət mənim yanımda qal, başqa
bir kişi ilə olub zina etmə. Mən də
sənin belə rəftar edərəm. 4 Ona görə
ki İsrail övladları uzun müddət padşah
və başçı, qurban və müqəddəs daş,
efod və ev bütləri olmadan yaşayacaq.
5 Sonra İsrail övladları dönüb özlərinin
Allahı Rəbbi və padşahı Davudu
axtaracaq. Axır zamanda lərzə içində
Rəbbə və Onun xeyirxahlığına doğru
yönələcəklər».

Rəbbin İsraili məzəmmət etməsi

4 «Ey İsrail övladları, Rəbbin sözünü
eşidin,
Çünki bu ölkədə yaşayanları
Rəbb ittiham edir.
Sədaqət, məhəbbət, Allahı tanımaq
Bu yerdə yox olub.
2 Lənət, yalan, qətl, oğurluq və zina
Hər yerə yayılıb.
Qoluzorluluq edərək
Qan üstünə qan tökürlər.
3 Bundan ötrü ölkə yas tutur,
Orada yaşayan hər kəs bezib.
Həmçinin çöl heyvanları, göy quşları,
Hətta dənizdəki balıqlar da məhv
olur.
4 Ancaq heç kəs dava etməsin,
Heç kəs başqasını təqsirləndirməsin,
Çünki Mənim davam sənindir, ey
kahin. †
5 Sən gündüz büdrəyəcəksən,
Peyğəmbər də gecə sənin birgə.
Sənin ananı ‡məhv edəcəyəm.
6 Xalqım biliksizlikdən məhv oldu.

---

*2:16 *Ağam* – ibrani mətnində *Baali* sözü olub *mənim Baalım* deməkdir.
†4:4 *Mənim davam sənindir, ey kahin* – yaxud *xalqın kahinlə çəkişənlərə bənzəyir.*
‡4:5 *Sənin anan* – İsrail xalqı nəzərdə tutulur.

[w]2:23 Rom. 9:25; 1Pet. 2:10

Sən biliyi rədd etdiyin üçün
Mən də səni rədd edəcəyəm ki,
Bir daha Mənə kahinlik etməyəsən.
İndi ki öz Allahının qanununu unutdun,
Mən də sənin balalarını unudacağam.
7 Kahinlər nə qədər çoxaldısa,
Mənə qarşı o qədər çox günah etdi.
Onların izzətini rüsvayçılığa çevirəcəyəm. *
8 Xalqımın günahı ilə bəslənirlər,
Onların qəbahətinə can atırlar.
9 Xalqın başına gələn
Kahinin də başına gələcək.
Tutduqları yol üçün onları cəzalandıracağam.
Əməllərinin əvəzini onlara ödəyəcəyəm.
10 Yeyəcəklər, amma doymayacaqlar,
Fahişəlik edəcəklər, amma çoxalmayacaqlar,
Çünki onlar Rəbbi tərk edib
Başqa allahlara könül verdi.
11 Zina, köhnə və təzə şərab
Onların ürəklərini cəlb edib.
12 Xalqım ağacdan olan əşyaya sual verir,
Əsalarından cavab alır,
Çünki xəyanət ruhu onları azdırdı.
Özlərinin Allahından ayrılıb xəyanət etdilər.
13 Dağların başında qurban kəsirlər,
Təpələrdə palıd, ağcaqovaq və yabanı püstə ağacı altında
Kölgələri gözəl olduğu üçün buxur yandırırlar.
Buna görə də qızlarınız fahişəlik edir,
Gəlinləriniz də zinakardır.
14 Fahişəlik edən qızlarınızı,
Zina edən gəlinlərinizi cəzalandırmayacağam.
Çünki kişiləriniz fahişələrlə oynaşır,
Məbəd fahişələri ilə birgə qurban kəsir.
Dərrakəsiz xalq məhv olacaq.
15 Ey İsrail, sən xəyanət etsən də,
Heç olmasa Yəhuda təqsirkar olmasın.
Qilqala getməyin,
Bet-Avenə çıxmayın.
"Var olan Rəbbin haqqı üçün"
Deyib and içməyin.
16 Bəli, İsrail inadkar bir düyə kimi inad etdi.
İndi Rəbb onları
Otlaqda quzu otaran kimi necə otarsın?
17 Efrayim bütlərindən yapışdı,
Burax onu!
18 Onlar içkiləri qurtarandan sonra
Hələ pozğunluq da edir.
Onların başçıları rüsvayçılığı çox sevir.
19 Külək onları qanadları ilə sarıyacaq,
Qurbanlarından ötrü utanacaqlar.

İsrailin cəzası

5 Ey kahinlər, bunu eşidin!
Ey İsrail nəsli, diqqətlə dinləyin!
Ey padşah sarayında olanlar, qulaq verin!
Sizin barənizdə hökm çıxarıldı,
Çünki siz Mispada bir tələ,
Tavor dağına sərilmiş bir tor oldunuz.
2 Qanunsuzlar adam öldürməklə məşğuldur.
Amma Mən onların hamısını cəzalandıracağam.
3 Efrayimi tanıyıram,
İsrail Məndən gizli deyil,
Çünki indi sən fahişəlik edirsən, ey Efrayim,
İsrail də murdarlanıb.
4 Əməlləri qoymur ki, onlar
Özlərinin Allahına tərəf dönsün,
Çünki içlərində xəyanət ruhu var,

---

*4:7 *Onların izzətini rüsvayçılığa çevirəcəyəm* – əksər ibrani əlyazmalarında *Mənim izzətimi rüsvayçılığa çevirdilər.*

Rəbbi də tanımırlar.
5 İsrailin qüruru özünə qarşı şəhadət
edir.
İsraillə Efrayim
Günahlarından ötrü büdrəyib-yıxılır.
Yəhuda da onlarla birgə yıxılır.
6 Qoyun-keçi, mal-qara qurban edərək
Rəbbi axtarmağa gedəcəklər,
Amma tapmayacaqlar,
Çünki Rəbb onları tərk etdi.
7 Onlar Rəbbə xəyanət etdi,
Çünki bic uşaqlar doğdu.
İndi Təzə Ay mərasimi olanda
Onlar tarlaları ilə birlikdə məhv
olacaq.
8 Giveada şeypur çalın,
Ramada kərənay çalın,
Bet-Avendə car çəkin,
Düşmən arxandadır, ey Binyamin!
9 Efrayim cəza günündə viran olacaq,
Bu yəqin sözü İsrail qəbilələri
arasında bəyan edirəm.
10 Yəhuda başçıları
Sərhəd daşı dəyişənlərə bənzəyir.
Qəzəbimi sel kimi onların üstünə
tökəcəyəm.
11 Efrayim zülm gördü,
Hökm ilə əzildi,
Çünki bilə-bilə
Boş şeylərin dalınca getdi.
12 Mən Efrayimlilərə qarşı güvə,
Yəhuda nəsli üçün kif olacağam.
13 Efrayim xəstəliyini,
Yəhuda yarasını gördü.
Efrayim Aşşura getdi,
Böyük padşahdan kömək istədi,
Amma o sizə şəfa verməz,
Yaranızı sağaltmaz.
14 Bəli, Mən Efrayimlilərə qarşı bir şir,
Yəhuda nəsli üçün cavan aslan
olacağam.
Mən, Mən onu parçalayıb gedəcəyəm,
Sürüyəcəyəm və kimsə əlimdən
qurtarmayacaq.
15 Sonra qayıdıb Öz məskənimə
gedəcəyəm,
O vaxtacan ki özlərini günahkar
sayaraq
Mənim hüzurumu axtaracaqlar.
Bəlaya düşəndə həsrətlə Məni
axtaracaqlar».

İsrailə çağırış

6 «Gəlin Rəbbə qayıdaq.
O bizi parçaladı,
O da bizə şəfa verəcək.
O bizi yaraladı,
O da yaramızı sarıyacaq.
2 İki gün sonra bizi dirildəcək,
Üçüncü gün ayağa qaldıracaq,
Onun hüzurunda yaşayacağıq.
3 Gəlin Rəbbi tanıyaq, tanımağa səy
edək.
O hökmən dan yeri kimi doğacaq,
Yağış kimi,
Torpağı sulayan yaz yağışı kimi
Yanımıza gələcək».
4 Allah deyir:
«Ey Efrayim, sənə nə edim?
Ey Yəhuda, bəs sənə nə edim?
Çünki məhəbbətiniz səhər dumanı,
Erkən uçub gedən şeh kimidir.
5 Buna görə də sizi peyğəmbərlər
vasitəsilə parçaladım,
Ağzımdan çıxan sözlərlə öldürdüm.
Sizin üzərinizdə hökmüm
Şimşək kimi parıldayır.
6 [x]Çünki Mən qurban deyil,
Məhəbbət istəyirəm.
Yandırma qurbanlarından çox
Allahı tanımağınızı istəyirəm.
7 Ancaq onlar Adəm kimi əhdi pozdu,
Orada Mənə xəyanət etdi.
8 Gilead şər adamların şəhəridir,
Qan izləri ilə doludur.
9 Quldur dəstələri necə insan üçün
pusquya yatırsa,

---

[x]**6:6** Mat. 9:13; 12:7

Kahin dəstələri də Şekemə gedən
yolda adam öldürür,
Bəli, xəbislik edir.
10 İsrail nəslində qorxunc bir şey
gördüm,
Efrayim fahişəliyə batmış,
İsrail murdarlanmışdır.
11 Ey Yəhuda, sənin üçün də
Bir biçin günü təyin edildi.
Mən xalqımı sürgündən qaytaranda,
7 İsrailə şəfa vermək istəyəndə
Efrayimin günahları,
Samariyanın pislikləri ortaya çıxır.
Çünki hiylə ilə davranırlar.
Evlərə oğru girir,
Küçədə quldur soyğunçuluq edir.
2 Ürəklərində düşünmürlər ki,
Mən onların bütün pisliklərini yada
salıram.
İndi günahları onları dövrələyib və
Gözümün önündədir.
3 Padşahı pislikləri ilə,
Başçıları yalanları ilə sevindirirlər.
4 Hamısı zinakardır,
Yoğrulan xəmir acıyana qədər
Təndirçinin odunu qurdalamağa
ehtiyac görmədiyi
Soba kimi şəhvətlə yanırlar.
5 Padşahımızın ad günündə
Başçılar şərabın atəşindən xəstələndi,
Padşah da istehzaçılarla əl-ələ verdi.
6 Pusquda yatarkən
Ürəkləri soba kimi qızar.
Qəzəbləri bütün gecə için-için yanar,
Səhər də alovlu atəş kimi parlayar.
7 Onların hamısı soba kimi qızışıb
Öz hakimlərini həlak etdi.
Bütün padşahları yıxıldı,
Aralarında Məni çağıran yoxdur.
8 Efrayim başqa xalqlara qarışır;
Efrayim bir üzü çiy qalan kökədir.
9 Onun gücünü özgələr yedi,
O isə bilmir,
Saçına dən düşüb,
O isə bilmir.
10 İsrailin qüruru özünə qarşı şəhadət
edir.
Ancaq yenə də özlərinin Allahı Rəbbə
tərəf dönmür,
Onu axtarmırlar.
11 Efrayim səfeh və dərrakəsiz bir
göyərçin kimidir.
Gah Misirliləri çağırır,
Gah Aşşura gedirlər.
12 Onlar gedən zaman
Mən onların başına torumu atacağam.
Göydəki quşlar kimi
Onları vurub yerə salacağam.
İcmalarında bildirildiyi kimi
Onları cəzalandıracağam.
13 Vay onların halına!
Çünki Məndən uzaqlaşdılar.
Başlarına bəla gəlsin!
Çünki Mənə qarşı üsyan etdilər.
Mən onları qurtarmaq istəyirdim,
Onlarsa Mənə böhtan deyir.
14 Ürəkdən Mənə fəryad etmirlər,
Ancaq yataqlarının içində ulayırlar.
Taxıl və təzə şərab üçün özlərini
yaralayırlar,
Amma Məndən üz döndərirlər.
15 Mən onlara nəsihət verdim,
Qollarına güc verdim.
Onlarsa Mənə qarşı qəsd qurur.
16 Onlar üz tutur,
Ancaq ucalara tərəf yox.
Hədəfi əyri vuran kamana bənzəyirlər.
Dillərinin arsızlığı üzündən
Başçıları qılınca tuş gələcək.
Buna görə də Misirdə
Kinayə hədəfi olacaqlar.

İsrailin bütpərəstliyi

8 Şeypur çalmağa hazırlaş!
Rəbbin evinin üzərinə
Düşmən qartal kimi hücum çəkir.
Çünki İsraillilər Mənim əhdimi pozdu,
Mənim qanunuma qarşı çıxdı.
2 Onlar Mənə fəryad edib deyəcək:
“Allahım, biz İsraillilər Səni
tanıyırıq”.

3 İsrail yaxşılığı rədd etdi,
Düşmən onu təqib edəcək.
4 Məndən soruşmadan
Özlərinə padşah qoydular.
Məndən xəbər almadan
Başçılar seçdilər.
Özlərinə qızıl və gümüşlərindən
Ölümlərinə yol açan
Bütlər düzəltdilər.
5 Ey Samariya, dana bütün rədd edildi!
Mənim qəzəbim onlara qarşı alovlandı.
Nə vaxta qədər onlar pak olmayacaq?
6 Çünki bu büt İsrailin işidir,
Usta onu düzəldib,
Ona görə də Allah deyil.
Samariyadakı dana bütü
Xıncım-xıncım olacaq.
7 Onlar külək qaldırdı,
Qasırğa alacaqlar.
Sünbül bitirməyən buğda un verməz,
Versə də, yadlar onu udacaq.
8 İsrail udulmuşdur,
İndi onlar millətlər arasında
Heç kəsin bəyənmədiyi bir qab kimi oldu.
9 Onlar tənha gəzən vəhşi eşşək kimi
Aşşur tərəfə getdi.
Efrayim muzdla özünə oynaşlar tutdu.
10 Onlar millətlər arasında muzdla oynaş tutsalar da,
Mən indi onları bir yerə toplayacağam.
Onlar qüdrətli padşahın zülmündən
Azalmağa başlayacaq.
11 Efrayim günah təqdimi üçün
Çoxlu qurbangah tiksə də,
Bunlar onu günaha batıran qurbangahlar oldu.
12 Mən onlar üçün çoxlu qanun yazdım,
Onlarsa bunları yad bir şey hesab etdi.
13 [y]Mənə kəsilən qurbanlara gəlincə,
Əti Mənə qurban gətirib
Özləri yeyir.
Rəbb onlardan razı deyil.
İndi onların qəbahətlərini yada salacaq,
Günahlarına görə onları cəzalandıracaq.
Onlar Misirə qayıdacaq.
14 İsrail də Yaradanını unutdu,
Özünə saraylar qurdu.
Yəhuda da çoxlu qalalı şəhər tikdi,
Ancaq Mən onun şəhərlərinə od göndərəcəyəm,
Qalalarını alov yeyəcək.

İsrailin cəzası

9 Ey İsrail, başqa xalqlar kimi
Sevinib coşma,
Çünki öz Allahına xəyanət etdin.
Bütün xırmanlarda
Fahişəlik muzduna könül verdin.
2 Xırman və üzümsıxan xalqı doydurmayacaq,
Təzə şərab onlara qismət olmayacaq.
3 Rəbbin torpağında yaşamayacaqlar,
Efrayim Misirə qayıdacaq,
Aşşurda murdar yemək yeyəcək.
4 Rəbbə təqdim olaraq şərab tökməyəcəklər,
Qurbanları Ona məqbul olmayacaq.
Qurbanlar onlara yas çörəyi olacaq,
Onu yeyənlərin hamısı murdar olacaq.
Çörəkləri özlərinə qismət olacaq,
Amma Rəbbin evinə gətirilməyəcək.
5 Təntənəli bayramda,
Rəbbin bayram günündə nə edəcəksiniz?
6 Məhvdən qaçsalar da,
Misir onları yığacaq,
Memfis qəbirə basdıracaq.
Onların gümüş xəzinələrini gicitkən tutacaq,

---

[y] **8:13** Yer. 14:10

Çadırlarında qanqal bitəcək.
7 [z]Onların cəza günləri gəldi,
Haqq-hesab günləri yetişdi.
Qoy İsrail bunu bilsin!
Təqsirlərinizin çoxluğundan,
Düşmənçiliyinizin böyüklüyündən
Peyğəmbəri əbləh,
Ruhani adamı divanə saydınız.
8 Peyğəmbər Allahımın Efrayim
üzərində qoyduğu gözətçidir.
Amma onun getdiyi hər yerdə tor
qurdular,
Allahın evində düşmənçilik var.
9 [a]Givea günlərində olduğu kimi
Onlar böyük pozğunluğa düçar oldu.
Allah onların təqsirlərini yada
salacaq,
Günahları üçün onları cəzalandıracaq.
10 [b]Səhrada üzüm tapan kimi
Mən İsraili tapdım,
İlk dəfə məhsul verən əncir nübarı
kimi
Mən atalarınızı gördüm.
Amma onlar Baal-Peora çatanda
Rüsvayçı bütlərə təslim oldu.
Özləri də sevdikləri şeylər kimi
İyrənc oldu.
11 Efrayimin calalı
Bir quş kimi uçub gedəcək.
Nə doğum, nə hamiləlik, nə
mayalanma olacaq.
12 Öz uşaqlarını böyütsələr də,
Balalarını əllərindən alacağam,
Onları kimsəsiz qoyacağam.
Mən onları tərk etdikdə vay hallarına!
13 Mən gördüm ki, Efrayim
Sur şəhəri kimi gözəl bir yerdə
məskən salıb.
Amma Efrayim öz övladlarını
Qatil qabağına çıxaracaq».
14 Ya Rəbb, nə verəcəksən, ver onlara,
Onlara uşaq salan bətn, südsüz döşlər
ver!
15 Rəbb deyir: «Onlar bütün pis
əməllərini
Qilqalda edir,
Orada onlara nifrət etdim.
Etdikləri günahlardan ötrü
Onları evimdən qovacağam.
Artıq onları sevməyəcəyəm.
Bütün başçıları üsyankardır.
16 Efrayim kəsildi,
Kökləri qurudu.
Onlar bar verməyəcək.
Əgər doğsalar da,
Bətnlərinin əziz barını Mən məhv
edəcəyəm».
17 Allahım onları rədd edəcək,
Çünki Ona qulaq asmadılar.
Millətlər arasında sərgərdan
gəzəcəklər.

10 İsrail bir qollu-budaqlı meynədir
ki,
Bol-bol bar gətirir.
Ancaq barı artdıqca
Qurbangahları da artırdı.
Torpağı bərəkətli olduqca
Daha gözəl olan müqəddəs daşları da
düzəltdi.
2 Onların ürəkləri yalanla doldu,
Günahlarına görə də cəzalanacaqlar.
Rəbb onların qurbangahlarını
dağıdacaq,
Müqəddəs daşlarını sındıracaq.
3 Onda onlar deyəcək:
«Bizim padşahımız yoxdur,
Çünki biz Rəbdən qorxmadıq.
Padşahımız olsa da,
Bizə nə edəcəkdi?»
4 Əhd bağlayanda boş vədlər verir,
Yalandan and içirlər.
Buna görə də məhkəmə işləri
Şumlanmış tarladakı zəhərli ot kimi
böyüyür.
5 Samariya sakinləri
Bet-Avendəki dana bütlərinə görə
Qorxuya düşəcək.

---

[z]**9:7** Luka 21:22 [a]**9:9** Hak. 19:1-30 [b]**9:10** Say. 25:1-5

Onun üçün xalqı yas tutacaq.
Onun calalı ilə coşan kahinləri
Sürgünə aparıldığı üçün ağlayacaq.
6 Büt özü Aşşura – böyük padşaha
Hədiyyə aparılacaq.
Efrayim biabır olacaq,
İsrail aldığı məsləhətdən utanacaq.
7 Samariya və onun padşahı
Su üstündəki çubuq kimi
Axıb-gedəcək.
8 [c]İsrailin günahı olan
Avendəki [*]səcdəgahlar yox olacaq,
Onun qurbangahlarında
Tikan və qanqal bitəcək.
O zaman dağlara «Bizi örtün!»,
Təpələrə «Üstümüzə yıxılın!»
deyəcəklər.
9 [d]«İsrail Giveada keçirdiyi
Günlərdən bəri günah etdi.
Orada öz işlərini davam etdirdilər.
Şər adamlara qarşı müharibə
Onları Giveada yaxalamazmı?
10 Mən istədiyim zaman
Onları cəzalandıracağam.
Xalqlar onlara qarşı birləşib,
İkiqat cinayətlərindən ötrü
Onları əsir edəcək.
11 Efrayim əhliləşmiş,
Taxıl döyməyi sevən düyəyə bənzər.
Mən onun incə boynunu əsirgədim.
İndi isə Efrayimi sürdürəcəyəm.
Yəhuda yer şumlasın,
Yaqub isə dırmıq çəksin.
12 [e]Özünüz üçün salehlik əkin,
Məhəbbət bəhərini biçərsiniz.
Dincə qoyulmuş torpağınızı şumlayın,
Çünki Rəbbi axtarmaq vaxtıdır.
Nəhayət, O gəlib üstünüzə
Salehliyin nemətlərini yağdıracaq.
13 Amma siz pislik əkib,
Qəbahət biçdiniz.
Yalanın bəhərini yediniz.
Çünki öz üsulunuza,
Çoxlu cəngavərlərinizə güvəndiniz.
14 Xalqınızın içində müharibə
gurultusu qopacaq,
Bütün qalalarınız dağılacaq,
Necə ki Şalman müharibə günündə
Bet-Arbeli dağıtdı,
Ana uşaqları ilə birgə yerə çırpılıb
parçalandı.
15 Ey Bet-El, pisliyinin çoxluğu
üzündən
Səninlə də belə rəftar ediləcək.
Dan ağaranda İsrail padşahı həlak
olacaq.

Allahın İsrailə məhəbbəti

11 [f]İsrail uşaq ikən onu sevdim,
Öz oğlumu Misirdən çağırdım.
2 Peyğəmbərlər İsraili çağırdıqca
İsrail onlardan uzaqlaşdı.
Baal bütlərinə qurban kəsdilər,
Oyma bütlərə buxur yandırdılar.
3 Efrayimə gəzməyi Mən öyrətdim,
Onları qollarım üstünə aldım.
Ancaq bilmədilər ki,
Onlara Mən şəfa verdim.
4 Onları insani tellərlə,
Sevgi bağları ilə Özümə çəkdim.
Onlar üçün çənələrindən
boyunduruğu qaldıran
Bir kəs oldum,
Əyilib onlara yemək verdim.
5 Məgər Misirə qayıtmayacaqlar?
Aşşur onlara padşah olmayacaq?
Çünki onlar Mənə üz tutmaq
istəmədilər.
6 Şəhərlərinin içində qılınc fırlanacaq,
Onların qapı sürgülərini qıracaq.
Fitnələri üzündən onları
yeyib-qurtaracaq.

---

[*]**10:8** *Aven* – burada Bet-El, *Allahın evi* şəhəri *pislik* mənası verən bu sözlə adlandırılır.

[c]**10:8** Luka 23:30; Vəhy 6:16 [d]**10:9** Hak. 19:1-30 [e]**10:12** Yer. 4:3
[f]**11:1** Çıx. 4:22; Mat. 2:15

7 Xalqım Məndən üz döndərməyi
qərara alıb.
Haqq-Taalanı çağırsalar da,
Onları heç vaxt ucaltmayacaq.
8 [g]Ey Efrayim, səni necə əldən verim?
Ey İsrail, səni necə təslim edim?
Admaya etdiyimi sənə necə edim?
Səni necə Sevoyim kimi edim?
Köksümdə ürəyim alt-üst oldu,
Mərhəmət hisslərim alovlandı.
9 Mən qızğın qəzəbimlə rəftar
etmərəm,
Efrayimi artıq məhv etmərəm.
Çünki Mən Allaham, insan deyiləm,
Aranızda Müqəddəs Olanam.
Qəzəblə üzərinizə gəlmərəm.
10 Onlar aslan kimi nərə çəkən
Rəbbin arxasınca gedəcək.
O nərə çəkəndə
Övladları qərbdən titrəyərək gələcək.
11 Misirdən quşlar kimi,
Aşşur ölkəsindən göyərçinlər kimi
Titrəyərək gələcəklər.
Onları evlərində sakin edəcəyəm»
Rəbb belə bəyan edir.

İsrailin günahı

12 Efrayim yalanla, İsrail nəsli hiylə
ilə
Ətrafımı bürüdü.
Amma Yəhuda hələ də Allahla birgə
gedir,
Müqəddəs Olana sadiqdir.

12 Efrayim yellə bəslənir,
Bütün gün şərq küləyinin dalınca
düşür.
Yalanı, qoluzorluluğu artırır.
Aşşurla saziş bağlayır,
Misirə zeytun yağı göndərir.
2 Yəhuda ilə Rəbbin davası var,
Yaqubu getdiyi yola görə
cəzalandıracaq,
Əməllərinə görə əvəz verəcək.
3 [h]O hələ ana bətnində ikən
Qardaşının topuğundan tutdu,
Böyüklük çağında Allahla güləşdi.
4 [i]Mələklə güləşib ona üstün gəldi,
Ağlayaraq Ondan xeyirxahlıq istədi.
Allah onu Bet-Eldə tapdı.
5 Ordular Allahı Rəbb
Bizimlə orada danışdı.
Onun adı «Rəbb»dir.
6 Buna görə də sən Allahına üz tut,
Məhəbbətə, ədalətə bağlan,
Daim Allahına ümid bağla.
7 Efrayim tacirdir,
Əlindəki aldadıcı tərəzi ilə
Aldatmağı sevir.
8 Efrayim deyir:
«Doğrudan da, mən varlandım,
Özüm üçün sərvət topladım.
Çoxlu şeylər qazansam da,
Məndə günah sayılacaq bir təqsir
tapılmayacaq».
9 [j]«Ancaq səni Misir torpağından
çıxaran
Allahın Rəbb Mənəm.
Bayram günlərində olduğu kimi
Səni yenə öz çadırlarında
məskunlaşdıracağam.
10 Mən peyğəmbərlərlə danışdım,
Çoxlu görüntü göndərdim,
Peyğəmbərlərin dilindən məsəllər
söylədim».
11 Gilead xalqı pis xalqdır,
Doğrudan da, yaramazdır.
Qilqalda buğaları qurban kəsirlər.
Onların qurbangahları
Şumlanmış tarladakı daş qalaqları
kimidir.
12 [k]Yaqub Aram torpağına qaçdı,
İsrail arvad üçün qul oldu,
Arvada görə qoyun otardı.
13 [l]Rəbb İsraili bir peyğəmbər
vasitəsilə
Misirdən çıxartdı,

---

[g] **11:8** Qanun. 29:23 [h] **12:3** Yar. 25:26; Yar. 32:24-26 [i] **12:4** Yar. 28:10-22
[j] **12:9** Lev. 23:42-43 [k] **12:12** Yar. 29:1-20 [l] **12:13** Çıx. 12:50-51

Bir peyğəmbər vasitəsilə qorudu.
14 Efrayim Allahı bərk qəzəbləndirdi,
Tökdüyü qanı öz başına gətirəcək,
Xudavənd onun rüsvayçılığını özünə qaytaracaq.

Rəbbin İsrailə qəzəbi

13 Efrayim danışanda hamı titrəyirdi.
İsraildə ucalmışdı,
Amma Baala tapınıb təqsir edəndə məhv oldu.
2 İndi günah üstünə günah edirlər,
Gümüşlərindən özlərinə tökmə bütlər,
Məharətlə düşünülmüş bütlər düzəldirlər.
Hamısı usta işidir.
«Qurban gətirən adamlar
Danaları öpsün!» deyirlər.
3 Buna görə də səhər dumanı,
Erkən uçub gedən şeh,
Xırmanda sovrulan saman çöpü,
Bacadan çıxan tüstü kimi olacaqlar.
4 «Ancaq Səni Misir torpağından çıxaran
Allahın Rəbb Mənəm.
Sən Məndən başqa allah tanımamalısan,
Çünki Məndən başqa xilaskar yoxdur.
5 [m]Mən sənə çöldə, quraq torpaqlarda göz-qulaq oldum.
6 Onları bəslədiyimə görə doydular,
Doyandan sonra onların ürəyi qürurlandı,
Buna görə də Məni unutdular.
7 Mən onlara bir aslan olacağam,
Bəbir kimi yol kənarında
Pusquda duracağam.
8 Balalarından məhrum olmuş ayı kimi
Onlara hücum çəkəcəyəm,
Ürəklərinin pərdəsini yırtacağam.
Dişi aslan kimi onları yeyib-qurtaracağam,
Vəhşi canavar onları parçalayacaq.
9 Ey İsrail, Mənə – Köməkçinə qarşı çıxmağın
Səni ölümə aparır.
10 [n]İndi padşahın haradadır ki,
Bütün şəhərlərində səni xilas etsin?
Hakimlərin haradadır?
Sən ki onlar barədə
“Mənə bir padşah və başçılar ver” deyirdin.
11 [o]Qəzəb içində sənə padşah verdim,
Hiddətlənəndə onu apardım.
12 Efrayimin qəbahəti yığılıb,
Günahı qeydə alınıb.
13 Doğan qadının ağrıları ona çatır,
Amma o, ağılsız oğuldur.
Çünki vaxtı çatanda
Bətndən çıxmağa ləngiyir.
14 [p]Mən onları ölülər diyarının
Əlindən satın alacağam,
Onları ölümdən xilas edəcəyəm.
Ey ölüm, bəlaların hanı?
Ey ölülər diyarı, həlakın hanı?
Gözümdə mərhəmət görünməyəcək.
15 Efrayim öz qardaşları arasında
Barlı-bəhərli olsa da,
Şərq yeli, səhradan qalxan
Rəbbin küləyi gələcək,
Onun bulağı quruyacaq,
Çeşməsinin suyu kəsiləcək.
Bütün qiymətli şeylər xəzinəsi qarət olunacaq.
16 Samariya günahının cəzasını çəkəcək,
Çünki Allahına qarşı üsyankar oldu.
Onlar qılıncdan həlak olacaq.
Balaları yerə çırpılıb parçalanacaq,
Hamilə qadınlarının qarnı yarılacaq».

---

[m]**13:5** Qanun. 8:11-17 [n]**13:10** 1Şam. 8:5-6
[o]**13:11** 1Şam. 10:17-24; 1Şam. 15:26 [p]**13:14** 1Kor. 15:55

Rəbbin İsrailə müraciəti

14 Allahın Rəbbə üz tut, ey İsrail,
Çünki günahlarından ötrü
büdrədin.
2 Dua sözləri ilə Rəbbə tərəf dönün.
Ona belə deyin:
«Hər qəbahətimizi bağışla,
Bizi mərhəmətlə qəbul et.
Buğalar yerinə ağzımızdan çıxan
Şükürləri təqdim edirik.
3 Aşşur bizi xilas etməyəcək,
Atların belinə minməyəcəyik,
Artıq əl işlərimizə
"Allahlarımız" deməyəcəyik.
Çünki yetim Səndən mərhəmət
görəcək».
4 «Onların dönüklüyünə əlac
edəcəyəm,
Onları ürəkdən sevəcəyəm,
Çünki qəzəbim onlardan vaz keçdi.
5 Mən İsrailə bir şeh olacağam,
O, zanbaq kimi çiçək açacaq,
Livan sidri kimi kök atacaq.
6 Qollu-budaqlı olacaq,
Zeytun ağacı kimi gözəl olacaq,
Livan sidri kimi ətir saçacaq.
7 Adamlar yenə də kölgəsi altında
oturub
Buğda kimi cücərəcək,
Meynə kimi tumurcuqlayacaq,
Şöhrəti Livan şərabı kimi olacaq.
8 Efrayim deyəcək:
"Artıq bütlər nəyimə gərəkdir?"
Mən onun səsini eşidəcəyəm,
Ona nəzər salacağam.
Mən həmişəyaşıl şam kimiyəm,
Sənin bar verməyin Məndən gələcək.
9 Kim müdrikdirsə, bu sözləri dərk
etsin,
Kim dərrakəlidirsə, bunları başa
düşsün.
Çünki Rəbbin yolları düzdür.
Salehlər o yollarla gedir,
Ancaq üsyankarlar o yollarda
büdrəyir».

YOEL

PEYĞƏMBƏRİN KİTABI

GİRİŞ

Yoel peyğəmbər İsrailin üzərinə gələn çəyirtkələrin dəhşətli hücumundan və böyük quraqlıqdan danışır. Bu hadisələrdə o, Rəbbin gününü, Onun ədalətli hökmünə qarşı çıxanların cəzalandırılacağı vaxtın əlamətlərini görür. Peyğəmbər Allahın xalqını tövbəyə çağırır və Onun xalqına verdiyi xeyir-dualı vədləri yadına salır. Burada vacib fikir odur ki, Rəbb Öz Ruhunu bütün xalqın, o cümlədən qadın və kişilərin, gənc və qocaların üzərinə tökməyi vəd edir.

Kitabın məzmunu:

1:1–2:17 Çəyirtkə bəlası və tövbə çağırışı

2:18-27 Rəbbin cavabı və bərəkət vədi

2:28–3:21 Rəbbin günü

Məhv olmuş məhsul üçün yas

1 Petuelin oğlu Yoelə nazil olan
Rəbbin sözü budur:
[2] Ey ağsaqqallar, bunu dinləyin.
Ey bütün ölkə əhalisi, buna qulaq asın,
Sizin və atalarınızın dövründə
Belə bir şey olubmu?
[3] Siz bunu övladlarınıza danışın.
Övladlarınız da öz övladlarına,
Onların övladları isə gələcək nəslə danışsın.
[4] Kəsici çəyirtkələrdən qalanı qaynaşan çəyirtkə yedi,
Qaynaşan çəyirtkədən qalanı tullanan çəyirtkə yedi,
Tullanan çəyirtkədən qalanı dağıdıcı çəyirtkə yeyib-qurtardı.
[5] Ayılın, ey sərxoşlar və ağlayın.
Ey şirin şərab içənlər, hamınız nalə çəkin,
Ona görə ki, şirin şərab ağzınızdan alındı.
[6] [q]Çünki mənim torpağımın üzərinə
Qüvvətli və saysız-hesabsız bir millət gəldi.
Onların dişləri aslan dişləri kimidir,
Onlarda dişi aslanın köpək dişləri var.
[7] Tənəyimi məhv etdi,
Əncir ağacımı gəmirdi,
Qabıqlarını tamamilə soyub yerə atdı,
Budaqları ağ qaldı.
[8] Cavanlıqda nişanlısını itirən,
Büsbütün çul geyinən
Bir qız kimi yas tutun.
[9] Rəbbin evindən
Taxıl təqdimi və içmə təqdimi kəsildi,
Rəbbə xidmət edən kahinlər yas tutur.
[10] Zəmi viran qalıb, torpaq ağlayır,
Çünki taxıl zay oldu, təzə şərab qurudu,
Zeytun yağı qurtardı.
[11] Buğda və arpaya görə
Ey əkinçilər, utanın!
Ey bağbanlar, nalə çəkin!
Çünki torpağın məhsulları yoxa çıxdı,
[12] Tənək qurudu,
Əncir ağacı soldu,
Nar, xurma, alma,
Çölün bütün ağacları qurudu.
Görün ki, bəşər övladları arasından sevinc yox oldu.

Tövbəyə çağırın

[13] Ey kahinlər, çul geyinərək yas tutun!
Ey qurbangah xidmətçiləri, nalə çəkin!
Ey Allahıma xidmət edənlər,
Gəlin çulda gecələyin,
Çünki Allahınızın evindən

---

[q] **1:6** Vəhy 9:8

Taxıl təqdimi və içmə təqdimi yox
oldu.
14 Oruc üçün vaxt təyin edin,
Təntənəli toplantı çağırın.
Ağsaqqalları, ölkənin bütün əhalisini
Allahınız Rəbbin evinə yığın,
Rəbbə fəryad qoparın.
15 [r]Vay o günə!
Budur, Rəbbin o günü yaxındır,
O gün Külli-İxtiyar fəlakət gətirəcək.
16 O yemək gözlərimizin önündən,
Sevinc və şadlıq Allahımızın evindən
yox olmadımı?
17 Torpaq kəsəkləri altında toxumlar
çürüdü,
Zirzəmilər boş qaldı,
Anbarlar dağıldı,
Çünki taxıllar məhv oldu.
18 Heyvanlar necə də inildəyir,
Naxırlar çaşbaş qalıb,
Çünki onlar otlaqsız qalıb,
Sürülər də susuzluqdan əldən düşür.
19 Ya Rəbb, Sənə fəryad edirəm,
Çünki çölün otlaqlarını alov
yandırıb-yaxdı,
Bütün düzəngahın ağacları odda
qovruldu.
20 Çöl heyvanları da Səni çağırır,
Axı axar sular quruyub,
Çölün otlaqlarını alov yandırıb-yaxdı.

Rəbbin günü – qaranlıq və zülmət günü

2 Sionda şeypur çalın,
Müqəddəs dağımda bərkdən çalın.
Qoy ölkənin bütün əhalisi titrəsin,
Çünki Rəbbin günü gəlir,
Həmin gün yaxındadır.
2 [s]Qaranlıq zülmətli bir gün!
Buludlu və qatı qaranlıq bir gün!
Bir qoşun gəlir
Dağlar üzərində yayılan dan kimi
Çoxsaylı və qüvvətli bir qoşun.
Elə bir qoşun ki,
Əzəldən bəri bunun kimisi
olmamışdır,
Bundan sonra da nəsillər boyu
olmayacaqdır.
3 Önlərindəki hər şeyi od
yandırıb-yaxır,
Arxada qalanları alov qovurur.
Önlərindəki Eden bağına bənzər
yerdir,
Arxalarında olansa izsiz bir səhradır,
Heç nə onlardan qaçıb qurtara bilmir.
4 [t]Onlar görkəmcə ata bənzəyir.
Atlar necə çapırlarsa,
Onlar da eləcə çapırlar.
5 Döyüş arabalarına bənzəyən səslə,
Küləşi yandırıb-yaxan od-alovun səsi
ilə,
Dağların zirvələri üzərindən
tullanırlar.
Onlar hücum üçün düzülən güclü bir
qoşuna bənzəyirlər.
6 [u]Onların qarşısında xalqlar sanki
ağrı çəkir,
Bütün üzlər solur.
7 Qaçırlar igidlər kimi,
Divara dırmaşırlar cəngavərlər kimi.
Hamı nizamla gedir sırasını
pozmadan.
8 Heç kim yoldaşını tapdalamadan
Yolundan çıxmır.
Silahlar sırasını yarıb-keçirlər,
Lakin salamat qalırlar.
9 Şəhərə doğru qaçışır,
Divarlardan atlanıb evlərə soxulurlar,
Quldur kimi pəncərələrdən girirlər.
10 [v]Qarşılarında yer sarsılır,
Göylər lərzəyə gəlir,
Günəş və ay qaralır,
Ulduzlar işıqlarını gizlədir.
11 [w]Rəbb Öz ordusu önündə səs salır:
Ordularının sayı-hesabı yoxdur.

---

[r]**1:15** Yeş. 13:6 [s]**2:2** Sef. 1:15; Çıx. 10:14 [t]**2:4** Vəhy 9:7-9
[u]**2:6** Nah. 2:10 [v]**2:10** Vəhy 8:12 [w]**2:11** Vəhy 6:17

Onun sözünü yerinə yetirənlər
güclüdür.
Rəbbin günü möhtəşəm və çox
dəhşətlidir.
Buna kim dözə bilər?

Rəbbə dönün

12 Rəbb belə bəyan edir:
«İndi isə orucla, ağlamaqla, yas
tutmaqla
Bütün qəlbinizlə Mənə dönün.
13 [x]Paltarlarınızı deyil, ürəyinizi
yırtın,
Allahınız Rəbbə tərəf qayıdın».
Çünki O, lütfkar və rəhmlidir,
Hədsiz səbirlidir, bol məhəbbətlidir,
Bəla göndərməz, rəhm edər.
14 Kim bilir, bəlkə rəhm edib dönər?
Sonra Allahınız Rəbbə
Taxıl və içmə təqdimlərini verəsiniz
deyə
Sizə bərəkət verər.
15 Sionda şeypur çalın,
Oruc üçün vaxt təyin edin,
Təntənəli toplantı çağırın.
16 Xalqı bir yerə yığın,
Camaatı təqdis edin,
Ağsaqqalları yığın,
Uşaqları və südəmər çağaları toplayın.
Bəy öz otağından,
Gəlin də öz gərdəyindən çıxsın.
17 Rəbbə xidmət edən kahinlər
Məbədin eyvanı ilə qurbangah
arasında ağlayıb desin:
«Ya Rəbb, xalqına qıyma,
Öz irsini rüsvay olmağa qoyma!
Qoyma onlar millətlərin dilinə
düşsün.
Axı nə üçün xalqlar arasında belə
deyilsin:
“Bəs hanı onların Allahı?”»

Rəbbin cavabı və bərəkət vədi

18 O zaman Rəbb Öz torpağına
qıymayacaq,
Öz xalqına rəhm edəcək.
19 Rəbb xalqına belə cavab verəcək:
«Budur, sizə taxıl,
Təzə şərab və zeytun yağı
göndərəcəyəm,
Bunlarla doyacaqsınız,
Artıq sizi millətlər arasında rüsvay
etməyəcəyəm.
20 Şimal tərəfdən gələn ordunu sizdən
uzaqlaşdıracağam.
Onu quraq, izsiz bir yerə,
Qarşıdakı ordunu Şərq dənizinə, *
Arxadan gələnləri isə Qərb dənizinə
aparacağam. †
Onların cəsədlərinin pis iyləri ətrafa
yayılacaq».
Həqiqətən, Rəbb böyük işlər gördü.
21 Qorxma, ey torpaq, sevin, fərəhlən.
Bu böyük işləri görən Rəbdir.
22 Qorxmayın, ey çöl heyvanları,
Çünki çölün otlaqları göyərir.
Ağac meyvəsi ilə yüklənir,
Əncir ağacı, tənək bəhrələrini verir.
23 Ey Sion xalqı,
Allahınız Rəbdə sevinin və şadlanın,
Çünki payız yağışını sizə kifayət
qədər verir. ‡
Əvvəlki kimi payız yağışı ilə
Yaz yağışını yağdırır.
24 Xırmanlar taxılla dolu olacaq,
Təknələr təzə şərab və zeytun yağı ilə
daşacaq.
25 «Aranıza göndərdiyim böyük
qoşunumun –
Kəsici çəyirtkənin, qaynaşan
çəyirtkənin,

---

*2:20 *Şərq dənizi* – Ölü dəniz.
†2:20 *Qərb dənizi* – Aralıq dənizi.
‡2:23 *Payız yağışını sizə kifayət qədər verir* – yaxud *sizə salehliyi öyrədən müəllimi verir*.

[x]2:13 Çıx. 34:6; Say. 14:18; Neh. 9:17; Zəb. 86:15; 103:8; 145:8; Yun. 4:2

Tullanan çəyirtkənin və dağıdıcı çəyirtkənin
Yeyib-qurtardığı illərin əvəzini verəcəyəm.
26 Bol-bol, doyunca yeyəcəksiniz,
Sizin üçün möcüzəli şeylər edən
Allahınız Rəbbin adına şükürlər edəcəksiniz.
Xalqım əbədi olaraq rüsvay olmayacaq.
27 Onda biləcəksiniz ki,
Mən İsrailin arasındayam,
Allahınız Rəbb Mənəm,
Başqası yoxdur.
Xalqım əbədi olaraq rüsvay olmayacaq.

Rəbbin günü

28 [y]Ondan sonra isə
Bütün bəşər üzərinə Ruhumu tökəcəyəm.
Oğullarınız və qızlarınız peyğəmbərlik edəcək,
Ağsaqqallarınız röyalar,
Cavanlarınızsa görüntülər görəcək.
29 O günlərdə qul və qarabaşların üzərinə də
Ruhumu tökəcəyəm.
30 Göylərdə və yerdə əlamətlər göstərəcəyəm:
Qan, alov və tüstü dirəkləri görünəcək.
31 [z]Rəbbin möhtəşəm və dəhşətli günü gəlməzdən əvvəl
Günəş qaranlığa və ay qan rənginə dönəcək.
32 [a]Amma Rəbbin adını çağıran hər kəs xilas olacaq,
Çünki Rəbbin dediyi kimi
Sion dağında və Yerusəlimdə qurtuluş olacaq,
Rəbbin çağırdığı sağ qalanlar arasında olacaq.

Rəbb millətləri mühakimə edir

3 O günlərdə Yəhuda və Yerusəlimin
Sərvətlərini geri qaytardığım zaman
2 Bütün millətləri yığıb
Yehoşafat [*]vadisinə endirəcəyəm.
İrsim və xalqım İsraildən ötrü
Orada millətləri mühakimə edəcəyəm,
Çünki xalqımı millətlər arasında dağıtdılar,
Torpağımı da böldülər.
3 Xalqım üçün püşk atdılar,
Oğlan uşaqlarını fahişə əvəzinə verdilər,
İçki içsinlər deyə
Qızları şəraba satdılar».
4 [b]«Ey Surlular, Sidonlular və bütün Filişt vilayətlərinin əhalisi, siz kimsiniz ki, Məndən qisas alasınız. Əgər siz Məndən qisas alsanız, çox tezliklə Mən sizin etdiyinizin əvəzini öz başınıza döndərəcəyəm. 5 Siz qızılımı və gümüşümü aldınız və qiymətli şeylərimi məbədlərinizə apardınız, 6 Yəhuda və Yerusəlim xalqını öz vətənlərindən uzaqlaşdırmaq üçün Yunan xalqına satdınız. 7 Amma Mən onları satdığınız yerdən götürəcəyəm, etdiyinizin əvəzini öz başınıza döndərəcəyəm.
8 Oğul-qızlarınızı Yəhuda xalqına satacağam və Yəhuda xalqı isə onları ucqar bir millətə – Səbalılara satacaq». Rəbb belə söylədi.
9 «Millətlər arasında bunu elan edin:
Döyüşə hazırlaşın,

[*]**3:2** *Yehoşafat* – ibrani dilində *Rəbb mühakimə edir.*

[y]**2:28** Həv. 2:16-21 [z]**2:31** Mat. 24:29; Mark 13:24-25; Luka 21:25; Vəhy 6:12-13
[a]**2:32** Rom. 10:13
[b]**3:4** Yeş. 23:1-18; Yez. 26:1–28:26; Amos 1:9-10; Zək. 9:2-4; Mat. 11:20-22; Luka 10:13-14; Yeş. 14:29-31; Yer. 47:1-7; Yez. 25:15-17; Amos 1:6-8; Sef. 2:4-7; Zək. 9:5-7

İgidləri qızışdırın,
Bütün döyüşçülər yaxınlaşıb yuxarı çıxsın.
10 [c]Kotanlarınızdan qılınc,
Dəryazlarınızdan nizə düzəldin.
Qoy zəif olan "güclüyəm" desin.
11 Tələsin, ey hər tərəfdəki millətlər,
Gəlin və toplaşın.
Ya Rəbb, igidlərini oraya endir.
12 Millətlər hərəkətə gələrək
Yehoşafat vadisinə çıxsın,
Çünki hər tərəfdəki bütün millətləri
Mühakimə etmək üçün orada oturacağam.
13 [d]Oraq çalın,
Çünki məhsul yetişib.
Gəlin ayağınızla əzin,
Çünki üzümsıxanlar doludur,
Təknələr daşır.
Çünki onların pisliyi böyükdür».
14 Kütlələr, mühakimə vadisində olan kütlələr,
Çünki mühakimə vadisində Rəbbin günü yaxındır!
15 Günəş və ay qaralır,
Ulduzlar işıqlarını gizlədir.
16 [e]Rəbb Siondan nərə çəkəcək,
Yerusəlimdən guruldayacaq,
Göy və yer sarsılacaq.
Lakin Rəbb Öz xalqı üçün sığınacaq yer,
İsrail övladları üçün qala olacaq.

Allahın Öz xalqına xeyir-duası

17 «O zaman biləcəksiniz ki,
Müqəddəs dağım Sionda məskən salan
Allahınız Rəbb Mənəm!
Yerusəlim müqəddəs olacaq,
Artıq yadellilər oradan keçməyəcək.
18 O gün belə olacaq:
Dağlardan şirin şərab damacaq,
Təpələrdən süd axacaq,
Yəhudanın bütün dərələrində sular axacaq.
Rəbbin evindən bir qaynaq çıxacaq,
Əbrişimlər [*]vadisini sulayacaq.
19 Yəhuda xalqına qəddarlıq etdiyinə,
Torpaqlarında günahsız qan tökdüyünə görə
Misir viran qalacaq,
Edom izsiz bir səhra olacaq.
20 Lakin Yəhuda əbədi qalacaq,
Yerusəlim nəsildən-nəslə keçəcək.
21 Onların tökdüyü qanları
İndiyə qədər bağışlamamışam,
Lakin bundan sonra bağışlayacağam.
Rəbb Sionda məskən salır».

---

[*]**3:18** *Əbrişimlər* – ibrani mətnində *Şittim*.

[c]**3:10** Yeş. 2:4; Mik. 4:3 [d]**3:13** Vəhy 14:15; Vəhy 14:19-20; 19:15
[e]**3:16** Yer. 25:30; Amos 1:2

AMOS

PEYĞƏMBƏRİN KİTABI

GİRİŞ

«Amos» Kitabı miladdan əvvəl VIII əsrin ortalarında yaşayan Amos peyğəmbərin ədalətsizliyə qarşı mübariz sözlərindən bəhs edir. Əhdi-Ətiqdə Musa peyğəmbərdən sonra sözləri ətraflı şəkildə göstərilən ilk peyğəmbər Amosdur. Amos yəhudalı idi, amma o, İsrailin şimal padşahlığına qarşı öz səsini qaldırırdı. Çünki bu dövrdə ədalətsizlik və yoxsulların istismarı bahasına firavan və arxayın yaşayan insanların ruhani aləmi təmiz deyildi. İnsanlar özlərini sədaqətli göstərirdi, lakin onların mənəviyyatı yox idi.

Amos peyğəmbər cəsarətlə deyirdi ki, Allah Öz xalqını cəzalandıracaq:

«Lakin qoy ədalət sular kimi tökülsün,
Salehlik davamlı sel kimi axsın!»
(5:24),

«Bəlkə Ordular Allahı Rəbb
Qalan Yusif övladlarına lütf edər»
(5:15).

Kitabın məzmunu:

1:1–2:5 İsrailin qonşularının cəzalandırılması

2:6–6:14 İsraillilərin cəzalandırılması

7:1–9:15 Beş görüntü

1 [f]Bu, Teqoada sürü sahiblərindən biri olan Amosun sözləridir. O, Yəhuda padşahı Uzziyanın və İsrail padşahı Yoaş oğlu Yarovamın dövründə – böyük zəlzələdən iki il qabaq İsrail barədə belə görüntü görmüşdü. 2 [g]Amos belə dedi:

«Rəbb Siondan nərə çəkir,
Yerusəlimdən guruldayır.
Bundan otlaqlar solur,
Karmel dağının başı quruyur.

Rəbbin Aramlılara verəcəyi cəza

3 [h]Rəbb belə deyir:
"Dəməşqlilərin üç-dörd qat günahına görə
Onları cəzasız buraxmayacağam,
Çünki onlar Gileadı dəmirdişli vəllərlə döydü.
4 Buna görə də Xazaelin sarayına od yağdıracağam ki,
Ben-Hadadın qalalarını yandırıb-yaxsın.
5 Dəməşqin darvazalarının sürgülərini qıracağam,
Aven dərəsindən əhalini silib-atacağam,
Bet-Edendən əsa gəzdirəni kəsəcəyəm,
Aram xalqı Qirə sürgünə aparılacaq"
Rəbb belə deyir.

Rəbbin Filiştlilərə verəcəyi cəza

6 [i]Rəbb belə deyir:
"Qəzzəlilərin üç-dörd qat günahına görə
Onları cəzasız buraxmayacağam.
Çünki onlar bütün camaatı əsir edib Edoma təslim etdi.
7 Buna görə də Qəzzənin divarlarına od yağdıracağam ki,
Oranın qalalarını yandırıb-yaxsın.
8 Aşdoddan əhalini silib-atacağam,
Aşqelondan əsa gəzdirəni kəsəcəyəm.
Eqrona qarşı əlimi qaldıracağam,
Qalan Filiştlilər də yox olacaqlar"
Xudavənd Rəbb belə deyir.

Rəbbin Surlulara verəcəyi cəza

9 [j]Rəbb belə deyir:
"Surluların üç-dörd qat günahına görə

---

[f] **1:1** 2Pad. 15:1-7; 2Saln. 26:1-23; 2Pad. 14:23-29
[g] **1:2** Yer. 25:30; Yoel 3:16 [h] **1:3** Yeş. 7:1-3; Yer. 49:23-27; Zək. 9:1 [i] **1:6** Yeş. 14:29-31; Yer. 47:1-7; Yez. 25:15-17; Yoel 3:4-8; Sef. 2:4-7; Zək. 9:5-7 [j] **1:9** Yeş. 23:1-18; Yez. 26:1–28:19; Yoel 3:4-8; Zək. 9:2-4; Mat. 11:20-22; Luka 10:13-14

Onları cəzasız buraxmayacağam,
Çünki onlar bütün camaatı Edoma
əsir edib qardaşlıq əhdini pozdu.
10 Buna görə də Surun divarlarına od
yağdıracağam ki,
Oranın qalalarını yandırıb-yaxsın”.

Rəbbin Edomlulara verəcəyi cəza

11 [k]Rəbb belə deyir:
“Edomluların üç-dörd qat günahına
görə
Onları cəzasız buraxmayacağam,
Çünki onlar mərhəmət hissini qılıncla
boğub qardaş xalqı qovdular,
Heç vaxt azğınlıqlarının qarşısını
almadılar və yırtıcılıq etdilər.
12 Buna görə də Temana od
yağdıracağam ki,
Bosranın qalalarını yandırıb-yaxsın”.

Rəbbin Ammonlulara verəcəyi cəza

13 [l]Rəbb belə deyir:
“Ammonluların üç-dörd qat günahına
görə
Onları cəzasız buraxmayacağam,
Çünki onlar ərazilərini genişləndirmək
üçün
Gileadda hamilə qadınların
qarınlarını yırtdılar.
14 Buna görə də Rabbanın divarına od
vuracağam ki,
Oranın qalalarını yandırıb-yaxsın.
Bu yer döyüş zamanı qışqırtı ilə,
Qasırğa günü fırtına ilə dağılacaq.
15 Onların padşahları ilə başçıları
Birgə sürgünə aparılacaq” Rəbb belə
deyir.

Rəbbin Moavlılara verəcəyi cəza

2 [m]Rəbb belə deyir:
“Moavlıların üç-dörd qat günahına
görə
Onları cəzasız buraxmayacağam,
Çünki onlar Edom padşahının
sümüklərini yandırıb əhəng
hazırladı.
2 Buna görə də Moava od
yağdıracağam ki,
Qeriyotun qalalarını yandırıb-yaxsın.
Moav qışqırtı və şeypur səsi altında,
Səs-küylə məhv olacaq.
3 Onların arasından hakimləri
kəsib-atacağam,
Bütün başçılarını da öldürəcəyəm”
Rəbb belə deyir.

Rəbbin Yəhudalılara verəcəyi cəza

4 Rəbb belə deyir:
“Yəhudalıların üç-dörd qat günahına
görə
Onları cəzasız buraxmayacağam,
Çünki onlar Rəbbin qanununa xor
baxıb qaydalarına riayət etmədi,
Atalarının sitayiş etdiyi saxta bütlər
onları da yollarından azdırdı.
5 Buna görə də Yəhudaya od
yağdıracağam ki,
Yerusəlimin qalalarını
yandırıb-yaxsın”.

Rəbbin İsraillilərə verəcəyi cəza

6 Rəbb belə deyir:
“İsraillilərin üç-dörd qat günahına
görə
Onları cəzasız buraxmayacağam,
Çünki onlar düz adamları pula,
Möhtacları da bir cüt çarığa satır,
7 Yoxsulları toz-torpağın içinə salıb
əzir,
Məzlumlara yol vermir.
Ata və oğul eyni qızla yatıb
Müqəddəs adımı ləkələyir.
8 İsraillilər hər qurbangahın yanında

---

[k]**1:11** Yeş. 34:5-17; 63:1-6; Yer. 49:7-22; Yez. 25:12-14; 35:1-15; Avd. 1-14; Mal. 1:2-5 [l]**1:13** Yer. 49:1-6; Yez. 21:28-32; 25:1-7; Sef. 2:8-11
[m]**2:1** Yeş. 15:1–16:14; 25:10-12; Yer. 48:1-47; Yez. 25:8-11; Sef. 2:8-11

Girov götürdükləri paltarın üzərində
yatır,
Özlərinin Allahının məbədində
Cərimə üçün gətirilən şərabı içirlər.
9 [n]Amma Mən sidr ağacı kimi hündür,
Palıd ağacı kimi möhkəm olan
Emorluları qarşınızda yox etdim,
Yuxarıdan bəhrəsini, aşağıdan kökünü
kəsdim.
10 Mən sizi Misir torpağından çıxarıb
Qırx il çöldə gəzdirmişdim ki,
Siz Emorluların torpağına sahib
olasınız.
11 [o]Oğullarınızdan peyğəmbərlər,
Cavanlarınızdan Nəzirilər təyin
etdim.
Ey İsraillilər, bu belə deyilmi?" Rəbb
bəyan edir.
12 "Siz isə Nəzirilərə şərab içirdiniz,
Peyğəmbərlərə ‹peyğəmbərlik etmə›
əmri verdiniz.
13 Dərzlə dolu olan araba torpağı necə
əzirsə,
Mən də sizi elə əzəcəyəm.
14 Bərk qaçan qaça bilməyəcək,
Qüvvətli isə gücünü göstərə
bilməyəcək.
İgid canını qurtara bilməyəcək,
15 Yay çəkən də mövqe tuta
bilməyəcək.
Ayaqdan çevik olan qurtula
bilməyəcək,
Süvari də canını qurtara bilməyəcək.
16 Hətta ən igid döyüşçü belə,
O gün əliyalın qaçacaq" Rəbb belə
bəyan edir.

3 Ey İsraillilər! Rəbbin əleyhinizə
dediyi sözü dinləyin! Misir
torpağından çıxardığı bu nəslin
hamısına belə deyir:
2 "Yer üzündəki nəsillərin arasında
yalnız sizinlə ünsiyyət
yaratmışam.
Ona görə Mən bütün cəzanızı öz
başınıza gətirəcəyəm".

Peyğəmbərlik işi

3 İki nəfər razılaşıb görüşməsə,
Birgə yol gedərmi?
4 Şikarı olmayan şir
Meşədə nərə çəkərmi?
Heç nə ovlamamış gənc aslan
Yuvasında nərildəyərmi?
5 Yerdə tələ qurub yem qoyulmazsa,
Oraya quş düşərmi?
Bir şey tutmayan tələ
Yerindən atılarmı?
6 Şəhərdə şeypur çalınarsa,
Xalq qorxuya düşməzmi?
Əgər Rəbb bəla göndərməsə,
Hansısa bir şəhərə bəla gələrmi?
7 Həqiqətən, Xudavənd Rəbb qulu
olan peyğəmbərlərə
Öz niyyətini açmadan heç nə etmir.
8 Şir nərə çəkəndə
Kim ondan qorxmaz?
Xudavənd Rəbb söyləyəndə
Kim peyğəmbərlik etməz?

Samariyanın taleyi

9 Aşdodun qalalarında,
Misir torpağının qalalarında belə elan
edin:
"Samariya dağlarının üzərinə yığılın.
Oradakı böyük qarışıqlığı,
Onun içindəki təzyiqi görün".
10 Rəbb bəyan edir:
"Hətta düz iş görməyi bacarmırlar.
Onlar qalalarına zorakılıqla,
Soyğunçuluqla qənimət yığır".
11 Ona görə də Xudavənd Rəbb belə
deyir:
"Düşmən gəlib ölkəni mühasirəyə
alacaq,
Səni gücdən salıb qalalarını qarət
edəcək".
12 Rəbb belə deyir:

---

[n]**2:9** Qanun. 3:8-11 [o]**2:11** Say. 6:1-8

"Çoban şir ağzından necə iki bud
sümüyü
Yaxud qulağın bir parçasını çəkib
qurtararsa,
Samariyada divan üzərində,
Dəməşqdə yataqda oturan
İsrail övladları da eləcə xilas olacaq".
13 "Buna qulaq asın!
Yaqub nəslinə xəbərdarlıq edin!"
Ordular Allahı Xudavənd Rəbb belə
deyir.
14 p"Mən İsraillilərə günahlarına görə
cəza verəcəyim gün
Bet-Eldəki qurbangahı da
cəzalandıracağam.
O qurbangahın buynuzları kəsilib
yerə tullanacaq.
15 Mən qış sarayı ilə yay sarayını
yıxacağam,
Fil sümüyü ilə bəzənmiş evlər
dağılacaq,
Böyük saraylar viran qalacaq" Rəbb
belə bəyan edir.

4 Ey sizlər, Samariya dağında
bəslənən Başan inəkləri!
Bu sözü dinləyin, ey yoxsullara zülm
edən,
Möhtacları sıxışdıran, ərlərinə "gətir
içək" deyən qadınlar!
2 Xudavənd Rəbb Öz müqəddəsliyi
naminə belə and içmişdir.
"Budur, üstünüzə elə vaxt gəlir ki,
Hamınız balıq kimi çəngəllərlə
çəkiləcəksiniz,
Tilovlarla tutulacaqsınız.
3 Hər biriniz qarşısındakı
dəlmə-deşikdən çıxarılacaq,
Harmona tərəf atılacaqsınız" Rəbb
belə bəyan edir.

İsrailin inadkarlığı

4 "Bet-Elə gedib günah işlədin!
Qilqala gəlib günahlarınızı çoxaldın!
Hər səhər qurbanlarınızı gətirin,
Hər üç gündən bir qazancınızın onda
birini verin.
5 Təşəkkür üçün mayalı çörək yandırıb
təqdim edin,
Öz könüllü təqdimlərinizlə öyünün.
Ey İsraillilər, sizin xoşunuza gələn
budur!" Xudavənd Rəbb belə
bəyan edir.
6 "Mən bütün şəhərlərinizdə ağzınızı
boş qoydum. Hər yerdə sizə çörək qıtlığı
verdim. Lakin yenə Mənim tərəfimə
dönmədiniz" Rəbb belə bəyan edir.
7 "Mən biçin vaxtına üç ay qalmış
sizdən yağışı kəsdim. Bir şəhərin
üzərinə yağış yağdırdım, o birinin isə
üzərinə yağdırmadım. Yağış bir əkin
üzərinə yağdı, o birinin isə üzərinə
yağmadığına görə o qurudu. 8 İki-üç
şəhər su içmək üçün bir şəhərə getdi,
doyunca su içmədi. Lakin yenə Mənə
tərəf dönmədiniz" Rəbb belə bəyan edir.
9 "Əkininizə səmum küləyi və
kif göndərərək sizə zərər vurdum.
Bağlarınızı və üzümlüklərinizi, əncir və
zeytun ağaclarınızı çəyirtkə yedi. Lakin
yenə Mənə tərəf dönmədiniz" Rəbb belə
bəyan edir.
10 "Misirdə olduğu kimi aranıza
vəba göndərdim. Cavanlarınızı
qılıncla öldürtdüm. Atlarınızı sürüb
apartdırdım. Ordunuzdan meyit iyini
burnunuza çatdırdım. Lakin yenə Mənə
tərəf dönmədiniz" Rəbb belə bəyan edir.
11 q"Mən Sodomla Homorranı necə
dağıtdımsa, sizdən bəzilərini də elə
məhv etdim. Siz oddan götürülən odun
kimi sağ qaldınız. Lakin yenə Mənə tərəf
dönmədiniz" Rəbb belə bəyan edir.
12 "Ey İsraillilər, buna görə də sizinlə
belə rəftar edəcəyəm. Bu rəftarıma görə
Allahınızı qarşılamağa hazır olun, ey
İsraillilər!"
13 Odur dağlara quruluş verən, küləyi
yaradan,

---

p**3:14** 2Pad. 23:15 q**4:11** Yar. 19:24

Nə düşündüyünü insana bildirən,
Dan işığını qaranlıq edən,
Yer üzünün yüksək yerlərinə ayaq basan –
Onun adı Ordular Allahı Rəbdir.

İsrail üçün mərsiyə

5 Ey İsrail nəsli, sizin barənizdə mərsiyə kimi oxuduğum bu sözləri dinləyin!
2 "İsrail zorlanmış bir qız kimi yıxılıb,
Bir daha qalxmayacaq.
Öz torpağı üstə atılıb,
Onu qaldıran yoxdur".
3 Çünki Xudavənd Rəbb belə deyir:
"Bir şəhərdən min nəfər döyüşə çıxsa,
Yüz nəfəri sağ qalacaq,
Yüz adam döyüşə çıxsa,
İsrail nəslindən on nəfər sağ qalacaq".

İsrail bəladan necə qurtara bilər

4 Rəbb İsrail nəslinə belə deyir:
"Mənə tərəf dönün ki, sağ qalasınız!
5 Bet-Elə dönməyin,
Qilqala getməyin,
Beer-Şevaya keçməyin,
Çünki sürgün olunmaq hökmən Qilqala gəlir,
Bet-El bir heçə dönəcək".
6 Rəbbə tərəf dönün ki, sağ qalasınız!
Yoxsa O, Yusif nəslini od kimi yandırıb-yaxacaq,
Bet-Eldəki odu söndürən olmayacaq.
7 Ey ədaləti çevirib acı yovşan edənlər,
Ey salehliyi yerə vurub tapdalayanlar!
8 [r]Odur Ülkər və Orion bürclərini yaradan,
Qaranlığı aydın səhərə çevirən,
Gündüzü gecə edib qaraldan,
Dəniz sularını götürüb yer üzünə tökən –
Onun adı Rəbdir.
9 Güclüləri ildırım kimi məhv edər,
Qalalarını viran edər.
10 Siz isə haqsızlığa etirazını bildirənlərə,
Düz danışanlara nifrət edirsiniz.
11 Kasıbı ayaq altına saldığınıza görə,
Ondan taxıl qopardığınıza görə
Yonulmuş daşdan evlər tikib
Onların içində yaşamayacaqsınız.
Gözəl üzümlüklər salıb
Onların şərabını içməyəcəksiniz.
12 Çünki cinayətlərinizin çox,
Günahlarınızın ağır olduğunu bilirəm.
Ey salehi incidənlər, rüşvət alanlar,
Möhtacların haqqını tapdalayanlar!
13 Bu zəmanə o qədər pisdir ki,
Ağlı başında olan susur.
14 Pislikdən yaxşılığa dönün ki, sağ qalasınız!
Beləcə iddia etdiyiniz kimi
Ordular Allahı Rəbb,
Həqiqətən, sizə yar olacaq.
15 Pisliyə nifrət edin,
Yaxşılığı sevin,
Məhkəmədə ədalətə üstünlük verin.
Bəlkə Ordular Allahı Rəbb
Qalan Yusif övladlarına lütf edər.

İsrail üçün fəğan

16 Ordular Allahı Xudavənd Rəbb belə deyir:
"Bütün meydanlardan fəğan qopacaq,
Bütün küçələrdə ah-zar edəcəklər.
Fəğan edən mərsiyə oxuyanlarla
Kəndlilər yas tutmağa çağırılacaqlar.
17 Bütün üzüm bağlarından da fəğan qopacaq,
Çünki aranızdan Mən keçəcəyəm" Rəbb belə deyir.

İsrailin saxta inamının aqibəti

18 Vay halınıza, ey Rəbbin gününün həsrətini çəkənlər!
Rəbbin günü siz nə əldə edəcəksiniz?
İşıq yox, qaranlıq.

---

[r]**5:8** Əyy. 9:9; 38:31

19 Şirdən qaçan adamın qarşısına ayı
necə çıxarsa
Yaxud evə gəlib əlini divara dayayanı
ilan necə çalarsa,
20 Rəbbin günü də eləcə işıq yox,
qaranlıq olmayacaqmı?
O, zülmətdir, onda nur yoxdur.
21 [s]Rəbb belə deyir:
"Bayramlarınıza nifrət edirəm,
Xor baxıram,
Təntənəli toplantılarınızdan
iyrənirəm.
22 Mənə yandırma qurbanlarınızı,
Taxıl təqdimlərinizi gətirsəniz də, razı
qalmayacağam.
Mənə kökəldilmiş heyvanlarınızdan
Ünsiyyət qurbanı təqdim etsəniz də,
Onlara nəzər salmayacağam.
23 Gurultulu ilahilərinizi Məndən
uzaq edin!
Çənglərinizin səsinə qulaq
asmayacağam.
24 Lakin qoy ədalət sular kimi
tökülsün,
Salehlik davamlı sel kimi axsın!
25 [t]Ey İsrail nəsli,
Qırx il çöldə olanda Mənə qurban və
təqdimlər gətirmişdinizmi?
26 Öz düzəltdiyiniz saxta Sakkut
padşahınızı,
Kiyun bütlərinizi, ulduz allahlarınızı
gəzdirmişdinizmi?
27 Elə buna görə də sizi
Dəməşqin o tayına sürgünə
aparacağam" Rəbb belə deyir.
Onun adı Ordular Allahıdır.

İsrailin nahaq yerə gücə arxalanması

6 Vay halınıza, ey Sionda laqeyd
olanlar,
Samariya dağında arxayın oturanlar,
İsrail nəslinin müraciət etdiyi
Millətlər arasında adlı-sanlılar!
2 Kalneyə keçib görün,
Oradan böyük Xamata gedin,
Filiştlilərin Qat şəhərinə gəlin.
Onların halı bu ölkələrdən daha
yaxşıdırmı?
Onların ərazisi sizinkindən
böyükdürmü?
3 Vay halınıza, ey bəla gününü uzaq
sanıb
Zorakılığı taxtına yaxınlaşdıranlar!
4 Ey fil dişi ilə bəzənmiş çarpayılarda
yayxanıb,
Yataqlarda uzanıb,
Sürüdəki quzulardan,
Axurun yanındakı danalardan
götürüb yeyənlər!
5 Çəng çalıb bədahətən oxuyanlar,
Guya Davud kimi musiqi alətləri ilə
nəğmə deyənlər,
6 Piyalə-piyalə şərab içənlər,
Bədənlərinə əla yağlar sürtənlər,
Lakin Yusif nəslinin qırğınına görə
Narahat olmayanlar!
7 Bundan ötrü indi sürgünə
Başda siz gedəcəksiniz.
Keflənib yayxananların ziyafəti başa
çatacaq.
8 Xudavənd Rəbb Öz haqqına and içir,
Ordular Allahı Rəbb bəyan edir:
"Yaqub nəslinin qüruruna nifrət
edirəm,
Qalalarından zəhləm gedir.
İçində olanlarla birlikdə
Paytaxtlarını təslim edəcəyəm".
9 Əgər bir evdə on nəfər qalsa, onlar
da öləcək. 10 Ölən bir nəfərin qohumu
onun cəsədini götürüb yandırmaq üçün
gələcək. Evin içində olana "Yanında
kim var?" deyə soruşanda, o da "heç
kim" söyləyəcək. Onda o qohum belə
deyəcək: "Sus, Rəbbin adını çəkmək
olmaz". 11 Çünki Rəbb əmr edəndə
böyük evlər parça-parça olub yıxılacaq,
kiçik komalar da qırıq-qırıq olub
dağılacaq.

---

[s]**5:21** Yeş. 1:11-14 [t]**5:25** Həv. 7:42-43

12 Qaya üzərində atlar çaparmı?
Orada kim öküzlərlə kotan sürər?
Siz isə ədaləti zəhərə döndərmisiniz,
Bəraəti də acıya çevirmisiniz.
13 Ey Lo-Devarı *tutub "Qarnayimi
†öz gücümüzlə almadıqmı?" deyərək
lovğalananlar! 14 Ordular Allahı Rəbb
belə bəyan edir: "Budur, ey İsrail nəsli!
Mən sizə qarşı bir millət çıxarıram.
Xamat keçidindən Arava vadisinə qədər
onlar sizə zülm edəcək".

Çəyirtkə sürüsü barədə görüntü

7 Xudavənd Rəbb mənə bu görüntünü göstərdi: budur, padşahın payı biçiləndən sonra əmələ gələn ot bitməyə başlayanda O, çəyirtkə sürüsü düzəldirdi. 2 Çəyirtkələr ölkədə bütün bitkiləri yeyib-qurtarmaq üzrə olanda mən dedim: "Ya Xudavənd Rəbb, yalvarıram, bağışla. Buna Yaqub nəsli necə dözər? Axı o kiçikdir". 3 Buna görə Rəbb bu niyyətdən döndü. Rəbb dedi: "Bu olmayacaq".

Alov barədə görüntü

4 Sonra Xudavənd Rəbb mənə bu görüntünü göstərdi: budur, Xudavənd Rəbb cəza vermək üçün alov çağırdı. Alov dənizləri dibindən udaraq torpağı da yandırıb-yaxmaq üzrə olanda 5 mən dedim: "Ya Xudavənd Rəbb, yalvarıram, əl saxla. Buna Yaqub nəsli necə dözər? Axı o kiçikdir". 6 Buna görə Rəbb bu niyyətdən də döndü. Xudavənd Rəbb dedi: "Bu olmayacaq".

Şaqul barədə görüntü

7 Sonra mənə bu görüntünü göstərdi: budur, Xudavənd şaqulla düz tikilmiş bir divarın yanında dayanıb. Onun əlində bir şaqul var idi. 8 Rəbb məndən soruşdu: "Amos, sən nə görürsən?" Mən cavab verdim: "Bir şaqul". Xudavənd dedi: "Budur, Mən xalqım İsraili yoxlamaq üçün aralarına bir şaqul qoyuram. Artıq onlardan əl çəkməyəcəyəm.
9 İshaqın nəslinin səcdəgahları xaraba qalacaq,
İsrailin Müqəddəs məkanları viran olacaq.
Yarovamın nəslinə qarşı qılıncla çıxacağam"».

Amos və Bet-El kahini Amasya

10 Bet-El kahini Amasya İsrail padşahı Yarovama belə xəbər göndərdi: «Amos İsrail nəsli arasında sənə qarşı qəsd hazırlayır. Onun sözlərinin öhdəsindən bu ölkə gələ bilməz. 11 Çünki Amos belə deyir:
"Yarovam qılıncdan keçirilib öləcək.
İsrail xalqı öz torpağından hökmən sürgünə aparılacaq"».
12 Sonra Amasya Amosa dedi: «Ey görücü, buradan get, Yəhuda torpağına qaç. Peyğəmbərliyini orada et, onların çörəyini ye. 13 Bir də Bet-Eldə peyğəmbərlik etmə, çünki bura padşahın müqəddəs məkanı və padşahlıq məbədidir».
14 Amos Amasyaya cavab verib dedi: «Mən nə peyğəmbərəm, nə də peyğəmbərin şagirdi. Mən yalnız bir çobanam, firon ənciri ağaclarını yetişdirirəm. 15 Mən sürü otaran idim, Rəbb məni götürüb belə dedi: "Get, xalqım İsrailə peyğəmbərlik et". 16 İndi isə Rəbbin sözünü dinlə. Sən "İsrailə qarşı peyğəmbərlik etmə və İshaq nəslinin əleyhinə vəz etmə" deyirsən.
17 Buna görə də Rəbb belə deyir:
"Sənin arvadın şəhərdə fahişəlik edəcək,

---

*6:13 *Lo-Devar* – ibrani dilində *heç nə.*
†6:13 *Qarnayim* – ibrani dilində *buynuzlar,* yəni *güclü.*

Oğulların və qızların qılıncdan
keçiriləcək,
Torpağın ölçülüb paylanacaq.
Sən isə yad eldə – murdar bir ölkədə
öləcəksən.
İsrail xalqı öz torpağından hökmən
sürgünə aparılacaq”.

Yay meyvəsi barəsində görüntü

8 Xudavənd Rəbb mənə belə bir
görüntü göstərdi: budur, bir səbət
yay meyvəsi gördüm. 2 O məndən
soruşdu: “Amos, sən nə görürsən?” Mən
cavab verdim: “Bir səbət yay meyvəsi”.
Rəbb mənə dedi:
“Xalqım İsrailin axır günü yetişib.
Artıq onlardan əl çəkməyəcəyəm.
3 Həmin gün saray nəğmələri fəryada
çevriləcək.
Meyit meyit üstə düşəcək, hər tərəfə
atılacaq.
Sonra sükut olacaq”.
Xudavənd Rəbb belə bəyan edir.

Allah İsrailə cəza verəcək

4 Siz, ey möhtacları tapdalayıb
əzənlər, ey kasıbların başını yeyənlər,
indi buna qulaq asın! 5 Deyirsiniz: “Təzə
Ay mərasimi nə vaxt sona çatacaq ki,
taxılı başqasına sataq? Şənbə günü
nə vaxt qurtaracaq ki, buğdanı satışa
qoyaq? Qoy ölçünü azaldaq, qiyməti
də artıraq, aldadıcı tərəzi quraq.
6 Qoy yoxsulları pula, möhtacları
bir cüt çarığa satın alaq, buğdanın
tör-töküntüsünü də sataq”.
7 Yaqubun fəxri olan Rəbb belə and
içmişdir: “Onların bütün işlərini heç
vaxt unutmayacağam”. 8 Bundan ötrü
deyilmi ki, yer titrəyəcək, orada yaşayan
hər kəs yasa batacaq? Bəli, bütün yer
Nil çayı kimi qabaracaq, Misirdəki Nil
çayı kimi coşandan sonra çəkiləcək.
9 Xudavənd Rəbb bəyan edir:
“Həmin gün günorta günəşi
batıracağam,
Yer üzündə gündüzü qaraldacağam.
10 Bayramlarınızı yasa döndərəcəyəm,
Bütün mahnılarınızı mərsiyəyə
çevirəcəyəm.
Hər kəsin belinə çul büründürəcəyəm,
Hər başın saçını qırxdıracağam.
Yeganə oğula yas tutulan kimi
O günü sona qədər acı edəcəyəm”.
11 Xudavənd Rəbb bəyan edir:
“Budur, elə günlər gələcək ki,
Ölkəyə qıtlıq göndərəcəyəm.
Bu günlərdə çörək və suyun qıtlığı
deyil,
Rəbbin sözlərinin qıtlığı olacaq.
12 İnsanlar Rəbbin sözünü axtaracaq.
Dənizdən-dənizə,
Şimaldan şərqə qədər
Sürətlə gəzib-dolaşacaqlar,
Lakin onu tapmayacaqlar.
13 Həmin gün gözəl qızlar, igid
oğlanlar
Susuzluqdan qəşş edəcəklər.
14 Samariyanın bütlərə and içib
‹Ey Dan, allahının haqqı!›,
‹Beer-Şevaya gedən yol haqqı!› deyən
adamlar
Yıxılacaq və bir daha qalxmayacaq”.

9 Xudavəndi qurbangah yanında
duran gördüm. O dedi:
“Sütun başlıqlarını elə vur ki,
Astanalar sarsılsın.
Binanı hamının başına uçur.
Sağ qalanları Mən qılıncdan
keçirəcəyəm.
Onlardan heç kim qaçıb qurtula
bilməz.
2 Ölülər diyarına girsələr belə,
Onları orada ələ keçirəcəyəm.
Göylərə qalxsalar belə,
Onları endirəcəyəm.
3 Karmel dağının təpəsində gizlənsələr
belə,
Onları axtarıb oradan götürəcəyəm.
Gözümdən yayınıb dənizin dibinə
girsələr belə,
İlana əmr edəcəyəm ki, onları sancsın.

[4] Düşmən önündə əsir aparılsalar belə,
Qılınca əmr edəcəyəm ki, onları qırsın.
Gözlərimi yaxşılıq üçün deyil,
Pislik üçün onların üzərinə dikəcəyəm”.
[5] Ordular Rəbbi Xudavənd toxunub yeri titrədər,
Orada yaşayan hər kəsi yasa batırar,
Bütün yer Nil çayı kimi qabarar,
Misirdəki Nil çayı kimi çəkilər.
[6] Otaqlarını göylərdə tikən,
Qübbəsini yer üzündə quran,
Dəniz sularını götürüb yer üzünə tökən Odur –
Onun adı Rəbdir.

Məhvdən sonra bərpa

[7] Rəbb bəyan edir: “Ey İsraillilər! Mənim üçün Kuşlular kimi deyilsinizmi? Siz İsraillilər Misir torpağından çıxaran kimi Filiştliləri Kaftordan, Aramlıları Qirdən çıxarmadımmı? [8] Budur, Xudavənd Rəbbin gözləri bu günahkar ölkəyə dikilir. Onları yer üzündən silib-atacağam. Amma Yaqub nəslini tamamilə silib-atmayacağam” Rəbb belə bəyan edir. [9] “Çünki, budur, Mən belə əmr edirəm: Mən İsrail nəslini bütün millətlər arasında xəlbirdən keçirəcəyəm. Xəlbirləyəndə bir çınqıl belə, yerə düşməyəcək. [10] Xalqımdan bütün günah işlədənlər, Mənə ‹bəla bizə yaxınlaşmaz, bizə rast gəlməz› deyənlərin hamısı qılıncdan keçiriləcək.

[11] [u]Həmin gün Davudun yıxılan çadırını bərpa edəcəyəm. Onun dəlmə-deşiklərini tutub cırılan yerlərini tikəcəyəm. Onu əvvəlki halına salacağam, [12] ona görə ki qalan Edomlulara və Mənim adımla çağırılan bütün millətlərə sahib olsunlar” Rəbb belə bəyan edir.

[13] Rəbb bəyan edir:
“Budur, elə günlər gələcək ki,
Kotan sürən biçinçiyə yetişəcək,
Üzüm sıxan meynə əkənlə rastlaşacaq,
Dağlardan şirin şərab damacaq,
Bütün təpələrdən də axacaq.
[14] Xalqım İsraili əsirlikdən qaytaracağam,
Viran şəhərləri tikib məskən salacaqlar.
Üzümlüklər əkib şərabını içəcəklər,
Bağlar salıb meyvəsindən yeyəcəklər.
[15] Onları özlərinin torpağında yerləşdirəcəyəm,
Onlara verdiyim torpaqdan bir daha kənara atılmayacaqlar” Allahın Rəbb belə deyir».

---

[u] **9:11** Həv. 15:15-18

AVDİYA

PEYĞƏMBƏRİN KİTABI

GİRİŞ

«Avdiya» Kitabı miladdan əvvəl 586-cı ildə Babillilərin Yerusəlimi zəbt etdiklərindən sonra yazılıb. Yəhudanın qədim düşməni Esavın nəslindən olan Edomlular Yerusəlimin süqutuna sevinib şəhərin talanmasında işğalçılara kömək etdilər. Avdiya peyğəmbər Edomun dağılması və məğlubiyyəti barədə peyğəmbərlik etmişdi.

Kitabın məzmunu:
1:1-14 Edomun cəzalandırılması
1:15-21 Rəbbin günü

1 [v]Bu, Avdiyaya zühur olan görüntüdür.

Edom üzərində Allahın məhkəməsi

Xudavənd Rəbb Edom barəsində belə deyir:
Biz Rəbdən xəbər eşitdik,
Millətlər arasına
«Qalxın, Edoma qarşı döyüşək!»
deyən qasid göndərildi.
2 «Bax səni millətlər arasında
kiçildəcəyəm,
Hamı sənə xor baxacaq.
3 Ey sən qaya [*]çatlarında məskən
salan,
Evini yüksəklərdə quran!
Ürəyinin qüruru səni aldatdı,
Çünki sən qəlbində "Məni kim yerə
yıxa bilər?" dedin.
4 Sən qartal kimi yuxarı uçub
Yuvanı ulduzlar arasında qursan da,
Səni oradan endirəcəyəm».
Rəbb bəyan edir.
5 «Əgər gecə yanına oğrular, quldurlar
gəlsəydi,
Ancaq öz istədikləri qədər
oğurlamazdılarmı?
Əgər üzüm yığanlar sənin bağına
gəlsəydi,
Bir neçə salxımı saxlamazdılarmı?
Amma gör səni nə cür müsibətlər
gözləyir!
6 Esavın hər şeyi talan ediləcək,
Gizli xəzinələri aşkara çıxarılacaq.
7 Sənlə əhd bağlayanların hamısı
Səni ölkəndən qovacaq,
Müttəfiqlərin səni aldadıb məğlub
edəcək.
Sənlə çörək yeyənlər sənə tələ
quracaq,
"Onun ağlı haradadır?" deyəcək».
8 Rəbb bəyan edir:
«O gün Edomun hikmətli adamlarını,
Esav dağındakı müdrikləri məhv
edəcəyəm.
9 Ey Teman, [†]igid adamların elə
qorxuya düşəcək ki,
Esav dağlarının hər sakini qırğında
öldürüləcək.
10 Qardaşın Yaquba etdiyin zorakılığa
görə
Sən xəcalət içində qalacaqsan,
Əbədi məhv olacaqsan. [‡]
11 Yadellilər onun sərvətini aparanda
Sən uzaqda durub tamaşa etdin.
Əcnəbilər onun şəhər darvazalarından
girib
Yerusəlim üçün püşk atanda
Sən də onlardan biri kimi davrandın.
12 Sən gərək Yəhudalı soydaşlarının

---

[*]**1:3** *Qaya* – ibrani mətnində *sela* kimi səslənir. Sela Edomun paytaxtının adı idi.
[†]**1:9** *Teman* – Edomun şəhərlərindən biri.
[‡]**1:10** Yaqubla Esav doğma qardaş idi. Yaqub İsraillilərin əcdadı idi. Esav Edomluların əcdadı idi.

[v]**1:1** Yeş. 34:5-17; 63:1-6; Yer. 49:7-22; Yez. 25:12-14; 35:1-15; Amos 1:11-12; Mal. 1:2-5

Bədbəxtlik günündən zövq almayaydın,
Həlak olduqları gün sevinməyəydin,
O əzablı gündə rişxənd etməyəydin,
13 Xalqımın fəlakətli günündə
Onların şəhər darvazalarından girməyəydin,
Başlarına bəla gələn gün
Onların fəlakətini sevinclə seyr etməyəydin,
Başlarına bəla gələn gün
Onların malına əl uzatmayaydın!
14 Sən gərək qaçan Yəhuda övladlarını öldürmək üçün
Yol ayrıcında dayanmayaydın,
O əzablı gün qurtulanları
Düşmənə təslim etməyəydin!

Rəbbin günü yaxınlaşır

15 Axı bütün millətlər üçün Rəbbin günü yaxınlaşır,
Ey Edom, sən nə cür etdinsə, sənə də belə ediləcək,
Əməllərinin əvəzi öz başına gələcək!
16 Çünki siz Mənim müqəddəs dağımda içdiyiniz kimi
Bütün xalqlar durmadan içəcək,
İçib yox olacaq,
Sanki əvvəldən yox idi.

İsrailin zəfəri

17 Lakin qurtuluş tapanlar
Sion dağına toplanacaq,
O dağ müqəddəs olacaq.
Yaqub nəsli mülkünə sahib olacaq!
18 Yaqub nəsli od,
Yusif nəsli alov,
Esav nəsli isə küləş olacaq,
Yaqub və Yusif nəsli
Esav nəslini yandırıb məhv edəcək.
Esav nəslindən qurtulan olmayacaq.
Çünki Rəbb belə söylədi.
19 Negev sakinləri Esav dağını,
Yamaclı-düzənlikli bölgədə yaşayanlar Filiştlilərin bölgəsini,
Yəhudalılar Efrayimlə Samariya torpaqlarını,
Binyaminlilər isə Gileadı zəbt edəcək.
20 Xalahda olan İsrail sürgünləri
Kənanın Sarfata qədər uzanan torpaqlarını,
Sefaradda olan Yerusəlim sürgünləri
Negev şəhərlərini zəbt edəcək.
21 Xalqı qurtaranlar Sion dağına çıxıb
Esav dağına hökm edəcək:
Rəbb səltənət sürəcək».

YUNUS

PEYĞƏMBƏRİN KİTABI

GİRİŞ

«Yunus» Kitabı Allahın əmrinə tabe olmaq istəməyən Yunus peyğəmbərin başına gələn əhvalatlardan bəhs edir. Allah ona möhtəşəm Aşşur imperatorluğunun paytaxtı Nineva şəhərinə getməyi buyurmuşdu. O dövrdə Aşşur İsrailin qatı düşməni idi. Buna görə də Yunus Allahın sözünü oradakılara çatdırmaq istəmirdi. Çünki o, Allahın rəhmli olmasına əmin idi. Bilirdi ki, Ninevalılar tövbə etsə, Allah onları məhv etməz. Bir neçə hadisə baş verəndən sonra, nəhayət, Yunus məcburiyyət qarşısında qalaraq Allaha itaət etdi. Yunusun peyğəmbərliyi yerinə yetməyəndə bu onu çox qəzəbləndirdi, Allah isə ona ibrət dərsi verdi.

Bu kitabdan aydın görünür ki, Allah təkcə İsrail xalqını deyil, bütün bəşəriyyəti cəzalandırmaq və məhv etmək əvəzinə bağışlamaq və xilas etmək istəyir.

Kitabın məzmunu:

1:1-17 Yunusun çağırışı və itaətsizliyi
2:1-10 Yunusun tövbəsi və xilası
3:1-10 Ninevalıların tövbə etməsi
4:1-11 Allahın Ninevalılara rəhmi

Yunusun çağırışı və itaətsizliyi

1 [w]Rəbbin sözü Amittay oğlu Yunusa nazil oldu: [2] «Qalx, Ninevaya – o böyük şəhərə get və ona qarşı car çək, çünki oradakıların pisliyi gəlib Mənə qədər çatmışdır». [3] Lakin Yunus Rəbbin hüzurundan Tarşişə qaçmaq üçün qalxdı. Yafoya enib Tarşişə gedən bir gəmi tapdı. Yol haqqını verib Rəbbin hüzurundan getmək üçün onlarla birlikdə Tarşişə gedən gəmiyə mindi.

[4] Lakin Rəbb dəniz üzərində güclü külək qaldırdı, dənizdə böyük bir fırtına qopdu və gəmi az qala parçalanacaqdı. [5] Gəmiçilər qorxuya düşüb hər biri öz allahını çağırdı və gəmi yüngülləşsin deyə orada olan yükləri dənizə atdılar. Yunus isə gəminin aşağı hissəsinə enmişdi və uzanıb bərk yuxuya getmişdi. [6] Gəmi rəisi onun yanına gəlib dedi: «Sən nə yatırsan? Qalx, öz allahını çağır. Bəlkə sənin allahın bizi yada salar və biz məhv olmarıq».

[7] Gəmiçilər bir-birlərinə dedi: «Gəlin püşk ataq, görək kimə görə bu bəla başımıza gəldi?» Püşk atdılar və püşk Yunusa düşdü. [8] O zaman Yunusdan soruşdular: «Bizə de, başımıza gələn bu bəla kimə görədir? Sənin sənətin nədir? Haradan gəlirsən? Vətənin haradır? Hansı xalqdansan?» [9] Yunus cavab verdi: «Mən İbraniyəm. Dənizi və torpağı yaradan göylərin Allahı Rəbdən qorxuram». [10] Onlar çox qorxdu və dedi: «Sən bunu nə üçün etdin?» Çünki Yunusun Rəbdən uzaqlaşmaq üçün qaçdığını bilirdilər, bunu onlara özü nəql etmişdi.

[11] Dəniz get-gedə coşduğuna görə onlar Yunusdan soruşdular: «Sənlə nə edək ki, dəniz qarşımızda sakitləşsin?» [12] Yunus onlara dedi: «Məni götürüb dənizə atın, onda dəniz qarşınızda sakitləşər, çünki bilirəm, bu böyük fırtına mənə görə baş verib». [13] Lakin gəmiçilər sahilə yan almaq üçün səylə avar çəkməyə başladı, amma bacarmadı. Ona görə ki dəniz onlara qarşı get-gedə coşurdu. [14] O zaman onlar Rəbbə fəryad edərək dedilər: «Ya Rəbb, Sənə yalvarırıq, qoyma bu adamın canından ötrü məhv olaq. Günahsız qan üstümüzdə qalmasın!

---

[w]**1:1** 2Pad. 14:25

Çünki Sən, ya Rəbb, Öz istədiyini
etmisən». 15 Onlar Yunusu götürüb
dənizə atdı və dənizdəki fırtına yatdı.
16 Onda adamlar Rəbdən bərk qorxdu və
Rəbbə qurban təqdim edərək əhd etdi.
17 [x]Yunusu udmaq üçün Rəbb böyük
bir balıq yetirdi və Yunus üç gün-üç
gecə balığın qarnında qaldı.

Yunusun tövbəsi və xilası

2 Yunus balığın qarnından Allahı
Rəbbə dua edib dedi:
2 «Əzab içində Rəbbi çağırdım,
O mənə cavab verdi.
Ölülər diyarının bağrından fəryad
etdim,
Sən mənim səsimi eşitdin.
3 Sən məni dərinə, dənizin qoynuna
atdın,
Məni sellər sarıdı,
Sənin bütün ləpələrin və dalğaların
Üstümdən keçdi.
4 Mən dedim: "Sənin gözlərinin
önündən qovuldum",
Lakin yenə Sənin müqəddəs məbədini
görəcəyəm.
5 Nəfəsim kəsilənə qədər məni sular
bürüdü,
Məni dərinliklər aldı,
Başıma yosunlar sarıldı.
6 Dağların dibinə qədər endim,
Arxamca əbədilik dünya bağlandı.
Lakin, ya Rəbb Allahım, Sən canımı
dərin çuxurdan çıxartdın.
7 Daxilimdə canım üzüləndə Rəbbə üz
tutdum,
Mənim duam Sənə,
Sənin müqəddəs məbədinə çatdı.
8 Puç olan bütlərə səcdə edənlər
Onlara verilən lütfdən imtina edərlər.
9 Amma mən Sənə şükür nəğməsi ilə
qurban gətirəcəyəm,
Əhdimi yerinə yetirəcəyəm.
Xilas Rəbdədir!»
10 Rəbb balığa əmr etdi və balıq
Yunusu ağzından quruya qaytardı.

Ninevalıların tövbə etməsi

3 Rəbbin sözü Yunusa ikinci dəfə nazil
oldu: 2 «Qalx, Ninevaya – o böyük
şəhərə get və sənə söyləyəcəyim sözləri
onlara car çək». 3 Yunus Rəbbin sözünə
görə qalxıb Ninevaya getdi. Nineva
Allahın nəzərində böyük şəhər idi.
Oranı üç günə gəzib-dolaşmaq olardı.
4 [y]Yunus şəhəri gəzməyə başlayıb bir
günlük yol getdi və car çəkərək dedi:
«Qırx gündən sonra Nineva dağılacaq!»
5 Ninevalılar Allaha inandılar, oruc
elan edərək böyükdən kiçiyə qədər
hamı çul geyindi. 6 Bu xəbər Nineva
padşahına çatanda o, taxtından qalxaraq
şahlıq libasını əynindən çıxartdı və çul
geyinib külün üstündə oturdu. 7 Padşah
özünün və əyanlarının adından buyurdu
ki, Ninevada elan edib desinlər:
«Nə insanlar, nə heyvanlar, nə
mal-qara, nə də ki qoyun-keçi heç nə
yeməsin, otlağa getməsin və su içməsin.
8 İnsanlar da, heyvanlar da çul geyinsin
və var gücləri ilə Allaha fəryad etsin.
Hər kəs öz pis yolundan və əllərinin
zorakılığından dönsün. 9 Kim bilir,
bəlkə Allah rəhmə gəlib, qızğın qəzəbini
bizdən döndərər və biz məhv olmarıq».
10 Allah onların işlərini, pis yoldan
döndüklərini gördü. Ona görə də rəhm
edib əvvəlcə onların üstünə göndərmək
istədiyi bəlanı göndərmədi.

Allahın Ninevalılara rəhmi

4 Bu iş Yunusun heç xoşuna gəlmədi
və o hirsləndi. 2 [z]O, Rəbbə dua
edərək dedi: «Ya Rəbb! Mən hələ
ölkəmdə ikən bunu demirdimmi?
Buna görə də mən Tarşişə qaçdım,

---

[x]**1:17** Mat. 12:40 [y]**3:4** Mat. 12:41; Luka 11:32
[z]**4:2** Çıx. 34:6; Say. 14:18; Neh. 9:17; Zəb. 86:15; 103:8; 145:8; Yoel 2:13

çünki bilirdim, Sən lütfkar, rəhmli,
həssiz səbirli, bol məhəbbətli Allahsan
və rəhm edib bəla göndərməzsən.
3 İndi isə, ya Rəbb, yalvarıram,
mənim canımı al, çünki mənim üçün
yaşamaqdansa, ölmək yaxşıdır». 4 Rəbb
dedi: «Hirslənməyin yaxşı işdirmi?»
5 Yunus şəhərdən çıxdı və şəhərin şərq
tərəfində oturdu. Orada özünə çardaq
düzəldib kölgəsində oturdu ki, şəhərdə
nə baş verəcəyini görsün. 6 Rəbb Allah
Yunusun başı üstünə qalxıb kölgə
salmaq və onu pis halından qurtarmaq
üçün bir gənəgərçək bitkisi yetirdi.
Yunus bu bitkiyə görə çox sevindi.
7 Lakin ertəsi gün sübh tezdən Allah bir
bitki qurdu yetirdi. Qurd bitkini içindən
yedi və bitki qurudu. 8 Günəş çıxanda
Allah isti səmum küləyi yetirdi. Günəş
onun başını yandırdı və o taqətdən
düşüb özü üçün ölüm diləyərək dedi:
«Mənim üçün yaşamaqdansa ölmək
yaxşıdır». 9 Allah Yunusa dedi: «Məgər
sənin bu bitkiyə görə hirslənməyin yaxşı
işdirmi?» O dedi: «Əlbəttə, yaxşıdır, elə
hirsləndim ki, az qala öləm».
10 Onda Rəbb dedi: «Sən zəhmətini
çəkmədiyin və yetişdirmədiyin, bir
gecədə bitən və bir gecədə məhv olan
bitkiyə acıyırsan. 11 Bəs sağ əlini sol
əlindən ayıra bilməyən yüz iyirmi
mindən çox insanın və çoxlu heyvanın
yaşadığı böyük şəhər Ninevaya Mən
necə acımayım?»

MİKEYA

PEYĞƏMBƏRİN KİTABI

GİRİŞ

Mikeya peyğəmbər Yeşaya peyğəmbərlə bir dövrdə yaşamışdı. O, cənub padşahlığında, Yəhudanın bir kəndində anadan olmuşdu. O, Amos peyğəmbərin şimal padşahlığına çatdırdığı milli fəlakətin eyni şəkildə Yəhudanın da başına gələcəyinə əmin idi. Allah ədalətsizliyə görə xalqı cəzalandıracaqdı. Amma Amosdan fərqli olaraq Mikeyanın peyğəmbərliyində daha aydın, ümidli gələcəyin əlamətləri var. Bu hissələr xüsusilə diqqəti cəlb edir: Rəbbin bütün dünyada əmin-amanlıqla hökmranlıq etməsi (4:1-4), Davud nəslindən böyük hökmdarın gəlməsi və onun bütün millətlərə sülh gətirməsi (5:2-5a) barəsində peyğəmbərlik İsrail peyğəmbərlərinin dediklərinin ümumi nəticəsi kimi 6:8-də yekunlaşdırır:

«Ey insan, Allah sənə yaxşı olanı bildirdi;
Ədalət yaratmaqdan, məhəbbət göstərməyi sevməkdən,
İtaətkarcasına Allahınla bir yol getməkdən başqa
Rəbb səndən nə istəyir ki?»

Kitabın məzmunu:

1:1–3:12 İsrailin günahı

4:1–5:15 Rəbbin bütün dünyada əmin-amanlıqla hökm sürməsi

6:1–7:20 Rəbbin İsrailə xəbərdarlığı və ümid verməsi

Samariya və Yerusəlim üçün mərsiyə

1 [a]Yəhuda padşahları Yotam, Axaz
və Xizqiyanın dövründə Samariya
və Yerusəlim barəsində Moreşetli
Mikeyaya görüntü ilə Rəbbin bu sözü
nazil oldu.
2 Eşidin, ey bütün xalqlar,
Qulaq asın, yer üzü və orada yaşayanlar!
Qoy Xudavənd Rəbb sizə qarşı müqəddəs məbədindən
Şəhadət etsin.
3 Budur, Rəbb göylərdəki taxtından enir,
Yer üzünü dağların zirvəsi ilə gəzir.
4 Od yanında əriyən mum tək önündə dağlar əriyəcək,
Təpələrdən gələn sellər tək yarğanlar açacaq.
5 Bunlar Yaqub övladlarının üsyankarlığına,
İsrail xalqının günahlarına görədir.
Yaqub övladlarının üsyankarlığına görə
Axı kimdir müqəssir? Samariya deyilmi?
Yəhudanın bütpərəstliyinə görə
Axı kimdir təqsirkar? Yerusəlim deyilmi?
6 «Buna görə Mən Rəbb Samariyanı yerlə yeksan edəcəyəm,
Yerində üzümlük salınacaq.
Daşlarını dərəyə tökəcəyəm,
Təməllərini açıq qoyacağam.
7 Samariyanın bütün oyma bütləri parça-parça olacaq,
Məbədinə verilən hədiyyələr yandırılacaq,
Bütün heykəllərini dağıdacağam.
Axı bu hədiyyələr fahişəlik haqqı ilə yığılmışdı,*

---

*1:7 Burada bütpərəst məbədlərində tətbiq olunan mərasim nəzərdə tutulur.

[a]1:1 2Pad. 15:32-38; 2Saln. 27:1-7; 2Pad. 16:1-20; 2Saln. 28:1-27; 2Pad. 18:1–20:21; 2Saln. 29:1–32:33

Onlar yenə də fahişələr üçün
işlədiləcək».
8 Buna görə Mən Mikeya, ağlayıb göz
yaşı axıdacağam,
Ayaqyalın, lüt-üryan dolaşacağam,
Çaqqal kimi ulayacağam,
Bayquş kimi səs salacağam.
9 Samariyanın yaraları sağalmaz,
Yəhudayadək yayılıb,
Xalqımın darvazalarınadək,
Yerusəlimədək çatıb.

Düşmən Yerusəlimə yaxınlaşır

10 Bunu Qatda bildirməyin,
Önlərində ağlamayın.
Bet-Leafrada* toz-torpaqda
yuvarlanın.
11 Siz ey Şafir† sakinləri,
Lüt-üryan, xəcalət içində əsarətə
gedin!
Saananda‡ yaşayanlar oradan çıxa
bilməyəcək.
Bet-Esel əhli yas tutacaq,
Köməyini sizdən çəkəcək.
12 Marot§ əhalisi xeyir arzulasa da,
Rəbb Yerusəlimin darvazasına bəla
gətirir.
13 Ey Lakiş** sakinləri, atlarınızı
Döyüş arabalarına qoşun
Sion qızını günaha batırdınız,
İsrailin üsyankarlığına bais oldunuz!
14 Buna görə Moreşet-Qata†† cehiz
verəcəksiniz,
Akziv‡‡ şəhəri İsrail padşahlarını
aldadacaq.
15 Ey Mareşa§§ sakinləri,
Rəbb üzərinizə yenə istilaçı gətirəcək,
Adullam mağarasına İsrailin adlı-sanlı
adamları sığınacaq.
16 Ey Yəhuda, əziz balalarından ötrü
saçını qırx,
Qoy başın kərkəs başı kimi keçəl
olsun,
Çünki övladların sürgünə aparılacaq!

Kasıblara zülm edənlərin taleyi

2 Yatağında şər niyyətdə olanların,
Yamanlıq üçün qəsd quranların vay
halına!
Onların gücü buna çatdığına görə
Ona səhər tezdən əməl edirlər!
2 Tarlalara tamah salıb mənimsəyirlər,
Evlərə göz dikib sahib dururlar.
Ev sahibi ilə ailəsinə zülm edirlər,
Adamları mirasından məhrum edirlər!
3 Buna görə də Rəbb belə deyir:
«Bu xalqa bəla gətirməyə
hazırlaşıram,
Ondan boyun qaçıra bilməyəcəksiniz.
Siz bir daha dikbaş gəzməyəcəksiniz,
Çünki pis zaman gəlir.
4 O gün sizi lağa qoyub,
Belə yanıqlı mərsiyə oxuyacaqlar:
“Biz tamam məhv olduq!
Rəbb xalqımın payını dəyişdirdi,
Onu necə məndən uzaqlaşdırdı,
Tarlamızı satqınlara payladı”.
5 Buna görə ölkə yenə püşklə bölünsə
də,
Rəbbin camaatı arasında sizə pay
verəcək kimsə olmayacaq».

Yalançı vaizlər

6 Adamlar deyir:

---

*1:10 *Bet-Leafra* – ibrani dilində *toz evi.*
†1:11 *Şafir* – ibrani dilində *xoş.*
‡1:11 *Saanan* – ibrani dilində *çıxmaq.*
§1:12 *Marot* – ibrani dilində *acı.*
**1:13 *Lakiş* – ibrani dilində *bir dəstə at* sözünə oxşayır.
††1:14 *Moreşet* – ibrani dilində *gəlin* sözünə oxşayır.
‡‡1:14 *Akziv* – ibrani dilində *aldatmaq.*
§§1:15 *Mareşa* – ibrani dilində *istilaçı.*

«Vəz etməyin,
Bu işlər barədə vəz etməyin,
Rüsvay olmayacağıq!»
7 Ey Yaqub nəsli, belə deyilirmi:
«Məgər Rəbbin səbri tükəndi?
O belə şeylər edərmi?»
Mənim sözlərim düzgün yolla
gəzənlərin xeyrinə deyilmi?
8 Dünən xalqım idiniz,
Bu gün isə Mənə düşmən oldunuz.
Müharibədən qayıdanların,
Yoldan sakit keçənlərin
Əynindən paltarlarını alıb
Onları soyursunuz.
9 Xalqımın qadınlarını
Rahat evlərindən qovursunuz,
Uşaqlarını Mənim verdiyim
bərəkətdən
Əbədilik məhrum edirsiniz.
10 Qalxın gedin,
Çünki bura istirahət yeri deyil.
Bu yer murdarlandığına görə
Dəhşətli surətdə darmadağın olacaq.
11 Əgər bir adam hiyləgər ruhla gəlib
yalan vəz edib desə:
«Sənə vəz edim, şərab və başqa
kefləndirici içkiniz bol olacaq»,
Bu adam xalqın vaizi olar!

Rəbbin ümid vədi

12 Ey Yaqub övladları,
Mən mütləq hamınızı bir yerə
yığacağam,
İsrailin sağ qalanlarını toplayacağam.
Sizi ağıldakı qoyun-keçi kimi bir yerə
yığacağam.
Otlaqdakı sürü kimi ölkəniz adamlarla
dolacaq.
13 Azad edən qalxacaq,
Sağ qalanların yolunu açacaq.
Onlar darvazanı qıracaq,
Oradan keçib-çıxacaq.
Padşahları onların qabağında
gedəcək,
Rəbb önlərində gedəcək.

Mikeya İsrail rəhbərlərini ittiham edir

3 Onda mən dedim:
«Dinləyin, ey Yaqub rəhbərləri,
Ey İsrail xalqının başçıları!
Axı siz ədalətli olmalısınız!
2 Siz ki yaxşıya nifrət edirsiniz,
Pisliyi sevirsiniz,
Xalqımın dərisini soyursunuz,
Ətini sümüklərindən qoparırsınız,
3 Siz xalqımın ətini yeyirsiniz,
Dərisini soyursunuz, sümüyünü
qırırsınız.
Sanki qazanda, tavada bişirilən ət
kimi
Xalqımı doğrayırsınız.
4 Gün gələcək, Rəbbə fəryad edəndə
O sizə cavab verməyəcək.
O zaman Rəbb üzünü sizdən
gizlədəcək,
Çünki əməllərinizpis olub».
5 Xalqını azdıran peyğəmbərlərə qarşı
Rəbb belə deyir:
«Yeməyiniz olanda
Sülh bəyan edirsiniz.
Sizə çörək verməyənlərə isə
Dava elan edirsiniz».
6 Buna görə sizə görüntüsüz gecə
gələcək,
Qaranlıqda falçılıq edə
bilməyəcəksiniz.
Peyğəmbərlər üçün günəş batacaq,
Gündüz onlar üçün zülmət olacaq.
7 Görücülər rüsvay olacaq,
Falçılar biabır olacaq,
Onların hamısı bundan utanıb
susacaq,
Çünki Allahdan cavab olmayacaq.
8 Mən isə Yaqub övladlarına
üsyankarlığını,
İsrailə günahını bildirmək üçün
Qüvvətlə, Rəbbin Ruhu ilə,
Ədalət və cəsarətlə qurşanıram.
9 Bunu dinləyin, ey Yaqub rəhbərləri,
Ey İsrail xalqının başçıları!

Siz ədalətə nifrət edirsiniz,
Hər cür düzlüyü əyriyə çevirirsiniz.
10 Sionu qan bahasına bina edirsiniz,
Yerusəlimi haqsızlıq üzərində
tikirsiniz.
11 Rəhbərləri rüşvətlə hökm edir,
Kahinləri muzdla təlim verir,
Peyğəmbərləri falçılıq edib pul alır.
Amma Rəbbə güvənərək belə deyirlər:
«Rəbb aramızda deyilmi?
Üstümüzə bəla gəlməz».
12 [b]Buna görə də sizin üzünüzdən
Sion tarla kimi şumlanacaq,
Yerusəlim daş qalağına,
Məbədin tikildiyi dağ
Meşəli təpələrə çevriləcək.

Rəbb bütün dünyada əmin-amanlıqla hökm sürəcək

(Yeş. 2:2-4)

4 Axır zamanda Rəbbin evi olan dağ
Dağların zirvəsində möhkəm
duracaq,
Təpələrdən yuxarı ucalacaq.
Xalqlar ona sarı gələcək.
2 Çox millətlər gəlib deyəcək:
«Gəlin Rəbbin dağına,
Yaqubun Allahının evinə qalxaq,
Qoy Rəbb bizə Öz yollarını öyrətsin,
Biz Onun rizləri ilə gedək».
Siondan Rəbbin təlimi,
Yerusəlimdən Onun kəlamı yayılacaq.
3 [c]Rəbb çox xalqlar arasında hakim
olacaq,
Güclü millətlər haqqında qərar
çıxaracaq.
Onlar qılınclarından kotan,
Nizələrindən isə dəryaz düzəldəcək.
Millət millətə qarşı qılınc
qaldırmayacaq,
Artıq dava etməyi öyrənməyəcək.
4 [d]Hər kəs öz meynəsinin, əncir
ağacının altında əyləşəcək,
Onları qorxudan olmayacaq.
Ordular Rəbbi belə söz verdi.
5 Bütün xalqlar,
Öz allahlarının adı ilə getsələr belə,
Biz daim və əbədi
Allahımız Rəbbin adı ilə gedirik.

Rəbbin xalqı sürgündən qayıdacaq

6 «Gün gələcək» Rəbb bəyan edir,
«Mən şikəstləri yığacağam,
İncitdiyim pərən-pərən düşən xalqı
Bir yerə toplayacağam.
7 Şikəstləri sağ qalan xalq edəcəyəm,
Atılanları güclü millətə çevirəcəyəm.
Mən Rəbb onlara Sion dağından
İndidən sonsuzadək hökm edəcəyəm».
8 Sən, ey Yerusəlim, sürüyə nəzarət
edən qüllə,
Sion qızının qalası,
Əvvəlki hakimiyyət sənə yenidən
veriləcək,
Yerusəlim qızının səltənəti gələcək.
9 İndi nə üçün uca səslə çağırırsan?
Niyə doğan qadın kimi ağrı çəkirsən?
Məgər sənin yanında padşah
yoxdurmu?
Məsləhətçilərin həlak olubmu?
10 Ey Sion qızı, ağrıdan qovrul,
Doğan qadın kimi bərkdən qışqır,
Çünki şəhərdən çıxıb, çöldə
yaşayacaqsan,
Babilə qədər gedəcəksən.
Lakin orada xilas olacaqsan,
Rəbb səni düşmənlərinin əlindən satın
alacaq.
11 Amma indi çox millətlər
Sənə qarşı birləşib belə deyir:
«Qoy Sion rüsvay olub murdarlansın!
Bunu öz gözümüzlə görək!»
12 Lakin onlar Rəbbin düşüncələrini
bilmir,
Məsləhətini anlamır.
Xırmanda yığılan dərzlər kimi
Rəbb onları bir yerə toplamışdır.
13 Rəbb belə deyir: «Ey Sion qızı,

---

[b]**3:12** Yer. 26:18 [c]**4:3** Yoel 3:10 [d]**4:4** Zək. 3:10

Qalx, xırmandakı taxılını döy!
Səni dəmir buynuzlu buğa kimi,
Tunc dırnaqlı öküz kimi güclü
edəcəyəm.
Sən çox xalqları əzəcəksən,
Onların qənimətini Mənə – Rəbbə,
Mal-dövlətini bütün yer üzünün
Sahibinə həsr edəcəksən».
5 Ey qoşunlar qızı, indi qoşunlarını
topla!
Bizi dövrəyə alıblar,
İsrail hökmdarının üzünə dəyənəklə
vuracaqlar.

Gələcək kamil hökmdar

2 [e]Rəbb deyir:
«Ey Bet-Lexem Efrata, sən
Yəhuda nəsillərinin kiçiyi olsan da,
Mənim üçün İsrail üzərində
Hökmdar səndən çıxacaq.
Onun nəsli çox qədimlərə,
Zamanın başlanğıcına gedir».
3 Hamilə qadın doğana qədər
Rəbb Öz xalqını təslim edəcək.
İsrail övladlarının yanına
Qalan qohumları qayıdacaq.
4 Bu hökmdar Allahı Rəbbin əzəmətli
adı ilə qalxacaq,
Rəbbin gücü ilə sürüsünü otaracaq.
Çünki yer üzünün qurtaracağınadək
hər yerdə o böyük olacaq,
5 Xalq onun bəxş etdiyi sülhlə
yaşayacaq.

Qurtuluş və cəza

Əgər Aşşurlular ölkəmizə gələrsə,
Qalalarımıza ayaq açarlarsa,
Onlara qarşı başçılarımız –
Xalqımızdan olan çoxlu rəhbərlərimiz
çıxar.
6 [f]Qılıncla Aşşur torpaqlarını,
Nəmrud ölkəsini viran edəcəklər.
Aşşurlular torpağımıza gələndə,
Sərhədimizi keçəndə
Bizi rəhbərlərimiz qurtaracaq.
7 Yaqub nəslinin sağ qalanları
Çoxlu xalqlar arasında
Heç kimi gözləmədən,
Bəşər övladlarından asılı olmadan
Rəbbin göndərdiyi şeh tək,
Ot üzərinə tökülən leysan kimi olacaq.
8 Yaqub nəslinin sağ qalanları
Çoxlu xalqların, millətlərin arasında
Sanki meşə heyvanları arasındakı şir,
Qoyun sürüsü arasındakı gənc
aslandır.
Sürünün içinə girsə, didib dağıdar,
Heç kəs ondan qurtula bilməz.
9 Əlin düşmənlərin üzərinə qalxacaq,
Ey İsrail, yağıların məhv olacaq!
10 «Gün gələcək» Rəbb bəyan edir,
«Atlarınızı qıracağam,
Döyüş arabalarınızı yox edəcəyəm.
11 Ölkənizdəki şəhərləri darmadağın
edəcəyəm,
Bütün qalalarınızı yerlə yeksan
edəcəyəm.
12 Əlinizdəki cadugərliyi məhv
edəcəyəm,
Sizdə gələcəyideyənlər bir daha
olmayacaq.
13 Sizin bütlərinizi qıracağam,
Daş sütunlarınızı söküb-dağıdacağam.
Əllərinizlə düzəltdiyiniz əşyaya
Artıq səcdə etməyəcəksiniz.
14 Sizin Aşera bütlərinizi
qırıb-dağıdacağam.
Şəhərlərinizi viran qoyacağam.
15 İtaətsiz millətlərdən qəzəblə,
hiddətlə qisas alacağam».

Rəbbin İsrailə qarşı ittihamı

6 Rəbbin nə dediyini indi dinləyin:
«Məhkəmə qarşısında durun,
Qoy dağlar bunun şahidi olsun,
Qoy təpələr səsinizi eşitsin!
2 Ey dağlar və yerin sarsılmaz
təməlləri,

---

[e]**5:2** Mat. 2:6; Yəh. 7:42 [f]**5:6** Yar. 10:8-11

Rəbbin ittihamını eşidin!
Rəbb Öz xalqını ittiham edir,
İsraili məhkəməyə verir.
3 Ey xalqım, nə etmişəm sənə?
Nə ilə yormuşam səni?
Mənə cavab ver!
4 [g]Səni Misir torpağından çıxaran,
Köləlik diyarından sizi satın alan,
Musanı, Harunu, Məryəmi,
Sənin qabağına göndərən Mən oldum.
5 [h]Ey xalqım, sənə qarşı
Moav padşahı Balaqın niyyətlərini,
Beor oğlu Bilamın ona nə cavab verdiyini xatırla,
Şittimdən Qilqala gedəndə yolda nə baş verdiyini xatırla ki,
Rəbbin sənə göstərdiyi sədaqətini biləsən».

Rəbbin adamlardan istəyi

6 Rəbbin hüzuruna nə ilə gedim?
Uca Allaha necə səcdə edim?
Önünə yandırma qurbanları ilə –
Birillik danalarla çıxımmı?
7 Minlərlə qoç qurbanı,
Zeytun yağının on minlərlə seli Rəbbin xoşuna gələrmi?
Üsyankarlığıma görə ilk oğlumu,
Günahım üçün öz övladımı verimmi?
8 Ey insan, Allah sənə yaxşı olanı bildirdi;
Ədalət yaratmaqdan, məhəbbət göstərməyi sevməkdən,
İtaətkarcasına Allahınla bir yol getməkdən başqa
Rəbb səndən nə istəyir ki?
9 Rəbbin səsi şəhərə nida edir,
Onun adından qorxmaq hikmətdir.
«Ey şəhərdə toplanan camaat, eşidin!
Ey şəhər sakinləri, dinləyin!
10 Məgər pislərin evindəki haram mal-dövlətdən,
Lənətli əskik ölçülərdən xəbərim yoxdur?
11 Saxta tərəzi və aldadıcı çəki daşlarından
İstifadə edəni haqlı sayarammı?
12 Şəhərin varlıları zorakılıq edir,
Sakinləri adamları aldadır –
Yalanla nəfəs alır.
13 Buna görə Mən sizi vurmağa,
Günahlarınıza görə əzab verməyə başladım.
14 Yeyəcəksiniz, amma doymayacaqsınız,
Qarınlarınız boş qalacaq.
Sərvət yığacaqsınız, amma saxlamayacaqsınız,
Qılıncla topladığınızı məhv edəcəyəm.
15 Siz əkəcəksiniz, amma biçməyəcəksiniz,
Zeytun sıxacaqsınız, yağından ətir düzəltməyəcəksiniz,
Üzüm sıxacaqsınız, şərab içməyəcəksiniz.
16 [i]Axı padşah Omrinin qaydalarına riayət etmisiniz,
Axav sülaləsinin adətlərinə uymusunuz,
Onların məsləhətinə görə getmisiniz,
Buna görə də sizi viranəliyə döndərəcəyəm,
Sakinlərinizi rişxənd hədəfinə çevirəcəyəm,
Xalqım olduğunuz üçün rüsvay ediləcəksiniz».

Mikeyanın mərsiyəsi

7 Vay halıma!
Mən bir adama bənzəyirəm ki,
Yay mövsümündən sonra
Meyvəsi tamam yığılmış,
Tənəkləri təmizlənmiş,
Nə üzüm salxımı,

---

[g] **6:4** Çıx. 12:50-51; Çıx. 4:10-16; 15:20
[h] **6:5** Say. 22:2–24:25; Yeşua 3:1–4:19
[i] **6:16** 1Pad. 16:23-28; 1Pad. 16:29-34; 21:25-26

Nə də könlü istəyən bir dənə əncir
yeməyə qalıb.
2 Ölkədə Allaha sadiq adam qalmadı,
İnsanlar arasında doğru adam
tükəndi.
Hamı qan tökmək üçün pusquda
durur,
Qardaş qardaşa tələ qurur.
3 Pis işlərə əlləri zirək olur,
Rəislər, hakimlər rüşvət tələb edir,
Dövlətlilər istədiklərini edir,
Hamısı hiylə ilə iş görür.
4 Bunların ən yaxşısı tikandan
dəyərsizdir,
Ən salehi də alaq otundan pisdir.
Peyğəmbərlərin xəbərdarlıq etdiyi
kimi
Cəza günü gəldi.
İndi siz çaşbaş qalmısınız.
5 Qonşunuza inanmayın,
Dostunuza bel bağlamayın,
Hətta qoynunuzda yatan arvadınızdan
belə,
Ağzınızı möhkəm saxlayın.
6 [j]Çünki oğul atasına xor baxır,
Qız anasına, gəlin də qayınanasına
qarşı qalxır.
İnsanın düşməni öz ev əhli olub.
7 Mən isə Rəbbə baxacağam,
Məni xilas edən Allahı gözləyəcəyəm.
O məni xilas edəcək,
Allahım məni eşidəcək.

Qurtuluş yolu

8 Halıma sevinmə, ey düşmənim!
Mən yıxılsam da, qalxacağam.
Qaranlıqda olsam da,
Rəbb mənim nurum olacaq!
9 Mənə bəraət qazandırıb
Hökmünü icra edənə qədər
Rəbbin qəzəbinə dözəcəyəm,
Çünki Ona qarşı günah işlətdim.
O sonra məni işığa çıxaracaq,
Onun salehliyini görəcəyəm.
10 Düşmənim bunu görüb xəcalət
çəkəcək.
O mənə demişdi:
«Allahın Rəbb haradadır?»
Bu düşmənin məğlubiyyətini
görəcəyəm,
O, küçələrdə palçıq kimi
tapdalanacaq.
11 Ey Yerusəlim, divarlarının bərpa
günü yaxınlaşır,
O gün sərhədlərin genişlənəcək.
12 O gün xalqın Aşşurdan,
Misir şəhərlərindən,
Misirdən Fərat çayına qədər uzanan
torpaqlardan,
Dənizdən dənizədək, dağdan dağadək,
Sənin yanına qayıdacaq.
13 Lakin sakinlərinin əməllərinə görə
Yer üzü viran olacaq.

Rəbbin İsrailə məhəbbəti

14 Ya Rəbb, mirasın olan sürünü –
Öz xalqını çomağınla otar.
O, çöldə indi tənha qalır,
Ətrafında isə yaxşı otlaq var.
Qoy keçmiş günlərdəki kimi
Başan və Gileadda otlasınlar.
15 «Misirdən çıxdığın günlərdəki kimi
Sizə möcüzələr göstərəcəyəm».
16 Millətlər bunu görəcək,
Öz qüvvətlərinə görə utanacaq.
Əlləri ilə ağızlarını yumacaq,
Qulaqları kar olacaq.
17 İlan kimi torpağı yalayacaq,
Əsə-əsə yuvalarından sürünənlər kimi
çıxacaq.
Ey Allahımız Rəbb, onlar Səndən
qorxub
Dəhşət içində Sənə tərəf dönəcək.
18 Sağ qalan xalqının cəzasını aradan
götürən,
Üsyankarlığını bağışlayan
Sənin kimi Allah varmı?
Qəzəbini əbədi saxlamazsan,

---

[j]**7:6** Mat. 10:35-36; Luka 12:53

Çünki məhəbbət göstərməyi
xoşlayırsan.
19 Yenə bizə rəhm edib şər
əməllərimizi siləcəksən,
Bütün günahlarımızı
Dənizin dərinliklərinə atacaqsan.
20 Qədim zamanda atalarımıza and
içdiyin kimi
Yaqub nəslinə sədaqətini,
İbrahim övladlarına məhəbbətini
göstərəcəksən.

NAHUM

PEYĞƏMBƏRİN KİTABI

GİRİŞ

«Nahum» Kitabı İsraillilərin qüdrətli düşməni olan Aşşurun paytaxtı Ninevanın süqutunu əvvəlcədən bildirən kitabdır. Miladdan əvvəl 614-cü ildə baş vermiş Ninevanın süqutu qəddar və təkəbbürlü millətin üzərində Allahın məhkəməsi kimi qiymətləndirilir.

Kitabın məzmunu:

1:1-15 Rəbbin Ninevadan aldığı qisas
2:1–3:19 Ninevanın dağılması

1 [k]Bu, Nineva haqqındakı xəbərdarlıq,
Elqoşlu Nahumun görüntülərindən
ibarət kitabdır.

Rəbbin Ninevadan aldığı qisas

2 Rəbb qısqancdır, qisas alan Allahdır,
İntiqam alır, qəzəblə doludur,
Düşmənlərindən qisas alır,
Yağılarına qarşı qəzəblidir.
3 Rəbb hədsiz səbirlidir, qüdrətlidir,
Təqsirkarı əsla cəzasız qoymaz,
Onun yolu qasırğadadır, fırtınadadır,
Buludlar ayaqlarının tozudur,
4 Dənizə əmr edib onu qurudar,
Bütün çayların sularını da qurudar,
Başan və Karmel meşələri saralır,
Livanın gül-çiçəyi solur.
5 Rəbbin hüzurundan dağlar titrəyir,
Təpələr əriyir,
Yer üzü Rəbbin önündə sarsılır,
Dünya və onun sakinləri lərzəyə gəlir.
6 Onun qəzəbinə qarşı kim dura bilər?
Qızğın hiddətinə kim tab gətirər?
Rəbbin qeyzi od kimi tökülər,
Qarşısında qayalar dağılar.
7 Rəbb xeyirxahdır, dar gündə
sığınacaqdır,
Ona güvənənləri tanıyır.
8 Lakin O, Ninevanın olduğu yeri
Azğın sellərlə məhv edəcək.
Düşmənlərini zülmətə salacaq.
9 Rəbbə qarşı nə qəsd etsələr,
O hər şeyə son qoyacaq,
Onlardan bir daha bəla çıxmaz.
10 Tikanlar kimi bir-birinə
dolaşmışlar,
Əyyaşlar kimi sərxoş olmuşlar,
Quru küləş tək tamamilə yanacaqlar.
11 Ey Nineva, Rəbbə qarşı pislik
düşünən
Şər məsləhətçini sən yetirdin!
12 Rəbb belə deyir:
«Aşşurlular çox və güclü olsa da,
Yenə məhv olub gedəcək.
Ey xalqım İsrail, sənə çox əzab
vermişəm,
Səni bir daha incitmərəm.
13 İndi boyunduruğunu parçalayıb,
Qandallarını qıracağam».
14 Ey Nineva, Rəbb sənin haqqında
Belə əmr verib:
«Artıq övladların olmayacaq, adını
daşımayacaq,
Allahlarının məbədindən
Oyma bütləri, tökmə bütləri məhv
edəcəyəm.
Qəbir qazacağam sənə, çünki
alçaqsan!
15 [l]Budur, müjdə gətirənin
Ayaqları dağlar aşır, gəlir,
Sülh xəbəri gətirir.
Ey Yəhuda, bayramlarını keçir,
Əhdlərini yerinə yetir!
O pis millətin ayağı ölkəndən artıq
keçməyəcək,
Çünki tamamilə məhv oldu».

Ninevanın dağılması

2 Ey Nineva, həlak edən qüvvə
qarşına çıxdı,
İstehkamını qoru, yolunu qoru,

[k]**1:1** Yeş. 10:5-34; 14:24-27; Sef. 2:13-15

[l]**1:15** Yeş. 52:7

Belini möhkəm qurşa,
Bütün gücünü topla!
2 Rəbb Yaqub nəslini
İsrailin əvvəlki əzəmətinə qaytaracaq.
Hərçənd quldurlar onu viran etdi,
Tənəklərini dağıtdı.
3 İgidlərin qalxanları qıpqırmızıdır,
Cəngavərlərin libasları al rəngdədir.
Onlar hazır olan gün
Döyüş arabalarının dəmirləri necə də parıldayır,
Şam ağacından nizələr havada oynayır!
4 Döyüş arabaları küçələrdən dəlicəsinə qaçır,
Meydanlarda ora-bura yüyürür,
Məşəllər kimi parıldayır,
Şimşək kimi cəld qaçır.
5 Nineva padşahı seçmə əsgərlərini toplayır,
Amma onlar yolda büdrəyir.
Düşmən orduları şəhər divarına tərəf qaçır,
Qalxanlarını qaldırıb sipər qurur.
6 Çayların suyunu saxlayan bəndlər açıldı,
Sarayı dəhşət bürüdü.
7 Mələkəni lüt-üryan aparırlar,
Kənizləri qumru kimi inləyib
Sinələrinə vurur.
8 Qədimdən bəri Nineva
Sulu hovuz kimi idi,
İndi isə sular axıb gedir,
Onlara «Dayanın, dayanın!» deyirlər,
Amma geri dönən yoxdur.
9 Gümüşü talan edin, qızılı oğurlayın,
Sərvətlərin sonu yoxdur,
Bol miqdarda qiymətli əşyalar var.
10 [m]Nineva viran oldu, dağıldı, xaraba qaldı!
Sakinlərinin ürəyi əsir, dizləri taqətdən düşür.
Hamının bədənləri titrəyir, üzləri solur!
11 Nə oldu aslanlar yuvasına?
Gənc aslanların bəsləndiyi,
Şirlə dişisinin və balalarının qorxusuz gəzdiyi yerə nə oldu?
12 Aslan öz balalarına kifayət qədər şikar ovladı,
Dişisi üçün ovunu boğazladı,
Mağarasını ovladığı heyvanlarla,
Yuvasını şikarla doldurdu.
13 Ordular Rəbbi bəyan edir:
«Mən sizin əleyhinizəyəm,
Döyüş arabalarınızı tüstüdə yandıracağam,
Gənc aslanlarını qılınc yeyəcək,
Yer üzündən şikarını kəsəcəyəm,
Qasidlərinin səsi daha eşidilməyəcək».

3 Qanlı şəhərin vay halına!
O yalan və soyğunçuluqla doludur,
Orada quldurluğun ardı kəsilmir!
2 Qamçı səsi, təkərlər gurultusu,
Çapan atların, yırğalanan döyüş arabalarının sədası!
3 Süvarilər hücum edir, qılınclar parıldayır,
Nizələr bərq vurur, ölənlər yığın-yığın,
Cəsədlərin sayı yox,
İnsanların ayağı meyitlərə dolaşır!
4 Millətləri fahişəliyi ilə,
Xalqları cadugərliyi ilə satan, cazibəli,
Cadugərlikdə mahir fahişə – Ninevanın
Hədsiz əxlaqsızlığına görə
Bunlar baş verdi.
5 Ordular Rəbbi bəyan edir:
«Ey Nineva, Mən sənin əleyhinəyəm!
Paltarının ətəyini üzünə qaldıracağam,
Çılpaqlığını millətlərə göstərəcəyəm,
Ayıbını ölkələrə açacağam.
6 Üstünə iyrənc şeyləri atacağam,
Səni rüsvay edəcəyəm,
Tamaşaya qoyacağam!
7 Səni görənlərin hamısı səndən qaçıb
Belə deyəcək:

---

[m]**2:10** Yoel 2:6

“Nineva viran qaldı!
Onun üçün kim ağlayacaq?”
Haradan sənə təsəlli verənləri tapım?»
8 Axı sənin No-Ammondan *nəyin
artıqdır?
O şəhər çaylar arasında yerləşib
Sularla əhatə olunmuşdu,
Sipəri dəniz,
Qala divarı isə Nil çayı idi.
9 Kuş və Misir onun sonsuz qüvvəti
idi,
Put və Liviya da köməkçiləri idi.
10 Lakin əsir aparıldı, sürgün oldu,
Övladları parça-parça doğrandı,
Hər küçə başına atıldı,
Adlı-sanlı adamları üçün püşk atdılar,
Əyanlarını qandallara saldılar.
11 Sən də, ey Nineva, sərxoş olacaqsan,
Mat-məəttəl qalacaqsan,
Düşmənlərin əlindən pənahgah
axtaracaqsan.
12 Bütün istehkamların
Əncir ağacının ilk yetişən meyvələri
kimidir,
Silkələnəndə yeyənin ağzına düşür.
13 Budur, əsgərlərin qadın kimidir,
Ölkənin darvazaları düşmənlərin
üzünə taybatay açılıb.
Qapı rəzələrini od yeyib.
14 Mühasirə vaxtı üçün özünə su çək,
Qalalarını möhkəmləndir,
Çamıra gir, palçığı tapda,
Kərpic kəsmək üçün qəlib götür!
15 Orada od səni yeyib-qurtaracaq,
Qılınc səni kəsib-qıracaq,
Çəyirtkələrin yedikləri əkin kimi yox
olacaqsan.
Sayını çəyirtkə kimi artır,
Özünü qaynaşan çəyirtkə kimi çoxalt!
16 Tacirlərinin sayı
Göylərdəki ulduzlardan çoxdur,
Amma düşmənlərin
Çəyirtkə kimi ölkəni talan edib
uçacaq.
17 Gözətçilərin çəyirtkə kimi,
Məmurların çəyirtkə sürüsü kimidir –
Soyuq gündə çəpərlərə yerləşir,
Gün doğanda uçub gedir,
Getdikləri yer bilinmir.
18 Ey Aşşur padşahı,
Əyanların ölüm yuxusuna gedib,
Adlı-sanlı adamların yatıb.
Xalqın dağlara səpələnib,
Onları bir yerə yığan yoxdur.
19 Dərdinə dərman yoxdur, yaraların
sağalmaz.
Barəndə xəbər eşidənlər sevinib əl
çalır.
Axı sənin bu sonsuz pisliyin kimə
dəyməyib?

*3:8 *No-Ammon* – qədim Misirin paytaxt şəhərlərindən biri.

HABAQQUQ

PEYĞƏMBƏRİN KİTABI

GİRİŞ

«Habaqquq» Kitabı miladdan əvvəl VII əsrin axırına – Babillilərin hökmranlıq etdiyi dövrə aiddir.

Bu qəddar xalqın törətdiyi zorakılıqdan narahat olan peyğəmbər Rəbbə sual verir:

«Pis özündən daha salehin başını yeyəndə
Axı niyə susursan?» (1:13).

Rəbb buna belə cavab verir:

«Budur, məğrurların niyyətləri düzgün deyil,
Amma saleh adam imanı ilə yaşayacaq» (2:4).

Kitabın qalan hissəsi pis adamların dəhşətli aqibətindən xəbər verir və Allahın böyüklüyünü izzətləndirən, Habaqqudun güclü imanını bəyan edən şairanə ilahi ilə bitir.

Kitabın məzmunu

1:1–2:5 Habaqqudun şikayəti və Rəbbin cavabı

2:6-20 Pis adamların aqibəti

3:1-19 Habaqqudun duası

1 Habaqquq peyğəmbərə görüntü ilə nazil olan xəbərdarlıq.

Habaqqudun şikayəti

2 Ya Rəbb, nə vaxta qədər Səni imdada çağıracağam?
Sənsə eşitmirsən.
«Zorakılıq var!» deyə Sənə fəryad edirəm,
Lakin bizi qurtarmırsan.
3 Niyə mənə şər göstərirsən,
Özün də haqsızlığa baxırsan?
Hara nəzər salsam,
Orada soyğunçuluq və zorakılıq var,
Davaların, çəkişmələrin sonu yoxdur.
4 Buna görə qanun qüvvədən düşdü,
Ədalətə üstünlük verilmir.
Pis adamlar salehləri dövrəyə alır,
Ona görə ədalət təhrif olunur.

Rəbbin cavabı

5 [n]Baxın o biri millətlərə,
Gördüklərinizə təəccüblənərək mat qalın.
Sizin vaxtınızda elə işlər görəcəyəm ki,
Bunu sizə danışsalar, inanmazsınız.
6 [o]Budur, Mən amansız və qəddar milləti –
Dünyanın dörd tərəfinə yüyürən,
Özgə məskənləri zəbt edən
Xaldeyliləri qaldırıram.
7 Onlar dəhşətli və qorxuncdur,
Ədalət və şərəf yalnız onlar deyəndir.
8 Atları bəbirdən çevik,
Özləri isə ac qurddan daha azğındır,
Süvariləri yeri deşərək uzaqdan gəlir,
Şikarını yeməyə cuman qartal kimi şığıyır.
9 Onların hamısı zorakılıq üçün gəlir,
Hamısı bir nəfər kimi irəliyə üz tutur,
Əsirləri qum kimi yığırlar.
10 Padşahlara rişxənd edirlər,
Hökmdarlara gülürlər.
Hər qalalı şəhərə lağ edirlər,
Oraya torpaq qalağı töküb ələ keçirirlər.
11 Onlar yel kimi keçib-gedir.
Qüvvələrini özlərinə allah edən bu adamlar
Təqsirkar sayılacaq.

Habaqquq yenə də Rəbbə şikayət edir

12 Əzəldən bəri var olan Sən deyilsənmi?
Ya Rəbb, Allahım, Müqəddəs Olanım,
Biz ölməyəcəyik.

---

[n]**1:5** Həv. 13:40-41 [o]**1:6** 2Pad. 24:2

Ya Rəbb, məhkum etmək üçün onları
təyin etdin.
Ey Qayamız, bizi cəzalandırma
hökmünü onlara verdin.
13 Sənin gözlərin çox təmizdir,
Şəri görən gözün yoxdur,
Pis əməllərə dözə bilmirsən.
Bəs xəyanətkarlara necə baxa
bilirsən?
Pis özündən daha salehin başını
yeyəndə
Axı niyə susursan?
14 Sən insanları sanki dəniz
balıqlarına,
Başçıları olmayan sürünən canlılara
çevirdin.
15 O onların hamısını qarmaqla çəkir,
Torla çıxarır, ağlarına* yığır,
Buna sevinib-şadlanır.
16 Buna görə torları üçün qurban
kəsir,
Ağları üçün buxur yandırır,
Axı o bu torlarla
Bol və ləzzətli yemək əldə edir.
17 Torunu durmadan boşaltmağa,
Millətləri amansızcasına qırmağa
davam edəcəkmi?
2 Keşiyimdə duracağam,
Gözətçi qülləsində dayanacağam.
Baxım Rəbb mənə nə deyəcək,
Görüm şikayətlərimə nə cavab
verəcək?

Rəbbin cavabı

2 Rəbb mənə belə cavab verdi:
«Görüntünü yaz, lövhələrdə açıqla ki,
Qoy hər kəs tez onu oxuya bilsin.
3 pÇünki bu görüntü müəyyən vaxt
üçündür,
Başa çatmağa tələsir və yalan deyil.
Gecikmiş kimi görünsə də, gözləyin,
Hökmən gələcək, gecikməyəcək.
4 Bax, bu adam məğrurdur,
köksündəki ürəyi düz deyil,
Amma saleh adam imanı ilə
yaşayacaq.
5 Həm də bu məğruru şərab aldadır,
Bu təkəbbürlü adam sakit durmaz,
Acgözlüyünü ölülər diyarı kimi
genişləndirir,
Ölüm kimi heç doymaz.
Bütün millətləri özü üçün toplayar,
Bütün xalqları özü üçün əsir alar.

Xaldeylilərin sonrakı aqibəti

6 Amma bütün bu əsir alınanlar
Onu lağa qoyacaqlar,
İstehzalı müəmmalarla deyəcəklər:
"Özünə aid olmayanı ələ keçirənin,
Xərac alıb varlananın vay halına!
Bu nə vaxta qədər davam edəcək?"
7 Sənə xərac verənlər bir gün
Qəflətən qiyam etməzmi?
Oyanıb sizi qorxutmazmı?
Budur, o vaxt onlara qənimət
olacaqsan.
8 Bir çox milləti soyduğun üçün
Xalqlardan sağ qalanlar səni də
soyacaq.
Çünki insan qanı tökdün,
Ölkələrə və şəhərlərə,
Orada yaşayan hər kəsə zorakılıq
etdin.
9 Evini haram qazancla dolduranın,
Fəlakətdən qaçmaq üçün
Yuvasını yüksək yerdə quranın vay
halına!
10 Sən çox xalqları qırmaqla
Öz evini rüsvay etdin,
Öz həyatına günah gətirdin!
11 Belə ki divar daşları bu barədə
fəryad qoparacaq,
Taxta tirlər əks-səda verəcək!
12 Şəhəri qanlarla tikənin,
Kəndi haqsızlıqla quranın vay halına!

---

*1:15 *Ağ* – torun bir növü.

p2:3 Rom. 1:17; Qal. 3:11; İbr. 10:37-38

13 Xalqlar odda yandırılmaq üçün
zəhmət çəkir,
Ümmətlər boş yerə özünü yorur.
Bu, Ordular Rəbbindən deyilmi?
14 [q]Çünki sular dənizi bürüdüyü kimi
Dünya Rəbbin izzətinin biliyi ilə
doldurulacaq.
15 Qonşuların çılpaq bədənlərinə
tamaşa etmək üçün
Onlara şərab içirdib sərxoş edənin,
İçkiyə zəhrimar qatanın vay halına!
16 Hörmət əvəzinə xəcalətlə
doyacaqsan,
Sən də iç, çılpaqlığını göstər;
Rəbbin sağ əlindəki cam
Sənin üzərində fırlanacaq.
Rüsvayçılıq hörmətin üzərinə gələcək.
17 Livanda etdiyin zorakılıq öz başına
gələcək,
Heyvanların qırğını səni dəhşətə
gətirəcək;
Çünki insan qanı tökdün,
Ölkələrə və şəhərlərə,
Orada yaşayan hər kəsə zorakılıq
etdin.
18 Sənətkarın oyduğu yonma ya tökmə
bütün
Yalan öyrətməkdən başqa nə xeyri
var?
Bütü düzəldən sənətkar öz işinə
güvənir,
Amma onun düzəltdiyi
Dilsiz bütdən başqa nədir ki?
19 Taxtaya "Oyan!", dilsiz daşa
"Qalx!"
Deyən insanın vay halına!
Büt yol göstərə bilərmi?
Budur o, qızılla, gümüşlə örtülüb,
Daxilində isə həyat nəfəsi yoxdur.
20 Lakin Rəbb müqəddəs
məbədindədir,
Qoy bütün dünya Onun önündə
sussun!»

Habaqququn duası

3 Peyğəmbər Habaqququn duası,
Şiqqayonlar [*]kökü üstündə.
2 Ya Rəbb, Sənin şöhrətin haqqında
eşitdim,
Ya Rəbb, gördüyün işlərə görə
qorxdum.
Bizim vaxtımızda da eyni işlər gör,
Bizim dövrümüzdə bunları bildir!
Qəzəblənəndə mərhəmətini xatırla!
3 Allah Temandan,
Müqəddəs Olan Paran dağından gəldi.
Sela[†]
Ehtişamı göyü bürüdü,
Yer üzü Ona edilən həmd-sənalarla
doldu.
4 Cah-calalı günəş tək parıldayır,
Əlindən nur tökülür,
Qüdrəti əlində gizli saxlanılıb.
5 Vəba Onun önündə gedir,
Ölümcül xəstəlik arxasınca gəlir.
6 O durdu, yeri tərpətdi,
Baxdı, millətləri sarsıtdı,
Qədim dağlar dağıldı,
Əzəldən qalan təpələr ona baş əydi.
Allahın yolu əbədidir.
7 Gördüm ki, Kuşan çadırları əziyyət
altındadır,
Midyan çadırlarının pərdələri lərzəyə
gəldi.
8 Ya Rəbb, məgər Sən
Çaylara qarşı qəzəblənmisən?
Acığın irmaqlara qarşıdırmı?
Yoxsa dənizə qarşı hiddətlənmisən?
Axı atlarına, müzəffər döyüş
arabalarına minmisən?
9 Yayını açdın,
Oxdanını oxlarla doldurdun. *Sela*
Yer üzünü çaylarla yardın.

---

[*]**3:1** *Şiqqayonlar* – fərz edilir ki, bu bir musiqi terminidir.
[†]**3:3** *Sela* – fərz edilir ki, bu bir musiqi terminidir.

[q]**2:14** Yeş. 11:9

10 Səni görüb dağlar lərzəyə gəldi,
Sellər hər yanı süpürüb axdı,
Dərinliklər gurladı, dalğalar qalxdı.
11 Uçan oxlarının qığılcımından,
İşıldayan nizənin parıltısından
Günəş və ay yerlərində durdu.
12 Yer üzündə qəzəb içində gəzdin,
Millətləri hiddətlə tapdaladın.
13 Sən Öz xalqının qurtulması üçün,
Məsh etdiyinin xilası üçün çıxdın,
Şər nəslin başçısını əzdin,
Təpədən dırnağa qədər onu soydun.
Sela
14 Cəngavərləri fırtına tək
Bizi dağıtmağa gələndə
Onların başını öz nizələri ilə deşdin.
Onlar gizlənən zavallıları
Məhv edənlər kimi sevinərdi.
15 Sən Öz atlarınla dənizi tapdaladın,
Coşğun suları köpüklətdin.
16 Eşitdim və varlığım lərzəyə gəldi,
Səsindən dodaqlarım əsdi.
Çürüklük sümüklərimə girdi,
Dizlərim titrədi.
Amma bizə hücum edən xalqın
Fəlakətə düşdüyü günü səbirlə gözləyəcəyəm.
17 Əncir ağacı tumurcuqlanmasa da,
Meynələr bar gətirməsə də,
Zeytun ağaclarına çəkdiyim zəhmət boşa çıxsa da,
Tarlalar məhsul yetişdirməsə də,
Qoyun-keçi ağıllarda,
Mal-qara tövlələrdə yox olsa da,
18 Mən yenə Rəbdə sevinc tapacağam.
Xilasımın Allahı ilə şadlıqdan coşacağam!
19 [r]Xudavənd Rəbb mənim qüvvətimdir,
Ayaqlarımı marallar kimi çevik edir,
Zirvələrimdə məni gəzdirir.
Musiqi rəhbəri üçün: simli alətlərin müşayiəti ilə.

---

[r]**3:19** 2Şam. 22:34; Zəb. 18:33

SEFANYA

PEYĞƏMBƏRİN KİTABI

GİRİŞ

Sefanya peyğəmbər miladdan əvvəl VII əsrin 2-ci yarısında, ehtimala görə padşah Yoşiyanın 621-ci ildə etdiyi dini islahatlardan əvvəlki illərdə fəaliyyət göstərmişdir. Kitaba məlum olan peyğəmbərlik mövzuları daxildir: bütlərə ibadət etməsinə görə Yəhudanın üzərinə cəza və dağılma günü gələcək. Rəbb həmçinin başqa millətləri cəzalandıracaq. Yerusəlim də məhkum olacaq, lakin müəyyən vaxt bərpa olunacaq və orada həlim və saleh xalq yaşayacaq.

Kitabın məzmunu:

1:1–2:3 Rəbbin məhkəmə günü
2:4-15 Rəbbin millətlərə cəzası
3:1-20 Yerusəlimin gələcəyi

1 [s]Yəhuda padşahı Amon oğlu
Yoşiyanın hökm etdiyi dövrdə
Xizqiya oğlu Amarya oğlu Gedalya oğlu
Kuşi oğlu Sefanyaya Rəbbin sözü nazil
oldu.

Rəbbin məhkəmə günü

2 Rəbb belə bəyan edir:
«Yer üzündən hər şeyi
silib-süpürəcəyəm».
3 Budur, Rəbb belə bəyan edir:
«İnsanları, heyvanları,
Göydəki quşları, dənizdəki balıqları,
Pis adamları ilə
Şər üçün qurulan tələlərini
Silib-süpürəcəyəm,
İnsanı yer üzündən yox edəcəyəm.
4 Əlimi uzadıb Yəhuda və Yerusəlim
sakinlərinin
Hamısını cəzalandıracağam,
Baal bütlərinə ibadətin qalıqlarını,
Kahinlərlə bütpərəst din xadimlərinin
adlarını da buradan silib
atacağam.
5 Damlarda göy cisimlərinə səcdə
edənləri,
Həm Rəbbin adına, həm də Milkom
bütü adına
And içib səcdə edənləri,
6 Rəbbin yolundan dönənləri,
Rəbbə müraciət etməyənləri,
Rəbdən məsləhət almayanları
Buradan yox edəcəyəm».
7 Susun Xudavənd Rəbbin qarşısında,
Çünki Onun günü yaxınlaşır,
Rəbb qurban hazırlayıb, qonaqlarını
dəvət edib.
8 Rəbb deyir: «O qurban günü
əmirləri, şahzadələri,
Əcnəbi dəbi ilə geyinənləri
cəzalandıracağam.
9 O gün kandarından tullanıb
keçənləri,
Öz ağalarının evlərini zorakılıq və
hiylə ilə
Dolduranları cəzalandıracağam».
10 Rəbb bəyan edir:
«O gün Yerusəlimdə Balıqlar
darvazasından fəğan səsi,
İkinci Məhəllədən fəryadlar,
Təpələrdən isə böyük gurultu
eşidiləcək».
11 Ey bazar məhəlləsinin sakinləri,
nalə çəkin!
Bütün tacirləriniz məhv olacaq,
Tərəzidə gümüş çəkənləriniz
qırılacaq.
12 O zaman Yerusəlimin hər tərəfini
Çıraqlarla axtaracağam,
Firavan yaşayan qayğısızları, *
Ürəklərində

---

*1:12 *Firavan yaşayan qayğısızlar* – hərfi tərcümədə *çöküntüsü dibə çökmüş şərab kimi olanlar.*

[s]1:1 2Pad. 22:1–23:30; 2Saln. 34:1–35:27

«Rəbb nə yaxşılıq, nə də pislik –
Heç nə etməz»
Deyənləri cəzalandıracağam.
13 Var-dövlətləri talan olacaq,
Evləri xaraba qalacaq,
Tikdikləri evlərdə yaşamayacaqlar,
Onlar saldıqları üzümlüklərin
Şərablarını içməyəcəklər.
14 Rəbbin möhtəşəm günü yaxınlaşır,
Yaxınlaşır, tez gələcək.
Rəbbin günündə fəryad səsi çıxacaq,
İgid adam belə, fəryad edəcək.
15 [t]O gün qəzəb günüdür:
Hər tərəfi
Əziyyət və məşəqqətin,
Viran və talanın,
Qaranlıq və zülmətin,
Qara buludların bürüdüyü gündür!
16 O gün istehkamlı şəhərlərə,
Hündür künc qüllələrinə qarşı
Döyüş üçün çalınan şeypurların,
Döyüş nərələrinin səsləndiyi gündür!
17 Rəbb deyir:
«Adamlara elə bəla göndərəcəyəm ki,
Kor kimi hara gedəcəklərini
bilməyəcəklər,
Çünki Mən Rəbbə qarşı günah ediblər.
Qanları su kimi axacaq, *
Bədənləri yerdə çürüyüb peyin
olacaq».
18 Rəbbin qəzəb günündə
Qızıl-gümüşləri
Onları qurtara bilməyəcək,
Onun qısqanc qəzəbinin alovunda
Bütün ölkə yanıb yox olacaq,
Çünki O, bir anda ölkənin sakinlərini
qıracaq.

Tövbəyə çağırış

2 Ey utanmaz millət, toplaşın!
2 Fərman çıxmadan,
O gün saman çöpü tək uçmadan,
Rəbbin qızğın qəzəbi başınıza
gəlmədən,
Rəbbin qəzəb günü sizə yetişmədən
öncə toplaşın!
3 Ey Rəbbin hökmünə əməl edən
sizlər,
Ölkədəki itaətkar insanlar, Rəbbə
meyl salın!
Salehliyə meyl salın!
İtaətkarlığa meyl salın!
Bəlkə siz Rəbbin qəzəb günündə
qurtula bildiniz.

Rəbbin millətlərə cəzası

4 [u]Qəzzə bomboş qalacaq,
Aşqelon xarabalığa dönəcək,
Aşdod əhalisi günorta çağı qovulacaq,
Eqron özülündən söküləcək!
5 Dəniz sahilində yaşayanların –
Keretlilərin [†]vay halına!
Ey Filiştlilərin torpağı Kənan,
Rəbbin hökmü sizə qarşıdır,
Rəbb hamınızı yox edəcək.
Ölkədə heç bir sakin sağ qalmayacaq!
6 Dəniz sahilindəki ölkəniz otlaqlara,
Çoban daxmalarına və qoyun-keçi
ağıllarına dönəcək!
7 Bu ölkə Yəhuda nəslindən qalanların
əlinə keçəcək,
Sürülərini orada otaracaqlar,
Axşam Aşqelondakı evlərində
yatacaqlar,
Çünki özlərinin Allahı Rəbb onları
yada salaraq
Yenə firavan edəcək.

---

*1:17 *Qanları su kimi axacaq* – hərfi tərcümədə *qan toz kimi tökülləcək.*
†2:5 *Keret* – Krit adası nəzərdə tutulur.

t1:15 Yoel 2:2
u2:4 Yeş. 14:29-31; Yer. 47:1-7; Yez. 25:15-17; Yoel 3:4-8; Amos 1:6-8; Zək. 9:5-7

8 [v]
«Moavlıların rişxəndlərini,
Ammonluların təhqirlərini eşitdim.
Xalqıma rişxənd edib lovğalanaraq
dedilər ki,
Xalqımın sərhədlərini keçəcəklər.
9 [w]Buna görə də İsrailin Allahı,
Ordular Rəbbi bəyan edir.
Varlığıma and olsun ki,
Moav mütləq Sodom kimi,
Ammon Homorra kimi olacaq:
Oraları alaqlar və duzlu çalalar
basacaq,
Əbədi viranəliyə dönəcək.
Xalqımın qalanları oranı talan edəcək,
Torpaqlarına millətimdən sağ
qalanlar
Sahib olacaq».
10 Bu onların məğrurluğunun əvəzi
olacaq,
Çünki bu xalqlar
Ordular Rəbbinin xalqına rişxənd
edib lovğalandı.
11 Rəbb onları dəhşətə salacaq,
Yer üzünün bütün allahlarını yox
edəcək.
Uzaqlarda yaşayan bütün millətlər
Olduqları yerlərdə Ona səcdə edəcək.
12 «Ey Kuşlular, siz də
Mənim qılıncımla öldürüləcəksiniz»
Rəbb deyir.
13 [x]Rəbb əlini şimala doğru uzadıb
Aşşuru yox edəcək,
Ninevanı viranəliyə,
Səhra kimi quruya çevirəcək,
14 Ora sürülərin, hər cür heyvanın
Yatdığı yer olacaq.
Orada sütun başlarında,
Bayquşlar, yapalaqlar yuva quracaq,
Onlar pəncərələrdən ulayacaq,
Qarğalar kandarlardan qarıldayacaq
Evlərdə sidr tirləri görünəcək.
15 [y]Bu şəhər zövq-səfalı şəhər idi,
Əmin-amanlıq içində yaşayırdı.
Hey belə deyərdi:
«Mən mənəm, məndən başqası
yoxdur!»
Necə də bu şəhər xarabalığa döndü,
Vəhşi heyvanların yuvası oldu!
Yanından keçən hər kəs vahimədən
Kənara çəkilir.

Yerusəlimin gələcəyi

3 Üsyankar, pozğun, qəddar şəhərin
vay halına!
2 Söz dinləmədi, ibrət dərsi almadı,
Rəbbə güvənmədi, Allahına
yaxınlaşmadı.
3 Başçıları nərildəyən aslanlara
bənzəyir,
Hakimləri axşam gəzən ac qurdlar
kimi
Səhərə qədər bir şey qoymaz.
4 Peyğəmbərləri məsuliyyətsiz, xain
adamlardır,
Kahinləri müqəddəs olanı
murdarlayıb,
Qanunun mənasını pozur.
5 Amma şəhərin içində olan Rəbb
salehdir,
O haqsızlıq etməz.
Hər yeni günün səhərində
Durmadan ədalətini zühur etdirər,
Amma haqsız adam utanmaq bilməz.
6 Rəbb belə deyir:
«Millətləri məhv etdim,
Künc qüllələri dağıldı.
Küçələrini viran qoydum,
O küçələrdən artıq gəlib-keçən
yoxdur!
Şəhərləri xarabalığa döndü,
Orada heç bir sakin də qalmadı.
7 Mən dedim:
“Xalqım Məndən qorxar,

---

[v]**2:8** Yeş. 15:1–16:14; 25:10-12; Yer. 48:1-47; Yez. 25:8-11; Amos 1:13-15; Yer. 49:1-6; Yez. 21:28-32; 25:1-7; Amos 1:13-15
[w]**2:9** Yar. 19:24
[x]**2:13** Yeş. 10:5-34; 14:24-27; Nah. 1:1–3:19
[y]**2:15** Yeş. 47:8

İbrət dərsi alar”.
Onda məskənləri dağıdılmaz,
Verdiyim cəzaların hamısı üzərlərinə gəlməz,
Lakin onlar hər cür pozğun iş görməkdən zövq aldı».
8 Buna görə Rəbb bəyan edir:
«Şahid kimi qalxdığım
Günə qədər Məni gözləyin.
Çünki Mən millətləri yığmağı
Padşahlıqları toplamağı qərara almışam.
Qoy üzərlərinə qeyzimi, qızğın qəzəbimi töküm.
Çünki qısqanc qəzəbimin odu ilə bütün yer üzü tələf olacaq.
9 O zaman Mən xalqların nitqini dəyişib,
Onlara pak dil verəcəyəm ki,
Hamı Rəbbin adını çağırsın,
Mənə çiyin-çiyinə xidmət etsinlər.
10 Qürbətə dağılmış,
Mənə səcdə edənlər
Kuş çaylarının o tayından
Mənə təqdimlər gətirəcək.
11 O gün sən, ey xalqım,
Mənə qarşı üsyankarlıq etdiyinə görə
Daha xəcalətli olmayacaqsan.
Çünki qürurlu, təkəbbürlü adamları
Sənin arandan uzaqlaşdıracağam,
Müqəddəs dağımda bir daha təkəbbürlü olmayacaqsan.
12 Sizin aranızda itaətkar və məzlum bir xalqı sağ qoyacağam,
Onlar Rəbbin adına pənah gətirəcək.
13 [z]İsraildən sağ qalanlar haqsızlıq etməyəcək!
Kimsəni aldadaraq yalan söyləməyəcəklər,
Çünki onlar qarnı tox yatacaq,
Onları qorxudan olmayacaq».

Sevinc nəğməsi

14 Ey Sion qızı, tərənnüm elə,
Ey İsrail, uca səslə çığır!
Ey Yerusəlim qızı, bütün qəlbinlə sevin və fərəhlən!
15 Rəbb sənin cəzanı ləğv etdi, düşmənlərini qovdu!
İsrailin padşahı Rəbb sənindir,
Artıq pislikdən qorxmayacaqsan!
16 O gün Yerusəlimə deyiləcək:
«Qorxma, ey Sion, qoy əllərin taqətdən düşməsin!
17 Allahın Rəbb,
Qüvvətli Qurtarıcın sənindir!
O sənin üçün sevinib şadlanacaq,
Səni məhəbbəti ilə yeniləşdirəcək, *
Sənin üçün tərənnümlə coşacaq!
18 Bayram gününü qeyd edən kimi
Mən sənin üzərindən bəlaları götürəcəyəm ki,
Onlara görə xəcalətli olmayasan. †
19 Budur, vaxt gəlir,
Mən sizə zülm edənlərin hamısını cəzalandıracağam,
Şikəstləri qurtaracağam, sürgünləri yığacağam,
Bütün dünyada çəkdikləri xəcaləti
Şan-şöhrətə çevirəcəyəm.
20 O zaman sizi toplayıb yurdunuza geri qaytaracağam.
Görəcəksiniz, Mən sizi yenə firavan edəndə
Bütün dünya xalqları arasında
Sizə şan-şöhrət verəcəyəm»
Rəbb deyir.

---

*3:17 *Səni məhəbbəti ilə yeniləşdirəcək* – qədim yunan və süryani tərcümələrində belədir, ibrani mətnində isə *məhəbbəti ilə susacaq.*

†3:18 *Bayram gününü … olmayasan* – qədim yunan tərcüməsində belədir, ibrani mətnində isə *bayramlar üçün kədərlənənləri səndən yığacağam.*

z3:13 Vəhy 14:5

HAQQAY

PEYĞƏMBƏRİN KİTABI

GİRİŞ

«Haqqay» Kitabı miladdan əvvəl 520-ci ildə Haqqay peyğəmbər vasitəsilə Rəbdən gələn qısa vəhylərdir. Bu kitab *«Ezra»*, *«Nehemya»* və *«Zəkəriyyə»* Kitabları ilə sıx əlaqəlidir. Kitabdakı hadisələrin tarixi dəqiq məlumdur. Sürgündən qayıdan İsrail xalqı bir neçə il idi ki, Yerusəlimdə yaşayırdı. Lakin məbəd hələ də xarabalıq vəziyyətində qalırdı. Bu vəhy vasitəsilə Rəbb xalqını məbədi bərpa etməyə çağırırdı.

Rəbb paklanmış, yeniləşmiş xalqa firavanlıq və sülh olan bir gələcək vəd verir.

Kitabın məzmunu:

1:1-15 Məbədin bərpası barəsində vəhy

2:1-23 Təsəlli və ümid xəbəri

Rəbb Yerusəlimdəki məbədinin bərpası haqqında əmr verir

1 [a]Padşah Daranın hakimiyyətinin ikinci ili, altıncı ayın birində [*]Yəhuda valisi Şealtiel oğlu Zerubbabilə və baş kahin Yehosadaq oğlu Yeşuaya peyğəmbər Haqqay vasitəsilə Rəbbin bu sözü nazil oldu: [2] «Ordular Rəbbi belə deyir: “Bu xalq deyir ki, hələ Rəbbin məbədini qurmaq vaxtı çatmayıb”».

[3] Rəbbin bu sözü peyğəmbər Haqqay vasitəsilə nazil oldu:

[4] «Bu məbəd xaraba qaldığı halda
Sizin üçün damı yaraşıqlı evlərinizdə oturmaq vaxtıdırmı?»

[5] İndi isə Ordular Rəbbi belə deyir:
«Həyat yollarınız haqqında yaxşı düşünün.

[6] Çox əkdiniz, amma az götürdünüz.
Yeyirsiniz, amma doymursunuz.
İçirsiniz, amma susuzluğunuz yatmır.
Geyinirsiniz, amma geyiminiz sizi isitmir.
Məvacibiniz cırıq kisəyə qoyulur».

[7] Ordular Rəbbi belə deyir:
«Həyat yollarınız haqqında yaxşı düşünün.

[8] İndi dağlara çıxıb ağac gətirin və məbədi qurun.
Onda razı qalaram, izzətlənərəm».
Bunu deyən Rəbdir.

[9] Ordular Rəbbi belə bəyan edir:
«Çox şey gözlədiniz, budur, az oldu.
Az olanı da evə gətirəndə onları sovurdum.
Nə üçün? Xaraba qalan məbədimə görə.
Amma siz öz evləriniz üçün əlləşirsiniz.

[10] Sizdən ötrü buna görə göylər şehini, yer də məhsulunu kəsdi.

[11] Yerə, dağlara, taxıla, təzə şəraba, zeytun yağına,
Torpağın yetirdiyi nemətlərə,
Eləcə də insana, heyvana və əllərinizin bütün zəhmətinə
Mən quraqlıq elan etdim».

[12] Şealtiel oğlu Zerubbabil ilə baş kahin Yehosadaq oğlu Yeşua və xalqın sağ qalanları özlərinin Allahı Rəbbin dediklərinə – peyğəmbər Haqqayın sözünə baxdılar. Çünki onu onların Allahı Rəbb göndərmişdi. Xalq Rəbdən qorxdu. [13] Rəbbin elçisi Haqqay Rəbbin müraciəti ilə xalqa belə dedi: «Rəbb deyir: “Mən sizinləyəm”». [14] Rəbb Yəhuda valisi Şealtiel oğlu Zerubbabili, baş kahin Yehosadaq oğlu Yeşuanı və xalqın sağ qalanlarını ruhlandırdı. Xalq yığılıb özlərinin Allahı olan Ordular Rəbbinin məbədində işləməyə

---

[*]**1:1** Miladdan əvvəl 29 avqust 520-ci il.

[a]**1:1** Ezra 5:1; 6:14

başladı. 15 Bu hadisə padşah Daranın
hakimiyyətinin ikinci ili, altıncı ayın
iyirmi dördündə baş verdi.

Məbədin bərpasının tərənnümü

2 Yeddinci ayın iyirmi birində
peyğəmbər Haqqay vasitəsilə
Rəbbin bu sözü nazil oldu: 2 «İndi
Yəhuda valisi Şealtiel oğlu Zerubbabilə,
baş kahin Yehosadaq oğlu Yeşuaya
və xalqın sağ qalanlarına belə söylə:
3 [b]"Sizin aranızda kim burada olan
məbədin əvvəlki əzəmətini görmüşdür?
İndi buranı necə görürsünüz? Gözünüz
önündə sanki bir heçə çevrilməyibmi?"
4 Rəbb deyir: "İndi isə, ey Zerubbabil,
qüvvətlən! Qüvvətlən, ey baş kahin
olan Yehosadaq oğlu Yeşua! Ey bütün
ölkə xalqı, qüvvətlənin və işləyin! Çünki
Mən sizinləyəm". Ordular Rəbbi belə
bəyan edir: 5 [c]"Misirdən çıxan zaman
sizinlə bağladığım əhdə əsasən Ruhum
aranızdadır. Qorxmayın!"
6 [d]Budur, Ordular Rəbbi belə deyir:
"Tezliklə Mən göyləri, yeri, dənizi,
torpağı bir də lərzəyə gətirəcəyəm!
7 Bütün millətləri lərzəyə salacağam;
bütün millətlərin var-dövləti gələcək
və bu evi əzəmətlə dolduracağam".
Ordular Rəbbi belə deyir. 8 "Bütün
qızıl-gümüş Mənimdir". Ordular Rəbbi
belə bəyan edir. 9 Ordular Rəbbi
belə deyir: "İndiki məbədin əzəməti
əvvəlkindən üstün olacaq. Bu yerə
əmin-amanlıq verəcəyəm". Ordular
Rəbbi belə bəyan edir».

Məzəmmət və vəd

10 Daranın hakimiyyətinin ikinci
ili, doqquzuncu ayın iyirmi dördündə
Rəbbin sözü peyğəmbər Haqqaya
nazil oldu. 11 Ordular Rəbbi belə deyir:
«Qanun haqqında kahinlərə bir müraciət
edin: 12 "Kimsə cübbəsinin ətəyində
təqdis olunmuş ət gəzdirən zaman ətəyi
ilə çörəyə, şorbaya, şəraba, zeytun
yağına və yaxud hər hansı bir ərzağa
toxunarsa, bunlar təqdis olunarmı?"»
Kahinlər bu suala «xeyr» deyə cavab
verdi. 13 [e]Haqqay dedi: «Bəs ölü cəsədə
toxunub murdarlanan bir adam həmin
ərzaqlardan birinə toxunarsa, bu ərzaq
murdar olarmı?» Kahinlər cavab verdi:
«Murdar olar».
14 Haqqay sonra belə dedi: «Rəbb belə
bəyan edir: "Bu xalq – bu millət Mənim
gözümdə belədir. Onların hər əməli
belədir. Mənə təqdim etdikləri hər
şey murdardır. 15 İndi rica edirəm, bu
gündən etibarən nə olacağını dərindən
düşünün. Rəbbin məbədinin daşı daş
üstünə qoyulmazdan əvvəl işləriniz
necə gedirdi? 16 O zaman hər kim
iyirmi kisə məhsul gözləyirdisə, on kisə
olurdu. Şərab çənindən kim əlli qab
şərab çəkmək istəyirdisə, iyirmi qablıq
şərab tapırdı". 17 Rəbb belə bəyan
edir: "Özünüzü və əllərinizin bütün
zəhmətini səmum küləyi, kif və dolu ilə
vurdum. Yenə Mənə sarı dönmədiniz.
18 Rica edirəm, dərindən düşünün. Bu
gün doqquzuncu ayın iyirmi dördündən
– Rəbbin məbədinin təməli qoyulan
gündən sonra nə baş verəcəyi barədə
yaxşı düşünün. 19 Anbarda toxum
qalıbmı? Məgər üzüm, əncir, nar,
zeytun ağacı bar gətirməyib? Bu gündən
etibarən sizə bərəkət verəcəyəm!"»

Rəbbin Zerubbabilə dediyi söz

20 Rəbbin bu sözü Haqqaya ikinci
dəfə ayın iyirmi dördündə nazil
oldu: 21 «Yəhuda valisi Zerubbabilə
belə de: "Mən göyləri və yeri
lərzəyə gətirəcəyəm. 22 Padşahlıqların
taxt-taclarını alt-üst edəcəyəm.

---

[b]**2:3** Ezra 3:12 [c]**2:5** Çıx. 29:45-46 [d]**2:6** Haq. 2:21; İbr. 12:26
[e]**2:13** Say. 19:11-22

Millətlərin padşahlıqlarının gücünü
darmadağın edəcəyəm. Döyüş arabaları
ilə sürücülərini aşıracağam, atlarla
süvarilər yerə səriləcəklər. Hamı qardaş
qılıncı ilə qırılacaq”».

23 Ordular Rəbbi bəyan edir: «Ey
qulum Şealtiel oğlu Zerubbabil, o gün
səni götürüb möhürlü üzük edəcəyəm,
çünki səni seçdim». Rəbb bu sözləri
dedi. Bu, Ordular Rəbbinin bəyanıdır.

ZƏKƏRİYYƏ

PEYĞƏMBƏRİN KİTABI

GİRİŞ

Zəkəriyyə peyğəmbər miladdan əvvəl VI əsrin ikinci yarısında yaşamışdır. Onun peyğəmbərliklərinin birinci hissəsi miladdan əvvəl 520-518-ci illər arasında Allahdan ona nazil olan peyğəmbərliklərdən ibarətdir. Onların əksəriyyəti görüntü şəklindədir. Bu peyğəmbərliklər Yerusəlimin bərpası, məbədin yenidən tikilməsi və Allah xalqının təqdis olunması barədədir. Son fəsillərdə Məsihin gözlənilən gəlişindən və son məhkəməsindən danışılır.

Kitabın məzmunu:

1:1–8:23 Xəbərdarlıq və ümid xəbəri

9:1-8 İsrailin qonşuları üzərində məhkəmə

9:9–14:21 Firavanlıq və sülh gətirən gələcək dövr

Rəbbin Öz xalqına müraciəti

1 [f]Daranın hakimiyyətinin ikinci ilində, səkkizinci ayda İddo oğlu Berekya oğlu Zəkəriyyə peyğəmbərə Rəbbin bu sözü nazil oldu: [2] «Rəbb atalarınıza çox qəzəbləndi. [3] Ona görə də sən onlara söylə ki, Ordular Rəbbinin sözü belədir:

"Mənə tərəf qayıdın" bəyan edir Ordular Rəbbi,
"Mən də sizə tərəf qayıdaram" deyir Ordular Rəbbi.

[4] "Atalarınız kimi olmayın! Əvvəlki peyğəmbərlər onlara müraciət edib söylədi ki, Ordular Rəbbi onlara ‹pis əməllərinizdən və pis işlərinizdən qayıdın› deyir. Ancaq onlar eşitmədi və Mənə qulaq asmadı" Rəbb belə bəyan edir.

[5] "Atalarınız indi haradadır?
Peyğəmbərlər də əbədi yaşayırmı?
[6] Amma qullarım peyğəmbərlərə əmr etdiyim
Sözlərim və qaydalarım atalarınıza gəlib çatmadımı?"

Onlar da tövbə edib dedi: "Ordular Rəbbi əməllərimizə və işlərimizə görə bizə nə etməyi düşündüsə, bizimlə elə də rəftar etdi"».

Birinci görüntü: atlılar

[7] Daranın hakimiyyətinin ikinci ilində, on birinci ay olan Şevat ayının iyirmi dördüncü günü İddo oğlu Berekya oğlu Zəkəriyyə peyğəmbərə Rəbbin bu sözü nazil oldu: [8] [g]gecə yarısı gördüm ki, qırmızı ata minmiş bir nəfər dərənin dibində mərsin ağacları arasında durub. Onun arxasında isə qırmızı, kəhər və ağ atlar var idi. [9] Mən soruşdum: «Ay ağam, bunlar nədir?» Mənimlə danışan mələk dedi: «Bunların nə olduğunu sənə göstərəcəyəm». [10] Mərsin ağacları arasında duran adam cavab verdi: «Bunları dünyanı dolaşmaq üçün Rəbb göndərib». [11] Onlar mərsin ağacları arasında duran Rəbbin mələyinə cavab verdi: «Biz dünyanı dolaşdıq və gördük ki, bütün dünya asayiş və əmin-amanlıq içindədir».

[12] Onda Rəbbin mələyi dedi: «Ey Ordular Rəbbi, bu yetmiş il ərzində qəzəbləndiyin Yerusəlimə və başqa Yəhuda şəhərlərinə nə vaxta qədər mərhəmət etməyəcəksən?» [13] Rəbb mənimlə danışan mələyə yaxşı vədlərlə, təsəlliverici sözlərlə cavab verdi. [14] Mənimlə danışan mələk mənə dedi: «Müraciət edib söylə ki, Ordular Rəbbi belə deyir:

"Yerusəlim və Sion üçün böyük qısqanclıq duyuram.

---

[f] **1:1** Ezra 5:1; 6:14 [g] **1:8** Zək. 6:2-3; Vəhy 6:2,4

15 Qayğısız olan millətlərə qarşı çox
qəzəbliyəm.
Çünki Mən hələ az qəzəbləndiyim
zaman
Onlar öz pis əməllərini daha da
artırdı”.
16 Buna görə də Rəbb belə deyir:
“Mən mərhəmətlə Yerusəlimə
qayıtdım.
Evim yenə orada qurulacaq,
Yerusəlimin üzərinə ölçü ipi
çəkiləcək”
Bəyan edir Ordular Rəbbi.
17 Sən bir daha müraciət edib söylə ki,
Ordular Rəbbi belə deyir:
“Şəhərlərim yenə bolluqla
dolub-daşacaq.
Rəbb Siona yenə təsəlli verəcək,
Yenə Yerusəlimi seçəcək”».

İkinci görüntü: dörd buynuz və dörd usta

18 Sonra başımı qaldırıb baxdım
və dörd buynuz gördüm. 19 Mənimlə
danışan mələyə dedim: «Bunlar nədir?»
O mənə dedi: «Bunlar Yəhudanı, İsraili
və Yerusəlimi dağıtmış buynuzlardır».
20 Onda Rəbb mənə dörd usta göstərdi.
21 Mən «Bunlar nə etməyə gəlir?» deyə
soruşdum. O dedi: «Bu buynuzlar
Yəhudanı elə dağıtdı ki, heç kəs başını
qaldıra bilmədi. Bu ustalar da Yəhuda
ölkəsini dağıtmaq üçün buynuz qaldıran
millətləri dəhşətə gətirib buynuzlarını
yerə çalmağa gəldi».

Üçüncü görüntü: ölçü ipi

2 Mən başımı qaldırıb baxdım və
əlində ölçü ipi olan bir adam
gördüm. 2 «Hara gedirsən?» deyib
soruşdum. O mənə dedi: «Yerusəlimi
ölçməyə, en və uzunluğunun nə
qədər olduğunu öyrənməyə gedirəm».
3 Mənimlə danışan mələk yanımdan
çıxanda başqa bir mələk onu
qarşılamağa gəldi 4 və ona dedi:
«Qaç, o cavana söylə ki, içində
adamlar
Və heyvanlar çox olduğu üçün
Yerusəlim divarsız bir şəhər olacaq.
5 “Mən Özüm onun ətrafında odlu
divara çevriləcəyəm,
Onun içində izzət olacağam” bəyan
edir Rəbb».
6 «Haydı, haydı! Şimal ölkəsindən
qaçın» deyir Rəbb,
«Çünki sizi göydə dörd tərəfə əsən
Külək kimi dağıtmışdım» deyir Rəbb.
7 «Haydı! Ey Sion, sən ki Babil
şəhərində yaşayırsan, qaçıb
qurtar!»
8 Çünki Ordular Rəbbi deyir ki,
İzzəti üçün sizi qarət etmiş millətlərin
yanına Məni göndərdi.
Sizə toxunan Onun göz bəbəyinə
toxunmuş olur.
9 Mən o millətlərə qarşı əlimi
qaldıracağam,
Əsarətlərində olanlar onları qarət
edəcək.
Onda biləcəksiniz ki,
Məni Ordular Rəbbi göndərmişdir.
10 «Şadlıq edib sevin, ey Sion qızı!
Çünki aranızda yaşamağa gəlirəm»
bəyan edir Rəbb.
11 «O gün çoxlu millətlər Rəbbə
bağlanacaq,
Mənim xalqım olacaq.
O zaman aranızda yaşayacağam.
Siz biləcəksiniz ki,
Məni yanınıza Ordular Rəbbi
göndərib.
12 Rəbb müqəddəs torpaqda
Yəhudanı Öz payı olaraq mülk alacaq,
Yenə Yerusəlimi seçəcək.
13 Ey bütün bəşər, Rəbbin önündə
susun!
Çünki O Öz müqəddəs məskənindən
qalxıb gəlir!»

Dördüncü görüntü: baş kahin Yeşua

3 [h]Rəbb mənə bunu göstərdi: Rəbbin
mələyinin önündə baş kahin Yeşua
durmuşdu və onu ittiham etmək üçün
sağında Şeytan dayanmışdı. 2 [i]Rəbb
Şeytana dedi: «Rəbb səni məzəmmət
etsin, ey Şeytan, Yerusəlimi seçən
Rəbb səni məzəmmət etsin. Bu adam
oddan çıxarılmış, yarısı yanmış odun
parçasına bənzəmirmi?» 3 O vaxt Yeşua
əyninə çox çirkli paltar geyinib mələyin
önündə dayanmışdı. 4 Bu mələk önündə
duran mələklərə dedi: «Onun əynindən
çirkli paltarı çıxarın». Sonra Yeşuaya
dedi: «Bax günahını sənin üzərindən
götürdüm, indi sənə bayram paltarı
geyindirəcəyəm». 5 Mən isə dedim: «Qoy
başına da təmiz çalma bağlasınlar».
Başına təmiz çalma bağlayıb ona paltar
geyindirdilər. Rəbbin mələyi də yanında
durmuşdu.
6 Sonra Rəbbin mələyi Yeşuaya
şəhadət edib dedi: 7 «Ordular Rəbbi belə
deyir:
"Əgər yollarımla getsən, verdiyim
buyruğumu qoruyub saxlasan,
Evimə sən başçılıq edəcəksən,
həyətlərimi sən qoruyacaqsan.
Burada duranların arasında içəri
keçmək haqqını sənə verirəm".
8 [j]Ey baş kahin Yeşua, sən və sənin
önündə oturan yoldaşların qulaq
assın!
Çünki onlar gələcək hadisələrin
əlamətidir.
Mən "Pöhrə" adlı qulumu
gətirəcəyəm.
9 Yeşuanın önünə qoyduğum daşa
baxın!
O tək daşın yeddi gözü var.
Onun üzərinə bir yazı oyub
yazacağam» bəyan edir Ordular
Rəbbi,
«Bir gün içində bu ölkənin günahını
ortadan götürəcəyəm.
10 [k]O gün hər biriniz qonşusunu
öz tənəyi və əncir ağacı altına
çağıracaq»
Bəyan edir Ordular Rəbbi.

Beşinci görüntü: çıraqdan və zeytun ağacları

4 Mənimlə danışan mələk geri qayıdıb
məni yuxusundan oyanan adam
kimi oyatdı. 2 [l]O məndən soruşdu: «Nə
görürsən?» Mən dedim: «Büsbütün
qızıldan olan bir çıraqdan görürəm.
Onun başında zeytun yağı üçün bir qab,
üzərində yeddi çıraq, çıraqlarda isə
yeddi lülə var. 3 [m]Çıraqdanın yanında
isə biri yağ qabının sağında, o biri
solunda olmaqla iki zeytun ağacı var».
4 Sonra mənimlə danışan mələkdən
soruşdum: «Ay ağam, bunlar nədir?»
5 Mənimlə danışan mələk «Bunların nə
olduğunu bilmirsənmi?» deyə soruşdu.
Mən də «yox, ağam» dedim. 6 [n]O mənə
cavab verdi:
«Zerubbabilə Rəbbin sözü budur:
"Güclə, qüdrətlə yox, yalnız Mənim
Ruhumla iş görəcəksən"
Deyir Ordular Rəbbi.
7 Sən kimsən, ey uca dağ?
Zerubbabilin önündə düzənliyə
çevriləcəksən.
O "nə gözəldir, nə gözəldir" nidaları
altında
Məbədin təpə daşını götürəcək».
8 Mənə Rəbbin sözü nazil oldu:
9 «Bu evin təməlini Zerubbabilin əlləri
qoydu,
Onun əlləri də bunu sona çatdıracaq.

---

[h]**3:1** Ezra 5:2; Vəhy 12:10 [i]**3:2** Yəhd. 9 [j]**3:8** Yer. 23:5; 33:15; Zək. 6:12
[k]**3:10** Mik. 4:4 [l]**4:2** Vəhy 4:5 [m]**4:3** Vəhy 11:4 [n]**4:6** Ezra 5:2

Onda biləcəksən ki, Ordular Rəbbi
Məni sizin yanınıza göndərib.
10 [o]Bu günü kim əhəmiyyətsiz hesab
edə bilər?
Məhz bu gün adamlar Zerubbabilin
əlində şaqulu görəndə sevinəcək.
Bu yeddi çıraq isə Rəbbin bütün yer
üzündə dolaşan gözləridir».
11 [p]Mən ondan soruşdum: «Bəs
çıraqdanın sağ və solunda olan bu
iki zeytun ağacı nədir?» 12 Sonra
yenə soruşdum: «İki qızıl borucuq
vasitəsilə içindən qızıl rəngində yağ
axan bu iki zeytun budağı nədir?» 13 O
məndən soruşdu: «Bunların nə olduğunu
bilmirsənmi?» Mən də «yox, ay ağam»
dedim. 14 O mənə dedi: «Bunlar bütün
yer üzünün Sahibinin önündə duran
məsh olunmuş iki nəfərdir».

Altıncı görüntü: uçan tumar

5 Mən yenə başımı qaldırıb baxanda
uçan bir tumar gördüm. 2 Mələk
«Nə görürsən?» deyib məndən soruşdu.
Mən dedim: «Uçan bir tumar görürəm:
onun uzunluğu iyirmi qulac, eni on
qulacdır». 3 O dedi: «Bu bütün yer
üzünə yağacaq lənətdir. Tumarın bir
üzünə yazılanlara görə oğurluq edən
hər kəs kəsilib-atılacaq, o biri üzünə
yazılanlara görə isə yalandan and
içənlər kəsilib-atılacaq.
4 Lənət yağdıracağam» bəyan edir
Ordular Rəbbi,
«Oğrunun evinə və Mənim adımla
Yalandan and içən adamın evinə lənət
girəcək,
O evin içində qalacaq,
Taxtaları və daşları ilə birlikdə onu
yıxıb məhv edəcək».

Yeddinci görüntü: ölçü qabındakı qadın

5 Sonra mənimlə danışan mələk
yaxınlaşıb dedi: «Başını qaldırıb ortaya
çıxan bu şeyin nə olduğunu gör».
6 Mən «Bu nədir?» deyə soruşdum. O
cavab verdi: «Bu ortaya çıxan şey bir
ölçü qabıdır». Sonra əlavə etdi: «Bu
bütün ölkə xalqının təqsiridir». 7 Qabın
qurğuşun qapağı qaldırıldı. Qabın
içində bir qadın oturmuşdu. 8 Mələk
«bu qadın pislikdir» dedi və qadını ölçü
qabının içinə atıb üstünə qurğuşun
qapağı basdı.
9 Mən başımı qaldırıb baxanda
gördüm ki, iki qadın çıxdı, onların
qanadlarında külək var idi. Onların da
leylək qanadlarına bənzər qanadları
var idi. Onlar qabı yerlə göy arasına
qaldırdı. 10 Mənimlə danışan mələkdən
soruşdum: «Qabı hara aparırlar?» 11 O
mənə dedi: «Şinar ölkəsində ona bir
ev tikmək üçün oraya aparırlar. Ev
hazır olanda qab oraya – öz yerinə
qoyulacaq».

Səkkizinci görüntü: dörd döyüş arabası

6 Yenə başımı qaldırıb baxanda
iki dağ arasından dörd döyüş
arabasının çıxdığını gördüm. O dağlar
misdən idi. 2 [q]Birinci döyüş arabasının
qırmızı, ikincisinin qara, 3 üçüncüsünün
ağ, dördüncüsünün xallı atları var idi.
Hamısı qüvvətli atlar idi. 4 Mənimlə
danışan mələkdən «Ay ağam, bunlar
nədir?» deyib soruşdum. 5 [r]Mələk mənə
cavab verdi: «Bunlar bütün yer üzünün
Sahibinə xidmət etdikləri yerdən
çıxan göylərin dörd səmtinin ruhudur.
[*]6 Qara atları olan döyüş arabası şimal
torpağına, ağ atları olan döyüş arabası

[*]**6:5** *Ruhudur* – yaxud *küləyidir*.

[o]**4:10** Vəhy 5:6 [p]**4:11** Vəhy 11:4 [q]**6:2** Zək. 1:8; Vəhy 6:2,4 [r]**6:5** Vəhy 7:1

qərbə, xallı atları olan döyüş arabası
isə cənuba tərəf gedir». 7 Qüvvətli
atlar çıxıb yer üzünü dolaşmaq üçün
getmək istədi. Mələk «gedin yer üzünü
dolaşın» dedi. Onlar da gedib yer üzünü
dolaşdı. 8 Mələk məni çağırıb dedi: «Bax
şimal torpağına gedənlər orada ürəyimi
rahatlandırdı».

Yeşuaya tac qoyulması

9 Mənə Rəbbin bu sözü nazil
oldu: 10 «Hədiyyələri sürgündən
qayıdanlardan – Babildən gələn Xelday,
Toviya, Yedayadan götür və həmin
gün Sefanya oğlu Yoşiyanın evinə
get. 11 Onların arasından qızıl-gümüş
götürüb taclar düzəlt və baş kahin
Yehosadaq oğlu Yeşuanın başına qoy.
12 [s]Ona söylə ki, Ordular Rəbbi belə
deyir:
"Bax ‹Pöhrə› adlanan adam budur!
O olduğu yerdən qol-budaq atacaq,
Rəbbin məbədini tikəcək.
13 Bəli, Rəbbin məbədini o tikəcək.
O izzətlənəcək, taxtında oturub
hökmranlıq edəcək.
Taxtının yanında kahin olacaq,
İkisinin arasında tam razılıq olacaq".
14 Bu taclar Xeldayın, Toviyanın,
Yedayanın, Sefanya oğlu Yoşiyanın
xatirəsi kimi Rəbbin məbədinə
qoyulacaq. 15 Uzaqda olanlar da gəlib
Rəbbin məbədinin tikintisində çalışacaq.
Onda biləcəksiniz ki, məni Ordular
Rəbbi sizin yanınıza göndərmişdir. Əgər
Allahınız Rəbbin səsinə yaxşı qulaq
assanız, bunlar olacaq».

Ədalətin ibadətdən üstünlüyü

7 Padşah Daranın hakimiyyətinin
dördüncü ilində, doqquzuncu ay
olan Kislev ayının dördüncü günü
Zəkəriyyəyə Rəbbin sözü nazil oldu.
2 O vaxt Bet-El əhalisi Sar-Eseri,
Reqem-Meleki və onun adamlarını
Rəbbin hüzuruna yalvarmağa göndərdi
ki, 3 Ordular Rəbbinin evində olan
kahinlərlə peyğəmbərlərdən «İllərlə
etdiyimiz kimi beşinci ayda yenə
də oruc tutub ağlayaqmı?» deyə
soruşsunlar.
4 Onda mənə Ordular Rəbbinin bu
sözü nazil oldu:
5 «Bütün ölkə xalqına və kahinlərə
söylə:
"Yetmiş il ərzində beşinci və yeddinci
aylarda
Oruc tutub yas saxladığınız zaman
Mənim üçünmü oruc tuturdunuz?
6 Yeyib-içdiyiniz zaman
Özünüz üçün yeyib-içmirdinizmi?"
7 Yerusəlim əmin-amanlıq içində
yaşayarkən, ətrafındakı şəhərlər, Negev
və yamaclı-düzənlikli bölgədə insanlar
sakin olarkən Rəbb indi dediyi bu
sözləri əvvəlki peyğəmbərlər vasitəsilə
söyləməmişdimi?»
8 Zəkəriyyəyə Rəbbin bu sözü nazil
oldu:
9 «Ordular Rəbbi belə deyir:
"Düzgün və ədalətlə mühakimə edin.
Hər kəs bir-birinə məhəbbət və
mərhəmət göstərsin.
10 Dul qadına, yetimə, qəribə və
yoxsula zülm etməyin.
Ürəyinizdə bir-birinizə qarşı pis
niyyətlər tutmayın".
11 Ancaq onlar eşitməkdən boyun
qaçırdı, inadkarlıqla arxa çevirdi,
eşitməmək üçün qulaqlarını bağladı.
12 Ordular Rəbbinin Öz Ruhu ilə əvvəlki
peyğəmbərlər vasitəsilə göndərdiyi
qanunu və nəsihətləri eşitməmək üçün
ürəklərini almaz kimi sərtləşdirdilər.
Buna görə də Ordular Rəbbi onlara
çox qəzəbləndi. 13 Ordular Rəbbi deyir:
"İndi ki Mən onları çağıranda qulaq
asmadılar, onlar da çağıranda Mən

---

[s]**6:12** Yer. 23:5; 33:15; Zək. 3:8

qulaq asmayacağam. 14 Onları qasırğa
kimi tanımadıqları millətlərin arasına
səpələdim. Arxada qoyduqları torpaq
elə viran qaldı ki, oraya gedib-gələn
olmadı. Gözəl torpaq xaraba qaldı”».

Allahın Yerusəlimə xeyir-duası

8 Mənə Ordular Rəbbinin bu sözü
nazil oldu: 2 Ordular Rəbbi belə
deyir: «Sion üçün böyük qısqanclıq
duyuram. Bəli, onu çox qısqanıram».
3 Rəbb belə deyir: «Siona qayıtdım, artıq
Yerusəlimdə yaşayacağam. Yerusəlim
Həqiqət şəhəri, Ordular Rəbbinin dağı
Müqəddəs dağ çağırılacaq».
4 Ordular Rəbbi belə deyir: «Yenə
Yerusəlim meydanlarında qoca kişilər
və qadınlar oturacaq, hər kəs yaşı
çox olduğuna görə əlinə əsa alacaq.
5 Şəhərin meydanları orada oynayan
oğlan və qız uşaqları ilə dolacaq».
6 Ordular Rəbbi belə deyir: «O günlər
bu xalqın sağ qalanlarının gözündə bu iş
qeyri-mümkün görünürsə, Mənə də belə
görünməlidirmi?» bəyan edir Ordular
Rəbbi. 7 «Bax Mən Öz xalqımı şərq
və qərb ölkələrindən qaytaracağam»
deyir Ordular Rəbbi. 8 «Mən onları
gətirəcəyəm və onlar Yerusəlimdə
yaşayacaq. Onlar Mənim xalqım olacaq,
Mən də sədaqət və salehliklə onların
Allahı olacağam».
9 Ordular Rəbbi belə deyir: «Ordular
Rəbbinin evinin – məbədin tikilməsi
üçün təməli qoyulan gün orada
peyğəmbərlərin dediyi bu sözləri o vaxt
eşidənlər, qoy qolunuza güc gəlsin. 10 O
vaxtdan əvvəl insan yaxud heyvana heç
bir əvəz verilmirdi. Düşmən üzündən
heç kəs əmin-amanlıq içində gedib-gələ
bilmirdi. Çünki adamları bir-birinin
üstünə salışdırmışdım. 11 Ancaq indi
bu xalqın sağ qalanları ilə əvvəlki
kimi rəftar etməyəcəyəm» bəyan edir
Ordular Rəbbi. 12 «Çünki əkilən toxum
bəhərli olacaq: tənək bəhrəsini, torpaq
məhsulunu, göylər şehini verəcək.
Bunların hamısını bu xalqın sağ
qalanlarına mülk olaraq verəcəyəm.
13 Sizi qurtaracağam, ey Yəhuda və İsrail
nəsli. Siz necə millətlər arasında lənət
hədəfi oldunuzsa, indi bərəkət qaynağı
olacaqsınız. Qorxmayın, qolunuza güc
gəlsin».
14 Ordular Rəbbi belə deyir:
«Atalarınız Məni qəzəbləndirən zaman
başınıza fəlakət gətirmək istədim və
fikrimdən dönmədim» deyir Ordular
Rəbbi. 15 «İndi isə Yerusəlimə və
Yəhuda nəslinə yenə yaxşılıq etmək
fikrindəyəm. Siz qorxmayın! 16 [t]Belə
edin: hər kəs öz qonşusuna həqiqəti
söyləsin, əmin-amanlıq üçün şəhər
darvazalarında sədaqət və ədalətlə
mühakimə edin. 17 Bir-birinizə qarşı
ürəyinizdə pis niyyət tutmayın,
yalandan and içməkdən əl çəkin, çünki
bunların hamısı Mənim nifrət etdiyim
şeylərdir» bəyan edir Rəbb.
18 Mənə Ordular Rəbbinin bu sözü
nazil oldu: 19 Ordular Rəbbi belə deyir:
«Dördüncü, beşinci, yeddinci və onuncu
ayların orucları Yəhuda xalqı üçün
sevinc və şadlıq dolu gözəl bayramlar
olacaq. Ancaq siz düzgünlüyü və
əmin-amanlığı sevin».
20 Ordular Rəbbi belə deyir: «Hələ
çoxlu xalq, çoxlu şəhərin əhalisi də
gələcək. 21 Bir şəhərdə yaşayanlar başqa
şəhərə gedib deyəcək: “Gəlin yola
düşək, Rəbbin hüzurunda yalvaraq,
Ordular Rəbbini axtaraq. Mən də
gedirəm”. 22 Bir çox xalqlar və qüdrətli
millətlər Ordular Rəbbini axtarmaq
və Rəbbin hüzurunda yalvarmaq üçün
Yerusəlimə gələcək».
23 Ordular Rəbbi deyir: «O günlərdə
müxtəlif dillərdə danışan millətlərdən

[t] **8:16** Ef. 4:25

olan on adam bir Yəhudinin ətəyindən
yapışıb “qoy sizinlə gedək, çünki
Allahın sizinlə olduğunu eşitmişik”
deyəcək».

İsrailin düşmənlərinə cəza

9 [u]Bu xəbərdarlıq Xadrak ölkəsi
və onun rahatlıq yeri Dəməşq
şəhəri barəsində nazil olan Rəbbin
sözüdür, çünki insanların və bütün
İsrail qəbilələrinin gözü Rəbbə baxır.
2 [v]Bu söz oranın sərhədində olan Xamat
şəhərinə, çox tərəqqi etmiş Sur və
Sidon şəhərlərinə də aiddir. 3 Sur
özünə bir qala tikdi, torpaq qədər
gümüş, küçə palçığı qədər saf qızıl
yığdı. 4 Amma Rəbb onu qovacaq,
dənizdəki gücünü yox edəcək, od onu
yandırıb-yaxacaq. 5 [w]Aşqelon bunu
görüb qorxacaq, Qəzzə də çox ağrı
çəkəcək, Eqron da eləcə, çünki ümidi
sönəcək. Qəzzədə padşah olmayacaq,
Aşqelon sakinsiz qalacaq. 6 Aşdodda
bic doğulanlar yaşayacaq, Filiştlilərin
qururunu qıracağam. 7 Ağızlarından
qanı daman əti, dişlərinin arasından
haram yeməkləri alacağam. Onların
sağ qalanları Allahımıza məxsus olub
Yəhudanın bir nəsli kimi olacaq.
Eqronlular da Yevuslular kimi olacaq.
8 Hücum edən ordulara qarşı evimin
ətrafında ordugah quracağam. Heç
bir istilaçı daha xalqımın üzərinə
tökülməyəcək. Çünki artıq xalqıma Mən
keşik çəkirəm.

Rəbbin vədi

9 [x]Ey Sion qızı, böyük sevinclə coş,
Ey Yerusəlim qızı, hayqır!
Bax padşahın sənə tərəf gəlir.
O ədalətli və xilaskardır.
O itaətkardır və bir eşşəyə –
Eşşəyin balası olan sıpaya minib gəlir.
10 [y]Döyüş arabalarını Efrayimdən,
Atları Yerusəlimdən
uzaqlaşdıracağam.
Döyüş kamanları qırılacaq.
Padşahınız millətlərə sülh elan
edəcək.
Onun hökmranlığı dənizdən dənizə,
Çaydan yer üzünün qurtaracağınadək
hər yerə uzanacaq.
11 Sizə gəlincə, əhd qurbanının
qanından ötrü
Sürgündəki xalqınızı
Susuz quyudan çıxarıb xilas
edəcəyəm.
12 Qalanıza qayıdın,
Ey ümid edən əsirlər!
Bu gün sizə bildirirəm ki,
Sizə zəhmətinizin ikiqat əvəzini
verəcəyəm.
13 Yəhudanı Özüm üçün kaman kimi
çəkəcəyəm,
Efrayimi ox kimi ona qoyacağam.
Ey Sion, övladlarını
Yunan övladlarının üstünə
qaldıracağam.
Səni bir döyüşçü qılıncı tək edəcəyəm.
14 Onda Rəbb xalqının üzərində
görünəcək,
Onun oxu şimşək kimi çaxacaq.
Xudavənd Rəbb şeypur çalacaq,
Cənub qasırğaları ilə irəli gedəcək.
15 Onları Ordular Rəbbi qoruyacaq.
Düşmənlərini tələf edəcəklər,
Sapand daşları ilə qırıb-çatacaqlar.
Onların qanını şərab kimi içib
hay-küy salacaqlar.
Qurban qanı tökülən qablar kimi,
Qurbangahın künc-bucaqları kimi
Qanla dolu olacaqlar.

---

[u]**9:1** Yeş. 17:1-3; Yer. 49:23-27; Amos 1:3-5 [v]**9:2** Yeş. 23:1-18; Yez. 26:1–28:26; Yoel 3:4-8; Amos 1:9-10; Mat. 11:20-22; Luka 10:13-14
[w]**9:5** Yeş. 14:29-31; Yer. 47:1-7; Yez. 25:15-17; Yoel 3:4-8; Amos 1:6-8; Sef. 2:4-7
[x]**9:9** Mat. 21:4-5; Yəh. 12:14-15 [y]**9:10** Zəb. 72:8

16 O gün özlərinin Allahı Rəbb
Xalqının sürüsü kimi onları xilas
edəcək.
Onlar Onun torpağında
Tac daş-qaşı kimi parıldayacaq.
17 Necə yaraşıqlı, necə gözəl
olacaqlar!
Oğlanlar taxılla,
Qızlar təzə şərabla gücə gələcək.

Yəhudanın xilası

10 Yaz yağışı mövsümündə
Rəbdən, şimşək çaxdıran Rəbdən
Yağış istəyin.
O, insanlara bolluca yağış və
Hər kəsin tarlasına ot verəcək.
2 [z]Ancaq ev bütlərindən alınan vədlər
boş şeydir.
Falçılar boş görüntülər görür,
Mənasız yuxular danışaraq
Əbəs yerə təsəlli verir.
Buna görə də xalq sürü kimi
dağınıqdır,
Zəhmət çəkirlər, çünki bir çoban
yoxdur.
3 Rəbb deyir:
«Çobanlara qarşı qəzəbim alovlandı,
Başçılarına cəza verəcəyəm.
Ordular Rəbbi Öz sürüsü olan
Yəhuda nəslinin qayğısını çəkəcək.
Onlar əzəmətli döyüş atları kimi
olacaq.
4 Künc daşı, çadır payası,
Döyüş kamanı ondan olacaq.
Bütün xalq başçıları ondan çıxacaq.
5 Onlar döyüşdə
Düşməni küçələrdə palçıqda
tapdalayan
İgidlər kimi olacaq,
Rəbb onlarla olduğu üçün
döyüşəcəklər,
Süvariləri utandıracaqlar.
6 Yəhuda nəslini qüvvətləndirəcəyəm,
Yusif xalqını qurtaracağam.
Sürgündən geri qaytaracağam,
Çünki onlara acıyıram.
Elə edəcəyəm ki, sanki onları
Heç əvvəlcədən rədd etməmişəm.
Çünki Mən onların Allahı Rəbbəm,
Onlara cavab verəcəyəm.
7 Efrayimlilər igidlər kimi olacaq,
Şərab içmiş kimi ürəkləri coşacaq.
Övladları bunu görüb sevinəcək,
Ürəkləri Rəbdə sevinc tapacaq.
8 Fit çalıb onları toplayacağam,
Çünki Mən onları satın almışam.
Əvvəllər necə çoxalırdılarsa,
İndi də eləcə çoxalacaqlar.
9 Onları xalqlar arasına səpələdimsə
də,
Uzaq ölkələrdə Məni yada salacaqlar.
Övladları ilə birgə sağ qalacaq və
Geri qayıdacaqlar.
10 Mən onları yenə Misir ölkəsindən
gətirəcək,
Aşşurdan toplayacağam.
Onları Gilead torpağına,
Livana gətirəcəyəm.
Onlara kifayət qədər yer
tapılmayacaq.
11 Əziyyət dənizindən keçəcəklər,
Dənizin dalğaları sakitləşəcək,
Nilin bütün dərin suları quruyacaq.
Aşşurun qüruru alçaldılacaq,
Misirin padşahlıq əsası əlindən
düşəcək.
12 Onları Rəbdə qüvvətləndirəcəyəm,
Onlar da Rəbbin adı ilə yaşayacaq»
Rəbb belə bəyan edir.

11 Ey Livan, qapılarını aç ki,
Od sənin sidr ağaclarını
yandırıb-yaxsın.
2 Ey şam ağacı, fəryad et,
Çünki sidr ağacı yıxıldı,
Hündür ağaclar məhv oldu.
Fəryad edin, ey Başan palıdları,
Qalın meşənin ağacları böyrü üstə
aşdı.

---

[z]**10:2** Say. 27:17; 1Pad. 22:17; 2Saln. 18:16; Yez. 34:5; Mat. 9:36; Mark 6:34

3 Çobanların fəryadını eşit,
Çünki onların fəxr etdikləri
Otlaqları məhv oldu.
Cavan aslanların nəriltisinə qulaq as,
Çünki İordan çayının kənarındakı sıx
meşə yox oldu.

İki çoban

4 Allahım Rəbb belə deyir: «Kəsmək
üçün ayrılmış sürünü sən otar. 5 O
sürünün qoyunlarını alanlar onları
kəssə də, təqsirsiz qalır. Onları satanlar
isə "Rəbbə alqış olsun ki, dövlətli
oldum" deyir. Çobanlar öz sürülərinə
acımır. 6 Mən də daha ölkədə yaşayan
xalqa acımayacağam» bəyan edir
Rəbb. «Hər kəsi öz qonşusuna və
padşahına təslim edəcəyəm. Ölkəni
dağıdacaqlar, Mən də xalqı əllərindən
qurtarmayacağam.
7 Buna görə də kəsmək üçün ayrılmış
sürünün zəiflərini otardım. Özümə iki
dəyənək götürdüm, birini "Lütf", o
birini isə "Birlik" adlandırdım və sürünü
otarmağa başladım. 8 Bircə ayın içində
üç çobanı işdən qovdum, çünki onların
əlindən təngə gəlmişdim, onların da
Məndən zəhləsi gedirdi. 9 Sonra sürüyə
dedim: "Daha sizi otarmayacağam. Ölən
ölsün, kəsilən kəsilsin, yerdə qalanlar
da bir-birlərinin ətini yesin". 10 Sonra
"Lütf" adlı dəyənəyimi götürdüm və
bütün xalqlarla bağladığım əhdi pozmaq
üçün onu qırdım. 11 Beləcə əhd o gün
pozuldu. Sürünün Mənə qulaq asan
zəifləri bunun Rəbbin sözü olduğunu
anladı. 12 [a]Mən onlara dedim: "Əgər
bu sizə xoşdursa, Mənim muzdumu
verin, əgər belə deyilsə, verməyin".
Onlar Mənə muzd olaraq otuz gümüş
verdi. 13 Rəbb Mənə dedi: "Onların
Məni qiymətləndirdiyi bu yüksək
muzdu dulusçuya at". Beləcə otuz
gümüşü götürüb Rəbbin məbədində
olan dulusçuya atdım. 14 Sonra Yəhuda
ilə İsrail arasındakı qardaşlığı pozmaq
üçün "Birlik" adlı o biri dəyənəyimi də
qırdım.
15 Rəbb mənə dedi: "Yenə ağılsız bir
çobanın əşyalarını özün üçün götür.
16 Mən ölkəyə elə bir çoban qoyacağam
ki, oğurlananlara baxmayacaq, itmişləri
axtarmayacaq, xəstələri sağaltmayacaq,
sağlamları bəsləməyəcək. Ancaq kök
qoyunların ətini yemək, pəncələrini
kəsməklə məşğul olacaq.
17 Sürünü tərk edən yaramaz çobanın
vay halına!
Qılınc onun qolunu və sağ gözünü
vursun!
Qoy onun qolu qurusun, sağ gözü kor
olsun!"»

Yerusəlimin xilas edilməsi

12 Bu xəbərdarlıq İsrail barədə
nazil olan Rəbbin sözüdür:
göyləri yayan, yerin təməlini qoyan,
insanın içindəki ruha şəkil verən Rəbb
belə bəyan edir: 2 «Bax Yerusəlimi
ətrafındakı bütün xalqları səndələdən
şərab dolu kasa edəcəyəm. Yerusəlim
kimi Yəhuda da mühasirəyə alınacaq.
3 O gün Yerusəlimi bütün xalqlar
üçün ağır bir daş edəcəyəm. Onu
qaldıranların hamısı ağır yaralanacaq.
Dünyanın bütün millətləri ona qarşı
birləşəcək. 4 O gün hər atı dəhşətə,
süvarisini dəliliyə düçar edəcəyəm»
bəyan edir Rəbb, «Mən Yəhuda nəslinə
göz qoyacağam, amma o biri xalqların
bütün atlarını kor edəcəyəm. 5 Onda
Yəhuda başçıları ürəklərində deyəcək:
"Özlərinin Allahı Ordular Rəbbinin
ucbatından Yerusəlimdə yaşayanlar
mənim üçün qüvvə olub".
6 O gün Yəhuda başçılarını odunların
arasında yanan bir manqal, dərzlərin
ortasında alovlanan bir məşəl kimi

---

[a] **11:12** Mat. 27:9-10

edəcəyəm. Hər tərəfdə – sağda və solda
olan bütün xalqları yandırıb məhv
edəcəklər. Yerusəlimlilər isə yenə öz
şəhərlərində yaşayacaq.
7 Mən Rəbb əvvəlcə Yəhuda xalqının
məskənlərini qurtaracağam. Ona görə ki
Davud nəsli və Yerusəlimdə yaşayanlar
Yəhudadan çox şərəfli olmasın. 8 Mən
Rəbb o gün Yerusəlimdə yaşayanları
qoruyacağam. O gün onların arasında
ən gücsüz adam Davud kimi, Davud
nəsli isə Allah kimi, onlara başçılıq
edən Rəbbin mələyi kimi olacaq. 9 O
gün Yerusəlimə hücum etmək üçün
gələn bütün millətləri məhv etməyə
çalışacağam.
10 [b]Davud nəsli və Yerusəlimdə
yaşayanların üzərinə lütf və yalvarış
ruhunu tökəcəyəm. Onlar Mənə –
bədənini deşdikləri şəxsə baxacaq
və vahid oğluna yas tutan adam
kimi ona yas tutacaq, ilk oğlu üçün
dərd çəkən adam kimi dərd çəkəcək.
11 [c]O gün Yerusəlimdə böyük matəm
olacaq, Megiddo düzənliyində,
Hadad-Rimmonda olduğu kimi böyük
matəm olacaq. 12 Ölkədə hər nəsil
öz içində yas tutacaq: Davud nəsli
ayrı, qadınları ayrı, Natan nəsli ayrı,
qadınları ayrı, 13 Levi nəsli ayrı,
qadınları ayrı, Şimey nəsli ayrı,
qadınları ayrı yas tutacaq. 14 Bütün
qalan nəsilləri ayrı-ayrı, qadınları isə
ayrı yas tutacaq.

Günahdan təmizlənmə

13 O gün Davud nəslini və
Yerusəlimdə yaşayanları
günahdan və murdarlıqdan təmizləmək
üçün bir bulaq açılacaq. 2 O gün ölkədən
bütlərin adını birdəfəlik siləcəyəm,
onlar bir daha xatırlanmayacaq. Yalançı
peyğəmbərləri də, natəmiz ruhu da
ölkədən uzaqlaşdıracağam» bəyan
edir Ordular Rəbbi. 3 «Əgər kimsə
yenə peyğəmbərlik etsə, onu dünyaya
gətirmiş ata-anası ona deyəcək: “Sən
yaşaya bilməzsən, çünki Rəbbin
adı ilə yalan söyləmisən”. Sonra isə
peyğəmbərlik edəndə öz ata-anası
onun bədənini deşəcək. 4 O gün hər
peyğəmbər peyğəmbərlik edərkən ona
nazil olan görüntüdən utanacaq. O
daha insanları aldatmaq üçün tüklü
paltar geyməyəcək. 5 O deyəcək:
“Mən peyğəmbər deyiləm, əkinçiyəm.
Cavanlığımda bir adam məni özünə qul
etdi”.
6 O biri ondan soruşacaq: “Bəs
sinəndəki bu yaralar nədir?” O isə
“dostlarımın evində aldığım yaralardır”
deyəcək.

Çobanın həlakı

7 [d]Oyan, ey qılınc,
Çobanımın, yaxınımın üstünə get»
Bəyan edir Ordular Rəbbi.
«Çobanı vur,
Qoyunları pərən-pərən olsun.
Mən də əlimi kiçiklərə qarşı
qaldıracağam.
8 Bütün ölkədə
Xalqın üçdə ikisi vurulub-öldürüləcək,
Üçdə biri isə sağ qalacaq»
Bəyan edir Rəbb.
9 «Qalan üçdə birini oda salacağam,
Onları gümüşü təmizləyən kimi
təmizləyəcəyəm.
Qızılı yoxlayan kimi yoxlayacağam.
Onlar Mənim adımı çağıracaq,
Mən də onlara cavab verib
“Bunlar Mənim xalqımdır”
deyəcəyəm,
Onlar da “Rəbb Allahımızdır”
deyəcək.

---

[b] **12:10** Yəh. 19:37; Vəhy 1:7 [c] **12:11** 2Pad. 23:29; Vəhy 16:16
[d] **13:7** Mat. 26:31; Mark 14:27

Allahın padşahlığı

14 Budur, Rəbbin günü gəlir! Ey
Yerusəlim xalqı, sənin qarət
olunmuş mallarını gözlərin önündə
bölüşdürəcəklər. 2 Mən bütün millətləri
Yerusəlimə qarşı müharibə etmək üçün
toplayacağam. Şəhər ələ keçiriləcək,
evlər qarət ediləcək, qadınlara təcavüz
ediləcək. Şəhər əhalisinin yarısı
sürgünə göndəriləcək, amma qalanların
şəhərdən kökü kəsilməyəcək. 3 O zaman
Rəbb çıxıb müharibə günündə necə
döyüşdüsə, eləcə o millətlərə qarşı
döyüşəcək. 4 O gün Onun ayaqları
Yerusəlimin önündə – şərq tərəfində
olan Zeytun dağının üzərində duracaq.
Zeytun dağı şərqə və qərbə doğru
ortadan yarılıb çox böyük bir vadi
olacaq. Dağın yarısı şimala, yarısı
cənuba çəkiləcək. 5 Siz isə dağlarımdakı
vadi ilə qaçacaqsınız, çünki dağlardakı
vadi Aselə qədər uzanacaq. Yəhuda
padşahı Uzziyanın dövründə zəlzələ
olarkən necə qaçdınızsa, eləcə
qaçacaqsınız. O zaman Allahım Rəbb
bütün müqəddəslərlə birgə gələcək.
6 O gün işıq olmayacaq, işıq verən
göy cisimləri qaralacaq. 7 Yalnız Rəbbin
bildiyi xüsusi bir gün olacaq. Gecə də,
gündüz də olmayacaq. Axşam vaxtı
işıqlı olacaq. 8 [e]O gün Yerusəlimdən
həyat verən sular axacaq. Suların yarısı
Şərq dənizinə, yarısı isə Qərb dənizinə*
axacaq. Yayda da, qışda da belə olacaq.
9 Rəbb bütün dünyanın padşahı
olacaq. O gün yalnız Rəbb və Onun
adı ucalacaq. 10 Bütün ölkə Gevadan
Yerusəlimin cənubundakı Rimmona
qədər Arava düzənliyi kimi olacaq.
Amma Yerusəlim yüksəklikdə olacaq,
Binyamin darvazasından ilk darvazanın
yerinə, Künc darvazasına, Xananel
qülləsindən padşahın üzümsıxanlarına
qədər öz yerində duracaq. 11 [f]İnsanlar
orada sakin olub asayiş içində
yaşayacaq. Yerusəlim bir daha məhvə
düçar olmayacaq.
12 Yerusəlimə hücum edən
bütün xalqları Rəbb bu bəla ilə
cəzalandıracaq. Ayaq üstə olanda
bədənləri, hədəqələrindəki gözləri,
ağızlarındakı dilləri çürüyəcək. 13 O
gün Rəbb onları böyük təlaşa düçar
edəcək. Hər kəs qonşusunun əlini
tutacaq, bir-birinin üstünə hücum
çəkəcək. 14 Yəhudalılar da Yerusəlimdə
vuruşacaq. Ətrafdakı bütün millətlərin
sərvəti, çoxlu miqdarda qızıl, gümüş
və paltar toplanacaq. 15 Düşmən
ordugahlarındakı bütün heyvanlar da
– atlar, qatırlar, dəvələr və eşşəklər bu
cür bəlaya düçar olacaq.
16 Yerusəlimə hücum edən
millətlərdən sağ qalanların hamısı
Ordular Rəbbi olan Padşaha səcdə
etmək və Çardaqlar bayramını keçirmək
üçün hər il Yerusəlimə gedəcək. 17 Əgər
yer üzündəki nəsillərdən hansısa
Ordular Rəbbi olan Padşaha səcdə
etmək üçün Yerusəlimə getməsə, onun
ölkəsinə yağış yağmayacaq. 18 Misirlilər
nəsli Yerusəlimə getməsə, onların
torpağı suvarılmayacaq. Rəbb onlara
da Çardaqlar bayramını keçirmək üçün
Yerusəlimə getməyən bütün millətlərə
verdiyi cəzanı verəcək. 19 Misirlilərə
və Çardaqlar bayramını keçirmək üçün
Yerusəlimə getməyən bütün millətlərə
belə cəza veriləcək.
20 O gün atların zınqırovları
üzərinə "Rəbbə həsr edilmiş" sözləri
yazılacaq. Rəbbin evindəki qazanlar da
qurbangahın önündəki ləyənlər kimi
olacaq. 21 Yerusəlim və Yəhudada hər
qazan Ordular Rəbbinə həsr olunacaq.

---

*14:8 *Şərq dənizi* – Ölü dəniz, *Qərb dənizi* – Aralıq dənizi.

[e]**14:8** Yez. 47:1; Yəh. 7:38; Vəhy 22:1 [f]**14:11** Vəhy 22:3

Qurban kəsən adamların hamısı gəlib bu qazanlardan qurban ətini bişirmək üçün istifadə edəcək. O gün Ordular Rəbbinin evində artıq Kənanlı *qalmayacaq».

*14:21 *Kənanlı* – yaxud *tacir*.

MALAKİ

PEYĞƏMBƏRİN KİTABI

GİRİŞ

«Malaki» Kitabında təsvir olunan hadisələr miladdan əvvəl VI əsrdə Yerusəlimdəki məbədin yenidən tikilməsindən sonrakı dövrə aiddir. «Malaki» adı ibrani dilində «Mənim elçim» deməkdir.

Peyğəmbərin əsas qayğısı kahinlərin və xalqın Allahla bağladığı əhdə sadiq qalmasıdır. Allah xalqının həyatında və Allaha ibadətində qüsurlar var idi. Onlar yollarını azmışdı. Kahinlərlə xalq təqdim və ianələri sidq ürəkdən vermir, Allaha hiyləgərliklə yanaşır və Onun təliminə uyğun yaşamırdılar. Amma Rəbb, yolunu hazırlamaq və əhdini elan etmək üçün Öz elçisini əvvəlcədən göndərəcək, sonra Özü xalqını mühakimə və pak etmək üçün gələcək.

Kitabın məzmunu:

1:1–2:16 İsrailin günahları

2:17–4:6 Allahın məhkəməsi və mərhəməti

1 Bu xəbərdarlıq Rəbbin Malaki vasitəsilə İsrailə dediyi sözdür.

Rəbbin İsrailə məhəbbəti

2 [g]Rəbb «sizi sevdim» deyir. Ancaq siz
«Bizi necə sevdin?» deyib soruşursunuz.
Rəbb də cavab verir: «Esav Yaqubun
qardaşı deyildimi? Amma Mən Yaqubu
sevdim, 3 Esava isə nifrət etdim. Onun
dağlarını viran etdim, mirasını çöl
çaqqallarına verdim». 4 Edomlular
deyir: «Biz əzildik, amma yenidən
xarabalıqları bərpa edəcəyik». Ancaq
Ordular Rəbbi belə deyir: «Qoy onlar
qursun, amma Mən yıxacağam. Onların
ölkəsi pislik ölkəsi, özləri isə həmişə
Rəbbin qəzəbləndiyi xalq olaraq
tanınacaq». 5 Siz bunu gözlərinizlə
görəndə «Rəbb İsrail sərhədlərindən
kənarda da əzəmətlidir!» deyəcəksiniz.

Kahinlərə məzəmmət

6 Ordular Rəbbi sizə deyir: «Ey adıma
hörmət etməyən kahinlər! Oğul atasına,
qul ağasına hörmət göstərir. Əgər Mən
atayamsa, hanı Mənə hörmətiniz?
Əgər ağayamsa, hanı Məndən
qorxunuz? Ancaq siz "Adına necə
hörmət etmədik?" deyib soruşursunuz.
7 Qurbangahımın üzərində murdar
çörək təqdim edirsiniz, hələ "Səni necə
murdar etdik?" deyib soruşursunuz.
"Rəbbin süfrəsinə hörmət etmək lazım
deyil" deməklə belə edirsiniz. 8 [h]Kor
heyvanı qurban olaraq gətirmək pis
iş deyilmi? Topal yaxud xəstə heyvan
qurban etmək pis iş deyilmi? Belə bir
heyvanı öz valinə təqdim et, gör səndən
razı qalırmı yaxud səni qəbul edirmi?»
deyir Ordular Rəbbi. 9 «İndi bizə lütf
etməsi üçün Allaha yalvarın. Siz belə
qurbanlar gətirərkən O heç sizi qəbul
edərmi?» deyir Ordular Rəbbi.
10 «Kaş ki aranızdan bir nəfər
qurbangahımda boş-boşuna od
yandırmamaq üçün məbədin qapılarını
bağlayaydı! Mən sizdən razı deyiləm,
gətirəcəyiniz qurbanları da qəbul
etməyəcəyəm» deyir Ordular Rəbbi.
11 «Günəşin çıxdığı yerdən batdığı yerə
qədər Mənim adım millətlər arasında
əzəmətli olacaq. Hər yerdə adıma buxur
yandırılacaq, pak təqdimlər gətiriləcək.
Çünki millətlər arasında adım əzəmətli
olacaq» deyir Ordular Rəbbi.
12 «Siz "Rəbbin süfrəsi murdardır,
çörəyinə isə hörmət etmək lazım

---

[g] **1:2** Rom. 9:13; Yeş. 34:5-17; 63:1-6; Yer. 49:7-22; Yez. 25:12-14; 35:1-15; Amos 1:11-12; Avd. 1-14 [h] **1:8** Qanun. 15:21

deyil” deyərək adımın müqəddəsliyini
pozursunuz. 13 Üstəlik “bu nə
zəhmətdir” deyə Mənə burun
sallayırsınız» deyir Ordular Rəbbi. «Siz
qurban olaraq oğurluq, çolaq, xəstə
heyvan gətirirsinizsə, Mən onu sizdən
qəbul edəcəyəmmi?» deyə soruşur
Rəbb. 14 «Sürüsündən nəzir etdiyi erkək
heyvan əvəzinə Rəbbə qüsurlu heyvan
qurban edən fırıldaqçıya lənət olsun!
Çünki Mən böyük bir padşaham və
adım millətlər arasında zəhmlidir» deyir
Ordular Rəbbi.

2 «İndi, ey kahinlər, bu əmr
sizin üçündür». 2 Ordular Rəbbi
deyir: «Əgər sözə qulaq asmasanız,
adıma izzət verməyi ürəkdən
istəməsəniz, üzərinizə lənət yağdırıb
xeyir-dualarınızı lənətə çevirəcəyəm.
Bəli, Mən onları lənətlədim. Çünki
Məni izzətləndirməyi ürəkdən
istəmirsiniz. 3 Mən sizin nəslinizi
məzəmmət edəcəyəm. Bayramlarınızda
qurban etdiyiniz heyvanların
təzəyini üzünüzə çırpacağam, siz
onunla birgə atılacaqsınız. 4 [i]Onda
biləcəksiniz ki, Mən bu əmri Levi ilə
bağladığım əhdimin yaşaması üçün sizə
göndərmişəm» deyir Ordular Rəbbi.
5 [j]«Onunla həyat və sülh verən bir
əhd bağladım, Mənə hörmət etdiyi
təqdirdə bunları ona verdim. O da
Məndən qorxub adıma hörmət göstərdi.
6 Onun dilindən həqiqi nəsihət çıxardı,
ağzından hiylə çıxmazdı. O, sülh
və düzlük içində Mənimlə bir yol
gedirdi. Çoxunu da günah yolundan
qaytarmışdı. 7 Kahinin ağzı biliyi
qorumalı, insanlar onun dilində nəsihət
axtarmalıdır. Çünki o, Ordular Rəbbinin
elçisidir. 8 Ancaq siz yoldan azdınız
və nəsihətinizlə çox adamı günaha
çəkdiniz. Levi ilə bağladığım əhdi
pozdunuz» deyir Ordular Rəbbi. 9 «Siz
Mənim yollarımla getmədiniz, qanunla
bağlı məsələlərdə tərəfkeşlik etdiniz.
Buna görə də Mən bütün xalqın önündə
sizi alçaldıb xəcalətli hala saldım».

Yəhuda xalqının xəyanəti

10 Hamımızın atası bir deyilmi? Bizi
eyni Allah yaratmadımı? Elə isə nə
üçün biz atalarımızın bağladığı əhdi
pozaraq öz qonşumuza xəyanət edirik?
11 Yəhuda xalqı xəyanət etdi. İsraildə
və Yerusəlimdə iyrənc işlər edildi:
Yəhudalılar yad allahlara tapınan
qızlarla evlənərək Rəbbin sevdiyi
müqəddəs yeri murdar etdi. 12 Bunu
edən adam hətta keşik çəksə, cavabdeh
olsa, Ordular Rəbbinə qurban gətirsə də,
Rəbb onu Yaqubun icmasından qovsun.
13 Siz başqa bir şeyi də edirsiniz:
ağlayıb sızlamaqla Rəbbin qurbangahını
göz yaşları ilə doldurursunuz. Çünki
Rəbb artıq gətirdiyiniz qurbanlara
diqqət etmir, onları sizdən könül
xoşluğu ilə qəbul etmir. 14 Siz «Nə
üçün?» deyib soruşursunuz. Çünki
sənin lə cavanlığında evləndiyin arvadın
arasında Rəbb şahiddir. O qadın sənin
yoldaşın və nikah əhdi ilə arvadın
olduğu halda ona xəyanət etdin. 15 Allah
sizi bir bədən olaraq yaratmadımı?
Bədənlə də, ruhla da Ona aidsiniz. Bəs
nə üçün bir? Çünki O Özü üçün xüsusi
bir nəsil istəyirdi. Buna görə də özünüzü
gözləyin. Qoy heç kəs cavanlığında
evləndiyi arvadına xəyanət etməsin.
16 İsrailin Allahı Rəbb belə deyir: «Mən
nikahını pozub qəddarlığa bürünən
adama nifrət edirəm. Buna görə də
özünüzü gözləyin və xəyanət etməyin»
Ordular Rəbbi deyir.

Əhd Mələyinin gəlməsi

17 Dediklərinizlə Rəbbi yordunuz.
«Onu nə ilə yorduq?» deyə soruşursunuz.

---

[i] **2:4** Say. 3:11-13 [j] **2:5** Say. 25:12

«Pislik edən hər kəs Rəbbin gözündə
yaxşıdır və Rəbb onlardan razıdır»
yaxud «Ədalət keşikçisi olan Allah
haradadır?» deyərək Onu yordunuz.
3 [k]«Budur, Mən Öz elçimi göndərirəm.
O, önümdə yol hazırlayacaq.
Axtardığınız Xudavənd qəflətən Öz
məbədinə gələcək. Görmək arzusunda
olduğunuz Əhd Mələyi gələcək» deyir
Ordular Rəbbi. 2 [l]«Ancaq Onun gələcəyi
günə kim tab gətirə bilər? Zühur edəndə
kim davam gətirə bilər? Çünki O,
əridicinin odu, yuyucunun sabunu kimi
olacaq. 3 O, gümüş əridib təmizləyən
adam kimi rəftar edəcək: Levililəri
saflaşdırıb qızıl və gümüşü təmizləyən
kimi təmizləyəcək. Beləcə salehliklə
Rəbbə qurbanlar gətirəcəklər. 4 Onda
Yəhudanın və Yerusəlimin qurbanları
əvvəlki vaxtlar, keçmiş illərdə olduğu
kimi Rəbbə xoş gələcək.
5 Mən cəza vermək üçün sizə
yaxınlaşacağam. Ovsunçulara,
zinakarlara, yalandan and içənlərə,
muzdurun, dul qadının, yetimin, qəribin
haqqını tapdalayanlara – Məndən
qorxmayanlara qarşı tezliklə şahid
olacağam» Ordular Rəbbi belə deyir.

Ondabirləri oğurlayanları məzəmmət

6 «Mən Rəbbəm və heç vaxt
dəyişmirəm. Siz bunun üçün məhv
olmadınız, ey Yaqub övladları!
7 Atalarınızın dövründən bəri
qaydalarımdan döndünüz və onlara
əməl etmədiniz. Mənə tərəf dönün,
Mən də sizə tərəf dönərəm» deyir
Ordular Rəbbi. «Siz "Necə dönək?"
deyə soruşursunuz. 8 İnsan da
Allahdan oğurlayarmı? Siz isə
Məndən oğurlayırsınız. "Səndən nəyi
oğurlayırıq?" deyə soruşursunuz. Onda
birləri və təqdimləri oğurlayırsınız.
9 Siz böyük lənətə düçar oldunuz.
Çünki bütün millət – hamınız Məndən
oğurlayırsınız. 10 [m]Bütün ondabirlərinizi
anbara gətirin ki, məbədimdə ərzaq
olsun». Ordular Rəbbi deyir: «Siz
bununla Məni sınayın. Görəcəksiniz
ki, göylərin pəncərələrini sizə
açacağam, üzərinizə ehtiyaclarınızdan
da çox bərəkət yağdıracağam.
11 Çəyirtkələri *əkinlərinizi yeməyə
qoymayacağam, tarlada meynəniz
məhsulsuz qalmayacaq» deyir Ordular
Rəbbi. 12 «Bütün millətlər sizi bəxtiyar
sayacaq. Çünki ölkəniz gözəl bir yer
olacaq» deyir Ordular Rəbbi.
13 «Mənə qarşı sərt sözlər söylədiniz»
deyir Rəbb, «siz isə "Sənə qarşı
nə söylədik?" deyə soruşursunuz.
14 Siz dediniz: "Allaha xidmət
etmək faydasızdır. Ordular Rəbbinin
buyruğunu yerinə yetirsək də, Onun
önündə yas içində gəzsək də, bunlardan
bizə nə xeyir oldu? 15 İndi biz məğrurları
bəxtiyar sayırıq. Pislik edənlər işlərində
uğur qazanır, Allahı sınayanlar da
cəzadan qurtarır"».
16 O zaman Rəbdən qorxanlar
bir-birləri ilə danışdı. Rəbb bu sözlərə
qulaq asıb dinlədi. Rəbdən qorxub adına
hörmət edənlər üçün Onun önündə bir
yaddaş kitabı yazıldı. 17 Ordular Rəbbi
deyir: «Fəaliyyətə keçdiyim gün onlar
Mənə məxsus xalq olacaq. Bir ata özünə
xidmət edən oğluna necə rəhm edərsə,
Mən də onlara elə rəhm edəcəyəm.
18 O zaman siz salehlə pis adam, Allaha
qulluq edənlə etməyən arasındakı fərqi
yenə görəcəksiniz».

---

*3:11 *Çəyirtkələri* – yaxud *yeyənləri.*

[k]**3:1** Mat. 11:10; Mark 1:2; Luka 1:76-77; 7:27 [l]**3:2** Vəhy 6:17
[m]**3:10** Lev. 27:30; Say. 18:21-24; Qanun. 12:6; 14:22-29; Neh. 13:12

Rəbbin günü

4 Ordular Rəbbi deyir: «Budur, soba
kimi yanan o gün gəlir. Bütün
məğrurlar və pislik edənlər saman kimi
olacaq. Gələn o gün onları yandıracaq.
Onlardan nə kök, nə də budaq qalacaq.
2 Ancaq adıma hörmət edən sizlər üçün
şüalarında şəfa olan salehlik günəşi
doğacaq. Tövlədən buraxılan danalar
kimi oynayacaqsınız. 3 Pis adamları
tapdalayacaqsınız. Bu işləri etdiyim
gün onlar sizin ayağınızın altında kül
olacaq» deyir Ordular Rəbbi.
4 «Qulum Musanın qanununu –
Xorevdə olarkən bütün İsrail üçün
ona verdiyim qaydaları və hökmləri
yadda saxlayın. 5 [n]Rəbbin böyük
və dəhşətli günü gəlməzdən qabaq
İlyas peyğəmbəri sizin yanınıza
göndərəcəyəm. 6 O, ataların ürəklərini
oğullarına, oğullarının ürəklərini isə
atalarına tərəf döndərəcək ki, daha Mən
gəlib ölkəni lənətləyib məhv etməyim».

---

[n]**4:5** Mat. 11:14; 17:10-13; Mark 9:11-13; Luka 1:17; Yəh. 1:21

MATTANIN
NƏQL ETDİYİ MÜJDƏ
GİRİŞ

*«Mattanın nəql etdiyi Müjdə»*də İsa Məsihin vəd edilmiş Xilaskar olduğu barədə danışılır. Burada Onun vasitəsilə Allahın Əhdi-Ətiqdə Öz xalqına verdiyi vədlərin yerinə yetməsi vurğulanır. Bu Müjdə yalnız aralarında İsanın böyüyüb başa çatdığı Yəhudi xalqı üçün deyil, bütün dünya üçündür.

Mattanın nəql etdiyi Müjdə səlis ardıcıllıqla yazılıb. Bu kitab İsanın doğuluşu, vəftizi və sınağa çəkilməsindən başlayır. Sonra müəllif İsanın vəzləri, təlimləri və Qalileyada şəfa verməsi barədə danışır. Müjdə İsanın Qalileyadan Yerusəlimə səyahəti, Onun həyatında son həftə ərzində baş vermiş hadisələr, çarmıxa çəkilməsi və dirilməsi ilə bitir.

«Mattanın nəql etdiyi Müjdə» İsanı Qanunu izah etmək və Allahın Padşahlığı haqqında təlim vermək səlahiyyətinə malik olan böyük Müəllim kimi təqdim edir. Onun insanlara həyat verən təlimləri bu kitabda yazılmışdır.

Kitabın məzmunu:

1:1–2:23 İsa Məsihin nəsil şəcərəsi və doğulması

3:1-12 Vəftizçi Yəhyanın vəzi

3:13-17 İsa Məsihin vəftiz olunması

4:1-11 İsanın sınağa çəkilməsi

4:12–18:35 İsanın Qalileyada ictimai xidməti

19:1–20:34 Qalileyadan Yerusəlimə

21:1–27:66 İsanın Yerusəlimdəki son günləri

28:1-20 İsanın dirilməsi

İsa Məsihin nəsil şəcərəsi
(Luka 3:23-38)

1 Davudun Oğlu, İbrahimin də Oğlu
olan İsa Məsihin nəsil şəcərəsi:
[2] İbrahimdən İshaq törədi. İshaqdan
Yaqub törədi. Yaqubdan Yəhuda və
onun qardaşları törədi. [3] Yəhudadan
Tamarın doğduğu Peres və Zerah törədi.
Peresdən Xesron törədi. Xesrondan
Ram törədi. [4] Ramdan Amminadav
törədi. Amminadavdan Naxşon törədi.
Naxşondan Salmon törədi. [5] Salmondan
Raxavın doğduğu Boaz törədi. Boazdan
Rutun doğduğu Oved törədi. Oveddən
Yessey törədi. [6] Yesseydən padşah
Davud törədi.

Davuddan Uriyanın arvadının
doğduğu Süleyman törədi.
[7] Süleymandan Rexavam törədi.
Rexavamdan Aviya törədi. Aviyadan
Asa törədi. [8] Asadan Yehoşafat
törədi. Yehoşafatdan Yehoram törədi.
Yehoramdan Uzziya törədi. [9] Uzziyadan
Yotam törədi. Yotamdan Axaz törədi.
Axazdan Xizqiya törədi. [10] Xizqiyadan
Menaşşe törədi. Menaşşedən Amon
törədi. Amondan Yoşiya törədi. [11] [o]Babil
sürgünü zamanı Yoşiyadan Yekonya[*] və
onun qardaşları törədi.
[12] Babil sürgünündən sonra
Yekonyadan Şealtiel törədi. Şealtieldən
Zerubbabil törədi. [13] Zerubbabildən
Avihud törədi. Avihuddan Elyaqim
törədi. Elyaqimdən Azur törədi.
[14] Azurdan Sadoq törədi. Sadoqdan
Yaxin törədi. Yaxindən Elihud törədi.
[15] Elihuddan Eleazar törədi. Eleazardan
Mattan törədi. Mattandan Yaqub törədi.
[16] Yaqubdan Məryəmin əri Yusif törədi.
Məryəmdən də Məsih adlanan İsa
doğuldu.

---

[*]**1:11** *Yekonya* – başqa adı Yehoyakin.

[o]**1:11** 2Pad. 24:14-15; 2Saln. 36:10; Yer. 27:20

17 Beləliklə, İbrahimdən Davuda qədər
olan bütün nəsillər on dörd nəsildir,
Davuddan Babil sürgününə qədər
on dörd nəsildir, Babil sürgünündən
Məsihə qədər də on dörd nəsildir.

İsa Məsihin doğulması

(Luka 2:1-7)

18 [p]İsa Məsihin doğulması belə oldu.
Anası Məryəm Yusifə nişanlanmışdı.
Amma birlikdə olmalarından əvvəl
Məryəmin Müqəddəs Ruhdan hamilə
olduğu aşkar oldu. 19 Onun nişanlısı
Yusif saleh bir adam idi və Məryəmi
camaat arasında rüsvay etmək
istəməyərək gizlicə boşamaq niyyətinə
düşdü. 20 Amma belə düşündüyü halda
Rəbbin bir mələyi röyada ona görünüb
dedi: «Davud oğlu Yusif! Məryəmi özünə
arvad etməkdən qorxma, çünki onun
bətnindəki körpə Müqəddəs Ruhdandır.
21 [q]Məryəm bir Oğul doğacaq və Onun
adını İsa* qoy, çünki O Öz xalqını
günahlarından xilas edəcək».
22 [r]Bütün bunlar Rəbbin peyğəmbər
vasitəsilə söylədiyi bu söz yerinə yetsin
deyə baş verdi:
23 «Budur, bakirə qız hamilə olub
Oğlan doğacaq, adını İmmanuel
qoyacaqlar».
«İmmanuel» «Allah bizimlədir»
deməkdir.
24 Yusif yuxudan oyananda Rəbbin
mələyinin buyurduğu kimi etdi və
arvadını qəbul etdi. 25 [s]Amma Məryəm
bir Oğul doğana qədər Yusif onunla
yaxınlıq etmədi. Doğulan Körpənin
adını İsa qoydu.

Müdrik adamların ziyarəti

2 İsa padşah Hirodun dövründə
Yəhudeyanın Bet-Lexem şəhərində
anadan olduqda müdrik adamlar†
şərqdən Yerusəlimə gəlib 2 [t]dedilər:
«Yəhudilərin anadan olmuş Padşahı
haradadır? Şərqdə Onun ulduzunu
gördük və Ona səcdə qılmağa gəldik».
3 Padşah Hirod bunu eşitdikdə özü və
bütün Yerusəlim xalqı təlaşa düşdü.
4 Hirod xalqın bütün başçı kahinlərini
və ilahiyyatçılarını toplayaraq onlardan
Məsihin harada doğulduğunu soruşdu.
5 «Yəhudeyanın Bet-Lexem şəhərində»
dedilər. «Çünki peyğəmbər vasitəsilə
belə yazılıb:
6 [u]"Ey Yəhuda torpağındakı
Bet-Lexem, sən
Yəhuda hökmdarları arasında ən kiçik
deyilsən,
Çünki xalqım İsrailə çoban olan
Hökmdar səndən çıxacaq"».
7 Onda Hirod müdrik adamları
gizlicə çağırıb onlardan ulduzun
göründüyü dəqiq vaxtı öyrəndi.
8 «Gedin, Körpəni diqqətlə axtarın,
tapan kimi mənə xəbər verin ki, mən də
gedib Ona səcdə qılım» deyərək onları
Bet-Lexemə göndərdi. 9 Onlar padşahı
dinlədikdən sonra yola düşdülər. O
vaxt şərqdə gördükləri ulduz onlara yol
göstərirdi. O, Körpənin olduğu yerin
üzərinə çatdıqda dayandı. 10 Onlar
ulduzu gördükləri vaxt çox sevindilər.
11 Evə girib Körpəni anası Məryəmlə
birlikdə gördülər və yerə qapanaraq
Ona səcdə qıldılar. Xəzinələrini açıb
Ona hədiyyələri – qızıl, kündür və

---

*1:21 *İsa* – ibrani dilində *Rəbb xilas edir.*
†2:1 *Müdrik adamlar* – hərfi tərcümədə *mağlar,* yəni şərq ölkələrindən olan din və elm adamları.

[p]1:18 Luka 1:26-27 [q]1:21 Luka 1:31 [r]1:22 Yeş. 7:14 [s]1:25 Luka 2:21
[t]2:2 Say. 24:17; Yer. 23:5; Zək. 9:9; Mark 15:2; Yəh. 1:49
[u]2:6 2Şam. 5:2; 1Saln. 11:2; Mik. 5:2

mirranı təqdim etdilər. 12 Sonra röyada
Hirodun yanına qayıtmamaq üçün
xəbərdarlıq aldıqlarına görə başqa yolla
öz ölkələrinə getdilər.

Misirə qaçış

13 Müdrik adamlar yola düşəndən
sonra Rəbbin bir mələyi Yusifə röyada
görünərək dedi: «Qalx, Körpə ilə anasını
götür, Misirə qaç. Mən sənə xəbər
verənə qədər orada qal. Çünki Hirod
Körpəni öldürmək üçün axtarmağa
başlayır». 14 Beləliklə, Yusif qalxdı,
həmin gecə Körpə ilə anasını götürüb
Misirə yollandı. 15 [v]Hirod ölənə qədər
orada qaldı. Bu, Rəbbin peyğəmbər
vasitəsilə söylədiyi söz yerinə yetsin
deyə baş verdi:

«Öz Oğlumu Misirdən çağırdım».

16 Hirod müdrik adamlar tərəfindən
axmaq yerinə qoyulduğunu görəndə
çox hiddətləndi. O, müdrik adamlardan
öyrəndiyi vaxta görə Bet-Lexem və
onun ətrafında yaşayan iki və iki yaşdan
aşağı körpə oğlan uşaqlarını öldürtdü.
17 Beləliklə, Yeremya peyğəmbər
vasitəsilə söylənən bu söz yerinə yetdi:

18 [w]«Ramada bir səs eşidildi,
Ağlaşma* və böyük fəryad səsləri!
Rəhilə uşaqları üçün ağlayır,
Təsəlli istəmir.
Çünki onlar daha yoxdur».

Misirdən Nazaretə dönüş

19 Hirod öləndən sonra Rəbbin bir
mələyi Misirdə Yusifə röyada görünüb
20 dedi: «Qalx, Körpə ilə anasını götür,
İsrail ölkəsinə qayıt. Çünki Körpənin
canını almaq istəyənlər öldü». 21 Yusif
qalxdı, Körpə ilə anasını götürüb İsrail
ölkəsinə qayıtdı. 22 Amma Arxelanın
öz atası Hirodun yerinə Yəhudeya
padşahı olduğunu eşidəndə oraya
getməyə qorxdu. Röyada xəbərdarlıq
alaraq Qalileya bölgəsinə getdi. 23 Gəlib
Nazaret deyilən şəhərdə məskən saldı.
Bu, peyğəmbərlər vasitəsilə söylənən
«Ona Nazaretli deyiləcək» sözü yerinə
yetsin deyə baş verdi.

Vəftizçi Yəhyanın gəlişi

(Mark 1:1-8; Luka 3:1-18; Yəh. 1:19-28)

3 [x]O günlərdə Vəftizçi Yəhya
Yəhudeya çölündə vəz edərək
meydana çıxdı. 2 O belə deyirdi:
«Tövbə edin! Çünki Səmavi Padşahlıq
yaxınlaşıb». 3 [y]Bu o adamdır ki, Yeşaya
peyğəmbər onun barəsində demişdi:

«Səhrada nida edənin səsi gəlir:
"Rəbbin yolunu hazırlayın,
Onun keçəcəyi yerləri düz edin"».

4 [z]Yəhya dəvə yunundan paltar geymiş,
belinə dəri qurşaq bağlamışdı, yeməyi
çəyirtkə və çöl balı idi. 5 Yerusəlim
sakinləri, bütün Yəhudeya diyarından
olanlar və İordan ətrafında yaşayanlar
Yəhyanın yanına gəlirdi. 6 Onlar
günahlarını etiraf edərək onun
tərəfindən İordan çayında vəftiz
olunurdu.

7 [a]Fariseylər və sadukeylərdən
çoxunun vəftiz olmaq üçün onun yanına
gəldiyini görən Yəhya onlara belə
dedi: «Ey gürzələr nəsli! Üzərinizə
gələn qəzəbdən canınızı qurtarmağı
sizin beyninizə kim yeridib? 8 İndi isə
tövbəyə layiq bəhrə verin. 9 [b]Ürəyinizdə
"atamız İbrahimdir" deyə düşünməyin.
Mən sizə deyirəm: Allah bu daşlardan
İbrahimə övlad yaratmağa qadirdir.
10 [c]Artıq balta ağacların dibində yatır.

---

*__2:18__ *Ağlaşma* – bəzi əlyazmalarda *Mərsiyə, ağlaşma.*

[v]**2:15** Huşə 11:1 [w]**2:18** Yer. 31:15 [x]**3:1** Mat. 4:17; Mark 1:15
[y]**3:3** Yeş. 40:3 [z]**3:4** 2Pad. 1:8 [a]**3:7** Mat. 12:34; 23:33; Luka 3:7
[b]**3:9** Yəh. 8:33 [c]**3:10** Mat. 7:19

Beləliklə, yaxşı bəhrə verməyən hər
ağac kəsilir və oda atılır.
11 Mən sizi tövbəniz üçün su ilə
vəftiz edirəm, amma məndən sonra
Gələn məndən daha qüdrətlidir. Mən
Onun çarıqlarını daşımağa belə, layiq
deyiləm. O sizi Müqəddəs Ruhla və odla
vəftiz edəcək. 12 Onun kürəyi əlindədir
və xırmanını sovuracaq, Öz taxılını
anbara toplayacaq. Küləşi isə sönməz
odda yandıracaq».

İsanın vəftiz olunması

(Mark 1:9-11; Luka 3:21-22)

13 O vaxt İsa Yəhya tərəfindən vəftiz
olmaq üçün Qalileyadan İordan çayına,
Yəhyanın yanına gəldi. 14 Yəhya Ona
mane olmaq istəyərək dedi: «Sən
Məni vəftiz etməlisən, Sən niyə mənim
yanıma gəlirsən?» 15 İsa ona cavab verdi:
«Hələlik buna razı ol. Çünki biz salehlik
işini beləcə yerinə yetirməliyik». Onda
Yəhya razı oldu. 16 İsa vəftiz olunan
kimi sudan çıxdı. O vaxt göylər yarıldı
və Allahın Ruhunun göyərçin kimi
endiyini və Öz üzərinə qonduğunu
gördü. 17 [d]Göylərdən bir səda gəldi:
«Bu Mənim sevimli Oğlumdur, Ondan
razıyam».

İsanın sınağa çəkilməsi

(Mark 1:12-13; Luka 4:1-13)

4 [e]Bundan sonra İsa iblis tərəfindən
sınağa çəkilmək üçün Ruh
tərəfindən səhraya aparıldı. 2 İsa qırx
gün-qırx gecə oruc tutandan sonra acdı.
3 O zaman sınağaçəkən yaxınlaşıb Ona
dedi: «Əgər Sən Allahın Oğlusansa,
bu daşlara əmr et ki, çörəyə dönsün».
4 [f]İsa ona belə cavab verdi: «“İnsan
yalnız çörəklə deyil, Allahın ağzından
çıxan hər kəlmə ilə yaşayar” deyə
yazılmışdır».
5 [g]Sonra iblis Onu müqəddəs şəhərə
gətirdi və məbədin qülləsinə qoyub
6 dedi: «Əgər Sən Allahın Oğlusansa,
Özünü aşağı at. Axı
“Allah Sənə görə mələklərinə əmr
edər ki,
Səni əlləri üstündə aparsınlar,
Ayağın bir daşa dəyməsin”
deyə yazılmışdır». 7 [h]İsa ona dedi:
«“Allahın Rəbbi sınama” deyə də
yazılmışdır».
8 İblis yenə İsanı çox yüksək bir
dağa çıxartdı. Ona dünyanın bütün
padşahlıqlarını və şan-şöhrətini göstərib
dedi: 9 «Əgər Sən yerə qapanıb mənə
səcdə etsən, bütün bu şeyləri Sənə
verəcəyəm». 10 [i]İsa dedi: «Rədd ol,
Şeytan! “Allahın Rəbbə səcdə et və
yalnız Ona ibadət et” deyə yazılmışdır».
11 Bundan sonra iblis İsanı tərk etdi
və mələklər gəlib Ona xidmət edirdi.

İsa xidmətinə başlayır

(Mark 1:14-15; Luka 4:14-15)

12 [j]İsa Yəhyanın həbs olunduğunu
eşitdikdə Qalileyaya qayıtdı.
13 [k]Nazaretdən çıxıb Zevulun və
Naftali bölgəsində, Qalileya gölü
kənarında yerləşən Kefernahumda
məskən saldı. 14 [l]Bu, Yeşaya peyğəmbər
vasitəsilə söylənən həmin söz yerinə
yetsin deyə baş verdi:
15 «Zevulun və Naftali bölgələri,
Dənizkənarı yol,
İordan çayının o biri tayı,
Müxtəlif millətlər yaşayan Qalileya –
16 Zülmətdə yaşayan xalq
Möhtəşəm bir işıq gördü.

---

[d] **3:17** Zəb. 2:7; Yeş. 42:1; Mat. 12:18; 17:5; Mark 1:11; Luka 9:35 [e] **4:1** İbr. 2:18; 4:15 [f] **4:4** Qanun. 8:3 [g] **4:5** Zəb. 91:11-12 [h] **4:7** Qanun. 6:16 [i] **4:10** Qanun. 6:13 [j] **4:12** Mat. 14:3; Mark 6:17-18; Luka 3:19-20 [k] **4:13** Yəh. 2:12 [l] **4:14** Yeş. 9:1-2

Ölüm kölgəsi diyarında
məskunlaşanların üzərinə
Nur doğdu».
17 [m]O vaxtdan İsa vəz edib belə deməyə
başladı: «Tövbə edin! Çünki Səmavi
Padşahlıq yaxınlaşıb».

İlk şagirdlər

(Mark 1:16-20; Luka 5:1-11)

18 İsa Qalileya gölünün sahilində
gəzərkən suya tor atan iki qardaşı
– Peter adlanan Şimonu və qardaşı
Andreyi gördü. Bu adamlar balıqçı
idi. 19 İsa onlara dedi: «Ardımca gəlin,
Mən sizi elə balıqçı edəcəyəm ki, insan
tutacaqsınız». 20 Onlar dərhal torları
kənara atıb Onun ardınca getdilər. 21 İsa
oradan irəli gedib başqa iki qardaşı
– Zavday oğlu Yaqubu və qardaşı
Yəhyanı gördü. Onlar ataları Zavdayla
birlikdə qayıqda torlarını düzəldirdilər.
İsa onları çağırdı. 22 Onlar da dərhal
qayığı və atalarını qoyub Onun ardınca
getdilər.

İsa xəstələrə şəfa verir

(Mark 3:7-12; Luka 6:17-19)

23 [n]İsa bütün Qalileyanı gəzir,
onların sinaqoqlarında öyrədir, Səmavi
Padşahlığın Müjdəsini vəz edir, xalq
arasında hər cür xəstəliyə və hər
cür naxoşluğa şəfa verirdi. 24 Onun
haqqındakı xəbər bütün Suriyaya
yayıldı. Ona görə də İsanın yanına hər
cür xəstəlik və iztirab çəkənləri, cinlərə
tutulmuşları, epileptikləri və iflicləri
gətirdilər. O da onlara şəfa verdi.
25 Qalileyadan, Dekapolis bölgəsindən,
Yerusəlimdən, Yəhudeyadan və
İordan çayının o biri tayından böyük
izdihamlar İsanın ardınca gedirdi.

İsanın Dağüstü vəzi

5 İsa izdihamı görüb dağa çıxdı.
Oturan kimi şagirdləri Onun yanına
gəldi. 2 İsa danışmağa başlayıb onları
öyrədərək dedi:

Bəxtiyar olanlar

(Luka 6:20-23)

3 «Nə bəxtiyardır ruhən yoxsullar!
Çünki Səmavi Padşahlıq onlarındır.
4 [o]Nə bəxtiyardır yaslı olanlar!
Çünki onlar təsəlli tapacaq.
5 [p]Nə bəxtiyardır həlimlər!
Çünki onlar yer üzünü irs alacaq.
6 [q]Nə bəxtiyardır salehlik üçün
acıb-susayanlar!
Çünki onlar doyacaq.
7 Nə bəxtiyardır mərhəmətli olanlar!
Çünki onlara mərhəmət ediləcək.
8 [r]Nə bəxtiyardır ürəyi təmiz olanlar!
Çünki onlar Allahı görəcək.
9 Nə bəxtiyardır sülhyaradanlar!
Çünki onlar Allahın övladları
adlanacaq.
10 [s]Nə bəxtiyardır salehlik uğrunda
təqib edilənlər!
Çünki Səmavi Padşahlıq onlarındır.
11 [t]İnsanlar Mənə görə sizi təhqir edib
təqib edəndə, yalan söyləyib sizə hər
cür böhtan atanda siz nə bəxtiyarsınız!
12 [u]Sevinin və şadlanın! Çünki göylərdə
mükafatınız böyükdür. Axı sizdən
qabaq gələn peyğəmbərləri də belə
təqib ediblər.

Duz və nur

13 [v]Siz yer üzünün duzusunuz.
Amma duz öz dadını itirərsə, nə ilə
duzlanar? Artıq çölə atılıb insanlar
tərəfindən tapdalanmaqdan başqa bir
şeyə yaramaz.

---

[m]**4:17** Mat. 3:1-2 [n]**4:23** Mat. 9:35; Mark 1:39 [o]**5:4** Yeş. 61:1-3
[p]**5:5** Zəb. 37:11 [q]**5:6** Yeş. 55:1-2 [r]**5:8** Zəb. 24:3-4 [s]**5:10** 1Pet. 3:14 [t]**5:11**
1Pet. 4:14 [u]**5:12** 2Saln. 36:16; Həv. 7:52-53 [v]**5:13** Mark 9:50; Luka 14:34-35

14 [w]Siz dünyanın nurusunuz. Dağın
zirvəsində qurulan şəhər gizli qala
bilməz. 15 [x]Heç kim çırağı yandırıb
qabın altına qoymaz. Əksinə, çıraqdana
qoyar ki, evdəkilərin hamısını
işıqlandırsın. 16 [y]Eləcə də sizin nurunuz
insanların qarşısında elə parlasın ki,
onlar xeyirxah işlərinizi görüb göylərdə
olan Atanızı izzətləndirsinlər.

Qanun və Peyğəmbərlər

17 Sanmayın ki, Mən Qanun və
Peyğəmbərlərin sözlərini ləğv etmək
üçün gəldim. Mən onları ləğv etmək
üçün yox, yerinə yetirmək üçün gəldim.
18 [z]Sizə doğrusunu deyirəm: göy və yer
keçib getmədən, hər şey icra olmadan
Qanundan ən kiçik bir hərf və ya bir
nöqtə belə, yox olmayacaq. 19 Beləliklə,
bu əmrlərdən ən kiçiyindən birini
kim pozarsa və başqalarına da bu
cür öyrədərsə, Səmavi Padşahlıqda
ən kiçik sayılacaq. Amma kim bu
əmrləri yerinə yetirər və başqalarına
da öyrədərsə, Səmavi Padşahlıqda
böyük sayılacaq. 20 Sizə bunu deyirəm:
əgər sizin salehliyiniz ilahiyyatçılarla
fariseylərin salehliyindən artıq olmasa,
Səmavi Padşahlığa əsla girə bilməzsiniz.

Hirs və qətl

21 [a]Siz qədim zamanlarda adamlara
"Qətl etmə, kim qətl edərsə,
mühakiməyə məruz qalacaq"
deyildiyini eşitmisiniz. 22 Mənsə
sizə deyirəm ki, qardaşına hirslənən*
hər kəs mühakiməyə məruz qalacaq.
Kim qardaşına "axmaq" deyərsə, Ali
Şuranın hökmünə məruz qalacaq. Kim
qardaşına "səfeh" deyərsə, cəhənnəm
oduna məruz qalacaq. 23 Buna görə
də qurbangah qarşısına qurbanını
gətirdiyin zaman yadına düşsə ki,
qardaşının sənə qarşı bir şikayəti var,
24 qurbanını qurbangahın qarşısında
qoy, get, əvvəlcə qardaşınla barış və
ondan sonra gəl, qurbanını təqdim
et. 25 [b]Səni ittiham edənlə yolda ikən
tez razılaş ki, o səni hakimə, hakim
də səni mühafizəçiyə verməsin və
zindana atılmayasan. 26 Sənə doğrusunu
deyirəm: axırıncı qəpik-quruşunu
verməyincə oradan əsla çıxmayacaqsan.

Zina və boşanma

27 [c]"Zina etmə" deyildiyini eşitmisiniz.
28 Mənsə sizə deyirəm ki, qadına
şəhvətlə baxan hər adam artıq ürəyində
onunla zina etmiş olur. 29 [d]Əgər sağ
gözün səni pis yola çəkərsə, onu çıxar
at. Çünki sənin üçün bədən üzvlərindən
birinin məhv olması bütün bədəninin
cəhənnəmə atılmasından yaxşıdır.
30 [e]Əgər sağ əlin səni pis yola çəkərsə,
onu kəs at. Çünki sənin üçün bədən
üzvlərindən birinin məhv olması bütün
bədəninin cəhənnəmə düşməsindən
yaxşıdır.
31 [f]"Kim arvadını boşayarsa, ona talaq
kağızı versin" deyilmişdir. 32 Mənsə sizə
deyirəm ki, cinsi əxlaqsızlıqdan başqa
bir səbəbə görə arvadını boşayan hər
kəs onu zinaya sövq edir. Boşanmış
qadınla evlənən də zina edir.

And içmək

33 [g]Yenə qədim zamanlarda adamlara
"Yalandan and içmə, amma andlarını

*5:22 *Hirslənən* – bəzi əlyazmalarda *əbəs yerə hirslənən.*

[w]**5:14** Yəh. 8:12; 9:5 [x]**5:15** Mark 4:21; Luka 8:16; 11:33 [y]**5:16** 1Pet. 2:12
[z]**5:18** Luka 16:17 [a]**5:21** Çıx. 20:13; Qanun. 5:17 [b]**5:25** Luka 12:58-59
[c]**5:27** Çıx. 20:13; Qanun. 5:18 [d]**5:29** Mat. 18:9; Mark 9:47
[e]**5:30** Mat. 18:8; Mark 9:43 [f]**5:31** Qanun. 24:1-4; Mat. 19:7-9; Mark 10:4,11-12;
Luka 16:18; 1Kor. 7:10-11 [g]**5:33** Lev. 19:12; Say. 30:2; Qanun. 23:21

Rəbbin önündə yerinə yetir” deyildiyini
eşitmisiniz. 34 [h]Mənsə sizə deyirəm ki,
heç and içmə, nə göyə, çünki o, Allahın
taxtıdır; 35 nə yerə, çünki yer Onun
ayaqlarının altındakı kətildir; nə də
Yerusəlimə, çünki ora böyük Padşahın
şəhəridir. 36 Başına da and içmə, çünki
sən hətta bir dənə saçı belə, ağ və ya
qara edə bilməzsən. 37 Ancaq sözünüzdə
“bəli”niz bəli, “xeyr”iniz xeyr olsun.
Bundan qalanı şər olandandır.

Düşmənlərinizi sevin

(Luka 6:27-36)

38 [i]“Göz əvəzinə göz, diş əvəzinə
diş” deyildiyini eşitmisiniz. 39 Mənsə
sizə deyirəm ki, pis adama qarşı
durma. Əksinə, sağ üzünə şillə vurana
o birini də çevir. 40 Səni məhkəməyə
verib köynəyini götürmək istəyənə üst
paltarını da ver. 41 Kim səni min addım
yol getməyə məcbur edirsə, sən onunla
iki min addım yol get. 42 Səndən bir şey
diləyənə ver, səndən borc istəyəni geri
qaytarma.
43 [j]“Qonşunu sev və düşməninə nifrət
et” deyildiyini eşitmisiniz. 44 Mənsə
sizə deyirəm ki, düşmənlərinizi
sevin, sizi təqib edənlər üçün dua
edin.* 45 Belə ki siz göylərdə olan
Atanızın övladları olasınız. Çünki O,
günəşini həm pislərin, həm yaxşıların
üzərinə doğurur, yağışını da həm
salehlərin, həm də saleh olmayanların
üzərinə yağdırır. 46 Əgər sizi sevənləri
sevirsinizsə, nə mükafatınız olacaq?
Vergiyığanlar da belə etmirmi? 47 Əgər
yalnız qardaşlarınızı salamlayırsınızsa,
başqalarından artıq nə etmiş olursunuz?
Bütpərəstlər† də belə etmirmi? 48 [k]Ona
görə də Səmavi Atanız kamil olduğu
kimi siz də kamil olun.

Sədəqə vermək

6 [l]Ehtiyatlı olun, siz saleh iş görəndə
bunu insanların önündə, onlara
göstərmək üçün etməyin. Yoxsa
göylərdə olan Atanızdan mükafat
almazsınız.
2 Ona görə də sədəqə verdiyin zaman
önündə şeypur səsi ilə car çəkmə. Çünki
adamlar onları izzətləndirsin deyə
ikiüzlülər sinaqoqlarda və küçələrdə
belə edirlər. Sizə doğrusunu deyirəm:
onlar mükafatlarını alıblar. 3 Amma sən
sədəqə verdiyin zaman sol əlin sağ əlinin
nə etdiyini bilməsin. 4 Belə ki verdiyin
sədəqə gizli qalsın. Gizlində olanı görən
Atan səni mükafatlandıracaq.‡

Necə dua etməli

(Luka 11:2-4)

5 [m]Dua etdiyiniz zaman da ikiüzlülər
kimi olmayın. Çünki belələri adamlar
onları görsün deyə sinaqoqlarda və
küçə tinlərində durub dua etməyi
sevirlər. Sizə doğrusunu deyirəm:
onlar mükafatlarını alıblar. 6 Amma
sən dua etdiyin zaman öz otağına gir
və qapını örtüb gizlində olan Atana
dua et. Gizlində olanı görən Atan səni
mükafatlandıracaq.§

---

*5:44 *Sizi təqib edənlər üçün dua edin* – bəzi əlyazmalarda *sizi lənətləyənlərə xeyir-dua verin, sizə nifrət edənlərə yaxşılıq edin, sizi incidənlər və təqib edənlər üçün dua edin* (Luka 6:27-28).

†5:47 *Bütpərəstlər* – bəzi əlyazmalarda *Vergiyığanlar.*

‡6:4 *Mükafatlandıracaq* – bəzi əlyazmalarda *açıqca mükafatlandıracaq.*

§6:6 *Mükafatlandıracaq* – bəzi əlyazmalarda *açıqca mükafatlandıracaq.*

[h]5:34 Zəb. 48:2; Yeş. 66:1; Mat. 23:22; Yaq. 5:12

[i]5:38 Çıx. 21:23-25; Lev. 24:20; Qanun. 19:21 [j]5:43 Lev. 19:18

[k]5:48 Lev. 19:2; Qanun. 18:13 [l]6:1 Mat. 23:5 [m]6:5 Luka 18:9-14

7 Dua edəndə bütpərəstlər kimi
boşboğazlıq etməyin. Çünki onlar
düşünür ki, çox söz söyləməklə
eşidiləcəklər. 8 Siz onlara bənzəməyin!
Çünki Atanız nələrə ehtiyacınız
olduğunu siz Ondan diləməzdən əvvəl
bilir.
9 Buna görə siz belə dua edin:
"Göylərdə olan Atamız,
Adın müqəddəs tutulsun,
10 Padşahlığın gəlsin,
Göydə olduğu kimi
Yerdə də Sənin iradən olsun.
11 Gündəlik çörəyimizi bizə bu gün
ver.
12 Bizə borclu olanları bağışladığımız
kimi
Bizim borclarımızı da bağışla.
13 [n]Bizi sınağa çəkmə,
Lakin bizi şər olandan xilas et.
Çünki padşahlıq, qüdrət və izzət
Əbədi olaraq Sənindir. Amin".*
14 [o]Əgər başqa insanların təqsirlərini
bağışlasanız, Səmavi Atanız da sizi
bağışlayar. 15 Amma siz başqa insanları
bağışlamasanız, Atanız da sizin
təqsirlərinizi bağışlamaz.

Oruc

16 Oruc tutduğunuz zaman ikiüzlülər
kimi qaşqabaqlı gəzməyin. Onlar oruc
tutduqlarını insanlara göstərmək üçün
üzlərini tutqun hala salırlar. Sizə
doğrusunu deyirəm: onlar mükafatlarını
alıblar. 17 Amma sən oruc tutanda
başına yağ çək və üzünü yu. 18 Belə ki
insanlara deyil, gizlində olan Atana
oruclu görünəsən. Gizlində olanı görən
Atan səni mükafatlandıracaq.

Səmavi xəzinələr

(Luka 11:34-35; 12:33-34; 16:13)

19 [p]Yer üzündə özünüzə xəzinələr
yığmayın. Orada güvə və pas onları
məhv edər ya da oğrular girib
oğurlayar. 20 Bunun yerinə özünüzə
göydə xəzinələr yığın. Orada nə güvə,
nə pas onları məhv edər, nə də oğrular
girib oğurlayar. 21 Çünki xəzinən
haradadırsa, ürəyin də orada olacaq.
22 Bədənin çırağı gözdür. Əgər gözün
sağlam olarsa, bütün bədənin də nurlu
olacaq. 23 Yox, əgər gözün zəif görərsə,
bütün bədənin qaranlıq olacaq. Əgər
səndəki "nur" qaranlıqdırsa, zülmət nə
qədər böyükdür!
24 Heç kim iki ağaya qulluq edə
bilməz. Çünki ya birinə nifrət edib o
birisini sevəcək ya da birinə bağlı qalıb
o birisinə xor baxacaq. Siz həm Allaha,
həm də sərvətə† qulluq edə bilməzsiniz.

Qayğı çəkməyin

(Luka 12:22-32)

25 Buna görə sizə deyirəm: "Nə
yeyəcəyik?" və ya "Nə içəcəyik?" deyə
canınız üçün, "Nə geyinəcəyik?" deyə
bədəniniz üçün qayğı çəkməyin. Can
yeməkdən, bədən isə geyinməkdən
daha vacib deyilmi? 26 Göydə uçan
quşlara baxın: onlar nə əkir, nə biçir, nə
də anbarlarda saxlayır. Amma Səmavi
Atanız onları yedizdirir. Siz onlardan
daha qiymətli deyilsinizmi? 27 Hansı
biriniz qayğı çəkməklə ömrünü bir
anlıq belə, uzada bilər? 28 Nəyə görə
geyim üçün qayğı çəkirsiniz? Görün
çöl zanbaqları necə böyüyür: onlar nə
zəhmət çəkir, nə də ip əyirir. 29 [q]Lakin

---

*6:13 *Çünki padşahlıq, qüdrət və izzət əbədi olaraq Sənindir. Amin.* – bu sözlər ən qədim yunan əlyazmalarında yoxdur.
†6:24 *Sərvət* – arami dilində *mamon*.

[n]**6:13** 1Saln. 29:11 [o]**6:14** Mark 11:25-26 [p]**6:19** Yaq. 5:2-3
[q]**6:29** 1Pad. 10:4-7; 2Saln. 9:3-6

sizə bunu deyirəm ki, bütün cah-calalı
içində olan Süleyman belə, bunlardan
biri kimi geyinməmişdi. 30 Ey imanı az
olanlar, bu gün olub sabah ocağa atılan
çöl otunu Allah belə geyindirirsə, sizi
geyindirəcəyi daha da yəqin deyilmi?
31 Beləliklə, “Nə yeyəcəyik?”, “Nə
içəcəyik?” və ya “Nə geyəcəyik?” deyə
qayğı çəkməyin. 32 Çünki bütpərəstlər
bütün bu şeyləri axtarırlar. Doğrudan
da, Səmavi Atanız bütün bunlara
ehtiyacınız olduğunu bilir. 33 Ona görə
də siz əvvəlcə Allahın Padşahlığını
və Onun salehliyini axtarın. Onda
bunların hamısı sizə əlavə olaraq
veriləcək. 34 Beləliklə, sabahın qayğısını
çəkməyin. Çünki sabahkı gün özü üçün
qayğı çəkəcək. Hər günün öz yamanlığı
kifayətdir!

Mühakimə etməyin

(Luka 6:37-42)

7 Mühakimə etməyin ki, siz də
mühakimə olunmayasınız. 2 [r]Çünki
hansı hökmlə mühakimə etsəniz, onunla
da mühakimə olunacaqsınız. Siz hansı
ölçü ilə ölçsəniz, sizin üçün də eyni ölçü
ilə ölçüləcək. 3 Sən nə üçün qardaşının
gözündə çöpü görürsən, amma öz
gözündəki tiri seçmirsən? 4 Öz gözündə
tir ola-ola qardaşına necə deyə bilərsən:
“Qoy gözündəki çöpü çıxarım!” 5 Ey
ikiüzlü, əvvəlcə öz gözündən tiri çıxar,
onda aydın görərsən ki, qardaşının
gözündəki çöpü necə çıxarmaq olar.
6 Müqəddəs olanı itlərə verməyin
və mirvarilərinizi donuzlara atmayın;
yoxsa bunları ayaqları ilə tapdalayarlar
və dönüb sizi parçalayarlar.

Dua haqqında təlim

(Luka 11:9-13)

7 Diləyin, sizə veriləcək, axtarın,
tapacaqsınız, qapını döyün və sizə
açılacaq. 8 Çünki hər diləyən alar,
axtaran tapar, qapı döyənə açılar.
9 Aranızdan kimsə oğlu ondan çörək
diləsə, ona daş verərmi? 10 Ya da
balıq diləsə, ona ilan verərmi?
11 Beləliklə, siz pis olduğunuz halda öz
övladlarınıza yaxşı hədiyyələr verməyi
bilirsinizsə, göylərdə olan Atanızın
Ondan diləyənlərə gözəl hədiyyələr
verəcəyi nə qədər yəqindir!
12 [s]İnsanların sizinlə necə rəftar
etməsini istəyirsinizsə, siz də onlarla
elə rəftar edin. Çünki Qanun və
Peyğəmbərlərin söylədiyi də elə budur.

Dar qapı və geniş qapı

(Luka 13:24)

13 Dar qapıdan girin. Çünki həlaka
aparan qapı geniş və yolu enlidir. Bu
qapıdan girənlər çoxdur. 14 Amma
həyata aparan qapı dar və yolu ensizdir,
onu tapanlar azdır.

Ağac və bəhrə

(Mat. 12:33-35; Luka 6:43-46; 13:25-27)

15 Yalançı peyğəmbərlərdən özünüzü
gözləyin! Onlar yanınıza quzu
cildində gələrlər, amma daxilən yırtıcı
qurddurlar. 16 Onları bəhrələrindən
tanıyacaqsınız. Qaratikandan üzüm
yaxud qanqaldan əncir yığılarmı?
17 Beləcə də hər yaxşı ağac yaxşı bəhrə,
pis ağac isə pis bəhrə verər. 18 Yaxşı
ağac pis bəhrə verə bilməz, pis ağac da
yaxşı bəhrə verə bilməz. 19 [t]Yaxşı bəhrə
verməyən hər ağac kəsilər və oda atılar.
20 [u]Beləliklə, yalançı peyğəmbərləri
bəhrələrindən tanıyacaqsınız.

---

[r]**7:2** Mark 4:24 [s]**7:12** Luka 6:31 [t]**7:19** Mat. 3:10; Luka 3:9
[u]**7:20** Mat. 12:33

21 Mənə “ya Rəbb, ya Rəbb” deyən
hər kəs Səmavi Padşahlığa girməyəcək;
lakin göylərdə olan Atamın iradəsini
yerinə yetirən oraya girəcək. 22 O gün
bir çoxları Mənə deyəcək: “Ya Rəbb, ya
Rəbb, biz Sənin adınla peyğəmbərlik
etmirdikmi? Sənin adınla cinləri
qovmurduqmu? Sənin adınla bir çox
möcüzələr yaratmırdıqmı?” 23 [v]Onda
Mən onlara bəyan edəcəyəm: “Ey
qanunsuzluq edənlər, Mən sizi heç vaxt
tanımamışam, Məndən uzaq olun!”

Ağıllı bənna və ağılsız bənna

(Luka 6:47-49)

24 Beləliklə, bu sözlərimi eşidib
onlara əməl edən hər kəs öz evini
qaya üzərində quran ağıllı adama
bənzəyir. 25 Yağış yağar, sellər gələr,
yellər əsər və o evə hücum edər. Amma
ev uçmaz, çünki təməli qaya üzərində
qurulub. 26 Bu sözlərimi eşidib onlara
əməl etməyən hər kəs isə öz evini qum
üzərində tikən ağılsız adama bənzəyir.
27 Yağış yağar, sellər gələr, yellər əsər
və o evə hücum edər. Ev uçar və onun
yıxılması bir müsibət olar».
28 [w]İsa bu sözləri bitirəndə xalq Onun
təliminə təəccübləndi, 29 çünki onlara
öz ilahiyyatçıları kimi deyil, səlahiyyət
sahibi kimi təlim öyrədirdi.

İsa bir cüzamlıya şəfa verir

(Mark 1:40-45; Luka 5:12-16)

8 İsa dağdan endiyi zaman böyük bir
izdiham Onun ardınca getdi. 2 Bu
zaman cüzamlı bir adam yaxınlaşıb
«ya Rəbb, əgər istəsən, məni pak edə
bilərsən» deyərək Ona səcdə qıldı.
3 İsa əlini uzadıb ona toxundu və dedi:
«İstəyirəm, pak ol!» Dərhal bu adam
cüzamdan pak oldu. 4 [x]İsa ona dedi:
«Bax heç kəsə bir söz demə, amma get,
özünü kahinə göstər. Hər kəsə şəhadət
olsun deyə Musanın buyurduğu təqdimi
apar».

Yüzbaşının imanı

(Luka 7:1-10)

5 İsa Kefernahuma girərkən bir
yüzbaşı Ona yaxınlaşıb yalvardı: 6 «Ya
Rəbb, xidmətçim iflic olub evdə yatır,
çox iztirab çəkir». 7 İsa ona dedi: «Mən
gəlib ona şəfa verəcəyəm». 8 Yüzbaşı
cavab verərək dedi: «Ya Rəbb, mən
layiq deyiləm ki, Sən mənim evimə
girəsən. Ancaq bir söz söylə, onda
xidmətçim sağalacaq. 9 Çünki mən də
tabeçilik altında olan bir adamam,
mənim də tabeçiliyimdə əsgərlər var.
Birinə “Get!” deyirəm, o gedir, digərinə
isə “Gəl!” deyirəm, o da gəlir. Quluma
“Bunu et!” deyirəm, o da edir». 10 Bunu
eşidən İsa heyrət etdi. O ardınca gələn
xalqa dedi: «Sizə doğrusunu deyirəm:
İsraildə heç kimdə belə böyük iman
görmədim. 11 [y]Sizə deyirəm ki, şərqdən
və qərbdən bir çoxu gələcək və Səmavi
Padşahlıqda İbrahimlə, İshaqla və
Yaqubla bir süfrəyə oturacaq. 12 [z]Amma
bu padşahlığın əsl övladları isə qaranlıq
çölə atılacaq. Orada ağlaşma və diş
qıcırtısı olacaq». 13 Sonra İsa yüzbaşıya
dedi: «Get, qoy sənin imanına görə
olsun». Yüzbaşının xidmətçisi də o saat
sağaldı.

İsa çox adama şəfa verir

(Mark 1:29-34; Luka 4:38-41)

14 İsa Peterin evinə gəldi. Onun
qayınanasının qızdırma içində yatdığını
gördü. 15 İsa onun əlinə toxundu və
qadının qızdırması düşdü. Qadın qalxıb
İsaya xidmət etməyə başladı.
16 Axşam olduqda isə cinə tutulmuş
bir çox adamı İsanın yanına gətirdilər.

---

[v] **7:23** Zəb. 6:8; Luka 13:27 [w] **7:28** Mark 1:22; Luka 4:32 [x] **8:4** Lev. 14:1-32
[y] **8:11** Luka 13:29 [z] **8:12** Mat. 22:13; 25:30; Luka 13:28

O, sözlə ruhları çıxartdı və xəstələrin
hamısına şəfa verdi. 17 [a]Bu, Yeşaya
peyğəmbər vasitəsilə söylənən bu sözlər
yerinə yetsin deyə baş verdi:
«Bizim xəstəliklərimizi O çəkdi,
Naxoşluqlarımızı Öz üzərinə
götürdü».

İsanın şagirdi olmaq nə deməkdir

(Luka 9:57-62)

18 İsa ətrafında izdihamı gördükdə
əmr verdi ki, o biri sahilə keçsin. 19 Bu
zaman bir ilahiyyatçı Ona yaxınlaşıb
dedi: «Müəllim! Sən hara getsən, Sənin
ardınca gedəcəyəm». 20 İsa ona dedi:
«Tülkülərin də yuvası, göydə uçan
quşların da yuvası var. Amma Bəşər
Oğlunun başını qoymağa belə, yeri
yoxdur».
21 Şagirdlərindən bir başqası İsaya
dedi: «Ya Rəbb, mənə icazə ver, əvvəlcə
gedim, atamı dəfn edim». 22 İsa ona
dedi: «Ardımca gəl. Qoy ölülər öz
ölülərini dəfn etsin».

İsa tufanı yatırır

(Mark 4:35-41; Luka 8:22-25)

23 İsa qayığa mindiyi zaman şagirdləri
də Onun ardınca getdi. 24 Göldə elə
böyük tufan qopdu ki, qayıq dalğalarla
örtüldü. Amma İsa yatırdı. 25 Şagirdlər
yaxınlaşıb İsanı oyadaraq dedilər: «Ya
Rəbb, bizi xilas et, biz həlak oluruq!»
26 İsa onlara «Ey imanı az olanlar,
niyə qorxursunuz?» dedi. Sonra durub
küləklərə və gölə qadağan etdi, onda
dərin sükut çökdü. 27 Onlar heyrət
içində qalıb dedilər: «Bu necə bir
Adamdır ki, küləklər də, göl də Ona
itaət edir?»

Cinə tutulmuş iki nəfər sağaldılır

(Mark 5:1-20; Luka 8:26-39)

28 İsa o biri sahildə yerləşən
Qadaralıların* diyarına gəldiyi zaman
qəbir mağaralarından çıxan cinə
tutulmuş iki nəfər Onunla qarşılaşdı.
Onlar elə təhlükəli idi ki, heç kim o
yoldan keçə bilmirdi. 29 Budur, onlar
bağırdılar: «Ey Allahın Oğlu, bizdən
nə istəyirsən? Buraya vaxtından əvvəl
bizə iztirab verməyəmi gəlmisən?»
30 Onlardan uzaqda böyük bir donuz
sürüsü otlayırdı. 31 Cinlər İsaya
yalvardılar: «Bizi qovacaqsansa, bu
donuz sürüsünə göndər». 32 İsa onlara
«Gedin!» dedi. Cinlər də adamlardan
çıxıb donuzların içinə girdi. Beləliklə,
bütün sürü uçurumdan aşağı, gölə
atılıb suda boğuldu. 33 Donuz otaranlar
isə qaçdılar, şəhərə gəlib hər şeyi və
cinə tutulmuş adamların başına gələn
əhvalatı xəbər verdilər. 34 Bundan sonra
bütün şəhər əhalisi İsanı qarşılamağa
çıxdı. İsanı görəndə Ona yalvardılar ki,
onların bölgəsindən çıxsın.

İsa iflicə şəfa verir

(Mark 2:1-12; Luka 5:17-26)

9 İsa qayığa minərək gölü keçdi
və Öz şəhərinə gəldi. 2 Onun
yanına yataqda yatan bir iflic adamı
gətirdilər. İsa onların imanını görəndə
iflic olan adama dedi: «Cəsarətli ol,
oğlum, günahların bağışlandı». 3 Onda
bəzi ilahiyyatçılar öz-özünə dedilər:
«Bu Adam küfr danışır». 4 Onların nə
düşündüklərini görərək İsa dedi: «Niyə
ürəyinizdə pis şeylər fikirləşirsiniz?
5 Bax hansı daha asandır? “Günahların
bağışlandı” deməkmi, yoxsa “Qalx,
yeri!” demək? 6 Lakin siz bilin ki,
Bəşər Oğlunun yer üzündə günahları

---

*8:28 *Qadaralıların* – bəzi əlyazmalarda *Gergesalıların.*

[a]8:17 Yeş. 53:4

bağışlamaq səlahiyyəti var» və onda
iflicə dedi: «Qalx, yatağını götür və
evinə get!» 7 Xəstə qalxıb evinə getdi.
8 Xalq bunu gördükdə qorxdu* və
insanlara bu cür səlahiyyət verən Allahı
izzətləndirdi.

Matta şagirdlərə qoşulur

(Mark 2:13-17; Luka 5:27-32)

9 İsa oradan keçəndə vergi yığılan
yerdə oturan Matta adlı bir adamı görüb
ona dedi: «Ardımca gəl». O da durub
İsanın ardınca getdi.
10 [b]İsa evdə süfrəyə oturanda bir
çox vergiyığanlarla günahkarlar gəlib
Onunla və şagirdləri ilə birgə oturdular.
11 Fariseylər bunu gördükdə Onun
şagirdlərinə dedilər: «Niyə Müəlliminiz
vergiyığanlar və günahkarlarla birgə
yemək yeyir?» 12 Amma İsa bunu
eşidəndə dedi: «Sağlamların deyil,
xəstələrin həkimə ehtiyacı var. 13 [c]Gedin
və "Mən qurban deyil, mərhəmət
istəyirəm" sözünün mənasını öyrənin.
Çünki Mən salehləri deyil, günahkarları
çağırmaq† üçün gəlmişəm».

Oruc barəsindəki sual

(Mark 2:18-22; Luka 5:33-39)

14 O zaman Yəhyanın şagirdləri İsanın
yanına gəlib dedilər: «Nə üçün biz
və fariseylər çox oruc tuturuq, amma
Sənin şagirdlərin oruc tutmur?» 15 İsa
onlara cavab verdi: «Bəy yanlarında
olanda sağdışı və soldışı yas tuta
bilərmi? Lakin bəyin onların arasından
aparılacağı günlər gələcək və o zaman
oruc tutacaqlar.
16 Heç kim köhnə paltara təzə
parçadan yamaq vurmaz. Çünki təzə
yamaq köhnə paltardan qopar və
yırtıq daha pis olar. 17 Eləcə də təzə
şərabı köhnə tuluqlara doldurmazlar.
Yoxsa tuluqlar partlayar, şərab tökülər,
tuluqlar da zay olar. Təzə şərab təzə
tuluqlara doldurular; onda hər ikisi
qorunar».

Qızın dirilməsi və qadının şəfa tapması

(Mark 5:21-43; Luka 8:40-56)

18 Bu şeyləri onlara söyləyərkən bir
rəis gəldi və Ona səcdə qılaraq dedi:
«Qızım indi ölür, amma gəlib əlini onun
üstünə qoysan, yaşayacaq». 19 İsa qalxıb
şagirdləri ilə onun ardınca getdi.
20 Həmin vaxt on iki il qanaxma
xəstəliyinə tutulan bir qadın İsanın
arxasından gəlib Onun paltarının
ətəyinə toxundu. 21 Çünki öz-özünə
deyirdi: «Heç olmasa paltarına
toxunsam, sağalaram». 22 İsa da dönüb
onu görərək dedi: «Cəsarətli ol, qızım,
imanın səni xilas etdi». Qadın o saat
sağaldı.
23 İsa rəisin evinə gələndə tütək
çalanları və qarışıqlıq salan izdihamı
gördü 24 və dedi: «Çəkilin buradan,
çünki qız ölməyib, sadəcə olaraq yatıb».
Onlar İsaya güldülər. 25 Amma camaat
çölə çıxarılanda İsa içəri girdi və qızın
əlindən tutdu; qız da ayağa qalxdı. 26 Bu
xəbər o torpağın hər tərəfinə yayıldı.

İki kor ilə bir lal sağaldılır

27 [d]İsa oradan keçərkən iki kor adam
Onun ardınca gələrək qışqırırdı: «Ey
Davud Oğlu! Bizə rəhm elə!» 28 Evə
girdikdə korlar Onun yanına gəldilər.
İsa onlara dedi: «Bunu etməyə qadir
olduğuma inanırsınızmı?» Kor adamlar
Ona dedilər: «Bəli, ya Rəbb». 29 O
zaman İsa onların gözlərinə toxunaraq
dedi: «Sizə imanınıza görə olsun».

---

*__9:8__ *Qorxdu* – bəzi əlyazmalarda *heyrətləndi.*
†__9:13__ *Çağırmaq* – bəzi əlyazmalarda *tövbəyə çağırmaq.*

[b]__9:10__ Luka 15:1-2 [c]__9:13__ Huşə 6:6; Mat. 12:7 [d]__9:27__ Mat. 20:30

30 Onların gözləri açıldı. İsa «baxın
heç kim bu barədə bilməsin» deyə
onlara ciddi tapşırdı. 31 Onlar isə çıxıb
Onun haqqındakı xəbəri o torpağın hər
tərəfinə yaydılar.
32 Onlar çıxarkən cinə tutulmuş lal
bir adamı İsanın yanına gətirdilər.
33 Cin qovulandan sonra lal danışmağa
başladı. Xalq heyrətlənərək dedi:
«İsraildə heç vaxt belə bir şey baş
verməmişdi». 34 [e]Lakin fariseylər
deyirdilər: «O, cinlərin başçısının gücü
ilə cinləri qovur».

Məhsul çox, işçilər az

35 [f]İsa bütün şəhər və kəndləri
gəzib-dolaşaraq onların sinaqoqlarında
təlim öyrədir, Səmavi Padşahlığın
Müjdəsini vəz edir, hər cür xəstəliyə
və hər cür naxoşluğa şəfa verirdi.
36 [g]Lakin izdihamı görəndə İsanın
onlara rəhmi gəldi, çünki çobansız
qoyunlar kimi taqətsiz və çarəsiz idilər.
37 [h]O zaman İsa şagirdlərinə dedi:
«Məhsul çoxdur, işçilərsə azdır. 38 Buna
görə də məhsulun Sahibinə yalvarın
ki, Öz məhsulunu yığmaq üçün işçilər
göndərsin».

On İki şagirdə verilən vəzifə

(Mark 3:13-19; 6:7-13; Luka 6:12-16; 9:1-6; 10:1-12)

10 İsa On İki şagirdini yanına
çağırıb onlara natəmiz ruhlar
üzərində səlahiyyət verdi ki, bunları
qovsunlar, hər cür xəstəliyə və hər
cür naxoşluğa şəfa versinlər. 2 Bu On
İki həvarinin adları belədir: birincisi
Peter adlanan Şimon və onun qardaşı
Andrey, Zavday oğlu Yaqub və qardaşı
Yəhya, 3 Filip və Bartalmay, Tomas və
vergiyığan Matta, Halfay oğlu Yaqub
və Tadday,* 4 Kənançı† Şimon və İsaya
xəyanət edən Yəhuda İskaryot.
5 İsa həmin on iki nəfəri belə
əmrlə göndərdi: «Başqa millətlərin
arasına getməyin və Samariyalıların
heç bir şəhərinə girməyin, 6 amma
İsrail xalqının itmiş qoyunlarının
yanına gedin. 7 [i]Getdiyiniz yerlərdə
“Səmavi Padşahlıq yaxınlaşıb” deyə
vəz edin. 8 Xəstələrə şəfa verin, ölüləri
dirildin, cüzamlıları pak edin, cinləri
çıxarın. Müftə aldınız, müftə verin.
9 [j]Qurşağınızda nə qızıl, nə gümüş, nə də
mis götürün. 10 [k]Yol üçün nə torba, nə
iki köynək, nə çarıq, nə də əsa götürün.
Çünki işçi öz azuqəsinə layiqdir.
11 Hansı şəhərə ya kəndə girsəniz,
orada ləyaqətli kimdirsə, axtarın və
yola çıxanacan onun evində qalın. 12 O
evə girərkən ev sakinlərini salamlayın.
13 Əgər ev layiqdirsə, əmin-amanlığınız
onun üzərinə gəlsin; layiq deyilsə,
əmin-amanlığınız özünüzə qayıtsın.
14 [l]Kim sizi qəbul etməyib sözlərinizi
dinləməzsə, o evdən və ya şəhərdən
çıxarkən ayaqlarınızın tozunu çırpın.
15 [m]Sizə doğrusunu deyirəm: qiyamət

---

*10:3 *Tadday* – bəzi əlyazmalarda *Tadday ləqəbi verilən Lebbay.*
†10:4 *Kənançı* – Romalılara qarşı müqəddəs müharibəyə hazırlaşan yəhudi millətçi təşkilatının üzvünə verilən ad.

[e]**9:34** Mat. 10:25; 12:24; Mark 3:22; Luka 11:15
[f]**9:35** Mat. 4:23; Mark 1:39; Luka 4:44
[g]**9:36** Say. 27:17; 1Pad. 22:17; 2Saln. 18:16; Yez. 34:5; Zək. 10:2; Mark 6:34
[h]**9:37** Luka 10:2; Yəh. 4:35 [i]**10:7** Luka 10:4-12 [j]**10:9** Luka 10:4
[k]**10:10** 1Kor. 9:14; 1Tim. 5:18 [l]**10:14** Həv. 13:51
[m]**10:15** Yar. 19:24-28; Mat. 11:24

günü* Sodom və Homorra diyarının halı
o şəhərin halından daha asan olacaq.

Şagirdlərin sıxıntıları

(Mark 13:9-13; Luka 21:12-17)

16 [n]Budur, sizi qurdlar arasına
quzular kimi göndərirəm. Ona görə
də ilan kimi müdrik və göyərçin
kimi məsum olun. 17 İnsanlardan
özünüzü gözləyin. Çünki onlar sizi
məhkəmələrə çəkəcək, sinaqoqlarında
qamçılayacaqlar. 18 Onlara və millətlərə
şəhadət etmək üçün siz Mənə görə
valilərin və padşahların qarşısına
aparılacaqsınız. 19 [o]Onlar sizi təslim
edəndə necə və ya nə deyəcəyiniz
barədə qayğı çəkməyin. Nə deyəcəyiniz
həmin vaxt sizə bildiriləcək, 20 çünki
danışan siz yox, sizdə danışan Atanızın
Ruhudur. 21 [p]Qardaş qardaşı, ata
övladını ölümə təslim edəcək. Övladlar
ata-anasına qarşı çıxıb onları edam
etdirəcək. 22 [q]Mənim adıma görə hamı
sizə nifrət edəcək. Amma axıracan
dözən xilas olacaq. 23 Sizi bir şəhərdə
təqib edəndə başqasına qaçın. Çünki
sizə doğrusunu deyirəm: siz İsrail
şəhərlərini dolaşıb-qurtarmamış Bəşər
Oğlu gələcək.
24 [r]Şagird müəllimindən, qul da
ağasından üstün deyil. 25 [s]Şagirdin
öz müəllimi, qulun isə öz ağası
kimi olması ona kifayətdir. Əgər ev
sahibinə Baal-Zevul dedilərsə, onun
ailə üzvlərinə bundan nə qədər artıq
deyəcəklər!

Kimdən qorxmalı

(Luka 12:2-9)

26 [t]Beləliklə, onlardan qorxmayın.
Çünki elə örtülü bir şey yoxdur ki,
aşkara çıxmayacaq və elə gizli bir
şey yoxdur ki, bilinməyəcək. 27 Sizə
qaranlıqda dediklərimi gün işığında
söyləyin və qulağınıza pıçıldananı
damlardan bəyan edin. 28 Bədəni
öldürüb canı öldürə bilməyənlərdən
qorxmayın. Həm canı, həm bədəni
cəhənnəmdə məhv edə bilən Allahdan
qorxun. 29 İki sərçə bir qara pula
satılmırmı? Onlardan biri belə, Atanızın
izni olmadan yerə düşməz. 30 Sizin
başınızdakı saçlar belə, sayılıb. 31 Ona
görə də qorxmayın, siz saysız-hesabsız
sərçədən daha dəyərlisiniz.
32 İnsanlar qarşısında Məni iqrar edən
hər kəsi Mən də göylərdə olan Atamın
qarşısında iqrar edəcəyəm. 33 [u]Amma
kim insanlar qarşısında Məni inkar
etsə, Mən də onu göylərdə olan Atamın
qarşısında inkar edəcəyəm.

İsaya layiq olmaq

(Luka 12:51-53; 14:26-27)

34 Düşünməyin ki, yer üzünə sülh
gətirməyə gəlmişəm. Mən sülh deyil,
qılınc gətirməyə gəlmişəm. 35 [v]Çünki
Mən oğulu atasından, qızı anasından,
gəlini də qayınanasından ayırmağa
gəlmişəm.
36 "İnsanın düşməni öz ev əhli
olacaq".
37 Atasını ya anasını Məndən artıq
sevən kəs Mənə layiq deyil. Oğlunu
ya qızını Məndən artıq sevən də Mənə
layiq deyil. 38 [w]Çarmıxını götürməyib

---

*10:15 *Qiyamət günü* – hərfi tərcümədə *mühakimə günü.*

[n]**10:16** Luka 10:3 [o]**10:19** Luka 12:11-12 [p]**10:21** Mark 13:12; Luka 21:16
[q]**10:22** Mat. 24:9,13 [r]**10:24** Luka 6:40; Yəh. 13:16; 15:20 [s]**10:25** Mat. 9:34; 12:24; Mark 3:22; Luka 11:15 [t]**10:26** Mark 4:22; Luka 8:17
[u]**10:33** 2Tim. 2:12 [v]**10:35** Mik. 7:6 [w]**10:38** Mat. 16:24; Mark 8:34; Luka 9:23

ardımca gələn kəs də Mənə layiq deyil.
39 [x]Canını qoruyan kəs onu itirəcək,
Mənim uğrumda canını itirənsə onu
qoruyacaq.
40 [y]Sizi qəbul edən kəs Məni qəbul
edər. Məni qəbul edən də Məni
Göndərəni qəbul edər. 41 Peyğəmbəri
peyğəmbər olduğu üçün qəbul edən kəs
peyğəmbərə layiq bir mükafat alacaq.
Salehi saleh olduğu üçün qəbul edən də
salehə layiq bir mükafat alacaq. 42 [z]Kim
bu kiçiklərdən birinə şagird olduğu
üçün hətta bir kasa soyuq su içirdərsə,
sizə doğrusunu deyirəm: mükafatsız
qalmayacaq».

İsa Məsih və Vəftizçi Yəhya

(Luka 7:18-35)

11 İsa On İki şagirdinə nəsihət verib
qurtarandan sonra öyrədərək vəz
etmək üçün onların şəhərlərinə getdi.
2 Yəhya isə Məsihin işlərini zindanda
eşidərək öz şagirdlərini* göndərib
3 Ondan soruşdu: «Gəlməli Olan
Sənsənmi, yoxsa başqasını gözləyək?»
4 İsa onlara belə cavab verdi: «Gedin,
eşidib gördüklərinizi Yəhyaya bildirin:
5 [a]korlar görür, axsaqlar yeriyir,
cüzamlılar pak olur, karlar eşidir, ölülər
dirilir və yoxsullara Müjdə yayılır. 6 Kim
Mənə görə büdrəməsə, nə bəxtiyardır!»
7 Onlar gedərkən İsa camaata Yəhya
haqqında danışmağa başladı: «Çölə
nəyə baxmağa getmişdiniz? Küləyin
sarsıtdığı qamışamı? 8 Bəs onda
nəyə baxmağa getmişdiniz? Nəfis
toxunmuş paltar geymiş bir adamamı?
Amma nəfis toxunmuş paltar geyənlər
padşahların saraylarında qalır. 9 Bəs
onda nəyə baxmağa getmişdiniz? Bir
peyğəmbərəmi? Bəli, sizə deyirəm,
hətta peyğəmbərdən də üstün birinə.
10 [b]Bu o adamdır ki, onun haqqında
yazılıb:

"Budur, Sənin önündə Öz elçimi
göndərirəm,
O Sənin qabağında yolunu
hazırlayacaq".

11 Sizə doğrusunu deyirəm: qadından
doğulanlar arasında Vəftizçi Yəhyadan
daha üstün olan meydana çıxmayıb.
Amma Səmavi Padşahlıqda ən kiçik
olan ondan üstündür. 12 [c]Vəftizçi
Yəhyanın günlərindən indiyə qədər
Səmavi Padşahlıq zorla alınır və zor
işlədənlər onu ələ keçirir. 13 Çünki
bütün Peyğəmbərlər və Qanun Yəhyaya
qədər peyğəmbərlik etdi. 14 [d]Əgər onu
qəbul etmək istəyirsinizsə, gəlməli olan
İlyas odur. 15 Qulağı olan eşitsin!
16–17 Bəs bu nəsli nəyə bənzədim? O,
bazar meydanlarında oturan və

"Biz sizə tütək çaldıq, sizsə
oynamadınız.
Biz mərsiyələr oxuduq, sizsə matəm
tutmadınız"

deyib başqalarını səsləyən uşaqlara
bənzəyir. 18 Çünki Yəhya gəldikdə nə
çörək yeyir, nə şərab içirdi və onlar
deyirlər: "O, cinə tutulmuşdur". 19 Bəşər
Oğlu gəldikdə yeyib-içdi və onlar
deyirlər: "Bu qarınqulu və əyyaş adama
baxın! Vergiyığanlara və günahkarlara
dost oldu!" Amma hikmət öz əməlləri
ilə† təsdiq olunur».

---

*11:2 *Şagirdlərini* – bəzi əlyazmalarda *şagirdlərindən ikisini* (Luka 7:18).
†11:19 *Əməlləri ilə* – bəzi əlyazmalarda *övladları tərəfindən* (Luka 7:35).

[x]**10:39** Mat. 16:25; Mark 8:35; Luka 9:24; 17:33; Yəh. 12:25
[y]**10:40** Mark 9:36-37; Luka 9:47-48; 10:16; Yəh. 13:20 [z]**10:42** Mark 9:41
[a]**11:5** Yeş. 35:5-6; 61:1-3 [b]**11:10** Mal. 3:1 [c]**11:12** Luka 16:16
[d]**11:14** Mal. 4:5; Mat. 17:10-13; Mark 9:11-13

Tövbə etməyən şəhərlər

(Luka 10:13-15)

20 Onda İsa bir çox möcüzələr
göstərdiyi şəhərləri tövbə etmədikləri
üçün məzəmmət etməyə başladı.
21 [e]«Vay halına, ey Korazin! Vay
halına, ey Bet-Sayda! Sizdə baş vermiş
möcüzələr Sur və Sidonda olsaydı,
onlar çoxdan çul geyinib külün üstündə
oturaraq tövbə edərdilər. 22 Amma
sizə deyirəm: qiyamət günü* Sur və
Sidonun halı sizinkindən daha asan
olacaq. 23 [f]Sən, ey Kefernahum, göyə
qədər ucalacaqsanmı? Ölülər diyarına
qədər enəcəksən. Çünki səndə baş
vermiş möcüzələr Sodomda olsaydı, o
bu günə qədər durardı. 24 [g]Ancaq Mən
sizə deyirəm: qiyamət günü† Sodom
diyarının halı səninkindən daha asan
olacaq».

Yorğunlara Müjdə

(Luka 10:21-22)

25 O vaxt İsa davam edərək dedi: «Ey
yerin-göyün Sahibi olan Ata! Səndən
razıyam ki, bu şeyləri müdrik və
dərrakəli adamlardan gizlədib körpələrə
agah etdin. 26 Bəli, Ata! Çünki bu Sənin
xoş niyyətin idi. 27 [h]Atam tərəfindən hər
şey Mənim ixtiyarıma verildi. Oğulu
Atadan başqa heç kəs tanımaz. Atanı da
Oğuldan və Oğulun agah etmək istədiyi
şəxsdən başqa heç kəs tanımaz.
28 Ey bütün yorğunlar və yükləri
ağır olanlar, Mənim yanıma gəlin,
Mən sizə rahatlıq verərəm. 29 [i]Mənim
boyunduruğumu üzərinizə götürün və
Məndən öyrənin. Çünki Mən həlim və
qəlbən itaətkaram. Bununla canınıza
rahatlıq taparsınız. 30 Çünki Mənim
boyunduruğum rahat və yüküm
yüngüldür».

Şənbə günü haqqında təlim

(Mark 2:23-28; Luka 6:1-5)

12 [j]O vaxtlar İsa bir Şənbə günü
taxıl zəmiləri arasından keçirdi.
Şagirdləri ac idi və sünbülləri qırıb
yeməyə başladılar. 2 Fariseylər bunu
görüb Ona dedilər: «Budur, şagirdlərin
Şənbə günü qadağan olunan işləri
görürlər». 3 [k]İsa onlara dedi: «Davud və
yanındakılar ac olanda nə etdiklərini
oxumamısınızmı? 4 O, Allahın evinə
girdi; ona və yanındakılara deyil,
yalnız kahinlərə yeməyə icazə verilən
təqdis çörəklərini yedilər. 5 Eləcə də
Qanunda oxumamısınız ki, kahinlər
məbəddə Şənbəni pozurlar, lakin
təqsirsiz sayılırlar? 6 Amma sizə
deyirəm ki, məbəddən daha üstün Olan
buradadır. 7 [l]Əgər siz "Mən qurban
deyil, mərhəmət istəyirəm" sözünün
mənasını bilsəydiniz, təqsirsizləri
məhkum etməzdiniz. 8 Ona görə ki
Bəşər Oğlu Şənbə gününün Sahibidir».

Əli qurumuş adamın şəfası

(Mark 3:1-6; Luka 6:6-11)

9 İsa oradan ayrılıb onların
sinaqoquna girdi. 10 Budur, orada
əli qurumuş bir adam var idi. Bəzi
adamlar İsanı ittiham etmək məqsədi ilə
«Şənbə günü şəfa verməyə icazə varmı?»
deyə soruşdular. 11 [m]İsa onlara belə
cavab verdi: «Hansınızın bir qoyunu
olarsa və qoyun Şənbə günü çuxura

*__11:22__ *Qiyamət günü* – hərfi tərcümədə *mühakimə günü.*
†__11:24__ *Qiyamət günü* – hərfi tərcümədə *mühakimə günü.*

[e]**11:21** Yeş. 23:1-18; Yez. 26:1–28:26; Yoel 3:4-8; Amos 1:9-10; Zək. 9:2-4
[f]**11:23** Yar. 19:24-28; Yeş. 14:13-15 [g]**11:24** Mat. 10:15; Luka 10:12
[h]**11:27** Yəh. 1:18; 3:35; 10:15 [i]**11:29** Yer. 6:16 [j]**12:1** Qanun. 23:25
[k]**12:3** Lev. 24:9; 1Şam. 21:1-6 [l]**12:7** Huşə 6:6; Mat. 9:13 [m]**12:11** Luka 14:5

düşərsə, onu tutub çıxartmaz? 12 İnsan
qoyundan nə qədər dəyərlidir! Beləliklə,
Şənbə günü xeyirxah iş görməyə icazə
var». 13 Sonra İsa adama dedi: «Əlini
uzat!» O, əlini uzatdı və əli əvvəlki
halına qayıdıb o biri əli kimi sağlam
oldu. 14 Fariseylər çıxıb İsanı necə məhv
etmək barədə məsləhətləşdilər.

Allahın seçdiyi Qul

15 İsa bunu bilib oradan uzaqlaşdı.
Böyük bir izdiham Onun ardınca getdi
və İsa onların hamısına şəfa verdi.
16 Amma onlara qadağan etdi ki, Onun
kim olduğunu deməsinlər. 17 [n]Bu,
Yeşaya peyğəmbər vasitəsilə söylənən
həmin söz yerinə yetsin deyə baş verdi:
18 «Budur, Mənim seçdiyim Qulum!
Mənə sevimlidir, könlüm Ondan
razıdır.
Mən Öz Ruhumu Onun üzərinə
qoyacağam.
O, millətlərə ədalət elan edəcək.
19 O nə mübahisə, nə də fəryad
edəcək.
Küçələrdə heç kim Onun səsini
eşitməyəcək.
20 Ədaləti zəfərə çatdırana qədər
Əzilmiş qamışı qırmayacaq,
Tüstülənən piltəni söndürməyəcək.
21 Millətlər Onun adına ümid
bağlayacaq».

İsa və Baal-Zevul

(Mark 3:20-30; Luka 6:43-45; 11:14-23)

22 Ondan sonra İsanın yanına cinə
tutulmuş kor və lal bir adamı gətirdilər.
İsa ona şəfa verdi. Beləcə o danışmağa
və görməyə başladı. 23 Bütün xalq «Bu,
Davudun Oğlu deyilmi?» deyə mat
qaldı. 24 [o]Lakin fariseylər bunu eşitdikdə
dedilər: «Bu Adam ancaq cinlərin başçısı
Baal-Zevulun gücü ilə cinləri qovur».
25 Fariseylərin nə düşündüklərini
bilən İsa onlara dedi: «Öz daxilindən
bölünmüş hər padşahlıq viran qalar
və öz daxilindən bölünmüş hər şəhər
yaxud ev davam gətirməz. 26 Əgər
Şeytan Şeytanı qovarsa, özü daxilindən
bölünmüş olur. Bu vəziyyətdə onun
padşahlığı necə davam gətirər? 27 Əgər
Mən cinləri Baal-Zevulun gücü ilə
qovuramsa, bəs sizin adamlarınız kimin
gücü ilə qovur? Buna görə də onlar
sizin hakimləriniz olacaq. 28 Lakin Mən
cinləri Allahın Ruhu ilə qovuramsa,
deməli, Allahın Padşahlığı üzərinizə
gəlib. 29 Bir kimsə güclü adamın
evinə girib əvvəlcə onun əl-qolunu
bağlamadan onun malını necə qarət
edə bilər? Gərək o adamın əvvəlcə
əl-qolunu bağlasın, sonra evini qarət
etsin. 30 [p]Mənimlə olmayan Mənə
qarşıdır və Mənimlə yığmayan dağıdır.
31 [q]Buna görə sizə deyirəm: hər
bir günah və hər bir küfr insanlara
bağışlanacaq; amma Ruha qarşı küfr
bağışlanmayacaq. 32 Kim Bəşər Oğluna
qarşı söz söyləyərsə, bağışlanacaq;
amma kim Müqəddəs Ruha qarşı
söyləyərsə, nə bu dövrdə bağışlanacaq,
nə də gələcək dövrdə.
33 [r]Ya ağaca yaxşı, bəhrəsinə də yaxşı
deyin yaxud ağaca pis, bəhrəsinə də pis
deyin; çünki ağac bəhrəsindən tanınır.
34 [s]Ey gürzələr nəsli, siz pis olduğunuz
halda necə yaxşı şeylər söyləyə
bilərsiniz? Çünki ürək doluluğundan
ağız danışar. 35 Yaxşı adam yaxşılıq
xəzinəsindən yaxşı şeylər çıxarır, pis
adam isə pislik xəzinəsindən pis şeylər
çıxarır. 36 Mən sizə deyirəm: insanlar
söylədikləri hər boş söz üçün qiyamət

---

[n] **12:17** Yeş. 42:1-4 [o] **12:24** Mat. 9:34; 10:25 [p] **12:30** Mark 9:40
[q] **12:31** Luka 12:10 [r] **12:33** Mat. 7:20 [s] **12:34** Mat. 3:7; 15:18; 23:33; Luka 3:7

günü* hesab verəcəklər. 37 Çünki öz
sözlərinə görə haqq qazanacaqsan və öz
sözlərinə görə məhkum olunacaqsan».

Yunus peyğəmbərin əlaməti

(Mat. 16:1-4; Mark 8:11-12;
Luka 11:24-26,29-32)

38 [t]O zaman bəzi ilahiyyatçılar və
fariseylər İsaya dedilər: «Müəllim,
Səndən bir əlamət görmək istəyirik».
39 İsa onlara belə cavab verdi: «Pis və
vəfasız nəsil bir əlamət axtarır. Amma
ona Yunus peyğəmbərin əlamətindən
başqa heç bir əlamət verilməyəcək.
40 [u]Çünki Yunus üç gün-üç gecə nəhəng
balığın qarnında necə qalmışdısa, Bəşər
Oğlu da üç gün-üç gecə yerin bağrında
elə qalacaq. 41 [v]Nineva xalqı qiyamət
günündə† bu nəsillə birgə qalxıb onu
məhkum edəcək. Çünki onlar Yunusun
vəzinə görə tövbə etmişdilər. Budur,
Yunusdan daha böyük Olan buradadır.
42 [w]Cənub mələkəsi‡ qiyamət günündə§
bu nəsillə birgə qalxıb onu məhkum
edəcək. Çünki mələkə Süleymanın
hikmətli sözlərini dinləmək üçün
yer üzünün ucqarlarından gəlmişdi.
Budur, Süleymandan daha böyük Olan
buradadır.
43 Natəmiz ruh adamdan çıxdıqdan
sonra quraq yerlərdə dolaşar, rahatlıq
axtarar, lakin tapmaz. 44 O zaman
deyər: “Çıxdığım evə dönüm”. Evə
qayıdanda onu boş, süpürülmüş və
səliqə-sahman içində görər. 45 Bu vaxt o
gedib özündən daha betər yeddi başqa
ruhu özü ilə götürər. Onlar da oraya
girib məskunlaşar. Onda bu adamın
axırı əvvəlkindən daha pis olar. Bu pis
nəslin də başına belə iş gələcək».

İsanın anası və qardaşları kimdir?

(Mark 3:31-35; Luka 8:19-21)

46 İsa camaatla söhbət edəndə anası
və qardaşları bayırda durub Onunla
danışmaq istəyirdilər. 47 Bir nəfər İsaya
dedi: «Budur, anan və qardaşların
bayırda dayanıb Sənlə danışmaq
istəyirlər». 48 Amma İsa bu sözü
söyləyənə cavab verib dedi: «Mənim
anam və qardaşlarım kimlərdir?»
49 Əlini şagirdlərinə doğru uzadaraq
dedi: «Mənim anam və qardaşlarım
bunlardır. 50 Çünki kim göylərdə olan
Atamın iradəsini yerinə yetirirsə,
Mənim qardaşım, bacım və anam odur».

Səpilən toxum məsəli

(Mark 4:1-20; Luka 8:4-15)

13 O gün İsa evdən çıxdı və gedib
göl kənarında oturdu. 2 [x]Yanına
elə böyük izdiham toplaşdı ki, Özü bir
qayığa minib oturdu və bütün izdiham
sahildə durdu. 3 İsa onlara məsəllərlə
bir çox şey öyrədərək dedi: «Bir əkinçi
toxum səpməyə çıxdı. 4 Səpin zamanı
toxumlardan bəzisi yol kənarına düşdü
və quşlar gəlib onları dənlədi. 5 Bəzisi
torpağı çox olmayan daş-kəsəkli yerlərə
düşdü. Torpağı dərin olmadığına görə
tez cücərdi. 6 Lakin günəş doğanda
qarsalandı və kökləri olmadığına
görə qurudu. 7 Bəzisi tikanlar arasına
düşdü. Tikanlar böyüyüb onları boğdu.
8 Başqaları isə münbit torpağa düşdü.
Bəzisi yüz, bəzisi altmış, bəzisi otuz qat
səmərə verdi. 9 Qulağı olan eşitsin!»

---

*12:36 *Qiyamət günü* – hərfi tərcümədə *mühakimə günü.*
†12:41 *Qiyamət günündə* – hərfi tərcümədə *mühakimədə.*
‡12:42 *Cənub mələkəsi* – yəni Süleymanın yanına gələn Səba mələkəsi.
§12:42 *Qiyamət günündə* – hərfi tərcümədə *mühakimədə.*

[t]**12:38** Luka 11:16 [u]**12:40** Yun. 1:17 [v]**12:41** Yun. 3:5
[w]**12:42** 1Pad. 10:1-13; 2Saln. 9:1-12 [x]**13:2** Luka 5:1-3

10 Şagirdlər İsaya yaxınlaşıb dedilər:
«Nə üçün onlara məsəllərlə danışırsan?»
11 O isə onlara belə cavab verdi:
«Səmavi Padşahlığın sirlərini bilmə
qabiliyyəti sizə verilmişdir, lakin
onlara verilməmişdir. 12 [y]Çünki kimin
varıdırsa, ona daha çox veriləcək və
o, bolluq içində olacaq. Amma kimin
yoxudursa, əlində olan da ondan
alınacaq. 13 [z]Mənim onlarla məsəllərlə
danışmağımın məqsədi budur ki,
"gördükləri halda görməzlər, eşitdikləri
halda eşitməzlər və anlamazlar".
14 Yeşaya peyğəmbərin onlar üçün
dediyi bu sözlər yerinə yetir:
"Eşitdikcə eşidəcəksiniz, amma
anlamayacaqsınız,
Gördükcə görəcəksiniz, amma
qanmayacaqsınız.
15 Çünki bu xalqın ürəyi kütləşdi,
Qulaqları ağır eşitdi,
Gözlərini yumdular ki,
Gözləri ilə görməsinlər,
Qulaqları ilə eşitməsinlər,
Ürəkləri ilə anlamasınlar
Və Mənə sarı dönməsinlər ki,
Mən onlara şəfa verim".
16 [a]Amma sizin gözləriniz nə bəxtiyardır,
çünki görür və qulaqlarınız nə
bəxtiyardır, çünki eşidir! 17 Sizə
doğrusunu deyirəm: bir çox
peyğəmbərlər və saleh adamlar
sizin gördüklərinizi görməyi arzuladılar,
amma görmədilər, eşitdiklərinizi
eşitməyi arzuladılar, amma eşitmədilər.
18 İndi əkinçi barədə məsəlin izahını
dinləyin: 19 kim Səmavi Padşahlıqla
bağlı kəlamı eşidib anlamırsa, şər olan
gəlib onun ürəyində səpilmiş olanı
oğurlayır. Yol kənarına səpilən toxum
budur. 20 Daş-kəsəkli yerlərə səpilən isə
kəlamı eşidir və dərhal sevinclə qəbul
edir. 21 Lakin onda kök olmadığına görə
dözümü az olur, kəlama görə əziyyət
və təqibə məruz qalan kimi yıxılır.
22 Tikanlar arasına səpilən odur ki,
kəlamı eşidir, lakin bu dövrün qayğıları
və var-dövlətin aldadıcılığı kəlamı
boğur və kəlam barsız olur. 23 Münbit
torpağa səpilənsə odur ki, kəlamı eşidir,
anlayır və doğrudan da, səmərə – bəzisi
yüz, bəzisi altmış, bəzisi otuz qat səmərə
verir».

Dəlicə və buğda məsəli

24 İsa onlara başqa bir məsəl də
çəkdi: «Səmavi Padşahlıq tarlasına yaxşı
toxum səpmiş bir adama bənzəyir.
25 Adamlar yatanda onun düşməni
gəlib buğdaların arasına dəlicə səpib
getdi. 26 Buğda böyüyüb bəhrə verəndə
dəlicələr də göründü. 27 Ev sahibinin
qulları gəlib ona belə dedilər: "Ağa, sən
tarlana yaxşı toxum səpmədinmi? Bəs
bu dəlicə haradan əmələ gəldi?" 28 O isə
qullara dedi: "Bunu düşmən etmişdir".
Qullar da ona dedilər: "İstəyirsənmi
gedib onları çıxaraq?" 29 O dedi:
"Yox, çünki dəlicələri çıxararkən
onlarla birgə buğdanı da qopararsınız.
30 Qoy biçinə qədər hər ikisi birlikdə
böyüsün. Biçin vaxtı mən biçinçilərə
deyəcəyəm: ‹Əvvəlcə dəlicələri toplayın
və yandırmaq üçün onlardan dərz
bağlayın, buğdanı isə anbarlarıma
toplayın›"».

Xardal toxumu və maya məsəlləri

(Mark 4:30-34; Luka 13:18-21)

31 İsa onlara başqa bir məsəl də
danışaraq dedi: «Səmavi Padşahlıq bir
adamın götürüb öz tarlasında səpdiyi
xardal toxumuna bənzəyir. 32 Xardal
toxumu bütün toxumların ən kiçiyi
olsa da, böyüdükdə bütün bostan
bitkilərindən hündür, lap ağac boyda

---

[y] **13:12** Mat. 25:29; Mark 4:25; Luka 8:18; 19:26

[z] **13:13** Yeş. 6:9-10; Yəh. 12:39-40; Həv. 28:26-27 [a] **13:16** Luka 10:23-24

olur. Belə ki göydə uçan quşlar gəlib
onun budaqlarında yuva qurur».
33 İsa onlara başqa bir məsəl də
söylədi: «Səmavi Padşahlıq xəmir
mayasına bənzəyir. Qadın onu götürüb
üç kisə* una qarışdırıb bütün xəmir
acıyanadək saxlayır».
34 İsa bütün bu şeyləri xalqa məsəllərlə
söyləyirdi və onlara məsəlsiz heç bir şey
söyləməzdi ki, 35 [b]peyğəmbər vasitəsilə
söylənən bu söz yerinə yetsin:
«Ağzımı məsəllərlə açacağam,
Dünya yaranandan bəri
Gizli qalan şeyləri bəyan edəcəyəm».

Dəlicə və buğda məsəlinin izahı

36 O zaman İsa xalqdan ayrılıb evə
girdi. Şagirdləri Onun yanına gəlib
dedilər: «Tarladakı dəlicələr məsəlini
bizə izah et». 37 Cavabında İsa dedi:
«Yaxşı toxumu səpən Bəşər Oğludur.
38 Tarla isə dünyadır. Yaxşı toxum
Padşahlığın övladlarıdır. Dəlicə isə
şər olanın övladlarıdır. 39 Dəlicələri
səpmiş olan düşmən iblisdir. Biçin
dövrün sonudur və biçinçilər isə
mələklərdir. 40 Dəlicələr toplanıb alovla
yandırıldığı kimi bu dövrün sonunda da
belə olacaq. 41 Bəşər Oğlu mələklərini
göndərəcək, onlar da pis yola çəkən
bütün şeyləri və qanunsuzluq edənləri
Onun Padşahlığından toplayacaq
42 və onları odlu sobaya atacaqlar.
Orada ağlaşma və diş qıcırtısı olacaq.
43 O zaman salehlər özlərinin Atasının
Padşahlığında günəş kimi parlayacaqlar.
Qulağı olan eşitsin!

Dəfinə və mirvari məsəlləri

44 Səmavi Padşahlıq tarlada gizlədilən
bir dəfinəyə bənzəyir. Tapan adam onu
gizlətdi, sevinclə gedib bütün varını
satdı və o tarlanı satın aldı.
45 Yenə Səmavi Padşahlıq gözəl
mirvarilər axtaran bir tacirə bənzəyir.
46 O, çox dəyərli olan bir mirvari
tapanda gedib bütün varını satdı və onu
satın aldı.

Tor məsəli

47 Yenə Səmavi Padşahlıq dənizə
atılan və hər cür balıq tutan bir tora
bənzəyir. 48 Tor dolduğu zaman onu
sahilə çəkdilər və oturub yaxşılarını
qablara yığdılar, pisləri isə kənara
atdılar. 49 Bu dövrün sonunda da belə
olacaq. Mələklər gəlib pisləri salehlərin
arasından kənar edəcəklər. 50 Sonra
onları odlu sobaya atacaqlar. Orada
ağlaşma və diş qıcırtısı olacaq».
51 İsa «Bütün bunları anladınızmı?»
deyə soruşdu. Onlar İsaya «bəli,
ya Rəbb» dedilər. 52 İsa da onlara
dedi: «Ona görə də Səmavi Padşahlıq
üçün şagirdlik etmiş hər ilahiyyatçı
xəzinəsindən təzə və köhnə şeylər
çıxaran ev sahibinə bənzəyir».

İsa Öz yurdunda rədd edilir

(Mark 6:1-6; Luka 4:16-30)

53 İsa bu məsəlləri bitirəndən sonra
oradan ayrıldı. 54 Öz yurduna gələrək
oradakı sinaqoqda xalqı öyrətməyə
başladı. Camaat təəccüblənərək
dedi: «Bu Adamda belə hikmət, belə
möcüzələr yaradan qüdrət haradandır?
55 Bu, dülgərin Oğlu deyilmi? Anasının
adı Məryəm deyilmi? Yaqub, Yusif,
Şimon və Yəhuda Onun qardaşları
deyilmi? 56 Bütün bacıları aramızda
yaşamırmı? Bəs onda bu Adama bütün
bu şeylər haradandır?» 57 [c]Onların
İsaya acığı tutdu. Amma İsa onlara
dedi: «Bir peyğəmbərə öz yurdundan
və öz evindən başqa heç bir yerdə xor

---

*13:33 *Kisə* – yunan mətnində *saton*, təqribən 37 litr.

[b]13:35 Zəb. 78:2 [c]13:57 Yəh. 4:44

baxmazlar». 58 İsa onların imansızlığı
üzündən orada çox möcüzə yaratmadı.

Yəhyanın edamı

(Mark 6:14-29; Luka 9:7-9)

14 [d]O vaxt İsa barədə olan
xəbərləri hökmdar Hirod eşitdi.
2 Nökərlərinə dedi: «Bu, Vəftizçi
Yəhyadır. O, ölülər arasından dirilib.
Buna görə də O, möcüzələr yaradır».
3 [e]Hirod qardaşı Filipin arvadı
Hirodiyaya görə Yəhyanı tutduraraq
qollarını qandalladıb zindana
saldırmışdı. 4 [f]Çünki Yəhya Hiroda
demişdi: «Hirodiyanı almaq sənə
qadağandır». 5 Hirod Yəhyanı öldürmək
istəyirdi, amma camaatdan qorxurdu.
Çünki camaat Yəhyanı peyğəmbər
sayırdı.
6 Hirodun ad günü qeyd ediləndə
Hirodiyanın qızı ortaya çıxıb rəqs
etməyə başladı. Bu, Hirodun xoşuna
gəldi. 7 O and içib bəyan etdi ki, qız nə
istəsə, ona verəcək. 8 Qız isə anasının
təhriki ilə dedi: «Vəftizçi Yəhyanın
başını burada bir sini içində mənə ver».
9 Padşahı kədər bürüdü, amma içdiyi
andlara və qonaqlara görə əmr etdi ki,
ona istədiyini versinlər. 10 Beləliklə,
zindanda Yəhyanın boynunu vurdurdu.
11 Onun başı bir sini içində gətirilib
qıza verildi. Qız da anasına apardı.
12 Yəhyanın şagirdləri gəlib onun
cəsədini götürdülər. Onu basdırdılar və
gəlib İsaya bu barədə xəbər verdilər.

İsa beş min nəfəri doydurur

(Mark 6:30-44; Luka 9:10-17; Yəh. 6:1-14)

13 İsa bunu eşidib qayığa minərək
təkbaşına oradan kimsəsiz bir yerə
çəkildi. Bunu eşidən camaat şəhərlərdən
piyada Onun ardınca getdi. 14 İsa sahilə
düşəndə böyük bir izdiham gördü,
onlara rəhmi gəldi və xəstələrinə şəfa
verdi.
15 Axşama yaxın şagirdlər Onun
yanına gəlib dedilər: «Bura çöllükdür,
vaxt da gecdir. Camaatı burax, qoy
gedib kəndlərdən özlərinə yemək
alsınlar». 16 Amma İsa onlara dedi:
«Getməklərinə ehtiyac yoxdur. Onlara
yeməyi siz verin». 17 Şagirdlər İsaya
dedilər: «Burada beş çörək və iki
balıqdan başqa bir şeyimiz yoxdur».
18 İsa «onları buraya, Mənə gətirin»
dedi. 19 Camaata əmr etdi ki, otların
üstündə otursunlar. İsa beş çörəyi və
iki balığı götürüb göyə baxaraq şükür
duası etdi. Sonra çörəyi bölüb şagirdlərə
verdi. Şagirdlər də camaata payladılar.
20 Hamı yeyib-doydu. Artıq qalan
hissələrdən on iki dolu zənbil yığdılar.
21 Yemək yeyən adamların sayı qadınlar
və uşaqlardan başqa, beş min nəfərə
yaxın idi.

İsa suyun üstü ilə yeriyir

(Mark 6:45-53; Yəh. 6:15-21)

22 Bundan dərhal sonra İsa camaatı
evlərinə göndərərkən şagirdlərini də
məcbur etdi ki, qayığa minib Özündən
əvvəl o biri sahilə keçsinlər. 23 İsa
camaatı göndərəndən sonra dua etmək
üçün tək-tənha dağa çıxdı. Axşam
olanda orada tək idi. 24 Qayıq isə artıq
qurudan çox stadi uzaqda* idi və külək
onlara qarşı olduğundan dalğalar qayığa
zərbələr endirirdi. 25 Gecənin dördüncü

---

*__14:24__ *Qurudan çox stadi uzaqda* – bir stadi 200 metrə yaxındır; bəzi əlyazmalarda *gölün ortasında* (Mark 6:47).

[d]**14:1** Mat. 16:13-14; Mark 6:14-15; Luka 9:7-8 [e]**14:3** Luka 3:19-20
[f]**14:4** Lev. 18:16; 20:21

növbəsi* İsa gölün üstü ilə yeriyərək
onların yanına gəldi. 26 Şagirdlər isə
İsanın gölün üstü ilə yeridiyini görəndə
«Bu bir kabusdur!» deyərək lərzəyə
düşdülər və qorxudan qışqırdılar.
27 Lakin bu anda İsa onlara müraciət
edib dedi: «Cəsarətli olun, Mənəm,
qorxmayın!» 28 Peter cavabında Ona
dedi: «Ya Rəbb, əgər Sənsənsə, mənə
əmr et ki, suların üstü ilə yanına gəlim».
29 İsa «Gəl!» dedi. Peter də qayıqdan
çıxıb suların üstü ilə yeridi və İsaya
tərəf getdi. 30 Amma küləyin güclü
əsdiyini görəndə qorxdu və batmağa
başladı. «Ya Rəbb, məni xilas et!» deyə
qışqırdı. 31 İsa o anda əlini uzadıb onu
tutdu və dedi: «Ey imanı az olan adam,
nə üçün şübhə etdin?» 32 Onlar qayığa
mindikləri zaman külək sakitləşdi.
33 Qayıqda olanlar «Doğrudan da, Sən
Allahın Oğlusan!» deyə Ona səcdə
qıldılar.

İsa Ginesarda xəstələrə şəfa verir

(Mark 6:53-56)

34 İsa və şagirdlər gölü keçib Ginesar
sahilinə çatdılar. 35 O yerin adamları
İsanı tanıdıqları zaman ətrafdakı hər
yerə xəbər yaydılar. Bütün xəstələri
Onun yanına gətirdilər. 36 Xəstələr
heç olmasa İsanın paltarının ətəyinə
toxunmaq üçün yalvarırdılar. Ona
toxunanların hamısı sağaldı.

İnsanı murdar edən nədir?

(Mark 7:1-23)

15 Onda Yerusəlimdən fariseylər
və ilahiyyatçılar İsanın yanına
gəlib dedilər: 2 «Nə üçün şagirdlərin
ağsaqqallardan qalan adət-ənənəni
pozur və çörək yedikləri zaman əllərini
yumurlar?» 3 İsa cavabında onlara dedi:
«Bəs siz nə üçün öz adət-ənənəniz
naminə Allahın əmrini pozursunuz?
4 [g]Çünki Allah belə əmr etdi: "Ata-anana
hörmət et" və "Atasını yaxud anasını
söyən adam öldürülməlidir". 5 Sizsə
deyirsiniz: "Kim atasına yaxud anasına
‹məndən umduğun yardım Allaha
həsr olundu› desə, 6 onda atasına†
hörmət etməyə bilər". Beləliklə, siz öz
adət-ənənəniz naminə Allahın kəlamını
heç edirsiniz. 7 [h]Ey ikiüzlülər! Yeşaya
peyğəmbər sizin üçün nə yaxşı söyləyib!
O demişdir:

8 "Bu xalq dodaqları ilə Mənə hörmət
edir,
Amma qəlbləri Məndən uzaqdır.
9 Boş yerə Mənə səcdə edirlər,
İnsan əmrlərindən çıxardıqları
təlimləri öyrədirlər"».

10 İsa camaatı yanına çağırıb onlara
dedi: «Qulaq asın və dərk edin. 11 Ağıza
daxil olan şey insanı murdar etməz,
amma insanı murdar edən ağızdan çıxan
şeydir». 12 O zaman şagirdlər gəlib Ona
dedilər: «Bilirsənmi fariseylər bu sözü
eşitdikdə incidilər».‡ 13 Amma İsa cavab
verib dedi: «Səmavi Atamın əkmədiyi
hər bitki kökündən qoparılacaq.
14 [i]Onları buraxın. Onlar korların kor
rəhbərləridir. Əgər kor koru aparsa,
ikisi də çuxura düşər».

15 Peter Ona cavab verərək dedi:
«Bu məsəli bizə izah et». 16 İsa dedi:
«Siz də hələ dərk etməmisiniz? 17 Başa
düşmürsünüz ki, ağıza girən hər şey
qarına gedir və ifraz olunur? 18 [j]Ağızdan
çıxan şeylərsə ürəkdən çıxar, bunlar da
insanı murdar edər. 19 Çünki ürəkdən

*14:25 *Gecənin dördüncü növbəsi* – hazırkı vaxtla səhər saat üç ilə altı arası.
†15:6 *Atasına* – bəzi əlyazmalarda *ata-anasına.*
‡15:12 *İncidilər* – hərfi tərcümədə *büdrədilər.*

[g]**15:4** Çıx. 20:12; 21:17; Lev. 20:9; Qanun. 5:16 [h]**15:7** Yeş. 29:13
[i]**15:14** Luka 6:39 [j]**15:18** Mat. 12:34

pis fikirlər, qatillik, zinakarlıq, cinsi
əxlaqsızlıq, oğurluq, yalançı şahidlik və
küfr çıxar. 20 İnsanı murdar edən şeylər
bunlardır. Yuyulmamış əllərlə yemək
isə insanı murdar etməz».

Kənanlı qadının imanı

(Mark 7:24-30)

21 İsa oradan çıxıb Sur və Sidon
bölgələrinə çəkildi. 22 Budur, Kənanlı
bir qadın o diyardan çıxıb «ya Rəbb,
ey Davud Oğlu, mənə rəhm elə. Qızım
ağır bir halda cinə tutulub» deyə
çığırırdı. 23 İsa cavabında ona bir söz
belə, demədi. Şagirdləri yaxınlaşıb
«onu burax, çünki arxamızca çığırır»
deyərək İsaya yalvardılar. 24 Amma İsa
cavab verib dedi: «Mən yalnız İsrail
xalqının itmiş qoyunlarının yanına
göndərilmişəm». 25 Qadınsa yaxınlaşdı
və Ona səcdə qılıb dedi: «Ya Rəbb,
mənə imdad et». 26 İsa cavab verib
dedi: «Uşaqların çörəyini götürüb
itlərə atmaq düzgün olmaz». 27 Qadın
dedi: «Haqlısan, ya Rəbb! Amma itlər
də sahiblərinin süfrəsindən düşən
qırıntılardan yeyir». 28 O zaman İsa
cavab verib qadına dedi: «Ey qadın!
İmanın böyükdür; sənə istədiyin kimi
olsun». Onun qızı o saatda sağaldı.

İsa dörd min nəfəri doydurur

(Mark 8:1-10)

29 İsa oradan çıxıb Qalileya gölünün
sahilindən keçdi və dağın başına çıxıb
orada oturdu. 30 Onun yanına böyük
bir izdiham gəldi və özləri ilə birlikdə
topallar, korlar, şikəstlər, lallar və daha
başqa bir çoxunu gətirdilər. Onları
İsanın ayaqları yanına qoydular və İsa
onlara şəfa verdi. 31 Xalq görəndə ki
lallar danışır, şikəstlər sağalır, topallar
yeriyir və korlar görür, heyrətləndi və
İsrailin Allahını izzətləndirdi.
32 İsa şagirdlərini yanına çağırıb dedi:
«Bu camaata yazığım gəlir, çünki üç
gündür ki, yanımdadırlar və yeməyə
heç nələri yoxdur. Onları evlərinə
ac yola salmaq istəmirəm ki, yolda
taqətdən düşməsinlər». 33 Şagirdlər Ona
dedilər: «Bu çöllükdə bu qədər camaatı
doydurmaq üçün çörəyi haradan
tapaq?» 34 İsa onlardan soruşdu: «Neçə
çörəyiniz var?» Onlar dedilər: «Yeddi və
bir az da kiçik balığımız var». 35 Onda
İsa camaata əmr etdi ki, yerə otursunlar.
36 Yeddi çörəklə balıqları götürdü
və şükür edərək bölüb şagirdlərə,
şagirdlər də camaata verdi. 37 Hamı
yeyib-doydu. Artıq qalan hissələri
yığdılar, yeddi səbət doldu. 38 Yemək
yeyən adamların sayı isə qadınlar və
uşaqlardan başqa, dörd min nəfər idi.
39 İsa camaatı buraxıb qayığa minərək
Məcdəl bölgəsinə getdi.

Fariseylərin və sadukeylərin mayası

(Mat. 12:38-39; Mark 8:11-21; Luka 12:54-56)

16 [k]Fariseylər və sadukeylər
yaxınlaşıb İsanı sınamaq üçün
xahiş etdilər ki, onlara göydən gələn
bir əlamət göstərsin. 2 Amma İsa onlara
cavab verdi: «Axşam olanda siz: “Hava
yaxşı olacaq, çünki göy qırmızıdır”,
3 səhər çağı “bu gün fırtına qopacaq,
çünki göy qırmızıdır, tutqundur”
deyirsiniz. Göyün* görünüşünü seçə
bilirsiniz, ancaq zamanın əlamətlərini
seçə bilmirsiniz? 4 [l]Pis və vəfasız nəsil
bir əlamət axtarır. Amma ona Yunusun
əlamətindən başqa heç bir əlamət
verilməyəcək». İsa onları tərk edib
getdi.

---

*__16:3__ *Göyün* – bəzi əlyazmalarda *Ey ikiüzlülər, göyün.*

[k]__16:1__ Luka 11:16 [l]__16:4__ Luka 11:29

5 Şagirdlər o taya keçəndə çörək
götürməyi yaddan çıxarmışdılar. 6 [m]İsa
onlara dedi: «Ehtiyatlı olun! Fariseylərin
və sadukeylərin mayasından özünüzü
gözləyin». 7 Şagirdlər isə öz aralarında
danışıb deyirdilər: «Bunu çörək
götürmədiyimiz üçün deyir». 8 İsa
bunu bilərək dedi: «Ey imanı
az olanlar! Nə üçün çörəyinizin
yoxluğundan danışırsınız? 9 [n]Hələ dərk
etmirsinizmi? Beş min nəfər üçün
beş çörəyi və neçə zənbil yığdığınızı
xatırlamırsınızmı? 10 Dörd min nəfər
üçün yeddi çörəyi və neçə səbət
yığdığınızı da xatırlamırsınızmı?
11 Necə anlaya bilmirsiniz ki, Mən
sizinlə danışanda çörəyi nəzərdə
tutmamışdım? Fariseylərin və
sadukeylərin mayasından özünüzü
gözləyin». 12 O zaman onlar anladılar ki,
İsa çörək mayasından yox, fariseylərin
və sadukeylərin təlimindən qorunmağı
nəzərdə tutmuşdu.

Peterin Məsihi tanıması

(Mark 8:27-30; Luka 9:18-21)

13 İsa Filip Qeysəriyyəsi bölgəsinə
gəldiyi zaman Öz şagirdlərindən
soruşdu: «Adamların dediyinə görə
Bəşər Oğlu kimdir?» 14 [o]Onlar da
dedilər: «Bəziləri Vəftizçi Yəhya,
başqaları İlyas, digərləri isə deyirlər
ki, Yeremya yaxud peyğəmbərlərdən
biridir». 15 İsa onlara dedi: «Bəs siz
nə deyirsiniz? Sizcə Mən kiməm?»
16 [p]Şimon Peter cavab verdi: «Sən
var olan Allahın Oğlu Məsihsən».
17 İsa ona cavab verib dedi: «Nə
bəxtiyarsan, ey Yunus oğlu Şimon!
Çünki bunu sənə bildirən ət və qan*
deyil, göylərdə olan Atamdır. 18 Mən
sənə deyirəm ki, sən Petersən† və Mən
cəmiyyətimi bu Qayanın‡ üzərində
quracağam. Ölülər diyarının qapıları
ona qalib gələ bilməyəcək. 19 [q]Səmavi
Padşahlığın açarlarını sənə verəcəyəm.
Yer üzündə bağlayacağın hər şey
göylərdə bağlanmış olacaq və yer
üzündə açacağın hər şey göylərdə
açılmış olacaq». 20 Bu sözlərdən sonra
İsa şagirdlərə qadağan etdi ki, Onun
Məsih olduğunu heç kəsə danışmasınlar.

İsa ölüb-diriləcəyi barədə əvvəlcədən xəbər verir

(Mark 8:31–9:1; Luka 9:22-27)

21 [r]Bundan sonra İsa şagirdlərinə
danışmağa başladı ki, Özü Yerusəlimə
getməli, ağsaqqallar, başçı kahinlər
və ilahiyyatçılar tərəfindən çox əzab
çəkməli, öldürülməli və üçüncü gün
dirilməlidir. 22 Peter Onu bir kənara
çəkib etiraz etməyə başladı: «Ya Rəbb,
Özünə yazığın gəlsin! Bu əsla Sənin
başına gəlməyəcək!» 23 Amma İsa dönüb
Peterə dedi: «Çəkil qarşımdan, Şeytan!
Sən Mənə mane olursan. Sən Allahın
işləri haqqında deyil, insan əməlləri
barəsində fikirləşirsən».
24 [s]Sonra İsa şagirdlərinə dedi: «Əgər
bir kəs Mənim ardımca gəlmək istəyirsə,
özündən imtina etsin və çarmıxını
götürüb ardımca gəlsin. 25 [t]Kim canını
xilas etmək istəyirsə, onu itirəcək,

---

*16:17 *Ət və qan* – yəni insan.
†16:18 *Peter* – yunan mətnində *Petros* sözü olub *daş* deməkdir.
‡16:18 *Qaya* – Xilaskar Rəbbin bir rəmzi. Bax: Qanun. 32:4; 2Şam. 22:47; Zəb. 89:26; Yeş. 26:4; 1Kor. 10:4.

[m]**16:6** Luka 12:1 [n]**16:9** Mat. 14:17-21; 15:34-38
[o]**16:14** Mat. 14:1-2; Mark 6:14-15; Luka 9:7-8 [p]**16:16** Yəh. 6:68-69
[q]**16:19** Mat. 18:18; Yəh. 20:23 [r]**16:21** Mat. 17:22-23; 20:19; 27:62-63
[s]**16:24** Mat. 10:38; Luka 14:27 [t]**16:25** Mat. 10:39; Luka 17:33; Yəh. 12:25

amma kim Mənə görə canını itirirsə,
onu qoruyacaq. 26 İnsan bütün dünyanı
qazanıb canını itirərsə, ona nə xeyri
var? Yaxud insan öz canının əvəzinə
nə verə bilər? 27 [u]Çünki Bəşər Oğlu
Atasının izzəti içində Öz mələkləri ilə
gələcək və o zaman hər kəsə öz əməlinə
görə əvəzini verəcək. 28 Sizə doğrusunu
deyirəm: burada duranlardan bəzisi
Bəşər Oğlunun Padşahlığı ilə gəldiyini
görmədən ölməyəcək».

İsanın görünüşü dəyişir

(Mark 9:2-13; Luka 9:28-36)

17 [v]Altı gündən sonra İsa Özü ilə
yalnız Peter, Yaqub və qardaşı
Yəhyanı götürüb hündür bir dağa çıxdı.
2 Onların qarşısında görünüşü dəyişdi.
Üzü günəş kimi parladı və libası işıq
kimi ağ oldu. 3 O an Musa və İlyas
onlara göründü. Onlar İsa ilə söhbət
edirdi. 4 Peter sözə başlayıb İsaya dedi:
«Ya Rəbb! Nə yaxşı ki biz buradayıq.
Əgər istəyirsənsə, burada üç çardaq
qurum – biri Sənin, biri Musa, biri
də İlyas üçün». 5 [w]Peter hələ danışan
zaman parlaq bir bulud onların üzərinə
kölgə saldı. Budur, buluddan bir səs
gəldi: «Bu Mənim sevimli Oğlumdur,
Ondan razıyam, Ona qulaq asın!»
6 Şagirdlər bunu eşidəndə üzüstə yerə
qapandılar və onları böyük dəhşət
bürüdü. 7 İsa gəlib onlara toxunaraq
«Qalxın, qorxmayın!» dedi. 8 Onlar
da başlarını qaldıranda İsadan başqa
kimsəni görmədilər.
9 Dağdan enərkən İsa şagirdlərinə
əmr etdi: «Bəşər Oğlu ölülər arasından
dirilənə qədər gördüyünüzü heç kimə
söyləməyin». 10 [x]Şagirdlər Ondan
soruşdular: «Elə isə, niyə ilahiyyatçılar
deyirlər ki, əvvəlcə İlyas gəlməlidir?»
11 İsa onlara cavab verdi: «Düzdür,
İlyas gəlib hər şeyi yoluna qoymalıdır.
12 [y]Lakin sizə deyirəm: artıq İlyas gəldi
və onu tanımadılar, lakin nə istədilərsə,
onun başına gətirdilər. Eyni cür Bəşər
Oğlu da onların əlindən əzab çəkəcək».
13 Şagirdlər o zaman başa düşdülər ki,
İsa onlara bu sözləri Vəftizçi Yəhya
haqqında söyləyirdi.

Oğlandan cin çıxarılır

(Mark 9:14-29; Luka 9:37-43)

14 Onlar xalqın yanına gələndə
bir adam gəlib İsanın qarşısında diz
çökərək dedi: 15 «Ya Rəbb! Oğluma
rəhm elə, çünki o, epileptikdir və çox
əzab çəkir. Tez-tez gah oda, gah da
suya düşür. 16 Onu Sənin şagirdlərinin
yanına gətirdim, lakin ona şəfa verə
bilmədilər». 17 İsa cavab verərək dedi:
«Ey imansız və yolunu azmış nəsil! Nə
vaxta qədər sizinlə olacağam? Nə vaxta
qədər sizə dözəcəyəm? Uşağı buraya,
yanıma gətirin». 18 İsa cinə qadağan etdi
və cin uşaqdan çıxdı. Oğlan o saatda
şəfa tapdı.
19 O zaman şagirdlər İsaya təklikdə
yaxınlaşıb dedilər: «Nə üçün biz o ruhu
qova bilmədik?» 20 [z]İsa da onlara dedi:
«İmanınız az olduğu üçün. Çünki sizə
doğrusunu deyirəm: bir xardal toxumu
qədər imanınız olarsa və siz bu dağa
“buradan oraya köç” desəniz, o köçər
və sizin üçün mümkün olmayan heç bir
şey olmaz». 21 *

---

*17:21 *Olmaz* – bəzi əlyazmalarda *olmaz.*
21 *Bu cür ruhlar yalnız dua və orucla çıxar* (Mark 9:29).

[u]**16:27** Zəb. 62:12; Mat. 25:31; Rom. 2:6; Vəhy 2:23
[v]**17:1** 2Pet. 1:17-18 [w]**17:5** Qanun. 18:15; Zəb. 2:7; Yeş. 42:1; Mat. 3:17; 12:18; Mark 1:11; Luka 3:21-22 [x]**17:10** Mal. 4:5 [y]**17:12** Mat. 11:14
[z]**17:20** Mat. 21:21; Mark 11:23; Luka 17:5-6; 1Kor. 13:2

İsa ölüb-diriləcəyi barədə yenə xəbər verir

(Mark 9:30-32; Luka 9:43-45)

22 Qalileyada yığılarkən İsa şagirdlərə
dedi: «Bəşər Oğlu insan əllərinə təslim
ediləcək 23 və Onu öldürəcəklər, amma
O, üçüncü gün diriləcək». Onlar çox
kədərləndilər.

Məbəd vergisi

24 [a]Kefernahuma gəldikləri zaman
məbəd vergisini* yığanlar Peterə
yaxınlaşıb dedilər: «Sizin Müəlliminiz
vergi ödəmirmi?» 25 Peter «ödəyir» dedi.
Evə gələndə İsa onu qabaqlayaraq dedi:
«Şimon! Sən necə düşünürsən? Yerin
hökmdarları gömrük və yaxud vergini
kimdən alırlar? Öz övladlarındanmı,
yoxsa kənar adamlardan?» 26 Peter Ona
«kənar adamlardan» söylədikdə İsa ona
dedi: «Belə isə, övladlar sərbəstdir.
27 Lakin bu adamları incitməyək deyə
gölə get, tilov at və tilova düşən ilk
balığı götür. Onun ağzını açanda bir
gümüş pul† tapacaqsan. Onu götür, həm
Mənim, həm də öz əvəzinə ver».

Ən böyük kimdir?

(Mark 9:33-37,42-48;
Luka 9:46-48; 17:1-2)

18 [b]Həmin vaxt şagirdlər İsanın
yanına gəlib dedilər: «Səmavi
Padşahlıqda ən böyük kimdir?» 2 [c]İsa
yanına bir balaca uşaq çağırıb onu
şagirdlərin arasına qoydu. 3 O dedi:
«Sizə doğrusunu deyirəm: əgər siz
yolunuzdan dönüb uşaqlar kimi
olmasanız, Səmavi Padşahlığa əsla daxil
ola bilməzsiniz. 4 Beləliklə, kim bu
uşaq kimi özünü aşağı tutarsa, Səmavi
Padşahlıqda ən böyük odur. 5 Kim
Mənim adımla belə bir uşağı qəbul
edərsə, Məni qəbul edər.
6 Amma kim Mənə iman edən bu
kiçiklərdən birini pis yola çəkərsə,‡
öz boynuna böyük bir dəyirman daşı
asıb dənizin dibinə atılaraq boğulmaq
onun üçün daha yaxşı olar. 7 İnsanları
pis yola çəkən şeylər üçün vay bu
dünyanın halına! Belə şeylərin gəlməsi
qarşısıalınmazdır, amma vay o adamın
halına ki, bunlar onun vasitəsilə gəlir!
8 [d]Əgər əlin və ya ayağın səni pis yola
çəkərsə, onu kəs at. Sənin əbədi həyata
şikəst və ya topal daxil olmağın iki əl
və iki ayaqla əbədi oda atılmağından
yaxşıdır. 9 [e]Əgər gözün səni pis yola
çəkərsə, onu çıxarıb at. Sənin tək gözlə
əbədi həyata daxil olmağın iki gözlə
cəhənnəm oduna atılmağından yaxşıdır.

İtmiş qoyun məsəli

(Luka 15:3-7)

10 Bu kiçiklərdən birinə belə, xor
baxmaqdan çəkinin. Çünki sizə deyirəm:
onların səmadakı mələkləri göylərdə
olan Atamın üzünü daima görür. 11 §
12 Siz necə deyirsiniz? Bir adamın
yüz qoyunu varsa və onlardan biri
yolunu azarsa, doxsan doqquzunu
dağlarda qoyub yolunu azan qoyunu
axtarmağa getməzmi? 13 Sizə doğrusunu
deyirəm: əgər onu tapa bilərsə, yolunu
azmayan doxsan doqquz qoyun üçün
sevindiyindən artıq onun üçün sevinər.

---

*__17:24__ *Məbəd vergisi* – yunan mətnində *didraxmon*, yəni iki dirhəm.
†__17:27__ *Bir gümüş pul* – yunan mətnində *statir*, yəni dörd dirhəm.
‡__18:6__ *Pis yola çəkmək* – hərfi tərcümədə *büdrətmək.*
§__18:11__ *Görür* – bəzi əlyazmalarda *görür.*
11 *Çünki Bəşər Oğlu itmişləri xilas etməyə gəlmişdir* (Luka 19:10).

[a]**17:24** Çıx. 30:13; 38:26 [b]**18:1** Luka 22:24 [c]**18:2** Mark 10:15; Luka 18:17
[d]**18:8** Mat. 5:30 [e]**18:9** Mat. 5:29

14 Beləcə bu kiçiklərdən birinin belə,
həlak olması göylərdə olan Atanızın
iradəsi deyil.

Qardaş günah işlədəndə

15 [f]Əgər qardaşın sənə qarşı günah
işlədərsə, get, onun günahını ona göstər.
Qoy hər şey yalnız ikinizin arasında
qalsın. O sənə qulaq asarsa, qardaşını
qazandın. 16 [g]Amma qulaq asmazsa,
özünlə bir və ya iki nəfər götür ki,
"hər iddia iki yaxud üç şahidin sözü ilə
təsdiq edilsin". 17 Əgər o bu adamların
da sözünə qulaq asmaq istəməsə,
vəziyyəti imanlılar cəmiyyətinə bildir.
Əgər cəmiyyətin də sözünə qulaq
asmaq istəməsə, onu bir bütpərəst və
vergiyığan hesab et.
18 [h]Sizə doğrusunu deyirəm: yer
üzündə bağlayacağınız hər şey göydə
bağlanmış olacaq və yer üzündə
açacağınız hər şey göydə açılmış olacaq.
19 Yenə sizə doğrusunu deyirəm: yer
üzündə sizlərdən iki nəfər diləyəcəkləri
hər hansı bir şey üçün razılığa gələrsə,
göylərdə olan Atam onların istəklərini
yerinə yetirəcək. 20 Çünki harada iki və
ya üç nəfər Mənim adımla yığılarsa,
Mən də orada, onların arasındayam».

İnsafsız qul məsəli

21 [i]O zaman Peter gəlib İsaya dedi:
«Ya Rəbb! Qardaşım mənə qarşı
günah işlədərsə, neçə dəfə mən onu
bağışlamalıyam? Yeddi dəfəmi?» 22 İsa
ona dedi: «Sənə deyirəm: yeddi dəfə
yox, yetmiş dəfə yeddi.
23 Ona görə də Səmavi Padşahlıq
öz qulları ilə hesablaşmaq istəyən bir
padşaha bənzəyir. 24 Hesablaşmağa
başladığı zaman onun yanına on min
talant* borcu olan biri gətirildi. 25 Amma
onun ödəməyə bir şeyi olmadığı üçün
ağası əmr etdi ki, özü, arvadı, uşaqları
və bütün malı satılaraq borcunu ödəsin.
26 Elə bu vaxt qul yerə qapanıb ona
səcdə edərək dedi: "Səbir et! Mən
hamısını ödəyəcəyəm". 27 Ağasının
o qula rəhmi gəldi, onu buraxdı və
borcunu bağışladı.
28 Amma o qul kənara çıxıb ona
yüz dinar borclu olan bir yoldaşını
tapdı. Onu yaxaladı və "Borcunu ödə!"
deyərək boğmağa başladı. 29 Yoldaşı
yerə qapanıb ona "səbir et, borcunu
ödəyəcəyəm" deyə yalvardı. 30 O isə
istəmədi. Gedib borcunu ödəyənə qədər
onu zindana saldırdı. 31 Ağanın digər
qulları baş verən hadisəni görəndə çox
kədərləndilər və gedib bütün olanı
ağalarına nəql etdilər.
32 Onda ağa o qulu yanına çağırıb
dedi: "Ey pis qul, bütün o borcu sənə
bağışladım, çünki mənə yalvardın.
33 Mən sənə mərhəmət etdiyim kimi
sən də yoldaşına mərhəmət etməli
deyildinmi?" 34 Ağası qəzəblənib bütün
borcunu ödəyənə qədər onu işgəncə
verənlərə təslim etdi. 35 Hər biriniz
qardaşlarınızı ürəkdən bağışlamasanız,
Səmavi Atam da sizə elə edər».

Boşanma haqqında

(Mark 10:1-12)

19 İsa söhbətini bitirdikdən sonra
Qalileyadan çıxıb Yəhudeyanın
İordan çayının o biri tayında yerləşən
bölgəsinə getdi. 2 Böyük bir izdiham
Onun ardınca gəldi. İsa orada onlara
şəfa verdi.
3 Bəzi fariseylər İsanın yanına gəlib
Onu sınamaq üçün belə bir sual verdilər:
«İnsanın öz arvadını hər səbəbə görə
boşamağa icazəsi varmı?» 4 [j]İsa cavab

*__18:24__ *Talant* – ən böyük ölçü, 34,5 kiloqram qızıl və yaxud gümüş.

[f]**18:15** Luka 17:3 [g]**18:16** Qanun. 19:15 [h]**18:18** Mat. 16:19; Yəh. 20:23
[i]**18:21** Luka 17:3-4 [j]**19:4** Yar. 1:27; 5:2

verib dedi: «Oxumamısınız ki, Yaradan
başlanğıcdan “onları kişi və qadın
olaraq yaratdı” və dedi: 5 [k]“Buna görə
də kişi ata-anasını tərk edib arvadına
qovuşacaq və ikisi bir bədən olacaq”?
6 Artıq onlar iki deyil, bir bədəndir.
Buna görə də qoy Allahın birləşdirdiyini
insan ayırmasın». 7 [l]Fariseylər İsaya
belə dedilər: «Onda Musa nə üçün
bir talaq kağızı verərək arvadını
boşamağı əmr etdi?» 8 İsa onlara dedi:
«Ürəyinizin inadkar olduğuna görə
Musa arvadlarınızı boşamağınıza
icazə verdi. Amma başlanğıcdan belə
deyildi. 9 [m]Mənsə sizə deyirəm ki, cinsi
əxlaqsızlıqdan başqa, hər hansı bir
səbəbə görə arvadını boşayıb başqası ilə
evlənən kəs zina edir».*
10 Şagirdləri İsaya dedilər: «Əgər ərlə
arvad arasındakı münasibət belə isə,
deməli, evlənməmək daha yaxşıdır».
11 Amma İsa onlara dedi: «Hər adam
bu sözü qəbul edə bilməz, ancaq bu
qabiliyyətin verildiyi adamlar qəbul
edə bilər. 12 Çünki elələri var ki,
anadangəlmə xədimdir, elələri var ki,
insanlar tərəfindən xədim ediliblər,
elələri də var ki, Səmavi Padşahlıq
uğrunda özlərini xədim sayırlar. Bunu
qəbul edə bilən qəbul etsin».

İsa uşaqlara xeyir-dua verir

(Mark 10:13-16; Luka 18:15-17)

13 O zaman uşaqlar İsanın yanına
gətirildi ki, İsa onların üzərinə əllərini
qoyub dua etsin. Şagirdlər isə onlara
qadağan etdilər. 14 Amma İsa dedi:
«Uşaqları buraxın, qoy Mənim yanıma
gəlsinlər! Onlara mane olmayın!
Çünki Səmavi Padşahlıq belələrinə
məxsusdur». 15 İsa onların üzərinə
əllərini qoyub oradan getdi.

Var-dövlət və Səmavi Padşahlıq

(Mark 10:17-31; Luka 18:18-30)

16 Bir adam İsanın yanına gəlib dedi:
«Müəllim,† mən nə yaxşılıq etməliyəm
ki, əbədi həyata malik olum?» 17 İsa
ona dedi: «Nə üçün Məndən yaxşılıq
barəsində soruşursan? Yaxşı olan tək
Biri vardır.‡ Əgər sən əbədi həyata
qovuşmaq istəyirsənsə, Onun əmrlərinə
riayət et». 18 [n]O adam İsadan «Hansı
əmrlərə?» deyə soruşdu. İsa da dedi:
«“Qətl etmə. Zina etmə. Oğurluq etmə.
Yalandan şahidlik etmə. 19 Ata-anana
hörmət et”. Həmçinin “qonşunu özün
kimi sev”».
20 Cavan adam İsaya dedi: «Bunların
hamısına riayət etmişəm,§ daha nəyim
çatışmır?» 21 İsa ona dedi: «Əgər kamil
olmaq istəyirsənsə, get, əmlakını sat
və yoxsullara payla. Onda göylərdə
xəzinən olacaq. Sonra qayıt, Mənim
ardımca gəl». 22 Lakin cavan adam bu
sözü eşitdikdə kədərlənib getdi, çünki
var-dövləti çox idi.
23 İsa şagirdlərinə dedi: «Sizə
doğrusunu deyirəm: varlı adamın
Səmavi Padşahlığa daxil olması

---

*19:9 *Zina edir* – bəzi əlyazmalarda *zina edir. Ərindən boşanmış qadınla evlənən də zina edir* (Luka 16:18).

†19:16 *Müəllim* – bəzi əlyazmalarda *Ey yaxşı Müəllim.*

‡19:17 *Nə üçün Məndən yaxşılıq barəsində soruşursan? Yaxşı olan tək Biri vardır* – bəzi əlyazmalarda *Mənə niyə yaxşı deyirsən? Tək Allahdan başqa yaxşısı yoxdur* (Mark 10:18; Luka 18:19).

§19:20 *Riayət etmişəm* – bəzi əlyazmalarda *Gəncliyimdən bəri riayət edirəm* (Mark 10:20; Luka 18:21).

[k]**19:5** Yar. 2:24 [l]**19:7** Qanun. 24:1-4; Mat. 5:31 [m]**19:9** Mat. 5:32; Luka 16:18; 1Kor. 7:10-11 [n]**19:18** Çıx. 20:12-16; Qanun. 5:16-20; Lev. 19:18

çətindir. 24 Yenə sizə deyirəm ki,
dəvənin iynə gözündən keçməsi varlı
adamın Allahın Padşahlığına daxil
olmasından asandır». 25 Bunu eşidən
şagirdlər çox təəccüblənərək dedilər:
«Elə isə, kim xilas ola bilər?» 26 İsa
onlara baxıb dedi: «Bu, insanlar üçün
qeyri-mümkündür, amma Allah üçün
hər şey mümkündür».
27 Bundan sonra Peter cavab verərək
Ona dedi: «Bax biz hər şeyi qoyub
Sənin ardınca gəlmişik, əvəzində
nəyimiz olacaq?» 28 [o]İsa onlara dedi:
«Sizə doğrusunu deyirəm: hər şey
yeniləşəndə, Bəşər Oğlu izzətli taxtına
oturanda Mənim ardımca gələn sizlər
də İsrailin on iki qəbiləsinə hökm etmək
üçün on iki taxt üzərində oturacaqsınız.
29 Mənim adım uğrunda ya evlərini ya
qardaşlarını ya bacılarını ya atasını
ya anasını* ya uşaqlarını və yaxud
tarlalarını atan hər kəs bundan yüz dəfə
artıq alacaq və əbədi həyatı da irs olaraq
alacaq. 30 [p]Amma birinci olanların çoxu
axırıncı, axırıncı olanlarsa birinci
olacaq.

Üzüm bağının sahibi barədə məsəl

20 Səmavi Padşahlıq səhər erkən
durub öz üzüm bağı üçün işçi
tutmağa çıxan ev sahibinə bənzəyir.
2 O, işçilərlə günü bir dinara razılaşıb
onları üzüm bağına göndərdi. 3 Üçüncü
saat† radələrində çıxıb meydanda işsiz
durmuş adamları gördü. 4 Onlara da
dedi: “Siz də üzüm bağına gedin və
haqqınızı düz verərəm”. 5 Onlar da
bağa getdilər. Altıncı‡ və doqquzuncu
saat§ radələrində yenə çıxıb belə etdi.
6 On birinci saat** radələrində çıxdı və
orada duran başqalarını tapıb onlara
dedi: “Nə üçün bütün günü burada işsiz
durursunuz?” 7 “Çünki heç kim bizə iş
vermədi” dedilər. Onlara “siz də üzüm
bağına gedin”†† dedi.
8 [q]Axşam olanda bağ sahibi öz
nəzarətçisinə dedi: “İşçiləri çağır və
axırıncılardan başlayaraq birincilərə
kimi muzdlarını ver”. 9 On birinci saat
radələrində işə gələnlər adambaşına
bir dinar aldılar. 10 Birinci gələnlərsə
daha çox alacaqlarını düşündülər,
lakin onlar da adambaşına bir dinar
aldılar. 11 Pullarını aldıqları zaman
ev sahibinə şikayət edərək dedilər:
12 “Bu ən axırıncılar cəmi bir saat
işlədilər və sən onları günün ağırlığını
və qızmar istisini çəkən bizlərlə bir
tutdun”. 13 O isə onlardan birinə cavab
verib dedi: “Dostum, axı mən sənə
haqsızlıq etmədim, sən mənimlə bir
dinara razılaşmadınmı? 14 Haqqını
al, get! Axırıncıya da sənə verdiyim
qədər vermək istəyirəm. 15 Öz pulumla
istədiyimi etməyə ixtiyarım yoxdurmu?
Sən mənim comərdliyimə qısqanırsan?”
16 [r]Beləcə də axırıncılar birinci,
birincilər isə axırıncı olacaq».‡‡

---

*19:29 *Ya anasını* – bəzi əlyazmalarda *ya anasını ya arvadını.*
†20:3 *Üçüncü saat* – hazırkı vaxtla səhər saat doqquz.
‡20:5 *Altıncı saat* – hazırkı vaxtla günorta saat on iki.
§20:5 *Doqquzuncu saat* – hazırkı vaxtla günortadan sonra saat üç.
**20:6 *On birinci saat* – hazırkı vaxtla günortadan sonra saat beş.
††20:7 *Gedin* – bəzi əlyazmalarda *gedin və haqqınızı alarsınız.*
‡‡20:16 *Olacaq* – bəzi əlyazmalarda *olacaq; çünki dəvət edilmiş çox, seçilmiş isə azdır* (Mat. 22:14).

[o]**19:28** Mat. 25:31; Luka 22:30 [p]**19:30** Mat. 20:16; Luka 13:30
[q]**20:8** Lev. 19:13; Qanun. 24:15 [r]**20:16** Mat. 19:30; Mark 10:31; Luka 13:30

İsa ölüb-diriləcəyi barədə üçüncü dəfə xəbər verir

(Mark 10:32-34; Luka 18:31-34)

17 İsa Yerusəlimə gedərkən yolda On İki şagirdi kənara çağırıb ayrıca onlara dedi: 18 «Bax Yerusəlimə qalxırıq, Bəşər Oğlu başçı kahinlərə və ilahiyyatçılara təslim olunacaq. Onu ölümə məhkum edəcəklər; 19 ələ salaraq qamçılayıb çarmıxa çəksinlər deyə başqa millətlərə təslim edəcəklər. O, üçüncü gün diriləcək».

Kim üstündür

(Mark 10:35-45)

20 O zaman Zavday oğullarının anası oğulları ilə birlikdə İsaya yaxınlaşıb səcdə qılaraq Ondan nə isə dilədi. 21 İsa qadından «Sən nə istəyirsən?» deyə soruşdu. Qadın Ona dedi: «Əmr et ki, mənim bu iki oğlum Sənin Padşahlığında biri sağında, biri solunda otursun». 22 Amma İsa cavab verib dedi: «Nə dilədiyinizi özünüz də bilmirsiniz. Mənim içəcəyim kasadan siz də içə bilərsinizmi?»* Onlar dedilər: «Bilərik». 23 İsa onlara dedi: «Mənim içəcəyim kasadan içəcəksiniz.† Amma sağımda və yaxud solumda oturmağa izin vermək Məndən asılı deyil. Atam oranı kimlər üçün hazırlayıbsa, onlara veriləcək».

24 Bunu eşidən on şagirdin iki qardaşa acığı tutdu. 25 [s]İsa şagirdləri yanına çağırıb dedi: «Bilirsiniz ki, millətlərin rəhbərləri onların üzərində hökmranlıq, əyanları da onlara ağalıq edir. 26 Sizin aranızda isə qoy belə olmasın. Sizlərdən böyük olmaq istəyən xidmətçiniz olsun. 27 Aranızda kim birinci olmaq istəsə, başqalarının qulu olsun. 28 Beləcə Bəşər Oğlu gəlmədi ki, Ona xidmət etsinlər, gəldi ki, Özü xidmət etsin və çoxlarını satın almaq üçün Öz canını fidyə versin».

İki kor adamın gözləri açılır

(Mark 10:46-52; Luka 18:35-43)

29 İsa şagirdləri ilə Yerixodan çıxarkən böyük bir izdiham Onun ardınca getdi. 30 [t]Yol kənarında oturan iki kor adam İsanın oradan keçdiyini eşitdikdə «Ya Rəbb, ey Davud Oğlu! Bizə rəhm elə!» deyə bağırdı. 31 Camaat onlara qadağan edib susdurmaq istədisə də, onlar «Ya Rəbb, ey Davud Oğlu! Bizə rəhm elə!» deyə daha ucadan bağırdılar. 32 İsa dayanıb onları çağırdı və onlardan soruşdu: «Nə istəyirsiniz, sizin üçün edim?» 33 Onlar dedilər: «Ya Rəbb, gözlərimiz açılsın». 34 İsanın onlara rəhmi gəldi, gözlərinə toxundu. Həmin an onların gözləri açıldı və İsanın ardınca getdilər.

İsanın Yerusəlimə girməsi

(Mark 11:1-11; Luka 19:28-40; Yəh. 12:12-19)

21 Yerusəlimə yaxınlaşıb Zeytun dağının yamacındakı Bet-Faqeyə gəldikləri zaman İsa iki şagirdi göndərərək 2 onlara dedi: «Qarşınızdakı kəndə gedin. Dərhal orada bağlanmış bir eşşəklə bir sıpa tapacaqsınız. Onları açıb Mənə gətirin. 3 Kim sizə bir şey desə, ona “bunlar Rəbbə lazımdır, tezliklə onları geri göndərəcək” deyərsiniz». 4 Bunlar da peyğəmbər vasitəsilə söylənən bu söz yerinə yetsin deyə baş verdi:

---

*__20:22__ *Bilərsinizmi?* – bəzi əlyazmalarda *bilərsinizmi? Mən vəftiz olduğum kimi siz də vəftiz ola bilərsinizmi?* (Mark 10:38).

†__20:23__ *İçəcəksiniz* – bəzi əlyazmalarda *içəcəksiniz və Mən vəftiz olduğum kimi vəftiz olacaqsınız* (Mark 10:39).

[s]**20:25** Mat. 23:11; Mark 9:35; Luka 22:25-26 [t]**20:30** Mat. 9:27

5 [u]«Sion qızına* deyin ki,
“Bax Padşahın sənə tərəf gəlir;
O itaətkardır və bir eşşəyə –
Eşşəyin balası olan sıpaya minib
gəlir”».
6 Şagirdlər gedib İsanın əmr etdiyi
kimi etdilər. 7 Eşşəklə sıpanı gətirib
üzərlərinə paltarlarını qoydular və İsa
sıpanın belinə mindi. 8 Camaatın çoxu
öz paltarlarını yola sərdi. Bəzisi də
ağaclardan budaqlar kəsib yola döşədi.
9 [v]İsanın önündə gedən və ardınca gələn
xalq belə nida edirdi:
«Davud Oğluna hosanna!†
Rəbbin ismi ilə Gələnə alqış olsun!
Ən ucalarda hosanna!»
10 İsa Yerusəlimə daxil olanda
bütün şəhər «Bu Kimdir?» deyərək
sarsıldı. 11 Camaat isə deyirdi: «Bu,
Qalileyanın Nazaret şəhərindən olan İsa
Peyğəmbərdir».

İsa satıcıları məbəddən qovur

(Mark 11:15-19; Luka 19:45-48; Yəh. 2:13-22)

12 İsa məbədə girib orada alver
edənlərin hamısını qovdu. Sərrafların
masalarını və göyərçin satanların
kürsülərini çevirdi. 13 [w]Onlara belə
dedi:
«“Mənim evim dua evi adlandırılacaq”
deyə yazılıb. Amma siz onu “quldur
yuvasına” çevirmisiniz!»
14 İsa məbəddə Onun yanına gələn
korlara və axsaqlara şəfa verdi. 15 Lakin
başçı kahinlər və ilahiyyatçılar Onun
etdiyi heyrətamiz işləri və məbəddə
«Davud Oğluna hosanna!» deyə bağıran
uşaqları gördükdə acıqlandılar 16 [x]və
Ona dedilər: «Bunların nə söylədiyini
eşidirsənmi?» İsa da onlara dedi: «Bəli.
“Körpələrin və çağaların ağzından
Kamil həmd aldın”
sözünü heç oxumamısınızmı?» 17 İsa
onları tərk edib şəhərdən çıxdı.
Bet-Anyaya gedib orada gecələdi.

Barsız əncir ağacı

(Mark 11:12-14,20-24; Luka 13:6-9)

18 Səhəri gün İsa şəhərə qayıdanda
acmışdı. 19 Yol kənarında bir əncir ağacı
gördü və ona yaxınlaşdı. Amma ağacda
yarpaqdan başqa bir şey tapmadı. İsa
ona dedi: «Qoy bir daha sənin meyvən
çıxmasın». Əncir ağacı o anda qurudu.
20 Şagirdlər bunu gördükdə «Əncir
ağacı bir anda necə qurudu?» deyərək
heyrətləndilər. 21 [y]İsa cavab verib
onlara dedi: «Sizə doğrusunu deyirəm:
əgər imanınız olub şübhə etməsəniz,
nəinki əncir ağacının başına gətirilən
şeyi edərsiniz, hətta bu dağa “Qalx,
dənizə atıl!” desəniz, elə də olacaq.
22 İmanla dua edərək hər nə diləsəniz,
alacaqsınız».

İsanın səlahiyyəti

(Mark 11:27-33; Luka 20:1-8)

23 İsa məbədə gəlib təlim öyrədərkən
başçı kahinlər və xalqın ağsaqqalları
Ona yaxınlaşıb dedilər: «Sən bu işləri
hansı səlahiyyətlə edirsən? Sənə bu
səlahiyyəti kim verib?» 24 İsa onlara
belə cavab verdi: «Mən də sizə bir
sual verəcəyəm; onu Mənə desəniz,
Mən də bunları hansı səlahiyyətlə
etdiyimi sizə deyərəm. 25 Yəhyanın
vəftizi haradan idi? Göydən idi, yoxsa
insanlardan?» Onlarsa aralarında
müzakirə edərək belə dedilər: «Əgər
desək “göydən”, “Bəs nə üçün ona
inanmadınız?” deyəcək. 26 Amma desək

*21:5 *Sion qızına* – yəni Yerusəlim əhalisinə.
†21:9 *Hosanna* – ibrani dilində *xilas et.* Nida kimi işlənir.

[u]**21:5** Yeş. 62:11; Zək. 9:9 [v]**21:9** Zəb. 118:25-26
[w]**21:13** Yeş. 56:7; Yer. 7:11 [x]**21:16** Zəb. 8:2 [y]**21:21** Mat. 17:20; 1Kor. 13:2

“insanlardan”, camaatdan qorxuruq,
çünki hamı Yəhyanı peyğəmbər sayır».
27 Cavabında İsaya dedilər: «Bilmirik».
İsa da onlara dedi: «Bunları hansı
səlahiyyətlə etdiyimi Mən də sizə
demirəm.

İki oğul məsəli

28 Bəs siz necə düşünürsünüz? Bir
adamın iki oğlu vardı. Gəlib birincisinə
“oğlum, bu gün get üzüm bağımda işlə”
dedi. 29 O da cavab verib “istəmirəm”
dedi. Lakin sonra peşman olub getdi.
30 Həmin adam ikincisinə yaxınlaşıb
yenə eyni sözü söylədi. O cavab
verib “Gedirəm, ağam!” dedi, amma
getmədi. 31 Bu iki nəfərdən hansı
atasının istəyini yerinə yetirdi?» Onlar
«birincisi» dedilər. İsa onlara dedi: «Sizə
doğrusunu deyirəm: vergiyığanlar və
fahişələr Allahın Padşahlığına sizdən
qabaq girirlər. 32 [z]Çünki Yəhya sizin
yanınıza salehlik yolunu göstərməyə
gəldi. Sizsə ona inanmadınız, amma
vergiyığanlar və fahişələr ona inandılar.
Siz bunu gördükdən sonra da peşman
olub ona inanmadınız.

Pis bağbanlar məsəli

(Mark 12:1-12; Luka 20:9-19)

33 [a]Başqa bir məsəli dinləyin: Ev
sahibi olan bir adam var idi. Üzüm
bağı saldı, oranın ətrafına çəpər çəkdi.
İçində yer qazaraq üzümsıxan düzəltdi,
nəzarət qülləsi tikdi. Sonra isə bağı
bağbanlara icarəyə verərək başqa
ölkəyə getdi. 34 Məhsul vaxtı çatanda
məhsulunu almaq üçün qullarını
bağbanların yanına göndərdi. 35 Lakin
bağbanlar onun qullarını tutub kimini
döydülər, kimini öldürdülər, kimini
də daşqalaq etdilər. 36 Bağ sahibi
yenə əvvəlkindən daha çox başqa
qullar göndərdi. Bağbanlar onlarla da
əvvəlki kimi etdilər. 37 “Oğluma hörmət
edərlər” deyərək axırda öz oğlunu
onların yanına göndərdi. 38 Bağbanlarsa
oğulu görəndə öz aralarında dedilər:
“Varis budur. Gəlin onu öldürək və
miras bizə qalsın”. 39 Beləcə onu tutub
bağdan kənara çıxararaq öldürdülər.
40 Beləliklə, bağın sahibi gəldikdə bu
bağbanlara nə edəcək?» 41 Onlar İsaya
dedilər: «Bu xainləri dəhşətli şəkildə
həlak edəcək, üzüm bağını isə başqa
bağbanlara icarəyə verəcək ki, onlar
məhsulu öz vaxtında ona versinlər».
42 [b]İsa onlara dedi: «Məgər siz
Müqəddəs Yazılarda bunu heç
oxumamısınız?

“Bənnaların rədd etdiyi daş
Guşədaşı olub.
Bu, Rəbbin işi idi,
Gözümüzdə xariqəli bir işdir”.

43 Buna görə sizə deyirəm: Allahın
Padşahlığı sizdən alınıb onun
məhsullarını yetişdirəcək bir millətə
veriləcək. 44 Bu daşın üstünə yıxılan
kəs parçalanacaq, daş isə kimin üzərinə
düşərsə, onu əzəcək».*
45 Başçı kahinlər və fariseylər
Onun məsəllərini eşitdikdə bu sözləri
onlar üçün dediyini başa düşdülər.
46 Ona görə də Onu tutmaq üçün yol
axtarırdılar, lakin camaatdan qorxdular,
çünki camaat İsanı peyğəmbər hesab
edirdi.

Toy ziyafəti məsəli

(Luka 14:15-24)

22 İsa yenə onlara məsəllərlə
xitab edərək dedi: 2 «Səmavi
Padşahlıq oğluna toy ziyafəti verən bir
padşaha bənzəyir. 3 O, toy ziyafətinə
dəvət olunanları çağırmaq üçün
qullarını göndərdi. Lakin onlar gəlmək

*21:44 Bəzi əlyazmalarda bu ayə yoxdur.

[z]**21:32** Luka 3:12; 7:29-30 [a]**21:33** Yeş. 5:1-7 [b]**21:42** Zəb. 118:22-23

istəmədi. 4 Bir daha başqa qulları
göndərərək onlara dedi: “Dəvət
olunanlara deyin ki, budur, mən
ziyafətimi hazırladım, öküzlərim və
bəslənmiş heyvanlarım kəsilib, hər şey
hazırdır, toy ziyafətinə gəlin!” 5 Amma
dəvət olunanlar etinasızlıq göstərərək
kimi tarlasına, kimi ticarətinə getdi.
6 O biriləri isə onun qullarını tutub
təhqir etdilər və öldürdülər. 7 Padşah
bundan xəbər tutaraq qəzəbləndi. Öz
qoşunlarını göndərib o qatilləri məhv
etdi, şəhərlərini isə yandırdı. 8 Onda
qullarına dedi: “Toy ziyafəti hazırdır,
fəqət dəvət olunanlar buna layiq deyil.
9 Beləliklə, yolayrıclarına gedin və
kimi tapsanız, toy ziyafətinə dəvət
edin”. 10 Həmin qullar yollara çıxdılar.
Pis-yaxşı kimi tapdılarsa, hamısını
topladılar. Toy məclisi qonaqlarla
doldu.
11 Padşah qonaqlara baxmaq üçün
girdikdə orada toy libası geyməmiş bir
nəfəri gördü, 12 ona dedi: “Dostum!
Sən toy libası geyməmiş buraya necə
girdin?” O isə susdu. 13 [c]O zaman
padşah xidmətçilərə dedi: “Onun
əllərini, ayaqlarını bağlayın və qaranlıq
çölə atın! Orada ağlaşma və diş qıcırtısı
olacaq”. 14 Çünki dəvət edilmiş çox,
seçilmiş isə azdır».

Hər kəsin öz haqqı

(Mark 12:13-17; Luka 20:20-26)

15 O zaman fariseylər gedib
məsləhətləşirdilər ki, Onu söz üstündə
necə tutsunlar. 16 Onlar hirodçularla
birgə öz şagirdlərini İsanın yanına
göndərib dedilər: «Müəllim, biz bilirik
ki, Sən etibarlı adamsan, Allahın yolunu
həqiqətə görə öyrədirsən və heç kimə
tərəfkeşlik etmirsən. Çünki insanlar
arasında fərq qoymursan. 17 İndi bizə de
görək, Səncə bizim üçün qeysərə vergi
verməyə icazə var ya yox?» 18 Amma
İsa onların pis niyyətini bilərək dedi:
«Ey ikiüzlülər, Məni niyə sınağa
çəkirsiniz? 19 Vergi verdiyiniz sikkəni
Mənə göstərin». Onlar da Ona bir dinar
gətirdilər. 20 İsa onlara dedi: «Sikkənin
üstündəki bu təsvir və yazı kimindir?»
21 Ona dedilər: «Qeysərin». O vaxt İsa
onlara dedi: «Elə isə, qeysərin haqqını
qeysərə, Allahın haqqını Allaha verin».
22 Bunu eşitdikləri zaman heyrətləndilər
və İsanı tərk edib getdilər.

Dirilmə haqqında sual

(Mark 12:18-27; Luka 20:27-40)

23 [d]Həmin gün dirilmənin olmadığını
iddia edən bəzi sadukeylər İsanın
yanına gəlib soruşdular: 24 [e]«Müəllim,
Musa belə demişdir: “Əgər bir adam
övladsız ölsə, qardaşı onun dul qalmış
arvadını alıb ölən qardaşın nəslini
davam etdirsin”. 25 Aramızda yeddi
qardaş var idi. Birincisi bir arvad aldı
və öldü. Uşağı olmadığından arvadı ilə
qardaşı evləndi. 26 İkincisi və üçüncüsü,
hətta yeddincisinə qədər eləcə öldü.
27 Hamısından sonra bu qadın da öldü.
28 İndi ölülər dirilində bu qadın o yeddi
nəfərdən hansının arvadı olacaq? Çünki
hamısı bu qadını almışdı».
29 İsa onlara cavab verib dedi:
«Müqəddəs Yazıları və Allahın qüdrətini
bilmədiyinizə görə yanılırsınız. 30 Ona
görə ki ölülər dirilində insanlar nə
evlənir, nə də ərə gedirlər. Ancaq
səmadakı mələklər* kimi olurlar.
31–32 [f]Bəs ölülərin dirilməsinə gəlincə,
Allah tərəfindən sizə “Mən İbrahimin
Allahı, İshaqın Allahı və Yaqubun
Allahıyam” deyə söylənən sözü

*22:30 *Səmadakı mələklər* – bəzi əlyazmalarda *Allahın səmadakı mələkləri.*

[c]**22:13** Mat. 8:12; 25:30; Luka 13:28 [d]**22:23** Həv. 23:8
[e]**22:24** Qanun. 25:5 [f]**22:31-32** Çıx. 3:6

oxumamısınızmı? Allah ölülərin deyil,
dirilərin Allahıdır». 33 Bunları eşidən
camaat Onun təliminə təəccüblənirdi.

Allahın ən böyük əmri

(Mark 12:28-34; Luka 10:25-28)

34 Fariseylər İsanın sadukeyləri
susdurduğunu eşidəndə bir yerə
toplaşdılar. 35 Onlardan biri olan
qanunşünas İsanı sınamaq məqsədi
ilə Ondan bunu soruşdu: 36 «Müəllim,
Qanunda ən böyük əmr hansıdır?»
37 [g]İsa ona dedi: «“Allahın Rəbbi bütün
qəlbinlə, bütün varlığınla və bütün
düşüncənlə sev”. 38 Bu, böyük və əsas
əmrdir. 39 [h]Buna bənzəyən ikincisi
budur: “Qonşunu özün kimi sev”.
40 Bütün Qanun və Peyğəmbərlərin
sözləri bu iki əmrə əsaslanır».

Məsih kimin Oğludur?

(Mark 12:35-37; Luka 20:41-44)

41 Fariseylər toplaşdıqda İsa onlardan
bunu soruşdu: 42 «Məsih haqqında nə
düşünürsünüz? O kimin Oğludur?»
Onlar da İsaya «Davudun Oğlu» dedilər.
43 İsa onlara dedi: «Elə isə, nə üçün
Davud Ruh vasitəsilə Ona “Ağa” deyə
müraciət edir?
44 [i]“Rəbb mənim Ağama dedi:
‹Mən düşmənlərini ayaqlarının altına
salanadək
Sağımda otur›”
deyib. 45 Əgər Davud Ona “Ağa” deyə
müraciət edirsə, O necə Davudun oğlu
ola bilər?» 46 Bunun cavabında İsaya
kimsə bir söz deyə bilmədi. O gündən
sonra artıq heç kim Ondan bir şey
soruşmağa cəsarət etmədi.

Vay halınıza!

(Luka 11:39-51)

23 Bundan sonra İsa camaata
və şagirdlərinə müraciət edib
2 dedi: «İlahiyyatçılar və fariseylər
Musanın kürsüsündə oturmuşlar.
3 Buna görə də sizə əmr etdikləri
hər şeyə riayət və əməl edin. Amma
onların etdiklərini etməyin, çünki
söyləyərlər, amma riayət etməzlər.
4 Ağır və çətin daşına bilən yükləri
bağlayıb insanların çiyninə yükləyərlər,
özləri isə bu yükləri daşımaq
üçün barmaqlarını belə, tərpətmək
istəməzlər. 5 [j]Onlar öz əməllərinin
hamısını insanlar görsün deyə edərlər.
Çünki onlar dua qutucuqlarını*
genişləndirib geyimlərinin qotazlarını†
uzadarlar. 6 Ziyafətlərdə yuxarı başı
və sinaqoqlarda baş kürsüləri tutmağı,
7 bazar meydanlarında salam almağı,
insanların onlara “Rabbi!”‡ deyə xitab
etməsini sevərlər.
8 Amma kimsə sizi “Rabbi” deyə
çağırmasın. Çünki sizin bir Müəlliminiz
var.§ Siz hamınızsa qardaşsınız. 9 Yer
üzündə kimsəyə “ata” deməyin. Çünki
bir Atanız var, O da Səmavi Atadır.
10 Kimsə sizə “rəhbər” deməsin. Çünki
bir Rəhbəriniz var, O da Məsihdir.
11 [k]Aranızda ən böyük olan xidmətçiniz

---

*23:5 *Dua qutucuqları* – bu qutucuğa Tövratdan götürülən bəzi ayələr qoyulur. Yəhudilər dua edən zaman onu ya alına, ya da qola bağlayırlar.

†23:5 *Qotaz* – Rəbbin əmrlərini xatırlamaq üçün geyimlərin dörd tərəfinə taxılır. Bax: Say. 15:38-40; Qanun. 22:12.

‡23:7 *Rabbi* – yəni Müəllim.

§23:8 *Var* – bəzi əlyazmalarda *var, O da Məsihdir.*

[g]22:37 Qanun. 6:5 [h]22:39 Lev. 19:18 [i]22:44 Zəb. 110:1

[j]23:5 Mark 12:38-39; Luka 20:46

[k]23:11 Mat. 20:25-27; Mark 9:35; 10:43-44; Luka 22:25-26

olsun. 12 [l]Kim özünü yüksəldərsə, aşağı
tutulacaq və kim özünü aşağı tutarsa,
yüksəldiləcək.
13 Vay halınıza, ey ilahiyyatçılar
və fariseylər – ikiüzlülər! Çünki siz
Səmavi Padşahlığı insanların üzünə
qapayırsınız. Nə özünüz girirsiniz, nə
də girmək istəyənləri buraxırsınız. 14 *
15 Vay halınıza, ey ilahiyyatçılar və
fariseylər – ikiüzlülər! Çünki siz dənizi
və qurunu dolaşırsınız ki, bir nəfəri
dinə gətirəsiniz. Dinə gətirdikdə isə onu
özünüzdən ikiqat artıq cəhənnəmlik
edirsiniz.
16 Vay halınıza, ey kor rəhbərlər!
Deyirsiniz ki, "kim məbədə and içirsə,
əhəmiyyətli bir şey deyil, lakin kim
məbədin qızılına and içirsə, öz andına
borcludur". 17 Ey ağılsızlar və korlar!
Hansı daha böyükdür? Qızılmı, yoxsa
qızılı təqdis edən məbədmi? 18 Yenə
də deyirsiniz ki, "kim qurbangaha and
içirsə, əhəmiyyətli bir şey deyil; lakin
qurbangah üzərindəki qurbana and
içən öz andını yerinə yetirməlidir".
19 Ey korlar!† Hansı daha böyükdür?
Qurbanmı, yoxsa qurbanı təqdis edən
qurbangahmı? 20 Beləliklə, qurbangaha
and içən kəs ona və onun üstündə olan
bütün şeylərə and içir. 21 Məbədə and
içən kəs ona və içində Yaşayana and
içir. 22 [m]Göyə and içən kəs də Allahın
taxtına və taxtda Oturana and içir.
23 [n]Vay halınıza, ey ilahiyyatçılar və
fariseylər – ikiüzlülər! Çünki siz nanə,
şüyüd və zirənin onda birini verirsiniz,
lakin Qanunun daha vacib işlərini,
ədaləti, mərhəməti və imanı atırsınız.
Amma onda biri verməklə yanaşı
bunları da yerinə yetirməli idiniz. 24 Ey
kor rəhbərlər! Ağcaqanadı süzgəclə
çıxarır, dəvəni isə udursunuz!
25 Vay halınıza, ey ilahiyyatçılar
və fariseylər – ikiüzlülər! Çünki siz
kasanın və boşqabın bayır tərəfini
təmizləyirsiniz, lakin onların daxili
soyğunçuluq və pozğunluqla doludur.
26 Sən, ey kor farisey! Əvvəlcə kasanın‡
daxilini təmizlə ki, bayır tərəfi də təmiz
olsun!
27 [o]Vay halınıza, ey ilahiyyatçılar
və fariseylər – ikiüzlülər! Çünki siz
ağardılmış məqbərələrə bənzəyirsiniz:
onların bayır tərəfi gözəl görünür, daxili
isə ölü sümükləri və hər cür murdarlıqla
doludur. 28 Siz də zahirən insanlara
saleh görünürsünüz, daxilən isə
ikiüzlülük və qanunsuzluqla dolusunuz.
29 Vay halınıza, ey ilahiyyatçılar
və fariseylər – ikiüzlülər! Çünki siz
peyğəmbərlərə məqbərələr tikirsiniz,
salehlərin abidələrini bəzəyirsiniz.
30 "Biz ata-babalarımızın yaşadığı
günlərdə yaşasaydıq, peyğəmbərlərin
qanını tökməkdə onlarla şərik olmazdıq"
deyirsiniz. 31 Beləliklə, peyğəmbərləri
öldürənlərin övladları olduğunuza
özünüz şəhadət edirsiniz. 32 Elə isə,
ata-babalarınızın başladığı işi başa
çatdırın! 33 [p]Siz ey ilanlar, gürzələr
nəsli! Cəhənnəmə məhkum edilməkdən
necə qaçacaqsınız?
34 Ona görə də Mən sizə peyğəmbərlər,
müdrik adamlar və ilahiyyatçılar

---

*23:14 *İkiüzlülər! …buraxırsınız* – bəzi əlyazmalarda *ikiüzlülər! Çünki siz dul qadınların evlərini yeyib-dağıdar və özlərinizi göstərmək üçün uzun-uzadı dua edərsiniz. Bunun üçün sizin cəzanız daha ağır olacaq.* 14 *Vay halınıza, ey ilahiyyatçılar və fariseylər – ikiüzlülər! Çünki siz Səmavi Padşahlığı insanların*

†23:19 *Korlar* – bəzi əlyazmalarda *ağılsızlar və korlar.*

‡23:26 *Kasanın* – bəzi əlyazmalarda *kasanın və boşqabın.*

[l]**23:12** Luka 14:11; 18:14 [m]**23:22** Yeş. 66:1; Mat. 5:34-35

[n]**23:23** Lev. 27:30 [o]**23:27** Həv. 23:3 [p]**23:33** Mat. 3:7; 12:34; Luka 3:7

göndərirəm. Siz onlardan bəzisini
öldürəcək və çarmıxa çəkəcəksiniz.
Bəzisini sinaqoqlarınızda qamçılayacaq
və şəhərdən şəhərə qovacaqsınız;
35 [q]belə ki saleh olan Habilin
qanından tutmuş məbədlə qurbangahın
arasında öldürdüyünüz Berekya oğlu
Zəkəriyyənin qanına qədər yer üzündə
tökülən bütün saleh adamların qanı
üçün məsuliyyət daşıyasınız. 36 Sizə
doğrusunu deyirəm: bütün bu şeylər
üçün bu nəsil məsuliyyət daşıyacaq.

Yerusəlimin aqibəti

(Luka 13:34-35)

37 Ey Yerusəlim, Yerusəlim!
Peyğəmbərləri öldürən və ora
göndərilənləri daşqalaq edən şəhər!
Toyuq cücələrini qanadları altına yığan
kimi Mən də dəfələrlə sənin övladlarını
yığmaq istədim, sizsə istəmədiniz!
38 [r]Baxın, eviniz viran qalır. 39 [s]Çünki
Mən sizə bunu deyirəm:
"Rəbbin ismi ilə Gələnə alqış olsun!"
deyənə qədər Məni bir daha
görməyəcəksiniz».

Axır zamanın əlamətləri

(Mark 13:1-23; Luka 21:5-24)

24 İsa məbəddən çıxıb gedərkən
şagirdləri məbədin binalarını
Ona göstərmək üçün yanına gəldilər.
2 İsa onlara cavab verib dedi: «Bütün
bunları görürsünüzmü? Sizə doğrusunu
deyirəm: onların daşı daş üstündə
qalmayacaq, hamısı yerlə yeksan
olacaq».
3 İsa Zeytun dağında oturanda
şagirdlər ayrılıqda Onun yanına gəlib
dedilər: «Bizə söylə, bu dediklərin
nə vaxt baş verəcək? Sənin zühurun
və dövrün sonuna hansı əlamətlər
olacaq?» 4 İsa onlara cavab verib
dedi: «Ehtiyatlı olun, qoy sizi heç kim
aldatmasın. 5 Çünki Mənim adımla çox
adam gəlib "Məsih mənəm" deyərək
çoxlarını aldadacaq. 6 Siz müharibələr
və müharibə xəbərləri eşidəcəksiniz.
Amma təlaşa düşməyin. Bunlar baş
verməlidir, amma bu hələ hər şeyin
axırı deyil. 7 Çünki millət millətə,
padşahlıq padşahlığa qarşı çıxacaq.
Yerbəyer aclıq* və zəlzələlər olacaq.
8 Bütün bunlar sanki doğuş ağrılarının
başlanğıcıdır.
9 [t]O zaman sizi əziyyətə təslim edib
öldürəcəklər. Mənim adıma görə bütün
millətlər sizə nifrət edəcək. 10 Onda bir
çoxu imandan büdrəyərək bir-birini
təslim edəcək və bir-birinə nifrət edəcək.
11 Bir çox yalançı peyğəmbər törəyib
çox adamı aldadacaq. 12 Qanunsuzluq
çoxaldığı üçün bir çoxunun məhəbbəti
soyuyacaq. 13 [u]Amma axıracan dözən
xilas olacaq. 14 Səmavi Padşahlığın bu
Müjdəsi bütün millətlərə şəhadət olmaq
üçün bütün dünyada vəz ediləcək. O
zaman hər şeyin axırı gələcək.
15 [v]Beləliklə, Daniel peyğəmbərin
bəhs etdiyi viranəlik gətirən iyrənc
şeyin Müqəddəs məkanda qoyulduğunu
gördüyünüz zaman – qoy oxuyan bunu
anlasın – 16 Yəhudeyada olanlar dağlara
qaçsın. 17 [w]Damda olan evindəki
əşyaları götürmək üçün aşağı enməsin.
18 Tarlada olan üst paltarını götürmək
üçün geri qayıtmasın. 19 Həmin günlər
hamilələrin və körpə əmizdirənlərin
vay halına! 20 Dua edin ki, qaçmağınız
qış fəslində və ya Şənbə günündə baş
verməsin. 21 [x]Çünki o vaxt elə dəhşətli
əzab-əziyyət olacaq ki, dünyanın

*24:7 *Aclıq* – bəzi əlyazmalarda *aclıq, vəba.*

[q]**23:35** Yar. 4:8; 2Saln. 24:20-21 [r]**23:38** Yer. 12:7; 22:5; 26:6
[s]**23:39** Zəb. 118:26 [t]**24:9** Mat. 10:22 [u]**24:13** Mat. 10:22 [v]**24:15** Dan. 9:27; 11:31; 12:11 [w]**24:17** Luka 17:31 [x]**24:21** Dan. 12:1; Vəhy 7:14

başlanğıcından indiyə qədər beləsi
olmayıb və heç olmayacaq da. 22 Əgər
o günlər qısaldılmasaydı, heç bir insan
xilas ola bilməzdi. Amma seçilmişlərə
görə o günlər qısaldılacaq.
23 [y]O zaman əgər kimsə sizə
desə ki, "bax, Məsih buradadır"
yaxud da "oradadır", inanmayın.
24 Çünki yalançı məsihlər və yalançı
peyğəmbərlər törəyəcək. Onlar böyük
əlamətlər və xariqələr göstərəcəklər
ki, imkan taparlarsa, seçilmişləri də
aldatsınlar. 25 Bax Mən sizə əvvəlcədən
söyləmişəm. 26 [z]Ona görə sizə "bax,
O çöldədir" desələr də, çıxmayın.
"Bax, O daxili otaqlardadır" desələr
də, inanmayın. 27 Çünki şimşək şərqdə
çaxıb qərbdə belə, göründüyü kimi
Bəşər Oğlunun zühuru da elə olacaq.
28 [a]Leş haradadırsa, kərkəslər də orada
toplaşar.

Bəşər Oğlunun zühuru

(Mark 13:24-31; Luka 21:25-33)

29 [b]Amma o günlərin
əzab-əziyyətindən dərhal sonra
Günəş tutulacaq,
Ay nurunu saçmayacaq,
Ulduzlar göydən tökülləcək,
Səma cisimləri lərzəyə gələcək.
30 [c]O zaman Bəşər Oğlunun əlaməti
göydə görünəcək. O vaxt yer üzünün
bütün tayfaları şivən qoparacaq
və Bəşər Oğlunun göyün buludları
üzərində qüdrət və böyük izzətlə
gəldiyini görəcək. 31 O, mələklərini uca
şeypur səsi ilə göndərəcək. Mələklər
də göylərin bir ucundan o biri ucuna
qədər dörd külək istiqamətindən Onun
seçdiklərini toplayacaq.
32 Əncir ağacından ibrət alın: onun
budağı cücərib yarpaqlananda bilirsiniz
ki, yay fəsli artıq yaxındır. 33 Eləcə siz
də bütün bu şeyləri görəndə bilin ki,
Bəşər Oğlu yaxındadır, lap qapıdadır.
34 Sizə doğrusunu deyirəm: bu nəsil
ömrünü sona çatdırmazdan əvvəl bütün
bunlar baş verəcək. 35 Yer və göy keçib
gedəcək, amma Mənim sözlərim əsla
keçib getməyəcək.

Bilinməyən gün və saat

(Luka 12:39-48; 17:26-35)

36 [d]Lakin o günü və o saatı nə
göylərin mələkləri, nə də Oğul bilir.*
Atadan başqa heç kim bilmir. 37 [e]Nuhun
günləri necə idisə, Bəşər Oğlunun
zühuru da elə olacaq. 38 Daşqından
əvvəlki həmin günlərdə, Nuhun gəmiyə
girdiyi günə qədər insanlar yeyib-içir,
evlənir, ərə gedirdi. 39 [f]Daşqın gəlib
hamısını aparana qədər bixəbər idilər.
Bəşər Oğlunun zühuru da belə olacaq.
40 O zaman tarladakı iki nəfərdən
biri götürüləcək, o biri isə qalacaq.
41 Dəyirmanda dən üyüdən iki qadından
biri götürüləcək, o biri isə qalacaq.
42 [g]Ona görə də oyaq olun. Çünki
Rəbbinizin hansı gün† gələcəyini
bilmirsiniz. 43 [h]Amma bunu bilin ki,
əgər evin yiyəsi oğrunun gecə hansı
saatda gələcəyini bilsəydi, oyaq qalıb
evinin yarılmasına imkan verməzdi.

---

*__24:36__ *Nə göylərin mələkləri, nə də Oğul bilir* – bəzi əlyazmalarda *göylərin mələkləri belə, bilmir.*
†__24:42__ *Hansı gün* – bəzi əlyazmalarda *nə vaxt.*

[y]**24:23** Luka 17:21,23 [z]**24:26** Luka 17:23-24
[a]**24:28** Əyy. 39:30; Luka 17:37 [b]**24:29** Yeş. 13:10; 34:4; Yez. 32:7; Yoel 2:10,31; 3:15; Vəhy 6:12-13 [c]**24:30** Dan. 7:13; Vəhy 1:7 [d]**24:36** Mark 13:32
[e]**24:37** Yar. 6:5-8 [f]**24:39** Yar. 7:6-24 [g]**24:42** Mark 13:35
[h]**24:43** Luka 12:39-40; Vəhy 3:3; 16:15

44 Buna görə siz də hazır olun, çünki
Bəşər Oğlu gözləmədiyiniz vaxt gələcək.
45 Vaxtlı-vaxtında onlara yemək
vermək üçün ağasının öz nökərləri
üzərinə qoyduğu sadiq və ağıllı qul
kimdir? 46 Nə bəxtiyardır o qul ki, ağası
evinə qayıdanda onu iş başında görür!
47 Sizə doğrusunu deyirəm: ağası bu
qula bütün əmlakı üzərində idarəçiliyi
tapşıracaq. 48 Amma həmin qul pis
olub ürəyində "ağam gec gələcək"
deyərsə, 49 öz yoldaşlarını döyməyə və
əyyaşlarla yeyib-içməyə başlayarsa, 50 o
qulun ağası onun gözləmədiyi gün və
ağlına gəlmədiyi vaxt gələcək, 51 ona
ağır cəza verəcək və onu ikiüzlülərlə bir
yerdə saxlayacaq. Orada ağlaşma və diş
qıcırtısı olacaq.

On qız məsəli

25 [i]O zaman Səmavi Padşahlıq
çıraqlarını götürüb bəyin
qarşısına çıxan on qıza bənzəyəcək.
2 Onlardan beşi ağıllı, beşi isə ağılsız
idi. 3 Ağılsızlar özləri ilə çıraqlarını
götürmüşdü, amma yağ götürməmişdi.
4 Ağıllılarsa çıraqları ilə birgə qablarda
yağ da götürmüşdü. 5 Lakin bəy
gecikdiyindən hamısını yuxu basdı və
onlar yatdı. 6 Amma gecə yarısı bir
qışqırıq qopdu: "Budur, bəy gəlir, onu
qarşılamağa çıxın!" 7 O zaman o qızların
hamısı durub öz çıraqlarını düzəltdilər.
8 Ağılsızlar ağıllılara dedi: "Yağınızdan
bizə də verin, çünki çıraqlarımız sönür".
9 Ağıllılarsa cavab verib dedilər: "Belə
olmasın ki, yağ nə bizə çatsın, nə sizə.
Yaxşısı budur ki, gedib satıcılardan
alasınız". 10 Onlar yağ satın almağa
getdikləri zaman bəy gəldi. Hazır
olanlar onunla toy məclisinə girdilər
və qapı bağlandı. 11 [j]O biri qızlar da
sonradan gəlib "Ağa! Ağa! Qapını
bizə aç!" dedilər. 12 O isə cavab verib
dedi: "Sizə doğrusunu deyirəm: sizi
tanımıram". 13 [k]Beləliklə, oyaq olun.
Çünki siz nə günü,* nə də saatı bilirsiniz.

Əmanət pul məsəli

(Luka 19:11-27)

14 [l]Səmavi Padşahlıq səyahətə çıxan
bir adama bənzəyir. O, qullarını çağırıb
əmlakını onlara əmanət etdi. 15 O hər
birinə öz qabiliyyətinə görə – birinə
beş, birinə iki, birinə də bir talant verdi
və yola düşdü. 16 Beş talant alan dərhal
gedib bunları sərmayəyə qoydu, daha
beş talant qazandı. 17 İki talant alan da
beləcə daha iki talant qazandı. 18 Bir
talant alansa gedib torpağı qazdı və
ağasının pulunu gizlətdi.
19 Uzun zamandan sonra həmin
qulların ağası gəldi və onlardan hesabat
tələb etdi. 20 Beş talant alan gəlib daha
beş talant gətirərək dedi: "Ağa, sən
mənə beş talant əmanət etdin. Budur,
mən daha beş talant qazandım". 21 Ağası
ona dedi: "Afərin, yaxşı və sadiq qulum!
Sən xırda işlərdə sadiq oldun, səni
böyük işlər üzərinə qoyacağam. Ağanın
sevincinə şərik ol!"
22 İki talant alan da gəlib dedi: "Ağa,
mənə iki talant əmanət etdin. Budur,
mən daha iki talant qazandım". 23 Ağası
ona dedi: "Afərin, yaxşı və sadiq qulum!
Sən xırda işlərdə sadiq oldun, səni
böyük işlər üzərinə qoyacağam. Ağanın
sevincinə şərik ol!"
24 Bir talant alan da gəlib dedi: "Ağa,
sənin sərt bir adam olduğunu bilirdim.
Əkmədiyin yerdən biçərsən, səpmədiyin
yerdən yığarsan. 25 Ona görə qorxdum,
gedib sənin talantını torpaqda gizlətdim.
Buyur, öz malını geri götür!" 26 Ağası isə

*25:13 *Nə günü* – bəzi əlyazmalarda *Bəşər Oğlunun gələcəyi nə günü.*

[i]**25:1** Luka 12:35 [j]**25:11** Luka 13:25 [k]**25:13** Mark 13:33
[l]**25:14** Mark 13:34

cavab verib ona dedi: “Pis və tənbəl qul!
Mənim əkmədiyim yerdən biçdiyimi
və səpmədiyim yerdən yığdığımı
bilirdinmi? 27 Onda gərək mənim
pulumu sərraflara verəydin ki, mən
qayıdanda onu faizlə geri alım. 28 İndi
əlindəki talantı ondan alın və on talantı
olana verin! 29 [m]Çünki kimin varıdırsa,
daha çox veriləcək və o, bolluq içində
olacaq, kimin yoxudursa, əlində olan da
ondan alınacaq. 30 [n]Yaramaz qulu isə
qaranlıq çölə atın. Orada ağlaşma və diş
qıcırtısı olacaq”.

Qoyunlar və keçilər

31 [o]Bəşər Oğlu bütün mələklərlə
birlikdə izzəti ilə gələn zaman Öz
izzətli taxtına oturacaq. 32 Bütün
millətlər Onun önündə toplaşacaq,
O da qoyunları keçilərdən ayıran bir
çoban kimi onları bir-birindən ayıracaq.
33 Qoyunları sağına, keçiləri isə soluna
qoyacaq.
34 O zaman Padşah sağındakılara
deyəcək: “Ey sizlər, Atamın xeyir-dua
verdiyi adamlar! Gəlin, dünya
yaranandan bəri sizin üçün hazırlanmış
olan Padşahlığı irs alın. 35 Çünki ac idim,
Mənə yemək verdiniz; susamışdım,
Mənə su verdiniz; qərib idim, Məni
qəbul etdiniz; 36 çılpaq idim, Məni
geyindirdiniz; xəstə idim, qayğımı
çəkdiniz; zindanda idim, yanıma
gəldiniz”. 37 Onda salehlər Ona cavab
verib deyəcəklər: “Ya Rəbb, biz Səni
nə vaxt ac görüb yemək verdik və ya
susamış görüb su verdik? 38 Nə vaxt
Səni qərib görüb qəbul etdik və ya
çılpaq görüb geyindirdik? 39 Nə vaxt
Səni xəstə və ya zindanda görüb yanına
gəldik?” 40 Padşah da cavab verib onlara
deyəcək: “Sizə doğrusunu deyirəm:
siz bu ən kiçik qardaşlarımdan birinə
etdiyinizi Mənə etmiş oldunuz”.
41 O zaman solundakılara deyəcək:
“Ey lənətə gəlmişlər, çəkilin önümdən!
İblislə onun mələklərinə hazırlanmış
olan əbədi oda yollanın! 42 Çünki
ac idim, Mənə yemək vermədiniz;
susamışdım, Mənə su vermədiniz;
43 qərib idim, Məni qəbul etmədiniz;
çılpaq idim, Məni geyindirmədiniz;
xəstə və zindanda idim, qayğımı
çəkmədiniz”. 44 Onda onlar da cavab
verib deyəcəklər: “Ya Rəbb, Səni nə
vaxt ac, susamış, qərib, çılpaq, xəstə
və yaxud zindanda gördük ki, Sənə
xidmət etmədik?” 45 O zaman onlara
cavab verib deyəcək: “Sizə doğrusunu
deyirəm: siz bu ən kiçiklərdən birinə
etmədiyinizi Mənə etməmiş oldunuz”.
46 [p]Bunlar əbədi əzaba, salehlərsə əbədi
həyata gedəcək».

İsanı öldürmək üçün sui-qəsd hazırlanır

(Mark 14:1-2; Luka 22:1-2; Yəh. 11:45-53)

26 [q]İsa bütün bu sözləri bitirəndən
sonra şagirdlərinə dedi: 2 «İki
gün sonra Pasxa bayramı olacağını
bilirsiniz. Bəşər Oğlu çarmıxa çəkilmək
üçün təslim ediləcək».
3 O zaman başçı kahinlər* və xalqın
ağsaqqalları Qayafa adlı baş kahinin
həyətinə toplaşdılar. 4 İsanı hiylə
ilə tutub öldürmək üçün sui-qəsd
hazırladılar. 5 Amma deyirdilər: «Bunu
bayramda etməyək, yoxsa xalq arasında
qarışıqlıq düşər».

---

*__26:3__ *Kahinlər* – bəzi əlyazmalarda *kahinlər, ilahiyyatçılar.*

[m]**25:29** Mat. 13:12; Mark 4:25; Luka 8:18
[n]**25:30** Mat. 8:12; 22:13; Luka 13:28 [o]**25:31** Mat. 16:27; 19:28
[p]**25:46** Dan. 12:2 [q]**26:1** Çıx. 12:1-27

İsa Bet-Anyada

(Mark 14:3-9; Yəh. 12:1-8)

6 [r]İsa Bet-Anyada cüzamlı Şimonun
evində ikən 7 bir qadın Onun yanına
gəldi və qadının əlində içində çox bahalı
ətirli yağ olan ağ mərmər qab var idi.
İsa süfrəyə oturanda qadın yağı Onun
başına tökdü. 8 Şagirdlər bunu gördükdə
acıqlanıb dedilər: «Bu israfçılıq nə
üçündür? 9 Axı bu ətiri baha qiymətə
satıb pulunu yoxsullara vermək olardı».
10 Lakin İsa bunu bilərək dedi: «Niyə
qadını incidirsiniz? O Mənim üçün
gözəl bir iş gördü. 11 [s]Yoxsullar həmişə
sizin yanınızdadır, Mənsə həmişə
yanınızda olmayacağam. 12 Qadın bu
ətiri Mənim bədənimə tökməklə Məni
dəfn üçün hazırladı. 13 Sizə doğrusunu
deyirəm: dünyanın hansı yerində Müjdə
vəz edilərsə, bu qadının etdiyi iş də
danışılacaq ki, o yada salınsın».

Yəhudanın xəyanəti

(Mark 14:10-11; Luka 22:3-6; Yəh. 13:18-30)

14 O zaman On İki şagirddən Yəhuda
İskaryot adlı biri başçı kahinlərin
yanına gedib dedi: 15 «Onu sizə təslim
etsəm, mənə nə verərsiniz?» Onlar da
Yəhudaya otuz gümüş təklif etdilər.
16 O vaxtdan Yəhuda İsanı təslim etmək
üçün fürsət axtarmağa başladı.

Axırıncı şam yeməyi

(Mark 14:12-26; Luka 22:7-23; Yəh. 13:21-30; 1Kor. 11:23-25)

17 Mayasız Çörək bayramının ilk günü
şagirdlər İsanın yanına gəlib dedilər:
«Sənin Pasxa yeməyin üçün harada
hazırlıq görməyimizi istəyirsən?»
18 O da cavab verdi: «Şəhərə girib
filankəsin yanına gedin və ona deyin:
“Müəllim deyir: ‹Vaxtım yaxınlaşdı,
şagirdlərimlə birgə Pasxanı sənin evində
keçirəcəyəm›”». 19 Şagirdlər İsanın
əmrini yerinə yetirərək Pasxa yeməyi
üçün hazırlıq etdilər.
20 Axşam düşəndə İsa On İki şagirdi
ilə birgə süfrəyə oturdu. 21 Onlar yemək
yeyərkən İsa dedi: «Sizə doğrusunu
deyirəm: sizlərdən biri Mənə xəyanət
edəcək». 22 Onlar çox kədərlənib bir-bir
Ondan soruşdular: «Ya Rəbb, mən
deyiləm ki?» 23 [t]O cavab verib dedi:
«Mənimlə birlikdə əlini qaba batıran
Mənə xəyanət edəcək. 24 Bəşər Oğlu
Özü barəsində yazıldığı kimi gedir.
Amma vay o adamın halına ki, Bəşər
Oğluna xəyanət edir! O adam heç
doğulmasaydı, onun üçün daha yaxşı
olardı». 25 Ona xəyanət edən Yəhuda
«Rabbi, mən deyiləm ki?» deyə soruşdu.
İsa da ona «sən dediyin kimidir» dedi.
26 Onlar yeyəndə İsa çörək götürdü,
şükür duası edib onu böldü və şagirdlərə
verərək dedi: «Alın, yeyin! Bu Mənim
bədənimdir». 27 Sonra bir kasa götürdü
və şükür edib onu da şagirdlərə verərək
dedi: «Bundan hamınız için! 28 [u]Çünki
bu, Əhdin* bağlanması və günahların
bağışlanması üçün çoxları uğrunda
axıdılan Mənim qanımdır. 29 Mən sizə
deyirəm: Atamın Padşahlığında sizinlə
birlikdə təzəsini içəcəyim günə qədər
üzüm ağacının bu məhsulundan əsla
içməyəcəyəm».
30 Onlar ilahi oxuyandan sonra
çıxdılar və Zeytun dağına tərəf getdilər.

---

*26:28 *Əhdin* – bəzi əlyazmalarda *Yeni Əhdin* (Luka 22:20).

[r]**26:6** Luka 7:37-38 [s]**26:11** Qanun. 15:11 [t]**26:23** Zəb. 41:9
[u]**26:28** Çıx. 24:8; Yer. 31:31-34

Peterin inkarı əvvəlcədən bildirilir

(Mark 14:27-31; Luka 22:31-34; Yəh. 13:36-38)

31 [v]Onda İsa şagirdlərinə dedi: «Bu
gecə hamınız Məni atıb gedəcəksiniz,*
çünki belə yazılıb:
"Çobanı vuracağam,
Sürünün qoyunları pərən-pərən
olacaq".
32 [w]Amma Mən dirilən dən sonra
sizdən qabaq Qalileyaya gedəcəyəm».
33 Peter Ona cavab verib dedi: «Hamı
Səni atıb getsə də, mən əsla atıb
getməyəcəyəm». 34 İsa ona dedi: «Sənə
doğrusunu deyirəm: bu gecə xoruz
banlamazdan əvvəl sən Məni üç dəfə
inkar edəcəksən». 35 Peter Ona dedi:
«Əgər Səninlə birlikdə ölməyim lazım
olsa belə, Səni əsla inkar etməyəcəyəm».
Bütün şagirdlər də belə dedilər.

Getsemani bağında

(Mark 14:32-42; Luka 22:39-46)

36 Sonra İsa şagirdlərlə birlikdə
Getsemani adlanan bir yerə gəldi və
onlara dedi: «Mən oraya gedib dua
edərkən siz burada oturub-qalın». 37 O,
Peter ilə Zavdayın iki oğlunu Özü ilə
apardı. Özündə bir kədər və narahatlıq
hiss etməyə başladı. 38 Onlara belə dedi:
«Ürəyimi elə dərin kədər bürüyüb, az
qalır ki, ölüm. Burada qalın və Mənimlə
birlikdə oyaq olun».
39 İsa bir qədər irəli getdi və üzüstə
yerə qapanıb dua etdi: «Ey Atam,
mümkündürsə, qoy bu kasa† Məndən
yan keçsin. Amma Mənim yox, Sənin
iradən olsun». 40 İsa şagirdlərin yanına
qayıdıb gördü ki, onlar yatıb. O, Peteri
səslədi: «Məgər Mənimlə birlikdə bir
saat oyaq qala bilməzdinizmi? 41 Oyaq
durub dua edin ki, sınağa düşməyəsiniz.
Ruh həvəsli, cisim isə gücsüzdür».
42 İsa yenə ikinci dəfə uzaqlaşdı və dua
etdi: «Ey Atam, əgər Mən içmədən bu
kasanın yan keçməsi mümkün deyilsə,
qoy Sənin iradən olsun».
43 İsa qayıdanda gördü ki, onlar yenə
yatıb. Çünki onların gözləri yumulurdu.
44 Onları tərk edib təkrarən uzaqlaşdı,
yenə eyni sözlərlə üçüncü dəfə dua
etdi. 45 Sonra İsa şagirdlərin yanına
qayıdıb onlara dedi: «Hələ də yatıb
dincəlirsiniz? Budur, vaxt yaxınlaşıb və
Bəşər Oğlu günahkarların əlinə təslim
olunur. 46 Qalxın gedək. Budur, Mənə
xəyanət edən gəlir!»

İsa həbs olunur

(Mark 14:43-50; Luka 22:47-53; Yəh. 18:3-12)

47 İsa hələ danışarkən On İki
şagirddən biri olan Yəhuda gəldi. Onun
yanında başçı kahinlərin və xalqın
ağsaqqallarının göndərdiyi əli qılınclı
və dəyənəkli böyük bir dəstə adam var
idi. 48 İsaya xəyanət edən Yəhuda onlara
işarə ilə bildirib demişdi: «Kimi öpsəm,
İsa Odur, Onu tutun». 49 O anda İsaya
yaxınlaşıb «Salam, Rabbi!» deyərək
Onu öpdü. 50 İsa da ona «Dostum, nə
üçün gəlmisən?» dedi. Elə bu vaxt
İsaya yaxınlaşıb əl ataraq Onu tutdular.
51 Onda İsa ilə birlikdə olanlardan biri
əl atıb qılıncını çəkdi və baş kahinin
qulunu vurub qulağını qopartdı. 52 İsa
ona dedi: «Qılıncını yerinə qoy, çünki
qılınc çəkənlərin hamısı qılıncla məhv
olacaq. 53 Yoxsa elə düşünürsən ki,
Atamdan yardım istəyə bilmərəm?
İstəsəm, dərhal Mənə on iki legiondan*

---

*26:31 *Məni atıb gedəcəksiniz* – hərfi tərcümədə *Məndə büdrəyəcəksiniz.*
†26:39 *Kasa* – İsanın çarmıxdakı ölümünün rəmzi.
*26:53 *Legion* – təqribən 6000 əsgər.

[v]26:31 Zək. 13:7 [w]26:32 Mat. 28:16

artıq mələk göndərər. 54 “Bunların
olması gərəkdir” deyən Müqəddəs
Yazılar onda bəs necə yerinə yetərdi?»
55 [x]Həmin vaxt İsa camaata dedi:
«Nə üçün quldur üstünə gələn
kimi qılınc və dəyənəklərlə Məni
tutmağa gəlmisiniz? Hər gün məbəddə
oturub[†] təlim verirdim, heç Məni
tutmadınız. 56 Amma bunların hamısı
peyğəmbərlərin Yazıları yerinə yetsin
deyə baş verdi». Onda bütün şagirdlər
İsanı atıb qaçdılar.

İsa Ali Şuranın önündə

(Mark 14:53-65; Luka 22:54-55,63-71; Yəh. 18:13-24)

57 İsanı həbs edənlər Onu baş
kahin Qayafanın yanına gətirdilər.
İlahiyyatçılar və ağsaqqallar da
oraya toplaşdı. 58 Peter uzaqdan baş
kahinin həyətinə qədər İsanın ardınca
gedirdi, sonu görmək üçün içəri girib
mühafizəçilərlə birgə oturdu.
59 Başçı kahinlər[‡] və Ali Şuranın
hamısı İsanı edam etmək üçün Onun
əleyhinə yalançı şahidlik ifadəsi
axtarırdılar. 60 [y]Çoxlu yalançı şahid
gəldi, lakin yenə də axtardıqlarını
tapmadılar. Axırda iki şahid gəlib
61 dedi: «Bu Adam dedi: “Mən Allahın
məbədini dağıdıb üç gün ərzində tikə
bilərəm”».
62 Baş kahin ayağa qalxıb İsaya dedi:
«Sənin heç cavabın yoxdur? Onlar
Sənin əleyhinə bu nə ifadədir verirlər?»
63 Amma İsa susmaqda davam etdi.
Baş kahin isə Ona dedi: «Səni var olan
Allaha and etdirirəm, bizə de, Allahın
Oğlu Məsih Sənsənmi?» 64 [z]İsa da ona
dedi: «Sənin dediyin kimidir. Hətta sizə
deyirəm: bundan sonra Bəşər Oğlunun
Qüdrətli Olanın[§] sağında oturduğunu
və göyün buludları üzərində gəldiyini
görəcəksiniz». 65 [a]Onda baş kahin
əynindəki paltarını cırıb dedi: «O,
Allaha küfr etdi! Artıq şahidlərə nə
ehtiyacımız var? Elə indi Onun küfr
söylədiyini eşitdiniz! 66 Bəs buna nə
deyirsiniz?» Onlar cavab verib dedilər:
«O, ölüm cəzasına layiqdir».
67 [b]Elə bu vaxt İsanın üzünə tüpürüb
yumruq vurdular. Bəziləri də Ona şillə
vuraraq 68 dedilər: «Ey Məsih, bizə
peyğəmbərlik elə görək, Səni vuran
kimdir?»

Peter İsanı inkar edir

(Mark 14:66-72; Luka 22:56-62; Yəh. 18:15-18,25-27)

69 Peter isə bayırda, həyətdə
oturmuşdu. Bir qarabaş ona yaxınlaşıb
dedi: «Sən də Qalileyalı İsa ilə birlikdə
idin». 70 Amma Peter hamının qarşısında
inkar edərək dedi: «Bilmirəm, sən nə
danışırsan». 71 Sonra darvazaya gələndə
başqa bir qarabaş onu görüb oradakılara
dedi: «Bu adam Nazaretli İsa ilə birlikdə
idi». 72 Peter yenə inkar edib and
içdi: «Mən o Adamı tanımıram».
73 Bir az sonra orada duranlar gəlib
Peterə dedilər: «Doğrudan da, sən də
onlardansan, çünki nitqin səni ifşa
edir». 74 Peter özünü qarğıyıb and içərək
dedi: «O Adamı tanımıram».
Həmin anda xoruz banladı. 75 Peter
İsanın «xoruz banlamazdan əvvəl sən
Məni üç dəfə inkar edəcəksən» dediyi
sözü yadına saldı. Ona görə oradan
çıxıb hönkür-hönkür ağladı.

[†]**26:55** *Oturub* – bəzi əlyazmalarda *sizinlə birgə oturub.*
[‡]**26:59** *Kahinlər* – bəzi əlyazmalarda *kahinlər, ağsaqqallar.*
[§]**26:64** *Qüdrətli Olan* – yəni Allah.

[x]**26:55** Luka 19:47; 21:37 [y]**26:60** Yəh. 2:19 [z]**26:64** Dan. 7:13
[a]**26:65** Lev. 24:16 [b]**26:67** Yeş. 50:6

Yəhuda özünü asır

(Mark 15:1; Luka 23:1-2; Yəh. 18:28; Həv. 1:18-19)

27 Səhər açılanda bütün başçı kahinlərlə xalqın ağsaqqalları İsanı edam etmək üçün məşvərət etdilər. 2 İsanın əl-qolunu bağlayaraq vali Pilatın yanına aparıb ona təslim etdilər.

3 O zaman İsaya xəyanət edən Yəhuda Onun məhkum edildiyini görəndə peşman oldu. Otuz gümüşü başçı kahinlərə və ağsaqqallara geri gətirib 4 «mən təqsirsiz qanı təslim etməklə günah işlətdim» dedi. Onlarsa ona «Bundan bizə nə? Özün bilərsən» dedilər. 5 Yəhuda gümüş pulları məbədin içinə atıb oradan çıxdı, gedib özünü asdı.

6 Başçı kahinlər gümüş pulları götürüb dedilər: «Madam ki qan bahasıdır, bu gümüş pulları məbədin xəzinəsinə qoymağa icazəmiz yoxdur». 7 Öz aralarında məşvərət keçirərək o pulla yadelliləri dəfn etmək üçün dulusçunun tarlasını satın aldılar. 8 Buna görə o tarlaya bu günə qədər «Qan tarlası» deyilir. 9 [c]Beləcə Yeremya peyğəmbər vasitəsilə söylənən bu söz yerinə yetdi:

> «İsrail övladlarının qiymətləndirdiyi Adamın dəyərini – otuz gümüşü aldılar 10 və Rəbbin mənə buyurduğu kimi dulusçunun tarlası üçün verdilər».

İsa Romalı vali Pilatın önündə

(Mark 15:2-15; Luka 23:3-5,13-25; Yəh. 18:29–19:16)

11 İsa valinin önündə dayanmışdı. Vali Ondan «Yəhudilərin Padşahı Sənsənmi?» deyə soruşdu. İsa da ona dedi: «Sənin dediyin kimidir». 12 Başçı kahinlər və ağsaqqallar Onu ittiham etdikləri vaxt İsa heç bir cavab vermədi. 13 Onda Pilat Ona dedi: «Sənin əleyhinə edilən bu qədər şəhadəti eşitmirsənmi?» 14 İsa onun heç bir sözünə cavab vermədi. Vali buna çox heyrətləndi.

15 Hər Pasxa bayramında valinin xalqın istədiyi bir məhbusu azad etməsi adət idi. 16 O günlərdə Barabba adlı məşhur bir məhbus həbsdə saxlanılırdı. 17 Beləliklə, onlar bir yerə toplaşdıqları vaxt Pilat onlardan soruşdu: «Sizin üçün kimi azad etməyimi istəyirsiniz? Barabbanı, yoxsa Məsih deyilən İsanı?» 18 Çünki bilirdi ki, onlar İsanı paxıllıqdan təslim etmişdilər.

19 Pilat hökm kürsüsündə oturarkən arvadı «o saleh Adamla sənin heç bir işin olmasın, çünki bu gün röyada Ona görə çox əzablar çəkmişəm» deyə xəbər göndərdi.

20 Başçı kahinlər və ağsaqqallarsa xalqı təhrik edirdilər ki, Barabbanın azad olmasını, İsanınsa ölümünü istəsinlər. 21 Vali onlardan soruşdu: «İkisindən hansını sizin üçün azad etməyimi istəyirsiniz?» Onlar da «Barabbanı» dedilər. 22 Pilat onlara «Elə isə Məsih deyilən İsaya nə edim?» dedi. Onların hamısı «Çarmıxa çəkilsin!» dedilər. 23 Vali «Axı O nə pislik edib?» deyə soruşdu. Onlarsa «Çarmıxa çəkilsin!» deyə daha ucadan bağırdılar.

24 [d]Pilat əlindən heç bir şeyin gəlmədiyini və əksinə, iğtişaşın gücləndiyini görərək su götürüb xalqın önündə əllərini yudu və belə dedi: «Mən bu Adamın* qanı üçün təqsirkar deyiləm, qoy sizin boynunuzda qalsın». 25 Bütün xalq cavab verib dedi: «Onun qanının məsuliyyəti bizim və övladlarımızın üzərinə olsun!» 26 Onda Pilat onlar üçün Barabbanı azad etdi.

---

*27:24 *Adamın* – bəzi əlyazmalarda *saleh Adamın.*

[c]27:9 Zək. 11:12-13 [d]27:24 Qanun. 21:6-9

İsanı isə qamçılatdıqdan sonra çarmıxa
çəkilməyə təslim etdi.

Əsgərlər İsanı təhqir edir

(Mark 15:16-20; Yəh. 19:2-3)

27 Sonra valinin əsgərləri İsanı vali
sarayına apardılar. Bütün alayı Onun
başına topladılar. 28 Onu soyundurub al
rəngli xalat geyindirdilər. 29 Tikanlardan
bir tac hörüb başına qoydular, sağ
əlinə də bir qamış verdilər. Önündə
diz çöküb «Yəhudilərin Padşahı sağ
olsun!» deyərək Onu ələ saldılar. 30 Ona
tüpürdülər, qamışı götürüb başına
vurdular. 31 Onu ələ salandan sonra
xalatı əynindən çıxarıb Öz paltarını
geyindirdilər. Sonra Onu çarmıxa
çəkməyə apardılar.

İsa çarmıxa çəkilir

(Mark 15:21-32; Luka 23:26-43; Yəh. 19:17-25)

32 Bayıra çıxanda Şimon adlı Kirenalı
bir adamla rastlaşdılar. Onu İsanın
çarmıxını daşımağa məcbur etdilər.
33 Qolqota, yəni «Kəllə yeri» adlanan
yerə gələndə 34 Ona içməyə ödlə qarışıq
şərab verdilər. İsa onu daddıqda içmək
istəmədi. 35 [e]Əsgərlər* Onu çarmıxa
çəkdilər və püşk ataraq paltarlarını
aralarında bölüşdürdülər. 36 Sonra
orada oturub Onun keşiyini çəkdilər.
37 Başı üzərinə «Yəhudilərin Padşahı
İsa budur» ittihamını yazıb qoydular.
38 O zaman İsa ilə birlikdə biri sağında,
biri də solunda iki quldur da çarmıxa
çəkildi.
39 [f]Gəlib-keçənlər başlarını yırğalayıb
Ona böhtan ataraq 40 [g]«Ey məbədi
dağıdıb üç gündə tikən! Əgər Allahın
Oğlusansa, Özünü xilas et və çarmıxdan
düş!» deyirdilər. 41 Başçı kahinlər
də ilahiyyatçılar və ağsaqqallarla
birgə eyni şəkildə İsanı ələ salaraq
deyirdilər: 42 «Başqalarını xilas edirdi,
amma Özünü xilas edə bilmir! İsrailin
Padşahıdır, qoy indi çarmıxdan düşsün
və biz də Ona iman edək. 43 [h]Allaha
güvənirdi. Allah Onu sevirsə, qoy
indi xilas etsin! Çünki "Mən Allahın
Oğluyam" dedi». 44 İsa ilə birlikdə
çarmıxa çəkilən quldurlar da Onu təhqir
edirdilər.

İsanın ölümü

(Mark 15:33-41; Luka 23:44-49; Yəh. 19:25-30)

45 Altıncı saatdan† doqquzuncu saata
qədər‡ bütün yer üzünə qaranlıq çökdü.
46 [i]Doqquzuncu saata yaxın İsa uca səslə
nida edərək dedi:
«Eli, Eli, lema şabaqtani?»
Bu «Ey Allahım, Allahım, niyə Məni
tərk etdin?» deməkdir. 47 Orada
dayananların bəzisi bunu eşidərkən
dedilər: «Bu Adam İlyası çağırır».
48 [j]Aralarından biri dərhal qaçıb bir
süngər gətirdi, şərab sirkəsinə batırıb
bir qamışın ucuna keçirərək İsaya verdi
ki, içsin. 49 O biriləri isə dedilər: «Onu
rahat burax, görək İlyas gəlib Onu xilas
edəcəkmi?» 50 İsa yenə uca səslə qışqırıb
ruhunu tapşırdı.
51 [k]O anda məbədin pərdəsi
yuxarıdan aşağıya qədər iki yerə
parçalandı. Yer sarsıldı, qayalar yarıldı.
52 Qəbirlər açıldı, vəfat etmiş bir çox
müqəddəsin cəsədi dirildi. 53 Onlar

---

*__27:35__ *Əsgərlər* – bəzi əlyazmalarda *Peyğəmbərin dediyi «aralarında paltarlarımı bölüşdürdülər, geyimim üçün püşk atdılar» sözü yerinə yetsin deyə əsgərlər* (Yəh. 19:24).
†__27:45__ *Altıncı saat* – hazırkı vaxtla günorta saat on iki.
‡__27:45__ *Doqquzuncu saat* – hazırkı vaxtla günortadan sonra saat üç.

[e]__27:35__ Zəb. 22:18 [f]__27:39__ Zəb. 22:7; 109:25 [g]__27:40__ Mat. 26:61; Yəh. 2:19
[h]__27:43__ Zəb. 22:8 [i]__27:46__ Zəb. 22:1 [j]__27:48__ Zəb. 69:21 [k]__27:51__ Çıx. 26:31-33

İsanın dirilməsindən sonra qəbirlərdən
çıxıb müqəddəs şəhərə* girdilər və bir
çox insana göründülər.
54 İsaya nəzarət edən yüzbaşı
və onunla birlikdə olan əsgərlər
zəlzələni və baş verən şeyləri gördükdə
«doğrudan da, bu Adam Allahın Oğlu
idi» deyərək dəhşətə düşdülər.
55 [l]Orada olub-keçənlərə uzaqdan
baxan bir çox qadın var idi ki, xidmət
etmək üçün Qalileyadan İsanın ardınca
gəlmişdilər. 56 Məcdəlli Məryəm, Yaqub
ilə Yusifin anası Məryəm və Zavdayın
oğullarının anası da onların arasında
idi.

İsanın dəfni

(Mark 15:42-47; Luka 23:50-56; Yəh. 19:38-42)

57 Axşam düşəndə İsanın şagirdi
olmuş varlı bir adam – Yusif adlı bir
Arimateyalı gəldi. 58 O, Pilatın yanına
gedib İsanın cəsədini istədi. Pilat da
cəsədin ona verilməsini əmr etdi.
59 Yusif cəsədi alıb təmiz bir kəfənə
bükdü. 60 Onu qaya içində qazdığı öz
yeni qəbrinə qoydu və qəbirin ağzına
bir iri daş yuvarlayıb getdi. 61 Məcdəlli
Məryəm və o biri Məryəm orada,
qəbirin qarşısında oturmuşdular.
62 [m]Ertəsi gün, yəni Hazırlıq
günündən† sonrakı gün başçı kahinlərlə
fariseylər Pilatın yanına toplaşıb
63 dedilər: «Ağa, biz xatırlayırıq ki, o
yalançı hələ sağ ikən "üç gün sonra
diriləcəyəm" demişdi. 64 Ona görə
də əmr et ki, üçüncü günə qədər
qəbirin təhlükəsizliyi qorunsun. Yoxsa
şagirdləri gəlib‡ Onu oğurlayar və xalqa
"O, ölülər arasından dirildi" deyərlər.
Axırıncı yalan birincisindən daha pis
olar». 65 Pilat onlara dedi: «Bir dəstə
keşikçi götürün, gedin, bacardığınız
kimi qəbirin təhlükəsizliyini qoruyun».
66 Onlar gedib qəbirin qarşısında keşikçi
dəstəsi qoydular və qəbir daşına möhür
basdılar. Beləliklə, qəbirin təhlükəsizliyi
qorundu.

İsanın dirilməsi

(Mark 16:1-11; Luka 24:1-12; Yəh. 20:1-18)

28 Şənbə günü keçəndən sonra,
həftənin ilk günü§ səhər dan
yeri ağaranda Məcdəlli Məryəm və o
biri Məryəm qəbiri görməyə gəldilər.
2 Budur, böyük bir zəlzələ oldu. Çünki
Rəbbin bir mələyi göydən enib gələrək
daşı bir tərəfə yuvarladı və üzərində
oturdu. 3 Onun görünüşü şimşək kimi,
paltarı isə qar kimi ağ idi. 4 Keşikçilər
qorxudan titrəyib ölü kimi oldular.
5 Mələk qadınlara müraciət edərək dedi:
«Siz qorxmayın! Çarmıxa çəkilmiş İsanı
axtardığınızı bilirəm. 6 O burada yoxdur,
dediyi kimi dirilmişdir! Gəlin, Onun**
yatdığı yeri görün. 7 Tez gedin, Onun
şagirdlərinə belə söyləyin: "İsa ölülər
arasından dirildi. Qalileyaya sizdən
qabaq gedir. Onu orada görəcəksiniz".
Budur, mən sizə xəbər verdim».
8 Qadınlar qorxu və böyük sevinclə
dərhal qəbirdən çıxdılar. Onun
şagirdlərinə xəbər verməyə qaçdılar.

---

*27:53 *Müqəddəs şəhərə* – yəni Yerusəlimə.
†27:62 *Hazırlıq günü* – yəni Yəhudilərdə müqəddəs sayılan Şənbə günü üçün hazırlıq görülən cümə günü.
‡27:64 *Gəlib* – bəzi əlyazmalarda *gecə gəlib.*
§28:1 *Həftənin ilk günü* – yəni bazar günü.
**28:6 *Onun* – bəzi əlyazmalarda *Rəbbin.*

[l]27:55 Luka 8:2-3
[m]27:62 Mat. 16:21; 17:23; 20:19; Mark 8:31; 9:31; 10:32-34; Luka 9:22; 18:31-33

9 Amma* budur, İsa «Sizə salam!»
deyə onların qarşısına çıxdı. Onlar da
yaxınlaşıb İsanın ayaqlarına sarılaraq
Ona səcdə qıldılar. 10 İsa onlara dedi:
«Qorxmayın! Gedin, qardaşlarıma xəbər
verin ki, Qalileyaya getsinlər. Məni
orada görəcəklər».

Keşikçilərin gətirdiyi xəbər

11 Qadınlar hələ yolda ikən
keşikçilərdən bəzisi şəhərə gəlib baş
verən bütün şeyləri başçı kahinlərə
bildirdilər. 12 Onlar ağsaqqallarla
toplaşıb məşvərət keçirdikdən sonra
əsgərlərə çoxlu pul verib dedilər:
13 «Deyərsiniz ki, şagirdləri gecə biz
yatanda gəlib Onu oğurlayıblar. 14 Əgər
bu xəbər valinin qulağına gedib çatsa,
biz onu inandırarıq, sizi də bəladan
qurtararıq». 15 Beləliklə, əsgərlər pulu
alıb tapşırıldığı kimi etdilər. Bu söz
bu günə kimi Yəhudilər arasında
yayılmışdır.

İsa şagirdlərinə tapşırıq verir

(Mark 16:14-18; Luka 24:36-49; Yəh. 20:19-23; Həv. 1:6-8)

16 [n]On Bir şagird Qalileyaya, İsanın
onlara təyin etdiyi dağa getdi. 17 İsanı
gördükdə Ona səcdə qıldılar. Bəzisi isə
şübhə etdi. 18 İsa yaxınlaşıb onlara dedi:
«Göydə və yer üzündə bütün səlahiyyət
Mənə verilmişdir. 19 Beləliklə, gedin,
bütün millətləri Mənim şagirdim edin;
onları Ata, Oğul və Müqəddəs Ruh
adı ilə vəftiz edin; 20 sizə əmr etdiyim
hər şeyə riayət etməyi onlara öyrədin.
Budur, Mən dövrün sonuna qədər hər
gün sizinləyəm».

---

*28:9 *Amma* – bəzi əlyazmalarda *Amma onlar Onun şagirdlərinə xəbər verməyə gedərkən.*

n28:16 Mat. 26:32; Mark 14:28

MARKIN

NƏQL ETDİYİ MÜJDƏ

GİRİŞ

«Markın nəql etdiyi Müjdə» «Allahın Oğlu İsa Məsihin Müjdəsinin başlanğıcı» bəyanatı ilə başlayır. İsa burada fəal və səlahiyyətə malik olan Şəxs kimi təsvir olunur.

Onun səlahiyyəti öyrətdiyi təlimdə, cinlərə qalib gəlməsində və insanların günahlarının bağışlanmasında aşkara çıxır. İsa Özü barəsində deyirdi ki, «Bəşər Oğlunun yer üzündə günahları bağışlamaq səlahiyyəti var» (2:10).

Mark İsadan danışarkən Onun barəsində açıq, çox qüdrətli tərzdə nəql edir. O, İsanın dediklərindən və təlimindən daha çox Onun etdiyi işləri vurğulayır. Vəftizçi Yəhyanın meydana çıxması, İsanın vəftizi və sınağa çəkilməsi barədə qısaca giriş verən müəllif dərhal İsanın şəfa vermə xidmətinə və təlim verməsinə keçir. Vaxt getdikcə İsanın ardıcılları Onu daha yaxşı başa düşür, İsanın rəqibləri isə Ona qarşı daha da çox nifrət hissi ilə dolur. Son fəsillər İsanın yer üzündə son həftəsini, xüsusilə, Onun çarmıxa çəkilməsini və dirilməsini təsvir edir.

Kitabın məzmunu:

1:1-13 Müjdənin başlanğıcı

1:14–9:50 İsanın Qalileyada ictimai xidməti

10:1-52 Qalileyadan Yerusəlimə

11:1–15:47 İsanın Yerusəlimdəki son günləri

16:1-8 İsanın dirilməsi

16:9-20 Dirilmiş Rəbbin görünməsi və göyə qaldırılması

Vəftizçi Yəhyanın gəlişi

(Mat. 3:1-12; Luka 3:1-18; Yəh. 1:19-28)

1 Allahın Oğlu İsa Məsihin Müjdəsinin
başlanğıcı.
2 [o]Yeşaya peyğəmbərin kitabında belə
yazılıb:
«Budur, Sənin önündə Öz elçimi
göndərirəm.
O Sənin yolunu hazırlayacaq.
3 [p]Səhrada nida edənin səsi gəlir:
“Rəbbin yolunu hazırlayın,
Onun keçəcəyi yerləri düz edin”».
4 Yazıldığı kimi vəftiz edən Yəhya
çöldə meydana çıxdı. O, insanların
günahlarının bağışlanması üçün onların
tövbə edib vəftiz olunmasını vəz edirdi.
5 Bütün Yəhudeya diyarından olanlar
və Yerusəlim sakinlərinin hamısı onun
yanına gəlirdi. Onlar günahlarını etiraf
edərək onun tərəfindən İordan çayında
vəftiz olunurdular. 6 [q]Yəhya dəvə
yunundan paltar geymiş, belinə dəri
qurşaq bağlamışdı, çəyirtkə və çöl balı
yeyirdi.
7 Yəhya belə vəz edirdi: «Məndən
sonra məndən daha Qüdrətlisi gəlir.
Mən əyilib Onun çarıqlarının bağını
açmağa belə, layiq deyiləm. 8 Mən
sizi su ilə vəftiz etdim, amma O sizi
Müqəddəs Ruhla vəftiz edəcək».

İsanın vəftiz olunması və sınağa çəkilməsi

(Mat. 3:13–4:11; Luka 3:21-22; 4:1-13)

9 O günlərdə İsa Qalileyanın Nazaret
şəhərindən gəlib Yəhya tərəfindən
İordan çayında vəftiz olundu. 10 İsa
sudan çıxan kimi göylərin yarıldığını
və Ruhun göyərçin kimi Öz üzərinə
endiyini gördü. 11 [r]Göylərdən bir səda
gəldi: «Sən Mənim sevimli Oğlumsan,
Səndən razıyam».

---

[o]**1:2** Mal. 3:1 [p]**1:3** Yeş. 40:3 [q]**1:6** 2Pad. 1:8

[r]**1:11** Zəb. 2:7; Yeş. 42:1; Mat. 3:17; 12:18; Mark 9:7; Luka 3:21-22

12 Ruh dərhal İsanı səhraya
çəkib-apardı. 13 O, səhrada qırx gün
qaldı və bu müddət ərzində Şeytan
tərəfindən sınağa çəkildi. İsa vəhşi
heyvanlar arasında idi və mələklər Ona
xidmət edirdi.

İsa xidmətinə başlayır

(Mat. 4:12-17; Luka 4:14-15)

14 Yəhya həbs olunandan sonra İsa
Qalileyaya gəlib Allahın Müjdəsini*
vəz edirdi: 15 s«Vaxt yetişib, Allahın
Padşahlığı yaxınlaşıb. Tövbə edin və
Müjdəyə inanın».

İlk şagirdlər

(Mat. 4:18-22; Luka 5:1-11)

16 İsa Qalileya gölünün sahilindən
keçərkən suya tor atan Şimonu və
qardaşı Andreyi gördü. Bu adamlar
balıqçı idi. 17 İsa onlara dedi: «Ardımca
gəlin, Mən sizi elə balıqçı edəcəyəm
ki, insan tutacaqsınız». 18 Onlar dərhal
torları kənara atıb Onun ardınca
getdilər. 19 İsa bir az irəli gedib Zavday
oğlu Yaqubu və qardaşı Yəhyanı gördü.
Onlar qayıqda torlarını düzəldirdilər.
20 İsa dərhal onları çağırdı. Onlar da
qayıqda olan ataları Zavdayı və muzdlu
işçiləri qoyub Onun ardınca getdilər.

İsa Kefernahum sinaqoqunda natəmiz ruhu qovur

(Luka 4:31-37)

21 Onlar Kefernahuma gəldilər.
Şənbə günü İsa sinaqoqa girib təlim
öyrətməyə başladı. 22 tOnun təliminə
təəccüblənirdilər, çünki onlara
ilahiyyatçılar kimi deyil, səlahiyyət
sahibi kimi təlim öyrədirdi. 23 Həmin
vaxt onların sinaqoqunda natəmiz
ruha tutulmuş bir nəfər var idi. O
çığırdı: 24 «Ey Nazaretli İsa, bizdən
nə istəyirsən? Bizi məhv etməyəmi
gəlmisən? Mən bilirəm, Sən Kimsən:
Allahın Müqəddəsisən!» 25 Amma
İsa ona qadağan edib dedi: «Sus və
bu adamdan çıx!» 26 Natəmiz ruh
bu adamı sarsıdıb bərkdən çığıraraq
ondan çıxdı. 27 Hamını heyrət bürüdü
və onlar bir-birindən soruşdular: «Bu
nədir? Səlahiyyətli yeni bir təlimdir! O,
natəmiz ruhlara belə, əmr edir və bunlar
da Ona itaət edirlər». 28 İsa haqqında
xəbər dərhal Qalileya bölgəsinin hər
tərəfinə yayıldı.

İsa çox adama şəfa verir

(Mat. 8:14-17; Luka 4:38-41)

29 Onlar sinaqoqdan çıxan kimi Yaqub
və Yəhya ilə birgə Şimon və Andreyin
evinə getdilər. 30 Şimonun qayınanası
qızdırma içində yatırdı. Bunu dərhal
İsaya xəbər verdilər. 31 İsa xəstənin
yanına gəlib əlindən tutaraq onu
qaldırdı və qadının qızdırması düşdü.
Qadın onlara xidmət etməyə başladı.
32 Axşam gün batanda bütün xəstələri
və cinə tutulmuşları İsanın yanına
gətirdilər. 33 Bütün şəhər əhalisi qapının
yanına yığıldı. 34 İsa müxtəlif xəstəliyə
tutulan çox adama şəfa verdi və bir çox
cinləri qovdu. Amma cinlərə danışmağa
izin vermədi, çünki onlar İsanın Kim
olduğunu bilirdilər.

İsa vəzini davam etdirir

(Luka 4:42-44)

35 Səhər alaqaranlıqda İsa qalxıb
evdən çıxdı və kimsəsiz bir yerə gedib
orada dua etdi. 36 Şimon və onun
yanındakılar İsanın ardınca düşdülər.
37 Onu tapıb dedilər: «Hamı Səni
axtarır». 38 İsa onlara dedi: «Gəlin
başqa yerlərə – ətrafdakı şəhərlərə
gedək və orada da vəz edim, çünki Mən

*1:14 *Allahın Müjdəsini* – bəzi əlyazmalarda *Allahın Padşahlığının Müjdəsini.*

s1:15 Mat. 3:1-2 t1:22 Mat. 7:28-29

bunun üçün gəlmişəm». 39 [u]Beləliklə,
İsa onların sinaqoqlarında vəz edərək
və cinləri qovaraq bütün Qalileyanı
gəzib-dolaşdı.

İsa cüzamlıya şəfa verir

(Mat. 8:1-4; Luka 5:12-16)

40 Bir gün cüzamlı bir adam İsanın
yanına gəldi və diz çöküb yalvardı:
«Əgər istəsən, məni pak edə bilərsən».
41 İsanın ona rəhmi gəldi. Əlini uzadıb
ona toxundu və dedi: «İstəyirəm, pak
ol!» 42 Dərhal bu adam cüzamdan
sağalıb pak oldu, 43 İsa o an onu yola
salıb ciddi tapşıraraq 44 [v]belə dedi:
«Bax heç kəsə bir söz demə, lakin get,
özünü kahinə göstər. Hər kəsə şəhadət
olsun deyə cüzamdan paklandığın üçün
Musanın buyurduğu təqdimləri apar».
45 Lakin o çıxıb bu sözü vəz edərək hər
yanda yaymağa başladı. Ona görə də İsa
artıq heç bir şəhərə açıq girə bilmirdi,
amma kənarda, kimsəsiz yerlərdə qalır
və adamlar hər tərəfdən Onun yanına
gəlirdi.

İsa iflicə şəfa verir

(Mat. 9:1-8; Luka 5:17-26)

2 Bir neçə gün sonra İsa yenə
Kefernahuma gələndə Onun evdə
olma xəbəri yayıldı. 2 O qədər çox adam
yığıldı ki, qapının yanında durmağa
belə, yer qalmamışdı. İsa onlara
kəlamı vəz edirdi. 3 Adamlar dörd
nəfərin daşıdığı bir iflici Onun yanına
gətirdilər. 4 Amma böyük izdihama görə
onu İsaya yaxın gətirə bilmədilər. Ona
görə də İsa olan evin damını söküb yer
açandan sonra iflici yatdığı döşəklə
birgə aşağı endirdilər. 5 İsa onların
imanını görəndə iflic olan adama
dedi: «Oğlum, günahların bağışlandı».
6 Lakin orada oturan bəzi ilahiyyatçılar
ürəklərində belə düşündülər: 7 «Bu
Adam niyə belə danışır? Bu ki küfrdür!
Tək Allahdan başqa günahları kim
bağışlaya bilər?» 8 İsa dərhal onların
ürəyində nə fikirləşdiyini ruhən dərk
edib dedi: «Niyə ürəyinizdə belə
düşünürsünüz? 9 Bax hansı daha
asandır? İflicə "günahların bağışlandı"
deməkmi, yoxsa "Qalx, döşəyini götür
və yeri!" demək? 10 Lakin siz bilin ki,
Bəşər Oğlunun yer üzündə günahları
bağışlamaq səlahiyyəti var» və iflicə
dedi: 11 «Sənə deyirəm, qalx, döşəyini
götür və evinə get!» 12 Xəstə qalxdı
və dərhal döşəyini götürərək hamının
qarşısında çıxıb getdi. Hamı mat qaldı
və Allahı izzətləndirib dedi: «Biz heç
vaxt belə şey görməmişik».

Levi şagirdlərə qoşulur

(Mat. 9:9-13; Luka 5:27-32)

13 İsa yenə gölün sahilinə çıxdı.
Bütün izdiham Onun yanına toplaşdı
və O, camaata təlim öyrədirdi. 14 Yolu
keçəndə vergi yığılan yerdə oturan
Halfay oğlu Levini görüb ona dedi:
«Ardımca gəl». O da durub İsanın
ardınca getdi.
15 İsa Levinin evində süfrəyə oturanda
bir çox vergiyığanlarla günahkarlar
gəlib Onunla və şagirdləri ilə birgə
oturdular. Çünki İsanın ardınca
gedənlər çox idi. 16 Fariseylərdən olan
ilahiyyatçılar* İsanın günahkarlar və
vergiyığanlarla birgə yemək yediyini
görüb Onun şagirdlərinə dedilər: «O
niyə vergiyığanlar və günahkarlarla
birgə yemək yeyir?»† 17 İsa bunu
eşidəndə onlara dedi: «Sağlamların
deyil, xəstələrin həkimə ehtiyacı var.

---

*2:16 *Fariseylərdən olan ilahiyyatçılar* – bəzi əlyazmalarda *İlahiyyatçılar və fariseylər.*
†2:16 *Yemək yeyir* – bəzi əlyazmalarda *yeyib-içir.*

[u]1:39 Mat. 4:23; 9:35 [v]1:44 Lev. 14:1-32

Mən salehləri deyil, günahkarları
çağırmaq* üçün gəlmişəm».

Oruc barəsində sual

(Mat. 9:14-17; Luka 5:33-39)

18 Yəhyanın şagirdləri və fariseylər
oruc tuturdular. Bəzi adamlar İsanın
yanına gəlib soruşdular: «Nə üçün
Yəhyanın şagirdləri və fariseylərin
şagirdləri oruc tutur, amma Sənin
şagirdlərin oruc tutmur?» 19 İsa onlara
cavab verdi: «Bəy yanlarında olanda
sağdışı və soldışı oruc tutarmı? Nə
qədər ki bəy onların yanındadır, onlar
oruc tutmazlar. 20 Lakin bəyin onların
arasından aparılacağı günlər gələcək və
o zaman oruc tutacaqlar.
21 Heç kim köhnə paltara təzə
parçadan yamaq vurmaz. Yoxsa təzə
yamaq köhnə paltardan qopar və yırtıq
daha pis olar. 22 Heç kim təzə şərabı
köhnə tuluqlara doldurmaz. Yoxsa şərab
tuluqları partladar, həm şərab, həm
də tuluqlar zay olar. Təzə şərab təzə
tuluqlara doldurulmalıdır».

Şənbə günü haqqında təlim

(Mat. 12:1-8; Luka 6:1-5)

23 [w]Bir Şənbə günü İsa taxıl zəmiləri
arasından keçirdi. Şagirdləri yoldan
keçərkən sünbülləri qırmağa başladılar.
24 Fariseylər Ona dedilər: «Bəs niyə
onlar Şənbə günü qadağan olunan işləri
görürlər?» 25 [x]İsa onlara dedi: «Davud
və yanındakılar ac və möhtac olanda
nə etdiklərini heç oxumamısınızmı?
26 O, baş kahin Evyatarın dövründə
Allahın evinə girdi; kahinlərdən başqa
heç kəsə yeməyə icazə verilməyən
təqdis çörəklərini yedi, yanındakılara
da verdi». 27 Sonra İsa onlara dedi:
«İnsan Şənbə günü üçün deyil, Şənbə
günü insan üçün yaradılıb. 28 Bax Bəşər
Oğlu Şənbə gününün də Sahibidir».

Əli qurumuş adamın şəfası

(Mat. 12:9-14; Luka 6:6-11)

3 İsa yenə də sinaqoqa girdi. Orada
əli qurumuş bir adam var idi.
2 Bəzi adamlar İsanı ittiham etmək
məqsədi ilə Ona göz qoyurdular ki,
görsünlər, bu adama Şənbə günü şəfa
verəcək ya yox. 3 İsa əli qurumuş adama
dedi: «Qabağa çıx!» 4 Sonra İsa onlara
dedi: «Hansına icazə var, Şənbə günü
yaxşılıq, yoxsa pislik etməyə, kiminsə
canını xilas etməyə, yoxsa öldürməyə?»
Onlarsa susurdu. 5 İsa ətrafındakılara
qəzəblə baxdı və onların inadkar ürəkli
olduqlarına görə kədərlənib o adama
dedi: «Əlini uzat!» O, əlini uzatdı və əli
əvvəlki halına qayıtdı. 6 Fariseylər çıxıb
İsanı necə məhv etmək barədə dərhal
hirodçularla məsləhətləşdilər.

İsa xəstələrə şəfa verir

(Mat. 4:24-25; Luka 6:17-19)

7 İsa şagirdləri ilə birgə gölün bir
tərəfinə çəkildi. Onun ardınca isə
Qalileyadan böyük izdiham gəldi.
8 İsanın etdiklərini eşidəndə Onun
yanına Yəhudeyadan, Yerusəlimdən,
İdumeyadan, İordan çayının o biri
tayından, Sur və Sidon bölgəsindən
çoxlu adam gəldi. 9 [y]İsa izdiham Onu
sıxışdırmasın deyə şagirdlərindən
xahiş etdi ki, Onun üçün bir qayıq
hazırlasınlar. 10 Çünki O, çox adama
şəfa vermişdi. Buna görə bütün xəstələr
Ona toxunmaq üçün can atırdılar.
11 Natəmiz ruhlar İsanı görəndə önündə
yerə sərilib ucadan çığırırdılar: «Sən
Allahın Oğlusan!» 12 Lakin İsa onlara
qadağan etdi ki, Onun kim olduğunu
deməsinlər.

---

*2:17 *Çağırmaq* – bəzi əlyazmalarda *tövbəyə çağırmaq*.

[w]2:23 Qanun. 23:25 [x]2:25 Lev. 24:9; 1Şam. 21:1-6 [y]3:9 Mark 4:1; Luka 5:1-3

On İki şagird

(Mat. 10:1-4; Luka 6:12-16)

13 İsa dağa çıxaraq Özü istədiyi
adamları yanına çağırdı və onlar yanına
gəldilər. 14 İsa on iki nəfəri həvari
adlandıraraq* təyin etdi ki, bu adamlar
Onun yanında olsun, həm də onları
vəz etməyə göndərsin, 15 həmçinin
cinləri qovmaq† səlahiyyətinə malik
olsunlar. 16 Beləliklə, İsa bu on iki nəfəri
təyin etdi: Peter adlandırdığı Şimon,
17 Bene-Rageş, yəni «İldırım oğulları»
adlandırdığı Zavday oğlu Yaqub və
Yaqubun qardaşı Yəhya, 18 Andrey,
Filip, Bartalmay, Matta, Tomas, Halfay
oğlu Yaqub, Tadday, Kənançi‡ Şimon
19 və İsaya xəyanət edən Yəhuda
İskaryot.

İsa və Baal-Zevul

(Mat. 12:22-32; Luka 11:14-23)

20 Sonra İsa evə getdi.§ Yenə də
izdiham yığıldığına görə onlar yeməyə
belə, imkan tapa bilmədilər. 21 İsanın
ailə üzvləri bu barədə eşidəndə Onu
aparmağa gəldilər. Çünki fikirləşirdilər
ki, O, ağlını itirib. 22 zYerusəlimdən
gələn ilahiyyatçılar isə deyirdilər: «O,
Baal-Zevula tutulub, cinlərin başçısının
gücü ilə cinləri qovur».
23 İsa ilahiyyatçıları yanına çağırıb
onlarla bu barədə məsəllərlə danışdı:
«Şeytan Şeytanı necə qova bilər? 24 Əgər
bir padşahlıq öz daxilindən bölünübsə,
davam gətirməz. 25 Əgər bir ev öz
daxilindən bölünübsə, davam gətirməz.
26 Şeytan da özünə qarşı qalxıb öz-özünə
bölünübsə, davam gətirməz, yalnız
axırı çatar. 27 Heç kim güclü adamın
evinə girib əvvəlcə onun əl-qolunu
bağlamadan malını qarət edə bilməz.
Gərək o adamın əvvəlcə əl-qolunu
bağlasın, sonra evini qarət etsin.
28 aSizə doğrusunu deyirəm: bütün
günahlar və nə qədər küfr söylənərsə,
bəşər övladlarına bağışlanacaq. 29 Lakin
kim Müqəddəs Ruha küfr edərsə, heç
vaxt bağışlanmayacaq və günahı**
boynunda əbədi qalacaq». 30 İsa bunu
«Onda natəmiz ruh var» dediklərinə
görə söylədi.

İsanın anası və qardaşları kimdir?

(Mat. 12:46-50; Luka 8:19-21)

31 İsanın anası və qardaşları gəldi.
Onlar bayırda durdular və İsanın yanına
xəbər göndərib Onu çağırdılar. 32 Bir
kütlə adam İsanın ətrafında oturmuşdu.
Ona xəbər verdilər: «Budur, anan və
bacı-qardaşların†† bayırda dayanıb Səni
istəyirlər». 33 İsa onlara cavab verdi:
«Mənim anam və qardaşlarım kimdir?»
34 Sonra ətrafında oturanlara baxaraq
dedi: «Mənim anam və qardaşlarım
bunlardır. 35 Çünki kim Allahın iradəsini
yerinə yetirirsə, Mənim qardaşım, bacım
və anam odur».

Səpilən toxum məsəli

(Mat. 13:1-23; Luka 8:4-15)

4 bİsa gölün sahilində yenə xalqa
təlim öyrətməyə başladı. Yanına
elə böyük izdiham toplaşdı ki, Özü bir

---

*3:14 *Həvari adlandıraraq* – bəzi əlyazmalarda bu sözlər yoxdur.
†3:15 *Cinləri qovmaq* – bəzi əlyazmalarda *xəstəliklərə şəfa vermək və cinləri qovmaq.*
‡3:18 *Kənançı* – Romalılara qarşı müqəddəs müharibəyə hazırlaşan yəhudi millətçi təşkilatının üzvünə verilən ad.
§3:20 *İsa evə getdi* – bəzi əlyazmalarda *onlar evə getdilər.*
**3:29 *Günahı* – bəzi əlyazmalarda *məhkumiyyəti.*
††3:32 *Bacı-qardaşların* – bəzi əlyazmalarda *qardaşların.*

z3:22 Mat. 9:34; 10:25 a3:28 Luka 12:10 b4:1 Luka 5:1-3

qayığa minib gölün içərisində oturdu.
Bütün izdiham isə gölün sahilində
dayanmışdı. 2 İsa onlara məsəllərlə
bir çox şey öyrədərək Öz təlimində
belə dedi: 3 «Qulaq asın: bir əkinçi
toxum səpməyə çıxdı. 4 Səpin zamanı
toxumlardan bəzisi yol kənarına düşdü
və quşlar gəlib onları dənlədi. 5 Bəzisi
torpağı çox olmayan daş-kəsəkli yerə
düşdü. Torpağı dərin olmadığına görə
tez cücərdi. 6 Lakin günəş doğanda
qarsalandı və kökü olmadığına görə
qurudu. 7 Bəzisi tikanlar arasına düşdü.
Tikanlar böyüyüb onları boğdu və bu
toxumlar bar vermədi. 8 Başqaları isə
münbit torpağa düşdü. Ona görə də
böyüyüb artdı və bəzisi otuz, bəzisi
altmış, bəzisi də yüz qat səmərə verdi».
9 Daha sonra İsa dedi: «Eşitməyə qulağı
olan eşitsin!»

10 İsa tək qalanda On İki şagird və
ətrafında olanlar məsəllərin izahını
soruşdular. 11 O onlara dedi: «Allahın
Padşahlığının sirri sizə açılmışdır, amma
kənarda olanlara hər şey məsəllərlə
deyilir. 12 [c]Belə ki

"Gördükcə görsünlər, amma
qanmasınlar,
Eşitdikcə eşitsinlər, amma
anlamasınlar,
Yoxsa onlar dönüb bağışlanar"».

13 İsa onlara dedi: «Siz bu məsəli
anlamırsınızmı? Bəs bütün məsəlləri
necə başa düşəcəksiniz? 14 Əkinçi
Allahın kəlamını əkir. 15 Daxilinə kəlam
əkilən bəzi insanlar yol kənarına düşən
toxumlara bənzəyir. Bunlar kəlamı
eşidəndə dərhal Şeytan gəlib əkilən
kəlamı götürüb aparır. 16 Daş-kəsəkli
yerlərə səpilən bunlardır: kəlamı
eşidəndə dərhal sevinclə qəbul edirlər.
17 Lakin onlarda kök olmadığına görə
dözümləri az olur, kəlama görə əziyyət
və təqibə məruz qalan kimi yıxılırlar.
18 Tikanlar arasına səpilən başqaları
isə bunlardır: kəlamı eşidirlər, 19 lakin
bu dövrün qayğıları, var-dövlətin
aldadıcılığı və başqa şeylərə olan
ehtiraslar araya girib kəlamı boğur və
kəlam barsız olur. 20 Münbit torpağa
səpilənlərsə bunlardır: onlar kəlamı
eşidib qəbul edir, bəzisi otuz, bəzisi
altmış, bəzisi isə yüz qat səmərə verir».

Çıraq məsəli

(Luka 8:16-18)

21 [d]İsa onlara dedi: «Çırağı qabın
yaxud yatağın altına qoymaq üçünmü
gətirirsiniz? O, çıraqdana qoymaq üçün
deyilmi? 22 [e]Elə gizli bir şey yoxdur ki,
aşkara çıxmasın və elə örtülü bir şey
yoxdur ki, aydın olmasın. 23 Eşitməyə
qulağı olan eşitsin!»

24 [f]İsa yenə onlara dedi: «Eşitdiyinizə
diqqət edin: hansı ölçü ilə ölçsəniz,
sizin üçün də eyni ölçü ilə ölçüləcək və
daha artıq veriləcək. 25 [g]Çünki kimin
varıdırsa, ona daha çox veriləcək.
Amma kimin yoxudursa, əlində olan da
ondan alınacaq».

Cücərmiş toxum məsəli

26 Sonra İsa dedi: «Allahın Padşahlığı
torpağa toxum səpən əkinçiyə bənzəyir.
27 O, gecə yatır, gündüz qalxır. Toxum
cücərib boy atır, amma əkinçi bunun
necə baş verdiyini bilmir. 28 Torpaq özü
bar gətirir. Əvvəl cücərti çıxır, sonra
sünbül, daha sonra sünbülün dənləri
iriləşib yetişir. 29 [h]Məhsul yetişəndə
əkinçi dərhal oraq vurur, çünki biçin
vaxtı gəlmişdir».

---

[c]**4:12** Yeş. 6:9-10; Yəh. 12:39-40; Həv. 28:26-27 [d]**4:21** Mat. 5:15; Luka 11:33
[e]**4:22** Mat. 10:26; Luka 12:2 [f]**4:24** Mat. 7:2; Luka 6:38
[g]**4:25** Mat. 13:12; 25:29; Luka 19:26 [h]**4:29** Yoel 3:13; Yəh. 4:44

Xardal toxumu məsəli

(Mat. 13:31-32,34; Luka 13:18-19)

30 Sonra İsa belə dedi: «Allahın
Padşahlığını nəyə bənzədək? Onu
hansı məsəllə göstərək? 31 O, xardal
toxumuna bənzəyir ki, yer üzündə
torpağa əkilən toxumların ən kiçiyi olsa
da, 32 əkiləndən sonra böyüyüb bütün
bostan bitkilərindən hündür olur. O
qədər böyük qol-budaq atır ki, göydə
uçan quşlar onun kölgəsində yuva qura
bilər».
33 İsa xalqın başa düşəcəyi dərəcədə
buna bənzər çoxlu məsəllərlə kəlam
söyləyirdi; 34 onlara məsəlsiz söz
deməzdi. Amma Öz şagirdləri ilə tək
qalanda hər şeyi izah edirdi.

İsa tufanı yatırır

(Mat. 8:23-27; Luka 8:22-25)

35 Həmin gün axşam düşəndə İsa
şagirdlərinə dedi: «Gəlin o biri sahilə
keçək». 36 Şagirdlər camaatdan ayrılaraq
İsanı mindiyi qayıqla birgə apardılar;
onun yanında başqa qayıqlar da var
idi. 37 Bu vaxt böyük bir tufan qopdu.
Dalğalar qayığa elə hücum çəkdi ki, su
artıq onun içinə doldu. 38 İsa qayığın
arxa tərəfində başını yastığa qoyub
yatırdı. Şagirdlər Onu oyadaraq dedilər:
«Müəllim! Axı biz həlak oluruq! Bu Səni
narahat etmirmi?» 39 İsa durub küləyə
qadağan etdi və gölə dedi: «Sus, sakit
ol!» Külək dayandı və dərin sükut çökdü.
40 İsa onlara dedi: «Niyə qorxursunuz?
Hələ imanınız yoxdurmu?» 41 Onlar
dəhşətə düşüb bir-birindən soruşdular:
«Bu Adam kimdir ki, külək də, göl də
Ona itaət edir?»

Cinə tutulmuş adam sağaldılır

(Mat. 8:28-34; Luka 8:26-39)

5 Onlar gölün o biri sahilində
yerləşən Gerasalıların* diyarına
getdilər. 2 İsa qayıqdan düşən kimi
qəbir mağaralarından natəmiz ruha
tutulmuş bir adam Onunla qarşılaşdı.
3 O, mağaralarda yaşayırdı və heç
kim onu hətta zəncirləyərək saxlaya
bilmirdi. 4 Neçə dəfə ona buxov, zəncir
vurmuşdular, lakin o, zəncirləri qırmış,
buxovları parçalamışdı. Heç kəsin onu
sakit etməyə gücü çatmırdı. 5 Həmişə,
gecə-gündüz qəbiristanlıqda, dağlarda
çığırır və özünü daşlarla yaralayırdı.
6 O, İsanı uzaqdan görəndə qaçıb Ona
səcdə qıldı, 7 bərkdən çığıraraq dedi:
«Ey İsa, Allah-Taalanın Oğlu, məndən
nə istəyirsən? Səni and verirəm Allaha,
mənə iztirab vermə!» 8 Çünki İsa ona
demişdi: «Ey natəmiz ruh, bu adamdan
çıx!» 9 Sonra İsa ondan soruşdu: «Sənin
adın nədir?» O cavab verdi: «Mənim
adım Qoşundur, çünki biz çoxuq».
10 Ruhları bu diyardan qovmasın deyə
o, İsaya çox yalvardı.
11 Orada – dağın yamacında böyük
bir donuz sürüsü otlayırdı. 12 Natəmiz
ruhlar İsaya yalvardılar: «Bizi donuzlara
göndər ki, onların içinə girək». 13 İsa
onlara izin verdi. Natəmiz ruhlar
adamdan çıxıb donuzların içinə girdi.
İki min baş heyvandan ibarət sürü də
uçurumdan aşağı, gölə atılıb orada
boğuldu.
14 Donuz otaranlar qaçıb bu xəbəri
şəhər və kəndlərdə yaydılar. Camaat
nə baş verdiyinə tamaşa etməyə
gəldi. 15 Onlar İsanın yanına gəldilər,
əvvəlcə bir qoşun cinə tutulmuş adamın
geyinmiş və ağıllanmış oturduğunu
görüb qorxuya düşdülər. 16 Hadisəni
görənlər cinə tutulmuş adamın

---

*5:1 *Gerasalıların* – bəzi əlyazmalarda *Qadaralıların* (Mat. 8:28).

başına gələnlər və donuzlar haqqında
camaata söylədilər. 17 İsaya yalvarmağa
başladılar ki, onların bölgəsindən çıxsın.
18 İsa qayığa minəndə əvvəlcə cinə
tutulmuş adam Ona yalvardı ki, İsanın
yanında qalsın. 19 İsa ona izin vermədi,
amma dedi: «Evinə, qohum-əqrəbanın
yanına get, Rəbbin sənə etdiyi hər şeyi
və sənə necə mərhəmət göstərdiyini
onlara danış». 20 Bu adam da gedib
İsanın ona etdiyi hər şeyi Dekapolis
bölgəsində yaymağa başladı və hamı
heyrətləndi.

Qızın dirilməsi və qadının şəfa tapması

(Mat. 9:18-26; Luka 8:40-56)

21 İsa yenə qayıqla o biri sahilə
keçəndə yanına böyük bir izdiham
yığıldı. O, gölün sahilində idi. 22 Sinaqoq
rəislərindən Yair adlı bir adam gəlib
İsanı görəndə ayaqlarına düşdü. 23 Ona
çox yalvarıb dedi: «Qızcığazım can
üstündədir. Gəl əllərini onun üstünə
qoy ki, sağalıb yaşasın». 24 İsa da
onunla birlikdə getdi. Ardınca böyük
bir izdiham gedərək hər tərəfdən Onu
sıxışdırırdı.
25 Orada on iki il qanaxma xəstəliyinə
tutulan bir qadın var idi. 26 O, neçə
həkimin əlindən xeyli əzab çəkmiş,
bütün varını buna sərf etsə də, vəziyyəti
yaxşılaşmamış, daha da pisləşmişdi.
27 Bu qadın İsa haqqında eşidib
izdihamın içindən keçərək Onun
arxasından gəldi və Onun paltarına
toxundu. 28 Çünki bu cür düşünürdü:
«Heç olmasa paltarına toxunsam,
sağalaram». 29 Dərhal onun qanaxması
kəsildi və bildi ki, bədənindəki
xəstəlikdən sağaldı. 30 İsa dərhal bildi
ki, Ondan bir qüvvə çıxdı və izdihamın
içində dönüb soruşdu: «Paltarıma
toxunan kim idi?» 31 Şagirdləri Ona
cavab verdilər: «Görürsən ki, izdiham
Səni sıxışdırır. Necə soruşa bilərsən
ki, Mənə toxunan kim idi?» 32 Bunu
edəni görmək üçün İsa ətrafa baxdı.
33 Qadınsa özünə nə olduğunu bildi.
Qorxudan titrəyərək gəlib İsanın
ayağına düşdü və bütün həqiqəti Ona
söylədi. 34 İsa da ona dedi: «Qızım,
imanın səni xilas etdi. Arxayın get və
xəstəliyindən sağal».
35 İsa hələ danışırdı ki, sinaqoq
rəisinin evindən adamlar gəlib dedi:
«Qızın öldü. Daha Müəllimi niyə
narahat edirsən?» 36 Lakin İsa bu sözə
məhəl qoymayaraq* sinaqoq rəisinə
dedi: «Qorxma, yalnız iman et!» 37 O,
Peter, Yaqub və Yaqubun qardaşı
Yəhyadan başqa heç kimi ardınca
gəlməyə qoymadı. 38 Onlar sinaqoq
rəisinin evinə gələndə İsa çox hay-küy,
ağlaşıb nalə çəkənlər gördü. 39 İsa içəri
girəndə onlara dedi: «Niyə hay-küy
salıb ağlaşırsınız? Uşaq ölməyib,
sadəcə olaraq yatıb». 40 Onlar İsaya
güldülər. Belə olanda İsa hamını bayıra
çıxarandan sonra uşağın ata-anasını,
Özü ilə gələnləri götürüb uşaq olan yerə
girdi. 41 İsa uşağın əlindən tutub dedi:
«Talita qum!» Bunun mənası belədir:
«Qızcığaz, sənə deyirəm: qalx!» 42 On iki
yaşlı qız dərhal qalxıb gəzməyə başladı.
O an oradakılar tamamilə mat qaldı.
43 İsa onlara qadağan etdi ki, bunu heç
kəs bilməsin və sonra dedi ki, qıza
yemək versinlər.

İsa Öz yurdunda rədd edilir

(Mat. 13:53-58; Luka 4:16-30)

6 İsa oradan ayrılıb Öz yurduna gəldi.
Şagirdləri də Onun ardınca gəlirdi.
2 Şənbə günü olanda O, sinaqoqda
təlim öyrətməyə başladı. Onu dinləyən
adamların çoxu təəccüblənərək dedi:
«Bu Adamda belə şeylər haradandır?

---

*5:36 *Bu sözə məhəl qoymayaraq* – bəzi əlyazmalarda *bu sözü eşidib.*

Bu necə hikmətdir, Ona verilib? Bu cür
möcüzələr Onun əlindən necə gəlir? 3 Bu
Adam həmin dülgər deyilmi? Məryəmin
oğlu, Yaqubun, Yusifin, Yəhudanın və
Şimonun qardaşı deyilmi? Onun bacıları
burada – bizim aramızda yaşamırmı?»
Onların İsaya acığı tutdu. 4 [i]İsa onlara
dedi: «Bir peyğəmbərə öz yurdundan,
qohum-əqrəbaları arasından və öz
evindən başqa heç bir yerdə xor
baxmazlar». 5 Orada O heç bir möcüzə
yarada bilmədi, yalnız bir neçə xəstənin
üzərinə əl qoyub şəfa verdi. 6 İsa onların
imansızlığına heyrət edirdi. Sonra
ətraf kəndlərdə təlim öyrədərək oraları
gəzib-dolaşdı.

On İki şagirdə verilən vəzifə

(Mat. 10:1-15; Luka 9:1-6; 10:1-12)

7 İsa On İki şagirdi yanına çağırıb
onları iki-iki göndərməyə başladı
və onlara natəmiz ruhlar üzərində
səlahiyyət verdi. 8 [j]Onlara tapşırdı ki,
yol üçün əsadan başqa heç nə – nə
çörək, nə torba, nə də qurşaqlarında
pul götürsünlər, 9 ayaqlarına səndəl
geysələr də, əyinlərinə iki köynək
geyinməsinlər. 10 İsa onlara dedi:
«Harada bir evə girsəniz, çıxanacan
orada qalın. 11 [k]Harada sizi qəbul
etməyib sizə qulaq asmaq istəməzlərsə,
oradan ayrılarkən onlara qarşı şəhadət
olsun deyə ayaqlarınızın tozunu
çırpın».* 12 Onlar da yola düşdülər və
vəz edərək insanları tövbəyə çağırdılar.
13 [l]Çoxlu cin çıxartdılar, yağla məsh
edərək çox xəstəyə şəfa verdilər.

Yəhyanın edamı

(Mat. 14:1-12; Luka 9:7-9)

14 [m]Padşah Hirod da olanları eşitdi,
çünki İsanın adı tanınırdı. Adamlar
deyirdilər: «Vəftiz edən Yəhya ölülər
arasından dirilib. Buna görə də O,
möcüzələr yaradır». 15 Digərləri isə
deyirdilər: «Bu, İlyasdır». Bəziləri də
deyirdi: «Keçmişdəki peyğəmbərlərdən
birinə oxşar peyğəmbərdir». 16 Amma
Hirod bunu eşidəndə dedi: «Bu,
boynunu vurdurduğum Yəhyadır,
dirilib!»
17 [n]Hirod qardaşı Filipin arvadı
Hirodiyaya görə Yəhyanı tutduraraq
qollarını qandalladıb zindana
saldırmışdı. Çünki Hirod Hirodiyanı
özünə arvad olaraq almışdı 18 və
Yəhya Hiroda demişdi: «Qardaşının
arvadını almaq sənə qadağandır».
19 Hirodiya Yəhyaya qarşı kin saxlayıb
onu öldürmək niyyətinə düşmüşdü,
amma bunu edə bilmirdi. 20 Çünki Hirod
Yəhyanın saleh və müqəddəs bir adam
olduğunu bildiyinə görə ondan qorxub
onu qoruyurdu. Hirod ona qulaq asanda
çaşqınlığa düşdü,† buna baxmayaraq,
onu həvəslə dinləyirdi.
21 Bir gün Hirodiyanın əlinə yaxşı
bir fürsət düşdü. Hirod ad günündə
əyanlarına, minbaşılara və Qalileyanın
nüfuzlu şəxslərinə ziyafət verdi.
22 Ziyafət zamanı Hirodiyanın qızı‡
içəri daxil olub rəqs etdi. Bu, Hirodun
və qonaqlarının xoşuna gəldi. Padşah
qıza dedi: «Ürəyin istəyəni məndən
dilə, mən də sənə verim». 23 Sonra
möhkəm and içərək yenə dedi: «Məndən

*6:11 *Tozunu çırpın* – bəzi əlyazmalarda *tozunu çırpın. Sizə doğrusunu deyirəm: qiyamət günü Sodom və Homorranın halı o şəhərin halından daha asan olacaq* (Mat. 10:15).
†6:20 *Çaşqınlığa düşdü* – bəzi əlyazmalarda *çox məşğul idi.*
‡6:22 *Hirodiyanın qızı* – bəzi əlyazmalarda *Hirodun qızı Hirodiya.*

[i]**6:4** Mat. 13:57; Luka 4:24; Yəh. 4:44 [j]**6:8** Luka 10:4-11 [k]**6:11** Həv. 13:51
[l]**6:13** Yaq. 5:14 [m]**6:14** Mat. 16:14; Mark 8:28; Luka 9:19 [n]**6:17** Luka 3:19-20

hər nə istəsən, hətta padşahlığımın
yarısını belə, istəsən, sənə verəcəyəm».
24 Qız isə çıxıb anasından soruşdu:
«Mən nə istəməliyəm?» O cavab verdi:
«Vəftiz edən Yəhyanın başını». 25 Qız
o saat padşahın yanına qaçdı və öz
istəyini dedi: «İstəyirəm ki, Vəftizçi
Yəhyanın başını dərhal bir sini içində
mənə verəsən». 26 Padşahı dərin kədər
bürüdü, amma içdiyi andlara və
qonaqlara görə qızın sözünü yerə
salmaq istəmədi. 27 Padşah dərhal
bir cəllad göndərib Yəhyanın başını
gətirməyi əmr etdi. Cəllad gedib
zindanda Yəhyanın boynunu vurdu
28 və onun başını bir sini içində gətirib
qıza verdi. Qız da onu anasına verdi.
29 Yəhyanın şagirdləri isə bunu eşidəndə
gəlib onun cəsədini götürdülər və qəbirə
qoydular.

İsa beş min nəfəri doydurur

(Mat. 14:13-21; Luka 9:10-17; Yəh. 6:1-14)

30 Həvarilər İsanın yanına yığıldı
və gördükləri işlər, öyrətdikləri təlim
haqqında Ona nəql etdilər. 31 İsa
onlara dedi: «Gəlin kimsəsiz yerdə bir
az dincəlin». Çünki gəlib-gedən çox
olduğundan yemək yeməyə belə, vaxt
tapmırdılar.
32 Onlar da ayrılıb qayığa minərək hər
biri təkbaşına kimsəsiz bir yerə getdilər.
33 Gedərkən camaat onları gördü və
çoxu tanıdı; bütün şəhərlərdən axışıb
piyada getdilər, onlardan qabaq oraya
çatdılar.* 34 [o]İsa sahilə düşəndə böyük
bir izdiham gördü və onlara rəhmi
gəldi. Çünki onlar çobansız qoyunlara
bənzəyirdi. İsa onlara çox şeylər
haqqında təlim öyrətməyə başladı.
35 Vaxt keçirdi. Şagirdləri gəlib İsaya
dedilər: «Bura çöllükdür, artıq gecdir.
36 Camaatı burax, qoy gedib ətrafdakı
kənd və obalardan özlərinə bir şey
alıb yesinlər».† 37 Amma İsa onlara
cavab verdi: «Onlara yeməyi siz verin».
Şagirdlər İsaya dedilər: «Bəlkə gedib
iki yüz dinarlıq çörək alaq və onlara
verək ki, yesinlər?» 38 Amma İsa onlara
dedi: «Gedin baxın, neçə çörəyiniz var?»
Onlar da baxıb dedilər: «Beş çörəyimiz
və iki balığımız var». 39 İsa onlara əmr
etdi ki, camaatı dəstə-dəstə göy otların
üstündə oturtsunlar. 40 Camaat yüz-yüz,
əlli-əlli dəstə şəklində oturdu. 41 İsa
beş çörəyi və iki balığı götürüb göyə
baxaraq şükür duası etdi. Sonra çörəyi
bölüb şagirdlərinə verdi ki, camaata
paylasınlar. İki balığı da hamıya
bölüşdürdü. 42 Hamı yeyib-doydu.
43 Artıq qalan çörək və balıq hissələrini
yığdılar, on iki zənbil doldu. 44 Çörəkləri
yeyən kişilərin sayı beş min nəfər idi.

İsa suyun üstü ilə yeriyir

(Mat. 14:22-33; Yəh. 6:15-21)

45 Bundan dərhal sonra İsa camaatı
evlərinə göndərərkən şagirdlərini də
məcbur etdi ki, qayığa minib Özündən
əvvəl o biri sahilə – Bet-Saydaya
keçsinlər. 46 İsa camaatı yola salandan
sonra dua etmək üçün dağa çıxdı.
47 Axşam olanda qayıq gölün ortasında
idi. Amma İsa quruda tək dayanmışdı.
48 O gördü ki, şagirdləri güclə avar
çəkir, çünki külək onlara qarşı əsirdi.
Gecənin dördüncü növbəsi‡ İsa gölün
üstü ilə yeriyərək onların yanına gəldi

---

*6:33 *Çatdılar* – bəzi əlyazmalarda *çatdılar və İsanın başına yığıldılar.*
†6:36 *Özlərinə bir şey alıb yesinlər* – bəzi əlyazmalarda *özlərinə çörək alsın, çünki yeməyə bir şeyləri yoxdur.*
‡6:48 *Gecənin dördüncü növbəsi* – hazırkı vaxtla səhər saat üç ilə altı arası.

[o]6:34 Say. 27:17; 1Pad. 22:17; 2Saln. 18:16; Yez. 34:5; Zək. 10:2; Mat. 9:36

və onları keçmək istədi. 49 Şagirdlərsə
İsanın gölün üstü ilə yeridiyini görəndə
Onu bir kabus bilib qışqırdılar. 50 Çünki
hamı Onu görüb lərzəyə düşmüşdü.
Lakin bu anda İsa onlara müraciət
edib dedi: «Cəsarətli olun, Mənəm,
qorxmayın!» 51 Qayığa minib onlara
qoşuldu. Külək də sakitləşdi. Hamı
tamamilə mat qaldı. 52 Çünki inadkar
ürəkli olduqlarına görə çörəklə bağlı işi
hələ də başa düşməmişdilər.

İsa Ginesarda xəstələrə şəfa verir

(Mat. 14:34-36)

53 İsa və şagirdlər gölü keçib Ginesar
sahilinə çatdılar və qayığı bağladılar.
54 Onlar qayıqdan düşən kimi camaat
İsanı tanıdı 55 və qaçıb ətraf yerləri
gəzib-dolaşdılar. İsanın harada
olduğunu eşidəndə xəstələri yataqlar
üstündə oraya gətirməyə başladılar.
56 İsanın getdiyi hər yerdə – kəndlərdə,
şəhərlərdə, obalarda xəstələri gətirib
meydanlara qoyurdular. Xəstələr
heç olmasa İsanın paltarının ətəyinə
toxunmaq üçün yalvarırdılar. Ona
toxunanların hamısı sağalırdı.

İnsanı murdar edən nədir?

(Mat. 15:1-20)

7 Fariseylər və Yerusəlimdən
gələn bəzi ilahiyyatçılar İsanın
yanına yığıldı. 2 Onlar gördülər ki,
İsanın şagirdlərindən bəzisi murdar
əllərlə, yəni əllərini yumamış çörək
yeyir.* 3 Fariseylər və bütün Yəhudilər
ağsaqqallardan qalan adət-ənənəyə əməl
edərək əllərini yaxşı-yaxşı yumadan
yemək yeməzlər. 4 Onlar bazardan
gələndə yuyunmadan heç nə yeməzlər.
Həmçinin bir sıra başqa adət-ənənələrə
də əməl edərlər. Belə ki onlar kasaları,
dolçaları, tunc qazanları və yataqları†
yuyub paklayarlar. 5 Fariseylər və
ilahiyyatçılar İsadan soruşdular: «Nə
üçün şagirdlərin ağsaqqallardan qalan
adət-ənənəyə görə yaşamayaraq murdar
əllərlə çörək yeyirlər?» 6 [p]İsa onlara
dedi: «Yeşaya peyğəmbər siz ikiüzlülər
üçün nə yaxşı söyləyib! Yazıldığı kimi:

"Bu xalq dodaqları ilə Mənə hörmət
edir,
Amma qəlbləri Məndən uzaqdır.
7 Boş yerə Mənə səcdə edirlər,
İnsan əmrlərindən çıxardıqları
təlimləri öyrədirlər".

8 Siz Allahın əmrini atıb insan
adət-ənənəsini tutursunuz».‡ 9 Sonra
İsa onlara dedi: «Öz adət-ənənənizi
bərqərar etmək§ üçün Allahın
əmrini kənara atmağı necə də yaxşı
bacarırsınız! 10 [q]Çünki Musa belə
əmr etdi: "Ata-anana hörmət et" və
"Atasını yaxud anasını söyən adam
öldürülməlidir". 11 Sizsə deyirsiniz: "Bir
adam atasına yaxud anasına ‹məndən
umduğun yardım qurban oldu›, yəni
‹Allaha həsr olundu› desə", 12 onda
həmin adama izin vermirsiniz ki,
ata-anasına yardım etsin. 13 Bununla
da siz nəsildən-nəslə ötürdüyünüz
adət-ənənənizlə Allahın kəlamını heç
edirsiniz. Axı buna bənzər çox işlər
görürsünüz».

14 İsa yenə camaatı yanına çağırıb
onlara dedi: «Hamınız Mənə qulaq

---

*7:2 *Yeyirlər* – bəzi əlyazmalarda *yeyirlər. Onlara irad tutdular.*

†7:4 *Dolçaları, mis qazanları və yataqları* – bəzi əlyazmalarda *dolçaları və mis qazanları.*

‡7:8 *Tutursunuz* – bəzi əlyazmalarda *tutursunuz. Dolçaları və kasaları yuyub paklayır və buna bənzər çox işlər görürsünüz.*

§7:9 *Bərqərar etmək* – bəzi əlyazmalarda *saxlamaq.*

[p]**7:6** Yeş. 29:13 [q]**7:10** Çıx. 20:12; 21:17; Lev. 20:9; Qanun. 5:16

asın və dərk edin. 15 Kənardan insanın
daxilinə girən şey insanı murdar edə
bilməz. Amma insanı murdar edən
şeylər daxilindən çıxanlardır». 16 *
17 İsa camaatdan ayrılıb evə gələndə
şagirdləri bu məsəl barəsində Ondan
soruşdular. 18 İsa onlara cavab verdi:
«Siz də hələ dərk etməmisiniz? Başa
düşmürsünüz ki, kənardan insanın
daxilinə girən şey insanı murdar edə
bilməz? 19 Çünki daxil olan şeylər onun
ürəyinə deyil, qarnına gedir və ifraz
olunur». İsa bununla bütün yeməklərin
təmiz olduğunu bəyan etdi. 20 O, sözünə
davam etdi: «İnsanı murdar edən
insandan çıxandır. 21 Çünki insanların
daxilindən, ürəyindən pis fikirlər,
cinsi əxlaqsızlıq, oğurluq, qatillik,
22 zinakarlıq, tamahkarlıq, şər əməllər,
hiylə, pozğunluq, paxıllıq, küfr, lovğalıq
və ağılsızlıq çıxar. 23 Bütün bu pis işlər
insan daxilindən çıxıb onu murdar
edir».

Finikiyalı qadının imanı

(Mat. 15:21-28)

24 İsa oradan ayrılıb Sur bölgəsinə†
getdi. O bir evə girdi və istəmədi ki,
harada olduğunu bilən olsun. Amma
bunu gizlədə bilmədi. 25 Bir qadının
azyaşlı qızı natəmiz ruha tutulmuşdu.
Qadın İsa haqqında xəbər tutan kimi
gəlib Onun ayaqlarına düşdü. 26 Bu
qadın Suriya Finikiyasında doğulmuş
bir Yunan idi. O, İsaya yalvardı ki,
qızından cini çıxartsın. 27 İsa ona dedi:
«Qoy əvvəl uşaqlar doysun, çünki
uşaqların çörəyini götürüb itlərə atmaq
düzgün olmaz». 28 Qadınsa Ona cavab
verdi: «Ya Rəbb, axı‡ itlər də uşaqların
süfrə altına tökdüyü qırıntılardan
yeyir». 29 İsa qadına dedi: «Get, sənin
bu sözünə görə cin qızını tərk etdi».
30 Qadın evinə gələndə gördü ki, qızı
yatağında uzanıb və cin ondan çıxıb.

Kar və pəltək bir adamın sağalması

31 İsa yenə Sur bölgəsindən çıxdı,
Sidonu keçdi və Dekapolis bölgəsindən
keçərək Qalileya gölünə çatdı. 32 Bir
kar və pəltək adamı İsanın yanına
gətirdilər və yalvardılar ki, əlini onun
üzərinə qoysun. 33 İsa həmin adamı
camaatdan ayırıb başqa bir yerə apardı
və barmaqlarını bu adamın qulaqlarına
qoydu, tüpürüb onun dilinə toxundu.
34 Göyə baxdı, ah çəkərək ona dedi:
«Effata!», yəni «Açıl!» 35 O anda bu
adamın həm qulaqları açıldı, həm
də dilinin bağlılığı düşdü və o aydın
danışmağa başladı. 36 İsa bunu görənlərə
qadağan etdi ki, bu barədə heç kimə
heç nə deməsinlər. Lakin nə qədər çox
qadağan etsə də, o qədər çox xəbər
yaydılar. 37 Hamı hədsiz təəccüblənərək
dedi: «Hər işin öhdəsindən yaxşı gəlir:
həm karların qulağını, həm də lalların
dilini açır».

İsa dörd min nəfəri doydurur

(Mat. 15:32-39)

8 O günlər yenə böyük izdiham
toplaşdı. Onların yeməkləri
olmadığı üçün İsa şagirdləri yanına
çağırıb dedi: 2 «Bu camaata yazığım
gəlir, çünki üç gündür ki, yanımdadırlar
və yeməyə heç nələri yoxdur. 3 Əgər
onları evlərinə ac yola salsam, yolda
taqətdən düşərlər. Onların bəzisi
uzaqdan gəlib». 4 Şagirdləri Ona cavab
verdilər: «Kimsə bu çöllükdə haradan
çörək tapa bilər ki, bu qədər insanı
doydursun?» 5 İsa onlardan soruşdu:
«Neçə çörəyiniz var?» Onlar dedilər:

---

*7:16 *Çıxanlardır* – bəzi əlyazmalarda *çıxanlardır.* 16 *Eşitməyə qulağı olan eşitsin!*
†7:24 *Sur bölgəsinə* – bəzi əlyazmalarda *Sur və Sidon bölgələrinə* (Mat. 15:21).
‡7:28 *Ya Rəbb, axı* – bəzi əlyazmalarda *Haqlısan, ya Rəbb! Amma* (Mat. 15:27).

«Yeddi». 6 Onda İsa camaata əmr etdi ki,
yerə otursunlar. Yeddi çörəyi götürdü
və şükür edərək bölüb paylamaq üçün
şagirdlərinə verdi. Şagirdlər də camaata
payladı. 7 Onların bir neçə kiçik balığı
da var idi və İsa şükür duası edəndən
sonra bunları da paylamağı əmr etdi.
8 Camaat yeyib-doydu. Artıq qalan
hissələri yığdılar, yeddi səbət doldu.
9 Orada dörd minə yaxın adam var idi.
İsa onları yola saldı. 10 O, şagirdləri ilə
birlikdə dərhal qayığa minib Dalmanuta
bölgəsinə getdi.

Fariseylərin və Hirodun mayası

(Mat. 12:38-39; 16:1-12)

11 [r]Fariseylər İsanın yanına gəlib
Onunla mübahisə etməyə başladılar.
Onu sınamaq üçün istədilər ki, göydən
gələn bir əlamət göstərsin. 12 [s]O,
ürəyində dərin bir ah çəkib dedi: «Niyə
bu nəsil əlamət axtarır? Sizə doğrusunu
deyirəm: bu nəslə heç bir əlamət
verilməyəcək». 13 Sonra onları tərk edib
yenə qayığa mindi və o biri sahilə tərəf
üzdü.

14 Şagirdləri çörək götürməyi yaddan
çıxarmışdılar. Qayıqda onların yalnız
bir dənə çörəyi var idi. 15 [t]İsa onlara
xəbərdarlıq edərək dedi: «Ehtiyatlı olun,
fariseylərin mayasından və Hirodun
mayasından özünüzü gözləyin».
16 Şagirdlər isə öz aralarında danışıb
deyirdilər: «Bunu çörəyimiz olmadığı
üçün deyir». 17 İsa bunu bilərək onlara
dedi: «Nə üçün çörəyinizin yoxluğundan
danışırsınız? Hələ dərk etmirsinizmi,
başa düşmürsünüzmü? Niyə ürəyiniz
inadkardır? 18 [u]Gözləriniz ola-ola
görmürsünüzmü? Qulaqlarınız ola-ola
eşitmirsinizmi? Məgər yadınızdan
çıxıb? 19 Mən beş çörəyi beş min nəfərin
arasında bölüb paylayanda yemək
tikələrindən neçə zənbil doldurdunuz?»
Onlar dedilər: «On iki». 20 «Yeddi
çörəyi dörd min nəfərin arasında bölüb
paylayanda çörək tikələrindən neçə
səbət doldurdunuz?» Onlar dedilər:
«Yeddi». 21 İsa onlara dedi: «Hələ başa
düşməmisinizmi?»

Bet-Saydada olan korun şəfa tapması

22 Onlar Bet-Saydaya gəldilər. Bəzi
adamlar İsanın yanına bir kor adam
gətirdilər və İsa bu adama toxunsun
deyə Ona yalvardılar. 23 İsa korun
əlindən tutub kənddən kənara apardı.
Sonra onun gözlərinə tüpürüb əllərini
onun üzərinə qoydu və soruşdu: «Bir şey
görürsənmi?» 24 Kor yuxarı baxıb dedi:
«Adamlar görürəm, ağaclara oxşayır,
amma yeriyirlər». 25 Onda İsa əllərini
yenidən bu adamın gözlərinin üstünə
qoydu. Kor adam gözlərini açıb baxdı.
O şəfa tapdı və hər şeyi aydın görməyə
başladı. 26 İsa onu evinə göndərdi və
dedi: «Kəndə belə, girmə».*

Peterin Məsihi tanıması

(Mat. 16:13-20; Luka 9:18-21)

27 İsa şagirdləri ilə birgə Filip
Qeysəriyyəsinin kəndlərinə tərəf
yollandı. Yolda şagirdlərindən soruşdu:
«Adamların dediyinə görə Mən
kiməm?» 28 [v]Şagirdləri Ona belə
cavab verdilər: «Bəziləri Vəftizçi
Yəhya, başqaları İlyas, digərləri isə
deyirlər ki, peyğəmbərlərdən birisən».
29 [w]İsa onlardan soruşdu: «Bəs siz nə
deyirsiniz? Sizcə Mən kiməm?» Peter
Ona cavab verdi: «Sən Məsihsən». 30 İsa

---

*__8:26__ *Girmə* – bəzi əlyazmalarda *girmə və orada heç kimə bir söz demə.*

[r]**8:11** Luka 11:16 [s]**8:12** Luka 11:29 [t]**8:15** Luka 12:1
[u]**8:18** Yeş. 6:9-10; Yer. 5:21; Yez. 12:2; Mark 4:12
[v]**8:28** Mark 6:14-15; Luka 9:7-8 [w]**8:29** Yəh. 6:68-69

şagirdlərinə qadağan etdi ki, Onun
haqqında heç kəsə danışmasınlar.

İsa ölüb-diriləcəyi barədə əvvəlcədən xəbər verir

(Mat. 16:21-28; Luka 9:22-27)

31 İsa onlara təlim öyrətməyə
başladı: «Bəşər Oğlu çox əzab
çəkməli, ağsaqqallar, başçı kahinlər
və ilahiyyatçılar tərəfindən rədd
edilməli, öldürülməli və üç gündən
sonra dirilməlidir». 32 İsa bu sözləri
aydın deyirdi. Peter isə Onu bir kənara
çəkib etiraz etməyə başladı. 33 Amma
İsa dönüb şagirdlərinə baxdı və Peterə
etiraz etdi: «Çəkil qarşımdan, Şeytan!
Sən Allahın işləri haqqında deyil, insan
əməlləri barəsində fikirləşirsən».
34 [x]İsa şagirdləri ilə birgə camaatı
da yanına çağırıb belə dedi: «Əgər bir
kəs Mənim ardımca gəlmək istəyirsə,
özündən imtina etsin və çarmıxını
götürüb ardımca gəlsin. 35 [y]Kim canını
xilas etmək istəyirsə, onu itirəcək,
amma kim Mənimlə Müjdə uğrunda
canını itirirsə, onu xilas edəcək.
36 İnsana bütün dünyanı qazanıb canını
itirməyinin nə xeyri var? 37 İnsan öz
canının əvəzinə nə verə bilər? 38 Bu
vəfasız və günahkar nəsil arasında
kim Məndən və Mənim sözlərimdən
utanarsa, Bəşər Oğlu da Atasının izzəti
içində müqəddəs mələklərlə birgə
gələndə o adamdan utanacaq».
9 İsa onlara dedi: «Sizə doğrusunu
deyirəm: burada duranlardan bəzisi
Allahın Padşahlığının qüdrətli gəlişini
görmədən ölməyəcək».

İsanın görünüşü dəyişir

(Mat. 17:1-13; Luka 9:28-36)

2 [z]Altı gündən sonra İsa Özü ilə
yalnız Peter, Yaqub və Yəhyanı
götürüb hündür bir dağa çıxdı. Onların
qarşısında görünüşü dəyişdi. 3 Onun
libası göz qamaşdırıcı ağ rəng aldı.
Yer üzündə heç bir paltar təmizləyən
onu belə ağ edə bilməzdi. 4 O an İlyas
və Musa onlara göründü. Onlar İsa
ilə söhbət edirdi. 5 Peter sözə başlayıb
İsaya dedi: «Rabbi! Nə yaxşı ki biz
buradayıq. Gəl üç çardaq quraq, biri
Sənin, biri Musa, biri də İlyas üçün».
6 O bilmirdi ki, nə desin, çünki onları
dəhşət bürümüşdü. 7 [a]Bu zaman bir
bulud onların üzərinə kölgə saldı.
Buluddan bir səs gəldi: «Bu Mənim
sevimli Oğlumdur, Ona qulaq asın!»
8 Birdən ətrafa baxanda artıq yanlarında
İsadan başqa kimsəni görmədilər.
9 Dağdan enərkən İsa şagirdlərinə
qadağan etdi ki, Bəşər Oğlu ölülər
arasından dirilənə qədər orada
gördüklərini heç kimə deməsinlər.
10 Onlar da bu sözü ürəklərində
saxladılar, amma bir-birlərindən
soruşdular ki, ölülər arasından dirilmək
nə deməkdir. 11 [b]Ondan soruşdular:
«Elə isə niyə ilahiyyatçılar deyirlər ki,
əvvəlcə İlyas gəlməlidir?» 12 İsa onlara
belə dedi: «Düzdür, əvvəlcə İlyas gəlib
hər şeyi yoluna qoymalıdır. Bəs Bəşər
Oğlu barəsində nə üçün yazılıb ki, O,
çox əzab çəkib alçaldılmalıdır? 13 Lakin
sizə deyirəm: artıq İlyas gəldi və
haqqında yazıldığı kimi, nə istədilərsə,
onun başına gətirdilər».

---

[x]**8:34** Mat. 10:38; Luka 14:27 [y]**8:35** Mat. 10:39; Luka 17:33; Yəh. 12:25
[z]**9:2** 2Pet. 1:17-18 [a]**9:7** Mat. 3:17; Mark 1:11; Luka 3:21-22
[b]**9:11** Mal. 4:5; Mat. 11:14

Oğlandan cin çıxarılır

(Mat. 17:14-20; Luka 9:37-43)

14 Onlar şagirdlərin yanına gələndə
böyük bir izdihamın toplaşdığını və bir
neçə ilahiyyatçının şagirdlərlə mübahisə
etdiyini gördülər. 15 İsanı görən kimi
bütün izdihamı heyrət bürüdü və
qarşısına qaçıb Onu salamladılar.
16 İsa adamlardan soruşdu: «Onlarla nə
barədə mübahisə edirsiniz?» 17 Camaat
arasından biri Ona cavab verdi:
«Müəllim! Mən Sənin yanına lallıq
ruhuna tutulmuş oğlumu gətirmişəm.
18 Ruh onu harada tutursa, yerə çırpır,
uşağın ağzı köpüklənir, dişlərini qıcıdır
və qıc olur. Şagirdlərindən xahiş
etdim ki, bu ruhu qovsunlar, amma
bacarmadılar». 19 İsa da cavabında
onlara dedi: «Ey imansız nəsil! Nə
vaxta qədər sizinlə qalacağam? Nə
vaxta qədər sizə dözəcəyəm? Uşağı
yanıma gətirin!» 20 Uşağı Onun yanına
gətirdilər və İsanı görən kimi ruh
dərhal uşağı sarsıtdı. Uşaq yerə yıxılıb
yuvarlanırdı və ağzından köpük daşırdı.
21 İsa onun atasından soruşdu: «Bu uşaq
nə vaxtdan belə hala düşüb?» Uşağın
atası dedi: «Körpəlikdən bəri. 22 Bu ruh
onu həlak etmək üçün dəfələrlə oda
və suya atıb. Amma bacarırsansa, bizə
kömək et, bizə rəhmin gəlsin!» 23 İsa
ona dedi: «"Bacarırsansa" nə sözdür?*
İman edən üçün hər şey mümkündür!»
24 Uşağın atası dərhal fəryad qopararaq
dedi: «İman edirəm,† kömək et ki,
imansızlığım yox olsun!» 25 İsa camaatın
qaçıb gəldiyini görəndə natəmiz ruha
qadağan edib dedi: «Ey lallıq və karlıq
ruhu, Mən sənə əmr edirəm, bu uşağın
içindən çıx və bir daha ora girmə!»
26 Ruh çığırıb uşağı sarsıdaraq çıxdı.
Uşaq ölü kimi düşdü və çoxları dedi: «O
öldü!» 27 Lakin İsa uşağın əlindən tutub
qaldırdı və o, ayağa qalxdı.
28 İsa evə girəndən sonra şagirdləri
təklikdə Ondan soruşdular: «Bəs nə
üçün biz o ruhu qova bilmədik?» 29 İsa
onlara cavab verdi: «Bu cür ruhlar
yalnız dua ilə‡ çıxa bilər».

İsa ölüb-diriləcəyi barədə yenə xəbər verir

(Mat. 17:22-23; Luka 9:43-45)

30 Onlar oranı tərk edib Qalileyadan
keçirdilər. İsa istəmirdi ki, kimsə bundan
xəbər tutsun. 31 Çünki şagirdlərinə təlim
öyrədirdi. Onlara belə deyirdi: «Bəşər
Oğlu insan əllərinə təslim ediləcək
və Onu öldürəcəklər. Öldürüldükdən
üç gün sonra O diriləcək». 32 Lakin
şagirdlər bu sözü başa düşmədilər və
Ondan soruşmaqdan da qorxurdular.

Ən böyük kimdir?

(Mat. 18:1-9; Luka 9:46-50; 17:1-2)

33 Onlar Kefernahuma gəldilər. İsa
evdə olanda şagirdlərdən soruşdu: «Yol
boyu nə barədə mübahisə edirdiniz?»
34 [c]Heç kim dillənmədi, çünki yol boyu
öz aralarında kimin ən böyük olması
barədə mübahisə etmişdilər. 35 [d]İsa
oturub On İki şagirdi yanına çağıraraq
dedi: «Əgər bir kəs birinci olmaq
istəyirsə, hamıdan axırıncı və hamının
xidmətçisi olsun». 36 [e]O, balaca bir uşağı
götürüb şagirdlərin arasına qoydu və
sonra uşağı qucağına alıb onlara dedi:

---

*__9:23__ *"Bacarırsansa" nə sözdür?* – bəzi əlyazmalarda *İman edə bilirsənsə.*
†__9:24__ *Dedi: «İman edirəm* – bəzi əlyazmalarda *göz yaşları içində dedi: «Ya Rəbb, iman edirəm.*
‡__9:29__ *Dua ilə* – bəzi əlyazmalarda *dua və orucla.*

[c]__9:34__ Luka 22:24 [d]__9:35__ Mat. 20:26-27; 23:11; Mark 10:43-44; Luka 22:25-26
[e]__9:36__ Mat. 10:40; Luka 10:16; Yəh. 13:20

37 «Kim Mənim adımla belə uşaqlardan
birini qəbul edərsə, Məni qəbul edər.
Kim Məni qəbul edərsə, Məni yox, Məni
Göndərəni qəbul edər».
38 Yəhya Ona dedi: «Müəllim,
biz Sənin adınla* cinləri qovan bir
nəfəri gördük, amma bizim ardımızca
gəlmədiyinə görə ona mane olduq».
39 İsa onlara dedi: «Ona mane olmayın!
Elə bir adam yoxdur ki, Mənim adımla
möcüzə göstərsin və sonra Məni
pisləsin. 40 [f]Çünki əleyhimizə olmayan
bizim tərəfimizdədir. 41 [g]Məsihə məxsus
olduğunuz üçün kim sizə bir kasa su
içirdərsə, sizə doğrusunu deyirəm:
mükafatsız qalmayacaq.
42 Kim Mənə iman edən bu kiçiklərdən
birini pis yola çəkərsə, öz boynuna
böyük bir dəyirman daşı asıb dənizə
atılmaq onun üçün daha yaxşı olar.
43 [h]Əgər əlin səni pis yola çəkərsə, onu
kəs. Sənin əbədi həyata şikəst olaraq
daxil olmağın iki əllə cəhənnəmə,
sönməz oda düşməyindən yaxşıdır.
44 †45 Əgər ayağın səni pis yola çəkərsə,
onu kəs. Sənin əbədi həyata topal olaraq
daxil olmağın iki ayaqla cəhənnəmə
atılmağından yaxşıdır. 46 ‡47 [i]Əgər
gözün səni pis yola çəkərsə, onu çıxart.
Sənin tək gözlə Allahın Padşahlığına
daxil olmağın iki gözlə cəhənnəmə
atılmağından yaxşıdır. 48 [j]Oradakıları
gəmirən qurd ölmür və oranın yanar
odu sönmür. 49 [k]Çünki hamı odla
duzlanacaq.§ 50 [l]Duz yaxşı şeydir, amma
əgər duz dadsız olarsa, ona nə ilə dad
vermək olar? Qoy sizdə duz və aranızda
da sülh olsun».

Boşanma haqqında

(Mat. 19:1-12)

10 İsa oradan ayrılıb Yəhudeya
bölgəsinə və İordan çayının o
biri tayına getdi. Yenə çoxlu adam
Onun başına yığıldı və O, adətinə görə
yenidən təlim öyrətməyə başladı.
2 Bəzi fariseylər İsanın yanına gəlib
Onu sınamaq üçün belə bir sual
verdilər: «Kişinin öz arvadını boşamağa
icazəsi varmı?» 3 İsa onlara cavab verdi:
«Musa sizə nə əmr etdi?» 4 [m]Onlar
dedi: «Musa kişiyə talaq kağızını
yazıb arvadını boşamağa icazə verdi».
5 İsa da onlara belə dedi: «O bu əmri
ürəyiniz inadkar olduğuna görə yazdı.
6 [n]Allah yaradılışın başlanğıcından
“onları kişi və qadın olaraq yaratdı”.
7 [o]“Buna görə də kişi ata-anasını tərk
edib arvadına qovuşacaq 8 və ikisi bir
bədən olacaq”. Artıq onlar iki deyil, bir
bədəndir. 9 Buna görə də qoy Allahın
birləşdirdiyini insan ayırmasın».
10 Onlar evdə olarkən şagirdlər İsaya
bu barədə yenə sual verdilər. 11 [p]İsa
onlara belə cavab verdi: «Arvadını
boşayıb başqası ilə evlənən kəs arvadına
münasibətdə zina edir. 12 Ərindən

---

*9:38 *Sənin adınla* – bəzi əlyazmalarda *ardımızca gəlmədən Sənin adınla.*

†9:44 *Yaxşıdır* – bəzi əlyazmalarda *yaxşıdır.* 44 *Oradakıları gəmirən qurd ölmür və oranın yanar odu sönmür* (Mark 9:48).

‡9:46 *Cəhənnəmə atılmağından yaxşıdır* – bəzi əlyazmalarda *cəhənnəmə, sönməz oda atılmağından yaxşıdır.* 46 *Oradakıları gəmirən qurd ölmür və oranın yanar odu sönmür* (Mark 9:43,48).

§9:49 *Duzlanacaq* – bəzi əlyazmalarda *duzlanacaq. Hər qurban da duzlanacaq.*

[f]**9:40** Mat. 12:30; Luka 11:23 [g]**9:41** Mat. 10:42 [h]**9:43** Mat. 5:30 [i]**9:47** Mat. 5:29 [j]**9:48** Yeş. 66:24 [k]**9:49** Lev. 2:13 [l]**9:50** Mat. 5:13; Luka 14:34-35 [m]**10:4** Qanun. 24:1-4; Mat. 5:31 [n]**10:6** Yar. 1:27; 5:2 [o]**10:7** Yar. 2:24 [p]**10:11** Mat. 5:32; Luka 16:18; 1Kor. 7:10-11

boşanıb başqasına gedən qadın da zina
edir».

İsa uşaqlara xeyir-dua verir

(Mat. 19:13-15; Luka 18:15-17)

13 Adamlar uşaqları İsanın yanına
gətirirdilər ki, İsa onlara toxunsun.
Şagirdlərsə onlara qadağan etdilər.
14 Bunu görən İsa acıqlanaraq onlara
dedi: «Uşaqları buraxın, qoy Mənim
yanıma gəlsinlər! Onlara mane olmayın!
Çünki Allahın Padşahlığı belələrinə
məxsusdur. 15 [q]Sizə doğrusunu deyirəm:
kim Allahın Padşahlığını bir uşaq kimi
qəbul etməsə, oraya əsla daxil ola
bilməz». 16 Sonra uşaqları qucaqlayıb
əllərini onların üzərinə qoydu və
xeyir-dua verdi.

Var-dövlət və Allahın Padşahlığı

(Mat. 19:16-30; Luka 18:18-30)

17 İsa yola çıxarkən bir nəfər
qaça-qaça Onun yanına gəldi. Onun
qarşısında diz çökərək soruşdu: «Ey
yaxşı Müəllim, mən nə etməliyəm ki,
əbədi həyatı irs olaraq alım?» 18 İsa ona
dedi: «Mənə niyə yaxşı deyirsən? Tək
Allahdan başqa yaxşısı yoxdur. 19 [r]Onun
əmrlərini bilirsən: “Qətl etmə. Zina
etmə. Oğurluq etmə. Yalandan şahidlik
etmə. Kimisə aldatma. Ata-anana
hörmət et”». 20 Bu adamsa İsaya
dedi: «Müəllim, bunların hamısına
gəncliyimdən bəri riayət edirəm». 21 İsa
ona məhəbbətlə baxaraq dedi: «Sənin
bir şeyin çatışmır: get nəyin varsa, satıb
yoxsullara payla. Onda göydə xəzinən
olacaq. Sonra qayıt,* Mənim ardımca
gəl». 22 Bunu eşidən adam pərt oldu.
Kədərlənib getdi, çünki var-dövləti çox
idi.
23 İsa ətrafındakılara baxdı və
şagirdlərinə dedi: «Var-dövləti olanların
Allahın Padşahlığına daxil olması nə
qədər çətindir!» 24 Onun sözlərindən
şagirdləri heyrət bürüdü. Amma
İsa yenə onlara cavab verib dedi:
«Övladlarım, Allahın Padşahlığına
daxil olmaq† nə qədər çətindir!
25 Dəvənin iynə gözündən keçməsi
varlı adamın Allahın Padşahlığına
daxil olmasından asandır». 26 Onlar
daha da təəccüblənərək bir-birlərinə
dedilər: «Elə isə, kim xilas ola bilər?»
27 İsa onlara baxıb dedi: «Bu, insanlar
üçün qeyri-mümkündür, amma Allah
üçün yox. Çünki Allah üçün hər şey
mümkündür».
28 Peter Ona belə deməyə başladı:
«Bax biz hər şeyi qoyub Sənin ardınca
gəlmişik». 29 İsa cavab verdi: «Sizə
doğrusunu deyirəm: Mənimlə Müjdə
uğrunda ya evini ya qardaşlarını ya
bacılarını ya anasını ya atasını ya
uşaqlarını və yaxud tarlalarını atan elə
bir kəs yoxdur ki, 30 indi bu dövrdə
çəkdiyi əzab-əziyyətlə birgə bundan
yüz qat artıq evlər, qardaşlar, bacılar,
analar, uşaqlar, tarlalar, gələcək dövrdə
isə əbədi həyat almasın. 31 [s]Amma
birinci olanların çoxu axırıncı, axırıncı
olanlarsa birinci olacaq».

İsa ölüb-diriləcəyi barədə üçüncü dəfə xəbər verir

(Mat. 20:17-19; Luka 18:31-34)

32 Onlar yola çıxıb Yerusəlimə
gedirdilər. İsa onların qabağında
gedirdi. Şagirdləri isə heyrət

---

*__10:21__ *Qayıt* – bəzi əlyazmalarda *qayıt, çarmıxını götür* (Mark 8:34).
†__10:24__ *Allahın Padşahlığına daxil olmaq* – bəzi əlyazmalarda *var-dövlətinə bel bağlayanlar üçün Allahın Padşahlığına daxil olmaq.*

[q]__10:15__ Mat. 18:2-3 [r]__10:19__ Çıx. 20:12-16; Qanun. 5:16-20
[s]__10:31__ Mat. 20:16; Luka 13:30

bürümüşdü, Onun ardınca gələnlər
qorxu içində idi. İsa On İki şagirdi
yenə bir tərəfə çəkib başına gələcək
hadisələr barədə danışmağa başladı:
33 «Bax Yerusəlimə qalxırıq, Bəşər
Oğlu başçı kahinlərə və ilahiyyatçılara
təslim olunacaq. Onu ölümə məhkum
edib başqa millətlərə təslim edəcəklər.
34 Onlar Bəşər Oğlunu ələ salacaq, Ona
tüpürəcək və qamçılayıb öldürəcəklər.
O, üç gündən sonra diriləcək».

Kim üstündür?

(Mat. 20:20-28)

35 Zavdayın oğulları Yaqub və Yəhya
Ona yaxınlaşıb dedilər: «Müəllim,
istəyirik ki, dilədiyimizi bizim üçün
edəsən». 36 İsa onlardan soruşdu: «Nə
istəyirsiniz, sizin üçün edim?» 37 Onlar
İsaya dedilər: «Sən izzətlənəndə qoy
birimiz sağında, o birimiz solunda
otursun». 38 [t]Amma İsa onlara dedi:
«Nə dilədiyinizi özünüz də bilmirsiniz.
Mənim içdiyim kasadan siz də içə
bilərsinizmi? Mənim vəftiz olduğum
kimi siz də vəftiz ola bilərsinizmi?»
39 Onlar dedilər: «Bilərik». İsa onlara
dedi: «Mənim içdiyim kasadan siz də
içəcəksiniz, Mənim vəftiz olduğum
kimi siz də vəftiz olacaqsınız. 40 Amma
sağımda və yaxud solumda oturmağa
izin vermək Məndən asılı deyil. Ora
kimlər üçün hazırlanıbsa, onlara
veriləcək».
41 Bunu eşidən on şagirdin Yaqubla
Yəhyaya acığı tutmağa başladı. 42 [u]Onda
İsa şagirdləri yanına çağırıb dedi:
«Bilirsiniz ki, millətlərin rəhbəri
sayılanlar onların üzərində hökmranlıq,
əyanları da onlara ağalıq edir. 43 Sizin
aranızda isə qoy belə olmasın. Sizlərdən
böyük olmaq istəyən xidmətçiniz
olsun. 44 Aranızda birinci olmaq istəyən
hamının qulu olsun. 45 Çünki Bəşər Oğlu
gəlmədi ki, Ona xidmət etsinlər, gəldi
ki, Özü xidmət etsin və çoxlarını satın
almaq üçün Öz canını fidyə versin».

Kor Bartimayın gözləri açılır

(Mat. 20:29-34; Luka 18:35-43)

46 Sonra onlar Yerixoya gəldilər. İsa
şagirdləri ilə birgə böyük izdihamla
Yerixodan çıxanda Timay oğlu Bartimay
adlı bir kor dilənçi yol kənarında
oturmuşdu. 47 Nazaretli İsanın orada
olduğunu eşitdikdə «Ey Davud Oğlu
İsa! Mənə rəhm elə!» deyə bağırmağa
başladı. 48 Çox adamsa ona qadağan
edib susdurmaq istədisə də, o «Ey
Davud Oğlu! Mənə rəhm elə!» deyə
daha ucadan bağırdı. 49 İsa dayanıb
dedi: «Onu çağırın». Onlar bu kor
adamı çağıraraq dedilər: «Cəsarətli ol,
qalx, O səni çağırır». 50 O, üst paltarını
üstündən atdı və yerindən sıçrayaraq
İsanın yanına gəldi. 51 İsa ondan
soruşdu: «Nə istəyirsən, sənin üçün
edim?» Kor adam Ona dedi: «Rabbuni,*
gözlərim açılsın». 52 İsa ona dedi: «Get,
imanın səni xilas etdi». Həmin an bu
adamın gözləri açıldı və o da İsanın
ardınca getdi.

İsanın Yerusəlimə girməsi

(Mat. 21:1-11; Luka 19:28-40; Yəh. 12:12-19)

11 Onlar Yerusəlimə yaxınlaşarkən
Zeytun dağının yamacındakı
Bet-Faqe ilə Bet-Anyaya gəldikləri
zaman İsa şagirdlərindən ikisini
göndərərək 2 onlara dedi: «Qarşınızdakı
kəndə gedin. Oraya girən kimi hələ
heç kəsin minmədiyi, bağlanmış bir
sıpa tapacaqsınız. Onu açıb buraya
gətirin. 3 Kim sizdən soruşsa: “Bunu nə
üçün edirsiniz?”, ona “bu sıpa Rəbbə

*10:51 *Rabbuni* – arami dilində *Müəllimim.*

[t]**10:38** Luka 12:50 [u]**10:42** Mat. 23:11; Mark 9:35; Luka 22:25-26

lazımdır, tezliklə yerinə qaytaracaq”
deyin».
4 Onlar getdilər. Küçədə bir evin
qapısının kənarına bağlanmış sıpa tapıb
onu açdılar. 5 Orada duran bəzi adamlar
onlardan soruşdu: «Nə edirsiniz? Bu
sıpanı nə üçün açırsınız?» 6 Şagirdlər
İsanın dediklərini onlara təkrarlayanda
o adamlar şagirdlərə imkan verdilər.
7 Onlar sıpanı İsanın yanına gətirdilər
və öz paltarlarını sıpanın üstünə
sərdilər. İsa sıpanın belinə mindi. 8 Bir
çoxu paltarlarını, bəzisi də ətrafdakı
ağaclardan kəsdikləri budaqları yola
döşədi. 9 [v]İsanın önündə gedənlər və
ardınca gələnlər belə nida edirdilər:
«Hosanna![*]
Rəbbin ismi ilə Gələnə alqış olsun!
10 Atamız Davudun gələn Padşahlığı
xeyir-dualı olsun!
Ən ucalarda hosanna!»
11 İsa Yerusəlimə daxil olub məbədə
girdi. O hər şeyə nəzər saldı. Sonra On
İki şagirdlə bərabər Bet-Anyaya getdi,
çünki artıq gec idi.

Barsız əncir ağacı

(Mat. 21:18-19; Luka 13:6-9)

12 Ertəsi gün onlar Bet-Anyadan
çıxdılar. O zaman İsa acmışdı. 13 Uzaqda
yarpaqlı bir əncir ağacı gördü və ağaca
yaxınlaşdı ki, bəlkə onda meyvə tapar.
Amma onun yanına gələndə ağacda
yarpaqdan başqa bir şey tapmadı,
çünki əncirin bar mövsümü deyildi.
14 Onda İsa ağaca dedi: «Qoy səndən bir
daha heç kəs meyvə yeməsin!» Bunu
şagirdləri də eşitdi.

İsa satıcıları məbəddən qovur

(Mat. 21:12-17; Luka 19:45-48; Yəh. 2:13-22)

15 Onlar Yerusəlimə gəldilər. İsa
məbədə girib orada alver edənləri
qovmağa başladı. Sərrafların masalarını
və göyərçin satanların kürsülərini
çevirdi, 16 heç kimi yük daşıyaraq
məbəd həyətlərindən keçməyə
qoymadı. 17 [w]Onlara təlim öyrədərək
dedi: «Məgər yazılmayıb ki,
“Mənim evim bütün xalqlar üçün
Dua evi adlandırılacaq”?
Amma siz onu “quldur yuvasına”
çevirmisiniz!» 18 Bunu eşidən başçı
kahinlər və ilahiyyatçılar İsanı öldürmək
üçün yol axtarırdılar. Çünki bütün xalq
Onun təliminə təəccübləndiyi üçün
Ondan qorxurdular. 19 Axşam olanda
İsa və şagirdləri şəhərdən kənara çıxdı.

İmanın gücü

(Mat. 21:20-22)

20 Səhər erkən onlar əncir ağacının
yanından keçəndə gördülər ki, ağac
kökündən quruyub. 21 Hadisəni
xatırlayan Peter İsaya dedi: «Rabbi,
bax lənətlədiyin əncir ağacı quruyub».
22 İsa cavab verib onlara dedi: «Allaha
imanınız olsun. 23 [x]Sizə doğrusunu
deyirəm: kim bu dağa “Qalx, dənizə
atıl!” deyərsə və ürəyində şübhə
etmədən dediyinin olacağına inanarsa,
onun üçün ediləcək. 24 Buna görə sizə
deyirəm: dua edib hər nə diləsəniz,
inanın ki, artıq almısınız[†] və istədiyiniz
sizin üçün ediləcək. 25 [y]Durub dua
edəndə kimdən narazılığınız varsa,

---

[*] **11:9** *Hosanna* – ibrani dilində *xilas et.* Nida kimi işlənir.
[†] **11:24** *Artıq almısınız* – bəzi əlyazmalarda *alırsınız.*

[v] **11:9** Zəb. 118:25-26 [w] **11:17** Yeş. 56:7; Yer. 7:11
[x] **11:23** Mat. 17:20-21; 1Kor. 13:2 [y] **11:25** Mat. 6:14-15; 18:35

bağışlayın ki, göylərdə olan Atanız da
təqsirlərinizi bağışlasın». 26 *

İsanın səlahiyyəti

(Mat. 21:23-27; Luka 20:1-8)

27 Onlar yenə Yerusəlimə gəldilər. İsa
məbəddə gəzən zaman başçı kahinlər,
ilahiyyatçılar və ağsaqqallar Ona
yaxınlaşıb 28 dedilər: «Sən bu işləri
hansı səlahiyyətlə edirsən? Bu işləri
görmək üçün Sənə bu səlahiyyəti kim
verib?» 29 İsa onlara belə cavab verdi:
«Mən də sizə bir sual verəcəyəm; ona
cavab versəniz, Mən də bunları hansı
səlahiyyətlə etdiyimi sizə deyərəm.
30 Yəhyanın vəftizi göydən idimi,
yoxsa insanlardan? Mənə cavab verin».
31 Onlarsa aralarında müzakirə edərək
belə dedilər: «Əgər desək "göydən", "Bəs
nə üçün ona inanmadınız?" deyəcək.
32 Amma desək "insanlardan"?» O
zaman xalqdan qorxurdular, çünki hamı
Yəhyanı həqiqi peyğəmbər sayırdı.
33 Cavabında İsaya dedilər: «Bilmirik».
İsa da onlara dedi: «Bunları hansı
səlahiyyətlə etdiyimi Mən də sizə
demirəm».

Pis bağbanlar məsəli

(Mat. 21:33-46; Luka 20:9-19)

12 [z]İsa məsəllər söyləyib onlarla
danışmağa başladı: «Bir adam
üzüm bağı saldı, oranın ətrafına çəpər
çəkdi. İçində yer qazaraq üzümsıxan
düzəltdi, nəzarət qülləsi tikdi. Sonra isə
bağı bağbanlara icarəyə verərək başqa
ölkəyə getdi. 2 Məhsul vaxtı çatanda
bağbanların yanına bir qul göndərdi ki,
üzüm bağının məhsulundan bir qədərini
onlardan alsın. 3 Lakin bağbanlar
qulu tutub döydülər və əliboş geri
qaytardılar. 4 Bağ sahibi onların yanına
yenə başqa bir qul göndərdi. Onun
da başını vurub yardılar və biabır
etdilər. 5 Başqasını göndərdi, onu isə
öldürdülər. O, çox adam göndərdi,
onlardan bəzisini döydülər, bəzisini isə
öldürdülər. 6 Yanında ancaq bir nəfər
qalmışdı ki, bu da onun sevimli oğlu
idi. "Oğluma hörmət edərlər" deyərək
axırda onu onların yanına göndərdi.
7 Bağbanlarsa bir-birlərinə dedilər:
"Varis budur. Gəlin onu öldürək, onda
miras bizə qalacaq". 8 Beləcə onu tutub
öldürdülər və bağdan kənara atdılar.
9 Beləliklə, bağ sahibi nə edəcək?
Gəlib bağbanları həlak edəcək və bağı
başqalarına verəcək. 10 [a]Məgər siz bu
Müqəddəs Yazını oxumamısınız?

"Bənnaların rədd etdiyi daş
Guşədaşı olub.
11 Bu, Rəbbin işi idi,
Gözümüzdə xariqəli bir işdir"».

12 Yəhudi rəhbərləri başa düşdülər
ki, İsa bu məsəli onlar barədə söylədi.
Ona görə də İsanı tutmaq üçün yol
axtarırdılar, lakin camaatdan qorxdular.
Beləcə Onu tərk edib getdilər.

Hər kəsin öz haqqı

(Mat. 22:15-22; Luka 20:20-26)

13 Sonra İsanı dediyi sözlərlə
tələyə salmaq üçün fariseylərdən və
hirodçulardan bəzisini Onun yanına
göndərdilər. 14 Onlar gəlib İsaya dedilər:
«Müəllim, biz bilirik ki, Sən etibarlı
adamsan və heç kimə tərəfkeşlik
etmirsən. Çünki insanlar arasında
fərq qoymursan və Allahın yolunu
həqiqətə görə öyrədirsən. Bizim üçün
qeysərə vergi verməyə icazə var ya
yox? Biz vergi verək ya yox?» 15 Onların
ikiüzlülüyünü bilən İsa dedi: «Məni
niyə sınağa çəkirsiniz? Mənə bir dinar

*11:26 *Bağışlasın* – bəzi əlyazmalarda *bağışlasın.*
26 *Əgər siz bağışlamasanız, göylərdə olan Atanız da sizin təqsirlərinizi bağışlamaz* (Mat. 6:15).

z12:1 Yeş. 5:1-7 a12:10 Zəb. 118:22-23

gətirin, baxım». 16 Onlar da gətirdilər.
İsa soruşdu: «Sikkənin üstündəki bu
təsvir və yazı kimindir?» Ona dedilər:
«Qeysərin». 17 İsa onlara dedi: «Elə
isə, qeysərin haqqını qeysərə, Allahın
haqqını Allaha verin». Onlar İsanın
sözlərinə heyrətləndilər.

Dirilmə haqqında sual

(Mat. 22:23-33; Luka 20:27-40)

18 [b]Dirilmənin olmadığını iddia
edən bəzi sadukeylər İsanın yanına
gəlib soruşdular: 19 «Müəllim, Musa
bizim üçün belə yazmışdır: "Əgər bir
adamın qardaşı ölsə, arvadı dul qalsa,
amma övladı olmazsa, o biri qardaş bu
dul arvadı alıb ölən qardaşın nəslini
davam etdirsin". 20 Yeddi qardaş var
idi. Birincisi bir arvad aldı, amma
övladı olmadan öldü. 21 Bu arvadı ikinci
qardaş aldı, o da özündən sonra övlad
qoymadan öldü, üçüncüsü də, 22 hətta
yeddincisinə qədər belə etdi,* amma
övladı olmadan öldü. Hamısından sonra
bu qadın da öldü. 23 Qiyamət günündə,†
ölülər dirilində bu qadın onlardan
hansının arvadı olacaq? Çünki yeddi
qardaşın yeddisi də bu qadını almışdı».
24 İsa onlara belə cavab verdi: «Nə
Müqəddəs Yazıları, nə də Allahın
qüdrətini bilirsiniz. Yanılmanıza
səbəb bu deyilmi? 25 İnsanlar ölülər
arasından dirilində nə evlənir, nə
də ərə gedirlər. Ancaq səmadakı
mələklər kimi olurlar. 26 [c]Bəs ölülərin
dirildiyinə gəlincə, Musanın kitabındakı
kolla bağlı əhvalatda Allahın necə
ona "Mən İbrahimin Allahı, İshaqın
Allahı və Yaqubun Allahıyam" dediyini
oxumamısınızmı? 27 Allah ölülərin
deyil, dirilərin Allahıdır. Beləliklə, siz
çox yanılırsınız».

Əmrlərin ən əsası

(Mat. 22:34-40; Luka 10:25-28)

28 İlahiyyatçılardan biri gəlib
onların mübahisələrinə qulaq asdı və
İsanın onlara yaxşı cavab verdiyini
görüb Ondan soruşdu: «Əmrlərin ən
əsası hansıdır?» 29 [d]İsa cavab verdi:
«Əmrlərin ən əsası budur: "Dinlə, ey
İsrail! Allahımız Rəbb yeganə Rəbdir.
30 Allahın Rəbbi bütün qəlbinlə, bütün
varlığınla, bütün düşüncənlə və bütün
gücünlə sev".‡ 31 [e]İkincisi də budur:
"Qonşunu özün kimi sev". Bunlardan
böyük əmr yoxdur». 32 [f]İlahiyyatçı Ona
dedi: «Müəllim, Sən nə yaxşı dedin,
həqiqəti söylədin. Allah yeganədir,
Ondan başqası yoxdur. 33 Onu bütün
qəlbinlə, bütün ağlınla§ və bütün
gücünlə sevmək, qonşunu da özün kimi
sevmək yandırma qurbanlarının və
başqa qurbanların hamısından daha
vacibdir». 34 Dərrakəli cavab verdiyini
görən İsa ona dedi: «Sən Allahın
Padşahlığından uzaq deyilsən». Bundan
sonra heç kim İsadan bir şey soruşmağa
cəsarət etmədi.

Məsih kimin Oğludur?

(Mat. 22:41-46; Luka 20:41-44)

35 İsa məbəddə təlim öyrədərək belə
sual verdi: «Niyə ilahiyyatçılar Məsih
Davudun Oğludur deyirlər? 36 [g]Davud
özü Müqəddəs Ruh vasitəsilə
"Rəbb mənim Ağama dedi:

---

*__12:22__ *Belə etdi* – bəzi əlyazmalarda *bu arvadla evləndi.*
†__12:23__ *Qiyamət günündə* – hərfi tərcümədə *Dirilmədə.*
‡__12:30__ *Sev* – bəzi əlyazmalarda *sev". Bu, əsas əmrdir.*
§__12:33__ *Bütün ağlınla* – bəzi əlyazmalarda *bütün ağlınla, bütün varlığınla.*

[b]**12:18** Qanun. 25:5; Həv. 23:8 [c]**12:26** Çıx. 3:6 [d]**12:29** Qanun. 6:4-5
[e]**12:31** Lev. 19:18 [f]**12:32** Qanun. 4:35 [g]**12:36** Zəb. 110:1

‹Mən düşmənlərini ayaqlarının altına
salanadək
Sağımda otur›”
deyib. 37 Davud özü Ona “Ağa” deyə
müraciət edir. O necə Davudun oğlu
ola bilər?» Böyük izdiham sevinclə Ona
qulaq asırdı.

İsa ilahiyyatçıları məzəmmət edir

(Mat. 23:5-7; Luka 20:45-47)

38 İsa təlim öyrədərək dedi:
«İlahiyyatçılardan özünüzü qoruyun.
Onlar uzun paltarlarda gəzməyi, bazar
meydanlarında salam almağı,
39 sinaqoqlarda baş kürsüləri,
ziyafətlərdə yuxarı başı tutmağı
xoşlayarlar. 40 Onlar dul qadınların
evlərini yeyib-dağıdar və özlərini
göstərmək üçün uzun-uzadı dua edərlər.
Bu adamların cəzası daha ağır olacaq».

Dul qadının ianəsi

(Luka 21:1-4)

41 İsa məbədin ianə qutusunun
qarşısında oturub xalqın oraya necə pul
atmasına baxırdı. Bir çox varlı adam
oraya böyük məbləğdə pul atırdı. 42 Bir
kasıb dul qadın da gəlib bir kodrant*
məbləğində iki lepton† pul atdı. 43 İsa
şagirdlərini yanına çağırıb onlara dedi:
«Sizə doğrusunu deyirəm: bu kasıb
dul qadın ianə qutusuna hamıdan
çox pul atdı. 44 Çünki onların hamısı
varlarının artıqlığından verdi, bu qadın
isə kasıblığına baxmayaraq, dolanmaq
üçün əlində nə varsa, hamısını verdi».

Axır zamanın əlamətləri

(Mat. 24:1-28; Luka 21:5-24)

13 İsa məbəddən çıxarkən
şagirdlərindən biri Ona dedi:
«Müəllim, bax nə gözəl daşlar, nə gözəl
binalardır!» 2 İsa ona dedi: «Bu böyük
binaları görürsənmi? Onların daşı daş
üstündə qalmayacaq, hamısı yerlə
yeksan olacaq».
3 İsa məbədlə üzbəüz olan Zeytun
dağında oturanda Peter, Yaqub, Yəhya
və Andrey Ondan ayrılıqda soruşdu:
4 «Bizə söylə, bu dediklərin nə vaxt
baş verəcək? Bunların hamısı başa
çatmaq üzrə olanda hansı əlamətlər
olacaq?» 5 İsa onlara cavab verməyə
başladı: «Ehtiyatlı olun, qoy sizi heç kim
aldatmasın. 6 Mənim adımla çox adam
gəlib “mən Oyam” deyərək çoxlarını
aldadacaq. 7 Müharibələr və müharibə
xəbərləri eşidəndə tələşə düşməyin.
Bunlar baş verməlidir, amma bu hələ
hər şeyin axırı deyil. 8 Çünki millət
millətə, padşahlıq padşahlığa qarşı
çıxacaq. Yerbəyer zəlzələlər və aclıq‡
olacaq. Bunlar sanki doğuş ağrılarının
başlanğıcıdır.
9 [h]Amma siz ehtiyatlı olun. Adamlar
sizi məhkəmələrə çəkəcək, sinaqoqlarda
döyəcəklər. Onlara şəhadət etmək üçün
siz Mənə görə valilərin və padşahların
qarşısında duracaqsınız. 10 Əvvəlcə
bütün millətlərə Müjdə vəz olunmalıdır.
11 [i]Sizi aparıb məhkəməyə çəkəndə nə
deyəcəyiniz barədə qabaqcadan qayğı
çəkməyin,§ amma həmin vaxt sizə nə
bildirilərsə, onu danışın. Çünki danışan
siz yox, Müqəddəs Ruhdur. 12 Qardaş
qardaşı, ata övladını ölümə təslim

---

*12:42 *Kodrant* – pul vahidi.
†12:42 *Lepton* – ən kiçik pul vahidi.
‡13:8 *Zəlzələlər və aclıq* – bəzi əlyazmalarda *zəlzələlər, aclıq və qarmaqarışıqlıqlar.*
§13:11 *Qayğı çəkməyin* – bəzi əlyazmalarda *qayğı çəkməyin, götür-qoy etməyin.*

[h]**13:9** Mat. 10:17-22; Luka 12:11-12 [i]**13:11** Luka 12:11-12

edəcək. Övladlar ata-anasına qarşı çıxıb
onları edam etdirəcək. 13 Mənim adıma
görə hamı sizə nifrət edəcək. Amma
axıracan dözən xilas olacaq.
14 [j]Viranəlik* gətirən iyrənc şeyin
heç olmamalı yerdə qoyulduğunu
gördüyünüz zaman – qoy oxuyan bunu
anlasın – Yəhudeyada olanlar dağlara
qaçsın. 15 [k]Damda olan evindən nə
isə götürmək üçün aşağı enib evinə
girməsin. 16 Tarlada olan üst paltarını
götürmək üçün geri qayıtmasın.
17 Həmin günlər hamilələrin və körpə
əmizdirənlərin vay halına! 18 Dua edin
ki, bu hadisə qış fəslində baş verməsin.
19 [l]Çünki o günlərdə elə bir əzab-əziyyət
olacaq ki, Allahın yaratdığı bu kainatın
başlanğıcından indiyə qədər beləsi
olmayıb və heç olmayacaq da. 20 Əgər
Rəbb o günləri qısaltmasaydı, heç bir
insan xilas ola bilməzdi. Amma Rəbb
seçilmişlərə – Öz seçdiyi insanlara görə
o günləri qısaldıb.
21 [m]O zaman əgər kimsə sizə desə ki,
"bax, Məsih buradadır" yaxud da "bax,
oradadır", inanmayın. 22 Çünki yalançı
məsihlər və yalançı peyğəmbərlər
törəyəcək. Onlar əlamətlər və xariqələr
göstərəcəklər ki, imkan taparlarsa,
seçilmişləri də aldatsınlar. 23 Amma siz
ehtiyatlı olun! Bax Mən sizə hər şeyi
əvvəlcədən söyləmişəm.

Bəşər Oğlunun zühuru

(Mat. 24:29-35; Luka 21:25-33)

24 [n]Amma o günlərdə, o
əzab-əziyyətdən sonra
Günəş tutulacaq,
Ay nurunu saçmayacaq,
25 Ulduzlar göydən töküləcək,
Səma cisimləri lərzəyə gələcək.
26 [o]O zaman onlar Bəşər Oğlunun
buludlar içində böyük qüdrət və izzətlə
gəldiyini görəcək. 27 Onda Bəşər Oğlu
mələklərini göndərəcək və yer üzünün
ucundan göyün ucuna qədər dörd
külək istiqamətindən Öz seçdiklərini
toplayacaq.
28 Əncir ağacından ibrət alın: onun
budağı cücərib yarpaqlananda bilirsiniz
ki, yay fəsli artıq yaxındır. 29 Eləcə siz
də bu şeylərin baş verdiyini görəndə
bilin ki, Bəşər Oğlu yaxındadır, lap
qapıdadır. 30 Sizə doğrusunu deyirəm:
bu nəsil ömrünü sona çatdırmazdan
əvvəl bütün bunlar baş verəcək. 31 Yer
və göy keçib gedəcək, amma Mənim
sözlərim əsla keçib getməyəcək.

Bilinməyən gün və saat

(Mat. 25:13-15; Luka 12:39-48)

32 [p]Lakin o günü və o saatı nə
səmadakı mələklər, nə də Oğul bilir.
Atadan başqa heç kim bilmir. 33 Ehtiyatlı
olun, oyaq olun.† Çünki bilmirsiniz
ki, o an nə vaxt gələcək. 34 [q]Bu,
səyahətə çıxan bir adama bənzəyir.
Evindən ayrılarkən qullarına səlahiyyət
verir və hərəsinə bir iş tapşırır. Qapı
nəzarətçisinə də əmr edir ki, oyaq
olsun. 35 [r]Ona görə də oyaq olun. Çünki
ev sahibinin nə vaxt – axşammı, gecə
yarısımı, xoruz banlayandamı yaxud
sübh tezdənmi gələcəyini bilmirsiniz.
36 Qoy o qəfil gəlib sizi yatan görməsin.

---

*13:14 *Viranəlik* – bəzi əlyazmalarda *Daniel peyğəmbərin bəhs etdiyi viranəlik* (Mat. 24:15).
†13:33 *Oyaq olun* – bəzi əlyazmalarda *oyaq olun, dua edin.*

[j]**13:14** Dan. 9:27; 11:31; 12:11 [k]**13:15** Luka 17:31
[l]**13:19** Dan. 12:1; Vəhy 7:14 [m]**13:21** Luka 17:21,23 [n]**13:24** Yeş. 13:10; 34:4; Yez. 32:7; Yoel 2:10,31; 3:15; Vəhy 6:12-13 [o]**13:26** Dan. 7:13; Vəhy 1:7
[p]**13:32** Mat. 24:36 [q]**13:34** Luka 12:36-38 [r]**13:35** Mat. 24:42

37 Sizə söylədiklərimi hamıya deyirəm,
oyaq olun!»

İsanı öldürmək üçün sui-qəsd hazırlanır

(Mat. 26:1-5; Luka 22:1-2; Yəh. 11:45-53)

14 [s]Pasxa və Mayasız Çörək
bayramına iki gün qalmışdı.
Başçı kahinlər və ilahiyyatçılar İsanı
hiylə ilə tutub öldürmək üçün bir yol
axtarırdılar. 2 Onlar deyirdilər: «Bunu
bayramda etməyək, yoxsa xalq arasında
qarışıqlıq düşər».

İsa Bet-Anyada

(Mat. 26:6-13; Yəh. 12:1-8)

3 [t]İsa Bet-Anyada cüzamlı Şimonun
evində süfrəyə oturanda bir qadın
Onun yanına gəldi və qadının əlində
içində çox bahalı xalis nard yağı olan
ağ mərmər qab var idi. Qadın qabı
sındıraraq yağı İsanın başına tökdü.
4 Bəziləri acıqlanıb bir-birlərinə dedilər:
«Bu ətir niyə boş yerə israf olunur?
5 Axı bu ətiri üç yüz dinardan artıq
qiymətə satıb pulunu yoxsullara vermək
olardı». Onlar qadını danladılar. 6 Lakin
İsa dedi: «Qadını rahat buraxın. Niyə
onu incidirsiniz? O Mənim üçün gözəl
bir iş gördü. 7 [u]Yoxsullar həmişə sizin
yanınızdadır, istədiyiniz vaxt onlara
kömək edə bilərsiniz. Mənsə həmişə
yanınızda olmayacağam. 8 Qadın
bacardığını etdi. Mənim bədənimə
dəfn üçün əvvəlcədən yağ çəkdi. 9 Sizə
doğrusunu deyirəm: dünyanın hansı
yerində Müjdə vəz edilərsə, bu qadının
etdiyi bu iş də danışılacaq ki, o yada
salınsın».

Yəhudanın xəyanəti

(Mat. 26:14-16; Luka 22:3-6; Yəh. 13:18-30)

10 O zaman On İki şagirddən biri
olan Yəhuda İskaryot İsanı başçı
kahinlərə təslim etmək niyyəti ilə
onların yanına getdi. 11 Başçı kahinlər
bunu eşidərkən sevindilər və Yəhudaya
pul verəcəklərini vəd etdilər. O da İsanı
təslim etmək üçün fürsət axtarmağa
başladı.

Axırıncı şam yeməyi

(Mat. 26:17-30; Luka 22:7-23; Yəh. 13:21-30; 1Kor. 11:23-25)

12 Pasxa quzusu qurban kəsildiyi
Mayasız Çörək bayramının ilk günü
şagirdləri İsadan soruşdular: «Sənin
Pasxa yeməyin üçün haraya gedib
hazırlıq görməyimizi istəyirsən?» 13 İsa
da şagirdlərindən ikisini göndərdi və
dedi: «Şəhərə girin, orada qarşınıza
səhənglə su daşıyan bir nəfər çıxacaq.
Onun ardınca gedin. 14 O hansı evə
girərsə, oranın sahibinə deyin: “Müəllim
deyir: ‹Şagirdlərimlə birgə Pasxa
yeməyini yeyəcəyim qonaq otağım
haradadır?›” 15 Ev sahibi sizə yuxarı
mərtəbədə döşənib hazırlanmış böyük
bir otaq göstərəcək. Orada bizim üçün
hazırlıq işləri görün». 16 Şagirdlər yola
çıxıb şəhərə getdilər. Hər şeyin Onun
dediyi kimi olduğunu gördülər və Pasxa
yeməyi üçün hazırlıq etdilər.
17 Axşam düşəndə İsa On İki şagirdi
ilə birlikdə gəldi. 18 [v]Onlar süfrəyə
oturub yemək yeyərkən İsa dedi: «Sizə
doğrusunu deyirəm: sizlərdən biri
– Mənimlə yemək yeyən biri Mənə
xəyanət edəcək». 19 Onlar kədərlənməyə
başladılar və bir-bir Ondan soruşdular:
«Mən deyiləm ki?» 20 İsa onlara dedi:

---

[s]**14:1** Çıx. 12:1-27 [t]**14:3** Luka 7:37-38 [u]**14:7** Qanun. 15:11
[v]**14:18** Zəb. 41:9

«Siz On İki nəfərdən biridir. Mənimlə
birlikdə çörəyini qaba batıran odur.
21 Bəşər Oğlu Özü barəsində yazıldığı
kimi gedir. Amma vay o adamın halına
ki, Bəşər Oğluna xəyanət edir! O adam
heç doğulmasaydı, onun üçün daha
yaxşı olardı».
22 Onlar yeyəndə İsa çörək götürdü,
şükür duası edib onu böldü və
şagirdlərə verərək dedi: «Alın! Bu
Mənim bədənimdir». 23 Sonra bir kasa
götürdü və şükür edib onu da şagirdlərə
verdi və hamısı oradan içdi. 24 [w]İsa
onlara dedi: «Bu, Əhdin* bağlanması
üçün çoxları uğrunda axıdılan Mənim
qanımdır. 25 Sizə doğrusunu deyirəm:
Allahın Padşahlığında təzəsini içəcəyim
günə qədər üzüm ağacının məhsulundan
əsla içməyəcəyəm».
26 Onlar ilahi oxuyandan sonra
çıxdılar və Zeytun dağına tərəf getdilər.

Peterin inkarı əvvəlcədən bildirilir

(Mat. 26:31-35; Luka 22:31-34; Yəh. 13:36-38)

27 [x]İsa şagirdlərinə dedi: «Hamınız
Məni atıb gedəcəksiniz,† çünki belə
yazılıb:
"Çobanı vuracağam,
Qoyunlar pərən-pərən olacaq".
28 [y]Amma Mən dirilən dən sonra sizdən
qabaq Qalileyaya gedəcəyəm». 29 Peter
Ona dedi: «Hamı Səni atıb getsə də, mən
belə etməyəcəyəm». 30 İsa ona dedi:
«Sənə doğrusunu deyirəm: bu gün, bu
gecə xoruz iki dəfə banlamazdan əvvəl
sən Məni üç dəfə inkar edəcəksən».
31 Amma Peter daha qətiyyətlə danışdı:
«Əgər Səninlə birlikdə ölməyim lazım
olsa belə, Səni əsla inkar etməyəcəyəm».
Bütün şagirdlər də belə dedilər.

Getsemani bağında

(Mat. 26:36-46; Luka 22:39-46)

32 Sonra Getsemani adlanan bir yerə
gəldilər. İsa şagirdlərinə dedi: «Mən
dua edərkən siz burada oturub-qalın».
33 O, Peteri, Yaqubu və Yəhyanı
Özü ilə apardı. Özündə bir həyəcan
və narahatlıq hiss etməyə başladı.
34 Onlara belə dedi: «Ürəyimi elə dərin
kədər bürüyüb, az qalır ki, ölüm. Burada
qalın və oyaq olun».
35 İsa bir qədər irəli getdi və üzüstə
yerə qapanıb dua etdi ki, mümkündürsə,
bu an Ondan yan keçsin. 36 O belə
dedi: «Abba – Ata, Sənin üçün hər
şey mümkündür. Bu kasanı‡ Məndən
uzaqlaşdır. Amma Mənim yox, Sənin
iradən olsun». 37 İsa şagirdlərin yanına
qayıdıb gördü ki, onlar yatıb. O, Peteri
səslədi: «Şimon, yatmısan? Məgər bir
saat oyaq qala bilməzdin? 38 Oyaq qalıb
dua edin ki, sınağa düşməyəsiniz. Ruh
həvəsli, cisimsə gücsüzdür». 39 İsa yenə
oradan uzaqlaşdı və eyni sözləri təkrar
edərək dua etdi.
40 Qayıdanda gördü ki, onlar yenə
yatıb. Çünki onların gözləri yumulurdu.
Bilmədilər ki, İsaya nə desinlər. 41 İsa
üçüncü dəfə onların yanına qayıdıb
dedi: «Hələ də yatıb dincəlirsiniz?
Bəsdir! Vaxt yetişdi! Budur, Bəşər Oğlu
günahkarların əlinə təslim olunur.
42 Qalxın gedək. Budur, Mənə xəyanət
edən gəlir!»

İsa həbs olunur

(Mat. 26:47-56; Luka 22:47-53; Yəh. 18:3-12)

43 İsa hələ danışarkən On İki
şagirddən biri olan Yəhuda gəlib

---

*14:24 *Əhdin* – bəzi əlyazmalarda *Yeni Əhdin* (Luka 22:20).
†14:27 *Məni atıb gedəcəksiniz* – hərfi tərcümədə *Məndə büdrəyəcəksiniz.*
‡14:36 *Kasa* – İsanın çarmıxdakı ölümünün rəmzi.

[w]**14:24** Çıx. 24:8; Yer. 31:31-34 [x]**14:27** Zək. 13:7 [y]**14:28** Mat. 28:16

çıxdı. Onun yanında başçı kahinlərin,
ilahiyyatçıların və ağsaqqalların
göndərdiyi əli qılınclı və dəyənəkli bir
dəstə adam var idi. 44 İsaya xəyanət
edən Yəhuda onlara işarə ilə bildirib
demişdi: «Kimi öpsəm, İsa Odur. Onu
tutub möhkəm nəzarət altında aparın».
45 O anda İsaya yaxınlaşıb «Rabbi!»
deyərək Onu öpdü. 46 Yanındakı
adamlar əl atıb İsanı tutdular. 47 İsanın
yanındakılardan biri qılınc çəkdi və baş
kahinin qulunu vurub qulağını qopartdı.
48 İsa onlara dedi: «Nə üçün quldur
üstünə gələn kimi qılınc və dəyənəklərlə
Məni tutmağa gəlmisiniz? 49 [z]Hər gün
məbəddə sizin yan-yörənizdə təlim
öyrədirdim, heç Məni tutmadınız.
Amma qoy Müqəddəs Yazılar yerinə
yetsin». 50 Onda hamı İsanı atıb qaçdı.
51 Çılpaq bədənini kətan örtüklə
bürüyən bir gənc İsanın ardınca gedirdi.
Əsgərlər onu yaxaladılar. 52 Amma o,
kətan örtükdən sıyrılıb çılpaq qaçdı.

İsa Ali Şuranın önündə

(Mat. 26:57-68; Luka 22:54-55,63-71; Yəh. 18:13-24)

53 İsanı baş kahinin yanına gətirdilər.
Başçı kahinlərin hamısı, ağsaqqallar
və ilahiyyatçılar da oraya toplaşdı.
54 Peter uzaqdan baş kahinin həyətinə
qədər İsanın ardınca gedirdi. O,
mühafizəçilərlə birgə həyətdə, tonqalın
ətrafında oturub qızınırdı.
55 Başçı kahinlər və Ali Şuranın
hamısı İsanı edam etmək üçün Onun
əleyhinə şahidlik ifadəsi axtarırdılar,
amma tapa bilmirdilər. 56 Çoxları Onun
əleyhinə yalançı şahidlik etdi, lakin
ifadələri bir-birinə uyğun gəlmirdi.
57 [a]Bəziləri qalxıb Onun əleyhinə
yalançı şahidlik edərək dedilər: 58 «Biz
Onun belə dediyini eşitdik: "Mən əllə
qurulan bu məbədi dağıdıb üç gün
ərzində əllə qurulmayan başqa bir
məbəd tikəcəyəm"». 59 Amma onların
da ifadələri bir-birinə uyğun gəlmirdi.
60 Baş kahin toplantı arasından ayağa
qalxıb İsadan soruşdu: «Sənin heç
cavabın yoxdur? Onlar Sənin əleyhinə
bu nə ifadədir verirlər?» 61 Amma
İsa susmaqda davam etdi, heç cavab
vermədi. Baş kahin yenə Ondan soruşdu:
«Xeyir-dua Sahibi Olanın Oğlu Məsih
Sənsənmi?» 62 [b]İsa ona dedi: «Mənəm!
Siz Bəşər Oğlunun Qüdrətli Olanın*
sağında oturduğunu və göyün buludları
ilə gəldiyini görəcəksiniz». 63 [c]Onda baş
kahin əynindəki paltarını cırıb dedi:
«Artıq şahidlərə nə ehtiyacımız var?
64 Siz Onun küfr söylədiyini eşitdiniz!
Bəs buna nə deyirsiniz?» Onların
hamısı İsa üçün hökm verdi ki, O, ölüm
cəzasına layiqdir.
65 Bəziləri Onun üstünə tüpürməyə,
Onun gözlərini bağlayaraq yumruq
vurmağa başladılar və dedilər:
«Peyğəmbərlik elə görək!» Mühafizəçilər
də tutub Ona şillə vurdular.

Peter İsanı inkar edir

(Mat. 26:69-75; Luka 22:56-62; Yəh. 18:15-18,25-27)

66 Peter aşağıda, həyətdə ikən baş
kahinin qarabaşlarından biri gəldi.
67 Qızınmaqda olan Peteri görən kimi
onu diqqətlə süzüb dedi: «Sən də
Nazaretli İsa ilə birlikdə idin». 68 Amma
Peter bunu inkar edərək dedi: «Bilmirəm
və başa düşmürəm, sən nə danışırsan».
O, bayır qapının önünə çıxdı və bu anda
xoruz banladı. 69 Qarabaş Peteri görəndə
yenə yanındakılara deməyə başladı:
«Bu da onlardandır». 70 Peter yenə

---

*14:62 *Qüdrətli Olan* – yəni Allah.

[z]**14:49** Luka 19:47-48; 21:37 [a]**14:57** Yəh. 2:19 [b]**14:62** Dan. 7:13
[c]**14:63** Lev. 24:16

inkar etdi. Bir az sonra orada duranlar
yenə ona dedilər: «Doğrudan da, sən
onlardansan, çünki Qalileyalısan».*
71 Peter isə özünü qarğıyıb and içərək
dedi: «Dediyiniz o Adamı tanımıram».
72 Həmin anda xoruz ikinci dəfə
banladı. Peter İsanın «xoruz iki dəfə
banlamazdan əvvəl sən Məni üç dəfə
inkar edəcəksən» dediyi sözü yadına
saldı. Ona görə ağlamağa başladı.

İsa Romalı vali Pilatın önündə

(Mat. 27:1-2,11-26; Luka 23:1-25; Yəh. 18:28–19:16)

15 Səhər erkən başçı kahinlər,
ağsaqqallar, ilahiyyatçılar və
Ali Şuranın hamısı dərhal məşvərət
edəndən sonra İsanın əl-qolunu
bağlayaraq Pilatın yanına aparıb
ona təslim etdilər. 2 Pilat Ondan
«Yəhudilərin Padşahı Sənsənmi?» deyə
soruşdu. İsa cavabında ona dedi: «Sənin
dediyin kimidir». 3 Başçı kahinlər Onu
çox şeydə ittiham edirdilər. 4 Pilat
Ondan yenə soruşdu: «Heç cavab
verməyəcəksənmi? Gör Səni nə qədər
ittiham edirlər!» 5 Amma İsa yenə
də ona cavab vermədi. Pilat buna
heyrətləndi.
6 Hər Pasxa bayramında Pilat
xalqın xahişi ilə bir məhbusu azad
edərdi. 7 Üsyan zamanı adam öldürən
üsyançılarla birlikdə Barabba adlı
bir nəfər də həbs olunmuşdu. 8 Xalq
Pilatın yanına çıxıb ondan† xahiş
etməyə başladı ki, həmişəki kimi
onların istəyini yerinə yetirsin. 9 Pilat
onlara cavab verərək dedi: «İstəyirsiniz,
sizin üçün Yəhudilərin Padşahını
azad edim?» 10 Çünki başçı kahinlərin
İsanı paxıllıqdan təslim etdiyini
bilirdi. 11 Ancaq başçı kahinlər xalqı
qızışdırdılar ki, İsanın yox, Barabbanın
azad olmasını xahiş etsinlər.
12 Pilat yenə onlardan soruşaraq
dedi: «Bəs nə istəyirsiniz? Yəhudilərin
Padşahı dediyiniz bu Adama nə edim?»
13 «Onu çarmıxa çək!» deyə yenə
bağırdılar. 14 Pilat «Axı O nə pislik
edib?» deyə soruşdu. Onlarsa «Onu
çarmıxa çək!» deyə daha ucadan
bağırdılar. 15 Xalqı razı salmaq istəyən
Pilat onlar üçün Barabbanı azad etdi.
İsanı isə qamçılatdıqdan sonra çarmıxa
çəkilməyə təslim etdi.

Əsgərlər İsanı təhqir edir

(Mat. 27:27-31; Yəh. 19:2-3)

16 Əsgərlər İsanı həyətdən içəriyə,
yəni vali sarayına apardılar. Bütün alayı
topladılar. 17 Ona tünd qırmızı bir xalat
geyindirdilər və tikanlardan bir tac
hörüb başına qoydular. 18 «Yəhudilərin
Padşahı sağ olsun!» deyərək İsanı
salamlamağa başladılar. 19 Sonra
qamışla Onun başına vurub Ona
tüpürdülər və önündə diz çökərək səcdə
qıldılar. 20 Onu ələ salandan sonra
tünd qırmızı xalatı əynindən çıxarıb Öz
paltarlarını geyindirdilər. Sonra Onu
çarmıxa çəkmək üçün bayıra apardılar.

İsa çarmıxa çəkilir

(Mat. 27:32-44; Luka 23:26-43; Yəh. 19:17-25)

21 [d]O vaxt Şimon adlı Kirenalı bir
nəfər kənd yerindən gəlib oradan
keçirdi. O, İsgəndər və Rufusun atasıdır.
Onu İsanın çarmıxını daşımağa məcbur
etdilər.
22 İsanı Qolqota adlanan yerə
gətirdilər. «Qolqota» «Kəllə yeri»

---

*14:70 *Qalileyalısan* – bəzi əlyazmalarda *Qalileyalısan, nitqin də eynidir.*
†15:8 *Pilatın yanına çıxıb ondan* – bəzi əlyazmalarda *bağırıb Pilatdan.*

[d]15:21 Rom. 16:13

deməkdir. 23 Ona mirra* ilə qarışıq şərab
vermək istədilər, amma O imtina etdi.
24 [e]İsanı çarmıxa çəkdilər. Paltarlarını
isə «kimə nə düşdü-düşdü» deyə
püşk ataraq aralarında bölüşdürdülər.
25 Üçüncü saat† idi ki, İsanı çarmıxa
çəkdilər. 26 Onun üzərində ittihamını
göstərən belə yazı var idi: «Yəhudilərin
Padşahı». 27 Onunla birlikdə biri
sağında, biri də solunda iki qulduru da
çarmıxa çəkdilər. 28 ‡

29 [f]Gəlib-keçənlər başlarını yırğalayıb
Ona böhtan ataraq «Nə oldu, ey məbədi
dağıdıb üç gündə tikən! 30 İndi Özünü
xilas et və çarmıxdan düş!» deyirdilər.
31 Başçı kahinlər də ilahiyyatçılarla
birgə eyni şəkildə İsanı ələ salaraq
bir-birlərinə deyirdilər: «Başqalarını
xilas edirdi, amma Özünü xilas edə
bilmir! 32 İsrailin Padşahı Məsih qoy
indi çarmıxdan düşsün ki, biz də görüb
iman edək». İsa ilə birlikdə çarmıxa
çəkilənlər də Onu təhqir edirdilər.

İsanın ölümü

(Mat. 27:45-56; Luka 23:44-49; Yəh. 19:25-30)

33 Altıncı saatdan§ doqquzuncu saata
qədər** bütün yer üzünə qaranlıq çökdü.
34 [g]Doqquzuncu saatda İsa uca səslə
nida edərək dedi:

«Elohi, Elohi, lema şabaqtani?»
Bu «Ey Allahım, Allahım, niyə Məni
tərk etdin?» deməkdir. 35 Orada
dayananların bəzisi bunu eşidərkən
dedi: «Baxın, İlyası çağırır». 36 [h]Bir
nəfər qaçıb bir süngəri şərab sirkəsi
ilə doldurdu və bir qamışın ucuna
keçirərək İsaya verdi ki, içsin və dedi:
«Onu rahat buraxın, görək İlyas gəlib
Onu çarmıxdan düşürəcəkmi?» 37 İsa
uca səslə qışqırıb son nəfəsini verdi.

38 [i]O anda məbədin pərdəsi yuxarıdan
aşağıya qədər iki yerə parçalandı.
39 İsanın qarşısında duran yüzbaşı Onun
son nəfəsini†† belə verdiyini gördükdə
«doğrudan da, bu Adam Allahın Oğlu
idi» dedi.

40 [j]Olub-keçənlərə uzaqdan baxan
qadınlar da var idi. Məcdəlli Məryəm,
kiçik Yaqubun və Yusifin anası
Məryəmlə Şalomit də onların arasında
idi. 41 İsa hələ Qalileyada olanda bu
qadınlar Onun ardınca getmiş və
Ona xidmət etmişdilər. Onunla birgə
Yerusəlimə gələn xeyli qadın da orada
idi.

İsanın dəfni

(Mat. 27:57-61; Luka 23:50-56; Yəh. 19:38-42)

42 O gün Hazırlıq günü, yəni Şənbədən
əvvəlki gün idi. Artıq axşam düşəndə
43 Ali Şuranın hörmətli üzvlərindən biri
olan, Allahın Padşahlığını gözləyən
Arimateyalı Yusif gəldi. O cəsarət edib
Pilatın yanına getdi və İsanın cəsədini
istədi. 44 Pilat İsanın belə tez ölməsinə
heyrət etdi və yüzbaşını yanına
çağırıb soruşdu: «O çoxdanmı ölüb?»

---

*15:23 *Mirra* – yəni ağrı kəsən dərman.
†15:25 *Üçüncü saat* – hazırkı vaxtla səhər saat doqquz.
‡15:28 *Çarmıxa çəkdilər* – bəzi əlyazmalarda *çarmıxa çəkdilər. 28 Müqəddəs Yazılarda yazılan yerinə yetdi: «Üsyankarlara tay tutuldu»* (Luka 22:37).
§15:33 *Altıncı saat* – hazırkı vaxtla günorta saat on iki.
**15:33 *Doqquzuncu saat* – hazırkı vaxtla günortadan sonra saat üç.
††15:39 *Son nəfəsini* – bəzi əlyazmalarda *nida edib son nəfəsini.*

[e]**15:24** Zəb. 22:18 [f]**15:29** Zəb. 22:7; 109:25; Mark 14:57-58; Yəh. 2:19
[g]**15:34** Zəb. 22:1 [h]**15:36** Zəb. 69:21 [i]**15:38** Çıx. 26:31-33
[j]**15:40** Luka 8:2-3

45 Yüzbaşıdan vəziyyəti öyrənəndən
sonra cəsədi Yusifə verdi. 46 Yusif
kəfən aldı, cəsədi çarmıxdan endirib
kəfənə bükdü və qayada qazılmış
qəbirə qoydu. O, qəbirin ağzına bir
daş yuvarladı. 47 Məcdəlli Məryəm və
Yusifin anası Məryəm baxıb cəsədin
hara qoyulduğunu gördülər.

İsanın dirilməsi

(Mat. 28:1-8; Luka 24:1-9; Yəh. 20:1-10)

16 Şənbə günü keçəndən sonra
Məcdəlli Məryəm, Yaqubun
anası Məryəm və Şalomit ətirlər aldılar
ki, gedib İsanın cəsədinə çəksinlər.
2 Həftənin ilk günü* səhər tezdən,
günəş doğanda onlar qəbirin yanına
gəldilər. 3 Onlar bir-birlərinə deyirdilər:
«Görəsən qəbirin ağzındakı daşı bizim
üçün kim kənara yuvarlayacaq?»
4 Başlarını qaldırıb baxanda gördülər
ki, daş kənara yuvarlanıb. Bu daş
nəhəng idi. 5 Qəbirə girib sağ tərəfdə ağ
xalat geyinmiş bir gəncin oturduğunu
gördülər və heyrətə gəldilər. 6 Bu şəxs
onlara dedi: «Siz heyrətlənməyin!
Çarmıxa çəkilmiş Nazaretli İsanı
axtarırsınız. O dirilmişdir! Burada
yoxdur. Bax bu Onu qoyduqları yerdir.
7 [k]İndi isə gedin, Onun şagirdlərinə və
Peterə belə söyləyin: "İsa Qalileyaya
sizdən qabaq gedir. Sizə dediyi kimi
Onu orada görəcəksiniz"». 8 Qadınlar
qəbirdən çıxıb qaçdılar. Onları bir
lərzə bürümüşdü, mat qalmışdılar.
Qorxularından heç kimə bir söz
demirdilər.

İsa şagirdlərə görünür

(Mat. 28:9-10; Luka 24:13-35; Yəh. 20:11-18)

9 İsa həftənin birinci günü səhər
tezdən, diriləndən sonra əvvəlcə
yeddi cin qovduğu Məcdəlli Məryəmə
göründü. 10 Məryəm gedib İsanın
yanında olub, indi isə yas tutaraq
ağlayanlara xəbər verdi. 11 Amma
onlar İsanın diri olduğunu və Məryəmə
göründüyünü eşidərkən inanmadılar.
12 Bundan sonra İsa kənd yerinə
gedən yoldan keçən onlardan ikisinə
başqa surətdə göründü. 13 Onlar geri
qayıdıb o birilərinə xəbər verdilər,
amma o biriləri də bunlara inanmadılar.

İsa şagirdlərinə tapşırıq verir

(Mat. 28:16-20; Luka 24:36-49; Yəh. 20:19-23; Həv. 1:6-8)

14 Nəhayət, İsa süfrəyə oturan On Bir
şagirdə göründü; onları imansızlıqlarına
və ürəklərinin inadkar olduğuna görə
məzəmmət etdi, çünki Onun diri
olduğunu görənlərə inanmamışdılar.
15 İsa şagirdlərinə dedi: «Dünyanın
hər tərəfinə gedin, bütün yaradılışa
Müjdəni vəz edin. 16 İman edib vəftiz
olan kəs xilas olacaq, iman etməyənsə
məhkum olacaq. 17 İman edənləri
isə bu əlamətlər müşayiət edəcək:
Mənim adımla cinləri qovacaqlar, yeni
dillərdə danışacaqlar, 18 ilanları əlləri
ilə götürəcəklər, öldürücü zəhər içsələr
belə, onlara təsir etməyəcək, əllərini
xəstələrin üzərinə qoyacaq və onlar şəfa
tapacaq».

İsanın göyə qaldırılması

(Luka 24:50-53; Həv. 1:9-11)

19 Beləcə Rəbb İsa onlarla danışandan
sonra göyə qaldırıldı və Allahın sağında
oturdu. 20 Şagirdlərsə gedib hər yerdə
Müjdəni vəz etdilər. Rəbb onlarla

---

*16:2 *Həftənin ilk günü* – yəni bazar günü.

[k]16:7 Mat. 26:32; Mark 14:28

birgə işləyirdi, onları müşayiət edən
əlamətlərlə kəlamı təsdiqləyirdi.*

*16:20 Ən qədim yunan əlyazmalarında bu ayələr yoxdur.

LUKANIN

NƏQL ETDİYİ MÜJDƏ

GİRİŞ

«Lukanın nəql etdiyi Müjdə» İsa Məsihi həm İsrailin, həm də bütün bəşəriyyətin vəd olunmuş Xilaskarı olaraq təqdim edir. Luka yazır ki, İsa «fəqirlərə müjdəni bildirmək üçün» göndərilmişdi. Bu Müjdə insan ehtiyaclarını aradan qaldırma yollarını göstərən və insanların qayğısına qalan fikirlərlə doludur. Lukanın nəql etdiyi Müjdənin xüsusi keyfiyyətlərindən biri də burada olan sevinc əhval-ruhiyyəsidir. Bu, xüsusilə, Müjdənin başlanğıcında İsanın gəlişini və sonda İsanın göyə qaldırılmasını bəyan edən fəsillərdə təsvir olunur. İsanın göyə qaldırılmasından sonra məsihçi imanının artıb-yayılması həmin müəllif tərəfindən *«Həvarilərin İşləri»* kitabında yazılmışdır.

Buraya daxil olan iki hissə (1-2 və 9-19-cu fəsillər) yalnız bu kitabda təsvir olunur. Onlardan biri mələklərin nəğməsi və İsa anadan olanda çobanların Onun yanına gəlməsidir. Bu hissələrə həmçinin yeniyetmə İsanın məbəddə olması, xeyirxah Samariyalı və itmiş oğul məsəlləri də daxildir.

Bu Müjdədə dua, Müqəddəs Ruhun fəaliyyəti, İsanın xidmətində qadınların rolu və Allahın günahları bağışlaması xüsusilə vurğulanır.

Kitabın məzmunu:

1:1-4 Kitabın Teofilə həsr olunması

1:5–2:52 Vəftizçi Yəhyanın və İsa Məsihin doğulması

3:1-20 Vəftizçi Yəhyanın xidməti

3:21–4:13 İsanın vəftizi və sınağa çəkilməsi

4:14–9:50 İsanın Qalileyada ictimai xidməti

9:51–19:27 Qalileyadan Yerusəlimə

19:28–23:56 Yerusəlimdəki son günlər

24:1-53 Rəbbin dirilməsi, görünməsi və göyə qaldırılması

Kitabın Teofilə həsr olunması

1 Hörmətli Teofil, çoxları aramızda
baş vermiş hadisələrin tarixçəsini
yazmağa cəhd göstərib. [2] Əvvəldən bəri
Kəlamı öz gözləri ilə görənlər və Ona
xidmət edənlər bu hadisələri bizə nəql
etdiyi kimi [3] mən də əvvəlcədən hər
şeyi diqqətlə araşdırıb bunları sənə
ardıcıllıqla yazmağı münasib bildim.
[4] Belə ki sən öyrəndiyin şeylərin doğru
olduğunu biləsən.

Vəftizçi Yəhyanın doğulması əvvəlcədən bildirilir

[5] Yəhudeya padşahı Hirodun
dövründə Aviya bölüyündən* olan
Zəkəriyyə adlı bir kahin var idi. Arvadı
da Harun nəslindən idi, adı Elizavet
idi. [6] Onların hər ikisi Allahın gözündə
saleh idi və Rəbbin qoyduğu əmr və
qaydaların hamısına nöqsansız əməl
edirdilər. [7] Amma Elizavet sonsuz
olduğuna görə onların övladı yox idi.
Hər ikisinin yaşı çox idi.
[8] Bir gün Zəkəriyyə öz bölüyünün
növbəsində Allahın önündə kahinlik
xidmətini icra edirdi. [9] Rəbbin
məbədinə daxil olub buxur yandırmaq
üçün kahinlik adətinə görə atılan püşk
ona düşdü. [10] Buxur yandırma zamanı
bütün camaat məbəddən kənarda dua
edirdi. [11] Bu vaxt Rəbbin bir mələyi
buxur qurbangahının sağında durub
Zəkəriyyəyə göründü. [12] Zəkəriyyə
bunu görüb təlaşa düşdü və çox qorxdu.

---

*1:5 *Aviya bölüyü* – məbəd ibadətində xidmət edən kahinlərin 24 bölüyündən biri idi. Bax: 1Saln. 24:10.

13 Mələk isə ona dedi: «Qorxma,
Zəkəriyyə! Sənin duan eşidildi. Arvadın
Elizavet sənə bir oğul doğacaq. Sən
də onun adını Yəhya* qoy. 14 Sən
sevinib şadlanacaqsan. Çox adam onun
dünyaya gəlməsinə görə sevinəcək.
15 [l]Çünki o, Rəbbin gözündə böyük
olacaq. O, şərab və başqa kefləndirici
içki içməyəcək; hələ ana bətnində
olarkən Müqəddəs Ruhla dolu olacaq.
16 O, İsrail övladlarının çoxunu Allahı
Rəbb tərəfə döndərəcək. 17 [m]Ataların
ürəklərini övladlarına, itaətsiz adamları
salehlərin düşüncə tərzinə yönəltmək
və Rəbbə hazırlanmış xalqı yetişdirmək
üçün İlyasın ruhu və qüdrəti ilə Rəbbin
önündə gedəcək». 18 Zəkəriyyə mələyə
dedi: «Mən bunu necə bilərəm? Axı mən
çox yaşlıyam, elə arvadımın da yaşı
ötüb». 19 [n]Mələk ona cavab verdi: «Mən
Allahın önündə dayanan Cəbrayılam
və sənin lə danışıb bu müjdəni sənə
çatdırmaq üçün göndərilmişəm.
20 Budur, vaxtında həyata keçəcək
sözlərimə inanmadığına görə bu yerinə
yetən günədək sən lal olub danışa
bilməyəcəksən».
21 Bu vaxt camaat Zəkəriyyəni
gözləyirdi və onun məbəddə
ləngiməsinə heyrət edirdi. 22 O isə
məbəddən çıxıb xalqla danışa bilmədi.
Onlar da Zəkəriyyənin məbəddə görüntü
gördüyünü başa düşdülər. Zəkəriyyə
xalqa işarə edirdi və lal olaraq qaldı.
23 Zəkəriyyə xidmət vaxtı qurtaranda
evinə qayıtdı. 24 Bu vaxtdan sonra
arvadı Elizavet uşağa qaldı və beş ay
evindən çıxmadı. 25 O deyirdi: «Bunu
mənim üçün Rəbb etdi. Bu vaxt O mənə
nəzər salıb məni el arasında xəcalətdən
qurtardı».

İsanın doğulması əvvəlcədən bildirilir

26 [o]Elizavetin hamiləliyinin altıncı
ayında mələk Cəbrayıl Allah tərəfindən
Qalileyadakı Nazaret adlanan şəhərə,
27 Davudun nəslindən olan Yusif adlı bir
kişiyə nişanlanan bakirə qızın yanına
göndərildi. Həmin qızın adı Məryəm
idi. 28 Mələk onun yanına gəlib dedi:
«Salam, ey lütfə nail olmuş qız! Rəbb
sənin lədir».† 29 Məryəm bu sözlərdən
tam lərzəyə gəldi və ürəyində bu salamın
nə demək olduğu barədə düşünməyə
başladı. 30 Mələk ona dedi: «Qorxma,
Məryəm, çünki sən Allahın lütfünə
nail oldun. 31 [p]Sən hamilə olub bir
Oğul doğacaqsan. Onun adını İsa qoy.
32 [q]O, böyük olacaq və Haqq-Taalanın
Oğlu adlanacaq. Rəbb Allah Ona atası
Davudun taxtını verəcək. 33 O, Yaqub
nəslinin üzərində əbədi olaraq Padşah
olacaq və Onun Padşahlığının sonu
olmayacaq». 34 Məryəm mələyə dedi:
«Bu necə olacaq? Mən heç kişi üzü
görməmişəm». 35 Mələk cavabında ona
dedi: «Müqəddəs Ruh sənin üzərinə
enəcək, Haqq-Taalanın qüdrəti üstünə
kölgə salacaq. Buna görə də doğulacaq
müqəddəs Övlad Allahın Oğlu
adlanacaq. 36 Bax qohumun Elizavetin
də yaşlı vaxtında bətninə oğlan uşağı
düşüb. Onu sonsuz adlandırırdılar,
amma o artıq altı aydır ki, hamilədir.
37 [r]Çünki Allah üçün mümkün olmayan
şey yoxdur». 38 Onda Məryəm dedi:
«Mən Rəbbin quluyam, qoy mənə sənin

---

*1:13 *Yəhya* – ibrani dilində *Rəbb lütf edir.*
†1:28 *Rəbb sənin lədir* – bəzi əlyazmalarda *Rəbb sənin lədir. Sən qadınlar arasında xeyir-dualısan* (Luka 1:42).

[l]**1:15** Say. 6:3 [m]**1:17** Mal. 4:5-6 [n]**1:19** Dan. 8:16; 9:21 [o]**1:26** Mat. 1:18
[p]**1:31** Mat. 1:21 [q]**1:32** 2Şam. 7:12-16; Yeş. 9:7 [r]**1:37** Yar. 18:14

dediyin kimi olsun». Mələk onu tərk
edib getdi.

Məryəmlə Elizavetin görüşü

39 O vaxt Məryəm tələsik qalxıb
Yəhudanın dağlıq bölgəsindəki bir
şəhərə yollandı. 40 O, Zəkəriyyənin
evinə girib Elizaveti salamladı.
41 Elizavet Məryəmin salamını eşidəndə
bətnindəki körpə tərpəndi. Elizavet
də Müqəddəs Ruhla dolub 42 uca
səslə çığırdı: «Sən qadınlar arasında
xeyir-dualısan, sənin bətninin bəhrəsi
də xeyir-dualıdır! 43 Bu necə oldu
ki, Rəbbimin anası yanıma gəlib?
44 Bax sənin salamının səsi qulağıma
çatanda bətnimdəki körpə sevinclə
tərpəndi. 45 Rəbbin ona dediyi sözlərin
yerinə yetəcəyinə inanan qadın nə
bəxtiyardır!»

Məryəmin həmd ilahisi

46 [s]Məryəm isə dedi:
47 «Qəlbim Rəbbi ucaldır,
Ruhum Xilaskarım Allaha görə
şadlanır,
48 Çünki O Öz qulunun yazıq halını
gördü.
Bundan sonra bütün nəsillər məni
bəxtiyar sayacaq,
49 Çünki Qadir Olan mənim üçün
böyük işlər etdi,
Onun adı müqəddəsdir!
50 Onun mərhəməti də nəsildən-nəslə
Ondan qorxanlara göstərilər.
51 O, qolu ilə qüdrətli işlər gördü,
Ürəklərində qürurla düşünənləri
pərən-pərən saldı.
52 Hökmdarları taxtlarından endirdi,
Məzlumları yüksəltdi.
53 Acları nemətlərlə doydurdu,
Varlıları isə əliboş yola saldı.
54–55 [t]Rəbb qulu İsrailin imdadına
çatdı,
Ata-babalarımıza vəd etdiyi kimi
İbrahimə və onun nəslinə əbədilik
Mərhəmət göstərməyi yada saldı».
56 Məryəm Elizavetin yanında üç aya
yaxın qalıb evinə qayıtdı.

Vəftizçi Yəhyanın doğulması

57 Elizavetin doğmaq vaxtı
çatdı. O, bir oğlan doğdu. 58 Onun
qohum-qonşuları Rəbbin ona böyük
mərhəmət göstərdiyini eşidəndə onunla
birgə sevindilər. 59 [u]Səkkizinci gün
körpəni sünnət etməyə gəldilər. Ona
atası Zəkəriyyənin adını qoymaq
istədilər. 60 Körpənin anası isə dedi:
«Yox, onun adı Yəhya olacaq».
61 Ona dedilər: «Axı qohumların
arasında belə adı olan bir kəs yoxdur».
62 Körpənin atasından körpəyə nə
ad qoyulmasını işarə ilə soruşdular.
63 O, bir yazı lövhəciyi istəyib yazdı:
«Onun adı Yəhyadır». Hamı heyrətə
gəldi. 64 Həmin o anda Zəkəriyyənin
dili açıldı. O, Allaha alqış etməyə
başladı. 65 Qonşuların hamısı qorxuya
düşdü. Bütün bu hadisələr haqqında
Yəhudeyanın dağlıq bölgəsinin hər
yerində danışırdılar. 66 Bu barədə eşidən
hər bir kəs fikrə gedib deyərdi: «Bu
körpə böyüyüb nə olacaq?» Çünki
Rəbbin əli onun üzərində idi.

Zəkəriyyənin peyğəmbərliyi

67 Körpənin atası Zəkəriyyə Müqəddəs
Ruhla dolub belə peyğəmbərlik etdi:
68 «Alqış olsun İsrailin Allahı Rəbbə!
Çünki Öz xalqına nəzər salıb onları
satın aldı.
69 O, qulu Davudun nəslindən
Bizə qüdrətli Xilaskar yetirdi.*

---

*1:69 *Bizə qüdrətli Xilaskar yetirdi* – hərfi tərcümədə *Bizə xilas buynuzunu qaldırdı.*

[s]**1:46** 1Şam. 2:1-10 [t]**1:54-55** Yar. 17:7 [u]**1:59** Lev. 12:3

70 Qədimdən bəri Öz müqəddəs
peyğəmbərlərinin vasitəsilə
bildirdiyi kimi
71 Düşmənlərimizdən və bizə nifrət
edənlərin əlindən bizi xilas etdi.
72 Beləcə ata-babalarımıza mərhəmət
göstərib
Öz müqəddəs Əhdini xatırladı.
73 Atamız İbrahimə and içdiyi kimi
Bizə elə güc verdi ki,
74–75 Düşmənlərimizin əlindən
qurtulub
Həyatımız boyu qorxmadan Rəbbin
önündə
Müqəddəslik və salehliklə Ona ibadət
edək.
76 [v]Ey körpə, sən Haqq-Taalanın
peyğəmbəri adlanacaqsan,
Çünki Rəbbin önündə gedəcəksən,
Onun yolunu hazırlayacaqsan.
77 Onun xalqına günahlarının
bağışlanması ilə
Xilas olunmaları barədə bildirəcəksən.
78 [w]Axı Allahımızın ürəyi
mərhəmətlidir,
Onun bu mərhəmətinə görə
Ucalarda bizim üçün Günəş* doğacaq
ki,
79 Zülmətdə və ölüm kölgəsində
oturanların üzərinə nur saçsın,
Ayaqlarımızı sülh yoluna yönəltsin».
80 Körpə isə böyüyüb ruhən
qüvvətlənirdi və İsrail xalqına görünən
günədək çöldə qaldı.

İsanın doğulması

(Mat. 1:18-25)

2 O günlərdə qeysər Avqust bütün
Roma ölkəsi üçün siyahıyaalma
keçirmək barəsində fərman verdi. 2 Bu
ilk siyahıyaalma Kirini Suriyanın valisi
olanda keçirilmişdi. 3 Hamı siyahıya
alınmaq üçün öz şəhərinə yollandı.
4 Yusif də Davudun əsil-nəslindən
olduğuna görə Qalileyanın Nazaret
şəhərindən çıxıb Yəhudeyaya, Davudun
şəhəri olan Bet-Lexemə yollandı. 5 O
oraya hamilə olan nişanlısı Məryəmlə
birlikdə siyahıya alınmaq üçün getdi.
6 Onlar orada olarkən Məryəmin doğuş
vaxtı çatdı. 7 O, ilk Oğlunu doğdu.
Körpəni bələyib axura qoydu, çünki
qonaq evində onlara yer tapılmadı.

Mələklər çobanlara xoş xəbər verir

8 O ərazidə sürülərinin yanında gecə
növbəsini çəkən çobanlar var idi. Onlar
çöldə gecələyirdi. 9 Birdən Rəbbin bir
mələyi onların qarşısında zühur etdi və
Rəbbin ehtişamı onların üzərinə nur
saçdı. Çobanları böyük qorxu bürüdü.
10 Mələk onlara dedi: «Qorxmayın! Mən
sizə bütün xalqı çox sevindirəcək bir
Müjdə gətirmişəm. 11 Bu gün Davudun
şəhərində sizin üçün Xilaskar doğuldu.
Bu, Rəbb Məsihdir. 12 Sizə əlamət bu
olacaq: axurda yatan bələnmiş Körpə
tapacaqsınız». 13 Qəflətən mələyin
yanında Allaha həmd edən çoxsaylı
səmavi ordu göründü. Onlar belə
deyirdi:
14 «Ən ucalarda Allaha izzət,
Yer üzündə Onun razı olduğu
insanlara sülh olsun!»
15 Mələklər çobanları tərk edib
göyə qalxandan sonra onlar bir-birinə
dedi: «Gəlin Bet-Lexemə gedək və
Rəbbin bizə bildirdiyi bu baş vermiş
hadisəni görək». 16 Onlar tələsik
getdilər. Məryəmi, Yusifi və axurda
yatan Körpəni tapdılar. 17 Çobanlar
Körpəni görəndə Onun haqqında
onlara nəql edilənləri bildirdilər.
18 Bunu eşidənlərin hamısı çobanların
sözlərindən heyrətə gəldi. 19 Məryəm
isə bütün bu şeyləri dərin düşünərək

---

*1:78 *Günəş* – yəni Məsih.

[v]1:76 Mal. 3:1 [w]1:78 Yeş. 9:2

öz ürəyində saxlayırdı. 20 Çobanlar
bütün gördükləri və eşitdiklərinə
görə Allahı izzətləndirib həmd edərək
geri qayıtdılar. Çünki hər şey onlara
söylənən kimi baş vermişdi.

İsanın sünnəti və Allaha həsr edilməsi

21 [x]Səkkizinci gün Körpənin sünnət
olunması vaxtı gələndə Onun adını
İsa qoydular. Bu ad ona ana bətninə
düşməzdən əvvəl mələk tərəfindən
verilmişdi.
22 [y]Musanın Qanununa görə paklanma
dövrü tamamlanandan sonra Yusiflə
Məryəm Körpəni Rəbbə həsr etmək
üçün Yerusəlimə gətirdilər, 23 [z]necə ki
Rəbbin Qanununda yazılıb: «Bətndən
ilk doğulan bütün oğlanlar Rəbb üçün
müqəddəs sayılsın». 24 Həmçinin onlar
qurban təqdim etdilər, necə ki Rəbbin
Qanununda əmr olunub: «İki qumru
quşu yaxud iki göyərçin balası».

Şimeonun Allaha alqış duası

25 O vaxt Yerusəlimdə Şimeon adlı
bir adam var idi. O, saleh və mömin
idi. İsrailə təsəlli veriləcəyini gözləyirdi
və Müqəddəs Ruh onun üzərində idi.
26 Müqəddəs Ruh ona əvvəlcədən
açıqlamışdı ki, o, Rəbbin Məsihini
görməyincə ölməyəcək. 27 Beləliklə,
Şimeon Ruhdan ilham alıb məbədə
gəldi. Körpənin ata-anası Qanunda
qoyulan adətə əməl etmək üçün Körpə
İsanı məbədə gətirəndə 28 Şimeon
Körpəni qucağına götürdü və Allaha
alqış edərək belə dedi:
29 «Ey Pərvərdigar, indi Sənin sözünə
görə
Mən – Sənin qulun arxayın ölə
bilərəm.
30–32 [a]Çünki bütün xalqların gözləri
önündə hazırladığın xilası,
Millətlərə aşkar edən nuru,
Xalqın İsrail üçün də izzəti
Öz gözlərimlə gördüm».
33 Körpənin ata-anası Onun barəsində
deyilən sözlərə görə heyrətə gəldi.
34 Şimeon onlara xeyir-dua verib
Körpənin anası Məryəmə belə dedi:
«Bu Körpə İsraildə bir çox adamın
yıxılmasının ya ucalmasının səbəbkarı
və insanların rədd etdiyi bir əlamət
olmaq üçün təyin olunub. 35 Sənin
köksünə isə sanki qılınc saplanacaq.
Bütün bunlar bir çoxlarının qəlbindəki
fikirlərin aşkara çıxması üçün olacaq».

Xannanın peyğəmbərliyi

36 Orada Aşer qəbiləsindən olan
Penuel qızı Xanna adlı qadın peyğəmbər
də var idi. O, çox yaşlı idi. Gənc yaşında
ərə getmiş, əri ilə yeddi il yaşayıb dul
qalmışdı. 37 Bu, səksən dörd yaşında
dul qadın idi. O, məbədi tərk etmirdi
və oruc tutub dua edərək gecə-gündüz
Rəbbə ibadət edirdi. 38 Xanna da bu
zaman yaxınlaşdı və Allaha şükür
edərək Yerusəlimin satın alınmasını
gözləyən bütün adamlara Körpə İsa
barədə nəql etməyə başladı.

Nazaretə qayıtma

39 [b]Yusiflə Məryəm Rəbbin Qanununa
əsasən hər şeyi icra edib qurtardıqdan
sonra Qalileyaya – öz şəhərləri olan
Nazaretə qayıtdı. 40 Uşaq böyüyür,
qüvvətlənir və hikmətdə yetkinləşirdi.
Allahın lütfü də Onun üzərində idi.

Yeniyetmə İsa məbəddə

41 [c]Hər il İsanın ata-anası Pasxa
bayramında Yerusəlimə gedərdi.

---

[x]**2:21** Lev. 12:3; Luka 1:31 [y]**2:22** Lev. 12:6-8 [z]**2:23** Çıx. 13:1-2,12
[a]**2:30-32** Yeş. 42:6-7; 49:6; 52:10 [b]**2:39** Mat. 2:23
[c]**2:41** Çıx. 12:1-27; Qanun. 16:1-8

42 İsanın on iki yaşı tamam olanda
onlar bayram adətinə görə yenə
ora getdilər. 43 Bayram qurtarandan
sonra onlar evə yollandılar. Amma
yeniyetmə İsa Yerusəlimdə qaldı,
onun ata-anasının isə bundan xəbəri
yox idi. 44 Onlar İsanın səyyahlar
dəstəsi içində getdiyini düşünürdülər.
Amma bir günlük yolu gedəndən
sonra Onu dostların və qohumların
arasında axtarmağa başladılar. 45 Onu
tapmadılar və axtara-axtara Yerusəlimə
qayıtdılar. 46 Üç gündən sonra Onu
məbəddə tapdılar. İsa müəllimlər
arasında oturmuşdu və onlara qulaq
asır, suallar verirdi. 47 Onu dinləyən
hər kəs Onun zəkasına və verdiyi
cavablara mat qalırdı. 48 Ata-anası
Onu görüb təəccübləndi. İsanın anası
Ona dedi: «Oğlum, bu nədir başımıza
gətirdin? Atanla mən nigaran qalıb səni
axtarırdıq». 49 İsa onlara cavab verdi:
«Məni nə üçün axtarırdınız? Məgər
bilmirdiniz ki, Mən Atamın evində
olmalıyam?» 50 Amma onlar Onun
nə demək istədiyini başa düşmədilər.
51 Sonra İsa ata-anası ilə Nazaretə
qayıtdı. O, ata-anasına itaətli idi.
Onun anası isə bütün bu şeyləri öz
ürəyində saxlayırdı. 52 [d]İsa böyüyürdü
və hikmətdə artırdı. O, Allahın və
insanların qarşısında lütf qazanırdı.

Vəftizçi Yəhyanın gəlişi

(Mat. 3:1-12; Mark 1:1-8; Yəh. 1:19-28)

3 Qeysər Tiberinin hakimiyyətinin
on beşinci ili idi. O dövrdə Ponti
Pilat Yəhudeyanın valisi idi. Hirod*
Qalileyada, qardaşı Filip İtureya
və Traxonitis bölgəsində, Lisaniya
Abileniyada hökmranlıq edirdi.
2 Xananla Qayafa baş kahin idi. O
vaxt çöldə Zəkəriyyənin oğlu Yəhyaya
Allahın kəlamı nazil oldu. 3 O da İordan
çayının ətrafındakı bütün bölgəni
dolaşaraq insanların öz günahlarının
bağışlanması üçün tövbə edib vəftiz
olunmasını vəz edirdi. 4 [e]Necə ki Yeşaya
peyğəmbərin kitabında yazılıb:

«Səhrada nida edənin səsi gəlir:
“Rəbbin yolunu hazırlayın,
Onun keçəcəyi yerləri düz edin.
5 Hər dərə yüksəldiləcək,
Hər dağ və təpə aşağı endiriləcək,
Yoldakı əyriliklər düzələcək,
Kələ-kötür yerlər hamar ediləcək.
6 Bütün bəşər Allahın xilasını
görəcək”».

7 [f]Yəhya vəftiz olunmaq üçün yanına
gələn camaata deyirdi: «Ey gürzələr
nəsli! Üzərinizə gələcək qəzəbdən
canınızı qurtarmağı sizin beyninizə
kim yeridib? 8 [g]İndi isə tövbəyə layiq
bəhrələr verin. Ürəyinizdə “atamız
İbrahimdir” deməyə başlamayın. Mən
sizə deyirəm ki, Allah bu daşlardan
İbrahimə övlad yaratmağa qadirdir.
9 [h]Artıq balta ağacların dibində yatır.
Beləliklə, yaxşı bəhrə verməyən hər
ağac kəsilir və oda atılır».

10 Camaat ondan soruşurdu: «Bəs biz
nə edək?» 11 Yəhya onlara belə cavab
verdi: «İki köynəyi olan birini köynəyi
olmayana versin. Həmçinin yeməyi
olan adam da olmayanla bölüşsün».
12 [i]Vergiyığanlar da vəftiz olunmaq
üçün onun yanına gəlib soruşdular:
«Müəllim, biz nə edək?» 13 Yəhya onlara
dedi: «Sizə tapşırılan məbləğdən artıq
vergi yığmayın». 14 Bəzi əsgərlər də
gəlib ondan soruşdular: «Bəs biz nə
etməliyik?» Yəhya da onlara cavab

---

*3:1 *Hirod* – bu Hirod İsanın anadan olan vaxtında hökmranlıq edən padşah Hirodun oğludur.

[d]**2:52** 1Şam. 2:26; Sül. 3:4 [e]**3:4** Yeş. 40:3-5 [f]**3:7** Mat. 12:34; 23:33
[g]**3:8** Yəh. 8:33 [h]**3:9** Mat. 7:19 [i]**3:12** Luka 7:29

verdi: «Heç kimdən zorla pul almayın,
nahaq yerə ittiham etməyin, aldığınız
maaşla kifayətlənin».
15 Xalq ümidlə gözləyirdi və hamı
ürəyində Yəhya haqqında öz-özündən
soruşurdu: «Görəsən bu, Məsihdirmi?»
16 Yəhya onların hamısına belə cavab
verdi: «Mən sizi su ilə vəftiz edirəm,
amma məndən daha Qüdrətlisi gəlir.
Mən Onun çarıqlarının bağını açmağa
belə, layiq deyiləm. O sizi Müqəddəs
Ruhla və odla vəftiz edəcək. 17 Öz
xırmanını sovurmaq və taxılı anbarına
toplamaq üçün kürəyi əlində hazırdır.
Küləşi isə sönməz odda yandıracaq».
18 Yəhya çoxlu başqa öyüd-nəsihət
verərək xalqa Müjdəni vəz edirdi.
19 [j]Amma Yəhya hökmdar Hirodu
qardaşı arvadı Hirodiyanı aldığına və
etdiyi hər cür pis işlərə görə məzəmmət
etdikdə 20 Hirod etdiyi bütün pis işlərə
bunu da əlavə edərək Yəhyanı zindana
saldırdı.

İsanın vəftiz olunması

(Mat. 3:13-17; Mark 1:9-11)

21 [k]Bütün xalq vəftiz olunanda İsa
da vəftiz olundu. O dua edərkən göy
yarıldı, 22 Müqəddəs Ruh bədəncə
göyərçin şəklində Onun üzərinə endi.
Göydən bir səda gəldi: «Sən Mənim
sevimli Oğlumsan, Səndən razıyam».

İsanın nəsil şəcərəsi

(Mat. 1:1-17)

23 İsa Öz xidmətinə başlayanda
təxminən otuz yaşında idi. İnsanların
zənnincə, O bu nəsildən idi: Yusif Oğlu
Eli oğlu 24 Mattat oğlu Levi oğlu Melki
oğlu Yannay oğlu Yusif oğlu 25 Mattitya
oğlu Amos oğlu Nahum oğlu Hasli oğlu
Naqqay oğlu 26 Mahat oğlu Mattitya
oğlu Şimi oğlu Yoseh oğlu Yoda oğlu
27 Yoxanan oğlu Reşa oğlu Zerubbabil
oğlu Şealtiel oğlu Neri oğlu 28 Melki
oğlu Addi oğlu Kosam oğlu Elmadam
oğlu Er oğlu 29 Yeşua oğlu Eliezer
oğlu Yorim oğlu Mattat oğlu Levi oğlu
30 Şimeon oğlu Yəhuda oğlu Yusif oğlu
Yonam oğlu Elyaqim oğlu 31 Melea oğlu
Menna oğlu Mattata oğlu Natan oğlu
Davud oğlu 32 Yessey oğlu Oved oğlu
Boaz oğlu Salmon oğlu Naxşon oğlu
33 Amminadav oğlu Admin oğlu Arni
oğlu* Xesron oğlu Peres oğlu Yəhuda
oğlu 34 Yaqub oğlu İshaq oğlu İbrahim
oğlu Terah oğlu Naxor oğlu 35 Seruq
oğlu Reu oğlu Peleq oğlu Ever oğlu
Şelah oğlu 36 Qenan oğlu Arpakşad
oğlu Sam oğlu Nuh oğlu Lemek oğlu
37 Metuşelah oğlu Xanok oğlu Yered
oğlu Mahalalel oğlu Qenan oğlu 38 Enoş
oğlu Şet oğlu Adəm oğlu Allah oğlu.

İsanın sınağa çəkilməsi

(Mat. 4:1-11; Mark 1:12-13)

4 İsa Müqəddəs Ruhla dolaraq İordan
çayından qayıtdı və Ruh tərəfindən
səhraya aparıldı. 2 Orada İsa qırx gün
ərzində iblis tərəfindən sınağa çəkildi.
Bu müddətdə İsa heç nə yemədi və qırx
gün keçəndən sonra acdı. 3 İblis Ona
dedi: «Əgər Sən Allahın Oğlusansa, bu
daşa əmr et ki, çörəyə dönsün». 4 [l]Lakin
İsa ona belə cavab verdi: «"İnsan yalnız
çörəklə yaşamaz"† deyə yazılmışdır».
5 Sonra iblis İsanı yuxarıya‡ çıxardı və
bir anda dünyanın bütün padşahlıqlarını

*3:33 *Admin oğlu Arni oğlu* – bəzi əlyazmalarda *Ram oğlu.*
†4:4 *İnsan yalnız çörəklə yaşamaz* – bəzi əlyazmalarda *İnsan yalnız çörəklə deyil, Allahın hər bir kəlməsi ilə yaşayar* (Mat. 4:4).
‡4:5 *Yuxarıya* – bəzi əlyazmalarda *yüksək bir dağa.*

[j]**3:19** Mat. 14:3-4; Mark 6:17-18 [k]**3:21** Yar. 22:2; Zəb. 2:7; Yeş. 42:1; Mat. 3:17; Mark 1:11; Luka 9:35 [l]**4:4** Qanun. 8:3

Ona göstərdi. 6 İblis İsaya dedi: «Mən
bütün bunların üzərindəki səlahiyyəti
və şan-şöhrəti Sənə verəcəyəm. Çünki
bunlar mənə verilib və mən kimə
istəsəm, ona verə bilərəm. 7 Bax əgər
Sən mənə səcdə etsən, bunların hamısı
sənin olacaq». 8 [m]İsa ona belə cavab
verdi: «“Allahın* Rəbbə səcdə et və
yalnız Ona ibadət et” deyə yazılmışdır».
9 Sonra iblis Onu Yerusəlimə apardı
və məbədin qülləsinə qoyub dedi: «Əgər
Sən Allahın Oğlusansa, özünü buradan
aşağı at. 10 [n]Axı
“Allah Sənə görə mələklərinə əmr
edər ki,
Səni qorusunlar,
11 [o]Səni əlləri üstündə aparsınlar,
Ayağın bir daşa dəyməsin”
deyə yazılmışdır». 12 [p]Amma İsa
cavabında ona belə dedi: «“Allahın
Rəbbi sınama” deyilmişdir».
13 İblis sınaqların hamısını
qurtarandan sonra bir müddət
Onu tərk etdi.

İsa xidmətinə başlayır

(Mat. 4:12-17; Mark 1:14-15)

14 İsa Ruhun qüdrəti ilə Qalileyaya
qayıtdı. Onun haqqında xəbər
bütün bölgəyə yayıldı. 15 İsa oranın
sinaqoqlarında təlim öyrətməyə başladı.
Hamı Onu izzətləndirirdi.

İsa Nazaretdə rədd edilir

(Mat. 13:53-58; Mark 6:1-6)

16 İsa böyüdüyü Nazaret şəhərinə
gəldi və adətinə görə Şənbə günü
sinaqoqa getdi. O, Müqəddəs Yazılardan
oxumaq üçün ayağa qalxdı. 17 Ona
Yeşaya peyğəmbərin kitabını verdilər.
İsa tumarı açıb bu sözlər yazılan hissəni
tapdı:
18 [q]«Rəbbin Ruhu üzərimdədir,
Çünki fəqirlərə Müjdəni bildirmək
üçün
O Məni məsh etdi.
Əsirlərə azadlıq,†
Korlara gözlərinin açılmasını elan
etmək üçün,
Məzlumları sərbəstliyə buraxmaq
üçün,
19 Rəbbin lütf ilini bəyan etmək üçün
Məni göndərdi».
20 Sonra İsa tumarı bağladı və
xidmətçiyə verib oturdu. Sinaqoqda
oturanların hamısı Ona diqqətlə
baxırdı. 21 İsa onlara «eşitdiyiniz bu
Müqəddəs Yazı bu gün yerinə yetdi»
deyə danışmağa başladı.
22 Bu vaxt hamı Onun haqqında yaxşı
sözlər deyirdi və Onun ağzından çıxan
lütf dolu kəlmələrə heyrət edirdi. Onlar
«Məgər bu, Yusifin Oğlu deyilmi?»
deyirdilər. 23 İsa onlara belə dedi:
«Əlbəttə, siz Mənə “Ey həkim, öz-özünə
şəfa ver!” məsəlini xatırladacaqsınız.
“Kefernahumda etdiklərin barəsində
eşitmişik. Burada, Öz yurdunda da
həmin işləri et!” deyəcəksiniz». 24 [r]Sonra
dedi: «Sizə doğrusunu deyirəm: heç bir
peyğəmbər öz yurdunda qəbul edilməz.
25 [s]Yenə də sizə həqiqəti deyirəm ki,
İlyasın dövründə göy üç il altı ay
ərzində bağlı qalıb bütün ölkədə böyük
aclıq olanda İsraildə çoxlu dul qadın var
idi. 26 [t]Amma İlyas onlardan heç birinin
yanına deyil, Sidonun Sarfat şəhərində
olan bir dul qadının yanına göndərildi.

---

*__4:8__ *Verdi: «“Allahın* – bəzi əlyazmalarda *verdi: «Şeytan, rədd ol yanımdan! “Allahın.*
†__4:18__ *Əsirlərə azadlıq* – bəzi əlyazmalarda *Qəlbi sınıq olanları sağalmaq üçün, Əsirlərə azadlıq.*

[m]**4:8** Qanun. 6:13 [n]**4:10** Zəb. 91:11 [o]**4:11** Zəb. 91:12
[p]**4:12** Qanun. 6:16 [q]**4:18** Yeş. 61:1-3 [r]**4:24** Yəh. 4:44 [s]**4:25** 1Pad. 17:1
[t]**4:26** 1Pad. 17:8-16

27 [u]Elişa peyğəmbərin dövründə İsraildə
çoxlu cüzamlı var idi. Ancaq onlardan
heç biri deyil, yalnız Aramlı Naaman
pak oldu».
28 Sinaqoqdakı camaatın hamısı bu
sözləri eşidib hiddətləndi. 29 Onlar
ayağa durdular və İsanı şəhərin
kənarına qovdular. Onu uçurumdan
atmaq üçün şəhərin qurulduğu təpənin
başına gətirdilər. 30 Amma İsa onların
arasından keçərək oradan çıxıb getdi.

İsa Kefernahum sinaqoqunda cini qovur

(Mark 1:21-28)

31 İsa Qalileyanın Kefernahum
şəhərinə gəldi və Şənbə günü onlara
təlim öyrətməyə başladı. 32 [v]Onun
təliminə təəccüblənirdilər, çünki O,
səlahiyyətlə danışırdı. 33 Həmin vaxt
sinaqoqda cinə – natəmiz ruha tutulmuş
bir nəfər var idi. O ucadan çığırdı:
34 «Nə olub? Ey Nazaretli İsa, bizdən
nə istəyirsən? Bizi məhv etməyəmi
gəlmisən? Mən bilirəm Sən Kimsən:
Allahın Müqəddəsisən!» 35 Amma İsa
ona qadağan edib dedi: «Sus və bu
adamdan çıx!» Cin bu adamı hamının
qabağında yerə yıxıb heç bir zərər
vermədən ondan çıxdı. 36 Hamı heyrətə
düşdü və bir-birinə dedi: «Bu söz
nədir? O, natəmiz ruhlara səlahiyyət və
qüdrətlə əmr edir, onlar da çıxır!» 37 İsa
haqqında xəbər bu bölgənin hər yerinə
yayıldı.

İsa çox adama şəfa verir

(Mat. 8:14-17; Mark 1:29-34)

38 İsa sinaqoqdan çıxıb Şimonun evinə
gəldi. Şimonun qayınanası isə yüksək
qızdırma içində yatırdı. Bu qadından
ötrü İsadan kömək istədilər. 39 İsa ona
yaxınlaşıb qızdırma xəstəliyinə qadağan
etdi və qadının qızdırması düşdü. Qadın
o anda durub onlara xidmət etməyə
başladı.
40 Gün batanda hamı müxtəlif
xəstəliyə tutulanları İsanın yanına
gətirdi. O hər birinin üzərinə əllərini
qoyub onlara şəfa verdi. 41 Bir
çoxlarındansa cinlər «Sən Allahın
Oğlusan!» deyə bağıraraq çıxırdı. O isə
onlara qadağan edir, danışmağa izin
vermirdi. Çünki onlar İsanın Məsih
olduğunu bilirdilər.

İsa vəzini davam etdirir

(Mark 1:35-39)

42 Səhər açılanda İsa çıxıb kimsəsiz
bir yerə getdi. Camaat isə Onu axtarırdı
və İsanın yanına gəlib onları tərk
etməsin deyə Onu yanlarında saxlamaq
istədilər. 43 Lakin İsa onlara dedi:
«Mən o biri şəhərlərə də Allahın
Padşahlığının Müjdəsini yaymalıyam,
çünki Mən bunun üçün göndərilmişəm».
44 Beləliklə, İsa Yəhudeyanın*
sinaqoqlarında vəz etməyə davam etdi.

İlk şagirdlər

(Mat. 4:18-22; Mark 1:16-20)

5 [w]Bir gün İsa Ginesar gölünün
sahilində dayanmışdı. İzdiham İsanı
dövrəyə almışdı və Allahın kəlamına
qulaq asırdı. 2 İsa göl kənarında duran
iki qayıq gördü. Balıqçılar isə qayıqdan
çıxıb torlarını yuyurdular. 3 İsa iki
qayıqdan birinə – Şimonun qayığına
minib onu gölün kənarından bir az
uzaqlaşdırmasını xahiş etdi. Sonra İsa
oturdu və qayıqdan izdihama təlim
öyrətməyə başladı.
4 O, sözünü qurtaranda Şimona dedi:
«Qayığı dərinliyə aparın və torlarınızı

---

*4:44 *Yəhudeyanın* – bəzi əlyazmalarda *Qalileyanın.*

[u]**4:27** 2Pad. 5:1-14 [v]**4:32** Mat. 7:28-29 [w]**5:1** Mat. 13:1-2; Mark 3:9-10; 4:1

balıq tutmaq üçün suya atın». 5 [x]Şimon
cavab verdi: «Ustad, biz bütün gecə
çalışdıq, lakin heç nə tuta bilmədik.
Amma Sənin sözünə görə yenə də torları
ataram». 6 [y]Bunu etdilər və o qədər
balıq tutdular ki, hətta torları cırılmağa
başladı. 7 O biri qayıqdakı yoldaşlarına
da işarə etdilər ki, gəlib kömək etsinlər.
Onlar gəlib hər iki qayığı balıqla
doldurdular. Qayıqlar da batmağa
başladı. 8 Şimon Peter bunu gördükdə
İsanın ayaqlarına düşdü və belə dedi:
«Ya Rəbb, məndən uzaqlaş, axı mən
günahkar bir adamam». 9 Çünki özü də,
yanındakılar da tutduqları balıqların
çoxluğuna görə heyrətə düşmüşdülər.
10 Şimonla ortaq olan Yaqub və Yəhya
adlı Zavday oğulları da eyni hisslər
keçirirdi. Amma İsa Şimona belə dedi:
«Qorxma, bundan belə, balıq əvəzinə
adam tutacaqsan». 11 Onlar qayıqları
göl kənarına çıxarıb hər şeyi atdılar və
İsanın ardınca getdilər.

İsa cüzamlıya şəfa verir

(Mat. 8:1-4; Mark 1:40-45)

12 Bir gün İsa şəhərlərin birində
olarkən bütün bədəni cüzama tutulmuş
bir kişi ilə rastlaşdı. Bu adam İsanı
görüb üzüstə yerə qapanaraq yalvardı:
«Ya Rəbb, əgər istəsən, məni pak
edə bilərsən». 13 İsa əlini uzadıb ona
toxundu və dedi: «İstəyirəm, pak ol!»
Dərhal bu adam cüzamdan sağaldı.
14 [z]İsa ona tapşırdı ki, heç kəsə bir söz
söyləməsin və dedi: «Amma get, özünü
kahinə göstər. Hər kəsə şəhadət olsun
deyə sənin cüzamdan paklandığın üçün
Musanın buyurduğuna əsasən təqdimlər
apar». 15 Amma indi İsa barəsində xəbər
daha çox yayılırdı. Çoxlu camaat axışıb
İsanın yanına gəlirdi ki, Ona qulaq assın
və xəstəliklərdən şəfa tapsın. 16 Amma
İsa kimsəsiz yerlərə çəkilib dua edirdi.

İsa iflicə şəfa verir

(Mat. 9:1-8; Mark 2:1-12)

17 Bir gün İsa təlim öyrədirdi.
Qalileyanın və Yəhudeyanın bütün
kəndlərindən və Yerusəlimdən gələn
fariseylər və Qanun müəllimləri
Onun yanında oturmuşdu. Onda şəfa
vermək üçün Rəbbin qüdrəti var idi.
18 Bu vaxt bir neçə nəfər yataqda
yatan bir iflic adamı gətirdi. Onlar
bu adamı içəri gətirib İsanın önünə
qoymağa çalışırdılar. 19 Amma böyük
izdihama görə iflici İsanın yanına
gətirə bilmirdilər. Ona görə də evin
damına çıxıb kirəmitləri söküb açdıqları
yerdən xəstəni yatağı ilə birgə aşağı
endirdilər və ortalığa, İsanın qarşısına
qoydular. 20 İsa onların imanını görüb
dedi: «Dostum, günahların bağışlandı».
21 İlahiyyatçılar və fariseylər belə
düşünməyə başladılar: «Küfr danışan
bu Adam kimdir ki? Tək Allahdan
başqa günahları kim bağışlaya bilər?»
22 İsa onların nə fikirləşdiyini dərk
edib cavab verdi: «Niyə ürəyinizdə
belə düşünürsünüz? 23 Bax hansı daha
asandır? “Günahların bağışlandı”
deməkmi, yoxsa “Qalx, yeri!” demək?
24 Lakin siz bilin ki, Bəşər Oğlunun
yer üzündə günahları bağışlamaq
səlahiyyəti var» və iflicə dedi: «Sənə
deyirəm, qalx, yatağını götür, evinə
get!» 25 Xəstə dərhal hamının qarşısında
ayağa qalxdı, yatağını götürdü və Allahı
izzətləndirərək evinə getdi. 26 Hamı
mat qaldı və Allahı izzətləndirib böyük
qorxu içində dedi: «Bu gün möcüzəli
işlər gördük!»

Levi şagirdlərə qoşulur

(Mat. 9:9-13; Mark 2:13-17)

27 Bundan sonra İsa bayıra çıxdı və
vergi yığılan yerdə oturan Levi adlı

---

[x]**5:5** Yəh. 21:3 [y]**5:6** Yəh. 21:6 [z]**5:14** Lev. 14:1-32

vergiyığanı görüb ona dedi: «Ardımca gəl». 28 O da durub hər şeyi atdı və
İsanın ardınca getdi.
29 Sonra Levi evində İsaya böyük bir
qonaqlıq verdi. Onlarla birgə bir çox
vergiyığan və başqa adamlar süfrəyə
oturmuşdu. 30 [a]Fariseylərlə onların
ilahiyyatçıları* şikayət etməyə başladı.
Onlar İsanın şagirdlərinə dedi: «Niyə
vergiyığanlar və günahkarlarla birgə
yeyib-içirsiniz?» 31 Amma İsa onlara
belə cavab verdi: «Sağlamların deyil,
xəstələrin həkimə ehtiyacı var. 32 Mən
salehləri deyil, günahkarları tövbəyə
çağırmaq üçün gəlmişəm».

Oruc barəsindəki sual

(Mat. 9:14-17; Mark 2:18-22)

33 Onlarsa İsaya dedilər: «Yəhyanın
şagirdləri tez-tez oruc tutub dua edir,
fariseylərin şagirdləri də belə edirlər.
Amma Səninkilər yeyib-içirlər». 34 İsa
onlara cavab verdi: «Bəy yanlarında
olanda sağdışı və soldışı oruc tutmağa
məcbur edə bilərsinizmi? 35 Lakin bəyin
onların arasından aparılacağı günlər
gələcək və o zaman oruc tutacaqlar».
36 İsa onlara bir məsəl də çəkdi: «Heç
kim təzə paltardan bir parça qoparıb
köhnə paltara yamaq vurmaz. Yoxsa
təzə paltar həm cırılar, həm də təzə
paltardan qoparılan parça köhnə paltara
yaraşmaz. 37 Heç kim təzə şərabı köhnə
tuluqlara doldurmaz. Yoxsa təzə şərab
tuluqları partladar, həm şərab tökülər,
həm də tuluqlar zay olar. 38 Təzə
şərab təzə tuluqlara doldurulmalıdır.
39 Heç kim köhnə şərabı içdikdən sonra
təzəsini istəməz. Çünki deyər: “Köhnəsi
daha yaxşıdır”».

Şənbə günü haqqında təlim

(Mat. 12:1-8; Mark 2:23-28)

6 [b]Bir Şənbə günü İsa taxıl zəmiləri
arasından keçirdi. Şagirdləri
sünbülləri qırır və ovuclarında ovub
yeyirdilər. 2 Fariseylərdən bəzisi
dedi: «Siz nə üçün Şənbə günü
qadağan olunan işləri görürsünüz?»
3 [c]İsa onlara cavab verdi: «Davud və
yanındakılar ac olanda nə etdiklərini
oxumamısınızmı? 4 [d]O, Allahın evinə
girdi; kahinlərdən başqa heç kəsə
yeməyə icazə verilməyən təqdis
çörəklərini götürüb yedi, yanındakılara
da verdi». 5 Sonra İsa onlara dedi: «Bəşər
Oğlu Şənbə gününün Sahibidir».

Əli qurumuş adamın şəfası

(Mat. 12:9-14; Mark 3:1-6)

6 Başqa bir Şənbə günü İsa yenə
də sinaqoqa girib təlim öyrədirdi.
Orada sağ əli qurumuş bir adam var
idi. 7 İlahiyyatçılar və fariseylər İsanı
ittiham etməyə bəhanə tapmaq üçün
Ona göz qoyurdular ki, görsünlər, Şənbə
günü şəfa verəcək ya yox. 8 Amma
İsa onların nə düşündüklərini bilib
əli qurumuş kişiyə dedi: «Ayağa qalx
və qabağa çıx!» O adam da ayağa
qalxıb ortaya çıxdı. 9 Sonra İsa onlara
dedi: «Sizdən soruşuram, hansına icazə
var, Şənbə günü yaxşılıq, yoxsa pislik
etməyə, kiminsə canını xilas, yoxsa
məhv etməyə?» 10 İsa ətrafındakıların
hamısına baxdı və o adama dedi: «Əlini
uzat!» O da elə etdi və əli əvvəlki halına
qayıtdı.† 11 Onlarsa qəzəbdən coşub
İsaya nə edə biləcəkləri barədə bir-biri
ilə müzakirə etməyə başladılar.

---

*5:30 *Fariseylərlə onların ilahiyyatçıları* – bəzi əlyazmalarda *İlahiyyatçılar və fariseylər.*
†6:10 *Qayıtdı* – bəzi əlyazmalarda *qayıdıb o biri əli kimi sağlam oldu* (Mat. 12:13).

[a]**5:30** Luka 15:1-2 [b]**6:1** Qanun. 23:25 [c]**6:3** 1Şam. 21:1-6 [d]**6:4** Lev. 24:9

On İki şagird

(Mat. 10:1-4; Mark 3:13-19)

12 O günlərdə İsa dua etmək üçün
dağa çıxdı. O bütün gecəni Allaha
dua etməklə keçirtdi. 13 Gün açılanda
şagirdlərini yanına çağırdı və onlardan
on iki nəfəri seçib həvari adlandırdı:
14 Peter adını verdiyi Şimon, onun
qardaşı Andrey, Yaqub, Yəhya, Filip,
Bartalmay, 15 Matta, Tomas, Halfay
oğlu Yaqub, Millətçi adlanan Şimon,
16 Yaqub oğlu Yəhuda və sonralar
xəyanətkar olan Yəhuda İskaryot.

İsa xəstələrə şəfa verir

(Mat. 4:24-25; Mark 3:7-12)

17 İsa onlarla birgə aşağı endi və
düzəngahda dayandı. Orada çox sayda
şagirdlərindən ibarət izdiham var idi.
Bütün Yəhudeyadan, Yerusəlimdən,
Sur və Sidon yaxınlığındakı sahil
bölgələrindən çoxlu adam 18 Onu
dinləmək və öz xəstəliklərindən
sağalmaq üçün gəlmişdi. Natəmiz
ruhlardan əzab çəkənlər də şəfa
tapdılar. 19 Bütün izdiham İsaya
toxunmağa çalışırdı. Çünki Ondan çıxan
qüdrət hamını sağaldırdı.

İsanın Dağüstü vəzi

(Mat. 5:1-12)

20 İsa Öz şagirdlərinə nəzər salıb dedi:
«Nə bəxtiyarsınız, ey yoxsullar!
Çünki Allahın Padşahlığı sizindir.
21 Nə bəxtiyarsınız, ey indi aclıq
çəkənlər!
Çünki doyacaqsınız.
Nə bəxtiyarsınız, ey indi ağlayanlar!
Çünki güləcəksiniz.
22 [e]Bəşər Oğluna görə insanlar sizə
nifrət edəndə, sizi cəmiyyətdən qovub
təhqir edəndə, adınızı bədnam edəndə
nə bəxtiyarsınız! 23 [f]O gün sevinin və
sevincdən atılıb-düşün! Çünki göydə
mükafatınız böyükdür. Axı onların
ata-babaları da peyğəmbərlərlə belə
davranıb.
24 Amma vay halınıza, ey varlılar!
Çünki artıq təsəllinizi almısınız.
25 Vay halınıza, ey indi tox olan sizlər!
Çünki aclıq çəkəcəksiniz.
Vay halınıza, ey indi gülənlər!
Çünki yas tutub ağlayacaqsınız.
26 Bütün adamlar sizin barənizdə
yaxşı şeylər danışanda vay halınıza!
Axı onların ata-babaları da yalançı
peyğəmbərlərlə belə davranıb.

Düşmənlərinizi sevin

(Mat. 5:38-48)

27 Amma sizə deyirəm, ey Məni
dinləyənlər: düşmənlərinizi sevin, sizə
nifrət edənlərə yaxşılıq edin, 28 sizi
lənətləyənlərə xeyir-dua verin, sizi
incidənlər üçün dua edin.
29 Bir üzünə şillə vurana o birini
də çevir və üst paltarını aparandan
köynəyini də əsirgəmə. 30 Səndən
bir şey diləyən hər kəsə ver və
sənin malını aparandan geri istəmə.
31 [g]İnsanların sizinlə necə rəftar
etməsini istəyirsinizsə, siz də onlarla elə
rəftar edin.
32 Əgər sizi sevənləri sevirsinizsə,
hansı tərifə layiqsiniz? Çünki
günahkarlar da onları sevənləri sevirlər.
33 Əgər sizə yaxşılıq edənlərə yaxşılıq
edirsinizsə, hansı tərifə layiqsiniz?
Çünki günahkarlar da elə edirlər.
34 Əgər geri almaq ümidi ilə insanlara
borc verirsinizsə, hansı tərifə layiqsiniz?
Günahkarlar da günahkarlara borc
verirlər ki, həmin borcu tam geri
alsınlar. 35 Sizsə düşmənlərinizi
sevin, onlara yaxşılıq edin və heç
bir şey ummadan borc verin. Onda
alacağınız mükafat böyük olacaq və siz

---

[e] **6:22** 1Pet. 4:14 [f] **6:23** 2Saln. 36:16; Həv. 7:52-53 [g] **6:31** Mat. 7:12

Haqq-Taalanın övladları olacaqsınız.
Çünki O, nankorlara və pis adamlara
da xeyirxahdır. 36 Atanız mərhəmətli
olduğu kimi siz də mərhəmətli olun.

Mühakimə etməyin

(Mat. 7:1-5)

37 Mühakimə etməyin, siz də
mühakimə olunmazsınız. Hökm
çıxarmayın, sizə də hökm çıxarılmaz.
Başqalarını bağışlayın, siz də
bağışlanacaqsınız. 38 Verin, sizə
də veriləcək: silkələnib basa-basa
dolan bol bir ölçü ilə sizə qucaq-qucaq
veriləcək. Çünki hansı ölçü ilə ölçsəniz,
sizin üçün də eyni ölçü ilə ölçüləcək».
39 [h]İsa onlara yenə də bir məsəl çəkdi:
«Kor koru apara bilərmi? İkisi də çuxura
düşməzmi? 40 [i]Şagird müəllimindən
üstün deyil, amma tam təlim alandan
sonra hər şagird öz müəllimi kimi
olacaq. 41 Sən nə üçün qardaşının
gözündə çöpü görürsən, amma öz
gözündəki tiri seçmirsən? 42 Öz
gözündəki tiri isə görmədən qardaşına
necə deyə bilərsən: "Qardaşım! Qoy
gözündəki çöpü çıxarım!" Ey ikiüzlü,
əvvəlcə öz gözündən tiri çıxar, onda
aydın görərsən ki, qardaşının gözündəki
çöpü necə çıxarmaq olar.

Ağac və bəhrə

(Mat. 7:15-20; 12:33-35)

43 Yaxşı ağac pis bəhrə gətirməz, pis
ağac da yaxşı bəhrə gətirməz. 44 Çünki
hər ağac öz bəhrəsindən tanınır.
Qaratikandan əncir yığmazlar, tikan
kolundan da üzüm dərməzlər. 45 Yaxşı
adam ürəyinin yaxşılıq xəzinəsindən
yaxşı şeylər çıxarır, pis adamsa pislik
xəzinəsindən pis şeylər çıxarır. Çünki
ürək doluluğundan ağız danışar.

Ağıllı bənna və ağılsız bənna

(Mat. 7:21,24-27)

46 Nə üçün Məni "ya Rəbb, ya Rəbb"
deyə çağırırsınız, amma dediklərimə
əməl etmirsiniz? 47 Mənim yanıma
gələn, sözlərimi eşidib onlara əməl edən
hər adamın kimə bənzədiyini sizə izah
edərəm: 48 o, ev tikən elə bir adama
bənzəyir ki, torpağı qazıb dərinə gedər
və təməli qaya üzərində qurar. Daşqın
gəldiyi zaman sellər o evi bassa da, onu
sarsıda bilməz. Çünki ev yaxşı tikilib.*
49 Amma sözlərimi eşidib onlara əməl
etməyən kəs torpaq üzərində təməlsiz
ev tikən adama bənzəyir. Sellər o
evi basar və ev o anda uçar. O evin
yıxılması bir müsibət olar».

Yüzbaşının imanı

(Mat. 8:5-13)

7 İsa Ona qulaq asan camaata
sözlərini deyib qurtarandan sonra
Kefernahuma daxil oldu. 2 Orada bir
yüzbaşının çox dəyərli qulu xəstələnib
ölüm yatağına düşmüşdü. 3 Bu yüzbaşı
İsa haqqında eşidəndə gəlib qulunu
sağaltsın deyə Yəhudilərin bəzi
ağsaqqallarını Onun yanına göndərdi.
4 Onlar İsanın yanına gəlib Ona ürəkdən
yalvardılar və belə dedilər: «Bu adam
Sənin köməyinə layiqdir. 5 Çünki o
bizim millətimizi sevir və bizim üçün
sinaqoq tikdirib». 6 İsa onlarla birlikdə
yola düşdü. O, evə yaxınlaşarkən
yüzbaşı bəzi dostlarını yollayıb Ona
belə xəbər göndərdi: «Ya Rəbb, zəhmət
çəkmə. Mən layiq deyiləm ki, Sən
mənim evimə girəsən. 7 Bu səbəbə
görə yanına gəlməyə də özümü layiq
bilmədim. Amma bir söz söylə ki,
xidmətçim sağalsın. 8 Çünki mən də

---

*6:48 *Çünki ev yaxşı tikilib* – bəzi əlyazmalarda *Çünki evin təməli qaya üzərində qurulub* (Mat. 7:25).

[h]**6:39** Mat. 15:14 [i]**6:40** Mat. 10:24-25; Yəh. 13:16; 15:20

tabeçilik altında olan bir adamam,
mənim də tabeçiliyimdə əsgərlər var.
Birinə "Get!" deyirəm, o gedir, digərinə
isə "Gəl!" deyirəm, o da gəlir. Quluma
"Bunu et!" deyirəm, o da edir». 9 Bunu
eşidən İsa yüzbaşıya heyrət etdi. O
dönüb ardınca gələn camaata dedi:
«Sizə deyirəm: heç İsraildə də bu qədər
böyük iman görmədim». 10 Göndərilən
adamlar evə qayıdanda xəstə qulun
sağlam olduğunu gördülər.

Dul qadının oğlu dirilir

11 Bundan bir az sonra İsa Nain
adlanan bir şəhərə getdi. İsanın
şagirdləri və böyük bir izdiham Onu
müşayiət edirdi. 12 O, şəhər darvazasına
yaxınlaşarkən bir dul ananın yeganə
oğlunun cənazəsi çıxarılırdı. Şəhər
sakinlərinin çoxu da ana ilə gedirdi.
13 Rəbb onu görəndə ona rəhmi gəldi
və qadına dedi: «Ağlama!» 14 Yaxınlaşıb
mafəyə toxundu və cənazəni aparanlar
dayandılar. İsa dedi: «Ey cavan oğlan,
sənə deyirəm: qalx!» 15 Ölü durub
oturdu və danışmağa başladı. İsa onu
anasına verdi. 16 Hamını qorxu bürüdü.
«Aramızda böyük bir peyğəmbər ortaya
çıxdı!» və «Allah Öz xalqına nəzər
saldı!» – deyərək Allahı izzətləndirdilər.
17 İsa barəsindəki bu xəbər bütün
Yəhudeyaya və ətraf bölgəyə yayıldı.

İsa Məsih və Vəftizçi Yəhya

(Mat. 11:2-19)

18 Yəhyanın şagirdləri də ona
bütün bu hadisələr barədə xəbər
verdilər. Yəhya şagirdlərindən ikisini
yanına çağırıb 19 göndərdi ki, Rəbdən
soruşsunlar: «Gəlməli Olan Sənsənmi,
yoxsa başqasını gözləyək?» 20 Adamlar
İsanın yanına gəlib dedilər: «Vəftizçi
Yəhya bizi Sənin yanına göndərdi ki,
soruşaq: "Gəlməli Olan Sənsənmi, yoxsa
başqasını gözləyək?"» 21 Həmin vaxt
İsa bir çox xəstəliklərə, azarlara və
şər ruhlara tutulmuş insanlara şəfa
verdi, həm də bir çox korların gözlərini
açdı. 22 [j]İsa onlara belə cavab verdi:
«Gedin, görüb eşitdiklərinizi Yəhyaya
bildirin: korlar görür, axsaqlar yeriyir,
cüzamlılar pak olur, karlar eşidir,
ölülər dirilir və yoxsullara Müjdə
yayılır. 23 Kim Mənə görə büdrəməsə,
nə bəxtiyardır!»

24 Yəhyanın elçiləri getdikdən
sonra İsa camaata Yəhya haqqında
danışmağa başladı: «Çölə nəyə
baxmağa getmişdiniz? Küləyin
sarsıtdığı qamışamı? 25 Bəs onda nəyə
baxmağa getmişdiniz? Nəfis toxunmuş
paltar geymiş bir adamamı? Amma
gözəl paltar geyinib cah-calal içində
yaşayanlar padşah saraylarında qalırlar.
26 Bəs onda nəyə baxmağa getmişdiniz?
Bir peyğəmbərəmi? Bəli, sizə deyirəm,
hətta peyğəmbərdən də üstün birinə.
27 [k]Bu o adamdır ki, onun haqqında
yazılıb:

"Budur, Sənin önündə Öz elçimi
göndərirəm.
O Sənin qabağında yolunu
hazırlayacaq".

28 Sizə deyirəm: qadından doğulanlar
arasında Yəhyadan üstün olan* yoxdur.
Amma Allahın Padşahlığında ən kiçik
olan ondan üstündür».

29 [l]Yəhyanın vəftiz etdiyi xalqın
hamısı, hətta vergiyığanlar da bunu
eşitdikdə Allahın ədalətini təsdiq etdilər.
30 Amma fariseylər və qanunşünaslar
Yəhyanın vəftizindən imtina etdilər
və bununla Allahın onlar barəsindəki
iradəsini rədd etdilər.

31 İsa sözünü davam etdirdi: «Bu
nəslin adamlarını nəyə bənzədim? Onlar

*7:28 *Yəhyadan üstün olan* – bəzi əlyazmalarda *Vəftizçi Yəhyadan üstün peyğəmbər.*

[j]**7:22** Yeş. 35:5-6; 61:1-3 [k]**7:27** Mal. 3:1 [l]**7:29** Mat. 21:32; Luka 3:12

nəyə bənzəyir? 32 Bazar meydanında
oturan və
"Biz sizə tütək çaldıq, sizsə
oynamadınız,
Biz mərsiyələr oxuduq, sizsə
ağlamadınız"
deyib bir-birini səsləyən uşaqlara
bənzəyirlər. 33 Çünki Vəftizçi Yəhya
gəldikdə nə çörək yeyir, nə şərab
içirdi və siz deyirsiniz: "O, cinə
tutulmuşdur". 34 Bəşər Oğlu gəldikdə
yeyib-içdi və siz deyirsiniz: "Bu
qarınqulu və əyyaş adama baxın!
Vergiyığanlara və günahkarlara dost
oldu!" 35 Amma hikmət öz övladlarının
hamısı tərəfindən təsdiq olunur».

İsa günahkar qadını bağışlayır

36 Fariseylərdən biri İsanı onunla
birgə yeməyə dəvət etdi. O da fariseyin
evinə girdi və süfrəyə oturdu. 37 [m]Həmin
şəhərdə günahkar bir qadın yaşayırdı.
O, fariseyin evində İsanın süfrəyə
oturduğundan xəbər tutanda ağ mərmər
bir qabda ətirli yağ gətirdi. 38 Qadın
arxada, İsanın ayaqlarının yanında
durub ağlayaraq göz yaşları ilə Onun
ayaqlarını islatmağa başladı. O, İsanın
ayaqlarını saçları ilə sildi, öpdü və
onlara ətirli yağ çəkdi.
39 İsanı evinə dəvət etmiş farisey
bunu görüb öz-özünə belə dedi:
«Əgər bu adam peyğəmbər olsaydı,
Ona toxunanın kim və nə cür qadın
olduğunu bilərdi, çünki bu qadın
günahkardır». 40 İsa ona xitab edib
belə söylədi: «Şimon, Mənim sənə
sözüm var». O da dedi: «Müəllim,
buyur». 41 «Bir sələmçiyə iki nəfərin
borcu var idi. Biri beş yüz, o birisi
isə əlli dinar borclu idi. 42 Onların
borcu ödəməyə imkanları yox idi. Ona
görə də sələmçi hər ikisinin borcunu
bağışladı. De görüm, bu adamlardan
hansı onu daha çox sevəcək?» 43 Şimon
cavab verdi: «Güman edirəm, o adam
ki ona daha çox bağışlandı». İsa ona
«düz seçmisən» dedi. 44 Sonra İsa
qadına tərəf baxıb Şimona dedi: «Sən
bu qadını görürsənmi? Mən sənin
evinə gəldim, sən Mənim ayaqlarımı
yumaq üçün Mənə su da vermədin.
Bu qadınsa ayaqlarımı göz yaşları ilə
isladıb saçları ilə sildi. 45 Sən Məni
öpmədin, bu qadınsa Mən evə girəndən
bəri ayaqlarımı hey öpür. 46 Sən başıma
zeytun yağı çəkmədin. O isə ayaqlarıma
ətirli yağ çəkdi. 47 Buna görə də
sənə deyirəm: bu qadının çox olan
günahları bağışlandı. Böyük məhəbbət
göstərməsi də bu səbəbdəndir. Kimə az
bağışlanıbsa, az sevər».
48 Sonra İsa qadına dedi: «Sənin
günahların bağışlandı». 49 Onda İsa ilə
birgə süfrədə oturanlar öz aralarında
danışmağa başladılar: «Bu adam kimdir
ki, günahları da bağışlayır?» 50 Amma
İsa qadına dedi: «İmanın səni xilas etdi.
Arxayın get».

İsanın ardınca gedən qadınlar

8 Bu hadisədən sonra İsa şəhərləri
və kəndləri gəzməyə başladı.
O, Allahın Padşahlığını vəz edərək
Müjdəni yayırdı. On İki şagird Onunla
birgə idi. 2 [n]Həmçinin şər ruhlardan və
xəstəliklərdən şəfa tapmış bəzi qadınlar,
daxilindən yeddi cin çıxmış Məcdəlli
adlanan Məryəm, 3 Hirodun eşikağası
Xuzanın arvadı Yoxanna, Şoşanna və
bir çox başqa qadınlar İsa ilə idi. Bu
qadınlar əmlakları ilə onlara* xidmət
edirdilər.

---

*8:3 *Onlara* – bəzi əlyazmalarda *Ona,* yəni İsaya.

[m]**7:37** Mat. 26:6-7; Mark 14:3; Yəh. 12:3

[n]**8:2** Mat. 27:55-56; Mark 15:40-41; Luka 23:49

Səpilən toxum məsəli

(Mat. 13:1-23; Mark 4:1-20)

4 Böyük izdiham toplaşanda, insanlar
hər şəhərdən İsanın yanına gələndə İsa
onlara bir məsəl danışdı: 5 «Bir əkinçi
toxumunu səpməyə çıxdı. Səpin zamanı
toxumlardan bəzisi yol kənarına düşdü,
ayaq altında tapdalandı və göydə
uçan quşlar onları dənlədi. 6 Bəzisi
daşlığa düşdü və cücərincə susuzluqdan
qurudu. 7 Bəzisi tikanlar arasına düşdü.
Tikanlar toxumla birgə boy atıb onu
boğdu. 8 Başqaları isə münbit torpağa
düşdü və böyüyüncə yüz qat artıq
səmərə verdi». İsa bunları deyərək nida
etdi: «Eşitməyə qulağı olan eşitsin!»
9 [o]Şagirdləri isə Ondan soruşdular:
«Bu məsəlin mənası nədir?» 10 O dedi:
«Allahın Padşahlığının sirlərini bilmə
qabiliyyəti sizə verilmişdir. Başqalarına
isə hər şeyi məsəllərlə danışıram ki,

"Gördükləri halda görməsinlər,
Eşitdikləri halda anlamasınlar".

11 Məsəlin mənası budur: toxum
Allahın kəlamıdır. 12 Yol kənarına
düşənlərsə kəlamı eşidənlərdir.
Sonra iblis gəlir və iman etməyib
xilas olmasınlar deyə kəlamı onların
ürəyindən götürüb aparır. 13 Daşlığa
düşənlərsə kəlamı eşidəndə sevinclə
qəbul edənlərdir. Lakin onlarda kök
olmadığına görə bir müddət iman
edir və sınaq vaxtı gələndə imandan
dönürlər. 14 Tikanlar arasına düşənlərsə
bunlardır: kəlamı eşidirlər, amma
get-gedə bu həyatın qayğılarından,
var-dövlətindən, zövqlərindən boğulur
və yaxşı bəhrə vermirlər. 15 Münbit
torpağa düşənlərsə bunlardır: belə
insanlar kəlamı eşidib xeyirxah və
sadiq ürəkdə saxlayırlar. Bunlar səbirlə
səmərə verir.

Çıraq məsəli

(Mark 4:21-25)

16 [p]Heç kim çırağı yandırıb onu
qabla örtməz yaxud yatağın altına
qoymaz. Əksinə, çıraqdana qoyar ki,
içəri girənlər işığı görsünlər. 17 [q]Çünki
elə gizli bir şey yoxdur ki, aşkara
çıxmayacaq və elə örtülü bir şey yoxdur
ki, bilinib aydın olmayacaq. 18 [r]Buna
görə də necə dinlədiyinizə diqqət edin.
Çünki kimin varıdırsa, ona daha çox
veriləcək. Amma kimin yoxudursa,
özününkü zənn etdiyi şey də əlindən
alınacaq».

İsanın anası və qardaşları kimdir?

(Mat. 12:46-50; Mark 3:31-35)

19 İsanın anası və qardaşları Onun
yanına gəldi. Amma izdihama görə
Ona yaxınlaşa bilmədilər. 20 İsaya xəbər
verdilər: «Anan və qardaşların bayırda
dayanıb Səni görmək istəyirlər». 21 İsa
onlara cavab verdi: «Mənim anam və
qardaşlarım Allahın kəlamını eşidib ona
əməl edənlərdir».

İsa tufanı yatırır

(Mat. 8:23-27; Mark 4:35-41)

22 Bir gün İsa Öz şagirdləri ilə bir
qayığa mindi və onlara dedi: «Gəlin
gölün o biri sahilinə keçək». Onlar yola
düşdülər. 23 Onlar qayıqda gedərkən
İsanı yuxu apardı. Göldə tufan qopdu.
Qayıq su ilə dolmağa başlayanda
onlar təhlükəli vəziyyətə düşdülər.
24 Şagirdlər yaxınlaşıb İsanı oyadaraq
dedilər: «Ustad, Ustad, biz həlak
oluruq!» İsa durub küləyə və qalxan
sulara qadağan etdi. Tufan dayandı və
sükut çökdü. 25 Onda O, şagirdlərinə
dedi: «Sizin imanınız haradadır?»
Onlarsa qorxu və heyrət içində qalıb

---

[o] **8:9** Yeş. 6:9-10; Həv. 28:26-27 [p] **8:16** Mat. 5:15; Luka 11:33
[q] **8:17** Mat. 10:26; Luka 12:2 [r] **8:18** Mat. 25:29; Luka 19:26

bir-birlərindən soruşurdular: «Bu Adam
kimdir ki, həm küləklərə, həm suya əmr
verir, onlar da itaət edir?»

Cinə tutulmuş adam sağaldılır

(Mat. 8:28-34; Mark 5:1-20)

26 Sonra onlar Qalileyanın qarşısında
yerləşən Gerasalıların* diyarına gəldilər.
27 İsa qayıqdan sahilə düşəndə şəhərdən
olan bir nəfər Onunla qarşılaşdı. Cinlərə
tutulmuş və xeyli vaxtdır ki, paltar
geyməyən bu adam evdə yox, qəbir
mağaralarında yaşayırdı. 28 O, İsanı
görən kimi bağırıb Onun qarşısında diz
çökdü və bərkdən çığıra-çığıra dedi:
«Ey İsa, Allah-Taalanın Oğlu, məndən
nə istəyirsən? Yalvarıram Sənə, mənə
əzab vermə!» 29 Çünki İsa natəmiz ruha
əmr etmişdi ki, həmin adamdan çıxsın.
Bu ruh o adamı çoxdan tutmuşdu. Buna
görə də o adamı qorumaq üçün onu
zəncir və buxovlarla bağlamışdılar. O
isə zəncirləri qıraraq cin tərəfindən çölə
qovulurdu. 30 İsa ondan soruşdu: «Sənin
adın nədir?» O cavab verdi: «Adım
Qoşundur». Çünki onun daxilinə çox
cin girmişdi. 31 Onlar dibsiz dərinliyə
düşmələrini əmr etməsin deyə İsaya
yalvarırdılar.
32 Orada – dağın yamacında böyük
bir donuz sürüsü otlayırdı. Cinlər İsaya
yalvardılar ki, donuzların içinə girməyə
izin versin. İsa da onlara izin verdi.
33 Cinlər adamdan çıxıb donuzların
içinə girdi. Sürü də uçurumdan aşağı,
gölə atılıb boğuldu.
34 Donuz otaranlar bunları görüb
qaçdılar, bu xəbəri şəhər və kəndlərdə
yaydılar. 35 Camaat nə baş verdiyinə
tamaşa etməyə çıxdı. Onlar İsanın
yanına gəldilər, daxilindən cinlər
çıxmış adamın İsanın ayaqları yanında
geyinmiş və ağıllanmış oturduğunu
görüb qorxuya düşdülər. 36 Hadisəni
görənlərsə cinə tutulmuş adamın
necə sağaldığını camaata danışdılar.
37 Gerasalıların ətraf diyarındakı
bütün xalq İsadan xahiş etdi ki, oranı
tərk etsin, çünki onları böyük qorxu
bürümüşdü. İsa da qayığa minib geri
qayıtdı. 38 Daxilindən cinlər çıxmış
kişi İsanın yanında qalmaq üçün Ona
yalvardı. 39 Amma İsa ona «qayıt evinə
və Allahın sənə etdiyi hər şeyi danış»
deyərək onu buraxdı. Bu adam da gedib
İsanın ona etdiyi hər şeyi bütün şəhərə
yaydı.

Qızın dirilməsi və qadının şəfa tapması

(Mat. 9:18-26; Mark 5:21-43)

40 İsa geri qayıtdıqda xalq Onu qəbul
etdi, çünki hamı Onu gözləyirdi. 41 Bu
vaxt Yair adlı sinaqoq rəisi olan bir kişi
gəlib İsanın ayaqlarına düşdü və Ona
yalvardı ki, evinə gəlsin. 42 Çünki onun
on iki yaşın içində olan bircə qızı var
idi və o, can üstə idi. İsa oraya gedərkən
izdiham Onu sıxışdırırdı.
43 Orada on iki il qanaxma xəstəliyinə
tutulan bir qadın var idi. O bütün varını
həkimlərə xərcləmişdi, lakin onların
heç biri† ona şəfa verə bilməmişdi.
44 Bu qadın İsanın arxasından gəlib
Onun paltarının ətəyinə toxundu və
o andaca onun qanaxması dayandı.
45 İsa dedi: «Mənə toxunan kim idi?»
Lakin hamı bunu inkar edəndə Peter‡
dedi: «Ustad, izdiham Səni əhatə
edib sıxışdırır».* 46 Amma İsa dedi:

---

*8:26 *Gerasalıların* – bəzi əlyazmalarda *Qadaralıların* (Mat. 8:28).
†8:43 *O bütün varını … heç biri* – bəzi əlyazmalarda *Heç kim.*
‡8:45 *Peter* – bəzi əlyazmalarda *Peter və onun yanındakılar.*
*8:45 *Sıxışdırır* – bəzi əlyazmalarda *sıxışdırır. Necə soruşa bilərsən ki, Mənə toxunan kim idi?* (Mark 5:31).

«Mənə kimsə toxundu, çünki Məndən
qüvvət çıxdığını bildim». 47 Qadınsa
gizlənə bilmədiyini gördükdə titrəyərək
gəlib İsanın ayağına düşdü. Bütün
xalq qarşısında Ona nə səbəbdən
toxunduğunu və o anda necə sağaldığını
İsaya nəql etdi. 48 İsa da ona dedi:
«Qızım,† imanın səni xilas etdi. Arxayın
get».
49 İsa hələ danışırdı ki, sinaqoq
rəisinin evindən bir nəfər gəlib dedi:
«Qızın öldü. Müəllimi daha narahat
etmə». 50 Amma İsa bunu eşidəndə
sinaqoq rəisinə dedi: «Qorxma, yalnız
iman et! Qızın xilas olacaq». 51 İsa
onun evinə gələndə Peter, Yəhya,
Yaqub və qızın ata-anasından başqa
heç kimi Özü ilə evə girməyə qoymadı.
52 Hamı qız üçün ağlayıb nalə çəkirdi.
Amma İsa dedi: «Ağlamayın, o ölməyib,
sadəcə olaraq yatıb». 53 Onlarsa qızın
öldüyünü bildiklərinə görə İsaya
güldülər. 54 Amma İsa‡ qızın əlindən
tutub səslədi: «Qızcığaz, qalx!» 55 Qızın
ruhu bədəninə qayıtdı və o dərhal ayağa
qalxdı. İsa dedi ki, qıza yemək versinlər.
56 Qızın ata-anası mat qaldı. Amma İsa
onlara tapşırdı ki, bu hadisə barədə heç
kəsə danışmasınlar.

On İki şagirdə verilən vəzifə

(Mat. 10:1-15; Mark 6:7-13)

9 İsa On İki şagirdi yanına çağırıb
bütün cinlər üzərində və xəstəliklərə
şəfa vermək üçün onlara qüdrət və
səlahiyyət verdi. 2 Onları göndərdi ki,
Allahın Padşahlığını vəz edib xəstələri
sağaltsınlar. 3 [s]İsa onlara dedi: «Yol üçün
heç nə – nə əsa, nə torba, nə çörək, nə
pul, nə də iki köynək götürün. 4 Hansı
evə girsəniz, orada qalın və oradan
da yola çıxın. 5 [t]Harada sizi qəbul
etməzlərsə, o şəhərdən çıxarkən onlara
qarşı şəhadət olsun deyə ayaqlarınızın
tozunu çırpın». 6 Onlar da yola düşüb
hər yerdə Müjdəni yayaraq və şəfa
verərək kənd-kənd dolaşdılar.

Yəhyanın edamı

(Mat. 14:1-2; Mark 6:14-16)

7 [u]Hökmdar Hirod baş verən bütün
hadisələr barədə eşitdi və çaşıb-qaldı.
Çünki bəziləri «Yəhya ölülər arasından
dirilib», 8 digərləri «İlyas zühur edib»,
başqaları da «qədim peyğəmbərlərdən
biri dirilib» deyirdi. 9 Hirod isə dedi:
«Yəhyanın boynunu mən vurdurdum,
bəs haqqında bu xəbərləri eşitdiyim
Adam kimdir?» Hirod Onu görməyə can
atırdı.

İsa beş min nəfəri doydurur

(Mat. 14:13-21; Mark 6:30-44; Yəh. 6:1-14)

10 Həvarilər İsanın yanına qayıdıb
gördükləri işlər haqqında Ona
danışdılar. Sonra İsa yalnız onları
Özü ilə götürüb Bet-Sayda adlanan
bir şəhərə apardı. 11 Amma camaat
bu barədə xəbər tutub Onun ardınca
düşdü. İsa onları xoş qarşıladı, onlara
Allahın Padşahlığından danışdı və
şəfaya möhtac olanları sağaltdı.
12 Artıq gün batırdı. On İki şagird
İsanın yanına gəlib Ona dedi: «Camaatı
burax, qoy ətrafdakı oba və kəndlərə
gedib gecələsinlər və bir şey alıb
yesinlər. Axı biz burada çöllük
yerdəyik». 13 Amma İsa onlara dedi:
«Onlara yeməyi siz verin». Şagirdlər
Ona cavab verdilər: «Beş çörək və iki
balıqdan başqa bir şeyimiz yoxdur.
Bəlkə biz gedib bütün bu camaat üçün
bir şey alaq?» 14 Orada beş minə yaxın

---

†**8:48** *Qızım* – bəzi əlyazmalarda *Cəsarətli ol, qızım* (Mat. 9:22).
‡**8:54** *İsa* – bəzi əlyazmalarda *İsa hamını bayıra çıxarandan sonra* (Mark 5:40).

[s]**9:3** Luka 10:4-11 [t]**9:5** Həv. 13:51 [u]**9:7** Mat. 16:14; Mark 8:28; Luka 9:19

kişi var idi. İsa şagirdlərinə dedi:
«Onları dəstə-dəstə, əlli-əlli oturdun».
15 Şagirdlər də eləcə edib hamını
oturtdular. 16 İsa beş çörəyi və iki balığı
götürüb göyə baxaraq şükür duası
etdi. Sonra onları bölüb şagirdlərə
verdi ki, camaata paylasınlar. 17 Hamı
yeyib-doydu. Artıq qalan hissələr on iki
zənbilə yığıldı.

Peterin Məsihi tanıması

(Mat. 16:13-20; Mark 8:27-30)

18 Bir gün İsa tək dua edirdi. Şagirdlər
də yanında idi. İsa onlardan soruşdu:
«Camaatın dediyinə görə Mən kiməm?»
19 [v]Onlar belə cavab verdilər: «Bəziləri
Vəftizçi Yəhya, başqaları İlyas, digərləri
isə deyirlər ki, qədim peyğəmbərlərdən
biri dirilib». 20 [w]İsa onlara dedi: «Bəs siz
nə deyirsiniz? Sizcə Mən kiməm?» Peter
cavab verdi: «Sən Allahın Məsihisən».
21 İsa şagirdlərinə qadağan edib əmr
etdi ki, bunu heç kəsə danışmasınlar.

İsa ölüb-diriləcəyi barədə əvvəlcədən xəbər verir

(Mat. 16:21-28; Mark 8:31–9:1)

22 O dedi: «Bəşər Oğlu çox əzab
çəkməli, ağsaqqallar, başçı kahinlər və
ilahiyyatçılar tərəfindən rədd olunmalı,
öldürülməli və üçüncü gün dirilməlidir».
23 [x]Sonra hamısına söylədi: «Əgər bir
kəs Mənim ardımca gəlmək istəyirsə,
özündən imtina etsin və hər gün*
çarmıxını götürüb ardımca gəlsin.
24 [y]Kim canını xilas etmək istəyirsə, onu
itirəcək, amma kim Mənim uğrumda
canını itirirsə, onu xilas edəcək. 25 İnsan
bütün dünyanı qazanıb canını məhv
edər yaxud itirərsə, ona nə xeyri var?
26 Kim Məndən və Mənim sözlərimdən
utanarsa, Bəşər Oğlu da Özünün,
Atasının və müqəddəs mələklərin izzəti
içində gələndə o adamdan utanacaq.
27 Amma sizə həqiqəti deyirəm: burada
duranlardan bəzisi Allahın Padşahlığını
görmədən ölməyəcək».

İsanın görünüşü dəyişir

(Mat. 17:1-8; Mark 9:2-8)

28 [z]Bu sözləri söyləyəndən təxminən
səkkiz gün keçmişdi. İsa Özü ilə Peter,
Yəhya və Yaqubu götürüb dua etmək
üçün dağa çıxdı. 29 İsa dua edərkən
üzünün görünüşü dəyişdi və libası
gözqamaşdırıcı ağ rəng aldı. 30 O anda
iki nəfər İsa ilə söhbət etməyə başladı.
Onlar Musa və İlyas idi. 31 Onlar ehtişam
içində göründülər və İsanın Yerusəlimdə
yerinə yetirəcəyi bu dünyadan ayrılması
barədə danışırdılar. 32 Peter və onun
yoldaşları dərin yuxuya dalmışdılar.
Yuxudan ayılanda isə İsanın ehtişamını
və yanında duran iki kişini gördülər.
33 Onlar İsanın yanından gedəndə Peter
İsaya dedi: «Ustad! Nə yaxşı ki biz
buradayıq. Gəl üç çardaq quraq, biri
Sənin, biri Musa, biri də İlyas üçün».
Əslində o nə dediyini bilmirdi. 34 Peter
bunu deyən zaman bir bulud gəldi və
onların üzərinə kölgə saldı. Buluda
daxil olarkən onları dəhşət bürüdü.
35 [a]Buluddan bir səs gəldi: «Bu Mənim
Oğlumdur, seçilmişimdir,† Ona qulaq
asın!» 36 Səs kəsiləndə onlar İsanı tək
gördülər. Şagirdlər bunu sirr olaraq
saxlayıb o günlərdə gördüklərini heç
kimə danışmadılar.

---

*9:23 *Hər gün* – bəzi əlyazmalarda bu sözlər yoxdur.
†9:35 *Oğlumdur, seçilmişimdir* – bəzi əlyazmalarda *sevimli Oğlumdur* (Mark 9:7).

[v]**9:19** Mat. 14:1-2; Mark 6:14-15; Luka 9:7-8 [w]**9:20** Yəh. 6:68-69
[x]**9:23** Mat. 10:38; Luka 14:27 [y]**9:24** Mat. 10:39; Luka 17:33; Yəh. 12:25
[z]**9:28** 2Pet. 1:17-18 [a]**9:35** Yeş. 42:1; Mat. 3:17; 12:18; Mark 1:11; 14:13-15

Oğlandan cin çıxarılır

(Mat. 17:14-21; Mark 9:14-29)

37 Ertəsi gün onlar dağdan enəndə
İsanı böyük bir izdiham qarşıladı.
38 Camaat arasından bir kişi çığırdı:
«Müəllim, yalvarıram, oğluma nəzər
sal, o mənim yeganə balamdır. 39 Bir
ruh onu tutur, o birdən bağırır. Ruh
onu ağzından köpük gələnəcən sarsıdır.
Ona əziyyət verib güc-bəla ilə onu
tərk edir. 40 Mən şagirdlərindən xahiş
etdim ki, bu ruhu qovsunlar, amma
bacarmadılar». 41 İsa da ona cavab
verdi: «Ey imansız və yolunu azmış
nəsil! Nə vaxta qədər Mən sizinlə qalıb
sizə dözəcəyəm? Oğlunu yanıma gətir».
42 Oğlan İsaya yaxınlaşarkən cin onu
yerə atıb sarsıtdı. Amma İsa natəmiz
ruha qadağan etdi, oğlanı sağaldıb
atasına qaytardı. 43 Hamı Allahın
əzəmətinə təəccüblənirdi.

İsa öləcəyi barədə yenə xəbər verir

(Mat. 17:22-23; Mark 9:30-32)

Onlar hamısı İsanın etdiyi işlərə
heyrət edərkən O, şagirdlərinə dedi:
44 «Bu sözlərə qulaq asın: Bəşər
Oğlu insan əllərinə təslim edilmək
üzrədir». 45 Lakin şagirdlər bu sözü başa
düşmədilər. Bu sözün mənası onlar
üçün gizli qaldı və Ondan bu söz barədə
soruşmaqdan da qorxurdular.

Ən böyük kimdir?

(Mat. 18:1-5; Mark 9:33-40)

46 Şagirdlər aralarında kimin ən
böyük olduğu barədə mübahisə
etməyə başladılar. 47 Amma İsa onların
ürəklərindən keçəni bilib bir balaca
uşağı götürüb yanına qoydu. 48 Sonra
onlara dedi: «Kim Mənim adımla bu
uşağı qəbul edərsə, Məni qəbul edər.
Kim Məni qəbul edərsə, Məni Göndərəni
qəbul edər. Sizin aranızda hamıdan
kiçik olan ən böyükdür».
49 Yəhya cavabında dedi: «Ustad,
biz Sənin adınla cinləri qovan bir
nəfəri gördük, amma bizimlə birgə
getmədiyinə görə ona mane olduq».
50 Amma İsa ona dedi: «Ona mane
olmayın! Əleyhinizə olmayan sizin
tərəfinizdədir».

Samariyalılar İsanı qəbul etmirlər

51 Dünyadan ayrılacağı günlər
yaxınlaşdıqca İsa Yerusəlimə getmək
qərarına gəldi. 52 İsa qabağınca elçilər
göndərdi. Onlar İsanın gəlişi münasibəti
ilə hazırlıq işləri görmək üçün gedib
Samariyalıların bir kəndinə girdilər.
53 Lakin Samariyalılar İsanı qəbul
etmədilər, çünki O, Yerusəlimə doğru
gedirdi. 54 Şagirdlərdən Yaqubla Yəhya
bunu görüb dedilər: «Rəbb,* bunları
məhv etmək üçün bir əmrlə göydən alov
yağdırmağımızı istəyirsənmi?» 55 Amma
İsa dönüb onlara qadağan etdi.† 56 Sonra
onlar başqa bir kəndə yollandılar.

İsanın şagirdi olmaq nə deməkdir

(Mat. 8:19-22)

57 Onlar yol boyu gedərkən bir nəfər
İsaya dedi: «Sən hara getsən, Sənin
ardınca gedəcəyəm». 58 İsa ona dedi:
«Tülkülərin də yuvası, göydə uçan
quşların da yuvası var. Amma Bəşər
Oğlunun başını qoymağa belə, yeri
yoxdur».
59 Bir başqasına İsa dedi: «Ardımca
gəl». O isə dedi: «Ya Rəbb, mənə
icazə ver, əvvəlcə gedim, atamı dəfn
edim». 60 İsa ona dedi: «Qoy ölülər öz

---

*9:54 *Rəbb* – bəzi əlyazmalarda *Rəbb, İlyas etdiyi kimi bizim də.*
†9:55 *Qadağan etdi* – bəzi əlyazmalarda *qadağan edərək dedi: «Siz hansı ruha malik olduğunuzu bilmirsiniz.* 56 *Çünki Bəşər Oğlu insanları məhv etmək üçün deyil, onları xilas etmək üçün gəlib».*

ölülərini dəfn etsin. Sənsə get, Allahın
Padşahlığını bəyan et».
61 Yenə başqa bir adam dedi:
«Ya Rəbb, Sənin ardınca gələrəm,
amma əvvəl icazə ver evimdəkilərlə
vidalaşım». 62 Lakin İsa ona dedi:
«Kotanı tutub geriyə baxan Allahın
Padşahlığına layiq deyil».

İsa yetmiş nəfəri vəz etməyə yollayır

(Mat. 10:5-16; 11:21-24;
Mark 6:7-13; Luka 9:1-6)

10 Bu hadisələrdən sonra Rəbb
başqa yetmiş* nəfəri təyin etdi
və onları iki-iki Özünün gedəcəyi hər
şəhərə və hər yerə Özündən əvvəl
göndərdi. 2 [b]Onlara dedi: «Məhsul
çoxdur, işçilərsə azdır. Buna görə
də məhsulun Sahibinə yalvarın ki,
Öz məhsulunu yığmaq üçün işçilər
göndərsin. 3 [c]Gedin, sizi qurdların
arasına quzular kimi göndərirəm.
4 Özünüzlə nə kisə, nə torba, nə də çarıq
götürün. Yolda heç kimlə salamlaşıb
danışmayın. 5 Hansı bir evə girsəniz,
əvvəl "Bu evə əmin-amanlıq olsun!"
deyin. 6 Əgər orada əmin-amanlığa
layiq bir adam varsa, dilədiyiniz
əmin-amanlıq onun üzərində qalacaq.
Əks halda o sizə qayıdacaq. 7 Girdiyiniz
evdə qalın, sizə nə verirlərsə, yeyib-için,
çünki işçi öz haqqına layiqdir. Evdən
evə köçməyin. 8 Hansısa bir şəhərə
girdiyiniz zaman sizi qəbul edirlərsə,
qabağınıza qoyulanı yeyin. 9 Orada
olan xəstələrə şəfa verin və onlara
deyin: "Allahın Padşahlığı sizə
yaxınlaşıb". 10 Amma hansısa bir şəhərə
girdiyiniz zaman sizi qəbul etməsələr,
oranın küçələrinə çıxıb belə deyin:
11 "Sizin əleyhinizə çıxaraq şəhərinizin
ayaqlarımıza yapışan tozunu belə,
çırpırıq. Amma bunu bilin ki, Allahın
Padşahlığı sizə yaxınlaşıb". 12 Sizə bunu
deyirəm: qiyamət günü† Sodomun halı
o şəhərin halından daha asan olacaq.
13 Vay halına, ey Korazin! Vay
halına, ey Bet-Sayda! Sizdə baş
vermiş möcüzələr Sur və Sidonda
olsaydı, onlar çoxdan çul geyinib
külün üstündə oturaraq tövbə edərdi.
14 Amma qiyamət günü‡ Sur və Sidonun
halı sizinkindən daha asan olacaq.
15 Sən, ey Kefernahum, göyə qədər
ucalacaqsanmı? Ölülər diyarına qədər
enəcəksən.
16 [d]Sizi dinləyən kəs Məni dinləyir,
sizi rədd edən Məni rədd edir. Məni
rədd edənsə Məni Göndərəni rədd edir».

Yetmiş şagird qayıdır

17 Yetmiş şagird sevinə-sevinə qayıtdı
və dedi: «Ya Rəbb, Sənin adınla cinlər
belə, bizə tabe olur!» 18 İsa onlara belə
cavab verdi: «Mən Şeytanın ildırım
kimi göydən düşməyini görmüşdüm.
19 [e]Baxın Mən sizə səlahiyyət vermişəm
ki, ilanları, əqrəbləri və düşmənin bütün
gücünü ayaq altında əzəsiniz və heç
nə sizə zərər vurmayacaq. 20 Bununla
belə, ruhların sizə tabe olduğuna görə
sevinməyin, amma sevinin ki, adlarınız
göylərdə yazılıb».

İsanın sevinci

(Mat. 11:25-27; 13:16-17)

21 İsa o vaxt Müqəddəs Ruhda şadlanıb
dedi: «Ey yerin-göyün Sahibi olan Ata!
Səndən razıyam ki, bu şeyləri müdrik və
dərrakəli adamlardan gizlədib körpələrə

*__10:1__ *Yetmiş* – bəzi əlyazmalarda *yetmiş iki.*
†__10:12__ *Qiyamət günü* – hərfi tərcümədə *o gün.*
‡__10:14__ *Qiyamət günü* – hərfi tərcümədə *mühakimədə.*

[b]__10:2__ Mat. 9:37-38; Yəh. 4:35 [c]__10:3__ Mat. 10:16
[d]__10:16__ Mat. 10:40; Mark 9:36-37; Luka 9:47-48; Yəh. 13:20 [e]__10:19__ Zəb. 91:13

agah etdin. Bəli, Ata! Çünki bu Sənin
xoş niyyətin idi. 22 [f]Atam* tərəfindən
hər şey Mənim ixtiyarıma verildi.
Oğulun kim olduğunu Atadan başqa heç
kəs bilməz. Atanın kim olduğunu da
Oğuldan və Oğulun agah etmək istədiyi
şəxsdən başqa heç kəs bilməz».
23 Sonra İsa şagirdlərə sarı dönüb
onlara ayrıca dedi: «Nə bəxtiyardır
o gözlər ki, sizin gördüklərinizi
görür! 24 Sizə bunu deyirəm: bir çox
peyğəmbərlər və padşahlar sizin
gördüklərinizi görmək istədilər, amma
görmədilər, eşitdiklərinizi eşitmək
istədilər, amma eşitmədilər».

Xeyirxah Samariyalı

25 [g]Bir qanunşünas İsanı sınamaq
məqsədi ilə qalxıb dedi: «Müəllim,
əbədi həyatı irs olaraq almaq üçün
mən nə etməliyəm?» 26 İsa ondan
soruşdu: «Qanunda nə yazılıb? Orada
nə oxuyursan?» 27 [h]Bu adam İsaya
belə cavab verdi: «“Allahın Rəbbi
bütün qəlbinlə, bütün varlığınla, bütün
gücünlə və bütün düşüncənlə sev” və
“Qonşunu özün kimi sev”». 28 [i]İsa ona
dedi: «Sən düz cavab verdin, buna əməl
et və yaşayacaqsan». 29 Amma o özünə
haqq qazandırmaq üçün İsadan soruşdu:
«Bəs mənim qonşum kimdir?»
30 İsa belə cavab verdi: «Bir nəfər
Yerusəlimdən Yerixoya gedən yolda
quldurların əlinə düşdü. Quldurlar
onu soyundurub döydülər və yarımcan
halda qoyub getdilər. 31 Təsadüfən
o yoldan bir kahin enirdi. Bu adamı
görən kimi yolun o biri tərəfi ilə keçib
getdi. 32 Bir Levili də ora yaxınlaşıb
o adamı görəndə yolun o biri tərəfi
ilə keçib getdi. 33 O yolla gedən bir
Samariyalı isə bu adamı görəndə ona
rəhmi gəldi. 34 Ona yaxınlaşdı və zeytun
yağı ilə şərab tökərək yaralarını sarıdı.
Sonra bu adamı öz heyvanına mindirib
mehmanxanaya gətirdi və ona qayğı
göstərdi. 35 Ertəsi gün o, iki dinar
çıxarıb mehmanxana sahibinə verərək
dedi: “Onun qayğısını çək. Əgər bundan
da çox xərcin çıxsa, mən geri qayıdanda
sənə verərəm”. 36 Səncə bu üç nəfərdən
hansı quldurların əlinə düşən adamın
qonşusu idi?» 37 Qanunşünas cavab
verdi: «Ona mərhəmət göstərən». İsa da
ona dedi: «Get, sən də elə et».

İsa Marta və Məryəmin evində

38 [j]İsa şagirdləri ilə yoluna davam
edərkən bir kəndə girdi. Burada Marta
adlı bir qadın Onu öz evinə dəvət etdi.
39 Onun Məryəm adlı bir bacısı vardı.
O, Rəbbin ayaqları yanında oturub
Onun sözünə qulaq asırdı. 40 Marta
isə işin çoxluğundan çaşıb-qalmışdı.
O, İsaya yaxınlaşıb dedi: «Ya Rəbb!
Görmürsən ki, bacım işləri tək mənim
üstümə yığıb? Ona de ki, mənə kömək
etsin». 41 Rəbb isə ona belə cavab verdi:
«Marta, Marta, sən çox şeyin qayğısını
çəkib təlaşa düşürsən. 42 Yalnız bir şey
lazımdır. Məryəm yaxşısını seçdi. Bu da
onun əlindən alınmayacaq».

Dua haqqında təlim

(Mat. 6:9-13; 7:7-11)

11 İsa bir yerdə dua edirdi. Duasını
bitirəndə şagirdlərindən biri Ona
dedi: «Ya Rəbb, Yəhya öz şagirdlərinə
öyrətdiyi kimi Sən də bizə dua etməyi
öyrət». 2 İsa onlara dedi: «Dua edəndə
belə deyin:
Göylərdə olan Atamız,
Adın müqəddəs tutulsun,
Padşahlığın gəlsin.

---

*__10:22__ *Atam* – bəzi əlyazmalarda *Şagirdlərə sarı dönüb onlara dedi: «Atam…*

[f]**10:22** Yəh. 1:18; 3:35; 10:15 [g]**10:25** Mat. 22:35-40; Mark 12:28-34
[h]**10:27** Lev. 19:18; Qanun. 6:5 [i]**10:28** Lev. 18:5 [j]**10:38** Yəh. 11:1

Göydə olduğu kimi yerdə də Sənin
iradən olsun.*
3 Gündəlik çörəyimizi bizə hər gün
ver.
4 Bizə borclu olan hər adamı
bağışladığımıza görə
Bizim günahlarımızı da bağışla.
Bizi sınağa çəkmə».†
5 Sonra İsa onlara dedi: «Məsələn,
sizlərdən birinin bir dostu var. O da
gecə yarısı dostunun yanına gedib
deyir: "Dostum, mənə üç kömbə çörək
borc ver, 6 çünki yanıma dostum
gəlib, qabağına qoyacaq heç nəyim
yoxdur". 7 Dostu da içəridən belə cavab
verir: "Məni narahat etmə. Qapı artıq
qıfıllıdır, uşaqlarım yanımda yatıb, mən
durub sənə bir şey verə bilmərəm".
8 Sizə deyim ki, o həmin adamla dost
olduğu halda vermək istəməsə də,
təkidlə xahiş etdiyinə görə qalxıb nə
qədər ehtiyacı olsa, ona verəcək.
9 Mən sizə bunu deyirəm: diləyin,
sizə veriləcək, axtarın, tapacaqsınız,
qapını döyün və sizə açılacaq. 10 Çünki
hər diləyən alar, axtaran tapar, qapı
döyənə açılar. 11 Aranızdan hansı ata
oğlu ondan balıq diləsə,‡ ona balıq
yerinə ilan verər? 12 Yaxud yumurta
diləsə, ona əqrəb verər? 13 Beləliklə, siz
pis olduğunuz halda öz övladlarınıza
yaxşı hədiyyələr verməyi bilirsinizsə,
göydə olan Atanın Ondan diləyənlərə
Müqəddəs Ruhu verəcəyi nə qədər
yəqindir!»

İsa və Baal-Zevul

(Mat. 12:22-30; Mark 3:20-27)

14 İsa bir adamdan lal olan bir
cini qovurdu. Cin çıxandan sonra
lal danışmağa başladı və camaat
heyrətləndi. 15 [k]Amma onların
bəzisi deyirdi: «O, cinlərin başçısı
Baal-Zevulun gücü ilə cinləri qovur».
16 [l]Başqaları isə İsanı sınamaq üçün
istədilər ki, göydən gələn bir əlamət
göstərsin.
17 Nə düşündüklərini bilən İsa onlara
dedi: «Öz daxilindən bölünmüş hər
padşahlıq viran qalar və öz içindən
bölünmüş ev dağılar. 18 Əgər Şeytan
da öz daxilindən bölünübsə, onun
padşahlığı necə davam gətirər? Siz də
deyirsiniz ki, Mən cinləri Baal-Zevulun
gücü ilə qovuram. 19 Əgər Mən cinləri
Baal-Zevulun gücü ilə qovuramsa, bəs
sizin adamlarınız kimin gücü ilə qovur?
Buna görə də onlar sizin hakimləriniz
olacaq. 20 Lakin Mən cinləri Allahın
qüdrəti§ ilə qovuramsa, deməli, Allahın
Padşahlığı üzərinizə gəlib. 21 Əgər
güclü bir adam təpədən-dırnağadək
silahlanıb öz evini qoruyursa, onun
əmlakı əmin-amanlıqdadır. 22 Amma
ondan güclüsü ona hücum edib qalib
gələrsə, onda onun güvəndiyi silahları
əlindən alıb talan mallarını bölüşdürər.
23 [m]Mənimlə olmayan Mənə qarşıdır və
Mənimlə yığmayan dağıdır.
24 Natəmiz ruh adamdan çıxdıqdan
sonra quraq yerlərdə dolaşar, rahatlıq
axtarar, lakin tapmaz. O zaman

---

*11:2 *Göylərdə olan Atamız … olsun* – ən qədim yunan əlyazmalarında *Ata, adın müqəddəs tutulsun, Padşahlığın gəlsin* (Mat. 6:9-10).

†11:4 *Çəkmə* – bəzi əlyazmalarda *çəkmə, lakin bizi şər olandan xilas et* (Mat. 6:13).

‡11:11 *Balıq diləsə* – bəzi əlyazmalarda *çörək diləsə, ona daş verər? Ya da balıq diləsə* (Mat. 7:9).

§11:20 *Qüdrəti* – hərfi tərcümədə *barmağı.*

[k]11:15 Mat. 9:34; 10:25 [l]11:16 Mat. 12:38; 16:1; Mark 8:11

[m]11:23 Mark 9:40

deyər: “Çıxdığım evə dönüm”.
25 Evə qayıdanda onu süpürülmüş və
səliqə-sahman içində görər. 26 Bu vaxt o
gedib özündən daha betər yeddi başqa
ruhu götürər. Onlar da oraya girib
məskunlaşar. Onda bu adamın axırı
əvvəlkindən daha pis olar».
27 İsa bunu deyərkən bir qadın
camaatın arasından uca səslə Ona
dedi: «Səni bətnində daşıyan və Səni
əmizdirən nə bəxtiyardır!» 28 Amma
İsa dedi: «Daha doğrusu, Allahın
kəlamını eşidib ona riayət edənlər nə
bəxtiyardır!»

Yunus peyğəmbərin əlaməti

(Mat. 12:38-42)

29 [n]Camaat Onun ətrafına yığılanda
İsa danışmağa başladı: «İndiki nəsil
pis nəsildir. Onlar əlamət axtarır,
amma onlara Yunusun əlamətindən
başqa heç bir əlamət verilməyəcək.
30 [o]Çünki Yunus Nineva əhalisinə necə
bir əlamət oldusa, Bəşər Oğlu da bu
nəsil üçün belə olacaq. 31 [p]Cənub
mələkəsi* qiyamət günündə† bu nəslin
adamları ilə birgə qalxıb onları məhkum
edəcək. Çünki mələkə Süleymanın
hikmətli sözlərini dinləmək üçün
yer üzünün ucqarlarından gəlmişdi.
Budur, Süleymandan daha böyük Olan
buradadır. 32 [q]Nineva xalqı qiyamət
günündə‡ bu nəsillə birgə qalxıb onu
məhkum edəcək. Çünki onlar Yunusun
vəzinə görə tövbə etmişdilər. Budur,
Yunusdan daha böyük Olan buradadır.

Bədənin çırağı

(Mat. 6:22-23)

33 [r]Heç kim çırağı yandırıb onu gizli
yerə yaxud da qabın altına qoymaz.
Əksinə, çıraqdana qoyar ki, içəri
girənlər işığı görsünlər.
34 Bədəninin çırağı gözündür. Gözün
sağlam olanda bütün bədənin də nurlu
olur. Gözün zəif görəndə isə bütün
bədənin də qaranlıq olur. 35 Beləliklə,
diqqət et ki, səndəki “nur” qaranlıq
olmasın. 36 Əgər sənin bütün bədənin
nurlu olub heç bir yerdə qaranlıq
qalmırsa, çıraq sənə öz nuru ilə işıq
saçdığı kimi bədənin də tamamilə nurlu
olacaq».

Vay halınıza!

(Mat. 23:1-36)

37 İsa bunları deyib qurtaranda
fariseylərdən biri Onu evinə yeməyə
dəvət etdi. O da içəri girib süfrəyə
oturdu. 38 İsanın yeməkdən əvvəl
yuyunmadığını görən farisey
heyrətləndi. 39 Lakin Rəbb ona
dedi: «İndi siz fariseylər kasanın və
boşqabın bayır tərəfini təmizləyirsiniz,
lakin daxiliniz soyğunçuluq və pisliklə
dolub. 40 Ey ağılsızlar, zahiri yaradanla
daxili yaradan eyni deyilmi? 41 Yaxşısı
budur ki, qablarınızın içindəkilərini
sədəqə verəsiniz, onda sizin üçün hər
şey təmiz olar.
42 [s]Vay halınıza, ey fariseylər! Çünki
siz nanə, sədəfotu və hər cür göyərtinin
onda birini verirsiniz, lakin ədalətə
və Allah məhəbbətinə etinasızlıq
göstərirsiniz. Amma onda biri verməklə

*11:31 *Cənub mələkəsi* – yəni Süleymanın yanına gələn Səba mələkəsi.
†11:31 *Qiyamət günündə* – hərfi tərcümədə *mühakimədə.*
‡11:32 *Qiyamət günündə* – hərfi tərcümədə *mühakimədə.*

[n]**11:29** Mat. 16:4; Mark 8:12 [o]**11:30** Yun. 3:4
[p]**11:31** 1Pad. 10:1-13; 2Saln. 9:1-12 [q]**11:32** Yun. 3:5
[r]**11:33** Mat. 5:15; Mark 4:21; Luka 8:16 [s]**11:42** Lev. 27:30

yanaşı bunları da yerinə yetirməli
idiniz.
43 Vay halınıza, ey fariseylər!
Sinaqoqlarda baş kürsüləri tutmağı və
bazar meydanlarında salam almağı
sevirsiniz.
44 Vay halınıza! Çünki siz insanların
xəbəri olmadan üstündən keçdikləri
itmiş qəbirlərə oxşayırsınız».
45 Qanunşünaslardan biri İsaya cavab
verdi: «Müəllim, sən bunları deməklə
bizi də təhqir edirsən». 46 İsa da belə
dedi: «Elə sizin də vay halınıza, ey
qanunşünaslar! Çünki adamları ağır
yüklərlə yükləyirsiniz, amma özünüz
barmağınızın biri ilə də bu yüklərə
toxunmursunuz.
47 Vay halınıza! Çünki peyğəmbərlərə
məqbərələr tikirsiniz, amma onları
sizin ata-babalarınız öldürdülər!
48 Beləliklə, siz ata-babalarınızın
etdiklərinə şahidlik edib bəyənirsiniz.
Çünki onlar peyğəmbərləri öldürüb,
sizsə onlara məqbərələr tikirsiniz.
49 Buna görə də Allahın hikməti belə
demişdi: “Mən onlara peyğəmbərlər
və həvarilər göndərəcəyəm, onların
bəzisini öldürüb, bəzisini isə təqib
edəcəklər”. 50–51 [t]Beləcə bu nəsil dünya
yaranandan bəri Habilin qanından
tutmuş qurbangahla məbədin arasında
öldürülmüş Zəkəriyyənin qanına qədər
bütün peyğəmbərlərin tökülən qanı
üçün məsuliyyət daşıyacaq. Bəli, Mən
sizə deyirəm: onun üçün bu nəsil
məsuliyyət daşıyacaq.
52 Vay halınıza, ey qanunşünaslar!
Çünki bilik qapısının açarlarını
götürmüsünüz. Özünüz bu qapıdan
girmədiniz, girmək istəyənlərə də mane
oldunuz».
53 İsa oradan çıxanda ilahiyyatçılarla
fariseylər ona çox təzyiq göstərərək bir
çox məsələlər barədə Onu sorğu-suala
tutmağa başladılar. 54 Onlar fürsət
axtarırdılar ki, İsanın ağzından çıxan
bir sözlə Onu tələyə salsınlar.

İsa ikiüzlülüyə qarşı xəbərdarlıq edir

(Mat. 10:26-33)

12 [u]Bu vaxt saysız-hesabsız adam
bir-birini sıxışdıra-sıxışdıra
oraya yığıldı. İsa əvvəl şagirdlərinə
danışmağa başladı: «Fariseylərin
mayasından, yəni ikiüzlülükdən
özünüzü gözləyin. 2 [v]Elə örtülü bir şey
yoxdur ki, aşkara çıxmayacaq və elə
gizli bir şey yoxdur ki, bilinməyəcək.
3 Buna görə də qaranlıqda dediyiniz gün
işığında eşidiləcək, bağlı qapı arxasında
qulağa pıçıldadığınız damlardan bəyan
olunacaq.
4 Ey dostlarım, sizə deyirəm: bədəni
öldürən və ondan sonra başqa heç nə
edə bilməyənlərdən qorxmayın. 5 Amma
Kimdən qorxmaq lazım olduğunu
sizə göstərim: adamı öldürəndən
sonra cəhənnəmə atmağa ixtiyarı olan
Allahdan qorxun. Bəli, sizə deyirəm:
Ondan qorxun! 6 Beş sərçə iki qara
pula satılmırmı? Onlardan biri belə,
Allahın qarşısında yaddan çıxmır.
7 Sizin başınızdakı saçlar belə, sayılıb.
Qorxmayın, siz saysız-hesabsız sərçədən
daha dəyərlisiniz.
8 Mən sizə deyirəm: insanlar
qarşısında Məni iqrar edən hər kəsi
Bəşər Oğlu da Allahın mələkləri
qarşısında iqrar edəcək. 9 Amma
insanlar önündə Məni inkar edən özü
də Allahın mələkləri önündə inkar
olunacaq. 10 [w]Bəşər Oğluna qarşı
bir söz deyən hər kəs bağışlanacaq;
amma Müqəddəs Ruha küfr edən
bağışlanmayacaq.

---

[t]**11:50-51** Yar. 4:8; 2Saln. 24:20-21 [u]**12:1** Mat. 16:6; Mark 8:15
[v]**12:2** Mark 4:22; Luka 8:17 [w]**12:10** Mat. 12:31-32; Mark 3:28-29

11 [x]Sizi sinaqoqlara, başçıların və
hökmdarların qarşısına gətirəndə
özünüzü necə müdafiə edəcəyiniz və
yaxud nə deyəcəyiniz barədə qayğı
çəkməyin. 12 Müqəddəs Ruh sizə o anda
nə deməli olduğunuzu öyrədəcək».

Var-dövlət və insan həyatı

13 İzdihamdan bir nəfər İsaya dedi:
«Müəllim, qardaşıma de ki, mirası
mənimlə bölsün». 14 İsa ona belə cavab
verdi: «Ey insan, Məni kim üzərinizə
hakim ya vəkil qoyub?» 15 Sonra İsa
onlara dedi: «Diqqətli olun, hər cür
tamahkarlıqdan özünüzü qoruyun.
Çünki insanın həyatı var-yoxunun
bolluğundan asılı deyil».
16 İsa onlara bu məsəli danışdı: «Bir
varlının torpağı bol məhsul verdi. 17 Bu
adam ürəyində düşündü: “Məhsulumu
qoymağa yerim yoxdur. Axı nə edim?”
18 Sonra dedi: “Belə edərəm: anbarlarımı
söküb daha böyüklərini tikəcəyəm.
Bütün taxılımı və malımı oraya yığaram.
19 Canıma deyərəm: ey canım, illərlə
kifayət qədər var-dövlət yığmısan. İndi
dincəl, ye-iç, kef elə”. 20 Amma Allah
ona dedi: “Ay axmaq, bu gecə canını
səndən alacaqlar. Bəs hazırladığın kimə
qalacaq?” 21 Özü üçün xəzinə toplayan,
amma Allahın önündə varlı olmayan
hər bir insanın axırı da elə olacaq».

Qayğı çəkməyin

(Mat. 6:20-21,25-34)

22 İsa Öz şagirdlərinə belə dedi: «Buna
görə sizə deyirəm: “Nə yeyəcəyik?”
deyə canınız üçün, “Nə geyinəcəyik?”
deyə bədəniniz üçün qayğı çəkməyin.
23 Can yeməkdən, bədənsə geyinməkdən
daha vacibdir. 24 Qarğalara baxın: onlar
nə əkir, nə də biçir, nə anbarları, nə
də zirzəmiləri var. Amma Allah onları
yedizdirir. Siz quşlardan nə qədər
qiymətlisiniz! 25 Hansı biriniz qayğı
çəkməklə ömrünü bir anlıq belə, uzada
bilər? 26 Əgər siz elə balaca şeyi etməyi
bacarmırsınızsa, nə üçün başqa şeylərin
qayğısını çəkirsiniz? 27 [y]Zanbaqların
necə böyüdüyünə baxın: onlar nə
zəhmət çəkir, nə də ip əyirir. Lakin
sizə bunu deyirəm ki, bütün cah-calalı
içində olan Süleyman belə, bunlardan
biri kimi geyinməmişdi. 28 Ey imanı
az olanlar, bu gün çöldə olub sabah
ocağa atılan otu Allah belə geyindirirsə,
sizi geyindirəcəyi nə qədər yəqindir!
29 “Nə yeyəcəyik?”, “Nə içəcəyik?”
deyə axtarıb narahat olmayın. 30 Çünki
dünyadakı bütpərəstlər bütün bu şeyləri
axtarırlar. Doğrudan da, Atanız bunlara
ehtiyacınız olduğunu bilir. 31 Lakin
siz Allahın Padşahlığını axtarın, onda
bunlar da sizə əlavə olaraq veriləcək.
32 Qorxma, ey kiçik sürü! Çünki
Atanız Padşahlığı sizə verməyi münasib
gördü. 33 Əmlakınızı satın və sədəqə
verin. Özünüzə köhnəlməyən kisələr,
göylərdə tükənməyən xəzinə hazırlayın.
Oraya nə oğru gələr, nə də onu güvə
yeyər. 34 Çünki xəzinəniz haradadırsa,
ürəyiniz də orada olacaq».

Bilinməyən gün və saat

(Mat. 10:34-36; 24:42-51;
Mark 13:32-36)

35 [z]«Qoy qurşaqlarınız bellərinizdə
bağlı və çıraqlarınız yana-yana qalsın.
36 Toy ziyafətindən qayıdan ağasını
gözləyən adamlara oxşayın. Onlar
ağaları gəlib qapını döyən kimi qapını
açmağa hazır olurlar. 37 Nə bəxtiyardır
o qullar ki, ağa qayıdanda onları oyaq
görür! Sizə doğrusunu deyirəm: o özü
qurşaqlanıb qullarını süfrəyə oturdacaq
və gəlib onlara xidmət edəcək. 38 Ağa

---

[x]**12:11** Mat. 10:19-20; Mark 13:11; Luka 21:14-15
[y]**12:27** 1Pad. 10:4-7; 2Saln. 9:3-6 [z]**12:35** Mat. 25:1-13

istər gecəyarı, istər ondan gec, səhərə
yaxın gəlib qulları oyaq görsə, o qullar
necə də bəxtiyardır!
39 Amma bunu bilin ki, əgər evin
yiyəsi oğrunun hansı saatda gələcəyini
bilsəydi, evinin yarılmasına imkan
verməzdi. 40 Beləcə siz də hazır olun,
çünki Bəşər Oğlu gözləmədiyiniz vaxt
gələcək».
41 Peter dedi: «Ya Rəbb, bu məsəli
ancaq bizə danışırsan, yoxsa hamıya?»
42 Rəbb cavab verdi: «Vaxtlı-vaxtında
onlara yemək vermək üçün ağasının
öz nökərləri üzərinə qoyduğu sadiq və
ağıllı idarəçi kimdir? 43 Nə bəxtiyardır
o qul ki, ağası evinə qayıdanda onu iş
başında görür! 44 Sizə həqiqəti deyirəm:
ağası bu qula bütün əmlakı üzərində
idarəçiliyi tapşıracaq. 45 Amma həmin
qul ürəyində "ağam gec gələcək"
deyərsə, başqa nökər və qarabaşları
döyməyə, yeyib-içməyə, sərxoşluğa
uymağa başlayarsa, 46 o qulun ağası
onun gözləmədiyi gün və ağlına
gəlmədiyi vaxt gələcək, ona ağır cəza
verəcək və onu sədaqətsizlərlə bir yerdə
saxlayacaq.
47 Ağasının istəyini bilib hazır
olmayan və onun istəyinə əməl etməyən
qul çox döyüləcək. 48 Bilməyib o cəzaya
layiq iş görənsə az döyüləcək. Kimə
çox verilibsə, ondan çox da istəniləcək.
Kimə çox tapşırılıbsa, ondan daha çox
tələb olunacaq.
49 Mən yer üzünə od yağdırmağa
gəlmişəm. Kaş ki bu od artıq
alışıb-yanaydı! 50 [a]Mənim alacağım
bir vəftiz var. Bu vəftiz yerinə
yetib qurtaranadək nə qədər sıxıntı
çəkməliyəm! 51 [b]Siz düşünürsünüz
ki, Mən yer üzünə sülh gətirməyə
gəlmişəm? Xeyr, sizə deyirəm ki, Mən
ayrılıq gətirməyə gəlmişəm! 52 Çünki
bundan sonra bir evdə yaşayan beş nəfər
bir-birindən ayrılaraq üç nəfərə qarşı iki
nəfər, iki nəfərə qarşı üç nəfər olacaq.
53 [c]Çünki ata oğlundan, oğul atasından,
ana qızından, qız anasından, qayınana
gəlinindən, gəlin də qayınanasından
ayrılacaq».

Əlamətləri anlamaq

(Mat. 16:2-3)

54 İsa camaata bunu da dedi: «Siz
qərb tərəfdən qalxan buludu görəndə
dərhal "yağış yağacaq" deyirsiniz, bu
da olur. 55 Cənub küləyinin əsməsini
görəndə "qızmar isti olacaq" deyirsiniz,
bu da olur. 56 Ey ikiüzlülər, yer üzünün
və göyün görünüşünü seçə bilirsiniz,
bəs onda nə üçün indiki zamanı seçə
bilmirsiniz?
57 Nə üçün düzgün olan şeyə
özünüz qərar vermirsiniz? 58 [d]Səni
ittiham edənlə birgə hakimin yanına
gedəndə yolda ikən onunla barışmağa
çalış. Yoxsa səni hakimin qabağına
sürüyər, hakimsə məhkəmə icraçısına
ötürər, o da səni zindana atar.
59 Sənə bunu deyirəm: axırıncı
qəpik-quruşunu verməyincə oradan əsla
çıxmayacaqsan».

Tövbəyə çağırış

13 Bu vaxt orada olan bəzi adamlar
İsaya xəbər verdilər ki, Pilat
bəzi Qalileyalıların qanını kəsdikləri
qurbanların qanına qatmışdı. 2 İsa buna
belə cavab verdi: «Siz elə bilirsiniz
ki, bu aqibətə uğramış Qalileyalılar
bütün digər Qalileyalılardan daha
betər günahlı idilər? 3 Xeyr, Mən sizə
deyirəm: tövbə etməsəniz, hamınız
onlar kimi məhv olacaqsınız. 4 Yaxud
Şiloah qülləsi on səkkiz adamın üstünə
aşıb onları öldürəndə onların Yerusəlim

[a] **12:50** Mark 10:38 [b] **12:51** Mat. 10:34-36 [c] **12:53** Mik. 7:6
[d] **12:58** Mat. 5:25-26

sakinlərinin hamısından təqsirkar
olduqlarını fikirləşirsiniz? 5 Xeyr, Mən
sizə deyirəm: tövbə etməsəniz, hamınız
onlar kimi məhv olacaqsınız».

Barsız əncir ağacı

(Mat. 21:18-19; Mark 11:12-14)

6 Sonra İsa bu məsəli danışdı:
«Bir adamın bağında bir əncir ağacı
əkilmişdi. Bu adam gəlib ağacda meyvə
axtardı, amma tapmadı. 7 O, bağbana
dedi: “Bura bax, üç ildir ki, mən gəlib bu
əncir ağacında meyvə axtarıram, amma
tapmıram. Onu kəs! Nə üçün bu ağac
əbəs yerə torpağı tutur?” 8 Bağbansa
cavabında belə dedi: “Ağa, bir il də buna
əl dəymə. Mən onu belləyib dövrəsinə
peyin tökərəm. 9 Gələn il bu ağac meyvə
gətirsə, yaxşıdır, yox, gətirməsə, onu
kəsərsən”».

Şənbə günü şəfa vermək olarmı?

10 İsa bir dəfə Şənbə günü
sinaqoqlardan birində təlim öyrədirdi.
11 Orada on səkkiz il daxilində xəstəlik
ruhu olan beli bükülmüş bir qadın var
idi. O, belini heç düzəldə bilmirdi.
12 İsa bu qadını görəndə çağırıb dedi:
«Ey qadın, sən azarından azad oldun».
13 İsa əllərini qadının üstünə qoyanda
o dərhal dikəlib Allahı izzətləndirməyə
başladı. 14 [e]Amma sinaqoqun rəisi İsanın
Şənbə günü şəfa verdiyinə hiddətlənib
camaata belə xitab etdi: «İş görmək
üçün altı gün var, o günlər gəlin və
şəfa alın, Şənbə günü yox». 15 Rəbb isə
ona belə cavab verdi: «Ey ikiüzlülər,
sizlərdən hər biriniz Şənbə günündə
öz öküzünün ya eşşəyinin bağını
açıb tövlədən su içməyə aparmırmı?
16 İbrahimin qızı olan bu qadını da on
səkkiz il ərzində Şeytan buxovlamışdı.
Şənbə günü bu qadının buxovlarını
açmaq lazım deyildimi?» 17 İsa bunları
deyəndə Ona qarşı çıxanlar hamısı
utandı. Camaatın hamısı isə Onun etdiyi
bütün izzətli işlərinə görə sevinirdi.

Xardal toxumu və maya məsəlləri

(Mat. 13:31-33; Mark 4:30-32)

18 Sonra İsa dedi: «Allahın Padşahlığı
nəyə bənzəyir? Onu nəyə bənzədim?
19 O, bir adamın bağçasına əkdiyi xardal
toxumuna bənzəyir. O toxum böyüyüb
ağac olur. Göydə uçan quşlar onun
budaqlarında yuva qurur».
20 İsa yenə dedi: «Allahın Padşahlığını
nəyə bənzədim? 21 O, xəmir mayasına
bənzəyir. Qadın onu götürüb üç kisə*
una qarışdırıb bütün xəmir acıyanadək
saxlayır».

Dar qapı

(Mat. 7:13-14,21-23)

22 İsa şəhər və kəndləri gəzib təlim
öyrədərək Yerusəlimə tərəf gedirdi.
23 Bir nəfər Ondan soruşdu: «Ya Rəbb,
xilas tapanların sayı az olacaqmı?»
İsa onlara belə cavab verdi: 24 «Dar
qapıdan girməyə çalışın. Sizə bunu
deyirəm: çoxları bu qapıdan girməyə
can atacaq, amma girə bilməyəcək.
25 [f]Ev yiyəsi durub qapını bağlayandan
sonra siz bayırda durub qapını döyərək
deyəcəksiniz: “Ey ağam, bizə qapını
aç!” O isə cavabında sizə deyəcək: “Mən
sizin haradan gəldiyinizi bilmirəm!”
26 Siz o vaxt belə deyəcəksiniz: “Biz
Sənin qarşında yeyib-içmişik. Sən bizim
küçələrdə öyrədirdin”. 27 [g]O isə sizə
deyəcək: “Ey haqsızlıq edənlərin hamısı,
Mən sizin haradan gəldiyinizi bilmirəm,
Məndən uzaq olun!” 28 [h]İbrahimi, İshaqı,
Yaqubu və bütün peyğəmbərləri Allahın

*__13:21__ *Kisə* – yunan mətnində *saton,* təqribən 37 litr.

[e]__13:14__ Çıx. 20:9-10; Qanun. 5:13-14 [f]__13:25__ Mat. 25:11-12
[g]__13:27__ Zəb. 6:8 [h]__13:28__ Mat. 8:11-12; 22:13; 25:30

Padşahlığında, özünüzü isə bayıra
atılmış görəndə aranızda ağlaşma və
diş qıcırtısı olacaq. 29 Adamlar şərqdən,
qərbdən, şimaldan, cənubdan gələcək və
Allahın Padşahlığında süfrəyə oturacaq.
30 [i]Budur, elə axırıncılar var ki, birinci
olacaq, elə birincilər var ki, axırıncı
olacaq».

Yerusəlimin aqibəti

(Mat. 23:37-39)

31 O zaman bəzi fariseylər gəlib
İsaya dedilər: «Buradan çıx get, çünki
Hirod Səni öldürmək istəyir». 32 İsa
onlara dedi: «Gedin o tülküyə deyin:
“Budur, Mən bu gün və sabah cinləri
qovub camaatı sağaldacağam və üçüncü
gün işimi bitirəcəyəm”. 33 Yenə də
bu gün, sabah və o biri gün yoluma
davam etməliyəm. Çünki peyğəmbər
Yerusəlimdən kənarda öldürülə bilməz!
34 Ey Yerusəlim, Yerusəlim!
Peyğəmbərləri öldürən və ora
göndərilənləri daşqalaq edən şəhər!
Toyuq cücələrini qanadları altına yığan
kimi Mən də dəfələrlə sənin övladlarını
yığmaq istədim, sizsə istəmədiniz!
35 [j]Baxın, eviniz viran qalır. Mən sizə
bunu deyirəm:
“Rəbbin ismi ilə Gələnə alqış olsun!”
deyənə qədər Məni bir daha
görməyəcəksiniz».

İsa və farisey rəhbəri

14 Bir Şənbə günü İsa farisey
rəhbərlərinin birinin evinə
çörək yeməyə getdi. Hamı Ona göz
qoyurdu. 2 Onun qarşısında hidropos*
xəstəliyinə tutulmuş bir adam var idi.
3 İsa qanunşünas və fariseylərə xitab
edərək soruşdu: «Şənbə günü insanlara
şəfa verməyə icazə var ya yox?» 4 Amma
onlar dinmirdi. İsa o adama əli ilə
toxundu, onu sağaltdı və buraxdı. 5 [k]İsa
onlara dedi: «Sizlərdən kimin oğlu†
yaxud öküzü Şənbə günü quyuya düşsə,
onu dərhal oradan dartıb çıxarmaz?»
6 Onlar İsanın bu sualına cavab verə
bilmədilər.

Qonaqlar məsəli

(Mat. 22:1-10)

7 [l]İsa fikir verdi ki, dəvət olunanlar
yuxarı başda oturmağı seçdilər. Onlara
belə bir məsəl söylədi: 8 «Bir nəfər
səni toya dəvət edirsə, yuxarı başda
oturma. Bəlkə ev yiyəsinin səndən
də hörmətli bir qonağı var. 9 İkinizi
də toya dəvət edən gəlib sənə “bu
adama yer ver” desə, sən xəcalət
içində aşağı başda əyləşməli olarsan.
10 Amma dəvət olunanda gedib ən
aşağı başda otur ki, səni dəvət edən
adam gəlib sənə “Dostum! Yuxarı
başa keç” desin; o zaman sənin lə
birgə oturanların hamısının qarşısında
hörmət qazanarsan. 11 [m]Çünki özünü
yüksəldən hər kəs aşağı tutulacaq,
özünü aşağı tutansa yüksəldiləcək».
12 İsa Onu dəvət edənə də dedi:
«Günorta yaxud axşam yeməyi verdiyin
vaxt öz dostlarını, qardaşlarını,
qohumlarını, dövlətli qonşularını dəvət
etmə ki, onlar da səni çağıraraq sənə
əvəzini versin. 13 Amma qonaqlıq
verəndə yoxsulları, əlilləri, topalları,
korları çağır. 14 Onda onlar sənə əvəzini
verə bilmədiyinə görə sən bəxtiyar
olacaqsan. Çünki salehlər dirildiyi
zaman sənə əvəz veriləcək».

---

*14:2 *Hidropos* – yəni bədənə su yığılması xəstəliyi.
†14:5 *Oğlu* – bəzi əlyazmalarda *eşşəyi.*

[i]**13:30** Mat. 19:30; 20:16; Mark 10:31
[j]**13:35** Zəb. 118:26; Yer. 12:7; 22:5; 26:6 [k]**14:5** Mat. 12:11
[l]**14:7** Sül. 25:6-7 [m]**14:11** Mat. 23:12; Luka 18:14

15 Süfrəyə oturanlardan biri
bunu eşidib İsaya dedi: «Allahın
Padşahlığında çörək yeyən nə
bəxtiyardır!» 16 Amma İsa ona dedi: «Bir
adam böyük ziyafət hazırladı və oraya
çoxlu qonaq çağırdı. 17 Yemək vaxtı
gələndə öz qulunu dəvət olunanların
yanına göndərdi ki, onlara desin:
“Buyurun, indi hər şey hazırdır”.
18 Amma hamı birdən üzr istəməyə
başladı. Birincisi ona dedi: “Mən
bir torpaq sahəsi almışam, gedib ona
baxmalıyam. Səndən xahiş edirəm, məni
bağışla”. 19 Digəri isə dedi: “Mən beş cüt
öküz satın almışam və onları yoxlamağa
gedirəm. Səndən xahiş edirəm, məni
bağışla”. 20 Üçüncüsü dedi: “Mən
təzə evlənmişəm, buna görə də gələ
bilmərəm”. 21 Qul qayıdıb bu şeyləri
ağasına bildirdi. O zaman ev yiyəsi
qəzəblənib quluna dedi: “Qaç, şəhərin
küçə və tinlərində olan yoxsulları,
əlilləri, korları və topalları buraya
gətir”. 22 Qul isə dedi: “Ağa, sənin əmrin
yerinə yetirildi, hələ artıq yer də qalıb”.
23 Ağası quluna dedi: “Get, bütün yolları
və çəpərləri gəz. Evim dolsun deyə
adamları gəlməyə vadar et. 24 Sizə bunu
deyirəm: ilk dəvət olunanların heç biri
mənim ziyafətimdən dadmayacaq”».

Şagird olmağın qiyməti

(Mat. 10:37-38)

25 İsa ilə birlikdə böyük izdiham yol
gedirdi. İsa dönüb onlara dedi: 26 «Kim
Mənim yanıma gəlib ata-anasını,
arvad-uşaqlarını, bacı-qardaşlarını,
hətta öz həyatını Məndən üstün tutsa,*
Mənim şagirdim ola bilməz. 27 [n]Öz
çarmıxını daşıyıb ardımca gəlməyən kəs
də Mənim şagirdim ola bilməz.
28 Sizlərdən kimsə bir qüllə tikmək
istəyirsə, əvvəlcə oturub onun xərclərini
hesablamaz ki, görsün onu qurtarmaq
üçün pulu çatacaq ya yox? 29 Çünki
qüllənin təməlini qoyub işi qurtara
bilməsə, bunu görənlərin hamısı onu
ələ salıb deyəcək: 30 “Bu adam tikintiyə
başlayıb qurtara bilmədi”.
31 Yaxud da hansı padşah başqa
padşahla müharibəyə gedəndə üstünə
iyirmi min əsgərlə gələnə qarşı on
min əsgərlə durmağa qadir olmağı
əvvəlcə oturub götür-qoy eləməz?
32 Əgər padşah buna qadir deyilsə,
o biri padşahın hələ uzaqda olduğu
vaxt elçilər göndərib sülh müqaviləsi
bağlamaq istəyər. 33 Eyni tərzdə sizdən
hər biriniz bütün əmlakından əl
çəkməsə, Mənim şagirdim ola bilməz.
34 [o]Duz yaxşı şeydir, amma əgər duz
öz dadını itirərsə, ona nə ilə dad verilə
bilər? 35 O nə torpağa yarayar, nə də
peyinə. Onu çölə atarlar. Eşitməyə
qulağı olan eşitsin!»

İtmiş qoyun məsəli

(Mat. 18:12-14)

15 [p]Bütün vergiyığanlar və
günahkarlar İsanı dinləmək üçün
Ona yaxınlaşırdılar. 2 Fariseylər və
ilahiyyatçılar isə «bu adam günahkarları
qəbul edir və onlarla yemək yeyir» deyə
deyinirdilər.
3 Amma İsa onlara bu məsəli çəkdi:
4 «Sizlərdən birinin yüz qoyunu olsa
və onlardan birini itirsə, doxsan
doqquzunu çöldə qoyub itmiş qoyunu
tapanadək onu axtarmazmı? 5 Tapanda

---

*__14:26__ *Ata-anasını, arvad-uşaqlarını, bacı-qardaşlarını, hətta öz həyatını Məndən üstün tutsa* – hərfi tərcümədə *ata-anasına, arvad-uşaqlarına, bacı-qardaşlarına, hətta öz həyatına nifrət etməsə.*

[n]**14:27** Mat. 16:24; Mark 8:34; Luka 9:23 [o]**14:34** Mat. 5:13; Mark 9:50
[p]**15:1** Luka 5:29-30

isə onu sevinclə çiyinlərinə qoyar. 6 Evə
gələndə öz dostlarını və qonşularını
çağırıb belə deyər: “Mənimlə birlikdə
sevinin, itmiş qoyunumu tapmışam!”
7 Sizə bunu deyirəm: beləcə də göydə
tövbə edən bircə günahkara görə
tövbəyə ehtiyacı olmayan doxsan
doqquz saleh insan üçün olduğundan
daha çox sevinc olacaq.

İtmiş pul məsəli

8 Yaxud on dirhəmi olan hansı bir
qadın bir dirhəmini itirsə, çıraq yandırıb
evi süpürərək onu tapanadək diqqətlə
axtarmaz? 9 Tapanda öz rəfiqələrini və
qonşularını çağırıb deyər: “Mənimlə
birlikdə sevinin, itirdiyim dirhəmi
tapmışam!” 10 Sizə bunu deyirəm:
Allahın mələklərinin önündə də tövbə
edən bir günahkara görə sevinc olur».

İtmiş oğul məsəli

11 İsa bunu da danışdı: «Bir adamın
iki oğlu var idi. 12 Oğlanlardan kiçiyi
atasına dedi: “Ata! Var-dövlətindən
payıma düşəni mənə ver”. Atası da
varını onların arasında bölüşdürdü.
13 Bir neçə gün sonra kiçik oğul nəyi
vardısa, yığıb uzaq bir diyara yollandı.
Orada pozğun həyat sürüb var-dövlətini
heç-puç etdi. 14 Oğlan hər şeyini
xərclədikdən sonra o ölkədə böyük bir
aclıq oldu. O korluq çəkməyə başladı.
15 Buna görə də oğlan gedib o ölkənin
sakinlərindən birinin yanında iş tapdı.
Bu adam onu öz otlaqlarına donuz
otarmağa göndərdi. 16 Oğlan donuzların
yediyi keçibuynuzu qabıqları ilə qarnını
doydurmağa şad olardı. Amma heç kim
ona bir şey vermirdi.
17 Onda oğlan özünə gəlib dedi:
“Atamın nə qədər muzdlu işçisi var,
hamısının da doyunca yeməyə çörəyi
var. Mənsə burada acından ölürəm!
18 Durub atamın yanına gedəcəyəm və
ona deyəcəyəm: ‹Ata, mən göyə* və sənə
qarşı günah etdim. 19 Mən artıq sənin
oğlun adlanmağa layiq deyiləm. Məni
öz muzdlu işçilərinin biri kimi qəbul
et›”. 20 O durub öz atasının yanına getdi.
Oğul hələ uzaqda ikən atası onu
gördü. Ona rəhmi gəldi və qaçıb
onun boynuna sarıldı və öpdü. 21 Oğul
dedi: “Ata! Mən göyə və sənə qarşı
günah etdim. Mən artıq sənin oğlun
adlanmağa layiq deyiləm”. 22 Atası
isə öz qullarına dedi: “Tez olun, ən
gözəl xalat gətirin və onu geyindirin.
Barmağına üzük və ayaqlarına çarıq
taxın. 23 Kökəldilmiş dananı gətirin,
kəsin: gəlin yeyib-şadlanaq! 24 Çünki bu
oğlum ölmüşdü, yenə həyata qayıtdı.
O itmişdi, tapıldı”. Beləliklə, şadlıq
etməyə başladılar.
25 Atanın böyük oğlu isə tarlada idi.
Qayıdaraq evə yaxınlaşanda çalğı və
rəqs səsləri eşitdi. 26 O, nökərlərdən
birini yanına çağırıb soruşdu: “Bu
nədir?” 27 Nökər ona dedi: “Qardaşın
qayıdıb. Atan da onun sağ-salamat
qayıtmasına görə kökəldilmiş dananı
kəsib”. 28 Böyük oğul isə hirsləndi və
içəri girmək istəmədi. Atası bayıra
çıxıb ona yalvardı. 29 Amma o, atasına
belə cavab verdi: “Bax neçə ildir ki,
sənin üçün qul kimi işləyirəm. Heç
zaman sənin əmrindən çıxmamışam.
Amma mənə heç vaxt bir oğlağı belə,
qıymadın ki, dostlarımla şadlıq edim.
30 Bu oğlunsa sənin bütün varını fahişə
qadınlara sərf edib. Amma o qayıdanda
sən onun üçün kökəldilmiş dananı
kəsdin”. 31 Atası isə ona dedi: “Oğlum,
axı sən həmişə mənimləsən və bütün
varım sənindir. 32 Lakin sevinmək və
şadlanmaq lazımdır. Çünki sənin bu
qardaşın ölmüşdü, həyata qayıtdı. O
itmişdi, tapıldı!”»

---

*15:18 *Göyə* – yəni Allaha.

Fərasətli idarəçi məsəli

16 İsa şagirdlərə bunları danışdı:
«Varlı bir adamın idarəçisi var
idi. Ona xəbər çatdırıldı ki, idarəçi onun
əmlakını israf edir. 2 Varlı adam onu
yanına çağırıb dedi: “Bu nədir, sənin
haqqında mən nələr eşidirəm? Mənə
idarəçiliyinin hesabatını ver. Sən artıq
idarəçi ola bilməzsən”.
3 İdarəçi öz-özünə dedi: “Mən nə
edəcəyəm? Ağam idarəçiliyi əlimdən
alır. Torpaq belləməyə gücüm yoxdur,
dilənməkdən də utanıram. 4 İşdən
qovulanda məni öz evlərinə qəbul
etsinlər deyə nə edəcəyimi bilirəm”.
5 Ona görə də öz ağasına borclu
olanları bir-bir çağırıb birincisinə dedi:
“Mənim ağama nə qədər borclusan?”
6 O “yüz bat* zeytun yağı” dedi. İdarəçi
ona dedi: “Öz qəbzini götür, otur və tez
yaz: əlli”. 7 Sonra o birisinə dedi: “Bəs
sənin nə qədər borcun var?” O cavab
verdi: “Yüz kor† buğda”. İdarəçi ona
dedi: “Öz qəbzini götür və yaz: səksən”.
8 Ağası haqsızlıq edən idarəçini
fərasətli hərəkət etdiyinə görə tərifləd i.
Çünki bu dövrün övladları öz nəsilləri
ilə münasibətlərində nur övladlarından
daha fərasətlidir. 9 Mən sizə bunu
deyirəm: haqsız qazanc olan sərvətlə‡
özünüzə dostlar qazanın ki, bu sərvət
yox olduqda siz əbədi məskənlərə qəbul
olunasınız.
10 Ən balaca bir işdə sadiq olan
kəs böyük işdə də sadiqdir, ən balaca
bir işdə haqsız olansa böyük işdə
də haqsızdır. 11 Beləliklə, əgər siz
haqsız sərvətdən istifadə etməkdə
sadiq olmadınızsa, əsl var-dövləti sizə
kim əmanət edər? 12 Əgər başqasının
malından istifadə etməkdə sadiq
olmadınızsa, öz malınızı sizə kim verər?
13 [q]Heç bir nökər iki ağaya qulluq edə
bilməz. Çünki ya birinə nifrət edib o
birisini sevəcək ya da birinə bağlı qalıb
o birisinə isə xor baxacaq. Siz həm
Allaha, həm də sərvətə§ qulluq edə
bilməzsiniz».
14 Fariseylər pulpərəst olduqları üçün
bütün bu sözləri eşidib İsaya istehza
ilə baxdılar. 15 İsa da onlara belə dedi:
«İnsanların qarşısında özünüzü saleh
göstərən sizsiniz, amma Allah sizin
ürəyinizi bilir. Çünki insanlar arasında
uca tutulan şey Allah qarşısında
iyrənclikdir.
16 [r]Qanun və Peyğəmbərlər Yəhyanın
gəlişinə qədər idi. O vaxtdan bəri
Allahın Padşahlığının Müjdəsi yayılır
və hər kəs oraya zorla girməyə çalışır.
17 [s]Amma göyün və yerin keçib getməsi
Qanundan bir nöqtənin düşməsindən
daha asandır.
18 [t]Arvadını boşayıb başqası ilə
evlənən hər kəs zina edir. Ərindən
boşanmış qadınla evlənən də zina edir.

Varlı və yoxsul məsəli

19 Varlı bir adam var idi. O, tünd
qırmızı və incə kətandan paltar geyərdi
və hər gün cah-calal içində kef edərdi.
20 Bütün bədəni yaralı olan Lazar
adlı yoxsul bir adam da var idi. O,
varlı adamın qapısı ağzına gətirilib
uzanmışdı. 21 Lazar varlı adamın
süfrəsindən tökülən qırıntılarla qarnını

*16:6 *Yüz bat* – təqribən 3950 litr.
†16:7 *Yüz kor* – təqribən 39 500 litr.
‡16:9 *Sərvət* – arami dilində *mamon*.
§16:13 *Sərvət* – arami dilində *mamon*.

[q]16:13 Mat. 6:24 [r]16:16 Mat. 11:12-13 [s]16:17 Mat. 5:18
[t]16:18 Mat. 5:32; 19:19; Mark 10:11-12; 1Kor. 7:10-11

doydurmaq arzusunda idi. İtlər də gəlib
onun yaralarını yalayırdı.
22 Bir gün yoxsul adam öldü və
mələklər onu İbrahimin qucağına
apardı. Varlı adam da öldü və dəfn
edildi. 23 Varlı adam ölülər diyarında
iztirab çəkəndə gözlərini qaldırıb
uzaqda İbrahimi və onun qucağında
Lazarı gördü. 24 O uca səslə dedi: "Ey
İbrahim ata, mənə rəhm et! Lazarı
göndər, barmağının ucunu suya batırıb
mənim dilimi sərinlətsin, çünki mən
bu alov içində əzab çəkirəm". 25 Lakin
İbrahim dedi: "Oğlum, yadına sal ki,
sən öz həyatında yaxşı şeyləri, Lazar
isə pis şeyləri almışdır. İndi isə o,
təsəlli tapır, amma sən əzab çəkirsən.
26 Üstəlik, sizinlə bizim aramıza böyük
bir uçurum qoyulmuşdur ki, nə buradan
sizin tərəfinizə keçmək istəyənlər keçə
bilir, nə də oradan bizim yanımıza gələ
bilirlər".
27 Varlı adam dedi: "Ata, elə isə
yalvarıram sənə, Lazarı atamın evinə
göndər. 28 Çünki beş qardaşım var.
Qoy onlara xəbərdarlıq etsin ki, onlar
da bu iztirab yerinə gəlməsinlər".
29 İbrahim ona dedi: "Onlarda Musanın
və Peyğəmbərlərin sözləri var. Qoy
onlara qulaq assınlar". 30 Varlı adamsa
dedi: "Xeyr, İbrahim ata! Əgər ölülərdən
biri onların yanına gəlsə, onlar tövbə
edərlər". 31 Onda İbrahim ona dedi:
"Əgər onlar Musaya və Peyğəmbərlərə
qulaq asmırlarsa, ölülərdən biri dirilsə
belə, inanmazlar"».

Günah, iman və vəzifə

(Mat. 18:6-7; Mark 9:42)

17 İsa şagirdlərinə belə dedi:
«İnsanları pis yola çəkən şeylər
mütləq olur. Amma vay o adamın
halına ki, bunların baisidir! 2 Bu
kiçiklərdən birini pis yola çəkməkdənsə
öz boynuna böyük bir dəyirman daşı
asıb dənizə atılmaq onun üçün daha
yaxşı olar. 3 [u]Özünüzə fikir verin. Əgər
qardaşın sənə qarşı günah edərsə, ona
xəbərdarlıq et. Əgər o tövbə edərsə,
onu bağışla. 4 [v]Əgər gündə yeddi dəfə
sənə qarşı günah etsə və gündə yeddi
dəfə yanına gəlib sənə "tövbə edirəm"
deyərsə, onu bağışla».
5 [w]Həvarilər Rəbbə dedilər:
«İmanımızı artır!» 6 Rəbb onlara
belə dedi: «Bir xardal toxumu qədər
imanınız olsaydı, bu tut ağacına
"Kökündən çıx və dənizdə əkil!"
deyərdiniz, o da sizin sözünüzə baxardı.
7 Sizlərdən hansı biriniz cütçülük və
yaxud çobanlıq edən bir qula tarladan
qayıdanda "tez ol, gəl süfrəyə otur"
deyər? 8 Əksinə, ona "axşam yeməyimi
hazırla və qurşanıb mənə xidmət et
ki, mən yeyib-içim, sonra da sən özün
ye-iç" deməzmi? 9 Əmrlərini yerinə
yetirdiyi üçün o, qula təşəkkür edərmi?
10 Beləcə siz də sizə əmr olunanların
hamısını yerinə yetirəndən sonra deyin:
"Biz dəyərsiz qullarıq, çünki görməli
olduğumuz işləri etmişik"».

On cüzamlının şəfası

11 İsa Yerusəlimə doğru yolunu
davam edərkən Samariya ilə Qalileya
arasındakı sərhəddən keçirdi.
12 Kəndlərin birinə girəndə Onu on nəfər
cüzamlı kişi qarşıladı. Onlar uzaqda
durub 13 ucadan çığırdılar: «İsa, Ustad,
bizə rəhm et!» 14 [x]İsa onları görüb
«gedin, özünüzü kahinlərə göstərin»
dedi. Onlar yol gedə-gedə pak oldular.
15 Onlardan biri isə sağaldığını görəndə
uca səslə Allahı izzətləndirərək qayıtdı.
16 O üzüstə İsanın ayaqlarına düşərək
Ona təşəkkür etdi. Bu adam Samariyalı

---

[u]**17:3** Mat. 18:15 [v]**17:4** Mat. 18:21-22 [w]**17:5** Mat. 17:20
[x]**17:14** Lev. 14:1-32

idi. 17 Onda İsa dedi: «Pak olanlar on
nəfər deyildimi? Bəs qalan doqquz adam
haradadır? 18 Bu yadellidən savayı geri
dönüb Allaha izzət verən olmadımı?»
19 Sonra o adama dedi: «Ayağa qalx,
get. İmanın səni xilas etdi».

Allahın Padşahlığı nə zaman gələcək?

20 Fariseylər İsadan «Allahın
Padşahlığı nə zaman gələcək?» deyə
soruşanda İsa onlara cavab verdi:
«Allahın Padşahlığı müşahidə ilə
gəlməz. 21 [y]Adamlar "bax, o buradadır"
yaxud "oradadır" deməyəcəklər,
çünki budur, Allahın Padşahlığı sizin
daxilinizdədir».
22 İsa şagirdlərə də belə dedi:
«Elə günlər gələcək ki, Bəşər
Oğlunun günlərindən birini
görməyi arzulayacaqsınız, amma
görməyəcəksiniz. 23 [z]Adamlar sizə "bax,
O oradadır" yaxud "bax, buradadır"
deyəcək. Gedib onların arxasınca
düşməyin! 24 Çünki şimşək göyün bir
kənarında çaxıb o biri kənarına qədər
necə parlayırsa, Bəşər Oğlu da Öz
günündə elə olacaq. 25 Amma əvvəlcə
O, çox əzab çəkməli və indiki nəslin
adamları tərəfindən rədd olunmalıdır.
26 [a]Nuhun günlərində necə idisə,
Bəşər Oğlunun günlərində də elə olacaq.
27 [b]Nuhun gəmiyə girdiyi günə qədər
insanlar yeyib-içir, evlənir, ərə gedirdi.
Sonra daşqın gəlib hamısını məhv
etdi. 28 [c]Lutun günlərində də belə idi:
insanlar yeyib-içir, alıb-satır, əkir,
tikirdi. 29 Lakin Lut Sodomdan çıxdığı
gün göydən od və kükürd yağdı və
hamısını məhv etdi. 30 Bəşər Oğlunun
zühur edəcəyi gündə də belə olacaq.
31 [d]O gündə özü damda, əşyası isə
evin içində olan adam onları götürmək
üçün aşağı enməsin. Eləcə də tarlada
olan geri qayıtmasın. 32 [e]Lutun arvadını
yadınıza salın! 33 [f]Kim canını qorumaq
istəsə, onu itirəcək, amma kim canını
itirsə, onu yaşadacaq. 34 [g]Sizə deyirəm:
o gecə bir yataqda olan iki nəfərdən
biri götürüləcək, o biri isə qalacaq.
35 Birlikdə dən üyüdən iki qadından biri
götürüləcək, o biri isə qalacaq». 36 *
37 [h]Ona müraciət edib dedilər: «Ya
Rəbb, bu hadisələr harada olacaq?»
O isə onlara dedi: «Leş haradadırsa,
kərkəslər də orada toplaşar».

Dul qadın və ədalətsiz hakim məsəli

18 İsa şagirdlərinə daim dua etmək
və heç ruhdan düşməmək lazım
olduğu barədə bir məsəl çəkdi. 2 O dedi:
«Bir şəhərdə Allahdan qorxmayan və
adamlara hörmət etməyən bir hakim
var idi. 3 Elə həmin şəhərdə bir dul
qadın da var idi. Qadın hey onun
yanına gələrək deyərdi: "Rəqibimlə olan
işimdə mənim haqqımı qoru". 4 Amma
hakim bir müddət bunu etmək istəmədi,
sonra isə öz-özünə dedi: "Hərçənd mən
nə Allahdan qorxur, nə də adamlara
hörmət edirəm, 5 bu qadın mənim
zəhləmi tökdüyü üçün onun haqqını
qoruyum ki, bir də gəlib baş-qulağımı
aparmasın"». 6 Rəbb sözünə belə davam
etdi: «Ədalətsiz hakimin nə dediyini
dinləyin. 7 Məgər Allah Öz seçdiklərini,
gecə-gündüz Ondan imdad istəyənlərin

*17:36 *Qalacaq* – bəzi əlyazmalarda *qalacaq.*
36 *Tarladakı iki nəfərdən biri götürüləcək, o biri isə qalacaq* (Mat. 24:40).

[y]**17:21** Mat. 24:23; Mark 13:21 [z]**17:23** Mat. 24:23,26-27; Mark 13:21 [a]**17:26** Yar. 6:5-8; Mat. 24:37-39 [b]**17:27** Yar. 7:6-24 [c]**17:28** Yar. 18:20–19:25
[d]**17:31** Mat. 24:17-18; Mark 13:15-16 [e]**17:32** Yar. 19:26
[f]**17:33** Mat. 10:39; 16:25; Mark 8:35; Luka 9:24; Yəh. 12:25
[g]**17:34** Mat. 24:40-41 [h]**17:37** Əyy. 39:30; Mat. 24:28

haqqını qorumayacaqmı? Onları çox
gözlədəcəkmi? 8 Sizə bunu deyirəm:
tezliklə onların haqqını qoruyacaq. Bəs
Bəşər Oğlu gələndə yer üzündə iman
tapacaqmı?»

Farisey və vergiyığan məsəli

9 Özlərinin saleh olduğuna güvənib
başqalarına xor baxan bəziləri üçün
də İsa belə bir məsəl çəkdi: 10 «Biri
farisey, digəri isə vergiyığan olan iki
nəfər dua etmək üçün məbədə girdi.
11 Farisey ayaq üstə durub öz-özünə belə
dua edirdi: “Ya Allah, Sənə şükürlər
olsun ki, mən başqaları kimi soyğunçu,
haqsız, zinakar ya da bu vergiyığan
kimi deyiləm. 12 Həftədə iki dəfə oruc
tuturam, bütün qazandığımın onda
birini verirəm”. 13 Vergiyığan isə uzaqda
durub gözlərini göyə qaldırmağa belə,
cəsarət etmirdi, amma sinəsinə vurub
hey deyirdi: “Ya Allah! Mən günahkara
rəhm et!” 14 [i]Sizə deyirəm ki, o farisey
yox, vergiyığan evinə saleh sayılaraq
getdi. Çünki özünü yüksəldən hər kəs
aşağı tutulacaq, özünü aşağı tutansa
yüksəldiləcək».

İsa uşaqlara xeyir-dua verir

(Mat. 19:13-15; Mark 10:13-16)

15 Adamlar körpələri də İsanın yanına
gətirirdilər ki, İsa onlara toxunsun.
Bunu görən şagirdlərsə onlara qadağan
etdilər. 16 Amma İsa uşaqları yanına
çağırıb dedi: «Uşaqları buraxın, qoy
Mənim yanıma gəlsinlər! Onlara mane
olmayın! Çünki Allahın Padşahlığı
belələrinə məxsusdur. 17 Sizə doğrusunu
deyirəm: kim Allahın Padşahlığını bir
uşaq kimi qəbul etməsə, oraya əsla daxil
ola bilməz».

Var-dövlət və Allahın Padşahlığı

(Mat. 19:16-30; Mark 10:17-31)

18 Rəhbərlərdən biri İsadan soruşdu:
«Ey yaxşı Müəllim, mən nə etməliyəm
ki, əbədi həyatı irs olaraq alım?» 19 İsa
ona dedi: «Mənə niyə yaxşı deyirsən?
Tək Allahdan başqa yaxşısı yoxdur.
20 [j]Onun əmrlərini bilirsən: “Zina etmə.
Qətl etmə. Oğurluq etmə. Yalandan
şahidlik etmə. Ata-anana hörmət et”».
21 Bu adamsa dedi: «Bunların hamısına
gəncliyimdən bəri riayət edirəm». 22 İsa
bunu eşidib ona dedi: «Sənin bir şeyin
çatışmır: nəyin varsa, satıb yoxsullara
payla. Onda göylərdə xəzinən olacaq.
Sonra qayıt, Mənim ardımca gəl».
23 Amma bu sözləri eşitdikdə həmin
adamı dərin kədər bürüdü, çünki çox
varlı idi.

24 İsa onun dərindən kədərləndiyini
görəndə dedi: «Var-dövləti olanların
Allahın Padşahlığına daxil olması nə
qədər çətindir! 25 Doğrudan da, dəvənin
iynə gözündən keçməsi varlı adamın
Allahın Padşahlığına daxil olmasından
asandır». 26 Bunları eşidənlər dedilər:
«Elə isə, kim xilas ola bilər?» 27 O isə
dedi: «İnsan üçün qeyri-mümkün olan,
Allah üçün mümkündür».

28 Peter isə dedi: «Bax biz hər şeyi
qoyub Sənin ardınca gəlmişik». 29 İsa
onlara dedi: «Sizə doğrusunu deyirəm:
Allahın Padşahlığı uğrunda ya evini
ya arvadını ya bacı-qardaşlarını ya
ata-anasını və yaxud uşaqlarını atan elə
bir kəs yoxdur ki, 30 bu dövrdə bundan
neçə qat artıq, gələcək dövrdə isə əbədi
həyat almasın».

---

[i] **18:14** Mat. 23:12; Luka 14:11 [j] **18:20** Çıx. 20:12-16; Qanun. 5:16-20

İsa ölüb-diriləcəyi barədə üçüncü dəfə xəbər verir

(Mat. 20:17-19; Mark 10:32-34)

31 İsa On İki şagirdi kənara çəkib
onlara dedi: «Bax Yerusəlimə qalxırıq,
Bəşər Oğlu üçün peyğəmbərlər vasitəsilə
yazılanların hamısı tam yerinə yetəcək.
32 Çünki O, başqa millətlərə təslim
ediləcək. Onlar Onu ələ salıb təhqir
edəcək, Ona tüpürəcək 33 və qamçılayıb
öldürəcəklər. O, üçüncü gün diriləcək».
34 Amma şagirdlər bu sözlərdən heç bir
şey başa düşmədilər. Bu sözlər onlar
üçün gizli saxlandı və onlar deyilənləri
anlamırdılar.

Kor adamın gözləri açılır

(Mat. 20:29-34; Mark 10:46-52)

35 İsa Yerixoya yaxınlaşanda bir kor
adam yol kənarında oturub dilənirdi.
36 Yanından çoxlu adamın keçdiyini
eşitdikdə soruşdu: «Nə olub?» 37 Ona
xəbər verdilər: «Nazaretli İsa buradan
keçir». 38 Onda o qışqırdı: «Ey Davud
Oğlu İsa! Mənə rəhm elə!» 39 Qabaqda
gedənlər ona qadağan edib susdurmaq
istəsələr də, o «Ey Davud Oğlu! Mənə
rəhm elə!» deyə daha ucadan bağırdı.
40 İsa dayanıb əmr etdi ki, onu yanına
gətirsinlər. Adam yaxınlaşarkən İsa
ondan soruşdu: 41 «Nə istəyirsən, sənin
üçün edim?» O dedi: «Ya Rəbb, gözlərim
açılsın». 42 İsa ona dedi: «Qoy gözlərin
açılsın, imanın səni xilas etdi». 43 Həmin
an bu adamın gözləri açıldı və o, Allahı
izzətləndirərək İsanın ardınca getdi.
Bunu görən bütün xalq Allaha həmdlər
etdi.

İsa ilə Zakkay

19 İsa Yerixoya daxil olub oradan
keçirdi. 2 Orada vergiyığanların
rəisi olan Zakkay adlı varlı bir adam var
idi. 3 İsanın kim olduğunu görməyə can
atırdı. Amma balacaboy olduğuna görə
izdihamın arasından Onu görə bilmirdi.
4 İsanı görmək üçün irəliyə qaçıb bir
firon ənciri ağacına dırmaşdı. Çünki İsa
oradan keçməli idi.
5 İsa o yerə çatdıqda yuxarı baxıb
onu gördü və ona dedi: «Ey Zakkay, tez
aşağı düş. Bu gün Mən sənin evində
qalmalıyam». 6 O tez aşağı düşüb
İsanı sevinclə qəbul etdi. 7 Bütün xalq
bunu gördükdə deyinməyə başladı:
«Gedib günahkar bir kişinin qonağı
oldu!» 8 Zakkay isə ayağa qalxıb
Rəbbə belə dedi: «Ya Rəbb, əmlakımın
yarısını yoxsullara verərəm və kimdən
haqsızlıqla bir şey almışamsa, ona
dördqat qaytaracağam». 9 İsa ona dedi:
«Bu gün bu evə xilas gəldi, çünki bu
adam da İbrahimin oğludur. 10 Çünki
Bəşər Oğlu itmişləri axtarıb xilas etmək
üçün gəlmişdir».

Əmanət pul məsəli

(Mat. 25:14-30)

11 Onlar bu şeyləri dinləyərkən
İsa bir məsəl də çəkdi. Çünki O,
Yerusəlimə yaxınlaşmışdı və onlar elə
düşünürdülər ki, Allahın Padşahlığı
dərhal üzə çıxacaq. 12 İsa belə dedi:
«Əsilzadələrdən olan bir nəfər padşah
təyin olunub geri dönmək üçün uzaq
bir ölkəyə yola düşdü. 13 Getməmişdən
əvvəl qullarından on nəfəri çağırdı və
onlara on mina* pul verib dedi: “Mən
gələnədək bunlarla ticarət et”. 14 Lakin
əhalisi bu adama nifrət etdi və onun
ardınca elçilər göndərib dedi: “Bu
adamın üzərimizdə padşah olmasını
istəmirik”.
15 O, padşah təyin olunub qayıdanda
pul verdiyi həmin qulları yanına
çağırtdırdı və nə qazandıqlarını
öyrənmək istədi. 16 Birincisi gəlib dedi:

---

*19:13 *Mina* – 100 dirhəmə bərabər, 100 günlük əmək haqqı idi.

“Ağa, sənin bir minan on mina da
qazandırdı”. 17 Ağası ona dedi: “Afərin,
yaxşı qulum! Ən kiçik bir işdə mənə
sadiq olduğun üçün on şəhərin idarəsini
üzərinə götür”. 18 İkincisi gəlib dedi:
“Ağa! Sənin bir minan beş mina da
qazandırdı”. 19 Ağası ona da “sən də beş
şəhərə hakim ol” dedi.
20 Bir başqası gəlib dedi: “Ağa!
Budur sənin minan, onu dəsmala
büküb saxlayırdım. 21 Çünki səndən
qorxurdum, sən qəddar bir adamsan,
özün qoymadığını götürürsən və özün
əkmədiyini biçirsən”. 22 Ağası ona dedi:
“Ay pis qul, səni öz ağzından çıxan
sözlərlə mühakimə edəcəyəm! Mənim
qəddar bir adam olduğumu, özüm
qoymadığımı götürdüyümü və özüm
əkmədiyimi biçdiyimi bilirdinmi? 23 Bəs
onda nə üçün mənim pulumu sərraflara
vermədin ki, mən qayıdanda onu faizlə
geri alım?” 24 Sonra ətrafında olanlara
dedi: “Əlindəki minanı ondan alın və
on minası olana verin!” 25 Ona dedilər:
“Ay ağa, axı artıq onun on minası var!”
26 [k]O, sözünə belə davam etdi: “Sizə
deyirəm: kimin varıdırsa, daha çox
veriləcək, kimin yoxudursa, əlində olan
da alınacaq. 27 Mənim onların padşahı
olmağımı istəməyən düşmənlərimi isə
buraya gətirin və mənim gözümün
qabağında qılıncdan keçirin!”»

İsanın Yerusəlimə girməsi

(Mat. 21:1-11; Mark 11:1-11; Yəh. 12:12-19)

28 İsa bu sözləri deyib qabaqda
yeriyərək Yerusəlimə doğru qalxdı.
29 Zeytun dağı adlanan dağın
yamacındakı Bet-Faqe ilə Bet-Anyaya
yaxınlaşarkən şagirdlərdən ikisini
göndərərək 30 dedi: «Qarşınızdakı
kəndə gedin. Oraya girəndə hələ
heç kəsin minmədiyi, bağlanmış bir
sıpa tapacaqsınız. Onu açıb buraya
gətirin. 31 Kim sizdən soruşsa: “Nə üçün
sıpanı açırsınız?”, ona “bu sıpa Rəbbə
lazımdır” deyərsiniz».
32 Göndərilənlər gedib hər şeyin
Onun dediyi kimi olduğunu gördülər.
33 Onlar sıpanı açanda onun sahibləri
onlara dedi: «Bu sıpanı nə üçün
açırsınız?» 34 Onlar cavab verdilər: «Bu
sıpa Rəbbə lazımdır». 35 Sıpanı İsanın
yanına gətirdilər və öz paltarlarını
sıpanın üstünə sərib İsanı onun belinə
mindirdilər. 36 O irəli gedərkən insanlar
öz paltarlarını yola döşəyirdi.
37 İsa Zeytun dağının aşağı düşən
yamacına yaxınlaşanda çoxlu şagird
gördükləri bütün möcüzələr üçün
sevinib uca səslə Allaha həmd etməyə
başladı. 38 [l]Onlar deyirdi:

«Rəbbin ismi ilə gələn Padşaha alqış
olsun!
Göydə sülh, ən ucalarda izzət olsun!»

39 İzdihamın arasından bəzi fariseylər
Ona dedilər: «Müəllim, şagirdlərinə
qadağan et!» 40 Lakin İsa cavabında
onlara dedi: «Sizə bunu deyirəm ki, əgər
onlar sussa, daşlar dilə gələr!»

İsa Yerusəlim üçün ağlayır

41 İsa Yerusəlimə yaxınlaşanda ona
baxıb şəhər üçün ağladı. 42 O dedi:
«Ah, kaş sən də bu gün sülhə aparan
yolu tanıyaydın! Amma bu yol hələlik
sənin nəzərindən gizlənib. 43 Çünki səni
elə günlər gözləyir ki, düşmənlərin
səni sədlə əhatə edəcək, mühasirəyə
alacaq və hər yerdən sıxışdıracaqlar.
44 Səni də, qucağındakı övladlarını da
yerlə-yeksan edəcəklər. Daşını daş üstə
qoymayacaqlar, çünki Allahın sənə
yaxınlaşdığı zamanı anlamadın».

---

[k] **19:26** Mat. 13:12; Mark 4:25; Luka 8:18 [l] **19:38** Zəb. 118:26

İsa satıcıları məbəddən qovur

(Mat. 21:12-17; Mark 11:15-19; Yəh. 2:13-22)

45 İsa məbədə girib orada satıcılıq
edənləri qovmağa başladı. 46 [m]Onlara
belə dedi:
«“Mənim evim dua evi olacaq”
deyə yazılıb. Amma siz onu quldur
yuvasına çevirmisiniz!»
47 [n]İsa hər gün məbəddə təlim
öyrədirdi. Başçı kahinlər, ilahiyyatçılar
və xalqın nüfuzlu adamları Onu
öldürmək üçün yol axtarırdı, 48 amma
bunu necə edəcəklərini bilmirdilər.
Çünki bütün xalq Onu böyük diqqətlə
dinləyirdi.

İsanın səlahiyyəti

(Mat. 21:23-27; Mark 11:27-33)

20 Günlərin birində İsa məbəddə
xalqa təlim öyrədir və Müjdəni
yayırdı. Başçı kahinlər, ilahiyyatçılarla
ağsaqqallar yaxınlaşıb 2 Ona dedilər: «De
görək, Sən bu işləri hansı səlahiyyətlə
edirsən? Sənə bu səlahiyyəti kim verib?»
3 İsa onlara belə cavab verdi: «Mən də
sizə bir sual verəcəyəm. Mənə deyin:
4 Yəhyanın vəftizi göydən idimi, yoxsa
insanlardan?» 5 Onlarsa öz aralarında
müzakirə edərək belə dedilər: «Əgər
desək “göydən”, “Bəs nə üçün ona
inanmadınız?” deyəcək. 6 Amma desək
“insanlardan”, bütün xalq bizi daşqalaq
edər. Çünki xalq Yəhyanın peyğəmbər
olmasına əmindir». 7 Axırda Ona cavab
verdilər: «Biz bilmirik haradandır».
8 İsa da onlara dedi: «Bunları hansı
səlahiyyətlə etdiyimi Mən də sizə
demirəm».

Pis bağbanlar məsəli

(Mat. 21:33-46; Mark 12:1-12)

9 [o]İsa xalqa belə bir məsəl çəkməyə
başladı: «Bir adam üzüm bağı saldı
və bağı bağbanlara icarəyə verərək
uzun müddətə başqa ölkəyə getdi.
10 Məhsul vaxtı çatanda bağbanların
yanına bir qul göndərdi ki, onlar üzüm
bağının məhsulundan bir qədərini ona
versinlər. Lakin bağbanlar qulu döyərək
əliboş geri qaytardılar. 11 Bağ sahibi
başqa bir qul göndərdi, amma onlar
bunu da döyüb biabır etdilər və əliboş
geri qaytardılar. 12 O, üçüncüsünü də
göndərdi, amma onlar onu da yaralayıb
qovdular. 13 Onda bağ sahibi dedi:
“Mən nə edim? Qoy öz sevimli oğlumu
göndərim, bəlkə ona hörmət edərlər”.
14 Amma bağbanlar onu gördükdə
öz aralarında danışıb dedilər: “Varis
budur. Gəlin onu öldürək ki, miras
bizə qalsın”. 15 Beləcə onu bağdan
kənara çıxarıb öldürdülər. Beləliklə,
bağ sahibi onlara nə edəcək? 16 Gəlib
həmin bağbanları həlak edəcək və bağı
başqalarına verəcək». Bunu eşidənlərsə
dedilər: «Qoy belə olmasın».
17 [p]Amma İsa onların gözlərinin içinə
baxıb dedi: «Bəs bu Yazının mənası
nədir?
“Bənnaların rədd etdiyi daş
Guşədaşı olub”.
18 Bu daşın üstünə yıxılan hər kəs
parçalanacaq, daşsa kimin üzərinə
düşərsə, onu əzəcək».
19 İlahiyyatçılar və başçı kahinlər
başa düşdülər ki, İsa bu məsəli onlar
barədə söylədi. Ona görə də həmin an
Onu yaxalamaq üçün yol axtardılar,
lakin xalqdan qorxdular.

---

[m]**19:46** Yeş. 56:7; Yer. 7:11 [n]**19:47** Luka 21:37 [o]**20:9** Yeş. 5:1-7
[p]**20:17** Zəb. 118:22

Hər kəsin öz haqqı

(Mat. 22:15-22; Mark 12:13-17)

20 İsanı güdürdülər və yanına özlərini
dürüst insan kimi göstərən bir neçə
casus göndərdilər. Onu dediyi söz üstə
tutub valinin hökm və səlahiyyətinə
təslim etmək məqsədləri var idi. 21 Onlar
İsadan soruşdular: «Müəllim, biz bilirik
ki, Sən düz danışırsan, təlim öyrədirsən
və heç kimə tərəfkeşlik etmirsən,
lakin Allahın yolunu həqiqətə görə
öyrədirsən. 22 Bizim üçün qeysərə vergi
verməyə icazə var ya yox?» 23 Amma
İsa onların hiyləsini başa düşüb belə
dedi:* 24 «Mənə bir dinar göstərin. Onun
üstündəki təsvir və yazı kimindir?»
Onlar cavab verdilər: «Qeysərin». 25 İsa
onlara dedi: «Onda qeysərin haqqını
qeysərə, Allahın haqqını Allaha verin».
26 İsanı xalq qarşısında söz üstə tuta
bilmədilər və Onun cavabına heyrət
edib susdular.

Dirilmə haqqında sual

(Mat. 22:23-33; Mark 12:18-27)

27 [q]Dirilmənin olmadığını iddia edən
sadukeylərdən bəzisi İsanın yanına gəlib
soruşdu: 28 «Müəllim, Musa bizim üçün
belə yazmışdı: "Əgər bir adamın evli
qardaşı övladsız ölsə, o biri qardaş dul
qalmış arvadı alıb ölən qardaşın nəslini
davam etdirsin". 29 Yeddi qardaş var
idi. Birincisi bir arvad aldı və övladsız
öldü. 30 İkincisi də,† 31 üçüncüsü də
bu arvadla evləndi. Beləcə yeddisi də
özündən sonra övlad qoymadan öldü.
32 Hamısından sonra bu qadın da öldü.
33 Ölülər dirilində bu qadın onlardan
hansının arvadı olacaq? Çünki yeddi
qardaşın yeddisi də bu qadını almışdı».
34 İsa onlara belə cavab verdi: «Bu
dövrün insanları evlənir və ərə gedir.
35 Amma gələcək dövrə yetişməyə
və ölülər arasından dirilməyə layiq
sayılanlarsa nə evlənəcək, nə də ərə
gedəcək. 36 Artıq ölə də bilməzlər,
çünki mələklərə bənzəyirlər və dirilmə
övladları olduqlarına görə onlar
Allahın övladlarıdır. 37 [r]Amma ölülərin
dirildiyini Musa da kolla bağlı əhvalatda
Rəbbi "İbrahimin Allahı, İshaqın Allahı
və Yaqubun Allahı" adlandıraraq
göstərib. 38 Allah ölülərin deyil, dirilərin
Allahıdır. Çünki Onun yanında hamı
diridir».
39 İlahiyyatçılardan bəzisi buna
cavab olaraq dedi: «Müəllim, Sən nə
gözəl dedin». 40 Daha İsadan bir şey
soruşmağa cəsarət etmədilər.

Məsih kimin Oğludur?

(Mat. 22:41-46; Mark 12:35-37)

41 Amma İsa onlara dedi: «Niyə Məsih
Davudun Oğludur deyirlər? 42–43 [s]Axı
Davud özü Zəbur kitabında
"Rəbb mənim Ağama dedi:
‹Mən düşmənlərini ayaqlarının altına
kətil kimi salanadək
Sağımda otur›"
deyib. 44 Deməli, Davud Ona "Ağa"
deyə müraciət edir. O necə Davudun
oğlu ola bilər?»

İsa ilahiyyatçıları məzəmmət edir

(Mat. 23:5-7; Mark 12:38-40)

45 Bütün xalq bu sözləri
dinləyəndə İsa Öz şagirdlərinə
dedi: 46 «İlahiyyatçılardan özünüzü
gözləyin. Onlar uzun paltarlarda
gəzməyi xoşlayar, bazar meydanlarında
salam almağı və sinaqoqlarda baş

---

*__20:23__ *dedi* – bəzi əlyazmalarda *dedi: «Məni niyə sınağa çəkirsiniz?* (Mat. 22:18; Mark 12:15).

†__20:30__ *İkincisi də* – bəzi əlyazmalarda *İkincisi də bu arvadı aldı, amma övladsız öldü.*

[q]**20:27** Qanun. 25:5; Həv. 23:8 [r]**20:37** Çıx. 3:6 [s]**20:42-43** Zəb. 110:1

kürsüləri, ziyafətlərdə yuxarı başı
tutmağı sevərlər. 47 Onlar dul qadınların
evlərini yeyib-dağıdar və özlərini
göstərmək üçün uzun-uzadı dua edərlər.
Bu adamların cəzası daha ağır olacaq».

Dul qadının ianəsi

(Mark 12:41-44)

21 İsa başını qaldırıb baxdı və
məbədin ianə qutusuna ianələri
atan varlı adamları gördü. 2 Bir kasıb
dul qadını da gördü. O, ianə qutusuna
iki lepton* pul atdı. 3 İsa dedi: «Sizə
həqiqəti deyirəm: bu kasıb dul qadın
hamıdan çox pul atdı. 4 Çünki onların
hamısı varlarının artıqlığından ianə†
verdilər, bu qadınsa kasıblığına
baxmayaraq, dolanmaq üçün əlində nə
varsa, hamısını verdi».

Axır zamanın əlamətləri

(Mat. 24:1-28; Mark 13:1-23)

5 Bəzi adamlar məbədin gözəl daşlar
və Allaha həsr olunmuş təqdimlərlə
bəzəndiyini söyləyərkən İsa dedi: 6 «Elə
günlər gələcək ki, burada gördüyünüz
şeylərin daşı daş üstündə qalmayacaq,
hamısı yerlə-yeksan olacaq».
7 Ondan soruşdular: «Müəllim, bəs
bu dediklərin nə vaxt baş verəcək?
Bunlar baş vermək üzrə olanda hansı
əlamətlər olacaq?» 8 İsa dedi: «Ehtiyatlı
olun, aldanmayın! Çünki Mənim adımla
çox adam gəlib "mən Oyam" və "vaxt
yaxınlaşıb" deyəcək. Onların ardınca
getməyin. 9 Müharibələr və üsyanlar
barədə eşidəndə təlaşa düşməyin. Çünki
bunlar əvvəlcədən baş verməlidir,
amma hər şeyin axırı tez gəlməyəcək».
10 Sonra onlara belə dedi: «Millət
millətə, padşahlıq padşahlığa qarşı
çıxacaq. 11 Güclü zəlzələlər, yerbəyer
aclıq və vəba, dəhşətli hadisələr və
göydən böyük əlamətlər olacaq.
12 [t]Amma bütün bu hadisələrdən əvvəl
Mənim adıma görə sizi yaxalayacaqlar,
təqib edəcəklər, sinaqoqlara və
zindanlara təslim edəcəklər, padşahların
və valilərin qarşısına aparacaqlar. 13 Bu
işlər şəhadət etdiyiniz vaxt olacaq.
14 [u]Buna görə də ürəyinizdə qərara alın
ki, özünüzü necə müdafiə edəcəyiniz
barədə əvvəlcədən düşünməyəsiniz.
15 Çünki Mən sizə elə danışıq qabiliyyəti
və hikmət verəcəyəm ki, sizə qarşı
çıxanların heç biri nə ona etiraz
edə biləcək, nə də ona qarşı dura
biləcək. 16 Hətta ata-analarınız,
bacı-qardaşlarınız, qohumlarınız
və dostlarınız sizi təslim edəcək və
bəzinizi edam etdirəcək. 17 Mənim
adıma görə hamı sizə nifrət edəcək.
18 Amma başınızdan bir tük belə,
əskik olmayacaq. 19 Dayanıb dözməklə
canlarınızı qurtarın.
20 Qoşunların Yerusəlimi mühasirə
etdiyini görəndə bilin ki, onun viranə
qalacağı vaxt yaxınlaşmışdır. 21 O
zaman Yəhudeyada olanlar dağlara
qaçsın, şəhərdə olanlar oradan çıxsın
və ətrafda olanlar oraya girməsin.
22 [v]Çünki bu günlər qisas günləridir
ki, bütün yazılanlar yerinə yetsin.
23 Həmin günlər hamilələrin və körpə
əmizdirənlərin vay halına! Çünki yer
üzünün başına böyük fəlakət gələcək
və bu xalq qəzəbə uğrayacaq. 24 Onlar
qılıncdan keçiriləcək və bütün millətlər
arasına əsirliyə aparılacaq. Başqa
millətlərin vaxtı tamam olanadək
Yerusəlim başqa millətlərin ayağı
altında tapdalanacaq.

---

*21:2 *Lepton* – ən kiçik pul vahidi.
†21:4 *İanə* – bəzi əlyazmalarda *Allaha ianə*.

[t]21:12 Mat. 10:17-22 [u]21:14 Luka 12:11-12 [v]21:22 Huşə 9:7

Bəşər Oğlunun zühuru

(Mat. 24:29-35; Mark 13:24-31)

25 [w]Günəşdə, ayda və ulduzlarda
ələmətlər görünəcək. Yer üzündə
dənizin və dalğaların gurultusundan
millətlər çaşqınlıq içində qalıb əzab
çəkəcək. 26 İnsanlar qorxudan və dünya
üzərinə gələn fəlakətləri gözləməkdən
huşunu itirəcək, çünki səma cisimləri
lərzəyə gələcək. 27 [x]O zaman onlar
Bəşər Oğlunun bulud içində qüdrət və
böyük izzətlə gəldiyini görəcək. 28 Bu
hadisələr yerinə yetməyə başladıqda
başınızı qaldırın və yuxarı baxın, çünki
satınalınmanız yaxınlaşır».
29 İsa onlara bir məsəl də çəkdi:
«Əncir ağacına və bütün ağaclara baxın:
30 onların yarpaqlandığını görəndə
bilirsiniz ki, yay fəsli artıq yaxındır.
31 Eləcə siz də bu şeylərin baş verdiyini
görəndə bilin ki, Allahın Padşahlığı
yaxınlaşıb. 32 Sizə doğrusunu deyirəm:
bu nəsil ömrünü sona çatdırmazdan
əvvəl bütün bunlar baş verəcək. 33 Yer
və göy keçib-gedəcək, amma Mənim
sözlərim əsla keçib-getməyəcək.
34 Özünüzə fikir verin! Qoy ürəkləriniz
eyş-işrət və sərxoşluqla, bu həyatın
qayğıları ilə yüklənməsin. Qoy qiyamət
günü* bir tələ kimi üzərinizə qəflətən
gəlməsin. 35 Çünki o gün yer üzündə
yaşayanların hamısının üstünə gələcək.
36 Ona görə də baş verəcək bütün bu
fəlakətlərdən qaçıb Bəşər Oğlunun
önündə dura bilmək üçün hər an dua
edərək ayıq olun».
37 [y]İsa gündüzlər məbəddə təlim
öyrədirdi, gecələri isə oradan çıxaraq
Zeytun dağı adlanan dağda keçirirdi.
38 Səhər tezdən bütün xalq İsanı
dinləmək üçün Onun yanına, məbədə
gəlirdi.

İsanı öldürmək üçün sui-qəsd hazırlanır

(Mat. 26:1-5; Mark 14:1-2; Yəh. 11:47-53)

22 [z]Pasxa adlanan Mayasız
Çörək bayramı yaxınlaşırdı.
2 Başçı kahinlər və ilahiyyatçılar İsanı
öldürmək üçün bir yol axtarırdılar,
çünki xalqdan qorxurdular.

Yəhudanın xəyanəti

(Mat. 26:14-16; Mark 14:10-11; Yəh. 13:18-30)

3 O zaman Şeytan On İki şagirddən
biri olan İskaryot adlanan Yəhudanın
ürəyinə girdi. 4 O da gedib başçı
kahinlər və məbəd mühafizəçilərinin
başçıları ilə danışdı ki, İsanı necə
onlara təslim etsin. 5 Onlar sevindilər
və ona pul verməyə razı oldular.
6 Buna söz verən Yəhuda İsanı xalqdan
gizlin onlara təslim etmək üçün fürsət
axtarmağa başladı.

Axırıncı şam yeməyi

(Mat. 26:17-30; Mark 14:12-26; Yəh. 13:21-30; 1Kor. 11:23-25)

7 Pasxa quzusunun qurban kəsilməli
olduğu Mayasız Çörək bayramı günü
gəldi. 8 İsa Peter və Yəhyanı qabaqca
göndərib «gedin, Pasxa yeməyimiz üçün
bizə hazırlıq görün» dedi. 9 Onlarsa
İsadan soruşdular: «Harada hazırlıq
görməyimizi istəyirsən?» 10 İsa onlara
dedi: «Bax siz şəhərə girəndə qarşınıza
səhənglə su daşıyan bir nəfər çıxacaq.
Onun ardınca gedin və onun girəcəyi
evə girin. 11 Oranın sahibinə deyin:
“Müəllim sənə deyir: ‹Şagirdlərimlə

---

*21:34 *Qiyamət günü* – hərfi tərcümədə *o gün.*

[w]**21:25** Yeş. 13:10; Yez. 32:7; Yoel 2:31; Vəhy 6:12-13
[x]**21:27** Dan. 7:13; Vəhy 1:7 [y]**21:37** Luka 19:47-48 [z]**22:1** Çıx. 12:1-27

birgə Pasxa yeməyini yeyəcəyim qonaq
otağı haradadır?›” 12 Ev sahibi sizə
yuxarı mərtəbədə hər şeyi hazırlanmış
böyük bir otaq göstərəcək. Orada
hazırlıq işləri görün». 13 Onlar gedib
hər şeyin Onun dediyi kimi olduğunu
gördülər və Pasxa yeməyi üçün hazırlıq
etdilər.
14 Yemək vaxtı çatanda İsa həvarilərlə
süfrəyə oturdu. 15 İsa onlara dedi:
«Mən əzab çəkməzdən əvvəl bu
Pasxa yeməyini sizinlə birgə yeməyi
çox arzulayırdım. 16 Sizə bunu
deyirəm: Pasxa Allahın Padşahlığında
yerinə yetənədək Mən bir daha onu
yeməyəcəyəm».
17 Sonra İsa bir kasa götürüb şükür
etdi və dedi: «Bunu götürün və
aranızda bölüşdürün. 18 Mən sizə
deyirəm: Allahın Padşahlığı gələnədək
üzüm ağacının məhsulundan əsla
içməyəcəyəm».
19 Sonra İsa çörək götürdü, şükür
edib onu böldü və şagirdlərə verərək
dedi: «Bu Mənim sizin üçün verilən
bədənimdir. Bunu Məni xatırlamaq üçün
edin». 20 [a]Eləcə də axşam yeməyindən
sonra kasanı götürüb dedi: «Sizin
üçün axıdılan bu kasa Mənim qanımla
bağladığım Yeni Əhddir. 21 [b]Amma
budur, Mənə xəyanət edən Mənimlə
birlikdə əlini bu süfrəyə uzadır. 22 Bəşər
Oğlu təyin edilmiş yolla gedir. Amma
vay o adamın halına ki, Ona xəyanət
edir!» 23 Şagirdlər öz aralarında bunu
kimin edəcəyini araşdırmağa başladılar.
24 [c]Aralarında onlardan kimin ən
böyük sayılacağı barəsində bir mübahisə
də oldu. 25 [d]Amma İsa onlara dedi:
«Millətlərin padşahları onların üzərində
hökm edir və bu hakimiyyətdə olanlar
himayədar adlanır. 26 Amma siz belə
olmayın. Aranızda ən böyük olan ən
kiçik kimi olsun və rəhbərlik edən
xidmətçi kimi olsun. 27 [e]Axı kim daha
böyükdür, süfrədə oturan, yoxsa xidmət
edən? Süfrədə oturan deyilmi? Mənsə
sizin aranızda xidmətçi kimiyəm.
28 Keçirdiyim sınaqlarda Mənimlə
qalanlar sizsiniz. 29 Atam Mənə bir
padşahlıq tapşırdığı kimi Mən də sizə bir
padşahlıq tapşırıram; 30 [f]belə ki Mənim
Padşahlığımda süfrəmdə yeyib-içəsiniz
və İsrailin on iki qəbiləsinə hökm etmək
üçün taxtlarda oturasınız.

Peterin inkarı əvvəlcədən bildirilir

(Mat. 26:31-35; Mark 14:27-31; Yəh. 13:36-38)

31 Şimon, Şimon! Şeytan sizi buğda
kimi xəlbirdən keçirməyə icazə istədi.
32 Amma Mən imanın itməsin deyə
sənin üçün dua etdim. Sən də bir
zaman geri dönüb öz qardaşlarını
qüvvətləndir». 33 O, İsaya cavab verdi:
«Ya Rəbb, mən Səninlə zindana da,
ölümə də getməyə hazıram». 34 Amma
İsa dedi: «Peter, sənə bunu deyirəm: bu
gün xoruz banlamazdan əvvəl sən Məni
tanıdığını üç dəfə inkar edəcəksən».
35 [g]Sonra şagirdlərə dedi: «Mən sizi
kisəsiz, torbasız və çarıqsız göndərəndə
bir şeydə korluq çəkmisinizmi?» Onlar
cavab verdilər: «Heç bir şeydə». 36 Onda
İsa onlara dedi: «İndi isə kisəsi və
torbası olan bunları götürsün. Qılıncı
olmayan da öz paltarını satıb qılınc
alsın. 37 [h]Çünki sizə deyirəm: bu
yazılmış olan
“Üsyankarlara tay tutuldu”

---

[a]**22:20** Yer. 31:31-34 [b]**22:21** Zəb. 41:9
[c]**22:24** Mat. 18:1; Mark 9:34; Luka 9:46
[d]**22:25** Mat. 20:25-27; 23:11; Mark 9:35; 10:42-44 [e]**22:27** Yəh. 13:12-15
[f]**22:30** Mat. 19:28 [g]**22:35** Mat. 10:9-10; Mark 6:8-9; Luka 9:3; 10:4
[h]**22:37** Yeş. 53:12

sözü Məndə tam yerinə yetməlidir.
Çünki Mənim barəmdə yazılanlar
tamam olur». 38 Onlar dedilər: «Ya
Rəbb, budur, burada iki qılınc var». O
isə onlara dedi: «Bu kifayətdir».

İsa Zeytun dağında dua edir

(Mat. 26:36-46; Mark 14:32-42)

39 İsa çıxıb adətinə görə Zeytun dağına
getdi. Şagirdlər də Onun ardınca getdi.
40 Oraya çatanda İsa onlara dedi: «Dua
edin ki, sınağa düşməyəsiniz». 41 İsa
Özü isə onlardan bir daş atımı qədər
uzaqlaşdı və diz çökü b dua etdi. 42 O
belə dedi: «Ey Ata, əgər Sənin iradənə
məqbuldursa, bu kasanı* Məndən
uzaqlaşdır. Amma Mənim yox, Sənin
iradən olsun». 43 Göydən bir mələk
İsaya göründü və Onu qüvvətləndirdi.
44 İsa dəhşətli iztirab içində daha
səylə dua edirdi. Onun təri yerə düşən
qan damlalarına bənzəyirdi.† 45 İsa
duadan qalxıb şagirdlərin yanına gəldi,
onları kədərdən üzülmüş və yatmış
tapdı. 46 O, şagirdlərə dedi: «Nə üçün
yatırsınız? Qalxın, dua edin ki, sınağa
düşməyəsiniz».

İsa həbs olunur

(Mat. 26:47-56; Mark 14:43-50; Yəh. 18:3-12)

47 İsa hələ danışarkən bir izdiham
göründü. On İki şagirddən biri, Yəhuda
adlı bir nəfər onlardan qabaqda gedirdi.
O, İsanı öpmək üçün yaxınlaşdı.
48 Amma İsa ona dedi: «Yəhuda, sən
Bəşər Oğlunu bir öpüşləmi satırsan?»
49 İsanın ətrafında olanlar nə baş
verəcəyini görəndə Ona dedilər:
«Ya Rəbb, bəlkə qılıncla vuraq?»
50 Onlardan biri baş kahinin qulunu
vurub sağ qulağını qopartdı. 51 Lakin İsa
dedi: «Bəsdir, eləməyin». Sonra qulun
qulağına toxunaraq onu sağaltdı.
52 İsa üstünə gələn başçı kahinlərə,
məbəd mühafizəçilərinin başçılarına
və ağsaqqallara dedi: «Nə üçün quldur
üstünə gələn kimi qılınc və dəyənəklərlə
gəlmisiniz? 53 [i]Mən hər gün məbəddə
sizinlə birlikdə olanda siz Mənə
əl qaldırmadınız. Amma indi sizin
vaxtınızdır, zülmət hökmranlığıdır».

Peter İsanı inkar edir

(Mat. 26:57-58,67-75; Mark 14:53-54,65-72; Yəh. 18:13-18,25-27)

54 İsanı tutub apardılar və baş kahinin
evinə gətirdilər. Peter isə uzaqdan Onun
ardınca gedirdi. 55 Həyətin ortasında
tonqal qalanmışdı. Peter gəlib onun
ətrafında oturanların arasında oturdu.
56 Qarabaşlardan biri tonqalın
işığında oturan Peteri gördü. Ona
diqqətlə baxıb dedi: «Bu adam da İsa
ilə birlikdə idi». 57 Amma Peter «Ay
arvad, mən Onu tanımıram!» deyərək
Onu inkar etdi. 58 Bir az sonra başqa
bir adam onu görüb dedi: «Sən də
onlardansan». Amma Peter dedi: «Ay
kişi, mən deyiləm!» 59 Bir saata yaxın
vaxt keçdi və digər bir adam təkidlə
dedi: «Doğrudan da, bu adam da Onunla
birlikdə idi, çünki Qalileyalıdır».
60 Peter isə dedi: «Ay kişi, dediyini başa
düşmürəm».

Elə o danışdığı an xoruz banladı.
61 Onda Rəbb dönüb Peterə baxdı. Peter
Rəbbin «bu gün xoruz banlamazdan
əvvəl sən Məni üç dəfə inkar edəcəksən»
dediyi sözü yadına saldı. 62 Ona görə
oradan çıxıb hönkür-hönkür ağladı.
63 İsanı tutub saxlayan adamlar Onu
ələ sala-sala döyürdülər. 64 Gözlərini
bağlayıb Ondan soruşurdular:

---

*22:42 *Kasa* – İsanın çarmıxdakı ölümünün rəmzi.
†22:44 Ən qədim yunan əlyazmalarında bu ayələr yoxdur.

[i]22:53 Luka 19:47-48; 21:37

«Peyğəmbərlik elə görək, Səni vuran
kimdir?» 65 Ona başqa sözlər də deyib
çoxlu böhtan atırdılar.

İsa Ali Şuranın önündə

(Mat. 26:57-66; Mark 14:53-64; Yəh. 18:19-24)

66 Səhər açıldıqda xalqın ağsaqqalları,
başçı kahinlər və ilahiyyatçılar
yığıldı və İsanı öz Ali Şuralarına
gətirdilər. 67 Onlar dedilər: «Bizə de,
Məsih Sənsənmi?» İsa onlara dedi:
«Əgər sizə desəm, inanmazsınız.
68 Əgər sizdən soruşsam, Mənə cavab
verməyəcəksiniz.* 69 Bundan sonra isə
Bəşər Oğlu qüdrətli Allahın sağında
oturacaq». 70 Onların hamısı dedi:
«Deməli, Sən Allahın Oğlusan?» İsa
onlara cavab verdi: «Sizin dediyiniz
kimi O Mənəm». 71 Onda onlar dedilər:
«Artıq şəhadətə nə ehtiyacımız var? Axı
biz özümüz Onun ağzından eşitdik».

İsa Romalı vali Pilatın və Qalileya hökmdarı Hirodun önündə

(Mat. 27:1-2,11-26; Mark 15:1-15; Yəh. 18:28–19:16)

23 Ali Şura üzvlərinin hamısı
ayağa durub İsanı Pilatın yanına
apardı. 2 Onu ittiham etməyə başlayaraq
dedilər: «Biz gördük ki, bu adam
millətimizi yoldan çıxarır. Qeysərə
vergi verməyə mane olur və Özünü
Məsih, Padşah adlandırır». 3 Pilat Ondan
«Yəhudilərin Padşahı Sənsənmi?» deyə
soruşdu. İsa cavabında ona dedi: «Sənin
dediyin kimidir». 4 Pilat başçı kahinlərə
və xalqa dedi: «Mən bu Adamda heç
bir təqsir görmürəm». 5 Amma onlar
təkid edərək deyirdilər: «Bu Adam
Qalileyadan tutmuş bu yerə qədər
bütün Yəhudeyada təlim öyrədərək
xalqı təşvişə salır».
6 Pilat Qalileya barədə eşidib soruşdu:
«Məgər bu Adam Qalileyalıdır?»
7 İsanın Hirodun idarə etdiyi vilayətdən
olduğunu bildikdə Onu Hirodun yanına
göndərdi. Çünki o günlər Hirod da
Yerusəlimdə idi.
8 Hirod İsanı gördükdə çox sevindi.
Onun haqqında eşitdiyi şeylərə görə
Onu çoxdan görmək istəyirdi. Ondan
bir əlamət görməyi umurdu. 9 Hirod
Ona çox suallar verdi, amma İsa ona
heç bir cavab vermədi. 10 Başçı kahinlər
və ilahiyyatçılar durub Onu şiddətlə
ittiham edirdilər. 11 Hirod öz əsgərləri
ilə Onu təhqir edib ələ saldı. Onun
əyninə bir gözəl paltar geyindirib
Pilatın yanına qaytardı. 12 Əvvəllər
düşmən olan Pilatla Hirod o gün bir-biri
ilə dostlaşdı.
13 O zaman Pilat başçı kahinləri,
rəhbərləri və xalqı toplayıb 14 onlara
dedi: «Siz bu Adamı mənim yanıma
buna görə gətirdiniz ki, O, xalqı yoldan
çıxarır. Budur, mən sizin qarşınızda
məsələni araşdırıb bu Adamı sizin irəli
sürdüyünüz ittihamların heç birində
təqsirkar görmədim. 15 Hirod da bir
şey tapmadı. Çünki bu Adamı bizə geri
göndərdi.† Budur, O, ölüm cəzasına
layiq heç bir şey etməyib. 16 Buna
görə də mən Onu cəzalandırıb azad
edəcəyəm». 17 ‡
18 Amma bütün xalq birlikdə çığırırdı:
«Bu Adam öldürülsün! Bizə Barabbanı
azad et!» 19 Barabba şəhərdə üsyan
qaldırmaq və adam öldürmək üstündə
zindana atılmışdı. 20 Pilat İsanı azad

---

*22:68 *Verməyəcəksiniz* – bəzi əlyazmalarda *verməyəcəksiniz və Məni buraxmayacaqsınız.*

†23:15 *Bu Adamı bizə geri göndərdi* – bəzi əlyazmalarda *sizi onun yanına göndərmişdim,* bəzilərində isə *bu Adamı onun yanına göndərmişdim.*

‡23:17 *Edəcəyəm* – bəzi əlyazmalarda *edəcəyəm».* 17 *Pilat bayrama görə bir əsiri azad etməli idi.*

etmək istəyərək yenə də səsini ucaltdı.
21 Amma onlar «Onu çarmıxa çək,
çarmıxa çək!» deyə bağırırdılar. 22 Pilat
üçüncü dəfə onlara dedi: «Axı O nə pislik
edib? Mən Onda ölüm cəzasına layiq
heç bir təqsir görmədim. Buna görə
də Onu cəzalandırıb azad edəcəyəm».
23 Amma onlar təkid edərək uca səslə
tələb edirdilər ki, O, çarmıxa çəkilsin.
Onların* səsi hamıdan bərk gəlirdi.
24 Pilat onların tələbini yerinə
yetirmək qərarına gəldi. 25 Üsyan
qaldırıb adam öldürdüyünə görə
zindana atılmış adamı onların tələbinə
görə azad etdi. İsanı isə onların
ixtiyarına təslim etdi.

İsa çarmıxa çəkilir

(Mat. 27:32-44; Mark 15:21-32; Yəh. 19:17-25)

26 Əsgərlər İsanı apararkən kənd
yerindən gələn Şimon adlı Kirenalı
bir nəfəri yaxaladılar. Çarmıxı onun
boynuna yükləyib İsanın ardınca
daşımağa məcbur etdilər.
27 İsanın ardınca böyük bir izdiham və
Onun üçün ağlayıb nalə çəkən qadınlar
gedirdi. 28 İsa onlara tərəf dönüb dedi:
«Ey Yerusəlim qızları, Mənim üçün
ağlamayın. Özünüz və övladlarınız
üçün ağlayın. 29 Çünki elə günlər gəlir
ki “Nə bəxtiyardır sonsuz, doğmamış
bətnlər və əmizdirməmiş döşləri olan
qadınlar!” deyəcəklər. 30 j“O zaman
dağlara ‹Üstümüzə yıxılın!›, təpələrə
‹Bizi örtün!› deməyə başlayacaqlar”.
31 Çünki yaşıl ağacın başına bunları
gətirirlərsə, bəs qurumuş ağaca nə
olacaq?»
32 İsa ilə birlikdə iki cinayətkar da
edama aparılırdı. 33 Kəllə adlanan yerə
gələndə orada Onu və cinayətkarları
– birini sağında, birini də solunda
çarmıxa çəkdilər. 34 kAmma İsa
deyirdi: «Ata! Onları bağışla, çünki
nə etdiklərini bilmirlər».† Onlar
püşk ataraq paltarlarını aralarında
bölüşdürdülər.
35 Camaat durub tamaşa edirdi.
Onlarla birlikdə rəhbərlər də İsaya
istehza edib deyirdilər: «Başqalarını
xilas edirdi. Əgər O, Allahın seçdiyi
Məsihdirsə, qoy Özünü də xilas etsin!»
36 Əsgərlər də yaxınlaşıb Onu ələ
saldılar. Ona şərab sirkəsi təqdim edib
37 belə dedilər: «Əgər Sən Yəhudilərin
Padşahısansa, Özünü xilas et!» 38 Onun
üzərində «Yəhudilərin Padşahı budur»
yazısı yazılmışdı.‡
39 Çarmıxa asılmış cinayətkarlardan
biri Ona böhtan ataraq deyirdi: «Məgər
Sən Məsih deyilsən? Özünü də, bizi
də xilas et!» 40 O biri cinayətkarsa
ona qadağan edərək deyirdi: «Sən
heç Allahdan qorxmursan? Sən özün
də eyni cəzaya məhkum olmusan!
41 Biz ədalətlə məhkum olunmuşuq,
çünki əməllərimizə layiq olan əvəzi
alırıq. Bu Adamsa heç bir haqsızlıq
etməmişdi». 42 Sonra İsaya dedi: «Ey İsa,
Öz Padşahlığına gələndə məni xatırla!»
43 İsa ona dedi: «Sənə doğrusunu
deyirəm: bu gün sən Mənimlə birlikdə
cənnətdə olacaqsan».

---

*23:23 *Onların* – bəzi əlyazmalarda *Onların və başçı kahinlərin.*
†23:34 *Amma İsa … bilmirlər»* – bu sözlər ən qədim yunan əlyazmalarında yoxdur.
‡23:38 *Yazılmışdı* – bəzi əlyazmalarda *yunan, latın və ibrani hərfləri ilə yazılmışdı.*

j23:30 Huşə 10:8; Vəhy 6:16 k23:34 Zəb. 22:18

İsanın ölümü

(Mat. 27:45-56; Mark 15:33-41; Yəh. 19:25-30)

44 [l]Gündüz altıncı saat* idi.
Doqquzuncu saata qədər† bütün
yer üzünə qaranlıq çökdü, 45 günəş
işığını saçmırdı. Məbədin pərdəsi
ortadan parçalandı. 46 [m]İsa uca səslə
nida edərək dedi: «Ey Ata! Ruhumu
Sənin əlinə verirəm». İsa bunu deyib
son nəfəsini verdi.
47 Bunları görən yüzbaşı «doğrudan
da, bu Adam saleh idi» deyərək Allahı
izzətləndirdi. 48 Bunlara tamaşa etmək
üçün yığılan bütün camaat baş verən
hadisəni gördükdə sinəsinə döyə-döyə
geri döndü.
49 [n]İsanı tanıyan adamların hamısı
və Onun ardınca Qalileyadan gəlmiş
qadınlar uzaqda durub olub-keçənlərə
baxırdılar.

İsanın dəfni

(Mat. 27:57-61; Mark 15:42-47; Yəh. 19:38-42)

50 Ali Şuranın üzvü olan Yusif adlı
xeyirxah və saleh bir kişi var idi. 51 O,
Ali Şuranın qərarı və əməli ilə razı
olmamışdı. Bu adam Yəhudeyanın
Arimateya şəhərindən idi və o da
Allahın Padşahlığını gözləyirdi. 52 O,
Pilatın yanına gedib İsanın cəsədini
istədi. 53 Cəsədi çarmıxdan endirib
kəfənə bükdü və qayada qazılmış, hələ
indiyədək heç kimin dəfn edilmədiyi bir
qəbirə qoydu. 54 O gün Hazırlıq günü‡
idi və Şənbə günü yaxınlaşırdı.
55 İsa ilə Qalileyadan gəlmiş qadınlar
da Yusifin ardınca gedib qəbiri və
Onun cəsədinin necə qoyulduğunu
gördülər. 56 [o]Onlar evlərinə qayıdıb
ətirli maddələr və qiymətli yağlar
hazırladılar. Şənbə günü Allahın əmri
ilə istirahət etdilər.

İsanın dirilməsi

(Mat. 28:1-10; Mark 16:1-11; Yəh. 20:1-18)

24 Həftənin ilk günü§ səhər çox
erkən qadınlar hazırladıqları
ətirləri götürüb qəbirin yanına
gəldilər.** 2 Qəbirin qapısındakı daşı
yuvarlanmış gördülər. 3 Amma içəri
girib Rəbb İsanın cəsədini tapmadılar.
4 Onlar bundan çaşqınlıq içində olarkən
şimşək kimi parıldayan paltar geymiş iki
kişi qəflətən onların qarşısında peyda
oldu. 5 Qadınlar tələş içində üzüstə yerə
sərildilər. Kişilər soruşdular: «Nə üçün
siz Dirini ölülər arasında axtarırsınız?
6 [p]O burada yoxdur, O dirilmişdir!
Hələ Qalileyada olarkən Onun sizə
dediklərini yadınıza salın. 7 Demişdi ki,
“Bəşər Oğlu günahkar insanlara təslim
olmalı, çarmıxa çəkilməli və üçüncü
gün dirilməlidir”». 8 Qadınlar da İsanın
sözlərini yada saldılar.
9 Qəbirdən qayıdan qadınlar bütün
bunları On Bir şagirdə və başqa

---

*23:44 *Altıncı saat* – hazırkı vaxtla günorta saat on iki.
†23:44 *Doqquzuncu saat* – hazırkı vaxtla günortadan sonra saat üç.
‡23:54 *Hazırlıq günü* – yəni Yəhudilərdə müqəddəs sayılan Şənbə günü üçün hazırlıq görülən cümə günü.
§24:1 *Həftənin ilk günü* – yəni bazar günü.
**24:1 *Gəldilər* – bəzi əlyazmalarda *gəldilər. Bəzi başqa adamlar da onlarla birgə gəldilər.*

[l]23:44 Çıx. 26:31-33
[m]23:46 Zəb. 31:5 [n]23:49 Luka 8:2-3 [o]23:56 Çıx. 20:10; Qanun. 5:14 [p]24:6 Mat. 16:21; 17:22-23; 20:17-19; Mark 8:31; 9:31; 10:32-34; Luka 9:22; 18:31-33

adamların hamısına xəbər verdilər.
10 Həvarilərə bu xəbəri çatdıranlar
Məcdəlli Məryəm, Yoxanna, Yaqubun
anası Məryəm və onlarla birgə olan
digər qadınlar idi. 11 Amma bu
sözlər həvarilərə mənasız göründü
və qadınlara inanmadılar. 12 Peter isə
qalxıb qəbirə tərəf qaçdı. O əyilib yalnız
kətan bezləri gördü və bu hadisəyə
heyrət edərək öz evinə qayıtdı.

İsa iki şagirdə görünür

(Mark 16:12-13)

13 Elə o gün onlardan ikisi
Yerusəlimdən altmış stadi* uzaqlığında
yerləşən Xamma adlı kəndə gedirdi.
14 Onlar olub-keçən bütün bu hadisələr
barədə öz aralarında söhbət edirdi.
15 Onlar söhbət edərək öz aralarında
müzakirə edərkən İsa Özü yaxınlaşıb
onlarla birlikdə yol getdi. 16 Amma
onların gözləri bağlanmışdı, buna görə
də Onu tanımadılar.
17 İsa onlardan soruşdu: «Siz yol
gedə-gedə öz aranızda nə barədə
danışırsınız?» Onlar qaşqabaqlı
dayandılar. 18 Onlardan Kleopa
adlı bir nəfər İsaya cavab verdi:
«Yerusəlimdə qalıb bu günlərdə orada
baş vermiş hadisələrdən xəbəri olmayan
bircə sənsənmi?» 19 İsa onlara dedi:
«Hansı hadisələrdən?» Onlar da Ona
dedilər: «Nazaretli İsa barəsindəki
hadisələrdən. O, Allahın və bütün xalqın
önündə əməldə və sözdə qüdrətli bir
peyğəmbər idi. 20 Bizim başçı kahin
və rəhbərlərimiz Onu ölümə məhkum
etmək üçün təslim edib çarmıxa
çəkdirdilər. 21 Biz də ümid edirdik
ki, bu, İsrailin gələcək Satınalanıdır.
Bundan əlavə, bu hadisələr artıq üç
gündür ki, baş verib. 22 Üstəlik bizim
qadınlardan bəzisi də bizi mat qoydular:
onlar səhər erkən qəbir üstünə gedib
23 Onun cəsədini orada tapa bilməyiblər
və gəlib dedilər ki, görüntüdə Onun
diri olduğunu bəyan edən mələkləri
görüblər. 24 Bizimlə olan bəziləri qəbirə
gedib oranın qadınların dediyi kimi
olduğunu müəyyən etdilər, amma Onu
görmədilər».
25 Onda İsa onlara dedi: «Ey ağılsızlar
və peyğəmbərlərin xəbər verdiklərinə
inanmaq üçün ürəyində ləngiyənlər!
26 Məsih bu əzabları çəkib Öz izzətinə
qovuşmalı deyildimi?» 27 Sonra Musa
ilə bütün Peyğəmbərlərdən başlayaraq
Müqəddəs Yazıların hamısında Özü
haqqında olanları onlara izah etdi.
28 Onlar getdikləri kəndə
yaxınlaşdılar. İsa Özünü yoluna
davam etmək istəyən kimi apardı.
29 Amma onlar İsadan təkidlə xahiş edib
dedilər: «Bizimlə qal, çünki axşam düşür
və gün batmaq üzrədir». O da onlarla
qalmaq üçün içəri girdi.
30 İsa onlarla süfrəyə oturanda
çörək götürüb şükür duası etdi, böldü
və onlara verdi. 31 Bu anda onların
gözləri açıldı və onlar İsanı tanıdılar.
Amma İsa onlar üçün görünməz oldu.
32 Onlar bir-birlərinə dedilər: «O, yolda
bizimlə danışıb və Müqəddəs Yazıları
bizə izah edəndə bizim ürəklərimiz
alışıb-yanmırdımı?»
33 Onlar elə o saat qalxıb Yerusəlimə
qayıtdılar, On Bir şagirdi və onlarla
birlikdə olanları bir yerdə toplaşmış
gördülər. 34 Bunlar deyirdi: «Rəbb,
doğrudan da, dirilmiş və Şimona
görünmüşdür». 35 Onlar da yolda baş
verənləri və çörəyi böldüyü zaman Onu
necə tanıdıqlarını nəql etdilər.

---

*24:13 *Altmış stadi* – təqribən 11 kilometr.

İsa On Bir şagirdə görünür

(Mat. 28:16-20; Mark 16:14-18; Yəh. 20:19-23; Həv. 1:6-8)

36 Onlar bu barədə danışarkən İsa
Özü aralarında durub onlara «Sizə
salam olsun!» dedi. 37 Onlarsa çaşıb
dəhşətə gələrək bir ruh gördüklərini
zənn etdilər. 38 Amma İsa onlara dedi:
«Nə üçün təlaşa düşürsünüz? Nəyə
görə ürəklərinizə belə fikirlər gəlir?
39 Əllərimə və ayaqlarıma baxın. Bu –
Mən Özüməm! Mənə toxunun və baxın,
çünki Məndə olduğunu gördüyünüz
kimi ruhun əti və sümüyü olmur».
40 İsa bunu deyib onlara əllərini və
ayaqlarını göstərdi. 41 Onlar hələ
sevincdən inanmayıb heyrətlənərkən
İsa onlara dedi: «Burada yeməyə bir
şey varmı?» 42 Ona bir tikə bişmiş
balıq* verdilər. 43 İsa da yeməyi götürüb
onların qabağında yedi.
44 Sonra İsa onlara dedi: «Sizinlə
birgə olarkən söylədiyim sözlər
bunlardır: Musanın Qanununda,†
Peyğəmbərlərin kitablarında və
Zəburda Mənim haqqımda yazılanların
yerinə yetirilməsi lazımdır». 45 Bundan
sonra Müqəddəs Yazıları anlamaq üçün
onların zehnini açdı. 46 İsa onlara dedi:
«Belə yazılıb: Məsih əzab çəkib üçüncü
gün ölülər arasından dirilməlidir.
47 Yerusəlimdən başlayaraq bütün
millətlərə günahların bağışlanması üçün
tövbə Onun adı ilə vəz edilməlidir. 48 Siz
bu hadisələrin şahidisiniz. 49 qBudur,
Mən Öz Atamın vəd etdiyini sizə
göndərəcəyəm. Sizsə ucalardan gələn
qüdrətə bürünənədək bu şəhərdə qalın».

İsanın göyə qaldırılması

(Mark 16:19-20; Həv. 1:9-11)

50 İsa onları şəhərdən kənara
çıxarıb Bet-Anyayadək gətirdi və
əllərini qaldırıb onlara xeyir-dua
verdi; 51 xeyir-dua verərkən onlardan
uzaqlaşdı və göyə aparıldı. 52 Şagirdləri
də İsaya səcdə etdilər və böyük sevinclə
Yerusəlimə qayıtdılar. 53 Onlar daim
Allaha alqış edərək məbəddə olurdular.

---

*24:42 *Balıq* – bəzi əlyazmalarda *balıq və bir parça bal pətəyi.*
†24:44 *Musanın Qanunu* – yəni Tövrat.

q24:49 Həv. 1:4

YƏHYANIN
NƏQL ETDİYİ MÜJDƏ
GİRİŞ

«Yəhyanın nəql etdiyi Müjdə» İsanı Allahın əbədi Kəlamı kimi təqdim edir. «Kəlam bəşər olub, lütf və həqiqətlə dolu olaraq aramızda məskən saldı» (1:14).

Kitabda göstərildiyi kimi bu Müjdə elə yazılıb ki, oxucular İsanın vəd olunmuş Xilaskar və Allahın Oğlu olduğuna iman edərək Onun adı ilə həyata malik olsunlar (20:31).

İsanı Allahın əbədi Kəlamı kimi təqdim edən birinci ayələrdən sonra Müjdədə müxtəlif möcüzələr barəsində nəql edilir. Bu möcüzələr İsanın vəd olunmuş Xilaskar və Allahın Oğlu olduğunu göstərir. Bunlar göstərilən möcüzələri izah edən nitqlərlə müşayiət olunur. Kitabın bu hissəsi bəzi adamların İsaya necə inandığını və Onun ardıcılları olduğunu, digərlərininsə Ona qarşı durduğunu və Ona inanmadığını göstərir. 13-17-ci fəsillərdə isə İsanın həbs olunduğu gecə şagirdləri ilə yaxın ünsiyyəti və geniş söhbəti qələmə alınıb. İsa çarmıxa çəkilməmişdən öncə şagirdlərinə təsəlli verir və onları ruhlandırır. Son fəsillər isə İsanın həbs və məhkum olunması, çarmıxa çəkilməsi, dirilməsi və diriləndən sonra şagirdlərə görünməsini təsvir edir.

Yəhya Məsih vasitəsilə bəxş olunan əbədi həyat yolunu göstərir. Bu, İsaya yol, həqiqət və həyat kimi iman edənlərə verilir. Yəhyanın Müjdəsini fərqləndirən cəhət odur ki, su, çörək, çoban və qoyunlar, meynə və üzüm kimi ifadələrlə İsa ruhani dəyərləri açıqlayır.

Kitabın məzmunu:

1:1-18 İsa Allahın Kəlamıdır
1:19-51 Vəftizçi Yəhyanın şəhadəti və İsanın ilk şagirdləri
2:1–12:50 İsanın ictimai xidməti
13:1–19:42 İsanın Yerusəlimdəki son günləri
20:1-31 Rəbbin dirilməsi və insanlara görünməsi
21:1-25 Rəbbin Qalileyada təkrarən görünməsi

Allah Kəlamı

1 Başlanğıcda Kəlam var idi. Kəlam
Allahla birlikdə idi. Kəlam Allah
idi. [2] O, başlanğıcda Allahla birlikdə
idi. [3] Hər şey Onun vasitəsilə yarandı
və yaranan şeylərdən heç biri Onsuz
yaranmadı. [4] Həyat Onda idi və bu həyat
insanların nuru idi. [5] Nur qaranlıqda
parlayır, qaranlıq isə onu bürüyə
bilmədi.

[6] [r]Allahın göndərdiyi bir adam ortaya
çıxdı, onun adı Yəhya idi. [7] O, şəhadət
üçün gəldi ki, Nur barədə şəhadət etsin
və hamı onun vasitəsilə iman etsin.
[8] O özü Nur deyildi, amma Nur barədə
şəhadət etmək üçün gəldi. [9] Bu, həqiqi
Nur idi və dünyaya gələrək hər bir
insanı işıqlandırırdı. [10] O, dünyada idi,
dünya Onun vasitəsilə yarandı, amma
dünya Onu tanımadı. [11] Öz diyarına
gəldi, amma soydaşları Onu qəbul
etmədi. [12] Lakin Onu qəbul edənlərin
hamısına, adına iman edənlərə Allahın
övladları olmaq ixtiyarını verdi. [13] Onlar
nə qandan, nə bəşər arzusundan, nə də
kişi istəyindən deyil, yalnız Allahdan
doğuldu.

[14] Kəlam bəşər olub, lütf və həqiqətlə
dolu olaraq aramızda məskən saldı;
biz də Onun ehtişamını – Atadan
gələn vahid Oğulun ehtişamını gördük.
[15] Yəhya Onun barəsində şəhadət
etdi və nida edib dedi: «“Məndən

---

[r] **1:6** Mat. 3:1-2; Mark 1:4; Luka 3:1-2

sonra Gələn məndən üstündür, çünki
məndən əvvəl var idi” deyib haqqında
danışdığım Şəxs budur». 16 Hamımız
Onun bütövlüyündən lütf üstünə
lütf aldıq. 17 Qanun Musa vasitəsilə
verildi, lütf və həqiqət isə İsa Məsih
vasitəsilə gəldi. 18 Allahı heç kəs heç
vaxt görməyib, amma Atanın qucağında
olan və Allah olan* vahid Oğul Onu
tanıtdı.

Yəhyanın şəhadəti

(Mat. 3:1-12; Mark 1:1-8; Luka 3:1-18)

19 Yəhudi başçıları Yəhyadan
«Sən kimsən?» deyə soruşmaq üçün
Yerusəlimdən kahinlərlə Levililəri onun
yanına göndərdilər. O zaman Yəhya
belə şəhadət etdi: 20 o, düzünü deyib
inkar etmədi və «mən Məsih deyiləm»
deyə bəyan etdi. 21 [s]Onlar Yəhyadan
soruşdular: «Bəs sən kimsən? Bəlkə
İlyassan?» Yəhya «xeyr, o deyiləm»
dedi. Soruşdular: «Bəlkə gəlməli olan
peyğəmbərsən?» Yəhya «xeyr» söylədi.
22 Sonra ona dedilər: «Bəs sən kimsən?
Bizi göndərənlərə nə cavab verək? Özün
barədə nə deyirsən?» 23 [t]Yəhya dedi:
«Mən Yeşaya peyğəmbərin söylədiyi
kimi

“Rəbbin yolunu düz edin”
deyə səhrada nida edənin səsiyəm».

24 Göndərilən bəzi fariseylər
25 Yəhyadan soruşdular: «Bəs sən Məsih,
İlyas yaxud gəlməli olan peyğəmbər
deyilsənsə, nə üçün vəftiz edirsən?»
26–27 Yəhya onlara cavab verdi: «Mən
su ilə vəftiz edirəm, amma aranızda
məndən sonra gələn† tanımadığınız bir
Nəfər dayanıb. Mən Onun heç çarığının
bağını açmağa da layiq deyiləm». 28 Bu
hadisələr İordan çayının o tayında olan
Bet-Anyada, Yəhyanın vəftiz etdiyi
yerdə baş verdi.

29 Ertəsi gün Yəhya İsanın ona
tərəf gəldiyini görüb dedi: «Dünyanın
günahını aradan götürən Allah Quzusu
budur! 30 “Məndən sonra bir Şəxs
gəlir ki, məndən üstündür, çünki
məndən əvvəl var idi” deyib haqqında
danışdığım Kəs budur. 31 Özüm Onu
tanımırdım, amma Onun İsrailə zahir
olması üçün mən su ilə vəftiz edərək
gəldim». 32 Yəhya şəhadət edib dedi:
«Gördüm ki, Ruh göydən göyərçin
kimi endi və Onun üzərində qaldı.
33 Özüm Onu tanımırdım, lakin su ilə
vəftiz etmək üçün məni göndərənin Özü
mənə dedi: “Ruhun kimin üzərinə enib
qaldığını görsən, bil ki, Müqəddəs Ruhla
vəftiz edən Odur”. 34 Mən də görüb
“Allahın Oğlu budur” deyə şəhadət
etmişəm».

İsanın ilk şagirdləri

35 Ertəsi gün yenə Yəhya orada idi.
Şagirdlərinin ikisi onun yanında idi.
36 İsa yoldan keçərkən Yəhya Ona baxıb
dedi: «Allah Quzusu budur!» 37 Həmin
iki şagird onun sözlərini eşidib İsanın
ardınca getdi. 38 İsa dönüb ardınca
gəldiklərini görərək onlara «Sizə nə
lazımdır?» dedi. Onlar İsaya dedi:
«Rabbi, Sən harada qalırsan?» «Rabbi»
«Müəllim» deməkdir. 39 İsa onlara dedi:
«Mənimlə gəlin, görərsiniz». Onlar
gedib İsanın harada qaldığını gördülər
və həmin gün Onunla qaldılar. Onuncu
saat‡ radələri idi. 40 Yəhyadan eşidib
İsanın ardınca gedən iki nəfərdən biri
Şimon Peterin qardaşı Andrey idi.

---

*1:18 *Və Allah olan* – bəzi əlyazmalarda bu sözlər yoxdur.
†1:26-27 *Məndən sonra gələn* – bəzi əlyazmalarda *məndən sonra gələn, amma məndən əvvəl var olan.*
‡1:39 *Onuncu saat* – hazırkı vaxtla günorta saat dörd.

[s]1:21 Qanun. 18:15,18; Mal. 4:5 [t]1:23 Yeş. 40:3

41 Sonra o, ilk öncə qardaşı Şimonu
tapıb ona «biz Məsihi tapdıq» dedi.
«Məsih» «Məsh olunmuş»* deməkdir.
42 Onu İsanın yanına apardı. İsa Şimona
baxıb dedi: «Sən Yəhya oğlu Şimonsan,
amma Kefa adlanacaqsan». Kefa isə
Peter† deməkdir.
43 Ertəsi gün İsa Qalileyaya getmək
istədi. O, Filipi tapıb ona «ardımca
gəl» dedi. 44 Filip də Andrey və Peter
kimi Bet-Sayda şəhərindən idi. 45 Filip
Natanaeli tapıb ona dedi: «Musanın
Qanunda yazdığı, peyğəmbərlərin
də bəhs etdiyi Şəxsi – Yusif Oğlu
Nazaretli İsanı tapdıq». 46 Natanael
ona dedi: «Nazaretdən yaxşı bir şey
çıxarmı?» Filip isə ona «gəl özün
bax» dedi. 47 İsa Natanaelin Ona tərəf
gəldiyini görüb haqqında belə dedi:
«Bu, həqiqətən, ürəyində hiylə olmayan
bir İsraillidir». 48 Natanael «Sən məni
haradan tanıyırsan?» deyə Ondan
soruşdu. İsa ona cavab verdi: «Filip
səni çağırmazdan əvvəl səni əncir
ağacının altında gördüm». 49 Natanael
Ona dedi: «Rabbi, Sən Allahın Oğlusan,
İsrailin Padşahısan!» 50 İsa ona cavab
verib dedi: «Səni əncir ağacının altında
gördüyümü söylədiyim üçünmü Mənə
iman edirsən? Sən bunlardan daha
böyük şeylər görəcəksən». 51 [u]Yenə
ona dedi: «Doğrusunu, doğrusunu
sizə deyirəm: göyün yarıldığını və
Allahın mələklərinin Bəşər Oğlu üzərinə
enib-qalxdığını görəcəksiniz».

İsa suyu şəraba döndərir

2 Bunun üçüncü günü Qalileyanın
Qana kəndində toy oldu. İsanın
anası orada idi. 2 İsa ilə şagirdləri də toya
çağırılmışdı. 3 Şərab qurtaranda anası
İsaya dedi: «Şərabları qalmadı». 4 İsa
dedi: «Ay ana, Məndən nə istəyirsən?
Mənim vaxtım hələ çatmayıb». 5 Anası
xidmətçilərə dedi: «Sizə nə desə, edin».
6 Yəhudilərin paklanma mərasimi
üçün orada hər biri iki-üç ölçü‡
su tuta bilən altı daş küp var idi.
7 İsa xidmətçilərə dedi: «Küpləri su
ilə doldurun». Onları ağzına qədər
doldurdular. 8 O, xidmətçilərə dedi:
«İndi bir az götürüb toyağasına aparın».
Onlar da apardı. 9 Toyağası şəraba
çevrilmiş suyun dadına baxdı. O bunun
haradan gətirildiyini bilmirdi, bunu
yalnız suyu götürən xidmətçilər bilirdi.
Toyağası bəyi çağırıb ona dedi: 10 «Hər
kəs əvvəlcə əla şərabı, çox içiləndən
sonra isə adi şərabı təqdim edir. Amma
sən əla şərabı indiyə saxlamısan».
11 İsa Qalileyanın Qana kəndində bu
ilk əlamətini göstərdi və izzətini üzə
çıxardı. Şagirdləri də Ona iman etdi.
12 [v]Bundan sonra anası, qardaşları və
şagirdləri ilə birgə Kefernahuma gedib
orada bir neçə gün qaldı.

İsa satıcıları məbəddən qovur

(Mat. 21:12-13; Mark 11:15-17; Luka 19:45-46)

13 [w]Yəhudilərin Pasxa bayramı
yaxınlaşırdı. İsa Yerusəlimə getdi.
14 Məbəddə öküz, qoyun, göyərçin
satanların və sərrafların oturduğunu
gördü. 15 İplərdən bir qamçı düzəldib
hamını qoyun və öküzlərlə birgə
məbəddən qovdu, sərrafların masalarını
çevirib pullarını yerə tökdü, 16 göyərçin
satanlara da dedi: «Bunları buradan
götürün. Atamın evini bazara
döndərməyin». 17 [x]Şagirdləri də «evinin

---

*1:41 *Məsh olunmuş* – yunan mətnində *Xristos*.
†1:42 *Kefa* – arami dilində, *Peter* – yunan dilində *daş* deməkdir.
‡2:6 *İki-üç ölçü* – hərfi tərcümədə *iki-üç metrit,* təqribən 80-120 litr.

[u]1:51 Yar. 28:12 [v]2:12 Mat. 4:13 [w]2:13 Çıx. 12:1-27 [x]2:17 Zəb. 69:9

qeyrəti Məni yandırıb-yaxacaq» deyə
yazıldığını xatırladılar.
18 Sonra Yəhudi başçıları Ondan
soruşdular: «Bunları etməyə ixtiyarın
olduğunu bizə hansı əlamətlə göstərə
bilərsən?» 19 [y]İsa onlara cavab verdi:
«Bu məbədi dağıdın, üç günə Mən
onu təzədən quraram». 20 Onda Yəhudi
başçıları dedilər: «Bu məbəd qırx
altı ilə tikilib, Sən onu üç günəmi
quracaqsan?» 21 Lakin İsa məbəd
deyəndə Öz bədənini nəzərdə tuturdu.
22 İsa ölülər arasından dirildiyi zaman
şagirdləri Onun bu sözləri söylədiyini
xatırladılar, Müqəddəs Yazıya və İsanın
söylədiyi sözə inandılar.
23 İsa Pasxa bayramı zamanı
Yerusəlimdə olanda göstərdiyi
əlamətləri görən bir çox adam Onun
adına iman etdi. 24 Amma İsa bütün
adamların daxilini bildiyi üçün onlara
güvənməzdi. 25 Bir adam haqqında
kiminsə Ona şəhadət etməsinə ehtiyacı
yox idi, çünki insanın ürəyindən
keçənləri bilirdi.

İsa və Nikodim

3 Fariseylər arasında Nikodim adlı
bir Yəhudi rəhbəri var idi. 2 O,
gecə ikən İsanın yanına gəlib dedi:
«Rabbi, bilirik ki, Sən Allahın yanından
gələn bir müəllimsən. Çünki Allah ona
yar olmasa, heç kəs Sənin göstərdiyin
əlamətləri edə bilməz». 3 İsa ona cavab
verdi: «Doğrusunu, doğrusunu sənə
deyirəm: bir kəs yenidən doğulmasa,
Allahın Padşahlığını görə bilməz».
4 Nikodim Ondan soruşdu: «Yaşa
dolmuş bir adam necə yenidən doğula
bilər? O, ikinci dəfə anasının bətninə
girib doğula bilərmi?» 5 İsa cavab
verdi: «Doğrusunu, doğrusunu sənə
deyirəm: bir kəs sudan və Ruhdan
doğulmasa, Allahın Padşahlığına daxil
ola bilməz. 6 Bəşərdən doğulan bəşərdir,
Ruhdan doğulan ruhdur. 7 Sənə
“yenidən doğulmalısınız” dediyimə
heyrət etmə. 8 Yel istədiyi yerdə əsir,
onun səsini eşidirsən, amma haradan
gəlib haraya getdiyini bilmirsən.
Ruhdan doğulmuş adam da belədir».
9 Nikodim «Bu şeylər necə ola bilər?»
deyə soruşdu. 10 İsa ona cavab verdi:
«Sən İsrailin müəllimisən. Bunları
bilmirsənmi? 11 Doğrusunu, doğrusunu
sənə deyirəm: biz bildiyimizi söyləyirik,
gördüyümüzə şəhadət edirik, amma siz
bizim şəhadətimizi qəbul etmirsiniz.
12 Əgər Mən sizə yerdəki işlərdən
danışanda inanmırsınızsa, göydəki
işlərdən danışsam, necə inanacaqsınız?
13 Heç kəs göyə çıxmayıb, yalnız göydən
enmiş* Bəşər Oğlu orada olub. 14 [z]Musa
çöldə ilanı yuxarı qaldırdığı kimi Bəşər
Oğlu da yuxarı qaldırılmalıdır ki, 15 Ona
iman edən hər kəs əbədi həyata† malik
olsun».
16 Çünki Allah dünyanı elə sevdi
ki, vahid Oğlunu verdi; bunu ona
görə etdi ki, Ona iman edən hər
kəs həlak olmasın, amma əbədi
həyata malik olsun. 17 Allah dünyanı
mühakimə etmək üçün deyil, Oğlunun
vasitəsilə xilas etmək üçün Onu
dünyaya göndərdi. 18 Ona iman edən
mühakimə olunmur, iman etməyənsə
artıq mühakimə olunub, çünki Allahın
vahid Oğlunun adına iman etməyib.
19 Mühakimə bundan ibarətdir ki,
dünyaya nur gəldi, amma insanlar
qaranlığı nurdan daha çox sevdilər,
çünki əməlləri şər idi. 20 Pislik edən hər

*3:13 *Göydən enmiş* – bəzi əlyazmalarda *göydən enmiş, indi də göydə olan.*
†3:15 *Hər kəs əbədi həyata* – bəzi əlyazmalarda *hər kəs həlak olmasın, amma əbədi həyata.*

[y]2:19 Mat. 26:61; 27:40; Mark 14:58; 15:29 [z]3:14 Say. 21:9

kəs nura nifrət edər, əməllərinin üzə
çıxmaması üçün nura tərəf gəlməz.*
21 Həqiqətə əməl edənsə nura tərəf gələr
ki, əməllərini Allah naminə etdiyi bəlli
olsun.

Yəhyanın İsa barədə şəhadəti

22 Bundan sonra İsa və Onun şagirdləri
Yəhudeya diyarına gəldilər. İsa bir
müddət onlarla orada qalıb vəftiz
edirdi. 23 Yəhya da Şalim yaxınlığındakı
Aynonda vəftiz edirdi, çünki orada
çoxlu su var idi. Adamlar da gəlib
vəftiz olunurdu. 24 [a]Yəhya hələ zindana
salınmamışdı.
25 Bu zaman Yəhyanın şagirdləri
ilə bir Yəhudi† arasında paklanma
barədə mübahisə düşdü. 26 Şagirdləri
Yəhyanın yanına gəlib dedilər: «Rabbi,
İordanın o tayında sənin yanında olan
və barəsində şəhadət etdiyin Şəxs
indi Özü vəftiz edir və hamı Onun
yanına gəlir». 27 Yəhya cavabında dedi:
«İnsana göydən verilməsə, o heç nə ala
bilməz. 28 [b]“Mən Məsih deyiləm, ancaq
Ondan əvvəl göndərilmişəm” sözümə
özünüz şahidsiniz. 29 Gəlin kimindirsə,
bəy odur. Amma bəyi gözləyərək ona
qulaq asan sağdışı bəyin səsini eşidib
çox sevinir. Mənim sevincim beləcə
tam oldu. 30 İndi Ona böyümək, mənə
kiçilmək gərəkdir».
31 Yuxarıdan Gələn hamıdan
üstündür. Yer üzündən olan yerə
məxsusdur və yer barədə danışar,
göydən Gələnsə hamıdan üstündür.
32 Nə görüb-eşidibsə, ona şəhadət edər,
amma şəhadətini heç kəs qəbul etməz.
33 Onun şəhadətini qəbul edən kəs
Allahın haqq olduğuna möhür basıb.
34 Ona görə ki Allahın göndərdiyi Şəxs
Allahın sözlərini söyləyər. Çünki Allah
Ruhu hədsiz verir. 35 [c]Ata Oğulu sevir
və hər şeyi Onun ixtiyarına verib.
36 Oğula iman edən şəxs əbədi həyata
malikdir, Oğula itaət etməyənsə həyat
görməyəcək, lakin Allahın qəzəbi onun
üzərində qalır.

İsa və Samariyalı qadın

4 Fariseylər İsanın Özünə Yəhyadan
daha çox şagird toplayıb vəftiz
etdiyi barədə eşitdilər; 2 əslində İsanın
Özü deyil, şagirdləri vəftiz edirdi. 3 İsa
bundan xəbər tutan kimi Yəhudeyanı
tərk edib Qalileyaya qayıtdı. 4 Onun
yolu Samariyadan keçirdi. 5 [d]O,
Yaqubun öz oğlu Yusifə verdiyi torpağa
yaxın olan Samariyanın Sixar adlanan
şəhərinə gəldi. 6 Yaqubun quyusu orada
idi. Yol İsanı yorduğu üçün quyunun
yanında oturdu. Altıncı saat‡ radələri
idi.
7 Samariyalı bir qadın quyudan
su çəkməyə gəldi. İsa ona «Mənə su
ver, içim» dedi. 8 Çünki şagirdləri
yemək almaq üçün şəhərə getmişdi.
9 [e]Samariyalı qadın Ona dedi: «Sən bir
Yəhudisən, mənsə Samariyalı bir qadın.
Sən necə məndən su istəyə bilərsən?»
Çünki Yəhudilər Samariyalılarla
ünsiyyət etmir. 10 [f]İsa ona cavab verdi:
«Əgər sən Allahın bəxşişini və “Mənə
su ver, içim” deyənin Kim olduğunu
bilsəydin, özün Ondan su istəyərdin, O
da sənə həyat suyu verərdi». 11 Qadın
Ona dedi: «Ağa, su çəkmək üçün bir
qabın yox, quyu da dərindir. Bəs o

*3:20 *Gəlməz* – bəzi əlyazmalarda *gəlməz, çünki əməlləri şərdir.*
†3:25 *Bir Yəhudi* – bəzi əlyazmalarda *bəzi Yəhudilər.*
‡4:6 *Altıncı saat* – hazırkı vaxtla günorta saat on iki.

[a]3:24 Mat. 14:3; Mark 6:17; Luka 3:19 [b]3:28 Yəh. 1:20
[c]3:35 Mat. 11:27; Luka 10:22 [d]4:5 Yar. 33:19; Yeşua 24:32
[e]4:9 Ezra 4:1-5; Neh. 4:1-2 [f]4:10 Yəh. 7:38

həyat suyunu haradan götürəcəksən?
12 Məgər Sən bu quyunu bizə verən,
oğulları və mal-qarası ilə buradan su
içən atamız Yaqubdan da üstünsən?»
13 İsa ona cavab verdi: «Bu sudan içən
hər kəs yenə susayar, 14 amma Mənim
ona verəcəyim sudan kim içsə, heç
vaxt susamaz. Lakin ona verəcəyim su
onun daxilində əbədi həyat verən bir
su qaynağına çevriləcək». 15 Qadın Ona
dedi: «Ağa, bu suyu mənə ver ki, mən
heç vaxt susamayım və su çəkmək üçün
buraya gəlməyim».
16 İsa qadına «get ərini çağır və
buraya gəl» dedi. 17 Qadın da Ona
«ərim yoxdur» söylədi. İsa ona dedi:
«“Ərim yoxdur” deməklə düz söylədin,
18 çünki beş kişin olub, indi sənlə
yaşayan da ərin deyil, sən bunu düz
söylədin». 19 Qadın Ona dedi: «Ağa,
görürəm ki, Sən peyğəmbərsən. 20 Bizim
ata-babalarımız bu dağda ibadət edirdi,
amma siz deyirsiniz ki, ibadət etmək
üçün lazımi yer Yerusəlimdədir».
21 İsa ona dedi: «Ey qadın, Mənə inan,
artıq o zaman yetişir ki, Ataya nə
bu dağda, nə də Yerusəlimdə ibadət
edəcəksiniz. 22 Siz bilmədiyinizə ibadət
edirsiniz, bizsə bildiyimizə ibadət
edirik, çünki xilas Yəhudilərdəndir.
23 Amma o zaman gəlir və artıq gəlib ki,
həqiqi ibadət edənlər Ataya ruhda və
həqiqətdə ibadət etsin. Ata da Özünə
belə ibadət edənlər axtarır. 24 Allah
ruhdur və Ona ibadət edənlər ruhda və
həqiqətdə ibadət etməlidir». 25 Qadın
Ona dedi: «Bilirəm ki, “Məsih” deyilən
məsh olunmuş Şəxs gələcək və gələndə
bizə hər şeyi bildirəcək». 26 İsa ona dedi:
«Sənlə danışan Odur, O Mənəm».
27 Bu arada İsanın şagirdləri gəldilər
və Onun bir qadınla söhbət etməsinə
heyrətləndilər, ancaq heç biri «Nə
istəyirsən?» yaxud «Niyə o qadınla
danışırsan?» demədi. 28 Bu zaman qadın
səhəngini yerə qoydu və şəhərə gedib
adamlara dedi: 29 «Gəlin, etdiyim bütün
əməlləri mənə söyləyən Adamı görün.
Bəlkə elə Məsih Odur?» 30 Adamlar da
şəhərdən çıxıb İsanın yanına gəldilər.
31 Bu arada şagirdlər «Rabbi, yemək
ye» deyə Ondan xahiş etdilər. 32 Lakin
İsa onlara dedi: «Məndə elə yemək
var ki, siz ondan xəbərsizsiniz».
33 Onda şagirdlər «Görəsən kimsə Ona
yemək gətirdimi?» deyə bir-birindən
soruşdular. 34 İsa onlara dedi:
«Mənim yeməyim Məni Göndərənin
iradəsini yerinə yetirmək, Onun işini
tamamlamaqdır. 35 [g]Siz “biçinə dörd
ay qalıb” demirsinizmi? Budur, Mən
sizə deyirəm: başınızı qaldırıb tarlalara
baxın; məhsul bar verib, biçilməyə
hazırdır. 36 Əkən də, biçən də birlikdə
sevinsin deyə indi biçinçi zəhmət
haqqı alır və əbədi həyat üçün məhsul
toplayır. 37 Bu işlə bağlı “biri əkər, biri
biçər” ifadəsi doğru deyilib. 38 Mən sizi
zəhmətini çəkmədiyiniz bir məhsulu
biçməyə göndərdim. Başqaları zəhmət
çəkdi, sizsə onların zəhmətindən
bəhrələndiniz».
39 «Etdiyim bütün əməlləri
mənə söylədi» deyə şəhadət edən
qadının sözünə görə o şəhərdən olan
Samariyalıların bir çoxu İsaya iman
etdi. 40 Sonra Samariyalılar İsanın
yanına gəlib Ondan xahiş etdilər ki,
onların yanında qalsın. İsa da iki gün
orada qaldı. 41 Daha çox adam da İsanın
sözünə görə iman etdi. 42 Onlar qadına
deyirdilər: «Biz artıq sənin sözlərinə
görə iman etmirik, elə özümüz də eşidib
bildik ki, həqiqətən, dünyanın Xilaskarı*
Budur».

---

*4:42 *Xilaskarı* – bəzi əlyazmalarda *Xilaskarı olan Məsih.*

g4:35 Mat. 9:37-38; Luka 10:2

43 İsa iki gündən sonra oranı tərk edib
Qalileyaya tərəf yola düşdü. 44 [h]Çünki
peyğəmbərin öz yurdunda hörməti
olmadığı barədə İsa Özü bir vaxt şəhadət
etmişdi. 45 [i]İndi Qalileyaya gələndə
Qalileyalılar Onu qəbul etdi, çünki onlar
da bayram zamanı Yerusəlimə gəlib
Onun orada etdiyi hər şeyi görmüşdülər.

Məmur oğlunun şəfa tapması

46 [j]Beləcə İsa suyu şəraba çevirdiyi
Qalileyanın Qana kəndinə yenə gəldi.
Kefernahumda hökmdarın bir məmuru
var idi. Onun oğlu xəstələnmişdi.
47 O, İsanın Yəhudeyadan Qalileyaya
gəldiyini eşidib yanına getdi və Ondan
xahiş etdi ki, gəlib oğlunu sağaltsın,
çünki oğlu ölüm ayağında idi. 48 Onda
İsa ona dedi: «Siz əlamətlər və xariqələr
görməyincə iman etməyəcəksiniz».
49 Hökmdarın məmuru Ona dedi:
«Ağa, uşağım ölməzdən qabaq gəl!»
50 İsa ona «get, oğlun sağ-salamatdır»
dedi. O adam da İsanın sözünə inanıb
getdi. 51 Evə gələrkən qulları onu
qarşılayaraq oğlunun sağ-salamat
olduğunu söylədilər. 52 Oğlunun nə
vaxt yaxşılaşdığını qullarından soruşdu,
onlar da dedilər: «Dünən yeddinci
saatda* qızdırması düşdü». 53 O zaman
ata başa düşdü ki, İsa elə həmin vaxt
ona «oğlun sağ-salamatdır» demişdi.
Onda özü də, bütün ev əhli də İsaya
iman etdi. 54 Bu, İsanın göstərdiyi
ikinci əlamət idi. Onu Yəhudeyadan
Qalileyaya gələndə etmişdi.

Hovuz kənarındakı xəstənin şəfa tapması

5 Bu hadisələrdən sonra Yəhudilərin
bir bayramı oldu və İsa Yerusəlimə
getdi. 2 Yerusəlimdəki Qoyun
darvazasının yanında, ibranicə
Bet-Xasda adlanan beş eyvanlı bir hovuz
var. 3 Bu eyvanlarda çoxlu xəstə, kor,
topal və iflic adam yatardı. 4 †5 Otuz
səkkiz il xəstə olan bir adam da orada
idi. 6 İsa onun yatdığını görəndə çoxdan
xəstə olduğunu bilərək ondan soruşdu:
«Sağalmaq istəyirsənmi?» 7 Xəstə Ona
cavab verdi: «Ağa, yanımda bir adam
yoxdur ki, su çalxalanan zaman məni
hovuza salsın. Mən çatınca başqası
məndən əvvəl oraya enir». 8 İsa ona
dedi: «Qalx, döşəyini götür və yeri!» 9 O
adam həmin anda sağaldı və döşəyini
götürüb yeridi.

O gün Şənbə günü idi. 10 [k]Buna
görə də Yəhudi başçıları şəfa tapan
adama dedilər: «Bu gün Şənbə günüdür,
döşəyini daşımaq sənə qadağandır».
11 O adam onlara cavab verdi: «Məni
sağaldan Şəxs mənə “döşəyini götür və
yeri” dedi». 12 Ondan soruşdular: «Sənə
“götür və yeri” deyən Adam kimdir?»
13 Lakin sağalan adam Onun kim
olduğunu bilmirdi, çünki İsa o yerdə
olan izdihama qarışmışdı. 14 Bir az
sonra İsa məbəddə həmin adamı tapıb
dedi: «Bax sən sağaldın, bir də günah
etmə ki, başına daha pis iş gəlməsin».
15 O adam gedib onu sağaldan Şəxsin İsa
olduğunu Yəhudi başçılarına bildirdi.
16 Buna görə Yəhudi başçıları İsanı təqib
etməyə başladılar,‡ çünki bunları Şənbə

---

*4:52 *Yeddinci saat* – hazırkı vaxtla günorta saat bir.

†5:4 *Yatardı* – bəzi əlyazmalarda *yatardı və suyun çalxalanmasını gözləyərdi.*
4 Çünki Rəbbin bir mələyi hərdən hovuzun içinə enib suyu çalxalayardı. Suyun çalxalanmasından

‡5:16 *Başladılar* – bəzi əlyazmalarda *başladılar və Onu öldürməyə çalışdılar.*

[h]4:44 Mat. 13:57; Mark 6:4; Luka 4:24 [i]4:45 Yəh. 2:23 [j]4:46 Yəh. 2:1-11
[k]5:10 Neh. 13:19; Yer. 17:21

günü edirdi. 17 Lakin İsa onlara dedi:
«Mənim Atam indiyə qədər iş görür,
Mən də iş görürəm». 18 Bundan sonra
Yəhudi başçıları daha da səylə Onu
öldürməyə çalışırdılar, çünki İsa yalnız
Şənbə gününü pozmadı, həm də Allahın
Öz Atası olduğunu söyləyərək Özünü
Allaha bərabər saydı.

İsanın səlahiyyəti

19 Beləcə İsa onlara dedi: «Doğrusunu,
doğrusunu sizə deyirəm: Oğul Atanın
nə etdiyini görməsə, Özündən bir şey
etməz. Çünki Ata nə edərsə, Oğul da
onu edər. 20 Ona görə ki Ata Oğulu
sevir və Özünün etdiyi hər şeyi Ona
göstərir. Ona bunlardan da böyük işlər
göstərəcək ki, siz heyrətlənəsiniz. 21 Ata
ölüləri dirildib onlara həyat verdiyi
kimi Oğul da istədiyi şəxslərə həyat
verir. 22 Ata heç kəsi mühakimə etmir,
lakin hökm çıxarmağı Oğulun ixtiyarına
verib ki, 23 hər kəs Ataya hörmət etdiyi
kimi Oğula da hörmət etsin. Oğula
hörmət etməyən Onu göndərən Ataya
da hörmət etmir.
24 Doğrusunu, doğrusunu sizə
deyirəm: Mənim sözümə qulaq
asıb Məni Göndərənə inanan şəxs
əbədi həyata malikdir və ona hökm
çıxarılmayacaq, əksinə, ölümdən həyata
keçib. 25 Doğrusunu, doğrusunu sizə
deyirəm: Allah Oğlunun səsini ölülərin
eşitdiyi zaman gəlir və artıq gəlib; bunu
eşidənlər yaşayacaq. 26 Çünki Atanın
Özündə həyat olduğu kimi Oğula da
Özündə həyat olmağı bəxş etdi. 27 Hökm
çıxarmaq səlahiyyətini də Ona verdi,
çünki O, Bəşər Oğludur. 28 Buna heyrət
etməyin, çünki elə bir zaman gəlir ki,
qəbirdə yatanların hamısı Onun səsini
eşidib 29 [l]qəbirlərindən çıxacaq, yaxşılıq
edənlər həyat üçün diriləcək, pislik
edənlərsə hökm üçün diriləcək.
30 Mən Özümdən heç nə edə
bilmərəm, eşitdiyim kimi mühakimə
edərəm və Mənim verdiyim hökm
ədalətlidir. Çünki məqsədim Öz iradəmi
deyil, Məni Göndərənin iradəsini yerinə
yetirməkdir.

İsaya şəhadət

31 Əgər Mən Özüm barədə şəhadət
etsəydim, şəhadətim etibarlı olmazdı.
32 Lakin Mənim barəmdə şəhadət edən
başqasıdır və Mənim barəmdə etdiyi
şəhadətin etibarlı olduğunu bilirəm.
33 [m]Siz Yəhyanın yanına adamlar
göndərdiniz və o, həqiqətə şəhadət
etdi. 34 Lakin insandan şəhadət qəbul
etdiyim üçün deyil, yalnız sizin xilas
olmağınız üçün bunları söyləyirəm.
35 Yəhya yanan və nur saçan bir çıraq
idi, siz bir müddət onun işığında
sevinmək istədiniz. 36 Amma Mənim
barəmdə olan şəhadət Yəhyanın
şəhadətindən üstündür. Çünki Atanın
Mənə tam yerinə yetirmək üçün
tapşırdığı işlər – indi etdiyim bu işlər
Mənim barəmdə şəhadət edir ki, Ata
Məni göndərib. 37 [n]Məni göndərən
Atanın Özü də Mənim barəmdə şəhadət
etdi. Siz heç vaxt nə Onun səsini
eşitmisiniz, nə də surətini görmüsünüz.
38 Onun kəlamının da sizdə qalmasına
imkan vermirsiniz, çünki Onun
göndərdiyi Şəxsə inanmırsınız. 39 Siz
Müqəddəs Yazıları araşdırırsınız. Çünki
düşünürsünüz ki, onların vasitəsilə
əbədi həyata malik olacaqsınız. Lakin
onlar da Mənim barəmdə şəhadət edir,
40 sizsə həyata malik olmaq üçün Mənə
tərəf gəlmək istəmirsiniz.
41 İnsanlardan izzət qəbul etmirəm.
42 Ancaq sizi tanıyıb bilirəm ki,

---

[l]**5:29** Dan. 12:2 [m]**5:33** Yəh. 1:19-27; 3:27-30
[n]**5:37** Mat. 3:17; Mark 1:11; Luka 3:22

ürəyinizdə Allah məhəbbəti yoxdur.
43 Mən Atamın adı ilə gəlmişəm, amma
siz Məni qəbul etmirsiniz. Əgər bir
başqası öz adı ilə gəlsə, onu qəbul
edərsiniz. 44 Siz bir-birinizdən izzət
qəbul edirsiniz, bir olan Allahdan
gələn izzəti isə axtarmırsınız. Bəs onda
necə iman edə bilərsiniz? 45 Güman
etməyin ki, Mən sizi Atanın önündə
ittiham edəcəyəm. Sizi ittiham edən
ümid bağladığınız Musadır. 46 Əgər
siz Musaya inansaydınız, Mənə də
inanardınız, çünki o Mənim barəmdə
yazıb. 47 Lakin onun yazdıqlarına
inanmırsınızsa, Mənim sözlərimə necə
inanacaqsınız?»

İsa beş min nəfəri doydurur

(Mat. 14:13-21; Mark 6:30-44; Luka 9:10-17)

6 Bu hadisələrdən sonra İsa Qalileya
– Tiberiya gölünün o biri sahilinə
keçdi. 2 Böyük bir izdiham Onun
ardınca gedirdi, çünki Onun xəstələrlə
göstərdiyi əlamətləri görürdü. 3 İsa dağa
çıxıb şagirdləri ilə oturdu. 4 Yəhudilərin
Pasxa bayramı yaxınlaşırdı.
5 İsa başını qaldıraraq böyük bir
izdihamın yanına gəldiyini görüb
Filipə dedi: «Haradan çörək alıb bu
adamları yedirək?» 6 Bu sözləri onu
sınamaq məqsədi ilə söylədi, çünki
Özü nə edəcəyini bilirdi. 7 Filip Ona
cavab verdi: «Bunlara iki yüz dinarlıq*
çörək də çatmaz ki, hərəsi bir tikə
yemək yesin». 8 Şagirdlərindən biri olan
Şimon Peterin qardaşı Andrey Ona
dedi: 9 «Burada beş kiçik arpa çörəyi
ilə iki balığı olan bir oğlan var, amma
bu qədər adam üçün bunlar nədir
ki?» 10 İsa «xalqı yerə oturdun» dedi.
Ora otla örtülmüşdü. Xalq da oturdu.
Kişilərin sayı beş minə yaxın idi. 11 O
zaman İsa çörəkləri götürüb şükür
edərək balıqlarla birgə, oturanlara†
– hər kəsə istədiyi qədər payladı.
12 Onlar yeyib-doyandan sonra İsa
şagirdlərinə dedi: «Artıq qalan hissələri
toplayın ki, heç bir şey zay olmasın».
13 Bunları topladılar və beş arpa
çörəyini yeyənlərin qabağından qalan
hissələrdən on iki zənbil doldurdular.
14 O zaman İsanın göstərdiyi əlaməti
görən adamlar «Həqiqətən, dünyaya
gəlməli olan peyğəmbər Budur!»
deyirdi. 15 İsa bildi ki, adamlar gəlib
Onu padşah etmək üçün zorla aparmağa
hazırlaşır, buna görə də təkbaşına dağa
çəkildi.

İsa suyun üstü ilə yeriyir

(Mat. 14:22-33; Mark 6:45-52)

16 Axşam çatanda İsanın şagirdləri
gölə enib 17 bir qayığa mindilər.
Onlar gölün o biri sahilində olan
Kefernahuma gedirdilər. Qaranlıq
düşmüşdü, amma İsa hələ onların
yanına gəlməmişdi. 18 Güclü külək
əsdiyindən göl dalğalanırdı. 19 Onlar
beləcə avar çəkib iyirmi beş ya otuz
stadi‡ gedəndən sonra gördülər ki,
İsa gölün üstü ilə yeriyir və qayığa
yaxınlaşır. Qorxdular, 20 amma İsa
onlara «Mənəm, qorxmayın» dedi.
21 Onda şagirdlər Onu məmnunluqla
qayığa götürdülər. Sonra qayıq o andaca
getdikləri sahilə çatdı.
22 Ertəsi gün gölün o biri sahilində
qalan xalq başa düşdü ki, orada yalnız
bir qayıq§olub, İsa Öz şagirdləri ilə
həmin qayığa minməyib, şagirdləri
Onsuz gedib. 23 O arada Tiberiyadan

---

*6:7 *Yüz dinarlıq* – bir dinar fəhlənin bir günlük maaşına bərabər idi.
†6:11 *Oturanlara* – bəzi əlyazmalarda *şagirdlərə, şagirdlər də oturanlara.*
‡6:19 *İyirmi beş ya otuz stadi* – təqribən 5-6 km.
§6:22 *Bir qayıq* – bəzi əlyazmalarda *bir qayıq, İsanın şagirdlərinin mindiyi qayıq.*

digər qayıqlar Rəbb şükür edəndən
sonra yemək yedikləri yerin yaxınlığına
gəldilər. 24 Beləcə xalq İsanın da,
şagirdlərinin də orada olmadığını görüb
qayıqlara minərək İsanı axtara-axtara
Kefernahuma gəldi.

Həyat çörəyi

25 İsanı gölün o biri sahilində görəndə
«Rabbi, buraya nə vaxt gəldin?» deyə
soruşdular. 26 İsa onlara cavab olaraq
dedi: «Doğrusunu, doğrusunu sizə
deyirəm: əlamətlər gördüyünüz üçün
deyil, çörək yeyib doyduğunuz üçün
Məni axtarırsınız. 27 Keçib-gedən yemək
üçün deyil, əbədi həyat verən, daim
qalan yemək üçün işlər görün, onu sizə
Bəşər Oğlu verəcək. Çünki Ata Allah
Ona Öz möhürünü vurub». 28 Onlar
İsadan soruşdular: «Allahın istədiyi
işləri görmək üçün biz nə edək?» 29 İsa
onlara cavab verdi: «Allahın istədiyi iş
budur: Onun göndərdiyi Şəxsə iman
edin».
30 Onlar İsaya dedilər: «Sən nə əlamət
göstərərsən ki, görüb Sənə inanaq? Nə
iş görəcəksən? 31 [o]Ata-babalarımız çöldə
manna yedi; bu barədə yazılıb: “Onlara
yemək üçün göydən çörək verdi”».
32 Onda İsa onlara dedi: «Doğrusunu,
doğrusunu sizə deyirəm: sizə göydən
çörək verən Musa deyildi, göydən həqiqi
çörəyi sizə verən Atamdır. 33 Çünki
Allahın çörəyi budur ki, göydən enir və
dünyaya həyat verir». 34 Ona dedilər:
«Ağa, Sən daim bizə bu çörəyi ver».
35 İsa onlara dedi: «Həyat çörəyi
Mənəm. Mənim yanıma gələn heç
vaxt acmaz, Mənə iman edən heç vaxt
susamaz. 36 Lakin sizə dedim ki, Məni
görürsünüz, amma iman etmirsiniz.
37 Atanın Mənə verdiyi şəxslərin hamısı
yanıma gələcək və yanıma gələni
heç vaxt kənara atmaram. 38 Çünki
Öz iradəmi deyil, Məni Göndərənin
iradəsini yerinə yetirmək üçün göydən
enmişəm. 39 Məni Göndərənin iradəsi
budur ki, Mənə verdiyi şəxslərin heç
birini həlak olmağa qoymayım, lakin
son gündə onları dirildim. 40 Çünki
Atamın iradəsi budur ki, Oğulu görüb
Ona iman edən hər şəxs əbədi həyata
malik olsun və Mən onu son gündə
dirildim».
41 Bunun cavabında Yəhudilər İsanın
«göydən enmiş çörək Mənəm» sözünə
görə deyinib 42 dedilər: «Bu, ata-anasını
tanıdığımız, Yusifin Oğlu olan İsa
deyilmi? İndi necə olur ki, “göydən
enmişəm” deyir?» 43 İsa onlara cavab
verdi: «Öz-özünüzə deyinməyin. 44 Əgər
Məni göndərən Ata bir kəsi cəzb etməsə,
o Mənim yanıma gələ bilməz. Yanıma
gələni isə Mən son gündə dirildəcəyəm.
45 [p]Peyğəmbərlərin kitablarında yazılıb:
“Onların hamısını Allah öyrədəcək”.
Atadan eşidib öyrənən hər kəs Mənim
yanıma gəlir. 46 Əlbəttə, Allahdan gələn
Şəxsdən savayı Atanı heç kəs görməyib,
yalnız O, Atanı görüb. 47 Doğrusunu,
doğrusunu sizə deyirəm: iman edən
əbədi həyata malikdir. 48 Həyat çörəyi
Mənəm. 49 Ata-babalarınız çöldə manna
yedilər və öldülər. 50 Bu isə göydən enən
elə bir çörəkdir ki, ondan yeyən şəxs
heç vaxt ölməz. 51 Göydən enmiş canlı
çörək Mənəm. Əgər kimsə bu çörəkdən
yesə, əbədi yaşayar. Dünyanın həyatı
üçün verəcəyim çörək Öz ətimdir».
52 Bunun cavabında Yəhudilər «Bu
Adam yemək üçün Öz ətini bizə
necə verə bilər?» deyib bir-birləri ilə
mübahisə etdilər. 53 Onda İsa onlara
dedi: «Doğrusunu, doğrusunu sizə
deyirəm: Bəşər Oğlunun ətindən yeyib
qanından içməsəniz, daxilinizdə həyat
olmayacaq. 54 Mənim ətimdən yeyib
qanımdan içən əbədi həyata malikdir

---

[o]**6:31** Çıx. 16:4,15; Zəb. 78:24 [p]**6:45** Yeş. 54:13

və Mən onu son gündə dirildəcəyəm.
55 Çünki Mənim ətim həqiqi yemək,
qanım da həqiqi içkidir. 56 Mənim
ətimdən yeyib qanımdan içən Məndə
qalır, Mən də onda qalıram. 57 Var
olan Ata Məni göndərdiyi kimi, Mən
də Atanın sayəsində yaşadığım kimi
Məndən yeyən də Mənim sayəmdə
yaşayacaq. 58 Göydən enmiş çörək
budur, ata-babalarınızın yediyi* kimi
deyil. Onlar öldülər, amma bu çörəyi
yeyən əbədi yaşayacaq». 59 İsa bu
sözləri Kefernahumda, sinaqoqda təlim
öyrədərkən söylədi.

Şagirdlərin çoxu İsanı tərk edir

60 Şagirdlərindən bir çoxu bu sözləri
eşidəndə dedi: «Bu söz qəlizdir.
Bunu kim anlaya bilər?» 61 Lakin İsa
şagirdlərinin buna görə deyindiklərini
duyaraq onlara dedi: «Bu söz sizi
büdrədirmi? 62 Yaxşı, bəs Bəşər Oğlunun
əvvəllər olduğu yerə qalxdığını görsəniz,
necə? 63 Həyat verən Ruhdur, cismani
təbiətinsə heç faydası yoxdur. Sizə
söylədiyim sözlər Ruh və həyat gətirir.
64 Lakin sizin aranızda iman etməyənlər
də var». Çünki İsa iman etməyənlərin
və Ona xəyanət edəcək adamın kim
olduğunu əvvəlcədən bilirdi. 65 O dedi:
«Buna görə də sizə söylədim ki, əgər
Ata bir kəsə imkan verməsə, o Mənim
yanıma gələ bilməz».
66 Bunlardan sonra şagirdlərinin çoxu
İsadan ayrılıb daha Onunla gəzmirdi.
67 Onda İsa On İki şagirdə dedi: «Yoxsa
siz də Məni tərk etmək istəyirsiniz?»
68 [q]Şimon Peter Ona cavab verdi: «Ya
Rəbb, biz kimin yanına gedək? Əbədi
həyatın sözlərini söyləyən Sənsən. 69 Biz
də iman etmişik və bilirik ki, Allahın
Müqəddəsi† Sənsən». 70 İsa onlara dedi:
«Siz On İki şagirdi Mən seçmədimmi?
Amma sizdən biri iblisdir». 71 O bu
sözləri Şimon İskaryot oğlu Yəhuda
barədə söylədi, çünki On İki şagirddən
biri olduğu halda İsaya xəyanət
edəcəkdi.

İsa Çardaqlar bayramına gedir

7 Bu hadisələrdən sonra İsa
yalnız Qalileyada gəzirdi.
Yəhudi başçılarının Onu öldürməyə
çalışdıqlarına görə daha Yəhudeyada
gəzmək istəmirdi. 2 [r]Yəhudilərin
Çardaqlar bayramı yaxınlaşırdı.
3 Qardaşları İsaya dedi: «Buradan çıxıb
Yəhudeyaya get ki, şagirdlərin də
etdiyin işləri görsün. 4 Çünki Özünü
məşhur etməyə çalışan adam heç nəyi
gizlicə etməz. Sən bunları edirsənsə,
Özünü dünyaya tanıtdır». 5 Çünki
qardaşları da Ona iman etmirdi.
6 Onda İsa onlara dedi: «Mənim vaxtım
hələ gəlməyib, sizin üçünsə hər vaxt
münasibdir. 7 Dünya sizə nifrət edə
bilməz, amma Mənə nifrət edir, çünki
Mən onun əməllərinin şər olduğuna
şəhadət edirəm. 8 Siz bayrama gedin,
Mənsə hələ vaxtım tamam olmadığı
üçün bu bayrama getməyəcəyəm». 9 İsa
bu sözləri söylədikdən sonra Qalileyada
qaldı.
10 Ancaq Onun qardaşları bayrama
gedəndən sonra O da açıq yox,
gizlicə bayrama getdi. 11 Yəhudi
başçıları bayramda İsanı axtararaq
«O haradadır?» deyirdilər. 12 Camaat
arasında Onun barəsində çoxlu
dedi-qodu gəzirdi. Bəzisi «yaxşı
adamdır», başqaları isə «xeyr, xalqı
aldadır» deyirdi. 13 Lakin Yəhudi

---

*6:58 *Yediyi* – bəzi əlyazmalarda *yediyi manna.*
†6:69 *Allahın Müqəddəsi* – bəzi əlyazmalarda *Məsih, var olan Allahın Oğlu* (Mat. 16:16).

[q]6:68 Mat. 16:16; Mark 8:29; Luka 9:20 [r]7:2 Lev. 23:34; Qanun. 16:13

başçılarının qorxusundan heç kəs Onun
barəsində açıq danışmırdı.
14 Artıq bayramın yarısı keçəndə İsa
məbədə gedib təlim öyrətməyə başladı.
15 Yəhudi başçıları buna heyrətlənib
dedilər: «Bu Adam yaxşı təhsil almadığı
halda necə olub ki savadlıdır?» 16 İsa da
onlara cavab verdi: «Öyrətdiyim təlim
Mənim deyil, Məni Göndərənindir.
17 Kim Onun iradəsini yerinə yetirmək
istəyirsə, təlimimin Allahdan olduğunu,
yoxsa Özümdən söylədiyimi biləcək.
18 Özündən söyləyən öz izzətini axtarır,
lakin Onu Göndərənə izzət axtaran Şəxs
haqdır, Onda yalan olmaz. 19 Qanunu
sizə Musa vermədimi? Amma heç
biriniz Qanuna əməl etmirsiniz. Niyə
Məni öldürməyə çalışırsınız?» 20 Xalq
cavab verdi: «Səndə cin var. Kim
Səni öldürməyə çalışır?» 21 İsa onlara
dedi: «Mən bir iş gördüm və hamınız
buna heyrətlənirsiniz. 22 [s]Musa sizə
sünnət etməyi buyurdu, amma Musa
yox, ata-babalarınız bunun əsasını
qoydu. Siz Şənbə günü də adamı
sünnət edirsiniz. 23 [t]Musanın Qanunu
pozulmasın deyə Şənbə günü adam
sünnət edilir; bəs Şənbə günü bir
adamı tamam sağaltdığıma görə Mənə
niyə qəzəblənirsiniz? 24 Zahirə görə
mühakimə etməyin, ədalətlə mühakimə
edin».

İsa Məsihdirmi?

25 Onda Yerusəlimlilərin bəzisi dedi:
«Öldürməyə çalışdıqları Bu deyilmi?
26 Budur, O açıq danışır, amma Ona bir
söz demirlər. Bəlkə rəhbərlər, doğrudan
da, Onun Məsih olduğunu öyrəndilər?
27 Ancaq bu adamın haradan olduğunu
bilirik, halbuki Məsih gələndə Onun
haradan olduğunu heç kəs bilməyəcək».
28 İsa məbəddə təlim öyrədərkən
nida edib dedi: «Doğrudan da, Məni
tanıyırsınızmı, haradan gəldiyimi
bilirsinizmi? Mən Özümdən gəlmədim,
lakin Məni Göndərən haqdır. Siz Onu
tanımırsınız, 29 Mənsə Onu tanıyıram,
çünki Ondan gəlmişəm və O Məni
göndərdi». 30 Bu sözlərə görə İsanı
tutmağa çalışdılar, lakin heç kəs
Ona toxunmadı, çünki vaxtı hələ
çatmamışdı. 31 Ancaq xalq arasından
çoxu Ona iman edib dedi: «Məsih
gələndə bu Adamın etdiklərindən çox
əlamət göstərəcəkmi?»
32 Fariseylər xalqın İsa haqqında
belə dedi-qodu etdiyini eşitdilər. Başçı
kahinlər və fariseylər Onu tutmaq
üçün mühafizəçilər göndərdi. 33 İsa
dedi: «Bir az müddət də Mən sizinlə
olacağam, sonra isə Məni Göndərənin
yanına gedəcəyəm. 34 Siz Məni axtarıb
tapmayacaqsınız və Mənim olacağım
yerə gələ bilməzsiniz». 35 Bunun
cavabında Yəhudilər öz aralarında
dedilər: «Bu Adam hara gedəcək ki, Onu
tapa bilməyəcəyik? Yunanlar arasına
səpələnmiş Yəhudilərin yanına gedib
Yunanlaramı təlim öyrədəcək? 36 “Siz
Məni axtarıb tapmayacaqsınız və Mənim
olacağım yerə siz gələ bilməzsiniz” sözü
ilə nə demək istəyir?»
37 [u]Bayramın sonuncu, təntənəli
günündə İsa qalxıb nida edərək dedi:
«Kim susayıbsa, yanıma gəlib içsin.
38 [v]Müqəddəs Yazılarda deyildiyi kimi,
Mənə iman edənin daxilindən həyat
suyu axan çaylar çıxacaq». 39 Bunu Ona
iman edənlərin alacaqları Ruh barədə
söylədi. Ruh isə hələ yox idi, çünki İsa
hələ izzətlənməmişdi.
40 [w]Xalqın bir qismi bu sözləri
eşidəndə «Bu, doğrudan da, gəlməli
olan peyğəmbərdir» dedilər. 41 Başqaları
isə «Bu, Məsihdir» söylədi, ancaq

---

[s]**7:22** Yar. 17:10; Lev. 12:3 [t]**7:23** Yəh. 5:9 [u]**7:37** Lev. 23:36
[v]**7:38** Sül. 18:4; Yeş. 58:11; Yez. 47:1; Zək. 14:8 [w]**7:40** Qanun. 18:15-18

bəziləri dedi: «Nə? Məsih Qalileyadanmı
gəlir? 42 [x]Məgər Müqəddəs Yazılarda
deyilmir ki, Məsih Davudun nəslindən,
Davudun yaşadığı Bet-Lexem kəndindən
gəlir?» 43 Beləcə İsa barədə xalq
arasında fikir ayrılığı oldu. 44 Bəziləri
Onu tutmaq istədi, amma heç kəs Ona
toxunmadı.

Yəhudi başçılarının imansızlığı

45 Buna görə də mühafizəçilər başçı
kahinlərin və fariseylərin yanına
qayıtdılar. Onlar mühafizəçilərdən
«Niyə Onu gətirmədiniz?» deyə soruşdu.
46 Mühafizəçilər cavab verdilər:
«Hələ indiyəcən heç bir insan belə
danışmayıb». 47 Fariseylər onlara
dedilər: «Yoxsa sizi də aldadıb? 48 Gör
bir rəhbər yaxud bir farisey Ona
iman etdimi? 49 Bu Qanunu bilməyən
xalqa gəlincə, onlar lənətə gəlib!»
50 [y]Aralarından biri – bundan qabaq*
İsanın yanına gələn Nikodim onlara
dedi: 51 «Qanunumuza görə, bir adama
qulaq asmadan və nə etdiyini bilmədən
onu mühakimə etmək doğrudurmu?»
52 Onlar Nikodimə dedi: «Bəlkə sən də
Qalileyadansan? Araşdırsan, görərsən
ki, Qalileyadan peyğəmbər çıxmaz».

İsa və zinakar qadın

53 Bundan sonra hər kəs öz evinə
getdi.

8 Lakin İsa Zeytun dağına getdi.
2 Səhər tezdən yenə məbədə gəldi.
Bütün xalq Onun yanına toplaşdı, O
da oturub onlara təlim öyrətməyə
başladı. 3 İlahiyyatçılar və fariseylər
zina üstündə tutulmuş bir qadını
oraya gətirdilər. Onu ortaya çıxarıb
4 İsaya dedilər: «Müəllim, bu qadın
zina edərkən əməlində yaxalandı.
5 [z]Qanunda Musa bizə əmr edib ki,
belələrini daşqalaq edək. Bəs Sən
nə deyirsən?» 6 Bunu İsanı sınamaq
üçün deyirdilər, Onu ittiham etmək
üçün bəhanə axtarırdılar. Amma İsa
əyilib barmağı ilə yerə yazı yazmağa
başladı. 7 Ondan təkrar soruşduqları
zaman dikəlib onlara dedi: «Sizdən kim
günahsızdırsa, qadına birinci daş atsın».
8 Sonra yenə əyilib yerə yazı yazdı.
9 Bu sözləri eşidənlər başda ağsaqqallar
olmaqla bir-bir oradan uzaqlaşdılar.
İsanı tək qoydular, qadın da ortada idi.
10 İsa dikəlib ona dedi: «Qadın, onlar
hara getdilər? Bəs heç kim səni məhkum
etmədi?» 11 Qadın «heç kim, Ağa» dedi.
Onda İsa dedi: «Mən də səni məhkum
etmirəm, get, daha günah etmə».†

Doğru şəhadət

12 [a]Sonra İsa yenə xalqa dedi:
«Dünyanın nuru Mənəm. Mənim
ardımca gələn heç vaxt qaranlıqda
gəzməyəcək, həyat nuruna malik
olacaq». 13 [b]Fariseylər Ona dedilər:
«Sən Öz barəndə şəhadət edirsən,
Sənin şəhadətin etibarlı deyil». 14 İsa
onlara cavab verdi: «Mən Öz barəmdə
şəhadət etsəm də, şəhadətim etibarlıdır,
çünki haradan gəlib hara gedəcəyimi
bilirəm. Sizsə Mənim haradan gəlib
hara gedəcəyimi bilmirsiniz. 15 Siz
bəşər qaydalarına görə mühakimə
edirsiniz, Mənsə heç kəsi mühakimə
etmirəm. 16 Mən mühakimə etsəm
də, verdiyim hökm doğrudur, çünki
tək deyiləm, Məni göndərən Ata da
Mənimlədir. 17 [c]Sizin Qanununuzda

*7:50 *Bundan qabaq* – bəzi əlyazmalarda *gecə ikən.*
†8:11 Ən qədim yunan əlyazmalarında bu ayələr yoxdur.

[x]7:42 2Şam. 7:12; Mik. 5:2 [y]7:50 Yəh. 3:1-2
[z]8:5 Lev. 20:10; Qanun. 22:22-24 [a]8:12 Mat. 5:14; Yəh. 9:5
[b]8:13 Yəh. 5:31 [c]8:17 Qanun. 17:6; 19:15

da yazılıb ki, iki nəfərin şəhadəti
etibarlıdır. 18 Mən Öz barəmdə şəhadət
edirəm, Məni göndərən Ata da Mənim
barəmdə şəhadət edir». 19 Onda İsadan
soruşdular: «Atan haradadır?» İsa
cavab verdi: «Siz nə Məni, nə də Atamı
tanıyırsınız. Əgər Məni tanısaydınız,
Atamı da tanıyardınız». 20 İsa bu
sözləri məbəddə, nəzir qutuları olan
yerdə təlim öyrədərkən söylədi. Heç
kəs də Onu tutmadı, çünki vaxtı hələ
gəlməmişdi.
21 Sonra İsa yenə onlara dedi: «Mən
çıxıb gedirəm, siz Məni axtaracaqsınız
və öz günahınız içində öləcəksiniz.
Siz Mənim gedəcəyim yerə gələ
bilməzsiniz». 22 Onda Yəhudilər
dedilər: «Məgər O Özünü öldürəcək
ki, “siz Mənim gedəcəyim yerə gələ
bilməzsiniz” deyir?» 23 İsa onlara dedi:
«Siz aşağıdansınız, Mən yuxarıdanam,
siz bu dünyadansınız, Mənsə bu
dünyadan deyiləm. 24 Buna görə də
sizə “günahlarınız içində öləcəksiniz”
dedim. Əgər inanmasanız ki, Mən
Oyam, günahlarınız içində öləcəksiniz».
25 Onda «Sən Kimsən?» deyə İsadan
soruşdular. İsa onlara dedi: «Əvvəlcədən
sizə nə söyləyirəmsə, Oyam. 26 Sizin
barənizdə söyləyəcəyim və mühakimə
edəcəyim çox şeylər var. Lakin Məni
göndərən haqdır və Mən Ondan
eşitdiklərimi dünyaya söyləyirəm».
27 İsanın onlara Ata barədə danışdığını
anlamadılar. 28 Onda İsa dedi: «Bəşər
Oğlunu yuxarı qaldırdığınız vaxt
biləcəksiniz ki, Mən Oyam və Özümdən
bir şey etmirəm, ancaq Ata Mənə necə
öyrədibsə, o cür danışıram. 29 Məni
Göndərən Mənimlədir. O Məni tək
qoymadı, çünki Mən daim Onun xoşuna
gələnləri edirəm». 30 İsa bu sözləri
söylədiyi zaman bir çox adam Ona iman
etdi.

İbrahim övladları və iblis övladları

31 O zaman İsa Ona inanmış
Yəhudilərə dedi: «Əgər siz Mənim
sözümə sadiq qalsanız, həqiqətən,
Mənim şagirdlərimsiniz. 32 Onda siz
həqiqəti biləcəksiniz və həqiqət sizi
azad edəcək». 33 [d]Yəhudilər İsaya cavab
verdilər: «Biz İbrahimin nəslindənik, heç
kəsə heç vaxt kölə olmamışıq. Bəs Sən
niyə “azad olacaqsınız” deyirsən?» 34 İsa
onlara dedi: «Doğrusunu, doğrusunu
sizə deyirəm: günah edən hər kəs
günahın köləsidir. 35 Kölə evdə daim
qalmaz, oğulsa daim qalar. 36 Buna görə
də əgər Oğul sizi azad etsə, həqiqətən
də, azad olacaqsınız. 37 İbrahimin
nəslindən olduğunuzu bilirəm, ancaq
bununla belə, Məni öldürməyə
çalışırsınız. Çünki Mənim sözüm sizin
ürəyinizdə yer tapmır. 38 Mən Atanın
yanında gördüklərimi söyləyirəm, sizsə
öz atanızdan eşitdiklərinizi* yerinə
yetirirsiniz».
39 Onlar İsanın cavabında «bizim
atamız İbrahimdir» dedilər. İsa onlara
dedi: «İbrahimin övladları olsaydınız,
İbrahimin etdiyi əməlləri edərdiniz.
40 Sizsə indi Məni – Allahdan eşitdiyi
həqiqəti sizə söyləyən Adamı öldürməyə
çalışırsınız. İbrahim belə etmədi. 41 Siz
öz atanızın əməllərini edirsiniz». Ona
dedilər: «Biz zinadan doğulmamışıq,
bizim bir Atamız var, O da Allahdır».
42 İsa onlara dedi: «Əgər Allah sizin
Atanız olsaydı, Məni sevərdiniz, çünki
Mən Allahdan çıxıb gəlmişəm və indi
buradayam. Mən Özümdən gəlmədim,
lakin O Məni göndərdi. 43 Söylədiyimi
niyə anlamırsınız? Çünki Mənim
sözümü dinləyə bilmirsiniz. 44 Siz atanız

---

*8:38 *Atanızdan eşitdiklərinizi* – bəzi əlyazmalarda *atanızın yanında gördüklərinizi.*

[d]8:33 Mat. 3:9; Luka 3:8

iblisdənsiniz və atanızın arzularını
yerinə yetirmək istəyirsiniz. O,
başlanğıcdan qatil idi və həqiqətə sadiq
qalmadı, çünki onda həqiqət yoxdur.
Yalan söyləyəndə öz xasiyyətinə görə
söyləyir, çünki yalançıdır və yalanın
atasıdır. 45 Mənsə həqiqəti söylədiyim
üçün siz Mənə inanmırsınız. 46 Sizdən
kim sübut edər ki, Mən bir günah
etmişəm? Mən həqiqəti söyləyirəmsə,
niyə Mənə inanmırsınız? 47 Allahdan
olan şəxs Allahın sözlərini dinləyər.
Sizsə dinləmirsiniz, çünki Allahdan
deyilsiniz».

İsanın izzəti

48 Yəhudilər cavabında Ona dedilər:
«Sən Samariyalısan və Səndə cin
var. Məgər doğru demirikmi?» 49 İsa
cavab verdi: «Məndə cin yoxdur,
amma Atama hörmət edirəm, sizsə
Məni hörmətdən salırsınız. 50 Mən
Özümə izzət axtarmıram, Mənə izzət
axtaran və bu işi mühakimə edən Biri
var. 51 Doğrusunu, doğrusunu sizə
deyirəm: kim Mənim sözümə riayət
edərsə, heç vaxt ölüm görməyəcək».
52 Yəhudilər Ona dedilər: «İndi bildik
ki, Səndə cin var. İbrahim də öldü,
peyğəmbərlər də. Amma Sən "kim
Mənim sözümə riayət edərsə, heç vaxt
ölməyəcək" deyirsən. 53 Yoxsa Sən
atamız İbrahimdən də üstünsən? O da
öldü, peyğəmbərlər də. Axı Sən Özünü
kim sayırsan?» 54 İsa cavab verdi:
«Əgər Mən Özümü izzətləndirirəmsə,
Mənim izzətim heçdir, amma Məni
izzətləndirən Atamdır. Siz Onun
barəsində "Allahımızdır" deyirsiniz,
55 lakin Onu tanımırsınız. Mənsə Onu
tanıyıram. Əgər "Onu tanımıram"
desəydim, sizin kimi yalançı olardım.
Lakin Mən Onu tanıyıram və sözünə
riayət edirəm. 56 Atanız İbrahim Mənim
günümü görəcəyi üçün şad oldu, görüb
sevindi». 57 Buna görə Yəhudilər Ona
dedilər: «Sənin heç əlli yaşın yoxdur,
İbrahimi necə görmüsən?» 58 [e]İsa onlara
dedi: «Doğrusunu, doğrusunu sizə
deyirəm: İbrahim olmazdan qabaq
Var Olan Mənəm». 59 O zaman İsanı
daşqalaq etmək üçün yerdən daş
götürdülər, ancaq İsa gizləndi və
məbəddən çıxdı.*

Kor adamın sağalması

9 İsa yolla gedərkən anadangəlmə
kor bir adam gördü. 2 Şagirdləri
Ondan soruşdu: «Rabbi, kim günah etdi
ki, bu adam kor doğuldu: özü, yoxsa
ata-anası?» 3 İsa cavab verdi: «Nə özü
günah etdi, nə də ata-anası. Amma
Allahın işləri onun həyatında görünsün
deyə belə oldu. 4 Nə qədər ki gündüzdür,
Məni Göndərənin işlərini görməliyik.†
Tezliklə gecə gəlir, o zaman heç kim
işləyə bilməz. 5 [f]Dünyada olduğum
müddətdə dünyanın nuru Mənəm». 6 Bu
sözləri deyəndən sonra yerə tüpürdü,
tüpürcəklə palçıq düzəltdi və palçığı kor
adamın gözlərinə sürtdü. 7 Sonra ona
dedi: «Get, Şiloah hovuzunda yuyun».
«Şiloah» «göndərilmiş» deməkdir. O da
gedib yuyundu və gözləri açılmış halda
qayıtdı. 8 Qonşuları və əvvəllər onu
bir dilənçi kimi‡ tanıyanlar deyirdilər:
«Əvvəllər oturub dilənən adam bu
deyilmi?» 9 Bəzisi «odur» dedi, bəzisi
«xeyr, amma ona oxşayır» dedi. Özü
isə «mənəm» dedi. 10 Ondan «Elə isə

*8:59 *Məbəddən çıxdı* – bəzi əlyazmalarda *onların arasından keçərək məbəddən çıxdı. Sonra yoluna davam etdi.*
†9:4 *Görməliyik* – bəzi əlyazmalarda *görməliyəm.*
‡9:8 *Bir dilənçi kimi* – bəzi əlyazmalarda *kor olanda.*

[e]8:58 Çıx. 3:14; Yəh. 1:1; 8:24,28; Vəhy 1:4-6,8 [f]9:5 Mat. 5:14; Yəh. 8:12

gözlərin necə açıldı?» deyə soruşdular.
11 O cavab verdi: «İsa deyilən Adam
palçıq düzəldib gözlərimə sürtdü və
mənə “Şiloah hovuzuna get, yuyun”
dedi, mən də gedib yuyundum və
gözlərim açıldı». 12 Ondan «Bəs İsa
haradadır?» deyə soruşdular. O isə
«bilmirəm» dedi.

Fariseylərin istintaqı

13 Əvvəllər kor olan adamı fariseylərin
yanına apardılar. 14 İsanın palçıq
düzəldib onun gözlərini açdığı gün
Şənbə günü idi. 15 Fariseylər o adamdan
gözlərinin necə açıldığını soruşdular.
O adam da onlara dedi: «O mənim
gözlərimə palçıq qoydu, mən də
yuyundum və indi görürəm». 16 Onda
fariseylərdən bəzisi dedi: «Bu Adam
Allahdan gəlməyib, çünki Şənbə
gününə riayət etmir». Başqaları isə
dedi: «Günahkar adam belə əlamətləri
necə göstərə bilər?» Onların arasında
fikir ayrılığı düşdü. 17 Onda yenə
kor adamdan soruşdular: «Bəs sən
bu Adam barədə nə deyirsən? Axı O
sənin gözlərini açdı». Kor adam «O,
peyğəmbərdir» dedi.
18 Yəhudi başçıları gözləri açılmış
adamın ata-anasını çağırmayınca onun
kor olub gözləri açıldığına inanmadılar.
19 Ata-anasından soruşdular: «Kor
doğulduğunu söylədiyiniz oğlunuz
budurmu? Elə isə necə olur ki, indi
görür?» 20 Ata-anası dedi: «Bilirik ki,
bu bizim oğlumuzdur və kor doğulub.
21 Ancaq bilmirik ki, indi necə görür ya
gözlərini kim açıb. Özündən soruşun.
Həddi-büluğa çatıb, qoy özü barədə
özü danışsın». 22 Ata-anası Yəhudi
başçılarından qorxduqları üçün bu
sözləri söylədilər, çünki Yəhudi başçıları
artıq qərara almışdılar ki, İsanın Məsih
olduğunu iqrar edən hər kəs sinaqoqdan
qovulsun. 23 Buna görə də o adamın
ata-anası «həddi-büluğa çatıb, özündən
soruşun» dedi.
24 Yəhudi başçıları əvvəllər kor olan
adamı ikinci dəfə çağırıb ona dedilər:
«Allahın izzəti naminə doğru söylə.
Biz bu Adamın günahkar olduğunu
bilirik». 25 O da cavab verdi: «O Adamın
günahkar olub-olmadığını bilmirəm. Bir
şeyi bilirəm ki, əvvəl kor idim, amma
indi görürəm». 26 Ondan soruşdular:
«O sənə nə etdi? Gözlərini necə açdı?»
27 Onlara cavab verdi: «İndicə sizə
söylədim, amma qulaq asmadınız. Niyə
bunu yenə eşitmək istəyirsiniz? Bəlkə
siz də Onun şagirdi olmaq istəyirsiniz?»
28 Onu söyüb dedilər: «Onun şagirdi
sənsən, bizsə Musanın şagirdləriyik.
29 Biz Allahın Musa ilə danışdığını
bilirik, bu Adamınsa haradan gəldiyini
bilmirik». 30 O adam onlara dedi:
«Qəribədir ki, siz Onun haradan
gəldiyini bilmirsiniz, amma O mənim
gözlərimi açdı. 31 Allahın günahkarlara
qulaq asmadığını bilirik, lakin mömin
olub Allahın iradəsinə əməl edən
adama Allah qulaq asır. 32 Əzəldən bəri
eşidilməyib ki, kimsə anadangəlmə
kor bir adamın gözlərini açsın. 33 Əgər
bu Adam Allahdan gəlməsəydi, heç
nə edə bilməzdi». 34 Onlar o adama
cavab verdilər: «Başdan-ayağa günah
içində doğuldun. İndi sənmi bizə dərs
verirsən?» Onda onu bayıra atdılar.

Ruhani korluq

35 O adamı bayıra atdıqlarını İsa eşitdi
və onu tapıb dedi: «Sən Bəşər Oğluna*
iman edirsənmi?» 36 O soruşdu: «Ağa,
O kimdir ki, Ona iman edim?» 37 İsa
ona dedi: «İndi gördüyün və sənlə
danışan Adam Odur». 38 O da «ya Rəbb,
iman edirəm» dedi və İsaya səcdə etdi.
39 İsa dedi: «Mühakimə etmək üçün bu

*9:35 *Bəşər Oğluna* – bəzi əlyazmalarda *Allahın Oğluna.*

dünyaya gəldim ki, qoy görməyənlər
görsün, görənlərsə kor olsun».
40 Onun yanında olan bəzi fariseylər
bu sözləri eşidib «Yoxsa biz də koruq?»
deyə Ondan soruşdular. 41 İsa onlara
dedi: «Əgər kor olsaydınız, günahınız
olmazdı. Amma indi "görürük"
dediyiniz üçün günahınız üstünüzdə
qalır.

Yaxşı çoban

10 Doğrusunu, doğrusunu sizə
deyirəm: qoyun ağılına qapıdan
girməyib başqa yerdən aşan oğru və
quldurdur. 2 Amma qapıdan girən
qoyunların çobanıdır. 3 Keşikçi qapını
onun üzünə açar və qoyunlar onun
səsinə qulaq asar. O da öz qoyunlarını
adları ilə çağırar və onları çölə
çıxarar. 4 Öz qoyunlarının hamısını
çölə çıxarandan sonra onların önündə
gedər və qoyunlar da ardınca gedər,
çünki onun səsini tanıyırlar. 5 Amma
yad adamın ardınca getməzlər, ondan
qaçarlar, çünki yad adamların səsini
tanımazlar». 6 İsa bu məsəli onlara
söylədi, amma onlar İsanın sözlərinin
mənasını anlamadılar.
7 İsa yenə onlara dedi: «Doğrusunu,
doğrusunu sizə deyirəm: qoyunların
qapısı Mənəm. 8 Məndən əvvəl
gələnlərin hamısı oğru və quldur
idi, amma qoyunlar onlara qulaq
asmadı. 9 Qapı Mənəm, kim Məndən
girərsə, xilas olar, girib-çıxar və
özünə otlaq tapar. 10 Oğru yalnız
qarət etmək, öldürmək və tələf etmək
üçün gəlir. Mənsə gəldim ki, onlar
həyata, bol həyata malik olsun.
11 Yaxşı çoban Mənəm, yaxşı çoban
qoyunlar uğrunda canını qurban
verər. 12 Qoyunların çobanı olmayan
muzdur isə canavarın gəldiyini görəndə
onları atıb qaçar, çünki qoyunların
sahibi deyil. Canavar da onları qapıb
pərən-pərən salar. 13 Muzdur qaçar,
çünki muzdurdur, qoyunlar üçün qayğı
çəkməz. 14–15 [g]Yaxşı çoban Mənəm.
Necə ki Ata Məni tanıyır və Mən Atanı
tanıyıram, eləcə də özümünküləri
tanıyıram, özümünkülər də Məni
tanıyır. Mən quzular uğrunda canımı
qurban verirəm. 16 Bu ağıldan olmayan
başqa quzularım var ki, onları da
gətirməliyəm. Onlar da səsimi eşidəcək,
beləcə tək sürü, tək Çoban olacaq.
17 Buna görə də Ata Məni sevir, çünki
Mən canımı qurban verirəm ki, sonra
onu geri alım. 18 Canımı Məndən heç kəs
ala bilməz, amma onu Özüm verirəm.
Onu verməyə də, sonra geri almağa
da ixtiyarım var. Bu əmri Atamdan
almışam».
19 Bu sözlər üstündə Yəhudilər
arasında yenə fikir ayrılığı düşdü.
20 Onların çoxu dedi: «Onda cin var,
dəlidir. Niyə Ona qulaq asırsınız?»
21 Başqaları isə dedilər: «Bunlar cinə
tutulmuş adamın sözləri deyil. Cin heç
kor adamın gözlərini açа bilərmi?»

Yəhudilərin İsa ilə mübahisəsi

22 O vaxt Yerusəlimdə Təqdis bayramı
keçirilirdi. Qış idi. 23 İsa məbədin
həyətində olan Süleymanın eyvanında
gəzirdi. 24 Yəhudilər İsanın ətrafına
yığılıb Ona dedilər: «Nə vaxta qədər
ürəyimizi intizarda saxlayacaqsan? Əgər
Sən Məsihsənsə, bizə açıq söylə». 25 İsa
onlara cavab verdi: «Sizə söylədim,
ancaq buna inanmırsınız. Atamın adı
ilə gördüyüm işlər Mənim barəmdə
şəhadət edir. 26 Amma siz inanmırsınız,
çünki* Mənim quzularımdan deyilsiniz.
27 Quzularım səsimi eşidir, Mən də
onları tanıyıram və Mənim ardımca

*10:26 *Çünki* – bəzi əlyazmalarda *çünki sizə dediyim kimi.*

[g]**10:14-15** Mat. 11:27; Luka 10:22

gəlirlər. 28 Mən onlara əbədi həyat
verirəm. Onlar heç vaxt həlak
olmayacaq və heç kim onları əlimdən
qapmayacaq. 29 Onları Mənə verən
Atam hamıdan böyükdür. Onları heç
kim Atanın əlindən qapa bilməz. 30 Mən
və Ata birik».
31 Yəhudilər yenə yerdən daş
götürdülər ki, Onu daşqalaq etsinlər.
32 İsa onlara dedi: «Sizə Atadan gələn
çoxlu yaxşı iş göstərdim. Siz bunların
hansına görə Məni daşqalaq etmək
istəyirsiniz?» 33 [h]Yəhudilər Ona cavab
verdilər: «Səni yaxşı işinə görə deyil,
insan olduğun halda Özünü Allah
sayaraq küfr etdiyinə görə daşqalaq
edirik». 34 [i]İsa onlara dedi: «Məgər
sizin öz Qanununuzda yazılmayıb ki,
“demişəm: ‹Siz allahlarsınız›”? 35 Allah
Öz kəlamını göndərdiyi adamlara
“allahlarsınız” deyir. Müqəddəs Yazı ki
pozula bilməz. 36 Bəs siz niyə “Allahın
Oğluyam” dediyim üçün Mənə –
Atanın təqdis edib dünyaya göndərdiyi
Şəxsə “küfr edirsən” deyirsiniz?
37 Əgər Atamın işlərini görmürəmsə,
Mənə inanmayın. 38 Amma bu işləri
görürəmsə, Mənə inanmasanız da,
bunlara inanın. Onda Atanın Məndə,
Mənim də Atada olduğumu anlayıb
bilərsiniz». 39 Onlar yenə İsanı tutmağa
çalışdı, amma O, əllərindən sıyrılıb
çıxdı.
40 [j]İsa yenə İordanın o biri sahilinə,
Yəhyanın əvvəllər vəftiz etdiyi yerə
getdi və orada qaldı. 41 Çoxlu adam
Onun yanına gəlib dedi: «Yəhya heç bir
əlamət göstərməsə də, onun bu Adam
barədə dediyi bütün sözlər doğru çıxdı».
42 Bir çox adam da orada İsaya iman
etdi.

İsa ölən Lazarı dirildir

11 [k]Lazar adlı bir adam
xəstələnmişdi. O, Məryəmlə
bacısı Martanın yaşadığı Bet-Anya
kəndindən idi. 2 [l]Rəbbin üzərinə ətirli
yağ çəkib ayaqlarını saçları ilə silən
həmin Məryəm idi. Xəstələnən Lazar
onun qardaşı idi. 3 Bu səbəbdən iki bacı
«ya Rəbb, sevdiyin adam xəstədir» deyə
İsaya xəbər göndərdi. 4 İsa bunu eşidib
dedi: «Bu xəstəliyin nəticəsi ölüm yox,
Allahın izzəti və Allah Oğlunun bununla
izzət qazanması olacaq».
5 İsa Martanı, onun bacısını və
Lazarı sevirdi. 6 Buna görə də Lazarın
xəstələndiyini eşidəndə olduğu yerdə
daha iki gün qaldı. 7 Sonra isə şagirdlərə
«yenə Yəhudeyaya gedək» dedi.
8 Şagirdlər Ona dedilər: «Rabbi, oradakı
Yəhudilər bir az əvvəl Səni daşqalaq
etməyə çalışırdı. Sən yenə də oraya
qayıdırsan?» 9 İsa cavab verdi: «Gündə
on iki saat yoxdurmu? Kim gündüz vaxtı
gəzərsə, büdrəməz, çünki bu dünyanın
nurunu görür. 10 Lakin kim gecə vaxtı
gəzərsə, büdrəyər, çünki daxilində nur
yoxdur». 11 İsa bu sözləri söylədikdən
sonra onlara dedi: «Dostumuz Lazar
uyuyub. Mən onu oyatmaq üçün
gedirəm». 12 Onda şagirdlər Ona
dedilər: «Əgər uyuyubsa, sağalacaq».
13 İsa onun ölümü barədə danışmışdı,
amma onlar elə bildilər ki, yuxuya
getdiyini söyləyib. 14 Onda İsa onlara
açıqca dedi: «Lazar ölüb. 15 Mən də sizin
uğrunuzda, iman etməyiniz üçün orada
olmadığıma sevinirəm. Amma gəlin
onun yanına gedək». 16 «Əkiz» adlanan
Tomas o biri şagirdlərə dedi: «Biz də
gedək ki, Onunla ölək».
17 İsa gəlib Lazarın artıq dörd gündən
bəri qəbirdə olduğunu bildi. 18 Bet-Anya

---

[h]**10:33** Lev. 24:16 [i]**10:34** Zəb. 82:6 [j]**10:40** Yəh. 1:28
[k]**11:1** Luka 10:38-39 [l]**11:2** Yəh. 12:3

ilə Yerusəlim arasında on beş stadi*
məsafə var idi. 19 Bir çox Yəhudi
Marta və Məryəmə qardaşlarının
ölümünə görə təsəlli verməyə gəlmişdi.
20 Marta İsanın gəldiyini eşidəndə
Onu qarşılamağa çıxdı, ancaq Məryəm
evdə oturmuşdu. 21 Marta İsaya dedi:
«Ya Rəbb, əgər Sən burada olsaydın,
qardaşım ölməzdi. 22 Ancaq bilirəm
ki, Sən indi də Allahdan nə diləsən,
O Sənə verəcək». 23 İsa ona «qardaşın
diriləcək» dedi. 24 Marta Ona dedi:
«Bilirəm ki, dirilmə zamanı, son gündə
o da diriləcək». 25 İsa ona dedi: «Dirilmə
və həyat Mənəm. Mənə iman edən ölsə
də, yaşayar, 26 yaşayıb Mənə iman edən
də heç vaxt ölməz. Buna inanırsanmı?»
27 Marta Ona cavab verdi: «Bəli, ya
Rəbb, inanıram ki, dünyaya gəlməli
olan Allahın Oğlu Məsih Sənsən».

28 Marta bunu söylədikdən sonra
gedib bacısı Məryəmi gizlicə çağırdı və
dedi: «Müəllim buradadır, səni çağırır».
29 Məryəm bunu eşidən kimi tez qalxıb
İsanın yanına getdi. 30 İsa hələ kəndə
girməyib Martanın Onu qarşıladığı
yerdə qalmışdı. 31 Məryəmlə birgə evdə
olan və ona təsəlli verən Yəhudilər
qadının tez qalxıb bayıra çıxdığını
görəndə elə bildilər ki, ağlamaq üçün
qəbirin yanına gedir. Buna görə də
onun ardınca getdilər. 32 Məryəm
İsanın olduğu yerə gəlib Onu gördü
və ayaqlarına düşüb dedi: «Ya Rəbb,
əgər Sən burada olsaydın, qardaşım
ölməzdi». 33 İsa onun və yanında gələn
Yəhudilərin ağladığını görəndə əhvalı
pozuldu və tələşə düşdü. 34 İsa onlardan
«Mərhumu haraya qoymusunuz?» deyə
soruşdu. Ona «Ağa, gəl bax» dedilər.
35 İsa ağladı. 36 Onda Yəhudilər «Bax
onu necə də sevirmiş!» söylədilər.
37 Lakin onlardan bəzisi dedi: «Korun
gözlərini açan bu Şəxs bir şey edə
bilməzdi ki, bu adam ölməsin?»

38 O zaman İsa yenə əhvalı pozulmuş
halda qəbirin yanına gəldi. Qəbir bir
mağara idi və ağzına daş qoyulmuşdu.
39 İsa «daşı götürün» dedi. Mərhumun
bacısı Marta Ona dedi: «Ya Rəbb,
artıq iylənib, çünki öldüyü dörd
gündür». 40 İsa dedi: «Axı Mən sənə
söyləmədimmi, iman etsən, Allahın
izzətini görəcəksən?» 41 Beləcə daşı†
götürdülər. İsa da başını yuxarı qaldırıb
dedi: «Ey Ata, Məni eşitdiyin üçün
Sənə şükür edirəm. 42 Bilirəm ki, Məni
həmişə eşidirsən. Lakin bunu ətrafımda
duran xalq üçün söylədim ki, Məni Sən
göndərdiyinə inansınlar». 43 Bu sözləri
söylədikdən sonra «Lazar, bayıra çıx!»
deyə bərkdən qışqırdı. 44 Ölü də bayıra
çıxdı. Onun əl-ayağı sarğılarla və üzü
dəsmalla bağlanmışdı. İsa onlara «onu
açın və buraxın getsin» dedi.

45 Onda Məryəmin yanına gələn və
İsanın nə etdiyini görən Yəhudilərin bir
çoxu Ona iman etdi. 46 Lakin onlardan
bəzisi fariseylərin yanına gedib İsanın
nə etdiyini onlara danışdı.

Fariseylərin İsanı öldürmək niyyətləri

(Mat. 26:1-5; Mark 14:1-2; Luka 22:1-2)

47 Onda başçı kahinlər və fariseylər
Ali Şuranı toplayıb dedilər: «Nə edək?
Bu Adam çoxlu əlamət göstərir. 48 Əgər
Ona mane olmasaq, hamı Ona iman
edəcək. Romalılar da gəlib məbədimizi
və millətimizi məhv edəcək». 49 Orada
olanlardan biri, həmin il baş kahin
olan Qayafa onlara dedi: «Siz heç nə
bilmirsiniz. 50 Başa düşmürsünüz ki,
bütün bu millətin məhv olmağındansa
bir Adamın xalq uğrunda ölməsi sizin

---

*11:18 *On beş stadi* – təqribən 3 km.
†11:41 *Daşı* – bəzi əlyazmalarda *ölünün yatdığı yerdə olan daşı.*

üçün* daha yaxşıdır?» 51 O bu sözləri
özündən söyləmədi, lakin o il baş kahin
olduğu üçün peyğəmbərlik edib xəbər
verdi ki, İsa bu millətin uğrunda –
52 təkcə millətin uğrunda deyil, Allahın
hər tərəfə səpələnmiş övladlarını bir
yerə toplamaq üçün öləcək. 53 Beləcə o
gündən etibarən İsanı öldürməyi qərara
aldılar.
54 Buna görə də İsa daha Yəhudilərin
arasında açıq gəzmirdi. Oradan çöllüyə
yaxın diyara, Efrayim adlanan şəhərə
getdi və şagirdlərlə orada qaldı.
55 Yəhudilərin Pasxa bayramı
yaxınlaşırdı. Çoxlu adam paklanmaq
üçün Pasxadan qabaq kəndlərdən
Yerusəlimə getdi. 56 Onlar İsanı
axtarırdılar və məbəddə dayanıb
bir-birlərinə deyirdilər: «Necə
fikirləşirsiniz? O, bayrama heç
gəlməyəcəkmi?» 57 Başçı kahinlər
və fariseylər Onu tutmaq məqsədi ilə
«harada olduğunu kim bilirsə, göstərsin»
deyə əmr vermişdilər.

Məryəmin İsaya hədiyyəsi

(Mat. 26:6-13; Mark 14:3-9)

12 Pasxadan altı gün əvvəl İsa
Bet-Anyaya gəldi. İsanın ölülər
arasından diriltdiyi Lazar da orada idi.
2 Orada İsanın şərəfinə ziyafət verdilər.
Marta xidmət edirdi. Lazar da İsa
ilə birgə süfrə arxasında oturanların
arasında idi. 3 [m]Məryəm isə bir litra†
çox qiymətli xalis nard yağını götürərək
İsanın ayaqlarına çəkib onları saçları
ilə sildi. Yağın ətri evi bürüdü. 4 Lakin
İsanın şagirdlərindən biri, Ona xəyanət
edəcək Yəhuda İskaryot dedi: 5 «Nə üçün
bu ətir üç yüz dinara satılıb yoxsullara
verilmədi?» 6 Bu sözü yoxsulların
qayğısına qaldığı üçün deyil, oğru
olduğuna görə söylədi, çünki özündə
olan pul qutusuna qoyulanların bir
hissəsini oğurlayırdı. 7 Onda İsa dedi:
«Qadını rahat burax, qoy bunu Mənim
dəfn günüm üçün saxlasın. 8 [n]Çünki
yoxsullar həmişə sizin yanınızdadır,
Mənsə həmişə yanınızda olmayacağam».
9 Yəhudilərdən böyük bir kütlə
İsanın orada olduğunu öyrənəndə
həm İsaya görə, həm də Onun ölülər
arasından diriltdiyi Lazarı görmək üçün
oraya gəldi. 10 Onda başçı kahinlər öz
aralarında Lazarı da öldürməyi qərara
aldılar. 11 Çünki Lazara görə çoxlu
Yəhudi gedib İsaya iman edirdi.

İsanın Yerusəlimə daxil olması

(Mat. 21:1-11; Mark 11:1-11; Luka 19:28-40)

12 Ertəsi gün bayrama gələn böyük
kütlə İsanın Yerusəlimə gələcəyini
eşidəndə 13 [o]xurma budaqları götürərək
Onu qarşılamağa çıxdı. Onlar
«Hosanna!‡
Rəbbin ismi ilə gələn İsrailin
Padşahına alqış olsun!»
deyə qışqırırdı. 14 İsa bir sıpa tapıb
belinə mindi. Necə ki yazılıb:
15 [p]«Ey Sion qızı,§ qorxma.
Bax Padşahın bir sıpaya minib gəlir».
16 Şagirdləri o zaman bu şeyləri
anlamadılar. Lakin İsa izzətlənəndən
sonra barəsində bunun yazıldığını və
xalqın Ona nə etdiyini yada saldılar.
17 İsanın Lazarı qəbirdən çağırıb
ölülər arasından diriltdiyi zaman

*11:50 *Sizin üçün* – bəzi əlyazmalarda *bizim üçün.*
†12:3 *Bir litra* – təqribən 300 qr.
‡12:13 *Hosanna* – ibrani dilində *xilas et.* Nida kimi işlənir.
§12:15 *Sion qızı* – yəni Yerusəlim əhalisi.

[m]12:3 Luka 7:37-38 [n]12:8 Qanun. 15:11 [o]12:13 Zəb. 118:25-26
[p]12:15 Zək. 9:9

Onun yanında olan camaat buna
şahid idi. 18 Xalq İsanın bu əlaməti
göstərdiyini eşitmişdi, buna görə də
Onu qarşılamağa çıxdı. 19 Bu səbəbdən
fariseylər bir-birlərinə dedilər: «Baxın
əlinizdən bir iş gəlmir. Artıq aləm Onun
ardınca getdi».

İsa öləcəyini əvvəlcədən bildirir

20 Bayramda Yerusəlimə ibadətə
gələnlər arasında bəzi Yunanlar da
var idi. 21 Onlar Qalileyanın Bet-Sayda
şəhərindən olan Filipin yanına gəlib
«ağa, biz İsanı görmək istəyirik» deyə
ondan xahiş etdilər. 22 Filip gəlib
Andreyə söylədi, Andrey və Filip
də birgə gəlib İsaya xəbər verdilər.
23 İsa cavabında dedi: «Bəşər Oğlunun
izzətlənmək vaxtı gəldi. 24 Doğrusunu,
doğrusunu sizə deyirəm: əgər bir buğda
dənəsi torpağa düşüb ölmürsə, tək
qalır, amma ölürsə, çoxlu məhsul verir.
25 [q]Öz canını sevən kəs onu itirər, bu
dünyada canı üçün qayğı çəkməyənsə
onu əbədi həyat üçün qoruyar. 26 Kim
Mənə xidmət etmək istəsə, ardımca
gəlsin. Mən harada olacağamsa, Mənim
xidmətçim də orada olacaq. Kim Mənə
xidmət etsə, Ata ona hörmət edəcək.
27 İndi ürəyim təlaş keçirir. Nə
deyim? “Ey Ata, Məni bu andan xilas
et” deyimmi? Lakin Mən elə bu an
üçün gəldim. 28 Ey Ata, Öz adını
izzətləndir!» Bunun cavabında göydən
«Öz adımı izzətləndirdim, yenə də
izzətləndirəcəyəm» deyə bir səs gəldi.
29 Orada duran xalqın bir qismi «göy
guruldadı» dedi, başqaları isə «Onunla
bir mələk danışdı» söylədi. 30 İsa cavab
verdi: «Bu səs Mənim üçün deyil, sizin
üçün gəldi. 31 İndi isə bu dünyaya hökm
veriləcək və bu dünyanın hökmdarı*
bayıra atılacaq. 32 Mən yerdən yuxarı
qaldırılsam, bütün insanları Özümə cəzb
edəcəyəm». 33 İsa bu sözü söyləməklə
necə bir ölümlə öləcəyinə işarə
etdi. 34 [r]Xalq Onun cavabında dedi:
«Qanundan eşitdiyimizə görə Məsih
əbədi qalacaq. Bəs Sən niyə “Bəşər
Oğlu yuxarı qaldırılmalıdır” deyirsən?
Bu Bəşər Oğlu kimdir?» 35 Onda İsa
onlara dedi: «Qısa bir müddət də nur
sizin aranızda olacaq. Nurunuz olarkən
gəzin ki, sizi qaranlıq tutmasın. Çünki
qaranlıqda gəzən hara getdiyini bilməz.
36 Nurunuz var ikən nura iman edin ki,
nur övladları olasınız».

Xalqın inadkarlığı

İsa bu sözləri söyləyəndən sonra gedib
onlardan gizləndi. 37 Onların qabağında
bu qədər əlamət göstərdiyi halda yenə
Ona iman etmirdilər. 38 [s]Bunlar ona
görə baş verdi ki, Yeşaya peyğəmbərin
bu sözləri yerinə yetsin:

«Ya Rəbb, xəbərimizə kim inandı,
Rəbbin gücü kimə zühur oldu?»

39 Onlar iman edə bilmirdilər, ona görə
ki Yeşaya başqa yerdə deyib:

40 [t]«Allah onların gözlərini kor etdi
Və ürəklərini kütləşdirdi ki,
Gözləri ilə görməsinlər,
Ürəkləri ilə anlamasınlar
Və Mənə sarı dönməsinlər ki,
Mən onlara şəfa verim».

41 Yeşaya İsanın ehtişamını gördüyü
üçün bu sözləri deyərək Onun
barəsində danışıb. 42 Bununla bərabər,
rəhbərlərdən bir çoxu İsaya iman etdi,
lakin sinaqoqdan qovulmasınlar deyə
fariseylərə görə bunu açıq bildirmədilər.

---

*__12:31__ *Bu dünyanın hökmdarı* – yəni Şeytan.

[q]__12:25__ Mat. 10:39; 16:25; Mark 8:35; Luka 9:24; 17:33
[r]__12:34__ Zəb. 110:4; Yeş. 9:7; Yez. 37:25; Dan. 7:14 [s]__12:38__ Yeş. 53:1
[t]__12:40__ Yeş. 6:10; Mat. 13:14-15; Mark 4:12; Həv. 28:26-27

43 Çünki insanlardan izzət qazanmağı
Allahdan izzət almaqdan artıq sevdilər.
44 İsa nida edib dedi: «Mənə iman
edən Mənə deyil, Məni Göndərənə iman
edir. 45 Məni görən də Məni Göndərəni
görür. 46 Mən dünyaya nur olub gəldim
ki, Mənə iman edən hər kəs qaranlıqda
qalmasın. 47 Kim sözlərimi eşidib onlara
riayət etməzsə,* Mən onu mühakimə
etmərəm, çünki dünyanı mühakimə
etmək üçün deyil, onu xilas etmək üçün
gəldim. 48 Məni rədd edib sözlərimi
qəbul etməyəni mühakimə edən bir şey
var: bu da Mənim söylədiyim sözdür
ki, son gündə onu mühakimə edəcək.
49 Çünki Mən Özümdən söyləmədim,
Məni göndərən Ata nə deyəcəyim
və nə söyləyəcəyim haqqında Mənə
əmr verdi. 50 Mən bilirəm ki, Onun
əmri əbədi həyatdır. Beləcə Mənim
söylədiklərimi Ata Mənə necə dedisə,
eləcə də söyləyirəm».

İsa şagirdlərinin ayaqlarını yuyur

13 Pasxa bayramı ərəfəsi idi. İsa
artıq bu dünyadan ayrılıb Atanın
yanına gedəcəyi məqamın gəldiyini
bilirdi. O, dünyada Özünə məxsus
olanları həmişə sevmişdi və axıra
qədər də sevdi. 2 Axşam yeməyi zamanı
iblis artıq Ona xəyanət etmək fikrini
Şimon İskaryot oğlu Yəhudanın ürəyinə
qoymuşdu. 3 İsa Atanın hər şeyi Onun
ixtiyarına verdiyini, Allahdan gəldiyini
və Allahın yanına qayıdacağını bilirdi.
4 O, süfrədən qalxıb üst paltarını bir
yana qoydu və bir dəsmal götürüb
belinə bağladı. 5 Sonra ləyənə su töküb
şagirdlərin ayaqlarını yumağa və belinə
bağladığı dəsmalla silməyə başladı. 6 İsa
Şimon Peterə yaxınlaşanda o, İsaya
«Ya Rəbb, Sənmi mənim ayaqlarımı
yuyacaqsan?» dedi. 7 İsa cavabında
ona dedi: «Mənim nə etdiyimi sən indi
bilməzsən, amma sonra anlayacaqsan».
8 Peter Ona dedi: «Mənim ayaqlarımı
heç vaxt yumayacaqsan!» İsa ona cavab
verdi: «Əgər səni yumasam, Mənim
yanımda yerin olmaz». 9 Şimon Peter
Ona dedi: «Ya Rəbb, təkcə ayaqlarımı
deyil, əllərimi və başımı da yu». 10 İsa
ona dedi: «Çimmiş adam üçün təkcə
ayaqlarını yumaq kifayətdir, çünki
başdan-başa təmizdir. Siz də təmizsiniz,
amma hamınız yox». 11 Çünki Ona
kimin xəyanət edəcəyini bilirdi, buna
görə də «hamınız təmiz deyilsiniz»
söylədi.
12 [u]İsa onların ayaqlarını yuduqdan
sonra paltarını geyindi və yenə süfrəyə
oturaraq onlara dedi: «Mənim sizə
nə etdiyimi bilirsinizmi? 13 Siz Məni
“Müəllim” və “Rəbb” deyə çağırırsınız
və doğru deyirsiniz, çünki Mən elə
Oyam. 14 İndi ki Mən Rəbb və Müəllim
olduğum halda sizin ayaqlarınızı
yudum, siz də bir-birinizin ayaqlarını
yumalısınız. 15 Çünki sizə nümunə
göstərdim ki, Mənim sizə etdiyimi siz
də bir-birinizə edəsiniz. 16 [v]Doğrusunu,
doğrusunu sizə deyirəm: qul ağasından,
elçi də onu göndərəndən üstün deyil.
17 Əgər bu şeyləri bilib onlara əməl
edirsinizsə, bəxtiyarsınız.
18 [w]Hamınız barədə söyləmirəm. Mən
Öz seçdiklərimi tanıyıram. Amma qoy
“çörəyimi yeyən Mənə xəyanət etdi”
deyən Müqəddəs Yazı yerinə yetsin.
19 İndi bu şeylər baş verməzdən əvvəl
sizə bunları söyləyirəm ki, baş verəndə
inanasınız: Mən Oyam. 20 [x]Doğrusunu,
doğrusunu sizə deyirəm: Mənim
göndərdiyim bir nəfəri qəbul edən şəxs

*12:47 *Onlara riayət etməzsə* – bəzi əlyazmalarda *inanmazsa.*

[u]**13:12** Luka 22:27 [v]**13:16** Mat. 10:24; Luka 6:40; Yəh. 15:20
[w]**13:18** Zəb. 41:9 [x]**13:20** Mat. 10:40; Mark 9:37; Luka 9:48; 10:16

Məni qəbul edər, Məni qəbul edən də
Məni Göndərəni qəbul edər».

Yəhudanın xəyanəti

(Mat. 26:20-25; Mark 14:17-21; Luka 22:21-33)

21 İsa bu sözləri söylədikdən sonra
ürəyi təlaşa düşdü və şəhadət edib dedi:
«Doğrusunu, doğrusunu sizə deyirəm:
sizlərdən biri Mənə xəyanət edəcək».
22 Şagirdlər Onun kimin barəsində
danışdığını bilməyib çaşqınlıq içində
qalaraq bir-birlərinə baxırdılar.
23 Şagirdlərindən biri – İsanın sevimli
şagirdi Onun köksünə sığınmışdı.
24 Şimon Peter həmin şagirdə işarə
etdi ki, kimin barəsində danışdığını
Ondan soruşsun. 25 Həmin şagird İsanın
sinəsinə əyilərək Ondan soruşdu: «Ya
Rəbb, o kimdir?» 26 İsa cavab verdi:
«Bu çörək tikəsini batırıb kimə versəm,
odur». Tikəni batırıb Şimon İskaryot
oğlu Yəhudaya verdi. 27 Yəhuda tikəni
alan kimi Şeytan onun içinə girdi. İsa
ona «Nə edəcəksənsə, tez et!» dedi.
28 İsanın bunu niyə ona söylədiyini
süfrədə oturanların heç biri başa
düşmədi. 29 Pul qutusu Yəhudada
olduğu üçün bəziləri güman etdi ki, İsa
ona «bayrama bizə lazım olan şeyləri
al» yaxud «yoxsullara bir şey ver» deyir.
30 Yəhuda tikəni alan kimi dərhal bayıra
çıxdı. Artıq gecə idi.

Bir-birinizi sevin

31 O çıxandan sonra İsa dedi: «İndi
Bəşər Oğlu izzətləndi və Allah da
Onda izzətləndi. 32 İndi ki Allah Onda
izzətləndi, Allah da Onu Özündə
izzətləndirəcək, tezliklə izzətləndirəcək.
33 [y]Ey övladlarım! Az bir müddət
də sizinlə olacağam. Siz Məni
axtaracaqsınız. Yəhudilərə "Mənim
getdiyim yerə siz gələ bilməzsiniz"
dediyim kimi indi sizə də bunu
söyləyirəm. 34 [z]Sizə yeni bir əmr
verirəm: bir-birinizi sevin, Mən sizi
sevdiyim kimi siz də bir-birinizi sevin.
35 Əgər bir-birinizə məhəbbətiniz olsa,
bütün insanlar biləcək ki, siz Mənim
şagirdlərimsiniz».

Peterin inkarı barədə peyğəmbərlik

(Mat. 26:31-35; Mark 14:27-31; Luka 22:31-34)

36 Şimon Peter İsadan soruşdu:
«Ya Rəbb, hara gedirsən?» İsa cavab
verdi: «Getdiyim yerə indi ardımca
gələ bilməzsən, amma sonra ardımca
gələcəksən». 37 Peter Ona dedi: «Ya
Rəbb, niyə indi ardınca gələ bilmərəm?
Sənin üçün canımı qurban verərəm».
38 İsa ona dedi: «Mənim üçün canını
qurban verərsənmi? Doğrusunu,
doğrusunu sənə deyirəm: xoruz
banlamazdan əvvəl sən Məni üç dəfə
inkar edəcəksən.

İsa Allaha gedən yoldur

14 Qoy ürəyiniz təlaşa düşməsin.
Allaha iman edin, Mənə də iman
edin. 2 Atamın evində çoxlu məskən var.
Əgər olmasaydı, sizə deyərdim ki, sizin
üçün yer hazırlamağa gedirəm? 3 Gedib
sizin üçün yer hazırlayandan sonra
yenə gəlib sizi Öz yanıma götürəcəyəm
ki, Mənim olduğum yerdə siz də
olasınız. 4 Gedəcəyim yerə aparan* yolu
tanıyırsınız».
5 Tomas İsaya dedi: «Ya Rəbb, hara
gedəcəyini bilmirik, yolu necə tanıya
bilərik?» 6 İsa ona dedi: «Yol, həqiqət
və həyat Mənəm. Mənim vasitəm
olmadan heç kim Atanın yanına gələ

*__14:4__ *Gedəcəyim yerə aparan* – bəzi əlyazmalarda *Hara gedəcəyimi bilirsiniz və oraya aparan.*

[y]**13:33** Yəh. 7:34 [z]**13:34** Yəh. 15:12,17; 1Yəh. 3:23; 2Yəh. 5

bilməz. 7 Əgər Məni tanısaydınız,
Atamı da tanıyardınız. İndidən siz Onu
tanıyırsınız, Onu görmüsünüz». 8 Filip
Ona dedi: «Ya Rəbb, Atanı bizə göstər,
bu bizim üçün kifayətdir». 9 İsa ona dedi:
«Xeyli müddətdir ki, Mən sizinləyəm,
Məni tanımadınmı, Filip? Məni görən,
Atanı görmüş olur. Bəs sən niyə
“Atanı bizə göstər” deyirsən? 10 Mənim
Atada, Atanın da Məndə olduğuna
inanmırsanmı? Sizə söylədiyim sözləri
Özümdən söyləmirəm, Məndə olan Ata
Öz işlərini görür. 11 Mən Atadayam,
Ata da Məndədir, bu sözümə inanın.
Heç olmasa o işlərə görə inanın.
12 Doğrusunu, doğrusunu sizə deyirəm:
Mənə iman edən şəxs Mənim etdiyim
işləri özü də edəcək, hətta bunlardan
da artığını edəcək. Çünki Mən Atanın
yanına gedirəm 13 və Mənim adımla
hər nə diləsəniz, onu edəcəyəm ki,
Ata Oğulda izzətlənsin. 14 Əgər Mənim
adımla Məndən bir şey diləsəniz, onu
edəcəyəm.

Müqəddəs Ruh barədə vəd

15 Əgər Məni sevirsinizsə, əmrlərimə
riayət edəcəksiniz. 16 Mən də Atadan
xahiş edəcəyəm və O sizə başqa
bir Vəsatətçi göndərəcək ki, daim
sizinlə olsun. 17 O, həqiqət Ruhudur.
Onu dünya qəbul edə bilməz, çünki
Onu nə görür, nə də tanıyır. Sizsə
Onu tanıyırsınız, çünki sizinlə qalır
və daxilinizdə olacaq. 18 Sizi yetim
qoymaram, yanınıza gələcəyəm. 19 Az
bir müddətdən sonra dünya daha
Məni görməyəcək, amma siz Məni
görəcəksiniz. Mən yaşadığım üçün siz
də yaşayacaqsınız. 20 O gün biləcəksiniz
ki, Mən Atamdayam, siz Məndəsiniz
və Mən sizdəyəm. 21 Kim əmrlərimə
bağlı qalıb onlara riayət edirsə, Məni
sevən odur. Məni sevəni Atam sevəcək.
Mən də onu sevib Özümü ona zahir
edəcəyəm».
22 İskaryot deyil, o biri Yəhuda Ona
dedi: «Ya Rəbb, necə olacaq ki, Özünü
dünyaya deyil, bizə zahir edəcəksən?»
23 İsa ona cavab verdi: «Kim Məni sevsə,
sözümə riayət edər, Atam da onu sevər
və Biz onun yanına gəlib onunla məskən
salarıq. 24 Məni sevməyənsə sözlərimə
riayət etməz. Eşitdiyiniz söz Mənim
deyil, Məni göndərən Atanın sözüdür.
25 Hələ yanınızda qalarkən sizə bu
sözləri söylədim. 26 Lakin Vəsatətçi
– Atanın Mənim adımla göndərəcəyi
Müqəddəs Ruh hər şeyi sizə öyrədəcək
və söylədiyim bütün sözləri yadınıza
salacaq. 27 Aranızda sülh qoyub
gedirəm, Öz sülhümü sizə verirəm.
Mən onu sizə dünyanın verdiyi
kimi vermirəm. Qoy ürəyiniz təlaşa
düşməsin və qorxmayın. 28 Sizə
“indi gedirəm, sonra yenə yanınıza
gələcəyəm” söylədiyimi eşitdiniz.
Əgər Məni sevsəydiniz, Atanın yanına
gedəcəyimə sevinərdiniz, çünki
Ata Məndən üstündür. 29 Bunu indi
öncədən sizə söylədim ki, baş verəndə
buna inanasınız. 30 Daha sizinlə çox
danışmayacağam, çünki bu dünyanın
hökmdarı gəlir. Onun Mənim üzərimdə
heç bir səlahiyyəti yoxdur. 31 Ancaq
dünya bilməlidir ki, Mən Atanı sevirəm
və Ata Mənə nə əmr etdisə, ona əməl
edirəm. İndi isə qalxın buradan gedək.

Meynə və budaqlar

15 Mən həqiqi Meynəyəm, Atam
da Bağbandır. 2 Məndə olub
bəhrə verməyən hər budağı Atam
qoparır. Bəhrə verən hər budağı isə
budayıb təmizləyir ki, daha çox bəhrə
versin. 3 Sizə söylədiyim söz sayəsində
siz artıq təmizsiniz. 4 Məndə qalın,
Mən də sizdə qalım. Budaq meynədə
qalmasa, özündən bəhrə vermədiyi
kimi siz də Məndə qalmasanız, bəhrə
verə bilməzsiniz. 5 Meynə Mənəm, sizsə
budaqlarsınız. Kim Məndə qalsa, Mən

də onda qalsam, çoxlu bəhrə verər,
çünki Mənsiz heç nə edə bilməzsiniz.
6 Kim Məndə qalmasa, budaq kimi
kənara atılıb quruyar. Belə budaqlar
yığılıb oda atılaraq yanar. 7 Əgər Məndə
qalsanız və sözlərim sizdə qalsa, nə
istəyirsinizsə, diləyin, sizə veriləcək.
8 Sizin çoxlu bəhrə verərək Mənim
şagirdlərim olmağınızla Atam izzətlənir.
9 Ata Məni sevdiyi kimi Mən də sizi
sevdim. Mənim məhəbbətimdə qalın.
10 Əgər əmrlərimə riayət etsəniz, Mənim
məhəbbətimdə qalacaqsınız, necə ki
Mən Atamın əmrlərinə riayət edərək
Onun məhəbbətində qalıram.
11 Bu sözləri sizə söylədim ki,
sevincim sizdə olsun və sevinciniz kamil
olsun. 12 [a]Mənim əmrim belədir: Mən
sizi sevdiyim kimi siz də bir-birinizi
sevin. 13 Heç kəsin məhəbbəti dostları
uğrunda canını qurban verən adamın
məhəbbətindən üstün ola bilməz.
14 Əgər sizə əmr etdiyim şeylərə əməl
etsəniz, siz Mənim dostlarımsınız.
15 Artıq sizə qul demirəm, çünki qul
ağasının nə etdiyini bilmir. Mən sizə
dost deyirəm, çünki Atamdan eşitdiyim
bütün sözləri sizə bildirdim. 16 Siz Məni
seçmədiniz, Mən sizi seçib təyin etdim
ki, gedib bəhrə verəsiniz və bəhrəniz
çox qalsın. Beləcə Mənim adımla
Atadan nə diləyirsinizsə, O sizə verəcək.
17 Beləliklə, sizə əmr edirəm: bir-birinizi
sevin.

Dünyanın nifrəti

18 Əgər dünya sizə nifrət edərsə, onda
yada salın ki, sizdən əvvəl Mənə nifrət
edib. 19 Əgər dünyadan olsaydınız,
dünya özündən olan sizləri sevərdi.
Amma siz dünyadan deyilsiniz, Mən sizi
dünyadan seçdim, buna görə dünya sizə
nifrət edir. 20 [b]Mənim sizə söylədiyim
sözü yadınıza salın: "Qul ağasından
üstün deyil". Əgər Məni təqib etdilərsə,
sizi də təqib edəcəklər, Mənim sözümə
riayət etdilərsə, sizin də sözünüzə riayət
edəcəklər. 21 Lakin bunların hamısını
sizə Mənim adıma görə edəcəklər, çünki
Məni Göndərəni tanımırlar. 22 Əgər
gəlib onlara söyləməsəydim, günahları
olmazdı, amma indi günahları üçün
bəhanələri yoxdur. 23 Mənə nifrət
edən Atama da nifrət edir. 24 Əgər
Məndən başqa heç kəsin etmədiyi işləri
onların arasında etməsəydim, günahları
olmazdı. Amma indi Mənim nə etdiyimi
gördülər, həm Mənə, həm də Atama
nifrət etdilər. 25 [c]Lakin bu ona görə
baş verdi ki, öz Qanunlarında yazılan
"Mənə nahaqdan nifrət etdilər" sözü
yerinə yetsin.
26 Atadan sizə göndərəcəyim Vəsatətçi
– Atanın yanından çıxan həqiqət
Ruhu gəldiyi zaman Mənim barəmdə
şəhadət edəcək. 27 Siz də şəhadət
edəcəksiniz, çünki başlanğıcdan
Mənimlə birlikdəsiniz.

16 Büdrəməyəsiniz deyə bunları sizə
söylədim. 2 Sizi sinaqoqlardan
qovacaqlar. Hətta o zaman gəlir ki, sizi
öldürən hər kəs Allaha xidmət etdiyini
zənn edəcək. 3 Onlar bunları edəcəklər,
çünki nə Atanı, nə də Məni tanıdılar.
4 İndi bu şeyləri sizə bildirdim ki, vaxtı
gələndə sizə söylədiyimi yada salasınız.

Müqəddəs Ruhun işi

Əvvəldən bunları sizə söyləmədim,
çünki sizinlə birlikdə idim. 5 İndi isə
Məni Göndərənin yanına gedirəm və
heç biriniz Məndən "Hara gedirsən?"
deyə soruşmur. 6 Amma sizə bu şeyləri
söylədiyim üçün ürəyiniz kədərlə doldu.
7 Bununla belə, Mən sizə həqiqəti
söyləyirəm: Mənim getməyim sizin

---

[a] **15:12** Yəh. 13:34; 15:17; 1Yəh. 3:23; 2Yəh. 5
[b] **15:20** Mat. 10:24; Luka 6:40; Yəh. 13:16 [c] **15:25** Zəb. 35:19; 69:4

xeyrinizədir. Çünki getməsəm, Vəsatətçi
yanınıza gəlməz, amma getsəm, Onu
sizə göndərəcəyəm. 8 O gələndə günah,
salehlik və mühakimə barədə dünyanı
ifşa edəcək: 9 günah barədə, çünki Mənə
iman etmirlər; 10 salehlik barədə, çünki
Atanın yanına gedirəm və daha Məni
görməyəcəksiniz; 11 mühakimə barədə,
çünki bu dünyanın hökmdarı mühakimə
olunub.
12 Hələ sizə söylənəcək çoxlu sözüm
var, amma indi bunlar ağlınıza sığmaz.
13 Lakin O – həqiqət Ruhu gələndə sizə
hər həqiqətə yol göstərəcək. Çünki
heç nəyi Özündən söyləməyəcək, nə
eşidirsə, onu söyləyəcək və gələcəyi sizə
bildirəcək. 14 O Məni izzətləndirəcək,
çünki Mənim olandan götürüb sizə
bildirəcək. 15 Atanın hər nəyi varsa,
Mənimdir. Buna görə də "Mənim
olandan götürüb sizə bildirəcək"
söylədim. 16 Az bir müddətdən sonra
Məni artıq görməyəcəksiniz, az bir
müddətdən də sonra Məni yenə
görəcəksiniz».*

Kədəriniz sevincə dönəcək

17 O vaxt İsanın bəzi şagirdləri
bir-birinə dedilər: «"Az bir müddətdən
sonra Məni görməyəcəksiniz, az bir
müddətdən də sonra yenə görəcəksiniz"
və "çünki Atanın yanına gedirəm"
sözlərinin mənası nədir?» 18 Öz
aralarında soruşurdular: «Söylədiyi
"az bir müddət" nə deməkdir? Nə
dediyini anlamırıq». 19 İsa Ondan
soruşmaq istədiklərini bilib onlara
dedi: «"Az bir müddətdən sonra Məni
görməyəcəksiniz, az bir müddətdən
də sonra yenə görəcəksiniz" sözüm
barədəmi bir-birinizdən soruşursunuz?
20 Doğrusunu, doğrusunu sizə deyirəm:
siz ağlayıb nalə çəkəcəksiniz, dünya isə
sevinəcək; siz kədərlənəcəksiniz, amma
kədəriniz sevincə dönəcək. 21 Qadın
doğuş zamanı kədərlənər, çünki
vaxtı çatıb. Amma uşağı doğandan
sonra dünyaya bir insan gətirməyinin
sevincinə görə çəkdiyi ağrını yaddan
çıxarar. 22 Beləcə siz də indi kədərlisiniz.
Lakin Mən sizi yenə görəcəyəm, onda
ürəyiniz sevinəcək və heç kəs sevincinizi
sizdən ala bilməyəcək. 23 O gün Məndən
heç nə soruşmayacaqsınız. Doğrusunu,
doğrusunu sizə deyirəm: Mənim adımla
Atadan nə diləyirsinizsə, O sizə verəcək.
24 İndiyə qədər Mənim adımla heç nə
diləmədiniz. Diləyin, alacaqsınız, ta ki
sevinciniz kamil olsun.
25 Sizə bu şeyləri məsəllərlə
söylədim. İndi elə bir zaman
gəlir ki, daha məsəllərlə sizinlə
danışmayacağam, amma Ata barədə
sizə açıq danışacağam. 26 O gün siz
Mənim adımla diləyəcəksiniz. Mən
sizin barənizdə Atadan bir şey xahiş
edəcəyimi söyləmirəm. 27 Axı Ata Özü
sizi sevir, çünki siz Məni sevdiniz və
Mənim Allahın yanından gəldiyimə
inandınız. 28 Atanın yanından dünyaya
gəldim, yenə dünyanı tərk edib Atanın
yanına gedirəm».
29 Şagirdləri dedi: «Budur, indi açıq
danışırsan, heç bir məsəl söyləmirsən.
30 İndi anlayırıq ki, Sən hər şeyi bilirsən
və heç kəsin Səndən soruşmasına
ehtiyacın yoxdur. Buna görə də
Allahdan gəldiyinə inanırıq». 31 İsa
onlara dedi: «İndi inanırsınızmı?
32 Budur, hər birinizin dağılıb öz evinə
gedəcəyiniz və Məni tək qoyacağınız
vaxt gəlir və artıq gəlib. Amma Mən
tək deyiləm, çünki Ata Mənimlədir.
33 Məndə sülhünüz olsun deyə bunları
sizə söylədim. Dünyada əziyyətiniz var,
amma cəsarətli olun! Mən dünyaya
qalib gəldim».

---

*16:16 *Görəcəksiniz* – bəzi əlyazmalarda *görəcəksiniz. Çünki Atanın yanına gedirəm.*

İsa şagirdləri üçün yalvarır

17 İsa bunları söylədikdən sonra
başını göyə qaldırıb dedi: «Ey
Ata, vaxt gəldi; Öz Oğlunu izzətləndir
ki, Oğul da Səni izzətləndirsin. 2 Sən
Ona bütün bəşər üzərində səlahiyyət
verdin ki, Ona verdiyin şəxslərin
hamısına əbədi həyat versin. 3 Əbədi
həyat da budur ki, Səni – yeganə
həqiqi Allahı və göndərdiyin İsa Məsihi
tanısınlar. 4 Mən yerinə yetirməyi
tapşırdığın işi tamamlamaqla Səni yer
üzündə izzətləndirdim. 5 Ey Ata, dünya
yaranmazdan əvvəl Mən Sənin yanında
olarkən malik olduğum izzəti indi Mənə
Öz yanında ver.
6 Dünyadan Mənə verdiyin adamlara
Sənin adını aşkar etdim. Onlar Səninki
idi. Sən onları Mənə verdin və onlar
Sənin sözünə riayət etdilər. 7 İndi də
bilirlər ki, Mənə verdiyin bütün şeylər
Səndəndir. 8 Çünki Mənə bildirdiyin
sözləri onlara bildirdim, onlar da
qəbul etdilər. Sənin yanından çıxıb
gəldiyimi əminliklə bildilər və Məni
Sən göndərdiyinə inandılar. 9 Mənim
onlar üçün xahişim var. Dünya üçün
deyil, Mənə verdiyin kəslər üçün
xahişim var, çünki onlar Səninkidir.
10 Mənim olan hər şey Sənindir, Sənin
olanlar da Mənimdir və Mən onlarda
izzətlənmişəm. 11 Mən artıq dünyada
deyiləm, onlarsa dünyadadır və Mən
Sənin yanına gəlirəm. Ey Müqəddəs
Ata, onları Mənə verdiyin adınla qoru
ki, Bizim kimi bir olsunlar. 12 [d]Onlarla
birlikdə olduğum zaman onları Mənə
verdiyin adınla* qoruyurdum. Onları
saxladım və Müqəddəs Yazı yerinə
yetsin deyə həlaka gedən adamdan
başqa, onlardan heç biri həlak olmadı.
13 İndi isə Sənin yanına gəlirəm.
Dünyada ikən bu sözləri söyləyirəm ki,
Mənim sevincim onlarda kamil olsun.
14 Mən onlara Sənin sözünü verdim.
Dünya isə onlara nifrət etdi, çünki Mən
dünyadan olmadığım kimi onlar da
dünyadan deyil. 15 Onları dünyadan
götürməyi deyil, şər olandan qorumağı
Səndən xahiş edirəm. 16 Mən dünyadan
olmadığım kimi onlar da dünyadan
deyil. 17 Onları həqiqətlə təqdis et.
Sənin sözün həqiqətdir. 18 Sən Məni
dünyaya göndərdiyin kimi Mən də
onları dünyaya göndərdim. 19 Mən
Özümü onların uğrunda təqdis edirəm
ki, onlar da həqiqətlə təqdis olunsun.
20 Yalnız onlar üçün deyil, onların
sözü ilə Mənə iman edənlər üçün də
xahiş edirəm ki, 21 hamısı bir olsun. Ey
Ata, Sən Məndə, Mən də Səndə olduğum
kimi onlar da Bizdə olsun† ki, dünya
Sənin Məni göndərdiyinə inansın.
22 Mənə verdiyin izzəti Mən də onlara
verdim ki, Biz bir olduğumuz kimi onlar
da bir olsun. 23 Mən onlarda, Sən də
Məndə olmaqla bütünlüklə bir olsunlar
ki, dünya Sənin Məni göndərdiyini,
Məni sevdiyin kimi onları da sevdiyini
bilsin. 24 Ey Ata, istəyirəm ki, Mənə
verdiyin şəxslər də Mənim olduğum
yerdə Mənimlə birlikdə olub Mənim
izzətimi görsünlər. Bu izzəti dünya
yaranmazdan əvvəl Məni sevdiyin üçün
Mənə verdin. 25 Ey ədalətli Ata, dünya
Səni tanımadı, Mənsə Səni tanıdım,
bunlar da Sənin Məni göndərdiyini
bildilər. 26 Sənin adını onlara bildirdim
və yenə bildirəcəyəm ki, Sənin Mənə
bəslədiyin məhəbbət onlarda olsun,
Mən də onlarda olum».

---

*17:12 *Onlarla birlikdə … adınla* – bəzi əlyazmalarda *Dünyada onlarla birlikdə olduğum zaman Mənə verdiyin kəsləri adınla.*
†17:21 *Olsun* – bəzi əlyazmalarda *bir olsun.*

[d]17:12 Zəb. 41:9; Yəh. 13:18

İsanın həbs olunması

(Mat. 26:47-56; Mark 14:43-50; Luka 22:55-57)

18 İsa bunları söylədikdən sonra şagirdləri ilə birgə çıxıb Qidron vadisinin o biri tayına keçdi. Orada bir bağça var idi. İsa və şagirdləri oraya girdilər. 2 Ona xəyanət edən Yəhuda da bu yeri tanıyırdı, çünki İsa tez-tez şagirdləri ilə orada yığışırdı. 3 Beləcə Yəhuda bir alay əsgərlə başçı kahinlərin və fariseylərin göndərdiyi bəzi mühafizəçiləri götürüb çıraqlar, məşəllər və silahlarla oraya gəldi. 4 İsa başına gələcək hər şeyi bildiyi üçün qabağa çıxdı və «Kimi axtarırsınız?» deyə onlardan soruşdu. 5 Ona cavab verdilər: «Nazaretli İsanı». İsa onlara «Mənəm» dedi. Ona xəyanət edən Yəhuda da onlarla yanaşı idi. 6 İsa onlara «Mənəm» deyəndə geri çəkilib yerə qapandılar. 7 Onda yenə «Kimi axtarırsınız?» deyə onlardan soruşdu. Onlar da «Nazaretli İsanı» dedilər. 8 İsa cavab verdi: «Sizə dedim ki, Mənəm. Əgər Məni axtarırsınızsa, yanımdakıları buraxın getsinlər». 9 Bunu etdi ki, əvvəlcə dediyi «Mənə verdiyin şəxslərin heç birini həlak olmağa qoymadım» sözü yerinə yetsin. 10 Şimon Peterin yanında qılınc var idi. Onu çəkib baş kahinin qulunu vuraraq sağ qulağını kəsdi. O qulun adı Məlik idi. 11 [e]Onda İsa Peterə dedi: «Qılıncı qınına qoy! Atanın Mənə verdiyi kasanı* içməyimmi?»

12 Beləcə minbaşı ilə alay və Yəhudi başçılarının mühafizəçiləri İsanı tutub əl-qolunu bağladılar. 13 Onu əvvəlcə Xananın yanına apardılar, çünki Xanan o il baş kahin olan Qayafanın qayınatası idi. 14 [f]Bu həmin Qayafa idi ki, «bir Adamın xalq uğrunda ölməsi yaxşıdır» deyə Yəhudi başçılarına məsləhət vermişdi.

Peterin ilk inkarı

(Mat. 26:69-70; Mark 14:66-68; Luka 22:55-57)

15 Şimon Peter və başqa bir şagird İsanın ardınca gedirdilər. Baş kahin həmin şagirdi tanıdığı üçün o, İsa ilə birlikdə baş kahinin həyətinə girdi. 16 Peter isə bayırda qapının yanında durmuşdu. O vaxt baş kahinin tanıdığı bu şagird bayıra çıxıb qapıçı qızla danışdı və Peteri içəri gətirdi. 17 Bu arada qapıçı qız Peterdən soruşdu: «Yoxsa sən də bu Adamın şagirdlərindənsən?» O isə «xeyr, deyiləm» dedi. 18 Soyuq olduğu üçün qullar və mühafizəçilər orada ocaq qalamışdılar və ətrafında dayanıb isinirdilər. Peter də onlarla yanaşı dayanıb isinirdi.

Baş kahinin yanında sorğu-sual

(Mat. 26:59-66; Mark 14:55-64; Luka 22:66-71)

19 O vaxt baş kahin İsadan şagirdləri və təlimi barədə soruşdu. 20 İsa ona cavab verdi: «Mən dünyaya açıq söyləmişəm, Yəhudilərin hamısının toplaşdıqları sinaqoqlarda və məbəddə həmişə təlim öyrədirdim, Mən heç nəyi gizli söyləməmişəm. 21 Niyə Məndən soruşursan? Nə dediyimi eşidən adamlardan soruş. Axı onlar Mənim söylədiyim şeyləri bilirlər». 22 İsa bu sözləri söyləyəndən sonra orada duran mühafizəçilərdən biri «Baş kahinə beləmi cavab verirsən?» deyib Ona bir şillə vurdu. 23 İsa ona cavab verdi: «Əgər haqsız danışdımsa, haqsız olduğunu sübut et. Əgər doğru dedimsə, onda Məni nə üçün vurursan?» 24 Xanan Onu

---

*__18:11__ *Kasa* – İsanın çarmıxdakı ölümünün rəmzi.

[e]__18:11__ Mat. 26:39; Mark 14:36; Luka 22:42 [f]__18:14__ Yəh. 11:49-50

əl-qolu bağlı halda baş kahin Qayafanın
yanına göndərdi.

Peterin ikinci və üçüncü inkarı

*(Mat. 26:71-75; Mark
14:69-72; Luka 22:58-62)*

25 Şimon Peter bayırda durub isinirdi.
Ondan soruşdular: «Yoxsa sən də
Onun şagirdlərindənsən?» O inkar edib
«xeyr, deyiləm» söylədi. 26 Baş kahinin
qullarından biri Peterin vurub qulağını
kəsdiyi adamın qohumu idi. Həmin
qul «Səni bağçada Onunla birlikdə
görmədimmi?» deyə Peterdən soruşdu.
27 Peter yenə inkar etdi. Həmin anda
xoruz banladı.

İsa vali Pilatın önündə

*(Mat. 27:1-2,11-31; Mark
15:1-20; Luka 23:3-5,13-25)*

28 Sonra Yəhudi başçıları İsanı
Qayafanın yanından vali sarayına
apardılar. Səhər açılırdı. Amma özləri
vali sarayına girmədilər ki, murdar
olmasınlar və Pasxa yeməyini yeyə
bilsinlər. 29 Ona görə də Pilat bayıra,
onların yanına çıxıb dedi: «Bu Adamı
nədə ittiham edirsiniz?» 30 Onlar
Pilata cavab verdilər: «Əgər bu Adam
cinayətkar olmasaydı, Onu sənə təslim
etməzdik». 31 Pilat onlara dedi: «Onu siz
götürüb öz Qanununuza görə mühakimə
edin». Yəhudi başçıları Pilata dedi:
«Bizim heç kəsi edam etməyə icazəmiz
yoxdur». 32 [g]Onlar belə dedilər ki, İsanın
necə bir ölümlə öləcəyinə işarə edərək
söylədiyi söz yerinə yetsin.
33 Pilat yenə vali sarayına girdi,
İsanı çağırıb Ona dedi: «Yəhudilərin
Padşahı Sənsənmi?» 34 İsa cavab verdi:
«Sən bunu özündənmi söyləyirsən,
yoxsa başqaları sənə Mənim barəmdə
danışdılar?» 35 Pilat dedi: «Məgər
mən Yəhudiyəm? Səni Öz millətin
və başçı kahinlər mənə təslim etdi.
Söylə, nə etmisən?» 36 İsa cavab verdi:
«Mənim Padşahlığım bu dünyadan
deyil. Əgər Mənim Padşahlığım bu
dünyadan olsaydı, xidmətçilərim
Yəhudi başçılarına təslim edilməməyim
üçün döyüşərdi, amma indi Mənim
Padşahlığım buradan deyil». 37 Pilat
ona dedi: «Demək, Sən Padşahsan?» İsa
cavab verdi: «Sənin dediyin kimi Mən
Padşaham. Mən həqiqət barədə şəhadət
etmək üçün doğulub dünyaya gəldim.
Həqiqətdən olan hər kəs Mənim səsimə
qulaq asar». 38 Pilat Ona «Həqiqət
nədir?» dedi.

Bunu deyəndən sonra yenə bayıra,
Yəhudilərin yanına çıxıb onlara dedi:
«Mən Onda heç bir təqsir görmürəm.
39 Axı sizdə bir adətdir ki, Pasxa
zamanı mən sizin üçün bir nəfəri azad
edirəm. İndi istəyirsinizsə, sizin üçün
Yəhudilərin Padşahını azad edim?»
40 Bunun cavabında onlar yenə bağırıb
dedi: «Bu adamı yox, Barabbanı azad
et!» Barabba isə bir quldur idi.

İsanın ölümə məhkum edilməsi

19 Onda Pilat İsanı aparıb
qamçılatdı. 2 Əsgərlər də
tikandan bir tac hörüb Onun başına
qoydular və Ona tünd qırmızı paltar
geyindirdilər. 3 Onlar İsanın yanına
gəlib «Yəhudilərin Padşahı sağ olsun!»
deyirdilər və Ona şillə vururdular.
4 Pilat yenə bayıra çıxıb Yəhudilərə
dedi: «Budur, Onu bayıra, sizin
yanınıza gətirirəm ki, Onda bir təqsir
görmədiyimi biləsiniz». 5 O zaman
İsa başında tikandan tac, əynində
tünd qırmızı paltar bayıra çıxdı.
Pilat onlara dedi: «O Adam budur!»
6 Başçı kahinlər və mühafizəçilər Onu
gördükdə «Çarmıxa çək, çarmıxa çək!»
deyə bağırdılar. Pilat onlara dedi:

---

[g] **18:32** Yəh. 3:14; 12:32

«Onu özünüz götürüb çarmıxa çəkin,
çünki mən Onda bir təqsir görmürəm».
7 Yəhudilər ona cavab verdilər: «Bizim
bir qanunumuz var, bu qanuna görə O
ölməlidir, çünki Özünü Allahın Oğlu
adlandırır».
8 Pilat bu sözü eşidəndə daha da
qorxdu. 9 Yenə vali sarayına girib İsadan
soruşdu: «Sən haradansan?» Amma İsa
ona cavab vermədi. 10 Pilat Ona dedi:
«Mənəmi cavab vermirsən? Bilmirsən
ki, Səni azad etməyə yaxud çarmıxa
çəkməyə səlahiyyətim var?» 11 İsa ona
cavab verdi: «Əgər sənə yuxarıdan
verilməsəydi, Mənim üzərimdə heç bir
səlahiyyətin olmazdı. Buna görə də
Məni sənə təslim edənin günahı daha
böyükdür». 12 Bundan sonra Pilat Onu
azad etməyə çalışdı, ancaq Yəhudilər
bağırıb dedilər: «Əgər bu Adamı azad
etsən, qeysərin dostu deyilsən. Kim
özünü padşah elan edirsə, qeysərə qarşı
çıxmış olur».
13 Pilat bu sözü eşitdikdə İsanı
bayıra apardı və ibranicə Qabbata,
yəni Daş döşəmə deyilən yerdə hökm
kürsüsünə oturdu. 14 Pasxaya hazırlıq
günü idi. Altıncı saat* radələri idi. Pilat
Yəhudilərə «Padşahınız budur!» dedi.
15 Amma onlar «Yox, rədd olsun, rədd
olsun! Onu çarmıxa çək!» deyə bağırdı.
Pilat onlardan soruşdu: «Padşahınızımı
çarmıxa çəkim?» Başçı kahinlər cavab
verdilər: «Qeysərdən başqa padşahımız
yoxdur!» 16 Onda Pilat İsanı çarmıxa
çəkilmək üçün onlara təslim etdi.

İsanın çarmıxa çəkilməsi

(Mat. 27:32-44; Mark 15:21-32; Luka 23:24-43)

Əsgərlər İsanı götürüb apardılar.
17 İsa çarmıxını Özü daşıyaraq ibranicə
Qolqota, yəni «Kəllə yeri» adlanan
yerə çıxdı. 18 Orada Onu və başqa iki
nəfəri çarmıxa çəkdilər: biri İsanın
sağında, o biri isə solunda idi, İsa
da ortada idi. 19 Pilat bir lövhə yazıb
onu çarmıxın üstündə asdırdı. Orada
belə yazılmışdı: «Yəhudilərin Padşahı
Nazaretli İsa». 20 Yəhudilərin bir çoxu
bu lövhəni oxudu, çünki İsanın çarmıxa
çəkildiyi yer şəhərə yaxın idi və lövhədə
ibranicə, latınca və yunanca yazılmışdı.
21 Bunu görüb Yəhudi başçı kahinləri
Pilata dedilər: «“Yəhudilərin Padşahı”
yox, “Özünü Yəhudilərin Padşahı
adlandıran” yaz». 22 Pilat cavab verdi:
«Nə yazdımsa, yazdım».
23 Əsgərlər İsanı çarmıxa çəkdikləri
zaman Onun paltarlarını götürüb hər
əsgər üçün bir pay olmaqla dörd hissəyə
böldülər. Tikişsiz və başdan-ayağa
toxunma olan köynəyini götürdülər.
24 [h]Onlar bir-birinə dedilər: «Bunu
cırmayaq, püşk ataq, görək kimin olur».
Müqəddəs Yazıdakı
«Aralarında paltarlarımı
bölüşdürdülər,
Geyimim üçün püşk atdılar»
sözü yerinə yetsin deyə əsgərlər bunu
etdilər.
25 İsanın çarmıxı yanında anası,
anasının bacısı, Klopanın arvadı
Məryəm və Məcdəlli Məryəm
dayanmışdı. 26 İsa anasını və onun
yanında Öz sevimli şagirdinin
dayandığını gördükdə anasına dedi:
«Ana, bu sənin oğlundur!» 27 Sonra isə
şagirdə dedi: «Bu da sənin anandır!»
Həmin andan sonra şagird onu öz evinə
apardı.

---

*19:14 *Altıncı saat* – hazırkı vaxtla günorta saat on iki.

[h]19:24 Zəb. 22:18

İsanın ölümü

(Mat. 27:45-56; Mark 15:33-41; Luka 23:44-49)

28 [i]Daha sonra İsa hər şeyin artıq
tamam olduğunu bilərək Müqəddəs Yazı
tam yerinə yetsin deyə «Susadım!» dedi.
29 Orada şərab sirkəsi ilə dolu bir qab
qoyulmuşdu. Bir süngəri şərab sirkəsinə
batıraraq züfaya taxıb İsanın ağzına
yaxınlaşdırdılar. 30 İsa şərab sirkəsini
daddı. Sonra «tamam oldu» dedi və
başını əyib ruhunu tapşırdı.
31 Hazırlıq günü olduğuna görə
Yəhudi başçıları Pilatdan çarmıxa
çəkilənlərin baldırlarının qırılmasını və
cəsədlərin götürülməsini xahiş etdilər.
Onlar cəsədlərin Şənbə günü çarmıxda
qalmasını istəmirdilər, çünki o Şənbə
günü böyük bir bayram idi. 32 Onda
əsgərlər gəlib əvvəl İsa ilə çarmıxa
çəkilən bir adamın, sonra isə o biri
adamın baldırlarını qırdılar. 33 İsanın
yanına gələndə isə Onun artıq öldüyünü
görüb baldırlarını qırmadılar. 34 Amma
əsgərlərdən biri Onun böyrünü nizə ilə
deşdi, o anda oradan qan və su axdı.
35 Bunu görən adam özü şəhadət edir və
onun şəhadəti doğrudur, sizin də iman
etməyiniz üçün həqiqəti söylədiyini
bilir. 36 [j]Bunlar ona görə oldu ki,
Müqəddəs Yazıdakı «Onun bir sümüyü
də qırılmayacaq» sözü yerinə yetsin.
37 [k]Yenə başqa bir Yazıda «bədənini
deşdikləri Şəxsə baxacaqlar» deyilir.

İsanın dəfni

(Mat. 27:57-61; Mark 15:42-47; Luka 23:50-56)

38 Bundan sonra Arimateyalı Yusif
Pilatdan İsanın cəsədini götürməyi
xahiş etdi. Yusif İsanın şagirdi idi,
amma Yəhudi başçılarından qorxduğu
üçün bunu gizli saxlayırdı. Pilat ona
izin verdi və Yusif gəlib İsanın cəsədini
götürdü. 39 [l]Vaxtı ilə gecə ikən İsanın
yanına gələn Nikodim də gəlib yüz
litraya* qədər qarışıq mirra və əzvay
gətirdi. 40 İsanın cəsədini götürüb
Yəhudilərin dəfn adətinə uyğun olaraq
ətirlərlə birgə kətan bezlərə sarıdılar.
41 İsanın çarmıxa çəkildiyi yerdə bir
bağça, bu bağçanın içində də hələ heç
kəsin qoyulmadığı təzə bir qəbir var idi.
42 Qəbir yaxında olduğuna görə İsanın
cəsədini oraya qoydular, çünki o gün
Yəhudilərin Hazırlıq günü idi.

İsanın dirilməsi

(Mat. 28:1-8; Mark 16:1-8; Luka 24:1-12)

20 Həftənin ilk günü† tezdən, hələ
qaranlıq ikən Məcdəlli Məryəm
qəbirin yanına gəldi. O gördü ki, daş
qəbirin ağzından götürülüb. 2 Onda
qaçıb Şimon Peterlə İsanın sevimlisi
olan o biri şagirdin yanına gəldi və
onlara dedi: «Rəbbi qəbirdən aparıblar
və hara qoyulduğunu bilmirik». 3 Peterlə
o biri şagird bayıra çıxıb qəbirə tərəf
getdilər. 4 İkisi birgə qaçırdı, amma o
biri şagird Peterdən daha cəld qaçdı və
qabaqca qəbirə o çatdı. 5 Əyilib içəri
baxdı və kətan bezlərin düşüb-qaldığını
gördü, ancaq içəri girmədi. 6 O vaxt
onun ardınca Şimon Peter də gəlib
qəbirə girdi. O, düşüb-qalan kətan
bezləri 7 və İsanın başına qoyulmuş
dəsmalı gördü. Dəsmal kətan bezlərin
yanında deyil, başqa bir yerdə bükülü
qalmışdı. 8 Onda qəbirin yanına
qabaqca gələn o biri şagird də içəri girib
bunları gördü və iman etdi. 9 Çünki

---

*__19:39__ *Yüz litra* – təqribən 30 kq.
†__20:1__ *Həftənin ilk günü* – yəni bazar günü.

[i]__19:28__ Zəb. 22:15; 69:21 [j]__19:36__ Çıx. 12:46; Say. 9:12; Zəb. 34:20
[k]__19:37__ Zək. 12:10; Vəhy 1:7 [l]__19:39__ Yəh. 3:1-2

onlar İsanın mütləq ölülər arasından
diriləcəyini bildirən Müqəddəs Yazını
hələ anlamırdılar. 10 Beləcə şagirdlər
yenə evlərinə qayıtdılar.

İsanın Məcdəlli Məryəmə görünməsi

(Mat. 28:9-10; Mark 16:9-11)

11 Məryəm isə ağlayaraq qəbirin
bayırında dayanmışdı. Ağlaya-ağlaya
əyilib qəbirin içinə baxdı. 12 Orada
ağ paltar geymiş iki mələk gördü:
biri İsanın cəsədinin qoyulduğu
yerin başında, o biri isə ayağında
oturmuşdu. 13 Onlar Məryəmdən
«Ey qadın, niyə ağlayırsan?» deyə
soruşdu. Məryəm də onlara dedi:
«Rəbbimi qəbirdən aparıblar və hara
qoyduqlarını bilmirəm». 14 Bunu
deyəndən sonra arxaya dönüb İsanın
orada dayandığını gördü, amma Onun
İsa olduğunu bilmədi. 15 İsa ondan
soruşdu: «Ey qadın, niyə ağlayırsan?
Kimi axtarırsan?» Məryəm Onun
bağban olduğunu güman edərək dedi:
«Ağa, əgər Onu Sən aparmısansa,
hara qoyduğunu mənə söylə, mən də
Onu götürüm». 16 İsa ona «Məryəm!»
dedi. O da dönüb İsaya ibranicə
«Rabbuni!» dedi. «Rabbuni» «Müəllim»
deməkdir. 17 İsa ona dedi: «Mənə
toxunma, çünki Mən hələ Atanın yanına
qalxmamışam. Amma qardaşlarımın
yanına gedib onlara söylə: Öz Atamın
– sizin Atanızın, Öz Allahımın –
sizin Allahınızın yanına qalxıram».
18 Məcdəlli Məryəm şagirdlərin yanına
gəldi, onlara «Rəbbi görmüşəm!» deyib
onun özünə bunları söylədiyini bildirdi.

İsanın şagirdlərinə görünməsi

(Mat. 28:16-20; Mark 16:14-18; Luka 24:36-49)

19 O gün – həftənin ilk günü axşam
çağı Yəhudi başçılarından qorxduqları
üçün şagirdlərin olduqları yerin qapıları
bağlı olsa da, İsa içəri girdi. O ortada
durub onlara «Sizə salam olsun!»
dedi. 20 Bunu söyləyib onlara əllərini
və böyrünü göstərdi. Şagirdlər də
Rəbbi görüb sevindilər. 21 İsa yenə
onlara dedi: «Sizə salam olsun! Ata
Məni göndərdiyi kimi Mən də sizi
göndərirəm». 22 Bunu söylədikdən
sonra onların üzərinə üfürərək dedi:
«Müqəddəs Ruhu alın! 23 [m]Kimin
günahlarını bağışlasanız, bağışlanır,
kimin günahlarını bağışlamasanız,
bağışlanmamış qalır».

İsanın Tomasa görünməsi

24 Lakin On İki şagirddən biri «Əkiz»
adlanan Tomas İsa gələndə onların
yanında deyildi. 25 O biri şagirdlər
Tomasa «Rəbbi gördük» deyəndə onlara
söylədi: «Əgər Onun əllərində mıxların
açdığı yaraları görməsəm, mıxların
yerinə barmağımla toxunmasam,
böyrünə də əlimi qoymasam, buna
heç inanmaram». 26 Səkkiz gündən
sonra İsanın şagirdləri yenə otaqda
toplaşanda Tomas da onların yanında
idi. Qapılar bağlı olsa da, İsa içəri girdi.
O ortada durub «Sizə salam olsun!»
dedi. 27 Bundan sonra Tomasa söylədi:
«Barmağını buraya uzat, əllərimə bax,
əlini də uzat, böyrümə qoy. İmansız
olma, imanlı ol!» 28 Tomas cavab verib
Ona «Ya Rəbbim və Allahım!» dedi.
29 İsa ona dedi: «Sən Məni gördüyün
üçünmü iman etdin? Görmədən iman
edənlər nə bəxtiyardır!»
30 İsa şagirdlərinin gözü önündə
bir çox başqa əlamətlər də göstərdi
ki, bu kitabda yazılmayıb. 31 Amma
buradakılar onun üçün yazılıb ki, siz
İsanın Məsih – Allahın Oğlu olduğuna
inanasınız və iman edərək Onun adı ilə
həyata malik olasınız.

---

[m]**20:23** Mat. 16:19; 18:18

İsa göl kənarında

21 Bu hadisələrdən sonra İsa
Tiberiya gölünün kənarında
yenə şagirdlərə göründü. Bu belə
oldu: 2 Şimon Peter, «Əkiz» adlanan
Tomas, Qalileyanın Qana kəndindən
olan Natanael, Zavdayın oğulları və
Onun başqa iki şagirdi birlikdə idi.
3 [n]Şimon Peter onlara «balıq ovuna
gedirəm» dedi. O birilər də ona «biz də
sənin lə gedirik» dedilər. Onlar gedib
qayığa mindilər, amma o gecə bir şey
tuta bilmədilər. 4 Günəş doğarkən İsa
sahildə dayanmışdı, amma şagirdlər
Onun İsa olduğunu bilmədilər. 5 İsa
onlara dedi: «Uşaqlar, yeməyə bir
şey tutmusunuzmu?» Ona «xeyr»
deyə cavab verdilər. 6 [o]İsa yenə dedi:
«Toru qayığın sağ tərəfinə atın, orada
tapacaqsınız». Eləcə də atdılar və o
qədər balıq tutdular ki, toru çəkə
bilmirdilər. 7 Onda İsanın sevimli
şagirdi Peterə «Bu, Rəbdir» söylədi.
Şimon Peter Onun Rəbb olduğunu
eşidən kimi əynindən çıxartdığı üst
paltarına bürünüb gölə atıldı. 8 O biri
şagirdlər isə balıq torunu çəkə-çəkə
qayıqda gəldilər, çünki sahildən uzaq
deyildilər, cəmi iki yüz qulac* məsafədə
idilər.
9 Onlar quruya çıxanda orada
közərmiş ocağı, onun üzərinə qoyulmuş
balığı və yanında olan çörəyi gördülər.
10 İsa onlara dedi: «İndi tutduğunuz
balıqlardan gətirin». 11 Şimon Peter
qayığa minib yüz əlli üç böyük balıqla
dolu toru quruya çəkdi. Balıq lap çox
olsa da, tor yırtılmadı. 12 İsa onlara
dedi: «Gəlin, səhər yeməyi yeyin».
Şagirdlərdən heç biri Ondan «Sən
kimsən?» deyə soruşmağa cəsarət
etmirdi, çünki Onun Rəbb olduğunu
bilirdilər. 13 İsa gəlib çörəyi götürdü
və onlara verdi, eləcə balığı da verdi.
14 İsa ölülər arasından dirildikdən sonra
artıq üçüncü dəfə idi ki, şagirdlərə
görünürdü.

İsanın Peterlə söhbəti

15 Səhər yeməyindən sonra İsa Şimon
Peterə dedi: «Ey Yəhya oğlu Şimon,
Məni bunlardan çox sevirsənmi?» Peter
ona dedi: «Bəli, ya Rəbb, Səni sevdiyimi
bilirsən». İsa ona dedi: «Quzularımı
bəslə». 16 İkinci dəfə yenə Peterə
dedi: «Ey Yəhya oğlu Şimon, Məni
sevirsənmi?» O da İsaya dedi: «Bəli,
ya Rəbb, Səni sevdiyimi bilirsən». İsa
ona dedi: «Quzularımı otar». 17 Üçüncü
dəfə Peterə dedi: «Ey Yəhya oğlu
Şimon, Məni sevirsənmi?» Peter üçüncü
dəfə İsanın ona «Məni sevirsənmi?»
sualını verməyinə kədərləndi və Ona
dedi: «Ya Rəbb, Sən hər şeyi bilirsən,
Səni sevdiyimi bilirsən». İsa ona dedi:
«Quzularımı bəslə. 18 Doğrusunu,
doğrusunu sənə deyirəm: cavan olanda
qurşağını özün bağlayıb istədiyin yerə
gedərdin, amma qocalanda əllərini
uzadacaqsan və başqası sənin qurşağını
bağlayıb istəmədiyin yerə aparacaq».
19 İsa bunu ona görə söylədi ki,
Peterin necə öz ölümü vasitəsilə Allahı
izzətləndirəcəyinə işarə etsin. Bunu
söylədikdən sonra ona «ardımca gəl»
dedi.
20 [p]Peter də arxaya dönüb İsanın
sevimli şagirdinin onların ardınca
gəldiyini gördü. Bu həmin şagird idi ki,
axşam yeməyi zamanı İsanın sinəsinə
əyilib «Ya Rəbb, Sənə xəyanət edəcək
adam kimdir?» demişdi. 21 Peter bu
şagirdi görüb İsaya dedi: «Ya Rəbb,
bəs o necə olacaq?» 22 İsa ona dedi:
«Əgər Mən gələnə qədər onun sağ

*21:8 *İki yüz qulac* – təqribən 100 m.

[n]21:3 Luka 5:5 [o]21:6 Luka 5:6 [p]21:20 Yəh. 13:25

qalmasını istəyirəmsə, bundan sənə nə?
Sən ardımca gəl». 23 Beləcə o şagirdin
ölməyəcəyi barədə imanlı bacı-qardaşlar
arasında söz yayıldı. Amma İsa onun
ölməyəcəyini deməmişdi, sadəcə olaraq
«Əgər Mən gələnə qədər onun sağ
qalmasını istəyirəmsə, bundan sənə
nə?» demişdi.

24 Bu hadisələrə şəhadət edərək
bunları yazan həmin şagirddir. Biz də
bilirik ki, onun şəhadəti etibarlıdır.
25 İsanın etdiyi çoxlu başqa şeylər də
var. Əgər bunlar da bir-bir yazılsaydı,
fikrimcə, yazılan kitablar heç dünyaya
sığmazdı.

HƏVARİLƏRİN İŞLƏRİ

GİRİŞ

«Həvarilərin İşləri» Lukanın nəql etdiyi Müjdənin davamıdır. Onun əsas mövzusu İsanın ilk ardıcıllarının Müqəddəs Ruhla dolduğunu və Onun haqqındakı Müjdəni «Yerusəlimdə, bütün Yəhudeya və Samariyada, həmçinin yer üzünün qurtaracağınadək hər yerdə» yaydıqlarını danışmaqdır (1:8).

Bu, Yəhudi xalqının arasında başlamış və sonralar bütün dünyaya yayılmış məsihçi imanının başlanğıcının tarixçəsidir. Bütün bu hadisələr imanlıların birlikdə yığıldığı yerdə, Əllinci Gün bayramı zamanı Müqəddəs Ruhun üzərlərinə enməsi ilə başlayır (2-ci fəsil). Müqəddəs Ruh kitabda təsvir olunmuş bütün hadisələr boyu imanlı cəmiyyətini, onun rəhbərlərini yönəldir və qüvvətləndirir. Müqəddəs Ruhun fəaliyyəti kitabı səciyyələndirən vacib mövzulardan biridir.

Sonrakı mühüm fəsillər isə imanlılar cəmiyyətinin addım-addım böyüyüb şaxələndiyini təsvir edir. İsa Məsihin həvariləri gəzib-dolaşaraq Müjdəni yayırdılar və Allahın möcüzələri onları müşayiət edib söylədikləri həqiqəti aşkar edirdi. Həvarilərin İşləri kitabında yazılmış hadisələr imanlıların həyatında İsa Məsihin Müjdəsinin qüdrətini nümayiş etdirir.

Kitabın məzmunu:

1:1-11 İsanın son əmri və göyə qaldırılması

1:12-26 Yəhudanın yerinə Mattiyanın seçilməsi

2:1–8:3 Yerusəlimdə Müjdə yayımı

8:4–12:25 Yəhudeya və Samariyada Müjdə yayımı

13:1–28:31 Paulun xidməti

13:1–14:28 Paulun ilk müjdəçi səyahəti

15:1-35 Yerusəlimdəki məşvərət

15:36–18:22 Paulun ikinci müjdəçi səyahəti

18:23–21:16 Paulun üçüncü müjdəçi səyahəti

21:17–28:31 Paulun Yerusəlimdə, Qeysəriyyədə və Romada həbs olunması

İsanın göyə qaldırılması

1 [q]Ey Teofil, birinci yazılarım İsanın göyə qaldırıldığı günədək başladığı
işlər və öyrətməyə başladığı tam təlim
barəsindədir. [2] Göyə qaldırılmazdan
əvvəl İsa seçdiyi həvarilərə Müqəddəs
Ruh vasitəsilə əmrlər verdi. [3] Ölüm
əzabını çəkəndən sonra həvarilərə
çoxlu inandırıcı dəlillərlə Özünü diri
olaraq göstərdi. O, qırx gün ərzində
onlara görünərək Allahın Padşahlığı
barədə danışırdı. [4] [r]İsa onlarla duz-çörək
kəsəndə bu əmri verdi: «Yerusəlimdən
kənara çıxmayın, Atanın verdiyi,
Məndən eşitdiyiniz vədin həyata
keçməsini gözləyin. [5] [s]Belə ki Yəhya
su ilə vəftiz edirdi, amma siz bir neçə
gündən sonra Müqəddəs Ruhla vəftiz
olacaqsınız».
[6] Həvarilər bir yerə toplaşanda İsadan
soruşdular: «Ya Rəbb, İsraildə Padşahlığı
indimi bərpa edəcəksən?» [7] İsa cavab
verdi: «Atanın hökmü ilə təyin olunan
vaxtları və tarixləri bilmək sizin
işiniz deyil. [8] [t]Amma Müqəddəs Ruh
üzərinizə enəndə siz qüdrət alacaqsınız
və Yerusəlimdə, bütün Yəhudeya və
Samariyada, həmçinin yer üzünün

---

[q] **1:1** Luka 1:1-4 [r] **1:4** Luka 24:49

[s] **1:5** Mat. 3:11; Mark 1:8; Luka 3:16; Yəh. 1:33

[t] **1:8** Mat. 28:19; Mark 16:15; Luka 24:47-48

qurtaracağınadək hər yerdə Mənim
şahidlərim olacaqsınız». 9 [u]İsa bunları
deyəndən sonra həvarilərin gözləri
qarşısında yuxarı qaldırıldı. Bir bulud
İsanı götürüb onlardan gizlədi. 10 İsa
göyə qalxanda onlar səmaya baxırdılar.
Elə həmin an ağ libaslı iki kişi onların
yanında peyda olub 11 soruşdu: «Ey
Qalileyalılar, niyə səmaya baxa-baxa
qalmısınız? Aranızdan götürülüb göyə
qaldırılan İsanın aparıldığını necə
gördünüzsə, elə də qayıdacaq».

Yəhudanın yerinə Mattiya seçilir

12 Bundan sonra həvarilər Zeytun dağı
adlanan yerdən Yerusəlimə endilər.
Bu dağ Yerusəlimin yaxınlığındadır,
oraya olan məsafə Şənbə yolu* qədərdir.
13 [v]Onlar şəhərə girib qaldıqları evin
yuxarı otağına çıxdılar. Oradakılar
bunlar idi: Peter, Yəhya, Yaqub,
Andrey, Filip, Tomas, Bartalmay, Matta,
Halfay oğlu Yaqub, Millətçi Şimon və
Yaqub oğlu Yəhuda. 14 İsanın anası
Məryəmlə qardaşları və başqa qadınlar
da həvarilərlə birlikdə dayanmadan dua
edirdilər.
15 Həmin günlərdə təxminən yüz
iyirmi bacı-qardaşdan ibarət olan
toplantı arasından Peter qalxıb dedi:
16 «Qardaşlar, İsanı tutanlara yol
göstərən Yəhuda haqqında Müqəddəs
Ruhun Davudun dili ilə əvvəlcədən
dediyi Müqəddəs Yazı sözləri yerinə
yetməlidir. 17 Yəhuda bizə qoşuldu,
bu xidmətdən ona da pay düşdü.
18 [w]Bu adam etdiyi haqsızlığın haqqına
bir tarla satın aldı, sonra da oradan
kəlləmayallaq aşıb qarnı yırtıldı
və bağırsaqları töküldü. 19 Bütün
Yerusəlim əhalisi bunu eşitdi və o
yeri öz dillərində "Haqal-Dema", yəni
"Qan tarlası" adlandırdı. 20 [x]Axı Zəbur
kitabında yazılıb:

"Məskəni viran olsun,
Kimsəsiz, boş qalsın"

və

"Vəzifəsini başqası tutsun".

21–22 [y]Buna görə də Rəbb İsanın aramıza
gəlib-getdiyi müddət ərzində, yəni
Yəhyanın vəftizindən başlayaraq
Rəbb İsanın göyə qaldırıldığı günə
qədər yanımızdakılardan bir kişi
Onun dirilməsinə bizimlə birgə şahid
olmalıdır». 23 Beləliklə, iki nəfəri –
Barsabba çağırılan, həm də Yust adlanan
Yusifi və Mattiyanı namizəd göstərdilər.
24 Sonra dua etdilər: «Ya Rəbb, Sən
hamının ürəyindən xəbərdarsan. Bu
iki nəfərdən birini seçib bizə göstər ki,
25 qoy onlardan biri bu xidmətə – həvari
vəzifəsinə keçsin. Çünki Yəhuda öz
yerini tutsun deyə bu işi atdı». 26 Sonra
püşk atdılar. Püşk Mattiyaya düşdü
və o, həvari sırasına – on bir nəfərin
yanına keçdi.

Müqəddəs Ruhun gəlməsi

2 [z]Əllinci Gün bayramı† zamanı
onların hamısı bir yerə yığılmışdı.
2 Birdən güclü külək uğultusu kimi
göydən bir səs gəlib onlar oturan
evin hər tərəfini bürüdü. 3 Onlara
göründü ki, nə isə alov kimi dillərə
parçalanaraq hər birinin üstünə düşür.
4 Onların hamısı Müqəddəs Ruhla doldu

*1:12 *Şənbə yolu* – təqribən 1 km.
†2:1 *Əllinci Gün bayramı* – yunan mətnində *pentikosti* sözü olub Pasxa bayramından sonra əllinci gün qeyd edilir.

[u]**1:9** Mark 16:19; Luka 24:50-51
[v]**1:13** Mat. 10:2-4; Mark 3:14-19; Luka 6:13-16 [w]**1:18** Mat. 27:3-8 [x]**1:20** Zəb. 69:25; 109:8 [y]**1:21-22** Mat. 3:16; Mark 1:9; 16:19; Luka 3:21-22; 24:51
[z]**2:1** Lev. 23:15-21; Qanun. 16:9-11

və Ruhun danışdırdığına görə başqa
dillərdə danışmağa başladılar.
5 Bu vaxt səma altında mövcud olan
bütün millətlər arasından gələn mömin
Yəhudilər Yerusəlimdə yaşayırdılar.
6 Bu səs gələndə orada böyük
izdiham toplandı. Hamı öz dilində
danışıldığını eşidəndə çaş-baş qaldı.
7 Mat qalaraq heyrət içində dedilər: «Bu
danışanların hamısı Qalileyalı deyilmi?
8 Bəs necə olur ki, biz hamımız öz
ana dilimizi eşidirik? 9 Biz Parfiyalılar,
Midiyalılar, Elamlılar, Mesopotamiyada,
Yəhudeyada, Kappadokiyada, Pontda
və Asiya vilayətində,* 10 Frigiyada,
Pamfiliyada, Misirdə və Liviyanın
Kirenaya yaxın bölgələrində yaşayanlar,
Romada yaşayan 11 Yəhudilər və Yəhudi
dinini qəbul edənlər, Kritlilər, Ərəblər
eşidirik ki, onlar bizim dilimizdə Allahın
əzəmətli işlərindən danışır». 12 Hamı
mat qalıb çaşqınlıq içində bir-birindən
soruşurdu: «Bu nədir?» 13 Bəziləri də
rişxəndlə deyirdi: «Bunlar şirin şərabdan
sərxoş olublar».

Peterin Əllinci Gün bayramında etdiyi vəz

14 Peter On Bir həvari ilə bərabər irəli
çıxdı və izdihama ucadan nida etdi:
«Ey Yəhudilər və Yerusəlimin bütün
sakinləri, sizə bildirirəm, sözlərimə
qulaq asın. 15 Bu adamlar fikirləşdiyiniz
kimi sərxoş deyil. Hələ günün üçüncü
saatıdır.† 16 [a]Bu gördüklərinizi Yoel
peyğəmbər vasitəsilə əvvəlcədən
deyilən hadisədir. 17 Allah dedi ki, axır
zamanda
"Bütün bəşər üzərinə Ruhumdan
tökəcəyəm.
Oğullarınız və qızlarınız peyğəmbərlik
edəcək,
Cavanlarınız görüntülər,
Ağsaqqallarınızsa röyalar görəcək.
18 O günlərdə qul və qarabaşların
üzərinə də
Ruhumdan tökəcəyəm,
Onlar da peyğəmbərlik edəcək.
19 Yuxarıda – göylərdə xariqələr,
Aşağıda – yerdə əlamətlər
göstərəcəyəm:
Qan, alov və tüstü buxarları
görünəcək.
20 Rəbbin möhtəşəm və əzəmətli günü
gəlməzdən əvvəl
Günəş qaranlığa və ay qan rənginə
dönəcək.
21 Rəbbin adını çağıran hər kəs xilas
olacaq".
22 Ey İsraillilər, bu sözlərimə qulaq
asın! Bildiyiniz kimi Allahın aranızda
Nazaretli İsa vasitəsilə yaratdığı
möcüzələr, xariqələr və əlamətlər aydın
göstərdi ki, O, Allahdan gələn Şəxsdir.
23 [b]Allahın əzəldən bilib müəyyən etdiyi
məqsədə uyğun olaraq siz bu Şəxsi
qanunsuzlara təslim edib onların əli
ilə çarmıxa mıxlatdıraraq öldürdünüz.
24 [c]Allah isə ölüm əzablarını kəsərək
Onu diriltdi. Çünki Onu ölüm tutub
saxlaya bilməzdi. 25 [d]Davud da Onun
barəsində demişdi:
"Rəbbə həmişə üz tutmuşam,
Sağımda olduğu üçün sarsılmaram.
26 Elə bunun üçün qəlbim sevinir,
dilim şad olur,
Cismim belə, ümidlə yaşayır.
27 Çünki məni ölülər diyarına
atmazsan,
Mömin insanını çürüməyə
qoymazsan.

---

*2:9 *Asiya vilayəti* – indiki Türkiyə ərazisində olmuş bir vilayət.
†2:15 *Üçüncü saat* – hazırkı vaxtla səhər saat doqquz.

[a]**2:16** Yoel 2:28-32 [b]**2:23** Mat. 27:35; Mark 15:24; Luka 23:33; Yəh. 19:18
[c]**2:24** Mat. 28:5-6; Mark 16:6; Luka 24:5 [d]**2:25** Zəb. 16:8-11

28 Mənə həyat yolunu öyrədirsən,
Hüzurunda mənə doyunca sevinc
verirsən”.
29 Qardaşlar, sizə cəsarətlə deməliyəm
ki, doğrudan da, ulu babamız Davud
ölüb və dəfn olunub. Onun qəbri
bu günə qədər buradadır. 30 [e]Davud
peyğəmbər idi və öz nəslindən bir
Nəfəri* onun taxtına çıxarmaq üçün
Allahın and içərək Davuda vəd etdiyini
bilirdi. 31 [f]Ona görə Məsihin dirilməsini
əvvəlcədən görüb barəsində demişdi ki,
Allah
Onu ölülər diyarına atmaz,
Cismini çürüməyə qoymaz.
32 Allah bu İsanı ölümdən diriltdi və
hamımız buna şahid olduq. 33 Allah Onu
ucaltdı və sağ əlində oturtdu. O, vəd
edilən Müqəddəs Ruhu Atadan götürüb
sizin görüb-eşitdiyiniz kimi üstümüzə
tökdü. 34 [g]Davud özü göylərə qalxmadı,
amma belə dedi:
“Rəbb mənim Ağama dedi:
35 ‹Mən düşmənlərini ayaqlarının
altına kətil kimi salanadək
Sağımda otur›”.
36 Ona görə də qoy bütün İsrail xalqı
möhkəm bilsin ki, Allah sizin çarmıxa
çəkdiyiniz bu İsanı həm Rəbb, həm də
Məsih təyin etmişdir».
37 Bu sözlər ona qulaq asanların
ürəyinə ox kimi sancıldı. Onlar həm
Peterdən, həm də o biri həvarilərdən
soruşdular: «Qardaşlar, bəs biz nə
edək?» 38 Peter onlara cavab verdi:
«Tövbə edin, hamınız İsa Məsihin adı
ilə vəftiz olun. Onda günahlarınız
bağışlanacaq və bəxşiş olaraq Müqəddəs
Ruhu alacaqsınız. 39 Çünki bu vəd siz,
övladlarınız, uzaqdakıların hamısı –
Allahımız Rəbbin çağırdığı hər kəs
üçündür». 40 Peter başqa çox söz deyib
onlara xəbərdarlıq etdi və yalvardı:
«Bu əyri nəsildən xilas olun». 41 Onun
sözünü qəbul edənlər† vəftiz oldular.
O gün üç min nəfərə yaxın insan
imanlılara qoşuldu. 42 Onlar da özlərini
həvarilərin təliminə, hər şeydə şərik
olmağa, birgə çörək bölməyə və duaya
həsr etdilər.

İmanlılar arasında birlik

43 Bütün imanlıların ürəyinə qorxu
düşdü. Həvarilər vasitəsilə çoxlu
xariqələr və əlamətlər göstərilirdi.
44 [h]İman edənlərin hamısı bir yerdə idi,
bütün əmlaklarından da birgə istifadə
edirdi. 45 Onlar mallarını, mülklərini
satıb pulu hər kəsə ehtiyacına görə
paylayırdılar; 46 hər gün məbədə
yığılmaqda davam edir, evlərdə
sevinə-sevinə, səmimi qəlbdən çörək
bölüb yeyirdilər. 47 Onlar Allaha həmd
edir və bütün xalq qarşısında lütf
qazanırdılar. Rəbb isə hər gün insanları
xilas edir və imanlılara qoşurdu.

Şikəst dilənçinin şəfası

3 Bir gün Peterlə Yəhya doqquzuncu
saatda,‡ dua vaxtı məbədə
gedirdilər. 2 Bu zaman ayaqları
anadangəlmə şikəst olan bir kişi
məbədin Gözəl adlı qapısına
gətirilirdi. Hər gün bu adamı ona
görə oraya gətirərdilər ki, məbədə
gəlib-gedənlərdən dilənərək nəzir alsın.
3 O, məbədə girən Peterlə Yəhyanı
görüb onlardan nəzir istədi. 4 Peterlə

*2:30 *Öz nəslindən bir Nəfəri* – bəzi əlyazmalarda *Onun soy-kökündən olan Məsihi dirildib.*
†2:41 *Qəbul edənlər* – bəzi əlyazmalarda *sevinə-sevinə qəbul edənlər.*
‡3:1 *Doqquzuncu saat* – hazırkı vaxtla günortadan sonra saat üç.

[e]2:30 2Şam. 7:12-13; 1Pad. 17:11-12; Zəb. 132:11 [f]2:31 Zəb. 16:10
[g]2:34 Zəb. 110:1 [h]2:44 Həv. 4:32-35

Yəhya ona diqqətlə baxdı. Peter ona
dedi: «Bizə bax». 5 Bu kişi onlardan
nə isə umaraq gözlərini onların üzünə
dikdi. 6 Peter ona dedi: «Nə qızılım, nə
də gümüşüm var ki, sənə verim. Nəyim
varsa, sənə onu verirəm. Nazaretli İsa
Məsihin adı ilə qalx, gəz». 7 Sonra sağ
əlindən tutub onu qaldırdı. Bu kişinin
topuqları və ayaqları dərhal qüvvət aldı.
8 Atılaraq ayağa qalxdı və yeriməyə
başladı. Qaçıb tullana-tullana, Allaha
həmd edərək onlarla bərabər məbədə
girdi. 9 Bütün xalq gördü ki, bu kişi
yeriyir və Allaha həmd edir. 10 Onun
məbədin Gözəl qapısında oturub dilənən
kişi olduğunu tanıyanda hamı ondakı
dəyişikliyə mat qalıb heyrətə düşdü.

Peterin məbəddəki vəzi

11 Bu kişi* Peterin və Yəhyanın
əlindən yapışdı. Heyrətə düşən bütün
xalq onlara tərəf, Süleymanın eyvanı
adlanan yerə qaçdı. 12 Bunu görən Peter
xalqa nida etdi: «Ey İsraillilər, burada
heyrətamiz nə var ki? Niyə gözlərinizi
bizə dikib baxırsınız? Elə bil biz öz
qüdrətimizlə, öz möminliyimizlə bu
kişinin yeriməsinə səbəb olmuşuq.
13 [i]İbrahimin Allahı, İshaqın Allahı
və Yaqubun Allahı, ata-babalarımızın
Allahı Qulu İsanı izzətləndirib. Siz
Onu sataraq Pilatın qarşısında rədd
etdiniz. Pilat Onu azad etmək üçün
qərar vermişdi, 14 [j]amma siz Müqəddəs
və Saleh Olanı rədd edib bir qatilin
azad edilməsini istədiniz. 15 Siz Həyat
Banisini öldürdünüz, amma Allah
Onu ölülər arasından diriltdi. Biz
bunun şahidləriyik. 16 Gördüyünüz və
tanıdığınız bu kişi İsanın adı sayəsində,
Onun adına olan imanla sağaldı. İsa
vasitəsilə olan imanla bu kişi hamınızın
gözü qarşısında tam şəfa tapdı.
17 İndi, ey qardaşlar, bilirəm ki,
rəhbərləriniz kimi siz də bunu
bilmədən etmisiniz. 18 Amma Allah
peyğəmbərlərin dili ilə Öz Məsihinin
əzab çəkməsi barədə əvvəlcədən bəyan
etdiyini yerinə yetirdi. 19 Beləliklə,
günahlarınız silinsin deyə tövbə edib
Allaha tərəf dönün ki, 20 Rəbbin
hüzurunda rahatlıq vaxtı tapasınız
və O da sizin üçün əvvəlcədən təyin
olunan Məsihi, yəni İsanı göndərsin.
21 Çünki Allahın qədimdən bəri
müqəddəs peyğəmbərlərinin dili ilə
məlum etdiyi kimi hər şeyin yenidən
hazırlanacağı vaxtacan İsanın səmada
qalması lazımdır. 22 [k]Musa† belə
demişdi: “Allahınız Rəbb sizin üçün
öz soydaşlarınız içərisindən mənim
kimi bir peyğəmbər yetirəcək. Sizə nə
söyləyəcəksə, ona qulaq asın”. 23 “Bu
peyğəmbərə qulaq asmayan hər adam
xalqı arasından ayrılıb məhv ediləcək”.
24 Şamueldən başlayaraq bütün
peyğəmbərlər bu günləri elan etdilər.
25 [l]Siz də peyğəmbərlərin varisləri,
Allahın ata-babalarınızla kəsdiyi Əhdin
varislərisiniz. Allah İbrahimə demişdi:
“Yer üzünün bütün tayfaları sənin
nəslin vasitəsilə xeyir-dua alacaq”.
26 Allah hər birinizi pis əməllərinizdən
döndərmək və xeyir-dua vermək üçün
Öz Qulunu‡ dirildərək əvvəlcə sizin
yanınıza göndərdi».

---

*3:11 *Bu kişi* – bəzi əlyazmalarda *Şikəstlikdən sağalan bu kişi.*
†3:22 *Musa* – bəzi əlyazmalarda *Musa ata-babalarımıza.*
‡3:26 *Qulunu* – bəzi əlyazmalarda *Qulu İsanı.*

[i]**3:13** Çıx. 3:15
[j]**3:14** Mat. 27:15-23; Mark 15:6-14; Luka 23:13-24; Yəh. 19:12-15
[k]**3:22** Qanun. 18:15,18,19; Lev. 23:29 [l]**3:25** Yar. 12:3; 22:18; 26:4; 28:14

Peterlə Yəhya Ali Şuranın qarşısında

4 Kahinlər, məbəd mühafizəçilərinin
başçısı və sadukeylər xalqa
vəz edən Peterlə Yəhyanın üstünə
getdilər. 2 Çünki bu həvarilərin xalqı
öyrətməsinə, İsaya şamil edərək ölülər
arasından dirilməni bəyan etməsinə
qıcıqlandılar. 3 Onları tutdular və
axşam olduğu üçün sabahkı günə qədər
zindanda saxladılar. 4 Lakin onların
sözünə qulaq asanlardan bir çoxu iman
etdi. Beləliklə, iman edən kişilərin sayı
beş minə qədər çatdı.
5 Ertəsi gün Yəhudilərin rəhbərləri,
ağsaqqalları və ilahiyyatçıları
Yerusəlimə toplaşdılar. 6 Baş kahin
Xanan, Qayafa, Yəhya, İsgəndər
və baş kahinin nəslindən olanların
hamısı orada idi. 7 Peterlə Yəhyanı
onların qarşısına gətirib soruşdular:
«Siz bunu hansı güdrətlə, kimin
adı ilə edirsiniz?» 8 O zaman Peter
Müqəddəs Ruhla dolub dedi: «Ey
xalqın rəhbərləri və ağsaqqalları!
9 Əgər bu gün biz bir xəstəyə etdiyimiz
yaxşılığa və onun necə sağalmasına
görə sorğu-suala çəkiliriksə, 10 hamınız,
bütün İsrail xalqı bilsin ki, bu adam
sizin çarmıxa çəkdiyiniz, lakin Allahın
ölülər arasından diriltdiyi Nazaretli İsa
Məsihin adı ilə qarşınızda sağlam durub.
11 [m]Siz "bənnaların rədd etdiyi daş
guşədaşı olan" həmin İsadır. 12 Ondan
başqa heç kimdə xilas yoxdur. Çünki
səma altında biz insanlara verilən başqa
bir ad yoxdur ki, onun vasitəsilə xilas
olaq».
13 Onlar Peter və Yəhyanın cəsarətini
görəndə, onların savadsız, sadə insanlar
olduğunu biləndə heyrətə düşdülər,
amma tanıdılar ki, onlar İsa ilə birgə
olmuşdular. 14 Şəfa tapan adam Peter
və Yəhya ilə birgə onların gözləri
qarşısında durmuşdu, buna görə onların
əleyhinə heç nə deyə bilmədilər.
15 Ali Şuranın üzvləri onlara bayıra
çıxmağı əmr edəndən sonra aralarında
müzakirəyə başlayıb 16 dedilər: «Bu
adamlara nə edək? Bütün Yerusəlim
əhalisinə aydın olub ki, bu adamların
əli ilə əhəmiyyətli bir əlamət göstərilib
və biz bunu dana bilmərik. 17 Amma
bu xəbərin xalq arasında daha çox
yayılmasının qarşısını almaq üçün
onlara hədə-qorxu gələk ki, bundan
sonra bu Adı çəkib heç kimə heç nə
deməsinlər». 18 Beləcə onları çağırıb
əmr verdilər ki, İsanın adını bəyan
etmək və bu adla hər hansı bir təlim
öyrətmək qadağandır. 19 Lakin Peterlə
Yəhya cavab verib dedilər: «Özünüz
qərar verin, Allaha deyil, sizə qulaq
asmaq Allahın gözündə nə qədər
doğrudur? 20 Axı eşidib-gördüklərimizi
deməyə bilmərik». 21 Ali Şuranın
üzvləri onlara cəza vermək üçün imkan
tapa bilmədiklərinə görə onları bir
daha hədələyəndən sonra azadlığa
buraxdılar. Çünki bütün xalq baş verən
hadisəyə görə Allahı izzətləndirdi.
22 Bu əlamət vasitəsilə sağalan adamın
qırxdan artıq yaşı var idi.

İmanlılar Allahdan cəsarət istəyir

23 Azadlığa buraxılan Peter və Yəhya
öz yoldaşlarının yanına gəlib başçı
kahinlərlə ağsaqqalların sözlərini
onlara çatdırdılar. 24 [n]Yoldaşları bunu
eşidərkən bir nəfər kimi Allaha nida
etdilər: «Ey Pərvərdigarımız, yeri, göyü,
dənizi və bunların içindəki hər şeyi
yaradan Sənsən. 25 [o]Müqəddəs Ruh
vasitəsilə Öz qulun atamız Davudun dili
ilə belə dedin:
"Nə üçün millətlər belə hirslənir,
Ümmətlər boş şeylər düşünür?
26 Dünya şahları yığışır,

[m]**4:11** Zəb. 118:22 [n]**4:24** Çıx. 20:11; Neh. 9:6; Zəb. 146:6 [o]**4:25** Zəb. 2:1-2

Hökmdarlar Rəbbə və Onun məsh
etdiyinə qarşı birləşir”.
27 [p]Həqiqətən, Hirod və Ponti Pilat
başqa millətlər və İsrail xalqı ilə birlikdə
Sənin məsh etdiyin müqəddəs Qulun
İsanın əleyhinə bu şəhərdə* toplaşdı
ki, 28 Sənin əvvəldən qərar verdiyin,
Sənin əlində və niyyətində olan şeyləri
həyata keçirsin. 29 İndi, ya Rəbb,
onların etdikləri hədə-qorxuya bax! Biz
qullarına güc ver ki, Sənin sözlərini tam
cəsarətlə yayaq. 30 Xəstələri sağaltmaq
üçün əlini uzat və müqəddəs Qulun
İsanın adı ilə əlamətlər və xariqələr
göstər». 31 Onlar dualarını qurtaran
kimi toplandıqları yer lərzəyə gəldi və
onların hamısı Müqəddəs Ruhla dolub
Allahın kəlamını cəsarətlə yaymağa
başladı.

İlk imanlıların birlik içində həyatı

32 [q]İmanlıların hamısı canbir qəlbdə
idi. Heç kim öz əmlakına «bu mənimdir»
demir, bütün əmlaklarından birgə
istifadə edirdi. 33 Həvarilər Rəbb
İsanın dirilməsi barədə böyük qüdrətlə
şəhadət edirdilər və hamısının üzərinə
bol-bol lütf ehsan olunurdu. 34 Onların
arasında heç kim yoxsul deyildi. Çünki
onların arasında torpaq və ev sahibi
olanlar mülkünü satıb pulunu gətirər,
35 həvarilərin ixtiyarına verərdi. Bu da
hər kəsə ehtiyacına görə paylanardı.
36 Məsələn, Kiprdə anadan olan,
həvarilərin Barnaba adlandırdığı
(mənası «Təsəlli oğlu») Levili Yusif
37 sahib olduğu torpaq sahəsini sataraq
pulunu gətirib həvarilərin ixtiyarına
verdi.

Xananya və Sapfira

5 Xananya adında bir kişi arvadı
Sapfira ilə razılığa gəlib bir mülk
satdı. 2 O, pulun bir hissəsini özünə
götürüb qalan hissəsini həvarilərin
ixtiyarına verdi. Arvadının da bu
işdən xəbəri var idi. 3 Peter ona dedi:
«Xananya, niyə ürəyinə Şeytanı buraxıb
Müqəddəs Ruha yalan söyləyərək
torpağın pulunun bir hissəsini özünə
götürdün? 4 Bu torpaq satılmamışdan
əvvəl sənin deyildimi? Sən onu
satandan sonra da pul sənin ixtiyarında
deyildimi? Bu nə niyyətdir, ürəyində
tutmusan? Sən insanlara deyil, Allaha
yalan satdın». 5 Xananya bunları eşidən
kimi yerə yıxıldı və canı çıxdı. Bunu
eşidən hər kəsi böyük bir vahimə
bürüdü. 6 Gənclər gəlib Xananyanın
meyitini kəfənə bürüdülər və aparıb
dəfn etdilər.
7 Bundan təxminən üç saat sonra
Xananyanın arvadı içəri daxil oldu.
Onun olub-keçənlərdən heç bir xəbəri
yox idi. 8 Peter ondan soruşdu: «Mənə
söylə, torpağı bu qiymətəmi satdınız?»
Qadın cavab verdi: «Bəli, o qiymətə».
9 Peter ona dedi: «Niyə əlbir olub
Rəbbin Ruhunu sınamaq istədiniz?
Budur, ərini dəfn edənlərin ayaq səsləri
qapı ağzındadır, indi də səni aparmağa
gəlirlər». 10 Qadın həmin an Peterin
ayaqları qarşısına yıxıldı və canı çıxdı.
İçəri daxil olan gənclər gördülər ki,
o da ölüb. Onlar onu götürüb ərinin
yanında dəfn etdilər. 11 Bütün imanlılar
cəmiyyətini və bu hadisəni eşidənlərin
hamısını böyük bir vahimə bürüdü.

Həvarilər çox adama şəfa verdi

12 Həvarilər vasitəsilə xalq arasında
çox əlamətlər və xariqələr göstərilirdi.
Bütün imanlılar Süleymanın eyvanına
yığılardı. 13 Xalqın gözündə böyük
nüfuz qazansalar da, kənardan heç
kim onlara qoşulmağa cürət etmirdi.

---

*4:27 *Bu şəhərdə* – bəzi əlyazmalarda bu sözlər yoxdur.

[p]**4:27** Mat. 27:1-2; Mark 15:1; Luka 23:1,7-11; Yəh. 18:28-29 [q]**4:32** Həv. 2:44-45

14 Buna baxmayaraq, get-gedə daha
çox qadın və kişi Rəbbə iman gətirirdi.
15 Buna görə də Peter yoldan keçəndə
heç olmasa kölgəsi xəstələrin üstünə
düşsün deyə xalq öz xəstələrini
döşək və çarpayı ilə birlikdə çıxarıb
küçələrə qoyardı. 16 Yerusəlimin ətraf
şəhərlərində yaşayanlar da axın-axın
gələr, öz xəstələrini və natəmiz ruhdan
əzab çəkənləri gətirərdi. Onların hamısı
şəfa tapardı.

Həvarilər təqib olunur

17 Bu, baş kahini və yanındakıların
hamısını, yəni sadukey təriqətinə
mənsub olanları hərəkətə gətirdi,
çünki qısqanclıqları aşıb-daşırdı.
18 Ona görə də həvariləri tutub ümumi
zindana atdılar. 19 Amma Rəbbin mələyi
gecənin bir vaxtında gəlib zindanın
qapısını açdı, onları bayıra çıxarıb dedi:
20 «Gedin, məbəddə durun və camaata
yeni həyatla bağlı sözlərin hamısını
deyin». 21 Həvarilər bunu eşidəndə səhər
tezdən məbədə daxil olub təlimlərini
öyrətməyə başladılar.

Baş kahin və yanındakılar gəlib Ali
Şuranı – İsrailin bütün ağsaqqallar
məclisini çağırdı ki, bir yerə yığılsınlar.
Onlar həvariləri gətirtmək üçün
mühafizəçiləri zindana göndərdilər.
22 Lakin mühafizəçilər gəlib zindanda
həvariləri tapa bilmədi və geri qayıdıb
belə xəbər verdilər: 23 «Gördük ki,
zindan bağlıdır, tamamilə nəzarət
altındadır və gözətçilər qapıda dayanıb.
Amma qapıları açanda içəridə heç kimi
tapa bilmədik». 24 Bu sözləri eşidən
məbəd mühafizəçilərinin başçısı ilə
başçı kahinlər «Bu işin sonu necə
qurtaracaq?» deyə çaşıb-qaldılar.
25 Elə bu zaman kimsə onların yanına
gəlib xəbər verdi: «Baxın, zindana
saldığınız adamlar məbəddə dayanıb
camaata təlim öyrədir». 26 Bu vaxt
başçı ilə mühafizəçilər gedib həvariləri
gətirdilər. Xalqın onları daşqalaq
etməsindən qorxduqları üçün güc tətbiq
etmədilər.

27 [r]Onlar həvariləri Ali Şuranın
qarşısına gətirdilər. Baş kahin onlardan
soruşdu: 28 «Bu adla təlim öyrətməyi
sizə qəti qadağan etmədikmi? Amma siz
təliminizi bütün Yerusəlimə yaydınız
və o Adamın qanını bizim boynumuza
yükləmək istəyirsiniz». 29 Peter və başqa
həvarilər belə cavab verdi: «İnsana
deyil, Allaha itaət etmək daha vacibdir.
30 Ata-babamızın Allahı sizin çarmıxa
çəkib* öldürdüyünüz İsanı diriltdi.
31 İsrailə günahlarından tövbə və
bağışlanma imkanı vermək üçün Allah
Onu Bani və Xilaskar olaraq Öz sağ
tərəfinə qaldırdı. 32 Bu şeylər barədə biz
şahidik, Allahın Özünə itaət edənlərə
verdiyi Müqəddəs Ruh da şahiddir».

33 Onlar bunu eşidəndə çox qəzəbləndi
və həvariləri öldürmək istədilər. 34 Lakin
bütün xalqın hörmətini qazanmış Qanun
müəllimi olan Qamliel adlı bir farisey
Ali Şurada ayağa qalxdı və əmr etdi
ki, bu adamları† qısa müddətə bayıra
çıxarsınlar. 35 O, Ali Şuranın üzvlərinə
belə dedi: «Ey İsraillilər, bu insanlara nə
edəcəyiniz barədə yaxşı-yaxşı fikirləşin.
36 Bir qədər bundan əvvəl Tevda özü
barəsində yüksək iddiada olaraq ortaya
çıxdı və ona təxminən dörd yüz nəfər
qoşuldu. Lakin bu kişi öldürüldü, bütün
tərəfdarları darmadağın edildi və bu
hərəkat yatırıldı. 37 Sonra siyahıyaalma
zamanı Qalileyalı Yəhuda ortaya
çıxdı və camaatı ardınca apardı. O
da öldü və tərəfdarlarının hamısı

---

*5:30 *Çarmıxa çəkib* – hərfi tərcümədə *ağacdan asıb.*
†5:34 *Bu adamları* – bəzi əlyazmalarda *həvariləri.*

[r]5:27 Mat. 27:25

darmadağın edildi. 38 İndiki iş barəsində
sizə onu deyirəm ki, bu adamlardan
əl çəkin və azad buraxın. Əgər bu
hərəkat, bu iş insandandırsa, məhv olub
gedəcək. 39 Yox, əgər Allahdandırsa, bu
adamların işini məhv edə bilməzsiniz.
Allaha qarşı çıxanların vəziyyətinə belə,
düşə bilərsiniz». Onlar Qamlielin sözünə
baxdılar, 40 həvariləri içəri çağırıb
qamçılatdılar və əmr etdilər ki, İsanın
adını çəkərək heç nə danışmasınlar.
Sonra onları azad etdilər.
41 Həvarilər bu ad uğrunda təhqirə
layiq görüldükləri üçün sevinərək
Ali Şuranın önündən ayrıldılar.
42 Onlar hər gün məbəddə və evlərdə
təlim öyrətməkdən, İsanın Məsih
olması barədə Müjdəni yaymaqdan əl
çəkmədilər.

Yeddi köməkçi

6 O günlərdə – şagirdlərin çoxaldığı
vaxtda yunanca danışan Yəhudilər
ibranicə danışan Yəhudilərdən şikayət
etməyə başladılar. Çünki gündəlik
yardım paylananda onların dul
qadınlarını nəzərə almamışdılar. 2 Ona
görə On İki həvari bütün şagirdləri bir
yerə yığıb belə dedi: «Allahın kəlamını
vəz etmək işini atıb maddi işlərlə
məşğul olmağımız düzgün deyil. 3 Ey
qardaşlar, aranızda etibar qazanmış,
Ruh və hikmətlə dolu olan yeddi kişi
seçin ki, onları bu işə təyin edək. 4 Biz
isə özümüzü duaya və Allahın kəlamını
yaymağa həsr edək». 5 Bu sözlər bütün
toplantının xoşuna gəldi. Stefanı,
Filipi, Proxoru, Nikanoru, Timonu,
Parmenanı və Yəhudi dinini qəbul edən
Antakyalı Nikolanı seçdilər. Stefan
iman və Müqəddəs Ruhla dolu bir
kişi idi. 6 Bunları həvarilərin qarşısına
çıxardılar. Həvarilər də dua edib onların
üzərinə əl qoydular.
7 Allahın kəlamı yayılır, Yerusəlimdə
şagirdlərin sayı xeyli artır və bir çox
kahinlər də bu imana tabe olurdu.

Stefanın tutulması

8 Lütf və qüdrətlə dolu olan
Stefan xalq arasında böyük xariqə
və əlamətlər göstərirdi. 9 Belə
olanda Azadlar Sinaqoqu adlanan
sinaqoqun bəzi üzvləri, Kirenalılardan,
İsgəndəriyyəlilərdən, Kilikiyadan
və Asiya vilayətindən bəzi insanlar
Stefana qarşı çıxıb onunla mübahisəyə
başladılar. 10 Amma Stefanın sözündəki
hikmətin və Ruhun qarşısında dayana
bilmədilər. 11 Onda bir neçə nəfəri
şirniklendirdilər ki, belə desinlər:
«Bu adamın həm Musaya, həm
də Allaha qarşı küfr dolu sözlər
dediyini eşitmişik». 12 Beləliklə, xalqı,
ağsaqqalları və ilahiyyatçıları da
təşvişə saldılar. Stefanın üstünə gəlib
onu tutdular və Ali Şuranın qarşısına
gətirdilər. 13 Gətirdikləri yalançı
şahidlər onun üzünə durub dedilər:
«Bu adam dayanmadan bu Müqəddəs
məkana və Qanuna qarşı danışır.
14 “Nazaretli İsa bu məkanı darmadağın
edəcək və Musadan bizə əmanət qalan
adətləri dəyişəcək” dediyini özümüz
eşitmişik». 15 Ali Şurada oturanların
hamısı Stefana diqqətlə baxanda
gördü ki, onun üzü bir mələyin üzünə
bənzəyir.

Stefanın nitqi

7 Baş kahin Stefandan soruşdu:
«Bunlar doğrudurmu?» 2 [s]Stefan
belə cavab verdi: «Qardaşlar və
atalar, məni dinləyin! Atamız İbrahim
hələ Mesopotamiyada ikən Xaranda
məskunlaşmazdan əvvəl izzətli Allah
ona göründü. 3 Ona belə dedi: “Öz
torpağından, qohumlarının arasından

---

[s] **7:2** Yar. 12:1

çıx, sənə göstərəcəyim torpağa get”.
4 [t]Buna görə İbrahim Xaldeylilərin
ölkəsini tərk edib Xarana köçdü.
Atasının ölümündən sonra Allah onu
oradan da götürüb sizin indi yaşadığınız
bu ölkəyə gətirdi. 5 [u]Burada ona irs
olaraq bir qarış belə, torpaq vermədi.
Amma İbrahimin o zaman hələ övladı
olmasa da, Allah bu torpağı mülk olaraq
ona və onun gələcək nəslinə verəcəyini
vəd etmişdi. 6 [v]Allah ona belə dedi:
“Nəslin yad ölkədə qərib olacaq, orada
olan millətə köləlik edəcək və onlara
dörd yüz il zülm ediləcək”. 7 “Ancaq
onların köləlik edəcəkləri milləti
Özüm cəzalandıracağam” dedi Allah,
“bundan sonra oradan çıxacaqlar” və
“bu yerdə Mənə ibadət edəcəklər”.
8 [w]Sonra Allah onunla sünnətlə bağlı
Əhd kəsdi. Beləliklə də, İbrahim İshaqın
atası olarkən onu səkkiz günlük olanda
sünnət etdi. Bundan sonra İshaqdan
Yaqub, Yaqubdan da on iki ulu babamız
törədi.
9 [x]Bu ulu babalarımız paxıllıqdan
Yusifi qul kimi Misirə satdı. Lakin
Allah Yusifə yar idi. 10 Onu bütün
əziyyətlərdən qurtardı və ona hikmət
verərək Misir hökmdarı fironun gözündə
lütf qazandırdı. Firon onu Misirin və
öz sarayında olan bütün xalqın rəhbəri
təyin etdi. 11 [y]Sonra bütün Misir
və Kənan torpağı aclıq və böyük
əziyyətlərlə üzləşdi. Bu ata-babalarımız
yemək tapa bilmədi. 12 Yaqub eşidəndə
ki, Misirdə taxıl var, bu ata-babalarımızı
birinci dəfə oraya göndərdi. 13 [z]Onlar
ikinci dəfə Misirə gələndə Yusif özünü
qardaşlarına tanıtdı. Bununla da firon
Yusifin ailəsi ilə tanış oldu. 14 [a]Yusif
atası Yaquba xəbər göndərib onunla
birgə bütün qohumlarını – yetmiş beş
nəfəri çağırtdırdı. 15 [b]Beləliklə, Yaqub
Misirə getdi. Özü ilə bu ata-babalarımız
da orada öldü. 16 [c]Onların cəsədləri
sonradan Şekemə gətirildi və Şekemdə
İbrahimin Xamor övladlarından bir
neçə gümüşə satın aldığı qəbirdə dəfn
olundu.
17 [d]Allahın İbrahimə bəyan etdiyi
vədin həyata keçdiyi vaxt yaxınlaşanda
Misirdəki xalqımızın sayı bir xeyli
çoxalmışdı. 18 Axırda Misirdə Yusifi
tanımayan yeni bir padşah taxta çıxdı.
19 [e]Bu adam soydaşlarımıza hiylə işlətdi,
zorakılıqla ata-babalarımızı məcbur
etdi ki, yeni doğulan körpələrini sağ
qalmasın deyə bayıra atsınlar. 20 [f]Bu
dövrdə son dərəcə gözəl bir körpə olan
Musa doğuldu. O, üç ay atasının evində
bəsləndi. 21 Sonra o da bayıra atıldı.
Onu fironun qızı tapıb özünə övlad
etdi və öz oğlu kimi böyütdü. 22 Musa
Misirlilərin bütün elmi biliklərinə bağlı
tərbiyə alıb söz və əməlində güclü bir
şəxsiyyət oldu.
23 [g]Musa qırx yaşına çatanda ürəyində
soydaşları İsrail övladlarının vəziyyətini
yaxından bilmək arzusu oyandı.
24 Onlardan birinin zərər çəkdiyini
görəndə Musa onu müdafiə etdi. Zərər
vuran Misirlini öldürərək əzilən insanın
intiqamını aldı. 25 O belə fikirləşdi:
“Soydaşlarım dərk edəcəklər ki, mənim
vasitəmlə Allah onları xilas edir”. Amma
onlar bunu dərk etmədilər. 26 Ertəsi
gün Musa dalaşan iki İsraillini görəndə
onları barışdırmaq istədi və dedi: “Ay

---

[t]**7:4** Yar. 11:31; 12:4 [u]**7:5** Yar. 12:7; 13:15; 15:18-21; 17:8
[v]**7:6** Yar. 15:13-14; Çıx. 3:12 [w]**7:8** Yar. 17:10-14; 21:2-4; 25:26; 29:31–35:18
[x]**7:9** Yar. 37:11,28; 39:2,21; 41:39-41 [y]**7:11** Yar. 42:1-2
[z]**7:13** Yar. 45:1-3; 47:2-10 [a]**7:14** Yar. 45:9-11,17-18; 46:27
[b]**7:15** Yar. 46:1-7; 49:33 [c]**7:16** Yar. 23:3-16; 33:19; 50:7-13; Yeşua 24:32
[d]**7:17** Çıx. 1:7-8 [e]**7:19** Çıx. 1:10-11,22 [f]**7:20** Çıx. 2:2-10 [g]**7:23** Çıx. 2:11-15

kişilər, siz soydaşsınız, niyə bir-birinizə
zərər vurursunuz?” 27 Lakin soydaşına
zərər vuran kişi Musanı itələyib dedi:
“Səni bizim üstümüzə kim başçı və
hakim qoyub? 28 Yoxsa dünən Misirlini
öldürdüyün kimi məni də öldürmək
fikrindəsən?” 29 [h]Bu sözə görə Musa
qaçdı. O, Midyan torpağında, qürbətdə
yaşadı və orada iki oğul atası oldu.
30 [i]Qırx il keçəndən sonra Musa
Sina dağının yaxınlığındakı səhrada
olanda mələk ona bir kol arasından
od-alov içərisində göründü. 31 Musa
gördüklərinə heyrətləndi. Baxmaq
üçün oraya yaxınlaşanda Rəbbin səsini
eşitdi: 32 “Mən ata-babalarının Allahı
– İbrahimin, İshaqın və Yaqubun
Allahıyam”. Musa qorxusundan lərzəyə
gəlib baxmağa belə, cəsarət etmədi.
33 Rəbb ona dedi: “Ayaqlarından
çarıqlarını çıxart, çünki durduğun yer
müqəddəs torpaqdır. 34 Həqiqətən,
Mən Misirdə olan xalqımın əziyyətini
gördüm, fəryadlarını eşitdim və onları
qurtarmaq üçün endim. İndi get, Mən
səni Misirə göndərirəm”.
35 Bu, həmin Musadır ki, onu rədd
edib demişdilər: “Səni bizim üstümüzə
kim başçı və hakim qoyub?” Amma
Allah Musanı bir kol arasında görünən
mələyin əli ilə başçı və qurtarıcı olaraq
göndərdi. 36 [j]O, xalqı Misirdən çıxaran,
həm orada, həm Qırmızı dənizdə, həm
də qırx il ərzində səhrada xariqə və
əlamətlər yaradan insan idi. 37 [k]İsrail
övladlarına “Allah məni yetirdiyi
kimi sizin üçün öz soydaşlarınız
içərisindən bir peyğəmbər yetirəcək”*
deyən bu Musadır. 38 [l]Bu, həmin
adamdır ki, Sina dağında onunla
danışan mələklə və ata-babalarımızla
birgə səhradakı cəmiyyətdə olmuşdu.
O, canlı sözlər almışdı ki, bizə
versin. 39 Ata-babalarımızsa Musanın
sözünə baxmaq istəmədi, onu rədd
etdi və Misirə qayıtmağı arzuladılar.
40 [m]Haruna dedilər: “Bizim üçün allahlar
düzəlt ki, qabağımızca getsinlər. Çünki
bizi Misir torpağından çıxaran adamın
– bu Musanın başına nə iş gəldiyini
bilmirik!” 41 O günlərdə dana şəklində
bir büt düzəldib ona qurban gətirdilər
və öz əlləri ilə düzəltdikləri bu büt üçün
şənlik qurdular. 42 [n]Buna görə Allah
ata-babalarımızdan üz döndərib onları
tərk etdi ki, səma cisimlərinə ibadət
etsinlər. Peyğəmbərlərin kitabında da
belə yazılıb:

“Ey İsrail nəsli,
Qırx il çöldə olanda Mənə qurban və
təqdimlər gətirmişdinizmi?
43 Səcdə edəsiniz deyə düzəltdiyiniz
Molekin çadırını,
Tanrınız Refanın ulduz bütünü
gəzdirdiniz.
Elə buna görə də sizi
Babilin o tayına sürgünə
aparacağam”.

44 [o]Səhrada ata-babalarınızın Şəhadət
çadırı var idi. Musa bunu onunla
danışan Allahın əmr etdiyi kimi,
gördüyü nümunəyə əsasən düzəltmişdi.
45 [p]Şəhadət çadırını əvvəlki nəsildən
təhvil alan ata-babalarımız Yeşuanın
başçılığı ilə başqa millətlərin mülkünü
ələ keçirəndə çadırı da özləri ilə
gətirmişdilər. Allah Özü millətləri
ata-babalarımızın qarşısından qovdu.
Şəhadət çadırı Davudun dövrünə qədər
qaldı. 46 [q]Allahın lütfünü qazanan

*7:37 *Yetirəcək* – bəzi əlyazmalarda *yetirəcək. Ona qulaq asın.*

[h]**7:29** Çıx. 18:2-4 [i]**7:30** Çıx. 3:1-10 [j]**7:36** Çıx. 7:3; 14:21; Say. 14:33
[k]**7:37** Qanun. 18:15,18 [l]**7:38** Çıx. 19:1–20:17; Qanun. 5:1-33
[m]**7:40** Çıx. 32:1-6 [n]**7:42** Amos 5:25-27 [o]**7:44** Çıx. 25:9,40; İbr. 8:5
[p]**7:45** Yeşua 3:14-17; 18:1 [q]**7:46** 2Şam. 7:1-16; 1Saln. 17:1-14

Davud yalvardı ki, Yaqubun nəsli*
üçün bir məskən qura bilsin. 47 [r]Lakin
Allaha ev tikən Süleyman oldu.
48 [s]Amma Haqq-Taala əllə tikilən
evlərdə yaşamaz. Peyğəmbərin dediyi
kimi
49 Rəbb belə deyir:
"Göylər Mənim taxtımdır,
Yer ayaqlarımın altındakı kətildir.
Mənim üçün nə cür ev tikəcəksiniz,
Dincələcəyim yer harada olacaq?
50 Bütün bunları Mənim əlim
yaratmadımı?"
51 [t]Ey dikbaş, həm ürəkləri, həm
də qulaqları "sünnət" edilməmiş
insanlar, ata-babanız kimi siz də
həmişə Müqəddəs Ruhun əleyhinə
çıxırsınız. 52 Ata-babalarınızın təqib
etmədiyi peyğəmbər varmı? Onlar
Saleh Olanın zühuru barədə əvvəlcədən
xəbər verənləri belə, öldürdülər. Sizsə
bu Saleh Olana xəyanət edərək Onu
qətlə yetirdiniz. 53 Mələklər vasitəsilə
verilən Qanunu aldınız, lakin ona riayət
etmədiniz».

Stefanın öldürülməsi

54 Ali Şuranın üzvləri bu sözləri
eşidəndə çox qəzəbləndilər və Stefana
dişlərini qıcırtdılar. 55 Müqəddəs Ruhla
dolan Stefan isə gözlərini göyə dikib
Allahın ehtişamını və Allahın sağında
dayanan İsanı gördü. 56 O dedi: «Baxın,
mən göylərin yarıldığını və Bəşər
Oğlunun Allahın sağında dayandığını
görürəm». 57 Onlar qulaqlarını tutub
haray qopardılar və hamısı birlikdə
Stefanın üstünə hücum çəkdilər. 58 Onu
şəhərdən kənara çıxarıb daşqalaq
etdilər. Stefanın əleyhinə şahidlik
edənlər öz üst geyimlərini Şaul adlı
bir gəncin ayaqları altına qoydular.
59 Stefan üstünə yağan daşlar altında
belə yalvarırdı: «Ya Rəbb İsa, ruhumu
qəbul et». 60 Sonra diz çöküb ucadan
nida etdi: «Ya Rəbb, bunu onlara günah
sayma». Bunu deyəndən sonra gözlərini
bu həyata yumdu.

Şaul imanlıları təqib edir

8 Stefanın qətlindən Şaul da razı
qalmışdı.
O gün Yerusəlimdə olan imanlılar
cəmiyyətinə qarşı güclü təqib başladı.
Həvarilərdən başqa bütün imanlılar
pərən-pərən düşüb Yəhudeya və
Samariyanın hər tərəfinə yayıldı. 2 Bəzi
mömin kişilər isə Stefanı dəfn etdi və
onun üçün dərin hüznlə yas saxladılar.
3 [u]Amma Şaul imanlılar cəmiyyətini
dağıtmağa başladı. Belə ki o, evdən-evə
gedərək qadın-kişi bilmədən imanlıları
sürüyüb zindana salırdı.

Filip Samariyada

4 Pərən-pərən düşən imanlılar hər
yerdə Allahın kəlamını – Müjdəni
yayırdı. 5 Filip də Samariya şəhərinə
gəlib Məsihi vəz edirdi. 6 Filipi eşidib,
göstərdiyi əlamətləri görən izdiham
onun sözlərinə birlikdə diqqət yetirirdi.
7 Natəmiz ruha tutulan çox adamdan bu
ruhlar bərkdən çığıraraq çıxır, çox iflic
və ayaqları şikəst olanlar şəfa tapırdı.
8 Ona görə bu şəhərdə bol sevinc var idi.

Cadugər Şimon

9 Amma bu şəhərdə bundan əvvəl
cadugərlik edən və Samariya millətini
mat qoyan Şimon adlı bir kişi var
idi. O özünü böyük bir şəxsiyyət kimi
təqdim edirdi. 10 Böyüklü-kiçikli hər
kəs ona diqqətlə qulaq asır və belə
deyirdi: «Böyük adlanan Allahın qüdrəti

---

*7:46 *Yaqubun nəsli* – bəzi əlyazmalarda *Yaqubun Allahı.*

[r]7:47 1Pad. 6:1-38; 2Saln. 3:1-17 [s]7:48 Yeş. 66:1-2 [t]7:51 Yeş. 63:10
[u]8:3 Həv. 22:4-5; 26:9-11

budur». 11 Onun cadugərliyi hamını
çoxdan mat qoymuşdu. Buna görə də
ona diqqətlə qulaq asırdılar. 12 Amma
Filip Allahın Padşahlığı və İsa Məsihin
adı ilə bağlı Müjdəni yayanda sözlərinə
iman gətirdilər və kişilər də, qadınlar
da vəftiz oldular. 13 Şimon özü də iman
gətirdi. Vəftiz olduqdan sonra Filipin
yanından ayrılmadı. Göstərilən əlamət
və möcüzələr Şimonu mat qoydu.
14 Yerusəlimdə qalan həvarilər
Samariyalıların Allahın kəlamını qəbul
etdiklərini eşidəndə Peterlə Yəhyanı
onların yanına göndərdi. 15 Peterlə
Yəhya oraya çatanda dua etdilər ki,
Samariyalı imanlılar Müqəddəs Ruhu
alsınlar. 16 Çünki Ruh hələ onların
heç birinin üzərinə enməmişdi, sadəcə
olaraq Rəbb İsanın adı ilə vəftiz
olmuşdular. 17 Sonra Peterlə Yəhya
əllərini onların üstünə qoydular və onlar
Müqəddəs Ruhu aldılar. 18 Həvarilərin
əl qoyması ilə Ruhun verildiyini görən
Şimon onlara pul təklif edərək 19 dedi:
«Mənə də belə bir səlahiyyət verin.
Əlimi kimin üstünə qoysam, Müqəddəs
Ruhu alsın». 20 Peter ona dedi: «Pulun
da yox olsun, sən də! Ona görə ki sən
Allahın ənamını pulla əldə edə bilmək
xəyalına düşmüsən. 21 Bu işdə sənin nə
haqqın var, nə payın. Çünki Allahın
qarşısında ürəyin düz deyil. 22 Bu
pisliyin üçün tövbə et, Rəbbə yalvar.
Bəlkə ürəyinin bu niyyəti bağışlanar.
23 Görürəm ki, səndə acı zəhər var
və haqsızlığın əsirisən». 24 Şimon ona
cavab verdi: «Mənim üçün Rəbbə siz
yalvarın ki, dediklərinizin heç biri
mənim başıma gəlməsin».
25 Peterlə Yəhya şəhadət edib
Rəbbin kəlamını söyləyəndən sonra
Samariyalıların yaşadığı xeyli kəndlərdə
Müjdəni yaya-yaya Yerusəlimə
qayıdırdılar.

Filip və Həbəşli hərəmağası

26 Bu zaman Rəbbin bir mələyi
Filipə belə dedi: «Dur, cənuba tərəf,
Yerusəlimdən Qəzzəyə düşən yola
– səhra yoluna çıx». 27 Filip qalxıb
getdi. Yolda Həbəşli bir hərəmağası
ilə rastlaşdı. Bu, kandakinin, yəni
Həbəşlilərin mələkəsinin vəzirlərindən
biri idi. O, mələkənin bütün xəzinəsinə
cavabdeh idi. Yerusəlimə ibadət etmək
üçün gəlmişdi. 28 Arabasına oturub
geri qayıdarkən Yeşaya peyğəmbərin
kitabını oxuyurdu. 29 Ruh Filipə dedi:
«Get, bu arabaya çatıb yanında qal».
30 Filip qaça-qaça arabanın yanına
gəldi və eşitdi ki, hərəmağası Yeşaya
peyğəmbərin kitabını oxuyur. Ondan
soruşdu: «Görəsən oxuduğunu başa
düşürsənmi?» 31 Hərəmağası ona dedi:
«Əgər mənə yol göstərən yoxdursa,
bunu necə başa düşmək olar?» Sonra
Filipdən xahiş etdi ki, arabaya minib
onun yanında otursun. 32 [v]O, Müqəddəs
Yazılardan bu hissəni oxuyurdu:

«Kəsilməyə aparılan qoyun kimi,
Qırxanların qabağında dilsiz quzu
kimi
Ağzını açmadı.
33 Alçaldığı zaman ədalətdən məhrum
oldu.
Onun nəslini kim təsvir edə bilər?
Onun həyatı yer üzündən götürülür».

34 Hərəmağası Filipdən soruşdu: «Xahiş
edirəm, deyin, burada peyğəmbər
kimdən bəhs edir, özündən, yoxsa
başqasından?» 35 Bundan sonra Filip
sözə başlayıb danışdı və Müqəddəs
Yazıların bu hissəsindən başlayıb
İsa barədə olan Müjdəni bəyan etdi.
36 Onlar yol gedə-gedə gəlib su olan
yerə çatdılar. Hərəmağası dedi: «Burada
su var. Mənim vəftiz olmağıma nə isə

---

[v]**8:32** Yeş. 53:7-8

mane olurmu?» 37 *38 Sonra əmr etdi
ki, araba dayansın. Filip hərəmağası
ilə birgə suya girdi. Beləliklə, Filip
hərəmağasını vəftiz etdi. 39 Sudan
çıxanda Rəbbin Ruhu† Filipi götürüb
oradan uzaqlaşdırdı. Filipi bir daha
görməyən hərəmağası sevinə-sevinə
yoluna davam etdi. 40 Filip bir də
gördü ki, Aşdod şəhərinə gəlib-çıxıb. O,
Qeysəriyyəyə çatanacan bütün şəhərləri
gəzib-dolaşaraq Müjdəni yaydı.

İsa Şaulla danışır

9 Şaul Rəbbin şagirdlərinə qarşı hələ
də ölüm hədələri yağdırırdı. Baş
kahinin yanına gedib 2 ondan Dəməşq
sinaqoqlarına yazılan məktublar istədi
ki, orada İsa yolunu‡ tutan kişi və
qadınlardan kimi tapsa, əl-qolunu
bağlayıb Yerusəlimə gətirmək üçün
səlahiyyəti olsun. 3 Dəməşqə yollanıb
oraya yaxınlaşanda birdən göydən
gələn bir işıq onun ətrafında parladı.
4 Şaul yerə yıxıldı və bir səs eşitdi, ona
deyirdi: «Şaul, Şaul, niyə Məni təqib
edirsən?» 5 Şaul ona dedi: «Ey Ağam,
Sən kimsən?» O cavab verdi: «Mən sənin
təqib etdiyin İsayam. 6 Qalx ayağa,
şəhərə get və nə etmək lazımdırsa,
sənə deyiləcək». 7 Şaulla birlikdə yola
çıxan adamlar yerlərindəcə susub
qalmışdı. Səsi eşitsələr də, heç kimi görə
bilmədilər. 8 Şaul yerdən qalxdı, amma
gözlərini açanda heç nə görə bilmirdi.
Sonra onun əlindən tutub Dəməşqə
apardılar. 9 Üç gün ərzində Şaulun
gözləri görmədi və o nə yedi, nə də içdi.
10 Dəməşqdə İsanın şagirdlərindən
Xananya adlı bir nəfər var idi. Rəbb
görüntü vasitəsilə «Xananya!» deyə
çağırdı. O cavab verdi: «Bəli, ya Rəbb!»
11 Rəbb ona dedi: «Qalx, “Düz Küçə”
adlanan küçəyə get və Yəhudanın
evində adı Şaul olan Tarsuslu bir
adamı soruş. Hal-hazırda orada dua
edir. 12 O, görüntüdə görüb ki, yanına
Xananya adlı bir kişi gəlib onun üzərinə
əllərini qoyur ki, gözləri açılsın».
13 Xananya cavab verdi: «Ya Rəbb, bu
kişi barədə çoxlarından eşitmişəm ki,
Yerusəlimdə Sənin müqəddəslərinə
nə qədər pislik edib. 14 Burada Sənin
adını çağıranların hər birinin əl-qolunu
bağlamaq üçün başçı kahinlərdən
səlahiyyət alıb». 15 Amma Rəbb ona
dedi: «Get! Başqa millətlərə, padşahlara
və İsrail övladlarına Öz adımı bəyan
eləmək üçün bu adam seçdiyim alətdir.
16 Mənim adım uğrunda çəkəcəyi
əzabın nə qədər böyük olduğunu
ona göstərəcəyəm». 17 Bundan sonra
Xananya gedib həmin evə girdi və
əllərini Şaulun üstünə qoyub dedi:
«Qardaşım Şaul, Rəbb, yəni bura
gələrkən yolda sənə görünən İsa məni
göndərdi ki, sənin gözlərin açılsın və
Müqəddəs Ruhla dolasan». 18 O andaca
Şaulun gözlərindən sanki pulcuqlar
tköküldü və Şaul təkrar görməyə başladı.
O qalxdı və vəftiz oldu. 19 Sonra yemək
yeyib taqətə gəldi.

Şaul Dəməşqdə və Yerusəlimdə

Bir neçə gün Şaul Dəməşqdə olan
şagirdlərin yanında qaldı. 20 Dərhal
sinaqoqlarda İsanın Allahın Oğlu
olduğunu vəz etməyə başladı. 21 Onu
eşidənlərin hamısı mat qalıb deyirdi:
«Yerusəlimdə bu adı çəkənləri dağıdan
adam bu deyilmi? Buraya belələrini
əl-qolunu bağlayıb başçı kahinlərin
yanına aparmağa gəlməmişdimi?»

---

*8:37 *Mane olurmu?* – bəzi əlyazmalarda *mane olurmu?»*
37 Filip dedi: «Əgər bütün qəlbinlə iman edirsənsə, mümkündür». Hərəmağası cavab verdi: «İsa Mə

†8:39 *Rəbbin Ruhu* – bəzi əlyazmalarda *Müqəddəs Ruh hərəmağasının üstünə endi. Rəbbin mələyi isə.*

‡9:2 *İsa yolunu* – hərfi tərcümədə *Yolu.*

22 Şaul isə gündən-günə qüvvətlənirdi.
İsanın Məsih olmasına dair sübutlar
göstərməklə Dəməşqdə yaşayan
Yəhudiləri çaş-baş saldı.
23 [w]Aradan xeyli gün keçdi. Yəhudilər
Şaulu öldürmək üçün sui-qəsd hazırladı.
24 Amma onların bu qəsdi haqqında
xəbər Şaula çatdı. Yəhudilər onu
öldürmək üçün gecə-gündüz şəhərin
qapılarında pusqu qururdu. 25 Amma
Şaulun şagirdləri gecə olan kimi onu
götürüb bir səbətin içinə qoyaraq şəhər
divarlarından aşağı endirdilər.
26 Şaul Yerusəlimə çatanda oradakı
şagirdlərə qoşulmağa çalışdı, lakin
onların hamısı Şauldan qorxur və
inanmırdılar ki, o, İsanın şagirdidir.
27 Amma Barnaba onu götürüb
həvarilərin yanına apardı və onlara
açıqladı ki, Şaul yolla gedəndə Rəbbi
necə görüb, Rəbb onunla necə danışıb,
o, Dəməşqdə İsanın adını necə cəsarətlə
bəyan edib. 28 Beləliklə, Şaul onların
yanında qalıb Yerusəlimdə hər yerə
bir gedib-gəlir və orada da Rəbbin
adını cəsarətlə bəyan edirdi. 29 O
yunanca danışan Yəhudilərlə söhbət
edərək mübahisə edirdi. Onlar isə
Şaulu öldürmək istəyirdilər. 30 İmanlı
bacı-qardaşlar isə bunu öyrənəndə
Şaulu Qeysəriyyəyə aparıb oradan
Tarsusa göndərdilər.
31 Beləcə bütün Yəhudeya, Qalileya
və Samariyadakı imanlılar cəmiyyəti
əmin-amanlığa çatdı. İnkişaf edən və
Rəbb qorxusu içində yaşayan cəmiyyət
Müqəddəs Ruhun ürəkləndirməsi ilə
sayca artırdı.

Eneya və Tabitanın sağaldılması

32 Bu zaman hər yanı dolaşan Peter
Lodda yaşayan müqəddəslərin yanına
gəldi. 33 Orada Eneya adlı bir nəfərə baş
çəkdi. Eneya iflic olmuşdu və səkkiz il
idi ki, yataqda idi. 34 Peter ona dedi:
«Eneya, İsa Məsih səni sağaldır. Qalx,
yatağını yığışdır». Eneya dərhal ayağa
qalxdı. 35 Lod və Şaronda yaşayanların
hamısı bu adamı görüb Rəbbə tərəf
döndü.
36 Yafoda İsanın şagirdləri arasında
Tabita adlı bir qadın var idi. «Tabita»
«Ceyran» deməkdir. Bu qadın həmişə
xeyirxah işlər görür və yoxsullara kömək
edirdi. 37 Bu vaxtlarda o xəstələnib
öldü. Onun meyitini yuyub yuxarı
mərtəbədəki otağa qoydular. 38 Lod
Yafoya yaxın idi, ona görə də Peterin
Lodda olduğunu eşidən şagirdlər iki
kişini onun yanına göndərdilər və onlar
gəlib xahiş etdilər: «Vaxt itirmədən
yanımıza gəl». 39 Peter durub onlarla
getdi. Yafoya çatanda onlar Peteri evin
yuxarı mərtəbəsinə çıxartdılar. Bütün
dul qadınlar ağlaşa-ağlaşa Peterin
yanına yığıldı və Tabitanın onlarla
birlikdə olanda tikdiyi köynəkləri,
paltarları göstərirdilər. 40 Peter isə
onların hamısını bayıra çıxartdı, sonra
diz çöküb dua etdi. Bundan sonra
isə ölüyə tərəf dönüb dedi: «Tabita,
qalx!» Qadın gözlərini açıb Peteri
görən kimi dik oturdu. 41 Peter əlini
uzadıb onu ayağa qaldırdı və sonra
müqəddəslərlə dul qadınları çağırdı.
Tabitanı sağ-salamat onların qarşısına
çıxartdı. 42 Bu xəbər bütün Yafoya
yayıldı və çox adam Rəbbə iman gətirdi.
43 Peter isə xeyli gün Yafoda, Şimon adlı
bir dabbağın evində qaldı.

Mömin yüzbaşı

10 Qeysəriyyədə Korneli adlı bir
nəfər yaşayırdı. O, İtaliyalı adlı
alayın yüzbaşılarından biri idi. 2 Həm
özü, həm də bütün külfəti mömin
olub Allahdan qorxardı. O, xalqa çox
nəzir-niyaz paylayar, daim Allaha dua

---

[w]**9:23** 2Kor. 11:32-33

edərdi. 3 Bir gün təxminən doqquzuncu
saat* radələrində görüntüdə aydın gördü
ki, Allahın bir mələyi yanına gəlib
onu çağırdı: «Ey Korneli!» 4 Korneli
qorxa-qorxa ona baxıb dedi: «Nədir,
ey ağam?» Mələk ona dedi: «Dualarын
və nəzir-niyazların xatirə təqdimi kimi
Allahın hüzurunda qəbul olundu. 5 İndi
Yafoya adamlar göndər, Peter adlanan
Şimonu çağırtdır. 6 O, dabbağ Şimonun
dəniz kənarındakı evində qonaqdır».†
7 Onunla danışan mələk gedəndən sonra
Korneli xidmətçilərindən ikisini və
mühafizəçilərindən bir mömin əsgəri
çağırtdırdı. 8 Onlara hər şeyi danışdı və
sonra onları Yafoya göndərdi.

Peterin görüntüsü

9 Ertəsi gün təxminən altıncı saat‡
radələrində, onlar yolda olub şəhərə
yaxınlaşanda Peter dua etmək üçün
dama çıxdı. 10 O acıb yemək istəyirdi.
Yemək hazırlanarkən Peterin fikrini
bir görüntü apardı. 11 O gördü ki, göy
yarıldı, böyük mələfəyə bənzər bir şey
dörd küncündən asılaraq yerə endi.
12 Onun üstündə hər cür dördayaqlılar,
sürünənlər§ və göydə uçan quşlar var
idi. 13 Ona bir səda gəldi: «Qalx, Peter,
kəs və ye!» 14 Peter Ona dedi: «Əsla, ya
Rəbb! Mən heç vaxt nə haram, nə də
murdar bir şey yeməmişəm». 15 Səda
ikinci dəfə yenə gəldi və Peterə dedi:
«Allahın halal dediyi şeylərə sən haram
demə». 16 Bu, üç dəfə təkrarlanandan
sonra o şey dərhal göyə çəkildi.
17 Peter bu görüntünün mənası barədə
fikirləri ilə çaşbaş qalanda Kornelinin
göndərdiyi adamlar Şimonun evini
soruşurdular. Onlar qapı ağzında
dayanıb 18 bərkdən soruşdular: «Peter
deyə çağırılan Şimon burada qalırmı?»
19 Bu zaman görüntü barədə fikirləşən
Peterə Ruh belə dedi: «Bax səni üç
kişi axtarır. 20 Dur, aşağı en və heç
tərəddüd etmədən onlarla get. Çünki
onları Mən göndərmişəm». 21 Peter
aşağı enib həmin adamlara dedi:
«Axtardığınız adam mənəm. Niyə
gəlmisiniz?» 22 Onlar dedilər: «Korneli
adlı bir yüzbaşı var. O, saleh və
Allahdan qorxan kişidir; buna bütün
Yəhudi milləti də şahiddir. Müqəddəs
bir mələk ona əmr etdi ki, səni öz evinə
çağırtdırsın və deyəcəyin sözlərə qulaq
assın». 23 Bundan sonra Peter onları
içəri dəvət edib qonaq saxladı.

Kornelinin evində

Ertəsi gün Peter qalxıb onlarla
yola çıxdı və Yafodan olan bəzi
qardaşlar da onlara qoşuldu. 24 Sonrakı
gün Qeysəriyyəyə çatdı. Korneli öz
qohumlarını və yaxın dostlarını bir
yerə yığıb onları gözləyirdi. 25 Peter
içəri girəndə Korneli ayağına düşüb
ona səcdə etdi. 26 Peter isə onu ayağa
qaldıraraq dedi: «Qalx, mən də sənin
kimi insanam». 27 Peter Korneli ilə
danışa-danışa içəri daxil olanda gördü
ki, oraya xeyli adam yığılıb. 28 Onlara
belə dedi: «Bilirsiniz ki, Yəhudilərə hər
hansı bir yadelli ilə ünsiyyət yaratmaq,
onlara qonaq getmək qadağandır.
Amma insanları haram və murdar
saymamağı Allah mənə göstərdi.
29 Buna görə məni çağıranda etiraz
etmədən gəldim. Deyə bilərsinizmi,
məni niyə çağırmısınız?» 30 Korneli
cavab verdi: «Üç gün əvvəl elə bu

---

*10:3 *Doqquzuncu saat* – hazırkı vaxtla günortadan sonra saat üç.

†10:6 *Qonaqdır* – bəzi əlyazmalarda *qonaqdır. O sənə nə etməlisən deyəcək,* bəzilərində isə *qonaqdır. Onun sənə deyəcəyi sözlərlə həm sən, həm də külfətin xilas olacaq* (Həv. 11:14).

‡10:9 *Altıncı saat* – hazırkı vaxtla günorta saat on iki.

§10:12 *Sürünənlər* – bəzi əlyazmalarda *çöl heyvanları, sürünənlər.*

vaxtlarda* doqquzuncu saatın† duasını
edirdim ki, birdən parlaq libaslı bir
kişi qarşımda dayandı 31 və dedi: “Ey
Korneli, sənin duaların eşidildi və
nəzir-niyazların Allah tərəfindən yada
salındı. 32 İndi Yafoya adamlar göndər,
Peter adlanan Şimonu çağırtdır. O,
dabbağ Şimonun dəniz kənarındakı
evində qonaqdır”.‡ 33 Ona görə sənin
yanına adamlar göndərdim və sən də
xeyirxahlıq göstərərək gəldin. İndi
hamımız Allahın önündəyik və Rəbbin
sənə əmr etdiyi hər sözə qulaq asmağa
hazırıq».
34 xPeter sözə başlayıb dedi: «İndi
bildim ki, həqiqətən, Allah tərəfkeşlik
etmir. 35 Milliyətindən asılı olmayaraq
kim ki Ondan qorxub əməlisaleh
olarsa, Ona məqbuldur. 36 O, İsrail
övladlarına Öz kəlamını göndərdi və
hamının Sahibi olan İsa Məsih vasitəsilə
barışdırma Müjdəsini yaydı. 37 Bilirsiniz
ki, Yəhyanın vəftiz üçün çağırışından
sonra Qalileyadan başlayaraq bütün
Yəhudeyada nələr baş verdi. 38 Allah
Nazaretli İsanı Müqəddəs Ruhla və
qüdrətlə məsh etdi. İsa xeyirxahlıq
edərək hər yanı gəzib iblisin təzyiqinə
məruz qalanların hamısını sağaltdı.
Çünki Allah Ona yar idi. 39 Yəhudilərin
ölkəsində və Yerusəlimdə İsanın nələr
etdiyinin şahidi olduq. Onu çarmıxa
çəkib§ öldürdülər. 40–41 Amma Allah
Onu üçüncü gün diriltdi və bütün xalqa
deyil, əvvəlcədən seçdiyi Öz şahidlərinə
– ölülər arasından dirilməsindən sonra
Onunla birlikdə yeyib-içən bizlərə
aydın göstərdi. 42 Bizə isə əmr verdi ki,
“Allahın təyin etdiyi ölülərlə dirilərin
Hakimi Budur” deyə bunu xalqa şəhadət
etməklə vəz edək. 43 Onun barəsində
bütün peyğəmbərlər şəhadət edir ki,
Ona iman edən hər kəsin günahı Onun
adı ilə bağışlanır».
44 Peter bu sözləri deyirdi ki,
Müqəddəs Ruh söhbətə qulaq asan hər
kəsin üzərinə endi. 45 Peterlə birlikdə
gəlmiş sünnətli imanlılar Müqəddəs
Ruhun bəxşiş olaraq başqa millətlərin
də üstünə töküldüyünə mat qaldı;
46 onların başqa dillərdə danışıb Allahı
mədh etdiyini eşitdilər. Onda Peter
belə dedi: 47 «Bu adamlar bizim kimi
Müqəddəs Ruhu alıb. Bunların su ilə
vəftiz olmalarına kim mane ola bilər?»
48 Beləliklə, onların İsa Məsihin adı ilə
vəftiz olmalarını buyurdu. Sonra onlar
Peterdən xahiş etdilər ki, bir neçə gün
onların yanında qalsın.

Peterin izahı

11 Həvarilərlə bütün Yəhudeyadakı
imanlı bacı-qardaşlar eşitdilər
ki, başqa millətlər də Allahın kəlamını
qəbul ediblər. 2 Peter Yerusəlimə
gələndə sünnət tərəfdarları onu tənqid
edərək 3 dedilər: «Sən sünnətsizlərin
evinə gedib onlarla birgə yemək
yemisən».
4 Peter sözə başlayıb onlara hər şeyi
bir-bir izah etdi: 5 «Mən Yafo şəhərində
dua edirdim. Birdən fikrimi görüntü
apardı. Gördüm ki, böyük mələfəyə
bənzər bir şey dörd küncündən asılaraq
göydən enib mənim yanıma çatır. 6 Bu
şeyə gözlərimi dikib diqqətlə baxdım.
Gördüm ki, onun üstündə yer üzərində
yaşayan dördayaqlılar, çöl heyvanları,
sürünənlər və göydə uçan quşlar var.
7 Sonra eşitdim ki, bir səda mənə

*10:30 *Vaxtlarda* – bəzi əlyazmalarda *vaxtlarda oruc tutub.*
†10:30 *Doqquzuncu saat* – hazırkı vaxtla günortadan sonra saat üç.
‡10:32 *Qonaqdır* – bəzi əlyazmalarda *qonaqdır. O gəlib sənə hər şeyi danışacaq.*
§10:39 *Çarmıxa çəkib* – hərfi tərcümədə *ağacdan asıb.*

x10:34 Qanun. 10:17

deyir: “Qalx, Peter, kəs və ye!” 8 Mən
dedim: “Əsla, ya Rəbb! Heç vaxt mənim
ağzıma nə haram, nə də murdar bir şey
dəyməyib”. 9 Yenə göydən səda gəldi:
“Allahın halal dediyi şeylərə sən haram
demə”. 10 Bu, üç dəfə təkrarlanandan
sonra hər şey yenə göyə çəkildi. 11 Elə bu
zaman Qeysəriyyədən mənim yanıma
göndərilən üç kişi qaldığımız evin
qapısında dayandı. 12 Ruh mənə dedi
ki, tərəddüd etmədən onlarla gedim.
İmanlı qardaşlarımız olan bu altı nəfər
də mənə qoşulub həmin kişinin evinə
girdik. 13 Bu adam bizə nəql etdi ki, öz
evində dayanan mələk görüb. Mələk
ona demişdi: “Yafoya adamlar göndər,
Peter adlanan Şimonu çağırtdır. 14 Onun
sənə deyəcəyi sözlərlə həm sən, həm də
bütün külfətin xilas olacaq”. 15 Mən sözə
başlayanda Müqəddəs Ruh başlanğıcda
bizim üstümüzə endiyi kimi onların da
üstünə endi. 16 [y]Onda Rəbbin dediyi
bu sözlər yadıma düşdü: “Yəhya su ilə
vəftiz etdi, amma siz Müqəddəs Ruhla
vəftiz olacaqsınız”. 17 Beləliklə, Rəbb İsa
Məsihə iman edən bizlərə verdiyi eyni
bəxşişi Allah onlara da veribsə, mən
kiməm ki, Allaha qarşı çıxam?» 18 Bu
sözləri eşidib hamı sakitləşdi və Allahı
izzətləndirib dedi: «Deməli, Allah başqa
millətlərə də imkan yaratdı ki, tövbə
edib həyat tapsın».

Antakya cəmiyyətindəkilər

19 [z]Stefanın öldürülməsi ilə başlanan
təqib nəticəsində pərən-pərən düşən
imanlılar Finikiya, Kipr və Antakyaya
qədər getdilər. Allahın kəlamını yalnız
Yəhudilərə dedilər. 20 Amma onların
arasından bəzi Kiprli və Kirenalılar
Antakyaya gedib yunanca danışanlarla
da söhbətə başladılar. Onlara Rəbb İsa
ilə bağlı Müjdəni yayırdılar. 21 Rəbbin
əli onların üzərində idi və bunun
nəticəsində xeyli insan iman gətirib
Rəbbə tərəf döndü. 22 Bunların xəbəri
Yerusəlimdəki cəmiyyətə çatdı və
Barnabanı Antakyaya göndərdilər.
23 O oraya çatanda Allahın lütfünün
bəhrəsini görüb sevindi. O hamını
həvəsləndirirdi ki, can-dildən Rəbbə
bağlı qalsınlar. 24 Çünki özü Müqəddəs
Ruhla və imanla dolu, xeyirxah bir
kişi idi. Bunun nəticəsində də böyük
bir kütlə Rəbbə iman gətirdi. 25 Sonra
Barnaba Tarsusa gedib Şaulu axtardı.
26 Onu tapan kimi Antakyaya gətirdi. Bir
il ərzində oradakı imanlılar cəmiyyətinə
qoşulub bir yerdə yığılaraq böyük
bir kütləyə təlim öyrədirdi. Şagirdlər
ilk dəfə olaraq Antakyada məsihçi
adlandırıldı.
27 Elə həmin günlərdə Yerusəlimdən
Antakyaya bəzi peyğəmbərlər gəldi.
28 [a]Bunlardan Aqab adlı biri qalxıb
Ruhun təsiri ilə bütün dünyada böyük
bir aclıq olacağını bildirdi. Bu aclıq
Klavdinin hakimiyyəti dövrünə təsadüf
olundu. 29 Şagirdlər qərara aldılar ki,
hər biri gücü çatan qədər Yəhudeyada
yaşayan imanlı bacı-qardaşlarına
yardım göndərsin. 30 Bu qərara əməl
edərək yardımları Barnaba və Şaulun əli
ilə cəmiyyət ağsaqqallarına göndərdilər.

Peterin zindandan qaçması

12 O vaxtlar padşah Hirod
cəmiyyətin bəzi üzvlərinə
zülm etməyə əl atdı. 2 Yəhyanın
qardaşı Yaqubu qılıncdan keçirib
edam etdirdi. 3 Bundan Yəhudilərin
razı qaldığını görüb üstəlik Peteri də
tutdurdu. Bunu Mayasız Çörək bayramı
vaxtında etdi. 4 [b]O, Peteri yaxalatdırıb
zindana saldırdı; onu hər birində dörd
nəfər olmaqla dörd əsgəri dəstəyə
nəzarət altında saxlanmaq üçün təslim
etdi. Niyyətində tutmuşdu ki, Pasxa

---

[y] **11:16** Həv. 1:5 [z] **11:19** Həv. 8:1-4 [a] **11:28** Həv. 21:10 [b] **12:4** Çıx. 12:1-27

bayramından sonra xalq qarşısında
onun məhkəməsini keçirsin. 5 Peter
buna görə zindanda saxlanılırdı. Lakin
imanlılar cəmiyyəti ciddi-cəhdlə onun
üçün Allaha dua edirdi.
6 Peter Hirodun ona məhkəmə
quracağı günün əvvəlki gecəsi iki əsgər
arasında bir cüt zəncirə bağlanmış halda
yatırdı. Qarovulçular da qapıda dayanıb
zindanın təhlükəsizliyini qoruyurdu.
7 Qəflətən Rəbbin bir mələyi göründü.
Zindanın otağı işıqlandı. Mələk Peterin
böyrünə vurub onu oyatdı və dedi:
«Tez ol, qalx». O andaca Peterin
biləklərindəki zəncirlər düşdü. 8 Mələk
ona dedi: «Qurşağını bağla, çarığını
geyin». Peter belə də etdi. Mələk yenə
dedi: «Üst paltarını geyin, ardımca
gəl». 9 Peter onun ardınca düşərək
bayıra çıxdı. Amma mələyin etdiyinin
həqiqi olduğunu başa düşmürdü, elə
bilirdi ki, bir görüntü görür. 10 Birinci,
ikinci qarovulçunun yanından keçərək
şəhərə açılan dəmir darvazaya çatdılar.
Onların qarşısında darvaza öz-özünə
açıldı. Onlar çıxıb küçə uzunu getdilər.
Birdən mələk Peterdən ayrıldı. 11 O
andaca özünə gələn Peter dedi: «İndi
əminliklə başa düşdüm ki, Rəbb Öz
mələyini göndərib məni Hirodun
əlindən və Yəhudi xalqının gözlədiyi
bütün bəlalardan qurtardı».
12 Peter bunları dərk edəndə Mark
adlanan Yəhyanın anası Məryəmin
evinə getdi. Orada xeyli adam yığılıb
dua edirdi. 13 Peter həyət qapısını
döyməyə başladı və Roda adlı bir
qarabaş eşidib qapıya getdi. 14 Qız
Peteri səsindən tanıdı və sevincindən
qapını belə, açmadan yenə evə qaçdı.
Oradakılara xəbər verdi ki, Peter qapıda
dayanıb. 15 Onlar isə belə dedilər: «Dəli
olmusan?» Amma qız dediyinin üstündə
durdu. Belə olanda dedilər: «Yəqin
onu qoruyan mələkdir». 16 Peter isə
dayanmadan qapını döyürdü. Qapını
açıb onu görəndə mat qaldılar. 17 Peter
əli ilə susmaq işarəsi verərək Rəbbin
onu necə zindandan çıxardığını nəql
etdi. Sonra «bu xəbəri Yaquba və o
biri qardaşlara da çatdırın» deyərək
onlardan ayrılıb başqa yerə getdi.
18 Səhər açılanda əsgərləri böyük
bir vahimə bürüdü. Bir-birlərindən
soruşdular: «Bəs Peter necə oldu?»
19 Hirod onu axtartdı. Tapa bilməyəndə
isə qarovulçuları sorğu-suala
çəkdirəndən sonra edam edilmələrinə
əmr verdi.

Padşah Hirodun ölümü

Bundan sonra Hirod Yəhudeyadan
Qeysəriyyəyə yollandı və orada qaldı.
20 Hirod Sur və Sidon əhalisinə qarşı
hiddətindən alışıb-yanırdı. Onlar
birlikdə onun yanına gəlib sarayın
məişət işləri üzrə müdiri Blastı öz
tərəflərinə çəkərək sülh istədiklərini
bildirdilər. Çünki onların ölkəsi
padşahın ölkəsindən gələn ərzaqdan
asılı idi. 21 Təyin olunan gündə şahlıq
libasını geyən Hirod hökm kürsüsünə
oturaraq Sur və Sidonlulara müraciət
etdi. 22 Camaat qışqırmağa başladı:
«Bu bir insanın səsi deyil, bir allahın
səsidir!» 23 O anda Rəbbin bir mələyi
Hirodu vurdu. Çünki izzəti Allaha
vermədi. Onu daxildən qurdlar yedi və
canı çıxdı.

Barnaba ilə Şaula vəzifə tapşırılır

24 Allahın kəlamı isə yayılırdı və
təsiri artırdı. 25 Barnaba və Şaul
Yerusəlimdəki xidmətlərini yerinə
yetirəndən sonra Mark adlanan Yəhyanı
özləri ilə götürüb geri qayıtdılar.*

---

*12:25 *Yerusəlimdəki öz xidmətlərini … geri qayıtdı* – bəzi əlyazmalarda *öz xidmətlərini … Yerusəlimdən qayıtdı.*

13 Antakyadakı cəmiyyətdə
peyğəmbərlər və müəllimlər var
idi: Barnaba, Niger adlanan Şimeon,
Kirenalı Luki, hökmdar Hirodun süd
qardaşı Menaxem və Şaul. 2 Bu adamlar
Rəbbə xidmət edib oruc tutarkən
Müqəddəs Ruh onlara dedi: «Barnaba
ilə Şaulu Mənim tapşırdığım iş üçün
ayırın». 3 Beləliklə, oruc tutub dua
etdikdən sonra Barnaba ilə Şaulun
üzərinə əllərini qoydular və onları yola
saldılar.

Kiprdə

4 Müqəddəs Ruhun əmri ilə yola
çıxan Barnaba və Şaul Selevkiyaya
getdilər və oradan da gəmi ilə Kiprə
getdilər. 5 Salamisə çatanda Yəhudilərin
sinaqoqlarında Allahın kəlamını bəyan
etməyə başladılar. Yəhya isə onların
köməkçisi idi. 6 Adanı başdan-başa
gəzərək Pafosa çatdılar. Orada Baryeşu
adlı bir Yəhudi cadugər və yalançı
peyğəmbərə rast gəldilər. 7 Baryeşu vali
Sergi Paula yaxın adam idi. Ağıllı kişi
olan vali Barnaba ilə Şaulu çağırtdırıb
Allahın kəlamına qulaq asmaq istədi.
8 Lakin adı cadugər mənasını verən
Elima, yəni Baryeşu buna qarşı çıxaraq
valini imandan azdırmağa çalışırdı.
9 Amma Müqəddəs Ruhla dolan Şaul,
yəni Paul gözlərini Elimaya dikib
10 dedi: «Ey iblis oğlu, ürəyin hər cür
hiylə və fırıldaqla doludur. Ey salehliyə
tamamilə düşmən kəsilən, Rəbbin
haqq yolunu əyri qələmə verməkdən əl
çəkməyəcəksənmi? 11 İndi isə bax, sənin
üstünə Rəbbin əli gəlir. Kor olacaqsan,
bir müddət gün işığı görməyəcəksən». O
anda həmin adamın üzərinə bir duman,
bir qaranlıq çökdü. Ora-bura gəzərək
kimisə axtarırdı ki, onun əlindən tutub
yol göstərsin. 12 Olanları görən vali
Rəbbin təliminə təəccübləndi və iman
etdi.

Pisidiyada olan Antakya

13 Paulla yanındakılar Pafosdan
yelkən açıb Pamfiliya bölgəsindəki
Perge şəhərinə çatdı. Yəhya isə
onlardan ayrılıb Yerusəlimə qayıtdı.
14 Onlar yollarına davam edib Pergedən
Pisidiyada olan Antakyaya çatdılar.
Şənbə günü sinaqoqa girib oturdular.
15 Qanunun və Peyğəmbərlərin
yazılarının oxunmasından sonra
sinaqoq rəisləri onları çağırtdırıb
dedilər: «Qardaşlar, xalqa ürəkləndirici
müraciətiniz varsa, buyurub deyin».
16 Paul ayağa qalxıb diqqəti cəlb
etmək üçün əlini qaldıraraq dedi:
«Ey İsraillilər və Allahdan qorxanlar,
qulaq asın. 17 [c]Bu xalqın, yəni
İsraillilərin səcdə etdiyi Allah bizim
ata-babalarımızı seçdi və Misirdə –
qürbət eldə yaşadıqları müddət ərzində
onları böyük bir millət etdi. Sonra
əlini uzadıb onları Misirdən çıxartdı.
18 Qırx ilə yaxın səhrada qaldıqları
müddət ərzində onlara dözdü.*
19 [d]Kənan torpağında yaşayan yeddi
milləti qırandan sonra bu millətlərin
torpaqlarını irs olaraq İsrail xalqına
verdi. 20 Bütün bunlar təqribən dörd
yüz əlli ili əhatə etdi. Sonra Allah onlar
üçün hakimlər yetirdi. Bu, peyğəmbər
Şamuelin dövrünə qədər davam etdi.
21 [e]Xalq padşah istəyəndə isə Allah
Binyamin qəbiləsindən olan Qiş oğlu
Şaulu onlar üçün padşah təyin etdi. O,
qırx il padşahlıq etdi. 22 [f]Onu aradan
götürəndən sonra Allah Davudu ucaldıb

*13:18 *Onlara dözdü* – bəzi əlyazmalarda *onların qayğısına qaldı.*

[c]**13:17** Çıx. 1:7; 12:51; Say. 14:34; Qanun. 1:30-31
[d]**13:19** Qanun. 7:1; Yeş. 14:1; Hak. 2:16; 1Şam. 3:20
[e]**13:21** 1Şam. 8:5; 10:21 [f]**13:22** 1Şam. 13:14; 16:12; Zəb. 89:20

onların üzərində padşah etdi və onun
barəsində şəhadət etdi: “Öz ürəyimə
yatan adam olaraq Yessey oğlu Davudu
tapdım və o Mənim bütün istəduklərimi
yerinə yetirəcək”. 23 Allah Öz vədinə
sadiq qalıb bu adamın soyundan olan
Xilaskar İsanı İsrailə göndərdi. 24 [g]İsanın
gəlişindən əvvəl Yəhya bütün İsrail
xalqına vəz etmişdi ki, tövbə edib vəftiz
olunsunlar. 25 [h]Yəhya işini qurtararkən
dedi: “Məni kim sayırsınız? O Şəxs mən
deyiləm. Məndən sonra O gəlir. Mən
Onun ayağındakı çarığını açmağa belə,
layiq deyiləm”.
26 Qardaşlar, ey İbrahimin nəslinin
övladları və aranızda olan Allahdan
qorxanlar, bu xilas sözü bizə* göndərilib.
27 Çünki Yerusəlim əhalisi və onların
rəhbərləri İsanı tanımadı. Beləliklə,
Onu mühakimə etməklə hər Şənbə
günü oxunan peyğəmbərlərin sözünü
yerinə yetirdilər. 28 [i]Onda ölümə layiq
heç bir təqsir tapmasalar da, Pilatdan
Onun edam olunmasını tələb etdilər.
29 [j]Onun barəsində yazılanların hamısını
tam yerinə yetirəndən sonra Onu
çarmıxdan düşürüb qəbirə qoydular.
30 Lakin Allah Onu ölülər arasından
diriltdi. 31 [k]İsa xeyli günlər ərzində daha
əvvəl Qalileyadan Onunla Yerusəlimə
gələnlərə göründü. Bu adamlar indi
Onun barəsində xalq üçün şahiddir.
32 [l]Biz indi sizə bu Müjdəni bəyan
edirik: ata-babalarımıza verilən vəd
həyata keçib, 33 Allah İsanı diriltməklə
bu vədi onların övladları olan bizlər
üçün yerinə yetirib. İkinci məzmurda
belə yazılıb:
“Sən Mənim Oğlumsan,
Mən bu gün Sənə Ata oldum”.
34 [m]Allah Onu ölülər arasından
dirildərək heç vaxt çürüməyə
qoymayacaq. Ona görə demişdi:
“Davuda vəd etdiyim sadiq məhəbbəti
sizə göstərəcəyəm”. 35 [n]Buna görə də
başqa yerdə belə deyir: “Mömin insanını
çürüməyə qoymazsan”. 36 Davud
öz müasirlərinə Allahın iradəsinə
müvafiq xidmət edəndən sonra vəfat
etdi. O da ataları ilə uyudu və cəsədi
çürüyüb-getdi. 37 Amma Allahın
diriltdiyi İnsanın cismi çürümədi.
38 Bununla da, ey qardaşlar, bilin
ki, bu İnsan vasitəsilə günahların
bağışlanması sizə elan edilir. Belə
ki Musanın Qanununa görə saleh
sayılmamanızın səbəblərinin heç birinə
baxmayaraq, 39 iman edən hər kəs bu
İnsanda saleh sayılacaq. 40 [o]Ehtiyatlı
olun ki, Peyğəmbərlərin dedikləri baş
verməsin:
41 “Baxın, siz ey xor baxanlar,
Mat qalın və yox olun.
Sizin vaxtınızda elə işlər görəcəyəm
ki,
Sizə danışsaydılar, inanmazdınız”».
42 Paulla Barnaba sinaqoqdan
çıxarkən camaat† onlardan xahiş etdi ki,
gələn Şənbə günü yenə də bu mövzudan
danışsınlar. 43 Sinaqoqda olan camaat
çıxıb gedəndən sonra xeyli Yəhudi və
Yəhudi dinini qəbul edən möminlər
Paul və Barnabanın ardınca getdilər.

---

*13:26 *Bizə* – bəzi əlyazmalarda *sizə*.
†13:42 *Camaat* – bəzi əlyazmalarda *Başqa millətlərdən olanlar*.

[g]**13:24** Mark 1:4; Luka 3:3
[h]**13:25** Mat. 3:11; Mark 1:7; Luka 3:16; Yəh. 1:19-20,27
[i]**13:28** Mat. 27:22-23; Mark 15:13-14; Luka 23:21-24; Yəh. 19:15
[j]**13:29** Mat. 27:57-61; Mark 15:42-47; Luka 23:50-56; Yəh. 19:38-42
[k]**13:31** Həv. 1:3 [l]**13:32** Zəb. 2:7 [m]**13:34** Yeş. 55:3 [n]**13:35** Zəb. 16:10
[o]**13:40** Hab. 1:5

Onlar da bu adamlarla söhbətlər edir və
Allahın lütfündə dönməz olsunlar deyə
onlara öyüd-nəsihət verirdilər.
44 Növbəti Şənbə Rəbbin kəlamına
qulaq asmaq üçün demək olar ki bütün
şəhər əhalisi toplaşmışdı. 45 İzdihamı
görən Yəhudiləri qısqanclıq bürüdü
və Paulun nitqinin əleyhinə qalxıb
ona böhtan atdılar. 46 Paulla Barnaba
isə cəsarətlə dedilər: «Allahın kəlamı
əvvəlcə sizə bəyan olunmalı idi. Sizin
ondan imtina etdiyiniz və özünüzü
əbədi həyata layiq görmədiyiniz üçün
biz indi başqa millətlərə üz tuturuq.
47 [p]Çünki Rəbbin bizə əmri belə idi:
"Səni millətlərə nur etmişəm ki,
Xilası dünyanın ən uzaq yerlərinə
yayasan"».
48 Başqa millətlərdən olanlar bunu
eşidərkən sevinirdilər və Rəbbin
kəlamını izzətləndirirdilər. Əbədi
həyat üçün təyin olunanların hamısı
iman gətirdi. 49 Beləliklə, Rəbbin
kəlamı bütün bölgəyə yayıldı. 50 Amma
Yəhudilər hörmətli, mömin qadınları
və şəhərin nüfuzlu adamlarını təşvişə
saldılar. Onlar da Paulla Barnabanı təqib
edib o bölgədən qovdular. 51 [q]Buna görə
də Paulla Barnaba ayaqlarının tozunu
onların üstünə çırpıb Konyaya getdilər.
52 Şagirdlər isə sevinc və Müqəddəs
Ruhla doldular.

Konyada

14 Konyada Paulla Barnaba
Yəhudilərin sinaqoquna birlikdə
daxil olub elə danışdılar ki, həm
Yəhudilərdən, həm də Yunanlardan
ibarət böyük kütləni imana gətirdilər.
2 Amma inanmayan Yəhudilər başqa
millətlərdən olanları qızışdıraraq
onları imanlıların əleyhinə qaldırdılar.
3 Xeyli vaxt orada qalan Paulla Barnaba
cəsarətlə Rəbb haqqında danışırdı. Rəbb
isə onlara əlamət və xariqə göstərmək
gücünü verməklə Öz lütfü barədə kəlamı
təsdiqlədi. 4 Amma şəhər əhalisi iki
hissəyə bölündü. Bəziləri Yəhudilərin,
bəziləri isə həvarilərin tərəfini saxladı.
5 Yəhudilərlə başqa millətlərdən olanlar
və onların rəhbərləri həvariləri təhqir
edərək daşqalaq etmək üçün bir sui-qəsd
hazırladı. 6 Bundan xəbər tutan bu
həvarilər Likaoniyanın Listra ilə Derbe
şəhərlərinə və oranın ətraf yerlərinə
qaçdılar. 7 Orada da Müjdəni yaydılar.

Listra və Derbedə

8 Listrada ayaqlarından şikəst olan bir
kişi var idi. Bu adam anadangəlmə əlil
idi, heç vaxt yeriməmişdi. 9 O, Paulun
dediklərinə qulaq asırdı. Ona göz qoyan
Paul gördü ki, sağalacağına imanı var.
10 Ona görə bərkdən dedi: «Qalx, ayaq
üstə dur!» Bu adam yerindən atılıb
yeriməyə başladı. 11 Camaat Paulun
etdiyini görəndə haray salıb Likaoniya
dilində dedi: «Tanrılar insan şəklində
yanımıza gəlib!» 12 Barnabaya Zevs,
Paula isə aparıcı natiq olduğuna görə
Hermes dedilər. 13 Şəhərin qarşısında
yerləşən Zevs məbədinin kahini şəhər
darvazalarına buğalar və çələnglər
gətirdi. O, camaatla birgə qurban
kəsmək istədi. 14 Amma həvarilər –
Barnaba ilə Paul bunu eşidən kimi
paltarlarını cırdılar və izdihamın içinə
girib haray çəkdilər: 15 «Ay ağalar,
niyə belə edirsiniz? Biz də sizin kimi
insanıq, eyni varlığıq. Sizə Müjdə
gətirmişik. Əl çəkin bu boş şeylərdən.
Yeri, göyü, dənizi və bunların içindəki
hər şeyi yaradan, var olan Allaha
tərəf dönün. 16 O, əvvəlki nəsillərin
dövründə yaşayan bütün millətlərə öz
yolları ilə getməyə izin verdi. 17 Lakin
yenə də Özünü şahidsiz qoymadı.
Sizə yaxşılıq edərək göydən yağışlar

---

[p] **13:47** Yeş. 42:6; 49:6-7 [q] **13:51** Mat. 10:14; Mark 6:11; Luka 9:5; 10:10-11

yağdırır, cürbəcür məhsullar yetişdirən
fəsillər bəxş edir, sizi yeməklə doydurur
və ürəyinizi sevincə qərq edir». 18 Bu
sözlərlə camaatın onlara qurban
kəsməsinin qarşısını bir çətinliklə
aldılar.
19 Antakya* və Konyadan bəzi
Yəhudilər gəlib xalqı öz tərəfinə
çəkərək Paulu daşqalaq etdilər. Elə
bildilər ki, Paul ölüb, onu şəhərdən
kənara sürüdülər. 20 Şagirdlər ətrafına
yığılanda isə Paul ayağa qalxıb şəhərə
qayıtdı. Ertəsi gün isə Barnaba ilə
birlikdə Derbeyə getdi. 21 O şəhərdə də
Müjdə yayıb xeyli şagird hazırladılar.

Suriyada olan Antakyaya qayıtma

Paulla Barnaba daha sonra
Listraya, Konyaya və Pisidiyada olan
Antakyaya qayıtdı. 22 Şagirdləri ruhən
möhkəmləndirdilər və imanda dönməz
olsunlar deyə onları həvəsləndirərək
dedilər: «Allahın Padşahlığına çox
əziyyətlərdən keçərək girməliyik».
23 İmanlılar üçün hər cəmiyyətdə
ağsaqqallar seçərək dua və orucla onları
inandıqları Rəbbə əmanət etdilər.
24 Pisidiya bölgəsindən keçərək
Pamfiliyaya gəldilər. 25 Pergedə
kəlamı yayandan sonra Antalyaya
getdilər. 26 Oradan gəmi ilə Suriyadakı
Antakyaya qayıtdılar. Onların indi
yerinə yetirdikləri xidmət üçün burada
Allahın lütfünə əmanət edilmişdilər.
27 Oraya çatanda cəmiyyəti bir yerə
yığıb Allahın onlar vasitəsilə nə etdiyini,
başqa millətlərə iman qapısını necə
açdığını söylədilər 28 və şagirdlərin
yanında uzun müddət qaldılar.

Yerusəlimdəki məşvərət

15 [r]Yəhudeyadan gələn bəzi
adamlar Antakyadakı imanlı
bacı-qardaşlara belə təlim öyrədirdi:
«Əgər siz Musanın qoyduğu adətə görə
sünnət olmasanız, xilas ola bilməzsiniz».
2 Paul və Barnaba bu adamlarla
çox çəkişib mübahisə etdi. Nəhayət
qərara alındı ki, Paulla Barnaba digər
qardaşlardan bir neçəsini götürərək
Yerusəlimə gedib bu sualın müzakirəsi
üçün həvarilər və ağsaqqallarla
görüşsünlər. 3 Beləliklə, cəmiyyət
tərəfindən göndərilənlər Finikiya və
Samariya bölgələrindən keçdilər. Başqa
millətlərin Allaha tərəf necə dönmələrini
xəbər verə-verə oradakı bütün imanlı
bacı-qardaşları çox sevindirdilər.
4 Yerusəlimə çatanda oradakı imanlılar
cəmiyyəti və həvarilərlə ağsaqqallar
onları yaxşı qarşıladılar. Allahın onlar
vasitəsilə etdiyi hər şeyi danışdılar.
5 Amma farisey təriqətindən olmuş bəzi
imanlılar qalxıb belə dedilər: «Başqa
millətlərdən olanları sünnət etmək
və onlara Musanın Qanununa riayət
etmələrini əmr etmək lazımdır».
6 Həvarilərlə ağsaqqallar bu
mövzunun müzakirəsi üçün toplaşdılar.
7 [s]Uzun-uzadı mübahisələrdən sonra
Peter ayağa qalxıb dedi: «Qardaşlar,
bildiyiniz kimi Allah aranızdan çoxdan
bəri məni seçib ki, başqa millətlərdən
olanlar Müjdəni mənim dilimdən eşidib
iman etsinlər. 8 [t]İnsanın ürəyindən
xəbərdar olan Allah bizə verdiyi kimi
Müqəddəs Ruhu onlara da verməklə
təsdiq etdi ki, onları qəbul edir.
9 Onlarla bizim aramızda heç bir
ayrı-seçkilik yaratmadı, imanları ilə
onların da ürəklərini təmizlədi. 10 Elə
isə nə bizim, nə də ata-babalarımızın
gəzdirə bilmədiyi boyunduruğu niyə bu
şagirdlərin boynuna yükləyərək Allahı
sınağa çəkirsiniz? 11 Əksinə, inanırıq ki,

---

*14:19 *Antakya* – yəni Pisidiyada olan Antakya.

[r]**15:1** Lev. 12:3 [s]**15:7** Həv. 10:1-43 [t]**15:8** Həv. 2:4; 10:44

biz də Rəbb İsanın lütfü ilə xilas oluruq,
onlar da».
12 Onda bütün toplantı sakitləşdi
və Barnaba ilə Paula qulaq asmağa
başladılar. Barnaba ilə Paul Allahın
onlar vasitəsilə başqa millətlər arasında
göstərdiyi əlamət və xariqələrin
hamısını danışdı. 13 Onlar sözlərini
yekunlaşdırandan sonra Yaqub söz alıb
dedi: «Qardaşlar, mənə qulaq asın!
14 Allah başqa millətlərdən Öz adı üçün
bir xalq yaratmaq məqsədi ilə onlara ilk
dəfə necə nəzər salması barədə Şimon
izahat verdi. 15 [u]Peyğəmbərlərin sözləri
bunu təsdiqləyir. Orada yazıldığı kimi:
16 "Bundan sonra qayıdacağam,
Davudun yıxılan çadırını bərpa
edəcəyəm.
Onun dağılan yerlərini yenidən
tikəcəyəm,
Onu əvvəlki halına salacağam,
17–18 Ona görə ki qalan insanlar –
Mənim adımla çağırılan bütün
millətlər Rəbbi axtarsınlar.
Bunları qədimdən bəri məlum edən
Rəbb belə deyir".*
19 Beləliklə, bu qərara gəlmişəm
ki, başqa millətlərdən Allaha tərəf
dönənlərə maneçilik törətməməliyik.
20 [v]Lakin onlara yazmalıyıq ki, bütlərə
təqdim olunub murdarlanan qurbanların
ətini, boğularaq öldürülən heyvanların
ətini və qan yeməsinlər; əxlaqsızlıqdan
da özlərini uzaq saxlasınlar. 21 Çünki
qədim nəsillərin dövründən bəri hər
şəhərdə Musanın sözlərini vəz edənlər
var və bu sözlər hər Şənbə günü
sinaqoqlarda oxunmaqdadır».

Yəhudi olmayanlara məktub

22 Buna görə bütün imanlılar
cəmiyyəti ilə həvarilər və ağsaqqallar
razılığa gəldilər ki, öz aralarından
adamlar seçib Paul və Barnaba ilə
birlikdə Antakyaya göndərsinlər. İmanlı
bacı-qardaşlar arasında rəhbərlik edən
Barsabba adlanan Yəhuda ilə Silanı
seçdilər. 23 Onların əlinə bu məktubu
verib göndərdilər:
«İmanlı qardaşlarınız olan biz
həvarilərlə ağsaqqallardan Antakya,
Suriya və Kilikiyada yaşayan, başqa
millətlərdən olan bacı-qardaşlara
salam!
24 Eşitdik ki, bizlərdən bəzi
adamlar yanınıza gəlib sözləri ilə
sizi lərzəyə salaraq düşüncələrinizi
qarışdırıblar.† Lakin bunu onlara
biz tapşırmamışdıq. 25 Ona görə
də aramızdan bəzi adamları seçib
sevimli dostlarımız Barnaba və
Paulla bərabər sizin yanınıza
göndərməyi yekdilliklə qərara
aldıq. 26 Hər ikisi Rəbbimiz İsa
Məsihin adı uğrunda canını
təhlükəyə atıb. 27 Qərarımıza
müvafiq sizin yanınıza Yəhuda ilə
Silanı göndəririk ki, eyni şeyləri
sizə şifahi olaraq şərh etsinlər.
28 Müqəddəs Ruh və biz vacib
olan bu qaydalardan başqa sizin
üstünüzə heç nəyi yükləməməyi
lazım bildik: 29 Bütlərə təqdim
olunan qurbanların ətini, boğularaq
öldürülən heyvanların ətini və
qan yeməyin; əxlaqsızlıqdan da
özünüzü uzaq saxlayın. Bunlardan

---

*15:17-18 *Bunları qədimdən bəri bəyan edən Rəbb belə deyir"* – bəzi əlyazmalarda *Bunların hamısını edən Rəbb belə deyir". Allahın bütün işləri qədimdən bəri Özünə məlumdur.*

†15:24 *Qarışdırıblar* – bəzi əlyazmalarda *qarışdırıb və «sünnət olub Qanuna əməl etməlisiniz» deyiblər.*

[u]15:15 Amos 9:11-12 [v]15:20 Çıx. 34:15-17; Lev. 17:10-16; 18:6-23

qaçsanız, düz edərsiniz. Salamat
qalın».
30 Beləliklə, adamlar yola düşüb
Antakyaya getdilər və camaatı bir
yerə yığıb məktubu onlara verdilər.
31 İmanlılar ucadan oxunan məktubun
ürəkləndirici sözlərindən sevindilər.
32 İkisi də peyğəmbər olan Yəhuda və
Sila bir çox danışıqlar apararaq imanlı
bacı-qardaşları ürəkləndirib ruhən
möhkəmləndirdilər. 33 Bir müddət orada
qalandan sonra onları göndərənlərin
yanına qayıtmaq üçün bacı-qardaşlar
tərəfindən əmin-arxayın yola salındılar.
34 *

35 Paulla Barnaba Antakyada qalıb
xeyli başqa adamla birlikdə Rəbbin
kəlamını öyrədərək Müjdəni yaydılar.

Paulla Barnaba arasında fikir ayrılığı

36 Bundan bir qədər sonra Paul
Barnabaya dedi: «Rəbbin kəlamını
elan etdiyimiz bütün şəhərlərə qayıdıb
imanlı bacı-qardaşlara baş çəkək,
hal-əhval tutaq». 37 Barnaba istədi ki,
Mark adlanan Yəhyanı da aparsınlar.
38 [w]Amma Paul Pamfiliyada onları
atıb gedən, onlarla birlikdə işini
başa çatdırmayan adamı özləri ilə
götürməyi məsləhət bilmədi. 39 Onların
arasında elə kəskin fikir ayrılığı oldu
ki, bir-birlərindən ayrıldılar. Barnaba
Markı götürüb Kiprə doğru yelkən
açdı. 40 Paul isə Silanı seçdi və imanlı
bacı-qardaşlar tərəfindən Rəbbin
lütfünə əmanət ediləndən sonra yola
çıxdı. 41 Onlar Suriya və Kilikiyanı
gəzib-dolaşdılar və cəmiyyətləri
möhkəmləndirdilər.

Timotey Paul və Sila ilə

16 Paul Derbe və Listraya gəldi.
Listrada Timotey adlı bir İsa
şagirdi var idi. Onun anası imanlı bir
Yəhudi, atası isə Yunan idi. 2 Listra
və Konyadakı imanlı bacı-qardaşlar
onun barəsində xoş sözlər deyirdi.
3 Timoteyi özü ilə aparmaq istəyən
Paul bu şəhərlərdəki Yəhudilərə görə
onu sünnət etdi. Çünki hamı onun
atasının Yunan olduğunu bilirdi.
4 Onlar şəhərbəşəhər gəzib-dolaşır,
Yerusəlimdəki həvarilərlə ağsaqqalların
qərara aldığı qaydaları imanlılara deyir
və göstərirdi ki, bunlara riayət etsinlər.
5 Beləliklə, cəmiyyətlər imanda güclənir
və sayı günbəgün artırdı.

Paulun Makedoniyalı adam barədə görüntüsü

6 Müqəddəs Ruh onlara imkan
vermədi ki, Asiya vilayətində kəlamı
yaysınlar. Ona görə də onlar Frigiya
və Qalatiya ərazisini keçib getdilər.
7 Misiya sərhədinə gələrkən Bitinyaya
getməyə çalışdılar. Amma İsanın
Ruhu onlara izin vermədi. 8 Ona görə
Misiyadan keçib Troasa getdilər.
9 O gecə Paul bir görüntü gördü.
Makedoniyalı bir nəfər onun qarşısında
durub yalvarırdı: «Makedoniyaya gəl və
bizə kömək et!» 10 Paul bu görüntünü
görəndən sonra Makedoniyaya getmək
üçün dərhal bir yol axtardıq. Bundan
nəticə çıxartdıq ki, Allah bizi orada
Müjdə yaymaq üçün çağırır.

Filipidə

11 Troasdan yelkən açıb birbaşa
Samotraki adasına və ertəsi gün isə
Neapolisə gəldik. 12 Oradan Filipiyə

---

*15:34 *Salındılar* – bəzi əlyazmalarda *salındılar.* 34 *Amma Sila orada qalmaq istədi.*

[w]15:38 Həv. 13:13

keçdik. Bura Makedoniya bölgəsində
əhəmiyyətli bir şəhərdir, əhalisi
əsasən Romalılardır. Bu şəhərdə bir
neçə gün qaldıq. 13 Şənbə günü şəhər
darvazasından çıxıb çay kənarına
getdik. Elə bildik ki, Yəhudilər adətən
oraya dua etmək üçün yığılır. Oturduq,
oraya yığılan qadınlarla söhbət etməyə
başladıq. 14 Bizə qulaq asanlar arasında
Tiatira şəhərindən tünd qırmızı parça
satan, Allaha mömin olan Lidiya adlı
bir qadın var idi. Paulun sözlərinə
qulaq asmaq üçün Rəbb ona açıq ürək
vermişdi. 15 Lidiya ev əhli ilə bərabər
vəftiz olunduqdan sonra bizi evinə
dəvət edib dedi: «Əgər siz məni Rəbbə
sadiq bir insan kimi qəbul edirsinizsə,
gəlin, mənim evimdə qalın». O bizi
buna razı etdi.

16 Bir gün biz dua yerinə gedərkən
falçılıq ruhuna tutulan bir qarabaş
qarşımıza çıxdı. Bu qız baxıcılıq edərək
öz ağalarına nə qədər qazanc gətirmişdi.
17 O, Paulun və bizim ardımızca düşərək
qışqıra-qışqıra deyirdi: «Bu adamlar
Allah-Taalanın qullarıdır. Sizə* xilas
yolunu bildirirlər». 18 Bunu günbəgün
təkrar etdi. Bu, Paulu çox bezdirdi.
Nəhayət, o çevrilib ruha dedi: «İsa
Məsihin adı ilə sənə əmr edirəm, bu
qızdan çıx!» Ruh dərhal qızdan çıxdı.

19 Qızın ağaları görəndə ki bu
qazancdan ümidləri kəsildi, Paulla
Silanı tutub bazar meydanına –
rəhbərlərin qarşısına gətirdilər.
20 Onları hakimlərin qarşısına çıxararaq
dedilər: «Bu adamlar Yəhudidir.
Şəhərimizə qarışıqlıq salıblar. 21 Biz
Romalılara qəbulu və icrası qadağan
olunan adətləri yayırlar». 22 Xalq da
Paulla Silanın əleyhinə çıxdı. Hakimlər
əmr verdilər ki, onların əyinlərindəki
paltarları soyundurub dəyənəklə
döysünlər. 23 Onlara çox zərbə vurdular
və sonra zindana atdılar. Zindanın baş
mühafizəçisinə əmr etdilər ki, onları
möhkəm nəzarət altında saxlasınlar.
24 Bu əmri alan baş mühafizəçi
onları zindanın xüsusi otağına aparıb
ayaqlarını kündəyə saldı.

25 Gecə yarısına yaxın Paulla Sila dua
edir və Allaha ilahilər oxuyurdu. Digər
məhbuslar da onlara qulaq asırdılar.
26 Birdən elə güclü zəlzələ oldu ki,
zindanın təməli belə, yerindən oynadı.
Bir andaca bütün qapılar açıldı, hamının
zəncirləri töküldü. 27 Baş mühafizəçi
oyanıb zindanın qapılarını açıq görəndə
qılıncını çəkib canına qəsd etmək
istədi. Elə bildi ki, məhbuslar qaçıb.
28 Amma Paul bərkdən qışqırıb dedi:
«Canına qıyma, hamımız buradayıq!»
29 Baş mühafizəçi işıq gətirdib içəri
qaçdı. Titrəyə-titrəyə Paul və Silanın
qarşısında yerə döşəndi. 30 Onları bayıra
çıxararaq soruşdu: «Ağalar, xilas olmaq
üçün nə etməliyəm?» 31 Onlar dedilər:
«Rəbb İsaya iman et, sən də, ev əhlin
də xilas olarsınız». 32 Sonra həm ona,
həm də onun ev əhlinə Rəbbin kəlamını
bildirdilər. 33 Gecənin bu vədəsində baş
mühafizəçi onları götürüb yaralarını
yudu. Sonra həm özü, həm də ev əhli
dərhal vəftiz oldu. 34 Paulla Silanı evinə
aparıb onlar üçün süfrə açdı. Allaha
iman etdiklərinə görə o və bütün ev əhli
şad oldular.

35 Səhər açılanda hakimlər yasavullar
göndərib dedilər: «Bu adamları azad
et». 36 Baş mühafizəçi bu sözləri Paula
çatdırdı: «Hakimlər xəbər göndərdi ki,
siz azad ediləsiniz. İndi çıxın, arxayın
gedin». 37 Amma Paul yasavullara belə
dedi: «Roma vətəndaşı ola-ola bizi
məhkəməsiz hamının qarşısında döyüb
zindana atdılar. İndi bizi gizli-gizli
qovmaq istəyirlərmi? Belə şey ola
bilməz! Özləri gəlsin, bizi buradan

---

*16:17 *Sizə* – bəzi əlyazmalarda *Bizə*.

çıxarsın!» 38 Yasavullar bu sözləri
hakimlərə çatdırdılar. Hakimlər Paulla
Silanın Roma vətəndaşı olduğunu
eşidəndə qorxdular 39 və gəlib onlardan
üzr istədilər. Sonra onları bayıra
çıxarıb xahiş etdilər ki, şəhərdən çıxıb
getsinlər. 40 Paulla Sila zindandan
çıxandan sonra Lidiyanın evinə getdilər.
İmanlı bacı-qardaşlarla görüşüb onları
ruhlandırandan sonra yola düşüb
getdilər.

Salonikdə

17 Onlar Amfipolis və
Apolloniyadan keçərək
Salonikə gəldilər. Burada bir Yəhudi
sinaqoqu var idi. 2 Paul adətinə görə
Yəhudilərin yanına gedib üç Şənbə
dalbadal onlarla Müqəddəs Yazılar
üstündə mübahisə etdi, 3 şərh və sübut
göstərdi ki, Məsihin əzab çəkərək ölüb
ölülər arasından dirilməsi lazım idi
və dedi: «Sizə elan etməkdə olduğum
bu İsa Məsihdir!» 4 Yəhudilərdən
bəziləri, mömin Yunanların böyük bir
hissəsi, bir çox nüfuzlu qadınlar buna
əmin oldu və Paulla Silaya qoşuldu.
5 Yəhudilərin buna paxıllığı tutdu.
Meydana* yığılan camaatın içərisində
olan bəzi şər adamlardan bir izdiham
toplayıb şəhərdə qarışıqlıq saldılar.
Paulla Silanı xalqın önünə çıxarmaq
məqsədi ilə Yasonun evinə hücum
etdilər. 6 Onları tapmayanda Yasonla
bəzi imanlı qardaşları sürüyə-sürüyə
şəhər başçılarının qarşısına gətirib
hay-küy saldılar: «Dünyaya çaxnaşma
salan bu adamlar gəlib buraya da çıxdı.
7 Yason onları öz evinə qəbul edib.
Bunların hamısı qeysərin fərmanlarının
əksinə gedib deyir ki, İsa adlı başqa bir
padşah var». 8 Bu sözləri eşidən izdiham
və şəhər başçıları lərzəyə düşdülər.
9 Nəhayət, başçılar təminat alaraq Yason
və digərlərini azad etdilər.

Veriyada

10 İmanlı bacı-qardaşlar isə gecə
olan kimi Paulla Silanı dərhal Veriya
şəhərinə göndərdilər. Onlar oraya
çatarkən Yəhudilərin sinaqoquna
getdilər. 11 Veriyadakı Yəhudilərsə
Salonikdə olanlardan daha açıq fikirli
idi. Kəlamı böyük həvəslə qarşılayaraq
hər gün Müqəddəs Yazıları araşdırır, «Bu
düzgün təlimdirmi?» deyə yoxlayırdılar.
12 Beləliklə, onların arasından xeyli
adam, həmçinin çoxlu hörmətli Yunan
qadınları və kişiləri iman etdilər.
13 Lakin Salonikdəki Yəhudilər Paulun
Veriyada da Allahın kəlamını elan
etdiyini biləndə oraya getdilər və xalqı
qızışdırıb lərzəyə saldılar. 14 Bundan
sonra imanlı bacı-qardaşlar Paulu dərhal
dəniz sahilinə gedən yolla göndərdilər.
Sila ilə Timotey isə Veriyada qaldı.
15 Paulu yola salanlar onu Afinaya qədər
ötürdülər. Sonra Paul onlara əmr verdi
ki, geri qayıdıb Sila ilə Timoteyi təcili
surətdə onun yanına göndərsinlər.

Afinada

16 Onları Afinada gözləyən Paul gördü
ki, şəhər bütlərlə doludur. Bundan
ötrü onun ürəyi çox narahat oldu.
17 Buna görə sinaqoqda Yəhudilərlə
və mömin Yunanlarla, hər gün bazar
meydanında rastlaşdığı insanlarla
mübahisə edirdi. 18 Epikürçü və
Stoist fəlsəfi cərəyanından olanların
bəziləri onunla mübahisəyə girişdi.
Kimisi deyir: «Bu boşboğaz nə demək
istəyir?» Kimisi də deyir: «Deyəsən bu
yad allahların təbliğatçısıdır». Çünki
Paul İsa və dirilmə ilə bağlı Müjdəni
yaymaqda idi. 19 Onlar Paulu götürüb

---

*17:5 *Yəhudilərin buna paxıllığı tutdu. Meydana* – bəzi əlyazmalarda *İman etməyən Yəhudilər meydana.*

Areopaq* məşvərətinə gətirdilər. Ondan
soruşdular: «Sənin yaydığın bu yeni
təlimin nə olduğunu bilmək olarmı?
20 Çünki qulağımız öyrəşmədiyi şeyləri
bizə eşitdirirsən. İndi bunların mənasını
bilmək istəyirik». 21 Bütün Afinalılar və
şəhərdəki yadellilər vaxtlarını yalnız
yeni fikirləri söyləyərək və qulaq asaraq
keçirirdilər.
22 Paul Areopaqın qarşısına çıxıb
belə söylədi: «Ey Afinalılar, sizin hər
cəhətdən çox pərəstişkar olduğunuzu
görürəm. 23 Belə ki mən ətrafda gəzəndə
səcdəgahlarınıza diqqətlə nəzər salarkən
bir qurbangaha da rast gəldim ki, onun
üstündə yazılmışdı: “Naməlum Allaha
məxsus”. Tanımadan ibadət etdiyiniz
bu Allahı sizə tanıtmaq istəyirəm.
24 xDünyanı və onda mövcud olan
hər şeyi yaradan, yerin-göyün Sahibi
olan Allah əllə tikilən məbədlərdə
yaşamaz. 25 İnsan əli ilə edilən xidmətə
Onun ehtiyacı yoxdur, çünki hər kəsə
həyat, nəfəs və hər şeyi verən Odur!
26 Allah bütün bəşəriyyətin millətlərini
bir insandan† yaratdı ki, bütün yer
üzərində yaşasınlar. Yaşamaq üçün
onlara zaman və məkan təyin etdi ki,
27 Onu axtarsınlar, yəni kor əllərini
sürtə-sürtə yol axtardığı kimi axtarıb
Onu tapa bilsinlər. Əslində Allah heç
birimizdən uzaq deyil. 28 “Axı biz Onda
yaşayırıq, hərəkət edirik, mövcuduq”.
Bəzi şairlərinizin dediyi kimi: “Biz
də Onun nəslindənik”. 29 Demək biz
Allahın nəslindən olduğumuza görə
belə düşünmək olmaz ki, İlahi Varlıq
insan layihəsi və istedadı ilə yaranan
qızıl, gümüş yaxud daşdan düzəldilən
bir şeyə bənzəyir. 30 Allah cəhalət
zamanlarında buna göz yumdu, amma
indi hər yerdə hamının tövbə etməsini
insanlara əmr edir. 31 Çünki Allah Öz
seçdiyi Şəxs vasitəsilə dünyanı ədalətlə
mühakimə edəcəyi günü təyin edib. Onu
ölülər arasından diriltməklə hamının
qarşısında bunu təsdiq edib».
32 Ölülərin dirilməsi ilə bağlı sözləri
eşidən kimi bəziləri onu ələ saldı, kimisi
də belə dedi: «Bu barədə səndən bir
daha eşitmək istəyirik». 33 Beləliklə,
Paul onların arasından çıxıb getdi. 34 Bir
neçə insan isə ona qoşulub iman gətirdi.
Bunların arasında Areopaq üzvü Dionis,
Damaris adlı bir qadın və başqaları da
var idi.

Korinfdə

18 Bundan sonra Paul Afinadan
çıxıb Korinfə getdi. 2 Orada
Pontda doğulan Akila adlı bir Yəhudiyə
rast gəldi. O, arvadı Priskila ilə birlikdə
İtaliyadan yenicə gəlmişdi. Çünki
Klavdi‡ əmr vermişdi ki, Romada olan
bütün Yəhudilər oradan çıxsınlar. Paul
onların yanına getdi. 3 Onların peşəsi
çadırçılıq idi və eyni peşə sahibi olan
Paul buna görə onların yanında qalıb
çalışdı. 4 Paul hər Şənbə günü sinaqoqda
mübahisə edib həm Yəhudiləri, həm də
Yunanları inandırırdı.
5 Sila ilə Timotey Makedoniyadan
gələn kimi Paul özünü tamamilə
kəlama§ həsr etdi və Yəhudilərə İsanın
Məsih olmasına dair şəhadət edirdi.
6 Amma Yəhudilər onun əleyhinə
çıxaraq böhtan atmağa başlayan
kimi Paul yaxasını çırpıb onlara
dedi: «Qanınız öz başınıza dönsün,
mən bu işdə təmizəm. Bundan sonra

*17:19 *Areopaq* – yəni qədim Afinada ali məşvərət.
†17:26 *Bir insandan* – bəzi əlyazmalarda *bir qandan.*
‡18:2 *Klavdi* – yəni o dövrdə hökm sürən Roma imperatoru.
§18:5 *Kəlama* – bəzi əlyazmalarda *Ruha.*

x17:24 1Pad. 8:27; 2Saln. 6:18; Yeş. 42:5

başqa millətlərdən olanların yanına
gedəcəyəm». 7 Paul oradan çıxdı, Allaha
mömin olan Titi Yust adlı bir nəfərin
evinə getdi. Onun evi sinaqoqa bitişik
idi. 8 Sinaqoq rəisi Krisp bütün ev əhli ilə
birgə Rəbbə iman etdi. Korinflilərin bir
çoxu Paulu dinləyəndə iman gətirərək
vəftiz oldu. 9 Bir gecə Rəbb görüntüdə
Paula dedi: «Qorxma, danış, susma.
10 Bax Mən sənin ləyəm, heç kimin sənə
pisliyi dəyməyəcək, çünki bu şəhərdə
xalqım çoxdur». 11 Paul orada il yarım
qaldı və dayanmadan xalqa Allahın
kəlamını öyrətdi.
12 Axayya valisi Qalliyo olan zaman
Yəhudilər birləşərək Paula hücum
etdilər və onu valinin hökm kürsüsü
qarşısına çıxartdılar. 13 Belə dedilər:
«Bu adam Allaha qeyri-qanuni şəkildə
ibadət etmək üçün insanları tovlayır».
14 Paul danışmaq istəyirdi ki, Qalliyo
Yəhudilərə dedi: «Ey Yəhudilər, əgər
ittihamınız bir haqsızlıq və yaxud ağır
cinayət işinə görə olsaydı, sizi səbirlə
dinləməyi məsləhət bilərdim. 15 Amma
məsələlər bir təlimlə, bəzi adlarla və
sizin qanununuzla bağlı olduğu üçün bu
işi özünüz həll edin. Mən belə şeylərə
hakimlik etmək istəmirəm». 16 Beləliklə,
onları hökm kürsüsündən qovdu.
17 Hamı* sinaqoq rəisi Sosteni tutub
hökm kürsüsünün qarşısında döydü.
Qalliyo isə bu hadisələrə əhəmiyyət
vermədi.

Paul Antakyaya qayıdır

18 Paul Korinfdə olan imanlı
bacı-qardaşların yanında xeyli gün qaldı
və sonra onlarla vidalaşıb Priskila və
Akila ilə birgə Suriyaya getmək üçün
yelkən açdı. O, Kenxreya limanında
saçını qırxdırmışdı, çünki bir əhd
etmişdi. 19 Onlar Efesə çatanda Priskila
ilə Akiladan ayrılaraq sinaqoqa girdi və
Yəhudilərlə mübahisə etməyə başladı.
20 Ondan xahiş edəndə ki burada daha
bir müddət qalsın, buna razı olmadı.
21 Amma onlarla vidalaşanda belə
dedi: «Allah† qoysa, yenə yanınıza
gələcəyəm». Sonra Efesdən yelkən
açıb getdi. 22 Qeysəriyyəyə çatandan
sonra Yerusəlimə gedərək imanlılar
cəmiyyətinə baş çəkdi və sonra
oradan Antakyaya keçdi. 23 Bir müddət
orada qalandan sonra yola çıxdı.
Qalatiya və Frigiya bölgələrini gəzib
dolaşaraq oradakı şagirdləri ruhən
möhkəmləndirdi.

Apollo

24 Bu ərəfədə İsgəndəriyyədə
doğulmuş Apollo adlı bir Yəhudi Efesə
gəldi. Onun yaxşı natiqliyi var idi və
Müqəddəs Yazıları çox yaxşı bilirdi,
25 Rəbb yolunda da təhsil almışdı.
O, ruhda alışıb-yanaraq danışır və
yalnız Yəhyanın vəftizindən xəbəri
olduğu halda İsa ilə bağlı həqiqətləri
doğru öyrədirdi. 26 O, sinaqoqda
cəsarətlə danışmağa başladı. Ona qulaq
asan Priskila ilə Akila onu yanlarına
çəkib Allah yolu barədə daha dəqiq
izahat verdilər. 27 Apollo Axayyaya
getmək istəyəndə bacı-qardaşlar
onu həvəsləndirdilər və oradakı
şagirdlərə məktub yazdılar ki, onu yaxşı
qarşılasınlar. Apollo oraya çatanda
Allahın lütfü ilə iman edənlərə çox
kömək etdi. 28 Belə ki Müqəddəs
Yazılarla İsanın Məsih olduğunu sübuta
yetirərək Yəhudilərin iddialarını açıq
şəkildə və güclü surətdə inkar edirdi.

---

*18:17 *Hamı* – bəzi əlyazmalarda *Yunanların hamısı.*
†18:21 *Allah* – bəzi əlyazmalarda *Mütləq üzümüzə gələn bayramı Yerusəlimdə keçirməliyəm. Allah.*

Efesdə

19 Apollo Korinfdə olarkən Paul
daxili bölgələrdən keçərək
Efesə gəldi və orada bir neçə şagirdlə
rastlaşdı. 2 Onlara dedi: «İman etdiyiniz
zaman Müqəddəs Ruhu aldınızmı?»
Onlar dedilər: «Müqəddəs Ruhun
mövcudluğundan belə, xəbərimiz
yoxdur». 3 Paul onlardan soruşdu: «Elə
isə nəyə əsasən vəftiz oldunuz?» Onlar
cavab verdilər: «Yəhyanın vəftizinə
əsasən». 4 [y]Paul dedi: «Yəhyanın etdiyi
vəftiz tövbə ilə bağlı bir vəftiz idi. Xalqı
özündən sonra Gələnə, yəni İsaya iman
etməyə çağırdı». 5 Onlar bunu eşidən
kimi Rəbb İsanın adı ilə vəftiz oldular.
6 Paul əllərini onların üzərinə qoyanda
Müqəddəs Ruh onların üzərinə endi
və onlar başqa dillərdə danışmağa və
peyğəmbərlik etməyə başladılar. 7 Onlar
təxminən on iki kişi idi.

8 Sinaqoqa daxil olan Paul cəsarətlə
danışmağa başladı. Üç ay ərzində
onlarla mübahisələr aparır və Allahın
Padşahlığı barədə onları inandırırdı.
9 Bəziləri inadkar olub inanmaq istəmir
və xalqın qarşısında İsa yolunu*
pisləməyə başlayırdı. Buna görə Paul
onlardan ayrılıb şagirdlərini də götürüb
apardı. O, Tiranın mühazirə otağında
hər gün mübahisələr edirdi. 10 Bu
vəziyyət iki il davam etdi. Nəhayət, istər
Yəhudi, istərsə də Yunan – bütün Asiya
vilayəti əhalisi Rəbbin kəlamını eşitdi.

11 Allah Paul vasitəsilə fövqəladə
möcüzələr yaradırdı. 12 Belə ki Paulun
bədəninə toxunan dəsmallar və belinə
bağladığı önlüklər belə, götürülüb
xəstələrin üstünə qoyulanda insanların
xəstəlikləri yox olur, şər ruhlar çıxırdı.
13 Bəzi ətrafı gəzib-dolaşan Yəhudi
cindarlar da şər ruhlara əsir olanlara
Rəbb İsanın adını çəkərək deyirdilər:
«Paulun vəz etdiyi İsanın adı ilə sizə
əmr edirəm!» 14 Yəhudilərin Skeva adlı
başçı kahinin yeddi oğlu bu işlə məşğul
idi. 15 Bir dəfə şər ruh onlara cavab
verdi: «İsanı tanıyıram, Paul haqqında
da hər şey bilirəm. Bəs siz kimsiniz?»
16 Daxilində şər ruh olan adam onların
üstünə hücum çəkdi, hamısını təpiyinin
altına salaraq məğlub etdi. Belə ki
onlar o evdən lüt-üryan və yaralı halda
qaçdılar.

17 Bu xəbər Efesdə yaşayan bütün
Yəhudilərə və Yunanlara çatdı.
Hamısını bir vahimə bürüdü və Rəbb
İsanın adının nüfuzu böyüdü. 18 İman
edənlərin çoxu gəlib öz əməllərini açıq
etiraf edirdi. 19 Cadugərliklə məşğul
olan bir dəstə insan da öz kitablarını
yığıb hamının qarşısında yandırdı.
Kitablarının qiyməti hesablananda
məlum oldu ki, əlli min gümüş pula
bərabər idi. 20 Beləliklə, Rəbbin kəlamı
qüdrətlə böyüyüb təsirini artırırdı.

21 Bunlar baş verəndən sonra Paul
qərara gəldi ki, Makedoniya və
Axayyadan keçərək Yerusəlimə getsin.
O dedi: «Oraya gedəndən sonra gərək
Romanı da görəm». 22 Xidmətçilərindən
ikisini – Timoteylə Erastı Makedoniyaya
göndərərək özü bir müddət Asiya
vilayətində qaldı.

Efesdəki qarışıqlıq

23 O ərəfədə İsa yolu† ilə bağlı böyük
bir qarışıqlıq yarandı. 24 Dimitri adlı
bir zərgər gümüşdən ilahə Artemidanın
ev səcdəgahlarını düzəldirdi və
sənətkarlara çoxlu gəlir gətirirdi. 25 O,
sənətkarları və bu cür işlə məşğul
olanları bir yerə toplayıb belə dedi:

---

*19:9 *İsa yolunu* – hərfi tərcümədə *Yolu.*
†19:23 *İsa yolu* – hərfi tərcümədə *Yol.*

[y]19:4 Mat. 3:11; Mark 1:4,7-8; Luka 3:4,16; Yəh. 1:26-27

«Ay kişilər, bilirsiniz ki, gəlirimiz bu
işdən asılıdır. 26 Amma bu Paul deyir
ki, əl işi olan allahlar həqiqi allahlar
deyil. Yalnız Efesdə deyil, demək olar
ki, bütün Asiya vilayətində nə qədər
insanı tovlayıb azdırdığını görmüsünüz
və eşitmisiniz. 27 Onda böyük bir
təhlükə ilə üzləşirik. Bu həm bizim
sənətimizin nüfuzunu itirə bilər, həm də
ulu ilahə Artemidanın məbədini gözdən
sala bilər. Bununla da bütün Asiya
vilayətinin və bütün dünyanın ibadət
etdiyi Artemidanın ululuğu heçə çıxar».
28 Oradakılar bunu eşidəndə bərk
hiddətləndilər və qışqıra-qışqıra dedilər:
«Efes ilahəsi Artemida uludur!» 29 Şəhər
bir-birinə qarışdı. Xalq Paulun yol
yoldaşları olan Makedoniyalı Qayla
Aristarxı tutub sürüyərək birlikdə
teatra doluşdu. 30 Paul istədi ki, xalqın
arasına girsin, amma şagirdlər onu
buraxmadılar. 31 Hətta Paulun dostları
olan Asiya vilayətinin sədrlərinin
bəziləri də ona xəbər göndərib yalvardı
ki, teatra ayaq basmasın. 32 Teatrdakı
yığıncaqda aləm qarışmışdı, hər ağızdan
bir avaz gəlirdi. Onların çoxu isə
bilmirdi ki, buraya nə üçün gəlib.
33 Yəhudilər İsgəndəri qarşıya çıxaranda
izdihamın içərisindən bəziləri hadisəni
onunla əlaqələndirdi. O isə xalqın
diqqətini cəmləşdirmək üçün əlini
qaldırdı və onların qarşısında özünü
müdafiə etmək istədi. 34 Amma xalq
onun Yəhudi olduğunu biləndə bir
səslə iki saata yaxın «Efes ilahəsi
Artemida uludur!» deyə qışqırışdı.
35 İzdihamı sakitləşdirən şəhərin icra
məmuru dedi: «Ey Efeslilər, kim
bilmir ki, Efes şəhəri ulu Artemida
məbədinin və göydən gələn heykəlinin
keşikçisidir? 36 Bunları heç kim inkar
edə bilməz. Buna görə sakit olmanız
və fikirləşmədən bir iş görməməyiniz
lazımdır. 37 Buraya gətirdiyiniz adamlar
nə məbədimizi soydu, nə də ilahəmizi
söydü. 38 Əgər Dimitrinin və onun
sənətkar dostlarının kimdən şikayəti
varsa, məhkəmələr açıqdır, valilər də
var. Qoy bir-birlərini orada ittiham
etsinlər. 39 Sizin araşdıracağınız başqa
hallar varsa, bunun da qanuni bir
yığıncaqda həll olması lazımdır.
40 Bugünkü hadisələrə görə üsyan
qaldırdığımız üçün ittiham olunmaq
təhlükəsi qarşısındayıq. Biz bu səbəbsiz
iğtişaşa bəraət qazandıra bilmərik». 41 O
bu sözləri deyərək yığıncağı dağıtdı.

Troasda

20 Hay-küy sakitləşəndən
sonra Paul şagirdləri çağırıb
ruhlandırdı. Sonra onlarla vidalaşaraq
Makedoniyaya getmək üçün yola
çıxdı. 2 O tərəfləri gəzib-dolaşaraq
imanlılarla çoxlu söhbətlər aparıb onları
ruhlandırandan sonra Yunanıstana
getdi. 3 Orada üç ay qaldı və dəniz yolu
ilə Suriyaya getmək istəyirdi ki, ona
qarşı Yəhudilərin hazırladığı sui-qəsdə
görə Makedoniya yolu ilə qayıtmaq
qərarına gəldi. 4 Pir oğlu Veriyalı
Sopater, Saloniklilərdən Aristarx
və Sekund, Derbeli Qay, Timotey,
Asiyalılardan Tixik və Trofim onu
müşayiət edirdi. 5 Bunlar bizdən əvvəl
gedib bizi Troasda gözlədilər. 6 Biz
də Mayasız Çörək bayramından sonra
Filipidən dəniz yolu ilə beş günə Troasa
gələrək onlarla görüşdük. Orada yeddi
gün qaldıq.
7 Həftənin ilk günündə* çörək bölmək
üçün bir yerə yığıldığımız zaman Paul
camaatla söhbət apardı. Ertəsi gün
onlardan ayrılacaqdı, ona görə söhbəti
gecə yarısına qədər davam etdirdi.
8 Toplandığımız yuxarı mərtəbədəki
otaqda çoxlu çıraqlar yanırdı. 9 Eftik adlı

*20:7 *Həftənin ilk günündə* – yəni bazar günündə.

bir yeniyetmə pəncərədə oturmuşdu.
Paul söhbəti uzadanda Eftiki dərin
yuxu apardı. Yuxuya gedən kimi
o, üçüncü mərtəbədən aşağı düşdü
və yerdən onu qaldıranda o, ölü
vəziyyətində idi. 10 Paul aşağı enib
yeniyetmənin üstünə əyildi və onu
qucaqlayaraq dedi: «Narahat olmayın,
indi canı sağdır». 11 Təkrar yuxarı
qalxıb çörək böldü və yemək yedi.
Gün doğana qədər onlarla uzun-uzadı
söhbət aparandan sonra oradan ayrıldı.
12 Oğlanı sağ-salamat apardılar və bu
hadisədən çox ruhlandılar.

13 Biz irəli gedərək gəmiyə mindik və
Assosa tərəf üzdük. Çünki Paulu oradan
götürməli idik. O, quru ilə getmək
istədiyi üçün bunu belə nizamlamışdı.
14 O bizi Assosda qarşılayanda onu
gəmiyə mindirdik və Mitiliniyə gəldik.
15 Oradan da dənizdən üzərək səhəri
gün Xios adasının qarşısına və bir
gündən sonra isə Samosa çatdıq. Ertəsi
gün* Miletə gəldik. 16 Çünki Paul Asiya
vilayətində vaxt itirməmək üçün Efesi
ötüb keçmək qərarına gəlmişdi. O
tələsirdi ki, imkan tapıb Əllinci Gün
bayramında Yerusəlimdə olsun.

Paul Efes cəmiyyətinin ağsaqqalları ilə vidalaşır

17 Paul Miletdən Efesə xəbər
göndərərək cəmiyyət ağsaqqallarını
yanına çağırtdırdı. 18 Yanına gələndə
onlara belə dedi: «Asiya vilayətinə
qədəm basdığım birinci gündən bəri
sizinlə olduğum dövrdən bu vaxta
qədər özümü necə apardığım sizə
məlumdur. 19 Yəhudilərin qəsd-qərəzi
vasitəsilə sınaqlardan keçərkən Rəbbə
tam itaətkarlıqla, göz yaşı içində
qulluq edirdim. 20 Xeyirli olan hər
şeyi sizə bəyan edərək istər açıq,
istərsə də evdən-evə gəzib-dolaşaraq
təlim verməkdən çəkinmədim. 21 Həm
Yəhudiləri, həm də Yunanları tövbə
edib Allaha tərəf dönməyə və Rəbbimiz
İsaya iman gətirməyə çağırdım.

22 İndi də Ruhun təkidi ilə Yerusəlimə
gedirəm və orada başıma nə gələcəyini
bilmirəm. 23 Lakin Müqəddəs Ruh hər
şəhərdə xəbərdarlıq edirdi ki, məni
zəncirlər və əziyyətlər gözləyir. 24 [z]Öz
canıma heç əhəmiyyət vermirəm, onu
qiymətləndirmirəm. Mənə kifayətdir ki,
yolumu† – Rəbb İsanın mənə tapşırdığı
kimi Allahın lütfünü göstərən Müjdəni
şəhadətetmə xidmətini başa çatdırım.

25 İndi aranızda dolaşıb Padşahlıq
barədə vəz etdiyim sizlərdən heç biriniz
mənim üzümü bir də görməyəcək.
26 Ona görə bu gün bunu sizə bəyan
etmək istəyirəm ki, mən təmizəm,
heç kimin qanına bais olmamışam.
27 Çünki mən çəkinmədən Allahın bütün
iradəsini sizə çatdırmışam. 28 Həm
özünüzə, həm də Müqəddəs Ruhun
sizi nəzarətçilər təyin etdiyi bütün
sürüyə diqqətlə baxın. Allahın Öz
Oğlunun qanı bahasına əldə etdiyi bu
cəmiyyətini bəsləyin. 29 Bilirəm ki, mən
gedəndən sonra sürüyə rəhm etməyən
yırtıcı canavarlar aranıza soxulacaq.
30 Aranızdan təhrif edilmiş sözlər deyən,
şagirdləri özlərinin ardınca çəkmək
istəyən adamlar çıxacaq. 31 Buna
görə oyaq olun. Üç il boyu, fasiləsiz,
gecə-gündüz göz yaşı tökərək hər
birinizə necə nəsihət verdiyimi yada
salın.

32 İndi isə mən sizi Allaha və Onun
lütfü barədəki kəlamına əmanət edirəm.
Bu kəlam sizi inkişaf etdirib təqdis
olunmuş bütün insanlar arasında irsə

---

*20:15 *Ertəsi gün* – bəzi əlyazmalarda *Troqillidə qaldıqdan sonra ertəsi gün.*
†20:24 *Yolumu* – bəzi əlyazmalarda *sevinə-sevinə yolumu.*

[z]20:24 2Tim. 4:7

qovuşdurmağa qadirdir. 33 Mən heç
kimin nə qızılına, nə gümüşünə, nə
də pal-paltarına göz dikmişəm. 34 Siz
də bilirsiniz ki, bu əllər həm mənim,
həm də mənimlə olanların ehtiyaclarını
təmin etdi. 35 Gördüyüm hər işdə Rəbb
İsanın "vermək almaqdan daha çox
bəxtiyarlıq gətirər" sözünü yaddan
çıxarmayıb belə əmək sərf edərək
zəiflərə kömək etməyin vacibliyini sizə
göstərdim».
36 Paul bu sözləri söyləyəndən
sonra diz çöküb onlarla birlikdə
dua etdi. 37 Sonra hamısı ağlayaraq
Paulun boynuna sarıldı və onu öpdü.
38 Onlar ən çox «mənim üzümü bir də
görməyəcəksiniz» sözündən kövrəldilər.
Sonra onu gəmiyə qədər yola saldılar.

Yerusəlimə səyahət

21 Onlardan ayrılıb dənizə çıxanda
birbaşa Kosa getdik, səhəri
gün isə Rodosa, oradan da Pataraya
keçdik. 2 Finikiyaya gedən bir gəmi
tapdıq və ona minib dənizlə getdik.
3 Kipri gördük və onun cənubundan
keçdik. Suriya istiqamətinə getdik
və Sur şəhərində sahilə çıxdıq. Gəmi
yükünü orada boşaltmalı idi. 4 Orada
şagirdləri axtarıb tapdıq və yanlarında
bir həftə qaldıq. Şagirdlər Ruhun
təsiri ilə Paula xəbərdarlıq etdilər
ki, Yerusəlimə getməsin. 5 Amma
oradakı günlərimiz başa çatanda bu
şəhərdən çıxıb yolumuza davam etdik.
İmanlıların hamısı öz arvad-uşaqları
ilə bərabər bizi şəhərin kənarına qədər
ötürdü və sahildə diz çökərək dua
etdik. 6 Bir-birimizlə vidalaşandan sonra
biz gəmiyə mindik, onlar da evlərinə
qayıtdılar.
7 Surdan dəniz səyahətimizə davam
edərək Ptolemaisə gəldik və orada
imanlı bacı-qardaşlara baş çəkib bir
gün yanlarında qaldıq. 8 [a]Ertəsi gün
onlardan ayrılıb Qeysəriyyəyə gəldik.
Yeddi köməkçidən biri olan müjdəçi
Filipin evinə gedib orada qaldıq. 9 Bu
kişinin peyğəmbərlik edən dörd subay
qızı var idi. 10 [b]Oraya çatandan bir neçə
gün sonra Yəhudeyadan Aqab adlı bir
peyğəmbər gəldi. 11 O bizə yaxınlaşıb
Paulun kəmərini götürüb öz əllərini və
ayaqlarını bağlayaraq dedi: «Müqəddəs
Ruh belə deyir: "Yəhudilər bu kəmərin
sahibini Yerusəlimdə belə bağlayıb
başqa millətlərə təslim edəcəklər"».
12 Bu sözləri eşidəndə həm biz, həm
də oranın sakinləri Paula yalvardıq ki,
Yerusəlimə getməsin. 13 Buna cavab
olaraq Paul belə dedi: «Nə olub? Niyə
ağlayıb ürəyimi sızladırsınız? Mən
Rəbb İsanın adı uğrunda Yerusəlimdə
təkcə əl-ayağımın bağlanmasına deyil,
ölümə də hazıram». 14 Paulu razı sala
bilmədikdə «Qoy Rəbbin iradəsi olsun!»
deyərək susduq.
15 Bir müddət keçəndən sonra biz
hazırlıq işlərini görüb Yerusəlimə
tərəf getdik. 16 Qeysəriyyədə yaşayan
şagirdlərin bəzisi də bizimlə birgə
gəldi. Onlar bizi ilk şagirdlərdən
biri olan Kiprli Minasonun evinə
apardı, çünki biz onların evində
qalacaqdıq. 17 Yerusəlimə çatanda
imanlı bacı-qardaşlar bizi sevinclə
qarşıladılar. 18 Ertəsi gün Paulla
birlikdə Yaqubu görməyə getdik.
Cəmiyyət ağsaqqallarının hamısı
oraya yığılmışdı. 19 Paul onlardan
hal-əhval tutandan sonra öz xidməti
ilə əlaqədar olaraq Allahın başqa
millətlər arasında gördüyü işlərdən
ətraflı məlumat verdi. 20 Bunları
eşidəndə Allahı izzətləndirdilər. Paula
dedilər: «Görürsənmi, qardaş, Yəhudilər
arasında on minlərlə imanlı var və
hamısı Qanunun qeyrətini çəkir.

---

[a]**21:8** Həv. 6:1-6 [b]**21:10** Həv. 11:28

21 Onlar sənin barəndə xəbər tutublar
ki, başqa millətlər arasında yaşayan
bütün Yəhudilərə oğullarını sünnət
etməyib adət-ənənələrimizə görə
yaşamamağı və Musadan dönməyi
öyrədirsən. 22 İndi nə edək? Mütləq*
sənin bura gəldiyini eşidəcəklər. 23 Ona
görə sənə dediklərimizə əməl et. Bizim
aramızda əhd edən dörd kişi var.
24 Bunları yanına al və onlarla birgə
paklanma mərasiminə qoşul. Başlarını
qırxdırmaq üçün qurban xərclərini
sən çək. Bununla da hamı biləcək ki,
sənin haqqında eşitdikləri əsassızdır,
sən də Qanuna riayət edirsən. 25 [c]Başqa
millətlərdən olan imanlılara gəlincə,
biz qərara alıb onlara məktub vasitəsilə
yazmışıq ki, bütlərə† təqdim olunan
qurbanların ətini, boğularaq öldürülən
heyvanların ətini və qan yeməsinlər,
həmçinin özlərini əxlaqsızlıqdan
saxlasınlar». 26 Bundan sonra Paul
bu dörd kişini yanına alıb ertəsi gün
onlarla bərabər özünü pak etdi. Sonra
məbədə girərək paklanma dövrünün nə
vaxt qurtaracağını, hər birinin adına
nə vaxt qurban təqdim ediləcəyini elan
etdi.

Paulun həbsi

27 Yeddi günlük müddət qurtarmaq
üzrə Asiya vilayətindən olan Yəhudilər
Paulu məbəddə görəndə bütün izdihamı
təşvişə salaraq onu yaxaladılar 28 və
qışqırdılar: «Ey İsraillilər, kömək edin!
Hər yerdə hər kəsə, xalqımıza, Qanuna
və bu Müqəddəs məkana qarşı təlim
öyrədən adam budur. Həmçinin məbədə
bəzi Yunanları gətirərək bu Müqəddəs
məkanı murdarladı». 29 [d]Bu Yəhudilər
Efesli Trofimi əvvəllər şəhərdə Paulun
yanında gördükləri üçün elə bilirdilər
ki, onu Paul məbədə gətirib. 30 Bütün
şəhər oyandı. Camaat hər tərəfdən
qaçıb-gələrək Paulu tutub məbəddən
bayıra sürüdü. Dərhal məbəd qapıları
bağlandı. 31 Onlar Paulu öldürməyə
çalışırdılar ki, bütün Yerusəlimin
təşvişə düşməsi xəbəri Roma alayının
minbaşısına çatdırıldı. 32 Minbaşı
dərhal yüzbaşılarla əsgərləri özü ilə
götürərək izdiham olan yerə qaçdı.
Minbaşı ilə əsgərləri görən camaat
Paulu döyməyi dayandırdı. 33 O zaman
minbaşı yaxına gəlib Paulu tutdu və əmr
etdi ki, onu qoşa zəncirlə bağlasınlar.
Sonra soruşdu: «Bu adam kimdir? Nə
edib?» 34 İzdiham içində hər ağızdan bir
avaz gəlir, qışqırışırdılar. Hay-küydən
minbaşı heç nə müəyyənləşdirə bilmədi,
ona görə Paulun qalaya aparılmasını
əmr etdi. 35 Paul pilləkəndə olanda xalq
elə qızışmışdı ki, əsgərlər onu əlləri
üstündə aparmalı oldular. 36 Çünki
izdiham onun ardınca düşüb qışqırırdı:
«Öldürün onu!»

Paulun özünü müdafiəsi

37 Paul qalaya gətirilməkdə ikən
o, minbaşıdan soruşdu: «Səndən bir
söz soruşmaq olar?» Minbaşı dedi:
«Sən Yunan dilini bilirsən? 38 Sən bu
yaxınlarda iğtişaş yaratmağa başlayan
dörd min qatili‡ səhraya aparan
Misirli deyilsənmi?» 39 Paul dedi:
«Mən Yəhudiyəm, Kilikiyanın Tarsus

---

*21:22 *Mütləq* – bəzi əlyazmalarda *Mütləq camaat buraya yığışacaq, çünki.*

†21:25 *Bütlərə* – bəzi əlyazmalarda *belə qaydalara deyil, yalnız bunlara riayət etsinlər: bütlərə.*

‡21:38 *Qatil* – bu orijinalda *sikari* sözü olub latın dilində *xəncər işlədən* mənasını verir. Sikarilər Roma işğalçılarına qarşı mübarizə edərkən terrora əl atan ifratçı yəhudilər idi.

[c]**21:25** Həv. 15:28-29 [d]**21:29** Həv. 20:4

şəhərindənəm, məşhur bir şəhərin
vətəndaşıyam. Rica edirəm, bu xalqa bir
neçə söz deməyə izin ver». 40 Minbaşı
icazə verəndən sonra Paul pilləkənlərin
üstünə çıxıb diqqəti cəlb etmək üçün
xalqa əli ilə işarə etdi. Dərin sükut
çökəndə İbrani dilində danışmağa
başlayaraq dedi:

22 «Qardaşlar və atalar, indi mənim
özümü müdafiəmə qulaq asın!»
2 [e]Paulun onlarla ibranicə danışdığını
eşidəndə daha dərin sükut yarandı.

Paul sözünə davam etdi: 3 «Mən
bir Yəhudiyəm, Kilikiyanın Tarsus
şəhərində doğuldum. Bu Yerusəlim
şəhərində isə böyüyüb Qamlielin
yanında ata-babalarımızın Qanununa
bağlı ciddi bir təlim almışam. Hamınızın
bu gün etdiyi kimi mən də Allah naminə
qeyrət çəkirdim. 4 [f]İsa yolunda* olanları
ölüncəyə qədər təqib edərdim və
qadın-kişi bilmədən onların əl-qolunu
bağlayıb zindana salardım. 5 Mənim
dediklərim barədə baş kahin və bütün
ağsaqqallar məclisi də şəhadət edə
bilər. Hətta mən onlardan Dəməşqdəki
soydaşlarımıza yazılmış bir məktub
alaraq oradakı İsa yolunda olanların
əl-qolunu bağlayıb cəzalandırmaq üçün
Yerusəlimə gətirməyə gedirdim.

6 Mən günortaya yaxın yolda,
Dəməşqə yaxınlaşmaqda ikən
birdən-birə göydən böyük bir işıq
ətrafımda parladı. 7 Mən yerə yıxıldım
və eşitdim ki, bir səs mənə belə
deyir: "Şaul, Şaul, niyə Məni təqib
edirsən?" 8 Mən soruşdum: "Ey Ağam,
Sən kimsən?" Səs mənə dedi: "Mən
sənin təqib etdiyin Nazaretli İsayam".
9 Yanımdakılar işığı görsələr də,†
mənimlə danışanın səsini eşitmədilər.
10 Mən dedim: "Ya Rəbb, mən nə edim?"
Rəbb mənə dedi: "Qalx, Dəməşqə
get, icra etməyin üçün təyin edilən
hər şey orada sənə deyiləcək". 11 O
işığın parlaqlığından gözlərim tutuldu.
Yanımda olanlar əllərimdən tutub məni
Dəməşqə apardılar.

12 Orada Xananya adlı bir mömin
kişi var idi. Bu adam Qanuna əməl
edir və o şəhərdə yaşayan Yəhudilər
arasında hörmət sahibi idi. 13 O mənim
yanıma gəlib dedi: "Qardaşım Şaul,
qoy gözlərin açılsın". Dərhal gözlərim
açıldı və onu gördüm. 14 O mənə dedi:
"Ata-babalarımızın Allahı səni seçdi
ki, Onun iradəsini biləsən və Saleh
Olanı görüb ağzından bir səs eşidəsən.
15 Çünki görüb-eşitdiklərini bütün
insanlara yayaraq Onun üçün şəhadət
edəcəksən. 16 İndi nə gözləyirsən?
Qalx, vəftiz ol və Onun adını çağıraraq
günahlarını yu".

17 Mən Yerusəlimə qayıdıb məbəddə
dua etməkdə idim ki, fikrimi bir görüntü
apardı 18 və Rəbbi gördüm. O mənə dedi:
"Tez ol, dərhal Yerusəlimi tərk et, çünki
Mənim barəmdə etdiyin şəhadəti qəbul
etməyəcəklər". 19 Mən dedim: "Ya Rəbb,
bilirlər ki, mən sinaqoqdan-sinaqoqa
gedərək Sənə iman edənləri həbs edir
və döyürdüm. 20 [g]Hətta Sənin uğrunda
şəhid olan Stefanın qanı tökülən də
mən də orada idim. Edilənlərə razı
olub onu öldürənlərin üst geyimlərini
qoruyurdum". 21 Rəbb də mənə
dedi: "Get, Mən səni uzaqlara, başqa
millətlərin yanına göndərəcəyəm"».

Roma vətəndaşı Paul

22 Paula buraya qədər qulaq asanlar
bu sözdən sonra haray salıb dedilər:
«Beləsini yer üzündən silib-atmaq
lazımdır! O yaşamağa layiq deyil!»

---

*22:4 *İsa yolunda* – hərfi tərcümədə *Yolda.*
†22:9 *Görsələr də* – bəzi əlyazmalarda *görsələr də, qorxuya düşsələr də.*

[e]22:2 Həv. 5:34-39 [f]22:4 Həv. 8:3; 26:9-11 [g]22:20 Həv. 7:58

23 Onlar belə hay-küy qopararaq
paltarlarını yelləyib havaya toz
qaldıranda 24 minbaşı əmr etdi ki,
Paulu qalaya salsınlar. Onların niyə
belə hay-küy qoparmalarının səbəbini
bilmək üçün onu qamçılatmaqla sorğuya
çəkmək istədi. 25 Onu qamçılatmaq
üçün bağlayanda Paul orada dayanan
yüzbaşıya dedi: «Məhkum olmamış
Roma vətəndaşını qamçılatmağa
icazəniz varmı?» 26 Yüzbaşı bunu
eşidən kimi minbaşının yanına gəlib
xəbər verərək dedi: «Nə edəcəksən? Bu
adam Roma vətəndaşıdır». 27 Minbaşı
Paulun yanına gəlib soruşdu: «De
görək, sən Roma vətəndaşısan?» Paul
dedi: «Bəli». 28 Minbaşı cavabında
«mən nə qədər pula bu vətəndaşlığı
əldə etmişəm» dedi. Paul isə «amma
mən doğulandan Roma vətəndaşıyam»
dedi. 29 Onu sorğuya çəkmək istəyənlər
dərhal onun yanından geri çəkildilər.
Minbaşı qollarını bağladığı Paulun
Roma vətəndaşı olduğunu öyrənərkən
qorxdu.

Paul Ali Şuranın qarşısında

30 Minbaşı ertəsi gün Yəhudilərin
Paulu nədə ittiham etdiklərini dəqiq
öyrənmək istədi. Ona görə Paulu
azad etdi. Minbaşı əmr verdi ki, başçı
kahinlərlə bütün Ali Şura toplaşsın.
Sonra Paulu aşağı endirib onların
qarşısına gətirdi.

23 Ali Şuranı diqqətlə nəzərdən
keçirən Paul dedi: «Qardaşlar,
mən bu günəcən Allahın qarşısında
təmiz vicdanla yaşamışam». 2 Baş kahin
Xananya Paulun yanında duranlara
əmr etdi ki, onun ağzından vursunlar.
3 [h]Bundan sonra Paul ona dedi: «Ey üzü
ağardılan divar, səni Allah vuracaq!
Həm oturub Qanuna əsasən məni
mühakimə edirsən, həm də Qanunu
pozaraq məni döymək üçün əmr
verirsən». 4 Yanında duranlar ona
dedilər: «Sən Allahın baş kahinini
söyürsən?» 5 [i]Paul dedi: «Qardaşlar,
onun baş kahin olduğunu bilmirdim.
Əlbəttə, “xalqın başçısı barədə pis söz
demə” deyə yazılıb».
6 [j]Onların bir hissəsinin sadukey,
digər hissəsinin isə farisey olduğunu
bilən Paul Ali Şuraya nida etdi: «Ey
qardaşlar, mən farisey oğlu fariseyəm.
Ölülərin dirilməsinə ümid bəslədiyim
üçün burada mühakimə olunuram».
7 Paulun bu sözündən sonra fariseylərlə
sadukeylər arasında çəkişmə başladı
və toplantı iki hissəyə ayrıldı. 8 [k]Çünki
sadukeylər iddia edirlər ki, ölümdən
dirilmə, mələk və ruh yoxdur. Əksinə,
fariseylər bunların hamısına inanırlar.
9 Toplantıda böyük bir hay-küy yarandı.
Farisey tərəfini tutan bəzi ilahiyyatçılar
qalxıb dava yaradaraq belə deyirdilər:
«Bu adamda heç bir günah görmürük.
Nə olsun ki, onunla bir ruh və yaxud
mələk danışıb».* 10 Çəkişmə o qədər
qızışdı ki, minbaşı onların Paulu
parçalayacağından qorxdu. O, əsgərlərə
əmr etdi ki, aşağı enib Paulu zorla
onların arasından çıxararaq qalaya
aparsınlar.
11 O gecə Rəbb Paulun yanında
dayanıb dedi: «Cəsarətli ol, Yerusəlimdə
Mənim haqqımda etdiyin şəhadəti
Romada da etməyin lazımdır».

Paula qarşı sui-qəsd

12 Səhər açılanda Yəhudilər öz
aralarında Paula sui-qəsd hazırlayaraq
and içdilər: «Əgər Paulu öldürməmiş bir
şey yeyib-içəriksə, lənətə gələk!» 13 Bu

*23:9 *Danışıb* – bəzi əlyazmalarda *danışıb. Gəlin Allaha qarşı çıxmayaq.*

[h]**23:3** Mat. 23:27-28 [i]**23:5** Çıx. 22:28 [j]**23:6** Həv. 26:5; Fil. 3:5
[k]**23:8** Mat. 22:23-24; Mark 12:18-19; Luka 20:27-28

sui-qəsdə qoşulanların sayı qırxdan
artıq idi. 14 Bu adamlar başçı kahinlərlə
ağsaqqalların yanına gəlib belə dedilər:
«Biz qəti and içmişik: “Əgər Paulu
öldürməmiş bir şey yeyib-içəriksə,
lənətə gələk!” 15 İndi siz Ali Şura ilə
birgə guya Paulun işinə daha dəqiq
baxmaq istəyərək minbaşıdan xahiş
edin ki, onu yanınıza gətirsin. Paul
buraya gəlməmiş biz onu öldürməyə
hazır olacağıq». 16 Lakin Paulun bacısı
oğlu onların pusqu qurduqlarını eşidib
qalaya girdi və Paula xəbər verdi.
17 Paul yüzbaşılardan birini yanına
çağırıb dedi: «Bu cavanı minbaşının
yanına apar, ona çatdırılası bir xəbəri
var». 18 Yüzbaşı cavanı götürüb
minbaşının yanına apardı və dedi:
«Məhbus Paul məni çağırıb xahiş etdi
ki, bu oğlanı sənin yanına aparım.
Sənə bir sözü var». 19 Minbaşı cavanın
əlindən tutub bir tərəfə çəkdi və
soruşdu: «Mənə nə demək istəyirsən?»
20 Cavan dedi: «Yəhudilər belə razılığa
gəlib ki, guya Paulun işinə daha dəqiq
baxmaq istəyirlər, ona görə sabah
səndən onun Ali Şuraya gətirilməsini
xahiş edəcəklər. 21 Amma sən onların
sözünə qulaq asma, çünki qırx nəfərdən
artıq kişi “Əgər Paulu öldürməmiş bir
şey yeyib-içəriksə, lənətə gələk!” deyə
and içib pusquda gözləyir. Onlar hazır
dayanıb sənin razılığını gözləyirlər».
22 Minbaşı ona belə tapşırdı: «Bunları
mənə xəbər verdiyini heç kimə demə».
Sonra oğlanı evə göndərdi.

Paul Qeysəriyyəyə göndərilir

23 Minbaşı yüzbaşılardan ikisini
yanına çağırıb belə dedi: «Gecənin
üçüncü saatı* Qeysəriyyəyə getmək
üçün iki yüz piyada, yetmiş atlı və
iki yüz nizəçi hazırlayın. 24 Həmçinin
minmək üçün heyvanlar gətirin və
Paulu sağ-salamat vali Feliksə çatdırın».
25 Sonra bu cür məktub yazdı:

26 «Möhtərəm vali Feliksə Klavdi
Lisiyadan salamlar!

27 Bu kişini Yəhudilər tutub
öldürmək istəyirdi. Mən biləndə ki
bu adam Roma vətəndaşıdır, özümü
yetirib əsgərlərlə onu xilas etdim.
28 Onu nədə təqsirləndirmələrini
bilmək üçün Yəhudilərin Ali
Şurasının qarşısına çıxartdım.
29 Öyrəndim ki, onu özlərinin
Qanunu ilə bağlı məsələlərdə
ittiham edirlər, amma ona ölüm
yaxud həbsə layiq cəza vermək
üçün heç bir əsas yoxdur. 30 Mənə
çatdırılanda ki bu kişiyə qarşı bir
sui-qəsd qurulub, dərhal onu sənin
yanına göndərdim. Onu ittiham
edənlərin də şikayətlərini sənə
bildirmələrini əmr etdim».†

31 Əsgərlər onlara verilən əmrə
əməl edərək gecə ikən Paulu götürüb
Antipatrisə apardılar. 32 Ertəsi gün
atlıları Paulla birlikdə yollarına davam
etmək üçün ötürəndən sonra qalaya
qayıtdılar. 33 Atlılar Qeysəriyyəyə
çatan kimi məktubu valiyə verəndə
Paulu da ona təslim etdilər. 34 Vali
məktubu oxuyandan sonra Paulun
hansı vilayətdən olduğunu soruşdu.
Öyrənəndə ki Kilikiyadandır, 35 belə
dedi: «Səni ittiham edənlər gələndə
sənin işinə baxacağam». Bundan sonra
əmr verdi ki, Paulu Hirod sarayında
nəzarət altında saxlasınlar.

Paul vali Feliksin qarşısında

24 Bundan beş gün sonra baş kahin
Xananya, bəzi ağsaqqallar və
Tertul adlı bir vəkil Qeysəriyyəyə
gəlib Pauldan edilən şikayətləri valiyə

---

*23:23 *Gecənin üçüncü saat* – hazırkı vaxtla axşam saat doqquz.
†23:30 *Etdim* – bəzi əlyazmalarda *etdim. Salamat qal.*

çatdırdı. 2 Paul çağırılanda Tertul onu
ittiham etməyə başladı: «Möhtərəm
Feliks, sənin sayəndə uzun müddətdir
ki, əmin-amanlıq içində yaşamaqdayıq.
Sənin uzaqgörənliyinlə bu millət üçün
keçirdiyin islahatları 3 hər yerdə, hər
zaman dərin minnətdarlıqla qəbul
edirik. 4 Vaxtınızı çox almaq istəmirəm.
Rica edirəm, lütfkarlığınla bizi bir
qədər dinlə. 5 Bizim gəldiyimiz nəticəyə
görə bu kişi dünyanın hər yerində olan
Yəhudilər arasında iğtişaşlar salan bir
araqarışdırandır. O, Nəsrani* təriqətinin
başçılarındandır. 6 Bu insan hətta
məbədi murdarlamağa çalışdı, amma
biz onu yaxaladıq. 7–8 Onu† istintaq
etsən, bütün bu ittihamlarımızın doğru
olduğunu özündən öyrənə bilərsən».
9 Oradakı Yəhudilər də deyilənlərin
doğru olduğunu təsdiqləyərək bu işə
qoşuldu.

10 Vali Paula işarə verəndə o cavab
verdi: «Bilirəm ki, sən neçə illərdir bu
millətin hakimisən. Buna görə sənin
qarşında özümü müdafiə etməyimə
sevinirəm. 11 Sən özün də öyrənə
bilərsən ki, ibadət etmək məqsədi ilə
Yerusəlimə gedişimdən bu yana sadəcə
on iki gün keçib. 12 Bu adamlardan
heç biri görməyib ki, mən məbəddə,
sinaqoqlarda yaxud şəhərin hansısa
bir yerində kiminləsə mübahisə edim
və yaxud camaatı təşvişə salım. 13 Bu
anda mənə qarşı etdikləri ittihamları
sənin hüzurunda sübut edə bilmirlər.
14 Lakin ata-babalarımızın Allahına
onların təriqət adlandırdığı İsa yolunun‡
ardıcılı olaraq ibadət etdiyimi sənin
qarşında iqrar edirəm. Qanunda olan və
Peyğəmbərlərin kitablarında yazılan hər
şeyə inanıram. 15 Eyni ilə bu adamların
qəbul etdikləri kimi həm saleh, həm də
saleh olmayan insanların diriləcəyinə
dair Allaha ümid bəsləyirəm. 16 Bu
məqsədlə mən istər Allah, istərsə
də insanların qarşısında hər zaman
vicdanımın təmiz olması üçün çalışıram.
17 [l]Uzun illərdən sonra millətimə yardım
və hədiyyələr vermək üçün Yerusəlimə
gəldim. 18 Bununla məşğul olarkən
məni məbəddə paklanmış olaraq
tapdılar. Ətrafımda nə izdiham, nə
də hay-küy var idi. 19 Lakin Asiya
vilayətindən bəzi Yəhudilər orada
idi. Onlar buraya – sənin hüzuruna
gəlməli və məndən şikayətləri varsa,
ittihamlarını göstərməlidirlər. 20 Yaxud
özləri desinlər ki, Ali Şuranın qarşısında
dayandığım vaxt hansı haqsızlığı üzə
çıxartdılar. 21 [m]Onların qarşısında
dayananda nida edərək belə demişdim
və yalnız bunda mənim haqsız
olduğumu hesab edə bilərlər: “Bu gün
mən ölülərin dirilməsi məsələsinə görə
önünüzdə mühakimə olunuram”».

22 İsa yolu§ barədə dəqiq məlumatı
olan Feliks bu işi təxirə salıb dedi:
«İşiniz barədə minbaşı Lisiya gələndən
sonra qərarımı verəcəyəm». 23 Oradakı
yüzbaşıya əmr verdi ki, Paulu nəzarət
altında saxlasın, lakin sərbəstlik versin
və ona xidmət edən dostlarına maneçilik
yaratmasın.

24 Bir neçə gün keçəndən sonra vali
Feliks Yəhudi arvadı Drusilla ilə birlikdə
gəlib Paulu çağırtdırdı və onun Məsih

---

*24:5 *Nəsrani* – yəni məsihçi.
†24:7-8 *Yaxaladıq.*

7-8 *Onu* – bəzi əlyazmalarda *yaxaladıq və bizim Qanunumuza münasib şəkildə mühakimə etmək*

‡24:14 *İsa yolunun* – hərfi tərcümədə *Yolun.*
§24:22 *İsa yolu* – hərfi tərcümədə *Yol.*

[l]24:17 Həv. 21:17-28 [m]24:21 Həv. 23:6

İsaya olan imanından danışdıqlarına
qulaq asdı. 25 Paul salehlik, nəfsə hakim
olma və gələcək mühakimədən söhbət
edəndə Feliks qorxuya düşdü və dedi:
«Bəsdir, indi get, imkan olanda yenə
səni çağırtdıracağam». 26 Digər tərəfdən
də Pauldan* rüşvət umurdu. Ona görə
tez-tez Paulu yanına çağırtdırır və
onunla söhbət edirdi.
27 İki il keçəndən sonra Feliks öz
vəzifəsini Porki Festə təhvil verdi. Feliks
Yəhudilərin rəğbətini qazanmaq üçün
Paulu həbsdə qoyub getdi.

Festin qarşısında olan məhkəmə

25 Vilayətə çatandan üç gün
sonra Fest Qeysəriyyədən
Yerusəlimə getdi. 2 Başçı kahinlərlə
Yəhudilərin nüfuzlu adamları Paulla
bağlı şikayətlərini ona açıqladılar.
3 Onlara bir yaxşılıq etsin deyə
Festə yalvararaq Paulun Yerusəlimə
gətirilməsini xahiş etdilər, çünki onu
öldürmək üçün yolda pusqu qururdular.
4 Fest cavab verdi: «Paul Qeysəriyyədə
həbsdədir və tezliklə özüm də oraya
gedəcəyəm. 5 Aranızda səlahiyyəti
olanlar mənimlə getsin və əgər bu kişi
haqsızlıq edibsə, onu ittiham etsin».
6 Fest onların yanında səkkiz ya on
gündən artıq qalmadı və Qeysəriyyəyə
qayıtdı. Ertəsi gün hökm kürsüsünə
çıxıb Paulun gətirilməsini əmr etdi.
7 Paul içəri girəndə Yerusəlimdən
gələn Yəhudilər onun ətrafını bürüdü
və onun barəsində dəlil-sübutsuz bir
çox ağır ittihamlar irəli sürdülər.
8 Paul «nə Yəhudilərin Qanununa,
nə məbədə, nə də qeysərə qarşı heç
bir günah işlətməmişəm» deyərək
özünü müdafiə etdi. 9 Yəhudilərin
rəğbətini qazanmaq üçün Fest Paula
belə dedi: «Bu iş üzrə mənim qarşımda
mühakimənin Yerusəlimdə olmasını
istəyirsənmi?» 10 Paul dedi: «Mən
qeysərin hökm kürsüsünün qarşısında
dayanmışam. Mənim məhkəməm
burada olmalıdır. Sən özün də yaxşı
bilirsən ki, Yəhudilərə qarşı heç bir
haqsızlıq etməmişəm. 11 Əgər haqsızlıq
etmişəmsə, ölüm cəzasına layiq bir iş
tutmuşamsa, ölümdən qaçmıram. Yox,
əgər bunların ittihamları əsassızdırsa,
məni onların əlinə təslim etmək üçün
heç kimin səlahiyyəti yoxdur. Mən
qeysərin məhkəməsinə müraciət etmək
istəyirəm». 12 Fest öz məsləhət şurası ilə
müşavirə keçirəndən sonra cavab verdi:
«Sən qeysərin məhkəməsinə müraciət
etmək istədiyin üçün qeysərin yanına
gedəcəksən».

Fest Padşah Aqrippa ilə danışır

13 Bir neçə gündən sonra padşah
Aqrippa ilə Berniki† Festi təbrik etmək
üçün Qeysəriyyəyə gəldi. 14 Bir müddət
orada qaldılar. Fest bu ərəfədə Paulun
işini padşaha danışdı. O dedi: «Bir kişi
var, Feliks onu məhbus saxlayaraq
gedib. 15 Yerusəlimdə olduğum
ərəfədə Yəhudilərin başçı kahinləri ilə
ağsaqqalları onunla bağlı şikayətlərini
açıqladı və onu cəzalandırmağımı
istədi. 16 Mən dedim ki, ittiham edilən
şəxsi ittihamçılarla üzləşdirmədən,
ona edilən ittihamlara müdafiə imkanı
vermədən, onlara‡ təslim etmək
Romalıların adətinə xas deyil. 17 Onlar
mənimlə buraya toplananda heç bir vaxt
itirmədən ertəsi gün hökm kürsüsünə
çıxıb bu kişinin gətirilməsini əmr etdim.
18 Amma ittihamçılar qalxıb danışanda
mənim gözlədiyim cinayətlərin heç biri
ilə onu təqsirləndirmədilər. 19 Lakin

---

*24:26 *Pauldan* – bəzi əlyazmalarda *Paulu azad etmək üçün ondan.*
†25:13 *Berniki* – yəni padşah Aqrippanın bacısı.
‡25:16 *Onlara* – bəzi əlyazmalarda *edam olunmaq üçün onlara.*

onunla öz dinləri barədə bir neçə məsələ
qaldırdılar. Bunlar ölmüş və Paulun
iddiasına görə sağ olan İsa adlı bir
şəxslə bağlı məsələlərdir. 20 Bunları necə
tədqiq edəcəyimdən şübhələndiyim
üçün ondan soruşdum ki, Yerusəlimə
gedib bu iş üçün orada mühakimə
olmağa razıdır ya yox. 21 Amma Paul
imperatorun məhkəməsinə müraciət
etmək və bu olana qədər həbsdə qalmaq
istədi. Mən də onu qeysərin yanına
göndərəcəyim zamanacan həbsdə
qalması barədə əmr verdim». 22 Aqrippa
Festə dedi: «Bu adama mən də qulaq
asmaq istəyirəm». Fest dedi: «Sabah
qulaq asarsan».

Paul padşah Aqrippanın qarşısında

23 Ertəsi gün Aqrippa ilə Berniki
təntənəli surətdə gəlib minbaşılar və
şəhərin nüfuzlu şəxsləri ilə birlikdə
iclas otağına daxil oldular. Festin
əmrinə əsasən Paulu içəri gətirdilər.
24 Fest dedi: «Ey padşah Aqrippa və
burada bizimlə olan bütün cənablar,
istər Yerusəlimdə, istərsə də burada,
bütün Yəhudi xalqının şikayət etdiyi
bu insanı görürsünüzmü? “Bu adam
daha yaşamamalıdır!” deyə Yəhudilər
hay-küy salırdı. 25 Amma mən nəticəyə
gəldim ki, bu adam ölümə layiq heç
bir iş görməyib. Lakin imperatorun
məhkəməsinə müraciət etmək istədiyinə
görə onu göndərmək qərarına gəldim.
26 Amma onun barəsində qəti bir sözüm
yoxdur ki, cənabıma yazam. Ona görə
də onu sizin qarşınıza, xüsusən, padşah
Aqrippa, sənin qarşına çıxarıram ki,
bu işin istintaqından sonra yazmağa
sözüm olsun. 27 Çünki bir məhbusu
imperatorun qarşısına göndərəndə ona
edilən ittihamları göstərməmək mənə
məntiqsiz göründü».

26 Aqrippa Paula dedi: «Özünü
müdafiə edə bilərsən». Onda
Paul əl hərəkəti ilə özünü müdafiəyə
başladı: 2 «Padşah Aqrippa, Yəhudilərin
məni ittihamlandırdığı hər şeyə görə bu
gün sənin hüzurunda özümü müdafiə
edəcəyim üçün özümü xoşbəxt sayıram.
3 Çünki bütün Yəhudi adət-ənənələrinə
və mübahisələrinə yaxşı bələdsən. Ona
görə rica edirəm, mənə səbirlə qulaq as.
4 Bütün Yəhudilər bilir ki, əzəldən,
lap cavanlığımdan bəri həm öz elimdə,
həm də Yerusəlimdə necə həyat
sürmüşəm. 5 [n]Məni əvvəldən tanıyırlar,
bilirlər ki, keçmişdə dinimizin ən
ciddi təriqəti olan farisey təriqətinə
necə bağlı yaşayırdım. İstəsələr, bu
barədə şəhadət edə bilərlər. 6 İndi isə
Allahın ata-babalarımıza verdiyi vədin
həyata keçməsinə ümid bağladığım
üçün burada dayanıb mühakimə
olunuram. 7 Xalqımızın on iki qəbiləsi
də gecə-gündüz Allaha sidq ürəkdən
ibadət edə-edə həmin şeyə ümid
bəsləyir. Ey padşah, Yəhudilər məni
bu ümidə görə ittiham edirlər. 8 Niyə
Allahın ölüləri diriltməsi aranızda
inanılmaz bir şey sayılır?
9 [o]Doğrusu, mən buna əmin olmuşdum
ki, Nazaretli İsanın adı əleyhinə əlimdən
gələni etməliyəm. 10 Yerusəlimdə də
bunu edirdim. Başçı kahinlərdən aldığım
səlahiyyətə əsasən nə qədər müqəddəsi
zindanlara saldırdım və edam olunanda
onların əleyhinə səs verdim. 11 Bütün
sinaqoqları gəzib-dolaşaraq onları
tez-tez cəzalandırır və öz etiqadlarına
küfr etməyə məcbur edirdim. Mən elə
dəli olmuşdum ki, onları ölkə xaricində
olan şəhərlərdə belə, təqib edirdim.
12 Bu iş üçün başçı kahinlərdən
aldığım səlahiyyət və tapşırıqla
Dəməşqə tərəf yola çıxdım. 13 Ey
padşah, günorta vaxtı yol gedirdim

---

[n]**26:5** Həv. 23:6; Fil. 3:5 [o]**26:9** Həv. 8:3; 22:4-5

ki, göydən məni və yoldaşlarımı hər
tərəfdən nurlandıran günəşdən daha
parlaq bir işıq gördüm. 14 Hamımız
yerə yıxıldıq. Bir səsin mənə İbrani
dilində dediyini eşitdim: “Şaul, Şaul,
niyə Məni təqib edirsən? Bizin ucuna
təpik vurmaq sənə zərər verər”. 15 Mən
dedim: “Ey Ağam, Sən kimsən?” Rəbb
cavab verdi: “Mən sənin təqib etdiyin
İsayam. 16 Qalx ayağa və dur. Mən ona
görə sənə göründüm ki, səni xidmətçi və
haqqımda gördüyün, sənə göstərəcəyim
şeylərin şahidi olmağa təyin edim.
17 Səni öz xalqından, həm də başqa
millətlərin əlindən qurtaracağam. Səni
o millətlərin yanına göndərirəm ki,
18 onların gözlərini açıb qaranlıqdan
işığa, Şeytanın hakimiyyətindən
Allaha tərəf döndərəsən. Belə ki onlar
günahlarının bağışlanmasına və Mənə
iman etməklə təqdis olunanlar arasında
irsə nail olsunlar”.
19 Buna görə mən, ey padşah Aqrippa,
bu səmavi görüntüyə itaətsizlik
etmədim. 20 [p]Əvvəlcə Dəməşqin,
sonra Yerusəlimin və bütün Yəhudeya
bölgəsinin əhalisini, başqa millətləri
də tövbə edib Allaha tərəf dönməyə və
bu tövbəyə uyğun tərzdə iş görməyə
çağırdım. 21 Yəhudilər buna görə
məni məbəddə tutub öldürməyə
cəhd göstərirdilər. 22 Amma bu
günə qədər Allah mənim dayağımda
durdu və bunun sayəsində burada
durub böyükdən kiçiyə qədər hamıya
şəhadət edirəm. Mənim dediklərim
peyğəmbərlərin və Musanın əvvəlcədən
xəbər verdiyi hadisələrdən başqa bir
şey deyil. 23 [q]Onlar bildirib ki, Məsih
əzab çəkəcək və ölümdən dirilənlərin
birincisi olacaq, həm Öz xalqına, həm
də başqa millətlərə nur doğduğunu elan
edəcək».
24 Paul özünü bu cür müdafiə edəndə
Fest bərkdən dedi: «Paul, dəlilik edirsən,
çox oxumaqdan başın xarab olub».
25 Paul dedi: «Hörmətli Fest, mən
dəlilik etmirəm, həqiqəti və ağla batan
sözləri danışıram. 26 Padşahın bu barədə
məlumatı olduğu üçün onunla cəsarətlə
danışıram. Əminəm ki, olanların heç
biri padşahın nəzərindən qaçmayıb.
Çünki bu işlər künc-bucaqda görülən
işlər deyil. 27 Padşah Aqrippa, sən
peyğəmbərlərə inanırsanmı? Bilirəm
ki, inanırsan». 28 Aqrippa Paula dedi:
«Bu az müddətdə məni də inandıraraq
məsihçi edəcəksən?» 29 Paul dedi: «İstər
az, istər çox müddət olsun, Allahdan
istəyirəm ki, təkcə sən yox, bu gün mənə
qulaq asan hər bir adam bu zəncirlərdən
başqa mənim kimi olsun!»
30 Sonra padşah, vali, Berniki və
onlarla birlikdə oturanlar qalxdılar.
31 Bayıra çıxanda aralarında belə
danışdılar: «Bu adam ölümə yaxud
həbsə layiq bir şey etmir». 32 Aqrippa
da Festə dedi: «Bu adam qeysərin
məhkəməsinə müraciət etmək
istəməsəydi, azad edilə bilərdi».

Paul Romaya doğru yola çıxır

27 İtaliyaya doğru yelkən açmağa
qərar verilində Paulu və
bəzi başqa məhbusları İmperator
alayından Yuli adlı bir yüzbaşıya təhvil
verdilər. 2 Asiya vilayətinin sahilindəki
limanlara gedən bir Edremit gəmisinə
minərək dənizlə getdik. Salonikdən
Makedoniyalı Aristarx da yanımızda idi.
3 Ertəsi gün Sidona çatdıq. Paulla dost
kimi rəftar edən Yuli ona izin verdi ki,
lazımi kömək almaq üçün dostlarının
yanına getsin. 4 Oradan yenə dənizlə
getdik. Küləklər bizə əks istiqamətdə
əsdiyi üçün Kipri külək tutmayan
tərəfdən keçdik. 5 Dəniz yolu ilə

---

[p] **26:20** Həv. 9:18-20,28-29 [q] **26:23** Yeş. 42:6; 49:6; 1Kor. 15:20

Kilikiya və Pamfiliyanı keçib Likiyanın
Mira şəhərinə gəldik. 6 Yüzbaşı orada
İtaliyaya gedən bir İsgəndəriyyə gəmisi
tapıb bizi o gəmiyə mindirdi. 7 Xeyli
gün aşağı sürətlə, çətinliklə üzərək Knid
şəhərinin qarşısına çatdıq. Külək bizə
yol vermədiyi üçün Salmoni burnundan
dolanaraq Kritin külək tutmayan tərəfi
ilə getdik. 8 Sahil boyunca çətinliklə
irəliləyərək Laseya şəhəri yaxınlığındakı
Gözəl Limanlar adlanan körfəzə
gəlib-çatdıq.
9 Xeyli vaxt itirmişdik, hətta oruc
günü* də keçib-getmişdi. Artıq bu
mövsümdə dəniz yolu ilə getmək
təhlükəli idi. Odur ki, Paul onlara
xəbərdarlıq edərək 10 dedi: «Ağalar,
görürəm ki, bu səfər yalnız yük və
gəmiyə deyil, canımıza da çox ziyan
və bəla gətirəcək». 11 Lakin yüzbaşı
Paulun dediklərini dinləməkdənsə gəmi
sükançısının və sahibinin sözlərinə
uydu. 12 Liman qışlamaq üçün əlverişsiz
idi. Buna görə gəmidəkilərin əksəriyyəti
oradan dənizə çıxıb imkan olarsa,
Finiksə çataraq qışı orada keçirmək
qərarına gəldi; Finiks Kritdə olan,
cənub-qərbə və şimal-qərbə baxan bir
liman idi.

Fırtına

13 Cənubdan zəif bir külək əsməyə
başlayanda gözlədikləri anın gəldiyini
zənn edərək lövbərləri çıxartdılar. Krit
sahili boyu üzərək irəlilədilər. 14 Amma
çox keçmədi ki, qurudan Evrakilon†
fırtınası qopdu. 15 Fırtınaya düşən gəmi
küləyə müqavimət göstərə bilmirdi,
əlacsız qaldıq və külək bizi aparırdı.
16 Qavda adlı kiçik bir adanın külək zəif
tutan tərəfinə düşəndə gəminin qayığını
güclə qurtara bildik. 17 Qayığı yuxarı
çəkəndən sonra gəminin kəndirlərini
onun altından dolayıb bağlayaraq
tədbir gördülər. Sirt körfəzində saya
oturmaqdan qorxub ləngəri aşağı
saldılar və gəmi sürüklənməyə başladı.
18 Fırtına bizi bir xeyli çalxaladı. Ertəsi
gün gəminin yükünü atmağa başladılar.
19 Üçüncü gün isə öz əlləri ilə gəminin
təchizatını atdılar. 20 Günlərlə nə günəş,
nə də ulduzlar göründü. Fırtına da
o qədər şiddətlə davam edirdi ki,
artıq bundan xilas olmağa ümidimiz
qalmamışdı.
21 Adamlar uzun müddət yemək
yemədikdə Paul ortada durub dedi:
«Ağalar, gərək siz mənə qulaq asıb
Kritdən çıxmayaydınız və bu ziyana, bu
bəlaya düşməyəydiniz. 22 İndi sizə öyüd
verərək deyirəm: ürəkli olun, çünki heç
biriniz canını itirməyəcək, yalnız gəmi
məhv olacaq. 23 Çünki mənsub olub
ibadət etdiyim Allahın bir mələyi bu
gecə yanıma gəlib dedi: 24 “Qorxma,
Paul, sənin qeysərin qarşısına çıxmağın
lazımdır. Sənlə birgə gəmidə olanların
hamısını da Allah sənə bağışladı”. 25 Ay
ağalar, buna görə ürəkli olun! Allaha
inandığıma görə bilirəm ki, hər şey
mənə deyilən kimi olacaq. 26 Amma
bizə bir adaya düşmək lazımdır».

Gəmi quruda oturur

27 On dördüncü gecə idi ki, biz İoniya
dənizində sürüklənirdik. Gecə yarısına
yaxın gəmiçilər hiss etdilər ki, quruya
yaxınlaşırlar. 28 Suyun dərinliyini
ölçəndə gördülər ki, iyirmi qolacdır.‡
Bir az gedəndən sonra bir daha
ölçdülər və gördülər ki, on beş qolacdır.
29 Qayalığa çıxmaqdan qorxaraq

---

*27:9 *Oruc günü* – yəni Yəhudilərin sentyabr və ya oktyabr aylarında keçirdikləri günahların Kəffarə günü sayılan *Yom Kippur* bayramı.
†27:14 *Evrakilon* – yəni şimali şərq küləyi.
‡27:28 *Qolac* – yunan mətnində *orquya*, təqribən 1.85 metr.

gəminin dal tərəfindən dörd lövbər
atıb sabahın açılması üçün dua etdilər.
30 Belə olanda gəmiçilər qaçmağa çalışıb
gəminin qabaq hissəsindən lövbərlər
salmaq bəhanəsi ilə qayığı dənizə
endirdilər. 31 Amma Paul yüzbaşıya
və əsgərlərə dedi: «Bunlar gəmidə
qalmasalar, siz xilas ola bilməzsiniz».
32 Bundan sonra əsgərlər qayığın iplərini
kəsib onu dənizə saldılar.
33 Dan yeri söküləndə Paul hamıya
yemək yeməyi təkid edərək dedi: «Bu
gün on dörd gündür ki, nigarançılıq
içindəsiniz və heç nə yemədiyinizə görə
acsınız. 34 Bunun üçün sizdən xahiş
edirəm ki, yemək yeyəsiniz. Bu, xilasınız
üçün lazımdır. Heç birinizin başından
bir tük belə, əskik olmayacaq». 35 Paul
bunu deyəndən sonra çörək götürdü və
hamının qarşısında Allaha şükür edərək
çörəyi bölüb yeməyə başladı. 36 Bundan
hamı ürəklənib yemək yedi. 37 Gəmidə
cəmi iki yüz yetmiş altı nəfər idik.
38 Hamı doyandan sonra buğdanı dənizə
boşaldaraq gəmini yüngülləşdirdilər.
39 Hava işıqlananda gördükləri
qurunu tanıya bilmədilər. Amma
qumsal sahili olan bir körfəz gördülər.
Qərara aldılar ki, imkan olsa, gəmini
orada oturtsunlar. 40 Lövbərləri kəsib
dənizdə qoydular. Eyni zamanda
sükanları saxlayan kəndirləri açıb
qabaq yelkəni qaldıraraq qumsallığa
tərəf yönəldilər. 41 Gəmi isə dayazlıqda
qum üstündə oturdu. Gəminin burnu
quma batıb tərpənməz oldu. Arxa
tərəfi isə dalğaların zərbəsindən
sınmağa başladı. 42 Əsgərlər məhbusları
öldürmək istəyirdi ki, heç biri üzərək
qaçmasın. 43 Amma Paulu xilas etmək
istəyən yüzbaşı əsgərləri bu fikirdən
daşındırdı. Əmr etdi ki, əvvəlcə üzməyi
bacaranlar dənizə tullanıb üzsünlər,
44 sonra dalda qalanlar ya taxtalar ya da
gəminin başqa parçaları üzərində sahilə
çıxsınlar. Beləliklə, hamısı sağ-salamat
quruya çıxdı.

Maltada

28 Xilas olandan sonra öyrəndik
ki, adanın adı Maltadır.
2 Oranın sakinləri bizə gözlənilməz
bir mehribanlıq göstərdi. Hava yağışlı
və soyuq olduğu üçün ocaq qalayıb
hamımızı hərarətlə qarşıladılar. 3 Paul
bir dəstə çırpı götürüb ocağa atdı. O
zaman istinin təsirindən bir gürzə çıxıb
onun əlinə yapışdı. 4 Oranın sakinləri
Paulun əlinə ilanın yapışdığını görəndə
bir-birlərinə dedilər: «Demək bu
adam qatildir. Dənizdən xilas olsa da,
ədalət ilahəsi onu yaşamağa qoymur».
5 Amma Paul əlini silkələyib ilanı oda
ataraq heç bir xətər görmədi. 6 Camaat
gözləyirdi ki, Paulun bədəni şişəcək
yaxud birdən-birə yıxılıb öləcək. Amma
çox gözlədilər, ona heç nə olmadığını
görəndə fikirlərini dəyişib dedilər: «Bu
bir allahdır».
7 O yerin yaxınlığında malikanə
var idi ki, ora adanın baş məmuru
Publi adlı bir şəxsin idi. Bu adam bizi
öz evində qəbul etdi və üç gün bizə
mehribanlıqla qonaqpərvərlik göstərdi.
8 O ərəfədə Publinin atası qızdırma və
qanlı ishal üzündən xəstə yatırdı. Paul
xəstənin yanına gəldi və dua edərək
əllərini onun üzərinə qoyub sağaltdı.
9 Bu hadisədən sonra adadakı qalan
xəstələr də gəlib şəfa tapdılar. 10 Bizə
çoxlu bəxşiş verərək şərəfləndirdilər.
Biz dənizə çıxanda isə bizə lazım olan
şeyləri gəmiyə yüklədilər.

Romaya çatanda

11 Üç aydan sonra qışı adada keçirmiş,
başında Əkiz Tanrılar heykəlini
gəzdirən bir İsgəndəriyyə gəmisi ilə
dənizdən yelkən açdıq. 12 Sirakuza
şəhərinə çatıb üç gün orada qaldıq.
13 Oradan yolumuza davam edərək

Regiuma gəldik. Ertəsi gün əsməyə
başlayan cənub küləyinin köməyi ilə
iki günə Puteoliyə çatdıq. 14 Orada
rastlaşdığımız imanlı bacı-qardaşlar
bizdən xahiş etdilər ki, onların yanında
bir həftə qalaq.
Sonra Romaya çatdıq. 15 Bizdən xəbər
tutan Romadakı imanlı bacı-qardaşlar
bizi qarşılamaq üçün Appi Bazarına
və Üç Mehmanxanaya qədər gəldilər.
Paul onları görəndə Allaha şükür edib
ürəkləndi. 16 Romaya gələndə Paula*
izin verildi ki, bir əsgərin nəzarəti
altında tək yaşasın.

Paulun Romada etdiyi işlər

17 Üç gün sonra Paul Yəhudilərin
orada olan başçılarını toplantıya dəvət
etdi. Onlar bir yerə yığılandan sonra
Paul onlara belə dedi: «Soydaşlar,
xalqımıza və ata-babalarımızın
adət-ənənəsinə zidd heç nə etmədiyim
halda Yerusəlimdə həbs edilib
Romalılara təslim edildim. 18 Onlar
məni sorğu-suala çəkəndən sonra azad
etmək istədilər. Çünki ölüm cəzasına
layiq bir təqsirim yox idi. 19 [r]Amma
Yəhudilər buna qarşı çıxanda məcbur
olub qeysərin məhkəməsinə müraciət
etmək istədim, lakin öz millətimi heç
nədə ittihamlandırmaq istəmirdim.
20 Bu səbəbdən sizi buraya görüşüb
söhbət etmək üçün çağırmışam. Axı
mən İsrailin ümidi uğrunda belə
zəncirlənmişəm». 21 Onlar Paula
dedilər: «Yəhudeyadan sənin barəndə
nə məktub almışıq, nə də buraya gələn
soydaşlardan kimsə sənin barəndə bizə
xəbər gətirərək pis bir söz deyib. 22 Biz
sənin fikirlərini sənin özündən eşitmək
istəyirik. Çünki hər yerdə bu təriqətə
qarşı çıxıldığını bilirik».
23 Bir gün təyin edib, həmin
gün daha böyük kütlə ilə Paulun
qaldığı yerə gəldilər. Paul səhərdən
axşamacan Allahın Padşahlığından
şəhadət edərək onlara açıqlama verdi,
həm Musanın Qanununda, həm də
Peyğəmbərlərin yazdıqlarından onları
İsaya inandırmağa çalışdı. 24 Bəziləri
onun sözlərinə inandı, bəziləri isə
inanmadı. 25 Bir-birləri ilə razılığa
gəlməyəndə Paulun bu son sözlərinə
qulaq asıb ayrıldılar: «Müqəddəs
Ruh Yeşaya peyğəmbərin vasitəsilə
ata-babalarınıza bu gözəl sözü dedi:
26 [s]"Get bu xalqa bunu çatdır:
‹Eşitdikcə eşidəcəksiniz, amma
anlamayacaqsınız,
Gördükcə görəcəksiniz, amma
qanmayacaqsınız.
27 Çünki bu xalqın ürəyi kütləşdi,
Qulaqları ağır eşitdi,
Gözlərini yumdular ki,
Gözləri ilə görməsinlər,
Qulaqları ilə eşitməsinlər,
Ürəkləri ilə anlamasınlar
Və Mənə sarı dönməsinlər ki,
Mən onlara şəfa verim›".
28 İndi bilin ki, Allahın verdiyi bu xilas
başqa millətlərə göndərilib və onlar
buna qulaq asacaqlar». 29 †
30 Paul düz iki il kirayə tutduğu
evdə qalıb yanına gələnlərin hamısını
qəbul edirdi. 31 Heç bir maneə olmadan
tam bir cəsarətlə Allahın Padşahlığını
vəz edir və Rəbb İsa Məsihlə bağlı
həqiqətləri öyrədirdi.

---

*28:16 *Paula* – bəzi əlyazmalarda *yüzbaşı məhbusları zabitə təhvil verdi.*
†28:29 *Aşaqa* – bəzi əlyazmalarda *asacaqlar».*
29 Paulun bu sözündən sonra Yəhudilər bir-biri ilə çox çəkişdi və getdi.

[r]28:19 Həv. 25:11
[s]28:26 Yeş. 6:9-10; Mat. 13:14-15; Mark 4:12; Luka 8:10; Yəh. 12:39-40

PAULUN

ROMALILARA MƏKTUBU

GİRİŞ

Paul bu məktubu özünü və yaydığı Müjdəni Romadakı imanlılar cəmiyyətinə təqdim etmək üçün yazmışdı. O heç vaxt imperatorluğun paytaxtı olan bu şəhərdə olmamışdı, halbuki oradakı bir çox məsihçilərin adını bilirdi və onlara tezliklə baş çəkmək istəyirdi. Paul onlara özünün «həvari olmağa çağırılmış, Allahın Müjdəsini yaymaq üçün seçilmiş» olduğunu söyləyir (1:1). Onun yaydığı Müjdə bundan ibarət idi ki, Müjdə «iman edən hər kəsin – əvvəlcə Yəhudinin, sonra da Yunanın xilası üçün Allahın qüdrətidir» (1:16).

Paul həm də hamının günah edib, Allahın izzətindən məhrum olmasını oxucuların yadına salır (3:23). Amma Allah bizi necə qəbul edə bilər? Paul bu əsas suala Romalılara məktubda cavab verir. O, məktubda göstərir ki, heç kim Allahın tələblərini yerinə yetirməyə qadir deyil. Yəhudilər Musanın Qanununa tabe olmadılar; başqa millətlərlə isə Allah müxtəlif yollarla danışdısa da, onlar Onun barəsində hətta düşünməkdən belə, imtina etdilər (1:18–3:20).

Paul burada Allahın bizi necə qəbul etdiyini aydın göstərir:

«Allahdan gələn bu salehlik İsa Məsihə iman vasitəsilə Ona iman gətirənlərin hamısına verilir. Heç kəsə fərq qoyulmur… Onun lütfü ilə də Məsih İsada satın alınmağa nail olaraq bir hədiyyə kimi saleh sayılır» (3:22,24).

«İsa bizim təqsirlərimizə görə ölümə təslim edildi və bizim saleh sayılmağımız üçün dirildi» (4:25).

Məktubun məzmunu:

1:1-17 Salamlama və məktubun mövzusu
1:18–3:20 Xilasa ehtiyac
3:21–4:25 Allahın verdiyi xilas yolu
5:1–8:39 Məsihdə yeni həyat
9:1–11:36 Allahın İsrail üçün planı
12:1–15:13 Məsihçi davranışı
15:14–16:27 Yekun və şəxsi salamlar

1 İsa Məsihin qulu, həvari olmağa çağırılmış, Allahın Müjdəsini yaymaq üçün seçilmiş mən Pauldan salam! [2] Allahın Öz peyğəmbərləri vasitəsilə Müqəddəs Yazılarda əvvəlcədən vəd etdiyi o Müjdə [3–4] Oğlu Rəbbimiz İsa Məsih haqqındadır. O, cismən Davud nəslindəndir, müqəddəslik Ruhuna görə isə ölülər arasından dirilərək Allahın Oğlu olduğu qüdrətlə elan olundu. [5] Biz Onun vasitəsilə lütfə və həvariliyə nail olduq ki, Onun adı naminə bütün millətlərdən olan insanları imana itaət etməyə çağıraq. [6] Siz də İsa Məsihə məxsus olmaq üçün çağırılmış o insanların arasındasınız. [7] Romada yaşayan, Allahın sevdiyi və müqəddəs olmağa çağırdığı sizin hamınıza Atamız Allahdan və Rəbb İsa Məsihdən lütf və sülh olsun!

Paulun Romaya getmək arzusu

[8] Hər şeydən əvvəl, hamınız üçün İsa Məsihin vasitəsilə Allahıma şükür edirəm ki, imanınız bütün dünyada elan olunur. [9] Oğlunun Müjdəsini yaymaqda bütün qəlbimlə ibadət etdiyim Allah şahidimdir ki, mən sizi necə daim yada salıram. [10] Dualarımda həmişə yalvarıram ki, Allahın iradəsi ilə nəhayət yanınıza gəlməyə nail olum. [11] Çünki sizi qüvvətləndirmək üçün sizə ruhani bir ənam çatdırmaq məqsədindəyəm; buna görə də sizi görmək üçün həsrət çəkirəm. [12] Daha doğrusu, mən aranızda olarkən bir-birimizin imanı

ilə qarşılıqlı halda ruhlanaq. 13 [t]Ey
qardaşlar, bixəbər olmağınızı istəmirəm
ki, başqa millətlərdən olan digərləri
arasında etdiyim kimi sizin aranızda
da əməyimin bəhrəsini götürüm deyə
dəfələrlə yanınıza gəlmək niyyətində
olmuşam, amma indiyədək maneələrə
rast gəldim. 14 Mən həm Yunanlara,
həm də barbarlara, həm aqillərə,
həm də cahillərə borcluyam. 15 Bu
səbəbdən mən Romada yaşayan sizlərə
də bacardığım qədər Müjdəni yaymağa
həvəsim var.

Müjdədəki Allah salehliyi

16 [u]Mən Müjdədən utanmıram, çünki
o, iman edən hər kəsin – əvvəlcə
Yəhudinin, sonra da Yunanın* xilası
üçün Allahın qüdrətidir. 17 [v]Müjdədə
Allahın salehliyi aşkar olur və bu
salehlik tamamilə imanla əldə edilir.
Necə ki yazılıb: «Saleh adam imanla
yaşayacaq».

Adamların günahkarlığı

18 Həqiqətə haqsızlıqla əngəl törədən
adamların hər cür allahsızlığı və
haqsızlığı ucbatından Allahın qəzəbi
göydən aşkar olur. 19 Çünki Allah
haqqında məlum olan şeylər onlara
aşkardır, Allah Özü bunu onlara
aşkar edib. 20 Dünyanın yaradılışından
bəri Allahın gözə görünməyən
xüsusiyyətləri, yəni əbədi qüdrəti və
ilahiliyi Onun yaratdıqları vasitəsilə üzə
çıxır. Buna görə də onlar üzrsüzdür.
21 [w]Adamlar Allahı tanıdıqları halda
Ona nə Allah kimi izzət verdilər, nə də
şükür etdilər. Əksinə, boş düşüncələrə
uydular və axmaq ürəklərini qaranlıq
bürüdü. 22 Müdrik olduqlarını iddia
etdikləri halda ağılsız olub, 23 [x]fani
olmayan Allahın izzətini fani olan
insana, quşlara, dördayaqlılara və
sürünənlərə bənzəyən bütlərlə əvəz
etdilər.
24 Buna görə də Allah onları
ürəklərinin şəhvəti üzündən murdarlığa
təslim etdi ki, bir-birlərinin bədənini
rüsvay etsinlər. 25 Onlar Allahın
həqiqətini yalanla əvəz etdilər,
Yaradanın yerinə yaradılışa səcdə və
ibadət etdilər; o Yaradana əbədi alqış
olsun! Amin.
26 Bu səbəbdən Allah onları öz
rəzil həvəslərinə təslim etdi. Onların
qadınları təbii əlaqəni qeyri-təbii əlaqə
ilə əvəz etdilər, 27 eyni tərzdə kişilər
də qadınla olan təbii əlaqədən əl çəkib
bir-birlərinə şəhvətlə qızdılar; kişilər
kişilərlə rüsvayçılıq edib öz daxillərində
rəzilliklərinə layiq cəzanı aldılar.
28 Allahı şüurlarında saxlamağı yanlış
saydıqları üçün Allah da onları yanlış
düşüncələrə təslim etdi ki, ədəbsiz işlər
görsünlər. 29 Onlar hər cür haqsızlıq,
pislik, tamahkarlıq və kinlə doldular;
paxıllıq, qatillik, münaqişə ruhu, hiylə
və pis niyyətlə dolub-daşdılar. Onlar
qeybətçi, 30 böhtançı, Allaha nifrət edən,
söyüşçü, məğrur, təkəbbürlü, pis işlərdə
bacarıqlı, ata-anaya itaətsiz, 31 axmaq,
xain, şəfqətsiz və rəhmsizdir. 32 Hərçənd
ki belə işlərlə məşğul olanların ölümə
layiq olduğu barədə Allahın ədalətli
hökmünü bilirlər, amma yenə də bu
işləri görürlər, hətta belə işlər görən
başqalarını da alqışlayırlar.

Allahın ədalətli hökmü

2 [y]Beləliklə, sən ey başqasını
mühakimə edən adam, kim
olursansa-ol, sən də üzrsüzsən. Çünki
başqasını mühakimə edərkən özünü də

*1:16 *Yunan* – yəni başqa millətdən olan.

[t]1:13 Həv. 19:21 [u]1:16 Mark 8:38 [v]1:17 Hab. 2:4 [w]1:21 Ef. 4:17-18
[x]1:23 Qanun. 4:16-18 [y]2:1 Mat. 7:1; Luka 6:37

məhkum edirsən. Ona görə ki başqasını
mühakimə etdiyin halda özün də həmin
işləri görürsən. 2 Bizsə bilirik ki, belə
işlərlə məşğul olanlara Allah həqiqətə
əsasən hökm çıxarır. 3 Ey belə işlərlə
məşğul olanları mühakimə edərək özü
də həmin işləri görən insan! Məgər elə
güman edirsən ki, Allahın hökmündən
qaça biləcəksən? 4 Yaxud sən Allahın
zəngin xeyirxahlığına, həlimliyinə və
səbirli olmağına xor baxırsan? Bəs
anlamırsan ki, Onun xeyirxahlığı səni
tövbəyə yönəldir? 5 Amma sən Allahın
qəzəbinin və ədalətli hökmünün zahir
olacağı gün inadkarlığına və tövbə
etməyən ürəyinə görə özün üçün qəzəb
toplayırsan; 6 [z]Allah hər kəsə əməlinə
görə əvəzini verəcək: 7 dözümlə yaxşı
əməl sahibi olaraq izzət, hörmət və
ölməzlik axtaranlara əbədi həyat,
8 özlərini göstərərək həqiqətə tabe
olmayıb haqsızlığa baş əyənlərə isə
qəzəb və hiddət göndərəcək. 9 Pislik
edən hər kəsə – əvvəlcə Yəhudiyə, sonra
da Yunana əziyyət və sıxıntı, 10 yaxşı
əməl sahibi olan hər kəsə isə – əvvəlcə
Yəhudiyə, sonra da başqa millətdən
olana izzət, hörmət və sülh verəcək.
11 [a]Çünki Allah insanlar arasında
tərəfkeşlik etməz.
12 Qanunu bilmədən günah edənlərin
hamısı Qanunu bilməsələr də, həlak
olacaqlar. Qanunu bilərək günah
edənlərin də hamısı Qanunla mühakimə
olunacaq. 13 Çünki Allahın nəzərində
Qanunu eşidənlər deyil, ona əməl
edənlər saleh sayılır. 14 Beləcə Qanuna
malik olmayan başqa millətlər
təbiətlərinə görə Qanuna əməl edəndə
Qanuna malik olmadıqları halda
onlar özləri üçün qanun olur. 15 Onlar
bununla göstərirlər ki, Qanunun
tələbləri ürəklərində yazılıb. Onların
vicdanı buna şahiddir, düşüncələri də
onları gah ittiham, gah da müdafiə edir.
16 Mənim elan etdiyim Müjdəyə görə,
Allahın Məsih İsa vasitəsilə insanların
gizli işlərini mühakimə edəcəyi gün belə
olacaq.

Yəhudilər və Qanun

17 Ey özünü Yəhudi adlandıran!
Qanuna güvənərək Allahla öyünürsən;
18 Onun iradəsini bilirsən, Qanundan
təlim aldığın üçün ən üstün dəyərləri
ayırd edirsən; 19–20 əminsən ki, Qanunda
bilik və həqiqətin əsasını tapdığın üçün
korlara bələdçi, zülmətdə olanlara
işıq, ağılsızlara tərbiyəçi, uşaqlara
müəllimsən. 21 Bəs nə üçün başqalarını
öyrətdiyin halda özün öyrənmirsən?
Oğurlamamağı bəyan edərkən özün
oğurlayırsan? 22 «Zina etmə» dediyin
halda özün zina edirsən? Bütlərdən
iyrənərkən məbədləri soyursan?
23 Qanunla öyünməyinə baxmayaraq,
onu pozub Allahı hörmətdən salırsan.
24 [b]Axı belə yazılıb: «Sizin üzünüzdən
millətlər arasında Allahın adına küfr
edilir».
25 Sünnətin yalnız o zaman faydası var
ki, sən Qanuna əməl edəsən. Əgər sən
Qanunu pozursansa, sünnətli olduğun
halda sünnətsiz adam kimi olursan.
26 Eləcə də əgər sünnət olunmamış
adam Qanunun ədalətli tələblərinə
riayət edirsə, sünnət olunmamasına
baxmayaraq, sünnətli sayılır. 27 Onda
cismən sünnət olunmadığı halda
Qanuna əməl edən adam səni
mühakimə edəcək; sən ki yazılı Qanuna
və sünnətə malik olduğun halda Qanunu
pozursan. 28 Çünki zahirən Yəhudi olan
Yəhudi deyil, zahirən və cismən sünnət
olunan da sünnətli deyil. 29 [c]Yalnız
daxilən Yəhudi olan Yəhudidir. Sünnət

---

[z] **2:6** Zəb. 62:12; Sül. 24:12 [a] **2:11** Qanun. 10:17 [b] **2:24** Yeş. 52:5
[c] **2:29** Qanun. 30:6

də ürəyə aid olub, yazılı Qanuna görə
deyil, Ruhun işidir. Belə adamın tərifi
də insandan yox, Allahdan gələr.

Allahın sədaqəti

3 Bəs Yəhudi olmağın nə üstünlüyü
var? Sünnətin faydası nədir? 2 Hər
cəhətdən böyük üstünlüyü var. Hər
şeydən əvvəl, Allahın sözləri Yəhudilərə
əmanət edilib. 3 Əgər onlardan bəzisi
iman etmədisə, onda nə olacaq? Məgər
onların imansızlığı Allahın sədaqətini
ləğv edə bilər? 4 [d]Əsla! Bütün insanlar
yalançı olsa da, Allah haqlıdır. Necə ki
yazılıb:

«Sən Öz sözlərində haqlı çıxacaqsan,
Mühakimə etdiyin zaman qalib
gələcəksən».

5 Bəs bizim haqsızlığımız Allahın
ədalətli olduğunu üzə çıxarırsa, onda nə
deyə bilərik? İnsanların düşündüyü kimi
soruşuram: Allah üzərimizə qəzəbini
gətirən zaman haqsızdırmı? 6 Əsla,
haqlıdır! Bəs Allah dünyanı başqa
cür necə mühakimə edə bilər? 7 «Bəs
mənim yalanım Allahın həqiqətini
ucaldıb Ona izzət gətirirsə, nə üçün mən
üstəlik bir günahkar kimi mühakimə
olunmalıyam?» deyə soruşa bilərlər.
8 Belə isə, «gəlin pislik edək ki, bundan
yaxşılıq əmələ gəlsin» deyə bilərikmi?
Bəzi adamlar bizə böhtan atıb söyləyir
ki, biz belə öyrədirik. Belə söyləyənlər
haqlı olaraq cəza alacaq.

Saleh olan yoxdur

9 Bəs nə deyək? Biz Yəhudilərin
üstünlüyü varmı? Əlbəttə, yox! Çünki
biz artıq həm Yəhudiləri, həm də
Yunanları təqsirləndirdik ki, onların
hamısı günahın hökmü altındadır.
10 [e]Necə ki yazılıb:

«Saleh olan yoxdur,
Bir nəfər belə, yoxdur.
11 Dərk edən bir kəs yoxdur,
Allahı axtaran yoxdur.
12 Hamısı yoldan azıb,
Onlardan fayda yoxdur.
Bir nəfər də olsun
Yaxşı iş görən yoxdur».
13 [f]«Boğazları açıq qəbirdir,
Dilləri yalan danışır».
«Dodaqlarında gürzə zəhəri var».
14 [g]«Ağızları lənət və acı sözlərlə
doludur».
15 [h]«Ayaqları qan tökməyə tələsir,
16 Yollarında viranəlik və fəlakət var,
17 Əmin-amanlıq yolu nədir,
bilmirlər».
18 [i]«Onların gözündə Allah qorxusu
yoxdur».

19 Biz bilirik ki, Qanunda deyilənlərin
hamısı Qanunun hökmü altında olanlara
aiddir; belə ki bütün dillər sussun və
bütün dünya Allahın hökmünə məruz
qalsın. 20 [j]Beləliklə, Qanuna əməl
etməklə heç bir insan Allahın önündə
saleh sayılmayacaq. Çünki Qanun
vasitəsilə günah dərk olunur.

İman və salehlik

21 Amma indi Qanuna bağlı olmayaraq
Allahdan gələn salehlik zahir olub. Buna
Qanun da, Peyğəmbərlərin yazıları
da şəhadət edir. 22 [k]Allahdan gələn
bu salehlik İsa Məsihə iman vasitəsilə
Ona iman gətirənlərin hamısına verilir.
Heç kəsə fərq qoyulmur. 23 Çünki hamı
günah edib, Allahın izzətindən məhrum
olub 24 və Onun lütfü ilə də Məsih
İsada satın alınmağa nail olaraq bir
hədiyyə kimi saleh sayılır. 25 Allah
İsanı kəffarə qurbanı olaraq təqdim
etdi ki, iman edənlərin günahları Onun

---

[d]**3:4** Zəb. 51:4 [e]**3:10** Zəb. 14:1-3; 53:1-3 [f]**3:13** Zəb. 5:9; 140:3
[g]**3:14** Zəb. 10:7 [h]**3:15** Sül. 1:16; Yeş. 59:7-8 [i]**3:18** Zəb. 36:1
[j]**3:20** Zəb. 143:2; Qal. 2:16 [k]**3:22** Qal. 2:16

qanı vasitəsilə bağışlansın. Bunu Öz
salehliyini göstərmək üçün etdi. Çünki
səbirli olub qabaqca edilən günahları
cəzasız qoymuşdu. 26 Bunu etdi ki,
indiki zamanda salehliyini zahir etsin;
beləcə Özü ədalətli olsun, İsaya olan
imana əsaslananı da saleh saysın.
27 Bəs biz nə ilə öyünə bilərik? Heç bir
şeylə. Hansı ehkama əsaslana bilərik?
Qanuna əməl etmək ehkamınamı?
Xeyr, yalnız iman ehkamına! 28 Çünki
bu nəticəyə gəlirik ki, insan Qanuna
əməl etməklə deyil, iman vasitəsilə
saleh sayılır. 29 Məgər Allah yalnız
Yəhudilərin Allahıdır? Başqa millətlərin
də Allahı deyilmi? Əlbəttə, başqa
millətlərin də Allahıdır. 30 [l]Çünki yalnız
bir Allah var və O, sünnətliləri imanla,
sünnətsizləri də iman vasitəsilə saleh
sayacaq. 31 Onda biz iman vasitəsilə
Qanunu ləğv edirikmi? Əsla! Əksinə,
onu bir daha təsdiq edirik.

İbrahimin imanı

4 Bəs onda cismani əcdadımız İbrahim
haqqında nə deyə bilərik? O nə
əldə etdi? 2 Əgər İbrahim öz əməlləri
ilə saleh sayılsaydı, öyünməyə haqqı
olardı, amma Allahın önündə yox.
3 [m]Müqəddəs Yazı nə deyir?
«İbrahim Allaha iman etdi və bu
ona salehlik sayıldı».
4 Əməl edənin muzdu ona hədiyyə
sayılmaz, bu onun haqqıdır. 5 Lakin
əməl etməyib allahsız adamları saleh
sayan Allaha iman edən şəxsin imanı
ona salehlik sayılır. 6 Davud da o
adamın bəxtiyarlığından danışır ki,
Allah əməlinə baxmayıb onu saleh
sayır:
7 [n]«Üsyankarlığı bağışlanan,
Günahı əfv olunan insan
Nə bəxtiyardır!
8 Rəbb tərəfindən təqsirkar
sayılmayan insan
Nə bəxtiyardır!»
9 Məgər bu bəxtiyarlıq yalnız
sünnətlilərə məxsusdur, yoxsa
sünnətsizlərə də aiddir? Bəli, biz
deyirik ki, İbrahimin imanı ona salehlik
sayıldı. 10 Nə vəziyyətdə sayıldı?
Sünnət olunandan sonra, yoxsa sünnət
olunandan əvvəl? Sünnət olunandan
sonra deyil, sünnət olunandan əvvəl!
11 [o]O, sünnətsiz ikən imanla malik
olduğu salehliyi təsdiq edən möhür
olaraq sünnət əlamətini aldı. Beləcə
İbrahim sünnətsiz olaraq iman edən
hamının atası oldu ki, onlara da
imanları salehlik sayılsın. 12 Atamız
İbrahim həm də o sünnətli olanların
atası oldu ki, sadəcə sünnətli olmaqla
qalmayıb, onun sünnət edilməmişdən
əvvəl malik olduğu iman izi ilə gedirlər.
13 [p]Çünki İbrahimə və onun nəslinə
dünyanı irs almaq vədi Qanun vasitəsilə
deyil, imanla saleh sayılmaq vasitəsilə
verildi. 14 [q]Əgər Qanuna əsaslananlar
varis olsaydı, onda iman mənasız,
vəd də təsirsiz olardı. 15 Çünki qanun
Allahın qəzəbini üzə çıxarır. Amma
qanun olmayan yerdə onun pozulması
da olmur.
16–17 [r]Buna görə də vəd imanla həyata
keçir ki, Allahın lütfünə bağlı olsun
və İbrahimin bütün nəslini – yalnız
Qanuna deyil, İbrahimin malik olduğu
həmin imana da əsaslananları əhatə
etsin. İbrahim iman etdiyi Allahın –
ölülərə həyat verən, yoxluqdan varlıq
yaradan Allahın önündə hamımızın
atasıdır. Necə ki yazılıb: «Səni çoxlu
millətin atası etdim».

---

[l] **3:30** Qanun. 6:4; Qal. 3:20 [m] **4:3** Yar. 15:6; Qal. 3:6; Yaq. 2:23
[n] **4:7** Zəb. 32:1-2 [o] **4:11** Yar. 17:10 [p] **4:13** Yar. 17:4-6; 22:17-18; Qal. 3:29
[q] **4:14** Qal. 3:18 [r] **4:16-17** Yar. 17:5; Qal. 3:7

18 [s]Heç bir ümid olmadığı halda
İbrahim çoxlu millətin atası olacağına
ümidlə inandı. Çünki ona deyilmişdi
ki, «nəslin o qədər olacaq». 19 [t]Hətta
təxminən yüz yaşında ikən öz bədəninin
artıq ölüyə bənzədiyini, arvadı Saranın
da bətninin ölü olduğunu anladı,
amma* imanı azalmadı. 20 Allahın
vədinə imansızlıqla şübhə etmədi,
əksinə, imanında möhkəm durub Allahı
izzətləndirdi. 21 Tamamilə əmin idi ki,
Allah verdiyi vədi yerinə yetirməyə də
qadirdir. 22 Buna görə də imanı ona
salehlik sayıldı. 23 «Salehlik sayıldı»
sözləri yalnız İbrahim üçün yazılmayıb;
24 Rəbbimiz İsanı ölülər arasından
Dirildənə iman etməklə saleh sayılacaq
bizlər üçün də belə yazılmışdır. 25 [u]İsa
bizim təqsirlərimizə görə ölümə təslim
edildi və bizim saleh sayılmağımız üçün
dirildi.

Allahla barışmaq

5 Beləliklə, imanla saleh sayıldığımız
üçün Rəbbimiz İsa Məsih vasitəsilə
Allahla barışmış oluruq. 2 Elə Məsihin
vasitəsilə də daxilində qaldığımız lütfə
imanla nail olduq və Allahın izzətinə
ümid bağlamağımızla fəxr edirik.
3 Yalnız bununla deyil, çəkdiyimiz
əziyyətlərlə də fəxr edirik, çünki bilirik
ki, əziyyətdən dözüm, 4 dözümdən
Allaha xoş gəlmə, Allaha xoş gəlmədən
ümid yaranır. 5 Ümidimiz də boşa
çıxmır, çünki Allah məhəbbəti bizə
verilən Müqəddəs Ruh vasitəsilə
ürəklərimizə tökülüb.
6 Biz hələ gücsüz ikən Məsih müəyyən
zamanda allahsız adamların uğrunda
öldü. 7 Saleh bir adam uğrunda kiminsə
ölməsi çətin işdir; bəlkə də yaxşı
bir adam uğrunda kimsə ölməyə
cəsarət edər. 8 Lakin Allah bizə olan
məhəbbətini bununla sübut edir ki,
biz hələ günahkar ola-ola Məsih
bizim uğrumuzda öldü. 9 Beləcə Onun
qanı ilə indi saleh sayıldığımıza görə
Onun vasitəsilə də Allahın qəzəbindən
mütləq xilas olacağıq. 10 Əgər biz
Allahın düşməni olduğumuz vaxt
Onun Oğlunun ölməsi ilə Allahla
barışdıqsa, barışdıqdan sonra Onun
həyatı vasitəsilə daha qəti olaraq xilas
olacağıq. 11 Yalnız bununla deyil,
Rəbbimiz İsa Məsih vasitəsilə Allahla
da fəxr edirik ki, indi Onun vasitəsilə
Allahla barışığa nail olmuşuq.

Adəm və Məsih

12 [v]Beləliklə, günah bir insan
vasitəsilə, ölüm də günah vasitəsilə
bu dünyaya gəldi. Beləcə ölüm
bütün insanlara yayıldı, çünki hamı
günah etdi. 13 Qanundan əvvəl də
dünyada günah var idi. Amma qanun
olmayanda günah hesaba alınmır.
14 Lakin Adəmdən Musaya qədər ölüm
hamıya, hətta Adəmin əmri pozmasına
bənzər bir günah etməyənlərə də
hökmranlıq etdi. Adəm o gələcək
İnsanın† əvvəlcədən göstərilən təsviri
idi.
15 Amma Allahın ənamı təqsir kimi
deyil. Çünki bir adamın təqsiri üzündən
çox adam öldüsə də, Allahın lütfü və
bir Adamın, yəni İsa Məsihin lütfü ilə
verilən ənam bir çoxları üçün daha
böyük təsir göstərdi. 16 Allahın ənamı
həmin bir adamın günahının nəticəsi
kimi deyil: bir günahdan sonra gələn
hökm məhkumluq gətirdi, amma çoxlu
təqsirdən sonra gələn ənam salehlik

---

*4:19 *Bənzədiyini … ölü olduğunu anladı, amma* – bəzi əlyazmalarda *bənzədiyinə … ölü olduğuna məhəl qoymayaraq.*
†5:14 *Gələcək İnsan* – yəni İsa Məsih.

[s]4:18 Yar. 15:5 [t]4:19 Yar. 17:17 [u]4:25 Yeş. 53:4-5 [v]5:12 Yar. 3:6

gətirdi. 17 Əgər bir adamın təqsiri
üzündən ölüm həmin adamın vasitəsilə
hökmranlıq etdisə, Allahın bol lütfünü
və salehlik ənamını qəbul edənlər bir
Adam, yəni İsa Məsih vasitəsilə daha
qəti olaraq həyatda hökmranlıq edəcək.
18 Deməli, necə ki bir təqsir üzündən
bütün adamlar məhkum olundu, eləcə
də bir saleh əmələ görə bütün adamlara
yaşamaq üçün salehlik verildi. 19 Necə
ki bir adamın itaətsizliyi üzündən bir
çoxları günahkar sayıldı, eləcə də bir
Adamın itaəti sayəsində bir çoxları saleh
sayılacaq. 20 Qanunun meydana gəlməsi
təqsirin çoxalmasına səbəb oldu. Lakin
günah çoxalan yerdə Allahın lütfü daha
da çoxaldı. 21 Nəticədə günah ölüm
vasitəsilə hökmranlıq etdiyi kimi lütf də
salehlik vasitəsilə hökmranlıq edir; belə
ki lütf Rəbbimiz İsa Məsihin vasitəsilə
əbədi həyat versin.

Məsihlə ölüb-dirilmə

6 Bəs nə deyə bilərik? Günah işlətməyi
davam etdirək ki, Allahın lütfü
çoxalsın? 2 Əsla! İndi ki biz günaha
münasibətdə ölmüşük, artıq günah
içində necə yaşaya bilərik? 3 Məgər
bilmirsiniz ki, biz hamımız Məsih İsa ilə
birləşmək üçün vəftiz olunarkən həmin
vəftizlə Onun ölümü ilə birləşdik?
4 [w]Deməli, vəftiz olunub Onun ölümü
ilə birləşməklə biz də Onunla birgə dəfn
olunduq; belə ki Atanın izzəti ilə Məsih
ölülər arasından dirildiyi kimi biz də
həmin cür yeni həyat sürək.
5 Əgər Onun ölümünə bənzər
ölümdə Onunla bir olmuşuqsa, Onun
dirilməsinə bənzər dirilmədə də Onunla
bir olacağıq. 6 Bunu bilirik ki, günahlı
bədənin aradan qaldırılması üçün,
daha günaha qul olmayaq deyə köhnə
mənliyimiz Onunla birlikdə çarmıxa
çəkildi. 7 Çünki ölmüş adam günahdan
azad olub.
8 Əgər Məsihlə ölmüşüksə, Onunla
yaşayacağımıza da inanırıq. 9 Çünki
bilirik ki, Məsih ölülər arasından
dirildiyinə görə bir daha ölməyəcək
və ölüm Ona artıq hökmranlıq etməz.
10 Onun ölümü günahın müqabilində
ilk və son ölüm oldu, yaşadığı həyatı
isə Allah üçün yaşayır. 11 Beləcə siz də
özünüzü Məsih İsada olaraq günaha
münasibətdə ölü, Allaha münasibətdə
isə diri sayın.
12 Ona görə də qoymayın ki, günah
sizin fani bədəninizə hökmranlıq etsin
və siz də bədəninizin ehtiraslarına
itaət edəsiniz. 13 Bədəninizin üzvlərini
də haqsızlıq aləti olmaq üçün günaha
təslim etməyin; əksinə, özünüzü ölülər
arasından dirilənlər kimi Allaha,
bədəninizin üzvlərini də salehlik aləti
olmaq üçün yenə Allaha təslim edin.
14 Günah sizə hökmranlıq etməyəcək,
ona görə ki siz Qanun altında deyil, lütf
altındasınız.

Salehliyə itaət

15 İndi nə edək? Qanun altında deyil,
lütf altında olduğumuz üçün günah
edəkmi? Əsla! 16 Məgər bilmirsiniz ki,
itaətli qullar kimi özünüzü kimə təslim
etsəniz, onun da qullarısınız? Ya ölümə
aparan günahın ya da salehliyə aparan
itaətin qulları ola bilərsiniz. 17 Amma
Allaha şükür olsun ki, əvvəllər günahın
qulları olduğunuz halda özünüzü həsr
etdiyiniz təlimin nümunəsinə ürəkdən
itaət etdiniz. 18 Beləcə günahdan azad
olub salehliyin qulu oldunuz.
19 Cismani təbiətinizin zəifliyi
üzündən insanların düşündüyü kimi
danışıram. Necə əvvəllər üzvlərinizi
murdarlığa və Qanunu pozmaq
üçün qanunsuzluğa qul kimi təslim

---

[w]**6:4** Kol. 2:12

etmişdiniz, eləcə də indi üzvlərinizi
müqəddəs olmaq üçün salehliyə
qul kimi təslim edin. 20 Çünki siz
günahın qulları olanda salehliyə əməl
etməkdən azad idiniz. 21 Bəs o zaman
nə bəhrə götürdünüz? İndi artıq o
şeylərdən utanırsınız. Axı onların axırı
ölümdür. 22 Amma indi günahdan
azad edilib Allaha qul olduğunuz üçün
götürdüyünüz bəhrə sizi müqəddəsliyə
aparır və bunun axırı da əbədi həyatdır.
23 Çünki günahın əvəzi ölümdür, Allahın
ənamı isə Rəbbimiz Məsih İsada olan
əbədi həyatdır.

Qanundan azad olmaq

7 Ey qardaşlar, bunu Qanunu
bilənlərə söyləyirəm, məgər
bilmirsiniz ki, insan yalnız sağ ikən
qanun onun üzərində hökmə malikdir?
2 Məsələn, ərli qadın qanunla ərinə o
vaxtacan bağlıdır ki, əri sağdır; amma
əri öldükdə qadın nikah qanunundan
azad olur. 3 Buna görə də əgər qadın əri
sağ ikən başqa bir kişiyə ərə gedirsə,
zinakar sayılır. Amma əri ölsə, qadın
qanundan azad olur və başqa bir kişiyə
ərə getdikdə zinakar olmur.
4 Eləcə də, qardaşlarım, siz də Məsihin
bədəni vasitəsilə Qanuna münasibətdə
ölmüsünüz ki, başqasına, yəni ölülər
arasından dirilmiş Məsihə məxsus
olasınız; belə ki Allah üçün bəhrə
verək. 5 Çünki biz cismani təbiətə görə
yaşayarkən günahın Qanun vasitəsilə
gələn həvəsləri üzvlərimizdə fəal idi.
Buna görə də biz ölüm üçün bəhrə
verirdik. 6 Amma indi əvvəlcə əsiri
olduğumuz Qanuna münasibətdə ölüb,
ondan azad olduq. Nəticədə yazılı
Qanunun köhnə yolunda deyil, Ruhun
yeni yolunda qulluq edirik.

Günahla mübarizə

7 [x]Bəs nə deyə bilərik? Qanun
günahdırmı? Əsla! Qanun olmasaydı,
günahın nə olduğunu bilməzdim. Əgər
Qanun «tamah salma» deməsəydi,
tamahın nə olduğunu anlamazdım.
8 Lakin günah bu əmrin vasitəsilə
fürsət tapıb məndə hər növ tamah
əmələ gətirdi; çünki Qanun olmasa,
günah ölüdür. 9 Bir vaxt Qanun məndə
yox ikən mən sağ idim, amma o əmr
mənə gələndə günah dirildi, 10 mənsə
öldüm. Beləcə anladım ki, mənə həyat
verməli olan bu əmr mənə ölüm gətirdi.
11 [y]Çünki günah o əmrin vasitəsilə
fürsət tapıb məni azdırdı və onunla
məni öldürdü. 12 Buna görə də Qanun
müqəddəsdir, əmr də müqəddəs,
ədalətli və yaxşıdır.
13 Belə çıxır ki, yaxşı olan bir şey mənə
ölüm gətirdi? Əsla! Məhz günah, günah
olduğu aşkar olsun deyə yaxşı olan bir
şeyin vasitəsilə mənə ölüm gətirirdi;
belə ki günah əmrin vasitəsilə hədsiz
günahlı olduğunu göstərsin. 14 Biz bilirik
ki, Qanun ruhanidir, mənsə cismani
olub qul kimi günaha satılmışam.
15 Çünki nə iş gördüyümü anlamıram;
istədiyimi deyil, nifrət etdiyim şeyi
edirəm. 16 Əgər istəmədiyimi edirəmsə,
onda təsdiq edirəm ki, Qanun yaxşıdır.
17 Elə isə artıq mən deyil, daxilimdə
yaşayan günah bu işi görür. 18 Bilirəm
ki, daxilimdə, yəni cismani təbiətimdə
yaxşı bir şey yaşamır; çünki yaxşı
şey etmək istəyi məndə var, amma
onu yerinə yetirməyə qadir deyiləm.
19 İstədiyim yaxşı şeyi etmirəm, amma
istəmədiyim pis şeyi edirəm. 20 Əgər
istəmədiyim şeyi edirəmsə, onda artıq
mən deyil, daxilimdə yaşayan günah bu
işi görür.

---

[x]**7:7** Çıx. 20:17; Qanun. 5:21 [y]**7:11** Yar. 3:13

21 Beləcə bu nəticəyə gəlirəm ki,
yaxşılıq etmək istərkən məndə pislik
üzə çıxır. 22 Bir yandan daxili varlığım
Allahın qanunundan zövq alır. 23 Amma
üzvlərimdə başqa bir qanun da görürəm
ki, ağlımın təsdiq etdiyi Qanunla
mübarizə aparır və üzvlərimdə olan
günah qanununa məni əsir edir. 24 Necə
də yazıq insanam! Ölümə düçar olan
bu bədəndən məni kim xilas edə bilər?
25 Rəbbimiz İsa Məsihin vasitəsilə
Allaha şükür olsun! Beləcə mən ağlımla
Allahın qanununa, cismani təbiətimlə
isə günah qanununa qulluq edirəm.

Həyat verən Ruh

8 Deməli, indi Məsih İsada olanlara*
heç bir məhkumluq yoxdur. 2 Çünki
həyat verən Ruhun qanunu səni
günah və ölüm qanunundan Məsih İsa
vasitəsilə azad etdi. 3 Beləcə cismani
təbiət üzündən gücsüz olan Qanunun
edə bilmədiyini Allah etdi: Öz Oğlunu
günahlı cismin bənzərində günah
qurbanı olaraq göndərib günahı Onun
cismi ilə məhkum etdi ki, 4 Qanunun
ədalətli tələbləri artıq cismani təbiətə
görə yox, Ruha görə həyat sürən
bizlərdə yerinə yetsin. 5 Cismani təbiətə
görə yaşayanlar cismani şeylər barədə
düşünür, Ruha görə yaşayanlar isə
Ruhla bağlı şeylər barədə düşünür.
6 Cismani təbiətə uyan fikirlər ölüm,
Ruha uyan fikirlərsə həyat və sülh
gətirir. 7 Çünki cismani təbiətə uyan
fikirlər Allaha qarşı düşmənçilik edir;
belə ki bunlar Allahın qanununa tabe
deyil və ola da bilməz. 8 Həmçinin
cismani təbiətdə olanlar Allahı razı sala
bilməz.
9 Lakin Allahın Ruhu sizdə yaşayırsa,
siz cismani təbiətdə deyil, Ruhdasınız.
Kimdə Məsihin Ruhu yoxdursa, o adam
Məsihə məxsus deyil. 10 Əgər Məsih
sizdədirsə, bədəniniz günah səbəbindən
ölü, ruhunuzsa salehlik səbəbindən
diridir. 11 [z]Əgər İsanı ölülər arasından
Dirildənin Ruhu sizdə yaşayırsa, Məsihi
ölülər arasından Dirildən, sizdə yaşayan
Ruhu ilə sizin də fani bədənlərinizə
həyat verəcək.
12 Beləliklə, ey qardaşlar, biz cismani
təbiətimizə borclu deyilik ki, ona
görə yaşayaq. 13 Çünki cismani təbiətə
görə yaşayırsınızsa, öləcəksiniz, amma
bədənin pis əməllərini Ruhun vasitəsilə
öldürürsünüzsə, yaşayacaqsınız.
14 Allahın Ruhu ilə yönəldilənlərin
hamısı Allahın oğullarıdır. 15 [a]Axı siz
kölelik ruhunu almadınız ki, yenə
də qorxu içində yaşayasınız; övladlıq
Ruhunu aldınız. Elə o Ruhun vasitəsilə
Allaha «Abba, Ata» deyə nida edirik.
16 Elə Ruh Özü bizim ruhumuzla birgə
şəhadət edir ki, biz Allahın övladlarıyıq.
17 Əgər Onun övladlarıyıqsa, deməli,
həm də varisləriyik. Əgər Məsihin
izzətinə şərik olmaq üçün Onun çəkdiyi
əzablara şərik oluruqsa, Allahın varisləri
və Məsihin irs şəriki oluruq.

İzzətli gələcəyimiz

18 Belə düşünürəm ki, çəkdiyimiz
indiki əzablar bizə zahir olacaq izzətlə
heç müqayisəyə gəlməz. 19 Yaradılış
Allahın oğullarının zahir olmasını
böyük həsrətlə gözləyir. 20 [b]Çünki
yaradılış öz iradəsi ilə deyil, onu
Təslim Edənin iradəsi ilə puçluğa
təslim edildi. Amma ümidvardır ki,
21 yaradılış özü də çürüməyə əsir
olmaqdan xilas olub, Allah övladlarının
izzətli azadlığına qovuşacaq. 22 Çünki
bilirik ki, bütün yaradılış indiyəcən

---

*8:1 *Məsih İsada olanlara* – bəzi əlyazmalarda *Məsih İsada olub cismani təbiətə görə yox, Ruha görə rəftar edənlərə* (Rom. 8:4).

[z]**8:11** 1Kor. 3:16 [a]**8:15** Mark 14:36; Qal. 4:5-7 [b]**8:20** Yar. 3:17-19

birlikdə inildəyib doğuş ağrısı çəkir.
23 [c]Ancaq təkcə yaradılış yox, Ruhun
nübarını alan biz özümüz də övladlığa
qəbul olunmağımızı, yəni bədənimizin
satın alınmasını gözləyərək içimizdə
inildəyirik. 24 Çünki biz ümidlə xilas
olduq. Amma gözə görünən ümid ümid
deyil. Axı kim gördüyü şeyə ümid
edər? 25 Amma görmədiyimiz şeyə ümid
edəndə onu səbirlə gözləyirik. 26 Beləcə
Ruh da bizə zəif olarkən kömək edir.
Biz nə üçün və necə dua etmək lazım
olduğunu bilmirik, lakin Ruh Özü dillə
deyilməyən ahlarla vəsatətçilik edir.
27 Ürəkləri sınayan Allah da Ruhun nə
düşündüyünü bilir, çünki Ruh Allahın
iradəsinə görə müqəddəslər üçün
vəsatətçilik edir.
28 Biz bilirik ki, hər şey birlikdə
Allahı* sevənlərin, Onun məqsədinə
görə çağırılanların xeyrinə işləyir.
29 Çünki Allah qabaqcadan tanıdığı
adamları Öz Oğlunun surətinə
uyğunlaşmaq üçün əvvəlcədən təyin
etdi ki, O, çoxlu qardaş arasında ilk
doğulan olsun; 30 əvvəlcədən təyin
etdiyi adamları da çağırdı; çağırdığı
adamları da saleh saydı; saleh saydığı
adamları da izzətləndirdi.

Məsihin məhəbbətindən bizi kim ayıra bilər?

31 Bəs bunlar barədə nə deyə bilərik?
Əgər Allah bizimlədirsə, kim bizə
qarşı dura bilər? 32 O Öz Oğlunu belə,
əsirgəməyib Onu hamımızın uğrunda
ölümə təslim etdisə, Onunla birgə
bütün şeyləri də bizə lütf etməyəcəkmi?
33 Allahın seçdiyi adamları kim
ittiham edə bilər? Onları saleh sayan
Allahdır! 34 Məhkum edən kimdir?
Ölmüş, üstəlik dirilmiş Məsih İsa həm
Allahın sağındadır, həm də bizim
üçün vəsatətçilik edir. 35 Məsihin
məhəbbətindən bizi kim ayıra bilər?
Əziyyətmi, sıxıntımı, təqibmi, aclıqmı,
çılpaqlıqmı, təhlükəmi, qılıncmı?
36 [d]Necə ki yazılıb:

«Biz gün boyu Sənin uğrunda
öldürülürük,
Qurbanlıq qoyunlar sayılırıq».

37 Lakin bizi Sevənin vasitəsilə bütün
bunlarda tam qələbə qazanırıq. 38 Çünki
əminəm ki, nə ölüm, nə həyat, nə
mələklər, nə başçılar, nə indiki, nə
də gələcək şeylər, nə qüvvələr, 39 nə
ucalıq, nə dərinlik, nə də başqa bir
məxluq bizi Rəbbimiz Məsih İsada olan
Allah məhəbbətindən ayırmağa qadir
olmayacaq.

Allahın İsraili seçməsi

9 Məsihdə həqiqəti söyləyirəm, yalan
danışmıram, vicdanım dediklərimi
Müqəddəs Ruhda təsdiq edir ki,
2 ürəyimdə böyük bir kədər, daimi bir
iztirab var. 3 [e]Çünki qardaşlarımın,
yəni cismani soydaşlarımın xatirinə
mən özüm Məsihdən uzaqlaşıb
lənət qazanmağımı istərdim; 4 bu,
İsraillilərdir ki, övladlığa götürülmə,
izzət, əhdlər, Qanunun verilməsi, məbəd
ibadəti və vədlər onlara məxsusdur.
5 Əcdadlar† da onlara məxsusdur, Məsih
də cismən onlardandır; O hər şeyin
üzərində olan Allahdır ki, Ona əbədi
alqış olsun! Amin.
6 Lakin bu o demək deyil ki, Allahın
kəlamı boşa çıxıb. Çünki İsraildən
törəyənlərin heç də hamısı İsrailə
məxsus deyil. 7 [f]İbrahimin nəslindən
olanların heç də hamısı İbrahimin

*8:28 *Hər şey birlikdə Allahı* – bəzi əlyazmalarda *Allah hər şeydə birlikdə Onu.*
†9:5 *Əcdadlar* – yəni İsrail xalqının ata-babaları.

[c]8:23 1Kor. 15:35-54; 2Kor. 5:2-4 [d]8:36 Zəb. 44:22
[e]9:3 Çıx. 4:22; 24:1-17 [f]9:7 Yar. 21:12; İbr. 11:18

övladları deyil. Amma «İshaqdan
törəyənlər sənin nəslin adlanacaq»
deyilib. 8 Bu o deməkdir ki, Allahın
övladları cismani övladlar deyil, Allahın
vədinə görə doğulan övladlardır ki,
bunlar İbrahimin nəsli sayılır. 9 [g]Çünki
belə vəd verilmişdi: «Gələn il bu vaxt
gələcəyəm və Saranın bir oğlu olacaq».
10 Yalnız bu yox, Rivqa da bir kişidən,
yəni babamız İshaqdan hamilə oldu.
11–12 [h]Amma iki oğlu hələ anadan
olmamış və yaxşılıq ya pislik etməmiş
ikən Allah Rivqaya «böyüyü kiçiyinə
qulluq edəcək» dedi; belə ki Allahın
seçim məqsədi onların əməllərinə deyil,
Öz çağırışına əsaslanaraq bərqərar
olsun. 13 [i]Necə ki yazılıb: «Yaqubu
sevdim, Esava isə nifrət etdim».

14 Bəs indi nə deyə bilərik? Məgər
Allah ədalətsizlik edir? Əsla! 15 [j]Çünki O,
Musaya deyir: «Kimə istəsəm, mərhəmət
edərəm, kimə istəsəm, rəhm edərəm».
16 Beləliklə, seçim insanın istəyindən
yaxud səyindən deyil, yalnız mərhəmət
edən Allahdan asılıdır. 17 [k]Ona görə də
Müqəddəs Yazıda Allah firona deyir:
«Səni buna görə ucaltdım ki, Öz gücümü
sənin üzərində göstərim və adım bütün
dünyaya elan edilsin». 18 Deməli, Allah
kimə istəyirsə, mərhəmət edir, kimi
istəyirsə, inadkar edir.

Allahın qəzəbi və mərhəməti

19 İndi sən mənə deyə bilərsən:
«Bəs Allah daha nə üçün bizi
təqsirkar çıxarır? Məgər kimsə Onun
iradəsinin əleyhinə gedə bilər?»
20 [l]Amma, ey insan, sən kimsən ki,
Allahla mübahisəyə girişirsən? Məgər
düzəldilən bir şey onu düzəldənə
«Məni niyə bu cür yaratdın?» deyə
bilər? 21 Məgər dulusçunun işlətdiyi
gilə ixtiyarı çatmır ki, həmin gildən
bir qabı şərəfli iş üçün, o biri qabı
isə şərəfsiz iş üçün düzəltsin? 22 Əgər
Allah qəzəbini göstərmək və qüdrətini
bildirmək istəyərək qəzəbinə gəlib məhv
olmağa hazırlanmış qablara böyük
səbirlə dözdüsə, biz nə deyə bilərik?
23 Məgər O bunu etdi ki, qabaqcadan
izzət üçün hazırladığı mərhəmət tapan
qablara izzətinin necə zəngin olduğunu
bildirsin? 24 O qablar bizik ki, Allah
yalnız Yəhudilər arasından deyil, həm
də başqa millətlər arasından çağırdı.
25 [m]Necə ki Huşənin kitabında deyilir:

«“Xalqım deyil” dediyimə
“Xalqımsan” deyəcəyəm,
“Sevdiyim deyil” dediyimə
“Sevdiyimsən” deyəcəyəm».
26 [n]«Onlara “siz Mənim xalqım
deyilsiniz” deyilən yerdə “siz
var olan Allahın övladlarısınız”
deyiləcək».

27 [o]Yeşaya da İsrail barədə belə nida
edir:

«İsrail övladlarının sayı dəniz qumu
qədər çox olsa belə,
Ancaq sağ qalanları xilas olacaq.
28 Çünki Rəbb yer üzündə hökmünü
Tam və tez yerinə yetirəcək».*

29 [p]Yeşayanın qabaqcadan söylədiyi
kimi:

«Əgər Ordular Rəbbi
Bizim xalqdan bir neçə
Sağ qalan adam qoymasaydı,
Biz Sodom kimi olardıq,
Homorraya bənzəyərdik».

---

*__9:28__ *Rəbb yer üzündə hökmünü Tam və tez yerinə yetirəcək* – bəzi əlyazmalarda *Rəbb hökmünü ədalətlə, Tam və tez yerinə yetirəcək, Yer üzündə tez bitən bir iş görəcək.*

[g]**9:9** Yar. 18:10 [h]**9:11-12** Yar. 25:23 [i]**9:13** Mal. 1:2-3 [j]**9:15** Çıx. 33:19
[k]**9:17** Çıx. 9:16 [l]**9:20** Yeş. 29:16; 45:9 [m]**9:25** Huşə 2:23
[n]**9:26** Huşə 1:10 [o]**9:27** Yeş. 10:22-23 [p]**9:29** Yeş. 1:9

İsrailin imansızlığı

30 Bəs nə deyə bilərik? Salehliyin
ardınca getməyən başqa millətlər
salehliyi, yəni imanla gələn salehliyi
əldə etdilər. 31 Amma salehlik göstərən
Qanunun ardınca gedən İsrail xalqı
bu Qanuna çata bilmədi. 32 [q]Nə üçün?
Çünki imanla yox, əməllərlə* gedirdilər.
Beləcə büdrəmə daşına ilişdilər. 33 [r]Necə
ki yazılıb:

«Budur, Sionda bir büdrəmə daşı və
yıxma qayası qoyuram.
Ona iman edən kəs utandırılmaz».

10 Ey qardaşlar, İsraillilərin xilasını
ürəkdən arzulayıram və bunun
üçün Allaha dua edirəm. 2 Onların
barəsində şəhadət edirəm ki, Allah
naminə qeyrət çəkirlər, amma bu
qeyrət biliyə əsaslanmır. 3 Çünki onlar
Allahdan gələn salehliyi anlamayıb
öz salehliklərini bərqərar etməyə
çalışmaqla Allahın salehliyinə tabe
olmadılar. 4 Məsih Qanunun sonu olub
ki, iman gətirən hər kəs saleh sayılsın.

Hamı üçün xilas

5 [s]Musa Qanunla gələn salehlik
haqqında belə yazır: «Bu şeyləri yerinə
yetirən adam bunların sayəsində
yaşayacaq». 6 [t]Amma imanla gələn
salehlik barədə belə deyilir: «Ürəyində
demə ki, “Kim göylərə, yəni Məsihi
endirməyə çıxacaq?” 7 ya da “Kim dibsiz
dərinliyə, yəni Məsihi ölülər arasından
qaldırmağa enəcək?”» 8 Bəs onda nə
deyilir? «Kəlam sənə çox yaxındır, o
sənin dilində və ürəyindədir». Biz elə
həmin iman kəlamını vəz edirik: 9 əgər
sən İsanın Rəbb olduğunu dilinlə iqrar
edib Allahın Onu ölülər arasından
diriltdiyinə ürəkdən inansan, xilas
olacaqsan. 10 Çünki insan ürəkdən
iman etməklə saleh sayılır və dili
ilə iqrar etməklə xilas olur. 11 [u]Belə
ki Müqəddəs Yazıda deyilir: «Ona
iman edən hər kəs utandırılmayacaq».
12 Burada Yəhudi ilə Yunan arasında
fərq yoxdur, hamısının Rəbbi birdir və
Onu çağıranların hamısına bol bərəkət
verir. 13 [v]Çünki «Rəbbin adını çağıran
hər kəs xilas olacaq». 14 Bəs onlar iman
etmədikləri Şəxsi necə çağıracaqlar?
Barəsində eşitmədikləri Şəxsə necə
iman edəcəklər? Vəz edən olmasa, necə
eşidəcəklər? 15 [w]Göndərilməsələr, necə
vəz edəcəklər? Necə ki yazılıb: «Xoş
xəbəri müjdələyənin qədəmləri necə
də gözəldir!» 16 [x]Amma Müjdəyə hamı
qulaq asmadı. Çünki Yeşaya deyir:
«Ya Rəbb, xəbərimizə kim inandı?»
17 Beləliklə, iman eşitməkdən, eşitmək
də Məsihin kəlamı vasitəsilə yaranır.
18 [y]Lakin soruşuram: məgər onlar
eşitmədilər? Əlbəttə ki, eşitdilər:

«Avazları bütün dünyaya yayıldı,
Sözləri yerin ucqarlarına çatdı».

19 [z]Bir də soruşuram: məgər İsrail
anlamadı? Musa ilk olaraq deyir:

«Mən sizi xalq olmayanlarla
qısqandıracağam,
Axmaq bir millətlə
qəzəbləndirəcəyəm».

20 [a]Yeşaya isə cəsarətlə deyir:

«Rəbb deyir:
“Məni axtarmayanlar tərəfindən
tapıldım,
Məni soruşmayanlara Mən zühur
etdim”».

21 İsrail barədə isə belə deyir:

«Gün boyu itaətsiz, dikbaş xalqa
əllərimi uzadıb durdum».

---

*__9:32__ *Əməllərlə* – bəzi əlyazmalarda *Qanuna əməl etməklə.*

[q]**9:32** Yeş. 8:14 [r]**9:33** Yeş. 28:16; 1Pet. 2:6-8 [s]**10:5** Lev. 18:5 [t]**10:6** Qanun. 30:12-14 [u]**10:11** Yeş. 28:16 [v]**10:13** Yoel 2:32 [w]**10:15** Yeş. 52:7 [x]**10:16** Yeş. 53:1 [y]**10:18** Zəb. 19:4 [z]**10:19** Qanun. 32:21 [a]**10:20** Yeş. 65:1-2

Allahın seçdiyi xalq

11 [b]Beləliklə, soruşuram: məgər
Allah Öz xalqını rədd etdi?
Əsla! Çünki mən özüm də İbrahim
nəslindən, Binyamin qəbiləsindən olan
bir İsrailliyəm. 2 Allah qabaqcadan
tanıdığı Öz xalqını rədd etmədi. Məgər
siz bilmirsiniz ki, Müqəddəs Yazıda
İlyas barədə nə deyilir? İlyas İsraildən
Allaha şikayət edib deyir: 3 [c]«Ya Rəbb!
Sənin peyğəmbərlərini öldürdülər,
qurbangahlarını dağıtdılar. Təkcə mən
qaldım, onlar canımı almaq üçün məni
də axtarırlar». 4 [d]Bəs Allahdan ona hansı
cavab gəldi? «Mən Özüm üçün Baal
qarşısında diz çökməmiş yeddi min
adamı saxlamışam».
5 Beləcə indi də Allahın lütfü ilə
seçilmiş sağ qalanlar var. 6 Əgər bu,
lütflə oldusa, daha əməllərlə deyil;
yoxsa lütf daha lütf olmaz.*
7 Onda nə deyə bilərik? İsrail
axtardığını əldə etmədi, seçilmişlər
əldə etdilər; digərləri isə inadkar oldu.
8 [e]Necə ki yazılıb:
«Allah onları dərin yuxuya saldı,
Onlara bu günədək görməyən gözlər,
Eşitməyən qulaqlar verdi».
9 [f]Davud da belə deyir:
«Süfrələri onlara tələ, tor,
Büdrəmə daşı və cəza olsun.
10 Gözlərinə qara gəlsin, görməsinlər,
Belləri həmişə bükülü qalsın!»

Başqa millətlərin xilası

11 Beləliklə, soruşuram: məgər
İsraillilər bir daha ayağa qalxmamaq
üçün büdrəyib-yıxıldılar? Əsla! Amma
onların təqsiri başqa millətlərin xilasına
səbəb oldu ki, İsraillilərdə qibtə hissi
oyandırsın. 12 Əgər onların təqsiri
dünyaya zənginlik, onların qüsuru da
başqa millətlərə zənginlik gətirdisə, gör
onların bütövlüyü necə böyük zənginlik
gətirəcək.
13 Lakin, ey başqa millətlər, sizə
bildirirəm: mən başqa millətlərə
göndərilən həvari olduğuma görə öz
xidmətimi izzətli sayıram ki, 14 bəlkə
soydaşlarımda qibtə hissi oyandırıb
bəzilərini xilas edə bilim. 15 Çünki
onların rədd edilməsi dünyanın Allahla
barışması deməkdirsə, onların qəbul
edilməsi ölülər arasından həyata
dönmək deyilmi? 16 Əgər xəmirin
ilk hissəsi müqəddəsdirsə, demək,
xəmirin hamısı müqəddəsdir; əgər
kök müqəddəsdirsə, budaqlar da
müqəddəsdir.
17 Amma bəzi budaqlar qoparılıbsa
və sən, ey yabanı zeytun ağacı, onların
arasında peyvənd olunub zeytun
ağacının barlı kökünə† şərik olmusansa,
18 o budaqların qabağında öyünmə;
öyünsən, bil ki, sən kökü deyil, kök
səni daşıyır. 19 O zaman deyəcəksən:
budaqlar qoparıldı ki, mən onların
yerinə peyvənd olunum. 20 Doğrudur;
onlar imansızlıqlarına görə qoparıldı,
amma sən imanına görə yerində
durursan. Buna görə təkəbbürlü olma,
əksinə, qorx! 21 Çünki Allah təbii
budaqlara rəhm etmədisə, bəlkə‡ sənə
də rəhm etməyəcək. 22 Sən gör ki,
Allah eyni zamanda həm xeyirxahdır,
həm də sərt: yıxılanlara sərtlik, sənə
isə, əgər Onun xeyirxahlığına bağlı

*11:6 *Lütf olmaz* – bəzi əlyazmalarda *lütf olmaz. Amma əgər əməllərlə oldusa, daha lütflə deyil; yoxsa əməl daha əməl olmaz.*
†11:17 *Barlı kökünə* – bəzi əlyazmalarda *kökünə və şirəsinə.*
‡11:21 *Bəlkə* – bəzi əlyazmalarda bu söz yoxdur.

[b]**11:1** Fil. 3:5 [c]**11:3** 1Pad. 19:10,14 [d]**11:4** 1Pad. 19:18
[e]**11:8** Qanun. 29:4; Yeş. 29:10 [f]**11:9** Zəb. 69:22-23

qalarsansa, xeyirxahlıq göstərər. Əks
təqdirdə sən də kəsilib atılacaqsan.
23 Əgər imansızlıqda qalmasalar, onlar
da peyvənd olunacaqlar, çünki Allah
onları yenə də peyvənd etməyə qadirdir.
24 Əgər sən təbiətən yabanı olan zeytun
ağacından kəsilib, təbiətinə uyğun
olmadan yetişdirilən zeytun ağacına
peyvənd edildinsə, bu təbii budaqlar
öz zeytun ağacına necə də asanlıqla
peyvənd olunacaq!

Bütün İsrail xilas olacaq

25 Ey qardaşlar, özünüzü ağıllı
saymayasınız deyə bu sirdən bixəbər
olmağınızı istəmirəm: İsrailin bəzisi
o vaxta qədər inadkar qalacaq ki,
başqa millətlərdən xilas olanların sayı
tamamlansın. 26 [g]Beləcə bütün İsrail
xilas olacaq. Necə ki yazılıb:

«Qurtarıcı Siondan gələcək,
Yaqub nəslindən allahsızlığı
uzaqlaşdıracaq».
27 «Günahlarını aradan qaldırdığım
zaman
Mənim onlarla bağladığım Əhd
budur».

28 Müjdə məsələsində İsraillilər sizin
üçün Allaha düşməndir, amma Allah
onları seçdiyinə görə əcdadlarının
xatirinə Onun üçün sevimlidir. 29 Çünki
Allahın ənamları və dəvəti geri alınmaz.
30 Siz bir zamanlar Allaha itaətsiz idiniz
və indi onların itaətsizliyi üzündən
mərhəmət tapdınız; 31 eləcə də sizin
tapdığınız mərhəmətdən ötrü onlar
indi itaətsiz oldular ki, özləri də indi
mərhəmət tapsınlar. 32 Çünki Allah
hamını itaətsizliyə əsir edib ki, hamıya
mərhəmət göstərsin.

Allaha həmd

33 Allahın zənginliyi nə böyük,

Hikməti və biliyi nə dərindir!
Onun hökmləri necə də ağlasığmaz,
Yolları necə də anlaşılmazdır!
34 [h]«Rəbbin ağlını kim dərk etdi?
Ona kim məsləhətçi oldu?»
35 [i]«Kim Ona bir şey verdi ki,
Əvəzini Ondan istəyə bilsin?»

36 [j]Çünki hər şeyin mənbəyi Odur, hər
şey Onun vasitəsilə və Onun üçün var
oldu. Ona əbədi olaraq izzət olsun!
Amin.

Bədənlərinizi Allaha təqdim edin

12 Beləliklə, ey qardaşlar, Allahın
mərhəməti xatirinə sizə
yalvarıram ki, bədənlərinizi diri,
müqəddəs və Allahı razı salan bir
qurban olaraq Ona təqdim edin; bu sizin
ağılla etdiyiniz ibadətdir. 2 Bu dövrə
uyğunlaşmayın, əksinə, düşüncənizin
təzələnməsi ilə dəyişin ki, Allahın yaxşı,
razı salan və kamil iradəsini ayırd
edəsiniz.

3 Mənə verilən lütflə sizin hər
birinizə deyirəm ki, lazım olduğundan
artıq özünüz barədə yüksək fikirdə
olmayın; lakin hər biriniz Allahın
ona verdiyi imanın ölçüsünə görə
ağıl-kamalla düşünün. 4 [k]Çünki bizim
bir bədənimizdə çoxlu üzvlər olduğu
halda onların hər birinin vəzifəsi
heç də eyni deyil. 5 Eləcə biz də çox
olduğumuz halda Məsihdə bir bədənik
və ayrı-ayrılıqda bir-birimizə bağlı
üzvlərik. 6 [l]Allahın bizə bağışladığı lütfə
görə müxtəlif ruhani ənamlarımız var.
Bir kəsin ənamı peyğəmbərlikdirsə,
imanının ölçüsünə görə peyğəmbərlik
etsin; 7 ənamı xidmətdirsə, xidmət
etsin; müəllimlikdirsə, öyrətsin;
8 nəsihət verəndirsə, nəsihət versin; pay
verəndirsə, səxavətlə, rəhbərdirsə, səylə,

---

[g] **11:26** Yeş. 59:20-21; Yer. 31:33-34 [h] **11:34** Yeş. 40:13 [i] **11:35** Əyy. 41:11
[j] **11:36** 1Kor. 8:5-6 [k] **12:4** 1Kor. 12:12 [l] **12:6** 1Kor. 12:4-11

mərhəmət göstərəndirsə, sevinə-sevinə
öz işini görsün.

Məhəbbətlə rəftar edin

9 Qoy məhəbbətiniz riyasız olsun.
Pislikdən ikrah edin, yaxşılığa bağlanın.
10 Qardaşlıq sevgisi ilə bir-birinizi
sevin. Hörmət göstərməkdə bir-birinizi
qabaqlayın. 11 Səyiniz azalmasın,
ruhunuz alovlu olsun. Rəbbə qulluq
edin. 12 Ümidinizlə sevinin. Əziyyətdə
dözümlü olun. Dayanmadan dua edin.
13 Ehtiyac içində olan müqəddəslərə
yardım etməyə şərik olun. Qonaqpərvər
olmağa səy göstərin.
14 [m]Sizi təqib edənlərə xeyir-dua
verin; lənət yox, xeyir-dua verin.
15 Sevinənlərlə sevinin, ağlayanlarla
ağlayın. 16 [n]Bir-birinizlə həmfikir olun;
təkəbbürlü olmayın, məzlumlarla
dostluq edin. Özünüzü ağıllı saymayın.
17 Heç kimə pislik əvəzinə pislik
etməyin. Hamının gözündə yaxşı olan
işlər görməyə diqqət yetirin. 18 İmkan
daxilində bacardıqca bütün adamlarla
sülh içində yaşayın. 19 [o]Ey sevimlilər,
heç kəsdən qisas almayın, Allahın
qəzəbinə yer verin. Çünki yazılıb ki,
Rəbb belə deyir: «Qisas Mənimdir,
əvəzini Mən verəcəyəm». 20 [p]Əksinə,
«düşmənin acdırsa, onu yedizdir,
susuzdursa, ona su ver. Belə etməklə
sanki onun başına köz tökərsən».
21 Pislik sənə üstün gəlməsin, pisliyə
yaxşılıqla qalib gəl.

Hakimiyyətlərə tabe olmaq

13 Hər kəs başçılıq edən
hakimiyyətlərə tabe olsun.
Çünki Allah tərəfindən təyin olunmayan
hakimiyyət yoxdur; mövcud olan
hakimiyyətlər Allah tərəfindən təyin
olunub. 2 Buna görə də hakimiyyətə
qarşı çıxan adam Allahın təyin etdiyinin
əleyhinə çıxır və əleyhinə çıxan belələri
özlərini mühakiməyə düçar edir.
3 Çünki yaxşı iş görənlər deyil, pis iş
görənlər hökmdarlardan qorxmalıdır.
İstəyirsənmi hakimiyyətdən
qorxmayasan? Yaxşı iş gör, onda
o səni tərifləyər. 4 Hökmdar sənin xeyrin
üçün Allaha xidmət edir. Amma pis iş
görürsənsə, qorx! Çünki o, əbəs yerə
qılınc daşımır, Allaha xidmət edir ki,
pis iş görəndən qisas alsın və Allahın
qəzəbini onun başına gətirsin. 5 Bu
səbəbdən yalnız qəzəbə görə deyil,
vicdanın xatirinə də hakimiyyətə tabe
olmaq lazımdır. 6 [q]Vergini də siz buna
görə ödəyirsiniz. Çünki hökmdarlar
Allahın xidmətçisidir və məhz bu işlə
daim məşğuldurlar. 7 Beləliklə, hər kəsə
öz haqqını verin: vergi haqqı olana
vergi, gömrük haqqı olana gömrük,
qorxu haqqı olana qorxu, hörmət haqqı
olana hörmət.

Bir-birinizi sevin

8 Bir-birinizi sevməkdən başqa heç
nədə heç kimə borclu qalmayın;
çünki başqasını sevən Qanunu yerinə
yetirmiş olur. 9 [r]Belə ki «zina etmə, qətl
etmə, oğurluq etmə, tamah salma»*
və bunlardan başqa nə əmr varsa,
bu kəlamla yekunlaşdırmaq olar:
«Qonşunu özün kimi sev». 10 Sevən
insan qonşusuna qarşı pis iş görməz,
buna görə də məhəbbət Qanunun
tamamlanmasıdır.

---

*13:9 *Tamah salma* – bəzi əlyazmalarda *yalandan şahidlik etmə, tamah salma.*

[m]**12:14** Mat. 5:44; Luka 6:27-28 [n]**12:16** Sül. 3:7
[o]**12:19** Qanun. 32:35; İbr. 10:30 [p]**12:20** Sül. 25:21-22
[q]**13:6** Mat. 22:21; Mark 12:17; Luka 20:25
[r]**13:9** Çıx. 20:13-17; Qanun. 5:17-19,21; Lev. 19:18

11 Zəmanəni, yuxudan ayılmaq
vaxtınızın gəldiyini anlayaraq belə
rəftar edin. Çünki indi xilasımız iman
etdiyimiz vaxtda olduğundan daha
yaxındır. 12 Gecə keçdi, gündüz isə
yaxınlaşdı; buna görə də qaranlığın
əməllərini üzərimizdən ataq və nurun
silahlarına bürünək. 13 Gün işığında
olduğu kimi ləyaqətlə həyat sürək;
eyş-işrətə və sərxoşluğa, əxlaqsızlığa və
pozğunluğa, münaqişəyə və qısqanclığa
qapılmayaq. 14 [s]Əksinə, Rəbb İsa
Məsihə bürünün və cismani təbiətinizin
ehtiraslarına uymaq fikrində olmayın.

Başqasını mühakimə etməyin

14 [t]İmanı zəif olanı qəbul edin,
amma onun fikirləri ilə
mübahisəyə girişməyin. 2 [u]Biri inanır
ki, hər şeyi yeyə bilər, amma imanı
zəif olan yalnız tərəvəz yeyir. 3 Yeyən
yeməyənə xor baxmasın, yeməyən
də yeyəni mühakimə etməsin. Çünki
Allah onu qəbul edib. 4 Sən kimsən
ki, başqasının xidmətçisini mühakimə
edirsən? O xidmətçini haqlı yaxud
haqsız çıxarmaq ixtiyarı ağasına
məxsusdur. Xidmətçi haqlı çıxacaq,
çünki Rəbb onu haqlı çıxarmağa
qadirdir.
5 Kimsə bir günü o biri gündən üstün
sayır, başqası isə hər günü eyni sayır.
Qoy hər kəs öz fikrinə əmin olsun. 6 Bir
günü fərqləndirən adam onu Rəbb üçün
fərqləndirir.* Yeyən Rəbb üçün yeyir,
çünki Allaha şükür edir. Yeməyən də
Rəbb üçün yemir və Allaha şükür edir.
7 Çünki bizim heç birimiz özümüz üçün
yaşamırıq və özümüz üçün ölmürük.
8 Yaşayırıqsa, Rəbb üçün yaşayırıq,
ölürüksə, Rəbb üçün ölürük. Buna görə
yaşasaq da, ölsək də Rəbbə məxsusuq.
9 Çünki Məsih ona görə ölüb yenə yaşadı
ki, həm ölülərin, həm də yaşayanların
Rəbbi olsun.
10 [v]Bəs sən nə üçün qardaşını
mühakimə edirsən? Yaxud nə üçün
qardaşına xor baxırsan? Axı biz hamımız
Allahın† hökm kürsüsünün qarşısında
dayanacağıq. 11 [w]Çünki yazılıb:

«Rəbb deyir:
Varlığıma and içdim,
Hər diz önümdə çökəcək,
Hər dil Allah olduğumu bildirəcək».

12 Beləcə hər birimiz özü üçün Allaha
hesabat verəcək.
13 [x]Buna görə də daha bir-birimizi
mühakimə etməyək, əksinə, qərara
alın ki, heç bir qardaşın önünə onu
büdrədən yaxud pis yola çəkən bir şey
qoymayasınız. 14 Rəbb İsada olaraq
əminəm ki, heç bir şey özlüyündə
murdar deyil. Amma nəyisə murdar
sayan adam üçün o şey murdardır.
15 Əgər sənin qardaşın yediyin bir
şeydən ötrü kədərlənirsə, onda sən
məhəbbətə görə həyat sürmürsən.
Uğrunda Məsihin öldüyü adamı öz
yeməyinə görə həlaka təslim etmə.
16 İmkan verməyin ki, sizin yaxşı hesab
etdiyiniz bir şey pislənsin. 17 Çünki
Allahın Padşahlığı yemək-içməkdən
ibarət deyil, Müqəddəs Ruhda salehlik,
sülh və sevincdən ibarətdir. 18 Kim
beləcə Məsihə qulluq edirsə, Allahı razı
salır və insanların da rəğbətini qazanır.
19 Beləliklə, özümüzü sülh gətirən və
bir-birimizi inkişaf etdirən işlərə həsr
edək. 20 Qidaya görə Allahın işlərini
pozma! Hamısı təmizdir. Amma yeməyi

*14:6 *Fərqləndirir* – bəzi əlyazmalarda *fərqləndirir. Bir günü də fərqləndirməyən adam onu Rəbb üçün fərqləndirmir.*
†14:10 *Allahın* – bəzi əlyazmalarda *Məsihin.*

[s]13:14 Yar. 3:21; Qal. 3:27 [t]14:1 Kol. 2:16 [u]14:2 1Kor. 8:1-13
[v]14:10 2Kor. 5:10 [w]14:11 Yeş. 45:23; Fil. 2:10-11 [x]14:13 1Kor. 8:1-13

ilə başqasının büdrəməsinə səbəb olan
adam pislik edir. 21 Ət yeməyərək, şərab
içməyərək qardaşının büdrəməsinə
səbəb olmayan isə yaxşılıq edir. 22 Bu
məsələlərdə etiqadını Allahın önündə
öz ürəyində saxla. Seçdiyi bir işdə
özünü mühakimə etməyən adam nə
bəxtiyardır! 23 Amma bir yeməyə
şübhə edən adam o yeməyi yeyirsə,
məhkum olur. Çünki gördüyü iş imana
əsaslanmır və imana əsaslanmayan hər
şey günahdır.*

İmanınız günbəgün artsın

15 Biz imanı güclü olanlar imanı
gücsüz olanların zəifliklərinə
dözməliyik və yalnız özümüzü razı
salmamalıyıq. 2 Hər birimiz yaxşılıq
naminə inkişaf etdirmək məqsədi
ilə qonşumuzu razı salaq. 3 yÇünki
Məsih də Özünü razı salmadı. Necə
ki yazılıb: «Səni təhqir edənlərin
təhqirləri altında qaldım». 4 Bundan
əvvəl yazılanların hamısı bizi öyrətmək
üçün yazıldı ki, dözümlə və Müqəddəs
Yazıların ürək-dirəyi ilə ümidimiz
olsun. 5 Dözüm verən və ürəkləndirən
Allah Məsih İsanın istəyinə uyğun
olaraq sizə həmfikirlilik bəxş etsin
ki, 6 hamınız birlikdə və bir səslə
Rəbbimiz İsa Məsihin Atası olan Allahı
izzətləndirəsiniz.
7 Buna görə də Məsih sizi qəbul
etdiyi kimi siz də Allahın izzəti üçün
bir-birinizi qəbul edin. 8 Mən də
bunu bildirirəm: Məsih Allahın haqlı
olduğunu göstərmək üçün sünnətlilərin
xidmətçisi oldu ki, əcdadlara verilən
vədləri yerinə yetirsin; 9 zbeləcə başqa
millətlər də Allahın mərhəmətinə görə
Onu izzətləndirsinlər. Necə ki yazılıb:

«Buna görə millətlər arasında
Sənə şükür edəcəyəm,
İsminə tərənnüm söyləyəcəyəm».
10 aYenə deyilir ki:
«Ey millətlər, Onun xalqı ilə birgə
sevinin!»
11 bBaşqa bir yerdə:
«Ey bütün millətlər, Rəbbə həmd
edin!
Ey bütün ümmətlər, Onu mədh edin!»
12 cYeşaya da belə deyir:
«Yesseyin Kökü gələcək,
Millətlərə hökmran olmaq üçün
ucalacaq,
Millətlər Ona ümid bağlayacaq».

13 Qoy ümid mənbəyi olan Allah iman
edən sizləri hər cür şadlıq və sülhlə
doldursun ki, Müqəddəs Ruhun qüdrəti
ilə ümidlə dolub-daşasınız.

Məsihin xidmətçisi

14 Ey qardaşlarım, mən sizin barənizdə
əminəm ki, siz yaxşılıqla dolu, hər
cür biliklə kamilsiniz və bir-birinizə
nəsihət verməyə qadirsiniz. 15 Amma
Allahın mənə bəxş etdiyi lütflə bəzi
məsələləri sizə xatırlatmaq üçün bu
sözləri cəsarətlə yazmışam. 16 Həmin
lütfə görə mən başqa millətlər üçün
Məsih İsanın xidmətçisi oldum ki,
bir kahin kimi Allahın Müjdəsini vəz
edim və başqa millətlər Müqəddəs
Ruhla təqdis edilərək Allaha məqbul
olan qurban olsunlar. 17 Beləcə Allaha
xidmət etdiyimə görə Məsih İsa ilə
fəxr edirəm. 18–19 Başqa millətləri
itaətə gətirmək üçün Məsihin mənim
vasitəmlə söz və əməllə, əlamət və

*14:23 Bəzi əlyazmalarda bu fəslin axırında 14:24-26 sayılan daha üç ayə gəlir. Bəzilərində isə həmin ayələr 16-cı fəslin axırında gəlir. Bu tərcümədə həmin ayələr 16:25-27 kimi yazılır.

y**15:3** Zəb. 69:9 z**15:9** 2Şam. 22:50; Zəb. 18:49 a**15:10** Qanun. 32:43
b**15:11** Zəb. 117:1 c**15:12** Yeş. 11:10

xariqələrin qüvvəti ilə, Allahın Ruhunun
qüdrəti ilə etdiklərindən başqa bir şey
barədə danışmağa cəsarət etmərəm.
Belə ki mən Yerusəlimdən başlayıb
İllirikum diyarına qədər hər tərəfdə
Məsihin Müjdəsini yayıb qurtardım.
20 Bununla birgə, Müjdəni Məsihin
adının hələ eşidilmədiyi yerlərdə
yaymaq başlıca məqsədim oldu ki, bir
başqasının qoyduğu təməl üzərində bina
qurmayım. 21 [d]Amma necə ki yazılıb:
«Onun haqqında xəbəri olmayanlar
görəcək,
Eşitməyənlər anlayacaq».

Paulun Romaya getmək niyyəti

22 [e]Bu səbəbdən sizin yanınıza gəlmək
niyyətim bir neçə dəfə əngəlləndi.
23 İndi isə bu diyarlarda işləyəcəyim
başqa bir yer qalmır, illərdir ki, yanınıza
gəlməyi arzu edirdim. 24 Buna görə
İspaniyaya getmək niyyətindəyəm
və ümidvaram ki, yolüstü sizi də
görüm və əvvəl qısa müddət də olsa,
dostluğunuzdan zövq alandan sonra
məni oraya yola salasınız. 25 [f]Amma
indi mən müqəddəslərə yardım etmək
üçün Yerusəlimə gedirəm. 26 Çünki
Makedoniya və Axayyada olanlar
Yerusəlimdə müqəddəslər arasındakı
kasıblar üçün ianə yığmağı məsləhət
bildilər. 27 [g]Əlbəttə, özləri məsləhət
bildilər, həm də əslində onlara
borcludurlar. Çünki başqa millətlər
Yerusəlim müqəddəslərinin ruhani
nemətlərinə şərik oldularsa, maddi
nemətləri ilə onlara xidmət etməyə
borcludurlar. 28 Beləcə bu işi başa
çatdırıb əldə olunan səmərəni onlara
çatdırandan sonra sizin yerlərdən
keçib İspaniyaya gedəcəyəm. 29 Bilirəm
ki, yanınıza gələndə Məsihin* tam
xeyir-duası ilə gələcəyəm.
30 Ey qardaşlar, Rəbbimiz İsa Məsihin
xatirinə, Ruhun məhəbbəti naminə
sizə yalvarıram, Allaha mənim üçün
etdiyiniz dualarda mənimlə birlikdə
mübarizə aparın ki, 31 Yəhudeyada olan
imansızlardan xilas olum və Yerusəlimə
olan yardımımı müqəddəslər qəbul
etsin. 32 Beləliklə, istəyirəm ki, Allahın
iradəsi ilə sevinclə yanınıza gəlib sizinlə
könlümü fərəhləndirim. 33 Qoy sülh
qaynağı olan Allah sizin hamınızla
olsun. Amin.

Salamlar və xahişlər

16 Kenxreyadakı cəmiyyətin
xidmətçisi olan bacımız Fibi
barədə sizə zəmanət verirəm. 2 Onu
Rəbdə olduğu üçün müqəddəslərə layiq
tərzdə qəbul edin, nə ehtiyacı varsa, siz
ona kömək edin. Çünki o, çoxlarına və
şəxsən mənə də hamilik edib.
3 [h]Məsih İsada həmkarlarım olan
Priskila və Akilaya salam söyləyin.
4 Onlar mənim həyatım üçün öz
canlarını təhlükəyə saldılar. Onlara
yalnız mən yox, başqa millətlərin bütün
cəmiyyətləri də təşəkkür edir. 5 Onların
evində toplanan cəmiyyətə də salam
söyləyin.
Asiya vilayətindən Məsih üçün ilk
məhsul olan sevimli qardaşım Epenetə
salam çatdırın.
6 Sizin üçün xeyli zəhmət çəkmiş
Məryəmə salam söyləyin.
7 Həvarilər arasında şöhrət qazanmış,
məndən əvvəl Məsihdə olmuş
soydaşlarım və zindan yoldaşlarım
Andronikosa və Yuniyaya salam
çatdırın.

---

*15:29 *Məsihin* – bəzi əlyazmalarda *Məsihin Müjdəsinin.*

[d]**15:21** Yeş. 52:15 [e]**15:22** Rom. 1:13 [f]**15:25** 1Kor. 16:1-4
[g]**15:27** 1Kor. 9:11 [h]**16:3** Həv. 18:2-3

8 Rəbdə mənə sevimli olan Ampliyata
salam söyləyin.
9 Məsihdə həmkarımız olan Urbana
və mənə sevimli olan Staxisə salam
çatdırın.
10 Məsihdə sədaqəti sübut edilmiş
Apellisə salam söyləyin.
Aristobulun ailəsindən olanlara salam
çatdırın.
11 Soydaşım Hirodiona salam
söyləyin.
Narkisin ailəsindən Rəbdə olanlara
salam çatdırın.
12 Rəbbin xidmətində zəhmət çəkmiş
Trifena ilə Trifosaya salam söyləyin.
Rəbbin xidmətində xeyli zəhmət
çəkmiş sevimli Persisə salam çatdırın.
13 [i]Rəbdə seçmə insan olan Rufusa
və mənə də analıq edən anasına salam
söyləyin.
14 Asinkritə, Fleqona, Hermesə,
Patrobaya, Hermaya və onlarla birlikdə
olan bacı-qardaşlara salam çatdırın.
15 Filologa, Yuliyaya, Nereyə və
onun bacısına, Olimpaya və onlarla
birlikdə olan bütün müqəddəslərə salam
söyləyin.
16 Bir-birinizi müqəddəs öpüşlə
salamlayın. Məsihin bütün cəmiyyətləri
sizə salam göndərir.
17 Qardaşlar, sizə yalvarıram ki,
öyrəndiyiniz təlimin əleyhinə çıxaraq
ayrılıq salan və büdrəməyə səbəb olan
adamlara nəzarət edin və onlardan uzaq
durun. 18 Çünki belə adamlar Rəbbimiz
Məsihə deyil, öz qarınlarına qulluq
edirlər; onlar yağlı və yaltaq nitqləri
ilə sadəlövh adamların ürəklərini
tovlayırlar. 19 Sizin itaətiniz hamıya
bəllidir. Buna görə də sizin üçün
sevinirəm. Amma istəyirəm ki, yaxşı
işlərdə müdrik, pis işlərdə məsum
olasınız. 20 Sülh qaynağı olan Allah
Şeytanı tezliklə ayaqlarınızın altında
əzəcək. Rəbbimiz İsanın lütfü sizə yar
olsun!
21 [j]Həmkarım Timotey, soydaşlarım
Luki, Yason və Sosipater sizə salam
göndərir.
22 Bu məktubu yazıya alan mən
Terti də Rəbbin ismi ilə sizə salam
söyləyirəm.
23 [k]Məni və bütün cəmiyyəti qonaq
saxlayan Qayın sizə salamı var.
Şəhərin xəzinədarı olan Erast və Kvart
qardaş da sizə salam göndərir. 24 *

Allaha əbədi izzət olsun

25 Allah mənim elan etdiyim Müjdəyə
və İsa Məsih barədə vəzə görə,
əzəldən bəri gizli saxlanmış sirri
aydınlaşdıran vəhyə uyğun olaraq, sizi
qüvvətləndirməyə qadirdir; 26 bu həmin
sirdir ki, indi aşkar olmuş və əbədi
Allahın əmrinə əsasən peyğəmbərlərin
Yazıları vasitəsilə bütün millətlərin
iman gətirib itaət etməsi üçün bəyan
edilmişdir; 27 o yeganə və müdrik Allaha
İsa Məsih vasitəsilə əbədi izzət olsun!
Amin.†

---

*16:24 *Göndərir* – bəzi əlyazmalarda *göndərir.* 24 *Rəbbimiz İsa Məsihin lütfü sizin hamınızla olsun. Amin.* (Rom. 16:20; 2Sal. 3:18).

†16:27 Bəzi əlyazmalarda bu ayələr yoxdur. Bəzilərində isə həmin ayələr 14:24-26 sayılaraq 14-cü fəslin axırında gəlir.

[i]16:13 Mark 15:21 [j]16:21 Həv. 16:1

[k]16:23 Həv. 19:29; 1Kor. 1:14; 2Tim. 4:20

PAULUN

KORİNFLİLƏRƏ BİRİNCİ MƏKTUBU

GİRİŞ

Paulun *«Korinflilərə Birinci Məktubu»*nun yazılmasının məqsədi onun Korinfdə əsasını qoyduğu cəmiyyətdə məsihçi həyatı və imanı ilə bağlı problemlərin həll edilməsi idi. Bu dövrdə Korinf Yunanıstanın böyük ümumdünyəvi şəhəri və Romanın Axayya adlanan vilayətinin paytaxtı idi. Korinf İonik və Egey dənizləri arasındakı ensiz bərzəxdə yerləşirdi. Şəhərin coğrafi mövqeyinə görə ticarət yaxşı inkişaf etmiş, burada müxtəlif dinlərin mövcud olmasına görə əxlaqsızlıq geniş yayılmışdı.

Həvari imanlı cəmiyyətindəki fikir ayrılığı, əxlaqsızlıq, cinsi münasibətlər, nikah, vicdan, nizam-intizam, Müqəddəs Ruhun ənamları və dirilmə məsələlərinə dair nöqteyi-nəzərlərə görə narahat idi. O, məktubunda Müjdənin bütün bu məsələlərə tamamilə cavab verdiyini açıqlayır. Məktubun 13-cü fəsli məhəbbəti Allahın Öz xalqına verdiyi ən gözəl ənamı kimi təqdim edir və bu, ən məşhur fəsildir.

Kitabın məzmunu:

1:1-9 Salamlar və minnətdarlıq

1:10–4:21 Korinf cəmiyyətindəki fikir ayrılığı

5:1–7:40 Əxlaqi məsələlər

8:1–11:1 Məsihçilər və bütpərəstlər

11:2–14:40 Məsihçi həyatı və ibadət

15:1-58 Məsihin və imanlıların dirilməsi

16:1-4 İanələr haqqında

16:5-24 Son xahişlər və salamlar

1 [l]Allahın iradəsi ilə Məsih İsanın
həvarisi olmağa çağırılmış mən
Pauldan və qardaşımız Sostendən
[2] Allahın Korinfdə olan imanlılar
cəmiyyətinə salam! Siz Məsih İsada
təqdis olunmusunuz. Rəbbimiz İsa
Məsihin adını hər yerdə çağıran
hamı ilə birlikdə müqəddəs olmağa
çağırılmısınız. O həm onların, həm də
bizim Rəbbimizdir. [3] Atamız Allahdan
və Rəbb İsa Məsihdən sizə lütf və sülh
olsun!

Cəmiyyətin sədaqəti

[4] Allahın Məsih İsada sizə bəxş
etdiyi lütfə görə sizin üçün həmişə
Allahıma şükür edirəm. [5] Çünki siz
Məsihdə hər cəhətdən – hər cür sözdə
və bilikdə zənginləşmisiniz. [6] Buna görə
Məsih haqqındakı şəhadətimiz sizdə
təsdiqləndi. [7] Bu səbəbdən siz Rəbbimiz
İsa Məsihin zühurunu gözləyərək ruhani
ənamdan heç bir korluq çəkmirsiniz.
[8] Rəbbimiz İsa Məsih Öz günündə
nöqsansız olmanız üçün sizi sonadək
qüvvətləndirəcək. [9] Sizi Oğlu Rəbbimiz
İsa Məsihlə şərik olmağa çağıran Allah
sadiqdir.

Cəmiyyətdə fikir ayrılığı

[10] Ey qardaşlar, Rəbbimiz İsa Məsih
naminə sizə yalvarıram: hamınız
həmfikir olun. Qoy aranızda dəstəbazlıq
olmasın, eyni düşüncədə və eyni
ağılda birləşin. [11] Qardaşlarım,
Xloinin evindəkilərdən aranızda
münaqişələr olduğunu öyrəndim.
[12] [m]Demək istədiyim budur ki, hər
biriniz «mən Paulun ardıcılıyam»,
«mən Apollonun ardıcılıyam», «mən
Kefanın* ardıcılıyam» və yaxud «mən
Məsihin ardıcılıyam» deyir. [13] Məgər
Məsih bölünmüşdü? Məgər sizə görə

---

*__1:12__ *Kefa* – yəni Peter. Bax: Yəhya 1:42.

[l]**1:1** Həv. 18:1 [m]**1:12** Həv. 18:24

çarmıxa çəkilən Paul idi? Məgər siz
Paulun adı ilə vəftiz edildiniz? 14 [n]Mən
Krisp və Qaydan başqa sizlərdən heç
kimi vəftiz etmədiyimə görə Allaha
şükür edirəm. 15 Belə etdim ki, heç
kim mənim adımla vəftiz edildiyini
deməsin. 16 [o]Yeri gəlmişkən, mən bir
də Stefananın evindəkiləri vəftiz etdim.
Bundan başqa kimisə vəftiz etdiyimi
xatırlamıram.

Məsih Allahın qüdrəti və müdrikliyidir

17 Axı Məsih məni vəftiz etməyə
deyil, Müjdəni yaymağa göndərdi.
Məsihin çarmıxı boşa çıxmasın deyə
Müjdəni müdrik sözlərlə yaymıram.
18 Çünki çarmıx barəsindəki kəlam
məhv yolunda olanlar üçün ağılsızlıq,
xilas yolunda olan bizlər üçünsə Allahın
qüdrətidir. 19 [p]Necə ki yazılıb:

«Müdriklərin müdrikliyini məhv
edəcəyəm,
Aqillərin ağlını yox edəcəyəm».

20 [q]Hanı müdrik? Hanı alim? Hanı bu
dövrün mahir mübahisəçisi? Məgər
Allah dünyanın müdrikliyinin ağılsızlıq
olduğunu nümayiş etdirmədi? 21 Allahın
müdrikliyində dünya öz müdrikliyi
ilə Allahı tanımadığı üçün Allah iman
edənləri ağılsız sayılan vəz vasitəsilə
xilas etməyə razı oldu. 22 Çünki
Yəhudilər möcüzəli əlamətlər istəyir,
Yunanlar müdriklik axtarırlar. 23 Bizsə
çarmıxa çəkilmiş Məsihi vəz edirik. Bu,
Yəhudilər üçün büdrəmə daşı, başqa
millətlər üçün isə ağılsızlıq sayılır.
24 Amma çağırılan həm Yəhudilər,
həm də Yunanlar üçün Məsih Allahın
qüdrəti və Allahın müdrikliyidir.
25 Çünki Allahın «ağılsızlığı» insan
müdrikliyindən daha üstündür,
Allahın «zəifliyi» insan gücündən daha
güclüdür.
26 Qardaşlar, aldığınız çağırış
barəsində düşünün. Bir çoxunuz bəşəri
nöqteyi-nəzərdən müdrik, nüfuzlu və
yaxud əsilzadə deyildiniz. 27 Allah isə
müdrikləri utandırmaq üçün dünyanın
ağılsız saydığı, güclüləri utandırmaq
üçün dünyanın zəif saydığı, 28 dünyanın
dəyərli sayılanlarını heç etmək üçün
dünyanın xor baxdığı, əsilsiz və dəyərsiz
sayılan kəsləri də seçdi ki, 29 Allahın
qarşısında heç bir insan öyünməsin.
30 Amma siz Allahın sayəsində Məsih
İsadasınız. O bizim üçün ilahi müdriklik,
salehlik, müqəddəslik və satınalınma
oldu. 31 [r]Buna görə yazıldığı kimi
«öyünən Rəbdə öyünsün».

2 Ey qardaşlar, mən Allah barəsində
sirli həqiqəti* elan etmək üçün sizə
gələndə yüksək natiqlik və müdrikliklə
gəlmədim. 2 Çünki mən aranızda olanda
İsa Məsihdən, yəni çarmıxa çəkilmiş
Şəxsdən başqa heç bir şey bilməməyi
qərara aldım. 3 [s]Yanınıza zəiflik, qorxu
və böyük lərzə içində gəldim. 4 Mənim
sözüm də, vəzim də müdrikliyin
inandırıcı sözlərindən deyil, Ruhun
qüdrətini göstərməsindən asılı idi. 5 Belə
ki imanınız insan müdrikliyinə yox,
Allahın qüdrətinə əsaslansın.

Allahın müdrikliyi

6 Yetkin insanlar arasında isə
biz müdrikliyi öyrədirik. Amma
bu müdriklik nə indiki dövrün, nə
də bu dövrün fani hökmdarlarının
müdrikliyi deyil. 7 Biz Allahdan
gələn sirli müdrikliyi öyrədirik.
Allah bu müdrikliyi bizim izzətimiz

*2:1 *Sirli həqiqəti* – bəzi əlyazmalarda *şəhadəti.*

[n]**1:14** Həv. 18:8; 19:29; Rom. 16:23 [o]**1:16** 1Kor. 16:15-16
[p]**1:19** Yeş. 29:14 [q]**1:20** Əyy. 12:17; Yeş. 19:12; 33:18; 44:24-28
[r]**1:31** Yer. 9:23-24 [s]**2:3** Həv. 18:9

üçün zaman başlamazdan əvvəl
müəyyən etdi və gizli saxladı. 8 Bu
dövrün hökmdarlarından heç biri onu
anlamadı. Çünki anlasaydılar, izzətli
Rəbbi çarmıxa çəkməzdilər. 9 [t]Amma
necə ki yazılmışdı:
«Allahın Onu sevənlər üçün
hazırladıqlarını
Nə göz görüb, nə qulaq eşidib,
Nə də insan ürəyi dərk edib».
10 Bizə isə Allah bunları Öz Ruhu ilə
açdı. Çünki Ruh hər bir şeyi, Allahın
dərin düşüncələrini belə, araşdırır.
11 Axı insanın düşüncələrini insanın
daxilində olan ruhdan savayı kim
bilər? Eləcə də Allahın düşüncələrini
Onun Ruhundan savayı heç kim
bilməz. 12 Allahın bizə verdiyi ənamları
dərk edə bilməyimiz üçün biz bu
dünyanın ruhunu yox, Allahdan olan
Ruhu qəbul etdik. 13 Bunları insani
müdrikliyin öyrətdiyi deyil, Ruhun
öyrətdiyi sözlərlə bildiririk. Ruhani
anlayışları ruhani sözlərlə ifadə edirik.
14 Təbiətcə yaşayan adam Allahın
Ruhuna aid olan şeyləri qəbul etmir,
çünki bunları ağılsızlıq sayır. Bunları
başa düşə bilmir, çünki bunlar ruhani
nöqteyi-nəzərdən araşdırılır. 15 Ruhani
adam isə hər şeyi araşdıra bilər. Fəqət
onun daxilini heç kim araşdıra bilməz.
16 [u]Axı «Rəbbin ağlını kim dərk etdi?
Ona kim məsləhətçi oldu?» Amma biz
Məsihin ağlına malikik.

Həvarilər yalnız Allahın xidmətçiləridir

3 Ey qardaşlar, mən sizinlə ruhani
insanlar kimi deyil, cismani
təbiətə görə yaşayan, Məsihdə körpə
olan insanlar kimi danışa bildim.
2 [v]Mən sizi bərk yeməklərlə deyil,
südlə qidalandırdım. Çünki bərk
yeməklərə hazır deyildiniz, indi də
hazır deyilsiniz. 3 Çünki siz hələ də
cismanisiniz. Əgər aranızda qısqanclıq
və münaqişə* varsa, onda siz cismani
deyilsinizmi? Adi insanlar kimi həyat
sürmürsünüzmü? 4 [w]Əgər biriniz «mən
Paulun ardıcılıyam», başqası isə «mən
Apollonun ardıcılıyam» deyirsə, siz adi
insanlar† deyilsinizmi?
5 Apollo kimdir, Paul kimdir?
Rəbb hər birimizə təyin etdiyi kimi
yalnız iman etməyinizə vasitəçi olan
xidmətçiyik. 6 [x]Mən əkdim, Apollo
suladı, amma Allah böyütdü. 7 Buna
görə də mühüm olan əkən ya da sulayan
deyil, əkiləni böyüdən Allahdır. 8 Əkənlə
sulayanın isə dəyəri eynidir. Hər biri öz
zəhmətinə görə mükafat alacaq. 9 Çünki
biz Allahın əməkdaşlarıyıq. Sizsə
Allahın zəmisi, Allahın tikilisisiniz.
10 Allahın mənə verdiyi lütfə görə bir
mahir bənna kimi bünövrəni qoydum,
başqası isə onun üzərində inşa edir.
Amma hər kəs necə inşa etdiyinə diqqət
yetirsin. 11 Çünki heç kim qoyulan
bünövrədən, yəni İsa Məsihdən başqa
bir təməl qoya bilməz. 12 Bu bünövrənin
üstündə qızıldan, gümüşdən, qiymətli
daşlardan, taxtadan, samandan,
küləşdən kim nə isə inşa edərsə, 13 onun
əməli bəlli olacaq və qiyamət günü‡
onu ortaya çıxaracaq, çünki odla aşkar
olunacaq. Od da hər birinin əməlinin
keyfiyyətini sınaqdan keçirəcək.
14 Kimin inşa etdiyi əməl tab gətirsə,
mükafat alacaq. 15 Kimin əməli yanıb
yox olsa, o zərər çəkəcək. Özü isə xilas

*3:3 *Qısqanclıq və münaqişə* – bəzi əlyazmalarda *qısqanclıq, münaqişə və fikir ayrılığı.*
†3:4 *Adi insanlar* – bəzi əlyazmalarda *cismani.*
‡3:13 *Qiyamət günü* – hərfi tərcümədə *gün.*

[t]2:9 Yeş. 64:4 [u]2:16 Yeş. 40:13 [v]3:2 İbr. 5:12-13 [w]3:4 1Kor. 1:12
[x]3:6 Həv. 18:4-11,24-28

olacaq, amma sanki od içindən keçəcək.
16 [y]Məgər bilmirsiniz ki, siz Allahın
məbədisiniz və Allahın Ruhu sizdə
yaşayır? 17 Kim Allahın məbədinə ziyan
vursa, Allah da ona ziyan vuracaq.
Çünki Allahın məbədi müqəddəsdir və
bu məbəd sizsiniz.
18 Qoy heç kim özünü aldatmasın.
Sizlərdən biri bu dövrdə özünü müdrik
sayırsa, müdrik olmaq üçün ağılsız
olsun. 19 [z]Çünki bu dünyanın müdrikliyi
Allah qarşısında ağılsızlıqdır. Necə ki
yazılıb: «O, müdrikləri hiylə qurarkən
yaxalayır». 20 [a]Yenə də yazılıb: «Rəbb
müdriklərin düşüncələrini, bunların
boş olduğunu bilər». 21 Eləcə qoy heç
kim insanlarla öyünməsin, çünki hər
şey sizindir. 22 İstər Paul, istər Apollo,
istər Kefa olsun, dünya, həyat, ölüm,
indiki və gələcək zaman – hər şey
sizindir. 23 Sizsə Məsihinsiniz, Məsih də
Allahındır.

Həvarilərin xidməti

4 Beləcə insanlar bizi Məsihin
xidmətçiləri və Allahın sirli
niyyətini yerinə yetirən idarəçiləri
saysın. 2 İdarəçilərdənsə tələb olunur ki,
etibara layiq olsunlar. 3 Siz yaxud insan
məhkəməsi mənim işlərimi təhlil edirsə,
bu mənim üçün çox az əhəmiyyət
kəsb edir; hətta mən öz işlərimi təhlil
etmirəm. 4 Heç bir şeyə görə vicdan
əzabı çəkməsəm də, beləcə özümə
haqq qazandırmıram. Çünki mənim
işlərimi təhlil edən Rəbdir. 5 Buna görə
də münasib vaxtdan əvvəl, yəni Rəbb
gəlməyənədək heç bir işi mühakimə
etməyin. O gəlib qaranlıqda gizlənən
şeylərə işıq salacaq və insan ürəklərinin
niyyətlərini aşkara çıxaracaq. Onda hər
kəs Allahdan ona düşən tərifi alacaq.
6 Ey qardaşlar, bizdən nümunə
alaraq «yazılanlardan kənara çıxmayın»
məsəlinin mənasını öyrənəsiniz deyə
bunları özümə və Apolloya tətbiq
etdim ki, heç kim başqasının qarşısında
lovğalanıb o birisinə xor baxmasın. 7 Axı
səni kim başqalarından fərqləndirir?
Nəyin var ki onu əldə etməmisən?
Əgər əldə etmisənsə, nə üçün əldə
etməmiş kimi öyünürsən? 8 Siz daha
doymusunuz! Siz artıq varlanmısınız!
Siz bizsiz padşah olmusunuz! Kaş ki
siz, doğrudan, padşah olaydınız ki, biz
də sizinlə bərabər padşahlıq edəydik!
9 Çünki mənə elə gəlir ki, Allah biz
həvariləri ölümə məhkum olunanlar
kimi ən sonda nümayiş etdirdi. Biz də
həm dünya, həm mələklər, həm də
insanlar üçün bir tamaşa olduq. 10 Biz
Məsih naminə ağılsızıq, sizsə Məsihdə
ağıllısınız! Biz zəifik, siz güclüsünüz!
Siz şərəfli adamsınız, bizsə hörmətsiz!
11 Bu vaxtadək biz ac-susuz və cındır
içindəyik. Biz döyülürük, qalmağa
yerimiz də yoxdur. 12 [b]Öz əllərimizlə
işləyib zəhmət çəkirik. Bizə böhtan
atanda xeyir-dua veririk, təqib olunanda
dözürük, 13 təhqir olunanda mülayim
cavab veririk. Biz bu anadək dünyanın
zibili, hamının tullantısı kimi olmuşuq.
14 Bunları sizi utandırmaq üçün
yox, sevimli övladlarım kimi sizə
öyüd-nəsihət vermək üçün yazıram.
15 Çünki sizin Məsih yolunda minlərlə
mürəbbiniz olsa belə, atalarınız azdır;
mən Müjdə vasitəsilə Məsih İsada
olan atanız oldum. 16 [c]Buna görə
sizə yalvarıram, məndən nümunə
götürün. 17 Bu səbəbə görə Rəbdə
mənə sadiq və sevimli olan oğlum
Timoteyi sizin yanınıza göndərdim.
O sizə hər yerdə, hər bir imanlılar
cəmiyyətində öyrətdiyim kimi Məsih

---

[y] **3:16** 1Kor. 6:19; 2Kor. 6:16 [z] **3:19** Əyy. 5:13 [a] **3:20** Zəb. 94:11
[b] **4:12** Həv. 18:2-3 [c] **4:16** 1Kor. 11:1; Fil. 3:17

İsada getdiyim yolları xatırladacaq.
18 Sizdən bəziləri elə bilir ki, mən
yanınıza gəlməyəcəyəm və buna görə
də lovğa-lovğa danışırlar. 19 Amma
Rəbb istəsə, mən bu yaxında yanınıza
gələcəyəm. O vaxt bu lovğaların
sözlərini yox, gücünü yoxlayacağam.
20 Çünki Allahın Padşahlığı sözdən
deyil, gücdən ibarətdir. 21 Siz nə
istəyirsiniz? Yanınıza dəyənəklə, yoxsa
məhəbbət və həlimlik ruhu ilə gəlim?

İmanlılar arasındakı əxlaqsızlıq

5 [d]Danışırlar ki, aranızda cinsi
əxlaqsızlıq baş verir: sizdən bir
nəfər ögey anası ilə yaşayır. Belə cinsi
əxlaqsızlığa hətta bütpərəstlər arasında
da rast gəlmək mümkün deyil! 2 Siz hələ
lovğa-lovğa danışırsınız! Bunun əvəzinə
yas tutmalı idiniz. Belə əməlin sahibi
aranızdan qovulmalıdır. 3 Mənsə cismən
uzaqda olub ruhən aranızdayam və bu
adam barəsində sanki aranızda olduğum
üçün artıq hökm çıxarmışam: 4 siz
Rəbbimiz İsanın adı ilə toplaşanda, mən
də ruhən və Rəbbimiz İsanın qüdrəti ilə
aranızda olanda, 5 həmin adamı Şeytana
təslim edin ki, cismani təbiəti yox olsun,
ruhu isə Rəbbin günündə xilas olsun.
6 [e]Sizin öyünməyiniz yaxşı deyil. Məgər
bilmirsiniz ki, azacıq maya bütün xəmiri
acıdır? 7 [f]Əslində mayasız olduğunuz
kimi köhnə mayadan təmizlənin ki,
təzə xəmir olasınız. Çünki bizim
Pasxa quzumuz olan Məsih qurban*
verildi. 8 [g]Buna görə köhnə maya ilə,
kin və pislik mayası ilə yox, amma
səmimiyyətin və həqiqətin mayasız
çörəyi ilə bayram edək.
9 Mən əvvəlki məktubumda sizə
əxlaqsızlıq edənlərlə ünsiyyətdə
olmamağı yazmışdım. 10 Amma mən
demək istəmədim ki, bu dünyanın
əxlaqsızları, tamahkarları, soyğunçu
və yaxud bütpərəstləri ilə ünsiyyətdə
olmayın. Belə olsaydı, siz bu dünyanı
tərk etməyə məcbur olardınız!
11 Əslində mən sizə yazmışdım ki,
siz özünü bacı-qardaş adlandırıb,
lakin əxlaqsızlıq, tamahkarlıq,
bütpərəstlik, böhtançılıq, əyyaşlıq və
yaxud soyğunçuluq edənlə ünsiyyətdə
olmayın. Belələri ilə bir yerdə çörək
belə, yeməyin. 12 Çünki cəmiyyətdən
kənardakıları mühakimə etməyə mənim
nə ixtiyarım var? Məgər sizin mühakimə
etməli olduqlarınız cəmiyyətdəkilər
deyilmi? 13 [h]Cəmiyyətdən kənardakıları
Allah mühakimə edəcək. Siz isə öz
aranızdan pis adamı atın.

Məhkəmələr barəsində

6 Sizlərdən birinin başqası ilə
iddiası varsa, müqəddəslərin
qarşısında yox, haqsızların qarşısında
mühakimə olunmağa cəsarəti çatarmı?
2 Dünyanı müqəddəslərin mühakimə
edəcəyini bilmirsinizmi? Madam
ki dünyanı mühakimə edəcəksiniz,
belə xırda işləri mühakimə etməyə
ixtiyarınız çatmırmı? 3 Mələkləri bizim
mühakimə edəcəyimizi bilmirsinizmi?
Bəs gündəlik həyata aid işlər harada
qaldı? 4 Əgər elədirsə, gündəlik həyatda
məhkəməyə veriləcək işləriniz varsa,
imanlılar cəmiyyətində saymadığınız
adamlarımı hakim seçirsiniz? 5 Mən
bunu sizi utandırmaq üçün deyirəm.
Yəni öz bacı-qardaşlarınız arasında
hakim olmaq üçün sizlərdən bir nəfər
müdrik adam tapılmadı? 6 Amma
qardaş qardaşla məhkəməyə gedir,
üstəlik imansızlar qarşısında! 7 Əslində
bir-birinizi məhkəməyə çəkməyiniz

---

*5:7 *Qurban* – bəzi əlyazmalarda *bizdən ötrü qurban.*

[d]**5:1** Lev. 18:8; 20:11; Qanun. 22:30; 27:20 [e]**5:6** Qal. 5:9 [f]**5:7** Çıx. 12:5
[g]**5:8** Çıx. 13:7; Qanun. 16:3 [h]**5:13** Qanun. 13:5; 17:7

sizin üçün artıq tam məğlubiyyətdir.
Əvəzində haqsızlığa qatlaşmaq daha
yaxşı deyilmi? Aldanıb, dözmək daha
yaxşı deyilmi? 8 Amma siz özünüz
haqsızlıq edib başqalarını aldadırsınız.
Üstəlik bunu bacı-qardaşlarınıza
edirsiniz.
9 Məgər bilmirsiniz ki, haqsızlıq
edənlər Allahın Padşahlığını irs
olaraq almayacaq? Aldanmayın, çünki
əxlaqsızlar, bütpərəstlər, zinakarlar,
fahişə kişilər, kişibaz kişilər, 10 oğrular,
tamahkarlar, əyyaşlar, böhtançılar,
soyğunçular Allahın Padşahlığını irs
olaraq almayacaq. 11 Sizlərdən bəzisi
belə idi. Amma Rəbb İsa Məsihin adı
ilə və Allahımızın Ruhu ilə yuyulub
təmizləndiniz, təqdis olundunuz və
saleh sayıldınız.

Siz Məsihin üzvlərisiniz

12 [i]«Mənim üçün hər şeyə icazə var»
deyirsiniz, lakin hər şey xeyir vermir.
Mən də «hər şeyə icazə var» deyə
bilərəm, amma özümü heç bir şeyə tabe
etməyəcəyəm. 13 «Yemək qarın üçün,
qarın da yemək üçündür» deyirsiniz,
amma Allah həm qarını, həm də yeməyi
yox edəcək. İnsan bədəni də əxlaqsızlıq
üçün deyil, Rəbb üçündür. Rəbb də
bədən üçündür. 14 Rəbbi dirildən
Allah Öz qüdrəti ilə bizi də dirildəcək.
15 Bilmirsiniz ki, bədənləriniz Məsihin
üzvləridir? İndi Məsihin üzvlərini
götürüb bir fahişənin üzvləri edimmi?
Əsla! 16 [j]Bilmirsiniz ki, fahişə ilə
birləşən onunla bir bədən olur? Çünki
deyilmişdir: «İkisi bir bədən olacaq».
17 Rəblə birləşənsə Rəblə ruhən bir
olur. 18 Cinsi əxlaqsızlıqdan uzaqlaşın.
İnsanın etdiyi bütün digər günahlar
bədəndən kənardadır, amma əxlaqsızlıq
edən öz bədəninə qarşı günah edir.
19 [k]Məgər bilmirsiniz ki, bədəniniz
Allahdan aldığınız, sizdə yaşayan
Müqəddəs Ruhun məbədidir? Siz
özünüzə məxsus deyilsiniz, 20 çox baha
qiymətə satın alınmısınız. Beləliklə,
bədəninizlə* Allaha izzət gətirin.

Nikah qaydaları

7 İndi isə «kişi qadına toxunmasa
yaxşıdır» yazdığınıza gəlincə,
2 əxlaqsızlığın qabağını almaq üçün hər
kişinin öz arvadı, hər qadının da öz əri
olsun. 3 Ər arvadına aid, arvad da ərinə
aid olan nikah borcunu yerinə yetirsin.
4 Arvadın bədəni özünün yox, ərinin
ixtiyarındadır. Eləcə də kişinin bədəni
özünün yox, arvadının ixtiyarındadır.
5 Müvəqqəti olaraq razılıqla, dua† üçün
vaxt ayırmaqdan savayı bir-birinizi
ər-arvadlıq təminatından məhrum
etməyin. Bundan sonra yenə də
bir yerdə olun ki, nəfsinizə hakim
olmadığınıza görə Şeytan sizi sınağa
çəkməsin. 6 Bunları əmr kimi yox, güzəşt
kimi deyirəm. 7 Çünki bütün insanların
mənim kimi olmasını istərdim. Amma
hər bir insanın Allahdan aldığı öz ənamı
var – birininki belədir, digərininki başqa
cürdür.
8 Evli olmayanlara və dul qadınlara
isə bunu deyirəm: mənim kimi qalsalar,
onlar üçün yaxşı olar. 9 Əgər özlərini
saxlaya bilmirlərsə, qoy ailə qursunlar.
Çünki ehtirasdan yanmaqdansa ailə
qurmaq daha yaxşıdır.
10 [l]Evli olanlara isə mən əmr
edirəm, daha düzgün desəm, Rəbb
əmr edir: qadın ərindən ayrılmasın.
11 Ayrılırsa, ərsiz qalmalıdır yaxud

*6:20 *Bədəninizlə* – bəzi əlyazmalarda *Allaha məxsus olan bədəniniz və ruhunuzla.*
†7:5 *Dua* – bəzi əlyazmalarda *oruc və dua.*

[i]6:12 1Kor. 10:23 [j]6:16 Yar. 2:24 [k]6:19 1Kor. 3:16; 2Kor. 6:16
[l]7:10 Mat. 5:32; 19:9; Mark 10:11-12; Luka 16:18

əri ilə barışmalıdır. Ər də arvadını
boşamasın.
12 Başqalarına isə Rəbb yox, mən
deyirəm ki, əgər bir qardaşın iman
etməyən arvadı var və arvad onunla
yaşamağa razıdırsa, əri onu boşamasın.
13 Bir arvadın iman etməyən əri varsa
və əri onunla yaşamağa razıdırsa, qoy
arvadı ondan boşanmasın. 14 Çünki
iman etməmiş ər arvadı vasitəsilə təqdis
olunur və iman etməmiş arvad imanlı
əri vasitəsilə təqdis olunur. Əks halda
uşaqlarınız natəmiz olardı, indi isə onlar
müqəddəsdir. 15 İman etməyən ayrılırsa,
qoy ayrılsın. Qardaş ya da bacı belə
hallarda məcburiyyət qarşısında deyil.
Allah sizi sülhdə yaşamağa çağırıb. 16 Ey
qadın, ərini xilas edib-etməyəcəyini
haradan bilirsən? Yaxud sən, ey ər,
arvadını xilas edib-etməyəcəyini
haradan bilirsən?

Rəbbin çağırışına uyğunluq

17 Amma hər kəs Allahın ona
təyin etdiyi kimi Rəbbin çağırışına
uyğun həyat sürsün. Bunu bütün
cəmiyyətlərə əmr edirəm. 18 Əgər bir
nəfər sünnətli olaraq çağırış aldısa,
sünnət olunmanı aradan qaldırmasın.
Digəri isə sünnətsiz olaraq çağırış aldısa,
qoy sünnət olunmasın. 19 Sünnətlilik
də, sünnətsizlik də əhəmiyyət kəsb
etmir, əhəmiyyət kəsb edən isə Allahın
əmrlərini yerinə yetirməkdir. 20 Qoy hər
kəs çağırış aldığı vaxt nə vəziyyətdə
idisə, elə də qalsın. 21 Çağırış alanda
qul idinsə, fikir eləmə. Amma əgər azad
olmağa imkanın varsa, bu fürsəti əldən
vermə. 22 Çünki Rəbdə çağırış alan vaxt
qul artıq Rəbbin azad insanıdır. Eləcə
də çağırış alan vaxt azad insan Məsihin
quludur. 23 Siz çox baha qiymətə satın
alınmısınız, insanlara qul olmayın! 24 Ey
qardaşlar, hər kəs çağırış alanda nə
vəziyyətdə idisə, eləcə Allahla birlikdə
qalsın.

Subay olmağın faydası

25 İndi isə qızlara gəlincə, bu barədə
Rəbdən əmr almamışam. Amma etibara
layiq olmaq üçün Rəbbin mərhəmətinə
nail olmuş bir insan kimi öz fikirlərimi
deyirəm. 26 Məncə, indi yaranmış çətin
vəziyyətə görə insanın olduğu kimi
qalması yaxşıdır. 27 Arvadınla nikahla
bağlısansa, ondan azad olmağını arzu
etmə. Arvadın yoxdursa, özünə arvad
axtarma. 28 Amma evlənməyin günah
deyil. Qızın da ərə getməsi günah deyil.
Amma belə adamlar bu həyatda əziyyət
çəkəcəklər. Mən sizi bundan qorumaq
istəyirəm. 29 Qardaşlar, bunu demək
istəyirəm: vaxta az qalıb. Bundan sonra
arvadı olanlar olmayanlar kimi, 30 yas
tutanlar tutmayanlar kimi, sevinənlər
sevinməyənlər kimi, mal alanlar malı
olmayanlar kimi, 31 bu dünyanın
işlərindən faydalananlar bu işlərdən
uzaq olanlar kimi olsunlar. Çünki bu
dünyanın indiki vəziyyəti keçib-gedir.
32 Sizin qayğısız olmanızı istəyirəm.
Subay kişi Rəbbi necə razı salmaq
barəsində düşünüb Rəbbin işlərinin
qayğısına qalır. 33 Evli isə arvadını
razı salmaqdan ötrü dünyəvi işlərin
qayğısına qalır 34 və diqqəti yayınır.
Ərsiz qadın yaxud qız da Rəbbin işlərinin
qayğısına qalır ki, həm bədəndə, həm
də ruhən müqəddəs olsun. Ərli qadın isə
ərini razı salmaqdan ötrü dünyəvi işlərin
qayğısına qalır. 35 Bunu azadlığınızı
məhdudlaşdırmaq üçün yox, yalnız sizin
xeyrinizə deyirəm ki, ədəblə davranıb
fikirlərinizi dağıtmadan özünüzü Rəbbə
həsr edəsiniz.
36 Əgər bir nəfər nişanlandığı qızla
düzgün davranmadığını düşünürsə,
yaşı çatıb və evlənmək lazım gəlirsə,
qoy o adam istədiyini etsin. O, günah
etmir. Qoy onlar evlənsin. 37 Amma
kim ürəyində qəti niyyət tutub, könüllü
surətdə, öz nəfsinə hakim olaraq

nişanlandığı qızla evlənməmək qərarına
gəlirsə, o adam da yaxşı edir. 38 Buna
görə də nişanlısı ilə evlənən yaxşı edir,
evlənməyənsə daha yaxşı edir.
39 Arvad əri sağ ikən ona* bağlı qalır.
Əgər əri vəfat etsə, arvad azaddır və
kimə istəsə, ərə gedə bilər. Lakin o kişi
Rəbdə olmalıdır. 40 Amma fikrimcə, dul
qadın olduğu kimi qalsa, daha xoşbəxt
olar. Zənnimcə, məndə də Allahın Ruhu
var.

Bütlərə təqdim olunan qurban əti

8 Bütlərə təqdim olunan qurbanlara
gəlincə, bizə məlumdur ki, bu
barədə «hamımızın biliyi var». Bilik
insanın lovğalanmağına səbəb olur,
məhəbbət isə onu ruhən inkişaf etdirir.
2 Kim fikirləşir ki, bir şey bilir, o hələ
lazım olduğu kimi heç nə bilmir.
3 Amma kim Allahı sevirsə, Allah onun
haqqında hər şeyi bilir.
4 Beləliklə, bütlərə təqdim olunan
qurban ətinin yeyilməsi barəsində
bilirik ki, «büt dünyada heç nədir» və
«bir olan Allahdan başqası yoxdur».
5 Yerdə və yaxud göydə «allahlar»
adlandırılanlar varsa, hətta çoxlu
«allahlar» və «sahiblər» varsa, 6 bizim
üçünsə bir Allah – Ata var. Hər
şey Ondan gəlir, biz də Onun üçün
yaşayırıq. Həmçinin bizim bir Sahibimiz
var, O da Rəbb İsa Məsihdir. Hər şey
Onun vasitəsilə yaranır, biz də Onun
vasitəsilə yaşayırıq.
7 Amma bunu hamı bilmir. Hələ
bütpərəst adətlərinə uymuş bəziləri
yedikləri ətin bütlərə təqdim olunan
qurban əti olduğunu düşünür və onlar
zəif olduqlarından vicdanları ləkələnir.
8 Yemək bizi Allahın hüzuruna gətirmir.
Biz yeməyəndə heç nə itirmirik, yeyəndə
də heç nə əldə etmirik. 9 Amma diqqətli
olun ki, sizin seçim ixtiyarınız zəif
olanların büdrəməsinə səbəb olmasın.
10 Əgər vicdan məsuliyyəti zəif olan şəxs
görsə ki, bilik sahibi olan sən büt evində
süfrəyə oturmusan, bütlərə təqdim
olunan qurbanın ətini yeməyə cürət
etməzmi? 11 Bunun nəticəsində bu zəif
adam – uğrunda Məsihin öldüyü bu bacı
ya qardaş sənin biliyinin ucbatından
həlak olacaq. 12 Beləliklə, zəif olan
bacı-qardaşlarınıza qarşı günah edib
vicdanlarını yaralayanda siz Məsihə
qarşı günah edirsiniz. 13 Odur ki, əgər
yemək qardaşımı büdrədirsə, mən heç
vaxt ət yeməyəcəyəm ki, qardaşım
büdrəməsin.

Həvarinin haqqı və borcu

9 Mən azad deyiləmmi? Həvari
deyiləmmi? Rəbbimiz İsanı
görməmişəmmi? Siz Rəbdə etdiyim
əmənin səmərəsi deyilsinizmi? 2 Əgər
başqaları üçün həvari deyiləmsə,
heç olmasa sizin üçün həvariyəm.
Çünki Rəbdə siz mənim həvariliyimin
möhürüsünüz.
3 Mən işlərimi təhlil edənlərə qarşı
belə müdafiə olunuram: 4 məgər bizim
yeyib-içməyə ixtiyarımız yoxdur?
5 Məgər digər həvarilər, Rəbbin
qardaşları və Kefa kimi yanımızda
imanlı arvadımızı gəzdirməyə
ixtiyarımız yoxdur? 6 İşləməyib
dolanmaq üçün yalnız mənim və
Barnabanın ixtiyarı yoxdur? 7 Kim
öz hesabı ilə əsgərlik çəkər? Kim
üzüm bağı salıb barından yeməz? Kim
sürünü otarıb südündən içməz? 8 Məgər
mən ancaq insanların düşündüyü
kimi danışıram? Qanun eyni şeylər
demirmi? 9 [m]Çünki Musanın Qanununda
yazılıb: «Xırman çəkən öküzün ağzını
bağlama». Allah öküzlərinmi qayğısına

*7:39 *Ona* – bəzi əlyazmalarda *qanuna görə ona.*

[m]9:9 Qanun. 25:4; 1Tim. 5:18

qalır, 10 yoxsa bu sözlər tamamilə
bizə aid deyil? Əlbəttə, bu bizim
üçün yazılmışdır, çünki cütçü ümidlə
şumlamalı, xırmançı da məhsula ortaq
olmaq ümidi ilə taxılı döyməlidir.
11 [n]Əgər biz aranızda ruhani toxumlar
əkdiksə, sizdən maddi bir məhsul
yığsaq, çoxdurmu? 12 Əgər başqalarının
sizdən bunu istəməyə ixtiyarı varsa,
bizim buna daha çox ixtiyarımız
yoxdurmu?

Bizsə bu ixtiyardan istifadə etməmişik.
Bunun əvəzinə Məsihin Müjdəsinin
yayılmasına mane olmamaq üçün hər
şeyə dözürük. 13 [o]Məgər bilmirsiniz ki,
məbəddə iş görənlər məbədə gətirilən
təqdimlərdən qidalanır və qurbangahın
xidmətçiləri qurbangahdan öz paylarını
götürürlər? 14 [p]Beləcə də Rəbb Müjdəni
elan edənlərə Müjdədən dolanmağı əmr
etmişdir. 15 Amma mən bu hüquqların
heç birindən istifadə etməmişəm.
Bunları yazmıram ki, mənə də belə
edəsiniz. Fəxr etməyim üçün bu
əsası heç kim boşa çıxarmaz! Belə
olmaqdansa, ölməyim daha yaxşıdır.
16 Müjdəni yaymaqsa fəxr etməyim
üçün əsas deyil. Çünki bu mənim
mühüm borcumdur, əgər Müjdəni
yaymıramsa, vay halıma! 17 Əgər bunu
könüllü olaraq edirəmsə, mükafatım
var. Yox, əgər bunu könüllü etmirəmsə,
mənə tapşırılan vəzifəmi yerinə
yetirirəm. 18 Bəs onda mükafatım
nədir? Mükafatım budur ki, Müjdəni*
yayaraq müftə vəz edirəm və Müjdəni
yaymaqdan gələn ixtiyarımdan tam
istifadə etmirəm.

19 Mən azadam və heç kəsə məxsus
deyiləm, amma mümkün qədər çox
insan əldə etmək üçün özümü hamıya
qul etdim. 20 Yəhudiləri əldə etmək üçün
Yəhudilərlə Yəhudi kimi davrandım.
Mən Qanun altında olmasam da, Qanun
altında olanları əldə etmək üçün Qanun
altında olanlarla Qanun altında olan
kimi davrandım. 21 Özüm Allahın
qanununda kənar deyil, Məsihin
qanununa tabeyəmsə də, Qanundan
kənar olanları əldə etmək üçün onlarla
Qanundan kənar olan kimi davrandım.
22 Zəifləri əldə etmək üçün onlarla zəif
kimi davrandım. Hər hansı bir yolla
bəzilərini xilas etmək naminə hər kəs
üçün hər şey oldum. 23 Bunun hamısını
Müjdə uğrunda, onun bərəkətinə şərik
olum deyə edirəm.

24 Qaçışda yarışanların hamısının
qaçdığını, amma təkcə bir nəfərin
mükafat aldığını bilmirsinizmi?
Elə qaçın ki, mükafatı qazanasınız.
25 Yarışda iştirak edən hər kəs hər
cəhətdən öz nəfsinə hakimdir. Onlar
bunu solub gedən dəfnə çələngi almaq
üçün edər, biz isə solmaz tac almaq
üçün çalışırıq. 26 Beləliklə, mən də
məqsədsiz qaçmıram. Havanı vuran
adam kimi yumruq atmıram. 27 Lakin
bədənimi məcburən özümə qul edirəm
ki, başqalarına vəz edəndən sonra
mükafatımdan məhrum olmayım.

İsrail tarixindən ibrət dərsləri

10 [q]Qardaşlar, bixəbər olmağınızı
istəmirəm ki, ata-babalarımızın
hamısı bulud altında qorundu, hamısı
da dənizdən keçdi. 2 Hamısı Musanın
ardınca getmək üçün buludda və
dənizdə vəftiz edildi. 3 [r]Hamısı eyni
ruhani qida yedi 4 [s]və eyni ruhani
içki içdi. Çünki onlar ardlarınca gələn
ruhani Qayadan içirdi. O Qaya da Məsih

---

*9:18 *Müjdəni* – bəzi əlyazmalarda *Məsih barəsində Müjdəni.*

[n]**9:11** Rom. 15:27 [o]**9:13** Qanun. 18:1 [p]**9:14** Mat. 10:10; Luka 10:7
[q]**10:1** Çıx. 13:21-22; 14:22-29 [r]**10:3** Çıx. 16:35 [s]**10:4** Çıx. 17:6; Say. 20:11

idi. 5 [t]Amma Allah onların çoxundan
razı qalmadı və cəsədləri çölə sərildi.
6 [u]Bu hadisələr bizim üçün ibrət
olsun deyə baş verdi ki, biz onlar kimi
pisliyə meyl göstərməyək. 7 [v]Onlardan
bəzisi kimi bütpərəst olmayın. Onlar
barədə belə yazılıb: «Xalq oturub
yeyib-içdi, sonra isə qalxıb oynaşdı».
8 [w]Onlardan bəzisi kimi cinsi əxlaqsızlıq
etməyək. Bir gündə onlardan iyirmi üç
min nəfər öldü. 9 [x]Məsihi* sınamayaq:
onlardan bəziləri belə etdi və ilanlar
onları öldürdü. 10 [y]Deyinməyin,
çünki onlardan da bəziləri deyindi
və məhvedici mələk onları öldürdü.
11 Bu hadisələr ibrət dərsi olub onların
başına gəldi və bu dövrün sonuna
çatan bizim üçün öyüd-nəsihət kimi
yazılıb. 12 Buna görə də kim ayaq
üstə durduğunu düşünürsə, ehtiyatlı
olsun ki, yıxılmasın. 13 Siz insanın
qarşılaşdığı sınaqdan başqa bir sınaqla
qarşılaşmadınız. Allah sadiqdir və O
sizi gücünüzdən artıq sınağa çəkilməyə
qoymaz. Sınaqla yanaşı bu vəziyyətdən
çıxış yolu ilə də təmin edəcək ki, tab
gətirə biləsiniz.

Bütpərəstlik və Rəbbin süfrəsi

14 Beləliklə, ey sevimlilərim,
bütpərəstlikdən uzaqlaşın. 15 Mən ağıllı
insanlara xitab edirəm. Dediklərimi
siz özünüz araşdırın. 16 [z]Xeyir-dua
verdiyimiz xeyir-dua kasası Məsihin
qanına şəriklik deyilmi? Böldüyümüz
çörək Məsihin bədəninə şəriklik
deyilmi? 17 Çörək bir olduğu kimi biz
də çox olduğumuz halda bir bədənik.
Çünki hamımız bir çörəyi bölüb yeyirik.
18 [a]Soy-kökünə görə İsrail xalqına nəzər
salın: qurbanları yeyənlər qurbangaha
şərik deyilmi? 19 Beləcdirsə, mən nə
demək istəyirəm? Bütlərə təqdim
olunan qurban ətinin bir əhəmiyyəti
varmı? Yaxud bütlərin əhəmiyyəti
varmı? 20 [b]Xeyr, amma deyirəm ki,
bütpərəstlər qurbanlarını Allaha
yox, cinlərə gətirirlər. Cinlərlə şərik
olmanızı istəmirəm. 21 Siz həm Rəbbin
kasasından, həm də cinlərin kasasından
içə bilməzsiniz; həm Rəbbin, həm də
cinlərin süfrəsindən yeyə bilməzsiniz.
22 [c]Yoxsa Rəbbi qısqanclığa vadar
edirik? Məgər biz Ondan güclüyük?

İmanlının azadlığı

23 [d]«Hər şeyə icazə var» deyirsiniz,
amma hər şey xeyir vermir. «Hər
şeyə icazə var», lakin hər şey ruhən
inkişaf etdirmir. 24 Hər kəs öz xeyrini
yox, başqalarının xeyrini güdsün.
25 Ət bazarında nə satılırsa, vicdan
məsələsini qaldırmadan yeyin. 26 [e]Çünki
«Rəbbindir yer üzü və orada mövcud
olanlar». 27 Əgər imanlı olmayanlardan
biri sizi yeməyə dəvət edir və siz
getmək istəyirsinizsə, qabağınıza
nə qoysalar, vicdan məsələsini
qaldırmadan yeyin. 28 Amma biri sizə
desə ki, «bu, qurban ətidir», onda
həm sizə bunu deyənin xatirinə, həm
də vicdan xatirinə yeməyin.† 29 Mən
sizin vicdanınızı yox, başqasının
vicdanını nəzərdə tuturam. Axı nə üçün
mənim azadlığım başqasının vicdanı
ilə müəyyənləşdirilsin? 30 Əgər şükür

*10:9 *Məsihi* – bəzi əlyazmalarda *Rəbbi.*
†10:28 *Yeməyin* – bəzi əlyazmalarda *yeməyin. Çünki «Rəbbindir yer üzü və orada mövcud olanlar».*

[t]**10:5** Say. 14:29-30 [u]**10:6** Say. 11:4 [v]**10:7** Çıx. 32:6
[w]**10:8** Say. 25:1-18 [x]**10:9** Say. 21:5-6 [y]**10:10** Say. 16:41-49
[z]**10:16** Mat. 26:26-28; Mark 14:22-24; Luka 22:19-20 [a]**10:18** Lev. 7:6 [b]**10:20** Qanun. 32:17 [c]**10:22** Qanun. 32:21 [d]**10:23** 1Kor. 6:12 [e]**10:26** Zəb. 24:1

edərək yeməkdə iştirak edirəmsə, şükür
etdiyim yeməyə görə nə üçün mənə
şər atırlar? 31 Beləliklə, nə yeyirsinizsə,
nə içirsinizsə, nə edirsinizsə, hər şeyi
Allahın izzəti üçün edin. 32 Yəhudilərin,
Yunanların yaxud Allahın cəmiyyətinin
büdrəməsinə səbəb olmayın, 33 necə ki
mən də hər şeydə hər kəsi razı salmağa
çalışıram. Bunu öz xeyrim üçün yox,
çoxlarının xeyri üçün edirəm ki, onlar
da xilas olsunlar.

11 [f]Mən Məsihdən nümunə
götürdüyüm kimi siz də məndən
nümunə götürün.

Məsihçi nizam-intizamı

2 Hər işdə məni xatırladığınız və sizə
tapşırdığım təlimlərə sadiq qaldığınız
üçün sizi tərifləyirəm. 3 Bunu da
bilmənizi istəyirəm ki, hər kişinin başı
Məsih, arvadın başı ər, Məsihin başı
isə Allahdır. 4 Başına nə isə qoyub dua
yaxud peyğəmbərlik edən hər kişi öz
başını şərəfsiz edir. 5 Başıaçıq dua yaxud
peyğəmbərlik edən hər qadın da öz
başını şərəfsiz edir. Belə qadınla saçları
qırxılmış qadın arasında fərq yoxdur.
6 Əgər qadın başını örtmürsə, qoy
saçlarını qısa kəssin. Amma əgər qadın
üçün saçını qısa kəsməsi yaxud qırxması
ayıbdırsa, qoy başını örtsün. 7 [g]Beləliklə,
kişiyə Allahın surəti və izzəti olduğuna
görə başını örtmək olmaz. Qadınsa
kişinin izzətidir. 8 [h]Çünki kişi qadından
yox, qadın kişidən yarandı. 9 Kişi qadın
üçün yox, qadın kişi üçün yaradıldı.
10 Bu səbəbdən mələklərə görə qadının
başı üzərində ixtiyarı olmalıdır. 11 Hər
halda Rəbdə nə qadın kişidən, nə də
kişi qadından müstəqildir. 12 Çünki
qadın kişidən yarandığı kimi kişi də
qadın vasitəsilə yaranır və hər şey
Allahdan yaranır. 13 Özünüz qərara
gəlin, Allaha başıaçıq dua etmək qadına
yaraşarmı? 14 Məgər təbiətin özü sizə
kişinin saçı uzun olmasının özü üçün
hörmətsizlik, 15 qadının saçlarının uzun
olması isə onun üçün şərəf olduğunu
öyrətmir? Çünki qadına saç örtük kimi
verilib. 16 Bu barədə kim mübahisə
etmək istəyirsə, bilsin ki, bizim də,
Allahın cəmiyyətlərinin də belə bir adəti
yoxdur.

Rəbbin süfrəsinə aid təlimat

17 Sizin toplantılarınız xeyirdən çox
zərər gətirdiyinə görə aşağıda yazılan
əmrlərdən çıxış edərək sizi tərifləmirəm.
18 Çünki əvvəl eşitmişəm ki, cəmiyyətdə
yığılanda aranızda dəstəbazlıq
olur. Buna mən bir az da olsa,
inanıram. 19 Çünki Allahın sınaqdan
keçmiş adamları bəlli olsun deyə
aranızda firqələrə bölünmə olmalıdır!
20 Xüsusən bir yerə toplaşanda yediyiniz
Rəbbin süfrəsi deyil. 21 Çünki biriniz
o birisini gözləmədən süfrənizi
açırsınız və biri ac qalır, o birisi
isə sərxoş olur. 22 Yeyib-içmək üçün
evləriniz yoxdurmu? Bəlkə siz Allahın
cəmiyyətinə xor baxırsınız və yoxsulları
utandırmaq istəyirsiniz? Sizə nə deyim?
Sizi tərifləyimmi? Əsla! Bu işdə sizi
tərifləməyəcəyəm.

23 Çünki sizə çatdırdığım bu xəbəri
Rəbbin Özündən qəbul etmişəm: Rəbb
İsa Ona xəyanət edildiyi gecə əlinə
çörək götürdü, 24 şükür edib onu böldü
və dedi: «Bu* Mənim sizin üçün verilən†
bədənimdir. Bunu Məni xatırlamaq üçün
edin». 25 [i]Eləcə də axşam yeməyindən
sonra kasanı götürüb dedi: «Bu kasa

*11:24 *Bu* – bəzi əlyazmalarda *Alın və yeyin, bu* (Mat. 26:26).
†11:24 *Verilən* – bəzi əlyazmalarda *əzilən.*

[f]11:1 1Kor. 4:16; Fil. 3:17 [g]11:7 Yar. 1:26-27 [h]11:8 Yar. 2:18-23
[i]11:25 Çıx. 24:6-8; Yer. 31:31-34

Mənim qanımla bağladığım Yeni
Əhddir. Bunu hər dəfə içəndə Məni
xatırlamaq üçün edin». 26 Çünki hər
dəfə bu çörəyi yeyəndə və bu kasadan
içəndə siz Rəbbin gəlişinədək Onun
ölümünü bəyan edirsiniz.
27 Buna görə də kim layiq olmayan
tərzdə Rəbbin bu çörəyini yeyib yaxud
Onun kasasından içsə, Rəbbin bədəninə
və qanına qarşı təqsirkardır. 28 Bunun
əvəzinə qoy insan özünü yoxlasın və
sonra bu çörəkdən yeyib bu kasadan
içsin. 29 Çünki kim Rəbbin bədənini*
dərk etməmiş yeyib-içsə, yeyib-içərək
öz üzərinə mühakimə gətirir. 30 Bu
səbəbdən də bir çoxunuz zəif və
xəstədir, bəziləri isə vəfat etmişdir.
31 Əgər biz özümüzü düzgün dərk
etsəydik, mühakiməyə düşməzdik.
32 Rəbb bizi mühakimə edəndə dünya
ilə birlikdə məhkum olunmayaq deyə
bizi tərbiyə edir.
33 Beləliklə, qardaşlarım, yeməyə
toplaşanda bir-birinizi gözləyin. 34 Ac
olan varsa, qoy evində yesin ki,
toplantınız mühakiməyə çevrilməsin.
Qalan məsələləri isə özüm gələndə
nizama salacağam.

Ruhani ənamlar

12 Qardaşlar, indi isə ruhani
ənamlara gəlincə, bixəbər
olmağınızı istəmirəm. 2 Bilirsiniz ki, siz
bütpərəst olarkən necə tovlana-tovlana
dilsiz-ağızsız bütlərə tərəf yönəldiniz.
3 Buna görə sizi xəbərdar edirəm ki,
Allahın Ruhu vasitəsilə danışan heç kim
«İsaya lənət olsun» deməz və heç kim
Müqəddəs Ruh vasitəsi olmadan «İsa
Rəbdir!» deyə bilməz.
4 [j]Müxtəlif ənamlar var, amma Ruh
eynidir. 5 Müxtəlif növlü xidmətlər
var, amma Rəbb eynidir. 6 Müxtəlif
fəaliyyətlər də var, amma hamısını hər
adamda göstərən Allah eynidir. 7 Lakin
Ruh hər kəsə xeyri üçün aşkar olunur.
8 Birinə Ruh vasitəsilə hikmət sözü,
başqasına isə eyni Ruhla bilik sözü
verilir. 9 Digərinə isə eyni Ruh imanı,
o birisinə həmin Ruh şəfa ənamlarını
verir. 10 Birinə möcüzə yaratmaq,
başqasına peyğəmbərlik, digərinə
ruhları ayırd etmək qabiliyyəti, bir
başqasına müxtəlif dillərdə danışmaq,
o birisinə bu dilləri izah etmək ənamı
verilir. 11 Bunların hamısı tək və eyni
Ruhun fəaliyyətidir. Ruh bu ənamları
hər kəsə Öz istədiyi tərzdə paylayır.

İsa Məsihin bədəni barəsində

12 Bədən birdir və üzvləri çoxdur.
Bədən üzvləri çox olduğu halda bir
bədən təşkil edir. Məsih də belədir;
13 çünki istər Yəhudi, istər Yunan, istər
qul yaxud azad, hamımız bir bədən
olmaq üçün bir Ruhla vəftiz olunmuşuq
və hamımız eyni Ruhdan içirilmişik.
14 Bədən tək üzvdən deyil, çox üzvdən
ibarətdir. 15 Ayaq «mən əl olmadığıma
görə bədənə aid deyiləm» desə, bu
səbəbdən bədəndən kənar deyil.
16 Qulaq «mən göz olmadığıma görə
bədənə aid deyiləm» desə, bu səbəbdən
bədəndən kənar deyil. 17 Bütün bədən
gözdən ibarət olsaydı, necə eşidərdik?
Bütün bədən qulaq olsaydı, necə iy
bilərdik? 18 Amma Allah istədiyi tərzdə
bədən üzvlərinin hər birini bədəndə
yerləşdirdi. 19 Əgər hamısı bir üzv
olsaydı, bədən nə vəziyyətdə qalardı?
20 Doğrudan da, üzv çox, bədən isə
birdir. 21 Göz ələ «sən mənə lazım
deyilsən» və yaxud baş da ayaqlara
«siz mənə lazım deyilsiniz» deyə

---

*11:29 *Rəbbin bədənini* – hərfi tərcümədə *bədəni,* bəzi əlyazmalarda *layiq olmayan tərzdə Rəbbin bədənini.*

[j]12:4 Rom. 12:4-8

bilməz. 22 Əksinə, bədənin daha zəif
görünən üzvləri daha çox lazımlıdır,
23 dəyəri az saydığımız bədən üzvlərini
daha çox dəyərləndiririk, görünməyən
üzvlərimizə də xüsusi qayğı göstəririk.
24 Görünən üzvlərimizin isə buna
ehtiyacı yoxdur. Lakin Allah aşağı
tutulan üzvü daha çox dəyərləndirərək
bədəni elə düzəltdi ki, 25 bədəndə
ayrı-seçkilik olmasın, əksinə, bütün
üzvlər bir-birinə eyni qayğı göstərsin.
26 Buna görə əgər bir üzv əzab çəkirsə,
başqaları da onunla birgə əzab çəkir.
Üzvlərdən biri şərəfə çatırsa, başqaları
da onunla birgə sevinir.
27 Siz də Məsihin bədənisiniz,
ayrı-ayrılıqda isə bu bədənin
üzvlərisiniz. 28 [k]Allah imanlılar
cəmiyyətində birinci yerdə həvarilər,
ikinci yerdə peyğəmbərlər, üçüncü
yerdə də müəllimlər təyin etdi.
Sonra bəzilərinə möcüzə yaratmağı,
habelə şəfa ənamlarını, yardımçılığı,
idarəçiliyi, müxtəlif dillərdə danışmağı
verdi. 29 Hamı həvaridirmi? Hamı
peyğəmbərdirmi? Hamı müəllimdirmi?
Hamı möcüzə yarada bilirmi?
30 Hamının şəfa ənamları varmı? Hamı
naməlum dillərdə danışırmı? Hamı belə
dilləri izah edə bilirmi? 31 Amma daha
böyük ənamları səylə istəyin. İndi isə
sizə bundan da əla yol göstərəcəyəm.

Məhəbbətin qüdrəti

13 Əgər mən insan və mələk
dilləri ilə danışıramsa, lakin
məhəbbətim yoxdursa, cingildəyən
mis və ya danqıldayan sincəm. 2 [l]Əgər
peyğəmbərlik ənamım varsa, bütün
sirləri və hər cür biliyi dərk edirəmsə,
dağları yerindən tərpədəcək dərəcədə
tam imanım varsa, amma məhəbbətim
yoxdursa, mən bir heçəm. 3 Əgər bütün
var-dövlətimi paylayıb yoxsulları
doyduraramsa və bədənimi oda* təslim
edərəmsə, lakin məhəbbətim yoxdursa,
bunun mənə heç bir xeyri yoxdur.
4 Məhəbbət səbirli, xeyirxahdır.
Məhəbbət paxıllıq etməz, öyünməz,
lovğalanmaz, 5 kobudluq etməz, öz
xeyrini güdməz, hirslənməz, ona edilən
pislikləri sayıb-hesablamaz. 6 Məhəbbət
haqsızlığa sevinməz, həqiqətə isə
şadlanar. 7 O hər şeyə qatlaşar, hər şeyə
inanar, hər şeyə ümid bəsləyər, hər şeyə
dözər.
8 Məhəbbət əsla tükənməz. Amma
peyğəmbərliklər sona çatacaq, dillər
ənamı da qurtaracaq, bilik də aradan
qalxacaq. 9 Çünki biliyimiz məhdud,
peyğəmbərliyimiz də məhduddur.
10 Kamillik gələndə məhdud olan aradan
qalxacaq. 11 Mən körpə olanda körpə
kimi danışır, körpə kimi dərk edir,
körpə kimi düşünürdüm. Boya-başa
çatdıqda isə körpə fikirlərimi tərk
etdim. 12 İndi biz güzgüdəki kimi tutqun
görürük, o zaman isə üzbəüz görəcəyik.
İndi biliyim məhduddur, o zaman isə
haqqımda hər şey bilindiyi kimi mən
də hər şeyi biləcəyəm. 13 İndi isə üç şey
qalır: iman, ümid, məhəbbət. Amma
bunların arasında məhəbbət üstündür.

Naməlum dillər və peyğəmbərlik ənamları

14 Məhəbbətin ardınca gedin
və ruhani ənamları, xüsusilə,
peyğəmbərlik ənamını səylə istəyin.
2 Çünki naməlum dildə danışan,
adamlarla yox, Allahla danışır. Onu
heç kim başa düşmür. O, Ruh vasitəsilə
sirlər söyləyir. 3 Peyğəmbərlik edənsə
adamlarla onları ruhən inkişaf etdirmək,
həvəsləndirmək və təsəlli vermək üçün
danışar. 4 Naməlum dildə danışan özünü

---

*13:3 *Bədənimi oda* – bəzi əlyazmalarda *öyünmək üçün bədənimi ölümə.*

[k]12:28 Ef. 4:11 [l]13:2 Mat. 17:20-21; 21:21; Mark 11:23

inkişaf etdirir, peyğəmbərlik edənsə
cəmiyyəti inkişaf etdirir. 5 İstərdim ki,
hamınız dillərdə danışasınız, daha yaxşı
olar ki, peyğəmbərlik edəsiniz. Çünki
cəmiyyətin inkişafı üçün peyğəmbərlik
edən insan dillərdə danışan və izah
etməyən insandan üstündür.
6 İndi isə, qardaşlar, yanınıza gəlib
dillərdə danışsam, amma nazil olan
sözü, bilik, peyğəmbərlik yaxud təlim
sözünü sizə deməsəm, sizə nə xeyrim
dəyər? 7 Tütək ya da çəng kimi cansız
alətlər fərqli səslər çıxarmazsa, eşidən
nə çalındığını necə bilər? 8 Əgər şeypur
aydın olmayan səs çıxararsa, döyüşə
kim hazırlaşar? 9 Eyni tərzdə də əgər siz
dilinizlə anlaşılan sözlər söyləməsəniz,
dediyinizi necə başa düşərlər? Siz
havaya danışmış olursunuz! 10 Şübhəsiz,
dünyada bir çox cürbəcür danışıqlar
var və onlardan heç biri mənasız deyil.
11 Amma söylənilən danışığın mənasını
bilmirəmsə, mən danışan üçün yadelli
oluram, danışan da mənə yadelli olur.
12 Eləcə siz də ruhani ənamları səylə
istədiyiniz üçün cəmiyyəti inkişaf
etdirən ənamlarda üstün olmağa çalışın.
13 Bu səbəbdən də naməlum dildə
danışan öz dediklərini izah edə bilməsi
üçün dua etsin. 14 Çünki əgər mən
naməlum dildə dua edirəmsə, ruhum
dua edir, amma şüurum bəhrəsiz
qalır. 15 Bəs mən nə edim? Ruhən
də, şüurlu surətdə də dua edəcəyəm,
ruhən də, şüurlu surətdə də ilahi
oxuyacağam. 16 Təlim öyrənməmiş
adamın vəziyyətini nəzərə al. Sən yalnız
ruhən şükür duası edirsənsə, o sənin
şükranına necə «Amin!» desin? Axı sənin
nə dediyini başa düşmür. 17 Əlbəttə, sən
yaxşı şükür edirsən, amma bu adam
inkişaf edə bilməz. 18 Mən dillərdə
hamınızdan çox danışdığım üçün Allaha
şükür edirəm. 19 İmanlılar cəmiyyətində
isə naməlum dildə minlərlə söz
deməkdənsə başqalarını öyrətmək üçün
şüurlu surətdə beş kəlmə deməyi üstün
tuturam.
20 Qardaşlar, əqlən uşaq olmayın.
Pisliyə münasibətdə körpə olun, amma
əqlən yetkin olun. 21 [m]Qanunda yazılıb:
«Rəbb deyir:
“Bu xalqla yadellilərin ağzı ilə,
Başqalarının dilləri ilə danışacağam.
Amma onlar hətta o vaxt məni
eşitmək istəməyəcəklər”».
22 Beləliklə, naməlum dillər iman
edənlər üçün deyil, imansızlar üçün
bir əlamətdir. Peyğəmbərlik isə iman
etməyənlər üçün deyil, imanlılar
üçündür. 23 Əgər bütün cəmiyyət
bir yerdə toplaşıb, hamı naməlum
dillərdə danışmağa başlayarsa və
təlim öyrənməmiş adamlar yaxud
iman etməyənlər oraya girərlərsə,
deməzlər ki, siz ağlınızı itirmisiniz?
24 Amma hamı peyğəmbərlik edirsə
və oraya iman etməyən yaxud təlim
öyrənməmiş adam girirsə, o hamı
tərəfindən inandırılacaq, hər sözlə
özünü araşdıracaq. 25 Ürəyindəki gizli
fikirlər aşkara çıxacaq və o üzüstə yerə
döşənib Allaha səcdə edəcək və «Allah,
həqiqətən, aranızdadır!» deyib nida
edəcək.

Düzgün ibadət

26 Bəs onda nə deyək, ey qardaşlar?
Toplaşanda hər birinizin bir ilahisi, bir
dərsi, bir nazil olan sözü, bir naməlum
dildə sözü, bir izahı var. Qoy bunlar
hamısı bir-birinizin inkişafı üçün olsun.
27 Əgər kimsə naməlum dildə danışırsa,
iki yaxud ən çox üç adam növbə
ilə danışsın, bir nəfər də izah etsin.
28 Əgər izah edən yoxdursa, naməlum
dildə danışan cəmiyyətdə sussun,
yalnız özü ilə və Allahla danışsın.

---

[m]**14:21** Yeş. 28:11-12

29 İki ya üç peyğəmbər danışsın,
başqaları isə onların dediklərini
ayırd etsin. 30 Əgər oturanlardan
birinə nazil olan söz gələrsə, ilk
danışan sussun. 31 Çünki hamınız
bir-birinizin ardınca peyğəmbərlik edə
bilərsiniz ki, hamınız təlim öyrənib
ruhlanasınız. 32 Peyğəmbərlərin ruhları
da peyğəmbərlərə tabe olur. 33 Çünki
Allah qarışıqlıq deyil, sülh qaynağıdır.
Müqəddəslərin bütün cəmiyyətlərində
belədir.
34 Qadınlar cəmiyyət toplantılarında
sussun, çünki onlara danışmağa icazə
verilmir; onlar Qanunun da buyurduğu
kimi tabe olsunlar. 35 Öyrənmək
istədikləri bir şey varsa, evdə ərlərindən
soruşsunlar. Çünki qadına cəmiyyətdə
danışmaq ayıbdır.
36 Məgər Allahın kəlamı siz
Korinflilərdən qaynaqlandı, yoxsa yalnız
sizə çatdı? 37 Kim özünü peyğəmbər
və ya ruhani hesab etsə, qoy bilsin
ki, sizə yazdıqlarım Rəbbin əmridir.
38 Kim buna əhəmiyyət verməsə, ona da
əhəmiyyət verilməyəcək. 39 Beləliklə,
qardaşlarım, peyğəmbərlik etməyi səylə
istəyin və naməlum dillərdə danışmağa
da mane olmayın. 40 Amma qoy hər şey
ədəblə və intizamla edilsin.

Məsihin dirilməsinin mühümlüyü

15 İndi, qardaşlar, sizə bəyan
etdiyim və qəbul edib
əsaslandığınız Müjdəni yadınıza
salmaq istəyirəm. 2 Əgər sizə bəyan
etdiyim sözə bağlanmısınızsa, o Müjdə
ilə də xilas olmaqdasınız, yoxsa əbəs
yerə iman etmisiniz. 3 [n]Özümün də
qəbul etdiyim bu ən əhəmiyyətli təlimi
sizə çatdırdım: Müqəddəs Yazılara
uyğun olaraq, Məsih günahlarımız
üçün öldü, 4 dəfn olundu və Müqəddəs
Yazılara uyğun olaraq, üçüncü gün
dirildi. 5 [o]O əvvəl Kefaya, sonra On
İki şagirdə göründü. 6 Bundan sonra
beş yüzdən çox bacı-qardaşa eyni
anda göründü. Bu bacı-qardaşlardan
çoxu indi də yaşayır, bəziləri isə vəfat
etmişdir. 7 [p]Məsih daha sonra Yaquba,
sonra bütün həvarilərə göründü.
8 Hamıdan sonra isə vaxtından əvvəl
doğulmuş bir uşağa bənzəyən mənə də
göründü. 9 [q]Çünki mən həvarilərin ən
kiçiyiyəm və Allahın cəmiyyətini təqib
etdiyim üçün həvari adlanmağa layiq
deyiləm. 10 Amma indi hər nəyəmsə,
Allahın lütfü ilə eləyəm. Onun mənə
göstərdiyi lütf əbəs deyildi, çünki
mən hamıdan çox zəhmət çəkdim.
Əslində mən yox, Allahın mənimlə
birgə fəaliyyətdə olan lütfü bu zəhməti
çəkdi. 11 Beləcə istər mən, istərsə də
onlar bu cür vəz edirik; siz də belə iman
etmisiniz.

Ölülərin dirilməsi

12 Əgər Məsih haqqında vəz olunursa
ki, O, ölülər arasından dirildi, sizlərdən
bəzisi ölülərin dirilməsinin olmadığını
necə söyləyə bilər? 13 Əgər ölülərin
dirilməsi yoxdursa, Məsih də dirilməyib.
14 Əgər Məsih dirilməyibsə, onda həm
bizim vəzimiz puç, həm də sizin
imanınız puçdur. 15 Belə halda Allah
barədə yalançı şahid olduğumuz da
aşkara çıxacaq. Çünki biz Allah barədə
şəhadət etdik ki, O, Məsihi diriltdi.
Amma ölülər dirilməzsə, Allah Məsihi
də diriltmədi. 16 Çünki əgər ölülər
dirilməzsə, Məsih də dirilməyib. 17 Əgər
Məsih dirilməyibsə, imanınız da əbəsdir,
siz hələ günahlarınızın içindəsiniz.
18 Onda Məsihdə vəfat edənlər əbədilik
öldülər. 19 Əgər yalnız bu həyat üçün

---

[n]**15:3** Zəb. 16:8-10; Yeş. 53:5-12; Mat. 12:40; Həv. 2:24-32 [o]**15:5** Mat. 28:16-17; Mark 16:14; Luka 24:34,36; Yəh. 20:19 [p]**15:7** Həv. 9:3-6 [q]**15:9** Həv. 8:3

Məsihə ümid bağlamışıqsa, biz hamıdan
yazığıq.
20 Əslində Məsih ölülər arasından,
vəfat edənlərin ilki olaraq dirildi.
21 Ölüm bir insan vasitəsilə gəldiyinə
görə ölülərin dirilməsi də bir İnsan
vasitəsilə gəlir. 22 Adəmdə hamı
öldüyü kimi Məsihdə də hamı həyata
qovuşacaq. 23 Hər biri öz növbəsi ilə
– ilk növbədə Məsih, sonra Məsihin
zühurunda Məsihə məxsus olanlar
həyata qovuşar. 24 Bundan sonra
O hər başçını, hər hakimi və hər
qüvvəni aradan götürüb Padşahlığı
Ata Allaha təslim edəcəyi zaman hər
şey tamamlanacaq. 25 [r]Çünki Allah
Onun bütün düşmənlərini ayaqlarının
altına salanadək O, padşahlıq etməlidir.
26 Aradan götürüləcək son düşmən isə
ölümdür. 27 [s]Çünki Allah «hər şeyi Onun
ayağının altına qoydu». Amma Məsihə
hər şey tabe oldu deyiləndə aydın olur
ki, hər şeyi Ona tabe etdirən Allah
buraya daxil deyil. 28 Hər şey Oğula
tabe olandan sonra Oğul Özü də Ona
hər şeyi tabe etdirən Ataya tabe olacaq
ki, Allah hər şeydə hər şey olsun.
29 Yoxsa ölülər uğrunda vəftiz
olunanlar nə edəcək? Əgər ölülər
heç vaxt dirilməsə, insanlar ölülər
uğrunda niyə vəftiz olunur? 30 Biz də
nə üçün hər an təhlükələrə uğrayırıq?
31 Ey qardaşlar, Rəbbimiz Məsih İsada
sizinlə etdiyim fəxrin haqqı üçün
mən hər gün ölümlə qarşılaşıram.
32 [t]Adi insanların bəslədiyi ümidlərlə
Efesdə vəhşi heyvanlarla mübarizə
aparmağımın mənə xeyri nə idi? Əgər
ölülər dirilməzsə, «qoy yeyib-içək, çünki
sabah öləcəyik!» 33 Aldanmayın:
«Pis adamlarla ünsiyyət yaxşı əxlaqı
pozur».*
34 Ayılın, saleh olun, daha günaha
batmayın. Axı bəzilərinizin Allah
barəsində heç nə bilmir. Utanasınız
deyə bunu yazıram.

Dirilmədən sonrakı bədən

35 Lakin bir nəfər belə deyə bilər:
«Ölülər necə diriləcək? Onlar nə cür
bədənlə gələcəklər?» 36 Ey ağılsız
insan! Sənin əkdiyin toxum ölməsə,
həyata qovuşmaz! 37 Əkərkən hasil
olacaq bədəni deyil, yalnız toxumu
– bəlkə buğdanın ya digər bitkinin
toxumunu əkirsən. 38 Amma Allah
o toxuma istədiyi quruluşu verir. O
hər bir bitən toxuma özünə məxsus
quruluş verir. 39 Hər canlı məxluqun
əti eyni deyil. İnsan əti başqa, heyvan
əti başqa, quş əti başqa, balıq əti
başqadır. 40 Səma cisimləri var, dünya
cisimləri də var. Amma səmavi olanların
ehtişamı başqa, dünyəvi olanların da
başqadır. 41 Günəşin ehtişamı başqa,
ayın ehtişamı başqa, ulduzların ehtişamı
başqadır. Ulduz da digər ulduzdan
ehtişamına görə fərqlənir.
42 Ölülərin dirilməsi də belədir. Əkilən
toxum çürüyər, ondan əmələ gəlib
dirilən bədən çürüməz; 43 əkilən toxum
hörmətsiz, dirilən bədən izzətlidir;
əkilən toxum zəif, dirilən bədən
qüvvətlidir; 44 əkilən toxum təbii,
dirilən bədən ruhanidir. Təbii bədən
varsa, ruhani bədən də var. 45 [u]Necə ki
yazılıb: ilk insan Adəm «canlı bir varlıq
oldu». Sonuncu Adəm isə həyat verən
ruh oldu. 46 Amma ilkin ruhani deyil,
təbii bədəndir. Ruhani isə sonra gəlir.
47 İlk insan yerin torpağından, ikinci

---

*15:33 Bu sitat yunan dramaturqu Menandrın «Tais» komediyasındandır.

[r]15:25 Zəb. 110:1 [s]15:27 Zəb. 8:6 [t]15:32 Yeş. 22:13 [u]15:45 Yar. 2:7

İnsan göydən yarandı.* 48 Torpaqdan
yaranan adam necədirsə, torpaqdan
yarananlar da elədir; səmavi Adam
necədirsə, səmavilər də elədir. 49 Biz
torpaqdan yarananın surətini necə
gəzdiririksə, səmavi Olanın surətini də
elə gəzdirəcəyik.
50 Ey qardaşlar, bunu demək istəyirəm
ki, ət və qan Allahın Padşahlığını
irs olaraq ala bilməz, eləcə də
çürüyən bədən çürüməzliyi irs olaraq
almaz. 51 [v]Baxın sizə bir sirr açmaq
istəyirəm: hamımız vəfat etməyəcəyik,
52 amma son şeypur çalınanda bir
andaca, bir göz qırpımındaca hamımız
dəyişiləcəyik. Çünki şeypur çalınacaq,
ölülər çürüməzliklə diriləcək, bizsə
dəyişiləcəyik. 53 Çünki bu çürüyən
bədən çürüməzliyə, bu ölümə düçar
olan bədən ölməzliyə bürünməlidir.
54 [w]Çürüyən bədən çürüməzliyə və
ölümə düçar olan bədən ölməzliyə
büründükdə

«Ölüm yox edildi,
Onun üzərində qələbə çalındı!»

deyə yazılmış söz yerinə yetəcək.
55 [x]«Ey ölüm, qələbən hanı?
Ey ölüm, neştərin hanı?»†
56 Ölümün neştəri günahdır, günah isə
gücünü Qanundan alır. 57 Rəbbimiz İsa
Məsih vasitəsilə bizə qələbə bəxş edən
Allaha şükür olsun!
58 Beləliklə, ey sevimli qardaşlarım,
Rəbdə çəkdiyiniz zəhmətin boşa
çıxmayacağını bilərək möhkəm durun,
sarsılmayın, hər zaman Rəbbin işində
səylə çalışın.

İanələr haqqında

16 [y]İndi isə müqəddəslər‡ üçün
ianələr yığmağa gəlincə, Qalatiya
cəmiyyətlərinə necə buyurmuşamsa, siz
də elə edin. 2 Hər həftənin birinci günü§
hamınız qazancınıza görə müəyyən
miqdarda pul ayırıb saxlayın ki, mən
yanınıza gələndə ianə yığmağa ehtiyac
qalmasın. 3 Oraya çatanda ianələrinizi
Yerusəlimə çatdırmaq üçün seçdiyiniz
adamları məktublarla göndərəcəyəm.
4 Əgər mənə də getmək məsləhət olsa,
onlar mənimlə gedər.

Paulun səyahət niyyətləri

5 [z]Mən Makedoniyadan keçəndən
sonra yanınıza gələcəyəm, çünki
Makedoniyadan keçmək niyyətindəyəm.
6 Bəlkə də yanınızda bir az qalacağam,
hətta qışı da keçirəcəyəm ki, siz məni
gedəcəyim yerlərə yola salasınız. 7 Çünki
mən sizinlə ötəri görüşmək istəmirəm.
Rəbbin izni ilə yanınızda bir müddət
qalmağa ümid edirəm. 8 [a]Efesdə isə
Əllinci Gün bayramınadək** qalacağam.
9 Çünki mənə fəal iş üçün geniş qapı
açılıb. Mənə qarşı çıxanlar da çoxdur.
10 [b]Timotey nə vaxt yanınıza gəlsə,
aranızda olanda onun heç bir şeydən
qorxmamasına diqqət yetirin, çünki o

---

*15:47 *Torpağından, ikinci İnsan göydən yarandı* – bəzi əlyazmalarda *torpağından yarandı, ikinci İnsan göydən yaranan Rəbdir.*

†15:55 *Ey ölüm, qələbən hanı? Ey ölüm, neştərin hanı?* – bəzi əlyazmalarda *Ey ölüm, neştərin hanı? Ey ölülər diyarı, qələbən hanı?*

‡16:1 *Müqəddəslər* – yəni Yerusəlimdə yaşayan, İsaya inanan yoxsul Yəhudilər.

§16:2 *Həftənin birinci günü* – yəni bazar günü.

**16:8 *Əllinci Gün bayramı* – yunan mətnində *pentikosti* sözü olub Pasxa bayramından sonra əllinci gün qeyd edilir. Bax Həv. 2:1.

[v]**15:51** 1Sal. 4:15-17 [w]**15:54** Yeş. 25:8 [x]**15:55** Huşə 13:14
[y]**16:1** Rom. 15:25-26 [z]**16:5** Həv. 19:21
[a]**16:8** Lev. 23:15-21; Qanun. 16:9-11; Həv. 19:8-10 [b]**16:10** 1Kor. 4:17

da mənim kimi Rəbbin işini görür. 11 Bu
səbəbə görə də qoy heç kim ona xor
baxmasın. Fəqət onu əmin-arxayın yola
salın ki, o yanıma gələ bilsin. Çünki
mən qardaşlarla birgə onu gözləyirəm.
12 Apollo qardaşa gəlincə, mən ondan
çox xahiş etdim ki, qardaşlarla birgə
yanınıza getsin, amma o indi heç bir
vasitə ilə getmək istəmir. Ona münasib
olan vaxt gedəcək.

Son xahişlər

13 Ayıq olun, imanda sabit durun,
mərd və möhkəm olun. 14 Qoy etdiyiniz
hər bir əməl məhəbbətlə olsun.
15 [c]Qardaşlar, sizdən bir xahişim
var. Siz Stefananın ailəsini tanıyırsınız
və bilirsiniz ki, onlar Axayyanın
ilk imanlılarıdır. Onlar özlərini
müqəddəslərin xidmətinə həsr etmişlər.
16 Siz də belə adamlara və onlarla
birlikdə çalışan və zəhmət çəkən hər
kəsə tabe olun. 17 Stefana, Fortunat və
Axaikin gəlməsinə sevinirəm, çünki
onlar gələndə sizin üçün darıxmağımı
unutdum. 18 Onlar sizin kimi mənim də
ruhumu təzələdilər. Belələrinin qədrini
bilin.

Salam göndərmə

19 [d]Sizi Asiya vilayətinin cəmiyyətləri
salamlayır.
Akila və Priskila öz evlərində toplaşan
cəmiyyətlə birlikdə Rəbbin ismi ilə sizə
çoxlu salam göndərirlər.
20 Bütün bacı-qardaşlar sizə salam
göndərir. Bir-birinizi müqəddəs öpüşlə
salamlayın.
21 Mən Paul bu salamı öz əlimlə
yazıram. 22 Rəbbi sevməyənə lənət
olsun. Marana ta![*] 23 Rəbbimiz
İsanın lütfü sizə yar olsun! 24 Mənim
məhəbbətim Məsih İsada olan hamınızla
olsun!

---

[*]**16:22** *Marana ta* – arami dilində *Rəbbimiz, gəl!*

[c]**16:15** 1Kor. 1:16 [d]**16:19** Həv. 18:2-3

PAULUN

KORİNFLİLƏRƏ İKİNCİ MƏKTUBU

GİRİŞ

Paulun *«Korinflilərə İkinci Məktubu»* onun Korinf imanlılar cəmiyyəti ilə çətin münasibətlərdə olduğu vaxt yazılıb. Cəmiyyətin bəzi üzvləri Paula qarşı ciddi ittihamlar irəli sürürdü, amma o, səmimi qəlbdən barışmağa can atır, bu sərt münasibətlər tövbə və barışıqla nəticələnəndə isə sevincini büruzə verirdi. Sonra o, cəmiyyətdən xahiş etdi ki, Yəhudeyadakı imanlılara maddi yardım göstərsinlər. Son fəsillərdə Paul öz həvari xidmətini müdafiə edir, çünki Korinfdə bir neçə adam özlərinin həqiqi həvari olduqlarını bildirərək Paulu saxta həvari olmaqda ittiham edirdilər.

Kitabın məzmunu:

1:1-11 Giriş

1:12–7:16 Paul və Korinfdəki cəmiyyət

8:1–9:15 Yəhudeya cəmiyyəti üçün ianələr

10:1–12:21 Paulun müdafiəsi

13:1-13 Tövsiyə və salamlar

1 [e]Allahın iradəsi ilə Məsih İsanın həvarisi mən Paul və Timotey qardaşdan Allahın Korinfdə olan cəmiyyətinə və bütün Axayyadakı müqəddəslərə salam! [2] Atamız Allahdan və Rəbb İsa Məsihdən sizə lütf və sülh olsun!

Təsəlli mənbəyi olan Allah

[3] Rəbbimiz İsa Məsihin Allahına – Atasına alqış olsun! O, rəhmli Ata və hər cür təsəlli verən Allahdır. [4] Çəkdiyimiz hər bir əziyyətdə O bizə təsəlli verir ki, biz də Allahdan aldığımız təsəlli ilə hər cür əziyyət çəkənlərə təsəlli verə bilək. [5] Çünki Məsihin əzablarını necə böyük həcmdə çəkiriksə, Məsih vasitəsilə o cür böyük təsəlli də tapırıq. [6] Əziyyət çəkiriksə, bu sizə təsəlli və xilas gətirir. Təsəlli tapırıqsa, bu da bizim kimi çəkdiyiniz əzablara dözəsiniz deyə sizə güc verən bir təsəlli almanız üçündür. [7] Sizinlə bağlı ümidimiz sarsılmaz. Çünki əzablarımıza şərik olduğunuz kimi təsəllimizə də şərik olduğunuzu bilirik.

[8] [f]Ey qardaşlar, Asiya vilayətində çəkdiyimiz əziyyətlərdən bixəbər olmağınızı istəmirəm. Gücümüzdən daha artıq bir yük altında qaldıq. Hətta yaşamaqdan belə, ümidimizi kəsmişdik. [9] Daxilən hiss etdik ki, ölümə məhkum olmuşuq. Amma bu özümüzə deyil, ölüləri dirildən Allaha güvənməyimiz üçün başımıza gəldi. [10] Allah bizi belə bir böyük ölüm təhlükəsindən qurtardı və qurtarmaqda davam edəcək. Ümidimizi Ona bağlamışıq [11] və siz də dualarınızla bizə kömək etdikcə bizi yenə qurtaracaq. Belə ki bir çox insanın etdiyi dua nəticəsində bizə verdiyi ənamdan ötrü qoy çoxları bizim üçün Allaha şükür etsin.

Paulun gecikən səyahəti

[12] Vicdanımız da şahiddir ki, dünyaya, xüsusən sizə görə bəşəri müdrikliklə deyil, Allahın lütfü ilə, Allahdan gələn səxavət* və səmimiyyətlə həyat sürmüşük. Biz buna görə fəxr edirik. [13–14] Biz elə bir şey yazmırıq ki, siz oxuyub başa düşə bilməyəsiniz. Hələlik bizi bir az başa düşmüsünüz. Rəbbimiz İsa Məsihin günündə bizim fəxrimiz siz olduğunuz kimi sizin də fəxriniz biz

---

*__1:12__ *Səxavət* – bəzi əlyazmalarda *müqəddəslik.*

[e]**1:1** Həv. 18:1 [f]**1:8** 1Kor. 15:32

olacağıq. Ümidvaram ki, bunu tamam
başa düşəcəksiniz.
15 [g]Buna əmin olub əvvəlcə yanınıza
gəlmək niyyətində idim ki, ikiqat
xeyir* tapasınız. 16 Həm Makedoniyaya
gedəndə, həm də Makedoniyadan
qayıdanda yanınıza gəlmək niyyətində
oldum. Bundan sonra siz məni
Yəhudeyaya yola salmalı idiniz. 17 Bu
niyyətdə olanda görəsən qərarsız
idimmi? Ya da niyyətlərim cismani
təbiətimdən doğur ki, gah «bəli,
bəli», gah da «xeyr, xeyr» deyim?
18 Allahın sədaqətinə and olsun ki, sizə
çatdırdığımız xəbər gah «bəli», gah
da «xeyr» deyil. 19 [h]Sila və Timoteylə
birlikdə sizə vəz etdiyimiz Allahın
Oğlu İsa Məsih həm «bəli», həm də
«xeyr» deyil. Onda yalnız «bəli» var.
20 Çünki Allahın bütün vədləri İsa
Məsihdə «bəli»dir. Buna görə Allahın
izzəti üçün Məsih vasitəsilə «Amin»
deyirik. 21 Bizi sizlərlə birlikdə Məsihə
möhkəm bağlayan və bizi məsh edən
Allahdır. 22 O bizi möhürlədi və Ruhunu
qəlbimizdə girov qoydu.
23 Allah şahidimdir, canıma and olsun
ki, indiyədək sizə qıymadığım üçün
Korinfə gəlmədim. 24 İmanınıza ağalıq
etmək istəmirik, sevinməniz üçün
sizinlə birgə çalışırıq. Çünki imanda
dönməz dayanmısınız.
2 Mən sizi kədərləndirməmək üçün
qərara aldım ki, yenə yanınıza
gəlməyim. 2 Çünki sizi kədərləndirsəm,
kədərləndirdiyim sizlərdən başqa məni
kim şadlandıracaq? 3 Bunu yazmışdım
ki, gəldiyim zaman məni sevindirəsi
insanlar kədərləndirməsin. Hamınıza
inanıram ki, mənim sevincim hər
birinizin sevincidir. 4 Kədərləndirmək
üçün deyil, sizə bəslədiyim hədsiz
məhəbbəti dərk edəsiniz deyə sizə
böyük əziyyət, ürək ağrısı və göz yaşları
içində yazdım.

Günahkarı bağışlamaq

5 Əgər kimsə kədər gətiribsə,
şişirtmədən deyim ki, mənə deyil,
haradasa hamınıza kədər gətirib.
6 Beləsinə ictimaiyyətin verdiyi bu
cəza bəsdir. 7 Hədsiz kədərə qərq
olmasın deyə yaxşı olar ki, o insanı
indi bağışlayasınız və təsəlli verəsiniz.
8 Buna görə sizdən xahiş edirəm ki,
yenidən ona məhəbbət göstərin. 9 Bunu
da sizə yazdım ki, hər vəziyyətdə sizin
itaətli olmağınızı yoxlayım. 10 Kimi
bağışlasanız, mən də bağışlayaram.
Əgər mən bir şeyi bağışlamışamsa,
Məsihin hüzurunda sizin xeyriniz üçün
bağışlamışam ki, 11 Şeytan bizdən
mənfəət qazanmasın. Çünki onun
niyyətlərindən xəbərsiz deyilik.

Yeni Əhdin xidmətçiləri

12 [i]Məsihin Müjdəsini yaymaq
məqsədi ilə Troasa gələndə Rəbdən
mənim üçün bir qapı açıldı. 13 Amma
qardaşım Titi orada tapmayanda ürəyim
narahat oldu. Ona görə oradakılarla
xudahafizləşib Makedoniyaya gəldim.
14 Bizi həmişə Məsihin zəfər
təntənəsində addımladan, Onu
tanımaqdan yaranan ətri bizim
vasitəmizlə hər tərəfə yayan Allaha
şükür olsun! 15 Çünki biz həm xilas,
həm də həlak olanlar arasında Allaha
xoş olan Məsih ətriyik. 16 Həlak olanlar
üçün ölümə aparan ölüm qoxusu,
xilas olanlar üçünsə həyata aparan
həyat ətriyik. Belə bir iş üçün kim
yararlıdır? 17 Axı biz çoxları kimi Allah
kəlamının alverçiləri deyilik; əksinə,
Allah tərəfindən göndərilib Allahın

---

*1:15 *Xeyir* – bəzi əlyazmalarda *sevinc.*

[g]1:15 Həv. 19:21 [h]1:19 Həv. 18:5 [i]2:12 Həv. 20:1

hüzurunda, Məsihdə olaraq səmimi
qəlbdən danışırıq.
3 Özümüz barədə yenə zəmanət
veririkmi? Yoxsa bəziləri kimi
sizə yazılan və yaxud sizin yazdığınız
zəmanət məktublarına ehtiyacımız var?
2 Bütün insanların tanıdığı, oxuduğu,
ürəklərimizə yazılmış məktubumuz
sizsiniz. 3 [j]Xidmətimizin nəticəsi olan
bir Məsih məktubu olduğunuz aydın
görünür; bu məktub mürəkkəblə
yox, var olan Allahın Ruhu ilə daş
lövhələrə deyil, ət ürəklərə yazılıb.
4 Məsih sayəsində Allah hüzurunda
belə etibarımız var. 5 Özümüzdən
yaranan qabiliyyətimiz yoxdur və bunu
iddia da edə bilmərik. Bizə qabiliyyət
verən Allahdır. 6 [k]O bizi Yeni Əhdin
xidmətçiləri olmaq üçün qabiliyyətli
etdi. Bu Yeni Əhd yazılı Qanuna deyil,
Ruha əsaslanır. Çünki yazılı Qanun
öldürür, Ruh isə həyat verir.

Yeni Əhdin ehtişamı

7 [l]Ölümlə nəticələnən xidmət, yəni
daş lövhələr üzərində həkk olunan yazılı
Qanun elə ehtişamla gəldi ki, Musanın
üzündən parlayan ehtişam ötəri olduğu
halda İsrail övladları onun üzünə baxa
bilmirdilər. 8 Onda Ruha əsaslanan
xidmət daha da ehtişamlı olmazmı?
9 Əgər insanı məhkum edən xidmətin
ehtişamı varsa, salehlik qazandıran
xidmətin ehtişamı nə qədər çoxdur.
10 Çünki əvvəllər ehtişamlı olanın indi
hədsiz ehtişamı olanla müqayisədə
ehtişamı yoxdur. 11 Əgər ötəri olan
ehtişamla gəldisə, daimi olanın ehtişamı
daha da böyükdür.
12 Belə bir ümidə sahib olduğumuz
üçün böyük cəsarətlə danışa bilərik.
13 [m]İsrail övladları onun üzündəki ötəri
ehtişamın keçib-getməsinə baxmasın
deyə üzünə niqab çəkən Musa kimi
deyilik. 14 İsrail övladları fikirlərində
inadkar oldu. Bu günə qədər Köhnə Əhd
oxunarkən onları eyni niqab qapayır,
açılmır, çünki bu yalnız Məsih vasitəsilə
götürülür. 15 Hətta bu günə qədər
Musanın Yazıları nə vaxt oxunursa,
onların ürəklərini bir niqab qapayır.
16 Amma kim Rəbbə tərəf dönürsə, o
vaxt niqab aradan qaldırılır. 17 Rəbb
Ruhdur, Rəbbin Ruhu haradadırsa,
azadlıq da oradadır. 18 Biz hamımız
niqabsız üzdə Rəbbin ehtişamını əks
etdirərək Rəbbin surətinə dəyişilirik.
Ruh olan Rəbdən yaranan bu ehtişam
get-gedə bizdə görünməyə başlayır.

Müjdə yaymaqda sədaqət

4 Beləliklə, bizə verilən mərhəmətlə
bu xidmətə təyin olunduğumuz
üçün ümidimizi itirmirik. 2 Xəcalət
gətirən gizli yolları rədd etmişik.
Hiylə işlətmirik, Allahın sözünü təhrif
etmirik, amma həqiqəti açıq elan
etməklə Allahın önündə, hər insanın
vicdanı qarşısında özümüz barədə
zəmanət veririk. 3 Əgər yaydığımız
Müjdə qapalıdırsa, yalnız həlak olanlar
üçün qapalıdır. 4 Onları bu dövrün
allahı* korazehin etdi ki, Allahın surəti
olan Məsihin ehtişamlı Müjdəsinin
işığı imansızların üzərinə doğmasın.
5 Biz özümüzü yox, İsa Məsihi Rəbb
olaraq vəz edirik. Özümüzü isə İsa
naminə qullarınız olaraq təqdim edirik.
6 [n]Çünki «zülmətdən işıq parlayacaq»
deyən Allah ürəyimizə nur saçdı ki, İsa
Məsihin üzündən saçan Öz ehtişamını
tanımağımızdan doğan nuru bizə versin.
7 Üstün qüvvənin bizdən yaranmadığı,
Allaha aid olduğu bilinsin deyə bu

*4:4 *Bu dövrün allahı* – yəni Şeytan.

[j]**3:3** Çıx. 24:12; Yer. 31:33; Yez. 11:19-20; 36:26 [k]**3:6** Yer. 31:31
[l]**3:7** Çıx. 34:29-30 [m]**3:13** Çıx. 34:33 [n]**4:6** Yar. 1:3

xəzinəni saxsı qablarda* saxlayırıq.
8 Hər tərəfdən əziyyət çəkirik, amma
əzilmirik. Çaşqınlıq içindəyik, lakin
çarəsiz deyilik. 9 Təqib olunuruq,
amma tərk edilmirik. Yıxıdılırıq,
amma yox olmuruq. 10 İsanın ölümünü
bədənimizdə həmişə daşıyırıq ki, Onun
həyatı bədənimizdə aydın görünsün.
11 Çünki İsanın həyatı fani cismimizdə
aydın görünsün deyə biz yaşaya-yaşaya
İsa üçün həmişə ölümə təslim edilirik.
12 Beləliklə, ölüm bizdə, həyat isə sizdə
fəaliyyət göstərir.
13 o«İman etdim, buna görə danışdım»
deyə yazıldığı üçün eyni iman ruhuna
sahib olaraq biz də iman edir və buna
görə danışırıq. 14 Çünki bilirik ki,
Rəbb İsanı dirildən Allah bizi də İsa
ilə birlikdə dirildib sizinlə birgə Öz
hüzuruna çıxaracaq. 15 Bütün bunlar
sizə görədir. Belə ki Allahın lütfü
çoxalıb daha çox insana ehsan olunsun
və Onun izzəti üçün daha çox şükür
edilsin.

Səmavi evimiz

16 Buna görə biz ümidimizi
itirmirik. Zahirimiz get-gedə xarab
olsa da, daxilimiz gündən-günə
təzələnir. 17 Çünki müvəqqəti, yüngül
əziyyətlərimiz bizə heç bir şeylə
müqayisə edilməz dərəcədə böyük və
əbədi izzət qazandırır. 18 Gözlərimizi
görünən şeylərə deyil, görünməyən
şeylərə dikirik. Çünki görünənlər
gəldi-gedər, görünməyənlərsə əbədidir.
5 Bilirik ki, sığındığımız bu dünyəvi
çadır† dağılarsa, göylərdə Allahın
bizə verdiyi binamız, əllə tikilməyən
əbədi bir evimiz var. 2 İndi isə səmavi
məskənimiz üstümüzü örtsün deyə
həsrət çəkərək inləyirik. 3 Soyunuruqsa
da,‡ lüt-üryan qalmarıq. 4 Bu dünyəvi
çadırda ikən hamımız ağır yük altında
inləyirik. Çünki soyunmamızı deyil,
üstümüzün örtülməsini istəyirik ki,
həyat fani şeyləri yeyib-udsun. 5 Bizi
məhz bunun üçün hazırlaşdıran
Allahdır. O, Ruhunu bizə girov verdi.
6 Buna görə həmişə arxayınlığımız
var, həm də bilirik ki, bu bədəndə
məskunlaşdıqca Rəbdən uzağıq. 7 Gözlə
görünənə deyil, imana görə həyat
sürürük. 8 Əlbəttə, arxayınlığımız var
və bu bədəndən uzaqlaşıb Rəbbimizin
yanında məskunlaşmağı üstün tuturuq.
9 Buna görə bədəndə məskun və
yaxud bədəndən uzaq olmağımıza
baxmayaraq, məqsədimiz Rəbbi razı
salmaqdır. 10 pÇünki hər birimiz bu
bədəndə olanda etdiyimiz əməllər pis
də olsa, yaxşı da olsa, onların əvəzini
almaq üçün Məsihin hökm kürsüsü
önünə çıxmalıyıq.

Barışdırma xidməti

11 Demək, Rəbdən qorxmanın nə
olduğunu anladığımız üçün insanları
inandırmağa çalışırıq. Allaha bizim kim
olduğumuz aşkardır və ümidvaram ki,
sizin vicdanınıza da aşkardır. 12 Sizə
özümüz barədə yenə zəmanət vermək
istəmirik, amma ürəkləri ilə deyil, zahiri
görünüşləri ilə öyünənlərə cavab verə
biləsiniz deyə bizimlə fəxr etməniz üçün
sizə imkan yaradırıq. 13 Əgər ağlımızı
itirmişiksə, bu, Allah üçündür, yox,
əgər ağlımız başımızdadırsa, bu sizin
üçündür. 14 Bizi məcbur edən Məsihin
məhəbbətidir və bu qənaətə gəlmişik
ki, bir Nəfər hamı üçün öldüyünə görə
hamı öldü. 15 Bəli, O hər kəs uğrunda

*4:7 *Saxsı qablarda* – yəni fani bədənlərimizdə.
†5:1 *Dünyəvi çadır* – yəni cismimiz.
‡5:3 *Soyunuruqsa da* – bəzi əlyazmalarda *Bu məskən üstümüzü örtsə.*

o4:13 Zəb. 116:10 p5:10 Rom. 14:10

öldü ki, qoy yaşayanlar artıq özləri üçün
deyil, onlar uğrunda Ölüb-Dirilən üçün
yaşasınlar.
16 Bunun nəticəsində də biz artıq
heç kimi bəşəri nöqteyi-nəzərdən
tanımırıq. Nə vaxtsa Məsihi bəşəri
nöqteyi-nəzərdən tanısaq da, indi
Onu elə tanımırıq. 17 Deməli, kim
Məsihdədirsə, yeni yaradılışdır, köhnə
şeylər keçib-getdi, təzə şeylər gəldi.
18 Bunların hamısı Allahdandır. O,
Məsih vasitəsilə bizi Özü ilə barışdırdı
və bizə barışdırma xidmətini verdi.
19 Belə ki Allah insanların təqsirlərini
onların əleyhinə qoymayaraq dünyanı
Məsihdə Özü ilə barışdırmaqda
idi. Barışdırma sözünü də bizə
əmanət etdi. 20 Beləliklə, biz Məsihin
nümayəndələriyik, sanki Allah bizim
vasitəmizlə rica edir. Məsihin adı ilə
yalvarırıq ki, Allahla barışın. 21 Günahla
əlaqəsi olmayan Məsihi Allah bizim
uğrumuzda günah qurbanı verdi ki, biz
Onda Allahın salehliyinə nail olaq.
6 Buna görə Allahla birgə işləyən
bizlər rica edirik ki, Onun lütfünü
boş yerə qəbul etməyəsiniz. 2 [q]Çünki O
deyir:
«Münasib vaxtda səni eşitdim,
Xilas günü sənə kömək etdim».
Budur, indi münasib vaxt, budur, indi
xilas günü.

Paul dara düşəndə

3 Xidmətimiz etibardan düşməsin
deyə heç kimi büdrədən bir şey
etmirik. 4 [r]Əksinə, Allahın xidmətçisi
olaraq hər şeydə özümüz barədə
zəmanət veririk; hədsiz dözümdə,
əziyyətlərdə, ehtiyaclarda, sıxıntılarda,
5 döyüləndə, həbslərdə, qarışıqlıqlarda,
zəhmətdə, yuxusuz qalanda, aclıqlarda,
6 pak yaşayanda, bilikdə, səbirdə,
xeyirxahlıqda, Müqəddəs Ruhda, riyasız
məhəbbətdə, 7 həqiqəti elan edəndə,
Allahın qüvvəsində, həm sağ, həm də sol
əllərimizdə salehlik silahları ilə, 8 gah
ucalıb gah alçalaraq təhqir olunanda,
təriflənəndə özümüz özümüzə zamin
dururuq. Bizi yalançı sayırlar, amma
biz doğruçuyuq. 9 Sanki naməlumuq,
amma tanınırıq. Elə bil ölümün
ağzındayıq, amma hələ yaşayırıq. Elə
bil cəza çəkirik, amma öldürülmürük.
10 Sanki kədər içindəyik, əslində həmişə
sevinirik. Yoxsul sayılırıq, amma
çoxlarını varlandırırıq. Elə bil heç
nəyimiz yoxdur, amma hər şeyə sahibik.
11 Ey Korinflilər, sizinlə açıq danışırıq,
sizə ürəyimizi açmışıq. 12 Bizimlə yaxın
münasibətinizə mane olan biz deyilik,
bu maneə sizin daxili hisslərinizdədir.
13 Buna cavab olaraq, sizə övladlarım
kimi deyirəm: siz də ürəyinizi açın.

Allahın məbədi

14 İmansızlarla eyni boyunduruğa
girməyin. Çünki salehliklə
qanunsuzluğun nə şərikliyi var?
İşıqla qaranlığın ortaq nəyi var?
15 Məsihlə Belialın* nə uyğunluğu var?
Yaxud imanlı ilə imansızın ümumi nəyi
var? 16 [s]Allahın məbədi ilə bütlərin
sazişi ola bilərmi? Çünki biz var olan
Allahın məbədiyik. Belə ki Allah
demişdi:
«Mən aralarında
yaşayıb-dolanacağam,
Onların Allahı olacağam,
Onlar da Mənim xalqım olacaq».
17 [t]Ona görə «aralarından çıxıb
ayrılın»
Rəbb belə deyir,
«Murdar şeylərə toxunmayın»;

*6:15 *Belial* – yəni Şeytan.

[q]6:2 Yeş. 49:8 [r]6:4 Həv. 16:23 [s]6:16 Lev. 26:12; Yez. 37:27; 1Kor. 3:16; 6:19; Vəhy 21:3 [t]6:17 Yeş. 52:11; Yez. 20:34,41

«Mən də sizi qəbul edəcəyəm».
18 [u]«Mən sizə Ata olacağam,
Siz də Mənə oğullar və qızlar
olacaqsınız»
Külli-İxtiyar Rəbb belə deyir.

7 Sevimlilər, bu vədlərə malik olduğumuza görə Allahdan qorxub kamil müqəddəsliyə çataraq bizi cisimdə və ruhda murdarlayan hər şeydən özümüzü təmizləyək.

Paulun sevinci

2 Ürəyinizdə bizim üçün yer ayırın. Biz heç kimə haqsızlıq etməmişik, heç kimə zərər verməmişik, heç kimi istismar etməmişik. 3 Sözlərimlə sizi məhkum etmək istəmirəm, çünki əvvəlcədən dediyim kimi ürəyimizdə elə bir yeriniz var ki, ölsək də, yaşasaq da sizinlə bir olacağıq. 4 Sizə çox etibar edirəm, sizinlə çox fəxr edirəm. Nə cür əziyyət çəksək belə, təsəllim bol, sevincim hədsizdir.

5 [v]Makedoniyaya gələndə də cismən dinclik tapmadıq. Hər tərəfdən əziyyət çəkirdik. Bayırda çəkişmələr, daxildə qorxular var idi. 6 Lakin məzlumlara təsəlli verən Allah Titin gəlişi ilə bizə təsəlli verdi. 7 Ancaq Titin gəlişindən deyil, sizin ona verdiyiniz təsəllidən də təsəlli aldıq. Çünki Tit dedi ki, siz məndən ötrü darıxır, dərd və qeyrət çəkirsiniz. Buna görə sevincim daha da artdı.

8 Məktubumla sizi kədərləndirdimsə də, buna görə peşman deyiləm. Əslində məktubumla sizi bir anlıq da olsa kədərləndirdiyim üçün peşman olmuşdum. 9 Amma indi kədərinizə görə yox, bu kədər hissinin sizin tövbə etmənizə səbəb olduğu üçün sevinirəm. Allah istəyən tərzdə kədərləndiniz, buna görə də bizdən heç bir şeydə ziyan görmədiniz. 10 Allah istəyən tərzdə olan kədər insanda tövbə yaradıb onu xilasa aparır və bunda peşmançılıq yoxdur. Dünyanın kədəri isə ölüm yaradır. 11 Baxın Allah istəyən tərzdə çəkdiyiniz bu kədər sizdə nə qədər böyük cəhd, təmizə çıxmaq arzusu, qəzəb, qorxu, həsrət, qeyrət, ədalətpərvərlik yaratdı. Bu işdə hər cəhətdən saf olduğunuz barədə zəmanət verdiniz. 12 Sizə o məktubu yazanda haqsızlıq edənə yaxud haqsızlığa məruz qalana görə yazmadım. Bizim üçün etdiyiniz cəhdi Allah önündə aydın görməniz üçün yazdım. 13 Bütün bunlardan təsəlli alırıq.

Buna əlavə olaraq Titin sevinci bizi daha da sevindirdi. Hamınız onun ruhunu təzələdiniz. 14 Mən onun qarşısında sizinlə fəxr etmişdim, siz də məni utandırmadınız. Sizə dediyimiz hər şey necə doğru idisə, Titin qarşısında sizinlə fəxr etməyimiz də doğru çıxdı. 15 Hamınızın itaətli olduğunuzu, onu necə qorxu və lərzə ilə qəbul etdiyinizi yada saldıqca sizə olan sevgisi daha da artır. 16 Sizə hər işdə etibar edə bildiyim üçün sevinirəm.

Səxavətli olmaq

8 [w]Qardaşlar, sizə bildirmək istəyirik ki, Makedoniyadakı cəmiyyətlərə verilən Allahın lütfü nə etdi: 2 onlar böyük əziyyətlərlə sınananda coşğun sevincləri hədsiz yoxsul olduqları halda zəngin səxavət göstərmələri ilə aşıb-daşdı. 3 Mən şahidəm ki, onlar bunu bacardıqları qədər, hətta artıqlaması ilə, könüllü surətdə etdilər. 4 Bizə yalvara-yalvara müqəddəslərə yardım işinə şərik olmaq lütfünə nail olmaq istədilər. 5 Bu, gözlədiyimizdən də artıq oldu, çünki onlar özlərini əvvəlcə

---

[u]**6:18** 2Şam. 7:14; 1Saln. 17:13; Yeş. 43:5-7; Yer. 31:9 [v]**7:5** 2Kor. 2:12-13
[w]**8:1** Rom. 15:26

Rəbbə, sonra Allahın iradəsi ilə bizə
həsr etdilər. 6 Ona görə Titdən xahiş
etdik ki, onun başladığı bu xeyriyyə işini
sizin aranızda başa çatdırsın. 7 Sizsə
hər şeydə – imanda, sözdə, bilikdə,
hər cür cəhddə, sizə göstərdiyimiz
məhəbbətdə* zəngin olduğunuz kimi bu
xeyriyyəçilikdə də zəngin olun.
8 Mən bunları əmr edərək demirəm,
lakin başqalarının cəhdi ilə müqayisədə
sizin məhəbbətinizin həqiqiliyini
sınaqdan keçirərək deyirəm. 9 Rəbbimiz
İsa Məsihin lütfündən xəbərdarsınız:
siz Onun yoxsulluğu vasitəsilə varlı
olasınız deyə Özü varlı olduğu halda
sizin uğrunuzda yoxsullaşdı. 10 Bu
barədə sizə məsləhət verirəm. Siz
keçən il bu işi nəinki gördünüz, hətta
təşəbbüskarı oldunuz. Öz xeyriniz
üçün 11 indi bu işi başa çatdırın. Buna
həvəsiniz necə idisə, imkan daxilində
bunu elə də başa çatdırın. 12 Çünki
insanın həvəsi varsa, verdiyi yardım
imkanı çatmadığı qədər yox, imkanına
görə məqbul sayılır. 13 [x]Sizi əziyyətə
salıb başqalarına rahatlıq vermək deyil,
bərabərlik istəyirik. 14 İndi sizin əlavə
vəsaitiniz qoy onların ehtiyaclarını
ödəsin ki, lazım olanda onların vəsaiti
də sizin ehtiyacınızı ödəsin. Beləcə qoy
bərabərlik olsun. 15 Necə ki yazılıb:
«Çox yığanın artığı, az yığanın əskiyi
olmadı».

Tit Korinfə göndərilir

16 Titin ürəyində sizin üçün eyni cəhdi
oyadan Allaha şükür olsun! 17 Çünki
Tit bizim xahişimizi qəbul etməklə
kifayətlənmədi, böyük cəhd göstərərək
könüllü surətdə sizin yanınıza gəlir.
18 Müjdəni yaydığına görə bütün
cəmiyyətlərdə təriflənən bir qardaşı
da onunla birgə yanınıza göndəririk.
19 Həmçinin o, Rəbbi izzətləndirmək
və yardım etməyə həvəsli olduğumuzu
göstərmək üçün apardığımız bu
xeyriyyə işində yol yoldaşımız olmaq
məqsədi ilə cəmiyyətlər tərəfindən
seçildi. 20 Bu bol olan nəzir-niyazla
əlaqədar xidmətimizdə heç kim bizdə
səhv tutmasın deyə diqqət göstəririk.
21 [y]Çünki məqsədimiz yalnız Rəbbin
gözündə deyil, insanların da gözündə
doğru sayılan işləri görməkdir. 22 Çox
işdə dəfələrlə sınaqdan keçirib cəhdini
gördüyümüz, indi sizə bəslədiyi böyük
etibar sayəsində daha da cəhd göstərən
başqa qardaşımızı da onlarla bərabər
göndəririk. 23 Titə gəlincə, o mənim
şərikim, sizlərin arasında çalışan
əməkdaşım, qardaşlarımızsa Məsihin
izzəti üçün cəmiyyətlərin elçiləridir.
24 Buna görə də cəmiyyətlərin
qarşısında məhəbbətinizi və sizinlə fəxr
etməyimizin səbəbini onlara sübut edin.

Yoxsul imanlılara yardım

9 Müqəddəslərə göstəriləcək yardımla
əlaqədar sizə yazmağıma ehtiyac
yoxdur. 2 Çünki yardım etməyə
həvəsiniz olduğunu bilirəm. Axayyada
olan sizlərin keçən ildən bəri hazırlıqlı
olduğunuzu söyləyərək Makedoniyalılar
qarşısında fəxr etməkdəyəm. Sizin
səyiniz onların çoxunu hərəkətə gətirdi.
3 Sizinlə etdiyimiz fəxr bu işdə boşa
çıxmasın deyə qardaşları yanınıza
göndərirəm və dediyim kimi gərək hazır
olasınız. 4 Belə ki bəzi Makedoniyalılar
mənimlə gəlib sizin hazır olmadığınızı
görərsə, sizə etibar etdiyimizə görə nə
biz utanaq, nə də siz. 5 Ona görə də
mən qardaşlardan xahiş etməyə ehtiyac
duyuram ki, məndən əvvəl yanınıza
gəlib vəd edilmiş bol bəxşişlərinizi
qabaqcadan hazır etsinlər. Qoy bu

---

*8:7 *Sizə göstərdiyimiz məhəbbətdə* – bəzi əlyazmalarda *bizə göstərdiyiniz məhəbbətdə.*

[x]8:13 Çıx. 16:18 [y]8:21 Sül. 3:4

bəxşişlər istismarçılıqla yox, könüllü
surətdə hazır olsun.
6 Yadda saxlayın: az əkən az, bol-bol
əkən bol-bol biçəcək. 7 Könülsüz
yaxud məcburi yox, hər kəs ürəyinin
niyyətinə görə pay versin. Çünki Allah
sevinə-sevinə pay verən adamı sevir.
8 Allah sizə hər bir neməti bol-bol
verə bilər. Belə ki hər bir şeyə həmişə,
hərtərəfli, kifayət qədər sahib olmaqla
hər yaxşı əməl üçün bol-bol imkanınız
olsun. 9 [z]Necə ki yazılıb:
«Səpələyər, fəqirlərə paylayar,
Salehliyi əbədi qalar».
10 [a]Əkinçiyə toxum və yemək üçün
çörək ehtiyatı verən Allah sizin də əkin
ehtiyatınızı çoxaldacaq və salehliyinizin
bəhrəsini artıracaq. 11 Hər tərəfli
səxavətli olmanız üçün hər baxımdan
varlandırılacaqsınız. Səxavətiniz bizim
vasitəmizlə Allaha şükür etməyə səbəb
olacaq. 12 Çünki etdiyiniz bu xidmət
yalnız müqəddəslərin ehtiyaclarını
ödəməklə kifayətlənmir, həm də Allaha
edilən çox şükürlərlə aşıb-daşır. 13 Bu
xidmətlə sübut etdiyiniz kimi, iqrar
etdiyiniz Məsihin Müjdəsinə itaət
göstərdiyinizə, onlara və hamıya
səxavətlə yardım göndərdiyinizə görə
Allahı izzətləndirirlər. 14 Allahın sizə
bəxş etdiyi hədsiz lütfə görə hər
birinizin həsrətini çəkərək sizin üçün
dua edirlər. 15 Allahın sözlə ifadə oluna
bilməyən bəxşişinə görə Ona şükür
olsun!

Paulun müdafiəsi

10 Yanınızda ürkək, lakin sizdən
uzaq ikən cürətli olan mən
Paul Məsihdən gələn həlimlik və
mülayimliklə sizdən xahiş edir,
2 yalvarıram: yanınıza gələndə məni
vadar etməyin ki, bizi cismani təbiətə
görə həyat sürən insanlar zənn edən bəzi
adamlara göstərməyi vacib saydığım
cürəti sizə də göstərim. 3 Çünki cismən
həyat sürsək də, cismani təbiətə görə
döyüş aparmırıq. 4 Ona görə ki döyüş
silahlarımız cisimdən düzəldilən silahlar
deyil, qalaları dağıdan ilahi qüvvəyə
malik silahlardır. Nəzəriyyələri, 5 Allah
barədə biliyə qarşı çıxan hər bir
səddi yıxıb hər bir düşüncəni əsir
edərək Məsihə itaət etdiririk. 6 Siz
Məsihə tamamilə itaət edəndə hər
cür itaətsizliyi cəzalandırmağa hazır
olacağıq.
7 Göz qabağında olanlara baxın.
Kim Məsihə aid olduğuna arxalanırsa,
yadda saxlasın ki, onun qədər biz
də Məsihə aidik. 8 Sizi yıxmaq üçün
deyil, inkişaf etdirmək üçün Rəbbin
bizə verdiyi səlahiyyətə görə bir az
artıq öyünsəm də, utanmaram. 9 Elə
görünmək istəmirəm ki, məktublarımla
sizi qorxuduram. 10 Mənim barəmdə
deyirlər ki, «onun məktubları ciddi
və təsirlidir, özünü görəndə isə
zəhmsiz, nitqi də heçdir». 11 Kim
bunu düşünürsə, qoy bilsin ki, uzaqda
olanda məktublarımızla dediklərimizə
yanınızda olanda da əməl edirik.
12 Öz-özü barədə zəmanət verən
bəzi adamlarla özümüzü bərabər
saymağa və yaxud da müqayisə etməyə
sözsüz ki cəsarət etmirik. Özlərini öz
arşınları ilə ölçə-ölçə, həmçinin özlərini
özləri ilə müqayisə edə-edə onlar
dərrakələrini itirdilər. 13 Biz isə hədsiz
öyünməyəcəyik. Öyünməyimiz Allahın
bizə verdiyi, sizin də daxil olduğunuz
iş dairəsinin həddini aşmayacaq.
14 Sizə yetişməyənlər kimi uzaqlara
getmirik. Çünki Məsihin Müjdəsini
sizə çatdıran bizik. 15 Başqalarının
əməyi ilə öyünüb həddimizi aşmırıq.
Ümidvarıq ki, imanınız böyüdükcə
aranızda işimizin əhatə dairəsi

---

[z]**9:9** Zəb. 112:9 [a]**9:10** Yeş. 55:10

daha da genişlənəcək. 16 Beləcə
başqasının işinin əhatə dairəsində olan
nailiyyətlərlə öyünmədən Müjdəni
sizin o tayınızdakı diyarlarda da yaya
biləcəyik. 17 [b]«Öyünən Rəbdə öyünsün».
18 Çünki özü barədə zəmanət verən
insan yox, barəsində Rəbbin zəmanət
verdiyi insan sınaqdan keçmiş olur.

Saxta həvarilər

11 Ümidvaram ki, mənim bir qədər
ağılsızlığıma da dözəcəksiniz.
Bəli, mənə bir qədər dözün. 2 Sizə görə
ilahi bir qısqanclıq hiss edirəm. Çünki
sizlər sanki bakirə qızsınız və sizi bir
Oğlana, yəni Məsihə nişanlayıb təqdim
etmişəm. 3 [c]Amma qorxuram ki, ilanın
hiyləgərliyi ilə Həvvanı aldatması kimi
düşüncələrinizin pozulub Məsihə olan
səmimi və pak* həsr olunmasından
azasınız. 4 Çünki əgər kimsə yanınıza
gəlib bizim vəz etdiyimiz İsadan başqa
bir İsanı təbliğ edirsə, aldığınızdan
fərqli bir ruh alırsınızsa və yaxud
qəbul etdiyinizdən fərqli bir müjdəni
qəbul edirsinizsə, siz buna necə də
məmnuniyyətlə dözürsünüz. 5 Zənnimcə
bu «böyük həvarilər»dən mən heç də
geri qalmıram. 6 Natiqlik məharətim
olmasa da, bilikdə məharətsiz deyiləm.
Bunu sizə hər vəziyyətdə hər tərəfli
göstərdik.

7 Ucalmanız üçün özümü aşağı tutaraq
Allah Müjdəsini müftə yaymaqla günah
işlətdimmi? 8 Sizə xidmət etmək üçün
başqa cəmiyyətlərdən təminat alaraq
sanki onları soydum. 9 [d]Yanınızda
olarkən ehtiyacım olduğu halda
heç birinizə yük olmadım. Çünki
Makedoniyadan gələn qardaşlar
ehtiyacımı tamamilə ödədilər. Sizə yük
olmaqdan özümü saxladım və gələcəkdə
də özümü saxlayacağam. 10 Məndə olan
Məsihin həqiqətinə and olsun! Axayya
vilayətində heç kim məni susdura
bilməz ki, buna öyünməyim. 11 Niyə?
Sizi sevmədiyimə görəmi? Allah bilir ki,
sevirəm.

12 Özlərini bizimlə bərabər sayaraq
öyünənlər buna əsas axtarır. Mən
etdiyimi edəcəyəm ki, onların əsasını
kəsim. 13 Çünki bunlar saxta həvari,
Məsih həvarisinin cildinə girən
fırıldaqçılardır. 14 Buna heyrətlənmək
lazım deyil, çünki Şeytan da işıq
mələyi cildinə girir. 15 Şeytana xidmət
edənlərin salehlik xidmətçilərinin
cildinə girməsi qəribə deyil. Onların
aqibəti əməllərinə görə olacaq.

Öyünmək lazımdırsa…

16 Yenə deyirəm, qoy heç kim məni
ağılsız saymasın. Elədirsə, məni ağılsız
kimi qəbul edin, qoy mən də bir az
öyünüm. 17 Dediklərimi Rəbbin sözü
kimi yox, öyünə-öyünə özünə güvənən
ağılsız adam kimi deyirəm. 18 Madam
ki bir çoxları cismani təbiətlərinə görə
öyünürlər, mən də öyünəcəyəm. 19 Siz
ağıllı olduğunuz üçün ağılsızlara necə
də sevinclə dözürsünüz. 20 Belə ki
sizi kölə edənlərə, istismar edənlərə,
sizdən faydalananlara, özünü üstün
sayanlara, hətta sifətinizə şillə vuranlara
dözürsünüz. 21 Utanaraq qəbul edirəm
ki, buna gücümüz çatmır!

Kimin bir şeylə öyünməyə cəsarəti
varsa, bir ağılsız kimi deyirəm
ki, mənim də ona cəsarətim var.
22 Onlar İbranilərdirmi? Mən də
İbraniyəm. Onlar İsraillilərdirmi?
Mən də İsrailliyəm. Onlar İbrahimin
nəslindəndirmi? Mən də İbrahimin
nəslindənəm. 23 [e]Onlar Məsihin
xidmətçiləridirmi? Dəli kimi deyirəm
ki, Onun daha böyük xidmətçisi

---

*11:3 *Və pak* – bəzi əlyazmalarda bu sözlər yoxdur.

[b]**10:17** Yer. 9:24 [c]**11:3** Yar. 3:1-13 [d]**11:9** Fil. 4:15-18 [e]**11:23** Həv. 16:23

mənəm, çünki zəhmətim daha çox
olub, həbsə düşməyim daha çoxdur,
döyülməyimin sayı-hesabı yoxdur,
dəfələrlə ölümlə üz-üzə gəlmişəm.
24 [f]Beş dəfə Yəhudilərdən otuz doqquz
qırmanc yemişəm, 25 [g]üç dəfə dəyənəklə
döyülmüşəm, bir dəfə məni daşqalaq
etdilər, üç dəfə gəmi qəzasına düşdüm
və bir gün gecə-gündüz ucsuz-bucaqsız
dənizdə qaldım. 26 [h]Tez-tez səyahətdə
olduğum müddətdə çaylarda təhlükəyə,
quldurlar arasında təhlükəyə,
soydaşlarım arasında təhlükəyə, başqa
millətlər arasında təhlükəyə, şəhərdə
təhlükəyə, çöldə təhlükəyə, dənizdə
təhlükəyə, saxta qardaşlar arasında
təhlükəyə məruz qaldım. 27 Zəhmət və
əmək çəkdim, dəfələrlə yuxusuz qaldım.
Aclığın, susuzluğun dadını gördüm. Çox
vaxt yemək, soyuqda paltar tapmadım.
28 Bunlarla yanaşı bütün cəmiyyətlər
üçün hər gün çəkdiyim qayğının yükü
boynumdadır. 29 Kimsə zəif olanda mən
də zəif olmadımmı? Kimsə büdrəyəndə
mən alışıb-yanmadımmı?
30 Öyünməliyəmsə, zəifliyimi göstərən
şeylərlə öyünəcəyəm. 31 Rəbb İsanın
əbədi alqışlanan Allah və Atasına and
olsun ki, yalan demirəm. 32 [i]Dəməşqdə
padşah Aretanın valisi məni tutmaq
üçün şəhəri nəzarət altına almışdı.
33 Amma mən səbət içində şəhər
divarlarının pəncərələrinin birindən
yerə sallandım və onun əlindən qaçdım.

12 Faydalı olmasa da,
öyünməliyəm. İndi Rəbdən
gələn görüntülərə və vəhylərə keçirəm.
2 Məsihdə olaraq on dörd il bundan
əvvəl – bədəndəmi, yoxsa bədəndən
xaricmi, mən bilmirəm, Allah bilir –
götürülüb göyün üçüncü qatına aparılan
bir insanı* tanıyıram. 3 Bilirəm ki, bu
adam – bədəndəmi, yoxsa bədəndən
kənarmı, mən bilmirəm, Allah bilir
– 4 cənnətə aparılıb orada dillə ifadə
olunmayan, insanın danışması qadağan
olunan sözlər eşitdi. 5 Belə birisi ilə
öyünəcəyəm, amma özümlə əlaqədar
olaraq zəifliyimdən başqa bir şeylə
öyünməyəcəyəm. 6 Öyünmək istəsəm
belə, ağılsız olmayacağam. Çünki
həqiqəti deyəcəyəm. Amma heç kim
məni görüb eşitdiyindən artıq bir şəxs
saymasın deyə öyünməkdən çəkinirəm.
7 Aldığım vəhylərin üstünlüyü ilə
qürurlanmayım deyə cismim üçün
bir tikan, yəni mənə əzab vermək
üçün Şeytanın bir elçisi göndərildi ki,
qürurlanmayım. 8 Bunun məndən uzaq
olması üçün üç dəfə Rəbbə yalvardım.
9 Amma O mənə dedi: «Lütfüm sənə
kifayətdir, çünki zəiflik olanda qüvvə
tam olur». Məsihin qüvvəsi məndə
məskən salsın deyə zəifliklərimlə daha
çox sevinə-sevinə öyünəcəyəm. 10 Ona
görə də Məsih uğrunda zəifliklərə,
təhqirlərə, ehtiyaclara, təqiblərə və
sıxıntılara məmnuniyyətlə dözürəm,
çünki mən zəifləyəndə qüvvətlənirəm.
11 Mən ağılsızlaşdım, çünki siz
məni vadar etdiniz. Amma siz mənim
barəmdə zəmanət verməli idiniz.
Çünki özüm bir şey olmasam da,
həmin «böyük həvarilər»dən heç
də geri qalmıram. 12 Həvariliyimin
nişanələri aranızda əlamətlər, xariqələr
və möcüzələr vasitəsilə, böyük
dözümlülüklə göstərildi. 13 Mən sizə
yük olmadım, bundan başqa sizin digər
cəmiyyətlərdən nə əskiyiniz var? Bu
haqsızlığımı bağışlayın!

---

*12:2 *Bir insanı* – yəqin ki Paul özü barədə danışır.

[f]**11:24** Qanun. 25:3 [g]**11:25** Həv. 14:19; 16:22 [h]**11:26** Həv. 9:23; 14:5
[i]**11:32** Həv. 9:23-25

Paulun qayğısı

14 Budur, üçüncü dəfə yanınıza
gəlməyə hazıram. Sizə yük
olmayacağam, çünki sizdən heç
nə istəmirəm, yalnız sizi istəyirəm.
Axı övladların ata-ana üçün deyil,
ata-ananın övladları üçün ehtiyat
görməsi doğru sayılır. 15 Mən də
sizin həyatınız uğrunda sevinə-sevinə
malımdan və canımdan keçəcəyəm.
Sizi daha da çox sevsəm, daha az
seviləcəyəmmi? 16 Qoy belə olsun.
Düşünürsünüz ki, mən sizə ağır yük
olmadım, amma çoxbilmiş olduğuma
görə sizi fənd işlədərək aldatdım.
17 Yanınıza göndərdiyim adamlardan
hansı biri ilə sizi istismar etdim? 18 Titi
yanınıza gəlmək həvəsinə saldım və
o biri qardaşı da onunla göndərdim.
Tit mənə görə sizi istismar etmədi, elə
deyilmi? Eyni ruhda həyat sürmədikmi?
Eyni izlə getmədikmi?
19 Bu vaxta qədər* qarşınızda
özümüzü müdafiə etdiyimizi
düşünürsünüzmü? Allahın qarşısında,
Məsihdə olaraq danışırıq. Sevimlilər,
etdiyimiz hər şey sizin inkişafınız
üçündür. 20 Qorxuram ki, gəlişimdə
sizi istədiyim vəziyyətdə tapmayım,
siz də istədiyinizi məndə tapmayasınız
və aranızda münaqişə, qısqanclıq,
hiddət, özünü göstərmə, böhtan, qeybət,
lovğalıq, qarışıqlıq tapam. 21 Bu da məni
qorxudur ki, yanınıza gələndə Allahım
məni sizin qarşınızda aşağı tutacaq:
əvvəllər günah işlədərək batdıqları
murdarlıq, əxlaqsızlıq və pozğunluqdan
tövbə etməyən bir çox adamlar üçün
yas tutacağam.

Tövsiyə və salamlar

13 [j]Bu, yanınıza üçüncü gəlişim
olacaq. «Hər iddia iki yaxud
üç şahidin sözü ilə təsdiq edilsin».
2 İkinci dəfə yanınızda olanda
keçmişdə günah işlədənlərə xəbər
verdiyim kimi indi uzaqda olanda
da onların və başqalarının hamısına
xəbərdarlıq edirəm ki, yenə yanınıza
gələndə onların heç birini cəzasız
qoymayacağam. 3 Məsihin mənim
vasitəmlə danışdığına dair istədiyiniz
sübut budur. Məsih aranızda zəifliklə
deyil, qüdrətlə fəaliyyət göstərir. 4 Çünki
O, zəiflik içində çarmıxa çəkildiyi halda
Allahın qüdrəti ilə yaşayır. Biz də Onda
zəifik, amma sizin xeyriniz üçün Onunla
bərabər Allahın qüdrəti ilə yaşayacağıq.
5 Özünüzü yoxlayın və iman yolunda
olub-olmadığınızı bilmək üçün sınaqdan
keçirin. İsa Məsihin daxilinizdə
olduğunu başa düşmürsünüzmü? Yoxsa
sınaqdan keçmirsiniz? 6 Ümidvaram,
bizim sınaqdan keçdiyimizi başa
düşəcəksiniz. 7 Allaha dua edirik ki,
pis iş görməyəsiniz; bu bizim sınaqdan
keçməyimizi göstərmək üçün deyil,
sınaqdan keçməyənlər kimi olsaq da,
sizin yaxşılıq etməniz üçündür. 8 Çünki
həqiqətə qarşı heç nə edə bilmərik,
nə etsək, həqiqət uğrunda edirik. 9 Biz
zəif, sizsə güclü olanda sevinirik. Bərpa
olmanız üçün dua edirik. 10 Bunları sizə
uzaqdan yazıram ki, yanınızda olanda
Rəbbin yıxmaq üçün deyil, inkişaf
etdirmək üçün mənə verdiyi səlahiyyəti
sərt şəkildə istifadə etməyə məcbur
olmayım.
11 Nəhayət, ey qardaşlar, sevinin.
Bərpa olunun, təsəlli tapın, həmfikir
olun, sülh içində ömür sürün. Məhəbbət
və sülh qaynağı olan Allah sizinlə

---

*12:19 *Bu vaxta qədər* – bəzi əlyazmalarda *Yenə.*

[j]13:1 Qanun. 17:6; 19:15

olacaq. 12 Bir-birinizi müqəddəs öpüşlə
salamlayın. Bütün müqəddəslər sizə
salam göndərir.* 13 Rəbb İsa Məsihin
lütfü, Allahın məhəbbəti və Müqəddəs
Ruhun şərikliyi hamınıza yar olsun!

*13:12 *Bütün müqəddəslər sizə salam göndərir* – bəzi tərcümələrdə bu sözlər 13-cü ayə sayılır, burada sayılan 13-cü ayə isə 14-cü ayə sayılır.

PAULUN

QALATİYALILARA MƏKTUBU

GİRİŞ

Paulun bu məktubu Asiyadakı Roma vilayətlərindən biri olan Qalatiya imanlılarına ünvanlanıb. Məktubun əsas mövzusu Yəhudi olmayan millətlərin İsa Məsihi öz Rəbbi və Xilaskarı olaraq qəbul etdikdə Tövratın qanunlarına əməl edib-etməmək məsələsidir. Paul qanuna əməl etmənin vacib olmadığını sübut edirdi. O yazır ki, Məsihlə birgə həyat yalnız imana əsaslanmalıdır. Lakin Qalatiyadakı cəmiyyətlərin bir neçəsi Paula qarşı çıxmış və Allahla düzgün münasibətlər qurmaq üçün Tövratın qanunlarına əməl etməyi tələb etmişdi.

Paulun Qalatiyalılara məktub yazmağının məqsədi bu yanlış təlimlə aldanmış adamları həqiqi iman yoluna və əsl məsihçi dəyərlərinə qaytarmaq idi. Paul həm də İsa Məsihin həqiqi həvarisi kimi öz hüquqlarını müdafiə edirdi. O yazır ki, Allah onu Yəhudi olmayan xalqlar üçün həvari olmağa çağırmışdı. Sonra Paul Allahla insanlar arasındakı düzgün münasibətlərin yalnız iman vasitəsilə qurulmasını vurğulayır. Sonuncu fəsillərdə Paul göstərir ki, məsihçi davranışı Məsihə iman etməkdən qaynaqlanan məhəbbətə əsaslanmalıdır.

Kitabın məzmunu:

1:1-10 Giriş

1:11–2:21 Paulun həvari kimi səlahiyyəti

3:1–4:31 Allahın lütf müjdəsi

5:1–6:10 Məsihdə azadlıq və məsuliyyət

6:11-18 Son öyüdlər və salamlar

1 Nə insanlardan, nə də insan vasitəsilə, yalnız İsa Məsih və Onu ölülər arasından dirildən Ata Allah vasitəsilə həvari təyin olunan mən Pauldan [2] və mənimlə olan bütün qardaşlardan Qalatiyada* olan imanlı cəmiyyətlərə salam! [3] Atamız Allahdan və Rəbb İsa Məsihdən sizə lütf və sülh olsun! [4] Atamız Allahın iradəsinə görə Məsih günahlarımız üçün Özünü fəda etdi ki, bizi indiki şər dövründən qurtarsın. [5] Allaha əbədi izzət olsun! Amin.

Tək Müjdə

[6] Heyrətlənirəm ki, Məsihin lütfü ilə sizi çağıran Allahı belə tezliklə tərk edib başqa bir müjdəyə tərəf dönürsünüz. [7] Əslində başqa müjdə yoxdur. Amma sizi lərzəyə salıb Məsihin Müjdəsini təhrif etmək istəyənlər vardır. [8] Amma istər biz, istərsə göydən gələn bir mələk belə, bizim sizə yaydığımız Müjdəyə zidd bir şeyi müjdə kimi yaysa, ona lənət olsun! [9] Əvvəlcə dediyimizi indi bir daha deyirəm: kim sizə qəbul etdiyiniz Müjdəyə zidd bir şey yayırsa, ona lənət olsun! [10] İndi mən insanları, yoxsa Allahı məmnun etməyi axtarıram? Yoxsa insanlarımı razı salmağa çalışıram? Əgər mən hələ də insanları razı salmaq istəsəydim, Məsihin qulu olmazdım.

Paul Məsihin həvarisi olur

[11] Qardaşlar, sizə bəyan edirəm ki, mənim yaydığım Müjdənin mənbəyi insan deyil. [12] Çünki mən onu insandan almadım və insan tərəfindən də öyrədilmədim. Bunu mənə İsa Məsih vəhy vasitəsilə açdı.

---

*1:2 *Qalatiya* – indiki Türkiyə ərazisində olmuş bir vilayət.

13 [k]Yəhudi dininə bağlı olduğum
günlərdə mənim necə həyat sürdüyümü
eşitdiniz. Mən Allahın cəmiyyətini
hədsiz təqib edir, onu dağıdırdım.
14 Yəhudi dinində soydaşlarım arasında
yaşıdlarımın bir çoxundan daha irəlidə
idim. Ata-babalarımın adət-ənənələrinin
qeyrətini həddindən artıq çəkirdim.
15 [l]Amma hələ anamın bətnindən məni
seçib lütfü ilə çağıran Allah 16 Öz
Oğlu ilə bağlı Müjdəni başqa millətlər
arasında yayım deyə Onu mənə zahir
etməyə razı olanda dərhal insanlarla
məsləhətləşmədim. 17 Yerusəlimə,
məndən qabaq həvari olanların yanına
da getmədim, amma Ərəbistana getdim,
sonra yenə Dəməşqə qayıtdım.
18 [m]Üç il keçəndən sonra isə Kefa*
ilə tanış olmaq üçün Yerusəlimə
getdim və on beş gün onun yanında
qaldım. 19 O biri həvarilərin heç birini
görmədim. Yalnız Rəbbin qardaşı
Yaqubu gördüm. 20 Allahın önündə
sizə yazdıqlarımın yalan olmadığını
deyirəm. 21 Sonra Suriya və Kilikiya
diyarlarına getdim. 22 Yəhudeyanın
Məsihdə olan cəmiyyətləri isə məni
şəxsən tanımırdılar. 23 Yalnız bu sözü
eşidirdilər: «Bir zaman bizi təqib edən
şəxs vaxtilə yox etməyə çalışdığı imanı
müjdələyir». 24 Beləliklə, mənə görə
Allahı izzətləndirirdilər.

Digər həvarilər Paulu qəbul edir

2 On dörd il keçəndən sonra isə
Barnaba ilə birlikdə Titi də özümlə
götürüb yenə Yerusəlimə getdim.
2 Vəhy vasitəsilə getdim. Başqa millətlər
arasında vəz etdiyim Müjdəni onlara,
etibarlı olanlara şəxsən təqdim etdim ki,
boş yerə cəhd etməyim yaxud da cəhd
etmiş olmayım. 3 Yanımda olan Tit də
Yunan olduğu halda sünnət olunmağa
məcbur edilmədi. 4 Bu iş aramıza gizlicə
soxulan yalançı qardaşlar üzündən oldu.
Onlar Məsih İsada malik olduğumuz
azadlığı əl altından öyrənib bizi kölə
etmək üçün gizlicə aramıza girdilər.
5 Onlara bir anlıq da olsa, baş əyib
təslim olmadıq ki, Müjdənin həqiqəti
sizinlə qalsın.
6 [n]Etibarlı sayılan şəxslərə gəlincə,
kim olursa olsun mənə vacib deyil,
Allah insanlara tərəfkeşlik etməz.
Lakin bu etibarlı sayılan şəxslər mənim
dediklərimə heç nə artırmadılar.
7 Əksinə, sünnətlilərə† Müjdə yaymaq
işi Peterə tapşırıldığı kimi sünnətsizlər‡
arasında Müjdə yaymaq işinin mənə
tapşırıldığını gördülər. 8 Çünki
sünnətlilərə həvari olması üçün Peterdə
fəal olan Allah başqa millətlər üçün
məndə də fəal oldu. 9 Cəmiyyətin
sütunları sayılan Yaqub, Kefa və Yəhya
mənə bağışlanan lütfü tanıdıqda mənə
və Barnabaya sağ əllərini uzatdılar
ki, şərikliyimiz olsun. Ona görə ki biz
başqa millətlərin, onlarsa sünnətlilərin
yanına getsin. 10 Yalnız yoxsulları yad
etməyimizi istədilər, mən də məhz bunu
icra etməyə səy göstərdim.

Paul Antakyada Peteri məzəmmətləyir

11 Kefa Antakyaya gəldikdə isə şəxsən
ona qarşı çıxdım, ona görə ki tənqidə
layiq idi. 12 Çünki Yaqubun yanından
bəzi adamlar gəlməmişdən əvvəl Peter
başqa millətlərdən olanlarla yemək
yeyirdi. Həmin adamlar gəldikdə isə

*1:18 *Kefa* – yəni Peter. Bax: Yəhya 1:42.
†2:7 *Sünnətlilər* – yəni Yəhudilər.
‡2:7 *Sünnətsizlər* – yəni başqa millətlər.

[k]1:13 Həv. 8:3; 22:2-5; 26:9-11 [l]1:15 Həv. 9:3-6; 22:6-10; 26:13-18
[m]1:18 Həv. 9:26-30 [n]2:6 Qanun. 10:17

sünnət tərəfdarlarından qorxaraq başqa
millətlərin yanından çəkilib ayrı durdu.
13 Onunla birlikdə o biri Yəhudilər
də ikiüzlülük etdilər. Hətta Barnaba
belə, onların ikiüzlülüyünə qapıldı.
14 Amma mən Müjdənin həqiqətinə
görə düzgün riayət etmədiklərini
görəndə hamının qarşısında Kefaya
dedim: «Əgər sən Yəhudi olduğun halda
Yəhudi kimi deyil, başqa millətlərdən
biri kimi yaşayırsansa, necə başqa
millətləri Yəhudi kimi yaşamağa
məcbur edirsən?»
15 Biz anadangəlmə Yəhudilərik,
başqa millətdən olan «günahkarlar»
deyilik. 16 [o]Lakin biz bilirik ki, insan
Qanuna əməl etməklə deyil, yalnız İsa
Məsihə iman etməklə saleh sayılır. Biz
də Məsih İsaya iman etdik ki, Qanuna
əməl etməklə deyil, Məsihə olan imanla
saleh sayılaq. Çünki Qanuna əməl
etməklə heç bir insan saleh sayılmaz.
17 Əgər biz Məsihdə saleh sayılmaq
istərkən özümüz günahkar çıxsaq, belə
çıxır ki, Məsih günah xidmətçisidir?
Əsla! 18 Əgər mən əvvəlcə yıxdığımı
yenidən tikirəmsə, özümü Qanunu
pozan olaraq göstərirəm. 19 Çünki mən
Qanun vasitəsilə Qanuna münasibətdə
öldüm* ki, Allah üçün yaşayım.
20 Məsihlə birlikdə çarmıxa çəkildim.
Artıq mən yaşamıram, Məsih məndə
yaşayır. İndi cismən yaşadığım həyata
gəlincə məni sevib uğrumda Özünü
fəda edən Allahın Oğluna olan imanla
yaşayıram. 21 Allahın lütfünü rədd
etmirəm. Çünki əgər salehlik Qanun
vasitəsilə qazanıla bilsəydi, deməli
Məsih boş yerə öldü.

Qanun və iman

3 Ey ağılsız Qalatiyalılar! Sizi kim
tilsimlədi?† İsa Məsihin çarmıxa
çəkilməsi gözləriniz önündə açıqca
təsvir olundu! 2 Sizdən yalnız bunu
öyrənmək istəyirəm: Ruhu Qanuna
əməl etməklə, yoxsa eşitdiyinizə iman
etməklə aldınız? 3 Siz bu qədərmi
ağılsızsınız? Ruhla başlayandan sonra
indi cismani səyləmi bitirirsiniz?
4 Boş yerəmi o qədər əzab çəkdiniz?
Həqiqətən, bunlar boş yerə idi? 5 Bəs
sizi Ruhla təmin edən və aranızda
möcüzələr yaradan Allah bunları
Qanuna əməl etməyinizlə, yoxsa
eşitdiyinizə iman etməyinizlə icra edir?
6 [p]Məsələn, «İbrahim Allaha iman
etdi və bu ona salehlik sayıldı». 7 [q]İndi
isə bunu bilin ki, İbrahimin övladları
imana əsaslananlar olur. 8 [r]Müqəddəs
Yazı Allahın başqa millətləri imanları
ilə saleh sayacağını qabaqcadan
görüb İbrahimə «bütün millətlər
sənin vasitənlə xeyir-dua alacaq»
deyərək Müjdəni qabaqcadan bildirdi.
9 Beləliklə, imana əsaslananlar iman
etmiş olan İbrahimlə birlikdə xeyir-dua
alırlar.
10 [s]Qanuna əməl etməyə
əsaslananların hamısı lənət altındadır.
Çünki yazılıb: «Qoy Qanun kitabında
yazılan hər şeyə riayət etməyən, onu
təsdiq etməyən hər kəsə lənət olsun!»
11 [t]Aydındır ki, Allah qarşısında heç
kim Qanun vasitəsilə saleh sayılmır,
çünki «saleh adam imanla yaşayacaq».
12 [u]Qanun isə imana əsaslanmamışdır.
Əksinə, «bu şeyləri yerinə yetirən

*2:19 *Qanuna münasibətdə öldüm* – yəni *Qanunun mənim üzərimdəki hakimiyyətindən qurtuldum.*
†3:1 *Tilsimlədi?* – bəzi əlyazmalarda *tilsimlədi ki, həqiqətə itaət etməyəsiniz?* (Qal. 5:7).

[o]**2:16** Zəb. 143:2; Rom. 3:20,22 [p]**3:6** Yar. 15:6; Rom. 4:3; Yaq. 2:23
[q]**3:7** Rom. 4:16 [r]**3:8** Yar. 12:3 [s]**3:10** Qanun. 27:26 [t]**3:11** Hab. 2:4
[u]**3:12** Lev. 18:5

adam bunların sayəsində yaşayacaq».
13 [v]Məsih bizim uğrumuzda lənətlənərək
bizi Qanunun lənətindən satın aldı.
Çünki yazılıb: «ağacdan asılan hər kəsə
lənət olsun!» 14 Belə ki İbrahimin aldığı
xeyir-dua Məsih İsada bütün başqa
millətlərin üzərinə gəlsin və biz vəd
edilmiş Ruhu iman vasitəsilə alaq.

Qanun və Allahın vədi

15 Qardaşlar, insan düşüncəsi əsasında
deyirəm: hətta insanın belə təsdiq
etdiyi əhdi heç kəs ləğv edə bilməz
yaxud da ona heç bir şey əlavə edə
bilməz. 16 [w]Vədlər yalnız İbrahimə və
onun nəslinə verildi. Allah çox adam
barədə danışırmış kimi «və nəslindən
olanlara» yox, tək bir adam barədə
danışaraq «və sənin nəslindən olana»
deyir; bu «nəslindən olan» Məsihdir.
17 [x]Bunu demək istəyirəm: Allahın
təsdiq etdiyi* əhdi bundan dörd yüz
otuz il sonra gələn Qanun qüvvədən
sala bilməz ki, vədi ləğv etsin. 18 [y]Çünki
əgər irs Qanuna əsaslanırsa, artıq vədə
əsaslanmır. Amma Allah İbrahimə irsi
vəd vasitəsilə lütfə görə verdi.
19 Bəs Qanun nə üçündür? Qanun
Əhdi pozanları təqsirləndirmək üçün
əlavə olundu. Vədi alan və İbrahimin
nəslindən olan Şəxs gələnə qədər
qüvvədə qalmalı idi. Mələklər vasitəsilə,
bir vasitəçi əli ilə tərtib edildi.
20 Vasitəçi tək bir nəfərə aid deyildir,
Allah isə birdir.

Qanunun məqsədi

21 Deməli, Qanun Allahın vədlərinə
ziddirmi? Əsla! Çünki əgər həyat
verməyə qadir olan bir Qanun
verilsəydi, salehlik, həqiqətən, Qanunla
gələrdi. 22 Lakin Müqəddəs Yazı bütün
kainatı günahın əsiri elan etdi ki, İsa
Məsihə olan imanla vəd olunan şeylər
iman edənlərə verilsin.
23 Amma bu iman gəlməzdən qabaq
biz Qanun altında saxlanmışdıq,
gələcək iman zühur edənə qədər əsir
tutulmuşduq. 24 Yəni Qanun bizə Məsihə
qədər yol göstərən mürəbbimiz oldu
ki, imanla saleh sayılaq. 25 Amma iman
gəldiyinə görə biz artıq mürəbbinin əli
altında deyilik.
26 Siz hamınız Məsih İsaya olan
iman vasitəsilə Allahın övladlarısınız.
27 Çünki vəftizdə Məsihlə birləşən
hamınız Məsihə bürünmüsünüz. 28 Artıq
Yəhudi ilə Yunan, qulla azad, kişi ilə
qadın arasında fərq yoxdur. Çünki
hamınız Məsih İsada birsiniz. 29 [z]Əgər
Məsihə aidsinizsə, deməli, İbrahimin
nəslindənsiniz və vədə görə varissiniz.
4 Mən bunu deyirəm: varis hər şeyin
sahibi olsa da, uşaqlıq vaxtında
kölədən fərqlənmir. 2 O, atasının təyin
etdiyi vaxta qədər qəyyumların və
idarəçilərin nəzarəti altındadır. 3 Bunun
kimi biz də ruhani tərəfdən uşaq ikən
dünyanın ibtidai təlimlərinə kölə idik.
4 [a]Lakin vaxt tamam olanda Allah
qadından, Qanun altında doğulan Öz
Oğlunu göndərdi ki, 5 Qanun altında
olanları satın alsın və biz övladlığa
götürülək. 6 Övladlar olduğunuz
üçün Allah Öz Oğlunun «Abba, Ata!»
deyərək nida edən Ruhunu ürəklərimizə
göndərdi. 7 Buna görə də sən artıq
kölə deyil, övladsan. Əgər övladsansa,
həmçinin Allahın təyin etdiyi varissən.

Paulun Qalatiyalılar üçün qayğıları

8 Əvvəllər Allahı tanımadığınız vaxt
təbiətcə allah olmayanların kölələri
idiniz. 9 İndi isə siz Allahı tanıdınız,

*3:17 *Təsdiq etdiyi* – bəzi əlyazmalarda *Məsih barəsində təsdiq etdiyi.*

[v]**3:13** Qanun. 21:22-23 [w]**3:16** Yar. 12:7; 13:14-15 [x]**3:17** Çıx. 12:40
[y]**3:18** Rom. 4:14 [z]**3:29** Rom. 4:13 [a]**4:4** Rom. 8:15-17

daha doğrusu, Allah tərəfindən
tanındınız. Necə olur ki, təkrarən
zəif və dəyərsiz olan ibtidai təlimlərə
qayıdırsınız? Yenidən onların köləsimi
olmaq istəyirsiniz? 10 Xüsusi günlərə,
aylara, mövsümlərə və illərə riayət
edirsiniz! 11 Sizin üçün qorxuram, bəlkə
sizə görə boş yerə zəhmət çəkmişəm.
12 Qardaşlar, sizə yalvarıram, mənim
kimi olun, çünki mən də sizin kimi
oldum. Siz mənə heç bir haqsızlıq
etməmisiniz. 13 Bildiyiniz kimi, mən
Müjdəni ilk dəfə sizə cismən zəif olaraq
vəz etmişdim. 14 Cismani vəziyyətim
sizin üçün çətin bir sınaq oldusa da,
nə mənə xor baxdınız, nə də məni
rədd etdiniz. Hətta məni, Allahın bir
mələyini, Məsih İsanı qəbul edər kimi
qəbul etdiniz. 15 İndi o xoşbəxtliyiniz
necə oldu? Sizin haqqınızda şəhadət
edirəm ki, əgər mümkün olsaydı,
gözlərinizi çıxardıb mənə verərdiniz.
16 Məgər sizə həqiqəti söylədiyim üçün
sizin düşməniniz oldum? 17 Onlar
sizin qeyrətinizi çəkirlər, amma yaxşı
niyyətlə deyil. Siz onların qeyrətini
çəkəsiniz deyə sizi məndən ayırmaq
istəyirlər. 18 Yaxşı niyyətlə olarsa,
qeyrətimi çəkməniz yaxşıdır, amma bu,
yalnız yanınızda olduğum vaxt deyil,
daimi olsun. 19 Övladlarım! Məsihin
surəti sizdə yaradılana qədər, sizlər
üçün yenə doğuş ağrısı çəkirəm. 20 İndi
yanınızda olmaq və səsimi dəyişdirmək
istəyirdim. Bu halınıza çaşıb-qalmışam.

Sara ilə Həcərin məsəli

21 Ey Qanun altında yaşamaq
istəyənlər, mənə deyin görüm,
Qanunun nə dediyini eşitməmisinizmi?
22 [b]İbrahimin iki oğlu olduğu
yazılmışdır. Bir oğlu cariyədən, o biri
oğlu isə azad qadından* doğulmuşdu.
23 Cariyədən doğulan bəşəri arzusundan,
azad qadından doğulan isə vədə görə
doğulmuşdu. 24 Burada bir məcaz var.
Çünki bu qadınlar iki Əhdi təmsil edir.
Biri Sina dağındandır, köləlik üçün
uşaq doğur. Bu, Həcərdir. 25 Həcər
Ərəbistandakı Sina dağını təmsil edir
və indiki Yerusəlimə bənzəyir. Çünki
indiki Yerusəlim övladları ilə birlikdə
köləlikdədir. 26 Səmavi Yerusəlim isə
azaddır, o bizim anamızdır. 27 [c]Çünki
yazılıb:

«Şənlən, ey sonsuz, qısır qadın!
Sevinclə mahnı oxu, qışqır,
Ey doğuş ağrısı çəkməyən qadın!
Çünki atılmış qadının övladları
Ərli qadının övladlarından çoxdur».

28 Sizsə, qardaşlar, İshaq kimi vədə
görə doğulan övladlarsınız. 29 [d]Amma o
zaman bəşər arzusundan doğulan şəxs
Ruhun gücü ilə doğulan şəxsi necə təqib
etdisə, indi də belədir. 30 [e]Bəs Müqəddəs
Yazı nə deyir? «Cariyəni və onun oğlunu
qov. Çünki cariyənin oğlu azad qadının
oğlu ilə birgə varis olmayacaq». 31 Buna
görə, qardaşlar, biz cariyənin deyil,
azad qadının övladlarıyıq.

Məsihin verdiyi azadlıq

5 Məsih azad olmağımız üçün
bizi azad etdi. Ona görə də
möhkəm durun† və yenidən köləlik
boyunduruğuna tabe olmayın.
2 Budur, mən Paul sizə deyirəm: əgər
siz sünnət olunsanız, Məsih sizə heç
bir fayda verməz. 3 Sünnət olunan hər
adama yenə şəhadət edirəm ki, elə

*4:22 *Cariyədən … azad qadından* – yəni Həcərdən … Saradan.
†5:1 *Məsih … durun* – bəzi əlyazmalarda *Ona görə də Məsihin bizə verdiyi azadliqda möhkəm durun.*

[b]4:22 Yar. 16:15; 21:2-3 [c]4:27 Yeş. 54:1 [d]4:29 Yar. 21:9-10
[e]4:30 Yar. 21:10,12

bir adam bütün Qanuna əməl etməyə
borcludur. 4 Ey Qanun vasitəsilə saleh
sayılmaq istəyənlər, siz Məsihdən
ayrıldınız, Allahın lütfündən uzaq
düşdünüz. 5 Amma biz Ruh vasitəsilə
imanla saleh sayılacağımıza ümid
bağlayıb onu həvəslə gözləyirik. 6 Məsih
İsada sünnətlilik də, sünnətsizlik də
əhəmiyyət kəsb etmir, əhəmiyyət kəsb
edən isə məhəbbətlə fəal olan imandır.
7 Yaxşı irəliləyirdiniz. Axı həqiqətə
itaət etmə yolunuzu kim kəsdi? 8 Belə
inandırılmağınız sizi Çağıranın istəyi
deyil. 9 [f]Azacıq maya bütün xəmiri
acıdır. 10 Mən Rəbdə sizə etimad edirəm
ki, başqa cür düşünməyəsiniz. Sizi
lərzəyə salansa, kim olursa olsun, öz
cəzasını çəkəcək. 11 Amma, qardaşlar,
əgər mən hələ də sünnəti vəz edirəmsə,
nə üçün hələ də təqibə məruz qalıram?
Elə olsaydı, onlara büdrəmə daşı olan
çarmıx ləğv olunardı. 12 Ah, kaş sizi
çaşdıranlar özlərini axtalayaydılar!

Cismani təbiət və Müqəddəs Ruh

13 Qardaşlar, siz azadlığa dəvət
olunmusunuz. Amma bu azadlığı
cismani təbiət üçün fürsətə çevirməyin,
lakin bir-birinizə məhəbbətlə qulluq
edin. 14 [g]Bütün Qanun tək bir
sözdə tamamlanır: «Qonşunu özün
kimi sev». 15 Əgər siz bir-birinizi
didib-yeyirsinizsə, ehtiyatlı olun ki,
bir-birinizi tələf etməyəsiniz.
16 Mən bunu deyirəm: Müqəddəs
Ruha görə həyat sürün, o zaman siz
cismani təbiətin ehtirasını əsla icra
etməzsiniz. 17 Çünki cismani təbiət Ruha
zidd və Ruh cismani təbiətə zidd olanı
arzulayır. Onlar bir-birinə qarşı durur
ki, siz istədiyinizi etməyəsiniz. 18 Amma
Müqəddəs Ruhun rəhbərliyi altında
olsanız, siz Qanun altında deyilsiniz.
19 Cismani təbiətin əməlləri isə
bəllidir. Bunlar cinsi əxlaqsızlıq,*
murdarlıq, pozğunluq, 20 bütpərəstlik,
sehrbazlıq, düşmənçilik, münaqişə,
qısqanclıq, hiddət, özünü göstərmə,
nifaq, təfriqələr, 21 paxıllıq,† sərxoşluq,
eyş-işrət və buna bənzər şeylərdir.
Sizə əvvəllər xəbərdarlıq etdiyim
kimi indi də xəbərdarlıq edirəm ki,
bunları edənlər Allahın Padşahlığını irs
almayacaqlar.
22 Müqəddəs Ruhun səmərəsi
isə budur: məhəbbət, sevinc, sülh,
səbir, xeyirxahlıq, yaxşılıq, sədaqət,
23 həlimlik, nəfsə hakim olmaq. Bu kimi
şeylərə qarşı qanun yoxdur. 24 Məsih
İsaya məxsus olanlar isə öz həvəs və
ehtirasları ilə birlikdə cismani təbiəti
çarmıxa çəkdilər. 25 Madam ki, biz Ruha
görə yaşayırıq, Ruha görə də rəftar edək.
26 Şöhrətpərəst olmayaq, bir-birimizi
hirsləndirməyək, bir-birimizə paxıllıq
etməyək.

Bir-birinizin yüklərini daşıyın

6 Qardaşlar, əgər bir adam bir təqsir
üstündə tutulsa, siz ruhanilər onu
həlimlik ruhu ilə bərpa edin. Sən də
sınağa düşməmək üçün özünə fikir
ver. 2 Bir-birinizin yüklərini daşıyın və
bu yolla Məsihin qanununu icra edin.
3 Çünki əgər kimsə heç olduğu halda
özünü əhəmiyyətli sanırsa, öz-özünü
aldadır. 4 Qoy hər kəs öz əməlini
yoxlasın və onda başqasının etdikləri ilə
deyil, yalnız öz etdikləri ilə fəxr edəcək.
5 Çünki hər kəs öz üzərinə düşən yükü
daşımalıdır.
6 Kəlam haqqında təlim alan, təlim
verənlə hər cür neməti bölüşdürsün.

---

*5:19 *Cinsi əxlaqsızlıq* – bəzi əlyazmalarda *zinakarlıq, cinsi əxlaqsızlıq.*
†5:21 *Paxıllıq* – bəzi əlyazmalarda *paxıllıq, qatillik.*

[f]5:9 1Kor. 5:6 [g]5:14 Lev. 19:18

7 Aldanmayın: Allaha istehza edilməz.
Çünki insan nəyi əkərsə, onu da biçəcək.
8 Öz cismani təbiəti üçün əkən, bu
təbiətdən məhv biçəcək. Ruh üçün
əkənsə Ruhdan əbədi həyat biçəcək.
9 Yaxşılıq edərkən ruhdan düşməyək.
Çünki əgər həvəsdən düşməsək,
vaxtında biçərik. 10 Buna görə də nə
qədər fürsətimiz varsa, hamı üçün,
xüsusən imanlılar ailəsi üçün yaxşı işlər
görək.

Son öyüdlər və salamlar

11 Baxın, sizə öz əlimlə necə böyük
hərflərlə yazdım! 12 Zahirən və cismən
yaxşı təsir buraxmaq istəyənlər
yalnız Məsihin çarmıxı üzündən
təqib olunmamaq üçün sizi sünnət
olunmağa məcbur edirlər. 13 Axı
sünnət olunanların özləri də Qanuna
riayət etmirlər. Lakin sizin sünnət
olunmanızı istəyirlər ki, sizin cisminizlə
öyünsünlər. 14 Mənsə Rəbbimiz İsa
Məsihin çarmıxından başqa şeylə əsla
öyünmərəm. Bunun vasitəsilə dünya
mənim üçün çarmıxa çəkildi, mən də
dünya üçün çarmıxa çəkildim. 15 Çünki*
əhəmiyyət kəsb edən sünnətlilik yaxud
sünnətsizlik deyil, yeni yaradılışdır.
16 Nə qədər bu qaydaya riayət edənlər
varsa, onların üzərinə, Allahın İsraili
üzərinə sülh və mərhəmət gəlsin.
17 Bundan sonra qoy heç kim mənə
əziyyət verməsin. Çünki mən İsanın
yara izlərini bədənimdə daşıyıram.
18 Qardaşlar, Rəbbimiz İsa Məsihin
lütfü ruhunuza yar olsun! Amin.

---

*6:15 *Çünki* – bəzi əlyazmalarda *Çünki Məsih İsada.*

PAULUN

EFESLİLƏRƏ MƏKTUBU

GİRİŞ

Paulun *«Efeslilərə Məktubu»*nun mövzusu əsasən məktubun 1:10-cu ayəsinin ətrafındadır:

«Vaxt tamam olanda isə bu niyyətini yerinə yetirərək həm göylərdə, həm də yerdə olan hər şeyi Məsihdə birləşdirəcək».

Bu həm də Allahın xalqına bir xahişdir ki, onlar Allahın böyük planına uyğun olaraq yaşayıb insanları İsa Məsihdə birliyə çatdırsınlar.

Məktubun birinci hissəsində müəllif Ata Allahın Öz xalqını seçməsi, onların günahlarını Oğlu İsa Məsih vasitəsilə bağışlaması və Allahın Müqəddəs Ruh tərəfindən zəmanət verilmiş vədi barədə danışır. Məktubun ikinci hissəsində Paul oxucularından xahiş edir ki, onların Məsihdəki birliyi yaşadığı həyatları ilə uyğun olsun.

Paul bu məktubu yazarkən məcazi mənada ifadələr işlədir. Bunu Allahın xalqının Məsihdə birliyini nümayiş etdirmək üçün edir. Məsələn, imanlı cəmiyyəti insan bədəninə, Məsih isə bu bədənin başına yaxud imanlılar binaya, Məsih isə guşədaşına bənzədilir. Paul həm də burada Məsihdə Allahın verdiyi lütfdən çox danışır. Hər bir şey Məsihin məhəbbətinin, bağışlamasının, lütfünün və paklığının nurunda göstərilir.

Kitabın məzmunu:

1:1-2 Giriş
1:3–3:21 Məsih və imanlılar cəmiyyəti
4:1–6:20 Məsihdə yeni həyat
6:21-24 Son salamlar

1 [h]Allahın iradəsi ilə Məsih İsanın həvarisi olan mən Pauldan Məsih İsada sadiq qalan Efesdəki müqəddəslərə salam! [2] Atamız Allahdan və Rəbb İsa Məsihdən sizə lütf və sülh olsun!

Məsihdə bizə bəxş olunan bəxtiyarlıq

[3] Bizə Məsihdə səmadakı hər cür ruhani nemətlə xeyir-dua verən Allaha – Rəbbimiz İsa Məsihin Atasına alqış olsun! [4] O, dünya yaranmazdan qabaq bizi Məsihdə seçdi ki, biz məhəbbətdə Onun qarşısında müqəddəs və nöqsansız olaq. [5] Öz iradəsinin xoş məramına görə İsa Məsih vasitəsilə bizi əvvəlcədən təyin etdi ki, Özü üçün övladlığa götürsün. [6] Belə ki sevimli Oğlunda bizə bəxş etdiyi Öz lütfünün izzətini mədh edək. [7–8] [i]Tam hikmət və dərrakə ilə bizə bol-bol göstərdiyi Öz zəngin lütfünə görə biz Oğlunda, Onun qanı vasitəsilə satınalınmaya – təqsirlərimizin bağışlanmasına malikik. [9] Allah əvvəlcə sirr olaraq saxladığı iradəsini xoş məramına görə bizə bildirdi. Bu məramını O, Məsihdə əvvəlcədən təyin etmişdi. [10] Vaxt tamam olanda isə bu niyyətini yerinə yetirərək həm göylərdə, həm də yerdə olan hər şeyi Məsihdə birləşdirəcək.

[11] Hər şeyi Öz iradəsindən yaranan qərarı ilə yerinə yetirən Allahın məqsədinə görə biz əvvəlcədən təyin edilərək Məsihdə irs aldıq ki, [12] qabaqcadan Məsihə ümid bəsləyən bizlər Allahın izzətinin mədhi üçün mövcud olaq. [13] Həqiqət kəlamını, xilasınızın Müjdəsini eşidib Məsihə iman edən zaman siz də vəd olunmuş Müqəddəs Ruhla Onda möhürləndiniz. [14] Müqəddəs Ruh Allaha məxsus olanların satın alınmasından ötrü irsimiz üçün qoyulan girovdur. Belə ki Allahın izzətini mədh edək.

---

[h] **1:1** Həv. 18:19-21; 19:1 [i] **1:7-8** Kol. 1:14

Paulun imanlılar üçün duası

15 Bundan ötrü mən də Rəbb İsaya
olan imanınız və bütün müqəddəslərə
göstərdiyiniz məhəbbət barədə eşidib
16 sizi dualarımda yada salaraq
durmadan sizin üçün şükür edirəm.
17 Dua edirəm ki, Rəbbimiz İsa Məsihin
Allahı olan izzətli Ata Özünü sizə
tanıtmaq üçün hikmət və vəhy ruhunu
versin. 18 [j]Qoy O, qəlbinizin gözünü
nurlandırsın ki, Onun çağırışından
yaranan ümidin nə olduğunu,
müqəddəslərə verdiyi irsin izzətinin
necə zəngin olduğunu, 19 Onun böyük
qüvvəsinin fəaliyyətinə görə iman
edən bizlərə sərf etdiyi qüdrətinin
həddsiz böyüklüyünün nə olduğunu
görəsiniz. 20 Allah bu qüdrətlə Məsihdə
elə fəaliyyət göstərdi ki, Onu ölülər
arasından dirildib səmada Öz sağında
oturtdu 21 və hər başçı, hakim, qüvvə və
ağadan, yalnız bu dövrdə deyil, gələcək
dövrdə də çəkiləcək hər addan Onu çox
yüksəltdi. 22 [k]Hər şeyi Ona tabe edərək
ayaqlarının altına qoydu və Onu hər
şey üzərində baş olsun deyə imanlılar
cəmiyyətinə verdi. 23 Bu cəmiyyət
Onun bədənidir və hər şeyi hərtərəfli
Bütövləşdirənin bütövlüyüdür.

Ölümdən həyata keçdik

2 [l]Siz bir zamanlar təqsirləriniz
və günahlarınız üzündən ölü
idiniz. 2 Siz bu dünyanın gedişinə və
havada olan hakimiyyətin, yəni indi
Allaha itaətsiz insanlarda fəaliyyət
göstərən ruhun hökmdarına uyaraq bu
günahların içində həyat sürürdünüz.
3 Hamımız bir zamanlar həmin insanlar
arasında cismin və əqlin istəklərini
yerinə yetirərək cismani təbiətimizin
ehtiraslarına görə həyat sürürdük.
Beləliklə, təbiətcə digər insanlar kimi
Allahın qəzəbinə düçar idik.
4 Lakin mərhəməti bol olan Allah
bizi böyük məhəbbətlə sevdiyi üçün
5 təqsirlərimiz üzündən ölü olduğumuz
halda bizə Məsihlə birlikdə həyat verdi.
Onun lütfü ilə xilas oldunuz. 6 Allah
bizi Məsih İsada, Onunla birlikdə
dirildib səmada oturtdu. 7 Bunu Məsih
İsada bizə etdiyi xeyirxahlıqla lütfünün
həddsiz zənginliyini gələcək dövrlərdə
də göstərmək üçün etdi. 8 Çünki iman
vasitəsilə, lütflə xilas oldunuz. Bu, sizin
nailiyyətiniz deyil, Allahın hədiyyəsidir.
9 Əməllərlə deyil ki, heç kim öyünə
bilməsin. 10 Çünki biz Allahın yaratdığı
əsərlərik, əvvəlcədən hazırladığı yaxşı
əməllərinə görə həyat sürmək üçün
Məsih İsada yaradıldıq.

Allahın yeni cəmiyyəti

11 Buna görə cismən başqa
millətlərdən olan sizlər bir zamanlar
kim olduğunuzu yada salın; bədəndə
əllə icra olunan sünnətə malik olub
«sünnətlilər» deyə tanınanların
«sünnətsiz» adlandırdığı sizlər 12 o vaxt
Məsihsiz, İsrail vətəndaşlığından kənar,
Allahın vədinə əsaslanan Əhdlərə yad,
dünyada ümidsiz və Allahdan məhrum
idiniz. 13 Amma bir zamanlar uzaq olan
sizlər indi Məsih İsada Məsihin qanı
sayəsində yaxın oldunuz.
14 [m]Çünki Məsih Özü barışığımızdır.
O hər iki tərəfi bir etdi və bizi
bir-birimizdən ayıran səddi, yəni
ədavəti Öz cismi ilə yıxdı. 15 Qanunu
əmrləri və qaydaları ilə birlikdə ləğv
etdi ki, hər iki tərəfdən Özündə yeni bir
insan yaradaraq barışıq təmin etsin 16 və
çarmıx vasitəsilə hər ikisini tək bədəndə
Allahla barışdırsın. O, ölümü ilə ədavəti
yox etdi. 17 [n]O gəlib həm uzaqda

---

[j]**1:18** Zəb. 110:1 [k]**1:22** Zəb. 8:6; Kol. 1:18 [l]**2:1** Kol. 2:13
[m]**2:14** Kol. 1:19-20; 2:14 [n]**2:17** Yeş. 57:19

olan sizlərə, həm də yaxındakılara bu
barışdırma Müjdəsini yaydı. 18 Çünki
hər iki tərəfdən olan bizlər Onun
vasitəsilə bir Ruhda Atanın hüzuruna
çıxa bilərik. 19 Deməli, artıq yad və
qərib deyilsiniz, siz müqəddəslərlə birgə
vətəndaş və Allah ailəsinin üzvüsünüz.
20 Həvarilərlə peyğəmbərlərin təməli
üzərində tikilmisiniz, guşədaşı isə
Məsih İsa Özüdür. 21 Bütün bina Onun
üzərində birləşərək Rəbbə aid müqəddəs
məbəd olmaq üçün ucalır. 22 Siz də Ruh
vasitəsilə Allahın məskəni olmaq üçün
birlikdə Məsih üzərində tikilirsiniz.

Paula vəhy vasitəsilə bildirilən sirr

3 Mən Paul siz başqa millətlərdən
olanlar uğrunda Məsih İsanın
məhbusuyam. 2 Eşitdiyiniz kimi,
Allahın sizin üçün mənə verdiyi lütfü
sizə çatdırmaq vəzifəsini daşıyıram.
3 Yuxarıda qısaca yazdığım kimi,
Allah sirri mənə vəhy vasitəsilə
bildirdi. 4 [o]Yazdıqlarımı oxuyanda
Məsihin bu sirrini necə dərk
etdiyimi anlaya bilərsiniz. 5 Bu
sirr əvvəlki nəsillərin dövründə bəşər
övladlarına açıq bildirilməmişdi.
İndisə Məsihin müqəddəs həvarilərinə
və peyğəmbərlərinə Ruh vasitəsilə
açılmışdır. 6 Sirr budur ki, başqa
millətlər də Müjdə vasitəsilə Məsih
İsada eyni irsin ortağı, eyni bədənin
üzvü və eyni vədin şərikidir.
7 Allah qüdrətli fəaliyyəti ilə lütfünü
mənə verdi, buna əsasən Müjdəni
yaymaq üçün xidmətçi oldum. 8 Bütün
müqəddəslərdən ən dəyərsiziyəm. Lakin
Allah mənə bu lütfü verdi ki, Məsihin
ağlasığmaz zənginliyi ilə bağlı Müjdəni
millətlərə yayım 9 və hər şeyi yaradan*
Allahda əzəldən bəri sirr olaraq
saxlanan niyyətinin nə olduğunu bütün
insanlara izah edim. 10 Belə ki Allahın
çoxcəhətli hikməti indi imanlılar
cəmiyyəti vasitəsilə səmadakı başçılara
və hakimlərə bildirilsin. 11 Bu, Allahın
əzəldən bəri qurduğu və Rəbbimiz
Məsih İsa vasitəsilə yerinə yetirdiyi
məqsədinə görə oldu. 12 Məsihdə və
Məsihə olan iman vasitəsilə Allaha
cəsarət və etibarla yaxınlaşa bilirik.
13 Buna görə xahiş edirəm ki, mənim
sizin üçün çəkdiyim əziyyətlərdən ötrü
ruhdan düşməyin. Bu sizə izzət gətirir.

Məsihin məhəbbətini dərk etmək

14–15 Buna görə göylərdə və yer
üzündə hər ailəyə ad verən Atanın†
qarşısında diz çökürəm ki, 16 O,
izzətinin zənginliyinə görə Öz Ruhu
vasitəsilə sizi daxili varlığınızda qüvvə
ilə möhkəmləndirsin 17 və Məsih iman
vasitəsilə ürəklərinizdə yaşasın. Siz də
məhəbbətdə kök salıb təməl qoyasınız,
18 belə ki bütün müqəddəslərlə birlikdə
Məsihin məhəbbətinin nə qədər geniş,
uzun, uca və dərin olduğunu başa
düşməyə, 19 hər dərrakədən üstün
olan bu məhəbbəti dərk etməyə
gücünüz çatsın. Beləliklə, siz Allahın
bütövlüyündə bütöv olasınız.
20 Bizdə fəaliyyət göstərən qüdrətlə
istədiyimiz yaxud düşündüyümüz hər
şeydən daha artığını etməyə qadir
olan Allaha 21 imanlılar cəmiyyətində
və Məsih İsada izzət bütün nəsillər
boyunca əbədi olsun! Amin.

Bədənin birliyi

4 Beləliklə, Rəbdə olduğum üçün
məhbus olan mən sizə yalvarıram
ki, aldığınız çağırışa layiq şəkildə həyat
sürəsiniz. 2 [p]Tamamilə itaətkar və həlim,

---

*3:9 *Yaradan* – bəzi əlyazmalarda *İsa Məsih vasitəsilə yaradan.*
†3:14-15 *Atanın* – bəzi əlyazmalarda *Rəbbimiz İsa Məsihin Atasının.*

[o]3:4 Kol. 1:25-27 [p]4:2 Kol. 3:12-13

səbirli olub bir-birinizə məhəbbətlə
dözün. 3 Ruhun birliyini sülh bağı ilə
qorumağa çalışın. 4 Çağırış aldıqda bir
ümidə çağırıldığınız kimi bədən bir,
Ruh bir, 5 Rəbb bir, iman bir, vəftiz bir,
6 hamının Allahı və Atası birdir. O hamı
üzərində, hamı ilə və hamıdadır.
7 Hər birimizə isə Məsihin bəxşişinin
ölçüsü ilə lütf verilmişdir. 8 [q]Bunun
üçün belə deyilir:
«Ucalara çıxıb əsirləri Özü ilə apardı,
İnsanlara hədiyyələr verdi».
9 Bəs bu «çıxıb» sözü nə deməkdir?
Yalnız o deməkdir ki, Məsih əvvəlcə
aşağılara, yer üzünə də enmişdi. 10 Enən
də Odur, hər şeyi bütövləşdirmək
üçün bütün göylər üzərinə çıxan da
Odur. 11 Özü kimini həvari, kimini
peyğəmbər, kimini müjdəçi, kimini
çoban* və müəllim təyin etdi ki,
12 Məsihin bədəninin inkişafından
ötrü xidmət vəzifəsini yerinə yetirmək
üçün müqəddəsləri təmin etsinlər.
13 Bunun nəticəsində hamımız imanda
və Allahın Oğlunu tanımaqda birliyə,
kamil insan səviyyəsinə, Məsihin tam
yetkinliyi həddinə çatacağıq. 14 Belə ki
artıq insanların kələkbazlığı ilə, bizi
yoldan azdırmaq üçün hazırladıqları
hiylələrlə, cürbəcür təlimin küləyi ilə
çalxalanan və ora-bura sürüklənən
körpə uşaqlar olmayaq. 15 Əksinə,
məhəbbətlə həqiqəti yerinə yetirərək
bədənin Başı olan Məsihə bənzəmək
üçün hərtərəfli böyüyək. 16 [r]Bütün
bədən Onunla birləşdiyi üçün hər
buğumun köməyi ilə üzvi surətdə Ona
bağlanıb qurulur və hər üzvün ahəngdar
işləməsi ilə böyüyür, məhəbbətlə inkişaf
edir.

Köhnə həyat və yeni həyat

17 Beləliklə, bunu Rəbdə olaraq deyir
və xəbərdarlıq edirəm ki, siz artıq başqa
millətlər kimi boş düşüncələrlə həyat
sürməyin. 18 Onların şüurlarını qaranlıq
alıb və mənəviyyatca nadan, qəlbən
inadkar olduqlarına görə Allah həyatına
yad oldular. 19 Həssaslığı hərtərəfli
itirərək hərisliklə hər cür murdar işlər
üçün özlərini pozğunluğa verdilər.
20 Sizsə Məsihi elə öyrənməmisiniz.
21 Əlbəttə, siz İsanın səsini eşitdiniz
və İsada – Ondakı həqiqətə əsasən
təlim aldınız. 22 [s]Bu təlimə görə
əvvəlki həyat tərzinizə məxsus olub
aldadıcı ehtiraslarla pozulmaqda olan
köhnə mənliyi kənara atın, 23 ruhən
və əqlən yeniləşin, 24 əsl salehlik və
müqəddəsliklə Allaha bənzər yaradılmış
yeni mənliyə bürünün.
25 [t]Buna görə yalanı kənara atın,
hər biriniz öz qonşunuza həqiqəti
söyləyin, çünki hamımız eyni bədənin
üzvləriyik. 26 [u]Qəzəblənərkən günah
işlətməyin. Günəş batmazdan əvvəl
qəzəbinizi soyudub 27 iblisə yer
verməyin. 28 Oğurluq edən artıq oğurluq
etməsin, əksinə, zəhmət çəkib öz
əlləri ilə yaxşı əməl etsin ki, ehtiyacı
olanlarla bölüşdürməyə bir şeyi olsun.
29 Ağzınızdan heç bir pis söz çıxmasın,
amma eşidənlərə xeyir versin deyə
lazım olanda başqalarının inkişafına
səbəb olan sözlər deyin. 30 [v]Allahın
Müqəddəs Ruhunu kədərləndirməyin.
Çünki satınalınma günü üçün o Ruhla
möhürləndiniz. 31 Qoy hər cür kinlə
birlikdə acılıq, hiddət, qəzəb, çığırtı,
böhtançılıq büsbütün sizdən uzaq olsun.
32 [w]Amma bir-birinizə qarşı xeyirxah,
rəhmli olun və Allah Məsihdə sizi

---

*4:11 *Çoban* – yəni cəmiyyət rəhbəri.

[q]**4:8** Zəb. 68:18 [r]**4:16** Kol. 2:19 [s]**4:22** Yar. 1:26; Kol. 3:9,10
[t]**4:25** Zək. 8:16 [u]**4:26** Zəb. 4:4 [v]**4:30** Yeş. 63:10 [w]**4:32** Kol. 3:13

bağışladığı kimi siz də bir-birinizi
bağışlayın.
5 Beləliklə, sevimli övladlar kimi
Allahdan nümunə götürün. 2 [x]Məsih
bizi necə sevdisə, Özünü bizim üçün
Allahın xoşuna gələn ətirli təqdim
və qurban olaraq fəda etdisə, siz də
məhəbbətdə elə həyat sürün.
3 Əxlaqsızlığın, hər cür murdarlığın və
yaxud tamahkarlığın adı belə, aranızda
çəkilməsin, çünki bunlar müqəddəslərə
yaraşmaz. 4 Ədəbsizlik, boşboğazlıq və
yaxud kobud zarafat da olmasın. Bunlar
sizə yaramaz. Bunun əvəzində qoy şükür
olsun. 5 Əlbəttə, bilirsiniz ki, heç bir
əxlaqsız, murdar yaxud bütpərəstə tay
olan tamahkar adam Məsihin və Allahın
Padşahlığında irsə malik olmayacaq.

Nurda gəzin

6 Qoy heç kim sizi boş sözlərlə
aldatmasın. Bu şeylərə görə Allahın
qəzəbi itaətsiz adamların üzərinə
gəlir. 7 Buna görə də onların şəriki
olmayın. 8 Siz də bir zamanlar zülmət
idiniz, indi isə Rəbdə nursunuz. Ona
görə də nur övladları kimi həyat
sürün. 9 Çünki nurun bəhrəsi* hər cür
yaxşılıqda, salehlikdə və həqiqətdə
görülür. 10 Rəbbi razı salan şeyləri ayırd
edin, 11 qaranlığın səmərəsiz əməllərinə
şərik olmayın. Əksinə, bunları ifşa
edin. 12 Belə ki qaranlıqdakıların gizlicə
etdikləri şeyləri söyləmək də ayıbdır.
13 Nurun ifşa etdiyi hər şey aşkardır,
14 bu cür nə aşkara çıxırsa, özü də nur
olur. Buna görə belə deyilir:

«Ey yatan, oyan və ölülər arasından
diril!
Məsih sənin üzərinə nur saçacaq».

15 Beləliklə, həyat tərzinizə ciddi
diqqət yetirin, müdriklikdən məhrum
olanlar kimi deyil, müdriklər kimi
həyat sürün. 16 [y]Hər fürsətdən istifadə
edin, çünki günlər şərdir. 17 Buna görə
ağılsız olmayın, Rəbbin iradəsini dərk
edin. 18 Şərabdan sərxoş olmayın, bu
sizi mənəviyyatsızlığa aparır. Bunun
əvəzinə Ruhla dolun. 19 [z]Bir-birinizə
məzmurlar, ilahilər və ruhani nəğmələr
oxuyun, Rəbbə ürəkdən nəğmələr
çalıb-oxuyun. 20 Həmişə hər şeyə görə
Rəbbimiz İsa Məsihin adı ilə Ata Allaha
şükür edin.

Evdə olan münasibətlər

21 Məsih qorxusu ilə bir-birinizə tabe
olun.
22 [a]Ey qadınlar, Rəbbə tabe olduğunuz
kimi ərlərinizə tabe olun. 23 Çünki
bədənin Xilaskarı olan Məsih imanlılar
cəmiyyətinin Başı olduğu kimi ər də
arvadının başıdır. 24 Ona görə cəmiyyət
Məsihə tabe olduğu kimi arvadlar da
hər vəziyyətdə öz ərlərinə tabe olsunlar.
25 [b]Ey ərlər, Məsih imanlılar
cəmiyyətini sevib onun uğrunda Özünü
fəda etdiyi kimi siz də arvadlarınızı
sevin. 26 Məsih bunu ona görə etdi
ki, cəmiyyəti su ilə yuyub kəlamla
təmizləyərək təqdis etsin 27 və beləcə
onda ləkə, qırışıq yaxud başqa qüsur
olmadan izzətli şəkildə, müqəddəs və
nöqsansız olaraq Öz hüzuruna çıxarsın.
28 Ərlər də eyni şəkildə arvadlarını öz
bədənləri kimi sevməlidirlər. Arvadını
sevən özünü sevir. 29 Çünki heç kim
heç zaman öz vücuduna nifrət etməz.
Əksinə, Məsih cəmiyyətə yanaşdığı kimi
onu bəsləyib qayğısına qalar. 30 Axı biz
Onun bədən üzvləriyik.†

---

*5:9 *Nurun bəhrəsi* – bəzi əlyazmalarda *Ruhun səmərəsi* (Qal. 5:22).
†5:30 *Üzvləriyik* – bəzi əlyazmalarda *üzvləriyik, Onun ətindən, sümüklərindənik.*

[x]5:2 Çıx. 29:18; Zəb. 40:6 [y]5:16 Kol. 4:5 [z]5:19 Kol. 3:16-17
[a]5:22 Kol. 3:18; 1Pet. 3:1-2 [b]5:25 Kol. 3:19; 1Pet. 3:7

31 [c]«Buna görə də kişi ata-anasını
tərk edib arvadına qovuşacaq və
ikisi bir bədən olacaq».
32 Bu sirr böyükdür, mən bunun
Məsihə və cəmiyyətə dəxli olduğunu
söyləyirəm. 33 Sizə gəlincə, qoy hər kəs
öz arvadını özü kimi sevsin, arvad isə
ərinə ehtiram etsin.

6 [d]Ey övladlar, Rəbdə olduğunuza
görə ata-ananıza itaət edin. Bu
haqdandır. 2 [e]İçində vəd olan ilk əmr
budur: «Ata-anana hörmət et ki, 3 xoş
güzəranın və yer üzündə ömrün uzun
olsun».
4 [f]Ey atalar, siz də övladlarınızı
qəzəbləndirməyin, ancaq onları Rəbbin
tərbiyə və öyüdü ilə böyüdün.
5 [g]Ey qullar, Məsihə itaət etdiyiniz
kimi dünyəvi ağalarınıza da qorxu və
lərzə ilə səmimi qəlbdən itaət edin.
6 Bunu yalnız insanları razı salmaq
üçün gözə xoş görünən xidmətlə deyil,
Məsihin qulları kimi can-dildən Allahın
iradəsini yerinə yetirmək üçün edin.
7 İnsanlara deyil, Rəbbə qulluq etdiyiniz
kimi ürəkdən qulluq edin. 8 Bilin ki,
istər qul, istərsə də azad – hər bir kəs
gördüyü yaxşı işin əvəzini Rəbdən
alacaq.
9 [h]Ey ağalar, siz də həmçinin
qullarınızla bu cür rəftar edin. Daha
onlara hədə-qorxu gəlməyin. Bilin ki,
onların da, sizin də Ağanız göylərdədir
və O, insanlar arasında tərəfkeşlik
etməz.

Allahın verdiyi ruhani zireh və silahlar

10 Nəhayət, Rəbdə və Onun böyük
qüvvəsində möhkəmlənin. 11 İblisin
hiylələrinə qarşı dura bilmək üçün
Allahın verdiyi bütün zireh və silahlara
bürünün. 12 Çünki mübarizəmiz qandan
və ətdən ibarət olan insanlara qarşı
deyil, şər başçılarına və hakim olanlara,
bu qaranlıq dünyanın hökmranlarına,
səmadakı ruhani şər qüvvələrə qarşıdır.
13 Buna görə Allahın bütün zireh
və silahlarını götürün ki, pis gündə
müqavimət göstərib, əlinizdən gələn hər
bir şeyi etdikdən sonra dayana biləsiniz.
14–15 [i]Beləliklə, həqiqəti kəmər kimi
belinizə bağlamış, salehliyi zireh kimi
döşünüzə taxmış, barışıq Müjdəsini
yaymaq hazırlığını ayaqlarınıza
geyinmiş olaraq yerinizdə durun.
16 Bütün bunlara əlavə olaraq şər olanın
bütün yanar oxlarını söndürə bilmək
üçün iman qalxanını əlinizə götürün.
17 [j]Xilas dəbilqəsini və Ruhun qılıncını,
yəni Allahın kəlamını götürün. 18 Hər
cür dua və yalvarışla, həmişə Ruhun
idarəsi ilə dua edin. Bu məqsəd uğrunda
tamamilə mətin olub oyaq qalaraq
bütün müqəddəslər üçün dua edin.
19–20 Ağzımı hər açanda mənə lazımi
söz verilsin deyə mənim üçün də dua
edin ki, uğrunda zəncirlə bağlı halda
elçilik etdiyim Müjdənin sirrini açım və
bu Müjdəni lazımınca cəsarətlə bəyan
edə bilim.

Salam göndərmə

21 [k]Necə olduğumu və nə iş
gördüyümü siz də biləsiniz deyə Rəbdə
sevimli qardaş və sadiq xidmətçi Tixik
sizə hər şeyi bildirəcək. 22 Onu bu
məqsədlə yanınıza göndərdim ki, bizim
vəziyyətimizdən xəbərdar olasınız və o
sizin qəlbinizi ovutsun.
23 Ata Allah və Rəbb İsa Məsihdən
bacı-qardaşlara sülh və imanla

---

[c] **5:31** Yar. 2:24 [d] **6:1** Kol. 3:20 [e] **6:2** Çıx. 20:12; Qanun. 5:16
[f] **6:4** Kol. 3:21 [g] **6:5** Kol. 3:22-25 [h] **6:9** Qanun. 10:17; Kol. 3:25; 4:1
[i] **6:14-15** Yeş. 52:7; 59:17 [j] **6:17** Yeş. 59:17; 1Sal. 5:8
[k] **6:21** Həv. 20:4; 2Tim. 4:12; Kol. 4:7-8

məhəbbət olsun. 24 Rəbbimiz İsa Məsihi
ölməz məhəbbətlə sevənlərin hamısına
lütf olsun!

PAULUN

FİLİPİLİLƏRƏ MƏKTUBU

GİRİŞ

Paulun *«Filipililərə Məktubu»* onun Roma imperatorluğunun vilayəti olan Makedoniyada əsasını qoyduğu cəmiyyətə ünvanlanıb. Paul bu məktubu zindanda olarkən yazmışdı. O zaman həvari başqa məsihçi həmkarlarının ona qarşı çıxmasına və bu cəmiyyətdə yanlış təlimlərin yayılmasına görə narahat idi. Amma onun çəkdiyi əzab-əziyyətlərə baxmayaraq, bu məktub sevinc və inam ruhunda yazılmışdır. Bunu yalnız Paulun İsa Məsihə böyük imanı ilə izah etmək olar.

Bu məktubun yazılmasının səbəbi Paulun Filipi imanlılarına onun ehtiyac içində olarkən göndərdikləri maddi yardıma görə minnətdarlığını bildirmək idi. Həvari onları ruhlandırırdı ki, çəkdikləri əzablara baxmasınlar və onun kimi mətin olsunlar. Paul Filipi imanlılarını xudbin və qürurlu olmaq əvəzinə İsa Məsih kimi həlim və itaətkar olmağa çağırır. Paul yada salır ki, onların Məsihlə birliyi Allahın lütfü ilə, iman vasitəsilə aldıqları hədiyyədir və bu, Yəhudi qanununun mərasimlərinə əməl etmək vasitəsilə əldə olunmayıb. Paul həm də İsa Məsihlə birlikdə yaşayanlar üçün Allahın bəxş etdiyi sevinc və sülhdən yazır.

Bu məktub həm də məsihçi imanında və həyatında olan sevinc, əminlik, birlik və dözümü vurğulayır.

Məktubun məzmunu:

1:1-11 Salamlar, təşəkkür və dua
1:12-26 Paulun vəziyyəti
1:27–2:18 Ruhlandırıcı sözlər
2:19-30 Timotey və Epafrodit üçün planlar
3:1-21 Həqiqi salehlik
4:1-23 Son öyüdlər və təşəkkürlər

1 [l]Məsih İsanın qulları mən Paul və Timoteydən Filipidə olan cəmiyyət nəzarətçiləri və xidmətçiləri ilə bərabər Məsih İsada müqəddəs olanların hamısına salam! [2] Atamız Allahdan və Rəbb İsa Məsihdən sizə lütf və sülh olsun!

Şükür və dualar

[3] Sizi hər dəfə yada salanda Allahıma şükür edirəm. [4] Həmişə hamınız üçün hər bir diləyimdə sevinə-sevinə dua edirəm. [5] Çünki ilk gündən indiyədək Müjdəni yaymaqda şərik oldunuz. [6] Əminəm ki, sizdə xeyirli işə başlayan Allah Məsih İsanın zühur edəcəyi günədək bunu başa çatdıracaq. [7] Hamınız haqqında belə düşünməkdə haqlıyam, çünki qəlbimdə yeriniz var. İstər həbsdə olsam, istər Müjdəni müdafiə və təsdiq etsəm, hamınız mənimlə bərabər Allahın lütfünə şəriksiniz. [8] Allah şahidimdir ki, Məsih İsanın duyğusu ilə hər birinizin həsrətini çəkirəm. [9] Dua edirəm ki, məhəbbətiniz bilik və hər cür idrak baxımından get-gedə daha çox artsın, [10–11] siz Məsihin zühur edəcəyi gün pak və nöqsansız, Allahın izzəti və mədhi üçün İsa Məsihdən gələn salehlik bəhrələri ilə dolu olmaq üçün ən ali dəyərləri ayırd edə biləsiniz.

Müjdəni yayma

[12] Qardaşlar, bunu sizə bildirmək istəyirəm ki, başıma gələnlər Müjdə yaymağı daha da irəli apardı. [13] [m]Belə olanda bütün saray mühafizəçiləri daxil olmaqla hamıya məlum oldu ki, Məsihdə olduğuma görə həbs

---

[l] **1:1** Həv. 16:12 [m] **1:13** Həv. 28:30

olunmuşam. 14 Həmçinin qardaşlardan
əksəriyyəti mənim həbsimdən ötrü
Rəbbə güvənərək kəlamı* qorxmadan
bəyan etmək üçün daha çox cəsarət
göstərdi.
15 Doğrusu, bəziləri paxıllıq və
rəqabət, bəziləri isə yaxşı niyyətlə
Məsihi vəz edirlər. 16 Bəziləri bunu
məhəbbətlə edirlər, çünki bilirlər ki,
mən Müjdəni müdafiə etmək üçün
təyin edilmişəm. 17 Bəziləri isə Məsihi
səmimiliklə deyil, məhbus halımda
guya mənə əziyyət verməklə özlərini
göstərmək üçün bəyan edirlər.† 18 Nə
olar? İstər riyakarlıqla, istərsə də
səmimiliklə, nə cür olursa-olsun, əsasən
Məsih bəyan edilir, mən buna sevinirəm.
Əlbəttə, sevinəcəyəm, 19 çünki bilirəm
ki, bunun nəticəsi dualarınızla və İsa
Məsihin Ruhunun köməyi ilə mənim
xilasım olacaq. 20 Böyük həvəslə
gözləyir və ümidvaram ki, heç bir
vəziyyətdə utandırılmayacağam,
yaşasam da, ölsəm də, həmişəki
kimi indi də bədənimdə Məsihin
ucalması üçün tam cəsarət göstərə
biləcəyəm. 21 Çünki mənim üçün
yaşamaq Məsihdir, ölməksə qazancdır.
22 Lakin cismən yaşasam, faydalı
işlər görə biləcəyəm. Buna görə nə
seçəcəyimi bilmirəm. 23 Hər iki tərəfdən
yolum kəsilib. Arzum buranı tərk edib
Məsihlə olmaqdır, çünki bu lap yaxşıdır.
24 Amma sağ qalmağım sizin üçün daha
lazımlıdır. 25 Buna əmin olaraq bilirəm:
sağ qalacağam və hamınızla birlikdə
qalmaqda davam edəcəyəm ki, imanda
həm irəliləyəsiniz, həm də sevinəsiniz.
26 Belə ki bir də yanınıza gəldiyim üçün
mənə görə Məsih İsada fəxriniz artsın.
27 Lakin həyat tərziniz Məsihin
Müjdəsinə layiq olsun. Gəlib sizi görsəm
də, gəlməyib haqqınızda eşitsəm
də, bilim ki, siz bir ruhda möhkəm
dayanıb Müjdəyə əsaslanan imanda
canbir olaraq səy göstərirsiniz 28 və
heç bir şəkildə əleyhdarlarınızdan
qorxmursunuz. Bu onlar üçün həlak,
sizin üçünsə xilas əlamətidir. Bu da
Allahın işidir. 29 nÇünki sizə yalnız
Məsihə iman etmək deyil, Onun
uğrunda əzab çəkmək üstünlüyü də
ehsan olundu. 30 Apardığım mübarizəni
əvvəldən gördünüz, indi də bunun
haqqında eşidir və siz də həmin
mübarizəni aparırsınız.

Məsihdən nümunə götürün

2 Beləliklə, Məsihdə bir
ruhlandırılma, məhəbbətdən
yaranan bir təsəlli, Ruha bir şəriklik, bir
rəhm və mərhəmət varsa, 2 həmfikir olub
bir-birinizə eyni məhəbbəti göstərərək
canbir və həmrəy olmağınızla sevincimi
bütövləşdirin. 3 Heç bir işi özünü
göstərərək və ya lovğalıqla etməyin.
Qoy hər biriniz itaətkarlıqda digərini
özündən üstün saysın 4 və yalnız öz
mənfəətini deyil, başqalarının da
mənfəətini güdsün. 5 Məsih İsa necə
düşündü, siz də elə düşünün. 6 Allah
surətində olduğu halda O Özünü Allaha
bərabər tutmağı bir haqq saymadı.
7 Lakin Özünü heç etdi və qul surətinə
salıb insanlara oxşar oldu. İnsan şəklini
alıb 8 Özünü aşağı tutdu və ölümə qədər
– çarmıx üzərində ölümə qədər itaət
göstərdi. 9 Buna görə də Allah Onu çox
ucaltdı və Ona lütflə bütün adlardan ali
bir ad verdi ki, 10 ogöydə, yerdə və yerin
altında olanların hamısı İsanın adına
ehtiram edərək diz çöksün 11 və hər
dil Ata Allahın izzəti üçün İsa Məsihin
Rəbb olduğunu bəyan etsin.

---

*1:14 *Kəlamı* – bəzi əlyazmalarda *Allahın kəlamını.*
†1:17 Bəzi əlyazmalarda 16-cı ayə ilə 17-ci ayənin yeri dəyişikdir.

n1:29 Həv. 16:19-40 o2:10 Yeş. 45:23; Rom. 14:11

Xilasınızı əməllərinizdə göstərin

12 Belə isə, ey sevimlilərim, həmişə
itaətli olduğunuz kimi yalnız mən
yanınızda olanda yox, xüsusən
yanınızda olmadığım bu anda
belə, qorxu və lərzə ilə xilasınızı
əməllərinizdə göstərin. 13 Çünki sizdə
fəaliyyət göstərən Allahdır, belə ki Onun
xoş məramını həm istəyəsiniz, həm
də bunun üçün fəaliyyət göstərəsiniz.
14 Hər şeyi şikayətlənmədən, mübahisə
etmədən yerinə yetirin ki, 15 nöqsansız
və saf olaraq bu əyri və azmış nəsil
arasında Allahın ləkəsiz övladları
olasınız. Onların arasında dünyanın
nuru kimi parlayın. 16 Həyat sözünü
təqdim edin. Qoy Məsihin zühur edəcəyi
gündə fəxr edə bilim ki, nə boş yerə
cəhd etdim, nə də boş yerə zəhmət
çəkdim. 17 Lakin sizin imanınızın
qurban və xidməti üzərinə içmə təqdimi
kimi töküləcəyəmsə də, sevinirəm və
hamınızın sevincinə şərikəm. 18 Siz də
məhz bunun üçün sevinin və mənim
sevincimə şərik olun.

Timotey və Epafrodit

19 Vəziyyətinizdən xəbərdar olub
ürəyim sakitləşsin deyə bu yaxınlarda
Timoteyi yanınıza göndərəcəyim üçün
Rəbb İsada ümidim var. 20 Çünki
Timotey kimi mənimlə canbir olan,
həqiqətən qayğınıza qalan başqa
kimsəm yoxdur. 21 Ona görə ki hər kəs
İsa Məsihin xeyrini deyil, öz xeyrini
güdür. 22 Amma Timoteyin öz dəyərini
necə sübut etdiyini, atasının yanında
qulluq edən oğul kimi Müjdəni yaymaq
işində mənimlə birgə qulluq etdiyini
bilirsiniz. 23 Beləliklə, işlərimin nə
yerdə olduğunu bilən kimi onu yanınıza
göndərmək ümidindəyəm. 24 Mən də
yaxında yanınıza gəlməyim barədə
Rəbbə güvənirəm.
25 Lakin ehtiyacımın təminatına görə
mənə yardım etmək üçün göndərdiyiniz
nümayəndəni, qardaşım, əməkdaşım və
birlikdə mübarizə apardığım Epafroditi
yanınıza qaytarmağı lazım bildim.
26 Çünki o hər birinizdən ötrü darıxır
və onun xəstə olduğunu eşitdiyinizə
görə çox narahat idi. 27 O, həqiqətən,
elə xəstələnmişdi ki, az qala ölsün.
Lakin Allahın ona, yalnız ona deyil,
kədərimin üstünə kədər gəlməsin deyə
həm də mənə rəhmi gəldi. 28 Onu
yanınıza göndərməyə daha çox buna
görə razılıq verdim ki, onu yenidən
görüb sevinəsiniz və mənim də kədərim
yüngülləşsin. 29 Rəbdə olan bu adamı
tam sevinclə qəbul edin və belələrini
qiymətləndirin. 30 Çünki o, Məsihin işi
uğrunda az qala öləcəkdi. Sizin mənə
edə bilmədiyiniz köməyi etmək üçün
canını təhlükəyə atdı.

Həqiqi salehlik

3 Nəhayət, qardaşlarım, Rəbdə
sevinin! Sizə eyni şeyləri yazmaq
məni yormaz, amma sizi qoruyar.
2 Özünüzü «itlər»dən qoruyun, pis iş
görənlərdən qoruyun, bədəni sünnət
edərək kəsib-atanlardan qoruyun.
3 Çünki əsl sünnətlilər Allahın Ruhu
vasitəsilə ibadət edən, Məsih İsa ilə fəxr
edən və cismani şeylərə güvənməyən
bizlərik. 4 Əslində mən cismani şeylərə
də güvənə bilərdim. Əgər başqası
cismani şeylərə güvənməyi düşünürsə,
mən daha çox güvənə bilərəm. 5 [p]Mən
səkkizgünlük ikən sünnət olundum.
İsrail nəslindən, Binyamin qəbiləsindən,
İbranilərdən törəmiş bir İbraniyəm.
Qanuna münasibətdə farisey idim.
6 [q]Qeyrət çəkməyə gəlincə, Allahın
cəmiyyətini təqib edirdim. Qanuna

---

[p] **3:5** Həv. 23:6; 26:5; Rom. 11:1 [q] **3:6** Həv. 8:3; 22:4; 26:9-11

əsaslanan salehliyə gəlincə, nöqsansız
idim. 7 Amma mənə fayda gətirən nə
varsa, Məsih uğrunda ziyan saymışam.
8 Bundan əlavə, Rəbbim Məsih İsanı
tanımağın ali dəyərinin yanında hər
şeyi ziyan hesab edirəm. Onun uğrunda
var-yoxumu atıb tullantı sayıram ki,
Məsihi qazanıb 9 Onda hesab olunum.
Belə ki Qanunla gələn öz salehliyimə
deyil, Məsihə imandan yaranan, imanla
Allahdan gələn salehliyə malik olum.
10 Belə ki Məsihi və Onun dirilmə
qüdrətini, əzablarına şərikliyi də dərk
edim və Onun ölümündə Ona bənzəyim
ki, 11 nə olursa-olsun, ölülər arasından
dirilməyə nail olum.

Hədəfə doğru qaçaq

12 Demirəm ki, indi bunlara malik
olmuşam və yaxud kamilləşmişəm.
Amma hədəfdən tutmaq üçün qaçıram.
Çünki Məsih İsa məni bu məqsəd üçün
tutub. 13 Qardaşlar, hesab etmirəm ki,
bunu tutmuşam. Yalnız bir şey edirəm:
arxada qalanları unudub qarşımda olana
çatmaq üçün cəhd edirəm 14 və hədəfə
doğru qaçıram ki, mükafatı alım, yəni
Allahın Məsih İsada yuxarıya çağırışına
nail olum. 15 Beləliklə, aramızda kim
kamildirsə, qoy belə düşünsün. Hər
hansı bir mövzuda fərqli düşüncələriniz
varsa, Allah bunu da sizə açacaq.
16 Ancaq çatdığımız səviyyəyə uyğun
həyat sürək.*
17 [r]Qardaşlar, hamınız birlikdə
məndən nümunə götürün və sizə
göstərdiyimiz nümunəyə uyğun həyat
sürənlərə diqqətlə baxın. 18 Sizə
dəfələrlə söylədiyim kimi indi də
göz yaşları içində təkrar deyirəm: bir
çoxları Məsihin çarmıxına düşmən
olaraq həyat sürür. 19 Onların sonu
həlakdır. Onların allahı qarınlarıdır.
Öz rüsvayçılıqları ilə fəxr edir, yalnız
dünyəvi şeylər barədə düşünürlər.
20 Bizsə səma vətəndaşlarıyıq və oradan
Xilaskar olan Rəbb İsa Məsihi həvəslə
gözləyirik. 21 O hər şeyi Özünə tabe
etməyə qadir olan qüvvəsinin təsiri ilə
bizim yazıq bədənimizi dəyişdirib Öz
izzətli bədəninə bənzər hala gətirəcək.

Son öyüdlər

4 Beləliklə, ey həsrətini çəkdiyim
sevimli qardaşlarım, sevincim və
başımın tacı, Rəbdə olaraq bu cür
dönməz durun, ey sevimlilər!
2 Evodiyaya yalvarıram, Sintixiyə
yalvarıram ki, Rəbdə həmfikir olsunlar.
3 Bəli, ey əsl əməkdaşım, səndən də
xahişim var, bu qadınlara kömək
et. Çünki onlar mənimlə, Klementlə
və adları həyat kitabında olan digər
əməkdaşlarımla bərabər Müjdəni
yaymaq üçün səy göstəriblər.
4 Rəbdə həmişə sevinin! Bir
də deyirəm: sevinin! 5 Qoy sizin
mülayimliyiniz bütün insanlara
məlum olsun. Rəbb yaxındır. 6 Heç
nəyin qayğısını çəkməyin, amma hər
barədə xahişlərinizi Allaha dualarla,
yalvarışlarla, şükür edə-edə bildirin.
7 Onda Allahın ağlagəlməz sülhü
ürəklərinizi və düşüncələrinizi Məsih
İsada qoruyacaq.
8 Nəhayət, qardaşlar, doğru, ləyaqətli,
saleh, pak, cazibəli, etibarlı nə varsa,
əgər əla və tərifə layiq nə varsa, bunları
düşünün. 9 Məndən öyrəndiyiniz,
qəbul etdiyiniz, eşitdiyiniz və məndə
gördüyünüz nə varsa, bunları həyata
keçirin. Onda sülh qaynağı olan Allah
sizinlə olacaq.

---

*3:16 *Sürək* – bəzi əlyazmalarda *sürək və eyni düşüncədə olaq.*

[r]3:17 1Kor. 4:16; 11:1

Paulun təşəkkürü

10 Mən Rəbdə bol-bol sevinirəm
ki, nəhayət indi mənim barəmdəki
qayğınızı yenidən canlandırdınız.
Əslində qayğınız vardı, amma bunu
göstərməyə fürsət tapa bilmirdiniz.
11 Ehtiyaca düşdüyüm üçün bunları
söyləmirəm, çünki hansı şəraitdə
yaşasam, ondan razı qalmağa
alışmışam. 12 Mən məzlumluğun da,
bolluğun da nə olduğunu bilirəm.
İstər tox, istər ac, istər bolluq, istər
ehtiyac içində olum, hər şəraitdə,
hər vəziyyətdə razı qalmağın sirrini
öyrənmişəm. 13 Mənə qüvvət verən
Məsihin köməyi ilə hər işə gücüm
çatır. 14 Buna baxmayaraq nə yaxşı ki
əziyyətimə şərik oldunuz.
15 [s]Ey Filipililər, özünüz də bilirsiniz
ki, aranızda Müjdə yayımının
başlanğıcında, mən Makedoniyanı
tərk edən zaman sizdən başqa heç bir
cəmiyyət nəzir vermək və toplamaq
üçün mənimlə şərik iş görmədi. 16 [t]Mən
Salonikdə olanda belə, ehtiyacım üçün
dəfələrlə siz mənə yardım göndərdiniz.
17 Bu o demək deyil ki, mən bəxşiş
axtarıram. Mən ancaq sizin hesabınıza
yazıla bilən səmərəni axtarıram.
18 [u]Mənsə tamamilə təmin olunmuşam
və bolluq içindəyəm. Epafroditin əli
ilə göndərdiyiniz hədiyyələri alandan
sonra ehtiyacım qalmadı. Bu, Allahın
xoşuna gələn ətirli təqdim, Ona məqbul
olan və razı salan qurbandır. 19 Sizin
hər ehtiyacınızı isə Allahım Məsih
İsada olan Öz izzətli zənginliyinə görə
ödəyəcək. 20 Qoy Atamız Allaha əbədi
izzət olsun! Amin.

Salam göndərmə

21 Məsih İsada müqəddəs olan hər
kəsi salamlayın.
Mənimlə olan qardaşlar sizə salam
göndərir. 22 Sizi bütün müqəddəslər,
xüsusən qeysərin sarayında işləyənlər
salamlayır.
23 Rəbb İsa Məsihin lütfü ruhunuza*
yar olsun!

---

*4:23 *Ruhunuza* – bəzi əlyazmalarda *hər birinizə*.

[s]**4:15** 2Kor. 11:9 [t]**4:16** Həv. 17:1 [u]**4:18** Çıx. 29:18

PAULUN

KOLOSSELİLƏRƏ MƏKTUBU

GİRİŞ

Paulun bu məktubu indiki Türkiyə ərazisindəki Efes şəhərinin şərqində yerləşən Kolosse şəhərinin imanlılar cəmiyyətinə ünvanlanıb. Bu cəmiyyət Paul tərəfindən yaradılmamışdı, lakin Paul özünü məsuliyyətli hiss edirdi, çünki oraya Efesdən işçilər göndərmişdi. Paul xəbər tutmuşdu ki, o cəmiyyətdəki yalançı müəllimlər Allahı tanımaq və tamam xilas almaq üçün insanın mələklərə və başqa ruhani qüvvələrə səcdə etmələrinin lazım olduğunu öyrədirdi. Bundan əlavə, bu müəllimlər həm də sünnət, yemək qaydaları və digər ənənələrə əməl etməyi tələb edirdilər.

Paul bu saxta təlimlərə qarşı duraraq həqiqi məsihçi təlimini nümayiş etdirir. Həvarinin öyrətdiklərinə əsasən yalnız İsa Məsih xilas etməyə qadirdir, digər əqidələr və işlər əslində insanı Ondan uzaqlaşdırır. Allah-Taala İsa Məsih vasitəsilə dünyanı yaratdı və Onun vasitəsilə dünyanı Özünə tərəf döndərir. Dünyanın xilas ümidi yalnız İsa Məsihlə birlikdə olmaqdır. Sonra Paul imanlıların həyatları üçün bu böyük təlimi necə tətbiq etdiyini izah edir.

Maraqlı odur ki, Paulun bu məktubunu Kolosse cəmiyyətinə çatdıran Tixik Onisimlə birgə yola çıxmışdı; bu adam haqqında Paul Filimona xahiş məktubunu yazmışdır.

Kitabın məzmunu:

1:1-8 Giriş
1:9–2:19 Məsihin təbiəti və işi
2:20–4:6 Məsihdə yeni həyat
4:7-18 Son salamlar

1 Allahın iradəsi ilə Məsih İsanın
həvarisi mən Pauldan və Timotey
qardaşdan [2] Kolossedəki Məsihdə olan
müqəddəs və sadiq bacı-qardaşlara
salam! Atamız Allahdan* sizə lütf və
sülh olsun!

Paul Allaha şükür edir

[3] Sizin üçün həmişə dua edərkən
Allaha – Rəbbimiz İsa Məsihin Atasına
şükür edirik. [4] Çünki sizin Məsih İsaya
imanınızdan və bütün müqəddəslərə
göstərdiyiniz məhəbbətdən xəbərdar
olduq. [5] İmanınız və məhəbbətiniz
göylərdə sizin üçün saxlanan şeylərə
bağladığınız ümiddən qaynaqlanır. Bu
barədə sizə çatan, Müjdə olan həqiqət
kəlamından əvvəlcədən eşitmisiniz. [6] Bu
Müjdə onu eşitdiyiniz, həqiqətdə Allahın
lütfünü dərk etdiyiniz gündən bəri sizdə
olduğu kimi bütün dünyada da bəhrə
verməkdə və yayılmaqdadır. [7] [v]Bunu
bizimlə birgə Məsihin qulu və sizin
üçün† çalışan Onun sadiq xidmətçisi
sevimli Epafradan öyrəndiniz. [8] O,
Ruhdan qaynaqlanan məhəbbətinizin
xəbərini də bizə çatdırdı.

Paulun Kolosselilər üçün duası

[9] Ona görə bunu eşitdiyimiz gündən
bəri sizin tam hikmət və ruhani
idrakla Allahın iradəsini bütünlüklə
qavramanız üçün biz də dualarımızı
və yalvarışlarımızı kəsmədik. [10] Belə
ki Rəbbə layiq şəkildə həyat sürərək
Onu hər cəhətdən razı salasınız və
hər cür xeyirli əməldə bəhrə verib
Allahı tanımaqda böyüyəsiniz, [11] hər
şeyə dözərək səbir edə bilməniz üçün

---

*1:2 *Allahdan* – bəzi əlyazmalarda *Allahdan və Rəbb İsa Məsihdən* (Rom. 1:7).
†1:7 *Sizin üçün* – bəzi əlyazmalarda *bizim üçün.*

[v]1:7 Kol. 4:12; Flm. 23-24

Onun izzətli qüvvəsinə güvənərək
hər cür qüdrətlə möhkəmlənəsiniz,
12 müqəddəslərin nurda olan irsinə
şərik olmanız üçün sizə səlahiyyət
verən Ataya sevinclə şükür edəsiniz.
13 O bizi zülmət hakimiyyətindən xilas
edib Öz sevimli Oğlunun Padşahlığına
köçürtdü. 14 [w]Oğlunda* satınalınmaya –
günahlarımızın bağışlanmasına malikik.

Məsihin şəxsiyyəti və vəzifəsi

15 Görünməz Allahın surəti və bütün
yaradılış üzərində ilk doğulan Odur.
16 Çünki göylərdə və yerdə olan,
görünən və görünməyən hər şey –
taxtlar, ağalar, başçılar, hakimlər Onda
yarandı. Nə varsa, Onun vasitəsilə və
Onun üçün yarandı. 17 Hər şeydən əvvəl
var olan Odur və hər şey Onda bərqərar
olur. 18 [x]Bədənin, yəni imanlılar
cəmiyyətinin Başı da Odur. Hər şeydə
birinci olsun deyə başlanğıc olan, ölülər
arasından dirilərək ilk doğulan Odur.
19 Çünki Allah Onda tam bütövlüyü
ilə yaşamağa 20 və Onun vasitəsilə,
çarmıxda axıdılan qanı ilə barışıq
yaradaraq həm yerdə, həm də göylərdə
olan hər şeyi Özü ilə barışdırmağa razı
oldu.
21 Etdiyiniz pis əməllərə görə bir
zamanlar düşüncələrinizdə Allaha yad
və düşmən idiniz. 22 İndi isə Məsih
cismən ölməklə Öz bədəni vasitəsilə
sizi Allahla barışdırdı ki, sizi Onun
qarşısında müqəddəs, ləkəsiz və
nöqsansız təqdim etsin. 23 Bir şərtlə ki
eşitdiyiniz Müjdənin verdiyi ümiddən
sarsılmadan, iman əsasında möhkəm və
sabit durasınız. Bu Müjdə səma altında
olan bütün yaradılışa vəz olundu və
mən Paul Müjdənin xidmətçisi oldum.

Paulun imanlılara xidməti

24 İndi sizin üçün əzab çəkdiyimə
sevinirəm və Məsihin Öz bədəni olan
imanlılar cəmiyyəti uğrunda çəkdiyi
əziyyətlərin qalanını canıma cəfa
verərək tamamlayıram. 25 Allahın sizin
üçün mənə verdiyi vəzifəyə görə mən
bu cəmiyyətin xidmətçisi oldum ki,
Allahın kəlamını, 26 yəni əsrlərdən və
nəsillərdən gizlədilən, indi isə Onun
müqəddəslərinə açılan sirrini tam bəyan
edim. 27 Allah millətlər arasında bu
sirrin izzətinin necə zəngin olduğunu
müqəddəslərə bildirmək istədi. Bu
sirr sizdə olan Məsihdir. O sizə izzətə
qovuşmaq ümidini verir. 28 Hər bir
insanı Məsihdə kamilləşmiş olaraq
Allaha təqdim etmək üçün hamıya tam
müdrikliklə nəsihət və təlim verərək
Məsihi bəyan edirik. 29 Bu məqsədlə
də zəhmət çəkirəm və Onun məndə
qüdrətlə fəaliyyət göstərən qüvvəsi ilə
mübarizə aparıram.
2 İstəyirəm ki, həm siz, həm
Laodikeyada olanlar, həm də mənim
üzümü görməyənlərin hamısı üçün
nə qədər böyük mübarizə apardığımı
biləsiniz. 2 Ürəklərinin cəsarət tapıb
məhəbbətdə birləşməsini istəyirəm; belə
ki idrakın verdiyi kamil etimadın bütün
zənginliyinə nail olsunlar, Allahın sirri
olan Məsihi† dərk etsinlər. 3 Çünki
hikmət və biliyin bütün xəzinələri
Məsihdə gizlədilmişdir. 4 Bunu mən
ona görə deyirəm ki, kimsə sizi dilə
tutub aldatmasın. 5 Çünki cismən
uzaqda olsam da, ruhən sizinləyəm.
İntizamınızı və Məsihə olan imanınızın
möhkəmliyini görüb sevinirəm.

---

*1:14 *Oğlunda* – bəzi əlyazmalarda *Oğlunda, Onun qanı vasitəsilə.*
†2:2 *Allahın sirri olan Məsihi* – bəzi əlyazmalarda *Allahın – həm Atanın, həm də Məsihin sirrini.*

[w]1:14 Ef. 1:7 [x]1:18 Ef. 1:22-23; 2:14-16

Məsihin qoyduğu həyat tərzi

6 Buna görə Rəbb Məsih İsanı qəbul
etdiyiniz kimi Onda həyat sürün.
7 Şükürlərlə dolub-daşaraq Onda kök
salıb inkişaf edin və öyrəndiyiniz kimi
imanda möhkəmlənin.
8 Baxın, Məsihə deyil, insan
adət-ənənəsinə, dünyanın ibtidai
təlimlərinə istinad edərək fəlsəfə və
boş aldadıcı sözlərlə kimsə sizi əsir
etməsin. 9 Çünki Allahın tam bütövlüyü
bədəncə Məsihdə yaşayır. 10 Siz də
Onda tamamlanmısınız. O hər başçının
və hakimin Başıdır. 11 Həmçinin siz
Məsihdə insan əli ilə deyil, Onun təmin
etdiyi sünnətlə cismani təbiətdən*
ayrılaraq sünnət olundunuz. 12 [y]Vəftizdə
Onunla birlikdə dəfn edildiniz və
Onu ölülər arasından dirildən Allahın
gücünə olan iman vasitəsilə Onunla
birlikdə dirildiniz. 13 [z]Siz təqsirləriniz
və cismani sünnətsizliyiniz üzündən
ölü ikən Allah sizə Məsihlə birgə
həyat verdi və bütün təqsirlərimizi
bağışlayıb 14 [a]tələbləri ilə əleyhimizə və
zərərimizə olan borc sənədini† ləğv etdi,
onu çarmıxa mıxlayaraq qarşımızdan
götürdü. 15 Allah başçıları və hakimləri‡
tərk-silah edib, onlara çarmıxda qələbə
çalaraq aləmdə rüsvay etdi.
16 [b]Buna görə qoy heç kim
yemək-içmək üzündən yaxud bayram,
Təzə Ay mərasimi ya Şənbə gününə
görə sizi mühakimə etməsin. 17 Çünki
bunlar gələcək şeylərin kölgəsidir, əsli
isə Məsihdədir. 18 Qoy heç kim sizdən
mütilik və mələklərə səcdə tələb edərək
sizi mükafatınızdan məhrum etməsin.
Belə bir şəxs gördüyü görüntülərə§
güvənir və boş yerə öz cismani ağlı
ilə lovğalanır. 19 [c]O, bədənin Başı olan
Məsih ilə əlaqəni itirdi. Bütün bədən**
buğumlar və bağlarla üzvi surətdə
Məsihə bağlanaraq təmin olunur,
qurulur və Allah bəslədiyinə görə
böyüyür.

Məsihdə yeni həyat

20 Məsihlə birgə ölüb dünyanın ibtidai
təlimlərindən qurtulduğunuz halda
nə üçün dünyadakılar kimi yaşayaraq
21 «buna əl vurma, bunu yemə, buna
toxunma» kimi əmrlərə əməl edirsiniz?
22 Bunların hamısı istifadə olunduqca
məhv olub gedən şeylərlə əlaqədar
olur, çünki insanların verdiyi əmrlərə
və təlimlərə əsaslanır. 23 Şübhəsiz, bu
qaydalar uydurma dindarlıq, mütilik
və bədənə xətər yetirməkdə zahirən
müdrik görünür, amma cismani təbiətin
həvəsinin qarşısını almaq üçün onların
heç bir dəyəri yoxdur.
3 [d]Beləliklə, Məsihlə birlikdə
dirildiyinizə görə ucalardakı
şeyləri axtarın. Orada Məsih Allahın
sağında oturub. 2 Dünyəvi şeyləri deyil,
ucalardakı şeyləri düşünün. 3 Çünki
siz ölmüsünüz və həyatınız Məsihlə
birlikdə Allahda saxlanılıb. 4 Həyatınız
olan Məsih zühur edəndə siz də Onunla
birgə izzətlə zühur edəcəksiniz.
5 Buna görə cisminizin dünyəvi
meylləri olan cinsi əxlaqsızlığı,
murdarlığı, şəhvəti, pis ehtirası və
bütpərəstliyə tay olan tamahkarlığı

---

*2:11 *Cismani təbiətdən* – bəzi əlyazmalarda *günahkar cismani təbiətdən.*
†2:14 *Borc sənədi* – yəni Musanın Qanunu.
‡2:15 *Başçıları və hakimləri* – yəni qüvvətli şər ruhları.
§2:18 *Gördüyü görüntülərə* – bəzi əlyazmalarda *görmədiyi şeylərə.*
**2:19 *Bədən* – yəni imanlılar cəmiyyəti.

[y]**2:12** Rom. 6:4 [z]**2:13** Ef. 2:1-5 [a]**2:14** Ef. 2:14-16 [b]**2:16** Rom. 14:1-6
[c]**2:19** Ef. 4:16 [d]**3:1** Zəb. 110:1

öldürün. 6 Bunlara görə Allahın qəzəbi
itaətsizlərin üzərinə* gəlir. 7 Əvvəllər
siz bunların içində yaşayanda belə
həyat sürdünüz. 8 İndi isə siz də qəzəbi,
hiddəti, kini, böhtanı, ağzınızdan
çıxan ədəbsiz sözlər kimi şeylərin
hamısını kənara atın. 9 [e]Bir-birinizə
yalan deməyin, çünki köhnə mənliyinizi
və onun əməllərini üzərinizdən çıxarıb
10 yeni mənliyə büründünüz. Yeni
mənliyiniz onu Yaradanın surətinə
bənzər şəkildə təzələnir ki, biliyiniz
tam olsun. 11 Bu təzələnmədə Yunanla
Yəhudi, sünnətli ilə sünnətsiz, barbar,
Skif, qulla azad arasında fərq yoxdur:
Məsih hər şeydir və hamımızdadır.
12 [f]Beləliklə, Allahın seçilmişləri,
müqəddəsləri və sevimliləri kimi
ürək mərhəməti, xeyirxahlıq,
itaətkarlıq, həlimlik və səbirə
bürünün. 13 [g]Bir-birinizə dözün və
birinizin digərindən şikayəti varsa,
bağışlayın. Rəbb sizi bağışladığı kimi
siz də bağışlayın. 14 Bütün bunlardan
əlavə, kamil birliyin bağı olan
məhəbbətə bürünün. 15 Məsihin sülhü
qoy ürəklərinizdə münsiflik etsin, çünki
bir bədənin üzvləri kimi bu sülhə dəvət
olundunuz. Həmçinin şükür edənlər
olun! 16 [h]Qoy aranızda Məsihin kəlamı
bütün zənginliyi ilə yaşasın. Bir-birinizə
tam müdrikliklə təlim və nəsihət verin,
məzmurlar, ilahilər və ruhani nəğmələr
söyləyib ürəklərinizdə Allaha minnətdar
ola-ola nəğmə oxuyun. 17 Dediyiniz və
etdiyiniz hər şeyi Rəbb İsanın adı ilə
edin, Onun vasitəsilə Ata Allaha şükür
edin.

Evdə olan münasibətlər

18 [i]Ey qadınlar, Rəbdə olanlara layiq
olduğu kimi ərlərinizə tabe olun.
19 [j]Ey ərlər, öz arvadlarınızı sevin və
onlarla sərt davranmayın.
20 [k]Ey övladlar, hər işdə ata-ananıza
itaət edin, çünki bu, Rəbbi razı salır.
21 [l]Ey atalar, övladlarınızı incitməyin,
yoxsa cəsarətləri qırılar.
22 [m]Ey qullar, hər işdə dünyəvi
ağalarınıza itaət edin. Bunu insanları
razı salmaq üçün gözə xoş görünən
xidmətlə deyil, səmimi qəlbdən,
Allahdan qorxaraq edin. 23 Gördüyünüz
hər işi insanlar üçün deyil, Rəbb üçün
edən kimi can-dildən edin. 24 Bilin ki,
Rəbdən bunun əvəzinə irs alacaqsınız,
çünki siz Rəbb Məsihə qulluq edirsiniz.
25 [n]Kim haqsızlıq edərsə, işlətdiyi
haqsızlığın əvəzini alacaq, çünki Rəbb
tərəfkeşlik etməz.
4 [o]Ey ağalar, bilin ki, göydə sizin də
Ağanız var. Ona görə qullarınızla
ədalətli və insaflı olun.

Müxtəlif öyüdlər

2 Özünüzü duaya həsr edin və duada
şükür edərək oyaq durun. 3 Eyni
zamanda bizim üçün də dua edin ki,
kəlamı yaymaq üçün Allah bizə bir
qapı açsın və uğrunda həbs olunduğum
Məsihin sirrini elan edim. 4 Dua edin
ki, mən bu sirri lazımınca açıq-aşkar
bildirim.
5 [p]Kənar insanlarla müdrikliklə rəftar
edin və hər fürsətdən istifadə edin.
6 Sözünüz duzlu və hər zaman lütflə
dolu olsun. Beləcə hər adama necə
cavab vermək lazım olduğunu biləsiniz.

---

*3:6 *İtaətsizlərin üzərinə* – bəzi əlyazmalarda bu sözlər yoxdur.

[e]**3:9** Yar. 1:26; Ef. 4:22-24 [f]**3:12** Ef. 4:2 [g]**3:13** Ef. 4:32
[h]**3:16** Ef. 5:19-20 [i]**3:18** Ef. 5:22; 1Pet. 3:1-2 [j]**3:19** Ef. 5:25; 1Pet. 3:7
[k]**3:20** Ef. 6:1 [l]**3:21** Ef. 6:4 [m]**3:22** Ef. 6:5-8 [n]**3:25** Qanun. 10:17; Ef. 6:9
[o]**4:1** Ef. 6:9 [p]**4:5** Ef. 5:16

Salam göndərmə

7 [q]Rəbdə sevimli qardaş, sadiq
xidmətçi və əməkdaş olan Tixik mənim
barəmdə hər şeyi sizə bildirəcək. 8 Onu
bu məqsədlə yanınıza göndərdim
ki, bizim vəziyyətimizdən xəbərdar
olasınız* və o sizin qəlbinizi ovutsun.
9 [r]Onunla birlikdə sizlərdən biri olan
sadiq və sevimli Onisim qardaşı da
göndərirəm. Onlar sizə buradakı bütün
işlər barədə məlumat verəcək.
10 [s]Mənimlə birlikdə məhbus olan
Aristarx və Barnabanın əmisi oğlu Mark
da sizə salam göndərir. Mark haqqında
əmrləri almısınız. Yanınıza gəlsə, onu
qəbul edin. 11 Yust çağırılan Yeşua da
sizə salam göndərir. Sünnətlilərdən
yalnız bunlar Allahın Padşahlığı üçün
mənim əməkdaşlarımdır və onlar mənə
təsəlli verdilər.
12 [t]Məsih İsanın qulu və sizlərdən
olan Epafra sizə salam göndərir. Allahın
hər iradəsini yerinə yetirərək kamil
və tam əminliklə möhkəm dayanasız
deyə o sizin üçün hər zaman dualar
edərək mübarizə aparır. 13 Onun
haqqında şəhadət edirəm ki, sizin üçün,
Laodikeyada və Hierapolisdə olanlar
üçün çox zəhmət çəkir.
14 [u]Sevimli həkim Luka və Dima da
sizə salam göndərir.
15 Laodikeyada olan bacı-qardaşlara,
Nimfaya və onun evindəki cəmiyyətə
salam söyləyin.
16 Bu məktub aranızda oxunduqdan
sonra onu Laodikeyalılar cəmiyyətində
də oxudun, Laodikeyadan gələn
məktubu isə siz də oxuyun. 17 [v]Arxipə
bunu deyin: «Rəbdə sənə tapşırılan
xidməti diqqətlə başa çatdır».
18 Mən Paul bu salamı öz əlimlə
yazıram. Unutmayın ki, mən
həbsdəyəm. Sizə lütf olsun!

---

*4:8 *Bizim vəziyyətimizdən xəbərdar olasınız* – bəzi əlyazmalarda *sizin vəziyyətinizdən xəbərdar olsun.*

[q]**4:7** Həv. 20:4; 2Tim. 4:12; Ef. 6:21-22 [r]**4:9** Flm. 10-12
[s]**4:10** Həv. 12:12,25; 15:37-39; 19:29; 27:2; Flm. 23-24
[t]**4:12** Kol. 1:7; Flm. 23-24 [u]**4:14** 2Tim. 4:10-11; Flm. 23-24 [v]**4:17** Flm. 1-2

PAULUN

SALONİKLİLƏRƏ BİRİNCİ MƏKTUBU

GİRİŞ

Salonik Roma imperatorluğunun Makedoniya vilayətinin paytaxtı idi. Paul Filipini tərk edəndən sonra burada imanlı cəmiyyəti yaratdı. Amma Yəhudilər tezliklə Paulun Yəhudi olmayan xalqların arasında Müjdəni uğurla vəz etdiyini eşidib qısqandılar. Paul Saloniki tərk edib Veriyaya getməyə məcbur oldu. O, Korinfə çatanda öz həmkarı və əməkdaşı olan Timoteydən Salonik cəmiyyətindəki vəziyyət haqqında məktub aldı.

Paulun Saloniklilərə birinci məktubu oradakı məsihçiləri ruhlandırmaq üçün yazılıb. Paul bu məsihçilərin iman və məhəbbəti haqqında yeniliklər eşidib onlara minnətdarlığını bildirir, sonra onların arasında yaşayarkən sürdüyü həyat tərzini yadlarına salır. Paul cəmiyyətdə müzakirə olunan bu suallara cavab verir: Məsihin təkrar gəlişindən əvvəl dünyasını dəyişən imanlıların aqibəti necə olacaq? Məsih nə vaxt zühur edəcək? Paul onlara Məsihin gəlişinə qədər dinc yaşamağı, öz işləri ilə məşğul olmağı və hörmətəlayiq şəkildə həyat sürməyi məsləhət görür (4:11-12).

Kitabın məzmunu:

1:1-10 Saloniklilərin imanı
2:1-16 Paulun Salonikdəki xidməti
2:17–3:13 Salonikdən gələn xəbər
4:1-12 Məsihçi davranışına aid tövsiyələr
4:13–5:11 Məsihin zühuruna aid təlimat
5:12-28 Son öyüdlər və salamlar

1 [w]Paul, Sila və Timoteydən Ata Allah və Rəbb İsa Məsihdə olan Saloniklilər cəmiyyətinə salam! Sizə* lütf və sülh olsun!

Nümunəvi iman

2 Dualarımızda sizi yada salıb həmişə
hər birinizə görə Allaha şükür edirik.
3 Çünki imandan yaranan əməllərinizi,
məhəbbətdən doğan zəhmətinizi və
Rəbbimiz İsa Məsihə bağladığınız
ümidin verdiyi dözümü Atamız Allah
qarşısında daim yada salırıq. 4 Ey
Allahın sevimlisi olan qardaşlar, bilirik
ki, O sizi seçib. 5 Ona görə ki yaydığımız
Müjdə yalnız sözlə deyil, qüvvə ilə,
Müqəddəs Ruhla və çox inandırıcılıqla
sizə çatıb. Aranızda ikən sizin üçün
necə bir adam olduğumuzu bildiniz.
6 [x]Siz də böyük əziyyət içində Müqəddəs
Ruhun verdiyi sevinclə kəlamı qəbul
edib bizdən və Rəbdən nümunə
götürdünüz. 7 Beləliklə, siz Makedoniya
və Axayyadakı bütün imanlılar üçün
nümunə oldunuz. 8 Çünki Rəbbin
kəlamının sədası sizdən yayıldı. Allaha
imanınızın sorağı yalnız Makedoniya
və Axayyaya deyil, hər yerə çatıb.
Daha bizə söz deməyə ehtiyac qalmadı.
9–10 Çünki özləri xəbər yaydılar ki,
bizi nə qədər yaxşı qarşıladınız və
var olan həqiqi Allaha qulluq etmək
üçün, həmçinin Onun ölülər arasından
diriltdiyi Oğlunun, yəni bizi gələcək
qəzəbdən qurtaran İsanın göylərdən
zühurunu gözləmək üçün bütlərdən
Allaha tərəf necə döndünüz.

Paulun Salonikdəki xidməti

2 Qardaşlar, özünüz də bilirsiniz ki,
yanınıza gəlməyimiz əbəs olmadı.
2 [y]Bildiyiniz kimi, əvvəlcə Filipidə

---

*__1:1__ *Sizə* – bəzi əlyazmalarda *Atamız Allah və Rəbb İsa Məsihdən sizə.*

[w]**1:1** Həv. 17:1 [x]**1:6** Həv. 17:5-9 [y]**2:2** Həv. 16:19-24; 17:1-9

əziyyət çəkmiş, təhqir olunmuşduq.
Amma böyük ziddiyyətlərə baxmayaraq,
Allahın Müjdəsini sizə bəyan etmək
üçün Allahımızdan cəsarət aldıq.
3 Çünki bizim çağırışımız aldatmağa,
murdarlığa əsaslanmır və bunun
hiyləgərliyə də dəxli yoxdur. 4 Əksinə,
Allah tərəfindən Müjdəni yaymaq
tapşırığını almağa layiq görüldüyümüzə
görə insanları deyil, ürəklərimizi
sınaqdan keçirən Allahı razı salmaqdan
ötrü danışırıq. 5 Siz bilirsiniz ki, heç
vaxt yanınıza yaltaq sözlərlə yaxud
tamahkarlığı gizlədən riyakarlıqla
gəlmədik. Allah da buna şahiddir.
6 İzzəti heç bir insanda – nə sizdə, nə
də başqalarında axtardıq. 7 Məsihin
həvariləri kimi bunu sizdən tələb edə
bilərdik, amma biz sizinlə övladlarını
isti qucağına alıb yedirdən ana kimi
mülayim rəftar etdik. 8 Sizlərə elə könül
bağlamışdıq ki, yalnız Allahın Müjdəsini
deyil, öz canlarımızı belə, sizə verməyə
razı idik. Çünki bizim sevimlilərimiz
idiniz.
9 Bəli, qardaşlar, bizim əmək və
zəhmətimizi xatırlayırsınız: heç birinizə
yük olmamaq üçün gecə-gündüz
çalışaraq sizə Allahın Müjdəsini vəz
etdik. 10 Siz imanlılarla necə müqəddəs,
saleh və nöqsansız davrandığımıza
həm özünüz, həm də Allah şahiddir.
11 Bildiyiniz kimi, ata övladları ilə
necə rəftar edirsə, biz də hər birinizlə
elə rəftar etdik. 12 Sizə öyüd verdik,
ruhlandırdıq və yalvardıq ki, Öz
Padşahlığına və izzətinə çağıran Allaha
layiq şəkildə həyat sürəsiniz.
13 Biz də dayanmadan Allaha şükür
edirik ki, siz bizdən eşitdiyiniz Allah
kəlamını qəbul edəndə onu bəşəri
söz kimi deyil, həqiqətən, Allahın
kəlamı olaraq qəbul etdiniz. Siz
imanlılarda fəaliyyət göstərən də bu
kəlamdır. 14 [z]Çünki qardaşlar, siz
Allahın Yəhudeyadakı Məsih İsada olan
cəmiyyətlərindən nümunə götürdünüz.
Onların Yəhudilərdən* çəkdiyi əzabları
eynilə siz də öz soydaşlarınızdan
çəkdiniz. 15 Yəhudilər Rəbb İsanı və
peyğəmbərləri öldürdülər, bizi də təqib
etdilər. Onlar Allahı narazı salır və
bütün insanlara qarşı çıxırlar. 16 Çünki
başqa millətlər xilas olsunlar deyə
biz onlarla danışanda bu Yəhudilər
bizə mane olur. Beləcə hər zaman
günahlarının üzərinə günah gətirirlər.
Axırda Allahın qəzəbinə düçar oldular.

Gecikən səyahət

17 Bizsə, qardaşlar, qısa bir müddət
üçün qəlbən deyil, şəxsən sizdən
məhrum olduq, ona görə böyük arzu
ilə üzünüzü görməyə daha çox səy
göstərdik. 18 Biz yanınıza gəlməyi
arzu etdik, dəfələrlə mən Paul bunu
istədim, amma Şeytan bizə mane oldu.
19 Rəbbimiz İsa zühur edəndə ümidimiz,
sevincimiz yaxud Onun önündə fəxr
tacımız nədir? Siz deyilsinizmi? 20 Çünki
siz bizim izzətimiz və sevincimizsiniz.
3 [a]Buna görə də artıq dözməyib
Afinada tək qalmağa razı olduq
2 və qardaşımız, Məsihin Müjdəsini
yaymaqda Allahın əməkdaşı† olan
Timoteyi sizi imanda möhkəmləndirmək
və ruhlandırmaq üçün göndərdik. 3 Belə
ki qoy bu əziyyətlərdən heç kim
sarsılmasın. Özünüz bilirsiniz ki, biz
bunun üçün təyin olunmuşuq. 4 Çünki
yanınızda olarkən əziyyət çəkəcəyimizi
sizə əvvəlcədən demişdik və bildiyiniz

*2:14 *Yəhudilər* – burada bütün yəhudi xalqından deyil, yalnız İsa Məsihi rədd edən yəhudilərdən söz gedir.
†3:2 *Allahın əməkdaşı* – bəzi əlyazmalarda *Allahın qulu və bizim əməkdaşımız.*

[z]2:14 Həv. 9:23,29; 13:45,50; 14:2,5,19; 17:5,13; 18:12 [a]3:1 Həv. 17:15

kimi, belə də oldu. 5 Buna görə mən
artıq dözməyib Timoteyi yanınıza
göndərdim ki, imanınızdan xəbərdar
olum. Qorxdum ki, sınağaçəkən* bəlkə
sınaqları ilə sizi yoldan çıxarmış olar və
əməyimiz hədər gedər.

Salonikdən şad xəbərlər gəlir

6 [b]Amma yanınızdan indicə qayıdan
Timotey imanınız və məhəbbətiniz
haqqında bizə şad xəbər gətirdi. O dedi
ki, siz bizi daim xoş təəssüratla yada
salırsınız və biz həsrətinizi çəkdiyimiz
kimi siz də həsrətimizi çəkirsiniz. 7 Ona
görə də, qardaşlar, bütün sıxıntı və
əziyyətimizə baxmayaraq, imanınıza
görə sizdən təsəlli aldıq. 8 Çünki sizin
Rəbdə qalmağınız indi bizə həyat verir.
9 Allahımız qarşısında sizə görə tam
sevincimiz var. Belə olmasaydı, sizə
görə Allaha necə şükür edə bilərdik?
10 Sizin üzünüzü görmək və imanınızda
çatışmayanları tamamlamaq üçün
gecə-gündüz səylə dua edirik.
11 Qoy Atamız Allah Özü və Rəbbimiz
İsa bizim üçün sizin tərəflərə yol
açsın. 12 Rəbb bir-birinizə və bütün
insanlara olan məhəbbətinizi sizə olan
məhəbbətimiz tək artırıb-çoxaltsın.
13 Belə ki Rəbbimiz İsa bütün
müqəddəsləri ilə birgə zühur
edəcəyi vaxt Atamız Allahın önündə
müqəddəslikdə nöqsansız olmağınız
üçün ürəklərinizə qüvvə versin. Amin.

Allahı razı salmaq

4 Qardaşlar, necə həyat sürmək və
Allahı razı salmaq barədə bizdən
təlimat aldınız. Nəhayət, Rəbb İsa
naminə sizdən xahiş edir və yalvarırıq
ki, belə həyat sürməkdə daha çox inkişaf
edin. 2 Rəbb İsanın səlahiyyəti ilə sizə
hansı əmrləri verdiyimizi bilirsiniz.
3 Çünki Allahın iradəsinə görə
müqəddəslik yolunuz belədir: cinsi
əxlaqsızlıqdan qaçın, 4–5 hər biriniz
Allahı tanımayan bütpərəstlər kimi
şəhvət və ehtirasla deyil, müqəddəslik
və hörmətlə arvad almağı öyrənin,
6 heç kim haqsızlıq edib bacı-qardaşını
istismar etməsin. Çünki əvvəlcə sizə
dediyimiz və xəbərdarlıq etdiyimiz
kimi, Rəbb bütün bunlara görə qisas
alacaq. 7 Çünki Allah bizi murdarlığa
deyil, müqəddəsliyə çağırmışdır. 8 Ona
görə bu təlimatı rədd edən kəs insanı
deyil, sizə Öz Müqəddəs Ruhunu bəxş
edən Allahı rədd edir.
9 Qardaşlıq sevgisinə gəlincə, sizə
yazmağa ehtiyac yoxdur, çünki
Allah bir-birinizi sevməyi öyrədib.
10 Əslində, siz bütün Makedoniyadakı
bacı-qardaşların hamısı ilə belə
davranırsınız. Lakin ey qardaşlar, rica
edirik ki, belə işlərin sayını artırın.
11 Sizə əmr etdiyimiz kimi çalışın ki,
dinc yaşayasınız, öz işinizlə məşğul
olasınız və əliniz işdə-gücdə olsun;
12 belə ki kənar şəxslərin qarşısında
hörmətəlayiq şəkildə həyat sürəsiniz
və heç kimdən təminat almağa ehtiyac
duymayasınız.

Rəbbin zühuru

13 Qardaşlar, vəfat edənlər haqqında
bixəbər qalmağınızı istəmirik ki,
ümidsiz olan digər adamlar kimi
kədərlənməyəsiniz. 14 Axı İsanın
ölüb-dirilməsinə inanırıqsa, demək
İsaya bağlanaraq vəfat edənləri də Allah
Onunla birgə qaytaracaq. 15 [c]Çünki
Rəbbin kəlamına əsaslanaraq sizə
deyirik ki, Rəbbin zühurunadək sağ
qalan bizlər vəfat edənlərdən əsla
qabağa keçməyəcəyik. 16 Rəbb Özü
əmrini səsləndirməklə, baş mələyin

---

*3:5 *Sınağaçəkən* – yəni Şeytan.

[b]3:6 Həv. 18:5 [c]4:15 1Kor. 15:51-52

sədası və Allahın şeypuru ilə göydən
enəcək. Əvvəlcə Məsihdə olaraq
ölənlər diriləcək. 17 Ondan sonra sağ
qalan bizlər Rəbbi havada qarşılamaq
üçün onlarla birgə buludlar içində
götürülüb-aparılacaq və beləcə daim
Rəblə olacağıq. 18 Buna görə bir-birinizə
bu sözlərlə təsəlli verin.

5 Qardaşlar, zaman və məqamlar
barədə sizə yazmağa ehtiyac
yoxdur. 2 [d]Çünki özünüz də çox yaxşı
bilirsiniz ki, Rəbbin günü oğru gecə
gəldiyi kimi gələcək. 3 İnsanlar «sülh
və təhlükəsizlik» deyəndə hamilə
qadının ağrıları necə qəfildən tutursa,
onlar da elə qəfil məhvə düçar olacaq
və bundan əsla qaça bilməyəcəklər.
4 Amma, qardaşlar, siz qaranlıqda
deyilsiniz ki, o gün sizi oğru kimi
yaxalasın. 5 Axı hamınız nur və gündüz
övladlarısınız. Biz nə gecənin, nə də
qaranlığın övladlarıyıq. 6 Ona görə
gəlin başqaları kimi yatmayaq, əksinə,
oyanıb ayıq-sayıq dayanaq. 7 Çünki
yatanlar gecə yatır, əyyaşlar da gecə
vaxtı əyyaşlıq edir. 8 [e]Gündüzə aid olan
bizlərsə iman və məhəbbətlə döşümüzə
zireh taxaraq xilas ümidini dəbilqə kimi
başımıza qoyub ayıq-sayıq olaq. 9 Çünki
Allah bizi qəzəbə düçar olmaq üçün
deyil, Rəbbimiz İsa Məsih vasitəsilə
xilasa nail olmaq üçün təyin edib.
10 Məsih bizim uğrumuzda öldü ki,
oyaq olsaq da, yatmış olsaq da, Onunla
birlikdə yaşayaq. 11 Buna görə indiki
kimi bir-birinizi ürəkləndirin və ruhən
inkişaf etdirin.

Son öyüdlər və salamlar

12 Ey qardaşlar, xahiş edirik ki,
aranızda zəhmət çəkənlərin, Rəbdə sizə
başçılıq edib nəsihət verənlərin qədrini
bilin. 13 Etdikləri əmələ görə onlara
hədsiz məhəbbətlə hörmət göstərin.
Bir-birinizlə sülh içində yaşayın.
14 Qardaşlar, sizə yalvarırıq, avaralara
nəsihət verin, cəsarətsizləri ruhlandırın,
zəiflərə yardım edin, hamıya qarşı
səbirli olun. 15 Diqqətli olun ki, heç kim
pisliyə pisliklə cavab verməsin, əksinə,
bir-birinizə və bütün insanlara həmişə
yaxşılıq etməyə çalışın.
16 Daima sevinin, 17 durmadan dua
edin, 18 hər vəziyyətdə şükür edin.
Çünki bunlar Məsih İsada olan sizlər
üçün Allahın iradəsidir. 19 Ruhu
söndürməyin. 20 Peyğəmbərlik sözlərinə
xor baxmayın. 21 Hər şeyi sınaqdan
keçirin və yaxşı olandan möhkəm tutun.
22 Hər cür şərdən uzaq durun.
23 Qoy sülh qaynağı olan Allahın Özü
sizi tamamilə təqdis etsin və Rəbbimiz
İsa Məsihin zühurunda ruhunuz,
canınız və bədəniniz nöqsansız olaraq
qorunsun. 24 Sizi çağıran Allah sadiqdir
və bunu edəcək.
25 Qardaşlar, bizim üçün dua edin.
26 Bütün bacı-qardaşları müqəddəs
öpüşlə salamlayın. 27 Rəbb naminə sizə
and verirəm ki, bu məktubu bütün
bacı-qardaşlara* oxuyun.
28 Rəbbimiz İsa Məsihin lütfü sizə yar
olsun!

---

*5:27 *Bacı-qardaşlara* – bəzi əlyazmalarda *müqəddəslərə.*

[d]**5:2** Mat. 24:43; Luka 12:39; 2Pet. 3:10; Vəhy 16:15 [e]**5:8** Yeş. 59:17; Ef. 6:13-17

PAULUN

SALONİKLİLƏRƏ İKİNCİ MƏKTUBU

GİRİŞ

İsa Məsihin ikinci gəlişi ilə əlaqədar Salonik imanlı cəmiyyətində yenə də narahatlıqlar davam edirdi. Saloniklilərdə belə bir fikir var idi ki, Rəbbin günü artıq gəlib.

Paul bu fikrə düzgün istiqamət verərək yazır ki, Məsihin zühurundan öncə şər və pislik kulminasiya nöqtəsinə çatacaq. Bu, müəmmalı olan şəxsin, «həlak edilməli qanunsuz adam»ın (2:3) rəhbərliyi altında baş verəcək. Bu şəxs Məsihin əleyhdarı olacaq.

Həvari vurğulayır ki, imanlılar əzab-əziyyət və çətinliklərə baxmayaraq, imanda möhkəm durmalı, özlərini dolandırmaq üçün Paul və onun əməkdaşları kimi işləyib yaxşı əməllərini davam etdirməlidirlər.

Məktubun məzmunu:

1:1-12 Salamlar və minnətdarlıq

2:1-17 Məsihin zühuruna aid təlimat

3:1-15 Məsihçi davranışına aid öyüd-nəsihət

3:16-18 Xudahafizləşmə

1 [f]Paul, Sila və Timoteydən Atamız Allah və Rəbb İsa Məsihdə olan Saloniklilər cəmiyyətinə salam! [2] Atamız Allahdan və Rəbb İsa Məsihdən sizə lütf və sülh olsun!

Hökm günü

[3] Qardaşlar, sizin üçün həmişə Allaha şükür etməliyik və belə etməyimiz yerinə düşər, çünki imanınız artdıqca artır və hamınızın bir-birinizə olan məhəbbəti çoxalır. [4] Bunun üçün tab gətirdiyiniz bütün təqiblərə, əziyyətlər zamanı dözümünüzə və imanınıza görə Allahın cəmiyyətlərində sizinlə özümüz də fəxr edirik.

[5] Bu şeylər Allahın ədalətli hökmünün əlamətidir ki, nəticədə uğrunda indi əzab çəkdiyiniz Allahın Padşahlığına layiq sayılasınız. [6] Çünki Allahın hüzurunda haqq olan işdir ki, sizə əziyyət verənlərə əziyyət, [7] əziyyət çəkən sizlərə isə bunun əvəzində bizimlə birlikdə rahatlıq veriləcək. Bu, Rəbb İsanın qüdrətli mələkləri ilə od-alov içərisində göydən zühur etdiyi zaman olacaq. [8] O zaman Rəbbimiz İsa Allahı tanımayanlardan və Özü barədə olan Müjdəyə itaət etməyənlərdən qisas alacaq. [9] Onlara Rəbbin hüzurundan və qüdrətinin izzətindən məhrum qalıb əbədi olaraq məhv edilmə cəzası veriləcək. [10] Bunlar Rəbbin Öz müqəddəsləri arasında izzət qazanmaq və bütün imanlıları heyrətə gətirmək üçün gəldiyi gün baş verəcək. Siz də belə imanlılardansınız, çünki etdiyimiz şəhadətə inandınız. [11] Buna görə sizin üçün daim dua edirik ki, Allahımız sizi Öz çağırışına layiq görsün, hər yaxşı niyyətinizi və imandan asılı hər əməlinizi Öz qüdrəti ilə yerinə yetirsin. [12] Belə ki Allahımızın və Rəbb İsa Məsihin lütfünə görə Rəbbimiz İsanın adı sizdə izzət qazansın və siz də Onda izzət qazanasınız.

Qanunsuz adam

2 [g]Rəbbimiz İsa Məsihin zühuruna və bizim Onunla birlikdə olmaq üçün toplaşmağımıza gəlincə, qardaşlar, sizdən xahiş edirik: [2] qoy «Rəbbin günü çatmışdır» deyə iddia edən hər hansı bir ruh, bir söz yaxud guya bizdən gələn bir məktub sizi tez ağıldan çıxarıb tələşə salmasın.

---

[f]**1:1** Həv. 17:1 [g]**2:1** 1Sal. 4:15-17

3 Heç kim sizi heç bir şəkildə
aldatmasın. Çünki əvvəl üsyan
qaldırılaraq həlak edilməli qanunsuz
adam* meydana çıxmayınca o gün
gəlməyəcək. 4 [h]O adam, allah adlanan
yaxud səcdə edilən hər şeyə qarşı
çıxaraq özünü hamıdan üstün tutacaq.
Belə ki Allahın məbədində əyləşib
özünün Allah olduğunu elan edəcək.
5 Hələ yanınızda olarkən bunları sizə
söylədiyim yadınızda deyilmi? 6 Bəli,
vaxtı çatanda meydana çıxsın deyə
indi o adama nəyin mane olduğunu
bilirsiniz. 7 Hələ indi də qanunsuzluğun
sirli gücü fəaliyyətdədir. Ancaq hələlik
həmin gücə mane olan şəxs aradan
qalxanadək belə olacaq. 8 [i]Sonra həmin
qanunsuz adam meydana çıxacaq və
Rəbb İsa onu ağzından çıxan nəfəsi
ilə öldürəcək, Öz zühurunun əzəməti
ilə məhv edəcək. 9 [j]Bu qanunsuz adam
Şeytanın fəaliyyətinə əsaslanaraq hər
cür yalan möcüzə, əlamət və xariqələrlə
10 və həmçinin hər cür haqsızlığın
hiyləsi ilə gələcək ki, həqiqəti sevərək
xilas olmaq əvəzinə, bunu rədd
etdikləri üçün həlak olacaq insanları
aldatsın. 11 Buna görə Allah onların
üzərinə aldadıcı bir qüvvə göndərir ki,
yalana inansınlar. 12 Belə ki həqiqətə
inanmayıb haqsızlıq etməkdən zövq
alanların hamısı mühakimə olunsun.

Möhkəm dayanın

13 Bizsə, ey Rəbbin sevdiyi qardaşlar,
sizin üçün həmişə Allaha şükür
etməliyik. Çünki Allah başlanğıcdan
sizi Ruhun təqdisi və həqiqətə iman
vasitəsilə xilas üçün seçdi. 14 Rəbbimiz
İsa Məsihin izzətinə nail olmağınız üçün
O bizim yaydığımız Müjdə ilə sizi bu
xilasa çağırdı. 15 Beləliklə, qardaşlar,
möhkəm dayanın və sözümüz yaxud
məktubumuz vasitəsilə öyrəndiyiniz
təlimlərə bağlı qalın.
16 Rəbbimiz İsa Məsihin Özü və
bizi sevib lütfü ilə əbədi cəsarət və
xeyirli ümid verən Atamız Allah 17 sizi
ürəkləndirsin, hər yaxşı söz və əməldə
möhkəmləndirsin.

Bizim üçün dua edin

3 Nəhayət, qardaşlar, bizim üçün dua
edin ki, Rəbbin kəlamı aranızda
olduğu kimi sürətlə yayılıb izzət
qazansın, 2 pis və şər adamlardan
xilas olaq. Çünki iman hamıya məxsus
deyil. 3 Amma Rəbb etibarlıdır. O
sizi möhkəmləndirib şər olandan
qoruyacaq. 4 Biz də Rəbbə güvənərək
sizdən arxayınıq ki, verdiyimiz əmrlərə
əməl edirsiniz və edəcəksiniz. 5 Qoy
Rəbb ürəklərinizi Allahın məhəbbətinə
və Məsihin dözümünə yönəltsin.

Dolanışığınızı zəhmətinizlə qurun

6 Ey qardaşlar, Rəbbimiz İsa Məsihin
adı ilə sizə əmr veririk ki, bizdən qəbul
etdiyi təlimə görə yaşamayan, avara
həyat sürən hər bir bacı-qardaşdan
uzaqlaşın. 7 Bizlərdən necə nümunə
götürmək lazım olduğunu özünüz də
bilirsiniz. Çünki yanınızda olarkən
avara dolanmadıq, 8 heç kimin çörəyini
müftə yemədik. Əksinə, gecə-gündüz
əmək və zəhmət çəkərək işlədik ki, heç
birinizə yük olmayaq. 9 Bunu ixtiyarımız
çatmadığına görə deyil, sizə nümunəvi
yol göstərərək bu yolla getməyiniz üçün
etdik. 10 Hətta biz sizinlə olarkən sizə
bu əmri verdik: kim işləmək istəmirsə,
yemək də yeməsin. 11 Eşitmişik ki,
sizlərdən bəzisi avara həyat sürür;
heç bir iş görmədikləri halda hər şeyə
qarışırlar. 12 Belələrinə Rəbb İsa Məsih
naminə əmr verib xəbərdarlıq edirik ki,

*2:3 *Qanunsuz adam* – bəzi əlyazmalarda *günah adamı.*

[h]2:4 Yez. 28:2; Dan. 11:36 [i]2:8 Yeş. 11:4 [j]2:9 Mat. 24:24

sakitcə işləyib öz çörəklərini yesinlər.
13 Sizsə, qardaşlar, yaxşılıq etməkdən
yorulmayın.
14 Əgər kimsə bu məktubdakı
sözlərimizə qulaq asmaq istəməzsə, onu
nəzərdə saxlayın və onunla əlaqəni
kəsin ki, utansın. 15 Yenə də onu düşmən
sanmayın, bir qardaş kimi ona nəsihət
verin.

Salam göndərmə

16 Sülh qaynağı olan Rəbbin Özü isə
sizə hər zaman və hər vəziyyətdə sülh
versin! Rəbb hamınıza yar olsun!
17 Mən Paul salamı sizə öz əlimlə
yazıram. Bunu hər məktubumda xüsusi
bir işarə kimi yazıram. 18 Rəbbimiz İsa
Məsihin lütfü hamınıza yar olsun!

PAULUN

TİMOTEYƏ BİRİNCİ MƏKTUBU

GİRİŞ

Gənc məsihçi Timotey Likaonyanın Listra şəhərində anadan olmuşdu. Onun atası Yunan, anası isə Yəhudi idi. Timotey müjdəçilik işində Paula köməkçi və əməkdaş oldu. Paulun *«Timoteyə Birinci Məktubu»* üç əsas məsələni həll edir.

Məktub ilk növbədə imanlı cəmiyyətində verilən yanlış təlimə qarşıdır. Bu təlim Yəhudi və Yəhudi olmayanların ideyalarının qarışığı idi. Bu yanlış təlimə görə fiziki dünya şərdir və buna əsasən bəzi yeməklərdən imtina etməklə, xüsusi gizli biliyə malik olmaqla və evlənməməklə xilasa nail olmaq olar. Məktubda həm də imanlı cəmiyyətinin idarə olunmasına və ibadətə aid təlimatlar var. Bundan əlavə, burada imanlı cəmiyyətinin rəhbərlərinin və köməkçilərinin davranışının necə olması göstərilir.

Nəhayət, Paul Timoteyə İsa Məsihin yaxşı xidmətçisi olması üçün və imanlıların müxtəlif qruplarına qarşı məsuliyyətinə aid məsləhətlər verir.

Kitabın məzmunu:

1:1-2 Salamlar

1:3–3:13 İmanlı cəmiyyətinin xidmətçilərinə aid təlimatlar

3:14–4:5 Möminliyin böyük sirri

4:6–6:21 Timoteyə verilən təlimat

1 [k]Xilaskarımız Allahın və ümidimiz olan Məsih İsanın əmrinə görə Məsih İsanın həvarisi mən Pauldan
[2] imanda mənə əsl oğul olan Timoteyə salam! Ata Allahdan və Rəbbimiz Məsih İsadan sənə lütf, mərhəmət və sülh olsun!

Yanlış təlimlərdən çəkinin

[3] Makedoniyaya gedərkən mən səndən xahiş etdiyim kimi Efesdə qal və bəzi insanlara əmr et ki, yad təlim yaymasınlar, [4] əfsanə və bitməz-tükənməz nəsil şəcərələri ilə məşğul olmasınlar. Çünki bu şeylər Allahın niyyətinin imanla yerinə yetməsi üçün faydalı deyil, əksinə, boş mübahisələrə səbəb ola bilər. [5] Bu əmrin məqsədi pak ürəkdən, təmiz vicdandan və riyasız imandan gələn məhəbbətdir. [6] Bəzi adamlar isə bunlardan azaraq boşboğazlığa qapıldılar. [7] Qanun müəllimi olmaq istəyirlər, amma nə söylədikləri sözləri, nə də üstündə durduqları mövzuları anlayırlar.

[8] Biz bilirik ki, kimsə Qanundan qanuni şəkildə istifadə edərsə, Qanun yaxşıdır. [9] Bunu da bilirik ki, Qanun saleh üçün deyil, qanunsuzlar və itaətsizlər, allahsızlarla günahkarlar, müqəddəs olmayanlar və Allahla əlaqəsi olmayanlar, ata və analarını öldürənlər, qatillər, [10] əxlaqsızlar, kişibazlar, adam oğruları, yalançılar, andı pozanlar və sağlam təlimə zidd olan bütün başqaları üçün qoyulmuşdur. [11] Bəxtiyarlıq mənbəyi olan Allahın mənə əmanət etdiyi izzətli Müjdəyə görə bu belədir.

Allah mərhəmətlidir

[12] Mənə qüvvət verən Rəbbimiz Məsih İsaya şükür edirəm ki, məni sadiq sayıb Öz xidmətinə təyin etdi. [13] [l]Əvvəllər Ona küfr edən, təqibçi və söyüşkən olduğum halda mənə mərhəmət edildi. Çünki nə etdimsə, cahillik və imansızlıq üzündən etdim. [14] Amma Rəbbimizin lütfü Məsih İsada olan iman və məhəbbətlə birlikdə mənə bol-bol ehsan edildi. [15] Məsih İsa günahkarları xilas etmək üçün dünyaya gəldi, bu söz etibarlı və

---

[k] **1:1** Həv. 16:1 [l] **1:13** Həv. 8:3; 9:4-5

tamamilə qəbul olunmağa layiq sözdür.
O günahkarlardan ən betəri mənəm.
16 Lakin ən betəri olduğum halda mənə
buna görə mərhəmət edildi ki, Məsih
İsa mənim vasitəmlə hədsiz səbrini
göstərsin. Ona görə ki gələcəkdə Ona
iman edib əbədi həyata malik olanlara
mən nümunə olum. 17 Əsrlərin Padşahı,
ölməz, görünməz və bir olan Allaha*
əbədi olaraq hörmət və izzət olsun!
Amin.
18 Oğlum Timotey, əvvəlcədən sənin
haqqında söylənən peyğəmbərlik
sözlərinə əsasən bu əmri sənə həvalə
edirəm ki, bu sözlərə güvənərək yaxşı
mübarizə aparasan, 19 imana və təmiz
vicdana sarılasan. Bəziləri təmiz vicdanı
rədd edərək imanlarını qəzaya uğrayan
gəmi kimi batırdılar. 20 Himeney və
İsgəndər də onlardandır. Küfr etməməyi
öyrənsinlər deyə onları Şeytana təslim
etdim.

Dua və ibadət

2 1–2 Hər şeydən əvvəl xahiş edirəm:
möminlik və ləyaqətlə sakit və rahat
ömür sürməyimiz üçün, bütün insanlar,
o cümlədən, padşahlar və hakimiyyət
sahibi olanların hamısı üçün yalvarış,
dua, vəsatət və şükürlər edilsin. 3 Çünki
bu yaxşıdır və Xilaskarımız Allahı razı
salır. 4 O bütün insanların xilas olub
həqiqəti dərk etməsini istəyir. 5 Çünki
bir Allah və Allahla insanlar arasında
bir Vasitəçi vardır. O, İnsan olan Məsih
İsadır. 6 O hamını satın almaq üçün
Özünü fidyə verdi və bu da münasib
vaxtda edilən şəhadətdir. 7 [m]Mən də
həmin şəhadətin vaizi və həvarisi
təyin edildim – yalanı deyil, həqiqəti†
söyləyirəm. Başqa millətlərə iman və
həqiqət öyrədən müəllim oldum.
8 Buna görə istəyirəm ki, kişilər
qəzəblənmədən, mübahisə etmədən
hər yerdə müqəddəs əllər qaldırıb dua
etsinlər, 9 [n]qadınlar da ədəbli görkəmlə,
abır-həya və ağıl-kamalla bəzənsinlər.
Dəbdəbəli saç düzümü ilə, qızıllarla,
mirvarilərlə və yaxud bahalı paltarlarla
deyil, 10 mömin olduqlarını bəyan edən
qadınlara yaraşan tərzdə xeyirli işlərlə
bəzənmələrini istəyirəm. 11 Qadın
sakitlik və tam bir tabelik içində
öyrənsin; 12 qadının öyrədib kişiyə
ağalıq etməsinə izin vermirəm, qadın
sakit olsun. 13 [o]Çünki ilk yaradılan
Adəm oldu, sonra Həvva. 14 Aldadılan
da Adəm deyildi, qadın aldadılıb
əmri pozdu; 15 amma qadın doğuşla
xilas olacaq, bir şərtlə ki ağıl-kamalla
imanda, məhəbbətdə və müqəddəslikdə
yaşamağa davam etsin.

İmanlılar cəmiyyətinin başçıları

3 Bu söz etibarlıdır: kim cəmiyyətdə
nəzarətçi olmağa can atırsa, xeyirli
iş arzu edir. 2 [p]Nəzarətçi nöqsansız,
tək arvadlı olaraq ona sadiq, ayıq,
ağıllı-kamallı, ədəbli, qonaqpərvər
olmalı, öyrətməyi bacarmalıdır. 3 Şərab
düşkünü olmamalı; zorakı deyil,
mülayim‡ olmalı; davakar və pulpərəst
olmamalıdır. 4 Öz evini yaxşı idarə
etməli, tam bir ləyaqətlə uşaqlarını
öz tabeliyində saxlamalıdır. 5 Öz şəxsi
evini idarə edə bilməyən Allahın
cəmiyyətinin qayğısına necə qala bilər?
6 Nəzarətçi yeni iman etmiş adam
olmamalıdır. Yoxsa qürurlanıb iblisin
uğradığı eyni mühakiməyə uğraya bilər.
7 Kənar insanlar tərəfindən də yaxşı bir

---

*1:17 *Allaha* – bəzi əlyazmalarda *müdrik Allaha.*
†2:7 *Həqiqəti* – bəzi əlyazmalarda *Məsihdə olan həqiqəti.*
‡3:3 *Mülayim* – bəzi əlyazmalarda *haqsız qazanca həris deyil, mülayim.*

[m]2:7 2Tim. 1:11 [n]2:9 1Pet. 3:3 [o]2:13 Yar. 2:7,21-22; 3:1-6 [p]3:2 Titə 1:6-9

insan kimi tanınmalıdır. Belə ki iblisin
qurduğu tora düşüb utandırılmasın.
8 Cəmiyyət xidmətçiləri də ləyaqətli
olmalıdır. Riyakar, şərab düşkünü
yaxud haqsız qazanca həris
olmamalıdır. 9 İman sirrini təmiz
vicdanla saxlamalıdırlar. 10 Onlar da
əvvəlcədən sınaqdan keçsinlər, əgər
nöqsanları olmazsa, o zaman xidmət
etsinlər. 11 Qadınlar da böhtançı deyil,
ləyaqətli, ayıq və hər şeydə sadiq
olmalıdırlar. 12 Xidmətçilər tək arvadlı
olaraq ona sadiq olsun, öz uşaqlarını
və evlərini yaxşı idarə etsinlər. 13 Çünki
yaxşı xidmət edənlər özləri üçün
yaxşı bir mövqe və Məsih İsaya olan
imanlarında böyük cəsarət qazanırlar.

Böyük sirr

14 Tezliklə yanına gəlmək ümidi ilə
bu şeyləri sənə yazıram ki, 15 əgər
geciksəm belə, sən Allahın ev xalqı
arasında necə həyat sürmək lazım
olduğunu biləsən. Bu xalq var olan
Allahın cəmiyyəti, həqiqətin dirəyi və
bünövrəsidir. 16 Şübhəsiz ki, möminliyin
sirri böyükdür:

O,* cismən zühur etdi,
Ruh tərəfindən təsdiq olundu,
Mələklərə göründü,
Millətlərə vəz olundu,
Dünyada Ona iman edildi,
İzzətlə göyə çəkildi.

İmandan dönüş

4 Ruh aydın şəkildə deyir ki,
gələcəkdə bəziləri imandan
dönəcək, aldadıcı ruhlara və cinlərin
təlimlərinə qulaq asacaqlar. 2 Bu
təlimlər yalançıların ikiüzlülüyü ilə
yayılır. Onların vicdanı sanki yanıq
yarası kimi hissiyyatını itirmişdir. 3 Bu
yalançılar evlənməyi qadağan edir və
bəzi yeməklərdən çəkindirirlər. Amma
Allah bu yemək̇ləri iman edib həqiqəti
dərk edənlərin şükürlə qəbul etməsi
üçün yaradıb. 4 Çünki Allahın yaratdığı
hər şey yaxşıdır, şükürlə qəbul edilən
heç bir şey rədd edilməməlidir. 5 Çünki
hər şey Allahın kəlamı və dua ilə təqdis
olur.

Məsihin yaxşı xidmətçisi

6 Bunları bacı-qardaşlara öyrətsən,
imanın və əməl etdiyin yaxşı təlimatın
sözləri ilə qidalanaraq Məsih İsanın
yaxşı bir xidmətçisi olarsan. 7 Allahsız,
axmaq qoca qarı əfsanələrindən uzaq
dur. Mömin olmaq üçün özünü yetişdir.
8 Bədən məşqinin az faydası olur,
möminlik isə hər şey üçün faydalıdır,
çünki bunda indi və gələcək üçün
həyat vədi var. 9 Bu söz etibarlıdır
və tamamilə qəbul olunmağa layiq
sözdür. 10 Ona görə də biz zəhmət
çəkir və mübarizə aparırıq.† Çünki
ümidimizi bütün insanların, xüsusən
iman edənlərin Xilaskarı, var olan
Allaha bağlamışıq.
11 Bunları buyur və öyrət. 12 Gənc
olduğun üçün qoy heç kim sənə xor
baxmasın. Amma sözdə, həyat tərzində,
məhəbbətdə, imanda,‡ paklıqda
imanlılara nümunə ol. 13 Mən gəlincə
Müqəddəs Yazıları hamıya oxumaqla,
nəsihət verməklə, təlim verməklə
məşğul ol. 14 Ağsaqqallar əllərini sənin
üzərinə qoyanda sənə peyğəmbərlik
sözü ilə verilən səndə olan ruhani
ənama etinasızlıq etmə. 15 Bunların
hamısına səy göstərərək özünü həsr et
ki, sənin inkişafın hamıya aşkar olsun.
16 Özünə və verdiyin təlimə diqqətli
ol. Bu işlərlə məşğul olmağa davam et.

---

*3:16 *O* – bəzi əlyazmalarda *Allah.*
†4:10 *Mübarizə aparırıq* – bəzi əlyazmalarda *təhqirə dözürük.*
‡4:12 *İmanda* – bəzi əlyazmalarda *ruhda, imanda.*

Çünki bunu etməklə həm özünü, həm
də səni dinləyənləri xilas edəcəksən.

İmanlılar cəmiyyətində məsuliyyətlər

5 Ağsaqqalla sərt danışma, ona ata
kimi, cavanlara isə qardaş kimi,
2 ağbirçəklərə ana kimi, gənc qadınlara
tamamilə saf ürəklə bir bacı kimi
nəsihət ver.
3 Həqiqi dul qadınlara hörmət et.
4 Lakin əgər bir dul qadının uşaqları
ya da nəvələri varsa, bunlar əvvəlcə
öz ailələrinə yardım edərək möminliyi,
yaşlı ailə üzvlərinə də haqqını verməyi
öyrənsinlər. Çünki bu, Allahı razı salır.
5 Həqiqətən, dul qalıb kimsəsiz olan
qadın öz ümidini Allaha bağlamışdır,
gecə-gündüz Ona yalvarmağa və dua
etməyə davam edir. 6 Keflə yaşayan
dul qadınsa yaşadığı halda ölüdür.
7 Nöqsansız olmaqları üçün bu əmrləri
tapşır. 8 Öz yaxınlarının, xüsusən,
ailə üzvlərinin qayğısına qalmayan
insan imanı inkar etmiş və imansızdan
betərdir.
9 Qoy bir dul qadının adı dullar
siyahısına bu şərtlə yazılsın: ən
azı altmış yaşına çatmış, ərinə
sadiq olmuş, 10 [q]etdiyi yaxşı işlərlə
tanınmış olsun, məsələn, uşaqlar
böyütmüş, qonaqpərvərlik göstərmiş,
müqəddəslərin ayaqlarını yumaqla
xidmət etmiş, əziyyət çəkənlərə yardım
etmiş, hər cür xeyirli işlə məşğul bir
şəxs olmalıdır.
11 Altmış yaşa çatmamış dul qadınları
isə siyahıya yazma. Çünki cismani
istəkləri Məsihə bağlılıqlarına qalib
gələn kimi ərə getmək istəyərlər.
12 Beləcə verdikləri ilk sözdən çıxdıqları
üçün mühakiməyə məruz qalırlar.
13 Eyni zamanda evdən evə gəzərək
tənbəlliyə öyrənərlər. Yalnız tənbəllik
deyil, lazım olmayan sözlər danışaraq
qeybət edərlər, başqalarının işlərinə
burunlarını soxarlar. 14 Beləliklə, yaşa
dolmamış dul qadınların ərə getməsini,
uşaq doğmasını, evini idarə etməsini,
düşmənə heç bir böhtan atmaq fürsətini
verməməsini istəyirəm. 15 Artıq bəziləri
azıb Şeytanın ardınca getmişdir.
16 İmanlı bir qadının* dul qadın
yaxınları varsa, qoy onlara yardım
etsin. İmanlılar cəmiyyəti belə yükün
altına girməsin ki, həqiqi dul qadınlara
yardım edə bilsin.
17 Cəmiyyəti yaxşı idarə edən
ağsaqqallar, xüsusən, vəz və təlim
işində zəhmət çəkənlər maddi və
mənəvi cəhətdən təmin olunmağa
layiq görülsün. 18 [r]Çünki Müqəddəs
Yazıda belə deyilir: «Xırman çəkən
öküzün ağzını bağlama» və «işçi öz
haqqına layiqdir». 19 [s]İki yaxud üç şahid
olmadıqda bir ağsaqqala qarşı olan
ittihama əhəmiyyət vermə. 20 Günah
işlədən ağsaqqalları hamının qarşısında
məzəmmət et ki, digərləri də günah
işlətməkdən qorxsun. 21 Allahın, Məsih
İsanın və seçilmiş mələklərin önündə
sənin öhdənə qoyuram ki, ayrı-seçkilik
salmadan, tərəfkeşlik etmədən bu
təlimatlara riayət edəsən. 22 Heç kimin
üzərinə tələsərək əl qoyma, başqalarının
günahlarına şərik olma, özünü pak
saxla.
23 Yalnız su içməkdən vaz keç; mədənə
və tez-tez baş verən xəstəliklərinə görə
bir az şərab da iç.
24 Bəzi insanların günahları
mühakiməyə düşəndən əvvəl də
bəllidir, digərlərininki isə sonradan
ortaya çıxar. 25 Beləcə yaxşı işlər də

---

*5:16 *Qadının* – bəzi əlyazmalarda *kişinin yaxud da qadının.*

[q]**5:10** Qanun. 25:4; Luka 12:7 [r]**5:18** Qanun. 25:4; Mat. 10:10; Luka 10:7
[s]**5:19** Qanun. 17:6; 19:15

qabaqcadan bəllidir, bəlli olmayanlar
da gizli qala bilməyəcək.
6 Qul boyunduruğu altında olanların
hamısı öz ağalarını tam hörmətə
layiq saysınlar ki, Allahın adına və
təliminə küfr söylənməsin. 2 Ağaları
iman etmiş olanlarsa qardaş olduğu
üçün ağalarına xor baxmasınlar. Əksinə,
onlara daha yaxşı qulluq etsinlər. Çünki
bu qulluqdan faydalananlar sevdikləri
imanlılardır.
Bu şeyləri öyrət və nəsihət ver.

Allah yoluna bağlılıq

3 Kim yad təlimlər yayıb Rəbbimiz İsa
Məsihin sağlam sözləri ilə və möminliyə
uyğun təlimlə razı deyilsə, 4 o adam
qürurlanıb heç bir şey dərk etmir, lakin
mübahisə və sözlərin mənası barədə
dava yaratmaq xəstəliyinə tutulub.
Bunların nəticəsi paxıllıq, münaqişə,
böhtançılıq və bədgümanlıqdır;
5 pozğun düşüncəli, həqiqətdən
məhrum, möminliyi qazanc mənbəyi
kimi zənn edən adamların fasiləsiz
mübahisələridir.*
6 Əlindəki ilə kifayətlənərək
mömin olmaqsa böyük qazanc
mənbəyidir. 7 Çünki dünyaya heç bir
şey gətirməmişik və oradan heç bir şey
də götürə bilmərik. 8 Yeməyimiz və
paltarımız varsa, bunlarla kifayətlənirik.
9 Zəngin olmaq istəyənlərsə sınağa və
tora düşərlər; insanı məhvə və həlaka
aparan bir çox axmaq və ziyanverici
ehtiraslara batırlar. 10 Çünki hər cür
pisliyin kökü pulpərəstlikdir. Kimlərsə
bu həvəslə imandan azıb öz-özlərinə
sanki bıçaq soxmuş kimi çox əzab
verdilər.
11 Amma sən, ey Allah adamı, bu
şeylərdən qaç. Salehliyin, möminliyin,
imanın, məhəbbətin, dözümün,
həlimliyin ardınca get. 12 İman uğrunda
yaxşı mübarizə apar. Əbədi həyatı
bərk tut; bunun üçün çağırıldın və
yaxşı əqidəni bir çox şahid qarşısında
iqrar etdin. 13 [t]Hər şeyə həyat verən
Allahın və Ponti Pilatın önündə öz
yaxşı əqidəsinə şəhadət edən Məsih
İsanın hüzurunda sənə tapşırıram ki,
14 Rəbbimiz İsa Məsihin zühurunadək
Allahın əmrinə ləkəsiz və nöqsansız
riayət et. 15 Allah Onu Öz vaxtında zahir
edəcək. O, bəxtiyarlıq mənbəyi olan
tək Hökmdar, şahların Şahı və ağaların
Ağasıdır. 16 Yeganə ölməzliyə malik
olan, əlçatmaz nurda yaşayan Odur.
Onu insanlardan heç kəs görməyib və
görə də bilməz. Ona izzət və əbədi
qüdrət olsun. Amin.
17 Bu dövrdə varlı olanlara buyur ki,
təkəbbürlü olmasınlar və gəldi-gedər
var-dövlətə yox, zövq almağımız
üçün bizə hər şeyi bol-bol verən
Allaha ümid bəsləsinlər. 18 Xeyirxahlıq
göstərsinlər, yaxşı işlərlə zəngin,
əliaçıq olub öz malını başqaları ilə
bölüşsünlər. 19 Beləliklə, gələcək üçün
özlərinə sağlam təməl olacaq bir xəzinə
toplasınlar. Yəni həqiqi həyatı† bərk
tutsunlar.
20 Ey Timotey, sənə verilən əmanəti
qoru! Allahsız boşboğazlıqdan və
yalan yerə «bilik» adlanan şeyin zidd
fikirlərindən uzaq dur. 21 Bəziləri bu
biliyə sahib olduqlarını iddia edərək
imandan azdılar.
Sizə lütf olsun!

---

*6:5 *Mübahisələridir* – bəzi əlyazmalarda *mübahisələridir. Belə adamlardan uzaq ol.*
†6:19 *Həqiqi həyatı* – bəzi əlyazmalarda *əbədi həyatı.*

[t]6:13 Yəh. 18:37

PAULUN

TİMOTEYƏ İKİNCİ MƏKTUBU

GİRİŞ

Paul *«Timoteyə İkinci Məktubu»*nda öz gənc həmkarı və əməkdaşı olan Timoteyə çoxlu məsləhətlər verir. Əsas mövzu dözümdür. Paul Timoteyi İsa Məsihin Müjdəsini sədaqətlə vəz etməyə çağırır. Həm də o, Müjdənin və Əhdi-Ətiqin təliminə sadiq qalmağa ruhlandırır. Həvari öz gənc həmkarına tövsiyə edir ki, çəkdiyi iztirabların, rastlaşdığı müqavimətlərin heç birinə əhəmiyyət vermədən müjdəçilik və müəllimlik işini davam etdirsin.

Paul Timoteyə xüsusi məsləhət verir: «Axmaq və cahil mübahisələrdən uzaq ol. Çünki bunların dava-dalaşa səbəb olmasını bilirsən» (2:23). Bütün bunların hamısını yekunlaşdıraraq Paul öz həyatını və məqsədini nümunə göstərərək iman, məhəbbət, dözümə və təqiblərdə əzablara səbirli olmağa çağırır.

Kitabın məzmunu:

1:1–2:13 Salamlar və tövsiyələr

2:14–4:5 Məsləhət və xəbərdarlıq

4:6-18 Paulun düşdüyü vəziyyət barəsində

4:19-22 Xudahafizləşmə

1 [u]Məsih İsada olan həyat vədinə görə Allahın iradəsi ilə Məsih İsanın
həvarisi mən Pauldan [2] mənə sevimli
oğul olan Timoteyə salam! Ata Allahdan
və Rəbbimiz Məsih İsadan sənə lütf,
mərhəmət və sülh olsun!

Müjdəyə sadiq qalmaq

[3] Durmadan, gecə-gündüz dualarımda
səni yada saldığım zaman ata-babalarım
kimi təmiz vicdanla ibadət etdiyim
Allaha şükür edirəm. [4] Sənin göz
yaşlarını xatırlayaraq səni görməyə
həsrət çəkirəm ki, sevinclə dolum.
[5] [v]Səndəki riyasız imanı yadıma salıram.
Əvvəlcə nənən Lois və anan Evnikinin
saxladığı bu imanı, əminəm ki, sən də
saxlayırsan. [6] Bu səbəbdən sənin üzərinə
əl qoymağımla Allahın sənə verdiyi
ənamı alovlandırmağını xatırladıram.
[7] Çünki Allah bizə qorxaqlıq ruhu
deyil, güc, məhəbbət və ağıllı-kamallı
olmaq ruhu vermişdir. [8] Buna görə
Rəbbimiz barədə şəhadət etməkdən və
Onun uğrunda məhbus olan məndən
utanma. Allahın gücü ilə Müjdə
uğrunda mənimlə birlikdə əzaba
qatlaş. [9] Allah bizi əməllərimizə görə
deyil, öz məqsədinə və lütfünə görə
xilas edib müqəddəs olmağa çağırdı.
Zaman başlamazdan əvvəl o lütf bizə
Məsih İsada verilmişdi, [10] indi isə
Xilaskarımız Məsih İsanın zühuru ilə
üzə çıxdı. O, ölümü yox etdi, Müjdə
vasitəsilə həyatı və ölməzliyi aşkar etdi.
[11] [w]Mən bu Müjdə üçün vaiz, həvari və
müəllim* təyin olundum. [12] Bu əzabları
çəkməyimin səbəbi də budur. Amma
bundan utanmıram, çünki Kimə iman
etdiyimi bilirəm və əminəm ki, mənə
verdiyi əmanəti qiyamət gününə† qədər
saxlamağa qadirdir. [13] Məsih İsada olan
iman və məhəbbətlə məndən eşitdiyin
sağlam sözlərdən nümunə götür. [14] Sənə
verilən yaxşı əmanəti bizdə yaşayan
Müqəddəs Ruh vasitəsilə saxla.

[15] Bilirsən ki, Asiya vilayətində
olanların hamısı məndən üz döndərdi.

---

*__1:11__ *Müəllim* – bəzi əlyazmalarda *millətlərin müəllimi.*

†__1:12__ *Qiyamət gününə* – hərfi tərcümədə *o günə.*

[u]__1:1__ Həv. 16:1 [v]__1:5__ Həv. 16:1 [w]__1:11__ 1Tim. 2:7

Həmçinin Figel və Hermogen
də bunların sırasındadır. 16 Rəbb
Onisiforun ev əhlinə mərhəmət etsin.
Çünki dəfələrlə məni ruhlandırdı,
mənim zəncirlənməyimdən utanmadı.
17 Əksinə, Romada olarkən məni səylə
axtarıb tapdı. 18 Qoy Rəbb qiyamət
günü* ona mərhəmət tapmağa imkan
versin. Efesdə onun mənə nə qədər
xidmət etdiyini sən çox yaxşı bilirsən.

Məsih uğrunda əziyyətə dözmək

2 Sənsə, ey oğlum, Məsih İsada olan
lütflə güclən. 2 Bir çox şahidlərin
önündə məndən eşitdiyin sözləri
başqalarına da öyrətməyə qadir olan
sadiq adamlara həvalə et. 3 Məsih İsanın
yaxşı əsgəri kimi mənimlə birgə əzaba
qatlaş. 4 Əsgərlik edən insan gündəlik
həyatla bağlı işlərə sürüklənməz, ona
əmr edən zabiti razı salmağa çalışar.
5 Həmçinin yarışlara qoşulan insan
da qaydaya görə yarışmazsa, başına
zəfər çələngi qoyulmaz. 6 Zəhmətkeş
əkinçinin payına məhsulunun ilk
bəhrəsi düşməlidir. 7 Dediklərimə fikir
ver. Rəbb söylədiyim hər şeydə sənə
anlayış verəcək.
8 Yaydığım Müjdədə açıqlandığı
kimi, Davudun nəslindən olub ölülər
arasından dirilən İsa Məsihi yadında
saxla. 9 Bu Müjdə naminə zəncirə
vurulmuş bir cinayətkar kimi əzaba
qatlaşıram. Amma Allahın kəlamı
zəncirlənməmişdir. 10 Bu səbəbdən
seçilmişlərə görə, onlar da Məsih İsada
olan xilasa əbədi izzətlə bərabər nail
olsunlar deyə hər şeyə dözürəm. 11 Bu
söz etibarlıdır ki,

«Əgər Onunla öldüksə,
Onunla da yaşayacağıq;
12 xƏgər dözəriksə,
Onunla da birlikdə padşahlıq
edəcəyik.
Əgər Onu inkar etsək,
O da bizi inkar edəcək.
13 Biz sadiq qalmasaq da,
O sadiq qalacaq.
Çünki Öz təbiətinə zidd davrana
bilməz».

Sınaqdan keçmiş işçi

14 Bunları imanlıların yadına sal.
Sözlərin mənası barədə dava etməməyi
Allahın önündə onların öhdəsinə qoy;
çünki bu fayda verməz, dinləyənlərə
isə ziyan vurar. 15 Özünü Allaha
sınaqdan keçmiş, həqiqət kəlamını
doğruluqla işlədən alnıaçıq bir işçi
kimi təqdim etməyə çalış. 16 Allahsız
boşboğazlıqdan uzaq dur. Çünki
belə boşboğazlıqlar insanı daha da
allahsızlığa aparır. 17 Onların sözü irinli
yara kimi yayılacaq. Himeney və Filit
onların sırasındadır. 18 Onlar dirilmənin
artıq baş verdiyini deyərək həqiqətdən
azıb bəzilərinin imanını alt-üst edirlər.
19 Lakin Allahın atdığı möhkəm təməl
bu sözlərlə möhürlənib durur: «Rəbb
Özününküləri tanıyır» və «Rəbbin
adını ağzına alan hər kəs haqsızlıqdan
uzaqlaşsın».
20 Böyük bir evdə yalnız qızıl və
gümüş qablar deyil, həmçinin taxta
və gil qablar da var. Onlardan bəzisi
şərəfli, bəzisi də şərəfsiz iş üçün istifadə
olunur. 21 Beləliklə, kim özünü şərəfsiz
işlərdən təmizləsə, şərəfli işlərə uyğun,
təqdis olunmuş, Sahibinə faydalı, hər
yaxşı iş üçün hazırlanmış qab olacaq.
22 Gənclik ehtiraslarından qaç. Təmiz
ürəklə Rəbbi çağıranlarla birlikdə
salehliyin, imanın, məhəbbətin və
sülhün ardınca get. 23 Axmaq və cahil
mübahisələrdən uzaq ol. Çünki bunların

---

*1:18 *Qiyamət günü* – hərfi tərcümədə *o gün.*

x2:12 Mat. 10:33; Luka 12:9

dava-dalaşa səbəb olmasını bilirsən.
24 Rəbbin qulu davakar olmamalıdır.
Əksinə, hamı ilə mülayim rəftar etməli,
öyrətməyə qabil, səbirli olmalıdır.
25 Ona qarşı olanları həlimliklə tərbiyə
etməlidir. Bəlkə Allah onlara tövbəyə
imkan verəcək. Beləliklə, onlar həqiqəti
anlayar, 26 ayıq ola bilərlər və istəyini
yerinə yetirmək üçün onları əsir edən
iblisin torundan çıxarlar.

Axır zamanda

3 Bunu bil ki, bu axır zamanda
çətin dövrlər olacaq. 2 Çünki
insanlar xudbin, pulpərəst, təkəbbürlü,
məğrur, təhqir edən, valideynlərinə
itaət etməyən, nankor, müqəddəslikdən
məhrum, 3 şəfqətsiz, barışmaz, böhtançı,
nəfsini saxlamayan, rəhmsiz, yaxşılığın
düşməni, 4 xain, ehtiyatsız, qürurlu
olacaq, Allahdan çox kef çəkməyi
sevəcəklər. 5 Mömin kimi görünüb
bu yolun gücünü inkar edəcəklər. Bu
cür adamlardan uzaq dur. 6 Bunların
arasında evlərə soxulub zəif iradəli
qadınları əsir edən adamlar var. Belə
qadınlar günahla yüklənmiş müxtəlif
ehtiraslarla sövq edilir, 7 daima öyrənir,
amma həqiqəti heç zaman anlaya
bilmirlər. 8 [y]Yannis və Yambris Musaya
necə zidd getdilərsə, bu adamlar da
eləcə həqiqətə zidd gedirlər. Onlar
düşüncələri pozğun, imanları sınaqdan
keçməmiş insanlardır. 9 Amma daha
irəli gedə bilməyəcəklər. Çünki Yannislə
Yambrisin axmaqlığı kimi bunların da
axmaqlığını hamı açıqca görəcək.

Timoteyə son öyüdlər

10 [z]Sənsə mənim təlimimi,
davranışımı, məqsədimi, imanımı,
səbrimi, məhəbbətimi, dözümümü,
11 Antakyada, Konyada, Listrada
başıma gələn təqibləri, çəkdiyim
əzabları diqqətlə izlədin. Nə cür
təqiblərə qatlandım! Amma Rəbb məni
bunların hamısından xilas etdi. 12 Məsih
İsada möminliyə yaraşan bir həyat
sürmək istəyənlərin hamısı təqibə
məruz qalacaq. 13 Amma pis adamlar
və saxtakarlar aldadıb-aldanaraq
getdikcə daha betər olacaqlar. 14 Sənsə
öyrəndiyin və güvəndiyin şeylərə
sadiq qal. Çünki bunları kimlərdən
öyrəndiyini bilirsən, 15 Müqəddəs
Yazıları uşaqlıqdan bilirsən. Onlar
Məsih İsaya olan iman vasitəsilə sənə
xilas gətirən hikmət verməyə qadirdir.
16 Bütün Müqəddəs Yazılar Allahdan
ilham almış və təlim, məzəmmət,
islah, salehlik tərbiyəsi üçün faydalıdır;
17 beləcə Allah adamı bacarıqlı olub hər
yaxşı iş üçün təchiz edilsin.

4 Allahın və dirilərlə ölüləri
mühakimə edəcək Məsih İsanın
önündə Onun zühuru və Padşahlığının
haqqı üçün sənə buyururam ki,
2 Allahın kəlamını vəz edəsən, hansı
vaxt olursa-olsun hazır olasan,
insanlara tam səbirlə təlim öyrədərək
məzəmmət, xəbərdarlıq və nəsihət
verəsən. 3 Çünki elə bir zaman gələcək
ki, sağlam təlimə dözməyəcəklər.
Qulaq oxşayan sözlər eşitmək üçün
ətraflarına öz ehtiraslarına uyğun
müəllimlər toplayacaqlar. 4 Qulaqlarını
həqiqətdən döndərəcək, əfsanələrə
meyl göstərəcəklər. 5 Amma sən hər
vəziyyətdə ayıq ol. Əzaba qatlaş,
müjdəçilik işini yerinə yetir, öz
xidmətinə tam əməl et.
6 Çünki qanım artıq içmə təqdimi
kimi tökülmək üzrədir. Artıq ayrılma
zamanım gəldi. 7 Mən yaxşı mübarizə
aparmışam, yolumu sona çatdırdım,
imanı saxladım. 8 İndi salehlik tacı
mənim üçün hazır durur. Ədalətli Hakim

---

[y] **3:8** Çıx. 7:11 [z] **3:10** Həv. 13:14–14:20

olan Rəbb qiyamət günü* onu mənə –
yalnız mənə deyil, Onun zühuruna can
atanların hamısına verəcək.

Şəxsi ricalar və salamlar

9 Yanıma tez gəlməyə çalış. 10 [a]Çünki
Dima indiki dövrü sevdiyi üçün məni
tərk edib Salonikə getdi. Kreskent
Qalatiyaya, Tit isə Dalmatiyaya getdi.
11 [b]Yalnız Luka yanımdadır. Markı da
götür özünlə gətir, çünki o etdiyim
xidmətdə mənə yardım edir. 12 [c]Tixiki
isə Efesə göndərdim. 13 [d]Troasda Karpın
yanında qoyduğum yapıncını, kitabları,
xüsusən, yazılı dəriləri də gələndə gətir.
14 [e]Misgər İsgəndər mənə çox pislik
etdi. Rəbb ona əməllərinin əvəzini
verəcək. 15 Sən də ondan özünü gözlə.
Çünki söylədiklərimizə ciddi-cəhdlə
zidd getdi.
16 Mən ilk dəfə müdafiə olunanda heç
kim mənə tərəfdar çıxmadı, hamı məni
tərk etdi. Qoy onlara günah sayılmasın.
17 Lakin Rəbb köməyimə gəlib mənə güc
verdi ki, vəz mənim vasitəmlə tam elan
edilsin və onu bütün millətlər eşitsin.
Mən aslanın ağzından xilas oldum.
18 Rəbb məni hər cür pis əməldən
qurtaracaq və Öz Səmavi Padşahlığı
üçün xilas edəcək. Ona əbədi olaraq
izzət olsun! Amin.
19 [f]Priskila ilə Akilaya və Onisiforun
ev əhlinə salam söylə.
20 [g]Erast Korinfdə qaldı. Trofimi isə
xəstə halda Miletdə qoydum. 21 Çalış ki,
qışdan əvvəl gələsən. Evvul, Pudent,
Lin, Klavdiya və bütün bacı-qardaşlar
sənə salam göndərir.
22 Rəbb sənin ruhuna yar olsun! Sizə
lütf olsun!

---

*__4:8__ *Qiyamət günü* – hərfi tərcümədə *o gün.*

[a]__4:10__ 2Kor. 8:23; Qal. 2:3; Kol. 4:14; Titə 1:4; Flm. 24
[b]__4:11__ Həv. 12:12,25; 15:37-39; Kol. 4:10,14; Flm. 24
[c]__4:12__ Həv. 20:4; Ef. 6:21-22; Kol. 4:7-8
[d]__4:13__ Həv. 20:6
[e]__4:14__ Zəb. 62:12; Rom. 2:6; 1Tim. 1:20
[f]__4:19__ Həv. 18:2-3; 2Tim. 1:16-17
[g]__4:20__ Həv. 19:22; 20:4; 21:29; Rom. 16:23-24

PAULUN

TİTƏ MƏKTUBU

GİRİŞ

Tit Paulun vəzi ilə İsa Məsihi qəbul edən bir yunan gənc idi (1:4). O, Paula müjdəçilik işində köməkçi olmuşdu. Paul gənc köməkçisini Krit adasındakı imanlı cəmiyyətində nəzarətçi kimi xidmət etməyə təyin etmişdi. Bu məktub da ona kömək məqsədi ilə ünvanlanıb. Bu məktubda üç əsas məsələyə toxunulur.

Birinci, Paul bir çox Kritlilərin xasiyyətini nəzərə alaraq Titin yadına salır ki, imanlı cəmiyyətinin rəhbəri necə olmalıdır. Sonra o, cəmiyyətdə imanlıların müxtəlif qruplarını – yaşlı kişiləri və qadınları, gəncləri və qulları necə öyrətmək barədə məsləhətlər verir.

Məktubun sonunda Paul Titə məsihçi davranışına aid öyüdlər verir və xüsusən, sülhsevər və dost münasibətində olmağı, nifrətdən, mübahisələrdən və cəmiyyətdə fikir ayrılığından uzaq durmağı məsləhət görür.

Kitabın məzmunu:

1:1-4 Salamlar
1:5-16 Titin Kritdəki vəzifəsi
2:1–3:11 Sağlam təlim və davranış
3:12-15 Xahişlər və xudahafizləşmə

1 Allahın qulu və İsa Məsihin həvarisi, mən Pauldan salam! Allahın seçdiyi insanların iman edib möminliyə uyğun olan həqiqəti dərk etmələri üçün təyin olundum. 2 Allah yolu əbədi həyat ümidinə əsaslanır. Bu ümidi yalan danışmayan Allah zaman başlamazdan əvvəl vəd etmişdi. 3 Xilaskarımız Allah Öz əmrinə görə mənə əmanət edilmiş vəzlə kəlamını vaxtında aşkar etdi. 4 [h]Ümumi imana görə mənə əsl oğul olan Titə Ata Allahdan və Xilaskarımız Məsih İsadan lütf* və sülh olsun!

Titin Kritdəki vəzifəsi

5 Tamamlanmamış işləri sahmana salasan və sənə tapşırdığım kimi hər şəhərdə cəmiyyət ağsaqqalları təyin edəsən deyə səni Kritdə saxladım. 6 [i]Ağsaqqal seçilən şəxs nöqsansız və tək arvadlı olaraq ona sadiq olsun. Övladları imanlı olmalı, mənəviyyatsızlıqda ittiham olunan yaxud itaətsiz olmamalıdır. 7 Çünki cəmiyyət nəzarətçisi Allahın iş idarəçisi olduğuna görə nöqsansız olmalıdır. Dikbaş, hirsli, şərab düşkünü, zorakı, haqsız qazanca həris olmamalı, 8 əksinə qonaqpərvər, yaxşılığı sevən, ağıllı-kamallı, saleh, müqəddəs, nəfsinə hakim olmalıdır. 9 Həm başqalarına sağlam təlimlə nəsihət verməyə, həm də ona qarşı çıxanları təkzib etməyə qadir olsun deyə aldığı təlimə uyğun olan etibarlı kəlamı bərk tutmalıdır.

10 Çünki, xüsusilə, sünnət tərəfdarları arasında bir çox itaətsiz, boşboğaz və saxtakar insanlar var. 11 Onları sakitləşdirmək lazımdır. Çünki onlar haqsız qazanc əldə etmək üçün lazımsız şeyləri öyrədərək bəzi ailələri tamamilə alt-üst edirlər. 12 Onlardan biri – öz peyğəmbərlərindən biri belə demişdir: «Kritlilər daima yalançı, azğın heyvan, tənbəl qarınquludur». 13 Bu şəhadət etibarlıdır. Ona görə də onları sərt bir şəkildə məzəmmət et ki, imanları sağlam olsun, 14 Yəhudi əfsanələrinə və həqiqətdən dönən insanların əmrlərinə qulaq asmasınlar. 15 Paklar üçün hər şey pakdır, ləkəli imansızlar üçünsə pak heç bir şey

*__1:4__ *Lütf* – bəzi əlyazmalarda *lütf, mərhəmət.*

[h]**1:4** 2Kor. 8:23; Qal. 2:3; 2Tim. 4:10 [i]**1:6** 1Tim. 3:2-7

yoxdur. Amma onların həm düşüncəsi,
həm də vicdanı ləkələnmişdir. 16 Onlar
Allahı tanıdıqlarını iqrar edirlər, amma
əməlləri ilə bunu inkar edirlər. İyrənc və
itaətsizdirlər, heç bir yaxşı iş görməyə
yaramazlar.

Sağlam təlimin əhəmiyyəti

2 Sənsə sağlam təlimə uyğun olanı
öyrət. 2 Yaşlı kişilər ayıq, ləyaqətli,
ağıllı-kamallı, imanda, məhəbbətdə
və dözümdə sağlam olsunlar. 3 Yaşlı
qadınlar da eyni şəkildə müqəddəslərə
yaraşan tərzdə davransınlar. Böhtançı,
şərab düşkünü olmasınlar və xeyirli
şeyləri öyrədərək 4 tərbiyə etsinlər ki,
gənc qadınlar ərlərini və uşaqlarını
sevsinlər, 5 ağıllı-kamallı, ismətli, evdar,
xeyirxah, öz ərlərinə tabe olsunlar. O
zaman Allahın kəlamına küfr olunmaz.
6 Gənc oğlanlara da ağıllı-kamallı olmaq
üçün nəsihət ver. 7 Yaxşı işlər görərək
hər şeydə özünü nümunə göstər.
Təlimdə dürüst və ləyaqətli* olaraq
8 tənqid olunmaz sağlam sözlər danış ki,
sənə qarşı çıxanlar bizim haqqımızda
pis bir söz deyə bilməyib utansın.
9 Qulları başa sal ki, hər şeydə öz
ağalarına tabe olsunlar, onları razı
salsınlar. Qoy cavab qaytarmasınlar,
10 oğurluq etməsinlər, amma hər
baxımdan etibarlı olduqlarını
göstərsinlər. Beləliklə, Xilaskarımız
Allahın təlimini hər cəhətdən cazibəli
etsinlər.
11 Çünki Allahın bütün insanlara xilas
gətirən lütfü zühur etdi. 12 Bu lütf bizə
allahsızlığı və dünyəvi ehtirasları rədd
edib, bu dövrdə ağıllı-kamallı, saleh
və möminliyə uyğun bir ömür sürməyi
öyrədir. 13 Bu ərəfədə bəxtiyarlıq
gətirən ümidimizin gerçəkləşməsini,
ulu Allah və Xilaskarımız İsa Məsihin
izzətinin zühurunu gözləyək. 14 [j]O
Özünü bizim üçün fəda etdi ki, bizi
hər cür qanunsuzluqdan satın alsın,
təmizləyib Özünə məxsus və yaxşı işlərə
səy göstərən bir xalq yaratsın. 15 Bunları
tam bir səlahiyyətlə bildir, nəsihət ver
və məzəmmət et. Qoy heç kim sənə
hörmətsizlik etməsin.

İmanlılara yaraşan rəftar

3 İmanlılara xatırlat ki, başçılar və
hakimlərə tabe olub itaət etsinlər.
Hər cür xeyirli iş görməyə hazır olsunlar.
2 Heç kimə şər atmasınlar, davakar
deyil, mülayim olsunlar və bütün
insanlarla həlim davransınlar. 3 Çünki
bir zamanlar biz də ağılsız, itaətsiz,
yolunu azmış, müxtəlif ehtiraslar və
zövqlərə qul olan, kin, paxıllıq içində
yaşayan mənfur və bir-birimizə nifrət
edən adamlar idik. 4 Amma Xilaskarımız
Allah xeyirxahlığını və insana olan
sevgisini açıq göstərdiyi zaman 5 bizim
salehliklə etdiyimiz əməllərlə deyil, Öz
mərhəmətinə görə bizi xilas etdi. Bunu
bizi yumaqla, yəni Müqəddəs Ruhun
bizi yenidən doğuzdurub təzələməsi
ilə etdi. 6 Allah Xilaskarımız İsa Məsih
vasitəsilə üzərimizə bol-bol Müqəddəs
Ruhu tökdü ki, 7 Onun lütfü ilə saleh
sayılıb ümidimiz olan əbədi həyatın
varisi olaq. 8 Bu söz etibarlıdır.
Mən bunların üzərində dayanmağını
istəyirəm ki, Allaha iman etmişlər
xeyirxah işlərlə məşğul olmağa
diqqət yetirsinlər. Bu, insanlar üçün
xeyirli və faydalıdır. 9 Lakin axmaq
mübahisələrdən, nəsil şəcərələrindən,
münaqişələrdən, Qanunla bağlı
dava-dalaşlardan uzaq dur. Çünki
bunlar faydasız və boş şeylərdir.
10 Təfriqəçi adamdan birinci və ikinci
xəbərdarlıqdan sonra əlaqəni kəs.

---

*2:7 *Dürüst və ləyaqətli* – bəzi əlyazmalarda *dürüst, ləyaqətli və əxlaqlı.*

[j]2:14 Çıx. 19:5; Qanun. 4:20; 7:6; 14:2; 1Pet. 2:9

11 Belə adamın yolunu azmış və
günahkar olduğuna əmin ola bilərsən.
O öz-özünü məhkum etmişdir.

Xahişlər və xudahafizləşmə

12 [k]Mən Artema və ya Tixiki yanına
göndərən kimi çalış ki, yanıma,
Nikopolisə gələsən. Çünki qışı
orada keçirməyi qərara almışam.
13 [l]Qanunşünas Zena ilə Apollonu səylə
yola sal, qoy onların heç bir şeyə
ehtiyacı olmasın. 14 Qoy bizimkilər də
təcili ehtiyacları ödəmək üçün xeyirli
işlərlə məşğul olmağı öyrənsinlər ki,
bəhrəsiz qalmasınlar.
15 Yanımdakıların hamısı səni
salamlayır. Bizi sevən imanlılara salam
söylə.
Hamınıza lütf olsun!

---

[k] **3:12** Həv. 20:4; Ef. 6:21-22; Kol. 4:7-8; 2Tim. 4:12
[l] **3:13** Həv. 18:24; 1Kor. 16:12

PAULUN

FİLİMONA MƏKTUBU

GİRİŞ

Filimon Kolosse şəhərinin imanlı cəmiyyətinin mötəbər məsihçisi idi. O, Onisim adlı qulun sahibi idi. Bu qul öz sahibindən qaçıb Paulla tanış olmuşdu. Paul o vaxt zindanda idi. Paulun vasitəsilə Onisim məsihçi oldu. Paul məktubunda Filimondan xahiş edir ki, o, keçmiş qulu ilə barışsın, çünki Paul onu sahibinə geri göndərirdi. Paul Filimona tövsiyə edir ki, Onisimi bağışlasın, çünki o artıq qaçqın bir qul deyil, Məsihdə ona qardaşdır.

Kitabın məzmunu:

1:1-3 Salamlar
1:4-7 Şükür və dua
1:8-22 Paulun Onisim üçün xahişi
1:23-25 Xudahafizləşmə

1 Məsih İsa uğrunda həbs olunan mən Pauldan və Timotey qardaşdan sevimli əməkdaşımız Filimona,
2 [m]bacımız Apfiyaya, birlikdə mübarizə apardığımız Arxipə və Filimonun evində toplaşan imanlılar cəmiyyətinə salam!
3 Atamız Allahdan və Rəbb İsa Məsihdən sizə lütf və sülh olsun!

Şükür və dua

4 Dualarımda səni yada salıram və Allaha daima şükür edirəm. 5 Çünki Rəbb İsaya olan imanını və bütün müqəddəslərə bəslədiyin məhəbbəti eşidirəm. 6 Sən Məsihdə malik olduğumuz hər xeyirli şeyi dərk etdikcə imanını başqaları ilə paylaşmaqda fəal olmağın üçün dua edirəm. 7 Qardaşım, sənin məhəbbətin mənim üçün böyük sevinc və təsəlli qaynağı oldu. Çünki müqəddəslərin ürəyi sənin sayəndə təravətləndi.

Paulun Onisim üçün xahişi

8 Buna görə münasib olanı sənə buyurmağa Məsihdə böyük cəsarətim olsa da, 9 indi Məsih İsa uğrunda həbsdə olan mən – yaşlı Paul sənə məhəbbətlə yalvarıram. 10 [n]Həbsdə ikən ruhani atası olduğum oğlum Onisimlə bağlı səndən bir xahişim var. 11 O bir vaxtlar sənə yararsız idi, amma indi həm sənə, həm də mənə yararlıdır.* 12 Onun özünü, yəni can-ciyərimi sənin yanına göndərirəm.† 13 Müjdə uğrunda həbsdə olduğum müddətdə sənin əvəzinə mənə xidmət etməsi üçün onu yanımda saxlamaq istəyirdim. 14 Amma sənin razılığın olmadan heç bir iş görmək istəmədim. İstədim ki, etdiyin yaxşılıq məcburi deyil, könüllü olsun.

15 Onisimin bir müddət səndən ayrılması bəlkə də bundan ötrü oldu ki, sən onu həmişəlik, 16 artıq qul kimi deyil, quldan üstün, sevimli bir qardaş kimi qəbul edəsən. O, xüsusilə, mənim üçün çox sevimlidir. Lakin həm cismən, həm də Rəbdə olaraq sənin üçün daha artıq sevimli qardaşdır.

17 İndi məni özünə şərik sayırsansa, onu da məni qəbul edəcəyin kimi qəbul et. 18 Əgər sənə hər hansı bir haqsızlıq etmişsə yaxud borcludursa, bunu mənim hesabıma yaz. 19 Mən Paul bunu öz əlimlə yazıram ki, əvəzini mən ödəyəcəyəm. Sənin öz həyatın üçün mənə borclu olduğunu demək istəmirəm. 20 Bəli, qardaş, Rəbdə mənə

---

*1:11 *Onisim* – yunan mətnində *Onisimos* sözü olub *yararlı* deməkdir.
†1:12 *Onun özünü … göndərirəm* – bəzi əlyazmalarda *Onu sənin yanına göndərirəm. Sən də onu, can-ciyərimi qəbul et.*

[m]**1:2** Kol. 4:17 [n]**1:10** Kol. 4:9

bir yardımın olsun. Ürəyimi Məsihdə
tərəvətləndir.
21 İtaətkar olduğuna əmin olaraq bunu
sənə yazıram. Bilirəm ki, istədiklərimi
artıqlaması ilə yerinə yetirəcəksən.
22 Bununla yanaşı, mənə bir qonaq
otağı hazırla. Ümidvaram ki, dualarınız
vasitəsilə sizə bəxş olunacağam.

Xudahafizləşmə

23 [o]Məsih İsada olub mənimlə birgə
həbs olunan Epafra, 24 [p]əməkdaşlarım
Mark, Aristarx, Dima, Luka da sənə
salam göndərir.
25 Rəbb İsa Məsihin lütfü sizin
ruhunuza yar olsun!

---

[o]**1:23** Kol. 1:7; 4:12

[p]**1:24** Həv. 12:12,25; 15:37-39; 19:29; 27:2; Kol. 4:10,14; 2Tim. 4:10-11

İBRANİLƏRƏ MƏKTUB

GİRİŞ

«İbranilərə Məktub» qarşıdurmalarla üzləşən və imanından dönmək təhlükəsində olan məsihçi imanlılara ünvanlanıb. Məktubun müəllifi onları imanda ruhlandırır və hər şeydən öncə göstərir ki, İsa Məsih Allahın izzətinin təzahürü və onun mahiyyətinin tam surətidir. Bunu etməklə o, üç əsas həqiqəti vurğulayır: İsa Məsih Allahın əbədi Oğludur. O çəkdiyi əzablarla Ataya itaətli olmağı öyrəndi. İsa Məsih Allahın Oğlu olaraq Əhdi-Ətiqin peyğəmbərlərindən, xüsusilə də, Musadan da üstündür. İsa Məsih kahinlərdən üstün olaraq Allah tərəfindən əbədi Kahin elan olunmuşdur. İmanlılar İsa Məsihə iman etmək vasitəsilə günahdan, qorxudan və ölümdən qurtulur. İsa Baş Kahin kimi həqiqi xilası təmin edir.

Məktubun müəllifi İsrail tarixində məşhur adamları nümunə gətirərək oxucuları sadiq qalmağa çağırır. O, oxuculara iztirab və təqiblər zamanı İsaya baxıb dözümlü olmağı tövsiyə edir. Məktub məsləhət və xəbərdarlıqla bitir.

Kitabın məzmunu:

1:1-14 Allahın Oğlunun mələklərdən üstünlüyü
2:1-18 İmanlılara öyüd-nəsihət
3:1–4:13 İsanın Musadan üstünlüyü
4:14–7:28 İsa Məsih baş kahinimizdir
8:1-13 Məsihin Əhdinin üstünlüyü
9:1-22 Yeni Əhdin qurbanı köhnəsindən üstündür
9:23–10:39 Son qurban
11:1-40 İman qəhrəmanları
12:1-29 Allahın ata ürəyi barəsində
13:1-25 Öyüd-nəsihətlər

Allahın Oğlu mələklərdən üstündür

1 Allah qədim zamanlarda dəfələrlə
və müxtəlif yollarla əcdadlarımıza
peyğəmbərlər vasitəsilə müraciət
etmişdi. 2 Amma bu axır zamanda O
bizə Oğul vasitəsilə müraciət etdi; Onu
hər şeyin varisi təyin etmişdi və Onun
vasitəsilə kainatı yaratmışdı. 3 Oğul
Allahın izzətinin əksi və mahiyyətinin
tam surətidir. O hər şeyi qüdrətli
kəlamı ilə saxlayır. O, günahlardan
təmizlənməni təmin edəndən sonra
ucalarda möhtəşəm Allahın sağında
oturdu. 4 Mələklərdən nə qədər üstün
adı irs olaraq aldısa, o qədər onlardan
üstün oldu.

5 [q]Axı Allah mələklərin hansına nə
vaxtsa
«Sən Mənim Oğlumsan,
Mən bu gün Sənə Ata oldum»
yaxud
«Mən Ona Ata, O isə Mənə Oğul
olacaq»
demişdir? 6 [r]Yenə də Allah İlk Doğulanı
dünyaya gətirəndə deyir:
«Allahın bütün mələkləri qoy Onun
qarşısında səcdə etsin».
7 [s]Mələklər barəsində isə deyir:
«Öz mələklərini küləklərə,
Öz xidmətçilərini yanar oda
döndərir!»
8 [t]Amma Oğul haqqında bunu deyir:
«Ey Allah, taxtın əbədilik, sonsuzadək
qalır,
Sənin şahlıq əsan insaf əsasıdır.
9 Salehliyi sevib qanunsuzluğa nifrət
etmisən.
Ona görə Allah, Sənin Allahın
Sevinc yağı ilə
Yoldaşlarından çox Səni məsh edib».

---

[q] **1:5** 2Şam. 7:14; 1Saln. 17:13; Zəb. 2:7 [r] **1:6** Zəb. 97:7 [s] **1:7** Zəb. 104:4
[t] **1:8** Zəb. 45:6-7

10 [u]Yenə deyir:
«Ya Rəbb, Sən yerin təməlini əzəldən qurmusan,
Göylər Sənin əllərinin işidir!
11 Onlar yox olacaq, amma Sən qalacaqsan,
Hamısı paltar kimi köhnələcək,
12 Onları geyim kimi bükəcəksən,
Onları paltar kimi dəyişdirəcəksən.
Amma Sən dəyişməzsən,
İllərin tükənməzdir».
13 [v]Lakin Allah mələklərin hansına nə vaxtsa
«Mən düşmənlərini ayaqlarının altına kətil kimi salanadək
Sağımda otur»
demişdir? 14 Bütün mələklər xilası irs olaraq alacaq şəxslərə xidmət etmək üçün göndərilən xidmətçi ruhlar deyilmi?

Diqqətli olaq

2 Buna görə də biz eşitdiklərimizə daha da diqqətli olmalıyıq ki, axın bizi aparmasın. 2 Çünki mələklər vasitəsilə bəyan edilən söz qüvvəyə mindi, hər cür təqsir və itaətsizliyə haqlı cəza verildisə, 3 bu cür böyük xilasa məhəl qoymasaq, biz necə qurtula bilərik? Bu xilas əvvəlcə Rəbb tərəfindən bildirildi və Onu eşidənlər tərəfindən bizə təsdiq olundu. 4 Allah da əlamət, xariqələr, müxtəlif möcüzələr və Öz iradəsinə uyğun olaraq payladığı Müqəddəs Ruhun ənamları ilə şəhadət etdi.
5 Barəsində danışdığımız gələcək dünyanı Allah mələklərə tabe etmədi.
6 [w]Lakin kimsə bir yerdə belə şəhadət etdi:
«İnsan kimdir ki, onun haqqında düşünürsən?
Bəşər oğlu kimdir ki, onun qayğısını çəkirsən?
7 Onu mələklərdən az müddət ərzində aşağı tutdun,
İzzət və əzəmət tacını onun başına qoydun.*
8 Hər şeyi onun ayağının altına qoyub tabe etdin».
Allah hər şeyi insana tabe etdiyinə görə ona tabe olmamış heç nə qoymadı. Lakin indi biz hər şeyin ona tabe olduğunu hələ görmürük. 9 Amma Allahın lütfü ilə hər kəsin uğrunda ölmək üçün mələklərdən az müddət ərzində aşağı tutulmuş Şəxsi, yəni İsanı görürük. Çəkdiyi ölüm əzabına görə Onun başına izzət və əzəmət tacı qoyuldu.
10 Hər şey Allah üçün və Allah vasitəsilə mövcuddur. Bir çox övladı izzətə çatdırmaq üçün onların xilasının Banisini əzablar vasitəsilə kamil etməsi Allaha münasib idi. 11 Çünki təqdis edən Şəxsin və təqdis olunanların hamısının Atası eynidir. Bu səbəbdən İsa onları qardaş çağırmaqdan utanmayıb deyir:
12 [x]«İsmini qardaşlarıma elan edəcəyəm,
Toplantı arasında Sənə həmd söyləyəcəyəm».
13 [y]Yenə də deyir:
«Mən Ona güvənəcəyəm»
və yenə
«Budur, Mən və Allahın Mənə verdiyi övladlar».
14 Bu səbəbdən bu övladlar tərkibcə qan və ətdən yarandıqlarına görə İsa Özü də onların insan təbiətinə şərik oldu ki, ölüm üzərində hakimiyyət sahibi olanı, yəni iblisi Öz ölümü vasitəsilə təsirsiz hala gətirsin 15 və ölüm qorxusuna görə ömürləri boyu

*2:7 *Qoydun* – bəzi əlyazmalarda *qoydun, Əllərinin işləri üzərində onu hökmdar etdin.*

[u]**1:10** Zəb. 102:25-27 [v]**1:13** Zəb. 110:1 [w]**2:6** Zəb. 8:4-6
[x]**2:12** Zəb. 22:22 [y]**2:13** Yeş. 8:17-18

əsarətdə olanların hamısını azad etsin.
16 Şübhəsiz, O, mələklərə deyil, İbrahim
nəslinə yardım edər. 17 Buna görə də
O hər cəhətdən qardaşlarına bənzər
olmalı idi; belə ki Allaha xidmətində
mərhəmətli və sadiq Baş Kahin olub
xalqının günahları üçün kəffarə edə
bilsin. 18 Çünki Özü sınağa çəkilib əzab
çəkdiyi üçün sınağa çəkilənlərə kömək
edə bilər.

İsa Musadan üstündür

3 Bu səbəbə görə, ey səmavi çağırışa
ortaq olan müqəddəs qardaşlar,
əqidəmizin Elçisi və Baş Kahini İsa
haqqında düşünün. 2 [z]İsa Onu təyin
edən Kəsə sadiq qaldı; necə ki Musa da
Allahın bütün evində Ona sadiq qaldı.
3 Evin bənnası evdən daha çox hörmət
qazandığı kimi İsa da Musadan daha
böyük izzətə layiq görüldü. 4 Çünki
hər evin bir bənnası var, hər şeyin
bənnası isə Allahdır. 5 Musa gələcəkdə
deyiləcək sözlərə şəhadət etmək üçün
Allahın bütün evində bir xidmətçi kimi
sadiq qaldı. 6 Amma Məsih Onun evi
üzərində Oğul olaraq sadiqdir. Əgər biz
cəsarətimizi və fəxr etdiyimiz ümidi
qoruyub* saxlasaq, Onun evi bizik.

İmansızlığa qarşı xəbərdarlıq

7 [a]Buna görə Müqəddəs Ruhun dediyi
kimi:
«Bu gün əgər Onun səsini eşitsəniz,
8 Qoy ürəkləriniz üsyan vaxtı olduğu
kimi,
Səhradakı sınaq günündə olduğu kimi
inadkar olmasın.
9 Orada atalarınız Məni sınadılar,
Qırx il əməllərimi görərək Məni
yoxladılar.
10 Buna görə o nəsildən zəhləm getdi.
Dedim: "Onlar həmişə ürəklərində
azır,
Yollarımı tanımırlar".
11 Buna görə qəzəblənib and içmişəm:
"Onlar Mənim rahatlıq diyarıma
girməyəcəklər"».
12 Ey qardaşlar, diqqətli olun ki,
sizlərdən heç birinizdə var olan
Allahdan uzaqlaşan şər və imansız ürək
olmasın. 13 Amma «bu gün» adlanan
hər gün bir-birinizi ürəkləndirin ki,
heç biriniz günahın aldadıcılığı ilə
inadkar olmasın. 14 Çünki əvvəldən
bizdə olan etimadı sonadək möhkəm
saxlasaq, Məsihlə ortaq olarıq. 15 [b]Necə
ki deyilmişdir:
«Bu gün əgər Onun səsini eşitsəniz,
Qoy ürəkləriniz üsyan vaxtı olduğu
kimi inadkar olmasın».
16 [c]Bəs eşidib üsyan edənlər kimdir?
Musanın başçılığı ilə Misirdən çıxanların
hamısı deyilmi? 17 Allah qırx il kimə
qəzəblənirdi? Günaha batmış, meyitləri
çöldə sərilənlərə deyilmi? 18 Bəs O
kimlərə and içdi ki, Onun rahatlıq
diyarına girməyəcəklər? Məgər itaət
etməyənlərə deyil? 19 Beləliklə, görürük
ki, onlar imansızlıqlarına görə oraya
girə bilmədilər.

Allahın rahatlıq diyarı

4 Beləliklə, Allahın rahatlıq diyarına
girmək vədi hələ də qüvvədə
olarkən hər birinizin bundan məhrum
olmasından qorxaq. 2 Çünki Misirdən
çıxanlar kimi biz də Müjdə aldıq.
Amma onların eşitdiyi kəlam onlara
xeyir gətirmədi, çünki bu kəlama qulaq
asanların imanına şərik olmadılar.†

---

*3:6 *Qoruyub* – bəzi əlyazmalarda *sona qədər möhkəm qoruyub.*
†4:2 *Bu kəlama qulaq asanların imanına şərik olmadılar* – bəzi əlyazmalarda *eşidəndə bu kəlamı imanla qovuşdurmadılar.*

[z]**3:2** Say. 12:7 [a]**3:7** Zəb. 95:7-11 [b]**3:15** Zəb. 95:7-8 [c]**3:16** Say. 14:1-35

3 [d]Biz iman etmişlərsə rahatlıq diyarına
girməkdəyik, necə ki Allah demişdir:
«Buna görə qəzəblənib and içmişəm:
“Onlar Mənim rahatlıq diyarıma
girməyəcəklər”».
Halbuki Onun işləri dünya yaranandan
bəri tamamlanmışdır. 4 [e]Çünki bir yerdə
yeddinci gün barəsində belə deyib:
«Allah bütün gördüyü işlərdən ayrılıb
yeddinci gün istirahət etdi». 5 [f]Bu barədə
yenə deyib: «Onlar Mənim rahatlıq
diyarıma girməyəcəklər».
6 Beləliklə, bəzilərinə o rahatlıq
diyarına girmək üçün, şübhəsiz ki,
imkan qalır. Lakin Müjdəni əvvəlcədən
eşidənlər itaətsizliyə görə ora girə
bilmədilər. 7 [g]Bu səbəbə görə Allah xeyli
vaxt keçəndən sonra Davud vasitəsilə
«bu gün» deyərək təkrar müəyyən
bir gün təyin edir, necə ki əvvəlcə
deyilmişdir:
«Bu gün əgər Onun səsini eşitsəniz,
Qoy ürəkləriniz inadkar olmasın».
8 [h]Çünki Yeşua onlara rahatlıq diyarı
versəydi, Allah bundan sonra başqa
bir gün barəsində danışmazdı. 9 Beləcə
Allahın xalqı üçün hələ də bir istirahət
qalır. 10 [i]Allah Öz işlərini qurtarıb
Şənbə günü istirahət etdiyi kimi Onun
rahatlıq diyarına girən də öz işlərini
qurtarıb istirahət etdi. 11 Buna görə də
bu rahatlıq diyarına girməyə çalışaq
ki, heç kəs eyni itaətsizlik nümunəsinə
əməl edib yıxılmasın.
12 Allahın kəlamı canlı və təsirlidir,
hər ikiağızlı qılıncdan da itidir, canla
ruhu, oynaqlarla iliyi bir-birindən
ayıraraq keçir, ürəyin fikir və
niyyətlərini ayırd edir. 13 Allahdan
gizli heç nə yoxdur. Lakin Onun
gözləri qarşısında hər şey çılpaq
və açıq-aşkardır. Biz Ona hesabat
verəcəyik.

İsa Məsih bizim Baş Kahinimizdir

14 Beləliklə, Allahın Oğlu İsa
göylərdən keçən böyük Baş Kahinimiz
olduğuna görə əqidəmizi möhkəm
tutaq. 15 Çünki bizim Baş Kahinimiz
belə deyil ki, zəifliklərimizdə bizim
halımıza acıya bilməsin. Əksinə, hər
cəhətdən bizim kimi sınağa çəkilmiş,
lakin günah etməmişdir. 16 Buna görə
də lütfkar Allahın taxtına cəsarətlə
yaxınlaşaq ki, vaxtında köməyə nail
olmaq üçün mərhəmət alıb lütf tapaq.
5 İnsanlar arasından seçilən hər baş
kahin günahlardan ötrü təqdim
və qurbanlar vermək, Allahla bağlı
olan işlərdə insanları təmsil etmək
üçün təyin edilir. 2 Cahillərlə və yolunu
azmışlarla həlim davrana bilir, çünki
özü də zəifliyə məruzdur. 3 [j]Buna görə
o, xalqın günahları üçün olduğu kimi
öz günahları üçün də qurbanlar təqdim
etməlidir. 4 [k]Heç kəs bu şərəfə öz-özünə
nail olmur, ancaq Harun kimi Allah
tərəfindən çağırılanda nail olur.
5 [l]Eləcə də Məsih də Baş Kahin olmaq
üçün Öz-Özünü izzətləndirmədi, Ona
«Sən Mənim Oğlumsan,
Mən bu gün Sənə Ata oldum»
deyən Allah Onu izzətləndirdi. 6 [m]Digər
yerdə isə O belə deyir:
«Sən Melkisedeq vəzifəli əbədi bir
Kahinsən».
7 [n]Məsih yer üzündə cisimdə olduğu
günlərdə Onu ölümdən qurtarmağa
qadir olan Allaha böyük fəryad və
göz yaşları ilə dua edib yalvardı və
möminliyinə görə eşidildi. 8 O, Oğul
olduğu halda çəkdiyi əzablarla itaətli

---

[d] **4:3** Zəb. 95:11 [e] **4:4** Yar. 2:2 [f] **4:5** Zəb. 95:11 [g] **4:7** Zəb. 95:7-8
[h] **4:8** Qanun. 31:7; Yeşua 22:4 [i] **4:10** Yar. 2:2 [j] **5:3** Lev. 9:7
[k] **5:4** Çıx. 28:1 [l] **5:5** Zəb. 2:7 [m] **5:6** Zəb. 110:4
[n] **5:7** Mat. 26:36-46; Mark 14:32-42; Luka 22:39-46

olmağı öyrəndi. 9 Kamilliyə çatandan
sonra Ona itaət edənlərin hamısı üçün
əbədi xilas qaynağı oldu 10 və Allah
tərəfindən Melkisedeq vəzifəli Baş
Kahin təyin edildi.

Kamilliyə doğru irəliləyək

11 Bu mövzuda deyiləsi sözümüz
çoxdur, amma bunları izah etmək
çətindir. Çünki sizin qulağınız ağır
eşidir. 12 [o]Siz artıq müəllim olmalı
idiniz; amma kimsənin sizə təkrarən
Allahın kəlamının ibtidai təlimlərini
öyrətməsinə hələ də möhtacsınız.
Siz bərk yeməyə yox, südə möhtac
olmusunuz. 13 Südlə bəslənən hər kəs
körpə olduğu üçün salehlik barəsində
olan kəlamda təcrübəsizdir. 14 Bərk
yemək isə yetkinlər, yəni duyğularını
xeyirlə şəri ayırd etməkdən ötrü həssas
edənlər üçündür.

6 Bunun üçün Məsih barəsindəki
ibtidai təlimi geridə buraxıb
kamilliyə doğru irəliləyək. Ölüm gətirən
əməllərdən tövbə edib Allaha iman
etmənin təməlini, 2 vəftizlər, əl qoyub
təqdis etmə, ölülərin dirilməsi və əbədi
məhkəmə haqqındakı təlimin əsasını
yenidən qurmayaq. 3 Allah izin verərsə,
bunlara da əməl edəcəyik.

4 Bir dəfə nurlanmış, səmavi ənamdan
dadmış və Müqəddəs Ruha şərik olmuş,
5 Allahın xoş kəlamını və gələcək dövrün
qüvvələrini dadmış olduqları halda
6 imandan dönənləri yenidən tövbə
edəcək vəziyyətinə gətirmək mümkün
deyil. Çünki özləri Allahın Oğlunu
yenidən çarmıxa çəkib rüsvay edirlər.
7 Dəfələrlə üstünə yağan yağışı içən və
kimlər üçün işlənirsə, onlara faydalı
bitkilər yetişdirən torpaq Allahdan
xeyir-bərəkət alır. 8 Tikan və qanqal
yetişdirən torpaq isə yararsız və lənətə
yaxındır, onun sonu yanmaqdır.

9 Lakin, ey sevimlilər, biz bu cür
danışsaq belə, əminik ki, vəziyyətiniz
daha yaxşıdır və xilasa malik olursunuz.
10 Axı Allah ədalətsiz deyil ki, əməlinizi
və Onun adı ilə müqəddəslərə əvvəldən
və indi də xidmət etməklə göstərdiyiniz
məhəbbəti unutsun. 11 Ümidin
verdiyi tam etimada nail olmaq üçün
axıra qədər hər birinizin eyni səyi
göstərməyinizi arzulayırıq ki, 12 siz
tənbəl olmayasınız, amma vəd olunan
şeyləri iman və səbirlə irs alanlardan
nümunə götürəsiniz.

Allahın vədi

13 [p]Allah İbrahimə vəd verdiyi vaxt
adına and içmək üçün Özündən üstün
birinin olmadığına görə Öz varlığına
and içərək dedi:
14 «Sənə mütləq xeyir-dua
verəcəyəm və nəslini
çoxaldacağam».
15 Beləliklə, İbrahim səbirlə gözləyərək
vədə nail oldu. 16 İnsanlar özlərindən
daha üstün olanın adına and içirlər
və sözlərini təsdiq edən and hər
iddiaya son qoyur. 17 Eləcə də
Allah vədin varislərinə iradəsinin
dəyişməzliyini daha açıq-aşkar etmək
istəyərək Öz vədini andla təsdiqlədi.
18 Belə ki qarşımıza qoyulan ümidə
bağlanmaq üçün Allaha sığınan bizlər
Allahın bunlarda yalan danışması
qeyri-mümkün olduğuna görə iki
dəyişilməz şeydə – Onun vəd və
andında böyük təsəlliyə malik olaq.
19 [q]Can lövbərimiz kimi möhkəm
və sarsılmaz olan bu ümid məbədin
pərdəsinin arxasındakı iç otağa daxil
olur. 20 [r]İsa ilk olaraq bizim uğrumuzda
oraya daxil oldu; O, Melkisedeq vəzifəli
əbədi Baş Kahin olmuşdu.

---

[o]**5:12** 1Kor. 3:2 [p]**6:13** Yar. 22:16-17 [q]**6:19** Lev. 16:1-2 [r]**6:20** Zəb. 110:4

Kahin Melkisedeq

7 [s]Bu Melkisedeq Salem padşahı
və Allah-Taalanın kahini idi.
Padşahları məğlub edib geri qayıdan
İbrahimin pişvazına çıxdı və ona
xeyir-dua verdi. [2] İbrahim də ona
hər şeyin onda bir hissəsini verdi.
Melkisedeq ən əvvəl öz adının mənasına
görə salehlik padşahıdır, sonra isə
Salem padşahı, yəni sülh padşahıdır.
[3] O, atasız, anasız olub nəsil şəcərəsi
yoxdur. Nə günlərinin başlanğıcı, nə
də həyatının sonu var. Lakin Allahın
Oğluna bənzədilmiş əbədi kahin olaraq
qalır.
[4] Baxın bu adam necə böyükdür ki, ulu
babamız İbrahim belə, qənimətlərinin
onda bir hissəsini ona verdi. [5] [t]Levi
oğullarından kahinlik vəzifəsini
alanlar, Qanuna görə xalqdan, yəni
İbrahim nəslindən olduqları halda,
öz qardaşlarından onda bir hissəni
almaq əmrinə malikdirlər. [6] Amma
onların nəslindən olmayan Melkisedeq
İbrahimdən onda bir hissəni aldı və
vədlərə malik olana xeyir-dua verdi.
[7] Şübhəsiz ki, böyük özündən kiçiyə
xeyir-dua verər. [8] Burada onda bir
hissəni ölümlü insanlar alır, orada isə
yaşadığına dair şəhadətə malik olan bir
nəfər alır. [9] Demək olar ki, onda bir
hissəni alan Levi də İbrahim vasitəsilə
onda bir hissəni vermişdi. [10] Çünki
Melkisedeq İbrahimin pişvazına çıxanda
Levi hələ əcdadının belində idi.

Yeni kahinlik nizamı

[11] Beləliklə, əgər kamillik Levililərin
kahinliyi vasitəsilə əldə edilsəydi –
çünki xalq bu kahinliyə əsasən Qanunu
alıb – Harun vəzifəli deyil, Melkisedeq
vəzifəli başqa bir kahinin təyin edilməsi
barədə danışmağa daha nə ehtiyac
vardı? [12] Çünki kahinlik dəyişiləndə
Qanunun da dəyişilməsinə ehtiyac var.
[13] Haqqında bu sözlər deyilən Adam
başqa bir qəbiləyə mənsubdur və bu
qəbilədən heç kəs qurbangahda xidmət
etməmişdir. [14] Axı Rəbbimizin Yəhuda
qəbiləsindən törəməsi məlumdur. Musa
bu qəbilə barəsində kahinlərə aid bir
söz deməmişdi. [15] Melkisedeqə bənzər
başqa bir Kahinin təyin edilməsi bunu
daha da aydın göstərir. [16] O, Qanunun
cismani kahinlik əmrinə görə deyil,
tükənməz həyat qüdrətinə görə Kahin
oldu. [17] [u]Çünki

«Sən Melkisedeq vəzifəli əbədi bir
Kahinsən»

deyə şəhadət olunur. [18] Bundan əvvəlki
əmr zəif və yararsız olduğuna görə ləğv
olunur. [19] Çünki Qanun heç bir şeyi
kamilləşdirməyib. Bunun yerinə bizi
Allaha yaxınlaşdıran daha gözəl ümid
verilir.
[20] Bu kahinlik isə andsız olmadı.
O biri kahinlər andsız kahin oldu.
[21] [v]Lakin İsa Ona

«Rəbb and içdi, qərarını dəyişməz:
"Sən əbədi* bir Kahinsən"»

deyən Allah vasitəsilə andla kahin
oldu. [22] Buna görə İsa daha yaxşı Əhdin
zəmanətçisi oldu.
[23] Bununla belə, həmin kahinlərin
sayı çox idi, çünki ölüm onların
vəzifədə qalmasına mane olurdu.
[24] Lakin İsa əbədi yaşadığı üçün daimi
kahinliyə malikdir. [25] Buna görə O Özü
vasitəsilə Allaha yaxınlaşanları tam
xilas etməyə qadirdir. Çünki O onlar
üçün vəsatətçilik etməkdən ötrü həmişə
yaşayır.

---

*__7:21__ *Əbədi* – bəzi əlyazmalarda *Melkisedeq vəzifəli əbədi.*

[s]**7:1** Yar. 14:17-20 [t]**7:5** Say. 18:21 [u]**7:17** Zəb. 110:4 [v]**7:21** Zəb. 110:4

Yeni Əhdin Baş Kahini

26 Həqiqətən, bizə belə bir Baş Kahinin
olması münasibdir ki, O, müqəddəs,
günahsız, ləkəsiz, günahkarlardan
ayrılmış, göylərdən daha ucalara
qaldırılmış olsun. 27 [w]O başqa baş
kahinlər kimi əvvəlcə öz günahları,
sonra da xalqın günahları üçün hər gün
qurban təqdim etmək məcburiyyətində
deyil. Çünki Özünü qurban verməklə
bunu birdəfəlik etdi. 28 Qanun zəifliklər
olan insanları baş kahin təyin edir.
Lakin Qanundan sonra verilmiş and
sözü əbədi olaraq kamilləşdirilmiş
Oğulu təyin etdi.

8 [x]Deyilənlərin əsası isə budur:
bizim elə bir Baş Kahinimiz var ki,
göylərdəki möhtəşəm Allahın taxtının
sağında oturub. 2 O, Müqəddəs məkanda
və insanın deyil, Rəbbin qurduğu
həqiqi çadırda xidmət edir. 3 Hər baş
kahin təqdim və qurban gətirmək
üçün təyin olunur. Buna görə bizim
də Baş Kahinimizin təqdim etmək
üçün nəyisə olmalıdır. 4 Əgər Özü yer
üzündə olsaydı, əsla Kahin olmazdı.
Çünki Qanuna əsasən təqdim gətirənlər
var. 5 [y]Onlar göylərdəkilərin təsviri və
kölgəsi olan yerdə ibadət edir, necə
ki Musa İbadət çadırını qurmaq üzrə
olanda Allah onu xəbərdar etmişdi:

«Dağda sənə göstərilən nümunəyə
görə bunların hamısını ehtiyatla
düzəlt».

6 Amma indi İsa daha yaxşı vədlər
üzərində qurulmuş daha yaxşı bir
Əhdin Vasitəçisi olduğu qədər üstün bir
xidmətə nail oldu.

7 Əgər ilk Əhd qüsursuz olsaydı, ikinci
Əhdə səbəb axtarılmazdı. 8 [z]Çünki Allah
Öz xalqını təqsirkar çıxararaq deyir:

«Rəbb bəyan edir:
"İsrail xalqı və Yəhuda xalqı ilə
Yeni bir Əhd bağlayacağım günlər
yaxınlaşır.
9 Bu Əhd
Atalarını Misir torpağından çıxartmaq
üçün
Əllərindən tutduğum gün
Onlarla bağladığım əhdə
bənzəməyəcək.
Çünki onlar əhdimə sadiq qalmadılar,
Mən də onlardan üz döndərdim"
Rəbb belə bəyan edir.
10 "O günlərdən sonra
İsrail xalqı ilə
Bağlayacağım Əhd belədir"
Rəbb bəyan edir,
"Qanunlarımı onların zehinlərinə
qoyub
Ürəklərinə yazacağam.
Mən onların Allahı,
Onlar da Mənim xalqım olacaq.
11 Bir kəs öz həmvətənini yaxud
qardaşını
‹Rəbbi tanı› deyib öyrətməyəcək.
Çünki böyükdən kiçiyə qədər hamı
Məni tanıyacaq.
12 Çünki təqsirlərinə qarşı mərhəmətli
olacağam,
Günahlarını daha yada
salmayacağam"».

13 Allah «Yeni Əhd» deməklə
birincisinin köhnə olduğunu göstərir.
Köhnələn və yaşa dolansa çox keçmədən
yox olur.

Yeni Əhdin qurbanı köhnəsindən üstündür

9 Birinci Əhdin də ibadət barəsindəki
qaydaları və dünyəvi Müqəddəs
məkanı var idi. 2 [a]Bir çadır qurulmuşdu.
Müqəddəs yer adlanan ilk bölmədə
çıraqdan, masa və təqdis çörəkləri var

---

[w]**7:27** Lev. 9:7 [x]**8:1** Zəb. 110:1 [y]**8:5** Çıx. 25:40; Həv. 7:44
[z]**8:8** Yer. 31:31-34 [a]**9:2** Çıx. 25:23-40; 26:1-30; 36:8-34; 37:10-24

idi. 3 [b]İkinci pərdə arxasında isə Ən
Müqəddəs yer adlanan bir bölmə var idi.
4 [c]Burada qızıl buxur qurbangahı ilə hər
tərəfdən qızılla örtülmüş Əhd sandığı
var idi. Sandığın içində manna ilə dolu
qızıl qab, Harunun tumurcuqlamış əsası
və Əhd lövhələri var idi. 5 [d]Sandığın
üzərində isə kəffarə qapağına kölgə
salan izzətli keruvlar var idi. Lakin
bunlar barəsində indi ətraflı danışa
bilmirik.

6 [e]Bu şeylər belə qurulduqdan sonra
kahinlər həmişə çadırın ilk bölməsinə
daxil olub ibadət aparırlar. 7 [f]İkinci
bölməsinə isə yalnız baş kahin daxil
ola bilər. O da özü üçün və xalqın
bilmədən işlətdiyi günahlar üçün orada
təqdim etdiyi qurban qanı olmadan o
yerə daxil ola bilməz. 8 Müqəddəs Ruh
bununla göstərir ki, çadırın ilk bölməsi
durduqca Ən Müqəddəs yerə gedən yol
hələ aşkar olmamışdır. 9 Bu çadır indiki
vaxt üçün bir misaldır. Bu səbəbdən
ibadət edənin vicdanını kamilləşdirə
bilməyən təqdimlər və qurbanlar
verilir. 10 Bunlar ancaq yemək, içmək
və cürbəcür yuyunma tərzləri ilə, yəni
hər şeyin nizama salınacağı vaxtadək
qüvvədə olub cismani işlərə məxsus
olan qaydalarla əlaqədardır.

11 Lakin Məsih indi gələn* nemətlərin
Baş Kahini olaraq gəldi. İnsan əli ilə
qurulmayan, yəni bu yaradılışdan
olmayan daha böyük və daha
mükəmməl çadırdan keçib 12 [g]təkələrlə
danaların qanı ilə yox, Öz qanı ilə
Ən Müqəddəs yerə birdəfəlik daxil
oldu; əbədi satınalınmanı təmin etdi.
13 Çünki əgər təkələrlə buğaların qanı
və düyənin külünün murdar olanların
üstünə səpilməsi onları təqdis edib
cismən təmizləyirsə, 14 deməli, əbədi
Ruh vasitəsilə Özünü qüsursuz olaraq
Allaha təqdim etmiş Məsihin qanı var
olan Allaha ibadət edə bilməmiz üçün
vicdanımızı ölüm gətirən əməllərdən nə
qədər çox təmizləyəcək!

15 Buna görə də çağırılmışların vəd
edilən əbədi irsi alması üçün Məsih Yeni
Əhdin Vasitəçisidir. Çünki O, Birinci
Əhd zamanı etdikləri təqsirlərdən
onları satın almaq üçün ölmüşdü.
16 Bir vəsiyyətnamə varsa, vəsiyyət
edənin ölümünü sübut etmək lazımdır.
17 Çünki vəsiyyətnamə yalnız ölümdən
sonra qüvvəyə minir. Vəsiyyət edən sağ
olanda vəsiyyətnamənin heç bir qüvvəsi
yoxdur. 18 Bu səbəbə görə Birinci Əhd
də qan axıdılmadan qüvvəyə minmədi.
19 [h]Musa Qanunun hər əmrini bütün
xalqın önündə bəyan edəndən sonra su,
al rəngli yun və züfa otu ilə dana və
təkələrin† qanını götürüb həm kitabın
özünə, həm də bütün xalqın üzərinə
səpərək dedi:

20 «Budur Allahın sizə əmr etdiyi
Əhdin qanı».

21 [i]Eyni tərzdə çadır və bütün xidmət
əşyalarının üzərinə qan səpdi. 22 [j]Demək
olar ki, Qanuna görə hər bir şey
qanla təmizlənir və qan axıdılmadan
bağışlanma olmur.

Son qurban

23 Beləliklə, göylərdəkilərin
təsvirlərini bu qurbanlarla,

*9:11 *İndi gələn* – bəzi əlyazmalarda *gələcək.*
†9:19 *Dana və təkələrin* – bəzi əlyazmalarda *danaların.*

[b]9:3 Çıx. 26:31,33
[c]9:4 Çıx. 16:33; 25:10-16; 30:1-6; 37:25-28; Say. 17:8-10; Qanun. 10:3-5
[d]9:5 Çıx. 25:17-22; 37:6-9 [e]9:6 Say. 18:2-6 [f]9:7 Lev. 16:1-34
[g]9:12 Lev. 16:15-16; Say. 19:9,17-19 [h]9:19 Çıx. 24:6-8 [i]9:21 Lev. 8:15
[j]9:22 Lev. 17:11

göylərdəkiləri isə bunlardan daha
yaxşı qurbanlarla təmizləmək lazım
idi. 24 Məsih əsl Müqəddəs məkanın
nümunəsi olub insan əli ilə qurulan
Müqəddəs məkana deyil, göyün özünə
daxil oldu ki, indi bizim üçün Allahın
hüzurunda zahir olsun. 25 Baş kahin hər
il özünün olmayan qanla Ən Müqəddəs
yerə girər. Amma Məsih Özünü dəfələrlə
təqdim etmək üçün göyə girmədi. 26 Elə
olsaydı, O, dünya yaranandan bəri
dəfələrlə əzab çəkməli olardı. İndi isə
dövrlərin sonunda, O Özünü qurban
verməklə günahı aradan qaldırmaq
üçün bir dəfə zühur etdi. 27 [k]Necə
müəyyən edilmişdir ki, insanlar bir dəfə
ölüb ondan sonra mühakimə olunsunlar,
28 eləcə də Məsih bir çoxlarının günahını
Öz üzərinə götürmək üçün bir dəfə
təqdim edilmişdir və ikinci dəfə günahın
öhdəsindən gəlmək üçün deyil, xilas
gətirmək üçün Onu gözləyənlərə zühur
edəcək.

10 Qanunda gələcək nemətlərin
əsli deyil, kölgəsi var. Buna görə
də Qanun ildən-ilə daimi bir surətdə
təqdim olunan eyni qurbanlar vasitəsilə
Allaha yaxınlaşanları əsla kamil edə
bilməz. 2 Əks təqdirdə, bu qurbanların
təqdim olunmasına son qoyulardı.
Çünki ibadət edənlər birdəfəlik
təmizlənəndən sonra artıq günahlarına
görə vicdan əzabı çəkməzdilər. 3 Amma
bu qurbanlar vasitəsilə insanlar ildən-ilə
günahlarını yadlarına salır. 4 Çünki
buğaların və təkələrin qanı ilə günahları
aradan qaldırmaq qeyri-mümkündür.
5 [l]Buna görə Məsih dünyaya gələndə
deyir:
«Qurban və təqdim istəmədin,
Amma Mənə bir bədən hazırladın.
6 Yandırma qurbanı, günah
qurbanından xoşun gəlmədi.
7 O zaman dedim: "Budur, gəlmişəm,
Kitab tumarında Mənim haqqımda
yazılıb.
Ay Allah, Sənin iradəni yerinə
yetirim"».
8 Məsih əvvəl dedi:
«Qurban, təqdim, yandırma qurbanı
və günah qurbanı istəmədin,
Bunlardan xoşun gəlmədi».
Bunlar hamısı Qanuna görə təqdim
olunur. 9 Sonra dedi: «Budur, gəlmişəm,
Sənin iradəni* yerinə yetirim». Yəni,
Məsih ikinci Əhdi qüvvəyə mindirmək
üçün birincisini ləğv edir. 10 Bu iradəyə
əsasən biz İsa Məsihin bədəninin
birdəfəlik təqdim olunmasına görə
təqdis olunduq.
11 Hər bir kahin hər gün xidmətini
icra edərək əsla günahları aradan
qaldıra bilməyən eyni qurbanları
dəfələrlə təqdim edir. 12 [m]Amma Məsih
günahlar üçün yalnız bir qurban
təqdim edəndən sonra əbədi olaraq
Allahın sağında oturdu. 13 O vaxtdan
bəri O, düşmənlərinin Onun ayaqları
altına kətil kimi salınmasını gözləyir.
14 Çünki O yalnız bir təqdim vasitəsilə
təqdis olunmaqda olanları həmişəlik
kamilləşdirdi.
15 Müqəddəs Ruh da bu haqda bizə
şəhadət edir. Çünki əvvəl deyir:
16 [n]«"O günlərdən sonra
Onlarla bağlayacağım Əhd belədir"
Rəbb bəyan edir,
"Qanunlarımı onların ürəyinə qoyub
Zehinlərinə yazacağam"».
17 Sonra deyir:
«Günahlarını və qanunsuzluqlarını
yada salmayacağam».

---

*10:9 *Sənin iradəni* – bəzi əlyazmalarda *Ay Allah, Sənin iradəni.*

[k]**9:27** Yeş. 53:12 [l]**10:5** Zəb. 40:6-8 [m]**10:12** Zəb. 110:1
[n]**10:16** Yer. 31:33-34; İbr. 8:10-12

18 Günahların bağışlanması olanda isə
artıq günah üçün təqdim etmə yoxdur.

Nəsihət və xəbərdarlıq

19 Beləliklə, ey qardaşlar, İsanın qanı
sayəsində Ən Müqəddəs yerə daxil
olmağa cəsarətimiz çatır. 20 O bizə
pərdədən, yəni Öz cismindən keçən
yeni və canlı bir yol açmışdır. 21 Həm
də O, Allahın evi üçün cavabdeh olan
böyük bir Kahinimizdir. 22 [o]Ona görə
ürəklərimiz pis vicdandan paklanmış,
bədənlərimiz də təmiz su ilə yuyulmuş
halda imanın tam etimadı ilə, səmimi
qəlblə Allaha yaxınlaşaq. 23 Ümid verən
əqidədən möhkəm tutaq, çünki vəd
verən Allah sadiqdir. 24 Bir-birimizi
məhəbbətə və xeyirxah əməllər etmək
üçün necə həvəsləndirmək haqqında
fikirləşək. 25 Bəzi adamların vərdiş
etdiyi kimi birgə yığışmağımızı tərk
etməyək. Lakin qiyamət gününün*
yaxınlaşdığını gördükcə bir-birimizi
daha çox ruhlandıraq.
26 [p]Həqiqəti dərk edib qəbul edəndən
sonra qəsdən günah etməkdə davam
etsək, artıq günah üçün qurban qalmır.
27 Lakin mühakimənin və Allahın
düşmənlərini yandırıb-yaxan şiddətli
alovun dəhşətlə gözlənməsi qalır.
28 [q]Musanın Qanununu heç sayan adam
iki yaxud üç şahidin sözü ilə rəhm
edilmədən öldürülür. 29 [r]Əgər bir nəfər
Allahın Oğlunu tapdalayaraq təqdis
edildiyi Əhdin qanını adi bir şey sayıb
Allahın lütfkar Ruhunu təhqir edərsə,
sizcə bundan nə qədər ağır cəzaya layiq
sayılacaq? 30 [s]Çünki
«Qisas Mənimdir, əvəzini Mən
verəcəyəm»
və yenə də
«Rəbb Öz xalqını mühakimə edəcək»
deyəni tanıyırıq. 31 Var olan Allahın
əlinə düşmək dəhşətdir!
32 Siz əvvəlki günləri xatırlayın. O
vaxt Allahın nuru üzərinizə saçandan
sonra əzablı, böyük mübarizəyə tab
gətirdiniz. 33 Bəzən təhqir və əziyyətlərə
uğrayıb tamaşaya qoyuldunuz,
bəzənsə eyni rəftara məruz qalanların
dərdinə şərik oldunuz. 34 Həm də siz
məhbusların çəkdiyi əzablara şərik
oldunuz, özünüzün daha yaxşı və daimi
malınız olduğunu bilərək əmlakınızın
talan edilməsini sevinclə qəbul etdiniz.
35 Buna görə cəsarətinizi itirməyin, bu
cəsarətə görə mükafatınız böyükdür.
36 Çünki Allahın iradəsini yerinə yetirib
vəd olunan şeyi almaq üçün sizin tab
gətirməyə ehtiyacınız var. 37 [t]Çünki
«Bir az müddətdən sonra
Gələn gələcək, gecikməyəcək.
38 Amma saleh adamım imanla
yaşayacaq.
Əgər geri çəkilsə, ondan razı
qalmayacağam».
39 Bizsə geri çəkilib həlak olanlardan
deyilik; iman edib canlarının xilasına
nail olanlardanıq.

İman qəhrəmanları

11 İman ümid edilənlərə etibar
etmək, görünməyən şeylərə əmin
olmaqdır. 2 Əcdadlarımız imanları üçün
müsbət şəhadət aldılar.
3 [u]İman vasitəsilə dərk edirik ki,
kainat Allahın kəlamı ilə yarandı, beləcə
də görünən şeylər görünməyənlərdən
törədi.

---

*10:25 *Qiyamət günü* – hərfi tərcümədə *gün.*

[o]**10:22** Lev. 8:30; Yez. 36:25 [p]**10:26** Yeş. 26:11
[q]**10:28** Qanun. 17:6; 19:15 [r]**10:29** Çıx. 24:8
[s]**10:30** Qanun. 32:35-36; Rom. 12:19
[t]**10:37** Hab. 2:3-4; Rom. 1:17; Qal. 3:11 [u]**11:3** Yar. 1:1; Zəb. 33:6,9; Yəh. 1:3

4 [v]İman vasitəsilə Habil Allaha
Qabildən daha yaxşı bir qurban
təqdim etdi. Bunun vasitəsilə saleh
olduğu təsdiq edildi, çünki Allah onun
təqdimləri barədə şəhadət etdi. Habil
ölmüş olduğu halda iman vasitəsilə hələ
də danışır.
5 [w]Xanok ölümü görməsin deyə
iman vasitəsilə dünyadan götürüldü.
Onu tapa bilmədilər, çünki Allah onu
dünyadan götürmüşdü. Götürülməzdən
əvvəl o, şəhadət almışdı ki, Allahı
razı salıb. 6 İman olmadan Allahı razı
salmaq qeyri-mümkündür. Çünki Allaha
yaxınlaşan şəxs inanmalıdır ki, O var və
Onu axtaranlara mükafat verir.
7 [x]Nuh hələ gözə görünməyən şeylər
barəsində edilən xəbərdarlığa iman
vasitəsilə ciddi yanaşaraq öz ev əhlinin
xilası üçün gəmi düzəltdi. O, iman
vasitəsilə dünyanı məhkum etdi və
imana görə olan salehliyi irs olaraq aldı.
8 [y]İbrahim çağırılanda iman vasitəsilə
itaətli olub irs alacağı torpağa getdi. O
hara getdiyini bilməyərək yola çıxdı.
9 [z]İman vasitəsilə vəd edilmiş ölkədə bir
qərib kimi məskunlaşdı. O eyni vədin
həmvarisləri olan İshaq və Yaqubla
birlikdə çadırlarda yaşadı. 10 Çünki
İbrahim memarı və banisi Allah olan
bünövrəli şəhəri gözləyirdi. 11 [a]Sara özü
sonsuz və yaşı ötmüş olduğu halda iman
vasitəsilə nəsil yaratmaq üçün güc aldı,
çünki vəd Edəni sadiq saydı. 12 [b]Buna
görə də bir kişidən, artıq ölüdən
fərqlənməyən birindən sayca göydəki
ulduzlar qədər, dəniz kənarındakı qum
kimi saysız-hesabsız nəsil törədi.
13 [c]Bunların hamısı imanlı olaraq
öldü. Vəd edilən şeylərə nail olmadılar,
amma bunları uzaqdan görüb
salamladılar və özlərinin yer üzündə
yad və qərib olduqlarını iqrar etdilər.
14 Axı belə sözləri deyənlər bir vətən
axtardıqlarını göstərirlər. 15 Əgər onlar
çıxdıqları ölkə barəsində düşünsəydilər,
qayıtmağa imkanları olardı. 16 Amma
əslində onlar daha yaxşı bir ölkəni,
yəni səmavi vətəni arzu edirdilər.
Buna görə Allah Özünü onların Allahı
adlandırmaqdan utanmır, çünki O onlar
üçün şəhər hazırlamışdır.
17 [d]İbrahim sınağa çəkildiyi vaxt iman
vasitəsilə İshaqı qurban olaraq təqdim
etdi. Vədlərə nail olmuş İbrahim bircə
oğlunu qurban vermək niyyətində idi.
18 [e]Halbuki ona «İshaqdan törəyənlər
sənin nəslin adlanacaq» deyilmişdi. 19 O,
Allahı onu ölülər arasından diriltməyə
qadir saydı. Buna görə də məcazi
mənada İshaqı ölümdən geri aldı.
20 [f]İman vasitəsilə İshaq gələcək
hadisələrlə əlaqədar Yaquba və Esava
xeyir-dua verdi.
21 [g]Yaqub ölərkən Yusifin hər iki
oğluna iman vasitəsilə xeyir-dua verdi
və öz dəyənəyinin başına söykənib
Allaha səcdə etdi.
22 [h]Yusif də ölərkən İsrail övladlarının
Misirdən çıxacaqları haqqında iman
vasitəsilə söz söyləyərək öz sümükləri
barəsində əmr verdi.
23 [i]Musa doğulanda anası və
atası iman vasitəsilə onu üç ay
gizlətdilər. Çünki onlar uşağın gözəl
olduğunu görüb padşahın fərmanından
qorxmadılar.

---

[v]**11:4** Yar. 4:3-10 [w]**11:5** Yar. 5:21-24 [x]**11:7** Yar. 6:13-22
[y]**11:8** Yar. 12:1-5 [z]**11:9** Yar. 35:27 [a]**11:11** Yar. 18:11-14; 21:2
[b]**11:12** Yar. 15:5; 22:17; 32:12 [c]**11:13** Yar. 23:4; 1Saln. 29:15; Zəb. 39:12
[d]**11:17** Yar. 22:1-14 [e]**11:18** Yar. 21:12; Rom. 9:7
[f]**11:20** Yar. 27:27-29,39-40 [g]**11:21** Yar. 47:31–48:1-20
[h]**11:22** Yar. 50:24-25; Çıx. 13:19 [i]**11:23** Çıx. 1:22; 2:2

24 [j]Musa böyüyəndən sonra firon
qızının oğlu adlanmaqdan iman
vasitəsilə imtina etdi. 25 Günahdan
müvəqqəti zövq almaqdansa Allahın
xalqı ilə birlikdə əzab çəkməyi
üstün tutdu. 26 Məsih naminə çəkdiyi
təhqiri Misir xəzinələrindən daha
böyük var-dövlət saydı, çünki gözünü
alacağı mükafata dikmişdi. 27 [k]İman
vasitəsilə padşahın qəzəbindən
qorxmayıb Misirdən çıxdı, çünki o,
gözə Görünməyəni sanki görmüş
kimi möhkəm dayandı. 28 [l]İman
vasitəsilə Musa Pasxa qurbanının
kəsilməsini və onun qanının çilənməsini
həyata keçirtdi ki, ilk doğulanları
öldürən məhvedici mələk İsraillilərə
toxunmasın.
29 [m]İman vasitəsilə İsraillilər Qırmızı
dənizi qurudan keçən kimi keçdilər.
Misirlilər də bunu etməyə cəhd etdilər,
amma boğuldular. 30 [n]İman vasitəsilə
İsraillilər yeddi gün Yerixonun ətrafında
gəzdikdən sonra onun divarları yıxıldı.
31 İman vasitəsilə fahişə Raxav casusları
dostcasına qarşıladığı üçün itaətli
olmayanlarla birgə həlak olmadı.
32 [o]Daha nə deyə bilərəm? Gideon,
Baraq, Şimşon, İftah, Davud, Şamuel
və başqa peyğəmbərlər barəsində
danışsam, vaxtım çatmaz. 33 [p]İman
vasitəsilə onlar padşahlıqları məğlub
etdilər, ədaləti icra etdilər, vədlərə
nail oldular, aslanların ağızlarını
bağladılar, 34 [q]şiddətli alovu
söndürdülər, qılıncın ağzından
qaçdılar, zəiflikdən qüvvətləndilər,
döyüşdə güclü oldular, yadellilərin
ordularını qovdular. 35 [r]Qadınlar
öz ölülərini dirilmiş geri aldılar.
Bəziləri işgəncə çəkəndə qurtulmaqdan
imtina etdilər ki, dirilib daha yaxşı
həyata nail olsunlar; 36 [s]digərləri
də təhqir olunub döyüldülər,
habelə zəncirlərə və həbslərə
məruz qaldılar; 37 [t]onlar daşqalaq
edildilər, mişarlanıb bölündülər,*
qılıncdan keçirilib öldürüldülər. Bəziləri
isə qoyun dərisinə və keçi gönünə
bürünərək gəzib-dolaşdılar, yoxsulluğa,
əzab-əziyyətə məruz qaldılar. 38 Dünya
onlara layiq deyildi. Onlar səhralarda,
dağlarda, mağaralarda və yeraltı
oyuqlarda dolaşıb gəzdilər.
39 Onların hamısı iman vasitəsilə
müsbət şəhadət aldı, amma vəd edilənə
nail olmadı. 40 Çünki Allah bizim üçün
daha yaxşı şey hazırlamışdır ki, onlar
bizsiz kamilliyə çatmasın.

Allah tərbiyə verən Atadır

12 Buna görə bu qədər böyük
şahidlər buludu ilə əhatə
olunduğumuz üçün biz hər bir yükü
və bizi asanlıqla çaşdıran günahı tərk
edib qarşımızdakı yarışda dözümlə
qaçaq. 2 Gözümüzü imanımızın
Banisi və Kamilləşdiricisi olan İsaya
dikək. O, qarşısına qoyulan sevincə
görə rüsvayçılığı heç sayıb çarmıxa
çəkilməyə tab gətirdi və Allahın taxtının
sağında oturdu. 3 Günahkarlardan Ona
qarşı olan bu qədər düşmənçiliyə dözən
Şəxs barəsində düşünün ki, yorulub
ruhdan düşməyəsiniz.

---

*__11:37__ *Bölündülər* – bəzi əlyazmalarda *bölündülər, sınağa çəkildilər.*

[j]**11:24** Çıx. 2:10-12
[k]**11:27** Çıx. 2:15 [l]**11:28** Çıx. 12:21-30 [m]**11:29** Çıx. 14:21-31 [n]**11:30** Yeşua 2:1-21; 6:12-25 [o]**11:32** Hak. 4:6–5:31; 6:11–8:32; 11:1–12:7; 13:2–16:31; 1Şam. 1:1–28:3; 16:11; 1Pad. 2:11 [p]**11:33** Dan. 6:1-27 [q]**11:34** Dan. 3:1-30
[r]**11:35** 1Pad. 17:17-24; 2Pad. 4:25-37 [s]**11:36** 1Pad. 22:26-27; 2Saln. 18:25-26; Yer. 20:2; 37:15; 38:6 [t]**11:37** 2Saln. 24:21

4 Günaha qarşı etdiyiniz mübarizədə
hələ qan töküləcək qədər möhkəm
durmamısınız. 5 [u]Sizə oğul deyib verilən
bu nəsihəti unutdunuz:
«Oğlum, Rəbbin verdiyi tərbiyəyə xor
baxma,
Onun məzəmmətindən ruhdan düşmə.
6 Çünki Rəbb sevdiyini
tərbiyələndirər,
Qəbul etdiyi hər oğulu döyər».
7 Tərbiyəyə tab gətirin. Allah sizinlə
övladları kimi rəftar edir. Elə bir oğul
varmı atası onu tərbiyələndirməsin?
8 Hər kəs üçün ümumi olan tərbiyədən
məhrum olsanız, deməli, siz oğul yox,
qeyri-qanuni övladsınız. 9 Həm də əgər
bizi tərbiyələndirən cismani atalarımıza
hörmət ediriksə, ruhani Ataya daha
çox tabe olaraq yaşamalı deyilikmi?
10 Atalarımız bizi qısa bir müddətə öz
dərk etdikləri kimi tərbiyələndirdilər.
Amma Allah Onun müqəddəsliyinə
ortaq olaq deyə bizi xeyrimiz üçün
tərbiyələndirir. 11 Hər tərbiyə isə indiki
vaxt sevinc deyil, kədər verən bir şey
kimi görünür, amma sonradan bu
yolda yetişdirilənlərə salehliyin dinclik
səmərəsini hasil edir.
12 [v]Buna görə yorğun əllərinizi
qaldırın və zəiflənmiş dizlərinizi
gücləndirin. 13 Ayaqlarınız üçün düz
yollar seçin ki, axsaq bədən üzvləriniz
yerindən çıxmasın, əksinə sağalsın.

Allahın lütfünü rədd etməyin

14 Hamı ilə birlikdə sülh içində
yaşamağa və müqəddəs olmağa can
atın, çünki müqəddəsliyə nail olmadan
heç kim Rəbbi görməyəcək. 15 [w]Diqqət
edin ki, heç kim Allahın lütfündən
məhrum olmasın, aranızda bir acı kök
böyüyüb əziyyət verməsin və bununla
bir çoxlarını murdar etməsin. 16 [x]Qoy
heç kim əxlaqsız və yaxud Esav kimi
allahsız olmasın. O, bir qab xörəyə
görə öz ilk oğulluq haqqını satdı.
17 [y]Bilirsiniz ki, bundan sonra da o,
xeyir-duanı irs olaraq almaq istəyirdi,
lakin rədd olundu. Xeyir-duanı göz
yaşları ilə axtardısa da, atasının fikrini
dəyişməyə qadir olmadı.
18 [z]Siz toxunula bilən, odla yanan bir
şeyə,* qaranlığa, zülmətə, qasırğaya,
19 şeypur gurultusuna və kəlam söyləyən
səsə yaxınlaşmadınız; o səsi eşidənlər
onlara daha bir söz deyilməsin deyə
yalvardılar. 20 [a]Çünki «əgər dağa bir
heyvan belə, toxunsa, o, daşqalaq
edilsin» əmrinə tab gətirə bilməzdilər.
21 [b]Bu mənzərə o qədər qorxunc idi ki,
Musa «mən qorxu və lərzə içindəyəm»
dedi. 22 [c]Lakin siz Sion dağına, var olan
Allahın şəhərinə – səmavi Yerusəlimə,
saysız-hesabsız mələklərə, 23 göylərdə
adları qeyd edilmiş ilk doğulanların
ümumi məclisinə və cəmiyyətinə,
hamının Hakimi olan Allaha, kamala
çatmış salehlərin ruhlarına, 24 Yeni
Əhdin Vasitəçisi olan İsaya və Habilin
qanından daha üstün söz deyən səpilmiş
qana yaxınlaşdınız.
25 [d]Bunu Deyəni rədd etməyəsiniz
deyə diqqətli olun. Çünki əgər yer
üzündə xəbərdarlıq edəni rədd
edənlər cəzadan qaça bilmədilərsə, biz
göylərdən xəbərdarlıq Edəndən
üz döndərsək, cəzadan qaça

---

*12:18 *Bir şeyə* – bəzi əlyazmalarda *dağa.*

[u]**12:5** Əyy. 5:17; Sül. 3:11-12; Vəhy 3:19 [v]**12:12** Sül. 4:26; Yeş. 35:3
[w]**12:15** Qanun. 29:18 [x]**12:16** Yar. 25:29-34 [y]**12:17** Yar. 27:30-40
[z]**12:18** Çıx. 19:16-22; 20:18-21; Qanun. 4:11-12; 5:22-27
[a]**12:20** Çıx. 19:12-13 [b]**12:21** Qanun. 9:19 [c]**12:22** Yar. 4:10
[d]**12:25** Çıx. 20:22

bilməyəcəyimiz daha çox yəqindir. 26 [e]O
vaxt Onun səsi yeri sarsıtdı. Amma indi
«Mən bir dəfə də yalnız yeri yox,
göyü də lərzəyə gətirəcəyəm»
deyə vəd etmişdir. 27 «Bir dəfə də»
sözü bunu göstərir: sarsıla bilən, yəni
yaradılmış şeylər aradan qaldırılacaq ki,
sarsıla bilməyənlər daim var olsunlar.
28 Buna görə sarsılmaz Padşahlığa nail
olduğumuz üçün minnətdar olaq; belə ki
möminlik və ehtiramla Allaha məqbul
tərzdə Ona ibadət edək. 29 [f]Çünki
Allahımız yandırıb-yaxan alovdur.

Öyüd-nəsihətlər

13 Aranızda daimi qardaşlıq sevgisi
olsun. 2 [g]Qonaqpərvər olmağı da
unutmayın, çünki belə davranan bəziləri
bilmədən mələklərə qonaqpərvərlik
göstərmişlər. 3 Özünüzü həbsdə
olanların yerinə qoyaraq onları yada
salın. Əzab-əziyyət içində olanları da elə
xatırlayın ki, sanki özünüz onlarla birgə
əzab-əziyyət çəkirsiniz. 4 Qoy hər kəs
nikaha hörmətlə yanaşsın. Qoy ər-arvad
yatağı murdarlanmasın. Çünki Allah
əxlaqsızları və zinakarları mühakimə
edəcək. 5 [h]Həyatınız pulpərəstlikdən
azad olsun, nəyiniz varsa, ona qane
olun. Çünki Allah Özü demişdir: «Səni
heç vaxt atmaram, səni heç vaxt tərk
etmərəm». 6 [i]Buna görə biz arxayınlıqla
deyirik:
«Rəbb mənə yardım edəndir, heç
qorxmaram.
İnsan mənə nə edə bilər?»
7 Allahın kəlamını sizə danışan
rəhbərlərinizi yada salın. Onların həyat
tərzinin nəticəsinə baxıb imanlarını
nümunə olaraq götürün. 8 İsa Məsih
dünən, bu gün və əbədi olaraq eynidir.
9 Müxtəlif və yad təlimlərlə yoldan
azmayın, çünki ürək yeməklərlə deyil,
Allahın lütfü ilə qüvvətlənsə, yaxşıdır.
Bu cür yemək qaydalarına riayət
edənlər bir xeyir görmədilər. 10 Bizim
bir qurbangahımız var ki, ibadət
çadırında xidmət edənlərin ondan
yeməyə icazəsi yoxdur. 11 [j]Çünki baş
kahin günah qurbanı olan heyvanların
qanını Müqəddəs yerə gətirir, cəsədləri
isə düşərgənin kənarında yandırılır.
12 Bunun kimi İsa da Öz qanı ilə xalqı
təqdis etmək üçün şəhər darvazasının
kənarında əzab çəkdi. 13 Buna görə
Onun gördüyü təhqiri daşıyaraq
düşərgənin kənarına çıxıb Onun yanına
gedək. 14 Çünki burada daimi şəhərimiz
yoxdur, amma biz gələcək şəhəri
axtarırıq. 15 Onda İsa vasitəsilə həmişə
Allaha həmd qurbanını, yəni Onun
adını iqrar edənlərin dilinin bəhrəsi
olan sözləri təqdim edək. 16 Xeyirxahlıq
etməyi və varınızı başqaları ilə
bölüşməyi unutmayın, çünki Allah bu
cür qurbanlardan razı qalır.
17 Öz rəhbərlərinizə itaətli olun və
onlara tabe olun. Axı onlar hər vaxt
həyatınız üçün qayğı çəkir, çünki
hesabat verəcəklər. Qoy onlar bunu
sevinclə etsinlər, ah-zarla etməsinlər,
çünki bu sizə fayda verməz.
18 Bizim üçün dua edin. Biz əminik
ki, vicdanımız təmizdir və hər cəhətcə
yaxşı həyat tərzi sürməyə can atırıq.
19 Yanınıza tez qayıtmağım üçün dua
etmənizi xüsusilə xahiş edirəm.
20 Sülh qaynağı olan Allah –
qoyunların böyük Çobanı olan Rəbbimiz
İsanı əbədi Əhdin qanı ilə ölülər
arasından dirildən Allah 21 sizi hər cür
yaxşı şeylə təmin etsin ki, İsa Məsih
vasitəsilə Özünə xoş olanı bizdə* icra
etsin və siz Onun iradəsini həyata

*13:21 *Bizdə* – bəzi əlyazmalarda *sizdə*.

[e]12:26 Haq. 2:6 [f]12:29 Qanun. 4:24; 9:3 [g]13:2 Yar. 18:1-8; 19:1-3
[h]13:5 Qanun. 31:6,8; Yeşua 1:5 [i]13:6 Zəb. 118:6 [j]13:11 Lev. 16:27

keçirəsiniz. İsa Məsihə əbədi izzət
olsun! Amin.
22 Qardaşlar, sizdən xahiş edirəm,
bu öyüd-nəsihət sözünü dözümlə
qəbul edin, çünki sizə qısaca yazdım.
23 Xəbəriniz olsun ki, qardaşımız
Timotey azadlığa buraxılmışdır. Əgər
tezliklə yanıma gələrsə, onunla birlikdə
sizi görəcəyəm.
24 Bütün rəhbərlərinizi və
müqəddəslərin hamısını salamlayın.
İtaliyadan olanlar sizə salam
göndərirlər.
25 Hamınıza lütf olsun!

YAQUBUN MƏKTUBU

GİRİŞ

«Yaqubun Məktubu» «millətlər arasına səpələnmiş on iki qəbiləyə» ünvanlanıb. Bu məktubda təcrübi təlimatlar və öyüd-nəsihətlər var. Müəllif məsihçi münasibətlərini və davranışını öyrətmək üçün məcazi mənada bir çox ifadələr işlədir. Yaqub məsihçi nöqteyi-nəzərindən bir çox mövzulara toxunur. O öz məktubunda var-dövlət, yoxsulluq, sınaqlar, yaxşı davranış, iman və əməllər, dilimizdəki sözlər, müdriklik, münaqişələr, qürur və itaətkarlıq, başqalarını mühakimə etmək, öyünmək, səbir və digər vacib mövzulardan yazır. Yaqubun məktubu məsihçilərə imanla bərabər əməlləri də tətbiq etməyi vurğulayır.

Kitabın məzmunu:

1:1-18 Sınaqlara dözmək
1:19-27 Eşitmək və icra etmək haqqında
2:1-13 Var-dövlət və yoxsulluq
2:14-26 İman və əməllər
3:1-12 Dil haqqında
3:13-18 Həqiqi müdriklik
4:1-17 Allaha tabe olmaq haqqında
5:1-6 Varlılara xəbərdarlıq
5:7-20 Səbir haqqında

1 [k]Allahın və Rəbb İsa Məsihin qulu mən Yaqubdan millətlər arasına səpələnmiş on iki qəbiləyə* salam!

Sınaqlara dözmək

2 Ey qardaşlarım, müxtəlif sınaqlarla
üzləşəndə bunu böyük bir sevinc hesab
edin. 3 Çünki bilirsiniz ki, imanınızın
sınaqdan keçməsi dözüm yaradır.
4 Dözüm də öz əməlini kamil etsin ki,
siz yetkin və kamil adamlar olasınız,
heç bir çatışmazlığınız olmasın.
5 Əgər sizlərdən birinin müdrikliyi
çatışmırsa, hər kəsə səxavətlə və
məzəmmət etmədən verən Allahdan
diləsin və ona veriləcək. 6 Amma qoy
heç şübhə etmədən, imanla diləsin.
Çünki şübhə edən adam küləyin
qaldırdığı və hərəkətə gətirdiyi dəniz
dalğasına bənzəyir. 7 Qoy belə adam
düşünməsin ki, Rəbdən bir şey alacaq.
8 O qərarsızdır, heç bir yolunda sabit
deyil.
9 [l]Qoy həqir qardaş öz ucalığı ilə fəxr
etsin, 10 varlı qardaşsa öz həqirliyi ilə
fəxr etsin, çünki varlı insan otun çiçəyi
kimi solub gedəcək. 11 Günəş çıxır,
bərk isti olur və otu qurudur. Otun
çiçəyi tökülür və onun zahiri gözəlliyi
itir. Varlı adam da beləcə, işləyə-işləyə
solacaq.
12 Sınağa dözən adam nə bəxtiyardır!
Çünki sınaqdan keçəndən sonra Rəbbin
Onu sevənlərə vəd etdiyi həyat tacını
alacaq. 13 Sınağa düşəndə qoy heç kim
«Allah məni sınağa çəkir» deməsin.
Çünki Allah pisliklə sınağa çəkilmir və
Özü də heç kimi sınağa çəkmir. 14 Lakin
hər kəs öz ehtirası ilə aparılıb yoldan
çıxarılaraq sınağa çəkilir. 15 Sonra
ehtiras boylu qalıb günah doğurur.
Günah da yetişəndə ölüm törədir.
16 Ey sevimli qardaşlarım,
aldanmayın: 17 hər yaxşı bəxşiş və
hər kamil hədiyyə yuxarıdan, Özündə
heç bir dəyişiklik ya dönüklük kölgəsi
olmayan nurlar Atasından† gəlir. 18 O
Öz iradəsinə görə həqiqət kəlamı ilə
doğulmağımıza səbəb oldu ki, biz Onun
yaratdıqlarının bir növ nübarı olaq.

---

*1:1 *On iki qəbiləyə* – yəni imanlılara.
†1:17 *Nurlar Atasından* – yəni nur Olan və səma cisimlərini yaradan Ata Allahdan. Bax: Yar. 1:14-19; 1Yəh. 1:5.

[k]1:1 Mat. 13:55; Mark 6:3; Həv. 15:13; Qal. 1:19 [l]1:9 Yeş. 40:6-7

Eşitmək və icra etmək

19 Beləliklə, ey sevimli qardaşlarım,
qoy hər bir adam eşitməkdə cəld, söz
söyləməkdə təmkinli və qəzəblənməkdə
də təmkinli olsun. 20 Çünki insanın
qəzəbi Allahın salehliyini hasil etmir.
21 Buna görə də hər cür murdarlığı
və dolub-daşan pisliyi kənara ataraq
ürəyinizə əkilən, canlarınızı xilas
etməyə qadir olan kəlamı həlimliklə
qəbul edin.
22 Bu kəlamın icraçısı olun, yalnız
eşidənlər olub özünüzü aldatmayın.
23 Çünki kəlamı eşidən, amma icraçısı
olmayan şəxs güzgüdə öz üzünün
cizgilərinə baxan adama bənzəyir: 24 O
öz-özünə baxır, kənara çəkilir və dərhal
necə olduğunu unudur. 25 Lakin kamil
qanuna, azadlıq qanununa diqqətlə
baxıb ona bağlı qalan şəxs unutqan
eşidən deyil, əməldə icraçıdır; belə
adam öz işində nə bəxtiyardır!
26 Əgər sizdən biri özünün mömin
olduğunu düşünür, amma ürəyini
aldadıb öz dilini yüyənləmirsə, onun
möminliyi puçdur. 27 Ata Allahın
hüzurunda pak və nöqsansız möminlik
budur: yetimlərə və dullara onların
əziyyətlərində qayğı göstərmək və
özünü dünyadan qoruyub ləkəsiz
olmaq.

2 Qardaşlarım, izzətli Rəbbimiz
İsa Məsihə iman edənlər olaraq
insanlar arasında tərəfkeşlik etməyin.
2 Məsələn, toplandığınız yerə qızıl
üzüklü, gözəl geyinmiş bir adamla
eyni vaxtda kasıb, nimdaş paltarlı
adam da gələrsə, 3 gözəl geyinmiş
adama diqqət yetirib «buyurun, burada
əyləşin», kasıba da «sən orada dur» və
yaxud «yerdə otur» deyərsinizsə, 4 öz
aranızda ayrı-seçkilik edib pis fikirli
hakimlər kimi davranmırsınızmı? 5 Ey
sevimli qardaşlarım, dinləyin: Allah bu
dünyada kasıbları imanda zənginləşmək
və Onu sevənlərə vəd etdiyi Padşahlığın
varisi olmaq üçün seçmədimi? 6 Sizsə
kasıbı hörmətdən saldınız. Məgər
sizi sıxışdıran varlılar deyilmi? Sizi
məhkəmələrə çəkən onlar deyilmi?
7 Sizin məxsus olduğunuz Şəxsin şərəfli
adına küfr edən onlar deyilmi?
8 [m]Əgər siz «qonşunu özün kimi
sev» deyən Müqəddəs Yazıya görə
Padşahınız Allahın qanununa həqiqətən
əməl edirsinizsə, yaxşı edirsiniz.
9 Amma əgər insanlar arasında
tərəfkeşlik edirsinizsə, günah etmiş
olursunuz və Qanuna əsasən onu
pozanlar kimi məhkum olunursunuz.
10 Çünki kim Qanunun hamısına riayət
edərək birində büdrəyirsə, o bütün
Qanuna qarşı təqsirkar olur. 11 [n]Çünki
«zina etmə» deyən, «qətl etmə» də
demişdir. Əgər zina etməyib qətl
edirsənsə, sən Qanunu pozmuş olursan.
12 Azadlıq qanunu ilə mühakimə
olunacaq adamlar kimi danışın və
bu cür davranın. 13 Çünki mərhəmət
göstərməyən mərhəmətsiz mühakimə
olunur. Mərhəmət mühakiməyə qalib
gəlir.

İman və əməllər

14 Qardaşlarım, əgər bir kimsə yaxşı
əməlləri olmadığı halda imanının
olduğunu bildirirsə, bunun xeyri nədir?
Belə iman onu xilas edə bilərmi? 15 Əgər
qardaş-bacılardan birinin paltarı və
gündəlik yeməyi yoxdursa 16 və sizdən
biri ona «arxayın get, isin və qarnını
doydur» deyib onların yaşayışı üçün
lazım olanları vermirsə, nə faydası var?
17 İman da elədir, əgər yaxşı əməlləri
yoxdursa, özü-özlüyündə ölüdür.
18 Lakin kimsə belə deyə bilər: «Sənin
imanın var, mənim də əməllərim».

---

[m]**2:8** Lev. 19:18 [n]**2:11** Çıx. 20:13-14; Qanun. 5:17-18

Sən imanını mənə əməlsiz göstər,
mən də sənə imanımı əməllərimlə
göstərəcəyəm. 19 Sən Allahın bir
olduğuna inanırsansa, yaxşı edirsən.
Cinlər də buna inanır və əsirlər! 20 Ey
ağılsız adam, əməlsiz imanın puç
olduğuna sübut istəyirsənmi? 21 [o]Atamız
İbrahim öz oğlu İshaqı qurbangahda
Allaha təqdim edəndə əməllərlə saleh
sayılmadımı? 22 Görürsən, iman onun
əmələri ilə birgə fəaliyyətdə idi və iman
əməllərlə tamamlanmışdır. 23 [p]Beləliklə,
«İbrahim Allaha iman etdi və bu ona
salehlik sayıldı» deyən Müqəddəs Yazı
belə yerinə yetdi və İbrahim Allahın
dostu adlandırıldı. 24 Görürsünüz ki,
insan yalnız imanla deyil, əmələri ilə
də saleh sayılır. 25 [q]Eyni tərzdə məgər
fahişə Raxav belə, qasidləri qəbul edib
başqa yolla geri göndərərək öz əmələri
ilə saleh sayılmadımı? 26 Çünki ruhsuz
bədən ölü olduğu kimi əməlsiz iman da
ölüdür.

Dil haqqında

3 Qardaşlarım, bildiyiniz kimi
biz müəllimlər daha ciddi bir
mühakimədən keçəcəyik. Bu səbəbə
görə də çoxunuz müəllim olmayın.
2 Çünki hamımız çox büdrəyirik. Sözləri
ilə büdrəməyən bir kimsə bütün bədəni
də yüyənləyə bilən kamil bir insandır.
3 Bizə itaət etsinlər deyə atların ağzına
yüyən taxırıq, beləcə bütün bədənlərini
döndəririk. 4 Bax gəmilər də böyük
olduqları və güclü küləklər tərəfindən
aparıldıqları halda sükançının könlü
haraya istəyirsə, kiçicik bir sükanla
oraya dönür. 5 Dil də elədir, bədənin
kiçik üzvüdür, amma çox öyünür.
Baxın, balaca bir qığılcım böyük bir
meşəni yandırır! 6 Dil də oddur. Dil
bədən üzvlərimizin arasında haqsızlıq
dünyasıdır. O bütün bədənimizi
ləkələyir və özü cəhənnəmdən
odlandırıldığı kimi həyatımızın
gedişatını da odlandırır. 7 Çünki
istər heyvanların, istərsə də quşların,
istər sürünənlərin, istərsə də dəniz
məxluqlarının hər cinsi insan
nəsli tərəfindən əhliləşdirilir və
əhliləşdirilmişdir. 8 Amma dili heç
bir insan əhliləşdirə bilmir. Dil
qarşısıalınmaz bəladır və öldürücü
zəhərlə doludur. 9 [r]Dilimizlə Rəbb
Ataya alqış edirik. Dilimizlə də
Allahın surətində yaradılmış insanları
lənətləyirik. 10 Alqış və lənət eyni
ağızdan çıxır. Qardaşlarım, bu belə
olmamalıdır. 11 Bir bulağın eyni
gözündən şirin və acı su çıxarmı?
12 Qardaşlarım, əncir ağacı zeytun və
üzüm tənəyi də əncir yetişdirə bilərmi?
Eləcə də şor bulaqdan şirin su* gələ
bilməz.

Həqiqi müdriklik

13 Aranızda müdrik və dərrakəli olan
varmı? Qoy o öz yaxşı həyat tərzi
ilə, müdriklikdən yaranan həlimliklə
yaxşı əməllərini göstərsin. 14 Amma
ürəyinizdə acı qısqanclıq, xudbin ehtiras
varsa, öyünməyin və həqiqəti inkar
etməyin. 15 Belə müdriklik yuxarıdan
nazil olan müdriklik deyil, ancaq
dünyəvi, ruhani olmayan və şeytani
müdriklikdir. 16 Çünki harada qısqanclıq
və xudbin ehtiras varsa, orada qarışıqlıq
və hər cür pis əməl vardır. 17 Amma
yuxarıdan nazil olan müdriklik

*3:12 *Şor bulaqdan şirin su* – bəzi əlyazmalarda *heç bir bulaqdan həm şor, həm də şirin su.*

[o]**2:21** Yar. 22:1-14
[p]**2:23** Yar. 15:6; 2Saln. 20:7; Yeş. 41:8; Rom. 4:3,9; Qal. 3:6
[q]**2:25** Yeşua 2:1-21 [r]**3:9** Yar. 1:26

əvvəla safdır, sonra da sülhpərvərdir,
mülayimdir, itaətlidir, mərhəmət və
xeyirli bəhrələrlə doludur, qərəzsizdir,
riyasızdır. 18 Sülh yaradanların əkdiyi
sülh toxumlarından salehlik bəhrəsi
yetişir.

Allaha tabe olun

4 Aranızda dava və çəkişmələrin kökü
haradandır? Bədənlərinizin
üzvlərində mübarizə edən
ehtiraslarınızdan deyilmi? 2 Nə isə
arzu edib əldə etməyincə adam
öldürürsünüz. Həsəd aparırsınız, amma
istədiyinizə nail olmayınca çəkişib
dava edirsiniz. Əldə edə bilmirsiniz,
çünki diləmirsiniz. 3 Diləyirsiniz, amma
almırsınız, çünki öz kefinizə sərf
etmək üçün pis niyyətlə diləyirsiniz.
4 Ey vəfasızlar, dünya ilə dostluğun
Allaha qarşı düşmənçilik olduğunu
bilmirsinizmi? Buna görə də dünya
ilə dost olmaq istəyən özünü Allaha
düşmən edər. 5 Bəlkə güman edirsiniz
ki, Müqəddəs Yazı əbəs yerə

«Allahın daxilimizə verdiyi* ruh
qısqanclıqla həsrət çəkər»

deyir? 6 [s]Lakin Allah daha çox lütf verir.
Bunun üçün belə deyilir:

«Allah məğrurlara qarşıdır,
İtaətkarlara isə lütf göstərər».

7 Buna görə də Allaha tabe olun.
İblisə qarşı durun və o sizdən
qaçacaq. 8 Allaha yaxınlaşın, O da
sizə yaxınlaşacaq. Ey günahkarlar,
əllərinizi paklayın! Ey qərarsız insanlar,
ürəklərinizi saflaşdırın! 9 Kədərlənin,
yas tutun, ağlayın! Qoy gülüşünüz yasa,
sevinciniz də qəmə dönsün! 10 Rəbbin
önündə özünüzü aşağı tutun, O da sizi
ucaldacaq.

11 Qardaşlar, bir-birinizi pisləməyin.
Qardaşını pisləyən yaxud qardaşını
mühakimə edən kəs Qanunu pisləyir
və Qanunu mühakimə edir. Amma
sən Qanunu mühakimə edirsənsə,
Qanunun icraçısı deyil, onun hakimisən.
12 Qanunverən və Hakim birdir, xilas
etməyə və həlak etməyə qadir olan
Odur. Bəs sən kimsən ki, qonşunu
mühakimə edirsən?

13 [t]İndi siz belə deyirsiniz: «Bu gün
yaxud sabah biz filan şəhərə gedib orada
bir il qalacağıq və ticarətlə məşğul
olub pul qazanacağıq». 14 Əslində isə
sabah nə baş verəcəyini bilmirsiniz. Axı
həyatınız nədir ki? Qısa bir müddətə
görünüb sonra da yox olan buxardır.
15 Bunun əvəzinə «əgər Rəbb istəyərsə,
sağ qalarıq, bu və ya digər işi görərik»
deməlisiniz. 16 İndi isə siz öz təkəbbürlü
olmağınızla öyünürsünüz. Bu cür
öyünmələrin hamısı pisdir. 17 Deməli,
kimsə bir yaxşı işi görməli olduğunu
bilib onu etmirsə, günah edir.

Varlılara xəbərdarlıq

5 İndi isə, ey varlılar, başınıza
gələcək kədərli hadisələrə görə
fəryad edib ağlayın! 2 [u]Var-dövlətiniz
çürüyüb, paltarlarınızı da güvə yeyib.
3 Qızıl-gümüşünüz paslanıb. Onların
pası sizə qarşı şahidlik edəcək və
ətinizi od kimi yandırıb-yaxacaq. Bu
axır zamanda var-dövlət yığmısınız.
4 [v]Bax zəmilərinizi biçən işçilərdən
hiyləgərcəsinə gizlətdiyiniz əmək haqqı
sizə qarşı haray çəkir. Biçinçilərin
fəryadı Ordular Rəbbinin qulaqlarına
çatıb! 5 Siz yer üzündə firavan
yaşayıb kef çəkmisiniz. Boğazlanma
günündə də özünüzü kökəldirsiniz!
6 Sizə müqavimət göstərməyən salehi
məhkum edib öldürdünüz.

---

*4:5 *Allahın daxilimizə verdiyi* – bəzi əlyazmalarda *Daxilimizdə qalan.*

[s]**4:6** Sül. 3:34 [t]**4:13** Sül. 27:1 [u]**5:2** Mat. 6:19 [v]**5:4** Qanun. 24:14-15

Səbirli olun

7 Beləliklə, ey qardaşlar, Rəbbin
zühuruna qədər səbirli olun. Görün
əkinçi birinci və axırıncı yağış
yağanacan səbir edərək torpağın
qiymətli məhsulunu gözləyir. 8 Siz də
səbirli və ürəkli olun, çünki Rəbbin
zühuru yaxındır. 9 Qardaşlar, mühakimə
olunmamaq üçün bir-birinizdən
gileylənməyin. Budur, Hakim qapı
arxasında durur! 10 Qardaşlar, Rəbbin
adı ilə danışmış peyğəmbərləri əzablara
tab gətirmək və səbir nümunəsi kimi
götürün. 11 [w]Budur, biz dözümlü
olanları bəxtiyar hesab edirik. Əyyubun
dözümü barəsində eşitmisiniz və Rəbbin
axırda nə etdiyini də gördünüz, çünki
Rəbb çox rəhmli və mərhəmətlidir.
12 [x]Lakin hər şeydən əvvəl,
qardaşlarım, nə göyə, nə yerə, nə
də başqa bir şeyə and için. Qoy sizdə
«bəli»niz bəli, «xeyr»iniz xeyr olsun ki,
mühakiməyə düşməyəsiniz.
13 Aranızda əzab çəkən varmı?
Qoy dua etsin. Şadlanan varmı? Qoy
ilahi oxusun. 14 [y]Aranızda xəstə olan
varmı? Qoy imanlılar cəmiyyətinin
ağsaqqallarını çağırtdırsın. Onlar da
Rəbbin adına onu yağla məsh edərək
dua etsinlər. 15 İmanla edilən dua
xəstəni sağaldacaq və Rəbb onu ayağa
qaldıracaq. Əgər o adam günah edibsə,
bağışlanacaq. 16 Beləliklə, günahlarınızı
bir-birinizə etiraf edin və bir-biriniz
üçün dua edin ki, sağalasınız. Saleh
adamın duası çox güclü və təsirlidir.
17 [z]İlyas təbiətcə bizim kimi bir adam idi
və o səylə dua etdi ki, yağış olmasın. Üç
il altı ay torpağa yağış yağmadı. 18 [a]O
yenə də dua etdi və göy yağış yağdırdı,
torpaq da barını verdi.
19 [b]Qardaşlarım, əgər aranızdan biri
haqq yolundan azar və kimsə onu
doğru yola qaytararsa, 20 qoy bilsin ki,
günahkarı azdığı yolundan qaytaran
onun canını ölümdən xilas edər və bir
çox günahın üstünü örtər.

---

[w]**5:11** Əyy. 1:20-22; 2:10; Zəb. 103:8 [x]**5:12** Mat. 5:34-37 [y]**5:14** Mark 6:13
[z]**5:17** 1Pad. 17:1; 18:1 [a]**5:18** 1Pad. 18:41-45 [b]**5:19** Sül. 10:12; 1Pet. 4:8

PETERİN BİRİNCİ MƏKTUBU

GİRİŞ

«Peterin Birinci Məktubu» Asiya vilayətinin şimal bölgəsinə yayılmış «Ruh tərəfindən təqdis olunan» (1:2) məsihçilərə ünvanlanıb. Məktubun yazılmasının məqsədi imana görə təqiblərə və iztirablara məruz qalan məsihçiləri ruhlandırmaqdır. Peter oxucularına İsa Məsihin Müjdəsini, Onun ölümünü, dirilməsini və vəd olunmuş zühurunu xatırladaraq onlara ümid verir. İmanlılar bunu anlayaraq iztirablara qatlanmalıdırlar. Onlar əmin olmalıdırlar ki, həqiqi imana malik olmaları üçün bu sınaqdan keçməlidirlər. Peter onları inandırır ki, «imanınızın sınaqdan keçməsi İsa Məsihin zühurunda sizə tərif, izzət və şərəf» gətirəcək (1:7).

Həvari Peter bu çətin dövrdə bacı-qardaşlarını ruhlandıraraq onları Məsihə məxsus olan adamlar kimi həyat tərzi keçirməyə çağırır.

Kitabın məzmunu:

1:1-12 Göylərdəki irs

1:13–2:10 Müqəddəs həyata çağırış

2:11-25 Məsihçilərin qarşısında duran işlər

3:1-7 Ər-arvad münasibətləri

3:8-22 Məsihçilərin iztirab zamanı davranış tərzi

4:1-19 Məsihçi həyat tərzi

5:1-14 Ağsaqqallara öyüd-nəsihət və xudahafizləşmə

1 İsa Məsihin həvarisi mən Peterdən seçilmiş, Pont, Qalatiya, Kappadokiya, Asiya vilayəti və Bitinyaya yayılmış qəriblərə salam!
[2] Ata Allahın qabaqcadan bilməsinə görə siz Ruh tərəfindən təqdis olunaraq İsa Məsihə itaət etməniz və Onun qanının üzərinizə səpilməsi üçün seçilmisiniz. Qoy lütf və sülh sizə bol-bol verilsin!

Göylərdəki irs

[3] Rəbbimiz İsa Məsihin Allahına – Atasına alqış olsun! O Öz böyük mərhəmətinə görə yenidən doğulmamızı təmin etdi. İsa Məsihin ölülər arasından dirilməsi ilə bizi canlı ümidə, [4] çürüməz, ləkəsiz, solmaz bir irsə qovuşdurdu. Bu irs sizin üçün göylərdə saxlanılır. [5] Siz Allahın qüdrəti ilə axır zamanda aşkar olunmağa hazır olan xilas üçün iman vasitəsilə qorunursunuz. [6] Buna görə hal-hazırda qısa bir müddət cürbəcür sınaqlarda kədərə düşməyə məcbur olsanız da, hədsiz sevinirsiniz; [7] belə ki imanınızın sınaqdan keçməsi İsa Məsihin zühurunda sizə tərif, izzət və şərəf gətirsin. Bu imanınız odla təmizlənsə belə, fani qızıldan daha çox dəyərlidir. [8] Siz İsa Məsihi görməmisiniz, amma Onu sevirsiniz. Hətta siz Onu indi də görmürsünüz, lakin Ona iman edib təsvirolunmaz və izzətli sevinclə hədsiz sevinirsiniz. [9] Çünki imanınızın nəticəsində canınızın xilasına nail olursunuz.

[10] Sizə göstəriləcək lütf barəsində əvvəlcədən xəbər verən peyğəmbərlər bu xilasa dair araşdırma və tədqiqatlar aparardı. [11] Onların daxilində olan Məsihin Ruhu Məsihin əzabları və onlardan sonrakı izzəti barədə əvvəlcədən şəhadət edirdi. Bunların necə və nə vaxt gələcəyi barədə Ruhun nə göstərdiyini araşdırdılar. [12] Bu şeyləri elan edərək özlərinə deyil, sizə xidmət etdikləri onlara açıqca göstərildi. Müjdəni göydən göndərilmiş Müqəddəs Ruh vasitəsilə sizə yayanlar indi həmin xəbəri sizə bildirdilər. Mələklər də bu şeyləri yaxından tanımaq arzusundadırlar.

Müqəddəs həyata çağırış

13 Buna görə ağlınızı toplayıb ayıq
durun. Ümidinizi bütünlüklə İsa
Məsihin zühurunda sizə veriləcək lütfə
bağlayın. 14 İtaətkar uşaqlar kimi cahil
ikən qapıldığınız əvvəlki ehtiraslara
uymayın. 15 Amma sizi çağıran Allah
müqəddəs olduğuna uyğun olaraq siz də
bütün həyat tərzinizdə müqəddəs olun,
16 [c]necə ki yazılıb: «Müqəddəs olun,
çünki Mən müqəddəsəm».
17 Tərəfkeşlik etmədən öz əməlinə
görə hər kəsi mühakimə edən Allahı
«Ata» deyə çağırdığınız üçün bu
qürbət dünyadakı vaxtınızı Allah
qorxusunda keçirin. 18 Bildiyiniz
kimi, siz ata-babalarınızdan irs olaraq
aldığınız puç həyat tərzindən qızıl
ya gümüş kimi fani şeylərlə deyil,
19 qüsursuz və ləkəsiz quzuya bənzəyən
Məsihin qiymətli qanı bahasına satın
alınmısınız. 20 Dünya yaranmazdan
əvvəl tanınmış Məsih bu axır zamanda
sizə görə zühur etdi. 21 Məsih vasitəsilə
siz Onu ölülər arasından dirildib
izzətləndirən Allaha iman edirsiniz.
Beləliklə, imanınız və ümidiniz Allaha
bağlıdır.
22 Həqiqətə* itaət edərək ürəklərinizi
saflaşdırıb riyasız qardaşlıq
məhəbbətinə sahib oldunuz. Buna
görə bir-birinizi var gücünüzlə səmimi
qəlbdən sevin. 23 Çünki siz çürüyən
toxumdan deyil, çürüməzdən, Allahın
canlı, davamlı olan kəlamı vasitəsilə
yenidən doğulmusunuz. 24 [d]Ona görə ki
«Bütün bəşər ota bənzər,
Onun bütün gözəlliyi çöl çiçəyi
kimidir.
Ot quruyar, çiçək tökülər,
25 Amma Rəbbin sözü əbədi qalar».
Sizə vəz olunan Müjdə sözü budur.
2 Beləliklə, hər cür pisliyi, hiyləni,
ikiüzlülüyü, paxıllığı və hər cür
böhtançılığı üzərinizdən atın. 2 Anadan
təzə olmuş çağalar kimi pak ruhani südə
susayın ki, bununla bəslənib böyüyərək
xilasa nail olasınız. 3 [e]Çünki siz daddınız
ki, Rəbb nə qədər xeyirxahdır.

Diri daş və seçilmiş xalq

4 İnsanların rədd etdiyi, amma Allahın
qiymətli sayıb-seçdiyi diri Daşa, Rəbbə
yaxınlaşaraq 5 özünüz də diri daşlar
kimi hörülün ki, ruhani ev qurulsun.
Orada müqəddəs kahin dəstəsi olasınız
və İsa Məsih vasitəsilə Allaha məqbul
olan ruhani qurbanlar təqdim edəsiniz.
6 [f]Çünki Müqəddəs Yazıda yazılıb:
«Budur, Sionda bir daş,
Seçilmiş, qiymətli bir guşədaşı
qoyuram.
Ona iman edən kəs əsla utandırılmaz».
7 [g]Beləliklə, iman edən sizlər üçün bu
daş qiymətlidir, amma iman etməyənlər
üçün «bənnaların rədd etdiyi daş
guşədaşı olub», 8 [h]«büdrəmə daşı və
yıxma qayası» da oldu. Onlar kəlama
itaət etmədikləri üçün büdrəyir və
onların təyinatı budur.
9 [i]Amma siz seçilmiş nəsil, Padşahın
kahin dəstəsi, müqəddəs millət, Allaha
məxsus olan xalqsınız. Sizi qaranlıqdan
Öz heyrətamiz nuruna çağıran
Allahın çox gözəl işlərini elan etmək
üçün seçilmisiniz. 10 [j]Bir zamanlar xalq
deyildiniz, amma indi Allahın xalqısınız.
Bir zamanlar mərhəmət tapmamışdınız,
indi isə mərhəmət almısınız.
11 Sevimlilər, sizə yalvarıram,
cana qarşı mübarizə aparan cismani

*1:22 *Həqiqətə* – bəzi əlyazmalarda *Ruh vasitəsilə həqiqətə.*

[c]**1:16** Lev. 11:44-45; 19:2 [d]**1:24** Yeş. 40:6-8 [e]**2:3** Zəb. 34:8
[f]**2:6** Yeş. 28:16 [g]**2:7** Zəb. 118:22 [h]**2:8** Yeş. 8:14-15
[i]**2:9** Çıx. 19:5-6; Qanun. 4:20; 7:6; 14:2; Yeş. 43:20-21; Titə 2:14 [j]**2:10** Huşə 2:23

ehtiraslardan uzaqlaşın. Çünki siz bu
dünyada qərib və gəlməsiniz. 12 İmanlı
olmayanların arasında yaxşı həyat
tərzi sürün ki, sizi pislik edən adamlar
kimi təqsirləndirib böhtan atsalar
da, yaxşı işlərinizi müşahidə edib
Allahın onlara yaxınlaşdığı gündə Onu
izzətləndirsinlər.

Rəhbərlərə tabe olun

13 [k]İnsanın yaratdığı hər quruma
Rəbb naminə tabe olun; həm ali
hakimiyyət olduğuna görə padşaha,
14 həm də pislik edənləri cəzalandırmaq,
yaxşılıq edənləri də tərifləmək üçün
onun tərəfindən göndərilən valilərə
tabe olun. 15 Çünki Allahın iradəsi
yaxşılıq edərək axmaqların cahilliyini
susdurmanızdır. 16 Azad insanlar kimi
yaşayın. Amma azadlığınızı pislik etmək
üçün bəhanə saymayıb Allahın qulları
olaraq yaşayın. 17 Hamıya hörmət edin.
İmanlı bacı-qardaşları sevin, Allahdan
qorxun, padşaha hörmət edin.
18 Ey xidmətçilər! Yalnız xeyirxah və
mülayimlərə deyil, zalım ağalarınıza
da tam ehtiramla tabe olun. 19 Əgər
biri Allah qarşısındakı vicdan naminə,
haqsız yerə əzab çəkib kədərə tab
gətirirsə, bu, tərifə layiqdir. 20 Axı
etdiyiniz günahlara görə döyülsəniz və
buna dözsəniz, bu sizə nə şərəf gətirər?
Amma siz yaxşılıq etdiyiniz üçün əzab
çəkib dözsəniz, bu Allah qarşısında
tərifə layiqdir. 21 Siz məhz bunun üçün
çağırıldınız. Çünki Məsih də sizin üçün
əzab çəkdi və sizə nümunə oldu ki, siz
də Onun izi ilə gedəsiniz.
22 [l]O heç bir günah etmədi,
Ağzından hiylə sözü çıxmadı.
23 [m]Onu söydülər, O isə cavabında
söymürdü,
Əzab çəkərək heç kimi hədələmirdi,
Əksinə, ədalətli Hakimə Özünü təslim
etdi.
24 [n]O, bədəni çarmıxa çəkilərək* bizim
günahlarımızı Öz üzərinə götürdü ki,
biz günaha münasibətdə ölüb salehlik
üçün yaşayaq. Onun yaraları ilə siz
şəfa tapdınız. 25 [o]Hamınız qoyun
kimi yolunuzu azmışdınız, indi isə
canınızın Çobanına və Nəzarətçisinə
tərəf döndünüz.

Ər-arvad münasibətləri

3 1–2 [p]Ey arvadlar, siz də eyni tərzdə
öz ərlərinizə tabe olun. Əgər
onlardan bəzisi Allahın kəlamına
itaət etməzsə, siz arvadların ismətli,
ehtiramlı həyat tərzinizi müşahidə
etsinlər; beləcə onları dinməz-söyləməz
qazana bilərsiniz. 3 [q]Qoy sizin bəzəyiniz
saçlarınızı hörüb qızıl bər-bəzək taxmaq
və gözəl geyimlər geyməklə zahiri şeylər
deyil, 4 gizli olan daxili varlığınız, həlim
və sakit ruhun solmayan gözəlliyindən
ibarət olsun. Bu, Allahın qarşısında çox
dəyərlidir. 5 Çünki qədim zamanlarda
Allaha ümid bağlayan müqəddəs
qadınlar öz ərlərinə tabe olaraq belə
bəzənərdilər. 6 [r]Məsələn, Sara İbrahimi
«ağam» deyə çağıraraq ona itaət
edirdi. Siz də yaxşılıq edib heç bir
qorxuya qapılmasanız, Saranın övladları
olursunuz.
7 [s]Ey ərlər, siz də bunun kimi
arvadlarınızla ədəblə, onların daha zərif
varlıqlar olduğuna uyğun davranın.
Sizinlə birlikdə Allahın lütf etdiyi
həyatı irs olaraq aldıqlarına görə

---

*2:24 *Çarmıxa çəkilərək* – hərfi tərcümədə *ağacdan asılaraq.*

[k]**2:13** Rom. 13:1 [l]**2:22** Yeş. 53:9 [m]**2:23** Yeş. 53:7 [n]**2:24** Yeş. 53:5
[o]**2:25** Yeş. 53:6 [p]**3:1-2** Ef. 5:22; Kol. 3:18 [q]**3:3** 1Tim. 2:9-10
[r]**3:6** Yar. 18:12 [s]**3:7** Ef. 5:25; Kol. 3:19

onlara hörmət göstərin ki, dualarınıza
maneçilik törədilməsin.

Salehlik uğrunda əziyyət çəkmək

8 Nəhayət, hamınız həmfikir olun.
Başqalarının hər bir hissinə şərik
olun, bir-birinizi qardaşlıq məhəbbəti
ilə sevin, rəhmli və itaətkar olun.
9 Pisliyə pisliklə, söyüşə də söyüşlə
cavab verməyin, əksinə xeyir-dua
edin. Çünki bunun üçün çağırılmısınız
ki, xeyir-duaları irs olaraq alasınız.
10 [t]Çünki:
«Kim həyatdan kam almaq,
Xoş gün görmək istəyirsə,
Qoy dilini şərdən,
Ağzını hiylə danışmaqdan qorusun,
11 Qoy şərdən çəkinib yaxşılıq etsin,
Qoy sülhü axtarıb ardınca getsin!
12 Çünki Rəbbin gözü salehlərin
üzərindədir,
Qulaqları onların fəryadlarına açıqdır.
Amma Rəbbin üzü şər işlər görənlərə
qarşıdır».
13 Əgər yaxşılıq etməyə səy
göstərsəniz, sizə kim pislik edər?
14 [u]Amma salehlik uğrunda əzab
çəksəniz belə, siz bəxtiyarsınız.
İnsanların hədə-qorxu gəlməsindən
qorxmayın və lərzəyə düşməyin.
15 Lakin Məsihi* Rəbb kimi ürəyinizdə
müqəddəs tutun. Daxilinizdə olan ümid
barəsində sizdən hesabat istəyən hər
kəsə cavab vermək üçün hazır olun.
16 Vicdanınızı təmiz tutaraq bunu
həlimliklə və ehtiramla edin ki, Məsihdə
olan yaxşı davranışınızı təhqir edənlər
sizə atdıqları† böhtandan utansınlar.
17 Əgər Allahın iradəsi budursa, yaxşılıq
etdiyi üçün əzab çəkmək pislik etdiyi
üçün əzab çəkməkdən yaxşıdır. 18 Çünki
saleh olan Məsih də saleh olmayanlar
uğrunda, onların günahları üçün bir dəfə
əzab çəkdi‡ ki, sizi Allahın hüzuruna
gətirsin. O cismən edam edilmiş, amma
ruhən həyata qovuşmuşdur. 19 O ruhən
gedib zindandakı ruhlara da vəz etdi.
20 [v]Bunlar bir vaxtlar, Allah Nuhun gəmi
düzəltdiyi dövrdə səbirlə gözlədiyi vaxt
itaətsiz idi. O gəmidə isə az adam, başqa
sözlə, səkkiz nəfər sudan sağ-salamat
çıxdı. 21 Bu nümunəyə uyğun olaraq
vəftiz indi sizə İsa Məsihin dirilməsi
ilə xilas gətirir. Vəftiz cismani çirki
yumaqdan ötrü deyil, təmiz vicdanla
Allah qarşısında söz vermək üçündür.
22 İsa Məsih göyə qalxıb və Allahın
sağındadır. Mələklər, hakimlər və
qüvvələr də Ona tabedir.

Allahın iradəsinə görə yaşamaq

4 Beləliklə, Məsih cismən§ əzab
çəkdiyinə görə siz də eyni
düşüncələrlə silahlanın. Çünki cismən
əzab çəkən günahdan vaz keçmişdir.
2 Nəticədə cisimdə qalan vaxtını isə
artıq bəşəri ehtiraslara görə deyil,
Allahın iradəsinə görə yaşayır. 3 Siz
keçmiş vaxtlarda imanlı olmayanların
istəklərini yerinə yetirib həyatınızı
əxlaqsızlıqla, ehtirasla, əyyaşlıqla,
eyş-işrətlə, içib azğınlıq etməklə,
iyrənc bütpərəstliklə keçirdiyiniz yetər!
4 İmanlı olmayanlar onlarla birlikdə
eyni cür pozğunluğa uymadığınıza görə
təəccüb edir, sizə şər atırlar. 5 Onlar

---

*3:15 *Məsihi* – bəzi əlyazmalarda *Allahı.*
†3:16 *Sizə atdıqları* – bəzi əlyazmalarda *sizi pislik edən adamlar kimi təqsirləndirib atdıqları* (1Pet. 2:12).
‡3:18 *Əzab çəkdi* – bəzi əlyazmalarda *bizim uğrumuzda öldü,* bəzilərində isə *sizin uğrunuzda öldü.*
§4:1 *Cismən* – bəzi əlyazmalarda *bizim üçün cismən.*

[t]3:10 Zəb. 34:12-16 [u]3:14 Yeş. 8:12-13; Mat. 5:10 [v]3:20 Yar. 6:1–7:24

diriləri və ölüləri mühakimə etməyə
hazır olan Allaha cavab verəcəklər.
6 Çünki bu səbəbə görə Müjdə ölülərə də
yayıldı ki, cismən onlar bütün insanlar
kimi mühakimə olunduğu halda, ruhən
Allah kimi yaşasınlar.
7 Hər şeyin sonu yaxındır. Beləliklə,
ağıllı-kamallı olun və dua etmək üçün
ayıq durun. 8 [w]Hər şeydən əvvəl,
bir-birinizi can-dildən sevin, çünki
«məhəbbət çox günahı örtər». 9 Şikayət
etmədən bir-birinizə qonaqpərvərlik
göstərin. 10 Hər kəs Allahın çoxcəhətli
lütfünün yaxşı idarəçiləri kimi aldığı
ənama görə bir-birinə xidmət etsin.
11 Kim danışırsa, Allahın sözlərini
danışan kimi danışsın. Kim xidmət
edirsə, Allahın verdiyi qüvvətlə xidmət
etsin. Beləcə Allah hər şeydə İsa Məsih
vasitəsilə izzətlənəcək. İzzət və qüdrət
əbədi olaraq İsa Məsihindir. Amin!

Məsih uğrunda əzab çəkmək

12 Sevimlilər, sizi sınamaq üçün
aranızda baş verən odlu imtahana sanki
başınıza gələn qəribə bir iş kimi təəccüb
etməyin. 13 Əksinə, Məsihin əzablarına
nə qədər şərik olursunuzsa, o qədər
sevinin ki, Onun izzətli zühurunda
hədsiz sevinəsiniz. 14 Məsihin adına görə
təhqir olunsanız, siz nə bəxtiyarsınız!
Çünki Allahın izzətli Ruhu üzərinizdə
qalır.* 15 Lakin heç biriniz qatil, oğru
ya başqa cür cinayətkar kimi yaxud
başqalarının işinə qarışan şəxs kimi
əzab çəkməsin. 16 Amma bir insan
məsihçi kimi əzab çəkirsə, qoy bundan
utanmasın, bu adı daşıyaraq Allahı
izzətləndirsin. 17 Çünki mühakimənin
Allahın ev xalqından başlandığı vaxt
gəlir. Əgər mühakimə əvvəl bizdən
başlanarsa, Allahın Müjdəsinə itaət
etməyənlərin sonu necə olacaq? 18 [x]Əgər
saleh belə, çətinliklə xilas olursa, bəs
allahsız və günahkar necə olacaq?
19 Bunun üçün qoy Allahın iradəsinə
görə əzab çəkənlər yaxşılıq edərək
həyatlarını sadiq olan Yaradana həvalə
etsinlər.

Allahın sürüsü

5 [y]Ey aranızda olan ağsaqqallar! Mən
də sizin kimi ağsaqqal və Məsihin
əzablarının şahidiyəm, zühur edəcək
izzətə də şərikəm. Sizə yalvarıram,
2 Allahın sizə həvalə etdiyi sürüsünü
otarın. Ona zorla yox, könüllü və Allahı
razı salan† tərzdə, haqsız qazanca həris
olmadan, həvəslə nəzarət edin. 3 Sizə
tapşırılanlar üzərində ağalıq etməyin,
amma sürüyə nümunə olun. 4 Baş Çoban
zühur etdiyi zaman siz solmayan izzət
tacı alacaqsınız.
5 [z]Eyni ilə, siz də, ey gənclər,
ağsaqqallara tabe olun. Hamınız
bir-birinizə itaətkarlıq‡ göstərin. Çünki
«Allah məğrurlara qarşıdır, itaətkarlara
isə lütf göstərər». 6 [a]Allahın qüdrətli əli
altında özünüzü aşağı tutun, onda Allah
sizi vaxtı çatanda ucaldacaq. 7 [b]Bütün
qayğı yükünüzü Ona ötürün, çünki O
sizin qayğınıza qalır.
8 Ayıq durun, oyaq olun. Çünki
düşməniniz olan iblis nərildəyən
və kimisə aşırmaq istəyən aslan
kimi dolaşır. 9 Möhkəm imanla ona
qarşı durun. Bilin ki, bütün dünyada
bacı-qardaşlarınız da eyni cür əzab

*4:14 *Qalır* – bəzi əlyazmalarda *qalır. Digərlərin arasında söyülür, sizin aranızda izzətlənir.*
†5:2 *Və Allahı razı salan* – bəzi əlyazmalarda bu sözlər yoxdur.
‡5:5 *İtaətkarlıq* – bəzi əlyazmalarda *tabe olaraq itaətkarlıq.*

[w]**4:8** Sül. 10:12; Yaq. 5:19-20 [x]**4:18** Sül. 11:31 [y]**5:1** Yəh. 21:15-17
[z]**5:5** Sül. 3:34 [a]**5:6** Mat. 23:12; Luka 14:11; 18:14 [b]**5:7** Zəb. 55:22

çəkirlər. 10 Siz qısa bir müddət əzab
çəkdikdən sonra sizi İsa Məsihdə
Özünün əbədi izzətinə çağırmış, hər cür
lütf verən Allah Özü sizi bərpa edəcək,
möhkəmlədəcək, qüvvətləndirəcək və
sarsılmaz təmələ oturdacaq. 11 Qüdrət*
əbədi olaraq Onun olsun! Amin.

Cəmiyyətə salamlar

12 [c]Bu qısa məktubu etibarlı saydığım
qardaşımız Sila vasitəsilə sizə yazıram.
Sizi həvəsləndirərək şəhadət etdim ki,
Allahın həqiqi lütfü budur. Ona bağlı
qalın.
13 [d]Sizin kimi seçilmiş Babildəki
cəmiyyət və oğlum Mark da sizi
salamlayır. 14 Bir-birinizi məhəbbətlə
öpərək salamlayın.
Məsihdə olan hamınıza sülh olsun!

---

*5:11 *Qüdrət* – bəzi əlyazmalarda *İzzət və qüdrət.*

[c]5:12 Həv. 15:22,40 [d]5:13 Həv. 12:12,25; 15:37-39; Kol. 4:10; Flm. 23-24

PETERİN İKİNCİ MƏKTUBU

GİRİŞ

«Peterin İkinci Məktubu» ilk məsihçilərə ünvanlanıb. Peter bu məktubda yanlış təlim yayan müəllimlərə və oradan qaynaqlanan mənəviyyatsızlığa qarşı mübarizə aparır. Bu problemlərin cavabı Allahın və Rəbb İsa Məsihin əsl təlimini bilməkdir. Bu təlimi isə İsa Məsihi şəxsən tanıyan və Onun təlimini eşidən adamlar düzgün çatdıra bilərdi.

Müəllif İsa Məsihin zühuru haqqında olan yanlış təlimə görə xüsusən narahatdır. Peterə görə Məsihin zühuru ona görə yubanır ki, «O heç kəsin həlak olmasını istəmir, amma hər kəsin tövbə etməsini istəyir» (3:9).

Kitabın məzmunu:

1:1-21 Salamlama və məsihçinin çağırışı

2:1-22 Yanlış təlim yayanlar barəsində

3:1-13 Rəbbin günü

3:14-18 Öyüd-nəsihətlər

1 İsa Məsihin qulu və həvarisi mən Şimon Peterdən Allahımız və Xilaskarımız İsa Məsihin salehliyi sayəsində bizimlə bərabər qiymətli iman əldə etmiş olanlara salam! [2] Allahı və Rəbbimiz İsanı tanıdıqca lütf və sülh sizə bol-bol verilsin!

İlahi çağırış

[3] Bizi Öz izzəti və alicənablığına Çağıranın ilahi gücü Onu tanımağımız vasitəsilə yaşamağımız və mömin olmağımız üçün lazım gələn hər şeyi bizə bəxş etdi. [4] Beləliklə, O bizə çox böyük və dəyərli vədlər verdi ki, bunlar vasitəsilə ehtirasın nəticəsi olan dünyadakı pozğunluqdan qaçıb ilahi təbiətə şərik olasınız. [5] Elə buna görə də siz bütün səylə imanınıza alicənablıq, alicənablığınıza bilik, [6] biliyinizə nəfsə hakim olmaq, nəfsə hakim olmağınıza dözüm, dözümünüzə möminlik, [7] möminliyinizə qardaşlıq sevgisi və qardaşlıq sevgisinə məhəbbət əlavə edin. [8] Çünki əgər bunlar sizdə varsa və artırsa, sizi Rəbbimiz İsa Məsihi tanımaqda fəaliyyətsiz və səmərəsiz olmaqdan qoruyacaq. [9] Bunlar kimdə yoxdursa, o kordur, uzağı görə bilməz və əvvəlki günahlarından təmizləndiyini unutmuşdur. [10] Beləliklə, ey qardaşlar, çağırıldığınızı və seçildiyinizi təsdiq etmək üçün daha da səy göstərin. Çünki əgər bunu etsəniz, heç vaxt büdrəməzsiniz. [11] Beləcə Rəbbimiz və Xilaskarımız İsa Məsihin əbədi Padşahlığına girmək səlahiyyəti sizə bol-bol ehsan ediləcək.

[12] Ona görə də bunları bilsəniz və sahib olduğunuz həqiqətlə möhkəm dursanız da, daima bunları sizə xatırladıram. [13] Bu bədəndə yaşadığım müddətdə xatırlatmaqla sizi oyandırmağı doğru hesab edirəm. [14] [e]Çünki Rəbbimiz İsa Məsihin mənə bildirdiyi kimi, bu bədəndən ayrılmağımın yaxın olduğunu bilirəm. [15] Buna görə də çalışıram ki, mən bu dünyadan köçdükdən sonra da siz bunları həmişə yada salasınız.

Məsihin izzəti və peyğəmbərlik sözü

[16] Rəbbimiz İsa Məsihin qüdrətini və zühurunu sizə bildirərkən uydurma əfsanələrə əsaslanmadıq. Amma öz gözümüzlə Onun ululuğunun şahidləri olduq. [17] [f]Çünki Böyük Ehtişamı Olandan Ona belə bir səs gəldi: «Bu Mənim sevimli Oğlumdur, Ondan razıyam». O vaxt Ata Allahdan izzət və şərəf qəbul etdi. [18] Müqəddəs dağda

---

[e] **1:14** Yəh. 21:18 [f] **1:17** Mat. 17:1-5; Mark 9:2-7; Luka 9:28-35

Onunla birgə olduğumuz üçün göydən
gələn bu səsi biz də eşitdik.
19 Həmçinin bizdə daha əmin olan
peyğəmbərlik sözləri var. Onlar
qaranlıq yerdə işıq saçan bir çırağa
bənzəyir. Səhər açılıb dan ulduzu
ürəklərinizdə doğana qədər bu sözlərə
diqqət verirsinizsə, yaxşı edirsiniz.
20 Hər şeydən əvvəl bunu bilməlisiniz
ki, Müqəddəs Yazılardakı peyğəmbərlik
sözlərinin heç birini şəxsən şərh etmək
olmaz. 21 Çünki heç vaxt peyğəmbərlik
insan iradəsi ilə qaynaqlanmamışdır,
lakin Müqəddəs Ruh tərəfindən
yönəldilən insanlar Allahdan gələn
sözləri söylədi.*

Yanlış təlim yayanların aqibəti

(Yəhd. 3-16)

2 Amma Allahın xalqı arasında
yalançı peyğəmbərlər də ortaya
çıxdı. Eləcə də sizin aranızda yanlış
təlim yayanlar ortaya çıxacaq. Bunlar
hətta özlərini satın alan Sahibini inkar
edib gizlicə aranıza dağıdıcı və təfriqəçi
təlim gətirəcəklər. Belələri öz başlarına
tezliklə həlak gətirəcək. 2 Hətta çoxları
onların pozğunluğuna qoşulacaq
və onların üzündən həqiqət yoluna
küfr ediləcək. 3 Tamahkarlıqlarından
uydurma sözlərlə sizi istismar edəcəklər.
Onların mühakiməsi çoxdan davam edir
və həlakı hazırdır.
4 Çünki Allah günahkar mələkləri
cəzasız qoymadı, onları qiyamət
gününə† qədər saxlanmaq üçün
cəhənnəmə ataraq zülmətdə buxovladı.‡
5 [g]O, allahsız adamların yaşadığı qədim
dünyaya daşqın göndərərək o dünyanı
cəzasız qoymadı, amma səkkiz nəfəri,
o cümlədən, salehliyi bəyan edən
Nuhu qoruyub saxladı. 6 [h]O, Sodom və
Homorra şəhərlərini yandırıb-yaxaraq
viran olmağa məhkum etdi və beləliklə,
gələcəkdə olan allahsız adamlara§
nümunə göstərdi. 7 [i]Pozğun insanların
əxlaqsız həyat tərzindən əziyyət çəkən
saleh Lutu isə qurtardı. 8 Çünki onların
arasında yaşayan bu saleh insan
günbəgün onların qanunsuz əməllərini
görüb-eşidib öz saleh ruhunda iztirab
çəkirdi. 9 Əlbəttə ki, Rəbb möminləri
sınaqdan necə qurtarmağı, haqsızları
isə qiyamət gününə** kimi cəza altında
necə saxlamağı bilir.
10 O, xüsusilə, cismani murdar
ehtirasına uyaraq ağalığa xor baxanları
belə saxlayır. Belə adamlar həyasız
və dikbaşdırlar, ehtişamlı varlıqlara
şər atmaqdan qorxmurlar. 11 Halbuki
onlardan qüvvət və qüdrətdə üstün
olan mələklər Rəbbin önündə ehtişamlı
varlıqlara şər ataraq ittiham etməz. 12 Bu
adamlarsa sanki dərrakəsiz, qeyri-iradi
surətdə aparılan heyvanlardır ki,
tutulub kəsilmək üçün doğulublar.
Onlar başa düşmədiyi şeylərə şər
atırlar. Heyvanlar necə kəsilirsə,
onlar da elə kəsiləcəklər. 13 Etdikləri
zərərin əvəzini alacaqlar. Gündüz
kef çəkməyi əyləncə sayırlar. Sizinlə
yeyib-içərkən sanki aranızda ləkələr

---

*1:21 *İnsanlar Allahdan gələn sözləri söylədi* – bəzi əlyazmalarda *Allahın müqəddəs insanları danışırdılar.*

†2:4 *Qiyamət gününə* – hərfi tərcümədə *mühakiməyə.*

‡2:4 *Cəhənnəmə ataraq zülmətdə buxovladı* – bəzi əlyazmalarda *cəhənnəmin qaranlıq çuxurlarına atdı.*

§2:6 *Gələcəkdə olan allahsız adamlara* – bəzi əlyazmalarda *allahsız adamların başına gələcək şeylər haqqında.*

**2:9 *Qiyamət gününə* – hərfi tərcümədə *mühakimə gününə.*

[g]**2:5** Yar. 6:1–7:24 [h]**2:6** Yar. 19:24 [i]**2:7** Yar. 19:1-16

və nöqsanlar olaraq öz hiylələrindən
zövq alırlar. 14 Onların gözləri zina
ilə doludur, günahdan doymurlar.
Qərarsız insanları yoldan çıxarırlar.
Ürəkləri tamahkarlığa alışdırılmış
lənətli insanlardır. 15 [j]Haqsızlıqla əldə
etdiyi qazancı sevən Beor oğlu Bilamın
yolunu tutaraq düz yolu qoyub azdılar.
16 Bilam işlədiyi günaha görə ifşa
olundu: dilsiz-ağızsız eşşək insan səsi ilə
danışıb bu peyğəmbəri dəlilik etməkdən
çəkindirdi.
17 Bu insanlar susuz bulaqlar,
qasırğanın dağıtdığı buludlar kimidir.
Allah qatı qaranlığı onlar üçün saxlayır.*
18 Çünki boş və lovğa sözlər söyləyərək
səhv yolla gedənlərin arasından
çətinliklə qaçanları cismani ehtiraslarla
və əxlaqsızlıqla yoldan azdırırlar.
19 Onlara azadlıq vəd edirlər, halbuki
özləri pozğunluğun köləsidirlər. Çünki
insan nəyə məğlub olarsa, onun köləsi
olar. 20 Rəbbimiz və Xilaskarımız İsa
Məsihi tanımaqla dünyanın çirkabından
qaçdıqdan sonra yenə həmin işlərlə
məşğul olub məğlub olarlarsa, son
vəziyyətləri əvvəlkindən betər olar.
21 Çünki salehlik yolunu tanıyıb özlərinə
əmanət edilən müqəddəs əmrdən geri
dönməkdənsə bu yolu tanımamaq onlar
üçün daha yaxşı olardı. 22 [k]Bu doğru
məsəllərdə deyilənlər onların öz başına
gəldi: «İt öz qusuntusuna qayıdar» və
«çimdirilmiş donuz palçıqda ağnamağa
qayıdar».

Rəbbin günü

3 Sevimlilər, indi bu mənim sizə
yazdığım ikinci məktubdur. Hər
iki məktubumda təmiz düşüncəli
olmağınızı xatırladaraq sizi oyaq
edirəm. 2 Müqəddəs peyğəmbərlərin
qabaqcadan söylədiyi sözləri və
Xilaskarımız Rəbbin həvarilərinizin
vasitəsilə verdiyi əmri yada salmalısınız.
3 [l]Hər şeydən əvvəl bunu bilməlisiniz
ki, axır zamanda öz ehtiraslarına görə
hərəkət edən rişxəndçilər gələcək
və rişxəndlə 4 deyəcəklər: «Rəbbin
vəd etdiyi zühuru haradadır? Axı
ata-babalarımız vəfat edəndən bəri,
yaradılışın başlanğıcından hər şey
eyni cür olaraq qalır». 5 [m]Onlar qəsdən
unutmuşlar ki, Allahın kəlamı ilə göylər
qədimdən bəri mövcuddur, quru da
sudan ayrılaraq su vasitəsilə yarandı.
6 [n]Yenə də su ilə, yəni daşqınla o
dövrkü dünya məhv oldu. 7 İndiki yer
və göylər isə həmin kəlamla oda təslim
olmaq üçün təyin olunub, allahsızların
mühakimə və həlak olacağı günədək
saxlanılır.
8 [o]Sevimlilər, bu bir şeyi yadınızdan
çıxarmayın ki, Rəbb üçün bir gün
min il kimidir, min ilsə bir gün
kimidir. 9 Bəziləri bunu gecikmə sayar,
amma Rəbb vədini yerinə yetirməkdə
gecikməz, lakin sizə görə səbir edir.
Çünki O heç kəsin həlak olmasını
istəmir, amma hər kəsin tövbə etməsini
istəyir. 10 [p]Rəbbin günü isə oğru† kimi
gələcək. O gün göylər böyük gurultu
ilə aradan qalxacaq. Ünsürlər yanaraq
məhv olacaq. Yer üzü və onun üstündə
hər şey ifşa olunacaq.*
11 Hər şey belə məhv olacaqsa, siz
nə cür insanlar olmalısınız? Müqəddəs
həyat sürməli, mömin olmalısınız.

*2:17 *Saxlayır* – bəzi əlyazmalarda *əbədi saxlayır.*
†3:10 *Oğru* – bəzi əlyazmalarda *gecə gələn oğru.*
*3:10 *İfşa olunacaq* – bəzi əlyazmalarda *yanıb yox olacaq.*

[j]**2:15** Say. 22:4-35 [k]**2:22** Sül. 26:11 [l]**3:3** Yəhd. 18 [m]**3:5** Yar. 1:6-9
[n]**3:6** Yar. 7:11-12 [o]**3:8** Zəb. 90:4
[p]**3:10** Mat. 24:43; Luka 12:39; 1Sal. 5:2; Vəhy 16:15

12 Allahın zühur gününü gözləyərək
tezləşdirməlisiniz. O gün göylər od
tutub məhv olacaq və ünsürlər yanıb
əriyəcək. 13 [q]Amma biz Allahın vədinə
əsasən salehliyin sakin olacağı yeni
göyləri və yeni yeri gözləyirik.

Öyüd-nəsihətlər

14 Buna görə, sevimlilər, madam
ki bunları gözləyirsiniz, Allahın
önündə ləkəsiz və nöqsansız olaraq
sülh içində yaşamağa səy göstərin.
15 Sevimli qardaşımız Paulun da ona
bəxş edilmiş müdrikliklə sizə yazdığı
kimi, Rəbbimizin səbrini də xilas fürsəti
kimi sayın. 16 Paul bütün məktublarında
bu mövzulara eyni cür toxunur.
Məktublarında çətin başa düşülən bəzi
işlər var; cahillər və qərarsızlar digər
Müqəddəs Yazılar kimi bunların da
mənasını təhrif edərək öz həlaklarına
səbəb olurlar.
17 Beləliklə, siz, ey sevimlilər, bunu
əvvəlcədən bilib pozğun adamlar sizi
aldadaraq yoldan azdırmasın və sabit
vəziyyətinizdən ayrılmayasınız deyə
özünüzü qoruyun. 18 Lakin Rəbbimiz və
Xilaskarımız İsa Məsihin lütfündə və
Onu tanımaqda böyüyün. Ona indi və
əbədi olaraq izzət olsun! Amin.

---

[q]**3:13** Yeş. 65:17; 66:22; Vəhy 21:1

YƏHYANIN BİRİNCİ MƏKTUBU

GİRİŞ

*«Yəhyanın Birinci Məktubu»*nun yazılmasında iki məqsəd var: imanlıları Allahla və Onun Oğlu İsa Məsihlə sıx ünsiyyətdə yaşamağa çağırmaq; bu ünsiyyəti məhv edə bilən yanlış təlim yayanlara qarşı xəbərdarlıq.

Bu yanlış təlimdə bildirilirdi ki, şər cismani dünya ilə təmasdan yaranır və Allahın Oğlu İsa Məsih insan təbiətinə malik deyil. Bu müəllimlər öyrədirdi ki, insan xilas tapmaq üçün bu dünyanın qayğılarından tam azad olmalıdır. Onlar həm də məsihçi imanlısı üçün mənəviyyatın və yaxınını sevməyin mühüm olduğunu inkar edirdilər.

Yəhya bütün bunlara qarşı durub aydın öyrədir ki, İsa, həqiqətən, insan idi. O həm də bəyan edir ki, İsa Məsihə iman edib Allahı sevənlər bir-birini də sevməlidir.

Kitabın məzmunu:

1:1-4 Həyat Kəlamı
1:5–2:17 Nur və qaranlıq
2:18-29 Məsihin əleyhdarı
3:1-24 Allahın övladları
4:1-6 Ruhları tanımaq barəsində
4:7-21 Allah məhəbbətdir
5:1-21 Qalib gələn iman və əbədi həyat

Həyat Kəlamı

1 [r]Biz Həyat Kəlamını elan edirik; bu
həmin Kəlamdır ki, başlanğıcdan
var idi və biz Onu eşitdik, gözlərimizlə
gördük, seyr etdik və əllərimizlə hiss
etdik. 2 [s]Həyat zahir oldu, biz də onu
görüb şahidlik edirik və Ata ilə birlikdə
olub bizə zahir olan əbədi həyatı sizə
elan edirik. 3 Biz sizə gördüyümüzü
və eşitdiyimizi elan edirik ki, sizin
də bizimlə şərikliyiniz olsun; bizim
şərikliyimiz də Ata və Onun Oğlu İsa
Məsihlədir. 4 Biz bunları yazırıq ki,
sevincimiz* kamil olsun.

Nurda yaşayın

5 Məsihdən eşitdiyimiz və sizə elan
etdiyimiz xəbər budur: Allah nurdur və
Onda zərrə qədər də qaranlıq yoxdur.
6 Əgər biz «Allahla şərikliyimiz var»
dediyimiz halda qaranlıqda gəziriksə,
demək, yalan danışırıq və həqiqətə
əməl etmirik. 7 Amma O, nurda
olduğu kimi biz də nurda gəziriksə,
onda bir-birimizlə şərikliyimiz var
və Onun Oğlu İsanın qanı bizi hər
günahdan təmizləyir. 8 Əgər günahsız
olduğumuzu iddia ediriksə, özümüzü
aldadırıq və daxilimizdə həqiqət
yoxdur. 9 Amma günahlarımızı etiraf
ediriksə, Allah sadiq və ədalətli olduğu
üçün günahlarımızı bağışlayacaq və bizi
hər haqsızlıqdan təmizləyəcək. 10 Əgər
günahkar olmadığımızı iddia ediriksə,
onda Onu yalançı yerinə qoyuruq və
daxilimizdə Onun sözü olmur.

2 Övladlarım, bunları sizə yazıram
ki, günah etməyəsiniz. Əgər kimsə
günah etsə belə, Atanın hüzurunda
Vəsatətçimiz var; O, saleh olan İsa
Məsihdir. 2 O bizim günahlarımıza
görə – təkcə bizim günahlarımıza görə
deyil, bütün dünyanın günahlarına görə
kəffarə qurbanıdır.

3 Onu tanıdığımızı bundan bilirik ki,
Onun əmrlərinə riayət edirik. 4 Kim
«Onu tanıyıram» deyir, amma Onun
əmrlərinə riayət etmirsə, yalançıdır və
onun daxilində həqiqət yoxdur. 5 Lakin
kim Onun sözünə riayət edirsə, Allah
məhəbbəti onda, həqiqətən, kamilliyə

---

*1:4 *Sevincimiz* – bəzi əlyazmalarda *sevinciniz.*

[r]1:1 Yəh. 1:1 [s]1:2 Yəh. 1:14

çatıb. Bundan bilirik ki, biz Allahdayıq.
6 Kim Onda qaldığını deyirsə, İsa
Məsihin həyat sürdüyü kimi həyat
sürməlidir.
7 [t]Sevimlilər, sizə yeni əmr yazmıram,
əvvəldən bəri malik olduğunuz qədim
bir əmri yazıram; qədim əmr isə
eşitdiyiniz* sözdür. 8 Yenə də sizə
yeni bir əmr yazıram; bunun həqiqi
olduğu Məsihdə və sizdə görünür.
Çünki qaranlıq keçir və həqiqi nur artıq
parlayır.
9 Kim nurda olduğunu deyir, amma
qardaşına nifrət edirsə, hələ də
qaranlıqdadır. 10 Qardaşını sevən
nurda qalır və onda büdrəmə səbəbi
yoxdur. 11 Amma qardaşına nifrət edən
qaranlıqdadır. O, qaranlıqda gəzir və
hara getdiyini bilmir, çünki qaranlıq
onun gözlərini kor edib.
12 Ey övladlar, sizə yazıram, çünki
Onun adı naminə günahlarınız
bağışlanıb.
13 Ey atalar, sizə yazıram, çünki
başlanğıcdan bəri Var Olanı tanıyırsınız.
Ey gənclər, sizə yazıram, çünki şər
olana qalib gəlmisiniz.
14 Ey uşaqlar, sizə yazdım, çünki
Atanı tanıyırsınız.
Ey atalar, sizə yazdım, çünki
başlanğıcdan bəri Var Olanı tanıyırsınız.
Ey gənclər, sizə yazdım, çünki
güclüsünüz, Allahın kəlamı sizdə qalır,
şər olana da qalib gəlmisiniz.
15 Dünyanı və dünyada olan şeyləri
sevməyin. Kim dünyanı sevirsə, onda
Atadan olan məhəbbət yoxdur. 16 Çünki
dünyada olan hər şey – cismani
ehtiraslar, acgözlük və dünya malına
görə təkəbbür Atadan yox, dünyadan
gəlir. 17 Dünya və ondakı ehtiraslar
keçib-gedir, amma Allahın iradəsinə
əməl edən əbədi qalır.

Məsih əleyhdarı

18 Ey uşaqlar, axır zamandır. Siz
«Məsih əleyhdarı»nın gələcəyini
eşitmisiniz, indi də çoxlu Məsih
əleyhdarı meydana çıxıb. Bundan
bilirik ki, axır zamandır. 19 Onlar bizim
aramızdan çıxdılar, amma bizə məxsus
deyildilər. Əgər bizə məxsus olsaydılar,
bizimlə qalardılar. Amma qalmadılar ki,
heç birinin bizə məxsus olmadığı aşkara
çıxsın.
20 Lakin siz Müqəddəs Olandan bir
məsh almısınız və hamınız biliklisiniz.†
21 Mən sizə həqiqəti bilmədiyiniz üçün
deyil, onu bildiyiniz üçün yazdım; siz
bunu da bilirsiniz ki, heç bir yalanın
həqiqətlə əlaqəsi yoxdur. 22 Bəs yalançı
kimdir? İsanın Məsih olduğunu inkar
edən şəxs! O, Atanı və Oğulu inkar edən
Məsih əleyhdarıdır. 23 Oğulu inkar edən
hər kəs Ataya da malik deyil, lakin
Oğulu iqrar edən kəs Ataya da malikdir.
24 Sizin əvvəldən bəri eşitdiyiniz söz
qoy sizdə qalsın. Əgər əvvəldən bəri
eşitdiyiniz söz sizdə qalsa, siz də Oğul
və Atada qalarsınız. 25 Onun bizə verdiyi
vəd budur: əbədi həyat!
26 Bunları sizi aldatmaq istəyənlər
barəsində yazıram. 27 Sizə gəlincə,
Ondan aldığınız məsh daxilinizdə
qalır və kimsənin sizə təlim verməsinə
ehtiyacınız yoxdur. Əksinə, Onun bu
məshi sizə hər şey barədə təlim verir və
bu, yalan deyil, həqiqətdir. Ona görə də
sizə öyrətdiyi kimi Onda qalın.

Allahın övladları

28 Beləliklə, ey övladlar, Onda
qalın ki, O zahir olanda cəsarətimiz

---

*2:7 *Eşitdiyiniz* – bəzi əlyazmalarda *əvvəldən bəri eşitdiyiniz.*
†2:20 *Hamınız biliklisiniz* – bəzi əlyazmalarda *hər şeyi bilirsiniz.*

[t]2:7 Yəh. 13:34

olsun, Onun zühuru zamanı önündə
utanmayaq. 29 Əgər Onun saleh
olduğunu bilirsinizsə, həm də bilin ki,
saleh iş görən hər kəs Ondan doğulub.
3 [u]Görün Ata bizə necə məhəbbət
göstərib ki, biz Allahın övladları
adlanırıq! Doğrudan da, beləyik!
Dünya Onu tanımadığına görə bizi də
tanımır. 2 Ey sevimlilər, indi biz Allahın
övladlarıyıq, amma nə olacağımız hələ
üzə çıxmayıb. Lakin bilirik ki, Məsih
zühur edəndə biz Ona bənzəyəcəyik,
çünki Onu olduğu kimi görəcəyik. 3 Ona
bu cür ümid bağlayan hər kəs O pak
olduğu kimi özünü pak edir.
4 Günah edən hər kəs Qanunu da
pozar, çünki günah Qanunu pozmaqdır.
5 [v]Siz bilirsiniz ki, Məsih günahları
aradan qaldırmaq üçün zühur etdi.
Onda günah yoxdur. 6 Onda qalan hər
kəs günahını davam etdirməz. Günahını
davam etdirən hər kəs nə Onu görüb, nə
də Onu tanıyır.
7 Ey övladlar, heç kəs sizi aldatmasın;
saleh iş görən şəxs Məsihin saleh olduğu
kimi salehdir. 8 Günahını davam etdirən
şəxs iblisdəndir, çünki iblis başlanğıcdan
bəri günah edir. Allahın Oğlu buna görə
zühur etdi ki, iblisin əməllərini puça
çıxarsın. 9 Allahdan doğulan hər kəs
günahını davam etdirməz, çünki Allahın
toxumu onda qalır. O, günahını davam
etdirə bilməz, çünki Allahdan doğulub.
10 Kimin Allahın övladı, kiminsə iblisin
övladı olması bundan aydın olur:
saleh iş görməyən, həmçinin qardaşını
sevməyən hər kəs Allahdan deyil.

Bir-birimizi sevək

11 [w]Əvvəldən bəri eşitdiyiniz xəbər
budur: bir-birimizi sevək. 12 [x]Şərdən
olub qardaşını öldürən Qabil kimi
olmayaq. O, qardaşını niyə öldürdü?
Ona görə ki öz əməlləri şər, qardaşının
əməlləri isə saleh idi. 13 Beləliklə,
qardaşlar, dünya sizə nifrət edirsə,
heyrətlənməyin. 14 [y]Qardaşlarımızı
sevdiyimizə görə biz bilirik ki, ölümdən
həyata keçmişik. Sevməyənsə ölümdə
qalır. 15 Qardaşına nifrət edən hər kəs
qatildir. Bildiyiniz kimi, heç bir qatil
özündə qalan əbədi həyata malik deyil.
16 Məhəbbətin nə olduğunu bundan
anladıq ki, Məsih Öz canını bizim
üçün fəda etdi. Biz də öz canımızı
qardaşlarımız üçün fəda etməliyik.
17 Əgər kimsə dünya malına sahib
olarkən qardaşını ehtiyac içində görüb
ona rəhmi gəlmirsə, Allah məhəbbəti
onda necə qala bilər?
18 Ey övladlar, sözdə və dildə
deyil, əməldə və həqiqətdə sevək.
19–20 Bununla həqiqətdən olduğumuzu
biləcəyik və ürəyimiz bizi məhkum
edirsə, ürəyimizi Allahın önündə
sakitləşdirəcəyik. Çünki Allah bizim
ürəyimizdən üstündür və hər şeyi
bilir. 21 Ey sevimlilər, əgər ürəyimiz
bizi məhkum etmirsə, demək, Allahın
hüzurunda cəsarətlə danışa bilərik 22 və
Ondan nə diləyiriksə, alırıq. Ona görə
ki Onun əmrlərinə riayət edirik və
önündə Ona məqbul olan işlər görürük.
23 [z]Onun əmri də budur ki, biz Onun
Oğlu İsa Məsihin adına iman edək və
Onun bizə əmr etdiyi kimi bir-birimizi
sevək. 24 Onun əmrlərinə riayət edən
şəxs Allahda, Allah da onda qalır. Onun
bizdə qaldığını bu yolla, bizə verdiyi
Ruh vasitəsilə bilirik.

Ruhları sınayın

4 Ey sevimlilər, hər ruha inanmayın;
ruhların Allahdan olub-olmadığını
bilmək üçün onları sınaqdan keçirin.
Çünki dünyada çoxlu yalançı

---

[u] **3:1** Yəh. 1:12 [v] **3:5** Yəh. 1:29 [w] **3:11** Yəh. 13:34 [x] **3:12** Yar. 4:8
[y] **3:14** Yəh. 5:24 [z] **3:23** Yəh. 13:34; 15:12,17

peyğəmbər meydana çıxıb. 2 Allahın
Ruhunu bundan tanıya bilərsiniz: İsa
Məsihin cismən gəldiyini iqrar edən
hər ruh Allahdandır, 3 İsanı* iqrar
etməyən hər ruhsa Allahdan deyil. Bu,
«Məsih əleyhdarı»nın ruhudur ki, bu
ruhun gələcəyini eşitmisiniz və indi də
artıq dünyadadır. 4 Sizsə, ey övladlar,
Allahdansınız və yalançı peyğəmbərlərə
qalib gəlmisiniz. Çünki sizdə olan Ruh
dünyada olandan üstündür. 5 Onlar
dünyadandır, buna görə də dünyəvi
mövqedən danışırlar və dünya onlara
qulaq asır. 6 Bizsə Allahdanıq. Allahı
tanıyan bizə qulaq asır, Allahdan
olmayansa bizə qulaq asmır. Həqiqət
ruhunu və aldatma ruhunu bundan
tanıyırıq.

Allah məhəbbətdir

7 Ey sevimlilər, bir-birimizi sevək,
çünki məhəbbət Allahdandır. Sevən
hər kəs də Allahdan doğulub və Allahı
tanıyır. 8 Sevməyən kəs Allahı tanımır,
çünki Allah məhəbbətdir. 9 Allahın bizə
olan məhəbbəti belə zahir oldu: Allah Öz
vahid Oğlunu dünyaya göndərdi ki, biz
Onun vasitəsilə yaşayaq. 10 Məhəbbət
bizim Allahı sevməyimizlə bağlı deyil,
amma bundan ibarətdir: O bizi sevdi və
Öz Oğlunu bizim günahlarımıza görə
kəffarə qurbanı olaraq göndərdi. 11 Ey
sevimlilər, Allah bizi bu cür sevdiyi
üçün biz də gərək bir-birimizi sevək.
12 [a]Allahı heç kim heç zaman görməyib.
Əgər biz bir-birimizi sevsək, Allah bizdə
qalır və Onun məhəbbəti bizdə kamil
olur.
13 Bizim Onda, Onun da bizdə
qaldığını bundan bilirik ki, O bizə Öz
Ruhundan verib. 14 Biz görüb şahidlik
edirik ki, Ata Oğlunu dünyanın Xilaskarı
olaraq göndərdi. 15 Kim iqrar edir ki,
İsa Allahın Oğludur, Allah onda, o da
Allahda qalır. 16 Biz Allahın bizə olan
məhəbbətini anlayıb buna inandıq.
Allah məhəbbətdir. Kim məhəbbətdə
qalarsa, Allahda qalar, Allah da onda
qalar. 17 Məhəbbət bizdə ona görə kamil
oldu ki, qiyamət günündə† cəsarətimiz
olsun. Çünki Məsih necədirsə, biz də
bu dünyada eləyik. 18 Məhəbbətdə
qorxu yoxdur, əksinə, kamil məhəbbət
qorxunu qovar. Çünki qorxu cəzaya
aiddir, qorxan insan məhəbbətdə kamil
deyil.
19 Biz sevirik,‡ çünki öncə O bizi
sevdi. 20 Kim «mən Allahı sevirəm»
deyir, amma öz qardaşına nifrət edirsə,
yalançıdır. Axı gördüyü qardaşını
sevməyən görmədiyi Allahı sevə bilməz.
21 Bizim Ondan aldığımız əmr budur
ki, Allahı sevən gərək öz qardaşını da
sevsin.

Allahın Oğluna iman

5 İsanın Məsih olduğuna inanan
hər kəs Allahdan doğulub. Doğanı
sevən ondan doğulanı da sevir.
2 Biz Allahın övladlarını sevdiyimizi
bundan anlayırıq ki, Allahı sevib Onun
əmrlərinə əməl edirik. 3 [b]Çünki Allah
məhəbbəti Onun əmrlərinə riayət
etməyimizi tələb edir. Onun əmrləri isə
ağır deyil. 4 Çünki Allahdan doğulan
hər kəs dünyaya qalib gəlir. Bizə
dünya üzərində zəfər qazandıran öz
imanımızdır. 5 Dünyaya qalib gələn
kimdir? Əlbəttə ki, İsanın Allahın Oğlu
olmasına inanan!
6 Su və qanla gələn Şəxs həmin İsa
Məsihdir. O yalnız su ilə deyil, su və

*4:3 *İsanı* – bəzi əlyazmalarda *İsa Məsihin cismən gəldiyini.*
†4:17 *Qiyamət günündə* – hərfi tərcümədə *mühakimə günündə.*
‡4:19 *Sevirik* – bəzi əlyazmalarda *Onu sevirik.*

[a]4:12 Yəh. 1:18 [b]5:3 Yəh. 14:15

qanla gəldi. Buna şəhadət edən Ruhdur,
çünki Ruh həqiqətdir. 7 Bəli, üç şahid
var: 8 Ruh, su və qan.* Bunların üçü də
bir-birinə uyğun gəlir. 9 Biz insanların
şəhadətini qəbul edirik, amma Allahın
şəhadəti bundan üstündür. Çünki bu,
Allahın şəhadətidir; O Öz Oğlu barədə
şəhadət edib. 10 Allahın Oğluna iman
edən kəs öz daxilində bu şəhadətə
malikdir. Amma Allaha inanmayan Onu
yalançı yerinə qoyub. Çünki Allahın
Öz Oğlu barədə verdiyi şəhadətə
inanmayıb. 11 [c]Bu şəhadət ondan
ibarətdir ki, Allah bizə əbədi həyat verib
və bu həyat Onun Oğlundadır. 12 Oğula
malik olan şəxsin həyatı var, Allahın
Oğluna malik olmayan şəxsin isə həyatı
yoxdur.

Əbədi həyat

13 Bunları sizə – Allahın Oğlunun
adına iman edənlərə yazdım ki, əbədi
həyata malik olduğunuzu biləsiniz.†
14 Biz Onun hüzurunda ona görə
cəsarətlə danışa bilirik ki, Onun
iradəsinə uyğun nəsə dilədikdə O bizi
eşidir. 15 Bilirik ki, nə diləyiriksə, O
bizi eşidir; beləcə də bilirik ki, Ondan
dilədiklərimizi alırıq.
16 Əgər bir kəs qardaşının ölümə
aparmayan günah etdiyini görsə, qoy
Allahdan onun sağ qalmasını diləsin və
beləcə ona – ölümə aparmayan günah
edən kəsə həyat versin. Ölümə aparan
günah da var. Demirəm ki, bu barədə
Allahdan istəsin. 17 Hər cür haqsızlıq
günahdır, amma ölümə aparmayan
günah da var.
18 Bilirik ki, Allahdan doğulan hər
kəs günahını davam etdirməz. Əksinə,
Allahdan doğulan Oğul onu qoruyur və
şər olan ona toxuna bilmir. 19 Bilirik ki,
biz Allahdanıq, amma bütün dünya şər
olanın hakimiyyəti altındadır. 20 Bunu
da bilirik ki, Allahın Oğlu gəlib bizə
Haqq Olanı tanımaq üçün dərrakə
verdi. Biz də Haqq Olanda, Onun Oğlu
İsa Məsihdəyik. Həqiqi Allah və əbədi
həyat Odur.
21 Ey övladlar, özünüzü bütlərdən
qoruyun!

---

*5:8 *Bəli, üç şahid var:*
8 *Ruh, su və qan* – yunan dilində ilk nəşr olunan mətndə və bəzi tərcümələrdə *Bəli, göydə üç ş*

†5:13 *Biləsiniz* – bəzi əlyazmalarda *biləsiniz və Allahın Oğlunun adına inanasınız.*

[c]5:11 Yəh. 3:36

YƏHYANIN İKİNCİ MƏKTUBU

GİRİŞ

«Yəhyanın İkinci Məktubu» «ağsaqqal» tərəfindən «seçilmiş xanıma və onun övladlarına» ünvanlanıb. Yəqin ki burada imanlı cəmiyyəti və onun üzvləri nəzərdə tutulur. Qısa məktubda Yəhya imanlıları bir-birini sevməyə çağırır və onlara yanlış təlim yayanlar barədə xəbərdarlıq edir.

Kitabın məzmunu:

1:1-6 Məhəbbət və həqiqət
1:7-11 Yanlış təlimə qarşı xəbərdarlıq
1:12-13 Xudahafizləşmə

1 Mən ağsaqqaldan həqiqətə görə sevdiyim seçilmiş xanıma və onun övladlarına salam! Yalnız mən deyil, həqiqəti dərk edənlərin hamısı sizi sevir. 2 Çünki həqiqət daxilimizdə qalır və əbədi olaraq bizimlə olacaq. 3 Ata Allahdan və Atanın Oğlu İsa Məsihdən olan lütf, mərhəmət, sülh də həqiqət və məhəbbət əsasında bizimlə olacaq.

Məhəbbət və həqiqət

4 Sənin övladlarının arasında Atadan aldığımız əmrə uyğun olaraq həqiqətə görə həyat sürənlərə rast gələndə çox sevindim. 5 [d]Ey xanım, indi də səndən xahiş edirəm ki, bir-birimizi sevək. Sənə yazdığım yeni bir əmr deyil, əvvəldən bəri malik olduğumuz əmrdir. 6 Məhəbbət Atanın əmrlərinə görə həyat sürməyimizi tələb edir. Əvvəldən bəri eşitdiyiniz kimi əmr budur; gərək bu əmrə görə həyat sürəsiniz.

7 Çünki dünyada çoxlu yalançı meydana çıxıb ki, İsa Məsihin cismən gəldiyini iqrar etmir. Bunu edən şəxs yalançı və Məsih əleyhdarıdır. 8 Özünüzü qoruyun ki, bizim çəkdiyimiz zəhməti bada verməyib tam mükafatı əldə edəsiniz.* 9 Həddi aşıb Məsihin təliminə sadiq qalmayan hər kəs Allaha malik deyil, həmin təlimə sadiq qalan kəs isə həm Ataya, həm də Oğula malikdir. 10 Əgər bir kəs yanınıza gəlib sizə bu təlimi öyrətməsə, onu qonaq qəbul etməyin və onunla salamlaşmayın. 11 Çünki onunla salamlaşan kəs onun şər əməllərinə şərik olur.

Xudahafizləşmə

12 Sizə yazılası çox sözüm var, amma bunları kağız və mürəkkəblə bildirmək istəmədim. Lakin ümid edirəm ki, özüm yanınıza gəlib sizinlə üz-üzə söhbət edim və beləcə sevincimiz† tamam olsun.

13 Sənin seçilmiş bacının övladları sənə salam göndərir.

---

*1:8 *Bizim çəkdiyimiz zəhməti … əldə edəsiniz* – bəzi əlyazmalarda *öz çəkdiyiniz zəhməti … əldə edəsiniz,* bəzilərində isə *biz öz çəkdiyimiz zəhməti … əldə edək.*
†1:12 *Sevincimiz* – bəzi əlyazmalarda *sevinciniz.*

[d]1:5 Yəh. 13:34; 15:12,17

YƏHYANIN ÜÇÜNCÜ MƏKTUBU

GİRİŞ

«Yəhyanın Üçüncü Məktubu» cəmiyyətin Qay adlı bir rəhbərinə ünvanlanıb. Həvari Yəhya onu başqa məsihçilərə kömək etməsinə görə tərifləyir və Diotref adlı bir nəfərə xəbərdarlıq edir.

Kitabın məzmunu:

1:1-8 Qaya tərif və nəsihət
1:9-12 Diotref və Dimitri barədə
1:13-15 Xudahafizləşmə

1 [e]Mən ağsaqqaldan həqiqətə görə sevdiyim əziz Qaya salam!

Tərif və nəsihət

[2] Ey sevimli, dua edirəm ki, canın uğurlu olduğu kimi özün də hər cəhətdən uğurlu və sağlam olasan. [3] Bəzi qardaşlar gəlib sənin həqiqətə bağlılığına, yəni həqiqətə görə həyat sürdüyünə şəhadət edəndə mən çox sevindim. [4] Mənim üçün öz övladlarımın həqiqətə görə həyat sürdüyünü eşitməkdən böyük sevinc ola bilməz.

[5] Ey sevimli, sənə hətta yad olduqları halda qardaşlara xidmət etməkdə sədaqət göstərirsən. [6] Onlar cəmiyyətin qarşısında sənin məhəbbətin barədə şəhadət ediblər. Sən onları Allaha layiq bir tərzdə yola salarkən yaxşı iş görəcəksən. [7] Çünki onlar imansız olanlardan heç nə götürmədən Onun naminə yola çıxdılar. [8] Beləcə biz həqiqət işində həmkar olmaq üçün bu cür adamlara dayaq olmalıyıq.

[9] Cəmiyyətə bir şey yazdım, amma onların arasında başçılıq etməyi sevən Diotref bizim səlahiyyətimizi tanımır. [10] Buna görə də mən gələndə onun etdiyi əməllərlə bağlı məsələ qaldıracağam: o bizim barəmizdə pis sözlərlə qeybət edir, hətta bununla kifayətlənməyərək qardaşları özü qəbul etmir, qəbul etmək istəyənlərə də mane olur və onları cəmiyyətdən qovur.

[11] Ey sevimli, pislikdən yox, yaxşılıqdan nümunə götür. Yaxşılıq edən Allahdandır, pislik edənsə Allahı görməyib. [12] Hamı Dimitrinin yaxşı adam olduğuna şəhadət edir, həqiqətin özü də bunu təsdiq edir. Biz də buna şəhadət edirik və sən də bilirsən ki, bizim şəhadətimiz etibarlıdır.

Xudahafizləşmə

[13] Sənə yazılası çox sözüm var, amma bunları sənə qələm və mürəkkəblə yazmaq istəmirəm. [14] Amma ümid edirəm ki, tezliklə səni görəcəyəm və sənlə üz-üzə söhbət edəcəyəm.

[15] Sənə sülh olsun. Dostlar sənə salam göndərir. Oradakı dostlara bir-bir salam söylə.

---

[e]**1:1** Həv. 19:29; Rom. 16:23-24; 1Kor. 1:14-15

YƏHUDANIN MƏKTUBU

GİRİŞ

«Yəhudanın Məktubu» özlərini imanlı adlandıran yanlış təlim yayan müəllimlərə qarşıdır. Bu qısa məktub məzmunca Peterin ikinci məktubuna yaxındır. Müəllif burada imanlıları «əmanət edilən iman uğrunda mübarizə aparmağa» (1:3) çağırır.

Kitabın məzmunu:

1:1-2 Salamlama

1:3-16 Səhv təlim yayanların məhkumiyyəti

1:17-25 Xəbərdarlıq və nəsihətlər

1 [f]İsa Məsihin qulu, Yaqubun qardaşı mən Yəhudadan Ata Allahın sevdiyi,[*] İsa Məsih üçün qorunmuş olan çağırılanlara salam! [2] Mərhəmət, sülh və məhəbbət sizə bol-bol verilsin!

Günah və məhkumiyyət

(2Pet. 2:1-22)

[3] Sevimlilər, ümumi xilasımızla bağlı sizə yazmağa çox səy göstərirdim. Bu arada müqəddəslərə ilk və son dəfə əmanət edilən iman uğrunda mübarizə aparmağa sizi həvəsləndirmək üçün sizə yazmağı özümə borc bildim. [4] Çünki Allahımızın lütfünü pozğunluq üçün bəhanələrə çevirən, yeganə Pərvərdigarı – Rəbbimiz[†] İsa Məsihi inkar edən bəzi allahsız adamlar gizlicə aranıza girdilər. Onların mühakiməyə uğrayacaqları çoxdan yazılmışdır.

[5] [g]Bütün bunları bildiyiniz halda sizə xatırlatmaq istəyirəm ki, ilk və son dəfə xalqı[‡] Misirdən xilas edən Rəbb sonra iman etməyənləri məhv etdi. [6] [h]Öz başçılıqlarını saxlamayan, məskunlaşdığı yerləri tərk edən mələkləri də böyük qiyamət günü[§] üçün əbədi zəncirlərlə bağlayaraq zülmətdə saxlamışdı. [7] [i]Sodom, Homorra və ətrafdakı şəhərlər də özlərini buna bənzər tərzdə cinsi əxlaqsızlığa və qeyri-təbii münasibətlərə təslim etdilər; sonra bu şəhərlər əbədi odla yandırılma cəzasını çəkərək bir nümunə oldu.

[8] Eyni şəkildə aranıza girən bu röyagörənlər də öz cismini murdar edir, ağalığı rədd edir, ehtişamlı varlıqlara şər atırlar. [9] [j]Hətta baş mələk Mikael də Musanın cəsədi barəsində iblisin əleyhinə çıxıb ona şər söyləyərək hökm verməyə cəsarət etmədi, ancaq «Qoy Rəbb sənə qadağan etsin!» dedi. [10] Amma bu adamlar başa düşmədikləri hər şeyə şər atırlar. Onlar dərrakəsiz heyvanlar kimi qeyri-iradi surətdə nə anlayırlarsa, bunlarla məhv olurlar. [11] [k]Vay onların halına! Çünki onlar Qabilin yolu ilə getdilər. Qazanca görə özlərini Bilamın yalanına düçar etdilər. Qorah kimi üsyan qaldırdıqları üçün həlak oldular. [12] Belə adamlar sizin məhəbbət süfrələrinizi ləkələyirlər. Onlar sizinlə birlikdə yeyib-içərək qorxmadan özlərini bəsləyirlər. Bunlar küləklərin tərpətdiyi susuz buludlardır. Payızda meyvə vermədiyi üçün kökündən qoparılmış və iki dəfə ölmüş

---

[*] **1:1** *Allahın sevdiyi* – bəzi əlyazmalarda *Allahda təqdis edilib.*

[†] **1:4** *Rəbbimiz* – bəzi əlyazmalarda *Allahımız və Rəbbimiz.*

[‡] **1:5** *Bütün … xalqı* – bəzi əlyazmalarda *Bütün bunları başdan-başa bildiyiniz halda sizə xatırlatmaq istəyirəm ki, xalqı.*

[§] **1:6** *Böyük qiyamət günü* – hərfi tərcümədə *böyük günün mühakiməsi.*

[f] **1:1** Mat. 13:55; Mark 6:3 [g] **1:5** Çıx. 12:51; Say. 14:28-30 [h] **1:6** Yar. 6:1-4

[i] **1:7** Yar. 19:1-24 [j] **1:9** Qanun. 34:6; Dan. 10:13,21; 12:1; Zək. 3:2; Vəhy 12:7

[k] **1:11** Yar. 4:3-8; Say. 16:1-35; 22:1-35

ağaclardır. 13 Öz xəcalətini köpük kimi
sovuran şiddətli dəniz dalğalarıdır.
Səyyar ulduzlardır ki, onlar üçün Allah
qatı qaranlığı əbədi saxlayır.
14 [l]Adəmlə birlikdə yeddinci nəsil
sayılan Xanok da bu adamlara aid
peyğəmbərlik edərək demişdir:
«Budur, Rəbb saysız-hesabsız
müqəddəs mələkləri ilə gəldi ki,
15 hamını mühakimə etsin və* Allaha
qarşı gördükləri allahsız işlər və
allahsız günahkarların Özünə qarşı
inadkarcasına dedikləri bütün sözlər
üçün məhkum etsin». 16 Bu adamlar
deyinərək öz talelərindən gileylənirlər.
Onlar öz ehtiraslarına uyğun hərəkət
edirlər. Ağızlarından lovğa sözlər çıxır
və öz xeyirlərinə görə yaltaqlanırlar.

Xəbərdarlıq və nəsihətlər

17 Amma siz, ey sevimlilər, Rəbbimiz
İsa Məsihin həvarilərinin əvvəlcədən
söylədikləri sözləri xatırlayın. 18 [m]Onlar
sizə dedilər: «Axır zamanda öz allahsız
ehtiraslarına görə hərəkət edən
rişxəndçilər ortaya çıxacaq». 19 Bunlar
ayrılıq salan, öz təbiətinə əsir olan,
Ruha malik olmayan insanlardır.
20 Siz isə, sevimlilər, özünüzü ən
müqəddəs olan imanınızın təməli
üzərində inkişaf etdirin və Müqəddəs
Ruhun idarəsi ilə dua edin. 21 Rəbbimiz
İsa Məsihin əbədi həyata aparan
mərhəmətini gözləyərək özünüzü Allah
məhəbbətində qoruyun. 22 Şübhə edən
adamlara qarşı mərhəmətli olun;†
23 başqalarını oddan qaparaq xilas edin;
digərlərinə isə mərhəmət edin.‡ Amma
qorxu içində cismin ləkələdiyi paltardan
belə, çəkinin.
24 Sizi büdrəməkdən qoruyub Öz
izzətli hüzuruna böyük sevinclə
nöqsansız çıxarmağa qadir olan
25 Xilaskarımız, yeganə§ Allaha
Rəbbimiz İsa Məsih vasitəsilə əzəldən
bəri, indi və əbədi olaraq izzət, əzəmət,
qüdrət və səlahiyyət olsun! Amin.

---

*1:15 *Və* – bəzi əlyazmalarda *və bütün allahsız adamları.*
†1:22 *Qərarsız adamlara qarşı mərhəmətli olun* – bəzi əlyazmalarda *Dərrakəli olaraq bəzilərinə qarşı mərhəmətli olun.*
‡1:23 *Digərlərinə isə mərhəmət edin* – bəzi əlyazmalarda bu sözlər yoxdur.
§1:25 *Yeganə* – bəzi əlyazmalarda *yeganə və müdrik* (Rom. 16:27).

[l]**1:14** Yar. 5:18,21-24 [m]**1:18** 2Pet. 3:3-4

YƏHYAYA NAZİL OLAN

VƏHY

GİRİŞ

«Vəhy Kitabı» məsihçilərin İsa Məsihə Rəbb kimi iman etdiklərinə görə təqib olunduqları dövrdə yazılıb. Ehtimal olunur ki, kitab ya imperator Neronun hakimiyyətinin (miladdan sonra 54-68) son illərində ya da imperator Domisianın hakimiyyəti (miladdan sonra 81-96) dövründə yazılıb. Müəllifin əsas qayğısı imanlılara bu təqiblərdə və iztirablar zamanı təsəlli verməkdir. Kitabın böyük bir hissəsi rəmzi dillə təsvir olunmuş vəhy və görüntülərdən ibarətdir.

Bu kitabın izahına aid müxtəlif rəylər mövcud olsa da, əsas mövzu aydındır: İsa Məsih vasitəsilə Allah, nəhayət, Şeytan da daxil olmaqla düşmənlərini tamamilə məğlub edəcək. Allah tam qalib gələndə Öz sadiq övladlarını yeni göy və yeni yer xeyir-duaları ilə mükafatlandıracaq.

Kitabın məzmunu:

1:1-3 Giriş
1:4–3:22 Açıq görüntü və yeddi cəmiyyətə məktub
4:1–8:1 Yeddi möhürlü tumar
8:2–11:19 Yeddi şeypur
12:1–13:18 Əjdaha və iki heyvan
14:1–15:8 Müxtəlif görüntülər
16:1-21 Allahın hiddəti və yeddi kasa
17:1-18 Fahişə qadın
18:1-24 Babilin dağılması
19:1-21 Göylərdə sevinc
20:1-15 Minillik Padşahlıq
21:1–22:5 Yeni göy, yeni yer, yeni Yerusəlim
22:6-21 İsanın zühuru

1 Bu, İsa Məsihin vəhyidir. Allah bunu Ona verdi ki, tezliklə baş verməli hadisələri Öz qullarına aşkar etsin. Məsih də bunu Öz mələyi vasitəsilə qulu Yəhyaya göndərərək bəyan etdi. 2 Yəhya Allahın kəlamı və İsa Məsihin şəhadəti, yəni gördüyü hər şey barədə şəhadət etdi. 3 Nə bəxtiyardır bu peyğəmbərlik sözlərini oxuyan, eşidənlər və orada yazılanlara riayət edənlər! Çünki vaxt yaxındır.

Yeddi imanlılar cəmiyyətinə müraciət

4–5 [n]Mən Yəhyadan Asiya vilayətindəki yeddi imanlılar cəmiyyətinə salam! Var Olan, Var Olmuş və Gəlməli Olandan, Onun taxtının önündəki yeddi ruhdan, həmçinin ölülər arasından ilk doğulan, yer üzünün padşahlarının başçısı olan sadiq şahid İsa Məsihdən sizə lütf və sülh olsun!

Bizi sevən, Öz qanı bahasına bizi günahlarımızdan azad edərək* 6 bizdən bir padşahlıq təşkil edən və bizi Öz Atası Allah üçün kahinlər təyin edən Şəxsə əbədi olaraq izzət və qüdrət olsun! Amin.

7 [o]Budur, O, buludlarla gəlir!
Hər göz Onu görəcək,
Hətta Onun bədənini deşənlər də
Onu görəcək.
Yer üzünün bütün tayfaları
Onun üçün ah-nalə edəcək.
Bəli, belə olacaq. Amin.

---

*__1:4-5__ *Günahlarımızdan azad edərək* – bəzi əlyazmalarda *günahlarımızdan yuyaraq.*

[n]**1:4-5** Çıx. 3:14; 19:6; Zəb. 89:27; Yeş. 55:4; Vəhy 4:5; 5:10 [o]**1:7** Dan. 7:13; Zək. 12:10; Mat. 24:30; Mark 13:26; Luka 21:27; Yəh. 19:34,37; 1Sal. 4:17

8 [p]Var Olan, Var Olmuş və Gəlməli
Olan, Külli-İxtiyar Rəbb Allah deyir:
«Alfa və Omeqa* Mənəm!»
9 Əziyyətə, Allahın Padşahlığına və
dözümə sizinlə İsada şərik olan mən –
qardaşınız Yəhya Allahın kəlamından
ötrü və İsa barədə şəhadət etdiyimə
görə Patmos adlanan adada idim.
10 Rəbbin günü Ruhun təsirinə düşdüm.
Arxamdan şeypur səsinə bənzər uca
bir səsin belə söylədiyini eşitdim:
11 «Gördüyünü bir kitaba yaz və
bunu yeddi cəmiyyətə, yəni Efesə,
İzmirə, Berqamaya, Tiatiraya, Sarda,
Filadelfiyaya və Laodikeyaya göndər».
12 [q]Onda çevrildim ki, mənimlə
danışanın kim olduğunu görüm.
Çevrildikdə yeddi qızıl çıraqdan
gördüm. 13 Çıraqdanların arasında
uzun cübbə geymiş, sinəsinə qızıl
qurşaq bağlamış bəşər oğluna bənzər
Biri var idi. 14 Onun başı, saçı yun
və qar kimi ağ, gözləri isə odlu alov
kimi idi; 15 ayaqları kürədə xalis olan
pardaqlanmış tunc kimi idi, səsi də gur
suların sədasına bənzəyirdi. 16 O, sağ
əlində yeddi ulduz tutmuşdu, ağzından
ikiağızlı iti bir qılınc çıxırdı; Onun
üzü tam qüvvəsi ilə parlayan günəşə
bənzəyirdi.
17 [r]Mən Onu gördükdə ölü kimi
ayaqlarına düşdüm. O isə sağ əlini
mənim üstümə qoyub dedi: «Qorxma!
Birinci və Sonuncu Olan, 18 Diri Olan
Mənəm. Mən ölmüşdüm, indi isə
əbədi olaraq diriyəm. Ölümün və ölülər
diyarının açarları Məndədir. 19 Beləliklə,
öz gördüklərini, indi və bundan sonra
baş verəcək hadisələri yaz. 20 Mənim
sağ əlimdə gördüyün yeddi ulduzun və
yeddi qızıl çıraqdanın sirrinə gəlincə,
yeddi ulduz yeddi cəmiyyətin mələkləri,
yeddi çıraqdan da yeddi cəmiyyət
deməkdir.

Efesdəki cəmiyyət

2 Efesdə olan cəmiyyətin mələyinə
yaz:
Yeddi ulduzu sağ əlində
Tutan, yeddi qızıl çıraqdanın
arasında Gəzən belə deyir: 2 sənin
əməllərindən, zəhmətindən,
dözümündən və şər adamlara
dözmədiyindən xəbərdaram. Həvari
olmadıqları halda özlərini həvari
adlandıranları sınaqdan keçirdin və
onların yalançı olduğunu müəyyən
etdin. 3 Sən dözümlü oldun, Mənim
adım naminə tab gətirdin və
yorulmadın.
4 Amma səndən bir şikayətim var:
əvvəlki məhəbbətindən əl çəkmisən.
5 Buna görə də haradan yıxıldığını
yadına sal, tövbə et və əvvəl etdiyin
işləri gör. Əks təqdirdə, tövbə
etməsən, yanına gəlib† çıraqdanını
yerindən götürəcəyəm. 6 Amma
yaxşı ki sən nikolaçıların əməllərinə
nifrət edirsən; Mən də onlara nifrət
edirəm.
7 [s]Qulağı olan qoy eşitsin ki,
Ruh cəmiyyətlərə nə deyir. Qalib
gələnə Allahın cənnətində olan
həyat ağacından yeməyə imkan
verəcəyəm.

---

*1:8 *Alfa və Omeqa* – bəzi əlyazmalarda *Alfa və Omeqa, Başlanğıc və Axır* (Vəhy 21:6).
†2:5 *Yanına gəlib* – bəzi əlyazmalarda *tezliklə yanına gəlib.*

[p]**1:8** Çıx. 3:14; Vəhy 21:6; 22:13 [q]**1:12** Yez. 1:24; 43:2; Dan. 7:9,13; 10:5-6
[r]**1:17** Yeş. 44:6; 48:12; Vəhy 2:8; 22:13
[s]**2:7** Yar. 2:9; Yez. 28:13; 31:8; Vəhy 22:2

İzmirdəki cəmiyyət

8 [t]İzmirdə olan cəmiyyətin mələyinə yaz:

Birinci və Sonuncu Olan, ölüb yenidən Dirilən belə deyir: 9 sənin əziyyətindən* və yoxsulluğundan xəbərdaram, amma sən zənginsən. Yəhudi olduqlarını iddia edənlərin küfründən də xəbərdaram, amma onlar Yəhudi deyil, Şeytan yığıncağıdır. 10 Çəkəcəyin əzabdan heç qorxma. Bax iblis aranızdan bəzisini zindana atacaq ki, sınaqdan keçəsiniz. Siz on gün əziyyət çəkəcəksiniz. Ölüm bahasına olsa da, sadiq qal, Mən sənə həyat tacını verəcəyəm.

11 [u]Qulağı olan qoy eşitsin ki, Ruh cəmiyyətlərə nə deyir. Qalib gələn ikinci ölümdən heç zərər görməyəcək.

Berqamadakı cəmiyyət

12 Berqamada olan cəmiyyətin mələyinə yaz:

İkiağızlı iti qılıncı Olan belə deyir: 13 gör harada,† Şeytanın taxtı olan yerdə yaşadığın halda Mənim adıma bağlı qaldığından xəbərdaram. Barəmdə sədaqətlə şəhadət edən, aranızda, Şeytanın yaşadığı yerdə öldürülən Antipanın günlərində belə, Mənə olan imanından imtina etmədin.

14 [v]Amma səndən bir az şikayətim var: aranızda Bilamın təliminə bağlı olanlar var. O, Balaqı öyrətdi ki, İsrail övladlarını büdrədərək bütlərə təqdim olunan qurbanların ətini yeməyə və əxlaqsızlığa azdırsın. 15 Eləcə də sənin içində nikolaçıların bu cür təliminə bağlı olanlar var. 16 Buna görə də tövbə et. Yoxsa tezliklə sənin yanına gəlib ağzımdan çıxan qılıncla onlarla döyüşəcəyəm.

17 [w]Qulağı olan qoy eşitsin ki, Ruh cəmiyyətlərə nə deyir. Qalib gələnə Mən gizli‡ saxlanan mannadan verəcəyəm. Ona bir ağ daş da verəcəyəm ki, üstündə yeni ad yazılıb; bu adı da daşı alandan başqa heç kəs bilmir.

Tiatiradakı cəmiyyət

18 Tiatirada olan cəmiyyətin mələyinə yaz:

Gözləri odlu alova, ayaqları da pardaqlanmış tunca bənzəyən Allah Oğlu belə deyir: 19 sənin əməllərindən, məhəbbətindən, imanından, xidmətindən və dözümündən xəbərdaram; son işlərin də əvvəlkilərdən daha çoxdur.

20 [x]Amma səndən şikayətim var: sən özünü peyğəmbər adlandıran qadın İzevelə imkan verirsən ki, Mənim qullarıma əxlaqsızlıq və bütlərə təqdim olunan qurbanların ətini yeməyi öyrədərək onları aldatsın. 21 Mən ona möhlət verdim ki, tövbə etsin, amma əxlaqsızlığından tövbə etmək istəmir. 22 Bax onu xəstəlik yatağına salıram. Onunla zina edənlər birgə etdikləri əməllərdən

*2:9 *Əziyyətindən* – bəzi əlyazmalarda *əməllərindən, əziyyətindən.*
†2:13 *Gör harada* – bəzi əlyazmalarda *sənin əməllərindən və gör harada.*
‡2:17 *Gizli* – bəzi əlyazmalarda *yemək üçün gizli.*

[t]**2:8** Yeş. 44:6; 48:12; Vəhy 1:17; 22:13 [u]**2:11** Vəhy 20:14; 21:8
[v]**2:14** Say. 22:5,6; 25:1-3; 31:16; Qanun. 23:4 [w]**2:17** Çıx. 16:14-15,33-35; Yeş. 62:2; 65:15; Yəh. 6:31,48-50,58 [x]**2:20** 1Pad. 16:31; 2Pad. 9:22,30

tövbə etməsələr, onları da böyük
əziyyətə düçar edəcəyəm. 23 [y]Onun
övladlarını azara salıb öldürəcəyəm.
Bütün cəmiyyətlər də biləcək ki,
insanın daxilini və ürəyini araşdıran
Mənəm və hər birinizə əməllərinizə
görə əvəz verəcəyəm.
24 Amma siz Tiatirada olan
digərlərinə, yəni bu təlimi qəbul
etməyənlərə və Şeytanın dərin sirri
adlandırılan şeyləri öyrənməyənlərə
deyirəm: üstünüzə başqa bir yük
qoymuram; 25 ancaq Mən gəlincəyə
qədər özünüzdə olana bağlı qalın.
26 [z]Qalib gələnə və Mənim
buyurduğum işlərə sonadək riayət
edənə millətlər üzərində səlahiyyət
verəcəyəm.
27 "Dəmir əsa ilə onlara ağalıq edəcək,
Saxsı qablar kimi onları çilik-çilik
edəcək".
28 Bunu Atamdan necə aldımsa,
eləcə də ona verəcəyəm. Dan
ulduzunu da ona verəcəyəm.
29 Qulağı olan qoy eşitsin ki, Ruh
cəmiyyətlərə nə deyir.

Sarddakı cəmiyyət

3 Sardda olan cəmiyyətin mələyinə
yaz:
Allahın yeddi ruhuna və yeddi
ulduza malik Olan belə deyir:
sənin əməllərindən xəbərdaram.
Adın var ki, guya dirisən, əslində
isə ölüsən. 2 Oyaq ol və sağ qalıb
ölmək üzrə olan nəyin varsa, onu
möhkəmləndir. Çünki Mən sənin
əməllərinin Allahımın önündə
kamil olmadığını gördüm. 3 Buna
görə də nə aldığını və nə eşitdiyini
yadına sal. Bunlara riayət et və
tövbə elə. Əgər oyaq olmasan,
bir oğru kimi gələcəyəm və hansı
saat sənin üstünə gələcəyimi də
bilməyəcəksən.
4 Amma Sardda, sənin yanında öz
paltarlarını ləkələməyən bir neçə
şəxs də var. Onlar Mənimlə birlikdə
ağ paltarda gəzəcəklər, çünki
buna layiqdirlər. 5 Qalib gələn hər
kəs də ağ paltar geyinəcək. Mən
onun adını həyat kitabından əsla
silməyəcəyəm, Atamın və Onun
mələklərinin önündə adını iqrar
edəcəyəm. 6 Qulağı olan qoy eşitsin
ki, Ruh cəmiyyətlərə nə deyir.

Filadelfiyadakı cəmiyyət

7 [a]Filadelfiyada olan cəmiyyətin
mələyinə yaz:
Müqəddəs və Haqq Olan,
Davudun açarının Sahibi, açdığını
heç kəs bağlamayan, bağladığını
heç kəs açmayan belə deyir: 8 sənin
əməllərindən xəbərdaram. Bax Mən
sənin üzünə elə bir qapı açmışam
ki, heç kəs onu bağlaya bilməz.
Gücün az olduğu halda Mənim
sözümə riayət etmisən və Mənim
adımdan imtina etməmisən. 9 [b]İndi
isə Şeytan yığıncağından olub
Yəhudi olmadıqları halda özlərini
Yəhudi adlandıran yalançıları
məcbur edəcəyəm ki, gəlib sənin
ayaqlarına düşsünlər və Mənim
səni sevdiyimi bilsinlər. 10 Dözüm
göstərərək Mənim sözümə riayət
etmisən. Buna görə Mən də səni
yer üzündə yaşayanları sınamaq
üçün bütün dünyanın üzərinə
gələcək sınaq zamanından qoruyub
saxlayacağam. 11 Tezliklə gəlirəm.
Nəyin varsa, ona bağlı qal ki, heç
kəs tacını götürməsin.

---

[y] **2:23** Zəb. 7:9; 62:12; Yer. 17:10 [z] **2:26** Zəb. 2:8-9
[a] **3:7** Əyy. 12:14; Yeş. 22:22 [b] **3:9** Yeş. 43:4; 49:23; 60:14

12 [c]Qalib gələni Allahımın
məbədinə sütun qoyacağam və
bir daha oranı tərk etməyəcək.
Onun üzərinə Allahımın adını,
Allahıma məxsus şəhərin, yəni
göydən, Allahımın yanından enən
yeni Yerusəlimin adını və Öz yeni
adımı yazacağam. 13 Qulağı olan
qoy eşitsin ki, Ruh cəmiyyətlərə nə
deyir.

Laodikeyadakı cəmiyyət

14 [d]Laodikeyada olan cəmiyyətin
mələyinə yaz:
Amin Olan, sadiq və etibarlı
Şahid, Allahın yaratdıqlarının
Mənşəyi belə deyir: 15 sənin
əməllərindən xəbərdaram. Sən nə
soyuqsan, nə də isti. Kaş ki ya soyuq
ya da isti olaydın! 16 İndi ki nə
isti, nə də soyuq olub ilıqsan, səni
ağzımdan qaytaracağam. 17 Çünki
deyirsən: "Varlıyam, zəngin
olmuşam və heç nəyə möhtac
deyiləm". Amma bilmirsən ki, zəlil,
yazıq, yoxsul, kor və çılpaqsan.
18 Sənə məsləhət görürəm ki, zəngin
olmaq üçün Məndən od içində xalis
olan qızıl alasan, həmçinin geyinib
çılpaqlığının ayıbını açmamaq üçün
ağ paltar alasan, gözlərinə sürtüb
görmək üçün də göz məlhəmi
alasan. 19 [e]Mən kimi sevirəm, onu
məzəmmət və tərbiyə edirəm. Buna
görə də qeyrətə gəl və tövbə et.
20 Bax qapının önündə durub onu
döyürəm; kim səsimi eşidib qapını
açsa, onun yanına gələcəyəm və
Mən onunla, o da Mənimlə birgə
şam edəcəyik.
21 Qalib gələnə Mənimlə birgə
Öz taxtımda oturmağa imkan
verəcəyəm; Mən də eləcə qalib
gəlib Atamla birgə Onun taxtında
oturmuşam. 22 Qulağı olan qoy
eşitsin ki, Ruh cəmiyyətlərə nə
deyir».

Göydəki taxt

4 Bundan sonra gördüm ki, göyə
açılmış bir qapı var. Əvvəlcə
mənimlə danışdığını eşitdiyim, şeypura
bənzər səs dedi: «Bura qalx. Bundan
sonra baş verməli hadisələri sənə
göstərəcəyəm». 2 [f]Elə o an mən Ruhun
təsirinə düşdüm. Budur, göydə bir
taxt qurulub, taxtda da Biri oturub.
3 Oturanın görünüşü yəşəm və qırmızı
əqiq daşına bənzəyirdi. Taxtın ətrafında
da görünüşcə zümrüdə bənzəyən göy
qurşağı var idi. 4 Taxtın hər tərəfində
daha iyirmi dörd taxt var idi və onların
üstündə ağ paltar geyinmiş, başında
qızıl tac olan iyirmi dörd ağsaqqal
oturmuşdu. 5 [g]Taxtdan şimşək, uğultu
və göy gurultusu çıxırdı. Taxtın önündə
yeddi məşəl yanırdı; bunlar Allahın
yeddi ruhudur. 6 [h]Taxtın önündə sanki
büllura bənzəyən şüşə dəniz var idi.
Taxtın ətrafında, hər dörd yanında
önü də, arxası da gözlərlə örtülmüş dörd
canlı məxluq var idi. 7 Birinci məxluq
aslana, ikinci məxluq danaya, üçüncü
məxluqun üzü insan üzünə, dördüncü
məxluq da uçan qartala bənzəyirdi.
8 Bu dörd məxluqdan hər birinin altı
qanadı var idi; məxluqların hər tərəfi,
hətta qanadlarının alt tərəfi də gözlərlə
örtülmüşdü. Bu məxluqlar gecə-gündüz
dayanmadan deyir:
«Var Olmuş, Var Olan və Gəlməli
Olan,
Külli-İxtiyar Rəbb Allah

---

[c]**3:12** Yeş. 62:2; 65:15; Vəhy 21:2 [d]**3:14** Sül. 8:22
[e]**3:19** Sül. 3:12; İbr. 12:6 [f]**4:2** Yez. 1:26-28; 10:1 [g]**4:5** Çıx. 19:16; Yez. 1:13; Vəhy 1:4; 8:5; 11:19; 16:18 [h]**4:6** Yeş. 6:2-3; Yez. 1:5-10,18,22; 10:12,14

Müqəddəsdir, müqəddəsdir,
müqəddəsdir!»
9 Canlı məxluqlar hər dəfə taxtda
Oturana, əbədi Yaşayana izzət və şərəf
verib şükür edəndə 10 iyirmi dörd
ağsaqqal taxtda Oturanın önündə yerə
qapanıb əbədi Var Olana səcdə edir və
taclarını taxtın önünə atıb deyirlər:
11 «Ey bizim Rəbbimiz və Allahımız!
Sən izzət, şərəf və qüdrət almağa
layiqsən.
Çünki hər şeyi Sən yaratdın,
Hər şey Sənin iradənlə var olub
yarandı».

Möhürlü tumar və Quzu

5 [i]Mən taxtda Oturanın sağ əlində
bir tumar gördüm ki, onun hər iki
tərəfi də yazılmışdı və yeddi möhürlə
möhürlənmişdi. 2 Həmçinin gördüm
ki, qüdrətli bir mələk uca səslə elan
edir: «Tumarın möhürlərini qırmağa və
onu açmağa kim layiqdir?» 3 Amma nə
göydə, nə yer üzündə, nə də yer altında
bir kəs bu tumarı açmağı yaxud onun
içinə baxmağı bacarmadı. 4 Mən çox
ağladım, çünki tumarı açmağa yaxud
onun içinə baxmağa layiq olan bir kəs
tapılmadı. 5 [j]Onda ağsaqqallardan biri
mənə dedi: «Ağlama! Budur, Yəhuda
qəbiləsindən olan Aslan, Davudun Kökü
qalib gəlib; buna görə də O, tumarı və
onun yeddi möhürünü açа bilir».
6 [k]Gördüm ki, taxtla dörd canlı
məxluqun ortasında və ağsaqqalların
arasında bir Quzu dayanıb; O sanki
kəsilmiş vəziyyətdə idi. Onun yeddi
buynuzu və yeddi gözü var idi ki, bunlar
da bütün yer üzünə göndərilmiş Allahın
yeddi ruhudur. 7 Quzu yaxınlaşıb taxtda
Oturanın sağ əlindən tumarı götürdü.
8 [l]O, tumarı götürdüyü zaman dörd
canlı məxluq və iyirmi dörd ağsaqqal
Quzunun önündə yerə qapandı. Hər
birinin əlində çəng var idi və buxurla
dolu qızıl nimçələr tuturdular ki, bunlar
müqəddəslərin dualarıdır. 9 [m]Onlar yeni
bir nəğmə oxuyaraq deyirdi:
«Sən tumarı götürüb
Onun möhürlərini qırmağa layiqsən.
Çünki Sən kəsildin
Və hər tayfadan, dildən, xalqdan və
millətdən olanları*
Allah üçün Öz qanın bahasına satın
aldın.
10 Onları Allahımızla birgə
Padşahlığa və kahinliyə şərik etdin;
Onlar da yer üzünə padşahlıq edəcək».
11 [n]Taxtın, canlı məxluqların və
ağsaqqalların ətrafında saysız-hesabsız
mələk gördüm və onların səsini eşitdim.
12 Onlar uca səslə deyirdi:
«Kəsilmiş Quzu
Qüdrəti, sərvəti, hikməti, qüvvəti,
Şərəfi, izzəti və alqışı
Almağa layiqdir».
13 Həmçinin mən göydə, yer üzündə, yer
altında, dənizdə olan bütün məxluqların
və oralardakı bütün varlıqların belə
dediyini eşitdim:
«Taxtda Oturana və Quzuya əbədi
olaraq
Alqış, şərəf, izzət və qüdrət olsun!»
14 Dörd canlı məxluq da «Amin!»
deyirdi. Onda ağsaqqallar yerə qapanıb
səcdə etdilər.

Yeddi möhür

6 Mən gördüm ki, Quzu yeddi
möhürün birini açdı. Onda
dörd canlı məxluqdan birinin göy
gurultusuna bənzər səslə «gəl» dediyini

*5:9 *Olanları* – bəzi əlyazmalarda *olan bizi.*

[i]5:1 Yeş. 29:11; Yez. 2:9-10 [j]5:5 Yar. 49:9; Yeş. 11:1,10
[k]5:6 Yeş. 53:7; Zək. 4:10 [l]5:8 Zəb. 141:2
[m]5:9 Çıx. 19:6; Zəb. 33:3; 98:1; Yeş. 42:10; Vəhy 1:6 [n]5:11 Dan. 7:10

eşitdim. 2 [o]Gördüm ki, bir ağ at və onun
belində oturan atlının əlində ox-kaman
var. Ona bir tac verildi və bir qalib kimi
yola çıxdı ki, qələbə qazansın.
3 Quzu ikinci möhürü açanda ikinci
canlı məxluqun «gəl» dediyini eşitdim.
4 Onda ayrısı – od rəngində bir at
ortaya çıxdı. Onun belində oturan
atlıya izin verildi ki, yer üzündə sülhü
aradan götürsün və insanlara bir-birini
qırdırsın. Atlıya böyük bir qılınc verildi.
5 Quzu üçüncü möhürü açanda
üçüncü canlı məxluqun «gəl» dediyini
eşitdim. Gördüm ki, bir qara at və onun
belində oturan atlının əlində tərəzi var.
6 Dörd canlı məxluqun arasından sanki
bir səsin belə dediyini eşitdim: «Bir
xiniks buğda bir dinara, üç xiniks arpa
da bir dinaradır;* amma zeytun yağına
və şəraba ziyan vurma».
7 Quzu dördüncü möhürü açanda
dördüncü canlı məxluqun «gəl» dediyini
eşitdim. 8 [p]Gördüm ki, bir solğun rəngdə
at var. Onun belində oturan atlının
adı Ölüm idi. Ölülər diyarı da onun
ardınca gedirdi. Onlara yer üzünün
dörddə biri üzərində səlahiyyət verildi
ki, qılınc, aclıq, azar və yer üzündəki
vəhşi heyvanlarla insanları qırsınlar.
9 Quzu beşinci möhürü açanda
qurbangahın altında Allahın kəlamına
və etdikləri şəhadətə görə kəsilən
canları gördüm. 10 Onlar uca səslə
fəryad edirdi: «Ey müqəddəs və
haqq olan Pərvərdigar, nə vaxta
kimi mühakimə etməyib yer üzündə
yaşayanlardan qanımızın qisasını
almayacaqsan?» 11 Onda hər birinə ağ
xalat verilib deyildi ki, özləri ilə birgə
qulluq edən, onlar kimi öldürüləcək
bacı-qardaşlarının sayı tamam olana
qədər bir az vaxt da rahat olsunlar.
12 [q]Quzu altıncı möhürü açanda
gördüm ki, böyük bir zəlzələ baş verdi.
Günəş qıldan toxunan çul kimi qaraldı
və ayın rəngi bütünlüklə qan kimi oldu.
13 [r]Göydəki ulduzlar da əncir ağacının
güclü küləkdən sarsılıb kal meyvələrini
tökdüyü kimi yerə töküldü. 14 [s]Göy də
bükülən tumar kimi çəkilib getdi. Hər
dağ və ada yerindən tərpəndi. 15 [t]Onda
yer üzünün padşahları, böyük adamlar,
sərkərdələr, varlılar, güclülər, hər qul və
azad adam mağaralarda və dağlardakı
qayalar arasında gizlənib 16 [u]dağlara
və qayalara dedilər: «Üstümüzə qopub
düşün və bizi taxtda Oturanın üzündən,
Quzunun qəzəbindən gizlədin. 17 [v]Çünki
qəzəblərinin böyük günü gəlib çatdı və
ona qarşı kim dura bilər?»

Möhürlənmiş şəxslər

7 [w]Bundan sonra mən yer üzünün
dörd küncündə dayanan dörd
mələk gördüm. Onlar yer üzünün
dörd küləyini tutmuşdular ki, nə
quru, nə dəniz və nə də bir ağac
üstünə yel əssin. 2 [x]Gündoğan tərəfdən
qalxan başqa bir mələk də gördüm
ki, var olan Allahın möhürünə malik
idi. O, uca səslə quruya və dənizə
ziyan vurmaq izni verilmiş dörd
mələyi çağırıb dedi: 3 «Biz Allahımızın
qullarının alnını möhürləyənə qədər
quruya, dənizə və ağaclara ziyan
vurmayın». 4 Möhürlənmiş şəxslərin
sayını da eşitdim; İsrail övladlarının

*6:6 *Bir xiniks … dinaradır* – yəni bir litr buğda, yaxud üç litr arpa fəhlənin bir günlük əmək haqqına satılır.

[o]**6:2** Zək. 1:8; 6:2-3,6 [p]**6:8** Yez. 14:21 [q]**6:12** Yeş. 13:10; Yoel 2:10,31; 3:15; Mat. 24:29; Mark 13:24-25; Luka 21:25; Vəhy 11:13; 16:18 [r]**6:13** Yeş. 34:4 [s]**6:14** Vəhy 16:20 [t]**6:15** Yeş. 2:19-21 [u]**6:16** Huşə 10:8; Luka 23:30 [v]**6:17** Yoel 2:11; Mal. 3:2 [w]**7:1** Yer. 49:36; Dan. 7:2; Zək. 6:5 [x]**7:2** Yez. 9:4,6

bütün qəbilələrindən 144 000 nəfər
möhürlənmişdi:
5 Yəhuda qəbiləsindən 12 000
möhürlənmiş nəfər;
Ruven qəbiləsindən 12 000 nəfər;
Qad qəbiləsindən 12 000 nəfər;
6 Aşer qəbiləsindən 12 000 nəfər;
Naftali qəbiləsindən 12 000 nəfər;
Menaşşe qəbiləsindən 12 000 nəfər;
7 Şimeon qəbiləsindən 12 000 nəfər;
Levi qəbiləsindən 12 000 nəfər;
İssakar qəbiləsindən 12 000 nəfər;
8 Zevulun qəbiləsindən 12 000 nəfər;
Yusif qəbiləsindən 12 000 nəfər;
Binyamin qəbiləsindən 12 000
möhürlənmiş nəfər.
9 Bundan sonra mən gördüm ki, hər
millətdən, hər tayfadan, hər xalqdan
və hər dildən olan, heç kəsin saya
bilməyəcəyi böyük bir kütlə taxtın və
Quzunun önündə dayanıb. Onlar ağ
xalat geyinib, əllərində xurma budaqları
tutublar. 10 Uca səslə nida edirdilər:
«Xilas taxtda oturan Allahımıza və
Quzuya məxsusdur!»
11 Bütün mələklər də taxtın,
ağsaqqalların və dörd canlı məxluqun
ətrafında dayanmışdı. Onlar taxtın
önündə üzüstə yerə qapanaraq Allaha
səcdə edib dedilər:
12 «Amin! Allahımıza əbədi olaraq
Alqış, izzət, hikmət, şükür, şərəf,
Qüdrət və qüvvət olsun! Amin!»
13 Bu arada ağsaqqallardan biri
məndən soruşdu: «Ağ xalat geyinmiş
bu şəxslər kimdir və haradan gəliblər?»
14 [y]Ona dedim: «Ağa, bunu sən bilərsən».
O mənə dedi: «Bunlar böyük əziyyətdən
keçib gələnlərdir. Onlar öz xalatlarını
yuyub Quzunun qanı ilə ağartdılar.
15 Buna görə də
Onlar Allahın taxtının önündədir,
Gecə-gündüz məbədində Ona ibadət
edirlər.
Taxtda Oturan da
Onların üzərində məskən salacaq.
16 [z]Onlar bir daha nə ac,
Nə də susuz qalacaq,
Günəş və qızmar isti
Onları vurmayacaq.
17 Çünki taxtın ortasında olan Quzu
Onların Çobanı olacaq,
Onları həyat suyunun qaynaqlarına
aparacaq,
Allah onların bütün göz yaşlarını
siləcək».

Yeddinci möhür və qızıl buxurdan

8 Quzu yeddinci möhürü açanda
göydə təxminən yarım saat sükut
yarandı. 2 Onda mən Allahın önündə
dayanan yeddi mələyi gördüm. Onlara
yeddi şeypur verildi.
3 Başqa bir mələk də gəlib
qurbangahın önündə durdu. Onun
əlində qızıl buxurdan var idi və ona
çoxlu buxur verildi ki, bunu bütün
müqəddəslərin duaları ilə birgə
taxtın önündə olan qızıl qurbangahın
üstündə təqdim etsin. 4 Buxurun
tüstüsü müqəddəslərin duaları ilə birgə
mələyin əlindən Allahın önünə yüksəldi.
5 [a]Onda mələk buxurdanı götürüb
qurbangahdakı odla doldurdu və onu
yer üzünə atdı. Göy gurultusu, uğultu,
şimşək və zəlzələ baş verdi.

Altı şeypurun çalınması

6 Yeddi şeypuru olan yeddi mələk
onları çalmağa hazırlaşdı.
7 [b]Birinci mələk şeypurunu çaldı.
Onda qanla qarışıq dolu və od əmələ
gəlib yer üzünə yağdırıldı. Yer üzünün

---

[y]**7:14** Dan. 12:1; Mat. 24:21; Mark 13:19
[z]**7:16** Zəb. 23:1-2; Yeş. 25:8; 49:10; Yez. 34:23 [a]**8:5** Çıx. 19:16; Lev. 16:12; Yez. 10:2; Vəhy 11:19; 16:18 [b]**8:7** Çıx. 9:23-25; Yez. 38:22

üçdə biri, ağacların üçdə biri və bütün
yaşıl otlar yandırıldı.
8 İkinci mələk şeypurunu çaldı. Onda
sanki böyük bir dağ odla yanaraq
dənizin içinə atıldı. Dənizin üçdə
biri qana döndü. 9 Dənizdə olan canlı
məxluqların üçdə biri öldü. Gəmilərin
də üçdə biri məhv oldu.
10 [c]Üçüncü mələk şeypurunu çaldı.
Onda göydən məşəl kimi yanan böyük
bir ulduz enib çayların üçdə birinin və
su qaynaqlarının üstünə düşdü. 11 [d]O
ulduzun adına «Yovşan» deyilir. Suların
üçdə biri yovşana döndü. Çoxlu adam
sulardan öldü, çünki sular acı olmuşdu.
12 [e]Dördüncü mələk şeypurunu çaldı.
Onda günəşin, ayın və ulduzların üçdə
biri vuruldu; buna görə də onların
üçdə biri qaraldı. Gündüzün üçdə biri,
gecənin də elə o qədəri işıqsız qaldı.
13 Onda göyün ortasında uçan bir
qartal* gördüm və onun uca səslə belə
dediyini eşitdim: «Şeypurlarını çalacaq
o biri üç mələyin şeypur səslərindən
yer üzündə yaşayanların vay, vay, vay
halına!»
9 Beşinci mələk şeypurunu çaldı.
Onda mən göydən yerə düşmüş bir
ulduz gördüm. Dibsiz dərinliyə enən
quyunun açarı ona verildi. 2 [f]O, dibsiz
dərinliyə enən quyunu açdı və quyudan
iri bir kürənin tüstüsünə bənzər
tüstü çıxdı. Günəş və hava quyudan
çıxan tüstüdən qaraldı. 3 [g]Tüstünün
içindən yer üzünə çəyirtkələr çıxdı
və onlara yer üzündəki əqrəblərin
gücü qədər güc verildi. 4 [h]Onlara
deyildi ki, yer üzündəki otlara, heç bir
yaşıllığa, heç bir ağaca deyil, yalnız
alınlarında Allahın möhürü olmayan
insanlara zərər vursunlar. 5 Onlara
izin verildi ki, insanları öldürmədən
onlara beş ay işgəncə versinlər. Onların
verdiyi işgəncə əqrəbin insanı sancdığı
zaman olan işgəncəyə bənzəyir. 6 [i]O
günlərdə insanlar ölüm axtaracaq,
amma tapmayacaqlar. Özlərinə ölüm
arzulayacaqlar, amma ölüm onlardan
qaçacaq.
7 [j]Çəyirtkələrin görünüşü döyüşə
hazırlanan atlara bənzəyirdi. Başlarında
sanki qızıl tac var idi, üzləri də insan
üzü kimi idi. 8 [k]Onların qadınlarda olan
kimi saçları var idi, dişləri də aslan
dişləri kimi idi. 9 [l]Döş zirehləri dəmir
zirehlər kimi idi. Qanadlarının səsi
döyüşə qaçan çoxlu sayda arabalarla
atların səsinə bənzəyirdi. 10 Onların
əqrəb kimi quyruqları və neştərləri
var idi. Quyruqlarında elə gücləri
var idi ki, insanlara beş ay zərər verə
bilərdilər. 11 Dibsiz dərinliyin mələyi
onların üzərində padşahlıq edirdi;
onun adı ibranicə «Avaddon», yunanca
«Apollion»† idi.
12 Birinci bəla ötüb keçdi. Budur,
ondan sonra daha iki bəla gəlir.
13 [m]Altıncı mələk şeypurunu çaldı.
Onda mən Allahın önündəki qızıl
qurbangahın dörd buynuzundan gələn
bir səs eşitdim. 14 Bu səs şeypuru olan
altıncı mələyə deyirdi: «Böyük Fərat
çayının kənarında bağlanan dörd mələyi
burax». 15 Həmin o saat, o gün, o ay
və o il üçün hazırlanmış dörd mələk
buraxıldı ki, insanların üçdə birini
öldürsün. 16 Atlı qoşunların sayı iki
yüz milyon idi; mən onların sayını

*__8:13__ *Qartal* – bəzi əlyazmalarda *mələk*.
†__9:11__ *Apollion* – yəni Məhvedici.

[c]__8:10__ Yeş. 14:12 [d]__8:11__ Yer. 9:15
[e]__8:12__ Yeş. 13:10; Yez. 32:7; Yoel 2:10,31; 3:15 [f]__9:2__ Yar. 19:28
[g]__9:3__ Çıx. 10:12-15 [h]__9:4__ Yez. 9:4 [i]__9:6__ Əyy. 3:21; Yer. 8:3 [j]__9:7__ Yoel 2:4
[k]__9:8__ Yoel 1:6 [l]__9:9__ Yoel 2:5 [m]__9:13__ Çıx. 30:1-3; 37:25-26

eşitdim. 17 Mən görüntüdə atları və
onların belində oturan atlıları bu cür
gördüm: onların od, tünd göy və kükürd
rəngində döş zirehləri var idi, atların
başı aslan başı kimi idi və ağızlarından
od, tüstü və kükürd çıxırdı. 18 Bu üç
bəladan, yəni onların ağzından çıxan
od, tüstü və kükürddən insanların üçdə
biri həlak oldu. 19 Çünki atların gücü
onların ağzında və quyruğundadır.
Onların quyruğu başı olan ilana oxşayır
və atlar bu başlarla da zərər vururlar.
20 [n]Bu bəlalardan həlak olmayıb sağ
qalan adamlar öz əlləri ilə düzəltdikləri
şeylərdən dönüb tövbə etmədilər.
Cinlərə və görməyə, eşitməyə, yeriməyə
qadir olmayan qızıl, gümüş, tunc,
daş, taxta bütlərə səcdə etməkdən
əl çəkmədilər. 21 Həmçinin onlar nə
qatilliklərindən, nə sehrbazlıqlarından,
nə əxlaqsızlıqlarından, nə də
oğurluqlarından tövbə etdilər.

Mələk və kiçik tumar

10 Mən göydən enən başqa bir
güclü mələyi gördüm. O, buluda
bürünmüşdü və başının üstündə göy
qurşağı var idi. Üzü günəşə, ayaqları
da od sütununa bənzəyirdi. 2 Əlində
açılmış kiçik bir tumar var idi. O, sağ
ayağını dənizin üstünə, sol ayağını isə
quruya qoydu. 3 Aslan nəriltisinə bənzər
uca səslə nida etdi. O nida edəndə
yeddi göy gurultusu öz səsi ilə danışdı.
4 Yeddi göy gurultusu danışdığı zaman
mən yazmağa hazırlaşırdım ki, göydən
danışan bir səs eşitdim: «Yeddi göy
gurultusunun söylədiklərini möhürlü
saxla, onları yazma». 5 [o]Onda dənizdə
və quruda dayandığını gördüyüm mələk
sağ əlini göyə tərəf qaldırıb 6 əbədi
Var Olanın, göyü və oradakıları, yeri
və oradakıları, dənizi və oradakıları
Yaradanın adına and içərək dedi: «Daha
möhlət verilməyəcək, 7 amma yeddinci
mələyin şeypur çalacağı günlər Allahın
sirli niyyəti, qulları olan peyğəmbərlərə
açdığı kimi tam yerinə yetəcək».
8 [p]Göydən eşitdiyim səs yenə də
mənimlə danışıb belə dedi: «Get,
dənizdə və quruda dayanan mələyin
əlindəki açılmış kiçik tumarı götür».
9 Mən də mələyin yanına gedib ona
dedim ki, kiçik tumarı mənə versin.
O mənə dedi: «Onu götür, ye. O sənin
mədəndə acı, ağzında isə bal kimi
şirin olacaq». 10 Mən tumarı mələyin
əlindən götürüb yedim. O, ağzımda
bal kimi şirin idi, amma onu yeyəndən
sonra mədəmdə acılıq oldu. 11 Mənə
belə də deyildi: «Sən gərək yenə də
çoxlu xalq, millət, dil və padşah barədə
peyğəmbərlik edəsən».

İki şahid

11 [q]Mənə əsaya oxşayan bir qamış
verildi və mənə deyildi: «Qalx
Allahın məbədini, qurbangahı ölç və
orada səcdə edənləri say. 2 [r]Amma
məbədin bayır həyətini nəzərə alma və
oranı ölçmə. Çünki ora başqa millətlərə
verildi və onlar müqəddəs şəhəri qırx
iki ay tapdaq edəcək. 3 Öz iki şahidimi
göndərəcəyəm ki, çula bürünərək
həmin min iki yüz altmış gün ərzində
peyğəmbərlik etsinlər».
4 [s]Bunlar yer üzünün Sahibinin
önündə dayanan iki zeytun ağacı və
iki çıraqdandır. 5 Əgər kimsə onlara
zərər vurmaq istəsə, ağızlarından od
çıxıb düşmənlərini yandırıb-yaxır.
Beləcə onlara zərər vurmaq istəyən hər
kəs bu cür öldürülməlidir. 6 [t]Onların
göyü bağlamağa ixtiyarı var ki,

---

[n] **9:20** Zəb. 115:4-7; 135:15-17; Dan. 5:23 [o] **10:5** Qanun. 32:40; Dan. 12:7; Amos 3:7 [p] **10:8** Yez. 2:8–3:3 [q] **11:1** Yez. 40:3; Zək. 2:1-2 [r] **11:2** Luka 21:24 [s] **11:4** Zək. 4:3,11-14 [t] **11:6** Çıx. 7:17-19; 1Pad. 17:1; 1Sal. 4:8

peyğəmbərlik etdikləri günlər yağış
yağmasın. Həmçinin onların suları qana
döndərməyə və yer üzünə istədikləri
qədər hər cür bəla gətirməyə ixtiyarı
var.
7 [u]Onlar öz şəhadətlərini bitirdikdən
sonra dibsiz dərinlikdən çıxan vəhşi
heyvan onlarla döyüşəcək və onları
məğlub edib öldürəcək. 8 [v]Cəsədləri
onların Rəbbinin də çarmıxa çəkildiyi
böyük şəhərin baş küçəsinə səriləcək;
həmin şəhər rəmzi olaraq Sodom və
Misir adlanır. 9 Müxtəlif xalqlardan,
tayfalardan, dillərdən və millətlərdən
olan adamlar üç gün yarım onların
cəsədinə baxacaq və qəbirə qoyulmasına
yol verməyəcəklər. 10 Yer üzündə
yaşayanlar onların bu halına sevinib
bayram edəcək və bir-birlərinə
hədiyyələr göndərəcək. Çünki bu iki
peyğəmbər yer üzündə yaşayanlara
iztirab vermişdi. 11 [w]Lakin həmin üç
gün yarım bitəndə Allahdan gələn həyat
nəfəsi onların içinə girdi və onlar ayağa
qalxdı. Onda onları görənlərin canına
böyük qorxu düşdü. 12 [x]O iki peyğəmbər
göydən onlara «Bura qalxın!» deyən
uca bir səs eşitdilər və buludun içində
göyə qalxdılar. Düşmənləri də onlara
baxdı. 13 [y]O saat böyük bir zəlzələ
baş verdi və şəhərin onda biri dağıldı.
Zəlzələdə yeddi min nəfər həlak oldu,
qalanları isə qorxuya düşüb göydəki
Allahı izzətləndirdilər.
14 İkinci bəla ötüb keçdi. Budur,
tezliklə üçüncü bəla gəlir.

Yeddinci şeypur

15 [z]Yeddinci mələk şeypurunu çaldı.
Göydə belə deyən uca səslər eşidildi:
«Rəbbimiz və Onun Məsihi
Dünya üzərində Padşahlığa sahib
oldu!
O əbədi olaraq padşahlıq edəcək!»
16 Onda Allahın önündə öz taxtlarında
oturan iyirmi dörd ağsaqqal üzüstə yerə
qapanıb Allaha səcdə edərək 17 dedi:
«Ey Var Olan, Var Olmuş
Külli-İxtiyar Rəbb Allah,
Sənə şükür edirik!
Çünki Öz böyük qüdrətini alıb
Padşahlıq taxtına çıxdın.
18 [a]Millətlər qəzəbləndi,
Sənin də qəzəbinin vaxtı gəldi.
Ölüləri mühakimə etmək,
Sənin qulların olan
Peyğəmbərlərə, müqəddəslərə,
Sənin adından qorxanlara,
Kiçiklərə və böyüklərə mükafat
vermək,
Yer üzünü məhv edənləri
Məhv etmək vaxtı çatdı».
19 [b]Allahın göydəki məbədi açıldı və
Onun Əhd sandığı orada zahir oldu.
Onda şimşək, uğultu, göy gurultusu,
zəlzələ və güclü dolu gəldi.

Qadın və əjdaha

12 Göydə böyük bir əlamət zahir
oldu: günəşi əyninə geyinmiş,
ayaqları altında ay və başında on iki
ulduzlu tac olan bir qadın göründü.
2 O hamilə idi və doğmaq üzrə idi, ağrı
və iztirab çəkərək qışqırırdı. 3 [c]Göydə
başqa bir əlamət zahir oldu: yeddi
başlı, on buynuzlu, başlarının üstündə
də yeddi kiçik tac olan böyük və od
rəngində əjdaha göründü. 4 [d]Onun
quyruğu göy ulduzlarının üçdə birini
süpürüb yer üzünə atdı. Əjdaha
doğmağa hazırlaşan qadının önündə
dayandı ki, qadın doğan kimi onun

---

[u]**11:7** Dan. 7:7,21; Vəhy 13:1-7; 17:8 [v]**11:8** Yeş. 1:9-10
[w]**11:11** Yez. 37:10 [x]**11:12** 2Pad. 2:11 [y]**11:13** Vəhy 6:12; 16:18
[z]**11:15** Çıx. 15:18; Dan. 2:44; 7:14,27 [a]**11:18** Zəb. 2:5; 110:5; 115:13
[b]**11:19** Vəhy 8:5; 16:18,21 [c]**12:3** Dan. 7:7 [d]**12:4** Dan. 8:10

uşağını udsun. 5 [e]Qadın bir oğlan uşağı
doğdu ki, «dəmir əsa ilə bütün millətlərə
ağalıq edəcək». Bu uşaq Allahın və
Onun taxtının yanına qapılıb götürüldü.
6 Qadınsa çölə qaçdı. Orada onun min
iki yüz altmış gün bəslənməsi üçün
Allah tərəfindən hazırlanmış yeri var.
7 [f]Göydə döyüş oldu. Mikael və onun
mələkləri əjdaha ilə döyüşdü. Əjdaha
və onun mələkləri də onlarla döyüşdü,
8 amma gücləri çatmadı. Göydə artıq
onlara yer qalmadı. 9 [g]O böyük əjdaha –
iblis və Şeytan deyilən, bütün dünyanı
aldadan qədim ilan yer üzünə atıldı,
mələkləri də onunla birgə atıldı.
10 [h]Mən göydə uca bir səsin belə
dediyini eşitdim:
«İndi Allahımızın xilası, gücü,
Padşahlığı və
Onun Məsihinin hakimiyyəti həyata
keçdi.
Çünki bacı-qardaşlarımızı Allahımızın
önündə
Gecə-gündüz təqsirləndirən ittihamçı
kənara atıldı.
11 Onlar Quzunun qanı və öz şəhadət
sözləri vasitəsilə
Ona qalib gəldilər.
Hətta ölümlə üzbəüz olanda da
Öz canlarını sevmədilər.
12 Buna görə də, ey göylər və
Orada məskən salanlar, bayram edin!
Qurunun və dənizinsə vay halına!
Çünki iblis böyük hiddətlə yanınıza
endi,
Bilir ki, onun az vaxtı qalıb».
13 Əjdaha yer üzünə atıldığını görəndə
oğlan uşağı doğan qadının ardınca
düşdü. 14 [i]Amma qadına böyük qartalın
iki qanadı verildi ki, çölə – öz yerinə
uçsun və orada, ilandan kənarda bir
vaxt, vaxtlar və yarım vaxt ərzində
bəslənsin. 15 İlan qadının ardınca
ağzından sel kimi su püskürdü ki,
sel onu aparsın. 16 Lakin quru qadına
kömək etdi: quru ağzını açdı və
əjdahanın ağzından püskürdüyü seli
içib qurtardı. 17 Onda əjdaha qadına
qəzəbləndi, onun nəslindən Allahın
əmrlərinə riayət edən və İsa barədə
şəhadət edən başqaları ilə döyüşmək
üçün getdi 18 və dəniz sahilinin qumları
üzərində dayandı.*

Dənizdən çıxan vəhşi heyvan

13 [j]Dənizdən çıxan on buynuzlu
və yeddi başlı bir vəhşi heyvan
gördüm. Onun buynuzlarının üstündə
on kiçik tac var idi, başlarının
üzərində isə küfr olan adlar yazılmışdı.
2 Gördüyüm vəhşi heyvan bəbirə
oxşayırdı. Onun ayaqları ayı ayaqları
kimi, ağzı da aslan ağzı kimi idi.
Əjdaha ona öz gücünü, taxtını və
böyük səlahiyyət verdi. 3 Vəhşi
heyvanın başlarından biri sanki
ölümcül yaralanmışdı, ancaq o, ölümcül
yarasından sağaldı. Bütün yer üzü
heyrət içində vəhşi heyvanın ardınca
getdi. 4 Əjdahaya səcdə etdilər, çünki
vəhşi heyvana səlahiyyət verən o idi.
Həmçinin vəhşi heyvana səcdə edib
dedilər: «Kim bu vəhşi heyvana tay olar
və onunla döyüşə bilər?»
5 [k]Vəhşi heyvana lovğa və küfr
danışan bir ağız da verildi. Həm də
ona səlahiyyətini qırx iki ay icra
etmək izni verildi. 6 O, ağzını açdı ki,
Allaha küfr etsin, Onun adına, həmçinin
məskəninə, yəni göydə məskən salanlara

*12:18 *Və dəniz sahilinin qumları üzərində dayandı* – bəzi əlyazmalarda, 13-cü fəslin başlanğıcı olaraq *Mən dəniz sahilinin qumları üzərində dayandım.*

[e]**12:5** Zəb. 2:9; Yeş. 66:7 [f]**12:7** Dan. 10:13,21; 12:1; Yəhd. 9 [g]**12:9** Yar. 3:1; Luka 10:18 [h]**12:10** Əyy. 1:9-11; Zək. 3:1 [i]**12:14** Dan. 7:25; 12:7
[j]**13:1** Dan. 7:3-6; Vəhy 17:3,7-12 [k]**13:5** Dan. 7:8,25; 11:36

küfr söyləsin. 7 [l]Ona izin verildi ki,
müqəddəslərlə döyüşüb onlara qalib
gəlsin. Həmçinin ona bütün tayfalar,
xalqlar, dillər və millətlər üzərində
səlahiyyət verildi. 8 [m]Kəsilmiş Quzunun
həyat kitabına dünya yaranandan bəri
adı yazılanlardan savayı, yer üzündə
yaşayanların hamısı ona səcdə edəcək.
9 Kimin qulağı var, qoy eşitsin.
10 [n]Kim əsir olmalıdırsa,
Əsirliyə gedir,
Kim qılıncla öldürülməlidirsə,
Qılıncla öldürülür.*
Gərək müqəddəslərin dözümü və imanı
olsun.

Yerdən çıxan vəhşi heyvan

11 Mən yerdən çıxan başqa bir
vəhşi heyvan da gördüm. Onun quzu
buynuzuna oxşayan iki buynuzu var
idi, amma əjdaha kimi danışırdı.
12 O, birinci vəhşi heyvanın bütün
səlahiyyətini onun önündə icra edir,
yer üzünü və orada yaşayanları
ölümcül yarasından sağalan həmin
vəhşi heyvana səcdə etməyə məcbur
edir. 13 İkinci vəhşi heyvan böyük
əlamətlər göstərir, hətta insanların
önündə göydən yerə od yağdırır.
14 Birinci vəhşi heyvanın önündə
göstərilməsinə izin verilmiş əlamətlərlə
yer üzündə yaşayanları aldadaraq
onlara deyir ki, qılıncla yaralanan,
amma sağ qalan həmin vəhşi heyvanın
surətini yaratsınlar. 15 Ona həmin vəhşi
heyvanın surətinə nəfəs vermək qüdrəti
verildi ki, bu surət də danışsın və ona
səcdə etməyən hər kəsin öldürülməsini
əmr etsin. 16 İkinci vəhşi heyvan hamını
– böyükləri və kiçikləri, varlıları və
yoxsulları, azadları və qulları məcbur
edir ki, sağ əlləri yaxud alınları
damğalansın. 17 Beləcə bu damğanı,
yəni həmin vəhşi heyvanın adını ya da
adını təmsil edən sayı daşımayan bir
kəsə alıb-satmağa icazə verilmir. 18 Bu
işdə müdrik olmaq lazımdır. Kimin ağlı
var, qoy bu vəhşi heyvana məxsus sayı
hesablasın, çünki bu bir insanın sayıdır.
Onun sayı altı yüz altmış altıdır.

Quzu və 144 000 nəfər

14 [o]Mən gördüm ki, Quzu Sion
dağında durub. Onunla birlikdə
144 000 nəfər var idi. Onların alnında
Quzunun adı və Onun Atasının adı
yazılmışdı. 2 Mən göydən gur suların
sədasına və güclü göy gurultusuna
bənzər bir səs eşitdim. Eşitdiyim səs
çəng çalanların çənglərinin səsi kimi
idi. 3 Onlar taxtın, dörd canlı məxluqun
və ağsaqqalların önündə yeni bir
nəğmə oxuyurlar. Yer üzündən satın
alınmış bu 144 000 nəfərdən başqa
heç kəs bu nəğməni öyrənə bilmədi.
4 Bunlar özlərini qadınlarla ləkələməmiş
şəxslərdir, çünki bakirdirlər. Quzu
hara getsə, onlar da Onun ardınca
gedir. Onlar Allah və Quzu üçün
nübar olaraq insanlar arasından satın
alındı. 5 [p]Ağızlarından heç vaxt yalan
çıxmayıb, onlar ləkəsizdir.

Üç mələk

6 Mən göyün ortasında uçan başqa
bir mələk gördüm. O, yer üzündə
yaşayanlara – hər millətə, hər tayfaya,
hər dilə və hər xalqa yaymaq üçün
əbədi bir Müjdə gətirirdi. 7 Mələk uca
səslə deyirdi: «Allahdan qorxun, Ona
izzət verin! Çünki Onun mühakimə

---

*13:10 *Kim qılıncla … öldürülür* – bəzi əlyazmalarda *Kim başqalarını qılıncla öldürürsə, Özü də qılıncla öldürülməlidir.*

[l]**13:7** Dan. 7:21 [m]**13:8** Zəb. 69:28 [n]**13:10** Yer. 15:2; 43:11
[o]**14:1** Yez. 9:4; Vəhy 7:2-3 [p]**14:5** Sef. 3:13

edəcəyi vaxt gəldi. Göyü, yeri, dənizi və
su qaynaqlarını Yaradana səcdə edin!»
8 [q]İkinci mələk də onun ardınca
gələrək deyirdi: «Dağıldı, böyük Babil
dağıldı! O, əxlaqsızlığının coşğun
şərabını bütün millətlərə içirtmişdi».
9 [r]Bunların ardınca üçüncü bir mələk
də gələrək uca səslə deyirdi: «Kim vəhşi
heyvana və onun surətinə səcdə edib öz
alnının yaxud əlinin damğalanmasını
qəbul edərsə, 10 o da Allahın qəzəb
kasasına qarışıqsız tökülmüş coşğun
şərabından içəcək. Belələrinə müqəddəs
mələklərin və Quzunun önündə od və
kükürdlə işgəncə veriləcək. 11 [s]Onlara
verilən işgəncənin tüstüsü əbədi olaraq
qalxacaq. Vəhşi heyvana və onun
surətinə səcdə edib adına aid damğanı
qəbul edənlər gecə-gündüz rahatlıq
tapmayacaq».
12 Allahın əmrlərinə riayət edən
və İsaya imanına sadiq qalan
müqəddəslərin gərək dözümü olsun.
13 Onda göydən belə deyən bir səs
eşitdim: «Yaz: bundan sonra Rəbdə
ölənlər nə bəxtiyardır!» Ruh deyir:
«Bəli, onlar zəhmətlərindən ayrılıb
rahatlıq tapacaqlar, çünki əməllərinin
nəticəsi onların ardınca gedir».

Biçinin başlanması

14 [t]Mən gördüm ki, ağ bir bulud
var və buludun üstündə bəşər oğluna
bənzər Biri oturub. Onun başında
qızıl tac və əlində iti oraq var idi.
15 [u]Başqa bir mələk də məbəddən çıxıb
buludun üstündə Oturana uca səslə
dedi: «Orağını işə sal və biç. Çünki
yer üzündəki əkin yetişdiyi üçün biçin
zamanı gəldi». 16 Onda buludun üstündə
Oturan Öz orağını yer üzünə saldı və
yer üzü biçildi.
17 Başqa bir mələk də göydəki
məbəddən çıxdı. Onun əlində də iti oraq
var idi. 18 Od işinə məsul olan başqa bir
mələk də qurbangahdan çıxıb iti orağı
olan mələyə uca səslə nida etdi: «İti
orağını işə sal və yer üzündəki üzüm
tənəyindən salxımları kəs yığ, çünki
üzümləri yetişib». 19 Mələk orağını yer
üzünə salaraq yerdəki üzüm tənəyindən
üzümləri kəsib yığdı və Allah hiddətinin
böyük üzümsıxanına atdı. 20 [v]Üzümlər
şəhərdən kənarda olan üzümsıxanda
tapdalandı. Üzümsıxandan qan çıxdı
və at yüyənlərinə qədər qalxaraq 1600
stadiyə* bərabər məsafəyə axdı.

Bəla gətirən yeddi mələk

15 Mən göydə başqa bir böyük və
heyrətli əlamət – yeddi bəlanı
gətirən yeddi mələk gördüm. Bunlar
son bəlalardır, çünki Allahın hiddəti
bunlarla tamamlanırdı.
2 Sanki odla qarışıq şüşədən olan bir
dəniz gördüm. Vəhşi heyvana, onun
surətinə və adına aid saya qalib gələnlər
əllərində Allahın verdiyi çənglərlə şüşə
dənizin üstündə durub. 3 [w]Onlar Allahın
qulu Musanın nəğməsini və Quzunun
nəğməsini oxuyaraq deyir:
«Ey Külli-İxtiyar Rəbb Allah,
Sənin işlərin böyük və heyrətlidir.
Ey millətlərin Padşahı,†
Sənin yolların ədalətli və həqiqidir.
4 Ya Rəbb, kim Səndən qorxmaz,
Kim Sənin adını izzətləndirməz?
Çünki yalnız Sən müqəddəssən.

*14:20 *1 600 stadi* – təqribən 300 km.
†15:3 *Millətlərin Padşahı* – bəzi əlyazmalarda *əsrlərin Padşahı.*

[q]**14:8** Yeş. 21:9; Yer. 51:8; Vəhy 18:2
[r]**14:9** Yar. 19:24; Yeş. 51:17; Yez. 38:22
[s]**14:11** Yeş. 34:10
[t]**14:14** Dan. 7:13
[u]**14:15** Yoel 3:13
[v]**14:20** Yeş. 63:3; Mərs. 1:15; Vəhy 19:15
[w]**15:3** Çıx. 15:1; Zəb. 86:9; Yer. 10:7

Bütün millətlər gəlib
Sənin önündə səcdə edəcək,
Çünki Sənin ədalətli hökmlərin aşkar
oldu».
5 [x]Bundan sonra gördüm ki, göydəki
məbəd, yəni Şəhadət çadırı açıldı
6 və yeddi bəlanı gətirən yeddi mələk
məbəddən çıxdı. Onlar təmiz və parlaq
kətan paltar geyinmiş, sinələrinə qızıl
qurşaqlar bağlamışdı. 7 Onda dörd canlı
məxluqdan biri yeddi mələyə əbədi var
olan Allahın hiddəti ilə dolu yeddi qızıl
nimçə verdi. 8 [y]Məbəd Allahın izzət və
qüdrətinə görə tüstü ilə doldu. Beləcə
yeddi mələyin gətirdiyi yeddi bəla
tamam olana qədər heç kəs məbədə girə
bilmədi.

Allahın hiddətinin yeddi nimçəsi

16 Mən məbəddən yeddi mələyə
«gedin, Allahın hiddətinin yeddi
nimçəsini yer üzünə boşaldın» deyən
uca bir səs eşitdim.
2 [z]Birinci mələk gedib öz nimçəsini
quruya boşaltdı və vəhşi heyvanın
damğasını daşıyan, onun surətinə səcdə
edən adamlarda pis və ağrılı yaralar
əmələ gəldi.
3 İkinci mələk öz nimçəsini dənizə
boşaltdı və dəniz ölünün qanına bənzər
qatı qana döndü, dənizdə olan bütün
canlı varlıqlar məhv oldu.
4 [a]Üçüncü mələk öz nimçəsini
çaylara və su qaynaqlarına boşaltdı və
onlar qana döndü. 5 Onda mən sular
mələyinin belə dediyini eşitdim:
«Ey Var Olan, Var Olmuş, Müqəddəs
Olan,
Sən ədalətlisən ki, belə hökm
çıxartdın.
6 Çünki müqəddəslərin və
peyğəmbərlərin qanını tökdülər.
Sən də onlara içmək üçün qan verdin.
Onlar buna layiqdir».
7 Qurbangahdan gələn bir səs də
eşitdim:
«Bəli, ey Külli-İxtiyar Rəbb Allah,
Sənin hökmlərin həqiqi və
ədalətlidir».
8 Dördüncü mələk öz nimçəsini
günəşə boşaltdı və ona adamları odla
qarsalamaq gücü verildi. 9 Adamları
qızmar isti qarsaladı və onlar bu bəlaları
idarə edən Allahın adına küfr etdilər,
lakin tövbə edib Onu izzətləndirmədilər.
10 [b]Beşinci mələk öz nimçəsini vəhşi
heyvanın taxtına boşaltdı və onun
padşahlığını qaranlıq bürüdü. Adamlar
iztirabdan dillərini dişlərinə sıxdılar
11 və öz iztirab və yaralarına görə
göylərin Allahına küfr etdilər, lakin öz
əməllərindən tövbə etmədilər.
12 [c]Altıncı mələk öz nimçəsini
böyük Fərat çayına boşaltdı və onun
suyu qurudu ki, gündoğandan gələn
padşahlar üçün yol açılsın. 13 Gördüm
ki, əjdahanın ağzından, vəhşi heyvanın
ağzından və yalançı peyğəmbərin
ağzından qurbağaya bənzər üç natəmiz
ruh çıxır. 14 Bunlar əlamətlər göstərən
cin ruhlarıdır və bütün dünyanın
padşahlarının yanına gedirlər ki, onları
Külli-İxtiyar Allahın böyük günündə baş
verəcək döyüşə toplasınlar. 15 [d]Rəbb
deyir: «Budur, oğru kimi gəlirəm;
oyaq qalan, çılpaq gəzərək ayıbını
göstərməmək üçün paltarlarını əynində
saxlayan kəs nə bəxtiyardır!» 16 [e]Bu
ruhlar padşahları ibranicə Har-Magedon
adlanan yerə topladı.

---

[x]**15:5** Çıx. 38:21 [y]**15:8** Çıx. 40:34; 1Pad. 8:10-11; 2Saln. 5:13-14; Yeş. 6:4
[z]**16:2** Çıx. 9:10 [a]**16:4** Çıx. 7:17-21; Zəb. 78:44 [b]**16:10** Çıx. 10:21-23
[c]**16:12** Yeş. 11:15 [d]**16:15** Mat. 24:43-44; Luka 12:39-40; Vəhy 3:3
[e]**16:16** 2Pad. 23:29; Zək. 12:11

17 Yeddinci mələk öz nimçəsini
havaya boşaltdı və məbəddəki* taxtdan
«Tamam oldu!» deyən uca bir səs gəldi.
18 [f]Onda şimşək, uğultu, göy gurultusu
və böyük bir zəlzələ baş verdi. Zəlzələ
elə güclü idi ki, insanın yer üzündə
yaşamağa başladığı dövrdən bəri
bundan böyüyü olmamışdı. 19 [g]Böyük
şəhər üç yerə bölündü və millətlərin
şəhərləri dağıldı. Allah tərəfindən böyük
Babil yada salındı ki, Allahın şiddətli
qəzəb şərabı ilə dolu kasa ona verilsin.
20 [h]Bütün adalar aradan qalxdı və dağlar
yox oldu. 21 [i]Göydən adamların üstünə
hərəsinin çəkisi bir talant olan böyük
dolu dənələri yağdı. Adamlar dolu
bəlasına görə Allaha küfr etdilər, çünki
bu bəla çox şiddətli idi.

Fahişə qadın

17 [j]Yeddi nimçəsi olan yeddi
mələkdən biri gəlib mənimlə
danışdı və dedi: «Gəl, çoxlu suların
üzərində oturmuş bədnam fahişə barədə
çıxacaq hökmü sənə göstərim. 2 [k]Yer
üzünün padşahları onunla əxlaqsızlıq
etdilər və yer üzündə yaşayanlar onun
əxlaqsızlıq şərabından sərxoş oldular».
3 [l]O məni Ruhda çölə apardı. Orada
mən gördüm ki, bir qadın yeddi başlı,
on buynuzlu və üstündə başdan-başa
küfr adları yazılan al rəngli bir vəhşi
heyvanın belində oturub. 4 [m]Qadın tünd
qırmızı və al rəngli paltar geyinmiş,
qızıl, qiymətli daş və mirvari ilə
bəzənmişdi. Onun əlində iyrənc şeylər
və öz əxlaqsızlığının çirkabı ilə dolu
qızıl kasa var idi. 5 Alnında isə bu sirli ad
yazılmışdı: «Yer üzünün fahişələrinin və
iyrəncliklərinin anası olan böyük Babil».
6 Mən gördüm ki, qadın müqəddəslərin
qanından və İsaya şəhadət edənlərin
qanından sərxoş olub.

Bunu görüb hədsiz heyrətləndim.
7 Onda mələk mənə dedi: «Nə üçün
heyrətə düşdün? Mən sənə qadının və
onu daşıyan yeddi başlı, on buynuzlu
vəhşi heyvanın sirrini açacağam.
8 [n]Gördüyün vəhşi heyvan var olmuş,
indi yox olan və dibsiz dərinliklərdən
çıxmaq üzrə olaraq həlaka gedir. Yer
üzündə yaşayan və dünya yaranandan
bəri adı həyat kitabına yazılmamış
adamlar vəhşi heyvanı görəndə heyrətə
düşəcək, çünki o var olmuş, yox olan,
amma yenə gəlməli olandır. 9 Bu işdə
müdrik ağıl lazımdır. Yeddi baş qadının
oturduğu yeddi təpədir. Bunlar həm
də yeddi padşahdır. 10 Onlardan beşi
ölüb, biri qalıb, digəri isə hələ gəlməyib
və gələndə də qısa müddət qalmalıdır.
11 Bir zaman var olmuş, indi isə yox olan
vəhşi heyvan da səkkizinci padşahdır.
O, yeddi padşahdan biridir və həlaka
gedir. 12 [o]Gördüyün on buynuz hələ
padşahlıq etməyən on padşahdır.
Onlar vəhşi heyvanla birgə səlahiyyəti
ələ alıb bir saat padşahlıq edəcəklər.
13 Onların vahid bir niyyəti var, öz
qüdrət və səlahiyyətlərini vəhşi heyvana
təhvil verəcəklər. 14 Onlar Quzu ilə
döyüşəcəklər, lakin Quzu onlara qalib
gələcək. Çünki O, ağaların Ağası,
padşahların Padşahıdır və Onunla birgə
olanlar da çağırılmış, seçilmiş və sadiq
şəxslərdir».

15 Mələk mənə dedi: «Fahişənin
üzərində oturduğunu gördüyün sular –
xalqlar, kütlələr, millətlər və dillərdir.
16 Gördüyün vəhşi heyvan və on buynuz

*16:17 *Məbəddəki* – bəzi əlyazmalarda *göydəki məbəddə olan.*

[f]**16:18** Vəhy 8:5; 11:13,19 [g]**16:19** Yeş. 51:17 [h]**16:20** Vəhy 6:14
[i]**16:21** Çıx. 9:23-25; Vəhy 11:19 [j]**17:1** Yer. 51:13
[k]**17:2** Yeş. 23:17; Yer. 51:7 [l]**17:3** Vəhy 13:1 [m]**17:4** Yer. 51:7
[n]**17:8** Dan. 7:7; Vəhy 11:7 [o]**17:12** Dan. 7:24

isə fahişəyə nifrət edərək onu soyub
çılpaq qoyacaq, ətini yeyəcək və onu
odda yandıracaq. 17 Çünki Allah bunu
onların ürəyinə qoydu ki, Allahın
niyyətini yerinə yetirsinlər, həmfikir
olub Onun sözləri tamamlanana qədər
padşahlıqlarını vəhşi heyvana təhvil
versinlər. 18 Gördüyün qadın da yer
üzünün padşahları üzərində padşahlıq
edən böyük şəhərdir».

Babilin dağılması

18 Bundan sonra göydən enən
başqa bir mələyi gördüm. O,
böyük səlahiyyətə malik idi. Yer üzü
onun ehtişamı ilə işıqlandı. 2 [p]O, uca
səslə nida edib dedi:

«Dağıldı! Böyük Babil dağıldı!
O, cinlərin məskəni,
Hər cür natəmiz ruhun sığınacağı,
Hər cür murdar quşun yuvası,
Hər cür murdar və mənfur vəhşi
heyvanın oylağı oldu.*
3 [q]Çünki bütün millətlər
O qadının coşğun əxlaqsızlıq
şərabından içdi.†
Yer üzünün padşahları
Onunla əxlaqsızlıq etdi.
Dünyanın tacirləri
Onun şəhvətpərəstliyi ilə qazanılan
sərvətdən varlandı».

4 [r]Mən göydən belə deyən başqa bir
səs də eşitdim:

«Ey Mənim xalqım, oradan çıxın ki,
Onun günahlarına şərik olmayasınız,
Onun uğrayacağı bəlalara düçar
olmayasınız.
5 [s]Çünki onun günahları qalaqlanıb
göyə çatdı,
Allah onun haqsız işlərini yada saldı.
6 [t]O nə etdisə,‡
Siz də əvəzində ona belə edin.
Əməllərinin əvəzini ona ikiqat verin.
Tökdüyü kasadakı şərabın
İkiqatını töküb ona verin.
7 [u]Özünü nə qədər izzətləndirib
Şəhvətpərəstlik içində yaşadısa,
Ona o qədər də işgəncə və yas verin.
Çünki ürəyində deyir:
"Mən mələkə taxtında oturmuşam,
Dul deyiləm, əsla yas tutmayacağam".
8 Buna görə də bir günün içində
Onun üstünə bəlalar gələcək,
Azara, yasa, aclığa düçar olacaq, odda
yandırılacaq.
Çünki onu mühakimə edən Rəbb
Allah qüdrətlidir».

9 [v]Onunla əxlaqsızlıq edən və
şəhvətpərəstlik içində yaşayan yer
üzünün padşahları onun yanğınından
çıxan tüstünü görəndə onun üçün
ağlayıb ah-nalə edəcəklər. 10 Onun
çəkdiyi işgəncənin qorxusundan uzaqda
dayanıb deyəcəklər:

«Vay, vay halına, böyük şəhər,
Möhkəm şəhər Babil!
Çünki bir saat içində cəzan çatdı».

11 [w]Yer üzünün tacirləri də onun
üçün ağlayıb yas tutur, çünki onların
malını – 12 [x]qızıl, gümüş, qiymətli
daşlar və mirvariləri; incə kətan, ipək,

---

*18:2 *Hər cür murdar quşun … oylağı oldu* – bəzi əlyazmalarda *Hər cür murdar və mənfur quşun yuvası oldu.*
†18:3 *İçdi* – bəzi əlyazmalarda *içib dağıldı.*
‡18:6 *O nə etdisə* – bəzi əlyazmalarda *O sizə nə etdisə.*

[p]**18:2** Yeş. 13:19-21; 21:9; Yer. 50:39; 51:8; Vəhy 14:8
[q]**18:3** Yeş. 23:17; Yer. 51:7 [r]**18:4** Yeş. 48:20; Yer. 50:8; 51:6,45
[s]**18:5** Yar. 18:20-21; Yer. 51:9 [t]**18:6** Zəb. 137:8; Yer. 50:29
[u]**18:7** Yeş. 47:7-9 [v]**18:9** Yez. 26:16-18 [w]**18:11** Yez. 27:31,36
[x]**18:12** Yez. 27:12-13,22

tünd qırmızı və al rəngli parçaları; hər
cür ətirli ağacı; fil sümüyündən, ən
qiymətli ağacdan, tuncdan, dəmirdən
və mərmərdən olan hər cür əşyanı;
13 darçın, hil,* buxur, ətirli yağ və
kündürü; şərab, zeytun yağı, narın un
və buğdanı; mal-qara, qoyunlar, atlar və
arabaları; insan bədənləri və canlarını
da artıq heç kəs almır. 14 Onlar deyirlər:
«Ürəyinin arzuladığı bəhrələr əlindən
çıxdı,
Bütün cah-calallı malların yox oldu.
Heç kəs onları bir daha tapmayacaq».
15 yOrada bu mallarla varlanan
tacirlər bu şəhərin çəkdiyi işgəncənin
qorxusundan uzaqda dayanacaq və
ağlayıb yas tutaraq deyəcəklər:
16 «Vay, vay halına,
İncə kətan, tünd qırmızı, al rəngli
Parçalardan paltar geyən,
Qızıl, qiymətli daşlar və mirvarilərlə
Bəzənən böyük şəhər!
17 zÇünki bu qədər var-dövlət
Bir saat içində viran oldu».
Bütün gəmi rəisləri, sərnişinlər,
dənizçilər və dənizdə ticarət edənlərin
hamısı uzaqda dayanaraq 18 onun
yanğınından çıxan tüstüyə baxıb nida
edirdilər: «Hansı şəhər bu böyük şəhərə
tay ola bilər?» 19 Onlar başlarına toz
töküb fəryad edir və ağlayıb yas tutaraq
deyirdilər:
«Vay, vay halına,
Dənizdə gəmisi olanların hamısının
Oranın çox qiymətli malları ilə
Varlandığı böyük şəhər!
Çünki bir saat içində viran oldun».
20 aEy göylər,
Müqəddəslər, həvarilər və
peyğəmbərlər,
Onun halını bayram edin!
Onun sizin üçün çıxartdığı hökmü
Allah onun öz başına gətirdi.
21 bBir güclü mələk dəyirman daşı
boyda böyük bir daşı götürərək dənizə
atıb dedi:
«Böyük şəhər Babil də
Belə zorakılıqla yıxılacaq,
Bir daha görünməyəcək.
22 cÇəng çalanların, müğənnilərin,
Tütək və şeypur çalanların səsi
Artıq səndən gəlməyəcək.
Hər cür sənətlə məşğul olan sənətkar
Artıq səndə olmayacaq.
Dəyirman səsi də
Artıq səndən gəlməyəcək.
23 dÇıraq işığı
Artıq səndə görünməyəcək.
Bəy-gəlin sədası
Artıq səndən gəlməyəcək.
Çünki sənin tacirlərin
Yer üzünün böyük adamları idi,
Bütün millətlər
Sənin sehrbazlığınla aldanmışdı.
24 ePeyğəmbərlərin, müqəddəslərin və
Yer üzündə kəsilənlərin hamısının
qanı
O şəhərdə üzə çıxdı».

Göydə sevinc

19 Bundan sonra göydə böyük bir
kütlənin səsinə bənzər uca bir
səs eşitdim. Onlar deyirdi:
«Halleluya!†
Xilas, izzət və qüdrət
Allahımıza məxsusdur!
2 fÇünki Onun hökmləri
Həqiqi və ədalətlidir.
O, əxlaqsızlığı ilə yer üzünü azdıran
Böyük fahişəni mühakimə etdi,

*18:13 *Hil* – bəzi əlyazmalarda bu söz yoxdur.
†19:1 *Halleluya – Rəbbə həmd edin* deməkdir.

y**18:15** Yez. 27:31,36 z**18:17** Yeş. 23:14; Yez. 27:26-34 a**18:20** Qanun. 32:43; Yer. 51:48 b**18:21** Yer. 51:63-64 c**18:22** Yeş. 24:8; Yez. 26:13
d**18:23** Yer. 7:34; 16:19 e**18:24** Yer. 51:49 f**19:2** Qanun. 32:43; 2Pad. 9:7

Öz qullarının qanının qisasını
Ondan aldı».
3 [g]Onlar dedi:
«Halleluya!
Fahişədən çıxan tüstü əbədi olaraq
yüksəlir».
4 Onda iyirmi dörd ağsaqqal və dörd
canlı məxluq yerə qapanaraq taxtda
oturan Allaha səcdə edib dedi:
«Amin! Halleluya!»
5 [h]Taxtdan da belə bir səs gəldi:
«Ey Onun bütün qulları,
Böyükdən kiçiyə qədər
Ondan qorxanlar,
Allahımızı mədh edin!»
6 [i]Mən böyük bir kütlənin, gur suların
və güclü göy gurultusunun səsinə
bənzər bir səs də eşitdim. Bu səs deyirdi:
«Halleluya!
Çünki Külli-İxtiyar Rəbb Allahımız
Padşahlıq taxtına çıxdı!
7 Gəlin sevinib şad olaq,
Onu izzətləndirək!
Çünki Quzunun toyu başlayır.
Gəlini özünü hazırlayıb;
8 Geyinmək üçün ona
Təmiz, parlaq və incə kətan verildi».
İncə kətan müqəddəslərin saleh
əməllərinin rəmzidir.
9 [j]Onda mələk mənə dedi: «Yaz:
Quzunun toy ziyafətinə dəvət olunanlar
nə bəxtiyardır!» Yenə də mənə
dedi: «Bunlar Allahın həqiqi sözləridir».
10 Mən ona səcdə etmək üçün ayaqlarına
düşdüm. Amma o mənə dedi: «Yox,
olmaz! Mən də sənінlə və İsa barədə
şəhadət edən qardaşlarınla birgə Allahın
quluyam. Allaha səcdə et. Çünki İsanın
şəhadəti peyğəmbərlərə ilham verir».

Ağ atın Süvarisi

11 [k]Mən gördüm ki, göy yarılıb və
orada bir ağ at var. Onun belində
oturan Süvari Sadiq və Haqq adlanır
və ədalətlə hökm çıxararaq döyüşür.
12 [l]Onun gözləri odlu alova bənzəyir.
Başında çoxlu sayda kiçik tac var
və üzərində Özündən başqa heç
kəsin bilmədiyi bir ad yazılıb. 13 O,
qana batmış* bir paltar geyinib və
Onun adı Allahın Kəlamıdır. 14 Göydə
olan ordular ağ, təmiz və incə kətan
geyinərək ağ atların belində Onun
ardınca gedirdi. 15 [m]Onun ağzından
millətlərə zərbə vurmaq üçün iti bir
qılınc çıxır. O, «dəmir əsa ilə onlara
ağalıq edəcək». Külli-İxtiyar Allahın
şiddətli qəzəb şərabının hazırlandığı
üzümsıxanı Özü tapdalayacaq. 16 Onun
paltarının və budunun üstündə bu
ad yazılıb: «Padşahların Padşahı və
ağaların Ağası».
17 [n]Günəşdə dayanan bir mələyi də
gördüm. O, uca səslə nida edib göyün
ortasında uçan bütün quşlara dedi:
«Allahın böyük ziyafətinə gəlin. Bir yerə
yığılın ki, 18 padşahların, sərkərdələrin,
igidlərin ətini, atların və bellərində
oturan atlıların ətini, azadların və
qulların, böyük və kiçiklərin hamısının
ətini yeyəsiniz».
19 Mən gördüm ki, vəhşi heyvan,
yer üzünün padşahları və onların
orduları atın belində oturan Süvari
ilə və Onun qoşunu ilə döyüşməyə
toplaşıb. 20 [o]Vəhşi heyvan yaxalandı;
onun önündə əlamətlər göstərmiş,
bunlarla onun damğasını qəbul edib
surətinə səcdə edənləri aldatmış yalançı

*19:13 *qana batmış* – bəzi əlyazmalarda *üzərinə qan səpilmiş.*

[g]**19:3** Yeş. 34:10 [h]**19:5** Zəb. 115:13 [i]**19:6** Zəb. 93:1; 97:1; 99:1; Yez. 1:24
[j]**19:9** Mat. 22:2-3 [k]**19:11** Yeş. 11:4; Yez. 1:1 [l]**19:12** Dan. 10:6
[m]**19:15** Zəb. 2:9; Yeş. 63:3; Yoel 3:13; Vəhy 14:20 [n]**19:17** Yez. 39:17-20
[o]**19:20** Vəhy 13:1-18

peyğəmbər də yaxalandı. Hər ikisi
diri-diri kükürdlə yanan od gölünə
atıldı. 21 Başqaları isə atın belində
oturan Süvarinin ağzından çıxan
qılıncla həlak oldu. Bütün quşlar da
onların ətini yeyib doydu.

Minillik Padşahlıq

20 Mən göydən enən bir mələyi
gördüm. Onun əlində dibsiz
dərinliyin açarı və böyük bir zəncir
var idi. 2 [p]O, əjdahanı – iblis və Şeytan
deyilən o qədim ilanı tutub min il
müddətinə zəncirlədi. 3 Onu dibsiz
dərinliyə atdı və qapısını bağlayıb
möhürlədi ki, min il bitənə qədər
millətləri daha aldada bilməsin. Bundan
sonra isə o, qısa bir müddətə azad
edilməlidir.
4 [q]Taxtları və onların üzərində
oturanları da gördüm. Onlara hökm
etmək ixtiyarı verildi. İsa barədə
şəhadət və Allahın kəlamı uğrunda
boynu vurulmuş canları da gördüm.
Vəhşi heyvana və onun surətinə səcdə
etməyib alınlarına və əllərinə damğanı
qəbul etməmişdilər. Onlar dirilib
Məsihlə birgə min il padşahlıq etdi.
5 Bu, birinci dirilmədir. Qalan ölülərsə
min il bitməyincə dirilmədi. 6 Birinci
dirilmədə iştirak edənlər bəxtiyar və
müqəddəsdir. İkinci ölümün onlar
üzərində səlahiyyəti yoxdur. Əksinə,
onlar Allahın və Məsihin kahinləri olub
Onunla birgə min il padşahlıq edəcək.

Şeytanın cəzalandırılması

7 Min il bitəndən sonra Şeytan atıldığı
zindandan azad ediləcək. 8 [r]Oradan
çıxacaq ki, yer üzünün dörd tərəfində
olan millətləri – Qoq və Maqoqu*
aldadıb döyüşə toplasın; onların sayı
dəniz qumu qədər çoxdur. 9 Onlar
yer üzünün hər tərəfinə hücum edib
müqəddəslərin düşərgəsini və sevimli
şəhəri mühasirəyə aldılar. Lakin
göydən† od düşüb onları yandırıb-yaxdı.
10 Onları aldadan iblis də vəhşi heyvanın
və yalançı peyğəmbərin atıldığı yerə
– odlu kükürd gölünə atıldı. Bunlar
gecə-gündüz, əbədi olaraq işgəncə
çəkəcək.

Ölülərin mühakiməsi

11 [s]Böyük ağ taxt və onun üstündə
Oturanı gördüm. Yer və göy Onun
önündən qaçdı və onlara yer tapılmadı.
12 Mən gördüm ki, böyükdən kiçiyə
qədər ölülər taxtın önündə dayanıb.
Kitablar açıldı və həyat kitabı olan başqa
bir kitab da açıldı. Ölülər kitablarda
yazılanlara əsasən öz əməllərinə görə
mühakimə olundu. 13 Dəniz öz içində
olan ölüləri, ölüm və ölülər diyarı da öz
qoynunda olan ölüləri təslim etdi. Hər
biri öz əməlinə görə mühakimə olundu.
14 Ölüm və ölülər diyarı odlu gölə atıldı.
Bu odlu göl ikinci ölümdür. 15 Kimin
adı həyat kitabına yazılmayıbsa, o, odlu
gölə atıldı.

Yeni göy və yeni yer

21 [t]Mən yeni bir göy və yeni bir
yer gördüm. Çünki əvvəlki yerlə
əvvəlki göy keçib getmişdi, dəniz də
artıq yox idi. 2 [u]Mən müqəddəs şəhərin
– yeni Yerusəlimin göydən, Allahın
yanından endiyini gördüm. Şəhər
öz bəyi üçün bəzədilmiş gəlin kimi

---

*20:8 *Qoq və Maqoqu* – yaxud *Yəcuc-Məcucu.*
†20:9 *Göydən* – bəzi əlyazmalarda *göydən, Allahın önündən.*

[p]20:2 Yar. 3:1 [q]20:4 Dan. 7:9,22 [r]20:8 Yez. 7:2; 38:2,9,15
[s]20:11 Dan. 7:9-10 [t]21:1 Yeş. 65:17; 66:22; 2Pet. 3:13
[u]21:2 Yeş. 52:1; 61:10; Vəhy 3:12

hazırlanmışdı. 3 [v]Taxtdan* belə deyən
uca bir səs eşitdim: «Budur, Allahın
məskəni insanların arasındadır. Allah
onlarla birgə məskən salacaq; onlar
Onun xalqı olacaq, Allah Özü onların
Allahı olaraq† aralarında yaşayacaq.
4 [w]Allah onların bütün göz yaşlarını
siləcək. Artıq ölüm olmayacaq. Yas,
nalə və ağrı bir daha olmayacaq. Çünki
əvvəlki şeylər keçib getdi».
5 Taxtda Oturan dedi: «Budur, Mən
hər şeyi yenidən qururam». Yenə
dedi: «Yaz, çünki bu sözlər etibarlı və
həqiqidir». 6 [x]O mənə dedi: «Tamam
oldu! Alfa və Omeqa, Başlanğıc və Axır
Mənəm. Mən susayana həyat suyunun
qaynağından müftə su verəcəyəm.
7 [y]Qalib gələn bunları irs alacaq; "Mən
ona Allah, o isə Mənə oğul olacaq".
8 Qorxaqların, imansızların, iyrənclərin,
qatillərin, əxlaqsızların, sehrbazların,
bütpərəstlərin və bütün yalançıların
aqibəti isə od və kükürdlə yanan göldə
olacaq; bu, ikinci ölümdür».

Yeni Yerusəlim

9 Son yeddi bəla ilə dolu yeddi
nimçəsi olan yeddi mələkdən biri gəlib
mənimlə danışaraq dedi: «Gəl, mən
sənə Quzunun arvadı olacaq gəlini
göstərim». 10 [z]O məni Ruhda böyük və
uca bir dağın başına apardı. Oradan
mənə göydən, Allahın yanından enən
müqəddəs‡ şəhəri, Yerusəlimi göstərdi.
11 Allahın ehtişamı orada idi; oradakı
işıq ən qiymətli daş – büllur yəşəm daşı
kimi parıldayırdı. 12 [a]Oranın böyük və
uca divarı, on iki darvazası var idi.
Darvazalarda on iki mələk durmuşdu.
Darvazaların üstündə İsrailin on iki
qəbiləsinin adı həkk olunmuşdu.
13 Şərqdə üç darvaza, şimalda üç
darvaza, cənubda üç darvaza və qərbdə
üç darvaza var idi. 14 Şəhər divarının on
iki təməli var idi və təməllərin üstündə
Quzunun On İki həvarisinin adı var idi.
15 [b]Mənimlə danışan mələyin
əlində şəhəri, oranın darvazalarını və
divarını ölçmək üçün bir qızıl ölçü
qamışı var idi. 16 Şəhər dördbucaqlı
şəklində idi və oranın uzunluğu
eninə bərabərdir. Mələk qamışla
şəhəri ölçdü: oranın uzunluğu, eni
və hündürlüyü bərabər olub 12 000
stadi§ idi. 17 O, şəhərin divarını da
ölçdü: onun hündürlüyü mələyin
istifadə etdiyi insan ölçüsünə görə 144
qulac** idi. 18 [c]Divar yəşəm daşından
tikilmişdi, şəhər isə şəffaf şüşəyə bənzər
saf qızıldan idi. 19 Şəhər divarının
təməlləri hər cür qiymətli daşla – birinci
təməl yəşəmlə, ikincisi göy yaqutla,
üçüncüsü əqiqlə, dördüncüsü zümrüdlə,
20 beşincisi damarlı əqiqlə, altıncısı
qırmızı əqiqlə, yeddincisi sarı yaqutla,
səkkizincisi berillə, doqquzuncusu
topazla, onuncusu zəbərcədlə, on
birincisi sirkonla, on ikincisi ametistlə
bəzədilmişdi. 21 On iki darvaza on
iki mirvaridən idi, hər darvaza bir
mirvaridən düzəldilmişdi. Şəhərin baş
küçəsi isə şüşə kimi şəffaf olan xalis
qızıldan idi.

---

*21:3 *Taxtdan* – bəzi əlyazmalarda *Göydən.*
†21:3 *Onların Allahı olaraq* – bəzi əlyazmalarda bu sözlər yoxdur.
‡21:10 *Müqəddəs* – bəzi əlyazmalarda *böyük müqəddəs.*
§21:16 *12 000 stadi* – təqribən 2 200 kilometr.
**21:17 *144 qulac* – təqribən 65 metr.

[v]**21:3** Lev. 26:11,12; Yez. 37:27 [w]**21:4** Yeş. 25:8; 65:19 [x]**21:6** Yeş. 55:1
[y]**21:7** 2Şam. 7:14; Zəb. 89:26-27 [z]**21:10** Yez. 40:2 [a]**21:12** Yez. 48:30-34
[b]**21:15** Yez. 40:3 [c]**21:18** Yeş. 54:11-12

22 Mən orada məbəd görmədim, çünki
oranın məbədi Külli-İxtiyar Rəbb Allah
və Quzudur. 23 [d]Şəhərin işıqlanması
üçün nə günəşə, nə də aya ehtiyacı
var, çünki Allahın ehtişamı oranı
işıqlandırır, Quzu da oranın çırağıdır.
24 [e]Millətlər şəhərin işığında gəzəcək,
yer üzünün padşahları cah-calalını*
oraya gətirəcək. 25 [f]Oranın darvazaları
gündüz heç bağlanmayacaq, orada
gecə olmayacaq. 26 Millətlərin cah-calal
və şərəfi oraya gətiriləcək. 27 [g]Oraya
murdar olan heç bir şey, iyrənc iş
görən və yalan danışan heç kim əsla
girməyəcək, yalnız adları Quzunun
həyat kitabına yazılanlar girəcək.

22 [h]Mələk mənə həyat suyu†
axan çayı göstərdi. Bu çay
büllur kimi parlaq olub Allahın və
Quzunun taxtından çıxır 2 [i]və şəhərin
baş küçəsinin ortasından axırdı. Çayın
hər iki tayında on iki cür meyvə gətirən
həyat ağacı var idi. O ağac hər ay meyvə
gətirir. Onun yarpaqları millətlərə şəfa
vermək üçündür. 3 [j]Daha lənətlənən heç
bir şey olmayacaq. Allahın və Quzunun
taxtı orada olacaq və qulları Ona ibadət
edəcək. 4 Onlar Onun üzünü görəcək,
alınlarında Onun adını daşıyacaqlar.
5 [k]Artıq gecə olmayacaq, heç kəsin çıraq
və günəş işığına ehtiyacı olmayacaq.
Çünki Rəbb Allah onlara işıq verəcək və
onlar əbədi olaraq padşahlıq edəcək.

İsanın zühuru

6 Mələk mənə dedi: «Bu sözlər etibarlı
və həqiqidir. Peyğəmbərlərin ruhlarına
ilham verən Rəbb Allah mələyini
göndərib ki, Öz qullarına tezliklə baş
verməli hadisələri göstərsin». 7 İsa deyir:
«Budur, tezliklə gəlirəm! Bu kitabın
peyğəmbərlik sözlərinə riayət edən kəs
nə bəxtiyardır!»
8 Mən Yəhya bunları eşitdim və
gördüm. Eşidib gördükdə bunları mənə
göstərən mələyə səcdə etmək üçün
onun ayaqlarına düşdüm. 9 Amma o
mənə dedi: «Yox, olmaz! Mən səninlə,
peyğəmbər qardaşlarınla və bu kitabın
sözlərinə riayət edənlərlə birgə Allah
quluyam. Allaha səcdə et». 10 Yenə də
mənə dedi: «Bu kitabın peyğəmbərlik
sözlərini möhürləmə, çünki vaxt
yaxındır. 11 [l]Haqsızlıq edən qoy daha da
haqsızlıq etsin. Murdar olan daha da
murdarlansın. Saleh olansa qoy daha da
saleh işlər görsün. Müqəddəs olan daha
da müqəddəs olsun».
12 [m]İsa deyir: «Budur, tezliklə gəlirəm.
Verəcəyim mükafat Mənimlədir və hər
kəsə öz əməlinə görə əvəz verəcəyəm.
13 [n]Alfa və Omeqa, Birinci və Sonuncu,
Başlanğıc və Axır Mənəm!»
14 [o]Xalatlarını günahdan
təmizləyənlər‡ nə bəxtiyardır!
Bununla da həyat ağacından yeməyə
icazələri olacaq, darvazalardan keçib
şəhərə girəcəklər. 15 İt kimi murdarlar,
sehrbazlar, əxlaqsızlar, qatillər,
bütpərəstlər və yalanı sevib danışan hər
kəssə kənarda qalacaq.
16 [p]Yenə deyir: «Mən İsa Öz mələyimi
göndərdim ki, cəmiyyətlərə aid olan

*21:24 *Cah-calalını* – bəzi əlyazmalarda *cah-calal və şərəflərini.*
†22:1 *Həyat suyu* – bəzi əlyazmalarda *təmiz həyat suyu.*
‡22:14 *Xalatlarını günahdan təmizləyənlər* – bəzi əlyazmalarda *Əmrlərinə əməl edənlər.*

[d]**21:23** Yeş. 60:19-20 [e]**21:24** Yeş. 60:3 [f]**21:25** Yeş. 60:11
[g]**21:27** Yeş. 52:1; Yez. 44:9 [h]**22:1** Yez. 47:1; Zək. 14:8 [i]**22:2** Yar. 2:9
[j]**22:3** Zək. 14:11 [k]**22:5** Yeş. 60:19; Dan. 7:18 [l]**22:11** Dan. 12:10
[m]**22:12** Zəb. 28:4; Yeş. 40:10; 62:11; Yer. 17:10 [n]**22:13** Yeş. 44:6; 48:12; Vəhy 1:8,17; 2:8 [o]**22:14** Yar. 2:9; 3:22 [p]**22:16** Yeş. 11:1,10

bu şəhadəti sizə versin. Mən Davudun
Kökü və Nəsli, parlaq Dan Ulduzuyam».
17 [q]Ruh da, gəlin də deyir: «Gəl!» Qoy
eşidən də desin: «Gəl!» Susayan qoy
gəlsin, arzu edən həyat suyunu müftə
götürsün.
18 [r]Mən bu kitabın peyğəmbərlik
sözlərini eşidən hər kəsə xəbərdarlıq
edirəm: kim bunlara bir şey artırarsa,
Allah da ona bu kitabda yazılan bəlaları
artıracaq; 19 kim bu peyğəmbərlik
kitabının sözlərindən bir şey götürərsə,
Allah da bu kitabda yazılmış həyat
ağacından və müqəddəs şəhərdən ona
düşən payı götürəcək.
20 Bunlara şəhadət edən deyir: «Bəli,
tezliklə gəlirəm!» Amin. Gəl, ya Rəbb
İsa!
21 Rəbb İsanın lütfü hamıya* yar
olsun! Amin.

*22:21 *Hamıya* – bəzi əlyazmalarda *bütün müqəddəslərə.*

[q]**22:17** Yeş. 55:1 [r]**22:18** Qanun. 4:2; 12:32